**AZƏRBAYCANLILARIN**
**SOYQIRIMI VƏ DEPORTASİYASI**

MÜNDƏRİCAT


**Ümumi məlumat......6**

**Ermənilərin Azərbaycan torpaqlarında məskunlaşdırılması və onun ağır nəticələri......8**

- **Ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq səyləri......8**
- **"Erməni vilayəti"nin təşkili və azərbaycanlıların ilkin deportasiyası......11**
- **Ermənilərin İrandan köçürülüb gətirilməsi......14**
- **Ermənilərin Türkiyədən köçürülüb gətirilməsi......17**

**XX əsrin əvvəllərində azərbaycanlıların soyqırım və deportasiyası......21**

*Ermənilərin 1905-1906-cı illərdə Cənubi Qafqazda törətdikləri qırğınlar......21*
*Bakı qırğınları......25*
*Qarabağda qırğınlar......29*
*Naxçıvanda qırğınlar......31*
*Zəngəzurda qırğınlar......35*

- **1918-1920-ci illər soyqırımı......40**

*Bakı qırğınları......40*
*Şamaxı qırğınları......47*
*Quba qırğınları......52*
*Qarabağda qırğınlar......57*
*İrəvan quberniyasında soyqırım......65*
*Zəngəzurda soyqırım......68*
*Naxçıvanda törədilən qırğınlar......73*
*Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımı......75*

**Sovet hakimiyyəti illərində azərbaycanlıların repressiyası və deportasiyası......78**

- **Azərbaycanlıların Ermənistanda 1920-1930-cu illər repressiyası......78**
- **Azərbaycanlıların Ermənistandan 1948-1953-cü illər deportasiyası......81**
- **Azərbaycanlıların Ermənistandan 1988-1989-cu illər deportasiyası......85**

**Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiası və hərbi təcavüzünün nəticələri......93**

- **Ümumi məlumat......93**
- **Münaqişənin fəsadları......97**
- **Xocalı soyqırımı......102**

**Sənədlər......104**

- **Ermənilərin İrandan köçürülüb gətirilməsi haqqında A. S. Qriboyedovun məktubu.104**
- **1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələri nəticəsində İrəvan xanlığının ərazisində dağıdılmış kəndlərin siyahısı......106**
- **Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının üzvü N. Mixaylovun məruzəsi......108**
- **Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Fövqəladə Təhqiqat Komissiyanın üzvü A.Novatskinin məruzəsi......116**
- **Şamaxıda ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı (1918-ci il)......119**
- **Quba qəzasında ermənilər tərəfindən qarət edilən və dağıdılan kəndlərin siyahısı (1918-ci il)......121**
- **1918-ci ildə İrəvan quberniyasında dağılmış və boşaldılmış azərbaycanlı yaşayış məntəqələrinin siyahısı......123**
- **1919-cu ilin son iki ayında ermənilərin İrəvan quberniyasında darmadağın etdikləri müsəlman kəndlərinin siyahısı......128**
- **Zəngəzur qəzasında dağıdılmış kəndlərin siyahısı (1918-1919-cu illər)......130**
- **Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin qərarı (23 dekabr 1947-ci il)......133**

- **Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında SSRİ Nazirlər Sovetinin qərarı (10 mart 1948-ci il) ....135**
- **Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya.137**
- **Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu ....140**
- **Ermənistanın azərbaycanlı əhalisi arasında Azərbaycan SSR-ə qarşıdakı köçürülmə ilə əlaqədar əhval-ruhiyyə haqqında arayış (3 may 1948-ci il) ....141**
- **1948-1953-cü illərdə Ermənistandan deportasiya edilən azərbaycanlı yaşayış məntəqələrinin siyahısı ....145**
- **1988-1989-cu illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlı yaşayış məntəqələrinin siyahısı ....150**
- **Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanlarına əsasən Ermənistan ərazisində adları dəyişdirilmiş azərbaycanlılara məxsus yer adlarının siyahısı ....153**
- **İndiki Ermənistanda 1918-1987-ci illərdə yaşayış məntəqələri syahısından silinmiş azərbaycanlı kəndlərinin siyahısı ....167**
- **Xocalı soyqırımı (genosidi) günü haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (24 fevral 1994-cü il) ....175**
- **Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....176**
- **Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan mədəniyyətinə dəymiş maddi və mənəvi ziyan haqqında qısa arayış ....177**
- **“1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı (18 dekabr 1997-ci il) ....179**
- **“Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı (26 mart 1998-ci il) ....181**
- **Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı (31 mart 1998-ci il) ....183**
- **Quba şəhərində “Soyqırımı memorial kompleksi”nin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (30 dekabr 2009-cu il) ....185**
- **Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 31 mart - Azərbaycanlıların Soyqırımı günü ilə əlaqədar bəyanatı (30 mart 2010-cu il) .186**
- **Ombudsman 31 mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar bəyanat yaymışdır (29 mart 2011-ci il) ....188**
- **Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarış ....190**
- **Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyasından çıxarış ....191**
- **Beynəlxalq Cinayət Məhkəməsinin Statutundan çıxarış ....194**

**Məqalələr ....195**

- **Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatda. (mart, 1918) ....195**
- **Azərbaycanlılara qarşı soyqırımlar: mərhələləri və nəticələri ....198**
- **1905-1906-cı illərdə Qarabağda türk-müsəlman soyqırımı ....201**
- **1918-1920-ci illərdə türk-müsəlman soyqırımları ....203**
- **Deportasiyanı doğuran şərait və səbəblər. (1948-1953) ....212**
- **Ermənistanda erməni vandalizminin qurbanı olan qədim Azərbaycan tarixi abidələri ....215**
- **Tarixin yaddaşından silinməyəcək cinayətlər ....217**
- **Erməni-rus birləşmələrinin 1914-1915-ci illərdə Qars vilayətində törətdikləri soyqırım haqqında ....220**
- **Qubada tapılmış kütləvi məzarlıq ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırım siyasətinin bir hissəsidir ....223**
- **1906-cı il Şuşa hadisələrinə dair ....225**

- **1948-1953-cü illər deportasiyasının bəzi məqamları ............227**
- **Xocalı soyqırımı bəşəriyyət əleyhinə cinayətdir ............235**
- **Tariximizin qanla yazılmış səhifələri ............238**
- **Mənbələr azərbaycanlıların 1905-1906-cı illər soyqırımı haqqında ............245**
- **Cənubi Azərbaycanda azərbaycanlılara qarşı erməni terroru ............250**
- **"Erməni məsələsi", "genosid" əfsanəsi və erməni terrorizmi ............256**
- **AŞPA-da "Azərbaycanlıların Ermənistandan deportasiyasının 60 illiyi" ilə bağlı sənəd yayılmışdır ............259**
- **Nevada ştatının qubernatoru ABŞ-da ilk dəfə 31 Mart gününü 1918-ci ildə qətlə yetirilmiş günahsız azərbaycanlıların xatirə günü kimi rəsmən tanımışdır ............260**
- **«Böyük Ermənistan» uydurması: terror, soyqırımları və özgə torpaqlarına yiyələnmək «ideologiyası» ............261**
- **Erməni ideologiyası: Deportasiyadan soyqırımınadək ............265**
- **İngilis jurnalisti Skotland-Liddell erməni məkri haqqında ............268**
- **1905-1906-cı il Tiflis hadisələri Ömər Faiq Nemanzadənin gözü ilə ............272**
- **Tarixi yaddaşsızlıq hər bir millət üçün faciəvi nəticələrə gətirib çıxarır ............276**
- **XX əsrin əvvəllərində Zaqafqaziyada baş vermiş iki qırğın zamanı 2 milyona yaxın azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilib ............279**
- **Ermənistan soyqırımı və terrorçuluğu dəstəkləyən dövlətdir ............281**
- **Ermənilərin törətdiyi faciələr misli görünməmiş soyqırımı aktıdır ............287**
- **Uydurma erməni soyqırımı səngimək bilmir, tarix isə faktlara əsaslanır ............290**
- **1918-ci il mart soyqırımı ............292**
- **Şamaxıda erməni vəhşilikləri ............296**
- **Ermənistanın soyqırımı siyasəti bəşəriyyət üçün qlobal təhdiddir ............301**
- **Əlindən qan daman tarix: 92 il əvvəlin erməni vəhşiliyi səhifə-səhifə... ............306**
- **Mart soyqırımı haqqında ilk kitab ............310**
- **Lord Maqinnis: "Yüz il bundan əvvəl olan hadisəni deyil, ermənilərin törətdikləri Dağliq Qarabağ faciəsini müzakirə etmək lazımdır" ............314**
- **1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində azərbaycanlıların soyqırımı ............315**
- **Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımları ............327**
- **1918-ci ildə Quba qəzasında törədilmiş cinayətlər erməni millətçilərinin əsrlər boyu xalqımıza qarşı yeritdiyi soyqırımı, etnik təmizləmə və təcavüz siyasətinin qanlı səhifələrini təşkil edir ............344**
- **İrəvan bölgəsində azərbaycanlıların soyqırımı və deportasiyası ............349**
- **Azərbaycanlıların soyqırımı: Faktlar və sənədlər ............352**
- **Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti ............354**
- **Tariximizin qan yaddaşı: soyqırımlar və deportasiya ............360**
- **Ermənistanın Azərbaycana qarşı ərazi iddiası — Xocalı soyırımı ............363**
- **Xocalı soyqırımı Ermənistanın həyata keçirdiyi məqsədli və düşünülmüş siyasət kimi qiymətləndirilməlidir ............370**
- **1905-1906-cı illərdə Qarabağda erməni təcavüzkarlığı ............374**
- **Soyqırım insanlıq əleyhinə cinayətlərin ən təhlükəlisidir ............377**
- **Şamaxı qırğını: erməni vəhşiliyi ............379**
- **Ermənistanın azərbaycanlılara qarşı soyqırımı və təcavüzkarlıq siyasətinin mərhələləri ............382**
- **Erməni vəhşiliyinin qanlı təzahürü. Bakı qırğını ............387**
- **Erməni daşnak millətçi qüvvələrinin xalqımıza qarşı xəyanəti, yürütdükləri terror və soyqırımı siyasəti bu gün də davam etməkdədir ............391**
- **Tarixin yaralı səhifələri ............394**
- **Erməni vəhşiliyinin Andranik səhifəsi ............398**
- **Soyqırım yalanını təsdiq edən ermənilər və ruslar ............400**
- **1905-ci ildə Tiflisdə türk-erməni qırğını ............404**

- **Soyqırımı cinayətlərinə qarşı mübarizədə beynəlxalq təcrübə....................................412**
- **1918-ci ildə ermənilərin Azərbaycanda törətdiyi qırğınlar soyqırımı aksiyasıdır.......415**
- **İmperiyanın Birinci Dövlət Dumasındakı Şamaxı izi… ..................................................419**
- **Azərbaycan xalqına qarşı soyqırımı..................................................................................423**
- **Tarixi həqiqətlər şahidlik edir .........................................................................................426**
- **Mart qırğınına Stepan Şaumyan və onun əlaltıları rəhbərlik etmişlər.........................428**
- **Soyqırımı bəşəriyyətə qarşı amansız cinayətdir..............................................................432**
- **Ermənistan terror və soyqırımı siyasətini dövlət səviyyəsində dəstəkləyir ..................435**
- **1918-ci il mart qırğınları Lənkərandan da yan ötməmişdir ..........................................441**
- **Soyqırım xatirələrin dili ilə… .........................................................................................444**
- **1918-1920-ci illərdə Ağbaba və Şörəyel nahiyələrində ermənilərin törətdikləri soyqırımı .............................................................................................................................448**
- **1905-ci ildə Tiflisdə türk-erməni qırğını (Arxiv sənədləri və 1905-ci il dövri mətbuat yazıları əsasında)...........................................................................................................456**
- **Mart qırğınını törədənlər...................................................................................................460**
- **Şamaxi soyqırımı: tarixi həqiqətlər şahidlik edir ............................................................464**
- **Bakı qırğınları (fevral, 1905-ci il)....................................................................................467**
- **Üç soyqırımının şahidi.......................................................................................................472**
- **Erməni faşizminin cinayətkar siyasəti ..............................................................................476**
- **Ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları.................................................................................................................481**
- **Qan yaddaşımızdan silinməyən Xocalı soyqırımı ............................................................488**
- **Şamaxıda mart qırğınları...................................................................................................491**
- **Bağanıs Ayrım faciəsi ........................................................................................................493**
- **Sağalmayan yaralar. Naxçıvan 1905-1906-cı illərdə.........................................................496**
- **İrəvan quberniyasında erməni amansızlığı ........................................................................500**
- **Nyu-Cersi ştatının Assambleyası azərbaycanlıların soyqırımını tanımışdır................503**
- **ABŞ-ın Ayova ştatında azərbaycanlıların soyqırımının tanınması üzrə proklamasiya qəbul edilmişdir...............................................................................................................504**
- **Ermənilərin 1905-1906-cı illərdə Zəngəzur qəzasında törətdikləri qırğınlar ..............505**
- **Zəngəzur və Qarabağda azərbaycanlılara qarşı soyqırımı..............................................512**
- **Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları tarixi faktlar əsasında .518**
- **Bakıda, Şamaxıda və Qubada 1918–ci il mart–aprel soyqırımı .....................................521**
- **İrəvan quberniyasında erməni amansızlığı ........................................................................526**
- **1919-cu ildə Əylisdə nə baş vermişdir?..............................................................................529**
- **İrəvan - Oğuz yurdu: Azərbaycanlılarm Ermənistandan deportasiyası tarixin yaddaşında ..........................................................................................................................532**
- **"Sonuncu Mogikanlar"ın aci taleyi Azərbaycanlı əhalinin Ermənistandan kütləvi deportasiyasının 25-ci ildönümü tamam oldu ...........................................................537**
- **Quba soyqırımı: tarixi həqiqətlər........................................................................................539**
- **Azərbaycanlıların əzəli torpaqlarından sonuncu – 1988-1989-cu illər deportasiyası...542**
- **Qərbi Azərbaycandan soydaşlarımızın sonuncu deportasiyasından 25 il keçir ...........550**
- **Xocalı – əsrin soyqırımıdır...................................................................................................554**
- **Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir ....................................................................559**
- **Soyqırımı insanlığa qarşı amansız cinayətdir ....................................................................565**
- **İnsanlığa qarşı amansız cinayət............................................................................................575**
- **Tarixi unutqanlığın ibrət dərsi ............................................................................................580**
- **Deportasiya siyasəti etnik separatizmin əyani nümunəsidir.............................................583**
- **Erməni millətçilərinin Cənubi Azərbaycanda törətdikləri vəhşiliklər ..........................587**
- **Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri ..........................................................................................................................590**

**Elektron kitablar..........................................................................................................................593**

**Biblioqrafiya ..... 596**

## Ümumi məlumat

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1906-cı illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları, məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci Dünya Müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş Sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni

xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-nin digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar Sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət verilmədi.

1988-ci ildən ortaya atılan Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədi ilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkatın nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 %-nin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX - XX əsrlərdə baş verən bütün faciələri torpaqların zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

## Ermənilərin Azərbaycan torpaqlarında məskunlaşdırılması və onun ağır nəticələri

### Ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq səyləri

İndiki Ermənistan və ona bitişik ərazilərdə pərakəndə halında yaşayan ermənilərin öz müstəqil dövlətlərini yaratmaq arzusuna ilkin təkan verən amillərdən ən başlıcası XVI-XVII əsrlərdə Səfəvilərlə Osmanlı Türkiyəsi arasında uzun sürən müharibələr olmuşdur. Səfəvi hökmdarları Türkiyə ilə mübarizədə bir sıra Avropa ölkələrinin köməyinə arxalanmaq üçün xristian agentlərdən-erməni tacirləri və din xadimlərindən istifadə etmişdilər.

Erməni tacirləri Səfəvilər dövlətinin xarici ticarət əlaqələrinin genişlənməsində xüsusi rol oynayırdılar. Şahlığın ərazisində olan erməni kilsələrinə xüsusi güzəştlər verilmişdi. Onlar vergiləri yerli hakimlərə deyil, birbaşa şah xəzinəsinə verirdilər. Erməni tarixçiləri I Şah Abbas haqqında nə qədər hədyanlar yağdırsalar da, fakt budur ki, 1605-ci ildə onun fərmanı ilə şahlığın ərazisində pərakəndə yaşayan ermənilərin yığcam halda yaşamaları üçün xüsusi ərazilər ayrılmışdı. Bu məqsədlə İsfahan şəhərinə yaxın ərazidə Yeni Culfa şəhəri salınmış, burada yaşayan ermənilər üçün kilsə və monastır inşa edilmiş, onların xarici ticarətlə məşğul olmaları üçün geniş imtiyazlar verilmişdi. Hətta I Şah Abbas bu tikililər üçün xəzinədən pul ayırmış və bu işi mükafatlandırmışdı. Tezliklə ermənilər bir sıra Avropa ölkələri ilə, ilk növbədə İtaliya, Fransa, Prussiya ilə ticarət əlaqələri yaratmışdılar. Yeni Culfa tacirləri Hindistanın əksər böyük şəhərlərində kontorlar təşkil etmişdilər.

Erməni tacirləri varlandıqca erməni kilsələrinin var-dövləti aşıb-daşır, nəticədə onların dövlət yaratmaq üçün iştahaları daha da güclənirdi. Bu işi həyata keçirmək üçün erməni kilsəsi gizli olaraq Avropa ölkələrində özünə himayəçi axtarırdı. Eyni zamanda ermənilər şah sarayına yollar arayır, şahın etimadını qazanmaq üçün dəridən-qabıqdan çıxırdılar. Erməni tacirləri və din xadimlərinin arzuları tədricən həyata keçirdi. I Şah Abbas hətta Səfəvilər dövlətinin xarici siyasət məsələləri ilə məşğul olmaq və Avropa ölkələri ilə diplomatik danışıqlar aparmaq səlahiyyətini özünün müşaviri Xoca Səfər adlı bir ermənjyə etibar etmişdi.

1608-ci ildə I Şah Abbas Xoca Səfər adlı erməninin başçılığı ilə Avropaya gedən nümayəndə heyəti vasitəsilə Roma papasına, İspaniya kralına, Toskano hersoquna və Venesiya dojuna məktublar göndərmişdi. Toskano hersoqunun qəbulunda olarkən Xoca Səfər şahın məktubundan əlavə ermənilərin Roma papası və digər Avropa ölkələrinin başçılarına məktubları olduğunu bildirmişdi. Təbii ki, bu məktublarda xristian Avropa ölkələrindən Şərqdə - müsəlman ölkələrində yaşayan xristian erməniləri öz himayələrinə götürmələri haqqında xahişlər edilmişdi.

Daha əvvəllər isə erməni kilsə xadimləri katolikos Stepanos Salmastesi (Salmastlı) və Abqar Toxatesinin (Tokatlı) başçılığı ilə müstəqil erməni dövləti yaratmaq naminə köməklik göstərmələri üçün Avropaya nümayəndə heyəti səyahət etmişdi. Lakin nə papadan, nə də Qərbi Avropa dindaşlarından ermənilərin çağırışına məhəl qoyan olmamışdı. XVII əsrin ortalarında Rusiyanın öz mövqeyini möhkəmləndirməsi ən yaxın xristian ölkəsi kimi erməni kilsəsinin diqqətini daha çox cəlb etməyə başlamışdı. Yaxın Şərqə maraq dairəsi baxımından ermənilərə ən əlverişli himayəçi Rusiya ola bilərdi.

Rusiya çarlarının xarakterini öyrənən ermənilər yəqin etmişdilər ki, hədiyyə adı altında rüşvət verməklə, onları öz tərəflərinə çəkə və nəticədə öz istəklərinə nail ola bilərlər. Bu zaman İranla Rusiya arasında ticarət əlaqələri əsasən erməni tacirləri vasitəsilə həyata keçirilirdi. Rusiyada İran ipəyi alveri ilə məşğul olan Yeni Culfalı Xoca Zakar Sarhadov 1660-cı il avqustun 28-də "ermənilərə qarşı xüsusi lütfkarlığına görə" çar Aleksey Mixayloviçə qiymətli hədiyyələr gətirmişdi. Bu hədiyyələrdən biri hazırda Moskva Kremlinin "Silahlar palatasında" saxlanılan "Almaz taxt"dır. Fil sümüyündən, qızıl və gümüşdən düzəldilən bu taxt incə Şərq üslubunda işlənmişdir. Onu bəzəmək üçün 987 almaz, 1298 yaqut, 18030 Şərq firuzəsindən istifadə edilmişdir. Bu hədiyyənin qiyməti o vaxtkı hesabla 22598 rubl 60 qəpik idi. Bundan əlavə Xoca Zakar rəssam Baqdan Saltanovun mis lövhə üzərində surətini çəkdiyi Leonardo da Vinçinin "Sirli gecə" rəsmini da çara hədiyyə gətirmişdi.

Bundan sonra Rusiya ilə ticarət əlaqələri saxlayan erməni tacirləri üçün şərikli kompaniyalar yaratmağa hər cür şərait yaradılmış və gömrük məntəqələrindən onların gedib-gəlməsi üçün qadağalar götürülmüşdü.

1669-cu il dekabrın 3-də İsfahandakı erməni ticarət kompaniyasından Stelan Mişsekov və Baqdan Saltanov da hökmdarın adına hədiyyələrlə Moskvaya gedirlər.

1673-cü il yanvarın 7-də Xoca Zakar İsfahandan özünün ticarət xidmətçisi Stepan Romadamskinin vasitəsilə çara 9062 rubl dəyərində bəzəkli İran malları göndərmişdi.

1677-ci ildə katolikos Hakop Cuqaesinin (Culfalının) rəhbərliyi ilə Eçmiədzində din xadimlərinin yığıncağı keçirilir və Qərbi Avropaya nümayəndə heyəti göndərmək qərara alınır. Nümayəndə heyəti İstanbula çatanda Hakop Cuqaesi ölür və nümayəndə heyəti geri qayıdır. Bu tərkibdən yalnız atasını müşayiət edən İsrael

Ori Avropaya səyahətini davam etdirir. 20 il Avropanı gəzib dolaşan İsrael Ori İtaliyada, Fransada və Almaniyada yaşayır. Fransanın yüksək dairələri ilə əlaqəyə girən İsrael Ori ermənilərin himayə edilməsi məsələsini qaldırır, lakin soyuq münasibətlə qarşılaşır.

Avropanın real köməklik göstərməyəcəyinə əmin olan İsrael Ori bu işdə yalnız Rusiyaya arxalanmaq qənaətinə gəlir. O, 1701-ci il oktyabrın 28-də arximandrit Minas Vartapedlə birlikdə Bavariya kürfüstünün (knyazının) elçisi kimi I Pyotrun qəbuluna gəlir. Onlar erməni məlikləri adından çara və şahzadəyə (çareviçə) çox qiymətli hədiyyələri gətirmişdilər.

Çar üçün gətirilən hədiyyələr:

- qırmızı məxmərlə örtülmüş, qızıl məftillə tikilmiş, kənarları qızıla çəkilmiş gümüşlə əhatə edilmiş türk yəhəri;
- qızılı türk çulu;
- qızıla çəkilmiş gümüş türk yüyəni, gümüş dəhnə ilə birlikdə;
- türk quşqunu (quyruqaltısı);
- misdən düzəldilmiş, qızıla çəkilmiş iki türk üzəngisi;
- tapqır və ipək parçadan qarınaltı;
- tiyəsi poladdan, qırmızı dəstəkli, qızıla çəkilmiş gümüş qablı türk qılıncı;
- qızıl məftillə tikilmiş, qızılı gümüş qapaqlı dəridən hazırlanmış gümüş su qabı və s.

Şahzadə üçün gətirilən hədiyyələr:

- süvari üçün döymə gümüşdən hazırlanmış, qızıla çəkilmiş, məxmər örtüklü qın (məhfəzə);
- türk yayı;
- 30 dənə əla düzəldilmiş türk oxu.

İsrael Orinin və Minas Vartapedin çara gözqamaşdıran əntiq türk mallarını hədiyyə gətirmələri xalis erməni bicliyi idi. Onlar Pyotrun strateji əhəmiyyətli isti boğazlara çıxmaq və İstanbulu ələ keçirmək üçün nə dərəcədə alışıb-yandığını bilirdilər. Bu hədiyyələrlə onlar bu yanğını daha da qızışdırıb alovlandırmaq istəyirdilər. İsrael Ori saraya öz proqramını - Erməni dövləti yaratmaq üçün İrana 25 minlik qoşun göndərməyi təklif etmişdi. Bundan sonra sarayda Cənubi Qafqaza yürüş üçün hazırlıq işləri görülməyə başlanmışdı. Ciddi hazırlıqdan sonra 1707 - ci ildə Ori polkovnik rütbəsində 50 nəfərlik nümayəndə heyətinin başçısı kimi İrana yola düşür. Ona orada vəziyyəti öyrənmək, xristian əhalisi arasında təbliğat aparmaq, müdafiə qalaları, ölkənin yolları haqqında məlumat toplamaq tapşırılmışdı. Şübhə oyatmamaq üçün İsrael Orini Şah Hüseynə Roma papasının nümayəndəsi kimi təqdim etmək qərara alınmışdı. 1709-cu ildə o, İsfahana gəlir. 1711-ci ildə Həştərxana qayıdır və orada ölür. Sonralar Minas Vartapedlə birlikdə Yesai katolikos İsrael Orinin işini davam etdirmişdilər.

Rusiya - İran müharibəsi nəticəsində 1723-cü il sentyabrın 12-də bağlanan müqaviləyə əsasən Gilan, Mazandaran, Astarabad əyalətləri, Bakı və Dərbənd şəhərləri Rusiyanın tabeliyinə keçir. Noyabrın 10-da I Pyotr həmin ərazilərdə ermənilərin köçürülüb gətirilməsi üçün yer ayrılması haqqında fərman verir. Həmin fərmanla çar "xristianlıq naminə" erməni xalqını öz mərhəmətində saxlamaq və himayəyə götürmək qərarını vermişdi.

1726-cı il fevralın 22-də imperatriçə I Yekaterina ermənilərin yüksək iltifata və mərhəmətə və himayəyə layiq görülmələri haqqında fərman verir.

18-ci əsrin ikinci yarısında ermənilər yenidən fəallaşırlar. 1760-cı ildə Hindistan ermənisi İosif Emin rus hökuməti və gürcü çarı ilə danışıqlar aparır. İran və Türkiyəyə qarşı müharibədə ermənilərin köməyini təklif edir. 1769-cu ildə Həştərxan ermənisi Movses Safarov saraya layihə təqdim edir. O, layihədə rus ordusunun köməyi ilə "Ermənistanı azad etməyi" və Rusiyanın himayəsində dövlət qurmağı təklif etmişdi. Müharibədən sonra, 1780-ci ildə Rusiyadakı erməni yeparxiyasının başçısı İosif Arqutinski (Hovsep Arqutyan) və Moskva varlısı İvan Lazarev (Hovhannes Lazaryan) Rusiya hökumətinin nümayəndələri ilə danışıqlar aparırlar ki, Osmanlı Türkiyəsi və İran sərhədlərinin kəsişdiyi ərazilərdə erməni dövləti yaratsınlar. Rusiya çarı bu ölkələrə hərbi yürüş etməyi planlaşdırır. Ermənilər danışıqlara rus sərkərdəsi A. V. Suvorovu cəlb edirlər. Suvorov isə "onların dövlətlərini bərpa etmək niyyətində olduqları" haqda ermənilərə vəd vermişdi. Lakin 1796-cı ildə başlanan bu yürüş sonralar təxirə salınmış, II Yekaterinanın ölümü bu layihənin həyata keçirilməsinə mane olmuşdu. Qeyd etdiyimiz kimi, Ermənilər öz dövlətlərini qurmaq üçün hər cür vasitələrə əl atır, hətta hədiyyə adı altında rus çarlarına rüşvət belə verirdilər. Bununla onlar saray əyanlarının etimadını qazanır, hökumətin müxtəlif strukturlarında, xüsusən də hərbi sahədə öz nümayəndələrini yerləşdirməyə nail olurdular.

1747-ci ildə Nadir şaha sui-qəsd edildikdən sonra, ona məxsus qiymətli qaşdaşları vaxtilə şahın sarayına yol tapmış erməni Lazar oğurlayır. Hazırda Moskvada "Silahlar palatasında" saxlanan, həcminin böyüklüyünə və saflığına görə diqqəti daha çox cəlb edən çox qiymətli brilyant daş Nadir şahın xəzinəsindən oğurlandıqdan 10-15 il sonra Həştərxana gətirilmiş, sonralar isə Sankt-Peterburqda yaşayan erməni zadəganı Şafrasın əlinə keçmişdi. Şafrasdan həmin brilyantı kollec müşaviri Lazarevin vasitəçiliyi ilə çox ucuz qiymətə (400 min rubla)

qraf Q. Orlov xəzinə üçün almışdı və pasxanın birinci günü qırmızı yumurtaya bənzər futlyarın içində imperatriçə II Yekaterinaya təqdim etmişdi. Şafrasın qiymətli brilyantı ucuz qiymətə saraya satması erməni bicliyi idi. O, bu güzəştin əvəzində imperatriçədən nəsillikcə Rusiya zadəganı titulu almışdı. Həmin brilyantın həcmcə nisbətən balaca başqa bir tayını isə Tiflis ermənisi knyaz Abamelik şəxsən imperator Pavel Petroviçə hədiyyə etmişdi. İmperator isə knyaz Abameliki şəxsi səyinə və sədaqətinə görə səxavətlə mükafatlandırmış, ona Podolsk quberniyasında mülk bağışlamış, oğlanlarını qvardiyaya qəbul etmişdi. Sonralar onlardan ikisi general rütbəsi, digər üçü isə ştab zabiti rütbəsinə yüksəlmişdilər.

Müxtəlif yollarla yüksək hərbi rütbələr əldə etmiş ermənilər rus qoşunlarının Cənubi Qafqaza yürüşü zamanı ordunun önündə getmiş, Azərbaycanın Şimal və Cənub xanlıqlarının işğalında müstəsna rol oynamışdılar. Erməni və gürcü zabitlərinin hazırlanmasında Rusiya Nazirlər Kabinetinin gürcü və erməni zadəganlarının uşaqlarının kadet korpusuna (orta hərbi məktəb) qəbul edilməsi haqqında 1738-ci il 17 aprel tarixli qərarının müstəsna rolu olmuşdu.

1797-ci il oktyabrın 1-də çarın fərmanı ilə İranlı erməni məliklərinin və onların itaətində olan erməni əhalisinin (2 min nəfər) çar Rusiyasının təbəəliyinə qəbul edilməsi və onların Qafqaz xətti boyunca yerləşdirilməsi qərara alınır. 1799-cu il iyunun 3-də Kartli və Kaxetiya çarı Georgiyə ünvanlanan, "Qazax adlanan ərazidə erməni məliklərini və onların itaətində olan erməniləri məskunlaşmaqdan məhrum etməmək" haqda imperator I Pavel ali fərman vermişdi. Rusiyaya Şərqdə öz istilaçılıq niyyətini həyata keçirmək üçün həmin ölkələrdə yaşayan xalqların dilini bilən mütəxəssis-tərcüməçilər lazım idi. 1798-ci il iyunun 24-də Rusiya Xarici İşlər Kollegiyasına fərman verilmişdi ki, tələbələrə çin, mancur, fars, türk və tatar dillərini öyrətmək məqsədilə hər il 5000 rubl vəsait xərclənsin. Bir az əvvəl, 1797-ci il fevralın 26-da verilən fərmanla isə Xarici İşlər Kollegiyası yanında Asiya xalqları ilə iş aparmaq üçün xüsusi Departament yaradılmışdı.

Qeyd etdiyimiz kimi, erməni dövləti yaratmaq uğrunda uzun müddət gərgin əmək sərf etmiş din xadimlərindən biri də arxiyepiskop Hovsep Arqutyan İosif Arqutinski Dolqoruki olmuşdur. O, daha bic davranmış, özünü Argiştilərin xələfi kimi qələmə vermişdi. Arqutyan həmçinin guya erməni çarları zamanı kəsilən sikkələri və digər 17 ədəd sikkə və medalları imperator I Pavelə hədiyyə edir. Əvəzində imperator 1890 - cı il yanvarın 2-də ona xeyir-dua verir. Martın 22-də Hovsep Arqutyan knyaz şərəfinə layiq görülür, iyulun 28-də Eçmiədzin kilsəsinin ali patriarxı, oktyabrın 30-da isə bütün ermənilərin katolikosu təsdiq edilir. Ona imperatorun fərmanı ilə 1000 rubl həcmində illik maaş və ömürlük təqaüd təyin edilir. Eçmiədzinə gedib çatmaq üçün xüsusi müşayiətçi dəstə və 1000 rubl yol xərci ayrılır.

İrəvan xanlığı ərazisində yaşayan oğuz boyları VII-ci əsrdən etibarən islam dinini qəbul etməyə başladıqlarından, ermənilər tədricən gəlib Eçmiədzin kilsəsinə və digər kilsələrə sahib çıxmışdılar. Matenadaranda saxlanan alqı-satqı sənədlərinə görə, hələ 1431-ci ildə Ağqoyunlu Yaqub padşahın nümayəndəsi Əmir Rüstəm 7 kəndi (Vağarşabad (Eçmiədzin-Üçkilsə), Əştərək, Batrinc, Noraqavit, Ağunatun, Kirəcli və Muğni) katolikos Qriqor Makuluya 530 min Təbriz dinarına satmışdı.

Tədricən varlanan erməni kilsəsi və mülkədarları bu minvalla 19-cu Cənubi Qafqazı əsrin əvvəlində 60 - dan artıq qədim oğuz yaşayış məntəqələrinə sahib olmuşdular. 19-cu əsrin əvvəlində Rusiyanın Cənubi Qafqazı işğal etmək üçün hərbi əməliyyatlara başlaması İran və Türkiyəni həmin ərazilərdən sıxışdırıb çıxarmaq və gələcəkdə erməni dövləti yaratmaq üçün zəmin hazırlamışdı.

***(Vaqif Arzumanlı, Nazim Mustafa, Tarixin qara səhifələri. Bakı, 1998, səh. 9-17)***

**"Erməni vilayəti"nin təşkili və azərbaycanlıların ilkin deportasiyası**

Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən Azərbaycan türklərinin ilkin qaçqınlıq dövrü 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı ilhaq etməsi və bunun nəticəsində Şəmşədil və Loru-Pəmbək bölgələrinin rusların əlinə keçməsi anından başlamışdır.

1801-ci il iyulun 13-də general-mayor Lazerev Qafqaz qoşunlarının komandanı Knorrinqə göndərdiyi raportunda göstərirdi ki, Pəmbək əyalətinin 14 kəndindən təxminən 5-6 min türk əhalisi bölgəni tərk edərək İrəvan xanlığı ərazisinə sığınmışlar.

Sonralar Pəmbək əyaləti türklərinin bir hissəsi Rusiyanın itaətinə girmək istəmədikləri üçün üsyan etmiş, 1804-ci ilin iyulunda Pəmbək bəyləri Rəhim bəy və Səid bəyin himayəsi altında bölgədən qaçaraq Qars paşalığına sığınmışdılar. Onların geri qaytarılması üçün knyaz Sisianov dəfələrlə Qars paşası Məmməd paşaya müraciət etmişdi.

1804-cü ilin yazında İrəvan xanlığının ərazisindən 2 min erməni gizlincə qaçaraq rusların himayəsinə keçmiş və onlar Loru-Pəmbək bölgəsində məskunlaşdırılmışdılar. Həmin il rus qoşunları Şörəyelə daxil olur. 1805-ci il oktyabrın 20-də Şörəyel sultanı Budaqla knyaz Sisianov Gəncədə Şörəyelin əbədi olaraq Rusiyanın tabeliyinə keçməsi haqqında sənəd imzalayırlar. Məhz bundan sonra həmin ərazidə yaşayan türklərin qaçqınlıq dövrü başlanmışdır. Şörəyel kəndlərinin Qarapapaq boyundan olan əhalisinin bir hissəsi 1807-ci il rus-türk müharibəsi nəticəsində öz yer yurdlarını tərk edərək İrəvan xanlığının və Qars paşalığının ərazilərində sığınacaq tapmışdılar.

Qarapapaq tayfaları fürsət tapan kimi əvvəllər yaşadıqları kəndlərə hücum edib erməniləri qovmaq istəyirdilər. 1807-ci il avqustun 26-da general Nesvetayev qraf Qudoviçə yazdığı məktubda göstərirdi ki. qarapapaqlar Gümrü yaxınlığında yerləşən Tapanlı və Qoçqant kəndlərinə basqın etmiş, 7 ermənin başını kəsmişlər. Oktyabrın 29-da göndərilən raporta isə Şörəyelin yerli sakinlərindən 26 ailənin Qars paşalığına qaçdıqları qeyd edilir.

Şərqi Anadoluda yaşayan ermənilər İrəvan xanlığının ruslar tərəfindən işğalını səbirsizliklə gözləyirdilər. Bayazid paşalığında yaşayan ermənilər 1806-ci ilin sentyabr ayında Tiflisə məktub göndərmişdilər ki, rus qoşunları İrəvanı ələ keçirən kimi, 10000 erməni hər şeylərini atıb gələcəklər. Ərzurum ermənilərindən 200 ailə rusların İrəvanı ələ keçirdiklərini eşidib hətta yola düşüblərmiş. Onlar Qarsa çatanda bu xəbərin yalan olduğunu eşidib, orada gözləməyə məcbur olmuşdular. Eyni zamanda həmin məktubda göstərilir ki, İrəvan sakinlərindən (xanlığın ərazisindən) 500 tatar (azərbaycanlı) ailəsi Qarsa köçmüşdür.

Rus qoşunları Şörəyelə daxil olanadək sultanlığın ərazisində 170-ə yaxın kənd olmuşdur. 1805-ci ilin statistik məlumatlarına görə isə Şörəyeldə sultan Budağın itaətində cəmisi 524 ailə yaşamışdır. Həmin ərazidə rusların istər türklərlə, istər İrəvan xanının, istərsə də İran şahının vəliəhdi Abbas Mirzənin qoşunları ilə müharibələri nəticəsində Şörəyelin kəndlərinin əksəriyyəti xaraba qalmış, əhalisi isə qaçqın düşmüşdür. Sonradan həmin ərazidə Türkiyədən gələn ermənilər məskunlaşmışdılar. Sultan Budaq və kapitan Cəfər bəyin 1809-cu ilin dekabrında general-mayor Haqverdova yazdıqları ərizədə göstərilirdi ki, İranla müharibə nəticəsində kəndlər dağıdılıb xaraba qalmış və bütün Şörəyel əyalətində cəmisi 250 ev qalmışdır.

1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında bağlanan Gülüstan müqaviləsinə əsasən Şəmşədil, Loru-Pəmbək və Şörəyel əyalətləri Gəncə, Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd, Talış xanlıqları və Dağıstan həmişəlik Rusiyanın tərkibinə qatılır.

19-cu əsrin əvvəllərində İrəvan xanlığı 15 mahaldan - Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçanis, Sədli, Talın, Seyidli-Ağsaqqallı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarından ibarət idi. Xanlığın mərkəzi İrəvan şəhərini 1804-1813-cü illərdə ruslar ələ keçirmək üçün iki dəfə cəhd göstərmişdilərsə də, buna nail olmamışdılar. Gülüstan müqaviləsinin bağlanmasından 14 il sonra yenidən başlanan Rusiya-İran müharibəsi zamanı 1827-ci il iyunun 26-da ruslar Naxçıvan şəhərini, sentyabrın 20-də Sərdarabad qalasını, oktyabrın 1-də isə İrəvan qalasını ələ keçirmişdilər. İrəvanın ələ keçirilməsində xüsusi xidmətlərinə görə Xüsusi Qafqaz korpusunun komandanı general İ. F. Paskeviçə "Qraf Erivanski" titulu verilmişdi.

Rus qoşunlarının İrəvan xanlığını işğal etməsində ermənilər xüsusi fəallıq göstərmişdilər. Eçmiədzin kilsəsi, xüsusən də arxiyepiskop Nerses arxada təxribatla məşğul olur, rus qoşunlarına silahla yardım edirdilər. Ermənilərin Abbas Mirzənin qoşununa içəridən zərbə vurmasına aid Erməni vilayətinin rəisi A. Çavçavadze 1828-ci il mayın 21-də Paskeviçə yazmışdı: "İrəvan əyalətinin Nurnus kənd sakini erməni Hakan Harutyunov Abbas Mirzənin ordusunda topçu kimi xidmət edərkən, avqustun 17-də döyüş zamanı top atəşini rus qoşunlarına deyil, əks istiqamətə - İrəvan xanının qoşunlarına tərəf yönəltdiyi diqqəti cəlb etmişdir. Harutyunov onun hərəkətinin diqqəti cəlb etdiyini duyan kimi döyüş meydanından qaçmışdır. Ancaq bədbəxtlikdən Eçmiədzin

monastırının yaxınlığında tutulmuşdur. İrəvan sərdarı Hüseyn xan onun gözlərini çıxarmış, burnunu, dodaqlarını və dabanlarını kəsmişdir."

Paskeviç Erməni vilayətinin idarəsinə 1828-ci il iyulun 4-də göndərdiyi məktubda bildirmişdir ki, müharibə zamanı xanlığın ərazisində rus komandirlərinin məktubunu gəzdirdiyinə görə Astvatsaturovanın ərini öldürmüş, rus generalı Benkendorfun dəstəsinə bələdçilik etdiyinə görə isə Hovhannes Əsliyanın gözlərini çıxarmış, burnunu və dilini kəsmişdilər. Arxiyepiskop Nersesin təqdimatı ilə hər üç ailəyə 10 çervon qızıl verilmiş, onların ailəsinə 30 manat təqaüd kəsilməsi qərara alınmışdı.

1828-ci il yanvarın 25-də imperator buyruğu ilə arxiyepiskop Nerses İranla müharibə zamanı göstərdiyi sədaqətə, səyinə və şücaətinə görə müqəddəs Aleksandr Nevski ordeni ilə təltif edilmişdi.

Rus ordusunun İrəvan şəhərinin ətraf bölgələrini işğal etdiyi zaman həmin ərazilərdən müsəlman əhalisinin didərgin edilməsi haqda Paskeviç 1827-ci il iyulun 27-də qraf Nesselorda göndərdiyi məktubunda bildirmişdi ki, qaraqapaqlardan 100 ailə və ayrımlardan 300 ailə Qarsa qaçmışlar, qüvvətli Uluxanlı tayfasından 600 ailə Bayazidə, müsəlman cəlali kürdləri isə Muşa qaçmışlar. Qaraqapaqlardan digər 800 ailə isə Arazı keçib Həsən xanın (İrəvan xanı Hüseyn xanın qardaşı) dəstəsinə birləşmişlər. Onlarla birlikdə cəmədinli kürdləri (700 ailə), birukilər (400 ailə), dovmanlılar (400 ailə), çobankərəlilər (200 ailə), zilanlı kürdləri (1000 ailə) sərhəddən o taya - Türkiyəyə keçmişlər.

İrəvan xanlığının ərazisində yeni rus üsul-idarəsi tətbiq etmək üçün Paskeviçin əmri ilə 1827-ci il noyabrın 6-da İrəvan müvəqqəti idarəsi yaradılır və yerli qoşunların komandanı, general Krasovski rəis təyin edilir. Arxiyepiskop Nerses Aştarakesi idarənin üzvü olur. Krasovskinin Nersesə verdiyi qeyri-məhdud səlahiyyətlər sayəsində ermənilər istədiklərinə nail olurlar. Müharibədən çıxmış əhaliyə paylamaq üçün verilən 4500 çetvert taxılın böyük hissəsi sayca azlıq təşkil edən ermənilərə paylanmışdı. Müsəlmanlar dövlət himayəsindən məhrum edilmişdilər. Bununla əlaqədar Paskeviç baş Qərargah rəisinə göndərdiyi məktubunda yazırdı: "Mən təsəvvür etməzdim ki, Krasovski yalnız Nersesin iradəsi ilə hərəkət edəcək, mənim ona verdiyim təlimata məhəl qoymayıb, yenicə ələ keçirilmiş əyalətin idarə edilməsi qayğısına qalmayacaq, bütün əhalinin dörddə üçünü təşkil edən müsəlmanlara himayədarlıq etməyəcək, lazımi vəsait ayırmayacaq."

Yerli müsəlmanlar arasında narazılığın artması əhalini yaşadıqları yerlərdən köçüb sərhədin o tayına keçməyə vadar edirdi. Rusiyadan narazı əhalinin sərhədin o tayında cəmlənməsi Paskeviçi narahat edirdi, Ona görə də o, Nersesi İrəvan müvəqqəti idarəsindəki fəaliyyətindən uzaqlaşdırmışdı. Türkmənçay müqaviləsi imzalandıqdan sonra Paskeviç general Krasovskini rəis vəzifəsindən azad etmiş, müsəlmanlara qarşı bəd əməllərindən əl çəkməyən Nersesi isə Bessarabiyaya sürgün etdirmişdi.

1827-ci ilin sonu, 1828-ci ilin əvvəli rus qoşunları Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya, Salmas və Ərdəbil şəhərlərini ələ keçirirlər.

1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üstündə yerləşən Türkmənçay kəndində bağlanan müqavilə ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyulur. Bu müqavilə ilə İrəvan və Naxçıvan xanlıqları bütünlüklə Rusiyanın ərazisinə qatılır. Martın 20-də I Nikolay bu müqaviləni təsdiq edir və ertəsi gün Erməni vilayəti yaradılması haqqında fərman verilir. Fərmanda deyilir: "İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra "Erməni vilayəti" adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında ali senat lazımi fərmanları öz vaxtında alacaqdır."

Erməni vilayəti İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə keçmiş İrəvan xanlığının 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal və Ordubad dairəsinə 5 mahal daxil idi. Vilayət idarəsinin rəisi vəzifəsinə yerli qoşunların komandanı Aleksandr Çavçavadze təyin edilmişdi.

1829-cu ilin əvvəlində qraf Paskeviç- Erivanskinin tapşırığı ilə kollec assesoru İ. Şopen erməni vilayətində kameral siyahıyaalma keçirmişdir. Əlyazması 20 cilddən ibarət olan bu siyahıyaalmanın nəticələri müəllifin 1852-ci ildə nəşr edilən " Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" əsərində verilmişdir.

İ. Şopenə görə Erməni vilayətində 752 kənd olmuşdur. Onlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52-si Ordubad dairəsində olmuşdur Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdü.

Deməli, dağıdılmış, xaraba qoyulmuş kəndlərlə birlikdə Erməni vilayətində cəmisi 1111 kənd olmuşdur.

İ. Şopenin hesablanmasına görə, xanlıqların işğal edilməsinədək Erməni vilayətinin ərazisində təxminən 23.730 ailə (İrəvan əyalətində 17.000 ailə, Naxçıvan əyalətində 4.600 ailə, Ordubad dairəsində 2.130 ailə) yaşamışdır ki, orta hesabla, hər ailədə 5 nəfər götürdükdə, bu, 118.650 nəfər təşkil edir.

Siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81.749 müsəlman və 25.131 yerli erməni qeydə alınmışdır. Bu siyahıyaalınmanın üstün cəhəti ondadır ki, ayrı-ayrı yaşayış məntəqələri üzrə İrəvandan və Türkiyədən köçürülən erməni ailələrinin sayı və onların hansı yaşayış məntəqəsində məskunlaşdırıldıqları göstərilmişdir.

1840-cı ildə Erməni vilayəti buraxılır. Əvəzində təşkil edilən İrəvan qəzası Gürcü-İmeretin quberniyasının tərkibinə daxil edilir. 1849-cu ildə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bayazid Yeni Bayazid qəzalarından ibarət İrəvan quberniyası təşkil edilir və 1917-ci ilə qədər bu struktur dəyişməz qalmışdır.

***(Vaqif Arzumanlı, Nazim Mustafa, Tarixin qara səhifələri. Bakı, 1998, səh. 18-24)***

## Ermənilərin İrandan köçürülüb gətirilməsi

1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilirdi. Hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan mülkünü aparmaq və satmaq üçün bir il, daşınmaz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam (vəkalət) üçün 5 illik müddət müəyyən edilmişdi.

Lakin ermənilərin köçürülməsi üçün hazırlıq işlərinə hələ 1827-ci ilin may ayında Paskeviçin Peterburqdan xüsusi tələbnamə əsasında ermənilər arasında nüfuza malik olan polkovnik Lazarevi (Eqiazar Lazaryan) öz sərəncamına götürməsi vaxtından başlanmışdı. Oktyabrın əvvəlində artıq Lazarev Cənubi Azərbaycan erməniləri arasında iş aparmaq üçün ayrılan dəstənin tərkibində idi və sonralar Təbrizin komendantı təyin edilmişdi. Məhz Rusiyanın İrandakı səfiri A. S. Qriboyedovun təşəbbüsü ilə İran ermənilərinin işğal edilmiş yeni ərazilərə köçürülməsi məsələsi meydana çıxdıqdan sonra, Rusiya hökumətinin İranla sərhəd boyu ərazilərə 80 min kazakın köçürülməsi layihəsi qüvvədən düşmüşdü.

Hələ 1827-ci ilin noyabrında Dehqarqanda keçirilən danışıqlar vaxtı Qriboyedovla Paskeviç görüşərkən arxiyepiskop Nersesin Xoydan göndərdiyi nümayəndələri onlardan ermənilərin köçürülməsi qayğısına qalmağı xahiş etmişdilər. Dekabr ayında Paskeviç Tiflisin hərbi qubernatoru Sipyaginə göndərdiyi məktubda qeyd etmişdi ki, Urmiya ətrafında yaşayan 15 min yunan və erməni Rusiyanın əyalətlərinə köçmək istəyirlər. Sipyagin isə onların İrəvan və Naxçıvan əyalətlərində yerləşdirilməsi fikri irəli sürmüşdü.

Türkmənçay müqaviləsi imzalandıqdan dərhal sonra, fevralın 14-də Lazarev elə oradaca Paskeviçə göndərdiyi raportunda xatırladırdı ki, ermənilər müharibə zamanı qələbəmiz üçün mümkün olanı etmişlər və indi evlərini qoyub Rusiya əyalətinə keçmək istəyirlər. Ermənilərin sürətlə və rahat köçürülməsi üçün Lazarev təklif edir: 1) Köçürmə işlərinə rəhbərlik etmək üçün ona Paskeviç kağız versin və həmin kağızda köçənlərə verilən güzəştlər göstərilsin; 2) Köçürmə işlərinə rəhbərlik etmək üçün erməni dilini bilən lazımi qədər ştab və ober zabitlər təyin etmək onun ixtiyarına verilsin; 3) İqlim şəraitinə görə köçürmə işləri ləngiyə biləcək yerlərdə rus ordusu orada gözləsin və ordu köçənləri müşayiət etsin; 4) Kasıb köçkünlər üçün xəzinədən vəsait ayrılsın.

Paskeviç bu təkliflərin yerinə yetirilməsi üçün fevralın 26-da Lazarevə və fevralın 29-da İrəvan müvəqqəti idarəsinə xüsusi təlimat göndərir. Lazarevə verilən 19 maddəlik təlimatda göstərilir: köçürülən xristianlardan ticarətlə məşğul olanlar şəhərlərdə yerləşdiriləcəklər ki, yenə ticarətlə məşğul olsunlar; kəndlilərə kifayət qədər münbit torpaq ayrılacaq və onlar 6 il müddətinə vergilərdən, üç il isə torpaq mükəlləfiyyətindən azad ediləcəklər; köçməyə hazır olan ailələrə onlara veriləcək güzəştlər haqqında xüsusi formada vərəqlər verilməlidir; köçürülənlər kəndlər üzrə partiyalara ayrılmalı, hər partiyada 150-dən 300-ə qədər ailə olmalıdır; köçürülənləri İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristian əhalisi mümkün qədər artırılsın; hər partiyanı müşayiət etmək üçün ermənicə bilən bir zabit və 2-5 kazak ayrılsın; köçkün partiyaları yola çıxan kimi, dərhal İrəvan müvəqqəti idarəsinə ailələrin sayı, onların yaşadıqları ərazinin iqlim şəraiti, məşğuliyyətləri, malik olduqları sürülər və sərhədə yetişəcəkləri təxmini vaxt haqqında xəbər göndərmək lazımdır.

Rus qoşunlarının müqaviləyə əsasən geri çəkilmə prosesi martın 8-dən etibarən Marağadan başlandığı üçün, ilk növbədə orada yaşayan erməniləri köçürmək nəzərdə tutulmuşdu. Qarabağa yaxın ərazidə yerləşən Üzümçü kəndinin və ətraf kəndlərin ermənilərini Qarabağda yerləşdirmək qərara alınmışdı.

Kasıb ailələrə kömək üçün xəzinədən 25 min manat gümüş pul ayrılmışdı. Lazarevin və ona təhkim edilən erməni zabitlərinin vəzifəsi köçürülənlərin sərhədə çatdırılması ilə bitmiş hesab edilirdi. Bundan sonra işlərə rəhbərlik İrəvan müvəqqəti idarəsi yanında yaradılan Komitəyə həvalə edilirdi. Komitə köçkün partiyalarını sərhəddə qarşılamaq üçün heyət göndərməli idi. Həmin heyət onları yeni yaşayış məntəqəsinədək müşayiət edirdi. Qarabağ üzrə bu vəzifə gömrük hərbi-dairəsinin rəisi, knyaz Abxazova həvalə edilmişdi.

Paskeviç İrəvan müvəqqəti idarəsinə verdiyi 16 maddəlik təlimatında göstərirdi ki, Komitə köçürülən ailələrin sayına uyğun torpaq sahəsi ayırmalı və onların nəzərdə tutulan yerlərdə məskunlaşmasına rəhbərlik etməlidir. Komitə çalışmalıdır ki, köçürülən kəndlər əvvəlki ərazilərdəki kimi ayrıca və qonşuluqda yerləşdirilsinlər. Dağlıq şəraitində yaşamışlar dağlıq yerdə, düzənlikdə yaşayanlar isə düzənlikdə yerləşdirilməlidir ki, onlar mümkün qədər xəstəlik və ölümdən xilas olsunlar, onların adət-ənənələrinin və təsərrüfat vərdişlərinin saxlanmasına şərait yaransın. Müsəlmanların yaşadıqları kəndlərdə xristianların yerləşdirilməsindən uzaq qaçmaq, xristianlardan ibarət ayrıca dairə və mahallar təşkil etmək lazımdır. Müsəlman (xristian) kəndlərinin əhatəsində yaşayan xristianları (müsəlmanları) öz dindaşlarının yanına köçürmək lazımdır. Köçürülənlər mülkədar torpaqlarında deyil, dövlət torpaqlarında yerləşdirilməlidirlər. Yeni məhsul götürənədək ilkin taxıl səpini üçün köçürülənlərə bərabər miqdarda borc verməli, təsərrüfatın dirçəldilməsi üçün götürülən borc faizsiz olaraq, dörd ildən sonra altı il müddətinə ödənilməlidir.

Məskunlaşdırmaq üçün yer seçərkən sağlamlıq üçün şərait və yaxşı suyun olması nəzərə alınmalıdır. Hər bir ailənin yerləşdirilməsi haqqında xüsusi formada hesabat və çəkilən ümumi xərclərin hesabatı müəyyən edilməlidir.

Lakin sonralar hər iki təlimatın tələbləri bir çox hallarda pozulmuşdu. Lazarev və onun yerlərə göndərdiyi nümayəndələri Türkmənçay müqaviləsini və onlara verilən təlimatı pozaraq erməniləri könüllü deyil, zorakılıqla köçürməyə cəhd göstərirdilər. Bununla əlaqədar Abbas Mirzə iki dəfə polkovnik Lazarevə müraciət edir ki, onun itaətində olan zabitlərin erməniləri zorla köçürməsi hallarına son qoysun və Türkmənçay müqaviləsinin şərtlərinə əməl etsin. Salmas monastırının yepiskopu İzraeli ermənilərin zorla köçürülməsinə maneçilik törətdiyi üçün arxiyepiskop Nerses qraf Paskeviçə müraciət edərək xahiş edir ki, Xoydakı yerli komendanta göstəriş versin ki, İzraelini bu işdən çəkindirin və cəzalandırmaq üçün onu Eçmiədzinə göndərin.

Eyni zamanda Abbas Mirzə də Rusiya ilə İranın yeni sərhədləri boyunca ermənilərin kütləvi surətdə yerləşdirilməsindən ehtiyat edirdi. Ona görə də ermənilərin kütləvi surətdə köçürülməsinə maneçilik göstərməyə çalışırdı. Bunun üçün onun nümayəndələri yerlərdə olur, erməniləri dilə tutur və əgər köçməzlərsə, onları 6 il müddətində vergilərdən azad etməyi vəd edirdilər.

Köçürmə işlərinin ləngidiyini və maneçilik göstərildiyini görən Lazarev 1828-ci il martın 30-da xristianlara müraciət edir. O, müraciətin əvvəlində bəzi bədxahların yalan məlumatlar yayaraq köçmək istəyənləri qorxuya saldıqlarını qeyd etməklə bərabər, Rusiyanın onlara vəd etdiyi güzəştləri sadalayır. O, yazırdı: "Rusiyada siz Əlahəzrətin digər təbəələri kimi, bərabər hüquqlu olduğunuzu görəcək, bütün əziyyətləri unudacaqsınız, orada siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz və müqəddəs dininizin alçaldılmasını bir daha görməyəcəksiniz. İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək, o zaman sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik olaraq."

Lazarevin müraciətinin ermənicə mətni İranda yaşayan ermənilər arasında yayılmışdı.

1828-ci il martın 9-da Lazarev Xoydan Paskeviçə yazdığı raportunda göstərmişdi ki, artıq 4500 ailə köçürülərək Araz çayının o tərəfinə gətirilmişdir. Mayın 27-də göndərdiyi raportunda isə təxminən 500 ailə müsəlman kürdlərinin Kürdüstandan İrəvan əyalətinə köçmək niyyətində olduqlarını bildirmişdi.

Lakin fevralın 29-da Lazarevə göndərilən məktubla müsəlmanların köçürülməsinə imkan verməmək tapşırılmışdı.

Köçürülənlərin mülkədar torpaqlarında yerləşdirilməməsi haqqında Paskeviçin verdiyi təlimatın əksinə olaraq ermənilərin böyük hissəsi həmin torpaqlarda yerləşdirilmişdi. Müəllifi Qriboyedov olduğu ehtimal edilən "Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlərdə göstərilir ki, ermənilərin mülkədar torpaqlarında yerləşdirilməsi bir yana, müsəlmanların yerini dar eləmələrinə baxmayaraq, üstəlik, onlara güzəştlər verilir. Halbuki, ziyan çəkən tərəf müsəlmanlardır. Əslində buranın müsəlmanlarını köçkün hesab etmək lazımdır. Çünki müharibə zamanı sərdar onları döyüş meydanından köçürmüşdür və ən kasıb vəziyyətdə yaşayırdılar. Ermənilər köçürülən zaman müsəlman ailələrinin əksəriyyəti yaylaqda olmuşdular və gəlmələrin onların evlərində yerləşdiklərindən xəbərləri yox idi.

1828-ci il oktyabrın 1-də Qriboyedov Paskeviçə göndərdiyi məktubunda göstərir ki, Naxçıvan əyalətində ermənilərin köçürülməsi nəticəsində qarışıqlıq və sıxıntı yaranmışdır. Tatarların narazılığının ən yüksək həddə çatdığı göstərilir. Yaranan narazılığın əsaslı olmasını göstərmək üçün köçürülən ermənilərin yerləşdirilməsi cədvəli verilmişdir.

| | yerli ermənilər | yerli müsəlmanlar | köçürülən ermənilər |
|---|---|---|---|
| Nehrəm | — | 193 | 93 |
| Qaraxanbəyli | — | 81 | 26 |
| Tumbul | 9 | 62 | 12 |
| Yarınca | 13 | 48 | 14 |
| Kültəpə | — | 113 | 37 |
| Qazançı | 10 | 58 | — |
| Bənənyar | — | 72 | 12 |
| Ərəzin | — | 61 | 7 |
| Küznüt | — | 75 | 19 |
| Naxçıvan şəh. | 114 | 392 | 285 |
| Ümumiyyətlə Naxçıvan əyalətində | 290 | 1632 | 943 |

Cədvəldən görünür ki, köçürülən ermənilərin əksəriyyəti müsəlman kəndlərində yerləşdirilmişdilər. Ermənilərin qarışıq yaşadıqları kəndlərdə isə köçkünləri demək olar ki, yerləşdirməmişdilər. Qriboyedov vəziyyətdən çıxış yolu kimi Naxçıvan əyalətindən 500 erməni ailəsini Dərələyəzə köçürməyi təklif edir. Sonralar onun bu təklifi həyata keçmişdi.

Polkovnik Lazarev xristianların Rusiya ərazisinə köçürülməsinin nəticələri haqqında qraf Paskeviç - Erivanskiyə 24 dekabr 1829-cu ildə yazdığı yekun hesabatında göstərir ki, köçürmə işlərinə 26 fevral 1828-ci ildə başlanmış və iyunun 11-də başa çatmışdır. Bu müddət ərzində 8249 xristian ailəsi (onlardan cəmisi 100-ə qədəri aysor ailəsi, qalanları ermənilər olmuşdur) İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür. Köçürmə işlərinə xəzinədən 16000 çervon və 400 gümüş manat xərclənmişdir. Köçmək istəyən 1500 erməni ailəsi isə İranda qalmışdı. Çünki Lazarev onları köçürməyə imkan tapmamışdı.

Ermənilərin köçürülməsi zamanı Lazarevin tabeçiliyinə göndərilən erməni zabitləri xüsusilə fərqlənmişdilər. Knyaz Melikov Üzümçü və onun ətrafındakı kəndlərin, knyaz Arqutinsk-Dolqorukov-Təbriz və ətraf kəndlərin, sonra isə Salmas əyalətinin, kollec assesoru Qamazov Marağa xanlığının və Urmiya kəndlərinin, knyaz Şalikov Xoy əyalətində yaşayan ermənilərin köçürülməsinə rəhbərlik etmişdilər.

Qeyd etdiyimiz kimi, İ. Şopen 1829-1832-ci illərdə Erməni vilayətində kameral siyahıyaalma keçirmişdi. Onun verdiyi statistik məlumatlara görə, İrandan köçürülən ermənilər 366 ailə tərkibində 1715 nəfər İrəvan, 265 ailə tərkibində 1110 nəfər Naxçıvan və 36 ailə tərkibində 182 nəfər Ordubad şəhərlərində yerləşdirilmişdilər. Köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirilmişdilər. Ümumiyyətlə, İrəvan əyalətində 4599 ailə tərkibində 23568 nəfər, Naxçıvan əyalətində 2137 ailə tərkibində 10652 nəfər, Ordubad dairəsində 250 ailə tərkibində 1340 nəfər erməni yerləşdirilmişdir. Nəticədə Erməni vilayətinə 6949 ailə, tərkibində 35560 nəfər köçürülmüşdü (Əlavəyə bax).

Əgər yeni təşkil edilmiş Erməni vilayətində müsəlmanların sayı 81749 nəfər (16078 ailə) və ermənilərin sayı 25131 nəfər (4428 ailə) olmuşdusa, İrandan erməniləri köçürdükdən sonra onların sayı 60691 nəfərə (11377 ailə) çatmışdı. Bununla da ermənilərin sayı 24 faizdən 43 faizə qalxmışdı. Əgər nəzərə alsaq ki, ümumiyyətlə, İrandan köçürülən 8249 ailədən 6949-u Erməni vilayətində yerləşdirilmişdir, onda belə qənaətə gəlmək olar ki, yerdə qalan 1300 ailə Qarabağa və Zəngəzura köçürülmüşdür.

***(Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998, səh. 25-32)***

**Ermənilərin Türkiyədən köçürülüb gətirilməsi**

1826-1828-ci illər Rusiya-İran müharibəsində qələbədən ruhlanan rus ordusu 1828-ci il iyunun 14-də Paskeviçin komandanlığı altında Gümrü yaxınlığından Arpaçayı 12 minlik qoşunla keçərək Şərqi Anadoluya hücuma başlayır və iyunun 23-də Qars qalasını ələ keçirir. Hücumu genişləndirən ruslar iyulun 24-də Axılkələyi, avqustun 15-də Axıskanı, 22-də Ərdəhanı, 28-də Bayazidi tutdular. 1829-cu ilin yazında müharibənin yenidən qızışması nəticəsində rus ordusu Ərzurumu, daha sonra Muşu, Oltunu, Bayburdu işğal edir.

Rus ordusunun türk qoşunları üzərində qələbələrinin təmin edilməsində erməni silahlı dəstələrinin və Şərqi Anadoluda yaşayan ermənilərin böyük rolu olmuşdur. Müharibənin əvvəlində yeni təşkil edilmiş Erməni vilayətinin ərazisində 2800 nəfərdən ibarət piyada və kavaler dəstələri təşkil edilmişdir. Bu dəstələr çox zaman rus qoşunlarının önündə gedirmişlər.

Birinci və ikinci Rusiya-İran müharibələri nəticəsində İrəvan xanlığının ərazisindən qaçqın düşmüş azəri türkləri Şərqi Anadoluda türk paşalıqlarının ərazilərində sığınacaq tapmışdılar. Daha öncədən-rusların "1801-ci ildə Gürcüstan işğalından sonra Borçalı və Qazax boyları ilə Qarapapaq uruğundan (tayfasından) gələn tərəkəmə türkləri qaçıb köçərək Çıldır və Arpaçayı kəndlərində yerləşmişdilər". Rusların Şərqi Anadoluya hücumu zamanı qırğınlara və yenidən köçməyə məruz qalanların əksəriyyəti yenə də azəri türkləri idilər. Bu dəfə onlar Türkiyənin içərilərinə doğru köçməyə məcbur olmuşdular.

Türk tarixçisi Kemal Beydili "1828-1829-cu illərdə Osmanlı-rus savaşında Şərqi Anadoludan Rusiyaya köçürülən ermənilər" adlı araşdırmasında həmin dövrün qaçqınlıq faciəsini rəsmi qaynaqlar əsasında belə təsvir edir: "Ərzurumu ələ keçirən ermənilər düşmən önünü beləcə boş görüb Bayburda qədər getmiş və ətrafdakı qəzaları da dəhşətə salmışdılar. Ətraf əhali ya ruslara boyun əymək, ya da yollara düşüb sağa-sola dağılmaqdaydılar. Ərzurum və Ərzincan ətraf kəndlərində sığınacaq yerləri alan Qars və Axıska mühacirləri bu halı görüncə, Şərqi Qarahisar tərəflərinə doğru yönəlməkdəydilər. Minlərlə insanın yollara düşərək təlaş içində köç etmələrinə şahid olanların gözlərinə isə bu durum, sanki bunların "arxalarından gavur sürüb götürürmüş kimi dəhşətverici" bir şəkildə təqib edilir və hər tərəfi vahimə içində tərk edirdilər. Kəlkit, Şirlan, Gümüşxana, Ərzincan, Tercan və Şərqi Qarahisar bölgələrindəki xalq da bu hal qarşısında vəsvəsə edərək hər biri bir tərəfə köçməyə və dağılmağa başlamışdır".

1829-cu ilin avqustunda ruslar Balkan cəbhəsində İstanbula yaxınlaşan zaman II Sultan Mahmud barış istəmiş və sentyabrın 2-də Ədirnə müqaviləsi imzalanmışdı. Müqaviləyə görə Axılkələk və Axıska bölgələri Rusiyanın tərkibinə keçmiş, işğal edilmiş qalan ərazilərin Türkiyəyə qaytarılması qərara alınmışdı.

Ədirnə müqaviləsinin 13-cü maddəsinə əsasən, Türkiyənin işğal olunmuş ərazilərində qalan ermənilərə 18 ay müddətində daşınan əmlakları ilə Rusiyanın tabeliyinə keçmək hüququ verilmişdi. Rusların Qars, Ərdahan, Bayazid, Ərzurum və digər bölgələrdən geri çəkilməsi türklərə xəyanət edən erməniləri çıxılmaz vəziyyətə salmışdı. Erməniləri bu vəziyyətdən xilas etmək üçün rus qoşunlarının komandanlığı onları yeni işğal edilmiş ərazilərə köçürməyi və bununla da Türkiyə ilə sərhəd boyu ərazilərdə xristianların say üstünlüyünü təmin etməyi qərara almışdı. Bu məqsədlə də 1829-cu il oktyabrın 10-da Paskeviç imperator I Nikolaya yazdığı raportunda göstərirdi: "Bayaziddə 2 min erməni bizim əsgərlərin cərgəsində vuruşmuşdular, Ərzurumda xristian əhalisinin böyük hissəsi bizim dini bayramı qeyd etmişlər; Qarsda ermənilərdən ibarət 800 nəfərlik könüllü batalyon təşkil edilmişdi, onların ailələrindən - 10 min nəfərinin başının üstünü labüd təhlükə almışdır. Bu bədbəxt qurbanlara diqqətinizi yönəldin, Rusiyaya göstərdikləri məhəbbətə görə Osmanlıların onlardan qisas almasına yol verməyin.

Ona görə də cəsarət edib Əlahəzrət imperatordan mənə bu ailələri Gürcüstan və Erməni vilayətlərində yerləşdirmək ixtiyarını verməsini xahiş edirəm.

Zənnimcə, köçürülən hər bir ailəyə orta hesabla 50 gümüş rubl kifayət edəcəkdir".

Noyabrın 18-də hərbi nazir Çernışev Paskeviçə cavab göndərir ki, imperator onun təklifini bəyənmişdir. Bundan sonra Paskeviç dərhal əməli fəaliyyətə keçir. O, dekabrın 3-də Gürcüstan mülki qubernatoruna məktub yazaraq göstərir ki, artıq Türkiyə paşalıqlarında yaşayan xristianların Gürcüstana və Rusiyaya mənsub vilayətlərə köçmək istəyən və bunun üçün maddi yardım tələb etməyən ailələrinə yola düşmək üçün bilet (vəsiqə) verməyi yerli qoşun rəislərinə icazə vermişəm. Bundan istifadə edən bir çox ailələr dərhal yola düşürlər. Qars və onun ətrafından köçənlər onların yaşadıqları ərazilərin iqlim şəraitinə uyğun olan Ələyəz (Alagöz) ətrafındakı boşalmış kəndlərdə məskunlaşdırılmışdılar. General Pankratyev Paskeviçə xəbər verir ki, Loru dərəsində yerləşmək üçün 95 ailəyə bilet (vəsiqə) vermişdir. General mayor Bereman həmçinin Qarsdan çıxıb Gümrüyə yola düşən 400 ailəyə bilet verdiyini bildirmişdi. Paskeviç köçürmə işlərinə və köçürülən ailələrin məskunlaşdırılması işinə rəhbərlik etmək üçün xüsusi komitə təsis etmişdi. Komitənin fəaliyyəti üçün 12 maddəlik ümumi qaydalar müəyyən etmişdi. Bu qaydalar aşağıdakılardan ibarət idi:

1. Köçürülənlər Rusiyanın ərazisinə daxil olan kimi onların qayğısı üçün bütün sərəncamları köçkünlər komitəsi verəcəkdir.

2. Köçürülmə prosesi sona yetənədək, köçürülənlərin hamısı yaşayış yerlərində məskunlaşdırılanadək, kəndlərdə köçkünlərin təsərrüfat qayğıları həll edilənədək komitə öz fəaliyyətini davam etdirməlidir. Bundan sonra Baş komandanlıq hesabat verib fəaliyyətini dayandırmalıdır.

3. Komitə dərhal Gürcüstanda və digər əyalətlərdə boş dövlət torpaqları haqqında məlumat toplamalıdır.

4. Bütün köçkünlər üç zümrəyə ayrılmalıdırlar: 1) tacirlər və alverçilər, 2) sənətkarlar və istehsalın hər hansı növündən baş çıxaranlar, 3) əkinçilər və yaxud kəndlilər. Köçkünlərin məskunlaşdırılması zamanı tacirləri və sənətkarların şəhərlərə və bu işlə məşğul olmağa imkan olan yerlərdə, kəndliləri isə kəndlərdə yerləşdirmək, bu zaman iqlim şəraitini və əvvəlcə məskunlaşdıqları səviyyəni nəzərə almaq lazımdır. Yelizavetopolda (Gəncə), digər şəhər və əyalətlərdə boş dövlət evləri vardır, ona görə də sənətkarları və tacirləri həmin yerlərdə yerləşdirməyi komitə nəzərdə tutmalıdır.

5. Köçkünlər Komitəsi Türkiyə ərazisində köçürülənlərin siyahısını hərbçilərdən tələb edən zaman onların haradan köçürüldükləri, hansı işlə məşğul olmaları haqqında məlumat verməyi tələb etməlidir.

6. Komitə çalışmalıdır ki, köçürülən kəndlər bütövlüklə, bu mümkün olmazsa, qonşuluqda yerləşdirilsinlər.

7. Komitə köçürülənləri lazımi qədər torpaqla təmin etməlidir (hər kənddə ailələrin, hər ailədə nəfərlərin sayına mütənasib olaraq.

8. Köçürülənlər bütünlüklə dövlət torpaqlarında, əgər kifayət etməsə, kilsə və mülkədar torpaqlarında yerləşdirməlidirlər.

9. Köçürülənlər 6 il müddətinə vergilərdən, 3 il müddətinə torpaq mükəlləfiyyətindən azad edilməlidirlər.

10. Yeni köçürülən xristian kəndlərini müsəlman kəndləri ilə qarışdırmamaq, onlardan ibarət ayrıca mahallar və dairələr təşkil etmək lazımdır.

11. Köçürülənləri məskunlaşdırmaq üçün yer seçərkən rahatlığı, gözəlliyi və yaxşı suyu olmasının qayğısına qalmaq lazımdır.

12. Köçürülən hər bir ailəyə orta hesabla 25 rubl gümüş pul həcmində köməklik göstərilməlidir.

Köçkünlərin məskunlaşdırılması zamanı bu təlimata ciddi əməl edilmişdi. İstər indiki Ermənistan və Gürcüstana, istərsə də Azərbaycanın Gəncəbasar və Qarabağ əyalətlərinə köçürülən ermənilər yığcam halda, təbii gözəlliyi, yaxşı iqlimi, saf suyu olan dağətəyi rayonlarda və şəhərlərdə yerləşdirilmişdilər.

1830-cu il yanvarın 22-də Paskeviçin Çernışeva göndərdiyi məlumatında göstərilirdi ki, Qars və ətrafından keçən 2500 ailə onun sərəncamı ilə yaşadıqları yerin iqlim şəraitinə uyğun olaraq Ələyəz yaxınlığında (Pəmbək distansiyasında) boşalmış kəndlərdə yerləşdirilmişlər.

Türkiyə hökuməti onun ərazisində pərakəndə halda yaşayan ermənilərin ruslar tərəfindən köçürülüb sərhəd boyu ərazilərdə yığcam halda yerləşdirilməsindən ehtiyat edirdi. Ona görə də bu köçürmənin qarşısını almaq məqsədilə rusların gəlişi zamanı ermənilərin türklərə etdiyi xəyanəti, törətdikləri vəhşilikləri bağışlamaq, onlardan haqq-hesab çəkməmək qərarını verərək, fevralın 17-də yerlərdəki ermənilərə "Əfvnamə"lər göndərirlər. Lakin Ərzurum ermənilərinin "qarabaşı" (katolikosu) bu "Əfvnamə"lərə rəğmən, etdikləri cinayətlərin ağırlığını dərk edərək, ruslar geri çəkiləndən sonra onlarla haqq-hesab çəkiləcəyinə əmin olduğu üçün köçmək niyyətində olduqlarını bildirmişdi.

Ermənilərin köçürülməsinin qarşısını almaq məqsədilə Türkiyə tərəfi işğala məruz qalan, lakin Ədirnə müqaviləsinin şərtlərinə əsasən boşaldılmalı olan Ərzurum, Qars, Bayazid, Ələşgird və s. yerlərə açıq və ya gizli şəkildə öz nümayəndələrini göndərmişdi. Ərzurum ermənilərinin köç işlərinə maneçilik göstərildiyi, onların əmlak və torpaqlarının satılmasına türklərin əngəl törətdikləri haqda işğal edilmiş ərazilərdə köçürülmə işlərinə rəhbərlik edən general Pankratyev Paskeviçə şikayət məktubu göndərmişdi.

Köçürülən ermənilərin qoyub getdikləri əmlak və ərazilərin satılması məsələsini həll etmək üçün Paskeviç mayor Vannikovu Ərzuruma nümayəndə kimi göndərmişdi. Lakin ermənilərin sahib olduqları kəndlərin əksəriyyəti bir qədər əvvəl, yəni müharibə zamanı təhlükəsiz yerlərə köçməyə məcbur olan və ermənilərin satış yolu ilə aldıqları müsəlman kəndlərindən ibarət idi. Təkcə Qars bölgəsində bu yollarla ermənilər 80 kəndə bütünlüklə, 15 kəndin isə yarısına yiyələşmişdilər. Digər tərəfdən, Rusiyanın işğal etdiyi ərazilərdən (əsasən Axılkələk və Axıska bölgələrindən) Türkiyəyə qaçan türklərin qoyub getdikləri əmlak və torpaqların satışı müqabilində vəsaitin onlara çatmaması Rusiya tərəfini maraqlandırmırdı. Ona görə də onlar daşınmaz əmlaklarını, mülklərini və torpaqlarını qoyub gedirdilər.

Ədirnə müqaviləsində köçürülmə işləri üçün nəzərdə tutulan 18 aylıq müddətin başa çatmasının yaxınlaşmasını və bu işin ləngidiyini görən Paskeviç 1829-cu il fevralın 29-da Ərzurum və Qars valilərinə rus və türk dillərində məktub göndərərək bildirir ki, Türkiyədən köçürülən katolik ermənilərin təmsilçiləri arximandrit Tatosu, Müğdisi Karapeti və Ağacan Karapetyanı, frankların təmsilçiləri Ter-Hovanes Matevosovu,

Ağacan Osipovu və Hakop Hanakovu Ərzuruma göndərmişdir ki, ermənilərin qoyub gəldikləri əmlakların, taxıl sahələrinin və s. satışını təşkil etsinlər.

Müqavilədə göstərilən müddətin başa çatması ərəfəsində, yəni 1831-ci il aprelin 3-nə qədər tərtib edilən sənəddə Türkiyədən köçürülən erməni ailələrinin təxmini sayı və məskunlaşdırıldıqları ərazilərin adları göstərilmişdir. Həmin sənədi təqdim edirik:

| Haradan köçürülmüşdür | Köçürülən ailələrin sayı | Harada məskunlaşdırılmışdır |
|---|---|---|
| Ərzurumdan<br>Ərdahandan | 7288<br>67 | 1. 5000 ailə Axıskada (paşalığın ərazisində).<br>2. 1050 ailə Borçalı distansiyasında və Çalqa ətrafında<br>3. 1305 ailə Pəmbək və Şörəyel distansiyalarında |
| Qarsdan | 2464 | 1. 2264 ailə Pəmbək və Şörəyel distansiyalarında<br>2. 200 ailə Talın mahalında |
| Bəyaziddən | 4215 | Erməni vilayətində - Göyçə gölü ətrafında, Baş Abaranda |
| Cəmi | 14044 ailə | |

Sənədin bu cədvələ əlavə qeydində göstərilir ki, heç də digər yerlərdəki nümayəndələrin hamısı tam və dəqiq hesabat təqdim etmədikləri üçün neçə nəfərin köçürüldüyü göstərilməmişdir. Əgər bir ailədə orta hesabla altı nəfər götürülsə, nəticədə 84 mindən artıq erməni və yunanların köçürüldüyü məlum olur. Bəzi erməni tarixçiləri köçürülənlərin 90 mindən artıq, bəziləri isə 100 minə yaxın olduğunu göstərirlər.

Ermənilərin İrandan köçürülməsi zamanı fəallıq göstərən hərbçilər və din xadimləri mükafatlandırıldıqları kimi, Türkiyədən köçürülmələr zamanı xidməti olanlar da mükafatlandırılmışdılar.

Ərzurumdan ermənilərin köçürülməsi işindəki xidmətlərinə görə 1830-cu il oktyabrın 20-də arxiyepiskop Karapet 1-ci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilmişdi. Sonralar İmperator I Nikolay 1837-ci ilə Axıskaya gedərək Karapetlə görüşmüş, həmin xidmətinə görə ona öz minnətdarlığını bildirmişdi.

İmperatorun fərmanı ilə 1831-ci il aprelin 24-də Türkiyədən köçürülən ermənilərin təsərrüfat ehtiyaclarını ödəmək üçün verildiyi vaxtdan 4 il keçəndən sonra, 6 il müddətinə faizsiz olaraq qaytarmaq şərti ilə xəzinədən 380 min gümüş rubl ayrılmışdı.

Ümumiyyətlə, 1828-29-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra İ. Şopenin Erməni vilayətində (keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində) apardığı siyahıyaalınmanın nəticələrinə görə, vilayətin ərazisinə 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdlərinin köçürüldüyü göstərilir, Köçürülən ermənilər Qırxbulaq, Sürməli, Talın, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarının 129 kəndində yerləşdirilmişdilər.

İndiki Ermənistan ərazisinin Şörəel və Loru-Pəmbək bölgələri 1801-1805-ci illərdə Gürcüstana birləşdirildiyindən Erməni vilayətinə daxil edilməmişdi. 1829-cu ilə qədər, yəni Rusiya-Türkiyə müharibəsindən sonra ermənilərin rəsmi köçürülməsinə qədər Şörəyel-Pəmbək distansiyasına 1536 ailə (5425 nəfər kişi cinsi) köçürülmüşdü. Sonra isə Türkiyədən 3148 ailə (10575 nəfər kişi cinsi) köçürülmüşdü. 1832-ci ilin sonu, 1833-cü ilin əvvəlində Türkiyədən Zalqaya köçürülən ermənilərdən 182 ailə (674 nəfər kişi cinsi) yenidən Şörəyel-Pəmbək distansiyasına köçürülmüşdülər. Köçürülənlərin arasında 169 yunan və 963 nəfər erməni katolikləri (frankları) var idi. Şörəyel-Pəmbək bölgəsində 100-ə yaxın kənddə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdilər. Şörəyel bölgəsinin (Gümrü ətrafı - indiki Axuryan rayonu) əhalisinin vaxtilə Türkiyədən köçürülən ermənilərdən ibarət olması haqqında Z. Balayan «Ocaq» kitabında yazır: «Demək olar ki, bu bölgənin bütün əhalisi Qars, Van, Muş və Bidlisdən, Qərbi Ermənistanın bir çox əyalətlərindən olan bədbəxt qaçqınlardan ibarətdir. Hesablanmışdır ki, vaxtilə Axuryan rayonunda (keçmiş Düzkənd rayonu) Qərbi Ermənistanın 80-dan artıq yaşayış məskənindən türk yatağanından (əyri qılıncından) xilas olan ermənilər gəlib məskunlaşmışlar». Z. Balayan bu bölgəsinin əhalisinin bütünlüklə Türkiyədən gələn ermənilərdən ibarət olmasını qeyd etməklə, həmin ərazidə vaxtilə türklərin məskunlaşmış olduğunu bilavasitə təsdiq etmiş olur.

İndiki Ermənistan ərazisinə ermənilərin kütləvi axını 19-cu əsrin əvvəllərində baş verən Rusiya-İran, Rusiya-Türkiyə müharibələrindən sonra da davam etmişdir. Həmin dövrdə ermənilərlə yanaşı yezidi kürdlər də gəlib indiki Ermənistan ərazilərində yerləşmişdilər. 1834-cü ilin məlumatına görə İrəvan əyalətində Bayaziddən gəlmiş 1000 nəfər (təqribən 300 ailə) yezidi kürdləri məskunlaşmışdılar.

Ələyəz dağının ətəyində bir sıra boşalmış türk kəndlərində də Türkiyədən gələn yezidi kürdləri məskunlaşmışdılar. Yezidi kürdləri 1839-cu ildə Mirək, Quruboğaz, Carcarçı, Çobangərəkməz kəndlərində, sonralar isə Pəmbək, Qundaxsaz, Böyük Camışlı, Kiçik Camışlı və Korbulaq kəndlərində yerləşmişdilər. Nəhayət, yezidi kürdləri 1877-ci ildə Bağdad, Dolu-Taxt və Kiçik Cəngi kəndlərində gəlib yerləşmişdilər. Sonralar Ermənistanın rəsmi dairələri tərəfindən adları dəyişdirilən, lakin əsasən bu kəndləri əhatə edən Araqats rayonu təşkil edilmişdir.

Türkiyədən köçürülən yunanlar isə əsasən Şörəyel-Pəmbək distansiyasının Alakilsə, Bayandur, Sisimədən kəndlərində və Gümrüdə yerləşdirilmişdilər. Sonralar yunanlar Ermənistanda tamamilə assimilyasiyaya uğrayaraq tədricən erməniləşmişlər.

* * *

Ümumiyyətlə, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra Erməni vilayətinə (İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə) İran və Türkiyədən 57266 nəfər erməni (10631 ailə) köçürülmüşdü. Köçürülmələrdən əvvəl həmin ərazidə cəmisi 25131 nəfər (4428 ailə) erməni yaşamışdır. Müharibələrin nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən türklərin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81749 nəfər (17078 ailə) müsəlman qalmışdı. Köçürmələrdən sonra isə ermənilər 82397 nəfər (15059 ailə) təşkil etmiş, nəticədə müsəlmanları sayca üstələmişdilər.

Lakin hələ 19-cu əsrin əvvəlində Rusiyanın müəyyən dairələri rus ordusunun Zaqafqaziyada işğal etdiyi ərazilərdə erməniləri deyil, məhz rus koloniyalarının - kazakların, malakànların, duxoborların və s. yerləşdirilməsinə üstünlük verirdilər. Bu məqsədlə bir neçə layihə hazırlanmışdısa da, sonralar icrası təxirə salınmışdı. N. N. Şavrov Rusiyanın Zaqafqaziyadakı müstəmləkəçilik siyasəti haqqında yazır: «Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... 1826-28-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənilərini köçürmüş və onları Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi. Onları həmçinin Tiflis quberniyasının Borçalı, Axıska və Axılkələk qəzalarında yerləşdirdik, onların yerləşdirilməsi üçün 200 min desyatindən artıq dövlət torpağı ayrılmış, 2 milyon rubldan artıq məbləğdə müsəlmanlardan xüsusi mülkiyyət torpaqları satın alınmışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Dağlıq Qarabağ, Xanlar və Şəmkir rayonları nəzərdə tutulur - müəlliflər) və Göyçə gölünün sahili həmin ermənilərlə məskunlaşdırılmışdı. Nəzərə almaq lazımdır ki, 124 min rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır.

Ermənilərin indiki Ermənistan ərazisinə axını 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra bir daha güclənmişdi. 90-cı illərdə Türkiyədə baş verən erməni üsyanları nəticəsində 400 minə yaxın erməni yenə də Qafqaza köçüb gəlmişdi.

N. Şavrov qeyd edir ki, 20-ci əsrin əvvəlində Zaqafqaziyada yaşayan 1300000 ermənidən bir milyonu yerli əhali deyil, rusların vasitəsilə məskunlaşdırılmışdı.

Daha sonralar, Sovet hakimiyyəti illərində xarici ölkələrdə yaşayan 100 mindən artıq erməni Ermənistana köçüb gəlmişdi.

Bütün qeyd edilənlərdən o nəticəyə gəlmək olar ki, indiki Ermənistanda yaşayan ermənilərin sələflərinin demək olar ki, hamısı vaxtilə Cənubi Azərbaycandan və sonralar Türkiyədən, son dövrlərdə isə xarici ölkələrdən - əsasən Suriyadan, Yunanıstandan, Livandan, Bolqarıstandan, Rumıniyadan köçüb gələnlərdən ibarətdir.

***(Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998, səh. 33-44)***

## XX əsrin əvvəllərində azərbaycanlıların soyqırım və deportasiyası

### Ermənilərin 1905-1906-cı illərdə Cənubi Qafqazda törətdikləri qırğınlar

XX əsrin əvvələrində Cənubi Qafqazda, xüsusən də indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı törədilən qırğınların ssenarisi ermənilərin XIX əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri təcrübəyə əsaslanırdı. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra Avropa dövlətlərinin səyləri nəticəsində gündəliyə çıxarılan «Erməni məsələsi» sonralar Şərqi Anadoluda ermənilər üçün muxtariyyət əldə etmək və müstəqil Ermənistan dövləti qurmaq üçün bir vasitəyə çevrilmişdi. Bu muxtariyyətin əldə edilməsi üçün əvvəlcə Şərqi Anadolu vilayətlərində, yəni ermənilərin «Qərbi Ermənistan» adlandırdıqları vilayətlərdə ermənilərin say üstünlüyünə nail olmaq lazım gəlirdi. Lakin ermənilərin «Qərbi Ermənistan» adlandırdıqları vilayətlərin heç birində say etibarı ilə üstünlük onların tərəfində deyildi. Bunu ermənilərin qəyyumu kimi çıxış edən Fransanın Xarici İşlər Nazirliyi 1897-ci ildə yaydığı sənəddə də etiraf etmişdi.

Həmin illərdə İngiltərə və Fransanın yardımı ilə Türkiyədə erməni üsyanı təbliğatı aparılırdı. Bu işə rəhbərliyi «Daşnaksutyun» və «Hnçak» siyasi təşkilatları öz üzərlərinə götürmüşdülər. Ermənilər kütləvi iğtişaşlar törətmək məqsədilə türklərə və kürdlərə hücumlar edirdilər ki, qırğınlar baş versin və sonradan da Avropanın kütləvi informasiya vasitələri ilə türklərin erməniləri soyqırıma məruz qoyduqlarını dünyaya car çəkə bilsinlər.

Ermənilərin Türkiyədə 1894-1896-cı illərdə törətdikləri iğtişaşlar Sultan Əbdülhəmid tərəfindən yatırıldı. Həmin iğtişaşların təşkilatçılarının və icraçılarının əksəriyyəti isə Cənubi Qafqazın müxtəlif regionlarına köçmüşdülər. Rus müəllifi N.Şavrovun yazdığına görə, 1896-cı ildə Cənubi Qafqazda 900000, 1908-ci ildə 1301000 erməni yaşamışdır. Deməli, təkcə bu dövrdə Cənubi Qafqaza 400000 erməni gəlib yerləşmişdi. 1908-ci ildə Rusiya Daxili İşlər Nazirliyi polis departamentinin sənədlərində göstərilirdi ki, «Türkiyədəki məlum hadisələrdən sonra Zaqafqaziyaya yarım milyon erməni gəlmişdir. Bu ermənilər dərhal öz qara əməllərini göstərdilər». Bundan sonra indiki Ermənistan ərazisində «Daşnaksutyun» partiyasının sıraları daha da artmış, Cənubi Qafqazda antitürk təbliğatı xeyli güclənmişdi. «Novaya vremya» qəzetinin İrəvan üzrə müxbiri Qriqoryevin verdiyi məlumata görə, törədilən cinayətlərin 80 faizi Türkiyədən gəlmiş ermənilərin, muzdlu qatillərin payına düşürdü.

Maraqlıdır ki, hələ Türkiyədə erməni iğtişaşları başlamazdan xeyli əvvəl, «Daşnaksutyun» partiyasının qeydə alınmasından cəmisi bir neçə ay sonra, yəni 1891-ci ilin yanvarında Bakıda Tağıyev teatrında Safrazyanın 4 şəkilli pyesi tamaşaya qoyulmuş, tamaşanın 1-ci şəklində erməni qadınına işgəncə verən türk təsvir edilmiş, 2-ci şəkildə həmin qadının öz azadlığı uğrunda mübarizəsi, 3-cü şəkildə türkü məhv edən həmin qadın, 4-cü şəkildə isə gənc erməni qızı timsalında azadlığa çıxmış Ermənistan təsvir edilmişdi. Həmin tamaşaya görə, pyesin müəllifi Safrazyan Bakının makleri adına layiq görülmüşdü. Bu məlumat Qafqaz canişinliyinin 7 fevral 1891-ci ildə Bakı qubernatoruna göndərdiyi məktubundan götürülmüşdür. Göründüyü kimi, 19-cu əsrin sonunda «Daşnaksutyun» partiyasının anti-türk təbliğat maşını təkcə İrəvan və Tiflisdə deyil, hətta Bakıda belə, var gücü ilə işə salınmışdı.

XX əsrin əvvəllərində erməni şovinizminin, millətçi erməni partiyalarının maddi və mənəvi qida mənbəyi rolunu erməni kilsəsi məharətlə oynayırdı. 1903-cü ildə kilsə torpaqlarının Rusiya Torpaq və Əmlak Nazirliyinin sərəncamına keçirilməsi haqqında çıxarılan qanun kilsənin maliyyələşdirdiyi siyasi təşkilatların maddi vəziyyətinə zərbə vurduğu üçün erməni terrorizminin genişlənməsinə, anti-türk, anti-müsəlman əhval-ruhiyyəsinin qızışmasına səbəb olmuşdu. Erməni kilsəsi İrəvan və Eçmiədzində bu qanun əleyhinə qiyamlar təşkil etmişdi. Həmin il avqustun 29-da Gəncədə, sentyabrın 2-də Qarsda və Bakıda, sentyabrın 12-də Şuşada, oktyabrın 14-də Tiflisdə ermənilər iğtişaşlar və terror törətmişdilər. 1905-ci ildə Rusiyanın özündə baş verən iğtişaşlar, çarizmə qarşı narazılıq dalğasının güclənməsi Cənubi Qafqazda güclü əks-səda doğururdu. Bu qarışıqlıqdan ermənilər məharətlə istifadə edirlər. Rusiyanın hakim şovinist dairələri də zərbəni özlərindən yayındırmaq üçün ermənilərin antitürk, antimüsəlman kampaniyasını qızışdırırdılar. Qafqaz canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-ci ildə Bakıda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Gəncədə, Tiflisdə və başqa yerlərdə yaşayan azərbaycanlılara

qarşı silahlı hücumlar edib, həmin ərazilərdən onları təmizləməklə, ermənilərin say üstünlüyünə nail olmaq istəyirdilər. Çünki həmin dövrdə Qafqazdakı 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər.

1905-1906-cı illərdə Cənubi Qafqazda erməni-müsəlman qırğınları haqqında polis departamentinin yuxarıda adı çəkilən sənədində deyilir: «Daşnaksutyun» öz qüdrətini göstərdi, müsəlmanlar cəfasını çəkdilər. Burada ikili oyun oynanılmışdı: birincisi, müsəlmanlarda olan qisasın bir qismini almaq, digər tərəfdən baş verən hadisələrin günahını mətbuat və təbliğatın köməyi ilə rus hökumətinin üzərinə yıxmaq, bununla da təkcə erməniləri deyil, Qafqazın digər sakinlərini də inqilabçılaşdırmaq üçün güclü təbliğat materialı əldə edilmiş olurdu. Nəticədə ermənilərə münasib olmayan bir çox rus məmurları və ayrı-ayrı şəxslər terror qurbanı oldular: general Əlixanov (Maqsud Əlixanov-Avarski – müəllif), qubernatorlar Nakaşidze, Andreyev (birincisi Bakı qubernatoru, ikincisi Yelizavetpol (Gəncə) vitse- qubernatoru – müəllif), polkovniklər Bıkov və Saxarov və başqa dövlət məmurları (partiyanın hesabatından). Onların qismən nail olduqları ikinci məqsədləri ondan ibarət idi ki, Zaqafqaziyada ermənilərlə müsəlmanların yaşadıqları ərazilər bir-birindən ayrıldı, Türkiyədən və qismən İrandan köçən ermənilərin məskunlaşdırılması üçün torpaqlar boşaldıldı. Son 5-6 ildə onların sayı yarım milyona çatmış, 200 min nəfər isə rus idarələrinin vəkaləti ilə təbəəlik əldə etmişdir. Yelizavetpol, İrəvan və Qars vilayətlərində ərazilərin qismən ayrılmasına nail olunmuş, torpaqların müəyyən hissəsi boşaldılmış, həmin ərazilərdən bir çox müsəlmanlar qaçaraq canlarını qurtarmışlar".

Əslində, Rusiyanın hakim dairələri də 1905-1906-cı illər erməni-müsəlman iğtişaşlarından öz məqsədləri üçün istifadə etməklə ikili oyun oynamışdılar. Çar məmurları Qafqazda güclənən narazılıq dalğasının hökumət əleyhinə istiqamətlənəcəyindən qorxduqlarından, ermənilərin müsəlmanların yaşadığı ərazilərdə törətdikləri qırğınlara biganə qalmış, bəzi hallarda isə onların tərəfini saxlamaqla hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə nail olmuşdular. Bu məqsədlə xüsusi xəfiyyə şəbəkəsinin qurulması haqqında Cahangir Zeynaloğlunun 1924-cü ildə İstanbulda dərc edilən kitabında belə məlumat verilir: "Yalnız azəri türkləri hələ qəflətdə idilər və iğtşaşlarda çar tərəfini saxlayırdılar. Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə mə'muru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq və əsrlərcə yaxşı keçinən iki milləti biri digərinə qırdırdı".

1905-ci il fevralın 6-da Bakıda bir nəfər azərbaycanlının ermənilər komitəçiləri tərəfindən öldürülməsi ilə başlanan erməni-müsəlman qırğınları bir çox müəlliflərin iddia etdikləri kimi, bir təsadüf nəticəsində deyil, məhz bütün Cənubi Qafqazın varlı ermənilərinin zaman-zaman cəm olduqları bir şəhərdə planlı şəkildə baş vermişdi. Ermənilər Bakıda erməni milyonerlərinin köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Cənubi Qafqazdan müsəlmanları silah gücünə qovub erməni dövləti yaradacaqlarına əmin idilər. Fevralın 6-dan 10-a qədər Bakıda şiddətlə davam edən qırğınlar zamanı hər iki tərəfdən tələfat min nəfərə çatsa da, ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşdular.

Ermənilər fevralın 21-23-də İrəvanda da qırğınlar törətmişdilər. M.S.Ordubadi "Qanlı illər" kitabında verdiyi məlumata görə, ermənilərin növbəti fitnəkarlığı 1905-ci il mayın 5-də Naxçıvan qəzasının Cəhri kəndində üç nəfər müsəlmanın ağır yaralanması və mayın 7-də bir nəfər müsəlmanın Tunbul kəndində öldürülməsi ilə yenidən qızışır. Mayın 8-də İrəvan vitse-qubernatoru Baranovski, İrəvan şəhər qlavası Ağamolovla birlikdə Naxçıvan şəhər qlavası Cəfərqulu xan Naxçıvanski Naxçıvana gəlirlər. Qırğınlar ara vermədiyi üçün Tiflisdən general Əlixanov-Avarski də Naxçıvana göndərilir. Ermənilər Naxçıvanda da məğlub olduqlarından növbəti iğtişaşları İrəvanda törədirlər. Ermənilərin məqsədi ilk növbədə İrəvan və onun ətraf kəndlərini müsəlmanlardan təmizləmək, sonra isə M.S.Ordubadinin təbirincə, «İrəvandan Naxçıvana qədər yol üstə yerləşən islam kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunda olan köyləri dağıdıb Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvəni bitişdirmək kimi alçaq xəyallar»dan ibarət idi.

Mayın 23-də ermənilərin Qarsaçay bağçasında müsəlman gənclərinə hücumu ilə İrəvanda növbəti qırğınlar başlanır. Mayın 31-də İrəvanda qırğınlar dayandırılsa da, ermənilər ətraf müsəlman kəndlərinə hücum etməyi qərara alırlar. Elə həmin axşam ermənilər Qırxbulaq mahalının Gözəcik kəndinə hücum edirlər. İyunun 2-də 10 min nəfərlik erməni alayı Məngüs kəndinə hücum edir. Dağıdılmış 12 müsəlman kəndinin əhalisi Təzəkəndə qaçır. Ermənilər iyunun 3-də Güllücə kəndinə hücum edirlər. Silahsız əhali Tutiyə, Damagirməz, Kamal kəndlərinə qaçır. Qırğınlar 18 gün davam edir. İyunun 3-də Abaran, Şörəyel, Pəmbək və Aleksandropol

ermənilər Eçmiədzin (Üçkilsə) qəzasının Üşü kəndinə hücum edir, iyunun 8-də müsəlmanlar kəndi tərk edirlər. İyunun 9-da ermənilər Pərsi, Nəzrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrku, Əngirsək, Təkiyə kəndlərini dağıdırlar. İyunun 10-da ermənilər Eçmiədzində 10 kəndi dağıdırlar. M.S.Ordubadi 1905-ci ildə indiki Ermənistan ərazisində ermənilərin törətdikləri soyqırımını belə səciyyələndirmişdi: «İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi».

1897-ci ildə İrəvan quberniyasında 313176 nəfər azərbaycanlı əhali qeydə alındığı halda, 10 ildən sonra – yəni 1907-ci ildə 302965 nəfər qeydə alınmışdı. Deməli, 1905-ci və 1906-cı illərdə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından əlavə, 10 min nəfər artıq azərbaycanlı qətlə yetirilmişdi.

İrəvan quberniyasında öz məqsədlərinə nail olan erməni silahlı dəstələri Qarabağda qırğınlar törətməyə başlamışdılar. İyunun 1-dən başlayan erməni hücumları nəticəsində Cəbrayıl-Qaryagin bölgəsində Veysəlli, Qacar, Çəmənli, Arış, Qışlaq, Məzrə kəndləri darmadağın edilir. Avqustun 16-da Şuşada qırğınlar törədilir.

1905-ci ilin noyabrında Gəncə şəhərində, Cavanşir və Qazax qəzalarında, Tiflis şəhərində ermənilər iğtişaşlar törədərək minlərlə günahsız azərbaycanlını qətlə yetirirlər.

1905-1906-cı illərdə törədilmiş qırğınlara aid erməni müəlliflərinin bir neçə əsəri mövcuddur. Erməni müəlliflərindən A-donun irihəcmli “Qafqazda erməni-türk toqquşmaları (1905-1906-cı illər). əsərində, S. Zavaryanın “Qarabağın iqtisadi şəraiti və 1905-1906-cı illər aclığı”, İ. Alibekovun “Yelizavetpolun qanlı günləri cəmiyyətin mühakiməsi qarşısında” əsərlərində 1905-1906-cı illər qırğınlarının mahiyyəti təhrif edilsə də, bu əsərlər faktoloji baxımdan tədqiqatçılara xeyli material verirlər. S.Zavaryanın verdiyi məlumata görə, həmin dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 müsəlman kəndi, ümumilikdə isə həmin bölgədə 75 kənd dağıdılmışdır.

1906-cı ilin fevral ayında Tiflisdə Qafqazın canişini Voronsov-Daşkovun təşəbbüsü ilə erməni-müsəlman qırğınarına son qoymaq məqsədilə sülh konfransı (məclisi) keçirilmişdir. Həmin konfransda müsəlman nümayəndələri Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Ədil xan Ziyadxanov və başqaları "Daşnaksutyun" partiyasının niyyətlərini ifşa etmiş, onun Cənubi Qafqazda törədilən qırğınların, terrorçuluğun təşkilatçısı və icraçısı olduğunu göstərmiş, rəsmi hökumət dairələrinin bu təşkilatın əməllərinə göz yumduğunu sübuta yetirmişdilər.

Lakin sülh konfransının keçirilməsindən bir qədər sonra erməni silahlı dəstələri yenidən qırğınlara başlamışdılar. Bakıda və Şuşadakı ikinci məğlubiyyətlərindən sonra "Böyük Rusiya inqilabı söndü, biz işləri sona çatdıra bilmədik" deyə 1906-cı ilin yayında Qarabağdan Zəngəzura yol açmaqdan ötrü İrəvan, Abaran, Aleksandropol, Şörəyel ermənilərinə teleqramlar göndərərək əsgər toplamışdılar. İrəvandan Zəngəzura, Zəngəzurdan Qarabağa qədər yol boyunca erməni əhalisinin sayı olduqca az idi. Ona görə də erməni komandalarına yol üstündə yerləşən müsəlman kəndlərinə hücum etmək əmri verilmişdi.

1906-cı il iyulun 29-da "Daşnaksutyun" partiyasının göstərişi ilə ermənilər Zəngəzur qəzasının Mədən bazarında Səfyar bəyi qətlə yetirir, sonra isə Karxana kəndinə hücum edirlər. Ermənilər bu kənddə heç kəsə aman vermir, kəndin bütün əhalisini öldürür və ya əsir götürürlər. Elə həmin gün ermənilər Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərini viran qoyurlar. Avqustun 1-də ermənilər Qatar kəndinə hücum edirlər. 9 gün qatarlılar kəndi müdafiə edirlər. Nəhayət, hər yerdən əli üzülən qatarlılar çoxlu tələfat verərək, qaçıb Kəllədağ kəndinə sığınırlar. Bundan sonra ermənilər Oxçu-Şəbədək dağ silsiləsində yerləşən türk kəndlərinə hücum edirlər. Ermənilər türklərin ətraf kəndlərdən cəmləşdiyi Saqqarsu kəndində əsl soyqırım törədirlər. Ümumiyyətlə, ermənilər təkcə həmin ilin avqust ayında Zəngəzurun Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbədək, Atqız, Pürdavud, Zurul, Guman, İyilli, Sənalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq, Lov, Daşnov kəndlərini viran qoymuş, əhalisini qətlə yetirmişdilər.

Erməni müəllifi A-do 1905-1906-cı illərdə baş vermiş qırğınlar zamanı Cənubi Qafqazın 7 şəhərinin böyük dağıntılara məruz qaldığını, 12 qəzada 252 kəndin yandırıldığını və viran qoyulduğunu, 100 min ailənin qəzalardan, bir neçə min nəfərin şəhərlərdəki ev-eşiklərindən didərgin düşdüyünü, 10 min nəfərin məhv edildiyini göstərir.

Ümumiyyətlə, o dövrün mətbuatında dərc edilən məlumatlar əsasında 1905-1906-cı illərdə Cənubi Qafqazda ermənilərin törətdikləri qırğınların xronologiyasını tərtib etmək mümkün olmuşdur:

**Bakı şəhərində qırğınlar**

1-ci Bakı qırğınları 6-9 fevral 1905-ci ildə.
2-ci Bakı qırğınları 20-30 avqust 1905 -ci ildə.
3-cü Bakı qırğınları 20-25 oktyabr 1905 -ci ildə.

**İrəvan şəhərində qırğınlar**

1-ci İrəvan qırğınları 20-23 fevral 1905-ci ildə.
2-ci İrəvan qırğınları 23-26 may 1905-ci ildə.
3-cü İrəvan qırğınları 18 sentyabr 1905-ci ildə.
4-cü İrəvan qırğınları 27 may, 8-9 iyun 1906-cı ildə.

**İrəvan qəzasında qırğınlar**

1905-ci ilin may-iyun aylarında.

**Naxçıvan qəzasında qırğınlar**

Naxçıvan çayının aşağı hissəsində, həm də şəhərdə Cəhri çayının mənbəyində 12 may 1905-ci ildə.
Naxçıvan çayının yuxarı hissəsində 12-18 may 1905-ci ildə.
Əlincə çayının mənsəbində, Şurut kəndi və Gilan çayı hövzəsində 12-18 may 1905-ci ildə..

**Şərur-Dərələyəzdə qırğınlar**

29-31 may 1905-ci ildə Şərurda.
may-iyun 1905-ci ildə Dərələyəzdə.

**Eçmiədzin qəzasında qırğınlar**

24 may-5 iyun 1905-ci ildə.

**Sürməli qəzasında qırğınlar**

2-4 iyun 1906-cı ildə.

**Gəncə şəhərində qırğınlar**

18-23 noyabr 1905-ci ildə.

**Ərəş qəzasında qırğınlar**

28 noyabr 1905-ci ildə.

**Şuşa qəzasında qırğınlar**

16-22 avqust 1905-ci ildə.
12-22 iyul 1906-cı ildə.

**Xocalıda**

avqust-noyabr 1905-ci ildə.
12-18 iyul 1906-cı ildə.

**Cavanşir qəzasında**

28 noyabr 1905-ci ildə.

**Zəngəzur qəzasında**

29 iyul-29 avqust 1906-cı ildə.

**Qazax qəzasında**

18-28 noyabr 1905-ci ildə.

**Tiflis şəhərində**

20-29 noyabr 1905-ci ildə.

Ümumiyyətlə, 1905-1906-cı illər erməni müsəlman iğtişaşları nəticəsində İrəvan və Yelizavetpol (Gəncə) quberniyaları ərazisində 200-dən artıq azərbaycanlı yaşayış məntəqəsi viran edilmiş, əhalisi etnik təmizlənməyə və kütləvi qırğınlara məruz qoyulmuşdur.

**Nazim Mustafa,**
**AMEA Tarix İnstitutunun elmi işçisi.**

## Bakı qırğınları

### Cəzasız qalmış cinayətlər
### 1905-ci ildə silahlanmış erməni dəstələri Qafqazda etnik zəmində soyqırımı kimi dəhşətli bir cinayətin ilk müəllifləri olmuşlar

**XX əsrin əvvəllərində Bakının neft sənayesi sahəsində mövcud olan 167 müəssisəsindən cəmi 49-u azərbaycanlı kapitalistlərin əlində idi. Ermənilərin isə 55 firması vardı. Qalan 21 firma ruslara, 10 firma əcnəbilərə, 17 firma yəhudi kapitalistlərinə, 6 firma isə gürcü sahibkarlarına məxsus idi. İnhisarçı kapitalın neft sənayesində hakim kəsildiyi illərdə Azərbaycan milli kapitalının mövqeyi çox zəif idi.**

Belə bir gərgin dövrdə "Daşnaksütyun" partiyası sosial-demokratlarla əlaqəyə girərək Bakıda sosial-demokrat və sosial-inqilabçı adı altında daşnaksütyun yönümlü fəhlə təşkilatları yaradırdılar. Onların isə əsas məramı yerli əhali arasında iğtişaşlar, təxribatlar törətmək, qanlı aksiyalar həyata keçirmək idi. Tarix elmləri namizədi Ataxan Paşayev "1905-1907-ci illərdə Azərbaycan xalqına qarşı erməni vəhşilikləri" adlı məqaləsində yazır ki, daşnaksütyun partiyasının rəhbərləri öz planlarını yerinə yetirmək üçün bütün vasitələrə əl atırdılar. Hətta öz ermənilərindən də külli miqdarda vəsait tələb edir, verməyənləri isə fiziki cəhətdən məhv edirdilər. 1904 və 1905-ci illərin əvvəllərindən başlayaraq daşnaksütyun yönümlü təxribatçı-terrorçu təşkilatlar öz məqsədlərinə çatmaq üçün əhali arasında narazılıqlar, iğtişaşlar salmağa cəhd göstərirdilər. Bu cəhdlər isə nəticəsiz qalmırdı.

1904-cü ilin dekabrında Bakıda azərbaycanlıları ruslara qarşı birlikdə mübarizə aparmaq məqsədilə erməni terror təşkilatlarına qoşulmağa çağıran intibahnamələr yayılmağa başlamışdı. Bu təklif rədd ediləcəyi təqdirdə vərəqələrdə müsəlman əhalisinə hədə-qorxular gəlirdi: "Hazır olun ki, biz sizin torpağınızı elə öz al qanınıza qəltan edəcək və meyitlərinizə od vuracağıq, bu od bütün dünyanı bürüyəcəkdir". Sonrakı hadisələr göstərdi ki, bu sözləri erməni beynəlxalq terror təşkilatları tamamilə həyata keçirdilər. Senator Kuzminski yazırdı: "Görünür, ermənilərin bu cür fitnəkar fəaliyyəti müsəlman dünyasında geniş yayılmışdır...". Ermənilərin hədələyici intibahnamələri və onlara müsəlmanların mənfi cavabları İskəndəriyyədə fars dilində nəşr edilən "Göhrənuma" jurnalının nömrələrindən birində dərc olunmuşdur.

1905-il fevralın 6-da gündüz saat 12 radələrində Bakıda baş verən dəhşətli hadisə isə şovinist ruhlu erməni millətçilərinin etnik zəmində əvvəlcədən planlaşdırdıqları böyük qırğına yol açmış oldu. Həmin gün şəhərin mərkəzində erməni kilsəsinin yanında "Parapet" deyilən yerdə varlı, nüfuzlu, çoxlu qohum-əqrəbası olan karxana sahibi sabunçulu Ağarza Babayev erməni komitəsi tərəfindən qətlə yetirildi. Müayinə edilərkən mərhumun bədənində həm odlu, həm də soyuq silahların izləri aşkar olundu. Bütün şəhərə səs yayıldı ki, Ağarzanın meyiti təhqir olunmuş, ona 200-ə yaxın yara vurulmuşdur. Əhvalatdan xəbərdar olan Bakı əhli qətl hadisəsindən çox təsirlənmiş və bundan əvvəl də ermənilər tərəfindən bir sıra cinayətlər törəndiyinə görə xalq arasında böyük narazılıqlar yaranmış və iğtişaşlar baş vermişdi. M.S.Ordubadi özünün "Qanlı illər" əsərində yazırdı: "Nəhayət, süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb yaxıldı... Bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı. Bu gün hər tərəfdə, yəni, Bakının bütün yerlərində iğtişaş gözlənirdi. Babayev soyadlı bir müsəlmanın ölmək xəbəri yayılandan sonra müsəlmanlar da açıq-açığına hərbə qalxaraq ermənilərə yürüş etdilər... Ermənilər isə tam ciddiyyətlə işə başlamışdılar". Həmin gün Ağarza Babayevin qətlindən yarım saat sonra Vorontsovski küçəsində konka konduktoru Artyom Şinkov öldürülür, Tsitsiyanovski və Çadrovı küçələrində bir naməlum rus kimlər tərəfindənsə güllə ilə vurulur. Ermənilər realnı məktəbin və texniki məktəbin yeddinci sinif şagirdləri Yakov Lebedevi və İvan Volkovu öldürürlər. Bütün şəhərdə şiddətli atışma başlanır, aramsız olaraq səhərə qədər hər iki tərəfdən atəş səsləri eşidilir, gurultu, şaqqıltı, insanların tükürpədici qışqırıqları səngimək bilmir. Mixaylov xəstəxanasının sənədlərinə görə qırğın başlanan gün erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter-Osipovun və başqa maqnatların havadarlığı ilə terror qrupu tərəfindən 18 adam öldürülmüş, 33 nəfər yaralanmışdır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i başqa millətin nümayəndələri idi.

Fevralın 7-də vəziyyət daha da gərginləşmişdir. Həmin erməni terror təşkilatı bu dəfə yüzədək dinc vətəndaşın həyatına son qoymuş və yaralamışdır. Damlardan, pəncərələrdən müsəlmanların və gəlib keçən "bütün tayfaların" üzərinə ardı-arası kəsilmədən atəşlər açılırdı. Krasilnikovun, Mayılovun, Korsakovun evlərindən, Madrid mehmanxanasından yerli əhali - azərbaycanlılar qəfildən güllə yağışına tutulurdu. Camaat bir-birinə qarışıb silah işlətməkdə idi. Qocalar, yaşlılar, qadınlar uşaqlarının əllərindən tutub hara gəldi qaçır, ancaq heç bir tərəfdən aman tapmayıb sərgərdan olurdular. İğtişaş nəticəsində müsəlmanların bir çoxunun imarətləri və mağazaları dağıdıldı və qarət edildi. Çünki azərbaycanlılar belə bir hadisənin baş verməsindən

bixəbər idilər. Ermənilər isə silahlı dəstələrlə müsəlman məhəllələrini gəzir, günahsız insanları qanına qəltan edirdilər.

Fevralın 8-i şanı-şöhrəti ilə məşhur olan Bakı cəhənnəmə çevrilmişdi. Bir tərəfdən bombaların partlaması, digər tərəfdən isə uca və ali imarətlərin uçub dağılması, neft zavodlarının, budkaların yanğından səmaya qalxan alovları insanları çaşdırmışdı. Həmin gecə mühafizəçi qoşun dəstələri olmadığı üçün şəhər mühafizəsiz qalmışdı. Ermənilər bir çox müəssisə və fabrikləri yandırıb dağıdır, hər tərəfdə qətl-qarət baş alıb gedirdi. " Atışma getdikcə daha da artdığından iki nəfər müsəlman məzlum surətdə qətl edildi. Həmin bu vaxtda pristavlar polismeysterin tərəfindən məmur olub Dağıstan polkunun bir dəstəsi ilə yanğın komandasına köməkdə bulunacaq idilər. Yanğın dəstəsi təşəbbüsdə bir az təxir etdiyindən dördüncü sahənin pristavı bir dəstə qoşun götütüb Aslanovun evinin həyətinə daxil olur. Pristav və qoşun əhli evə daxil olar-olmaz naməlum şəxslər tərəfindən ev şiddətlə atəşə tutulur. Pristav cənabları heç bir tədbir görmədən dəstəsini götürüb öz yerinə qayıtmağa məcbur olur... Bu gün Bakının halı elə təhlükəli, elə qarışıq idi ki, atışmanın, yanan imarətlərin, alovun şiddətli təsirindən öldürülmüşləri heç bir tərəfdən yığmaq, yaralıları azarxanaya aparmaq mümkün deyildi... Bakıda ayın 10-na qədər ardı-arası kəsilmədən cinayətlər baş verirdi. Balaxanıda neft zavodlarında iğtişaş hökmfərma olub yanğı əməli də şiddət tapmaqda idi". (M.S.Ordubadi "Qanlı illər").

Qatillər kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin - Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter-Osipovun, Akop Muradyanın, Qriqori Sarkisyantsın, Karen Saakyantsın evlərinə yığışıb növbəti günlər üçün təxribat planlarını müzakirə edirdilər. Adları çəkilən erməni maqnatları ilə yanaşı Mantaşev, Ter-Qukasov, Melikyants da öz proqramlarını həyata keçirməyə başlamış "daşnaksütyun"nun üzvləri və sponsorları idi. Beləliklə, 1905-ci ilin 6-10 fevral hadisələri tarixə "Bakı şəhərində qanlı qətliam" kimi daxil olmuşdur. Həmin günlərdə mal və əmlaka, mülklərə dəyən zərər milyonları keçmişdi. Bakı hadisələri haqqında qubernator knyaz M.A.Nakaşidze tərəfindən Qafqaz canişini və Rusiya Daxili İşlər Nazirliyi üçün hazırlanan geniş məruzədə qırğın zamanı 231 nəfərin öldüyü, 179 nəfərin yaralandığı göstərilir. Məruzədə o da qeyd olunur ki, itki göstəriləndən daha çoxdur. Gizlədilən ölülərin çoxu müsəlmanlara aid idi. Çünki onlar meyitlərin yarılmasını şəriət qaydalarına zidd olan əməl kimi qəbul edirdilər.

1905-ci il mayın 11-də Bakıda beş erməni terrorçu tərəfindən Qafqaz xalqları arasında dostluq mövqeyindən çıxış edən knyaz M.A.Nakaşidze və Q.Takayşvili qətlə yetirilmişdir. Bunu şahid P.P.Şubinski öz xatirələrində təsdiqləmişdir. Elə həmin gün general Alixanov da öldürülmüşdür. Qətllərlə əlaqədar yayılmış intibahnamələrdə qeyd edilmişdir ki, bunları daşnaksütyun erməni terror təşkilatı törətmişdir. Bəzi məlumatlara görə qatillərdən biri Dro ləqəbli Drastamat Kanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında müxtəlif erməni quldur dəstələrinin tərkibində dinc əhaliyə, əsasən, türklərə, kürdlərə, azərbaycanlılara qarşı qanlı əməliyyatlarda iştirak etmişdir. Bundan başqa, erməni terrorçuları tərəfindən qətlə yetirilənlər sırasında qəza rəisləri Pavlov, Neşşanski, Boquslavski, vitse qubernator Andreyev, polkovnik Bıkov və başqaları var idi ("Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər)", AMEA İnsan Hüquqları İnstitutu, Bakı. 2003).

Fevral hadisələrindən sonra ermənilərin və azərbaycanlıların bir -birlərinə olan nifrətləri, kinləri o qədər artmışdı ki, yeni-yeni toqquşmaları hər dəqiqə gözləmək olardı. Ən adi bir bəhanə qırğının başlanmasına gətirib çıxara bilərdi. 1905-ci il avqustun 20-də Bakıda qəflətən ikinci dəfə erməni-müsəlman davası başladı. Şahidlərin dediyinə görə, sentyabrın ortalarına qədər davam edən bu qırğın qəddarlığı, dəhşətləri və kütləviliyinə görə fevral hadisələrini kölgədə qoymuşdu. M.S.Ordubadi "Qanlı illər" əsərində iğtişaşın təfsilatını belə verirdi: " İkinci Bakı faciəsindən bir neçə gün qabaq konkalarda xidmət edən işçilər tətil etmişdilər. Bu tətilə səbəb işçilərin öz vəziyyətlərindən narazılıqları idi. Hökumət isə onlarla razılığa gəlmək əvəzinə, yerlərinə soldat qoyub konkaları işə salmış, onları, yəni, tətil etmiş işçiləri daha da acışdırmışdılar.

Tətil etmiş işçilərin və onların kargüzarlarının çoxu erməni idi. Onlar hökumətin bu əməlindən narazı olub, şənbə günü konkanı gülləyə basırlar. Bu gülləbazlıq əsnasında konkada olan soldatlar və bir neçə müsəlman sərnişin həlak olur və yaralanırlar. Fürsətdən istifadə üçün intizarda olan erməni kilsəsində həzin-həzin zəng çalınır. Erməni cavanları dükanların qabağında əllərini bir-birinə vurmaqla erməni dükançılarına qarışıqlıq salmaq işarəsi verirlər. Dükançılar isə bunun ardınca müsəlmanları atəşə tutur, hər tərəfdə ələ keçən, yollarda kasıbkarlıq edib su daşıyan, arabaçılıq kimi işlərlə məşğul olan camaatı qırıb kəsməyə başlayırlar". Yaxşı silahlanmış erməni quldur birləşmələri şəhərin əhalisi sıx olan müsəlman məhəllələrinə basqılar edir, çox böyük sayda insanları vəhşicəsinə öldürürdülər. Kişilərin başını kəsir, hamilə qadınların qarnını yırtır, uşaqları tonqallarda yandırır, su quyularında boğurdular. Meyitlərin çoxu dənizə atılırdı. O zaman Bakı polismeysterinin general-qubernatora yazdığı raportunda deyilirdi ki, artıq çoxdandır Qafqazda erməni xalqının seperatçılıq hərəkəti məqsədi ilə Erməni İnqilab Komitəsi fəaliyyət göstərir və bu hərəkata əsasən millətin ziyalıları və fəhlələri rəhbərlik edirlər. Onlar müxtəlif məzmunlu bəyannamələr buraxaraq Qafqazdakı bütün xalqları hökumətə qarşı mübarizədə birləşməyə çağırırlar. Bu komitə hökumətə qarşı nümayişlərin, tətillərin, polis və orduya qarşı silahlı müqavimətin təşkilatçısıdır. Bu cür hərəkatın qurbanları yüksək rütbəli inzibati idarə işçiləri,

Bakı qubernatoru knyaz Nakaşidze, Yelizavetpol qubernatoru, mülki müşavir Andreyev və bir çox başqaları olmuşlar. Əslində isə bu hərəkətlərində ermənilər müstəsna olaraq milli separatçılıq niyyətlərini güdürdülər. Göründüyü kimi, Bakı polismeysterinin raportunda da 1905-ci ilin fevralında olduğu kimi, avqustunda da törədilən qırğınların səbəbkarlarının ermənilər olduğu açıq-aydın vurğulanır.

Rusiya arxivlərinin materiallarına görə 1905-1906-cı illərdə daşnaksütyun erməni terror təşkilatı "ikili oyun oynamışdır: əvvəla, qisasın heç olmasa bir qismi müsəlmanlardan alınmış, ikincisi isə, mətbuat və təbliğatın köməyi ilə bütün hadisələrə baiskar Rusiya hökuməti hesab edilmişdir, beləliklə, təkcə erməniləri deyil, Qafqazın digər sakinlərini də inqilabiləşdirmək üçün yeni güclü təşviqat materialı meydana gəlmişdir... Nəticədə ermənilərin xoşu gəlməyən çoxlu rus məmuru və mülki şəxsləri həlak olmuşlar" ("Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər)", AMEA İnsan hüquqları İnstitutu, Bakı. 2003).

Bakı polismeysterinin 1905-ci il oktyabrın 11-də müvəqqəti general-qubernatora göndərdiyi raportda göstərilirdi ki, avqust qırğını zamanı evlərin damından, eyvanlardan, pəncərələrdən dinc sakinlərə atəş açılmış, 49 erməni evinin ünvanı və sahiblərinin adları aşkar edilib siyahıya alınmışdır. Onların arasında erməni kilsə xadimlərinin adları da göstərilirdi. Qeodakovun evində Dağıstan polkunun unter zabiti Tkaçenko əsgərlərlə birlikdə pəncərə və eyvanlardan atəş açan 47 ermənini həbs etmişlər. Bundan başqa, Mixaylovun erməni xeyriyyə cəmiyyətinin yerləşdiyi evdən, Osipovun, Yegizarovun, Avakovun, Mayılovun, Antonovun, Adamovun mənzillərindən tapança və tüfənglərdən atəş açılmışdır. Raportda ayrı-ayrı polis sahələri üzrə ölənlərin siyahıları da verilmişdir. Lakin bu siyahıda göstərilənlər həlak olanların cüzi bir hissəsi idi. Meyitlərin çoxu isə tanınmaz hala düşmüşdü. Şaqqalanmış, başları, ayaqları, əlləri kəsilmiş, digər əzaları doğranmış insanları doğmaları bədənlərindəki nişanələrlə tapıb basdırırdılar. Şəxsiyyəti məlum olmayan müsəlman cənazələri isə birbaşa qəbiristanlığa göndərilirdi. Dördüncü məhəllə üzrə avqustun 22-də ermənilər həyət tərəfdən 15-dək iranlı müsəlman baqqal dükanlarını talan etmişdilər. Avqustun 23-25-də Bakının neft mədənlərində və zavodlarında baş verən yanğınlar çoxlu fəhlələri işsiz qoymuşdur. Ən böyük yanğın Balaxanı neft mədənlərində olmuşdur. Bir sözlə, avqustun 20-dən sentyabrın 10-dək davam edən qırğınlar zamanı Bakıda və onun ətrafında çoxlu cinayətlər baş vermişdi.

1905-ci il sentyabrın 10-da Qafqaz canişini İ.İ.Vorotsov-Daşkov azərbaycanlılarla ermənilər arasında sülh və barışıq yaratmaq üçün Bakıya gəlir. Onun rəhbərliyi altında sentyabrın 14-də saat 12 radələrində min nəfərdən çox müsəlman və erməni özlərinin qabaqcıl ziyalıları və din xadimləri ilə birlikdə barışıq üçün Duma meydanına toplaşırlar. Quberniyanın qazisi Mir Məhəmmədkərim ağa Mircəfərzadə camaatı sülhə çağırır. Sonra erməni keşişi və general qubernator S.A.Fadeyev çıxış edir və barışığın zəruri olduğunu söyləyirlər. Danışıqlar aparmaq üçün hər iki tərəfdən nüfuzlu şəxslərdən ibarət xüsusi komissiya yaradılır. Azərbaycanlılar tərəfindən vəkil olunan şəxslər - İsmayıl bəy Səfərəliyev, İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Əsədulla Əhmədov, Əhməd bəy Ağayev, İsa bəy Hacinski, Hacı Aslan Aşurov, Məmmədhəsən Hacinski, Həsənağa Həsənov, Hacıbaba Aşurov, Mirzə Əsədullayev, Ağabala Quliyev sentyabrın 10-dan başlayaraq danışıqlar, yazışmalar aparmış və nəhayət, bu şəxslərin əksəriyyəti 1906-cı ilin fevral ayında Tiflisdə Qafqaz canişini və onun müavinlərinin rəhbərliyi altında keçən sülh danışıqlarında iştirak etmişlər (A.Paşayev "1905-1907-ci illərdə Azərbaycan xalqına qarşı erməni vəhşilikləri").

M.S.Ordubadi "Qanlı illər" əsərinin müqəddiməsində erməni-müsəlman davasının dörd səbəbini qeyd edirdi. Erməni daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulu təşkil edərək Qafqazda bir sıra qanlı teatroların oynanmasını birinci - əsas amil kimi göstərirdi. Bununla bağlı 245 məktubun, cinayətkar partiyanın fəaliyyətinə dair 400-dən artıq məlumatın yazı masasının üstündə olduğunu bildirirdi. İkinci səbəb kimi hökumət məmurlarının, yəni, Rusiya yerli hakimiyyət orqanlarının bu işə etinasızlığını göstərirdi: "Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar özbaşınalığa üz qoyub erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün heç bir tədbirdə bulunmadılar. Bulundularsa da, ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər... Budur ki, Qafqazın gözəl şəhərləri dağıdılıb yandırılır, yurdlarımız qan çanağına döndərilirdi". Üçüncü səbəb və iğtişaşa gəldikdə, müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Müəllif yazırdı: "Müsəlmanlar elm və siyasətdən bixəbər olduqlarından hökumət məmurlarının Qafqazda tutduğu əqidəsini və ermənilərin o əqidədən necə istifadə etdiklərini düşünmədilər. Bakı faciəsindən sonra erməni-müsəlman hadisələrinin bu qədər uzanmasına səbəb müsəlmanların elmsizliyidir, digər bir cəhət var isə, o da müsəlmanların silahsız və müasir işlərdən xəbərsizliyidir. Burasını düşünməliyik ki, ermənilər Bakıda müsəlmanları yoxlamaq üçün öz əsgərlərinə müəyyən işarə verdilər. O vaxt müsəlman camaatı hazırlıq görüb ayıq tərpənsəydi, erməniləri bir oyanışa, bir tənbihə uğratsaydı, Qafqaz faciələrinə büsbütün son qoyular, müsəlmanların da təbii şücaət və rəşadəti onlara məlum olardı". Dördüncü səbəb isə ermənilərin muxtariyyət üsul-idarəsi həvəsində olmaları kimi göstərilir. Yazıçı burada onların ideoloqları tərəfindən aranan yollar, erməni yazıçısı Arsruninin təlimatları

barədə danışır, azərbaycanlıları zorla baba yurdundan qovub həmin yerlərdə öz səltənətlərini qurmaq kimi milli istəklərinə yetişmək üçün bütün vasitələrdən istifadə edəcəklərini xüsusi vurğulayır.

1905-1906-cı illərdə Bakıda başlanan qırğınlar İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda və digər bölgələrdə davam etmiş, erməni separatçıları tərəfindən kütləvi şəkildə azərbaycanlılara divan tutulmuş, şəhər və kəndlər yandırılmış, uşaqlar, qocalar, qadınlar xüsusi qəddarlıq və vəhşiliklə öldürülmüşlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi viran qoyulmuşdur. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı öz doğma yurdlarını tərk etmək məcburiyyətində qalmış, bununla da, Azərbaycanda həqarətli qaçqınçılıq ənənəsinin əsası qoyulmuşdur.

**İ.ƏLİYEVA.**

**Azərbaycan**".-2011.-30 mart.-N 65.-S.5.

## Qarabağda qırğınlar

Azərbaycanın ən qədim ərazilərindən biri olan Qarabağ ərazisi hələ XIX əsrin əvvəllərində Rus İmperiyasının apardığı çirkin siyasətin qurbanına çevrilməyə başlamışdı.

14 may 1805-ci ildə Qarabağ xanlığının Rusiya tərəfindən işğalından sonra bölgədə Rusiya ilə İran dövləti arasında siyasi mübarizə gərginləşməyə başladı. Həm də Qrabağ xanlığı ilə Rusiya arasında bağlanan Kürəkçay (may 1805) müqaviləsi İran şahlığının qəzəbinə səbəb olmuşdu. Fətəli şah bu müqaviləni pozmaq və böyük strateji əhəmiyyəti olan Şuşa qalasını, Əsgəran və Şahbulaq qalalarını almaq məqsəd ilə son dərəcə ciddi hazırlığa başladı. (1, 469). Hətta şah özü Qarabağın Təxti-tavüs adlı yerinə və naibüssəltənə də Ağoğlan və Çanaxçı yolundan Əsgəranın aşağısına gəldi. (2, 195).

1805-ci ilin sonu 1806-cı ilin əvvəllərində Rus-İran müharibəsi daha geniş miqyas aldı. Əvvəlcə bu müharibə Qarabagı Rusiyanın himayəsindən çıxarmaq məqsədi daşıyırdı. (1, 470).

Göründüyü kimi, Qarabağ həm Rusiya üçün həm də İran dövləti üçün strateji cəhətdən Qafqazda çox önəmli bölgələrdən biri olmuşdu.

1804-1813 və 1826-1828-ci illər rus-iran müharibəsinin gedişində və ondan sonra ermənilərin Zaqafqaziyaya, o cumlədən Qarabağa kütləvi surətdə köçməsi (köçürülməsi - H. B.) başlanır (1,477). Bu köçürmələr sonrakı illərdə də davam etdirilmişdir. Rusiyanın bu bölgəyə erməniləri köçürməsinin başlıca səbəblərindən biri Yuxarı Qarabağda ermənilərin say çoxluğuna nail olmaq idi. XX əsrin əvvəllərinə qədər general-adyutant Şeremetyevin yazdığına görə Zaqafqaziyaya 1.000.000 (bir milyon) erməni köçürülmüşdür.

Rusiyanın bu bölgəyə erməniləri yerləşdirməsi erməni təcavüzünün başlanmasına səbəb oldu. Ruslar və ermənilər öz çirkin niyyətlərini ilk dəfə 1905-1907-ci illər arasında açıq biruzə verməyə başladı. Rusiya erməniləri silahlandırıb Azərbaycanlı əhaliyə qarşı müharibə etməyə qaldırdı. Ermənilər Yuxarı Qarabağda çaxnaşma yaratmaq üçün bir neçə azərbaycanlını və Rus millətindən olan vəzifəli şəxsi qətlə yetirdilər. Yenə bu tarixdə divanə qulluq edən bir müsəlmanı rus xəzinəsinin qabağında ermənilər tapança ilə vurub öldürdülər. Şuşa şəhərinin müsəlmanlarından ehtiyat edən ermənilər acizanə surətdə müsəlmanlardan üzrxahlıq etdilər ki, həmin ləzgini rus bilib öldürüblər. Ona görə qatilin bağışlanmasını xahiş edirlər.(4, 24). Rusiya kimi böyük bir ölkədə öldürməyə rus tapa bilməyən ermənilər nəhayət Qarabağın Şuşa şəhərində bir rus tapıb öldürmək istəyirlərmiş ki,o da səhv olaraq bir müsəlman olmuşdur. Bu faktdan aydın olur ki, ermənilərin burada məqsədi ruslarla əlbir olmadıqlarına, hətta öldürməyə rus axtardıqlarına Qarabağ əhalisini inandırmaq olmuşdur.

1905-ci il avqust ayının 8-də gecə saat iki radələrində ermənilərlə müsəlmanlar arasındakı küçənin küncündə şəhər fanarlarını yandıran bir İranlı müsəlmanı öldürməklə ermənilərlə müsəlmanlar arasında yeni müharibə toxumları səpilir.(5, 54).

Digər bir tərəfdən isə ermənilər təpədən dırnağa qədər silahlandırılırdı. Daşnaq ermənilər müsəlmanlarda olan silahı ələ keçirmək üçün belə bir hiylə işlətdilər. Əgər tüfəng bazarda 20 manata satılırdısa, onlar 100 manata, tapança altı manata olduğu halda, 30 manata alırdılar. Sadədil müsəlmanlar silahların ermənilər tərəfindən belə baha qiymətə alındığını görüb evlərində nə qədər silah və sursat var idisə,tamamən ermənilərə satdılar.(4, 27). Daşnaqların bu tədarükü Şuşa əhalisinə göründüyündən ermənilər dərhal Türkiyədə, İranda onları bir sıra mənfəətli işlərə çatdıran, müsəlmanı aldadan yağlı dillərini işə salmağa başladılar. Əvvəlcə bizim bu tədarüklərimiz islam, yaxud sair millətlərin əleyhinə olmayıb Rusiyada mütləq bir azadlıq-avtonomiya idarə muxtariyyətitəşkil etmək həvəsidir,- başladılar. Müsəlmanlar bu cəfəngiyyata inanıb öz işləri ilə məşğul idilər. (5, 53).

1905-ci ilin avqust ayında ermənilər bəhanə ilə müsəlmanlara qarşı müharibəyə başladılar. Bu bəhanələrdən biri bir erməninin kazaklar tərəfindən öldürülməsi olmuşdur. Ermənilər bunun günahını müsəlmanlarda görüb heç bir əsas olmadan müsəlmanları müharibəyə təhrik edirdilər.(7, 26).

16 avqust 1905-ci il ermənilər hücuma başladılar. Erməni qımdatları dəstə-dəstə olub bir dəstə köçərli məhəlləsinə, bir dəstə Yuxarı Xəlifəli qapısına, başqa bir dəstə isə meydana təraf getdilər. (4, 31).

Avqust ayının 17-də daşnaq ermənilər Köçərli məhəlləsində 8 evi yandırıb əhalisini qətlə yetirdilər.Xəlfəli adlanan məhəllədə 10 evin müsəlmanlarının qətl –qəraət edilməsi xəbəri kədərli bir surətdə yetişdi. Qəddar erməni daşnaqlarının belə təcavüz və ədalarını görən islam cavanları artıq ruhani və rəislərinin nəsihətlərinə baxmayıb ermənilərə qarşı ümumi hücuma başlayırlar. Ermənilər Port-Artur misalında olan səngərlərini daha saxlaya bilməyib boşaltmağa məcbur oldular. Avqustun 18-də daşnaq ermənilər dağılmış qüvvələrini bərpa edib yenidən müharibəyə girişdilər. Ermənilər çox təlaş edib keçən günün təlaşını çıxmaq istəsələr da ağır təlafata məruz qalaraq öz hissələrini müsəlmanlara verdilər. (5, 56-57). Daşnaq ermənilər başladıqları müharibədə məğlub olduqlarını görüb hiyləyə əl atmağa başladılar. Avqustun 19-da erməni arximandriti və qubernator Baranovski məscidin həyətinə təşrif gətirdilər.Arximandrit bu dillər ilə müsəlmanlara yalvarmağa başladı:

- Amandı müsəlmanlar Şuşada ermənilər müqəssir olsalar da, daha erməni qalmadı. İndi bir ovuc əlsiz -ayaqsız erməni qalıbdır, onlara rəhm ediniz!-deyib, ağlaya-ağlaya sülh təklif etdi. Müsəlmanlar sülh sözünü eşidən kimi güllə atmağı dayandırıb sakit oldular. Ermənilər isə evə qayıdan qubernatoru atəşə tutdular. Daşnaqlar məktəbin təmirində işləyən 17 nəfər iranlı fəhlənin başını kəsib müsəlmanları yenə pərişan etdilər. Beləliklə 1905-ci il avqustun 16-da başlayan müharibə, avqustun 21-də sülh elan edilməsi ilə başa çatdı. Bu müharibədə yüzlərlə azərbaycanlı qətlə yetirilmişdi. (5, 57-58). Ermənilərin və rusların növbəti hiylələri baş tutdu. Azəri türklərinin müharibədə qalib gəldiyini görən ermənilər və ruslar sülhə nail olduqdan sonra dərhal növbəti müharibə üçün hazırlıqlara başladılar.

Erməni keşişləri 1906-cı ildə Şuşada olan erməni kilsələrini azərbaycanlılara qarşı əsl silah-sursat cəbbəxanalarına çevirərək kilsələrin zirzəmilərində küllü miqdarda silah-sursat gizlətmişdilər. Allah evindən öz çirkin niyyətləri üçün istifadə etdiklərinə görə o zamankı şəhər üsul idarəsi tərəfindən Ter-Arsen Vartapetov, Ter -Karapet Vartapetov, Ter Ovanesyan, Mirzəbekov, Asatur Vartapetov kimi keşişlər cəzalandırılaraq Şuşadan qovulmuşdular. (8, 26.) Bu da müsəlmanları arxayın salmaq üçün başqa bir oyun idi. Çünki ermənilər imkanlı ermənilərin köməyi ilə 1905-1906-cı illərdə Türkiyə və İrandan muzdlu erməni döyüşçüləri gətirib azəri türklərinə qarşı vuruşdururdular. Bu haqda tarixi ədəbiyyatlarda kifayət qədər məlumatlar vardır.

Müsəlmanların öldürülməsində Rusiya tərəfindən Qarabağa və Şuşa qəzasına təyin edilən generalların da iştirakı olmuşdu. Bunlardan general Qalaşşapov daha qəddar olmuşdur. Qalaşşapovun müsəlmanlara iblis münasibəti bəslədiyini anlayan ermənilər hər an bir bəhanə axtarırdılar ki, generalı müsəlmanların üstünə ayaqlandırsınlar. 1906-cı ilin iyul ayının 12-də bir neçə gün bundan qabaq ölmüş erməni meyidini generala nişan verib, "budur bu saat sənin qonşuluğunda müsəlmanlar qətlə yetirmişlər", deməklə general Qalaşşapov bir bəhanə axtardığından dərinə getməyib Köçərli məhəlləsini topa tutmaq əmrini verdi. Kazak dəstələri ilə birlikdə 10.000 (on minə) yaxın daşnaq dəstələri Azərbaycanlılara qarşı hücuma keçdilər. Bunlara baxmayaraq Azərbaycanlılar igidliklə vuruşaraq ermənilərin daha çox itgi verməsinə nail oldular. General Qalaşşapov Azərbaycanlıları belə qalib görüb daha evdən eşiyə çıxmadı. Ermənilər bu müharibəni etməzdilər. Zira bu dəfə hökumət qoşununa arxayın idilər. Müsəlmanların mərdanəliyi ermənilərə və hökumət qoşununa məlum oldu. Müharibənin altıncı günü ayin 18-də general Qalaşşapov hər iki tərəfdən bir neçə vəkillər götürüb müsəlman hissəsinin fikrini öyrənməyə gəlir. Söhbət zamanı " bir quru barışıqdan ötrü işi bu məqama çıxardınız"- deyib ağlayır. (5, 62.)

Ermənilərin Azərbaycan türklərinə qarşı törətdiyi qanlı olaylara baxmayaraq erməni mətbuatı dünyaya ermənilərin, Azərbaycanlılar tərəfindən qətlə yetirilməsi barədə şişirdilmiş yalan məlumatlar verirdi. (3, XVI.)

Öz məqsədləri üçün ermənilərə hərbi-siyasi dəstək verən Rusiya erməni terror dəstələrinin yaranmasının tərəfdarı olmuş və onları öz siyasətinə uyğun istiqamətləndirmişdir. Bu terror dəstələri erməni siyasi partiyalarının tərkibində fəaliyyət göstərmişlər, bunlardan Türkiyənin Van şəhərində 1885-də yaradılan Armenekan, 1887-də Cenevrədə yaradılan Hncaq, 1890-da Tiflis şəhərində yaradılan Daşnaqstyun və s. Bəzən bu terror dəstələrinin maraqları üst-üstə düşməyəndə partiyaların daxilində qətllərlə nəticələnirdi.

1904-1906-cı illər ərzində erməni terroristləri 209 (iki yüz doqquz) adamı qətlə yetirmişlər ki, bunların da əksəriyyəti siyasət adamları olmuşdur. (11, 112.) Bəlkə də siyasət adamlarının erməni terrorundan qorxmaları, erməniləri dəstəkləmələrinin başlıca səbəblərindəndir.

Rusiyanin bölgədə fəallaşması başqa böyük dövlətlərin bu bölgədə marağının artmasına səbəb olurdu. Bu da ermənilərin axmaq xülyaları, "Böyük Ermənistan" ucbatından bölgəni müharibələr meydanına cevirirdi.

Bu müharibə təkcə Yuxarı Qarabağda deyil Bakıda, İrəvanda, Naxçıvanda, Gəncədə, Qazaxda və digər yerlərdə də yüzlərlə azəri türkünün faciəli surətdə ölümünə səbəb olmuşdur.

Ə D Ə B İ Y Y A T

1. Qarabağnamələr 2. Yazıçı, 1991.
2. A. A. Bakıxanov Gülüstani İrəm Bakı. 1991.
3. Azerbaycan Belgelerinde Ermeni sorunu. Ankara. 2001
4. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə Erməni-Müsəlman davası. Bakı. 1993.
5. M. S. Ordubadi. Qanli illər. Bakı. 1991.
6. Əliyev. İ Dağlıq qarabağ. Bakı. 1989.
7. Köçərli T. Q. Qarabağ. Bakı. 2002.
8. Akyol T. Azerbaycan Sovetlər ve ötesi. İstanbul. 1990.
9. Devlet N. Rusiya Türklerinin Milli Mücadele tarihi (1905-19017). Ankara 1985.
10. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı. 1997
11. Armyanskiy Qenoçid mif i realnosti. Bakı. 1992.

**Bəxtiyar Həsənov**

**http://karabakh-doc.azerall.info/ru/articls/artc124az-4.php**

## Naxçıvanda qırğınlar

Soyqırım, yaxud ümumi terminologiyaya uyğun olaraq genosid (yunan dilində genos - say, qəbilə və latın dilində caedo - öldürürəm sözlərindən ibarətdir) tarixi qədim zamanlardan başlasa da onun beynəlxalq hüquqi aspektləri İkinci Dünya müharibəsindən (1939-1945) sonra diqqət mərkəzinə çıxmışdır. Anti-hitler koalisiyasına daxil olan dövlətlərin yaratdığı Beynəlxalq hərbi tribunların nizamnaməsi və hökmündə bəşəriyyətə qarşı cinayət və ona görə məsuliyyət prinsipi müəyyən edilmişdir (1, s. 384). Nurinberq prosesinin sənədlərində "genosid" anlayışı tətbiq edilməsə də milli və irqi əlamətə görə mülki əhalinin kütləvi şəkildə məhv olunmasından bəhs edilirdi. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1946-cı il 11 dekabr (I) Qətnaməsində artıq genosid anlayışı tətbiq olunmuşdur. Genosid haqqında əsas sənəd isə BMT-nin 1948-ci il dekabrın 9-da qəbul edilmiş genosid cinayətinin qarşısının alınması və ona görə cəza haqqında konvensiyadır. Sonralar genosid barədə digər beynəlxalq hüquqi sənədlər qəbul edilmişdir. Azərbaycan 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra milli qanunvericilikdə də bu problemə yer ayrılmışdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsi soyqırım cinayətinə həsr edilmişdir. Azərbaycan Respublikası Prezidenti 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman vermişdir. Fərmanda ermənilərin Azərbaycan xalqına qarşı törədilmiş tarixi cinayətləri siyasi hüquqi baxımdan təhlil edilərək soyqırım kimi qiymətləndirilmiş, Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə 31 mart azərbaycanlıların soyqırım günü kimi elan edilmişdir (2).

Soyqırımların daim yad edilməsi hər bir Azərbaycanlıların ən müqəddəs vəzifələrindən biridir. Bunun üçün Azərbaycanlıların soyqırımlarının mükəmməl tarixi yaradılmalıdır.

Azərbaycanlıların soyqırım tarixinin öyrənilməsi obyektin inkişaf mərhələsinə çatanadək mürəkkəb və ziddiyyətli yol keçmişdir. 1905-1906-cı illər azərbaycanlı soyqırımına M.S. Ordubadi və M.M. Nəvvabın əsərlərində (3; 4), əsasən, düzgün qiymət verilmişdir. 1918-1920-ci illər hadisələri də öz dövründə milli qırğın kimi qiymətləndirilmişdir. Sovet dövründə bu hadisələrin mahiyyəti köklü şəkildə dəyişdirildi. Yalnız 1990-cı illərin əvvəllərində həqiqət bərpa olundu. Soyqırım və ya genosid termini tətbiq edilməyə başladı (5, s. 118-119). Azərbaycanlıların soyqırımı haqqında 1998-ci il 26-mart fərmanı bu sahədə tədqiqatlara əsaslı təkan verdi. Fərmanda doğru olaraq göstərildi ki, Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi hüquqi qiymətini almamış soyqırım da tarixin açılmamış səhifələrindən biridir. Fərmandan sonra soyqırımın nəzəri, hüquqi-siyasi problemləri azərbaycanlıların soyqırım tarixinin öyrənilməsi xüsusi elmi istiqamətə çevrildi.

Ermənilərin azərbaycanlılara qarşı soyqırım tarixi 1905-1906-cı illər qırğınları ilə başlayır.

1905-1906-cı illərdə Naxçıvanda baş verən hadisələr 1906-cı ilin fevralında keçirilən Tiflis sülh danışıqları zamanı ermənilər tərəfindən ortaya atılmış və onun mahiyyəti təhrif olunmuşdur. Erməni nümayəndələri bütün günahları azərbaycanlıların üzərinə atmağa, ermənilər arasındakı itkilərin sayını şişirtməyə çalışırdılar (6, s. 35).

1905-1906-cı illərdə Naxçıvanda baş verən qırğınların tarixi bəzi ədəbiyyatlarda əksini tapmışdır (7, s. 183-185). Onların nəzərdən keçirilməsi göstərir ki bu işlər M.S. Ordubadinin "Qanlı illər" əsərinin müvafiq hissəsinin təkrarından ibarətdir. Burada mövcud faktik material təhlil əvəzinə, sadəcə olaraq təsvir edilmişdir.

Naxçıvanda 1905-1906-cı illərdə baş vermiş milli qırğınların tarixinə dair mənbələr də bir sıra xüsusiyyətlərə malikdir. Azərbaycan üzrə soyqırım tarixinin mənbələri içərisində rəsmi təhqiqatın-Senator Kuzminskinin 1905-ci ildə Bakı şəhəri və quberniyasında keçirilən təftiş materialından geniş istifadə edilir (9). Naxçıvan bölgəsinin daxil olduğu İrəvan quberniyasmda belə bir rəsmi təhqiqat aparılmamışdı. Bu baxımdan azərbaycanlıların soyqırımının Naxçıvanda gedişi M.S. Ordubadinin və Mir Möhsün Nəvvabın əsərlərindəki faktik material əsasında öyrənilir. Onlar tarixi əsər olmaqla bərabər, qaynaq kimi də çıxış edir.

1905-1906-cı illər milli qırğınları ermənilərin azərbaycanlılara qarşı ilk soyqırım aktı olduğundan onun səbəblərinin hərtərəfli araşdırılması zəruridir. Bu hadisələrin səbəbləri elə həmin dövrdə diqqət mərkəzinə keçmişdi. Bolşevik partiyası öz sənədlərində başlıca səbəb kimi çar hökumətini göstərirdi (10, s. 99-110).

1905-ci il soyqırımının səbəbləri 1906-cı ilin fevralında keçirilən Tiflis sülh danışıqları proqramının birinci maddəsini təşkil edirdi. Onun müzakirəsi zamanı ermənilər əsas günahkar kimi hakimiyyət orqanlarını, azərbaycanlılar isə Daşnaksütunu və digər gizli erməni təşkilatlarını irəli sürmüşdü. V. Mayevski isə demək olar ki, bu problemə həsr edilmiş "Qafqazda erməni-tatar nifaqı" adlı yazısında hakimiyyət orqanlarını müdafiə edir, Daşnaksütunun günahkar olduğunu əsaslandırırdı (6).

1905-ci il "erməni-müsəlman davasının" tarixinə dair geniş faktik material toplayan M.S. Ordubadini də hadisələrin səbəbi düşündürmüş, onun haqqında belə yazmışdır: "Bu hadisələrin baş verməsi və səbəbi haqqında Rusiya və Qafqaz mətbuatı ilə yanaşı, Avropa və Amerika mətbuatı qızğın-qızğın canfəşanlıq etməkdə idilər. Bunu da bilməlidir ki, xarici mətbuat səhifələrində müzakirəyə qoyulmuş məqalələrin hamısı bir-birinə zidd,

təzadlı fikirlərlə qarşı-qarşıya durmaqda idilər. Bunlardan hansının haqlı, hansının haqsız olduğunu deməyə ehtiyac olsa da, hələlik bu kiçik səhifələrdə yerin və vaxtın azlığından təfsilatdan vaz keçib, bu hadisələrə səbəb dörd mühüm cəhəti deməklə kifayətlənəcəyəm" (3, s. 7). Təəssüf ki, M.S. Ordubadi o vaxt mətbuatda olan fikirlərə münasibətini bildirmiş, "Fəqət, məlumat və qüdrətim qədərincə bu ixtişaşa səbəb dörd şeydir - deyib, isbatdan da geri durmayacağam" yazır (3, s. 8). M.S. Ordubadinin göstərdiyi səbəblərə bəzi tədqiqatçılar da toxunmuşdur (11, s. 155-156). Lakin onlar, hələlik, hərtərəfli təhlil edilməmişdir.

M.S. Ordubadi göstərdiyi dörd səbəb içərisində birinci yerə Daşnaksütün partiyasının fəaliyyətini qoyur. İkinci səbəb kimi məhəlli hökumət məmurlarının müharibə zamanı etinasızlığı qeyd edilir. Üçüncü səbəb kimi müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmaları qeyd edilir, "Dördüncü səbəbə gəldikdə ermənilərin avtonomiya-idarə muxtariyyəti həvəsində olmalıdır" (3, s.8-11).

Göründüyü kimi dörd səbəbdən ikisi ermənilərin, biri hökumətini digəri isə azərbaycanlıların mövqeyi ilə əlaqələndirilir. M.S. Ordubadinin 1905-ci il soyqırımının səbəbləri ilə bağlı fikirləri maraq doğursa da, problemi tam əhatə etmir.

Amerikan tarixçisi T. Svietoxovski da 1905-ci il "tatar-erməni müharibəsi"nin səbəbləri üzərində dayanır. Onun fikrincə bu iki etnik qrup arasında düşmənçilik uzun müddət ərzində davam etmiş, bu dövrdə isə dini ziddiyyətlər və adi nifrət çərçivəsindən kənara çıxmışdı. Svietoxovski burada yaşayan ermənilərin böyük hissəsinin İran və Türkiyədən köçürüldüyünü, ermənilərin Rusiyanın himayəsi altında müsəlmanlara nisbətən daha surətlə inkişaf etməsini, iqtisadi həyatda güclü mövqe qazanmasını qeyd edirdi. Mədəni-dini ziddiyyətlərlə birgə Azərbaycan burjuaziyasının dağıdıcı rəqabətdən narazılığı, qeyri ixtisaslı azərbaycanlı fəhlə və sahibkarlarla tacir ermənilər arasındakı toqquşmaları da ön plana çəkir (12, s. 99). Burada iqtisadi faktora geniş yer ayrılsa da, ikili standart tətbiq edilir.

1905-1906-cı illər hadisələri ermənilərin ilk hazırlığından sonra 1905-ci il fevralın 6-da başlandı və geniş əraziyə yayıldı. Əvvəlcə M.S. Ordubadinin "Qanlı illər" əsəri əsasında soyqırımın gedişini ümumi xronologiyasına nəzər salaq:

Bakı - 1905, 6 - 10 fevral; Naxçıvan - 5-12 may; İrəvan - 23 may - 3 iyun; Eçmiədzin – 3 - 9 iyun; Cəbrayıl - 16 iyun; Şuşa – 16 – 21 - avqust; yenidən Bakı - 20 avqust - 14 sentyabr; Cavanşir qəzası - 26 sentyabr - 27 noyabr; Gəncə - 19 - 24 noyabr; Tiflis - 20 - 21 noyabr; yenidən Naxçıvan-26 - 30 noyabr; Qazax - 1905, noyabr 1906, yanvar; Tiflis sülh danışıqları 1906, fevral; Zəngəzur - 29 iyul - 15 avqust. Hadisələrin bu tarix və coğrafiyada baş verməsi təsadüfü idimi? Bu sual da tədqiqatlarda ayrıca nəzərdən keçirilməmişdir. Ona bir başqa cavab versək qeyd edə bilərik ki, o təsadüfü səciyyə daşımamışdır. Bu baxımdan M.S. Ordubadinin aşağıdakı fikri maraq doğurur: "Əvvəlinci faciələrdə ermənilər yalnız hiylə və siyasətlə iş tutub bir ovuc könüllü əsgərlə müsəlmanların qüvvəsini əzmək istəyirdilər. Belə ki, Bakıda sülh edib müsəlmanları yatırtmaqla Şuşada müharibəyə başlayır. Şuşada sülh edib Gəncə quberniyasının sair yerlərini yandırmağa və dağıtmağa təşəbbüs edirdilər. Müsəlmanlar isə əvvəlcə bunları bilməyib sonralar gözlərini açdılarsa da, ermənilər Türkiyədən və İrandan əsgər yığıb müsəlmanları əzməyə çalışırdılar (3, s. 9).

Bakıdan sonra ermənilərin hücumuna Naxçıvan bölgəsi məruz qalmışdı. Bu Naxçıvanın strateji mövqeyi ilə bağlı idi. "Naxçıvan şəhəri Sisyan mahalının əhəmiyyətli bir keçidi, hər saatda əsgər toplanışına əlverişli olduğundan, ermənilər lazımi qədərində Naxçıvanda milli partiyalardan saxlamışdılar. Erməni əsgərləri əsla dinc oturmayıb, müsəlmanları hər saatda müharibəyə çağırırdılar" (3, s. 18). Bu fikir bizim üçün ciddi əhəmiyyətə malikdir. Buradan aydın olur ki, ermənilər hücum üçün əlverişli şərait gözləyirdilər. Belə olduğu halda Svietaxovskinin müsəlmanları "bütün mövcud məlumatlara uyğun olaraq", adətən hücum edən tərəf kimi təqdim etməsi yanlışdır (12, s.100).

Ermənilərin Naxçıvanda törətdikləri vəhşiliklər iki mərhələdən ibarət olmuşdur: 1905-ci il 5-12 may və 26-30 noyabr.

Əvvəlcə, 1905-ci il 5-12 mayda baş vermiş hadisələr üzərində dayanaq. Faktlar bir daha sübut edir ki, ermənilər ciddi hazırlıq görərək, çoxlu silah-sursat toplamış və müsəlmanları qırmaq üçün hücum xətti seçmişdilər: "may ayının 5-də gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini - müsəlmanlar ermənilərin daha çox köçürüldükləri Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanırlar". Digər bir fakta görə "may ayının 7-də Tumbul adlı müsəlman kəndini keçdikdə bir müsəlmanı vurub öldürdülər". Müsəlmanların mövqeyi ondan ibarət olur ki, bu işlərə qarşı qanuni tədbirlər görülsün. M.S. Ordubadi də bu hala xüsusi diqqət yetirərək yazmışdır: "May ayının 8-də İrəvan vitse-qubernatoru Baranovski İrəvandan şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana daxil oldular. Onların gəlməsini eşitdikdə camaat qapıya tökülüb ermənilərin bu işindən şikayətə başlayırlar". Bu arada şikayətlərin məzmunu və nəticəsi bəzi mühüm mülahizələrə əsas verir. Müsəlmanlar faktik olaraq ermənilərlə barışığı can atır və hökumətdən mühafizə arzu edirdilər. Hökumət isə heç bir tədbir görməmişdir. Bunun nəticəsi idi ki, ermənilər cinayətlərini davam etdirir. Bu dəfə cinayətlər daha amansız şəkil alır. Bir fakta görə "ayın 11-də Kültəpə adlı erməni kəndinin varlısı erməni fədailəri tərəfindən ailəsilə qətlə

yetirildi. Ermənilər bunu da müsəlman camaatına nisbət verdilər. Lakin axırıncı təftişdə yuxarıda adı çəkilmiş partiya (Daşnaksütun-Z.Ş). tərəfindən cəzalandığı məlum oldu". Deməli, öldürülən varlı Xaçatur ermənilərin özləri tərəfindən cəzalandırılmışdır. Onun qətlində də azərbaycanlılara qarşı istifadə etməyə çalışırdılar. Mayın 12-də ermənilərin hücumu zamanı törətdikləri cinayət, vəzifə borcunu yerinə yetirməli olan polisin qızışdırıcı rolu ilə daha kəskin şəkil alır. M.S. Ordubadi yazırdı: "Müharibə vaxtı polis qulluqçusu naçalnik Angil qətlə mane olmayıb "Tez vur, oğlum! Tez ol oğlum!" deməklə könüllü cavanları cinayətə təşviq edirdi. Talan vaxtı "Tez olunuz! Tez aparınız!" deyib camaatı qızışdırırdı" (3, s. 20). Əgər 5-12 may hadisələri zamanı naxçıvanlılar özlərinin müəyyən qədər müdafiə etməyə nail ola bilmişdilərsə, 26-30 noyabr hadisələri fəlakətli miqyas almışdı. M.S. Ordubadi hadisələri belə təsvir edir. "Noyabrın 26-sı gecəsi müsəlmanlara böyük müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirirdi. Həmin gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırılmışlar. Həqiqətəndə o gecə atəşli, ürəkdağlayan yanğınlı bir gecə idi... Camaat evlərindən çıxıb bazara getmək istəsələr də, kazaklar hər tərəfdən atəş açır mane olurdular". Beləliklə, kazaklar ermənilərlə əlbir olub müsəlman bazarını qarət edib, ona od vurmuşdular. Noyabrın 29-da erməniləri müdafiə edən kazaklar şəhərin ikinci hissəsində bir müsəlman evini atəşə tutmuşdular. Noyabrın 30-da isə Cəhri kəndi onlar tərəfindən yandırıldı. Beləliklə 26-30 noyabr hadisələri zamanı hökumət qüvvələri ermənilərin tərəfinə keçmiş, nəticədə naxçıvanlılara qarşı qırğın daha geniş miqyas almışdır (3,1 s. 21-22).

Mir Möhsün Nəvvab da öz əsərində Naxçıvan hadisələrinə yer vermişdir. Burada da ermənilərin dinc sakinlər üzərinə hücumu, onları qətlə yetirməsi təsvir edilmişdir. Lakin burda çox maraqlı bir epizod verilir. Özlərini müdafiə edən müsəlmanlar Böyük Badamlı kəndinə yaxınlaşdıqca "həmin kəndin bütün erməniləri-gənc və qoca, böyük və kiçik öz külfətləri ilə müsəlmanların qarşısına çıxdılar. Müsəlmanlar onları sevinclə sakitləşdirib, böyük ehtiramla oradan geri qayıtdılar". Bu hadisə hakimiyyət dairələrində böyük təşviş yaradır. İrəvan qubernatoru ora gedərək onlara hədə qorxu gəlir. "Yeni İslam dinini qəbul etmiş ermənilər cavab verdilər ki, bizi heç kəs zor və hədə qorxu ilə müsəlman etməyib. Əksinə biz özümüz könüllü olaraq, öz razılığımız və rəğbətimizlə islam dinini qəbul etmişik" (4, s. 22-23).

Ermənilərin Naxçıvanda 1905-ci ildə törətdikləri soyqırımdan bəhs edərkən yuxarıda bəhs edilənlərə bu və ya digər dərəcədə toxunulmuşdur. Lakin Oxcu-Səbadək, yaxud Qapan dərəsi hadisələrinin Naxçıvan, konkret olaraq Ordubadla bağlı çox ibrətamiz səhifələri də nəzərə alınmalıdır. Zəngəzura həsr edilmiş tədqiqatlarda geniş yer tutan bu hadisələr (13, s. 197-214) göstərilən istiqamətdə də araşdırıla bilər.

M.S. Ordubadi "Qanlı illər"də "Zəngəzurda Oxcu-Səbadək, yaxud Qapan dərəsi hadisələrinə dair" adlı bölmə vermişdir (3, s.126-140). Ermənilərin 1906-cı ilin iyul-avqust aylarında Zəngəzurda törətdikləri vəhşiliklər misilsiz həddə çatdı. Ermənilər bir sıra kəndləri ələ keçirdikdən sonra "Zəngəzuru bir nişana almış məqamında duran Oxcu, Səbadək, Purdavud, Atqır köyləri ermənilərin həyati mülkiyyətlərini dəhşətə salmağa (terrora) başlamış idi. Zira Oxcu və ətraf köylərin islamları ən cəsur, ən şücaətli adamlar olduğundan əlavə, biri-birinə bağlı köylərin camaatı islamın ən müqəddəs əsəri olan ittifaq üzrə yaşamaqda idilər. Ermənilər 1906-cı il avqustun 9-da bu kəndlərə hücum çəksə də uğur qazana bilmir. Avqustun 14-də isə ermənilər daha böyük qüvvə ilə hücuma keçdilər, Müsəlmanlar Saqqarsuya çəkildi. Ermənilər burada da əhaliyə divan tutur. Belə bir vəziyyətdə " sağ qalan islam və islamələr... çır-çılpaq Ordubad və mahal köylərinə pənah aparmışdılar Ordubad camaatı isə son dərəcə qonaqpərvər olduqlarından, xüsusən başları belə müsibət çəkmiş bu adamlara xüsusi qayğı göstərdilər". Beləliklə, Zəngəzurun erməni soyqırımından sağ qalan və Ordubada pənah gətirmiş əhalisinin sonrakı taleyində ordubadlılar mühüm rol oynadı. Onlar həmin insanlara qayğı göstərməklə qalmayıb, Səbadək səfərləri zamanı müsəlman kəndlərinin azad edilməsində iştirak etmişdilər.

Ermənilərin 1905-1906-cı illərdə azərbaycanlılara qarşı törətdikləri soyqırımlar ağır nəticələr verdi. Müsəlman əhali böyük itki verdi. Qırğının ilk dövründə, əsasən, bitərəf qalan çar hökuməti may ayından etibarən ermənilərin tərəfinə keçdi, onlarla ittifaq möhkəmləndirildi (12, s.101). Ermənilər azərbaycanlılar əleyhinə düşmən təbliğat kampaniyasını da genişləndirdilər.

1905-1906-cı illər hadisələri azərbaycanlılar üçün də izsiz keçmədi. Siyasi oyanış, milli birlik ideyaları gücləndi. Naxçıvan bölgəsində ermənilərin törətdikləri vəhşiliklərə qarşı mübarizə və Oxcu-Səbadək hadisələri zamanı ordubadlıların qəhrəmanlığı da müəyyən təcrübə yaratdı.

1905-1906-cı illərdə istədiklərinə nail ola bilməyən ermənilər yeni soyqırım aktları törətməyə başladılar. Qafqaz canişini Voronsov-Daşkovun ermənipərəst siyasəti onların mövqelərini gücləndirdi. Birinci dünya müharibəsi, xüsusilə Osmanlı ordusunun Sarıqamışdakı məğlubiyyəti, rus ordusunun Osmanlı ərazisindəki işğalları ermənilərin açıq-aşkar soyqırımına başlanmasına təkan verdi. 1917-ci ildən başlayan soyqırım aktları 1918-1920-ci illərdə daha amansız şəkil aldı. Bu dövrdə də Naxçıvan bölgəsi hadisələrin mərkəzində olmuşdu (14). Ermənilərin bütün ciddi-cəhdlərinə baxmayaraq Naxçıvan Azərbaycandan qoparmaq səyləri boşa çıxdı. Bu gün Naxçıvanın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi qalması, onun blokada şəraitində olmasına baxmayaraq dinamik inkişafını davam etdirməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasətinin qələbəsidir.

**Ədəbiyyat**

1. 1. Нюрнбергский процесс. Сб материалов в семи томах. Т. л, с. 140-141, т. VII, с. 384.
2. «Azərbaycan» qəz., 27 mart 1998-ci il.
3. Ordubadi M.S. Qanlı illər. Bakı, 1991 (ilk nəşri. Bakı, 1911)
4. Nəvvab Mir Möhsün. 1905-1906-cı illər erməni müsəlman davası. Bakı, 1993.
5. Şükürov K. Azərbaycan ermənişünaslığı: xüsusiyyətləri, tarixi və dövrün tələblərinə dair // Qarabağ: dünən, bu gün və sabah. Bakı, 2006, s. 118-119.
6. Маевский В. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Баку, 1993, с. 35.
7. Наджафов Б. Личио врага. История армянского национализма в Закафказие в конце XIX - начале XX в. л. Баку, 1993, с. 183-185.
8. Kazımov İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007, s. 119-133.
9. Всеподданнейший отчет сенатора Кузминского о ревизии города Ваку Бакинской губернии (Баку, 1906).
10. Рабочее движение в Баку в годы первой русской революции. Док. я мат. Баку, 1956, с. 99-110.
11. Axundov Y. "Qanlı əsrlərin ibrət dərsi və ya tarix təkrar olunur" Azərbaycan, 1990, №6, s. 155-156.
12. Свиетоховский Т. Русский Азербайджан. 1905-1920 // Хазар, 1990, № 1,с. 99.
13. Musa Urud. Zəngəzur, elmi-publisistik nəşr. Bakı, 1995, s. 197-214.
14. Paşayev A. XIX-XX əsərlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyaları (arxiv sənəd və materialları əsasında), DDA. Bakı, 2007; Abışov V. 1917-1918-ci illərdə erməni millətçilərinin Azərbaycan xalqına qarşı soyqırımı siyasəti. NDU. Bakı, 2007; Əliyev Ə. Əlincə yaddaşı. Bakı, 2004; Əliyev M. Qanlı günlərimiz (1918-1 1920. Naxçıvan). Bakı, 1993; Kazımov İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007; Musayev İ, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1922). Bakı, 1996; Hacıyev İ. Ermənilərin Naxçıvana qarşı ərazi iddalarının əsassızlığı // Naxçıvan: tarixi gerçəklik, müasir durum inkişaf perspektivləri. Naxçıvan, 2006, s. 33-47; Маккарти Дж., Маккарти К.. Туурki i армуане. Baky, 1996; Свиетоховский Т. Русский Азербайджан. 1905-1920 // Хазар, 1990, №1,2; Fahrettin Kırzıoğlu. Kars ili və çerçivesində erməni mezalimi. Ankara, 1970; İbrahim Ethem Atnur Muhtariyyet Erefesinde Nahçıvan. Nahçıvan, 1999; yenə onun, Erməni məsələsinin Nahçıvan boyutu // Hayali Ermənistan və soyqırım hekayəsi. Uluslararası Tarih Sempozyumu. Kars, 2001; Nurhan Aydın. Qars ətrafında və Naxçıvanda erməni vəhşilikləri. Naxçıvan, 2006, s.300-322; Veysəl Ünivar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan, 2006 və b.

**Zəhmət Şahverdiyev,**
**Naxçıvan Dövlət Universiteti**
**«Xəbərlər» - İctimai və humanitar elmlər seriyası.-2009.-№1.-S.40-47.**

## Zəngəzurda qırğınlar

### 1906-cı ildə Zəngəzurun türk-müsəlman əhalisinə qarşı erməni təcavüzü

Erməni daşnak silahlı dəstələri Şuşa şəhəri və Ağdam bölgəsinin türk-müsəlmanları tərəfindən ağır məğlubiyyətə uğrayaraq sarsıldılar. Onlar özlərinin siyasi vəziyyətlərini düzəltmək üçün Gəncə quberniyasının Zəngəzur qəzasını özlərinə yeni siyasi və hərbi fəaliyyət meydanı seçərək Abaran, Aleksandropol bölgələrindən Zəngəzura silahlı dəstələr və hərbi sursat toplamağa başladılar. Ermənilər Zəngəzura silah daşımaq üçün Şuşa şəhərini münasib saymırdılar. Ermənilərin Qarabağ torpaqlarında aldıqları hərbi məğlubiyyətdən sonra ora odlu silah göndərmək və onu Zəngəzura daşımaq asan məsələ deyildi. Ona görə ki, erməni silahlılarının qarşısına çıxaraq onların fitnə-fəsadlarının qarşısını alan, şücaət və igidliyi qanında olan Şuşanın və Qarabağın qəhrəman türk-müsəlman əhalisi erməni daşnaklarını cəzalandırmaqdan əsla çəkinmirdilər.

1905-1906-cı illərdə Şuşa şəhərinin türk-müsəlman əhalisinə qarşı ermənilərin təcavüzü iki dəfə ağır məğlubiyyətə uğradı. Şuşa şəhərindəki ağır məğlubiyyətin əvəzini çıxmaq məqsədilə erməni silahlıları Zəngəzur qəzasının türk-müsəlman əhalisinə qarşı təcavüzə başladılar. Ermənilər Cavanşir və Cəbrayıl qəzalarına dağılmış silahlı dəstələrini bərpa edib Qafan mis mədənlərilə məşhur olan Qatar kəndi yaxınlığında yerləşən Barabatum və Çəkədək adlı erməni kəndlərində topladılar. Erməni daşnaklarının məqsədi Qafan və Gorusdan Naxçıvana kimi olan yol boyunca Zəngəzur qəzasında yerləşən türk-müsəlman kəndlərini dağıtmaqla, erməni silahlı dəstələrinin döyüş vaxtı arxayın və təhlükəsiz hərəkətini təmin etmək olmuşdur.

Zəngəzura erməni daşnaklarının silah və sursat daşımaları üçün ən əlverişli yol İrəvandan idi. İrəvandan Zəngəzura kimi olan yol boyunca erməni nüfuzunun XIX əsrin əvvəllərindən XX əsrin başlanğıcına kimi qismən artırılmasına çar Rusiyasının hakim dairələri müvəffəq olmuşdursa da, bu, kifayət etmirdi. Buna görə də hərbi əhəmiyyəti olan dağ keçidlərində «yol üstündə yerləşmiş müsəlman kəndlərinə təzyiq etmək üçün erməni silahlı dəstələrinə qəti olaraq əmr və göstəriş verməkdə idilər. Bundan sonra İrəvandan Zəngəzura erməni hərbi dəstələrinin hərəkət etməsi üçün təşəbbüsə keçən erməni daşnak silahlıları türk-müsəlman əhalisi yaşayan kəndlərə hücumlar edərək bir çox kəndləri dağıtdılar. Xanlıqlar, İtqıranlar darmadağın olundu. Naxçıvan mahalının Cəhri faciəsi qəflətən baş verdi. Dağ keçidlərindən Zəngəzura aşmaq üçün Dirlis, Unus, Pəzməri adlı türk - müsəlman kəndlərini dağıda bilməyib onları yalnız mənəvi sarsıntıya məruz qoydular. Coğrafi baxımdan hərbi əhəmiyyət daşıyan Oxçu, Səbədək, Purdavud, Atqız kəndlərinin türk-müsəlman əhalisi cəsur və şücaətli, igid insanlar olmaları və bir-birlərini tutmaları nankor erməniləri dəhşətə salırdı. Bu kəndlər Zəngəzur bölgəsinin açarı sayılırdı. Erməni daşnaklarının Aleksandropol, İrəvan, Abaran və Suragüldən gətirilmiş silahlı dəstələri Ağulis, Kəlağı, Dəmqurd kəndlərində yerləşdirildi. Ermənilər Oxçu-Şəbədək döyüşlərinə hazırlaşırdılar. Şuşada məğlub olmuş və Ağdam bölgəsinə yaxın olan Dağlıq Qarabağın erməni kəndlərində mənəvi qüvvəsi sarsıdılmış erməni silahlılarının hərbi ehtiyatları təmin olunaraq mis mədənləri yerləşən Qatar kəndi tərəfə göndərilirdi. Onlar da Oxçu kəndinə erməni hücumu olduqda kömək etməkdən çəkinmirdilər. Qarabağdan gətirilmiş erməni hərbi dəstələri 1906-cı il iyul ayının 20-də mis mədənləri ətrafına yığılaraq Aram Nehrəmov adlı erməniyə tapşırılmışdı. Beləliklə, erməni əsgərləri iki mühüm nöqtəyə, birisi mis mədəni ətrafında, digəri Ordubadın dörd-beş verstliyində yerləşən Ağulis və ətraf erməni kəndlərində yerləşdirilirdi.

1906-cı il iyul ayının 29-da erməni Mirzə Aram Nehrəmovun fitnəsi ilə Ulxu elinin Qaraçəmən kəndinin nücaba bəyzadələrindən olan Camal bəyin xidmətçisi Səfiyar bəyin daşnaksütun partiyasının silahlı qatilləri tərəfindən Mədən bazarında öldürülməsi yerli türk-müsəlman əhalisinin qəzəbinə səbəb oldu. Mədən bazarına hücum çəkən camaat bir erməni öldürüb və bir boş mis mədənini yandırırlar. Dərhal erməni silahlı dəstələri bazara hücum edərək türklərin dükan-bazarını talayıb odlayırlar. Malları qarət olunmuş və dükanları yandırılmış Ordubad tacirləri Qatar kəndinə qaçırlar. Ermənilər Mədən bazarını qarət edib dağıtdıqdan sonra Oxçu-Şəbədək enişlərinə gəlib çatan altı nəfərlik atlı dəstəni qətlə yetirirlər.

1906-cı il iyul ayının 29-da günorta saat on ikidə beş min nəfərlik erməni silahlıları Karxana adlı türk kəndinə hücuma keçirlər. Karxana kəndinin əhalisi beş min nəfər tərəfindən açılan atəşə tab gətirməyib dağ-daşa, kolluqlara dağılmağa məcbur olurlar. Kəndin ətrafında olan qayalıq bir yerdə, qaya arxasında otuza qədər qadın-uşaq və qoca kişi gizlənmişdilər. Ermənilər tərəfindən öldürülmüş Tahir adlı Ordubad tacirinin Pakizə

adlı həyat yoldaşı və Füruzə adlı südəmər körpə qızı da bu otuz nəfərlə birlikdə idi. Körpə Füruzə güllə səslərindən qorxaraq ağlayır. Cocuğun ağlamaq səsini eşidib gələn ermənilər qaya arxasında gizlənənlərin hamısını öldürürlər. 1906-cı il iyulun 29-da Karxana əhalisini tamamilə qırdıqdan sonra saat üçdən başlayaraq erməni silahlıları türklər yaşayan Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərini dağıdırlar. Bu kəndlərin salamat qalan əhalisi Qatar kəndinə pənah aparırlar. 1906-cı il avqust ayının 1-də saat on ikidə Qatar kəndini mühasirəyə alan erməni silahlıları atəşə başlayırlar. Şiddətli atəş vaxtı pristav Saxarovun yanında olan bir ləzgi keşikçi «Cənab pristav sizdə heç rəhm-mürvət yoxdurmu? Siz baxırsınız islamları güllələbaran edirlər. Olmazmı ki, kəndin kənarında olan kazaklara buyurasan, islamları mühafizə etsinlər» - dedikdə pristav Saxarov «mən müsəlmanları mühafizə edə bilmərəm. Görmürsən ermənilər necə canalıcı güllə atırlar?» - cavabını vermişdir. Qatar kəndinin əhalisinin mətin müqaviməti erməniləri hücum edib kəndi viran qoymaqdan çəkindirirdi. Ermənilər yerli türk əhalisinin hərbi qüvvələrindən xəbərdar olmadıqlarından hücum etməyə cürət etmirdilər. Pristav Saxarov ermənilərlə əlbir hərəkət edərək Qatar kəndində olan yerli qüvvələri öyrənmək üçün ora əlli kazak və bir onbaşı göndərdi. Kazaklar kəndin hər tərəfinə yayılıb əhalinin əksəriyyətinin silahlı olduğunu öyrəndikdən sonra Saxarovun yanına qayıtdılar. Qatar kəndinə dolmuş bəzi köçəri qəbilələrin (tərəkəmələrin) ağsaqqalları hökumət mühafizəsi ilə camaatını götürüb getməsini Saxarova sifariş etsə də, onlara kənddən çıxmağa heç bir kömək olmadı. Milliyyətcə rus olan pristav Saxarov köçəri tayfaların camaatını da Qatar kəndində qalıb erməni silahlıları tərəfindən qətl olunmalarını məqsədə uyğun sayırdı.

Kazaklar Qatar kəndində olan hazırlığı ermənilərə xəbər verdikdən sonra türk silahlılarının mövqelərinə şiddətli hücum başlanır. Pristav Saxarov sülh vasitəçisini götürüb kazak dəstələri ilə Barabatum adlanan erməni kəndinə çəkilir. Pristavın əmri ilə Qatar əhalisinin şikayətlərini hökumətə çatdıran Mədən bazarındakı poçt idarəsini də özünün kazak dəstəsi ilə yerləşdiyi Barabatum kəndinə köçürdür. Beləliklə, rus dövləti idarələrinin hərtərəfli köməkliyi sayəsində Qatar kəndində olan türk camaatı hər tərəfdən ümidləri kəsilərək erməni silahlılarının mühasirəsində qalır. Mühasirədə iştirak edən erməni silahlılarının sayı səkkiz min nəfərə çatdırılmışdı. Qatarın mühasirədə olan əhalisi Zəngilan bölgəsinin ağsaqqallarına məktub göndərib kömək istəsələr də onlara kömək etmək mümkün olmadı. Erməni silahlıları Qatar kəndini doqquz gün atəşə tutdular. Mühasirədə olan yerli və köçəri türklərin igidliyi və şücaəti sayəsində ermənilər kəndi tuta bilmədilər. Kənd camaatına ən güclü və ağır zərbəni Məlik Arazyanın mis mədənlərində işləyən iranlı müsəlman fəhlələr vurdular. Bu alçaqlar arxalarında neft, dinamit daşıyıb «ya Əli» çığıraraq Qatar kəndinə girdikdə «müsəlmanlar bizə sursat daşıyır» deyə düşünən türk-müsəlman müdafiəçiləri onları kəndə buraxırlar. Satqınlar isə arxalarında gətirdikləri nefti kənddəki damlara vurub yandırır, dinamitləri daş binalara qoyub partladırdılar. Bu davada ermənilərə iranlı fəhlələr ürəkdən yardım edirdilər.

İranlı fəhlələrin rəisi, əslən Cənubi Azərbaycanın Qaradağ vilayətindən olan Süleyman adlı bir nəfər ermənilərə çox köməklik etmişdir. 1906-cı il avqust ayının 8-də günorta saat on ikidə ermənilər hər tərəfdən kəndə yaxınlaşıb hücuma keçmək istədikdə türk silahlıları səngərlərdən çıxıb ermənilərin üzərinə hücuma keçirlər. Döyüş axşama kimi davam edir. Ermənilər böyük itki verərək geri çəkilirlər. Avqust ayının 9-u gecəsi Qatar kəndini müdafiə edən qüvvələr səhlənkarlıq edərək arxayınlaşıb evlərinə çəkilib dincəlirdilər. Ermənilər bundan istifadə edərək Qatar kəndi ətrafındakı mühüm mövqeləri ələ keçirirlər. Bu mövqelərin ermənilərin əlinə keçməsi Qatar əhalisinin məğlubiyyəti ilə nəticələnir. Səhərə az qalmış ermənilər rus kazakları və iranlı fəhlələrlə birgə ələ keçirdikləri mövqelərdən kəndi şiddətli atəşə tuturlar. Az sonra Erməni silahlı dəstələri Qatar kəndinə dörd tərəfdən hücuma keçirlər. Hər dəstənin qabağında bir qədər iranlı fəhlə aşkarcasına neft və dinamit daşıyaraq Qatar kəndi əhalisinin evlərinə od vurur və partladırlar. Səhərdən axşama kimi gedən qanlı döyüşdə kənd büsbütün yansa da əhali kəndi tərk etmir.

Ermənilərə qarşı müqavimətdə böyük qüvvə olan Qarabağın tərəkəmə camaatı Qatar kəndini tərk etdikdən sonra yerli əhali öz yurdlarında qalmağın qeyri mümkün olduğunu qət edərək, alaqaranlıqda ailələrini götürüb Kəlləbağ kəndinə çəkilirlər. 1906-cı il iyul ayının 29-dan başlayan erməni silahlılarının təcavüzü avqust ayının 9-da Zəngəzurun Qatar kəndinin türk əhalisinin öz doğma ata-baba yurdlarını tərk etmələri ilə nəticələnir.

Ermənilər bu vəhşiliklərin arxasınca döyüş sursatı tədarükü görərək öz hərbi dəstələrini gücləndirərək Oxsu, Şəbədək, Purdavud, Atqız kəndlərinə qarşı hücuma hazırlaşırlar. Ermənilər əsasən Rusiya və Fransada istehsal edilən müasir silahlarla təchiz olunurdular. Ermənilər Rusiya imperialistləri, onların hərbi birləşmələri tərəfindən himayə olunur və hər hansı bir çətin vəziyyətə düşərkən müdafiə edilirdilər. Rus dövlətinin Cənubi

Qafqazın türk əhalisinə qarşı olan bu qeyri-insani münasibəti ermənilәri daha da həyasız və alçaq işlər törətməyə ruhlandırırdı. Ermənilər törətdikləri vəhşi hərəkətlərə görə heç kimdən qorxub çəkinmirdilər.

1906-cı il avqust ayının 4-də Ağulisdə toplanmış erməni silahlı dəstəsinin başçısı Aşot öz quldur dəstəsini Panuslu-Girdikan kəndlərinə toplamaq əmri alır. Avqust ayının 7-də Ağulisdən hərəkət edən, 8-də isə Qatarda mədən ətrafında toplanmış erməni silahlı dəstələri Panuslu kəndinə çata bildilər. Hər iki erməni daşnak hərbi hissələri Ramuk erməni kəndində bir yerə toplanaraq ehtiyaclarını yoxladılar. Onlar 1906-cı il avqust ayının 9-da türk-müsəlman əhalisi yaşayan Oxçu, Şəbədək, Purdavud, Atqız kəndlərinin əhalisinin xəbərsiz olduqlarından onların ətrafında olan yüksəkliklərdə yerləşərək istehkamlar qurdular. Erməni silahlı dəstələrinin Rusiya dövlətinin hərbi bayraqlarından istifadə etmələrinə görə yerli türk-müsəlman əhalisi onları «hökumət qoşunu» olduğunu zənn edirlər. Kəndlilər səngər quranlara tərəf gedib onların kim olduğunu öyrənərkən ermənilər tərəfindən atəşə tutulurlar. Əhali silahlanaraq ermənilərə qarşı döyüşməyə başladılar. Oxçu kəndinin türk-müsəlman silahlıları dörd gün ermənilərlə vuruşub onları məğlub edib Gicəvan adlı erməni kəndinə çəkinməyə məcbur edirlər. Erməniləri təqib edən Oxçu kəndinin silahlıları bir gün axşama kimi şiddətli döyüş edib ermənilərin sığındığı Gicəvan kəndini ələ keçirib dağıtdılar.

Ermənilər gecə vaxtı qüvvələr gətirərək Panuslu, Girdəkan və Gicəlan kəndləri ətrafında mövqe tutaraq Oxçu-Şəbədək dağlarını işğal edirlər. Dörd gün olan döyüşdə hərbi sursatı azalmış və yorğun düşmüş türk-müsəlman könüllüləri Molla Həsən Əfəndinin evində yığılıb vəziyyəti müzakirə edib Saqqarsuya çəkinməyi məsləhət bildilər. Onlar Saqqarsu ətrafında daşların arasında özlərinə sığınacaq edirlər. Səhər tezdən Oxçu, Şəbədək, Purdavud, Atqız kəndlərini ələ keçirən erməni silahlıları qaça bilməyən əhalini vəhşicəsinə qırmışlar. Saqqasuda sığınacaqlarda olan türk-müsəlman camaatı sübh tezdən «Ya Əli» deyərək onlara sarı gələn silahlı dəstənin müsəlman qoşunu olduğuna aldanıb onların qarşısına çıxırlar. Gələn erməni silahlı dəstəsi müsəlmanları qırmağa başlayır. Ermənilər Molla Həsən Əfəndinin ətrafında bir neçə qadın, uşaq əllərində müqəddəs Qurani-Kərim tutub aman istəsələr də ermənilər onların hamısını qırıb Qurani-Kərimi və digər müqəddəs kitabları yandırmışlar. Saqqarsu ətrafında bir qaya parçasının arxasında 62 nəfər qadın və uşaq ermənilər tərəfindən öldürülüb bir-birinin üstünə qalaqlanaraq atılmışlar. Cəsədlər arasında iki qıçlarından yaralanaraq huşunu itirmiş həyat və ölüm arasında çarpışan bir qadın Molla Həsən Əfəndinin ermənilər tərəfindən doğrandığını görüb qaçaraq bu daşın arxasına pənah gətirdiklərini söylədi. O, Həsən Əfəndini öldürən bir dəstə erməni silahlısı gəlib bu həlak olanları qırmağa başladılar. Daşın arxasında camaat çox olduğundan qadının sığınmağa yeri olmamışdı. Bu vaxt ermənilər onun açıqda qalan qıçlarını doğramışlar.

Molla Həsən Əfəndinin qətl olunmuş yerindən şimala tərəf bir palaz parçası altından 15 nəfər çiçək üzlü körpə çocuqların kəsilmiş başları və bir para bir-birlərinə qarışmış cəsədlər var idi. Cənub tərəfə olduqca çoxlu qadın və uşaq cəsədləri səpələnmişdi. Meşədə 25 yaşlı bir gənc qadın əri ilə birlikdə doğranılmışlar. Purdavud kəndində İmam Rza həzrətlərinin qardaşı Sultan Davud həzrətlərinin rövzəsini ermənilər dağıdaraq yandırmışlar. 1901-ci ildə İstanbuldan Molla Həsən Əfəndiyə hədiyyə göndərilmiş dünya məşhurlarının, o cümlədən Məhəmməd peyğəmbərin və Xəlifə Ömərin təsvirləri olan kitab da yandırılmışdır. Oxçu kəndində bir imarətin həyətində öldürülmüş bir cavan oğlan və onun baş tərəfində parçalanaraq, qətl olunmuş ana qadın cəsədi var idi. Anası yaralanmış oğlunu qoyub getməmiş nəticədə hər ikisi ermənilər tərəfindən vəhşicəsinə öldürülmüşdür. 1906-a il avqust ayının 9-dan 15-nə kimi olan Oxçu, Şəbədək, Purdavud, Atqız kəndlərinin erməni daşnak silahlı qoşunları ilə müdafiə döyüşləri türk-müsəlman əhalisinə bir milyon manat qədərində zərər dəymiş və günahsız insanlar qətlə yetirilmişlər. Zəngəzurda türk-müsəlman əhalisi yaşayan Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Səbadək, Atqız, Purdavud, Züzul, Güman, İyilli, Sənalı, Minəvvər, Fərcan, Qalaboyun, Əcəbli, Buğaaq kəndləri erməni silahlıları tərəfindən talan və qarət olunmuşdur. Minlərlə türk-müsəlman əhalisini vəhşiliklə qətlə yetirmişlər. Oxçu-Səbədəyin fəlakət qurbanları Ordubad mahalının, Qaryagin qəzasının və Laçın bölgəsinin kəndlərinə dağılaraq həyəcan içərisində Gəncə və İrəvan qubernatorlarına bir gündə 100-ə,qədər teleqram vuraraq acınacaqlı vəziyyətlərini bildirmişlər. Qarabağ ilə əlaqə kəsildiyindən Ordubad şəhərinin ticarəti tənəzzülə uğramışdı. Ərzaq çatışmazlığının yaranması əhalinin vəziyyətinin ağırlaşmasına səbəb olmuşdu. Rus dövləti isə ermənilərə təzyiq etmək istəmirdi. Dövlətin Ordubada göndərildiyi bir rota draqun süvarisi də qaçqınları müdafiə edə bilmirdi. Zəngəzur qəzasının torpaq sahibkarları əsasən Qarabağın Cavanşir və Kəbirli bəyləri idi. Zəngəzur qəzasında olan 68443 desyatin əkin sahəsinin 64000 desyatini onların mülkiyyəti idi. Cəmi 4018 desyatini dövlət xəzinə torpağı olaraq saxlanılırdı.

Zəngəzurun bu torpaq sahələri əsasən Sultanov, Cavanşirov, Behbutov, Rüstəmbəyov, Behbudbəyov və Usmiyevlərin mülki idi.

Zəngəzurda iri torpaq sahələri olan Sultanovlar üç nəslə mənsub idilər. Onlardan birincisi Sultan bəy və Xosrov bəy Sultanovlar əslən Qarabağın Kəbirli elinin zadəgan nəslindən olub erməni daşnaklarına qarşı qəhrəmanlıqla uğurlu mübarizə aparmışlar. Onların Zəngəzur və Qarabağda iri heyvandarlıq təsərrüfatları olmuşdur. Laçının Qurd Hacı kəndinə sahib olan Sultan bəy Sultanov iri heyvandarlıq fermasında minlərlə məhsuldar cins hacısamlı inəkləri yetişdirilirdi. Onun Cənubi Qafqazda tonlarla heyvandarlıq məhsulları istehsal edən yağ-pendir zavodları olmuşdur.

İkincisi, Zəngəzurun Danzanar və Piravan kəndlərində yaşayan Sultanovlar olmuşlar. Onlar da Qarabağın Kəbirli elinin zadəgan nəslinə mənsub (onlara türkmən mənşəli də deyirlər) Sultanovlar olmuşlar.

Zəngəzurun İskəndərbəyli Ovqanlı, Qöyarabas, Seytas, Bəxtiyarlı, Qarıqışlaq, Gürcülü, Ain, Mstan, Qiyasu, Göərcik, Hallava, aşağı Cibikli, yuxan Cibikli, Malatkeşin, Genlik, Qanqışlaq, Kovard, aşağı Xotanan, yuxarı Xotanan kəndləri onların mülkləri olmuşdur. Pircivan kəndindən olan Kərim bəy Sultanovun Kovard kəndində mis mədənləri olmuşdur.

Üçüncü Bərgüşad Sultanovları Zəngəzurun Ordubadi və Hacılı kəndlərində yaşamışlar və Zəngəzurun Mamar, Qal, Davutlu, Mahmudlu, Ağhulaq, Madj və Qurdkalağı kəndləri onların mülkləri olmuşdur. Zəngəzurda iri mülkədar olan Cavanşir bəylərinin Qrax, Muşlan, İçəri, Zəngilan, Məmmədbəyli, Sobu, Tatar və Keçirkli kəndləri torpaq mülkləri olmuşdur. Gorusda yaşayan Hüseyn bəy və Lohraz bəy Behbudbəyov qardaşlarına Karaunc, Hacıbəyovlara Fərcan, Dilali-Muskyanlı, Saray, Kertizan, Göygöl kəndləri, Sərməstbəyovlara Vartanadzor I, Vartanadzor II kəndləri məxsus olmuşdur.

Zəngəzurun 800 evlik Dağ kəndi Rüstəmbəyovlara, 256 evlik Aqudi, 245 evlik Vaqudi Əlibəy və Mirzəlibəy Behbudov qardaşlarına, Xanlıq, Dərəkənd, Mafruzlu, Xəndək kəndləri Keyqubad ağa Cavanşirə, Akara, Muradxanh, Novruzlar kəndləri Həbib xan Şəkinskiyə, Qara göl kəndi Ağalar bəy Cavanşirə məxsus olmuşdur.

Qarabağlı İbrahim Xəlil xanın nəvəsi Mehdiqulu xanın qızı knyaginya Göhər ağa Usmiyevaya Qala-Dərəsi, Cıdcik, Məlikpəyəsi, Comərdli kəndlərinə və onların ərazilərində olan 17 min desyatin meşə sahəsindən istifadə etmək hüququna malik idi. Bu siyahı tamam olmasa da Zəngəzurun varlı bəy ailələrini əhatə edir.

Rus dövlətinin ermənilərə qarşı heç bir təzyiq göstərmədiyini görən Zəngəzurda xeyli kənd mülkləri və torpaq sahələri olan Qarabağ bəyləri Əhməd bəy Ağayev ilə məsləhətləşdikdən sonra Cənubi Qafqazın türk-müsəlman əhalisini erməni daşnak təcavüzündən qorumaq məqsədi ilə yaradılmış «Difai» müdafiə təşkilatının köməyi ilə erməni silahlılarını cəzalandırmağa çalışdılar. Cavanşir və Kəbirli bəylərinin bəzilərinin «Difai» müdafiə təşkilatı ilə əlaqələri olması Zəngəzurun türk-müsəlman əhalisinin erməni təcavüzündən qorunması işinə böyük köməyi olmuşdur. Qarabağ bəylərinin köməyi ilə Şuşa, Cavanşir qəzalarından, Laçın bölgəsindən toplanmış 800 nəfərlik könüllü dəstə xeyli döyüş sursatı ilə gecə ikən hərəkət edərək Ordubad mahalından toplanmış min nəfərə yaxın könüllü dəstə ilə Saqqarsuda -toplandı. 1906-cı il sentyabr ayının 15-də gecə saat 19.00-da Saqqarsuda toplanmış hərbi şura məşvərət edib əslən Osmanlı imperiyasının hərbiçisi olan bir nəfəri komandan seçdi. O, üç bölük komandanı təyin etdi və hər birinin tabeliyinə yüz əsgər tapşırır.

Birinci bölük kəşfiyyat apararaq gecə saat 21.00-da hərəkətə başlayıb. Onlara Səbədək və Atqızdan keçərək erməni Girdəkan kəndinin aşağı tərəfində yerləşmək və səhər sentyabr ayının 16-da sübhə bir saat qalmış davaya girmək əmri verildi. Birinci dəstənin arxasından onlara ehtiyat olaraq əlli nəfərlik ehtiyat atlı dəstəsi göndərildi. İkinci bölüyə isə saat 10.00-da hərəkət edib Purdavud kəndinin içindən keçib Oxçu yolu ilə irəliləyərək erməni Panuslu kəndinin qarşısında və üst tərəfində istehkamlar qurmaq və sübhə bir saat qalmış davaya başlamaq əmri Verildi. Onlara da digər döyüşkən türk-müsəlman hərbi hissələri ilə əlaqə saxlamaq üçün atlı dəstəsində verilmişdir. Üçüncü bölük saat 2400 da hərəkət edib Lec və Təstin dağlar silsiləsini nişana alıb Meğri və sair erməni kəndlərindən köməyə gələn erməni silahlılarının yollarını kəsmək və lazım gəlsə davaya qoşulmaq əmri verildi. Bu üçüncü bölüyə ehtiyat olaraq camaatdan beş yüz nəfər ehtiyat ayrıldı. Bu bölüklərin hərəkətindən sonra baş komandan Saqqarsudan hərəkətə başlamaqla əhalidən və könüllülərdən bir nəfər (Qarabağın Kəbirli bəylərindən olub) komandasına yüz əlli süvari, iki yüz piyada könüllü əsgər verilib saat 13.00 Şəbədək kəndinə göndərilir. Oxçu-Şəbədək əhalisindən iki yüz nəfər əsgəri mövqelərə hərbi sursat və

azuqə daşımaq üçün göndərilir. İyirmi beş nəfər süvari bölüklər arasında poçta olaraq hərbi xəbərləri qərargah komandanına yetirmək üçün ayrılmışdır

Hərbi əməliyyata başlayan bölüklər saat üç radələrində tapşırılan bir sıra əhəmiyyətli olan yol və zirvələri tutub, istehkamları qurduqdan sonra, hər bölük kəşfiyyat dəstələri ilə ermənilərin Panuslu və Girdəkan kəndlərindən məlumat almaqla sübhə bir saat qalmış davaya başladılar. Dörd saat möhkəm döyüş ermənilərin hərbi qüvvələrini zəiflətdi. Saat 10-da ermənilər ehtiyatda olan qüvvələrini döyüşə atdılar, Panuslu və Girdəkan kəndlərinə hücumlar edən türk-müsəlman hərbi dəstələrinin əlaqələrini kəsmək istədilər. Atqız kəndində ehtiyatda saxlanılan bir türk-müsəlman dəstəsinin hücumu ilə dəf olundular. Beş saatlıq şiddətli döyüşdə səksən erməni silahlısı öldürülür. Türk-müsəlman silahlı dəstələri ayağa qalxıb erməni səngərlərinə hücum edirlər. Ermənilər isə xeyli itki verərək geri çəkilir, evlərə və kilsələrə girərək güclü müqavimət göstərirlər. Saat 12-yə kimi davam edən müharibədə ermənilər məğlub olur, türk-müsəlman kəndləri azad edilir. 1906-cı sentyabr ayının 16-da Qarabağın Şuşa, Cavanşir qəzalarından, Laçın bölgəsindən, Ordubad mahalından və Zəngəzurun Qafan, Hal, Oxçu, Səbədək, Qatar, Saqqarsu, Purdavud, Atqız və sair kəndlərindən toplanmış türk-müsəlman silahlıları Panuslu-Girdəkan ermənilərini məğlub etdikdən sonra ermənilər əvvəlki fikirlərindən on iki il müddətində əl çəkdilər.

Ümumi qərargahdan türk-müsəlman silahlı dəstələrin Saqqarsuya qayıtmaları barədə əmr verilmişdir. Bir saat keçmiş hər iki tərəfdən irəliləyən Rusiya hökumətinin qoşunu erməni kəndlərinə yerləşərək onları qırılmaqdan xilas edir. 1906-a il sentyabr ayının 17-də sübh zamanı türk-müsəlman əhalisi ermənilər tərəfindən qarət olunub yandırılaraq dağıdılmış, öz ata-baba kəndlərinə qayıdıb yurdlarına sahib çıxırlar. Zəngəzurun türk-müsəlman əhalisinin hərbi əməliyyat nəticəsində xilas olunması və erməni silahlılarını cəzalandırması «Difai» müdafiə təşkilatının Şuşa hadisələrindən sonra ikinci uğurlu əməliyyatı idi.

When you start investigating the historical roots of Armenia's aggressive and predatory war against Azerbaijan, certain aspects of Armenian history must be taken into account. This aggressive policy arose from the kernel of Armenian history. Therefore, when the favorable historical preconditions occurred for international and internal political change, Armenians made every effort for the implementation of their treacherous intentions. The occurrence of the so-called Armenian problem was not fortuitous. With regard to the Armenia-Azerbaijan conflict it is necessary to consider this problem in a new way. As the "Karabakh problem" must be considered a part of the Armenian problem. And the "Armenian problem" is a part of the Eastern problem. At the end of the 19th century and at the beginning of the 20th century a lot of research was devoted to this problem. The article written by the historian V. Gurko-Kryajinin for the Soviet Encyclopedia that was published in 1926 is one of such works. At the end of the article the author was hopeful by writing "... the most conscientious among the Armenian migrants change their views and say no to the past. They realize their mistakes and return home. After the Soviet coup d'etat the Dashnaktucun completely ceased to exist". But the historian was deceived.

***Tofiq Həsənov,***
***tarix elmləri üzrə fəlsəfə doktoru***
**"EURO Xəbər".-**2011.-11-29 mart, 31 mart-12 aprel.-N.5, 6.-S.8.

## 1918-1920-ci illər soyqırımı

### Bakı qırğınları

Tarixə nəzər saldıqda biz belə bir qanunauyğunluğun şahidi oluruq ki, harada pul, var-dövlət əldə etmək olarsa, ermənilər hamıdan əvvəl orada peyda olur. Əvvəlcə özlərini yazıq, mağmın, zavallı, sözəbaxan işbazlar kimi göstərir, sonra isə özlərinə yer etdikcə quduzlaşır, başqalarına diş göstərirlər. Məhz ermənilərin Bakıda görünməsi, möhkəmlənməsi, Bakının düz göbəyində öz kilsələrini tikdirmələri 1905-ci və 1918-ci illərdə və sonralar Bakıda bu yerin həqiqi sakinlərinə qarşı törətdikləri qırğınlar dediyimizə əyani sübutdur. Hələ 1907-ci ilin avqustunda Yelizavetpol (Gəncə) qubernatoru A. Kaçalov Qafqaz Canişininə daşnaksutyunla bağlı geniş məruzələrindən birində erməni psixologiyasını belə səciyyələndirmişdi: "Millətçilik erməni xalqının çox dərinlərdən gələn başlıca milli xüsusiyyətidir. Hər bir erməni özünü hamıdan - rusdan, gürcüdən, tatardan (azərbaycanlıdan - A. P.) yüksək, ağıllı, bic, xeyirxah və bacarıqlı hesab edir... Millətçilik, öz dininə, dilinə sədaqət, acgözlük, ehtiyatlılıq, hər şeyə qadir pula inam, var-dövlət və kapital qarşısında səcdanı kult dərəcəsinə qaldırmaq - bax budur erməni psixologiyasının başlıca xüsusiyyətləri" (Rusiya Federasiyası Dövlət Tarix arxivi (RDFTA) f. 841, siy. 7, iş 290, vər. 38).

XIX əsrin axırları XX əsrin əvvəllərində Bakıda neft sənayesinin sürətlə inkişafı, Bakının dünyanın ən iri neft mərkəzinə çevrilməsi ermənilərin kütləvi surətdə bu şəhərə axınına səbəb olur. Özlərinin xristian dininə etiqadlarına və həmişə Rusiya hökuməti qarşısında müti və Şərq siyasətində Rusiya hökuməti əlində bir alət olduqlarına istinad edən ermənilər hökumətdən Bakı neft sənayesində böyük imtiyazlar ala bilir və qısa bir vaxtda demək olar ki, Bakı neftinin əsas sahibkarlarından birinə çevrilirlər. İş o yerə çatır ki, Bakı neft sənayeçiləri qurultayına rəhbərliyi tamamilə ermənilər öz əllərinə keçirir və burada istədiklərini diktə edirlər.

XX əsrin əvvəllərində Rusiyada sənayenin sürətlə inkişafı, Sənaye proletariatının yaranmasına və onun inqilabi mübarizəsinin yüksəlməsinə də təkan verdi. Çar Rusiyasının əsas sənaye rayonlarından olan Bakıda da sənaye proletariatı və onun inqilabi təşkilatları, xüsusilə sosial-demokrat təşkilatları yaranır. Bakı neft sənayesində konsepsiyalar əldə edən erməni varlıları ilə yanaşı, özünə iş axtaran erməni yoxsulları da fəhlə sifətilə artıq XIX əsrin axırlarından Bakı neft mədənlərində sürətlə artmağa başlayır və artıq XX əsrin əvvəllərində Bakı neft sənayesi fəhlələri arasında erməni fəhlələrinin sayının artması xüsusilə nəzərə çarpırdı. Onlar Bakıda yaranmış bir sıra inqilabi təşkilatların və o cümlədən sosial-demokratik təşkilatlarının fəal üzvlərinə çevrilirlər. Birinci rus inqilabı ərəfəsində sosial-demokratların nüfuzunun Bakı fəhlələri arasında artdığını görən daşnaklar bu vəziyyətdən məharətlə istifadə edir və tezliklə sosial-demokratlarla yaxınlaşırlar. Erməni fəhlələri arasında sosial-demokratiya ideyalarını yaymaqla "Daşnaksutyun" partiyası onlar arasında öz nüfuzunu qorumağa və sosial-demokrat ideyalarından öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Erməni millətinə xas olan xüsusiyyətlərdən biri odur ki, onlar hər hansı partiyaya daxil olsalar belə, ilk növbədə ondan öz məqsədləri üçün istifadə edəcəklər. Erməni millətindən olan şəxslər hansı partiyaya, zümrəyə, vəzifəyə, cəmiyyətə daxil olmasından asılı olmayaraq ilk növbədə erməni olaraq qalır. Yəni ermənilərə məxsus ideyalar onların şüurunda, beynində möhkəm həkk olunmuşdur. Bunu onların beyinlərinə göz açdıqları vaxtdan evlərində, kilsələrində, məktəblərində, ,bir sözlə ermənilərə məxsus bütün ictimai yerlərdə yeridirlər. Harada olursa olsun, erməni həmişə bir cür danışır, başqa cür hərəkət edir. "Daşnaksutyun"un sosial-demokratlarla yaxınlaşmasının mahiyyətini Yelizavetpol qubernatoru belə səciyyələndirirdi: "Millətçilik ruhu ermənilərə məxsus elə başlıca xasiyyətdir ki, ən qısa bir vaxt üçün belə ermənilərin ondan imtina edə biləcəyini təsəvvürə belə gətirmək mümkün deyil. Sosialistlər partiyasına qoşulmaqla "Daşnaksutyun" şübhəsiz ki, möhkəm əqidəli sosialistlər qarşısında vicdansızlıq etmişlər. Çünki erməni xalqı heç vaxt sosializm ideyalarını dərindən dərk edə bilməz. Ermənini inandırmaq olmaz ki, tatar (azərbaycanlı - A. P.) millətindən olan proletar sənə erməni millətindən olan istismarçı burjua nümayəndəsindən daha yaxındır, sadəcə olaraq ağlasığmazdır". (RFDTA: f. 821, siy. 7, iş 220, vər. 41).

XX əsrin əvvəllərində Rusiyada baş vermiş siyasi hadisələrin tarixinə qısa bir nəzər saldıqda belə bir qanunauyğunluqla qarşılaşırıq ki, mərkəzi dövlət üçün ağır, kəskin və təzadlarla dolu bütün mərhələlərdən erməni daşnakları həmişə öz şovinist millətçi məqsədləri üçün məharətlə istifadə edərək azərbaycanlılara qarşı vəhşi qırğın və talanlara əl atmışlar. Məhz belə hadisələrdən biri də 1918-ci ilin martında Bakıda törədilmiş azərbaycanlıların kütləvi qırğını aktı olmuşdur.

1917-ci ildə əvvəlcə fevral inqilabı nəticəsində çar hakimiyyətinin devrilməsi, sonra isə oktyabr ayında bolşevik çevrilişindən sonra imperiyanın dağıdılmasından daşnaklar və digər erməni millətçi partiyaları məharətlə istifadə etdilər. 1918-1920-ci illərdə Qafqazda, o cümlədən Azərbaycanın bütün ərazisində ermənilər azərbaycanlılara qarşı geniş qırğınlar, talanlar, zorakılıq və terror əməliyyatları həyata keçirmişlər. Ermənilərin bu hərəkəti 1905-ci ildə olduğu kimi 1918-ci ilin martında, yenə də Bakıdan başlamışdır. Özü də bu qırğın

1905-ci ilə nisbətən ermənilər tərəfindən daha məharətlə hazırlanmış və amansızlıqla həyata keçirilmişdir. Bunun əsas səbəbi Rusiyada bolşevik hakimiyyətinin qələbəsi ilə ölkənin Birinci Dünya müharibəsindən çıxması nəticəsində əsgərlərin döyüş bölgələrini tərk etməsi olmuşdur. Qafqaz cəbhəsindəki Rusiyanın hərbi hissələrinin tərkibində olan əsasən erməni zabit və əsgərlərinin silahlarını təhvil verməyərək Azərbaycana, xüsusilə Bakıya dolmasından bolşevik donu geyinmiş, əlində V.İ.Leninin fövqəladə Zaqafqaziya komissarı vəzifəsinə təyin edilməsi haqqında mandatı olan daşnak Stepan Şaumyan məharətlə istifadə edir. V.Leninin mandatı ilə Tiflisə gedən S. Şaumyan orada istədiyinə nail ola bilməyərək Bakıya qayıdır. Beynəlmiləl proletar Bakısında demək olar ki, bütün hakimiyyəti öz əlinə keçirən S. Şaumyan ondan məharətlə azərbaycanlılara qarşı mübarizədə istifadə edir. S. Şaumyanın rəhbərliyi ilə Bakıda törədilən azərbaycanlı qırğınları sonralar bütün Azərbaycana yayılır. Bu məsələlər öz əksini geniş şəkildə Azərbaycan Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə təhqiqat komissiyasının hazırladığı məruzələrdə və digər rəsmi sənədlərdə tapmışdır. Faciənin həyata keçirilməsinin səbəbi aydın idi. Bunun üçün bəhanə düşünmək lazım idi. Bəhanə necə düşünülmüşdür? Bununla əlaqədar komissiyanın məruzəsinə və digər sənədlərinə, habelə S. Şaumyanın məktubuna nəzər salaq.

1918-ci ilin yanvarında başda general M.K.Talışinski olmaqla yaradılmaqda olan müsəlman korpusunun qərargahı Bakıya gəlir. Qərargahın rus zabitləri sırasında əvvəllər jandarmeriyada xidmət etmiş şəxslər olduğu bəhanəsilə müsəlman korpusunun qərargah üzvlərinin əksəriyyəti erməni əsgərlərindən ibarət bolşeviklər tərəfindən həbs edilirlər. Daşnaksutyun erməni partiyası Sovet hakimiyyətini tanıyaraq sonrakı hadisələrin göstərdiyi kimi, azərbaycanlılarla mübarizə üçün bolşeviklər partiyası ilə birləşirlər. Müsəlman korpusu qərargahının həbs edilməsindən istifadə edərək ermənilər azərbaycanlıları bolşeviklərə, həm də ermənilərə qarşı silahlı üsyana təhrik edirdilər. Burada da məqsəd özləri tərəfindən hazırlanan hadisələrin günahmı azərbaycanlıların üzərinə atmaq idi. Lakin azərbaycanlılar bu təxribata getməmişlər. Azərbaycanlıların çıxışı baş vermədikdə erməni əsgərləri azərbaycanlılar üzərində zor işlətməyə, müdafiəsiz qocaları, qadınları və uşaqları qarət edib öldürməyə başlamışlar. Azərbaycanlılar hətta Bakı vağzalında belə görünə bilmirdilər. Şəhərdən dəmir yolu ilə çıxmaq istəyən azərbaycanlılar Bakı vağzalında erməni əsgərləri tərəfindən qarət edilərək, öldürülməmək üçün faytonlarla yaxındakı stansiyaların birinə gedirdilər. Ermənilərin bütün təhriklərinə baxmayaraq azərbaycanlılar dözür, qırğına getmək istəmirdilər. Bakının məscidlərində keçirilmiş mitinq və yığıncaqlarda iştirak edən Bakıdakı xristian xadimlərinin sözlərinə görə bütün müsəlman xadimləri azərbaycanlı əhalini sakitliyə, sıxıntı və zorakılığa dözməyə çağırırdılar.

Məruzədə bildirilirdi ki, azərbaycanlılar bütün vasitələrdən istifadə edərək barışığa çalışırdılar. Azərbaycanlıların nümayəndələri dəfələrlə bolşeviklərə qarşı ermənilərlə ittifaq bağlamağa çalışmış, lakin ermənilər hər dəfə buna qeyri-müəyyən cavab vermişlər.

1918-ci il martın 17-də silahla ehtiyatsız davranmış və nəticədə həlak olmuş Məmməd Tağıyevin cənazəsini Bakıya müşayiət edən müsəlman divizionunun böyük bir dəstəsi Lənkərana yola düşmək istəyir. Paroxodun körpüdən aralanmasına az qalmış silahlı erməni bolşevikləri müsəlman divizionundan tərksilah olunmağı tələb edirlər. Divizion rədd cavabı verdikdə gəmiyə tüfəng və pulemyotlardan atəş açılır. Ertəsi gün şəhərin erməni hissəsində silahlı erməni əsgərləri görünürlər. Onlar bütün küçələrdə səngərlər qazıb, torpaq və daşlardan bəndlər ucaltmağa başlayırlar. Bunu görən azərbaycanlılar da öz növbəsində bəzi küçələrdə səngərlər qazmağa başlayırlar...

Məruzədə göstərilir ki, həmin gün Müsəlman Xeyriyyə Cəmiyyətinin binası "İsmailiyyədə" azərbaycanlıların yığıncağı keçirilir. Keçmiş Bakı şəhər rəisi Qaik Ter-Mikaelyants iclasa gələrək erməni milli Şurası və Daşnaksutyun partiyası adından bildirir ki, əgər azərbaycanlılar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşevikləri Bakıdan qovmağa kömək edəcəklər. Ertəsi gün, martın 19-da səhər tezdən azərbaycanlılar hələ yuxuda olduqları bir vaxtda, ermənilərin yalan vədlərinə arxayınlaşmış şəhərin azərbaycanlı hissəsinə hücum başlanır. Hücumda yalnız erməni əsgərləri iştirak edir və azərbaycanlılar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirlər. Xəzərdəki hərbi gəmilər ermənilərin provokasiyası ilə şəhərin azərbaycanlılar yaşayan hissəsini top atəşinə tuturlar. Ermənilər rus matroslarını inandırmışdılar ki, şəhərdə müsəlmanlar rus əhalisini qırırlar. Matroslar əmin olduqda ki, azərbaycanlılar şəhərdəki rus əhalisinə toxunmurlar, onlar top atəşini dayandırmışlar. Hücum ərəfəsində şəhərdəki bütün ermənilər şəhərin azərbaycanlı hissəsindən erməni hissəsinə keçmişdilər.

Yaxşı silahlanmış və təlim görmüş erməni əsgərləri pulemyotların atəşi altında əhalisi tamamilə azərbaycanlılardan ibarət "Məmmədli" və "Zibilli dərə" deyilən yerlərdə azərbaycanlıların evlərinə soxulur, sakinləri xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, üç-dörd günlük körpələri süngülərin ucuna keçirirdilər. Qaçmış valideynlərin bütün südəmər körpələri vəhşiliklə öldürülürdü. Valideynlərin özlərini isə küçələrdə qovub qətlə yetirdilər. Şəhərin bu hissəsində çox az adama qaçıb öz canını qurtarmaq nəsib olmuşdur. Məruzədə göstərilirdi ki, bu vəhşiliklərin şahidi olmuş adamlar danışanda özlərini ağlamaqdan saxlaya bilmir, həyəcanlanır, ona görə də hadisələri yerli-yerində nəql edə bilmirlər. Azərbaycanlıları qətl edərkən onların evlərini qarət edir, sonra isə od vurub yandırırdılar. Azərbaycanlı qadınlarını öldürür, çalalara

dolduraraq üzərilərini torpaqlayırdılar. Sonralar təkcə bir çaladan burun və qulaqları kəsilmiş, qarınları yırtılmış, cinsi orqanları doğranmış 57 müsəlman qadınının meyiti tapılmışdır. Şahidlər deyirdilər ki, ermənilər öldürə bilmədikləri qadınların hörüklərini bir-birinə bağlayır, başaçıq, ayaqyalın qabaqlarına qatıb küçələrlə qovur, yolda tüfəngin qundağı ilə döyürdülər.

Məruzədə göstərilirdi ki, öldürülmüş azərbaycanlıların sayını müəyyənləşdirməkdə komissiya çətinlik çəkir. Çünki evlərin çoxunda ermənilər bütün ailəni qırmış və indi elə bir adam yoxdur ki, ondan öldürənlərin adını öyrənmək mümkün olsun. Şəhərdə bir qədər sakitlik yaranandan sonra meyitləri basdırmaq üçün şəhərin bu hissəsinə gələnlər böyük dəhşətlərlə üzləşmişlər. Eybəcər hala salınmış meyitlər içərisində cinsi orqanlarına payalar soxulmuş qadın meyitləri də tapılmışdır.

Şəhərin başqa azərbaycanlı hissəsində də erməni əsgərləri pulemyot atəşləri altında sürətlə hücuma keçir, azərbaycanlıları sıxışdırıb öz məhəllələrindən çıxarır, evlərə soxularaq azərbaycanlıları qəddarlıqla öldürür, evlərini qarət edir, sonra isə yandırırdılar. Qətllər zamanı ermənilər nə cinsə, nə yaşa əhəmiyyət vermirdilər. Məsələn, Hacı Əmir Əliyevin evinə soxulan ermənilər onu - 80 yaşlı qocanı, 60 və 70 yaşlı arvadlarını öldürüb, 3 az yaşlı uşağı doğramış və Əliyevin 25 yaşlı gəlinini diri-diri divara mıxlamışlar.

Nikolay (indiki İstiqlal) küçəsi ilə hücuma keçən erməni əsgərlərinə əsasən erməni ziyalıları rəhbərlik etmişlər. Belə dəstələrdən biri bir evə girib 8 qadın və uşağı güllələmişdir. Başqa dəstə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək 9 ziyalı azərbaycanlını küçəyə çıxarmış və kilsə meydanında güllələmişlər. Meyitlərdən 2-si ermənilər tərəfindən yandırılmış "Dağıstan" mehmanxanasının alovları içərisinə atılaraq yandırılmışdır. Bu evdə doktor Tağıyev bolşeviklərin hakimiyyətini tanımasını təsdiq edən sənədi erməni əsgərlərinə göstərdikdə, onlar buna əhəmiyyət verməyərək bildirmişlər ki, onlar daşnaklardı və bolşevikləri tanımırlar...

Müdafiəsiz azərbaycanlıları məhv edərkən ermənilər dənizçiləri və qırmızı qvardiyaçıları da onların üstünə salışdırmaq istəyirlər. Məsələn, martın 19-da səhər İran konsulu və dənizçi Natonson qalaya gələrək azərbaycanlı nümayəndələrinə bildirmişlər ki, azərbaycanlılar qalada olan rusları və erməniləri öldürmüşlər. Buna cavab olaraq azərbaycanlılar onların hər ikisini arasında ermənilərin də olduğu 240 xristian kişi, qadın və uşağın saxlandığı Mir Əli Nağı Hüseynovun evinə gətirirlər. Onlar xristianlara bu münasibəti görüb qaladan gedəndən 3 saat sonra yenə də qalaya qayıdırlar ki, 2 erməni icması xadimi bizə yenidən xəbər verib ki, İran konsulu və dənizçi Natonson qaladan gedəndən sonra azərbaycanlılar qaladakı bütün xristianları doğrayıblar. Onların yenidən aldadıldığını görən Natonson ermənilərin qalaya hücumunu dəf etmək üçün qalada 20 matros qoyub özü gedir.

Martın 20-də "Kaspi" redaksiyası ilə "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyəti arasındakı döngəyə 3 əsgərin müşayiəti ilə erməni zabiti gəlir və "İsmailiyyə"nin binasına girir. Bir müddətdən sonra binanın pəncərələrindən tüstü, alov görünür və təkcə Bakı azərbaycanlılarının deyil, bütün şəhərin bəzəyi olan bu möhtəşəm bina yanğından məhv olur.

Bəs bu hadisələrə onun bilavasitə təşkilatçısı olduğu S.Şaumyan necə qiymət vermişdir?

1918-ci il aprelin 13-də o, Moskvaya, Xalq Komissarları Sovetinə yazdığı məktubda həmin ilin martında Bakıda ermənilərin azərbaycanlıların başına açdıqları müsibətlərə siyasi don geydirməyə çalışır. Guya ki, bu hərəkətlər azərbaycanlılara qarşı ermənilərin milli ədavətindən yox, Sovet hakimiyyətinə sədaqətindən doğmuşdur. Məlumdur ki, 3 gün, martın 30, 31 və aprelin 1-də Bakı şəhərində şiddətli qırğın olmuşdur. Bu qırğına siyasi vuruşma donu geyindirən Şaumyan yazırdı: "Bir tərəfdən, Sovet Qırmızı Qvardiyası, bizim təşkil etdiyimiz beynəlmiləl qızıl ordu, qısa müddətdə yenidən qura bildiyimiz qırmızı donanma və erməni milli hissələri, digər tərəfdən "müsavat" partiyasına başçılıq etdiyi və içərisində çoxlu rus zabiti olan müsəlman dikaya diviziyası və silahlı müsəlman quldur dəstələri vuruşurdular". (S.Şaumyan. Seçilmiş əsərləri 2-ci cild, B. 1978, səh. 259).

Bu qısa məlumatdan da görünür ki, S.Şaumyan bu işdə nə qədər rəzil rol oynamış, əsl daşnak xislətini bolşevik mundiri altında məharətlə gizlədərək bu hadisələrə Sovet hakimiyyəti uğrunda mübarizə donu geyindirmişdi. Onun məktubuna diqqət yetirdikdə görürük ki, guya ki, onun tərəfində olanların hamısı, o cümlədən başkəsən daşnak cəlladları da "əsl sülh göyərçinləri", əks tərəf isə qaniçən cəlladlar imişlər. Özü də Moskvanın dilini bağlamaq üçün müsəlman dikaya diviziyasında çoxlu rus zabiti olduğunu xüsusi vurğulayır. Əsl erməni ikiüzlülüyü və erməni hiyləgərliyi.

Həqiqət isə necə idi? Müsəlmanların həqiqətdə elə bir qüvvəli silahlı dəstələri və silahı yox idi. Onun təsvir etdiyi bütün Sovet hərbi hissələrində vuruşanlar isə əslində erməni daşnakları və bolşevik cildinə girmiş erməni millətçiləri idi. Görün azərbaycanlılar üzərində erməni daşnaklarının bu vəhşiliklərinə görə o, necə də öyünür, lovğalanır: "Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir. Biz onların qarşısında şərtlər qoyduq və onlar bu şərtləri danışıqsız imzaladılar.

Müsəlman millətçi partiyalarının müqaviməti üzündən Bakıda Sovet hakimiyyəti daim tükdən asılı idi. Yelizavetpolda və Tiflisdə yerlərini möhkəmləndirmiş olan feodal (bəy və xan) ziyalıları başda olmaqla bu

partiyalar, menşeviklərin açıq və qorxaq siyasəti nəticəsində özlərini son zamanlarda Bakıda da çox təcavüzkarcasına aparırdılar... Zaqafqaziyanın müqəddəratı həll olunurdu. Əgər onlar Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi, bütün qeyri-müsəlman ünsürləri tərksilah edib qırardılar". (Şaumyan, göstərilən əsəri, 2-ci cild. səh. 259-260).

Göründüyü kimi S.Şaumyan da məhz yuxarıda Yelizavetpol qubernatorunun göstərdiyi sosialistlərdən olmuşdur. Öz məktubunda o, həyasızcasına "Daşnaksutyun" partiyasına məxsus olan hərbi hissələrin Bakıda azərbaycanlı əhalinin qırılmasında iştirakına haqq qazandırmağa çalışır. O yazırdı: "Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdir, lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verdik. Müsəlman yoxsulları böyük zərər çəkmiş, lakin onlar indi bolşeviklərin və Sovetlərin ətrafında daha sıx toplaşmışlar". (S. Şaumyan. göstərilən əsəri səh. 260).

Bu məktuba diqqət yetirdikdə maraqlı faktlar meydana çıxır. O, yazırdı ki, bu hadisələr zamanı erməni, müsəlman və rus fəhlələrindən ibarət olan Qırmızı Qvardiya dəstələri, neft mədənlərini ətraf müsəlman kəndlərinin basqınından qoruyurdu. Deməli, başqa millətdən olan Sovet əsgərləri mədənləri qorumaq adı ilə S. Şaumyan və Q. Korqanov tərəfindən şəhərdən uzaqlaşdırılmış, şəhər həm S. Şaumyana tabe olan ermənilərdən ibarət Sovet əsgərlərinin, həm də daşnakların ixtiyarına verilmişdi.

Arxivlərimizdə Bakı faciəsi ilə bağlı Fövqəladə Təhqiqat Komissiyası üzvlərinin tərtib etdikləri çoxlu dindirmə protokolları, ayrı-ayrı evlər, küçələr üzrə qarətlər, evlərin yandırılması, qətl və ölüm hadisələri ilə əlaqədar çoxlu zərərçəkən və şahid ifadələri, ayrı-ayrı ailələrə vurulmuş zərərin miqdarı, qarət olunmuş əşyaların, öldürülənlərin və yaralananların siyahıları, aktlar və s. qorunub saxlanılır. (Bax: ARDSPİHA: f. 227, siy. 2, iş 13-16, vər. 25-26).

Təəssüflər olsun ki, komissiya Bakıda ermənilərin xalqımıza vurduğu maddi zərərin miqdarı qətlə yetirdikləri və yaraladıqları əhalinin sayını dəqiq müəyyənləşdirmək işini başa çatdıra bilməyibdir. S. Şaumyan isə Moskvaya yazdığı məktubda bilərəkdən bu rəqəmi azaldaraq guya hər iki tərəfdən cəmi 3 min nəfər olduğunu yazmışdı. (Bax: S. Şaumyan, göstərilən əsər, II cild səh. 259).

Həmin rəqəmlərin hesablanması olduqca çoxlu vaxt tələb etdiyindən hələlik biz onu yerinə yetirə bilmədik. Lakin saxlanılan sənədlərdəki məlumatlarla tanışlıq, o dövrdə bu hadisənin bilavasitə iştirakçılarının xatirə və məqalələri, Bakıda dağılıb, xarabazara çevrilmiş küçə və evlərin əlimizdə olan foto şəkilləri sübut edir ki, şəksiz bu hadisələrdə 10 minlərlə adam qətlə yetirilmiş, xalqımıza yüzlərlə milyon manatlıq maddi zərər vurulmuşdur. 1933-cü il aprel aynın 1-də Almaniyanın Münhen şəhərində M. Ə. Rəsulzadənin redaktorluğu ilə nəşr olunan "İstiqlal" qəzetinin 31-ci nömrəsində həmin hadisənin 15 illiyi münasibəti ilə çap olunmuş məqalədə oxuyuruq: "1918-ci il 22 martda Bakının "İsmailiyyə" binasının möhtəşəm salonunu milli musiqi, tans, qəhqəhə sevinc və gülüş titrədirdi. "Novruz" bayramı qarşılanmaqda idi. Bir həftə sonra 31 martda isə, bu tarixi bina, Azərbaycanın bütün siyasi, elmi, ədəbi, bədii, iqtisadi və ictimai cəmiyyət və təşkilatları ilə, kitabxana, qiraətxana, yetimlər yurdunun yerləşmiş olduğu bu qoca saray quru bir kabus halında matəm içərisində idi. Yandırılmışdı. Yandırılan bir tək "İsmailiyyə" deyildi. Türklərə məxsus bütün mətbəələr, mətbuat idarəxanaları, milli teatro binaları, məktəblər, xəstəxanalar, camilər, milli mədəni müəssisələr yerlə yeksan edilmişdi. Bir həftə içərisində Bakı bütün simasını dəyişmişdi.

31 martda 15 min günahsız türk kəsilmişdi.

Günün qəhrəmanları: Şaumyan, Avakyan, Arakelyan, Ter-Mikaelyan, Saakyan, Lalayan, Hamazasp, Əmiryan və b. idi.

Əlində Lenin və Stalinin 13 nömrəli dekreti olan Stepan Şaumyan həmin dekretə görə "Böyük Hayıstan"a müqabil Azərbaycanı "Sovetsizə" edərək burada Moskva hakimiyyətini quracaqdı.

Bunun üçün silahlı erməni qüvvələrinə dayanaraq türkləri kəsirdi. O mart günlərini fotoqraf vasitəsilə təsbit etmiş bir çox iranlı, polyak, gürcü tanıyıram və bunların heç birindən olmayan M. Kulqe adlı bir əcnəbi hadisələri belə anladır:

"Yalnız müsəlman əhali tərəfindən məskunlaşmış məhəllələri qırıb, əhalini öldürür, qılıncla parçalayır, süngülərlə dəlik-deşik edir, evlərə atəş vurur, çocuqları bu atəşlərə ataraq diri-diri yaxır, 3-4 günlük südəmər çocuqları isə süngülərinə taxırdılar.

Hadisələrdən sonra torpağa gömülmüş 57 islam nəşri bulundu. Bunların qulaqları, burunları qoparılmış, qarınları yırtılmış, əzaları kəsilmişdi.

Öldürmədikləri qadınların saçlarını bir-birinə bağlayaraq üryan bir halda küçələrdə qabaqlarına qatıb sürür və özlərini tüfəng dibçəkləri ilə vururdular. Kimsəyə rəhm edilmirdi. Çocuqlara rəhm edilmədiyi kimi, ixtiyarlara da aman yoxdur. Məsələn, Əlizadə Hacı Əmirin evində 80 yaşlı anası, 60-70 yaşında qadınları öldürmüş və 25 yaşında təzə gəlini diri-diri divara mıxlamışlardı..." Bir sözlə, Moskva Azərbaycanda sosializm və kommunizm qurmaqla məşğul idi.

Gərək M. Kulqenin, gərəksə digər əcnəbilərin, o günlərin xatirəsi olmaq üzrə, almış olduqları və bu gün əllərdə mövcud fotoqraflar çox faciəli mənzərələr əks edirlər. Mələk qədər sevimli bir azəri yavrusu Bakının bir

divarına çivlənmişdir və çiv yavrunun ta qəlbini dəlib keçməkdədir. Bir yığım qızlı-erkəkli çocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu məsum yavruları gəmirir. Çılpaq bir qadın yerə sərilmiş, ölmüş... bu ölü vücudun qurumuş məməsini canlı bir yavru əmməkdədir... 31 martın xatirələri yalnız bunlar deyildir. Mən hələ 10 minlərlə azəri qız və qadınlarının əsir sürüsü halında götürüldüyünü, "Rekord" teatrosunun o gün məhşəri andıran mənzərələrini, əsir bazarında azəri qızlarının satıldıqlarını və sairini qeyd etmirəm.

Çünki 31 martı xatırlamaq və canlandırmaq üçün bu qədər də kafidir, bu qədər də bəsdir".

Mart faciələrini öz gözləri ilə görmüş, bu hadisələrin bütün iztirablarına dözmüş, xoşbəxt təsadüf nəticəsində sağ qalmış yeniyetmə bir gənc Məhəmməd Muradzadənin 1918-ci ilin dekabrında qələmə alıb, 1919-cu ildə çap etdirdiyi "Mart hadiseyi-əliməsi" kitabçası bu cəhətdən xüsusi maraq doğurur. (Bu kitabça Sədaqət Məmmədova tərəfindən kiril əlifbasına çevrilərək 1996-cı ildə "Azərnəşr"də yenidən buraxılmışdı). Burada həmin gəncin ailəsinin və qonşularının timsalında ermənilərin Bakıdakı mart qırğınları zamanı azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər qələmə alınmışdır. O, yazırdı: "həyatım durduqca martın 19-cu gecəsini, yəni bazar ertəsi gününün axşamını unutmaram. Bu gecə ailə bir-biri ilə elə rəftar ilə davranırdı ki, sanki sabah bir-birini görməyəcəklər, əbədi bir fərağa məhkum olacaqlar". (M. Muradzadə, mart hadiseyi - əliməsi. Bakı, 1996, səh. 11).

Martın 20-də (yeni təqvimlə 31-də) səhər M. Muradzadənin atasının tanışlarından bir nəfər Hacı özünün 50-55 yaşında yaralı qardaşını onların evinə gətirir. Hacı ailəsinin harada olduğunu bilmir. Yaralını görən gənc ona baxmağa dözə bilməyib qonşu yəhudilərin evinə qaçır. Onların həyətinə soxulan erməni caniləri hacıdan və M. Muradzadənin atasından silah tələb edirlər. Silah olmadıqda onlar pul tələb edirlər. O, yazırdı: "Atamla Hacı öz əllərilə pul kisələrini çıxarıb canilərə verdilər. İnsan qanına susamış canilər pulları alıb aralarında böldükdən sonra ikisi həmin həyətə çıxır. Biri isə bayıra çıxarkən əvvəlcə atamın sinəsini nişan edərək bir atəş açır, ardınca Hacının köksündən vurur. Hər ikisi dəhşətli bir surətdə yerə yıxılır". (yenə orada səh. 18-19.)

M. Muradzadə yazırdı ki, canilər getdikdən sonra: "Mən bu dəhşətlərin bununla bitdiyini və bir daha təkrar edilməyəcəyini zənn edirdim. Birdən məhəllədə böyük qovğa qopdu və bizim məhəllə qapısı şiddətlə döyülməyə başlandı". (yenə orada).

Həyətə soxulan ermənilərin digər canilər dəstəsi artıq həyətdə kişi tapmayaraq onlardan iki nəfəri "qoca ilə qadınları heyvan sürüsü kimi qabaqlarına qatıb əsir adıyla hara isə aparırlar. İndi canilər növbə ilə həyətdəki evləri axtarıb qarət və talan edirdilər. Axırda mən olduğum evin qapısına gəldilər. Lakin yəhudi bu evin özünə məxsus olub, burada müsəlmanlar olmadığını" deyib caniləri öz evinə buraxmır. Bununla da birinci dəfə M. Məmmədzadənin həyatı xilas edilir. Ermənilərin milli zəmində törətdikləri qırğınla bağlı öz fikirlərini M. Muradzadə belə təsvir edir: "Artıq iki günlük müharibədə kimlərin iştirak etdiyini və nə üçün bunun belə davamını bir saat gördüyüm səhnələr gözəlcə göstərdi. İslam adı daşıyana aman yox, zira o mənhus qonşu millətin qaniçən canavarları indi vaxtdan istifadə edərək başqa siyasi bir maska ilə qurşaqdan dişlərinədək silahlanıb özlərindən milyonlarca çox və qapı bir qonşu olan nəcib bir milləti öz yurdlarında yox etməyə böyük bir cürətlə əl açmışlardı". (yenə orada səh. 17-18).

M. Məmmədzadə öz gördüklərindən əlavə qonşu yəhudilərin şəhadətləri əsasında azərbaycanlılara tutulan divan, küçələrdə tökülüb qalmış azərbaycanlı cəsədləri haqqında da yığcam məlumat verərək yazırdı: "Şəhərin vəziyyətindən xəbər bilmək üçün yəhudi çocuqları tezdən məhəlləmizə çıxmışlardı. Gətirdikləri o təsirli və dil yaxıncı xəbərlərində islam qurbanlarını bütün küçələr boyu qırlar üzərində dəniz sahilinə tordan atılmış balıqlar kimi yan-yana qanlı ölüm yatağında yatdıqlarını söyləyirlərdi. İki gündən bəri günahsız məzlumları torpağa endirmiş və böyük xanimanları söndürən atəşlərin sədası indi şəhərin uzaq yerlərində eşidilirdi. Bizim məhəllədə isə böyük bir sükunət hökm sürürdü". (yenə orada səh. 22).

Lakin bu sükunət çox hökm sürmür, elə həmin gün M. Muradzadənin dediyi kimi qonşu millətin qaniçən canavarları yenidən künc-bucaqda gizlənmiş türk-islam yavrularını qırmağa qol çırmalamışlar. Hər bir rus və yəhudi evlərini axtarıb ölüm hədəsiylə müsəlmanları verməlırini əmr edirdilər. Belə bir cani və qarətkarlar dəstəsi bizim küçəyə dəxi gəlmişlərdi. Bizi bu anadək insanlıq naminə saxlayan yəhudilər bu əhvalatdan böyük bir təşvişə düşmüşlərdi... Ev sahibi Levin çox həlim bir kişi idi. Hərdən yanımıza gəlib övzai-əhvalatdan bizi agah edərək bu dəqiqələr çox qorxulu olduğu üçün yalnız mətanətli olmağımıza tövsiyə edib hər növ olursa bizi müdafiə edəcəyini söyləyirdi". (yenə orada səh. 22-23).

M. Mahmudzadə yazırdı ki, erməni cəlladları yenə də küçədə olan yəhudi və rus evlərində olan azərbaycanlıları zorla çıxarır, islam qurbanlarının dad və fəryadları, ətraf evlərdən çıxarılan məsum körpələrin ürəkparçalayan bağırtıları eşidilirdi. Onları canilər gizləndikləri yerdən güclə çıxarıb küçədə güllə və qılıncla işgəncələrlə məhv edirdilər. M. Muradzadə yazırdı: "Kiçik qardaşımla dayım alt mərtəbədə idilər. Mən özümdən kiçik qardaşlarımla Levinin otağında oturmuşdum. Levin isə yalnız bizim pərişan halımıza aludə olub dirigözlü insanları canilər əlinə verməmək üçün çarələr düşünürdü". (yenə orada səh. 23). Yalnız rus ordusunda xidmət etmiş əlisilahlı bir neçə gənc yəhudi öz evlərini müdafiə etdikləri üçün canilər Levinin yaşadığı evə girə bilməmiş və M. Mahmudzadə, onun qardaşları və dayısı canilərin əlindən xilas olmuşlar.

Yeri gəlmişkən onu da qeyd edək ki, Fövqəladə Təhqiqat Komissiyasının Bakı hadisələri haqqında hazırladığı məruzədə də göstərilirdi ki, Bakıda mart qırğınları zamanı "ruslar, yəhudilər və gürcülər mümkün olan yerdə azərbaycanlıları xilas etmişlər. Ermənilər azərbaycanlılara qarşı qırğını yalnız ermənilərə qəti ultimatum vermiş 36-cı Türküstan polkunun tələblərinə görə dayandırmışlar. Bakıda olan bütün rus icmalarının nümayəndələri ermənilərin bu vəhşiliklərindən hiddətlənir və ucadan öz etirazlarını bildirirdilər". (Bax: ARDSPİHA. f. 277, siy. 2, iş 16, vər. 18).

Xatirələrində yeri gəldikcə gənc müəllif ermənilərin törətdikləri ümumi vandalizm haqqında da məlumatlar verir, ermənilərin bu cür müvəffəqiyyət qazanmalarının səbəblərinə öz münasibətini də bildirirdi. O, yazırdı: "Hələ qarşımda o gün müşahidə etdiyim ürəkdağlayan bir mənzərə təcəssüm edib durur. O gün küçə ilə bir neçə kişinin çiynində qısa bir nərdivan üzərində əlvan boyalı xalça sarınmış bir meyitin aparıldığını gördünüz. O, mart günlərinin məzlum qurbanı, mənim zavallı atam idi. O dövrün vəziyyətinə nəzərən bu hala da qibtə edirdilər. Ona görə ki, çox şəhidlərin meyiti o gün tapılmaz oldu. Ana və bacıların qəlbinə acı və daim sağalmaz dağlar basıldı. O gün bu müəzzəm Bakı şəhərinin yarıdan çoxu bir matəm saraya çevrildi. Çox evlərin üzvləri südəmər yavrularınadək zəhərli xəncərlər ilə doğrandı. Fəryad, ah-fəğan sədası eşidilməz bir ev qalmadı". (yenə orada səh. 27). Mart hadisələri zamanı öz gözləri ilə gördüyü və eşitdiyi hadisələri qələmə alan M. Muradzadə yeri gəldikcə bu hadisələrə öz münasibətini də bildirdi. O, Bakıda tam azlıq təşkil edən ermənilərin bu torpaqların həqiqi sahibləri olan azərbaycanlıların başına açdığı müsibətlərin səbəblərini də aşkarlamağa çalışır. Onun bu haqda söylədiyi fikirlər çox maraqlıdır. M. Muradzadənin fikirləri bir də ona görə maraqlıdır ki, 70 ildən çox keçməsinə baxmayaraq, 80-ci illərin axırlarında ermənilərin bizi bu cür ağır vəziyyətə salmasında, ərazimizin 20 faizdən çoxunun işğalında, bir milyondan yuxarı qaçqınımızın olmasında yenə də öz təqsirimiz az deyildir. Deməli, tarixin ibrət dərslərindən hələ də özümüz üçün lazımi nəticə çıxara bilməmişik. Hələ mart hadisələri başlamazdan əvvəl özünün və dostlarının düşüncələri haqqında məlumat verən M. Muradzadə yazırdı ki, fikirləşirdim, əgər ermənilərlə dava başlayarsa, azərbaycanlılar tərəfindən "hansı igidlərin iştirak edəcəyini və hansı təşkilat tərəfindən və neyçin elanı həll ediləcəyini bir növ təsəvvürümə belə gətirə bilmirdim, çünki "əlində bir mauzeri ilə altı patronu olub yalnız orada-burada pusquda duraraq öz qardaşının qanını tökməyə adət etmiş, yaxud iştirak edib də öz qardaşına vaxt zərurətində səngərdə patronun birini 7-8 rubleyə satan milli igidlərmi?". O yazırdı ki, düşünürdüm düşmənin toplarına qarşı bizimkilər görəsən nə ilə cavab verəcəklər? (yenə orada səh. 9).

Xatirə müəllifi hələ mart hadisələrindən bir neçə gün əvvəl "İsmailiyyə" binasından bir az aşağıdakı dükanın qabağında ermənilərlə münasibətlər haqqında öz gənc dostları ilə olan söhbətini xatırlayaraq yazırdı ki, mən o zaman deyirdim: "Bilirsinizmi dostlar, allah göstərməsin ki, bu müharibə başlansa bizim üçün acı nəticələr verər. Hələ milli əsgərlər kamil bir surətdə təşkil edilməmiş, başıpozuq qüvvələrə güvənməməli. Bir mauzer və 5 patron ilə top və pulemyotlara cavab vermək olmaz. Məncə bu müharibədə kasıb və fəqirlər artıq dərəcədə zərər çəkən olacaqlar". Gənc müəllifin bu sözlərinə dostlarından biri belə cavab verir: "Xeyir, qardaş, pulemyot yoxsa da, bir gülləyə pulemyotçunu öldürüb, pulemyotunu əlindən alıb özümüz atarıq. Müsəlmanın müharibədə çox hiylələri olur".

Çox maraqlıdır ki, həmin gənc bir neçə gün əvvəl "İsmailiyyə"də çıxış edən boşboğaz təbliğatçının yalan vədlərinə inanmışdır. O öz yoldaşlarına "İsmailiyyə"dəki sarı paltolu əfəndinin, ölmək, ölmək deyə bağırdığını", "düşmənlərimiz "İsmailiyyə" qarşısında səcdə etməlidirlər" söylədiyini bildirir və qürurla deyirdi ki, "belə bir ruh yüksəkliyi ilə heç vaxt məğlub olmarıq". (yenə orada səh. 29).

Öz dostunun bu sadəlövh inamına cavab olaraq M. Muradzadə bildirir: "Dostum, yanılırsan, söyləmək başqa, fel başqa, bu işdə ancaq diplomat olmalı, işi elə bir tərz ilə aparmalı ki, bəslədiyimiz o böyük amal bir gün olsun ki, öz mövqeyini tutsun. Düşmənlər azacıq bir hadisədən istifadə edirlər, əllərində olan qüvvələrlə bizləri dərin bir fəlakətə sövq edirlər".

M. Muradzadə daha sonra yazırdı ki, bu cür "milli qəhrəmanlarımız "İsmailiyyə" kimi memarlıq abidəsinin düşmən tərəfindən dağıdılmasına və yandırılmasına, Təzəpir məscidi kimi dini və tarixi abidənin topa tutulmasına yol verdilər. Mart hadisələri zamanı "qalib çıxmış" ermənilər öz vəhşiliklərini ört-basdır etməyə çalışırlar. Erməni vəhşiləri tərəfindən öz evlərindən çıxarılaraq müxtəlif kinoteatr binalarında əsir edilmiş azərbaycanlı qocalar, qadınlar və uşaqlar sülh elan edildikdən sonra elə həmin erməni qaniçənlərinin müşayiəti ilə küçələrdən keçirilərək öz evlərinə aparılırdılar. Bu cür ikiüzlü hərəkətin əsl mahiyyətini başa düşən gənc müəllif yazırdı ki, "küçə boyu əvvəl başımızı yarıb, sonra ətəyimizə qoz dolduran o vəhşi qüvvələr əsirləri müşayiət edirdilər". Evlərinin qapılarında dayanmış erməni millətindən olan Bakı əhalisi isə əsirlikdən buraxılanları ələ salır, gülür, şadlanır və tənə ilə soruşurdular: "Asma, bir-iki Qafqaziya bizimki söyləyirdiniz, iştə Qafqaziyaya sahib oldunuzmu?". Gənc müəllif yazırdı: "Düşmənin bu növ tənələri acı, fəqət doğru idi. Çalışmamaq nəticəsi olaraq azlıq təşkil edən millətin bu gün vəhşi qüvvələri qarşısında baş əyməyə məcbur olmuşuq". (yenə orada vər. 27).

Fövqəladə Təhqiqat Komissiyası sədrinin məruzəsində göstərilirdi ki, 1918-ci il mart hadisələrindən sonra Bakıda ermənilərlə azərbaycanlılar arasında sülh haqqında sazişə gəlindiyinə baxmayaraq həmin il sentyabrın 15-də Bakı azərbaycanlı və türk əsgəri qüvvələri tərəfindən azad edilənə qədər ermənilər müntəzəm olaraq Bakı küçələrində, şəhərdən ətraf kəndlərə gedən yollarda azərbaycanlıları tutub qətlə yetirir, meyitlərinin bir hissəsini isə quyulara və ya dənizə atırdılar. (Bax: ARDSPİHA: f. 277, siy. 2, iş 16, vər. 18).

Ermənilərin xalqımıza qarşı törətdiyi bütün bu vəhşiliklərin ildönümləri Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən həm 1919-cu, həm də 1920-ci ildə martın 31-də milli matəm günü kimi qeyd olunmuşdur. Sovet hakimiyyəti isə bu hadisəni tamamilə unutdurmağa çalışmışdır. Bakıdakı qanlı mart hadisələri Sovet dövrü tarixçiləri tərəfindən tarixi faktların və sənədlərin əksinə olaraq bu qırğını bir millətin, başqa millətə qarşı ədavəti nəticəsində həyata keçirdiyi soyqırımı siyasəti kimi deyil, Ümumrusiya vətəndaş müharibəsinin tərkib hissəsi, Sovet hakimiyyəti uğrunda bolşeviklərin mübarizəsi və onların əksinqilab üzərində böyük qələbəsi kimi təqdim edilmişdir. Lakin kommunizm ideoloqlarının bütün ciddi cəhdlərinə baxmayaraq xalqımızın yaddaşında əbədi iz buraxmış 1918-ci il qanlı mart hadisələrini heç cür unutdura bilməmişlər. Azərbaycanda bolşevik rejimi qurulduqdan sonra, xaricdə yaşamağa məcbur olmuş demokratik ruhlu Azərbaycan ziyalıları hər il bu günü milli matəm günü kimi qeyd etmiş, bu münasibətlə xatirə gecələri keçirmiş, qəzetlərdə məqalə və xatirələr dərc etdirmişlər. M. Ə. Rəsulzadənin redaktorluğu ilə Almaniyanın Münhen şəhərində nəşr olunan "İstiqlal" qəzetinin 1933-cü il 1 aprel tarixli 31-ci sayı demək olar ki, bütünlüklə Bakıdakı 1918-ci il mart qırğınının 15 illiyinə həsr edilmişdir. Azərbaycan öz istiqlaliyyətini yenidən əldə etdikdən sonra bu gün hər il anılmaqdadır. 80 illiyi bu il tamam olacaq bu hadisəni yalnız biz özümüz öyrənməklə qalmamalıyıq. Qoyun dərisinə girmiş "zavallı ermənilərin" yırtıcı canavar sifətlərini bütün dünyaya bəyan etməliyik. Elə etməliyik ki, bütün dünya xalqları ermənilərin rəzil sifətlərini görsün və kimin kim olduğunu yaxşıca tanısın. Elə etməliyik ki, xalqımızın başına açılan bu müsibətlər bir də təkrar olunmasın.

***(Paşayev Ataxan. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, səh. 207-225)***

## Şamaxı qırğınları

1918-ci ilin mart-aprel aylarında erməni zorakılıqlarından Azərbaycanın ən çox zərər çəkmiş bölgələrindən biri də Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndləri olmuşdur. Təəssüflər olsun ki, bu günə qədər I9l8-l920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərindən bəhs edərkən nədənsə onların Şamaxıda törətdikləri vəhşiliklərin ifşası kölgədə qalmışdır. Ermənilərin toplu halda yaşadıqları yerlərdən tamamilə uzaqda, yüzlərlə azərbaycanlı kəndinin əhatəsindəki cəmi 6 erməni kəndi və Şamaxı şəhərindəki azlıqda qalan bir ovuc erməni əhalisinin bu ərazidə azərbaycanlıların başına açdığı müsibətlərlə tanış olduqda adam dəhşətə gəlir. Ancaq təkzib olunmaz faktdır ki, bir ovuc erməni onlarca Azərbaycan kəndlərini tar-mar etmiş, on minlərlə günahsız əhalisini qətlə yetirmişlər. Bu fakt bir də onu sübut edir ki, ermənilər olduqca təhlükəli düşməndirlər. Onlar həmişə zərbəni gözlənilməz yerdən vurmağı çox gözəl bacarırlar. Ona görə də onlara inanaraq heç yerdə nəzarətsiz buraxmaq olmaz. Yeri gəlmişkən 1918-ci il Şamaxı hadisələrinin törədilməsində S. Şaumyan və onun əlaltılarının rolunu da diqqətdən qaçırmaq olmaz. O, özü 1918-ci ilin aprelin 13-də Sovet Rusiyası Xalq Komissarlar Sovetinə göndərdiyi məktubda Şamaxıya artilleriya və pulemyotları olan "yeni dəstələr" göndərdiyini etiraf edirdi. (Bax: S. Şaumyan, seçilmiş əsərləri, 2-ci cild, səh. 261).

Bu dəstələrə S. Şaumyanın yaxın silahdaşlarından olan və Şamaxı qırğınının əsas təşkilatçısı, xalqımızın qəddar düşmənlərindən biri daşnak S. Lalayev rəhbərlik etmişdir. Ermənilərin 1918-ci ilin mart və aprel aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərində törətdikləri cinayətləri ifşa edən çoxlu arxiv sənədləri qorunub saxlanılır. Bu sənədlər arasında 1918-ci il noyabr ayının 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə. Xasməmmədovun Azərbaycan Cümhuriyyəti ədliyyə nazirinə Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərinin talan edilməsi və müsəlman əhalisi üzərində ermənilərin zorakılıqları haqqında məruzəsi. (Bax: ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər. 9-14), həmin komissiyanın üzvü A. Novatskinin bu məsələ haqqında komissiya sədrinə məruzəsi, (bax: ARDA, f. 1061, siy. 1, iş 108, vər. 8-10), bu işdə günahkar olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında Fövqəladə Təhqiqat Komissiyasının 1919-cu il 12 iyul tarixli qərarı (Bax: ARDA, f. 1061, siy. 1, iş 105, vər. 1) və s. vardır.

Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat işlərində toplanılmış materiallar ermənilərin burada törətdikləri vəhşiliklər, erməni rəzaləti haqqında ətraflı məlumat verir. Burada toplanan yüzlərlə zərərdidə və şahid ifadələri, dindirmə protokolları ermənilər tərəfindən yandırılmış, dağıdılmış tikili və mədəniyyət abidələrinə baxış protokolları, aktlar, siyahılar və digər sənədlər ermənilərin Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndlərində törətdikləri vəhşilikləri əyani şəkildə ifşa edir.

Bu işdə Ə. Xasməmmədovun ədliyyə nazirinə təqdim etdiyi məruzəyə xüsusilə diqqət yetirməliyik. Komissiyanın ilkin istintaq nəticəsində əldə etdiyi məlumatlar həmin məruzədə şərh olunurdu. Məruzədə deyilirdi ki, Şamaxı şəhəri iki hissədən ibarətdir. Yuxarı və ya erməni hissəsi, aşağı və ya müsəlman hissəsi. Birincidə əsasən ermənilər və malakanlar, müəyyən qədər də müsəlmanlar, ikincidə isə yalnız müsəlmanlar yaşayırdılar. Şamaxı qəzasında əhalinin əksəriyyəti müsəlmanlardır. Erməni və malakanlar hərəsi 6 kənddə yaşayırlar. Həm şəhərli və həm də kəndlərdən olan müsəlmanlar ermənilərlə və malakanlarla keçmiş zamanlardan sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, onları incitməmiş, daim mehriban qonşuluq əlaqələri saxlamağa çalışmışlar. Hətta 1905-ci ildə Zaqafqaziyanın bir çox şəhər və kəndlərində ermənilərə qarşı çıxış ediləndə də Şamaxı şəhəri və Şamaxı qəzasında müsəlmanlar ermənilər üzərində zorakılıq etməmiş, onlara qarşı düşmənçilik hərəkətləri törətməmişdir. Buna baxmayaraq Şamaxı şəhəri və Şamaxı qəzasının erməniləri həmin vaxtda zərər çəkmiş erməni qardaşları ilə həmrəylik xətrinə müsəlmanlara qarşı gizlində düşmənçilik hissi bəsləyir və 1905-ci ildə incidilmiş ermənilərin heyfini çıxmaq üçün əlverişli məqam gözləyirmişlər. 1918-ci il martın 18-də qaliblər kimi şəhərin müsəlman hissəsinə soxulan ermənilər qışqırırmışlar: "Biz bu günü on iki ildir ki, gözləmişik. Bu Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndi sizə heç kim kömək etməyəcək. Köməyə siz özünüzün müqəddəs Həzrət Abbasınızı çağırın".

Həkim Sazanov 1918-ci il martın 19-u gecəsi Şamaxıda erməniləri müsəlmanlar üzərində rəhmsiz zorakılıqlar işlətməkdə günahlandırdıqda o, ermənilərdən belə bir cavab almışdır: "Müsəlmanlara heç bir rəhm etmək yoxdur, onların hamısı məhv edilməlidir".

Şamaxıda azərbaycanlılara qarşı ermənilərin düşmənçilik hərəkətləri hələ birinci dünya müharibəsi başlandığı vaxtlardan özünü büruzə verməyə başlamışdır. Azərbaycanlılara qarşı onlar özlərini çox təkəbbürlü aparır, onların milli və dini heysiyyətlərini açıqca təhqir edirdilər. 1917-ci il fevral çevrilişindən sonra ermənilər daha cəsarətlə hərəkət etməyə başlayırlar. Ermənilər çar hakimiyyəti orqanlarının yerli komandası oradan getdikdə gizli surətdə silah anbarını ələ keçirib bu haqda nə qəza komissarına, nə də yerli müsəlman Milli Şurasına heç bir məlumat verməmişdilər. Onlar ermənilərdən və malakanlardan ibarət hərbi qarnizon təşkil edib

oraya müsəlmanları buraxmamışlar. Azərbaycanlılar qarnizona girməyə nail olduqda isə erməni əsgərləri onlara qarşı düşmənçilik edir, onları təhqir edir və incidirdilər. Elə bu vaxtlar ermənilər öz kəndlərinə müxtəlif yollarla silah və sursat gətirib, sürətlə silahlanmağa başlayırlar. Silahı əsasən cəbhədən qayıdan əsgərlər gətirirdilər. Onların hərəsi özü ilə bəzən üç tüfəng gətirmişlər. Ermənilərin bu hərəkətləri azərbaycanlıları bərk vahiməyə salır. Həm Şamaxı şəhərində, həm də qəzanın kəndlərində azərbaycanlılar görürdülər ki, ermənilər onlara qarşı sürətlə silahlanırlar. Müsəlmanlar bütün qüvvələrini sərf edirdilər ki, ermənilərlə dil tapsınlar və yaxınlaşmaqda olan qırğının qarşısını alsınlar. Altdan-altdan sürətlə silahlanan ermənilər üzdə özlərini elə göstərirdilər ki, guya müsəlmanlara qarşı heç bir düşmənçilik hissləri bəsləmirlər. Şamaxı şəhərindən 6 verst aralı Mədrəsə erməni kəndində gizli surətdə Zaqafqaziyanın digər qəzalarından erməni əsgərləri toplanmağa başlayırlar. Martın birinci yarısında məlumat alınır ki, Bakıdan Şamaxıya böyük miqdarda hərbi sursat, top və pulemyotlarla silahlanmış üç minədək Bakıdakı bolşevik hakimiyyəti adından erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və ermənilərdən ibarət nümayəndə heyəti göndərilir. Nümayəndə heyətinin dəstə ilə görüşü malakan kəndi Qozlu-Çayda (Xilmili) olur. Dəstəyə silahı Şamaxı qarnizonuna təhvil vermək təklif olunur. Onlar bundan qəti imtina edir və bildirirlər ki, onların başlıca məqsədi Şamaxı qəzasının quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdir. Dəstənin rəhbərləri Şamaxı şəhərindən yan keçərək Mədrəsə kəndinə gedəcəklərinə söz verirlər. Martın 15-də dəstə Şamaxının yanından keçərkən şəhərin kənarında öz evlərini qoruyan müsəlmanlar dəstənin şəhərə hücum etdiyini güman edib atəş açırlar. Dəstə də cavab atəşi açır. Tezliklə bütün şəhəri atışma bürüyür. Bu atışma nəticəsində hər iki tərəfdən tələfat olur. Lakin axşama yaxın şəhərdə tam sakitlik yaradılır. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün millətlərin və onların ruhanilərinin nümayəndələri bir yerə yığışaraq and içirlər ki, sülh şəraitində yaşayacaq və qayda-qanunu pozmayacaqlar. Bunu eşidən Kürdəmir kəndi sakinlərin müsəlmanları incitməməyi ermənilərdən xahiş etmək üçün Şamaxıya gəlmiş, erməni rəhbərlərinə müsəlmanlarla sülh şəraitində yaşamağı təklif etdikdə və erməni yepiskopunun verdiyi andı xatırlatdıqda ermənilərdən bu cür cavab almışlar: "Müsəlman ruhaniləri erməni ruhaniləri ilə barışa bilər, lakin erməni xalqı müsəlmanlarla müharibə istəyir və bu işdə onu İngiltərə müdafiə edəcək".

1918-ci il mart ayının 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlı sakinləri top atəşlərinin sədaları altında oyanırlar. Evlərindən çıxarkən görürlər ki, şəhər cənubdan ermənilər, şimali-şərqdən isə malakanlar tərəfindən mühasirə olunub. Şəhərin tamamilə azərbaycanlılardan ibarət aşağı hissəsi top və pulemyot atəşlərinə tutulur, şəhərin yuxarı hissəsində yaşayan ermənilər isə azərbaycanlılar yaşayan məhəllələri tüfənglərdən atəşə tuturlar. Bu hücum müsəlmanlar üçün tam gözlənilməz idi. Yuxarıda qeyd etdiyimiz kimi ondan bir gün əvvəl erməni yepiskopu Baqrat və malakanların nümayəndəsi Karabanov Xaç və İncil qarşısında azərbaycanlılarla sülh və qardaşlıq şəraitində yaşayacaqlarına və heç vaxt onlara qarşı silahlı çıxış etməyəcəklərinə and içərək söz vermişdilər. Əvvəlcədən müdafiəyə hazırlaşmamış azərbaycanlılar əvvəlcə müdafiə olunmağa təşəbbüs edirlərsə də, lakin top və pulemyot atəşləri altında dayana bilməyib geri çəkilirlər. Ermənilər və malakanlar həmləyə başladıqlarından bir neçə saat sonra artıq şəhərin azərbaycanlılar yaşayan və şəhərin erməni hissəsi ilə sərhəd olan "Piran-Şirvan" bölməsinə soxula bilirlər. Onlar öz hərəkətləri zamanı hər addımları azərbaycanlıların evlərinin talan edilməsi, yandırılması və mülki əhalinin qəddarlıqla qətlə yetirilməsi ilə müşahidə olunurdu. Şəhərin ən abad, varlı və tanınmış müsəlmanlarına məxsus evlərinə od vurulurdu. Ermənilərin qarət və yandırdığı evlər arasında Şıxıyevlərin, Həsənovların, Cəbrayılovların, qəza müftisinin, Hüseynbəyovun, Əlimirzəyevin, Əfəndiyevin, Babayevlərin, Məhərrəmovların, Veysovlarm, Böyük bəy Hüseynovun, Hacı Vahab Ələkbərovun və başqalarının mülkləri də var idi. Ermənilər və malakanlar yandırılmış evlərdən çıxıb qaçan kişi, qadın və uşaqları güllələyirdilər. Ermənilər evlərə soxulur, onların sakinlərini qətl və qarət edir, sonra isə yandırırdılar. Gecə müsəlmanlar təslim olmaq barədə qalib ermənilərin yanına nümayəndələr göndərir və sülh xahiş edirlər. Lakin atəş dayandırılmır. Yanğınlar bütün bölgəyə yayılır və o biri günün səhərinə qədər şəhərin bu ən zəngin məhəlləsindəki evlərdən yalnız xarabalıqlar qalır. Yandırılmış evlərdən qaçaraq canını qurtarmaq istəyən sakinlərin - kişi, qadın və uşaqlığına heç bir fərq qoymayan ermənilər onları açıqcasına, yaxud tinlərdən atəşə tuturlar. Adamları evlərdə, həyətlərdə, küçələrdə qətlə yetirirlər. Şəhərin küçələrində meyitlərdən qalaqlar yaranır. Ermənilər azərbaycanlı əhalinin qətlini eşidilməmiş və ağıla sığmaz qəddarlıq və işgəncə ilə həyata keçirirdilər. Öldürmək və evlərini yandırmaq hədəsi ilə ermənilər azərbaycanlılardan onların pul və qiymətli şeylərini alır, lakin çox vaxt pul və qiymətli şeyləri vermələri belə azərbaycanlıları ölümdən və evlərini yandırılmaqdan xilas edə bilmirdi. Küçələrdə əzab verilərək öldürülmüş qadınların meyitləri atılıb qalmışdı. Onların döşləri kəsilmiş, qarınları yırtılmış və ən çirkin üsullarla təhqir olunmuşlar. Küçələrdə pazlarla diri-diri yerə mıxlanmış uşaq meyitləri də atılıb qalmışdı. Azərbaycanlıların evlərindən qarət və talan edilmiş əmlak araba və furqonlarla erməni və malakan kəndlərinə daşınırdı. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam edir. Yalnız Gəncədən azərbaycanlı silahlı dəstələrinin Şamaxıya köməyə gəlməsi ilə qorxuya düşən ermənilər və malakanlar Şamaxı qəzasının Qozlu-çay malakan kəndinə çəkilirlər. Azərbaycanlı silahlı dəstələri onları təqib edir. Lakin onlara məlum olur ki, ermənilər və malakanların qüvvələri

onlarınkından qat-qat üstündür. Ona görə də strateji mülahizələrlə dörd gündən sonra azərbaycanlı silahlı dəstələr şəhəri tərk etməyə məcbur olurlar. Gəncədən olan silahlı dəstələrlə Şamaxının demək olar ki, əksər müsəlman əhalisi şəhəri tərk edir. Ancaq çox tələsik olduğu üçün onlar hətta özləri ilə vacib əşyalarını belə götürə bilməyərək onları taleyin hökmünə buraxırlar. Çoxlu şəhər sakini xüsusilə, yoxsullar, xəstələr, qocalar, qarılar və uşaqlar şəhərdə qalır. Gəncədən olan silahlı dəstələr Şamaxını tərk etdikdən bir neçə gün sonra erməni və malakan quldur dəstələri geri qayıdaraq ikinci dəfə Şamaxını tuturlar. Bu dəfə şəhərin talan edilməsi və əhaliyə divan tutulması əvvəlkindən daha böyük qəddarlıq, qəzəb və qaniçənliklə həyata keçirilir. Şəhərdə qalan azərbaycanlı əhali uşaqlar, qadınlar, qocalar da daxil olmaqla tamamilə məhv edilmişdir. Küçələr, həyətlər, evlər, məscidlər meyitlərlə dolu idi. Şəhərdə azərbaycanlıların bütün hərəkət edən əmlakı qarət edilərək erməni və malakan kəndlərinə aparılmışdı. Şəhərin bütün azərbaycanlı hissəsi oda tutulmuşdur. Şəhərdəki bütün məscidlər (on iki məhəllə və təkcə ibadət yeri olmayıb 800 illik tarixi olan böyük arxitektura abidəsi olan "Cümə məscidi"), onların nəzdindəki müqəddəs yerlərlə birlikdə yandırılmışdı. Bir sözlə şəhərin azərbaycanlılar yaşayan bütün məhəllələri tamamilə xarabazarlığa çevrilmiş, bir ədəd də olsa azərbaycanlı evi sağ qalmamışdır.

Ermənilərin Şamaxı şəhərinə birinci və ikinci hücumları zamanı bir neçə min azərbaycanlı qətlə yetirilmişdir. Onların arasında təkcə Şamaxıda deyil, bütün Azərbaycanda tanınmış nüfuzlu şəxslər və ictimai xadimlər də var idi. Onlardan məşhur axund Hacı Cəfərqulunu xüsusi qəddarlıqla öldürmüşlər. Ermənilər əvvəlcə onun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişlər. Ermənilərin qəddarlıqla öldürdüyü şəhərin nüfuzlu azərbaycanlı şəxsiyyətləri arasında şəhər hakimi Teymur bəy Xudaverdov, birinci dövlət dumasına Şamaxıdan deputat seçilmiş Məmməd Əliyev, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül Xəlil Əhmədov, Hacı Əbdül Hüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seyidov, Hacı İbrahim Salamov, Ağa Əhməd Əhmədov, Hacı Əbdül-Qasım Qasımov, Əyyubağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyəddin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu, onun arvadı və oğlu və bir çox başqaları da var idi.

Ermənilər xilas olmaq üçün Hacı axund Cəfərqulunun evinə və həyətinə pənah gətirmiş çoxlu qadın və uşaqları da öldürmüş və ya diri-diri yandırmışlar. Hacı axundun tamamilə yandırılmış evinin həyətində fövqəladə təhqiqat komissiyasının üzvləri çoxlu xırda insan sümükləri aşkar etmişlər. Meyitlərin iri sümüklərini isə türklər 1918-ci ilin yayında erməniləri Şamaxıdan qovarkən yığıb basdırmışlar. Komissiya üzvlərinin 1918 - ci ilin oktyabr-noyabrında bu barədə hazırladığı məruzədə qeyd olunurdu ki, həyətdə hələ indi də çürümüş meyitlərin iyi qalmaqdadır. Habelə yandırılmış digər evlərin və məscidlərin həyətlərində çoxlu yanmış insan sümükləri də aşkar edilmişdir.

Məruzədə göstərilirdi ki, bir neçə məscidin, evin və mağazaların xarabazarlıqlarının, habelə insan sümüklərinin 45 ədəd foto şəkilləri də çəkilmişdir. Fövqəladə təhqiqat komissiyasının digər məruzələrindən birində deyilirdi ki, erməni hərəkatının rəhbərlərindən biri Bakıda öz tanışları qarşısında lovğalanaraq demişdir ki, Şamaxı hadisələri zamanı bu şəhərdə 10 nəfər müsəlman qızını əvvəlcə zorlamış, sonra isə onları öz şəxsi tapançası ilə güllələmişdir. (ARDSPİHA: f. 227, siy. 2, iş 16, vər. 18). Məruzədən aydın olur ki, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan orta hesabla bir milyard manatdan çox olmuşdur. Şamaxı şəhərinə hücum, onun dağıdılması, dinc azərbaycanlı əhaliyə - qadına, qocaya, uşağa qəddarcasına divan tutulması yalnız ermənilərin azərbaycanlılara qarşı milli intiqam və milli düşmənçilik hissindən irəli gəlir və ikili məqsəd daşıyırdı. Bir tərəfdən azərbaycanlıları kütləvi surətdə qırmaq, digər tərəfdən isə onların hesabına var-dövlət əldə edib varlanmaq. Şamaxını talan edən erməni quldur dəstələri bu ideyadan ilham alırdılar: Öldürüb talamaq! Talayıb öldürmək!

Şamaxı üzərinə hər iki hücum zamanı yanğınlar, talanlar, qətllər bilavasitə illərlə Şamaxıda sülh şəraitində yaşamış, azərbaycanlılardan daim hörmət görmüş nankor yerli ermənilərin rəhbərliyi ilə daşnaklar tərəfindən əvvəlcədən hazırlanmış plan üzrə həyata keçirilmişdir. Bu əməliyyatlara Stepan Lalayev, Qavril Karaoğlanov, Arşak Gülbəndiyan, Mixail Arzumanov, Karapet Karamanov, Sedrak Vlasov, Samvel Doliev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Avanesov, Şuşalı Aqamalov və b. rəhbərlik etmişdir. Rəhbərlik etməklə yanaşı bu şəxslər quldur dəstələrinin digər üzvləri ilə birlikdə və onlarla bərabər azərbaycanlı evlərini yandırmaq, talan etmək və dinc əhalinin qətllərində də bilavasitə iştirak etmişlər. Yüzlərlə şahidlər və zərərçəkənlər dindirilərkən bu qatillərin adlarını çəkmiş, qətl və qarətdə bilavasitə iştirak etdiklərini təsdiq etmişlər. Onlar yerli ermənilərdən keçmiş qəza rəisinin müavini Qavril Karaoğlanovun, keçmiş Şamaxı poçta-teleqraf kontorunun rəisi Arşak Gülbəndiyanın, Şamaxı erməni kilsəsinin hamiktikoru Mixail Arzumanovun, Şamaxıda məşhur tacir E. İvanyantsın, dəllək Samvel Doliyevin və b. bu hadisələrin şəxsən iştirakçısı və icraçısı olduqlarına şəhadət vermişlər.

Toplanılmış çoxlu əşyavi-dəlillər, zərərçəkənlərin və şahidlərin ifadələri əsasında fövqəladə təhqiqat komissiyasının üzvü A. Novatski həmin komissiyanın sədrinin adına yazdığı məruzədə dinc azərbaycanlı

əhaliyə qarşı eşidilməmiş cinayətlər törətmiş həmin şəxslərə qarşı cinayət işi qaldırmağı təklif edir. (Bax: ARDA. f. 1061, siy. 1, iş 108, vər. 10).

1919-cu il iyul ayının 12-də Azərbaycan Cümhuriyyəti hökuməti yanında Fövqəladə təhqiqat komissiyası Şamaxı şəhərinin dağıdılması və bu şəhərin azərbaycanlı əhalisi üzərində zorakılıq halları barədəki təhqiqat işi haqqında komissiyanın üzvü A. Novatskinin məruzəsini dinləyərək şahidlərin və zərərçəkənlərin ifadələri, törədilmiş cinayətlərin təhqiqi, yandırılıb dağıdılmış yerlərə baxış və s. əsasında Şamaxı şəhərində törədilən cinayətlərdə əslən Şamaxıdan olub Bakı şəhərində yaşayan Stepan Lalayevin, Şamaxı şəhərinin sakinləri Qavril Karaoğlanovun, Arşak Gülbəndiyanın, Mixail Arzumanovun, Karapet Karamanovun, Armenak Martirosyantsın, Aleksandr Xaçaturovun, Mixail Xaçaturovun və başqalarının, cəmi 31 nəfərin Şamaxı qırğınlarının başlıca caniləri olduqları göstərilir. Komissiyanın bu məsələ ilə bağlı qəbul etdiyi qərarda deyilirdi ki, bu cəlladlar Azərbaycan xalqına qarşı ədavət əsasında milli və dini zəmində əvvəlcədən öz aralarında razılaşaraq, bir neçə min nəfər erməni qüvvələrini öz ətraflarında birləşdirərək top, pulemyot, tüfəng, tapança və xəncərlə silahlanaraq öz qarşılarında Şamaxı şəhərində olan azərbaycanlı əhalini qırmaq, əmlaklarını qarət və məhv etmək məqsədi qoymuşdular. Bunun üçün də 1918-ci il martın 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlılar yaşayan hissəsinə hücuma keçirlər. ***Bir neçə gündə bir neçə min dinc azərbaycanlı əhalini - kişi, qadın, uşağı qətlə yetirmişlər. Özü də bu qətllər xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, qətl edilənlərin qolları, qıçları, burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış, qarınları yırtılmış, yandırılmış, çox böyük əziyyətlərlə öldürülmüşlər.*** Ermənilər Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatlıqdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan "Cümə məscidi" yandırılmışdır. Fövqəladə təhqiqat komissiyası bu vandalizmin başlıca təşkilatçıları haqqında cinayət işi qaldırmaq, onları məsuliyyətə cəlb etmək və istintaq işinə başlamaq haqqında qərar qəbul edir. (Bax: ARDA. f. 1061, siy. 1, iş 108, vər. 5).

Şamaxı şəhəri kimi Şamaxı qəzasının nə az, nə çox 86 azərbaycanlılar yaşayan kəndi də ermənilərin xaincəsinə qəfil hücumlarına məruz qalmışlar.

Martın 18-də sübh çağı Şamaxı şəhəri ilə yanaşı, onun 3-4 verstliyində olan Əngəxaran kəndinə də qəfil hücum olur. Müdafiəsiz kəndə soxulan düşmən Əngəxaranda ermənilərin törətdikləri vəhşiliklərlə əlaqədar təhqiqat materiallarında həmkəndlilərinin və şahidlərin ifadələrinə görə tərtib edilmiş siyahılarda bu kənddən ermənilərin böyük işgəncələrlə qətlə yetirdiyi 237 nəfərin adı var. (Bax: ARDA. f. 1061, siy. 1, iş 100, vər. 19 - 24). Əngəxarana soxulan düşmən ermənilər və malakanlar kəndi mühasirəyə alaraq oradakı əhalini qırır, kəndi qarət edir, yandırır və sağ qalan əhalini isə əsir alır. Əsir alınmış Əngəxaran sakinlərinin uşaqları azərbaycanlı kəndi olan Məlhəmə aparılıb orada saxlanılır. 88 kişini isə malakan kəndi Çuxuryurda aparırlar. Kəndə çatmamış onlar əsirləri bağda saxlayaraq bir neçə nəfərini güllələyirlər. Qalan 76 nəfəri isə əsir kimi Mədrəsə kəndində yerləşən erməni qərargahının sərəncamına göndərirlər. Yolda iki nəfəri də güllələyirlər. Mədrəsə kəndinə cəmi 74 nəfər sağ azərbaycanlı gəlib çıxır. Gəncədən gələn silahlı dəstələr Şamaxıya girdikdə Əngəxaran kəndindən olan nümayəndələr Mədrəsəyə aparılmış qohumlarının taleyindən xəbər tutmaq üçün Mədrəsə kəndinə gəldikdə onlar kəndin kənarında əngəxaranlı əsirlərin hamısının öldürüldüyünü və meyitlərinin eybəcər hala salındığını görürlər. Meyitlərin qulaqları, burunları, əlləri və ayaqları kəsilmiş, bir çox ölülərin döşlərində yanıq izləri aşkar edilmişdir. Bu da sübut edirdi ki, hələ onlar sağ ikən ermənilər onların sinələri üzərində od qalamışlar. Bundan başqa dağıdılmış kənddən qaçıb canını qurtara bilmiş Əngəxaran sakinlərinin çoxu aclıqdan, soyuqdan və xəstəlikdən tələf olmuşlar. Komissiyanın məruzəsində göstərilirdi ki, qısa bir vaxtda Əngəxaran əhalisi yarıbayarı azalmışdır.

Respublikamızın dövlət arxivlərində saxlanılan yüzlərlə sənəd Şamaxı qəzasının azərbaycanlı kəndlərində ermənilərin törətdikləri vəhşilikləri də əyani şəkildə ifşa edir. Təəssüflər olsun ki, Şamaxı şəhəri və Şamaxı qəzasındakı qətllər və dağıntılarla bağlı fövqəladə təhqiqat komissiyası tərəfindən aparılan təhqiqat və araşdırma işləri tamamilə başa çatdırılaraq yekun sənədlər və məlumatlar hazırlanmadığı üçün Şamaxı şəhəri və Şamaxı qəzasındakı azərbaycanlı kəndlərinə dəymiş ümumi zərərin miqdarı və öldürülmüş, yaralanmış əhalinin ümumi sayı haqqında əlimizdə dəqiq məlumat yoxdur, Lakin həmin komissiya tərəfindən toplanılmış və əlimizdə olan çoxlu ilkin məlumatlar əsasında Şamaxı qəzasının kəndlərində azərbaycanlılara dəymiş zərər, öldürülən və yaralananlar haqqında hesablamalar aparmaq mümkündür.

1919-cu il aprel aynın 3-də Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyi Şamaxı qəza rəisinin Fövqəladə təhqiqat komissiyasına həmin qəzanın 3 polis sahəsi (Qəbiristan, Mədrəsə və Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı göndərilmişdir. Həmin siyahıya Qəbiristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin) adı daxil edilmişdir. (Bax: ARDA. f. 1061, siy. 1, iş 85, vər. 1-3). Fövqəladə təhqiqat komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatların - şahid ifadələri, zərərçəkənləri dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatlar, ölən və yaralananların siyahısı və s. əsasında ***53* kənd üzrə tərtib**

**edilmiş yekun aktlarında ayrı-ayrı** kəndlər üzrə ölənlərin (o cümlədən kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu kəndlərdən bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir: Nəvahi kəndində cəmi 995 nəfər azərbaycanlı öldürülmüşdür ki, onlardan da 555 nəfəri kişi, 260 nəfəri qadın və 140 nəfəri uşaq idi. Kəndə dəymiş ümumi maddi zərər 60 milyon manat olmuşdur; Yəhyalı kəndində 922 nəfər öldürülmüşdür ki, onlardan da 360 nəfəri kişi, 412 nəfəri qadın və 150 nəfəri uşaq idi, kəndə dəymiş ümumi maddi zərər 22 milyon manat olmuşdur; Qubalı Baloğlan kəndində 553 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 135 nəfəri uşaqlar idi, kəndə dəyən ümumi maddi zərər 90 milyona yaxın olmuşdur; Kalva kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 100 nəfəri uşaq idi, kəndə dəyən ümumi zərər 24 milyon manat olmuşdur; Ağsu kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 200 nəfəri kişi, 300 nəfəri qadın olmuşdur, kəndə dəyən ümumi maddi zərər 36,5 milyon manat olmuşdur; Tircan kəndində 360 nəfər öldürülmüşdür ki, onlardan da 300 nəfəri kişi, 40 nəfəri qadın və 20 nəfər uşaq idi, kəndə dəyən ümumi maddi zərər 21 milyon manata yaxın olmuşdur; Bağırlı kəndində 370 nəfər öldürülmüşdür ki, onlardan da 80 nəfəri kişi, 150 nəfəri qadın, 140 nəfəri uşaqlar olmuşdur, kəndə dəyən ümumi zərər 12,5 milyon manat olmuşdur. Qalan bütün kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır. Bütün aktlar fövqəladə təhqiqat komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişlər. Bu aktlarda olan rəqəmlər üzrə bizim hesablamamıza görə Şamaxı qəzasının ***53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Hesablamamıza görə bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manat olmuşdur***. (Bu məlumatlar üçün bax: ARDA, f. 1061, siy. 2, iş 85, 87, 100 və s.). Dəymiş maddi zərərlər yandırılmış və dağıdılmış yaşayış evləri və digər tikililərin, qovulub aparılmış və ya məhv edilmiş iri və xırda buynuzlu mal-qaranın, oğurlanmış və yandırılmış ev əşyalarının, aparılmış və ya məhv edilmiş kənd təsərrüfatı alətlərinin, taxılın, mal-qara üçün yemin, qırılıb dağıdılmış üzüm, tut və meyvə bağları və s. üzrə hesablanırdı. Ermənilərin azərbaycanlıların evlərinə, mal-qara, əkin sahələrinə münasibətdə törətdikləri hərəkətlər sözün əsl mənasında vandalizmin, vəhşiliyin nümunəsi idi. Onlar tutduqları yerlərdə ilk növbədə evləri qarət edib yandırır, mal-qaranı isə sürüb aparırdılar. Bu vəhşilər mal-qaram sürüb aparmağa imkan tapmadıqda tövlələrə od vurub dilsiz-ağızsız heyvanları belə diri-diri yandırırdılar. Üzüm, meyvə və tut bağlarındakı ağac və meynələri vəhşiliklə doğrayırdılar. Bir sözlə, onlar özlərindən sonra heç nə qoymurdular. Ona görə də Şamaxı şəhərinin və Şamaxı qəzasında ermənilərin dağıdıb məhv etdikləri azərbaycanlı kəndlərinin sağ qalmış əhalisi sözün əsil mənasında dilənçilərə çevrilmiş, Azərbaycanın başqa rayonlarına və Bakı şəhərinə pənah gətirmişlər. Təəssüflər olsun ki, Sovet hakimiyyəti illərində xalqımıza edilmiş bu zülm unudulmuş, Stepan Lalayevə bəraət verilmiş, bu işin əsas təşkilatçısı olan S. Şaumyan o vaxtlar Şamaxı qəzasına daxil olmuş rayonlarda ən əziz adam kimi yad edilmişdir. Onun adına küçələr, kolxozlar qoyulmuş, şəkilləri idarələrimizdə ən görkəmli yerlərdən asılmışdır. Bu unutqanlığımız isə bizə çox baha başa gəldi. Minlərlə say-seçmə oğullarımızı, ərazimizin 20 faizini itirdik, 1 milyon soydaşımız öz ölkəsində qaçqına çevrildi.

***(Paşayev Ataxan. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, səh. 226-239)***

## Quba qırğınları

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il iyul ayının 15-də yaratdığı Fövqəladə Təhqiqat Komissiyası həmin ilin aprel və may aylarında Quba şəhəri və Quba qəzasının kəndlərində S. Şaumyan və G. Karqanovun göndərdikləri erməni daşnak cəza dəstələrinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər haqqında da çoxlu məlumatlar toplamışdır. 5 cilddən ibarət olan bu materiallar arasında zərərdidələrin və şahidlərin dindirilmə protokolları, Quba şəhərinin ayrı-ayrı günlərində yandırılmış və dağıdılmış, evlərə və dükanlara baxış protokolları, Fövqəladə Təhqiqat Komissiyasının üzvü A. Novatskinin və digər şəxslərin hazırladıqları məruzələr, aktlar, şəhərin ayrı-ayrı ailələrinə və sakinlərinə dəymiş maddi zərərin miqdarı barədə siyahılar və s. vardır. (Bax: ARDA. f. 1061, siy. 1, iş 95-98). Bu cildlərdəki qarət edilmiş əşyaların siyahıları arasında daha çox xalça və qızıl əşyaların siyahısı nəzəri cəlb edir.

Ermənilərin kütləvi surətdə yaşamadığı, demək olar ki, onların barmaqla sayıldığı Quba şəhərində bu hadisələr necə baş vermişdi? Ermənilər xalqımıza qarşı belə bir vəhşilikləri necə törədə bilmişlər?

Əvvəla onu qeyd edək ki, Fövqəladə Təhqiqat Komissiyasının üzvü A. Novatski 1918-ci ilin dekabrın 11 - də həmin ilin may ayında Quba şəhərinin S. Şaumyanın göndərdiyi daşnak quldur dəstələri tərəfindən dağıdılmasına qədər şəhərin ümumi vəziyyətinə aid Quba şəhər rəisi Ə. Əlibəyova sorğu göndərir. Şəhər rəisi isə özünün həmin il 12 dekabr tarixli cavabında bildirirdi ki, Hamazaspın erməni cəza dəstələri tərəfindən dağıdılana qədər Quba şəhərində təxminən 20 minə yaxın əhali və 10 minə yaxın ev olmuşdur. Daşnakların Quba şəhərinə hücumu 1918-ci il may ayının 1-də başlamış və onların azğınlıqları doqquz gün davam etmişdir. Bu müddət ərzində Quba şəhərində azərbaycanlılara məxsus 200-ə yaxın ev tamamilə dağıdılmış və yandırılmışdı. Ən çox dağıntı Bazar, Bulvar, Komendant və A. Bakıxanov kimi mərkəzi küçələrdə törədilmişdir. Onun verdiyi məlumata görə bu hadisələrə qədər Quba şəhərində dağınıq şəkildə cəmisi 500 nəfərə yaxın erməni yaşamışdır. (Bax: ARDA. f. 1061, siy. 1, iş 96, vər. 1-2).

Burada Ə. Əlibəyovun izahatındakı bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır. Bir tərəfdən bu o illər kommunist libası geymiş erməni daşnaklarının azərbaycanlılara qarşı bir neçə yerdə həyata keçirdiyi tamamilə əvvəlcədən planlaşdırılmış tədbirlə necə də uzlaşır. Digər tərəfdən isə 1988-ci ildə Sumqayıt hadisələri zamanı pullu ermənilərin öz pullarının əmanət kassalarından çıxarması və Sumqayıtı tərk etmələri ilə necə də oxşarlıq təşkil edir.

Əli Abbas bəy izahatında bildirirdi ki, mən fikir verirdim, bu il mart ayının əvvəllərindən çoxlu Quba erməniləri özlərinin daşınan və daşınmayan əmlaklarını sataraq çıxıb gedirlər. Məsələn, Aleksandr Melikov, Cavad Poqasov, Mirzə Parseqov, Maqaks Poqasov, Artaşet Məlikov, Nerses Surumov və b. Mən Aleksandr Melikovdan və Bağdasarovdan soruşduqda ki, nə səbəbə onlar əmlaklarını sataraq belə tələsik çıxıb gedirlər. Onlar mənə dedilər ki, "Sizinlə bizim aramızda nə isə gözlənilir. Ona görə komitə bizi geri çağırır". (Bax: ARDA. f. 1061, siy. 1, iş 96, vər. 38). Deməli həmişə olduğu kimi varlı ermənilər yenə də vaxtında Quba şəhərini tərk ediblərmiş.

Bəs Quba hadisələri necə başlamışdı?

1918-ci ilin aprel ayında Bakı şəhəri və Bakı quberniyasının bir hissəsində hakimiyyət bolşeviklərin əlində olduğu vaxt bolşevik partiyasının nümayəndəsi David Qolovani Qubaya gəlir. 1918-ci il dekabrın 21-də A. Novatski tərəfindən dindirilən D. Qolovani bildirmişdi ki, mən əqidəli sosial-demokrat menşevikəm, öz siyasi əqidəmə görə sürgün edilmişdim. Fevral inqilabından sonra azad olundum və Moskvada tibbi təhsil alırdım. 1918-ci ilin əvvəllərində Qafqaza gəldim və qohumlarının evində qonaq idim. Rusiyaya qayıtmaq istədikdə Qudermesdə baş vermiş hadisələrə görə Moskva ilə dəmiryol əlaqəsi kəsildiyi üçün gedə bilmədim. Bakıda işsiz qalmışdım. Burada isə hakimiyyət bolşeviklərin əlində idi. Bolşevik rəhbərlərindən biri olan A. Çaparidze mənə milisdə işləməyi təklif etdi və mən həmin təklifi qəbul etdim. Bakıda baş vermiş mart hadisələrindən sonra mənə Qudermes stansiyasına qədər dəmiryol hərəkətinin bərpa edilməsinin təşkili tapşırıldı. (ARDA: f. 1061, sıy. 1, iş 96, vər. 62). O bildirir ki, mənə tapşırılmış əsgərlərdən ibarət eşelonun parovozunda yola düşdüm və yol boyu müsəlman əhali silahlı əsgərlərdən ibarət eşelonun gəldiyini eşidib öz kəndlərini tərk edərək qaçırdılar. Mən müsəlmanları dayandıraraq qorxu və qaçmaq üçün bir əsas olmadığını onlara başa salırdım. Onun bildirdiyinə görə eşelonda 2000-ə yaxın əsgər var idi. Onlar əsasən ruslar və ermənilərdən ibarət idi. Eşelon Xaçmaz stansiyasına çatdıqda burada iki erməni eşelona minərək əsgərlər, xüsusilə erməni əsgərləri arasında Qubada ermənilərə qarşı repressiya siyasəti həyata keçirildiyi haqqında təbliğat aparmağa başladılar. Guya bu repressiya siyasətini azərbaycanlı bəylər həyata keçirmişdilər. Eşelonda olan erməni əsgərlər həyəcana gələrək, hücum edib Quba şəhərini dağıtmağı təklif edirlər. (Yenə orada, vər. 62). D. Qolovani bildirirdi ki, mən və komissar əsgərləri güclə saxlaya bildik və məlumat aldıq ki, qubalılar bizimlə danışıqlar aparmaq üçün nümayəndə heyəti göndəriblər.

Bu məsələ haqqında Quba şəhər rəisi Ə. Əlibəyov isə Fövqəladə Təhqiqat Komissiyasına 1918-ci il 15 dekabr tarixli ifadəsində bildirmişdi ki, aprel ayında kimsə Xaçmazdan xəbər verdi ki, oraya bolşevik silahlı dəstələri gəlib və Quba şəhərinə hərəkət etmək niyyətindədirlər. Biz qubalılar Xaçmaza bolşeviklərin yanına nümayəndə heyəti göndərdik ki, öyrənək nə məqsədlə Qubaya gəlmək istəyirlər. Nümayəndə heyəti qayıdıb xəbər gətirdi ki, bolşeviklər Quba şəhərini və Quba qəzasını Sovet hakimiyyətinə tabe etdirmək və burada qayda-qanun yaratmaq üçün gəliblər. Eyni zamanda onlar nümayəndə heyətinə bu məsələləri aydınlaşdırmaq üçün Bakıya bolşeviklərin yanına nümayəndə heyəti göndərməyi də məsləhət görmüşdülər. Ertəsi gün bolşevik D. Qolovani, Qubalı müsəlman qatı bolşevik Mir Cəfər Bağırovla bərabər Qubaya gəldilər. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 34). Ə. Əlibəyovun sözlərinə görə D. Qolovani qubalılarla söhbət zamanı bildirir ki, bolşeviklər Qubaya gəliblər ki, yerindəcə aydınlaşdırsınlar burada Sovet hakimiyyəti lazımdır ya yox və müəyyən ediblər ki, lazımdır. (Bax: yenə orada).

D. Qolovani isə bu məsələni belə izah edirdi: "Eşelon Qubaya hücum əvəzində bitərəf şəxs kimi məni Qubaya 2 saat müddətində Sovet hakimiyyətini tanımaq ultimatumu ilə göndərmək qərarına gəldi. 3 nəfərdən ibarət nümayəndə heyəti yanına gələrək bəyan etdilər ki, qubalılar bolşevik hakimiyyətini tanıyır və onun tələblərinə əməl edəcəklər. Mən Qubaya gəldim və qubalılardan tələb etdim ki, 2 saata mənə cavab versinlər. Sovet hakimiyyətini tanıyırlar, ya yox? Onlara dedim ki, təklifi rədd etsəniz, gələcəkdə hadisələrin gedişi barədə Sizə təminat verə bilməyəcəyəm. Qubalılar sünni və şiə məzhəb din xadimlərini yığdılar və din xadimləri bolşevizmin şəriət qanunlarına zidd olmadığı üçün Sovet hakimiyyətinə tabe olduqlarını bildirdilər. Bu haqda mən Xaçmazda eşelonun komissarına da məlumat verdim. Bir neçə müddət Qubada qaldım. Qubalılar məndən Qubaya əsgərlərdən ibarət dəstə göndərməyimi xahiş etdilər. Çünki elə qüvvələr var idi ki, onlarla mübarizə apara bilmirdilər... Mən Bakıya teleqram vurdum ki, ***qubalılar burada qayda-qanun yaratmaq üçün Qubaya silahlı dəstə göndərməyi xahiş edirlər.*** Mənə cavab verildi ki, artıq dəstə göndərilib. Həmin dəstəni qarşılamaq üçün mən Xaçmaza getdim və onlarla birlikdə Qubaya gəldik. Dəstədə cəmi 187 nəfər adam var idi. Onlardan 12 nəfər erməni, bir neçə nəfər yəhudi, qalanları isə ruslar idi. Dəstədə familiyasını bilmədiyim erməninin rəhbərliyi altında 2 pulemyot da var idi. Dəstənin bu komandirini bir neçə dəfə mən ara qarışdırma hərəkətlərdən daşındıra bildim. (Bax: ARDA. f. 1061, siy. 1, iş 96, vər. 62).

Bu məsələ haqqında Quba şəhərinin nüfuzlu şəxslərindən olan Hacı İsmayıl Orucov isə 1918-ci il dekabrın 12-də verdiyi izahatda demişdi: "Yaz aylarında gecə, vaxtını dəqiq deyə bilmərəm. Quba şəhərinə Xaçmazda olan bolşevik dəstəsinin nümayəndəsi Qolovani gələrək bizdən tələb etdi ki, bolşeviklərin hakimiyyətini qəbul edək. Cavab üçün bizə 2 saat vaxt verdi. Biz isə heç olmazsa 24 saat vaxt verməyi xahiş etdik ki, qonşu kəndlilər ilə bir yerə yığışıb bu məsələni müzakirə edək. Bizim xahişimiz rədd olundu. Qolovani Quba şəhərini və ətraf kəndləri dağıtmaqla hədələdi. Onda Quba şəhəri və ətraf kəndlərin əhalisi Sovet hakimiyyətini tanıdıqlarını elan etdilər. Nisbətən uzaq kəndlər bolşeviklərə tabe olmaqdan imtina etdilər. 2 gündən sonra 200 - 300 nəfərlik bolşevik dəstəsi Quba şəhərinə gəldi. Dəstədə əksəriyyəti ermənilər təşkil edirdi. Ermənilər azərbaycanlılara sataşır, lakin onları öldürmür və qarət etmirdilər. Təxminən 10 gündən sonra yəhudi qəsəbəsi tərəfindən şəhərə yaxınlaşan ləzgi silahlı dəstələri şəhəri zorla tutmuş bolşevikləri qovmaq üçün şəhəri atəşə tutdular. Atışma üç sutka davam etdi. Nəhayət bolşeviklər onlara köməyə gəlmiş böyük silahlı dəstənin mühafizəsi altındı Xaçmaza geri çəkildilər. Ləzgilərsə dağılıb getdilər". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 14).

Quba şəhər rəisi Ə. Əlibəyov Quba şəhəri əhalisinin D. Qolovaninin təkliflərini qəbul etdikdən sonra cərəyan edən hadisələri haqqında öz ifadəsində bildirirdi ki, bundan sonra o, Xaçmaza qayıtdı. Altı gündən sonra isə o, 170 nəfərlik silahlı dəstə və pulemyotlarla yenidən Qubaya qayıtdı. Dəstə ruslar, yəhudilər və ermənilərdən ibarət idi. Özü də axırıncılar çoxluq təşkil edirdilər. Dəstənin başında poruçik Ağacanyan dururdu. O, həm də pulemyotçuların rəisi idi. Qolovani özünü Qubanın qəza komissarı elan etdi. Qubalılar ona tabe oldu və Sovet hakimiyyətini tanıdı. Tezliklə ətraf kəndlərin ləzgiləri şəhərə köməyə gələrək onu bolşeviklərdən azad etmək və bolşevikləri şəhərdən qovmaq üçün şəhəri tüfənglərdən atəşə tutdular. Bolşeviklər pulemyotlarla cavab verirdilər. Erməni bolşeviklər heç cür tabe olmaq istəmirdilər və sonralar aydın oldu ki, onlar kömək gözləyirmişlər. Atışma nəticəsində mülki əhalidən 40 nəfər öldürüldü. Ləzgilərdən isə 200 nəfərə yaxın adam öldürülmüşdü. Üç gündən sonra Xaçmazdan bolşeviklərə 40 nəfərlik dəstə və bir topdan ibarət yeni kömək gəldi. Nəhayət altıncı gün bolşeviklər şəhəri tərk etməyə başladılar. Onlarla bərabər müstəntiqlər Manuylov və Yesmandan başqa bütün rus çinovnikləri və bütün ermənilər də şəhəri tərk etdilər. Geri çəkilərkən Ağacanyanın silahlı dəstələri Bulvar küçəsinə od vurduqları Bazar küçəsində 16 nəfər, komendant küçəsində 7 nəfər və şəhərin kənarında köhnə həbsxananın yanında 35 nəfər azərbaycanlını qətlə yetirirlər... Geri çəkilən bolşevik dəstələri ləzgilər tərəfindən atəşə tutulur. Dəstənin önündə şəhərdən çıxarılmış erməni və rus əhalisi gedirdi. Onların arasında ölən və yaralananlar var idi. Ölənlərdən bəzilərinin meyiti bolşeviklər tərəfindən götürülür. Qalanları isə yerdə qalır. Onların kimlərin bolşeviklərin və ya ləzgilərin atəşi nəticəsində öldürüldüyü məlum deyildi". (yenə orada, f. 1061, siy. 1, iş 96, vər. 35).

D. Qolovani isə bu hadisə barədə belə məlumat verirdi: "Tezliklə dəstəmizin üzərinə ləzgilər və ətraf kəndlərin müsəlmanları (azərbaycanlılar - A. P) hücum etdilər. Qubalılar bizə hücum etmədi. Xaçmazdan köməyimizə poruçik Ağacanyanın başçılığı ilə yalnız ermənilərdən ibarət 150 nəfərlik dəstə və iki top gəldi. O biri gün o, Qubada olan əksəriyyəti ermənilərdən ibarət xristian əhalini şəhərdən çıxarmaq üçün bir yerə yığdı. Biz geri çəkilməyə başladıq. Mən dəstənin önündə gedirdim. Onun (Ağacanyanın - A. P.) əsgərləri köçürdükləri adamları qoyaraq qaçırdılar... Köçürülənlərin bir hissəsi mənim dəstələrim tərəfindən çıxarıldı, bir hissəsi isə Leontev bağı yanında qalaraq, orada ləzgilər tərəfindən məhv edildilər. Biz Xaçmaza oradan isə Dərbəndə getdik. Bir neçə gündən sonra hərbi nazir G. Karqanov Hamazaspın komandanlığı altında 2000 nəfərdən ibarət cəza dəstəsini Qubaya göndərdi". (yenə orada, f. 1061, siy. 1, iş 96, vər. 63).

D. Qolovani dəstələri Qubadan çıxarıldıqdan təxminən iki həftə sonra Quba şəhərinə xəbər çatır ki, Bakıdan top və pulemyotlarla silahlanmış böyük bir ordu hissəsi Quba şəhərinə doğru hərəkət etməkdədir. Ə. Əlibəyovun verdiyi məlumata görə "Aprelin axırlarında həmin silahlı dəstələr Xaçmaz kəndinə çatır. Bu kəndin sakinləri dəstənin qabağını kəsir nəticədə iki gün atışma gedir. Müsəlmanlar daha dəstənin qabağını kəsmək iqtidarında olmadıqları üçün dəstə özünə yol açaraq Quba şəhərinə istiqamət götürür. Yalnız ermənilərdən təşkil edilmiş bu dəstənin başında türklərə qarşı vəhşiliklər törətməkdə ad çıxarmış daşnaksakan Hamazasp dururdu. Onun köməkçisi Nikolay, komissarı isə Venunts idi. Dəstəyə yol göstərən və bələdçi "Dəyirmançı" ləqəbli qubalı erməni Hərtün Hayrapetov idi". (Bax: ARDA. f. 1061, siy. 1, iş 96, vər. 35).

Ə. Əlibəyovun məlumatına görə 1918-ci il may ayının 1-də dəstə üç istiqamətdən şəhərə daxil olur. Dəstədə dörd top və səkkiz pulemyot var idi. Şəhərə daxil olan daşnak dəstələri çox amansızlıqla dinc əhalinin öldürülməsi və var-dövlətlərinin talanı işinə başlayır. Təkcə birinci gün şəhərin aşağı hissəsində 713 nəfər azərbaycanlı öldürülür ki, onların da əksəriyyəti qadın və uşaqlar idi. Böyük Şosse və Bazar küçələrindəki evlər qarət edilir. Hamazaspın silahlı dəstələri şəhəri dörd hissəyə bölərək hər bir hissədə ayrıca qərargah yaradırlar. Birinci qərargah Leontev bağının yanında, ikinci qərargah erməni kilsəsinin ərazisində, üçüncü qərargah müsəlman qəbiristanlığının yaxınlığındakı yüksəklikdə, dördüncü - mərkəzi qərargah isə yəhudi qəsəbəsi hündürlüyündə yaradılmışdır. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 35).

Ermənilərin Qubada azğınlığı doqquz gün davam edir. Hücumun ikinci günü şəhərin birinci və ikinci hissəsində onlar 1012 nəfər azərbaycanlını qətlə yetirirlər ki, onların da böyük əksəriyyəti şəhərin yoxsul əhalisi və İrandan iş dalınca gəlmiş kişilər idi. Talanlarsa heç cür səngimirdi.

Qırğın və talanların üçüncü günü Quba şəhər rəisi qubalıların nümayəndəsi kimi Hamazaspın yanına gedərək xahiş edir ki, heç olmazsa küçə və evlərdə atılıb qalmış ölülərin dəfn olunmasına icazə versin. Hamazasp bundan imtina edir və ata minərək Ə. Əlibəyovla bərabər qərargahından şəhərə gəlir. Burada o, Əli Abbas bəyin iştirakı ilə əsgərlərə müraciət edərək qətl və talanları qurtarmaq haqqında öyüd-nəsihət verməyə başlayır. Ə. Əlibəyov öz izahatında bildirirdi: "Bu öyüd-nəsihət mənə belə gəldi ki, səmimi deyildi və əsgərlər onu (yəni Hamazaspı - A. P.) əks mənada başa düşməli idilər". (yenə orada vər. 35).

Ə. Əlibəyov öz izahatından sonra bildirir ki, Hamazasp məscidin yanındakı meydana gələrək orada toplaşmış müsəlmanlara müraciətlə dedi: "Mən əslən Ərzurumdanam. Uzun müddət türklərlə vuruşmuşam. Mən erməni mənafelərinin müdafiəçisiyəm. Mən Sovet hökuməti tərəfindən cəza dəstəsi ilə buraya göndərilmişəm ki, burada sizdən iki həftə bundan əvvəl burada öldürülmüş ermənilərin qisasını alım. (O, əlini üzərində toplar dayanmış dağa tərəf tutaraq) sizin müsibətiniz o vaxt başlayacaq ki, mən sabah o dağa qalxım. Sabah mən o dağa qalxaraq şəhəri topa tutduracaq və yer ilə yeksan edəcəyəm. Hazırda mənim Didax və Alpan kəndlərində döyüşlərim gedir. Sonra Uç gün və Kilit kəndlərinə keçərək sizləri odlara yaxacaq və Şahdağa çatacağam. Onda başa düşərsiniz ki, erməniləri öldürmək nə deməkdir. Mən buraya qayda-qanun yaratmaq və Sovet hakimiyyəti qurmaq üçün deyil öldürülmüş ermənilərin qisasını almaq üçün göndərilmişəm". (yenə orada vər. 35-36).

Hamazaspın erməni daşnak dəstələrinin Quba şəhəri və ətraf kəndlərdə törətdiyi vəhşiliklər Fövqəladə Təhqiqat Komissiyasının üzvü A. Novatskinin rəhbərlik etdiyi qrup tərəfindən ümumiləşdirilmiş məruzədə də öz əksini tapmışdır. (Bax: ARDA. f. 1061, siy. 1, iş 95). Məruzədə deyilirdi ki, erməni silahlı dəstələrinin şəhərə daxil olması müsəlman əhalinin kütləvi surətdə qətli və onlar üzərində hər cür zorakılıq halları ilə müşayiət olunurdu. Ermənilər küçələrdə əllərinə keçən kişi, qadın və uşaqları amansızlıqla qətlə yetirdilər. Evlərə soxularaq südəmər uşaqlara belə rəhm etmir, onları analarının qucağındaca qılıncla doğrayırdılar. A. Novatskinin məruzəsində deyilirdi ki, Kərbəlayı Məhəmməd Tağı oğlunun on dörd nəfərdən ibarət ailəsi bu cür qəddarlıqla qətlə yetirilmişdi. Məhəmməd Rəsul Mahmud oğlunun üç uşaq və arvadından ibarət bütün ailəsi ağır işgəncələrlə öldürülmüşdür. Onun özünün diri-diri qarnını yırtmış, gözü qabağında üç uşağının başını kəsmişdilər. Hacı Dadaş Bala Qasım oğlu arvadı Məşədi Bibixanım və oğlu Əbdül Qasımla öz evlərində öldürülmüş və yandırılmışlar. Kərbəlayı Abuzər Məstan oğlunun iki qızı - Hökümə və Buta analarının qucağındaca xəncərlə doğranmışlar. Belə faktlar məruzədə və onun üçün toplanmış materiallarda onlarladır. Məsələn, erməni əsgərləri şəhərin hörmətli ağsaqqallarından olan Əli-Paşa Kərbəlayı Məhəmməd oğlundan tələb edirlər ki, kef çəkmək üçün onlara müsəlman qadın və qızları tapıb gətirsin. Təbiidir ki, Əli-Paşa

Kərbəlayı Məhəmməd oğlu bundan imtina edir. Əmrlərinin yerinə yetirilmədiyini görən erməni cəlladları onu və oğlunu vəhşicəsinə qətlə yetirirlər. Erməni vandalları əvvəlcə atasının gözü qabağında oğlunun gözlərini çıxarır, üzünü ülgüclə doğrayır, sonra isə canını tapşırana qədər süngü ilə dəlik-deşik edirlər. (Bax: ARDA. f. 1061, siy. 1, iş 95, vər. 6).

Qubanın nüfuzlu şəxslərindən Hacı İsmayıl Orucov öz ifadəsində bildirdi ki, Qriqori adında bir nəfər erməni öz evini Qubada Molla Şahbalı adlı bir nəfərə satmışdı. Qriqorinin adını bilmədiyim oğlu evi satmağın əleyhinə idi. Ermənilər Qubanı tutduqda Hamazaspın dəstəsində olan Qriqorinin həmin oğlu Molla Şahbalını qəddarlıqla qətlə yetirmişdi. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 16).

Quba şəhər rəisi Ə. Əlibəyov öz ifadəsində bildirdi ki, "Zorakılıqlar, qətllər və qarətlər doqquz gün davam etdi. Mən yenidən Hamazaspın yanına gedərək heç olmazsa ölülərin cəsədlərinin yığılaraq torpağa tapşırılmasına icazə verməyi xahiş etdim. Adı çəkilən Hartün Hayrapetov mənim iştirakımla ona məruzə etdi ki, (məruzə zamanı mən də iştirak edirdim və erməni dilini bildiyim üçün nə dediyini başa düşürdüm) şəhərdən Nikolay pulu ilə nəğdi 3 milyon manat yığılıb, 6 milyon manatlıq qızıl və qızıl qadın bəzək əşyaları toplanıb, hər öldürülmüş erməni üçün 200 müsəlman öldürülmüş, hər zorlanmış erməni arvadı üçün 70 müsəlman arvad və qızı zorlanmış, ermənilərdən müsadirə olunmuş əşyalar geri alınmış, 90-a yaxın ev yandırılmışdır. Hayrapetov məruzəsini belə yekunlaşdırdı: "İş tamamlanmışdır, artıq bəsdir, gedək". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 37).

Ə. Əlibəyov öz izahatından sonra qeyd edirdi ki, bu vaxt artıq şəhərin hər yerində evlər yanırdı. Təkcə Bazar küçəsində yanan ev və dükanların sayı 16 idi. Mənim gözlərim qarşısında həmin Hartün Hayrapetov və onun 12 nəfərlik artilleriya dəstəsi yarım milyon manatlıqdan yuxarı ərzaq məhsulları - qənd, çay və manufaktura malları olan anbara od vurdu. İlk gündən şəhərdən talanaraq Bağırovun evinə yığılmış mallar H. Hayrapetovun nəzarəti altında arabalara yüklənərək yola salınırdı. Hamazasp dəstələrinin Qubadan çıxarılması ilə əlaqədar bu hadisələrin ilk başlanğıcının səbəbkarı olmuş Qolovaninin izahatı da maraqlıdır. O, bildirmişdi: "A. Çaparidzenin aldığı və mənim keçmiş köməkçim Mir Cəfər Bağırov tərəfindən imzalanmış teleqramda deyilirdi ki, mən (yəni D. Qolovani - A. P.) Qubaya gələrək onları hər tərəfdən yanğınlar, qətl və qarətlər törədən Hamazaspın dəstələrindən xilas edim. Çaparidze mənə tezliklə Qubaya getməyi məsləhət görürdü. Mən geniş səlahiyyətlər alaraq Qubaya gəldim. Hamazaspa tənə ilə müraciət etdim ki, onun dəstələri burada nələr törətmişdi? O və dəstənin komissarı Venunts məni inandırmağa çalışdılar ki, guya onların bu işdə heç bir təqsiri yoxdur, öz aralarında vuruşan sünni və şiə müsəlmanlar bir-birlərini qırmış və şəhəri yandırmışlar". Mən onlara inanmadım və Hamazaspa öz dəstələri ilə şəhəri tərk etməyi təklif etdim. Əvvəlcə o tərəddüd etdi və sonra bildirdi ki, çıxıb gedir. Həqiqətən də Qubada olduğunun onuncu günü bütün dəstəsi ilə çıxıb getdi". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 65).

Maraqlıdır ki, Quba şəhərinin nüfuzlu şəxslərindən olan Hacı İsmayıl Orucov da öz izahatında bu məsələyə toxunmuşdu: "Ermənilərin Quba şəhəri sakinləri üzərində vəhşilikləri on gün davam etmişdir. Gürcülər gəlmiş, ermənilər geriyə - Bakıya qayıtmışdılar. Gürcülər bizimlə sülh şəraitində davranmış və türklər gələnə qədər Qubada qalmışlar". (ARDA: f. 1061, siy. 1, iş 96, ver. 16).

Ermənilərin Qubada törətdikləri vəhşiliklər haqqında Quba şəhər rəisi Ə. Əlibəyov yazırdı ki, ermənilər şəhəri tərk etdikdən sonra mən şəhərə dəymiş zərəri hesablamağa başladım və müəyyən etdim ki, iki minə yaxın müsəlman kişi, qadın və uşaq qətlə yetirilmişdi. A. Novatski də öz məruzəsində Ə. Əlibəyovun məlumatına əsaslanaraq qətlə yetirilmiş azərbaycanlıların sayının iki minə yaxın olduğunu yazırdı. (Bax: ARDA. f. 1061, siy. 1, iş 96, vər. 6). Yuxarıda göstərdiyimiz Hacı İsmayıl Orucov isə öz izahatında bildirirdi ki, "Ölüləri dəfn edən mollanın dediyinə görə, o, 2800 nəfərin cənazəsinin torpağa tapşırıldığını saymışdı". (Bax: yenə orada ver. 15).

A. Novatski Hamazasp dəstələrinin Qubadakı qarətləri barədə verdiyi məlumatları əsasən Ə. Əlibəyovun izahatından götürülmüşdür. Təxmini hesablamalara görə Hamazaspın dəstəsi tərəfindən oğurlanmış əmlak 4 milyon manat nəğdi pul, 4,5 milyon manatlıq brilyant, qızıl, gümüş və digər qiymətli daş-qaş, 25 milyon manatlıq müxtəlif mallar - xalça, ev əşyaları və s. olmuşdu.

Bundan əlavə Hamazaspın dəstələri təkcə Quba şəhərində 105 evi və digər tikililəri tamamilə yandırıb dağıtmışlar ki, bunun da nəticəsində onların sahiblərinə dəyən zərər 100 milyon manatdan yuxarı olmuşdur. (yenə orada, f. 1061, siy. 1, iş 95, vər. 6).

Hamazaspın Qubaya doğru hərəkət edən erməni hərbi hissələri öz yolu üstündə olan bütün azərbaycanlı kəndlərini talan edir, yandırır, dağıdır, qaçmağa macal tapmamış əhaliyə, o cümlədən qadın və uşaqlara aman vermədən qırırdılar. A. Novatskinin məruzəsində göstərilirdi ki, elə hallar olmuşdur ki, azərbaycanlı kəndliləri ağ bayraqla Hamazasp dəstələrinin yanına nümayəndələr göndərib tabe olduqlarını bildirmişlər. Lakin ermənilər bu nümayəndələrə qulaq asmaq istəməyib, onları amansızlıqla qətlə yetirmişlər. A. Novatski komissiyası müəyyən etmişdir ki, ümumiyyətlə Hamazaspın dəstələri tərəfindən Quba qəzası ərazisində 122 müsəlman

kəndi dağıdılmış və yandırılmışdır. Bu kəndlər dağıdılan və yandırılan zaman 60 nəfər azərbaycanlı kişi, qadın və uşaq öldürülmüş və 53 kişi yaralanmışdır. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 8).

Əlimizdə olan digər faktlar göstərir ki, bu Hamazasp dəstələrinin Quba kəndlərində öldürdüklərinin hamısı deyil: Məsələn, yuxarıda dəfələrlə adı çəkilən D. Qolovani öz izahatında bildirmişdi ki, Hamazaspın dəstəsi Qubadan çıxıb gedərkən "Xaçmaza qədər yol boyu 36 nəfər arabaçını qətlə yetirmişdi. Onlardan 5-nin cəsədini mən özüm gördüm". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 65).

A. Novatski komissiyasının məruzəsindən, D. Qolovaninin və Ə. Əlibəyovun məlumatlarından görünür ki, Hamazaspın daşnak dəstələri digər komissarların xəbəri olmadan şəxsən S. Şaumyanın təşəbbüsü ilə Quba şəhərinə həqiqətən də azərbaycanlıları cəzalandırmaq məqsədilə göndərilmişdir. S. Şaumyanın tapşırığı ilə Bakı Xalq Komissarları Sovetinin hərbi komissarı G. Karqanov tərəfindən Qubaya göndərilən təxminən iki min nəfərə yaxın heyəti olan hərbi hissəyə yalnız "Daşnaksutyun" partiyasına mənsub ermənilər daxil edilmişlər. Onlara biləərəkdən komandir türklərə və azərbaycanlılara qarşı öz qəddarlığı ilə ad çıxarmış daşnak cəlladı Hamazasp təyin olunmuşdur. Dəstənin komissarı isə Venunts idi. Bu dəstə öz qarşısında heç bir siyasi məqsəd qoymayaraq özlərini "cəza" dəstəsi adlandırırlar. Onlar qarşısında "Xəzər dənizi sahillərindən tutmuş Şah dağına qədər olan ərazidə yaşayan bütün müsəlmanları Şamaxıda olduğu kimi məhv etmək, onların xanimanlarını isə yer üzərindən silmək məqsədi qoymuşdurlar. (ARDA: f. 1061, siy. l, iş 95, vər. 7).

S. Şaumyanın bu işə şəxsi marağını açıqlamaq üçün Ə. Əlibəyovun izahatına xüsusilə diqqət yetirməliyik. O demişdi: "Hamazaspın erməni dəstələri getdikdən sonra mən nümayəndə kimi bolşeviklərin başçıları Şaumyan və Çaparidzenin yanında oldum ki, öyrənim həqiqətən də Sovetlər Hamazaspın rəhbərliyi ilə Qubaya cəza dəstəsi göndəriblərmi? Silahlı dəstənin Qubada törətdikləri hadisələr barəsində onlara yazılı şəkildə məlumat verdim. Şaumyan sifətində sevinc ifadəsi olaraq məni dinlədi və dedi: ***"Müsəlmanlar (azərbaycanlılar - A. P.) və türklər yüz minlərlə erməni öldürüblər, indi nə olub ki, Qubada ermənilər iki müsəlmanı öldürən kimi müsəlmanlar şikayət edir və göz yaşı axıdırlar".*** (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 38). Bax budur bolşevik cildinə girmiş daşnak xislətli S. Şaumyanın həqiqi sifəti.

A. Novatskinin məruzəsində Hamazaspın "cəza dəstəsində" onun özü, müavini Nikolay və komissarı Venuntsdan başqa daha fəal üzvlərinin adları da sadalanır. Bunlar Quba şəhəri sakinləri - Hartün Hayrapetov, dəllək Cavad, Hartünov, balıq sənayeçisi Avakovun oğlu, tələbə Əmircanov qardaşları, tacir Mirzə Əmircanovun özü və qardaşı uşaqları, meyxanaçı Məlikov, Qriqoninin oğlu Vartan, dəyirman sahibi Mirzəcanın nəvəsi Hərtün, Vartan Avakov, Hərtün Baba oğlu, Aleksandr Mukasyants, Tatevos Yaqub oğlu, Babacan oğlu ilə Hartün Karapet oğlu - iki oğlu və qardaşı oğlu ilə və sair.

Məruzənin yekununda Quba şəhərində və Quba qəzasının 122 kəndində vəhşiliklər törətmiş Hamazaspa, onun müavini Nikolaya, komissar Venuntsa, Hartün Hayrapetova, dəllək Cavada, Avakova, Əmircanova və başqalarına qarşı cinayət işi qaldırmaq təklif olunur. Öldükləri üçün keçmiş komissarlar S. Şaumyan və G. Karqanova qarşı cinayət işi xətm olunması təklifi olunur. (ARDA: f 1061, siy. 1, iş 95, vər. 5-8).

Elə həmin ilin noyabrında göstərilən məruzə əsasında Fövqəladə Təhqiqat Komissiyası, komissiyanın sədri Ə. Xasməmmədovun və komissiyanın digər üzvlərinin imzası ilə yuxarıda göstərilən şəxslərə qarşı cinayət işi qaldırılması haqqında qərar qəbul etmiş. Onların işləri 1920-ci il yanvarın 29-da Bakı dairə məhkəməsinin prokurorluğuna göndərilmişdir. (Bax: göstərilən iş vər. 9-11).

1920-ci il yanvar ayının 11-də Azərbaycan Xalq Cümhuriyyətinin Böyük dövlətlər tərəfindən de-fakto tanınması ilə əlaqədar olaraq Cümhuriyyət Parlamentinin həmin il fevralın 9-da qəbul etdiyi qanunun ikinci maddəsinə görə həmin qanun qəbul olunana qədər millətlərarası düşmənçilik zəminində törədilmiş cinayətlərə xitam verildiyi elan olunur və bu işlərin istintaqının dayandırıldığı elan olunurdu.

Həmin ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti süqut etdikdən sonra onun qəbul etdiyi bütün qanunları ləğv edən bolşevik hökumətinin məhkəmə orqanları 1920-ci il oktyabrın 10-da Quba qəzası məhkəməsinin birinci istintaq komissiyası həmin işə yenidən baxaraq Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin həmin il fevralın 9-da qəbul etdiyi amnistiya haqqında qanuna əsasən milli ədavət zəminində qaldırılmış həmin cinayət işinə xitam vermək üçün onu Quba qəza Xalq Məhkəməsinə göndərmiş və həmin işə xitam verilmişdir. (Bax: ARDA. f. 1061, siy. 1, iş 95, vər. 13).

Beləliklə, də cəllad Hamazasp və onun cinayətkar daşnak məsləkdaşlarının Quba şəhəri və Quba qəzası kəndlərində tökdüyü minlərlə azərbaycanlının qanı bu günə qədər də yerdə qalmışdı. Məhz bu haqsızlıqlardan ruhlanan azərbaycanlı qanına susamış erməni daşnakları qaldırdıqları yeni ərazi iddiaları ilə 1988-ci ildən sonra da minlərlə günahsız azərbaycanlını qətlə yetirmiş, bir milyon nəfəri evsiz-eşiksiz qoymuşlar.

***(Paşayev Ataxan. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, səh. 254-268)***

## Qarabağda qırğınlar

1918-1920-ci illərdə ermənilərin ən çox vəhşiliklər törətdiyi Azərbaycan ərazilərindən biri də Qarabağ bölgəsi olmuşdur. Azərbaycanın dilbər guşələrindən olan bu əraziyə ermənilər çoxdan göz tikmişdilər. Hələ XIX əsrin əvvəllərində ruslar erməniləri bu yerə köçürdükdən sonra əsasən gəlmə ermənilər həmişə Azərbaycana qarşı hiylə və məkr yuvası olan erməni məlikliklərindəki ermənilərlə birləşərək xalqımıza qarşı əsl təhlükəyə çevrilməkdə idilər. Həmişə "Yersiz gəldi, yerli qaç" prinsipi ilə hərəkət edən ermənilər çar hakimiyyət orqanlarının onlara qarşı himayəçilik siyasətindən məharətlə istifadə edərək yerli azərbaycanlıları getdikcə sıxışdırmağa başlayırlar. Onların bu hərəkəti XX əsrin əvvəllərindən başlayaraq artıq sistemli şəkil alır və planlı surətdə həyata keçirilməyə başlayır. Ermənilərin azərbaycanlı əhaliyə qarşı münasibətləri daim qeyri-səmimi olsa da, onlar bu hisslərini gizlədərək açıq büruzə vermir, çar hakimiyyət orqanlarında işə girərək altdan-altdan azərbaycanlılara qarşı öz düşmənçilik siyasətlərini yeridirdilər. Ermənilərin bu bölgədə azərbaycanlılara qarşı ilk açıq düşmənçilik siyasətlərini başqa yerlərdə olduğu kimi 1905-1907-ci illər erməni-azərbaycanlı münaqişəsi zamanı göstərdilər.

Ermənilərin "Kiçik Ermənistan" adlandırdıqları Qarabağ torpaqlarına ilk açıq iddiaları Rusiyada çarizmin devrilməsindən sonra başlandı. Rusiyada əvvəlcə fevral inqilabı, sonra isə oktyabr çevrilişindən ermənilər öz ərazi iddiaları üçün məharətlə istifadə etdilər. Onsuz da hələ Birinci Dünya müharibəsi və rus inqilabından əvvəl də kifayət qədər silah əldə etmiş ermənilər vəziyyətdən istifadə edərək daha sürətlə silahlanmağa başlamışdılar. Cəbhələrdən fərarilik edərək qaçan erməni əsgər və zabitləri hesabına Azərbaycan ərazisindəki erməni silahlı quldur dəstələrinin sayı getdikcə çoxalır. Nəticədə özlərində güc və qüvvə hiss edən ermənilər azərbaycanlılara qarşı özlərini çox həyasızcasına aparmağa başlayırlar.

Türkiyə təbəəsi, türk xalqının cəlladı Andranikin bu əraziyə gəlməsi ilə ermənilərin bu hərəkatı daha da azğın xarakter alır.

Daşnak partiyasının rəhbərliyi ilə ermənilərin Qarabağın-Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında törətdikləri vəhşiliklər Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən yaradılmış Fövqəladə Təhqiqat Komissiyası tərəfindən geniş təhqiq olunmuşdur. Bu haqda çoxlu şahid ifadələri, baxış protokolları, məruzələr, bu qəzaların polis idarələrində tərtib olunmuş rəsmi sənədlərdə çoxlu faktiki məlumatlar toplanmışdır.

Sovet Rusiyasının Birinci Dünya müharibəsi cəbhələrində hərbi əməliyyatların dayandırılmasından çox - çox əvvəl xeyli erməni əsgərləri cəbhədən fərarilik edərək öz kəndlərinə qayıdır və özləri ilə çoxlu oğurluq tüfəng, pulemyot və digər hərbi sursatlar da gətirdilər. Bu cür cinayət hallarına bir tərəfdən yerli erməni ziyalıları və erməni kənd icmaları kömək edirdisə, digər tərəfdən isə Rusiyada polis hakimiyyətinin fəaliyyətsizliyi, bəzən isə onların bilərəkdən buna imkan vermələri olurdu. Fövqəladə Təhqiqat Komissiyasının üzvü N. Mixaylovun toplanmış faktlar əsasında hazırladığı məruzədə deyilirdi ki, Cavanşir qəzasının müsəlman əhalisi özlərinin tarixi qonşuları olan ermənilərə çox sadəlövhlüklə inanır və hər ehtimala qarşı həmin silahların gələcəkdə onlara qarşı yönəldiləcəyini təsəvvürlərinə belə gətirə bilmirdilər. Nəticədə onlar həmin silahların gətirilməsinin qarşısını almaq üçün heç bir tədbir görmürdülər. Yevlax stansiyasında və Bərdə şose yolu üzərində bu cür silah gətirilməsi halları azərbaycanlılar tərəfindən dəfələrlə aşkar edilmiş, lakin onlar buna elə bir prinsipial əhəmiyyət verməmişdilər. (Bax: ARDA: f. 970, siy. 1. iş 161, vər 1).

Rusiyada bolşeviklərin oktyabrda etdiyi dövlət çevrilişindən sonra isə Yuxarı Qarabağa, o cümlədən Cavanşir qəzasının erməni kəndlərinə silah və sursat gətirilməsi demək olar ki, açıq şəkildə həyata keçirilməyə başlandı. Həmin vaxtdan ermənilər müsəlmanlara qarşı özlərinin düşmənçilik niyyətlərini açıq şəkildə büruzə verməyə və onlara qarşı zor tətbiq etməyə başladılar (yenə orada).

N. Mixaylovun məruzəsində daha sonra göstərilirdi ki, Cavanşir qəzasındakı azərbaycanlı kəndləri əsasən düzənlik hissələrdə yerləşirdi. Lakin Kolanlı və Avrayan kənd icmalarından birincisi Cavanşir qəzasının dağətəyi, ikincisi isə yüksək dağ zolağında yerləşirdi. Kolanlı icmasına daxil olan 12 kənd (Dəmirlər, İmrat - Qərvənd, Umudlu, Qaralar, Sırxavənd, Çıraqlı, Əli-Ağalı və b.) hər tərəfdən erməni kəndləri ilə əhatə olunmuşdur. Bu kənd icmasına daxil olan kəndlərin əhalisi yalnız erməni kəndlərindən keçərək digər azərbaycanlı kəndləri ilə əlaqə saxlaya bilirdilər. Avrayan icmasına daxil olan kəndlər isə yüksək dağ zirvəsində, erməni kəndlərindən hündürdə yerləşməklə çox əlverişli vəziyyətdə idilər. Əhalisi isə qorxmaz kürd tayfaları idi. Ona görə də bu hadisələr zamanı onlar heç cür zərər çəkməmişlər. Şahidlərin ifadələrinə görə erməni quldur dəstələri yalnız silahsız və tamamilə erməni kəndləri tərəfindən mühasirə olunaraq, heç yandan kömək ala bilməyən azərbaycanlılar qarşısında özlərini güclü və mütəşəkkil hiss edir və çox asanlıqla müvəffəqiyyət qazanırdılar.

Məruzədə göstərilirdi ki, bütün Cavanşir qəzasında yalnız Kolanlı icmasına daxil olan kəndlər demək olar ki, tamamilə ermənilər tərəfindən dağıdılmışdır. 1917-ci ilin dekabrından başlayaraq erməni silahlı quldur dəstələri Kolanlı icmasına daxil olan azərbaycanlı kəndlərinə hücum edir və onlardan hələ yer üzərində mövcud

olmayan Ermənistan Respublikasına tabe olmağı tələb edir və guya öz dövlətləri üçün azərbaycanlılardan zorla vergi yığırdılar. Bundan əlavə onlar bir ay müddətində öz əsgərlərini yedirtməyi azərbaycanlılardan tələb edir, içib keflənərək onları təhqir edir, incidir, qadınlarını zorlayır, müntəzəm olaraq müsəlmanların mal-heyvanlarını zorla sürüb aparırdılar. (Bax: ARDA: f. 970, siy. 1, iş 161, vər. 2).

Şahidlərin verdiyi məlumatlara görə, Cavanşir qəzası müsəlman milli Şurası ermənilərlə əvvəlki mehriban qonşuluq münasibətlərini bərpa etmək üçün hər cür cəhdlər göstərir və çalışırdılar ki, Kolanlı kənd icmasına daxil olan kəndlərin əhalisini bu acınacaqlı vəziyyətdən çıxarsınlar. Onların bütün ciddi cəhdlərinə baxmayaraq ermənilərin barışmamazlığı üzündən bir nəticə əldə edə bilmirdilər, Kolanlı kənd icmasına daxil olan kəndlərin azərbaycanlı əhalisinin bu cür kölə vəziyyəti bir çox aylar, bəzi kəndlərdə isə hətta 1918-ci ilin sentyabr-dekabr aylarına qədər davam etmişdir. Nəhayət ermənilərin əlindən cana doymuş həmin kəndlərin əhalisi birlikdə qərara gəlirlər ki, nə yolla olursa, olsun və nə qədər insan tələfatı hesabına başa gəlmiş olsa belə onlar erməni quldur dəstələrinin əhatəsini yarıb arandakı azərbaycanlı kəndlərinə getməlidirlər. Həqiqətən də onlar bu əməliyyatı yalnız dəhşətli tələfatlar hesabına həyata keçirə bilmişlər. Bu kəndlərdən qaçan azərbaycanlılar sözün əsl mənasında özlərinin hər şeylərindən - mal-heyvanlarından, evlərindən, bütün ev avadanlıqlarından, ərzaq məhsullarından məhrum olurlar. Qaçqın kəndlilərin çoxu - xüsusilə qadınlar və uşaqlar soyuqdan, aclıqdan və xəstəlikdən yollarda məhv olurlar. Çoxlu qaçqınlar erməni quldur dəstələri tərəfindən yollarda məhv edilirdi. Kəndlərdən qaça bilməyən və ya qaçmağa imkanı olmayan xəstə, qoca və hətta əlillərə belə ermənilər aman vermədən onları son nəfərlərinə qədər qəddarcasına güllələmiş və ya xəncərlə doğramışlar. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 2).

Cavanşir qəzasının bir neçə kəndinin, o cümlədən İmarət-Qərvənd kəndinin əhalisi və Umudlu kəndi əhalisinin bir hissəsi erməni təqiblərindən yaxa qurtarmaq üçün payız aylarında uzun və çətin dağ yolları ilə Murov Dağını böyük tələfatlarla aşaraq Cavanşir qəzasının aran kəndlərinə gəlirlər və həmin qəzanın müxtəlif kəndlərində yerləşdirilirlər.

Yuxarıda deyildiyi kimi Cavanşir qəzasının milli müsəlman Şurası dəfələrlə ermənilərin yanına barışıq üçün nümayəndə heyəti göndərmişdi. Bu nümayəndə heyətinin rəhbərlərindən biri - Məşədi Alış İsmayılov Fövqəladə Təhqiqat Komissiyasına izahatında bildirmişdi ki, ermənilər onları çox pis qarşılayır, nümayəndə heyətinin üzvlərini hədələyir, qorxudur və təhqir edirdilər. Belə ki, Marağa kənd erməni icmasının kəndxudası Nerses Manukov onları hədələyərək demişdir: "Bu hələ harasıdır, siz bir dayanın, görün hələ sizi nələr gözləyir". (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 3).

Ermənilərin həyasızlığı o yerə çatmışdı ki, 1918-ci ilin yaz və yay aylarında Cavanşir qəzasının düzənlik hissəsinin müsəlman əhalisinə qarşı da zorakılıqlar tətbiq edirdilər. Ermənilər Tərtər çayının qabağını kəsərək başqa istiqamətə yönəldir və qəzanın aran kəndlərinin əkinlərini susuz qoyaraq, onlara böyük zərər vurarlar. Hətta iş o yerə çatır ki, aran kəndlərində içməli su belə çatışmır. Aran kəndlərinin əhalisi 1918-ci ilin yayında öz mal-heyvanlarını yaylaqlara köçürə bilmədikləri üçün çoxlu tələfat verirlər.

Ən maraqlısı odur ki, N. Mixaylovun 1919-cu il mayın 9-da Fövqəladə Təhqiqat Komissiyasına təqdim etdiyi məruzədə göstərilirdi ki, axır vaxtlar vəziyyət bir qədər yüngülləşsə də Cavanşir qəzasındakı ermənilər bu qəzada onların yaşadıqları torpaqları Ermənistan Respublikasının ərazisi elan edərək, Azərbaycan Respublikasının hakimiyyətini tanımaq belə istəmirlər və əvvəlki kimi öz zorakılıq hərəkətlərini davam etdirirlər. Ona görə də Fövqəladə Təhqiqat Komissiyasının üzvləri erməni kəndlərindən keçərək qəzanın dağətəyi ərazilərində dağıdılmış azərbaycanlı kəndlərinə baxış keçirə bilmirlər. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 3). N. Mixaylovun məruzəsində göstərilirdi ki, Cavanşir qəzasında yuxarıda göstərilən 12 azərbaycanlı kəndlərini tamamilə dağıtmaqdan əlavə, erməni quldur dəstələri tərəfindən ətrafdakı digər azərbaycanlı kəndlərinə də basqınlar edilir, adamlar qarət olunur və qətlə yetirilirlər. Azərbaycanlıların iribuynuzlu və xırdabuynuzlu mal-heyvan sürülərini zorla sürüb aparırlar. Məruzədə bu haqda çoxlu əyani faktlar sadalanır. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, ver. 4).

Şahid İsgəndərovun ifadəsində bildirilirdi ki, ermənilər istədikləri vaxt dəstələrlə azərbaycanlılar yaşayan ərazilərə gəlirlər. Özü də həyasızlıq o yerə çatmışdır ki, onlar Tərtər bazarında təkcə alver etməklə qalmayıb, həm də azərbaycanlılardan oğurladıqları mal-heyvanı yenidən onlara satmaqdan belə utanmırdılar. (Bax: yenə orada).

Cavanşir qəzası ərazisində ermənilər yaşına, cinsinə fərq qoymadan uşaqlara, qadınlara, qocalara və hətta şikəstlərə belə aman vermədən azərbaycanlılara qarşı çox saylı ölüm aktları həyata keçirmişlər. Bir çox hallarda isə onlar ağlasığmaz qətl formaları tətbiq etmişlər. Məsələn, Umudlu kəndində Süleyman Qazax Aslan oğlu, Məmməd Məşədi Paşa oğlu və Kazım Atam oğlu ermənilər tərəfindən qəddarlıqla qətlə yetirilmiş, sonra isə onların cəsədlərini doğrayaraq hər hissəsini bir yerdən asmışlar. Həmkəndliləri onları bu vəziyyətdə tapanda hansı hissəsinin kimə mənsub olduğunu belə ayırd edə bilməmişdilər. Hacı Qərvənd kəndində qətlə yetirilmiş Zeynəb Şirin qızının döşləri kəsilmişdir. Dovşanlı kəndinin bir hissəsi olan Korakor kəndinin sakinləri Ramazan Novruzəli oğlu, Qönçə Ocaqqulu qızı və şikəst Süleyman Həsənəli oğlu qəddarlıqla qətlə yetirilmiş və meyitləri

yandırılmışdı. Sırxavənd-Ballıqaya kəndinin sakini Soltan Əli İmam oğlu Qazançı kəndi yaxınlığında saxlanılmış, vəhşiliklə öldürülmüş və yandırılmışdı. Güneyqaya-Sırxavənd kəndinin sakinləri Şərit İsmayıl oğlu və Rəcəb Novruzəli oğlunun meyitləri ermənilər tərəfindən başları kəsilib aparılmış şəkildə tapılmışdır. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 4).

Şahidlərin ifadələri əsasında Fövqəladə Təhqiqat Komissiyası Cavanşir qəzasında azərbaycanlılara qarşı vəhşiliklər törədilməsinə rəhbərlik etmiş ermənilərin adlarını da müəyyənləşdirmişdi. Bunlar Yuxan Qarxun kəndində torpaq sahibi mühəndis Konstantin Abramov, Avan Yuzbaşevin malikanəsini idarə edən Baqrat bey Məlik-Şahnazarov, Marağah kənd icmasının kəndxudası Nerses Manukov, Gülyataq kəndinin sakini İvan bəy Mirzəbəyov, Dovşanlı kəndindən Artyom və Muku Sukiasovlar, Yevrem və Nikolay Şahbaqovlar, Bazarkənddən Nikolay Saruxanov, Vank kəndindən Tiqran Asan Cəlalov, Yuxarı və Aşağı Çaylı kəndlərindən Şamir Ağabekov, Setrak Usubbekov, Talış kəndindən Tyuni Atambekov, Ağdərə kəndindən Karapet Anastasov, Talış kəndindən İsakk və Minas Ter-Danielov qardaşları, həmin kənddən Rüstəm Babayev, Çardaxlı kəndindən Baxış Avnesov, Aşağı Çaylı kəndindən Akopcan Masesov, Nikolay Sokratov, ağdərəli Markos bəy Ter-Astsaturov, Marqoşavan kəndindən Atakişi Xaçaturov və başqaları idi. Özü də bu ermənilər Cavanşir qəzasında azərbaycanlılara qarşı törədilmiş eşidilməmiş vəhşiliklərin təkcə rəhbərləri deyil, həm də şəxsən onların öldürülməsi, onlara işgəncə və əzablar verilməsinin iştirakçıları idilər. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 5).

Fövqəladə Təhqiqat Komissiyasına təqdim olunmuş məlumatlar və onların əsasında tərtib edilmiş aktlardakı, əsasən Cavanşir qəzasında ermənilərin bu qəzanın müsəlman əhalisinə vurduğu zərər onlarca milyon manata bərabər olmuşdu.

Qarabağ bölgəsində 1918-ci il və 1919-cu ilin əvvəllərində daha çox erməni təzyiqlərinə məruz qalan qəzalarından biri də Cəbrayıl qəzası idi. Cəbrayıl qəzası 12 azərbaycanlı və 3 erməni kənd icmasından ibarət idi. Yuxarı Qarabağın başqa qəzalarında olduğu kimi bu qəza da öz ərazilərinin yerləşmə vəziyyətinə görə elədir ki, düzənlikdəki kəndləri əksərən azərbaycanlı kəndləri idi. Qorxudan ermənilər buraya hücum etməyə cürət etmirdilər. Bilirdilər ki, hücum etsələr layiqli cavab alacaqlar. Ona görə də onlar dağətəyi azərbaycanlı kəndlərinə hücum etmiş və məhz ən çox zərər çəkənlər də bu kəndlərin əhalisi olmuşdur.

Fövqəladə Təhqiqat Komissiyasının topladığı material və dindirilmiş şahidlərin ifadələrinə görə ilk əvvəllər Qarabağın başqa qəzalarında ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdikləri vəhşiliklər haqqında deyilənləri Cəbrayıl qəzasının azərbaycanlı əhalisi ağıllarına belə sığışdıra bilmirdilər. Çünki qəzanın erməni əhalisi onları həmişə əmin edir və inandırırdılar ki, bu qəzanın azərbaycanlı əhalisinə qarşı belə hallar heç vaxt baş verə bilməz. Ona görə hələ də məkrli erməni siyasətini başa düşməyən qəzanın sadəlövh azərbaycanlı əhalisi onlara inanıb nəinki müdafiə haqqında düşünmürdülər, hətta ermənilərə qarşı hər hansı müqavimət göstərməyi belə ağıllarına gətirmirdilər.

1918-ci il dekabrın ilk günlərindən ermənilər qəzanın azərbaycanlı əhalisinə qarşı silahlı çıxışa başlayırlar. Ermənilər əvvəlcə tək-tək qətllər törədir, hücum edərək azərbaycanlı kəndlərinə məxsus mal-heyvanı sürüb aparırdılar. Getdikcə daha da mütəşəkkilləşən erməni quldur dəstələri azərbaycanlı kəndlərinə açıq silahlı basqınlar etməyə başlayırlar. Buna baxmayaraq Fövqəladə Təhqiqat Komissiyası üzvlərinin dindirdikləri şahidlərin ifadələrində və Cəbrayıl qəza rəisinin 1919-cu il fevralın 17-də Qarabağ general qubernatoru X. Sultanova raportunda bildirilirdi ki, "qəzanın müsəlman əhalisi bu cür hadisələri böyük təəssüf hissi ilə qarşılayaraq, heç bir fəal mübarizə yoluna keçməyərək yalnız özlərini və öz əmlaklarını erməni hücumlarından qorumaq üçün müdafiə mövqeyi tutmuş və ermənilərə qarşı heç bir qeyri-qanuni hərəkətə yol verməmişlər. Buna da sübut odur ki, bu müddət ərzində erməni kəndlərindən heç biri müsəlmanlar tərəfindən zərər görməmişdir". (ARDA: f. 970, siy. 1, iş 161, vər. 5).

1918 və 1919-cu ilin əvvəllərində erməni quldurlarının Cəbrayıl qəzasında törətdikləri vəhşiliklər haqqında Fövqəladə Təhqiqat Komissiyasının məruzələrində geniş məlumatlar var. Onlardan bəzilərini nəzərdən keçirək.

1918-ci il dekabrın 26-da gecə Düdükçü, Edilli, Ağbulaq, Qoqo, Çirakuz və Axullu kəndlərinin erməniləri Düdükçü kəndinin azərbaycanlılar yaşayan hissəsini dağıtmış və evlərini yandırmışlar. Dekabrın 7-də həmin kəndlərin silahlı erməni quldur dəstələri Arış kəndi əhalisinin qoyun sürülərini sürüb aparmışlar. Dekabrın 5-də isə silahlı ermənilər Qaragöllü kəndinə hücum edərək qoyun sürülərini aparmışlar. Dekabrın 2-də erməni silahlı quldur dəstələri Aşıq Məlikli kəndinə hücum edərək əmlaklarını talan etmiş, yandırılmış, mal-heyvanlarını isə sürüb aparmışlar. Elə həmin gün ermənilər Xolaflı, Totor, Şıxlar kəndlərini talan etmiş, yandırmış, mal-heyvanlarının bir hissəsini məhv etmiş, bir hissəsini isə sürüb aparmışlar. Həmin il dekabrın 18-də Sirik kəndi ermənilər tərəfindən qarət olunmuş və yandırılmışdır. 1919-cu il fevralın 27-də Ağcakənd Dələnlər və Mülkədarlı kəndlərinin erməniləri yenidən Sirik kəndinə hücum edərək, yenə də bu kəndin bir hissəsini yandırmışlar. (ARDA: f. 970, siy. 1, iş 161, vər. 5-6).

Məruzədə 1918-ci ilin sonları və 1919-cu ilin əvvəllərində Cəbrayıl qəzasında erməni silahlı quldur dəstələrinin azərbaycanlılar yaşayan digər kəndlərə - Eyvazlı, Dolanlar, Şıxlar, Məlikli və s. hücum edərək

azərbaycanlı əhalinin əmlakını qarət edərək yandırdıqları, mal-heyvanlarını isə sürüb apardıqları haqda çoxlu faktlar sadalanır. (Bax: yenə orada vər. 6).

Cəbrayıl qəzasında azərbaycanlı kəndlərinin qarət edilməsi və yandırılması həm də azərbaycanlıların qətlə yetirilməsi və yaralanmaları ilə müşayiət olunurdu. Məsələn, Axullu kəndinin qarəti və yandırılması zamanı 2 kişi, 3 qadın və 1 uşaq öldürülmüş, 1 kişi yaralanmışdı. Məlikli kəndinə hücum zamanı 1 kişi, Məzrə kəndinə hücum zamanı 6 kişi öldürülmüş, Sirik kəndinə hücum zamanı isə 11 kişi, 10 qadın, 14 uşaq qətlə yetirilmiş və 2 kişi yaralanmışdı. Başqa kəndlərə hücumlar zamanı da ölənlər və yaralananlar olmuşdur. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 6).

Erməni quldur dəstələrinin azərbaycanlı kəndlərinə hücumları zamanı onlara rəhbərlik etmiş ermənilərin çoxu şahidlər və zərərçəkənlər tərəfindən tanınmışlar. Maraqlıdır ki, bunlar qəzanın müsəlman əhalisini daim sakitliyə çağıran, ermənilərin onlara qarşı heç bir hərəkət törətməyəcəklərinə inandırmaq istəyən ermənilər idi. Qəzanın azərbaycanlı əhalisindən olan şahidlər bu quldurların 60 nəfərdən çoxunun adını və familiyasını təhqiqat komissiyasının üzvlərinə demişlər. Bunların arasında Şuşa qəzasından olan azərbaycanlı əhaliyə qarşı qəddarlıqda bütün Qarabağda ad çıxarmış Xurşud bəy , Markar bəy, İşxan bəy və Sumbat bəy (adlara baxın axırında da bəy titulu - A. P.) İşxanov qardaşları, Şuşalı Sokrat bəy Məlik-Şahnəzərov, Düdükçüdən Balasan Hayrapetov, Karapet Ohancanov, yüzbaşı Markez, praporşik Aslan Sərkisov, Muxan Martirosov və başqa cəlladlar idi. (Bax: yenə orada vər. 6).

Cəbrayıl qəzasında ermənilərin azərbaycanlılara vurduqları maddi ziyan ən adi hesablamalara görə on milyonlarla manata bərabər idi.

Qarabağda ermənilərin azərbaycanlılara vurduğu ən böyük ziyan Şuşa qəzasının ərazisi və ermənilərin həmişə əllərinə keçirmək üçün diş qıcadıqları Şuşa şəhəri idi. Çoxlu təkzib olunmaz tarixi faktlardan da məlum olduğu kimi əvvəllər İran şahlarına yaltaqlıq edərək dünyanın bu cənnətməkan diyarında əllərinə mülklər keçirən erməni melikləri əsrlərlə bu ərazidə ermənilərin sayını artırmaq üçün dəridən-qabıqdan çıxmış, ikiüzlülüyün, namərdliyin, satqınlığın ən iyrənc formalarından məharətlə istifadə etmişdilər. Ancaq heç kimə sirr deyil ki, bütün Qafqazda, o cümlədən də Qarabağda möhkəmləndikləri ilk günlərdən başlayaraq ermənilər yerli əhaliyə qarşı əvvəlcə gizli, sonra isə açıq şəkildə xəyanətə və mübarizəyə keçmişdilər.

Şuşa qəzası böyük ərazidə Zəngəzur qəzası ilə sərhəd olub, dağlıq və dağətəyi azərbaycanlı kəndləri bir - birindən ayrı düşmüş və hər tərəfdən erməni kəndləri ilə əhatə edilmişdir. Həmişə ermənilər azərbaycanlı kəndlərinin bu vəziyyətini nəzərə almış və həmin kəndləri mühasirədə saxlamaq, dağıtmaq və onlara qarşı hər cür yaramazlıqlar törətməyə müvəffəq olmuşlar.

Rusiyadakı 1917-ci il fevral inqilabına qədər Şuşa qəzasında ermənilərin azərbaycanlı əhaliyə qarşı qeyri - səmimi münasibəti 1905-ci il erməni-azərbaycanlı toqquşması dövrü nəzərə alınmazsa, açıq nümayiş etdirilməmişdir. 1917-ci ildə Rusiyada dövlət çevrilişindən sonra, onsuz da lazımi qədər silah əldə etmiş ermənilər daha sürətlə silahlanmağa başlayırlar. Silahlı erməni quldur dəstələri cəbhələrdən qaçan fərari erməni əsgər və zabitlərinin hesabına getdikcə daha da çoxalır. Nəticədə özlərində güc hiss edən ermənilər, özlərini azərbaycanlılara qarşı çox həyasızcasına aparmağa başlayırlar. Azərbaycanlılarla mübarizədə daha çox müvəffəqiyyət əldə etmək üçün "Daşnaksutyun" partiyası müsəlmanlar arasında sinfi mübarizəni qızışdırır. Nəticədə bir çox azərbaycanlı mülkədarı, o cümlədən Fərrux bəy Vəzirovun zəngin və nümunəvi mülkü dağıdılır. Bundan məharətlə istifadə edən ermənilər erməni Levon Vartapetovu qəza komissarı seçdirmişlər. O isə qəzada milis heyətini yalnız ermənilərdən ibarət təşkil edir.

Şuşa-Qaryagun və Şuşa-Əsgəran yollarını ermənilər tamamilə nəzarət altına alırlar və həmin yollarla gedib-gələn azərbaycanlıları qarət edir, silahlarını əllərindən alır və tədricən həmin keçidlər tamamilə azərbaycanlıların üzünə bağlanır. Bu quldur dəstələrini getdikcə ermənilər daha mütəşəkkil hərbi formaya salırlar. Ermənilərin bu hərəkətləri keçmiş Türkiyə vətəndaşı satqın general Andranikin dəstələri Gorusa gəldikdən sonra daha da fəallaşır. Azərbaycan ərazilərindən keçərək Gorusa gələn bu avantürist burada bütün Qarabağ ermənilərinin ümumi hərbi mükəlləfiyyətini elan edir. Bu vaxtdan başlayaraq Andranikin əsgərləri erməni kəndliləri ilə birlikdə Zəngəzur qəzasında müsəlman kəndlərini məhv etməyə, yandırıb dağıtmağa, əhalini vəhşicəsinə qırmağa başlayır. Sonra Andranik 3 dəfə Zabux dərəsindən keçərək ermənilərin "Kiçik Ermənistan" adlandırdıqları ərazinin - Qarabağın mərkəzi Şuşa şəhərini tutmağa təşəbbüs edir. Lakin onun hücumları yerli müsəlman əhali tərəfindən müvəffəqiyyətlə dəf edilir. Hər dəfə qanlı döyüşlərdə Andranik böyük itki verərək geri çəkilməyə məcbur olur.

Hər tərəfdən erməni əhatəsində olan Şuşanın vəziyyəti çox ağır idi. Əhalisinin çoxu azərbaycanlı olan Şuşa və ətrafdakı bir neçə müsəlman kəndi - 173 erməni kəndi tərəfindən üzük qaşı kimi əhatəyə alınmışdı. Bura gələn yolların ermənilər tərəfindən kəsilməsi nəticəsində 8 ay - yəni türklər gələnə qədər Şuşa şəhəri və dağ zonasındakı azərbaycanlı kəndlərindəki azərbaycanlı əhalinin vəziyyəti həqiqətən də faciəli idi.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində qeyd edilirdi ki, Şuşa şəhəri və ətraf kəndlərdəki erməni əhalisi Azərbaycanın hakimiyyətini tanımayıb, bu günə qədər də tanımaq istəmirlər. Onlar çalışırlar ki,

Qarabağın Verand, Dzax, Xaçın və Zəngəzur ərazilərini Azərbaycandan ayırıb Ermənistana birləşdirsinlər. Bu günə qədər Qarabağın erməni əhalisi Azərbaycan hökumətinə vergi verməkdən və hər hansı mükəlləfiyyətləri yerinə yetirməkdən imtina edirlər. 1-ci və 2-ci polis sahəsində erməni quldur dəstələri Sokrat bəy Məlik - Şahnazarovun rəhbərliyi ilə öz cinayətkar hərəkətlərini davam etdirirlər. Bu günə qədər də Ağdam-Qaryagin şose yolu bağlıdır. Ermənilər xüsusilə Qarakənd kəndinin erməniləri həmin yoldan keçməyə cürət edən müsəlmanları qarət edir və qətlə yetirirdilər. (ARDA: f. 100, siy. 2, iş 791, vər. 92).

Komissiyanın məruzəsində erməni yaramazlıqlarına necə də dəqiq qiymət verilmişdir. Orada deyilirdi: ***"Hər yerdə olduğu kimi Şuşa qəzasında da ermənilər öz taktikalarına həmişəki kimi sadiqdirlər. O yerdə ki, onlar çoxluq təşkil edirlər, onda onlar özgə xalqlara qarşı zülm etmək və güc işlətməkdə amansızdırlar. O vaxt ki, onlar azlıq təşkil edirlər kimə istəsəniz və necə istəsəniz qulluq etməyə həmişə hazırdırlar".*** (ARDA: f. 100, siy. 2, iş 791, vər. 94).

Sonra məruzədə şahidlərin şəhadətləri əsasında ermənilərin Şuşa qəzasında törətdikləri cinayətlər 27 maddədə sadalanırdı. Şahidlərin ifadələrinə görə 1918-ci ilin dekabrında ermənilər 2-ci polis sahəsinə daxil olan Qoqo kəndinin azərbaycanlılar yaşayan 55 evdən ibarət xanimanlarını dağıdır və yandırırlar. Mülkədar Cavanşirin də malikanəsini dağıdıb yandırır, ailə başçısı Əsəd Ağa Cavanşiri, onun oğlu Soltan ağanı, qızı İranə Bəyimi, qardaşı qızı Fatma Bəyim Cavanşiri, ev qulluqçusu İncə İbad qızını, nökərləri Allahverdi Əziz oğlunu, İsa Abış oğlunu və Vəli Kərbəlayı Ələsgər oğlunu öldürmüş, ölüləri təhqir edərək onları soyundurub sonra da xəncərlə doğramışlar. Kəndin azərbaycanlı əhalisinə və mülkədar Cavanşirə məxsus ev və tikililəri yandırmış, bütün avadanlıq, mal-qara və kənd təsərrüfat alətlərini qarət edib aparmışlar.

Ermənilər Tuğ kəndinin azərbaycanlılara məxsus hissəsini də dağıtmışlar. Hətta 1919-cu ilin mayına qədər, yəni komissiya məlumat hazırlayana qədər həmin kəndin azərbaycanlı əhalisi əsir kimi saxlanılmış onlara kənd təsərrüfat işləri ilə məşğul olmağa belə icazə verməmiş, onları ac saxlayaraq ermənilərin hakimiyyətinə tabe olmağı tələb edirdilər. Tuğ mülkədarı Ağa bəy Məlik-Aslanovun üzərinə hücum edən ermənilər onu öldürüb, əmlakını müsadirə edirlər. Tuğ sakini Güldəstə xanım Nəcəf bəy qızını da ermənilər döyə-döyə öldürürlər. Tuğ yolunda ermənilər Novruz Qasım oğlunu və mülkədar Səlim bəy Məlik-Aslanovu qarət edir və sonra isə döyərək öldürürlər.

1918-ci ilin payızında ermənilər 33 evdən ibarət Salakətin kəndini tamamilə dağıdaraq yandırmış, əmlaklarını isə qarət etmiş, mal-heyvanlarını sürüb aparmış və torpaqlarını ələ keçirmişlər. Elə həmin vaxtlar ermənilər Şıxımlı, Kövşatlı, Divanlılar və Çaraküz kəndlərini də tamamilə yandırmış, azərbaycanlıların əmlakını qarət edərək, mal-heyvanlarını sürüb aparmış, bağlarını doğramışlar.

1918-ci ilin yayında ermənilər Pərioğlular kəndi yaxınlığındakı köçəri alaçıqlarına hücum edərək onları dağıtmış, qarət etmiş, Zarisli kəndinə məxsus 300 baş iribuynuzlu mal-qaranı sürüb aparmışlar. Elə həmin vaxt Molla Nəsrəddin yolunda ermənilər Şuşadan Cəbrayıla un dalınca getmiş 12 nəfər azərbaycanlını qətlə yetirmişlər. Təkli kəndindən 700-dən yuxarı qoyunu sürüb aparmışlar.

1919-cu il martın 9-da ermənilər Şuşa şəhərinə yaxın şose yolunda 4 nəfər azərbaycanlı əsgəri soyunduraraq güllələmiş və 3 nəfərin ölüsünü isə gizlətmişlər.

Şuşa qəzasının 1-ci və 3-cü polis sahələrində isə 1918-ci ilin avqustunda ermənilər Atmazlı, Keştmazlı və Qazanlı kəndlərinin köçərilərinin bütün heyvanlarını sürüb aparmış, ev əşyalarını isə talan etmişlər. Elə həmin vaxt ermənilər 240 ailədən ibarət Gülablı kəndini dağıtmış, kəndlilərin əşyalarının çoxunu qarət etmiş və demək olar ki, bütün mal-heyvanlarmı sürüb aparmışlar. Ermənilər Xıdırlı kənd icmasına məxsus çoxlu iribuynuzlu mal və qoyunu da sürüb aparmışlar. Ermənilər Mərzili kəndinin azərbaycanlı əhalisini öz ata-baba ocaqlarını tərk etməyə məcbur etmiş, onların ev əşyalarının çox hissəsini qarət etmiş, 150 iribuynuzlu mal və 1000 baş qoyununu sürüb aparmış, azərbaycanlıların tərk etdikləri evləri isə tutmuşlar.

1918-ci ilin martında erməni quldur dəstələri Sokrat bəy Məlik-Şahnazarovun başçılığı ilə Abdal kəndini dağıtmış, qarət etmiş və kəndin mal-heyvanlarının bir hissəsini sürüb aparmışlar. 1918-ci ilin avqustunda ermənilər Qaradağlı, Xocavənd kəndlərini və onların azərbaycanlı köçərilərini qarət etmiş, mal-heyvanlarını aparmışlar. Ermənilər Xocalı kəndində də azərbaycanlı əhalini öz kəndlərini tərk etməyə məcbur etmiş, mal - heyvanlarının bir hissəsini sürüb aparmışlar. Məlumatda göstərilirdi ki, bu hələ ermənilərin həmin qəzada törətdikləri cinayətlərin hamısı deyildi. Şahid ifadələrini ümumiləşdirən komissiya qeyd edirdi ki, yalnız Şuşa qəzasında dağıdılmış, yandırılmış, talan edilmiş azərbaycanlı kəndlərində öldürülənlərin sayı 100 nəfərdən çox idi. Öldürülənlər üzərində ağlagəlməz vəhşiliklər edilmişdir. Onlar süngülərlə dəlik-deşik edilir, başları kəsilir, kiçik yaşlı uşaqlar süngülərə taxılaraq vəhşiliklə öldürülür, qadınların döşü, kişilərin burun, qulaq və cinsiyyət üzvləri kəsilirdi. Ölüləri doğrayır, yandırır və hər cür təhqirlərə məruz qoyurdular. Şuşa qəzasında bu vəhşiliklərə rəhbərlik edənlər Sokrat bəy Məlik-Şahnazarov, Akop Veddiyev, Şamir Avakov, Armenak Xaçaturov, Eqiş İşxanov, Xosrov bəy, İşxan bəy və Tiqran bəy İşxanov qardaşları və başqaları idi.

Məlumatdan görünür ki, bu hadisələr zamanı ən sadə hesablamalara görə qəzanın azərbaycanlı əhalisinin çəkdiyi zərər 100 milyon manatdan çox olmuşdur. (Bax: ARDA. f. 100, siy. 2, iş 791, vər 95).

Maraqlıdır ki, ermənilər təkcə Zaqafqaziya Seymi dağıldıqdan sonra, bu ərazidə üç müstəqil respublika yarandıqdan sonra Ermənistan respublikasının ərazisində deyil, həm də Azərbaycanın öz ərazisində də azərbaycanlılara qarşı soyqırımı siyasətindən əl çəkməmişlər. Onlar haq-nahaq Azərbaycanın əzəli və əbədi torpaqları olan yuxarı Qarabağı və Zəngəzuru Ermənistan Respublikasının tərkib hissəsi elan edir və burada Azərbaycan Respublikasının hakimiyyətini heç cür tanımaq istəmirdilər.

Zəngəzur və Qarabağda Erməni Milli Şuraları yaradılır. Bu ərazilərdə yaşayan bütün erməni əhalisi bu şuraların əslində isə Azərbaycan ərazisində onları idarə edən Ermənistan Respublikanın hakimiyyətini tanıdıqlarını bildirirdilər.

Azərbaycan Respublikası hökuməti 1919-cu ilin yanvarında Bakıda olan ingilis komandanlığı ilə razılaşaraq Azərbaycanın mübahisəsiz ayrılmaz hissəsi olan Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları ərazisində müvəqqəti general-qubernatorluq yaradır. Yanvarın 29-da doktor Xosrov bəy Sultanovu oraya general qubernator təyin edir. Lakin buna baxmayaraq bu qəzalarda yaşayan erməni əhalisi heç cür Azərbaycan hakimiyyət orqanlarına tabe olmaq istəmirlər. Həyasızlıq o yerə çatır ki, Ararat Respublikası Xarici İşlər Nazirliyi öz hökuməti adından Azərbaycan hökumətinə nota verərək, göstərilən müvəqqəti general-qubernatorluğun yaradılmasını "Ermənistanın ərazi hüquqlarına qəsd" kimi qiymətləndirir. (Bax: "Azərbaycan" qəz. 30 yanvar 1919, № 21).

Yuxarı Qarabağ ərazisində demək olar ki, əslində iki hakimiyyətlik hökm sürürdü. Tamamilə Zəngəzuru ələ keçirmiş ermənilər Şuşa, Cavad və Cəbrayıl qəzalarına da əl uzadırlar.

Azərbaycan hökuməti yarandığı ilk gündən ermənilərlə sülh şəraitində yaşamaq üçün özündən asılı olan bütün tədbirləri görür. Hətta hökumət qüvvələrinə göstəriş verilir ki, ermənilər tərəfindən təxribatlar törədilsə belə dözümlülük göstərilsin, onlara cavab verilməsin.

Şuşa şəhəri və ətraf kəndlərdə olan ermənilər iqamətgahı həmin şəhərdə yerləşən müvəqqəti general-qubernatorun hakimiyyətini tanımır. Şuşadakı Erməni Milli Şurasının bütün tapşırıqlarını danışıqsız yerinə yetirirdilər. Hələ 1919-cu il iyunun əvvəllərində Şuşada və onun ətrafında baş vermiş hadisələrdən üç ay əvvəl Şuşada oturan ingilis komandanlığının nümayəndəsi Şuşadakı Erməni Milli Şurası üzvlərinin qızışdırıcılıq hərəkətlərini və onların azərbaycanlılarla ermənilərin dinc yanaşı yaşamalarına heç cür imkan vermədiklərini görərək, onları Şuşadan kənarlaşdırmağa söz verir. Lakin ermənilərin təzyiqi ilə mümkün qədər bu işi yubadırlar. Erməni və Azərbaycanlı hissələrinə bölünmüş Şuşada Erməni Milli Şurası öz təcavüzkar təbliğatçılıq siyasətlərini heç cür dayandırmaq istəmir. Ararat Respublikasından Şuranın ən barışmaz üzvü Arzumanov vasitəsilə gizli tapşırıqlar və kömək alan şura bunun müqabilində daim Ermənistan hökumətinin tapşırıqlarını yerinə yetirirdi. Şuşa-Gorus, Şuşa-Qaryagin yollarını tam nəzarət altında saxlayan ermənilər bu yollarla Şuşa ermənilərinə gizli kömək, silah-sursat və s. gətirirdilər.

Ermənilər yayqabağı azərbaycanlı maldarların yaylaqlara köçməsi və Şuşanın yanından köçmələri ilə əlaqədar tez-tez təxribatlar törədirdilər. Onlar sürülərə hücum edir, çobanları öldürür, sürülərini oğurlayıb aparırdılar. Müvəqqəti general-qubernator X. Sultanov başda olmaqla Azərbaycan hakimiyyət orqanları isə bütün bunlara dözərək sakitlik yaratmağa çalışırdılar.

Həmin il iyunun 1-də çoxlu silahlı ermənilərin gizli yolla şəhərə daxil olduğu haqqında məlumat alan Azərbaycanın Şuşadakı hakimiyyət orqanları Üç-Mıx yüksəkliyində azərbaycanlılara məxsus səngərlərdə isə gözətçilərin sayını artırır. Şəhərin İrəvan darvazası tərəfdə isə 20 min nəfər əsgər və 1 pulemyotdan ibarət yeni post yaradılır və onlara tapşırıq verilir ki, şəhərə gələnlər üzərində ciddi nəzarət qoysunlar.

İyunun 4-də səhər tamamilə gözlənilmədən Üç-Mıx yüksəkliyi tərəfdən atışma başlanır və o tezliklə bütün şəhəri bürüyür. Sonralar müəyyən olunur ki, Üç-Mıx yüksəkliyindəki erməni səngərlərində 50 nəfərə yaxın silahlı erməni yığışmış və erməni zabiti Arzumanov başda olmaqla azərbaycanlı əsgərlərinin səngərlərinə hücum etmişlər. Nəticədə 3 nəfər azərbaycanlı əsgər qətlə yetirilir, ermənilərdən isə hücuma rəhbərlik edən Arzumanov və bir sıra başqaları öldürülür.

Bundan sonra iyunun 5-də həmişə ermənilər tərəfindən zorakılıqlar görən Xəlfəli kənd icmasına mənsub müsəlmanlar Qeybalı erməni kəndinə hücum edərək onu dağıdır və əhalisinin bir hissəsini qətlə yetirirlər. Azərbaycanın yüzlərlə kəndini yer üzərindən silən, əhalisinə qarşı tarixdə eşidilməmiş vəhşiliklər törədən ermənilər bu faktdan azərbaycanlılara və Azərbaycan hökumətinə qarşı təbliğat kampaniyası üçün maksimum dərəcədə istifadə edirlər. Bütün erməni qəzetləri bu hadisəni şişirdərək ermənilərin böyük faciəsinə çevirməyə çalışırlar. Onun haqqında bütün dünyaya səs salırlar. Bu erməni təbliğatı ilə bağlı ingilis jurnalisti Skotland-Liddelin söylədiyi sözlər necə də yerinə düşür: "Ermənilər həmişə özləri savaş axtarır və nə vaxt ki, onu tapırlar, onlar öz təbliğatlarında bunu "sıxışdırılmaq" adlandırırlar, əslində isə bu onların özlərinin qazandıqları cəzadır. O, qeyd edirdi ki, daşnaklar üçün öldürülmüş erməni çox qiymətlidir. Əgər bu hadisədən necə lazımdırsa istifadə edə bilərlərsə, onda o, təbliğat üçün çoxlu xeyir gətirə bilir. O, Nuru paşanın aşağıdakı sözlərini misal gətirir: "Erməni nə vaxt, necə ölməsindən asılı olmayaraq həmişə başını məzardan qaldırır və qışqırır - mən kütləvi qırğın zamanı öldürülmüşəm!". (ARDA: f. 894, siy. 10, iş 81, vər 10).

Azərbaycan parlamentində "Daşnaksutyun" və erməni fraksiyalarından olan deputatlarının bu məsələ ilə bağlı qaldırdıqları böyük hay-küy bir daha dediklərimizi sübut edir. Azərbaycan hökuməti iyunun ortalarında 4 nəfər parlament üzvündən ibarət nümayəndə heyətini Şuşaya göndərir. Onlardan 2 nəfəri azərbaycanlı - Qarabəy Qarabəyov ("İttihad" fraksiyası), Ş. Rüstəmbəyov ("Müsavat" fraksiyası). 2 nəfər erməni - P. X. Çubaryan ("Daşnaksutyun" fraksiyası) və İ. N. Xocayan ("Erməni" fraksiyası) idi. Şuşadan qayıtdıqdan sonra onlar vahid məruzə hazırlamaq üçün heç cür razılığa gələ bilmirlər. Ona görə də 1919-cu il iyul aynın 7-8-də keçirilən Azərbaycan Cümhuriyyəti Parlamentinin bu məsələyə həsr olunmuş iclaslarında faktiki olaraq 4 məruzə dinlənilmişdir. Birinci gün Q. Qarabəyov və P. X. Çubaryan, ikinci gün isə Ş. Rüstəmbəyov və İ. N. Xocayan məruzə edirlər.

Erməni deputatlarının hər ikisinin çıxışı demək olar ki, bütünlüklə Azərbaycana, Azərbaycan hökumətinə və Şuşada müvəqqəti general-qubernator X. Sultanova qarşı ittihamnamə kimi səslənir. Daşnak P. X. Çubaryan öz çıxışına belə ikiüzlü bir bəyanatla başlayır: "Bir məruzəçi kimi şərait tamamilə mənim əleyhimədir, əvvəla mən daşnakam və daşnaklar da hər şey üçün günahkardırlar. İkincisi isə mən erməniyəm. Lakin xahiş edirəm inanasınız ki, fakt və hadisələrin izahında və onlara qiymət verilməsində mən bir müstəntiq kimi qərəzsiz və obyektiv olacağam". (Bax: ARDA. f. 895, siy. 1, iş 103, vər. 33). Maraqlıdır ki, onun bu "səmimiyyətinə" yerdən "Allah eləsin!" replikası ilə cavab verilir. Sonra isə həm o, həm də İ. Xocayan öz çıxışlarında sözün əsl mənasında bir Azərbaycan vətəndaşı, Azərbaycan Parlamentinin üzvü kimi deyil, əsl daşnak müballiği, Ararat Respublikasının emissarı kimi çıxış edirlər. Onların bu həyasız hərəkətlərinə hələ 1905-ci il erməni-azərbaycanlı qırğını zamanı əsl erməni ideoloqu kimi Qafqaz Canişini qr. İ. İ. Vorantsov-Daşkovun yanında keçirilmiş müzakirələrdə çox fəal iştirak etmiş erməni ideoloqlarından olan, Azərbaycan Parlamentinin üzvü və Azərbaycan neftinin sahibkarlarından biri S. S. Taqinsov və daşnak A. Malxazyan da qoşulurlar. P. X. Çubayan gözləri yaşlı deyəndə ki, "bizi bərabər hüquqlu vətəndaş hesab edin". Q. Qarabəyov ona cavabında bildirir ki, "bizim aramızda hansı bərabərlikdən söhbət gedə bilər ki, siz özünüz bizim bütün çağırışlarımıza, bizim bütün təkliflərimizə cavab vermirsiniz... Siz özünüz bunu istəmirsiniz, ancaq erməni nümayəndələrinin az bir hissəsi parlament kürsüsündən ona görə istifadə edirlər ki, müsəlmanları söysünlər, ləkələsinlər. Digər hissəsi isə müsəlmanları əldə silah qarşılayırlar". (Bax; göstərilən iş, vər. 223).

Şuşa və onun ətrafındakı Qeybalı və Kərgicahan kəndlərində baş vermiş hadisələrlə bağlı erməni deputatlarının hay-küyünə cavab olaraq məruzəçi Q. Qarabəyov deyir ki, Azərbaycan Cümhuriyyətinin hakimiyyət orqanları və müvəqqəti general-qubernatoru X. Sultanovun bütün ciddi cəhdlərinə baxmayaraq, ermənilər tərəfindən törədilmiş fitnələrin nəticəsi olan bu hadisə haqqında qışqıraraq, bütün dünyaya səs salmaq kimi hərəkətləriniz mənə belə gəlir ki, sizin bu cür yaramazlıqlara son qoymaq istəmədiyinizi göstərir. O, deyir: "Bununla sizdən, sizə verilən zərərdən 20-30 dəfə artıq zərər çəkmiş digər tərəfin - müsəlmanların vəziyyətini mürəkkəbləşdirmək istəyirsiniz. Bu hərəkətiniz o qədər sadə, o qədər aydındır ki, çətin ki, buna kimsəni inandırmaq lazım gəlsin. Sizin hər yerdə qəzetləriniz var, adamlarınız var, pulunuz var. Bunların köməyi ilə siz Avropa ictimai fikrini istədiyiniz kimi bizə qarşı yönəldə bilirsiniz. Təkcə İstanbulda ermənilərin demək olar ki, bütün Avropa dillərində 7 qəzeti çıxır". (Bax: göstərilən iş, vər. 222).

Çıxış edən digər məruzəçi Ş. Rüstəmbəyov P. Çubaryanın məruzəsini general-qubernator X. Sultanova qarşı əsl ittiham aktı adlandırır. Ş. Rüstəmbəyov qeyd edir ki, P. Çubaryanın dediyi kimi əgər bu işlərin təşkilatçısı həqiqətən də general-qubernator olsaydı, onda gərək Şuşa şəhərində və Şuşa qəzasının digər kəndlərində bu günə qədər bir nəfər də olsun erməni qalmayaydı. Əslində isə X. Sultanov həmişə bütün vasitələrdən istifadə edərək Qarabağda qayda-qanun yaratmağa, qırğının qarşısını almağa, dinc erməni əhalisini qorumağa çalışmışdı. (Bax: yenə orada vər. 227).

Ermənilərin bütün pozuculuq hərəkətlərinə baxmayaraq Azərbaycan Cümhuriyyəti hökumətinin və müvəqqəti general-qubernator X. Sultanovun ciddi səyləri nəticəsində 1919-cu il avqust ayının sonlarında Azərbaycan hökuməti ilə Qarabağ Erməni Milli Şurası arasında deklarasiya imzalanır. Bu deklarasiya ilə Qarabağ erməniləri Azərbaycan hökumətinin hakimiyyətini tanıyır, Azərbaycan hökuməti isə onlara mədəni - milli muxtariyyət hüququ verirdi. (Bax: "Azərbaycan" qəzeti, № 185, 2 sentyabr 1919).

Bu deklarasiyadan sonra hətta Azərbaycan hökuməti Qarabağda erməni müəllimlərinə yardım etmək məqsədilə 1919-cu il sentyabrın 29-da qəbul edildiyi qərarla Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının müvəqqəti general-qubernatoruna 1 milyon manat pul vəsaiti də ayırmışdı. (ARDA: f. 894, siy. 1, iş 24, ver. 56).

Azərbaycan hökumətinin bütün bu güzəştlərinə, bütün məsələləri sülh yolu ilə həll etmək istəməsinə baxmayaraq Qarabağ erməniləri öz məkrli niyyətlərindən heç cür əl çəkmək istəmirdilər. Onlar Ararat Respublikası hökumətinin gizli tapşırıqlarını həyata keçirmək üçün yollar axtarır, gizli olaraq yeni çıxışlara hazırlaşır və bunun üçün fürsət gözləyirdilər.

Ermənilərin belə bir çıxışı 1920-ci il mart ayını 22-də Novruz bayramı günü baş verir. Bu gün Şuşa şəhəri, Şuşa qəzası və onunla qonşu olan digər qəzalarda eyni vaxtda ermənilər yenə də qiyam qaldırırlar. Həmin il

aprel ayını 1-də Azərbaycan Cümhuriyyəti Parlamentinin iclasında Qarabağda ermənilərin yeni qiyamı haqqında yenə də məsələ müzakirə olunur. Bu hadisələr haqqında daxili işlər naziri Mustafa bəy Vəkilov məlumat verir. Nazir öz çıxışında bildirir ki, son günlərdə ictimaiyyətin diqqətini yenə də Qarabağ hadisələri daha çox cəlb edir. Bu hadisələrin baş verməsi ilə bağlı məlumatında nazir deyir: "Martın 22-də və iki gün ondan irəli Şuşa qalasına Azərbaycanın xidmətində olan iki sahənin erməni pristavları general-qubernatorun görüşünə gəlmək bəhanəsi ilə hərəsi 15-20 nəfər silahlı erməni strajnikləri ilə şəhərə (Şuşaya - A. P.) gəlmişlər. Beləliklə, şəhərə 200 nəfər silahlı erməni əsgəri toplamışlar. Bir bu qədər də şəhərdə olan erməni silahlıları ilə birləşərək Şuşada qəflətən əsgərlərimizə hücum etmişlər". (Bax: Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti, stenoqrafik hesabatlar, Bakı, 1998, II cild səh. 879).

Hücum edən ermənilər bir neçə zabiti həbs edərək Azərbaycan ordusunun əsgərlərinə atəş açmışlar. Bir tərəfdən bayram münasibətilə xalq öz evlərində bayram şənlikləri keçirdiklərindən, digər tərəfdən azərbaycanlılar bu cür namərdliyi gözləmədikləri halda bu silahlı çıxış olduqca qəfildən baş vermişdi. Buna baxmayaraq Şuşadakı Azərbaycan ordusunun əsgəri hissələrinin, onlara rəhbərlik edən zabitlərin qəhrəmanlığı sayəsində ermənilərin hücumu tezliklə dəf edilir. Mart ayının 23-də bütün günü şəhərdə atışma getmiş və günbatana yaxın qiyamçılar artıq Azərbaycan ordu hissələri qarşısında dayana bilməyərək şəhəri tərk etməyə məcbur olmuşlar. (Bax: yenə orada səh. 879-880).

Ermənilərin eyni vaxtda Xan kəndinə də hücumu olmuşdur. Onların da hücumları dəf olunmuşdur. Yalnız Əsgəran qalasına hücum edən ermənilər qeyri-bərabər döyüşdə Azərbaycan ordusu əsgərlərini oradan çıxararaq Əsgəran qalasını ələ keçirə bilmişlər.

M. Vəkilov öz məruzəsində qeyd edir ki, ermənilər bu qiyama gizli şəkildə bir neçə aydan bəri hazırlaşırmışlar. Bu xüsusda böyük hazırlıq işləri görülmüş, hücuma başlamaq üçün onların ümumi bir xəbərdarlıq siqnalları da olmuşdur. Şuşa şəhərinin yaxınlığındakı Şuşa kəndindən atılan top atəşi ilə verilən xəbərdarlıq üzrə hər yerdə eyni vaxtda erməni yaraqlıları Azərbaycan əsgərlərinin üzərinə hücuma keçmişlər. Şuşa şəhəri və Şuşa qəzası kəndləri ilə yanaşı Qarabağın Cavanşir və Zəngəzur qəzalarında olan erməni əhalisi də qiyam edib Azərbaycan əhalisi və Azərbaycan əsgərləri üzərinə hücum etmişlər. Əlbəttə bu qiyam nə qədər böyük bir miqyasda hazırlansa da, hər yerdə ermənilərə böyük zərbələr vurulmuş, onların hücumları dəf edilmişdir. Ermənilərin gizli şəkildə hazırladıqları hücum planları bir nəticə verməmişdir. Onlar yalnız Əsgəran qalasını işğal edə bilmişlər. Bütün bu məsələlər haqqında məlumat verən daxili işlər naziri daha sonra demişdir: "Bu kimi həyasız fitnəni dəf etmək üçün əsgəri qüvvəyə müraciət etmədən əvvəl həyəcana gəlmiş əhali özü onu yatırmağa çalışmışdır. Məmləkətimizin hər tərəfindən camaat sel kimi könülü surətdə axışıb məhəlli hadisəyə gəlməkdədir. Hazırda bu xalq axınının qabağını almaq müşkül bir məsələ olmuşdur. Hər yerdən cəbhəyə qoşularaq öz qardaşlarının imdadına gəlirlər. Qarabağda müvəqqəti pozulmuş intizam və qayda-qanun bu yaxınlarda düzələcəkdir". (Yenə orada səh. 880).

Demək olar ki, aprel çevrilişi ərəfəsində bu məsələnin Parlamentdə müzakirəsi çox qızğın mübahisələrə səbəb olmuşdur. Hər partiya və ictimai qurum bu müzakirələrdən öz məqsədləri və təbliğatları üçün istifadə etməyə çalışmışlar. Sosial-demokratlar, xüsusilə Əliheydər Qarayev bu iclaslarda xüsusi canfəşanlıq göstərmişdir. Öz çıxışında o, Qarabağda qayda-qanun yaratmaq və böhran vəziyyətindən çıxmaq üçün yeganə yolu "Qırmızı Rusiya qoşununu" Azərbaycana dəvət etməkdə görürdü. (Bax: yenə orada səh. 881).

Onu da qeyd edək ki, Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalına qədər Qarabağ erməniləri heç cür Dağlıq Qarabağı Azərbaycandan ayıraraq daşnak Ermənistanına qatmaq iddiasından imtina etməmişlər. Mayaları məkr və hiylə ilə yoğurulmuş, həmişə eyni vaxtda bir neçə cəbhəyə işləməyi məharətlə bacaran ermənilər bu illərdə də bir tərəfdən Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışmışdılarsa da, digər tərəfdən ola bilsin ki, gizli surətdə Sovet Rusiyası ilə də əlaqəyə girərək bolşevik ordusunun Azərbaycana müdaxiləsini asanlaşdırmaq məqsədilə 1920-ci ilin yazında Azərbaycan ordusunun əsas qüvvələrinin başını Dağlıq Qarabağda qarışdırmışlar.

Sovet hakimiyyəti illərində ermənilərə edilən hədsiz güzəştlər ermənipərəst qüvvələrin bütün ciddi cəhdlərinə baxmayaraq, Dağlıq Qarabağı Ermənistana birləşdirmək mümkün olmadıqda ona Muxtar vilayət statusunun verdirilməsi, sonralar dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə edilən baş tutmamış cəhdlər və nəhayət M. Qorbaçovun bədnam yenidənqurma siyasətindən istifadə edərək ermənilərin Dağlıq Qarabağda törətdikləri hadisələr dediklərimizə əyani sübutdur.

***(Paşayev Ataxan. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, səh. 269-292)***

## İrəvan quberniyasında soyqırım

1918-ci iln mayında Cənubi Qafqazda üç müstəqil respublika - Azərbaycan, Gürcüstan və Ermənistan yaradıldıqdan sonra 1500 il ərzində birinci dəfə odaraq istiqlaliyyət əldə edən Ermənistan respublikalararası sərhədlərin müəyyənləşdirilməsində, mübahisəli ərazilərin beynəlxalq təşkilatda müzakirəsinə məhəl qoymadan köhnə iddialarından əl çəkməyərək Azərbaycan və Gürcüstan torpaqları hesabına “Böyük Ermənistan” yaratmaq məqsədilə həm Azərbaycana, həm də Gürcüstana qarşı müharibəyə girişdi. Həmişə olduğu kimi, 1918-ci ildə də erməni daşnak hökumətinin ərazi iddiaları Cənubi Qafqaz xalqları arasında qanlı vuruşmalara, qırğınlara, qaçqınlığa gətirib çatdırdı. Bu dövrdə erməni millətçilərinin törətdikləri qanlı qırğınları, millətlər və respublikalararası münas-bətlərdə yaratdıqları gərkinlikləri ancaq faktların dili ilə, tarixi sənədlərlə verməyin oxucu üçün daha sərfəli oldu-ğunu nəzərə alaraq Loru-Pəmbək, Şörəyel qəzasından başlamış İrəvan quberniyasının qəzalarında daşnakların törətdiyi vəhşilikləri ardıcıl surətdə təqdim edirik.

Daşnaklar 1918-ci ildə əllərindən alınmış Qars vilayətini, İrəvan quberniyasının bir hissəsini müttəfiqlərdən alaraq Ermənistanın ərazisini 17.500 inkilis kv. milinə, əhalisini 1 milyon 510 min nəfərə (795.000 ermənilər, 575 000 müsəlmanlar, 140.000 başqa millətlər) çatdırdılar. Onlar bununla kifayətlənməyib hazırda Gürcüstan ərazisinə daxil olan Axılkkələyi və Borçalını, Azərbaycan torpaqları olan Qarabağ, Naxçıvan diyarını və Gəncə (Yelizavetpol) quberniyasının cənub hissəsini tələb edirdilər. Bu əraziləri zorla birləşdirmək cəhdi Cənubi Qafqazın ingilis işğalı dövründə Gürcüstanda, (dekabr, 1918-çi il) müharibəyə və Azərbaycanda uzunmüddətli və qanlı müharibəyə gətirib çatdırdı ki, bunun da nəticəsində mübahisəli rayonların əhalisi 10-30% azalmış, bir sıra kəndlər, sözün əsl mənasında, yerlə-yeksan edilmişdir”. ( Böyük Sovet Ensiklopediyası, birinci buraxılış, cid 3, səh.437).

1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı dövründə Ermənistanın indiki ərazisində yaşayan 575.000 nəfər azərbaycanlının 565 mini qırılmış və qovalanmışdır. Bu rəqəmi Z.Korkodyan özünün 1932-ci ildə İrəvanda erməni dilində nəşr etdirdiyi “Sovet Ermənistanının əhalisi. 1831-1931” kitabında təsdiq edir. 1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10.000 nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60.000 qaçqın qayıtdıqdan sonra azərbaycanlılar burada 72.596 nəfər təşkil etmişdir.

1918-1920-ci illərdə onların üzləşdikləri qanlı faciələr haqqında o dövrün mətbuatında çoxlu, tükürpədici, qəlbləri silkələyən məlumatlar vardır. Onlardan bəzilərini nəzərdən keçirək. Erməni tarixçisi A. Lalayan “Əksinqilabçı daşnaksutyun” və 1914-1918-ci illərin imperialist müharibəsi” əsərində “könüllülər” hərəkatının iki yekununu xarakterizə edərək yazır:

“Könüllülər” hərəkatı. onunla səciyyələnir ki, qaniçən xmbabetlər (Andranik paşa, Hamazasp və başqaları) başda olmaqla daşnak dəstələri türk qadınlarının və uşaqlarının, qocaların və xəstələrin qırılmasında maksimum “cəsarətlilik” göstərmişlər. Daşnak dəstələrinin tutduqları türk kəndləri canlı insanlardan “təmizlənib”, eybəçər hala salınmış qurbanları ilə birlikdə xarabalığa çevrilmişdir. Novo- Bəyaziddən olan daşnak «qəhrəmanlarından» biri Vahram 1920-ci ildə öz “qoçaqlığını” belə təsvir etmişdir:

“Mən Basarkeçərdə (Basarkeçər Ermənistanın rayonlarından biridir - A. L.) heç nəyi nəzərə almadan türk əhalisini qırdım - deyə, daşnak “başkəsəni” lovğalanırdı. - Lakin bəzən glləyə hayıfım gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su quyusuna doldurub, üstündən ağır daşları tökəsən ki, onlardan əsər-əlamət qalmasın. Bandit sözünə davam edərək deyir: Mən elə də etdim: bütün kişiləri, qadınları və uşaqları öldürüb doldurdum quyuya və üstünü də daşla doldurdum...»

Beləliklə, daşnak könüllülər hərəkatının nəticələrindən biri on minlərlə türk zəhmətkeşinin qırılmasıdır». ( AMEA-nın xəbərləri № 4, 1989 səh.50).

İrəvan quberniyasının müsəlmanlarının amerikalılara xatırlatmasında (türk informasiyası) deyilir:

“88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131.970 kişi öldürülmüşdür”.

“Bu sətirləri oxuyarkən Cənubi Qafqazda işin vəziyyəti ilə tanış olmayan oxucu heyrətə gəlir. Müntəzəm olaraq gündə bir mətbuatda, xüsusilə xarici mətbuatda haray salırlar ki, guya müsəlmanlar zavallı, kimsəsiz xristian xalq olan ermənilər üzərində zorakılıq edirlər və birdən məlum olur ki, zorakılıq edən müsəlmanlar deyil, tam əksinədir”.

“...O kün Gəncədən iki teleqraf gəlib ki, erməni saldatları Göycə sərhədini keçib müsəlmanlara hücum etmişlər. 60 min müsəlmanın irzü-namusu, həyatı, malı və mülkü təhdid edilir.

İndi Tiflisdə olan Camalyana (Ermənistanın Gürcüstandakı daimi nümayəndəsi) və erməni qəzetlərinə desən ki, balam, bu nə əhvalatdır? Özlərini eşitməməzliyə vurub deyəcflər ki, qoymayın, erməni milləti qırıldı qurtardı. Bu işlərdə belə görünür ki, ermənilər Ermənistana qənaət etməyib Rey havasına düşmüşlər.

Xülasə, erməni kirvələri çox ərköyün bəslənmişlər. Onlar deyir ki, biz hər nə eyləsək, siz danışmayın. Ancaq siz bir balaca əl tərpətsəniz qiyamət qopardarıq.

Başını ağrıtmayım, bu axır vaxt heç ermənilər özləri də bilmirlər nə istəyirlər. (“Şeypur” jurnalı, 14 noyabr 1918-ci il)

Doğrudan da, həya yaxşı şeydir. İnsan ki, həyasız oldu, heç nə, həyasız adamdan hər nə desən baş verər...

Bu həyasızlardan biri Ermənistan hökumətinin baş komandanı Andranik kirvədir ki, yenə Qarabağda baş qaldırıb müsəlmanları qırmağa başlamışdı. Ermənistan hökuməti də gözlərini yumub, əli ilə işarə eləyir. Ermənistan hökumətinin nə tövr siyasət yeritdiyini və nə fikirdə olduğunu təfsir etmək artıqdır.

Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe kimi bir şey olsun. (“Şeypur” jurnalı, 14 noyabr 1918-ci il).

Dağlıq zolağın 5-ci sahəsinin müsəlman əhalisi müvəkkili İsmayıl Sultanovun Gəncə qəzası naçalnikinin adına göndərdiyi məlumatdan çıxarış:

“Bu ilin 13 aprel tarixindən başlayaraq Ararat respublikasının qoşunları Göyçə rayonunun, Yeni Bəyazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişdir. Məqsəd Göyçə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləməkdir.

Hal-hazırda 60.000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhali isə qırılmışdır. Bədbəxt müsəlman əhalisi Göyçə müsəlmanlarını qırmağı qarşısına məqsəd qoymuş və bunu yerinə yetirən erməni qoşunlarının atəşləri ilə rəhmsizcəsinə məhv olur. Erməni hökumətinin və ermənilərin keçmiş qonşularına və təbəəliyində olan müsəlman vətəndaşlarına qarşı belə vəhşilikləri gördükdə adam dəhşətə gəlir. Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə sağ buraxmır, ağlagəlməz işgəncələrlə onlara zülm edir, bəzi qadınları və yeniyetmə qızları çıxmaq şərtilə, qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər, əhalinin malı, dövləti acgöz erməni qoşunları tərəfindən ələ keçirilib, öz aralarında bərabər bölüşdürülür, sağ qalanlar isə qoşunlar tərəfindən təqib edilir, çox az miqdarda Gəncə qəzasının beşinci sahəsinin kənarlarına axışıb gəlirlər. Qalan 17 kəndin sakinləri isə Cavanşir qəzasının dağlıq hissəsinə qaçır, daha doğrusu, 7-8 kəndin sakinləri erməni qoşunları tərəfindən təqib olunan Gəncə qəzasının 5-ci sahəsinin qarlı zirvələrində, dərələrdə gizlənirlər, qarın altında qalıb kütləvi şəkildə məhv olurlar. Ararat Respublikasının məsələsi həll olunub, artıq Göyçə rayonunda müsəlman qalmayıb. Hal-hazırda Novo-Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır. Onlardan 22-si aprel ayının 13-20 tarixlərində dağıdılmışdır. Bunlar: Daşkənd, Qoşubulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Söyünquluağalı, Ağkilsə, Zod, Quluağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzibil, Canəhmədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Kiçik Məzrə, Şişqaya, Baş Hacı, Qərib Qaya kəndləridir. 15 mindən artıq evi olan bu kəndlərin sakinləri bütün malı, dövləti başlı-başına buraxıb qaçmışlar; Bütün bu mal dövlət hal-hazırda ermənilərə qalıb: qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir”. (“Azərbaycan” qəzeti, 17 may 1919-cu il).

Bütün bu deyilənlərdən məqsəd o dövrdə erməni millətçilərinin strateji planlarının əsas istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Baş istiqamət antitürk, antiazərbaycan hərəkatını genişləndirməklə qisasçılıq müharibəsi aparmaq, bu yolla xəyali “Böyük Ermənistan” yaratmaq olmuşdur. 1918-1920-ci illərdə daşnak Ermənistanının törətdiyi minlərlə qırğında bunlar aşkar görünür. “Azərbaycan” qəzetində “Ararat Respublikasında” sərlövhəli məqalədə bu məqsəd açıq etiraf edilir. Qəzet yazır: “Yeddi gün bundan əvvəl Qulu adlı bir kəndli bizim Qaraiman kəndinə gələrək bildirdi ki, zabitlər Filimov və Nişanevin başçılığı ilə erməni dəstələri gecə Qızılvənk, Subatan və Zağalı kəndlərini mühasirəyə aldılar. Guya pristav çağırır bəhanəsilə bütün kişiləri kənddən çıxartdılar, özləri isə kəndi talan etməyə başladılar. Kəndlilər yalvarıb xahiş etdilər ki, nə istəsələr, onların tələbini ödəyərlər, təki onları azad etsinlər. Cavablarında ermənilər bildirdi ki, iki-üç müsəlman kəndini məhv etməklə biz qisas almaqdan doymarıq. Əgər biz 30 kənd də dağıtsaq, bu, sentyabr ayında hətta Bakının kiçik bir küçəsində axıdılan erməni qanı və qurbanları ilə müqayisə edilə bilməz.

Bu üç kəndi dağıdandan 4 gün qabaq ermənilər Çamurlu kəndində 4 kişi və 6 arvadı vəhşiçəsinə öldürmüşlər. Həm də kişilərin başlarını kəsmiş, qadınların isə döşlərini. Meyitləri biz özümüz basdırdıq.

Şorca kəndində başına oyun açılmış bir qadın bildirdi ki, kənddə bütün kişiləri qırdılar, uşaqları təndirlərdə yandırdılar, sonra bütün kənddən 8 qadın seçib aparıb 20 gün saxladıqdan, şərəfinə toxunduqdan sonra buraxdılar. “Azərbaycan” qəzeti, №30, 9 fevral (27 yanvar) 1919-cu il.

Lalayan daha sonra yazır: “Ermənilər tərəfindən azərbaycanlıların qırılması çoxdan başlamış, dövlət siyasəti səviyyəsinə qaldırılmış və Azərbaycanın hüdudlarından kənara çıxmışdır. Onda təəccüblənməyə dəyərmi ki, ancaq Ermənistanda daşnak hökuməti «özünün 30 aylıq hakimiyyəti dövründə (may 1918 - noyabr 1920) Azərbaycan əhalisinin 60 %-ni qırmışdır.

Q. Muradyan erməni hökumətinin Göyçə gölünün şimal sahilində olan azərbaycanlı kəndlərini dağıdan bandit dəstələrinin bədii təsvirini verərək yazmışdır: “...Bizim hökumətin gördüyü tədbirlər nəticəsində...bu kəndlərin (Toxluca, Ağbulaq, Ardanış və b.) əhalisi Ermənistanın sərhədlərini tərk etmişdir. Mən sahibsiz qalan kəndləri gördüm, orda bir neçə pişikdən, habelə sarsıdıcı sakitlikdən heyrətlənən itlərin qəribə hürüşməsini gördüm. Bu kəndlərin əhalisi çox böyük sahələrdə kartof, buğda və arpa əkini qoyub getmişlər. Hökumət bu

kəndlərdən iki milyon pud buğda və yarım milyon pud kartof götürə biləcək... ( “Joğovurd” (“Xalq”) qəzeti, №105, 1920-ci il).

1918-ci ilin avqustunda İqdır və Eçmiədzin qəzalarında müsəlman kəndlərində qırğınlar başlamışdı. Xmbapet Dronun göstərişi ilə 60 kənd dağıdılmışdı. Bu kəndlərdəki bütün kişilər qılıncdan keçirilmişdi...

...1919-cu ilin yayının axırlarında Vedibasarda, Cənubi-Qərbi Azərbaycanda və Ermənistanda müsəlmanların vəziyyəti olduqca çətinləşdi. Ermənistanın müsəlman əhalisinin böyük əksəriyyəti bu hadisələrin nəticəsində qaçqınlara çevrildi. Onlar öz kəndlərinə qayıtmaq istəyərkən dəfələrlə qovalanmış, onların evləri və torpaqları Türkiyə erməniləri tərəfindən tutulmuşdur. Ermənistanda belə qarət olunmuş müsəlmanların sayı ancaq Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzalarında 200 min nəfərə çatmışdır». (Azərbaycan SSR EA Xəbərləri, №4, 1989, s.142-144.)

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabinetinin sədri bildirir ki, dəqiq məlumata görə Andranik erməni qaçqınlarını müşayiət etmək bəhanəsi altında öz dəstəsi ilə İrəvan qəzasının müsəlmanlarına qarşı vuruşan erməni qoşunlarına köməyə göndərilir. Bu, İrəvan qəzasının müsəlmanları üçün böyük təhlükə yaradır, çünki onların müsəlmanlar yaşayan yerlərdə yerləşdirmək istədikləri bütün qaçqınlar Türkiyə təbəəli ermənilərdir. Buna sübut olaraq bu faktı göstərmək olar ki, əvvəllər müsəlmanların yaşadıqları yerlərə indi silah gücünə Ararat Respublikasından erməniləri köçürürlər və məhz buna görə ermənilərlə müsəlmanlar arasında əməlli-başlı müharibə gedir. (Azərbaycan SSR EA Xəbərləri, №2, 1989, s.128.)

İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək dağıdılmış və tərk edilmiş müsəlman kəndlərinin siyahısında quberniyada 15.155 təsərrüfatı təmsil edən 199 kənd (100.626 nəfər) göstərilmişdir. Bu rəqəmlər “Kavkazski kalendar»dan (1908-ci il) götürülmüşdür. 1908-1918-ci ilə qədər əhali artımı da hesablanaraq dağıdılmış kənddərin əhalisi 135.000 nəfər təşkil etmişdir.

1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmişdir.(Azərbaycan Respublikası MDA, fond 894, siy. 10, iş 20, v. 47-48.)

1920-ci ilin noyabrından sonra daşnak hakimiyyətinin devrilməsi xəbərini eşidən Ermənistan azərbaycanlıları tədricən öz ata-baba yurdlarına qayıtmağa, keçmiş ədavəti unudaraq, dinc əməklə məşğul olan ermənilərlə qonşuluq etməyə başladılar. 1920-ci ildə bütün Ermənistanda cəmi 10 min azərbaycanlı qaldığı halda, 1922-ci ildə qaçqınların qayıtması hesabına onların sayı 77767 nəfər, 1931-ci ildə 105838 nəfər olmuşdu.

1905-1906-cı illər və 1918-1920-ci illərin qanlı faciələri haqqında susmaq hələ də qan sızmaqda olan sağalmaz yaralara biganə qalmaq deməkdir. XX əsrin yalnız birinci rübündə törədilmiş iki qırğında təqribi hesablamalara görə öldürülən, didərgin düşən və digər zərər çəkən azərbaycanlıların sayı iki milyona yaxındır.

**Məqalə “Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası” (Bakı, 1995) kitabının materialları əsasında hazırlanmışdır.**

## Zəngəzurda soyqırım

1918-ci il aprel çevrilişinə qədər erməni vəhşiliklərindən ən çox ziyan görmüş Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Bu müddət ərzində erməni quldur dəstələrinin həmin qəzanın müsəlman əhalisinə qarşı güc işlətmək siyasəti bir an da olsun belə kəsilmir, hərdən səngisə də, sonra daha yeni qəddarlıqlarla təkrar olunurdu. Fövqəladə İstintaq Komissiyasının, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin, müxtəlif nazirliklərin arxivlərində bu haqda çoxlu tarixi sənədlər qorunub saxlanılır. Onların arasında Fövqəladə təhqiqat komissiyasının məruzələrini, Azərbaycan parlamentinin 1918-ci il dekabrın 20-də keçirdiyi və bu məsələyə həsr olunmuş xüsusi fövqəladə iclasının materiallarını, xüsusilə orada Baş nazir F. X. Xoyskinin çıxışını, parlamentin adına gəlmiş teleqramları və s. qeyd etmək olar. (Bax: ARDA. f. 895, siy. 1, iş 1299, f. 970, siy. 1, iş 161, f. 1061, siy. 1, iş 49-65 və s.).

Hündür dağ bölgəsində yerləşən bu qəzanın demək olar ki, əlaqələri Şuşa qəzası ilə tamamilə, Cəbrayıl qəzası ilə qismən kəsilmişdir. Müsəlman kəndləri tək-tək erməni kəndlərinin aralarında qaldıqlarına və bir - biriləri ilə əlaqə saxlamaq üçün yalnız erməni kəndlərindən istifadə etməyə məcbur olduqları üçün ilk gündən özlərinin bu üstün vəziyyətini hiss edən ermənilər həmin qəzada üstünlüyü öz əllərinə almışlar. Qəzanın müsəlman əhalisinin Azərbaycanın başqa əyalətlərinə nisbətən vəziyyəti bir də ona görə pisləşmişdir ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı bu qəzada general Andranikin çox yaxşı təşkil edilmiş erməni əsgərlərindən ibarət nizami qoşunları da vardı. Andranik öz ətrafında nizami qoşun və erməni quldur dəstələrini cəmləşdirərək görünür ki, Erməni Respublikası hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən tələb edir ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da qəzanın ərazisini tərk etsinlər. Guya bu qəza Ermənistan Respublikasına daxildir. Qəzanın demək olar ki, bütün dünyadan təcrid olunmuş və çox zəif silahlanmış əhalisi Andranikin bu tələblərini rədd edir. Buna görə də ermənilər həmin əhaliyə qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Öz respublikalarının ərazisini genişləndirməyə cəhd edərək ermənilər müsəlmanlara aman vermirdilər. Hətta müsəlmanlar könüllü olaraq öz doğma ocaqlarını tərk etdikdə belə ermənilər onların kəndlərini yandırır, özülünə qədər dağıdır, əhalini görünməmiş vəhşiliklərlə qətlə yetirir, onların mal-heyvanlarını sürüb aparır, əmlaklarını müsadirə edir, onların torpaq sahələrini zorla ələ keçirib əkirdilər. Məruzədə göstərilirdi ki, hazırda bu qəzada yalnız Oxçu dərəsi müsəlman kəndlərinin əhalisi çox mərdliklə öz doğma ev-eşiklərini, ata-baba ocaqlarını müdafiə edirlər.

Sisyan mahalının birinci polis sahəsində olan bütün müsəlman kəndləri, ikinci polis sahəsində olan kəndlərin əksəriyyəti, üçüncü, dördüncü və beşinci polis sahəsindəki müsəlman kəndlərinin isə çox hissəsi məhv edilmişdir. Bəzi kəndlər ümumiyyətlə yer üzərindən silinmiş, həmin kəndlərin torpaqları ermənilər tərəfindən əkin üçün şumlanmışdır. *50 mindən yuxarı müsəlman qaçqını* qismən dördüncü polis sahəsində, qismən də Cəbrayıl qəzasında özlərinə sığınacaq tapmışlar.

Fövqəladə təhqiqat komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunur. Dağıdılmış bütün kəndlərin adları sadalanır.

Məruzədə göstərilən 115 kənd ermənilər tərəfindən yandırılmış, əmlakı oğurlanıb aparılmış, ərazisi ermənilər tərəfindən zəbt olunmuşdur. Bu kəndlər məhv edilərkən o qədər haqsızlıqlar, vəhşiliklər törədilmişdir ki, onları ayrı-ayrı kəndlər üzrə göstərməyə imkan yoxdur. Ermənilərin dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi vəhşiliklər haqqında təhqiqat komissiyasının aktları, onlara əlavələrdə kifayət qədər məlumatlar vardır.

Yuxarıda göstərilən 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Nəticədə tam olmayan məlumata görə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşilikləri haqqında tam məlumat vermir. Belə ki, erməni vəhşiliklərinin qurbanları daha çox olmuşdur. Ancaq indiki dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Şahidlərin ifadələri əsasında tərtib olunmuş məruzədə ermənilərin törətdikləri vəhşiliklər haqqında ətraflı məlumatlar verilmişdir. Vaqudu kəndində erməni əsgərlərinə paylanmış və zorlanmış 15 nəfər gözəl azərbaycanlı qızları namussuzluq əzabına dözə bilməyərək özlərini məhv etmişlər. Elə həmin kənddə 400-dən yuxarı azərbaycanlı əhali məsciddə sığınacaq tapır və güman edirlər ki, ermənilər müqəddəs yer olan məscidə dəyməzlər. Ancaq məscidi mühasirə edən erməni vandalları əvvəlcə məscidə əl bombaları atır, sonra isə ona od vuraraq adamlarla birlikdə yandırırlar. Həmin kənddə Qədəm Tahir qızı qılıncla doğranmış və döşü kəsilərək başı kəsilmiş südəmər uşağın ağzına soxulmuşdur. Həmin kənddə ermənilər Yolçu Şıx Hüseyn oğlunu öldürərək, cinsiyyət üzvünü kəsib ağzına soxmuşlar. Həmin kənddən dörd nəfər cavan qız - Nisə Əmən qızı, Acib Nuhbala qızı, Sona Cəfər qızı və Şahnur Cəlal qızı ölənə qədər ermənilər tərəfindən zorlanmışlar. Həmin kəndin yaxınlığında Gülməstə Qasım qızı öldürülmüş, döşləri kəsilmiş, kürəklərinin arasına at nalı

mıxlanmışdır. Nüvədi kəndində ermənilər yorğan-döşəkdən dura bilməyən yüz yaşlı Əsəd bəy Məlik Abbasovu süngü ilə dəlik-deşik etmişlər.

Həmin kənddə küçələrdə qaçıb canını qurtarmaq istəyən uşaq və qadınların şaşka və xəncərlərlə başlarını üzmüşlər. Şəki kəndinin küçələrində döşləri kəsilmiş qadın və iki yerə şaqqalanmış uşaq meyitləri atılıb qalmışdır. İrmişli kəndini talan edərkən ermənilər südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülənlərin meyitləri tikə-tikə doğranırdı. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edirlər, bundan imtina edən qadınların döşlərini kəsir körpə uşaqların ağzına soxurdular. Elə həmin kənddə ermənilər sağ-sağ Qulam Şakir oğlunun ayaqlarını kəsmiş, sonra süngü ilə onu dəlik-deşik edərək qanı qurtarıb ölənə qədər kəsik ayaqları üzərində hərəkət etməyə məcbur etmişlər. Həmin kənddə gözəl qızlar əvvəl zorlanmış, sonra isə öldürülmüşlər. Çullu kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan 9 nəfər müsəlmanı qılıncla doğramışlar. Bağır-bəyli kəndində ermənilər 7 nəfər azərbaycanlını bir evə yığıb evlə birlikdə diri-diri yandırmışlar. Müsəlmanlar kəndində meyitlərin əli, ayağı, başı kəsilmiş və o qədər eybəcər hala salınmışlar ki, bilmək olmurdu ki, həmin əzalar hansı meyitə məxsusdur. Qatar kəndində çox hörmətli Məşədi Qələndər Məşədi Qulu oğlunun üzərinə ermənilər neft tökərək diri-diri yandırmışlar. Həmin kənddə ermənilər Kərbəlayı Allahverdi Hüseynəli oğlunun əl-ayağını bağlayaraq qoyun kimi boğazından kəsmişlər. Vartanazur kəndində ermənilər xüsusilə çox uşaq və qadını xəncərlə doğramışlar.

Bu göstərilənlər ermənilərin törətdikləri vəhşiliklərin cüzi bir hissəsi idi. Bu cür və bundan daha dəhşətli vəhşiliklər ermənilərin dağıtdıqları bütün kəndlərdə təkrar olunurdu. Lakin təəssüflər olsun ki, o kəndlərin çoxunda bu vəhşiliklərin şahidləri belə qalmamışdır.

Çoxlu şahidlərin dediyinə görə Zəngəzur qəzasında 1918-ci il yayın axırları və payızında baş verən bu hadisələr bilavasitə cəllad Andranikin rəhbərliyi altında keçirilmişdir. Zəngəzur qəzasının müsəlman kəndlərinə hücum etmiş erməni quldur dəstələrinin başçıları və bu dəstələrin yüzlərlə üzvləri şahidlər tərəfindən tanınmışlar. Onlardan Gorus şəhərindən Nikolay Osipov, Simon Mimmov, Darabas kəndindən - Şamir Şahnazarov, Meğri kəndindən David Arşak, Matevos Maçiants, Kəvər kəndindən Hamazasp, Xotanan kəndindən zabit Avanes Ter-Petrosov, Araazur kəndindən Sumbat Melik-Stepanov və onlarla başqaları idi.

Zəngəzur qəzasının 100-dən çox müsəlman kəndi dağıdılmış, 10 minlərlə iribuynuzlu mal-qara və 100 minlərlə xırdabuynuzlu qoyun-keçi ermənilər tərəfindən sürülüb aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılmış, dağıdılmış, bir sözlə qəzanın müsəlman əhalisinin iqtisadi vəziyyəti üçün zəmi kökündən məhv edilmişdir. Qəzanın Azərbaycanın müxtəlif kəndlərinə qaçıb dağılmış əhalisinə ermənilər tərəfindən o vaxtın qiymətləri ilə *1 milyard manata yaxın maddi ziyan vurulmuşdur.*

Ermənilərin Zəngəzurun müsəlman əhalisinə qarşı hücumları 1919-cu ilin dekabrından yenidən şiddətlənir. Artıq noyabr aylarında ermənilər müsəlmanlar yaşayan Oxçu, Atqız, Şabadan, Pirdavdan kəndlərinə qarşı geniş hərbi əməliyyata başlayırlar. Özü də bu vaxt artıq Ararat Respublikasının rəsmi nizami ordusu bu işdə iştirak etməyə başlayır. (ARDA: f. 894, siy. 4, iş 65).

1920-ci il yanvarın 6-da keçirilən iclasda Azərbaycan Cümhuriyyəti Dövlət Müdafiə Komitəsi "Zəngəzurun müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılmasının davam etməsinə qarşı tədbirlər görülməsinin zəruriliyi haqqında" daxili işlər nazirliyinin məlumatmı müzakirə edir və qərara alınır ki, dinc əhaliyə qarşı ermənilərin bu hərəkətlərinin qarşısını almaq üçün müəyyən tədbirlər görülsün və bu haqda mütəffiq qoşunlarının bölgədəki nümayəndəsinə məlumat verilsin. (Bax: ARDA. f. 897, siy. 1, iş 112, vər. 48).

Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşilikləri 1920-ci ilin əvvəllərində özünün kulminasiya nöqtəsinə çatır. Həmin il yanvarın ortalarında Paris sülh konfransı ölkələri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması ilə əlaqədar olaraq ermənilər Zəngəzurda daha da fəallaşırlar. Özü də əvvəllər Zəngəzurda baş verən hadisələrin bilavasitə təşkilatçısı olan Ararat Respublikası rəsmi yazışmalarda bu işlərdən qətiyyən xəbəri olmadığını iddia edir. Həmin hadisələrin günahını gah Andranikin, gah da Zəngəzurda yaradılmış digər erməni təşkilatlarının üzərinə atırdı. Lakin 1920-ci ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin bilavasitə təşkilatçısı məhz Ararat Respublikasının özü idi. Burada da əsas məqsəd Zəngəzur qəzasını tezliklə tamamilə müsəlmanlardan təmizləyərək sülh konfransı ölkələrini bu məsələnin Ermənistanın xeyrinə həllində həyata keçirilmiş fakt qarşısında qoymaq idi. Artıq bu təmizləmə siyasətində Zəngəzurdakı erməni quldur dəstələri ilə yanaşı Ararat Respublikasının top və pulemyotlarla silahlanmış on mindən yuxarı nizami qoşun dəstələri də iştirak edirdi.

Bu hücumla əlaqədar olaraq 1920-ci il yanvarın 20-dən Azərbaycan Respublikasının Parlamentinə, hökumətinə müxtəlif partiya fraksiyalarının rəhbərlərinə Zəngəzur, Cəbrayıl və Şuşadan çoxlu həyəcanlı xəbərlər daxil olur.

İlk teleqram 1920-ci il yanvarın 21-də Azərbaycan Respublikası Parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Cəbrayıldan Azərbaycan Parlamentinə göndərilmişdir. Orada deyilirdi: "Zəngəzur qəzasında *dörd gündür* ki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında hücumları davam edir. Cəbhə xətti Qubadlıdan Xocahana qədər 50 verst məsafədə uzanır. İtkilər olduqca çoxdur. Əhali

vahimə içərisində qaçır və kömək umur. Artıq dərəcədə xahiş edirəm çox sayda ordu və patron göndərmək haqqında təcili tədbirlər görün. Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz türk (Azərbaycan - A. P.) xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 20).

Elə həmin gün Şuşadan da Azərbaycan Parlamentinin ünvanına Məmməd Həsən Xocahanlı, Fərrux bəy Sarmasbəyov, Abbas bəy Mirzəyev, Baqrat bəy Cavanşir, İsmayıl Muxtarov tərəfindən vurulmuş teleqramda deyilirdi: "Yanvarın 19-dan başlayaraq ermənilər nizami ordu və artilleriyanın köməyi ilə Zəngəzur müsəlmanlarını qırmağa başlayıblar. Artıq Əliqulu uşağı, Eyvazlı, Şamsız, Şurnux, Məzrə, Novla, Tarovlu kəndləri tamamilə dağıdılıb, hücum davam edir. Müsəlmanların vəziyyəti çıxılmazdır. Heç yandan kömək yoxdur. İranlı ermənilər tərəfindən də təhlükə gözlənilir. Yalvarırıq, təcili tədbirlər görün". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 35-37).

Yanvarın 22-də isə Cəbrayıl məktəbinin nəzarətçisi H. Axundzadə Azərbaycan Parlamentinə göndərdiyi teleqramda yazırdı: "Ayın 19-da səhərdən erməni silahlı qüvvələri Zəngəzurda Xocahandan Qaladərəsinə kimi ərazidə bütün cəbhə boyu toplardan və pulemyotlardan müsəlman kəndlərini atəşə tuturlar. Altı kənd tamam dağıdılmış, doqquz kənd isə od içərisində yanır. Ermənilər qadınlara və uşaqlara belə rəhm etmədən qəddarlıqla müsəlmanları qırır, kəndləri dağıdırlar. Müqavimət göstərməyə heç bir qüvvələri olmayan müsəlmanlar bütün əmlaklarını ermənilərə qoyaraq yalnız qaçmaqla canlarını qurtarırlar". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 31-33).

Erməni millətçilərinin Zəngəzurdakı dəhşətli cinayətləri və onlara layiqli cavab verilməməsi - azərbaycanlı əhali arasında ümidsizlik doğurur. 1920-ci il yanvar ayının 23-də Cəbrayıldan müəllim Hüseyn Axundzadə və başqaları tərəfindən kiril əlifbası ilə Azərbaycan dilində Azərbaycan Cümhuriyyəti Parlamenti və hökuməti adına göndərdikləri teleqramda deyilirdi: "İkinci dəfə olaraq teleqraf edirik. Zəngəzur müsəlmanları tərəfindən başınız sağ olsun. Nə qədər zəngəzurlular ağladılarsa da, nalələri Zəngəzur dağları, dərələri və obaları arasından bir tərəfə çıxmadı. Qarı arvadların məmələri kəsilmiş, məsum balalarının başsız bədənləri qırmızı qanlarına bulaşmış çöllərdə qalıblar. Qızlar və gəlinlər ermənilərin əlinə keçmiş, onların namuslarına təcavüz edilmişdir. Zəngəzurda düşmən müqabilində bir az kişi qalıb. Lakin onlar da tam ümidsiz vəziyyətdədirlər. Heç bir tərəfdən kömək gəlməmişdir. Ermənilərin nizami orduları *on min nəfərə* çatmışdır və hər an qüvvələri artmaqdadır. Ararat (Respublikası - A. P.) tərəfindən hər an onlara kömək gəlir. On ədəddən yuxarı topları və çoxlu pulemyotları vardır. Topların gurultusu Cəbrayılı həyəcana gətirmişdir. On minlərlə Zəngəzur qaçqını Cəbrayıl qəzasına yayılmışdır. Üzümüzü çeviririk ümumi Azərbaycan dindaşlarımıza. Onları Zəngəzurdakı qardaşlarımızın, bacılarımızın, məsum balaların məzlumanə şəkildə şəhid olmalarına qarşı kömək, kömək deyə yalvarışlarına cavab verməyə çağırırıq.

Ermənilərin fikri budur ki, Zəngəzurla qurtarmaqla Cəbrayıl erməniləri ilə birləşib buralarda da dəxi dava etsinlər və Naxçıvan ilə bizim əlaqələrimizi tamamilə kəssinlər. Əgər hökumət tərəfindən fövqəladə binagüzarlıq olmazsa müsəlmanların işi fəna olacaqdır". (ARDA. f. 895, siy. 1, iş 299, vər. 8-12).

Elə həmin gün Cəlil Sultanovdan da Azərbaycan Parlamentinə, hökumətinə, bütün Parlament fraksiyalarının sədrlərinə aşağıdakı məzmunda ikinci teleqramı daxil olmuşdur: "İndicə aldığım səhih məlumata görə yanvarın 19-da erməni nizami ordusu 10 top və çoxlu pulemyotlarla Xocahan və Qaladərəsi arasındakı bir sıra tatar (azərbaycanlı - A. P.) kəndlərinə hücum etmişlər. Dünənə qədər 15 kənd məhv edilmişdir. Hücum Cəbrayıl qəzasının Xanlıq kəndi yaxınlığında davam edir... Qaçqınlar böyük sayda Cəbrayıla gəlirlər. Təkrar edir və yalvarıram ki, təcili tədbir görərək ordu göndərin. Xahiş edirəm mənim teleqramımı bütün Parlament üzvlərinə elan edəsiniz. Mən hərbi əməliyyat yerinə gedirəm". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 14-17).

Cəlil Sultanov yanvarın 23-də hərbi əməliyyat yerindən Parlamentə göndərdiyi üçüncü teleqramında yazırdı: "Bu gün axşam vaxtı qəza rəisi ili birlikdə Cəbrayıla gəldim. Açıq səma altında Zəngəzurdan təzəcə gəlmiş on minlərlə lüt, ac qadın və uşaq qaçqınları gördüm. Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Ermənilərin döyüş meydanında qalmış ölüləri arasında bir neçə rəngli ingilis əsgəri də vardı. Xocahan və Zabux arasındakı bütün yüksəkliklər ermənilər tərəfindən tutulmuşdur. Əkərə çayının sağ sahili boyu üçüncü polis sahəsi tamamilə toplarla və pulemyotlarla məhv edilmişdir. Bu gün Zəngəzur qəzasının dördüncü polis sahəsinin sağ qalan hissəsini ermənilər mühasirə ilə kəsib ayıraraq onun da axırına çıxırlar. Zəngəzurda tam hakimiyyətsizlik hökm sürür. Döyüşmək və müqavimət göstərmək üçün heç bir vəsait yoxdur. Hökumətin köməyinə ümidini itirən əhali bütün Azərbaycan türk xalqına müraciət edir. Aldığımız məlumata görə sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşməkdir. Nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Qarabağın Dağlıq hissəsinin erməniləri sürətlə üsyana hazırlaşırlar. Hökumətin cinayətkarcasına fəaliyyətsizliyi Zəngəzur və Qarabağın məhvinə gətirib çıxarıb. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain

xatisovların təntənəli ziyafətləri, Azərbaycanın erməni təbəələrinin həyasızlığı yetər. Xahiş edirəm təcili tədbir görün ki, heç olmasa Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinayət və satqınlığa bərabərdir. Hərbi nazirin iştirakı çox vacibdir". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 18, 22, 26).

1920-ci il yanvarın 24-də Cəbrayıldan C. Sultanovun Azərbaycan Parlamenti adına göndərdiyi son teleqramında deyilirdi: "Bütün teleqramlarıma əlavə olaraq hərbi əməliyyat yerindən məlum edirəm ki, Zəngəzur sarıdan başınız sağ olsun. Ermənilər öz qüvvələrini Cəbrayıl qəzasının sərhədlərində - Əkərə çayı ətrafında cəmləşdirirlər. Qarabağı xilas etmək lazımdır. *Erməni xəyanəti və hiyləgərliyi qurbanlarının sayı hesaba gəlməzdir.* Yalvarıram, təcili və qəti tədbirlər görün". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 5-7).

Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin Qarabağın general-qubernatoru X. Sultanova 1920-ci il 24 yanvar tarixli gizli məktubundan məlum olur ki, Zəngəzur və Qarabağda ermənilərin yaratdığı bu həyəcanlı vəziyyətlə bağlı hərbi nazirliyin xüsusi tədbirlər planı hazırlaması ilə yanaşı Dövlət müdafiə komitəsinin qərarı ilə daxili işlər orqanlarına yerli əhalidən müdafiə dəstələri yaratmaq üçün 5 milyon manat vəsait ayrılmış, bu vəsaitin lazımi yerlərə çatdırılması və nəzərdə tutulan məqsəd üçün sərf edilməsi işində yardımçı olmaq vəzifəsi həvalə edilmişdir. (Bax: ARDA: f. 894, siy. 7, iş 21, vər. 26). Lakin bu vəsait, xüsusilə hərbi sursatın yerlərə çatdırılmasında böyük çətinliklər yaranmasına baxmayaraq, nəhayət ki, bu çətinliklər aradan qaldırılaraq qəzanın əhalisindən ayrı-ayrı müdafiə dəstələri yaradılaraq Abdallardan Zəngilana qədər cəbhə boyu xəttində yerləşdirilmişdir. (Bax: "Azərbaycan" qəzeti, 1920-ci il, 26 fevral).

Dövlət müdafiə komitəsinin qərarı ilə hərbi nazirlik Xankəndi qarnizonunda və Gəncədə olan əsgəri qüvvələri Cəbrayıla yönəldilir. Daxili işlər naziri vəzifəsini ifa edən M. Vəkilov 1920-ci ilin fevralında Qarabağ general-qubernatoruna, Zəngəzura hərbi yardım məqsədilə digər yerlərin əhalisindən təşkil olunmuş min nəfərlik müdafiə dəstəsi yaradaraq bölgəyə gətirilməsini tapşırır. (Bax: ARDA. f. 894, siy. 7, iş 21, vər. 53).

Görülmüş tədbirlər nəticəsində Cəbrayıl qəzasından göndərilən 600 nəfərlik süvari dəstəsinin və Zəngəzur qəzası 3-cü sahəsinin pristavı Cəmilbəyovun 2 pulemyotla göndərdiyi 300 nəfərlik silahlı dəstələr birgə səy nəticəsində həm əsgərlərin sayı, həm hərbi texnika cəhətdən özlərindən 6 dəfə üstünlüyə malik erməni ordusuna böyük zərbələr endirərək Dondarlı ilə bərabər Qubadlı və digər kəndləri ermənilərdən geri aldılar. (ARDA: f. 894, siy. 7, iş 21, vər. 35). Dondarlıdakı məğlubiyyətdən sonra erməni silahlı qüvvələri Əliquluşağı kəndindən Zəngilana qədər olan ərazidə geri çəkilməyə məcbur olurlar. Bu həm də azərbaycanlı əhalidə mübarizəyə ümid oyatdı və sübut etdi ki, azərbaycanlılar yaxşı təşkil olunduqda ermənilərə layiqincə cavab verə bilirlər. Bu qələbənin əsas əhəmiyyətlərindən biri də onda idi ki, ermənilərin Qarabağa soxulmaq planları pozuldu. Həm də bu vaxt Türkiyə hərbi hissələri Naxçıvan mahalında yerli əhali ilə birlikdə ermənilərə qarşı döyüşlərdə erməni qüvvələrinə üstün gəlməsi erməniləri məcbur edir ki, özlərinin Zəngəzurdakı hərbi qüvvələrinin 2 minlik bir hissəsini kömək üçün geri çağırsın. (Bax: ARDA. f. 894, siy. 7, iş 22, vər. 13-14).

Nəticədə Azərbaycan Ordu birləşmələri Cəbrayıl və Zəngəzur partizanları ilə birlikdə apardıqları müvəffəqiyyətli əməliyyatlar nəticəsində bir neçə kəndi ermənilərdən geri almış, hətta onlardan əsir götürmüş və hərbi sursat ələ keçirmişdir. (ARDA: f. 894, siy. 7, iş 29 a, vər. 5-6).

Azərbaycan ordusu və partizan dəstələrinin müvəffəqiyyətli əməliyyatlarını pozmaq, onlar arasında çaşqınlıq yaratmaq məqsədilə 1920-ci ilin martında Novruz bayramı günü ermənilər azərbaycanlıların bayram şənliklərinə başı qarışdığı bir vaxtda Qarabağda qiyam qaldırır və Azərbaycan ordusunun Xan kəndindəki hərbi hissənin düşərgəsinə xaincəsinə basqın edirlər. Qarabağ qiyamı Azərbaycan ordusu tərəfindən müvəffəqiyyətlə yatırılır. Öz təcavüzkarlıq niyyətindən əl çəkməyən Ermənistan daşnak hökuməti Zəngəzura əlavə silahlı qüvvələr göndərməklə burada hərbi əməliyyatları yenə də qızışdırırdı. Nəticədə əlavə yeni qüvvələr alan erməni hərbi hissələrinin martın 27-də başlanan yeni hücumları nəticəsində bölgədə vəziyyət yenə də ağırlaşır. Güllə çatışmadığı üçün partizan dəstələri geri çəkilməyə məcbur olurlar. Fürsətdən istifadə edərək Qarabağ ermənilərindən yardım alan Zəngəzurdakı daşnak ordusu martın 27-də partizanların geri aldıqları Fərican kəndinə hücum etmişlər. Martın 29-da gedən döyüşlər nəticəsində azərbaycan əsgər və partizanları heç bir itki vermədən Əliquluşağı kəndini geri almış və 300-ə qədər ermənini məhv etmişdir. (ARDA: f. 894, siy. 7, iş 29 a, vər. 8-9).

Lakin martın sonu, aprelin əvvəllərində Zəngəzur və Qarabağ erməni silahlı dəstələrinin xeyli üstün qüvvələrlə güclü hücumları Həkəri çayından Şuşaya qədər olan ərazidəki Əliyanlı, Müsəlmanlar, Muradxanlı, Qaraimanlı və s. kəndlərin əhalisinin öz yaşayış yerlərini tərk edərək Cəbrayıl qəzasına qaçmağa məcbur oldular. (Yenə orada, vər. 15).

Martın 31-də axşam Qubadlı və Dondarlı kəndlərinin ermənilərin əlinə keçməsi ilə əlaqədar olaraq polkovnik Qacarın başçılıq etdiyi hərbi hissələr Cəbrayıl qəzasının Xanlıq kəndinə çəkilməyə məcbur oldular. Bununla da Zəngəzurdakı erməni silahlı qüvvələri Qarabağdakı erməni hərbi dəstələri ilə birləşərək region üçün ciddi təhlükə yaradır. Belə ki, Zəngəzurun çox hissəsinin erməni hərbi birləşmələrinin əlinə keçməsi və onun Şuşa üzərinə hücum üçün real zəmin yaranması, Cəbrayıl qəzasını tutaraq Ağdam ilə əlaqəni tamamilə kəsə

bilmək təhlükəsi yaranır. Buna görə də həmin il aprelin 1-də hərbi şuranın müşavirəsində ertəsi gün bütün Cəbrayıl qəzası üzrə hücuma keçmək qərara alınmışdır. Görülən bütün tədbirlər nəticəsində aprel ayında aparılan döyüşlər nəticəsində Ermənistanın nizami silahlı dəstələri Zəngəzurda xeyli sıxışdırılmış və hadisələrin gedişi üzərində nəzarət artıq bərpa edilmiş, daha müvəffəqiyyətli əks hücumlar üçün zəmin yaranmışdır. 1920-ci il aprelin 27-də XI Qızıl ordunun Bakını, sonra isə Azərbaycanın başqa bölmələrini işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Azərbaycanın ərazi bütövlüyünün təmin etmək üçün gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan Sovetləşən kimi heç bir qeyri şərtsiz həmin ərazilər Sovet Ermənistanına bağışlandı.

Azərbaycanda 1920-ci il aprel çevrilişindən sonra həmin ilin dekabrında Ermənistanın sovetləşdirilməsinə qədər Zəngəzur məsələsi ilə bağlı Sovet Rusiyasının yeritdiyi siyasətlə Ermənistan sovetləşəndən sonra yeritdiyi siyasət arasında köklü fərq mövcud olmuşdur. Belə ki, əgər 1920-ci il aprelin 30-da XI ordunun siyasi rəhbərliyi Azərbaycan İnqilab Komitəsi sədrinin müavini M. D. Hüseynovu Ermənistan daşnak hökumətinə nota ilə müraciət edərək Qarabağı və Zəngəzuru öz qoşunlarından təmizləməyi tələb edirdisə, həmin ilin dekabrında Zəngəzuru Ermənistana bağışlamağı məcbur etmişlər. Əlbəttə, bu o dövrkü Azərbaycan rəhbərliyinin öz təşəbbüsü ilə həyata keçirilmiş bir akt olmayıb. V. İ. Leninin başçılıq etdiyi Sovet Rusiyasının hakim dairələrində böyük nüfuz sahibi olan erməni və gürcü bolşeviklərinin diktəsi ilə bu regionda yeritdiyi yeni müstəmləkəçilik siyasətinin təcəssümü idi.

1920-ci ilin dekabrında Zəngəzurun heç bir qeyri-şərtsiz Ermənistana verilməsi ilə mənfur Z. Balayanın "Ocağ"ında deyildiyi kimi "Türkün ürəyinə çalınmış paz" onsuz da iki yerə parçalanmış Azərbaycanın şimal hissəsini yenidən bölüb iki yerə ayırdı. Görünür ki, bu məsələnin tamamilə öz xeyirlərinə həll olunduğunu hiss edən ermənilər müvəqqəti sakitlik yaratmaq üçün Zəngəzurdan qovulmuş azərbaycanlı əhalinin geriyə, öz yurd - yuvalarına qayıtmalarına etiraz etmirlər. Ancaq sonrakı hadisələr göstərdi ki, bu razılıq müvəqqəti imiş. Bütün vasitələrdən istifadə edən ermənilər bu ərazidə yaşayan azərbaycanlıları sıxışdıraraq azaltmış, 1980-ci illərin axırlarında M. Qorbaçovun bədnam "yenidənqurma" siyasətindən məharətlə bəhrələnərək onları son nəfəslərinə qədər əzəli və əbədi torpaqları olan Zəngəzurdan qovmuşlar.

***Paşayev Ataxan. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, səh. 240-253.***

## Naxçıvanda törədilən qırğınlar

Rusiyada çarizmin devrilməsi ermənilərin Azərbaycanda həyata keçirdikləri türk-müsəlman soyqırımlarının yeni dalğasının başlanmasına təkan verdi. 1917-ci ilin əvvəllərindən 1918-ci ilin martınadək təkcə İrəvan quberniyasında 197 azərbaycanlı kəndi dağıdıldı və boşaldıldı. Onların da müəyyən hissəsi həmin quberniyaya daxil olan Naxçıvan qəzasına və digər qonşu qəzalara aid idi. Zaqafqaziya seyminin Azərbaycandan olan təmsilçiləri bütün bu vəhşilik və zorakılıq hərəkətlərinə ciddi etiraz etmişdilər .

S.Şaumyanın vasitəçiliyi ilə sovet Rusiyasının himayə və yardımına nail olmuş ermənilər, xüsusilə də Andranikin silahlı quldur dəstəsi 1918-ci ilin iyun-avqust aylarında Naxçıvan mahalının dinc türk-müsəlman əhalisinə heç bir çərçivəyə sığmayan vəhşiliklə divan tutmuşdur. İşğalçılara ciddi müqavimət göstərmiş Yaycı (Culfa rayonu) kəndinin əhalisinə divan tutulmuş, kənd viran qoyulmuşdur. Culfa rayonu ərazisində Araz çayı üzərindəki körpü yandırılmış və Ordubadda 2000 türk-müsəlman əhali qətlə yetirilmişdir. Qadınlara, uşaqlara və qocalara rəhm edilməmiş, əli yalın insanların kürəyinə qaynar samovar bağlanmış, hamilə qadınların qarınları yırtılmış və başqa insanlığa sığmayan işgəncələr verilmişdir. Bu vəhşətdən qaçmağa çalışan 300-ə qədər dinc sakin Araz çayını keçərkən boğulmuşdur. Yaycı kəndində ermənilər tarixdə bənzəri olmayan vəhşiliklər törətmişdilər 9 insanların kürəyinə qaynar samovar bağlanması, hamilə qadınların qarınlarının xəncərlə yarılması və s.).

Digər bir erməni silahlı dəstəsi 1918-ci ildə “Yapon” ləqəbli quldurun başçılığı ilə Naxçıvan şəhərindən 40 km şimalda yerləşən Almalı yaşayış məntəqəsinin əhalisini qıraraq, öz tarixi yurdlarından didərgin salmışdır. Təxminən 200 kişi öldürülmüş, xeyli gənc qadın əsir aparılmışdır. Osmanlı ordu hissələrinin Kazım Qarabəkir paşanın komandanlığı ilə Naxçıvan bölgəsinə gəlişi mahalın əhalisini daha irimiqyaslı qırğınlardan xilas etmişdir.

1919-cu ilin əvvəlində erməni polkovniki Doluxanovun başçılıq etdiyi silahlı qüvvələr Şərur-Sədərək ərazilərində onları duz-çörəklə qarşılayan dinc əhaliyə qarşı zorakılıqlar törətmişdir. Müsəlmanlar yaşayan 8 kənd mühasirəyə alınmış, Dəmirçi kəndi dağıdılaraq qarət olunmuş, 60 nəfər həbs edilərək İrəvana göndərilmiş, 200 nəfər Arazı keçmək istərkən çayda boğulmuşdur. Yerli əhalinin ciddi müqaviməti ilə qarşılaşan erməni hərbi hissəsi geri çəkilməyə məcbur olmuşdur.

1919-cu ilin 1-ci yarısında Naxçıvan mahalında həyata keçirilən ingilis və erməni idarəçiliyi zamanı da mahalın azərbaycanlı əhalisinə qarşı ağlasığmaz zorakılıqlar edilmişdir. Təxminən iki aylıq “erməni idarəçiliyi” (1919, may-iyul) müddətində yalnız Naxçıvan şəhərində 330-dək axtarış aparılmış, 600 nəfərə yaxın dinc sakin həbs olunmuş, təqribən 150 nəfərə isə dəhşətli işgəncələr verilmişdir. Bölgənin yerli əhalisinin “erməni idarəçiliyi”nə qarşı bir həftəlik üsyanın (19-25 iyul) uğurla nəticələnməsi, yəni daşnak silahlı dəstələrinin mahaldan çıxarılması yeni soyqırımların qarşısını almışdır.

Ermənilərin yürütdükləri “yandırılımış torpaq” – etnik təmizləmə siyasəti nəticəsində Naxçıvan mahalı 1918-1920-ci illərdə böyük qaçqınlar ordusu problemi ilə də üzləşmişdir. Bir tərəfdən ermənilərin İrəvan ətrafında və Zəngəzurdan qovduqları türk-müsəlman əhali Naxçıvana pənah gətirmiş, digər tərəfdən isə, Andranikin işğalı və “erməni idarəçiliyi” zamanı bölgənin xeyli yerli sakini Cənubi Azərbaycana üz tutmuşdur. Erməni hərbi hissələrinin Ordubad mahalına 1920-ci ilin martındakı hücumları da çoxsaylı dinc əhalinin qırılması ilə nəticələnmişdir.

Naxçıvan mahalının türk-müsəlman əhalisi Şimali Azərbaycan Rusiya tərəfindən yenidən işğal olunduqdan sonra, sovet hakimiyyətinin ilk vaxtlarında da ermənilərin törətdikləri soyqırımlarına məruz qalmışdır. Belə dəhşətli qırğınlardan biri 1920-ci ilin yay aylarında həyata keçirilmişdir. Erməni silahlı qüvvələrinin Zəngibasar-Vedibasar-Şahtaxtı-Şərur istiqamətindəki qanlı yürüşü zamanı həmin ərazilərin dinc əhalisinə qarşı törədilən vəhşilik və zorakılıqlara dair rəsmi araşdırma-təhqiqatlar aşağıdakı dəhşətli faciələri üzə çıxarmışdır:

Zəngibasarda 48 kənd tamamilə yandırılmış, 18 qız və gənc qadın əsir aparılmış, 400-dən çox uşaq, 150 qoca kişi və qadın öldürülmüş, 100 xəstə yandırılmış, 816 qaçqın Arazda boğulmuş, 160 min nəfər isə Cənubi Azərbaycana keçərək orada evsiz qalmışdır; Vedibasarda 118 kənd yandırılmış, 900 nəfər artilleriya atəşlərilə öldürülmüş, 6 qadın əsir aparılmış, 300-dən artıq uşaq və qoca qətlə yetirilmişdir. Dərələyəzdə 74, Şərur və Şahtaxtıda isə 76 kənd yandırılmışdır. Şərurda 810 nəfər xəstə yatağındaca qətlə yetirilmiş, 144 qadın əsir götürülmüş, 72 nəfər top atəşilə məhv edilmiş, 150 qoca və qadın öldürülmüşdür. Şahtaxtıda isə 3 qadın əsir aparılmış, 35 uşaq, 14 qoca kişi, 8 qadın və 9 xəstə qətlə yetirilmişdir.

Bütövlükdə, 1918-21-ci illərdə erməni quldur dəstələri tərəfindən Naxçıvan bölgəsində 73727 nəfər türk-müsəlman əhalisi vəhşicəsinə qətlə yetirilmişdir.

Bütün bu mahallardan 50000 iri və xırda buynuzlu mal-qara aparılmış, onların 500 min nəfərlik əhalisi tamamilə yoxsul vəziyyətə salınmışdır. Kütləvi qırğın və talanlardan Cənubi Azərbaycana qaçanların 45 mindən

çoxu aclıq və xəstəliklərdən tələf olmuşdur. Qaçqınların 70 mini Cənubi Azərbaycanda, 400 min nəfəri isə Naxçıvanda və onun ətrafındakı ərazilərdə yurdsuz-yuvasız qalmışdır.

1921-ci ilin yanvarında Naxçıvan əhalisinin referendum əsasında Azərbaycanın tərkibində qalmaq arzusunu qəti şəkildə bildirməsi, Moskva və Qars müqavilələri (1921) ilə diyara Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsi və Naxçıvan Muxtar Respublikasının yaradılması (1924) ilə bölgədə türk-müsəlmanların soyqırımına qismən son qoyulmuşdur. Lakin "Böyük Ermənistan" yaratmaq kimi sərsəm xülyalarla yaşayan erməni şovinistləri sonralar da bu siyasətdən əl çəkməmiş, zaman-zaman bütün XX əsr boyu açıq və gizli şəkildə davam etdirmişlər (30-cu illərin qanlı repressiyaları, 40-50-ci və 80-ci illərdə azərbaycanlıların öz tarixi torpaqlarından – Qərbi Azərbaycandan kütləvi surətdə deportasiyası və s.). 1990-93-cü illərdə Ermənistanın Naxçıvan Muxtar Respublikasına silahlı təcavüzünün qarşısını almaq üçün qanlı döyüşlər getmiş, bu döyüşlərdə 362 nəfər azərbaycanlı şəhid olmuş, 500-ə yaxını yaralanmış, 1 kənd (Kərki) işğal olunmuş, 500-ə yaxın yaşayış evi, ictimai-inzibati bina, sosial obyektlər dağıdılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanında erməni millətçilərinin Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da xalqımıza qarşı dəhşətli soyqırımlar törətdikləri qeyd olunmuşdur.

**Mənbə: Naxçıvan ensiklopediyası, II cild, Naxçıvan, 2005, səh.72-74.**

## Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımı

XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya dövləti Xəzər dənizinə və Cənubi Qafqaza sahib olmaq, Şərq–Qərb ticarətini nəzarətə götürmək üçün Azərbaycan torpaqlarına hərbi təcavüzə başlamışdı. Bu dövlət özünün təcavüzkarlıq planını həyata keçirmək üçün Cənubi Qafqaz, Rusiya, İran, Türkiyə və başqa yerlərdə məskunlaşmış ermənilərdən bir vasitə kimi istifadə etmişdi. 1724-cü il noyabrın 10-da I Pyotrun adından verilmiş fərmanla ələ keçirilmiş torpaqlarda — Bakıda və başqa yerlərdə ermənilərin məskunlaşması üçün hər cür şərait yaradılması göstərilmişdi.

Vətəni və dövləti olmayan ermənilər yaranmış bu fürsətdən istifadə etmiş, Azərbaycanın tarixi ərazisində erməni dövləti qurmaq məqsədi ilə rusların işğal siyasətini milli vəzifə kimi yerinə yetirmişlər.

XIX əsrin sonlarında ermənilər “Dənizdən-dənizə Böyük Ermənistan” adlı planlarına dünya xristian dövlətlərinin diqqətini yönəltməyə başlamışlar. Qərb dövlətləri, o cümlədən Rusiyada ermənilərin bu saxta təbliğatına, haray-həşirinə inanmasalar da, özlərinin Osmanlı imperiyasına qarşı gizli və acıq planları naminə onların müdafiəsinə qalxmışdılar.

Birinçi Dünya müharibəsi zamanı Böyük Britaniya hökuməti ermənilərə müstəqillik vədi vermişdi. Lakin içmalar palatasında Lord Yorq bildirmişdi ki, bütün cətinliklər ondan ibarətdir ki, bizim Ermənistana vermək istədiyimiz əyalətlərdə erməni əhalisi yoxdur. Əgər biz onu versək, onda kim bizim qərarlarımızı yerinə yetirəcək?

Azərbaycanın görkəmli dövlət xadimi, yazıcı və millətsevər Yusif Vəzir Çəmənzəminli avropalıların, o çümlədən Rusiyanın “erməni məsələsi” deyilən bir plana münasibətini şərh edərkən yazırdı: “Keçən əsrdən (XIX əsr nəzərdə tutulur — A.V.) başlamış ermənilərin xristianlıq naminə, dindaşlıq adına müraçiətlərinə avropalılar vədlər vermiş, hissiyyatı oxşayan sözlər söyləmiş, lakin məsələ həll olunmamışdır. Əvəzində bəlli oldu ki, İngiltərə donanması Ararat dağını tutmağa qabil deyil. Bismark bütün erməniliyə bir alman əsgərinin gəmiyini (sümüyünü) dəyişmək istəmədi, rus da erməniləri xilas yox, Ermənistanı istila etmək xahişində oldu”.

XX əsrin əvvəllərində türklərin qatı düşməni olan ermənilər Qərb dövlətlərinin (Böyük Britaniya, Fransa, ABŞ və Rusiyanın) siyasi, iqtisadi və hərbi köməyindən istifadə edərək, türklərin və azərbayçanlıların əzəli yaşadığı torpaqlarda silah güçünə dövlət yaratmaq fikirinə düşmüşdülər. Ermənilərin bu planı Türkiyə, Şimali Azərbaycan və Cənubi Azərbaycan torpaqlarını əhatə edirdi. O zaman Qafqazın ümumi valisi olan və ermənipərəstliyi ilə tanınan Vorontsov-Daşkovun Rusiya imperatoruna göndərdiyi məruzədə də ermənilərin bu işğalcı siyasəti etiraf edilirdi. Məruzənin 12 və 13-cü səhifələrində yazılmışdı: “Daşnaksütyun” firqəsinin bu hərəkəti sırf ermənilərlə məskun bir erməni ərazisi vücuda gətirmək qayəsini güdür. Bununla gələçək Ermənistanın muxtariyyatı üçün əlverişli bir zəmin hazırlamaq istəyir.”

Türk tarixçisi Hüseyn Paşanın hazırladığı “Erməni olayları tarixi” kitabının 1-ci hissəsində bununla bağlı göstərilir: 1887-ci ildə Qafqaz ermənilərindən Avetis Nazarbek və Mariyan Vardanyan tərəfindən qurulan Hncaq Komitəsi əvvəlcə Türkiyə Ermənistanını qurmaq, daha sonra isə Rusiya və İran Ermənistanı ilə birləşdirərək müstəqil bir Ermənistan dövləti təsis etmək fikirində idilər.

1907-ci ildə Böyük Britaniya ilə Rusiya arasında bağlanan müqaviləyə görə, İran bu iki dövlətin nüfuz dairəsinə bölünmüşdü. İranın cənubuna ingilis qoşunu, şimalına isə rus qoşunu yerləşdirilmişdi. Birinci Dünya müharibəsndə isə İranın özünün bitərəfliyini elan etməsinə baxmayaraq, onun ərazisində Türkiyə məcburən — öz ərazi bütövlüyünü düşmənlərdən qorumaq üçün Böyük Britaniya və Rusiya ilə müharibə aparmışdı. Bu zaman İranın Qacarlar sülaləsinin nümayəndəsi Əhməd şah ölkənin müdafiəsini təşkil etmək iqtidarında deyildi. Əhməd şahın ətrafındakı dövlət və siyasi adamların vətənpərvərlik duyğusu yox idi. Onların bir qismi ingilislərə, bir qismi də Rusiyaya satılmışdı. Şahın özü isə Almaniyanın bu müharibədə qalib gələçəyinə inanırdı. Müharibə aparan dövlətlərin hamısının Tehranda elçiləri var idi.

Ermənilər Birinci Dünya müharibəsində də öz məkrli planlarını həyata kecirmək üçün Osmanlı Türkiyəsinə qarşı vuruşan ANTANTA bloku dövlətlərinin (Böyük Britaniya, Fransa və Rusiya) hərbi birləşmələrinin tərkibində fəal iştirak etmişdilər. Müharibə başlayanda yalnız Rusiya imperiyasında yaşayan ermənilərdən 250 min nəfərdən cox adam səfərbərliyə alınmışdı. Erməni silahlı quldur dəstələrinə müxtəlif vaxtlarda Andranik Ozanyan, Arşak Qafafyan, Vardan Mehrabyan, Hamazasp Srvandzyan, Qriqor Avşaryan, Hayk Bjşkyan (Qay), Havser Arğutyan komandanlıq etmişdilər. Bu dövrdə ermənilərə Böyük Britaniya, ABŞ və Fransa da müəyyən maliyyə yardımı göstərmişdi. 1917-ci il dekabrın 18-də Londondakı ABŞ səfiri Peyç dövlət katibi R.Lansinqə xəbər verirdi ki, 10 gün bundan qabaq ingilis hökuməti özünün nümayəndəsinə səlahiyyət vermişdir ki, Cənubi Rusiyada ayrı-ayrı əksinqilabi qüvvələrə, eyni zamanda erməni və gürcülərə maliyyə yardımı təşkil etsin.

Rusiya ordusu həmin vaxt İranın şimal-qərb və cənub-qərb bölgələrini döyüş meydanına çevirmişdi. Bir sıra şəhərlərdə azərbaycanlı əhalinin ərzağı, mal-qarası, yük və minik heyvanlarını əlindən almışdılar. Bu zaman

ermənilər Türkiyə ərazisində, o cümlədən Azərbaycanın şimal və cənub torpaqlarında azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətmişdilər. 1918-ci ildə rus ordusunun Cənubi Azərbaycanı işğal etməsindən istifadə edən ermənilər erməni-assori silahlı dəstələri təşkil edib Maku, Xoy, Səlmas, Urmiyə və başqa yaşayış məskənlərində əhalini kütləvi surətdə qırmışdılar. Ermənilərin rus və ingilislərin də yaxından müdafiəsi ilə Urmiyədə, Xoyda, Səlmasda və Təbrizdə başladığı dəhşətli qırğınların qarşısı türk ordusunun bu əraziyə gəlməsi ilə alınmış və özbaşınalıqlara son qoyulmuşdu.

Bu dövrdə Bakı Sovetinə və onun hərbi-inqilabi komitəsinə erməni və rusların rəhbərlik etmələri də Şimali və Cənubi Azərbaycan torpaqlarında dinc azərbaycanlıların faciələrlə üzləşmələrinin əsas səbəblərindən biri olmuşdu. Erməni-rus bolşevik hərbi-inqilabi komitəsinin qərarı ilə Şərqi İran cəbhəsi rayonunda — Ənzəli, Urmiyə, Culfa, Şaxtaxtı stansiyası və Van gölü ətrafında, Ərzurum, Ərzincan, Sarıqamış və Trabzon ətrafında yerləşən rus hərbi hissələrində hərbi-inqilabi komitələr yaradılmışdı. Erməni-rus bolşevikləri Cənubi Azərbaycanın Təbriz, Qəzvin, Səfərxan, Dilman, Səlmas və başqa şəhərlərində yerləşən rus hərbi hissələrinin əsgərləri arasında (bu əsgərlər icərisində ermənilər kifayət qədər idi) da fəal təbliğat aparırdılar.

Məhz bunun nəticəsi idi ki, 1918-ci ildə ermənilər azərbaycanlılara qarşı kütləvi qırğınlar törədəndə ən cox ziyan çəkən bölgələrdən biri də Cənubi Azərbaycan əhalisi olmuşdu. Ümumilikdə, rus süngüsünün köməyi ilə ermənilər 1918-ci ilin birinci yarısında Urmiyə, Xoy, Səlmasda, Qərbi Azərbaycanın bir sıra kənd və qəsəbəsində azərbaycanlılara qarşı soyqırım törətmişlər. Rusiyada baş verən fevral burjua inqilabı, xüsusən, 1917-ci il oktyabr cevrilişi imperiya ərazisində böyük çaxnaşmalar yaratmışdı. Ruslar cəbhələrdən öz qoşunlarını çıxartmağa başlamış və bir çox yerlərdə isə əsgərlər səngərləri özbaşına tərk edib qaçmışdılar. Ruslar İranı tərk etdikdən sonra ingilislər osmanlıların qarşısını almaq üçün rus və fransız zabitləri komandanlığı altında assuri və ermənilərdən ibarət silahlı qüvvə təşkil etmişdilər. Bu qüvvələrin siyasi rəhbəri Bünyamin Marşinun və hərbi komandir Ağa Petros idi.

1918-ci il Arazın hər iki tayında yaşayan azərbaycanlılar üçün daha acınacaqlı olmuşdu. Həmin il Azərbaycan şəhərlərinin əksər türk-müsəlman əhalisi ermənilərin qəddar hücumuna məruz qalmış, kütləvi qırğınlar nəticəsində qətlə yetirilmişdi. Bu dəhşətli faciələrdə yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir çoxları da öz ev-eşiyindən didərgin düşmüşdü. Erməni və assurilər Səlmasdan Urmiyəyə hüçum etmişdilər. Urmiyədəki ermənilər qonşu azərbaycanlı evlərini talan etmiş, sonra isə evlərə od vurub yandırmışdılar. Ermənilər qocaya, uşağa, qadına rəhm etməmişdilər. Onlar Urmiyədə 500 evə od vurub yandırmışdılar. Belə zülm və vəhşilik heç bir əsrdə edilməmişdi.

Ermənilər 1918-ci ildə Urmiyə şəhərinin abidələrini rus əsgərləri ilə birlikdə yandırıb külə döndərmişdilər. Bir gün ərzində Urmiyədə öldürülənlərin sayı 10 min nəfərə çatmışdı. Bu ağır və çətin günlərdə Urmiyə əhalisinə nə Tehrandan bir kömək gəldi, nə də Təbrizdə oturan Azərbaycan hakimi və vəliəhd Məhəmmədhəsən Mirzədən. Əgər Birinci Dünya müharibəsinin gedişində ruslar Rusiyada yaşayan erməniləri silahlandırmışdılarsa, ingilislər də osmanlıların hücumlarına qarşı Urmiyə və Səlmas xristianlarını (erməniləri və assuriləri) silahlandırmışdılar. Azərbaycanın cənubunda erməni silahlı dəstələri ingilis—rus ordusu tərkibində azərbaycanlılara qarşı azğınlıq etmişdilər.

1918-ci ilin may ayında Andranik 5 min nəfərlik silahlı erməni dəstəsi ilə Xoy şəhərinə hücum etmişdi. İyunun 24-də isə şəhəri mühasirəyə alan ermənilər Urmiyədə törətdikləri vəhşilikləri Xoy və Səlmasda da davam etdirmişdilər. Təpədən-dırnağa qədər yaraqlı olan Qafqaz erməniləri Andranikin başçılığı ilə Xoya qoşun çəkib, şəhəri işğal etməli idi. Andranik Xoya çatdıqdan sonra şəhəri mühasirəyə almışdı. Xoy əhalisi düşmən qarşısında möhkəm dayanmış, ermənilərin hər bir hücumuna müqavimət göstərmiş, türk qoşununun gəlməsinə qədər bir neçə gün erməniləri şəhərə buraxmamışdı. Osmanlı ordusunun gəlməsini eşidən Andranik Araz çayını keçərək Naxçıvan və Qarabağ torpaqlarında qırğınlar törətmişdi.

1918-ci ilin əvvəllərində ermənilər Səlmasa hücum etmişdilər. Qüvvələrin sayı və hərbi-texniki cəhətdən üstün olan düşmən şəhərə daxil olduqdan sonra qətliamlar törətmişdi. Xoya pənah gətirmiş qırx min səlmaslı qaçqından yalnız on min nəfəri sağ qalmışdı. İyun ayının ortalarında osmanlılar iki günlük döyüşdən sonra Səlmasa daxil olmuşdular. Xristianlar (assuri və ermənilər) isə şəhərdən qaçmışdılar. Ermənilərin törətdiyi qırğınlar zamanı 130 min azərbaycanlı öldürülmüşdü. Səlmas, Xoy, Urmiyə xarabalığa cevrilmişdi.

Siyasi və hərbi üstünlüyündən istifadə edən erməni daşnakları və rus bolşeviklərinin hərbi qüvvələri Bakıda 15 min, Şamaxıda 8027, Qubada 2800, İrəvanda 100 min, Qarabağda və Naxçıvanda 10 min, Zəngəzurda 7729 soydaşımızı öldürmüş və başqa şəhər və kəndlərdə dinc azərbaycanlılara qarşı qətliamlar törətmiş, çox böyük azğınlıqlara yol vermişdilər.

İngilis hərbçilərinin hərtərəfli kömək etdikləri Sentrokaspi diktaturası ordusu hələ avqustun əvvəllərində Lənkəran qəzasına, demək olar ki, sahib olmuşdu. Lənkəran qəzasında İlyaşeviçin 10 min, Makarovun (erməni) 3 min, Avetisovun (erməni) 2 min nəfərlik ordusu yerləşmişdi. Onların planı gələcəkdə Bakını tutmaq idi. 1919-cu il mayın 1-də Lənkərandan gəlmiş Teymurbəy Bayraməlibəyov Bakıda olan Türk ordusunun komandanı Nuru Paşanın qəbulunda olmuşdu. O, Avetisovun quldur dəstəsinin özbaşınalığı haqqında ona məlumat

vermişdi. Öz növbəsində Nuru Paşa lənkəranlıların səlahiyyətli nümayəndəsinə bildirmişdi ki, türklər sizə hərtərəfli köməklik göstərəcək və adı çəkilən dəstənin bütün özbaşınalığının qarşısı alınacaqdır. Tezliklə müzəffər türk ordusu Şimali Azərbaycanın cənub torpaqlarını da erməni silahlı dəstələrindən təmizləmişdi.

1917—1918-ci illərdə rus və ingilislərin fitvası ilə erməni-assurilərin Cənubi Azərbaycanda azərbaycanlılara qarşı törətdikləri qırğınlar haqqında məlumatlar uzun müddət gizlədilmişdi. Ermənilərin Cənubi Azərbaycan torpağında törətdikləri qırğınlarla bağlı son dövrlərdə bir sıra tədqiqat əsərləri və məqalələr yazılmışdır. Bununla bağlı Səməd Sərdariniyanın "Arazın hər iki tayında müsəlmanların soyqırımı", "İrəvan müsəlman sakinli şəhər olmuş", "Qarabağ tarixinin gedişində" kitablarını və bu qəbildən olan bir sıra dəyərli yazıları qeyd etmək olar.

Heç şübhəsiz, Birinci Dünya müharibəsinin gedişində Cənubi və Şimali Azərbaycan torpaqlarında, ümumiyyətlə, cəmi türk torpaqlarında ermənilərin Azərbaycan türklərinə qarşı (onların içərisində Azərbaycanda yaşayan başqa xalqların nümayəndələri də vardı) törətdikləri dəhşətli qırğınları yaddan çıxartmaq olmaz. Türkiyədə, Şimali və Cənubi Azərbaycan torpaqlarında ermənilərin törətdikləri vəhşiliklərin əlaqəli surətdə öyrənilməsi vacibdir. Çünki ermənilərin türklərə qarşı törətdikləri qanlı qırğınların hamısı eyni məkrli planın tərkib hissəsi olub, nəinki "Böyük Ermənistan" dövləti yaratmaq məqsədinə xidmət etmiş, eyni zamanda ermənilərə siyasi və hərbi yardım edən İngiltərə, Fransa, Rusiya və başqa bu kimi dövlətlərin də maraqlarına uyğun olmuşdur. Bu gün də həmin siyasət davam etdirilməkdədir.

Azərbaycanlıların deportasiyası və soyqırım tarixi Türkiyə və Azərbaycan tədqiqatçılarının birgə səyi nəticəsində ardıcıl, sistemli surətdə araşdırılmalı, əsl həqiqətlər dünya dövlətləri və xalqlarının diqqətinə çatdırmalıdır.

**Vaqif Abışov,**
**tarı x elmləri namizədi.**

**"Xalq qəzeti", 31.04.2007**

## Sovet hakimiyyəti illərində azərbaycanlıların repressiyası və deportasiyası

### Azərbaycanlıların Ermənistanda 1920-1930-cu illər repressiyası

1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra daşnak hakimiyyəti dövründə qədim ata-baba yurdlarından didərgin salınaraq Azərbaycana, İrana, Türkiyəyə və Gürcüstana sığınmış müsəlman qaçqınlarının bir qismi qayıtmağa müvəffəq olmuşdular.

Ermənistan rəhbərləri qaçqınların geri qayıtmasının qarşısını almaq məqsədilə müxtəlif bəhanələr gətirir, onları Ermənistan ərazisinə buraxmaq istəmirdi. 1922-ci ilin yayında Ermənistan hökuməti yoluxucu xəstəliklərin yayılmasını bəhanə edərək, İran ərazisində sığınacaq tapmış qaçqınların Culfa və Şahtaxtı keçid məntəqəsindən keçərək Ermənistana qayıtmalarının qarşısını almaq üçün dəfələrlə Azərbaycan hökumətinə müraciət etmişdi. Vedibasar və Zəngibasar qaçqınlarına o şərtlə qayıtmağa icazə vermişdilər ki, onların 1918-1920-ci illərdə ermənilərə qarşı vuruşmalarda iştirak etməmələri sübuta yetirilmiş olsun.

Lakin Ermənistan hökumətinin müqavimətinə və orada hökm sürən aclıq və səfalətə baxmayaraq, artıq 1922-ci ildə 100 min qaçqın doğma yurdlarına qayıtmışdı. Müsəlmanların yaşamış olduqları kəndlərin çoxunda Türkiyədən gəlmiş erməni ailələri yerləşdiklərindən, qayıdan qaçqınlar ya öz yurdlarını yenidən tərk etməyə məcbur olmuş, ya da ermənilərlə birgə yaşamağa məhkum olmuşdular. Sonralar 80-dən artıq ermənilərlə qarışıq yaşayış məskənləri beləcə yaranmışdı.

1926-cı ildə Ermənistanda 743573 erməni, 84717 türk siyahıya alınmışdı. 1939-cu ildə isə 1062000 erməni, 130800 türk qeydə alınmışdı. Müqayisədə ermənilər 42,7%, türklər isə 56,8% artmışdı. Türklərin yüksək artımı erməniləri narahat edirdi.

Bəs Ermənistanda azərbaycanlılara qarşı repressiyalar necə həyata keçirilirdi? Təbii ki, həmin dövr Ermənistan mətbuatında bu məsələ ilə əlaqədar heç bir iz buraxılmamışdır. Lakin həmin dövrdə repressiyadan canını qurtarıb İran və Türkiyəyə qaçan mühacirlərin verdikləri məlumatlar Türkiyədə və Almaniyada çıxan bir sıra məcmuələrdə öz əksini tapmışdır. 20-ci illərin sonu və 30-cu illərin əvvəllərində bütün Sovet İttifaqında həyata keçirilən kollektivləşmənin ən sərt tədbirləri Ermənistanda yaşayan azərbaycanlılara qarşı tətbiq edilirdi. İlk növbədə ata-babadan varlı olanların mal-qarasını əllərindən alıb kolxoz təsərrüfatına qatır, özlərini isə «qolçomaq» damğası ilə Qazaxıstana və Sibirə sürgün edirdilər. Bir azdan bu cür tədbirlərin ortabab kəndlilərə də şamil edilməsi, mal-qaradan əlavə əkin sahələrin də onların əllərindən alınması Vedibasarda, Zəngibasarda və Qəmərlidə kəndli üsyanlarının baş verməsinə səbəb olmuşdu.

1930-cu ildə Türkiyədə çıxan «Odlu yurd» məcmuəsi (baş redaktoru M.Ə.Rəsulzadə) «Vedibasar və Naxçıvan üsyanları davam edir» başlıqlı məqaləsində yazırdı: «Üsyan bir tərəfdən İrəvana və Göyçə gölünə, digər tərəfdən Ordubad və Zəngəzura sirayət eyləmişdir. Böyük Vedibasar partizanlarının miqdarı 600 nəfərdir... Partizanlara heç bir tərəfdən yardım edilmir və Qızıl ordudan saldırdıqları silah və köylülərin verdikləri ərzaqla keçinirlər.

Zəngəzur, Ordubad, Naxçıvan, Vedibasar və Göyçə partizanları arasında rabitə mövcud olub, Qarabağ, Gəncə və Muğan partizanları ilə əlaqəyə girməyə səy edirlər.

Sovet Ermənistanın Kommunistlər Şurasının rəisi Sedrak Sarkisyan partizanların hücumuna məruz qalaraq öldürülmüşdür. Şofer və arkadaşı ağır yaralanmışdır.»

Getdikcə güclənən Vedibasar üsyanı haqqında həmin məcmuənin başqa bir sayında yazılır: «Minlərlə kəndlinin iştirak etdiyi partizan hərəkatı qüvvətli bir şəkil almışdır. Üsyançılar kollektivləşmə siyasətindən vaz keçilməsini, ərzağın hökumətin qoyduğu qiymətlərlə deyil, sərbəst surətdə satılmasını və terrora son verilməsini tələb şüarı altında hərəkət etmədədirlər... Ən aktiv rolu orta hallı köylülər və əksəriyyətlə şəhər ünsürləri oynamaqdadır.»

«Odlu yurd» məcmuəsi Vedibasar üsyanının yatırılması zamanı qətlə yetirilən Abbasqulu bəy Şadlinskinin ölümü ilə bağlı başqa bir məlumat – onun daşnaklar tərəfindən qətlə yetirilməsi haqqında məlumat vermişdi. Məcmuənin «Vedibasarda qara bayraq» adlı məqaləsində yazılır: «Zəngibasar, Vedibasar, Gərnibasar və Naxçıvan tərəflərdə üsyan məntəqələrində olan köylərdə qara bayraq çəkilmiş olduğu hüdud boyunda olan müxbirlərimiz tərəfindən xəbər verilməkdədir. Matəmdə erməni köylüləri də iştirak etməkdədirlər. Abbasqulu ağanın qrupundan olan köylülərdən 80 nəfəri 17 tələfat vermək müqabilində Türkiyəyə keçməyə müvəffəq olmuşlar. Ruslar Araz boyunda hüdudu keçərkən öldürdükləri 17 köylünün meyitlərini günlərcə səhrada buraxmışdılar. Türkiyəyə keçməyə müvəffəq olan 63 köylünün söylədiklərinə görə, Abbasqulu ağa daşnaklar tərəfindən qətl edilmişdir. Və bu hadisə daşnak olmayan erməni köylülərinin də nifrətinə səbəb olmuşdur.»

«Abbasqulu ağa neçin öldürüldü» sualına məcmuədə belə cavab verilir: «Hər kəsdən ziyadə bolşevikləri sevindirəcək olan bu qətl hadisəsinə daşnaklar nədən müraciət etmişlər?

Abbasqulu ağa rus inqilabından sonra əksəriyyəti türk olan İrəvan vilayətində «süni bir erməni əksəriyyəti» yaratmaq üçün türk köylərini yerlə yeksan etməyə başlayan daşnaklara, onların qəhrəmanı andraniklərə iki il müqavimət göstərmiş, bu yerlərdə türkün mövcudiyyətini mühafizə etməyə müvəffəq olmuşdu.

O zaman İrəvan vilayətində Zaqafqaziya Seyminin xüsusi komissiyası 200-dən artıq türk köylərinin məhv edilmiş olduğunu təsbit eyləmişdi. Abbasqulu ağa daşnakların şeytani tədbirlərinə qarşı çıxmış, bu sayədə Vedi və Naxçıvan tərəfləri bu soyqırımdan qurtara bilmişdi.

Daşnaklar indi Abbasqulu ağanın ruslara qarşı mübarizə etməsindən istifadə edərək «intiqam» almışlar. Abbasqulu ağanın öldürülməsindən daşnak olmayan erməni köylüləri daha çox mütəəssir olmuşdular.»

Ermənistanda azərbaycanlılar yaşayan kəndlərin üsyanı yatırıldıqdan sonra, üsyançıların xeyli hissəsi İran və Türkiyəyə qaçmağa məcbur olmuşdularsa da, bu üsyanı bəhanə edərək azərbaycanlı kəndlərində kütləvi surətdə həbs prosesi başlanmışdı. Həbslərin başlanmasına ikinci bəhanə isə Ermənistanda yaşayan türklərin – azərbaycanlıların İran və Türkiyə ilə qohumluq əlaqələrinin olması və onların guya həmin ölkələrə mühacirət etmiş əksinqilabçı qüvvələrlə əlaqə saxlamaları olmuşdu.

«Odlu yurd» məcmuəsi «İrəvanda həbslər» adlı məqaləsində yazırdı: «İrəvan vilayətində 130 türk millətsevərlər həbsə alınmışlar. Bunlar Rusiyaya sürüləcəklər. Məhbusların arasında Türkiyəyə keçməyə təşəbbüs etməkdə ittiham edilənlərdən Abbas və Məhəmməd Tağı bəylər də vardır. Martın 17-də sürüləcəklərdi. Fəqət Borçalıda və Qazax tərəflərində dəmiryol xəttinin türk köylərinin əlində olması nəzərə alınaraq hələlik təxirə salınmışdır.»

Ermənistanda azərbaycanlıların kütləvi repressiyası onların Türkiyəyə qaçıb canlarını qurtarmağa məcbur edirdi. Bu, xüsusilə Türkiyə ilə həmsərhəd rayonlarda kütləvi xarakter almışdı. Ermənistanda yaşayan azərbaycanlılar sərhəd mühafizəsinin zəif olduğu yerlərdən, dağlıq ərazilərdən gecələr dəstələrlə Türkiyəyə keçirdilər.

Adı çəkilən məcmuə «Mühacirət» məqaləsində yazırdı: «Ermənistanda yaşayan türklərdən mayın sonuna qədər Türkiyəyə (İqdır tərəflərə) 300 adam keçmişdir. Bunlardan yalnız 50-si ailəlidir. Yerdə qalanların ailələri o tərəfdə qalmışdır. Zəngibasar, Vedibasar və Gərnibasarda 200 ailənin evləri məhv edilmişdir. Sərhəddə yaxın və uzaq yerlərdən 10 minlərlə əhali gecə-gündüz Türkiyəyə keçməyə çalışırlarsa da, bolşeviklər sərhəddə mane olurlar. İndiyə qədər keçmək istəyənlərin çoxu ruslar tərəfindən sərhəddə öldürülmüşdür.»

30-cu illərdə Vedibasarın, Zəngibasarın, Qəmərlinin, Dərələyəzin, Ağbabanın və digər bölgələrin əlli mindən artıq türk əhalisi ailəliklə Qazaxstan çöllərinə sürgün edilmişdilər. Sərt iqlim və bərbad mənzil şəraitinə uyğunlaşa bilməyən əhalinin xeyli hissəsi tələf olmuşdu.

Sürgün müddəti qurtardıqdan sonra öz evlərinə qayıtmaq istəyən ailələrin əksəriyyətini yaşadıqları rayonun Türkiyə ilə sərhəd olmasını bəhanə edərək Ermənistana buraxmadıqlarından, onlar ya geri qayıtmış, ya da Azərbaycan və Gürcüstanda sığınacaq tapmışdılar. Hazırda Qazaxıstanda yaşayan soydaşlarımızın əksəriyyətini 30-cu illərdə Ermənistandan sürgün edilmiş ailələrin övladları təşkil edirlər.

Keçmiş Sovet İttifaqının hər yerində olduğu kimi, 1936-37-ci illər repressiyası zamanı Ermənistanda da ilk növbədə orada yaşayan türk ziyalıları təqiblərə məruz qalmışdılar. On minlərlə türk həmin illərdə «troyka»nın qərarı ilə həbs edilmiş, onların xeyli hissəsi güllələnmişdi.

Ermənistanı əksinqilabçı və antisovet ünsürlərdən təmizləmək adı altında aparılan milli ayrıseçkilik siyasəti o həddə çatdırılmışdı ki, respublikada azərbyacanlı kadrlar demək olar ki, qalmamışdı. İş o həddə çatmışdı ki, «parçala, hökm sür» siyasəti yeridən Moskvanın özü Ermənistanda azərbaycanlıların diskriminasiyaya məruz qalmasını etiraf etməyə məcbur olmuşdu. 1936-cı ilin noyabr ayında SSRİ Mərkəzi İcraiyyə Komitəsi Millətlər Şurasının Rəyasət Heyəti «Ermənistanda milli azlıqlar arasında aparılan işlərin vəziyyəti» haqqında məsələ müzakirə etmişdi. Qərarda göstərilirdi ki, Ermənistan SSR Mərkəzi İcraiyyə Komitəsi milli azlıqlar arasında iş aparan şöbəsini ləğv etmişdir. Mərkəzi orqanlar milli azlıqların mədəni və təsərrüfat ehtiyaclarının ödənilməsini təmin etməmişlər. Milli azlıqlar içərisindən mərkəzi aparatlar üçün milli kadrların hazırlanması, milli rayonların azərbaycanlı və kürd kadrları ilə təmin edilməsi və dövlət işlərinin yerlərdə onların dilində aparılması qeyri-kafi vəziyyətdə olduğu qeyd edilirdi.

SSRİ MİK Millətlər Şurasının Rəyasət Heyəti Ermənistan SSR Mərkəzi İcraiyyə Komitəsinə tapşırmışdı ki, qısa müddət ərzində milli azlıqlarla iş aparan şöbəni bərpa etsin, azərbaycanlı və kürd əhalisinin yaşadıqları rayonların aparatlarını milli kadrlarla əvəz etsin, milli azlıqlar içərisindən kadrlar hazırlasın, azərbaycanlıların və kürdlərin milli kolxozlarında torpaqların əbədilik olaraq onların istifadəsinə verilməsi haqqında fərman versin.

Yuxarıda qeyd etdiyimiz qərarla əlaqədar Berlində nəşr edilən «Kutlu od» adlı milli Azərbaycan məcmuəsi «Ermənistanda türklər» məqaləsində yazırdı: «Sovet Azərbaycanında tədrisatın 15 dildə getdiyi, gərək maarif, gərəksə kommunist firqəsi təşkilatlarında bu millətlərə məxsus seksiyalar mövcud olduğu

oxucularımıza məlumdur. Üstəlik, bir də «Muxtar Dağlıq Qarabağ» adıyla Azərbaycanın göbəyində bir Ermənistan dəxi yaradılmışdır.

Məlum olduğu üzrə bugünkü Sovet Ermənistanında yaşayan azəri türkləri Qarabağdakı ermənilərin sayından az deyildir. Əcəba, bu yüz əlli minə varan qardaşlarımızın vəziyyəti nə haldadır? Onlara muxtariyyət verilmişmi? Dövlət müəssisələri yanında onlara məxsus ta bir seksiya mövcuddurmu? Milli kültürlərini inkişaf etdirmək üçün imkan və vəsaitə malikmidirlər?

...Ermənistanda sayları 150 minə çatan türklər yox olmağa məhkum edilmişlər. Vəziyyət o qədər faciəvi imiş ki, Moskva bunu etiraf etməyə məcbur olmuşdur. Bir Moskva ki, özü rus olmayan millətləri boğazlamaq və məhv etməklə məşğuldur.»1

1937-ci ilin payızında Ermənistanda güclənən repressiyaların dalğasının fonunda azərbaycanlılar daha ağır zərbə almış oldular. Xalq düşmənlərini, trotskiçi-buxarinçi casusları ifşa etmək məqsədilə A.Mikoyan, N.Yejov və L.Beriya Ermənistana gəlmişdilər. Mikoyanın rejsissorluğu ilə keçirilən «təmizlənmə» prossesində Moskvaya belə məlumat vermişdilər ki, Ermənistanda Araz və yuxarı Arpaçay boylarında yaşayan azərbaycanlılar guya elliklə Türkiyəyə keçmək fikrindədirlər. Ona görə də həmin ilin payızında və 1938-ci ilin yazında Vedibasar, Zəngibasar, Qəmərli, Eçmiədzin, Hoktemberyan və Ağbaba rayonlarının Türkiyə ilə həmsərhəd kəndlərində yaşayan on minlərlə azərbaycanlılar kütləvi surətdə repressiyaya məruz qaldılar. Minlərlə ailə sürgün edildi.

Ümumiyyətlə, Ermənistanda 30-cu illərdə 50 mindən artıq azərbaycanlılar repressiyaya məruz qalmışdılar. Bu aksiya icra edilən zaman heç bir müqavimətə rast gəlməyən Ermənistan rəhbərləri 40-cı illərin sonu, 50-ci illərin əvvəllərində daha bir aksiyanın — azərbaycanlıların deportasiyası aksiyasının həyata keçirilməsinə nail oldular.

***Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri.***
***Bakı, 1998, səh. 105-111.***

**Azərbaycanlıların Ermənistandan 1948-1953-cü illər deportasiyası**

Ermənistanda azərbaycanlılara qarşı 1918-1920-illərdə soyqırım və 1930-1938-ci illərdə kütləvi repressiya və sürgün aksiyaları həyata keçirilməsinə baxmayaraq, Ermənistanın Türkiyə və İran sərhədləri, eləcə də Azərbaycan və Gürcüstan sərhədləri boyunca yenə də əsasən azərbaycanlılar yaşayırdılar. İrəvan şəhərinin ətraf rayonları ən münbit torpaqlar hesab edilirdi və həmin rayonlarda da azərbaycanlılar əksəriyyət təşkil edirdilər.

Ermənistan rəhbərlərinin qarşısında duran başlıca vəzifə İrəvan ətrafında və Türkiyə ilə sərhəd boyu münbit torpaqlarda yaşayan azərbaycanlıları həmin ərazilərdən köçürməyə nail olmaqdan ibarət idi. Bunun üçün isə ilk növbədə Moskvanın razılığı alınmalı idi. Xaricdə yaşayan ermənilərin Ermənistanda yaşamaq arzusunda olduqlarını, lakin onları yerləşdirmək üçün ərazilərin azlıq təşkil etdiyini Stalinin nəzərinə çatdırmaq lazım gəlirdi. Çıxış yolunu isə türklərin Azərbaycanın aran rayonlarına köçürülməsində görürdülər.

Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün məsələ qaldırmaq fürsətini onlar ilk dəfə 1943-cü ildə Tehran konfransı zamanı əldə etmişdilər. Konfransın gedişində zirək erməni diasporunun nümayəndələri SSRİ xarici işlər naziri Molotovla əlaqə yaratmış, onların Ermənistana köçürülməsi üçün Sovet rəhbərliyinin razılıq verməsini xahiş etmişdilər. Molotov İ. Stalinlə danışıqdan sonra onların köçürülməsinə razı olduqlarını bildirmişdi.

1945-ci ildə Ermənistan KP MK-nın birinci katibi Q. Harutyunov yenidən Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırır. O, məsələ müsbət həll olunarsa, onda Qarabağın keçmiş mərkəzi və 1920-ci ildə dağıdılmış Şuşanın bərpası haqqında təkliflər hazırlayaraq Mərkəzi hökumətə təqdim edəcəyini bildirir. Stalin həmin məktubu G. Malenkova, o da M. Bağırova göndərir. Bağırov cavab verir ki, o şərtlə etiraz etmir ki, Ermənistanın, Gürcüstanın və Dağıstanın əsasən azərbaycanlılar yaşayan və tarixən Azərbaycanın olmuş əraziləri onun özünə qaytarılsın. Beləliklə, məsələnin arzuolunmaz istiqamət alacağını hiss edən Moskva onun üstündən keçməli olur. Bundan sonra Ermənistan rəhbərləri öz taktikasını dəyişir. Xaricdən gətiriləcək erməniləri yerləşdirmək bəhanəsi ilə azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiya edilməsinə nail olmağa çalışır.

1945-ci ilin noyabrında Ermənistan hökumətinin vəsatətini əsas götürərək SSRİ hökuməti xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi işinin təşkili haqqında qərar verir. Ermənistan hökuməti yanında repatriantların qəbulu və yerləşdirilməsi üzrə xüsusi komitə yaradılır və ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə respublika hökuməti öz nümayəndələrini göndərir. Artıq 1946-cı ilin əvvəlində 130 min erməni Ermənistana köçmək arzusunda olduğunu bildirir. «Hnçak» və «Ramkavar» partiyaları Ümumerməni Xeyriyyə İttifaqı köçürülmənin təşkili üçün 1 milyon dollar xərcləyir.

Təkcə 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İran və Livandan 35,4 min nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirilmişdi.

1948-ci il yanvarın 9-da «Sovet Ermənistanı» qəzeti baş məqaləsində yazırdı: «Bolşeviklər Partiyası, Sovet hökuməti və şəxsən Stalin yoldaşın qayğısı sayəsində öz doğma yurdundan uzun illər boyu didərgin düşərək yad ellərdə səfilliklə həyat keçirən 90 minə qədər erməni öz doğma vətəninə - Sovet Ermənistanına qayıtmaq imkanı tapmışdır... Vətənə qayıdan ermənilər böyük şadlıq və misli görünməmiş ruh yüksəkliyi ilə onlar üçün yeni olan həyata qoşulurlar.

Sovet hökuməti vətənə qayıdan erməniləri aclıq və dilənçiliyinin girdabından xilas etmiş, onlara yeni həyat şəraiti yaratmışdır.»

Göründüyü kimi, «millətlər atası» Stalinin sayəsində ermənilərə «yeni həyat», azərbaycanlılara isə sürgünlər, didərginlik və deportasiya qismət olurdu.

Ermənistan rəhbərləri köçürülmələrin 1946-cı ilə nisbətən 1947-ci ildə azalmasının səbəbini onunla izah edirdilər ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər. Ermənistan rəhbərliyi xaricdən gələn erməniləri qəsdən günlərlə dəmiryol stansiyalarında saxlatdırır, onlar arasında təbliğat aparırdılar ki, əgər İrəvanda və onun ətraf rayonlarında yerləşdirilməsələr, geriyə - xaricə qayıtmaq haqqında Moskvaya teleqramlar vursunlar. Onlar bütün bunların Sovet hökumətinin xarici ölkələrdə nüfuzuna təsir edəcəyini İ. Stalinin nəzərinə xüsusilə çatdırırdılar. Digər tərəfdən, xaricdən Ermənistana köçmək arzusunda olan minlərlə ermənilərin siyahısı hər gün Moskvaya təqdim edilirdi.

Ermənistan KP MK-nın birinci katibi Q. Harutyunov «vəziyyətdən yeganə çıxış yolunu» Ermənistandan yüz min əhalinin Azərbaycana köçürülməsində görür, İ. Stalindən buna razılıq verməsini xahiş edir. Ermənistan hökuməti köçürüləcək yaşayış məntəqələrinin siyahısını əvvəlcədən hazırlamışdı. Bu siyahıya ilk növbədə İrəvan şəhəri və onun yaxınlığında olan Əştərək, Zəngibasar, Eçmiədzin, Hoktemberyan, Artaşat (Qəmərli) Qarabağlar, Vedi, Yeğeqnadzor, Hrazdan (Axta), Əzizbəyov və s. rayonlar daxil edilmişdi.

Ermənistan rəhbərləri Stalini başa salmışdılar ki, köçürülən azərbaycanlıları Azərbaycanın pambıq yetişdirilən rayonlarında, Muğan-Mil düzənliyində yerləşdirmək iqtisadi cəhətdən sərfəlidir. Çünki 1945-ci ildə SSRİ Nazirlər Soveti Kür-Araz ovalığının yenidən qurulması haqda qərar qəbul etmişdi.

Ermənistandan azərbaycanlıların zorla Azərbaycana köçürülməsinə razılıq verən, isti iqlim şəraiti və baxımsızlıq nəticəsində on minlərlə adamın tələf olmasında müqəssir hesab edilən Azərbaycan KP MK-nın birinci katibi Mircəfər Bağırovun məhkəməsi zamanı o, həmin prosesi belə şərh etmişdi ki, 1947-ci ilin sonunda İ. Stalinin köməkçisi Poskrebışev ona zəng edib Stalinin onu çağırdığını söyləyir. O, Moskvaya gedir və Stalinin qəbul otağında Q. Harutyunovla rastlaşır. Birlikdə Stalinin kabinetinə daxil olurlar. Stalin müqəddiməsiz filansız deyir:

- Bağırov, bilirsən də ermənilər xaricdən Ermənistana gəlirlər. Harutyunovun da torpağı yoxdur. Sən öz azərbaycanlılarını oradan götür, onları Muğanda, Mildə yerləşdirərsən.

M. C. Bağırov deyir ki, yoldaş Stalin, bu asan məsələ deyil. İcazə verin qayıdım, Bakıda yoldaşlarla da məsləhətləşim. Məsələni yoluna qoymağı götür-qoy edək.

Stalin onun bu cavabından əsəbiləşir və deyir:

- Deyildi, əməl et! Qurtardı!

M. C. Bağırovun Bakıya qayıtmasından bir qədər sonra yəni dekabrın 27-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 4083 №-li qərar qəbul edir.

Bu qərar Ermənistanda yaşayan Azərbaycan türkləri üçün qəfil və gözlənilməz olur. Dekabrın 23-də qəbul edilən qərarın özü də tələsik hazırlandığından giriş və izahat verilməmişdi. Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də müvafiq qərar qəbul edir.

SSRİ Nazirlər Soveti 10 mart 1948-ci ildə 4083 №-li qərara əlavə olaraq «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında 754 №-li qərar qəbul edir. Bundan sonra Azərbaycanda Köçürmə İdarəsi, Ermənistanda isə köçürmə komissiyası təşkil edilir.

Ermənistan rəhbərliyinə də elə bu lazım idi. 1948-ci ildə Suriya, Livan, Fransa, ABŞ, Misir, Bolqarıstan və Rumıniyadan cəmisi 10 minə yaxın erməni köçürülür. Beləliklə, xaricdən ermənilərin Ermənistana köçürülməsi dayandırılır.

Ümumiyyətlə, 1946-1948-ci illərdə xaricdən Ermənistana təqribən 100 min erməni köçürülür.

1947-ci il 23 dekabr tarixi qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə «könüllülük prinsipi əsasında» Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 2 fevral tarixli qərarına əsasən 1948-ci ildə Ermənistandan köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirmək planlaşdırılmışdı. Qərarda Salyan, Saatlı, Sabirabad, Əli-Bayramlı, Puşkin, Ağcabədi və Xıllı rayon icraiyyə komitələrinə tapşırılmışdı ki, 1948-ci il fevralın 15-dək köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq, onları lazımi nəqliyyat vasitəsilə təmin etmək, yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları aşkar etmək və uçota götürmək, kolxozlarda köçürülmə ilə əlaqədar geniş izahat işləri aparmaq lazımdır.

Qərarın icra edilməsinin məcburiliyi ona gətirib çıxarmışdı ki, mülayim iqlim şəraitinə, bulaq suyuna adət etmiş əhalinin xeyli hissəsi Kür-Araz ovalığında ictimai binalarda yatalaqdan, qızdırmadan, malyariyadan və digər yoluxucu xəstəliklərdən məhv oldular.

Ümumiyyətlə, 1948-ci il noyabrın 1-nə qədər 1799 təsərrüfat, (7747) nəfər köçürülmüş, üstəlik, 429 ailə (2834 nəfər) köçürülməsi nəzərdə tutulan və tutulmayan rayonlardan müxtəlif təzyiqlərə məruz qaldıqları üçün pərakəndə halda Azərbaycana köçmüşdülər.

Həmin ilin dekabrında 129 təsərrüfatda birləşən 462 nəfər də köçür. Onlardan 65 ailə Noyemberyan rayonunun Körpülü kəndinin, 64 ailə isə İrəvan şəhərinin sakinləri olmuşlar . Ümumiyyətlə, rəsmi məlumatla 1948-ci ildə Ermənistandan Azərbaycana 6298 ailə (24631 nəfər) köçürülmüşdür.

1949-cu ilin sentyabrın 21-də vəziyyətin dözülməz olduğunu nəzərə alaraq Azərbaycan SSR Nazirlər Soveti SSRİ Nazirlər Sovetinə müraciət edir ki, həmin il üçün köçürülmə planını 10 min nəfərə endirsin. 1949 - cu ilin oktyabr ayına olan məlumata görə 983 təsərrüfat ( 4000 min nəfər) köçürülmüş, 1500 təsərrüfatı birləşdirən 6000 min nəfərə isə köçürülmə biletləri verilmişdi. Hətta Ermənistanda benzin çatışmadığından köçürmə planını yerinə yetirmək məqsədilə Azərbaycan öz yanacaq fondundan əhalini dəmiryol stansiyalarına

gətirmək üçün 60 min ton benzin ayırır. Ümumiyyətlə, 1949-cu ildə Ermənistandan 12306 ailə (54373 nəfər) köçürülür. Köçürülənlər əsasən Zərdab, Əli-Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşir, Salyan, İmişli, Sabirabad və Yevlax rayonlarında yerləşdirilir.

Azərbaycan SSR Nazirlər Soveti 1950-ci ildə 2419 ailənin (14361 nəfər) köçürülməsi üçün qərar qəbul etsə də, həmin il 65 min nəfər köçürülür. 1948-1950-ci illərdə Ermənistan SSR-dən köçürülmüş ailələrdən yalnız 4878-ni yaşayış evləri ilə təmin etmək mümkün olur.

1951-ci ilin əvvəlindən köçürülən əhalinin bir hissəsi məcbur olub Ermənistana - boşaldılmış kəndlərə qayıdırlar. Geri qayıtmanın kütləvi şəkil alacağından ehtiyat edən Ermənistan rəhbərliyi böyük hay-küy qaldırır, onları qəbul etməkdən imtina edir. Əslində isə xaricdən gələn erməniləri yerləşdirmək adı altında köçürülən kəndlər əsasən boş qalırdı. Xaricdən gələnlərin cüzi hissəsi kənd rayonlarına gedirdilər. Hər cür yağlı vədlərlə xaricdən gətirilən ermənilərin əksəriyyəti özlərini aldadılmış hesab edir, sosial inkişaf baxımından bərbad vəziyyətdə olan azərbaycanlı kəndlərinə ayaq qoymaq istəmirdilər. Ermənilər kütləvi surətdə gəldikləri ölkələrə qayıtmağa can atırdılar.

1951-ci ildə Ermənistandan 1500 ailənin Kür-Araz ovalığına köçürülməsi planlaşdırılır. Onlardan 400 ailə İrəvan şəhərinin sakinləri nəzərdə tutulurdu. 1952-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə planı haqqında qəbul etdiyi qərarda 1200 təsərrüfatın köçürülməsi nəzərdə tutulur və ilin axırında bu plan 124,6 faiz yerinə yetirilir. Həmin illərdə eyni zamanda qeyri-rəsmi surətdə Ermənistandan Azərbaycana mindən çox ailə köçüb gəlmişdi.

1948-1953-cü illərdə Ermənistandan 144 654 nəfər doğma ev-eşiyindən zorla köçürülür.

1953-cü ildə İ. Stalinin ölümündən sonra köçürmə dayandırılır və əhalinin geriyə qayıtma prosesi sürətlənir.

Ermənistandan azərbaycanlıların deportasiyası ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı aparılırdı. Təkcə 1947-1953 - cü illərdə 60-dan artıq yaşayış məntəqələrinin adları dəyişdirilmişdir. Ermənistan SSR Ali Sovetinin 19 sentyabr 1950-ci il fərmanı ilə aşağıdakı dəmiryol stansiyalarının adları dəyişdirilmişdir: Kolagirən-Tumanyan, Hamamlı-Spitak, Ortakilsə-Maisyan, Tomardaş-Vardakar, Arpaçay-Axuryan, Buğdaşen-Baqravan, Qaraqula-Gedap, Ələyəz-Araqats, Boğudlu-Arteni, Qaraburun-Qarmraşen, Qamışlı-Sovetaşen, Uluxanlı-Masis, İmanşahlı-Mxçyan, Qəmərli-Artaşat, Şirazlı-Ayqavan.

1951-ci il martın 19-da verilən fərmanla Dilican rayonu İcevanla, Əzizbəyov rayonu Mikoyan rayonu ilə, Ələyəz rayonu Abaranla, Qarabağlar rayonu Vedi ilə, Qukasyan rayonu Amasiya ilə birləşdirilmişdi. Kadr məsələləri həll edildikdən, yəni azərbaycanlı kadrlar çıxdaş edildikdən sonra bəzi rayonları sonralar yenidən ayırmışdılar.

Ermənistandan zorakı köçürülmə aksiyasını həyata keçirdikdən sonra türkdilli əhalinin azalmasını əsas götürərək rayon və respublika səviyyəli türkdilli kadrları ermənilərlə əvəz edilməyə başlamışdılar. Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselo rayonlarının partiya komitələrinin birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katiblər dəyişdirilərək yerinə ermənilər təyin edildilər.

Sonralar isə Ermənistan KP MK-nın təşkilat məsələləri üzrə katibi Məmməd İsgəndərov, kənd təsərrüfatı şöbəsinin müdir müavini Rəhim Allahverdiyev, MK-nın məsul təşkilatçısı Cümşüd Sultanov, kənd təsərrüfatı nazirini müavini Hüseyn Məmmədov, Ermənistan SSR Ali Sovetinin sədr müavini Mirzə Bəşirov tutduqları vəzifələrdən azad edildilər. Məsul vəzifələrdə işləmiş azərbaycanlıların Azərbaycana axını sürətləndi.

Bütün bunlarla yanaşı 13 rayonda Azərbaycan dilində çıxan qəzetlərdən 9-nun nəşri dayandırılır. Azərbaycan teatr sənətinə görkəmli sənətkarlar bəxş edən İrəvan teatrı köçürmə illərinin hər cür təzyiq və sıxıntılarına baxmayaraq, 1948-1949-cu illərdə «Məşədi İbad», «Leyli və Məcnun», «Eşq və intiqam», «Şah İsmayıl» kimi əsərləri tamaşaya qoymuşdu. Bütün bunlara baxmayaraq, teatr Basarkeçər rayonunun tamamilə ermənilər yaşayan mərkəzinə köçürüldü.

Ermənistanda ali təhsilli azərbaycanlı kadrların çoxalmasına imkan verməmək məqsədilə ilk növbədə X. Abovyan adına İrəvan Pedaqoji İnstitutunun Azərbaycan dilində olan fakültələri - dil-ədəbiyyat, tarix, coğrafiya, fizika-riyaziyyat fakültələri, Ermənistan Dövlət Qiyabi Pedaqoji İnstitutunun eyniadlı fakültələri bağlanaraq Bakıdakı müvafiq institutlara köçürüldü. Azərbaycan elminə görkəmli xadimlər bəxş etmiş İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu bağlanaraq Xanlar rayonuna köçürüldü. Bir qədər əvvəl, yəni müharibə illərində Leninakanda (Gümrüdə) fəaliyyət göstərən və Zaqafqaziyada yeganə olan Süd Sənaye Texnikumunun azərbaycanlı şöbəsi də bağlanmışdı.

Ermənistan rəhbərləri xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi adı altında Naxçıvanla Ermənistan arasındakı ərazilərdə xeyli miqdarda erməni əhalisinin yerləşdirilməsinə nail oldular. İrəvan şəhərinin əhatəsindən köçürülən azərbaycanlıların əvəzinə erməniləri məskunlaşdırdılar. Köçürülmə nəticəsində İrəvan ətrafındakı Əştərək, Qarabağlar, Qəmərli, Vedi, Zəngibasar, Hoktemberyan, Eçmiədzin rayonlarının və Arpa - Sevan (Göyçə) xətti ətrafında yerləşən rayonların müsəlmanlar yaşayan münbit torpaqları ermənilərin əlinə

keçdi. Türkiyə ilə sərhəd boyunda yerləşən Vedi, Zəngibasar, Hoktemberyan rayonlarının azərbaycanlı əhalisini köçürməklə ermənilər özləri üçün «etibarlı sərhəd zolağını» təmin etdilər. Amasiya rayonu bir tərəfdən Türkiyə, digər tərəfdən Gürcüstanın ermənilər yaşayan Boqdanovka və Axılkələk rayonları arasında yerləşdiyindən, Ermənistan rəhbərliyi həmin rayonu da köçürmək qərarına gəlmişdi. «Ermənistanın Sibiri» adlandırılan Amasiya rayonunun Qarabulaq, Qızılkənd, Şurabad və Daşkörpü kəndləri Azərbaycanın aran rayonlarına köçürülmüşdü. Lakin sonralar Amasiyadan köçürülmə prosesi dayandırılmışdı. Çünki köçürülən kəndlərdə kənardan heç bir erməni gəlib məskunlaşmaq istəmədiyindən, kəndlər boş qalırdı. Bu isə iqtisadi cəhətdən Ermənistan hökumətinə əl vermirdi. Çünki Ermənistanın heyvandarlıq məhsulları ilə təmin edilməsində Amasiya rayonunun xüsusi yeri var idi.

Əgər 1948-1953-cü illərdə Ermənistandan 150 minə yaxın əhali deportasiya edilərək Azərbaycana köçürülməsəydi və bu köçürülmə ilə yanaşı mədəni-maarif ocaqları bağlanmasaydı, rəhbər kadrlar sıxışdırılıb çıxarılmasaydı, azərbaycanlı əhalinin təbii artımı nəticəsində 80-cı illərin sonunda Ermənistanda azərbaycanlıların sayı ermənilərin sayına yaxınlaşacaqdı. Bu təhlükəni Ermənistan rəhbərləri əvvəlcədən hiss edir və vaxtında tədbir görürdülər.

Ermənistandan azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar o dövr Ermənistan mətbuatı, o cümlədən "Sovet Ermənistanı" qəzeti heç bir iz buraxmamışdır. 1948-1953-cü illərdə "Sovet Ermənistanı" qəzetinin səhifələrində yalnız onu müşahidə etmək olur ki, kəndlərdə əhalinin milli tərkibi tədricən dəyişir, müsəlman kəndləri erməni kəndlərinə çevrilir.

Araşdırmalar göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası haqqında SSRİ hökumətinin qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla Ermənistanın 23 rayonundan 100 min azərbaycanlı əhalinin könüllü köçürülməsi nəzərdə tutulmuşdusa da, əslində qərarın icrası zorakı təzyiqlər vasitəsi ilə həyata keçirilmiş, 24 rayondan və İrəvan şəhərindən (200 yaşayış məntəqəsindən) 150 minə yaxın azərbaycanlı deportasiya edilmişdi.

1989-cu ildə SSRİ hökuməti 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi. Ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli “1948-1953 - cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərmanı həmin illərdə xalqımıza qarşı həyata keçirilmiş tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi, onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması üçün zəmin yaratmışdır

***Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri.***
***Bakı, 1998, səh. 112-122.***

**Azərbaycanlıların Ermənistandan 1988-1989-cu illər deportasiyası**

Mixail Qorbaçovun 1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi seçilməsindən sonra Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etməsi pərdəsi altında Azərbaycana qarşı anneksiya planı işlənib hazırlanmışdı.

1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin yalnız erməni deputatların iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti DQMV XDS-nin konstitusiyaya zidd qərarını rədd etdikdən sonra, Ermənistanın millətçi rəhbərləri "Daşnaksutyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar.

1988-ci il fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başlanır. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürürdülər. Mitinqlərin üçüncü günü İrəvanda salamat qalmış yeganə məscid binası (XX əsrin əvvəllərində şəhərdə 8 məscid olmuşdur) və azərbaycanlı orta məktəbi, C. Cabbarlı adına İrəvan Azərbaycanlı Dram Teatrının ləvazimatı yandırıldı. İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vurdular. İrəvanda bütün bunlar törədilən zaman Sumqayıt faciəsi hələ hazırlanırdı. "Sumqayıt qırğınları" proqramının icraçılarından ən fəalının 1959-cu ildə anadan olmuş Eduard Robertoviç Qriqoryan adında erməninin olması (öldürülən 26 ermənidən 6 nəfəri onun payına düşür), hadisədən on gün əvvəl Sumqayıtın bütün əmanət kassalarından ermənilərin öz əmanətlərini kütləvi şəkildə götürmələri, qırğınların videolentə alınması üçün erməni operatorlarının əvvəlcədən hadisələrin planlı şəkildə törədiləcəyi yerlərdə özlərinə xəlvəti çəkiliş mövqeyi seçmələri, iki gündən sonra həmin lentlərin montaj edilib bütün dünyanı dolaşdırılması, "Sumqayıt qurbanları"nın xatirəsini "əbədiləşdirmək" üçün əvvəlcədən hazırlanmış abidənin dərhal Xankəndində (Stepanakertdə) qoyulması və bu kimi faktlar sübut edir ki, bütün bunlar erməniləri, eləcə də dünya ictimaiyyətini Azərbaycan xalqına qarşı ayağa qaldırmaq, onun "vəhşi" obrazını yaratmaq məqsədini güdmüşdür. Sumqayıt qırğınlarının fəal təşkilatçılarından erməni Ohanyanın, Samoylov və Pavlovskinin adları isə uzun müddət mətbuatdan gizli saxlanmışdı.

Sonralar L. Ter-Petrosyan öz müsahiblərinin birində demişdi ki, Sumqayıt hadisələrindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü. Əgər ölkə rəhbərliyi bu məqamdan istifadə edib DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar çıxarsaydı Azərbaycan xalqı buna etiraz edə bilməyəcəkdi. Bu sözlər aydın sübut edir ki, Sumqayıt faciəsi ermənilərə öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım olmuşdur.

Lakin Moskvanın, onun Azərbaycana və Ermənistana göndərilmiş emissarların ikiüzlü mövqeləri (Y. Liqaçov Azərbaycanda, A. Yakovlev Ermənistanda) erməni millətçilərinin öz bədnam niyyətlərini həyata keçirmək ümidlərini artırırdı.

Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan 200 mindən artıq azərbaycanlıları oradan çıxarmaq Qarabağ məsələsini həll etmək qədər vacib idi.

1988-ci ildə isə respublika rəhbərliyi azərbaycanlıların təhlükəsizliyinin qorunmasına təminat verməməklə, onlar arasında vahimə və qorxu yaradaraq Ermənistandan deportasiya edilməsinə başlayır.

Ayrı-ayrı rayon rəhbərləri azərbaycanlılara qarşı iqtisadi təzyiq üsullarından istifadə edərək kəndlərə çörək, ərzaq və gündəlik tələbat mallarının verilməsini məhdudlaşdırırlar. Ərzaq üçün şəhərlərə və rayon mərkəzlərinə getməyə məcbur olan azərbaycanlılar təhqir edilir, döyülür və qarət edilirlər.

İş o yerə çatır ki, mart ayında Gürcüstanın Boqdanovka və Axılkələk rayonlarında yaşayan ermənilər Amasiya rayonunun kəndlərinə dəfələrlə silahlı basqınlar edirlər.

Moskva azərbaycanlıların kompakt yaşadıqları rayonlara daxili xidmət qoşunlarının bölmələrini yerləşdirməyə məcbur olur. Hadisələrin sonrakı inkişafı göstərdi ki, bu bölmələrə yalnız qırğınları müşahidə etmək səlahiyyəti verilibmiş.

Hadisələrin bu cür inkişafının gözlənilməz, fəlakətli nəticələrə gətirib çıxaracağı hiss edilirdi. 1988-ci il martın 25-də "Qarabağ" komitəsinin fəaliyyəti Ermənistan SSR Konstitusiyasına və mövcud qanunvericiyə zidd olduğuna görə respublikanın Ali Soveti həmin komitəni qeyri-qanuni hesab edərək fəaliyyətinin dayandırılması haqqında qərar çıxarır. Azərbaycan SSR Ali Soveti də öz növbəsində "Qrunk" təşkilatının fəaliyyətini dayandırılması haqqında və onun təşkilatçılarının cinayət məsuliyyətinə cəlb edilməsi haqqında qərar qəbul edir. Lakin hər iki qərar sonralar kağız üzərində qalır.

Ermənistan SSR Ali Sovetinin, Nazirlər Sovetinin və KP MK-nın orqanı olan "Kommunist" qəzeti "Fəlakət anı, məsuliyyət anı" məqaləsində həmin dövrü belə səciyyələndirirdi: "Meydana siyasi avantüristlər çıxmışlar. Onlar öz məqsədlərinə çatmaq üçün heç nəyin qarşısında dayanmırlar. Bu məqsədlər yaxşı

məlumdur: onlar acgözlüklə hakimiyyətə can atırlar, xalqı milli faciə ilə nəticələnə biləcək son həddə sürükləyirlər".

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. Azərbaycan SSR Ali Soveti iyunun 17-də bu qanunsuz tələbi rədd etdikdən sonra Ermənistandakı azərbaycanlıların vəziyyəti daha da ağırlaşır.

İyunun 17-20-də İrəvanda teatr meydanında qeyzlənmiş erməni dəstələri avtobuslarla azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Müdafiəsiz on mindən çox azərbaycanlılar Sovet-Türkiyə sərhədinə toplaşmış, orada gecələməyə məcbur olmuşdular. Həmin günlər 20-dən çox azərbaycanlı yaralanmışdı. Rayon mərkəzi Masis qəsəbəsindən 3 mindən çox azərbaycanlı evlərindən çıxarıldı. Bütün bu iğtişaşlar zamanı SSRİ Daxili İşlər Nazirliyinin rayonda olan qüvvələri yalnız müşahidəçi rolunu oynayırdılar.

1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət heyətinin iclası DQMV-i haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsi yolverilməz hesab edildikdən sonra, erməni millətçiləri azərbaycanlıların Ermənistan ərazisindən çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar.

Ermənistan EA-nın müxbir üzvü, "Qarabağ" hərəkatının liderlərindən biri Rafael Kazaryan 1988-ci il noyabrın 4-də İrəvanda keçirilən mitinqdə demişdi: "Dəstələrin köməyi ilə emiqrasiyanı təmin etmək lazımdır. Bizə bütün onilliklər ərzində ilk dəfə Ermənistanı təmizləmək imkanı verilmişdir. Mən bunu bu on aylıq mübarizəmizin ən böyük nailiyyəti hesab edirəm». İrəvanda rusca çıxan "Kommunist" qəzeti "Fəlakət anı, məsuliyyət anı" məqaləsində etiraf etməyə məcbur olmuşdu:" Komitənin ("Qarabağ") yerli özəklərinin təşəbbüsü ilə rayon və kəndlərdə mitinqlər təşkil edilərək azərbaycanlılardan öz evlərini tərk etmələri tələbləri irəli sürülürdü. Ən həyəcanlandırıcı hal odur ki, "Qarabağ" komitəsinin hazırladığı siyasi münaqişələrə hətta uşaqları da cəlb edirdilər. Təsəvvür edin ki, Amasiya rayonunun mərkəzində rayon xalq nəzarəti komitəsi sədrinin oğlunun rəhbərliyi ilə 30 məktəbli nümayiş keçirir və azərbaycanlıların işdən qovulmasını tələb edirdilər". Amasiyanın beynəlmiləl məktəbinin erməni şagirdlərinin tələbi ilə dərhal məktəbin azərbaycan bölməsi bağlanmışdı. Bir həftə ərzində, 1988-ci il dekabrın birinədək rəhbər vəzifələrdə işləyən azərbaycanlıların əksəriyyəti işdən azad edilmişdilər.

Şagirdlərin milli münaqişəyə cəlb edilməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, hər bir erməni ailəsində deyilirdi ki, türklər onların qatı düşmənləridir və buna görə də fürsət düşən kimi onlardan qisas almaq lazımdır.

1988-ci il noyabrın ortalarında Azərbaycana 80 mindən artıq qaçqın pənah gətirmişdi. Noyabrın 17-də Bakıda "Azadlıq" meydanında keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul edilmişdi. Ermənistan televiziyası həmin gün mitinqdən reportajlar göstərərək, qətnamənin tələblərini dəfələrlə efirdə səsləndirmişdi.

Bu tələblərdən narahat olan Ermənistan rəhbərliyi Ali Sovet sessiyasının noyabrın 22-də keçirildiyi Opera teatrının binasına mitinq iştirakçılarının hücumundan sonra sessiyasının gedişini dayandıraraq, onların tələbi ilə deputatları, rayon rəhbərliyini yerlərdə "qayda-qanun bərpa etməyə" göndərdilər. Əslində isə onlara tapşırıq verilmişdi ki, bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirsinlər.

Bu haqda yuxarıda qeyd edilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsində yazılır: "Qarabağ" komitəsi avantüristlərinin çağırışına millətçilik azarına tutulmuş bir sıra partiya-sovet işçiləri də qoşulmuşlar. Ayrı-ayrı rayonlarda millətlərarası qırğına sürükləyən coşmuş ehtirasları cilovlamaq, vətəndaşları müdafiə etmək, təxribatçıları ifşa etmək əvəzinə, onlar adamların (yəni azərbaycanlıların-müəlliflər) kütləvi surətdə çıxarılmasına fitva verdilər. Bu cür "missiya" ilə bəzi "xadimlər" Kirovakanda, Stepanavanda, Artaşatda evləri bir-bir gəzirdilər." Əlbəttə, azərbaycanlılar yaşayan bütün rayonların vəziyyəti belə idi. Deportasiya aksiyasını müəyyən olunmuş müddətdə başa çatdırmaq üçün Kalinin, Spitak, Quqark, Noyemberyan, Krasnoselo, Vardenis, Yağeqnadzor, Əzizbəyov, Ararat, Masis, Sisyan və Meğri rayonlarının rəhbərləri xüsusilə canfəşanlıq göstərirdilər.

Ermənistanı 1988-ci ildə tərk edərək və Xanlar rayonuna pənah gətirmiş, milliyətcə rus olan L. V. Tolstyak Azərbaycan Qaçqınlar Cəmiyyətində yazdığı öz izahatında göstərmişdi ki, noyabrın 27-də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini (daha sonralar Ermənistan KP MK-nın birinci katibi) V. Movsesyan Vardenis rayonunun Zod kəndinə gəlib əhalinin kəndi tərk etməsi üçün üç gün vaxt verildiyini bəyan etdi və əlavə etdi ki, bu müddətdə kəndi tərk etməsələr, onların təhlükəsizliyinə təminat verilməyəcək. Deportasiyanı sürətləndirmək üçün elektrik xəttini kəsdilər, ərzaq verilməsini dayandırdılar, dağ yolları ilə rayonu tərk edən azərbaycanlıların köçünü tez-tez atəşə tutdular.

Bu cür izahatlar yüzlərcədir.

Yenə yuxarıda adı çəkilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsinə müraciət edək: "Noyabrın 26-da "Qarabağ" hərəkatı fəallarının təhrikçi çıxışlarından qızışmış 500 nəfər Kirovakan sakini Şaumyan kəndinə

doğru hərəkət etdi. Vuruşma iki gün davam etdi, silahlı atışma oldu. Ölənlər var. Kuybışev kəndində də qırğınlar törədildi, orada da tələfat var. Hərəkatın fəallarının köməyi ilə yaradılmış "özünümüdafiə dəstələri" yollarda qoyduqları postlarda azğınlıqlar törədirdilər. Azərbaycanlı kəndlərinə ərzaq köməyi göstərən ermənilər döyülürdülər."

Ermənistan mətbuatı Şaumyan (əvvəlki adı Vartanlı) qırğınları haqqında yalnız "atışma olmuşdur, tələfat var" sözlərini qeyd etməklə kifayətlənmişdir. Şaumyan (Vartanlı) kəndi Kirovakan şəhərinə bitişik olmasına baxmayaraq, inzibati-ərazi bölgüsünə görə Quqark rayonuna daxil idi. Şaumyan (Vartanlı) faciəsi öz ssenarisinə görə 1918-1920-ci illərdə Gümrü-Qarakilsə bölgələrindəki silahsız azərbaycanlılar yaşayan kəndlərə erməni quldurlarının hücumları zamanı törədilən vəhşiliklərin təkrarı idi.

Təəssüf ki, dünya ictimaiyyəti Ermənistandakı nə 1918-1920-ci illər, nə də 1988-1989-cu illər qırğınları haqqında xəbər tutmamışdır. Ermənilər bir əsrdə Vartanlı kəndində iki dəfə azərbaycanlılara qarşı soyqırım törətmişlər. Onlar "adımı sənə qoyaram, səni də yana-yana" prinsipi ilə Azərbaycan xalqını vəhşi kimi qələmə verməklə, ictimai rəy yaratmağa çalışmışlar. Vartanlı qırğınlarının üstündən sükutla keçib, onu ört-basdır etməklə yanaşı, özlərinin törətdikləri Sumqayıt qırğınlarına siyasi qiymət verilməsini tələb etmək məhz ermənilərə məxsus həyasızlıq idi.

İndi isə şahidlərin verdiyi ifadələr və Ermənistan Prokurorluğunun göndərdiyi cavablar arasında Vartanlı qırğınlarının bəzi səhnələri ilə tanış olaq. Əsrin əvvəllərində tamamilə azərbaycanlılar yaşayan Vartanlı kəndində 1988-ci ilin sonunda ermənilər çoxluq təşkil edirdilər. Ermənilər noyabrın 25-dən 26-na keçən gecə kəndə silahlı hücum edirdilər. Həmin gün güclü qar yağır, boran imiş. Azərbaycanlılar əsasən kəndi tərk edib meşəyə çəkilməyə məcbur olmuşdular. Qatillər kənddə rastlarına çıxan Mehralı İsgəndərovu ağaca bağlayır, gözləri qarşısında arvadı Xanım İsgəndərovanın boynuna kəndir keçirib hər cür təhqir edərək, kəndin içində gəzdirirlər. Onların 14 yaşlı oğlu Alim hadisədən xəbər tutaraq ov tüfəngini götürüb kəndə enir və ata-anasını xilas etmək üçün atəş açmağa məcbur olur. Güllələr dolu kimi Alimin üzərinə yağdırılır. Yaralı Alimi ata-anasının gözləri qarşısında yanan tonqalın içinə atırlar. Bu dəhşəti görməmək üçün anası Xanım özünü çaya atır ki, boğulsun. Onu çaydan çıxarıb işgəncə ilə öldürürlər. Vəhşicəsinə döyülüb hər cür təhqirlərə məruz qalan Mehralı İsgəndərov gözlərini əbədi yumur. Ermənistan Respublikası Prokurorluğunun bu cinayət işi ilə bağlı SSRİ Prokurorluğuna göndərdiyi cavabında deyilir: "İsgəndərov Mehralı Həsən oğlu, 1938-ci ildə anadan olmuş, Vartanlı kənd sakinidir. 1988-ci ildə millətlərarası toqquşma nəticəsində öldürülmüş, Vartanlı kənd qəbiristanlığında basdırılmışdır. Onun meyiti 1989-cu ilin sonunda qohumları tərəfindən çıxarılaraq Azərbaycanda yenidən dəfn edilmişdir. SSRİ Prokurorluğu cinayət işi qaldırmışdır. Cinayətkarlar tapılmamışdır."

İsgəndərovların üçünün də haqqında verilən cavabın sonunda deyilir: "Cinayətkarlar tapılmamışdır." Görəsən, bütöv kənd camaatının gözü qarşısında baş verən qırğınların icraçılarını doğurdanmı SSRİ Prokurorluğunun işçiləri əlləşib aşkara çıxara bilməmişdilər?

1941-1945-ci illər müharibəsində bir qolunu itirmiş 69 yaşlı Qərib Bayramovun evi kəndin yuxarı hissəsində olduğundan, İsgəndərovların faciəsindən gec xəbər tutur. Çayın kənarına enib meyitləri gördükdən sonra evə qayıdıb üstlərini örtmək üçün bir şey gətirmək istəyir. Bu dəm arxadan onu balta ilə vurub yanan tonqalın içinə atırlar. Ermənistan Prokurorluğunun cavabında isə deyilir: "Bayramov Qərib İsmayıl oğlu, 1919 -cu ildə anadan olmuş, Şaumyan kəndinin keçmiş sakini, 1988-ci ildə Şaumyan kəndinin erməni əhalisi tərəfindən öldürülmüş, meyit yarı yandırılmışdır."

Öz qonşusunun başına arxadan endirdiyi zərbədən qanına qəltan edilən, kəndin ağbirçəyi Hüseynova Leyli haqqında göndərilən cavabda deyilir: "Hüseynova Leyli Həsən qızı, 1925-ci ildə anadan olmuş, Vartanlı kəndinin sakini, 1988-ci ilin noyabrında millətlərarası toqquşma nəticəsində öldürülmüş və Vartanlı kənd qəbiristanlığında basdırılmışdır. 1989-cu ilin axırlarında onun meyiti qohumları tərəfindən Azərbaycana aparılıb yenidən dəfn edilmişdir. SSRİ Prokurorluğu cinayət işi qaldırmış, cinayətkarlar tapılmamışdır."

Sumqayıt faciəsi zamanı yüzlərlə azərbaycanlı ailəsinin öz həyatlarını təhlükə qarşısında qoyaraq, erməni qonşularını qəzəblənmiş kütlənin təhlükəsindən xilas etmələri haqqında mətbuatda çox yazılıb. Lakin Vartanlı erməniləri bu cür insani hisslərdən uzaq idilər. Onlar azğınlaşmış dəstənin önündə gedir, azərbaycanlıların sığındığı evləri nişan verirmişlər. Azğınlaşmış dəstəyə isə Şaumyan kənd sovetinin sədri J. Arakelyan bələdçilik etmişdi.

Süleyman Məmmədov qonşusu Mexaqın evində gizlənibmiş. Mexaq isə onu quldurlara təhvil vermiş, onlar isə maşın təkərlərini yandırıb S. Məmmədovu diri-diri odun içinə atmışdılar. Namərd qonşu isə tutduğu işdən həzz ala-ala, tükürpədici səhnəyə tamaşa etmişdi. Cinayətkarlar yenə də "tapılmamışdı".

Ermənistan Prokurorluğunun cavabı: "Məmmədov Süleyman Qənbər oğlu, 1938-ci ildə anadan olmuş, Vartanlı kəndi sakini, 1988-ci ilin noyabrında millətlərarası toqquşma nəticəsində öldürülmüşdür və Vartanlı kənd qəbiristanlığında basdırılmışdır. 1989-cu ilin axırında qohumları tərəfindən Azərbaycanda yenidən dəfn edilmişdir. SSRİ Prokurorluğu cinayət işi qaldırmış, cinayətkar tapılmamışdır."

Ümumiyyətlə, təkcə noyabrın 26-27-də Vartanlı kəndində 14 nəfər azərbaycanlı vəhşicəsinə öldürülmüş və yandırılmışdır. Kəndin sağ qalan əhalisi qarlı-çovğunlu günlərdə dağlarla, meşələrlə gündüzlər gizlənib yalnız gecələr yol gedərək 13-14 gün ərzində Azərbaycana çatmışdılar. Onlarca vartanlılar dağlarda itkin düşmüşlər. Toqquşma zamanı aldıqları bədən xəsarətindən, yollarda tutulduqları xəstəlikdən sonra Azərbaycana gələn onlarca vartanlılı vəfat etmiş, çoxları şikəst olmuşdular. Ümumiyyətlə, Quqark rayonunla ermənilərin törətdiyi qırğınlar nəticəsində 30-dan artıq azərbaycanlı qətlə yetirilmişdir. Quqark faciəsi Ermənistan rəhbərliyi tərəfindən ört-basdır edildi. Sonralar, yəni 1989-cu ildə Ermənistan KP MK bürosu Quqark rayon partiya komitəsinin birinci katibi L. Bağdasaryanı və RİK-nin sədri S. Kazaryanı işdən azad etməklə kifayətləndi. Lakin Vartanlı (Şaumyan) qırğınlarının əsas təşkilatçıları və icraçıları cinayət məsuliyyətindən kənarda qaldılar.

Qonşu Spitak (keçmiş Hamamlı) rayonunun rəhbərliyi azərbaycanlılara qarşı törədikləri cinayətlərə görə Quqark rayonunun rəhbərlərindən heç də geri qalmamışdı. Noyabrın 28-də Spitak rayon İK-nin sədri V. Haycyan, DİŞ-in rəisi Sarkisyan, DTK rayon şöbəsinin sədr müavini Mehrabyan rayonun azərbaycanlılar yaşayan Saral və Qusarlı kəndlərinə gəlib bildirmişdilər ki, onların təhlükəsizliyinə təminat vermirlər. Əgər iki saat ərzində kəndi tərk etməsələr, silahlı dəstələr kəndə hücum edəcəklər. Camaat onların təklifini rədd edir. Lakin Spitak və Quqark rayon rəhbərləri yenə gəlib təkidlə tələb edirlər ki, kənd camaatı tezliklə çıxmalıdırlar. Onlar özləri ilə 34 avtobus və 40 yükünüözüboşaldan maşın gətirmişdilər. Onların göstərişi ilə bir dəstə erməni sahiblərinin gözü qarşısında ev əşyalarını həyətə çıxarıb, od vururlar.

Avtobuslarla dolu camaatı rayon ərazisindən kənarda - Quqark rayonunun Mrqahovit (Həmzəçimən) kəndi yaxınlığında axşamdan xeyli keçmiş silahlı dəstələr gözləyirdilər. Spitak rayonunun rəhbərləri işi elə hazırladılar ki, qan qonşu rayonun ərazisində tökülməli idi, bununla da onlar məsuliyyətdən kənarda qalacaqdılar. Gecənin qaranlığında yolun kənarında pusquda durmuş quldurlar avtobusları atəşə tutur, 3 nəfər həlak olur, 7 nəfər ağır yaralanır. Bu cinayətlə bağlı Ermənistan Prokurorluğunun verdiyi cavabdan:

«1. Balacayev Şahin Səyyad oğlu, 1977-ci ildə anadan olmuş, Saral məktəbinin 4-cü sinif şagirdi. Mrqahovit kəndinin yaxınlığında Spitakdan gələn PAZ-672 markalı 39-52 ADN nömrəli avtobus naməlum şəxslər tərəfindən atəşə tutulmuşdur, güllə başından dəymiş, yerindəcə keçinmişdir. 01. 12. 1988

2. Balacayev Teymur Məsim oğlu, 1959-cu ildə anadan olmuş, Kirovakan dəzgahqayırma zavodunun fəhləsi, PAZ-696 markalı, 57-94 ADN nömrəli avtobusla (Spitakdan gələn kolonna) Mrqahovit kəndi yaxınlığında meşədə naməlum şəxslər tərəfindən daşa basılmış, başından zərbə alaraq yerindəcə keçinmişdir.

3. Balacayeva Sürəyya Hüseyn qızı, 1954-cü ildə anadan olmuş, yuxarıda qeyd edilmiş hadisə zamanı bədən xəsarəti almış və 02. 12. 1988-ci ildə xəstəxanada keçinmişdir.»

Ermənistan Prokurorluğunun verdiyi həmin məlumatın əlavəsində isə Balacayevlərin hər üçünün güllə yarasından öldürüldüyü qeyd edilmişdir.

Sürəyyanın həyatını xilas etmək mümkün idi. Lakin onu Kirovakan xəstəxanasında tibb bacıları döşəkağıları ilə boğub öldürmüşdülər. Sürəyyanın üstündə olan 6 min manat nəğd pulu və 3 min manat dəyərində olan zinət şeylərini xəstəxanada həkimlər oğurlamışdılar. Rayon rəhbərləri hər üç meyiti Azərbaycana gətirməyə qoymamış, Quqark rayonunun Vartanlı kəndində hərbçilərin köməyi ilə dəfn etmişdilər.

Spitak faciəsindən daha bir nümunə. Qursalı kənd sakini Rəhim Daşdəmirov 23 il idi ki, Kirovakan şəhərində milis işçisi işləyirdi. Əmək veteranı, milis əlaçısı idi. 1989-cu il iyunun 9-da oğlu Mayılla şəxsi maşınlarında Spitak şəhərinə gəlib bəzi sənədləri götürmək və zəlzələdən sonra Qursalıda dağılmış evlərinin dəyərinin əvəzini almaq istəyirdilər. Spitak RİK-in qarşısında onu tanıyan iki erməni hücum edib armaturla onun başını əzir və hadisə yerindən qaçırlar. Özünü itirən Mayıl atasını maşına qoyub Qazax xəstəxanasına çatdırmaq istəyir. Ermənilər onları maşınla təqib edirlər. Rəhim kişini xəstəxanaya çatdırmaq olmur. O, yolda keçinir. İyunun 10-da R. Daşdəmirovu Gəncə şəhərində dəfn edirlər.

Bununla əlaqədar olaraq Ermənistan Prokurorluğunun həqiqətdən uzaq, riyakar cavabında deyilir: «Daşdəmirov Rəhim Cabbar oğlu, 1932-ci ildə anadan olmuşdur. 1988-ci ilin iyulunda zəlzələdən çatacaq kompensasiyanı almaq üçün Spitaka gəlmişdilər. Döyülmüşlər. Xəstəxanaya yerləşdirməkdən imtina etmişdir. Öz maşınında Bakıya getmişdir. 1990-cı ildə Ermənistan DTK-na Bakıdan teleqram gəlmişdir ki, Daşdəmirov Spitakda döyüldükdən sonra Bakıda ölmüşdür. Bunun əsasında cinayətkar məhkəməyə verilmiş, ancaq psixi xəstə olduğu müəyyən edilmişdir.»

Ermənistan Prokurorluğu göndərdiyi cavab həqiqətə uyğun olmadığı kimi, Daşdəmirovun qatilinin «psixi xəstə» çıxması da ermənisayağı saxtakarlıqdır.

Ermənistanda azəri türklərinə qarşı dəhşətli cinayətlər törədilmiş rayonlardan biri də Stepanavan (keçmiş Cəlaloğlu) rayonudur. Kuybışev kəndinin sakinləri Təmraz Yusif oğlu İsgəndərov, Gilas Rüstəm qızı Xəlilova, Şərif Cabbar oğlu Xəlilov vəhşicəsinə döyülmüş və soyuq silahla qətlə yetirilmişlər. Puşkino kolxozunun sağıcısı (Gərgər kənd sakini) Bəsti İsrafil qızı Mustafayeva isə Ermənistanda baş vermiş dəhşətli zəlzələdən sonra, yəni bütün dünyanın Ermənistanın halına ağladığı bir vaxtda, 30 dekabr 1988-ci ildə diri-diri yandırılmış

və meyiti zibillikdə gizlədilmişdi. Xeyli müddətdən sonra onun meyiti hərbçilərin köməyi ilə tapılmışdı. Qeyd etdiyimiz dörd ölüm hadisəsindən yalnız ikisinin barəsində cinayət işi qaldırılmışdı.

1902-ci ildə anadan olmuş, Kalinino rayon mərkəzindəki 41 nömrəli evdə yaşayan Məhəmməd Nəbi oğlu Sadıqovun evinə rayon mərkəzində keçirilən mitinqdən ayrılan silahlı dəstə hücum etmiş, onu soyuq silah və daş-qaya ilə öz həyətindəcə qətlə yetirmişdilər. Bu haqda «Pravda» qəzetinin 7 yanvar 1989-cu il tarixli və «Sosialistiçeskaya industriya» qəzetinin 18 dekabr 1988-ci il tarixli sayında dərc edilmişdir.

1988-ci ilin noyabr-dekabr aylarında bir tərəfdən Ermənistanın azəri türkləri yaşayan kəndlərinin əhalisi sıxışdırılır, kəndlərə ərzaq göndərilmir, elektrik xətləri kəsilir və silahlı basqınlar edilir, digər tərəfdən kəndləri tərk edən ailələrə yollarda divan tutulur, əmlakları qarət edilir, özləri isə qətlə yetirilirdilər. Ermənistanda milli zəmində baş verən cinayətlərin əksəriyyəti əsasən azərbaycanlı əhalinin öz yaşayış məntəqələrini tərk etməyə məcbur olduqları vaxt baş vermişdi. Ermənistandan Azərbaycana gedən bütün yollar üzərində bir neçə yerdə silahlı quldur dəstələri yerləşdirilmişdi. Quldurların əksəriyyəti milis forması geyərək özbaşına yoxlama - buraxılış məntəqələri yaratmışdılar. Onlar bütün maşınları saxlayır, sərnişinlərin sənədlərini yoxlayır və maşında azərbaycanlılar olduğunu müəyyən edən kimi onu maşından düşürür, əmlaklarını boşaldaraq qarət edir, özlərini isə vəhşicəsinə qətlə yetirirdilər.

Ermənistan Prokurorluğu öz ərazisində törədilən minlərlə cinayəti açmadan aşağıdakı kimi şablon cavablar vermişdir: “Göstərilən məlumatlara uyğun şəxs pasport qeydiyyatı stolundan və kənd sovetinin təsərrüfat kitabından keçməmişdir.” “Ünvanından qeydiyyatdan çıxıb”, “Ölümü haqqında qeydiyyat rayon VVAQ şöbəsində yoxdur.” «1988-ci ildə ünvanından çıxıb Azərbaycan SSR-ə getmişdir” və s.

Ermənistan Prokurorluğunun Masis qəsəbəsinin sakini Səfa Novruzəli qızı Cəfərova haqqında verdiyi məlumatda yazılmışdır: ”Göstərilən məlumatlara uyğun şəxs RDİŞ-nin və VVAQ-ın qeydiyyatından keçməmişdir.” Belə çıxır ki, belə bir adam ümumiyyətlə, Masis rayonunda yaşamamışdır və onun öldürülməsi də təbii ki, uydurma hesab edilməlidir. Lakin sənədlər içərisində Cəfərova Səfa Novruzəli qızının Masis qəsəbə Soveti tərəfindən verilmiş doğum haqqında şəhadətnaməsinin surəti vardır. Şəhadətnamə 1980-cı il aprelin 2-də yazılmış və qeyd nömrəsi 189-dur (Ş-SL № 262478). Şahidlərin verdiyi izahata əsasən isə Səfa başından aldığı zərbə nəticəsində Masisdə qətlə yetirilmişdir.

Ermənistan tərəfi azərbaycanlılara qarşı törədilən cinayətləri əsasən təkzib edərək qeyd edir ki, konkret olaraq bu və ya digər halda zərərçəkənlər Ermənistanın hüquq-mühafizə orqanlarına müraciət etməmişlər. Bir halda ki, Ermənistanda azərbaycanlılara qarşı cinayətlər respublika hökuməti səviyyəsində, onun yerlərdəki partiya, sovet və hüquq-mühafizə orqanları rəhbərlərinin başçılığı ilə törədilirdi, onda azərbaycanlıların şikayətlərinin nə mənası olacaqdı? Kim bu şikayətə baxacaq, kimləri cəzalandıracaqdı? Tək-tək şikayətçiləri isə bir daha əzişdirib elə hala salırdılar ki, şikayət etdiyinə də peşman olurdu. Axırda da sözləri bu olurdu: “sizinkilər Sumqayıtda erməniləri niyə qırdılar? Şükür edin ki, sağ qalıbsınız.”

Bütün bunlara görə də azərbaycanlılar öz rəsmi şikayətlərini yalnız Azərbaycana çatdıqdan sonra edə bilirdilər.

Amasiya rayonunda azərbaycanlılara qarşı edilən cinayətlərlə əlaqədar Ermənistan Prokurorluğunun cavabında deyilir: ” Rayonun keçmiş sakinləri azərbaycanlıların və ya onların qohumlarının ərizələrində nə əmlak iddiası, nə də ermənilər tərəfindən onlara qarşı zor işlədilməsi haqqında SSRİ DİŞ-in operativ əməliyyat qrupuna şikayət edilməmişdir.”

Amasiya rayonu coğrafi mövqeyinə görə qərbdən Türkiyə ilə, şimaldan Gürcüstanın ermənilər yaşayan rayonları ilə əhatə olunmuş, 18 min əhali girov kimi qalmışdı. Rayondan kənara çıxan azərbaycanlıları ölüncəyə qədər döyürdülər. Ümid təkcə vertolyotlara qalmışdı. Rayon DİŞ-in əməkdaşı Arif İsgəndər oğlu Məmmədov və Əzizbəyov kənd sakini Arzu İsfəndiyar oğlu Haqverdiyev 1988-ci ilin noyabrında maşınla ev əşyalarını Azərbaycana apararkən yolda silahdan atəşə tutulmuş, bir necə yerdən güllə bədənlərini deşik-deşik etmişdi (sübutlar Azərbaycan Məhkəmə Ekspertizası İnstitutunda saxlanır). Hərbçilərin, BTR-lərin müşayiəti ilə Oxçoğlu kəndindən yola salınan 15 ailənin ev əşyaları Axuryan rayonunun Kaps (Qanlıca) kəndində maşınlardan boşaldılmış, talan edilmiş, sonra isə od vurub yandırılmışdılar. Bu cinayət işi ilə SSRİ Prokurorluğunun əməkdaşları məşğul olmalarına baxmayaraq, heç kəs məsuliyyətə cəlb edilməmişdi.

Əsas çıxış yollarını silahlı erməni quldurları ələ keçirdiklərinə görə, Ermənistanın Azərbaycanla həmsərhəd rayonlarının azərbaycanlı əhalisi maşınlarla deyil, qışın qarlı-boranlı günlərində dağlardan piyada aşaraq özlərini Azərbaycana çatdıra bilmişdilər. Krasnoselo, Vardenis, Sisyan, Qafan, Gorus, Razdan, Əzizbəyov, Amasiya rayonlarından 48 nəfər dağları aşarkən borana düşüb həlak olmuşdular.

Vardenis (Basarkeçər) rayonunun Şişqaya kənd sakini, 1971-ci ildə anadan olmuş Şahin Qabil oğlu Əliyev 1988-ci ilin dekabrında dağları aşarkən Gədəbəy rayonunun ərazisində borana düşmüş və donub ölmüşdü. Onun meyiti dörd aydan sonra, dağlarda qarın altından tapılmış və Şəmkir rayonunun Dağ Cəyir kəndində dəfn edilmişdir.

Sisyan rayonunun Şəki kəndinin sakini, 1925-ci ildə anadan olmuş Xalisə Əmrah qızı Əliyeva 1988-ci ilin dekabrında dağlardan aşarkən borana düşmüş və ölmüşdür. Lakin onun meyitini tapmamışdılar. Dağların qarı əridikdən sonra, 1989-cu ilin may ayında qohumları dağdan onun paltarlarının cırıqlarını və ağ saçlarını tapmışdılar.

Ermənistandakı qırğınların ən faciəlisi İrəvan şəhərində Estonakan küçəsi ev 12/1, mənzil 56-da yaşayan Misgərovlar ailəsinin başına gətirilmişdir. 1955-ci ildə anadan olmuş Elza Cəfər qızı Misgərova və 1956-cı ildə anadan olmuş qardaşı Vidadi namərd qonşularının və "dostlarının" şirin dillərinə aldanaraq İrəvanda qalıb mənzillərini Bakıya dəyişdirmək üçün münasib variant axtarırdılar. Elza və Vidadi "sadiq dostlarının" əli ilə hər cür işgəncələrlə qətlə yetirilmiş və hər ikisinin meyitini Artaşat rayonunun ərazisindəki Azat su anbarına tullamışdılar.

Müvafiq sənədlər və şahidlərin verdikləri ifadələr əsasında Azərbaycan Qaçqınlar Cəmiyyətində tərtib edilmiş siyahıya əsasən, 1988-1990-cı illər ərzində Ermənistanda 216 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş və ya millətlərarası münaqişə zəminində baş vermiş hadisələr nəticəsində həlak olmuşlar (Əlavəyə bax). Həmin siyahıya əsasən 52 nəfər aldığı xəsarət nəticəsində ölmüş, 34 nəfər işgəncə ilə öldürülmüş, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 15 nəfər yandırılmış, 8 nəfər maşınla vurulmuş, 9 nəfər yollarda qəzaya uğradılmış, 7 nəfər həkim qəsdi nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, bir nəfər asılmış, 2 nəfər maşın partladılması nəticəsində, bir nəfəri elektrik cərəyanı ilə, bir nəfəri suda boğub öldürmüşdülər, 6 nəfər itkin düşmüş, 20 nəfər xəstəxanadan yoxa çıxmış, 48 nəfər isə dağlarda borana düşüb həlak olmuşlar.

1990-cı ilin avqustun 9-da Azərbaycan Respublikası Ali Soveti SSRİ Prokurorluğuna 05-1-208 nömrəli məktubla müraciət edərək Ermənistanda milli münaqişələr zəminində həlak olmuş azərbaycanlılar haqqında məlumat verməyi xahiş etmişdi. SSRİ Baş Prokurorunun müavini V. İ. Kvartsovun 4 oktyabr 1990-cı il 15 - 1502-90 nömrəli cavab məktubunda deyilir: "Sizin məktubunuzla əlaqədar olaraq bildirirəm ki, 1988-1989-cu illərdə Ermənistan SSR-də milli zəmində baş verən cinayət faktları üzrə 675 cinayət işi qaldırılmışdır, onlardan 283-ü istintaq aidiyyəti üzrə Azərbaycana göndərilmişdir. Eyni zamanda Azərbaycan SSR-dən Ermənistana təhqiqat üçün 138 cinayət işi daxil olmuşdur. 1989-cu il dekabrın 31-nə olan məlumata görə Ermənistanın hüquq-mühafizə orqanlarının icraatında olan bu qəbildən 530 cinayət işindən 200 iş üzrə cinayət açılmamış və istintaq dayandırılmışdır.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan ərazisində milli münasibətlərin kəskinləşməsi üzündən bir sıra rayonlarda qarət, yanğın və ictimai qayda-qanununa zidd olan digər hallarla müşayiət olunan kütləvi iğtişaşlar baş vermişdir... Bu hərəkətlər nəticəsində 21 nəfər öldürülmüş (20 azərbaycanlı və bir erməni), 4 nəfər sonradan ölümlə nəticələnmiş ağır bədən xəsarəti almışdır. Qətl hadisəsi üzrə 8 cinayət işi və zərərçəkənlərin ölümü ilə nəticələnmiş ağır bədən xəsarəti üzrə dörd işin istintaqı başa çatdırılaraq məhkəməyə göndərilmişdir. Əliyevlər barəsindəki cinayət işinə bəraət qazandırıcı əsaslar üzrə xitam verilmişdir, belə ki, istintaq bu qənaətə gəlmişdir ki, onun Mirzoyanı öldürməsi son zəruri müdafiə həddindən baş vermişdir.

Bu qəbildən məhkəməyə göndərilən üç qətl və ağır bədən xəsarəti yetirilməsi üzrə iki cinayət işi üzrə günahkarlar müxtəlif müddətlərdə azadlıqdan məhrum edilmişlər. Bir neçə cinayət işi əlavə istintaqa qaytarılmışdır.

Ermənistan Prokuroruna tapşırılmışdır ki, bu işlər üzrə aparılan istintaqın tamlığını və obyektivliyini yoxlasın, onun başa çatdırılması üçün tədbirlər görsün. Günahkarların müəyyənləşdirilməməsi üzündən istintaqın xitam verilmiş işləri araşdırmaq və istintaqı təzələmək məsələsinin mümkünlüyünü öyrənmək tapşırığı da verilmişdir. Ermənistan məhkəmələrinə milli nifaq zəminində baş vermiş 91 müttəhim barəsində cəmisi 53 cinayət işi göndərilmişdir. 48 iş üzrə 82 nəfər mühakimə olunmuş, onlardan 30 nəfər müxtəlif müddətdə azadlıqdan məhrum edilmişdir.

SSRİ Prokurorluğu cinayətlərin açılmasına nəzarət edir və zəruri kömək göstərir."

V. İ. Kvartsovun bu cavabı ilə əlaqədar təkcə onu qeyd edirik ki, əgər Ermənistanın hüquq-mühafizə orqanlarının icraatında olan 530 cinayət işindən 200 iş üzrə cinayət açılmamış və istintaq dayandırılmışdırsa, keçmiş SSRİ Prokurorluğunun bu işə necə kömək etdiyini və hansı nəzarəti qoyduğunu izah etməyə ehtiyac qalmır.

Məhz hüquq-mühafizə orqanlarının nəzarətsizliyi, onların erməni millətçilərinin separatçı hərəkətlərinə vaxtında və qanuni qiymət vermədiklərinin nəticəsində 200 mindən artıq azərbaycanlılar əsrlər boyu yaşadıqları əzəli torpaqlarından iki həftə ərzində vəhşicəsinə qovuldular. Keçmiş İttifaq orqanları azərbaycanlıların Ermənistandan deportasiyasına seyirçi münasibət göstərdi. Demək olar ki, bütün azərbaycanlılar Ermənistandan qovulduqdan sonra, yəni 1988-ci il dekabrın 6-da Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Vətəndaşların daimi yaşayış yerləri məcburi tərk etməsində Azərbaycan SSR və Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin yolverilməz hərəkətləri haqqında" qərar qəbul etmişdi.

SSRİ Nazirlər Soveti sədrinin o zamankı müavini B. Şerbinanın rəhbərliyi ilə hər üç Zaqafqaziya respublikalarının nazirlər sovetlərinin sədrləri və İttifaqın müvafiq nazirliklərinin rəhbər işçiləri da daxil olmaqla xüsusi komissiya yaradılmışdı. Bu komissiya qaçqınların təhlükəsiz köçürülməsi və yerləşdirilməsi məsələləri ilə məşğul olmalı idi. Əslində isə Ermənistandan azərbaycanlılar faktiki olaraq təmizləndikdən və dekabrın 7-də orada baş verən zəlzələdən sonra bu komissiya da heç bir iş görmədən öz işini başa vurmuşdu.

Zəlzələnin vurduğu ziyanları aradan qaldırmaq, iqtisadiyyatı bərpa etmək üçün Ermənistana xeyli miqdarda işçi qüvvəsi lazım idi. Məhz bu məqsədlə də 1989-cu il yanvarın 4-də Ermənistan rəhbərliyinin "xahişi" ilə Azərbaycan rəhbərliyi hər iki respublikanın KP MK-larının, Ali Soveti Rəyasət heyətlərinin və Nazirlər Sovetlərinin adından daimi yaşayış yerlərinə qayıtmaları üçün qaçqınlara müraciət etmişdi.

Azərbaycandan Ermənistana köçən ermənilər isə dünyanın hər tərəfindən Ermənistana köməyə gəldikləri vaxtda kütləvi surətdə Azərbaycana geri qayıtmağa başlamışdılar. Dekabrın 16-da SİTA məlumat verirdi: "Azərbaycan SSRİ-in partiya, sovet və digər orqanlarının səyi ilə əvvəllər Azərbaycanı tərk etmiş erməni millətindən olan şəxslər geri qayıtmağa başlamışlar.

Dekabrın 2-dən 15-dək Ermənistandan daimi yaşayış yerlərinə (yəni Azərbaycana) 2300 nəfərdən artıq erməni qayıtmışdır, o cümlədən Bakıya 1100 nəfər, Şamaxıya 315 nəfər, Zaqatalaya 110, Şamxora 54 nəfər. Qayıdan kimi onlar öz əmək kollektivlərində işə başlayırlar."

Ermənistan rəhbərliyi özünü "sığorta" edərək azərbaycanlıların Ermənistana qayıtmasına təminat verilməsi illüziyası yaratmaq məqsədilə 15 dekabr 1988-ci ildə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 6 dekabr tarixli yuxarıda adı çəkilən qərarının yerinə yetirilməsinin gedişini müzakirə edərək 13 rəhbər işçini partiya sıralarından kənar etmiş (daha dəqiq desək, bir vəzifədən başqa vəzifəyə dəyişdirmişdi), 68 nəfərə partiya tənbehi vermişdi. Büro həmçinin Quqark rayon partiya komitəsinin birinci katibi L. Bağdasaryanı və icraiyyə komitəsinin sədri S. Kazaryanı işdən azad etməklə kifayətlənmiş, Stepanavan və İcevan rayonlarının birinci katibləri Y. Cşmartyan və C. Ananyana isə ciddi töhmət vermiş, adları çəkilən rayonlardan əlavə Yeğeqnadzor, Krasnoselo, Ararat, Masis, Amasiya, Noyemberyan rayonlarında vətəndaşların hüquqlarının pozulması, şantaj və kütləvi iğtişaşlara yol verildiyini qeyd etmişdi. Ermənistan Prokurorluğu isə Sevan, Kalinino və Abovyan rayon prokurorlarını işdən azad etmişdi.

Ermənistanda zəlzələ baş verməsəydi şübhəsiz ki, heç bu cür başdansovdu cəza tədbirlərinə də əl atılmayacaqdı. Çünki Ermənistanda heyvandarlıq və tərəvəz məhsullarının əksər hissəsini azərbaycanlılar istehsal edirdilər. Mənzillərini dəyişdirmək yolu ilə Azərbaycandan gələn ermənilər isə əsasən şəhər mühitində yaşadıqlarından, qaçqın kimi Ermənistanda qeydə alınır, humanitar yardım alaraq dərhal Rusiyanın şəhərlərinə üz tutur, orada da qaçqın kimi yenidən qeydə alınaraq bir daha yardım alır və digər güzəştlərdən istifadə edirdilər.

Ermənistanda baş verən dəhşətli zəlzələdən sonra bütün inciklikləri, Azərbaycan xalqına edilən zülm və haqsızlıqları bir kənara qoyaraq zəlzələ zonasına istər maddi-texniki, istərsə də işçi qüvvəsi ilə kömək göstərib uçqunlar altında inildəyən ermənilərin xilasına birinci yetişən Azərbaycan rəhbərliyi oldu. Daha fikirləşmədilər ki, xilas etdikləri erməni özünə gələn kimi, əlinə silah götürüb, yenə də Azərbaycan xalqının qəsdinə duracaq, Azərbaycanla sərhəd rayonların ərazisindən, yaxud DQMV-in erməni kəndlərindən dinc azərbaycanlılara atəş açacaqdır.

Mayasına, iliyinədək millətçilik azarına tutulan ermənilər isə "Qarabağ" komitəsi başda olmaqla Leninakan (Gümrü) və Spitakda minlərlə ermənininin uçqunlar altında qalıb inləməsini, kömək ummasını veclərinə almayıb zəlzələ zonasına gəlmiş M. Qorbaçovdan Qarabağ probleminin onların xeyrinə həll etməsini tələb etmişdilər.

Azərbaycan hökumətinin ona pənah gətirmiş 200 minə yaxın qaçqının dərd-sərini bir kənara qoyub karvan-karvan Ermənistana göndərdiyi hər cür ləvazimat, pal-paltar, dava-dərman dolu yük maşınları İcevandan geri qaytarıldı. Noyabrın 11-də Respublika Hərbi Komissarlığının və Mülki Müdafiə Qərargahının səfərbər edib Leninakana göndərdiyi müxtəlif peşə sahibləri (69 sərnişin, 9 ekipaj) "İL-76" təyyarəsində Leninakan yaxınlığında qəzaya uğradıldı. Lakin həmin qəzanın səbəblərini araşdırmaq üçün nə komissiya yaradıldı, nə də ekspertlər tələb edildi. Ermənilər isə qəzadan möcüzə nəticəsində sağ qalmış Fəxrəddin Balayevi hər yerdə axtarmışdılar ki, yeganə şahid kimi aradan götürsünlər. Lakin hərbçi həkimlər onu qospitalda, qadınlar yatan otaqda arakəsmənin arxasında gizlətmişdilər. Ermənistan rəhbərliyi isə təyyarə qəzasında həlak olanların ailələrinə və Azərbaycan xalqına baş sağlığı verməyi belə özlərinə rəva bilmədi.

Bütün bunlara baxmayaraq, yenə də Azərbaycanın hər yerində iməciliklər keçirilir, zəlzələdən zərər çəkənlərə kömək məqsədilə 400412 nömrəli hesaba milyonlarla manat vəsait toplanırdı. Zəlzələyədək Ermənistanın Amasiya, Spitak, Quqark, Stepanavan rayonlarında 20 mindən artıq azərbaycanlı girov kimi qalmışdı. Zəlzələdən bir gün əvvəl Quqark rayonun Haydarlı kəndində olmuş "Krasnaya zvezda" qəzetinin xüsusi müxbiri mayor O. Vladıkin "Ədavət fəalları" məqaləsində yazmışdı: "Haydarlının girəcəyində yolu tankla kəsmiş zabit və silahlı əsgərləri gördüm. Leytenant Vitali Naklonnı nəql etdi ki, onların vəzifələri

ermənilərlə azərbaycanlı əhalisi arasında toqquşmaya yol verməməkdən ibarətdir. Zabit deyir: Bütün bunlara baxmaq ağırdır. Onlar (yəni azərbaycanlılar) faktiki olaraq blokadadırlar. Nəqliyyat işləmir. Elektrik cərəyanı verilmir. 20 gündür ki, çörək və digər ərzaq məhsulları gətirilmir. Onlar gecə-gündüz tankın yaxınlığında olurlar. Uzaqlaşmaqdan qorxurlar."

Yetmiş ildə milli ayrıseçkilik siyasəti yürüdən Ermənistan rəhbərliyi zəlzələdən sonra da öz çirkin əməllərini davam etdirdi. Zəlzələ zamanı həlak olmuş, ağır yaralanmış, evləri dağılmış azərbaycanlıların taleyinə biganə qaldı. Spitak və Quqark rayonlarının rəhbərləri həmin rayonların hərbi komendantlarına təqdim etdikləri siyahıda azərbaycanlı kəndlərinin adlarını siyahıdan çıxarmışdılar ki, guya artıq orda əhali yaşamır. Bununla da onları ərzaq və digər zəruri şeylərlə təmin etməkdən, tibbi yardımdan məhrum etmişdilər.

Zəlzələ ermənilərin tamamilə silahlanması üçün fürsət verdi. Yardım və tikinti materialları adı altında keçmiş SSRİ-nin hər yerindən və bəzi xarici ölkələrdən Ermənistana ən müasir silahlar daşındı. Həmin silahlarla Ermənistanla sərhəd olan və Dağlıq Qarabağın ətraf azərbaycanlı rayonlarının əhalisi qətlə yetirildi, kəndlər yandırılıb külə döndərildi.

Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-89-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məskənləri boşaldıldı (Əlavələrə bax). Ermənistanın Mehri rayonunda qalmış axırıncı azərbaycanlı kəndi - Nüvədi kəndi (bu kənd 18. 02. 1929-cu ildə Zaqfederasiyanın qərarı ilə Zəngilan rayonundan qoparılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilmişdi) 1991-ci il avqustun 8-də boşaldıldı. Ümumiyyətlə, Ermənistanın 22 kənd, rayonundan və 6 şəhərindən 200 mindən artıq azərbaycanlılar tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldular.

Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi respublika ərazisinin (29, 8 min kv. km.) 25 faizini, yaxud təqribən 7,5 min kv. km. təşkil edirdi. Bu isə keçmiş DQMV-nin ərazisindən (4,4 min kv. km.) təqribən 3 min kv. km. artıqdır.

Ermənistan rəhbərliyi azərbaycanlıların təmizlənməsi aksiyasını başa çatdırdıqdan sonra, onların yaşadıqları kəndlərin adlarının dəyişdirməyə başlamışdır. Ermənistan Respublikası Ali Sovetinin 9 aprel 1991 - ci il tarixli fərmanı ilə 90 türk mənşəli məskənlərinin adları dəyişdirilmişdir. Bu, Ermənistanda 1920-1988-ci illər ərzində aparılan addəyişmə əməliyyatının davamı hesab edilir. Təkcə 1920-ci ildən 1988-ci ilin avqustuna qədər Ermənistanda 517 azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilmişdir (Əlavəyə bax).

Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azəri türk yaşayış məskənləri müxtəlif yollarla (rəsmi köçürmələrlə, silah gücünə qovmaqla, soyqırım törədərək kəndləri yandırıb xaraba qoymaqla) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetik Ermənistan dövləti yaradılmışdır.

***Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri.
Bakı, 1998, səh. 130-151.***

## Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiası və hərbi təcavüzünün nəticələri

### Ümumi məlumat

Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olmuş, milyonlarla insanın taleyində əks olunmuşdur. 1988-ci ildə təhrikçilik yolu ilə başlanmış bu münaqişə hələ də özünün düşmənçilik xarakterini saxlayır, çünki erməni tərəfi bunu antaqonist münaqişə hesab edir və "ya hər şey, ya heç nə" prinsipi üzrə hərəkət edir. Münaqişənin açıq, presedent fazasından əvvəl adi gözlə görünməyən, geniş ictimaiyyətə məlum olmayan hadisələr baş vermişdir. Münaqişənin bu gizli, latent fazası Sovet İttifaqında erməni ictimaiyyətinin müəyyən hissəsinin və xaricdəki erməni diasporunun çoxillik fəaliyyəti sayəsində geniş miqyas almışdır. Erməni tərəfi münaqişəli vəziyyəti illər boyu gərginləşdirir, öz niyyətinin etnokratik xarakter daşımasını dərk edirdi. Etnokratizm ermənilərin öz məqsədlərinə başqa xalqların hesabına nail olmasını nəzərdə tuturdu. O, ilhaqçılıq, Azərbaycan SSR-in 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistan SSR-ə birləşdirmək məqsədi güdürdü. Uzun illər boyu sıravi insanların şüurunun ilhaqçılıq ("miatsum") ideyası ilə zəhərlənməsi 1987-ci ilin payızında Yerevanda keçirilən mitinqlərdə üzə çıxdı. Həmin mitinqlər zamanı DQMV-nin Ermənistan SSR-ə verilməsi barədə açıq tələblər səsləndi. Beləliklə, münaqişə insident mərhələsinə keçməyə başladı. Daxili dinamikaya malik olan bu proses məntiqi şəkildə qan tökülməsinə, ərazi ekspansiyası ideyasını dəstəkləməyən böyük insan kütlələrinin faciəsinə doğru aparan hadisələrin get-gedə daha tez-tez baş verməsi ilə səciyyələnirdi.

1987-ci ilin noyabr ayında akademik Aqanbeqyan "Humanite" qəzetinə verdiyi qalmaqallı müsahibədə erməni etnokratlarının fəaliyyətini dəstəklədi. Bu müsahibə bir növ rəmzi məna daşıyır və onu göstərirdi ki, erməni mənşəli sovet elitasının bir hissəsi Sovet İttifaqında xalqların birgəyaşayışına dair rəsmi normalara açıq-aşkar məhəl qoymur. Etnokrat Z.Balayanın 1985-ci ildə Ermənistanda erməni və rus dillərində çap edilmiş "Ocaq" kitabı yalnız ictimaiyyət tərəfindən pislənilmiş əlamətdar bir epizod idisə, Aqanbeqyanın bəyanatı bu cür hərəkətlərin və bəyanatların açıq-aşkar sistemli hal almasına keçiddən xəbər verirdi.

1987-ci ilin noyabr ayında münaqişə kütləvilik səviyyəsinə çatır: Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların qovulması kampaniyası başlanır. 1920-ci ildən sonra ilk dəfə idi ki, Cənubi Qafqazda yeganə "təqsiri" başqa etnik mənşəli olmasından ibarət olan insanlar fəlakətlər girdabına düşürdü. 1988-ci il yanvarın axırlarında Qafan rayonunda bircə nəfər də azərbaycanlı qalmamışdı. 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistanın başqa rayonlarında yaşayan azərbaycanlıların da aqibəti belə oldu. Beləliklə, 1988-1990-cı illərdə vektoru dəqiq bəlli olan – azərbaycanlılar Azərbaycana, ermənilər Ermənistana getməlidir - tələblə çox böyük insan kütlələrinin yerdəyişməsi başlanır. O vaxta qədər həyat tərzlərinin və mədəniyyətlərin aşağı səviyyədə qarşılıqlı təsiri barədə danışmağa imkan verən etnik adda-buddalıq sürətlə aradan qalxır.

1988-ci il fevralın 13-də DQMV-nin mərkəzində Qarabağ məsələsi barədə ilk nümayiş təşkil edildi. 1988-ci il fevralın 16-dan martın 2-dək DQMV-də mitinqlər təşkil olunur. Buna cavab olaraq, fevralın 19-da Bakıda nümayiş keçirilir. Azərbaycan və erməni cəmiyyətlərində geniş yayılmaqda olan mübarizə ideyası "cəbhəçi tipli" şəxslərin fəallaşması üçün əlverişli şərait yaradır. Siyasi cəhətdən təcrübəsiz kütlələlərin və mitinq başçılarının bu birliyi XX əsrin 80-90-cı illərinin qovuşağında siyasətin peripetiyalarını müəyyənləşdirir. Məhz 1988-ci ilin əvvəllərində etiraz əhval-ruhiyyəsinin kəskin güclənməsi müşahidə olunur, çünki erməni etnokratları sosial narazılığı milli narazılıqla əvəz etməyə və kütləvi şüuru xəyalpərəstlik və dözümsüzlük istiqamətinə yönəltməyə müvəffəq olurlar.

Etnokratların və kriminalların dayağı olan DQMV Xalq Deputatları Soveti 1988-ci il fevralın 20-də vilayətin Ermənistana birləşdirilməsi təklifinin lehinə səs verdi. Martın 22-də müttəfiq respublikanın – Azərbaycanın bir dövlət kimi bütövlüyünü dağıtmağa yönəlmiş xüsusi ictimai struktur – "DQMV-nin Ermənistan SSR-lə birləşdirilməsi uğrunda Komitə" yaradılır. Martın 5-də bu qurum "Krunk" adı ilə qeydiyyata alınmışdı. Münaqişənin ilhaqçı təbiəti Yerevanda "Qarabağ" Komitəsinin təsis edilməsində də öz əksini tapmışdır. 1988-ci il fevralın 21-də Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi "Dağlıq Qarabağ hadisələri haqqında" qərar çıxarır. Bu sənəddə Vilayət Sovetinin qərarı "millətçi elementlər tərəfindən təhrik edilmiş" aksiya adlandırılır. 1988-ci il martın 24-də Moskva "1985-1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" qərar qəbul edir. Rəmzi xarakter daşıyan bu qərarda DQMV-nin Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olması vurğulanırdı.

1988-ci il iyunun 14-də Ermənistan Ali Soveti DQMV-nin Ermənistan SSR-in tərkibinə "daxil edilməsinə razılıq" verir. 1988-ci il iyunun 17-də Azərbaycan SSR Ali Soveti buna cavab olaraq əks qərar qəbul edir: DQMV respublikanın tərkibində qalır. 1988-ci il iyulun 18-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti hər hansı başqa qərarın pozucu olmasını dərk etdiyindən, Azərbaycan SSR-in və Ermənistan SSR-in milli-ərazi bölgüsünün dəyişdirilməsinin mümkün olmaması barədə məntiqli qərar qəbul edir. SSRİ Ali Soveti SSRİ

Konstitusiyasında (maddə 78) təsbit olunmuş müddəadan çıxış edirdi. Konstitusiyaya görə, "müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz".

İstər münaqişənin bu müharibə ərəfəsi mərhələsində, istərsə də sonrakı dövrdə Azərbaycan tərəfi mənəvi baxımdan haqlı idi. O, status-kvonu - Azərbaycan və erməni millətlərinin hərtərəfli inkişafına əsla mane olmayan inzibati ərazi bölgüsünü müdafiə edirdi. Qeyd etmək yerinə düşər ki, DQMV-nin sosial inkişafının əsas göstəriciləri həm Azərbaycan SSR-in, həm də Ermənistan SSR-in orta respublika səviyyəsindən yüksək idi.

Azərbaycanın siyasi elitası dövlətçiliyin qorunması mövqelərindən çıxış edirdi, lakin onun şəxsiyyət potensialı vəziyyətin dramatikliyinə uyğun deyildi. Heydər Əliyevin - çoxmillətli cəmiyyətə rəhbərlik təcrübəsinə malik olan bu dövlət xadiminin respublikada olmaması münaqişənin inkişafına və onun aralıq yekunlarına bilavasitə təsir göstərirdi.

SSRİ-nin ümumi dövlət orqanı zəiflədikcə, DQMV-də azərbaycanlı və erməni icmalarının barışdırılmasına yönəlmiş bütün tədbirlər heçə enirdi. Bu baxımdan, Xüsusi İdarəetmə Komitəsinin (XİK, 12 yanvar – 28 noyabr 1989-cu il) fəaliyyəti uğursuzluqla nəticələndi. SSRİ ilə ABŞ arasındakı "soyuq müharibə" bu vəziyyəti daha da mürəkkəbləşdirirdi. 1989-cu il iyulun 19-da ABŞ Senatı "Sovet Ermənistanı xalqının arzusuna uyğun olaraq, Dağlıq Qarabağa dair mübahisənin sülh yolu ilə tənzimlənməsinə ABŞ-ın köməyi haqqında" qətnamə qəbul etdi. 1989-cu il noyabrın 19-da ABŞ Senatı "Sovet İttifaqı ilə ikitərəfli diskussiyaların gedişində Dağlıq Qarabağ ətrafında münaqişənin ədalətli, həqiqətən bu vilayətin xalqının baxışlarını əks etdirən tənzimlənməsinə kömək etmək" arzusunda olduğunu bəyan edir. SSRİ-də yeni yaranmaqda olan hüquq müdafiə hərəkatı, xüsusən "Memorial" təşkilatı erməni separatçılarını birmənalı şəkildə müdafiə edir və haqlı olaraq belə hesab edir ki, bu, adi himayədarlıqdan daha əhəmiyyətlidir.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR-in və Dağlıq Qarabağın yenidən birləşməsi haqqında" görünməmiş bir qərar qəbul edir. 1990-cı il yanvarın 9-da Ermənistan Ali Sovetinin sessiyası DQMV-nin sosial-iqtisadi inkişaf planını respublikanın 1990-cı il üçün planına daxil edir. 1990-cı il mayın 20-də DQMV-də Ermənistan SSR Ali Sovetinin DQMV-dən olan deputatlarının seçkisi keçirildi. Bütün bu hadisələr Ermənistanın ilhaqçılıq mövqeyi tutmasına artıq şübhə yeri qoymurdu. Sonralar bu mövqe yalnız ört-basdır edilmişdi. 1990-cı ilin may ayında Ermənistanda keçirilən parlament seçkilərində Erməni Ümummilli hərəkatı qalib gəldi. Separatçıların hakimiyyətə gəlməsi yalnız bir məqsəd güdə bilərdi – "yenidən birləşmə" və "millətin öz müqəddəratını təyin etmək hüququ" şüarları altında təcavüzkar müharibə. Mahiyyət etibarilə Ermənistanda problemlərin zor işlətməklə həll edilməsi üsullarını təbliğ edən militokrat etnokratiya hakimiyyətə gəlmişdi.

"Ermənistan SSR-in və Dağlıq Qarabağın yenidən birləşməsi haqqında" 1989-cu il 1 dekabr tarixli qərar Azərbaycanla Ermənistan arasında soyuq müharibənin genişlənməsinə və buna müvafiq surətdə təcavüzkarlara kütləvi nifrətin güclənməsinə səbəb olmaqla xalqlar arasında münasibətlərdə çox ağır nəticələrə gətirib çıxardı. Əslində, bu, münaqişə zonasının keyfiyyətcə genişlənməsi, onun yayılması demək idi. 1990-cı ildə Bakıda baş vermiş məlum yanvar hadisələrindən sonra Kremlin və şəxsən prezident Qorbaçovun nüfuzu heçə enməyə başladı.

Yanvarın 21-də Heydər Əliyevin Moskvada verdiyi ifşaedici bəyanat Azərbaycan dövlətçiliyinin böhranının aradan qaldırılmasına yönəlmiş intellektual mənalar konsentratını cəmiyyətə açıb göstərdi. Bakıda baş vermiş yanvar hadisələri Azərbaycan elitasının yeni siyasi dünyagörüşü mövqeyinə keçidi ilə əlamətdar oldu – kəskinləşməkdə olan münaqişə beləcə yeni proqram məqsədlərinin formalaşmasını sürətləndirdi. 1990-cı ilin yanvarında Azərbaycan SSR-in əvvəlki rəhbərliyinin iflasa uğraması böyük bir imperiya məkanında sinfi beynəlmiləlçilik ideyaları üzərində qurulmuş siyasətin qeyri-adekvat olmasının rəmzi idi. Yeni ideoloji paradiqma Azərbaycanın millət-dövlət vəziyyətinə keçməsini təmin etməli idi. Lakin Azərbaycanın yeni rəhbərləri yeni siyasətə keçid məsələsində gecikir, hadisələrin gedişinin sürətləndirilməsində səhvlərə yol verirdilər. Lakin siyasi uzaqgörənliyi, zaman və məkan hissinin yaxşı inkişaf etməsi ilə fərqlənən, hadisələrin gedişini fəal təhlil etməyi bacaran, hər bir hadisənin arxasında dövlətin sərt subyektiv iradəsinin dayanmalı olduğunu başa düşən Heydər Əliyev bu dövrdə məcburi istefada idi.

SSRİ Ali Sovetinin qərarına əsasən yaradılmış DQMV üzrə Respublika Təşkilat Komitəsi lap əvvəldən uğursuzluğa məhkum idi – bu, indi daha aşkar görünür, - çünki həmin komitə obyektiv olaraq özünü qoruyub saxlamaqda maraqlı olan ümumittifaq sisteminin get-gedə zəifləyən imkanlarına əsaslanırdı. Buna baxmayaraq, Təşkilat Komitəsi 1990-cı il yanvarın 20-dən başlayaraq, DQMV-nin siyasi-hüquqi və psixoloji məkanını addım-addım fəth edir, əhalini etnik dözümsüzlük xülyalarından xilas edirdi. Ümumittifaq dövlətçiliyini qəti şəkildə dağıtmış 1991-ci ilin avqust hadisələrindən sonra bu komitənin fəaliyyəti sakitcə heçə endi. Qorbaçovun ikiüzlü və riyakar siyasəti yeni siyasi reallıq "quruculuğunun" elementlərinə çevrildi. 1991-ci ilin payızında bu siyasət Azərbaycan millətinə heç bir fərəhli perspektiv vəd etmirdi.

1991-ci il sentyabrın 2-də DQMV və Azərbaycan SSR-in Şaumyan (kənd) rayonu hüdudlarında "Dağlıq Qarabağ Respublikası" (DQR) elan edildi. Buna cavab tədbiri kimi, 1991-ci il noyabrın 23-də Azərbaycan

Dağlıq Qarabağın muxtariyyət statusunu ləğv etdi. Lakin Qorbaçovun son əməli olan "SSRİ Dövlət Şurası" 1991-ci il noyabrın 27-də Azərbaycanın həmin qərarının Konstitusiyaya zidd olduğunu elan etdi. 1991-ci il dekabrın 10-da "DQR"-də erməni icmasının müstəqilliyi barədə əvvəlcədən proqramlaşdırılmış referendum keçirildi. 1992-ci il yanvarın 6-da monoetnik "Dağlıq Qarabağ Respublikası"nın müstəqillik bəyannaməsi elan edildi. Erməni separatçılar bu qərarı qəbul etməklə soyuq müharibəni heç bir günahı olmayan azərbaycanlıların və Yerevanın təcavüzkar xülyalarının girovlarına çevrilmiş ermənilərin kütləvi şəkildə həlak olmasına gətirib çıxaran "qaynar mərhələyə" keçirdilər.

1992-ci və 1993-cü illərin hərbi kampaniyası dövründə Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etdi. Nəticədə bir milyondan artıq insan Ermənistan tərəfindən etnik təmizləməyə məruz qaldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla əlaqədar demişdir: "Sərhədləri bütün dünya tərəfindən tanınmış, - bizim ərazi bütövlüyümüz isə BMT tərəfindən tanınır... - suveren dövlətin ərazisinin işğal edilməsinə dünya ictimaiyyəti lazımınca diqqət yetirməmişdir... Bütün bunlar ən böyük ədalətsizlikdir və bu ədalətsizlik uzun illərdir davam edir".

1993-cü ildə Azərbaycan milləti güclü dövlət başlanğıcının, həyatın sınağından keçmiş idarəçilik kadrlarının və ilk növbədə kreativ liderin şəxsində insan kapitalının nə qədər dəyərli olmasını öz təcrübəsində yəqin etdi. Bu millətin tarixi miqyasda bəxti gətirmişdi, bütün bunlar var idi. Aristotelin entelexiya adlandırdığı potensial imkanların faktik imkanlara keçməsini reallaşdırmaq üçün xalqın iradəsi tələb olunurdu.

1993-cü il iyunun 15-də Heydər Əliyevin hakimiyyətə qayıtması Dağlıq Qarabağ münaqişəsində yeni bir səhifə açdı. 1993-cü ildə Heydər Əliyev yeni Azərbaycan dövlətçiliyinə yol açdı. Bu baxımdan Dağlıq Qarabağ problemi yalnız aşağıdakı prizmadan təhlil edilir: "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyildir və heç vaxt olmayacaqdır... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcəkdir. Yəni Azərbaycanın ərazi bütövlüyü məsələsində... heç bir güzəşt olmayacaqdır". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sözləri Heydər Əliyevin həyata keçirdiyi dövlətçilik xəttinin varisliyini əks etdirir.

İş-işdən keçəndən sonra, 1993-cü ildə Heydər Əliyevə obyektiv və subyektiv səbəblərdən yaranmış ağlasığmaz dərəcədə mürəkkəb şərait miras qalmışdı. O, belə bir nəticəyə gəldi ki, Dağlıq Qarabağ probleminin həllinə sintetik yanaşma, daxili və xarici siyasət amillərinin bütün kompleksinin hökmən nəzərə alınması tələb olunur. Bu, xüsusən, döyüş qabiliyyətli nizami ordu formalaşdırılması, sabit hakimiyyət qurumlarının yaradılması, iqtisadiyyatın bərpası və iqtisadi islahatların keçirilməsi, neft müqaviləsinin bağlanması və bu tədbirlərin nəticəsi kimi millətin sıx birləşdirilməsi demək idi. Heydər Əliyev deyirdi: "İşləri qaydaya salmaq üçün mənə iki il yarım vaxt lazım gəldi". Heydər Əliyev özü etiraf edirdi ki, 1993-1994-cü illərdə o, "özünün uzun iş gününün 80 faizini" bu problemin həllinə ayırırdı.

1994-cü il mayın 5-də Bişkekdə barışıq haqqında protokol imzalandı. Ermənistanın təcavüzü nəticəsində 1993-1994-cü illərdə yeddi rayon – Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam və Füzuli rayonları tutuldu. Bir milyona yaxın insan qaçqına və məcburi köçkünə çevrildi.

1993-cü ildə silahlı münaqişənin genişlənməsi nəticəsində BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul edilmişdir: 1993-cü il 30 aprel, 29 iyul, 14 oktyabr və 12 noyabr. Bu sənədlərdə Azərbaycan Respublikasının ərazi bütövlüyü təsdiq edilmiş və "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu" ifadəsi qəbul olunmuşdur. Həmin ifadə BMT Baş Assambleyası tərəfindən hər il qəbul edilən "Birləşmiş Millətlər Təşkilatı ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq" adlı qətnamələrə müntəzəm olaraq daxil edilir.

ATƏT çərçivəsində qəbul olunmuş qərarlar BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında danışıqlar prosesinin normativ hüquqi bazası və mexanizmini təşkil edir. Hələ 1992-ci ildə Helsinkidə keçirilmiş əlavə görüşdə ATƏM-in üzvü olan ölkələrin xarici işlər nazirləri Dağlıq Qarabağda silahlı münaqişənin genişlənməsi ilə əlaqədar narahatlıqlarını bildirmiş və Minskdə xüsusi konfrans çağırılması istəklərini ifadə etmişdilər. ATƏM-in 1994-cü ildə Budapeştdə keçirilmiş zirvə toplantısında BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə sadiqlik təsdiq edilmiş və Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin gücləndirilməsi barədə qərar qəbul olundu. Eyni zamanda, dövlət və hökumət başçıları ATƏM-in fəaliyyətdə olan sədrinə danışıqların vahid və razılaşdırılmış bazasını yaratmaq, eləcə də bütün vasitəçilik və danışıq fəaliyyətinin tam əlaqələndirilməsini təmin etmək üçün Minsk konfransının həmsədrlərini təyin etmək barədə tapşırıq verdilər. Dövlət və hökumət başçıları tərəflər silahlı münaqişənin dayandırılması barədə siyasi razılığa gəldikdən sonra sülhün qorunub saxlanması üçün ATƏM-in çoxmilli qüvvələrini göndərməyə siyasi cəhətdən hazır olduqlarını da bəyan etdilər.

1995-ci ildə MDB-nin üzvü olan dövlətlərin başçıları Müstəqil Dövlətlər Birliyində sülhün və sabitliyin qorunub saxlanması barədə Memorandum imzalayarkən Ermənistan həmin sənədin 7-ci və 8-ci bəndlərini qəbul etməkdən boyun qaçırdı. Həmin bəndlərdə deyilirdi ki, "Üzv dövlətlər... öz ərazilərində... separatizmin, millətçiliyin, şovinizmin və faşizmin hər hansı təzahürlərinin qarşısını almaq üçün tədbirlər görəcəklər", onlar

həmçinin "başqa üzv dövlətlərin ərazisində separatçı hərəkatları və separatçı rejimləri dəstəkləməməyi, ...onlara iqtisadi, maliyyə hərbi və başqa kömək göstərməməyi öhdəyə götürürlər".

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabon sammitində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən yekun bəyannamənin qəbul edilməsinə mane oldu.

1997-ci il sentyabrın 20-24-də ATƏT-in Minsk qrupundan olan vasitəçilər münaqişənin sülh yolu ilə həllinə dair yeni plan təqdim etdilər. Həmin planda göstərilirdi ki, "Dağlıq Qarabağ Azərbaycanın tərkibində dövlət qurumu və ərazi qurumudur". 1998-ci ilin noyabr ayında ATƏT-in Minsk qrupu tərəfindən təklif edilən "ümumi dövlət" ideyası Azərbaycan tərəfindən rədd olundu. 1999-cu ilin noyabr ayında ATƏT-in İstanbul zirvə toplantısında qəbul edilmiş yekun sənədlərində Qarabağ münaqişəsinin həlli ilə əlaqədar Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinə birbaşa istinad yoxdur.

Ermənistan-Azərbaycan münaqişəsi Avropa Şurasında da müzakirə olunmuşdur. 1997-ci ildə AŞPA "Cənubi Qafqazda münaqişələr haqqında" qətnamə qəbul etmişdir. Həmin qətnamədə bəyan edilir ki, Dağlıq Qarabağ münaqişəsinin siyasi tənzimlənməsi, xüsusən, sərhədlərin toxunulmazlığı və Dağlıq Qarabağ üçün geniş muxtariyyət statusu verilməsi prinsipləri nəzərə alınmaqla tərəflərin danışıqlarının mövzusu olmalıdır.

1999-cu il aprelin 25-də Azərbaycan Prezidenti H.Əliyev və Ermənistan Prezidenti R.Koçaryan Vaşinqtonda ilk ikitərəfli görüş keçirdilər. 2001-ci il yanvarın 26-da və martın 4-5-də onlar Parisdə, daha sonra, 2001-ci il aprelin 3-7-də Ki-Uestdə görüşdülər.

2006-cı ildə ATƏT-in Minsk qrupu gələcəkdə Dağlıq Qarabağın statusunun müəyyən olunması üçün referendum keçirilməsini təklif etmiş və ona razılıq verilməsini erməni qoşunlarının Azərbaycanın hazırda işğal edilmiş torpaqlarından çıxarılması ilə əlaqələndirmişdi.

Prezidentlər İlham Əliyevin və Robert Koçaryanın 2003-cü il dekabrın 11-də Cenevrədəki ilk görüşündən başlayaraq dəfələrlə keçirdikləri görüşləri də qeyd etmək lazımdır.

Hadisələrin bu konturu bir tərəfdən, Cənubi Qafqazın iki dövləti olan Azərbaycanın və Ermənistanın təbiətində, digər tərəfdən, münaqişənin həllinə onların konseptual yanaşmalarında ciddi fərq olduğunu göstərir.

Azərbaycanın dövlət quruculuğu mədəniyyəti ölkədə məskunlaşmış xalqların biliklərinin, vərdişlərinin və təcrübəsinin sintezindən ibarət olmuşdur və indi də belədir. XX əsr ərzində Azərbaycanda siyasi millət, yəni vətəndaş milləti yaranmışdı. Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Bu sözlər müasir Azərbaycan dövlətçiliyinin taleyüklü təbiətini əks etdirir. Müasir Azərbaycan dövlətinin siyasətinin ideya-mədəni və siyasi-psixoloji mənbələri bunlardır.

Müasir Azərbaycan Respublikası Azərbaycanda yaşayan xalqların vətəndaş-siyasi müqəddəratlarını təyin etməsinin nəticəsi olan bir millətin mövcudluğunu nəzərdə tutur. Bu başlıca mənada millət çərçivəsində "ayrılmaq da daxil olmaqla etnik müqəddəratın təyin edilməsi" problemi saxta, uydurma problemdir. Milli dövlətləri parçalamaq vasitəsi kimi istifadə edilən etnokratik millətçiliyin başlıca dəlilinin əsası yoxdur. Millət-dövlət çərçivəsində etnos siyasi-hüquqi subyekt ola bilməz, o, yalnız mədəni-tarixi subyekt ola bilər. Müasir millət-dövlətlər polietnik dövlətlərdir. Etnosların ümumi milli mənafe və etnosun fövqündə duran ideologiya ilə siyasi millət şəklində birləşmədiyi dövlət, olsa-olsa, böhranlı vəziyyətdə mövcud ola bilər. Azərbaycan dövlətinin Dağlıq Qarabağ münaqişəsinə tətbiqən siyasi fəlsəfəsi ən ümumi şəkildə belədir.

Dağlıq Qarabağ münaqişəsinin gələcəyi bu məsələnin indiki vəziyyətinin birbaşa davamı deyildir. Ən əvvəl ona görə ki, diplomatiya tarixində hadisələr barışıq əldə olunandan sonra Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin ifadə etdiyi bir mənəvi meyara görə qiymətləndirilir: "Əlbəttə, diplomatik uğurlar bizi sevindirir... lakin əgər bizim torpaqlar hələ də işğal altındadırsa, deməli, bütün bu nəticələrin prinsipial əhəmiyyəti yoxdur. Nəticələrin əhəmiyyəti o vaxt olacaqdır ki, Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad edilsin, bizim soydaşlarımız isə doğma yurdlarına qayıtsınlar. Bizim soydaşlarımız işğal edilmiş torpaqlara – Dağlıq Qarabağa bitişik ərazilərə və Dağlıq Qarabağa qayıtmalıdırlar".

Diplomatik uğurların qiymətləndirilməsi meyarı praktikadadır – Azərbaycan dövlətinin şəksiz və qanunauyğun şəkildə ölkənin ümumi qüdrətində əks olunan uğurlarındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyir: "Bizim ən böyük kompromisimiz sülh danışıqlarına sadiq qalmağımızdır. Lakin biz bu imkanlardan istifadə etməklə yeni şərait yaratmalıyıq. Bir daha demək istəyirəm ki, hərbi potensialın möhkəmləndirilməsi avtomatik olaraq müharibənin yenidən başlanmasına gətirib çıxarmır. Bu, ən son variantdır. Biz buna hazır olmalıyıq. Hər bir ölkə, o cümlədən müharibə vəziyyətində olan, ərazisi işğal edilmiş ölkə buna hazır olmalıdır. Eyni zamanda, mən əminəm ki, biz bütün siyasi, iqtisadi, diplomatik və regional amillərdən istifadə etməklə Ermənistana güclü təzyiq göstərə bilərik. Bu, artıq hiss edilir".

Dağlıq Qarabağ problemi çoxmillətli Azərbaycanın vətəndaşlarının xeyrinə həll ediləcəkdir. Ölkəmiz burada məskunlaşan bütün xalqların ümumi evi olmuşdur və olacaqdır.

## Münaqişənin fəsadları

### 1) Ümumi məlumat

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayonu işğal altına düşmüşdür.

**1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri:**

**Dağlıq Qarabağ**: işğal tarixi – 1988-1993-cü illər, ərazisi 4400 $km^2$. (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut);

**Laçın rayonu:** işğal tarixi - 18 may 1992-ci il, ərazisi – 1875 $km^2$;
**Kəlbəcər rayonu**: işğal tarixi - 2 aprel 1993-cü il, ərazisi - 1936 $km^2$
**Ağdam rayonu**: işğal tarixi - 23 iyul 1993-cü il, ərazisi - 1154 $km^2$;
**Cəbrayıl rayonu**: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1050 $km^2$;
**Füzuli rayonu**: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1112 $km^2$;
**Qubadlı rayonu**: işğal tarixi - 31 avqust 1993-cü il, ərazisi - 826 $km^2$;
**Zəngilan rayonu**: işğal tarixi - 30 oktyabr 1993-cü il, ərazisi - 707 $km^2$.

Beləliklə, Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 10 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir.

İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln m 2-dən artıq olan 150 min yaşayış binası dağıdılmış, 4366 sosial mədəni obyekt, eyni zamanda 695 tibb ocağı məhv edilmişdir. İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir.

Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər tarix diyarşünaslıq muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspoziyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı tarix muzeyinin, Ağdamdakı çörək muzeyinin, Zəngilandakı Daş Abidələr muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Bir sözlə, Ermənistan Respublikası «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyasının və «Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında» Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

**Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələri**

**Azərbaycanın işğal olunmuş əraziləri**
Dağlıq Qarabağ
Ərazisi - 4 388 kv. km.
Əhalisi - 192 032
Ermənilər - 129 085 (67,2%)
Azərbaycanlılar - 60 000(31,2%)
Ruslar - 1922(1,0%)
Digərləri - 1 025 (0,6%)

**Şuşa**
Ərazisi - 289 kv. km

Əhalisi (1989) - 20 579
Azərbaycanlılar - 19 036 (92,5%)
Ermənilər - 1 377 (6,7%)
İşğal tarixi - 1992, 8 may

**Ətraf rayonlar**

| | **İşğal tarixi** | **Əhalisi** |
|---|---|---|
| Laçın | 1992,18 may | 66 646 |
| Kəlbəcər | 1993, 2 aprel | 61 947 |
| Ağdam | 1993, 23 iyul | 145 359 |
| Füzuli | 1993, 23 avqust | 106 543 |
| Cəbrayıl | 1993,23 avqust | 62 519 |
| Qubadlı | 1993, 31 avqust | 31 619 |
| Zəngilan | 1993, 29 oktyabr | 36 335 |

Qeyd 1: Ermənistanla və işğal olunmuş ərazilərlə həmsərhəd yaşayış məntəqələrindən olan əhalinin sayı – 128 199 nəfər

Qeyd 2: Orta Asiyadan didərgin salınmış 50 000 nəfərədək Axıska türkü də Azərbaycanda sığınacaq tapmışdır.

**Təcavüzün qurbanları**
Həlak olanlar - 20.000
Əlil olanlar - 50 000
İtkin düşənlər - 4 866

**Dağıntılar və ziyanlar**

| | |
|---|---|
| Yaşayış məntəqələri | 900 |
| Evlər | 130 939 |
| İctimai binalar | 7 000 |
| Məktəblər | 1 025 |
| Uşaq bağçaları | 855 |
| Səhiyyə ocaqları | 798 |
| Kitabxanalar | 927 |
| Məbədlər | 44 |
| Məscidlər | 9 |
| Tarixi yerlər | 9 |
| Tarixi abidələr ye muzeylər | 464 |
| Muzey eksponatları | 40 000 |
| Sənaye və kənd təsərrüfatı obyektləri | 2 389 |
| Avtomobil yolları | 5 198 km |
| Körpülər | 348 |
| Su xətləri | 7 568 km |
| Qaz xətləri | 2 000 km |
| Elektrik xətləri | 76 940 km |
| Meşələr | 280 000 ha |
| Məhsuldar torpaqlar | 1000 000 ha |
| İrriqasiya sistemləri | 1 200 km |

Dəymiş ziyanın ümumi məbləği 60 milyard ABŞ dollarından çoxdur.

**Qaçqınlar və məcburi köçkünlər**

| | |
|---|---|
| Ermənistandan olan qaçqınlar | 250 000 |
| İşğal edilmiş ərazilərdən olan məcburi köçkünlər | 686 586 |
| ***O cümlədən:*** | |
| Ermənistanla və işğal edilmiş ərazilərlə həmsərhəd yaşayış məntəqələrindən olan əhali | 128 199 |
| Cəmi | 997 586 |

**İşğal edilmiş ərazilərdə olan Ermənistan hərbi qüvvələri**

| | |
|---|---|
| Tank | 316 |
| Artilleriya | 322 |
| ACV | 324 |
| Şəxsi heyət | 40 000 |

**İşğal olunmuş ərazilərə qanunsuz köçürülən əhali**

| | |
|---|---|
| Dağlıq Qarabağ | 8 500 |
| Laçın | 13 000 |
| Kəlbəcər | 700 |
| Zəngilan | 520 |
| Cəbrayıl | 280 |
| **Cəmi** | 23 000 |




| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | ***Ermənistanın hərbi təcavüzü nəticəsində dağıdılmış obyektlər haqqında MƏLUMAT (2005-ci il 1 may tarixə olan vəziyyətə)*** | | | | | | | | | | | | |
| **Sıra №-si** | **Obyektlərin adı** | **Sayı və ölçüsü** | **Ağdam** | **Füzuli** | **Kəlbəcər** | **Qubadlı** | **Zəngilan** | **Laçın** | **Şuşa** | **Cəbrayıl** | **Xocalı** | **Xocavənd** | **CƏMİ** |
| 1 | **Şəhər və kənd** | ədəd | 78 | 76 | 131 | 94 | 84 | 127 | 33 | 91 | 10 | 12 | 736 |
| 2 | **Yaşayış evi** | ədəd | 34680 | 26208 | 13000 | 7288 | 11000 | 14745 | 6800 | 13000 | 2495 | 1723 | 13099 |
| 3 | **Sənaye və** | ədəd | 48 | 1035 | 153 | 58 | 374 | 353 | 79 | 52 | 46 | 191 | 2389 |

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **kənd təsərrüfatı obyekti** | | | | | | | | | | | | | |
| **4** | **Təhsil müəssisəsi** | ədəd | 204 | 162 | 112 | 88 | 123 | 160 | 44 | 91 | 20 | 21 | 1025 | |
| **5** | **Səhiyyə müəssisəsi** | ədəd | 137 | 127 | 116 | 70 | 64 | 131 | 30 | 77 | 14 | 32 | 798 | |
| **6** | **Mədəniyyət müəssisəsi** | ədəd | 220 | 180 | 214 | 190 | 145 | 218 | 79 | 149 | 56 | 59 | 1510 | |
| **7** | **Rabitə obyekti** | ədəd | 56 | 39 | 25 | 32 | 42 | 307 | 15 | 65 | 5 | 12 | 598 | |
| **8** | **Avtomobil yolu** | Kilo-metr | 266 | 235.7 | 625 | 592 | 128 | 2130 | 300 | 320 | 260 | 341 | 5197.7 | |
| **9** | **Körpü** | ədəd | 10 | 11 | 62 | 11 | 37 | 92 | 25 | 56 | 12 | 32 | 348 | |
| **10** | **Dəmir yolu xətti** | Kilo-metr | 32 | 36 | 0 | 0 | 156 | 0 | 0 | 52 | 10 | 0 | 286 | |
| **11** | **Dəmir yolu körpüsü** | ədəd | 3 | 0 | 0 | 0 | 70 | 0 | 0 | 41 | 2 | 0 | 116 | |
| **12** | **Su anbarı** | ədəd | 3 | 96 | 4 | 4 | 6 | 33 | 2 | 28 | 6 | 42 | 224 | |
| **13** | **Su xətti** | Kilo-metr | 180 | 859 | 92 | 875.6 | 2200 | 1187 | 550 | 1210 | 98 | 316 | 7567.6 | |
| **14** | **Elektrik xətti** | Kilo-metr | 62744 | 2114 | 820 | 2658 | 2900 | 2636 | 850 | 1459 | 216 | 543 | 76940 | |
| **15** | **Meşə sahəsi** | hektar | 986 | 0 | 37852 | 13365 | 12864 | 34677 | 8359 | 4480 | 5400 | 1202 | 11915 | |

**Qeyd:** ***Cədvəl əraziləri işğal olunmuş rayon icra hakimiyyətlərinin təqdim etdikləri məlumatlar əsasında tərtib olunmuşdur***

***Ermənistan silahlı qüvvələri tərəfindən əraziləri işğal olunmuş və ya zərər çəkmiş, Ermənistanla və Dağlıq Qarabağla həmsərhəd olan rayonlar barədə***
***MƏLUMAT***

| | Rayonun adı | Ərazinin işğal tarixi | İşğal olunmuş ərazi (kv. km) | Məcburi köçkünlərin sayı | | Cəbhə xəttinə yaxın yaşayış məntəqələrindən geri çəkilən əhalinin sayı | | Doğma yurdlarmı tərk etmiş əhalinin ümumi sayı | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
| **1** | Xocavənd | 02.10.1992 | 1458 | 2271 | 9542 | | | 2271 | 9542 |
| 9 | Xocalı | 26.02.1992 | 940 | 3156 | 12200 | | | 3156 | 12200 |
| **3** | Şuşa | 08.05.1992 | 289 | 5992 | 24165 | | | 5992 | 24165 |
| **4** | Laçın | 18.05.1992 | 1883 | 16255 | 66646 | | | 16255 | 66646 |
| **5** | Kəlbəcər | 02.04.1993 | 3050 | 16042 | 61947 | | | 16042 | 61947 |
| **6** | Ağdam | 23.07.1993 | 1150 (247,3) | 32315 | 132493 | 3138 | 12866 | 35453 | 145359 |
| **7** | Cəbrayıl | 23.08.1993 | 1050 | 16140 | 62519 | | | 16140 | 62519 |
| **8** | Qubadlı | 31.08.1993 | 802 | 7711 | 31619 | | | 7711 | 31619 |
| **9** | Füzuli | 23.08.1993 | 1390 (300) | 25986 | 106543 | | | 25986 | 106543 |
| **10** | Zəngilan | 29.10.1993 | 707 | 8862 | 36335 | | | 8862 | 36335 |
| **11** | Tərtər (13 kənd) | 17.06.1993 | 547 | 698 | 2865 | 736 | 3014 | 1434 | 5879 |
| **12** | Ağcabədi (1 kənd) | 12.06.1993 | | 826 | 3389 | | | 826 | 3389 |
| **13** | Qazax (6 kənd) | 25.10.1992 | 669 | 1668 | 6841 | 8956 | 29426 | 10624 | 36267 |
| **14** | Gədəbəy (2 kənd) | 28.07.1992 | 120 | 75 | 308 | 4049 | 13304 | 4124 | 13612 |
| **15** | Ağstafa (2 kənd) | 28.10.1992 | 60 | | | 3608 | 11908 | 3608 | 11908 |
| **16** | Beyləqan (4 kənd) | 23.08.1993 | | | | 3818 | 12600 | 3818 | 12600 |
| **17** | Tovuz (8 kənd) | 23.10.1992 | | | | 9117 | 30087 | 9117 | 30087 |
| **18** | Naxçıvan (2 kənd) | 18.06.1990<br>16.05.1992 | | 237 | 975 | 4602 | 14994 | 4839 | 15969 |
| **19** | Dağlıq Qarabağın qalan ərazisi | | 2687 | | | | | | |
| | **Cəmi:** | | **16802** | **138234** | **558387** | **38024** | **128199** | **176258** | **686586** |

Dağlıq Qarabağ və ona bitişik ərazilər də daxil olmaqla, Naxçıvan Muxtar Respublikasının işğal olunmuş 2 kəndindən 1-i, Ağdam rayonunun işğal olunmuş 81 kəndindən 80-i, Füzuli rayonunun işğal olunmuş 76 kəndindən 54-ü, Tərtər rayonunun 13 kəndi və Qazax rayonunun işğal olunmuş 12 kəndindən 6-sı hələ də işğal altındadır.

**Xocalı soyqırımı**

***"Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."***

***Heydər Əliyev***

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyiyi münasibətilə Azərbaycan xalqına müraciətinə qeyd etmişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir.1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuş Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr erməni idelolqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi.

Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinəyət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirirlər. XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi nə idi? Bu bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən ümumiyyətlə Xocalını yer üzündən birdəfəlik silmək məqsədi idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Xocalının kromlexləri, dolmenləri, siklopları, kurqanları və digər abidələri, həmçinin müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi mədəniyyət nümunələridir. Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsiylə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki, mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Xocalı soyqırımı zamanı 613 nəfər ödürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil.

Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilmişdir. Hücumda həmçinin mayor Oqanyan Seyran Muşeqoviçin (Seyran Oqanyan hazırda Dağlıq Qarabağda ermənilərin qeyri-qanuni rejiminin "müdafiə naziri"dir) komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyonun, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və praporşik iştirak etmişdir. ("Xocalının işğalına dair istintaq materiallarından").

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20

nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş,10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.

Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Xocalı sakini Əntiqə erməni hərbçilərinin tələb etdiyi "bu yerlər böyük Ermənistanın bir hissəsidir" sözlərini dilinə gətirmədiyinə görə ermənilər tərəfindən diri-diri yandırıldı. Digər Xocalı sakini Səriyyə Talıbova danışırdı ki, "4 mesxeti türkü və 3 azərbaycanlının erməni qəbirinin üzərində başını kəsdilər. Sonra daha 2 azərbaycanlının gözlərini çıxartdılar".

Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. Onların başının dərisini soymuş, başlarını və bədəninin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışdılar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bunlar Ermənistanın Cenevrə konvesiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırım olduğunu təsdiqləyir.

Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir.

Xocalı qaçqınlarının BMT, Avropa İttifaqı və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciətində deyilir: Artıq 10 ildən artıqdır ki, biz, qaçqın vəziyyətinə düşmüş xocalılar, ürək ağrısı və eyni zamanda böyük ümidlə bütün dünyanın sülhsevər xalqlarına, beynəlxalq təşkilatlara müraciət edirik. Sizdən xahiş edirik, erməni hərbi təcavüzü nəticəsində bizim başımıza gələn bəlaya laqeyd qalmayasınız. Biz inanırıq ki, dünyanın BMT, Aİ və ATƏT kimi kifayət qədər nüfuzlu beynəlxalq təşkilatları, sülhsevər ölkələri Ermənistan kimi dövlətin belə təcavüzkarlığına və özbaşınalığına qarşı tədbir görəcəklər.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Bu gün Ermənistanda mühüm dövlət postlarını tutanlar, Seyran Ohanyan, Serj Sarkisyan eləcə də Robert Köçəryan və digərləri baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.

Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

**(Xocalı soyqırımı barədə daha ətraflı məlumat almaq üçün Kitabxanamızın www.preslib.az saytındakı XX əsrin faciəsi – Xocalı soyqırımı tammətnli elektron nəşrinə müraciət edin)**

## Sənədlər

### Ermənilərin İrandan köçürülüb gətirilməsi haqqında A. S. Qriboyedovun məktubu

Alihəzrətinizə ermənilərin İrandan (Persiyadan) köçürülməsi üçün tətbiq edilən üsullar haqqında və onların indi bizim vilayətlərdə yerləşdirilməsi barədə mənim vasitəmlə daha mötəbər məlumat almağınız lazımdır. Həmin predmet üzrə mənə məlum olan həqiqət budur: polkovnik Lazarev özünü bu mühacirliyin əsas təşviqedicisi saymışdır, bu barədə, bizə məlum olduğu kimi, o, kifayət qədər aşkar, lakin əsassız öz fikrini izah etmişdir. Ona görə ki, onun barədə ermənilərin heç bir anlayışı yox idi, onlar təkcə Rusiyaya etibar etməklə və onun qanunları altında olmaq arzusu ilə hərəkət edirdilər. Traktat onlara bunun üçün tam hüquq verirdi. Köçürülmə zamanı fəal vasitələr: knyaz Arqutinski, Qamazov olmuşlar, tabeçilikdə olan digər zabitlər isə artıq onların təsiri altında hərəkət edirdilər. Polkovnik Lazarev yalnız olduqca yersiz proklamasiyalar (bəyannamələr) uydurulması barədə, nizami erməni könüllü qoşunları formalaşdırılması barədə düşünürdü, hərçənd xoş niyyətlə, lakin düşünmədən hətta öz rəhbərliyinə malik Qarabağın özünü və digər vilayətləri öz niyyətləri dairəsinə daxil etməyi fikirləşirdi ki, oralarda çoxdan təsis edilmişlərdən olanlara xüsusi səlahiyyət verilə bilməzdi. Knyaz Arqutinski bir neçə dəfə ona rəftarı barədə, onun necə lovğa, yüngül və faydasız olması barədə göstərmişdir. Polkovnik Lazarevin bütün başqa işləri də bu cür olmuşdur və onlar barədə geniş danışmağa dəyməz. Yalnız onu əlavə etmək lazımdır ki, o, mənasız adamdır, lakin pozğun deyil, dövlət pullarını xəlvəti mənimsəmək və qəsdən zərər vurmaq qabiliyyətli deyil. Urmiyadan gəlmələrə pul müavinəti paylanarkən bir çox qarışıqlar baş vermişdi, lakin sui-istifadə olmamışdı: yoxsullara az, varlılara çox verilmişdi.

Bu bizim qoşunların həmin əyaləti tələsik tərk etdiyinə görə baş vermişdi. Tələsərək araşdırmadan hərəkət etmişdilər və odur ki, pullar az kömək etdi, çünki pis paylanmışdı. Bu, söz gəlişi, mənə məlum olan yeganə hadisədir. Köçürülmə zamanı belə olmuşdur, lakin onların bizdə yeni yerlərdə yerləşdirilməsi zamanı isə hər şey mənasız, fərsiz və bağışlanılmaz edilmişdir. Onları idarə etmək üçün komitet təsis edilmişdir, o, heç şeydən xəbərdar olmamış və xüsusən məzəmmətə layiqdir ki, Alihəzrətinizdən onun bu halda necə hərəkət etməsi barədə ən dəqiq və ətraflı təlimat almışdı: 1) Ermənilərin çox hissəsi müsəlman mülkədarlarının torpaqlarında məskunlaşdırılmışdır. Buna hələ yayda yol vermək olardı. Torpaqların sahiblərinin, müsəlmanların çox hissəsi köç düşərgələrində olmuşlar və başqa dinli yad gəlmələrlə əlaqə saxlama halları az olmuşdur. 2) Ağac (odun) tədarük edilməmişdir və köçürülmələrin möhkəm yerləşdirilməsi üçün digər yerlər ayrılmamışdır. Bütün bunlar vaxtında əldən verilmişdir. Bu il üçün səhvi düzəltmək gecdir. Köçürülənlər özləri darısqallıqdadırlar və müsəlmanları sıxışdırırlar, onlar isə əsaslı narazılıq edirlər. Alihəzrətinizə məlumdur ki, ümumiyyətlə buradakı sakinlərin hamısı birlikdə köçkün hesab edilməlidir, çünki onların hamısı sərdar tərəfindən müharibə vaxtı köçürdülmüşlər və ən kasıb vəziyyətdədirlər. 3) Dövlət pul yardımları tamamilə ağılsız paylanmışdır: ehtiyacı olanların sayı və kimə nə qədər lazım olması barədə doğru məlumat olmadan, dilənçilər kimi, hər nəfərə bir, iki rubl paylamışlar. Birdəfəlik verilən 25 rubl müxtəlif vaxtlarda hissə-hissə verilən məbləğdən on dəfə əhəmiyyətlidir. Heç bir ümumi tədbir, məsələn, bütöv cəmiyyətin saxlanması üçün, habelə gələn ilin əkini üçün taxıl alınması və digərləri kimi tədbirlər görülməmişdir. Alihəzrətinizə köçürmə komitəsinin dəyərsiz hərəkətlərini göstərməklə, mən ədalət naminə qeyd etməliyəm ki, əgər orada indi heç olmayan qabiliyyətli adamlar da otursaydılar, onlar da böyük çətinlik çəkərdilər. Vilayət idarəsində hətta hələ Arazın o tərəfindəki torpaqların və kəndlərin səthi siyahısı da yoxdur. Arazın bu tərəfindəki mahallarda da hələ sakinlərin sayı məlum deyil. Malikanələr barədə heç deyiləsi deyil: kimə nə məxsus olmasını heç kim bilmir.

Beləliklə, komitə istifadə etməli olduğu lazımi məlumatları heç yerdən ala bilməmişdir. Buradakı vilayət rəisi deyir ki, o, yeni gəlmiş ermənilərin çoxunu Arazın o tərəfinə köçürmək istəyirdi, lakin onlar Alihəzrətinizdən ilk dəfə onları yerləşdirdikləri yerlərdə qalmağa icazə verməyi xahiş etmişlər və buna sizin razılığınızı almışlar. Lakin podpolkovnik knyaz Arqutinski həmin tədbirin yerinə yetirilməsinin mümkün olacağından ümidini itirmir. Bu məmur özünün idarəetmə bacarığına və sədaqətliliyinə görə rəhbərliyin tam etimadına layiqdir. 30 min rubl gümüşlə və 2 min qızıl əşrəfi yenidən köçürülənlərə yardım üçün təyin edilmişdir, artıq xeyli tələbkarlıqla istifadə ediləcəkdir. Əgər Alihəzrətiniz ən yaxın vaxtda həmin predmet üçün daha iki o qədər buraxmaq qərarı versəniz, göstərilən gəlmələrin rifahını tamamilə sabitləşdirərdiniz. Yalnız yardım tələb edənlərin sayını buyurun düşünməyə qəbul edin ki, onların hamısı vaxtilə xəzinəyə vergi ödəyəcək. Rusiyada bu sayda adamların orta vergi qiymətilə müqayisə edin və Alihəzrətinizin bu işə verdiyi bütün məbləğ onun gətirməli olduğu fayda ilə müqayisədə nəinki mötədil, hətta cüzi görünəcəkdir. Bilmirəm, Alihəzrətinizə həmin iş məhz bu nöqteyi-nəzərdən təqdim edilmişdirmi və siz onu bəyənəcəksinizmi.

Yardımın xəzinədən heç bir xərc tələb etməyən daha bir mühüm mənbəyi sərdar mal-qarası ola bilər, o, hazırda 30 min ədədə qədərdir, vaxtilə sərdar tərəfindən sakinlərə vergi öhdəliyi kimi saxlamaq üçün paylanmışdı. O, sahibkar kimi onlardan öz növbəsində yağ, yun, bala artımını və başqalarını alırdı. Həmin mal -

qaranın mövcud olması barədə mən çoxlarından eşitmişəm və vilayət idarə heyətinin üzvləri Petrikovdan və Mendoksdan qəti yəqin etmişəm. Həmin sərdar təsərrüfatını davam etdirmək xəzinə üçün səmərəli deyil və bizim inzibatçılığımızda sadəcə mümkünsüzdür, əsgərlərə yemək üçün paylamaq isə biryolluq sərf etmək deməkdir; lakin həmin mal-qaranın köçkünlərə paylanması onların təsərrüfatını hiss olunacaq dərəcədə artırar və yaxşılaşdırar. Mən kənardan nə qədər çalışdımsa da və məhz bunun üçün hədsiz qabiliyyətli olan tərcüməçini Dadaşev vasitəsilə, bu məqsədlə onu keçib getdiyimiz kəndlərdə, Eçmiədzində, burada adamlardan soruşmağa məcbur etməklə pulların paylanması zamanı hansısa sui-istifadələr olması barədə öyrənim, heç kim bu barədə şikayət etmədi və o, həqiqətən olmamışdır. Vilayət rəisinin tərcüməçisi Mirzə Tatus tanınmış fırıldaqçıdır, lakin ona bu iş barədə heç bir tapşırıq verilməmişdir; eynilə onun qardaşı, Sürməli mahalının rəisi də belə, hamının tanıdığı yaramazdır, indi mən onun barəsində söz gəlişi xatırladıram, lakin köçürülmə zamanı o da heç nəyə qarışmamışdır. Gəlmələrin yerləşdirilməsinə indi rəhbərlik edənlərin, xüsusilə knyaz Arqutinskinin səylərindən çox şey gözlənməlidir; artıq o, yəqin ki, öz sələfi mayor Vladimirovun səhvləri səviyyəsinə düşməyəcək. Biz onunla həmçinin müsəlmanları necə inandıracağımız barədə çox düşünürdük ki, onları indiki sıxıntılarla (çətinliklərlə) barışdıraq və inandıraq ki, bu uzunmüddətli olmayacaq və ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə onların (müsəlmanların) qorxusunu aradan qaldıraq. Bu barədə mən polismeysterə, idarə heyəti üzvlərinə və burada mənim yanımda olmuş xanlara da demişəm. Əgər Alihəzrətiniz Tiflis dövlət ekspedisiyasına buraya bir neçə məmur göndərməsini tapşırsanız, həqiqi xeyirxahlıq edərsiniz.

Burada iş görməli olan heç kim, hətta mirzə, həmçinin tərcüməçilər yoxdur. Mən belə düşünürəm ki, bunun üçün Tiflisdəki erməni məktəbindən bir neçə şagird seçmək olardı. Yenə də köçürülənlərə qayıdaraq, mən hesab edirəm ki, onlar bizim Gürcüstan ermənilərindən, ümumiyyətlə xəzinəyə heç bir fayda verməyən alverçilərdən xeyli faydalıdırlar, Persiyadan (İrandan) köçənlərin isə çox hissəsi sənətkarlar və əkinçilərdir.

**A.S. Qriboyedov.**

**1828-ci il**

**Mənbə: Грибоедов А. С. Полное собрание сочинений: [В 3 т.]. - Пг.: Изд. Разряда изящной словесности Акад. наук, 1911-1917. - Т. 3. - 1917. с. 267-270.**

**1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələri nəticəsində İrəvan xanlığının ərazisində dağıdılmış kəndlərin siyahısı**

**1. Qırxbulaq mahalında**
1. Küzəcik, 2. İynədüz, 3. Güllücə, 4. Qaracaörən, 5. Tecrəbək, 6. Bezaklı, 7. Qaraqala, 8. Qatırçay (Heydərgöl), 9. Ərzap, 10. Norinus, 11. Damcılı, 12. Kitikən (Kətiqut) 13. Quyulu, 14. Qızqala, 15. Tezxaraba, 16. Babacur, 17. Damagirməz, 18. Dəlləkli, 19. Kankan, 20. Göykilsə, 21. Yaycı, 22. Qızılqala, 23. Çobangərəkməz, 24. Azaklar, 25. Əkikənd (Muradtəpə), 26. Ərzni

**2. Zəngibasar mahalında**
1. Həsənağa, 2. Sinnik, 3. Qaracalar, 4. Ozanlar, 5. Dərcan, 6. Noraköy, 7. Cəfərabad.

**3. Gərnibasar mahalında**
1. Məsimli, 2. Taytan, 3. Bayraməliqışlağı, 4. Qulaqsız, 5. Zöhrablı, 6. Kürdkəndi, 7. Şəfiabad, 8. Kir - Bozavand, 9. Baş Gərni, 10. Mürzük, 11. Heyranıs-Uliya, 12. Burduq, 13. Gerkəc, 14. Gilanar-Sufla, 15. Molla Əhməd, 16. Qaqavuz, 17. Şəhriyar, 18. Heyranıs-Sufla, 19. Şoğayib, 20. Kərpicli, 21. Abdallar, 22. Qurbanqala - Uliya, 23. Qurbanqala-Sufla, 24. Ərtiz, 25. Yappa, 26. Əlimərdan, 27. Əliqırağı, 28. Ellicə, 29. Buralan, 30. Sultantəpə, 31. Əzizli, 32. Əlisorki, 33. Qalakəndi, 34. Qarahacılı, 35. Xıdırlı, 36. Ədətli, 37. Taraşköy, 38. Əliqızıl, 39. Bulaqbaşı, 40. Bayraməlikəndi, 41. Purço, 42. İmamverdiqalası, 43. Tərəkəmələr.

**4. Vedibasar mahalında**
1. Reyhanlı, 2. Şirazlı, 3. Qaralar, 4. Saray, 5. Cadqıran, 6. Qarabağlar-Sufla, 7. Qarabağlar-Uliya, 8. Talasavan, 9. Şahablı, 10. Zəncirli, 11. Pünüt, 12. Şorsu, 13. Daşnov, 14. Həsənqala, 15. Cəfərli, 16. Örtük, 17. Vəlican, 18. Keşağlı, 19. Abbasabad, 20. Əli Qızıl, 21. Muradabad, 22. Əliabad, 23. Əliqırıq, 24. Günlük, 25. Baxcacıq, 26. Xamut, 27. Qızılverən, 28. Zimmi, 29. Musacıq, 30. Hand, 31. Qazançı, 32. Xosrov, 33. Haxıs.

**5. Şərur mahalında**
1. Hacıqara, 2. Qalacıq, 3. Fərhad Arxı, 4. Boşaqışlağı, 5. Daşarx-Uliya, 6. Örtülü Məzrə, 7. Şaban Məzrə, 8. Kərki-Bayat Məzrə, 9. Yovşan Məzrə, 10. Gabud-məzrə, 11. Dəhnəkənd (Dəmirçiqışlağı).

**6. Sürməli mahalında**
1. Vəlican, 2. Talasavan, 3. Abbasabad, 4. Sərhəngabad, 5. Rəsullu, 6. Zəngan, 7. Hacı Abbas, 8. Saxsalı, 9. Atlıca, 10. Qaraçılı, 11. Mərhava, 12. Çıraxlı, 13. İstinax-Çıraxlı, 14. Urumuş, 15. Ərgöv, 16. Göyumus, 17. Qurğan, 18. Qaraçay, 19. Əli Malik, 20. Zor, 21. Əlikeçən, 22. Quşçu, 23. Karvansaray, 24. Əsmə, 25. Quyuca, 26. Çıraxçı, 27. Sarı Hasar, 28. Muça.

**7. Dərəkənd-Parçenis mahalında**
1. Qaraqoyunlu, 2. Kiti, 3. Sürməli, 4. Aşıq Hüseyn, 5. Qarabulaq, 6. Qaraqala, 7. Çaldağ, 8. Qazıqoparan.

**8. Səədli mahalında**
1. Xəlilqışlağı, 2. Erməni kövşəni, 3. Səfilər, 4. Mirzəxan, 5. Baş Qışlağı.

**9. Talın mahalında**
1. Aylanlı, 2. Siçanlı, 3. Nadirxanlı, 4. Pirmələk, 5. Sutökülən, 6. Ağakiçik, 7. Məzarcıq, 8. Pirtikən, 9. Qaraqala, 10. Çiçəkli, 11. Püsəgən, 12. Çaltəpə, 13. Mustuqlu, 14. Qoruq, 15. Parakənd, 16. Daşqala, 17. Çoturlu, 18. Bəbirli, 19. Sadıqlı, 20. Zarınca, 21. Aşağı Dəmirçili, 22. Sabunçular, 23. Kiçik Yataq, 24. Kalaşbəy qulası, 25. Bəhlul kəndi, 26. Böyük Qızılqula, 27. Göyərçin.

**10. Sərdarabad mahalında**
1. Cəfərxan Rəncbəri, 2. Teymurxan kəndi (Dövlətabad), 3. İtköy, 4. Qatırabad (Əbdülabad), 5. Artaşat (Fətabad), 6. Rəhimabad (Molla Bədəl), 7. Keçili, 8. Xam.

**11. Körpübasar mahalında**

1. Teymurxan Kolanısı, 2. Ağdamar, 3. Qaraqışlaq, 4. İnəkli, 5. Çobanı, 6. Arpahəvəsik, 7. Haçabağ, 8. İlançalan, 9. Anberd.

**12. Abaran mahalında**

1. Qotur, 2. Tezxaraba, 3. Şabanlı, 4. Xaçbulaq, 5. Köhnə Qəzənfər, 6. Bitli, 7. Əmirli, 8. Yarbaş, 9. Məmişkəndi, 10. Qarabulaq, 11. Hamamlı, 12. Kürd Əli, 13. Cancik, 14. Cili-Göl, 15. Şahquluölən, 16. Porsuxlu, 17. Camışlı, 18. Əyribudaq, 9. Muncuqlu, 20. Pəmbək, 21. Günbəz, 22. Sibitağ.

**13. Dərəçiçək mahalında**

1. Ada, 2. Kiçik Ördəkli, 3. Allahapənah, 4. Barat, 5. Qonaqgirməz, 6. Eşşəkquduran, 7. Çobangölü, 8. Keğaç, 9. Maman, 10. Aydın, 11. Şakirbaşı, 12. Misxana, 13. Sutökülən, 14. Çiçəkli, 15. Pirpalıd, 16. Zeynalağa.

**14. Göycə mahalında**

1. Buğdatəpə, 2. Hacımumuxan, 3. Allahverdibəy, 4. Üçtəpə, 5-6. adları unudulub, 7. Kərimkəndi, 8 - 11. adları unudulub, 12. Yuxarı Altuntaxt, 13. Aşağı Altuntaxt, 14. Dəmirçi Poğos, 15-19. adları unudulub, 20. Əyricə, 21. Atdaş, 22. Axsaxtovuz, 23. Karvansaray, 24. adı unudulub, 25. Qasımbaşı, 26. Mədinə, 27 - 32. adları unudulub, 33. Baş Gözəldərə, 34. Xancığazoğlu, 35-38. adları unudulub, 39. Qızılkilsə, 40-44. adaları unudulub, 45. Böyükağa, 46-54. adları unudulub, 55. Ağkilsə, 56-57. adları unudulub, 58. Göyçə, 59. Sultanəli, 60. Sətənağac, 61. Karvansaray, 62. Əyricə, 63-64. adları unudulub, 65. Kərimkəndi, 66. Dəli Harutyun, 67. Qəməsar.

***(Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998, səh. 178-180)***

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının üzvü N. Mixaylovun məruzəsi**

Ermənilər tərəfindən zorakılıqlara, qarətlərə və başqa zorakılıq təzyiqlərinə məruz qalan Gəncə quberniyasının Cavanşir, Şuşa və Cəbrayıl qəzalarının müsəlman kəndlərindəki sakinlərin vəziyyətinin araşdırılması ilə bağlı. Bu məruzə ilə belə təyin edilir ki, nəzərdən keçirilən məsələ üzrə Qarabağın dörd qəzasının yerli əhalisi başlarına gələn faciələrin ağırlığına görə Azərbaycan Respublikasının ermənilərdən ziyan görən bütün başqa əyalətlərindən kəskin sürətdə fərqlənirlər.

Bakı şəhəri təslim olduqdan sonra, yəni ki, 1918-ci ilin oktyabr ayından başlayaraq, Bakı quberniyasının və Gəncə quberniyasının dörd qəzasının müsəlman əhalisi tədricən qəbilə nifrəti ilə vəhşiləşmiş ermənilərin onların başlarına gətirdikləri bəlalardan və vəhşiliklərdən tədricən özlərinə gəlməyə başladıqları halda Qarabağ müsəlmanları aramsız olaraq son günlərə kimi, Həm Qarabağın yerli erməni əhalisi, həm İrəvan quberniyasından gələn erməni qaçqınlarının, həm də Türkiyə vilayətlərindən bu əraziyə soxulub, yerli müsəlmanlardan bu günün özünə kimi Ermənistan Respublikasının hakimiyyətinə tabe olmağı tələb edən erməni əsgərləri tərəfindən ağla batan və batmayan bütün zorakılıqlara məruz qalırlar.

**1. Cavanşir qəzası.**

Dindirilmiş şahidlərin ifadələrinə və Cavanşir qəzasının Qəza Polis İdarəsinin rəsmi sənədlərinə əsasən (təsdiq edilmiş sənədlərin surətləri cinayət işinə əlavə edilmişdir) nəzərdən keçirilən məsələ üzrə aşağıdakı vəziyyət təyin edilir.

Hərbi hərəkətlərin Rusiya tərəfindən dayandırılmasından hələ xeyli əvvəl, erməni əsgərlərin böyük bir əksəriyyəti fərarilik edərək, öz kəndlərinə qaçarkən, özləri ilə böyük miqdarda döyüş sursatlarını: dövlət xəzinəsindən oğurladıqları tüfəngləri, pulemyotları və hər cürə döyüş ləvazimatlarını daşıyıb gətirirdilər. Belə cinayət cəzalarının təzahürünə bir tərəfdən yerli erməni ziyalıları və erməni Kəndləri İcmalarının nümayəndələri təkan verirdilərsə, digər tərəfdən Rus Polis hakimiyyətinin bu hadisələrlə bağlı fəaliyyətsizliyi və hətta məsuliyyətsizliyi bu hadisələrin ermənilərin arzularına müvafiq inkişaf etməsi üçün münbit şərait yaradırdı. Qəzanın müsəlmanları öz tarixi qonşuları ermənilərə həddən ziyadə etibar etdikləri üçün, hər-hansı bir ehtimala qarşı heç ağıllarına belə gətirmirdilər ki, daşınan döyüş sursatı və silahlar ilk öncə onların özlərinə qarşı tətbiq etmək üçün tədarük edilir; məhz elə bu baxımdan silah daşınmasının qarşısını almaq üçün heç bir tədbirə əl atmırdılar, baxmayaraq ki, artıq Yevlax stansiyasında və Bərdə kəndinin şosesində müsəlmanlar artıq ermənilər tərəfindən silah daşınması halları aşkar edirdilər. Rusiyada dövlət çevrilişi baş verən andan, demək olar ki, erməni kəndlərinə açıq aşkar döyüş ləvazimatlarının, sursatların və silahların daşınma tezliyi sürətlə artmağa başladı və elə həmin anlardan başlayaraq ermənilərdə müsəlmanlara qarşı artıq bütün çılpaqlığı və sərtliyi ilə özünü büruzə verən düşmən münasibətləri və zorakılıq halları baş verməyə başladı.

Burada qəzanın müsəlman əhalisinin yaşadığı kəndlərin mövqeyini və onların ərazi xüsusiyyətlərinin üstünlüklərini qeyd etmək vacibdir. Böyük əksəriyyət təşkil etmək şərtilə bu kəndlər əsasən aşağıda düzənliklərdə yerləşirlər, amma Kolanı və Avrayan kənd icmalarının kəndləri Cavanşir qəzasının birinci dağ ətəyi və ikinci - yüksək dağ zolağında yerləşirdilər. Kolanı icmasının 12 kəndi: 1) Dəmirlər, 2) İmarət Qarvənd, 3) Çarektar, 4) Umudlu, 5) Qaralar, 6) Sırxavend, 7) Bruc, 8) Əli-ağəli, 9)Xaçın Dorbatlu, 10) Sirxavənd 11) Çıraqlı, 12) Hacı-Qərvənd dörd tərəfdən erməni kəndlərinin böyük bir sırası ilə əhatələnib: Marağalı, Talış, Aşağı və Yuxarı Çaylı, Lüləsər, Ağdərə, Ulu Qarabəy, Kiçik Qarabəy, Çarlami, Hasariz, Vankt, Dovşanlu, Damğalu, Kələdağ və başqaları ilə. Beləliklə müsəlman kolanılılar qəzanın aşağı hissəsi ilə əlaqə yaratmaq üçün yalnız və yalnız erməni kəndlərindən keçib gedə bilərdilər. Avrayan kənd icmasına qaldıqda isə, onun kəndləri çox yüksək dağlarda, erməni kəndlərindən yuxarıda yerləşir. Bu kəndlər öz mövqelərinə görə üstün cəhətlərə malik olub, öz dinc həyatlarını heç kimə qarışmadan yaşayırlar və onların sakinləri əsasən xüsusi mərdliyə malik olan kürd qəbilələridir. Məhz bu səbəbdən o zamanlar Kolanı icmasının heç bir kəndi heç bir hadisədən ziyan görmədi.

Ermənilərin müsəlman əhalisinin əleyhinə çıxışlarına qayıdıb, nəzər salanda görürük ki, şahidlərin ifadələri ilə təyin edilir ki, erməni silahlı quldur dəstələri ancaq öz yaşadıqları rayonlarda, harada ki, onlar güc və təşkilatçılarının əksəriyyət təşkil etdikləri ərazilərdə və əsasən demək olar ki, silahsız müsəlman kəndlərinin erməni kəndləri ilə əhatə olunduğu və heç bir yerdən kömək ala bilmədiyi ərazilərdə özlərini daha qüvvətli hesab edirdilər.

Beləliklə bütünlükdə Cavanşir qəzasının yalnız Kolanı İcmasının kəndləri talan edilmişdi.

1917-ci ilin dekabr ayından başlayaraq, erməni silahlı quldur dəstələri yuxarıda adı çəkilən müsəlman cəmiyyətinin kəndlərinə soxularaq, kənd sakinlərinin evlərinə silahlı keşikçi dəstələri qoyur, kolanılılardan Ermənistan Respublikasına tabe olmağı tələb edir, onları vergilərlə yükləyərək, öz xeyirləri naminə

müsəlmanlardan öz dövlətləri üçün vergi ada altında böyük pul məbləğləri qopardırdılar. Öz quldur dəstələrinin bir ay müddətində ərzaqla təmin edilməsini və yedizdirilməsini tələb edirdilər, müsəlman kəndlərində qadınların zorlanması ilə müşayiət edilən əyyaş məclislərinin keçirilməsinə adi hal kimi baxırdılar. Sistemli surətdə müsəlmanların mal-qarası ermənilər tərəfindən qovulub aparılmağa başlandı. Bu təqiblərə məruz qalan müsəlman kəndlərinin sakinləri faktiki halda mühasirədə olduqları üçün, öz icmalarındakı din qardaşları - aşağı kəndlərin müsəlman sakinləri ilə hər hansı bir əlaqə saxlamaq şansından məhrum idilər. Cavanşir qəzasının Müsəlman Milli Komitəsi bütün vasitələrdən istifadə edərək, ermənilərlə əvvəlki mehriban və səmimi münasibətləri qurmağa can atırdı, erməni kəndlərinə qarışıq tərkibli sülh nümayəndəlikləri göndərir, ovalıqda yerləşən bir neçə erməni kəndlərinin köçürülməsi planların işləyib hazırlayırdı. Sarov, Həsən Qay və bir neçə başqa kəndi dağ rayonuna, oradan isə Kolanı icmasının sakinlərini dağətəyi ərazilərdən ovalılıqlara köçürməyə can atırdı. Nəticədə ovalıqda yaşayan erməni kəndlərinin sakinləri heç bir ağrısız və itkisiz bütün mal-qaraları və əmlakları ilə dağlara köçə bildikləri halda, Kolanı İcmasının əhalisi onlara ovalıq ərazilərə köçməyə imkan verməyən erməni məngənəsinin özbaşınalıqları və zorakılıqları içində boğulurdular. Ermənilərin köçürülməsi və dağətəyi ərazilərdə yaşayan müsəlman kəndlərinin köçürülməsinin gecikdirilməsi isə, hadisələrin gedişatı göstərdiyi kimi, belə bir qənaətə gəlməyə imkan verdi ki, bu yerdəyişmələr heç də erməniləri mümkün olan təhlükədən uzaqlaşdırmaq və ya qorumaq məqsədi güdmür, əksinə bu minvalla bir tərəfdən, dağətəyi zolaqda ermənilərin silahlı qüvvələrinin xüsusi silahlandırılması ilə yanaşı digər tərəfdən, həmin ərazilərdə yaşayan müsəlman əhalinin tezliklə və müvəffəqiyyətlə qırılıb, məhv edilməsinə xidmət edir. Adı çəkilən icmanın tamamilə kölə həyat tərzi uzun aylar davam edərək, bəzi kəndlərdə 1918-ci ilin sentyabrına kimi, bəzilərində isə hətta ilin sonuna kimi davam etdi və nəticədə ümidsizlik içində boğulan müsəlman əhalisi onları dörd tərəfdən üzük qaşı kimi əhatə edən erməni quldur dəstələrinin vəhşiliklərindən canlarını qurtarmaq üçün, nəyin bahasına olursa olsun, hətta insan itkiləri naminə belə, mühasirə halqasını yararaq, ovalıqda yaşayan müsəlman kəndlərinə köçmək, kim harada qərar tuta bilərsə, ora pənah aparmaq qərarına gəldilər. Onlar buna nail oldular, amma çox böyük itkilər bahasına.

Müsəlman qaçqınları bütün daşınan əmlaklarını itirdilər, kənd təsərrüfatı alətlərini, demək olar ki, bütün mal qaralarından evlərindən məhrum oldular, onların təsərrüfat tikintiləri tamamilə darmadağın edildi və ən başlıcası da o oldu ki, müsəlmanlardan əsasən qadınlar və uşaqlar acından, soyuqdan, xəstəlik və qaçqınlıqdan doğan başqa məhrumiyyətlər üzündən həlak oldular.

Qaçqınların çoxu onları yolda təqib edən ermənilər tərəfindən qırılıb məhv edilirdi, digərləri isə - qaçmaq imkanından məhrum olan xəstələr, qocalar, qarılar və hətta əlillər elə qaldıqları kəndlərə soxulan ermənilər tərəfindən qırılıb məhv edilirdilər.

Ermənilərin təqiblərindən yaxa qurtarmaq üçün, bəzi kəndlərin sakinləri, məsələn, İmarət Qərvənd, Umudlunun bir hissəsi qaçmaq üçün, daha uzun dolanbac və təhlükəli dağ yollarını seçərək, Yelizavetpol qəzasının Zəyəm yolu ilə payız vaxtı, sərt Murovdağın hündür, qarlı dağlarından aşıb Cavanşir qəzasının ovalıqlarına çatana kimi məcburi köçkünlərin aqibətinə yazılan həyatın bütün amansız sınaqlarından keçdilər.

İndiki zamanda adı çəkilən kənd cəmiyyətinin qaçqınları Cavanşir ovalığının müxtəlif müsəlman kəndlərində - Seyidlər və s kəndlərdə, Şuşa qəzasının Bəyim Sarov, Seysulan, Ərımca, İşıxlar, Bəy Əhmədli, Kahil-Qarvənd kəndlərində, din qardaşlarının ocaqları başında sığınacaq tapdılar, bütün imkanlardan məhrum, adi kəndli əməyi üçün belə lazım olan hər şeyini itirən insanlar, onların qeyri-adi rəhmdilliyinin şahidi oldular. Artıq yuxarıda qeyd olunduğu kimi Müsəlman Milli Komitəsi erməni kəndlərinə sülh nümayəndəliklərini göndərirdilər, lakin heç bir halda bu nümayəndəliklər öz barışıq missiyalarını yerinə yetirməyə nail ola bilmədilər, əksinə hətta bir dəfə şahidin ifadəsinə görə Milli Müsəlman Komitəsinin sədri Meşəli Alış İsmayılov, nümayəndəliyin başçısı kimi hədələrə və təhlükəyə məruz qalmışdı. Marağalı erməni kənd icmasının kəndxudası Nerses Manukov Avan Yüzbaşıyevin malikanəsində birbaşa deyib ki, "Bunlar hələ boş şeylərdir. Bir az səbir edin və görün başınıza nələr gələcək".

Beləliklə Cavanşir qəzasının, həmçinin ovalığın müsəlman əhalisi ermənilərin zorakılıqları ucbatından aşağıdakı ziyanlara məruz qaldılar: 1918-ci ilin baharında və yayında ermənilər Tərtər su hövzəsinə axan kiçik çayların suyunun qarşısını bəndlərlə alaraq, suyun ovalığa çatmasına imkan vermədilər və nəticədə aran ərazilərində yerləşən Azərbaycan kəndlərinin əhalisi nəinki öz bağ və bostanlarını suvarmaqdan məhrum oldular və hətta içməli suya belə möhtac qaldılar. Onu da demək vacibdir ki, yayda Cavanşirdə su bütün canlılar və bitkilər üçün əsas həyat mənbəyi sayılır. Bütün bunlara onu da əlavə edək ki, 1918-ci ilin yayında müsəlman əhalisi adətən yayın qızmar istisindən və artıq xərclərə səbəb olan yem qıtlığından yaxa qurtarmaq üçün, həmişə olduğu kimi öz mal qarasını yaylaqlara, öz doğma torpaqlarındakı otlaqlara qaldırmaq imkanından məhrum idilər; buna səbəb isə uzun müddət ermənilərin Şuşaya və onun qəzasına aparan bütün yolları kəsməsi, aran camaatının daimi vahimədə və səksəkədə saxlaması, kəndlilərin kənd-tarla işləri ilə məşğul ola bilməsəydi və eyni zamanda əhalinin mal qarası qovulub aparılırdı, yollarda tək qalan müsəlmanları isə vurub öldürürdülər və

sonda belə təbii bir qənaətə gəlmək olur ki, qəzanın müsəlman əhalisinin həyatı həqiqətən də misli görünməmiş faciələr içində idi.

Hadisələrin bir qədər yaxşılaşmasına baxmayaraq, vəziyyət demək olar ki, yenə də həddən ziyadə ağır olaraq qalır, ona görə ki, yerli və gəlmə erməni əhalisi bu günə qədər Azərbaycan hökumətini tanımadıqlarını bildirərək, Cavanşir qəzasında ələ keçirib, nəzarətdə saxladıqları əraziləri Ermənistan Respublikasının mülkiyyəti hesab edirlər və bu günün özünə kimi onlar tərəfindən törədilən zorakılıq hallarının ardı-arası kəsilmir. Belə ki, Fövqəladə İstintaq Komissiyasının üzvləri qəzanın hüdudları daxilində vəziyyətlə bağlı araşdırmalar apardıqları zaman, Dəmirlən kənd sakini Cavad Əli oğlunun mal qarasını sürüb aparmış, Marağalı kəndi yaxınlığında iki müsəlman oğlan uşağını oğurlayıb aparmışdılar. Bu uşaqları çox böyük çətinliklə geriyə qaytarmaq mümkün olmuşdu. Son hadisələr zamanı vəziyyətin belə gərginləşməsi Fövqəladə İstintaq Komissiyasının üzvlərini talan edilmiş dağətəyi zolaqda yerləşən müsəlman kəndlərini baxışdan keçirmək imkanından belə məhrum etdi. Ona görə ki, yerli baxış keçirmək üçün bir sıra erməni kəndlərinin içindən keçib getmək, hətta komissiya üzvləri üçün belə azadlıqdan məhrum olmaq, Komissiyanın iş və sənədlərinin əllərindən alınması ilə nəticələnə bilməsi inkarolunmaz fakt idi.

Bütün bunlarla yanaşı elə bu günlərin özündə ermənilər şəxsən heç bir maneəsiz qəzanın aran ərazisi ilə müsəlman kəndlərinin içindən hərəkət edir, çox böyük sayla hər həftə Tərtər bazarında peyda olurlar, müsəlmanlarla nəinki sərbəst ticarət əlaqələrini qururlar və hətta cinayət əməllərinə əl ataraq, müsəlmanlardan oğurladıqları mal-davarı elə burada onların özlərinə də satırlar (bax şahid İsgəndərovun ifadəsi l. d. 5).

Erməni quldur dəstələrinin Cavanşir qəzasının hüdudları içərisində törətdikləri məzmun və ağırlığına görə daha ciddi cinayət əməllərinin heç olmasa qısa siyahısına keçməzdən əvvəl qeyd etmək vacibdir ki, yuxarıda adları sadalanan Kolanı Kənd İcmasının 12 kəndindən başqa ermənilər tərəfindən aşağıdakılar törədilmişdir. Belə ki, ermənilər öz kəndlərini Marağalıda iki müsəlmanı - Məhəmməd İsgəndər oğlu və Müslim Rəhim oğlunu qətlə yetirərək, meyitləri Daşarxı kanalına atıblar; Fındıqlı adlanan yerdə Dovşanlıdan olan ermənilər kənd ayaqçısı Fəxrəddin Cəfərqulu oğlunu və onun iki müsəlman yol yoldaşını qətlə yetirib, onların dörd öküzünü qarət ediblər; Sarov kəndinin erməniləri Bruc kəndinin çobanlarına qarət məqsədilə hücum edərək, atəş açıb, onları vahiməyə salaraq, mal-qaranı Çaylı erməni kəndinə qaçırdıblar; silahlanmış Ağdərə ermənilərinin quldur dəstəsi Qapanlı müsəlman kənd sakinlərinin 600 baş qoyun və 50 baş iri buynuzlu mal-qarasını oğurlayıb aparıblar; elə həmin quldur dəstəsi başqa qapanlıların 250 qoyununu və 61 baş iri buynuzlu mal-qarasını qaçırdıb apardılar; Ağdərə erməniləri Qarapirim kənd sakini Cümşüd bəyin 1350 qoyununu və 4 atını sürüb qaçırdıblar; Dovşanlı erməniləri Qarakor kəndinin özündə Ocaqverdi Molla Qəmbər oğlunu və Eyvaz Molla Novruz oğlunu öldürdülər, özü də qeyd etmək lazımdır ki, birincisinin arvadı Sona Şahməmməd qızı xüsusi vəhşiliklə qətlə yetirildi; Gülyataq ermənilərinin quldur dəstəsi Sırxəvəndlilərin 122 baş iri buynuzlu mal - qarasını, Qalayçılardan isə 105 baş malı qovub apardı; Ağdəmir ermənilərinin quldur dəstəsi Qapanlı kənd sakinlərinin mal qarasını qaçırmağa cəhd etdi və araya düşən atışmada Qurban Allahverdi oğlu öldürüldü; Çoxlu Dəyirman adlanan yerdə erməni əsgərlərindən və yerli kənd əhalisindən ibarət olan 500 nəfərdən ibarət quldur dəstəsi Qoturlu kənd sakinlərinin karvanına hücum edərək, onların ümumi məbləği 1 milyon 200 min rubla yaxın atlarını, öküzlərini, pullarını, ev əşyalarını və mallarını qarət etdilər; mülkədar Nuri bəyin torpaqlarında Ağdərə ermənilərinin quldur dəstəsi İmarət Qərvəndlilərin mal-qarasanı taladı; Çıraqlı kənd sakini İsgəndər Əli oğlunun Sendrəl yeri adlanan ərazidə 115 baş iri buynuzlu mal-qarasını erməni quldur dəstələri talayıb apardılar və bu hadisə zamanı hücum edənlər tərəfindən fars mənşəli çoban Novruz öldürüldü; Ağdərə ermənilərinin quldur dəstəsi Öküz yeri adlanan ərazidə Paprəvənd kənd sakini Həsrət Ağakişi oğlunu öldürüb 12 baş qoyununu qaçırtdılar; Papravəndli Albənd Sadıq oğlunu qoyun satmaq adı altında aldadıb öz kəndlərinə apararaq, onu öldürdülər və meyitini gizlətdilər, qətl hadisəsi bu ilin yanvar ayında baş vermişdi; Ağdərə ermənilərinin quldur dəstəsi Qalayçılar kənd sakinlərinin 84 baş iri buynuzlu mal qarasını və atlarını qovub apardılar; yenə Ağdərə erməniləri Qarapirim kənd əhalisi ilə atışmaya başlayaraq, onların 1350 qoyununu və 3 atını qaçırtdılar.

Yuxarıda sadalanan ermənilər tərəfindən ayrı-ayrılıqda törədilmiş bəzi cinayətlərin şərhinin qısa siyahısından aşkar görünür ki, ermənilər əsasən qoyunu, iri buynuzlu mal-qaranı və atları aparmaqla müsəlman təsərrüfatlarının özülünü dağıtmaq, talanmış Azərbaycan kəndlilərini ac qoymaqla didərgin salmaq niyyətini güdürdülər. Qəza sakinlərinə qarşı çox sayda törədilən qətllər, öldürülənlərin nə yaşlarına, nə cinslərinə, nə də azyaşlı uşaq, qoca və hətta əlil olmasına rəhm edilməməsi, ermənilərin bəzi aşağıda sadalanan cinayət hadisələrini xüsusi vəhşilik və görünməmiş qəddarlıqla həyata keçirtdiklərin sübuta yetirilir. Bu minvalla qəddarcasına Umudlu kənd sakini Süleyman Qazax Aslan oğlu, Məmməd Meşəli Paşa oğlu və Kazım Atam oğlu qətlə yetirilib, şaqqalanaraq, parça-parça doğranıldılar - onları öz kəndliləri belə vəziyyətdə tapmışdı. Hacı Qərvənd kənd sakini Zeynəb Şirin qızının cəsədi döşləri kəsilmiş halda tapılmışdı. Dovşanlı şöbəsinin Korakor kənd sakini Ramazan Novruzəli oğlu, Qönçə Ocaqqulu qızı və çolaq Süleyman Həsənəli oğlu Boqmukanli erməni Zəhariya Kukurovanın sözlərinə görə vəhşicəsinə öldürülmüş sonra isə onların meyitləri yandırılmışdı.

Sırxavənd - Boluqaya kəndinini sakini Soltan Əli İman oğlu Qazançı kəndinin yanında tutulub saxlanıldıqdan bir vaxt sonra onun yandırılmış meyiti tapılmışdı. Güney-Qaya - Sırxavənd kənd sakinləri Şərif İsmayıl oğlu və Rəcəb Novruz Əli oğlunun ermənilər tərəfindən qətlə yetirilən və başları kəsilib atılan cəsədləri tapılmışdı. Müsəlman kəndlərinə hücum edən erməni quldur dəstələrinin üzvlərini və onların başçılarından çoxlarını, şahidlərin ifadələrindən göründüyü kimi, müsəlman şahidləri öz verdikləri ifadələrdə tanıdıqlarını bildirirdilər, lakin burada yalnız tam adları familiyaları tanınan şəxslərin adları çəkiləcək. Daha dürüstü, məhz: Yuxarı Qarxun mülkünün mülkədarı mühəndis Konstantan Nikitiç Abramov, Avan Yüzbaşevin malikanəsinin idarəçisi Baqrat bəy Məlik Şahnazarov, Marağalı Kənd İcmasının kəndxudası Nerses Manukov, Gülyataq kənd sakini İvan bəy Mirzəbəyov, Dovşanlı kəndindən Artemiy və Muki Sukiasovlar, Efrem və Nikolay Şahbağovlar, Bozorkənd sakini Nikolay Saruxanov, Vəng kəndindən Tiqran Asan Cəlalov, Domqalı kəndindən Tsaçur Mosesov, Lüləsəs kəndindən Vaqon Bejanov, Yuxarı və Aşağı Çaylı sakinləri Şimir Ağabəyov, Setrak Usubov, Talışı kəndindən Tyuni Atambekov, Ağdərə kənd sakini Karapet Anastasov, Talışi kəndindən İsaak, Minas Ter - Danilov qardaşları, yenə həmin kənd sakini Rüstəm Babayev, Həsənriz kəndindən Sukias Qandazxazov, Çardaxlıdan Bəxşi Ovanesov, aşağı Çaylı kəndindən Akocan Masesov, Nikolay Soqratov, Ağdərəli Maroks bəy Ter-Astçaçurov, Marqoşovan kəndindən Atakişi Xaçaturov. Bir çox başqalarının isə şahidlər tərəfindən yalnız adları ilə quldur dəstələrinin iştirakçısı olduğu bildirilir. Adları tam çəkilən ermənilər nəinki quldur dəstələrinə rəhbərlik edirdilər və hətta onların müsəlmanları öz əlləri ilə qətlə yetirməkdə və onlara əzab verməkdə şəxsən iştirak etdiklərini şahid ifadələri təsdiq edirlər.

Zərərçəkənlərin aktlarından belə qənaətə gəlmək olur ki, dağətəyi zolağın müsəlman kəndlərinin bu hadisələr zamanı çəkdikləri ziyanların həcmi ən təmkinli minimum hesablamalarla bir neçə on milyon rubl həcmindən aşağı deyil.

**2. Cəbrayıl qəzası**

Cəbrayıl qəzası 12 müsəlman və 3 erməni kənd icmalarından ibarətdir. Məhz bu fərqə və müsəlman kəndlərinin əksər hissəsinin aran ərazisində topoqrafik baxımdan yerləşməsinə görə, bu torpaqlara ermənilərin layiqli müqavimətə rast gələcəkləri ehtimalından soxulmağa cürət etmədikləri üçün, bu qəzanın əhalisi Cavanşir qəzasında olduğu kimi, əsasən Qarabağ dağlarının dağətəyi zolağında ermənilərin təcavüzünə məruz qaldılar.

Şahidlərin verdikləri ifadələrdən təyin olunur ki, 1918-ci ilin dekabr ayına kimi dağətəyi zolaqda yaşayan müsəlmanlar həm mülkədarlar, həm də kəndlilər daxil olmaq şərtilə, Qarabağın digər qəzalarındakı tatar (yəni azərbaycan türkləri) müsəlman kəndlərində ermənilərin törətdikləri vəhşiliklər, quldur dəstələrinin hücum və qarətləri, zorakılıqları, ağlasığmayan azğınlıqları haqqında eşitsələr də belə, qəzanın qonşu erməni kəndlərinin sakinləri və onların hörmətli ağsaqqalları tərəfindən müntəzəm olaraq sakitləşdirildikləri və əmin-amanlıqla bağlı onları inandıran bir səviyyədə təskinlik aldıqları üçün, nəinki, hər hansı bir müdafiə tədbirlərinə hazırlıq görürdülər, hətta əksinə olaraq, ağıllarına belə gətirmirdilər ki, ermənilər bu təbliğatın arxasında onların kəndlərinin darmadağın edilməsi layihələrini cızırlar.

1918-ci ilin dekabr ayının birinci günlərində ermənilər qəzanın müsəlman əhalisinə qarşı hərbi əməliyyatlara başladılar, ilk öncə ayrı-ayrı müsəlmanlar qətlə yetirilməyə başlandı, qismən də mal-qara oğurlanırdı və nəhayət, artıq mütəşəkkil təşkil edilmiş silahlı erməni quldur dəstələri tatar (türk) kəndlərinə qarşı açıq hücumlara başladılar. Lakin bütün bunlara baxmayaraq, şahidlərin ifadələrindən artıq ermənilərin açıq aqressiyaya başladıqları məlum idi və Cəbrayıl Qəza Rəisinin Qarabağ General-Qubernatorunun adına göndərdiyi 17 fevral 1919-cu il tarixli raportunda belə yazılırdı: "qəzanın müsəlman əhalisi belə hadisələri böyük kədər hissi ilə qarşılayaraq, heç bir aktiv hərəkətlərə başlamadan yalnız özlərini və öz əmlakların qorumaq naminə müdafiə mövqeyini tutaraq, erməni hücumlarından yayınmağa çalışırlar, ermənilərə qarşı heç bir qanuna zidd hərəkətlərə yol vermirlər, bunu sübut etmək üçün qeyd etmək kifayətdir ki, qəzada bir erməni kəndi belə heç bir hadisədən heç bir ziyan görməmişdir".

Bu hadisələrdən sonra ermənilərin müsəlman kəndlərinə qarşı törətdikləri cinayətlərin qısa sadalanmasına keçərək, hal-hazıradək aşağıdakılar görürük: Düdükçü, Edilli, Ağbulaq, Hoğa, Çirakuz, Axullu kəndlərində yaşayan ermənilər 1918-ci ilin dekabr ayının 26-na keçən gecə Düdükçü kəndindəki müsəlmanlar yaşayan hissəyə hücum edərək, onların evlərini talayıb, darmadağın etmiş, evlərə od vurub yandırmışdılar; 1918-ci il dekabrın 7-də elə adı çəkilən kəndlərin erməni sakinləri Arış kənd əhalisinin qoyunlarını oğurlayıb aparmışdır; 1918-ci il, dekabrın 5-də silahlı erməni quldurları Qarkelli kəndinə silahlı basqın edərək, qoyunları sürüb aparmışdı; 10 dekabrda Doşulu Məhərrəm Musa oğlunun qoyunları ermənilər tərəfindən qaçırıldı; elə həmin tarixdə silahlı ermənilər Əfəndilər kənd sakini Mir Yusif Mir Həsən oğlunun iri buynuzlu mal-qarasını apardı; 2 dekabrda silahlı erməni quldur dəstəsi Aşıq Məlikli kəndini od vurub yandıraraq, darmadağın etdilər, evlər talan edildi, əhalinin mal qarası qovulub aparıldı; yenə həmin tarixdə erməni quldur dəstəsi Xələfli, Tatar, Şıxlar kəndlərinə soxularaq, kənd sakinlərinin əmlakını dağıdıb taladı, mal-qaranın bir hissəsini qırıb tökdü, bir hissəsini də qovub apardılar.

Dekabrın 18-də Sirik kəndi ermənilər tərəfindən yandırılaraq talan edildi; 1919-cu il, fevralın 27-də Ağcakənd, Delenlər və Mülkədarlı kəndlərində yaşayan ermənilər bir də təkrar Sirik kəndinə hücum edərək, bu kəndin Nusaslu şöbəsini yandırdılar, 1919-cu il, mart ayının 29-da Axillidən olan ermənilər öz kəndliləri İbad Məmiş oğlunu özünün torpaq sahəsində əkinini şumlayan zaman başından yaraladılar; 1918-ci ilin avqust ayında silahlı ermənilər Qərvənd kəndinin köç yerinin ayağında iki çobanı öldürüb, bütün kənd əhalisinin iri və xırda buynuzlu mal qarasını qovub apardılar ev əmlaklarını qarət etdilər; 1919-cu ilin yanvarında Qaradağlı kənd sakinlərindən Molla Nəbiyə Hacı Mahmud oğlunun və Eyvaz Mehrəli oğlunun qoyunlarını silahlı ermənilər qovub apardılar; 1918-ci ilin baharında ermənilərin silahlı quldur dəstəsi arabaçını və Zərgər kənd sakini Bədir xan Məmiş oğlunu soydular; 1918-ci ilin payızında Hadrut Muxan və Noramanik kəndindən olan Serqey Nikolayans və Serqey Lal adlı iki erməni öz kəndləri yaxınlığında Boliant kəndindən olan iki müsəlmanı - Cəfər Ələkbər oğlu və Nəsir Məhərrəm oğlunu qarət etdikdən, sonra isə öldürdülər, onların çılpaq cəsədləri sonradan yarğanın dibində tapıldı; 1918-ci ildə Cilono və Mülkədarı kəndlərinin erməniləri Eyvazlu kəndinə hücum edərək, əhalinin bütün mal-qarasını sürüb apardılar, evlərini isə talan etdilər və Hüseyn Allahverdi oğlunu öldürdülər; həmin ilin qışında Dolanlar kəndinin erməniləri Şıxlar kəndinə vəhşicəsinə basqın edərək, evlərə od vurub yandırdılar, kəndlilərin əmlaklarını talan etdilər, mal-qaranı qovub apardılar; Mülkədarı kəndinin erməniləri Məlikli kəndini darmadağın etdilər, evləri yandırdılar, əmlakları daşıyıb apardılar, mal qaranı qaçırtdılar.

Müsəlman kəndlərinin talan edilməsi insanların qətli və yaralanmaları ilə müşayiət edilirdi, belə ki, Axullu kəndində 3 kişi, 3 qadın bir uşaq qətlə yetirilmiş, bir kişi isə yaralanmışdı; Məlikli kəndində bir kişi öldürülmüşdü, Tatar kəndində bir nəfər yaralanmışdı, Evatlu kəndində bir nəfər öldürülmüşdü, Şıxlar kəndində bir nəfər yaralamışdı, Məzrə kəndində isə altı nəfər öldürülmüşdü, Sirik kəndində on bir nəfər kişi, 10 qadın, 14 uşaq öldürülmüş, iki kişi isə yaralanmışdı.

Aranı qızışdıran və quldur dəstələrinə başçılıq edən ermənilər barəsində verilən şahid ifadələrindən göründüyü kimi müsəlmanlar canilərin çoxlarını tanımışdılar, lakin burada yalnız adları və familiyaları tam göstərilənlərin adları sadalanacaq: məhz, Düdükçü kənd sakinləri Balasan Ayrapetov, Arutyun Loqmatov, Karapet Oqancanov, İvan Beylərov, Usup Xaçiyev, Ovakim Barxudarov, Sarkis Mirzəyev, Kemrakuç kənd sakinləri - Sumğat Mirzəyev, gizir Aslan Sarkisov, Avetis Petrosov, Nikolay Baxdıyev, Aleksandr Seyranov, Edinlu kənd sakinləri - Bəxşi Ağacanov, Qeraim Mirzəyev, Bəxşi Paxapetov, Moses Qəhrəmanov, Şuşa qəzasının Çirakuz kənd sakinləri - Xurşud bəy, Markar bəy, İşxan bəy və Sumbat bəy İşxanovlar, Hoqğ kənd sakinlərindən - Muki Səfərov, Savad Ter-Qriqorov, Sarkis Kekuns, David Oqacanov, Şuşa qəzasının Çanaxçı kənd sakinləri Sokrat bəy Məlik-Şahnəzərov, kəndxuda Markez, Mülkədarı kənd sakinləri - Muxan Martisov, Nikolay Petorosov, Ovşar və Tiqran Poqosovlar, Dolanlar kənd sakinləri - Cəlal Cavadov, Oqacan Mirzəcanov, Ağa Sarkis Martirosov, Qaraxan Cavadov, Muxan və Cavad Oqacanovlar, İvan Arzusanov, Daşbaşı kənd sakinlərindən Baxçi və Natur Stepanslar, Muxam və Simon Nisyanslar, Ovanes və Akapcan Qarabəyovlar, Zəmzur kənd sakinlərindən - Muxan Mikirqaçev, Aleksandr Melkumov, Ovanes Mosesyans, Ağcakənd sakinlərindən - Qevond və Tateves Mikayılovlar, Qayk və Tiqran Akopcanovlar, Mirzə Avenosov, İşxan Sarkiscanov, Cilan kənd sakinlərindən Markar Kazarov və Ovşar Musiyev.

Müsəlmanlara dəyən ziyanlarla bağlı zərərçəkən kəndlilər və mülkədarlar tərəfindən təqdim edilən ərizələr və aktlardan belə bir qənaətə gəlmək olur ki, Cəbrayıl qəzasının müsəlmanlarına dəyən ziyanların məbləği bir neçə on milyon rublarla ölçülür. Mal-qaranın qarət olunub aparılması ev əşyalarının, kənd təsərrüfatı alətlərinin talan edilməsi və taxıl ehtiyatlarının zorla kəndlilərin əlindən alınması nəzərə çarpacaq dərəcədə qəzanın müsəlman kəndlisinin iqtisadi vəziyyətini böhran halına gətirib çıxardı və onun ödəmə qabiliyyətini heçə endirdi.

### 3. Zəngəzur qəzası

Ermənilərin müsəlmanların başlarına müntəzəm gətirdikləri faciələr və vəhşiliklərə görə bu qəza demək olar ki, bu günün özünədək fövqəladə çətin vəziyyətdə qalmaqda davam edir.

Yüksək dağlıq ərazilərdə yerləşən bu qəza Şuşa qəzası istiqamətindən tamamilə, Cəbrayıl qəzası tərəfindən qismən yolu kəsilmiş haldadır. Müsəlman kəndlərinin erməni kəndlərinin əhatəsində yalqız olmasından istifadə edən ermənilər adətən bu şəraitdən bəhrələnərək, öz qüvvələrinin çoxluğuna və hərbi təchizatına arxayın olaraq, fürsəti əldən vermədən təcili surətdə hücumlara keçərək, sözün əsil mənasında ağalıq etməyə başladılar. Bu qəzada bütün başqa qəzalara nisbətən müsəlmanların vəziyyəti bir də ona görə ağırlaşdı ki, erməni kəndlərinin başdan-ayağa silahlanmış quldur dəstələrindən savayı burada general Andranikin başçılığı altında erməni əsgərlərindən ibarət olan düzgün təşkil edilmiş erməni silahlı qüvvələrinin nəzərəçarpacaq dərəcədə böyük olan nizami qoşun hissələri var idi. Belə böyük qoşun hissələrinə və yerli erməni silahlı quldur dəstələrinə başçılıq edən general Andranik, Azərbaycan ərazilərinə soxulduqdan sonra, ehtimal etmək olar ki, əlində Ermənistan dövlətinin direktivlərini rəhbər tutaraq, qoşun yeritdiyi ərazilərdə müsəlman əhalisinə qarşı belə bir tələb irəli

sürdü ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da ki, yaşadıqları qəzanın ərazilərini tərk etsinlər, beləliklə o hər hansı bir halda qəzanın ərazisini əhalisi ilə birlikdə və ya onlarsız Ermənistan respublikasının tərkibinə qatmağa cəhd edirdi. Zəngəzur qəzasının müsəlmanları öz kəndlərində bütün dünyadan, erməni müdaxiləsi nəticəsində təcrid olunduqları üçün, heç yerdən kömək və müdafiə xarakterli yardım ala bilməmələri üzündən, bəzi kəndlərdə zəif silahlanmış kiçik dəstələrə malik olduqlarından, bir sözlə bütünlükdə ciddi hərbi qüvvələrə malik olmamalarına baxmayaraq, ermənilərin tələblərinə tabe olmaq arzusunda olmadığını bildirdilər. Bundan qəzəblənən ermənilər ağlasığmayan qəddarlıq və vəhşiliklər nümayiş etdirdilər. Öz respublikalarının ərazilərini açıq aşkar genişləndirməyə can ataraq, onlar yerli müsəlman əhalidən heç kimə, hətta könüllü sürətdə sığınacaq axtarmaq niyyəti ilə öz doğma yurd-yuvalarını atıb gedənlərə belə rəhm etmirdilər. Ermənilər bütün bunlara baxmayaraq kəndləri yerlə-yeksan edərək, sonuncu evinə kimi yandırıb dağıdır, dinc əhalini vəhşicəsinə qırır, mal-qaranı qovub aparır, müsəlmanların əmlakını talan edərək, onların torpaq sahələrini əllərindən alıb şumlayırdılar. Hal-hazırkı məqamda yalnız Oxçu dərəsinin müsəlmanları öz yurd yerlərinin qəhrəmancasına müdafiəsini davam edə bilirlər.

Sisyan mahalının birinci polis sahəsinin bütün müsəlman kəndlərinin hamısı, ikinci sahəsinin böyük əksəriyyəti, üç, dörd və beşinci polis sahələrinin isə nəzərəçarpacaq hissəsi yerlə-yeksan edilmişdir. Bir çox kəndlər sözün əsil mənasında yerlə yeksan edilib və hətta onlar ermənilər tərəfindən dağıdılaraq şumlanıb, nəticədə isə 50.000 nəfərdən artıq müsəlman qaçqını Cəbrayıl qəzasının dördüncü sahəsində müvəqqəti yerləşiblər. Şahidlərin verdikləri ifadələrə və rəsmi sənədlərin bildirdikləri məlumatlara görə qəzanın 115 kəndi darmadağın edilərək, məhv edilmişdir: 1. Ağulu, 2. Dərəbas, 3. Dulus, 4. Qurtlar, 5. Şəki, 6. Urut, 7. Vağudi, 8. İrmis, 9. Bəhrili, 10. Qızılcıq, 11. Dərəkənd, 12. Qarakilsə, 13. Məlikli, 14. Dornı, 15. Dovruz, 16. Qardığa, 17. Oxtar, 18. Çobanlu, 19. Qadayolu, 20. Çullu, 21. Şabadin, 22. Almalıq, 23. Çanaxçı, 24. Cıbıllı, 25. Ağkənd, 26. Turabxanlı, 27. Qulud, 28. Bəkdaş, 29. İncəvar, 30. Siznək, 31. Qaraçimən, 32. Katar, 33. Seyidlər, 34. Xalac, 35. Daşnov, 36. Baydaq, 37. Noraşenik, 38. Cicimli, 39. Həyaqulu, 40. Qomarat, 41. Dərzili, 42. Qazançı, 43. Şayıflı, 44. Tağamir, 45. Tey, 46. Atqız, 47. Şərikan, 48. Dolutlu, 49. Əfqanlı, 50. Tanzaver, 51. Mac, 52. Birinci Xocahan, 53. Yeməzli, 54. Buğakar, 55. Mülk, 56. Bənövşəpüş, 57. Birinci Vartanazur, 58. İkinci Vartanazur, 59. Lehvaz, 60. Əlidərə, 61. Mərziqit, 62. Tuğut, 63. Puşanlı, 64. Razdərə, 65. Məmməd İsmayıl, 66. Human-Dadanlu, 67. Tatarkənd, 68. Kelu qışlaq, 69. Zamlar, 70. Əsgərlər, 71. Qaragöl, 72. Çuxur - Yurd, 73. Nəcəflər, 74. Qarakelli, 75. Şaiflı, 76. Birinci Qayagölü, 77. İkinci Qayagölü, 78. Burunlu, 79. Burcalılar, 80. Gün-Qışlaq, 81. Canbər, 82. Xırdaqışlaq, 83. Tuafşalı, 84. Şirikan, 85. Qazançı, 86. Qaralar, 87. Hemeran, 88. Xotanan, 89. Oxtarlı, 90. Xudayarlı, 91. Şəkərli, 92. Klinçu, 93. Tarnalı, 94. Nüvədi, 95. Toğan, 96. Baharlı, 97. Sanalı, 98. Səfi-Yurt, 99. Kürgılı, 100. Çatarist, 101. Priveisli, 102. Meşəli İsmayıllar, 103. Burcalar-Dərzili, 104. Subuklu, 105. Məzmazak, 106. Təzəqurdlu, 107. Fərəcan, 1108. Suarası, 109. Bayramuşağı, 110. Koknakənd, 111. Qışlaq, 112. Zabux, 113. Baylandur, 114. Bağırbəyli, 115. Keravis - Abdallar.

Bu qəzanın ermənilər tərəfindən qismən və ya tam dağılmış, yandırılmış əsas kəndlərinin siyahısıdır, ondan başqa yenə 10-a yaxın kənd və sərbəst ada malik olmayan, müvəqqəti qazmalarda ibarət olan 2-5 ev arasında yurd yerləri darmadağın edilərək, yandırılıb viran qoyulmuşdur. Yuxarıda adları sadalanan bütün kəndlər yandırılıb, əhalinin əmlakı daşınıb, mal-qara sürülüb aparılıb və ərazilər ermənilər tərəfindən tutulub və bu günün özünə qədər müsəlmanlar həmin yerlərə qayıtmaq imkanına malik deyildirlər.

Burada kiçik bir məruzədə hər bir kənd üzrə baş verən cinayət hallarını, ermənilərin müsəlman kəndlərinin əhalisinə qarşı törətdikləri vəhşiliklərin siyahısını ayrı-ayrılıqda sadalamaq mümkün deyil. Həmçinin misli görünməmiş qəddarlıq hallarının, insanların vəhşicəsinə öldürülməsinin, işgəncələrə məruz qalmasının qədərsiz sayını və hər bir kəndə olan qurbanların siyahısını da göstərmək imkan xaricindədir. Bütün bunlar ətraflı surətdə kifayət qədər geniş qəzanın araşdırılmasında və ona əlavə edilmiş akt və protokollarda şərh olunub, əksini tapmışdır. Burada isə yalnız ermənilərin dinc müsəlman əhalisinin başına gətirdikləri ən faciəvi və xüsusi qəddarlığı ilə seçilən hallar barəsində deyiləcəkdir.

Bütün sadalanan kəndlər üzrə 3.257 kişi, 2.276 qadın və 2.196 uşaq öldürülərək qətlə yetirilmiş, 1.060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır, yekun olaraq bütün müsəlman qəzasında hər iki cinsdən 10.068 insan öldürülmüş və şikəst edilmişdir. Lakin onu da qeyd etmək vacibdir ki, erməni vəhşiliklərinin bu dəhşətli martiroloqu - şəhidlərin siyahı kitabı çətin ki, reallığa yaxın olsun, həqiqətdə bu rəqəmlər göstərildiyindən xeyli artıq olmalıdır, çünki qəzanı bürüyən vəhşi bir xaosun, qarışıqlığın içində, sayı bilinməyən və nəzarət edilməsi qeyri-mümkün olan qətllərin içində bir çox hadisələr: kütləvi qətllər, müsəlmanların kütləvi və panik qaçışı üzündən araşdırılmamış qaldı. Şahidlərin ifadələrinə əsasən ermənilərin xüsusi qəddarlığı ilə insanları vəhşətə gətirən aşağıdakı hadisələr araşdırılıb təyin edilmişdir. Vağudi kəndinin erməni əsgərlərinə verilən 15 ən gözəl qızı başlarına gətirilən müsibətlərin şərəfsizliyinə, ləyaqətsizliyinə və onlara verilən işgəncələrə dözmədiklərindən və həmçinin fiziki əzablara tab gətirmədiklərindən ölüb getdilər; elə həmin kəndin özündə 400-ə yaxın müsəlman, kənd ermənilər tərəfindən dağıdılaraq talan ediləndə, müsibətlərdən yaxa qurtarmaq,

ermənilərin burada onlar toxunmayacaqlarına ümid bəsləyərək məscidə yığışırlar, lakin ermənilər məscidin girişlərini bağlayıb, pəncərələrdən içəri əl bombaları atıb, sonra da məscidi içindəki insanlarla birlikdə yandırdılar; elə həmin kənddə müsəlman gəlini Qədəm Tahir qızını xəncərlə doğradılar və onun döşlərini kəsib, elə doğrayıb öldürdükləri körpə uşağının ağzına verdilər; yenə həmin kəndə Yolçu Şıxhüseyn oğlunu öldürüb, ermənilər onun cinsiyyət orqanını kəsərək, elə ölünün öz ağzına soxdular; yenə həmin kənddə qızlardan Nisə Aman qızı, Əcəb Nuhbala qızı, Sona Cəfər qızı və Şahnalı Cəfər qızı ölənə kimi ermənilər tərəfindən zorlandılar; elə həmin kəndin yanında Gülməstə Qasım qızı öldürülmüşdü, onun döşlərini kəsib onurğa sütununa nal mıxlamışdılar; Nüvədi kəndində Ermənilər yüz yaşlı yatağından tərpənmək iqtidarında olmayan qocanı süngü ilə deşib qətlə yetirdilər; elə həmin kəndin küçələrində ermənilər qılıncla qaçıb canını qurtarmaq istəyən qadınların və uşaqların başların kəsdilər; Şəki kəndində küçələri döşləri kəsilən qadınların və iki yerə şaqqalanan balaca uşaqların meyitləri ilə dolu idi; İrmişlı kəndini viran qoyarkən ermənilər südəmər uşaqları süngüyə keçirdib göyə qaldırırdılar, ölənlərin tikə-tikə doğranmış cəsədləri tapılırdı; Ağudi kəndində ermənilər adamlardan xristian dinini qəbul etməyi tələb edir, qadınların döşlərini kəsib, körpə uşaqların ağızlarına soxurdular; Ağudi kəndində ermənilər Qulam Apiyə Şəkər oğlunun ayaqlarını diri-diri kəsib onu süngülərlə bizləyərək, şallaqla döyərək qanını itirib, ölənə qədər yeriməyə məcbur etdilər; elə həmin kəndin bütün gözəl qızları ermənilər tərəfindən əvvəl zorlandılar və sonra isə öldürüldülər; Çullu kəndində ermənilər yataqda xəstə yatan doqquz adamı qılıncdan keçirdilər; Bağırbəyli kəndində bir evə yeddi kişi və bir qadını salaraq, hamısını evlə bir yerdə diri-diri yandırdılar; Müsəlmanlar kəndində öldürülən insanların meyitləri o dərəcədə əcaib hala salınmışdı ki, onları tanımaq qeyri-mümkün idi - əlsiz, ayaqsız və başsız cəsədləri heç kim tanıya bilmirdi; Qatar kəndində möhtərəm ağsaqqalı sayılan Məşədi Qələndər Məşədi Qulu oğlu qətlə yetirilərək, üstünə kerosin tökülüb yandırılmışdı; elə həmin kəndə ermənilər Kərbalayi Allahverdi Hüseyn Əli oğlunun əl-ayağını bağlayıb, yerə yıxaraq mal kimi başını kəsdilər; Birinci Vartanazur kəndində qılıncla doğranan qadın və uşaqların sayı hesabı yox idi; İrəvan quberniyasının Novo- Bayazit qəzasının Rəhman-Əfəndi kəndində qoca İbrahim Hacı Hüseyn oğlunun gözlərini diri-diri çıxardılar, öldürdükdən sonra isə cəsədini yandırdılar.

Qəzanın müsəlman əhalisinin çəkdikləri müsibətlərin natamam siyahısı baxın bunlardan ibarətdir. Qadınların zorlanması, işgəncələrə məruz qalması və öldürülməsi halları o qədər çoxdur ki, indiki məruzədə onları sayıb qurtarmaq mümkün deyildir, şahidlər belə təsdiq edirlər ki, bu tipli faciələr, zorakılıqlar demək olar ki, qəzanın hər bir kəndində törədilirdi.

Müsəlman kəndlərinin əksəriyyətinin talan edilib, viran qoyulması general Andranikin qoşunlarının qəzanın ərazisinə soxulduqdan sonra baş verirdi və çoxsaylı şahidlər öz ifadələrində təsdiq ediblər ki, bütün qarətlər və qətllər əsasən onun rəhbərliyi altında həyata keçirilirdi və onun adından əhalidən təslim olmaq və qoşunlara itaət göstərmək tələb edilirdi. Hadisələr 1918-ci ilin yayında və payızında baş verirdi. Hücum edən ermənilərdən və quldur dəstələrinin başçılarından, şahidlərin verdikləri ifadələrdən və rəsmi sənədlərdən göründüyü kimi müsəlmanlar qatillərin çoxlarını tanıyırdılar, belələri yüzlərlədir və onlar vaxtı çatanda ayrı-ayrı cinayət işlərində cəzalarını alacaqlar. Aşağıda isə şahidlər tərəfindən tez-tez xatırlanan, birbaşa müsəlman kəndlərinə hücumlara rəhbərlik edən, adları və familiyaları tam bilinən şəxslərin adları sadalanacaq. Bunlar məhz aşağıdakılardır: Goru şəhərinin sakinləri - Nikolay Osipov, Simon Mirumov, Darabas kəndindən - Şamir Şaxnazarov, Mehri kəndindən - David Arşak, Matvesov Vaçiantsı, Kovar kəndini sakini - Hamazasp, Qyalür kəndindən - Ağabəy məlik Oqacanov, Astazur kəndindən - gizir Ağabəy Mudusi Latvakanov, elə həmin kəndin sakini - Nikolay Barsamov, "Yapon" ləqəbli sürgünə göndərilmiş qaçaq erməni, Ostazurlu keşiş Ter-David, Darabas kənd sakinləri - David və Kaspar Keşişovlar, Axlatian kəndindən - Ovakim Qevorkov və Yaqub Arustamov, Qalacı kənd sakinləri - İvan Martirosov, Manuçar Poqosov, Aqalo Oqacanov, Dulus kəndindən - Nepoqos Kapriyelov, Sarkiscan Tevosov, Darabas kəndindən - Stepan Poqosov, Aleksandr Kukiyev, Sirkatas - kəndindən Misrop Kuniyev, Efrem Rüstəmov, Kuris kəndindən - Lalazar və Qərib Qəribovlar, Savkar kəndindən - Xuba Davidov, David Mnasakonov, Manuçar Tyüniyev, Arçazur kəndindən - Konstant Asriyev, Xotanan kəndindən - zabit Ovanes Ter-Petrosov, Axtaxana kəndinin keşişi Ter-Qrikor Ter-Minasov, mühəndis Sumbat Məlik Stepanov, Qeryusax şəhərində yaşayan keçmiş polis pristavı (rəisi) İsaak Buşinüyev və Seretakov, Muqancuk kəndindən - Dadaş və Xaçaeur Osinov, Gülgüm kəndindən - Tevi Mnasakanov, Uqurçal kənd icmasının keçmiş kəndxudası Nikolay Petrosov, Bız kəndindən - Samson Məlik-Parsadanov, Akarak kəndindən - İvan Kazarov, Ayrapet Stepanov, Efrem Aqğaxanov, Arnik Simonov, Arçazur kəndindən - Sumbat Məlik -Stepanov və Kovar kəndindən -Aqolo Poqosov.

Zəngəzur qəzasının yüzdən yuxarı müsəlman kəndinin viran qoyulub, talanması on minlərlə iribuynuzlu mal-qaranın, bir neçə yüz min qoyunun qovulub aparılması, bağların, əkinlərin məhv edilməsi, bütün bunlar müsəlmanların iqtisadi vəziyyətini kökündən laxlamasına gətirib çıxardı, qəzada dilənçi kökünə düşüb, Azərbaycanın başqa kəndlərinə qaçan əhalinin sayı 50.000 nəfəri ötdü. Dəyən ziyanın ən minimum məbləği milyard manat ətrafında oldu.

***(Mənbə: ARDA, fond 970, siyahı 10, iş 161, vərəq 1-9)***

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Fövqəladə Təhqiqat Komissiyanın üzvü A.Novatskinin məruzəsi**

Elə həmin komissiyanın sədri cənablarına Quba şəhərinin dağıdılması və Quba qəzasının kəndlərində yerli əhaliyə qarşı törədilən vəhşiliklər və zorakılıqlar haqqında.

1918-ci ilin aprel ayında Bakı şəhəri və Bakı quberniyası bolşeviklərin əlində olarkən, 187 nəfərdən ibarət silahlı dəstə ilə bolşevik partiyasının nümayəndəsi David Gelovani Qubaya daxil olaraq, özünü Quba qəzasının Komissarı elan edib, yerli əhali tərəfindən təcili olaraq sovetlərin hakimiyyətinin tanınmasını tələb etdi. Qubalılar bu tələbi yerinə yetirdilər. Gelovani şəhərdə bolşevik idarə üsulunu tətbiq etməyə başladı. Quba müsəlmanlarının dinc əhval-ruhiyyəsinə tam əmin olduqdan sonra, o, tərksilah edilib, saxlanılmağa Quba türməsinə göndərilmiş 200 yaxın erməni dustaqlar üçün yerli müsəlman əhalisi tərəfindən heç bir təhlükənin olmayacağına arxayın olduqdan sonra, erməni məhbusların hamısını azadlığa buraxdı.

Bir neçə gün bu minvalla sakit ötüşdü. Birdən, qubalılar üçün gözlənilmədən, dağlar tərəfdən ləzgi kəndlərinin əhalisindən ibarət olan silahlı dəstə şəhərə yaxınlaşaraq, Gelovanidən şəhəri buraxmaq və əsir kimi təslim olmaq tələb olundu. Gelovani ləzgilərin bu təklifini rədd etdi. Ləzgilər şəhəri atəşə tutmağa başladılar. Bir-neçə günlüyə uzanan atışma başladı. Gelovanin köməyinə bir top və pulemyotlarla silahlanmış əsgər dəstəsi gəldi. Bu köməyə baxmayaraq, ermənilər ləzgilərin qarşısında duruş gətirə bilmədilər və şəhəri tərk etmək məcburiyyətində qaldılar. O, şəhəri tərk edərkən özü ilə şəhərin əksəriyyəti ermənilərdən ibarət olan bütün xristian əhalisini zorla apardı. Ləzgilər geri çəkilənlərin təqibini davam edərək, yol boyu onları atəşə tuturdular. Atışmada Gelovanin çıxarıb apardığı dinc xristian əhalidən bir neçə nəfəri həlak oldu. Onlardan - erməni Maçak Kasparov, erməni keşişi Aleksandr Baqdanov, Duxol Poqosov, ruslardan - provaslav keşişi, əczaçı Qolubçik, aksiz məmuru Polesnı, meşəbəyi Abrosimov, doktor Mixels və bir çox başqaları. Gelovani öz dəstəsi və sağ qalanlar qaçqınlarla birlikdə çıxıb getdi. Bundan sonra şəhərdə sakit və dinc həyat davam edirdi. Ləzgilərin silahlı dəstələri Gelovanini Qubanı tərk etməyə məcbur etdikdən sonra, evlərinə dağılışdılar.

Yuxarıda təsvir edilən hadisələrdən təxminən iki həftə sonra, Qubaya belə bir xəbər çatdı ki, Bakıdan Qubaya pulemyot və toplarla silahlanmış böyük qoşun dəstələri hərəkət edir. Şəhər əhalisindən bəziləri əmlak və mülklərini başlı-başına buraxaraq, meşələrə qaçdılar, lakin əhalinin əksəriyyəti Qubaya yönələn qoşun dəstələrinin onlara qarşı hər hansı bir təhlükə törədə biləcəklərini gümanlarını belə gətirmədiklərindən, evlərini tərk etmədilər. 1918-ci il may ayının birində səhər tezdən tərkib etibarı ilə əsasən ermənilərdən ibarət olan, artıq yuxarıda adını çəkdiyimiz dəstə, məşhur daşnaksakan Hamazasp və onun köməkçisi Nikolayın başçılığı altında, şəhəri mühasirəyə alıb, onu tüfəng, pulemyot və toplardan atəşə tutdular. Araya dəhşətli bir vahimə və qarışıqlıq düşdü. Silahlılar demək olar ki, heç bir müqavimət görmədən şəhərə daxil oldular. Şəhərin ələ keçirilməsi müsəlman əhalinin vəhşicəsinə döyülməsi və onların başına ağlasığmaz vəhşiliklərin, müsibətlərin gətirilməsi ilə müşayiət edilirdi. Ermənilər küçələrdə qarşılarına çıxan uşaq və qadın və kişiləri qəddarcasına öldürür; evlərə soxularaq bütün ailələri görünməmiş qəddar bir vəhşiliklə qətlə yetirirdilər. Onlar hətta südəmər uşaqlara belə aman vermədən, onları analarının qucağında güllələyirdilər, xəncərlə doğrayırdılar. Məsələn, bu minvalla öldürülənlərdən 14 nəfərdən ibarət ailəsi olan Kərbalayi Məmməd Tağının ailəsini; qarnı xəncərlə doğranan və balalarının başı kəsilən üç uşaq atası Məmməd Rəsulu; evlərində arvadı Məşədi Bibixanım və oğlu Abdul Qasımla od vurulub yandırılan Hacı Dadaşbala Qasımın ailəsini; Hakimə və Püstə adlı iki qızı anasının sinəsində doğranan Kərbalayı Abuzər Məstan oğlunun ailəsini; bir neçə uşağı ilə birlikdə qətlə yetirilən Məşədi Qəmbər Molla-məhəmməd Saleh oğlunun ailəsini sadalamaq olar. Bunlardan savayı Molla Şahbaz, usta Məhəmməd Bayram oğlu oğlu ilə birlikdə, Məşədi Musa Zeynal oğlu, Məşədi Əli Məşədi Feyzulla oğlu, Kərbalayı Dadaş Bağır oğlu, Cabbar Məmmədəli oğlu, Saibə, Səfərəli Məşədi Talıb oğlu və bir çox başqaları da öldürülmüşdü. Şəhərə hücum edən erməni quldur dəstələri tərəfindən ələ salmaq və əzab vermək halları da az olmamışdı; məsələn, əsgərlər möhtərəm ağsaqqallara özləri üçün müsəlman qadınlarının gətirilməsini əmr edirdilər. Belə əmrləri yerinə yetirməkdən imtina etdikləri üçün Əlipaşa Kərbəlayı Məhərrəm oğlu öz oğlu ilə birlikdə qətlə yetirildi, ən dəhşətlisi də o idi ki, əvvəl atanın gözləri qarşısında oğlunun gözlərin çıxardıb, üzünü doğradılar, qarnını parçaladılar. Öldürülən qadın kişi və uşaqların ümumi sayı iki min ətrafında idi. Ermənilər adları qohumları tərəfindən gizlədilən yüzə yaxın müsəlman qadınını və qızları zorladılar. Müsəlmanların əmlakı qarət olunurdu. İctimai xadimlərin hesablamalarına görə Qubada Hamazaspın dəstələri tərəfindən dörd milyon nağd pul, dörd milyon beş yüz min dəyərində qızıl və qızıl əşyaları, qiymətli daş-qaş, 25 milyon rubl dəyərində qida ehtiyatları və müxtəlif mallar qarət olunub ermənilər tərəfindən daşınmışdı. Bunlardan savayı Hamazaspın dəstələri Qubada İbrahim bəy Şıxlyarskiyə, Məşədə Əli Hüseynova, Orucəli Əhmədova. Bəkir Mehrəliyeva, Səttar Məmmədyarova, Hidayət Əmirbəyova, Qafar Orucova, Yusif bəy Abusalambəyova, və başqalarına məxsus olan 105 bina və tikintiləri, müsəlman idarələri yerləşən binaları od vurub yandırmışdı. Yanğınlar nəticəsində zərərçəkənlərə dəyən ziyanın məbləği yüz milyon rubl həcmində idi.

Hamazaspın dəstələri Qubaya çatana kimi hərəkət etdikləri istiqamətdə - qarşılarına çıxan dəmir yolunun hər iki tərəfində yerləşən bütün müsəlman kəndlərinə hücum edirdilər, evləri yandırırdılar, dağıdırdılar, əmlaklarını talan edirdilər, qaçmağa imkan tapmayan sakinləri isə uşaq, qadın olduğuna rəhm etmədən öldürürdülər. Bəzən elə hallar olurdu ki, ermənilərlə danışıqlara cəhd etmək üçün kəndlilər onların üstünə itaət göstərməyə, təslim olmağa hazır olduqlarını bildirmək məqsədilə ağ bayraqlarla nümayəndələrini göndərirdilər, lakin ermənilər onlarla heç bir danışıqlara başlamadan hamısını gülləyərdilər, onların gəldikləri kəndləri isə talayaraq, yerlə yeksan edirdilər. Belə bir hadisə, məsələn, Əlixanlı cəmiyyətində olmuşdu: burada erməni dəstəsi onlara parlamentari kimi təşrif gətirən kəndxuda Mirzə Məmməd Dadaş oğlu və Gülhüseyn Məmməd oğlunu heç bir danışıqsız öldürdülər. Buna oxşar başqa bir hadisə Dəvəçi cəmiyyətində baş vermişdi, belə ki, Dəvəçi bazar və Qızılburun kəndlərinin sakinləri on beş nəfər hörmətli ağsaqqallarını duz-çörəklə ermənilərlə danışıqlara göndərdilər. Ermənilər duz-çörəyi qəbul etmədən, barışığa gələnlərin hamısını son nəfərinədək qətlə yetirdilər. Hamazaspın ermənilərdən ibarət ordusu öz vəhşiliklərinə heç bir sərhəd qoymadan, hətta müsəlmanların dini hisslərinə belə hörmət qoymurdu: onlar tərəfindən çoxlu məscidlər yandırıldı, müsəlmanların müqəddəs Qurani Kərim kitabı isə tikə-tikə cırılıb ayaqlar altına atılır, yandırılırdı. Müəyyən edilmişdir ki, Hamazaspın dəstəsi Quba qəzasında 122 müsəlman kəndini yandırıb, qarət edib: Dəvəçi, Saadan, Çarxana, Daryazerost, Zağlıcan, Əlixanlı, Eynibulaq, Ərəb Əl-Məmməd, Ağasıbəyli, Kolanı, Ərəb Həmiyə, Tuqay, Nardərin, Siyəzən, Razimli, Sürra, Qulamyar, But-But, Andrey-Abad, Xəliyar, Qaraqaşlı, Aşağı-Kuşi, Sarvan, Əmirxaim, Tura, Aygün, Cey, Qiblə-Qrez, Qara-Qurtlu, Karaç, Narican, Xudat, Aşağı Buduq, Xaçmaz stansiyası, Təzə və Köhnə Xaçmaz, Mürşüd Sube, Əzilyar, Qaraqıllı, Nabur, Xasbulat, Bibişi, Babaşlı, Aşali, Mehrəli, Bəy-Qışlaq, Canafur-Qışlaq, Küleş-Qışlaq, Yusif-Qışlaq, Qui-Quraki, Dendenik, Çarxi, Mürsəli - Qışlaq, Xırda-Oymaq, Qaraçaylı, Lanluk-Oba, Xızrı Fəriz, Er-Qoc, Qululi, Həsən-Əfəndi, Ərəb, Ərəb-Sof, Qara-Bağı, Çaxmaqlı, Caqatay, Kazsıniye-İlxı, Avaran, Xural, Çiləgir, İkinci-Xazri, Acıaxur, Zubul, Düz-Tahir, Okur, Böyük Moruq, Qican, Qusar, İmam-Kulu, Yuxarı-Zeyxur, Həsən-Qala, Urva, Aşağelik, Aşağı Leki-Hil, Köhnə Xudat, Avxçik, Daştı-Yataq, Teki, Kasiş-Qışlaq, Əlibey-Qışlaq, İqriq, Anıx, Aşağı Xuc, Alpan, Digah, Elzik, Mirzə-Məmməd-Kənd, Üçkənd, Hacı-Qayib qışlaq, Susay, Xucbala, Cimi, Rustov, Yenqikənd, Hiləbi, Çiçi, Söhüb, Nudin, Zərqova, Afurca. Bu kəndlərin talanı zamanı 60 kişi, qadın və uşaq öldürülüb, 53 kişi yaralanıb. Evlərin dağıdılması, qarətlər və dinc əhalinin daşınan əmlaklarının və mal-qaralarının talanları nəticəsində Hamazaspın yuxarıda adları sadalanan kəndlərin yerli əhalisinə vurduğu ziyanın məbləği 58.121. 059 rubl civarında idi.

Adı xatırlanan Gelovaninin ifadələrindən görünür ki, Hamazaspın dəstəsi Qubaya cəza tədbirləri üçün komissar Şaumyanın arzusu ilə başqa komissarala bildirilmədən və onların razılığı alınmadan göndərilmişdir. Orduya adamların səfərbərliyə alınması ilə bağlı işlər hərbi komissar Karqanov tərəfindən həyata keçirilib və dəstə təxminən iki min nəfərdən ibarət olmaq şərtilə əsasən "Daşnaksutyun" partiyasının üzvü olan ermənilərdən təşkil edilib və ordunun başına məşhur daşnak Hamazasp qoyulub. Dəstənin komissarı Venunü adlı birisi təyin edilmişdi, "cəza dəstəsi" adını alan bu dəstə heç bir siyasi məqsəd güdmürdü. Bu faktı Hamazasp özü Qubada etdiyi çıxışlarda etiraf etmişdi. O çıxışlarının birində çəkinmədən açıq-aşkar belə bəyan etdi: "Mən erməni xalqın qəhrəmanı və bu xalqın maraqlarının müdafiəçisiyəm. Mən buraya (Qubaya) cəza dəstəsi ilə ona görə göndərilmişəm ki, iki həftə bundan əvvəl burada öldürülən ermənilərin qisasını alım. Mən bura qanun - qaydanın bərpası və Sovet hakimiyyətinin qoyulması üçün göndərilməmişəm, mən bura sizin öldürdüyünüz ermənilərin sizdən qisasını almaq üçün göndərilmişəm və mənə əmr edilib ki, Şirvanda (Şamaxıda) etdiyim kimi, dənizin (Xəzər dənizinin) sahilindən Şah dağa (Dağıstana kimi) qədər ərazilərdə olan bütün müsəlmanları məhv edim və sizin evlərinizi yerlə yeksan edim, sizin və türklərin qırdığı bizim erməni qardaşlarımızın qanını yerdə qoymayım, lakin mən sizə rəhm etdim".

Hamazaspın "cəza dəstəsində" onun özündən, komissar Veruns və köməkçisi Nikolaydan başqa Quba əhalisindən törədilən cinayətlərdə iştirak edən aşağıdakı şəhər sakinlərinin də adları vardır: Arutyun Ayrepetov, dəllək Cavad, Arutyunov, Avakov, balıq sənayeçisinin oğlu Avakov, tələbə Amircanovlar. Tacir Mirzə Əmircanovun qardaşı və bacısı oğlanları, Mirzə Əmircanovun özü, dükançı Məlikov, Vartan, Quba şəhərində evi olan Qriqorinin oğlu, Arutyun, dəyirmanı olan Mirzəcanın nəvəsi, Vartan Avakov, Arutyun Babaoğlu, Aleksandr Mukasyans, Tateos Yaqub oğlu, Babacan oğlu ilə birlikdə, Arutyun Karapet oğlu iki oğlu və qardaşı oğlu ilə birlikdə. Ermənilərlə cinayət əməllərində iştirak edən bu insanları Quba şəhər sakinlərindən hadisələrdə zərərçəkənlər: Şəhərli Məşədi İbad Bağırov, Kərbalayı Abuzər Məstan oğlu, Məşədi Hüseynqulu Bağırov, Məşədi Həmdulla Əliyev, Şükür Turab oğlu, Məşədi Molla Yusifxan Hacı Əhməd Əli Murad oğlu və Molla Hacı Baba Axundzadə tərəfindən təsdiq edilmişdi.

Şərh olunanlar adları sadalanan zərərçəkənlərdən başqa, aşağıdakı Quba şəhər sakinlərinin zərərçəkənləri tərəfindən də təsdiqlənmişdir: Məmmədəli Kərbəlayı İrzaqulu Sultanov, Meşədi Sultan Əsgərov, Məşədi Hacı Ağa Kərbalayı Əhməd oğlu, Mirələkbər Mirməmməd oğlu, axmaq Məşədi Talıb qızı, Kərbalayı Paşa Turab oğlu, Zəhra Yusif qızı, Molla şeyx Hüseyn Axundzadə, Dimini kənd kəndxudası Şaban Şərkər oğlu, Saadan

kənd icmasının kəndxuda Dadaş Musa oğlu, Tuqoy icmasının kəndxudası Hüseyn Əlibəy Qüseynbəy oğlu, Boyət icmasının kəndxudası Bilal Məşədi Məmmədbağır oğlu, Cey icmasının kəndxudası İsrafil Məmməd oğlu, Qiblə-key kənd mollası Molla Seyfəddin İxtiyat oğlu, Qaraqurdlu icmasının kəndxudası Şeyda Şıxəli oğlu, Seyidlər kənd sakinlərindən Hacı Seyid Abdulxaliq Hacıseyid oğlu, Noraşen kənd icmasının kəndxudası Xanməmməd Barat oğlu, Şollar kən sakinlərindən Rəsul Xanmməd oğlu, Aşağı-Buduq kənd icmasının kəndxudası Məstan Nəsir oğlu, mülkədar Həsən bəy Şıxlarski, Susay kənd sakinlərindən Ulubəy Xeyirbəyoğlu, Avaran kənd icmasının kəndxudası Hacı Şeyda Nəzəralı oğlu, Narcan kən sakinlərindən İbrahim Zahidov, Nügədi icmasının kəndxudası Rüstəm Fineydan oğlu, Möhüc cəmiyyətinin ağsaqqalı, Rza Səfəpəli oğlu, Möhüc kən sakinlərindən Murad Rəsul oğlu, Fitulla Cəfər oğlu, Amsar icmasının kəndxudasının Kərim oğlu və Alpan kənd mülkədarı Bəybalabəy Qaibov. Və eyni zamanda zərərçəkən icmalar tərəfindən tərtib edilmiş Quba şəhərinə baxış protokolu və aktında bu hadisələrin təsdiqi öz əksini tapmışdır.

Yuxarıda yazılanları əsas tutaraq, belə hesab edirəm ki, Quba şəhərini darmadağın edən, Quba qəzasının 122 kəndini viran qoyan yuxarıda adları sadalanan "cəza dəstəsinin" üzvlərinə - Hamazasp, onun köməkçisi Nikolay, komissar Venuns Arutyun, Ayrapetov, dəllək Cavad, Avakov, Əmircanov və başqalarına qarşı onların törətdikləri cinayətlərlə bağlı onlara qarşı Qanunlar toplusunun 13, 129, 927, 1633. 1453, 1607 maddələri ilə cinayət işi açılsın. Keçmiş komissarlardan Şaumyan və Karqanova qarşı isə onların ölümü ilə bağlı olaraq cinayət işi açılmasın.

**Şamaxıda ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı**
**(1918-ci il)**

**Qəbiristan nahiyəsi**
1. Mərəzə
2. Şıxlar
3. Çuxanlı
4. Sündü
5. Mirzəyandigah
6. Nabur
7. Təklə-Hacı Məmməd Hüseyn
8. Yekəxana-Talib
9. Qurbançı
10. Ərəbşahverdi
11. Ərəbşalbaş
12. Cəmcəmli
13. Sıxzahırlı
14. Qaracüzlü
15. Təsi
16. Təkləmirzəbaba
17. Bəklə
18. Çəyirli
19. Ərəbqədim

**Mədrəsə nahiyəsi**
1. Quşçu
2. Çaylı
3. Avirikənd
4. Muğanlı
5. Murta
6. Talış-Muğan-Nuru
7. Şərədil
8. Qaravəli-Vahid bəy
9. Adnalı
10. Kurdamiç
11. Qonaqkənd
12. Həmyəli
13. Cabanı
14. Çaylı-Baxışbəy
15. Malgalı
16. Yuxarı Çağan
17. Məlcək
18. Hanıslı
19. Ağabəyli
20. Axtaçı
21. Bico
22. Alpaut
23. Osmanbəyli
24. Ləngəviz
25. Kaşad
26. Keştimar
27. Çarxan
28. Nüyədi
29. Boyat
30. Dədəgünəş
31. Aşağı Çağan

32. Əngəxaran
33. Begalı
34. Cavanşir
35. Ağsu
36. Şah-Mazid
37. Çapanı
38. Borbor-Navahi
39. Bağırlı
40. Ovçulu
41. Poylyar

**Qoşun nahiyəsi**

1. Birinci Nügədi
2. Nuran
3. Zeyla
4. Pur Qara-Çuxa
5. Suraxanı
6. Kiçatan
7. Koleybugut
8. Şabian
9. Maçahi
10. Tağlabiyan
11. Kelerarac
12. Koyurdivan
13. Pir Əbdül-Qasım
14. Bizlyan
15. Müdji
16. Gaciman
17. Dilman
18. Kelva (Nevla)
19. Hatman
20. Hosa-dara
21. Sulut
22. Tircan
23. Talış-Nuri
24. Hon-kend
25. Sardagar
26. Zargava

***(Mənbə: ARDA, fond 970, siyahı 1, iş 50, vərəq )***

**Quba qəzasında ermənilər tərəfindən qarət edilən və dağıdılan kəndlərin siyahısı (1918-ci il)**

1. Dəvəçi
2. Səədan
3. Çarxana
4. Dərə Zarat
5. Zağlıcan (Sağolcan)
6. Əlixanlı
7. Eynibulaq
8. Ərəb Alməmməd
9. Ağasıbəyli
10. Kolanı
11. Ərəb-Xamiyə
12. Tuqay
13. Nardərə
14. Siyəzən
15. Rəhimli
16. Surra
17. Qulamlar
18. Buduq
19. Xəlillər
20. Qaraqaşlı
21. Aşağı Quşçu
22. Sarvan
23. Əmirxanlı
24. Tura
25. Aygün
26. Cey
27. Kibla-Qraz
28. Qaraqurtlu
29. Qaraçı
30. Naracan
31. Xudat
32. Aşağı Buduq
33. Xaçmaz stansiyası
34. Köhnə Xaçmaz
35. Yeni Xaçmaz
36. Mürşüdoba
37. Əzizlər
38. Qaragilli
39. Nabur
40. Xaspoladoba
41. Bibişi
42. Babaşlı
43. Aşəli
44. Mehralı
45. Böyük Qışlaq
46. Canafur-Qışlağı
47. Çarxı
48. Xırda Oymaq
49. Qaraçaylı
50. Lanlukoba
51. Küləş Qışlağı
52. Yusif Qışlağı
53. Qabuqırağı
54. Mürsəlli Qışlağı

55. Xızır Fəriz
56. Yergüc
57. Qululu (Hülövlü)
58. Həsən Əfəndi
59. Ərəb
60. Ərəb Sofu
61. Qarabağlı
62. Çaxmaxlı
63. Ciğatay (Xaçmaz)
64. İlxıçı
65. Avaran
66. Xural
67. Çiləkir
68. II Həzrə
69. Əcəxür
70. Zubul
71. Dustair
72. Oxur
73. Böyük Mruq
74. Hican
75. Qusar
76. İmamqulu
77. Yuxarı Zuxur
78. Hasanqala
79. Urva
80. Aşağıəlik
81. Aşağı Ləki-xel
82. Köhnə Xudat
83. Əvəcüğ
84. Zeyxur
85. Quzuqışlaq
86. Gədəzeyxur
87. Yasab
88. Nügədi
89. Amsar
90. Əski-İqrıc
91. Daşdı-Yataq
92. Təkyə
93. Qımılqışlağı
94. Əlibəy qışlağı
95. İqrıx
96. Anıx (Əniq)
97. Aşağı Xuç
98. Alpan
99. Digah
100. Elzi k
101. Mirzə Məmməd kəndi
102. Üçkən
103. Gilabi
104. Çiçi
105. Söhüb
105. Hacıqaib
106. Zərqova
107. Afurca

***(Mənbə: ARDA, fond 1061, siyahı 1, iş 95, vərəq 5-8.)***

**1918-ci ildə İrəvan quberniyasında dağılmış və boşaldılmış azərbaycanlı yaşayış məntəqələrinin siyahısı**

| № | Qəzanın, milis sahəsinin və kəndin adı | Təsərrüfat-ların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| | **İrəvan qəzası**<br>***I milis sahəsi*** | | |
| 1. | Damagirməz | 70 | 387 |
| 2. | Zar | 170 | 706 |
| 3. | Kamal | 100 | 625 |
| 4. | Küzəcik | 24 | 119 |
| 5. | Məngüs | 90 | 426 |
| 6. | Oxçavert | 115 | 493 |
| 7. | Tutiyə | 40 | 208 |
| 8. | Kərpicli | 32 | 188 |
| 9. | Tatar-Koxtu | 20 | 79 |
| 10. | Əliqırıx | 37 | 202 |
| | ***II milis sahəsi*** | | |
| 11. | Ağhamzalı | 143 | 843 |
| 12. | Cəbəcili | 63 | 355 |
| 13. | Xarratlı | 62 | 496 |
| 14. | Uluxanlı | 500 | 3173 |
| 15. | Qaradağlı | 62 | 496 |
| 16. | Sarcalar | 64 | 638 |
| 17. | Reyhanlı | 56 | 442 |
| 18. | Həbilkəndi | 34 | 256 |
| | ***III milis sahəsi*** | | |
| 19. | Sabınçı | 35 | 202 |
| 20. | Qəmərli | 151 | 870 |
| 21. | Torpaqqala | 56 | 415 |
| 22. | Qaraqoyunlu | 67 | 432 |
| 23. | Düyün | 92 | 432 |
| 24. | Buzovand | 28 | 96 |
| 25. | Qarahamzalı | 160 | 815 |
| 26. | Alpava | 28 | 206 |
| 27. | Doqquz | 36 | 210 |
| 28. | İpəkli | 37 | 185 |
| 29. | Ağbaş | 19 | 132 |
| 30. | Novruzlu | 16 | 231 |
| 31. | Yamancalı | 107 | 763 |
| | ***IV milis sahəsi*** | | |
| 32. | Sədərək | 500 | 4117 |
| | Cəmi qəza üzrə | 3015 | 19005 |
| | **Sürməli qəzası** | | |
| | ***I milis sahəsi*** | | |
| 33. | Əligöyçək | 69 | 467 |
| 34. | Yuxarı Bəndəmurad | 13 | 107 |
| 35. | Aşağı Bəndəmurad | 12 | 232 |
| 36. | Kündə | 16 | 249 |
| 37. | Daşlıca | 17 | 171 |
| 38. | Asma | 35 | 147 |
| 39. | Qaragüney | 53 | 637 |

| | | | |
|---|---|---|---|
| 40. | Göyçək | 18 | 336 |
| 41. | Qızıl Qala | 18 | 109 |
| 42. | Qarahasar | 24 | 266 |
| 43. | Siçanlı | 18 | 109 |
| 44. | Arxacı | 193 | 2021 |
| 45. | İydir Mava | 262 | 1672 |
| 46. | Mələkli | 361 | 2100 |
| 47. | Sultanabad | 26 | 190 |
| 48. | Ağaməhəmməd | 130 | 620 |
| 49. | Ağaverdi | 42 | 206 |
| 50. | Ərəbkirli | 83 | 344 |
| 51. | Qasımcan | 80 | 363 |
| 52. | Quzukənd | 46 | 236 |
| 53. | Qazançı | 121 | 583 |
| 54. | Kiti | 165 | 751 |
| 55. | Güllük | 101 | 760 |
| 56. | Oba | 120 | 720 |
| 57. | Sarıçoban | 63 | 338 |
| 58. | Yuxarı Çarıxçı | 42 | 222 |
| 59. | Aşağı Çarıxçı | 15 | 144 |
| 60. | Yaycı | 226 | 1500 |
| 61. | Amarət | 40 | 254 |
| 62. | Xaraba Əlican | 145 | 832 |
| 63. | Hüseynkəndi | 79 | 550 |
| 64. | Zülfüqar | 82 | 515 |
| 65. | Qızıl Zakir | 49 | 299 |
| 66. | Qazı Qışlağı | 90 | 406 |
| 67. | Mürşüdəli Qışlağı | 6 | 41 |
| 68. | Nəcəfəli | 11 | 127 |
| | **II milis sahəsi** | | |
| 69. | Həsənxan | 110 | 618 |
| 70. | Göyçəli | 80 | 600 |
| 71. | Cənnətabad | 240 | 2090 |
| 72. | Dizə | 300 | 1823 |
| 73. | Qaraqoyunlu | 28 | 139 |
| 74. | Kirəcbağ | 35 | 250 |
| 75. | Oğuzlu | 20 | 123 |
| 76. | Səfərqulu | 28 | 197 |
| 77. | Toxanşahlı Bayat | 63 | 658 |
| 78. | Toxanşahlı Qacar | 178 | 1076 |
| 79. | Xaraba Əlican | 42 | 239 |
| 80. | Şirəçi | 70 | 575 |
| | **III milis sahəsi** | | |
| 81. | İncə | 120 | 887 |
| 82. | Sürməli | 80 | 790 |
| 83. | Pirli | 92 | 870 |
| 84. | Osmangöy | 20 | 115 |
| 85. | Söyüdlü | 50 | 219 |
| 86. | Yuxarı Qatırlı | 46 | 528 |
| 87. | Cüvənli | 25 | 226 |
| 88. | Turabi | 70 | 337 |
| 89. | Mirzəxan | 21 | 208 |
| 90. | Suki | 39 | 356 |
| 91. | Pirsax | 56 | 523 |
| 92. | Əkərək | 72 | 658 |

| | | | |
|---|---|---|---|
| 93. | Qamışlı | 35 | 630 |
| 94. | Aşağı Qatırlı | 21 | 267 |
| 95. | Çinçavad | 12 | 202 |
| 96. | Kahin | 35 | 529 |
| 97. | Ağdaş | 46 | 210 |
| 98. | Ağabəy | 27 | 251 |
| 99. | Dəmirçixan | 83 | 812 |
| 100. | Qaracaviran | 53 | 779 |
| 101. | Yağlı | 31 | 588 |
| 102. | Əlikosa | 50 | 750 |
| 103. | Siçanlı | 50 | 673 |
| 104. | Daşlıca | 47 | 420 |
| 105. | Quru Ağac | 40 | 426 |
| 106. | Muça | 100 | 879 |
| 107. | Ərgov | 93 | 843 |
| | Cəmi qəza üzrə | 5493 | 41347 |
| | **Eçmiədzin qəzası**<br>***I milis sahəsi*** | | |
| 108. | Molla Dursun | 35 | 320 |
| 109. | Hacılar | 29 | 248 |
| 110. | Girampa | 26 | 130 |
| 111. | Ayarlı | 70 | 353 |
| 112. | Ağca Qala | 72 | 420 |
| 113. | Aramlı | 30 | 162 |
| 114. | Zeyvə | 108 | 622 |
| 115. | Kolanlı | 159 | 768 |
| 116. | Qarğabazar | 129 | 688 |
| 117. | Səfiabad | 29 | 243 |
| 118. | Gözlü Qəmərli | 89 | 411 |
| 119. | Qaraqoyunlu | 74 | 472 |
| 120. | Ayranlı | 39 | 370 |
| 121. | Batrınc | 75 | 526 |
| 122. | İkinci Ayranlı | 35 | 215 |
| 123. | Tossuz | 83 | 420 |
| 124. | Çobankərə | 388 | 2417 |
| | ***II milis sahəsi*** | | |
| 125. | Kiçik kənd | 32 | 370 |
| 126. | Persi | 42 | 323 |
| 127. | Təkiyə | 145 | 725 |
| 128. | Parpı | 173 | 1006 |
| 129. | Haxıs | 74 | 35 |
| 130. | Zeynalbulağı | 45 | 295 |
| 131. | Gödəkli | 24 | 242 |
| 132. | Üşü | 190 | 1380 |
| 133. | Nəziravan | 68 | 553 |
| 134. | Ayğırsaq | 25 | 209 |
| 135. | Qoşabulaq | 18 | 211 |
| 136. | Göytül | 27 | 208 |
| 137. | Qaraceyran | 65 | 395 |
| 138. | Kürdəli | 27 | 135 |
| 139. | Hamamlı | 82 | 208 |
| 140. | Tülnəbi | 52 | 379 |
| 141. | Əkərək | 99 | 629 |
| 142. | Ərgov | 70 | 280 |

| | | | |
|---|---|---|---|
| | ***III milis sahəsi*** | | |
| 143. | Yuxarı Qarxın | 213 | 1153 |
| 144. | Aşağı Qarxın | 120 | 625 |
| 145. | Şorkənd | 62 | 408 |
| 146. | Türkmənli | 54 | 510 |
| 147. | Molla Bədəl | 52 | 335 |
| 148. | Ağcaarx | 110 | 720 |
| 149. | Kərim arxı | 353 | 1700 |
| | Armudlu | 42 | 309 |
| 151. | İydəli | 143 | 880 |
| 152. | Canfəda | 218 | 1318 |
| 153. | Yuxarı Qulubəyli | 42 | 286 |
| 154. | Aşağı Qulubəyli | 40 | 518 |
| 155. | Saatlı | 43 | 247 |
| 156. | Qamışlı | 24 | 247 |
| 157. | Meteqala | 19 | 364 |
| 158. | Qatırabad | 30 | 195 |
| 159. | Rəncbər | 66 | 226 |
| 160. | Peziki | 32 | 264 |
| 161. | Xocayar | 27 | 236 |
| | ***IV milis sahəsi*** | | |
| 162. | Pirtikan | 64 | 496 |
| 163. | Pirmələk | 82 | 261 |
| 164. | Şeyx Hacı | 38 | 410 |
| 165. | Karvansaray | 85 | 210 |
| 166. | Əşnək | 145 | 677 |
| 167. | Aralıx | 62 | 358 |
| 168. | Quldərviş | 48 | 357 |
| 169. | Talın | 59 | 430 |
| 170. | Mehriban | 140 | 533 |
| 171. | İrind | 45 | 239 |
| 172. | Yuxarı Qarğaqovmaz | 70 | 384 |
| 173. | Aşağı Qarğaqovmaz | 42 | 253 |
| 174. | Aşağı Ağacaqala | 115 | 315 |
| 175. | Sabunçu | 32 | 165 |
| 176. | Ahaqçı | 44 | 327 |
| 177. | Yuxarı Qalaqut | 18 | 50 |
| 178. | Aşağı Qalaqut | 17 | 95 |
| 179. | Qaraqala | 18 | 108 |
| 180. | Qəzbin | 21 | 100 |
| 181. | Susuz | 18 | 90 |
| 182. | Knık | 19 | 91 |
| 183. | Mustafato | 60 | 289 |
| 184. | Bozbur (kürd) | 32 | 165 |
| 185. | Aylanlı | 100 | 300 |
| 186. | Seyranqışlağı | 15 | 83 |
| 187. | İlanqışlaq | 12 | 58 |
| 188. | Ucan | 90 | 300 |
| 189. | Bayramlı | 12 | 82 |
| 190. | Qədim Bəşir (kürd) | 32 | 165 |
| 191. | Yuxarı Ağcaqala | 100 | 308 |
| | Cəmi qəza üzrə | 5979 | 35784 |
| | **Novo-Bayazid qəzası**<br>***I milis sahəsi*** | | |

| | | | |
|---|---|---|---|
| 192. | Ərzəkənd | 80 | 593 |
| | ***II milis sahəsi*** | | |
| 193. | Ağzıbir | 116 | 755 |
| 194. | Bığlı | 112 | 658 |
| 195. | Ağtala | 62 | 424 |
| 196. | Əyrivəng | 96 | 706 |
| 197. | Hacı Muğan | 130 | 1034 |
| 198. | Rəhmankənd | 72 | 779 |
| | Cəmi qəza üzrə | 668 | 4649 |
| | Cəmi quberniya üzrə | 15 155 | 100 626 |

**1919-cu ilin son iki ayında ermənilərin İrəvan quberniyasında darmadağın etdikləri müsəlman kəndlərinin siyahısı**

**<u>Eçmiədzin qəzasında</u>**

| | | |
|---|---|---|
| 1. Hacılar | 22. Yuxarı Qarğaqovmaz | 43. Persi |
| 2. Molla Dursun | 23. Aşağı Qarğaqovmaz | 44. Parpı |
| 3. Törə | 24. Əşnək | 45. Zeynalbulağı |
| 4. Qaraqoyunlu | 25. Mehriban | 46. Zeyvə |
| 5. Ağcaqala | 26. Şeyx Hacı | 47. Birinci |
| 6. Kolanlı | 27. İrind | 48. İkinci Qulubəy |
| 7. Qəmərli | 28. Talın | 49. Ağcaarx |
| 8. Ayarlı | 29. Pirmələk | 50. Kərimarxı |
| 9. Batrınc | 30. Pirtikan | 51. Canfəda |
| 10. Ucan | 31. Ahaqçı | 52. İydəli |
| 11. Kəvi | 32. Aralıq | 53. Armudlu |
| 12. Avan | 33. Quldərviş | 54. Molla Bədəl |
| 13. Qaracalar | 34. Göytül | 55. Buzovand |
| 14. Maqda | 35. Ərgov | 56. Türkmənli |
| 15. Dian | 36. Qoşabulaq | 57. Kolanlı |
| 16. Talış Əkərək | 37. Gödəkli | 58. Səfiabad |
| 17. Bağçacıq | 38. Ayğırsaq | 59. Qəmərli |
| 18. Karvansara | 39. Üşü | 60. Qarğabazar |
| 19. Yaşıl | 40. Kiçikkənd | 61. Yuxarı Qarxın |
| 20. Yuxarı Ağcaqala | 41. Nəziravan | 62. Aşağı Qarxın |
| 21. Aşağı Ağcaqala | 42. Persi | |

**<u>II Sürməli qəzasında</u>**

| | |
|---|---|
| 1. Yaycı | 18. İkinci Arxacı |
| 2. Oba | 19. Üçüncü Arxacı |
| 3. Güllük | 20. Qaraqoyunlu |
| 4. Ağməhəmməd | 21. Zülfüqar |
| 5. Qasımcan | 22. Hüseynkəndi |
| 6. Ərəbkirli | 23. Səfər Qulu |
| 7. Quzukənd | 24. Cənnətabad |
| 8. Sarıçoban | 25. Aşağı Dizə |
| 9. Ağaverdi | 26. Yuxarı Dizə |
| 10. Sürməli | 27. Həsənxan |
| 11. Qazançı | 28. Kirəşbağ |
| 12. Nəcəfəli | 29. Oğuzlu |
| 13. Amarət | 30. Qızıl Zakir |
| 14. Mələkli | 31. Qurbanlı |

| | |
|---|---|
| 15. İydir Mava | 32. Dərəkəndi |
| 16. Sultanabad | 33. Pərni |
| 17. Birinci Arxacı | 34. Təpəbaşı |

**III. İrəvan qəzasında**

Zəngibasardan başqa bütün kəndlər (yəni 32 kənd).

***(Mənbə: ARDA, fond 894, siyahı 10, iş 80, vərəq 30-31)***

**Zəngəzur qəzasında dağıdılmış kəndlərin siyahısı
(1918-1919-cu illər)**

1. Ağüdü
2. Dərrabbas
3. Dulus
4. Qurdlar (Kürdlər)
5. Şəki
6. Urud
7. Vağüdü
8. İrmis
9. Baharlı
10. Qızılcıq
11. Dərəkənd
12. Qarakilsə
13. Məlikli (Mülüklü)
14. Dortnı (Dornı)
15. Dəvruz
16. Qaradığa
17. Oxtar
18. Çobanlı
19. Qarayulu
20. Çullu
21. Şabadin
22. Almalıx
23. Çanaxçı
24. Cıbıllı
25. Ağkənd
26. Turabxanlı
27. Qulud
28. Bekdaş
29. İncəvar
30. Siznək
31. Qaraçimən
32. Qatar
33. Seyidlər
34. Xələc
35. Daşnov
36. Baydaq
37. Noraşenik
38. Cicimli
39. Qyaqyalı
40. Qomarat
41. Dərzili
42. Qazançı
43. Şayıflı
44. Tağamir
45. Tey
46. Atqız
47. Şarikan
48. Dolutlu
49. Avqanlı
50. Tanzaver
51. Maj
52. 1-ci Xocahan
53. Yelməzli

54. Buğakar
55. Mülk
56. Bənəvşəpuş
57. I Vartanizor
58. II Vartanizor
59. Lehvaz
60. Əldərə
61. Mərzigit
62. Tuğut
63. Puşanlı
64. Razidərə
65. Məmməd İsmayıl
66. Guman-Dadanlı
67. Tatarkənd
68. Kollu Qışlaq
69. Zamlar
70. Əsgərlər
71. Qaragöl
72. Çuxur-Yurd
73. Nəcəflər
74. Qarakəlli
75. Şayıflı
76. I Qaqelu
77. II Qaqelu
78. Burunlu
79. Bürcəlilər
80. Günqışlaq
81. Canbar
82. Xırdakişilər
83. Tuafşalı
84. Şirikan
85. Qazançı
86. Qaralar
87. Gomaran
88. Xotanan
89. Oxtarlı
90. Xudayarlı
91. Şəkərli
92. Qılıclı
93. Tarnalı
94. Nüvədi
95. Tuqun
96. Baharlı
97. Sanalı
98. Səfiyurd
99. Kürqulu
100. Çataris
101. Pirveysli
102. Məşədi İsmayıllar
103. Burcalar-Dəzili
104. Subuklu
105. Mazmazak
106. Qazıqurdalı
107. Fərəcan
108. Suarası
109. Bayramuşağı
110. Köhnəkənd

111. Qışlaq
112. Zabux
113. Baylandur
114. Bağırbəyli
115. Keravis Abdallar

***(MƏNBƏ: ARDA, Fond 970, siyahı 10, iş 161, vərəq 1-9)***

**Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin qərarı (23 dekabr 1947-ci il)**

**№ 4083**
**23 dekabr 1947-ci il. Moskva, Kreml**

SSRİ Nazirlər Soveti qərarı alır:

1. 1948-1950-ci illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına könüllülük əsasında 100 min kolxozçu və digər azərbaycanlı əhalisi, onlardan: 10 min nəfər 1948-ci ildə, 40 min nəfər 1949-cu ildə və 50 min nəfər 1950-ci ildə köçürülsün.

2. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə bir vəzifə olaraq tapşırılsın:

a) kolxozçular və digər azərbaycanlı əhalisi arasında Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülənlərə dövlət tərəfindən təqdim edilən şəraitin və güzəştlərin izah edilməsini təşkil etsinlər;

b) köçürülən kolxozçularla onların getməsinə 10 gün qalmışdan gec olmayaraq işlənmiş əmək günləri üzrə kolxozların istehsal planlarında nəzərdə tutulmuş miqdarda tam hesablaşmanı təmin etsinlər;

c) köçürülənlərin şəxsi istifadəsində olan bütün əmlakın, mal-qaranın və quşların daşınmasını təmin etsinlər.

3. Nazirliklərin və idarələrin, təsisatların və müəssisələrin rəhbərlərinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən şəxsləri işdən azad etsinlər.

4. Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhali üçün aşağıdakı imtiyazlar müəyyən edilsin:

a) köçürülmələrə dövlət hesabına ödənişsiz gediş, hər ailəyə 2 tona qədər miqdarda mal-qara və əmlak aparılması imkanı verilsin;

b) Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən kolxozçulara SSRİ MİK və Xalq Komissarlığı Sovetinin 17 noyabr 1937-ci il tarixli 115/2043 saylı: "Kənd təsərrüfatı köçürülməsi üzrə güzəştlər haqqında" qərarı, məcburi süd tədarükü üzrə güzəştlər istisna olmaqla, aid edilsin;

c) köçürülən ailələr gedərkən ailə başçısına 1000 manat və hər ailə üzvünə 300 manat miqdarında qaytarılmayan pul müavinəti verilsin;

d) Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülmüş ailələrə məskunlaşma yerlərində nağd hesabla ailə başçısına 1,5 sentner və hər ailə üzvünə 0,5 sentner ərzaq taxılı satılsın.

5. Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə çıxdıqları yerlərdə tədarük təşkilatlarına dəyişmə qəbzləri ilə kənd təsərrüfatı məhsullarını (taxıl, kartof), habelə karantin şərtlərinə görə aparılması qadağan olunan mal-qaranı məskunlaşdırıldıqları yerlərdə həmin miqdarda məhsul və mal-qara alınması hüquqi ilə təhvil verməyə icazə verilsin.

6. Kənd Təsərrüfatı Bankına tapşırılsın:

a) Azərbaycan SSRİ-in Kür-Araz ovalığına köçürülənlərin ehtiyacı olanlarına yaşayış evləri və həyətyanı binalar tikilməsi üçün alındıqdan üç il sonra başlayaraq 10 il müddətində qaytarılmaqla bir təsərrüfata 20 min manata qədər məbləğdə kredit versin;

b) ehtiyacı olan köçürülənlərə mal-qara almaq üçün hər ailəyə 3 min manat məbləğində 5 il müddətinə, alındıqdan üç il sonra ödəməyə başlamaqla uzunmüddətli borclar versin.

7. Yollar Nazirliyinə tapşırılsın:

a) Ermənistan SSR Nazirlər Sovetinin sifarişləri üzrə azərbaycanlı əhalinin, onların əmlakının və mal - qarasının Azərbaycan SSR-ə təchiz olunmuş və dezinfeksiya edilmiş vaqonlarda xüsusi tərtib edilmiş eşelonlarla daşınmasını təmin etsin;

b) köçürülənlərin çıxdıqları yerlərdə Yollar Nazirliyinin, Azərbaycan SSR Nazirlər Sovetinin və Ermənistan SSR Nazirlər Sovetinin təsdiq etdikləri qrafikə uyğun olaraq vaqonlar üçün ödəniş alınmadan yol idarəsi tərəfindən vaqonların verilməsini həyata keçirsin. Azərbaycanlı əhalinin daşınmasına görə pul hesablaşmaları dəmir yolu idarəsinin təqdim etdiyi hesablar üzrə aparılsın.

8. SSRİ Səhiyyə Nazirliyinə tapşırılsın ki, bütün köçürülənlərin çıxış yerlərində tibbi baxışdan keçirilməsini, habelə onların getdikləri yolda tibbi-sanitariya xidmətini təmin etsin. Eşelonların müşayiət edilməsi üçün şəxsi heyət və lazımi dərmanlar ayırsın.

9. SSRİ Maliyyə Nazirliyinə tapşırılsın ki, azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsinin təmin edilməsi üçün Azərbaycan SSR-n 1948-ci il üçün büdcəsində zəruri xərcləri nəzərdə tutsun.

10. Ermənistan SSR Nazirlər Sovetinə və Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, bu Qərarı icra etmək məqsədilə bir ay müddətində Ermənistan SSR-dən köçürülən əhalinin köçürülməsi və Azərbaycan SSR - in Kür-Araz ovalığında yerləşdirilməsinin təmin edilməsi üzrə konkret tədbirlər işləyib hazırlasın və onlar barədə SSRİ Nazirlər Sovetinə məlumat versin.

11. Ermənistan SSR Nazirlər Sovetinə azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar olaraq onların azad olunmuş tikililərindən və yaşayış evlərindən Ermənistan SSR-ə gələn xarici ölkələrin ermənilərinin yerləşdirilməsi üçün istifadə etməsinə icazə verilsin.

**SSRİ Nazirlər Sovetinin sədri İ. Stalin.**
**SSRİ Nazirlər Sovetinin İşlər müdiri A. Çadayev**.

**Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında SSRİ Nazirlər Sovetinin qərarı**
**(10 mart 1948-ci il)**

**№ 754**
**10 mart 1948-ci il. Moskva, Kreml**

SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli 4083 saylı Qərarına əlavə olaraq SSRİ Nazirlər Soveti qərara alır:

1. Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına tamamilə köçürülmüş kolxozlara onlarda olan bütün istehsal vasitələrini (kənd təsərrüfatı maşınlarını, inventarı, canlı və mexaniki qoşqu vasitələrini, bütün növlərdən olan qara-malı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini və digər əmlakı, habelə natural və digər fondları) yardımçı müəssisələr (dəyirmanlar, dinglər, elektrik stansiyaları) və digər istehsalat, mədəni - məişət tikililəri istisna olmaqla, özlərilə aparmağa icazə verilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan SSR-in Kür-Araz ovalığına kolxozçuları köçürülən Ermənistan SSR-in kolxozları köçürülən kolxozçuların payına düşən daşınan əmlakı (kənd təsərrüfatı maşınlarını, inventarı, canlı və mexaniki qoşqu vasitələrini bütün növlərdən olan qara malı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini, natural və digər fondları) köçürülmə faizində onların tərkibinə daxil olduqları kolxozlara verirlər, onların payına düşən daşınmaz əmlakın (çoxillik bitkilərin, dəyirmanların, elektrik stansiyalarının və digər təsərrüfat və məişət tikililərinin) dəyəri isə Azərbaycan SSR Nazirlər Soveti və Ermənistan SSR Nazirlər Soveti tərəfindən müəyyən edilmiş müddətlərdə məskunlaşma yerlərindəki kolxozlara verilir.

3. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən kolxozlarla, kolxozçularla və digər azərbaycanlı əhali ilə onların Ermənistan SSR-də saxladıqları əmlaka görə hesablaşmaların qaydasını bir ay müddətində müəyyən etsinlər.

4. Ermənistan SSR Nazirlər Sovetinə və Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, köçürülən kolxozçulara, həmçinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən fəhlələrə və qulluqçulara çıxma yerlərində onlara məxsus evlərin satılmasında kömək etsinlər.

5. Azərbaycan SSR Nazirlər Sovetinin köçürülən əhalinin təsərrüfat quruluşu və kolxoz təsərrüfatlarını köçürülməsi şöbəsinin Azərbaycan SSR Nazirlər Sovetinin köçürülmə idarəsinə çevrilməsi məqsədəuyğun hesab edilsin.

6. Kür-Araz Ovalığında Susuvarılan Torpaqların Mənimsənilməsi İdarəsinə köçürülən kolxozlara, köçürülən kolxozçulara texniki yardım və inşaat materialları ilə təmin edilməkdə yardım edilməsi, habelə göstərilən köçürülmələrin abad məskunlaşması üçün zəruri olan yardımçı müəssisələrin tikilməsi həvalə edilsin.

7. Azərbaycan SSR Nazirlər Sovetinə və SSRİ Kənd Təsərrüfatı Nazirliyinə "Azərköçürmətikinti" kontorunun bazasında "Azərköçürmətikinti" tresti, onun Kür-Araz Ovalığında Susuvarılan Torpaqların Mənimsənilməsi İdarəsinə tabe etməklə, təşkil edilməsinə, habelə göstərilən trestdə Salyan, Əli-Bayramlı, Sabirabad və Puşkin məntəqələrində tikinti-quraşdırma kontorları təşkil edilməsinə icazə verilsin.

8. Azərbaycan SSR Nazirlər Sovetinə:

a) kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi dövrü üçün Ermənistan SSR-də (Yerevan şəhərində) nümayəndəlik təşkil etməyə;

b) azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsilə əlaqədar hazırlıq işlərinin aparılmasına (layihələşdirməyə, yardımçı müəssisələrin tikilməsinə, meşə-sənaye təsərrüfatlarının təşkilinə, materiallar, tikinti avadanlığı, nəqliyyat-vasitələri alınmasına) respublika üzrə mərkəzləşdirilməmiş (limitdən kənar) əsaslı xərclərə 1948-ci il üçün nəzərdə tutulmuş məbləğ hesabına 1948-ci ildə 11 milyon manat xərcləməyə;

c) Molotov vilayətində meşə materialları tədarükü üzrə işlər üçün və Azərbaycan SSR-in Kür-Araz Ovalığında Susuvarılan Torpaqların Mənimsənilməsi İdarəsinə apardığı işlər üçün respublikanın kənd əhalisi arasından 1948-ci ildə 700 nəfər təşkil edilmiş toplama aparmağa icazə verilsin.

9. Azərbaycan SSR Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi idarəsinə:

a) 1948-ci ildə qurğular, binalar və yardımçı müəssisələr tikilməsi üzrə işlər aparmağa, həmçinin kənd təsərrüfatı komitəsilə razılaşdırılmış maliyyə-hesablamaları üzrə köçürülmə tikintisinin gələcək genişləndirilməsinə hazırlıq tədbirləri görməyə:

b) 1948-1950-ci illərdə Molotov vilayətində meşə-sənaye təsərrüfatının istehsal gücünü artırmağa icazə verilsin.

10. SSRİ Dövlət Təchizat Komitəsinə, Avtomobil və Traktor Sənayesi nazirliyinə, Maşınqayırma və Cihazqayırma Nazirliyinə, Elektrik Sənayesi Nazirliyinə, SSRİ Ət və Süd Sənayesi Nazirliyinə, SSRİ Tikinti Materialları Sənayesi Nazirliyinə, Kimya Sənayesi Nazirliyinə, SSRİ Yeyinti Sənayesi Nazirliyinə tapşırılsın ki, 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinə Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi idarəsi üçün Əlavəyə uyğun miqdarlarda avadanlıq və materiallar göndərsin.

11. Mərkəzi Kooperativlər İttifaqına tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən kolxozlara və kolxozçulara satmaq üçün Azərbaycan SSR Nazirlər Soveti ilə razılaşdırmaqla inşaat materialları və avtomaşınlar gətirsin.

12. Yollar Nazirliyinə tapşırılsın ki, 1948-ci ildə Azərbaycan SSR Kür-Araz ovalığına suvarılan torpaqların mənimsənilməsi idarəsinə Azərbaycan Dəmir Yolunun Lənkəran, Salyan, Sarıcalar, Saatlı, Qırmızıkənd, Dayıkənd, Papanin, Yeni Osmanlı, Daşburun, Ucar və Masallı stansiyalarında dəmir yolunun ixtiyarında olan sahə hüdudlarında göndərmə-yükləmə meydançalarına dalanlar çəkilməklə boşaltma-yükləmə və rels anbarları üçün hər birinin uzunluğu 600 metr olan sahələr ayırsın. Göstərilən işlərin aparılması Azərbaycan SSR Kür - Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi idarəsinə həvalə edilsin.

13. SSRİ Kənd Təsərrüfatı Nazirliyinə 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinə Azərbaycan SSR-in meşə materialları tədarükü təşkilatlarına satmaq üçün atçılıq zavodlarından çıxdaş edilmiş 50 at ayırmağa icazə verilsin.

14. SSRİ Nazirlər Soveti yanında Dövlət Ştat Komissiyasına tapşırılsın ki, Azərbaycan SSR Nazirlər Soveti yanında təşkil edilən Köçürülmə İdarəsinin, "Azərköçürmətikinti" Trestinin və onun tikinti-quraşdırma kontorlarının, habelə Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-in Yerevan şəhərində nümayəndəliyinin ştat cədvəllərini bir ay müddətində nəzərdən keçirsin və təsdiq etsin.

**SSR İttifaqı Nazirlər Sovetinin sədri İ. Stalin**
**SSRİ Nazirlər Sovetinin İşlər müdiri Y. Çadayev**.

**Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya**

*(9 dekabr 1948-ci ildə BMT-nin Baş Assambleyasının 260 (III)A Qətnaməsi ilə qəbul olunub. 12 yanvar 1951-ci ildə qüvvəyə minib)*

Baş Assambleya soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair təqdim olunan Konvensiyanı təsdiq edir və onu imzalamaq və ratifikasiya etməyi və ya XI maddəyə müvafiq olaraq ona qoşulmağı təklif edir.
*179-cu plenar iclas, 9 dekabr 1948-ci il*

Razılığa gələn Tərəflər,
Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 19 dekabr 1946-cı il tarixli 96 (I) saylı qətnaməsində soyqırımın beynəlxalq hüquq normalarını pozan və Birləşmiş Millətlər Təşkilatının məqsəd və ruhuna zidd olan cinayət olduğunu və sivil dünyanın onu pislədiyini, tarix boyu soyqırımın bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu çirkin fəlakətdən xilas etmək üçün beynəlxalq əməkdaşlığın vacibliyinə əmin olduğunu nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəlirlər:

**Maddə 1**
Razılığa gələn Tərəflər sülh və yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq soyqırımm, beynəlxalq hüquq normalannı pozan cinayət olduğunu təsdiq edirlər və bu cinayətin qarşısını almaq və cəza tədbirlərini həyata keçirmək öhdəliyini götürürlər.

**Maddə 2**
Bu Konvensiyaya müvafiq olaraq soyqırım hər hansı milli, etnik, irqi və ya dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi məqsədilə törədilən aşağıdakı hərəkətlərdən biridir:
a) bu cür qrup üzvlərinin öldürülməsi;
b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və yaxud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi;
c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi;
e) bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi.

**Maddə 3**
Aşağıdakı əməl cəzalandırılandır:
a) soyqırım;
b) soyqınm törətməyə yönəlmiş gizli sövdələşmə;
c) soyqırım törətməyə birbaşa və açıq təhrik;
d) soyqırım törətməyə yönəlmiş qəsd;
e) soyqırımda iştirak.

**Maddə 4**
Soyqırım və yaxud 3-cü maddədə sadalanmış əməllərdən hər hansı birini törətmiş şəxs konstitusiya ilə məsul rəhbər, rəsmi və ya fərdi şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdır.

**Maddə 5**
Bu Konvensiyanın müddəalarının qüvvəyə minməsi üçün Razılığa gəlmiş Tərəflərin hər biri xüsusilə soyqırımı və yaxud 3-cü maddədə sadalanan digər əməllərin törədilməsində təqsirli bilinən şəxslərin cəzalandırılması üçün səmərəli tədbirlər nəzərdə tutan zəruri qanunvericiliyi öz konstitusion proseduruna uyğun olaraq qəbul etmək öhdəliyini götürürlər.

**Maddə 6**
Soyqırım və yaxud 3-cü maddədə sadalanan digər əməlləri törətmiş şəxslər bu əməlin törədildiyi dövlətin ərazisində səlahiyyətli məhkəmələr tərəfindən və ya yurisdiksiyasını Konvensiya tərəflərinin də qəbul etdiyi və bu tərəflərə şamil olunan beynəlxalq cinayət məhkəməsi tərəfindən mühakimə olunmalıdırlar.

**Maddə 7**

Təqsirlilərin verilməsi (ekstradisiyası) məsələsində soyqırım və yaxud 3-cü maddədə sadalanan digər əməllər siyasi cinayət kimi sayılmır.

Bu kimi hallarda Razılığa gələn Tərəflər təqsirlinin verilməsini öz qanunvericiliyinə və qüvvədə olan müqavilələrə müvafiq olaraq həyata keçirmək öhdəliyi daşıyırlar.

**Maddə 8**

Bu Konvensiyanın hər bir iştirakçısı soyqırım və yaxud 3-cü maddədə sadalanan digər əməllərin qarşısının alınması və aradan qaldırılması üçün Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq olaraq bütün lazımi tədbirlərin görülməsi tələbi ilə Birləşmiş Millətlər Təşkilatının müvafiq orqanına müraciət edə bilər.

**Maddə 9**

Razılığa gələn Tərəflər arasında bu və ya digər ölkənin soyqırım və yaxud 3-cü maddədə sadalanan digər əməlləri törətməyə görə məsuliyyətinə dair mübahisələr də daxil olmaqla, bu Konvensiyanın şərhi, tətbiqi və yaxud icrası ilə bağlı mübahisələr mübahisə tərəflərindən hər hansı birinin tələbi ilə baxılması üçün Beynəlxalq Məhkəməyə verilir.

**Maddə 10**

Bu Konvensiyanın bərabər autentik hesab edilən ingilis, çin, ispan, fransız və rus mətnləri 9 dekabr 1948-ci il tarixdən müəyyən edilir.

**Maddə 11**

Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının hər hansı üzvü və yaxud Baş Assambleya tərəfindən Konvensiyanı imzalamaq üçün dəvət almış Təşkilat üzvü olmayan istənilən dövlət tərəfindən imzalanmaq üçün 31 dekabr 1949-cu il tarixədək açıq olacaqdır. Bu Konvensiya ratifikasiya olunmalıdır və ratifikasiya haqqında aktlar Birləşmiş Millətlər Təşkilatının Baş Katibi yanında saxlanca qoyulur.

1 yanvar 1950-ci ildən başlayaraq Birləşmiş Millətlər Təşkilatının istənilən üzvü və yuxarıda göstərilən dəvəti almış Təşkilatın üzvü olmayan istənilən dövlət bu Konvensiyaya qoşula bilər.

Qoşulma haqqında aktlar Birləşmiş Millətlər Təşkilatının Baş Katibi yanında saxlanca qoyulur.

**Maddə 12**

Razılığa gələn Tərəflərdən hər hansı biri istənilən vaxt Birləşmiş Millətlər Təşkilatının Baş Katibinin adına bildiriş göndərməklə xarici əlaqələrin həyata keçirilməsinə cavabdehlik daşıdığı bütün ərazilərinə və ya onların bir qisminə bu Konvensiyanı tətbiq edə bilər.

**Maddə 13**

Ratifikasiya və ya qoşulma haqqında ilk 20 aktın Baş Katib yanında saxlanca qoyulduğu gün Baş Katib surətləri Birləşmiş Millətlər Təşkilatının üzvü olan və XI maddədə nəzərdə tutulmuş Təşkilatın üzvü olmayan bütün dövlətlərə göndərilən Protokolu hazırlayır. Bu Konvensiya ratifikasiya və ya qoşulma haqqında 20-ci akt saxlanca qoyulduqdan sonra doxsanıncı gün qüvvəyə minir.

Bu Konvensiyanın qüvvəyə minməsindən sonra alınmış ratifikasiya və qoşulma haqqında aktlar Birləşmiş Millətlər Təşkilatının Baş Katibi yanında saxlanca qoyulduqdan sonra doxsanıncı gün qüvvəyə minir.

**Maddə 14**

Bu Konvensiya qüvvəyə mindiyi gündən etibarən on il müddətinə qüvvədədir.

Bu Konvensiya növbəti beş illikdə o ölkələrə qarşı qüvvədə qalır ki, hansılar ki, Konvensiyanın müvafiq qüvvədə olma müddətinin bitməsinə ən azı altı ay qalmış onu denonsasiya etməmiş olsunlar.

Denonsasiya Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə yazılı bildirişin verilməsi yolu ilə həyata keçirilir.

**Maddə 15**

Əgər denonsasiya nəticəsində Konvensiya üzvlərinin sayı on altıdan az olarsa, Konvensiya sonuncu denonsasiyanın qüvvəyə mindiyi gün öz qüvvəsini itirir.

**Maddə 16**

Bu Konvensiyaya yenidən baxılması tələbi istənilən vaxt Razılığa gələn tərəflərdən hər hansı biri tərəfindən Baş Katibin adına yazılı məlumat verilməsi yolu ilə qoyula bilər.

Əgər bu cür tələb hər hansı tədbirlərin görülməsini labüd sayırsa, Baş Assambleya bu cür tələb barədə hansı tədbirlərin görülməsinin vacib olduğuna dair qərar verir.

**Maddə 17**

Birləşmiş Millətlər Təşkilatının Baş Katibi Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərini və XI maddədə nəzərdə tutulmuş Təşkilatın üzvü olmayan dövlətləri məlumatlandırır:

a) XI maddəyə müvafiq olaraq imzalama, ratifikasiya və qoşulma haqqında qəbul edilmiş bütün aktlar barədə;

b) XII maddəyə müvafiq olaraq qəbul edilmiş bütün bəyanatlar barədə;

c) XIII maddəyə müvafiq olaraq bu Konvensiyanın qüvvəyə mindiyi gün barədə;

d) XIV maddəyə müvafiq olaraq qəbul edilmiş denonsasiyalar barədə;

e) XV maddəyə müvafiq olaraq Konvensiyanın ləğvi barədə;

f) XVI maddəyə müvafiq olaraq qəbul edilmiş bəyanatlar barədə.

**Maddə 18**

Konvensiyanın əsli Birləşmiş Millətlər Təşkilatının arxivində saxlancdadır.

Konvensiyanın təsdiq edilmiş surətləri Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərinə və XI maddədə nəzərdə tutulmuş Təşkilatın üzvü olmayan dövlətlərə göndərilir.

**Maddə 19**

Bu Konvensiya qüvvəyə mindiyi gün Birləşmiş Millətlər Təşkilatının Baş Katibi tərəfindən qeydiyyata alınır.

**Soyqırım cinayəti** (Beynəlxalq aktlar, normativ sənədlər, müraciətlər və şərhlər toplusu).
Bakı-2010, səh.8-13.

**Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş Konvensiyaya qoşulsun.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV.**

*Bakı şəhəri, 31 may 1996-cı il.
№ 97-IQ.*

«Azərbaycan» qəzetində dərc edilmişdir (25 iyun 1996-cı il, № 119)
«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda
dərc edilmişdir (31 avqust 1997-ci il, № 2, maddə 124)

**Soyqırım cinayəti** (Beynəlxalq aktlar, normativ sənədlər, müraciətlər və şərhlər toplusu).
Bakı-2010, səh.14.

**Ermənistanın azərbaycanlı əhalisi arasında Azərbaycan SSR-ə qarşıdakı köçürülmə ilə əlaqədar əhval-ruhiyyə haqqında arayış**
**(3 may 1948-ci il)**

***(Tamamilə məxfidir)***

Azərbaycanlıların Ermənistandan Azərbaycan SSR-ə köçürülməsi haqqında hökumətin qərarının rəsmi elan edilməsinə hələ çox qalmış Ermənistan SSR-in əhalisi arasında bu barədə səslər dolaşmağa başladı və bu tədbirin məqsədlərinin hər cür düzgün olmayan şərhləri törəyirdi.

Bizim tərəfimizdən azərbaycanlıların yeni yaşayış yerinə köçmək istəmədikləri barədə çoxsaylı mülahizələri, onların bəzilərinin qəbiristanlıqlara gedərək orada doğmalarının qəbirləri üstündə ağlamaları və köçürülməmələri üçün dua etmələri faktları müəyyən edilmişdir.

Habelə kolxozçuların tarla işlərinə çıxmaması, öz meyvə bağlarını qırması, yaşayış evlərini və yardımçı tikililərini dağıtması faktları da qeyd olunmuşdur.

O barədə də məlumatlar daxil olmuşdur ki, düşmən elementlər bu mənfi əhval-ruhiyyədən istifadə edir, antisovet təşviqatı aparır və köçürülməni SSRİ ilə Türkiyə arasında müharibə olan halda, Sovet hakimiyyətinin azərbaycanlılara etibar etməməsi hərəkəti kimi şərh edirlər.

Hökumətin əhalinin azərbaycanlı hissəsinin Ermənistandan Azərbaycan SSR-ə köçürülməsi haqqında qərarı rəsmi elan ediləndən və sovet-partiya təşkilatları tərəfindən həmin tədbirlərin məqsədləri aydınlaşdırılandan sonra vəziyyət xeyli yaxşılaşmışdır, xüsusən, ovalıqda yerləşən Vedi və Zəngibasar rayonlarında azərbaycanlıların mümkün qədər tez Azərbaycan SSR-ə köçmək arzulamaları müşahidə edilir.

Lakin bizə daxil olan xüsusi qaydalı məlumatlardan bəlli olur ki, Ermənistan SSR-in əhalisinin azərbaycanlı hissəsi arasında mənfi əhval-ruhiyyə davam edir, bu xüsusilə respublikanın izahat işləri qeyri - qənaətbəxş aparılmış dağ rayonlarında: Basarkeçərdə, Amasiyada, Sisyanda və digərlərində müşahidə olunur.

Sərhədin arxasında qohumluq əlaqələri olan bəzi antisovet əhval-ruhiyyəli elementlər köçürülməyə öz narazılığını bildirərək qeyri-qanuni Türkiyəyə keçmək niyyətlərini söyləyirlər.

Səciyyəvidir ki, qarşıdakı köçürülmə barədə elan edilən və bu tədbirin məqsədləri aydınlaşdırılan zaman kolxozçuların yığıncaqlarında iştirak edənlərin hamısı hökumətin bu qərarını yekdilliklə alqışlamışlar və özlərinin köçməyə hazır olduqlarını bəyan etmişdilər, sonra isə şəxsi söhbətlərdə çoxları öz əhatəsində bu tədbirə narazılığını bildirmişdir.

Bu əhval-ruhiyyə, bir tərəfdən, qeyri-qənaətbəxş izahat işləri nəticəsində davam etməkdədir və digər tərəfdən ona görə ki, Ermənistanın yüksək dağlıq rayonlarında yaşayan azərbaycanlılar Azərbaycan SSR-in ovalıq rayonlarına köçmək istəmir ki, guya orada iqlim şəraiti onlar üçün əlverişsiz olacaqdır.

Bundan əlavə, köçürülməsi nəzərdə tutulan azərbaycanlıların daşınmaz əmlakının dəyərinin ödənilməsi yaxud onlara həmin əmlakı fərdi qaydada satmaq üçün icazə verilməsi məsələsi indiyə kimi həll edilməmişdir.

Bu və bir sıra digər məsələlərin həll edilməsi üçün çoxları rayonlardan Yerevana gəlirlər, lakin cavab ala bilmirlər, çünki Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəsi Məmmədov yoldaşın xəstəliyilə əlaqədar olaraq Ermənistan SSR-də Köçürmə İdarəsinin işi demək olar ki, özbaşına getmişdir.

Aşağıda azərbaycanlıların qarşıdakı köçürülmələrilə əlaqədar söylədikləri narazı fikirlərin və həmin tədbirə əhalinin erməni hissəsi tərəfindən münasibətin bəzi səciyyəvi faktlar göstərirlər:

**1. Amasiya rayonu üzrə**

Amasiya MTS traktorçusui Hüseynov Məmməd Ələsgər oğlu traktorçular Məmmədov Abbasa, Əmirov Məcidə və Təmrazov Möhsünə tapşırmışdı ki, bu il yaz əkinini keyfiyyətsiz aparsınlar, çünki məhsulu ermənilər yığmalı olacaqlar, onlara isə bu məhsuldan heç nə çatmayacaq.

Kiçik Təpəköy kəndinin sakini Qafar Əhməd oğlu öz həmkəndlilərilə söhbətdə demişdir: "Bizi - azərbaycanlıları, hamımızı Ermənistandan köçürəcəklər, təsərrüfatınızı isə xarici ermənilərə verəcəklər".

Həmin kəndin sakini İsmayılov Yusif Əhməd oğlu öz həmkəndliləri:- Əhmədov İsmayıl, İsmayılov Qafar və Əhmədov Hümbət ilə söhbətində demişdir ki, "Azərbaycanlıların Ermənistandan köçürülməsi SSRİ ilə Türkiyənin qarşısındakı müharibəsilə əlaqədardır, hücum edən tərəf Türkiyə olacaqdır".

Mağaracıq kəndinin sakini Məmmədov Mehdi Mahmud oğlu və Daşkörpü kəndinin sakini İsmayılov Ramazan Ələkbər oğlu (keçmiş hərbi əsir) də öz həmkəndlilərilə söhbətlərdə azərbaycanlıların qarşındakı köçürülməsini SSRİ ilə Türkiyə arasında gözlənilən müharibə ilə izah etmişlər.

Quzukənd kəndinin sakini İsmayılov Xan Əhməd oğlu kolxozçularla söhbətində demişdir: "Deyirlər ki, köçürülmə könüllü surətdə olacaq. Bu, doğru deyil. Bizimlə də Axalkalakidəki azərbaycanlılarla etdikləri kimi

rəftar edəcəklər:- dəmir yolu vaqonlarına mindirəcək və Qazaxıstana göndərəcəklər. Qəfildən olmaması üçün hazırlaşmaq lazımdır…"

Kiçik Təpəköy kəndinin sakini Əhmədov İsmayıl öz həmkəndlilərilə söhbətdə demişdir: "Leninakanda (indiki Gümrü) deyirlər ki, bizi, - azərbaycanlıları - 24 saat ərzində Qazaxıstana sürgün etməlidirlər, lakin nə vaxt - hələ heç nə məlum deyil…"

Çivinli kəndinin sakinləri: Məmmədov Knyaz Məmməd oğlu, Əliyev Mirzə Qurban oğlu və Aşırov Məmməd kolxozçularla söhbətdə demişlər: "Tezliklə bizi köçürəcəklər, lakin nədənsə bu barədə bir dəfəyə deməkdən qorxurlar. Görünür, düşünürlər ki, kolxozçular Türkiyəyə gedərlər…Nə etməli, bilmirəm. Mən axmaq oldum, çoxdan Türkiyəyə getmədim, indi isə sən istədiyin yerə yox, sənə haranı desələr, oraya köçməlisən".

Adı çəkilən kəndin kolxoz idarə heyətinin sədri Kərimov Əli kolxozçularla söhbətdə demişdir: "azərbaycanlıların Ermənistandan Azərbaycana köçürülməsi barədə əbəs yerə məsələ qaldırılırdı. Kolxozçuların çoxu getmək istəmir".

İbiş, Daşkörpü və Çivinli kəndlərində Məmmədov Bayram Abdulla oğlu, Allahverdiyev Əli Abdulla oğlu və Məmmədova Cəər İrza qızı, habelə digərləri öz evlərini sökürlər və tikinti materiallarını satırlar.

**2. Zəngibasar rayonu üzrə**

Zəngilər kəndinin sakini Namazov Sultanəli Rəhim oğlu kəndin kolxozçuları ilə söhbətdə demişdir: "Mən Qaraqışlaq kəndində olmuşam, orada MK nümayəndəsi toplantıda bəyan etdi ki, bizi - azərbaycanlıları Ermənistandan ona görə köçürürlər ki, bizim yerlərimizdə repatriant erməniləri yerləşdirsinlər".

Bununla əlaqədar adı çəkilən kəndin bir çox kolxozçuları işə çıxmadılar və kolxoz sədrinin – "Niyə işə çıxmırsınız?" sualına cavab verdilər:- "Əgər ermənilər bizi Ermənistandan köçürürlərsə, biz nə üçün və kim üçün işləməliyik".

Baxcalar kəndinin sakini Yusubova Gülli Abbas qızı demişdir: "Bizi köçürmək, əmlakımızı və heyvanlarımızı repatriant ermənilərə vermək istəyirlər. Sakinlərin bəziləri artıq mal-qaranı satmağa və kəsməyə başlamışlar. Mən də inəyimi satmışam".

Həmin kənddə kolxozçular: Davıdov Kubış, Məmmədov Aloş, Abdullayev Abdulla, Həsənov Həsən, Taşev Sabo, Əliyev Yusif və Məmmədov Abbas işə çıxmaqdan imtina etmişlər.

Göykümbət kəndində kolxozçular Əliyev Abbas və Rəhimov İsmayıl kolxozun dəftərxanasının yanında söhbətdə belə demişlər: "Biz kolxozda əbəs yerə işləyirik. Bütün zəhmətimiz ermənilərə qalacaq. Ümumiyyətlə ermənilərlə yaşamaq çətindir, çünki onlar bizi sıxışdırırlar və hətta kolxozda bizə yararlı iş vermirlər".

Xırda Dəmirçi kəndinin sakini Mirzəyev Meşədi Teymur İsgəndər oğlu kolxozçulardan Məmmədov Əlinin, Həsənov Abduləlinin, Kərimov Qulamın və başqalarının yanında demişdir: "Azərbaycanlıları Ermənistandan ona görə köçürmürlər ki, onların yerində repatriant erməniləri yerləşdirsinlər, ona görə köçürürlər ki, Türkiyə və SSRİ arasında müharibə zamanı sovet hakimiyyəti bizə etibar etmir. Bizim köçürülməyimizin başlıca səbəbi bax budur, çünki müharibə olarsa, sərhəd rayonlarında yaşayan azərbaycanlıların əksəriyyəti Türkiyəyə keçəcəkdir".

Rəncbər kəndində kolxozçu Nəsirov İbrahim Muxtarov Seyidlə, Təhmazov Əsgərlə, Cəfərov Mahmudla və digərlərilə söhbətdə etmişdir: "Ermənistandan 1950-ci ilə kimi bütün azərbaycanlıları mütləq köçürəcəklər. Bunu ona görə edirlər ki, sovet hakimiyyəti, türklərin hücumundan qorxaraq Türkiyə ilə sərhədin yaxınlığında yaşayan azərbaycanlılara inanmır. Bu birincisi və ikincisi, Sovet Ermənistanı xaricdə yaşayan bütün erməniləri toplamaq istəyir ki, Sovet hökumətindən asılı olmayan dövlət yaratsın".

Həmin Nəsirov (keçmişdə qolçomaq) kolxozçuların yanında demişdir: "Ermənistan K(b)P MK keçmiş katibi A. Xancyanın planı üzrə dünyanın hər tərəfindən bütün ermənilər buraya gəlməli və Naxçıvanı Ermənistana birləşdirməli idilər, bütün azərbaycanlıları isə Ermənistandan Azərbaycana köçürülməlidirlər. Bu yaxınlarda mən eşitdim ki, Ermənistan hökuməti Naxçıvanı Ermənistana birləşdirməyi tələb etmişdir, lakin Azərbaycan hökuməti rədd cavabı vermişdir".

Şurakənd kəndində keçmiş hərbi əsir Məmmədov Həmid (Türkiyədə qohumları var) kolxozçularla söhbətdə demişdir: "Məgər ermənilər və azərbaycanlılar dost kimi yaşaya bilərmi? Tarixdə ermənilər və azərbaycanlılar arasında düşmənçilik həmişə olmuşdur və sonralar da olacaqdır. Odur ki, ermənilər azərbaycanlıları Ermənistandan köçürməyi qərara almışlar. Mən şəxsən artıq evimi sökmüşəm ki, məndən sonra o heç kimə qalmasın".

Şurakənd kəndi kolxozunun sədri Əliyev Hümbət rayon mərkəzində kəndə gəlib kolxoz fermasına daxil olmuş və kolxozçulara demişdir: "Azərbaycandan komissiya gəlibdir və yaxın günlərdə bütün azərbaycanlıları Ermənistandan köçürməlidirlər. Köçürmənin ləngiməsi yalnız onunla əlaqədardır ki, Ermənistan K(b)P MK katibi kolxozların əmlakını, fermaları Azərbaycana verməyə razı olmadı. Əgər razı olsaydı, onda köçürmə məsələsi çoxdan həll edilmişdi".

Kolxoz sədri H. Əliyevin belə bəyanatı ilə əlaqədar kolxozçular ruhdan düşdülər və işə çıxmadılar, bu zaman deyirdilər: "Əgər biz zəhmətimizin sahibi olmayacağıqsa, onda əbəs yerə niyə işləməliyik?"

Şurakənd, Zəngilər, Kolanlı, Ağhamzalı və digər kəndlərdə kolxozçuların işə çıxmaması halları qeyd olunmuşdur. Bu kəndlərdə ayrı-ayrı kolxozçular öz həyətyanı sahələrində meyvə ağaclarını kəsmişlər.

Onların çoxu dövlət vergilərini ödəmədən imtina edirlər. Zəngilər kəndinin sakini Süleymanov Seyfulla (sürgündən 1947-ci ildə qayıtmışdır) kolxoz tövləsində öz həmkəndlilərinə demişdir: "Artıq bizim Ermənistanda yaşamağımıza dəyməz. Əgər müharibə başlansa, ermənilər bizim hamımızı kəsib doğrayacaqlar, bizim tezliklə Azərbaycana köçməyimiz yaxşıdır".

Sarıcalar kəndinin sakini Xəlilov Xəlil Abuzər oğlu (1942-ci ildə fərariliyə görə məhkum edilmişdir) demişdir ki: "Bizim kolxozçular əbəs yerə vergi ödəyirlər, onsuz da bizi köçürəcəklər. Sovet hökuməti xalqı tam soydu. Bolşeviklərin siyasəti yalan üstündə qurulmuşdur və mənə belə gəlir ki, bizi Azərbaycana yox, Sibirə köçürəcəklər, bizim əmlakımız isə dövlətin mənafeyinə keçərək" .

**3. Vedi rayonu üzrə**

Yanvar və fevral ayları ərzində Böyük Vedi kəndinin sakinləri Abdullayeva Tərlan, Məmmədova Ürbabə və Məmmədov Xuda Baxşı oğlu evlərini sökmüşlər, Eyvazov Mikayıl, Əkbər Məmmədəli oğlu, Əliyev Bilal, Zeynalov Hüseyn, Kələşov Oruc, Rza Əli və digərləri isə öz həyətyanı sahələrində meyvə ağaclarının bir hissəsini məhv etmişlər.

Həmin kəndin sakinləri arasında, məsələn, Əliyev Hümbət, Kərimov Əkbər, Kərimov Canbaxış və digərləri kimiləri öz ev əmlakını satmışlar.

Taytan kəndinin sakini Məmmədov Kərim pəyəsini sökmüşdür, Şirazlı kənd sakini Qurbanov Qurban isə öz mənzilinin bir otağını dağıtmışdır.

Goravan kəndindən Mustafayev Hüseyn Bəşir oğlu 2 nəfər ailə üzvü ilə və Mustafayev İsmayıl 3 nəfər ailə üzvü ilə Naxçıvan MSSR-ə özbaşına daimi yaşamağa getmişlər.

Qeyd etmək lazımdır ki, bu rayonda azərbaycanlı əhali arasında köçürülmə əhval-ruhiyyəsi xüsusilə güclüdür və bu ondan görünür ki, bu ilin aprelin 28-ə kimi 9915 nəfərdən köçməyə icazə verilməsi barədə ərizə daxil olmuşdur, halbuki, plana görə 1948-ci ildə Azərbaycan SSR-ə cəmi 500 nəfər köçürülməsi nəzərdə tutulmuşdu.

**4. Basarkeçər rayonu üzrə**

Çaxırlı kəndində, Türkiyənin Sovet İttifaqına müharibə elan etməsi və bununla əlaqədar olaraq azərbaycanlıları köçürmələri barədə yayılmış provokasiya nəticəsində fevral ayında üç gün ərzində kolxozçular işə çıxmamışlar.

Rayonun bir sıra kəndlərində (Daşkənd, Çaxırlı, Zod) belə şayiə yayılmışdır ki, guya K(b)P rayon komitəsinin katibi Musayev yoldaş, rayon icraiyyə komitəsinin sədri Məmmədov yoldaş və digər azərbaycanlı məsul işçilər ermənilərlə əvəz edilmişlər.

Bu provokasiyalı şayiələr nəticəsində Zod kəndinin kolxozçuları işə səhlənkar yanaşmağa başlamışlar. Bu kəndin kolxozçularının əhval-ruhiyyəsinə partiya təşkilatçısı Nəsirov Gürzəli Həmid oğlunun və kənd sovetinin sədri Hacıyev Bala Əsgər oğlunun kənddən getməsi xüsusilə mənfi təsir etmişdir; həmin şəxslər Azərbaycan SSR-ə qarşısındakı köçürülmə üçün özlərinə yer axtarmağa getmişlər.

Şişqaya kəndində kolxozçuların xeyli hissəsi Azərbaycan SSR-ə köçmək istəmədikləri barədə qəti bəyan edirlər.

Artaşat, Qarabağlar, Hoktembryan, Qafan, Meğri və Sisyan rayonlarının azərbaycanlı əhalisi arasında da qeyri-sağlam söyləmələr qeyd olmuşdur. Belə ki, məsələn:

Meğri rayonun Vartanidzor kənd sovetinin sədri Həmidov Abdulla, ona verilmiş – "Niyə suvarma kanalı çəkilmir?" sualına, belə cavab vermişdir:- "Biz niyə çəkməliyik ki, "axparlara" qalsın?"

Artaşat rayonu Darğalı kəndində 20 azərbaycanlı ailəsi yaşayır, hamısı belə demişlər: "Bizə nə olur, olsun, biz heç cür halda Darğalı kəndindən getməyəcəyik".

Həmin rayonun Axund Bzovand kəndində də azərbaycanlılar deyirlər ki: "Buradan heç yerə getməyəcəyik, qoy bizi burada, yerimizdə öldürsünlər".

Qafan rayonu Siznək kəndinin kolxoz sədri Tağıyev Bəşir, özünün Azərbaycana köçmək istəmədiyini ifadə edərək, həmkəndlilərilə söhbətdə belə demişdir: "Doğma kənddə ölmək, yeni yerə köçməkdən yaxşıdır".

Sisyan rayonu Urut kəndi sakini ÜİK(b)P üzvü İsgəndərov Salman öz yoldaşları ilə söhbətdə demişdir ki, o, sovet vətəndaşı kimi, Sovet İttifaqının istənilən yerində yaşamaq hüququna malikdir və öz evini, mülkiyyətini və vətənini atmaq niyyətində deyil və Stalin Konstitusiyasına uyğun olaraq onu başqa yerə köçməyə məcbur etməyə heç kimin hüququ yoxdur.

Adı çəkilən kəndin kolxozunun mühasibi Fərzəliyev Qüvvət də həmin ruhda fikir söyləmiş və demişdir ki, o, Azərbaycana köçmək istəmədiyi barədə Stalin yoldaşa yazmışdır.

Sisian rayonun Comərdli kəndində yaşayan ÜİK(b)P üzvü Qurbanov Cəlal, kolxozçuların bütün iştirak edənlər Azərbaycana köçürülmək istədiklərini yekdilliklə bəyan etdikləri toplantısından sonra həmkəndlilərilə söhbətdə demişdir: "Çoxları Azərbaycanda necə isti olduğunu bilmir. 1918-1919-cu illərdə biz azərbaycanlılar Ermənistandan Naxçıvana qaçmışdıq. O vaxt biz 14 nəfər idik, iki ildən sonra üçümüz qaldıq. Qalan 11 nəfər istidən və xəstəliklərdən öldülər. Bu Naxçıvandır, Mingəçevirdə isə daha pisdir. Bizim çox-çox qurbanlarımız olacaq".

Yuxarıda göstərilən rayonun Ərəfsə kənd sakini Qəniyeva Əsli demişdir: "Əgər mən öz milliyyətimi dəyişdirsəm və erməni yazdırsam, onda mən Ermənistanda qala və Mingəçevirə köçürülməyə bilərəmmi?"

Azərbaycanlıların Ermənistandan köçürülməsinin səbəbləri barədə erməni əhalisi arasında da, ayrı-ayrı şəxslər tərəfindən bəzən millətçi xarakterli müxtəlif dedi-qodular qeyd edilmişdir.

Belə ki, məsələn:

Ermənistan SSR Sosial Təminat Nazirliyinin Tədris-sənaye kombinatının ayaqqabı texnologiyası müəllimi Arakelyan Minas Aristakesoviç demişdir: "Azərbaycanlıların Ermənistandan köçürülməsi məsələsi şübhəsizdir. İlk növbədə Araz və Axuryan çaylarının sahillərində yaşayan azərbaycanlılar köçürüləcəklər, sonra azərbaycanlıların Yerevan şəhərindən köçürülməsi başlanacaq. Sərhəd rayonları kəndlərinin ilk növbədə azərbaycanlılardan azad edilməsi tamamilə anlaşılır, çünki onlar dövlət sərhədini tez-tez pozurlar, Türkiyə isə onlardan öz casusluq yuvalarını yaradır".

Yerevan şəhəri sakini Mesropyan Yervand öz qonşusu ilə söhbətdə demişdir: "Azərbaycanlıları yalnız Ermənistandan yox, həm də Naxçıvan MSSR-dən köçürmək və onu Ermənistan ərazisinə birləşdirmək lazımdır".

Yerevan şəhərində yaşayan, 6 il azadlıqdan məhkum edilmiş Axverdyan Levonun arvadı Ordyan Şura Arutyunovna öz qonşularına - xarici ermənilərə demişdir: "Tezliklə Türkiyə, İngiltərə və Amerika SSRİ əleyhinə müharibəyə başlayacaqlar. Odur ki, Ermənistan ərazisində yaşayan azərbaycanlıları arxaya, yəni Azərbaycana köçürürlər. Siz xaricdə yaşayan qohumlarınıza yazın ki, onlar Ermənistana gəlməsinlər".

Kirovakan şəhərində yaşayan, Fransadan gəlmiş, keçmişdə daşnak olmuş, Smbat adlı şəxs bir qrup erməninin iştirak etdiyi yerdə demişdir: "Daşnaklar bir vaxt Naxçıvan MSSR-in Ermənistana birləşdirilməsi məsələsini qoymuşdurlar, lakin bu baş tutmadı. İndi isə həmin məsələni qoymaq vaxtıdır, çünki Ermənistanda torpaq azdır".

Yerevan, Leninakan və digər şəhərlərdə də ayrı-ayrı şəxslər tərəfindən buna bənzər fikirlər söylənməsi müəyyən edilmişdir.

**Ermənistan SSR daxili işlər naziri general-mayor X. Qriqoryan**

**№ 01/3745**
**3 may 1948-ci il. Yerevan şəhəri**

**1948-1953-cü illərdə Ermənistandan deportasiya edilən azərbaycanlı yaşayış məntəqələrinin siyahısı**

**Zəngibasar rayonundan**

1. Qulucan
2. Sarıcalar
3. Reyhanlı
4. Şura kəndi
5. Həbilkənd (Kalinin qəs.)
6. Seyid kəndi
7. Ağcaqışlaq (Gedapnya-1978)
8. Rəhimabad
9. Cəfərabad (Avanqard -1946)
10. Göykümbət (Qexanist-1949)
11. Həsənli
12. Arbat
13. Hacıelyəz (İpəkli, Darakert - 1978)
14. Şöllü (Daştavan-1978)
15. Uluxanlı (Zəngibasar-1937, Masis-1950)-qismən
16. Xaraba Kolanlı (Şorkənd)
17. Dəmirçi (Şöllü)
18. Ağhamzalı (Marmaraşen-1967)
19. Cəbəcili (Crahovit-1960)
20. Xərrətli (Arevabyur-1978)
21. Yuxarı Çarbax
22. Çobankərə

**Qarabağlar rayonundan**

(Bu rayon 1951-ci il martın 19-da ləğv edilərək ərazisi əsasən Vedi və Qəmərli rayonlarına birləşdirilib)

1. Əzizkənd-xaraba qalıb
2. Əliqırıx-xaraba qalıb
3. Əlimərdan-xaraba qalıb
4. Baxçacıq-xaraba qalıb
5. Bayburd-xaraba qalıb
6. Böyük Gilanlar-xaraba
7. Gölcığın-xaraba qalıb
8. Dəhnəz-xaraba qalıb
9. Daşnov-xaraba qalıb
10. Zimmi-xaraba qalıb
11. İmirzik-xaraba qalıb
12. İnqala-xaraba qalıb
13. Haxıs-xaraba qalıb
14. Hand-xaraba qalıb
15. Hortun-xaraba qalıb
16. Qaladibi-xaraba qalıb
17. Qaraqoyunlu-xaraba qalıb
18. Məngüs-xaraba qalıb
19. Yellicə-xaraba qalıb
20. Yeranos (Heyranıs)-xaraba qalıb
21. Şahablı-xaraba qalıb
22. Şuğayıb-xaraba qalıb
23. Çimənkənd (Aşağı Qarabağlar -Urtsadzor1978)
24. Cəfərli-xaraba qalıb
25. Seyid Kotanlı-xaraba qalıb
26. Kotuz-xaraba qalıb
27. Kolanlı-xaraba qalıb

28. Küsüz-xaraba qalıb

**Vedi rayonundan**

1. Əlməmməd-xaraba qalıb
2. Avşar
3. Aşağı Ərmik-xaraba qalıb
4. Yuxarı Ərmik-xaraba qalıb
5. Kiçik Vedi
6. Böyük Vedi (Vedi-1946)
7. Goravan (Yenikənd-1968)
8. Daşdı (Daştakar-1968)
9. Taytan (Vanaşen-1978)
10. Şıxlar (Lusarat-1968)
11. Xalisa (Norakert-1991)
12. Qaralar (Aralez-1978)
13. Yengicə (Sisavan-1991),(Haygeşad-1950)
14. Şidli (Yexeqnavan-1991)
15. Şirazlı
16. Ağkilsə-xaraba qalıb

**Qəmərli rayonundan**

1. Məsimli (Haygepat-1949)
2. Cənnətli (Zovaşen-1940)
3. Axund Bozavand (Bertik-1935)
4. Doxquz (Kanaçut-1945)
5. Torpaxqala (Xnaberd-1949)
6. Göl Aysoru
7. Qəmərli (Artşat-1945)
8. Qaradağlı (Tsaxkaşen-1945)
9. Qaraqoyunlu-xaraba qalıb
10. Yamancalı (Desxut-1967)
11. Novruzlu-xaraba qalıb
12. Çiləxanlı
13. Sabınçı (Araksavan-1978)
14. İmanşahlı (Mxçyan-1935)
15. Qarahamzalı (Burastan-1978)
16. Darğalı (Anastasavan-1949, Haygezard-1957)
17. Dəllər (Dalar-1935)
18. Çatmadaş-xaraba qalıb
19. Muğamlı (Hovtaşen-1945)
20. Muxtarabad-xaraba qalıb
21. Yuxarı Ağbaş (Abovyan-1949)

**Eçmiədzin (Üçkilsə) rayonundan**

1. Aşağı Qarxın
2. Yuxarı Qarxın (Crarat-1946)
3. Qarğabazar (Haykaşen-1965)
4. Molla Dursun (Şaumyan)
5. Yuxarı Kolanlı (Qriboyedov-1978)

**Qurduqulu (Oktemberyan) rayonundan**

1. İydəli (Pşatavan-1947)
2. Xeyirbəyli (Yervandaşad-1967)
3. Hacıbayram (Baxçalar-1935, Baqaran-1968)
4. Şahvarid (Uşakert-1968)
5. Kərimarxı (Sovetakan-1935)
6. Quzugüdən

**Əştərək rayonundan**

1. Təkiyə (Bazmaxpyur-1949)
2. Əkərək
3. Hamamlı
4. Nəziravan
5. Uşü
6. Sarımsəyək
7. Kürdalı
8. Cadqıdan (Bazmavan-1957, Nor-Gexi-1962)
9. İnəkli (Antarat-1948)

**Ellər (Kotayk-Abovyan) rayonundan**

1. Dəlləkli (Zovaşen-1948)
2. Qaraqala (Sevaberd-1948)
3. Quyulu
4. Nurnus
5. Qoxt
6. Kankan (Hatis-1978)
7. Göykilsə (Kaputan-1935)
8. Zar

**Axta (Razdan) rayonundan**

1. Ağverən
2. Təkəlik (Ardavaz-1991)
3. Qorçulu
4. Qaraqala-xaraba qalıb
5. Qabaxlı
6. Paşakənd (Marmarik-1935
7. Üşəlik
8. Bjni
9. Dədəqışlaq (Axundov-1939)
10. Misxana (Hankavan-1949)

**Kəvər (Nor-Bəyazed-Kamo) rayonundan**

1. Ağzıbir (Lcap-1945)
2. Hacı Muxan (Tsovazard-1978)
3. Ördəkli (Lcaşen-1946)
4. Güzəcik (Lancaxpyur-1950)
5. Başkənd (Qexarkunik-1946)
6. Ağqala

**Martuni (Aşağı Qaranlıq) rayonundan**

1. Karvansara
2. Mollalı
3. Mədinə
4. Qızılxaraba
5. Aşağı Alçalı(Artsvanist-1968)
6. Qaranlıq(Geğhovit-1968)

**Basarkeçər (Vardenis) rayonundan**

1. Zod (Sotk-1991)-qismən
2. Yuxarı Zağalı (Axpradzor-1978)
3. Çaxırlı (Sovetakert-1978)
4. Qanlı
5. Qızılvəng
6. Kərkibaş

7. Yarpızlı

**Dilican rayonundan**(qismən)
1. Ağkilsə
2. Murteyil
3. Polad (Xaçardzap-1991)
4. Göyərçin
5. Avanqard kolxozu
6. Salah (Hankavanik-1991)

**Əzizbəyov (Vayk) rayonundan**
1. Arınc-xaraba qalıb
2. Bulaxlı-xaraba qalıb
3. Zeytə (Zadea-1991)
4. Zirək-xaraba qalıb
5. Tarp
6. Terp (Saravan-1960)
7. İstisu (Cermuk)
8. Herher
9. Qabaxlı
10. Məmmədrza xaraba qalıb
11. Çaykənd (Qetik-1991)
12. Cul (Hartavan-1950)
13. Köçbəy (Yeğedzor-1991)
14. Leyliqaçan
15. Qayalı-xaraba qalıb
16. Vartenik

**Keşişkənd (Mikoyan- Yeğeqnadzor) rayonundan**
1. Ağkənd (Ağncadzor-1968)
2. Almalı-xaraba qalıb
3. Ardaraz-xaraba qalıb
4. Qışlaq-xaraba qalıb
5. Qovuşuq (Yermon-1991)
6. Qurdqulaq (Boloraberd-1946)
7. Heşin
8. Horbadıx
9. Çivə
10. Hors
11. Sallı
12. Yelpin
13. Qozluca

**Allahverdi (Tumanyan) rayonundan**
1. Böyük Ayrım(qismən)-1950

**Noyemberyan rayonundan**
1. Ləmbəli (Baqrataşen-1972)
2. Aşağı Körpülü (Haxtanaq-1978)

**Abaran rayonundan**
1. Kirəşli

**Spitak rayonundan** (qismən)
1. Saral (qismən)

**Kirovakan (Qarakilsə) rayonundan** (qismən)

1. Yuxarı Kilsə
2. Aşağı Kilsə - xaraba qalıb
3. Mollaqışlaq
4. Haydarlı

**Ağbaba (Amasiya) rayonundan**

1. Daşkörpü
2. Şurabad (Sultanabad)
3. Qızılkənd-xaraba qalıb
4. Qarabulaq (Şoğiq-1991)

**Kalinino rayonundan** (qismən)

1. Qızıldaş (Aruni-1991)
2. İlməzli

**Gorus rayonundan** (qismən)

1. Şurnuxu
2. Ağbulaq
3. Qurdqulaq
4. Şahverdilər (Başaracur)
5. Şamsız

**Beriya rayonundan**

1. Aşağı Koxa

***(Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998, səh. 217-220)***

**1988-1989-cu illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlı yaşayış məntəqələrinin siyahısı**

**Amasiya (Ağbaba) rayonu**

1. Oxçoğlu (Vaxçi-1991), 2. Güllübulaq (Ardahan-1991) 3. Çaxmax (Kamxut-1991), 4. Mağaracıq, 5. Qaraçanta (Əzizbəyov-1939, Arekdanem-1990), 6. Daşkörpü, 7. İbiş (Dayrik-1991), 8. Qoncalı (Zarişat - 1991), 9. İlanlı (Çaybasar-1946, Aravet-1991), 10. Düzkənd (Halvar-1991), 11. Qaranamaz (Yeniyol-1935, Ağvorik-1991), 12. Göllü (Vardenis-1991), 13. Təpəkənd (Daşdavayr-1990), 14. Sultanabad (Şurabad), 15. Balıqlı, 16. Öksüz (Dalarik-1991), 17. Güllücə, 18. Ellərkənd, 19. Çivinli (Yeğnacur-1991), 20. Hozukənd (Quzukənd), 21. Qarabulaq (Şağik-1991)

***Qarışıq yaşayış məntəqəsi:***

22. Amasiya (Hamasa)

**Noyemberyan rayonu**

1. Yuxarı Körpülü

***Qarışıq yaşayış məntəqələri:***

2. Debedavan (Baraxlı), 3. Ləmbəli (Baqrataşen-1972), 4. Ayrım sovxoz (Btğavan), 5. Aşağı Körpülü (Haxtanaq-1978), 6. Ayrım (qəsəbə dəmiryol stansiyası)

**Ararat (Vedi) rayonu**

1. Şidli (Yexeqnavan-1991)

***Qarışıq yaşayış məntəqələri:***

2. Xalisa (Noyakert-1991), 3. Arazdəyən (Yerasx-1968), 4. Şirazlı (Vosketan-1991), 5. Qaralar (Aralez - 1978), 6. Yengicə (Sisavan-1978), 7. Taytan (Vanaşen-1978), 8. Kiçik Vedi, 9. Şıxlar (Lusarat-1978), 10. Avşar, 11. Çimənkənd (Urcadzor-1978), 12. Dəvəli (Ararat şəhəri-1947), 13. Vedi, 14. Daşdı (Daştakar - 1968), 15. Dəvəli kəndi, 16. Armaş, 17. Çəmbərək (Surenavan)

**Krasnoselo (Çəmbərək) rayonu**

1. Cil, 2. Ardanış, 3. Şorca, 4. Toxluca (Draxtik-1991), 5. Ağbulaq (Axperek-1991), 6. Gölkənd (Ayqut - 1991), 7. Çaykənd (Dprabak-1991), 8. Əmirxeyir (Kalavan-1991), 9. Bəryabad (Barepat-1991), 10. Yanıqpəyə (Meşəkənd-1978), 11. Cıvıxlı, 12. Qaraqaya (Coravank-1991),

***Qarışıq yaşayış məntəqələri:***

13. Çəmbərək (Krasnoselo), 14. Orconikidze

**Tumanyan (Allahverdi) rayonu**

1. Böyük Ayrım, 2. Bala Ayrım, 3. Yuxarı Axtala

***Qarışıq yaşayış məntəqələri:***

4. Allahverdi (Mədən qəsəbəsi), 5. Şamlıq qəsəbəsi, 6. Aşağı Axtala qəsəbəsi (Gümüşxana), 7. Cılız, 8. Axtala dəmiryol stansiyası

**Mehri rayonu**

1. Nüvədi, 2. Aldərə, 3. Lök (Vartanizor)

***Qarışıq yaşayış məntəqələri:***

4. Maralzəmi, 5. Lehvaz, 6. Mehri, 7. Astazur (Şivanidzor-1935)

**İcevan (Karvansara) rayonu**

1. Göyərçin, 2. Mürteyil (Çiçəkbulaq-1978, Qeğatan-1991), 3. Haqqıxlı (Vurğun-1978, Hovk-1991), 4. Alaçıqqaya (Alaçux), 5. Ağkilsə (Cermakavan-1991), 6. Polad (Xaçardzap-1991), 7. Salah (Akanavank - 1991)

**Yeğeqnadzor (Keşişkənd-Mikoyan) rayonu**

1. Qabaxlı, 2. Äləyəz (Yexeqis-1991), 3. Qovuşuq (Yermon-1991), 4. Aysəsi (Qızılgül-1946, Arates - 1991), 5. Qalaser, 6. Gədikvəng, 7. Qaraqaya, 8. Güldüzü (Vardahovit-1991)

***Qarışıq yaşayış məntəqələri:***

9. Əməğu, 10. Sallı, 11. Hors, 12. Ağkənd (Ağncadzor-1968), 13. Çivə

**Sisyan (Qarakilsə) rayonu**

1. Qızılcıq, 2. Slfulu, 3. Murxuz, 4. Şıxlar, 5. Ağüdü (Aqitu-1991), 6. Urud (Vorotan-1968), 7. Ərəfsə (arevis-1968), 8. Comərdli (Tanahat-1991)

***Qarışıq yaşayış məntəqələri:***

9. Dəstəkirt, 10. Vağudi, 11. Şəki

**Gorus rayonu**

1. Şurnuxu, 2. Ağbulaq, 3. Qurdqalaq

**Kalinino (Vorontsovka) rayonu**

1. Qızıldaş (Aruni-1991), 2. Sarıyar (Apaven-1991), 3. Evli (Coramut-1991), 4. Cücəkənd (Qızılşəfəq - 1935), 5. Soyuqbulaq (Paqaxpyur-1991), 6. İlməzli, 7. Qaraqala, 8. Dəmirçilər (Qoqavan-1991), 9. Qaraisa (Meqahovit-1991)

***Qarışıq yaşayış məntəqələri:***

10. Kalinino qəsəbəsi (Taşir-1991), 11. Novoselçovo, 12. Saratovka, 13. Privolnı, 14. Kruqloşışka, 15. Medovka, 16. Mixailovka, 17. Petrovka (Qurdqala), 18. Blaqodarno, 19. Lorsovxoz

**Qukark (Böyük Qarakilsə) rayonu**

1. Hallavar, 2. Yuxarı Kilsə, 3. Mollaqışlaq (Güllüdərə-1978), 4. Xancığaz (Gözəldərə-1940, Ağnavadzor - 1991), 5. Arçut, 6. Heydərli, 7. Aşağı Kilsə

***Qarışıq yaşayış məntəqələri:***

8. Vartanlı (Şaumyan), 9. Fioletovo, 10. Lermontovo

**Vardenis (Basarkeçər) rayonu**

1. Hüseynquluağalı (Nərimanlı, Şatavan-1991), 2. Böyük Qaraqoyunlu (Əzizli-1935, Norabak-1991), 3. Aşağı Şorca, 4. Yuxarı Şorca, 5. Daşkənd (Ayrk-1991), 6. Sarıyaqub (Çaxkadzor-1991), 7. Qayabaşı (Qeğamabak-1991), 8. Qoşabulaq (Şadcrek-1991), 9. Zərzibil (Zərkənd-1935, Kut-1991), 10. Ağkilsə (Azad - 1935), 11. Zod (Cotk-1991), 12. Babacan (Qızılkənd-1978), 13. Pəmbək, 14. Dərə (Daranek-1991), 15. Şişqaya (Qukariç-1991), 17. Bala Məzrə (Pokr Masrik-1991), 18. Qaraiman (Sovetkənd-1978, Kaxank-1991), 19. Kəsəmən (Bahar-1978, Arpunk-1991), 20. İnəkdağı (Yenikənd-1978, Tretuk-1991), 21. Qanlı (Qamışlı - 1946), 22. Kərkibaş (Şəfəq-1967, Vanevan-1991), 23. Subatan (Qexakar-1991), 24. Canəhməd (Günəşli-1969, Kutakan-1991), 25. Ağyoxuş, 26. Sətənəxaç (Güney-1935, Arevuni-1991)

***Qarışıq yaşayış məntəqələri:***

27. Yuxarı Zağalı (Ağpradzor-1978), 28. Çaxırlı (Sovetakert-1978, Kaxakn-1991), 29. Tüstülü (Lusaqeunk-1978), 30. Böyük Məzrə (Medz Masrik-1991), 31. Qızılvəng (Çiçəkli-1940, Makenis-1978), 32. Torf

**Masis (Zəngibasar) rayonu**

1. Zəhmət (Xaçpar-1991), 2. Dostluq (Qaraqışlaq, Ayanist-1991), 3. Dəmirçi (Darbnik-1991), 4. Sarvanlar (Sis-1991), 5. Rəncbər, 6. Zəngilər (Zorak-1991), 7. Kalinin qəsəbəsi (Həbilkənd, Reyhanlı, Seyidkənd - Noramarq-1991)

***Qarışıq yaşayış məntəqələri:***

8. Yuxarı Necili (Nizami-1978), 9. Aşağı Necili(Sayat Nova-1978), 10. Rəhimabad, 11. Mehmandar (Hovtaşad-1978), 12. Şöllü (Daşdavan-1978), 13. Arbat, 14. Uluxanlı (Zəngibasar, Masis-1950) qəsəbəsi

**Əzizbəyov (Paşalı-Vayk rayonu)**

1. Köçbəy (Yeğedzor-1991), 2. Leyliqaçan, 3. Saravan, 4. Axta, 5. Gomur (Qomk-1991), 6. Gabud, 7. Gülüstan (Nor Aznaberd-1991), 8. Zeytə (Zedea-1991), 9. Terp (Saravan-1960)

***Qarışıq yaşayış məntəqələri:***

10. Karmraşen (Kotanlı), 11. Qndevaz, 12. Horadiz (Oradis-1968)

**Spitak (Hamamlı) rayonu**

1. Qursalı, 2. Saral

***Qarışıq yaşayış məntəqəsi:***

3. Qızılörən (Şenavan-1946)

**Stepanavan (Cəlaloğlu) rayonu**

***Qarışıq yaşayış məntəqələri:***

1. Rus Gərgəri (Puşkino-1937), 2. Gərgər 3. Kələkürək, 4. Kirov (Xarxar), 5. Çubuqlu (Kuybışev-1939), 6. Qara Məmməd (Maksim Qorki-1939)

**Artaşat (Qəmərli) rayonu**

***Qarışıq yaşayış məntəqələri:***

1. Yamancalı (Desxut-1967), 2. Bayburd

**Abovyan (Ellər) rayonu**

***Qarışıq yaşayış məntəqələri:***

1. Göykilsə (Kaputan-1935), 2. Nurnus

**Hoktemberyan (Qurduqulu) rayonu**

***Qarışıq yaşayış məntəqəsi:***

1. Bağçalar (Baqaran-1968)

**Qafan rayonu**

1. Gığı, 2. Kirs, 3. Kurud, 4. Kərd (Kard-1991), 5. Mahmudlu (Çaykənd), 6. Pəyhan, 7. Acıbac (Adjabac), 8. Həcəti, 9. Kehpəşin, 10. Aşağı Pürülü, 11. Yuxarı Pürülü, 12. Qovşud (Kavçut-1991), 13. Zeyvə (Davidbek-1949), 14. Müsəlləm, 15. Yuxarı Girətağ, 16. Aşağı Girətağ, 17. Açağu, 18. Dəvrus, 19. Qaradığa, 20. Xələc, 21. Oxdar, 22. Cıbıllı, 23. Yuxarı Gödəkli, 24. Aşağı Gödəkli, 25. Bəydaş (Xorcor-1991), 26. Şabadin (Yesex-1991), 27. Siznək, 28. Qaraçimən (Diçmayri), 29. Baharlı, 30. Aşağı Daşbaşı, 31. Aşağı Davruz, 32. Yuxarı Davruz, 33. Hünüd, 34. Novruzdar, 35. Qatar, 36. Atqız.

***Qarışıq yaşayış məntəqələri***

37. Qafan, 38. Sarıdərə, 39. Piriman, 40. Sünük sovxozu, 41. Şəhərcik qəsəbəsi

**Razdan (Axta) rayonu**

1. Dədəqışlaq (Axundov-1939), 2. Təkəlik (Hartavaz-1991), 3. Qorçulu

***Qarışıq yaşayış məntəqələri***

4. Misxana (Hankavan-1949), 5. Çarentsaban

**Azərbaycanlılar yaşamış respublika tabeliyində olan şəhərlər**:

1. İrəvan
2. Kirovakan (Vanadzor-1990)
3. Hrazdan
4. Stepanavan
5. Cermuk
6. Leninakan (Gümrü-1990)

***(Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998, səh. 232-236)***

**Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanlarına əsasən Ermənistan ərazisində adları dəyişdirilmiş azərbaycanlılara məxsus yer adlarının siyahısı***

| Azərbaycanlılara məxsus olan əvvəlki adı | Dəyişdirilmiş adı | Yerləşdiyi rayon | Fərmanın verildiyi tarix |
|---|---|---|---|
| Acıbac | Acabac | Qafan | 09.04.1991 |
| Adamxan | Vardadzor | Martuni | 03.07.1968 |
| Adıyaman | Qarnhovit | Talin | 12.11.1946 |
| Ağadərəsi | Katnaxpyur | Abovyan | 04.04.1946 |
| Ağbaba nahiyəsi | Amasiya rayonu | | 09.09.1930 |
| Ağbulaq | Luysaxpyur | Spitak | 26.04.1946 |
| Ağbulaq | Ağperek | Krasnoselo | 09.04.1991 |
| Ağbulaq | Ağbullak | Gorus | 09.04.1991 |
| Ağcaarx | Arevik | Hoktemberyan Armavir) | 04.04.1946 |
| Ağcaqala | Tsaxkalanc | Eçmiədzin | 25.01.1978 |
| Ağcaqışlaq | 1.Getaşen | Artaşat | 21.06.1948 |
| | 2.Qetazat | | 25.05.1967 |
| Ağcaqışlaq | Getapya | Masis | 25.01.1978 |
| Ağhəmzəli | Marmaraşen | Masis | 25.05.1967 |
| Ağin rayonu | Ani rayonu | | 12.10.1961 |
| Ağkənd | Ağncadzor | Yeğeqnadzor | 03.07.1968 |
| Ağkənd | Aşotavan | Sisyan | 17.04.1948 |
| Ağkilsə | Azat | Vardenis | 03.01.1935 |
| Ağkilsə | Kraşen | Axuryan | 07.12.1945 |
| Ağkilsə | Cermakavan | İcevan | 19.04.1991 |
| Ağqala | Berdunk | Kamo (Qavar) | 09.04.1991 |
| Ağudi | Aqitu | Sisyan | 09.04.1991 |
| Ağzıbir | Lçap | Kamo (Qavar) | 07.12.1945 |
| Ahaqçı (Ağakiçik) | Zovasar | Talin | 25.01.1978 |
| Axta rayonu | Razdan rayonu | | 30.06.1959 |
| Axtaxana | 1.Xlatağ | Qafan | — |
| | 2.Dzorastan | | 01.06.1940 |
| Axula | Berkarat | Araqats | 25.01.1978 |
| Axund Bozavand | 1.Bzovan 2.Berdik | Artaşat | — |
| | | | 25.01.1978 |
| Alaçıqqaya | Alaçux | Dilican | — |
| Alagöz | Araqats | Talin | 31.07.1950 |
| Alakilsə | 1.Baytar | Amasiya | — |
| | 2.Hovtun | | 09.04.1991 |
| Allahverdi rayonu | Tumanyan rayonu | Tumanyan | 09.09.1930 |
| Almalı | Xndzorut | Əzizbəyov (Vayk) | 12.11.1946 |
| Aralıx | Yerazqavors | Axuryan | 07.12.1945 |
| Aralıx | Qriboyedov | Eçmiədzin | 25.05.1978 |
| Aralıx Kolanı | Verin Kolanı | | — |
| Arazdəyən | Yerasx | Ararat | 03.07.1968 |
| Arıxvəli | Lernut | Axuryan | 21.10.1967 |
| Armudlu | Tufaşen | Artik | 31.05.1946 |
| Armudlu | Tanzut | Hoktemberyan (Armavir) | 04.04.1946 |
| Arpa | Areni | Yeğeqnadzor | 10.09.1946 |
| Arpaçay st. | Axuryan st. | Axuryan | 31.07.1950 |

* Siyahı 1976-cı və 1988-ci illərdə Ermənistan SSR Ali Sovetinin İrəvanda rus və erməni dillərində dərc etdirdiyi "Ermənistan SSR-in inzbati-ərazi bölgüsü" kitabları, habelə 2000-ci ildə İrəvanda erməni dilində çap edilən "Ermənistan Respublikasının xəritəsi" əsasında tərtib edilmişdir.

| | | | |
|---|---|---|---|
| Arpavar | 1.Lusakert | Artaşat | 20.08.1945 |
| | 2.Nşavan | | 21.10.1967 |
| Artiz | Gexart | Abovyan | 04.04.1946 |
| Astazur | Şvanidzor | Meğri | 22.04.1935 |
| Astazur st. | Şvanidzor st. | Meğri | 19.09.1950 |
| Aşağı Adıyaman | Nerkin Getaşen | Martuni | 07.12.1945 |
| Aşağı Ağbaş | Arevşat | Artaşat | 20.08.1945 |
| Aşağı Ağcaqala | Nerkin Bazmaberd | Talin | 12.11.1946 |
| Aşağı Ağdan | 1.Morut | İcevan | 25.05.1967 |
| | 2.Aknaxpyur | | 11.11.1970 |
| Aşağı Axta | Razdan | Razdan | 30.06.1945 |
| Aşağı Alçalı | Artsvanist | Martuni | 27.09.1968 |
| Aşağı Aylanlı | Lenuği | Eçmiədzin | 04.04.1946 |
| Aşağı Girətağ | Nerkin Qirataq | Qafan | 1991-ci ildən sonra |
| Aşağı Gözəldərə | Vardenis | Martuni | 07.12.1945 |
| Aşağı Xatunarxı | Qay | Eçmiədzin | 25.01.1978 |
| Aşağı Qanlıca | Vağramaberd | Axuryan | 26.04.1946 |
| Aşağı Qarabağlar | 1.Çimənkənd | Ararat | — |
| | 2.Urtsadzor | | 25.01.1978 |
| Aşağı Qaraqoymaz | Nerkin Sasunaşen | Talin | 12.11.1946 |
| Aşağı Qaranlıq qəsəbəsi | Martuni qəsəbəsi | Martuni | |
| Aşağı Qaranlıq rayonu | Martuni rayonu | — | 09.09.1930 |
| Aşağı Qarxın | Araks | Eçmiədzin | 04.04.1946 |
| Aşağı Quylasar (Göyləsər) | Dimitrov | Artaşat | 01.12.1949 |
| Aşağı Necili | Sayat Nova | Masis | 25.01.1978 |
| Aşağı Pirtikən | Dzoragyuğ | Talin | 02.03.1940 |
| Aşağı Pürülü | Geğavank | Qafan | 09.04.1991 |
| Aşağı Türkmənli | Lyusagyuğ | Eçmiədzin | 03.01.1935 |
| Aşağı Zağalı | Tsovak | Vardenis | 12.08.1946 |
| Aşağı Zeyvə | Hartaşen | Eçmiədzin | 25.01.1978 |
| Avdalağalı | Vağaşen | Martuni | 03.01.1935 |
| Avdallar | Hasavan | Abovyan | 04.04.1946 |
| Avdıbəy | 1.Saxkaşen | Spitak | 04.05.1939 |
| | 2.Tsaxkaber | | 21.10.1967 |
| Ayaslı | Ayqestan | Artaşat | — |
| Ayğırgölü | Aknaliç | Eçmiədzin | 25.01.1978 |
| Aynalı | Davtaşen | Talin | 19.04.1950 |
| Ayrım | Ptxavan | Noyemberyan | — |
| Aysəsi | 1.Qızılgül | Yeğeqnadzor | 10.09.1946 |
| | 2.Arates | | 09.04.1991 |
| Babacan | 1.Qızılkənd | Vardenis | 15.07.1978 |
| | 2.Çanatağ | | 09.04.1991 |
| Babakişi | Bujakan | Nairi | — |
| Babakişi | Ağavnadzor | Razdan | 15.07.1948 |
| Bacoğlu | Haykavan | Axuryan | 07.12.1945 |
| Bağçılıq | Verin Ptxni | Kotayk | 09.04.1991 |
| Bahar | Artunk | Vardenis | 09.04.1991 |
| Baxçalar (Hacı Bayram) | Baqaran | Hoktemberyan(Armavir) | 03.07.1968<br>03.01.1035 |
| Bala Ayrım | Pokr Ayrum | Tumanyan | 1991-ci ildən sonra |
| Balakənd | Dovex | Noyemberyan | 04.01.1938 |
| Balıxlı | Zorakert | Amasiya | 09.04.1991 |
| Barana | Noyemberyan | Noyemberyan | 04.01.1938 |
| Basarkeçər | Vardenis | Vardenis | 11.06.1969 |

| | | | |
|---|---|---|---|
| Basarkeçər rayonu | Basarkeçər rayonu | — | 11.06.1969 |
| Baş Abaran | Aparan | Aparan | 03.01.1935 |
| Baş Abaran r. | Aparan r. | — | 03.01.1935 |
| Baş Gərni | Qarni | Abovyan | 03.01.1935 |
| Başkənd | Akunk | Abovyan | 04.04.1946 |
| Başkənd | Artsvaşen | Karsnoselo (Cambarak) | 25.01.1978 |
| Başkənd | Saralanc | Artik | 31.05.1946 |
| Başkənd | Vernaşen | Yeğeqnadzor | 10.09.1946 |
| Başkənd | Geğarkunik | Kamo (Qavar) | 04.04.1946 |
| Başnalı | Bağramyan | Artaşat | 01.12.1949 |
| Bayandur | Vağadur | Gorus | 07.05.1968 |
| Bazarcıq | Arai | Aparan | 15.07.1946 |
| Bazarçay | Qorayk | Sisyan | 1991-ci ildən sonra |
| Becəyəzli | Vostan | Artaşat | 20.08.1945 |
| Bəbirli | Bartsaraşen | Ani | 03.02.1947 |
| Bədəl (Molla Bədəl) | Yeğeknut | Hoktemberyan Armavir) | 04.04.1946 |
| Bəkdaş | Xordzor | Qafan | 09.04.1991 |
| Bəryabad | Barepat | Karsnoselo (Cambarak) | 09.04.1991 |
| Bəykənd | Mets Parni | Spitak | — |
| Bəzirxana | Dzitankov | Ani | — |
| Birəli | Lancar | Ararat | 03.07.1968 |
| Bitticə | Bartsraşen | Artaşat | 20.08.1945 |
| Boğazkəsən | Dzorakap | Ani | 03.01.1935 |
| Boğutlu st. | Arteni st. | Talin | 31.07.1950 |
| Bozabdal | Bazum | Quqark | 25.01.1978 |
| Bozdoğan | Sarakap | Ani | 03.01.1935 |
| Bozyoxuş | Musaelyan | Qukasyan (Aşotsk) | 12.11.1946 |
| Böyük Kəpənəkçi | Musaelyan | Axuryan | 03.01.1935 |
| BöyükCamışlı | Alagyaz | Araqats | 04.01.1938 |
| Böyük Arıxvəli | Medz Mantaş | Artik | 03.01.1935 |
| Böyük Ayrım | Medz Ayrum | Tumanyan | 1991-ci ildən sonra |
| Böyük Keyti | Keti | Axuryan | 26.04.1946 |
| Böyük Qarakilsə rayonu | .Kirovakan rayonu<br>2.Quqark rayonu | — | 30.09.1935<br>1964 |
| Böyük Qarakilsə şəhəri | .Kirovakan şəhəri<br>2.Vanadzor | — | 03.01.1935<br>1991 |
| Böyük Qaraqoyunlu | 1.Əzizli<br>2.Norabak | Vardenis | 03.01.1935<br>09.04.1991 |
| Böyük Məzrə | Medz Masrik | Vardenis | 09.04.1991 |
| Böyük Şəhriyar | Nalbandyan | Hoktemberyan (Armavir) | 19.04.1950 |
| Böyük Şiştəpə | Medz Sepasar | Qukasyan (Aşotsk) | 12.11.1946 |
| Böyük Şorlu Dəmirçi | 1.Şorlu Dəmirçi<br>2.Daştavan | Masis | —<br>25.01.1978 |
| Böyük Vedi | Vedi | Ararat | 04.04.1946 |
| Buğdaşen | Baqravan | Ani | 03.02.1947 |
| Buğdaşen st. | Baqravan st. | Ani | 31.07.1950 |
| Bulaqlı | Həbilkənd | Masis | — |
| Bulxeyir | Şenavan | Aparan | 19.04.1950 |
| Calaloğlu | Stepanavan | Stepanavan | — |
| Canəhməd (Sultanəligışlağı) | 1.Günəşli<br>2.Kutakan | Vardenis | 03.07.1969<br>09.04.1991 |
| Carcarçı | Derek | Araqats | 19.04.1957 |

| | | | |
|---|---|---|---|
| Cəbəcəli | Crahovit | Masis | 27.02.1960 |
| Cəfərabad | Arqavand | Masis | 04.04.1946 |
| Cəfərabad | Getaşen | Hoktemberyan (Armavir) | 04.04.1946 |
| Cələb | Cradzor | Amasiya | 26.04.1946 |
| Cəngi | Vardablur | Araqats | 19.04.1950 |
| Cənnətli | 1.Zovaşen<br>2.Lancazat | Artaşat | 02.03.1940<br>21.10.1967 |
| Ciftəli | Zuyqaxpyur | Qukasyan (Aşotsk) | 12.11.1946 |
| Cızıxlar | Tsoğamarq | Qukasyan (Aşotsk) | 12.11.1946 |
| Cloyxan | Beniamin | Axuryan | 07.12.1945 |
| Coğaz | Berkaber | İcevan | 25.01.1978 |
| Comardlı | Tanahat | Sisyan | 09.04.1991 |
| Cul | Hartavan | Əzizbəyov (Vayk) | 19.04.1950 |
| Cücəkənd | 1.Qızıl Şəfəq<br>2.Cunaşoğ | Kalinino | 03.01.1935<br>1991-ci ildən sonra |
| Çaxırlı | Sovetakert | Vardenis | 25.01.1978 |
| Çaxmaq | Kamxut | Amasiya | 09.04.1991 |
| Çanaxçı | Sovetaşen | Ararat | 10.09.1948 |
| Çarxac | Kuybışev | Dilican | 02.03.1940 |
| Çatıqıran | 1.Nor Geği<br>2.Bazmavan | Nairi | 08.07.1957<br>10.02.1962 |
| Çatıqıran | 1. Razdan<br>2. Geğaşen | Abovyan | 03.01.1935<br>21.10.1967 |
| Çaykənd | Dprabak | Krasnoselo (Cambarak) | 09.04.1991 |
| Çaykənd | Getik | Əzizbəyov (Vayk) | 09.04.1991 |
| Çəmbərək | 1.Krasnoselo<br>2.Cambarak | Krasnoselo (Cambarak) | 1991-ci ildən sonra |
| Çiçəkbulaq | Geğatap | İcevan | 09.04.1991 |
| Çıraxlı | Crarat | Axuryan | 07.12.1945 |
| Çırçır | Varser | Sevan | 26.04.1946 |
| Çırpılı | Crapi | Ani | 28.08.1974 |
| Çirviz | Lysahovit | İcevan | 25.01.1978 |
| Çivinli | Yeğnacur | Amasiya | 09.04.1991 |
| Çiydəməl | Arevaşoq | Spitak | 25.01.1978 |
| Çiydəmli | Azatavan | Artaşat | 20.08.1.945 |
| Çobanmaz | Avşen | Araqts | 25.01.1978 |
| Çorlu | 1.Lernanik<br>2.Lernagyuğ | Qukasyan (Aşotsk) | 26.04.1946<br>21.10.1967 |
| Çotur | Sarameç | Spitak | 26.04.1946 |
| Çubuxçu | Vardanaşen | Hoktemberyan(Armavir) | 04.04.1946 |
| Çubuxlu | Tsovagyuğ | Sevan | 03.01.1935 |
| Daharlı | Qetk | Axuryan | 07.12.1945 |
| Damcılı | Mravyan | Abaran | 03.01.1935 |
| Danagirməz | 1.Hovit<br>2.Niqavan | Abaran | 15.07.1946<br>21.10.1967 |
| Dərəbas | Darbas | Sisyan | 10.09.1946 |
| Darğalı | 1.Anastasavan<br>2.Ayqezard | Artaşat | 01.12.1949<br>30.12.1957 |
| Daşkənd | Hayrk | Vardenis | 09.04.1991 |
| Daşqala | Karaberd | Ani | 03.02.1947 |
| Daşlı | Daştakar | Ararat | 03.07.1968 |
| Daylaxlı | Arin | Əzizbəyov(Vayk) | 25.05.1978 |
| Dədəqışlaq | Axundov | Razdan | 04.05.1939 |
| Dədəli | Yeğnik | Talin | 12.11.1946 |

| | | | |
|---|---|---|---|
| Dəlikdaş | Tsakkar | Martuni | 21.06.1948 |
| Dəliqardaş | Saruxan | Kamo (Qavar) | 21.06.1948 |
| Dəlləkli | Zovaşen | Abovyan | 21.06.1948 |
| Dəllər | Dalar | Artaşat | 03.01.1935 |
| Dəmirçilər | Qoçavan | Kalinino (Taşir) | 09.04.1991 |
| Dərbənd | Karmrakar | Axuryan | 26.04.1946 |
| Dərə | Daranak | Vardenis | 09.04.1991 |
| Dərəçiçək | Tsaxkadzor | Razdan | — |
| Dərəkənd | Dzoragyuğ | Quqark | — |
| Dərəköy | 1.Daraqyuğ | Qukasyan(Aşotsk) | — |
| | 2.Saraqyuğ | | 12.11.1946 |
| Dəvəli | Ararat | Ararat | 03.01.1935 |
| Dəymədağlı | Şrvenants | Qafan | — |
| Dirəklər | Karnut | Axuryan | 26.04.1946 |
| Doqquz | Kanaçut | Artaşat | 20.08.1945 |
| Donuzyeən | Zəngilər | Masis | 03.01.1935 |
| Dornı | Antaraşat | Qafan | 20.06.1949 |
| Dostlu | Bareqamavan | Noyemberyan | 25.01.1978 |
| Dostluq | Ayanist | Masis | 09.04.1991 |
| Dovşanqışlaq | Şirakavan | Ani | 19.04.1950 |
| Düzxaraba | Hartaşen | Qukasyan(Aşotsk) | 12.11.1946 |
| Düzkənd | Axuryan | Axuryan | 07.12.1945 |
| Düzkənd | Baroj | Talin | 03.01.1935 |
| Düzkənd | Alvar | Amasiya | 09.04.1991 |
| Düzkənd rayonu | Axuryan rayonu | — | 31.12.1937 |
| Ellər | Abovyan | | 12.10.1961 |
| Elləroyuğu | 1.Ellər | Amasiya | — |
| | 2.Lorasar | | 1991-ci ildən sonra |
| Erdəpin | Yexegis | Yeğeqnadzor | 10.09.1946 |
| Evcilər | Arazap | Hoktemberyan (Armavir) | 10.04.1947 |
| Eylas | 1.İpəkli | Masis | — |
| | . Masis sovxozu | | 04.04.1946 |
| Əfəndi | Noraşen | Sevan | 04.01.1938 |
| Əfəndi | Noradzor | Spitak | 26.04.1946 |
| Əldərə | Alvank | Meğri | 1991-ci ildən sonra |
| Ələyəz | Yeğegis | Yeğeqnadzor | 09.04.1991 |
| Ələyəz st. | Araqats st. | | |
| Əlibəyli | Atarbekyan | Eçmiədzin | 04.04.1946 |
| Əligöyçək | Kuçak | Aparan | 03.01.1935 |
| Əlıxan | Getik | Qukasyan | 03.01.1935 |
| Əliqırıx | Blaraşen | Artaşat | 10.09.1948 |
| Əliqırıx | Astğadzor | Martuni | 03.01.1935 |
| Əlili | Salvard | Sisyan | 03.01.1935 |
| Əmirxeyir | Kalavan | Krasnoselo (Cambarak) | 09.04.1991 |
| Ərəfsə | Arevis | Sisyan | 03.07.1968 |
| Ərzəkənd | Arzakan | Razdan | — |
| Əskipara | Voskepar | Noyemberyan | — |
| Əyar | Aqarakadzor | Yeğeqnadzor | 10.09.1946 |
| Əzizbəyov rayonu | Vayk rayonu | — | 09.04.1991 |
| Gabud | Kapuyt | Əzizbəyov (Vayk) | 03.07.1948 |
| Gərd | Kard | Qafan | 09.04.1991 |
| Gərgər | Puşkino | Stepanavan | 14.02.1937 |
| Gərməz | Kamarik | Abovyan | 25.01.1978 |
| Gərni | Qarni | Abovyan | — |
| Gomur | Komk | Əzizbəyov (Vayk) | 09.04.1991 |

| | | | |
|---|---|---|---|
| Goran | Qoqaran | Spitak | 26.04.1946 |
| Goravan | 1.Yenikənd | Ararat | 04.04.1946 |
| | 2.Qorovan | | 03.07.1968 |
| Gödəkbulaq | Qarcaxpyur | Vardenis | 12.08.1946 |
| Gödəklər | Martuni | Krasnoselo (Cambarak) | — |
| Gödəkli | Mrqavan | Artaşat | 20.08.1945 |
| Göl | Liçk | Martuni | — |
| Gölkənd | Ayqut | Krasnoselo (Cambarak) | 09.04.1991 |
| Göllü | Ardenis | Amasiya | 09.04.1991 |
| Göykilsə | Kaputan | Abovyan | 03.01.1935 |
| Göykümbət | Geğanist | Masis | 01.12.1949 |
| Göyyoxuş | Saralanc | Spitak | 26.04.1946 |
| Gözəldərə | Gexadzor | Araqatz | 15.07.1946 |
| Gözəldərə | Lcevadzor | Quqark | 09.04.1991 |
| Gözəldərə | Gexadir | Artik | 31.05.1946 |
| Gözlü | Akunk | Talin | 12.02.1946 |
| Güdgum | Geğanuş | Qafan | 29.06.1949 |
| Gül | Nor Arevik | Meğri | — |
| Gülablı | Dzoraqlux | Aparan | 15.07.1946 |
| Güllübulaq | Vardaxpyur | Qukasyan (Aşotsk) | 15.07.1946 |
| Güllücə | Vardenis | Aparan | 19.04.1950 |
| Güllücə | Dzovk | Abovyan | 25.01.1978 |
| Güllücə | Sarahart | Spitak | 19.04.1950 |
| Güllücə | Tsaxkut | Amasiya | 09.04.1991 |
| Gülüdüzü | Vardahovit | Yeğeqnadzor | 09.04.1991 |
| Gülüstan | Nor Aznaberd | Əzizbəyov (Vayk) | 09.04.1991 |
| Gümrü | 1.Aleksandropol | — | 1837 |
| | 2.Leninakan | | 1924 |
| | 3.Kumayri | | 1990 |
| | 4.Qyumri | | 1992 |
| Gümüş | Karenis | Razdan | 09.04.1991 |
| Güney | Arevuni | Vardenis | 09.04.1991 |
| Gürcüyolu | Torosgyuğ | Qukasyan (Aşotsk) | 30.07.1980 |
| Hacı Bayram | Baqaran | Hoktemberyan(Armavir) | 03.01.1935 |
| Hacı Xəlil | Tsaxkahovid | Araqats | 15.07.1946 |
| Hacı Muğan | Tsovazard | Kamo (Qavar) | 25.01.1978 |
| Hacı Nəzər | Kamo | Axuryan | 03.01.1935 |
| Hacıqara | Ayqeşat | Eçmiədzin | 03.01.1935 |
| Hacıqara | 1.Makaraşen | Quqark | 01.03.1946 |
| | 2.Lernapat | | 26.09.1957 |
| Hacılar | Mrqastan | Eçmiədzin | 03.01.1935 |
| Haçadaraq | Xaştarak | İcevan | — |
| Haçakilsə | 1.Paros | Artik | 03.01.1935 |
| | 2.Nahapetavan | | 30.01.1961 |
| Haçapara | 1.Zəhmət | Masis | 03.01.1935 |
| | 2.Xaçpar | | 09.04.1991 |
| Haçasu | Açacur | İcevan | — |
| Haxıs | Dzorap | Əştərək | 01.12.1949 |
| Haqqıxlı | 1.Səməd Vurğun | İcevan | 25.01.1978 |
| | 2.Hovk | | 09.04.1991 |
| Hallavar | Halavar | Quqark rayonu | 1991-ci ildən sonra |
| Hamamlı | Spitak | Spıtak | 26.09.1949 |
| Hamamlı st. | Spitak st. | Spıtak | 31.07.1950 |
| Hamasa | Amasiya | Amasiya | — |
| Heydər bəy | Sverdlov | Stepanavan | 01.04.1940 |
| Həbilkənd (Bulaqlı) | Kalinin | Masis | 26.09.1967 |
| Həmzəçimən | Mrqahovit | Quqark | 25.01.1978 |

| | | | |
|---|---|---|---|
| Həsənkənd | Şatin | Yeğeqnadzor | 03.01.1935 |
| Horadiz | Oradis | Əzizbəyov (Vayk) | 03.07.1968 |
| Hozukənd | 1.Quzukənd<br>2.Qarnariç | Amasiya | — 09.04.1991 |
| Hüseynquluağalı | 1.Nərimanlı<br>2.Şatavan | Vardenis | —<br>09.04.1991 |
| Xaçdur | Tsaxkaşat | Tumanyan | 03.01.1935 |
| Xaçkənd | Debed | Quqark | 03.01.1935 |
| Xalisa | Noyakert | Ararat | 09.04.1991 |
| Xancığaz | Gözəldərə | Quqark | 01.06.1940 |
| Xaraba Sarvanlar | Nor Qoxb | Artaşat | — |
| Xeyribəyli | Yervandaşat | Hoktemberyan (Armavir) | 25.05.1967 |
| Xərrətli | Arevabyur | Masis | 25.01.1978 |
| Xoşkotan | Voskevaz | Noyemberyan | 25.01.1978 |
| İbiş | Yerizak | Amasiya | 09.04.1991 |
| Ikinci Qarakilsə | Dozaraşen | Qukasyan(Aşotsk) | 03.01.1935 |
| İlançalan | Ardaşavan | Əştərək | — |
| İlanlı | 1.Çaybasar<br>2.Aravet | Amasiya | 26.04.1946<br>09.04.1991 |
| İlxıyabı | Ayqabats | Axuryan | 26.04.1946 |
| İlməzli | Daşdadem | Kalinino | 1991-ci ildən sonra |
| İmanşahlı | Mxçyan | Artaşat | 03.01.1935 |
| İmanşahlı st. | Mxçyan st. | Artaşat | 31.09.1950 |
| İmirxan | Saratak | Artik | 01.06.1940 |
| İmirli | Ttucur | Aparan | 19.04.1950 |
| İnəkdağı | 1.Yenikənd<br>2.Tretuk | Vardenis | 25.01.1978<br>09.04.1991 |
| İnəkli | Andarut | Əştərək | 01.12.1949 |
| İpəkli (Eylas) | Masis sovxozu | Masis | 04.04.1946 |
| İrəvan | 1.Erivan<br>2.Yerevan | — | 1828<br>1936 |
| Istisu | Cermuk | Əzizbəyov (Vayk) | |
| İtqıran | Gülüstan | Əzizbəyov (Vayk) | 03.01.1935 |
| İydəli | Pştavan | Hoktemberyan(Armavir) | 10.04.1947 |
| İyli Qarakilsə | 1.İlli<br>2.Hoğmik | Amasiya | —<br>25.01.1978 |
| Kaftarlı | Panik | Artik | |
| Karvansaray | İcevan | İcevan | — |
| Karvansaray | Amretaza | Abaran | 25.01.1978 |
| Keçili | Mrqaşat | Hoktemberyan(Armavir) | 04.04.1976 |
| Kefli | Kakavasar | Qukasyan (Aşotsk) | 25.01.1978 |
| Keşişkənd | Qexarot | Araqats | 03.01.1935 |
| Keşişkənd | 1.Mikoyan<br>2.Yeğeqnadzor | — | 03.01.1935<br>06.12.1957 |
| Keşişkənd rayonu | 1.Mikoyan<br>2.Yeğeqnadzor rayonu | — | 03.01.1935<br>06.12.1957 |
| Keşişviran | 1.Zovaşen<br>2.Urçalanc | Ararat | 03.01.1935<br>21.10.1967 |
| Kələkarx | Şenavan | Hoktemberyan (Armavir) | 04.04.1946 |
| Kələli | Noraber | Ani | 03.02.1947 |
| Kələrə | Qukasavan | Masis | 01.12.1949 |
| Kənkan | Hatıs | Abovyan | 25.01.1978 |
| Kərimarxı | Sovetakan | Hoktemberyan (Armavir) | 03.01.1935 |

| | | | |
|---|---|---|---|
| Kərimkənd | Tsaxkaşen | Kamo (Qavar) | 02.03.1940 |
| Kərkibaş | 1.Şəfəq<br>2.Vanevan | Vardenis | 25.05.1967<br>09.04.1991 |
| Kərpicli | Geğadir | Abovyan | 03.01.1935 |
| Kəsəmən | Bahar | Vardenis | 25.01.1978 |
| Kəsikbaş | Lernakert | Martuni | 07.12.1945 |
| Kətran | Getameç | Nairi | 21.06.1948 |
| Kəvər | 1.Novo-Bayazet<br>2.Kamo<br>3.Qavar | — | 1837<br>13.04.1959<br>1991 |
| Kəvər mahalı | .Novo Bayazet mahalı<br>.Nor-Bayazet rayonu<br>.Kamo rayonu<br>4.Qavar rayonu | Kamo (Qavar) | 1837<br>30.09.1930<br>13.04.1959<br>1991 |
| Kiçik Arıxvəli | Pokr Mantaş | Artik | 03.01.1935 |
| Kiçik Bzovan | Azatavan | Hoktemberyan (Armavir) | — |
| Kiçik Keti | 1.Lernansk<br>2.Pokraşen | Axuryan | 26.04.1946<br>21.10.1967 |
| Kiçik Kəpənəkçi | Hovit | Axuryan | 07.12.1945 |
| Kiçik Qarakilsə | Azatan | Axuryan | 07.12.1945 |
| Kiçik Məzrə | Pokr Masrik | Vardenis | 09.04.1991 |
| Kiçik Pərni | Anuşavan | Artik | 07.05.1969 |
| Kiçik Şəhriyar | Nor Hartages | Hoktemberyan (Armavir) | 03.07.1968 |
| Kiçik Şiştəpə | Pokr Sepasar | Qukasyan (Aşotsk) | 12.12.1946 |
| Kiçik Şorlu Dəmirçi | 1.Dəmirçi<br>2.Darpnik | Masis | 03.01.1935<br>09.04.1991 |
| Kilsəkənd | Sraşen | Qafan | — |
| Kolagirən | Antaramut | Quqark | 10.09.1948 |
| Kolagirən | Tsovinar | Martuni | 03.01.1935 |
| Kolagirən st. | Tumanyan st. | Tumanyan | 31.07.1950 |
| Korbulaq | 1.Tsaxkaşen<br>2.Sizavet | Qukasyan<br>(Aşotsk) | 12.11.1946<br>21.10.1967 |
| Korbulaq | Şenkani | Abaran | 25.01.1978 |
| Kosaməmməd | Batikyan | Kamo (Qavar) | — |
| Kotanlı | Karmraşen | Əzizbəyov (Vayk) | — |
| Köçbək | Hedzor | Əzizbəyov (Vayk) | 09.04.1991 |
| Körpəli | Arşalyus | Eçmiədzin | 03.01.1935 |
| Körü | Dzoraşen | Gorus | 19.04.1950 |
| Künən | 1.Getaşen<br>2.Kirants | İcevan | 03.01.1935<br>25.05.1967 |
| Kürdkəndi | Lernadzor | Qafan | — |
| Küzəcik | Lancağpyur | Kamo (Qavar) | 19.04.1950 |
| Qacaran | Kacaran | Qafan | 04.07.1951 |
| Qaçağan | Arevadzor | Tumanyan | 25.01.1.978 |
| Qaçağan | Lernavan | Spitak | 26.04.1946 |
| Qalaça | Berdavan | Noyemberyan | 25.01.1978 |
| Qalalı | Noraber | Ani | 03.02.1947 |
| Qaltaxçı | Hartaqyuğ | Spitak | 26.04.1946 |
| Qamısqıt | Yeğeqnut | Quqark | 03.01.1935 |
| Qamışlı | Vartanik | Hoktemberyan(Armavir) | 25.01.1978 |
| Qamışlı st. | Sovetaşen st. | Hoktemberyan (Armavir) | 31.09.1950 |
| Qanlı | Qarnışlı | Vardenis | 12.08.1946 |
| Qapılı | Qusanagyug | Ani | 03.02.1947 |

| | | | |
|---|---|---|---|
| Qaraboya | Xnkoyan | Spitak | 26.04.1946 |
| Qarabulaq | Yerincatap | Aparan | 15.07.1946 |
| Qarabulaq | Şaqik | Amasiya | 09.04.1991 |
| Qaraburun | 1.Qarmraşen | Talin | 31.07.1950 |
| | 2.Karakert | | 21.01.1965 |
| Qaracörən | Aragyuğ | Nairi | 04.04.1946 |
| Qaraçanta | 1.Əzizbəyov | Amasiya | 04.05.1939 |
| | 2.Areqnadem | | 09.04.1991 |
| Qaradağlı | 1.Tsaxkaşen | Artaşat | 20.08.1945 |
| | 2.Mrqavet | | 21.10.1967 |
| Qaradaş | Sevkar | İcevan | — |
| Qarahamzalı | 1.Tamamlı | Artaşat | — |
| | 2. Burastan | | — |
| Qaraxaç | Lusaşoğ | Ararat | 25.01.1978 |
| Qaraisə | Meğrahovit | Kalinino (Taşir) | 09.04.1991 |
| Qarakilsə | Lernahovit | Kalinlino (Taşir) | 25.01.1978 |
| Qarakilsə | Hartavan | Aparan | 19.04.1950 |
| Qarakilsə | 1.Sisavan | Sisyan | — |
| | 2.Sisian | | 02.03.1940 |
| Qaraqala | Getap | Talin | 12.11.1946 |
| Qaraqala | Sevaberd | Abovyan | 21.06.1948 |
| Qaraqala | Noramut | Kalinıno (Taşir) | 09.04.1991 |
| Qaraqışlaq | Dostluq | Masis | 25.01.1978 |
| Qaraqoyunlu | Ferik | Eçmiədzin | 25.01.1978 |
| Qaraqoyunlu | 1.Əzizli | Vardenis | 1991-ci ildən sonra |
| | 2.Norabak | | |
| Qaraqula | Getap | Talin | 12.11.1946 |
| Qaraqula st. | Getab st. | Talin | 31.09.1950 |
| Qaralar | Aralez | Ararat | 25.01.1978 |
| Qaralı | Qatnacur | Spitak | 26.04.1946 |
| Qaraməmməd | Meğraşat | Amasiya | 26.04.1946 |
| Qaranamaz | 1.Yeniyol | Amasiya | 03.01.1935 |
| | 2.Ağvorik | | 09. 04.1991 |
| Qaranlıq | Geğhovit | Martuni | 03.07.1968 |
| Qaranlıq | Lusagyuğ | Abaran | 10.09.1948 |
| Qaranlıqdərə | 1.Xavaradzor | İcevan | — |
| | 2.Lusadzor | | 02.01.1935 |
| Qarğabazar | Aykaşen | Eçmiədzin | 25.05.1967 |
| Qarqaya | Dzorvank | Krasnoselo | 09.04.1991 |
| Qasıməli | Getapi | Artik | 01.06.1940 |
| Qaşqa | Vardaşat | Ararat | 10.09.1948 |
| Qayabaşı | Geğemabak | Vardenis | 09.04.1991 |
| Qazançı | Meğraşen | Artik | 31.05.1946 |
| Qazarabad | İsahakyan | Ani | 30.06.1945 |
| Qədirli | Lancanist | Ararat | 03.07.1968 |
| Qəmərli | Artaşat | Artaşat | 04.09.1945 |
| Qəmərli | Medzamor | Eçmiədzin | 15.07.1946 |
| Qəmərli rayonu | Artaşat rayonu | — | 04.09.1945 |
| Qəmərli st. | Artaşat st. | Artaşat | 31.09.1950 |
| Qətran | Getamec | Nairi | 21.06.1948 |
| Qəzənfər | Araqats | Aparan | 10.09.1948 |
| Qılıcyataq | Suser | Talin | 12.11.1946 |
| Qıpçaq | Hariç | Artik | 31.05.1946 |
| Qırğı | Artsvaberd | Şəmşəddin (Berd ) | 25.01.1978 |
| Qırxbulaq | Akunk | Vardenis | 03.01.1935 |
| Qırxdəyirman | Xnaberd | Araqats | 15.07.1946 |
| Qırmızılı | Karmraşen | Talin | 12.11.1946 |

| | | | |
|---|---|---|---|
| Qızılbulaq | Xaçaxbyur | Vardenis | 1991-ci ildən sonra |
| Qızılcıq | Ğzılcuğ | | 1991-ci ildən sonra |
| Qızıldaş | Aruni | Kalinino (Taşir) | 09.04.1991 |
| Qızıldəmir | Voskevaz | Əştərək | 03.01.1935 |
| Qızılgül | Arates | Yeğeqnadzor | 09.04.1991 |
| Qızılkənd | Tsovatağ | Vardenis | 09.04.1991 |
| Qızilkilsə | Karmravan | Qukasyan | 03.01.1935 |
| Qızılkilsə | 1.Qızıldaş<br>2.Aruni | Kalinino (Taşir) | 03.01.1935<br>09.04.1991 |
| Qızılqoç rayonu | Qukasyan rayonu | — | 12.10.1956 |
| Qızılqoç | .Verin Qukasyan<br>2. Qukasyan | Qukasyan (Aşotsk) | 04.01.1938<br><br>12.10.1956 |
| Qızılörən | Şenavan | Spitak | 26.04.1946 |
| Qızılvəng | 1.Çiçəkli<br>2.Makenis | Vardenis | 24.07.1940<br>25.01.1978 |
| Qızqala | Getavan | Kalinino (Taşir) | 25.01.1978 |
| Qıznaüz | Araqats | Eçmiədzin | 04.04.1946 |
| Qoncalı | Zarişad | Amasiya | 09.04.1991 |
| Qoşabulaq | Şadcrek | Vardenis | 09.04.1991 |
| Qoşatan | Voskevan | Noyemberyan | 25.01.1978 |
| Qoşavəng | Haykadzor | Ani | 09.04.1950 |
| Qoturbulaq | Katnaxpyur | Stepanavan | 03.01.1935 |
| Qoturbulaq | Ttucur | Krasnoselo (Cambarak) | — |
| Qoturvan | 1.Qoduxbank<br>2.Gədikvəng | Yeğeqnadzor | — |
| Qovşud | Kavçut | Qafan | 09.04.1991 |
| Qovuşuq | Yermon | Yeğeqnadzor | 09.04.1991 |
| Quldərviş | Vosketas | Talin | 03.01.1935 |
| Quləli | Qarmirgyuğ | Kamo (Qavar) | 01.06.1940 |
| Quləli | Ayqedzor | Şəmşəddin (Berd) | 04.05.1939 |
| Qulucan | Spandaryan | Artik | 31.05.1946 |
| Qurdbulaq | Krasar | Qukasyan (Aşotsk) | 12.01.1946 |
| Qurdbulaq | Aygeşat | Hoktemberyan (Armavir) | 19.04.1950 |
| Qurdqalaq | Kurtkullak | Gorus | 09.04.1991 |
| Qurdqulaq | Boloraberd | Yeğeqnadzor | 10.09.1946 |
| Qurduqulu | Armavir | Hoktemberyan (Armavir) | 03.01.1930 |
| Qurduqulu rayonu | .Sərdarabad rayonu<br>.Hoktemberyan rayonu | — | 09.09.1930<br><br>02.03.1935 |
| Quru Araz | Yerasxaun | Hoktemberyan (Armavir) | 19.04.1950 |
| Quruboğaz | Ortaçya | Araqats | 25.01.1978 |
| Qurumsulu | Dostlu | Noyemberyan | — |
| Quşçu | Keçut | Əzizboyov (Vayk) | 12.11.1946 |
| Qutniqışlaq | Hovtaşen | Artik | 15.07.1946 |
| Lehvaz | Leyvaz | Meğri | 09.04.1991 |
| Lələkənd (Aşıxköy) | Laliqyuğ | İcevan | — |
| Lələr | Debetavan | Noyemberyan | 25.01.1978 |
| Ləmbəli | 1.Debetaşen<br>2.Baqrataşen | Noyemberyan | 18.06.1960<br>23.02.1972 |
| Lök | Vartanazor | Meğri | — |
| Mağaracıq | Qdaşen | Amasiya | 09.04.1991 |
| Mağdə | Lernarot | Əştərək | 01.12.1949 |
| Mahmudcuq | Pemzaşen | Artik | 02.03.1940 |
| Mahmudlu | 1.Çaykənd | Qafan | 01.06.1940 |

| | | | |
|---|---|---|---|
| | 2.Bağavank | | 1991-ci ildən sonra |
| Maralzəmi | Tğkut | Meğri | 1991-ci ildən sonra |
| Mehmandar | Hovtaşat | Masis | 25.01.1978 |
| Mehrablı | Vardaşen | Artaşat | 20.08.1945 |
| Mehriban | Katnaxpyur | Talin | 19.04.1950 |
| Meşəkənd | Antaramec | Krasnoselo (Cambarak) | 09.04.1991 |
| Məlikkənd | Melikgyuğ | Araqadz | 15.07.1946 |
| Məliklər | Spandaryan | Sisyan | 04.05.1939 |
| Məscidli | Nor Kyank | Artik | 01.04.1940 |
| Məsdərə | Dalarik | Talin | 21.01.1965 |
| Məsimli | Aygepat | Artaşat | 01.12.1949 |
| Məzarcıq | Şenik | Talin | — |
| Məzrə | Bartsravan | Sisyan | 10.09.1946 |
| Mhub | Balahovit | Abovyan | 26.12.1968 |
| Misxana | Hankavan | Razdan | 01.12.1949 |
| Molla Bayazet | Bambakaşat | Hoktemberyan (Armavir) | 03.01.1935 |
| Molla Dursun | Şaumyan | Eçmiədzin | — |
| Molla Eyyublu | 1.Evli | Kalinino (Taşir) | — |
| | 2.Coramut | | 09.04.1991 |
| Molla Göyçə | Maralik | Ani | 03.01.1935 |
| Molla Qasım | Zovuni | Aparan | — |
| Molla Musa | Voskehask | Axuryan | 26.04.1946 |
| Mollaqışlaq | Güllüdərə | Quqark | 25.01.1978 |
| Morut | Aknaxpyur | İcevan | 11.11.1970 |
| Muğam | 1.Muğamlı | Artaşat | 04.04.1946 |
| | 2.Hovtaşen | | 25.01.1978 |
| Muğan | Hovtameç | Eçmiədzin | 25.01.1978 |
| Muğancıq | Ayqedzor | Gorus | 25.01.1978 |
| Muncuqlu | Tsilkar | Araqats | 15.07.1946 |
| Muradtəpə | Kanakeravan | Nairi | 15.08.1964 |
| Mustuqlu | Lancik | Ani | 03.02.1947 |
| Mülkuçan | Erkenants | Qafan | — |
| Nalbənd | Şirakamut | Spitak | 25.01.1978 |
| Nərimanlı | Şatavan | Vardenis | 09.04.1991 |
| Nəziravan | Kazaravan | Əştərək | 09.04.1991 |
| Nüvədi | Nonadzor | Meğri | 1991-ci ildən sonra |
| Ocaqqulu | Arapi | Axuryan | 26.04.1946 |
| Oğruca | 1.Qaraiman | Vardenis | — |
| | 2.Sovetkənd | | 25.01.1978 |
| | 3.Kaxakn | | 09.04.1991 |
| Oğurbəyli | Berkanuş | Artaşat | 20.08.1945 |
| Oxçoğlu | Vaxçi | Amasiya | 09.04.1991 |
| Ortakənd | Qladzor | Yeğeqnadzor | 10.09.1946 |
| Ortakilisə | Maisyan | Axuryan | 26.04.1946 |
| Ortakilsə st. | Maisyan st. | Axuryan | 31.09.1950 |
| Ovandərə | Hovanadzor | Stepanavan | 19.04.1950 |
| Öksüz | Darik | Amasiya | 09.04.1991 |
| Ördəkli | Lcaşen | Sevan | 26.04.1946 |
| Palıdlı | Arpeni | Qukasyan (Aşotsk) | 25.01.1978 |
| Paşakənd | Marmarik | Razdan | 03.01.1935 |
| Paşalı | 1.Əzizbəyov | Əzizbəyov (Vayk) | 03.01.1935 |
| | 2.Zaritap | | 08.07.1957 |
| Patrinc | Voskehat | Əştərək | 01.12.1949 |
| Pirmələk | Areq | Talin | 03.01.935 |
| Pirməzrə | Katnarat | Qafan | 29.06.1949 |
| Polad Ayrım | 1.Polad | İcevan | — |
| | 2.Xaçardzap | | 09.04.1991 |

| | | | |
|---|---|---|---|
| Püşgah | Aygedzor | Meğri | — |
| Revazlı | Ditavan | İcevan | 25.05.1967 |
| Reyhanlı | Hayqavan | Ararat | 04.04.1946 |
| Sabunçu | Hatsaşen | Talin | 25.01.1978 |
| Sabunçu | Araksavan | Artaşat | 25.01.1978 |
| Saçlı | Noraşen | Abaran | 15.07.1946 |
| Safolar | Cermuk | Əzizbəyov (Vayk) | — |
| Salah | Akavnavank | İcevan | 09.04.1991 |
| Samanqar | Geğakert | Eçmiədzin | 25.01.1978 |
| Samurlu | Sarapat | Qukasyan (Aşotsk) | 12.11.1946 |
| Saratı | 1.Xaçdaraq | İcevan | — |
| | 2.Xaştarak | | — |
| Sarıbaş | Haykasar | Artik | 15.07.1948 |
| Sarımsaxlı | Karaberd | Quqark | 04.04.1946 |
| Sarıyaqub | Çaxqadzor | Vardenis | 09.04.1991 |
| Sarıyer | Apavan | Kalinino Taşir) | 09.04.1991 |
| Sarvanlar | Sis | Masis | 09.04.1991 |
| Satanağac | 1.Güney | Vardenis | 03.01.1935 |
| | 2.Arevuni | | 09.04.1991 |
| Saybalı | Sarnakunk | Sisyan | 10.09.1946 |
| Sədibağdı | Çkalov | Tumanyan | 22.02.1939 |
| Səmadərviş | Çknax | Abaran | 01.06.1940 |
| Sərdarabad | 1.Hoktemberyan | Hoktemberyan (Armavir) | 03.01.1935 |
| | 2.Armavir | | 1992 |
| Siçanlı | Avtona | Talin | 03.01.1935 |
| Sirkətas | Xdrants | Qafan | — |
| Sisyan | Hatsavan | Sisyan | 02.03.1940 |
| Sofulu | Soflu | Sisyan | 09.04.1991 |
| Soylan | Əzizbəyov | Əzizbəyov (Vayk) | 12.10.1956 |
| Soyuqbulaq | Paqaxbyur | Kalinino (Taşir) | 09.04.1991 |
| Söyüdlü | Sarnaxpyur | Ani | 02.03.1940 |
| Subatan | Geğakar | Vardenis | 09.04.1991 |
| Sultanabad | 1.Şurabad | Amasiya | — |
| | 2.Pağaki | | 09.04.1991 |
| Sultanbəy | Bartsruni | Əzizboyov (Vayk) | 03.01.1935 |
| Sunqurlu | Hayrenyats | Artik | 31.05.1946 |
| Susuz | Tsamakasar | Talin | 12.02.1946 |
| Sübhanverdi | Luysaxpyur | Ani | 03.02.1947 |
| Şabadin | Yeğek | Qafan | 09.04.1991 |
| Şahab | Mayakovski | Abovyan | 11.04.1940 |
| Şahablı | Şağap | Ararat | 03.07.1968 |
| Şahalı | Vahaqni | Quqark | 10.04.1947 |
| Şahalı st. | Vahaqnadzor | Quqark | 25.01.1978 |
| Şahnəzər | Medzavan | Kalinino (Taşir) | 25.01.1978 |
| Şahriz | Geğamavan | Sevan | 26.04.1946 |
| Şahvarid | Huşakert | Bağramyan | 03.07.1968 |
| Şenatağ | Lernaşen | Sisyan | 02.03.1940 |
| Şeyx Hacı | Şğarşik | Talin | 03.01.1935 |
| Şəfəq | Vanevan | Vardenis | 09.04.1991 |
| Şəvərit | Huşakert | Hoktemberyan (Armavir) | 03.07.1968 |
| Şidli | Yeğeqnavan | Ararat | 09.04.1991 |
| Şıxlar | Lusarat | Ararat | 26.12.1968 |
| Şıxlar | Qizılşəfəq | Sisyan | 02.03.1940 |
| Şirabad | Parakar | Eçmiədzin | — |
| Şirazlı | Vosgetap | Ararat | 09.04.1991 |
| Şirazlı st. | Ayqavan st. | Ararat | 31.09.1950 |
| Şirəkqala | Vardenut | Abaran | 15.07.1946 |

| | | | |
|---|---|---|---|
| Şirvancıq | Lernakert | Artik | 15.07.1948 |
| Şişqaya | Quqariç | Vardenis | 09.04.1991 |
| Şorlu Mehmandar | Mehmandar | Masis | 03.01.1935 |
| Şurnuxu | Şurnux | Gorus | 09.04.1991 |
| Taxtakörpü | Teğut | Dilican | — |
| Tala | Getaovit | İcevan | 25.01.1978 |
| Talıboğlu | Musakert | Artik | 15.07.1948 |
| Talın | Talin | Talin | — |
| Talın mahalı | Talin rayonu | — | — |
| Talış | Aruç | Əştərək | 11.11.1970 |
| Tamamlı | Burastan | Artaşat | — |
| Tapanlı | Geğasar | Spitak | 25.01.1978 |
| Tayçarıx | Meğradzor | Razdan | 31.05.1946 |
| Taytan | Vanaşen | Ararat | 25.01.1978 |
| Tecrabəy | Dzoraxpyur | Abovyan | 04.04.1946 |
| Terp | Saravan | Əzizbəyov (Vayk) | 27.02.1960 |
| Təkərli | Tsaxkaşen | Abaran | 19.04.1950 |
| Təkiyə | Bazmaxpyur | Əştərək | 01.12.1949 |
| Təknəli | Qoqohovit | Qukasyan (Aşotsk) | 25.01.1978 |
| Təkyəli | 1.Təkərli | Razdan | — |
| | 2.Ardavaz | | 09.04.1991 |
| Təpədibi | Haykavan | Hoktemberyan (Armavir) | 04.04.1946 |
| Təpədölək | Arevik | Axuryan | 07.12.1945 |
| Təpəköy | Berdaşen | Amasiya | 09.04.1991 |
| Təzəkənd | Təzogyıığ | Masis | — |
| Təzəkənd | Ayntap | Masis | 10.09.1970 |
| Təzəkənd | 1.Tazaqyuğ | Qukasyan (Aşotsk) | — |
| | 2.Tavşut | | 21.10.1967 |
| Təzəkənd | Nor Qyuğ | Abovyan | 04.01.1946 |
| Təzəkənd | Tasik | Sisyan | 03.07.1968 |
| Titoy Xaraba | Bavra | Qukasyan (Aşotsk) | — |
| Toxanşahlı | Masis | Artaşat | 20.08.1945 |
| Toxluca | Draxtik | Krasnoselo (Cambarak) | 19.04.1991 |
| Tomardaş | Vardakar | Artik | 31.05.1946 |
| Tomardaş ts. | Vardakar st. | Artik | 31.07.1950 |
| Toparlı | Hatsik | Axuryan | 07.12.1945 |
| Torpaqqala | Xnaberd | Artaşat | 01.12.1949 |
| Tovuzqala | Berd | Şəmşəddin | — |
| Tutiyə | Saranist | Abovyan | 21.06.1948 |
| Tülnəbi | Saralanc | Nairi | 04.04.1946 |
| Türk Qarakilsəsi | Axurik | Axuryan | 03.01.1935 |
| Tüskülü | Lusakunk | Vardenis | 25.01.1978 |
| Uluxanlı | 1.Zəngibasar | Masis | 31.12.1937 |
| | 2.Masis | | 31.07.1950 |
| Uluxanlı st. | Masis st. | Masis | 31.07.1950 |
| Ulya Sarvanlar | Sarvanlar | Masis | — |
| Urud | Vorotan | Sisyan | 03.07.1968 |
| Uz | Uyts | Sisyan | 09.04.1991 |
| Uzunlar | Odzun | Tumanyan | 30.09.1967 |
| Uzunoba | Arqavand | Hoktemberyan (Armavir) | 10.04.1947 |
| Uzuntala | 1.Onut | İcevan | 25.05.1967 |
| | 2.Aygehovit | | 12.02.1969 |
| Uzuntala qəs. | Qayan | İcevan | 25.05.1967 |
| Üçüncü Qarakilsə | Dzoraşen | Qukasyan (Aşotsk) | 03.01.1935 |
| Vağudi | Vağadin | Sisyan | 1991-ci ildən sonra |
| Vedi rayonu | Ararat rayonu | — | 15.05.1968 |
| Verməzyar | Arevaşat | Eçmiədzin | 04.04.1946 |

| | | | |
|---|---|---|---|
| Vəliağalı | Dzoragyuğ | Martuni | — |
| Vəlikənd | Tsaxkavan | Şəmşəddin (Berd) | 04.05.1939 |
| Yaqublu | Meğrut | Quqark | 01.04.1946 |
| Yamancalı | Dextsut | Artaşat | 25.05.1967 |
| Yanıxpəyə | 1.Meşəkənd | Karsnoselo (Cambarak) | 25.01.1978 |
| | 2.Antarageğ | | 09.04.1991 |
| Yarpızlı | Lçavan | Vardenis | 25.05.1967 |
| Yasovul | Hovuni | Axuryan | 07.12.1945 |
| Yaşıl | Kakavadzor | Talin | 12.11.1946 |
| Yaycı | Dzovaber | Sevan | 25.01.1978 |
| Yaycı | Qarjis | Gorus | 03.07.1968 |
| Yeqanlar | Arevşat | Artik | 15.07.1948 |
| Yelqovan | Kotayk | Abovyan | 31.07.1965 |
| Yengicə | Norabats | Masis | 25.01.1978 |
| Yengicə | Sisavan | Ararat | 09.04.1991 |
| Yengicə | Qandzak | Yeğeqnadzor | 10.09.1946 |
| Yenikənd | Tretunk | Vardenis | 09.04.1991 |
| Yeniköy | Xarkov | Ani | — |
| Yuxarı Adıyaman | Verin Getaşen | Martuni | 07.12.1945 |
| Yuxarı Ağbaş | Abovyan | Artaşat | 01.12.1949 |
| Yuxarı Ağcaqala | Verin Bazmaberd | Talin | 12.11.1946 |
| Yuxarı Ağdan | 1.Ağdan | İcevan | 25.05.1967 |
| | 2.Qandzakar | | 25.01.1978 |
| Yuxarı Axta | Lernanist | Razdan | 25.01.1978 |
| Yuxarı Əylənli | Tsaxkunk | Eçmiədzin | 04.04.1946 |
| Yuxarı Girərağ | Verin Qirataq | Qafan | 1991-ci ildən sonra |
| Yuxarı Xatınarxı | Hankaşen | Eçmiədzin | 25.01.1978 |
| Yuxarı Kolanlı | Qriboyedov | Eçmiədzin | 25.01.1978 |
| Yuxarı Kürdkəndi | Noraşen | Artaşat | — |
| Yuxarı Qanlıca | Marmaşen | Axuryan | 26.04.1946 |
| Yuxarı Qaraqoymaz | Verin Sasunaşen | Talin | 12.11.1946 |
| Yuxarı Qarxın | Crarat | Eçmiədzin | 04.04.1946 |
| Yuxarı Quylasar | 1.Bambakavan | Artaşat | 20.08.1945 |
| | 2.Byuravan | | 25.01.1978 |
| Yuxarı Necili | Nizami | Masis | 25.01.1978 |
| Yuxarı Pirtikən | Tsakkasar | Talin | 02.03.1940 |
| Yuxarı Türkmənli | Abaqa | Eçmiədzin | 03.01.1975 |
| Yuxarı Zağalı | Axbradzor | Vardenis | 25.01.1978 |
| Yuxarı Zeyvə | Taronik | Eçmiədzin | 25.01.1978 |
| Yuva | Şaumyan | Artaşat | 19.04.1950 |
| Zeytə | Zedea | Əzizbəyov (Vayk) | 09.04.1991 |
| Zeyvə | David-Bek | Qafan | 29.06.1949 |
| Zəngibasar rayonu | Masis rayonu | — | 15.03.1953 |
| Zəngilər | Zorak | Masis | 09.04.1991 |
| Zərkənd | Kut | Vardenis | 09.04.1991 |
| Zərzibil | Zərkond | Vardenis | 03.01.1935 |
| Zod | Sotk | Vardenis | 09.04.1991 |
| Zolaxaç | Zolakar | Martuni | 03.01.1935 |
| Zorba | Sorik | Talin | 03.01.1935 |
| Zöhrablı | Mrqanut | Artaşat | 20.08.1945 |

**Vandalizm: Tarixi adlara qarşı soyqırım. Tərtib edəni Nazim Mustafa, Bakı, "Təhsil", 2006, səh.7-42.**

**İndiki Ermənistanda 1918-1987-ci illərdə yaşayış məntəqələri syahısından silinmiş azərbaycanlı kəndlərinin siyahısı**

| № | Kəndin adı | Hansı rayonun ərazisində olub? | Nə vaxt? |
|---|---|---|---|
| | Ağasıbəyli | Vedi (Ararat) | 1930-cu illərdə |
| | Ağca (Ağcakənd) | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| | Ağcaqışlaq | İrəvan ətrafında | 1918-20-ci illər |
| | Ağdərə | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| | Ağıllı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| | Ağkilsə | Vedi (Ararat) | 1940 |
| | Ağkilsə | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| | Ağverən | Axta (Hrazdan) | 1966 |
| | Alxanpəyəsi | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| | Alımərdan | Vedi (Ararat) | 1948-51-ci illər |
| | Alışar | Sisyan | 1938 |
| | Alim Əhməd | Qəmərli (Artaşat) | 1940-cı illər |
| | Almalı | Qafan | 1948 |
| | Almalı | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| | Aralıx | Talin | 1918-20-ci illər |
| | Aramlı | Eçmiədzin | 1918-20-ci illər |
| | Ardaraz | Keşişkənd (Yeğeqnadzor) | 1949 |
| | Arxüstü | Qafan | 1918-20-ci illər |
| | Arınc | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| | Arzalar | Artaşat | 1948-51-ci illər |
| | Assar | Hoktemberyan (Armavir) | 1918-20-ci illər |
| | Aşağı Axtala (Gümüşxana) | Tumanyan | 1940 |
| | Aşağı Alçalı | Martruni | 1918-20-ci illər |
| | Aşağı Ərmik | Vedi (Ararat) | 1948-51-ci illər |
| | Aşağı Goxt (Türk Goxtu) | Ellər (Abavyan) | 1950-ci illər |
| | Aşağı Kilsə | Quqark | 1978-ci il |
| | Aşağı Novruzlu | Qəmərli (Artaşat) | 1948-51-ci illər |
| | Aşağı Qulubəyli | Eçmiədzin | 1940-cı illər |
| | Aşağı Sallı | Yeğeqnadzor | 1918-20-ci illər |
| | Aşağı Yeməzli | Qafan | 1918-20-ci |

| | | |
|---|---|---|
| | | illər |
| Atqız | Qafan | 1959 |
| Aylanlı | Eçmıədzin | 1918-20-ci illər |
| Aylı Xaraba | Əştərək | 1930-cu illər |
| Babayaqublu | Qafan | 1918-20-ci illər |
| Bağçalı (Baxcəli) | Amasiya | 1918-20-ci illər |
| Bağırbəyli | Qafan | 1918-20-ci illər |
| Baharlı | Qafan | 1918-20-ci illər |
| Baxçacıq | Talin | 1918-20-ci illər |
| Baxçacıq | Vedi (Ararat) | 1959 |
| Barabatum | Qafan | 1918-20-ci illər |
| Bayburt | Qəmərli (Artaşat) | 1985 |
| Baydaq | Qafan | 1959 |
| Bənövşəpuş | Meğri | 1918-20-ci illər |
| Bığlı | Sevan | 1918-20-ci illər |
| Bilək | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Binayeri (Qaragədik) | Gorus | 1918-20-ci illər |
| Bozkosa | Ellər (Abovyan) | 1918-20-ci illər |
| Bozqala | Amasiya | 1940-cı illər |
| Böyük Gilanlar | Qəmərli (Artaşat) | 1948-51-ci illər |
| Buğakar | Meğri | 1930-cu illər |
| Bulaqlar | Əzizbəyov | 1948-51-ci illər |
| Bülbülölən | Keşişkənd (Yegeqnadzor) | 1918-20-ci illər |
| Cadqıran | Vedi (Ararat) | 1936 |
| Camışbasan | Vedi (Ararat) | 1947 |
| Canı | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| Ceyranlı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Cəfərli (Günnüt Sunbül) | Vedi (Ararat) | 1930-cu illər |
| Cığatay | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Cırmanıs | Vedi (Ararat) | 1918-20-ci illər |
| Çamırlı | Martuni | 1918-20-ci illər |
| Çanqlı | Vedi (Ararat) | 1918-20-ci illər |
| Çatma | Qəmərli (Artaşat) | 1918-20-ci illər |

| | | |
|---|---|---|
| Çaykənd | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| Çiləxanlı | Qəmərli (Artaşat) | 1948-51-ci illər |
| Çıraxlı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Çiriş | Qafan | 1930-cu illər |
| Çobankərə | Zəngibasar (Masis) | 1930-cu illər |
| Çobanlı | Qafan | 1940-cı illər |
| Çullu | Qafan | 1930-cu illər |
| Daşaltı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Daşbaşı | Qafan | 1930-cu illər |
| Daşxərmən | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| Daşnov | Vedi (Ararat) | 1930-cu illər |
| Daşnov | Qafan | 1918-20-ci illər |
| Daylaxlı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Dəhnəz | Vedi (Ararat) | 1930-cu illər |
| Dəlləkli | Qafan | 1918-20-ci illər |
| Dəmirçilər | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Dərəkənd | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Dəvə Xarabası | Ellər (Abovyan) | 1918-20-ci illər |
| Ertiş | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| Eynəzur (Yernəzir) | Meğri | 1930-cu illər |
| Əcili | Qafan | 1950-ci illər |
| Əxili | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| Əlıdərəsi | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| Əliməmməd qışlaği | Vedi (Ararat) | 1930-cu illər |
| Əliqışlağı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| Əmrakar | Meğri | 1960 |
| Əngirsək | Əştərək | 1959 |
| Ərəmis | Sisyan | 1918-20-ci illər |
| Ərgəz | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| Ərıklı | Sisyan | 1918-20-ci illər |
| Ərmik | Vedi (Ararat) | 1948-51-ci illər |
| Əsni | Vedi (Ararat) | 1918-20-ci illər |
| Əşirabad | Nairi | 1940-cı illər |
| Əşirzalad | Vedi (Ararat) | 1920-ci illər |
| Gendərə | Əzizbəyov (Vayk) | 1930-cu illər |

| | | | |
|---|---|---|---|
| . | Gənəlı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Gödəklı | Əştərək | 1918-20-ci illər |
| . | Gölaysor | Qəmərli (Artaşat) | 1948-51-ci illər |
| . | Gölcığın | Vedi (Ararat) | 1948-51-ci illər |
| . | Göy Abbas | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Göyərçin | İcevan | 1950 |
| . | Gül | Meğri | 1960-cı illər |
| . | Gümüşxana | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Güneyvəng | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Ğöyərçin | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Haxıs | Vedi (Ararat) | 1930-cu illər |
| . | Hamamlı | Əştərək | 1930-cu illər |
| . | Hand (And) | Vedi (Ararat) | 1930-cu illər |
| . | Heşin | Keşişkənd (Yeğeqnadzor) | 1948-51-ci illər |
| . | Həsənli | Qəmərli (Artaşat) | 1930-cu illər |
| . | Hortöyüz (Hortagiz) | Sisyan | 1918-20-ci illər |
| . | Hortun | Vedi (Ararat) | 1948-51-ci illər |
| . | Hosdun | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| . | Hüseynqulular | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| . | Xançallı | Amasiya | 1940-cı illər |
| . | Xaraba Kotanlı | Vedi (Ararat) | 1930-cu illər |
| . | Xartlıq | Martuni | 1918-20-ci illər |
| . | Xınıt (Xnut) | Vedi (Ararat) | 1918-20-ci illər |
| . | Xocayarlı | Eçmiədzin | 1918-20-ci illər |
| . | Xosrov | Vedi (Ararat) | 1940-cı illər |
| . | İlanlı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | İlxı Qoruğu | Zəngibasar (Masis) | 1918-20-ci illər |
| . | İmirzik | Vedi (Ararat) | 1948-51-ci illər |
| . | İncəvar | Qafan | 1930-cu illər |
| . | İnqala | Vedi (Ararat) | 1930-cu illər |
| . | İpəkli | Vedi (Ararat) | 1918-20-ci illər |
| . | İrimis | Sisyan | 1918-20-ci illər |
| . | İsgəndərabad | Eçmiədzin | 1918-20-ci illər |

| | | | |
|---|---|---|---|
| . | İstisu | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| . | İtqıran | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Kalaşan | Əştərək | 1918-20-ci illər |
| . | Kalaşkənd | Əştərək | 1918-20-ci illər |
| . | Kamal | Ellər (Abovyan) | 1918-20-ci illər |
| . | Karvansaray | Əştərək | 1918-20-ci illər |
| . | Kavart | Qafan | 1918-20 |
| . | Kiçik Gilanlar | Qəmərli (Artaşat) | 1960 |
| . | Kiçik Qaraqoyunlu | Basarkeçər (Vardenis) | 1930-cu illər |
| . | Kiçikkənd | Əştərək | 1918-20-ci illər |
| . | Kirəşli | Abaran | 1930-cu illər |
| . | Kolanlı | Eçmiədzin | 1930-cu illər |
| . | Kolanlı | Vedi (Ararat) | 1948-51-ci illər |
| . | Kosalar | Gorus | 1918-20-ci illər |
| . | Kotuz | Vedi (Ararat) | 1948-51-ci illər |
| . | Kömürlü | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Körpüqulağı | Ellər (Abovyan) | 1918-20-ci illər |
| . | Kürdalı | Əştərək | 1930-cu illər |
| . | Kürdlər | Gorus | 1918-20-ci illər |
| . | Küsüz | Vedi (Ararat) | 1948-51-ci illər |
| . | Küzəcik | Ellər (Abovyan) | 1918-20-ci illər |
| . | Qabaxlı | Axta (Hrazdan) | 1930-cu illər |
| . | Qabaqlı | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| . | Qaladibi | Vedi (Ararat) | 1948-51-ci illər |
| . | Qanlı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Qarabaşlar | Qafan | 1930-cu illər |
| . | Qaracalar | Əştərək | 1940-cı illər |
| . | Qaraqala | Axta (Hrazdan) | 1930-cu illər |
| . | Qaraqoyunlu | Qəmərli (Artaşat) | 1930-cu illər |
| . | Qaralar | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Qaratəpə | Zəngibasar (Masis) | 1918-20-ci illər |
| . | Qaratorpaq | Vedi (Ararat) | 1930-cu illər |
| . | Qaravəng | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |

| | | | |
|---|---|---|---|
| . | Qatar | Qafan | 1918-20-ci illər |
| . | Qaya Xaraba | Ellər (Abovyan) | 1930-cu illər |
| . | Qayalı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Qılıclı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Qısırxaraba | Əzizbəyov (Vayk) | 1930-cu illər |
| . | Qışlaq | Keşişkənd (Yeğeqnadzor) | 1948-51-ci illər |
| . | Qıvrax | Sisyan | 1930-cu illər |
| . | Qızıldaş | Amasiya | 1930-cu illər |
| . | Qızılxaraba | Əştərək | 1918-20-ci illər |
| . | Qızılkənd (Qızılkilsə) | Amasiya | 1948-51-ci illər |
| . | Qoşabulaq | Əştərək | 1918-20-ci illər |
| . | Qozluca | Keşişkənd (Yeğeqnadzor) | 1948-51-ci illər |
| . | Qurbağalı | Ellər (Abovyan) | 1918-20-ci illər |
| . | Qurbankəsilən | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Quşçu | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Quşçular | Qafan | 1950-ci illər |
| . | Quyulu | Ellər (Abovyan) | 1918-20-ci illər |
| . | Leyliköçən | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Lor | Sisyan | 1918-20-ci illər |
| . | Mataruz Qışlağı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| . | Məmərza | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| . | Məmmədabad | Zəngibasar (Masis) | 1918-20-ci illər |
| . | Məngük | Vedi (Ararat) | 1930-cu illər |
| . | Mərzəğat (Mərzigit) | Meğri | 1918-20-ci illər |
| . | Məşədilər | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Molla Əhməd | Vedi (Ararat) | 1930-cu illər |
| . | Molla Uruzbəy Binası | Qafan | 1918-20-ci illər |
| . | Mollalı | Qafan | 1930-cu illər |
| . | Moz | Keşişkənd (Yeğeqnadzor) | 1930-cu illər |
| . | Muçes Novruzlu | Qafan | 1918-20-ci illər |
| . | Muxtarabad | Zəngibasar (Masis) | 1918-20-ci illər |
| . | Mumuxan | Amasiya | 1918-20-ci illər |

| | | | |
|---|---|---|---|
| . | Mustuxlu | Amasiya | 1918-20-ci illər |
| . | Mülk | Meğri | 1930-cu illər |
| . | Nəbilər (Aşağı Gülüdüzü) | Keşişkənd (Yeğeqnadzor) | 1930-cu illər |
| . | Novlar | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Novlu | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Oğbin | Əzizbəyov (Vayk) | 1930-cu illər |
| . | Oxçu | Qafan | 1940-cı illər |
| . | Ördəkli | Amasiya | 1918-20-ci illər |
| . | Pirdovudan | Qafan | 1918-20-ci illər |
| . | Pulkənd | Sisyan | 1918-20-ci illər |
| . | Püsək | Sisyan | 1930-cu illər |
| . | Rəhimabad | Masis | 1930-cu illər |
| . | Sarıxanlı | Vedi (Ararat) | 1918-20-ci illər |
| . | Seldağılan | Amasiya | 1918-20-ci illər |
| . | Seyid Kotanlı | Vedi (Ararat) | 1918-20-ci illər |
| . | Seyidkənd | Masis | 1948-51-ci illər |
| . | Seyidlər | Qafan | 1918-20-ci illər |
| . | Səfiabad | Hoktemberyan (Armavir) | 1918-20-ci illər |
| . | Səncəravaz | Qafan | 1930-cu illər |
| . | Sərincan | Axta (Hrazdan) | 1930-cu illər |
| . | Siçanlı | Martuni | 1918-20-ci illər |
| . | Sınıx | Amasiya | 1918-20-ci illər |
| . | Söyüdlü | Amasiya | 1918-20-ci illər |
| . | Şahgəldi Qışlağı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Şamsız | Gorus | 1930-cu illər |
| . | Şəhriyar | Vedi (Ararat) | 1930-cu illər |
| . | Şirvanşahlı | Qafan | 1918-20-ci illər |
| . | Şiştəpə (türk) | Amasiya | 1918-20-ci illər |
| . | Şorca | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| . | Şotalı | Qafan | 1930-cu illər |
| . | Şuğayıb | Vedi (Ararat) | 1930-cu illər |
| . | Şukər | Sisyan | 1940-cı illər |
| . | Tağamir | Meğri | 1930-cu illər |
| . | Tarp | Əzizbəyov (Vayk) | 1948-51-ci |

| | | |
|---|---|---|
| | | illər |
| Tecadin | Qafan | 1930-cu illər |
| Tey (Hacılı) | Meğri | 1930-cu illər |
| Tərəkəmələr | Ellər (Abovyan) | 1918-20-ci illər |
| Tuğut | Meğri | 1930-cu illər |
| Turabxanlı | Qafan | 1930-cu illər |
| Tutiyə | Ellər (Abovyan) | 1940-cı illər |
| Üçtəpə | Ellər (Abovyan) | 1918-20-ci illər |
| Üləşik | Axta (Hrazdan) | 1930-cu illər |
| Vartanes | Keşişkənd (Yeğeqnadzor) | 1948-51-ci illər |
| Vartanlı | Axuryan | 1918-20-ci illər |
| Yaqublu | Əştərək | 1918-20-ci illər |
| Yanıx | Martuni | 1918-20-ci illər |
| Yappa | Qəmərli (Artaşat) | 1918-20-ci illər |
| Yavər | Keshishkənd (Yeğegnadzor) | 1918-20-ci illər |
| Yellicə | Vedi (Ararat) | 1930-cu illər |
| Yeranos | Vedi (Ararat) | 1930-cu illər |
| Yuxarı Alçalı | Martuni | 1930-cu illər |
| Yuxarı Ərmik | Vedi (Ararat) | 1948-51-ci illər |
| Yuxarı Novruzlu | Qəmərli (Artaşat) | 1940-cı illər |
| Yuxarı Qarabağlar | Vedi (Ararat) | 1930-cu illər |
| Yuxarı Qulubəyli | Eçmiədzin | 1940-cı illər |
| Yuxarı Yeməzli | Qafan | 1930-cu illər |
| Zabazadur | Sisyan | 1918-20-ci illər |
| Zimmi | Vedi (Ararat) | 1930-cu illər |
| Zirək | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |

**Vandalizm: Tarixi adlara qarşı soyqırım**. **Tərtib edəni Nazim Mustafa, Bakı, "Təhsil", 2006, səh.43-54..**

**Xocalı soyqırımı (genosidi) günü haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı
(24 fevral 1994-cü il)**

Azərbaycan Respublikasının Milli Məclisi erməni təcavüzkarları tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında Milli Məclisin Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasının təklifini müzakirə edərək qərara alır:

1. 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da «Xocalı soyqırımı günü» elan olunsun və bu barədə beynəlxalq təşkilatlara məlumat verilsin.

2. Xocalı hadisələri barəsində həqiqətin dünya xalqlarına çatdırılması və «Xocalı soyqırımı günü»nün beynəlxalq miqyasda keçirilməsi üçün dünya azərbaycanlılarına müraciət edilsin.

Bakı şəhəri, 24 fevral 1994-cü il
№ 791

**Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımı törətmişlər. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə qərara alıram:

Hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 fevral 1997-ci il*

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində
Azərbaycan mədəniyyətinə dəymiş maddi və mənəvi ziyan haqqında qısa arayış**

1990-cı illərin əvvəllərində Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürüb, beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlər tərəfindən ölkəmizin rəsmən tanınmış ərazisinin 20 faizini hərbi təcavüz yolu ilə işğal etmiş Ermənistan hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına uçurub dağıtmışlar.

Hərbi təcavüz nəticəsində işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hal hazırda hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilir.

Şuşa tarixi memarlıq qoruğunun ərazisində işğalçı vandallar Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mərdinli, cümə məscidlərini, dahi bəstəkar Üzeyir Hacıbəyovun, professional vokal sənətinin banisi Bülbülün ev muzeylərini, Xurşud Banu Natəvanın saray kompleksini, Firudin bəy Köçərlinin, Zöhrabbəyovların malikanələrini, şair, rəssam, alim Mir Mövsüm Nəvvabın evini, ümumiyyətlə qoruq şəhərin şərq memarlığı xüsusiyyətlərini əks etdirən milli üslubda inşa edilmiş əksər yaşayış evlərini, buradakı qədim qəbiristanlığı, böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri M.P.Vaqifin türbəsini, Ağdamda Pənah xanın imarətini, cümə məscidini, Laçın rayonunda Həmzə Sultan və Soltan Əhməd saraylarını, məscidləri, ziyarətgah və ibadətgahları, daş heykəlləri, qədim qəbirləri, kurqanları, tarixi abidə olan yaşayış binalarını dağıtmış, daşınması mümkün olan maddi mədəniyyət abidələrini Ermənistana aparmışlar.

İşğal zonalarında maddi mədəniyyət yadigarlarımızın dağıdılması prosesi indi də davam edir. İşğalçılar geniş miqyaslı, qeyri peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdır.

Bunlarla yanaşı işğal olunmuş ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı,4 rəsm qalereyası, 85 musiqi məktəbi, 103.2 min ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoqurğu, 20 ədəd kinokamera, 423 videomaqnitofon, 5920 dəst milli kişi və qadın geyimləri, 40 komplekt səsgücləndirici, 25 iri və 40 kiçik həcmli attraksion işğal altında qalmışdır.

Dəyərini müəyyən etmək mümkün olmayan daşınmaz tarix və mədəniyyət abidələrindən başqa respublikamıza dəymiş ümumi zərərin məbləği 23 trilyon 680 milyon manat və ya 6 milyard 71 milyon ABŞ dolları təşkil edir. (Dəymiş ziyan 1994-cü ilin qiymətləndirilmə sənədləri əsasında təxmini hesablanmışdır).

Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyi şəhərin bombardmanı zamanı yerlə yeksan edilmiş, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir əşyası Ermənistana daşınmışdır.

Şuşanın zəbt edilməsi nəticəsində mənəviyyatımıza olduqca ağır zərbə endirilmişdir. Təkcə Şuşa şəhərində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir.

Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, professional Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), vokal sənətimizin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqiçi və rəssam Mir Mövsüm Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin, Ağdam tarix-diyarşünaslıq muzeyinin (2 mindən çox əşya), Qubadlı tarix-diyarşünaslıq muzeyinin (3 mindən çox əşya), Zəngilan tarix - diyarşünaslıq muzeyinin (6 minədək əşya) fondları qarət edilmişdir. Görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli, Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılmışdır.

Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar olmuşdur.

Şuşa, Laçın və Qubadlı rəsm qalereyalarının Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarının əsərlərindən ibarət fondları da dağıdılmışdır.

Erməni təcavüzkarları vəhşilik göstərərək Azərbaycan musiqisinin böyük xadimləri Üzeyir Hacıbəyovun və Bülbülün, habelə şairə Xurşud Banu Natəvanın heykəllərini Şuşa şəhərindən Ermənistan ərazisinə aparmışlar. Bu abidələr bütün əxlaq normalarının ziddinə olaraq vəhşicəsinə güllələnmiş və ağır texnika

vasitəsilə zədələnmişdir. Həmin abidələr çox çətinliklə əldə edilərək Bakıya gətirilmiş və hazırda İncəsənət Muzeyində nümayiş etdirilir.

Azərbaycan xalqının məhv edilmiş qədim, əvəzolunmaz qiymətli mədəni sərvətləri olan bu abidələrin qiymətini təyin etmək praktiki olaraq mümkün deyildir.

Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan Azərbaycan Respublikasının ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən bir problemdir.

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il konvensiyasına ziddir.

**Mədəniyyət və Turizm Nazirliyi**

**“1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı (18 dekabr 1997-ci il)**

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstəriləni nəzərə alaraq

QƏRARA ALIRAM:

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyanın hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

<u>Dövlət komissiyasının sədri :</u>

Heydər Əliyev - Azərbaycan Respublikasının prezidenti

<u>Dövlət komissiyası sədrinin müavini:</u>

Artur Rasizadə - Azərbaycan Respublikasının Baş naziri

<u>Dövlət komissiyasının üzvləri:</u>

Ramiz Mehdiyev - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri

Vasif Talıbov - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri

İzzət Rüstəmov - Azərbaycan Respublikası Baş nazirinin müavini

Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini

Həsən Həsənov - Azərbaycan Respublikası xarici işlər naziri

Namiq Abbasov - Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

Eldar Həsənov - Azərbaycan Respublikasının Baş prokuroru

Südabə Həsənova - Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini

Xanlar Hacıyev - Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri

Sirus Təbrizli - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Vəfa Quluzadə - Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə dövlət müşaviri

Hidayət Orucov - Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

Şahin Əliyev - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının dövlət-hüquq şöbəsinin müdiri

Yusif Hümbətov - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Əli Həsənov - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri

Rafael Allahverdiyev - Bakı şəhər icra hakimiyyətinin başçısı

Nizami Xudiyev - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

Fərəməz Maqsudov - Azərbaycan Elmlər Akademiyasının prezidenti

Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri

Cəmil Quliyev - Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik-katibi əvəzi

İqrar Əliyev - Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru

Budaq Budaqov - Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru

Ataxan Paşayev - Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi

Yusif Yusifov - N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 18 dekabr 1997-ci il**

**“Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı
(26 mart 1998-ci il)**

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında “Erməni vilayəti” adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. “Böyük Ermənistan” ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına “bəraət qazandırmaq məqsədilə” erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

Böyük Ermənistan” yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və

qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 mart azərbaycanlıların soyqırımı günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 26 mart 1998-ci il**

**Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı (31 mart 1998-ci il)**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidenti Zati-aliləri cənab Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanının tariximizin bu qaranlıq səhifələrinə işıq saçan ilk rəsmi sənəd kimi böyük əhəmiyyətini qeyd edir və 80 il bundan əvvəl azərbaycanlılara qarşı törədilmiş cinayətlərin ildönümü ərəfəsində 31 mart gününün "Azərbaycanlıların soyqırımı günü" elan edilməsini milli yaddaşımızı dirçəldən, tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tutmasına təkan verən mühüm siyasi - hüquqi və mənəvi aksiya sayır.

Bu mühüm sənəddə tariximizdə ilk dəfə olaraq Azərbaycanın XIX əsrdə zorakılıqla parçalandığından sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımlarının rəsmən adı çəkilir, xüsusilə 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Zaqafqaziya miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılır, "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas və real yolunu tarix boyu bu ərazilərin yerli sakini olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş antiazərbaycan qüvvələrin mənfur fəaliyyətinə siyasi qiymət verilir.

Azərbaycanın çar Rusiyası tərəfindən işğalını rəsmiləşdirən Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra Azərbaycana on minlərlə erməninin köçürülməsi, həm də din birliyi əsasında onlara yerli əhali ilə müqayisədə böyük hüquq və imtiyazların verilməsi tezliklə rus-erməni alyansı tərəfindən azərbaycanlı əhalinin hər vasitə ilə sıxışdırılmasına gətirib çıxardı. "Daşnak" və "Hnçak" kimi erməni millətçi partiyalarının fəaliyyətə başlamasından və fanatik erməni kütlələrini şovinist ideyalar ətrafında birləşdirməsindən sonra isə bu proses daha da sürətləndi. Birinci rus inqilabının başladığı 1905-ci ildə silahlanmış mütəşəkkil erməni dəstələri etnik zəmində soyqırımı kimi dəhşətli bir cinayətin Qafqazda ilk müəllifləri olmuşlar. 1905-1907-ci illərdə onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlılara divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıq və vəhşiliklə öldürmüşlər. həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı öz doğma yurd-yuvasını tərk etmək məcburiyyəti qarşısında qalmış, bununla da Azərbaycanda tarixi artıq bir əsrə yaxınlaşmaqda olan həqarətli qaçqınlıq ənənəsinin əsası qoyulmuşdur.

Ermənilərin Azərbaycan xalqına qarşı çevrilmiş soyqırımı siyasəti çar Rusiyasında mərkəzi hakimiyyətin süqut etdiyi, keçmiş imperiyanın dərəbəyilik və anarxiya şəraitində yaşadığı 1918-ci ildə daha geniş vüsət almışdır. Bu dövrdəki soyqırımı daha mütəşəkkil şəkildə və daha böyük bir qəddarlıq və amansızlıqla həyata keçirilmişdi. Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurd - yuvalarından didərgin salmışdılar. Yalnız Bakıda 30 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 min nəfərədək adam, o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə-yeksan edilmişdi. Qarabağın dağlıq hissəsində 150-dən çox, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdu. İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdir. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində və onun çevrəsində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə cəmisi 70 min nəfərə enmişdir. Göründüyü kimi, qısa müddət ərzində soyqırımın və geniş miqyaslı etnik təmizləmələrin aparılması nəticəsində erməni millətçiləri qarşılarına qoyduğu məqsədə əsasən nail olmuşlar.

Şovinist ruhlu erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymətin verilməməsi səbəbindən sovet hakimiyyəti dövründə də azərbaycanlılar onlara qarşı yeridilən antihumanist siyasətlə dəfələrlə üzləşmişlər. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi bu düşünülmüş, rüsvayçı siyasətin əyani təzahürüdür. "Sürünən" deportasiyalar, habelə 1948-1953 və 1988-1989-cu illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1988-ci ildən başlayan erməni ekspansiyası, ermənilərin Dağlıq Qarabağda apardıqları işğalçı müharibə və etnik təmizləmə azərbaycanlıların soyqırımı qurbanlarının sayını əhəmiyyətli dərəcədə artırmışdı). Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çox yaralanmış, 50 mindən çox əlil olmuş, 4 mindən çox əsir və itkin düşmüş, girov götürülmüş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi dağıdılmış, azərbaycanlıların doğma yurdu olan yaşadıqları 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Əsrin ən dəhşətli cinayətlərindən biri olan Xocalı faciəsində bütöv bir iri yaşayış məntəqəsi tamamilə yox edilmiş, 613 nəfər dinc əhali, onlardan 63 nəfər azyaşlı uşaq, 106 nəfər qadın vəhşicəsinə öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətə məruz qalmışlar.

Bütün bunların nəticəsində təkcə XX əsrdə iki milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri soyqırımı siyasətinin təsirinə məruz qalmışdır. Demək olar ki, indi Azərbaycanda erməni millətçi zülmündən bu və ya başqa şəkildə zərər çəkməyən ailə yoxdur.

Azərbaycan Respublikasının Milli Məclisi əsl həqiqətin açılması və tarixi ədalətin bərpası naminə, habelə gələcəkdə azərbaycanlılara qarşı yeni-yeni soyqırımı cinayətlərinin qarşısının alınması məqsədilə bəyan edir ki, qətiyyətlə demokratiya yolunu tutmuş Azərbaycan dövləti erməni millətçiliyinin və onun antiazərbaycan ruhlu himayəçilərinin X1X-XX əsrlərdə dəfələrlə azərbaycanlılara qarşı soyqırımı cinayətini törətdiklərini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün mövcud üsul və vasitələrdən istifadə edəcəkdir.

Azərbaycan Respublikasının Milli Məclisi azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalmasını və bu barədə beynəlxalq ictimaiyyətdə məlumatın olmamasını nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatına, Parlamentlərarası İttifaqa, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Müstəqil Dövlətlər birliyinə, başqa beynəlxalq təşkilatlara və dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki:

1. X1X-XX əsrlərdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətini tanısınlar;

2. Gələcəkdə soyqırımı cinayətlərinin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmləri yaradılması işini tezliklə başa çatdırsınlar;

3. Azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində dinc yolla ədalətli həll olunmasına yardım etsinlər.

**(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci il 31 mart tarixli iclasında qəbul olunmuşdur).**

**Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı**
**(30 dekabr 2009-cu il)**

Ötən əsrin əvvəllərində erməni-daşnak quldur dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüz siyasəti nəticəsində Bakı, Quba, Qarabağ, Şamaxı, Kürdəmir, Salyan, Lənkəran və digər bölgələrdə on minlərlə günahsız azərbaycanlı qətlə yetirilmiş, xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımlarından biri törədilmişdir. Təkcə Quba qəzasında 1918-ci ilin aprel-may ayları ərzində 122 kənd tamamilə dağıdılmışdır. Quba şəhərindəki kütləvi məzarlıqda soyqırımı nəticəsində hədsiz amansızlıq və xüsusi qəddarlıqla öldürülən azərbaycanlılarla yanaşı ləzgilərin, yəhudilərin, tatların və digər milli azlıqlara mənsub olan minlərlə insanların zorakılığa məruz qaldığı aşkar edilmişdir.

Erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Quba şəhərində "Soyqırımı memorial kompleksi" yaradılsın.
2. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılması üçün Quba Rayon İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 dekabr 2009-cu il.**

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 31 mart - Azərbaycanlıların Soyqırımı günü ilə əlaqədar bəyanatı (30 mart 2010-cu il)**

Son iki yüz ildə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı məqsədyönlü soyqırımı və deportasiya siyasəti Azərbaycan xalqının tarixinə ağrılı səhifələr kimi yazılmışdır. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq idi.

XIX əsrin əvvəllərində Qarabağa və Zəngəzura İran və Türkiyədən on minlərlə erməni ailəsinin köçürülməsi, tarixi torpaqlarımız olan İrəvan quberniyasında, Naxçıvan-da və digər bölgələrdə məskunlaşdırılması, 1828-1830-cu illərdə Azərbaycan əhalisinin etnik tərkibinin məqsədli şəkildə ermənilərin xeyrinə dəyişdirilməsi ilə nəticələnmişdir. Erməni silahlı dəstələrinin Qafqazın müxtəlif bölgələrində həyata keçirdiyi kütləvi qətllər və talanlar nəticəsində 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilmiş soydaşlarımızın insan hüquqları kütləvi surətdə pozulmuş, onlar qeyri-insani rəftarla, insan ləyaqətini alçaldan hərəkətlərlə müşayiət olunan etnik təmizləməyə məruz qalmışlar.

Bütün bunlar, habelə 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən genişmiqyaslı müharibə və onun bu gün də davam edən acı nəticələri təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi mənfur siyasətin qanlı səhifələridir. Bu məkrli siyasət nəticəsində tarixi Azərbaycan torpaqları zaman-zaman ermənilər tərəfindən zəbt olunmuş, 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində isə ölkəmizin ərazisinin 20 faizi işğal edilmiş, on minlərlə insan həlak olmuş, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Ermənilərin azərbaycanlılara qarşı nifrəti tarixin bütün dövrlərində üzə çıxmışdır. Qan yaddaşına şovinizm hakim olan ermənilərin törətdiyi qanlı. faciələrin daha dəhşətlisi 1918-ci ilin 31 mart tarixində azərbaycanlılara qarşı soyqırımı hadisələridir.

Həmin il martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri Bakını gəmilərdən yaylım atəşinə tutmuşlar. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətmişlər.

31 mart və 1-2 aprel tarixlərində qırğınlar kütləvi şəkil almışdır. Silahlanmış erməni əsgərləri dinc əhalini amansızcasına qətlə yetirmişlər.

Bakı və Gəncə quberniyalarında, Quba, Xaçmaz, Şamaxı, Lənkəran, Muğan qəzalarında və digər bölgələrdə də bu cür qanlı faciələr törədilmişdir. Həmin hadisələr zamanı Azərbaycanın yüzlərlə şəhər və kəndi, o cümlədən Qarabağda azərbaycanlıların yaşadığı 150-dən çox kənd xarabalığa çevrilmiş, Şuşada görünməmiş qırğınlar törədilmişdir. Qırğınların davam etdiyi dövrdə Azərbaycan ərazisində 700 minədək soydaşımız, o cümlədən Bakıda və ətraf kəndlər-də 30 minə yaxın azərbaycanlı öldürülmüş, məscidlər, məktəb binaları yandırılmış, dağıdılmışdır. Təkcə Zəngəzurda 115, İrəvan quberniyasında isə 211 kənd xarabazara çevrilmiş, əhaliyə amansız divan tutulmuşdur.

Məlum olduğu kimi, 1918-ci il hadisələri zamanı Qubada ermənilərin xüsusi qəddarlıqla törətdikləri kütləvi insan qətllərini aşkarlayan faktlar üzə çıxarılmışdır. Tapılmış saysız-hesabsız insan sümükləri bu qırğınlar zamanı erməni vandalizmini təsdiqləyən əyani faktlardır. Artıq bunların 1918-ci ildə erməni silahlı birləşmələrinin Qubaya basqını zamanı qəddarlıqla qətlə yetirilmiş yerli sakinlərə məxsus olduğu müəyyən edilmişdir. Hazırda bu ərazidə mart hadisələri zamanı qətlə yetirilmiş on minlərlə insanın xatirəsinə ehtiram əlaməti olaraq "Soyqırımı Memorial Kompleksi" yaradılmaqdadır.

Xalqımızın tarixi kobud şəkildə saxtalaşdırılmış, maddi və mədəniyyət abidələrimiz, toponimlərimiz erməni tarixçilərinin təcavüzünə məruz qalmış, təhsil və səhiyyə obyektlərimiz yerlə-yeksan edilmişdir.

Beynəlxalq hüquqa görə, soyqırımı ən ağır beynəlxalq cinayət olmaqla, təcavüz, insanlıq əleyhinə, müharibə və beynəlxalq terrorizm kimi sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Soyqırımı cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyaya görə, soyqırımı hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən hərəkətlərdir. Soyqırımı və insanlıq əleyhinə cinayətin tərkibini təşkil edən və bu sənəddə göstərilən əməllərdən hər biri ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmişdir.

İşğalçı Ermənistanın yürütdüyü soyqırımı siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüququn ümumtanınmış. normalarına görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir.

Zəbt olunmuş Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan ərazisinin ayrılmaz tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə,

BMT Baş Məclisi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 14 mart 2008-ci il tarixli Qətnamə, AŞ PA Azərbaycan ərazilərinin erməni hərbi qüvvələri tərəfindən işğal edildiyini və Dağlıq Qarabağ regionunun separatçı qüvvələr tərəfindən idarə olunmasını təsdiq edən 1416 və 1690 saylı Qətnamə və Tövsiyə qəbul etsə də, Ermənistan bunları hələ də yerinə yetirmir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci tarixli fərmanında bu hadisələrə siyasi qiymət verilmiş və ilk dəfə olaraq azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qaldıqları rəsmi surətdə bəyan edilmişdir. 1998-ci ildən etibarən 31 mart Azərbaycanlıların soyqırımı günü kimi hər il dövlət səviyyəsində qeyd edilir.

Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan xalqına müraciətlərində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, soyqırımını həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salan-ların ifşasına nail olacağımızı bəyan etmişdir.

1918-ci il mart soyqırımından 92 il keçir, lakin erməni millətçilərinin törətdikləri bu dəhşətləri unutmaq qeyri-mümkündür. Beynəlxalq terrorizmə qarşı mübarizəni qarşısına məqsəd qoyan dünya ictimaiyyəti, nəhayət, Azərbaycan xalqına qarşı bu gün də davam edən zorakılıqlara obyektiv siyasi hüquqi qiymət verməli, cinayətkarlar öz layiqli cəzasını almalıdır.

Nüfuzlu beynəlxalq təşkilatları Azərbaycanın haqq mövqeyini dəstəkləməyə çağırır, ədalətin tezliklə öz yerini tapacağına, soyqırımını dövlət siyasətinin tərkib hissəsinə çevirən Ermənistan dövlətinə qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyaların tətbiq olunacağına, Azərbaycanın ərazi bütövlüyünün, qaçqın və məcburi köçkünlərin kütləvi şəkildə pozulmuş hüquqlarının bərpa ediləcəyinə, əsir və girovların azad olunacağına inanıram. Ümid edirəm ki, Siz Azərbaycan torpaqlarında sülhün və əmin-amanlığın bərqərar edilməsində bütün imkanlarınızı səfərbər etməklə böyük səylər göstərəcəksiniz.

**Elmira SÜLEYMANOVA,**
**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman). 30 mart 2010-cu il.**
**"Respublika".-**2010.-31 mart.-N 65.-S.5.

*Bəyanat BMT-nin Baş katibi, Baş katibin müavini, uşaqlar və silahlı münaqişələr problemi üzrə xüsusi nümayəndəsi, BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı, ATƏT, Avropa Şurası, Beynəlxalq və Avro-pa Ombudsmanlar İnstitutları, Asiya Ombudsmanlar Assosiasiyası, Beynəlxalq Sülh Bürosu, Universal Sülh Federasiyası, müxtəlif ölkələrin Ombudsmanları, Azərbaycan Respublikasının xarici ölkələrdəki, xarici ölkələrin respublikamızdakı səfirlikləri və Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.*

**Ombudsman 31 mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar bəyanat yaymışdır
(29 mart 2011-ci il)**

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatında 31 mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar tədbirdə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş və ombudsman Elmira Süleymanovanın bəyanatı səsləndirilmişdir.

Bəyanat BMT-nin baş katibi, onun müavini, Uşaqlar və silahlı münaqişələr problemi üzrə xüsusi nümayəndəsi, təşkilatın insan hüquqları üzrə ali komissarı, Avropa Komissiyası, Avropa Şurası, ATƏT, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutları, Asiya Ombudsmanlar Assosiasiyası, Beynəlxalq Sülh Bürosu, Universal Sülh Federasiyası, müxtəlif ölkələrin ombudsmanları, Azərbaycanın xarici ölkələrdəki, xarici dövlətlərin respublikamızdakı səfirlikləri və Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.

Bəyanatda erməni millətçilərinin və onların havadarlarının son iki əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasəti nəticəsində xalqımızın ağır məşəqqətlərlə üzləşdiyini, mərhələ-mərhələ aparılmış bu qeyri-insani siyasət nəticəsində soydaşlarımızın min illər boyu yaşadıqları tarixi torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qaldığı diqqətə çatdırılmışdır. Bu mənfur siyasətin məqsədinin azərbaycanlıları əzəli yurd yerlərindən qovmaq, həmin ərazilərdə "Böyük Ermənistan" dövləti yaratmaq olduğu qeyd edilmişdir.

Bəyanatda bildirilmişdir ki, 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilmiş soydaşlarımızın insan hüquqları kütləvi surətdə pozulmuş, onlar qeyri-insani rəftara, insan ləyaqətini alçaldan hərəkətlərlə müşayiət olunan etnik təmizləməyə məruz qalmışlar. 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində isə ölkəmizin ərazisinin 20 faizi işğal edilmiş, on minlərlə insan həlak olmuş, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Qeyd olunmuşdur ki, ermənilərin törətdiyi qanlı faciələrin daha dəhşətlisi 1918-ci il martın 31-də azərbaycanlılara qarşı soyqırımı hadisələridir. Həmin il martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri Bakını gəmilərdən yaylım atəşinə tutmuşlar. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətmişlər. Martın 31-də və aprelin 1-dən 2-dək qırğınlar kütləvi şəkil almış, silahlanmış erməni əsgərləri dinc əhalini amansızcasına qətlə yetirmişlər.

Bu hadisələr zamanı Azərbaycanın yüzlərlə şəhər və kəndi, o cümlədən Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı 150-dən çox kənd xarabalığa çevrilmiş, Şuşada görünməmiş qırğınlar törədilmişdir. Qırğınların davam etdiyi dövrdə Azərbaycan ərazisində 700 minədək soydaşımız, o cümlədən Bakıda və ətraf kəndlərdə 30 minə yaxın azərbaycanlı öldürülmüş, məscidlər, məktəb binaları yandırılmış, dağıdılmışdır. Təkcə Zəngəzurda 115, İrəvan quberniyasında isə 211 kənd xarabazara çevrilmiş, əhaliyə amansız divan tutulmuşdur. Ermənilər müsəlman əhalisini işgəncələrlə öldürmüş, körpə uşaqları süngüyə keçirmiş, cəsədlərin burun, qulaq və başlarını kəsmiş, evlərə od vurub, sakinlər qarışıq yandırmışlar. Mart qırğınları zamanı ermənilər dünya memarlığının incilərindən sayılan qədim binaları, o cümlədən ziyarətgahları top atəşinə tutaraq dağıtmışlar.

Bəyanatda BMT-nin Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və 1951-ci ildə qüvvəyə minmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada genosid cinayətinin hüquqi əsasının təsbit edildiyi vurğulanmışdır. Bildirilmişdir ki, insanlıq əleyhinə cinayətin tərkibini təşkil edən və bu sənəddə göstərilən əməllərdən hər biri ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmişdir və hüquqi baxımdan soyqırımı kimi qiymətləndirilməlidir.

Qeyd olunmuşdur ki, işğalçı Ermənistanın yürütdüyü soyqırımı siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüququn ümumtanınmış normalarına görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. Mart soyqırımından 93 il keçir, lakin erməni millətçilərinin törətdikləri bu dəhşətləri unutmaq qeyri-mümkündür. Beynəlxalq terrorizmə qarşı mübarizəni qarşısına məqsəd qoyan dünya ictimaiyyəti, nəhayət, Azərbaycan xalqına qarşı bu gün də davam edən zorakılıqlara obyektiv siyasi hüquqi qiymət verməli, cinayətkarlar öz layiqli cəzasını almalıdır.

Bəyanatda artıq dünya ictimaiyyətinin Azərbaycan tərəfinin haqlı olduğunu, onun ərazisinin işğal edildiyini, Azərbaycana məxsus Dağlıq Qarabağın güc yolu ilə onun nəzarətindən çıxarıldığını qəbul etdiyi və ölkəmizin ərazi bütövlüyünün bərpasını dəstəklədiyi vurğulanmışdır. Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənən mövqeyi və real beynəlxalq vəziyyət hazırda tamamilə dəyişmişdir. Bu isə tezliklə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini, erməni işğalçılarının torpaqlarımızdan çıxarılmasını mümkün edəcəkdir.

Müvəkkil səlahiyyətli beynəlxalq qurumları azərbaycanlılara qarşı soyqırımı törədən işğalçı Ermənistan dövlətinə qarşı sanksiyalar tətbiq etməyə, dünya ictimaiyyətini Azərbaycan xalqının haqq işini dəstəkləməyə çağırmışdır.

Bəyanatda qeyd olunmuşdur ki, nüfuzlu beynəlxalq təşkilatların məlum münaqişənin həllinə yönəlmiş səyləri ikili standartlara yol vermədən, beynəlxalq hüququn normaları və prinsiplərinə tam uyğun həyata keçirilməlidir. Bu işğalçı dövlət ərazi iddialarından əl çəkərək, münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin müddəalarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlı qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqları bərpa edilərək onlar öz doğma yurdlarına qayıtmalı, əsir və girovlar azad olunmalıdır.

**Bakı, (AzərTAc).**

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarış**

**Maddə 103. Soyqırım**

Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədi ilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə - on ildən on beş illədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 104.** Soyqırımın törədilməsinə təhrik etmə

Bu Məcəllənin 103-cü maddəsi ilə nəzərdə tutulmuş hər hansı bir əməlin törədilməsinə bilavasitə və açıq təhrik etmə -

beş ildən on illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyasından çıxarış**

**Maddə 103. Soyqırım**

**Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədi ilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə —**

**on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır** *(Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixli Qanunu ilə edilmiş düzəlişlə — AR QT, 2001, №7, m.455).*

1. Bu norma «Soyqırımın qarşısının alınması və cəzalandırılması haqqında» 9 dekabr 1948-ci il Konvensiyasının müddəalarının icra edilməsi üzrə Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklərin həyata keçirilməsi istiqamətində görülən tədbir kimi CM-ə daxil edilmişdir (adı çəkilən Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Milli Məclisi 31 may 1996-cı il tarixli Qanun qəbul etmişdir).

2. Soyqırım cinayətinin **ictimai təhlükəliliyi** hər hansı milli, etnik, irqi və ya dini qrupun bir qrup kimi bütövlükdə və ya qismən məhv edilməsi və ya məhv edilməsi təhlükəsinin yaranması, habelə həmin qrupların tarixi, mədəni, mənəvi və s. dəyərlərinin yer üzündən silinib getməsi, yaxud belə təhlükənin meydana gəlməsi ilə xarakterizə olunur. 10 dekabr 1948-ci il tarixli İnsan hüquqlarının Ümumi Bəyannaməsində, 10 dekabr 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda və Azərbaycan Respublikasının Konstitusiyasında irqindən, milliyyətindən, cinsindən, dinindən asılı olmayaraq bütün insanların bərabər hüquqlu olması, hər kəsin belə fərqlərdən asılı olmayaraq yaşamaq və şəxsiyyətinə hörmət olunmaq, habelə barəsində heç bir ayn-seçkiliyə yol verilməmək hüququ vardır.

Soyqırım cinayəti insanlıq əleyhinə olan cinayət kimi həm sülh, həm də müharibə vaxtı törədilə bilər.

3. Bu cinayətin **obyekti** qismində hər hansı milli, etnik, irqi və ya dini qrupların normal həyat və fəaliyyəti çıxış edir.

4. Bu cinayətin obyektiv cəhəti 1948-ci il Konvensiyasının 2-ci maddəsində soyqırıma verilən anlayışa daxil olan əlamətlərlə üst-üstə düşür.

Soyqırım cinayəti **obyektiv cəhətdən** aşağıdakı hərəkətlərin törədilməsi ilə xarakterizə olunur:

hər hansı milli, etnik, irqi və ya dini qrupun üzvlərini öldürmə;

hər hansı milli, etnik, irqi və ya dini qrupun üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma;

hər hansı milli, etnik, irqi və ya dini qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma;

hər hansı milli, etnik, irqi və ya dini qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə;

hər hansı milli, etnik, irqi və ya dini qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə.

5. Hər hansı milli, etnik, irqi və ya dini qrupu bütövlükdə və ya qismən məhv etmək məqsədi ilə belə qrupun üzvlərini (sayından asılı olmayaraq) öldürmə, onların sağlamlığına ağır zərər vurma, əqli qabiliyyətlərinə ciddi zərər vurma, qrup daxilində doğumların qarşısını alma və maddənin dispozisiyasında sadalanan digər əməllərin törədilməsini CM-in şəxsiyyət əleyhinə olan cinayətləri nəzərdə tutan normaları ilə deyil, yalnız 103-cü maddəsi ilə tövsif etmək lazımdır.

6. Adam öldürmə cinayətinin anlayışı CM-in 120-ci maddəsinin şərhində verilmişdir.

7. Sağlamlığa ağır zərər vurmanın anlayışı CM-in 126-cı maddəsinin şərhində verilmişdir.

8. **Milli qrup** dedikdə, hər hansı bir millətə mənsubiyyəti olan, milli, tarixi, etnik, dil, mədəni və s. ənənələri ilə bir-birinə bağlılığı olan insanlar qrupu başa düşülür.

9. **Etnik qrup** dedikdə, hər hansı bir xalqa (etnosa) mənsubiyyəti olan müəyyən bir ərazidə sıx və kompakt yaşayan, ümumi tarixi kökləri, dili, mədəni-məişət ənənələri, mədəniyyəti olan insanlar qrupu başa düşülür.

10. **İrqi qrup** dedikdə, hər hansı bir irqə (monqoloid, avropoid, neqroid) mənsub olan, dərisinin, gözlərinin rənginə, boyunun hündürlüyünə və s. görə fərqlənən ümumi irsi bağlılığı olan insanlar qrupu başa düşülür.

11. **Dini qrup** dedikdə, hər hansı bir dövlətdə əhalinin əksəriyyətinin mənsub olduğu dinə deyil, başqa dinə ibadət edən insanlar qrupu başa düşülür.

12. Hər hansı milli, etnik, irqi və ya dini qrupun üzvlərinin **əqli qabiliyyətlərinə ciddi zərər vurma** dedikdə, qrup üzvlərinin ağır psixi xəstəliklərə tutulmasına, onların şüurlu düşünmə qabiliyyətlərinin yox olmasma və s. yönələn hərəkətlərin edilməsi başa düşülür.

13. Hər hansı milli, etnik, irqi və ya dini qrupun **bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş həyat şəraiti yaratma** dedikdə, qrup üzvlərini öz mövcudiyyətini saxlaması üçün zəruri olan qidalanmadan, geyimdən, işləyib qazanc əldə etmək imkanından tamamilə və ya qismən məhrumetmə, ətraf mühiti zəhərləmə və s. başa düşülür.

14. **Qrup daxilində doğumların qarşısının alınmasma yönəlmiş tədbirləri həyata keçirmə,** qrup üzvləri arasında nikahın, cinsi əlaqədə olmanın qadağan edilməsində, onların məcburi sterilizasiya olunmasında, axtalanmasında, hamiləliyin zorla süni pozulmasında və s. ifadə oluna bilər.

15. **Bir qrupa mənsub olan uşaqların zorla başqa qrupa keçirilməsi** hər hansı milli, etnik, irqi və ya dini qrupa aid olan uşaqların onların valideynlərinin razılığı olmadan və ya onların iradəsi əleyhinə zorla, məcburi surətdə alınaraq başqa bir qrupa verilməsini nəzərdə tutur.

16. Soyqırım cinayəti **maddi-formal** tərkibli cinayətdir. Hər hansı milli, etnik, irqi və ya dini qrupu bütövlükdə və ya qismən məhv etmək məqsədi ilə qrup üzvlərini öldürmə, onların sağlamlığına ağır zərər, əqli qabiliyyətinə ciddi zərər vurma əməlləri kriminal nəticələri — ölümü, sağlamlığa ağır zərər, əqli qabiliyyətə ciddi zərər vurulmasını nəzərdə tutur. Belə nəticələr baş verdiyi andan cinayət **başa çatmış** hesab olunur. Qrupun bütövlüklə və ya qismən məhvinə yönəlmiş həyat şəraiti yaratma, qrup daxilində doğumların qarşısını alma, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə cinayətləri belə hərəkətlər törədildiyi andan **başa çatmış** sayılır.

Bu cinayətin başa çatması üçün hər hansı milli, etnik, irqi və ya dini qrupun bütövlükdə və ya qismən məhv edilməsi məqsədinə nail olunub-olunmamasmın heç bir əhəmiyyəti yoxdur.

17. Soyqırım cinayəti **subyektiv cəhətdən birbaşa qəsdlə** xarakterizə olunur. Təqsirkar hər hansı milli, etnik, irqi və ya dini qrupun bütövlükdə və ya qismən məhv edilməsinə yönələn əməllərinin ictimai-təhlükəli olduğunu qabaqcadan dərk edir və onların törədilməsini arzu edir.

Bu cinayətin subyektiv cəhətinin zəruri elementi cinayətin törədilməsinin məqsədidir. Təqsirkarın məqsədi hər hansı milli, etnik, irqi və ya dini qrupu bütövlükdə və ya qismən məhv etməkdən ibarətdir.

18. Bu cinayətin **subyekti 16** yaşına çatmış anlaqlı fiziki şəxs (həm vəzifəli, həm də vəzifəli olmayan) ola bilər.

**Maddə 104. Soyqırımm törədilməsinə təhrik etmə Bu Məcəllənin 103-cü maddəsi ilə nəzərdə tutulmuş hər hansı bir əməlin törədilməsinə bilavasitə və açıq təhrik etmə — beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**

1. CM-in 104-cü maddəsində nəzərdə tutulan cinayətin **ictimai təhlükəliliyi** bu cinayətin subyekti tərəfindən hər hansı milli, etnik, irqi və ya dini qrupu bütövlükdə və ya qismən məhv etmək məqsədi ilə CM-in 103-cü maddəsində sadalanan hər hansı bir əməlin edilməsinə başqa şəxsi və ya şəxsləri sövq etməklə xarakterizə olunur. Başqa şəxsi (şəxsləri) soyqırım cinayətini törətməyə sövq etmə öz məqsədini başqalarmm əli ilə həyata keçirmək niyyətinin təzahürüdür.

2. Soyqırımm anlayışı haqqmda CM-in 103-cü maddəsinin şərhinə bax.

3. Bu cinayətin **obyekti** CM-in 103-cü maddəsində nəzərdə tutulan soyqırım cinayətinin obyekti ilə üst-üstə düşür.

4. CM-in 104-cü maddəsində nəzərdə tutulan cinayət **obyektiv cəhətdən** CM-in 103-cü maddəsində sadalanan hər hansı bir əməlin törədilməsinə bilavasitə və açıq təhrik etmədə ifadə olunur.

Cinayətin təhrikçisi başqa şəxsi (şəxsləri) hər hansı milli, etnik, irqi və ya dini qrupu bütövlükdə və ya qismən məhv etmək məqsədi ilə qrup üzvlərini öldürməyə, onların sağlamlığına ağır zərər vurmağa və ya əqli qabiliyyətlərinə ciddi zərər vurmağa, qrupun fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratmağa, qrup daxilində doğumların qarşısını almağa, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirməyə sövq etməlidir.

Soyqırım cinayətini törətməyə **təhrik etmə** dedikdə, başqa şəxsi (şəxsləri) ələ alma, sövdələşmə, hədə-qorxu gəlmə, tapşırıq verməklə, inandırmaqla, aldatmaqla, düşmənçilik və nifrət hisslərini gücləndirməklə və s. üsullarla həyata keçirilə bilər. Cinayətin törədilməsində təqsirkarın seçdiyi üsulun əməlin tövsifinə heç bir təsiri yoxdur, lakin məhkəmə tərəfindən işin bütün halları əsas götürülməklə cəza təyini zamanı nəzərə alma bilər.

Bu cinayət soyqırım cinayətinin törədilməsinə bilavasitə və açıq təhrik etməni nəzərdə tutur.

Soyqırım cinayətinin törədilməsinə **bilavasitə təhrik etmə** dedikdə, başqa şəxsi (şəxsləri) CM-in 103-cü maddəsində nəzərdə tutulan hər hansı bir əməlin törədilməsinə heç bir əlavə vasitələrdən istifadə etmədən, birbaşa sövq etmə başa düşülür. Bilavasitə təhrik etmə soyqırım cinayətinin obyektiv cəhətini təşkil edən hər hansı bir əməlin törədilməsi üçün təqsirkarın başqa şəxsə (şəxslərə) birbaşa və dərhal həyata keçirilən tapşırıqlar verməsində ifadə oluna bilər.

CM-in 104-cü maddəsi üzrə məsuliyyətin yaranması üçün təhrikçilik hərəkətləri həm də açıq xarakter daşımalıdır. Soyqırım cinayətinin törədilməsinə açıq təhrik etmə başqa şəxslərin iştirakı ilə onlara birbaşa edilən müraciətdə (kütləvi toplantılarda və s.), habelə onların ünvanına göndərilən yazılı vərəqələrdə və s. ifadə oluna bilər. Təhrik etmənin açıq xarakterdə olması başqaları tərəfindən həmin hərəkətlərin qəbul edilməsini nəzərdə tutur.

5. Bu cinayət təqsirkarm başqa şəxsi (şəxsləri) soyqırım cinayəti törətməyə təhrik etdiyi andan **başa çatmış** sayılır. Təhrik olunan şəxsin (şəxslərin) soyqırım cinayətini törədib-törətməməsinin əməlin tövsifinə heç bir təsiri yoxdur. Məsuliyyətin yaranması üçün təhrik olunan şəxsin soyqırım cinayətini törətmək qətiyyətini qismən həyata keçirməsi (məsələn, hazırlıq hərəkətləri etməsi) kifayətdir.

Əgər təhrik edən şəxs öz iradəsindən asılı olmayaraq başqasını soyqırım cinayətini törətməyə sövq etməyə nail ola bilməmişdirsə, onun əməli baş tutmayan təhrikçilik kimi soyqırım cinayətinə (CM-in 103-cü maddəsi) hazırlıq kimi tövsif ediləcəkdir.

6. Bu cinayət **subyektiv cəhətdən birbaşa qəsdlə** törədilir. Təqsirkar başqa şəxsi (şəxsləri) soyqırım cinayətini törətməyə təhrik etdiyini qabaqcadan dərk edir və bunu arzu edir.

7. CM-in 104-cü maddəsində nəzərdə tutulan cinayətin subyekti 16 yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası.** "Digesta" nəşriyyatı. Bakı, 2008-ci il, səh. 221-224 .

**Beynəlxalq Cinayət Məhkəməsinin Statutundan çıxarış**

**Maddə 6**
**Soyqırım**

Bu Statuta görə «soyqırım» hər hansı milli, etnik, irqi və ya dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi niyyəti ilə törədilən aşağıdakı hərəkətlərdən biridir:

a) bu cür qrup üzvlərinin öldürülməsi;

b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və yaxud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi;

c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;

d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi;

e) bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi.

**Soyqırım cinayəti** (Beynəlxalq aktlar, normativ sənədlər, müraciətlər və şərhlər toplusu). Bakı-2010, səh.23.

## Məqalələr

### Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatda. (mart, 1918)

Xalqımızın çoxəsrlik tarixində, keşməkeşli taleyində ağrılı, düyünlü məqamlar, faciəli və müsibətli anları çox olubdur. Onlardan biri də millətçi avanturistlərin, muzdlu qatillərin və siyasi reketlərin əlilə 1918-ci ilin martında Bakı, Şamaxı şəhərlərində, az sonra isə Qubada Azərbaycan türklərinə qarşı misli görünməmiş qəddarlıqla həyata keçirilən kütləvi qırğın aksiyasıdır. Siyasi dairələrdə bu qırğını Azərbaycan xalqına qarşı "qətli-am", "soyqırımı", genosid" adlandıranlar da var idi, "Əksinqilabi qiyam", "sinfi mübarizə", "vətəndaş müharibəsi" məfhumları ilə qeyri-obyektiv və yanlış dəyərləndirənlər də Azərbaycan hökumətinin 15 iyul 1918 - ci il tarixli qərarı ilə yaranmış Fövqəladə Təhqiqat Komissiyasının topladığı və rəsmiləşdirdiyi çoxsaylı, zəngin sənədlər, materiallar, şahid ifadələri soyqırımını təsdiqləyən danılmaz arqumentlər və faktlar arsenalıdır. Real, həqiqi tarixi hadisə istənilən zaman hüdudunda heç bir siyasi boya, ideoloji rəng götürməsə də, faktların, dəlillərin inkaredilməzliyinə baxmayaraq, azərbaycanlıların 1918-ci il mart soyqırımı 70 illik "Qırmızı qaranlıqlar" (Ə. Hüseynzadə) dövründə görünməz olmuşdur. Sovet senzura aparatının bütün cəhdlərinə baxmayaraq, azərbaycanlıların soyqırımına həsr olunmuş əsərlər mənəvi terror dalğalarından salamat çıxaraq müstəqilliyimizin bərpasından sonra "yaşamaq hüququ" qazanmışdır. Nəzərə alınmalıdır ki, ermənilərin azərbaycanlılara qarşı ilk kütləvi qırğın epidemiyası 1905-1906-cı illərdə bütün Azərbaycanı bürüyəndə Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası", Məmməd Səid Ordubadi isə "Qanlı sənələr" adlı milli yaddaş abidələrinin təməlini, bünövrəsini qoydular. Sonrakı faciələrdə bu ənənə inkişaf etdirilərək tarixi hadisələr bədii ədəbiyyatda geniş, əhatəli təcəssümünü tapmaqda idi.

Diqqətə çatdırırıq ki, əldə etdiyimiz, haqqında məlumat topladığımız bədii əsərlərin hamısı "Mart Hadiseyi-ələmiyyəsi"ndən sonra isti-isti yazılmış, müəllifləri soyqırımı aksiyasının şahidləri və zərərdidələri olmuşdur.

Tanınmış ədiblərdən Cəfər Cabbarlı ailəsi ilə erməni bandalarının hücumuna məruz qalmış, döyüşlər evlərindən azacıq yuxarı, "Ceyran bağçası" deyilən yerdə getdiyindən qadınları, uşaqları və qocaları "qar anbarı" adlanan sığınacaqda gizlətmişdi. Bir gün sonra isə daha təhlükəsiz yerə - Xızıya aparmaq məqsədilə anası Şahbikə xanımı, əmisi qızı Sona xanımı, böyük qardaşı Hüseynqulunun qızlarını və qonşuları şəhərdən çıxardarkən qayalığa çatmamış güllə yağışına düşmüş, nəticədə qonşuları Məşədi Əbdülkərim kişi ağır yaralanmış, ailə üzvləri təsadüf nəticəsində ölüm kabusundan xilas olmuşlar. Tənqidçi, nasir, jurnalist Seyid Hüseyn yazırdı ki, "Mart hadisələri zamanında İsmailliyə binasından çox da uzaq olmayan bir məhlədə erməni əsgərləri tərəfindən mühasirə edilmişdim... Pulemyotların dırıltısını, topların gurultusunu eşidirdim" ("İstiqlal" qəzeti, 1335, 4 şübat).

Erməni bandalarının həbs edərək 3 gün Mailov teatrında saxladığı və yandırmaq istədiyi 4000 nəfər azərbaycanlının içərisində böyük dramaturq Hüseyn Cavid də olmuşdur. Özünümüdafiə dəstələrinin ermənilərin bəd niyyətlərindən xəbər tutması və hadisəyə müdaxiləsi nəticəsində qanlı aksiya həyata keçirilməmişdir.

Tanınmış şair, nasir və pedaqoq Hacı Səlim Səyyahın ən yaxın qohumları və dostları mart faciəsinin qurbanı olmuşlar. Üzeyir Hacıbəyov, Məhəmməd Hadi, Mirzə Bala Məhəmmədzadə, İbrahim Xəlil və digər sənətkarların, aydınların, söz adamlarının mart faciəsinin şahidləri olduqları, müxtəlif səpkili əsərlər yazdıqları oxuculara məlumdur. 1918-ci ilin mart soyqırımı, gənc olmasına baxmayaraq, Cəfər Cabbarlının yaradıcılığında xüsusi yer tuturdu. O, əsasən Çəmbərəkənd qəbiristanlığında (indiki Şəhidlər Xiyabanında) dəfn olunan mart faciəsi qurbanlarının xatirəsini anmaq üçün "Dur, ey xar olan millət" sərlövhəli bir mərsiyə də yazmışdır. Dərvişlər, əsasən, gənclər bu mərsiyəni şəhidlərin yeddisində və qırxında məscidlərdə və küçələrdə günahsız qurbanlar üçün göz yaşı tökmək, əslində isə xalqı maskalı düşmənə qarşı səfərbərliyə çağırmaq məqsədilə oxuyurdular:

Gülzari - vətən soldu,
Millət xari-zar oldu,
Hamı payimal oldu,
Dur, ey xar olan millət.

Bir yanda ədu cəllad,
Bir yan naləvü-fəryad,
Ol bu zülmdən azad,
Dur, ey xar olan millət.

Əl çək bu həqarətdən,
Qurtar bu əsarətdən,
Xar ol bu xəcalətdən,
Dur, ey xar olan millət.

Şeir mərsiyə - yas mərasimlərində oxunmaq məqsədilə yazılsa da, dərin ictimai məzmun kəsb edir. Müəllif şeirində "ədu-cəllad"lara, erməni terrorçularına və onların havadarlarına qarşı, zülmdən və əsarətdən azad olmaq üçün "xar olan millət"i ayağa durmağa, səfərbərliyə və mübarizəyə səsləyir. Xalqını, "naləvü-fəryad"lardan oyanmağa, "payimal" olmaqdan usanmağa, Vətənin və millətin "xari-zar"ından bezib qaniçən, başkəsənlərə qarşı haqqını və şərəfini qorumağa çağırır. Yazıldığı vaxtdan 85 il keçməsinə baxmayaraq, əsər bu gün də aktual səslənir. C. Cabbarlının eyni mövzuya həsr etdiyi digər dəyərli sənət əsəri onun "Əhməd və Qumru" hekayəsidir. Əsərin mövzusu əslən şamaxılı olan iki gəncin - Əhməd və Qumrunun saf və ülvi məhəbbətindən, şirin arzularından, bir-birilərinə layiq yüksək mənəviyyata malik insan olmaqlarından, mart faciəsinin bu günahsız şəxslərə gətirdiyi müsibətlərdən bəhs edir. Müəllif, valideynləri erməni quldurları tərəfindən qətlə yetirilmiş, evləri dağıdılmış Əhməd və Qumrunu "Böyük pəncərələri qara kömürlərə dönmüş, altun divarları matəmlərə bürünmüş", "əti tökülmüş baş skeletinə bənzəyən möhtəşəm" İsmailiyyə binasının önündə dilənçi vəziyyətində qarşılaşdırır. Faciə və məhrumiyyətlərin mənqənəsində tanınmaz hala düşmüş, "Yaralıyam, şikəstəm, Şamaxı əsiriyəm", - yalvarışlarından bir-birini çətinliklə tanıyan iki sevgili görüşlərinə sevinsələr də, bir-birini qucaqlamırlar, daha doğrusu, qucaqlaya bilmirlər. Çünki erməni barbarları onların qolunu kəsmişdi.

Hekayə vəhşiliyə, barbarlığa, qəddarlığa qarşı oxucu qəzəbini, oxucu nifrətini ovxarlamaqla yanaşı, haqqa, ədalətə rəğbət hissi aşılayır. Mətni bu günədək əldə edilməsə də, afişa və qəzet məlumatlarından aydın olur ki, Cəfər Cabbarlının "Bakı müharibəsi" adlı 5 pərdəli, 7 şəkilli dram əsərinin ilk pərdələri mart faciəsindən, Bakıda törədilən ağlasığmaz dəhşətlərdən bəhs edir. "Bəsirət" qəzetinin 13 sentyabr 1919-cu il tarixli 246-cı sayında bu səhnə əsəri haqqında yığcam bir elanda yazılırdı: "Azərbaycan Dövlət Teatrosunda zülhəccənin 20 - si, sentyabrın 16-da Bakı türk səhnəsi aktyorlarının iştirakı ilə, artist Abbas Mirzə Şərifzadənin təhti-idarəsində Azərbaycanımızın paytaxtı Bakı şəhərində mart hadiseyi-ələmiyyəsindən sonra düşmənlər əlində qalıb sonralar qəhrəman türk ordusu tərəfindən mühasirə edilib xilas olmasının 1 illiyi münasibətilə gənc şair və mühərrirlərimizdən Cəfər Cabbarzadənin yeni yazmış olduğu "Bakı müharibəsi" draması mövqeyi tamaşa qoyulacaqdır. Həmin faciədə Bakı şəhərində mart hadiseyi-ələmiyyəsindən sonra müsəlmanlara edilən zülm göstəriləcəkdir". Digər bir anonsda maskalanmış, hiyləgər Stepan Şaumyanın və digər ermənilərin əsl iç üzünü açan obrazlarını "Bakı müharibəsi"ndə müəllifin peşəkarlıqla yaratdığı bildirilir. Cəfər Cabbarlının yaxın dostu, tələbə yoldaşı, Cümhuriyyət dövründə parlamentdə iş yoldaşı Mirzə Bala Məhəmmədzadənin də (1898-1959) yaradıcılığında mart qırğınları xüsusi yer tutur. O da özünün "Bakı uğrunda müharibə" faciəsinin ilk pərdələrini dostu Cəfər Cabbarlı kimi mart soyqırımına həsr etmişdir. Məhz Mirzə Bala Məhəmmədzadə Bakı faciəsini ilk dəfə öz adı ilə - qətli-am - yəni ümumin qətli, soyqırımı adlandırmış, əsl caniləri adbaad göstərmişdir. O yazırdı: "31 mart 1918-ci sənə. Bu gün... Bakımızda qanlar axıdılmış, evlər talanmış, ata-babalarımız şəhid düşmüş, ana-bacılarımız əsir edilmiş. Bu gün Bakı əhli kəndi yurdunda qətli-amə, əsarətə və məhkumiyyətə qalmışdır. Bu gün Bakının ətrafında axan neft çeşmələri qan çeşmələrinə mübəddəl olmuşdur. Bu gün Bakı sahilini yuyan Quzğun dəniz qan dənizinə çevrilmişdir. Bu gün şaumyanlar, suxartsyevlər... oyanmış türk mənliyini... öldürmək üçün daşnak qüvvələrinə müraciətən unudulmayacaq qanlı günlər vücudə gətirmişdilər". Mirzə Bala Məhəmmədzadə "Açıq söz", "Gənclər yurdu", "Bəsirət", "İstiqlal", "Azərbaycan" və b. jurnal və qəzetlərdə elmi, publisistik, ədəbi-bədii əsərlərlə mütəmadi çıxış etmişdir. Onun redaktorluğu ilə ilk sayı 23 iyul 1918-ci ildə Tiflisdə işıq üzü görən "Gənclər yurdu" jurnalında çap etdirdiyi "Əksinqilabçılar" hekayəsi mart qətli-amından bəhs etməklə yanaşı, çox maraqlı və ibrətamizdir. Beş hissədən ibarət olan "Əksinqilabçılar" hekayəsinin qəhrəmanı Moskva Darülfünununda oxuyan, bolşevik əqidəli "Azərbaycan türkü Hüseyn bəydir. Hüseyn bəyin fikrincə, hürriyyət, istiqlal istəyən" Azərbaycan, Türkistan, Tatarıstan, Krım türk gəncləri doğrudan da əksinqilabçıdırlar. Müəllif Hüseyn bəy haqqında tam təsəvvür yaratmaq üçün şahidi olduğu Bakı qətli-amından dəhşətli bir mənzərəni təsvir edir: "Bakı həyəcanlı günlər keçirirdi. Şəhər od içində yanırdı. Pulemyot, top, tüfəng, qurşun səsilə paroxodların bombardmanı, camaatin qışqırığı, çoluq-çocuğun, qadın-qızların ah-fəryadı məhşəri andırırdı. Ölən, yanan, qaçan, çığıran, dağıdan, kəsən, kəsilən bir-birinə qarışmışdı". Tükürpərdici bu müsibətdən təəssüflənməyən Hüseyn bəy milli qırğının günahsız qurbanlarına xəcalət çəkmədən yenə "əksinqilabçılar" deyir. Bu tip "obrazovannı"ları böyük satirik şair Mirzə Ələkbər Sabir hələ XX əsrin əvvəllərində xalqa dəqiq nişan verirdi:

"Neyləyim, ey vay, bu urusbaşdılar,
...Cümləsi kafirlərə yoldaşdılar".

Milliyyətini, mədəniyyətini danan, dininə ikrah hissi ilə yanaşan, valideynlərini bəyənməyən, milli təəssübkeşliklərindən uzaq, manqurtlaşmış "obrazovannı" tipini Mirzə Bala Hüseyn bəy obrazında çox böyük məharətlə yaratmışdır. Cəmiyyətdə nə qədər ki, Hüseyn bəylər var "soyqırımı"na "sinfi mübarizə", "istila"ya, "istiqlal", "vətənpərvərə" "əksinqilabçı" - deyənlər tapılacaqdır.

**Asif Rüstəmli,**
**filologiya elmləri namizədi**

**“Bizim əsr” qəzeti, 15.04. 2003**

**Azərbaycanlılara qarşı soyqırımlar: mərhələləri və nəticələri**

Son iki yüz ildə xalqımız dəfələrlə kütləvi qırğınlara və soyqırımlara məruz qalmışdır. XIX əsrin əvvəllərindən başlayaraq kütləvi və məqsədli şəkildə Cənubi Qafqaza köçürülən ermənilər havadarlarının köməyi ilə soydaşlarımızın yaşadıqları minlərlə yaşayış məntəqəsini viran etmiş, bir milyondan artıq soydaşımızı soyqırıma məruz qoymuşlar.

İlkin mənbə və tarixi ədəbiyyatların təhlili göstərir ki, Azərbaycan xalqına qarşı erməni təcavüzünün başlıca məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaq və sonradan müxtəlif yollarla onu genişləndirməklə "Böyük Ermənistan" yaratmaqdan ibarət olmuşdur. Ermənilərin bu niyyətlərinin qismən də olsa reallaşmasında Rusiyanın və bəzi Qərb dövlətlərinin müstəsna rolu olmuşdur.

1826-1828-ci illər Rusiya-İran, 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən dərhal sonra İran və Türkiyədən köçürülən 130 minə yaxın erməni əsasən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılmışdı. Həmin müharibələr nəticəsində 359 müsəlman kəndi dağıdılmış, əhalisinin xeyli hissəsi qırılmış, qalanları isə qaçqın düşmüşdülər. Türkmənçay müqaviləsindən sonra İrəvan və Naxçıvan xanlıqları ərazisində təşkil edilən Erməni vilayətində mövcud olan 1111 yaşayış məntəqəsindən cəmisi 62 kənddə (erməni kilsələrinin ətrafında) ermənilər yaşadılar.

Son iki yüz ildə indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı həyata keçirilən qırğınlar, deportasiya və soyqırımları nəticəsində onların yaşadıqları iki minə yaxın yaşayış məskənləri boşaldılmışdır. Azərbaycanlıların öz əzəli torpaqlarından qovulması ilə paralel ermənilərin onların yerində məskunlaşdırılma kompaniyası XIX əsrin sonunda Türkiyədə baş qaldıran erməni separatizminin yatırılmasından sonra daha geniş vüsət almışdır. 20-ci əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1,3 milyon ermənininin 1 milyonu xaricdən gələn ermənilərdən ibarət olmuşdur.

Həmin dövrdə "Daşnaksutyun" partiyası öz proqramında dəyişiklik edərək, fəaliyyətinin ağırlıq mərkəzini Cənubi Qafqaza keçirmiş, müstəqil erməni dövləti qurmaq məqsədilə silahlı birləşmələr təşkil etmişdi.

Rusiyanın rəsmi dairələrinin ermənipərəst mövqeyindən istifadə edən "Daşnaksutyun" partiyası İrəvan, Gəncə (Yelizavetpol) və Tiflis quberniyalarında Azərbaycan türkləri yaşayan əraziləri təmizləmək və orada erməniləri məskunlaşdırmaq məqsədilə kütləvi qırğınlar törətmişdi. 1905-1906-cı illərdə əvvəlində Rusiyada baş verən iğtişaşlardan fürsət kimi istifadə edən ermənilər əvvəlcə Bakıda, sonra isə İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Qazaxda və Tiflisdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmişdir. Erməni silahlı dəstələri İrəvan-Naxçıvan-Zəngəzur-Qarabağ istiqamətində yerləşən azərbaycanlı yaşayış məskənlərinin əhalisini qırmaqla, qovmaqla və həmin ərazilərdə erməniləri məskunlaşdırmaqla gələcək Ermənistan dövlətinin əsasını qoymaq istəyirdilər. Sayları on min silahlıdan artıq olan erməni birləşmələri İrəvan şəhərində və onun ətraf kəndlərində, Eçmiədzin (Üçkilsə) və Şərur-Dərələyəzdə, Gəncə quberniyasının Zəngəzur qəzasının Gorus, Qapan və Qarakilsə (Sisyan) nahiyələrində, Şuşa, Cavanşir, Cəbrayıl, Qazax qəzalarında kütləvi soyqırım törətmiş, 200-dən artıq azərbaycanlı kəndini viran qoymuşlar.

1914-cü ildə Rusiya-Türkiyə müharibəsinin başlanmasından istifadə edərək "Daşnaksutyun" partiyası rus ordusunun tərkibində 4 böyük silahlı birləşmə təşkil etmişdi. Cəllad Andranikin başçılığı etdiyi erməni dəstələri Cənubi Azərbaycanın Xoy, Urmiya və Səlmas əyalətlərində 150 minə yaxın, sonra isə Şərqi Anadolunun Qars, Ərzurum və Ərdahan bölgələrində 200 mindən artıq Azərbaycan türklərini uşaq, qoca, qadın arasında fərq qoymadan qətlə yetirmiş, həmin əraziləri Çar Rusiyasının ermənilərə vəd etdiyi Ermənistan dövlətini qurmaq üçün türklərdən təmizləmişdilər.

Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra özlərini Qafqazda bolşevik hakimiyyətinin qanuni nümayəndələri hesab edən ermənilər əsasən Türkiyədən qaçıb gələn erməniləri silahlandıraraq Sovet hakimiyyətini qurmaq adı altında Bakıda hakimiyyəti ələ keçirmişdilər.

1918-ci il martın 30-u, 31-i və aprelin 1-də bolşevik qiyafəsinə bürünən ermənilər Rusiyanın hərbi yardımı ilə Bakıda soyqırım törədərək 15 min müsəlmanı qətlə yetirmişdilər. Məqsəd Bakını ələ keçirməkdən, onun neft sərvətinə sahib çıxmaqdan ibarət idi. Həmin ilin mart-aprel-may aylarında ermənilər Şamaxıda, Qubada, Xaçmazda, Ağsuda, Kürdəmirdə, Salyanda, Lənkəranda kütləvi qırğınlar törətmiş, 50 mindən artıq soydaşımızı ən vəhşi üsullarla qətlə yetirmişdilər. Qırğınlar İrəvan quberniyası ərazisində, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Qars vilayətində daha amansız şəkildə törədilmişdi. Şamaxı qəzasında 58, Quba qəzasında 112, Gəncə (Yelizavetpol) quberniyasında 272 (o cümlədən Zəngəzurda 115, Qarabağda 157), İrəvan quberniyasında 211, Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyona yaxın əhali öz tarixi-etnik torpaqlarından didərgin salınmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra fövqəladə istintaq komissiyası yaradılmış və ermənilərin xalqımızın başına gətirdikləri müsibətlər şahid ifadələri əsasında sənədləşdirilmişdir. Xalq

Cümhuriyyəti hökumətinin qərarı ilə hər il martın 31-ni matəm günü kimi qeyd etmək qərara alınmışdı. Erməni təcavüzünün qurbanlarının xatirəsi 1919-cu və 1920-ci il martın 31-də matəm kimi qeyd edilmişdi.

1920-ci ildən sonra Ermənistanda azərbaycan türklərinə qarşı deportasiya siyasəti "dostluq" və "beynəlmiləlçilik" pərdəsi altında davam etdirilmişdir. 1930-1937-ci illərdə Ermənistanın Türkiyə və İranla sərhəd boyunda yaşayan 50 minə yaxın azərbaycanlı repressiyaya məruz qalaraq həbs edilmiş, Qazaxıstan və Sibir çöllərinə sürgün edilmişlər.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-də kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarına əsasən 1948-1953-cü illərdə azərbaycanlılar yaşayan ən münbit ərazilərdən, xüsusən də İrəvan və onun ətraf rayonlarından 150 minə yaxın əhali deportasiyaya məruz qalaraq Azərbaycanın aran rayonlarına köçürülmüşdür. Köçürülən əhalinin təqribən yarısı iqlim şəraitinə uyğunlaşmayaraq tələf olmuşdur.

1988-ci ildə keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli mövqeyindən istifadə edən Ermənistan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətini anneksiya etməyə cəhd göstərməklə yanaşı, Ermənistan SSR Ali Soveti sessiyasının məxfi göstərişinə əsasən, 1988-ci il noyabrın 22-dən 28-dək müddət ərzində soydaşlarımız yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri azərbaycanlılardan təmizlənmiş, nəticədə 200 mindən artıq azərbaycanlı 18 min müsəlman kürd, min nəfər rusdilli əhali Azərbaycana pənah gətirmişdir. Həmin vaxt 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, minlərlə qadın, uşaq və qoca bədən xəsarəti almış, on minlərlə ailənin əmlakı qarət olunmuşdur.

Rəsmi Ermənistan azərbaycanlılara qarşı soyqırım həyata keçirərək, onları tarixi-etnik torpaqlarından təmizlədikdən sonra mənəvi soyqırım - türkmənşəli toponimləri erməniçələşdirmək aksiyasını həyata keçirmişdir. Son vaxtlara qədər mövcud olan türkmənşəli toponimin hamısı dəyişdirilmiş və yaxud soydaşlarımızın yaşadıqları kəndlər ölü zonaya çevrilərək, yaşayış məntəqələrinin siyahısından silinmişdir.

Monoetnik Ermənistan dövləti yaratmağa nail olan Ermənistan rəhbərləri onu dəstəkləyən dövlətlərin hərbi-sənaye potensialından qidalanaraq əhalisinin 30 faizini azərbaycanlılar təşkil edən Dağlıq Qarabağ Muxtar Vilayətini, habelə, 7 ətraf rayonu (Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam və Füzuli rayonlarını) işğal edib xarabazara çevirmiş, əhalini soyqırımına məruz qoymuşlar.

Ermənistan silahlı qüvvələri Azərbaycanın 12 rayonunu işğal etmiş (ərazisinin 20 faizi, yaxud 1/5 hissəsini), 20 minə yaxın Azərbaycan vətəndaşını öldürmüş, 4 minə yaxın əhalini girov götürmüşlər ki, onların da əksəriyyəti uşaqlar, qadınlar və qocalar təşkil edirlər. 1992-ci il fevralın 26-da törədilən Xocalı soyqırımı dünya tarixində analoqu olmayan vəhşiliyin nümunəsidir. Bir milyona yaxın azərbaycanlı erməni təcavüzü nəticəsində öz torpaqlarından qaçqın düşmüşdür.

İşğal edilmiş ərazilərdə 4 mindən çox sənaye və kənd təsərrüfatı obyekti, 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, ümumi sahəsi 6 milyon kv. metr olan 180 mindən artıq mənzil və şəxsi ev, minə yaxın təlim tərbiyə müəssisəsi, 3 minə yaxın mədəni-maarif ocağı, 700-dən artıq tibb müəssisəsi erməni vandalları tərəfindən dağıdılmışdır.

Təkcə XX yüzillikdə bir milyona yaxın azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş, 1,5 milyondan artıq soydaşlarımız indiki Ermənistan ərazisindən deportasiya edilmişdir. 1918-ci ildə imzalanan Batum müqaviləsinə əsasən cəmisi 9 min kv. km. ərazisi olan Ermənistan 1988-ci ildə onu 30 min kv. km.-ə çatdırmış, hazırda isə işğal etdiyi ərazilərlə birlikdə azı 45 min kv. km. əzəli Azərbaycan torpaqlarını öz nəzarəti altına almışdır.

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması haqqında BMT Təhlükəsizlik Şurası 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul etmişdir. Ermənistan Respublikası həmin qətnamələrin tələblərinə indiyədək əməl etməmişdir.

Tarixi faktlar, arxiv sənədləri, statistik məlumatlar belə nəticəyə gəlməyə əsas verir ki, indiki Ermənistan ərazisində və Azərbaycanın işğal edilmiş ərazilərində erməni silahlı birləşmələrinin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar və cəza aksiyaları BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli Konvensiyasına görə soyqırım hesab edilməlidir.

Ermənilərin XIX-XX əsrlərdə azərbaycanlılara qarşı törətdikləri soyqırım və kütləvi repressiya aksiyalarına hüquqi-siyasi qiymət vermək məqsədiliə Ümummilli liderimiz Heydər Əliyev 26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalamış və bütün soyqırım faciələrini yad etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırım günü elan edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin istər "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il fərmanı, istər "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1987-ci il tarixli fərmanı, istərsə də həmin fərmanların icrası ilə bağlı imzaladığı sərəncamlar və eləcə də dövlətimizin başçısı İlham Əliyevin hər il soyqırım günü ərəfəsində etdiyi müraciətlər qan yaddaşımızın oyanmasına, tarixi keçmişimizə qarşı biganəliyimizə son qoymağa xidmət edir.

Ermənilər xalqımızın qan yaddaşının bərpa olmasından, tarixi keçmişində ona qarşı edilən zülmlərdən xəbərdar olmasından, erməni şovinizminin, erməni terrorizminin ifşa olunmasından çox narahatdırlar. Digər tərəfdən, Azərbaycanın bir dövlət kimi qüdrətlənməsi, onun regionun aparıcı dövlətinə çevrilməsi, Ermənistanın isə bütün beynəlxalq layihələrdən təcrid olunması, insan ehtiyatlarının tükənməsi onun bir dövlət kimi perspektivsizliyindən xəbər verir. Azərbaycan isə sülhpərvər, beynəlxalq hüquq normalarına hörmət edən, separatizmin və terrorçuluğun əleyhinə ardıcıl mübarizə aparan bir dövlət imici qazanıb. Azərbaycanın haqq işi, o cümlədən ona qarşı edilən tarixi ədalətsizliyin bərpası istiqamətində atdığı addımlar tədricən beynəlxalq ictimaiyyət tərəfindən anlaşılır və qəbul edilir. Azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımların tanınması da gec-tez tarixi ədalətsizliyə verilən hüquqi-siyasi qiymət kimi dünya dövlətləri tərəfindən qəbul ediləcəkdir. Ermənilər "soyqırıma məruz qalan xalq" kimi deyil, məhz soyqırım törədən xalq imicini qazanacağı tarix çox da uzaqda deyil.

**Nazim MUSTAFA,**
**Azərbaycan MEA Tarix İnstitutunun elmi işçisi**

***"Dədə Qorqud" qəzeti, 15.09.2003***

**1905-1906-cı illərdə Qarabağda türk-müsəlman soyqırımı**

Bəşər tarixinə inqilablar əsri kimi daxil olan XX əsrin ilk xalq inqilabı-1905-1907-ci illər birinci rus burcuademokratik inqilabı əsrin əvvəllərində Rusiyada mövcud olan sosial-iqtisadi və siyasi böhranın kəskinləşməsi, inqilabi hərəkatın avanqardına çevrilən fəhlə sinfinin mübarizəsinin yüksəlməsi, kəndli çıxışlarının artması fonunda əhalisinin 57 faizi asılı xalqlardan ibarət olan çoxmillətli imperiyanın ucqarlarında milli-azadlıq hərəkatının genişlənməsinə təkan verdi.

İmperiyanın inkişaf edən sənayesinin xammal bazası və dörd ən iri sənaye mərkəzlərindən biri olan Bakı fəhlə hərəkatının da mərkəzlərindən birinə çevrildi. Balaxanı, Sabunçu, Ramana mədənlərində 1904-cü il dekabrın 13-dən başlayan və dekabrın 30-da Rusiya tarixində neft sənayeçiləri ilə fəhlələr arasında ilk kollektiv müqavilənin imzalanması ilə başa çatan kütləvi tətilin gedişində fəhlələrin iqtisadi terror metodlarından istifadə etməsi (dekabrın 25-dən 30-dək Balaxanı-Sabunçu-Ramana mədənlərində 125, bütövlükldə şəhər üzrə 225 buruq yandırılmışdı) Rusiya çarizmini narahat etməyə bilməzdi (Д. Гусейнов. Славная победа бакинского пролетариата. Bakı, 1955, səh. 61, И. Багирова. Политические партиии организачии Азербайджана в начале XX века. Бакы, 1997, сящ. 66-67).

Odur ki, öz hökmranlığını qoruyub saxlamağa çalışan Rusiya çarizmi kütlələri inqilabi hərəkatdan yayındırmaq üçün «istibdadın ən qədim və köhnə üsullarından biri olan» üsulu işə saldı, «özünə tabe olan millətləri bir növ ilə yağılaşdırıb və tutuşdurub müxtəlif millətlər arasında ziddiyyət və düşmənçilik salmaq» metodundan məharətlə istifadə etdi.

Siyasi cəhətdən təşkilatlanmağa başlayan erməni millətçilərinin X1X əsrin ikinci yarısında Osmanlı dövləti ərazisində törətdikləri separatçı fəaliyyətlərinin məğlubiyyətə uğraması, burunları ovulan ermənilərin öz əməllərinin ağırlıq mərkəzini Azərbaycana keçirdikləri çarizmə yaxşı bəlli olduğu halda, velikorus siyasətinin davamı kimi, Türkiyədə «döyüş təcrübəsi» əldə edən erməni-daşnak bandalarının əliyalın, dinc azəri türklərinə qarşı müharibəsinə rəvac verirdi.

Hələ inqilab ərəfəsində öz strukturlarını gücləndirən və təpədən dırnağa kimi silahlanan daşnaklar öz çirkin məqsədlərini həyata keçirməyə - müsəlmanları yaşadıqları ərazilərdən çıxarıb erməni dövləti yaratmaq uğrunda fəaliyyətə başladılar. İlk hücumlar ermənilərin sıx yaşadıqları ərazilərdə - Yelizavetpol, İrəvan quberniyalarında, Qarsda, Şuşada, Naxçıvanda başladı ki, burada ermənilərin müvəffəqiyyət qazanma şansı yüksək idi. Təpədən dırnağa qədər sılahlanmış «zinvor» dəstələrinin üzvləri çar hökumət orqanlarının tam laqeydliyini görərək, erməni yaşayış məntəqələrinə gəlib onları «türklərlə» müharibəyə səfərbər etməyə başladılar. Yel kimi çapan daşnak hissələri müdafiəsiz «türk kəndləri üzərinə qar kimi yağdılar, dağıdıb talan etdilər. Döyüş taktikaları isə çox sadə idi: gözlənilmədən müdafiəsiz dinc sakinlərə hücüm edib onları qırmaq, evləri talan edib yandırdıqdan sonra qisasla üzləşməmək üçün dərhal gözdən itmək. (Б. Наджафов. Личо врага . История армянского начионализма в Закавказье в конче X1X-начале XX вв. Бакы, 1993, с. 174-175).

Erməni millətçilərinin «Böyük Ermənistan» yaratmaq planlarında Şuşanın işğalı həmişə ən vacib məsələlərdən biri olub. Qarabağın baş şəhəri və sosial-iqtisadi, mədəni mərəkəzlərindən biri olan Şuşa həm də çox əlverişli coğrafi, strateji əhəmiyyətə malik idi. Hətta, «Daşnaksutyun»un planlarında Şuşa və Gəncə şəhərlərini birləşdirəcək şosse yolunun inşası üçün «Komitə» 60 min pul ayrmışdı. Həmin şosse yolu Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin ərazisindən keçməli idi. (B. Nəcəfov. göstərilən əsəri, s. 182).

1905-ci ilin fevralın 6-da Bakıda başlayan erməni-müsəlman davası «… hər iki millətin zatına qondarılmış bomba kimi partladı ki, … bütün Qafqaza atəş buradan açıldı. (M. S. Ordubadi. Qanlı illər. Bakı, 1991, səh. 13. ). 1905-ci ilin may-iyun aylarında erməni-müsəlman qırğını İrəvan, Naxçıvan, Şuşa, Cəbrayıl və Qaryagini əhatə etdi. 1905-ci ilin yayında Bakıda, Gəncədə, Şuşada və Zaqafqaziyanın digər yerlərində erməni-müsəlman qırğınına hökumət tərəfindən rəvac verildi.

Şuşa ermənilərinin tədricən silahlanması və müharibəyə hazırlaşmasına etinasız münasibət bəsləyən şəhər əhalisi - «ermənidən nə pəhləvan?», «erməni qorxaq millətdir» - fikri ilə öz adi həyatlarının yaşadıqları bir vaxtda 1905-ci il avqustun 8-ə keçən gecə ermənilər bir İran azərbaycanlısını öldürüb müsəlman karvanlarının qarət etdilər, avqustun 16-da isə qaçmağa cəhd edən bir erməni kazaklar tərəfindən öldürüldü. Baş verənlərdə azərbaycanlıları günahlandıran ermənilər ixtişaşlar törətməyə başladılar. Diş həkimi Maşoryansın erməniləri türklərə qarşı müharibəyə çağırışı ilə şəhərin azərbaycanlılar yaşayan məhəllələrinə hücum başlandı. Avqustun 17-də şəhərin Xəlfəli və Köçərli məhəllərinə hücum edən təpədən dırnağa qədər silahlanmış ermənilər azərbaycanlıların güclü əks hücumu altında geri oturduldular. Avqustun 19-da azərbaycanlılar Xandəmirov teatrını və bir çox erməni evlərini yandırdılar. Sentyabrın 10-na qədər şəhərdə atəş kəsilmədi. Qafqaz canişini Vorontsov-Daşkovun şəhərə gəlişi ilə atəş dayandırıldı. Sentyabrın 14-dən sülh elan olunsa da, avqustun 21-də realnı məktəbində təmir işləri görən 17 nəfər iranlı fəhlə ermənilər tərəfindən qəddarcasına qətlə yetirildi. Lakin müsəlmanlar səbr nümayiş etdirib sülhü pozmadılar. 1905-ci ilin avqust hadisələrində Şuşa şəhərində 100-ə

qədər azərbaycanlı öldürüldü, 20-dək ev yandırıldı. (M. S. Ordubadi. Qanlı illər. Bakı,1991, s. 58). Bir il sonra isə çar məmurlarının xeyir-duası ilə ikinci Şuşa faciəsi baş verdi. Naxçıvan və İrəvanda qanlı qırğınlar törədən ermənilər 1906-cı ilin yayında Qarabağ istiqamətində öz mənfur fəaliyyətlərini genişləndirməyə başladılar. İyun ayında Cəbrayıl - Qaryagin qəzalarında istədiklərinə nail olmayan ermənilərin xüsusi cənfəşanlığı və Qarabağ bəylərinin maymaqlığı nəticəsində yenidən öz vəzifəsinə qaytarılan Qoloşapov Duma qlavası erməni Kiki Kələntərovun fitvası ilə Şuşanın azərbaycanlı əhalisinin növbəti soyqırımına rəvac verdi. Qısa müddət ərzində şəhərə ətraf kəndlərdən 7000 min silahlı erməni toplamağa nail olan daşnaklara generalın himayəsində olan 850 nəfər rus əsgəri də istənilən vaxt kömək etməyə hazır idi. Kiki Kələntərovdan xəyanətkar fəaliyyətinə görə 10 min manat rüşfət alan Qoloşapov iyulun 12-də Şuşanın müsəlman əhalisinə qarşı erməni qımdatların geniş hərbi əməliyyata başlamasına icazə verdi. «…Rus ordusunun 5, ermənilərin 6 topu səngərlərdən peydər-pey atırdı… cəmi bir topu olan şuşalılar onu təkərə mindirərək səngərləri dolandırır və erməniləri çaşdırırdılar. Şuşalı ustanın tökdüyü bu bürünc topun bir gurultusu vardı… qorxusu erməniləri dəhşətə salırdı» (M. Nəvvab. 1906-cı ilin iyul ayında Şuşada baş vermiş erməni müsəlman davası. «Vətən səsi» qəzeti, 28 avqust 1991-ci il, s. 4-5). Ətraf kəndlərdən köməyə gələn dəstələrlə birlikdə əks hücuma keçən azərbaycanlılar erməni məhəlləsində evlərə od vurub yandırmağa, erməni səngərlərini ələ keçirməyə başladılar. 5 gün davam edən döyüşdə 18 azərbaycanlı, 700-ə qədər erməni öldürüldü. Kazak və ruslardan ölənlərin sayı 31 nəfər idi. (M. Nəvvab. Göstərilən əsəri. «Vətən səsi» qəzeti, 5 sentyabr 1991-ci il, s. 2. ) İyulun 18-də ermənilərlə azərbaycanlılar arasında barış elan olunsa da, öz xəyanətinin dərəcəsini yaxşı bilən Qoloşapov şəhərdə çox ehtiyatla dolanırdı. Müsəlmanların dövlət orqanlarına çoxsaylı şikayətlərindən sonra Qoloşapov Tiflisə göndərildi və burada «Difai» partiyasının fəalları tərəfindən qətlə yetirildi.

Bu hadisələr Qarabağda baş verən erməni talanlarını nə əvvəlincisidir, nə də sonuncusu. Maraqlı məqam isə odur ki, üstündən bir əsrədək vaxt keçməsinə baxmayaraq, ermənilərin taktika və strategiyaları dəyişməyib. M. S. Ordubadinin hadisələrin qaynar izi ilə 245 müxbir məktubu əsasında ürək ağrısı ilə qələmə aldığı «Qanlı illər» kitabında 1905-1906-cı illərdə ermənilərin Azərbaycanda törətdikləri türk-müsəlman soyqırımının səbəblərinin çoxu bu gün də oz aktuallığını saxlamaqdadır.

**Kəmalə Hüseynova,**
**“Qarabağ dünən, bu gün və sabah”**
**3-cü elmi-əməli konfransının materialları (2004-ci il)**
**http://karabakh-doc.azerall.info/ru/articls/artc119az-24.php**

**1918-1920-ci illərdə türk-müsəlman soyqırımları**

1918-ci ildə türk-müsəlman əhalisinə qarşı törədilən cinayətləri üzə çıxarmaq Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra mümkün olmuşdur. Belə ki, Milli hökumətin ən mühüm qərarlarından biri daşnak canilərinin törətdikləri cinayətlərin təhqiqi üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması oldu. Hökumətin iclasında Xarici işlər naziri M. H. Hacinski bu məsələ barəsində çıxışında qeyd etdi ki, 4 aydır ki, erməni cəlladları dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədirlər. Bununla yanaşı, zorakılıq törədənlərin yalan xəbərləri nəticəsində Avropa ictimaiyyətində tamam əks əhval-ruhiyyə yaradılır. Buna görə də belə bir təşkilatın yaradılmasına böyük ehtiyac hiss olunur. Həmin təşkilat Fövqəladə Komissiya xarakteri daşımalıdır, həm də bu komissiyanın topladığı sənədlər Azərbaycan, rus, ingilis, fransız, alman dillərində nəşr edilib yayılmalıdır (ARDA, f. 1061, siy. 1, iş 95, vər. 2). Vəkil Ələkbər bəy Xasməmmədov (sonralar Azərbaycan Məhkəmə Palatasının sədri olmuşdur) Təhqiqat Komissiyasının sədri təyin edildi (ARDA, f. 1061, siy. 1, iş 5, vər. 1). Bir neçə ay ərzində Fövqəladə Təhqiqat Komissiyası daşnak quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində böyük iş gördü. Zərərçəkmiş yüzlərlə vətəndaş və şahid dindirildi, çoxlu material, maddi dəlil-sübut, fotosənəd toplandı.

Məlumdur ki, 1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı nəticəsində Romanovlar sülaləsi devrildi və Müvəqqəti hökumət təşkil edildi. Müvəqqəti hökumət Rusiya xalqlarına müraciətində elan etdi ki, birinci dünya müharibəsi başa çatandan sonra xalqların öz müqəddəratını həll etməsi məsələsinə baxılacaqdır. Lakin 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyəti zorakı yolla ələ keçirməsi Rusiya xalqlarının bu arzularını boşa çıxartdı. Bolşeviklər fəhlə-kəndli hökuməti qurmaq adı altında əvvəlki imperiyanı bərpa etməyə başladılar.

1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində Bakıda daşnak-bolşevik birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi yetişməkdə idi. 1917-ci ilin dekabrında Rusiya Xalq Komissarları Sovetinin sədri V. İ. Lenin tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin olunmuş S. Şaumyanın Korqanovun başçılıq etdiyi Hərbi İnqilab Komitəsi ilə birlikdə Tiflisdən Bakıya gəlişi buradakı siyasi vəziyyəti daha da gərginləşdirdi. Qafqaz cəbhəsindən geri qayıdan əsgərlər vətənlərinə dönmək əvəzinə Bakıda toplaşdı. Bu əsgərlərin Bakıda saxlanmasında Şaumyan böyük fəallıq göstərirdi.

Azərbaycanda milli qüvvələrə başçılıq edən "Müsavat"ın getdikcə artan nüfuzundan qorxuya düşən bolşevik-daşnak qüvvələri Bakını inqilabla əksinqilab arasında mübarizə meydanı elan etmişdilər. Bolşevik - daşnak qüvvələrinin birləşdiyi Bakı Sovetinin ixtiyarında Qırmızı ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmlənmişdi.

1918-ci ilin martında Bakıda siyasi vəziyyət son dərəcə gərgin idi. Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat"ın böyük səs çoxluğu ilə qələbə qazanması bolşevikləri və daşnakları ciddi narahat edirdi. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevrilən "Müsavat" Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamla mübarizə aparırdı. Şaumyan başda olmaqla bolşevik qüvvələri Erməni Milli Şurası və "Daşnaksutyun" partiyasının rəhbərləri ilə birlikdə "Müsavat"a qarşı əsl müharibəyə başladılar. Bakıda Azərbaycan milli qüvvələrinin sayca az və pis silahlanmış olduğunu yaxşı bilən Şaumyan müsəlmanlara "dərs vermək" üçün milli qırğına hazırlaşırdı.

Martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu.

Belə ki, 1918-ci il martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş H. Z. Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paroxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdi. Dəstənin rədd cavabına tüfənglərdən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu.

Ertəsi gün şəhərin cənub hissəsində erməni əsgərləri göründülər. Onlar bütün küçə boyu səngərlər qazmağa, torpaq və daşlardan bəndlər ucaltmağa başladılar. Həmin gün müsəlman xeyriyyə cəmiyyətinin binasında keçirilən yığıncağa gələn Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Erməni Milli Şurası və "Daşnaksutyun" partiyası adından bəyan etdi ki, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşeviklərin Bakıdan qovulmasına kömək edəcəklər. Martın 18-də (təzə stillə 31 mart - A. İ.) səhər tezdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçdilər. Müsəlmanlar yaşayan hissədə xristian əhalidən ruslar və gürcülər qalmışdı.

Bakıda mart soyqırımı planı hələ 1917-ci ildən "Daşnaksutyun" partiyası və Erməni Milli Komitəsi tərəfindən hazırlanırdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini cismən məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi.

Bakı Soveti qüvvələrinə rəhbərlik edən S. Şaumyanın erməni hərbi hissələrindən istifadə etməsi bu qırğını daha da dərinləşdirmişdir. Bolşevikləri müdafiə etmək bəhanəsi ilə erməni hərbi hissələri türk-müsəlman əhalisinə qəddarcasına divan tuturdular. Qeyd etmək lazımdır ki, Bakı Soveti də, onun yaratdığı ordu da əsas etibarı ilə ermənilərdən ibarət idi. Sovetdə olan daşnaklar Sako Saakyan, Arakelyan və başqaları bolşevik dəstələrinə müsəlman fəhlələrinin qəbul edilməsinə hər vasitə ilə əngəl törədirdilər. Daşnaklar azərbaycanlılara milli ordu yaratmaqda mane olur, Sovetin adından istifadə edərək millətçi-şovinist siyasətini canfəşanlıqla həyata keçirir, Bakı, Şamaxı və Azərbaycanın digər bölgələrində türk-müsəlman əhalisinə qarşı qırğınlar hazırlayırdılar. Bu baxımdan Erməni Milli Komitəsi xüsusi fəallıq göstərirdi. Müsəlmanlara qarşı talanlar Şamaxı, Göyçay, Gəncə, Nuxa, Qazax, Lənkəran, Salyan, bir sözlə Azərbaycanın bütün bölgələrini bürümüşdü.

Təhqiqat Komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A. N. Kvasnikinin ifadəsində deyilirdi: "Bu il martın 17-21-də (köhnə stillə - A. İ.) Bakıda baş vermiş hadisələri əsla vicdan əzabı çəkmədən belə şərh etmək olar: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə ətraflarda cismən məhv edilməsi, onların əmlakının hamısının qarət olunması və bütün var-dövlətlərinin və siyasi üstünlüyün ermənilərin əlinə təbii surətdə keçməsi məqsədilə ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi". (ARDA, f. 1061, siy. 1, iş 95, vər. 2).

Azğınlaşmış və vəhşiləşmiş erməni quldurlar dinc azərbaycanlı əhalini qırıb-çatmaq üçün ən amansız üsullara əl atırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A. Y. Kluge bu komissiyanın sədrinə "Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara dair iş haqqında" məruzəsində yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər. Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram - doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər" (ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər. 20).

Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, az-çox qiymətli olan şeyləri isə özləri ilə aparırdılar. Sonralar təkcə bir yerdə torpağın altından 57 müsəlman qadın və qızın meyiti tapılmışdı. Onların qulaqlarını, burunlarını kəsmiş, qarınlarını yarmışdılar. Ermənilər öldürməyə macal tapmadıqları qadınları isə öz hörükləri ilə bir-birinə bağlayaraq başıaçıq, ayaqyalın arabalara mindirib aparır, yolda isə tüfənglərin qundaqları ilə onları döyür, şikəst edirdilər (ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər. 18).

Təhqiqat Komissiyasının sənədlərinə əsasən məlum olur ki, 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər (ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər. 18).

Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunmuşdur. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmişdir. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar (ARDSPİHA, f. 277, siy. 2, iş 13-16, vər. 25-26).

Təhqiqat Komissiyasının materiallarında bu vəhşiliklər barəsində deyilir: "1918-ci il martın 18-də bir erməni zabiti, yanındakı üç erməni əsgəri ilə "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə" müsəlman xeyriyyə cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərəsində tüstü və alov göründü. Nəinki Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular". Həmin zabit "Daşnaksutyun" partiyasının görkəmli xadimi Tatevos Əmirov idi. Bu, həmin Tatevosdur ki, uzun illər ərzində tariximiz, mətbuatımız onu "yenilməz inqilabçı", "xalqlar dostluğu uğrunda mətin mübariz" kimi təbliğ etmişdi. Talançılar "Kaspi" qəzeti redaksiyasının və "Dağıstan" mehmanxanasının binalarını, "İsgəndəriyyə"ni, "İsmailiyyə"ni də yandırmışlar (ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər. 18).

Bu qırğınlarda təkcə Azərbaycan müsəlmanları deyil, bütün Qafqaz müsəlmanları ziyan çəkmiş oldu. "İsmailiyyə"də Bakı müsəlman xeyriyyə cəmiyyəti, Qafqaz müsəlman komitələri yerləşirdi, burada həmin təşkilatlara məxsus pul və sənədlər saxlanılır, müsəlmanların yığıncaq və qurultayları keçirilirdi. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü.

Mart talanlarında yaxşı təşkil olunmuş hərbi hissələrlə yanaşı erməni ziyalıları, gəncləri də iştirak edirdilər. Təhqiqat Komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdi" (ARDA, f. 100, siy. 2, iş 791, vər. 791).

"Nikolay Buniatov" paroxodu komandirinin köməkçisi Kazım Axundova Bakının Çənbərəkənd adlandırılan dağüstü hissəsinin mühafizəsi üçün martın 24-də təyyarəçi Rozenblyumun başçılığı ilə 10 silahlı matros göndərilmişdir. Axundov martın 25-dən Nikolayev küçəsindəki meyitlərin yığışdırılmasına başladı. Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyaçısının, 11 gimnaziyaçı qızın, 1 rus qadının, 3-5 yaşlarında 3 müsəlman oğlan uşağının, 8 rus kişisinin, 19 İran təbəəli müsəlman qadınının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların 6748 meyiti gətirilmişdi. Axundov öz tanışı texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdı. Burada, o, 3 fotoşəkil çəkmişdi. Birinci şəkildə başında güllə yarası, bədənində beş süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunmuşdur. Onun sağ döşü üstündə hələ sağ olan körpə uzanmışdır. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardır.

İkinci şəkildə iri mismarla divara vurulmuş 2 yaşlı uşaq təsvir edilmişdir. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə oradaca idi.

Üçüncü şəkildə 13-14 yaşlı qızın meyitidir. Biçarənin bədənindən görünür ki, onu bir dəstə kişi (əgər bu alçaqlara "kişi" demək mümkündürsə) zorlamışdır.

Axundovla Sokolov 4-cü evə daxil olduqda onlar dəhşətli bir mənzərə görmüşdülər: geniş bir otağın döşəməsi üstündə 22-23 yaşlı bir qadının, iki qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitləri var idi. Körpənin əl-ayağını itlər gəmirib yemişdi. Təsvir olunan mənzərə Sokolova elə ağır təsir göstərmişdi ki, o daha fotoşəkil çəkə bilməmişdi.

Talançılar hətta öz tanışlarına da rəhm etmirdilər. Məsələn, martın 20-də Stepan Lalayev erməni əsgərlərdən ibarət dəstə ilə Vorontsov küçəsində yaşayan həkim Bəybala bəy Sultanovun mənzilinə soxulmuş və revolverini çıxarıb onu öldürmüşdür. Həyətə düşən Lalayev müsəlman dalandarı, onun arvadını və iki yaşlı oğlunu da güllələmişdir. Otuzadək silahlı erməni Məşədi Əhməd Rəhim oğlunun evinə soxulmuş, 34 min 840 manat dəyərində qiymətli əşya oğurlamışdır. Məşədi Əhməd cinayətkarlar arasında qonşuları - dərzi Haykı və dükançı Yexuşu tanımışdır.

Bakıda baş vermiş faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdur. Epidemiya tüğyan edərək minlərlə insanı qırmış, əhalinin su, ərzaqla təchizatı dayanmışdır. Bazar və mağazalardan, demək olar, bütün ərzaq məhsulları yoxa çıxmışdır. Talançılar olub-qalan ərzaq ehtiyatlarını toplayıb aparmışdılar. Mətbuat yazırdı ki, "əhali aclıqdan əməlli-başlı zillət çəkirdi".

Qədim Azərbaycan şəhəri Şamaxı dəhşətli talan və vəhşiliklərə məruz qalmışdır. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı. Burada bədnam S. Lalayevin başçılıq etdiyi əsgərlər və T. Əmirovun dəstəsi azğınlaşaraq müsəlmanları soyub-talayır və qırırdılar. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu. 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq - Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm bir qibləgah, həm də qədim abidə kimi əziz idi. Erməni quldurlar minlərlə dinc adamı qətlə yetirmişdi (ARDA, f. 1061, siy. 1, iş 108, vər. 8-10).

Şamaxıda böyük hörmət sahibi olan axund Cəfərquluya olmazın işgəncələr verilmişdi. Ermənilər ona axund olduğu məsciddə dəhşətli əzab-əziyyət verərək, bu allah bəndəsinin saqqalının tüklərini bir-bir yolmuş, dişlərini, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilər axunda pənah gətirmiş saysız-hesabsız qadın və uşağı da öldürmüşdülər. Hacı axundun tamamilə yandırılmış evinin həyətində sonralar Təhqiqat Komissiyasının üzvləri tərəfindən çoxlu miqdarda insan sümükləri aşkar edilmişdi. Qafqaz-İslam ordusu 1918-ci ilin iyulunda Şamaxını ermənilərdən azad edərkən meyitlərin iri sümüklərini yığıb basdırmışdılar. Komissiya üzvləri 1918-ci ilin oktyabr və noyabrında bu barədə hazırladığı məruzədə qeyd edirdilər ki, həyətdə hələ də çürümüş meyitlərin qalıqları qalmaqdadır (ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər. 18). Şamaxı qəzasının müsəlmanlar yaşayan təxminən 80 kəndinin taleyi də bu cür olmuşdur. Daşnakların törətdiyi vəhşiliklərin həddi-hüdudu yox idi.

1919-cu il martın 30-da "Azərbaycan" qəzetində Fövqəladə Təhqiqat Komissiyasının "Çağırış"ı dərc edilmişdir. Komissiyanın sədri Ə. Xasməmmədovun imzaladığı bu sənəddə deyilirdi: "Şamaxının yalnız xarabalıqları qalmışdır. Şəhərin müsəlman hissəsindəki bu xarabalıqlarda məscidlərin ən qədimi 800 ildən çox tarixi olan Cümə məscidinin ancaq yanıb qaralmış minarələri görünür, şəhərin on beş minlik müsəlman əhalisindən sağ qalanlar isə bütün Zaqafqaziyaya dağılmış, əllərində qoltuq ağacı və bellərində torba qapı-qapı düşüb dilənirlər ki, acından ölməsinlər. Adlarını "bolşevik" qoyan qaçaq-quldur dəstələrinin əlindən qaçıb can

qurtaran əhalinin qalan hissəsi türk qoşunları Azərbaycana gəldikdən sonra öz el-obalarına qayıtmışdır. Onlar qayıdıb gəldikdə əsrlərdən bəri yaşadıqları ocaqlarını yandırılmış və yerlə-yeksan edilmiş halda görmüşlər".

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatlarının - şahid ifadələri, zərərçəkənlərin dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatları, ölən və yaralananların siyahısı və s. əsasında 53 kənd üzrə tərtib olunmuş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə öldürülənlərin sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu aktlarda olan rəqəmlərə əsasən, Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetirmişlər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339.5 milyon manat idi (ARDA, f. 1061, siy. 2, iş 85, 87, 100).

"Çağırış" bu sözlərlə qurtarırdı: "Şamaxı qəzasının zərər çəkmiş əhalisinə yardım göstərmək hər bir vətəndaşın, xüsusən müsəlmanın vətəndaş vəzifəsi və mənəvi borcudur. Vətəndaş müsəlmanlar, Şirvanı xilas edin!"

Təhqiqat Komissiyasının sənədlərindən aydın olur ki, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan orta hesabla bir milyard manatdan çox olmuşdur.

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri - Gəncə quberniyasının Nuxa və Ərəş qəzalarında yoxlama keçirmiş N. Mixaylovun və N. Klassovskinin məruzəsində dəqiqləşdirilmişdir ki, təkcə bu qəzaların erməni dəstələri deyil, həm də başlıca olaraq, gəlmə hərbi hissələr və İrəvan quberniyasının erməniləri müsəlman əhalisini ucdantutma qırmaq, kəndləri dağıtmaq və dövlət hakimiyyət orqanlarını və müsəlman ərazilərini tutmaq üçün bütöv bir plan hazırlamışdılar (ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər. 46).

Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. Xaçmazda yaşayan ermənilər bu barədə xəbərdar edilmiş, onlara xeyli əlavə silah və sursat göndərilmişdi. 1918-ci ilin ilk aylarından Quba qəzasında müsəlman əhalisinə qarşı başlanan qırğınları faciə adlandırmaq vəhşiliklərin mahiyyətini tam açmır. Minlərlə insanın, dinc əhalinin, qadınların, uşaqların və qocaların əzab və işgəncə ilə qətlə yetirilməsi dəhşətli və ağlasığmaz qırğın idi. Quba faciəsi sırf siyasi məqsəd daşıyırdı. Qırğınlarda erməni daşnak qüvvələri ilə yanaşı, bolşevik əsgərləri də iştirak edirdi. Erməni cəlladları hakimiyyətsizlikdən məharətlə istifadə edərək, Qubada böyük bir qırğın həyata keçirdilər. Bu qırğınlarda əsas məqsəd Azərbaycanda müsəlman əhalisini məhv edərək Sovet rejimi qurmaq idi. Çünki Sovet rejiminə rəhbərlik edən Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi. Təki Azərbaycan deyilən dövlət qurumu yaranmasın.

Faciəni səciyyələndirən başlıca cəhət odur ki, Quba qəzasında qırğınlar əvvəlcədən düşünülmüş və buna geniş hazırlıq işləri görülmüşdü. Çünki qırğına başlamaq üçün bəhanə milli münaqişə ola bilərdi. Erməni daşnak qüvvələri dünyanın hər yerinə ermənilərin guya müsəlmanlar tərəfindən sıxışdırıldığı barədə teleqramlar göndərirdilər. Qubada yaşayan M. Kasparov, H. Hayrapetov, A. Mukanyans və A. Boqdanov tərəfindən göndərilmiş teleqramda iddia olunurdu ki, Qubada müsəlmanlar milli ədavət, milli qırğın törədir, erməni və rus kəndlərini dağıdır, kilsələrə od vurub yandırırlar.

Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişdilər. Qubaya hücum edənlər içərisində özünü bolşevik kimi qələmə verən və 2 min əsgərə başçılıq edən David Gelovanidən başqa, bolşevik Sturua da olmuşdur. Onun dəstəsində min əsgər var idi. Onlardan əvvəl isə Muradyanın rəhbərlik etdiyi 2 min erməni əsgəri Quba qəzasında qırğın törətmişdi. Həmin dəstə birinci dünya müharibəsində özünü rus çarizminin ən yaxın müttəfiqi kimi qələmə vermiş "Daşnaksutyun" partiyasının əsgərlərindən ibarət idi. Qəzaya gəlmiş işğalçılara 300-dən çox yaraqlısı olan Avakov və Vartanın yerli ermənilərdən ibarət quldur dəstələri də kömək edirdi.

Qubada 100-ə yaxın əsgərin olmasına baxmayaraq, Gelovaniyə Xaçmazdan əlavə kömək göndərilmişdi. D. Gelovani bu barədə yazırdı: "Xaçmazdan köməyimizə poruçik Ağacanyanın başçılığı ilə ancaq ermənilərdən ibarət 150 nəfərlik dəstə və iki top gəldi". D. Gelovaninin Qubaya gəlməsi, xüsusi dəstə tələb etməsi və köməyinə məhz ermənilərdən ibarət xüsusi dəstənin göndərilməsi bir daha göstərir ki, Azərbaycanın şimal bölgəsində müsəlmanlara qarşı etnik düşmənçilik - soyqırımı əvvəlcədən planlaşdırılmışdı. Belə ki, 1918-ci il martın əvvəllərində əmlaklarını sataraq Qubadan tələsik çıxıb gedən varlı ermənilərdən bunun səbəbini soruşduqda demişdilər ki, "sizinlə bizim aramızda nə isə gözlənilir, ona görə də komitə bizi geri çağırır".

## II hissə

D. Gelovani Qubaya gələndə buradakı həbsxanada saxlanılan 200-dək hərbi erməni əsirini azadlığa buraxmışdı. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən və şahidlərin ifadələrindən aydın olur ki, həbsxanadakılar ilin əvvəlində bölgədə vəhşiliklər törətmiş erməni əsgərlərinin bir hissəsi idi. O vaxt Qusarın Kuzun kəndinin sakini, Türkiyədə təhsil almış nüfuzlu din xadimi Möhübəli Əfəndi, həmçinin Cağar kəndinin sakini Hətəm Sərkarov yerli əhalini erməni daşnaklarına qarşı mübarizəyə qaldırmış, Cənubi Dağıstan

ləzgilərindən də kömək alaraq işğalçıları darmadağın etmişlər. Muradyan 100 nəfər əsgərlə qaçıb canını qurtarmış, əsir düşmüş 200-dək daşnak Möhübəli Əfəndinin tapşırığı ilə Quba həbsxanasına salınmışdı.

D. Gelovani Qubadan qovulanda əhalini hədələmiş, tezliklə bura ermənilərin xüsusi təlim görmüş cəza dəstələrinin gələcəyini bildirmişdi. Vətən tarixşünaslığından məlumdur ki, onun hədəsindən 10 gün sonra Bakıdan top və pulemyotlarla silahlanmış erməni ordusu Qubaya gəlir.

Hamazaspın dəstəsi Qubanın girəcəyindən tutmuş yuxarı hissəsinədək şəhəri odlamağa başladı. Daşnaklar küçədə qarşılarına çıxan bütün adamları ucdantutma gülləyə tutur, yerə yıxılmış yaralıların bədənlərini tüfənglərin süngüləri ilə deşik-deşik edir, gözlərini ovurdular. Yaxınlıqdakı meşəyə qaça bilməyənlər evlərinə girib qapıları bağlamışdılar. Onları evlərindən zorla çıxarır, yerindəcə güllələyir və yaxud qabaqlarına qatıb meydana aparırdılar. Beləliklə, Qubada bir neçə saatın ərzində yüzlərlə insan qətlə yetirildi.

Dövrün sənədləri və şahid ifadələrindən məlum olur ki, erməni daşnak qüvvələri bolşevik əsgərlərindən çox məharətlə istifadə edirdilər. Şahidlərin biri yazır: "Daşnakların son dərəcə azğınlaşdığını görəndə onlarla qeyri-bərabər döyüşə girməli olduq. Bir gün davam edən atışmada 200-dən çox döyüşçünü itirib, 40 nəfərlə Digah kəndinə tərəf geri çəkildik. Hamazasp bundan həm hirsləndi, həm də bir qədər ehtiyat etdi. Quba camaatını meydana yığıb bildirdi ki, mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm. 200-dən çox türk kəndini yandırıb xaraba qoymuşam. Uzun müddət türklərlə vuruşmuşam, erməni xalqının mənafeyini müdafiə etmişəm. Buraya da ona görə gəlmişəm. Əgər müqavimət göstərsəniz, hamınızı bir nəfər kimi qıracağam".

Daşnak-bolşevik birləşmələrinin Quba qəzasında törətdikləri qırğınlar daha amansız və qəddarlıqla həyata keçirilmişdi. Şahidlərdən biri yazır: "Hamazasp daşnak dəstəsinə bələdçilik edən qubalı erməni Harun Hayrapetovu yanına çağırdı və ona nəsə dedi. Harun cibindən bir siyahı çıxarıb oxumağa başladı. Həmin siyahıda Qubanın varlılarından 26 nəfərin adı var idi. Hamazasp həmin adamların dalınca silahlı əsgərlərindən bir neçə nəfərini göndərdi. Silahlı əsgərlər həmin ailələrdən altı nəfərlə geri qayıdanda daşnak komandiri daha da qızışdı. Gətirilənlərin 4-ü qadın, 2-si yeniyetmə idi. Hamazaspın tapşırığı ilə yeniyetmələrin başlarını kəsdilər. Qadınları uşaqlarının qanını içməyə məcbur etdilər. Onlar şivən qoparıb daşnakların üstünə atılanda qarınlarını süngülərlə deşdilər. Sonra qılıncla bədənlərini tən ortadan ikiyə böldülər. Meydanda ah-nalə yüksələndə Hamazasp əsgərləri cərgə ilə düzdürüb əliyalın, günahsız əhaliyə atəş açmağı onlara əmr etdi. Yüzlərlə adam qırıldı. İnanmaq olmurdu ki, insan-insana qarşı bu qədər vəhşilik törətsin". "Mən sizin qanınızı içəcəyəm" - deyən Hamazasp siyahıda adları çəkilən adamların mülklərini odlayıb külə döndərmək üçün əmr verdi. Bütün bu hərəkətləri ilə o, son dərəcə qəddar və qaniçən olduğunu sübuta yetirirdi".

Hamazasp Bakıdan mənfur Şaumyan rejimindən belə bir tapşırıq almışdı: Quba qəzasında bütün müsəlmanları qırıb məhv etmək, onların yaşayış məntəqələrini dağıtmaq. Sonra isə bu qırğını sünni və şiə məzhəbləri arasında toqquşma kimi qələmə vermək.

Təhqiqat materiallarından məlum olur ki, 1918-ci il mayın 1-də Qubaya girən daşnak-bolşevik birləşmələrinin sayı 5 mindən artıq olmuşdur. Ona görə də onlar silahsız dinc əhaliyə azğınlıqla divan tuta bilmişdilər. Həmin azğınlığın miqyasını təsəvvür etmək üçün iki gün ərzində yalnız Quba şəhərində 4 minədək müsəlmanın öldürüldüyünü xatırlamaq kifayətdir. Bu rəqəm Quba şəhər əhalisinin beşdə biri demək idi.

Qırğının canlı şahidlərindən olan Harun Şahbalı oğlu xatırlayır: "Ermənilər o qədər adam qırmışdılar ki, Qubanın küçələri al-qana boyanmışdı. Əllərinə keçən 2 mindən çox adamı meydana yığıb ucdantutma güllələmək istəyəndə bir nəfər onların başçısına yaxınlaşdı. Deyilənə görə komissar idi. Bir qədər söhbət etdikdən sonra əsgərlərə təzədən əmr verildi ki, silahları aşağı salsınlar. Qadınlar və uşaqlar ağlayırdılar. Yekəpər bir erməni beş nəfərlə camaata yaxınlaşıb, cavan, gözəgəlimli qadınları seçməyə başladı. Əllidən çox qadını hara isə apardılar. Onlardan birinin qardaşı etirazını bildirəndə yerindəcə güllələdilər. Onun meyitini yerə sərib bıçaqla gözlərini çıxardılar. Əli qana batmış erməni ovcunda tutduğu gözləri camaatın üstünə tulladı. Kütlədən uğultu qopdu. Daşnaklar ermənicə söyə-söyə qabaqdakıları qundaqla döyməyə başladılar. Sonra irəli çıxmış bir yaşlı kişinin qarnını süngü ilə deşdilər. Bu, göz ilə baxılası müsibət deyildi".

Başqa bir şahid yazır: "Ermənilər dindarları Qubanın mərkəzinə gətirdilər. Bu, döyülən insanlar qəzanın ən hörmətli ağsaqqalları sayılırdılar. Hamazasp hamının tanıdığı Quba ermənisi Harunu çağırdı. Harun azərbaycanca dedi ki, sünnilər və şiələr hərəsi bir tərəfə çəkilib üz-üzə dursunlar. Elə o cür də durdular. Aralarında 20-30 metr olardı. Sonra iki tüfəng gətirib dedilər ki, onsuz da sizin hamınızı qıracağıq. Kim sağ qalmaq istəyirsə, dediyimizə əməl etsin. Sünnilər və şiələr növbə ilə bir-birilərinə güllə atsın. Sağ qalanlarla işimiz olmayacaq. Birinci iki nəfəri irəli çıxarıb tüfəngləri onlara verdilər. Biri ləzgi Məhəmməd, o birisi isə şiələrin ağsaqqalı Məşədi Mirsadıq idi. Onların heç biri erməni silahını əlinə almaq istəmirdi. Qundaqla başlarını yarıb onları tüfəng götürməyə məcbur etdilər. İkisi də tüfənglərini qaldırıb bir-birlərini nişan aldı. Hamı məəttəl qalmışdı. Nisbətən cavan olan Məhəmməd heç kimin gözləmədiyi halda geri döndü və bir daşnakı yerə sərdi. Qarışıqlıqdan istifadə edən Məşədi Mirsadıq da bir ermənini öldürdü. Qaçmaq istəyən yüzlərlə adamı pulemyotlarla qırdılar. Ölənlərin çoxu qadınlar və uşaqlar idi. Əvvəlcə Məhəmmədin qollarını kəsdilər, sonra ayaqlarını. Başını kəsib süngüyə keçirdilər və hamı görsün deyə yuxarı qaldırdılar. Məşədi Mirsadığın gözlərini

çıxarıb, qollarını sındırdılar və boynunu qırdılar. Həmin gün daşnaklar məscidi dağıdıb, həm sünnilərdən, həm də şiələrdən 20-dən çox din xadimini qətlə yetirdilər". A. Novatski məsələni dəqiqləşdirmək üçün qeyd edir ki, müsəlmanların dini heysiyyətinə toxunaraq, məscidlərə od vurub yandıran daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar.

Müsəlmanların müqəddəs dini ocaqlarını yerlə yeksan edən daşnaklar dinə, Şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabları də məhv etmişdilər. Qubanın mərkəzində Əbdürrəhim əfəndinin mədrəsəsini yandıran ermənilər buradakı 1300-ə yaxın kitabı tonqala atmışdılar. Hadisələrin canlı şahidlərindən olan nüfuzlu din xadimi İbrahim Aydəmirov xatırlayır ki: "Digah məscidində təxminən 600-700 il əvvələ aid alban və ərəb əlifbası ilə yazılmış kitablar var idi. Ermənilər həmin kitabları məhv etməklə yanaşı, kənd məscidinin təxminən bir kilometrliyində yerləşən müqəddəs pirin daşını da partlatmışdılar. Bu, üstündə alban yazıları olan nəhəng bir daş idi".

Qubaya gələn Hamazasp ilk növbədə Muradyanın əsgərlərini həbsxanaya salanlardan qisas alaraq onların evini dağıtmış, mülklərini başdan-başa yandırmışdı.

Gelovani Fövqəladə Təhqiqat Komissiyasına verdiyi izahatında yazır: "Mən geniş səlahiyyətlər alaraq Qubaya gəldim. Hamazaspa öz dəstələri ilə şəhəri tərk etməyi təklif etdim. Əvvəlcə o, tərəddüd etdi və sonra bildirdi ki, çıxıb getməyə hazırdır. Həqiqətən də Qubada olduğunun onuncu günü bütün dəstəsi ilə çıxıb getdi". Lakin Gelovaninin izahatında deyilənlər həqiqətə uyğun deyil. Çünki Hamazasp belə asanlıqla qırğından əl çəkəcəkdisə, niyə yerli əhaliyə meydan oxuyaraq deyirdi: "Mən erməni xalqının və onun mənafelərinin müdafiəçisiyəm. Mən cəza dəstəsi ilə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülmüş ermənilərə görə sizdən qisas alım. Mən bura qayda-qanun yaratmaq, sovet hakimiyyətini qurmaq üçün deyil, öldürülmüş ermənilərin qisasını almağa göndərilmişəm. Mənə əmr edilmişdir ki, Xəzər dənizindən Şahdağına kimi bu ərazidə yaşayan bütün müsəlmanları məhv edim" O, daha irəli gedərək deyirdi: "Hazırda mənim Digah və Alpan kəndlərində döyüşlərim gedir. Sonra Üçkün və Kilid kəndlərinə keçərək, Şahdağa çatacağam". Doğrudur, müsəlman qanına susayan Hamazaspın arzusu ürəyində qaldı. Üç gün davam edən döyüşlər müsəlmanların qələbəsi ilə başa çatdı. Hər iki tərəf böyük itki verdi. Döyüş yeri tarixə "Qanlı dərə" kimi daxil oldu.

Hamazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında üst-üstə 16 mindən çox insan məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü və tat əhalisi öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdı ki, bunlardan 35-i hazırda mövcud deyildir.

Osmanlı qoşunlarının Bakını azad etməsindən bir az əvvəl Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhalini incitməyə başlayır. Onlar müsəlman yeməkxanalarına girib oradakıları təhqir edir, pul verməkdən imtina edir, onları Osmanlı türklərindən qorumaq üçün səngər qazmağa məcbur edirdilər. İş o yerə çatmışdı ki, erməni əsgərləri məhərrəmlik mərasimi verilən məscidlərə girib müsəlmanlara öz təziyələrini keçirtməyə mane olurdular. Müsəlman əhali dini ayinlərini icra etmək üçün məscidlərə yığışdıqları zaman ermənilər ora soxularaq müsəlmanları qarət edir, məscidi isə yandırmaq istəyirdilər. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdılar və minlərlə günahsız insanın həyatına son qoydular.

Göyçay qəzasının Kürdəmir kəndində daşnaklar 56 ev və dükanı, 127 malikanəni, iki məscidi yandırmış, yerli imamın mənzilini talan etmişlər. Mənzildəki Quranın təfsirinə dair zəngin kitabxanadan tonqal düzəldilmiş, Quranın özü isə təhqir olunmuşdur. Göyçay qəzasında Cəngi (Caylı), Qaravəlli, Qarabucaq, Mustafanı, Xəlil-Qasımbəy, Ərəb-Mehdibəyli, Sadalı kəndləri və digər obalar da darmadağın edilmişdir.

Komissiyanın sədri Xasməmmədov xarici işlər nazirinə yazırdı ki, Avropa sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Şamaxı, Quba şəhərlərində, Şamaxı, Göyçay, Cavad və Quba qəzalarında türk-müsəlman əhalisinə qarşı daşnak-bolşevik birləşmələri tərəfindən törədilmiş vəhşilikləri əyani şəkildə sübut edən məlumatlar kifayət qədərdir. Lənkəran qəzası polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsi isə polkovnik İllarinoviç başda olmaqla başqa bir dəstə tərəfindən, İrəvan quberniyasında, Gəncə quberniyasının dörd qəzasında - Cəbrayıl, Cavanşir, Şuşa, Zəngəzurda böyük dağıntı törədilərək, azərbaycanlı əhali ucdantutma məhv edilmişdir (ARDA, f. 100, siy. 2, iş 791, vər. 2).

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Daşnak qüvvələrinin təcavüzü nəticəsində bu qəzanın Şuşa ilə əlaqələri tamamilə, Cəbrayıl qəzası ilə qismən kəsilmişdi. Qəzanın müsəlman əhalisinin vəziyyəti bir də ona görə ağırlaşmışdı ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı bu qəzada general Andranikin erməni əsgərlərindən ibarət yaxşı təşkil olunmuş nizami qoşunları da var idi. Andranik erməni hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən tələb edirdi ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da qəzanın ərazisini tərk etsinlər. Guya bu ərazi Ermənistan Respublikasına daxildir. Qəzanın çox zəif silahlanmış müsəlman əhalisi Andranikin bu tələblərini rədd etdiyinə görə ermənilər həmin əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdilər.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, 1918-1919-ci illərdə Sisyan mahalının birinci polis sahəsində olan bütün müsəlman kəndləri, ikinci polis sahəsində olan kəndlərin əksəriyyəti, üçüncü, dördüncü və beşinci polis sahəsindəki müsəlman kəndlərinin isə çox hissəsi məhv edilmişdi. Bəzi kəndlər ümumiyyətlə yer üzərindən silinmiş, həmin kəndlərin torpaqları ermənilər tərəfindən əkin yeri üçün şumlanmışdır. 50 mindən yuxarı müsəlman qaçqını qismən dördüncü polis sahəsində, qismən də Cəbrayıl qəzasında özlərinə sığınacaq tapmışdılar.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunur. Dağıdılmış bütün kəndlərin adları bu sənədlərdə sadalanır.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərinə görə, 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Nəticədə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşilikləri haqqında tam məlumat vermir. Belə ki, daha çox müsəlman erməni vəhşiliklərinin qurbanı olmuşdur. Ancaq o zamankı dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Qəzanın Vaqudu kəndində 400-dən yuxarı azərbaycanlı əhali məsciddə sığınacaq tapır və güman edirdilər ki, ermənilər müqəddəs yer sayılan məscidə toxunmazlar. Ancaq məscidi mühasirə edən erməni vandalları əvvəlcə məscidə əl bombaları atır, sonra isə ona od vuraraq adamlarla birlikdə yandırırlar. Şəki kəndinin küçələrində iki yerə şaqqalanmış uşaq meyitləri atılıb qalmışdı. İrmişli kəndini talan edərkən ermənilər südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülən meyitləri tikə-tikə doğrayırdılar. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edir, bundan imtina edən qadınlara qarşı ən amansız cəza tədbirlərini həyata keçirirdilər.

Çullu kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan 9 nəfər müsəlmanı qılıncla doğramışlar. Bağıbəyli kəndində ermənilər 7 nəfər azərbaycanlını bir evə yığıb evlə birlikdə diri-diri yandırmışlar. Müsəlman meyitlərinin əli, ayağı, başı kəsilmiş və o qədər eybəcər hala salınmışdılar ki, həmin əzaların hansı meyitə məxsus olduğunu bilmək olmurdu. Zəngəzur qəzasında 1918-ci il yayın axırları və payızında baş verən bu hadisələr bilavasitə cəllad Andranikin rəhbərliyi altında keçirilmişdir.

Zəngəzur qəzasının 100-dən çox müsəlman kəndi dağıdılmış, on minlərlə davar və yüz minlərlə qaramal ermənilər tərəfindən sürülüb aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılmış, dağıdılmış, bir sözlə qəzanın müsəlman əhalisinin iqtisadi vəziyyəti fəlakətli hala salınmışdı. Ermənilər tərəfindən qəzanın Azərbaycanın müxtəlif kəndlərinə qaçıb dağılmış əhalisinə 1 milyard manata yaxın maddi ziyan vurulmuşdur.

Ermənilərin Zəngəzurun müsəlman əhalisinə qarşı hücumları 1919-cu ilin dekabrından yenidən şiddətləndi. Noyabr ayında ermənilər müsəlmanlar yaşayan Oxçu, Atqız, Şabadan, Pirdavdan kəndlərinə qarşı geniş hərbi əməliyyata başladılar. (ARDA: f. 894, siy. 4, iş 65).

Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşilikləri 1920-ci ilin əvvəllərində daha amansız bir şəkil aldı. Həmin ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin bilavasitə təşkilatçısı məhz Ararat Respublikasının özü idi. Burada da əsas məqsəd Zəngəzur qəzasını tamamilə müsəlmanlardan təmizləyərək Paris Sülh Konfransı dövlətlərinin əli ilə buranı Ermənistanın tərkibinə daxil etmək idi. Bu təmizləmə əməliyyatlarında erməni quldur dəstələri ilə yanaşı, Ararat Respublikasının on mindən yuxarı nizami qoşun dəstələri iştirak edirdi.

Ermənilərin irimiqyaslı hücumları ilə əlaqədar 1920-ci ilin yanvarından Azərbaycan Respublikasının parlamentinə, hökumətinə, müxtəlif partiya fraksiyalarının rəhbərlərinə Zəngəzurdan çoxlu həyəcanlı xəbərlər daxil olurdu. Yanvarın 21-də Azərbaycan Respublikasının parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Azərbaycan parlamentinə göndərilmiş teleqramda deyilirdi: "Dörd gündür ki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında Zəngəzura hücumları davam edir. İtkilər olduqca çoxdur. Əhali vahimə içərisində qaçır və kömək umur. Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz Azərbaycan xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz" (ARDA, f. 895, siy. 1, iş 299, vər. 20).

Yanvarın 22-də isə Cəbrayıl məktəbinin nəzarətçisi H. Axundzadə Azərbaycan parlamentinə göndərdiyi teleqramda yazırdı: "Yanvarın 19-da səhərdən erməni silahlı qüvvələri Zəngəzurda Xocahandan Qaladərəsinə kimi ərazidə bütün cəbhə boyu toplardan və pulemyotlardan müsəlman kəndlərini atəşə tuturlar. Altı kənd tamam dağılmış, doqquz kənd isə od içərisində yanır. Ermənilər qadınlara və uşaqlara belə rəhm etmədən qəddarlıqla müsəlmanları qırır, kəndləri dağıdırlar. Müqavimət göstərməyə heç bir qüvvələri olmayan müsəlmanlar bütün əmlaklarını ermənilərə qoyaraq yalnız qaçmaqla canlarını qurtarırlar" (ARDA, f. 895, siy. 1, iş 299, vər. 31-33).

Erməni millətçilərinin Zəngəzurdakı dəhşətli cinayətləri və onlara layiqli cavab verilməməsi azərbaycanlı əhali arasında ümidsizlik doğururdu. 1920-ci il yanvar ayının 23-də Cəbrayıldan müəllim Hüseyn Axundzadənin vurduğu təkrar teleqramda deyilirdi: "Zəngəzur müsəlmanları tərəfindən başınız sağ olsun. Nə qədər zəngəzurlular ağladılarsa da, nalələri Zəngəzur dağları, dərələri və obalarından kənara çıxmadı. Qarı arvadların namusu təhqir olunmuş, məsum balaların başsız bədənləri qırmızı qanlarına bulaşmış çöllərdə qalıblar. Qızlar və gəlinlər ermənilərin əlinə keçmiş, onların namuslarına təcavüz edilmişdir. Zəngəzurda düşmənə müqavimət göstərən çox az kişi qalıb. Lakin onlar da tam ümidsiz vəziyyətdədirlər. Üzümüzü Azərbaycan dindarlarına çevirir, onları Zəngəzurdakı qardaşlarımızın, bacılarımızın, məsum balaların məlumanə şəkildə şəhid olmalarına qarşı kömək, kömək deyə yalvarışlarına cavab verməyə çağırırıq" (ARDA, f. 895, siy. 1, iş 299, vər. 8-12).

Cəlil Sultanov yanvarın 23-də hərbi əməliyyat yerindən Parlamentə göndərdiyi üçüncü teleqramında yazırdı: "Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Hökumətin köməyinə ümidini itirən əhali bütün Azərbaycan türk xalqına müraciət edir. Aldığımız məlumata görə sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşməkdir. Nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain ermənilərin iç üzünü açıb dünyaya çatdırmaq vaxtı gəlib çatmışdır. Xahiş edirəm təcili tədbir görün ki, heç olmasa Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinayət və satqınlığa bərabərdir" (ARDA, f. 895, siy. 1, iş 299, vər. 18, 22, 26).

1918-ci ilin avqustunda İgdir və Eçmiədzin qəzalarında azərbaycanlıların qırğını Dronun rəhbərliyi altında həyata keçirilirdi. Onun göstərişi ilə bu regionda azərbaycanlıların 60-dan çox kəndi dağıdılmış, yandırılmış, əhalisinə qarşı ən sərt tədbirlər görülmüşdü.

Çəmbərəkənd (Krasnaselo) rayonunun Ağbulaq, Ardanış, Bəriyabad, Qaraqaya, Əmirxeyir, Yanıqtəpə, Gölkənd (Qaraqoyunlu), Toğluca, Çaykənd, Cıvıxlı, Cil, Şorca və başqa kəndlərə hücum etmiş Andranikin quldur dəstəsi əhalini qırmış, kəndi dağıtmış, xalqın var-dövlətini talan edib aparmış, əhalinin bir qisminə ağır işgəncələr vermiş, qaça bilməyənləri, qocaları, qadın və uşaqları vəhşicəsinə qılıncdan keçirmişdir. Eçmiədzin rayonunda 1918-ci ildə azərbaycanlılar sayca üstünlük təşkil etsələr də, bu rayonun əksər kəndləri ermənilərin vəhşiliyinə, işgəncələrinə məruz qalmışdı. Rayonun Ayarlı kəndi 1918-ci ildə bütünlüklə soyqırıma məruz qalmışdır. Bu kənddə həmin vaxt 700-dən çox azərbaycanlı yaşayırdı. Onların əksəriyyəti işgəncələrlə qırılmış, salamat qalanlar isə didərgin düşmüş, dağlarda-daşlarda tələf olmuşlar.

İri azərbaycanlı kəndi olan Qarğabazarın 800 nəfərdən çox əhalisi erməni quldur dəstələri tərəfindən işgəncələrlə öldürülmüşdür. Bu kənd talan edilmiş, dağıdılmış, binaları yandırılmışdır.

Qəmərli kəndinin də başına eyni müsibətlər gətirilmişdir. Bu kənddə yaşayan 500 nəfərə yaxın azərbaycanlı əhali erməni silahlı dəstələri tərəfindən qırılmış, bir qismi isə doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur.

Eçmiədzin rayonunun Yuxarı Qarxun, Yuxarı Türkmənli, Kiçik Zeyvə, Kürəkənli, Məmmədabad, Molla Dursun, Hacı Qara, Hacılar, Haramlı və başqa kəndlərində yaşayan azərbaycanlıların böyük əksəriyyəti 1918-ci il qırğınlarında soyqırımına məruz qalaraq doğma yurdlarından başlarını götürərək qaçmışlar.

1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə yerlə-yeksan edilmişdir. 1919-cu ilin axırında isə Zəngibasarın bir neçə kəndi istisna olunmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçmışlar. Əhali İran, Osmanlı və Azərbaycana pənah gətirmişlər.

Quqark rayonunun Vartanlı kəndində isə faciə belə başlandı: Aprel ayının ortalarında iclas keçirmək adı altında azərbaycanlıları bir komaya yığırlar. Təxminən 1200-1500 adam bu komaya toplaşır. Keşiş Vahan iclası açır, bir neçə kəlmə ilə bu iki xalqın bir kənddə mehriban yaşaması haqqında fikir söyləyir. Bir qədər sonra silahlı ermənilər içəri daxil olub keşişi bayıra çıxarır, komanın qapısına bağlayaraq damından içəriyə saman qarışıq neft töküb camaatı yandırmağa başlayırlar. Uşaq, qoca, qadın qışqırtısı ərşə dayanır, tüstüdən boğulanlar, özlərini itirənlər qapıya hücum çəkirlər. Əliyalın xalqın müqaviməti nəticəsiz qalır.

İrəvan şəhərinin şimal - şərqində yerləşən Kotayk rayonu ərazisində də 1918-ci ildə erməni quldur dəstələri azərbaycanlılara qarşı geniş soyqırımı həyata keçirtdilər. 1918-ci ilin məlum hadisələrinə qədər bu rayonda yaşayan əhali arasında azərbaycanlılar üstünlük təşkil edirdi. Lakin həmin dövrdə rayonun Avdallar, Artiz, Aşağı Qaxt, Başkənd, Bozkosa, Qayaxaraba, Qaraçala, Qaraçörək, Qızqala, Qurbağalı, Damagirməz, Dəlləkli, Əkərək, Zər, Yelqovan, Yellicə, Kamal, Kənxan, Kərpicli, Küzəcik, Göykilsə, Güllücə, Nurnus, Oxçu qalası, Təzəxarab, Çobangörükməz və s. kəndlərindən azərbaycanlı əhali böyük işgəncələrlə qovulmuşdur. Onların əksəriyyəti Andranikin və daşnak hökumətinin silahlı erməni dəstələri tərəfindən öldürülmüşdür.

1920-ci ilin aprelində "Azərbaycan" qəzeti yazırdı: "Artıq Göyçə mahalında müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd apreldə dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu, Ağalı, B. Qaraqoyunlu, K. Qaraqoyunlu, Zərzibil, Ədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Şişqaya, Baş Hacı, Qəribqaya kəndlərinin 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı-başına buraxıb qaçmışdır. Bütün bu var-dövlət hazırda ermənilərə qalıb, qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir".

Andranikin quldur qoşununun və daşnakların 1918-1920-ci illərdə azərbaycanlılara qarşı apardıqları soyqırımı nəticəsində indiki Ermənistan ərazisində yaşayan əhalinin çox böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə qırılmış, yaxud öz dədə-baba torpaqlarından qovulmuş, didərgin salınmışdır. Erməni müəllifləri özləri bu faktı təsdiq edirlər. Tarixçi Z. Korkodyan "Sovet Ermənistanının əhalisi - 1831-1931-ci illər" kitabında faktı olduğu kimi göstərir ki, 1920-ci ildə Ermənistanda Sovet hökuməti qurularkən bu ərazidə 10 min nəfərdən bir qədər çox türk azərbaycanlı qalmışdı.

1918-ci ildə İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində (İrəvan) və onun çevrəsində 88 kənd dağılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir.

1920-ci il aprelin 27-də XI Qırmızı ordunun Bakını, sonra isə Azərbaycanın bütün bölgələrini işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Zəngəzur qəzası daxil olmaqla, həmin ərazilər Sovet Ermənistanına bağışlandı.

Beləliklə, 1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını təsadüfi hadisə deyil, "Daşnaksutyun" partiyasının "Böyük Ermənistan" yaratmaq planını reallaşdırmaq yolunda atılan addım və soyqırımı siyasəti olmuşdur.

Xalqımıza qarşı 1918-ci ildə törədilən mart soyqırımı kimi faciəli bir tariximizin saxtalaşdırılması və ört - basdır edilməsini təkcə tarixi bir anın unudulması kimi qəbul etmək olmaz. Mart hadisələrinin saxtalaşdırılması xalqımıza qarşı tarixən düşmən münasibət bəsləyən erməni xislətinin gizlədilməsi oldu. Bu isə özlüyündə XX əsr tariximizdə yeni-yeni qanlı səhifələrin açılmasına gətirib çıxartdı ki, bunlardan aşağıdakılara diqqəti cəlb etmək yerinə düşər:

- 1920-ci ilin aprel işğalı ilə Azərbaycan Milli hökuməti devrildi, bolşevik bayrağı altında ermənilər Azərbaycanda faktiki olaraq ikinci dəfə hakimiyyəti ələ keçirdilər. Nəticədə respublikada nəinki ziyalılara, hətta milli baxışlı kommunistlərə də divan tutuldu, milli adət-ənənələrimiz ayaq altına atıldı, bütün bu işlərin icraçıları ermənilər oldu.
- bu gün müstəqil Azərbaycanın ən ağır probleminə və xalqın ən ağır dərdinə çevrilən Qarabağ məsələsinin əsası 20-ci illərdə qoyuldu.
- bolşevik cildinə girən daşnaklar Zəngəzur torpaqlarını zorla Azərbaycandan qoparmağa nail oldular.
- otuzuncu illərin repressiyalarında erməni xisləti üçün yaranmış fürsətdən məharətlə istifadə edildi.
- 1947-53-cü illərdə yüz minlərlə soydaşımız Ermənistandakı ata-baba torpaqlarından didərgin salındı.
- 1990-cı ilin Yanvar faciəsi, 1992-ci ilin fevralında Xocalı soyqırımı, 1992-ci ildən başlayaraq Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, ümumiyyətlə, 20 faiz torpaq itkisi erməni məkrinin, ən əsası isə mart soyqırımının unudulmasının bilavasitə nəticəsidir.
- 1918-ci ilin martında erməni vəhşiliyindən canını qurtarıb Bakını tərk edən soydaşlarımızın qaçqın həyatı qan yaddaşımıza həkk olunsaydı, fikrimizcə, bu gün biz, bir milyon insanı qaçqınlıq taleyini yaşamağa məcbur edən erməni məkri qarşısında aciz qalmazdıq.

Nəhayət, Ü. Hacıbəyovun 1919-cu ildə mart soyqırımının ildönümü ilə əlaqədar yazdığı "31 mart" adlı məqaləsindən bu gün üçün də aktuallığını saxlayan bir fikri xatırlamaq yerinə düşər: "Bugünkü vəzifəmiz o, qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hər şeyə hazır olmalıyıq. Borcumuz bu vətəni gələcəkdə hər cür təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır".

**Anar İsgəndərov,**
**tarix elmləri doktoru, professor**

**“Azərbaycan” qəzeti, 01-02. 04. 2005**

## Deportasiyanı doğuran şərait və səbəblər.
## (1948-1953)

Ermənistan SSR-dən Azərbaycan türklərinin məcburi köçürülməsi İkinci dünya müharibəsi illəri və sonrakı illərdə Sovet-Türkiyə münasibətləri kontekstində rəsmi Kreml tərəfindən siyasi gündəmə çıxarılmış "erməni məsələsi" ilə qırılmaz surətdə bağlıdır.

XX əsrin 90-cı ilinin əvvəlində sovet imperiyasının süqutu ilə birgə, sərt sovet senzurası da öz siyasi ömrünü başa vurmuş oldu. Senzuranın ləğvi və cəmiyyətdə yaranmış yeni siyasi mühitlə əlaqədar olaraq arxiv fondları üzərinə qoyulmuş "məxfi qrif"lər də aradan qaldırıldı. Üzərinə qadağa qoyulmuş bir sıra mövzular, o cümlədən Azərbaycan türklərinin 1948-1953-cü illərdə tarixi etnik torpaqlarından deportasiyası problemi də tarixçi tədqiqatçıların tədqiqat predmetinə çevrildi. Aparılmış tədqiqatlar göstərir ki, İkinci dünya müharibəsindən sonrakı illərdə Ermənistan SSR-dən türk əhalisinin kütləvi deportasiyası, XX əsrin 30-40-cı illərində Sovet İttifaqında həyata keçirilmiş və bir çox xalqlara qarşı tətbiq edilmiş sovet deportasiya siyasətinin tarixi təcrübəsinin məntiqi davamı olmuşdur. Bu mənada Azərbaycan türklərinin deportasiyası problemini tədqiq edərkən, həmin illərdə SSRİ-də həyata keçirilmiş sovet deportasiya siyasəti tarixinə ötəri də olsa toxunmamaq mümkün deyil. ***Deportasiya latın dilində "deportatio" sözündən olub, mənası məcburi köçürülmə, qovulma, sürgün olunma deməkdir.*** .Əhalini deportasiya etmə və ya məcburi köçürmə onun uzun müddət məskunlaşdığı qanuni yaşayış yerlərindən zorla çıxarılması ilə müşayiət olunan, insanların kütləvi şəkildə ev-eşiyindən, doğma torpaqlarından, ölkəsindən qovulması ilə nəticələnən hərəkətlərlə xarakterizə olunur.

1917-ci ildə Rusiyada çar monarxiyasının xarabalıqları üzərində qurulmuş burjua-demokratik hökuməti devirərək silah gücünə zorla siyasi hakimiyyətə yiyələnmiş bolşeviklər siyasi leksikona "sosializm", "kommunizm" kimi istilahlarla birgə "repressiya", "deportasiya" istilahını da daxil etdilər. Sovet İttifaqında sosializm quruculuğu gedişi prosesində təkcə totalitar rejimə müqavimət göstərən müxtəlif qruplar, təşkilatlar, siyasi partiyalar deyil, həmçinin bütöv xalqlar belə amansız təqiblərə məruz qalmış, məhv edilmiş, repressiya və deportasiya olunmuşdur. Bu, dünya tarixində xalqların misli görünməmiş zorla köçürülməsi praktikası idi. Təxmini rəqəmlərə görə, XX əsrin 30-40 - cı illərində SSRl-də 3.226.340 nəfər deportasiya siyasətinə məruz qalmış, yaşadıqları ərazilərdən məcburi qaydada sürgün edilmişdir .

Həmin illərdə sovet deportasiya siyasətinə məruz qalmış xalqlar sırasında Azərbaycan türkləri də olmuşlar. Onlara qarşı ilk deportasiya, vaxtı ilə Cənubi Azərbaycandan gəlib Azərbaycanda məskunlaşmış cənublu soydaşlarımıza qarşı tətbiq olunmuşdu. Pasportlaşma siyasəti həyata keçirilərkən orada doğulduğunu qeyd edən vətəndaşların bir hissəsi zorla İrana sürgün edilmişdi.

1937-1938-ci illərdə İrəvan, Cəlaloğlu (Stepanavan), Gümrü (keçmiş Leninakan), Allahverdi və Ermənistanın başqa rayonlarından azərbaycanlı əhali eynilə bu cür siyasətə məruz qalaraq "iranlı" adı altında rəsmi şəkildə ölkə ərazisindən çıxarılmışdır. Bəzi mənbələrdə isə Azərbaycan türklərinin 1934-1941-ci illərdə Tbilisi ətrafından da məcburi köçürülməsi göstərilir .

Faktlardan göründüyü kimi, XX əsrin 30-40-cı illərində Azərbaycan türkləri qismən də olsa, sovet deportasiya siyasətinə məruz qalmışlar. Göstərilən mənbələrdə deportasiya siyasətinə məruz qalmış azərbaycanlı əhalinin sayı barədə məlumat verilmir.

Azərbaycan türklərinin həmin illərdə genişmiqyaslı deportasiya siyasətinə məruz qalmaması üç əsas səbəblə izah edilir. Bunlar 30-40-cı illərdə Azərbaycan türklərinin qismən deportasiyaya məruz qalması; ikincisi, Sovet İttifaqının İran siyasəti və Azərbaycan SSR-in bu siyasətdə mühüm rol oynaması; üçüncüsü, Türkiyənin İkinci dünya müharibəsinə qoşulması ilə bağlıdır.

Bəzi müəlliflər isə belə bir mülahizə ilə çıxış edirlər ki, Azərbaycan türkləri müharibə illərində ona görə köçürülmədilər ki, onların köçürülməsi Türkiyəni qıcıqlandıra bilər və onu faşist Almaniyasının müttəfiqi kimi Almaniya tərəfindən Sovet İttifaqına qarşı müharibəyə sövq edə bilərdi. Bu mülahizənin heç bir elmi əsası yoxdur. Belə bir sual etmək olar. Türkiyə türkləri ilə eyni soydan olan Krım türkləri öz tarixi ərazilərindən sürgün olundu. Türkiyə müharibəyə qoşuldumu? Xeyr! 1944-cü ildə Axıska türkləri Gürcüstanın Türkiyə Respublikası ilə həmsərhəd olan Axalkələk, Aspindzə, Boqdanovka və başqa rayonlarından zorla Orta Asiya respublikalarına köçürüldülər. Türkiyə müharibəyə qoşuldumu?! Əlbəttə ki, yox! Halbuki, onların tarixi ərazilərindən köçürülməsi birbaşa Türkiyə ilə əlaqələndirilir, "dövlət sərhədlərinin təhlükəsizliyi" adı altında həyata keçirilirdi. Həmin illərdə Krım türkləri, Axıska türkləri kimi Azərbaycan türklərinin də Sovet İttifaqının Türkiyə ilə həmsərhəd rayonlarından məcburi deportasiyası həyata keçirilə bilərdi. Bəs nə üçün köçürülmədilər? Nə idi səbəb? Əvvəla, biz bir məsələdə tədqiqatçı L. Həsənova ilə razıyıq ki, onların köçürülməməsində Sovet İttifaqının İran siyasəti və Azərbaycan SSR-in bu siyasətdə mühüm rol oynaması idi. Azərbaycan türklərinin həmin illərdə tarixi etnik torpaqlarından, xüsusən də Türkiyə ilə həmsərhəd ərazilərdən

köçürülməsi SSRİ-nin İran siyasətinə və bu siyasətdə mühüm rol oynayan Azərbaycan SSR-in iştirakına böyük zərbə ola bilərdi. Məhz bu amilə görə sovet hökuməti belə bir addımı atmadı.

Göründüyü kimi, XX əsrin 30-40-cı illərində Azərbaycan türklərinin kütləvi deportasiyası üçün nə bir səbəb, nə də ki, şərait var idi. Səbəb olmayan yerdə isə nəticə də ola bilməzdi.

XX əsrin 30-40-cı illərində sovet deportasiya siyasətinə məruz qalmış xalqlar, millətlər əsassız, səbəbsiz köçürülmürdülər. Onların tarixi torpaqlarından məcburi köçürülməsinin hər birinin ayrı-ayrılıqda konkret səbəbləri var idi. Həmin xalqların məcburi köçürülməsi də rəsmi dövlət qərarlarında əsassız da olsa, müəyyən səbəblərlə izah olunurdu. İkinci dünya müharibəsindən sonrakı illərdə isə Azərbaycan türklərinin köçürülməsi üçün şərait də var idi, nəticəni doğuran səbəblər də.

Sovet deportasiya tarixinin ən mühüm məsələlərindən biri də onu doğuran səbəblərdir. Moskvada nəşr edilən "Voprosı istorii" jurnalında açılan "dəyirmi masa"da əsasən, sovet xalqlarına qarşı tətbiq olunmuş deportasiya siyasətinin yaranması və onu doğuran səbəblər haqqında istər tarixçi, istərsə də dilçi alimlərin açdığı müzakirələr xüsusilə diqqəti cəlb edir. Belə ki, sovet xalqlarına qarşı həyata keçirilmiş deportasiyaları doğuran səbəblər barədə müxtəlif fikirlər söyləyirlər. Onların bu barədə fikirləri ayrı-aynlıqda həqiqətə yaxın və inandırıcı görünsə də, ümumilikdə deportasiyanı doğuran səbəblər barədə bu alimlər arasında vahid, yekdil fikir yoxdur.

T.Y.Krasovitskaya "Sovet İttifaqı 20-ci illərdə" mövzusunda keçirilən "dəyirmi masa"da deportasiyaların əsas səbəbi kimi, onu Sovet İttifaqında "yekcins dil mühitinin" yaradılması zərurəti ilə izah edir və nümunə olaraq deportasiyaya məruz qalmış xalqlar sırasında türkdilli xalqların çoxluq təşkil etdiyini əsaslandırmağa çalışır.

V.M.Alpatov "Voprosı istorii" jurnalının redaksiyasına göndərdiyi "K istorii Sovetskoqo yazıkoznaniya: Marr i Stalin" adlı məktub - məqaləsində T.Y.Krasovitskayanın mülahizələrini qeyri-dəqiq, əsaslandırılmamış səhv fikir olduğunu vurğulayır və alternativ mülahizə ilə çıxış edir.O, belə hesab edir ki, xalqların deportasiya olunmasında İ. Stalinin hələ Qafqazda olarkən burada yaşayan xalqlara olan simpatiyası və antipatiyası müəyyən rol oynamışdır.

Tədqiqatçı N. F. Buqay isə V. M. Alpatovun bu mülahizəsinin həqiqətə daha çox yaxın olduğunu bildirərək, bu səbəbə də başqalarının sırasında baxmağı təklif edir. O, əldə olunan sənədlərə əsasən, belə bir mülahizə yürüdür ki, 1930-1940-cı illərdə Sovet İttifaqında bütöv xalqların məcburi köçürülməsinin əsas səbəbi bunlardır: Birincisi, cəzalandırma - bu intiqam ilk növbədə, işğal zamanı bu xalqların ayrı - ayrı şəxslərinə və qruplarına görə edilirdi; ikincisi, köçürmədə mümkün olan xəyanətə görə preventiv tədbir kimi istifadə edilirdi. Onun fikrincə, bütün bu tədbirlər əslində gözlənilən müharibələrdə həmin millətlərdən olanların xaricdə yaşayan soydaşları ilə bir olduğuna görə edilirdi.

Tədqiqatçı - alim L. Həsənova isə belə hesab edir ki, deportasiyanın həm ümumi, həm də konkret hal üçün xüsusi səbəbləri var. Ona görə də onların birgə nəzərdən keçirilməsinin əhəmiyyəti qeyd olunmalıdır. L. Həsənova ilk dəfə olaraq sovet deportasiya siyasətinin əlamətlərini üzə çıxarmış, onu Azərbaycan türklərinin Ermənistandan deportasiyası ilə müqayisə etmişdir. Aydın olmuşdur ki, azərbaycanlıların köçürülməsi sovet deportasiya siyasətindən kənarda tədqiq oluna bilməz.

On illiklər ərzində Azərbaycan türklərinin deportasiyası problemi məlum səbəblər üzündən öyrənilməmişdir. Bu faciə barədə əsl həqiqətlər ilk dəfə tarixçi-alim A. Paşayevin arxiv materialları əsasında yazmış olduğu "Respublika", "Vətən səsi" qəzetlərində gedən silsilə yazılarında və "Köçürülmə" kitabında öz əksini tapmışdır [5, s. 37].

Azərbaycan türklərinin deportasiyası probleminin istiqamətində çoxlu elmi, publisistik və memuar ədəbiyyatlar meydana çıxsa da, A. Paşayevin, B. Nəcəfovun, L. Həsənovanın bu sahədə apardıqları tədqiqat işləri öz əhəmiyyəti və elmiliyi ilə seçilir.

Lakin bununla belə, onu qeyd edək ki, işıq üzü görmüş tədqiqat yönlü işlərin Azərbaycan tarixşünaslığında bu problemlə bağlı mövcud boşluğu aradan qaldırmaqda əhəmiyyəti nə qədər böyük olsa da, problemin araşdırılması ilə bağlı bir çox qaranlıq məsələlər qalmaqdadır. İkinci dünya müharibəsindən sonrakı illərdə Azərbaycan türklərinin 1948-1953-cü illərdə tarixi-etnik torpaqlarından deportasiyasını doğuran şərait və səbəblər hələ də üzə çıxarılmamış, bu da problemin yetərincə araşdırılmasında tarixşünaslıq elmimizdə bir boşluq yaratmışdır. Məhz bu boşluqdan irəli gələn müxtəlif fikir və mülahizələr ortaya çıxmışdır.

Azərbaycan türklərinin 1948-1953-cü illərdə Ermənistan SSR-dən deportasiyasının səbəbləri barədə də müxtəlif fikirlər mövcuddur. A. Paşayev məcburi köçürülmənin əsas səbəbini Kremlin siyasi dairələrində özlərinə kök salmış erməni lobbisinin fəaliyyəti ilə əlaqələndirir.

Tarix elmləri doktoru B. Nəcəfov isə Azərbaycan türklərinin deportasiyasının "Daşnaqsütyun" partiyasının xüsusi ssenarisi və onun birbaşa Kremlə göstərişi əsasında həyata keçirildiyini qeyd edir. Onun irəli sürdüyü mülahizə kökündən yanlışdır və yeri gəldikcə bu məsələyə toxunacağıq.

Erməni tarixçilərinə gəlincə isə onlar Ermənistandan Azərbaycan türklərinin deportasiyasının əsas səbəbini Azərbaycan K(b)P MK-nın I katibi M. C. Bağırovun İ. V. Stalinə ünvanlandığı xahiş müraciətində görürlər. Onlar belə hesab edirlər ki, azərbaycanlıların köçürülməsi iqtisadi səbəblə bağlı olmuş, onlar Kür-Araz ovalığının inkişaf etdirilməsi ilə əlaqədar köçürülmüşlər. Bu da növbəti erməni yalanından başqa bir şey deyil və tarixi həqiqətdən çox-çox uzaqdır.

Tarixi saxtalaşdıran erməni tarixçilərinə belə sual etmək olar?! Əgər köçürülmə iqtisadi səbəblə bağlı idisə, nə üçün köçürülmə ilə bağlı ən mühüm qərar və sərəncamlar "məxfi qrifi" altında aparılır və ictimaiyyətdən gizli saxlanılırdı? Məcburi köçürülmə əgər siyasi səbəblə bağlı deyildisə, nə üçün o dövrün istər mərkəzi, istərsə də yerli qəzetləri öz səhifələrində bu barədə bir kəlmə olsa da iz buraxmamışdır?

Fikrimizcə, Ermənistan SSR-dən Azərbaycan türklərinin məcburi köçürülməsi İkinci dünya müharibəsi illəri və sonrakı illərdə Sovet-Türkiyə münasibətləri kontekstində rəsmi Kreml tərəfindən siyasi gündəmə çıxarılmış "erməni məsələsi" ilə qırılmaz surətdə bağlıdır. Sovet İttifaqının Türkiyəyə qarşı ərazi tələbləri, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından kütləvi deportasiyası bir-biri ilə sıx bağlı məsələlər olduğundan, onların kompleks şəkildə tədqiqini məqsədəuyğun hesab edirik.

SSRİ NS-nin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr tarixli qərarından öncəki illərdə ölkə daxili və ölkə xaricində baş vermiş siyasi hadisələrin və proseslərin öyrənilməsi və tədqiq edilməsi 1948-1953-cü illərdə soydaşlarımıza qarşı həyata keçirilmiş deportasiyanın hansı siyasətdən irəli gəlməsi və onun səbəbləri barədə əsl həqiqətlərin üzə çıxarılmasına imkan verir.

**Azərbaycan türklərinin köçürülməsi səbəbləri bunlardır:**

- birincisi, cənub sərhədlərin təhlükəsizliyi;
- ikincisi, ermənilərdən ibarət etibarlı sərhəd zolağının möhkəmləndirilməsi;
- üçüncüsü, Türkiyə ilə ola biləcək müharibə ehtimalı və Azərbaycan türklərinə etibar edilməsi;
- dördüncü, sovet tələbləri ciddiliyinin nümayişi;
- beşincisi, Türkiyə əleyhinə siyasətdə ermənilərin iştirakı müqabilində onlara verilmiş vədin qismən yerinə yetirilməsi;
- altıncısı, Cənubi Qafqazda türk nüfuzunun zəiflədilməsi.

**Əsəd QURBANLI,**

**“Dircəliş XX əsr” – №82-83.-2004-2005.- S.135-140.**

### Ermənistanda erməni vandalizminin qurbanı olan qədim Azərbaycan tarixi abidələri

Ermənistanın Azərbaycana olan uydurma torpaq iddiaları heç bir tarixi mənbəyə söykənmədiyindən, rəsmi Yerevanın mövqeyi daha çox cığal uşağın hərəkətlərinə bənzəyir. Erməni alimlərinin "tarixi sübutları" əsasında yazılan əsərlər ancaq Ermənistanın dövlət səviyyəsində yeritdiyi işğalçılıq siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Ermənipərəst beynəlxalq təşkilatlar isə bu cür "tarixi sübut"ları əllərində bayraq tutaraq, məkrli siyasətlərini yeridirlər. Azərbaycan alimləri yüksək elmi səviyyədə, çoxsaylı epiqrafik, orta əsr, arxiv mənbələrinə əsaslanaraq sübut ediblər ki, Cənubi Qafqazda tarixən heç bir erməni siyasi qurumu mövcud olmayıb. Sənədlərin analizi Cənubi Qafqazın yeni tarixi konsepsiyasının işlənməsinə gətirir və Azərbaycan tarixinin sovet rus və erməni tarixçiləri tərəfindən saxtalaşdırıldığını sübut edir. Ermənilər üçün ilk dövləti bu regionda Sovet Rusiyası və Antanta dövlətləri 1920-ci ildə Qərbi Azərbaycan torpaqlarında yaradıblar. Sovet İttifaqı dövründə azərbaycanlıların bu torpaqlardan sıxışdırılıb çıxarılması ilə yanaşı onlara məxsus olan maddi-mədəniyyət abidələri dağıdılıb, yer adları erməniləşdirilib. 1988-ci ildən sonra kütləvi terrora məruz qalan azərbaycanlılar bu əraziləri tərk etməyə məcbur olublar və bundan sonra bu ərazidə qalan azərbaycanlılara məxsus olan maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıntılara, məhvə məhkum olunub. APA indi Ermənistan adlanan qədim Azərbaycan torpaqlarından ermənilər tərəfindən dağıdılan abidələr, dəyişdirilən yer adları ilə bağlı xronikanı təqdim edir. İlkin olaraq qədim Zəngəzur torpaqlarında erməni vandalizminin qurbanı olan abidələr, dəyişdirilən yer adları haqqında məlumat verilir. Bu məlumatlar silsilə şəklində davam etdiriləcək.

#### Urud qəbiristanlığı

Urud (Ermənilər bu kəndin adını dəyişərək Oront adlandırıblar) qəbiristanlığında 1961-ci ildə aşkar edilən XV-XVI əsrə aid sənduqə formalı və qoç heykəlli məzar daşları üzərindəki kitabələr və qədim türk tayfalarına məxsus onqonların (tanrıların) təsvirləri alban tayfalarının islamı qəbul etməsini və ondan çox-çox əvvəl türkləşməsini, azərbaycanlaşmasını sübut edir. Bu tarixi abidələr əvvəllər mövcud olan "Qafqazın xilafətin istilasından sonra alban tayfalarının erməniləşməsi və gürcüləşməsi konsepsiyasını" alt-üst edib. Bu elmi kəşf azərbaycanlıların Qafqazda yerli-köklü xalq olduğunu sübut edir və indiyə kimi ermənilərin "Azərbaycanlılar Qafqaza gəlmə xalqdır" fikrinin əsassız olduğunu təsdiqləyir. Erməni "alimləri" "xəttat savadsız olub, kitabəni səhv yazıb" deyə **avlade-avğvan** (alban övladları) sözünə hərflər əlavə edərək **"avlağum vağudlu"** kimi oxuyub, Zəngəzurda heç vaxt azərbaycanlıların yaşamadıqlarını "sübut" etməyə çalışsalar da, istədiklərinə nail ola bilməyiblər. Buna görə də ermənilər orta əsr qəbiristanlığı olan Zəngəzurun Urud kəndinin qəbiristanlığını məhv edib dağıdıblar.

#### Səlim keçidi karvansarası

Anadoludan tutmuş Çinə qədər Araz boyu karvan-ticarət yolu – İpək yolu üzərində Zəngəzurun Səlim keçidi adlanan yerdə Elxani Əbu Səid dövründə tikilən karvansaranı "erməni milli memarlıq abidəsi" kimi nəşr etdiriblər (Arutunyan V. M, Yerevan, 1984 il). (bax. KGPA, t.III, № 991, s. 62). Həmin yol üzərində Zəngilanın Məmmədbəyli kəndində Yəhya İbn Məhəmməd türbəsinin (vəf. 1305 il) qapısı üzərində qoyulan kitabə ölçüsü, forması, həkk olunan texnikasına görə, qeyd olunan karvansara kitabəsinin eynidir. Belə kitabənin üçüncüsünə Azərbaycanın tarixi ərazisində hələ rast gəlinməyib. Qeyd olunan kitabədə XIV əsrdə İpək yolu üzərindəki bütün abidələri yaratmış memar Əli Məcdəddinin adı yazılıb. Abidənin içərisində erməni dilində divara bir yazı qoyulub. Bu yazıda olan mətnlə qapının üzərinə hörülən yazının mətni üst-üstə düşmür. Erməni dilində olan yazıda qeyd olunur ki, bu abidə 1332-ci ildə Orbelyan nəslindən olan Çesar tərəfindən tikilib. Lazar Universitetin müəllimi Xr.İv.Kuçuk-İoannasov iddia edir ki, "tatarlar" (yəni azərbaycanlılar) sonradan bu karvansaraya Səlim adı verib və ərəbcə yazını qapının üzərinə qoyublar. Halbuki ərəbcə yazı bina tikildiyi zaman qapının üzərinə hörülüb. Maraqlısı odur ki, ermənilərin çap etdikləri bukletdə də karvansara Səlim karvansarası adı ilə çap olunub. İstər-istəməz belə bir sual meydana çıxır, əgər bu, erməni milli-mədəni abidəsidirsə, niyə ermənilər bunu "tatarlar" adlandırdıqları kimi adlandırırlar?

#### Cəfərabad türbəsi

Ermənilərin "özününküləşdirmək" istədikləri digər abidə Azərbaycan Qara-Qoyunlu dövləti, Çuxur-Səəd əmirlərinə aid İrəvanın 8 kilometrliyində Cəfərabad (indiki Arqavanq) kəndində yerləşən möhtəşəm türbədir (hicri 816-cı il – miladi 1413-cü il). Ermənilər türkmən alimlərini dəvət edərək bu abidənin bünövrəsində qazıntı işləri aparıb və belə bir qənaətə gəliblər ki, Qara-Qoyunlu dövləti İran dövləti olub, onun başında türkmən (müasir türkmənləri nəzərdə tuturlar) əmirləri durub. Onlar türbəni erməni maddi-mədəniyyət abidəsi kimi təqdim etməyə çalışırlar. Bu cəfəng elmi nəticə yalnız xəstə təfəkkürün məhsuludur. Qara-Qoyunlu əmirlərini müasir türkmənlərlə eyniləşdirmək qeyri-elmi və düzgün deyil. Çünki onlar XIII əsrdə Anadoluda yaşamış oğuz türkləri və türkmən adlanan yarım köçəri tayfa birləşmələrindən ibarət idi. Onların mərkəz vilayətləri Arciş Van gölünün şimalında yerləşib. Bundan əlavə memarlıq-konstruktiv formasına görə, bu abidə

Naxçıvanda yerləşən Möminə-xatın və Yusif bin Kəbir türbələri ilə eynidir və Əcəmi bin Əbu Bəkr memarlıq məktəbinin davamıdır. Qeyd olunan yerdə bir neçə türbə və azərbaycanlılara məxsus böyük qəbiristanlıq olub və hamısı dağıdılıb (KGPA, t.III, № 1027, s. 66-67).

**Məscidlər**

1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscid prixodları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Cicimli 1, Cicimli 2, Qaroaçalı, Seydlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulaclı, Saraclı, Dərzili, Oxçi, Kaqlar kəndlərində fəaliyyət göstərib. Ümumilikdə İrəvan quberniyasının Eçmiədzin uyezdində 36 prixod məscidi, Sürməli uyezdində 47 prixod məscidi, Şərur-Dərələyəz uyezdində 63 prixod məscidi, Novobayəzed uyezdində 14 prixod məscidi, İrəvan uyezdində 54 prixod məscidi fəaliyyət göstərib. Bu məscidlərdə quberniyada anadan olanların, ölənlərin, evlənənlərin, boşananların qeydiyyatı aparıb. Hər prixodun mollası qubernator tərəfindən təyin olunub. İrəvan şəhərinin özündə isə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

Ermənilərin vandalizm siyasətinin başqa bir istiqaməti bölgənin tarixi türk torpaqları olduğunu təsdiqləyən yer adlarının kütləvi şəkildə dəyişdirilməsi olub. İndiki Ermənistan ərazisində bütün toponimlər erməniləşdirilib. Adını çəkdiyimiz Urud-Oront, Cəfərabad-Arqavanq, Zeyvə-Metsamor və s. adlandırılıb. Bu azərbaycanlıların bu torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədini güdür. Zəngəzurun Pir Davudan kəndində XIX əsrin sonunda 8-ci imam Rzanın nəvəsi Mir Davudun məqbərəsi, Qara Vəli kəndində isə 7-ci imam Museyi-Kazımın oğlu Seyid Əhmədin məqbərəsi yerləşib. Hər iki abidə ermənilər tərəfindən dağıdılıb.

**APA**
**09.03.2006.**

**Tarixin yaddaşından silinməyəcək cinayətlər**

Kütləvi qırğınlarla, irimiqyaslı müharibələrlə hərb-savaş yükü üstün olan bəşər tarixində soyqırım hadisələrini müəyyənləşdirən meyarlar XX yüzillikdə hüquqi müstəvidə təsbit olundu. Anlayışların dürüst təyinatı cəhətindən XX yüzilliyin əvvəllərindən başlayaraq azərbaycanlılara qarşı ermənilər tərəfindən həyata keçirilmiş mütəmadi qırğınlar mahiyyətinə görə məhz soyqırımı aktı olmuşdur. "Soyqırımı" kimi ağır ittihamın ünvanlandığı hadisələrlə müqayisədə azərbaycanlıların məruz qaldığı qətliamların davamlı bir prosesə çevrilməsi və insanlığı sarsıdacaq qədər qəddarlıq formaları ilə seçilməsidir. Azərbaycanlılara qarşı törədilmiş qırğınlar XX yüzilliyin əvvəllərində ermənilər üçün ən əlverişli məqsədə çatmaq üsulu idi. Çox geniş coğrafiyada torpaqlara birbaşa yiyələnmək niyyətinin əməli cəhdləri tarixi, hüquqi əsasa malik olmadığından yalnız fiziki müdaxilə ilə həyata keçirilirdi. Bu müstəvidə belə, güc mübarizəsinin məqbul qaydaları çərçivəsində deyil, tarixi fürsət düşdüyündə yırtıcı potensialı səfərbər etməklə qəfil, çevik, miqyaslı və amansız hərəkət tərzi nümayiş etdirirlər. Bu baxımdan yalnız XX yüzilliyin tarixini ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınlar xronikasını "qabarma-çəkilmə" dinamikasında izləmək olar. Qabarma mərhələləri əlverişli beynəlxalq və regional şəraitdə özünü biruzə vermişdir. Təbii ki, dünyada, o cümlədən Rusiya imperiyası məkanında, xüsusən Qafqazda – Xəzər hövzəsində baş verən dəyişikliklər prosesində siyasi, iqtisadi, hərbi, milli amillərin çarpazlaşdığı mürəkkəb bir situasiyada şanslarını sınayan ermənilər qısa zamanda düşərgələrdə dayanmış dövlətlərin marağı təminatında niyyətlərini uzlaşdıraraq dəyişkən seçim edirdilər: ruslar, ingilislər, fransızlar, amerikanlar, hətta osmanlılarla əməkdaşlıqdan belə çəkinmirdilər.

Təbəəsi olduğu Osmanlı dövlətinə qarşı vuruşan Rusiya dövlətinə xidmət göstərərək, Türkiyə daxilində ikinci cəbhə açmaq əvəzində Qafqaz ərazisində muxtar dövlətçiliyə nail olmaq böyük məqsədin tərkib hissəsi idi. Rusların qələbə çalacağı təqdirdə isə daha geniş layihəni həyata keçirmək yanğısı ilə illərlə səxavətini gördükləri millətə divan tuturdular. Rusiya mütləqiyyəti dövründə reallaşdıra bilmədikləri arzunu bolşevik hakimiyyətinin ilk aylarında rəsmiləşdirdilər: RSFSR Xalq Komissarları Sovetinin "Türkiyə Ermənistanı" haqqında dekreti meydana çıxdı. Sonralar sovet dövlətinin Türkiyə ilə münasibətlərində köklü dəyişikliklər prosesində bu iddia ilkin formasında tarixə gömüldü. Amma SSRİ-nin süqutu ilə başlanan yeni dünya düzənində növbəti "qabarma" mərhələsinə zəmin duyaraq kompleks fəaliyyət kursunu yönəltməyə səy etdilər. Bu mexanizmin mühüm elementi kimi "1915-ci il erməni soyqırımı"na beynəlxalq status qazandırmaq kampaniyasına rəvac verilir. Məqsədləri də etiraflarında dəfələrlə açıqlanmışdır: "Genosid layihəsi qəbul edilsəydi, bunu əldə rəhbər tutub, Türkiyədən əvvəlcə təminat, sonra da Qara dəniz sahillərinə sərhəd olan Şərqi Anadoluda bir erməni dövlətinin qurulması üçün torpaq tələb edərdik". Beynəlxalq hüquqi normaların əsasən nəzərə alındığı cağdaş dünyanın siyasi xəritəsində ayrı-ayrı region erməni dövlətləri yaratmaq təşəbbüsü və səyi ilə Türkiyə, Azərbaycan, Gürcüstan torpaqlarını yenidən hədəf seçmişlər. Təbii ki, toplum halında uzun müddət məskunlaşdıqları Amerika və Avropa əraziləri ilə bağlı niyyətlərini də gizlətmirlər. Lakin XX yüzilliyin əvvəllərində dünya savaşının gedişatında xəyali "Böyük Ermənistan" yolunda minləri qılıncdan keçirir, atəşə tuturdular. Bu faciənin bir parçası da Cənubi Azərbaycanda yaşandı. 1918-ci ilin martında, novruz çərşənbəsində "Urmi bəlası" kimi yad olunan qətliamda 10 mindən çox azərbaycanlı qırıldı. Urmiya, Salmas, Xoy, Maku şəhərlərində, ətraf kəndlərdə dinc əhaliyə divan tutuldu. Andronikin 8 minlik yaraqlıları bu bölgənin əhalisini qırdıqdan sonra özləri ilə gətirdikləri minlərlə ermənini yerləşdirməklə ərazini də Azərbaycan torpaqlarında yaratdıqları erməni respublikasına birləşdirmək niyyətində idilər. Cənubi Azərbaycanın qərb bölgələrində 1917-18-ci illərdə 190 minə qədər Azərbaycan türkü ermənilər tərəfindən qətlə yetirilmiş, şəhər və kəndlər viran qoyulmuşdur.

İrəvan xanlığı ərazisində dövlət əldə etməyə nail olan ermənilər ilk növbədə qonşu ərazilərdə etnik təmizləməyə - soyqırımına başladılar. Dağlıq ərazidə yerləşən Zəngəzur qəzasında əhali çıxılmaz vəziyyətdə idi. Xarici aləmdən təcrid olunmuş Zəngəzurun müsəlman əhalisinə qarşı həm də erməni quldur dəstələri ilə yanaşı Ararat respublikasının rəsmi nizami ordusu da iştirak edirdi. Andronikin ətrafında cəmləşdirilmiş yaraqlıların vəhşiliklərinin iştirakçısı olan A.Lalayanın etirafı mənzərəni bəlli edir: "Türk qadınlarının və uşaqlarının, qocaların və yeniyetmələrin məhv edilməsində daşnak dəstələri... maksimum "şücaət" göstərdilər. Daşnak dəstələrinin ələ keçirdiyi kəndlər canlı insanlardan "azad olunur" və eybəcərləşdirilmiş meyitlərlə dolu xarabalıqlığa çevrilirdi". Azərbaycan Parlamentinə, hökumətinə göndərilmiş - 1920-ci ilin yanvar tarixli başsağlığı teleqramlarında Zəngəzurun aqibəti müəyyənləşmişdi: "Zəngəzur müsəlmanları sarıdan başınız sağ olsun. Zəngəzurlular nə qədər ağladılarsa, nalələri Zəngəzur dağları, dərələri və obaları arasından bir tərəfə çıxmadı..."; "Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşmək, nəticədə, Naxçıvanla əlaqəni tamamilə kəsmək, beləliklə də, həm Qarabağ, həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir"; "Zəngəzur sarıdan başınız sağ olsun... Erməni xəyanəti və hiyləgərliyi qurbanlarının sayı hesaba gəlməzdir". Zəngəzurda 115 müsəlman kəndi dağıdılmış, həmin kəndlərdə 3257 kişi, 2776 qadın və

2196 uşaq öldürülmüş, 3000-dək insan yaralanmışdı. Xüsusi işgəncə, iyrənc üsullarla törədilən qətliamın təfərrüatının səthi təsviri belə insan əsəblərini tarıma çəkir.

Qafqaz ərazisində müstəqil dövlətlərin yaranmasından xeyli əvvəl, Cənubi Qafqaz dövlət idarəçiliyi dövründə ermənilərin qanlı əməlləri, daha ardıcıl tərzdə İrəvan quberniyasında törədilmişdir. Zaqafqaziya Seyminin müsəlman fraksiyalarının birgə iclasını (1918,10 aprel) açan Seym üzvü M.H.Seyidov bildirir ki, İrəvan quberniyasında 2 ay əvvəl (1918-ci ilin fevralından) qırğınlar sistematik məzmunda başlayaraq, fasiləsiz davam etmiş, daha da kəskinləşmişdir. Qırğınlarda məqsədin erməni hərbi hissələri tərəfindən ərazinin ermənilər üçün təmizlənməsi və erməni muxtariyyəti üçün kompakt vahidin yaradılması olduğu göstərilmişdir.

Bu məqsədlə 1917-ci ilin əvvəllərindən 1918-ci ilin martınadək təkcə İrəvan quberniyasında 197 Azərbaycan kəndi erməni yaraqlıları tərəfindən dağıdılmışdır. İrəvan quberniyasının 1916-cı ildəki 375 min nəfərlik azərbaycanlı əhalisinin sayı azalaraq, 1922-ci ildə 70 min nəfərə enmişdi. Naxçıvan bölgəsində isə 1919-1921-ci illərdə 100 mindən bir qədər artıq əhalinin 73727 nəfəri ermənilər tərəfindən öldürülmüşdür.

Dünya müharibəsi dövründə Rusiyanın Osmanlı dövləti ilə Qafqaz cəbhəsində canfəşanlıq edərək, xüsusi missiya yerinə yetirən ermənilər bolşeviklərin hakimiyyətə gəlməsi və Rusiyanın müharibədən çıxması ilə taktikanı dəyişdilər. Yaranmış yeni situasiya da ermənilər üçün çox əlverişli idi və onlar üçün cəlbedici məqam hədəf zirvəsinə yetişmək vəzifəsində gördükləri şəxsin soydaşları olması sayıla bilər. "Qafqazda sovet hakimiyyəti təşkil olunana qədər Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar" təyin edilən Stepan Şaumyana həm də "Türkiyə Ermənistanı"nın muxtariyyəti haqqında Rusiya Xalq Komissarları Sovetinin 1917-ci il 29 dekabr tarixli dekretinin icrası tapşırılmışdı. Şaumyana həvalə olunurdu ki, dekreti həyata keçirmək üçün "Türkiyə Ermənistanı" əhalisinə hər cür yardım göstərsin."Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazarlıq alacaqlar" deyən Şaumyan, əksinə, "Türkiyə Ermənistanı"nın muxtariyyət qazanmasına hər vasitə ilə kömək etməyə çalışırdı. Bu məsələdə o, nəinki qərarlı, həm də səlahiyyətli idi. Bu səlahiyyəti ona bolşevik mərkəzi vermişdi. Lakin yerli müsəlmanlara muxtariyyət verilməsi haqqında həmin mərkəzin göstərişlərini yerinə yetirməyi lüzumsuz bilmiş, son dərəcə sərt, kəskin, qəddarcasına müqavimət göstərmişdir. Qafqaz cəbhəsindən qayıdan silahlı erməni qüvvələrindən Azərbaycanın türk-müsəlman əhalisinə qarşı soyqırımı cinayətlərində istifadə etmişdir.

Qafqazda Şaumyanın başçılıq etdiyi bolşevik hərəkatının əsas hərbi zərbə qüvvəsini ermənilər təşkil edirdi. Onun güvəndiyi əsas qüvvənin – "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik "Qafqazdakı Qırmızı ordu"nun şəxsi heyətinin 70 faizi erməni idi. "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası ilə əlbir hərəkət edən Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar 1918-ci il martın 30-da yaradılan Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsinə daxil idi. Bu koalisiya türk-müsəlman əhaliyə qarşı “həlledici döyüşlərə hər cür hazırlıq görmüşdü və dərhal bütün cəbhə boyu hücuma başladı” (S.Şaumyan). Üç günün (30 mart – 1 aprel) qətl-qarətlərində təkcə Bakıda 12 min nəfər azərbaycanlı əhali məhv edildikdən sonra, aprelin 2-də Çaparidze Şaumyana yazırdı ki, “Daşkənddən və Şimaldan bizə kömək gəlir, artıq indi müsəlmanları sakitləşdirmək üçün onlara müxtariyyət vəd etmək olar”. Lakin Şaumyan hətta İ.Stalinin göndərdiyi 1918-ci il 1 aprel tarixli məktubdan sonra belə, şərti də olsa, müsəlmanlara muxtariyyət vəd etmədi.

Cənubi Qafqazda, Bakıda baş verənlər barəsində dürüst məlumatları olmadığını qeyd edən Stalin Şaumyana yazırdı: “Bakını hərbi və maliyyə cəhətdən möhkəmləndirmək, müsəlmanlar muxtariyyət tələb edirlərsə, mərkəzdə və yerlərdə Sovet hakimiyyətini sözsüz olaraq tanımağı şərt qoymaqla, onlara muxtariyyət vermək... lazımdır”. Bərabər olmayan qüvvələr nisbətində kütləvi qırğına məruz qalan müsəlmanlar martın 31-də müqaviməti dayandırsalar da, hətta İnqilabi Müdafiə Komitəsinin ultimatumu qəbul olunduqdan sonra belə dinc müsəlmanlara divan tutmaqda davam edildi. Elə həmin gün axşamüstü İçərişəhərin alınması əməliyyatı başlandı. Bakıda azərbaycanlılara qarşı qırğınlar aprelin 2-si gecədən xeyli keçənədək davam etmişdir. Üç gün ərzində Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirilmiş, “Kaspi” mətbəəsi, “Açıq söz” qəzetinin redaksiyası, “İsmailiyyə” binası yandırılmış, “Təzəpir” məscidinin minarələrini top atəşi ilə zədələmişdilər. Erməni Milli Şurasının, “Daşnaksutyun” partiyasının erməni mənşəli bolşeviklərlə işbirliyinin mahiyyətini daşnak liderlərindən Kaçaznuni belə açıqlamışdı: “Bolşeviklərə qarşı ancaq iki partiya real qüvvə kimi duruş gətirə bilərdi - tatarların "Müsavat" və ermənilərin “Daşnaksütyun” partiyaları. Bolşeviklərlə mübarizədə qalib gəlmək üçün bu partiyalar hökmən birləşməliydilər, bu isə ağlasığmaz idi. Bakının erməni əhalisinə gəlincə, onlar üçün bolşevik diktaturası “Müsavat” diktaturasından daha məqbul idi. Elə buna görə də bizimkilər Bakıda daha çox bolşeviklərə xidmət edərək, onun dayağına çevrilirdi". Amma yalnız Bakı rayonu ilə kifayətlənməyən daşnak – bolşevik qüvvələri Azərbaycanın qəzaları üzrə yerli əhaliyə qarşı kütləvi qırğınlar həyata keçirdi. Şamaxı qəzasının 120 azərbaycanlı kəndindən 86-sı ermənilər tərəfindən qarət edilmiş, yandırılmış, əhalisi qətlə yetirilmişdir. Qəzanın 53 kəndində ermənilər qısa müddətdə 8027 nəfər azərbaycanlını öldürmüşdür. Şamaxı şəhərində 12 məhəllə məscidi, 800 illik tarixə malik “Cümə məscidi” yandırılmışdı.

Şaumyan və Korqanovun təşkilatçılığı ilə daşnak Hamazasp dəstələri Quba şəhərində və qəzanın 122 kəndində vəhşiliklər törətmiş, qətliamın birinci günü şəhərdə 713 nəfəri, ikinci günü 1012 nəfər azərbaycanlını

qətlə yetirmişlər. Quba şəhərində 3 minədək dinc sakin qətlə yetirilmiş, 105 ev və digər tikililər tamamilə yandırılmışdır. Gəncə ətrafında 272, Ağsu, Kürdəmir və Lənkəranda 130 yaşayış məntəqəsinin əhalisi vəhşicəsinə öldürülmüşdür. Azərbaycanlılara qarşı soyqırımı törədilməsini təsdiqləyən cildlərlə sənədlər, həmçinin qaniçən canilərin etirafını yaşadan materiallar da vardır. Hamazasp Quba qırğınları törədərkən öyünmüşdü: "Mənə Xəzər dənizinin sahillərindən Şahdağa kimi bütün müsəlmanları məhv etmək, yer üzündən təmizləmək əmri verilmişdir. Mənə sizin yurd-yuvanızı yerlə-yeksan etmək, Şamaxıda törətdiklərimizi sizin də başınıza açmaq, erməni qardaşlarımızın intiqamını almaq tapşırılıb", yaxud Basarkeçərdə hərdən qülləyə heyfi gəldiyi üçün müsəlmanları quyulara doldurub üzərinə ağır daşlar yığdığını gizlətmirdi.

İki aydan artıq müddətdə Azərbaycan qəzalarında davam etdirilən qırğınların "nəticəsini aradan qaldırmaq" təklifi ilə "Daşnaksütyun" rəsmiləri Cənubi Qafqaz Seyminin Azərbaycan nümayəndələrinə müraciət etmişdilər. Baş vermiş kütləvi qətlləri, talanları aradan qaldırmağın necə mümkün olacağına deyil, qarşılıqlı qoyulan şərtə diqqət vermək lazımdır. Bakıda sırf müsəlman hakimiyyəti deyil, beynəlmiləl hakimiyyət görmək istəyən ermənilər hərbi hissələrini də şəhərdən çıxarmaq fikrində deyildilər. Osmanlı ordusunun yaxınlaşması qorxusu altında edilmiş təklifdə belə niyyətlərini gerçəkləşdirmək cəhdi vardı. Elə eyni motivlə Qarsda, Qarabağda qırğınları davam etdirirlər. Nəhəng qəbiristanlığı xatırladan Qarsda Rus Milli Şura üzvünün yazdığına görə 205 min müsəlmandan yalnız sərhəd zolağında qalanlardır ki, o da 50 mindən çox deyildir: "Qan və göz yaşları hesabına böyük Ermənistan yaradılır". Azərbaycanlıların ermənilər tərəfindən soyqırımına daha çox məruz qaldığı Qarabağ bölgəsində 157 məntəqənin əhalisi qətlə yetirilmişdir. Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında mütəmadi qırğınlar 1920-ci ildə də təkrarlanmışdır.

Azərbaycanlılara qarşı törədilmiş qırğınları təhqiqat məqsədi ilə Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü ilk və mühüm iş Fövqəladə Təhqiqat Komissiyasının yaradılması oldu. 1918-ci il iyulun 15-dən 1920-ci ilin aprelinə qədər fəaliyyət göstərmiş Komissiya "Avropa müharibəsi başladığı vaxtdan bütün Zaqafqaziya ərazisində müsəlmanlara və onların əmlakına qarşı işlənilmiş zorakılıq hallarını təhqiq etmək üçün" 7 nəfərlik tərkibdə işə başladı. Qeyri-azərbaycanlıların cəlb olunduğu bu komissiyaya fəaliyyətinin sonuna qədər Ə.Xasməmmədov sədrlik etmişdir. 36 cild və 3500 vərəqdən ibarət materiallar əsasında azərbaycanlılara qarşı törədilmiş cinayət hərəkətlərinin təşkilatçılarına, iştirakçılarına qarşı cinayət işi qaldırmaq haqqında 128 məruzə və qərar layihəsi hazırlanmış, 194 nəfər erməninin cinayət məsuliyyətinə cəlb edilməsi barədə məsələ qaldırılmışdı. Azərbaycan qəzalarında ermənilərin törətdiyi vəhşilikləri əyani şəkildə sübut edən məlumatlar Paris sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün göndərilmişdi. Həmin konfransda Azərbaycanın müstəqilliyinin de-fakto tanınması münasibətilə 1920-ci il fevralın 9-da Cümhuriyyət parlamenti amnistiya haqqında qərar qəbul etmiş və milli ədavət zəminində qaldırılmış cinayət işlərinə xitam vermişdir. Fövqəladə Təhqiqat Komissiyasının hazırda dövlət arxivində saxlanılan materialları ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi kütləvi qırğınları sübut edən ilk mənbələrdir. Hüquqi cəhətdən xitam verilmiş cinayətlərin tarixi ittihamı xətm olunmayacaqdır. Eyni mahiyyətdə cinayətləri sonrakı mərhələlərdə də, Azərbaycan xalqına yaşadan ermənilər təcavüzkar fəaliyyətlərini davam etdirirlər. Məhz bu baxımdan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı, sənəddə göstərildiyi kimi "tarixin hökmü" sayılmalıdır. Fərmanın yaratdığı imkanlardan bəhrələnərək tarixi cinayətləri törətmiş xalqın ənənəvi təxribatlarının, saxtakarlığının, təcavüzünün qarşısına sipər çəkmək, mənəvi məsuliyyətini qəbul etdirmək lazımdır.

**Firdovsiyyə ƏHMƏDOVA,**
**tarix elmləri namizədi, dosenti**

**"Xalq qəzeti", 2.04.2007**

**Erməni-rus birləşmələrinin 1914-1915-ci illərdə Qars vilayətində törətdikləri soyqırım haqqında**

*Xarici dövlətlərin və missioner təşkilatların əllərində alətə çevrilən, onların silahlandırdığı ermənilər XX əsirdə dəfələrlə Anadolu və Azərbaycan türklərinə qarşı kütləvi qırğınlar və soyqırım aksiyaları həyata keçirmişlər. Xalqımıza qarşı törədilmiş bütün soyqırım faciələrinə hüquqi-siyasi qiymət verilməsi məqsədilə Azərbaycan Respublikasının mərhum prezidenti Heydər Əliyev 26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalamışdır. Ötən müddət ərzində ermənilərin qaniçən, cəllad simasının dünyaya tanıtdırılması istiqamətində xeyli iş görülmüş, Türkiyə və Azərbaycan arxivlərində saxlanılan sənədlər əsasında sanballı əsərlər yazılmışdır. Bu yazıda erməni-rus hərbi birləşmələrinin təkcə 1914-15- ci illərdə Qars vilayətində insanlığa qarşı törətdikləri cinayətləri yalnız bir qismini oxucuların nəzərinə çatdırırıq. Məqalədə həmçinin Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qars vilayətində soyqırıma məruz qoyulan soydaşlarımızın fəlakətdən qurtulmaları istiqamətində gördüyü işlərdən bəhs edilir.*

1801-ci ildə rus qoşunlarının cənubi Qafqaz torpaqlarının işğal etməyə başlaması anından Azərbaycan türklərinin Şərqi Anadoluya axını başlamışdır. Rusiyanın Gürcüstanı, Gəncə və İrəvan xanlıqlarının işğal etmək üçün apardığı müharibələr nəticəsində yer-yurdlarından didərgin düşən soydaşlarımızın böyük əksəriyyəti Qars paşalığının ərazisində özlərinə sığınacaq tapmışdı. 1828-29-cu və 1855-56-cı illər rus-türk müharibələri zamanı Qars paşalığı ərazisindəki yaşayış məntəqələrinin darmadağın edilməsi nəticəsində orada yaşayan soydaşlarımız bir daha pərən-pərən düşmüşdülər.

1877-78-ci illər Rusiya-Türkiyə müharibəsi soydaşlarımızın taleyində daha ağır iz buraxmışdır. 3 mart 1878-ci ildə imzalanan San-Stefano müqaviləsinə əsasən Qars, Ərdahan və Batum əyalətləri (sancaqları) hərb təzminatı əvəzinə Rusiyaya birləşdirilmişdi. 1878-ci ilin dekabrında hərbi-inzibati ərazi vahidi kimi, Qafqaz canişinliyinə tabe edilən Qars vilayəti təşkil edilmişdi. 1879-cu ildən etibarən Qars vilayətinə kütləvi surətdə ermənilərin, yunanların, rusların və yerləşdirilməsindən sonra yerli əhali (əsasən azəri türkləri) sıxışdırılaraq Türkiyənin içərilərinə köçməyi məcbur edilmişdilər. Erməni müəlliflərinin məlumatına əsasən, təkcə 1879-cu ildə 74 min türk köçməyə məcbur olmuşdu. 1878-ci ildən 1914-cü ilədək təkcə Qars vilayətində 110 min erməni, 27 min yezdi kürd, 19 min rus (əsasən molokanlar və duxoborlar) yerləşdirilmişdi. Əhalinin siyahıya alınmasının nəticələrinə görə, həmin ərəfədə Ərdahan, Qağızman, Qars və Otlu dairələrindən təşkil edilmiş Qars vilayətində 150 mindən artıq türk yaşayırdı.

XX əsrin əvvəlində Rusiya Şərqi Anadolunu bütünlüklə işğal etmək, İskəndəruna və Bəsrə körfəzinə çıxmaq üçün geniş hərbi hazırlıq görürdü. Yaxın Şərqdə öz mövqeyini möhkəmləndirmək istəyən dövlətlər - Rusiya, Almaniya, İngiltərə və Fransa San-Stefano müqaviləsində (16-cı maddə) və Berlin konqresində (61-ci maddə) meydana atılan "erməni muxtariyyəti" kartından istifadə etmək istəyirdilər.

"Daşnaksutyun" partiyası Rusiyanın müharibəyə hazırlıq görməsi fürsətindən istifadə edərək, Qafqaz cəbhəsində erməni silahlı dəstələri yaratmaq təşəbbüsü göstərmişdi. Bu partiyanın Tiflisdə fəaliyyət göstərən Milli Bürosu Qafqazın canişini Voronsov-Daşkovu buna razı salmışdı. Katolikos V Gevorqun xahişinə əsasən Voronsov-Daşkov 24 dekabr 1912-ci ildə çar II Nikolaya müraciət edərək təvəqqe etmişdi ki, Türkiyədə yaşayan "əzabkeş" erməni xalqını öz himayəsinə götürsün.

1913-cü ilin iyununda Rusiyanın icra edilmək üçün Türkiyəyə təqdim etdiyi "İslahat" layihəsində göstərilirdi ki, Ərzurum, Van, Bitlis, Diyarbəkir, Harput və Sivas əyalətləri birləşdirilərək Şərqi Anadoluda "Erməni vilayəti" təşkil edilməlidir. 1914-cü il fevralın 8-də isə əyalətlərdə islahatlar keçirmək haqqında Rusiya ilə Türkiyə arasında razılıq əldə edilmişdi.

Osmanlı imperiyasını məhv etmək üçün Birinci Dünya müharibəsi ərəfəsində İngiltərə və Fransa Rusiya ilə hərbi ittifaq bağlamışdı. Türkiyənin isə həmin dövlətlərin işğalçılıq planlarını əngəlləmək üçün Almaniya ilə müttəfiq olmaqdan başqa çarəsi qalmamışdı. Osmanlı dövləti Birinci Dünya müharibə başlanandan bir gün sonra - yəni avqustun 2-də Almaniya ilə hərbi ittifaq bağlayan kimi, Almaniya onu Qara dənizdə Rusiyaya qarşı müharibəyə başlamağa təhrik etmişdi.

Uzunluğu 720 kilometr olan Qafqaz cəbhəsində 250 minlik rus ordusu və tərkibində 4 drujinada birləşən 10 minlik erməni silahlı dəstələri Türkiyəyə qarşı müharibəyə ciddi hazırlaşmışdılar. Noyabrın 1-də Rusiya Qafqaz cəbhəsində Türkiyəyə qarşı müharibə elan etmiş, bir gün sonra isə üç istiqamətdə - Oltu, Sarıqamış və Qazığman istiqamətlərində hücuma keçmişdi. Həmin dövrdə türk qoşunları Ərzurum istiqamətində cəmləşdirmişdi.

General erməni Baratovun komandanlığı altında Şərqi Anadoluya hücum edən erməni-rus birləşmələrini Həsən İzzət paşanın komandanı olduğu türk qoşunları noyabrın 10-da Körpüköy məntəqəsində məğlub edərək,

geri çəkilməyə məcbur etmişdi. Bu zaman çap II Nikolay Qafqaz bölgəsinə gəlib, məğlub olmuş rus əsgərlərini ruhlandırmaq üçün onları mükafatlandırmışdı.

Türk qoşunlarının qələbəsindən sevincək olan, təqribən 40 il rus-erməni işğalı altında inləyən Qars vilayətinin yerli türk əhalisi qara günlərin sona yetdiyini zənn etmiş, qurbanlar kəsib, bir-birlərini müjdələmişdilər. Lakin onların bu sevinci uzun sürməmişdi. Körpüköy qələbəsindən ruhlanan müdafiə naziri Ənvər paşa sərt qış şəraitini nəzərə almayıb, Oltu-Sarıqamış istiqamətində hücumu davam etdirmişdi. 25 günlük qanlı müharibədə türk əsgərlərinin çoxu qarlı aşırımlarda, dağlarda şaxtadan donub məhv olmuşdu. 100 minlik üç diviziyadan cəmisi 15 min əsgər salamat qalmışdı.

Sarıqamış məğlubiyyətindən sonra, 1915-ci il yanvarın 3-də öndə erməni silahlı dəstələri olmaqla, rus qoşunları Çıldırdan başlayaraq, Ərdahan istiqamətində hücuma keçir. Qırğınlara məruz qalan ilk yaşayış məntəqəsi Kənarbel kəndi olur. Erməni-rus birləşmələri Məryəm və Kotanlı kəndlərini də soyqırıma məruz qoyduqdan sonra Ərdahanda, daha sonra isə Gölə və Olur (Tavuskar) nahiyələrində qətliam törədərək 40 min türkü şəhid etmişdi.

“Daşnaksutyun” partiyasının silahlı birləşmələri fürsətdən istifadə edərək, bütün cəbhə boyu müsəlman kəndlərinin əhalisini qətlə yetirmək və qovmaqla, etnik təmizləmə aksiyasını həyata keçirirdi.

1915-ci il fevralın 15-19-də Tiflisdə “Daşnaksutyun” partiyasının 9-cu qurultayında erməni silahlı drujinalarının sayının artırılması, onların vahid taktika ətrafında birləşməsi və əlverişli şəraitdən istifadə edib, sərhəd vilayətlərindən türkləri sıxışdırıb çıxarılması qərara alınmışdı. Quldurbaşı Andranik cəbhə xəttindən gəlib qurultayda məruzə edərək silahlanmanı gücləndirməyi, bunun üçün çoxlu vəsait ayırmağı, erməni drujinalarını vahid cəbhədə birləşdirməyi qarşıya məqsəd qoymuşdu.

1915-ci ilin yanvar-aprel aylarında erməni-rus birliklərinin Qağızman, Qars, Oltu və Ərdahan dairələrində törətdikləri qırğınların miqyası ölçüyəgəlməz idi. Qarlı-şaxtalı günlərdə qırğınlardan qaçıb canını qurtaran on minlərlə müsəlman dağlarda, dərələrdə qurda-quşa yem olmuşdular. Qar əriyəndən sonra onların cəsədləri üzə çıxmışdı. Lakin onları dəfn etməyə kimsə qalmamışdı. Sonralar Cənubi-Qərbi Qafqaz Hökumətinin xarici işlər naziri olmuş Fəxrəddin Ərdoğan. “Türk ellərində xatirələrim” əsərində (Ankara, 1954, s. 86-87) 1915-ci ilin aprelində Sarıqamışdan Molla Mustafanın ona göndərdiyi məktubundan belə iqtibas gətirir: “Qarlar ərimiş, bahar gəlmişdir. Qars valisi (Ziboviç) Sarıqamış qaymaqamına əmr etmiş ki, Səlim nahiyəsindəki türklərdən 300 fəhlə toplayın və hər 100 nəfərin üstündə bir xoca bulunsun. Sarıqamış meşələrindəki türklərin cəsədlərini toplayaraq dəfn etsinlər. Sarıqamışın türk göylərindən toplanan 300 fəhlə ilə mən də getdim. Meşələr içərisində donub qalan cənazələr üçün böyük-böyük xəndəklər hazırladıq, bəzisinə 800, bəzisinə 500, bəzisinə də 1000 nəfər türk şəhidlərini mərasimlə gömdük, hər xəndəyin başına neçə şəhidin dəfn olunduğunu yazaraq taxdıq, bir həftəyə qədər bu cənazələrin toplanması üçün çalışdıq, şəhidlərin sayı 12000 nəfərə çatırdı. Rus ordusu irəlilədikcə qaçıb gələn erməni mühacirlərini Sarıqamış köylərində yerləşdirirlər. Rus ordusunun keçdiyi yerlərdəki türk köylərinə məzalim yapırlar və içdəki ermənilər də ordunun irəlilədiyini və yaxınlaşdığını gördükcə, türk köylərini yaxıb talan edirlər...”F. Ərdoğan sonra əlavə edir ki, bu zaman Qars şəhərində türk əhalisi qalmayıbmış. Yalnız Evliya camesinin imamı Hafiz Qurban Əfəndi ölən türk yaralılarını dini mərasimlə dəfn etmək üçün orada qalıbmış. Müfti Əli Əfəndi ilə Tacir Arif ağa Tiflisə gedib, ermənilərin və rusların yapdıqları vəhşilikləri Bakı Cəmiyyəti Xeyriyyəsinə bildirmişdilər.

Birinci Dünya müharibəsi başlayan kimi Hacı Zeynalabdin Tağıyevin sədri olduğu Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Qafqaz cəbhəsindəki döyüş bölgələrindən qaçqın düşənlərə, valideynlərini itirmiş uşaqlara, kimsəsiz qocalara qardaşlıq köməyini əsirgəməmişdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzurdan parlamentin üzvü olmuş və bolşevik işğalından sonra Türkiyəyə mühacirət etmiş Məmməd Sadıq Aran. “Qardaş köməyi” (1951) məqaləsində qeyd edir ki, bu cəmiyyət Şərqi Anadoluda müharibədən zərər çəkənlərə kömək edilməsi üçün üç dəfə Rusiya çarına müraciət etmişdi. Lakin hər dəfə rədd cavabı almışdı. Bundan sonra cəmiyyət Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Tiflisə - Qafqaz canişinin yanına nümayəndə heyəti göndərmişdi. Onlara “Siz Qafqazlı müsəlmanlar, bizim düşmənimizə yardım etmək istəyirsiniz. Müharibə zamanı buna icazə verilməz” - cavabı verilmişdi. Bu zaman Əlimərdan bəy Topçubaşov demişdi: “Siz, iki dövlət - Osmanlı imperatorluğu ilə Rusiya çarlığı müharibə edirsiniz. Biz sizin düşmənlərinizə deyil, işğalınız altına aldığınız vilayətlərdəki pərişan qardaşlarımıza insani və maddi yardım göstərmək istəyirik”. Bundan sonra cəmiyyət üzvlərinə Qars vilayətinə getməyə icazə verilmişdi.

Qars vilayətində türklərə qarşı törədilən soyqırımı öz gözləri ilə görən Ömər Faiq Nemanzadə 1915-ci il yanvarın 21-də “İqbal” qəzetində “Bir loğma ətmək” məqaləsində yazırdı: “Axalkələkdən Ərdahana, Oltuya gedin. Uzun şose yolu müsibətin başlanğıcı olan Zazola kəndindən Oltuya 180-200 verstdir. Bu yol boyunca gedin, iki tərəfə baxın oralarda minlərcə müsəlman kəndi uzaqdan birər qaraltı kimi görünəcəkdir...Kəndə yaxınlaşdıqca orda-burda qarlarla yarım-yapalaq örtülmüş boz ləkələr, çıxıntılar nəzərinizi cəlb edəcəkdir. Qoyun, mən sizə bunları deyim. Guya təbiət burda müsəlmanların minlərcə şəhid ediləcəyini bilib, hamısı üçün

bu yumşaq qalın qardan ümumi kəfən hazırlamış, külək, ruzigar vasitəsilə onları, o qurbanları bacardığı qədər gömmüş, basdırmışdır."

Həmin dövrün faciəsi haqqında "Türk kültürü" dərgisi (1972, N 126, s. 435). yazılır: "Anaları, ataları şəhid olmuş və ya gecə vaxtı qaçmış uşaqları da açıq qapılardan girən qurdlar yedi, sağ qalan (yetimlər) kazakların "at təsi"ni ayaqlayaraq içindən donmuş arpanı yemək surətiylə açlığını yox edirkən, mart ayında Bakı İslam Xeyriyyəsinin göndərdiyi universitəli gənc qazaxlı Mustafa Vəkilov və Camal Qarabağ xizəklərlə gəlib, Ərdahan köylərindəki bu faciəni görərək, yanıb-yaxıldılar. Cəmiyyətə raport verdilər. Canlarını zorla qurtaran ərdahanlılar Posxov ilə Şəvşata qaçmış, orada aclıq və yoxsulluqdan üzülmüşdülər."

1915-ci ilin martında Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Qars ətrafındakı hərbzədələrə yardım üçün Xosrov bəy Sultanovun başçılığı ilə komissiya göndərmişdir. Novruz bayramı ərəfəsində yola düşən komissiya martın 21-də Gəncəyə gəlmiş, onları Həsən bəy Ağayev, Xəlil bəy Xasməmmədov, Ələkbər bəy Rəfibəyov, Xudadat bəy Rəfibəyov qarşılamış və əlavə maddi yardım göstərilmişdi. Gəncədə şair Əhməd Cavad da nümayəndə heyətinə qoşularaq, Qarsa yardım əlini uzatmağa getmişdi.

Şərqi Anadolunun Qars, Ərdahan, Qağızman və Oltu bölgələrində qırğınlardan zərər çəkənlərə ərzaq və pal-paltar çatdıran bu heyətin üzvlərindən Mustafa Vəkilov, Əlixan Qandəmir, Əhməd Cövdət (Pepinov), İsmayıl Hazaralı, doktorlar Bahadur Əli və Ordubadski xeyli iş görmüşdülər. Qarsdan əlavə, Ərdahanda cəmiyyətin şöbəsini yaratmış Bahadur bəyin idarəsində əczaxana, Dəyirmanköydə müalicə məntəqəsi açılmış, Çıldır, Gölə, Posxov nahiyələrində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nümayəndəlikləri təşkil edilmişdi.

Nümayəndə heyətinin üzvü İsmayıl Hazaralı xatirələrində yazır ki, Azərbaycan Xeyriyyə Cəmiyyəti rus işğalındakı Şərqi Anadolu vilayətlərinə göndərdiyi heyət vasitəsilə 12000 yetim uşaq topladı, milyonlar dəyərində ərzaq və geyim göndərdi. Türklərə təhdid və təcavüz edən və bu kişi işlərə yol verən bir çox rütbəli rus və erməni zabitləri azəri advokatlar tərəfindən rus məhkəməsinə verildi və cəzalandırıldı. Bununla da türk xalqına qarşı edilən özbaşınalıq hərəkətlərinə soy qoyuldu (Məmməd Sadıq Aran, göstərilən məqaləsi).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qarabağın general-qubernatoru olmuş doktor Xosrov bəy Sultanovun 8 aprel 1915-ci ildə "Kaspi" qəzetində dərc edilmiş yazısında Ərdahanda törədilən qırğınlar belə təsvir edirdi: "...Əyalətin bütün müsəlman yaşayış məntəqələrində bəni insan görünmür. Yalnız iki məntəqəyə 500-600 qadın və uşaq yığılmışdır. Onların içərilərində cəmisi 6 nəfər əldən düşmüş qoca kişi vardır".

Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Şərqi Anadoluya göndərdiyi nümayəndə heyətinin verdiyi məlumatlar əsasında bəyannamə qəbul etmişdi. Həmin bəyannamədə cəmiyyət Qars və Ərdahan tərəflərində qalan kimsəsiz arvad-uşaqların Bakıya və Gəncəyə gətirilməsi niyyətində olduğunu bildirmiş, oradan gətirilən yetim uşaqların sahibkarların və mülkədarların himayəsinə verilməsini qərara almışdı.

Həmin dövrdə indiki Ermənistan ərazisində və ona bitişik Şərqi Anadolunun rus-erməni işğalı altında olan ərazilərindən canını qurtarıb qaça bilən kimsəsiz uşaq və qadınların bir qismi Azərbaycana pənah gətirmişdi. Tiflisdəki Müsəlman Xeyriyyə Cəmiyyəti qaçqın yetimlərin cüzi bir hissəsini yetimxanada himayəyə götürmüşdü. Qaçqınların əksəriyyəti isə Bakıya üz tuturdular. Hazırda Azərbaycan MEA Rəyasət Heyətinin yerləşdiyi "İsmailiyyə"nin zirzəmisində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Şəqi Anadoludan toplayıb gətirdiyi yetim uşaqların bir qismi saxlanılırdı. Ümumiyyətlə, Bakı yetimxanalarında Ərzurum cəbhəsindən gətirilmiş 1000-ə qədər uşaq və qadın yerləşdirilmişdi. O dövrün mənbələri göstərir ki, 1914-1915-ci illərdə Qars vilayətinin Ərdahan dairəsində 110, Qağızman dairəsində 75, Qars dairəsində 130, Oltu dərəsində 90 kənd tamamilə dağıdılmış və əhalisi soyqırıma məruz qalmışdır. Ümumiyyətlə, Qars vilayətində təkcə 1914- 1915-ci illərdə 405 kənddə ermənilər türklərə qarşı soyırım törətmişlər.

Türklərin 1914-cü ilin sonu və 1915-ci il ərzində soyqırıma məruz qalmasını o dövrdə Tiflisdə dərc edilən illik "Qafqaz təqvim"lərində əhalinin sayı haqqında statistik məlumatlardan görmək olar. Türklərin məskun olduqları yaşayış məntəqələrində əhali qalmadığından, Ərdahan dairəsində 1915-ci ildə, Oltu dairəsində isə 1915-ci və 1916-cı illərdə siyahıyaalma keçirmək mümkün olmamışdı. Ümumiyyətlə, 1914-1915-ci illərdə Qars vilayətində 150 minə yaxın türk soyqırıma məruz qalmışdır. Təəssüf ki, erməni-rus birləşmələrinin Qars vilayətində türklərə qarşı törətdikləri soyqırımdan dünya ictimaiyyətinin yetərincə xəbəri yoxdur.

**Nazim MUSTAFA,**
**Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi**

**"Xalq qəzeti", 31.04.2007**

**Qubada tapılmış kütləvi məzarlıq ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırım siyasətinin bir hissəsidir**

Qubada aşkar edilmiş kütləvi məzarlığın tarixi zaman baxımından bir əsrə yaxın dövrü əhatə etsə də, hadisələrin gedişatı baxımından bu günümüzlə səsləşir. Erməni terroru, erməni vəhşiliyi, erməni separatizmi. Bu, o ermənilərdir ki, XX əsrin əvvəllərində olduğu kimi, yüzilliyin sonunda da öz çirkin niyyətlərindən əl çəkməyib Dağlıq Qarabağda, Xocalıda, Şuşada, Kəlbəcərdə və Azərbaycanın işğal olunmuş digər ərazilərində yeni vəhşiliklər törətdilər. Bu gün ədalətli hakim olan tarix onların iç üzünü hər addımda açıq-aydın göstərir. Biz də gərək bu tutarlı faktların hamı tərəfindən qəbul edilməsi üçün əlimizdən gələni edək.

AzərTAc xəbər verir ki, bu günlərdə jurnalistlərin Qubaya səfəri də məhz bu məqsədə xidmət edirdi. Səfər Azərbaycan Parlament Jurnalistləri İctimai Birliyinin təşəbbüsü ilə baş tutmuş və bir qrup KİV nümayəndəsi kütləvi məzarlıqda olmuşdur.

Xatırladaq ki, ötən dövr ərzində buraya müxtəlif beynəlxalq təşkilatların, Milli Məclisin nümayəndələri və digər qurumların təmsilçiləri səfər etmişlər.

Avropa Şurası Parlament Assambleyasının sədri Luis Maria de Puç Azərbaycana səfəri çərçivəsində kütləvi məzarlığa baş çəkmişdir. Gördüklərindən və eşitdiklərindən təsirlənən AŞPA sədri demişdir: “Qeyri-insani hərəkət mənə çox ağır təsir etdi. Gördüklərim haqqında həmkarlarıma, Avropa Şurasına, müvafiq komissiyalara məlumat verəcəyəm. Avropada da belə yerlər aşkarlanıb. Quba kütləvi məzarlığı isə daha aydın və göz qabağında olan faktdır”.

Azərbaycan Xarici İşlər Nazirliyinin təşkilatçılığı və İslam Konfransı Təşkilatının dəstəyi ilə Bakıda keçirilən “Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu” mövzusundakı beynəlxalq konfransın bir qrup iştirakçısı da erməni vəhşiliyinə bariz nümunə olan məzarlığa gəlmişdi. Nümayəndə heyətinin üzvü, İstanbul Universitetinin professoru Suat Gezgin konfrans iştirakçılarını erməni millətçilərinin törətdiyi qanlı əməllərin ifşası üçün səy göstərməyə çağırmışdı.

Azərbaycan Parlamentinin 90 illik yubileyi münasibətilə ölkəmizdə səfərdə olan Avstriya, Kanada və Almaniya parlamentlərinin nümayəndələri kütləvi məzarlığı ziyarət edərkən, Avstriya Parlamentinin üzvü Karl Olinger bu dəhşətli soyqırımı barədə təmsil etdiyi qurumda məsələ qaldıracağına söz vermişdi.

Milli Məclisin sədri Oqtay Əsədov burada olarkən kütləvi məzarlıqda daha dərindən tədqiqat aparılması üçün beynəlxalq aləmdə tanınmış antropoloqların Azərbaycana dəvət ediləcəyini bildirmişdir. Qeyd etmişdi ki, bu yolla vaxtilə ermənilər tərəfindən törədilmiş vandalizm aktı bir daha sübuta yetiriləcəkdir.

Milli Məclisin deputatı Yevda Abramov isə bildirmişdi ki, elmi araşdırmalardan sonra məsələnin İsrail Knessetinin gündəliyinə salınması barədə bu ölkənin deputatları ilə müzakirələr aparmışdır. Məlumat vermişdir ki, “Qanlı dərə” döyüşündə yəhudilərin ermənilər tərəfindən qətlə yetirilməsi barədə sənədlər artıq ABŞ Senatına təqdim edilmişdir. Xatırlatmışdır ki, son məlumatlara görə, daha 14 yəhudi ailəsi ermənilər tərəfindən soyqırımına məruz qalmışdır. Onun sözlərinə görə, əldə olan sənədlər 1918-ci il hadisələri zamanı ermənilər tərəfindən 101 yəhudi ailəsinin qətliama məruz qaldığını təsdiq edir...

...Azərbaycan Parlament Jurnalistləri İctimai Birliyinin sədri Elşad Eyvazlı vurğulamışdır ki, Azərbaycana səfər edən hər bir qonaq Qubadakı kütləvi məzarlıqda gördüklərindən dəhşətə gəlmişdir. Bugünkü səfərin məqsədi məzarlıqla bağlı dəqiq məlumatların dünya içtimaiyyətinə çatdırılmasına nail olmaqdır. Bundan sonra da əraziyə tez-tez səfərlər təşkil ediləcək və ermənilərin törətdiyi bu faciə həqiqi qiymətini alacaqdır.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi Qəhrəman Ağayev jurnalistlərə məzarlıq haqqında geniş məlumat vermişdir. Demişdir ki, Qudyalçayın sağ sahilində tikinti zamanı aparılan qazıntı işləri nəticəsində burada kütləvi qətlləri təsdiq edən xeyli sayda insan sümükləri aşkar olunmuşdur. İlkin araşdırmalardan sonra bunların 1918-ci ildə erməni silahlı birləşmələrinin Qubaya basqını zamanı öldürülmüş yerli sakinlər olduğu müəyyən edilmişdir. Təhqiqat zamanı ərazidə sümüklə dolu 2 quyu və iki arx müəyyən edilmişdir. Birinci quyu 4 metr dərinliyində, 5 metr diametrində, ikinci quyu isə 2 metr dərinliyində, 2,5 metr diametrindədir. Yerli sakinlər şəhərdən kənarda qətlə yetirildikdən sonra gələcəkdə daşqınlar zamanı izin itirilməsi məqsədi ilə meyitlər çay kənarına gətirilərək yamacda qazılmış bu quyulara doldurulmuşdur. Meyitlər birinci quyuya yerləşmədiyindən ikinci quyu qazılmışdır. Tarixi parametrlər, ağsaqqalların dedikləri, arxiv sənədləri sübut edir ki, bu sümüklər XX əsrin əvvəllərində erməni silahlı dəstələri tərəfindən soyqırımına məruz qalmış yerli sakinlərə məxsusdur.

Qəhrəman Ağayev bildirmişdir ki, Qudyalçay sahilindəki kütləvi məzarlığın ümumi sahəsi 500 kvadratmetrdir. Quyulardakı kəllə sümükləri ilə arxlardakı əzalar arasında müəyyən fərqlər vardır. Buradakı sümüklərin əksəriyyəti büzüşmüş, yığılmışdır. Bizim şübhələrimizi yerli sakinlər də təsdiqlədilər. Belə ki, quyulara doldurulmuş sakinləri ərazidəki hamamda buxar vasitəsilə boğduqdan sonra bura gətirmişlər. Əlimizdə bunu təsdiqləyən faktlar vardır.

Natiq demişdir ki, məzarlıqda aşkar edilmiş cəsədlərin hamısı sübut edir ki, insanlar küt alətlərlə, insanlığa xas olmayan qəddarlıqla öldürülmüşdür. Bunun nəticəsidir ki, aşkar edilmiş insan cəsədlərinin sayını yalnız kəllə sümükləri ilə müəyyən etmək mümkündür. Məlum olmuşdur ki, məzarlıqdakı insan cəsədləri Qubada yaşayan azərbaycanlılarla yanaşı, ərazidə məskunlaşmış digər etnik qrupların nümayəndələrinə də məxsusdur. Deməli, ermənilər milliyyətindən, yaşından, cinsindən asılı olmayaraq hər kəsə divan tutmuş və insanları kütləvi şəkildə qətlə yetirmişlər. Arxiv materiallarına əsasən müəyyənləşdirilmişdir ki, Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyanın və Hərbi İnqilab Komitəsinin sədri Q.N.Korqanovun tapşırığı ilə 1918-ci il aprelin axırlarında erməni millətçilərindən təşkil edilmiş 2 min nəfərlik “cəza dəstəsi” adlandırılan hərbi qruplaşma Quba qəzasına göndərilmişdir. Erməni generalı Hamazaspın başçılıq etdiyi bu hərbi hissə Qubada 40 minə yaxın dinc əhaliyə divan tutmuş və nəticədə 1800 uşaq, 2 minə yaxın qoca və qadın qətlə yetirilmişdir. Onların bir qismi bu kütləvi məzarlıqda basdırılmışdır. Arxeoloji qazıntılar nəticəsində indiyədək 196 kəllə sümüyü aşkar edilmişdir. Ermənilər adamları qəddarlıqla öldürdüklərindən ərazidə bir dənə də bütöv skelet tapılmamışdır. Bu səbəbdən də ölənlərin sayı, təkrar edirəm kəllə sümükləri ilə müəyyənləşdirilir. Ərazidəki quyularda hələlik qazıntı işləri aparılmamışdır. Bu iş başlanandan sonra öldürülənlərin sayının artacağı şübhəsizdir. İndiyədək tapılmış kəllə sümüklərindən 44-ü müxtəlif yaşlı uşaqlara, 48-i qadınlara, qalanları isə kişilərə məxsusdur. Qazıntı zamanı ərazidə heç bir bəzək əşyası, paltar aşkar edilməmişdir. Bu da deməyə əsas verir ki, ermənilər qurbanlarını soyaraq əzab-əziyyətlə qətlə yetirmişlər. Ermənilər qətlə yetirilənləri bilərəkdən burada kütləvi şəkildə basdırmışlar. Düşünmüşlər ki, çayın suyu müəyyən vaxtdan sonra kütləvi məzarlığı yuyub, izi itirəcəkdir. Lakin təsadüf nəticəsində bu dəhşətli faciənin üstü açılmış və erməni xisləti bütün dünyaya bəlli olmuşdur. Bu təkzibedilməz faktın qarşısında heç bir yalan, iftira dayana bilməz.

Bildirilmişdir ki, yaxın vaxtlarda kütləvi məzarlıqda müvafiq muzey və baş vermiş dəhşətli facia ilə bağlı müxtəlif dillərdə məlumatları əks etdirən lövhə yaradılacaqdır. Həmçinin ərazidə böyük bir abidənin də inşa ediləcəyi nəzərdə tutulmuşdur. Bütün bunlar ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı siyasətinin bütün dünya ictimaiyyətinə dəqiq və düzgün çatdırılmasına xidmət edəcəkdir.

**AzərTAc**
**15 İyul, 2008-ci il**

**1906-cı il Şuşa hadisələrinə dair**

1905-ci il Şuşa hadisələrində Şuşa qəzasının dövlət idarələrinə rəhbərlik edən Taqaşvili Fleyser və Qoloşapov kimi çinovnikləri erməni daşnaklarının Qarabağın yerli türk-müsəlman əhalisinə qarşı düşmən hərəkətlərinin nəinki qarşısını almırdılar, əksinə onları yerli türk əhalisinə qarşı davaya təhrik edirdi. Bir il sonra Rusiya məmurlarının himayəsi ilə silahlandırılan erməni daşnakları Qarabağda öz mənfur niyyətlərini həyata keçirməyə başladılar. General Qoloşapovun yerinə Alftan təyin olundu. Erməni keşişi Aşot erməni qadınlarına ərizə yazdırıb imperatriçaya və qrafinya Voronsovaya göndərib general Qoloşapovun ikinci dəfə Şuşa qəzasına təyin olunmasına nail olmuşdu. General Qoloşapov ikinci dəfə Şuşaya gəldikdən sonra öz məkrli niyyətlərindən əl çəkmədi. O, Şuşaya gələn kimi ermənilərin məhəlləsində erməni Kələntərovun hazırladığı iqamətgahda yerləşdirildi. Onun əmri ilə Şuşanın türk əhalisinin məhəllələrində olan rus ordusunun topları erməni küçələrinə keçirildi. Rus ordusunun kazakları və əsgərləri isə erməni məhəlləsi səmtində olan Köçərli məscidinin ətrafında qurulmuş çadırlarda yerləşdirildi. Onun gəlişindən bir neçə gün sonra dörd müsəlman meyvə apardıqları vaxt ermənilər tərəfindən Əsgəranda öldürüldülər. Bir neçə gündən sonra isə bir neçə müsəlman öz bağlarını suvardıqları vaxt ermənilər tərəfindən öldürüldülər. Ermənilər Şuşanın türk-müsəlman əhalisinin Ağdam, Ağcabədi, Bərdə ilə əlaqəsini kəsmək üçün Əsgəran yolunu bağladılar. Onlar özlərinə hər tərəfdən kömək gəlməsinə şərait yaradır, türk-müsəlmanlara isə hər hansı yardım göstərilməsinə imkan vermirdilər.

1905-ci ilin payızında erməni silahlı dəstələri Cavanşir qəzasının Tərtər dərəsində yerləşən bütün türk-müsəlman kəndlərini dağıdıb, Ümüdlü kəndinin yüzlərlə sakinini vəhşicəsinə qırdılar, Xaçın dərəsini keçərək Sırxavənd kəndinə hücum etdilər. Qüvvələr bərabər olmadığından bir neçə döyüşdən sonra Sırxavənd əhalisi kəndi tərk etdi. Sırxavəndi qarət etdikdən sonra erməni silahlıları türk-müsəlman əhalisinin Dağbazar kəndlərini dağıtmaq fikri ilə Papravənd kəndinə hücum etmək üçün qəti qərara gəldilər. Erməni silahlı dəstələri Dağbazar türk-müsəlman kəndlərini dağıdıb Papravənd kəndinə hücuma hazırlaşdılar. 1906-cı il yanvar ayının 1-də Papravənd kəndinə hücuma keçdilər. Ağdamın Nəmirli, Qərvənd, Eyvazxanbəyli, Göytəpə, Boyəhmədli, Güllücə kəndlərindən Papravənd kəndinin köməyinə gəldilər. Bir günlük şiddətli döyüşdən sonra erməni daşnakları məğlub olub Ağdərə adlı erməni kəndinə çəkildilər. Ertəsi gün ermənilər yeni qüvvələrlə hücuma keçdilər. Döyüş vaxtı ermənilər toplardan da istifadə edirdilər. Bu döyüşlərdə erməni silahlılarından 120 nəfər öldürüldü, 200 nəfər ağır yaralandı. Türk-müsəlman döyüşçülərindən isə 15-i şəhid düşmüş və bir o qədər də yaralanmışdı. Erməni silahlıları geri çəkilməyə məcbur olmuşdular. Cənubi Qafqazda ilk ağır məğlubiyyətin əvəzini çıxmaq üçün erməni daşnak partiyası Tiflis, Gəncə, İrəvan, Bakı, Osmanlı Türkiyəsində yaşayan ermənilərə yazılı surətdə müraciət etdilər. Erməni daşnakları yazılı müraciətlərində hər kənddən 30-100 nəfər, şəhərlərdən isə minlərlə silahlı dəstələrin Şuşaya göndərilməsini tələb edirdilər. Tezliklə Şuşa şəhəri ətrafında general Qoloşapovun tədbiri ilə müxtəlif yerlərdən gəlmiş yeddi min erməni silahlısı cəmləşdi. Bu böyük canlı qüvvədən əlavə rus qoşunu tabeliyində 5 ədəd, ermənilərin tabeliyində altı ədəd top var idi. General Qoloşapov erməniləri əmin etmişdi ki, rus əsgərləri erməni silahlıları ilə birlikdə müsəlmanları qıraraq Böyük Məsciddən aşağı məhəllələrə qovacaqlar. General Qoloşapov Böyük Məscidə kimi Rastabazarı meydanı, Seytanabazarı və bütün digər evləri darmadağın edib yandırmağı öz üzərinə götürmüşdü.

Qoloşapovun Kələntərovla əvvəlcədən hazırladıqları tədbirə əsasən rus əsgərləri erməni keşikçilərindən birini öldürərək türk-müsəlmanlar yaşayan tərəfə atdılar və sonradan səs saldılar ki, müsəlmanlar erməni keşikçisini öldürərək başını kəsmiş və tüfəngini də aparmışlar. 1906-cı il iyul ayının 12-də bir neçə gün bundan əvvəl öldürülmüş erməni meyidini general Qoloşapova göstərib "budur bu saat sənin qonşuluğunda yaşayan müsəlmanlar qətlə yetirmişlər" demişlər. Qabaqcadan hazırlanmış hiyləyə əsasən rus əsgərlərindən iki nəfər də gedib müsəlman mövqeləri tərəfdən ermənilərin səmtinə atəşlər açırlar. Davanı başlamaq üçün bəhanə axtaran general Qoloşapov heç bir araşdırma aparmadan erməni silahlılarını səngərlərə bölüşdürdü. Rus əsgərləri də dəstə-dəstə gəlib türk-müsəlman əsgərlərinin müdafiə olunmaq üçün qurduqları səngərləri mühasirəyə aldılar. Qoloşapovun məsləhəti ilə ermənilər 1906-cı il iyul ayının 12-də günorta vaxtı məscidin minarəsində müəzzin axırıncı "la ilahə illallah" sözlərini deyən məqamda ona tərəf bir güllə atdılar. Güllə müəzzinə toxunmayıb minarənin sütununa dəydi. Eyni zamanda general türk-müsəlman əhalisi yaşayan Köçərli məhəlləsini top atəşinə tutmağı əmr verdi. Eyni zamanda bir tərəfdən rus kazak dəstələri və əsgərləri, digər tərəfdən erməni könüllüləri türk müsəlmanlara qarşı davaya başladılar. Rus əsgər və kazakları və erməni silahlıları müsəlmanların səngərlərini gülləbaran etməyə başladılar. Rus əsgərləri ermənilərlə birləşərək Köçərli məhəlləsinin məscidinə və yaşayış evlərinə od vurdular. Beş gün ərzində erməni məhəlləsinə yaxın olan bütün türk-müsəlman əhalisinin evləri top atəşləri ilə dağıdıldı. Qoloşapovun rəhbərliyi ilə on bir topdan bir gün ərzində Şuşanın türk-müsəlmanlarına qarşı yüz iyirmi dəfə atəş açılmışdı. Şuşanın türk-müsəlman əhalisinin cəmi bir topu var idi ki, onu da Şuşalı bir türk ustası brüncdən tökmüşdü. Bu bir topu təkərlərin üstünə qoyub səngərləri dolandırıb, hər səngərdən bir neçə dəfə ermənilərə tərəf atəş açırdılar. Bu bürünc topun gurultusu rus və erməni topçularını

vahiməyə salırdı. Şuşanın Divanxana darvazasından atanda Qız kilsəsi yanında bir darvazanı darmadağın etdi. Alamayı səngərindən yuxarı meydana tərəf atanda on səkkiz erməni silahlısı yaralandı və öldü. Dava başlayanda erməni və rus əsgərlərinə qarşı vuruşan Qalada-Şuşada yaşayan türk-müsəlman igidləri və cavanları idi. Şuşada 1906-cı il iyul ayında baş verən erməni-rus təcavüzünə qarşı bütün türk-müsəlman kişi əhalisi ilə yanaşı qadınlar da iştirak etmişlər. Qadınlar ermənilərə qarşı ölüm-dirim savaşı aparan atalarına, qardaşlarına, oğul və əsgərlərinə hərbi sursat daşıyırdılar. Dava başlanan üçüncü günün gecəsi və sabahı Sultan bəy Paşa bəy oğlu və İbrahim bəy Əli Məhəmməd bəy oğlunun başçılığı altında minlərlə igid və təcrübəli döyüşçülərdən ibarət cavanlar sursatla Qalaya-Şuşaya daxil oldular. Onlar evlərdə, məscidlərdə yerləşdirildilər. Üçüncü gün köməyə gələn türk-müsəlman silahlıları döyüşə başladılar. Bu andan ermənilərin tələfatı daha da artdı. İbrahim bəy öz dəstəsilə hücuma keçərək erməni silahlılarını yuxarı Xəlfəli qapısına tərəf çəkilməyə məcbur etdi. Ermənilər çəkildikləri mövqelərdə də xeyli itki verərək daha da yuxarıya tərəf çəkildilər. Ermənilərin ağır vəziyyətini görən general Qoloşapov rus qərargahlarında olan əsgər və zabitlərin müharibəyə qoşulmalarını əmr etdi. Qəflətən ermənilər tərəfindən atılan güllə İbrahim bəyi şəhid etdi. Beşinci gün müsəlmanların üstünə ümumi hücum başladı. Ermənilər hücumlarda xeyli təlafat verib geri cəkilməyə məcbur oldular.

1906-cı il iyul ayının 12-dən 17-nə kimi beş gün gecə-gündüz davam edən davadan sonra ermənilər məğlub oldular. Müharibədən beş-altı gün sonra general Qoloşapov erməni və rus kilsələrinin baş keşişlərini, onlarla bərabər əllərində ağ və qırmızı bayraq bir dəstə rus əsgər və kazaklarını özü ilə götürüb musiqi çala-çala gəlib müsəlman meydanında durdu. General məscidə gəlib bu iki millət arasında sülh yaratmaq üçün camaatla danışdıqdan sonra, qazi və bir neçə nəfərlə müsəlman səngərlərinə getdilər. Səngərlərə baş cəkərək erməni meydanına gəldilər. Orada nitq söyləyib dağılışdılar. 1906-cı il iyulun 12-17-də beş gün davam edən şiddətli davada "Difai" təşkilatının böyük xidmətləri olmuşdur. Döyüşlərdə türk-müsəlman əhalisi tərəfindən 18 nəfər şəhid olmuşdur. Onlardan beş nəfəri tanınmış döyüşkən gənclərdən, qalanları isə küçə və evlərinin yanında ermənilər tərəfindən atəş açılaraq vurulub öldürülmüş qocalardan ibarət idi, 21 nəfəri isə yaralanmışdı. Şəhid olmuş müsəlmanlar məscidlərin həyətində dəfn olundular. Ermənilərdən isə 700-ə qədəri ölmüş, 287 nəfəri isə yaralanmışdı. Ölən ermənilərin 35 nəfəri Gəncədən, 100 nəfəri İrəvandan, 41 nəfəri daşnaksütun partiyasının üzvlərindən idi. Xankəndində olan rus hərbiçilərinin söylədiklərinə görə şəhərdən 400-ə qədər erməni ölülələri arabalarda kənara daşınmışdı. Şuşada gizlədilmiş erməni ölülərinin sayı isə məlum olmadı. On bir nəfər erməni döyüşdə əl və ayaqlarını itirmişdi. Rus hərbiçilərindən isə 31 nəfər ölmüşdü. Qoloşapov dövlət tərəfindən Qalanın-Şuşanın hakimliyindən çıxarıldı. O, 1906-cı il oktyabrın 19-da Şuşadan çox vahimə ilə çıxıb Tiflisə getdi. 1906-cı il noyabr ayının 1-də Tiflisdə general Qoloşapov faytona oturarkən "Difai" təşkilatının üzvü Ağdam bölgəsi Gülablı kənd sakini Hüsnü adlı bir nəfər tərəfindən iki dəfə atəş açılaraq ağır yaralanmış və bir neçə gün sonra ölmüşdür.

**Tofiq Həsənov,**
**"Qarabağ dünən, bu gün və sabah".**
**7-cı elmi-əməli konfransının materialları. 2008-cı il.**
**http://karabakh-doc.azerall.info/ru/articls/artc123az-27.php**

**1948-1953-cü illər deportasiyasının bəzi məqamları**

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası son 200 ildə soydaşlarımızın başlarına gətirilən faciələr silsiləsinin bir həlqəsidir. Deportasiya və yaxud əhalinin zorakılıqla miqrasiyası sovet hakimiyyəti illərində müxtəlif üsullarla həyata keçirilən siyasi repressiyanın xüsusi forması idi. Etnik təmizləmə məqsədini güdən bu aksiya həm administrativ xarakter daşıdığı üçün, həm də Ermənistanda yaşayan xalqlardan yalnız birinə − azərbaycanlılara şamil edildiyi üçün siyasi repressiya kimi xarakterizə edilməlidir. Min illər ərzində müəyyən arealda formalaşmış toplumun gözlənilməz bir qərarla tarixi köklərindən qoparılaraq yurdsuzlaşdırılması isə bu aksiyanın qeyr-insani, anti-humanist xarakterinə dəlalət edirdi.

1948-1953-cü illər deportasiyasının səbəblərini müəyyən etmək üçün həmin dövrdə gedən proseslərə nəzər salmaq lazımdır. İkinci dünya müharibəsinin sonuna yaxın SSRİ-nin Türkiyə ilə münasibətləri həddindən artıq kəskinləşmişdi. 1945-ci il martın 19-da SSRİ hökuməti hələ 17 dekabr 1925-ci ildə imzalanan və sonradan müddəti dəfələrlə uzadılan iki ölkə arasında dostluq və neytrallıq haqqında müqaviləni birtərəfli qaydada denonsasiya etmişdi. Ləğv edilən həmin müqavilədə bir-birinə hücum etməmək və neytrallığa əməl etmək barədə öhdəliklər var idi. Bu addım ona işarə idi ki, Sovet İttifaqı Türkiyəyə hücuma hazırlaşır. Sadəcə olaraq, Almaniya cəbhəsində müharibənin qurtarmasını gözləmək lazım gəlirdi. SSRİ rəhbərliyi öz hərəkətini onunla izah edirdi ki, 1942-ci ildə almanlar Şimali Qafqaza gəlib çıxanda, Türkiyə öz qoşunlarını Cənubi Qafqaz sərhədlərinə cəmləşdiribmiş və Sovet qoşunlarının həmin cəbhədə məğlub olacağı təqdirdə, guya hücuma keçmək istəyirmiş. Türkiyənin 1944-cü ilin avqustunda Almaniya ilə əlaqələrini kəsməsini və 1945-ci il fevralın 23-də ona qarşı müharibə elan etməsini SSRİ rəhbərliyi gecikmiş addım kimi qiymətləndirir və Türkiyəni "cəzalandırmaq" istəyirdi.

Müharibədən qalib çıxan SSRİ-nin öz sərhədlərini genişləndirmək siyasəti müharibədən sonra formalaşmağa başlayan Stalin-Molotov doktrinasının əsasını təşkil edirdi. 1945-ci il iyunun 7-də SSRİ xalq xarici işlər komissarı V. Molotov Türkiyənin SSRİ-dəki səfiri S. Sarperi dəvət edərək Boğazlara birgə nəzarət, Bosfor və Dardanel rayonunda Sovetlərə hərbi baza verilməsi, Qars və Ərdahanın SSRİ-yə qaytarılması haqqında Sovet hökumətinin tələblərini elan etmişdi. İyunun 18-də V. Molotov S. Sarperlə yenidən görüşərək “tarixi ədalətsizliyin bərpa edilməsi üçün Qars və Ərdahanın qaytarılmasını” ultimativ qaydada yenidən irəli sürmüşdü.

Belə bir məqamda ermənilərin Türkiyəyə qarşı ərazi iddiası ilə SSRİ-nin sərhədlərini genişləndirmək planları üst-üstə düşürdü. SSRİ-nin Türkiyədən qopartmaq istədiyi əraziləri məskunlaşdırmaq problemi qarşıya çıxmışdı. Sovet rəhbərliyi bu problemi xaricdə yaşayan Türkiyə əsilli ermənilərin hesabına həll etmək niyyətində idi. Qarşıdan isə bütün ermənilərin katolikosunu seçmək kampaniyası gəlirdi. 1945-ci il aprelin 3-də bütün ermənilərin katolikosunun seçkiləri ərəfəsində Eçmiədzin kilsəsinin arxiyepiskopu Gevorq VI Çörəkçyan mövcud problemlərin həlli ilə bağlı İ. Stalinə məktubla müraciət etmişdi. İ. Stalin bu məqamdan istifadə edərək, arxiyepiskop Gevorq Çörəkçyanı Moskvaya çağırır. Aprelin 19-da Gevorq Çörəkçyan SSRİ Nazirlər Sovetinin nəzdindəki Dini İşlər Şurasının sədri Polyanskinin müşayiəti ilə Stalinlə görüşür. Stalin əvvəllər Eçmiədzin kilsəsinə məxsus olmuş torpaqların qaytarılması tələbindən başqa, arxiyepiskopun bütün xahişlərinin yerinə yetiriləcəyini bildirir. Çünki həmin torpaqlar artıq kolxozlara məxsus idi və qaytarılması böyük narazılıqlar yarada bilərdi. Görüşün sonunda Stalin deyir: "Tezliklə müharibə qurtaracaq. Bizim hökumət 1920-ci ildə Ermənistanın Türkiyəyə verilmiş qərb quberniyalarını geri qaytarmaq istəyir. Aydındır ki, həmin torpaqlarda ermənilər yaşamalıdırlar. Arzu olunandır ki, onlar Türkiyədən qaçmış və hazırda xaricə səpələnmiş ermənilər olsunlar. Ona görə də təqribən yüz min ermənінin immiqrasiyasını təşkil etmək lazımdır. Tezliklə bu barədə hökumətin qərarı olacaq. Siz də öz növbəsində bu işdə bizə kömək etməlisiniz". Bunları eşidən Gevorq sevincini gizlədə bilmir. O, bu məsələnin həllində hər cür köməklik ediləcəyini vəd edir və eyni zamanda bildirir ki, Ermənistanda iqtisadi vəziyyət ağırdır və xaricdən gələcək bu qədər ermənini mənzillə və ərzaqla təmin etmək mümkün olmayacaq. Stalin cavab verir: "Eybi yoxdur, biz hər şeyi edərik, təki repatriantlar sıxıntı çəkməsinlər". Məhz bu görüşdən sonra ermənilərin xaricdən Ermənistana köçürülməsinə ciddi hazırlıq görülür. “Hər şeyi edərik” dedikdə isə Stalin xaricdən köçürülüb gətiriləcək ermənilərin mənzil problemlərinin azərbaycanlıların Ermənistandan deportasiya edilməsi yolu ilə həll edilməsini nəzərdə tuturdu.

1945-ci il mayın 15-də Ermənistan Kommunist Partiyasının 1-ci katibi Q. Arutyunov məktubla İ. Stalinə müraciət edərək xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına qaytarılmasını xahiş edir.

İyunun 22-də arxiyepiskop Gevorq Çörəkçyan bütün ermənilərin katolikosu seçilir. Katolikosun seçilməsi münasibətilə müxtəlif ölkələrdən Eçmiədzinə gələn din xadimləri fürsətdən istifadə edərək Sovet hökumətinə müraciət edirlər ki, Qars və Ərdahanın Ermənistana birləşdirilməsi məsələsini həll etsin.

Berlin (Podstam) konfransının gedişində SSRİ xalq xarici işlər komissarı V. Molotov Böyük Britaniyanın xarici işlər naziri A. İdenlə iyulun 16-da keçirilən görüşü zamanı bildirmişdi ki, 1921-ci ildə Sovet dövlətinin zəifliyindən istifadə edən türklər Sovet Ermənistanının bir hissəsini qoparmışlar. Bunun nəticəsində də ermənilər Sovet İttifaqında özlərini incik hesab edirlər. Molotov bu səbəbdən də SSRİ-nin vaxtilə ona məxsus olmuş ərazilərin qaytarılması məsələsini qaldırdığını bildirir. İden Molotova cavab verir ki, ingilislər heç vaxt Sovet İttifaqının ərazi iddiası olduğunu eşitməmişlər. Molotov bildirir ki, Sovet İttifaqının Türkiyəyə qarşı ərazi iddiası ona görə meydana çıxıb ki, Türkiyə SSRİ ilə ittifaq müqaviləsinin imzalanmasını təklif edir. Sovet hökuməti də buna öz şərtlərini irəli sürməklə cavab vermişdir. Molotov Sovet Ermənistanından kənarda 1 milyon erməninin yaşadığını və onların "vətənə qayıtmaq arzusunda olduqlarını" bildirir. Dövlət başçılarının iyulun 22-də və 23-də keçirilən görüşlərində də Stalin və Molotov SSRİ-nin Türkiyəyə qarşı ərazi iddiasını qaldırırlar. Molotov dövlət başçılarına xəritədə Qars, Artvin və Ərdahanı göstərərək, həmin ərazilərin 1921-ci ildə Ermənistan və Gürcüstandan qoparıldığını iddia edir.

1945-ci il noyabrın 21-də SSRİ Xalq Komissarları Soveti "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul edir. Bu qərara və katolikos Gevorq Çörəkçyanla Stalin arasında olan razılaşmaya əsasən, Eçmiədzin kilsəsi xaricdəki erməni din xadimlərinə, partiyalara, xeyriyyə təşkilatlarına, erməni diasporunun tanınmış nümayəndələrinə müraciətlər göndərir ki, ermənilərin repatriasiyasını təşkil etsinlər. Həmin ilin payızında Ermənistan hökuməti yanında repatriantların qəbulu və yerləşdirilməsi üzrə xüsusi Komitə yaradılmış və ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə respublika hökuməti öz nümayəndələrini göndərmişdi. Artıq Qars və Ərdahanın Ermənistana birləşdiriləcəyinə əmin olan ermənilər fürsətdən istifadə edib Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istəyirlər. M. Qorbaçovun ən yaxın məsləhətçilərindən biri, SSRİ dağılanadək Sov.İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini olmuş Karen Brutens (onun atası Nerses Brutens Azərbaycan SSR Nazirlər Sovetində şöbə müdiri işləmiş və digər şöbə müdiri R.Sevumyanla birlikdə 1948-1953-cü illərdə azərbaycanlıların deportasiyası prosesinə rəhbərlik edənlərdən biri olmuşdur) "Тридцать лет на Старой площади" ( Moskva, 1998) kitabında bu barədə yazır: "Hər 10-15 ildən bir ermənilər Dağlıq Qarabağ məsələsini qaldırır və tələb edirlər ki, vilayət tarixi vətənin kiçik bir hissəsi olan sovet Ermənistanına birləşdirilsin. Yeri gəlmişkən, Stalin faşist Almaniyası ilə əməkdaşlığına görə, Türkiyəni cəzalandıraraq ədaləti bərpa etmək istəyirdi. Türkiyənin azad ediləcək erməni torpaqlarında iki vilayət partiya komitəsi yaradılmalı idi. Məsələn, Qars vilayət partiya komitəsinin birinci katibi vəzifəsinə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi A. Koçinyan təsdiq edilmişdi". K. Brutens yazır ki, 1945-ci ilin sonu, 1946-cı ilin əvvəlində Ermənistan KP MK-nın birinci katibi Arutyunov xaricdə ermənilərin kütləvi repatriasiyasını əsas götürərək, Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsi məsələsini ÜİK (b) P MK-nın ikinci katibi Malenkovla müzakirə etmişdi.

Həqiqətən də Q. Arutyunovun Moskvaya müraciətindən sonra 1945-ci il noyabrın 28-də Q.Malenkov Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbini M. C. Bağırova göndərir. 1945-ci il dekabrın 10-da M. C. Bağırov cavab verir ki, o, Şuşa istisna olmaqla, Q. Arutyunovun tələbi ilə o şərtlə razıdır ki, Ermənistanın Əzizbəyov, Vedi, Qarabağlar rayonları Azərbaycana birləşdirilsin. Bundan sonra həmin məsələ qapadılmış, əvəzində azərbaycanlıların Ermənistandan deportasiyası məsələsi ciddiləşmişdi.

SSRİ Türkiyəyə hücum etmək üçün hərbi qüvvələrini Ermənistan sərhədi boyunca cəmləşdirmişdi. 1946--cı il avqustun 7-də SSRİ-nin verdiyi notada Türkiyənin müharibə dövründə Almaniyaya göstərdiyi hərbi yardımlar xatırlanmış, gələcək hücum üçün zəmin bir növ hazırlanmışdı. Həmin dövrdə Türkiyənin etdiyi diplomatik manevrlər onu müharibədən qalib çıxmış SSRİ-nin cəngindən qurtardı. Türkiyəyə hücum etmək niyyətindən əl çəkən Sovet hökuməti SSRİ Ali Sovetinin 19 oktyabr 1946-cı il tarixli fərmanı ilə xaricdən Ermənistana "qayıdan" ermənilərə SSRİ ərazisinə daxil olduqları andan etibarən SSRİ vətəndaşı statusu vermək məcburiyyətində qalmışdı. Keçmiş SSRİ ərazisində yalnız ermənilər üçün tətbiq edilən bu sadələşdirilmiş qayda 1936-cı il SSRİ Konstitusiyasına zidd idi. Çünki həmin Konstitusiyanın 123-cü maddəsində göstərilirdi ki, SSRİ vətəndaşlarının hüquq bərabərliyi sarsılmaz qanundur. İrqi və milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşların hüquqlarının hər hansı şəkildə pozulması, açıq-açığına və dolayı yolla onlara üstünlük verilməsi, həmçinin irqi və ya milli müstəsnalığın, yaxud nifrət və etinasızlığın hər cür təbliği qanunla cəzalandırılır. Deməli, hələ 1946-cı ildə ermənilərin xatirinə milli ayrıseçkiliyə yol verilmiş, SSRİ Konstitusiyası pozulmuşdu.

1946-cı ildə Suriya, Yunanıstan, Livan, İraq, Bolqarıstan və Rumıniyadan 50 min 900 nəfər erməni immiqrasiya edilmişdi. 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35,4 min nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirilmişdi. Ermənistan rəhbərliyi 1946-cı ilə nisbətən 1947-ci ildə xaricdən köçürülən ermənilərin sayının azalmasının səbəbini onunla izah edirdi ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər. Ermənistan rəhbərliyi xaricdən gələn erməniləri qəsdən dəmiryol stansiyalarında saxlatdırır, onlar arasında təbliğat aparırdı ki, əgər İrəvanın ətraf rayonlarında yerləşdirilməsələr, geriyə - xaricə qayıtmaq haqqında Moskvaya teleqramlar vursunlar. Onlar bütün bunların Sovet höku-

mətinin xarici ölkələrdə nüfuzuna mənfi təsir edəcəyini İ. Stalinin nəzərinə çatdırdılar. Xaricdən isə hər gün Ermənistana köçmək arzusunda olan minlərlə ermənilərin siyahısı Moskvaya təqdim edilirdi.

Xaricdə fəaliyyət göstərən «Hnçak» və «Ramkavar» partiyaları, habelə Ümumerməni Xeyriyyə İttifaqı köçürülmənin təşkili üçün 1 milyon dollar xərcləmişdilər.

1947-ci il iyulun 12-də Türkiyənin ABŞ-la imzaladığı yardım haqqında müqavilə birdəfəlik onu bütün təhlükələrdən xilas etdi. Bununla da SSRİ Türkiyəyə qarşı ərazi iddiasından əl çəkmək məcburiyyətində qaldı.

Ermənilər Qars və Ərdahanı Ermənistana birləşdirmək istəklərinə nail ola bilməsələr də, digər istəklərinə nail oldular. 1947-ci il dekabrın 23-də İ. Stalin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin 4083 nömrəli qərarını imzaladı.

Həmin qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipi əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. 1948--ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana kələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər.

23 dekabr 1947-ci il tarixli qərarda azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarından köçürülmələrinin səbəbi göstərilməmişdi. Yalnız qərarın 10-cu maddəsində Ermənistan və Azərbaycan nazirlər sovetlərinə tapşırılırdı ki, həmin qərarın yerinə yetirilməsi üçün bir ay müddətində konkret tədbirlər planı hazırlasınlar və SSRİ Nazirlər Sovetinə məruzə etsinlər.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 2 fevral tarixli qərarına əsasən 1948-ci ildə Ermənistandan köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirməyi planlaşdırır. Qərarda Salyan, Saatlı, Sabirabad, Əli-Bayramlı, Puşkin, Ağcabədi və Xıllı rayon icraiyyə komitələrinə tapşırılır ki, 1948-ci il fevralın 15-dək köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq, onları lazımi nəqliyyat vasitəsilə təmin etmək, yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları aşkar etmək və uçota götürmək, kolxozlarda köçürülmə ilə əlaqədar geniş izahat işləri aparılsın.

10 mart 1948-ci il tarixdə SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il tarixli qərarına əlavə olaraq, İ. Stalinin imzası ilə 754 nömrəli ikinci qərar qəbul etmişdi. Bu qərarda isə köçürmə ilə əlaqədar olaraq SSRİ hökumətinin, habelə Azərbaycan və Ermənistan nazirlər sovetlərinin qarşısında konkret tədbirlərin həyata keçirilməsi vəzifəsi qoyulmuşdu.

Həmin qərarların icrası ilə əlaqədar 1948-ci il iyulun 9-da Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyev SSRİ Nazirlər Soveti sədrinin müavini V. Molotova məktubla müraciət edir ki, köçürülənlərin qəbulu üçün hazırlıq işlərinin qeyri-qənaətbəxş olmasını, azərbaycanlıların əsasən Ermənistanın dağlıq rayonlarında yaşamalarını, Kür-Araz ovalığı rayonlarında yaşayış evlərinin olmadığını, torpağın yararlı hala salınmadığını nəzərə alaraq, Ermənistan azərbaycanlılarının yaşayış üçün daha əlverişli olan zonalara köçürülməsinə icazə verilməsini xahiş etmişdi. O, təbii iqlim şəraiti, iqtisadi potensialı və ciddi işçi qüvvəsinə ehtiyacı olan üç qrup rayona köçürülməni təklif etmiş və bunu aşağıdakı kimi əsaslandırmışdı:

1. Kür-Araz ovalığının qərb rayonlarına, o cümlədən Qasım İsmayılov, Səfərəliyev, Tovuz, Qazax və Ağstafa rayonlarına (heyvandarlığın, pambıqçılığın və əkinçiliyin sürətli inkişafını təmin etmək üçün).
2. Xaçmaz, Dəvəçi, Xudat, Qusar və Quba rayonlarına (Bakı şəhərini meyvə-tərəvəzlə təmin etmək üçün).
3. Gədəbəy (kartof istehsalını artırmaq üçün) Zaqatala, Qax, Nuxa, Vartaşen və Qutqaşen rayonlarına (əkinçilik və heyvandarlığın inkişafı üçün).

Lakin SSRİ Nazirlər Soveti T. Quliyevin xahişinə məhəl qoymamışdı.

Ermənistandan köçürüləcək əhali arasında təbliğat aparmaq, onların köçürülməsini sürətləndirmək, yerlərdə qarşıya çıxacaq problemləri həll etmək məqsədilə 25 nəfərdən ibarət qrup Ermənistana göndərilmişdi. Ermənistanda da dövlət komissiyası yaradılmışdı. Komissiyanın tərkibinə həmin dövrdə Ermənistanda rəhbər vəzifələrdə işləyən azərbaycanlılar da daxil edilmişdi. İrəvan şəhəri Spandaryan rayon Soveti İcraiyyə Komitəsinin sədri Rza Şeyxzadə, Qarabağlar rayon komitəsinin katibi İbiş Abbasov, "Sovet Ermənistanı" qəzetinin redaktoru Cəfər Vəlibəyov, Keşişkənd (Mikoyan, sonralar Yeğeqnadzor) rayon partiya komitəsinin ikinci katibi Əziz Cəfərov, Basarkeçər rayon partiya komitəsinin birinci katibi Talıb Musayev həmin komissiyanın üzvü kimi əhali arasında təbliğat işi aparmağa təhkim edilmişdilər. Komissiya üzvləri köçürülməsi nəzərdə tutulan kəndlərdə olur, bu qərarın icrasının məcburiliyini xalqa başa salır, Azərbaycanda yerləşdirilməsi nəzərdə tutulan rayonlara nümayəndələr göndərir, Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə məsələləri ilə əlaqədar Ermənistan SSR-də yaradılan nümayəndəliyinin əməkdaşları ilə məsləhətləşmələr aparırdılar. İrəvan Pedaqoji Texnikumunun və İrəvan Pedaqoji İnstitutunun təhsil Azərbaycan dilində olan fakültələrinin Azərbaycana köçürülməsinə yardım

etmək üçün Azərbaycan Pedaqoji İnstitutunun rektoru A.Seyidov, şair və ədəbiyyatşünas alim Cəfər Xəndan da Ermənistana göndərilmişdilər.

Köçürülmə işlərinin vəziyyəti ilə yerlərdə tanış olmaq və onu vaxtında başa çatdırmaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev və digər məsul şəxslər Ermənistana gəlmiş, köçürülməsi nəzərdə tutulan kəndlərin əhalisi ilə görüşmüş, onlar üçün Azərbaycanda lazımi şərait yaradılmasına, mənzillə, həyətyanı torpaq sahəsi ilə, ev heyvanları ilə təmin ediləcəklərinə zəmanət vermişdilər. Eyni zamanda Azərbaycandan gəlmiş nümayəndə heyəti Azərbaycanın daxili imkanlarının məhdudluğunu nəzərə alaraq, köçürülmə prosesinin tədricən həyata keçirilməsini Ermənistan rəhbərlərindən xahiş etmişdi.

Plana əsasən 1948-ci ildə Ermənistandan 11.244 nəfər (2.278 təsərrüfat) köçürülməli idi. O cümlədən, yazda 6350 nəfər (1.159 təsərrüfat), payızda isə 4884 nəfər (1119 təsərrüfat) köçürülməli idi. Həmin ildə Ermənistan SSR-in Artaşad, Basarkeçər, Eçmiədzin, Noyemberyan, Hoktemberyan, Beriya adına, Vedi, Zəngibasar, Kotayk rayonlarından və İrəvan şəhərinin özündən azərbaycanlıların köçürülməsi nəzərdə tutulmuşdu.

Köçürülməsi nəzərdə tutulan və tutulmayan rayonlardan müxtəlif təzyiqlərə məruz qaldıqları üçün pərakəndə halda Azərbaycana köçənlər də olmuşdu. Təkcə Dərələyəzin Safolar, İstisu (Cermuk) kəndlərinin 70 təsərrüfatından 46-sı erməni qonşularının təzyiqinə dözməyərək, 1948-ci ilin noyabrında pərakəndə halda Kəlbəcər dağlarını aşıb Azərbaycana qaçmışdılar. Qarlı dağ aşırımlarını keçərkən əhalidən 40 nəfəri, o cümlədən 20--yə yaxın uşaq borana düşüb ölmüşdülər.

Rəsmi məlumata görə 1948-ci ildə Ermənistandan Azərbaycana 2357 ailə (11046 nəfər) gəlmişdir. Lakin köçürülənlərin əksəriyyəti SSRİ Nazirlər Sovetinin qərarlarında göstərildiyi kimi, mənzillə təmin edilməmiş, köçürülənlər üçün nəzərdə tutulan imtiyazlar kağız üzərində qalmışdı. Köçürülmənin birinci ilində əhalinin əksəriyyəti qaramal tövlələrində, yaşamaq üçün yararsız olan uçuq-sökük ictimai binalarda yerləşdirilmişdi.

Vəziyyətin dözülməz olduğunu nəzərə alaraq, 1949-cu il sentyabrın 21-də Azərbaycan SSR Nazirlər Soveti SSRİ Nazirlər Sovetinə müraciət edir ki, həmin il köçürülmə planı 12-15 min nəfərə endirilsin. Lakin SSRİ Nazirlər Soveti planda nəzərdə tutulan 40 min nəfərin köçürülməsini təkidlə tələb etmişdi. 1949-cu ilin oktyabr ayına olan məlumata görə, Ermənistandan 983 təsərrüfat (4000 nəfər) köçürülmüş, 1500 təsərrüfatı birləşdirən 6000 nəfərə isə köçürülmə biletləri verilmişdir. Hətta Ermənistanda benzin çatışmadığından köçürmə planını vaxtında yerinə yetirmək məqsədilə Azərbaycan öz yanacaq fondundan əhalini dəmiryol stansiyalarına gətirmək üçün 60 ton benzin ayırmışdı. 1949-cu il dekabrın 2-nə olan məlumata görə Ermənistandan 2368 təsərrüfat (10595 nəfər) köçürülmüşdür. Köçürülənlər əsasən Zərdab, Əli-Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşir, Salyan, İmişli, Sabirabad, Jdanov, Yevlax, Ucar, Saatlı rayonlarında yerləşdirilirlər.

Həmin ildə Əzizbəyov, Axta, Basarkeçər, Zəngibasar, Noyemberyan, Mikoyan, Kotayk, Spitak, Dilican, Abaran, Gorus, Kalinino, Martuni, Nor-Bayazid, Beriya, Allahverdi, Hoktemberyan, Eçmiədzin, Amasiya və Kirovakan rayonlarının müəyyən qisim azərbaycanlı əhalisi deportasiyaya məruz qoyulmuşdu.

1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P Mərkəzi Komitəsi "Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1949-cu illərdə Ermənistan SSR-dən 4674 təsərrüfat (təqribən 20000 nəfər) köçürülmüşdür. Köçürülənlərdən 1410 ailə yerli sovetlər və kolxozlara məxsus evlərdə, 3264 ailə isə yerli kolxozçuları sıxışdırmaq hesabına yerləşdirilmişdir. Həmin qərarda qeyd edilmişdi ki, iki ildə köçürülələr üçün cəmi 80 təzə ev tikilmişdir.

Azərbaycan SSR Nazirlər Soveti 1950-ci ildə 3419 ailənin (13361 nəfər) köçürülməsi haqqında qərar qəbul etsə də, faktiki olaraq, rəsmi və qeyri-rəsmi köçürülmələrin sayı nəzərdə tutulduğundan xeyli artıq olmuşdu, 1950-ci ildə köçürülənlər üçün 3500 ev tikmək planlaşdırılmış, faktiki isə 470 ev tikilmiş, 1488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin edilməmişdi.

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından mümkün qədər sürətlə çıxarılmasını təmin etmək üçün Ermənistan hökumətinin ən qəddar üsullara əl atdığını həmin dövrün rəsmi sənədlərindən də görmək olar. Ermənistandan azərbaycanlıların köçürülmə məsələləri üzrə Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəsi Əliyevin Ermənistan SSR Nazirlər Soveti yanında Köçürülmə İdarəsinin rəisi Karapetyana və Nazirlər Soveti sədrinin müavini Piruzyana ünvanlanmış 28 noyabr 1949-cu il tarixli məktubunda qeyd edilirdi: "Son zamanlar Amasiya, Spitak və Vedi rayonlarının ayrı-ayrı təşkilatları köçürülmə barədə sənədlərin tam rəsmiləşdirilməsini, kolxozçuların köçürülməyə razılıq vermələrini gözləmədən, təsərrüfatları köçürmək üçün sürətli hazırlıq işləri aparırlar. Həmin təşkilatlar bu təsərrüfatların əmlakını bölüşdürür, kolxozları məcbur edirlər ki, yemi satsınlar və hətta nə vaxt yola düşəcəklərini göstərsinlər. Onlar kolxozçuların bu və ya digər rayona köçürülmək arzusunda olub-olmaması ilə hesablaşmırlar, halbuki hökumətin köçürülmə barədə qərarına əsasən, kolxozçuların nümayəndələri köçürüləcəkləri yerləri qabaqcadan görüb baxmalı və öz istəklərinə uyğun yerlər seçməlidirlər. Köçürülmə qaydalarının bu cür pozulması isə kolxozçuları məcbur edir ki, onlar yuxarı təşkilatlara şikayət etsinlər, onların köçmək istəmədikləri rayonlara köçürülmələrindən narazı olduqlarını bildirsinlər".

SSRİ hökumətinin azərbaycanlıların köçürülməsi haqqında verdiyi qərarlar Ermənistan hökumətinə şans vermişdi ki, İrəvan ətrafında Ermənistanın sərhədləri boyunca mövcud olan azərbaycanlı yaşayış məntəqələri birdəfəlik xəritədən silinsin. Ermənistan hökumətinin nümayəndələri azərbaycanlı əhalinin köçürülməyə psixoloji cəhətdən hazırlanması üçün müxtəlif şayiələr buraxırdılar. 1948-ci il mayın 3-də Ermənistan SSR-in daxili işlər naziri Xoren Qriqoryanın Mircəfər Bağırova göndərdiyi “Azərbaycanli əhalinin qarşıdan gələn köçürülmə ilə əlaqədar əhval-ruhiyyəsi haqqında arayış”da xüsusən dağlıq rayonlarda əhalinin köçürülməyə kəskin mənfi münasibət göstərildiyi qeyd olunur. Həmin arayışda Amasiya, Zəngibasar, Bedi, Basarkeçər, Artaşat, Qarabağlar, Hoktemberyan, Qafan, Meğri və Sisyan rayonlarında yaşayan ayrı-ayrı azərbaycanlıların narazılıqlarının motivləri ifadə olunmuşdur. Arayışda diqqəti çəkən məqamlardan biri də ondan ibarətdir ki, ayrı-ayrı ermənilərin ifadələri ilə, dolayısı ilə olsa da, rəsmi Ermənistanın mövqeyi çatdırılır. Ermənilər Türkiyə ilə sərhəd boyunda məskunlaşmış azərbaycanlılar arasında qabaqcadan belə bir xəbər yaymışdılar: "Azərbaycanlıların Ermənistandan köçürülməsi şübhə doğurmur. İlk növbədə, Araz və Axuryan (Arpaçay - N. M.) çayları boyu yaşayan azərbaycanlılar köçürüləcək. Sərhəd rayonlarının kəndləri də azərbaycanlılardan təmizlənəcək..." Başqa bir şayiədə isə ermənilər öz arzularını belə ifadə edirdilər: "Azərbaycanlıları təkcə Ermənistandan deyil, eləcə də Naxçıvan MSSR-dən köçürmək və Naxçıvanı Ermənistan ərazisinə birləşdirmək lazımdır".

Digər tərəfdən, yaranmış fürsətdən istifadə edən Ermənistan rəhbərləri Gürcüstanla sərhəddə yerləşən strateji əhəmiyyətli azərbaycanlı kəndlərinin də köçürülməsi üçün müxtəlif üsullara əl atmışdılar. Noyemberyan rayonunun Ləmbəli və Aşağı Körpülü kəndləri Gürcüstanın Marneuli rayonu (Borçalı) ilə həmsərhəd olmaqla yanaşı, olduqca məhsuldar torpaqları var idi. Ləmbəli kəndini "Ermənistanın Kaliforniyası" adlandırırdılar. Ermənistan rəhbərləri bu kəndlərin sakinlərinin razılığı olmadan onları "könüllü köçmək istəyən" ilk təsərrüfatların siyahısına daxil etmişdilər. Ermənistan SSR Nazirlər Sovetinin 29 sentyabr 1948-ci il tarixli qərarına əsasən Ləmbəli kolxozu əsasında zeytun sovxozu, Aşağı Körpülü kolxozu əsasında isə subtropik bitkilər sovxozu yaradılması və həmin təsərrüfatlarda xaricdən gələn ermənilərin yerləşdirilməsi nəzərədə tutulmuşdu. 70 təsərrüfatdan (370 nəfər) ibarət Aşağı Körpülü kəndinin sakinlərinin bir hissəsi qonşu Qazax rayonuna, habelə Gürcüstanın Borçalı rayonuna, Noyemberyan rayonunun Yuxarı Körpülü kəndinə və Allahverdi filiz mədəninə köçürülərək kənd boşaldılmışdı. Ləmbəlililər isə Salyan rayonuna köçməkdən imtina etmişdilər. Ona görə də, 245 təsərrüfatdan 1192 nəfərdən ibarət olan bu kəndin köçürülməsi təxirə salınaraq, 1949-cu il köçürülmə planına daxil edilmişdi. Həmin il yaz-yay aylarında Ermənistan rəhbərləri ləmbəlilərin deportasiya olunması üçün müxtəlif təzyiq üsullarına əl atır, hətta hüquq-mühafizə orqanlarının vasitəsilə əhalini qorxudaraq, onlardan kəndi tərk etmələrini tələb edirdilər. Noyemberyan rayonunun rəhbərləri Ləmbəli kolxozunun əmlakını, mal-qarasını zorla Yuxarı Körpülü kəndinə təhvil verirlər. Əlacsız qalan ləmbəlilərin bir qismi Gürcüstanın azərbaycanlılar yaşayan kəndlərinə səpələnməli olurlar. Marneuli rayonunda sığınacaq tapmış ləmbəlililəri noyabrın 28-də döyə-döyə komalarından çıxararaq, yenidən Ləmbəliyə qaytarırlar. Lakin artıq ləmbəlililərin əksər evlərində xaricdən gələn erməniləri yerləşdiriblərmiş. Ona görə də, onları evlərinə buraxmır, Sadaxlı dəmiryol stansiyasında yük vaqonlarına dolduraraq, oradan İrəvan yaxınlığındakı Uluxanlı stansiyasına gətirirlər.

Uluxanlı stansiyasında üç gün qar-boran içərisində qalan ləmbəlililəri bir sutka ərzində Sevan şəhərinə, oradan qayıqlarla 8 saat ərzində Basarkeçərin Zağalı kəndinə, oradan xizəklərlə 18 km aralıda Zod və Ağkilsə kəndinə gətirib yerləşdirlər.

Basarkeçərdən geri qayıdan ləmbəlililər Gürcüstanla sərhəddə - Ləmbəliyə yaxın yerdə yeraltı daxmalar tikərək, orada yaşamağa məcbur olurlar. Ləmbəlililərin şikayətlərinə yalnız İ. Stalinin ölümündən sonra baxılmışdı. Moskvadan xüsusi komissiya gəlib, ləmbəlililərin şikayətlərinin haqlı olmasını Ermənistan rəhbərlərinin nəzərinə çatdırmışdı. Yalnız bundan sonra, 1954-cü ildə Ermənistan KP MK "Ləmbəlidə evlərin keçmiş sahiblərinə qaytarılması və onların sovxozda işə qəbul edilməsi barədə" qərar qəbul etmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyev SSRİ Nazirlər Soveti qarşısında vəsatət qaldırmışdı ki, sonrakı illərdə köçürmə planı aşağıdakı kimi müəyyən edilsin: 1951-ci ildə 10000 nəfər, 1952-ci ildə 20000 nəfər, 1953-cü ildə 20000 nəfər, 1954-cü ildə 15000 nəfər. Lakin 1951-ci ildə 911 təsərrüfat (3714 nəfər), 1952-ci ildə 1257 təsərrüfat (5512 nəfər), 1953-cü ildə 1898 təsərrüfat (8254 nəfər) köçürülmüşdü.

SSRİ Nazilər Sovetinin yuxarıda adladı çəkilən qərarlarının icra edilməsinin məcburiliyi ona gətirib çıxarmışdı ki, Ermənistanda deportasiya edilənədək mülayim iqlim şəraitində yaşamış, təmiz bulaq suyu içməyə adət etmiş əhalinin xeyli hissəsi Kür-Araz ovalığında ictimai binalarda yatalaqdan, qızdırmadan, malyariyadan və digər yoluxucu xəstəliklərdən məhv olmuşdur.

1951-ci ilin əvvəlindən etibarən, Azərbaycanda açıq səma altında qalan, tövlələrdə yerləşdirilən əhalinin bir hissəsi ağır şəraitə dözməyib Ermənistana - öz kəndlərinə qayıtmağa məcbur olurlar. İyunun 1-nə kimi 217 təsərrüfat geri qayıdır. Geri qayıtmaların kütləvi şəkil almağından qorxuya düşən Ermənistan rəhbərliyi böyük hay-küy qaldırır, onları qəbul etməkdən imtina edir. Halbuki, xaricdən gələn erməniləri yerləşdirmək adı altında Azərbaycana köçürülən kəndlərin bir çoxu hələ də boş qalırdı. Xaricdən gələnlərin cüzi hissəsi kənd rayonlarında məskunlaşmışdılar. Hər cür yağlı vədlərlə xarici ölkələrdən gətirilən ermənilərin əksəriyyəti özlərini alda-

dılmış hesab edir, sosial inkişaf baxımından bərbad vəziyyətdə olan müsəlman kəndlərinə ayaq qoymaq istəmirdilər.

Hələ 1947-ci il mayın 22-də Ermənistan KP MK-nın birinci katibi Q.Arutyunov Stalinə göndərdiyi məktubunda göstərmişdi ki, xaricdən gətirilən ermənilərin 300 nəfəri artıq geri qayıdıb, 21 nəfər sərhədi keçərək Türkiyəyə qaçıb, 110 nəfər isə sərhədi keçmək istəyərkən yaxalanıblar. Q.Arutyunov "qaxtağan"ların Ermənistanı tərk etmələrini iqtisadi problemlərlə izah edirdi.

1953-cü ildə İ.Stalinin ölümündən sonra Ermənistandan türklərin köçürülməsinin sürəti azalır və əhalinin geriyə qayıtma prosesi sürətlənir. Ermənistan rəhbərləri Əştərək, Martuni (Qaranlıq), Qarabağlar, Abovyan (Ellər), Eçmiədzin rayonlarından türklərin izinin silinməsinə nail olsalar da, hər cür təqib və təzyiqlərə tab gətirərək Zəngibasar rayonunun Zəhmət, Qaraqışlaq, Yuxarı Necili, Vedi rayonunun Xalisa, Yengicə, Arazdəyən, Qaralar, Şidli, Şirazlı kəndləri, Basarkeçər və Krasnoselo rayonlarının kəndləri qismən köçürülmə qrafikindən yayına bilmişdilər. Sonradan köçürülənlərin bir qisminin geri qayıtmalarına və onların hələ də boş qalan kəndlərində yenidən məskunlaşmasına şərat yaradanlar da məhz deportasiyadan yayınaraq, Ermənistanda qalan azərbaycanlı kəndlərinin əhalisi olmuşdur. Onlar hər şeylərini itirərək, geri qayıdan əhaliyə hər cür maddi və mənəvi köməklik göstərir, onların təsərrüfat qurması üçün öz imkanlarını onlarla bölüşdürürdülər. Geri qayıdan əhaliyə qarşı Ermənistan hökumətinin hər cür iqtisadi sanksiyalar tətbiq etməsinə baxmayaraq, əhalinin böyük əksəriyyəti öz kəndlərində və ya əgər onların evlərinə ermənilər yerləşdirilmişdisə, qonşu türk kəndlərində yenidən məskunlaşmağa başlamışdılar. Ermənistanda öz evləri ermənilər tərəfindən zəbt edilən və başqa kəndlərdə məskunlaşmaq imkanından məhrum edilən yüzlərlə ailə isə özlərinə yaşayış şəraiti düzəldə bilmədiklərindən yenidən Azərbaycana qayıtmağa məcbur olmuşdular. Beləliklə, Ermənistandan deportasiya və miqrasiya prosesi 1957-ci ilədək davam etmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin yanında Köçürülmə üzrə Baş İdarənin məlumatına görə, 1954-cü ildə 749 təsərrüfat (3368 nəfər), 1955-ci ildə 207 təsərrüfat (965 nəfər), 1956-cı ildə 360 təsərrüfat (1543 nəfər) deportasiya edilmişdir.

Araşdırmalar göstərir ki, azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından köçürülməsi (deportasiyası) haqqında SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla Ermənistanın 22 rayonundan 100 min azərbaycanlının köçürülməsi nəzərdə tutulmuşdusa da, əslində, qərar zorakı üsullarla həyata keçirilmiş, 24 rayondan və İrəvan şəhərindən (200-dən artıq yaşayış məntəqəsindən) 150 minə yaxın artıq azərbaycanlı deportasiya edilmişdir.

Ermənistandan azərbaycanlıların deportasiyası ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı aparılırdı. Təkcə 1947-1953--cü illərdə 50-yə yaxın yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. Ermənistan SSR Ali Sovetinin 19 sentyabr 1950-ci il fərmanı ilə aşağıdakı dəmiryol stansiyalarının adları dəyişdirilmişdir: Kolagirən-Tumanyan, Hamamlı-Spitak, Ortakilsə-Maisyan, Tomardaş-Vardakar, Arpaçay-Axuryan, Buğdaşen-Baqravan, Qaraqula-Gedap, Dərələyəz-Araqadz, Boğudlu-Arteni, Qaraburun-Qarmraşen, Qamışlı-Sovetaşen, Uluxanlı-Masis, İmanşalı-Mxçyan, Qəmərli-Artaşat, Şirazlı-Ayqavan.

1951-ci il martın 19-da verilən fərmanla Dilican rayonu İcevan rayonu ilə, Əzizbəyov rayonu Mikoyan rayonu ilə, Ələyəz rayonu Abaranla, Qarabağlar rayonu Vedi ilə, Qukasyan rayonu Amasiya ilə birləşdirilmişdi. Kadr məsələləri həll edildikdən, yəni məsul vəzifələrə azərbaycanlıların əvəzinə erməniləri yerləşdirdikdən sonra bəzi rayonları yenidən ayırmışdılar.

Ermənistanda köçürmə aksiyasını həyata keçirdikdən sonra türkdilli əhalinin azalmasını əsas götürərək rayon və respublika səviyyəli türkdilli kadrları ermənilərlə əvəz etməyə başladılar. Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselo rayonlarının partiya komitələrinin birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katiblər dəyişdirilərək, yerlərinə erməniləri təyin etdilər.

Sonralar isə Ermənistan KP MK-nın katibi Məmməd İsgəndərov, kənd-təsərrüfatı şöbəsinin müdir müavini Rəhim Allahverdiyev, MK-nın məsul təşkilatçısı Cümşüd Sultanov, kənd təsərrüfatı nazirinin müavini Hüseyn Məmmədov vəzifələrindən azad edilmişdilər. Ermənistan SSR Ali Sovetinin sədr müavini Mirzə Bəşirov isə Ali Sovetin 9 aprel 1949-cu il tarixli sessiyasının qərarı ilə tutduğu vəzifədən azad edilmişdi. Məsul vəzifələrdə işləmiş soydaşlarımızın Azərbaycana axını getdikcə sürətlənirdi. Bütün bunlarla yanaşı Amasiya, Basarkeçər və Krasnoselo rayonlarından başqa, yerdə qalan rayonlarda Azərbaycan dilində çıxan qəzetlər bağlanmışdı.

Köçürmə illərinin hər cür təzyiq və sıxıntılarına baxmayaraq, Azərbaycan teatr sənətinə görkəmli sənətkarlar bəxş edən C. Cabbarlı adına İrəvan Azərbaycanlı Dram Teatrı 1948-1949-cu illərdə "Məşədi İbad", "Leyli və Məcnun", "Eşq və İntiqam", "Şah İsmayıl" kimi əsərləri tamaşaya qoymuşdu. Bütün bunlara baxmayaraq, 1949-cu ildə teatrı azərbaycanlıların yaşamadığı Basarkeçər rayonunun mərkəzinə köçürmüş, sonra isə bağlamışdılar.

Ermənistanda azəri türklərini başsız qoymaq, ali təhsilli kadrların çoxalmasına imkan verməmək məqsədilə ilk növbədə X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunun təhsil Azərbaycan dilində olan fakültələri – dil-ə-

dəbiyyat, tarix, coğrafiya, fizika-riyaziyyat fakültələri, Ermənistan Dövlət Qiyabi Pedaqoji İnstitutunun eyniadlı fakültələri bağlanaraq Azərbaycandakı müvafiq institutlara köçürüldülər. Ermənistandan köçürülən əhalinin Xanlar rayonunda məskunlaşmasına hər cür maneçilik törədildiyi halda, Azərbaycan elminə görkəmli xadimlər bəxş etmiş İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu Xanlar rayonuna köçürüldü.

Ermənistan rəhbərləri xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi ilə Naxçıvanla İrəvan arasında əvvəllər tamamilə azərbaycanlılar yaşayan ərazilərdə xeyli miqdarda erməni əhalisinin yerləşdirilməsinə nail oldular. İrəvan şəhərini üzük qaşı kimi əhatə edən azərbaycanlı kəndlərində erməniləri məskunlaşdırdılar. Köçürülmə nəticəsində İrəvanın ətrafındakı Əştərək, Qarabağlar, Qəmərli, Vedi, Zəngibasar, Hoktemberyan, Eçmiədzin rayonlarının və Arpa-Sevan xətti ətrafında yerləşən rayonların azərbaycanlılar yaşayan münbit torpaqları ermənilərin əlinə keçdi. Ermənilər Türkiyə ilə sərhəd boyunca yerləşən Vedi, Zəngibasar, Hoktemberyan rayonlarının azərbaycanlı əhalisini köçürməklə, özləri üçün “etibarlı sərhəd zolağı” təmin etdilər.

Əgər 1915-1920-ci illərdə azərbaycanlı əhali Ermənistanda soyqırıma, 1930-37-ci illərdə repressiyaya məruz qalmasaydı, 1948-1953-cü illərdə 150 minə yaxın əhali deportasiya edilərək, Azərbaycana köçürülməsəydi və bu köçürülmə ilə yanaşı mədəni-maarif ocaqları bağlanmasaydı, rəhbər kadrlar sıxışdırılıb çıxarılmasaydı, azərbaycanlı əhalinin yüksək təbii artımı nəticəsində 80-ci illərin sonunda Ermənistanda azərbaycanlıların sayı ermənilərin sayına nisbətən çoxluq təşkil edəcəkdi.

Hələ 1930-cu ildə Ermənistanda yeni inzibati-ərazi bölgüsünə keçirilərkən 25 inzibati rayon yaradılmışdı. Həmin vaxt bu rayonların üçdə birində rəhbər vəzifələrdə (raykomun birinci katibləri, icraiyyə komitələrinin sədrləri, prokurorlar, məhkəmə sədrləri və s.) azərbaycanlılar işləyirdilər. 1937-ci ildə Ermənistanın inzibati-ərazi bölgüsünə dəyişiklik edilmiş, əlavə olaraq, daha 7 rayon yaradılmışdı. Rayonlar bölünən zaman azərbaycanlı rəhbər kadrlar ermənilərlə əvəz edilmişdi. Daha sonralar yeni 5 rayon da yaradılaraq rayonların sayı 37-yə çatdırılmışdı. Lakin cəmisi üç rayonda (Amasiya, Basarkeçər və Krasnoselo) birinci katib və yaxud icraiyyə komitəsinin sədri vəzifəsində azərbaycanlılar işləyirdilər.

Ermənistandan azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar olaraq Ermənistan mətbuatı, xüsusən də "Sovet Ermənistanı" qəzeti heç bir iz buraxmamışdır. "Sovet Ermənistanı" qəzetinin 1948-1953-cü illər səhifələrindən yalnız onu müşahidə etmək olur ki, kəndlərdə əhalinin milli tərkibi tədricən dəyişir, rəhbər kadrlar ermənilərlə əvəz olunur, azərbaycanlı kəndləri tədricən erməni kəndlərinə çevrilir.

Ümumiyyətlə, Sovet təbliğatı nəticəsində 1946-1950-ci illərdə 15 xarici ölkədən Ermənistana təqribən 150 min erməni köçürülüb gətirilmişdi. Xaricdən gələn ermənilərə Ermənistanda ikinci dərəcəli vətəndaşlar kimi baxırdılar. "Qaxdağan" (yəni köçgün - N. M.) adlandırılan xaricdən gələn ermənilərlə yerli ermənilər qohum olmaq istəmirdilər. "Qaxdağan"lara yüksək vəzifələr etibar edilmirdi. Onlar İkinci Dünya müharibəsindən ac--yalavac çıxan SSRİ kimi bir ölkəyə köçmələrinə peşman olmuşdular. Yağlı vədlərlə xaricdən gətirilən ermənilər Ermənistanda quru çörək üçün saatlarla növbə gözləyirdilər. Aldandıqlarını görən "qaxdağan" ermənilər gəldikləri ölkələrə qayıtmaq istəyirdilər. Lakin onların qayıtmalarına icazə verilmirdi. Keçmiş SSRİ ərazisində ilk dəfə olaraq 1956-cı il mayın 24-də etiraz mitinqləri keçirilmişdi. Fransadan gətirilən ermənilər həmin gün Fransanın xarici işlər nazirinin İrəvana gəlməsi münasibətilə İrəvanda etiraz mitinqləri keçirmiş, yenidən Fransaya qaytarılmalarını tələb etmişdilər. 1958-ci ildə Fransa prezidentinin SSRİ-yə gəlməsi zamanı da İrəvanda nümayişlər təşkil edilmişdi. Bundan sonra Fransa ermənilərinə geri qayıtmağa icazə verilmişdi. 50-ci illərin sonlarında xaricdən gələn ermənilər kütləvi surətdə geri qayıtmağa başlamışdılar.

Ermənistan rəhbərlərinin deportasiya edilmiş azərbaycanlı kəndlərində xaricdən gətirilən ermənilərin məskunlaşdırılması planı baş tutmadı. Xaricdən gələn ermənilər bir qayda olaraq, şəhərlərdə və yaxud xüsusi olaraq onlar üçün salınmış şəhər tipli qəsəbələrdə məskunlaşırdılar. Nəinki 1948-53-cü illərdə və bundan sonrakı illərdə Ermənistandan deportasiya olunmuş azərbaycanlı kəndləri, üstəlik Ermənistanın dağlıq rayonlarının bir çox erməni yaşayış məntəqələri də boşalmışdı. Ermənistan KP MK-nın 1975-ci il yanvar plenumunda 476 kəndin boş qaldığı qeyd edilmişdi. Bu, Ermənistanda mövcud yaşayış məntəqələrinin üçdə birindən çoxunun xaraba qalması demək idi. Bütün bunlar o nəticəyə gəlməyə əsas verir ki, Sovet hakimiyyəti illərində Ermənistan rəhbərləri azərbaycanlılar yaşamaqdansa, kəndlərin xaraba qalmasını üstün tutmuşlar.

XX əsrin 40-50-ci illərində Ermənistandan azərbaycanlıların respressiyaya məruz qoyularaq deportasiya edilməsi prosesi ilə bağlı materiallar “məxvi” qrifi altında saxlandığı üçün SSRİ dövründə tədqiq edilməmişdir. SSRİ Ali Soveti 14 noyabr 1989-cu ildə "Zorla köçürülmüş xalqlara qarşı repressiya tədbirlərinin qanunsuz və cinayətkar tədbirlər hesab edilməsi və onların hüquqlarının təmin olunması haqqında" bəyannamə və SSRİ Nazirlər Soveti buna müvafiq olaraq xüsusi qərar qəbul etmişdir. Həmin bəyannamədə bütöv xalqları zorla köçürmək praktikasını beynəlxalq hüququn əsaslarına, sosializm quruluşunun humanist təbiətinə zidd olan ən ağır cinayət kimi qətiyyətlə pisləmiş, repressiyaya məruz qalmış bütün Sovet xalqlarının hüquqlarının bərpası üçün müvafiq qanunvericilik tədbirlərinin görülməsi zəruri hesab edilmişdi. SSRİ Ali Sovetinin 14 mart 1991-ci il tarixli qərarı ilə repressiya olunmuş xalqların qanuni hüquqlarının bərpa edilməsi haqqında qərar qəbul etmişdir. Lakin adları çəkilən sənədlərdə deportasiya olunmuş xalqların sırasında Ermənistandan deportasiya olunan azər-

baycanlıların adı çəkilməmişdir. Ona görə də indiki Ermənistan ərazisindən deportasiya edilmiş soydaşlarımızın öz tarixi vətənlərinə qayıtmaq hüququ tanınmadı və xalqımıza qarşı edilən tarixi ədalətsizlik bərpa olunmadı. Bu, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı qərəzli münasibətindən irəli gəlirdi.

Tədqiqatçılardan Ataxan Paşayev, Bəxtiyar Nəcəfov, Cəmil Həsənli, Lətifə Həsənova, Əsəd Qurbanlı və başqaları azərbaycanlıların Ermənistandan deportasiyasının səbəblərini, faciənin miqyasını və onun nəticələrini xronoloji çərçivədə araşdırmışlar.

Prezident Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman xalqımıza qarşı siyasi qərarla həyata keçirilən bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması məqsədini daşıyırdı. Cəmisi iki bəddən ibarət olan bu fərmanın 1-ci bəndinə əsasən 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyanın hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə dövlət komissiyası yaradılmışdır. Sənədin 2-ci bəndində isə Nazirlər Kabinetinə tapşırılır ki, fərmanın icrası ilə bağlı məsələləri həll etsin. Çox təəssüf ki, indiyədək bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi məsələsi həll edilməmişdir. Beynəlxalq ictimaiyyət hələ də Azərbaycan xalqının başına gətirilən bu faciənin miqyasından xəbərsizdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Sovet hakimiyyəti illərində repressiyaya məruz qalan xalqlar haqqında son dövrlərdə Rusiyada çoxlu tədqiqat əsərləri yazılmışdır. Lakin azərbaycanlıların Ermənistandan 1948-1953-cü illər deportasiyası faktı hələ də rusiyalı tədqiqatçıların əsərlərində özünə yer tapmamışdır. Sovet hakimiyyəti illərində xalqların repressiyası və deportasiyaları tarixini ən xırda detallarına qədər araşdıran demoqraf, professor Pavel Polyan (milliyyətcə erməni deyil - N.M.) müəyyən etmişdir ki, SSRİ məkanında 110 deportasiya əməliyyatı həyata keçirilmişdir. O, həmin əməliyyatlardan miqyasına görə seçilən 47-sinin siyahısını təqdim. Həmin siyahıya 1938-ci ildə Cənubi Azərbaycandan olan soydaşlarımızın (siyahıda “iranlılar” kimi təsnif edilir - N.M.), İran inqilabı yatırıldıqdan sonra öz dəstəsi ilə bir müddət Azərbaycanda yerləşən Mustafa Bərzaninin kürd silahlı dəstəsinin 1948-ci ildə deportasiyası faktı daxil edilsə də, Ermənistandan soydaşlarımızın 1948-1953-cü illər deportasiyası faktı daxil edilməyib. Bu, o deməkdir ki, biz hələ də öz həqiqətlərimizi dünya ictimaiyyətinə çatdıra bilməmişik. Ermənilərin yalanları isə hər yerdə ayaq açıb yeriyir.

Azərbaycan xalqına qarşı həyata keçirilmiş bu tarixi cinayətə, etnik təmizləmə aksiyasına hüquqi-siyasi qiymət verilməsi üçün o vaxt qəbul edilmiş normativ sənədlər (Ümumittifaq əhəmiyyətli normativ və qanunvericilik aktları, Sovet hökumətinin, Kommunist Partiyasının qərarları, Respublika KP MK-nın və Nazirlər Sovetinin və digər icra orqanlarının qərarları, SSRİ Nazirlər Soveti Yanında Baş Köçürmə İdarəsinin və Azərbaycan SSR Köçürmə İdarəsinin arxivlərində saxlanılan fondların materialları, hesabatlar və s.), deportasiya olunanların əhval-ruhiyyəsi ilə bağlı “NKVD” və “KQB”-yə daxil olan məlumatlar, müraciətlər, yazışmalar və s., rayon arxivlərində saxlanılan sənədlər, deportasiya olunanların yazdıqları şikayət ərizələri və s. diqqətlə saf-çürük edilməli, sistemləşdirilərək sənədlər topluları şəklində çap edilməlidir. Dövlət Kino-Foto Sənədləri Arxivində saxlanılan materiallar və canlı şahidlərin ifadələri əsasında sənədli filmlər serialları çəkib dünyaya nümayiş etdirilməlidir. Yeni məskunlaşma yerlərində soydaşlarımızın üzləşdikləri humanitar fəlakət ayrı-ayrı aspektlər üzrə elmi-tədqiqat dövriyyəsinə daxil edilməlidir.

Prezident Heydər Əliyevin 26 mart 1998-ci il tarixli “Azərbaycanlıların soyqırımı haqqında” fərmanının imzalanmasından sonra 31 mart 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi xüsusi sessiya keçirmiş, azərbaycanlılara qarşı soyqırım cinayətlərinin cəzasız qalmasını və bu barədə beynəlxalq ictimaiyyətdə məlumatın olmamasını nəzərə alaraq beynəlxalq təşkilatlara müraciət etmişdir ki, XIX-XX əsrlərdə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırım cinayətini tanısın. Anoloji addım “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərmanla bağlı da atılmalıdır.

Azərbaycan tarixinin qara hərflərlə yazılan bu səhifəsi də kompleks şəkildə tədqiq edilməli və araşdırmaların nəticələri müxtəlif dillərə tərcümə edilərək dünya ictimaiyyətinin nəzərinə çatdırılmalıdır.

**Nazim MUSTAFA,**
**AMEA A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi**

**“Xalq qəzeti”, 6-7. 01. 2009**

**Xocalı soyqırımı bəşəriyyət əleyhinə cinayətdir**

Erməni-daşnak millətçiləri və onların havadarları, az qala, bir əsrə yaxındır ki, hər il uydurma "erməni soyqırımı" gününün bütün dünyada qeyd olunması üçün dəridən-qabıqdan çıxır, öz yalanlarını bəşəriyyətə sırımağa çalışırlar. Bu yaxınlarda ABŞ-da Amerika yazıçısı Samuel Viimsin "Ermənistan: terrorçu xristian dövlətinin sirləri" kitabı işıq üzü görmüşdür. Uzun illər Londonda, Parisdə, Romada, İstanbulda, Moskvada və Vaşinqtonda aparılan tədqiqatların nəticəsi olan, faktlara və sənədlərə istinadən ərsəyə gələn bu kitab 400 səhifədən ibarətdir. Müəllif kitabında qeyd edir ki, mən erməni mənşəli amerikalıların 150 yaşlı "qədim" vətənlərini mükafatlandırmaq üçün türklərdən, eləcə də Amerika xristianlarından böyük məbləğdə pul vəsaiti qoparmaq məqsədilə soyqırımı və qətllərlə bağlı uydurma və yalanlar yaydığını sübut edən faktlar aşkar etmişəm.

Dinar xristian olan Samuel Viims kitabında yazır ki, 1918-ci ildə kiçik bir ərazidə erməni dövlətinin yarandığı vaxtdan o, qonşuları Gürcüstana, Osmanlı imperiyasına və Azərbaycana qarşı torpaq iddiaları irəli sürməyə başlamışdır. Kitabda eləcə də tanınmış tarixçi alim Oqust Karyerin fikri verilir. O, ermənilərin yalnız Nuh peyğəmbərin gəmisinin qalıqlarının Ararat dağında tapıldığına görə guya ermənilər Nuh peyğəmbərin nəslindən olan Haykın törəmələri, Şərqi Anadolunun isə başdan-başa erməni torpaqları olması barədə iddialarını rədd edir. Beləliklə, ermənilərin mənşəyi barədə məlumatlar uydurmalara, daha dəqiq desək, ağ yalana əsaslanır.

Amerika alimi kitabında Qarabağ problemi ilə bağlı qeyd edir ki, 1800-cü ildə Qafqaz regionunda çox az sayda erməni tapmaq olardı. Rusiya mənbələrinə istinad edilərsə, Qafqaz bölgəsinin Rusiyaya birləşdirildiyi dövrdə Qarabağda 90 min nəfər yaşayırdı. Orada böyük şəhər və 600 kənd var idi. Onların 150-də ermənilər yaşayırdılar. Ancaq dağlılar zorla köçürüldükdən sonra ermənilər burada üstünlük təşkil etdilər. 1907-1912-ci illərdə Rusiya çarizmi yarım milyondan çox ermənini İrandan və Osmanlı dövlətindən, əsasən müsəlman azərbaycanlılarının yaşadığı Qars, İrəvan və Yelizavetpola (Gəncə) köçməsinə kömək etdi. Başqa sözlə, geosiyasi mənafelər naminə Qafqazda demokratik dəyişikliklər edildi. XX əsrin əvvəllərində Qarabağdan çıxan bircə yol var idi. O da, Bakıya gedirdi. Ermənistana isə heç bir yol yox idi. Təkcə bu fakt çox şeydən xəbər verirdi. Bəlkə, elə buna görə hətta bolşeviklər də etiraf etmişdilər ki, Qarabağ həmişə Azərbaycan torpağı olmuşdur.

1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarından biri İrəvanın, (Yerevan) siyasi mərkəzi olmayan Ermənistan Respublikasına verilməsi idi. O zaman yalnız İrəvan və Eçmiədzin (Üç kilsə) rayonlarından ibarət Ermənistanda cəmi 400 min əhali yaşayırdı. Zaman göstərir ki, İrəvanın verilməsi gənc Azərbaycan Cümhuriyyətinin bağışlanılmaz səhvi idi və onun nəticələri hələ də özünü göstərməkdədir.

Hazırda "soyqırımı" haqqında car çəkən ermənilər de-fakto vətəndaşı olmadıqları — çünki Vətən xainləri ölkə vətəndaşları sayıla bilməzlər, — de-yure vətəndaşı hesab etdikləri Osmanlı imperiyasına qarşı öz qeyri-loyal və xəyanətkar münasibətləri barədə bir kəlmə də danışmırlar. Halbuki, o vaxt Osmanlı imperiyasının özünü müdafiə etmək məqsədilə erməniləri cəbhə xəttindən uzağa köçürməyə qanuni haqqı var idi. Onlar açıq şəkildə hərbi əməliyyatlarda rus orduları tərəfindən döyüşürdülər. ABŞ da bu hüquqa əsaslanaraq İkinci Dünya müharibəsi illərində ölkənin yapon mənşəli bütün vətəndaşlarını qərb sahillərindən köçürmüşdü. Stalin bu hüquqdan istifadə edərək Sovet dövlətinin təhlükəsizliyini qorumaq üçün Volqaboyunda yaşayan almanları Qazaxıstana və Orta Asiyaya köçürmüşdü. Tarixdə belə nümunələr çox olmuşdur. Böyük Britaniyanın 1916-1922-ci illərdə baş naziri işləmiş Devid Lloyd Corcun qeyd etdiyinə görə, 1915-ci ildə Osmanlı imperiyasında baş verən faciəli hadisələrin təqsirkarları Türkiyədə beşinci dəstəni maliyyələşdirən Rusiya, eləcə də rusları Osmanlı torpaqlarını tərk etməyə məcbur edən Britaniya imperiyasıdır. Həmin dövrdə sayca qat-qat çox türk, azərbaycanlı, yəhudi və Qafqazın digər xalqlarının nümayəndələrini qətlə yetirmiş erməni quldur dəstələrinin əməllərini də nəzərdən qaçırmaq olmaz.

Kiçik Ermənistan dünyanın hər yerinə səpələnmiş həmtayfalarından istifadə edərək, uzun illər xristian aləmini islama və müsəlmanlara qarşı qaldırmağa çalışmışdır. Samuel Viimsin fikrincə, müsəlman aləmində Amerikaya "nifrətin" səbəblərindən biri də budur.

"Ermənistan: terrorçu xristian dövlətinin sirləri" sənədli tədqiqat əsərinin üz qabığında oxuculara tövsiyə edilir. "Bu kitabı hər bir xristian və Amerikada hər bir vergi ödəyicisi oxumalıdır". Biz isə deyə bilərik ki, dünyanın həqiqəti əziz tutan hər bir vətəndaşı oxumalıdır. Erməni millətçiləri tarix boyu xalqımıza qarşı görünməmiş qətllər və vəhşiliklər etmişlər.

Tarixi Azərbaycan torpağı olan Zəngəzur, Göyçə və digər ərazilər Sovet rəhbərliyinin əli ilə Ermənistana verildi. Dağlıq Qarabağ erməniləri muxtariyyət qazandı və onların gələcəkdə qanunsuz ərazi iddiaları üçün zəmin hazırlandı. Erməni daşnakları təkcə XX əsrdə dörd dəfə (1905-1906, 1918-1920, 1948-1953, 1988-1991-ci illərdə) azərbaycanlıları indiki ermənilərin məskən saldığı Ermənistan ərazisindən, tarixi-etnik torpaqlarından

qırğınlarla deportasiya etmişlər. “Türksüz Ermənistan” adı altında mübarizəyə qalxan erməni millətçiləri, eləcə də yaxın və uzaq xaricdə yaşayan havadarları, etnik təmizləmə işini 1991-ci il avqustun 8-də başa çatdırdılar. Meğri rayonunun son məntəqəsi Nüvədidə yaşayan azərbaycanlılar soyqırıma məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olundular. Belə demək olar ki, indi Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

1988-1991-ci illərdə Sovetlər Birliyi dövlətinin başçılarının köməyi sayəsində Ermənistan hökuməti Qərbi Azərbaycan — indiki Ermənistan torpaqlarından 250 mindən artıq azərbaycanlını ata-baba yurdlarından deportasiya etdi. XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki bu ərazidə soyqırıma, deportasiyaya məruz qaldılar.

1935-1991-ci illərdə Ermənistanda Azərbaycan yer adlarına qarşı qərəzli siyasət nəticəsində minlərlə toponimlər xəritədən silinib erməniləşdirildi. Azərbaycanın tərkib hissəsi olan Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə 1988-ci ildən başlanan separatçılıq hərəkatı, işğalçılıq müharibəsi, etnik təmizləmə Azərbaycana qarşı cinayətkar siyasətin yeni mərhələsidir. Hazırda Azərbaycan torpaqlarının 20 faizi erməni işğalı altındadır. 1 milyondan çox insan öz yurdundan didərgin salınıb. 18 min azərbaycanlı qətlə yetirilib, 20 mindən çox dinc sakin yaralanıb, 5 mindən çox adam əlil olub, 4 mindən çox insan əsir və itkin düşüb, 877 şəhər, kənd qarət edilib, dağıdılıb.

Erməni birləşmiş dəstələri Rusiyanın Xankəndidəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə birlikdə XX əsrin Xatın faciəsini arxada qoyan Xocalı soyqırımını təşkil etdilər. O vaxtkı respublika rəhbərliyinin cinayətkar əməlləri nəticəsində şəhərin müdafiə işləri pis təşkil olunmuşdur. 80 nəfərlik Xocalı özünümüdafiə taburu heç bir zirehli texnika ilə təchiz olunmamışdı. Onlara əsas briqadanın 11-ci taburu ilə 20 nəfərdən ibarət minaatanlar batalyonu kömək edirdi. 60 nəfərlik milis dəstələri isə təyyarə meydanını müdafiə edirdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni daşnak hərbi birləşmələri və keçmiş SSRİ-yə məxsus 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən), eləcə də, xarici dövlətlərdən gətirilmiş muzdur quldur dəstələri Xocalıya hücum etdilər. Onlar ilk həmləni hava limanına endirdilər. Şəhərin müdafiəsinə qalxanlar azsaylı və pis silahlanmış olsalar da, qəhrəmanlıqla döyüşmüşdülər. Xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyev döyüş meydançasında qəhrəmanlıq göstərdi. Onun başçılığı altında olan 22 nəfərlik dəstə erməni-daşnak birləşmələrinin hücumlarını üç dəfə uğurla dəf etdi. Döyüşdə qüvvələr bərabər deyildi. Mayor Əli Hacıyev vəziyyətin mürəkkəb olduğunu görəndə limanın dispetçer məntəqəsini partladaraq erməni birləşmiş qüvvələrinin əlinə düşməsinə imkan vermədi. Döyüşlərdə qorxmaz komandir ağır yaralandı və qəhrəmancasına həlak oldu. Ölümündən sonra Əlif Hacıyevə Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Düşmən tankları, zirehli maşınlarının artilleriya hazırlığından sonra Mehdikənd, Daşbulaq istiqamətində Xocalıya daxil oldu və şəhər içərisində döyüşlər başlandı. 366-cı alayın mayor Ohanyanın komandası altında ikinci, mayor Nabodxinin komandası altında üçüncü motoatıcı taburları eləcə də topçu diviziyası, öz qəddarlığı, vəhşiliyi ilə fərqlənirdi.

Tofiq Hüseynovun başçılıq etdiyi ərazi özünümüdafiə taburunun döyüşçüləri çox qüvvətli, yırtıcı düşmənlə qəhrəmancasına, ləyaqətlə döyüşürdülər. Tofiq son nəfəsinədək vuruşdu, düşmən əsgərlərini azdırıb, çoxlu insanın mühasirədən çıxmasına imkan yaratdı. Son anda özü mühasirəyə düşdü. O, düşmənə təslim olmayaraq son gülləni özünə vurdu. Ölümündən sonra Tofiq Hüseynova Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Ağdam-Əsgəran istiqamətində yığılmış hissələr arasında əlaqə və ümumi rəhbərlik olmaması üzündən onlar erməni işğalçılarına qarşı hücum qura bilmədilər.

Erməni vandalları Xocalı şəhərində soyqırım törətdilər. Şəhərə od vurub yandırdılar. Sağ qalanların bir hissəsi, əsasən qadınlar, qocalar, uşaqlar şəhərin qərb istiqamətində iki yolla Ağdama tərəf qaçmağa başladılar. Qarlı, şaxtalı gündə ayaqyalın meşədə qalan qaçqınların çoxunu şaxta vurdu, yaralıların bir hissəsi öldü. Səhərisi gün sağ qalanların bir hissəsi Xocalıdan 6-7 kilometr aralı Qaraqaya adlanan yerdə meşədən çıxarkən pusquda dayanmış erməni faşist dəstələri tərəfindən güllələbaran edildi. Xilas olaraq Abdal-Gülablı kəndinə getməyə səy göstərənlər düşmən mühasirəsinə düşüb, atəşə tutuldular. Erməni daşnakları yaralılara aman vermir, meyitləri eybəcər hala salır, qadın və qızları təhqir edirdilər.

Xocalı şəhərinin əhalisi 13 min nəfər idi. Xocalıda erməni vandalları azərbaycanlılara qarşı növbəti soyqırımı törətdilər. 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. Min nəfər dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. 1275 nəfər girov götürüldü. 56 nəfər xüsusi amansızlıqla diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı 1918-ci ildəki mart soyqırımı zamanı olduğu kimi süngü ilə dəlik-deşik edildi. Bu faciədə təkcə erməni faşistləri və rus millətçiləri deyil, həm də uzun müddət düşmən əhatəsində qalan şəhərə lazımi kömək etməmiş, əhalini təhlükəsiz yerlərə köçürmək üçün tədbirlər görməmiş Azərbaycan rəhbərliyi, eləcə də, hakimiyyət uğrunda mübarizədə Qarabağ problemindən istifadə edib siyasi kapital toplamaqla vəziyyətin gərginləşməsinə çalışan siyasətbazlar təqsirkar idilər.

Nüfuzlu beynəlxalq qurumların, dünya birliyi ölkələrinin ikili standartlardan yanaşmalarının nəticəsidir ki, bu dəhşətli faciə — Xocalı soyqırımı ilə əlaqədar heç kəs məsuliyyətə cəlb edilməmiş, cinayətkarlar hələ də cəzasız qalmışlar.

**Firudin CÜMŞÜDLÜ,**
**ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti,**
**tarix elmləri namizədi**

**“Xalq qəzeti”.-2009.-26 fevral.-N 45.-S.3.**

**Tariximizin qanla yazılmış səhifələri**

Rus-İran müharibəsi başa çatdıqdan və 1828-ci il fevralın 10-da Təbriz yaxınlığında Türkmənçay kəndində sülh müqaviləsi bağlandıqdan sonra İran Rusiyanın sahiblik hüququnu qəbul edərək, Şimali Azərbaycana öz iddialarından əl çəkdi. Bu andan həmin əraziyə İrandan və Türkiyədən ermənilərin kütləvi surətdə köçürülməsinə başlandı. Çarizm erməniləri bu torpaqlara köçürməklə imperiyanın cənub sərhədlərində özünə etnik-dini dayaq yaratmaq məqsədi güdürdü.

Zaqafqaziyada çar hakimiyyətinin davam etdiyi uzun illər ərzində ermənilər Rusiyaya münasibətdə loyallığı saxlamış, onu özlərinin xilaskarı saymışlar. Azərbaycanda erməni əhalisi Rusiyanın qanadı altında müsəlmanlara nisbətən imtiyazlar qazanaraq, sürətlə inkişaf etmişdi. Rus tədqiqatçısı N.İ.Şavrovun hesablamalarına görə, təkcə 1826-1828-ci illərdə Zaqafqaziyada Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarına İrandan 40000 nəfərdən artıq, Türkiyədən 84600 nəfər erməni köçürülmüşdür (/Şavrov N. Novaya uqroza russkomu delu v Zakavkazye: predstoyaşaya rasprodaja Muqani inorodtsam. Sankt-Peterburq, 1911, s. 59)/. Azərbaycan torpağına ermənilərin köçürülməsi bütün XIX əsr ərzində və XX əsrin əvvəlində davam etmişdir. 1878-1879-cu illər rus-türk müharibəsi dövründə bu proses güclənmişdir. Amerika tarixçisi T.Svietoxovski qeyd etmişdir ki, neftli sahələrin icarəsi üzrə 1872-ci il hərracında tatarlar (azərbaycanlılar) tərəfindən alınan pay cəmi 5 faiz təşkil etmişdir, halbuki erməni sahibkarlar demək olar ki, 10 dəfə çox pay almışlar... 1900-cü ildə Bakı quberniyasının ərazisində fəaliyyət göstərən 115 sənaye şirkətinin 29 faizi ermənilərə və yalnız 18 faizi tatarlara məxsus olmuşdur. Şərabçılıq, balıq emalı və tütünçülük kimi bəzi sahələr rəqabətdə azərbaycanlıları üstələyən ermənilərin əlinə keçmişdi. /Svietoxovskiy T. Russkiy Azerbaydjan 1905-1920. Xazar 1990. s. 84/. 1911-ci ildə N.İ.Şavrov yazırdı: "İndi Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyondan çoxu bu yerin köklü sakini deyil və bizim tərəfimizdən köçürülmüşdür (Şavrov N. Novaya uqroza russkomu delu v Zakavkazye: predstoyaşaya prodaja Muqani inorodtsam. Sankt-Peterburq, 1911, s. 61)."

Çar hakimiyyəti erməniləri kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürməklə kifayətlənməyərək, müsəlmanlarla ermənilər arasında ədavət yaradır, "parçala, hökm sür" siyasətinə uyğun olaraq, imperiyanın mənafeyinə xidmət edən erməniləri yerli əhalinin maraqları ilə hesablaşmamağa sövq edirdi.

1905-1907-ci illər birinci rus inqilabı dövründə Azərbaycanda fəhlələrin və kəndlilərin çıxışları geniş vüsət almışdı. Azərbaycanda inqilabi hərəkatın güclənməsindən narahat olan çar hökuməti fəhlələri və kəndliləri inqilabi çıxışlardan yayındırmaq üçün erməni-müsəlman ədavətini daha da qızışdırırdı.

Belə bir siyasətin nəticəsi olaraq, birinci erməni-müsəlman toqquşması 1905-ci il fevralın 6-da Bakıda baş verdi. Buna bəhanə azərbaycanlı sakinin daşnaklar tərəfindən öldürülməsi idi. Polisin və ordunun tam fəaliyyətsizliyi ilə Bakıda 3 gün davam edən qırğın Azərbaycanın başqa regionlarına keçdi. Münaqişə nəticəsində "128 erməni və 158 azərbaycanlı kəndi dağıdıldı. Müxtəlif hesablamalara görə, həlak olanların sayı 3100 nəfərdən 10000 nəfərə qədər olmuşdur" (Svietoxovskiy T. Russkiy Azerbaydjan 1905-1920. Xazar. 1990, s. 86).

Münaqişənin birinci mərhələsinin başa çatması ilə çar hökumətinin "müsəlmanpərəst" mövqeyi dəyişdi. Müsəlmanlara qarşı yeni hücum kampaniyası başlandı. Çarın Qafqazdakı yeni canişini Vorontsov-Daşkov ermənilərlə dostluğun Zaqafqaziyada Rusiyanın hakimiyyətinin əsası olması kimi köhnə ənənəni dirçəltmək və həyata keçirmək üçün gərgin işə başladı. Qafqazın canişini yazırdı: "Mənim siyasətimin mənafeyi naminə qanuna əsasən erməniləri məhkəmə vəzifələrinə təyin etmək, hər bir halda erməni icmasını qıcıqlandırmamaq, Rusiyaya qarşı düşmənçiliyi gücləndirməmək lazımdır". /(Prizvannıe oteçestvom. Rossiyskie prokurorı. 1722-1917, Moskva 1996, s. 586)./

Onun ilk tədbirlərindən biri Qriqoryan kilsəsinin əmlakının müsadirəsi haqqında 1903-cü il fərmanının ləğv olunmasını çar II Nikolaydan xahiş etmək olmuşdur. Müsəlmanlar üzərində nəzarəti saxlamaq üçün o, ermənilərə silah paylamışdır. Çar hakimiyyəti ilə daşnaklar arasında əməkdaşlığın nümunələri heç kim üçün sirr deyildi və hətta baş nazir P.A.Stolıpin ermənilərə rəğbət bəsləməsini Vorontsov-Daşkova irad tutmuşdu (Zeynalov İ.M., Sadıxov D.Ş., İstoriya Azerbaydjana, Baku, 1994, s. 39).

Bu vəziyyətdə özlərini qorumaq üçün müxtəlif müsəlman qrupları öz fəaliyyətlərini əlaqələndirməyə çalışırdılar. Azərbaycanda ermənilərə qarşı mübarizə üçün siyasi partiyalar yaradılmağa başlamışdı: Azərbaycan sosial-federalistlərinin "Qeyrət" partiyası (1905), "Difai" (müdafiə) milli partiyası (1906), "Müdafiə" təşkilatı (1907) və sair.

1905-1907-ci illər rus inqilabının məğlubiyyətindən sonra Rusiyada irtica dövrü başlandı. Rusiyada 1917-ci il oktyabr çevrilişi və onun ardınca baş verən qanlı hadisələr Azərbaycan əhalisinin böyük hissəsinin rus inqilabının demokratik xarakterinə inamını sarsıtdı. Noyabrın 2-də Bakı Sovetinin geniş konfransında bolşeviklər sovet hakimiyyətinin elan edilməsinə nail oldular. Bakı Sovetinin İcraiyyə Komitəsinin tərkibi

seçildi. Onun tərkibinə M.V.Basin, N.P.Vatsek, P.A.Caparidze, İ.T.Fioletov, M.Ə.Əzizbəyov və başqaları daxil idilər. S.G.Şaumyan Bakı Soveti İcraiyyə Komitəsinin sədri seçildi. Tədricən bolşeviklər şəhərdə hakimiyyəti öz əllərinə almağa başladılar. Bolşeviklərin ən güclü siyasi opponenti müsəlman əhalisinin əsas kütləsini öz ətrafında birləşdirən "Müsavat" (bərabərlik) partiyası oldu. Müsəlman əhalisinin muxtariyyəti və dirçəlişi uğrunda müsavatçıların mübarizəsi bu partiyanın gücünü aydın başa düşən, onun sıralarının tədricən möhkəmlənməsi və birləşməsi meylini görən Bakı Soveti rəhbərlərini ciddi narahat edirdi. S.Şaumyan yazırdı: "Lap əvvəldən Zaqafqaziyada ən zəif siyasi partiya olan, bu inqilab zamanı təşkilatlanan, heç bir təşkilati, heç bir partiya ənənəsi, heç bir hakimiyyəti olmayan, inqilabın əvvəlində heç bir rol oynamayan "Müsavat" ikinci ilin başlanğıcında Zaqafqaziyada ən güclü siyasi partiyaya çevrildi" (Şaumyan S.G., İzbrannıe proizvedeniye, M., 1958, t.2, s. 257).

Azərbaycan Demokratik Hərəkatının liderləri belə bir bəyanatla çıxış etdilər ki, rus hakimiyyətinin ən zərərli nəticələrindən biri çarizmin müsəlmanları orduya çağırışdan azad etmək siyasəti idi. Monarxiyanın devrildiyi ilk gündən Rusiya müsəlmanları onlara vəziyyətlərini qonşuları-xristianlarla bərabərləşdirmək üçün zəruri olan öz hərbi birləşmələrini yaratmaq hüququnun verilməsi xahişi ilə müraciətlər edirdilər. A.F.Kerenskinin başçılığı ilə müvəqqəti hökumət bu məsələnin həllini hər vasitə ilə ləngidirdi, hətta sonradan razılıq versə də, silahlandırmaqdan boyun qaçırmışdı. Birinci Dünya müharibəsindən sonra tərxis edilmiş ordunun silahının və geyiminin xeyli hissəsi erməni və gürcü hərbi birləşmələrinə, Bakı bolşeviklərinə verildi, eyni zamanda, azərbaycanlılara əvvəlki kimi silah çatmadı, həm Qafqaz cəbhəsinin komandanlığı, həm də Bakı Soveti silah verməkdən imtina etdi (Svietoxovskiy T. Russkiy Azerbaydjan, 1905-1920, Xazar, 1990, s. 86).

Osmanlı imperiyası (Türkiyə) ilə Rusiya imperiyası arasındakı müharibə 1914-cü il oktyabrın 29-da başlanmış (rəsmən noyabrın 11-də elan edilmişdir) və 1918-ci il martın 3-də Osmanlı imperiyası ilə RSFSR arasında Brest-Litva sülh müqaviləsinin bağlanması ilə başa çatmışdı. Brest-Litva müqaviləsinin imzalanması və Rusiyanın Qafqaz cəbhəsinin dağılması rus komandanlığını milli əsasda yeni hərbi birləşmələrin yaradılmasına imkan verməyə məcbur etdi. 1918-ci il yanvarın 13-də "Pravda" qəzeti Lenin və Stalin tərəfindən imzalanmış 13 nömrəli fərmanı dərc etdi. Bu fərman "Qafqaz işləri üzrə komissar S.Şaumyanın" müşahidəsi altında müvəqqəti erməni hökumətinin yaradılması məsələsinə aid idi. Fərmanın mənası aydın idi: ruslar Brest-Litva müqaviləsində nəzərdə tutulduğu kimi, öz qoşunlarını qədim türk şəhərlərindən - Qarsdan və Batumdan çıxarılması ərəfəsində erməniləri silahlandırmaq istəyirdilər. Ermənilər 1915-ci ildə törətdikləri qırğına görə türklərin intiqam alacağından qorxaraq öz ordu birləşmələrini yaratdılar. Bu işdə onlara ingilis, fransız və amerikan konsul və hərbi nümayəndələri böyük kömək göstərdilər. Onlar ilk növbədə rus cəbhəsində olan türk ordusunu Mesopotamiyada İngiltərəyə qarşı çıxış etməkdən yayındırmaq istəyirdilər. "Antanta"nın (İngiltərənin, Fransanın və çar Rusiyasının 1904-1907-ci illərdə yaratdığı hərbi blok. Sonralar Antantaya İtaliya (1915) və ABŞ da (1917) daxil olmuşdu) Qafqaz cəbhəsində hərbi döyüş fəaliyyətinin canlandırılması planlarına Türkiyəyə qarşı mübarizə üçün müsəlman birləşmələrindən istifadə olunması daxil deyildi. Lakin T.Svietoxovskinin qeyd etdiyi kimi, "...ermənilər türk qoşunlarının Zaqafqaziyaya daxil olmasından qorxduqları kimi, azərbaycanlılar da ermənilərin silahlanmasından və millətlərarası münasibətlərin kəskinləşməsindən ehtiyat etməyə başladılar" (Svietoxovskiy T. Russkiy Azerbaydjan 1905-1920, Xazar, 1990. s. 87).

Həmin dövrdə Bakıda vəziyyət kəskinləşməyə başladı. Şəhərdə hər cür şayiələr baş alıb gedirdi, ərzaq təchizatı praktik olaraq kəsilmişdi, aclıq labüd idi, əhali qorxu içərisində yaşayırdı. Belə şəraitdə erməni bolşeviklərlə müsəlman əhali arasında münaqişə Bakıda baş verdi. Bu, qarşı duran tərəflər üçün şəhərin əhəmiyyətini şərtləndirən bir sıra amillərlə bağlı idi. Birincisi, bolşeviklər bütün Zaqafqaziyada öz hakimiyyətlərini möhkəmlətmək üçün Bakıya "dayaq məntəqəsi" kimi baxırdılar və onlar Bakının itirilməsinə heç cür yol verə bilməzdilər. İkincisi, Rusiyanın bütün fabrik, zavod sənayesi və nəqliyyatı Bakı nefti ilə işləyirdi (İzvestiya Bakinskoqo Soveta, 1918, 21 maya). Nəhayət, üçüncüsü, "Bakı türk milli hərəkatının mərkəzi idi və bolşeviklər bu mərkəzi ləğv etmək istəyirdilər (Rasulzade M. Azerbaydjanskaya Respublika, Baku, 1990, s.33). Zaqafqaziyada bolşevik hakimiyyətinin qalıb-qalmaması məsələsi əsas etibarı ilə məhz Bakıda həll edilirdi.

"Bu dövrdə Bakıda böyük sayda silahlı dəstələr toplanmışdı: 1) bolşeviklər tərəfindən yaradılan 3500 nəfərlik Qırmızı Qvardiya; 2) "Daşnaksütyun" partiyasına tabe olan 4500 piyada və süvari əsgərlərdən ibarət erməni milli qvardiyası hissələri; 3) ruslardan və slavyanlardan ibarət olan beynəlmiləl alayın hissələri; 4) hərbi donanma dənizçilərinin ayrı-ayrı qruplarının tabe olduqları menşeviklərin və eserlərin silahlı dəstələri" Suleymanov M., Dni minuvşie... Baku-1990, s. 207. Nəticədə 1918-ci il martın əvvəlində Bakı Sovetinin sərəncamında 20 min nəfərlik hərbi qruplaşma toplanmışdı (İsmaylov G., Qasanov Dj., Qafarov T., İstoriya Azerbaydjana. Baku - 1998, s. 8). Mart hadisələri ərəfəsində Bakıda və onun ətrafında azərbaycanlıların heç bir iri hərbi birləşməsi yox idi. Bu faktı Y.Ratqauzer təsdiq edirdi: "Şəhərdə hadisələrin əvvəlində Müsavat partiyasının daimi hərbi hissələri yox idi. Rayonlarda olan Müsavat qüvvələri vaxtında şəhərə gətirilməmişdi.

Belə hesab etmək olardı ki, Müsavat partiyasının rəhbərliyi martın 30-da döyüşün başlanmasını gözləmirdi" (/Ratqauzer Y., Revolyutsiya i qrajdanskaya voyna v Baku, Baku - 1927, s. 145)/.

Tarixi sənədlər və baş vermiş hadisələrin mahiyyəti sübut edir ki, məhz bolşeviklər ermənilərin yaxından iştirakı ilə mart hadisələrinin təşəbbüskarı və təşkilatçısı olmuşlar. P.A.Caparidze martın 26-da öz çıxışında demişdi: "Bizim bütün əvvəlki siyasətimiz vaxtı udmaqdan ibarət olmuşdur. Biz bilirdik ki, əks-inqilabi qüvvələrlə döyüşə girməli olacağıq və buna hazırlaşırdıq". (Ratqauzer Y., Revolyutsiya i qrajdanskaya voyna v Baku. Baku - 1927, s. 141-142.) Öz növbəsində S.Şaumyan martın 15-də Bakı Sovetinin iclasında "Cənubi Qafqazda işlərin vəziyyəti" haqqındakı məruzəsində Azərbaycan millətinin qırğınına başlanmasına mahiyyətcə öz "xeyir-duasını" vermiş, sonrakı gün isə İ.V.Stalinə məktubunda RSFSR Xalq Komissarları Sovetindən xahiş etmişdi ki, "Qafqaz ordusunun hərbi inqilabi komitəsinin ehtiyacları üçün 10 milyon rubl pul ayrılsın" (Şaumyan S., İzbrannıe proizvedeniya, t.II, c.265).

Fevralın 24-də Bakıya general Talışınskinin başçılığı ilə müsəlman diviziyasının qərargahı gəldi. General-mayor Mirkazım xan Talışinski rus-yapon müharibəsində Port-Arturun qəhrəmancasına müdafiəsinin iştirakçısı olmuşdu. Sovet hakimiyyətinin qələbəsindən sonra könüllü surətdə inqilabın tərəfinə keçmişdi. S.Şaumyanın göstərişi ilə qərargah üzvləri birbaşa Bakı vağzalında həbs edildi. Bu, təkcə Bakıda deyil, Azərbaycanın başqa regionlarında da müsəlmanların kəskin narazılığına səbəb oldu. Azərbaycan ziyalılarının nümayəndələri ağır nəticələri qabaqcadan görərək, keçirilən mitinqlərdə və yığıncaqlarda əhalini sakitliyə, təzyiq və zorakılıq faktlarına qarşı dözümlü olmağa çağırırdılar.

Lakin Bakı Soveti ilə şəhərin müsəlman əhalisi arasında kəskinləşən ziddiyyət silahlı qarşıdurmaya çevrilə bilən təhlükəli vəziyyət yaratmışdı. Və belə bir fürsət bolşeviklər tərəfindən tapıldı. Belə ki, keçmişdə gənc zabitlər tez-tez bir-birilərinin qarşısında cəsarətləri ilə lovğalanırdılar: onlar revolverin barabanında bir güllə saxlayaraq, silahı gicgahlarına tuşlayıb tətiyi çəkir və talelərini sınaqdan keçirirdilər. Hacı Zeynalabdin Tağıyevin "Vəhşi diviziya"da (rus ordusunun keçmiş Qafqaz süvari diviziyasının tatar alayı) xidmət edən oğlu Məmmədtağı da öz taleyini bu cür sınaqdan keçirmək istəmişdi. Revolver boşa çıxmamış və güllə 18 yaşlı gəncin həyatına son qoymuşdu. Bununla bağlı, martın 24-də müsəlman diviziyasının 200 nəfər zabit və əsgəri "Evelina" gəmisi ilə Bakıya öz döyüşçü yoldaşlarının dəfnində iştirak etməyə gəldi (/Suleymanov M., Dni minuvşie..., Baku-1990, s. 207/).

Şəhərdə çoxminli erməni hissələrinin olmasına göz yuman bolşeviklər martın 29-da gəmi ilə Lənkərana qayıtmaq üçün toplaşan müsəlman zabit və əsgərlərini S.Şaumyanın əmri ilə tərksilah etdilər. Bu hadisəyə cavab olaraq müsəlman əhalisi müsadirə olunmuş silahların qaytarılmasını tələb etdi. Elə bu da, müsəlmanlara qarşı əsl müharibəyə başlamaq üçün əvvəlcədən düşünülmüş bəhanə oldu. Bakı komissarlarının tarixi oçerklərindəki qeydlər təsdiq edir ki, S.Şaumyan və xüsusilə, onun ermənilərdən ibarət yaxın ətrafı şəhərin müsəlman hissəsinə hücum etmək üçün təkcə bəhanə gözləmirdi, həm də bu təxribatın təşkilatçısı idi. Qeydlərin birində deyilir: "Evelina" gəmisinə "Müsavat"ın Lənkəran şəhərinə göndərmək istədiyi silah yüklənmişdi. Bu, Bakı Soveti tərəfindən qabaqcadan nəzərdə tutulmuşdu. Yunkerlər silahlı qüvvələr tərəfindən tərksilah edildilər. Yunkerlərin tərksilah edilməsindən sonra "Müsavat" alınmış silahların qaytarılması barədə Bakı Sovetinə ultimatum verdi" (/ÜQAPPOD Azerb. Resp. f.276, op.2, d.155, l.8)/.

Başqa qeyddə deyilir: "Müsavatçılar alınmış silahın qaytarılması haqqında inqilabi komitəyə ultimatum verdilər və bu məqsədlə öz nümayəndə heyətlərini göndərdilər. Gərgin vəziyyət yarandı. Mağazalar bağlandı. Şəhərin müsəlman hissələrində silahlı xalq kütlələri toplaşdı. Təxribat baş tutdu və bu, vətəndaş müharibəsinin başlanması üçün siqnal oldu (/Azərbaycan Mərkəzi Dövlət Arxivi, f.276, s.2, i.155, v.8/). Martın 30-da səhər şəhərin müxtəlif rayonlarında azərbaycanlıların alınmış silahların qaytarılması tələbi ilə mitinqləri başlandı. Səhər tezdən şəhərin müsəlman hissəsinə hücumlar başlandı. Bu zaman ermənilərə inanıb sakitləşən müsəlmanlar hələ yatmışdılar. Hücumları sırf erməni əsgərləri həyata keçirirdilər və müsəlmanlar baş verənləri əvvəlcə başa düşə bilmədilər. Hərbi gəmilər şəhərin müsəlman hissəsini mərmi atəşinə tutmuşdular. Bu, rus matroslarını müsəlmanların rus əhalisini qırdığına inandıran ermənilərin təxribatı nəticəsində olmuşdu (Azərbaycan Mərkəzi Dövlət Arxivi, f.276, s. 2, i. 155, v. 8).

Şəhərdə gərginliyin daha da güclənməsinin qarşısını almaq üçün saat 14-də N.Nərimanovun mənzilində M.Ə.Rəsulzadənin iştirakı ilə təcili müşavirə toplanmış və buraya S.Şaumyan da dəvət edilmişdi. Danışıqlar nəticəsində müsəlman diviziyasından alınmış silahların "Hümmət" bolşevik təşkilatı vasitəsilə qaytarılması barədə razılıq əldə edildi (/Q.Sultanov., İz proşloqo Baku - 1924, s.18/). Müşavirədən sonra N.Nərimanov xalqı sakitləşdirmək və qəbul olunmuş qərarı bildirmək üçün Təzə Pir məscidində çıxış etdi: "Mənim müsəlman qardaşlarım, aldanmayın, araqarışdıranların təxribatına inanmayın. Sovet hakimiyyəti kim olur-olsun, onun cavabını verməyə kifayət qədər güclüdür. Onun topları var, onun çoxlu silahı və əsgəri var, onun hərbi gəmiləri və döyüş sursatı var. Bəs sizin nəyiniz var? Ən çoxu 5-10 dənə paslı tüfənginiz, 30-40-a qədər köhnə sınıq tapançanız var. Siz heç atəş aça da bilmirsiniz. Nə intizam var, nə qayda. Bir qədər dözün, hər şey yoluna düşər (/M.Suleymanov. Dni minuvşie... 1990, s. 208)/.

Mart hadisələri bolşevik məqsədlərini güdən "Hümmət" partiyasını narahat edirdi. Onun mətbuat orqanı olan "Hümmət" qəzeti bu barədə qəzəbli məktub dərc etmişdi. Məktubda deyilirdi: "Əvvəl siyasi xarakter daşıyan mübarizə sonradan milli xarakter aldı... Biz bolşevik kimi qalaraq, eyni zamanda, imkan vermərik ki, müsəlman yoxsullarının günahsız axan qanları nəticəsiz qalsın. Biz var qüvvəmizlə müsəlmanlara qarşı törədilən bütün bu nanəcibliyi aşkar etməyə çalışacağıq ("Hümmət", 1918). Lakin sonrakı hadisələr göstərdi ki, N.Nərimanov və M.Ə.Rəsulzadə S.Şaumyan tərəfindən aldadılmışlar və S.Şaumyan heç də öz vədini yerinə yetirməyə hazırlaşmırmış. Bolşeviklər şəhərdə özünü ali hərbi siyasi orqan elan edən Bakı şəhəri və onun rayonlarının inqilabi müdafiə komitəsini təşkil etdilər. Onun tərkibinə S.Şaumyan, P.Caparidze, Q.Karqanov (Karqanyan), sol eser İ.Suxartsev, sağ eserlərin lideri S.Saakyan və "Daşnaksütyun" partiyasının Bakı təşkilatının rəhbəri S.Melik-Yeolqyan daxil idilər (/İzvestiya Bakinskoqo Soveta, 1918, 11 aprel, s.7)/. Həmin vaxtda şəhərdə vəziyyət hər dəqiqə gərginləşirdi. Bu şəraitdə Qırmızı Ordunun süvari dəstələrinə kim tərəfindən atıldığı məlum olmayan təxribatçı atəşlərindən istifadə edən bolşeviklər Bakının dinc azərbaycanlı əhalisinə qarşı genişmiqyaslı hərbi əməliyyata başladılar. S.Şaumyanın öz sözləri təsdiq edir ki, bolşeviklərə yalnız bəhanə lazım idi: "Biz süvari dəstələrimizə ilk silahlı hücum cəhdindən istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Bizim artıq 6 min nəfərlik silahlı qüvvəmiz, "Daşnaksütyun"un da 3-4 min nəfərə yaxın milli birləşməsi var idi və onlar bizim ixtiyarımızda idi. Onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verirdi. Lakin bunsuz mümkün deyildi. Biz buna şüurlu surətdə gedirdik. Əgər onlar Bakı şəhərində üstünlük əldə etsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi (/S.G.Şaumyan, Seçilmiş əsərləri, c.II, s.265)/.

Bakıda azərbaycanlıların qırğını 3 gün davam etdi. Bu müddətdə şəhərdə görünməmiş dəhşətlər törədildi. S.Şaumyan özü etiraf etməyə məcbur oldu ki, "...vətəndaş müharibəsi nəticəsində yoxsul kütlə və günahsız müsəlmanlar ziyan çəkdilər, belə ki, biz erməni alayının köməyinə əl atmağa məcbur olduq və biz onların xidmətindən imtina edə bilmədik". Bunun ardınca qeyd edir ki, "...qələbə elə böyükdür ki, bu, həqiqətin üstünə az kölgə salmır" (/S.G.Şaumyan, Seçilmiş əsərləri, c.II, s.249-250)/.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir.

1918-ci il iyulun 15-də Azərbaycanın xarici işlər naziri M.H.Hacınski Nazirlər Şurasının sədri F.X.Xoyskiyə ərznamə ilə müraciət edərək müsəlmanlara qarşı zorakılıqları təhqiq etmək üçün komissiya yaradılmasının zəruri olduğunu yazmışdı: "Artıq dörd aydır ki, Azərbaycan ərazisinin müxtəlif hissələri bolşevik adı altında fəaliyyət göstərən və dinc müsəlman əhalisinin həyatı və əmlakı ilə vəhşicəsinə rəftar edən quldur dəstələri, məsuliyyətsiz erməni silahlı birləşmələri tərəfindən viran olunur. Eyni zamanda, bu quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən səhv informasiya sayəsində Avropada tamamilə əks ictimai rəy yaranır. Əhalinin zərərçəkən qruplarının mənafeyi naminə elə bir təşkilat yaratmaq lazımdır ki, bütün zorakılıq hallarını və bu zorakılıqların törədildiyi şəraiti dəqiq qeydə alsın, günahkarları və onların vurduqları ziyanın məbləğini müəyyən etsin.

Bu təşkilat fövqəladə istintaq komissiyası xarakteri daşımalıdır, özü də bu komissiyanın məlumatları Avropanın başlıca dillərində (rus, fransız, alman və türk dillərində) bəyan olunmalı və geniş yayılmalıdır. Bu komissiyanın yaradılmasına dərhal başlamaq lazımdır, çünki hadisələrin izi ilə isti-isti istintaq aparmaq, fotoşəkillər çəkmək, digər maddi sübutlar əldə etmək mənasında bir çox işləri indi asanlıqla görmək mümkündürsə, sonralar bu iş çətin və hətta qeyri-mümkün olacaq" (Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1061, siyahı 1 s, iş 95, vərəq 1).

Birinci dünya müharibəsinin əvvəlindən bəri bütün Cənubi Qafqaz hüdudlarında müsəlmanların özlərinə və əmlakına qarşı törədilmiş zorakılıqları təhqiq etmək məqsədilə Azərbaycan hökumətinin 1918-ci il 15 iyul tarixli qərarı ilə Fövqəladə İstintaq Komissiyası (FİK) təşkil olunmuşdu.

Ələkbər bəy Xasməmmədov onun sədri, Gəncə dairə məhkəməsinin üzvləri İsmayıl bəy Şahmalıyev və Andrey Fomiç Novatski, Gəncə mahal məhkəməsi prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə məskunlaşma idarəsinin üzvü Nikolay Mixayloviç Mixaylov, barışdırıcı hakimlər qurultayının keçmiş sədri, həqiqi mülki müşavir V.Qudvil və müəllim Mirzə Cavad Axundzadə komissiyanın üzvləri təyin edilmişdilər (Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1001, siyahı 1s, iş 103, vərəq 2).

Komissiyaya cinayət məhkəmə icraatı nizamnaməsinə uyğun olaraq məhkəmə-istintaq hakimiyyətinə məxsus səlahiyyət və hüquqlar verilmişdi.

Ələkbər bəy Xasməmmədov mülkədar idi, Yelizavetpol mahal məhkəməsində andlı müvəkkil, AXC dövründə Gəncə şəhərinin başçısı olmuşdu, türk sosial-federalist inqilabçılarının "Qeyrət" partiyasını yaradanlardan (1905-ci il) biri Xəlil bəy Xasməmmədovun qardaşı idi.

Azərbaycanın müxtəlif regionlarında öz həyatını və sağlamlığını risk altında qoyaraq çalışan FİK üzvlərinin gərgin və vicdanlı əməyi sayəsində müxtəlif erməni silahlı təşkilatlarının azərbaycanlıları məhv etmək üçün məqsədyönlü şəkildə həyata keçirdikləri zorakılıqlara dair qiymətli materiallar toplanıb

rəsmiləşdirildi. Bu materialların əhəmiyyəti və dəyəri bundadır ki, onlar ciddi peşəkar iş nəticəsində hazırlanmış rəsmi sənədlərdir.

1918-ci il noyabrın 22-də FİK-in sədri Ələkbər bəy Xasməmmədov respublikanın ədliyyə naziri F.X.Xoyskiyə "Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara dair" məruzə təqdim etmişdi. Ə.Xasməmmədov öz məruzəsində qeyd etmişdi ki, yaxşı silahlanmış və hərbi təlim keçmiş ermənilər şəhərin müsəlmanların sıx yaşadığı məhəllələrində kütləvi qırğınlar törətmişlər: "Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini öldürür, qılınc və xəncərlə onları kəsib-doğrayır, süngüyə keçirir, evlərə od vurub yandırır, uşaqları oda atıb yandırır, üç-dörd günlük uşaqları havaya tullayıb süngüyə keçirirdilər. Evdə qalan, demək olar, bütün südəmər uşaqları öldürür, onların valideynlərinin dalınca qaçıb küçədə qətlə yetirirdilər. Şəhərin elə bir məhəlləsi yoxdur ki, orada ermənilər müsəlmanları qırmasınlar, çox az sayda adam öz həyatını xilas edə bilmişdirE Ermənilər müsəlmanları öldürməklə yanaşı, onların əmlakını məhv edir, ən dəyərlilərini özləri ilə aparırdılar. Müsəlmanları öldürüb izi itirmək üçün basdırırdılar. Təkcə bir yerdə torpağın altından qulağı, burnu kəsilmiş, qarınları cırılmış 57 müsəlman meyiti tapılmışdıE" (Azərbaycan Respublikasının SPİH Dövlət Arxivi, fond 277, siyahı 2, iş 16, vərəq 16).

Komissiya üzvləri öz hesabatlarında şahidlərin və zərərçəkmişlərin ifadələri əsasında müəyyənləşdirmişdilər ki, Bakının müsəlman əhalisinə qarşı törədilmiş cinayətlərin başlıca qızışdırıcısı və iştirakçısı qismində S.Lalayevin istisnasız olaraq ermənilərdən ibarət dəstəsi çıxış etmişdir.

Bakıda baş vermiş faciəli hadisələrin istintaqını bilavasitə aparmış komissiya üzvlərindən biri A.Y.Kluqe öz protokollarında göstərirdi ki, "Bakı hadisələri zamanı 11.000-dək müsəlman qətlə yetirilmişdir" (Azərbaycan Respublikasının SPİH Dövlət Arxivi, fond 277, siyahı 2, iş 27, vərəq 18).

Bakıda törədilmiş vəhşiliklərdən sonra heç bir müqavimətə rast gəlməyən və bu uğurlarından ruhlanan ermənilər öz çirkin niyyətlərini və vəhşi planlarını Azərbaycanın qəzalarında daha arxayınlıq və həyasızlıqla həyata keçirməyə başlamışdılar. Erməni millətçilərinin qanlı cinayətləri sırasında Şamaxı hadisələri xüsusi yer tutur. S.Şaumyanın əmri ilə guya sovet hakimiyyətinin rəsmiləşdirilməsi üçün oraya göndərilmiş və əksəriyyəti ermənilərdən ibarət olan silahlı quldur dəstələri Şamaxını bütünlüklə talan və darmadağın etmişdilər.

Bu hadisələri təhqiq etmiş Gəncə dairə məhkəməsinin, həmçinin Fövqəladə İstintaq Komissiyasının üzvü A.F.Novatski öz hesabatlarında təəccüblə yazırdı: "...Ermənilər 1918-ci ilin 18 (31) martında səhər erkən Şamaxı şəhərinə hücum çəkmişlər. Şamaxı cənubdan ermənilər, şimal-şərq tərəfdən malakanlar tərəfindən mühasirəyə alınmışdır. Bu dəstələr Şamaxının müsəlmanlar yaşayan aşağı hissəsini bombardman etmişlər. Bu zaman şəhərin yuxarı hissəsində yaşayan ermənilər odlu silahlardan müsəlmanları atəşə tutmuşlar. Şəhərə girməyə nail olmuş erməni və malakanlar müsəlmanları məhv etməyə başlamışlar. Onlar irəlilədikcə evləri yandırmış, qarət etmiş, dinc əhalini qırmışlar" (Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1061, siyahı 1s, iş 99, vərəq 6).

A.Novatskinin məlumatına əsasən, yanğın şəhərin bütün müsəlman hissəsinə yayılmış və ertəsi gün bunun yerində yalnız xarabazarlıq qalmışdır. Kişi, qadın, uşaq olmasına baxmayaraq, sakinlər küçələrdə güllləbaran edilmiş, onlara olmazın əzab-əziyyətlər və işgəncələr verilmişdir: "Küçələr zorlanmış, döşləri kəsilmiş, qarınları yarılmış, təhqirlərə məruz qalmış qadın cəsədləri ilə dolu idi, hətta nizələrlə torpağa saplanmış uşaq meyitlərinə də rast gəlmək olurdu" (Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1061, siyahı 1s, iş 106, vərəq 6).

FİK üzvünün hesabatında belə bir fikir əsas götürülür ki, ermənilər insanları yalnız onların müsəlman olduqlarına görə qırmışlar. Onlar müsəlmanların dini hisslərinə toxunmuş, məscidləri, müqəddəs yerləri təhqir etmişlər. "Küçələr, həyətlər, məscidlər insan cəsədləri ilə dolu idi. Bütün əmlak qarət edilərək erməni və malakan kəndlərinə aparılmışdı. Bütün məscidlər, o cümlədən 13 məhəllə məscidi və "Cümə məscidi", buradakı müqəddəs ziyarətgahlar yandırılmışdı" (Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1061, siyahı 1s, iş 108, vərəq 6).

Ermənilər tərəfindən törədilmiş, kütləvi və məqsədyönlü xarakter daşıyan çirkin əməllərə Şamaxı qəzasının bütün kəndlərində də yol verilmişdi. A.Novatskinin əldə etdiyi məlumatlara əsasən, Navahı kəndində "ermənilər kəndə soxularaq əhalini vəhşicəsinə döymüş, qaçanları güllələmiş, əllərinə keçənləri süngüdən keçirmiş, xəncərlə doğramış, uşaqları valideynlərinin gözləri qarşısında süngülərə taxmış, qadınları zorlamış, döşlərini kəsmiş və nəticədə 555 kişini, 260 qadını, 140 uşağı məhv etmişlər" (Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1061, siyahı 1s, iş 110, vərəq 14).

Tarixi mənbələrdən gətirilmiş misallardan da göründüyü kimi, Şamaxıda və qəzanın müsəlman kəndlərində müsəlmanlara kütləvi şəkildə divan tutulması, S.Şaumyanın həyasızcasına bildirdiyi kimi sovet hakimiyyətinin qurulması məqsədi deyil, millətçilik və dini qisasçılıq məqsədi daşıyırdı.

Şamaxı hadisələrinə dair ədliyyə nazirinin adına hazırladığı məruzəsində komissiyanın sədri Ə.Xasməmmədov yazırdı: "Stepan Lalayevin Samson Əmirov və Saatsazbekovla birlikdə erməni əsgərlərindən təşkil olunmuş böyük bir silahlı dəstənin başında Şamaxıya gəlişindən az sonra şəhərin bütün müsəlman hissəsi məhv edildi. Lalayevin əmri ilə əsgərlər gənc müsəlman qızlarını tutur, onları Şamaxıdakı evlərinə aparır,

soyundurur, güclə içirir, zurnada çalınan musiqi altında rəqs etməyə məcbur edir, zorlayır, sonra isə bəzilərini yerindəcə öldürür, bəzilərini isə hündür eyvanlardan küçəyə atırdılar" (Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1061, siyahı 1s, iş 99, vərəq 6).

Müsəlman əhalisinə Şamaxıda ermənilər tərəfindən divan tutulması 1918-ci ilin sentyabrına qədər davam etmişdi. Yalnız türk qoşun hissələrinin köməyə gəlməsi erməniləri insanlığa zidd olan bu vəhşi əməllərdən əl çəkməyə məcbur etmişdi.

O günlərdə "Azərbaycan" qəzeti yazırdı: "S.Lalayevin Şamaxı müsəlmanlarına tutduğu divan bizim bu müharibə dövründə üzləşdiyimiz bütün dəhşətləri geridə qoyur" ("Azərbaycan" qəzeti, 21 (8) oktyabr, 1918, [1] 19, vərəq 2). Ermənilərin vəhşilikləri o qədər dəhşətli idi ki, bunları xalqdan gizli saxlamaq mümkün deyildi. Şamaxı dəhşətləri bütün ölkədə əks-səda vermişdi. Bolşeviklər də öz mətbu orqanlarında Şamaxı faciəsinə dair hesabat dərc etməyə məcbur olmuşdular, lakin burada Lalayevin törətdiyi vəhşiliyə yalnız bir ifadə ilə toxunulurdu: "... və dinc əhaliyə münasibətdə ədalətsizliyə yol verilmişdir" (Azərbaycan SSR EA-nın xəbərləri, [1] 2, 1989, səh. 123). İctimai rəyi sakitləşdirmək məqsədilə bolşeviklər Kojemyakonun başçılığı altında Fövqəladə Hərbi-İstintaq Komissiyası yaratmışdılar. Komissiyanın fəaliyyəti nəticəsində S.Lalayevə qarşı dinc əhalinin məhv edilməsi və şəhərin yandırılması ittihamı irəli sürülmüşdü. Bu cinayətkarı həbs etmək lazım gəlirdi. Kojemyako S.Lalayevi komissiyaya dəvət edib onun həbs edildiyini bildirəndə Lalayev ona əhəmiyyət vermədən Şaumyana zəng vurmuşdu. Şaumyan isə Kojemyakonu aparata çağıraraq bunları bildirmişdi: "Bu nə şıltaqlıqdır?! Lalayevi həbs etmək düzgün deyil". Beləliklə, "demokratiyanın ideya rəhbəri" bütün bu qətl və soyqırımının əsas günahkarı olan cinayətkarı himayə etmiş, Lalayev isə heç nə olmayıbmış kimi "Daşnaksütyun" bürosu tərəfindən ona ayrılmış cangüdənlərinin əhatəsində Velikoknyajevsk küçəsi ilə sərbəst gəzməyə başlamışdı. 3-4 gündən sonra isə qəzetlərdə Fövqəladə Hərbi-İstintaq Komissiyasının buraxılması haqqında xəbər dərc olunmuşdu (Azərbaycan tarixi sənədlər və mətbuat materiallarında. Bakı, 1990, səh. 278-279).

Başda S.Şaumyan olmaqla qaniçən niyyətlərindən əl çəkməyən ermənilər sovet hakimiyyətinin qurulması bayrağı altında öz səlib yürüşlərini Quba qəzasında davam etdirmişdilər. 1918-ci il mayın 1-də daşnak Amazaspın rəhbərlik etdiyi ermənilərdən təşkil olunmuş quldur dəstəsi Quba şəhərini mühasirəyə alaraq toplardan, pulemyotlardan və başqa silahlardan atəşə tutmuşdular. Az sonra şəhərə daxil olan ermənilər qarşılarına keçən hər kəsi, kişiyə-qadına, qocaya-uşağa baxmadan amansızcasına qırmış, evlərə soxularaq yerlə yeksan etmiş, bütöv ailələri - hətta südəmər uşaqları belə güllədən keçirmişdilər.

Bolşeviklərin nümayəndəsi, Quba qəzasının komissarı David Qelovani sonradan verdiyi ifadəsində bildirmişdi ki, "Amazaspın dəstəsi Quba şəhərinə cəza məqsədilə, yalnız komissar Şaumyanın arzusu ilə - o biri komissarların xəbəri olmadan göndərilmişdi. Bu dəstəyə əsgərlərin seçilməsi o vaxtkı hərbi komissar Korqanov tərəfindən həyata keçirilmişdi. Dəstə "Daşnaksütyun" partiyasına mənsub olan təqribən 2 min nəfər ermənidən ibarət idi, dəstəyə rəhbərlik məşhur daşnak Amazaspa, komissarlıq isə Venunu adlı bir erməniyə tapşırılmışdı, buna "cəza dəstəsi" adı verilmişdi və onun qarşısında heç bir siyasi məqsəd qoyulmamışdı" (Azərbaycan SSR EA-nın xəbərləri, 1989, [1] 4, səh. 134-135).

Quba sakinləri qarşısında çıxışlarından birində Amazasp demişdi: "Mən erməni xalqının qəhrəmanıyam və onun maraqlarını qoruyuram. Mən bura iki həftə əvvəl öldürülmüş ermənilərin qanını almaq üçün cəza dəstəsi ilə göndərilmişəm. Mən qayda-qanun yaratmaq, sovet hakimiyyətini qurmaqdan ötrü gəlməmişəm, gəlmişəm ki, sizdən öldürülmüş ermənilərin qisasını alım. Mənə əmr edilib ki, Xəzər dənizindən Şahdağa qədər bütün müsəlmanları qırım, evlərinizi yerlə yeksan edim" (Balayev A. 1917-1918-ci illər Azərbaycan milli hərəkatı. Bakı, 1998, səh. 174-175). Amazaspın Qubada keçirdiyi cəza aksiyası nəticəsində 2000 dinc azərbaycanlı qətlə yetirilmiş, 122 müsəlman kəndi yandırılmışdı.

Komissiyanın üzvləri N.Mixaylovun və V.Klossovskinin sənədlərində ermənilərin Naxçıvan və Ərəş qəzalarının müsəlman əhalisinə qarşı ağlasığmaz (vəhşi) cinayətlərinə dair məlumat vardır. Ağdamdan Qutqaşenə (Qəbələ) gedən yolun üstündə yerləşən Axtala ərazisində ermənilər tərəfindən diri-diri dərisi soyulmuş bir neçə müsəlman meyiti tapılmışdı. Bağır dərəsində bədənləri süngü ilə tamamilə deşik-deşik edilmiş 5 müsəlman tapılmışdı. Çomaxlı stansiyasının yaxınlığındakı yolun üstündə ermənilər tərəfindən gözləri çıxarılmış 21 arabaçı qətlə yetirilmişdi (Azərbaycan Respublikasının SPİH Dövlət Arxivi, f.277, s.2, i.16, v.6).

Sənədlərdə qeyd olunur ki, ermənilər Naxçıvan və Ərəş mahallarının müsəlman əhalisinə qarşı soyqırımı həyata keçirərək onların bütün evlərini, tikililərini və təsərrüfatlarını dağıdaraq qarət etmişlər.

1918-ci ilin iyul ayında erməni başkəsənləri Göyçay qəzasının Kürdəmir kəndinə basqın etmişlər. "Bolşeviklər kəndə daxil olmağa başladılar. Ermənilər qabaqda gedirdilər və kəndə birinci soxuldular. Onlar müsəlmanları, kişiləri, qadınları və uşaqları rəhmsizcəsinə qırmağa başladılar" (Azərbaycan Respublikasının SPİH Dövlət Arxivi, f.277, s.2, i.16, v.1).

Ermənilərin ağlasığmaz vəhşilikləri hətta bolşevik rus əsgərlərini dəhşətə saldığından onları ermənilərə qarşı çıxış etməyə məcbur etmişdi. "Rus bolşevikləri ermənilərin ən millətçi məqsədlərini güdmələrinin əyani

şahidi oldular. Bu zorakılıqlara qarşı etiraz etməyə başladılar. Buna görə onlarla ermənilər arasında silahlı toqquşma da oldu. Nəhayət, onlar erməniləri burada qoyub bir çox müsəlmanları özləri ilə Bakıya apararaq xilas etdilər" (Azərbaycan Respublikasının SPİH Dövlət Arxivi, f.277, s.2, i.16, v.2).

Gəncə quberniyasının Zəngəzur mahalında ermənilərin müsəlmanlara qarşı özbaşınalığının həddi-hüdudu yox idi. Bu da əsasən erməni-daşnak generalı Andranikin rəhbərlik etdiyi çoxsaylı hərbi hissələrin orada yerləşməsi ilə bağlı idi. Bu ərazidə 115 müsəlman kəndi dağıdılmışdı. "Erməni dəstələrinin əsgərlərinə paylanmış Bahud kəndinin 15 qızı fiziki və mənəvi iztirablara, namuslarının tapdalanmasına tab gətirməyib intihar etmiş, elə həmin kəndin 400 müsəlmanı həyatlarını xilas etmək üçün məsciddə sığınacaq tapdıqda binanın bütün çıxışları ermənilər tərəfindən qapadılaraq məscid yandırılmış, bir doğranmış müsəlman qadınının döşünü kəsib onun ölmüş körpəsinin ağzına salmışdılar". Ahud kəndində bir müsəlman kişinin qol-qıçını diri ikən baltaladıqdan sonra tüfənglərin süngüləri ilə və qamçılarla onu ölənə qədər getməyə məcbur etmişlər (Azərbaycan Respublikasının Dövlət Arxivi, f.970, s.1, i.161, v.8).

"Beləliklə, ancaq Zəngəzur mahalında 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, müvafiq olaraq 1061 kişi, 797 qadın və 485 uşaq isə yaralanmışdı. Öldürülmüş və şikəst olmuş müsəlmanların ümumi sayı 10.068 nəfərə çatmışdı" (Azərbaycan Respublikasının Dövlət Arxivi, f.970, s.1, i.161, v.17).

Müsəlman əhaliyə qarşı soyqırımı Naxçıvanda, Lənkəranda və Azərbaycanın digər ərazilərində davam etdirilmişdi.

Qeyd olunan faktlar tam aydınlığı ilə göstərir ki, bu hadisələr sinfi deyil, millətçi mübarizənin təzahürü idi. Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti də hərəkatını sinfi deyil, milli zəmində quraraq öz mübarizəsində əsas zərbəsini dinc azərbaycanlı əhaliyə qarşı yönəltmişdi.

**Rauf Rzayev,**
**tarix elmləri namizədi**

**“Azərbaycan” qəzeti, 31 mart -1 aprel 2009cu il**

## Mənbələr azərbaycanlıların 1905-1906-cı illər soyqırımı haqqında

Ermənilər havadarlarının maddi və hərbi-siyasi dəstəyi ilə XIX-XX əsrlərdə müəyyən mərhələlərlə azərbaycanlılara qarşı kütləvi qırğınlar və soyqırımlar törətmiş, deportasiyalar həyata keçirmişlər. Həmin soyqırımların ilk mərhələsi 1905-1906-cı illəri əhatə edir. Tarixə ilk olaraq "erməni-müsəlman qırğınları" kimi düşən bu qanlı faciələri hüquqi-siyasi baxımdan azərbaycanlılara qarşı soyqırım adlandırmaq onun mahiyyətinə tam uyğun gəlir.

Terminologiya kimi "soyqırım", yaxud "genosid" anlayışı BMT-nin Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli qətnaməsində tətbiq olunmağa başlamış, həmin qurumun 1948-ci il 9 dekabr tarixli konvensiyasında isə genosid siyasətinin qarşısının alınması və ona görə cəza müəyyənləşdirilmişdir. 1905-1906-cı illər qırğınları planlı şəkildə, azərbaycanlıların milli və dini mənsubiyyətlərinə görə, etnik təmizləmə məqsədilə həyata keçirildiyi üçün soyqırım mahiyyəti daşıyır. 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri və o dövrdə "milli qırğınlar" kimi tarixə düşən cinayətlər də soyqırım kimi xarakterizə edilir. 1988-1993-cü illərdə ermənilər yenə də havadarlarının köməyi ilə Dağlıq Qarabağda və onun ətraf rayonlarındakı ərazilərdə azərbaycanlılara qarşı soyqırım həyata keçirmişlər.

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanında qeyd edildiyi kimi, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini yad etmək məqsədilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Məlumdur ki, sovet hakimiyyəti illərində ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlar, kütləvi qırğın və zorakılıqlar, repressiya və deportasiyalar saxta beynəlmiləlçilik pərdəsi altında ört-basdır edilmiş, sovet tarixşünaslığında bu tip mövzuların tədqiqinə yasaq qoyulmuşdu. Yalnız Azərbaycan XX əsrin sonunda yenidən müstəqillik əldə etdikdən sonra tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmiş, xalqımızın başına gətirilən faciələr ayrı-ayrı tədqiqatçılar tərəfindən elmi tədqiqat dövriyyəsinə daxil edilmişdir. Xalqımıza qarşı erməni təcavüzünün əsas məqsədi etnik təmizləmə siyasəti həyata keçirmək yolu ilə tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaqdan və sonradan müxtəlif yollarla onu genişləndirməkdən ibarət olmuşdur. Ermənilərin bu niyyətlərinin reallaşması istiqamətində Rusiya və bəzi Qərb dövlətləri də mühüm rol oynamışlar.

1905-1906-cı illərdə Rusiyada baş verən iğtişaşlardan fürsət kimi istifadə edən ermənilər əvvəlcə Bakıda, sonra İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Qazaxda və Tiflisdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmişlər. Erməni silahlı dəstələri İrəvan-Naxçıvan-Zəngəzur-Qarabağ istiqamətində və Qazax-Gəncə istiqamətində yerləşən azərbaycanlı yaşayış məskənlərinin əhalisini qırmaqla, qovmaqla və həmin ərazilərdə erməniləri məskunlaşdırmaqla gələcək Ermənistan dövlətinin əsasını qoymaq istəyirdilər. Sayları on min silahlıdan artıq olan erməni birləşmələri əvvəlcə Bakıda, sonra İrəvan şəhərində və onun ətraf kəndlərində, Eçmiədzin (Üçkilsə), Şərur-Dərələyəz və Naxçıvan qəzalarında, Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının Gorus, Qafan və Qarakilsə (Sisyan) nahiyələrində, Şuşa, Cavanşir, Cəbrayıl, Qazax, Ərəş qəzalarında, Tiflis şəhərində kütləvi qırğınlar törətmiş, 200-dən artıq yaşayış məntəqəsini viran qoymuşlar.

İndiyədək 1905-1906-cı illər qırğınları kifayət qədər tədqiq edilməmiş, heç də bütün mənbələr və dövri mətbuat materialları tədqiqata cəlb olunmamış, habelə bu mövzuda yazan erməni və xarici müəlliflərin tədqiqatlarına, demək olar ki, müraciət edilməmişdir.

Çar Rusiyası dövrünün arxiv sənədləri, Azərbaycan Respublikası Tarix Arxivinin fondlarında saxlanılan sənədlər, ayrı-ayrı müəlliflərin Azərbaycan, rus, erməni və ingilis dilində faktik materiallar əsasında yazdıqları əsərlər və dövri mətbuat materialları mövzunun mənbə və qaynaqlarını təşkil edir. Lakin təəssüf ki, mövcud olmuş arxiv sənədlərinin bir qismi vaxtilə Azərbaycan arxivlərində kök salmış qeyri-azərbaycanlılar tərəfindən məhv edilmişdir. Bir neçə il öncə mövzu ilə bağlı Tarix Arxivinin fondlarında araşdırma apararkən Yelizavetpol dairə məhkəməsinin prokurorunun dəftərxanasına aid siyahıda 1906-cı il yanvarın 2-də ermənilərin Haqqıxlı (o zaman Qazax qəzasının kəndi olmuşdur, hazırda İcevan rayonunun ərazisinədədir və ermənilər onun adını dəyişdirərək Hovk qoymuşlar- N.M.) kəndinə hücumları haqqında 12 vərəqlik işin olduğunu gördüm. Həmin sənədi sifariş etdim. Lakin cavab gəldi ki, həmin sənəd 25 dekabr 1959-cu ildə arxivin məsul işçisi Portnovanın imzası ilə maklatura kimi çıxdaş edilmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində keçirilən siyahıyaalmaların materialları, illik nəşr olunan "Kavkazskiy kalendar"lar tədqiqat dövründə regionda sosial-demoqrafik vəziyyətin mənzərəsini açmağa imkan verir. Bakıda dərc olunan "Kaspi" (rus dilində) və "Həyat" (Azərbaycan dilində) qəzetlərində, Tiflisdə rus dilində işıq üzü görən "Tiflisskiy Listok", "Kavkaz", "Novoe Obozrenie" qəzetlərinin səhifələrində XX əsrin əvvəlində Cənubi Qafqazda baş verən hadisələr öz əksini tapmışdır. " Kaspi" və "Həyat" qəzetlərində dərc

olunan yazıları həmin dövrün salnaməsi adlandırmaq olar. Həmin dövrdə rus dilində çap edilən qəzetlərin bir çoxunun redaksiyası ermənilərə məxsus idi və yaxud onların sifarişini yerinə yetirirdi. Erməni dilində çap olunan qəzetlərin əksəriyyəti milli ədavəti qızışdırır, erməniləri türklərə qarşı qanlı toqquşmalara təhrik edirdilər. “Mşak”(“Əməkçi”), “Ardzaqank” (“Əks-səda”), “Nor dar” (“Yeni əsr”), “Bakvi dzayn” (“Bakının səsi)”, “Kayç” (“Qığılcım)” qəzetləri, “Murç”(“Çəkic”), “Ararat”, “Taraz” jurnalları ermənilərin millətçilik əhval-ruhiyyəsini qızışdırmağa xidmət edirdilər. Bakıda bir üzü erməni, bir üzü türkcə çap olunan “Qoç dəvət ” qəzeti millətlərarası ədavəti söndürməyə, barışıq əldə olunmasına xidmət edirdi. Həmin dövrdə Rusiyada və xarici ölkələrdə çap olunan qəzetlərin və teleqraf agentliklərinin müxbirləri Cənubi Qafqaza gəlmiş, hadisə yerindən reportajlar hazırlayaraq dərc etdirmişlər. Onların yazılarında çox zaman xristian təəssübkeşliyi özünü göstərmiş, obyektiv mənzərənin yaradılmasına mane olmuş, hadisələrin mahiyyətinin təhrif olunmasına gətirib çıxarmışdır.

1905-1906-cı illərdə baş vermiş hadisələrin bilavasitə şahidi olmuş müəlliflərin əsərləri həmin dövr tarixşünaslığı üçün mühüm mənbə hesab olunur. Bu əsərlər istifadə olunmuş metod və prinsiplər nöqteyi-nəzərindən sırf elmi-tədqiqat xarakteri daşımasa da, hadisələrin mahiyyəti bəzən təhrif edilsə də, dövrün hadisələrinin xronoloji ardıcıllıqla işıqlandırılması və müəyyən ümumiləşdirmələr aparmağa imkan verdiyi üçün etibarlı mənbələr hesab oluna bilər. Məmməd Səid Ordubadinin “Qanlı illər” (1905-1906-cı illərdə Qafqazda baş vermiş erməni -müsəlman davasının tarixi) və Mir Möhsün Nəvvabın “1905-1906-cı illərdə erməni-müsəlman davası” əsərləri tarixi gerçəkliyin düzgün dərk edilməsi və faktiki materialların zənginliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

M.S.Ordubadi 1911-ci ildə çap etdirdiyi “Qanlı illər” (“Qanlı sənələr”) kitabını o dövrün müxbirlərinin toplayaraq ona göndərdikləri 254 məktub əsasında yazdığını qeyd edir. İrəvan quberniyasında baş verən faciəli hadisələri isə müəllif məşhur İrəvan ziyalısı Mir Abbas Mirbağırzadənin topladığı jurnal və sair materiallar əsasında qələmə aldığını yazır. M.S.Ordubadi öncə 1905-ci ildə Naxçıvan qəzasında, sonra İrəvan şəhərində, daha sonra isə Qırxbulaq və Üçkilsə mahallarında erməni silahlı dəstələrinin törətdikləri qırğınların miqyasını oxuculara təqdim edir. Müəllif 1906-cı ildə Yelizavetpol quberniyasının Zəngəzur qəzasında ermənilərin törətdikləri kütləvi qırğınlar barəsində ətraflı məlumat vermişdir. Müəllif ermənilərin Yelizavetpol quberniyasının digər qəzalarında, habelə Bakıda və Tiflisdə törətdikləri qırğınlar və faciələr haqqında ətraflı bilgi verməklə yanaşı, “erməni-müsəlman davasının” baş verməsinin səbəblərini də göstərmişdir. M.S.Ordubadi səbəblərdən birincisi kimi “Daşnaksutyun” partiyasının qanlı əməllərini göstərir və Qafqazda oynadığı “qanlı teatrolara” dair 400-dən artıq yazılı məlumatın onun masası üzərində olduğunu qeyd edir. Lakin nədənsə M.S.Ordubadi 1905-1906-cı illər qırğınlarının digər baiskarı olan və heç də “Daşnaksutyun”dan az qanlı əməllər törətməyən “Hnçak” partiyasının silahlı dəstələrinin törətdikləri qırğınlara bir o qədər də yer ayırmamışdır. İkinci səbəb kimi M.S.Ordubadi məhəlli hökumət məmurlarının etinasızlığını göstərir və qeyd edir ki, Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar özbaşınalığa üz qoydular və erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbir görmədilər, ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbəti vicdansızlıqlar etməkdə idilər. M.S.Ordubadi bu səbəbdən də Qafqazın gözəl şəhərlərinin dağıdılıb yandırıldığını, yurdlarımızın qan çalasına döndərildiyini qeyd edir. “Erməni-müsəlman davasının” üçüncü səbəbi kimi M.S.Ordubadi müsəlmanların elmsizliyini, silahsızlığını və müasir işlərdən xəbərsiz olmalarını göstərir. Qırğınların dördüncü səbəbi kimi ermənilərin muxtariyyət iddiasında olmaları göstərilir. Ermənilər İrəvan quberniyasını, Gəncə quberniyasının yaylaq və dağbasar bölgələrini və Qars sancağı (vilayəti) ilə birləşdirib “Erməni səltənəti” qurmaq istəyirlərmiş.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, M.S.Ordubadinin göstərilən əsərində heç də bütün hadisələrin xronologiyası öz əksini tapmamışdır. Müəllif 1905-ci ilin fevralında baş verən Bakı qırğınlarından sonra ermənilərin may ayında Naxçıvanda qırğınlar törətdiklərini, orada məğlub olduqlarını, bundan sonra qırğınların İrəvan şəhərinə sirayət etdiyini yazır. Lakin digər mənbələr göstərir ki, Bakı qırğınlarından heç iki həftə keçməmiş — fevralın 21-23-də ermənilər İrəvan şəhərində qırğınlar törətmişlər. M .S .Ordubadi “Qanlı illər”də Şərur-Dərələyəz və Sürməli qəzalarında ermənilərin törətdikləri qırğınlar barədə heç bir məlumat verməmişdir. Görünür, M .S .Ordubadiyə göndərilən müxbir məktubları içərisində həmin qəzalarda qırğınlar törədilməsinə aid materiallar olmamışdır. Bütün bunlara baxmayaraq, M .S .Ordubadinin “Qanlı illər”i 1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar haqqında ən dolğun məlumat verən mənbə hesab olunur.

Mir Möhsün Nəvvabın “1905-1906- cı illərdə erməni-müsəlman davası” adı altında çap edilən “Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri” əsəri həm XX əsrin birinci onilliyində xalqımızın başına gətirilən faciələrin miqyasını açıb göstərmək, həm də Dağlıq Qarabağ probleminin tarixi köklərinin mahiyyətini öyrənmək baxımından qiymətli mənbə hesab olunur. M.M.Nəvvab haqlı olaraq İrəvan quberniyasında qırğınların İrəvan şəhərindən başladığını, sonra Naxçıvana sirayət etdiyini yazır. Müəllif erməni qmdatxanalarının (terror təşkilatlarının) muzdlu qatillərinin neçə-neçə günahsız insanların, o cümlədən rusların

və ermənilərin də ölümünə bais olduğunu yazır. Həmçinin M.M.Nəvvab dövlətin başının rus-yapon müharibəsinə qarışdığına görə baş verən iğtişaşlara məhəl qoymadığını qeyd edir. M.M.Nəvvab öz əsərində Bakı, İrəvan, Şuşa şəhərlərində, İrəvan, Naxçıvan, Şuşa, Cəbrayıl, Zəngəzur qəzalarında erməni silahlı dəstələrinin törətdikləri qırğınlar və müsəlmanların gördükləri əks tədbirlər haqqında yığcam olsa da məlumat vermişdir.

1905-1906-cı illərdə törədilmiş qırğınlara aid erməni müəlliflərinin bir neçə əsəri mövcuddur. Erməni müəlliflərindən A-donun 1907-ci ildə İrəvanda çap edilən "Qafqazda erməni-türk toqquşmaları (1905-1906-cı illər). Sənədli, statistik, topoqrafik izahlarla" əsərində, S. Zavaryanın 1907-ci ildə Sankt-Peterburqda rus dilində çap edilən "Qarabağın iqtisadi şəraiti və 1905-1906-cı illər aclığı", İ. Alibekovun 1906-cı ildə Tiflisdə rus dilində çap olunan "Yelizavetpolun qanlı günləri cəmiyyətin mühakiməsi qarşısında" əsərlərində 1905-1906-cı illər qırğınlarının mahiyyəti təhrif edilsə də, bu əsərlər faktoloji baxımdan tədqiqatçılara xeyli material verirlər.

A-do "Qafqazda erməni-türk toqquşmaları" əsərində 1905-1906-cı illərdə Cənubi Qafqazın 12 qəzasında (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Gəncə, Qazax, Ərəş, Borçalı) və 7 şəhərində ( Bakı, İrəvan, Naxçıvan, Şuşa, Gəncə, Qazax, Tiflis) baş verən qırğınlar barəsində xronoloji ardıcıllıqla məlumat verir. A-donun bu əsərinin üstün cəhəti odur ki, o, baş verən hadisələrin şərhindən öncə hər bir qəza və yaxud şəhər haqqında topoqrafik təsvir və həmin dövrün siyahıyaalmalarının nəticələrinə istinadən statistik məlumatlar verir. Müəllif bu əsərdə özünün subyektiv mülahizələri əsasında erməni-türk qırğınlarının baş verməsi səbəblərini və nəticələrini göstərir.

A-do yazır ki, bəzi erməni ziyalıları erməni-türk toqquşmalarının səbəbini tarixin ötən əsrlərində axtararaq irqi düşmənçilikdə görsələr də, əslində, belə toqquşmalar keçmiş zamanlarda olmayıb. Digər bir qrup erməni ziyalılarının isə bu toqquşmaların türk millətinin yıxıb-dağıtmaq psixologiyasından qaynaqlandığını iddia etdiklərini qeyd edir. A-do türk ziyalılarının mövqeyini işıqlandıraraq yazır ki, onlar hesab edirlər ki, qırğınların bütün baiskarı erməni komitəçiləridir. Eyni zamanda, onlar bir qrup erməni və ermənipərəst yazarları təqsirləndirirlər ki, onlar erməni kütləsində türklərə qarşı nifrət aşılayırlar. Digər bir mülahizənin - iqtisadi bərabərsizlik üzündən qırğınların baş verməsi mülahizəsi üzərində dayanaraq A-do qeyd edir ki, belə mülahizənin əsası yoxdur. Çünki erməni burjuaziyası tərəfindən istismar olunan türklər, türk ağaları və bəyləri tərəfindən istismar olunan erməni kəndlisinin üzərinə hücum etməz. A-do iddia edir ki, guya qırğınların başlıca səbəbi türk əhalisinin mövcud üsul-idarədən, qayda-qanundan narazılığıdır ki, həmin problemlər Qafqazda baş qaldıran inqilabi hərəkatdan öncə yığılıb qalmışdır. Müəllif qırğınların digər səbəbini türklərin rus inqilabından faydalanmaq cəhdlərində görür. Onun yazdığına görə türklər ermənilər və gürcülərə nisbətən hüquqdan daha çox məhrum idilər və rus inqilabının nəticəsindən mənfəət götürmək istəyirdilər.

A-do qırğınların ermənilərin müsəlman yaşayış məntəqələrini ələ keçirmək, onların var-dövlətinə sahib çıxmaq məqsədilə törədildiyini yazmaqla, qırğınların əsl səbəbini ört-basdır etmək istəyir. Onun iddiasına görə erməni-türk qırğınlarının baş verməsində türk bəylərinin, ağalarının və sahibkarlarının da çox böyük rolu olmuşdur. O, Cənubi Qafqazın iqtisadiyyatının böyük bir hissəsinin türk sahibkarlarına məxsus olduğunu, İrəvan və Gəncə quberniyalarının bütün qəza və mahallarında kəndlərin böyük bir qisminin türk bəylərinin və ağalarının əlində cəmləşdiyini yazır. Müəllif əlavə edir ki, istismarçılara qarşı türk kəndlilərinin hərəkatı labüd idi və bunun qarşısının alınması üçün iki xalq arasında düşmənçiliyi qızışdırmaq lazım gəlirdi. A-do mənafelərin üst-üstə düşməsinin iki sinfin - rus burjuaziyasının və türk sahibkarlarının iş birliyinə gətirib çıxardığını iddia edir. Müəllif yazır ki, guya türk ağaları və bəyləri türk kütləsini inandırmışlar ki, onların bədbəxtliklərinin baiskarı ermənilərdir, onlar hərəkətə keçmişlər, ermənilər də əks reaksiya vermişlər. Guya müsəlmanlar öz avamlıqları ilə reaksion qüvvələrin əlində alətə və inqilabın önündə maneəyə çevrilmiş, Qafqazın salnaməsinə qanlı səhifələr yazmışlar.

A-do öz əsərinin sonunda 1905-1906-cı illərdə baş vermiş qırğınlar zamanı Cənubi Qafqazın 7 şəhərinin böyük dağıntılara məruz qaldığını, 12 qəzada 252 kəndin yandırıldığını və viran qoyulduğunu, 100 min ailənin qəzalardan, bir neçə min nəfərin şəhərlərdəki ev-eşiklərindən didərgin düşdüyünü, 10 min nəfərin məhv edildiyini göstərir.

S. Zavaryan "Qarabağın iqtisadi şəraiti və 1905-1906-cı illər aclığı"əsərində Qarabağ və Zəngəzurda müsəlmanların ermənilərə nisbətən böyük torpaq mülkiyyətçiləri olduqlarını qeyd edir . S. Zavaryanın verdiyi məlumata görə həmin dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 (cəmisi 75 kənd) müsəlman kəndi dağıdılmışdır. O, bu əsərində 1905- 1906-cı illər qırğınlarının Qarabağ və Zəngəzurda törətdiyi fəsadları sosial-iqtisadi parametrlər baxımından təhlil edir. O, bu əsərin yazılmasında A-donun əlyazmalarından istifadə etdiyini qeyd edir. S.Zavaryan da qırğınların qarşısının alınmasında çar Rusiyasının hakim dairələrinin cinayətkar etinasızlığını vurğulayır və təxribatçı hərəkətlərə baş vurduğunu qeyd edir.

İ.Alibekov "Yelizavetpolun qanlı günləri cəmiyyətin mühakiməsi qarşısında" əsərini Gəncədə baş verən hadisələrin Qafqaz mətbuatında birtərəfli işıqlandırılmasına cavab olaraq yazdığını bildirir. Qərəzli mətbuat

dedikdə, İ.Alibekov “Vozrojdenie”, “Kavkaz”,"Kaspi" qəzetlərini və Yelizavetpolda (Gəncədə) baş vermiş qırğınlara dair həmin qəzetlərdə dərc edilmiş yazıları nəzərdə tutur.

İ.Alibekov Əhməd bəy Ağayevi “yalançı publisist”, S .Çrelayevi və Ə.Xasməmmədovu isə onun davamçıları adlandırır. Ona görə də İ. Alibekov ikinci ad kimi öz kitabını “Yalançı publisist və onun ictimai davamçıları” adlandırır. S.Çrelayev Tiflis şəhər dumasının katibi və qlasnısı olmuşdur. O, Tiflis şəhər qlasnısı A. Xatisov və şəhər idarəsinin üzvü N. Kokçaevlə birlikdə Gəncəyə ezam edilmişdilər ki, düşmənçilik edən tərəfləri barışdırsınlar. S. Çrelayev Gəncədən qayıtdıqdan sonra “Vozrojdenie” qəzetinin 36-39-cu saylarında (1905-ci il) “Yelizavetpol qırğınları” başlıqlı silsilə məqalələrlə çıxış etmiş və qırğınların səbəbkarı kimi erməniləri günahlandırmışdı.

Əhməd bəy Ağayevin “Peterburqskie Vedemosti” (№98, 1905-ci il) qəzetində dərc olunmuş “Bakı hadisələri haqqında həqiqət” məqaləsinə cavab olaraq B. Doluxanov və S. Taqianosov həmin qəzetdə (№126, 1905-ci il) və “Bakı” qəzetində (№51, 1905-ci il) məqalə dərc etdirmişdilər. İ. Alibekov Əhməd bəy Ağayevi Veliçko və Kruşevanovun formalaşdırdıqları “insana nifrət, yalan və böhtan məktəbinin yetirməsi olan məşhur tip” adlandırır.

İ. Alibekov heç bir istinad göstərmədən iddia edir ki, guya müxtəlif emissarlar İrəvan quberniyasında müsəlman əhalinin milli hissləri ilə oynadıqdan və vəhşi dəstələr Türkiyədən bu tərəfə keçdikdən sonra erməni kəndləri atəşə tutulmuşdur. Guya hakimiyyətin müsəlman casusları Bakıdan və Naxçıvandan Cənubi Qafqazın və İranın müxtəlif yerlərinə gedərək ermənilərin yeni qırğınlarını hazırlamaq üçün fəaliyyət göstərmişlər. İ Alibekov ermənilərin təsir dairəsində olan “Novoe Obozrenie” qəzetinə istinad edərək Bakıda, İrəvanda, Naxçıvanda, Gəncədə baş verən qırğınların təqsirini türklərin üzərinə yıxmağa çalışır.

O.A.Arutyunyanın 1956-cı ildə rus dilində İrəvanda dərc olunmuş “Xatirələr” kitabında daşnakların “mümkünsə daha çox öldür, talan et, heç kimə rəhm etmə” şüarı altında 1905-ci ildə Qəmərlidə törətdikləri vəhşiliklərdən bəhs edir. O, daşnakların erməni kəndlərini gəzərək əhalini silahlandırdıqlarını, dinc müsəlman əhalisini qırdıqlarını, kəndləri yandırdıqlarını yazır. O.Arutyunyan daşnakların silah sarıdan korluq çəkmədiklərini, canişin Vorontsov-Daşkovun xüsusi icazəsi və erməni yepiskopları Xoren və Suren tərəfindən müvəkkil edilmiş şəxslər vasitəsilə təmin edildiklərini qeyd edir.

İtalyan diplomatı, yazıçısı, səyyahı və tarixçisi Luici Villari 1906-cı ildə Londonda çap etdirdiyi “Qafqazda alov və qılınc” (“Fire and Sword in the Caucasus”) əsərini Qafqaza etdiyi səyahətin nəticəsi olaraq yazmışdır. 1905-ci ilin yay və payız aylarında Qafqazın qaynar nöqtələrində, milli münaqişələrin törədildiyi yerlərdə olan müəllif əsərinin IX və X fəsillərini Bakıda gördüklərinə, XI fəslini İrəvanda baş verən hadisələrə, XIV fəslini isə Naxçıvandakı hadisələrə həsr etmişdir. L. Villarinin yazdığına görə, onu İrəvanda əvvəlcədən ünvanı ona bəlli olan yerli erməni müşayiət etmişdir. Onun tərcüməçisinin erməni olması, İrəvanda və Naxçıvanda olduğu müddətdə erməni ziyalılarının və din xadimlərinin əhatəsində olması əsərin məzmununa öz təsirini göstərmişdir.

L. Villari İrəvanda və Naxçıvanda qırğınların baş verməsinin təqsirinin tatarlarda olduğunu yazır. Onun iddiasına görə, Vorontsov-Daşkovun Qafqazın canişini təyin edilməsinədək və prins Lui Napoleon Bonapartın 1905-ci ilin iyununda İrəvanın general-qubernatoru təyin edilməsinədək İrəvanın sabiq qubernatorları ənənəvi rus bürokratiyasına sadiq olaraq canişin Qolitsının siyasətini davam etdirir, faktiki olaraq ermənilərə qarşı müharibə aparır, tatarları hücuma təhrik edirlər.

L. Villari Naxçıvan qəzasında baş verən iğtişaşlar zamanı 47 kənddə toqquşmaların olduğunu, 12 kəndin viran edildiyini və boşaldıldığını, 10 kəndin qismən dağıdıldığını, hər iki tərəfdən 239 nəfərin qətlə yetirildiyini yazır.

L. Villari Naxçıvanda olarkən şəhərin başçısı Cəfərqulu xan Naxçıvanski və onun qardaşı, ehtiyatda olan rus zabiti Rəhim xanla görüşlərinə xüsusi yer ayırmışdır. O, Naxçıvanskilərin kürəkəni, general Maqsud Əlixanov-Avarskinin İrəvan qubernatoru olarkən tatarların tərəfini saxladığını, təqsirkarların cəzalandırılmadığını iddia edir.

L. Villari bu əsərində İrəvan şəhərinin 28 min nəfər əhalisindən yarısının, Naxçıvanın isə əhalisinin dörddə üçünün türklərdən ibarət olduğunu yazır. Müəllifin həmçinin o dövrdə İrəvanda mövcud olmuş, lakin sonralar yer üzündən silinmiş böyük Göy məscid, Sərdar sarayı və digər tarixi-memarlıq abidələri, İrəvan bağları haqqında geniş təsviri məlumatlar verməsi İrəvanın tipik Azərbaycan şəhəri olması haqqında dolğun təəssürat yaradır.

“Qafqazda alov və qılınc” əsəri Azərbaycan tədqiqatçıları tərəfindən indiyədək tədqiq edilməmişdir.

Sovet hakimiyyəti illərində yazılan əsərlərdə 1905-1906-cı illər qırğınlarının səbəbkarı kimi, birtərəfli olaraq çar Rusiyası hökuməti göstərilmiş, ermənilərin Azərbaycan torpaqlarına silah gücünə, kütləvi qırğınlar və soyqırım törətməklə yiyələnmək sahəsindəki fəaliyyətləri ört-basdır edilmişdir. Həmin dövrdə Azərbaycan mühacirətinin ayrı-ayrı nümayəndələrinin yazdıqları əsərlərdə qırğınlar haqqında daha obyektiv məlumat verilmişdir. Cahangir Zeynaloğlu 1924-cü ildə İstanbulda çap edilən (1992-ci ildə Bakıda təkrar çap edilmişdir)

kitabında çar hökumətinin müsəlmanların qəflətindən istifadə etdiyini, Peterburqdan 130 xəfiyyə məmuru göndərərək ermənilərlə müsəlmanları bir-birlərinə silah işlətməyə təşviq etməklə, iki milləti biri digərinə qırdırdığını yazır. C.Zeynaloğlu 1905-1906-cı illər qırğınlarının millətin gözünün açılmasında, dost və düşməni tanımasında, Rusiya siyasətini anlamasında mühüm rol oynadığını qeyd etməklə bərabər, maarif və tərəqqiyə əhəmiyyət verməyə başladığını göstərir.

Türkiyədəki Azərbaycan mühacirlərinin digər bir nümayəndəsi Hüseyn Baykara “Azərbaycan istiqlal mücadiləsi tarixi” (İstanbul-1975, Bakı-1992) əsərində çar Rusiyasının rus-yapon müharibəsində məğlubiyyətindən və 1905-ci il yanvarın 9-da Qış sarayının önündə üsyançıların güllələnməsindən sonra Rusiyanı bürüyən üsyanların Qafqaza da yayıldığını qeyd edir. H. Baykara da C. Zeynaloğlu kimi, 1905-1906-cı illər erməni-müsəlman qırğınlarının təqsirini çar hökumətində görür. H. Baykara yazır ki, imperiyanın zəiflədiyi bir vaxtda Qafqaz xalqlarını inqilabdan uzaqlaşdırmaq üçün çar bu regionda olan yüksək məmurlarına gizli göstəriş vermiş, erməniləri müsəlmanlara qarşı qırğına sövq etmişdir. “Daşnaksutyun” partiyasının yarandığı gündən Türkiyə torpaqlarında Ermənistan dövləti yaratmaq proqramını hazırladığını qeyd edən müəllif, bu partiyanın 1904-cü ildə “Qafqaz Ermənistanı”nı da öz proqramına daxil etdiyini, Qafqazda olan yüksək vəzifəli rus məmurları tərəfindən silahlandırılan və gizli tapşırıq alan ermənilərin Bakı, İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Gəncə və Şirvanda yaşayan silahsız türklərə qarşı hücumlar edib, onları öldürməyə, qılıncdan keçirməyə başladıqlarını, öldürə bilmədikləri türkləri öz torpaqlarından qovaraq həmin ərazilərdə çoxluq təşkil etmək istədiklərini qeyd edir.

Rus müəllifi N. Şavrovun 1911-ci ildə Sankt-Peterburqda çap edilən “Novoya uqroza russkomu delu v Zakavkazye: predistoriya i rasprodajı Muqani inorodtsami” əsərində göstərdiyinə görə, 1896-cı ildə Cənubi Qafqazda 900000, 1908-ci ildə 1301000 erməni yaşamışdır. Deməli, təkcə bu dövrdə Cənubi Qafqaza 400000 erməni gəlib yerləşmişdi. 1908-ci ildə Rusiya Daxili İşlər Nazirliyi polis departamentinin sənədlərində (bu sənəd 1990-cı ildə Bakıda “Daşnaki (iz materialov departamenta politsii)” adı ilə çap edilmişdir) göstərilirdi ki, “Türkiyədəki məlum hadisələrdən sonra Cənubi Qafqaza yarım milyon erməni gəlmişdir. Bu ermənilər dərhal öz qara əməllərini göstərdilər”. Bundan sonra indiki Ermənistan ərazisində ”Daşnaksutyun” partiyasının sıraları daha da artmış, Qafqazda anti-türk təbliğatı xeyli güclənmişdi. “Novoya vremya” qəzetinin İrəvan üzrə müxbiri Qriqoryevin verdiyi məlumata görə, törədilən cinayətlərin 80 faizi Türkiyədən gəlmiş ermənilərin, muzdlu qatillərin payına düşürdü. 1905-1906-cı illərdə Qafqazda erməni-müsəlman qırğınları haqqında polis departamentinin həmin sənədində deyilir: ”Daşnaksutyun” öz qüdrətini göstərdi, müsəlmanlar cəfasını çəkdilər. Burada ikili oyun oynanılmışdı: birincisi, müsəlmanlarda olan qisasın bir qismini almaq, digər tərəfdən baş verən hadisələrin günahını mətbuat və təbliğatın köməyi ilə rus hökumətinin üzərinə yıxmaq, bununla da təkcə erməniləri deyil, Qafqazın digər sakinlərini də inqilabiləşdirmək üçün güclü təbliğat materialı əldə edilmiş olurdu. Nəticədə ermənilərə münasib olmayan bir çox rus məmurları və ayrı-ayrı şəxslər terror qurbanı oldular: general Əlixanov (Maqsud Əlixanov-Avarski - müəllif), qubernatorlar Nakaşidze, Andreyev (birincisi Bakının qubernatoru, ikincisi Yelizavetpolun (Gəncə) vitse- qubernatoru - müəllif), polkovniklər Bıkov və Saxarov və başqa dövlət məmurları (partiyanın hesabatından). Onların qismən nail olduqları ikinci məqsədləri ondan ibarət idi ki, Zaqafqaziyada ermənilərlə müsəlmanların yaşadıqları ərazilər bir-birindən ayrıldı, Türkiyədən və qismən İrandan köçən ermənilərin məskunlaşdırılması üçün torpaqlar boşaldıldı. Son 5-6 ildə onların sayı yarım milyona çatmış, 200 min nəfər isə rus idarələrinin vəkaləti ilə təbəəlik əldə etmişdi. Yelizavetpol, İrəvan və Qars vilayətlərində ərazilərin qismən ayrılmasına nail olunmuş, torpaqların müəyyən hissəsi boşaldılmış, həmin ərazilərdən bir çox müsəlmanlar qaçaraq canlarını qurtarmışdılar".

Ümumiyyətlə, 1905-1906-cı illər erməni-müsəlman iğtişaşları nəticəsində İrəvan və Yelizavetpol (Gəncə) quberniyaları ərazisində 200-dən artıq azərbaycanlı yaşayış məntəqəsi viran edilmiş, əhalisi soyqırıma məruz qoyulmuşdur.

Erməni müəllifi A-donun verdiyi statistik məlumatlar göstərir ki, 1905-1906-cı illər qırğınları ərəfəsində İrəvan quberniyasında mövcud olmuş 1301 kəndin 959-da, Zəngəzur qəzasında mövcud olmuş 406 kəndin isə 314-də türklər yaşamışlar. O dövrdə təkcə İrəvan quberniyası və Zəngəzurda mövcud olmuş 1273 türk kəndindən bu gün, Naxçıvan qəzası istisna olmaqla bütün kəndlər azərbaycanlılardan təmizlənmişdir. Deməli, həmin ərazilərdə 1905-1906-cı illərdən başlayaraq silah gücünə etnik təmizləmə siyasəti həyata keçirilmişdir ki, bu da mahiyyətcə soyqırım deməkdir.

**Nazim MUSTAFA,**
**Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi**

**“Xalq qəzeti”, 31.03.2009**

## Cənubi Azərbaycanda azərbaycanlılara qarşı erməni terroru

### Urmiyada erməni terroru

Güney Azərbaycanın görkəmli tarixçisi, Azərbaycan Universitetinin fəxri doktoru Səməd Sərdariniya "Arazın hər iki tayında müsəlmanların soyqırımı" kitabında yazır ki, 1918-ci il Arazın hər iki tayında yaşayan Azərbaycan türkləri üçün daha dəhşətli və acınacaqlı keçdi: "I Dünya müharibəsinin üçüncü ilində (1917-ci il) Rusiyada baş verən inqilab nəticəsində çar hakimiyyəti devrildi. Romanovlar sülaləsinin süqutu ilə daşnakların "Böyük Ermənistan" yaratmaq xülyalarını həyata keçirmələrinə imkan yarandı. Həmin ildə Azərbaycanın bir sıra şəhərləri erməni terrorunun qanlı hədəfinə çevrildi. Ermənilər 1918-ci ilin yanvarında İrəvana və onun ətrafındakı 211 Azərbaycan kəndinə basqın çəkərək, burada yaşayan 300 min Azərbaycan türkünü qırıb, minlərlə soydaşımızı yurd-yuvasından didərgin saldılar. Elə həmin ilin martında Bakıda, Şamaxıda və digər Azərbaycan şəhərlərində yenidən öz cinayətlərini təkrarladılar. Beləliklə, dinc əhaliyə hücum çəkən ermənilər kütləvi qırğınlar törədərək, çox sayda soydaşımızı amansızcasına qətlə yetirdilər. Bu dəhşətli faciələrdə yüz minlərlə Azərbaycan türkü öldürüldü, öz ev-eşiklərindən didərgin salındı".

Erməni terroru Güney Azərbaycanda da qanlı izlər buraxdı. Silahlanmış erməni dəstələri Urmiyada, Köhnəşəhərdə, Salmas və başqa ərazilərdə kütləvi qırğınlar törədərək, 130 mindən çox Azərbaycan türkünü faciəvi şəkildə qətlə yetirdilər. Erməni terroruna hədəf olan şəhərlərdən biri də Urmiya oldu. Bu şəhər 1918-ci ilin fevral və mart aylarında, yəni iki dəfə erməni terroruna məruz qalıb: "Fevralın 17-də ermənilər küçələrdə və bazarda Azərbaycan türklərinin yolunu kəsir, soyğunçuluqla pullarını ələ keçirirdilər. Bir neçə gün sonra Urmiyanın şəhərdən kənar məntəqələrində yüzə yaxın soydaşımızı ermənilər qətlə yetirdi. Həmin qanlı olaydan sonra fevralın 22-də Qardaş və Dadaş adlı iki nəfər urmiyalı öldürülənlərin cəsədini gətirmək üçün hadisə yerinə yollandı. Lakin onlar şəhərdən çıxarkən bir qrup erməni ilə rastlaşdı və tərəflər arasında qarşıdurma yarandı. Həmin günün axşamı yenidən münaqişə başladı. Ermənilər şəhərin yüzlərlə dinc sakinlərinin evinə basqın çəkərək, mənzillərdəki əşyaları qarət edir, qarşılarına çıxan hər kəsi qətlə yetirir, evləri yandırırdılar. Azərbaycan türkləri var gücləriló özlərini müdafiə etməyə çalışsalar da, azğınlaşmış ermənilər on min nəfərə yaxın dinc əhalini öldürdülər. Qətlə yetirilənlərin əksəriyyəti qadın, uşaq, südəmər körpələr idi. Ölənlərin cəsədləri uzun müddət yerdə qalmışdı. Onları yerdən götürüb dəfn etməyə kimsə cəsarət etmirdi. Bu ağır günlərdə Urmiya sakinlərinə Tehrandan yardım gəlmədi. Təbriz əhalisi isə bu faciənin xəbərini çox gec eşitdi".

Həmin hadisələrin şahidi olan fars əsilli tarixçi alim və tədqiqatçı Əhməd Kəsrəvi bu haqda belə yazır: "Ermənilər Urmiyada hərəkətə keçib üç gün qırğın törətdilər. Bu müddətdə Təbriz ilə Urmiya arasındakı telefon və teleqraf simləri tamamilə kəsilmişdi (rabitəni ermənilərin kəsdiyi ehtimal olunur), elə buna görə də hadisələrlə bağlı xəbərlər Təbrizə vaxtında yetişmədi".

Həmin il qanlı hadisələrlə bağlı Şeyx Məhəmməd Xiyabaninin orqanı olan "Təcəddüd" qəzetində silsilə yazılar dərc olundu. Qəzetin 17 fevral - 2 mart 1918-ci il tarixli nömrələrində yazılırdı: "Oxucularımıza söz vermişdik ki, Urmiyadakı qanlı faciələr barədə tədqiqat aparıb ictimaiyyətə çatdıraq. Böyük təəssüflə bildirməliyik ki, əldə etdiyimiz məlumatlara görə, Urmiya və ətrafındakı kənd və qəsəbələrdə çox böyük və acınacaqlı faciələr baş vermişdir... Xəbərlərə görə, silahlı ermənilər müxtəlif bəhanələrlə Urmiya bazarında dinc vətəndaşların üzərinə atəş açıb, qarşıdurmalara səbəb olmuşdur. Polis məmurları qarşıdurmaya son qoymaq istəsələr də, ermənilər silahdan atəş açaraq, iki mülki vətəndaşı öldürüblər. Ermənilər daha sonra əhalinin yaşadığı evləri, habelə karvansarayları hədəf alaraq atəşə tutublar. Nəticədə bir çox günahsız dinc vətəndaş həlak olmuşdur... Urmiyadan gələn bir müsafir deyir ki, o, yolda 300-dən artıq Azərbaycan türkünün cəsədini öz gözü ilə görüb..."

Hadisələrin canlı şahidi olmuş urmiyalı soydaşımız Əli Dehqan Urmiyadakı üçgünlük qırğından sonra şəhərin durumunu belə təsvir edir: "Azərbaycan kəndləri qarət olunaraq əhalisi boşaldılırdı. Sanki buralarda heç vaxt həyat izləri olmamış kimi qəbiristanlıq sükutu hər yerdə hakim olmuşdu. Kənd qaçqınlarının sığındığı əsas yerlər şəhərdəki küçələr və məscidlər idi. Ermənilər Azərbaycan türklərinin evlərinə basqın çəkir, istədikləri ev əşyalarını götürürdülər. Qaranlıq düşən kimi, şəhərin bir çox məhəllələrində nalə səsləri eşidilməyə başlayırdı. Evləri ermənilərin hücumuna məruz qalan insanlar damlara çıxaraq uca səslə qışqırır, əhalidən yardım istəyirdilər. Lakin heç kəs evindən bayıra çıxmağa cəsarət etmirdi. Qulaqları xalqın nalə və fəryadına alışmış dövlət məmurları isə adamların ürəkyandırıcı etirazları qarşısında laqeydlik göstərirdilər. Soyğunçu ermənilər tam sərbəst şəkildə istədikləri evlərə girir, insanları öldürür, evləri isə talan edərək yandırırdılar".

1918-ci ilin martında Urmiyada yaşayan Azərbaycan türkləri növbəti dəfə erməni terroruna məruz qalıblar: "Ermənilər Novruz Bayramının ilk günü küçələrdə və bazarda əhaliyə atəş açır, qarşılarına çıxan hər kəsi öldürürdülər. Bununla kifayətlənməyən erməni terrorçuları daha da azğınlaşaraq, Urmiyada 24 saatlıq qırğın törədəcəkləri barədə bildiriş yayırlar. Bu qorxunc xəbər 1918-ci il martın 19-da (son çərşənbə axşamı)

şəhərdə dəhşətli bir qorxu ab-havası yaratdı. Həmin gecə heç kimin gözünə yuxu getmədi. Çünki ertəsi gün sübh tezdən qətliam başlanacaqdı. Ermənilər həmin gecə törədəcəkləri qırğına görə şəhərdə nərə çəkir, şənlik edirdilər.

Əli Dehqan bu haqda yazır: "Sübh tezdən anam məni, məndən böyük iki qardaşımı və kiçik qardaşımı götürüb evin damına apardı. Erməni təcavüzündən qorunmaq üçün qadınlar və uşaqlar damlara çıxırdılar. Axşama qədər ac-susuz orada qalmalı olduq. Axşama yaxın xəbər yayıldı ki, qətliama son qoyulub. Biz aşağı düşərək evə qayıtdıq. Lakin evdə heç nə qalmamışdı, hər şeyi aparmışdılar. Çıraqları belə sındırmışdılar. Evin görünüşü adamda dəhşətli hisslər oyadırdı. Hələ özümüzə gəlməmişdik ki, birdən-birə evimizin qapısı çox möhkəm döyülməyə başladı. Anam bizi (4 uşağı) çörək bişirmək üçün istifadə olunan təndirin içinə qoyub özü də təndirə girdi. Anam deyirdi ki, ermənilər gəlsə, birinci məni, sonra uşaqlarımı öldürsünlər. Bu olaylar və onunla bağlı xatirələr o qədər dəhşətlidir ki, hələ də 80 il keçməsinə baxmayaraq, həmin hadisələri unuda bilmirəm".

Həmin faciəvi günlərin şahidi olmuş digər urmiyalı soydaşımız Rəhmətulla Tofiq yazır: "1918-ci ilin son çərşənbə axşamı 12 min azğınlaşmış erməni silahlısı Azərbaycan məhəllələrinə üz tutdular. Minlərlə tüfəngin birdən-birə açdığı dəhşətli atəşin səsindən şəhər silkələnib lərzəyə gəlirdi. Ermənilər qapıları daş və balta ilə sındırıb evlərə girir, hər tərəfə atəş açır, damlara sığınan qadınları və uşaqları yerindəcə öldürürdülər. İnsanların qorxudan qopardığı şivən və nalə səsləri açılan tüfənglərin səsinə qarışırdı. Analar öz övladlarını quyularda və daş sobaların içində gizlədirdilər. Ermənilər qarşılarına çıxan Azərbaycan türklərini atəşə tutub, var-yoxunu talayıb özlərilə aparırdılar. Azərbaycan türklərinin yaşadığı məhəllələr sanki qəbiristanlığa çevrilmişdi. Evlərdə və küçələrdə çox dəhşətli mənzərələr gözə çarpırdı. Bütün evlər qarət edilmiş, yerlər cəsədlərlə dolu idi".

Həmin qanlı hadisələrin başqa bir şahidi Rəhmətullaxan Mötəmidülvizarə yazır: "Urmiyada o gün olmur ki, 1-10 nəfər adam ermənilər tərəfindən öldürülməsin. Habelə şəhərdə qarət edilməmiş ev yoxdur. Tam əminliklə demək olar ki, qanlı olaylarda 50 min nəfərdən artıq günahsız Azərbaycan türkü öldürülmüşdü. Urmiyanın əhalisi 4 aydır hər gün qətl və qarətə məruz qalır, hər gün ölümlə qarşılaşır".

Hətta ermənilər Urmiyadakı terrorda şəhərin ruhanilərini də öldürmüşdülər. Belə ki, qətliamın qarşısını almaq istəyən bir çox məşhur din xadimləri də erməni gülləsinə tuş gəldi. Terrorçular məşhur ruhanilərdən Axund Molla Əliqulunu və ailəsinin demək olar bütün üzvlərini qətlə yetiriblər. Onun 27-35 yaşlarında olan iki oğlunu - Mirzə Abdullanı və Mirzə Mahmud ağanı öldürdükdən sonra Mirzə Mahmud ağanın arvadını da ərinin cəsədi üzərində öldürüblər. Ailə üzvlərindən yalnız axundun üçüncü oğlu Mirzə Əli özünü quyuya atdığı üçün ölümdən qurtulub.

Erməni terrorunun qurbanı olan dövrünün tanınmış ruhanilərinin adları belədir:

- Qara Ağac məhəlləsindən Ağa Mirzə Sadıq, müctəhid Mirzə İbrahim və Səqətülislam;
- Əli Şəhid məhəlləsindən Sədrülüləma, Hacı Mirzəli Əsgər, Hacı Mirböyük;
- Qəbiristan məhəlləsindən Ağa Mircalal, qoca nökər adı ilə tanınan Əli (Ağa Mircalal Cəlaliyyə mədrəsəsinin müdiri, Əli isə el içində məşhur olan mərsiyəxan mollası olub);
- Yurt məhəlləsindən Mirzə Əhməd (Bu ruhani carçıbaşı, bazarbaşı və məşhur mərsiyəxan idi;
- Ağdaş məhəlləsindən İsmayıl Əyalu və Ağa Mir Nurulla. Ermənilər Hacı Molla İsmayıl Əyalunun qəddarcasına başını kəsib atmışdılar.

Ruhanilərlə yanaşı, Urmiyanın məşhur tacirləri də qətlə yetirilmişdi. Ermənilərin Urmiyada törətdikləri terror sakinlərin yaddaşında dərin iz buraxdı. Həmin qətliamdan sonra insan cəsədləri üç gün küçələrdə qaldı. Sonra onları Hacıxan Məscidi qəbiristanlığında ümumi məzarlıqda dəfn etdilər.

Urmiyadan sonra erməni terrorunun həfədi Salmas şəhərinə yönəldi. Orada da kütləvi qırğınlar törədən ermənilər çox sayda soydaşımızı amansızcasına qətlə yetirdilər. Bu barədə daha ətraflı gələcək yazımızda bəhs edəcəyik.

## Salmasda erməni terroru

Urmiya qırğınlarından sonra ermənlərin hədəfi Salmasa yönəldi. Güney Azərbaycanda ermənilərin törətdiyi soyqırımla bağlı geniş təqdiqat aparan görkəmli tarixçi-alim Səməd Sərdarinianın araşdırmalarına əsasən, Salmasa silahlı basqın edən dəstələrə ermənilərlə yanaşı, assurilər də qoşulmuşdu. Həmin erməni-assurilərdən ibarət xristian ordusuna Petros adlı bir quldur başçılıq edirdi.

Güneyli tədqiqatçı Məhəmməd Əmin Riyahi "Xoy tarixi" adlı kitabında yazır: "Silahlı xristian ordusunun (erməni və assurilər - R.C.) dini-siyasi rəhbəri Benyamin Marşimon idi. Xristian komandanı isə macəraçı və şübhəli bir şəxs kimi tanınan Petros idi. O, olmayanda isə həyat yoldaşı Zərifə xanım (Marşımonun bacısı) onun vəzifəsini yerinə yetirirdi". Marşimonun ölümündən sonra bütün hərbi məsələlərə Petros rəhbərlik edirdi. Hətta Salmasa hücumlar da onun başçılığı ilə həyata keçirilirdi. Təcavüzkar quldur dəstələrinin ilk basqınları yerli əhali tərəfindən ciddi müqavimətlə qarşılandı. Salmas sakinləri müdafiə məqsədilə silahlara sarılaraq təcavüzkarlara qarşı döyüşür, var gücüylə hücumları dəf etməyə çalışırdı. Lakin bir müddət sonra qonşu

şəhərlərdən yardım ala bilməyən əhalinin müdafiə gücü zəifləməyə başladı. Nəticədə qarşı tərəfdən ciddi müqavimət görməyən ermənilər 1918-ci il aprelin 13-də Salmasa daxil ola bildilər. Şəhərə soxulan ermənilər Urmiyada olduğu kimi, burada da yerli əhalini soymağa başladı. Onlar dinc sakinlərə hədə-qorxu gələrək, qiymətli zinət əşyalarını, hətta əyinlərindəki paltarları da qəsb edirdilər.

Fars əsilli tarixçi alim və tədqiqatçı Əhməd Kəsrəvi bu barədə yazır: "Şəhər ermənilərin əlinə keçdikdən sonra əhali birinci günü evlərə qapandı. Lakin məişətlə bağlı zəruri tələbatı təmin etmək üçün ikinci gündən evdən bayıra çıxmaq məcburiyyətində qaldılar. Ermənilər küçəyə çıxan hər kəsin qabağını kəsir, pulunu, saatını və digər dəyərli əşyalarını əllərindən alırdılar. Soyğunçuluqla üzləşən dinc əhali həm də ağır təhqirlərə məruz qalırdılar. Hətta yaranmış dözülməz vəziyyətdən xilas olmaq üçün bəzi sakinlər şəhərdən baş götürüb qaçmağa çalışırdı. Salması tərk etməyə məcbur qalanların bir çoxu ailəli idi. Bu səbəbdən də bir az yol qət etdikdən sonra qadın və uşaqlar taqətdən düşür və yeriməyə gücləri qalmırdı. Nəticədə qaçqınlar qar içində hərəkətsiz qalaraq şaxtadan qırılırdı. Sağ olanları isə çarəsiz qalaraq yenidən şəhərə qayıdır, bir qismi isə hər cür təhlükə və əziyyəti göz önünə alıb, Xoya üz tuturdular. Xoy əhalisi qaçqınları mehribanlıqla qarşılayıb, onları şəhərdə yerləşdirir, paltar və çörəklə təmin edirdilər.

Səməd Sərdariniya "Arazın hər iki tayında müsəlmanların soyqırımı" kitabında yazır ki, həmin dövrdə Güney Azərbaycan şəhərlərinin çoxunda, o cümlədən Salmasda da aclıq hökm sürürdü: "Belə bir acınacaqlı vəziyyətdə bir tərəfdən də xəstəlik geniş yayılaraq, Təbriz, Urmiya və Salmas şəhərlərində çox sayda insanın ölümünə səbəb olurdu. Erməni təcavüzü, aclıq və xəstəlik ümumi əzginliyə və əhalinin ruh düşgünlüyünə səbəb olurdu. Lakin bütün bunlara baxmayaraq, azadlıq uğrunda mübarizə aparan Azərbaycan türkləri ümidlərini itirməyərək fəaliyyətə başladılar. Salmasda erməni təcavüzünə son qoymaq üçün digər şəhərlərdə yaşayan soydaşlarımız hərəkətə keçdilər. Həriri, Növbəri və Sərtipzadə özləri döyüş meydanına getdilər. Əmir Ərşəd (Samxan) adlı igid 400 Qaradağ atlısı ilə Almasaraya gəlib, buranı özlərinə səngər etdilər. Digər tərəfdən də Xoy ordusundakı döyüşçülərin sayı artmışdı.

Salmasın ələ keçirilməsindən sonra Osmanlı qüvvələrinin bu bölgədə yerbəyer olması xəbərləri dolaşırdı. Bu səbəbdən də Petros silahlı dəstələrin bir hissəsini Salmasda qoyub, qalan hissəsini isə özü ilə şəhərin ətraf kəndlərindən olan Pekaçik və Qalasərə apararaq sonrakı müharibələr üçün hazır vəziyyətdə saxladı. Salmasın ermənilərdən azad edilməsi üçün fürsət yaranmışdı. Buna görə də Azərbaycan türklərindən ibarət dəstələr (Salması "Petros" ordusundan azad etmək üçün digər şəhərlərdə yaşayan Azərbaycan türkləri bir araya gələrək dəstələr yaratmışdılar - R.C.) bu imkandan yararlanaraq, 1918-ci il aprelin 19-da gecə hücuma keçib, heç bir ciddi müqavimət olmadan Salmasa daxil ola bildilər. Beləliklə, şəhər yenidən öz tarixi sakinlərinin əlinə keçdi.

Güneyli tarixçi Tohid Məlikzadə Dilməqani "Azərbaycan Birinci Dünya müharibəsində" adlı kitabında yazır: "Salmasın ələ keçirilməsi üçün əvvəl 500 atlı və piyadadan ibarət bir qüvvə gecə vaxtı qəflətən şəhərə girib, erməni və assurilərlə vuruşaraq şəhəri onlardan təmizlədi. Sonra da yerli əhali ilə birləşib şəhər bürclərində təhlükəsizliyi qorumaq üçün keşik çəkməyə başladılar".

On gün ərzində Xoy və Təbrizdən də iki minə yaxın döyüşçü kömək məqsədilə Salmas sakinlərinin dadına yetişdi. Ermənilərin fasiləsiz hücumlarını dəf etmək üçün soydaşlarımız dəstələrini şəhərin müxtəlif ərazilərində yerləşdirirdilər. Əsəd Hümayun adlı igid öz silahlı dəstələri ilə Ləkistanda, Salar Hümayun ilə Hacı Musaxan isə şəhərdə, Xoy qoşunu isə Muğancuqda idi. Erməni-assur yaraqlıları öz qüvvələrini toplayıb, hər gün şəhərə hücum çəkirdilər. Şəhərdə top və tüfəng səsindən qulaq batırdı. Tərəflər arasında baş vermiş qanlı toqquşmalar iki gün davam etdi. Nəhayət, Əsəd Hümayunun ordusu məğlub oldu və böyük toplarından biri düşmənin əlinə keçdi. Quldurlar qənimət kimi əldə etdikləri böyük topla şəhərə atəş açır, binaları yıxırdılar. Salmasın Sədiyyə mədrəsəsi də həmin hücumlar nəticəsində dağıdıldı. Bununla belə, şəhər əhalisi basqınçılara qarşı döyüşür, Salması var gücləri̇lə müdafiə edirdilər. Axşama doğru qarşıdurmalar daha da kəskinləşirdi. Şəhərə bir-birinin ardınca top mərmiləri yağdırılırdı. Minlərlə günahsız qadın və uşaq ağlar halda münqişənin bitməsini gözləyirdi. Hər tərəfə hakim olan qeyri-adi qorxu və həyəcan içində hər kəs qaçıb öz canını qurtarmaq üçün yol axtarırdı.

Ermənilər hücumlarının birində yerli müdafiəni qıraraq Əhrəncan darvazasından şəhərə daxil ola bildilər. Azğınlaşmış ermənilər evləri yandırır və heç kimə rəhm etmədən əhalini kütləvi şəkildə qırırdılar. Beləliklə, Azərbaycan türklərinin soyqırımı təkrarlanıdı. Şəhərin dörd bir tərəfi cəsədlərlə dolmuşdu. Xəndəklərdə də saysız-hesabsız meyitlər düşüb qalmışdı. Qadınların bir çoxu öz südəmər körpələrini arxa ataraq, qətliam səhnəsindən qaçırdılar. Soyqırım gecəsi Salmasın hər yerində ucalan uşaq və qadınların nalə dolu fəryad səsi hər tərəfi bürümüşdü. Sağ qalmaq üçün imkanı olan hər kəs şəhərdən qaçırdı. Çünki ermənilər evlərə soxulur, qarşılarına keçən hər kəsi amansızlıqla öldürürdülər. Salmas sakinləri qaçqına çevrilir, ev-eşikləri isə yandırılırdı. Şəhərdə əsasən əli hər yerdən üzülmüş qocalar və xəstələr qalmışdı. Onlar isə bütün qapıları bağlayaraq evdə oturub bir addımlıqdakı amansız ölümü gözləyirdilər. Ermənilər bağlı qapıları sındırıb, bir-birinə ürək-dirək vermək üçün bir yerə toplaşmış bir neçə ailəni elə bir yerdə qırırdılar. Onlar övladı anasının, qardaşı bacısının gözləri qarşısında öldürür, bəzən də qətlə yetirdikdən sonra onların bədən üzvlərini kəsir,

tonqal qalayaraq od içində yandırırdılar. Ermənilərin Salmasda həyata keçirdikləri Azərbaycan türklərinin soyqırımı gecə-gündüz sürdü. Əhalinin bir qismi özlərini qorumaq üçün məscidə sığınmışdılar. Onlar ermənilərin məscidin hörmətini saxlayaraq ona toxunmayacaqlarını güman edirdilər. Lakin quldur dəstələri Dilməqanı (Salması) işğal etdikdən sonra həmin məscidə pənah aparmış günahsız dinc əhalinin hamısını güllələdilər.

Soyqırımın üçüncü günündə, yəni 1918-ci il aprelin 25-də erməni-assuri quldur dəstələri 40 min müsəlman əsiri bir yerə toplayaraq, Həftvan və Qalasər kəndlərinə apardılar. Onlar həmin əsirləri lüt-üryan saxlayaraq ağır şəkildə təhqir edirdilər. Əsirlərin əksəriyyəti yollarda aclıqdan qırılırdı. Təbriz və Xoydan Salmasa gedən yollara hər addımbaşı ermənilərin kütləvi şəkildə öldürdüyü Salmas sakinlərinin cəsədləri səpələnmişdi. Bütün bunlarla yanaşı, quldurlar Xoya gedən yolda pusqu quraraq, yoldan keçən Azərbaycan türklərini tutub qarət edir və öldürürdülər.

Güneyli tarixçi Tohid Məlikzadə Dilməqani "Azərbaycan Birinci Dünya müharibəsində" adlı kitabında yazır: "Çox çəkmədən Osmanlı ordu hissələri Xoya daxil olub yerli əhalinin yardımıyla ilk növbədə Salmasdan gələn qaçqınların acınacaqlı durumunun yaxşılaşdırılması işilə məşğul oldular. Xoya pənah gətirmiş 40 min Salmas qaçqınından yalnız on min nəfəri sağ qalmışdı. Osmanlı qüvvələrinin gəlməsindən xəbər tutan ermənilər təşviş içində əl-ayağa düşdülər. Onlar etdikləri iyrənc cinayətlərin aqibətindən qorxaraq qaçmağa hazırlaşırdılar. Lakin bu qədər cinayət törətməklə Salması tərk etmək o qədər də asan iş deyildi. Bundan başqa, ermənilər və assurilər burada (işğal etdikləri Salmasda və Urmiyada - R.C.) ev-eşik və bağ evlərinə sahib olmuşdular. Bunlardan da vaz keçmək onlar üçün çox çətin idi. Osmanlı əsgərlərinin yardıma gəlməsi xəbərini eşidən Salmas sakinləri öz xilaskar havadarlarının gəlişi üçün sevinclərindən ağlayırdılar. Onlar bir tərəfdən yuxuda belə görmədikləri bir arzunun gerçəkləşməsindən, yəni ermənilərin təşviş içində qaçmağa can atmasından sevinir, digər tərəfdən isə qaçmaqda olan ermənilərin son qırğına əl atmasından qorxurdular. Beləliklə, altıncı diviziyadan olan Osmanlı əsgərləri Türkiyədəki istiqlal müharibəsinə və daxili problemlərə baxmayaraq, Salmas və Urmiyanı düşməndən azad etmək üçün qardaşlarının imdanına yetişdilər. İyun ayının ortalarında osmanlılar Salmasa yaxınlaşıb, ikigünlük döyüşdən sonra şəhərə daxil oldular. Salmas sakinləri Osmanlı əsgərlərini qarşılamağa gəlir, onların qabağında mal və qoyun kəsirdilər. Yerli sakinlər öz başlarına gələn bir neçə aylıq müsibətlərdən danışır, onlara öz təşəkkürlərini bildirirdilər".

## Xoyda erməni terroru

"Andranikin şəhəri mühasirədə saxlaması xəbərini eşidən Osmanlı ordusu dərhal geri qayıtdı"

Ermənilərin Azərbaycanda törətdikləri yüzlərlə terror faktı var. Tarixin hansı səhifəsini vərəqləsək, ermənilərin səbəbkarı olduğu təxribatların və ya qanlı hadisələrin izini görmək olar. Türklərə nifrət və xəyali "Böyük Ermənistan" naminə əllərini dönə-dönə qana bulayan ermənilər kin qoxuyan əqidələrini nəsildən nəsilə ötürürlər. Ancaq bu cür xəstə psixologiya ilə yetişən adamlar ağlasığmaz vəhşiliklərə və qəddarlığa əl ata bilər.

Zamanın tələbilə üzdə dost, daxilən düşmən olan ermənilər zaman-zaman tarixin qaranlıq kölgəsində gizlənərək öz mənfur niyyətlərini həyata keçirmək üçün planlar qurur, terror təşkilatları təsis edirlər. XX əsrin əvvəlində ermənilərin planlı şəkildə hədəfə aldığı Güney Azərbaycan şəhərlərindən biri də Xoy oldu.

Təpədən dırnağa qədər yaraqlı olan ermənilərə Andranik başçılıq edirdi. Plana görə, onlar Xoya hücum çəkib şəhəri ələ keçirməliydi. Xoya hücum çəkən Andranik qüvvələrinin sayı ədəbiyyatlarda fərqli rəqəmlərlə göstərilib. Bəzi mənbələrə görə, silahlı erməni əsgərlərinin sayı 12000, digər ədəbiyyatda isə 3000 olduğu qeyd olunub. Andranikin Xoya hücum edəcəyinə şəhər əhalisi əvvəl inanmadı. Amma erməni dəstələrinin şəhərə yaxınlaşmasından sonra ölüm vahiməsi hər tərəfi bürüdü. Ətraf kəndlərin sakinləri qorxudan şəhərə pənah gətirirdilər. Evlər, məscidlər, bütün küçələr qaçqınlarla dolmuşdu. 1918-ci il iyunun son günlərinin birində səhər tezdən erməni yaraqlı dəstələri şəhər həndəvərində görünməyə başladı. Günortaya qədər ermənilər şəhərin yarısını mühasirəyə aldılar. Xoyu ermənilərdən müdafiə etmək məqsədilə yerli əhali hazırlıq görməyə başladı. Varlı-kasıb fərqi olmadan əli silah tutmağı bacaran bütün kişilər bürclərdə və səngərlərdə qaravul çəkməyə başladılar. Bütün təbəqələrdən olan əhali - mülkədarından tutmuş əkinçisinə qədər, habelə digər peşə sahibləri - tacirlər, ruhanilər və s. çiyin-çiyinə müharibə etmək üçün hazırlaşmışdılar.

Təpədən dırnağa qədər silahlanmış erməni dəstələri Xoya hücum çəkdilər. Düşmənin açdığı ilk güllələr bir neçə nəfər soydaşımızın həyatına son qoydu. Erməni hücumlarına sinə gərən şəhər əhalisi mərdliklə vuruşurdu. Düşmənlə mübarizədə qadınlar və uşaqlar da iştirak edirdi. Onlar bürclərdə və səngərlərdə şəhəri düşməndən müdafiə edən döyüşçülərə su və şərbət daşıyırdılar. Fars tarixçisi Əhməd Kəsrəvi bu haqda belə yazır: "Səhərin dan yeri qızaran vaxtı birdən-birə erməni dəstələri peyda oldular. Onlar şəhərin 300 metrliyinə qədər gəlib, top və hərbi avadanlıqlarını işə salaraq, atəş açmağa başladılar. Ermənilər hər tərəfdən şəhəri mühasirəyə almağa çalışırdılar. Elə buna görə də durmadan öz qüvvələrinin sayını artırırdılar. Nəticədə günortaya qədər şəhərin yarısını ələ keçirdilər. Xoylular isə topdan məhrum ola-ola, həm də köhnə silahlarla

vuruşurdular. Bu arada qadınlar da kişilərlə çiyin-çiyinə düşmənə qarşı vuruşur, həm də onlara su, şərbət və yemək aparırdılar. Bu isə kişilərdə əlavə ruh yüksəkliyi yaradırdı".

Xoylu qadınların bir qismi arxa cəbhədə şəhər müdafiəçilərini himayə edərək, öz qəhrəmanlıqları və fədakarlıqlarıyla onların əhval-ruhiyyəsini gücləndirirdilər. Bu cür şir ürəkli qadınlardan biri də Zəri xanım idi.

Güneyli tarixçi Mehdi Ağası "Xoy tarixi" adlı əsərində bu haqda bildirir: "Ermənilər Xoyun şərq hissəsində əhalinin güclü müqavimətini gördükdən sonra şəhərə bu istiqamətdən soxulmağın qeyri-mümkün olduğunu anladılar. Elə buna görə də mühasirə halqasını daha da daraldaraq, günortaya yaxın şəhərin cənub hissəsindən hücuma keçdilər. Nəticədə bürclərdəki müdafiəçilər geri çəkilmək məcburiyyətində qaldılar. Məhz həmin anda bürclərə azuqə və sursat daşıyan Zəri xanım (Zəri xanım əslən Urmiyadan idi) geri çəkilməkdə olan döyüşçülərin qabağını kəsərək, başındakı yaylığı açıb onların başına atır (bir qadının belə hərəkəti hər hansı bir kişinin qorxaqlığına etiraz etmək deməkdi). Sonra isə özünün fəryad və həyəcan dolu səsilə kişiləri mübarizəyə çağıraraq onlara ermənilərin Urmiya və Salmasda törətdiyi cinayətləri xatırladır, döyüşçüləri öz mövqelərində dayanıb müqavimət göstərməyə təşviq edirdi. Qadının bu hərəkətindən sonra müdafiəçilər yenidən bürclərə və səngərlərə qayıtdılar. Ermənilərin bürclərə dırmanmalarına baxmayaraq, şəhər müdafiəçiləri bu dəfə ildırım kimi ermənilərin üstünə hücuma keçdilər. Nəticədə düşmən tərəfin bir qismini yerindəcə öldürərək, qalanlarını isə geri çəkilməyə məcbur etdilər".

Ermənilərə qarşı mübarizədə ruhanilər də mərdliklə vuruşurdu. Həmin hadisələrdə igidliyilə millətə, xüsusilə də gənclərə ruh yüksəkliyi verən iki ruhaninin adını çəkmək lazımdır. Əslən Xoydan olan Höccətülislam və Ağa İbrahim Müctəhid adlı iki qəhrəman soydaşımızın misilsiz fədakarlığı Xoy gənclərinin qeyrət damarlarını, onlardakı comərdlik və igidlik ruhunu oyatmışdı. Əhalini düşmənlə mübarizəyə səsləyən ruhani Höccətülislam üzünü camaata tutub demişdi: "Ya Əyyuhəlnas! Bu gün hər kəs öz orucunu saxlamasa, günaha batmış kimi hesab olunur. Belə bir gündə oruc tutmaq haramdır. Orucunuzu açın və düşmənlərə qarşı vuruşun!" Bu sözdən sonra qeyrət timsalı olan həmin şəxslər topun ipini boyunlarına keçirərək, onu səngərə doğru çəkməyə başlayırlar. Onların bu hərəkəti az-çox ümidsizliyə qapılmış gənclərin və səngərdəkilərin əhval-ruhiyyəsini qaldıraraq, onlardakı döyüşkənlik qanını cuşa gətirmişdi. Məhz bundan sonra hamı öz canından keçərək kütləvi şəkildə səngərlərə doğru yola düşürdü. Maraqlıdır ki, həmin gün yuxarıda adı çəkilən iki şəxsin ipini boyunlarına keçirərək səngərə tərəf çəkdikləri topla əhalinin vahiməsinə səbəb olan erməni topunu məhv etmişdilər.

Özü həmin dövrdə Urmiyada tarixi olayların yaxından şahidi olmuş soydaşımız Əli Dehqan yazır: "İyunun 23-cü və 24-cü günü Urmiyanın dörd ağaclığına qədər gəlib çatmış Osmanlı ordusu Andranikin Xoyu mühasirədə saxlaması xəbərini eşitdikdən sonra dərhal şəhər əhalisinə yardım göstərmək üçün geri qayıtdı. Andranik Xoya çatdıqdan sonra şəhəri mühasirəyə almışdı. Amma Xoy əhalisi düşmən qarşısında möhkəm dayanmış, ermənilərin hər bir hücumuna müqavimət göstərirdi. Yerli sakinlər osmanlıların gəlişinə qədər bir neçə gün erməniləri şəhərin çölündə süründürdülər. Nəhayət, Osmanlı əsgərləri Salmas istiqamətindən gəlib erməni quldurlarını top atəşinə tutdu. Nəticədə düşmən qüvvələrinin çoxu həlak oldu, qalanları isə qaçıb aradan çıxdı. Beləliklə, Xoy şəhəri erməni hücumlarından xilas oldu".

Digər güneyli tədqiqatçı Məhəmməd Əmin Riyahinin "Xoy tarixi" adlı kitabında hadisə belə qələmə alınıb: "Günortadan bir az keçirdi. Döyüşçülərdən biri durbinlə cənub tərəfindəki vəziyyətə nəzarət edirdi. Birdən-birə Qəzənfər dağının arxasından göyə qalxan qırmızı tüstünü görən kimi bu haqda türk əsgərinə (şəhərdə qalan və Xoy əhalisiylə birgə döyüşən yaralı Osmanlı əsgəri - R.C.) xəbər verdi. Osmanlı əsgəri bu xəbəri eşidən kimi sevinərək bildirdi ki, bu tüstü İslam ordusu toplarının tüstüsüdür. Nəhayət ki, gəlib çatdılar. Allaha şükür, qurtardıq. Bir az keçmədən topların səsi eşidilməyə başladı. Osmanlı ordusu ilə ermənilər arasında şiddətli bir müharibə başlandı". Qardaş türklərin topxanası erməni qüvvələrinin mövqeyini kəskin atəşə tutdu. Ağır və ardıcıl atəş nəticəsində qısa zamanda ermənilər müqaviməti zəiflədib qaçmaq məcburiyyətində qaldılar. Şəhərin müdafiəçiləri bürclərin başından sevinc və həyəcan hisslərilə Osmanlı ordusunun qələbəsinə baxırdılar. Qəzənfər və Qullabi dağları tamamilə Osmanlı ordusunun əlinə keçmişdi. Ermənilər geri çəkildilər. Döyüşlər isə şəhər divarlarının arxasında davam edirdi. Günün batmasına bir saat qalmış Osmanlı ordusu Təzəkəndə çatdı. Topların Səidabada doğru atəşi isə hələ davam edirdi. Beləliklə, qardaş türklər həmin gecəni şəhərin xaricində qalıb, səhər havalar işıqlanana kimi Culfaya qədər ermənilərin izinə düşdülər. Qaçmaqda olan ermənilər Araz çayını keçdikdən sonra arxalarındakı Culfa körpüsünü də yandırdılar.

Baş verənlər haqda Əli Dehqan bildirir: "Qeyrətli Xoy əhalisinin həmin çətin günlərdə göstərdiyi qəhrəmanlıq təqdirəlayiqdir. Şəhərin düşmən əlinə düşməməsi üçün böyükdən kiçiyə qədər hamı döyüş meydanında qalıb vuruşmaq və bu yolda ölmək qərarına gəldi. Qəhrəman Xoy əhalisinin həmin ağır günlərdə vəhşi düşmən qarşısında göstərdiyi misilsiz müqavimət səhnələri insanda böyük qürur hissi oyadır". Həmin hadisələrdə şəhəri ermənilərdən müdafiə edənlər arasında öz qəhrəmanlığıyla yaddaşlarda qalan igid soydaşlarımız var. Onlardan Höccətülislam Şeyx Fəzlullah, Ağa İbrahim, Həsənəlixan Mirpəncə, Hacı Xəlil Makui və s. kimi mərd oğulların adını çəkmək olar. Xoy əhalisinin Andranikin qoşunlarına qarşı

qəhrəmancasına müqaviməti müasir Azərbaycan tarixinin parlaq səhifələrindən biri sayılır. Bu məğlubiyyət ermənilərin "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək ümidlərini puça çıxardı. Beləliklə, erməni qüvvələrinin qalan hissəsi min bir əzab-əziyyətlə özlərini İrəvana çatdırdılar. Əhzalinin və Osmanlı qoşunlarının fədakarlığı nəticəsində ermənilərin Xoy şəhərini ələ keçirməsinin qarşısı beləcə alındı.

**Hazırladı: Real Cəfərli**

**“Xalq cəbhəsi” - 2009 – 22 oktyabr, 30 oktyabr, 4 noyabr. - № 192, 198, 201**

## “Erməni məsələsi”, “genosid” əfsanəsi və erməni terrorizmi

Tarixi reallığı obyektiv mövqedən araşdırmaq üçün hazırkı tədqiqat işi tarixilik prinsipinə istinadən, dəlillər və sübutlar əsasında tarixi gerçəkliyi öyrənməyi qarşıya məqsəd qoyur. Artıq bir çox onilliklərdir ki, müxtəlif ölkələrin bir sıra tədqiqatçıları özlərinin tarixşünaslıqlarının konsepsiyasına uyğun olaraq bu problemi öyrənmoyo çalışmışlar. Problemin özünəməxsusluğu ondan ibarətdir ki, həm sovet tarixşünaslığı, həm Qərb tarixşünaslığı məsələni araşdırarkən, aysberqin üst hissəsini götürmüş, “erməni məsələsi”nin ana xəttini təşkil edən “Böyük Ermənistan” ideyasına ilham verən Balkan düyünündə maraqlı olan Avropa dövlətlərinin siyasətini tənqid etmiş və “erməni məsələsi”nin ilk faciəsi olan XIX əsrin sonlarında Şərqi Anadoluda baş verən erməni iğtişaşlarının günahını Osmanlı imperiyasında görmüş, problemin coğrafi məkanı genişlənib Mərkəzi Qafqaza keçdikcə isə, bölgədə milli qarşıdurmanın kəskinləşməsini çar mütləqiyyətində axtarmış və beləliklə, problemin ideoloqları və icraedici millətçi qüvvə nəzər-diqqətdən yayınmış, məkrli erməni siyasəti pərdələnmiş və tarixi saxtalaşdırmaq mümkün olmuşdu. Problemə olan bu qeyri-obyektiv münasibət “erməni məsələsin”dən doğan separatçılığı, erməni millətçilərinin mübarizə vasitəsinə çevrilmiş terrorizmi və onların xülyəvi arzularının reallaşması naminə türk-müsəlman əhalisinə qarşı törətdikləri cinayətləri kölgədə qoymuşdu. Nəticədə erməni millətçi qüvvələri müasir beynəlxalq münasibətlər sisteminə “genosid” əfsanəsini gətirmiş və özlərinin törətdikləri bəşəri cinayətləri kölgədə qoymağa nail olmuşlar.

Sonuncu rus-osmanlı müharibəsi Osmanlı dövlətinə çox ağır nəticələr gətirdi. Osmanlıların ağır sosial-siyasi proseslər durumunda olmasından istifadə edərək, ermənilər hələ San-Stefanoda sülh danışıqları gedərkən Osmanlı imperiyasının təbəəsi olmaq istəmədiyini bildirdilər. Halbuki Osmanlı dövlətində geniş səlahiyyətlərə malik olan və təhlükəsizliyi qorunan ermənilər cəmiyyətdə yüksək yer tutur, dövlət işlərinə cəlb olunurdular. Belə ki, yalnız XVII əsrdə vəzir-əzəm vəzifəsinə iki erməni: Xəlil Paşa və erməni Süleyman Paşa təyin olunmuşdu. 1876-cı ildə çağırılan Osmanlı imperiyasının Birinci Parlamentində də millət vəkilləri sırasında ermənilərin nümayəndələri vardı. Ermənilərin bu addımı Osmanlı dövlətinin hakim dairələrində onlara qarşı inamsızlığı yaratsa da, beynəlxalq münasibətlər sisteminə daxil olan “erməni məsələsi” Avropa diplomatiyasının istiqamətlərinə təsir etdi.

Tarixin belə bir zaman çərçivəsində “erməni məsələsinin” ana xətti “Böyük Ermənistan” ideyası formalaşmağa başlayır. IV əsrdə öz dövlətçiliyini itirən ermənilər, XIX əsrin son rübündə müstəqil erməni dövlətinin yaranmasının mümkünlüyünə inanır. Bu fikrin əsasını qoyan Van şəhərində yaşayan, bank sahibinin oğlu Partuqamyan olmuşdur. 1878-ci ildə o, dərs dediyi məktəbin şagirdləri içərisində “Böyük Ermənistan” ideyasını irəli sürmüş, bu ifrat ideyaya uyaraq ekstremist mövqeyə yuvarlanmış XIX əsrin 80-ci illərində “qan tökmədən azadlıq əldə edilmir” şüarını irəli sürmüşdü.

1885-ci ildə Partuqamyanın şagirdləri Fransadan Osmanlı imperiyasına gələrək “Ermənistlər” partiyasını yaradırlar. Partiyanın əsas məqsədi silahlı yolla ermənilərin özünüidarəetmə hüquqlarını əldə etmək idi. “Müstəqil erməni dövlətinin” yaradılması ideyasını 1887-ci ildə meydana gəlmiş “Hnçak” (”Zong”) və 1890-cı ildə təşkil olunmuş “Daşnaksütun” (”İttifaq”) partiyaları qəbul etmiş və Berlin traktatının 61-ci bəndi ilə razılaşmayaraq “bütün osmanlı ermənilərinə azadlıq verilməsini” tələb edirdilər ki, bu tələbin əsas mahiyyəti Kiçik Asiyanın altı vilayətinə - Van, Bitlis, Məmurətələziz, Diyarbəkir, Sivas və Ərzuruma “muxtariyyət” verilməsindən ibarət idi. Qarşıya qoyulan məqsədə çatmaq üçün bu separatçı təşkilatlar, 1894-cü ildən başlayaraq Kiçik Asiyada iğtişaşlar və qiyamlar törədirlər. Erməni millətçilərinin dağıdıcı fəaliyyəti 1896-cı ilin yayına qədər “Hnçak” partiyasının nəzarəti altında olduğu halda, “Daşnaksütun” partiyası həmin ilin yayından etibarən erməni separatçı hərəkatında dominantlığı ələ almaq məqsədi ilə fasiləsiz terror aktları keçirir ki, bunların sırasında 1896-cı il avqustun 14-də İstanbulda Osmanlı bankına olan basqın dünya ictimaiyyətini lərzəyə salır.

Artıq həmin dövrdə Qərb dövlətləri və o cümlədən ABŞ erməni millətçilərinin yırtıcı terrorçu bir qüvvə olduğunu anlamış və ABŞ prezidenti Q.Klivlend erməni məkrini ifşa etmək məqsədi ilə 1895-ci ilin dekabrında bir qrup senatoru Osmanlı imperiyasına göndərmiş və onlar da gerçəkliyi təsdiqləyərək bildirmişlər ki, “erməni qırğınları yalandan başqa bir şey deyil”. Bu reallıqla Kayzer Almaniyası da razılaşmışdı. Beləliklə, Qərb dövlətlərindən dəstək almaq ümidini itirən erməni separatçı hərəkatı səngimiş və 1905-ci il iyulun 21-də Sultan Əbdül Həmidə qarşı törədilən sui-qəsd erməni terror dalğasının birinci mərhələsinin sonuncu akkordu olmuşdu.

“Böyük Ermənistan” xülyasını Şərqi Anadoluda Osmanlı dövlətinin hesabına reallaşdırmağın mümkünsüzlüyünü başa düşən erməni separatçıları, XX əsrin əvvəllərində ərazi iddialarını Azərbaycan torpaqları, onun köklü əhalisi - azərbaycanlıların hesabına həyata keçirməyi məqsəd olaraq qarşıya qoyurlar. Osmanlı imperiyasından Mərkəzi Qafqaza köçən on minlərlə zinvər (yaraqlı) bölgədə millətçi hərəkatın əsas hərəkətverici qüvvəsi olur və erməni-qriqoryan kilsəsinin ideya rəhbərliyi və “Daşnaksütun” partiyasının əməli fəaliyyəti nəticəsində 1905-1906 - cı illərdə erməni-azərbaycanlı qarşıdurmasının birinci fazası baş verir. Bu

dövrdə erməni millətçilərinin terror fəaliyyətinin miqyası Qafqazda və ilk növbədə Şimali Azərbaycanda bütün çərçivə hüdudlarını o dərəcədə aşmışdı ki, hətta erməni separatçılarının təsir dairəsində olan və ailəsinin "bir üzvü" kimi daşnak keşiş Mesropu qəbul edən və onun göstərişlərinə əməl edən Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov 1906-cı ilin fevralında, təlatümlü Qafqaza xüsusi təsir göstərən erməni-azərbaycanlı qarşıdurmasını dayandırmaq məqsədi ilə, Tiflisdə müşavirə çağırmaq məcburiyyətində qalır. Müşavirənin əsas məqsədi bölgədə ictimai-siyasi sabitliyi əldə etmək idi və bununla bağlı olaraq gündəliyə "Qafqazda terrorizm haqqında" məsələ daxil edilmiş və qəbul edilən qətnamə "Daşnaksütun" partiyasının terrorçu fəaliyyətini pisləmişdi ki, bu sənədin də böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, ilk dəfə olaraq Rusiya imperiyası dövlət səviyyəsində erməni millətçi təşkilatlarına "terrorçu" damğası vurmuşdu.

* * *

"Erməni məsələsinin" birinci fazasında erməni millətçiləri əməli nəticələr əldə etməsələr də, "Böyük Ermənistan" ideyasından əl çəkmədilər. Hazırkı tədqiqat obyektinin ikinci hissəsi erməni millətçi hərəkatının Birinci Dünya müharibəsi illərində törətdikləri bəşəri cinayətlərin acı nəticəsi olan "genosid" əfsanəsinin həqiqətlərini göstərməyi qarşıya məqsəd qoyur.

Osmanlı imperiyasında erməni qiyamları Birinci Dünya müharibəsi illərində yenidən alovlandı. Müharibənin ilk günlərindən erməni millətçi hərəkatının liderləri Rusiyaya olan ümidlərini gizlətmirlər. Belə ki, Qafqaz canişini V.Georqa göndərdiyi məktubunda təmkinli olmağı məsləhət görsə də, ermənilərə Osmanlı imperiyasında "beşinci kolon" kimi baxan II Nikolay 1914-cü il 17 sentyabr müraciətində onları "mütləqiyyət ətrafında" birləşməyə çağırmışdı. 1914-cü ilin noyabrında isə imperator V.Georqla görüşündə onu əmin etmişdi ki, "erməni məsələsi" sülh danışıqları zamanı öz həllini tapacaq.

1915-ci ilin əvvəllərində rus Qafqaz ordusu cəbhənin cənub istiqamətində qəflətən zərbə endirir və Van gölü istiqamətində hücum əməliyyatı keçirdikdən sonra erməni yaraqlıları Şərqi Anadoluda qiyamlar qaldırır və bu məkanda türk-müsəlman əhalisinə qarşı etnik "təmizləmə" siyasəti aparır. Belə bir şəraitdə dövlətdə sabitliyi bərqərar etmək üçün gənc türklər radikal addımlar atmağa məcbur olurlar. Türk-müsəlman əhalisinə qarşı zor işlədən erməni separatçı hərəkatını dayandırmaq məqsədi ilə İstanbulda və ölkənin digər iri şəhərlərində Tələt paşanın 1915-ci il 24 aprel təmimi məktubu əsasında erməni millətçilərinin ideoloji ilhamvericiləri olan qatı daşnaklar həbs olunurlar. Beləliklə, 24 aprel 1915-ci il tarixin saxtalaşdırıcılarının iddia etdiyi kimi ermənilərin soyqırımı yox, sadəcə dövlətçiliyi və Osmanlı dövlətinin ərazi bütövlüyünü qorumaq məqsədi ilə Osmanlı hakim dairələrinin atdığı zəruri addım olmuşdu. Eyni zamanda dövlət üçün böyük bir təhlükə kimi qalmaqda davam edən erməni amilini ictimai-siyasi həyatdan çıxarmaq məqsədi ilə hakim dairələr 1915-ci il 26 may fərmanına əsasən erməni əhalisini Şərqi Anadoludan ölkənin şərq əyalətlərində - Diyarbəkir, Fərat vadisi, Urfa və Süleymaniyyə ətrafında yerləşdirilməsinə qərar verir. Bu tarixi həqiqətləri saxtalaşdıran erməni millətçiləri isə 1965-ci ildən etibarən keçmiş SSRİ-də "Daşnaksütun" partiyasının bir nömrəli rezidenti olan A.Mikoyanın fitvası ilə, dünya ictimaiyyətini "genosid" əfsanəsinə inandırmağa çalışır. Və bu zaman belə bir gerçəklik unudulur ki, erməni millətçilərinin 1915-1916-cı illərdə törətdikləri vəhşiliklər nəticəsində 750.000 - 1.600.000-ə qədər türk müsəlman əhalisi Şərqi Anadoluda fiziki cəhətdən məhv edilmiş, 850.000 - dən çox türk-müsəlman Rusiya işğal bölgəsində erməni zorakılığından qurtulmaq üçün qaçqınlıq həyatını yaşamışdır. Bu problemi öyrənən ABŞ tədqiqatçıları E.Fayql türk-müsəlman dünyasının geniş bir bölgəsini - Egey dənizindən Aralıq dənizinə, Qara dənizdən Qafqaza qədər olan bir coğrafi məkanı götürərək, 1915-1918-ci illərdə erməni yaraqlılarının 2,5 milyon müsəlmanı qətlə yetirdiyini göstərir.

Törətdikləri vəhşiliklərə görə dünya ictimaiyyəti qarşısında cavab verməli olacağını başa düşən daşnaklar, müharibənin sonunda daha da azğınlaşaraq kütləvi qırğınlardan çəkinmir və 1918-ci ilin fevralında Ərzrumda Andronikin quldur dəstələri ağlasığmaz cinayətlər törədir. Həmin dövrdə erməni millətçilərinə himayədarlığı Rusiya bolşevikləri edir və V.Lenin hökuməti "təmənnasız olaraq 6.194.784 rubl vəsait ayırır". "Türkiyə ermənilərinə muxtariyyət" dekretini həyata keçirmək məqsədi ilə bolşevizmi "süngü ucunda" yaymaq prinsipinə əsaslanan V.Lenin və onun kampaniyası S.Şaumyana Şərqi Anadoluda sovet hakimiyyətini qurmağı tapşırır və Qafqazın fövqəladə komissar mandatını ona verir. Lakin Kiçik Asiyaya tələsməyən və bu tapşırığın reallıqdan uzaq olduğunu başa düşən S.Şaumyan Bakıda mart qırğınlarının "ilhamvericisi" olur. Ancaq 1918-ci il mart soyqırımı Bakı hadisələri ilə sonuclanmır və Şamaxıda, Qubada, Göyçayda daşnaklar daha ağır cinayətlər törədirlər. Öz növbəsində türk-müsəlman dünyasının qatı düşməni olan Andronik, antiazərbaycan siyasətini qarşıya bir məqsəd kimi qoyan S.Şaumyanın çağırışı ilə Bakıya yaxınlaşa bilmədiyi üçün Naxçıvanda, Zəngəzurda, Gümrüdə və ümumən İrəvan quberniyasının ayrı-ayrı qəzalarında Azərbaycan xalqına qarşı qırğınlar törədir.

Göstərilən dəlillər və sübutlar birmənalı olaraq, erməni millətçilərinin və onların ideoloqlarının, habelə Qərbdə olan havadarlarının uydurduqları "genosid" əfsanəsini alt-üst edir.

Birinci Dünya müharibəsinin nəticələrinə görə erməni separatçıları "Böyük Ermənistan" ideyasını reallaşdıra bilməsələr də, Azərbaycan torpaqları hesabına Ararat Respublikasını elan edir, daha sonra bolşeviklərlə sövdələşərək Zəngəzuru ələ keçirirlər.

Tədqiqatın üçüncü tərkib hissəsini araşdırarkən erməni terror təşkilatlarının Birinci Dünya müharibəsindən sonrakı fəaliyyəti izlənilir. Müharibənin nəticələri ilə razılaşmayan erməni millətçiləri "Daşnaksütun" partiyası tərkibində "Qisas" adlı terror təşkilatı təsis edir ki, bu qurumun qarşıya qoyduğu məqsəd ittihadçıları fiziki cəhətdən məhv etmək idi. Bu məqsədi həyata keçirərkən erməni millətçiləri Türkiyə və türkdilli xalqların nümayəndələrinə qarşı terror aktları törədirlər.

Erməni separatizminin sonrakı püskürtüsü İkinci Dünya müharibəsi illərində baş verir. "Böyük Ermənistan" ideyası sayıqlamasından əl çəkməyən erməni separatçıları öz çoxəsrlik xülyalarını gerçəkləşdirmək üçün İkinci Dünya müharibəsi dövründə bir çox xalqlara qarşı ağır cinayətlər törətməkdən çəkinmirlər. Belə ki, İngiltərənin yardımından məhrum olan və sovet bolşevizmindən narazı qalan erməni daşnakları ümidlərini Hitler cəbr aparatına yönəltmiş, müharibənin hələ ilk dövründə reyxin xidmətinə 27.000 erməni yaraqlısı daxil olmuş və Birinci Dünya müharibəsi illərində özünün cəza dəstələri ilə qanlı izlər qoymuş quldur Dro, erməni millətçi batalyonunun təşkili ilə məşğul olmuş və "Dromedor" zonderkomandasını yaradaraq yəhudilərin fiziki məhvini qarşıya məqsəd qoymuşdu.

Erməni terrorizminin yeni dalğası XX əsrin 70-ci illərində özünün yeni mərhələsinə qədəm qoydu. Fransa, İngiltərə, ABŞ, Yaxın Şərq ölkələrinin erməni təşkilatları İkinci Dünya müharibəsindən sonrakı dövrdə aparılan siyasi mübarizənin qeyri-effektivliyini göstərərək, "erməni məsələsi"nin həllində mübarizə vasitəsi kimi terrora əsaslanmağı məqsədəuyğun hesab etdilər. Məhz bu dövrdə özünün qəddar terror fəaliyyəti ilə seçilən ASALA - 1975-ci ildə təsis edilmiş, "Daşnaksütun" partiyasının tərkibində "Erməni inqilab ordusu", "Ermənilərin yeni müqaviməti", "Erməni azadlıq təşkilatı" və digərləri yaranmışdı ki, bu terrorçu təşkilatların əsas hədəfi Türkiyə Respublikasının tanınmış nümayəndələri və "erməni məsələsinin" mahiyyətini açıqlayan ABŞ tədqiqatçı-ekspertləri olmuşlar.

XX əsrin sonlarında erməni terrorizmi Azərbaycana qarşı açıq şəkildə yönəlmiş və qondarma "Dağlıq Qarabağ" probleminin hazırkı fazasında Azərbaycan xalqına qarşı qanlı cinayətlər törətmiş və dövlət səviyyəsinə yüksəlmişdir. Ermənistan Respublikasının eks-prezidenti R.Koçaryan "Böyük Ermənistan" ideyasının tərkib hissəsi olan qondarma "Dağlıq Qarabağ" problemini zor gücü ilə həll etmək məqsədi ilə I Qarabağ müharibəsi zamanı Suriyadan, İrandan, İordaniyadan, Kanada və Fransadan gələn yaraqlılardan terrorçu - "Dağlıq Qarabağ özünü müdafiə" adlı hərbi qüvvə yaratmışdır. Erməni-terrorizmi məsələsinə toxunan BMT-nin terrorizm və insan hüquqları üzrə xüsusi məruzəçisi Kalliofı K.Kofa hesab edir ki, dövlət terrorizminin müxtəlif növlərindən biri də etnik əlamətə görə öz ərazisində, ya işğal edilmiş ərazidə zor tətbiq etməkdir. Azərbaycan xalqına qarşı son 20 ildə törətdiyi vəhşiliklər əyani olaraq sübut edir ki, ərazi iddiaları ilə çıxış edən erməni separatçıları dövlət terrorizmi səviyyəsinə qalxmış, beynəlxalq terrorist qüvvəyə çevrilmişlər.

Yuxarıda deyilənləri nəzərə alaraq, nəticədə qeyd etmək lazımdır ki, yaranma tarixindən çağdaş dövrümüzə qədər özünün məqsədyönlü separatçı məqsədini əsas götürən erməni millətçi hərəkatı müasir dünyamızda ərazi iddialarının coğrafi çərçivəsini genişləndirmiş, dövlət və beynəlxalq terrorizm səviyyəsinə yüksəlmiş və dünya ictimaiyyəti üçün böyük təhlükəyə çevrilmişdir. Hazırkı işin də əsas məqsədi bu tarixi gerçəkliyin həqiqətlərini göstərməkdir.

**Ədəbiyyat:**

1. Гюрун Кямуран. Армянское досье. Баку, 1993.
2. Мансуров А. Белые пятна истории и перестройка. Баку, 1990.
3. Малевил де Жорж Армянская трагедия 1915 года. Баку, 1990 (перевод с французского).
4. Маевский В.Ф. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса (вып. дан. оригинала., Тифлис, 1915), Баку, 1993.
5. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı. 1990.
6. Musayev İ. Erməni genosidi, yoxsa türk-müsəlman soyqırımı. Birinci kitab. Bakı, 2001.
7. Маккарти Дж., Маккарти К. Тюрки и армяне. Руководство по армянскому вопросу Баку, 1996 (Перевод с английского).
8. Мустафаев Р. Марши смерти, ж.İRS N 1, 2008.
9. Файгл Эрик. Правда о терроре. Баку. 2000.
10. Севдпмалиев Р. Международный терроризм - глобальная проблема современности. Баку, 2004.

***Həcər Verdiyeva,***
***tarix elmləri doktoru***

**«Elm və həyat».**-2009.-№2.-S.8-11.

## AŞPA-da "Azərbaycanlıların Ermənistandan deportasiyasının 60 illiyi" ilə bağlı sənəd yayılmışdır

28 yanvar 2009-cu ildə Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının növbəti iş günündə qurumun sədri Azərbaycan nümayəndə heyətinin üzvü Qənirə Paşayevanın "Azərbaycanlıların Ermənistandan deportasiyasının 60 illiyi" ilə əlaqədar hazırladığı sənədin yayılmasına rəsmən icazə verildiyini bəyan etmişdir.

Böyük Britaniya, Almaniya, Latviya, Estoniya, Bolqarstan, Albaniya, Türkiyə və digər ölkələrdən olan 20-dən çox deputatın imzaladığı sənəddə deyilir: "Stalin hakimiyyəti dövründə deportasiyaya məruz qalmış bütün xalqların öz yurd-yuvalarına dönmə haqqı tanınmışdır. Amma 1948-1953-cü illərdə öz tarixi ata-baba torpaqlarından deportasiya olunmuş azərbaycanlıların geri qayıtmaq haqqını bu günə qədər Ermənistan tərəfi tanımaq istəmir. 60 ildən artıqdır ki, Ermənistan tərəfi həmin insanların fundamental insan haqlarını pozur.

Rəsmən İrəvan 60 il əvvəl Ermənistandan zorla çıxarılmış 150 min azərbaycanlının öz əvvəlki torpaqlarına qayıtmaq haqqını tanımamaq və təmin etməməklə bu insanların əsl hüquqlarını pozmaqda davam edir. Azərbaycanlılar istisna olmaqla, Stalin dövründə deportasiya edilmiş bütün xalqların öz vətənlərinə qayıtması tanınmış və təmin olunmuşdur. Bu gün yalnız azərbaycanlılar bu hüquqlardan məhrumdurlar.

Beynəlxalq təşkilatların və dünya ictimaiyyətinin laqeyd münasibəti nəticəsində 1988-ci ildən etibarən Ermənistan bu gün Avropa Şurasının da qarşı çıxdığı monoetnik siyasət yeritmiş, bütün azərbaycanlıları öz doğma yurd-yuvalarından silah gücünə çıxartmışdır. Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 300 min azərbaycanlı öz tarixi ərazilərindən zorla qovulmuşdur.

İnsan haqlarını özünün prioriteti hesab edən Avropa Şurasının Parlament Assambleyası, habelə təşkilata üzv ölkələr azərbaycanlılara qarşı törədilmiş bu cinayətləri pisləyir və onları 1948-1953, 1988-ci illərdə öz tarixi ata-baba yurdlarından deportasiya olunmuş, zorla çıxarılmış azərbaycanlıların öz doğma vətənlərinə qayıtması kimi təməl haqlarının tanınması və təmin edilməsi üçün Ermənistana sərt təsir və təzyiq mexanizmlərini işə salmağa çağırır".

**Əsgər Əliyev**
**AzərTAc-ın xüsusi müxbiri**
**Strasburq, 28 yanvar 2009-cu il**

**Nevada ştatının qubernatoru ABŞ-da ilk dəfə 31 Mart gününü 1918-ci ildə qətlə yetirilmiş günahsız azərbaycanlıların xatirə günü kimi rəsmən tanımışdır**

ABŞ Azərbaycanlıları Şəbəkəsi (USAN) diaspor təşkilatı tərəfindən mətbuat üçün yayılmış məlumatda bildirilir ki, Nevada ştatı 31 mart tarixini 1918-ci ildə qətlə yetirilmiş günahsız azərbaycanlıların xatirə günü kimi tanımışdır.

Ştatın qubernatoru Cim Gibbons onun ofisinə təqdim olunmuş bütün sənədləri və tarixi dəlilləri diqqətlə öyrəndikdən sonra müvafiq qərar qəbul etmişdir. Sənəddə həmçinin, Azərbaycanın ərazi bütövlüyünün tanınması və Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olması da vurğulanır.

Beləliklə, tarixdə ilk dəfədir ki, ABŞ-ın dövlət rəsmisi 1918-ci il martın 31-də erməni quldur dəstələri tərəfindən dinc azərbaycanlıların qətlə yetirilməsi faktını tanıyan rəsmi sənəd imzalamışdır.

**Vüqar Seyidov**
**AzərTAc-ın xüsusi müxbiri**
**Berlin, 1 aprel 2009**

**«Böyük Ermənistan» uydurması:
terror, soyqırımları və özgə torpaqlarına yiyələnmək «ideologiyası»**

Ermənilərin əcdadları hesab edilən qəbilələrin yerləşdiyi Yuxarı Fərat vadisi sonralar Urartu dövlətinin, Midiya (Mada) imperiyasının və İran-Əhəməni şahlığının tərkibinə daxil olmuşdur. Əhəməni şahlığının süqutundan son¬ra Balkan yarımadasından Kiçik Asiyaya köçüb gəlmiş və erməni tarixçilərinin «erməniləşdirdiyi», əslində isə ermənilərin əcdadları olduğu güman edilən (!) qəbilələrin Yuxarı Fərat vadisində kiçik bir knyazlığı yarandı. Zaman keçdikcə regiondakı siyasi hadisələrdən istifadə edərək tədricən güclənən bu knyazlıq (tarixşünaslıqda «erməni çarlığı» da adlandırılır) mənşəcə parfiyalı olan (yəni erməni olmayan!) II Tiqranın (e.ə. 95-55) hakimiyyətinin əvvəllərində qonşu ölkələrə (Kiçik Asiyanın qərbinə və Mesopotamiyaya doğru, yəni şərqə-Azərbaycana doğru yox!!!) işğalçı yürüşlər edərək, qısa bir müddət ərzində öz hakimiyyəti altında olan ərazini genişləndirə bildi. Lakin e.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey II Tiqranın hərbi qüvvələrini darmadağın etdikdən sonra Kiçik Asiyanın şərqində mövcud olmuş bu knyazlıq müstəqil dövlət kimi tarix səhnəsindən silinib getmişdir. Kiçik Asiyanın şərqində ermənilərin yenidən siyasi səhnəyə gəlməsi Xristian dininin yaranması və yayılması dövrünə təsadüf edir. Xristianlığı qəbul etdikdən bir müddət sonra vahid xristian kilsəsindən üz döndərən ermənilər təriqətçi monofizitlərin tərəfinə keçdilər və özlərinin əlahiddə Qriqorian kilsəsini yaratdılar.

Qriqorian kilsəsi, artıq erməni dövlətinin mövcud olmadığı şəraitdə, erməni icmalarının təkcə dini deyil, eyni zamanda siyasi himayəçisi funksiyasını da yerinə yetirməyə başladı. Qri¬qorian kilsəsinin idarə etdiyi ermənilər bu vaxtdan başlayaraq öz mövqelərini qoruyub saxlamaq və təcavüzkar məqsədlərinə nail olmaq üçün şəraitin dəyişməsindən istifadə edərək, başqa sözlə «küləyin istiqamətindən» asılı olaraq həmişə daha güclü xarici qüvvəyə sığınmaq yolunu tutdular. Belə ki, ermənilər Xilafət işğalları zamanı Bizansa qarşı ərəb xəlifələri ilə sövdələşməyə girdilər. Ərəb xəlifələri Bizansa qarşı təriqətçi-monofizit erməniləri müdafiə etdilər. Beləliklə, Qriqorian kilsəsi öz təsir dairəsini genişləndirmək və keçmiş erməni knyazlığını dirçəltmək üçün ilk dəfə ərəb işğalları dövründə fəallaşdı.

Qonşularına xəyanət edərək ərəb xəlifələrinə sığınan və yadelli təcavüzkarlar tərəfindən müdafiə olunan Qri¬qorian kilsəsi öz missionerləri vasitəsilə qonşu ərazilərdə, o cümlədən Azərbaycan dövləti olan Qafqaz Albaniyasının qərb-dağlıq ərazilərində (indiki Dağlıq Qarabağda və indiki Ermənistan Respublikasının mövcud olduğu Qərbi Azərbaycan torpaqlarında) yaşayan yerli alban-xristian əhali arasında qriqorianlığı yaymağa başladı. Zaman keçdikcə zorla qriqorianlaşdırılmış alban-Azərbaycan tayfalarının erməniləşdirilməsinə başlandı. Bununla da Xilafət dövründə Qriqorian kilsəsinin dini təsir dairəsi Cənubi Qafqaza doğru genişlənməyə başladı. Qriqorian missionerlərinin gəlişi ilə Cənubi Qafqaz əvvəlcə dini toqquşmalar, bunun dalınca etnik qarşıdurmalar, daha sonralar isə soyqırımları dövrünə qədəm qoydu. Ərəb xilafəti zəiflədikdən sonra Qriqorian kilsəsi Azərbaycan türk dövlətlərinə - Qaraqoyunlulara, Ağqoyunlulara, Səfəvilərə və nəhayət, Osmanlı imperiyasına sığındı.

Azərbaycan Qaraqoyunlu dövlətinin başqa etnoslara, dinlərə dözümlü münasibətindən və himayəsindən istifadə edən Qriqorian kilsəsi 1441-ci ildə öz mərkəzini - erməni katolikosluğunu Azərbaycan torpağına (indiki Ermənistan Respublikasının ərazisinə) - Eçmiədzinə köçürdü. Sonralar, Azərbaycan Ağqoyunlu və Səfəvi hökmdarları da qaraqoyunluların siyasətini davam etdirərək erməniləri və erməni katolikoslarını himayə etdilər.

Ermənilər Səfəvi dövlətində, xüsusilə Şah Abbas (1587-1629) dövründə daha mühüm mövqelər ələ keçirdilər. Beləliklə, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin, Osmanlı imperiyasının himayəsi sayəsində Azərbaycanda, Anadoluda, İran ərazisində, Cənubi Qafqazda Qriqorian kilsəsi və ermənilərin mövqeyi xeyli gücləndi. Tarixi «ənənələrinə» sadiq qalan ermənilər qərb dövlətlərinin antitürkiyə siyasəti gücləndikcə Osmanlı dövlətinə də xəyanət etdilər. Beləliklə, vaxtı ilə Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Osmanlı dövlətlərinə xidmət edən ermənilər növbəti dəfə mövqelərini dəyişib qərb hökmdarlarına «xidmət» göstərdilər və Osmanlı imperiyasına arxadan zərbə vurulmasında fəal iştirak etdilər. Ermənilərin qərb dövlətlərinin əlində Azərbaycana və Türkiyəyə qarşı alətə çevrilməsi dövrü başlandı. Çar Rusiyası Cənubi Qafqazda işğalçılıq müharibələrinə başladıqda Qriqorian kilsəsi və ermənilər bu dəfə yeni təcavüzkarın tərəfinə keçdilər. Lakin budəfəki xəyanət adi xəyanət deyildi! Ermənilər bu dəfə silahlı dəstələr yaradaraq Rusiya qoşunlarının tərkibində Azərbaycan dövlətlərinə və Osmanlı imperiyasına qarşı hərbi əməliyyatlarda iştirak etdilər. Bu yolla Azərbaycan və Anadolu türklərinə qarşı kütləvi qırğınlar həyata keçirdilər.

Çar Rusiyasının ermənilərə arxa durması nəticəsində Azərbaycanın xristian alban əhalisinin zorla qriqorianlaşdırılması və alban kilsəsinin təqib olunması gücləndi. Bununla yanaşı, silahlı erməni quldur dəstələrinin Azərbaycanda və Şərqi Anadoluda dinc türk-müsəlman əhalisinə qarşı soyqırımları dövrü başlandı. Çar Rusiyası ermənilərin və Qriqorian kilsəsinin bu «xidmətlərini» nəzərə alaraq Osmanlı imperiyası və Qacarlar

İran ərazisindən erməniləri kütləvi surətdə Şimali Azərbaycana, xüsusilə İrəvan, Qarabağ, Şirvan, Bakı, Gəncə və Naxçıvan xanlıqlarının ərazilərinə köçürdü.

Sonralar çar hökuməti erməniləri Azərbaycan torpaqlarına Rusiya dövlətinin xüsusi nəzarətində, mütəşəkkil qaydada köçürür və onlara hər cür qayğı göstərilirdi. Məsələn, İran və Türkiyə ərazisindən hərəkətə başlayan erməni köçlərini bütün yol boyunca Rusiyanın mühafizə dəstələri müşayiət edir, onlara adambaşına pul və ərzaq paylanır, köç üçün nəqliyyat ayrılır, ən münbit Azərbaycan torpaqları onlara verilir və bütün vergilərdən azad olunurdular. Beləliklə, Çar Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq 1873-cü ilədək Cənubi Qafqaza, əsasən Şimali Azərbaycan torpaqlarına 334.242 nəfər erməni köçürdü. Sonralar Azərbaycan torpaqlarında xristianlaşdırma siyasəti daha da sürətləndirildi. Bunu arxiv sənədləri çox aydın təsdiq edir. Belə ki, Cənubi Qaf¬qazda erməni köçkünlərinin sayı 1886-cı ildə 690.615 nəfərə, 1897-ci ildə 786.447 nəfərə, 1916-cı ildə isə 1.211. 145 nəfərə çatdırıldı. Bu qanlı siyasəti rusların özləri də təsdiq edirlər. Məsələn, N.N. Şavrov hələ 1916-cı ildə yazırdı: «Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənin 1 milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüblər». Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin əsas təşkilatçılarından biri olan A.S. Qriboyedov isə Rusiya imperatoruna belə məsləhət verirdi: «Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır».

Beləliklə, Çar Rusiyası Cənubi Qafqazın etnik tarixində zorla dəyişiklik əmələ gətirdi: Azərbaycan torpaqlarında yeni bir etnos-erməni etnosunu məskunlaşdırdı. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən, Azərbaycan torpaqları Rusiya ilə Qacarlar İranı arasında bölüşdürüldükdən və Azərbaycan müstəqil dövlətləri-xanlıqları aradan qaldırıldıqdan sonra Çar Rusiyası Azərbaycan xalqına qarşı növbəti cinayətə əl atdı, ermənilərə isə növbəti «bəxşiş» verdi: Azərbaycan torpaqlarında (Naxçıvan və İrəvan xanlıqlarının əraziləri əsasında) «Erməni vilayəti» adlı qondarma inzibati idarə vahidi yaratdı. Yeri gəlmişkən, çar I Nikolay «Erməni vilayətinin yaradılması haqqındakı sərəncamı 1828-ci il martın 21-də Azərbaycan xalqının Novruz bayramı günü imzaladı. Məhz Novruz bayramı günü iki Azərbaycan xanlığının ləğv edilib, bu Azərbaycan torpaqlarında köçürülüb gətirilmiş ermənilər üçün xüsusi bir vilayət yaradılması xalqımız üçün həm də mənəvi təhqir idi. «Erməni vilayəti»nin nə qədər qondarma bir qurum olduğunu belə bir fakt da sübut edir ki, Çar Rusiyası o zaman İran və Türkiyədən nə qədər erməni köçürüb gətirsə də, yenə də bu vilayətin əhalisinin 76,24 %-i azərbaycanlı idi. «Erməni vilayəti»ndə 1125 kənd vardı. Onlardan 1111-i Azərbaycan kəndi idi və bu kəndlərdə ancaq azərbaycanlılar yaşayırdılar. Vilayətin qalan 14 kəndində isə azərbaycanlılarla qarışıq şəkildə köçürülüb gətirilmə ermənilər yaşayırdılar. Yeri gəlmişkən, həmin kəndlərin də bir çoxunun adları Azərbaycan-türk mənşəli idi. Bununla belə, «Erməni vilayəti»ni yaratmaqla Çar Rusiyası yenicə işğal etdiyi Azərbaycan torpaqları ilə Osmanlı imperiyası arasında «xristian səddi» çəkdi. Eyni zamanda, tarixi Azərbaycan ərazisində gələcək erməni dövlətinin əsasını qoydu. Bunun ardınca, 1836-cı ildə erməni Qriqorian kilsəsinin təhriki ilə müstəqil alban kilsəsi ləğv olundu. Çar Rusiyası tərəfindən himayə və müdafiə olunan ermənilər bu vaxtdan etibarən Azərbaycanda və Anadoluda türk-müsəlman əhaliyə qarşı kütləvi qırğınlara başladılar.

«Böyük Ermənistan» «doktrinası» ilə zəhərlənmiş erməni millətçiləri XIX əsrin sonlarında Qriqorian kilsəsinin «xeyir-duası» ilə daha mütəşəkkil fəaliyyətə başladılar. Bir-birinin ardınca millətçi-terrorçu erməni partiyaları («Hnçaq», «Daşnaksütyun» və s.), cəmiyyətləri və terrorçu qrupların yaradılması dövrü başlandı. Məsələn, 1887-ci ildə yaradılmış «Hnçaq» adlı erməni-millətçi partiyası öz proqramında Osmanlı imperiyası ərazisində müstəqil erməni dövləti yaratmağı qarşısına başlıca məqsəd qoymuşdu. Bu məqsədə nail olmaq üçün əsas vasitə terror aktlarının həyata keçirilməsi olmalı idi. Maraqlıdır ki, ermənilər ilk terror aktlarından birini onların «siyasətini» dəstəkləmədiyi üçün Qafqazın mülki işlər rəisi, knyaz Qolitsına qarşı həyata keçirdilər (14 oktyabr, 1903-cü il). 1890-cı ildə yaradılmış digər millətçi-terrorçu erməni partiyası olan «Daşnaksütyun» da Türkiyə ərazisində müstəqil erməni dövləti yaratmağı özünün əsas vəzifəsi elan etmişdi. Bu planı həyata keçirmək üçün Osmanlı imperiyası ərazisində «Böyük Ermənistan» təbliğatı gücləndirilməli, silahlı terror dəstələri yaradılmalı, hökumət idarələrinin talan və qarət edilməsinə başlanılmalı idi.

«Daşnaksütyun» partiyası, faktiki olaraq, hər biri 10 nəfər «döyüşçüdən» - terrorçudan təşkil olunmuş silahlı dəstələrdən ibarət idi. Başqa sözlə, «Daşnaksütyun» siyasi partiya deyil, silahlı terror təşkilatı idi. «Hnçaq» və «Daşnaksütyun» terrorçuları Şərqi Anadolu və Azərbaycan kəndlərini çapıb-talamaqda bir-biri ilə rəqabət aparır, «yarışırdılar». Rəsmi proqramlarında terroru qarşılarına vəzifə qoyan bu partiya və cəmiyyətlər «türkə ölüm» çağırışı ilə tarixin ən qanlı cinayətlərinə başladılar.

Zaman keçdikcə «Böyük Ermənistan» xəstəliyinə tutulmuş erməni terrorçuları onların mənafeyini təmin etməyən qeyri-türk millətlərinin nümayəndələrinə qarşı da qəsdlər törətməyə başladılar. Birinci Dünya müharibəsi (1914-18) dövründə Osmanlı imperiyasının aradan götürüləcəyinə ümid edən ermənilər vətəndaşları olduğu və hər zaman himayə və qayğı gördükləri Türkiyə dövlətinə xəyanət edərək Osmanlı imperiyasına qarşı

vuruşan Çar Rusiyası və digər böyük dövlətlərlə geniş əlaqə yaradaraq ümumdünya tarixinin ən qanlı cinayətlərini törətdilər.

Çar Rusiyasının silahlandırdığı və digər böyük dövlətlər tərəfindən müdafiə olunan erməni-daşnak quldur dəstələri Şərqi Anadoluda və Azərbaycanda (həm şimalda, həm də cənubda) türk-müsəlman əhalini kütləvi surətdə qırmağa başladılar. Naxçıvan, İrəvan, Zəngəzur, Qarabağ, Urmiya, Salmas, Xoy, Maku və digər yaşayış məntəqələrində yüz minlərlə Azərbaycan türkü, o cümlədən uşaqlar, qadınlar, qocalar məhv edildi. Bakıda hakimiyyəti ələ keçirən daşnak S.Şaumyan I Dünya müharibəsi cəbhələrindən qayıdan erməni zabit və əsgərlərini səfərbərliyə alaraq Azərbaycan xalqına qarşı tarixin ən dəhşətli soyqırımlarından birini törətdi. Şimali Azərbaycanın bütün bölgələrində, o cümlədən Bakı, Şamaxı, Göyçay, Kürdəmir, Quba, Salyan, Lənkəran və başqa yerlərdə türk-müsəlman əhali əvvəlcədən düşünülmüş plan əsasında kütləvi surətdə ucdantutma məhv edildi, xalqın min illər boyunca yaratdığı maddi və mənəvi sərvətlər məhv və talan olundu.

I Dünya müharibəsi başa çatdı. Böyük Atatürk Türkiyəni xilas etdi. Böyük dövlətlərin həmişə bir alət kimi istifadə etdikləri erməni millətçilərinin «Böyük Ermənistan» yaratmaq niyyəti iflasa uğradı. Bununla belə, o zamankı mürəkkəb tarixi şəraitdə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti xoş məram nümayiş etdirdi. 1918-ci il mayın 29-da Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş Azərbaycan dövlətlərindən olan İrəvan xanlığının paytaxtı olmuş İrəvan şəhərini ermənilərin «bir siyasi mərkəzləri olması» xatirinə onlara güzəştə getdi. Beləcə, ermənilərə 100 il bundan əvvəl öz torpağında yer verən Azərbaycan bu dəfə onlara paytaxt şəhəri də bağışladı. Beləliklə, tarixdə ilk dəfə olaraq, 1918-ci ildə Cənubi Qafqazda-tarixi Azərbaycan ərazisində erməni dövləti yaradıldı. Lakin daşnaklar bununla kifayətlənmədilər. Növbəti xəyanət və növbəti dəfə torpaq qoparmaq üçün məqam gözlədilər. Azərbaycana Denikinin hücum təhlükəsi yarandıqda, ermənilər dərhal onun tərəfinə keçdilər və ağqvardiyaçı generalı Azərbaycana dəvət etdilər. Bu «siyasət» iflasa uğradıqdan sonra da Azərbaycana və Türkiyəyə qarşı yeni-yeni ərazi iddiaları qaldırdılar.

Sovet-bolşevik rejimi Çar Rusiyasının ənənəvi siyasətinin davamı olaraq erməniləri daim himayə və müdafiə etdi. Ermənistan Sovet Sosialist Respublikasının yaradıldığı Qərbi Azərbaycan torpaqlarında bu torpaqların əsl sahibləri olan azərbaycanlılara qarşı növbəti təqiblər və zorakılıqlar dövrü başlandı. Nəhayət, öz torpaqlarında ermənilərə yer vermiş azərbaycanlıların kütləvi surətdə doğma yurdlarından deportasiyası həyata keçirildi. Ermənilər Qərbi Azərbaycan torpaqlarında daha da möhkəmləndilər. Sovet dövründə Azərbaycan torpaqları hesabına daim yeni-yeni ərazilər ələ keçirən ermənilər Türkiyə Cümhuriyyətinə qarşı da ərazi iddialarını davam etdirdilər. Xarici ölkələrdə fəaliyyət göstərən türk diplomatlarına qarşı terror aktları həyata keçirildi. Dünya sosializm birliyinin və Sovet ittifaqının dağılması ərəfəsində qarşılarına Azərbaycandan yeni ərazilər, o cümlədən Dağlıq Qarabağı qoparmaq məqsədini qoymuş erməni-daşnak millətçiləri və terrorçuları yenidən fəallaşdılar. Ermənilərin çirkin məqsədlərinə xidmət edən M. Qorbaçov Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevi So¬vet İttifaqının ali rəhbərliyindən - Siyasi Bürodan uzaqlaşdırdı. Azərbaycan xalqının qatili M. Qorbaçovu ələ alan erməni millətçilərinin təhriki ilə, 1918/20 - ci illərdə olduğu kimi, Dağlıq Qarabağda sifarişlə separatçı-erməni terrorçularının qiyamı təşkil edildi. Eyni zamanda, Qərbi Azərbaycanın yerli sakinləri olan azərbaycanlıların tarixi vətənlərindən deportasiyası da başa çatdırıldı. XIX yüzilliyin əvvəlində əhalisinin mütləq əksəriyyəti Azərbaycan türkü olan indiki Ermənistan Respublikasının ərazisində hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. Azərbaycanlılara məxsus olan bütün tarixi abidələr məhv edilmiş, yer adları dəyişdirilmişdir. Bütün bunlar müasir dünyanın gözləri qarşısında baş vermişdir!

Qorbaçovu və Kreml rejimini öz əllərində oyuncağa çevirmiş ermənilər bütün Sovet imperiyasında azadlıq hərəkatının önündə gedən Bakıya iri qoşun kontingentinin yeridilməsinə və 20 Yanvar 1990-cı il qırğınının həyata keçirilməsinə nail oldular. 20 Yanvar qırğınında Kreml rejiminin qəsdən azərbaycanlılara divan tutmaq məqsədilə Şimali Qafqazdan səfərbərliyə aldıqları ehtiyatda olan erməni əsgər və zabitləri xüsusi «fəallıq» göstərdilər. Erməni millətçiləri və terrorçuları 1990-93 - cü illərdə Azərbaycanda baş alıb gedən hərc-mərclikdən və hakimiyyət çəkişmələrindən istifadə etdilər. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərini pozaraq, ölkəyə müdaxilə etmiş Ermənistan silahlı birləşmələri Rusiya hərbi qüvvələrinin bilavasitə yaxından köməyilə Dağlıq Qarabağı və ətraf rayonları, respublika ərazisinin 20 faizini işğal etdilər. Bir milyondan çox Azərbaycan vətəndaşı doğma yurd-yuvasından didərgin salındı, öz Vətənində qaçqına və məcburi köçkünə çevrildi. 1992-ci ilin 26 fevralında - 20-ci yüzilliyin sonuna yaxın bütün dünyanın gözləri qarşısında qəddarlığı ilə misli görünməmiş Xocalı soyqırımını törətdilər. İşğal aktını pərdələmək üçün Dağlıq Qarabağda oyuncaq «respublika» yaradıldı. Dağlıq Qarabağ separatçı-terrorçu qruplarının rəhbərləri (R. Köçəryan və b.) Ermənistanda da hakimiyyəti ələ keçirdilər.

İkili standartlar və «xristian həmrəyliyi»nin beynəlxalq münasibətlərdə mühüm rol oynadığı müasir dövrdə, beynəlxalq hüquq normalarına açıq-aşkar zidd olaraq Azərbaycan torpağı olan Dağlıq Qarabağ erməni separatçı-terrorçularının əlində qalmaqdadır. Erməni millətçiləri isə Türkiyə və Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürməkdə davam edirlər. İkili standartlar dünyasında erməni terrorçularının Azərbaycan və Türkiyə ərazisində 200 ildən artıq bir müddət ərzində törətdikləri soyqırımları, deportasiyalar, vəhşiliklər, tarixi

abidələrin, yaşayış məskənlərinin yerlə-yeksan olunması faktları qulaqardına vurulur. «Xristian həmrəyliyi» nümayiş etdirilərək erməni yalanları, saxtakarlıqları həqiqət kimi qəbul olunur. Elə bunun nəticəsidir ki, xarici qüvvələr tərəfindən müdafiə olunan erməni separatçı-terrorçuları və beynəlxalq terroru dəstəkləyən Ermənistan Respublikası Cənubi Qafqazda təhlükəli gərginlik ocağına çevrilmişdir.

Beynəlxalq terrorun ən yaşlı və ən «təcrübəli» dəstələri olan erməni ter¬ror təşkilatları himayə olunduqca, «Böyük Ermənistan» «doktrinası» ilə zəhərlənən erməni-daşnak terror qrupları və təşkilatları Beynəlxalq antiterror alyansının diqqətindən kənarda qaldıqca, regionda və dünyada gərginlik də aradan qalxmayacaq, bəşəriyyət terror təhlükəsindən qurtulmayacaqdır. Müasir dünyanın görkəmli dövlət xadimi, Azərbaycan Prezidenti İlham Əliyev özünün bütün yüksək səviyyəli görüşlərində, nitq və çıxışlarında ermənilərin Cənubi Qafqaza gəlmə olduğunu, onların bu ərazidə məskunlaşmasından sonra regi¬onda gərginliyin artdığını, müasir Ermənistan Respublikasının və nəzarətdən kənarda qalmış oyuncaq Dağlıq Qarabağ rejiminin terror yuvalarına çevrildiyini xüsusi olaraq vurğulayır. Zəngin tarixi biliyə malik olan Azərbaycan Prezidenti indiki Ermənistan Respublikasının tarixi Azərbaycan torpağında-keçmiş İrəvan xanlığının ərazisində yarandığını bütün dünyaya bəyan edir. Ölkə başçısı bütün müvafiq strukturları erməni saxtakarlarına qarşı informasiya müharibəsində hücuma keçməyə çağırır. Erməni faşizmi üzərində qələbə çalmaq, doğma torpaqlarımızı azad etmək üçün öncə informasiya müharibəsində qalib gəlmək gərəkdir. Bütün xalqımız ölkə başçısının çağırışına cavab verməli, iqtisadi və hərbi cəhətdən qüdrətli Azərbaycan dövləti yaratmaq üçün onun ətrafında sıx birləşməlidir. Tarixi həqiqəti dünya ictimaiyyətinin diqqətinə çatdırmaqla in¬formasiya müharibəsində qələbə və hərbi-iqtisadi cəhətdən qüdrətli Azərbaycan dövləti yaratmaq! Terror, soyqırımları və zorla özgə torpaqlarına yiyələnməyə çalışan erməni faşizmini diz çökdürmək üçün yeganə düzgün yol məhz bu yoldur.

**Yaqub MAHMUDOV,**
**AMEA-nın Tarix İnstitutunun direktoru,**
**tarix elmləri doktoru, professor**

**“Dövlət və din”.-2009.-№4.-S.83-90**

**Erməni ideologiyası: Deportasiyadan soyqırımınadək**

***Keçmişimizin ən ağrılı-acılı səhifələrindən olan soyqırımı, deportasiya və qaçqınlıq xalqımızın taleyində zaman-zaman dərin izlər buraxıb. Nə yaxşı ki, uzun illər susduqdan (obyektiv və subyektiv səbəblərdən) sonra bu acı həqiqətlərin öyrənilməsi və qloballaşdırılmasına şərait yarandı.***

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalıb. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən-min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınıb, minlərlə tarixi-mədəni abidələrimiz və yaşayış məskənlərimiz dağıdılıb, viran qoyulub. Proses bu gün də işğal olunmuş toıpaqlarımızda davam etməkdədir.

**Çağırılmamış qonaqlar**

Tarix boyu özgə torpaqlarda gözü olan ermənilərin "Böyük Ermənistan" dövləti yaratmaq kimi sərsəm iddiaları "xristian himayəçiliyi" pərdəsi altında müstəmləkəçilik siyasəti yeridən Rusiyanın da maraqlarına cavab verirdi. Hindistanı və Yaxın Şərqi işğal etmək arzusunda olan Rusiya imperiyasına Türkiyə, İran və Azərbaycan sərhədləri kəsiyində, heç şübhəsiz, etibarlı dayaq lazım idi. Təsadüfi deyil ki, 1828-ci ildə Rusiya ilə İran arasında imzalanan Türkmənçay müqaviləsinin 25-ci bəndinə əsasən, Şimali Azərbaycanın Naxçıvan və İrəvan xanlıqları ərazisində Erməni vilayəti yaradılıb. Bundan dərhal sonra I Nikolay 21 mart 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni əyaləti"nin yaradılması haqqında əmr imzaladı. Bu əmrə əsasən, o zaman 7 min 331 azərbaycanlının və 2 min 369 ermənininin yaşadığı İrəvan şəhəri də "Erməni əyaləti"nin tərkibinə daxil edildi. Bu ərazilərə İran və Türkiyədən kütləvi surətdə ermənilər köçürülüb ki, vilayətin etnik tərkibi ermənilərin say üstünlüyü ilə nəticələnsin. Analoji proses Türkiyə ilə aparılan müharibələrin (1828-1829,1877-1878) sonunda da təkrarlanıb. 1829-1830-cu illərdə Qafqazda (Naxçıvan, Qarabağ, İrəvan) 40 min İran, 84 min 600 Türkiyə ermənisi yerləşdirilib. Bununla da erməni vilayətinin inzibati-ərazi bölgüsü möhkəmləndirilib. Bununla bağlı erməni tarixçilərinin etirafları da kifayət qədərdir. Erməni tarixçisi Kapançyana görə, "ermənilərin ilk vətəni "Hayasa" olub və onun ərazisi Fərat, Çorox və Araz çaylarının yuxarı axarları boyu arasındakı hüdudları əhatə edib. Bu ölkənin qərbdən şərqə doğru uzunluğu cəmi 150-170 km-dən çox deyildi".(Q.Kapançyan "Xayasa-kolıbel armyan". Yerevan, 1948, s 64).

Digər erməni alimi M.Abeqyan isə yazırdı: "Erməni xalqının mənşəyi nədir, onlar necə və nə vaxt, haradan və hansı yollarla bu yerlərə gəliblər, erməni olmamışdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olublar, onların dilinə və etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bu məsələləri təsdiq edən mötəbər və dəqiq dəlillər yoxdur".(M.Abeqyan "İstoriya armyanskoy literaturı", Yerevan. 1975 s. 11).

**Qafqazda "Türksüz Ermənistan" siyasəti**

Qafqazda məskunlaşdıqdan sonra ermənilər "türksüz Ermənistan" prinsipi ilə silahlanaraq indiki Ermənistanın hər yerində və Yuxarı Qarabağda dəfələrlə basqınlar təşkil edərək silahsız və müdafiəsiz Azərbaycan türklərini qarət edib və öz doğma yurdlarından didərgin salıblar. Bu cür qırğınların daha intensiv və planlı şəkildə təşkili xüsusilə 1905-1906-cı və 1915-1920-ci illərə təsadüf edir. Təkcə 1905-1906-cı illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndi viran edilib. Bu hadisələrin baş verməsini sübut edən daha təsirli faktlar M.S.Ordubadinin "Qanlı illər", M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman müharibəsi" kitablarında öz əksini tapıb. Acı həqiqət bununla tükənmir. Ermənilər 1917-ci ildə baş vermiş fevral və oktyabr inqilablarından sonra öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa çalışıblar. Burjuaziyaya qarşı mübarizə pərdəsi altında 1918-ci ilin yanvarında Şəmkirdə 2000, 1918-ci ilin aprel-avqust aylarında isə Quba, Şamaxı, Gəncə, Naxçıvan ərazilərində 8000 nəfərdən artıq azərbaycanlı qətlə yetirilib. Toqquşmanın başlanması üçün bəhanə isə Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 hərbçinin gəlişi oldu.

Ermənilər şayiə yaydılar ki, bu zabitlər Muğandakı malakan kəndlərini dağıtmaq barədə göstəriş alıblar. Bakı Sovetinin başçısı Şaumyan gəmidəki zabitlərin tərksilah olunması üçün göstəriş verdi. Bundan qeyzlənən yerli əhali küçələrə çıxıb etirazlarını bildirdi. Beləliklə, dinc əhaliyə qarşı soyqırımı başladı. Bakı kommunası 1918-ci ilin martının cinayətkar planını həyata keçirməyə böyük canfəşanlıq göstərirdi. Təxminən 7 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya yeridildi. Bundan əlavə "Qırmızı Qvardiya" adı altında yaradılan 10-12 minlik ordunun da 7 faizi ermənilərdən ibarət idi. Qabaqcadan hazırlanan anlaşmaya əsasən, bolşevik-erməni koalisiyası cəbhə boyu hücuma keçdi. Təpədən dırnağa qədər silahlanmış erməni əsgərləri müsəlman evlərinə soxularaq onları vəhşicəsinə öldürür, körpələrə və qocalara aman vermirdilər. Qadınlar daha ağır şəkildə öldürülürdü. Həmin günlərdə Bakı küçələrində qulaqları, burunları kəsilmiş, orqanları parça-parça edilmiş 37 qadının meyiti tapılmışdı. N.Nərimanov erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında ürək ağrısı ilə belə

bəhs edirdi: “Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər”. Əlbəttə, bu adi bir faciə deyildi, millətin mənəviyyatına qarşı yönəlmiş bir təcavüz idi. Azərbaycan tarixinə “mart soyqırımı” kimi düşmüş bu hadisələrdə əsas məqsəd öz torpaqlarında azərbaycanlıların kökünün kəsilməsi idi. Ermənilər təkcə insanlarımızı deyil, tarixi abidələrimizi də hədəfə almışdılar. Məlum hadisələr zamanı Bakıda Türk-müsəlman mədəniyyət mərkəzlərindən olan İsmailliyə binası yandırılmış, Təzəpir məscidinin minarələri uçurulmuş, “Açıq söz” və “Kaspi” qəzeti nəşriyyat binaları dağıdılmışdı.

1918-ci il qırğınlarında neçə nəfər azərbaycanlının qətlə yetirildiyini söyləmək bir çox arxivlərin ermənilər tərəfindən məhv edilməsi səbəbindən çətin olmuşdu. Ermənilərin kağız parçaları ilə zəngin olan arxivləri məhv edərək, izi itirmək cəhdləri baş tutsa da, bu günlərdə Qubada aşkarlanan kütləvi məzarlıqlardakı o cansız skeletlər tarixin çarxını təkrarən hərəkətə gətirdi. Məzarlıqda aşkar edilmiş cəsədlər sübut edir ki, insanlar küt alətlərlə, insanlığa xas olmayan qəddarlıqla öldürülmüşlər. Buradakı insan cəsədləri Qubada yaşayan azərbaycanlılarla yanaşı, ərazidə məskunlaşmış digər etnik qrupların nümayəndələrinə də məxsusdur.

1920-ci ilin aprel-may aylarında ermənilər özlərini Azərbaycanda sovet qurucuları kimi təqdim edərək 40.000 nəfərdən artıq azərbaycanlını həbs etmiş, sürgünə göndərmiş və öldürmüşdülər. Çarizmdən sonra Sovetlər birliyi dövründə də qərbi Azərbaycanda, xüsusilə də Qarabağda azərbaycansızlaşdırma siyasəti davam etdirilmiş, 1920-1921-ci illərdə Ermənistandan Azərbaycana 850 erməni ailəsi köçürülmüşdü.

Sovet rəhbərlərinin xeyir-duası ilə onların kütləvi şəkildə Dağlıq Qarabağa köçürülməsi 7 iyul 1923-cü il Azərbaycan SSRİ-nin nəzdində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması ilə daha da aktivləşdi.

Azərbaycanda Sovet dövlətinin qurulmasından sonra Dövlət Təhlükəsizlik Komitəsi (KQB) və Xalq Daxili İşlər Komitəsində (NKVD) mövqe tutan erməni casusları 1937-ci ildə heç bir əsası olmayan dəlillərlə minlərlə Azərbaycan ziyalısını həbs etmiş və xalq düşməni kimi sürgünə göndərmişlər. Ermənilərin azərbaycanlılara qarşı hə-yata keçirdikləri soyqırım və etnik təmizləmə siyasəti XX əsrin 50-ci illərindən etibarən Ermənistandan azərbaycanlıların deportasiyası ilə davam etdirilmişdir. O dövrdə mövcud totalitar rejimi sürdürmək üçün SSRİ-ə görə ermənilər əvəzedilməz vasitə idi. Bundan qidalanan xaricdəki erməni diasporları 1943-cü il Tehran konfransı zamanı Sovet-İran münasibətləri müzakirə edilərkən SSRİ Xarici İşlər naziri V.Molotovdan İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etmişdi. Molotov Tehranda məsələni SSRİ KP MK-nın sədri İ.Stalinə çatdırır və ermənilərin köçürülməsinə razılıq verilir. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Q.Arutyunov bundan istifadə edərək xaricdəki ermənilərin Ermənistana köçü bəhanəsi ilə azərbaycanlıların buradan zorla çıxarılması barədə qərar verilməsinə nail olur. Eyni zamanda SSRİ-dəki ermənilər Sov. İKP MK-nın 10 sentyabr 1947-ci il tarixli “1948-1950-ci illərdə 100.000 azərbaycanlının Ermənistandan köçürülməsinə dair” qərarın qəbul edilməsinə nail olmuş və bunun nəticəsində 150.000 nəfərdən artıq azərbaycanlını öz dədə-baba yurdundan sürgün etmişdilər. 1947-ci il dekabr ayının 23-də isə SSRİ Nazirlər Soveti “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” qərar çıxarır. Beləliklə yenə də çanaq Qafqazda azərbaycanlıların başında çatlayır. Bu sürgün sırasında əlverişsiz iqlim şəraiti, dağ yolları və səfalət üzündən on minlərlə günahsız azərbaycanlı həyatla vidalaşmışdır.

**Quzğunun tükənməyən iştahası**

1988-ci ildən etibarən ermənilərin Rusiyanın hərbi potensialına və Qərbdə bəzi ermənipərəst dövlətlərin himayəsinə arxalanaraq bu dəfə öz niyyətlərini reallaşdırmağa artıq Qarabağdan başladılar. Həmin dövrdə Ermənistanda yaşayan Azərbaycan türklərinin sıxışdırılıb çıxarılması ilə yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi paralel surətdə aparılmışdı. Ümumiyyətlə o vaxtlar Azərbaycan türklərinin hüquqları ən kobud şəkildə pozulmuş, ləyaqətləri alçaldılmış və təhqir edilmişdir. Ermənilər “dənizdən-dənizə böyük Ermənistan” xülyasını yenidən ortaya atmaqla növbəti dəfə ərazi iddiaları irəli sürdülər. 1988-ci ilin 27-29 noyabrında Ermənistan SSR-in Guqark, Spitak və Stepanavan şəhərlərində azərbaycanlılara qarşı törədilən cinayət əməlləri nəticəsində 33 nəfər öldürüldü. Həmin ilin dekabr ayında isə 220 mindən çox azərbaycanlı öz evlərindən zorla çıxarıldı. Nəhayət, 1989-cu ilin 29 iyul tarixində Azərbaycandan Ermənistana gedən dəmiryolu xətti, Ermənistan ərazisində qatarlara edilən hücumlar əsas götürülərək bağlanıldı. Bundan dərhal sonra təcavüz siyasətinin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının Azərbaycandan təcrid edilməsinə başlandı. Dekabrın 1-də Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etdi. Bununla da, beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən bildirdi. 1993-cü ilin sonlarına kimi ardıcıl olaraq Dağlıq Qarabağ - Şuşa, Xankəndi, Xocalı, Əskəran, Xocavənd, Ağdərə, Hadrut və yeddi ətraf rayon-Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan işğal olundu. Müharibə nəticəsində 1 milyon qaçqın öz ev-eşiyini tərk edib, 4600 nəfər itkin düşüb ki, bunun da 3700 nəfəri hərbçi, qalanları isə mülki şəxslərdir. Türkün qanına susamış ermənilər heç adi müharibə qanunlarına da əməl etmədilər. Buna onların əsirlərlə etdikləri qeyri-insani rəftarları da əyani sübutdur.

**Bəli, onlar ermənidirlər!**

Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə xalqın tələbi ilə hakimiyyətə gəlişindən sonra 1994-cü il 12 may tarixində Ermənistanla bağlanan atəşkəs haqqında saziş Azərbaycana özünü toparlamaq üçün şərait yaratdı. Artıq Azərbaycan iqtisadi inkişafı ilə təkcə erməni çapolçuları üçün deyil, dünyanın iri dövlətləri üçün də siyasi müstəvidə hesablaşılacaq dövlətə çevrildi. Biz azərbaycanlıların üzərinə isə itirdiyimiz dəyərlərimizi hər an unutmamaq düşür. Bu, həm onları geri qaytarmaq, həm də gələcəkdə bir daha itirməmək üçün olduqca vacibdir. Ermənilər azərbaycanlılar üçün hər an ermənidirlər, yəni işğalçıdırlar. Elə özləri dediyi kimi 18 may 2001 tarixində Ermənistanın müdafiə naziri (indiki prezident) Serj Sərkisyanın parlamentdəki çıxışında deyirdi: "İşğal elədiyimiz torpaqlar var. Burada utanılacaq heç nə yoxdur. Təhlükəsizliyimiz üçün bu torpaqları işğal etdik. Biz bunu 1992-ci ildə və əvvəlki dövrlərdə də deyirdik, indi də deyirik. Bəlkə üslubum diplomatik deyil, amma həqiqət budur".

**Mübariz Aslanov**

**"Kaspi"**.-2010.-24 fevral.-№34.-S.13.

### İngilis jurnalisti Skotland-Liddell erməni məkri haqqında

**Erməni məkri təkcə türk xalqlarına deyil, ümumiyyətlə, bəşəriyyətə qarşı xəyanətdir. Ermənilər istədiklərinə nail olmaq üçün həmişə ən yaramaz üsullara əl atmağa hazırdırlar. Təəssüflər olsun ki, ermənilərin hiyləgərliyini olduğu kimi, çılpaqlığı ilə anlamaq və başa düşmək dünya xalqları üçün olduqca çətindir. Həmişə bütün dünya qarşısında ağlamaqla, yalvarmaqla və göz yaşı tökməklə yazıq, zavallı imici qazanmış ermənilərin imkan tapan kimi törətdikləri qəddarlıqların da həddi-hüdudu yoxdur.**

Onlar başqalarını pulla, qiymətli hədiyyələrlə ələ almağı da yaxşı bacarırlar. Lakin bütün bunlara baxmayaraq müxtəlif dövrlərdə Avropada və bütün dünyada erməni hiylələrinə uymayan, ələ alına bilməyən, onların saxta "göz yaşlarına" inanmayan tək-tük vicdanlı insanlar da tapılır. Belə vicdanlı insanlardan biri də Birinci dünya müharibəsi illərində Şərq ölkələrində, xüsusilə Güney Qafqazda fəaliyyət göstərmiş ingilis hərbi müxbiri Skotland-Liddell idi. O, 1919-1920-ci illərdə Bakıda və Tiflisdə yaşamış, hərbi müxbir kimi Şuşaya, Zəngəzura getmiş, qaynar nöqtələrdən reportajlar hazırlamış, məlumatlar vermişdi. Azərbaycan Respublikasının Dövlət Arxivində Cümhuriyyət hökuməti Xarici İşlər Nazirliyinin sənədləri arasında Skotland-Liddellin həmin illərdə yazdığı məqalələrin ingilis və rus dillərində çoxlu surətləri saxlanılır. Zaqafqaziyada siyasi və millətlərarası münasibətlərə həsr edilmiş məqalələrində o, azərbaycanlılarla ermənilər arasında əlaqələr məsələlərinə geniş yer vermişdir. Arxivdə onun "Erməni-tatar (azərbaycanlı - A.P.) razılaşması - Qafqazda sülhün bərqərar olunması", "Qarabağ erməniləri", "Müsəlmanlarla müharibə… ermənilər yenə də hücum edirlər", "Müstəqil Ermənistana müttəfiqlərin mərhəməti lazım deyil", "Sovet Rusiyası və Zaqafqaziya bolşeviklərinin Gürcüstan və Azərbaycana notaları", "Tiflisdə bolşevik bombaları", "Azərbaycan sərbəst buraxıldı. Bakıdan ingilis orduları çıxarıldı", "Bakıda faciə", "Siyasət lazımdır" və başqa məqalələri mühafizə olunur.

Azərbaycan və Ermənistan nümayəndə heyətləri arasında aparılmış uzunmüddətli danışıqlar nəticəsində 1919-cu il noyabr ayının 23-də Tiflisdə Azərbaycan hökuməti adından Baş nazir N. Yusifbəyov və Ermənistan hökuməti adından A. Xatisov tərəfindən imzalanmış müqaviləyə görə, hər iki tərəf döyüşləri dayandırmaq və gələcəkdə bir daha silaha əl atmadan mübahisəli ərazi və digər məsələləri danışıqlar yolu ilə həll etmək barədə razılığa gəlirlər.

"Erməni-tatar (azərbaycanlı - A.P.) razılaşması - Qarabağda sülhün yaranması" adlı məqaləsində S. Liddell bu hadisəni ürəkdən alqışlayır. O, yazırdı ki, belə müqavilələr üç Zaqafqaziya respublikası - Azərbaycan, Gürcüstan və Ermənistanda tezliklə qayda yaratmağa imkan verəcəkdir. Hazırda Azərbaycan şəhərlərinin çoxunda xeyli erməni əhalisi yaşayır və onlar yalnız erməni hakimiyyətinə tabe olmaq istədiklərini bildirirlər. Ermənistanda isə əhalinin çoxu müsəlmanlardı. Onlar da Ermənistanın qanunlarına tabe olmaq istəmirlər. Belə olarsa, Qafqazda çoxlu kiçik dövlətlər yarana bilər. Bu isə çox çətin və mümkün olmayan məsələdi.

Daha sonra o yazırdı: "Bu məsələlərdən ən çətini Yelizavetpol quberniyasına daxil olan Qarabağ məsələsi idi. Bu yaxınlarda o məsələ də həll olundu. Bakıda yığılan həm müsəlman, həm də erməni nümayəndələri qərara gəldilər ki, qılıncı qınına qoysunlar. Hazırda Qarabağda sülh hökm sürür. Sakinlərin dediyinə görə, əvvəllər Qarabağda heç vaxt belə sakitlik olmamışdır".

S. Liddell yazırdı ki, "öz coğrafi mövqeyinə görə Qarabağ, həqiqətən də, ona iddia edən Azərbaycana məxsus olmalıdır. Lakin Şuşada əhalinin çoxu ermənilərdi və onlar müsəlmanlara tabe olmaqdansa, ölümü üstün tutduqlarını bildirirlər".

Erməni liderlərinə Paris Sülh Konfransının Qarabağda idarə formasını müəyyən edəcəyi vaxta qədər gözləməyi məsləhət gördükdə onlarda bəyan edirlər ki, "müvəqqəti də olsa Azərbaycana tabe olmaqdansa, ölmək daha yaxşıdır".

Göründüyü kimi, erməni həyasızlığının həddi-hüdudu olmadığını S. Liddell də yaxşı başa düşürdü. Ermənistan Respublikası ərazisində olan azərbaycanlıları kütləvi surətdə qırıb qovduqları bir zamanda Bakıda, Gəncədə, Şuşada və Azərbaycanın digər şəhərlərində yaşayan ermənilər Azərbaycana qarşı meydan oxuyurdular.

Ermənilərin bu hərəkətlərini dərindən dərk edən S. Liddell yazırdı: "Ermənilər dünyanın ən yaxşı təbliğatçılarıdı". Onların bu qabiliyyəti son ayların işi olmayıb, uzun illər apardıqları təbliğatın nəticəsidir. "Ermənilərin bu ərazilərdəki "nüfuzundan" bəhs edən S. Liddellin sözlərinə görə, "nə Rusiyada, nə də Qafqazda elə bir adam tapa bilməzsiniz ki, o, ermənilər haqqında hər hansı yaxşı bir söz desin. Ruslar, tatarlar (azərbaycanlılar - A.P.), gürcülər ermənilərə nifrət edirlər və onları görən gözləri yoxdur. Bu belədir ya yox, bunu mənim deməyim lazım deyil, çünki burada ermənilər nifrət edilən irqdi. Ancaq xaricdə onların təbliğatı elə qurulmuşdur ki, Avropa və bütün dünya onların tərəfindədir".

Qafqazda və Şərqi Anadoluda ermənilərə münasibətdən bəhs edən S. Liddell yazırdı ki, "əlbəttə, onlara çox əzab çəkmək lazım gəlib. Ancaq minlərlə müsəlman kişi, qadın və uşaqları da onlardan daha çox əzab görüblər".

Öz məqalələrində o, "azərbaycanlıların ermənilərlə müqayisədə çox mərd və yüksəkdə dayanan bir millət" olduğunu qeyd edirdi. O yazırdı ki, Qarabağ barəsindəki məsələni dərindən öyrənərək mən belə qərara gəlmişəm və tam qətiyyətlə deyə bilərəm ki, bu qanunsuzluqların başlıca səbəbi qərəzli erməni təbliğatıdır.

O yazırdı ki, əgər erməni təbliğatçıları bu işə qarışmasaydılar, hər iki xalq öz həyat yollarını sülh şəraitində davam etdirməyə hazır idilər. Erməni təbliğatçıları öz vəzifələrini "vicdanla" yerinə yetirirlər. Zaqafqaziyada onların fəaliyyəti, sadəcə olaraq, təxribatdan ibarətdir və erməni mətbuatı isə təbliğatçılar üçün yüksək tribunadır. Məsələn, Tiflisdə erməni dilində iki gündəlik qəzet çıxır. İki-üç ay əvvəl erməni qəzetlərindən birində Qarabağda, İranın şimalında, Azərbaycanla sərhəddə erməni qırğını törədildiyi və üç mindən yuxarı adamın öldürüldüyü barədə məlumat verilmişdi.

S. Liddell yazırdı, bu məsələ ilə əlaqədar mən arayış hazırlamağa başladım və həmin qəzetin erməni naşiri ilə görüşərək məlumatı haradan götürdüyünü soruşdum. O bildirdi: bir neçə gün əvvəl bir nəfər erməni redaksiyamıza gələrək bu haqda məlumat vermişdi. Həmin qırğının harada və nə vaxt baş verdiyini soruşduqda o, cavab verə bilmədi. Nəhayət, uzun müddətli, gərgin axtarışdan sonra müəyyən edə bildim ki, bu hadisə 1918-ci ilin noyabrında hələ türklər Azərbaycanda olarkən baş veribmiş. Hadisəyə səbəb isə ermənilərin özləri olmuşlar. Ermənilər türklərə qarşı partizan müharibəsi elan ediblər, nəticədə də layiqli cavablarını alıblar. Ancaq erməni qəzetinin yazdığı kimi, ermənilər 3 min deyil, ən çoxu 300-ə yaxın itki vermişlər.

S. Liddell yazırdı ki, elə həmin həftə digər erməni qəzeti məlumatlarının birində bildirirdi ki, İngilislər Qafqazı tərk edir və Britaniya hökuməti ilə müqaviləyə əsasən 50 min türk britaniyalı əsgərləri əvəz edəcək. Mən yenə də həmin qəzetin naşirləri ilə görüşərək sual verdim: "Siz bu ağlasığmaz məlumata inanırsınızmı ?". Onlar "yox" cavabını verdilər. "Bəs onda nəyə görə dərc etmisiniz ?". Onlar cavab verdilər ki, xəbərlər az olduğu üçün müxbirlərimizdən aldığımız bütün məlumatları dərc etməyə məcburuq, əgər məlumat həqiqətə uyğun olmursa, növbəti nömrəmizdə təkzib veririk.

Təxminən elə həmin vaxt qəzet guya, Gürcüstanın Baş naziri N. Jordaniya və general V. Tomsonla aparılmış müsahibəni dərc etmişdi. Həmin müsahibədə deyilirdi: "General V. Tomson N. Jordaniyaya deyir ki, Sülh Konfransı Gürcüstanı Rusiyaya qaytaracaq və yalnız Ermənistan müstəqil dövlət olacaq". Guya, bir neçə dəqiqə nitqi tutulan N. Jordaniya heç bir söz deyə bilməyib. Sonra isə o, V.Tomsona yalvarmağa başlayıb ki, əhali arasında ciddi qarışıqlıq yaranmaması üçün bu məlumatı elan etməsin. Guya, general V. Tomson da söz verir ki, bu xəbəri gizli saxlayacaq".

S. Liddell yazırdı ki, bu müsahibə başdan-ayağa uydurma idi və növbəti nömrədə təkzib verilmişdi. Ancaq ermənilər istədiklərinə nail olmuş, lazımi zərbəni artıq vurmuşdular. Onun sözlərinə görə erməni mətbuatının uydurduqları belə yalanlardan çox gətirmək olar. Erməni mətbuatı qırğın, qətl və antitatar (azərbaycanlı - A.P.) təbliğatları ilə doludur. Həmin qəzetlərdə dərc olunan çoxlu təxribatlara görə, erməni mətbuatı hazırda Qafqazda və Ermənistanda baş verən bir çox millətlərarası mübahisələr üçün tam məsuliyyət daşıyır.

S. Liddell yazırdı: "Mən yanvarda (1919-cu il - A.P.) Şuşada olarkən bir nəfər ingilis zabitinə Zəngəzur dairəsinə getməyə hazırlaşdığımı bildirdim. Orada ermənilər tərəfindən zərər görmüş 40 minə yaxın müsəlman qaçqınlarının vəziyyəti ilə tanış olmaq istədiyimi dedim. Həm də bildirdim ki, eşitmişəm bu vaxta qədər həmin yerlərdə bir nəfər də olsun ingilis olmayıb… Mənim Zəngəzura getməyimə bir gün qalmış zabit mənə məsləhət gördü ki, ora getməyim. O, mənə dedi: "heç bir ingilis zabiti ora tək gedə bilməz. Əgər yaxşı silahlanmış mühafizə dəstəsi yoxdursa, bu, olduqca təhlükəlidir. Deyirlər ki, Zəngəzurda müsəlmanlar ingilislərin əleyhinədirlər…". Həmin zabitin erməni tərcüməçisi onu belə başa salmışdı. Mən qərara gəldim ki, gedəcəyəm və getdim də. "Heç vaxt və heç yerdə mən Zəngəzur müsəlmanlarının mənə göstərdiyi qonaqpərvərliyi görməmişəm. Onlar məni ingilis səfiri kimi qarşılayırdılar".

Zəngəzura səfəri zamanı dərc etdirdiyi yazısında o, erməni təbliğatı nəticəsində bir-birinə düşmən kəsilmiş sadə erməni və müsəlman əhalisinin münasibətlərini də təsvir etmişdi. Onu müşayiət edən və əvvəlcə bir-birindən qorxan sadə azərbaycanlılar və ermənilər sonradan qısa bir vaxtda köhnə dostlar kimi mehribanlaşırlar. Bununla o, əyani şəkildə sübut edirdi ki, bu iki xalq arasında gərgin münasibətlərin əsl səbəbkarı erməni rəhbərləri, Daşnaksütyun liderləri və Andranik kimi başkəsənlərdir.

Skotland - Liddell yazırdı ki, Zəngəzurdakı müsəlmanlarla görüşəndən sonra, Şuşaya qayıtdıqda yenidən eşitdim ki, ermənilər deyirlər "yaxşısı budur ölək, amma tatarlara (azərbaycanlılara - A.P.) tabe olmayaq".

S. Liddell yazırdı ki, 1919-cu ilin əvvəllərində Britaniya hökuməti Qarabağın Azərbaycana birləşdirilməsi barəsində qərar qəbul edir. Qarabağ Azərbaycanın tərkib hissəsi elan edilir, X. Sultanov isə Qarabağ general-qubernatoru təyin olunur. Azərbaycanla Ermənistan arasında müqavilə bağlandıqdan sonra isə Qarabağda sülh bərpa olunur.

S. Liddellin yazdıqlarından görünür ki, öz daşnak rəhbərləri tərəfindən qızışdırılaraq Azərbaycana qarşı çıxış edən sadə ermənilər də sülhə razı idilər. O, yazırdı: "Onlar (ermənilər) mənə deyirdilər ki, əvvəllər Şuşada və Qarabağda heç zaman bu qədər sakitlik və qayda-qanun hökm sürməmişdi. Ermənilər sərbəstcə şəhərin tatar (azərbaycanlı - A.P.) hissəsinə, tatarlar (azərbaycanlılar - A.P.) isə heç bir qorxu hiss etmədən şəhərin erməni hissəsinə gəlirlər".

Lakin bu sülh uzun sürmür, Daşnaksütyunun rəhbərlik etdiyi Ermənistan hökuməti yenidən sülh müqaviləsini pozur. 1920-ci il yanvarın 19-da Ermənistan hökumətinin silahlı qüvvələri, silahlı erməni quldur dəstələrinin iştirakı ilə Zəngəzur tərəfdən Şuşa istiqamətində hücuma keçir və yol boyunca bütün azərbaycanlı kəndlərini dağıdırdılar. Azərbaycan Cümhuriyyəti hökumətinin xarici işlər naziri F. X. Xoyski yanvarın 25-də Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə göndərdiyi notada bildirirdi ki, 1919-cu il 23 noyabr tarixli müqaviləyə əsasən, üzərinə götürdüyü öhdəlikləri pozaraq Ermənistan ordusu qısa vaxt ərzində Zəngəzurda 40-a yaxın müsəlman kəndini dağıdıb.

Bununla əlaqədar S. Liddell 1920-ci il yanvarın 30-da "Müsəlmanlarla müharibə… ermənilər yenə də hücum edirlər" məqaləsini dərc etdirir. Məqalədə yazılır: "Cənubi Qafqazda yenə də sakitlik yoxdur. Üç ay əvvəl erməni və azərbaycanlı orduları arasında vuruşma gedirdi. Bunun ardınca noyabrın 23-də hər iki hökumət Tiflisdə böyük dövlətlərin bu respublikaların sərhəd məsələlərini həll edənə qədər sülh şəraitində yaşamaq barəsində müqavilə imzaladılar. Müqavilənin bağlanılmasının ardınca Azərbaycan orduları həmin ərazilərdən geri çəkilən kimi ermənilər xaincəsinə Zəngəzur müsəlmanlarının üzərinə gedərək 40-a yaxın müsəlman kəndini dağıtmışlar. Azərbaycan hökuməti bununla əlaqədar nota verir, erməni hökuməti isə göstərilən faktları təkzib edirdi".

Məqalələrinin məzmunlarından da görünür ki, S. Liddell erməni psixologiyasını, ermənilərin Zaqafqaziyada və ona qonşu ərazilərdə yeritdikləri şövinist millətçilik və ərazi tutmaq siyasətinin mahiyyətini çox yaxşı başa düşə bilmişdi. Beləki 1920-ci ilin yanvarında Paris Sülh Konfransı dövlətləri tərəfindən üç Zaqafqaziya Respublikasının müstəqilliyinin de-fakto tanındığı bir vaxtda daşnak Ermənistan hökumət ordusunun silahlı erməni quldur dəstələri ilə birlikdə Qarabağa, Şuşa istiqamətində hücumunu S. Liddell "təkcə cinayət deyil, həm də son dərəcə ağılsız hərəkət" adlandırmışdı. O yazırdı: "Ermənilər ona görə bədbəxt xalqdır ki, orada daşnak partiyası hakimiyyətdədir. Bu terrorçu inqilabi təşkilat çox illər ərzində ermənilərin ərazi iddiası ilə məqsədyönlü şəkildə müsəlmanlara qarşı hücuma çağırır. Sonunculardan layiqli cavab aldıqda isə onlar bu məsələni bilərəkdən şişirdərək dünya ictimaiyyətinin rəğbətini "yazıq elmənilərə" tərəf yönəltmək istəyirlər".

S. Liddell qeyd edirdi ki, Londonda erməni bürosu var. Ermənilərin Fransada və Amerikada da belə təşkilatları var. Onların sevimli üsulları ucuz reklam xarakteri daşıyan "xristian" faktorundan gen-bol istifadə etməkdir. "Ancaq orada həqiqəti bilirlər. Əgər o, ingilis ictimaiyyətinə məlum deyildirsə də, ingilis nazirləri onu çox yaxşı bilirlər".

S. Liddell yazırdı ki, bir neçə il ərzində ermənilərlə yaxından tanış olan bir ingilis zabiti onlar haqqında demişdi: "Ermənilər həmişə toqquşma axtarır və bunu əldə etdikdə, onu öz təbliğatlarında "sıxışdırma" adlandırırlar. Həqiqətdə isə bu, tamamilə onların özlərinin qazandıqları cəzadır. Daşnak üçün ölmüş erməni çox qiymətlidir. Əgər bu hadisədən necə lazımdırsa istifadə edilərsə, təbliğat üçün böyük xeyir gətirə bilər. Bu yaxınlarda söhbət etdiyim Nuru Paşanın sözləri ilə desək, "nə vaxtsa öldürülmüş erməni qəbirdən başını qaldıraraq bağıracaq: - Mən kütləvi qırğınlar zamanı öldürülmüşəm".

Müəllif yazırdı ki, Zaqafqaziya respublikalarının müstəqilliyinin de-fakto tanınmasını Gürcüstan və Azərbaycan sevinclə, müttəfiq ölkələrinə səmimi təşəkkür etməklə qarşıladı. Lakin Ermənistanda hakimiyyətdə olan Daşnaksütyun partiyası isə buna nə öz razılığını, nə də təşəkkürünü bildirdi.

Ermənilərin ərazi əldə etmək hərisliyi, acgözlüyü olduqca böyükdür, onlar daha çox torpaq tutmaq istəyirlər. Bu məqsədlə də öz nizami ordularını Zəngəzur rayonunda müsəlman kəndlərinin üzərinə göndərib, sərhədlərini genişləndirmək üçün yol boyu bütün evləri dağıdır və sakinlərini isə qırırlar.

"Ermənilərə müttəfiqlərin mərhəməti lazım deyil" məqaləsində S. Liddell Daşnaksütyun partiyasının Tiflisdəki rəsmi orqanı olan "Aşkatavor" qəzetindən gətirdiyi iqtibaslarla, yəni ermənilərin öz yazıları ilə onların şovinist millətçilik, bütün dünyaya açıqca meydan oxumaq cəhdlərini ifşa edirdi. O yazırdı ki, Daşnaksütyun partiyasının rəsmi orqanı olan Tiflisdəki "Aşkatavor" qəzeti baş məqalə dərc edərək orada Ermənistanın müstəqilliyinin tanınmasını rişxəndlə ilə "müttəfiqlərin gecikmiş mərhəməti" adlandırmışdı. "Aşkatavor" yazırdı ki, müttəfiq dövlətlərinin bu aktının erməni zəhmətkeş xalqı qarşısında qiyməti və əhəmiyyəti tamamilə başadüşülməzdir".

Məqalədə ermənilərin şovinist-millətçi ideyalarını ifşa edən S. Liddell qeyd edirdi ki, ermənilər yekəxanalıqla müttəfiq dövlətləri nümayəndələrinin dəfələrlə yüksək parlament kürsülərindən erməni xalqını özlərinin "kiçik, lakin namuslu müttəfiqləri" elan etdiklərini qeyd edirdilər".

"Aşkatavor" yazırdı ki, bu bəyanatlar haqq verir ki, erməni məsələsi həmin dövlətlərin nəzərində əsas diqqətin mövzusu olsun. Erməni əməkçi xalqının dünya müharibəsinin bütün cəbhələrində qəhrəmanlıqla iştirakı bizim bu inamımızı daha da artırırdı. İndi müharibə qurtardıqdan sonra Versal Ali Şurası özünün "qu quşunun son nəğməsi" ilə erməni demokratiyasının əldə etdiklərini heçə endirib. O, təkcə İrəvan hökumətini tanıyır, yaddan çıxarır ki, bizim üçün "paytaxtı İrəvan olan erməni hökuməti" yoxdur. Yalnız birləşmiş Ermənistan var, onun hökuməti və parlamenti artıq çoxdandır ki, dövlət quruculuğu ilə məşğuldur və heç bir tanınmaya da ehtiyacı yoxdur.

"Aşkatavor" yazırdı ki, 28 may müstəqillik aktı ilə (1918-ci il Ermənistanın İstiqlal bəyannaməsi nəzərdə tutulur - A.P.) zəhmətkeş erməni xalqı özünün yenilməz iradəsini ifa edərək birləşmiş Ermənistanın müstəqilliyini elan etmiş və biz "güc" dünyasının Ermənistanı iki yerə bölməsini heç cür başa düşmürük. Bu cür diplomatik gedişlər ən yaxşı halda yalnız zəhmətkeş erməni xalqının dərin etirazına səbəb ola bilər".

Sonra qəzet yazırdı ki, müttəfiq dövlətlər başa düşməlidirlər ki, Ermənistanın müstəqilliyini onlar deyil, yüz minlərlə ermənininin qanı və canı bahasına bu hüququ əldə etmiş erməni xalqı özü əldə edəcək və onların müttəfiq dövlətlərin mərhəmətinə ehtiyacı yoxdur.

S. Liddell öz məqalələrində Zaqafqaziyada yaşayan xalqları həmişə sülhə, qarşılıqlı anlaşmaya çağırır, Qarabağ və Zəngəzura səfərləri ilə bağlı yazdığı iri həcmli məqalədə göstərirdi ki, əgər Ermənistandakı və Qarabağdakı erməni rəhbərləri imkan verərsə, belə bir sülhün yaranmasına heç bir şübhə etmirəm. Erməni saxtakarlığını kəskin şəkildə ifşa edən S. Liddell 1920-ci il martın 30-da qələmə aldığı "Qarabağ erməniləri" adlı məqaləsində həmin il fevral ayının 21-də buraxılmış "Qrafik" jurnalının redaktoruna ünvanladığı etiraz məktubunda göstərirdi ki, Tiqran Nazaryan adlı şəxs öz yazısında sülh konfransını inandırmağa çalışır ki, Qarabağın siyasi cəhətdən Ermənistana qatılmasını sübut edən fakt odur ki, guya Qarabağdakı əhalinin 198 min nəfəri erməni, 80 min nəfəri isə müsəlmanlardı. S. Liddell qeyd edirdi ki, bu, ağ yalandır. Bu sahədə böyük nüfuz sahibi və dəqiq hesablamalar müəllifi olan professor Şepotyevə görə, Qarabağda 415 min müsəlman və 170 min erməni var. Öz məqaləsində S. Liddell həmin il mart ayının 22-də müsəlmanların ən əziz Novruz bayramı günü bütün Qarabağda ermənilərin qaldırdıqları qiyam və qəfil hücumları bir daha erməni xəyanətinə bariz nümunə olduğunu qeyd edirdi. O yazırdı ki, bütün erməni təbliğatına baxmayaraq "Biz Zaqafqaziyadakı həqiqətləri bilirik. Sözsüz artıq vaxtdır ki, onu İngiltərə cəmiyyəti də bilsin".

Burada S. Liddellin bir məlumatını da xatırlatmaq maraqlı olardı. Belə ki, o, 1920-ci il mart ayının 21-də Bakıda "Müsəlman respublikası de-yure tanındı" adlı xəbərində bildirirdi ki, İranla-Azərbaycan hökumətləri arasında müqavilə bağlandıqdan sonra təşkil edilmiş rəsmi mərasimdə İran nümayəndə heyətinin rəhbəri ağayi Təbətəbai bəyan etmişdir ki, İran hökuməti Azərbaycan Cümhuriyyətini de-yure tanıyır. Öz məqalələrində o, 1920-ci ilin əvvəllərində Bakı, Tiflis və Zaqafqaziyanın digər şəhərlərində Sovet Rusiyası, bolşevik təbliğatı və gizli təxribatlar barədə də məlumatlar verirdi. Əlbəttə, o dövrə aid İngiltərə mətbuatında və arxivlərində yəqin ki, Skotland-Liddellin bölgəmiz barədə çoxlu yazıları saxlanılır. Gələcəkdə onların aşkarlanması və tədqiqata cəlb olunması ingilis hərbi müxbirinin Zaqafqaziyada, xüsusilə Azərbaycanda baş verən hadisələrə münasibətini daha ətraflı açıqlamağa imkan verərdi.

**Ataxan PAŞAYEV,**
**tarix elmləri doktoru.**

"**Xalq qəzeti**".-2010.-12 mart.-N 56.-S.6.

**1905-1906-cı il Tiflis hadisələri Ömər Faiq Nemanzadənin gözü ilə**

***XIX əsrin sonu—XX əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycanın görkəmli ədibi, ictimai-siyasi xadim Ömər Faiq Nemanzadə həmin dövr Qafqazın, o cümlədən, Osmanlı imperiyasının ictimai-siyasi həyatında baş vermiş bir sıra mühüm hadisələri özünün "Qafqazdan İstanbula xatirələr" adlı əsərində ətraflı şəkildə təsvir etmişdir. Müəllif ilk dəfə olaraq əsərdə 1905-1907-ci illər Tiflisdə baş vermiş erməni-müsəlman (Azərbaycan türkləri nəzərdə tutulur-T.C.) qarşıdurmasının baş vermə səbəblərini və gedişatını təfərrüatı ilə işıqlandırmağa cəhd göstərmişdir. Məhz bu baxımdan əsər bəhs olunan hadisələrin geniş şəkildə təhlili, təbliği və öyrənilməsi baxımından olduqca dəyərli mənbə hesab olunmaqdadır.***

Müəllif əsərdə XX əsrin əvvəllərində Cənubi Qafqazda çar Rusiyasının birbaşa dəstəyi ilə həyata keçirilən etnik təmizləmə siyasətinin baş vermə səbəblərini, həmçinin hadisələrin xronikasını ardıcıllıqla verməyə çalışmışdır. Əsərdə baş verən hadisələr həmin dövrdə Cənubi Qafqazın mədəni mərkəzi sayılan Tiflis şəhərində cərəyan etmişdir. Məqalədə 1905-1906- cı illər Tiflisdə erməni millətçi ekstremistlərinin azərbaycanlı əhaliyə qarşı kütləvi silahlı çıxışları və həmin hadisələrin acı nəticələrindən bəhs edilir. İlk öncə müəllif əsərin giriş hissəsində bəhs olunan dövrdə Tiflis şəhərinin ictimai-siyasi həyatında baş vermiş bir sıra mühüm hadisələri təhlil edərək yazır: "Əsrin əvvəlində Gürcüstanın mərkəzi Tiflis şəhərini ardı-arası kəsilməyən mitinqlər bürümüşdü. Mitinqlərin keçirilməsində sadə xalq kütlələrinin əsas istəyi Gürcüstanda yaşayan etnik azlıqların dinc yanaşı yaşama hüququnun bir qrup hökumət məmurları tərəfindən kobud şəkildə pozulduğunu çar hökumətinin diqqətinə çatdırmaq idi". Müəllifin Tiflisdə yaşayan etnik dinc yanaşı yaşam tərzinin hökm sürdüyünü və ara-sıra "anlaşılmaz" halların çar hökuməti tərəfindən bilərəkdən qızışdırıldığını dönə-dönə vurğulaması bizlərə əsas verir ki, məlumatlara birmənalı şəkildə deyil, əslində bir qədər ehtiyatlı və tənqidi mövqedən yanaşaq. Çünki, müəllif baş verən hadisələrin bütün günahlarını çar hökumətinin üzərinə atmaqla əslində Tiflis şəhərində etnik azlıqlar arasında baş verməkdə olan bu kimi qarşıdurmaların arasında nələrin və kimlərin gizlədildiyinin üzərindən sükutla keçir. Bir qədər də təhlilə yol versək görərik ki, əslində əsrin əvvəllərində baş verən hadisələrin kökündə dini birlikdən milli birliyə çağırış şüarları dayanırdı. Bu sahədə daha çox maarifçilərin rolunu qeyd etmək lazımdır. Əhalini milli birliyə səsləyən bu qüvvələr dərk edirdilər ki, yaxın gələcəkdə çar Rusiyasının müstəmləkəçilik buxovlarından qurtulmağın yeganə yolu xalqın milli birliyindədir. Məhz bu yolla gedildiyi halda azadlığa, hürriyyətə nail olmaq olardı. Bunu çar çinovnikləri çox gözəl bildiklərindən və xalqın milli birliyini məhv etmək üçün xalqları bir-birinə qarşı qoymaqla bu planların qarşısından xətt çəkmiş olurdular. Məsələyə digər tərəfdən yanaşdıqda burada erməni millətçi ekstremistlərinin azərbaycanlılara qarşı planlı şəkildə apardıqları təxribatçı siyasətin şahidi oluruq. Bu işdə Gürcüstandakı erməni diasporasının anti-türk fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Çox təəssüflər olsun ki, daima türklüyə, türk millətinə qarşı nifrət hisslərini gizlətməyən, terrorun, etnik-milli təmizləmə siyasətinin əsas hərəkətverici qüvvəsinə çevrilmiş erməni diasporunun apardığı bu mənfur, çirkin siyasət tarixçilərin diqqətindən yayınmış, demək olar ki, bu məsələ təfərrüatı ilə öyrənilməmişdir. Məhz bu baxımdan Ö.F. Nemanzadənin həmin əsəri bəhs etdiyimiz məsələlərin bu və ya digər şəkildə tədqiqi və öyrənilməsi baxımından olduqca dəyərlidir.

XX əsrin əvvəllərində vüsət alan Azərbaycan türklərinin milli oyanış hərəkatında əsas ideya müəlliflərindən olmaqla millətin görən gözünün, düşünən beyninin yad ünsürlərin zəhərlənmiş fikirləri ilə doldurulmasından ehtiyatlanaraq bu istiqamətdə yorulmadan fəaliyyət göstərən, xalqı uçuruma aparanlara qarşı nifrət hissi ilə alışıb-yanan Ö. F. Nemanzadə 1906-cı ildə yazmış olduğu məqalələrinin birində bu olaylar zamanı aldadıldığını təəssüf hissi ilə etiraf edirdi: "Yadımıza belə gətirməzdik ki, ermənilər çox-çox əvvəllər hazırladıqları hədsiz-hesabsız bombaların hamısını bizim başımızda partladacaqmış... Bu söylədiyimiz səbəbilə cümləmiz yenə ermənilərlə qədim sayaq üzrə sülhanə rəftar edib rahat və arxayın olmağı vəd və bəyan edirdik və bu sürətlə millətimizin gözünü bağlayıb uçuruma sarı hazırlayırdıq. İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq". Sözsüz, burada əlavə şərhə, eləcə də izahata ehtiyac yoxdur. Tarixin ibrət dərslərindən vaxtında bəhrələnməməyimiz, hər xırda məsələyə belə barmaqarası baxmağımız bizləri bu cür dəhşətli fəlakətlərə sövq etmişdir. Bu bir xalq, qövm üçün olduqca təhlükəli məsələdir. Xüsusilə qeyd etmək lazımdır ki, 1878-ci il Berlin konqresinə qədər Qərbi Avropanın aparıcı dövlətlərinin yağlı vədlərinə uymaqla Anadolu torpaqlarında müstəqil erməni dövlətinin yaradılacağına ümid etmiş erməni kilsəsi və onun ətrafında sıx-sıx birləşmiş diaspor təşkilatlarının bu və ya digər yollarla apardığı həmin kampaniya ümumi erməni işinin ikinci fazasını təşkil etdi. Bütün bu sadalanan məsələlər dərindən öyrənilmək və nəticə çıxarmaq baxımından gənc tədqiqatçılar üçün olduqca dəyərlidir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində erməni cəlladlarının Osmanlı imperiyasının Şərqi Anadolu bölgəsində apardığı etnik-milli təmizləmə siyasəti "uğurla nəticələnmədiyindən" bu siyasətin davamı olaraq Qafqazda sabitliyi pozmaq, burada azərbaycanlı əhaliyə qarşı qırğın törətmək və bu işdə çar Rusiyasının maddi və mənəvi köməyindən bəhrələnmək məsələsi ön plana keçdi. Əslində hadisələr Şərqi Anadoludakından fərqli

olaraq Qafqazda planlı şəkildə həyata keçirilirdi. Çünki Qərbin maliyyə dəstəyi ilə silahlanan ermənilər Şərqi Anadolu bölgəsində törədilən qiyamlar və qırğınlarda sınaqdan çıxmışdılar. Məhz bu baxımdan onların Tiflisdə törətdikləri hadisələr aparılan siyasətin davamı idi. Hadisələrin çox gərgin məcraya yönəldiyini qeyd edən müəllif yazır ki, ölkədə dinindən, irqindən və milliyyətindən asılı olmayaraq xalqlar arasında milli birlik əhval-ruhiyyəsi hökm sürürdü. Milli birlikdən qorxan hökumət vaxt itirmədən öz çirkin siyasətini həyata keçirməyə çalışırdı. İlk olaraq partiya və bir sıra təşkilatlar arasında fitnə-fəsad törətməyə çalışan çar hökuməti bu çirkin əməllərdən bir nəticə əldə etmədikdə hiyləni təşkilatlanmış ermənilərin vasitəsilə həyata keçirməyə çalışırdı. Gizli formada, xəfiyyələr simasında fəaliyyət göstərən hökumət nümayəndələri erməni tacirlərini, sənətkarlarını və digər təbəqədən olan vətəndaşlarını aldadaraq azərbaycanlılara qarşı istifadə edirdilər. Müəllif yazır ki, günlərin birində casuslardan biri erməni tacirinin yanına gələrək ona bir sıra təxribat xarakterli tapşırıqlar verməyə çalışır və sonrakı hadisələri belə şərh edir: “Türklərin silahlandığını siz də, əlbəttə duymuş olarsınız. Biz daha öncə təsbit etdik, onlar sizin üzərinizə hücum etmək istəyirlər. Siz də, biz də nə də olsa xristianıq. Vəhşi türklərin din qardaşlarımızı qətl edib, bizə də pislik etmələrinə razı ola bilmərik. Daima oyanıq və tədbirli olmanız üçün Sizə xəbər veririk. Siz də silahlanıb özünüzü qorumağa hazırlaşın, yoxsa hamınız qətlə yetiriləcəksiniz. Bunu bizdən xəbər tutduğunuzu heç kimə söyləməyin. Hökumət və türklər duymasın”. Göründüyü kimi bu insanlar hökumətin məsul işçiləri olub bilərəkdən azərbaycanlı əhaliyə qarşı təxribatçı əməllərini həyata keçirməyə səy göstərirdilər. Müəllif sonrakı hadisələri qələmə alaraq yazır: “Ertəsi gün bir qrup hökumət nümayəndəsi türk tacirinin yanına gələrək ona aşağıdakıları xatırlatmağa çalışır: “Hacı, sizin nə qədər xətrinizi istədiyimizi bilirsiniz. Dövlət sirri hər kəsə söylənilməz, fəqət siz əcnəbi deyilsiniz. Buna görə də aldığımız gizli xəbərləri sizə söyləməyi lazım bilirik. Ancaq bu deyilənləri heç kəsə söyləməyəcəyinizə and için. Biz savaş istəmirik.

– Əfəndi nə söyləyirsiniz? Biz kimi öldürmək istəyirik ki?

– Qonşunuz ermənilərin gecə-gündüz silahlandıqlarını, varlarını-yoxlarını silaha yatırdıqlarını daha duymadınızmı? Polis tərəfindən onlara silah verildiyini öz gözlərimizlə gördük”. Bəhs olunan dövrdə hadisələrin kritik məcraya yönəldiyini qeyd edən müəllif daha sonra yazır. “Ölkə barıt çəlləyinə bənzəyirdi. Ona sadəcə od vurmaq kifayət idi”.

Müəllif baş verməkdə olan etnik qarşıdurmaların əsas bəhanəsinin məhz 1905-ci ilin oktyabr ayının 20-də axşam saat 9-da 3 nəfərin faytonla erməni məhəlləsi tərəfindən gələrək “Şeytan bazarı”ndakı türklərin “Roza” gül mağazası önündən keçərkən havaya açdıqları 5-10 atəşin olduğunu qeyd edir və bu haqda yazır: “Həmin gün türklər (azərbaycanlı əhali nəzərdə tutulur-T.C) ermənilərin, ermənilər də türklərin məhəllələrini güllə yağışına tutdular. Günlər ötdükcə proses daha da dərinləşirdi. Yolda silahlı ermənilər sağa-sola qaçır, panikaya qapılmış xalq körpüyə doğru axınla hərəkət edirdi. Biz də axan bu insan seli arasında körpüyə yaxınlaşdıq. O anda çaydakı faciəni görəndə Qafqazın mədəni bir mərkəzində olduğuma inanmaq istəmədim. Çayda törədilən qanlı faciəni (burada Kür çayının Tiflisdən keçən hissəsi nəzərdə tutulur-T.C.) seyr etməyə gələn millətin halı mənə Neron zülmünün səhnələrini xatırladı”. Ömər Faiq azərbaycanlı əhaliyə olmazın işgəncələrin verilməsini ağlasığmaz qəddarlıq kimi qiymətləndirərək yazır: “Vorontsov körpüsündən keçən türk vətəndaşlarını tutaraq bağırda-bağırda körpünün kənarına gətirir və buradan çaya yuvarlayırdılar. Bu azmış kimi Peska və Vorontsov məhəllələrində çalışan türk işçilərin işlədiyi yerlərdən çıxarıb xəncərlə dəlik-deşik etdikdən sonra çayın kənarındakı dəyirmanların hündür yerlərindən aşağıya-suya atırdılar. Suya atılan yaralılar boğulmamaq üçün var gücləri ilə çırpınaraq çayın kənarına çıxmağa çalışır, lakin kənardakı erməni vəhşilərinin açdıqları atəşlə yenidən suya baş vurur, sonda görünməz olurdular”. İnsanlığa sığmayan bu cür vəhşiliyin qarşısında özünü gücsüz, tənha hiss edən Ömər Faiq xalqın nicatı üçün hökumətin bu biçarə və zavallı şəxslərin halına acıyacağına, onlara yardım edəcəklərinə ümid edirdi. O, yazırdı: “Heç kəsin tükü belə tərpənmirdi. Sanki hər kəs tutulan insanların suya necə atılacağını, suda yaralı vücudu ilə nə cür çırpınıb-çabalayacağını, daşlarla necə mücadilə edəcəyini, güllələrdən sonra nə cür boğulacağını təkrar-təkrar görməkdən zövq alırdı. Hadisələr Tiflis şəhərində kulminasiya nöqtəsinə çatmışdı. Bütün Tiflis əhalisi ayağa qalxmışdı, kimi boğuşur, kimi də evində qorxu ilə hadisələrin sonrakı prosesini gözləyirdi. Ertəsi gün yenidən atəş səsləri eşidildi və getdikcə daha da şiddətləndi. Güllə yağışı bütün məhəlləni darmadağın etmişdi. Gözümün önündə ölüm qorxusu ilə varlığını itirmiş, mənən kiçildilmiş, alçaldılmış vücudlar, qulaqlarıma gələn dua və yalvarış səsləri məni olduqca hiddətləndirmişdi. Yerə diz çökmüş, Həzrəti Abbası köməyə çağıran bu zavallıların imdadına yetişib onları sakitləşdirməyə çalışırdım”.

Qeyd etmək lazımdır ki, hadisələrin şiddətli vaxtlarında Tiflisin bütün erməni məhəllələrini qarış-qarış gəzərək insanların bu çirkin oyundan əl çəkmələrini istəyən Ömər Faiq xatirələrində yazır: “Mən Tiflisi qarış-qarış gəzərək yol qırağında tikilmiş çayxanada ayaq saxladım. Burada insanların vahimə içində olduğunu görüb çaş-baş qalmışdım. Burada tanıdığım bir neçə gənc var idi ki, onlardan bir neçəsini çağıraraq: “Görmürsünüz, hər iki tərəfdən də insanlar qətlə yetirilir, əsl savaşı törədənlər isə ortalıqda görünmürlər. Bu anlaşılmaz savaşın sonu necə olacaq? İki xalq vəhşicəsinə bir-birini qırdıqdan sonra yenə peşman olub utana-utana bir-birinin

üzünə baxmayacaqlarmı? Hər iki tərəfin də istədiyi nədir ? Nə üçün savaş edirsiniz? Ortada bir savaş səbəbi yox ki, biləsiniz! – dedim.

Gənclərdən biri: – Biz nə edək, savaşı onlar (ermənilər) başladılar. Bizi tamamilə yox etmək istəyirdilər. Guya onlar bizdən daha mədənidirlər, qonşu savaşının pisliyini, faydasızlığını onlar bizdən öncə düşünüb savaşa başlamışlar. Hanı, barışmaq istədiklərini göstərən bir işarət varmı – dedi:

Mən: – Xeyr yanılırsınız, dedim. Savaşı çar hökuməti törətdi. Türk-erməni münasibətlərini pozan qüvvələr məhz ölkəni mədəni bir səviyyədə idarə etməyi bacarmayan hökumətdir. Üç ay öncəki mitinqi xatırlayırsınız. Orada hökumətdən nə istəyirdilər: hürriyyət, bərabərlik, rifah və öz təmsilçiləri vasitəsi ilə idarə etməyə qatılmaq, deyilmi ? İndiyə qədər öz keyfi ilə hərəkət etməyə alışmış olan rejim buna razı olarmı? Əlbəttə, olmaz. Bu çirkin oyunda kimin məhv olmasını isə bir az düşünün! Bu savaşda qazancınız nə olacaqdır? Nə gözləyirsiniz? Nə qədər igidlik göstərib irəliyə getsək, ertəsi gün nə bizə ermənilərin mağazalarını, nə də ki, ermənilərə bizim dükanları verəcəklər. Ara yerdə vəhşicəsinə qırılıb tələf olacağıq”. Göründüyü kimi, Ömər Faiq hadisələrin gedişatını əvvəlcədən duymuş və sadə xalqın bu çirkin oyunda məhv olmasını istəməmiş və insanlarla mütəmadi olaraq fərdi söhbətlər apararaq bu işin başında çar Rusiyasının dayandığını açıq-aydın anlatmağa çalışmışdır. Məhz bu yanlış düşüncənin girovuna çevrilən Ömər Faiq çox-çox sonralar öz səhvlərini anlamağa çalışmışdır və aldadıldığını zənn etmişdir. Ömər Faiq hər iki xalqın nümayəndələrindən ibarət bir təşkilatın yaradılmasının vacibliyini məqsədəuyğun hesab etdi. Nəhayət, Sosial Demokratlara müraciət edilərək ilk öncə Sülh Komissiyasının yaradılması, gürcü və ruslardan ibarət sülhməramlı silahlı qüvvələrin təşkil edilməsi qərara alındı. Komissiyaya gürcülərdən Jordaniya, ermənilərdən Yerkezyan, azərbaycanlılardan isə Ömər Faiq rəhbərlik edirdi. Sülhməramlı silahlı dəstə də komissiyanın ixtiyarına verilmişdi. Silahlı dəstənin əsas vəzifəsi Tiflis şəhərində törədilmiş qırğınların qarşısını almaq, gələcəkdə bu kimi xoşagəlməz hadisələrin bir daha baş verməməsi üçün xalqları maarifləndirmək idi. Müəllif yazır ki, Qafqazın mərkəzi olan Tiflis kimi böyük bir şəhərdə iki millət bir-birinə top və tüfənglə atəş açdığı halda hökumət bu vəhşiliyə göz yumurdu. Şəhərdə mükəmməl bir təşkilat olduğu halda yanğınlar saatlarla deyil, günlərlə davam edirdi və şəhər idarəsi bu yanğınları sadəcə seyr etməklə kifayətlənirdi. Hətta vəziyyət o dərəcəyə çatmışdı ki, hökumət buradan Afrikaya Qızıl Xaç yardımı göstərdiyi halda öz şəhərində yaralı insanlara nə həkim, nə də ki, dərmanla yardım edirdi”.

Qeyd etmək lazımdır ki, artıq savaşın onuncu günü türk və erməni məhəllələrinə böyük əsgəri qüvvə göndərildi. Hər iki tərəfə atəşin dayandırılması əmri verildi və türk məhəlləsinə bütün Tiflis camaatını yığaraq savaşın başa çatdığını və canişinin birbaşa göstərişi ilə dayandırılmasını bildirdilər. Onlar bu savaşın məhz “aravuranlar” tərəfindən törədildiyini yalandan xalqa çatdırır və hesab edirdilər ki, bu işdə çar hökumətinin heç bir əli yoxdur. Toplantıda söz alan Ömər Faiq tribunaya çıxaraq deyir: “Qardaşlar! Mən uzun danışmayacağam. Ancaq məni diqqətlə dinləmənizi və düşünmənizi rica edirəm. On gündən bəri azərbaycanlıların və ermənilərin bir-birlərini öldürdüklərini hamınız öz gözlərinizlə gördünüz. Uşaq və dəli deyilsiniz, bir düşünün, bu gün əsgər və polisin gəlməsi ilə savaş anındaca kəsildi. Bu gün hökumət məmurları buraya gələrək “barışın” dedi. Ancaq aravuranlar elə bu məmurların özləridir – deyərək tribunadan aralandım. Alqış səslərindən təşvişə düşmüş hökumət nümayəndələri mənim nə demək istədiyimi sonradan başa düşüb məni həbs etməyə çalışsalar da buna nail ola bilmədilər”.

Nəhayət, 1906-cı il mart ayında Tiflis şəhərində “siyasi oyun”un nəticəsi olaraq Sülh Məclisi quruldu. Sülh Məclisi hökumət üçün o qədər önəmli idi ki, hətta Məclisə Qafqaz canişini Vorontsov -Daşkov rəhbərlik edirdi. Məclisə azərbaycanlılardan Qarabəy Qarabəyov, Adilxan Ziyadxanov, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Kərbəlayi İsrafil Hacıyev və Ağaxan İrəvanski, ermənilərdən isə Arutyunov, Qalantar, Xatisov, Taqanasov, Ter-Avetisov, Arekelov,Qarabetov və Xocayev qatılmışdı. Sülh məclisinin əsas amalı savaşın səbəblərini araşdırmaq, dəymiş ziyanı aradan qaldırmaq və bundan sonra savaşın baş verməməsi üçün hər iki xalqın nümayəndələri içərisində maarifləndirici tədbirlər planı həyata keçirmək idi. Canişin çıxışının sonunda əsl günahkarın məhz qanunlara əməl etməyən erməni millətçi ekstremistlərinin və nüfuzlu türklərin himayəsində hərəkət edən gizli silahlı türk dəstəsinin olduğunu bəyan edirdi. Müəllif daha sonra qeyd edir ki, “Məclisə qatılan məşhur senator Kuzminski isə savaşın baş verməsində dini, milli və iqtisadi səbəblər arayır və beləcə guya yeni ictimai qanun kəşf etmiş olurdu”. Doğrudur, müəllif senator Kuzminskinin gətirdiyi şərhləri rədd etməklə kifayətlənir. Əslində isə senatorun bu çıxışının arxasında bir çox həqiqətlərin işartısı sezilir. Məclisdə iştirak edən türk təmsilçiləri çəkinmədən mərdi-mərdanə şəkildə erməni Daşnaksütun partiyasını günahlandırır və savaşın onlar tərəfindən başlandığını bildirir, ermənilər isə məsuliyyəti üzərlərindən atmaqla, ümumiyyətlə, Daşnaksütun partiyasının fəaliyyətinin buradakı türklərə qarşı deyil, Osmanlı dövlətinə qarşı yönəldiyini iddia edirdilər. Ermənilər cəsarət edib açıq-aşkar söyləməsələr də türklərdən daha irəli gedərək hadisələrdə bəzi hökumət məmurlarının əli olduğunu bildirirlər. Amma tərəflərdən heç biri, nə azərbaycanlılar, nə ermənilər, nə də ki, hökumət əslində savaşın əsl səbəbkarını ictimaiyyətin bilməsini istəmirdi. Daha doğrusu, azərbaycanlılar həqiqəti söyləmir, ermənilər hökumətdən ehtiyat edir, hökumət isə günahkar olduğunu boynuna

almaqdan çəkinirdi. Lakin çox keçmir ki, Molla Nəsrəddin jurnalı ilk sayından etibarən savaşın səbəblərini açıq-aşkar bəyan etməyə, hadisələrin gedişatını və əsl səbəbkarın kim olduğunu çəkinmədən açıqlamağa başlayır.

**Taleh CƏFƏROV,**
**ADPU-nun Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının müəllimi**

"**Xalq qəzeti**".-2010.-14 mart.-N 58.-S.4.

**Tarixi yaddaşsızlıq hər bir millət üçün faciəvi nəticələrə gətirib çıxarır**

"Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə". Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsində soyqırımına məhz, belə bir anlayış verilmişdir.

Soyqırımı cinayəti sülh və insanlıq əleyhinə yönələn xüsusilə ağır cinayətlərdən hesab olunur.

Təsadüfi deyildir ki, cinayət qanunvericiliyində həmin cinayəti törədənlər üçün ömürlük azadlıqdan məhrum etmə cəzası da nəzərdə tutulmuşdur.

Tarixin təhlili göstərir ki, zaman-zaman Azərbaycan xalqının başına gətirilən faciələr öz ağır nəticələri, amansızlığı ilə digər oxşar hadisələrdən fərqlənmişdir.

Ümummilli lider Heydər Əliyevin imzaladığı Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanında deyildiyi kimi, 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

Əslində, Azərbaycanın ikiyə bölünməsini qəti təsdiq edən Türkmənçay müqaviləsi və onun ağır nəticələri, XIX əsrin əvvəllərində Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin başlanğıcı idi.

XX əsrin əvvəllərində İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı.

Rusiyada 1917-ci ilin fevralında baş vermiş inqilab nəticəsində əsrlərlə ömür sürmüş mütləqiyyət quruluşu devrilir. Zaqafqaziyada Dövlət Dumasına seçilmiş deputatlardan ibarət Zaqafqaziyanın idarəsi üzrə xüsusi komitə, noyabrda isə Zaqafqaziya Komissariatı yaradılır. Zaqafqaziyadan Rusiyanın Müəssislər Məclisinə seçilmiş və bolşeviklərin oktyabr çevrilişindən sonra onda iştirak edə bilməyən nümayəndələr 1918-ci il fevralın 14-də Tiflisdə toplaşırlar və Zaqafqaziyada ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaradırlar.

Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün Seymin bütün müsəlman nümayəndələri Tiflisdə toplanır.

May ayının 28-də Tiflisdə, keçmiş Qafqaz canişininin iqamətgahında, doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli İslam Şurasının iclası keçirilir və Azərbaycanın istiqlaliyyəti haqqında Bəyannamə qəbul edilir, Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı bəyan edilir, həmçinin, sonra Milli İslam Şurası bitərəf deputat Fətəli xan Xoyski başda olmaqla, Azərbaycan Xalq Cümhuriyyətinin ilk müvəqqəti hökumətini təşkil edir.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan üçün çox mürəkkəb bir tarixi şəraitdə fəaliyyətə başlayır.

Sovetlər Birliyi dövründə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin "nə üçün Bakıda fəaliyyət göstərməməsi", - səbəbləri ictimaiyyətdən qəsdən gizlədilirdi. Sovetlər dönəmində, hətta, hüquq fakültəsinin tələbələri də bilmirdilər ki, Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti nə üçün məhz Tiflisdə yaradılmış və həmin şəhərdə fəaliyyət göstərmişdir?!

Ona görə ki, Sovet tarix, hüquq və siyasi ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyətinin və onun hökumətinin demokratik mahiyyəti, kommunist ideologiyasının tələblərinə müvafiq olaraq, bilərəkdən təhrif edilmiş, bu azmış kimi, ilk demokratik respublikanın tarixi barədə məlumatlar saxtalaşdırılmışdır. Sən demə, səbəb başqa imiş.

Bu vaxt Bakıda S. Şaumyan başda olmaqla, Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan Bakı Xalq Komissarları Soveti fəaliyyət göstərdiyi şəraitdə S.Şaumyanın rəhbərliyi ilə 1918-ci ilin martında doğma Bakımızda, Şamaxıda, Qubada 50 min azərbaycanlı - qoca, xəstə, qadın, o cümlədən hamilə qadınlar, uşaq, ahıl, bir sözlə, günahsız insanlar xüsusi amansızlıqla qətlə yetirmişlər.

Törədilən azərbaycanlı qırğınlarından sonra Bakı kommunası azərbaycanlı əhali arasında öz nüfuzunu tamamilə itirmişdi. Onların hakimiyyəti Bakıdan kənara çıxa bilməmişdi. Azərbaycanın qəzalarında isə tam

hakimiyyətsizlik və hərc-mərclik hökm sürürdü. Öz təsir dairəsini bütün Azərbaycan ərazisində yaymaq məqsədilə 1918-ci ilin iyunun 16-da Azərbaycan Milli Şurası Tiflisdən Gəncəyə köçür.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı zamanı Şamaxı qəzasında 58, Quba qəzasında 112, Gəncə (Yelizavetpol) quberniyasında 272, İrəvan quberniyasında 211, Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyona yaxın əhali öz torpaqlarından didərgin salınmışdır.

Zaqafqaziyanın zorla sovetləşdirilməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atdılar.

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır itkilərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.

Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb, viran edilmişdir.

1947-ci il dekabrın 23-də İ. Stalinin imzaladığı "Ermənistan SSR ərazisindən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı qəbul edilir.

Bəli, yüz minlərlə azərbaycanlı məcburi surətdə öz doğma tarixi-etnik torpaqlarından SSRİ Nazirlər Sovetinin cəmi dörd vərəqə həcmində olan qərarı əsasında didərgin salınır, lakin bu ədalətsiz aktın hansı zərurətdən irəli gəlməsi barədə həyasızcasına susmaq üstün tutulurdu.

Başqa hallarda olduğu kimi, İ. Stalin bu tədbirin də həyata keçirilməsində heç kəs qarşısında məsuliyyət daşımadığını və heç kəsə hesabat vermək istəmədiyini bir daha nümayiş etdirmək üçün elə ilk cümləsi "köçürülsün" sözü ilə başlanan ədalətsiz bir qərara imza atmışdır.

Bu sənədin ortaya çıxmasına qədər erməni millətçilərinin hansı "təşkilati" tədbirlərə əl atdıqlarını indi təsəvvür etmək çətin deyildir. Onlar Ermənistanı digər millətlərdən, ən başlıcası, azərbaycanlılardan təmizləmək niyyəti güdür və bunun üçün dəridən-qabıqdan çıxırdılar. Tarix göstərdi ki, ermənilər bu məqsədlərinə nail ola bildilər.

Dağ şəraitində yaşamış on minlərlə adam Azərbaycanın aran rayonlarına köçürüldü. İllər boyu öz zəhmətləri ilə qurub yaratdıqları ev-eşiklər xarici ölkələrdən gələn ermənilərə qismət oldu. İqlim şəraitinin dəyişdirilməsi, min bir əziyyət, eləcə də doğma ocaq həsrəti minlərlə soydaşımızın həyatına son qoydu.

"Ermənistan SSR ərazisindən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" İ. Stalin 1948-ci il martın 10-da imzaladığı və 1947-ci il dekabrın 23-də imzalanmış sənədin bir növ davamı olan bu qərar guya köçürülənlərə müəyyən imtiyazlar vermək niyyəti güdürdü. Sözsüz Vətən, torpaq itkisi ilə üzləşən insanları belə imtiyazlarla ovundurmaq faydasız idi. Çünki ev-eşiyini, el-obasını tərk edən adamları bu cür xırda güzəştlərlə ovundurmaq qeyri-mümkün idi. Lakin Stalin rejimi erməni millətçilərinin fitvası ilə öz işini görmüşdü.

Bəs köçürülənlərin sonrakı taleyi necə olacaqdı? Onlar yeni iqlim şəraitinə uyğunlaşıb yaşaya biləcəkdilərmi? Bu suallar Stalin rejimini qətiyyən narahat etmirdi.

Ümummilli lider Heydər Əliyevin imzaladığı Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli Fərmanın verilməsi son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımızın ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalması, mərhələ-mərhələ gerçəkləşdirən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlıların indi Ermənistan, keçmiş İrəvan xanlığının ərazisindən - min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalması, xalqımıza məxsus minlərlə tarixi - mədəni abidə və yaşayış məskəninin dağıdılıb viran edilməsi və buna görə də bu tarixi ədalətsizliyə indiyə kimi hüquqi-siyasi qiymət verilməsi zəruriliyindən irəli gəlmişdir.

Təəssüf olsun ki, Azərbaycan xalqının Ermənistan ərazisindən deportasiyası xalqımızın tarixində yeganə hal olmamışdır.

1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşlar, başqa sözlə, qovulmuşlar.

Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar.

Həmin dövrdə Ermənistan SSR ərazisindən kütləvi surətdə qovulmuş soydaşlarımızın böyük əksəriyyəti dünyasını dəyişmiş, onların sağ qalanları keçmiş Azərbaycan SSR ərazisində yurd-məskən salmışlar. Lakin bu hadisələrdən yarım əsrdən də artıq zaman fasiləsi keçsə də bu tarixi ədalətsizliyin vurduğu mənəvi zərbəni

xalqımızın indiki nəsli heç vaxt yaddan çıxarmamalı, gələcək nəsillər də bu faciədən xəbərdar olmalıdır. Çünki tarixi yaddaşsızlıq həqiqətən hər bir xalq, millət üçün faciəvi nəticələrə gətirib çıxarır.

Tarix bir daha təkrarlanmaqla bunu əyani sübut etdi. Belə ki, 1988-ci ildə Ermənistan ərazisində azərbaycanlıların başına gətirilən müsibətlər bəşər tarixinin ən qanlı səhifələri olmaqla, bu hadisələr 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindən deportasiyasının bir növ məntiqi davamı hesab edilməlidir.

Ermənilərin azərbaycanlıların əleyhinə həyata keçirdiyi soyqırımlarının tarixi kökləri, siyasi-ictimai, ideoloji cəhətlərinin hər biri dərindən tədqiq olunmalı, aşkarlanıb bu haqda əsl həqiqət dünyaya çatdırılmalıdır.

Məhz ümummilli lider Heydər Əliyevin imzaladığı Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli Fərmanı xalqımızın başına gətirilən bu ədalətsizliyin həm də dünya ictimaiyyətinə çatdırılması məqsədini daşıyır. Bu isə Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün, xüsusilə, vacibdir.

Ümummilli lider Heydər Əliyev titanik, yorulmaz fəaliyyətini ona yönəltmişdir ki, qondarma Dağlıq Qarabağ məsələsi dinc yolla, beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllini tapsın. Lakin hazırda dünyada ikili standartlar mövcuddur.

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması haqqında BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamə (822, 853, 874, 884 -li) indiyədək icra edilmir.

Ümummilli lider Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında bəyan etmişdir ki, biz sülh yolu ilə Dağlıq Qarabağ probleminin həllinə çalışırıq. Lakin Azərbaycan xalqının da səbrinin müəyyən hüdudları vardır. Əgər sülh yolu ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın erməni tapdağından azad olunması alınmazsa, bu torpaqları silah gücünə olsa da azad etməyə hazırıq.

Bu bizim konstitusion hüququmuzdur.

**İlham Abbasov,**
**Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru-hüquq elmləri üzrə fəlsəfə doktoru, Baş ədliyyə müşaviri prokurorluğun fəxri işçisi**

**"İki sahil".-**2010.-30 mart.-N.52.-S.5.

**XX əsrin əvvəllərində Zaqafqaziyada baş vermiş iki qırğın zamanı 2 milyona yaxın azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilib**

**Rufik İSMAYILOV**

Azərbaycan xalqı 200 il ərzində müxtəlif hegemon dövlətlərin himayəsini görən erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb. Belə siyasət nəticəsində azərbaycanlılar tarixi torpaqlarından qovularaq, qaçqına, məcburi köçkünə çevriliblər. Bütün bunlar isə ermənilər tərəfindən kütləvi qırğınla müşayiət olunub. Bu qırğınlar sırasında 1905-1907-ci illərin qanlı hadisələri, 1918-ci ilin mart soyqırımı faciəviliyi ilə daha çox yadda qalıb. Tarixə qısa nəzər salsaq görərik ki, bu dəhşətli qırğınların törədilməsində, əliyalın, günahsız insanların qətlə yetirilməsində çar Rusiyasının imperialist siyasəti də mühüm rol oynayıb. Belə ki çar Rusiyası İran və Rusiya arasında Azərbaycan ərazilərinin bölüşdürülməsinə dair 1813-cü il Gülüstan, eləcə də 1828-ci il Türkmənçay müqaviləsi imzalandıqdan sonra, konkret olaraq XIX əsrin əvvəllərində qədim Azərbaycan torpaqlarında bufer zona yaratmaq qərarına gəlib. Bu məqsədlə də “erməni dövləti” qurmaq planını həyata keçirməyə başlayıb. Əslində isə bu barədə hələ 300 il əvvəl gələcək imperiyanın konturları barədə düşünən rus imperatoru I Pyotr Cənuba göndərdiyi qasidlərə də tapşırıq vermişdi. Bildirmişdi ki, erməniləri nə yolla olursa-olsun tovlayıb çar Rusiyasının ərazilərinə gətirmək lazımdır. Çünki intriqalara, alət kimi istifadə edilməyə hər zaman hazır olan bu millət o zamankı Rusiya üçün əhəmiyyətli istinadgah idi.

Bu məqsədlə İran və Türkiyə ərazisində yaşayan 300 minə qədər erməninin XIX əsrin birinci yarısında Azərbaycana köçürülməsinə başlanıldı. Onlar İrəvan, Dağlıq Qarabağ, Naxçıvan, Zəngəzur, Dərələyəz, Ordubad, Vedibasar və digər ərazilərdə yerləşdirildi. Lakin ermənilərin Azərbaycan ərazilərinə köçürülmələrinə baxmayaraq, azərbaycanlılar bu ərazilərdə sayca ermənilərdən üstünlük təşkil edirdi. Məsələn, 1886-cı ildə Gəncə quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən yalnız 81-i erməni kəndindən ibarət idi. İrəvan qəzasında isə əhalinin 66 faizini azərbaycanlılar, 34 faizini ermənilər təşkil edirdi. Ona görə də bu ərazilərdə ermənilərin çoxluğunu təmin etmək məqsədilə olduqca çirkin bir plana, azərbaycanlılara qarşı soyqırım siyasətinə əl atıldı. Çar Rusiyası tərəfindən gizli silahlandırılan ermənilərin hərbi dəstələri yaradıldı. İndiki Ermənistan və Dağlıq Qarabağ ərazisindən azərbaycanlıların kütləvi çıxarılması, dinc əhaliyə qarşı zorakılıq, vəhşiliklər Rusiya hökumətinin himayəsi və köməyi ilə XX əsrin əvvəllərində, xüsusilə 1905-1907-ci illərdə daha geniş vüsət almağa başladı. Azərbaycanın Zəngəzur, İrəvan, Naxçıvan, Ordubad, Qazax, Qarabağ əyalətlərində yüzlərlə kənd yandırıldı, əhali uşaqdan böyüyə qədər amansızcasına qətlə yetirildi.

1918-ci ilin martında isə Rusiya bolşeviklərinin rəhbəri Vladimir Lenin bolşevik Stepan Şaumyanı Qafqaz fövqəladə komissarı təyin edərək Bakıya göndərdi. Bununla da bolşeviklər Bakıda hakimiyyəti ələ keçirmək adı ilə erməni daşnaklarının silahlı qüvvələrinin gizli niyyətləri üçün şərait yaratmış oldular. Martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğını başlandı. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar edərək, əhalini uşaqdan böyüyədək qətlə yetirdilər. Sonralar Stepan Şaumyanın özü etiraf edirdi ki, dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin altı min silahlı əsgəri, eyni zamanda “Daşnaksütyun” partiyasının 3-4 minlik silahlı dəstəsi iştirak etmişdir.

Lakin Daşnakların azərbaycanlılara qarşı soyqırımı yalnız Bakı ilə məhdudlaşmadı. Qısa müddətdə Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan, Qarsda da azərbaycanlıların qırğını törədildi. 1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirildi. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırıldı və uçuruldu. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılaraq, əhalisi məhv edildi. 1918-ci iln aprelin 29-da isə Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edildi. Erməni silahlı dəstələri həmin hadisələr zamanı Naxçıvan qəzasının bir neçə kəndini də yandırmış, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 3257 kişi, 2276 qadın və 2196 uşağı öldürmüşlər. Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasında isə 199 kənddə yaşayan 135 min azərbaycanlı məhv edilmiş, yaşayış məntəqələri yerlə yeksan olunmuşdur. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kəndi dağıdaraq, əhalisini məhv etmişlər. Və ən nəhayət 1920-ci ilin mayında ermənilərin və XI Qızıl Ordunun iştirakı ilə Gəncədə 12 mindən çox azərbaycanlı qətlə yetirilmişdir. Ümumiyyətlə, 1905-1907 və 1918-1920-ci illərdə Zaqafqaziyada baş vermiş iki qırğın zamanı 2 milyona yaxın azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilərək, öz ev-eşiyindən zorla qovulmuşdur.

Mart qırğını zamanı Bakı şəhərinin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadınının meyidi tapılmışdır. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin

hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə xatirələrində yazırdı ki, ermənilər 1918-ci ilin mart hadisələri zamanı müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər: "Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər".

**"525-ci qəzet".-**2010.-30 mart.-N.53.-S.3.

## Ermənistan soyqırımı və terrorçuluğu dəstəkləyən dövlətdir

*"Azərbaycanlılara qarşı zaman-zaman törədilən ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir".*

***Heydər ƏLİYEV***

Tarixən qonşu dövlətlərə qarşı məkrli ərazi iddialarını gerçəkləşdirmək, "Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçiləri bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlmiş soyqırımı, terror siyasəti həyata keçirmiş, dəhşətli cinayətlərə əl atmışlar. Faktlar göstərir ki, bədnam qonşularımız bu qeyri-hüquqi iddialarını reallaşdırmaq naminə təcavüzkarlıq siyasətini "milli mübarizə" yoluna çevirərək dövlət səviyyəsində dəstəkləmişlər. Bu zaman isə onlar müəyyən xarici qüvvələrin maraqlarının ifadəçisinə çevrilmiş, bəzi dövlətlər Cənubi Qafqaz və Qərbi Asiyada möhkəmlənmək üçün daim "erməni məsələsi"ndən öz mənafelərinə uyğun şəkildə istifadə etməyə çalışmışlar.

Erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımı siyasətinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə, əsrlər boyu bu vandalizmin qurbanı olmuş Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxmışdır.

## Tarixi həqiqətlərə işıq salan sənəd

Hər il mart ayının 31-i ölkəmizdə dövlət səviyyəsində azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Bu təqvim son yüz ildə Azərbaycan tarixində baş vermiş faciəli hadisələrin xalqın yaddaşındakı qanlı izlərini özündə əks etdirir. Azərbaycanlıların kütləvi şəkildə öldürülməsini, repressiyalara məruz qalmasını XX yüzilliyin ən qanlı səhifələrindən biri hesab etmək olar. 1918-ci il martın 30-31-də Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırımına imza atmışlar. Bu soyqırımının əsl hüquqi-siyasi qiyməti isə Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra verilmişdir.

Mart hadisələrinin 80-ci ildönümündə - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da, bir növ, proqram sənədidir. Fərmanda deyilir: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir".

## Ermənilər Qarabağa XIX əsrdə köçürülüb

Fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə də toxunulmuş, mərhələlərlə törədilmiş soyqırımı və terror siyasəti dolğun əksini tapmışdır. Sənəddə qeyd olunduğu kimi, tarix boyu azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı lap əvvəldən rus-erməni işbirliyinin nəticəsi olmuşdur. Rusiya imperiyası bu yolla Cənubi Qafqazda möhkəmlənmək, ermənilər isə Rusiyanın havadarlığına arxalanaraq tarixi Azərbaycan torpaqlarını ələ keçirib, bu torpaqlarda erməni dövləti qurmaq məqsədini güdmüşlər. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi: "Dağlıq Qarabağ tarixi nöqteyi-nəzərdən Azərbaycanın ərazisidir. Ermənilər Dağlıq Qarabağa XIX əsrin birinci yarısında gəlmişlər. Bu, məlum faktdır. Hüquqi baxımdan bu region Azərbaycanın ərazisidir. Ona görə də biz bu məsələni yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etmək istəyirik. Biz Dağlıq Qarabağ ermənilərinə Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusunun verilməsini təklif etmişik. Bu, bizim tərəfimizdən ediləcək maksimum güzəştdir. Çünki onun statusu həmişə muxtar vilayət olubdur".

Tarixi faktlar sübut edir ki, hələ 1721-ci ildə Qafqaza yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqavimətini gördükdə, "erməni kartını" işə salmış, azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Bakı və Dərbənddə ermənilərin məskunlaşdırılmasına göstəriş vermişdir. I Pyotrun xələflərinə ünvanladığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə

etibarilə bolşevik Rusiyasının da Cənubi Qafqaz siyasətinin əsasını təşkil etmişdir. Həmin vəsiyyətə ilk əməl edən II Yekaterina 1768-ci ildə imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərman vermişdir. 1802-ci ildə isə çar I Aleksandr Qafqaz canişini A. Sisianova konkret təlimat göndərmişdir: "Ermənilər nəyin bahasına olursa-olsun Azərbaycan xanlıqlarının ələ keçirilməsində istifadə olunmalıdır".

Bu, Azərbaycan torpaqlarının işğalının başlanğıcı olmuş, 1813-cü ilin "Gülüstan" və 1828-ci ilin "Türkmənçay" müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsi Şimali Azərbaycan torpaqlarının erməniləşdirilməsi prosesini sürətləndirmişdir. Türkmənçay müqaviləsindən dərhal sonra - 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" təşkil edilmişdir. Bu bədnam fərmanla tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistan dövlətinin faktiki təməli qoyulmuşdur. Həmin vaxtın rəsmi statistikasına görə, "Erməni vilayəti"nin mərkəzi olan İrəvan şəhərində 7.331 azərbaycanlı, 2.369 erməni yaşayırdı. Buna paralel olaraq Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən, İrandan 40 min erməni İrəvan, Qarabağ və Naxçıvana köçürülmüşdür. Analoji proses XIX əsrdəki Rusiya-Türkiyə müharibələrinin yekununda (1829, 1878) da özünü göstərmiş, Türkiyə ərazisindən təxminən 85 min erməni köçürülərək sözügedən bölgələrdə məskunlaşdırılmışdır. Bu proses, eyni zamanda, minlərlə azərbaycanlının doğma torpağından qovulması, qətlə yetirilməsi ilə müşayiət olunmuşdur.

XIX əsrin ikinci yarısından ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti təşkilatlanmış və planlı aparılmış, Azərbaycan, Türkiyə və Gürcüstan ərazisində "Böyük Ermənistan" dövləti qurmaq xülyasına düşmüş ermənilər "Qnçaq" (1887-ci ildə Cenevrədə qurulub), "Daşnaksütyun" (1890, Tiflis), "Erməni Vətənpərvərləri İttifaqı" (1895, Nyu-York) kimi siyasi-terror təşkilatlarını bu istiqamətə yönəltmişdilər. Sözügedən təşkilatların fəaliyyət proqramlarında azərbaycanlılara qarşı ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək məramı əsas yer tuturdu.

Böyük Sovet Ensiklopediyasında (20-ci cild, 1930) "Daşnaksütyun"la bağlı məlumatda göstərilir: "Daşnaksütyunun 1894-cü ildə qəbul olunmuş birinci proqramı vulqar marksizmin, liberalizmin, xalqçılığın və xırda burjua millətçiliyinin qarışığından ibarət idi. Proqramın mərkəzində "Türkiyə Ermənistanını" azad etmək ideyası dururdu. 1903-cü ildən partiya, demək olar ki, yalnız Türkiyə ərazisində fəaliyyət göstərirdi".

## Tarixi faktlar nə deyir

1905-1907-ci illərdəki Rusiya inqilabı zamanı qarışıqlıqdan istifadə edən ermənilər Bakı, Şuşa, Zəngəzur qəzalarında, Qarabağda kütləvi qırğınlar törədərək 75 azərbaycanlı kəndini talan etdilər. Həmin inqilabdan sonra azərbaycanlıların deportasiyası və soyqırımı prosesi örtülü şəkildə davam edirdi. 1914-cü ildə başlanan Birinci Dünya müharibəsi və onun gedişində Rusiyada baş verən inqilablar (1917-ci il) ermənilərin "Böyük Ermənistan" iddiası üçün əlverişli şərait yaratdı.

1915-ci ilin əvvəlində Türkiyənin şimal-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə və türklərə qarşı kütləvi qırğınlara başladı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr verdi. Türkiyə ərazisindən erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura böyük miqdarda erməni əhalisi köçüb gəlmişdi. Rusiya ordusuna arxalanan ermənilər əvvəlcə Naxçıvanda və İrəvanda, sonra isə Qarabağda, Azərbaycanın digər bölgələrində azərbaycanlılara divan tutmağa başladılar.

1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq, Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri faktiki başıpozuqluq şəraitindən istifadə edərək yerli müsəlman əhaliyə divan tutmağa başladılar. Nəticədə hələ 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdılmışdı. Bu ərazidə yaşayan 135 min azərbaycanlının böyük əksəriyyəti ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur olmuşdular.

Qırğınlara 1917-ci il dekabrın 16-da RSFSR Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş Stepan Şaumyan başçılıq edirdi. Şaumyana Cənubi Qafqazda sovetləşdirmə siyasətini həyata keçirmək və Türkiyədə rus ordusunun işğalı altında olan yerlərdə "Türkiyə Ermənistanı" yaratmaq səlahiyyəti verilmişdi. Birinci Dünya müharibəsinin gedişində baş verən dəyişikliklər də ermənilərin azğın planlarına uyğun idi.

1918-ci il martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri şəhəri gəmilərdən top atəşinə tutdular. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətdilər. Martın 31-i və aprelin 1-də qırğınlar xüsusilə kütləvi şəkil almış, üç gün ərzində Bakıda 30 min insan qətlə yetirilmişdi. Şaumyanın erməni-bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmiş, müsəlmanların bir çox ziyarətgahlarını dağıtmışdılar. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan "İsmailiyyə" binasına od vurmuşdular. Martın 30-dan aprelin 2-dək sürən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8.027

azərbaycanlı qətlə yetirilmişdi. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdu. Lənkəranda, Muğanda minlərlə soydaşımız öldürülmüşdü. Ermənilər Dağlıq Qarabağda 150 azərbaycanlı kəndini tamamilə dağıtmış, Şuşada görünməmiş qırğınlar törətmişdilər.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmiş, Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmış, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdır. 1919-cu və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi olmuşdur. Lakin 1920-ci ilin aprelində xalq cümhuriyyətinin süqutu bu işləri yarımçıq qoymuş, Azərbaycan erməni-rus qüvvələri tərəfindən törədilən dəhşətli soyqırımının miqyasını dünyaya, beynəlxalq aləmə çatdıra bilməmişdir. Ermənilər isə dünyaya səpələnmiş diaspor təşkilatları vasitəsilə, habelə Ermənistanda daşnak hakimiyyətini əvəz etmiş sovet hakimiyyətinin təbliğat maşınının köməyi ilə qondarma soyqırımı kampaniyasına geniş vüsət vermişlər.

## Deportasiya siyasəti - etnik separatizmin əyani nümunəsi

1920-ci ildən sonra Zaqafqaziyanın sovetləşməsindən çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etmişlər. 1923-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ "muxtar vilayət" elan olunmuşdur.

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri qətliam və etnik təmizləmə sovet dövründə də davam etmiş, amma həmin vaxt bu proses "qanun" çərçivəsində həyata keçirilmişdir. Bu xüsusda Stalin dövrünün deportasiyasını, 1948-1953-cü illərdə 100 min azərbaycanlının Ermənistan SSR-dəki tarixi yurdlarından köçürülməsini xüsusi qeyd etmək lazımdır. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il dekabrın 23-də verilən qərarını ermənilər çoxdan gözləyirdilər. Anastas Mikoyan başda olmaqla, ermənilərin Moskvada əyləşən liderləri "kürksüz Ermənistan" uğrunda fəaliyyətə hələ Böyük Vətən müharibəsindən əvvəl başlamışdılar. Əsas "səbəb" kimi o göstərilirdi ki, xaricdə yaşayan on minlərlə erməni mütəxəssis Ermənistana qayıdaraq "sovet dövlətinin inkişafı və tərəqqisi naminə çalışmaq əzmindədir, lakin onların yerləşdirilməsi ilə bağlı problemlər var". "Optimal" çıxış yolu isə guya Ermənistan SSR-də qeyri-ermənilərin yaşadığı torpaqların boşaldılması idi. Azərbaycan SSR-in o vaxtkı rəhbərliyi bir müddət bu fəaliyyətin qarşısını ala bilsə də, Stalin ideyanı dəstəklədi və SSRİ hökumətinin "tarixi" qərarına imza atdı. Azərbaycanlıların yaşadığı 476 kənd tamamilə boşaldıldı. Nəhayət, 1987-1989-cu illər deportasiyası Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləməni başa çatdırdı.

## Ermənistan soyqırımı və terror siyasətini davam etdirir

Ermənistanın 1987-1988-ci illərdən başlayaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe və atdığı hər bir addım beynəlxalq hüquqla qadağan edilmiş zor tətbiq etməyə, digər dövlətin ərazisini ilhaq etməyə əsaslanır. 1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsinin əsasında da məhz bu ərazinin müəyyən bəhanələrlə Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi məqsədi dayanır. 1988-ci ilin 20 fevralında ermənilərin Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qeyri-konstitusion qərar verməsi, eləcə də SSRİ rəhbərliyinin bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmağa çalışması ilə Azərbaycan zorla hərbi münaqişəyə cəlb edilmişdir.

Ermənistanın dövlət səviyyəsində dəstəklədiyi terror aktlarının başlıca hədəfi də təcavüzkar separatçılıq vasitəsilə Azərbaycan ərazisinin ilhaqına yönəlmişdir. Ermənistanın soyqırımı və terror siyasəti nəinki Qafqaz bölgəsində sabitliyi pozur, eləcə də Azərbaycanla yanaşı, Türkiyə, ABŞ, Gürcüstan və digər dövlətlərin milli maraqlarını təhdid edir. Azərbaycan ərazilərinin ilhaqı məqsədilə terrorizmi və separatizmi özünə başlıca vasitə kimi seçən və dövlət səviyyəsində dəstəkləyən ermənilər 1988-ci ildən bəri Azərbaycanda izləri Ermənistana və Qarabağ separatçılarına gedib çıxan 373 terror aktı törətmişlər. Nəticədə 1.600-ə yaxın insan həlak olmuş, 1.808 nəfər yaralanmışdır. Terror aktları nəticəsində həlak olanların böyük əksəriyyətini qadın, uşaq və qocalar təşkil edir. 1988-ci ildən etibarən bu mənfur siyasətin hansı faciələrlə nəticələndiyi bir sıra dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən etiraf olunsa da, hərbi qarşıdurma zonasından yüz kilometrlərlə kənarda yerləşən Azərbaycanın yaşayış məntəqələrində erməni separatçıları tərəfindən törədilən və minlərlə dinc insanın -

müsəlmanın, türkün məhvi ilə nəticələnən çoxsaylı terror aktlarına yanaşmada "ikili standartlar"ın mövcudluğu ciddi narahatlıq doğurur.

Ümumiyyətlə, ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın rəsmi dairələri "Daşnaksütyun", ASALA, MAQ, "Erməni birliyi", "Erməni Azadlıq Cəbhəsi" və digər məşhur terror təşkilatları fəallarının reabilitasiyası məqsədilə genişmiqyaslı kampaniyaya başlamış, onlara sığınacaq vermiş, yaşayış və fəaliyyətləri üçün şərait yaratmış, lazımi maliyyə dəstəyi göstərmişlər. 1983-cü ilin iyun ayında Parisdə Orli aeroportunda 8 nəfərin ölümü və 50-dək insanın yaralanması ilə nəticələnmiş terror aktına görə ömürlük həbs cəzasına məhkum edilmiş terrorçu V. Qarabedyanın azad olunması üçün Ermənistanda dövlət səviyyəsində imzatoplama kampaniyası keçirilmişdir. 2001-ci ilin aprelində Fransa məhkəməsi tərəfindən azad olunan terrorçu Ermənistanda rəsmi sığınacaq tapmışdır.

Məşhur terrorçu, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmanın rəhbəri, 1981-ci ildə Türkiyənin Romadakı səfirinə sui-qəsd etdiyinə görə həbs olunmuş M. Melkonyan 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq Ermənistana gəlmiş, terror fəaliyyətini davam etdirmək üçün Dağlıq Qarabağa göndərilmiş və Xocavənd döyüşlərində məhv edilmişdir.

1992-ci ilin 26 fevralında ermənilər Azərbaycan Respublikasının Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutmuş, tarixə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə çoxlu sayda azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə nəticələnmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı soyqırımı erməni şovinist-millətçilərinin azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı, qanlı səhifəsidir. Xocalı faciəsi Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədilə apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasca ən dəhşətlisidir.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri növbəti genosid - Xocalı soyqırımı 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoymuş, 487 nəfər şikəst olmuş, 1.275 dinc sakin girov götürülmüş, 150 nəfər itkin düşmüşdür. Bu soyqırımı aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirilmiş, girov götürülənlərə amansız işgəncə verilmişdir. Həmin əməllərin qabaqcadan düşünülmüş qaydada, milli zəmində insanların məhv edilməsi niyyəti ilə törədilməsi faciənin məhz soyqırımı olduğunu sübut edir.

BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 saylı qətnaməsində qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə bədnam əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minən "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada genosid cinayətinin hüquqi əsası təsbit olunmuşdur. Konvensiyaya qoşulan dövlətlər dinc və yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin yürütdüyü soyqırımı siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir.

Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməl olmaqla, ən ağır beynəlxalq cinayət sayılır. Soyqırımı hər hansı milli, irqi, etnik və dini əlamətlərinə görə fərqlənən xüsusi bir qrupun tamamilə və ya qismən məhv edilməsinə yönəlmiş aşağıdakı hərəkətlərə deyilir: birincisi, həmin qrupun üzvlərinin öldürülməsi; ikincisi, onların sağlamlığına və ya əqli qabiliyyətinə zərər vurma, bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; üçüncüsü, qrupun qəsdən tam və ya qismən fiziki məhvinə gətirib çıxaracaq həyat şəraitinin yaradılması; dördüncüsü, həmin qrupda doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi; beşincisi, uşaqların bir insan qrupundan zorla başqasına keçirilməsi. Bunlardan hansısa biri hadisənin soyqırımı kimi qiymətləndirilməsi üçün kifayət edir. Bu meyarlar baxımından 1918-ci ilin mart hadisələri, habelə Xocalı faciəsi soyqırımı cinayəti kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikası Milli Məclisinin 1996-cı il 31 may tarixli "Genosid siyasətinin qarşısının alınması və onun cəzalandırılması haqqında Konvensiyaya qoşulmaq barədə" Azərbaycan Respublikasının Qanunu da bu baxımdan az əhəmiyyət daşımır. Bu qanunla respublikamız BMT Baş Assambleyasının 1948-ci il 9 dekabr tarixli Konvensiyasına qoşulmuşdur. Milli Məclisin Xocalı faciəsinin 15 illiyi ilə bağlı qərarında ermənilərin tarixən azərbaycanlılara qarşı soyqırımı və terror siyasəti yürütdüyü birmənalı qeyd olunmuşdur: "Xocalı faciəsi son yüz ildən artıq dövrdə davakar erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı və etnik təmizləmə siyasətinin yeni bir səhifəsi olmuşdur. XIX əsrin sonlarından etibarən çar Rusiyasının və digər dövlətlərin gizli və açıq himayəsindən istifadə edən erməni millətçiləri "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüş, ələ keçirmək istədikləri əraziləri yerli sakinlərdən təmizləmək niyyəti

ilə müxtəlif dövrlərdə Şərqi Anadoluda və Cənubi Qafqazda soyqırımı və terror aktları törədərək 2 milyona qədər günahsız türkü və azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər".

**Ən yaxşı müdafiə hücumdur**

Dünyada gedən qloballaşma prosesinin sivilizasiyalararası dialoqu zərurətə çevirdiyi bir vaxtda Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərinə etinasızlıq göstərməyə davam etməklə özünü ifşa edir, strateji layihələrdən kənarda qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqazın ən ciddi problemi kimi indiyə qədər həllini tapmaması bütövlükdə Xəzər hövzəsi regionunda sülhə, sabitliyə və iqtisadi əməkdaşlığa potensial təhdid kimi özünü göstərir. Azərbaycanın 20 faizdən artıq ərazisini işğal altında saxlayan bu təcavüzkar dövlətin ən müxtəlif səviyyələrdə ifşası, erməni lobbisinin türk dünyasına qarşı apardığı bədnam təbliğata qarşı səmərəli əks-hücumun təşkili prosesində bütün türkdilli dövlətlərin iştirakı olduqca vacibdir.

Dövlət başçısı cənab İlham Əliyev Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı çıxışında "Ən yaxşı müdafiə hücumdur" taktikasından çıxış etməklə türk dünyasına qarşı aşkar düşmənçilik siyasəti aparan bədnam ermənilərin yerində oturdulması vacibliyini önə çəkmişdir: "Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl bilirik və hiss edirik. Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücum etməliyik, çünki həqiqət bizim tərəfimizdədir".

Bir müddət əvvəl ABŞ Konqresində qondarma erməni soyqırımı ilə bağlı məsələnin ciddiliklə müzakirəyə çıxarılması, habelə bəzi Avropa ölkələrinin də bu məkrli kampaniyaya qoşulması ermənilərin saxtakarlıq mövqeyindən geri çəkilmək niyyətində olmadığını göstərir. Bu baxımdan xaricdəki diaspor və lobbi təşkilatlarımız da xüsusi fəallıq göstərməli, erməni məkrinə qarşı effektiv əks-hücuma keçməlidirlər. Eyni zamanda, erməni terror və soyqırımı siyasəti ilə bağlı təbliğat daxilə deyil, daha çox xaricə hesablanmalı, ayrı-ayrı dövlətlərin parlamentləri və hökumət qurumları ilə bu sahədə iş gücləndirilməlidir.

Ermənistanın təcavüzkarlıq siyasəti özünü həm də bu ölkənin ali sənədində əksini tapmışdır. Belə ki, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiası açıq şəkildə ortaya qoyulmuşdur. Bundan başqa, ermənilər kompakt yaşadıqları ölkələrdə də təxribatla məşğul olur, əsassız ərazi iddiaları ilə çıxış edirlər. Buna misal kimi Gürcüstanın Cavaxetiya bölgəsinə olan ərazi iddialarını göstərmək olar. Fikrimizcə, əks-təbliğat zamanı bu faktlardan da geniş istifadə olunmalı, erməni iddialarının gələcəkdə bütün dünya üçün başağrısına çevriləcəyi əsaslı şəkildə ortaya qoyulmalıdır.

31 mart və Xocalı soyqırımlarının dünya ictimaiyyətinə çatdırılması üçün indiyədək görülmüş işlər daha da genişləndirilməli, bu sahədə virtual məkanın - internetin hüdudsuz imkanlarından geniş istifadə olunmalıdır. Etiraf etməliyik ki, bədnam qonşularımız qondarma erməni soyqırımı iddialarını genişləndirmək üçün bu vasitədən geniş istifadə edirlər. Müxtəlif veb saytlarda Azərbaycanın və Qarabağın tarixi saxtalaşdırılır, Xocalı soyqırımı zamanı vəhşicəsinə qətlə yetirilmiş azərbaycanlılar həyasızcasına erməni kimi təqdim edilir. Eyni zamanda, Sumqayıt hadisələri ilə bağlı həqiqətə uyğun olmayan, yalan iddialar irəli sürülür. Bu baxımdan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, habelə Azərbaycanın tarixi əraziləri ilə bağlı son illərdə yazılmış əsərlərin xarici dillərə tərcümə olunması da son dərəcə vacibdir.

Son illər xüsusən Heydər Əliyev Fondunun bu faciələrlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması yönümündəki fəaliyyəti ermənilərin apardığı məkrli təbliğatın qarşısını alır. Bu istiqamətdə sistemli və ardıcıl fəaliyyət göstərən Heydər Əliyev Fondu Ermənistanın ölkəmizə qarşı təcavüzünün acı nəticələrinin dünya birliyinə çatdırılması üçün müxtəlif səviyyəli tədbirlər təşkil edir. Dağlıq Qarabağ münaqişəsində xalqımızın üzləşdiyi faciələri əks etdirən filmlərin, fotosənədlərin, kitabların və digər kütləvi nəşrlərin yayılması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Fondun dəstəyi ilə 2006-cı ildə Azərbaycan, fransız, alman, ərəb, ingilis və rus dillərində hazırlanmış "Qarabağ həqiqətləri" bukletlər toplusu və onların CD, DVD variantlarının bir sıra ölkələrdə paylanılması işğala məruz qalmış ölkəmizin üzləşdiyi fəlakətləri əks etdirən ən böyük təbliğat işlərindən biri olmuşdur. Toplunun 20 min nüsxəsi Xocalı soyqırımının 14-cü ildönümündə xarici ölkələrdəki səfirliklərimizə, Avropa Şurası Parlament Assambleyasının deputat korpusuna, beynəlxalq təşkilatlara, dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizə göndərilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr edilən "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitabçalarının elektron variantları 2007-ci ildə Xocalı soyqırımının 15-ci ildönümündə təşkilatın təşəbbüsü ilə Avropanın 15 dövlətində keçirilən anma mərasimlərində xarici ölkələrin diplomatik korpuslarına, beynəlxalq təşkilatlara, kütləvi informasiya

vasitələrinə, tanınmış ictimai-siyasi xadimlərə paylanmışdır. Zəngin faktlara və fotosənədlərə istinadla aparılan bu təbliğat kampaniyası yüz minlərlə avropalıya Qarabağ həqiqətləri, Xocalı soyqırımı, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkarlığı, işğalçılıq siyasəti haqqında əsl həqiqətləri çatdırmışdır.

Hesab edirik ki, bu istiqamətdə mühüm addımlardan biri də azərbaycanlıların tarixən kütləvi şəkildə soyqırımına məruz qaldığı bölgələrdə memorial komplekslərin və muzeylərin yaradılması ola bilər. Eyni zamanda, müxtəlif illərdə ermənilərin soyqırımı siyasətinin qurbanı olmuş soydaşlarımızın xatirəsinin əbədiləşdirilməsi üçün bölgələrdə abidələrin ucaldılması məqsədəuyğun olar. Belə komplekslər gənc nəslin tarixi həqiqətlərlə yaxından tanış edilməsi baxımından son dərəcə əhəmiyyətlidir. Əslində, məhz unutqanlığımızın nəticəsidir ki, zaman-zaman ermənilərin soyqırımı və terror siyasətinə məruz qalmışıq.

Xatırladaq ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli "Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" sərəncamı bu istiqamətdə mühüm addımlardan biridir. Sərəncamla Quba şəhərində kompleksin yaradılması üçün 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin Ehtiyat Fondundan Quba Rayon İcra Hakimiyyətinə 1 milyon manat ayrılmışdır. Belə bir kompleksin inşası Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından son dərəcə vacib əhəmiyyətə malikdir.

Özləri haqqında "məzlum xalq" obrazı yaratmağa çalışan ermənilər bu gün də dünya ictimaiyyətini qondarma soyqırımı iddiaları ilə çaşdırmağa, türklər və azərbaycanlılar barədə mənfi rəy formalaşdırmağa çalışırlar. Lakin zaman keçdikcə dünya ictimaiyyəti dərk edir ki, qondarma erməni soyqırımı məsələsi məhz Türkiyə və Azərbaycan əleyhinə qərəzli kampaniyanın tərkib hissəsidir. Eyni zamanda, hər iki ölkənin fəal surətdə apardığı əks-hücum kampaniyası ermənilərin əsl xislətini açır, Ermənistanın işğalçılıq siyasətini ifşa edir. Son illər əksər beynəlxalq təşkilatlar və dövlətlər də Ermənistanın işğalçılıq siyasətini pisləmiş, münaqişənin respublikamızın ərazi bütövlüyü və suverenliyi prinsipi əsasında həlli vacibliyini önə çəkmişlər. Dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyev ermənilərin təcavüzkarlıq siyasətindən əl çəkməyəcəyi təqdirdə Azərbaycanın güc tətbiq etmək məcburiyyətində qalacağını açıq bəyan edir. Bütün bunların müqabilində ölkə vətəndaşları ürəkdən inanırlar ki, haqq-ədalət öz yerini tapacaq, Azərbaycanın ərazi bütövlüyü tezliklə bərpa olunacaqdır.

**Rafael CƏBRAYILOV,**
**Milli Məclisin deputatı**

"**Azərbaycan**".-2010.-30 mart.-N 65.-S.6.

**Ermənilərin törətdiyi faciələr misli görünməmiş soyqırımı aktıdır**

***Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

Təcavüzkar erməni millətçiləri xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırımı siyasətini həyata keçirmişlər. Azərbaycanlıları tarixi torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə mifik "böyük Ermənistan" yaratmaq məqsədi ilə Azərbaycan və türk xalqları onilliklər boyu müntəzəm surətdə ermənilərin ideoloji, hərbi və mədəni təcavüzünə məruz qalmışdır. Xalqımızın tarixi kobud surətdə saxtalaşdırılmış, mədəniyyətimiz, toponimlərimiz ermənilər tərəfindən özününküləşdirilmişdir.

Soyqırımı siyasəti müxtəlif dövrlərdə fərqli formalarda həyata keçirilmiş, kütləvi qətllər və hərbi əməliyyatlarla müşayiət olunmuşdur. XIX əsrin birinci yarısında İrandan və Osmanlı imperiyasından köçürülən ermənilərin hesabına Qarabağ və Zəngəzurda demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905 və 1918-ci illərdə azərbaycanlı əhalinin kütləvi qırğınları, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması və Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəştə gedilməsi, 1920-ci illərdə sovet hökuməti tərəfindən Zəngəzurun ermənilərə verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası və sair faktlar soyqırımı tarixinin faciəli və qanlı səhifələridir.

1988-ci ildə erməni millətçiləri SSRİ rəhbərliyinin və xarici havadarlarının təhriki ilə Dağlıq Qarabağı güclə Ermənistana birləşdirmək üçün Azərbaycana qarşı açıq təcavüzə başladılar və az sonra tammiqyaslı hərbi əməliyyatlara keçdilər. 1992-ci ilin fevralında erməni hərbi birləşmələrinin törətdiyi Xocalı faciəsi öz qəddarlığına və amansızlığına görə misli görünməmiş soyqırımı aktı insanlığın tarixində qara ləkə kimi qalacaqdır.

Yeri gəlmişkən, burada bir məqama da toxunmağı vacib bilirəm. Erməni qəddarlığından danışarkən, xalqımıza qarşı törədilən soyqırımı aktlarına təfərrüatı ilə diqqət yetirmək lazımdır. Bunun üçün ilk növbədə "soyqırımı" anlayışının nə olduğunu, onun müasir beynəlxalq hüquq elmində necə müəyyənləşdirildiyini dəqiqləşdirmək zəruridir. "Soyqırımı" ifadəsi ilk dəfə olaraq, 1949-cu il dekabrın 9-da BMT BA-nın İnsan Hüquqları Komissiyasının "Soyqırımı siyasəti üçün xəbərdarlıq edilməsi və ona görə cəzalandırma Konvensiyası"nın II maddəsində bir beynəlxalq hüquqi termin kimi qəbul edilərək istifadə olunmuşdur. Dünyanın müxtəlif ölkələri BMT-nin Soyqırımı Bəyannaməsini imzalamışlar. Bu bəyannaməni 1950-ci ildə Türkiyə dövləti də imzalamış və həmin sənəddən irəli gələn məsuliyyəti qəbul etmişdir. Həmin maddəyə görə, soyqırımı bir millətin dil, din, məzhəb və milli fərqləri ilə əlaqədar olaraq bir dövlət və ya hərbi-siyasi qurum tərəfindən məqsədli şəkildə yox edilməsi prosesini nəzərdə tutur. Bu prosesin hər hansı ölkənin hökuməti və ya hərbi siyasi təşkilatı tərəfindən həyata keçirilməsi əsas şərt olaraq qəbul edilir. Ümumiyyətlə, "Soyqırımı hər hansı milli, etnik, irqi və ya dini mənsubiyyətə görə, hər hansı bir xalqın və etnik qrupun qəsdən məhv edilməsi məqsədini güdən hərəkətə deyilir".

Soyqırımı hərəkətini müəyyən edən bütün bu hallara Azərbaycan xalqının XX əsr tarixinin bütün mərhələlərində bir cinayət faktı kimi rast gəlinir. Bu ağır və qeyri-insani hərəkəti törətməkdə ermənilər və onların himayədarlarının son məqsədi nədir? Bu əsas suala cavab vermək üçün tarixi faktlara dönə-dönə müraciət etmək lazımdır. Artıq indi inkaredilməz bir həqiqətdir ki, ermənilər ta qədim zamanlardan, tarixin bütün mərhələlərində azərbaycanlılara və türklərə qarşı xəyanət və düşmənçilik mövqeyi tutmuşlar.

Azərbaycan Cənubi Qafqazın və Ön Asiyanın ən qədim tarix və zəngin mədəniyyətə malik bir ölkəsidir. Bu zəngin tarix iki milyon ildən çox bir dövrü əhatə edir və bəşər tarixinin bütün mərhələləri Azərbaycan torpağında öz silinməz izini qoymuşdur. Qədim Azərbaycan tarixinin hər bir səhifəsi çox qiymətli hadisələrlə zəngindir. Onu da qeyd etmək lazımdır ki, bu tarixin qanlı səhifələri də az deyildir. Məlumdur ki, Azərbaycan öz geosiyasi vəziyyətinə görə bütün dövrlərdə nəhəng imperiyaların hədəfinə çevrilmiş, əraziləri işğal edilmiş, müəyyən mərhələdə öz dövlətçiliyindən məhrum olmuş, əhalisi isə dəfələrlə deportasiyaya, etnik təmizləməyə və soyqırıma məruz qalmışdır. Bütün bəşəriyyət üçün ən ağır cinayət sayılan bu proseslər Azərbaycan xalqına qarşı XVIII-XX əsrlərdə çar Rusiyasının, eləcə də onun varisi olan SSRİ dövlətinin əlində alət olan ermənilər tərəfindən həyata keçirilmişdir.

XVIII əsrin I yarısında çar Rusiyasının xarici siyasətində əsas istiqamətlərdən biri Türkiyə və Qafqazı ələ keçirmək idi. Bunun həlli üçün isə Rusiya imperiyasına bu ərazilərdə həm keçmiş, həm də müasir Rusiya hakim dairələri nümayəndələrinin dedikləri kimi, hərbi-siyasi qüvvə-forpost lazım idi və bu rolu isə Türkiyə və Qafqazın xristian əhalisi oynaya bilərdi. Lakin qeyd etmək lazımdır ki, hələ XVIII əsrdə İran və Osmanlı Türkiyəsi ərazilərində yaşayan və Cənubi Qafqaza heç bir aidiyyəti olmayan ermənilər öz "zülmkarlarından" azad olmaq üçün Qərbi Avropaya ümid bəsləyirdilər. Bu məqsədlə 1678-ci ildə Azərbaycan Səfəvilər dövlətinin üçüncü paytaxtı olan İsfahan şəhəri yaxınlığında I Şah Abbas tərəfindən ermənilər üçün salınmış Culfa şəhərində katalikos Akopun sədrliyi ilə erməni Qriqoryan kilsəsinin və tacirlərinin xüsusi müşavirəsi keçirilir və yeddi nəfərlik nümayəndə heyəti Avropaya göndərilir. Avropada uğursuzluğa düçar olan ermənilər Avstriya imperatorunun məsləhəti ilə Rusiya çarı I Pyotra müraciət edir və onun tərəfindən böyük ehtiramla qarşılanırlar. Avstriya monarxı I Pyotra yazdığı məktubunda ermənilərin əsas məqsədini belə izah edir: "Ermənilər mənim yanıma Beros nəslindən olan Uri adlı bir məlikzadəni və vartapet Minası göndərmişlər. Onların əsas məqsədi Ermənistanı İran zülmündən azad etməkdir...". Belə bir fürsəti çoxdan gözləyən I Pyotr Qafqazın işğalı üçün hərbi-strateji planın hazırlanmasına 21 il vaxt sərf etdi. Bu planın əsas mahiyyətini Cənubi Qafqazın böyük hissəsini və İranın şimalını əhatə edən bütöv Azərbaycanı ələ keçirərək, bura Türkiyə və İrandan erməniləri köçürmək və paytaxtı Xəzər dənizi sahilində yerləşən, Rusiya imperiyasının Ön Asiya, Yaxın Şərq ölkələrinə və Hind okeanına çıxışını maneəsiz reallaşdıracaq qondarma bir erməni "dövlətinin" – forpostun yaradılması təşkil edirdi. Məlumdur ki, o zaman bu planların həyata keçirilməsinə I Pyotrun ölümü mane olsa da, onun 1724-cü ilin oktyabrında gələcəkdə işğal ediləcək ərazilərə ermənilərin köçürülməsi ilə bağlı verdiyi fərman mühüm rol oynadı. Məhz bu dövrdən azərbaycanlı əhaliyə qarşı deportasiya, etnik təmizləmə və soyqırımı siyasətinin əsası qoyuldu.

Rus alimi F. Semyonovun "Orta əsrlər tarixi" əsərində göstərdiyi kimi, XI-XIII əsrlərdə Roma papalarının çağırışı ilə İsa peyğəmbərin xilası pərdəsi altında türklərə qarşı təşkil edilən xaç yürüşlərinin əsas bələdçiləri yenə də ermənilər olmuşdur. Uzun müddət Səfəvi və Osmanlı imperiyaları kimi qüvvətli dövlətlərin təbəələri sayılan bu bədnam kütlə xəyanət üçün fürsət axtarırdı.

II Dünya müharibəsi illərində alman faşistlərinin yəhudilərə, 1992-1993-cü illərdə Bosniya-Herseqovinada serblərin müsəlmanlara qarşı törətdikləri qanlı cinayətlər, Azərbaycanda isə ermənilərin azərbaycanlılara qarşı soyqırımı faciələri dedikdə, hər kəsə yaxşı bəlli olan tarixi ardıcıllıq yada düşür: 1905-1907, 1915-1918-1920, 1948-1953, 1988-ci ildən bu günə qədər (1988-1994-cü illərdə Xocalı və başqa yerlərdə Ermənistan dövləti tərəfindən həyata keçirilən qırğınları soyqırım adlandırmaq olar). İndi diqqət yetirək: tarixdən məlum olan hansı soyqırım hadisəsində belə bir vəziyyət müşahidə olunur? Demək olar ki, heç birində. Azərbaycan xalqına qarşı törədilən cinayət-deportasiya, etnik təmizləmə və soyqırımının ümumi sahəsi 46,7 min kvadratkilometr ərazini əhatə etsə də, buna yalnız ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanında qiymət verilmişdir. Buradan aydın olur ki, zaman, faktiki şərait, siyasi mühit dəyişmiş, lakin ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti dəyişməmişdir. Bəzən cəmiyyətdə elə təsəvvür yaranır ki, bu məsələ yalnız tarixçilərin işidir. Əslində, bu, belə deyil, soyqırımı ilə bağlı məsələlər ümummilli mahiyyət daşıdığından təkcə tarixçilərin, psixoloqların, hüquqşünasların deyil, həm də hərbçilərin və bir sıra digər sahələr üzrə mütəxəssislərin iştirakı ilə araşdırılmalıdır. Aşkara çıxan acı həqiqət ondan ibarətdir ki, Azərbaycan xalqı bir əsrdə həm obyektiv, həm də subyektiv səbəblərdən onun varlığına qarşı yönəlmiş soyqırımı kimi dəhşətli faciənin qarşısını almağa hazır olmamışdır.

Lakin XX əsrin sonunda Azərbaycanın dövlət müstəqilliyinin bərpası və xalqımızın öz taleyinin, torpaqlarının və milli sərvətlərinin sahibinə çevrildikdən, xüsusilə də milli lider Heydər Əliyevin bu həlledici tarixi mərhələdə milli dövlətçiliyə rəhbərlik etməyə başlamasından sonra azərbaycanlılara qarşı törədilmiş cinayətlərin üstünü açmaq, onlara siyasi və hüquqi qiymət vermək mümkün oldu. Çar Rusiyası dövlət orqanlarının, 1918-ci ildə AXC Fövqəladə Təhqiqat Komissiyasının və Sovet dövlət orqanlarının tərtib etdikləri sənədlər əsasında ulu öndər Heydər Əliyev tərəfindən 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında" və 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" son dərəcə çox mühüm sənədlər imzalandı. Bu sənədlər həm hüquqi, həm də siyasi cəhətdən azərbaycanlılara qarşı törədilən cinayətlərin aşkara çıxarılması və onların beynəlxalq hüquq baxımından mühakimə olunması üçün zəmin yaratmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin imzaladığı həmin sənədlər bir neçə mühüm vəzifəni həll etmək üçün çox böyük əhəmiyyətə malikdir. Birincisi, bu, tariximizə düzgün və obyektiv qiymət verilməsi baxımından böyük əhəmiyyət kəsb edir. İkincisi, azərbaycanlıların soyqırımı məsələsini dünya siyasəti səviyyəsinə çıxarır və bütün mütərəqqi qüvvələri, türkün dostlarını əsl həqiqətlərlə tanış edir, dünya azərbaycanlılarının bu məsələ ilə bağlı mövqe və baxışlarını konkretləşdirir. Üçüncüsü, ermənilərin "erməni soyqırımı" məsələsi üzərində qurulmuş təbliğatının effektini azaldır, onların təbliğatını neytrallaşdırır.

Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən sonuncu tarixi sənəddə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması təsbitlənmişdir. Ötən dövr ərzində Azərbaycan dövləti xalqımızın iki əsr boyu məruz qaldığı soyqırımının dəhşətli miqyasını beynəlxalq ictimaiyyətə çatdırmaq üçün xeyli iş görmüşdür. Amma bunlar bizdə arxayınlıq yaratmamalıdır. Bədnam qonşularımızın saxta "erməni soyqırımı" iddialarının cəfəngiyat olduğunu sübuta yetirmək üçün sistemli və ardıcıl surətdə iş aparmalıyıq. Tarix boyu xalqımızın başına hansı faciələrin gətirildiyini, çəkdiyimiz müsibətlərin gerçək miqyasını və mahiyyətini ilk növbədə özümüz dərindən dərk etməliyik. Bunun üçünsə, həmin tarixi təkcə 31 mart günü deyil, hər gün xatırlamağa, öyrənməyə və unutmamağa borcluyuq.

**Dilqəm QULİYEV,**
**Azərbaycan DBTİA-nın prorektoru, professor**

"**Xalq qəzeti**".-2010.-30 mart.-N 65.-S.5.

**Uydurma erməni soyqırımı səngiməkbilmir, tarix isə faktlara əsaslanır**

***Ermənilər nə istəyirlər? Niyə onları susdurmaq mümkün deyil?! Niyə biz —Türkiyə və Azərbaycan yalnız ermənilərin hücum taktikasından sonra cavab taktikası ilə hərəkət edirik, Çünki ermənilərin istəkləri və planları imkanlarından qat-qat çoxdur. Məhdud imkan və böyük iddialar olan yerdə saysız-hesabsız cəhdlər, vurnuxmalar, əsassız problem törətmək təbiidir.***

Konkret olaraq günün mövzusu olan "erməni soyqırımı"nın tarixinə nəzər salaq. XX əsrin ilk onilliyində əvvəllər dünyanın birmənalı olaraq hesablaşdığı Osmanlı imperiyası zəifləməyə başlamışdı. Dünya tarixində bütün imperiyaların son aqibəti artıq osmanlıları da yaxalamaqdaydı. Osmanlı dövlətinin rəhbərləri, sanki bunun fərqində deyildi. Amma Osmanlı dövlətinin tərkibində yaşamaq hüququ verilmiş, türklərin səxavətinə sığınaraq artıb - çoxalan ermənilər bunun fərqində idilər. Onlar daxildə təşkilatlanır, birləşir və lazım gələn anda hərəkət etməyə hazırlaşırdılar.

Artıq ötən əsrin ikinci onilliyində Rusiya – Osmanlı müharibəsində ermənilər gözlədikləri anın yetişdiyinə qərar verdilər. Xırda erməni birləşmələri xaricdən silahlanaraq vətəndaş itaətsizliyi göstərməyə, silahsız, dinc əhaliyə qarşı soyqırım aktı törətməyə başladılar. Əslində, ermənilər Rusiya – Osmanlı müharibəsində torpaqlarında yaşadıqları Türkiyə dövlətinə xəyanət edərək, daxildən Rusiya ordusuna kömək edirdilər. 1915-ci ildə Osmanlı dövlətinin böyük problemlərə başı qarışdığından istifadə edən ermənilər, Şərqi Anadoluda oyuncaq "erməni dövləti" yaratdılar. Çar Rusiyası bu qondarma quruma muxtariyyət verilməsini dəstəkləyir və erməni hərəkatını daha da qızışdırırdı.

Ermənilərin vətəndaş itaətsizliyi, dövlət qanunlarına zidd hərəkətləri sükutla qarşılana bilməzdi. Təbii olaraq o vaxt Türkiyə dövləti qanunsuz birləşmələri dağıtmış, təşkilatın fəal üzvlərini həbs etmiş, birliklərin bağlanması haqqında qərar vermişdi. Sual olunur: Bu gün XX əsrin sivil dövlətlərindən hansı biri öz daxilində qiyam qaldıran hərbi dəstələri sükutla qarşılayar? Bu faktdır ki, bütün sivil dövlətlərin qanunlarında, Konstitusiyasında dövlətə, dövlətçiliyə qarşı çıxan qüvvələr üçün ən ağır cəza nəzərdə tutulur. Belə olduğu halda nə üçün Osmanlı Türkiyəsi günahkar hesab olunur?

Türklər erməniləri 1915-ci ildə törətdikləri cinayətlərə görə əslində daha ağır cəzalandırmalı idilər. Amma bunu etməmişlər. Ermənilər Türkiyənin Şərqi Anadolu bölgəsindən, qiyam qaldırdıqları yerdən Türkiyənin təhlükəsiz bölgələrinə köçürülmüşlər. Ermənilərin "soyqırım aktı" kimi qəbul etdirməyə çalışdıqları hadisə onların Osmanlı dövlətinə qarşı qiyamından ibarətdir. Bu gün göstərilən 2-3 milyon ermənininin qırılması faktı tarixi həqiqət qarşısında çox gülünc görünür. Tarixçilər sübut ediblər ki, 1914-cü ilin rəsmi sənədlərində Osmanlı dövləti daxilində ermənilərin sayı bir milyon iki yüz min nəfər civarında olmuşdur.

Türklər ermənilərə qarşı soyqırım aktı həyata keçirməyiblər. Bunu tarixi faktlardan başqa, məntiqə əsaslanaraq da söyləmək mümkündür. Nəyə görə? Birincisi, türk milli mentallığında sığınacaq istəyən insana, qəribə böyük bir aman var. Türkiyə torpaqlarına gəlmə olan ermənilərə türklər amansızlıq etməzdi. İkincisi, Osmanlı dövləti möhtəşəm bir imperiya idi və dünyada nüfuz sahibi idi. Onun öz böyük problemləri var idi. Üçüncüsü, türklər ermənilərə tarix boyu "bir ovuc erməni" kimi baxıblar. Onu heç vaxt təhlükə hesab etməyiblər.

Bugünkü dünya dövlətlərinin, xüsusilə, Avropanın bir sıra dövlətlərinin və Amerikanın məsələyə birtərəfli, səthi, bəzən də qərəzli yanaşması insanı düşündürməyə bilmir. Nəyə görə ermənilərə "soyqırım aktı"nı sübut et - deyilmir? Amma türklərə soyqırım aktını həyata keçirmədiyinizi sübut edin – deyilir. Görəsən, dünya düzənində güc mərkəzləri dəyişəndə Afrikada, Balkanlarda, Azərbaycanda, İraqda, Əfqanıstanda, Fələstində qırğınlar, fəlakətlər törədənlərdən bu işi görmədiklərini sübuta yetirmək tələb olunanda cavab necə olacaq?! Yeri gəlmişkən, tarixdən böyük suallar həmişə gözlənilən dir! Söz yox ki, Afrika, Balkan, Xocalı, İraq, Əfqan və Fələstin qırğınlarının Osmanlı hadisələri ilə heç bir paraleli yoxdur. Amma maraqlıdır, tarix Afrika, Balkan, Azərbaycan, İraq, Əfqan və Fələstin xalqından soyqırım aktının sübutunu tələb edəcək, yoxsa onu törədənlərdən faktın olmadığını? Türkləri etmədikləri əməldə suçlu saymaq istəyənlər tarixi unutmasınlar. Tarix çox dəqiq və amansızdır...

Tarixin bütün çətinliklərini adlaya bilmiş, 80 milyondan çox əhalisi olan böyük türk dövləti, şübhəsiz, zamanın bu sınağından da uğurla çıxacaq. Sadəcə, çox böyük dirəniş göstərmək, gücünü səfərbər etmək lazım gəlir. Bu məsələlərlə məşğul olan siyasətçilər bəzən soyuqqanlılıqla qeyd edirlər ki, İsveçrə "erməni soyqırımını" tanıyan 19-cu dövlətdir. Bunun ardınca ABŞ "soyqırım"ı tanıyarsa, bu 20-ci dövlət olacaq. Dünya dövlətlərinin say tərkibində 20 rəqəmi çox deyil. Bu məsələdə iyirminci olan dövlətin, müasir dünya siyasətində birinci dövlət olduğunu necə unutmaq olar?! Məsələyə psixoloji aspektdən yanaşsaq, aydın deyilmi ki, dünyanın birinci dövlətinin "bəli" dediyi məsələ araşdırılmadan, təhlil edilmədən digər ölkələr tərəfindən maneəsiz qəbul edilə bilər. Əgər "yox" deyilsə, onda əsassız erməni iddiaları bu dəfə də xırda irəliləyişdən başqa bir nəticə

verməz. Türkiyə və onu bu məsələdə dəstəkləyən dövlətlər, xalqlar nə edəcəklərsə, bu ABŞ-ın məsələyə rəsmi münasibətindən öncə baş verməlidir.

Türkiyə nə etməlidir? Əksər siyasətçilərin təklif etdiyi "siyasi iradə ortaya qoymalıdır" variantı keçərli görünmür. Ona görə ki, bugünkü siyasət, təəssüf ki, şanlı tarixi keçmişlə və böyük hərb ənənələri ilə idarə edilmir, potensial dəyər də burada hələlik heç nədir. Real imkanlar bu məsələdə əsas rol oynayır. Türkiyənin real təsir imkanları var. Bəzən böyük dövlətlər digərlərinin nəyə qadir olduğunu yoxlamaq, bilmək məqsədilə onlara süni problem yaradırlar. Bu problem kontekstində həmin dövlətin, xalqın potensial gücü aşkarlanır və bundan sonrakı siyasi xətt ona uyğun nizamlanır. Necə unutmaq olar ki, Amerikada dövlət siyasətini şəxsiyyətlər, fərdlər deyil, institutlar işləyib hazırlayır və yönləndirir. Türkiyə real imkanlara əsaslanaraq danışıqlar apara bilər. İmkanlar nədən ibarətdir?

Türkiyə dövlətinin dünya dövlətlərinə münasibətdə ABŞ ilə görünən və görünməyən fikir paylaşmaları var. Bu sadə məsələ deyil. İkinci, Türkiyə bölgənin əsas dövlətidir. Regionda bir sıra məsələlər Türkiyə ilə razılaşdırılır. Üçüncü, Türkiyənin iqtisadi tərəfdaşlığı qüvvətli amildir. Nəhayət, Türkiyə bir neçə beynəlxalq əhəmiyyətli neft-boru kəmərinin fəaliyyətinə nəzarət mexanizminə sahibdir. Bir sözlə, Türkiyə böyük dövlət kimi, böyük dövlətlər üçün ciddi siyasi, diplomatik, regional əhəmiyyət daşıyır. Türkiyənin əhəmiyyəti Avropa və ABŞ üçün Ermənistandan ağlagəlməz dərəcədə çoxdur. Türkiyə baş verəcək qanunsuzluğu önləməkdə gecikə bilməz.

Bu məsələdə Azərbaycan Türkiyənin yanındadır. Bütün tarixi dönəmlərdə olduğu kimi, türkün türkdən böyük dostu yoxdur.

Türkiyənin indiki vəziyyəti siyasi təhlil və əsaslandırma tələb etdiyindən daha çox elmi əsaslandırma gərəkdir. Elmi mübarizədə ancaq akademizm uda bilir. Türk dünyası gecikmədən yenilməz iradə və məntiq ortaya qoymaq zorundadır.

**Natəvan DƏMİRÇİOĞLU,**
**yazıçı**

"**Xalq qəzeti**".-2010.-30 mart.-N 65.-S.5

## 1918-ci il mart soyqırımı

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fərmanı ilə 1998-ci ildən başlayaraq azərbaycanlıların Soyqırımı günü dərin kədər hissi ilə geniş qeyd edilir. Uzun müddət xalqımızın yaddaşından silinməyə cəhd edilmiş bu qanlı soyqırımı faciəsinə ilk dəfə hüquqi-siyasi qiyməti xalqımızın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyev verdi. Heydər Əliyevin böyük cəsarəti sayəsində tarixi həqiqət bərpa olundu və respublika alimlərinə soyqırım hadisələrini doğru, düzgün və obyektiv tədqiq etmək üçün konkret istiqamət verildi. Tarixi həqiqət isə belədir ki, erməni cəlladları başqa vaxtlarda olduğu kimi, 1918-ci ilin mart-aprelində Bakı şəhərində və Azərbaycanın digər bölgələrində minlərlə dinc azərbaycanlı əhalini yalnız milli mənsubiyyətinə görə məhv etmiş, evlərə və tarixi abidələrə od vurmuş, insanları diri-diri yandırmış, hamilə qadınların qarnını yırtaraq körpə və südəmər uşaqların başını nizəyə keçirmiş, xəstələrə, qocalara — heç kimə aman verməmişlər. Vəhşiləşmiş erməni cinayətkarları Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Lənkəranda və başqa yerlərdə soyqırımı xüsusi qəddarlıqla həyata keçirmişlər.

Əsrlər boyu Azərbaycan torpaqlarına göz dikən fitnəkar və araqarışdıran erməni millətçiləri monoetnik Ermənistan uğrunda gizli və bəzən leqal müharibələr aparmış, "Dənizdən-dənizə böyük imperiya" yaratmaq üçün türk-Azərbaycan xalqlarına qarşı soyqırımı siyasəti yeritmişlər. Hiyləgər və riyakar ermənilər ən alçaq və rəzil mübarizə formalarından məharətlə istifadə edərək bədnam və yalançı niyyətlərini reallaşdırmağa cəhd etmiş, bu torpaqlara "qonaq" kimi gəlib, sonradan onun "sahibi" kimi yalanlar uydurmağa başlamışlar. Xüsusilə, XIX-XX yüzilliklərdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq, kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. 31 mart — Azərbaycanlıların soyqırımı günü ilə bağlı Azərbaycan xalqına müraciətində Heydər Əliyev demişdir: "Hər il martın 31-ni azərbaycanlıların soyqırımı günü kimi qeyd etməklə, biz bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən geniş miqyaslı qanlı aksiyaları ürək ağrısı ilə yad edirik".

Ancaq çox təəssüflər olsun ki, erməni millətçiləri ağına-bozuna baxmadan tarixi saxtalaşdırır, gah Türkiyəyə qarşı, gah Azərbaycana qarşı, gah Gürcüstana, gah da Rusiyaya və Dağıstana qarşı əsassız ərazi iddiaları irəli sürür və beləliklə, "Böyük Ermənistan" yaratmaq üçün müxtəlif yalanlar uydurur, bəzən də ayrı-ayrı ölkələrdə dövlət və hökumət rəhbərlərini öz fırıldaqlarına inandıra bilirlər. Akademik V. L. Veliçkonun dəqiq ifadə etdiyi kimi, ermənilər qədimdən ikiüzlü və nankor paxıl və vəfasız, oğru və yalançıdırlar. Zaman-zaman türklərə və azərbaycanlılara qarşı dəhşətli qırğınlar törədən erməni başkəsənləri özlərinin yalançı tezisləri ilə dünyanı aldadır və əslində, tarixi saxtalaşdırmağa çalışırlar. Ancaq onlar, nəhayət, anlamalı və başa düşməlidirlər ki, bəşər tarixində ən real və düzgün həqiqəti zaman özü verir. Çünki Tarix nə vaxtsa, tarixi həqiqətləri üzə çıxaracaq və kimin yalançı, kimin doğru olduğunu faktlarla sübut edəcək. Çünki hər tarixin öz zamanı, hər zamanın öz tarixi vardır. Bəli, artıq həmin zaman gəlib çatmış, tarixi həqiqətlər arxivlərin və mənbələrin dili ilə üzə çıxmışdır. Erməni daşnakları özlərinin lideri və türk dünyasının qatı düşməni olan S. Şaumyanın fitvası ilə 1918-ci ilin martında təkcə Bakı şəhərində və şəhərətrafı kəndlərdə 30 min azərbaycanlını qətlə yetirdilər. Bu, əsl soyqırım idi.

Ulu öndərimiz Heydər Əliyevin imzaladığı fərmanda deyildiyi kimi, ermənilər minlərlə dinc azərbaycanlını məhv etmiş, evlərə od vurmuş, insanları diri-diri yandırmış, milli memarlıq abidələrini dağıtmış, Bakının böyük bir hissəsini və yüzlərlə kəndi xarabalığa çevirmişlər. Ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşında əbədi həkk olunmuşdur.

Mart qırğını XX əsr Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri, xalqımıza qarşı törədilən qanlı faciə və soyqırımdır. Azərbaycanda və bir sıra xarici ölkələrdə bu faciə ilə bağlı xeyli tədqiqatlar aparılmışdır. Çox təəssüf ki, bu dəhşətli hadisə sovet tarixşünaslığı tərəfindən saxtalaşdırıldığından, uzun müddət xalqa yanlış şəkildə təqdim olunmuşdur. Hətta hadisələrin cərəyan etdiyi dövrdə belə "Naş qolos" qəzetindən başqa Azərbaycanın bütün bolşevik təmayüllü mətbuatı mart qırğınını "vətəndaş müharibəsi" kimi qələmə verirdi. "Naş qolos" qəzeti isə bu hadisəyə milli ədavət kimi qiymət verirdi. Bakıda və Azərbaycanın digər bölgələrində baş verən 1918-ci ilin mart-aprel hadisələrini əsas tutan ABŞ tarixçisi R. Syuni "Bakı Kommunası", 1917-1918-ci illər. Rus inqilabında sinif və millət" adlı monumental tədqiqatında müşahidə etmişdir ki, Zaqafqaziyada, xüsusilə, Bakıda inqilabi mübarizə sinfi mahiyyət daşımamış, millətlərarası müharibə zəminində baş vermişdir.

Son illərdə Azərbaycan tarixçiləri bu faciənin mahiyyətinin işıqlandırılması istiqamətində ciddi tədqiqatlar aparmış, fundamental kitablar yazmışlar. Azərbaycan milli hərəkatının inkişafına böyük təsir

göstərmiş mart hadisələrini təbii ki, Zaqafqaziyada cərəyan edən hadisələrdən təcrid olunmuş halda qiymətləndirmək olmaz.

"Müsavat"ın xalq arasında artan nüfuzundan qorxuya düşən erməni milli partiyaları və "bolşevik" ermənilər Bakıda hakimiyyət məsələsini tam həll etmək, Azərbaycan xalqının milli ruhunu öldürmək məqsədilə iy-rənc üsullara belə əl atmaqdan çəkinmədilər. Həmin dövrün siyasi ab-havasını araşdırmış olan daşnakstyun partiyasının lideri Ovanes Kaçazuni qeyd edirdi ki, "bolşeviklərə qarşı yalnız iki partiya real qüvvə çıxara bilərdi: "Müsavat" və "Daşnaksütyun". "Daşnaksütyun" belə hesab edir-di ki, "Müsavat"la onun dostluğu bolşevik təhlükəsi olduqda lazımdır. Bakıda bizim köməyimizlə bolşeviklər "Müsavat"ı darmadağın etdilər".

Oktyabr hadisələrindən sonra Qafqazın sovetləşdirilməsi problemi Rusiya bolşeviklərinin qarşısında duran aktual məsələlərdən idi. 1917-ci il dekabr ayının 16-da Petroqrad Xalq Komissarları Soveti öz iclasını "Qafqazda vəziyyət haqqında" məsələyə həsr etmiş və Bakı Sovetinin sədri S. Şaumyan "Qafqaz və Qərbi Ermənistan üzrə fövqəladə komissar" təyin olunmuşdu. Bunun ardınca Bakı Soveti rəhbərliyi şəhərdə Qızıl Ordu hissələri adı ilə erməni qoşun birləşmələrini yaratmağa başladılar. Bu iş erməni siyasətci və hərbçilərinin nəzarəti altında icra olunurdu. Daşnak Z. Avetisyan Qızıl Ordunun qərargah rəisi, Hamazasp üçüncü briqadanın komandiri, polkovnik Qazarov isə korpus komandiri vəzifələrini icra edirdilər.

Tarixi fakt və sənədlərin araşdırılması mart qırğınının qabaqcadan düşünülmüş, planlı surətdə hazırlanmış və həyata keçirilmiş bir soyqırım olduğunu sübut edir. Qanlı hadisənin başlanmasından bir qədər əvvəl Bakı Sovetinin iclaslarında və digər yığıncaqlarında S. Şaumyan M. Ə. Rəsulzadə və A. Kazımzadəni təhlükəli şəxslər kimi təqdim edir, onlara məxsus silahlı qüvvələrin guya Türkiyə sultanına arxalandığı fikrini təbliğ edirdi.

1918-ci il mart ayının 15-də Şaumyan Bakı Sovetinin iclasında çəkinmədən: "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir", - deyə bəyan etmişdi. Bir gün əvvəl, mart ayının 14-də S. Şaumyanın əmri ilə erməni cəlladı Əmirovun komandanlığı altında Şamaxı şəhərinə bolşevik silahlı birləşmələri göndərildi. Salyan, Hacıqabul, Muğan və Lənkəran bölgələrinə silahlı bolşevik dəstələri yeridildi. Toqquşmanı başlamaq üçün bəhanə bu ərəfədə H. Z. Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 nəfər hərbçinin gəlişi oldu. Dəfndən sonra zabitlər həmin gəmi ilə geri qayıtmalı idilər. Erməni daşnakları fitnəkarlıqla əsgər və matroslar, eser və menşevik partiyaları, rus milli şurası arasında şayiə yayırdılar ki, "Evelina"dakı zabitlər guya ki, Muğandakı Malakan kəndlərini dağıtmaq üçün xüsusi göstəriş alıblar.

Erməni daşnaklarının rəhbərliyi və iştirakı ilə şəhərin müxtəlif yerlərində azərbaycanlıların əleyhinə mitinq və yığıncaqlar keçirilməyə başlandı. Bunun nəticəsində Bakının bütün qeyri-türk siyasi birlikləri və hərbi qüvvələri "Evelina"nın tərksilah edilməsi tələbini irəli sürdülər. Mürəkkəb siyasi şərait yarandı. Daşnakların zəhərli təbliğatı "öz işini" görmüşdü.

Mart ayının 30-da ilk döyüşlər başlandı. Döyüşlərə rəhbərlik üçün S. Şaumyan, Q. Korqanov, i. Suxartsev, S. Saakyan və M. Yolçiyan daxil olmaqla, Bakı Soveti yanında inqilabı müdafiə komitəsi yaradıldı. Belə bir müdafiə komitəsinin yaradılması qabaqcadan düşünülmüş qırğın planından xəbər verirdi.

Aparılmış tədqiqatlardan aydın olur ki, türk xalqlarının qatı düş-məni olan daşnak Şaumyanın göstərişi ilə Bakı Sovetinin sərəncamında olan hərbi qüvvələr, Xəzər dənizi hərbi donanmasının gəmiləri və təyyarələri döyüşə hazır vəziyyətə gətirilmişdi. Hətta rus əsgər və matroslarına da belə bir yalançı təbliğat aparılmışdı ki, guya müsəlmanlar rus əhalisini qırırlar. Ermənilərin bu yalanı baş tutdusa da, ancaq sonradan onun böhtan və təxribat olduğunu bilən rus matrosları atəşi dayandırdılar. Lakin erməni silahlı dəstələri Bakı şəhərinin müxtəlif məhəllələrində dinc müsəlmanların qırğınını davam etdirirdilər.

Həmin gün saat 5-də açılan ilk atəş Azərbaycan xalqının üzləşdiyi soyqırımının başlanğıcı oldu. Azərbaycan ziyalıları bu faciənin qarşısını almaq üçün əllərindən gələni edirdilər. S. Şaumyanla bolşevik sıralarında fəaliyyət göstərən N. Nərimanovun bu sahədəki xidmətləri təqdirəlayiqdir. Bunu 1918-ci ilin aprel ayının 1-də "Hümmət" qəzetində çap olunmuş "Qanlı faciədən dörd saat qabaq" adlı redaksiya məqaləsi də təsdiq edir.

M. Ə. Rəsulzadə martın 30-da İnqilabi Müdafiə Komitəsində Bakı Soveti rəhbərləri ilə keçirdiyi görüşdə alınmış silahların "Hümmət" təşkilatı vasitəsilə qaytarılması istiqamətində razı-lığa nail olsa da, daşnak-bolşevik hökuməti öz sözlərinə əməl etmədi. Çünki onlar "Hümmət"ə inanmır, N. Nərimanovun isə "sağ təmayülçü"lüyündən narazı idilər.

Faktlar sübut edir ki, Bakı qırğınlarına qatı cinayətkar cəllad xarakterli Şaumyan özü rəhbərlik edirdi. Həmin dövrün canlı şahidi və fəal iştirakçısı, erməni bolşeviki H. Əsiryans qeyd edir ki, "1918-ci ilin fevralında T. Əmirov bizi yığıb bildirdi ki, S. Şaumyan və A. Caparidzenin tapşırıqlarını yerinə yetirməliyiK. S. Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq, bu xəbərdaredici siqnalıdan sonra biz hücum edib "Müsavat"ın qərargahını tutmalı idik və belə də oldu".

Ermənilərin kütləvi qırğınına məruz qalan türk-müsəlman əhalisi martın 31-də müqavimət göstərməyi dayandırdı. Həmin gün cürbəcür bəhanələrlə danışıqların müsbət nəticələnməsinə mane olan İnqilabi Müdafiə Komitəsi istədiyinə nail olduqdan sonra ultimatum verdi. Ultimatumda İnqilabi Müdafiə Komitəsinin tələblərinin gündüz saat 3-ə kimi yerinə yetirilməyəcəyi təqdirdə, müharibəni davam etdirəcəkləri qeyd olunurdu.

İnqilabi Müdafiə Komitəsi döyüşlərin dayandırılması barədə göstəriş versə də, bu göstəriş yalnız kağız üzərində qaldı. Erməni birləşmələri müqavimət göstərməyə qabil olmayan azərbaycanlılara və ümumən, müsəlman əhalisinə divan tutmağa başladılar. Şəhərin Məhəmmədli və Zibillidərə məhəllələrinin əhalisi demək olar ki, son nəfəri-nə qədər qılıncdan keçirildi. Ermənilər azərbaycanlılara məxsus bütün evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını dağıtdılar. "Kaspi" mətbəəsi, "Açıq söz" qəzeti redaksiyası, "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin yerləşdiyi "İsmailiyyə" binası vəhşicəsinə yandırılmışdı.

"Təzə pir" məscidinin minarələri mərmilərlə dəlik-deşik edildi. Bir sıra yerlərdə döyüşən əsgərlərə erməni ziyalılarının rəhbərlik etməsi faciənin milli zəmin üzə-rində qurulduğunu qəti sübut edirdi.

Ermənilərin törətdikləri vəhşiliklərin canlı şahidi olan görkəmli siyasi və ictimai xadim S. C. Pişəvəri yazırdı ki, 1918-ci il martın 30, 31 və aprelin 1-də gecəli - gündüzlü qırğınlarda çoxlu müsəlman öldürüldü. Ölənlərin sayı 10 mindən artıq idi. Pişəvəri yazırdı ki, 1918-ci ildə ermənilərin vəhşiliklərini, meyitlərin yandırılmasını öz gözləri ilə görüb.

Erməni cəlladlarının vəhşilikləri onların yalnız Bakıda törətdikləri qanlı faciə ilə bitmədi. S. Şaumyanın əmrilə qatı daşnak T. Amirov və türklərin qanına susamış S. Lalayanın başçılığı ilə erməni daşnak-bolşevik ordusu iki min nəfərlik qüvvə ilə guya əksinqilaba qarşı mübarizə aparmaq üçün Şamaxıya hücum etdilər.

Martın 18-də sübh çağı Şamaxı ətrafında top atəşləri eşidilməyə başladı. Aydın oldu ki, gecə ikən şəhər ermənilər, şimal-şərqdən isə malakanlar tərəfindən mühasirəyə alınmışdır. Müsəlmanlar əvvəlcə müdafiə olun-maq istəyirdilər, lakin topların qarşısında dayana bilmədiklərinə görə geri çəkilməyə məcbur oldular. Axşama yaxın ermənilər şəhərin "Pirvan-Şirvan" hissəsinə daxil oldular. Evlər yandırılır, yanan evlərdən çıxan kişilər, qadınlar, uşaqlar güllələnirdi. Gecə müsəlmanlar təslim olmaları barəsində ermənilərə müraciət etsələr də atəş dayandırılmadı. Bu vəhşiliklər bir neçə gün—Gəncədən müsəlman qoşunları Şamaxı şəhəri və Şamaxı qəzası əhalisinin köməyinə gələnə qədər davam etmişdir.

Şamaxı əhalisinə qanlı divan tutan ermənilər Şamaxı şəhərində və kəndlərində 16 mindən artıq günahsız azərbaycanlını öldürdülər. Şamaxı qəzasının 72 kəndi daşnak-bolşevik hərbi birləşmələri tərəfindən dağıdılıb yandırılmışdı. Şamaxının sağ qalan azərbaycanlı əhalisi qaçmağa başladılar.

May ayının 1-də quldur daşnak zabiti Hamazaspın başçılığı ilə ancaq ermənilərdən ibarət olan böyük hərbi dəstə Qubanı mühasirəyə alaraq, şəhəri toplardan və pulemyotlardan atəşə tutdular. Hamazaspın "cəza dəstəsi"ni Qubaya şəxsən Şaumyan göndərmiş və bu barədə o, digər komissarlarla heç məsləhətləşməmişdi. Bu dəstəni təşkil edən isə hərbi komissar erməni Qriqori Korqanov olmuşdur. Q. Korqanov S. Şaumyanın təklifi ilə Hamazaspın dəstəsinə yalnız "Daşnaksütyun" partiyasının üzvü olan iki min nəfər əsgəri daxil etmiş və ona qatı millətçi Venuntsu dəstə komissarı, Nikolay adlı hərbiçini isə köməkçi təyin etmişdi.

Hamazasp Qubanı işğal etdikdən sonra şəhər camaatına hədə-qorxu məzmunlu müraciətin-də onun dəstəsinin bu yerlərə hansı məqsədlə göndərildiyi açıq şəkildə ifadə olunmuşdu. O vaxt Hamazasp demişdi: "Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən buraya — Qubaya xüsusi cəza dəstəsilə ona görə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülən ermənilərin hayıfını sizdən alım. Mən buraya qayda-qanun yaratmaq, Sovet hakimiyyətini qurmaq üçün gəlməmişəm. Xəzər dənizinin sahillərindən tutmuş Şah dağına qədər olan ərazidə yaşayan bütün müsəlmanları məhv etmək barədə mənə göstəriş verilib. Mənə sizin yurd-yuvanızı yerlə yeksan etmək, Şamaxıda törətdiklərimizi sizin də başınıza açmaq, erməni qardaşlarımızın intiqamını almaq tapşırılıb".

Hamazaspın dəstəsi istər Qubaya gələrkən yol boyu, istər şəhərə girərkən, istərsə də mahalın digər ərazilərində vəhşi hərəkətlər etmişlər. Ermənilər qarşılarına çıxan kəndləri, obaları, yurd yerlərini dağıdır, yandırır, rastlaşdıq-ları kişiləri, qadınları, uşaqları qəddarcasına qətlə yetirirdilər. Qubada bir-bir evlərə girib bəzən bütün ailəni məhv edən ermənilər hətta hamilə və uşaqlı qadınlara belə rəhm etməmişlər. Məsələn, onlar Kərbəlayi Məmməd Tağı oğlunun 14 nəfərdən ibarət ailəsinin, Məhəmməd Rəsul oğlunun 5 nəfərlik ailəsinin başlarını kəsmiş, Hacı Dadaşbala Qasım oğlunun arvadı Bibixanım və oğlu Əbdul Qasımı diri-diri oda ataraq yandırmış, Kərbəlayi Abuzər Məstan oğlunu və iki qızı — Hökuməti və Bustanı qucaqlarındakı körpələrlə birlikdə tikə-tikə doğramış, Məşədi Qənbər Molla Məhəmməd Saleh oğlunu, onun arvadını və beş körpə uşağını şaqqalamışdılar.

Hər cür vəhşilik və talanlarla yanaşı, ermənilər ən alçaq və rəzil hərəkətlərə də əl atmaqdan belə çəkinməmişdilər. Hamazaspın cəza dəstəsi Quba qəzasının 162 kəndini yandırdılar, 4 mindən çox azərbaycanlını, 12 mindən çox müsəlman ləzgini öldürdülər.

Erməni quldurları Hacıqabul, Kürdəmir, Salyan və Lənkəran qəzalarında da dəhşətli faciələr törətdilər. Bakı quberniyasında azərbaycanlıların soyqırımı 1918-ci il sentyabr ayının ortalarınadək, yəni Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu tərəfindən azad edildiyi dövrə qədər davam etmişdi. Erməni millətçilərinin törətdikləri türk-müsəlman soyqırımı zamanı 50 mindən çox azərbaycanlı öldürülmüş, on minlərlə dinc əhali öz doğma yurdlarından didərgin düşmüşdü.

Erməni cəlladları bütün Cənubi Qafqaz ərazisində, azərbaycanlılar yaşayan bölgələrdə kütləvi qırğınlar törətmiş, on minlərlə dinc müsəlmanı qətlə yetirmişdilər. Ermənilər azərbaycanlılar yaşayan kəndləri qarət etmiş, dağıtmış və yandırmışdılar. Faktlara müraciət edək: Bakı quberniyasında 229 kənd, Gəncə quberniyasında 272 kənd, İrəvan quberniyasında 211 kənd, Zəngəzur qəzasında 115 kənd, Qarabağda 150 kənd, Quba qəzasında 162 kənd, Şamaxı qəzasında 86 kənd, Vedibasar mahalında 118 kənd, Zəngibasar mahalında 48 kənd, Dərələyəzdə 74 kənd, Şərurda 4 kənd dağıdılmış və yandırılmışdı.

1918-ci ilin mart qırğını azərbaycanlılar türk-müsəlman əhalisi üçün faciə ilə nəticələnsə də, bu qanlı hadisə milli hərəkatı boğa bilmədi, əksinə, onun inkişafında mühüm mərhələ oldu. Daşnak-bolşevik siyasi rəhbərləri törətdikləri qanlı faciələrə baxmayaraq, öz istədiklərinə nail ola bilmədilər. Azərbaycanlılar arasında birlik ideyası gücləndi. Xalq başa düşdü ki, onun nicatı özünə arxalanmaqda, öz milli təşkilatının arxasınca getməkdədir. Bu hadisə Azərbaycanda milli siyasi partiyalar arasında müstəqil dövlətçilik ideyasını möhkəmləndirdi.

Əvvəl "Şərq məsələsi", ondan sonra "erməni vilayəti", sonra "erməni məsələsi", daha sonra "Qarabağ problemi" ilə dünya ictimaiyyətini aldadan erməni millətçiləri bu gün tarix qarşısında cavab verməli olacaqlar, ona görə ki, dünyanın özü tarixi həqiqətlərdən və canlı tarixin özündən ibrət dərsi götürməli, tarixi həqiqətləri bilməli, türk və Azərbaycan xalqlarının başına gətirilən bütün müsibətləri və soyqırımları anlamalı və obyektiv nəticələr çıxarmaq naminə erməni millətçi-şovinistlərini lənətləməlidirlər.

Ancaq çox təəssüflər olsun ki, dünyanın bəzi ölkələrinin rəsmiləri tarixi həqiqətləri bilmədikləri üçün ermənilərin hiyləgər və yalan təbliğatına inanır, səhv qərarlar qəbul edir və yanlış hərəkətləri ilə tarixi saxtalaşdırırlar. Bu yaxınlarda ABŞ Konqresi Nümayəndələr Palatasının xarici əlaqələr komitəsinin və İsveç Parlamentinin cəmi bir səs üstünlüyü ilə son dərəcə ədalətsiz və haqsız qərar qəbul etmələri öz ölkələrinin və dünya ictimaiyyətinin və bu sətirlərin müəllifləri olan biz alimlərin də kəskin etirazına səbəb olmuşdur. Çünki hər hansı bir tarixi hadisəni araşdırmaq tarixçilərin işidir. Tarixi isə siyasiləşdirmək olmaz və o, obyektiv tarixi həqiqətlərə əsaslanmalıdır. ABŞ, Türkiyə, Rusiya, Azərbaycan alimləri külli miqdarda arxiv və rəsmi sənədlərə söykənərək sübut etmişlər ki, 1915-ci ildə heç bir erməni soyqırımı olmamışdır. Bu, erməni millətçilərinin uydurduğu yalançı və böhtançı bir təbliğatdır. Müxtəlif tayfaların tör-töküntülər olan başkəsən ermənilər" (Strabon) özlərinin yalanını dünyaya sırımağa öyrənmişlər. Qədimdən "ikiüzlü və riyakar", "hiyləgər və kələkbaz adamlar olan" (Aleksandr Düma) fırıldaqçı ermənilər bütün zamanlarda türklərə və azərbaycanlılara qarşı amansız olmuş, torpaqları-mızı zəbt etmiş, soyqırım siyasəti aparmışlar. ABŞ, Avropa və digər dünya ölkələrinin rəhbərləri yaxşı bilirlər ki, ermənilər Xocalı soyqırımını törətmiş, torpaqlarımızın 20 faizini işğal etmiş, türklərə və azərbaycanlılara qarşı soyqırım törətmişlər.

Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan hökumətinin qarşısında iki mühüm vəzifə durur: birincisi, ərazilərimizin işğaldan azad olunması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına nail olmaq və ikincisi, azərbaycanlıların soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, hiyləgər erməni təbliğatının saxta tezislərini ifşa etmək. Bəli, bu gün biz qabaqlayıcı təbliğat maşınına, güclü və monolit hücum taktikasına, əks-təbliğat orqanizminə malik sağlam düşüncə potensialına əsaslanmaqla, tarixi həqiqətləri dünyaya çatdırmalıyıq. Artıq bugünkü Azərbaycan güclü sosial-iqtisadi və hərbi potensiala malik qüdrətli bir dövlətdir, iqtisadi artım səviyyəsinə görə dünyada birinci yerdədir.

1918-ci ildə azərbaycanlıların soyqırımının təşkilatçıları olan erməni daşnakları və erməni millətçiləri tarix qarşısında cavab verməlidirlər. Prezident İlham Əliyevin sözləri ilə desək, biz yalnız tarixi ədalətin bərpa edilməsini, işğal və soyqırımı siyasəti yürüdənlərin beynəlxalq ictimaiyyət qarşısında ittiham olunmasını istəyirik. O zaman tarixi həqiqət və Azərbaycan həqiqətləri qalib gələr.

***Xəqani MƏMMƏDOV,***
***Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialının direktoru, professor.***

***Nuru MƏMMƏDOV,***
***professor.***

**“Respublika”.-**2010.-30 mart.-N 64.-S.4.

**Şamaxıda erməni vəhşilikləri**

***1918-ci ilin mart-aprel aylarında erməni zorakılıqlarından Azərbaycanın ən çox zərər çəkmiş bölgələrindən biri də Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndləri olmuşdur. Təəssüflər olsun ki, bu günə qədər də 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərindən bəhs edərkən nədənsə onların Şamaxı şəhəri və Şamaxı qəzasında törətdikləri vəhşiliklərin ifşası hələ də diqqətdən kənardadır. Ermənilərin toplum halda yaşadıqları yerlərdən tamamilə uzaqda, yüzlərlə Azərbaycan kəndinin əhatəsindəki Şamaxı şəhərində ermənilərin azərbaycanlıların başına açdığı müsibətlərlə tanış olduqda dəhşətə gəlirik. Ancaq təkzibolunmaz faktdır ki, Bakıdan S. Şaumyan və J. Korqanovun köməyi ilə erməni daşnakları onlarca Azərbaycan kəndini tar-mar etmiş, on minlərlə günahsız əhalini qətlə yetirmişlər. Bu fakt bir də onu sübut edir ki, ermənilər olduqca təhlükəli düşməndirlər. Onlar həmişə zərbəni gözlənilməz yerdən vurmağı çox məharətlə bacarırlar. S. Şaumyan 1918-ci ilin aprelin 13-də Rusiya Xalq Komissarları Sovetinə göndərdiyi məktubda Şamaxıya artilleriya və pulemyotlarla təchiz olunmuş "yeni dəstələr" göndərdiyini etiraf edirdi.***

Bu dəstələrə S. Şaumyanın yaxın silahdaşlarından olan Bakı və Şamaxı qırğınının əsas təşkilatçısı, xalqımızın qəddar düşmənlərindən biri daşnak S. Lalayev rəhbərlik etmişdir.

Arxivlərimizdə ermənilərin 1918-ci ilin mart və aprel aylarında Şamaxı şəhərində və Şamaxı qəzasının azərbaycanlıların yaşadıqları kəndlərində törətdikləri cinayətləri ifşa edən çoxlu arxiv sənədləri qorunub saxlanılır. Bu sənədlər arasında 1918-ci il noyabr ayının 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə. Xasməmmədovun Azərbaycan Cümhuriyyəti ədliyyə nazirinə Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərinin talan edilməsi və müsəlman əhalisi üzərində ermənilərin zorakılıqları haqqında məruzəsi, həmin komissiyanın üzvü A. Novatskinin bu məsələ barədə komissiya sədrinə məruzəsi, bu qırğınlarda günahkar olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında Fövqəladə Təhqiqat Komissiyasının 1919-cu il 12 iyul tarixli qərarı və s. sənədlər qorunub saxlanılır.

Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat işlərində toplanmış materiallar ermənilərin burada törətdikləri vəhşiliklər, erməni rəzaləti haqqında ətraflı məlumat verir. Burada toplanan yüzlərlə zərərdidə və şahid ifadələri, dindirmə protokolları, ermənilər tərəfindən yandırılmış, dağıdılmış tikili və mədəniyyət abidələrinə baxış protokolları, aktlar, siyahılar və digər sənədlər ermənilərin Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndlərində törətdikləri vəhşilikləri əyani şəkildə ifşa edir. Bu işdə Ə. Xasməmmədovun ədliyyə nazirinə təqdim etdiyi məruzə xüsusilə diqqəti cəlb edir. Komissiyanın ilkin istintaq nəticəsində əldə etdiyi məlumatlar həmin məruzədə ətraflı şərh olunurdu. Orada göstərilir ki, Şamaxı şəhəri iki hissədən ibarətdir. Yuxarı və ya erməni hissəsi, aşağı və ya müsəlman hissəsi. Yuxarıda əsasən ermənilər və malakanlar, az miqdarda da müsəlmanlar, ikincidə isə yalnız müsəlmanlar yaşayırdılar. Şamaxı qəzasında əhalinin əksəriyyəti müsəlmanlardır. Erməni və malakanlar hərəsi 6 kənddə yaşayırlar. Həm şəhərli və həm də kəndlilərdən olan müsəlmanlar ermənilərlə və malakanlarla keçmiş zamanlardan sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, onları incitməmiş, daim mehriban qonşuluq əlaqələri saxlamağa çalışmışlar. Hətta 1905-ci ildə Zaqafqaziyanın bir çox şəhər və kəndlərində ermənilərlə münaqişə zamanı Şamaxı şəhəri və Şamaxı qəzasında müsəlmanlar ermənilər üzərində zorakılıq etməmiş, onlara qarşı düşmənçilik hərəkətləri törətməmişlər. Buna baxmayaraq, Şamaxı şəhəri və Şamaxı qəzasının erməniləri həmin vaxtda zərər çəkmiş erməni qardaşları ilə həmrəylik xatirinə müsəlmanlara qarşı gizlində düşmənçilik hissi bəsləyir və 1905-ci ildə incidilmiş ermənilərin hayıfını çıxmaq üçün əlverişli məqam gözləyirmişlər. 1918-ci il martın 18-də qaliblər kimi şəhərin müsəlman hissəsinə soxulan ermənilər: "Biz bu günü on iki ildir ki, gözləmişik. Bu Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndi sizə heç kim kömək etməyəcək. Köməyə siz özünüzün "müqəddəs Həzrət Abbasınızı çağırın" – deyə qışqırırmışlar.

1918-ci il martın 19-u gecəsi həkim Sazonov Şamaxıda erməniləri müsəlmanlar üzərində rəhmsiz zorakılıqlar işlətməkdə günahlandırdıqda o, ermənilərdən belə bir cavab almışdır: "Müsəlmanlara heç bir rəhm etmək yoxdur, onların hamısı məhv edilməlidir".

Ə. Xasməmmədovun məruzəsində göstərilirdi ki, Şamaxıda azərbaycanlılara qarşı ermənilərin düşmənçilik hərəkətləri hələ Birinci Dünya müharibəsi başlandığı vaxtlardan özünü büruzə verməyə başlamışdır. Azərbaycanlılara qarşı onlar özlərini çox təkəbbürlü aparır, onların milli və dini heysiyyətlərini açıqca təhqir edirdilər. 1917-ci il fevral çevrilişindən sonra ermənilər daha açıq və cəsarətlə hərəkət etməyə başlayırlar. Ermənilər çar hakimiyyəti orqanlarının yerli komandası Şamaxıdan getdikdə gizli surətdə silah anbarını ələ keçirir və bu haqda nə qəza komissarına, nə də yerli müsəlman Milli Şurasına heç bir məlumat verməmişlər. Onlar ermənilərdən və malakanlardan ibarət xüsusi hərbi qarnizon təşkil edib oraya müsəlmanları buraxmamışlar. Azərbaycanlılar qarnizona girməyə nail olduqda isə erməni əsgərləri onlara qarşı düşmənçilik

edir, onları təhqir edir və incidirdilər. Elə bu vaxtlar ermənilər öz kəndlərinə müxtəlif yollarla silah və sursat gətirib, sürətlə silahlanmağa başlayırlar. Silahı əsasən cəbhədən qayıdan erməni əsgərləri gətirirdilər. Onların hərəsi özü ilə bəzən üç tüfəng gətirmişdir. Ermənilərin bu hərəkətləri azərbaycanlıları bərk vahiməyə salır. Həm Şamaxı şəhərində, həm də qəzanın kəndlərində azərbaycanlılar görürdülər ki, ermənilər onlara qarşı sürətlə silahlanırlar. Azərbaycanlılar çalışırdılar ki, ermənilərlə dil tapsınlar və yaxınlaşmaqda olan qırğının qarşısını alsınlar. Lakin sürətlə gizli silahlanan ermənilər üzdə özlərini elə göstərirdilər ki, guya müsəlmanlara qarşı heç bir düşmənçilik hissləri bəsləmirlər. Şamaxı şəhərindən 6 verst aralı erməni kəndi Mədrəsədə gizli surətdə Zaqafqaziyanın digər qəzalarından erməni əsgərləri toplanmağa başlayırlar. Martın birinci yarısında məlumat alınır ki, Bakıdakı bolşevik hakimiyyəti adından Şamaxıya böyük miqdarda hərbi sursat, top və pulemyotlarla silahlanmış üç minədək erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və ermənilərdən ibarət nümayəndə heyəti göndərilir. Nümayəndə heyətinin dəstə ilə görüşü malakan kəndi Qozluçayda (Xilmili) baş tutur. Dəstəyə silahı Şamaxı qarnizonuna təhvil verməK təklif olunur. Onlar bundan qəti imtina edir və Bakıdakı sovet hökuməti adından bildirirlər ki, onların başlıca məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdir. Dəstənin rəhbərləri Şamaxı şəhərindən yan keçərək Mədrəsə kəndinə gedəcəklərinə söz verirlər. Martın 15-də dəstə Şamaxının yanından keçərkən şəhərin kənarında öz evlərini qoruyan müsəlmanlar dəstənin şəhərə hücum etdiyini güman edərək atəş açırlar. Dəstə də cavab atəşi açır. Tezliklə bütün şəhəri atışma bürüyür. Bu atışma nəticəsində hər iki tərəfdən tələfat olur. Lakin axşama yaxın şəhərdə tam sakitlik yaradılır. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxıdakı bütün millətlərin və onların ruhanilərinin nümayəndələri bir yerə yığışaraq and içirlər ki, sülh şəraitində yaşayacaq və qayda-qanunu pozmayacaqlar. Bunu eşidən Kürdəmir kənd sakinləri müsəlmanları incitməməyi ermənilərdən xahiş etmək üçün Şamaxıya gəlmiş, erməni rəhbərlərinə müsəlmanlarla sülh şəraitində yaşamağı təklif etdikdə və erməni yepiskopunun verdiyi andı xatırlatdıqda ermənilərdən bu cür cavab almışlar: "Müsəlman ruhaniləri erməni ruhaniləri ilə barışa bilər, lakin erməni xalqı müsəlmanlarla müharibə istəyir və bu işdə onu İngiltərə müdafiə edəcəkdir".

1918-ci il mart ayının 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlı sakinləri top atəşlərinin sədaları altında oyanırlar. Evlərindən çıxarkən görürlər ki, şəhər cənubdan ermənilər, şimali-şərqdən isə malakanlar tərəfindən mühasirə olunub. Şəhərin tamamilə azərbaycanlılardan ibarət aşağı hissəsi top və pulemyot atəşlərinə tutulur, şəhərin yuxarı hissəsində yaşayan ermənilər isə azərbaycanlılar yaşayan məhəllələri tüfənglərdən atəşə tuturlar. Bu hücum müsəlmanlar üçün tam gözlənilməz idi. Yuxarıda qeyd etdiyimiz kimi, ondan bir gün əvvəl erməni yepiskopu Baqrat və malakanların nümayəndəsi Karabanov Xaç və İncil qarşısında azərbaycanlılarla sülh və qardaşlıq şəraitində yaşayacaqlarına və heç vaxt onlara qarşı silahlı çıxış etməyəcəklərinə and içmişdilər. Müdafiəyə hazırlaşmamış azərbaycanlılar əvvəlcə buna təşəbbüs etsələr də, top və pulemyot atəşləri altında dayana bilməyib geri çəkilirlər. Ermənilər və malakanlar həmləyə başladıqlarından bir neçə saat sonra artıq şəhərin azərbaycanlılar yaşayan və şəhərin erməni hissəsi ilə sərhəd olan "Piran-Şirvan" bölməsinə soxula bilirlər. Onlar azərbaycanlıların evlərini talan edir, yandırır və dinc əhalini qəddarlıqla qətlə yetirirdilər. Şəhərin ən abad, varlı və tanınmış müsəlmanlarına məxsus evlərinə od vurulurdu. Ermənilərin qarət edib yandırdığı evlər arasında Şıxıyevlərin, Həsənovların, Cəbrayılovların, qəza müftisinin, Hüseynbəyovun, Əlimirzəyevin, Əfəndiyevin, Babayevlərin, Məhərrəmovların, Veysovların, Böyük bəy Hüseynovun, Hacı Vahab Ələkbərovun və başqalarının mülkləri də var idi. Ermənilər və malakanlar yandırılmış evlərdən çıxıb qaçan kişi, qadın və uşaqları güllələyirdilər. Ermənilər evlərə soxulur, onların sakinlərini qarət edir, qətlə yetirir, sonra isə yandırırdılar. Gecə müsəlmanlar təslim olmaq barədə qalib ermənilərin yanına nümayəndələr göndərir və sülh xahiş edirlər. Lakin atəş dayandırılmır. Yanğınlar bütün bölgəyə yayılır və səhərə qədər şəhərin ən zəngin məhəlləsindəki evlərdən yalnız xarabalıqlar qalır. Yandırılmış evlərdən qaçaraq canını qurtarmaq istəyən sakinlərə – kişi, qadın və uşaqlara heç bir fərq qoymayan ermənilər onları açıqcasına, yaxud tinlərdən atəşə tuturlar. Adamları evlərdə, həyətlərdə, küçələrdə qətlə yetirirlər. Şəhərin küçələrində meyitlərdən qalaqlar yaranır. Ermənilər azərbaycanlı əhalinin qətlini eşidilməmiş və ağıla sığmaz qəddarlıq və işgəncə ilə həyata keçirirdilər. Öldürmək və evlərini yandırmaq hədəsi ilə ermənilər azərbaycanlılardan onların pul və qiymətli əşyalarını alır, lakin çox vaxt pul və qiymətli əşyalarını könüllü verməl əri belə azərbaycanlıları ölümdən və evlərini yandırılmaqdan xilas edə bilmirdi. Küçələrdə əzab verilərək öldürülmüş qadınların meyitləri atılıb qalmışdı. Onların döşləri kəsilmiş, qarınları yırtılmış və ən çirkin üsullarla təhqir olunmuşlar. Küçələrdə pazlarla diri-diri yerə mıxlanmış uşaq meyitləri də atılıb qalmışdı. Azərbaycanlıların evlərindən qarət və talan edilmiş əmlak araba və furqonlarla erməni və malakan kəndlərinə daşınırdı. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam edir. Yalnız Gəncədən azərbaycanlı silahlı dəstələrinin Şamaxıya köməyə gəlməsindən qorxuya düşən ermənilər və malakanlar Şamaxı qəzasının Qozluçay malakan kəndinə çəkilirlər. Azərbaycanlı silahlı dəstələri onları təqib edir. Lakin onlara məlum olur ki, ermənilər və malakanların qüvvələri onlarınkından qat-qat üstündür. Ona görə də strateji mülahizələrə görə dörd gündən sonra azərbaycanlı silahlı dəstələr şəhəri tərk etməyə məcbur olurlar. Gəncədən olan silahlı dəstələrlə Şamaxının, demək olar ki, əksər

müsəlman əhalisi şəhəri tərk edir. Ancaq çox tələsik olduğu üçün onlar, hətta özləri ilə vacib əşyalarını belə götürə bilmirlər. Çoxlu şəhər sakini, xüsusilə yoxsullar, xəstələr, qocalar, qarılar və uşaqlar şəhərdə qalırlar. Gəncədən olan silahlı dəstələr Şamaxını tərk etdikdən bir neçə gün sonra erməni və malakan quldur dəstələri geri qayıdaraq yenidən Şamaxını tuturlar. Bu dəfə şəhərin talan edilməsi və əhaliyə divan tutulması əvvəlkindən daha böyük qəddarlıq, qəzəb və qaniçənliklə həyata keçirilir. Şəhərdə qalan azərbaycanlı əhali uşaqlar, qadınlar, qocalar da daxil olmaqla tamamilə məhv edilmişdir. Küçələr, həyətlər, evlər, məscidlər meyitlərlə dolu idi. Şəhərdə azərbaycanlıların bütün əmlakı qarət edilərək erməni və malakan kəndlərinə aparılmışdı. Şəhərin bütün azərbaycanlı hissəsi oda qalanmışdı. Şəhərdəki bütün məscidlər, onların nəzdindəki müqəddəs yerlərlə birlikdə yandırılmışdı. Bir sözlə, şəhərin azərbaycanlılar yaşayan bütün məhəllələri tamamilə xarabazarlığa çevrilmiş, bir dənə də olsa azərbaycanlı evi salamat qalmamışdı.

Ə. Xasməmmədovun məruzəsində göstərilirdi ki, ermənilərin Şamaxı şəhərinə birinci və ikinci hücumları zamanı şəhərdəki bir neçə min azərbaycanlı qətlə yetirilmişdir. Onların arasında təkcə Şamaxıda deyil, bütün Azərbaycanda tanınmış nüfuzlu şəxslər və ictimai xadimlər də var idi. Ermənilər məşhur axund Hacı Cəfərqulunu xüsusi qəddarlıqla öldürmüşlər. Əvvəlcə onun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişlər. Ermənilərin qəddarlıqla öldürdüyü nüfuzlu şəxslər arasında şəhər hakimi Teymur bəy Xudaverdov, birinci Dövlət Dumasına Şamaxıdan deputat seçilmiş Məmməd Əliyev, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdülxəlil Əhmədov, Hacı Əbdülhüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seyidov, Hacı İbrahim Salamov, Ağa Əhməd Əhmədov, Hacı Əbdülqasım Qasımov, Əyyubağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyəddin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu, onun arvadı və oğlu və bir çox başqaları da var idi.

Ermənilər xilas olmaq üçün axund Hacı Cəfərqulunun evinə və həyətinə pənah gətirmiş çoxlu sayda qadın və uşağı da öldürmüş və ya diri-diri yandırmışlar. Hacı axundun tamamilə yandırılmış evinin həyətində Fövqəladə Təhqiqat Komissiyasının üzvləri çoxlu xırda insan sümükləri aşkar etmişlər. Meyitlərin iri sümüklərini isə türklər 1918-ci ilin yayında erməniləri Şamaxıdan qovarkən yığıb basdırmışlar. Komissiya üzvlərinin 1918-ci ilin oktyabr-noyabrında bu barədə hazırladığı məruzədə qeyd olunurdu ki, həyətdə hələ indi də çürümüş meyitlərin qoxusu qalmaqdadır. Habelə, yandırılmış digər evlərin və məscidlərin həyətlərində çoxlu yanmış insan sümükləri də aşkar edilmişdir.

Məruzədə göstərilirdi ki, bir neçə məscidin, evin və mağazaların xarabazarlıqlarının, habelə insan sümüklərinin 45 ədəd fotoşəkilləri də çəkilmişdir. Fövqəladə Təhqiqat Komissiyasının digər məruzələrindən birində deyilirdi ki, erməni hərəkatının rəhbərlərindən biri Bakıda öz tanışları qarşısında lovğalanaraq demişdir ki, Şamaxı hadisələri zamanı bu şəhərdə 10 nəfər müsəlman qızını əvvəlcə zorlamış, sonra isə onları öz şəxsi tapançası ilə güllələmişdir.

Məruzədən aydın olur ki, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan, orta hesabla, bir milyard manatdan çox olmuşdur. Şamaxı şəhərinə hücum, onun dağıdılması, dinc azərbaycanlı əhaliyə - qadına, qocaya, uşağa qəddarcasına divan tutulması yalnız ermənilərin azərbaycanlılara qarşı milli intiqam və milli düşmənçilik hissindən irəli gəlir və ikili məqsəd daşıyırdı. Bir tərəfdən, onlar azərbaycanlıları kütləvi surətdə qırır, digər tərəfdən isə onların evlərinin qarəti hesabına külli miqdarda var-dövlət əldə edib varlanırdılar. Ona görə də Şamaxını talan edən erməni quldur dəstələri “Öldürüb talamaq! Talayıb öldürmək!” prinsipindən ilham alırdılar.

Şamaxı üzərinə hər iki hücum zamanı yanğınlar, talanlar, qətllər bilavasitə illərlə burada sülh şəraitində yaşamış, azərbaycanlılardan daim hörmət görmüş nankor yerli ermənilərin rəhbərliyi ilə daşnaklar tərəfindən əvvəlcədən hazırlanmış plan üzrə həyata keçirilmişdir. Bu əməliyyatlara Stepan Lalayev, Qavril Karaoğlanov, Arşak Gülbəndiyan, Mixail Arzumanov, Karapet Karamanov, Sedrak Vlasov, Samvel Doliev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Avanesov, Şuşalı Aqamalov və b. rəhbərlik etmişdilər. Bu şəxslər həmçinin quldur dəstələrinin digər üzvləri ilə birlikdə azərbaycanlıların evlərini yandırmış, talan etmiş və dinc əhalinin qətllərində də bilavasitə iştirak etmişlər. Yüzlərlə şahidlər və zərərçəkənlər dindirilərkən bu qatillərin adlarını çəkmiş, qətl və qarətdə bilavasitə iştirak etdiklərini təsdiq etmişlər. Onlar yerli ermənilərdən keçmiş qəza rəisinin müavini Qavril Karaoğlanovun, keçmiş Şamaxı poçt-teleqraf kontorunun rəisi Arşak Gülbəndiyanın, Şamaxı erməni kilsəsinin hami-ktikoru Mixail Arzumanovun, Şamaxıda məşhur tacir E.İvanyantsın, dəllək Samvel Dolievin və b. bu kimi hadisələrin şəxsən iştirakçısı və icraçısı olduqlarına şəhadət vermişlər.

Toplanılmış çoxlu əşyayi-dəlil, zərərçəkənlərin və şahidlərin ifadələri əsasında Fövqəladə Təhqiqat Komissiyasının üzvü A. Novatski həmin komissiyanın sədrinin adına yazdığı məruzədə dinc azərbaycanlı əhaliyə qarşı eşidilməmiş cinayətlər törətmiş həmin şəxslərə qarşı cinayət işi qaldırmağı təklif edir.

1919-cu il iyul ayının 12-də Azərbaycan Cümhuriyyəti hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası Şamaxı şəhərinin dağıdılması və bu şəhərin azərbaycanlı əhalisi üzərində zorakılıq halları barədəki

təhqiqat işi haqqında komissiyanın üzvü A.Novatskinin məruzəsini dinləyərək şahidlərin və zərərçəkənlərin ifadələri, törədilmiş cinayətlərin təhqiqi, yandırılıb dağıdılmış yerlərə baxış və s. əsasında Şamaxı şəhərində törədilən cinayətlərdə əslən Şamaxıdan olub Bakı şəhərində yaşayan Stepan Lalayevin, Şamaxı şəhərinin sakinləri Qavril Karaoğlanovun, Arşak Gülbəndiyanın, Mixail Arzumanovun, Karapet Karamanovun, Armenak Martirosyantsın, Aleksandr Xaçaturovun, Mixail Xaçaturovun və başqalarının (cəmi 31 nəfərin) Şamaxı qırğınlarının başlıca caniləri olduqları göstərilir. Komissiyanın bu məsələ ilə bağlı qəbul etdiyi qərarda deyilirdi ki, bu cəlladlar Azərbaycan xalqına qarşı ədavət əsasında milli və dini zəmində əvvəlcədən öz aralarında razılaşaraq bir neçə min nəfər erməni qüvvələrini öz ətraflarında birləşdirərək, top, pulemyot, tüfəng, tapança və xəncərlə silahlanaraq öz qarşılarında Şamaxı şəhərində olan azərbaycanlı əhalini qırmaq, əmlaklarını qarət və məhv etmək məqsədi qoymuşdular. Bunun üçün də 1918-ci il martın 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlılar yaşayan hissəsinə hücuma keçirlər. Bir neçə gündə minlərlə dinc azərbaycanlı əhalini – kişi, qadın, uşağı qətlə yetirmişlər. Özü də bu qətllər xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, qətl edilənlərin qolları, qıçları, burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış, qarınları yırtılmış, yandırılmış, çox böyük əziyyətlərlə öldürülmüşlər. Ermənilər Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatlıqdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan "Cümə məscidi" yandırılmışdır. Fövqəladə Təhqiqat Komissiyası bu vandalizmin başlıca təşkilatçıları haqqında cinayət işi qaldırmaq, onları məsuliyyətə cəlb etmək və istintaq işinə başlamaq haqqında qərar qəbul edir.

Şamaxı şəhəri kimi, Şamaxı qəzasının azərbaycanlılar yaşayan 86 kəndi də ermənilərin xaincəsinə qəfil hücumlarına məruz qalmışdır.

Martın 18-də sübh çağı Şamaxı şəhəri ilə yanaşı, onun 3-4 verstliyində olan Əngəxaran kəndinə də qəfil hücum olur. Əngəxaranda ermənilərin törətdikləri vəhşiliklərlə əlaqədar təhqiqat materiallarında həmkəndlilərinin və şahidlərin ifadələrinə görə tərtib edilmiş siyahılarda bu kənddən daşnakların böyük işgəncələrlə qətlə yetirdiyi 237 nəfərin adı var. Əngəxarana soxulan ermənilər və malakanlar kəndi mühasirəyə alaraq oradakı əhalini qırır, kəndi qarət edir, yandırır və sağ qalan əhalini isə əsir alır. Əsir alınmış Əngəxaran sakinlərinin uşaqları azərbaycanlı kəndi olan Məlhəmə aparılıb orada saxlanılır, 88 kişini isə malakan kəndi Çuxuryurda aparırlar. Kəndə çatmamış onlar əsirləri bağda saxlayaraq bir neçə nəfərini güllələyirlər. Qalan 76 nəfəri isə əsir kimi Mədrəsə kəndində yerləşən erməni qərargahının sərəncamına göndərirlər. Yolda iki nəfəri də güllələyirlər. Mədrəsə kəndinə cəmi 74 nəfər sağ azərbaycanlı gəlib çıxır. Gəncədən gələn silahlı dəstələr Şamaxıya girdikdə Əngəxaran kəndindən olan nümayəndələr Mədrəsəyə aparılmış qohumlarının taleyindən xəbər tutmaq üçün Mədrəsə kəndinə gəldikdə onlar kəndin kənarında əngəxaranlı əsirlərin hamısının öldürüldüyünü və meyitlərinin eybəcər hala salındığını görürlər. Meyitlərin qulaqları, burunları, əlləri və ayaqları kəsilmiş, bir çox ölülərin döşlərində yanıq izləri aşkar edilmişdir. Bu da sübut edirdi ki, hələ sağ ikən ermənilər onların sinələri üzərində od qalamışlar. Bundan başqa, dağıdılmış kənddən qaçıb canını qurtara bilmiş Əngəxaran sakinlərinin çoxu aclıqdan, soyuqdan və xəstəlikdən tələf olmuşlar. Komissiyanın məruzəsində göstərilirdi ki, qısa bir vaxtda Əngəxaran əhalisi yarıbayarı azalmışdır.

Respublikamızın dövlət arxivlərində saxlanılan yüzlərlə sənəd Şamaxı qəzasının azərbaycanlı kəndlərində ermənilərin törətdikləri vəhşilikləri də əyani şəkildə ifşa edir. Təəssüflər olsun ki, Şamaxı şəhəri və Şamaxı qəzasındakı qətllər və dağıntılarla bağlı Fövqəladə Təhqiqat Komissiyası tərəfindən aparılan təhqiqat və araşdırma işləri tamamilə başa çatdırılaraq yekun sənədlər və məlumatlar hazırlanmadığı üçün Şamaxı şəhəri və Şamaxı qəzasındakı azərbaycanlı kəndlərinə dəymiş ümumi zərərin miqdarı və öldürülmüş, yaralanmış əhalinin ümumi sayı haqqında əlimizdə dəqiq məlumat yoxdur. Lakin həmin komissiya tərəfindən toplanılmış və əlimizdə olan çoxlu ilkin məlumatlar əsasında Şamaxı qəzasının kəndlərində azərbaycanlılara dəymiş zərər, öldürülən və yaralananlar haqqında hesablamalar aparmaq mümkündür.

1919-cu il aprel ayının 3-də Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyi Şamaxı qəza rəisinin Fövqəladə Təhqiqat Komissiyasına həmin qəzanın 3 polis sahəsi (Qəbiristan, Mədrəsə və Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı göndərilmişdir. Həmin siyahıya Qəbiristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin) adı daxil edilmişdir. Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatların – şahid ifadələri, zərərçəkənləri dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatlar, ölən və yaralananların siyahısı və s. əsasında 53 kənd üzrə tərtib edilmiş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə öldürülənlərin (o cümlədən kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu kəndlərdən bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir: Nəvahi kəndində cəmi 995 nəfər azərbaycanlı öldürülmüşdür ki, onlardan da 555 nəfəri kişi, 260 nəfəri qadın və 140 nəfəri uşaq idi. Kəndə dəymiş ümumi maddi zərər 60 milyon manat olmuşdur; Yəhyalı kəndində 922 nəfər öldürülmüşdür ki, onlardan da 360 nəfəri kişi, 412 nəfəri qadın və 150 nəfəri uşaq idi, kəndə dəymiş ümumi maddi zərər 22 milyon manat olmuşdur; Qubalı Baloğlan kəndində 553 nəfər öldürülmüşdür ki, onlardan 250

nəfəri kişi, 150 nəfəri qadın, 135 nəfəri uşaq idi, kəndə dəyən ümumi maddi zərər 90 milyona yaxın olmuşdur; Kalva kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 100 nəfəri uşaq idi, kəndə dəyən ümumi zərər 24 milyon manat olmuşdur; Ağsu kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 200 nəfəri kişi, 300 nəfəri qadın olmuşdur, kəndə dəyən ümumi maddi zərər 36,5 milyon manat olmuşdur; Tircan kəndində 360 nəfər öldürülmüşdür ki, onlardan da 300 nəfəri kişi, 40 nəfəri qadın və 20 nəfəri uşaq idi. Kəndə dəyən ümumi maddi zərər 21 milyon manata yaxın olmuşdur; Bağırlı kəndində 370 nəfər öldürülmüşdür ki, onlardan da 80 nəfəri kişi, 150 nəfəri qadın, 140 nəfəri uşaqlar olmuşdur, kəndə dəyən ümumi zərər 12,5 milyon manat olmuşdur. Qalan bütün kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır. Bütün aktlar Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişdir. Bu aktlarda olan rəqəmlər üzrə bizim hesablamamıza görə, Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Hesablamamıza görə, bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manata bərabərdir. Dəymiş maddi zərərlər yandırılmış və dağıdılmış yaşayış evləri və digər tikililərin, qovulub aparılmış və ya məhv edilmiş mal-qaranın, oğurlanmış və yandırılmış ev əşyalarının, aparılmış və ya məhv edilmiş kənd təsərrüfatı alətlərinin, taxılın, yemin, dağıdılmış üzüm, tut və meyvə bağları və s. üzrə hesablanırdı. Ermənilərin azərbaycanlıların evlərinə, mal-qara, əkin sahələrinə münasibətdə törətdikləri vəhşiliklər, sözün əsl mənasında, vandalizm nümunəsidir. Onlar tutduqları yerlərdə ilk növbədə evləri qarət edib yandırır, mal-qaranı isə sürüb aparırdılar. Bu vəhşilər mal-qaranı sürüb aparmağa imkan tapmadıqda tövlələrin qapılarını bağlayaraq od vurub heyvanları belə diri-diri yandırmaqdan çəkinmirdilər. Üzüm, meyvə və tut bağlarındakı ağac və meynələri vəhşiliklə doğrayırdılar. Bir sözlə, onlar özlərindən sonra heç nə qoymurdular. Ona görə də Şamaxı şəhərinin və Şamaxı qəzasında ermənilərin dağıdıb məhv etdikləri azərbaycanlı kəndlərinin sağ qalmış əhalisi didərgin düşmüş, Azərbaycanın başqa rayonlarına və Bakı şəhərinə pənah gətirmişdir. Təəssüflər olsun ki, Sovet hakimiyyəti illərində xalqımıza edilmiş bu zülm unudulmuş, Stepan Lalayevə bəraət verilmiş, bu işin əsas təşkilatçısı olan S. Şaumyan o vaxtlar Şamaxı qəzasına daxil olmuş rayonlarda ən əziz adam kimi yad edilmişdir. Onun adı küçələrə, kolxozlara verilmiş, şəkilləri idarələrimizdə ən görkəmli yerlərdən asılmışdır. Bu unutqanlığımız isə bizə çox baha başa gəldi. İyirminci əsrin axırlarında yeni imkan tapmış daşnak xislətli erməni vandalları minlərlə say-seçmə oğullarımızı, qızlarımızı, köməksiz qoca, qadın və uşaqlarımızı qırdı, ərazilərimizin 20 faizini işğal etdi, 1 milyondan çox soydaşımız öz ölkəsində qaçqına çevrildi.

***Ataxan PAŞAYEV,***
***tarix elmləri doktoru***

“**Xalq qəzeti**”.-2010.-30 mart.-N 65.-S.4.

**Ermənistanın soyqırımı siyasəti bəşəriyyət üçün qlobal təhdiddir**

***Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən İrandan və Osmanlı imperiyasına daxil olan ərazilərdən erməni əhalisinin köçürülüb yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905-ci və 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, Dağlıq Qarabağa muxtariyyət statusunun təmin edilməsi, 1948-1953-cü illərdə sovet rəhbərliyinin qərarı ilə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından deportasiyası xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir".***

***İlham ƏLİYEV***

Hər il martın 31-i respublikamızda azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur, ermənilərin dövlət səviyyəsində dəstəklədikləri soyqırımı və terror siyasətinin günahsız qurbanlarının xatirəsi ehtiramla yad edilir. 92 il əvvəl - 1918-ci ilin martında daşnak-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri amansız qətliamların əsas məqsədi azərbaycanlıları milli etnos kimi yer üzündən silmək, onların tarixi torpaqlarına yiyələnmək olmuşdur. Başqa dövlətlərin ərazisi hesabına "böyük Ermənistan" yaratmaq istəyən məkrli erməni ideoloqlarının əsl xislətini nümayiş etdirən bu kütləvi və amansız soyqırımı aktı Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüzkar qəsd olmaqla, bütövlükdə bəşəriyyət və insanlıq əleyhinə yönəlmiş qəddar cinayətdir.

Bədnam qonşularımız iki əsrdən artıq müddətdə başqa xalqların himayəsinə sığınaraq əsassız iddialarını gerçəkləşdirməyə çalışmış, bu məqsədlə terrorizm, soyqırımı və deportasiya kimi dəhşətli cinayətlərə əl atmış, azərbaycanlıları və türkləri kütləvi qırğınlara məruz qoymuşlar. Hələ XIX əsrin əvvəllərindən başlayaraq ermənilər tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, azərbaycanlılar qədim torpaqlarından, ata-baba yurdlarından qovulmuş, onların deportasiyası məqsədyönlü şəkildə həyata keçirilmişdir. Şərqdə öz təsir dairəsini genişləndirmək, regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək istəyən çar Rusiyası XVII əsrin sonu, XVIII əsrin əvvəllərindən Türkiyə və İrana qarşı müharibə apararkən məhz "erməni kartı"ndan siyasi alət kimi yararlanmağa çalışmışdır. 1813-cü və 1828-ci illərdə Rusiya ilə İran arasında imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələri isə tarixi ədalətsizliyin əsasını qoymuş, Azərbaycanın ərazisi iki dövlət arasında bölüşdürülmüşdür.

"Türkmənçay müqaviləsi"nin 15-ci maddəsində İran vilayətində yaşayan ermənilərin Rusiyaya sərbəst keçmələri üçün bir il vaxt verilmişdi. Müqavilənin bu maddəsinə əsasən, 1828-ci ildən İrandan 40 min, Türkiyədən isə 84 min erməninin İrəvan və Qarabağ xanlıqları ərazisinə köçürülməsi təmin edilmişdir. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər tədricən Azərbaycan torpaqlarının ilhaqı prosesinə başlamış, havadarlarının himayəsi altında 1828-ci ildə "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail olmuşlar.

Belə qondarma ərazi bölgüsü ilə azərbaycanlıların öz tarixi torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyulmuşdur. Bundan ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə Rusiyada gedən inqilabi proseslərdən istifadə edərək azərbaycanlılara qarşı genişmiqyaslı qanlı aksiyalar həyata keçirmişlər. Həmin illərdə Bakıda, Şuşada, Zəngəzurda, İrəvanda, Ordubadda, Naxçıvanda, Eçmiədzində, Cavanşirdə və Qazaxda azərbaycanlıların tarixi torpaqlarından çıxarılması prosesi geniş vüsət almış, ümumilikdə, 75 azərbaycanlı kəndi məhv edilmişdir. Bu dövrdə azərbaycanlıların kütləvi qırğınları ilə bağlı tarixi faktlar M. S. Ordubadinin "Qanlı illər", M. M. Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman müharibəsi" kitablarında aydın əksini tapmışdır.

Birinci dünya müharibəsindən, habelə Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin martında əzəli Azərbaycan torpaqlarında "Ararat respublikası" yaradılmış, eyni zamanda əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanılmışdır.

1917-ci il dekabrın 16-da Rusiya Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş Stepan Şaumyan Bakı Sovetinin iclasında bildirmişdi ki, bu təşkilat Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir. Brest-Litovsk (mart, 1918-ci il) sülh müqaviləsinin bağlanması ilə Rusiya qoşunları işğal etdikləri Qars, Ərdəhan və Batumini tərk etdilər. İran və Türkiyə cəbhəsindən geri dönən rus və erməni əsgərlərinin bir qismi də Bakıda yerləşdirildi. Bu vəziyyətdən yararlanan Şaumyan həmin qüvvələrdən azərbaycanlılara qarşı istifadə etmək qərarına gəldi. Həmin dövrdə Bakıda çox az

sayda könüllü müsəlman əsgərinin olması ona mənfur planını həyata keçirməyə əlverişli imkan yaradırdı. Böyük qırğınlara başlamağa isə yalnız bəhanə lazım idi. Bu bəhanə isə Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 hərbçinin gəlişi oldu. Şaumyanın göstərişi ilə ermənilər şayiə yaydılar ki, guya bu zabitlər Muğandakı malakan kəndlərini dağıtmaq barədə göstəriş alıblar. Bundan sonra isə o, gəmidəki zabitlərin tərksilah olunması üçün göstəriş verdi. Bundan narazı qalan yerli əhali isə küçələrə çıxıb zabitlərin tərksilah olunmasına etirazını bildirdi. Beləliklə, dinc əhaliyə qarşı kütləvi qətliama start verildi. Martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri şəhəri gəmilərdən atəşə tutdular. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətdilər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış istintaq komissiyasının hesabatında bu hadisələr zamanı ölənlərin sayının 20 mindən çox olduğu bildirilir.

1918-ci ilin mart-aprel aylarında ermənilər Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüş, Şamaxıda 58 kənd dağıdılmış, 7 min nəfər məhv edilmişdi. Quba ərazisində 112, Qarabağda 157, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 82 kənd yerlə yeksan olunmuşdu. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində ("Əməkçi" qəzeti, 2 noyabr 1919-cu il) göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa zaman ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 nəfər öldürülmüşdür.

Ermənilər həmin dövrdə Azərbaycanla yanaşı, Gürcüstana da ərazi iddiaları irəli sürmüş, bir sıra bölgələri zorla işğal etmişlər. Ermənilər 1918-ci ilin dekabrında Gürcüstana müharibə elan etmiş, ağır döyüşlərdə Borçalı qəzasının cənub hissəsini (Lori və onun ətrafını) təcavüzkarlıqla ələ keçirmişlər.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra da bədnam qonşularımız adət etdikləri çirkin metodlarla azərbaycanlıları daimi yaşadıqları ərazilərdən çıxarmış, eləcə də qonşu respublikaların torpaqları hesabına "ərazilərini" böyütmüşlər. 1920-ci ildə Zəngəzuru və Azərbaycan torpaqlarının bir hissəsini Ermənistan SSR-in ərazisi elan etmişlər. 1923-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ "muxtar vilayət" elan edilmişdir. Sonrakı dövrdə isə ermənilər bu ərazilərdəki azərbaycanlıların deportasiyası siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atmışlar. Onlar 1943-cü ildə Tehranda keçirilən konfransda İranda yaşayan ermənilərin Sovetlər birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri V.Molotova müraciət ünvanlamışlar. İosif Stalinin buna razılıq verməsi isə faktiki olaraq azərbaycanlıların 1948-53-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiyasının əsasını qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı ilə 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılmışdır. Fərmanda bu deportasiya aktları ilə bağlı vurğulanır: "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır".

Erməni millətçiləri ötən əsrin 50-ci illərindən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasını daha da genişləndirmişlər. Ermənistanda yaşayan azərbaycanlı əhalinin hüquqları ermənilər tərəfindən kobudcasına pozulmuş, ana dilində təhsil almalarına əngəllər törədilmiş, onlara qarşı repressiyalar həyata keçirilmişdi. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilmiş, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş vermişdi. Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaratmaq məqsədinə yönəlmişdi. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri antiazərbaycan təbliğatı ötən əsrin 80-ci illərinin sonunda daha da güclənmişdi.

Bu mərhələdən təcavüzkar erməni millətçilərinin Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürməsi və qondarma Dağlıq Qarabağ probleminin ortaya atılması azərbaycanlıların kütləvi qırğını və əsrlər boyu yaşadıqları tarixi ərazilərdən deportasiyası, şəhər və kəndlərimizin, maddi-mədəniyyət abidələrimizin

dağıdılması ilə nəticələnmişdir. 1918-ci il iyunun 4-də Türkiyə ilə Ermənistan arasında imzalanmış Batumi müqaviləsinə əsasən, cəmi 9 min kvadratkilometr ərazisi olan ermənilər 1988-ci ilədək onu 30 min kvadratkilometrə çatdırmışlar (hazırda isə işğal etdikləri ərazilərlə birlikdə təqribən 45 min kvadratkilometr əzəli Azərbaycan torpaqlarını nəzarət altına almışlar). Erməni şovinistləri 1988-ci ildən başlayaraq azərbaycanlılara qarşı kütləvi təqiblər - fiziki zorakılıqlar, qətllər, talanlar, yanğınlar həyata keçirməyə başlamışlar.

Ermənistan SSR Ali Soveti sessiyasının məxfi göstərişinə əsasən, 1988-ci il noyabrın 22-dən 28-dək olan müddətdə 22 rayonda sırf soydaşlarımızın yaşadığı 170, ermənilərlə qarışıq 94 yaşayış məntəqəsi azərbaycanlılardan tam təmizlənmişdir. Nəticədə 200 mindən artıq azərbaycanlı, 18 min müsəlman kürd, min nəfərdən çox rusdilli əhali Azərbaycana pənah gətirmişdir. 1991-ci il avqustun 8-də (18 fevral 1929-cu ildə Ermənistanın tərkibinə verilib) sonuncu Azərbaycan kəndi Nüvədidən əhalinin çıxarılmasından sonra Ermənistan faktiki olaraq monomillətçi dövlətə çevrilmiş, daşnakların "Türksüz Ermənistan" ideyası reallaşmışdır. Deportasiya zamanı 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, minlərlə qadın, uşaq və qoca müxtəlif bədən xəsarəti almış, on minlərlə ailənin əmlakı qarət olunmuşdur.

Ümumiyyətlə, 1990-1993-cü illərdə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan əlavə, Azərbaycanın daha 7 rayonunu, 877 şəhər, kənd və qəsəbəsini işğal etmiş, dağıtmış və yandırmış, 20 minə yaxın Azərbaycan vətəndaşını öldürmüş, 4 minə yaxın əhalini girov götürmüşlər. 10 mindən çox dinc sakin yaralanmış, 50 mindən çox adam əlil olmuş, bir milyona yaxın azərbaycanlı öz torpaqlarından didərgin salınmış, ölkə iqtisadiyyatına 60 milyard ABŞ dollarından çox ziyan vurulmuşdur. 1992-ci il fevralın 26-da törədilən Xocalı soyqırımı isə dünya tarixində bənzəri olmayan vəhşiliyin daha bir nümunəsi olmuşdur.

1944-cü ilədək "soyqırımı" anlayışı beynəlxalq ictimaiyyətə məlum olmamış, bu termini ilk dəfə məhz yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin işlətmişdir. O hesab edirdi ki, soyqırımı - müəyyən insan qruplarının mövcudluğunun vacib əsaslarını məhv etməyə yönəlmiş müxtəlif cinayətkar hərəkətlərin koordinasiya olunmuş, planlı şəkildə həyata keçirilməsidir. Bir ildən sonra isə Nürnberq beynəlxalq hərbi tribunalı faşist liderlərini "bəşəriyyət əlehyinə cinayətlərdə" ittiham etmişdir. İlk dəfə olaraq Nürnberq Hərbi Tribunalının Nizamnaməsinin 6-cı maddəsində beynəlxalq cinayətlərin nədən ibarət olduğu göstərilmişdir. Sənəddə beynəlxalq cinayətlərin üç növü - sülh, insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri fərqləndirilir. Soyqırımı cinayəti insanlıq əleyhinə olan cinayətlər kateqoriyasına aid edilmişdir.

BMT-nin "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" 9 dekabr 1948-ci il tarixli Konvensiyasında isə soyqırımı cinayətinin mahiyyəti tam olaraq əksini tapmışdır. 12 yanvar 1951-ci ildə qüvvəyə minmiş bu konvensiyada ilk dəfə olaraq beynəlxalq hüquqda insan qruplarının milli, etnik, irqi, dini fərqlərinə görə kütləvi məhv edilməsinə yönələn cinayətlər soyqırımı adlandırılmışdur. Eyni zamanda, bu konvensiyaya qoşulan dövlətlərin üzərinə bu cinayətin qarşısının alınması və bu cinayəti törədənlərin cəzalandırılması vəzifəsi qoyulmuşdur. Konvensiyanın 2-ci maddəsinə görə, soyqırımı hər hansı milli, etnik, irqi və dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi məqsədilə törədilən aşağıdakı hərəkətlərdən biridir:

a) bu cür qrup üzvlərinin öldürülməsi;
b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və yaxud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi;
c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması;
d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi;
e) bir insan qrupuna mənsub olan uşaqların zorla başqasına verilməsi.

Konvensiyanın 3-cü maddəsinə görə, soyqırımı; soyqırımı törətməyə yönəlmiş gizli sövdələşmə; soyqırımı törətməyə birbaşa iştirak və açıq təhrik; soyqırımı törətməyə yönəlmiş qəsd; soyqırımıda iştirak cəzalandırılan əməllər sırasındadır. Bu kriteriyalar baxımından 1918-ci ilin 31 mart və Xocalı qətliamlarının soyqırımı kimi tövsif olunmasına ciddi hüquqi əsaslar vardır. Ümumən Azərbaycan hakimiyyəti bu məsələdə həm də keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının IV maddəsini, Ruanda üzrə Beynəlxalq Tribunalın Nizamnaməsinin I maddəsini, Beynəlxalq Cinayət Məhkəməsinin statutunu, həmçinin "Xocalı soyqırımı günü haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994-cü il tarixli qərarını, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il fərmanını və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü və 104-cü maddələrini əldə əsas tutur. Azərbaycanlılara qarşı tarixən tətbiq olunan soyqırımı, deportasiya, işgəncələr və qeyri-insani rəftar eyni zamanda Avropa İnsan Hüquqları Konvensiyasının, İşgəncələrə qarşı BMT və Avropa Şurası konvensiyalarının və digər aktların kobud şəkildə pozulması deməkdir.

Azərbaycan 1996-cı il mayın 31-də BMT-nin 9 dekabr 1948-ci il tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyasını ratifikasiya etmiş, milli qanunvericiliyini bu sənədə uyğunlaşdırmaq istiqamətində tədbirlər görmüşdür. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin VII bölməsinin fəsillərə bölünməsində bu konvensiyanın tələbləri nəzərə alınmış, 16-cı fəsil "Sülh və insanlıq əleyhinə cinayətlər", 17-ci fəsil "Müharibə cinayətləri" adlandırılmışdır. Konvensiyadan irəli gələn öhdəliklərin

həyata keçirilməsi istiqamətində görülən tədbir kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "Soyqırımı", (maddə 103), "Soyqırımının törədilməsinə təhriketmə" (maddə 104) maddələri daxil edilmişdir.

Erməni silahlı qüvvələrinin, Dağlıq Qarabağın separatçı silahlı qüvvələrinin və Xankəndiyə dislokasiya olunmuş keçmiş SSRİ-nin 366-cı alayının hərbçiləri ilə birlikdə Xocalıda törətdikləri qətliamda Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" 1948-ci il 9 dekabr tarixli Konvensiyasında və Azərbaycan Respublikası CM-in 103-cü maddəsində nəzərdə tutulmuş soyqırımı cinayətinin tərkibi vardır. Cinayət işi öyrənilərkən həmçinin müəyyən edilmişdir ki, Xocalı soyqırımını həyata keçirən Ermənistan hərbi birləşmələri, Dağlıq Qarabağdakı silahlı separatçı birləşmələr və SSRİ-nin Xankəndidə yerləşən 366-cı alayının hərbçiləri tərəfindən dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquq normalarına da riayət edilməmişdir. 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə konvensiyalarının müvafiq maddələrində nəzərdə tutulan - döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərə qarşı onların həyatına və şəxsiyyətinə qəsd etmək, o cümlədən hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və işgəncə vermək, girov götürmək, insan ləyaqətinə toxunmaq, o cümlədən təhqiramiz və alçaldıcı tərzdə rəftar etmək kimi qadağalar kobud surətdə pozulmuşdur.

366-cı alayın hərbi qulluqçuları və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmiş, onların Azərbaycan Respublikası CM-in soyqırımına görə məsuliyyət nəzərdə tutan 103-cü maddəsi, habelə sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinə görə məsuliyyəti nəzərdə tutan CM-in 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (işgəncə), 115.4-cü (müharibə qanunlarını və adətlərini pozma), 116.0.17-ci (zorlama, cinsi köləlik, məcburi fahişəlik, məcburi sterilizasiya, məcburi hamiləlik, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmə) maddələri ilə nəzərdə tutulan cinayəti etməkdə təqsirləndirilən şəxs kimi cəlb olunmaları barədə qərarlar çıxarılmışdır. Həmçinin barələrində məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilmiş və beynəlxalq axtarışlarının həyata keçirilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikası Milli Bürosuna göndərilmişdir.

Tarixi ədalətsizlik üzündən ötən əsrin sonlarınadək xalqımızın üzləşdiyi bu ağır faciələrə obyektiv qiymət vermək mümkün olmamışdır. Xalqımız uzun illər bu gerçək tarixindən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Bədnam erməni millətçilərinin tarixi saxtalaşdırmağa, dünya ictimaiyyətini çaşdırmağa yönəlmiş saxta kampaniyasına qarşı mütəşəkkil müqavimət yalnız ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

Ümummilli liderin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı ilə tarixi həqiqətlərin üzə çıxmasına təkan vermiş, bu mühüm sənəddə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların - soyqırımlarının rəsmən adı çəkilmiş, Cənubi Qafqaz miqyasında xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açıqlanmışdır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakinləri olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş xəyanətkar erməni millətçilərinin mənfur fəaliyyətinə siyasi qiymət verilmişdir. Fərmanda deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir". Fərmanla, həmçinin, 31 mart günü son yüz ildən artıq müddətdə şovinist erməni millətçilərinin qurbanı olmuş günahsız insanların xatirəsinə ehtiram əlaməti olaraq azərbaycanlıların soyqırımı günü elan edilmişdir.

31 mart və Xocalı soyqırımlarının dünya ictimaiyyətinə çatdırılması üçün hər il hökumət səviyyəsində mühüm tədbirlər həyata keçirilir. Eyni zamanda, Milli Məclisin dünya parlamentlərinə müraciətində soyqırımı aktının real mahiyyəti, onun soyqırımı kimi tanıdılmasını şərtləndirən amillər konkret faktlar əsasında əksini tapır. Ümummilli liderin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin soyqırımı ilə bağlı xalqa 2006-cı il 28 mart tarixli müraciətində də ermənilərin müxtəlif dövrlərdəki terror siyasətinə geniş toxunulmuşdur. Müraciətdə soydaşlarımızın yurd-yuvalarından didərgin salınmaları, ərazilərimizin işğalı, şovinist erməni millətçilərinin xalqımıza qarşı təcavüzünün bu gün də davam etməsi qeyd olunmaqla yanaşı, belə bir zamanda dövlətin və hər bir vətəndaşın qarşısında duran başlıca vəzifələr göstərilir. Sənəddə qarşıda duran məqsədlər kimi erməni millətçilərinin cinayətlərinin dünya dövlətlərinin parlamentləri tərəfindən pislənməsi, tarixi ədalətin bərpa edilməsi, soyqırımı siyasəti yürüdənlərin beynəlxalq ictimaiyyət qarşısında ittiham olunmasının vacibliyi vurğulanır: "Əminəm ki, xalqımızın vətənpərvərliyi, milli birliyi və məqsədyönlü fəaliyyəti, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində biz qarşımıza qoyduğumuz bütün məqsədlərə, o

cümlədən ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, onilliklər boyu planlı olaraq əsl soyqırımı həyata keçirənlərin, insanlar və xalqlar arasında nifrət və düşmənçilik təbliğ edənlərin ifşasına nail olacağıq".

Dünyada sivil birgəyaşayış və əməkdaşlıq prinsiplərinin getdikcə daha çox uğur qazandığı, hərtərəfli inteqrasiya proseslərinin geniş yayıldığı bir zamanda ermənilərin "böyük dövlət" yaratmaq iddiasında olan ideoloqları beynəlxalq hüquq normalarına açıq hörmətsizlik nümayiş etdirir, xalqları bir-birinə qarşı qoyur, milli və dini əlahiddəlik, ayrı-seçkilik siyasəti və təbliğatı aparırlar. Lakin Ermənistanın və onun havadarlarının təcavüzkar siyasəti iflasa məhkumdur, çünki bu xətt hazırkı dünya siyasətinin aparıcı meyilləri ilə kəskin ziddiyyət təşkil edir. Bu siyasətə qarşı geniş potensiala malik Azərbaycan dövləti, onun getdikcə artan iqtisadi qüdrəti, siyasi nüfuzu, dünya azərbaycanlılarının gündən-günə möhkəmlənən həmrəyliyi, nəhayət, güclü və müasir Azərbaycan ordusu dayanır. Dövlət başçısı İlham Əliyev bu il martın 21-də Novruz bayramı ilə əlaqədar bayram şənliyində çıxış edərkən ölkəmizin qətiyyətli və prinsipial mövqeyini bir daha bəyan etmişdir: "Biz danışıqlar prosesində öz prinsipial mövqeyimizdən bir addım geri atmamışıq. Bir neçə il bundan əvvəl nəyi demişiksə, bu gün də həmin mövqeyin üstündə dayanırıq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıbdır və olmayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycan vətəndaşları oraya qayıtmalıdırlar. Bütün kommunikasiyalar açılmalıdır. Dağlıq Qarabağda yaşayan ermənilər və Dağlıq Qarabağa mütləq qayıdacaq azərbaycanlılar yüksək muxtariyyət statusunda yaşamalıdırlar. Bu status nədən ibarət olacaq, - onu gələcək göstərər. O gələcək ki sabah da, yüz ildən sonra da ola bilər və olmaya da bilər".

Azərbaycan Prezidenti, İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın Dağlıq Qarabağ üçün təklif etdiyi yüksək muxtariyyət statusu münaqişənin həllinin ən optimal yoludur və gec-tez separatçı rejimin havadarı olan Ermənistan bu reallıqla barışmalı olacaq. Cənab İlham Əliyev Dağlıq Qarabağa dünya miqyasında mövcud olan ən yüksək muxtariyyət statusunun verilməsi təklifini beynəlxalq hüquq normalarına tamamilə adekvat hesab edir. Bununla yanaşı, dövlət başçısı Ermənistanın bu təklifi düzgün dəyərləndirməyəcəyi təqdirdə, Azərbaycanın həmin təklifə yenidən baxmalı olacağı mesajını da vermişdir. Ölkə başçısının yeritdiyi prinsipial daxili və xarici siyasətə ürəkdən inanan Azərbaycan vətəndaşları erməni işğalının tezliklə aradan qaldırılacağına və haqq-ədalətin öz yerini tapacağına əmindirlər.

**Zahid CƏFƏROV,**
**hüquq elmləri namizədi,**
**BDU-nun Mülki proses, əmək və ekologiya hüququ kafedrasının dosenti**

“**Azərbaycan**”.-2010.-31 mart.-N 66.-S.4.

**Əlindən qan daman tarix:**
**92 il əvvəlin erməni vəhşiliyi səhifə-səhifə...**

1828-ci il fevralın 10-da Rusiya ilə İran arasında bağlanan Türkmənçay sülh müqaviləsinin bəndlərindən biri də İranın müxtəlif ərazilərində məskunlaşan ermənilərin Quzey Azərbaycana köçürülməsini nəzərdə tuturdu. Müqavilənin imzalanmasından dərhal sonra – fevralın 13-də isə ermənilərin ilk köçü Arazdan şimala adladı və Qarabağa yerləşdirildi.

Bu fakt 1988-ci il fevralın 13-ü - ermənilərin Xankəndində başlayan ilk mitinqinin tarixi ilə üst-üstə düşür. Görünür, ermənilərin bu tarixi seçməsi təsadüfü deyildi. Çünki 3 gün müddətində gerçəkləşdirilən erməni köçü sübut edirdi ki, Qafqazın türklərdən təmizlənməsi və Ermənistan dövlətinin yaradılması ideyasının kökü daha öncəki tarixlərə gedir və 1828-ci ilə qədər ilkin hazırlıqlar artıq başa çatmışdı…

***

Türkmənçay müqaviləsindən sonrakı 3 il müddətində 130 min erməni İrandan köçürülərək Qarabağda, o cümlədən İrəvan quberniyasında məskunlaşdırıldı. Nəticədə İrəvan xanlığı ərazisində ermənilərin sayı 1831-ci ilin sonlarına aid statistikaya əsasən 161,7 min nəfərə çatdırıldı.

Ancaq bu tədbirlər bölgənin demoqrafik vəziyyətinə ciddi təsir etmədi. Həm Qarabağ, həm də İrəvan quberniyalarında əhalinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. Hətta bir müddət sonra Azərbaycanın qərb torpaqlarında yaradılan "erməni vilayəti" adlı ərazidə belə ermənilər etnik azlıq idilər, "erməni vilayəti"nin mərkəzi kimi göstərilməyə cəhd edilən İrəvan şəhərinin əhalisinin isə 87 faizi türklərdən ibarət idi. Bu, təbii ki, Birinci Pyotrdan başlayan və Rusiya imperiyasının cənub siyasətinin başlıca qayəsi olan "erməni amilindən Qafqazda etibarlı dayaq kimi istifadə edilməsi" üçün kifayət deyildi. Ona görə də erməni terror şəbəkəsinin inkişafına geniş şərait yaradıldı.

Ermənilər yaradılan şəraitdən istifadə edərək, yeni məskunlaşdıqları Azərbaycan ərazilərini, eyni zamanda, Türkiyənin şərq torpaqlarının bir hissəsini əhatə etməklə "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq və bölgəni türksüzləşdirmək məqsədilə 19-cu əsrin sonlarına doğru bir neçə terror təşkilatı – Armenakan, Hnçak və Daşnaksütyun partiyalarını yaradırlar.

**Türkü və kürdü hər yerdə öldür!**

Yaradılan hər 3 partiya terror fəaliyyətini rəsmən qəbul edir:

- 1887-ci ildə Cenevrədə yaradılan Hnçak partiyasının Nizamnaməsinin 4-cü bəndində "məqsədə çatmaq üçün terror və dağıdıcılıq fəaliyyəti" nəzərdə tutulur;
- 1885-ci ildə yaranan Armenakan partiyası Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror fəaliyyətinə başlayır;
- 1890-cı ildə Tiflisdə yaradılan Daşnaksütyun partiyası da Azərbaycanın İrəvan, Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu bölgələrini əhatə eləyən Ermənistan qurmağı ideoloji əsas seçir, 1892-ci ildə keçirilən ilk qurultayında Qafqazı türksüzləşdirmək məqsədilə qərar qəbul edir. Həmin qərarda bildirilir: "Türkü və kürdü hər yerdə, hər bir şəraitdə öldür!"

**İlk qırğınlar**

Ermənilər məqsədlərini həyata keçirmək üçün Rusiya hərbçilərinin sayəsində silahlanır, sistemli hərbi təlimlər keçir və açıq soyqırıma hazırlaşırlar. Genişmiqyaslı və aşkar soyqırım siyasətini həyata keçirmək üçün ilk fürsət isə 1905-ci ildə Rusiyada başlayan inqilab olur.

Həmin il erməni hərbi birləşmələri Bakı, Şamaxı, Quba, Lənkəran, Gəncə, Qarabağ, Zəngəzur, Göycə, Basarkeçər, həmçinin İrəvanda azərbaycanlılara qarşı misli görünməmiş qırğınlar həyata keçirirlər.

1905-ci ildə ermənilər terror təşkilatlarının Azərbaycanda törətdiyi ilk soyqırımdan sonra İrəvan mahalının demoqrafik vəziyyəti dəyişir. 900 min türkün qovulduğu, məhv edildiyi və didərgin salındığı Azərbaycan kəndlərində Yaxın Şərqdən köçürülən ermənilərin məskunlaşması sürətləndirilir və artıq Birinci Dünya Müharibəsi ərəfəsində, 1914-cü ildə İrəvan quberniyasında ermənilərin sayı 1 milyon 14 min nəfərə çatdırılır. Əvəzində isə cəmi 575 min türk indiki Ermənistan ərazisində öz mövcudluğunu qorumağı bacarır.

**"Quduz itlər körpənin əl-ayağını gəmirib yemişdi"**

Ermənilərin azərbaycanlılara qarşı ikinci və daha dəhşətli soyqırımı 1918-ci ildə başlayıb və 1922-ci ilə qədər davam edib.

Birinci Dünya Müharibəsinin gedişində Rusiyada başlanan inqilabın ilk dalğasıyla rus ordusunun Cənubi Azərbaycandan geri çəkilməsi ilə böyük silah-sursata, o cümlədən ağır texnikaya sahiblənən ermənilər Tiflisdəki Daşnaksütyun partiyasının təşkilatçılığı ilə müharibədən geri dönən və silahlarını təhvil verməyən erməni dəstələri ilə birgə hərəkət etməyə başlayırlar. Eyni zamanda, Bakı sovetinin 6 minlik ordusuna sahib olan Stepan Şaumyan nə yolla olursa-olsun, bolşeviklərlə azərbaycanlılar arasında münaqişə yaratmağa cəhd göstərir, bu soyqırım aktına sinfi mübarizə və vətəndaş müharibəsi görüntüsü verməyə çalışırdı.

Belə bir fürsət 1918-ci ilin martın 30-da məşhur mesenat Hacı Zeynalabdin Tağıyevin silahla ehtiyatsız davranışdan vəfat etmiş oğlu Məhəmməd Tağıyevin dəfnindən sonra yaranır. H.Z.Tağyevin oğlunu Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir heyəti dəfndən sonra “Evelina” gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Ancaq gəmi limandan aralanan ərəfədə Şaumyanın tapşırığı ilə silahlı bolşeviklər azərbaycanlı əsgərlərin tərksilah olunmasını tələb edirlər. Dəstə tələbi rədd etdikdə isə əvvəlcədən pusquda durmuş pulemyotlar atəş açır; dəstə məhv edilir və gəmidəki silah-sursat ələ keçirilir.

Bakı Sovetində Stepan Şaumyan başda olmaqla Sako Saakyan, Arakelyan və digər daşnaklar bu faktı müsəlmanların bolşeviklərə qarşı çıxması kimi qiymətləndirir və səhər tezdən azərbaycanlılara qarşı hücum əmri verirlər. Beləliklə, martın 31-də Bakıda azərbaycanlıların soyqırımına başlanılır.

***

1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən soyqırım faktlarını araşdıran Fövqəladə Təhqiqat Komissiyasının yaradılması həmin dövrün dəhşətlərinin əks olunmasında misilsiz xidmətlər göstərib. Komissiyaya vəkil Ələkbər bəy Xasməmmədov rəhbərlik edib.

Komissiyanın üzvü A.Y.Kluge “Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara dair iş haqqında” məruzəsində yazır: “Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər. Ermənilər müsəlmanların evlərinə soxulur, sakinləri qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər”.

Təhqiqat Komissiyasının məlumatına görə, bu 3 günlük qırğınlar nəticəsində Bakıda 11 minə qədər müsəlman-türk öldürülüb. Ancaq komissiya üzvləri özləri də bu məlumatı səhih rəqəm saymamış və qeyri-rəsmi olaraq 30 minə yaxın türkün qətlə yetirildiyini təxmin ediblər. Çünki öldürülənlərin çoxunun meyiti tapılmamışdı. Şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə, quyulara atırdılar ki, cinayətin izini itirsinlər.

Təkcə “Vulkan” cəmiyyətinin yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların 6748 meyiti toplanmışdı. “Nikolay Bunyatov” gəmisinin komandir köməkçisi Kazım Axundov texnik dostu Vladimir Sokolovu “Kərpicxana” deyilən yerə aparıb və orada işgəncələrlə öldürülən insanların şəklini çəkməyi xahiş etmişdi. Vladimir Sokolov 3 fotoşəkil çəkə bilib:

Birinci fotoşəkildə başında güllə, bədənində 5 süngü yarası olan və sağ çiyninə qılınc yarası vurulmuş ananın sağ döşündə hələ sağ olan körpə uzanıb. Anasının döşünü əmən körpənin ayağında süngü yarası görünür.

İkinci şəkildə iri mismarla divara mıxlanmış 2-3 yaşlı uşaq təsviri var. Üçüncü şəkil isə 13-14 yaşlı qızın meyitidir. Qızın cırılmış paltarları və qançırlardan onun zorlanaraq öldürüldüyü görünür.

Sokolov 4-cü otağa girəndə 22-23 yaşlı bir qadının, iki qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitlərini görür. Quduz itlər körpənin əl-ayağını gəmirib yeyibmiş.

Bu mənzərədən dəhşətə gələn Vladimir Sokolov daha heç bir şəkil çəkə bilmir…

**“Öldürülənlərin dəfni aylarla davam etdi…”**

Dəhşətli qırğınların əhatə etdiyi ərazilərdən biri də Şamaxı idi. Ermənilər şəhərin axundu Cəfərquluya işgəncələr vermiş, onun saqqalının tüklərini bir-bir yolmuş, gözlərini çıxarmış, burnunu kəsmişdilər, axundun yanında sığınacaq tapmış saysız-hesabsız qadın və uşaqları da öldürmüşdülər.

Təkcə Şamaxı qırğınlarıyla bağlı Təhqiqat Komissiyası 925 səhifədən ibarət 7 cildlik şahid ifadələri və materiallar toplamışdı. Sənədlərdən Şamaxı qəzasının 53 kəndinin dağıdıldığı, 8027 azərbaycanlının qətlə yetirildiyi məlum olur. İşgəncələr altında öldürülənlərdən 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olub.

Komissiyanın sədri Ə. Xasməmmədov 1919-cu il martın 30-da “Azərbaycan” qəzetində çap etdirdiyi “Çağırış”da bildirirdi: “Şamaxının yalnız xarabalıqları qalmışdır... Şəhərin 15 minlik əhalisindən sağ qalanlar

bütün Zaqafqaziyaya dağılmış, əllərində qoltuq ağacı və bellərində torba qapı-qapı düşüb dilənirdilər ki, acından ölməsinlər... Onlar türk qoşunları Azərbaycana gəldikdən sonra öz el-obalarına qayıtmışlar".

Qafqaz İslam ordusunun gəlişindən sonra Şamaxı küçələrindən iri sümüklər yığılaraq basdırılmışdı. Ancaq komissiya üzvlərinin 1918-ci ildə hazırladıqları hesabatda göstərilir ki, öldürülənlərin basdırılması aylarla davam etsə də, bəzi yerlərdə qalaqlanmış və çürümüş meyitlər hələ də qalmaqdadı.

**"Məscidi dağıdıb, din xadimlərini qırdılar"**

Ermənilər Quba qəzasında soyqırıma xüsusilə hazırlaşmışdılar. Çünki ilk qırğını törədən Muradyana qarşı əhali müqavimət göstərə bilmişdi.

Birinci Dünya Müharibəsində iştirak edən ermənilərdən ibarət iki min nəfərlik dəstə Muradyanın rəhbərliyi ilə 1918-ci ilin birinci rübündə Qubaya hücuma keçmiş və dəhşətli qırğınlar törətmişdi. Həmin ərəfədə Qusarın Kuzun kəndinin sakini, Türkiyədə təhsil almış nüfuzlu din xadimi Möhübəli Əfəndi və Çağar kəndinin sakini Hətəm Sərkarov yerli əhalini daşnaklara qarşı mübarizəyə qaldıra bilirlər. Ləzgilərin də köməyi ilə qırğınların qarşısı alınır və Muradyan 100 nəfərlə qaçır.

Möhübəli Əfəndi 200 nəfər daşnak terrorçunu həbs etdirib, Quba türməsinə saldırır. Ancaq 10 gün sonra top və pulemyotlarla silahlanmış erməni ordusu yenidən Qubaya hücum edir. Hamazaspın başçılıq etdiyi dəstə şəhəri od vurub yandırmağa, tarixi abidələri dağıtmağa, insanları vəhşicəsinə qətlə yetirməyə başlayır.

Şahidlərin bildirdiyinə görə, Hamazasp Quba camaatının qalan hissəsini meydana yığıb bildirir ki, "mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm. 200-dən çox türk kəndini yandırıb xaraba qoymuşam".

Hamazaspın daşnak dəstəsinə bələdçilik edən qubalı erməni Harun Hayrapetovdan Qubanın varlı adamlarının siyahısını istədiyini yazan şahid qeyd edir ki, "Həmin siyahıda Qubanın varlılarından 26 adamın adı vardı. Hamazasp silahlı əsgəri həmin ailələrin dalınca göndərdi. Silahlı əsgərlər 6 nəfərlə geri qayıtdılar. Gətirilənlərin 4-ü qadın, 2-si uşaq idi. Hamazaspın tapşırığı ilə uşaqların başlarını kəsdilər, qadınları isə uşaqlarının qanını içməyə məcbur etdilər. Qadınlar şivən qoparıb daşnakların üstünə atılanda qarınlarını süngülərlə deşdilər. Sonra qılıncla onları tən ortadan ikiyə böldülər. Meydanda ah-nalə yüksələndə Hamazasp əsgərləri cərgə ilə düzdürüb, günahsız əhaliyə atəş açmağı əmr etdi. Yüzlərlə adam qırıldı..."

Ermənilər bu qırğınlara sünni-şiə davası donu geyindirməyə də cəhdlər edir, xarici dövlətlərdə müsəlmanların erməniləri qırdıqları barədə şayiələr yayırdılar. Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacınski 1918-ci il iyulun 15-də hökumətin iclasında çıxışı zamanı bildirmişdi ki, erməni cəlladları dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədir, bununla yanaşı yalan xəbərlər yayaraq Avropa ictimaiyyətində əks əhval-ruhiyyə yaradırlar.

Quba qırğınlarına da don geyindirməyə çalışan Hamazasp meydana yığdığı əhalinin içindən bir sünni və bir şiə seçərək onlara silah verdirir və bir-birinə atəş açmağa məcbur edir. Bildirir ki, silahlar növbə ilə sünni və şiələrə veriləcək, sonda sağ qalanlar isə öldürülməyəcək.

Komissiyanın dindirdiyi şahidlərin dediyinə görə, "ilk olaraq Ləzgi Məhəmməd və şiələrin ağsaqqalı Məşədi Mirsadıqı irəli çıxardılar. Onların heç biri əlinə silah almaq istəmirdi. Qundaqla başlarına vurub, onları silah götürməyə məcbur etdilər. İkisi də tüfənglərini qaldırıb bir-birini nişan aldılar. Hamı məəttəl qalmışdı. Nisbətən cavan olan Məhəmməd heç kəsin gözləmədiyi halda geri döndü və bir daşnakı yerə sərdi. Qarışıqlıqdan istifadə edən Məşədi Mirsadıq da bir ermənini öldürdü. Bunun ardınca qırğın başlandı. Qaçmaq istəyən yüzlərlə adamı ermənilər pulemyotlarla qırdılar. Ölənlərin çoxu qadınlar və uşaqlar idi. Hamı dayanandan sonra Məhəmmədin qollarını, ayaqlarını kəsdilər. Başını kəsib süngüyə keçirdilər və hamı görsün deyə yuxarı qaldırdılar. Məşədi Mirsadığın gözlərini çıxarıb, qollarını, axırda da boynunu sındırdılar. Daşnaklar həmin gün məscidi dağıdıb həm sünnilərdən, həm də şiələrdən 20-dən çox din xadimini qətlə yetirdilər".

A. Novatski bildirir ki, ermənilər təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar. Hadisələrin canlı şahidi İbrahim Aydəmirov isə xatırlayır ki, Digah məscidində alban və ərəb əlifbası ilə yazılan kitablar yandırıldıqdan sonra kəndin yaxınlığındakı müqəddəs pirin daşını da partlatdılar. Həmin nəhəng daşın üstündə alban hərflərilə yazılar vardı.

Hamazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Qubada 16 mindən çox insan qırılmış, 162 kənd yerlə-yeksan edilmişdi.

Eyni qırğınlar Lənkəran və Göyçayda, Kürdəmirdə də törədilmişdi.

**Rusların təlim keçdiyi erməni qatilləri**

Ermənilər Şimali Azərbaycanla paralel olaraq, Cənubi Azərbaycanda – Urimiya, Salmas, Sulduz və Xoyda da kütləvi qətliamlar törədirdilər.

Urmiyadakı soyqırıma erməni dini rəhbəri Benyamin Marşimon rəhbərlik edirdi. Marşimon Osmanlı torpağından 12 min çilov ailəsi ilə birlikdə gəlmişdi, Urmiya, Salmas və Sulduzun 20 min erməni və assur ailəsi isə onlara qoşulmuşdular. Nəticədə böyük bir ordu yaranmışdı ki, bunun da 20 min nəfəri təlim keçmiş peşəkar hərbçilər idi. Əlavə olaraq 800 nəfər rus və 72 fransız zabiti də onlara hərbi hazırlıq keçirdi.

Rusiyanın Urmiyadakı konsulu Nikitinin siyasi, Petros ağanın hərbi, Marşimonun isə ideoloji dəstək verdiyi bu ordu 1918-ci il fevralın 17-dən başlayaraq azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirməyə başlamışlar.

Maraqlıdır ki, Urmiya, Salmas, Sulduzda və Xoy ətrafında baş verən bu qırğınlar nəinki Qarabağ və İrəvandan, o cümlədən Bakıdan gələn erməni hərbi birləşmələrinin yardımı ilə həyata keçirilirdi, həmçinin Şimali Azərbaycandakı qırğınlarla az qala eyni gündə baş verirdi. Məsələn, Urmiyada ümumilikdə 50 min azərbaycanlının qətliylə nəticələnən soyqırım 1918-ci ilin Novruz bayramı ərəfəsində ikinci dəfə şiddətlənmiş və martın sonlarına qədər davam etmişdi.

Andronikin başçılıq etdiyi 8 minlik quldur dəstəsi Arazın həm şimalında, həm də cənubunda erməni daşnaklarının azərbaycanlılara qarşı apardıqları soyqırıma yardım edir, soyğunçuluq törədir, kəndləri xarabazara çevirir və “Böyük Ermənistan” kimi nəzərdə tutduqları əraziləri türklərdən təmizləməyə cəhd göstərirdi.

Ermənilər bu məqsədlə Salmasda 30 min, Sulduzda isə 10 mindən çox azərbaycanlını qətlə yetirmiş, yüzlərlə kəndi xarabazara çevirmişdilər.

Qafqaz-İslam ordusunun yaxınlaşması xəbəri ilə Naxçıvana çəkilən Andronik qarşısına çıxan bütün kəndləri dağıtmışdı. Daha sonra Çəmbərəkənd rayonunun Ağbulaq, Ardanış, Bəriyabad, Qaraqaya, Əmirxeyir, Yanıqtəpə, Qaraqoyunlu, Toğluca, Çaykənd, Cıvıxlı, Cil, Şorça və başqa kəndlərə hücum edən Andronik bütün əhalini qırmışdı. Eçmiədzin rayonunun 700 nəfərlik Ayarlı və 800 nəfərdən çox əhalisi olan Qarğabazar kəndlərinin əhalisini də Andronik bütünlüklə, son nəfərinə qədər məhv etmişdi.

## “Növbə Qarabağındır…”

Ən çox dağıdılan Zəngəzur qəzası idi. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərinə görə, Ermənilər bu qəzada 115 Azərbaycan kəndini büsbütün yandırmış, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürmüşdülər.

Ermənilər Zəngəzur qəzasının özündə və ətrafında qırğınları 1920-ci ilə qədər sistemli olaraq davam etdirmişdilər. 1920-ci il yanvarın 21-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Azərbaycan parlamentinə göndərilmiş teleqramda deyilirdi: “Dörd gündür ki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında Zəngəzura hücumları davam edir. İtkilər olduqca çoxdur, əhali vahimə içində kömək umur. Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal işə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır...”

***

1918-ci ilin martına qədər Zəngəzurun 199 kəndi, 1919-cu ilin sentyabrına qədər isə Eçmiədzin qəzasının 62 azərbaycanlı kəndi yerlə yeksan edilmişdi. 1919-cu ilin axırında Zəngibasarın bir neçə kəndi istisna olmaqla qalan kəndləri, İrəvan qəzasının 211 və Vedibasarın bütün azərbaycanlı kəndləri məhv edilmişdi. 1916-cı ildə İrəvan şəhərində və İrəvan quberniyasının kəndlərində 375 min nəfər azərbaycanlı yaşayırdısa, 1922-ci ildə onlardan artıq 305 min nəfər tamamilə məhv edilmişdi.

Ümumilikdə isə bu qırğınlar nəticəsində 565 min müsəlman-türk vəhşicəsinə qətlə yetirildi.

Azərbaycan Xalq Cümhuriyyəti Fövqəladə Təhqiqat Komissiyasının topladığı materiallar əsasında azərbaycanlılara qarşı soyqırım faktını təsdiqləmiş və 1918-ci il martın 31-ni matəm günü elan etmişdi. 1919 və 1920-ci illərdə, iki il müddətində ardıcıl olaraq martın 31-i qeyd edilsə də, Azərbaycanın Sovet ordusu tərəfindən işğalından sonra 31 martın qeyd edilməsi qadağan olunmuşdu. Yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra - 1998-ci ildə prezident Heydər Əliyevin sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı günü olaraq yenidən qeyd edilməyə başlandı.

**Anar Yusifoğlu**

**“İki sahil”**.-2010.-31 mart.-N.53.-S.7.

## Mart soyqırımı haqqında ilk kitab

XX əsrin birinci yarısında ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri soyqırımı hadisəsilə bağlı arxiv sənədləri və o dövrün mətbuat orqanlarının materialları əsasında son iyirmi ildə aparılan araşdırmalar zəngin və təkrarsız faktların, məxəzlərin üzə çıxarılması, aşkar edilməsi ilə nəticələnsə də bu sahə sistemli və məqsədyönlü elmi tədqiqatın obyektinə çevrilmədiyindən hələ də kifayət qədər mövqeyimizə tutalğa verən mötəbər mənbələr elmi-nəzəri düşüncəmizin müstəvisindən kənarda qalmaqdadır. Tariximizin qaranlıq səhifələrinə işıq salmaq, aydınlıq gətirmək, xüsusilə 1918-ci ilin martında azərbaycanlıların soyqırımı faciəsi barədə daha ətraflı, yeni məlumatlar əldə etmək niyyətilə arxivlərə üz tutan tədqiqatçıların məyus olmaq, narazı qalmaq şansları xeyli məhduddur. Tarixi faciəmizin 90 illiyi ərəfəsində arxivlərimizdən birində araşdırma apararkən Seyidağa Axundzadənin 1919-cu ildə "Turan" mətbəəsində işıq üzü görən "Mart hadisəsi 1918. (Və yaxud Nuru paşa ordusu tərəfindən Bakının işğalı)" sərlövhəli 4 cildlik kitabının 1-ci və 3-cü cildlərinə rast gəldim. Tapıntılar mənim üçün tam gözlənilməz idi. Son 20 ildə bu əsərin adını xatırladan tədqiqata rast gəlməmişdim. Bəlkə də sərlövhənin sonundakı "...Bakının işğalı" fikri ona rast gələn arxiv əməkdaşlarını da kitablara ehtiyatla yanaşmağa vadar etmişdir. Əslində əsərin sərlövhəsindəki "işğalı" sözü "qurtuluşu", "xilası", "azad edilməsi" ilə əvəzlənsəydi məntiqi baxımdan daha dəqiq olardı. Çünki, Nuri Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun və Azərbaycan Milli qüvvələrinin Bakı şəhərini erməni-daşnak və bolşevik hərbi birləşmələrindən azad etdiyi gün – 15 sentyabr xalq tərəfindən 1919-cu ildə Qurtuluş günü kimi rəsmi qeyd edilmiş və bu bayram Cümhuriyyətin yaranma tarixində ictimai-siyasi xadimlər tərəfindən yüksək qiymətləndirilmişdir. Kitabın müəllifi Seyidağa Axundzadə kimdir? Mart hadisələrini qələmə almaqda məramı, məqsədi nə idi?

Maraqlıdır ki, Seyidağa Axundzadə haqqında hələ 25 il əvvəl eşitmişdim. Bir xoş təsadüf nəticəsində onun oğlu, Azərbaycanın ilk fotoqrafı Cavad Axundzadə ilə görüşüb bu barədə xeyli söhbət etmişdik. Cavad müəllim Bakının köhnə "Şamaxı yolu" deyilən, indiki Cəfər Cabbarı küçəsinin yuxarı hissəsində ikimərtəbəli həyət evinin ikinci qatında, kiçik bir otaqda tək-tənha yaşayırdı. Divarlar ağ-qara rəngli XX əsrin əvvəllərinə aid tarixi şəkillərlə bəzədilmişdi. Dümağ saqqallı, arıq cüssəli, bəstəboy Cavad Axundzadənin yaşı 75-i ötsə də qıvraq görünürdü. Onun haqqında "Təşviqatçı" jurnalında çıxan məqaləni mənə göstərdi. Divar boyu yapışdırılmış şəkillərin tarixi barədə, atası haqqında mənə geniş məlumat verdi.

Seyidağa Mir Hüseyn oğlu Axundzadə 1887-ci ildə Maştağada ruhani ailəsində anadan olub, açıqfikirli və mütərəqqi ziyalılardan idi. Atası Axund Mir Hüseyn (1852-1924) İraqın Nəcəf şəhərində 15 il ali dini təhsil almış, islami elmlərlə yanaşı tarix, coğrafiya və tibb sahəsinə dair biliklərə dərindən yiyələnmişdir. Axund Mir Hüseyn xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevlə dostluq edirdi. Deyilənə görə Hacı, Axund Mir Hüseynin biliyini və istedadını yüksək qiymətləndirib ona at və fayton bağışlamışdı. Seyidağa atasının Hacı ilə dostluq münasibətlərindən faydalanaraq Tağıyevin "Kaspi" mətbəəsində mürəttib vəzifəsinə işə düzəlmişdi. O sürətlə və qüsursuz yığıcılıq peşəsinə yiyələnməklə yanaşı mətbuatda məqalələr ilə çıxış edirdi. "Kaspi" mətbəəsi Bakının indiki Sabir adına bağçasında yerləşirdi. Cavad Axundzadənin dediyinə görə anası mətbəədə işləyən atasına vaxtaşırı çörək aparırmış və hamiləliyinin son günlərindən birində – 1909-cu ildə o Maştağada yox, məhz "Kaspi" mətbəəsində anadan olmuşdur. Seyidağa Axundzadə sonralar "Orucov qardaşları" mətbəəsində, "Səda", "Hümmət", "Yeni fikir" qəzetlərində və "Azərnəşr"də linotipçi işləsə də ilk dəfə əmək fəaliyyətinə başladığı məkanı, ilk övladının dünyaya gəldiyi yeri – "Kaspi" mətbəəsini unutmurdu. Nüfuzlu mətbuat orqanlarının, sanballı tarixi kitabların "doğum evi" olan "Kaspi" mətbəəsi onun üçün əziz və unudulmaz idi. Təkcə onu xatırlatmaq kifayətdir ki, Bakı qazisi Mir Məhəmməd Kərim Mir Cəfərzadənin ilk dəfə Azərbaycan dilinə tərcümə etdiyi üç cildlik, ümumi həcmi 2500 səhifəyə yaxın "Kitabi-kəşfül-həqayiq" adlı Qurani-Şərifin təfsiri kitabı 1904-cü ildə Azərbaycan və ərəb dillərində "Kaspi" mətbəəsində işıq üzü görmüşdür. Eləcə də burada Əbdürrəhim bəy Haqverdiyevin, Yusif Vəzir Çəmənzəminlinin, Məhəmməd Hadinin, Abbas Səhhətin, Əliabbas Müznibin, Abdulla Şaiqin, Sultan Məcid Qənizadənin, Mahmud bəy Mahmudbəyovun, Lev Tolstoyun və b. əsərləri çap olunmuşdur. Bu mətbəə əslində Azərbaycanın kitab mədəniyyətinə misilsiz töhfələr bəxş etmişdir. Təəssüflər olsun ki, 1918-ci ilin mart soyqırımında erməni-daşnak hərbi bandalarının Bakı şəhərində barbarcasına yandırıb məhv etdikləri tarixi memarlıq abidələri, müqəddəs ziyarətgahlar, təhsil və mədəniyyət ocaqları, inzibati və yaşayış binaları sırasında zəmanəsinin açıq söz, açıq fikir beşiyi, Qafqazın qocaman və mötəbər mətbuat mərkəzi sayılan "Kaspi" mətbəəsi də yer almışdı...

Qanlı mart hadisələrində kütləvi insan qırğını, azərbaycanlılara qarşı qəddarlıqla və amansızlıqla törədilən cinayətlər, canilərin cəzasızlıq mühiti millətsevər ziyalılardan biri kimi Seyidağa Axundzadəni də sarsıtmış və onu "Mart hadisəsi, 1918..." adlı kitab yazmağa sövq etmişdir. Müəllif kitabın birinci hissəsinin "Müqəddimə"sində niyyət və məramına aydınlıq gətirərək yazır: "İşbu kitabçayı nəşr etməkdən məqsəd 18 mart 1918-nci səneyi-miladidə Avropa müharibəsi nəticələrindən olaraq Bakı şəhərinin uğradığı fəlakət və

müqəddəratının nə kibi bir "vətəndaş müharibəsi" olduğun təsvir edib gələcəkdə tarix səhifələrində Bakı şəhərinin də Avropa müharibəsində nə nəhv ilə iştirak etməsin göstərməkdir.

Başqa məmləkət və şəhərlərdə Avropa müharibəsi növbənöv rənglər aldısa da, lakin heç bir yerdə milli rəng almamışdır. Qafqaz islamlarının sadəqəlbliyi nəticələrindən olaraq hər bir neçə sənə zərfində bir fəlakət və bir bədbəxtliyə giriftar olduğu kibi bu sənə də Bakı şəhərində xain qonşuların uydurmalarına aldanıb tarixi bir fəlakətə düçar oldular.

Bakı müsəlmanları yüzünə xain Daşnak firqəsi tərəfindən açılan həmin pərdə nəhayət vəhşiyanə bir surətdə icra edildi..."

Seyidağa Axundzadənin "Bakı şəhərinin uğradığı fəlakət"in başlanma tarixini "18 mart 1918-nci səneyi-miladi" göstərməsində hər hansı bir yanlışlıq yoxdur. Qətli-am Bakıda doğurdan da köhnə təqvimlə göstərilən vaxtda, Novruz bayramqabağı başlamış, 1919-cu ildə isə yeni təqvimlə martın 31-i Cümhuriyyət hökuməti tərəfindən ümummilli hüzn günü kimi qeyd edilmişdir. S.Axundzadənin kitabında dövrün, ictimai-siyasi mühitin qaranlıq məqamlarına aydınlıq gətirilmiş, hadisənin səbəbləri, vaxtı, əhatə dairəsi göstərilmiş, erməni qəddarlığının, ikiüzlülüyünün, simasığlığının amansız epizodlarına toxunulmuşdur. Özünü "İgid daşnaklar" adlandıran vandalların vəhşi əməlləri barədə Seyidağanın aşağıda yazdıqlarını həyəcansız oxumaq mümkünsüzdür: "Bu gün məzkur hissənin müsəlmanları bir tarixi günü keçirmişlər. "Dilir (igid) Daşnak firqəsi" əllərinə düşən müsəlman övrət və uşaqlarından heç bir zülmü əsirgəməyib insanlara yaraşmayan böylə qəbahətlərin icrasına qədər varmışlar. Hamilə övrətlərin bətnində olan məsum səbiləri (uşaqları) belə çıxarıb tüfəng cüdalarına taxmışlar və xırda balaları divarlara belə mıxlamışlar."

Seyidağa Axundzadənin "Mart hadisəsi 1918. (Və yaxud Nuru paşa ordusu tərəfindən Bakının işğalı)" kitabından bir parçanı müəllifin üslubuna toxunmadan oxucuların diqqətinə çatdırır, soyqırımı tariximizin fakt-sənəd arsenalında bu qaynağın sanballı yer alacağına inanırıq.

**Seyidağa Axundzadə**

## MART HADİSƏSİ – 1918

Mart ayının 18-ci günü 1918-ci ildə Bakı şəhərində mütəfərriq (müxtəlif – A.R) firqələr tərəfindən şəhər idarə olunduğu bir halda müsəlmanlar tərəfindən tərtib verilmiş milli ordunun (Dikaya diviziya) Lənkərana sövq edildigi zaman rus Milli firqəsi tərəfindən tərk-silah edilməsi eşidildi. Həmin şaiyə əhali miyanında kəsbü-xamət etməkdə idi.

Böylə ki, həmin məsələnin siyasi dairələrdə belə ciddi surətdə danışıldığı yerli qəzetələrdə oxunur idi. Nəhayət, yekşənbə günü 18 mart yetişdi, bu gün Bakı əhalisi miyanında bir əlahiddə halət və həyəcan müşahidə olunuyor idi. Saət 9 radələri idi. Ümummüsəlmanlar dükan-bazarı qapayıb Nikolayevski (indiki İstiqlaliyyət küçəsi-A.R.) caddədə vaqe-i Cəmiyyəti Xeyriyyə (İsmailiyyə-A.R.) binasına toplaşıyor idi. Küçələr dolusu axışan əhali miyanında "Bu gün gərək bizim əsgərlərin silahı qaytarıla" – sədaları eşidilməkdə idi. Nəhayət saət on birdə Cəmiyyəti Xeyriyyə salonu Bakı şəhərinin qaragüruh sinifləri ilə dolub gurultulu sədalar eşidilirdi, Məsələn: "Bu saət gərək Rus Milli firqəsi bizim qoşunların silahın təhvil verib özləri də burudan getsin."

Bu cür nagüvara (çətin-A.R) və gələcəkdə pis nəticələrə bais olan Daşnakların qabağı "Müsavat" və başqa firqələr nümayəndələri tərəfindən alınır desə də salonu əhatə edən gurultuların müqabilində heç bir fayda verməyordu.

...Saət beş ilə altı miyanında Şamaxı caddəsi tərəflərində bir neçə atəş səsləri eşidildi. Həmin atəşlər gələcək müqəddəratın başlandığın elan etdi və həmin atəşə də səbəb Müsəlmanlar Cəmiyyəti Xeyriyyə binasında iclas yapdığı zaman xain müfəttinlər (fitnəkarlar-A.R) tərəfindən yapılan hazırlıqlar icrasına şüru edilməsi əlaməti idi. Böylə ki, şəhərin bəzi mühüm nöqtələrinə gizli surətdə silah və pülemyotlar nəql edilib şəhər şərq-şimal tərəfindən əhatə edildikdən sonra Şamaxı caddəsi ilə gedən bir nəfər müsəlmanın silahı fitnəçilik ilə alınmasından naşı olmuşdu.

Bu halda mütəfərriq (müxtəlif-A.R) caddələrdən atəş sədaları ara-sıra eşidilirdi. Nikolayevski caddədə vaqe-i Cəmiyyəti Xeyriyyə binasına toplaşan silahlı müsəlmanlar təcili surətdə qaçmağa başladılar. Şamaxı caddəsində başlanan atəş on beş dəqiqəlik bir zamanda Nikolayevski caddəyə sirayət etdi.

Nəhayət saət 6-da tüfəng sədalarının çoxalması və arabir əl qumbaraları sədaları da eşidilirdi. Mosuq mənbələrdən alınan məlumata görə bolşeviklər ilə Müsavat firqəsinin müharibəsi olduğun söyləyordular.

Mart ayının 19-cu gecəsi (düşənbə gecəsi) ancaq sabaha qədər tüfəng sədaları ilə keçdisə də lakin gecə saat 11 və 12 radələrində bir neçə gurultulu bomba sədaları da eşidildi.

Nəhayət düşənbə günü oldu, saət 7-də şiddətli atışmalar şəhərin aşağı hissələrindən başlandı və bir az tüfəng atəşinin qızışmasından sonra "mitralyoz" atışmaları da başlandı.

"Mitralyoz" atışmaları gəldikdə sədalarından düşmənlərin hücuma keçdiyi məlum olunurdu. Bu halda İçərişəhər hissələrində böylə şaiyələr eşidilirdi ki, guya Daşnaqsakan firqəsi də müsəlmanlar ilə birləşib bolşevikləri tərk edəcəklərdi. Bu nəhv şayələr get-gedə çoxaldığınca atışmalar da kəsbi-şiddət ediyordu.

...Saət iki radələri idi. Atışma nəhayət şiddət ilə artıyordu. Bu halda ikinci bir şaiyə dövran etməyə başladı. Şaiyə isə bundan ibarət idi: "Ermənilər söz vermişlər ki, bizim təcili iclasımız vardır və həman iclasda bizim həmin müharibədə müsəlmanlara kömək etməmiz qət ediləcəkdir. Bir saətdən sonra müsəlmanlara ermənilər tərəfindən dəva ləvazimatı veriləcəkdir."

Bu şaiyəni eşidən safdel əhali dərun qəlbdən inanıb biri-birinə gözaydınlıq verməyə başladılar.

Fövqəlzikr şaiyədən iki saət sonra ermənilərin müsəlman dükan-bazarların qarət etmələri şaiyəsi sürət ilə danışılmağa başlandı. Nəhayət erməni millətinin dədə-babadan tapşırılma xəyanətləri ortaya atıldı. Deməli ürəyi düz müsəlmanları bu tərəfdən xatir, o biri tərəfdən bolşevik hökumətinə xainanə bir surətdə qoşulub Şura hökumətinə yaraşmayan bir namussuzluq icrasına iqdam ediyorlar.

Bu halda düşənbə günü, saət altı radələri idi. Yavaş-yavaş mitralyoz və bomba sədalarının şiddətlənməsi hücum əlamətlərin bildirir idi. Bu halda erməni kəndi tərəfindən müsəlman məhəlləsi tərəflərinə bir neçə top atıldı. Yüz illərdən bəri müharibə görməyən və top-tüfəng sədası eşitməyən Bakı müsəlmanları bu dəqiqədən özlərinin təhlükəli bir mövqe aldıqların qət etdilər. Yarım saət bundan əqdəm diliranə (cəsuranə-A.R) bir surətdə müharibə edən müsəlman cəvanları bir neçə top sədasını eşitdikdə bir növ özlərin itirib kəndi xanələri tərəfə üz çevirdilər.

Bu halda hava qaranlıqlaşıb atışmanın sədaları uzaqlaşıb və ağırlaşırdı. Bu gecə Bakı şəhəri zülmət içində qalıb ara-sıra atəşlər ilə sübh oldu.

Bu gün seşənbə günü, mart ayının 20-si idi. Sübh saət altı radələri idi atışmanın şiddəti bu gün Bakı şəhəri bir qan dəryasına döndügün bildirir idi. Bu gün Bakı şəhərinin müsəlman məhəllələrindən ah-nalə sədalarının ucalması başlanır idi.

Saət səkkiz idi. Erməni kəndi tərəfindən dəfəat ilə (dəfələrlə-A.R) bir neçə top atıldı. Bu halda dəniz içində duran hərb vaporlarından da İçərişəhər və Tazəpir üstlərinə bir neçə toplar atıldı.

İçərişəhərdə vaqe-i Xan evləri və məscid minarəsi ilə bərabər bir neçə evlər də zərərdidə oldular.

Bu halı görən İçərişəhərdə yaşayan xaçpərəst milləti dərhal bir yerə toplaşıb kgndi tərəflərindən bir nümayəndə liman uçastokuna göndərdilər ki, biz İçərişəhərdə sakin olan xaçpərəstlər təmam istirahətlik ilə yaşadığımız bir halda bizi bombardman etməniz nə cəhətə olmalıdır.

Liman uçastoku isə bir saət qabaq aldığı dokladı (məlumat) onlara oxuyur.

İştə məlumat:

Biz, Daşnaksakan firqəsi xüsusi adamlar vasitəsilə aldığımız rəsmi məlumata binaən yazıb Hərbi İnqilab Komitəsinə elan ediriz ki, İçərişəhərdə yaşayan təmam xaçpərəst əhalisini yerli müsəlmanlar qətli-am etdigdən sonra malların qarət etmişlər. Lazımi sərəncamda bulunmanız arzu olunur.

İmza: Bakı Daşnaksakan İcra dəstəsi.

Liman uçastoku xaçpərəst nümayəndələrindən böylə bəyanatı eşitdikdə inanmayıb təhqiqat yapmaya qərar verirlər. Dərhal Hazronun iştirakilə bir təhqiqat komisiyası tərtib verib şəhərin içinə çıxırlar. Təhqiqat yapdıqda ermənilərin birinci olaraq fitnəçilikləri meydana çıxır.

Bu halı görən təhqiqat komisiyası erməni daşnak firqəsinə lənətxan (lənət oxuyan-A.R) olub lazımi tədabirdə olmaların vəd edirlər.

... Bu gün seşənbə günü, mart ayının iyirmisi saət on birdən etibarən müharibə bir milli rəng almış idi. Ona binaən də saət bir radələri idi, ermənilər tərəfindən müsəlman məhlələrinə hücum edilib Nikolayevski caddə onlar tərəfindən işğal edildi və Cəmiyyəti Xeyriyyə binası onların əllərinə keçdi. Hətta şəhər idarəsi binasına qədər yürüş edib idarəni də əllərinə aldılar və oraya mitralyoz və toplar yeridib İçərişəhəri xarabazara döndərmək istəyordular.

Bu halı görən xaçpərəst əhalisi dərhal Liman uçastokuna toplaşıb ciddi surətdə tədabirdə bulunmaların tələb edirlər.

İdarə isə dərhal bir əmrnamə yazıb Dəniz Ordusu komandanlığına irsal edir (göndərir). Komandan isə əhvalatdan mətlə olub bir fövc (dəstə) qoşunun onları Nikolayevski küçədən qovub çıxarmalarına əmr edir.

Qoşun dərhal şəhər bağı cənubundan hücum edib mitralyozdan səri atəşlər açırlar. Bu halı görən Daşnak firqəsi dərhal məzkur küçədən geri çəkilməyi təhti qərara alıb Cəmiyyəti Xeyriyyə binasına və "Açıq söz", "Kaspi" mətbəə və idarələrinə od vururlar. Həmin əsnada Vodavoznı küçədə vaqe-i bir erməni evindən müsəlman küçələrinə yağdırılan mitralyoz və tüfəng atəşlərinə intəha vermək üçün müsəlman tərəfindən həman evə od vuruldu və bir də Cəmiyyəti Xeyriyyə ilə rubəru (üz-üzə) olan erməni Krasilnikov bəradərlərinin (Qardaşlarının) evi elektrik xəttinin qırılmağından taşı od alıb bir qədər hissəsi yandı. Bu vəqt saət beş radələri idi. Bakı şəhərini mütəfərriq yerlərdən əhatə edən tüstü buludları şəhərin nə kibi bir təhlükədə olduğunu təyin etmək ğar mümkün idi.

Bu gün şəhərin vağzal hissəsində yaşayan müsəlman əhalisi "igid və mərdanə Daşnak firqəsi" tərəfindən evbəev qarət edilib və sakinləri isə qətl edilirdi.

Bu gün məzkur hissənin müsəlmanları bir tarixi günü keçirmişlər. Deməli "dilir (igid) Daşnak firqəsi" əllərinə düşən müsəlman övrət və uşaqlarından heç bir zülmü əsirgəməyib insanlara yaraşmayan böylə qəbahətlərin icrasına qədər varmışlar. Hamilə övrətlərin bətnində olan məsum səbiləri (uşaqları) belə çıxarıb tüfəng cüdalarına taxmışlar və xırda balaları divarlara belə mıxlamışlar. Pajarnı komanda tərəfindən vaqe bir məscidin divarlarında neçə uşağın mıxlandıqlarını barışıqdan sonra görmüşlər və o tərəfdə yaşayan müsəlmanların həyatına birdəfəlik qələm çəkmişlər.

Böylə bir zülm və həyasızlığı icra edən "Daşnak igidləri" mart ayının 21-də avtomobillərə minib müsəlman məhlələrinə barışıq üçün gələndə əllərində on beş yaylıq ilə ağlayırdılar ki, vallah, billah biz heç bir vəqt razı deyildik ki, biz ilə qardaş olan müsəlman əhalisinin ayağına bir tikan belə batsun. Allah şeytana lənətlər eləsün. Bizi də və sizi də yoldan çıxarıb iki qardaşın arasına ziddilik saldı.

Bu əhvalları və davanın siyasi olmayıb Milli bir müharibə olduğun görün Şura hökuməti mart ayının 21-də, müharibənin dayandırılmasına binagüzarlıqlar gördü və həman binagüzarlığı görən Şura hökuməti dərhal küçələrdə gəzən və səngərlərdə yatan erməni qoşunlarını çağırıb əvəzinə rus qoşunları təyin etdi.

**Asif RÜSTƏMLİ**

**"525-ci qəzet".-**2010.-31 mart.-N.54.-S.4.

**Lord Maqinnis: "Yüz il bundan əvvəl olan hadisəni deyil, ermənilərin törətdikləri Dağliq Qarabağ faciəsini müzakirə etmək lazımdır"**

Martın 29-da Böyük Britaniyanın parlamentində qondarma "erməni soyqırımı"nın tanınması məsələsi ilə bağlı aparılmış müzakirələrin detalları açıqlanmışdır.

Türkiyənin "Cihan" agentliyi müzakirənin stenoqramını yaymışdır. Stenoqrama əsasən, bir saat davam edən müzakirənin sonunda qondarma "erməni soyqırımı"nın tanınması və 24 aprelin İngiltərədə "Erməni soyqırımını anım günü" elan olunması barədə təklif səsə qoyulmadan rədd edilmişdir.

Toplantını müzakirənin təşəbbüskarı, dünyada ermənilərin ən yaxın dostlarından və təbliğatçılarından biri olan baronessa Kerolayn Koks açmışdır. İndiyədək 69 dəfə Ermənistan və Dağlıq Qarabağda olduğunu bildirən K.Koks demişdir ki, tanınmayan hər bir soyqırımı yeni soyqırımların baş verməsinə şərait yaradır. Baronessa qondarma "erməni soyqırımı"nı tanımayan İngiltərə hökumətini tənqid etmişdir.

Qondarma "erməni soyqırımı"ndan bəhs edən "Mavi kitab"a ön söz yazmış Lord Avebar da çıxışında K.Koksa dəstək vermişdir.

Lord Hilton isə 1915-ci il hadisələrinin üzücü olduğunu, lakin bunu soyqırımı adlandırmağın mənasızlığını vurğulamışdır. Onun sözlərinə görə, belə bir addım Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasına da zərər vura bilər: "Soyqırımı sözünü 1915-ci il hadisələri ilə əlaqələndirmək yersiz olar".

Lord Maqinnis isə açıq şəkildə qondarma "erməni soyqırımı" iddialarının əleyhinə çıxmışdır. O, bu hadisənin bir əsr əvvəl baş verdiyini xatırlatmışdır: "Osmanlı İmperiyasının dağılma dövrü olan 100 il bundan əvvəlki hadisəni deyil, ermənilərin törətdikləri faciəni – Dağlıq Qarabağ hadisələrini müzakirə etmək lazımdır".

Lord Maqinnis Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyəyinə düşdüyünü vurğulamışdır: "Mən sistematik etnik təmizləmə üçün bir səbəb olduğuna inanmıram. O vaxt rus-erməni ittifaqı vardı və bu təxribatı onlar törətmişlər. Nəticədə heç kimin arzulamadığı hadisələr baş vermişdir". Lord Maqinnis "soyuq müharibə" dövründə Avropanın təhlükəsizliyini qorumaq üçün tıxac rolunu oynayan Türkiyəni Qərb dünyasından uzaqlaşdırmağın yanlış və təhlükəli olacağını vurğulamışdır: "İngiltərə bunu xatırlamalıdır ki, Kamal Atatürk 1922-ci ildə Türkiyəni yeni bir yola qoymuşdur. Türkiyə bu tarixdən sonra bizim müttəfiqimiz olmuş və 90 ildir belə davam edir. NATO ilə Varşava paktı arasında mübarizənin getdiyi təhlükəli bir dövrdə Türkiyə Avropanın azadlığını və təhlükəsizliyini qorumuşdur. Məncə, biz Birləşmiş Krallıq olaraq türk dostlarımızı özümüzdən uzaqlaşdırmamalıyıq. ABŞ Konqresi də eyni şəkildə diqqətli olmalıdır".

Lord Kilkuni də Dağlıq Qarabağ hadisələrini gündəmə gətirərək minlərlə azərbaycanlının ermənilər tərəfindən öldürüldüyünü bildirmişdir. Hazırda Türkiyə ilə Ermənistan arasında münasibətlərin inkişafında müəyyən dinamikanın olduğunu xatırladan Kilkuni 1915-ci il hadisələri zamanı həm türk, həm də ermənilər tərəfdən minlərlə insanın öldüyünü demişdir: "Soyqırımı iddialarını dəstəkləmək yanlış olar".

Lord Vallas isə vaxtilə İngiltərənin Hindistanda müsəlman icmasını məhv etdiyini xatırlatmışdır: "Şübhəsiz ki, minlərlə erməni qətlə yetirilmişdir. Çoxlu sayda yunan da öldürülmüşdür, lakin Atatürk yunanlarla müharibəni uduzsaydı, o zaman türklər qətlə yetiriləcəkdi. Bu, müharibələrin təbii nəticəsidir".

Müzakirənin sonunda dövlət naziri, baronessa Kinnok bildirmişdir ki, İngiltərə Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesini sonadək dəstəkləyəcəkdir. İngiltərə hökuməti bu prosesi zədələyəcək hər hansı açıqlama verməyəcəkdir. Hazırda 1915-ci il hadisələrinin soyqırımı olduğuna qərar verəcək bir hüquqi instansiya yoxdur. İngiltərə hökumətinin bu hadisələri soyqırımı olaraq tanıması doğru olmazdı".

Baronessa Kinnok Böyük Britaniya hökumətinin "erməni soyqırımı"nı tanımayacağını və Kardiffdə keçiriləcək mərasimə təmsilçini göndərməyəcəyini bəyan etmişdir.

**Bakı, 31 mart 2010**
**AzərTAc.**

## 1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində azərbaycanlıların soyqırımı

***Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.***

***Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

Ermənilərin və onların havadarlarının Birinci Dünya müharibəsi dövründə Şərqi Anadoluda müstəqil erməni dövləti yaratmaq niyyətlərinin baş tutmamasından və rus qoşunlarının 1917-ci il çevrilişindən sonra Türkiyə torpaqlarından geri çəkilməsindən sonra Cənubi Qafqazda erməni dövləti yaratmaq ideyası gündəliyə gəlmişdi. Rus qoşunlarının tərkibində Qafqaz cəbhəsində Türkiyəyə qarşı vuruşan 120 mindən artıq erməni əsgər və zabiti, habelə hər birində 10 min silahlını birləşdirən 4 erməni könüllü birlikləri (drujinaları) əllərində silah Cənubi Qafqaza qayıdırdılar. Üstəlik, ermənilərin "Qərbi Ermənistan" adlandırdıqları ərazilərdən 200 minə yaxın erməni qaçqınları da Cənubi Qafqaza gəlmiş, əsasən İrəvan quberniyasında özlərinə sığınacaq tapmışdılar. Bütün bunlar ermənilərin İrəvan quberniyasında silah gücünə azərbaycanlıların yaşadıqları yaşayış məntəqələrini ələ keçirmək planlarını reallaşdırmağa şərait yaratmışdı.

Ermənilər azərbaycanlı yaşayış məntəqələrini silah gücünə ələ keçirmək təcrübəsini hələ 1905-1906-cı illər qırğınları zamanı əldə etmişdilər. O dövrdə Şərqi Anadoluda erməni üsyanlarının yatırılmasından sonra əlində silah 400 min erməni Cənubi Qafqaza gəlmiş, özlərinə yeni yaşayış məskənləri əldə etmək üçün İrəvan quberniyasında, Zəngəzur qəzasında və Qarabağda kütləvi qırğınlar törədərək təqribən 200 azərbaycanlı yaşayış məntəqəsini viran qoymuşdular.

Rusiyada 1917-ci il fevral inqilabından sonra çar üsul-idarəsi yıxılmış, müvəqqəti hökumət qurulmuşdu. 1918-ci il martın 9-da müvəqqəti hökumətin qərarı ilə Qafqaz Canişinliyi buraxılmış, fövqəladə Cənubi Qafqaz Komitəsi yaradılmışdı. Noyabrın 11-də Cənubi Qafqazda fəaliyyət göstərən siyasi təşkilatların Tiflisdə yığıncağı keçirilmiş və Cənubi Qafqaz Komissarlığı yaradılmışdı. Həmin ayda Azərbaycan fraksiyası təsis edilmişdi.

1917-ci il noyabrın 7-də Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən iki gün sonra Sovetlərin Ümumrusiya qurultayı sülh haqqında dekret qəbul edir. Millətlərin İşləri üzrə Xalq Komissarlığı və onun nəzdində erməni məsələsi üzrə komissarlıq yaradılır. Dekabrın 16-da Rusiya Xalq Komissarları Soveti S. Şaumyanı Qafqaz işləri üzrə fövqəladə komissar təyin etmişdi. Sovet hökumətinin sülh haqqında dekret qəbul etməsinə baxmayaraq, dekabrın 29-da "Türkiyə Ermənistanı" haqqında dekret qəbul etmişdi. Bu dekret "Qərbi Ermənistan" dövləti yaratmaq üçün ermənilərin iştahasını artırmışdı. 1918-ci ilin yanvarında Sovet Rusiyası hökuməti "Erməni qaçqınlarına təcili kömək göstərilməsi haqqında" erməni məsələləri üzrə komissarlığın bəyanatını müzakirə edərək qərara almışdı ki, bu məqsədlə təmənnasız olaraq 6194784 rubl vəsait ayrılsın. Eyni zamanda, bütün inqilab komitələrinə, digər yerli orqanlara erməni könüllü dəstələri təşkil edərək, onları silahlandırıb maneəsiz surətdə Qafqaza göndərmək haqqında təlimat göndərmişdi. Göründüyü kimi, istər çar Rusiyası, istərsə də Sovet Rusiyası erməni könüllü dəstələrinin təşkilini və onların maliyyələşdirilməsini öz üzərinə götürmüşdü. Məhz həmin təlimata əsasən əldə edilən silahlarla və Qafqaz cəbhəsindən qayıdan erməni silahlılarının iştirakı ilə sonralar Cənubi Qafqazın müxtəlif bölgələrində azərbaycanlılara qarşı soyqırımlar törədildi.

1917-ci ilin dekabrın 5-də Ərzincanda Cənubi Qafqaz Komissarlığı ilə Türkiyə hərbi komandanlığı arasında barışıq sazişi imzalanmışdı. Dekabrın ortalarından etibarən rus qoşunlarının Şərqi Anadoludan özbaşına geri çəkilməsindən istifadə edən ermənilər komandanlığı və silah-sursatı ələ keçirməyə başlamışdılar. Geri çəkilən rus-erməni birlikləri müsəlman əhalisini vəhşicəsinə qırıb-çatır, kəndləri yandırırdı. Həmin dövrdə Tiflisdə çıxan qəzetlər tərxis edilmiş rus ordusunun "adamyeyənlər bandasına" çevrilərək Sarıqamışdan Gümrüyədək keçdikləri əraziləri dağıdıb, xaraba qoyduqlarını yazırdılar.

Fevralın 12-də türk ordusu ermənilərin Şərqi Anadoluda törətdikləri qırğınlara dözməyərək əks hücuma keçir. Andranikin, Hamazaspın, Dronun, Njedin qoşunları türk qoşunlarının önündən geri çəkildikcə müsəlman yaşayış məntəqələrini talan edir, əhalisini soyqırıma məruz qoyurdular. 1918-ci ilin mart ayınadək erməni silahlı dəstələri təkcə İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7

və Sürməli qəzasında 75 kəndi – üst-üstə 198 kəndi darmadağın etmiş, həmin qəzalarda təqribən 135 min nəfər soydaşımızı soyqırıma məruz qoymuşdu.

1918-ci il aprelin əvvəlində Gümrü şəhərinə daxil olan Andranikin qoşunları ayın 18-də Axılkələk istiqamətində hərəkət etmiş, Ağbaba nahiyəsinin Arpaçay boyunca yerləşən Böyük Şiştəpə, İlanlı, Düzkənd, Qaranamaz, Təzəkənd kəndlərini viran etdikdən sonra qonşu Xocabəy (sonralar Boqdanovka) nahiyəsinin türk kəndlərini xaraba qoymuşdur. Axılkələkdə türk qoşunlarına məğlub olan Andranikin qoşunu may ayının 14-dən 18-dək İrəvan quberniyasına bitişik ərazilərdə Voronsovka (sonralar Kalinin) və Cəlaloğlu (sonralar Stepanavan) nahiyələrinin azərbaycanlı kəndlərini viran qoyur. Andranikin qoşunu həmin bölgənin Şabandilər, Qızılkilsə, Kəkliyən, Səfərli, Hamamlı, Yuxarı Azman, Aşağı Azman, Mamışlı, Əngirval, Qamışlı, Saatlı, Muğanlı, Sarıyar, Molla Eyyublu, Soyuqbulaq, Xocakənd, Yırğancaq, İlməzli, Qaraqala, Qara İsə kəndlərini talan etmiş, əhalisini kütləvi surətdə qırğınlara məruz qoymuşdu. Mayın 21-22-də Voronsovka və Cəlaloğluda türk qoşunlarına məğlub olan Andranikin qoşunu Loru bölgəsindən Dilicana keçir. Oradan Qaraqoyunlu dərəsi ilə irəliləyərək iyunun 12-də Göyçə gölünün sol sahilindəki Axta nahiyəsinin azərbaycanlı kəndlərini darmadağın etmiş və sonra isə Novo-Bayazid (Kəvər) qəzasının kəndlərini viran qoymuşdur.

İyunun 20-də Şərur-Dərələyəz istiqamətindən Naxçıvana daxil olan Andranikin qoşunu orada da qırğınlar törədərək Culfa istiqamətindən Cənubi Azərbaycana daxil olmuşdur. İyunun 24-də Xoy şəhərində soyqırım törədən Andranikin qoşunu Urmiya üzərinə hücum etmiş və türk qoşunları ilə qarşılaşmaqdan qorxaraq yenidən Naxçıvana qayıtmış, avqustun əvvəlində Oxçu vadisi ilə Zəngəzura daxil olmuşdur. 1919-cu ilin aprel ayınadək Andranikin qoşunu Ərzurumdan Zəngəzuradək hərəkət trayektoriyası üzərində yerləşən 500-dən artıq türk-müsəlman yaşayış məntəqəsini viran qoymuşdur. Zəngəzuru ələ keçirməklə Andranik, Qərb dövlətlərinin Türkiyə ilə türk dünyasının əlaqəsini kəsmək niyyətlərini reallaşdırmış oldu. Sovet Rusiyası isə Zəngəzurun Ermənistana verilməsini rəsmiləşdirdi, Naxçıvan Azərbaycandan ayrı salındı.

Erməni silahlı dəstələri 1918-ci ilin Novruz bayramı günlərində İrəvan quberniyasının azərbaycanlılar yaşayan kəndlərinə basqınlar etmiş, əhalini yer-yurdlarından didərgin salmışdılar. Pəmbək nahiyəsinin 9 kəndində 1000-dən çox soydaşımız vəhşicəsinə qətlə yetirilmişdi. Nahiyənin bütün azərbaycanlı kəndləri qarət edilmiş və yandırılmışdı. Təkcə Arcut kəndində 60 nəfər qətlə yetirilmiş, onlardan 12 nəfərinin başı kəsilmişdi. Gözlədərə kəndi yandırıldıqdan və kişilər qətlə yetirildikdən sonra sağ qalan qadınlar meşəyə qaçmış, ermənilərə əsir düşməsinlər deyə özlərini öldürmüşdülər.

Türk qoşunlarının qarşısından çəkilən erməni qoşunlarının İrəvan quberniyasında törətdikləri qırğınlar haqqında Türkiyə arxivlərində də kifayət qədər sənədlər saxlanılır. Kazım Qarabəkir Paşanın "1917-20 arasında Ərzincandan İrəvana erməni zülmü" kitabında ermənilərin törətdikləri kütləvi qırğınlar sənədlərin dili ilə qələmə alınmışdır. K. Qarabəkir Paşa yazır:

- 29.04.1918-ci ildə Gümrüdən 500 araba ilə Axılkələyə köçürülməkdə olan 3000-ə qədər qadın, qoca, uşaq və kişi öldürülərək yox edilmişdir;
- min əsgər, iki pulemyot və iki topla silahlanmış ermənilər Qağızmanın şərqindəki Qulp (Duzluca) və İrəvan bölgəsindəki islam kəndlərini dağıtmış, qadın, uşaq və kişiləri qırmışlar;
- 01.05.1918-ci ildə yüzə qədər erməni atlısı Şiştəpə və Düzkənd ətrafında (indiki Amasiya rayonunun ərazisində) 60 uşaq, qadın və kişini öldürmüşlər;
- 01.05.1918-ci ildə Axılkələk ətrafındakı kəndlərdə Acaraca, Danqal, Mulanıs, Murcahet, Padızka, Havur və Gümris kəndləri yandırılmış, əhalisi məhv edilmişdir. Arpaçay üzərindəki Bacoğlu ilə İrəvanın şimali şərqindəki kəndlərin xalqı ermənilər tərəfindən qırılmış, kəndlər tamamilə yandırılıb dağıdılmışdır.

Türk ordusunun önündən qaçan erməni silahlı dəstələri ən böyük qətliamlardan birini 1918-ci ilin aprelində Gümrüdə törətmişdilər. Türklərin gəlişindən öncə ermənilər şəhərdə yaşayan azərbaycanlı ailələrinin təhlükəsiz şəkildə Qars vilayətinə keçməyə şərait yaradacaqları vədi ilə aldadıb onları gecə ikən yola düşməyə vadar etmiş və Arpaçayın sahilində 500-dən artıq azərbaycanlı ailəsini məhv etmişdilər. Həmin qətliamdan tək-tük azərbaycanlı gənc Arpaçayı keçərək salamat qalmışdı.

1918-ci il mayın 15-də Kazım Qarabəkir Paşanın komandanlığında türk qoşunları Gümrüyə daxil olmazdan əvvəl ermənilərə ultimatum vermişdi ki, şəhərdəki türkləri gətirib türk ordusuna təhvil verin və sonra da şəhəri təslim edin. Ermənilər qorxularından Gümrüdə yaşayan 250 türk ailəsini arabalara mindirib Arpaçay üzərindəki körpüdən keçirərək türklərə təslim etmişdilər. Kazım Qarabəkir Paşa Gümrüdə ancaq 8-10 imkansız türk ailəsinin qaldığını yazır.

Gümrüyə daxil olan türk ordusu iki istiqamətdə irəliləmişdi. Qoşunların bir qismi İrəvan istiqamətində, bir qismi də Qarakilsə (sonralar Kirovakan, hazırda Vanadzor şəhəri) istiqamətində hərəkət etmişdi. Mayın 21-də türk qoşunları Sərdarabadı və İrəvan yaxınlığındakı Qamışlı (sonralar Yeğeknut) dəmiryol stansiyasını ələ keçirir. Ayın 24-də türk qoşunları Hamamlını (sonralar Spitak) erməni silahlılarından təmizləyir. General T. Hazarbekovun komandanlığı altında geri çəkilən erməni korpusu Birinci Dünya müharibəsi gedişində rus

qoşunlarının Anadoluda əsir aldığı və həmin vaxt Qarakilsədə saxlanılan 3 min türk hərbi əsirlərindən 2 minini diri-diri yandırır. Qalan əsirlər türk ordusu Qarakilsəni ələ keçirdikdən sonra xilas edilmişdi.

Qaçqınlar problemi ilə məşğul olmaq üçün hələ 1918-ci ilin martında Cənubi Qafqaz Seymi nəzdindəki Müsəlman fraksiyasının qaçqınlar şöbəsi yaradılmışdı. Müsəlman fraksiyası Seym hökuməti qarşısında məsələ qaldırmış, İrəvan quberniyasında müsəlmanlara qarşı edilən qırğınlara son qoyulması məqsədilə nümayəndə heyəti göndərilmiş, araşdırmaların nəticələri Seymin iclasında müzakirə edilmiş, qaçqınların vəziyyətinin müəyyən dərəcədə yüngülləşməsinə nail olunmuşdusa da, qırğınları dayandırmaq mümkün olmamışdı.

İrəvan quberniyasında yaşayan müsəlmanları ermənilərin törətdikləri qırğınlarından xilas etmək üçün Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Osmanlı ordusunun 36-cı Qafqaz diviziyası komandanlığına etdiyi müraciətində deyilirdi: “İrəvan quberniyası ərazisindəki islamların qırılıb, yox edilməkdə olduqları, otuzdan çox müsəlman kəndinin yandırılıb, əhalisinin qırıldığı və İrəvandan qaçaraq gələn yaralı və xəstə köçkünlərin sayının gündən-günə çoxalmaqda və yoxsulluq ilə pərişanlıq içində üzülməkdə olduqlarından, bunlara sığınacaq və daldalanacaq yerinin göstərilməsi rica olunmaqdadır”.

Bütün bu qırğınları ermənilər Cənubi Qafqazda üç müstəqil dövlət yarananadək törətmişdilər. 1918-ci il mayın 26-da Cənubi Qafqaz Seymi özünü buraxmış və Gürcüstan müstəqilliyini elan etmişdi. Həmin gün Seymin erməni fraksiyası İrəvan şəhərinin ermənilərə paytaxt kimi verilməsi üçün Müsəlman fraksiyasına müraciət etmişdi. Çünki müstəqillik aktının elan olunması üçün Ermənistanın paytaxtı yox idi. Mayın 27-də keçirilən Müsəlman Milli Şurasının iclasında Nəsib bəy Yusifbəyov bildirir ki, Batum konfransında təmsil olunan Türkiyə nümayəndə heyətinin qənaəti belədir ki, Cənubi Qafqaz müstəqilliyini qorumalıdır, onun birliyinin və həmrəyliyinin qorunması üçün ermənilərə bir qədər torpaq güzəşt olunmalıdır. Mayın 28-də Azərbaycanın və Ermənistanın müstəqilliyi elan edilir.

Mayın 29-da Müsəlman Milli Şurasının iclasında İrəvanın siyasi mərkəz kimi Ermənistana güzəşt edilməsi haqqında qərar qəbul edilir. İrəvan Müsəlman Milli Şurası bu güzəştə dərhal öz etirazını bildirir. İyunun 1-də keçirilən Milli Şuranın iclasında Şuranın İrəvandan olan üzvləri Mir Hidayət Seyidov, Bağır Rizayev və Nəriman bəy Nərimanbəyov İrəvanın Ermənistana güzəşt edilməsi haqqında qərara yazılı şəkildə etirazlarını bildirsələr də nəticəsi olmur. İrəvan quberniyasından alınan həyəcanlı xəbərləri yerində öyrənmək üçün nümayəndə heyəti göndərmək qərara alınır.

İyunun 4-də Türkiyə ilə Ermənistan arasında Batumda sülh müqaviləsi imzalanır. Bu müqaviləyə əsasən Ermənistan Respublikasının ərazisi təqribən 10 min kv. km, əhalisi isə 321 min nəfər (o cümlədən 230 min erməni, 80 min müsəlman, 5 min yezidi kürdləri, 6 min digər millətlər) təşkil edirdi. Bu respublikanın ərazisinə Novo-Bəyazid qəzası, İrəvan qəzasının beşdə üçü, Eçmiədzin qəzasının dörddə biri, Aleksandropol qəzasının dörddə biri daxil idi. Lakin erməni silahlı dəstələri ətraf bölgələrin azərbaycanlı yaşayış məntəqələrini silah gücünə ələ keçirməklə respublikanın ərazisini genişləndirmək yolunu tutmuşdular.

Milli Şuranın iyunun 13-də keçirilən iclasında ermənilərin müsəlmanlara qarşı törətdikləri qırğınlar barədə İrəvandan gələn xəbərlər müzakirə edilir. İrəvan quberniyası ərazisində ev-eşiklərindən didərgin salınan və ac-yalavac dolanan qaçqınların sayının 150 min nəfərə çatdığı, ermənilərin 206 kəndi dağıtdığı bildirilir. Milli Şura İrəvan quberniyasında qaçqınlara maddi yardım göstərilməsi üçün nümayəndə göndərməyi qərara alır. Həmçinin İrəvan quberniyası ərazisində mövcud olan türk qoşunlarının komandanlığından xahiş edilmişdi ki, qaçqınlara ərzaq yardımı etsin və onların öz yer-yurdlarına qayıtmaları üçün Ermənistan hökumətinə təsir göstərsin.

Türk qoşunlarının nəzarətindən xaric bölgələrdə ermənilər qırğınları bir gün də olsa dayandırmamışdılar. Azərbaycan hökumətinin başçısı F. Xoyski Gürcüstandakı daimi nümayəndəyə 1918-ci il avqustun 28-də göndərdiyi teleqramda Novo-Bəyazid qəzasının Çamırlı, Şorca, Qayabaşı, Sarıyaqub, Daşkənd, Təzəqoşabulaq, Nokit, Yuxarı Alçalı və Kərkibaş kəndlərinin nümayəndələrinin onun yanına şikayətə gəldiklərini və ermənilərin həmin kəndlərə hücum etdiklərini, kəndləri yandırdıqlarını, əhalinin dağlara çəkildiyini, əkin sahələrinin məhsulunu ermənilərin yığdıqlarını bildirmiş, Azərbaycan hökumətindən yardım istədiklərini bildirmişlər. F. Xoyski daimi nümayəndəyə Ermənistan hökumətinə etiraz verilməsini tapşırır. Avqustun 30-da Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi Ermənistan nümayəndəsinə Azərbaycan hökumətinin sədrinin Novo-Bəyazid qəzasında müsəlmanlara qarşı zorakılıqlara qarşı etiraz məktubunu təqdim edir.

Andranikin qoşununun Zəngəzuru ələ keçirməsi, Ermənistan hökumətinin Dağlıq Qarabağı mübahisəli ərazi hesab etməsi Azərbaycan diplomatiyasını adekvat addım atmağa vadar etmişdi. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi Ermənistanın Gürcüstandakı nümayəndəsinə məktubunda Qarabağın mübahisəli zona hesab edilməsi haqqında Ermənistanın iddiasının tərəflər arasında əldə olunmuş razılığın pozulması demək olduğunu, Azərbaycan tərəfinin də İrəvan şəhərinə, İrəvan quberniyasının Eçmiədzin, Novo-Bəyazid və İrəvan qəzalarının bir hissəsinə ərazi iddiası hüququnu özündə saxladığını bildirmişdi. Göründüyü kimi, Azərbaycan tərəfi diplomatik yazışmalara güc verdiyi vaxtda, ermənilər silaha güc verib, azərbaycanlı yaşayış məntəqələrini ələ keçirməkdə, xalqımıza qarşı soyqırım törətməkdə idilər.

Ermənilər 1918-ci ilin sentyabr-oktyabr aylarında Yelizavetpol (Gəncə) qəzasının Novo-Bəyazid qəzasına bitişik 9-cu sahəsini ələ keçirmək, orada Qarsdan və Gümrüdən olan qaçqınları məskunlaşdırmaq istəyirdilər. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi Ermənistanın Gürcüstandakı müvəqqəti işlər vəkilinə göndərdiyi məktubda bildirirdi ki, Gəncə qəzasının 9-cu sahəsinin pristavı Gəncə şəhərinə gələrək bildirmişdir ki, oktyabrın 12-də Novo-Bəyazid qəzasının komissarı Basarkeçər kəndinə gəlib, kənd starşinalarını və ruhaniləri toplayaraq bəyan edib ki, 9-cu sahə bundan sonra Ermənistana tabe olacaq. Özünü pristav elan edən Çayxorski tələb edib ki, bir həftə ərzində vergilər ödənilsin, silahlar təhvil verilsin, bu tələbləri yerinə yetirməyənlər ərazini tərk etsinlər.

30 oktyabr 1918-ci ildə imzalanan Mudros sazişinə əsasən türk qoşunları 1914-cü il sərhədlərinə geri çəkilmək məcburiyyətində qalmışdı. IX ordunun komandanı Yaqub Şevki Paşa İrəvan quberniyasının və Qars vilayətinin müsəlman əhalisinin özünümüdafiəsi üçün geri çəkilən türk ordusunun komandanlığına tapşırmışdı ki, yerli milli şuralara lazımi qədər silah versinlər və türk zabitlərindən bir qismi həmin ərazilərdə qalıb yerli əhalinin təlimləri ilə məşğul olsunlar. Həmin tapşırığa əsasən noyabrın 12-də 2000 ədəd iriçaplı rus tüfəngi Naxçıvan və İqdır əhalisinə, noyabrın 15-də isə 3000 rus tüfəngi Qəmərliyə göndərilmişdi. Həmin ərazilərin ermənilər tərəfindən işğal təhlükəsi yarandığından, Ordubaddan Sürməliyədək ərazinin nümayəndələri noyabrın 3-də Qəmərli (indiki Artaşat) qəsəbəsinə toplaşaraq Araz-Türk Hökuməti qurmaq haqqında qərar çıxarırlar. Hökumət rəisi naxçıvanlı Əmir bəy Əkbərzadə, hərbi nazir isə sonralar Cənub-Qərbi Qafqaz hökumətinin (Qars hökuməti) başçısı olmuş İbrahim bəy Cahangirzadə seçilir. İbrahim bəy dərhal işə başlayıb özünümüdafiə üçün yerli əhalidən ibarət 20 tabur təşkil edir. Bu taburlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Vedibasar, Qəmərli və Zəngibasarda yerləşdirilir və həmin bölgələrin əhalisini erməni qırğınlarından müdafiə edir.

Ermənilərin İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı kütləvi qarət-qırğınları türk qoşunlarının geri çəkilməsindən dərhal yenidən intensivləşmişdi. Azərbaycan hökuməti dekabrın sonlarında Məhəmməd xan Təkinskini Ermənistanda diplomatik nümayəndə təyin edir. Ermənistan hökuməti 1919-cu il fevralın 1-də nümayəndəliyin fəaliyyətə başlamasına razılıq verir. Azərbaycanın Ermənistanda diplomatik nümayəndəliyi fəaliyyətə başlayanadək İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri vəhşiliklər barədə beynəlxalq təşkilatları, Azərbaycan mətbuatını və rəsmi dairələrini İrəvan Müsəlman Milli Şurası, İrəvan Müsəlman Xeyriyyə Cəmiyyəti və İrəvan Quberniyası Həmyerliləri Təşkilatı məlumatlandırırdı.

İrəvan Quberniyası Həmyerliləri Təşkilatının sədri Teymur bəy Makinskinin 4 yanvar 1919-cu ildə göndərdiyi məlumatda deyilirdi ki, 1917-ci ilin dekabrından 1918-ci ilin iyun ayına - yəni türk qoşunlarının gəlişinədək İrəvan quberniyasında erməni hərbi dəstələri tərəfindən 200-dən çox müsəlman yaşayış məntəqəsi dağıdılmış, qarət edilmiş, yandırılmış, əhalisinin bir qismi öldürülmüş, bir qismi də dağlara qaçaraq aclıqdan və soyuqdan məhv olmuşlar. Onun məlumatına görə erməni silahlı dəstələri Sürməli qəzasını bütünlüklə, İrəvan, Eçmiədzin, Şərur-Dərələyəz qəzalarının bir hissəsini ələ keçirərək Naxçıvan istiqamətində hərəkət edirlər. Təqsirsiz müsəlman əhalisi ya məhv edilir, ya da öz kəndlərindən qovularaq dağ yolları ilə İrana qaçırlar ki, bu da elə labüd ölüm deməkdir. Teymur bəy Makinski zorla boşaldılmış müsəlman kəndlərində Türkiyədən gələn erməni qaçqınlarının məskunlaşdığını yazır.

Azərbaycan xarici işlər nazirinin müavini Adilxan Ziyadxanov İrəvan quberniyasında ermənilərin törətdikləri qırğınlar və zorakılıqlarla bağlı Ermənistan XİN-ə nota göndərmişdi. Notada deyilirdi: "İrəvan quberniyasında çoxsaylı erməni silahlı qüvvələri tərəfindən müsəlmanlar zorakılığa məruz qalır, şəhərlərdə və kəndlərdə onlar tərksilah edilir, öldürülür və qarət edilir, zor gücünə onları özlərinə tabe etdirməyə çalışırlar... Alınan məlumatlara görə, təkcə ermənilərin təqibindən yaxa qurtarmaq üçün Araz çayını keçmək istəyərkən boğulanların sayı 300 nəfərə çatır." Həmçinin notada bildirilirdi ki, Azərbaycan hökuməti erməni qoşunlarının müsəlmanlara qarşı törətdikləri zorakılıqlara qarşı çıxır və erməni qoşunlarının ələ keçirdikləri İrəvan quberniyasının müsəlmanlar yaşayan ərazilərini özünün ayrılmaz tərkib hissəsi hesab edir.

İrəvan quberniyasından gələn xəbərlər o qədər ciddi və həyəcanlı idi ki, Azərbaycan parlamenti 8 yanvar 1919-cu ildə keçirdiyi 7-ci iclasında İrəvan quberniyası müsəlmanlarının əhvalı haqqında məsələ müzakirə etmişdir. "Azərbaycan" (rusca) qəzeti 10, 11, 12 yanvar 1919-cu il tarixli nömrələrində İrəvan müsəlmanlarının ağır vəziyyəti haqqında materiallar dərc etmişdir.

İrəvan quberniyası müsəlmanlarının nümayəndələri adından 1919-cu ilin yanvar ayında Mir Hidayət Seyidovun Azərbaycan hökumətinin başçısına ünvanlanmış müraciətində qeyd edilir ki, Ermənistan hökuməti silah gücünə erməni qaçqınlarını müsəlmanlara məxsus ərazilərdə məskunlaşdırır. Məqsəd ondan ibarətdir ki, mümkün olan qədər müsəlmanları məhv edərək bütün qəzalardan onları təmizləsinlər ki, Paris konfransında həmin ərazilərin ermənilərə məxsusluğunu sübut edə bilsinlər.

12 fevral 1919-cu ildə Azərbaycan XİN-in Ermənistan XİN-ə göndərdiyi notada bildirdi ki, Ermənistan silahlı dəstələri başda erməni zabiti olmaqla Göyçə gölü ətrafında sərhədi keçərək Azərbaycan ərazisinə daxil

olmuş, Qızılvəng, Subatan, Zağalı, Şahab və s. müsəlman kəndlərini viran etmişdir. Adları çəkilən kəndlərin kişilərinin bir hissəsini öldürmüşlər, bir hissəsi də qaçaraq canlarını qurtarmışlar.

Həmin günlərdə Vedibasara da ermənilərin hücumları genişlənmişdi. Azərbaycan XİN müavini (əvəzi) Ziyadxanov Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.Y. Cəfərova 21 fevral 1919-cu ildə göndərdiyi teleqramda bildirirdi ki, erməni dəstələrinin Qaraxaç, Qədili, Qarabağlar, Ağasıbəyli, Dəhnəz və Şahablı kəndlərini dağıdan zaman yüzlərlə müsəlman qadın və qızlarını əsir götürmüşlər. Onlar hazırda İrəvan qəzasının Vedibasar rayonunda erməni dəstələrinin əlindədirlər. Teleqramda müttəfiqlərin Ali Komandanlığının qarşısında əsirlərin azad olmaları üçün ciddi addımlar atılması tələb edilirdi.

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin martın 31-də Azərbaycan XİN-ə göndərdiyi cavab məktubunda bildirilirdi ki, o, martın 28-də general Biçlə görüşmüş, İrəvan quberniyasında bir neçə yüz müsəlman qadının əsir götürülməsi barədə teleqramı ona təqdim etmişdir. General onun verdiyi xəritədə hadisənin baş verdiyi yerlə tanış olmuş, kəndlərin adlarını yazıb götürmüş, teleqrafla ingilis komandanlığının İrəvandakı nümayəndəsinə tapşırıq vermişdir ki, qadınların azad olunması üçün tədbirlər görsün.

Novo-Bəyazid qəzasının 26 azərbaycanlı kəndinin sakinlərinin 1919-cu il martın 26-da keçirdikləri icma yığıncağında Azərbaycan hökumətinə və xalqına qəbul olunmuş müraciətdə qeyd edilirdi: "Ararat Respublikasının qoşunları, erməni şovinist və quldur dəstələri tərəfindən dəfələrlə dinc müsəlman kəndlərinə hücumlar edilərək kəndlər dağıdılır, sakinlərin başlarına görünməmiş müsibətlər açılır və qeyri-insani hərəkətlərlə təhqir edilirlər. 270-dən çox müsəlman kəndi dağıdılmışdır ki, bundan başlıca məqsəd İrəvan quberniyasında qalan müsəlman əhalisini sıxışdırıb tamamilə qovmaqdan ibarətdir. Müsəlman qardaşlar! Sonuncu dəfə sizə müraciət edirik. Ümidsiz vəziyyətimizi nəzərə alın, nə ilə kömək etmək mümkündürsə bizə kömək edin. İrəvan quberniyası ərazisində qalan 60 minlik bədbəxt müsəlman əhalisinin tiran, şovinist və daşnaksakanlar tərəfindən məhv edilməsinə yol verməyin" .

Gəncə qəzasının dağlıq hissəsinin 5-ci sahəsinin müsəlman əhalisinin müvəkkili İsmayıl Sultanov Gəncə qəza rəisinə ünvanladığı 1919-cu il 22 aprel tarixli məlumatında yazırdı: "Aprelin 13-dən etibarən Ararat Respublikasının qoşunları Novo-Bəyazid qəzasının Göyçə rayonunun şərq və şimal bölgəsinin müsəlman kəndlərini təmizləmək məqsədilə hücumlara başlamışdır. İndiyədək Göyçənin 60 minə yaxın əhalisi olan 22 kəndi dağıdılmış, yandırılmış və əhalisi təmizlənmişdir...Ermənistan Respublikası öz məqsədinə çatmışdır, artıq Göyçə rayonunda müsəlman qalmamışdır. Novo-Bəyazid qəzasının 84 müsəlman kəndi məhv edilmişdir ki, onlardan da 22-si aprelin 13-20-si arasında dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Söyünquluağalı, Ağkilsə, Zod, Quluağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzibil, Canəhməd, İnəkdaği, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Böyük Məzrə, Şişqaya, Qayabaşı, Hacı Qərib kəndlərində 15 min evin əhalisinin mal-mülkü talan edilmiş və ermənilərə qismət olmuşdur."

Erməni müəllifi A. Lalayan "Daşnaksutyun" partiyasının quldur dəstələrinin Basarkeçərdə törətdiklərini erməni zabiti Vahramın dili ilə belə təsvir etmişdir: "Mən Basarkeçərdə heç nəyi nəzərə almadan türk əhalisini qırdım – deyə, daşnak "başkəsəni" lovğalanırdı. – Lakin bəzən gülləyə heyfim gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su quyusuna doldurub, üstündən ağır daşları tökəsən ki, onlardan əsər-əlamət qalmasın. – Bandit sözünə davam edərək deyir: – Mən elə də etdim: bütün kişiləri, qadınları və uşaqları öldürüb doldurdum quyuya və üstünü də daşla doldurdum..." Beləliklə, A. Lalayan daşnak könüllülər hərəkatının nəticələrindən birinin on minlərlə türk zəhmətkeşinin qırılması ilə nəticələndiyi qənaətinə gəlir.

Lalayan daha sonra yazır: "Ermənilər tərəfindən azərbaycanlıların qırılması çoxdan başlamış, dövlət siyasəti səviyyəsinə qaldırılmış və Azərbaycanın hüdudlarından kənara çıxmışdır. Onda təəccüblənməyə dəyərmi ki, ancaq Ermənistanda daşnak hökuməti "özünün 30 aylıq hakimiyyəti dövründə (may 1918 - noyabr 1920) Azərbaycan əhalisinin 60 faizini qırmışdır." Q. Muradyan erməni hökumətinin Göyçə gölünün şimal sahilində olan azərbaycanlı kəndlərini dağıdan bandit dəstələrinin bədii təsvirini verərək yazmışdır: "...Bizim hökumətin gördüyü tədbirlər nəticəsində...bu kəndlərin (Toxluca, Ağbulaq, Ardanış və b.) əhalisi Ermənistanın sərhədlərini tərk etmişdir. Mən sahibsiz qalan kəndləri gördüm, orda bir neçə pişik, habelə sarsıdıcı sakitlikdən heyrətlənən itlərin qəribə hürüşməsini gördüm. Bu kəndlərin əhalisi çox böyük sahələrdə kartof, buğda və arpa əkini qoyub getmişlər. Hökumət bu kəndlərdən iki milyon pud buğda və yarım milyon pud kartof götürə biləcək."

4 iyun 1919-cu ildə Azərbaycan xarici işlər nazirinin müavini A. Ziyadxanov Ermənistandakı diplomatik nümayəndəsinin M. Təkinskiyə göndərdiyi məktubda Fövqəladə Parlament Komissiyası yaratmaq üçün İrəvan quberniyasında ermənilərin törətdikləri qırğınlar barədə məlumat toplamağı tapşırır. İyunun 23-də Azərbaycan XİN əvəzi A. Ziyadxanov Ermənistan XİN-ə göndərdiyi teleqramda qaçqınlar probleminin həlli üçün və Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması üçün hər iki respublikanın nümayəndələrindən ibarət qarışıq parlament-hökumət komissiyasının yaradılmasını təklif edir. 25 iyun 1919-cu ildə Ermənistan XİN Azərbaycan hökumətinə göndərdiyi cavab məktubunda bildirir ki, Ermənistanla Azərbaycan arasında mehriban

qonşuluq münasibətləri qurulması üçün Azərbaycan hökumətinin təklifini qəbul edir və hökumətlərarası qarışıq parlament komissiyasının yaradılmasına razıdır. Hər iki tərəfdən 2 nəfər və müttəfiq dövlətlərin nümayəndəsinin iştirakı ilə yaradılacaq komissiya Azərbaycanda ermənilərin və Ermənistanda müsəlmanların vəziyyətini yoxlamaq məqsədilə təşkil edilir.

Lakin Ermənistan hökumətinin bu cavabı Azərbaycan hökumətinin başını diplomatik yazışmalarla qatmağa xidmət edirdi. Arxiv sənədləri sübut edir ki, ermənilər bircə gün də olsun işğalçılıq hərəkətlərindən qalmamışdılar. "Azərbaycan" (rusca) qəzetində 29 iyun – 1 iyul 1919-cu il tarixlərində dərc edilmiş "Ermənistanda müsəlmanların vəziyyəti" məqaləsində deyilir: "Ermənistan Respublikasında müsəlmanların vəziyyəti faciəvidir. İrəvanda gözəl evlərin və bağların böyük əksəriyyəti müsəlmanlara məxsus idi... Türk qoşunları İrəvana yaxınlaşdığı zaman şəhərin müsəlman əhalisi nədənsə qorxaraq şəhəri tərk etmişdi. Onların malına , mülkünə Türkiyədən olan qaçqınlar sahib çıxmışdılar. Ermənistan hakimiyyətini qəbul edən müsəlmanlar şəhərə geri qayıdarkən yollarda erməni silahlıları tərəfindən tamamilə qarət edilmişdilər...Varlı bağlara, gözəl evlərə malik müsəlmanları erməni qaçqınları öz evlərinə buraxmadıqlarından qışdan bu yana məscidlərdə sığınacaq tapmışlar...Ermənistan hökuməti minlərlə qarət edilmiş, ac-yalavac, xəstə müsəlmanları açıq havada yaşamağa məcbur edir...

Müsəlmanların çəkdiyi işgəncələri təsvir etmək çətindir. Çoxları buna dözmür və dəli olurlar...Müsəlmanların evlərini zəbt edən ermənilər onlardan külli miqdarda vəsait aldıqdan sonra evlərini qaytarır və müsəlmanlar bundan sonra sığındıqları məscidlərdən evlərinə qayıda bilirlər.

Ermənistan hökuməti qəsdən və düşünülmüş surətdə erməni qaçqınlarını müsəlman məhəllələrində və evlərində məskunlaşdırır...

Əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən Zəngibasar və Gərnibasar rayonlarının kəndləri Ermənistan hakimiyyətini qəbul etdikdən sonra belə, erməni qaçqınlarını qəbul etmək məcburiyyətində qalıblar. Onların ərzağı insafsızcasına müsadirə edilir, mal-qarası, müxtəlif bəhanələrlə pulları əllərindən alınır. Müsəlman əhli ucdantutma acından ölür və təxirə salınmadan kömək diləyir. Göyçə və Dərəçiçək rayonlarının əhalisinin vəziyyəti daha ağlamalıdır. Bu rayonların əhalisi Ermənistanın indiki hərbi naziri "general Silikovun hərbi dəstələrinin basqınlarına tab gətirməyərək öz ocaqlarını tərk etmişlər.

Azərbaycanın Gürcüstandakı nümayəndəsinin müavini 12 iyul 1919-cu ildə Britaniya qoşunlarının Cənubi Qafqazdakı Komandanına göndərdiyi məktubda bildirir ki, onun hökuməti İrəvan quberniyasında müsəlmanlara zülm edilməsi barədə hər gün məlumatlar alır. Ermənistan nizami ordusu müsəlman kəndlərinə hücumlar edir, qadınlar və uşaqlara belə rəhm etmir. Hər gün yüzlərlə qaçqın Tiflisdən keçərək Azərbaycanda sığınacaq axtarırlar. İrəvan quberniyasının müsəlmanları onların iradəsinin ziddinə olaraq, böyük dövlətlərin sayəsində müvəqqəti olaraq Ermənistan hökumətinin idarəçiliyinə verilmişlər. Bu aktın dərc edilməsindən sonra ingilis komandanlığı bir sıra ictimai təşkilatlardan məsələnin bu cür həllinə qarşı etiraz almışdır. Bu etirazlarda bildirilirdi ki, onlar Ermənistan hökumətinin düşmənçilik münasibətindən çox qorxurlar. Bu narahatçılığın əsaslı olduğu son hadisələrdə özünü göstərdi. Azərbaycan hökuməti adından Ermənistan hökumətinin dinc müsəlman əhalisinə qarşı zorakılıqlarına və repressiyasına son qoyulmasını tələb edir.

"Azərbaycan" qəzeti (rusca) etibarlı mənbələrə istinadən yazırdı ki, iyulun 4-də gecə erməni qoşunları Böyük Vedi, Çimənkənd, Daştıgoravan, Yengicğə və Vedi-Avşar kəndlərini ağır artilleriyadan atəşə tutmuşdur. Böyük Vedi, Çimənkənd və Goravan sakinləri ağır artilleriyanın və iki zirehli qatarın köməyi ilə məhv edilir. Döyüşlər davam edir. Əhali ingilis missiyasının vasitəsilə Ermənistan hökumətinə təsir göstərməyi xahiş edir. Daha sonra qəzet yazırdı: "Erməni quldur birləşmələri Böyük Vedi kəndinə yaxınlaşmışlar. Müsəlman ağsaqqalları ilə "görüş" üçün rəsmi danışıqlar aparılmalı idi. Gözlənilmədən ermənilər tərəfindən atəşlər açılmışdır. Böyük Vedi kəndinin iki nümayəndəsi - Zeynalabdin Şıxəli oğlu və Nəsulla bəy Bəşirbəy oğlu öldürülmüşdür...

Silahsız azərbaycanlı kəndlilər dinc əhaliyə qarşı hətta artilleriyadan istifadə edən saqqallılara qarşı qəhrəmancasına müqavimət göstərmişlər. 1919-cu ilin yayı ərzində erməni quldur birləşmələri 300 Azərbaycan kəndini yağmalamış və yandırmışlar. On minlərlə adam - kişilər, qadınlar və uşaqlar həlak olmuşdur.

"Azərbaycan" qəzeti (rusca) 9 iyul 1919-cu ildə "İrəvan və Qarabağ" məqaləsində yazırdı: "Daşnakların İrəvan quberniyasında müsəlman əhaliyə qarşı törətdiyi cinayətlər cəzasız qalıb və nə ictimaiyyətə, nə də mətbuata bəllidir. 1918-ci ilin martında "Bütün müsəlmanlara ölüm" məqsədini elan edən daşnaklar tərəfindən İrəvan quberniyasının Sürməli qəzasının bütün müsəlman kəndləri məhv edilmiş və yandırılmışdır. Qəzanın sakinləri ucdantutma məhv edilmişdir. Quluna, Yaycı, Oba, Qazıqışlaq, Amarat kəndlərinin demək olar ki, bütün əhalisi doğranmışdır. Möcüzə nəticəsində qurtulan 6000 nəfər Dizə kəndinə toplaşırlar ki, Araz çayından keçib İrəvan quberniyasına gəlsinlər. Erməni qoşunları bu kəndi mühasirəyə alıb, əhalini qırırlar. Bədbəxt qurbanların qanını məscidin hovuzuna axıtmışlar...Sürməli qəzasında daş-daş üstə qalmayıb...

Digər qəzaların - Novo-Bəyazid, Eçmiədzin və İrəvan qəzalarının müsəlmanlarının vəziyyəti daha acınacaqlıdır. Bu qəzalarda qırğınlar daha dəhşətli həyata keçirilmişdir. Burada süngülərlə hücum və

bombardman edilməklə əsl müharibə gedib. Qəhrəman oğulların sayəsində ermənilərin hücumlarının qarşısının “Qurd qapısı”nda alınması sayəsində yalnız Şərur və Naxçıvan salamat qalmışdır...İrəvanın və qəzaların kütləvi surətdə Qarsa köçən müsəlman əhalisinin vəziyyəti ermənilərin ora gəlməsindən sonra daha da ağırlaşıb. Onlar Anadolu dağlarında sığınacaq axtarmağa məcburdurlar. Görünür, azsaylı erməni xalqına İrəvan quberniyasında müsəlman əhaliyə törətdiyi dəhşətlərin miqyası kiçik gəlir. Xaricdən aldıqları köməklə daşnaklar İrəvan faciəsini Qarabağda da törətməyə çalışırlar.

Azərbaycandakı ermənilərin vəziyyəti ilə İrəvandakı müsəlmanların vəziyyətini müqayisə etmək maraqlı olardı. Ermənilər bizim respublikamızda tamhüquqlu vətəndaşdırlar. Onlar bütün vətəndaş azadlıqlarından istifadə ediblər, parlamentdə və hökumətdə təmsil olunublar, övladlarının təhsili üçün dövlət külli miqdarda vəsait xərcləyir, heç kim onlara toxunmur və digər quberniyalarda özlərinə sığınacaq axtarmırlar. İrəvan müsəlmanlarının isə bir hissəsi məhv edilmiş, bir hissəsi səpələnmişlər və özlərinə heç yerdə sığınacaq tapa bilmirlər." Bu məqalə Azərbaycanda yaşayan ermənilərlə İrəvan quberniyasında yaşayan ermənilərin fərqini əyani şəkildə ifadə edirdi.

Məqalədə adıçəkilən Vedibasarla Şərurun sərhədindəki “Qurd qapısı”nda Araz-Türk hökumətinin özünümüdafiə dəstələri ilə polkovnik Doluxanovun komandanlığında erməni hərbi hissələri qarşılaşmış və ermənilər böyük itki verərək məğlub olmuşdular. Bundan sonra erməni hissələri Dəvəli istiqamətindən Böyük Vedi üzərinə hücuma keçirlər. Döyüşlər Qaralar, Cadqıran, Şirazlı, Reyhanlı və Avşar kəndləri ətrafında gedir. Ermənilər yenə böyük itki verərək geri çəkilirlər. Bir müddət sakitlik olur. İyulun 4-də ermənilər polkovnik Aprosimovun komandanlığında üçüncü dəfə Böyük Vedi üzərinə hücuma keçirlər. Erməni komandanlığı vedililərlə danışıq aparmaq üçün nümayəndə göndərir. Danışıqlar gedən zaman ermənilər fürsətdən istifadə edib irəliləyirlər. Vedililər ermənilərdən geri çəkilməyi tələb edirlər. Lakin ermənilər Böyük Vediyə doğru irəlilədikdə vedililər əks-hücuma keçirlər. Ermənilər bir zabit və 42 süvari itki verərək meydandan qaçırlar. Vedililər 4 pulemyot, 400 tüfəng, xeyli miqdarda sursat ələ keçirirlər. Bundan sonra Ermənistan müdafiə nazirinin müavini Dronun komandanlığında nizami ordu 4-cü dəfə Vediyə hücum edir. Vedi qoşununun komandanı Abbasqulu bəy Şadlinski döyüşə əlverişli mövqeyə malik olan Vedinin özündə başlamağı qərara alır. Ermənilər elə güman edirlər ki, kənd boşalıb, sürətlə irəliləyirlər. Bu zaman vedililər ermənilərin özlərindən ələ keçirdikləri pulemyotlarla atəş açırlar. Bir saata yaxın əlbəyaxa döyüş davam edir. Ermənilər 1000 döyüşçüdən artıq (təqribən əsgərlərinin yarısını) itirərək Yuva kəndinə geri çəkilirlər. Bu zaman ingilis komandanlığı atəşkəs təklif edir və yenidən sakitlik başlayır.

İngilis qoşunlarının Qafqazdan çəkilməsindən bir müddət sonra erməni silahlı qüvvələri quldurbaşı Yaponun komandanlığında Naxçıvan və Şərur-Dərələyəz qəzalarında kütləvi qırğınlar törədirlər. İyulun sonu, avqustun əvvəlində erməni silahlı qüvvələri Dəvəli istiqamətindən yenidən hücuma keçərək əvvəlcə Şirazlını, sonra isə qonşu Şidli, Xalisa, Avşar, Cadqıran, Qaralar, Kiçik Vedi, Şıxlar kəndlərini və Əliməmməd kəndinin bir hissəsini ələ keçirərək artilleriya vasitəsilə evləri darmadağın edirlər. Öz qüvvələrini cəmləşdirdikdən sonra erməni ordusu Milli Dərəsi istiqamətindən hücuma keçərək Çimənkəndi ələ keçirmiş, oradan 5-ci dəfə Böyük Vedi üzərinə hərəkətə keçmişdi. Erməni ordusu 4000 döyüşçü itkisi verərək Araz çayı xətti boyunca mövqe tutmuşdu. Avqustun əvvəlindən etibarən İqdır və Eçmiədzin qəzaları müsəlman kəndlərinin qırğınları başlanmışdı. Həmin bölgələrdə ermənilər 60 kəndi darmadağın etmişdilər. Erməni silahlı qüvvələrinin Vedibasarda törətdiyi qırğınlara etiraz əlaməti olaraq 12 iyul 1919-cu ildə Azərbaycan XİN Ermənistanın Bakıdakı diplomatik nümayəndəsinə etiraz notası göndərmişdi. Notada Ermənistan qoşunlarının Böyük Vedi, Çimənkənd, Gelevan, Paşalı və digər müsəlmanların kəndlərini mühasirəyə alaraq artilleriyadan atəşə tutduğunu və bunun məsuliyyətinin Ermənistan hökumətinin üzərinə düşdüyünü bildirirdi.

Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi T. Bekzadyan Azərbaycanın XİN-ə cavab notasında bildirir ki, iyulun 12-də Azərbaycan hökumətinin Böyük Vedi rayonunda baş verən hadisələrlə bağlı etiraz məktubunu almışdır. O, Azərbaycan tərəfinin yanlış informasiyaya malik olduğunu və hadisənin Ermənistanın mübahisəsiz ərazisində baş verdiyini bildirir. T. Bekzadyan guya iyulun 1-də Böyük Vedi və Dəvəli kəndləri arasında 9 erməni əsgərinin və 12 erməni kəndlisinin yerli müsəlmanlar tərəfindən qətlə yetirildiyini qeyd etməklə, ermənilərin törətdiyi Vedibasar qətliamına haqq qazandırmağa çalışır.

Azərbaycanın Gürcüstandakı diplomatik missiyası avqustun 12-də Azərbaycan hökumətinin Böyük Vedi hadisələri ilə bağlı notasının surətini İtaliyanın hərbi missiyasına, Amerikanın Cənubi Qafqazdakı missiyasına, Fransanın hərbi missiyasına, Britaniya qoşunlarının Cənubi Qafqazdakı missiyasına göndərmişdi. Lakin ermənilər İrəvan quberniyasında törətdikləri qırğınlara son qoymamışdılar. Əksinə, qırğınlar Eçmiədzin qəzasında daha sistematik xarakter almışdı.

Azərbaycan hökumətinin Eçmiədzin qəzasında avqust-sentyabr aylarında baş vermiş hadisələrin istintaq edilməsi ilə bağlı tələbinə əsasən Ermənistan hökumətinin 16 oktyabr 1919-cu ildə Ali Komissar polkovnik Haskelə göndərdiyi məktubunda İrəvan quberniyasında erməni ordusunun törətdiyi qırğınlara dolayısı ilə haqq qazandırılırdı. Məktubda deyilirdi: “Avqustun əvvəllərində Naxçıvanda və Şərurda müsəlmanların əhalinin

üsyanın baş qaldırmasından sonra Eçmiədzin qəzasında da Ermənistan hökuməti əleyhinə üsyanlara hazırlıq barədə məlumat daxil olub. Yerlərdən alınan məlumatlarda bildirilir ki, bölgəyə çoxlu sayda Türkiyə və Azərbaycan agentləri gəliblər və ayrı-ayrı türk zabitləri müsəlman kəndlərinə toplaşaraq əhaliyə Naxçıvan və Şərur üsyanlarına qoşulmaq üçün hədə-qorxu gəlirlər." Daha sonra məktubda qeyd edilirdi ki, çobankərəlilər avqustun 19-da 4 erməni polisini öldürüblər. Avqustun 20-də üsyançı qarxınlılar körpünü yandırıblar. Avqustun 23-də üsyançıların Qamışlı kəndindən Qarxına axışdıqları, müsəlmanların Uluxanlıda toplaşdıqları, avqustun 26-da Kərimarx kəndinin tatarlarının da üsyançılara qoşulduğu qeyd edilirdi. Guya Qurduqlu (sonralar Hoktemberyan) rayonunda iğtişaşların baiskarı Canfida və İydəli kəndlərinin tatarları olublarmış. Canfida kəndinin müsəlmanlarını Ermənistan hökumətinə tabe olmağı tələb etdikdə atışma baş verdiyi, bir neçə erməni milisionerinin yaralandığı, 16 tatarın öldürüldüyü, Kərimax kəndinin əli silah tutan kişilərinin kəndi tərk edərək üsyançılara qoşulduqlarından 480 qadın, qoca və uşaq kənddən sürüldüyü (əslində girov götürüldüyü-N.M) həmin məktubda etiraf edilmişdi.

Himayəçilik Nazirliyinin Ermənistandakı müvəkkili Teymur bəy Makinskinin 11 noyabr 1919-cu ildə Himayəçilik Nazirliyinə məruzəsində Ermənistan hökumətinin əsl siması açılırdı: "1918-ci ilin fevralından davam edən qırğınlar nəticəsində 0,5 milyon əhali dilənçi vəziyyətinə düşüb. (Naxçıvan qəzasından, Şərur məntəqəsindən, Sürməli məntəqəsinin 2-3-cü polis sahələrindən və Zəngibasar rayonundan başqa). Həmin ərazilərdə müsəlman əhli hər şeyini itirib. Dağıntıya məruz qoyulan rayonlarda əhali 200 min nəfərdən artıqdır. Onlar xəstəlikdən və aclıqdan məhv olurlar, dəfələrlə talanlara və qırğınlara məruz qalıblar. Bu kateqoriyaya İrəvan şəhərinin müsəlmanları, Zəngibasarın Göykümbət, Arbat, Ağcaqışlaq və Çarbax kəndləri aiddir. Qəti demək olar ki, ölənlərin sayı 100-120 min nəfərdir. 50 min nəfər Azərbaycana qaçqın kimi gəlib. Təqribən bir o qədər İrəvanda, Zəngibasar rayonunda, Sürməli qəzasının 2 məntəqəsində və Eçmiədzində yaşayırlar. Qalan qaçqınlar Naxçıvan qəzasına, Şərur məntəqəsinə, Sürməli qəzasının 3-cü sahəsinə və Qars vilayətinin Qağızman dairəsinə sığınıblar. Bəziləri Maku xanlığına və Türkiyə ərazisinə köçüblər. İndiki məqamda 50 min nəfərə ərzaq yardımı (un, taxıl və çörək şəklində) göstərilməlidir.

İrəvan şəhərində aclıq keçirən əhalinin sayı 8 min nəfərdir."

1919-cu il noyabrın 23-də Tiflisdə üç Cənubi Qafqaz respublikasının təmsilçilərinin iştirakı ilə sülh konfransı keçirilmişdi. Ermənistanla Azərbaycan arasında bağlanan sazişi Azərbaycan və Ermənistanın baş nazirləri N. Yusifbəyli və A. Xatisov, təminatçı sifəti ilə ABŞ tərəfindən C. Rey və Gürcüstanın xarici işlər naziri E.Gegeçkori imzalamışdılar. Sazişdə Ermənistan və Azərbaycan hökumətləri razılığa gəlmişdilər ki, bundan sonra silaha əl atmayacaqlar, hər iki hökumət Zəngəzura gedən yolların açılması üçün tədbirlər görəcək, sərhəd məsələləri də daxil olmaqla bütün mübahisəli problemlər sülh konfransının qərarına qədər yalnız sülh yolu ilə həll ediləcək, barışıq əldə edilmədikdə polkovnik Ceyms Rey münsiflər məhkəməsi sifətində tədbirlər görəcək, danışıqlar aparmaq üçün iki ölkə bərabər sayda nümayəndələr seçəcək və mübahisəli məsələlər müzakirə ediləcək, tərəflər bu sazişin müddəalarına vicdanla əməl edəcəklər. Lakin əvvəllər olduğu kimi, bu dəfə də ermənilər yaranmış fürsətdən istifadə edərək yeni-yeni Azərbaycan ərazilərini işğal etdilər.

Xarici işlər naziri M.Y. Cəfərov dekabrın 3-də Ermənistan XİN-nə göndərdiyi teleqramda bildirir ki, noyabrın 23-də Azərbaycan hökuməti ilə Ermənistan hökuməti arasında razılaşma əldə edilib ki, hərbi toqquşmalar dərhal dayandırılsın və bütün mübahisəli məsələlər Ermənistan – Azərbaycan sülh konfransının sərəncamına verilsin. Buna baxmayaraq, indicə məlumat alınıb ki, sizin hökumətin qoşunları Zəngəzur qəzasının Oxçupir, Davidan, Atqız, Şəbədək, Anişu və Quşçular kəndlərini dağıdıb kütləvi qırğınlar törədib. Girətag və onun ətraf kəndləri mühasirəyə alınıb və ətrafla əlaqələri kəsilib. Dərələyəz qəzasında isə Köçbəy, Qısır, Martiros, Qayalı, Leyliqaçan, Vəlyalar, Göyərçin, Çimkənd və İtdil kəndlərinə hücum zamanı 300 kişi öldürülüb və 30 qadın əsir götürülüb. Həmin istiqamətdə nizami qoşunların göndərilməsi davam edir. Azərbaycan hökuməti adından tələb edir ki, qoşunların göndərilməsini dərhal dayandırsın və müsəlman kəndlərinin dağıdılmasına son qoysun. Lakin erməni tərəfi Azərbaycan tərəfinin tələblərinə məhəl qoymadan işğalı davam etdirmiş və 1920-ci ilin yanvarında Zəngəzurun bütün kəndlərinin işğalını başa çatdırmışdı.

Himayəçilik Nazirliyinin müvəkkili Makinskinin və doktor Qənizadənin 21 dekabr 1919-cu ildə nazirliyə göndərdikləri hesabatlar əsasında hazırlanan məruzədə bildirilirdi ki, 1919-cu ilin payızına qədər İrəvan quberniyasında və Cənub-Qərbi Azərbaycanda qaçqınların sayı 150 minə çatır. İrəvan qəzasında 25 mindən artıq, Eçmiədzin qəzasında da bir o qədər, İrəvan şəhərində 13 min qaçqın və yerli əhali toplanıb. Novo-Bəyazid qəzasında Göyçə gölünün şərq sahili istisna olmaqla müsəlman qalmayıb. Hazırda bütün qaçqınların sayı 70-80 min arasındadır və onlar əsasən Böyük Vedi, Aralıq, Başkənd, Yengicə və Naxçıvanda cəmləşiblər. Makinski qaçqınların vəziyyətinin həddindən artıq ağır olduğunu, çörək tapılmadığını, müsəlman kəndlərində Türkiyədən gələn erməni qaçqınlarının məskunlaşdığını, ev sahiblərinin isə evsiz-eşiksiz, ac-yalavac qaldıqlarını bildirir.

Məruzədə həmçinin təkcə 1919-cu ilin avqustun 2-ci yarısında Eçmiədzin, Novo-Bəyazid və Sürməli qəzalarında 50-dən artıq müsəlman kəndinin dağıdıldığı öz əksini tapmışdı.

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin himayəçilik nazirinə göndərdiyi məktubda dekabrın 20-də Tiflisdə İrəvan quberniyası və Qars vilayətindən gələn qaçqınların söylədiklərinə əsasən tərtib edilmiş protokolun mətni əks olunub. Protokolda qeyd olunur ki, qaçqınlara yardım göstərilməsi üçün Himayəçilik Nazirliyinin Sənaində, Aleksandropolda (Gümrü), Qars vilayətində və Uluxanlı stansiyasında qaçqınların qəbulu və göndərilməsi üçün məntəqələr açılmalıdır. Əbdürrəhim bəy Haqverdiyevin, nümayəndəliyin əməkdaşları Teymur bəy Makinskinin və Nəsrulla Şeyxovun verdikləri məlumata görə, Araz və Tarasum çaylarının o biri sahilində, Uluxanlı stansiyasından 17 verst məsafədə, daha təhlükəsiz yerdə mal-mülkü talan edilmiş və tamamilə yandırılmış 50 min qaçqın toplaşmışdır. Nümayəndəliyin sərəncamında 14 nəfər əməkdaş var ki, onların da vəzifəsi İrəvandakı qaçqınları himayə edərək, onları göndərməkdən ibarətdir. İrəvandan 20 verstdən artıq uzaq məsafədə olan qaçqınların isə taleyin hökmünə buraxıldıqları protokolda qeyd edilirdi.

Ermənistan ordusunun növbəti hədəfi özünümüdafiə dəstələrinin güclü olduğu Zəngibasar bölgəsi idi. Azərbaycan XİN-in dekabrın 27-də Ermənistan XİN-nə göndərdiyi teleqramda deyilirdi: “Bu gün aldığımız məlumata görə dekabrın 21-də Ermənistan hökuməti Zəngibasar rayonunun müsəlmanlarına qarşı hərbi əməliyyatlara başlayıb. Həmin gün Qarğabazar kəndi talan edilib və dağıdılıb. Ayın 22-də həmin aqibəti Uluxanlı kəndi yaşayıb. İndi döyüşlər Çobankərə və Qaraqışlaq kəndlərində gedir. Əgər bunlar doğrudursa, deməli Ermənistan hökuməti danışıqları pozub.” Azərbaycan XİN Ermənistan XİN-ə Zəngibasarın müsəlman kəndlərinə erməni hücumlarını dayandırmaq haqqında teleqramın surətini Fransanın və İtaliyanın hərbi missiyalarına və müttəfiq dövlətlərin Qafqazdakı Ali Komissarına və Britaniyanın Ali Komissarına da göndərmişdi.

Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsindən Mir Mahmud Mirbabayev 25 yanvar 1920-ci ildə Azərbaycan XİN-ə göndərdiyi məxfi məktubunda göstərirdi ki, “erməni silahlı birləşmələri Zəngəzuru müsəlmanlardan tamamilə təmizləməklə Paris Sülh Konfransını fakt qarşısında qoymaq istəyirlər. Zəngəzurda Oxçu, Şabadin və Gığı dərəsindəki kəndləri viran qoyan ermənilərin məqsədi Ordubad istiqamətində irəliləyib Əylisdəki qüvvələrlə birləşdikdən sonra Naxçıvanı ələ keçirməkdir.

Vedibasar hadisələrindən sonra general Dro (Drastamat Kananyan) Eçmiədzin və Sürməli qəzalarının rəisi təyin edilmişdir. Çox keçmədi ki, 60-dan artıq müsəlman kəndi tar-mar edildi və əhalisi qətlə yetirildi. Oradan o, Zəngəzura yollanır.

İran tərəfi ingilislər və ermənilərlə əlaqəyə girərək, böyük şirnikləndirici vədlər verməklə naxçıvanlıları İrana köçürməyə təşviq edir ki, Naxçıvan zəifləsin və ermənilər oraya soxulmaq imkanı qazansınlar. Naxçıvan təşkilatının fəaliyyəti (Milli Şura və yaxud Araz-Türk hökuməti nəzərdə tutulur-N.M.) Böyük Vedi və Aralıq rayonlarını əhatə edir, Zəngibasarla əlaqə qurulub. Sürməli və Eçmiədzində törədilən qırğınlardan sonra Zəngibasar əhalisi silahlanmaq məcburiyyətində qalmış və hərbi təlimlər keçirmək üçün təlimatçılar dəvət etmişdir.

Zəngibasarda 12 kənddə tamamilə müsəlmanlar yaşayırlar və İrəvandan 8-12 verst məsafədə yerləşirlər və bir ucu Araz çayına çatır.

Təqribən, dekabrın 20-də ermənilər Kolanı kəndinə hücum edib, əhalini kənddən çıxarmaq istəmişlər. Bu kənddə 800 müsəlman qaçqın üçün Amerikanın qida məntəqəsi fəaliyyət göstərir. Sonra ermənilər Qarğabazar kəndinə hücum etmişlər.

Dekabrın 28-də ermənilər Eçmiədzin qəzasının Əkərək kəndini dağıtmışlar. Mən amerikalılarla oraya getdim. Əhalinin əmlakını və zərərçəkənləri aparmışlar. 8 ölü və 5 yaralı aşkar etdik, bir çoxlarının aqibəti isə hələ də məlum deyil. 10 gün keçməmiş ermənilər Haxıs kəndinə hücum etmişlər. Toxanşalı kəndi ikinci dəfə hücuma məruz qalıb. İrəvan şəhərində müsəlmanların vəziyyəti daha ağırdır: müsəlman mağazaları yoxdur, evlər dağıdılıb, təhlükəsiz yaşayış üçün heç bir zəmanət yoxdur."

Azərbaycan Parlamentinin 5 yanvar 1920-ci ildə keçirilən iclasında qaçqınların məsələsi müzakirə edilmiş, Ermənistandan 300 min qaçqının gəldiyi qeyd olunmuşdur.

Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyinin Ermənistan XİN nazirinə göndərdiyi 12 fevral 1920-ci il tarixli müraciətdə deyilirdi ki, fevralın 6-dan 7-nə keçən gecə ermənilər Uluxanlı stansiyasından 5-6 verst məsafədə yerləşən Qarğabazar kəndinə hücum etmişlər. Əhali vahimə içərisində müxtəlif səmtə üz tutmuşdur. 7-si səhər ermənilər kəndi ələ keçirmiş, onu talamış, müxtəlif tərəflərdən kəndi yandırmış və çəkilmişlər. Kənddən 13 kişini, 34 qadını, 26 uşağı öldürmüşlər. 38 kişini və 15 uşağı özləri ilə aparmışlar. Kəndə vurulan ziyanın miqyası təqribən 15 milyondur. Ermənilərin geri çəkilməsindən sonra sağ qalanlar kəndə qayıtmışlar ki, meyitləri dəfn etsinlər. Ermənilər müxtəlif mövqelərdən kəndi atəşə tutur və imkan vermirlər ki, çöllərə səpələnmiş meyitləri yığsınlar.

İrəvan qrupunun rəhbəri Şelkovnikovun 8 mart 1920-ci ildə Ermənistan qoşunlarının komandanına göndərdiyi məktubunda bildirilirdi ki, Zəngibasar müsəlmanlarının tutduqları mövqenin təhdidedici və İrəvan şəhərinə yaxın olmasını nəzərə alaraq tərksilah əməliyyatının keçirilməsi və onların diz çökdürülməsi zəruridir.

Əgər diplomatik təsirlər nəticəsiz qalsa, onda hərbi gücə əl atmaq və həmin ərazinin əhalisini zor gücünə köçürmək və Zəngibasar rayonunu müsəlman elementlərindən tamamilə təmizləmək lazım gələcək.

O bildirirdi: "Bunun üçün 2 min süngü (əsgər), 2 batalyon və 100 atlı lazımdır. Əsas zərbə (1 süngü və 1 batalyon) İrəvan-Parakər tərəfdən cənub və cənub-qərb istiqamətdən endirilməlidir. Bu əməliyyata yardım üçün qısa cinah zərbələri Qarxın tərəfdən və Ağhəmzəli tərəfdən (1 batalyon, 300 süngü və 1 artilleriya taboru) endirilməlidir.

Zəngibasarı bu yolla Süleyman-Dizə-Ramazan xətti boyunca sıxışdırıb çıxarmaq lazımdır.

Bu əməliyyatı keçirmək üçün 600 süngü 2-ci piyada polkunda, 150 süngü isə xüsusi sərhəd briqadasında vardır. Çatışmayan 1250 süngünü isə təcili olaraq Nuxalılardan və Ərəşlilərdən ayrıca nizami batalyonlar da köməyə gələ bilər...

Dəstə kifayət qədər texniki vasitələrlə, rabitə vasitələri ilə yük maşınları və ərzaqla təchiz edilməlidir. Bütün sadalananlarla təmin edildikdən sonra yalnız Daşburun-Həsən xan-Ramazan istiqamətində əməliyyatlara başlayıb Qəmərli və İqdır dəstələri ilə möhkəm əlaqə qurmaq, bununla da müsəlmanların şimal xətti boyunca əlaqələrini kəsmək olar. Hesab edirəm ki, süngülərin sayını 3000-ə çatdırmaq lazımdır."

Ermənistan qoşunlarının komandanı Nazarbekov müdafiə nazirinə göndərdiyi 10 mart tarixli cavab məktubunda general Şelkovnikovun Zəngibasar tatarlarının tərksilah edilməsi planı ilə tamamilə razı olduğunu bildirir. Əməliyyatın uğurunu təmin etmək üçün süngülərin (əsgərlərin) sayının 3000-ə çatdırılmasının zəruriliyi vurğulanır. O, bu ərazidə yaşayan və silah daşıya bilənlərin sayı 3000 nəfərdən artıq olduğunu və sayıqlıqla qorunduqlarını bildirir: "Əməliyyat sürətlə həyata keçirilməlidir, əks-təqdirdə mənfi psixoloji təsiri ola bilər. Əməliyyatın əsas vəzifəsi Haçaparax, Hacı Elyas, Şorlu Dəmirçi, Şorlu Mehmandar və Təzə Qarxın (Şərifabad) kəndlərini tutmaqdır."

Dekabrın 16-da Ermənistan Nazirlər Soveti Zəngibasara hücum məsələsini müzakirə etmişdi.

1918-ci ildə ermənilər İrəvan quberniyasında kütləvi qırğınlar törədən zaman 82 kəndin azərbaycanlıları Qars vilayətinə qaçaraq orada özlərinə sığınacaq tapmışdılar. 1918-ci ilin noyabrında Qarsda Milli Şura, sonra isə Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti qurulduqdan sonra İrəvan quberniyasından olan qaçqınlar bir neçə ay dinclik tapmışdılar. Lakin 1919-cu il aprelin 12-də ingilislərin köməyi ilə Cənubi-Qərbi Qafqaz hökuməti devrildikdən və vilayətdə Stepan Korqanovun başçılığı ilə erməni hakimiyyəti qurulduqdan sonra qaçqınların vəziyyəti daha da ağırlaşmışdı. Ermənilərin yeni qırğınlarından qurtulmaq üçün azərbaycanlı qaçqınların bir qismi Türkiyənin içərilərinə doğru hərəkət etmiş, bir qismi də Gürcüstandan keçməklə Azərbaycanda özlərinə sığınacaq tapmışdılar.

Borçalı qəzasının Qaçağan kəndində sığınacaq tapan İrəvan quberniyasının Qarakilsə qəzasının Xancığaz, Saral və Arcut kəndlərinin 60 sakininin imzası ilə 1920-ci il martın 15-də Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinə təqdim edilən müraciətdə deyilirdi ki, türk qoşunlarının 1918-ci ilin payızında Qafqazdan geri çəkilməsindən sonra adları çəkilən kəndlərin sakinləri Qars vilayətinin Şörəyel məntəqəsinin Qaraxan kəndində məskunlaşmışdılar. 1920-ci ilin fevralında erməni silahlı qüvvələri həmin kəndə hücum edib onu darmadağın etmiş və əmlaklarını qarət etmişlər. Qaçqınlar ermənilərin onlara vurduqları ziyanın məbləğinin 17,9 milyon rubl olduğunu göstərən siyahını diplomatik nümayəndəyə təqdim etmişdilər.

Gəncənin qubernatoru X. Rəfibəyovun Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M. Vəkilova aprelin 27-də göndərdiyi teleqramda bildirirdi ki, "Gəncə qəzasının 2-ci sahəsinin pristavının verdiyi məlumata görə, Novo-Bəyazid erməniləri Şişqaya kəndinin üzərinə hücuma keçmiş və bütün əhalini ucdantutma məhv etmişlər. Gədəbəyə və Qabaxatana yaralılar gəlmişlər. Hazırda Cil kəndində döyüşlər gedir. Müsəlmanların vəziyyəti ciddidir. Kömək gözləyirlər."

Tiflis-İrəvan qatarında İrəvana gedərkən martın 7-də Əbdürrəhim bəy Haqverdiyev yolda erməni quldurları tərəfindən qarət edilmiş, onun diplomatik missiya üçün apardığı 2 milyon Cənubi Qafqaz bonunu və 3,4 milyon Azərbaycan bonunu, 40 min manatlıq şəxsi vəsaitini silahlı təzyiqlə əlindən almışdılar. Ə. Haqverdiyev bu hadisədən bir müddət sonra Ermənistanda daimi nümayəndə vəzifəsindən istefa vermişdi. Onun yerinə Himayəçilik Nazirliyinin Ermənistandakı müvəkkili Teymur bəy Makinski təyin edilmişdi. Azərbaycanda bolşeviklərin hakimiyyəti ələ almasından sonra yaranmış fürsətdən istifadə edən ermənilər azərbaycanlıların yaşayış məntəqələrinə hərbi təcavüzü daha da genişləndirmişdilər.

T. Makinski 2 may 1920-ci ildə yazdığı hesabatında fəaliyyətə başladığı gündən yüzlərlə soydaşımızın onun yanına gəlib ermənilərin onları məruz qoyduqları vəhşiliklərdən şikayətləndiklərini qeyd edir. O yazırdı: "Ermənilər dinc əhalinin evlərinə hücum edib, çox zaman onları öldürür, həbs edir, əmlaklarını müsadirə edirlər. İndiyədək zorakılığa görə kimsə cəzalandırılmayıb. Martın 21-də müsəlman əhalinin vəziyyəti barədə Ermənistan XİN-ə məlumat vermişəm. Bundan bir neçə gün sonra Eçmiədzin qəzasının Təkiyə, Üşü, Nəzravan və digər kəndlərin darmadağın edilməsi barədə məlumat aldım... Martın 19-da erməni silahlı qüvvələrinin Vedibasara hücumu başlandı. Mən dəfələrlə bu barədə notalar verdim. Lakin nəticəsi olmadı. Əksinə, yenidən başladı. Bütün bunlar onu göstərir ki, Ermənistan hökumətindən müsəlman əhaliyə qarşı xoş münasibət

gözləmək mümkün deyil." T. Makinski həmçinin hesabatında diplomatik nümayəndəliyin əməkdaşlarının qarşılaşdıqları zorakılıqlardan da bəhs edir.

Mayın 28-də T. Makinski İrəvanı qəfildən tərk edir və diplomatik nümayəndə vəzifəsini Qiyasbəyov icra etməyə başlayır. İyunun 15-də Ermənistan XİN Azərbaycanda yeni hökumət qurulmasını səbəb göstərərək diplomatik nümayəndəliyin fəaliyyətinə xitam verildiyini bildirir.

Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli nümayəndəsinin Ermənistanın XİN-ə göndərdiyi 5 iyul 1920-ci il tarixli teleqramda bildirilirdi ki, Ermənistanın hərbi hissələri Zəngibasarı darmadağın etdikdən və bölgəni müsəlman kəndlilərindən təmizlədikdən sonra Naxçıvan-Şərur rayonuna hücuma keçib. Həmçinin bildirilirdi ki, iyulun 5-də səhər saat 4-də Ermənistan hərbi hissələri Qazax qəzasına hücuma keçmişdir. Azərbaycan hökuməti bunu iyulun 2-də əldə edilmiş razılığın pozulması və Sovet Azərbaycanına qarşı açıq hücum kimi qiymətləndirmişdir.

Ermənistan ordusunun Vedibasara 1919-cu ilin iyulunda ikinci hücumundan sonra Abbasqulu bəy Şadlinskinin başçılıq etdiyi "Qırmızı tabor" döyüşə-döyüşə İran sərhədinə çəkilmişdi. Bundan sonra Vedibasarın qalan əhalisi də İrana keçmişdi. 28 iyul 1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra Hərbi İnqilab Komitəsinin dəvəti ilə A. Şadlinskinin başçılıq etdiyi tabor noyabr ayında Naxçıvana gəlmişdi. "Qırmızı tabor" 1921-ci ilin fevralında Ermənistanda daşnak qiyamının yatırılmasında iştirak etmişdi. Bundan sonra Vedibasarın İranda qaçqın kimi yaşayan əhalisinin bir qismi tədricən öz yer-yurdlarına qayıtmış, çoxları da erməni qaçqınlarının məskunlaşdırıldıqları kəndlərdə onlarla birgə yaşamağa məhkum olmuşdular.

Ermənilərin Zəngibasarda törətdikləri qırğınlar Türkiyə Böyük Millət Məclisinin də müzakirəsinə çıxarılmışdı. 1920-ci il avqustun 14-də Ərzurumdan olan millət vəkillərinin sorğusuna cavab olaraq Mustafa Kamal Atatürkün verdiyi izahatdan aydın olur ki, onun Ermənistanda soydaşlarımıza qarşı törədilən qırğınlar haqqında müfəssəl məlumatı var imiş. Atatürk deyir ki, Gəncədə bolşeviklərə qarşı Nuru paşanın komandanlığı altında üsyanın baş verməsindən istifadə edən erməni qoşunları iki istiqamətdə – 19 iyun tarixində Oltu Milli Şurası üzərinə, digər qismi də Zəngibasar Milli Şurası üzərinə hücuma keçdilər. Onun sözlərinə görə, həm Zəngibasar Şurası, həm də Oltu Şurası gerçəkdən Ermənistan Cümhuriyyətini təhdid etmək durumunda idilər. Atatürk ermənilərin hücumuna qarşı türk ordusunun bəzi önləmlər almaq məcburiyyətində qaldığını söyləyir və əlavə edir ki, Bəyazid istiqamətindən gərəkli qədər qüvvəni Zəngibasar Milli Şurasının silahlı qüvvələri daxilinə keçirmişlər. Arazın güneyinə çəkilmiş Milli Şura qüvvələri ilə Türkiyədən göndərilən qüvvələrin birləşməsindən sonra həm Zəngibasara, həm də Oltuya qarşı hücuma keçən erməni qüvvələrinin qarşısı alınmışdı. Bundan sonra erməni silahlı qüvvələri zirehli qatardan istifadə edərək iyulun 10-dan etibarən İrəvan-Culfa dəmiryolu boyunca güneyə doğru irəliləyir.

Məhz türk ordusunun hərbi yardımı sayəsində Zəngibasar Milli Şurasının silahlı dəstələri bölgə əhalisinin bir qismini erməni qırğınlarından xilas edə bilmişdi.

Bəzi erməni müəlliflərinin özləri də "Daşnaksutyun" partiyasının 1918-1920-ci illərdə qanlı əməllərini etiraf etmişlər. Ermənistan daşnak hökumətinin baş naziri olmuş Ovanes (Ruben) Kaçaznuni 1923-cü ildə "Daşnaksutyun" partiyasının qurultayında etdiyi hesabat məruzəsində (bu məruzə rus dilində kitab halında çap olunmuşdur) partiyadaşlarının hakimiyyəti illərində daşnakların Zəngəzurda, Ağbabada, Vedibasarda, Naxçıvanda, Şərurda kütləvi surətdə müsəlman əhalisini qırdıqlarını, yaşayış məntəqələrini darmadağın etdiklərini etiraf etmişdi.

Bakıda rus dilində nəşr olunan "Kommunist" qəzetində Avis adlı müəllif "Ermənistan üsyana qədər" məqaləsində yazırdı: "Zəngəzur, Qarabağ, Əylis, Ağbaba, Zəngibasar imperialist "Daşnaksutyun" partiyasının və onun hökumətinin qanlı əməllərinin nəticələrinin canlı şahidləridirlər...Ermənistanda müsəlman kəndləri və yaşayış məntəqələri yandırılaraq və qılıncdan keçirilərək müsəlmanlardan təmizlənmişdir."

Təkcə 1919-cu ildə 29 min əhalisi olan İrəvan şəhərində 14 min nəfər, Eçmiədzin qəzasında isə 6 ay ərzində 4 min nəfər aclıqdan həlak olmuşdu. Təbii ki, aclıqdan həlak olanların hamısı azərbaycanlılar olmuşdu. Çünki həmin dövrdə azərbaycanlılar evlərindən çıxa bilmədiklərindən ölümə məhkum idilər. Halbuki, həmin dövrdə Ermənistanda doktor Yarrounun sədrliyi ilə Amerikanın Ermənistana Yardımı Komitəsi fəaliyyət göstərirdi.

1918-1920-ci illərdə Ermənistanda azərbaycanlıların soyqırıma məruz qalmalarını sovet hakimiyyətinin ilk illərində Ermənistan KP Mərkəzi Komitəsinin nəzdində fəaliyyət göstərən azlıqda qalan millətlərlə iş şöbəsinin türk bölməsinin hesabatlarından aydın görmək olar. Bölmənin müdiri Bala Əfəndiyevin Ermənistan KP MK-ya təqdim etdiyi hesabatında göstərilir ki, daşnakların hakimiyyəti dövründə, yəni 1920-ci ilin iyulunda İrəvan quberniyası ərazisində əvvəllər mövcud olmuş 300-dən artıq türk kəndindən yalnız biri – Uluxanlı kəndi salamat qalmışdı. Onun yazdığına görə daşnak Ermənistanında müsəlman "koloniyasını" bircə kənd və İrəvanda qalan bir neçə ailə təmsil edirdi.

1916-cı ildə İrəvan quberniyasında 373582 nəfər azərbaycanlı yaşadığı halda, 1920-ci ilin noyabrında Ermənistan SSR-də cəmisi 12 min nəfər azərbaycanlı qeydə alınmışdı.

Ümumiyyətlə, 1918-1920-ci illərdə Şamaxı qəzasında 58, Quba qəzasında 112, Gəncə quberniyasında 272 (o cümlədən Zəngəzurda 115, Qarabağda 157), İrəvan quberniyasında 300, Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyona yaxın əhali öz tarixi-etnik torpaqlarından didərgin salınmışdır.

Ümumiyyətlə, təkcə 1905-1920-ci illərdə indiki Ermənistan ərazisində 500-dən artıq azərbaycanlı kəndi dağıdılmış, yarım milyon əhali soyqırıma məruz qalmışdır.

***Nazim MUSTAFA,***
***AMEA A. Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi***

“**Xalq qəzeti**”.-2010.-31 mart.-N 66.-S.4., 1 aprel.-N 67.-S.4., 3 aprel.-N 69.-S.4., 4 aprel.-N 70.-S.4.

**Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımları**

*Erməni ideoloqları iddia edirlər ki, guya dünyanın yaranışı onların adı ilə bağlıdır. Bu iddianın tərəfdarları tarixi həqiqətlərdən daha çox rəvayətlərə üstünlük verirlər. Ermənilərlə bağlı yazılan həqiqətlər isə başqa şey deyir. "Tarixin atası" Herodot: "Fərat çayının yuxarı axarlarındakı ərazilərdə köçəri erməni tayfaları yaşayırdı", tarixçi Tatsit: "Xəzərsahili xalqlar-hunlar, albanlar, kadusilər və başqalarının aralarında erməni adına rast gəlmədim", rus tarixçisi Dyakonov: "Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb", erməni tarixçisi Pastermasyan: "Ermənilər eramızdan əvvəl VII-VI əsrlərdə Qərbdən Şərqə gəlmişlər" yazmışlar. Ermənilərin qədim tarixi ilə bağlı dəqiq mənbələr mövcud deyil. Məlum olan odur ki, uzun əsrlər boyu ermənilər Roma, İran-Sasani və Bizans imperiyalarının vassallığında olmuşlar. Bir sözlə, erməni tarixçilərinin ermənilərin yaranışı və formalaşması ilə bağlı yazdıqları uydurmalar o qədər çoxdur ki, onların təhlilinə heç bir lüzum görülmür.*

Ermənilərin tarixən Cənubi Qafqaz torpaqlarında yaşaması ilə bağlı iddiaların da elmi əsası yoxdur. Fakt və hüquqi sənəd kimi 1805-ci il mayın 14-də Rusiya dövləti ilə Qarabağ xanlığı arasında bağlanmış Kürəkçay müqaviləsinə nəzər yetirmək kifayətdir. 11 maddədən ibarət olan müqavilənin heç bir bəndində ermənilərlə bağlı bir cümlə belə yazılmayıb. Əgər bu torpaqlar ermənilərə məxsus idisə, ermənilərin himayəçisi olan Rusiya dövləti nə üçün onların adını bir dəfə də olsun bu müqavilədə xatırlamır. Əksinə, müqavilənin birinci bəndində birmənalı olaraq qeyd olunur: "Biz, yəni Şuşalı və Qarabağlı İbrahim xan və bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi knyaz Pavel Sisianov olduqca mərhəmətli böyük imperator Əlahəzrət Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla, Allahın köməyi ilə Şuşalı və Qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və ölkəsi ilə bütün Rusiya imperiyasının və indi bəxtiyarlıqla hökmranlıq edən böyük Aleksandr Pavloviç və onun yüksək varislərinin əbədi təəbəliyini qəbul etməsi məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq". Müqavilədən göründüyü kimi, bu sənəd Azərbaycanın Qarabağ xanı İbrahimxəlil xanla bağlanmış və müqavilənin bütün maddələrində bu torpaqların Azərbaycana məxsus olması təsdiq olunur.

Çar Rusiyası Kürəkçay müqaviləsinə görə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədi. 1806-cı ilin yayında İran qoşunlarının Şuşaya yaxınlaşdığını eşidən İbrahimxəlil xan bütün ailə üzvləri ilə birlikdə (oğlu Mehdiqulu xandan başqa - A.İ.) Xankəndiyə köçdü. Ermənilər guya xanın İrana qaçmaq istədiyini mayor Lisaneviçə inandıra bildilər. Ermənilərin məlumatına inanan mayor Lisaneviç İbrahimxəlil xan başda olmaqla onun bütün ailə üzvlərini qətlə yetirdi. 1806-cı il sentyabrın 10-da imperator I Aleksandrın fərmanı ilə İbrahimxəlil xanın oğlu Mehdiqulu ağa Qarabağ xanı təyin olundu. Fərmanda deyilirdi: "İbrahimxəlil xana məxsus onun bütün hüquqları Mehdiqulu xana keçir. Bütün əhali ona tabe olmalı, onun göstərişlərini yerinə yetirməli, xanın hakimiyyətini uca tutmalıdır". Fərmanda ermənilərlə bağlı heç bir fikir yoxdur. İmperator I Aleksandrın 10 sentyabr 1806-cı il fərmanı Qarabağın kimə məxsus olmasını sübut etmək üçün çox vacib sənəddir.

II Rus-İran müharibəsi 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsinin imzalanması ilə başa çatdı. İşğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya birləşdirilməsi rəsmiləşdirildi. Martın 21-də Rusiyaya ilhaq edilmiş iki Azərbaycan xanlığı - İrəvan və Naxçıvan xanlıqlarının "erməni vilayəti" adlandırılması haqqında çar fərmanı verildi. Gürcü knyazı, general-mayor Çavçavadze bu vilayətə rəis təyin olundu. Çavçavadzenin qızı Rusiyanın İrandakı səfiri və ermənilərin Cənubi Qafqaza köçürülməsi planının əsas müəlliflərindən biri olan A. Qriboyedovun həyat yoldaşı idi.

Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində birmənalı olaraq qeyd olunur ki, Türkmənçay sülh müqaviləsinə qədər Qarabağ xanlığında 12 min ailənin 2,5 min nəfəri erməni, Şamaxı xanlığında 24 min ailənin 1,5 min nəfəri erməni, Şəki xanlığında isə 15 min ailənin üçdə biri erməni idi. Katolikos Nerses Aştaraketsi, polkovnik Lazarev və knyaz Arqutinski ermənilərin Cənubi Qafqaza, o cümlədən İrəvan, Naxçıvan və Qarabağa köçürülməsi üçün dəridən-qabıqdan çıxırdılar. Onu da qeyd etmək lazımdır ki, 1828-ci ildə "erməni vilayəti" adlandırılan bu qurum 1840-cı ildə ləğv olundu və 1849-cu ildə keçmiş İrəvan və Naxçıvan torpaqları əsasında İrəvan quberniyası təşkil edildi.

Türkmənçay müqaviləsinin XV maddəsi İranda yaşayan ermənilərin köçürülməsinə həsr olunmuşdu. Düzdür, müqavilədə ermənilərin adı çəkilmir, lakin rus və İran nümayəndə heyəti arasında aparılan danışıqlarda bu məsələ tam razılaşdırılmışdı.

Türkmənçay müqaviləsindən ən çox qazanan ermənilər oldu. Türkmənçay sülhünə qədər vətənsiz olan və müxtəlif ölkələrə səpələnmiş ermənilər bu müqavilədən sonra rus çarizminin köməyi ilə özlərinə "vətən"

tapdılar. I Pyotrun 1724-cü il noyabrın 10-da verdiyi fərman ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsinin əsasını qoydu, 1828-ci il Türkmənçay müqaviləsi isə bu tarixi faciəni rəsmiləşdirdi.

XVII əsrin sonunda Avropadan dəstək ala bilməyən ermənilər Rusiyaya pənah gətirdilər. 1701-ci ildə İsrael Ori və arximandrit Minas Avropanın dövlət başçılarına təqdim edə bilmədikləri 36 maddəlik proqramı I Pyotra çatdıra bildilər. İsrael Orinin təqdim etdiyi bu xəritədə İrəvan və Zəngəzur torpaqlarının strateji əhəmiyyəti qabarıq şəkildə təsvir edilmişdi. İsrael Ori I Pyotra yazırdı: "20-30 minlik imperator qoşunu tezliklə Şamaxıya çatmasa biz batıb-qırılarıq, türklər İrəvanı tutarlar. İrəvan müsəlman torpaqlarının açarıdır. Məqsədimiz İrəvana sahib olmaqdır. İrəvanı ələ keçirə bilsək, türklər və iranlılar bizə heç nə edə bilməzlər".

1655-ci ildə İrəvana gəlmiş fransız Jan Batist Tavernyenin əsərində qeyd olunur ki, İrəvan şəhər qalasında yalnız müsəlmanlar yaşayırdı. 18 il sonra burada olmuş fransız səyyahı Jan Şardenin oncildliyinin birinci cildində göstərilir ki, İrəvan qalasını kiçik bir şəhər hesab etmək olar. Qalada 800 ev var. Burada yaşayanlar yalnız türklərdir.

Türkmənçay müqaviləsinə qədər erməni ideoloqları I Pyotrun fərmanını əsas götürərək Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmaq üçün müxtəlif planlar cızırdılar. Bir layihəyə görə, gürcü çarı II İraklinin başçılığı ilə erməni-gürcü dövləti yaradılmalı və Rusiyanın tam himayəsinə verilməli idi. Digər bir layihəyə görə, Azərbaycan torpaqlarında knyaz Potyomkinin başçılığı ilə erməni dövlətinin yaradılması nəzərdə tutulurdu. Rus çariçası II Yekaterina Azərbaycan torpaqları hesabına xristian Alban dövlətinin yaradılmasına böyük önəm verirdi. O, Azərbaycan torpaqlarının işğalını həyata keçirən general Zubova yazırdı: "Muğanı ələ keçir və orada bir qala tikdir. Adını Yekaterinasert (Yekaterinanın ürəyi - A.İ.) qoy. Orada 2 min rus əsgərini məskunlaşdır. Onları geniş torpaq sahəsi, silahla təmin et, erməni və gürcü qızları ilə evləndir". Lakin 1796-cı ildə II Yekaterinanın qəfil ölümü bu planın gerçəkləşməsinə imkan vermədi.

Erməni tarixçisi V. Parsamyan yazır: "Bu bir inkaredilməz faktdır ki, Cənubi Qafqazın Rusiya imperiyasına birləşdirildiyi dövrə kimi ermənilər bu ərazidə cəm halında yaşamamışlar. Rusiyaya birləşəndən sonra Ermənistan adlandırılan ərazidə əhalinin 33,8 faizini ermənilər, 49,7 faizini isə müsəlmanlar (azərbaycanlılar - A.İ.) təşkil edirdi".

Beləliklə, ermənilər köçürüldükləri Şimali Azərbaycan torpaqlarında bir millət kimi formalaşaraq, imkanları və havadarları artdıqca Azərbaycana və Osmanlı dövlətinə qarşı ərazi iddiaları ilə çıxış etməyə başladılar.

Türkmənçay müqaviləsinədək İrəvan xanlığında 22500 erməni, Naxçıvan xanlığında 2150, Ordubad mahalında isə 1880 nəfər erməni yaşadığı halda, 1916-cı ildə bu ərazidə ermənilərin sayı 669871 nəfərə çatdırıldı. Azərbaycanlıların sayı isə 1897-ci ildə 313176 nəfər, 1916-cı ildə isə 373582 nəfər olmuşdur. Halbuki 1828-ci il məlumatına görə, İrəvan xanlığı ərazisində torpaqların 96,63 faizi azərbaycanlılara, cəmi 3,37 faizi ermənilərə məxsus idi. 1826-1828-ci illər Rusiya-İran müharibəsində təkcə İrəvan xanlığı ərazisində yaşayan azərbaycanlıların 420 kəndi yerlə-yeksan edilmişdir. 1828-1871-ci illər arasında ermənilər azərbaycanlı əhali yaşayan 146 kəndi zəbt edərək özününküləşdirmişlər. Rus tarixçisi Şavrov yazır: "1828-1830-cu illərdə İran ərazisindən 40 min, Osmanlı ərazisindən isə 84 min erməni ailəsini Yelizavetpol (indiki Gəncə şəhəri - A.İ.) və İrəvan quberniyasının ən münbit torpaqlarına köçürtdük". N. Şavrova görə rəsmi köçən əhali ilə yanaşı, 10 minlərlə erməni ailəsi qeyri-rəsmi Yelizavetpol quberniyasının dağlıq hissəsinə və Göyçə gölünün sahillərinə köçürüldü. N. Şavrovun məlumatına görə, XX əsrin əvvəllərində Cənubi Qafqazda 1 milyon 300 min erməni yaşayırdı, onun 1 milyonu bu əraziyə gəlmə idi. Ermənilərin Cənubi Qafqaz ərazisində məskunlaşmasına toxunan erməni tarixçisi B. İşxanyan yazır: "Ermənilər Qafqazın müxtəlif ərazilərində yalnız son əsrlərdə yaşamışlar".

1939-cu ildə fransız dilindən rus dilinə tərcümə olunmuş "XIX əsrin tarixi" əsərində professorlar Laviss və Rambo yazır: "XIX əsrin ortalarında ermənilər Qafqaza gəlmələr hesab olunurdu."

1886-cı ildə Yelizavetpol quberniyasının Zəngəzur qəzasında 326 kəndin 149-da azərbaycanlılar, 91 kəndində kürdlər, cəmi 81 kəndində isə ermənilər yaşayırdılar. 1891-ci ildə İrəvan quberniyasında 661,6 min nəfər əhali yaşayırdı. Bu əhalinin 270,4 mini (41%) azərbaycanlı idi. 1893-cü ildə bu ərazidə azərbaycanlı əhalinin sayı 276 min, 1897-ci ildə isə 313 min nəfər idi.

Rus tarixçisi S.Qlinka ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına köçürülməsində Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Paskeviç İrəvanskinin sevimlisi erməni polkovniki Lazarevin xidmətlərini xüsusi qeyd edir. Qlinka yazır: "1827-ci ilin avqustunda Paskeviç qalib ordunun komandanı kimi Təbrizə daxil oldu. Təbriz və onun ətrafındakı əyalətlərdə erməni əhalisinin Rusiya tərəfə cəlb olunmasında polkovnik Lazarevin yaxından köməyini nəzərə alan Paskeviç onu Təbriz şəhərinə komendant təyin etdi. Lazarevin yanına gələn ermənilər ondan xahiş edib bildirirdilər ki, əlahəzrət imperatora çatdırın ki, onun səltənətində yaşamağa və ölməyə şad olardıq. Xoy şəhərindən olan ermənilər daha qabağa gedərək bildirirdilər: "Biz İranın çörəyini yeməkdənsə, Rusiyanın ot-ələfini yeməyə hazırıq".

Polkovnik Lazarev İranda yaşayan erməni əhalisinə müraciətində deyirdi: "Özünüzə seçəcəyiniz yerlərdə - İrəvanda, Naxçıvanda və Qarabağda dövlət hesabına əkilib becəriləcək bol məhsullu torpaq alacaqsınız. Siz hər cür vergilərdən 6 il müddətinə azad olunursunuz. Türkmənçay müqaviləsinə görə, 5 il müddətində İrandakı əmlakınızın satılması üçün burada vəkil qoya bilərsiniz. Orada (Azərbaycan torpaqlarında-A.İ.) xristianlarla məskunlaşmış yeni vətən tapacaqsınız". Ermənilərin köçürülməsinə rəhbərlik edən Lazarev özü də etiraf edir ki, bu torpaqlar çar Rusiyası tərəfindən ermənilərə verilən yeni vətəndir. Polkovnik Lazarev qraf Paskeviçə göndərdiyi hesabatda yazırdı: "1828-ci il fevralın 26-da fəaliyyətə başladığım gündən əlahəzrətdən 14 min manat qızıl pul və 400 min manat gümüş pul almışam. Təkcə Naxçıvan şöbəsinə verdiyim 2 min manatdan çox qızıl pula 8249 xristian ailəsi köçürmüşəm".

İrəvan xanlığı Rusiyaya qatılandan sonra buradan 2137 ailə, Qazaxdan 1817-1831-ci illərdə 2306 ailə, Qubadan 1796-1810-cu illərdə 10334 ailə, Şəmşəddildən 1804-1817-ci illərdə 11478 ailə, Borçalıdan 1804-1807-ci illərdə 15354 ailə, Naxçıvandan 1400 ailə didərgin salınmışdı. 1805-1813-cü illərdə təkcə Qarabağı məcburi tərk etmiş azərbaycanlı ailələrin sayı 4845-dən çox idi.

1878-ci ilin martında erməni patriarxı Nerses Varjapetyan İngiltərənin İstanbuldakı elçisi Loyarda müraciətində deyirdi: "Bir il bundan əvvəl bizim Osmanlı üsuli-idarəsindən heç bir şikayətimiz yox idi. Lakin Rusiyanın bu son zəfərləri vəziyyəti dəyişdirdi. İndi biz də Qərbdə müstəqil bir Ermənistana sahib olmaq istəyirik. Əgər siz yardım etməsəniz, biz bu istəyimizi gerçəkləşdirmək üçün Rusiyaya müraciət etməli olacağıq". Loyardın "Bəs harada, hansı torpaqları ələ keçirib Ermənistan yaradacaqsınız" sualına patriarx Van, Sivas, Diyarbəkir, Kilikiya vilayətlərinin adını çəkdi. İngilis elçisi bu yerlərin heç birində ermənilərin çoxluq təşkil etmədiyini xatırlatsa da, patriarxı fikrindən döndərə bilmədi.

1878-ci ilin aprelində Nerses Varjapetyan İngiltərənin xarici işlər naziri Solisberiyə göndərdiyi məktubunda öz məqsədini daha açıq şəkildə bildirirdi: "Ermənilərin türklərlə bir yerdə yaşaması artıq imkansızdır. Bərabərlik, ədalət, vicdan azadlığı ancaq xristian dövlətlərində bərqərar ola bilər. Burada müsəlman üsuli-idarəsini xristian üsuli-idarəsi əvəz etməlidir. Qərbi Anadolu və Kilikiya xristian dövlətinin ərazisi olmalıdır. Türkiyə erməniləri bunu istəyirlər".

1877-1878-ci illərdə yeni rus-türk müharibəsi başladı. Rusiya tərəfi müharibədən qalib çıxaraq atəşkəs şərtlərinin müzakirəsinə başladı. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş ermənilər çar II Aleksandrdan özlərinin Qərbi Ermənistan adlandırdıqları ərazinin Osmanlıdan alıb Rusiyaya birləşdirilməsini xahiş edirdilər. Çox maraqlıdır ki, belə məzmunda olan məktubların əksəriyyəti Rusiya imperiyasının tərkibində olan Tiflisdən, Gəncədən və Bakıdan təşkil edilərək Rusiya hökumətinə göndərilirdi. Osmanlı ərazisindəki ermənilər yazırdılar: "Şərq xristianları olan biz ermənilər Qərb xristianları kimi Rusiyanın köməyi sayəsində müstəqillik əldə etmək istəyirik".

Osmanlı dövlətinin məğlubiyyətindən fürsət kimi istifadə edən ermənilər Osmanlı ərazisində erməni dövlətinin yaradılması ilə bağlı hazırladıqları layihəni gizlincə imperator II Aleksandra, xarici işlər naziri Qorçakova və Osmanlı dövləti ilə danışıqlar aparan qraf İqnatevə çatdırdılar. Təkliflər aşağıdakılardan ibarət idi. 1. "Qərbi Ermənistan" Şərqi Ermənistanla birləşdirilsin, 2. Müstəqil Ermənistan Rusiyanın himayəsində qalsın, 3. "Qərbi Ermənistan" Osmanlı dövlətinin tərkibində qaldığı təqdirdə rus qoşunları islahatlar keçiriləndən sonra buradan getsinlər.

San-Stefanoda sülh danışıqları aparan tərəflər arasında mübahisə doğuran maddələrdən bir neçəsi Osmanlı ərazisində yaşayan ermənilərlə bağlı idi. Müqavilənin 16-cı maddəsinə görə, Osmanlı dövləti ermənilər yaşayan ərazilərdə vaxt itirmədən, dərhal islahatlar keçirməli, ermənilərin təhlükəsizliyini təmin etməli idilər. 25-ci maddəyə görə, rus qoşunlarının 6 ay ərzində Osmanlı ərazisindən çıxmasına qədər erməni vilayətlərində islahatlar başa çatdırılmalı idi. Müqavilənin 27-ci maddəsinə görə, müharibə zamanı ruslara kömək göstərmiş ermənilərin cinayət məsuliyyətinə cəlb olunmayacağına təminat verilirdi. Beləliklə, XIX əsrin ikinci yarısında erməni məsələsi çar Rusiyası ilə Qərb dövlətləri arasında Osmanlı dövlətinə təzyiq göstərmək üçün böyük bir siyasi karta çevrildi. San-Stefano sülhünə görə, Osmanlı imperiyası onun üzərinə qoyulmuş təzminatı ödəyə bilmədiyi üçün təzminat əvəzi kimi Qars, Ərdəhan, Batum, Alaşkerd vadisi və Bəyazid qəzasını Rusiyaya verməyə məcbur oldu. Çar Rusiyası ermənilərə quberniya müstəqilliyi vermək qərarına gəlmişdi. Rusiyanın köməyi ilə Osmanlı ərazisində ermənilərin müstəqil dövlət yaratmaq xülyaları reallaşmaq üzrə idi. Xoşbəxtlikdən Qərb dövlətlərinin San-Stefano müqaviləsinin şərtlərinə siyasi qısqanclığı ermənilərin bu planlarını alt-üst etdi. Əslində, Qərb dövlətləri Osmanlının uğursuzluğu ilə yox, Rusiyanın Balkanlarda qazandığı siyasi nüfuzu ilə barışmaq istəmirdilər. Buna görə də 1878-ci ilin yayında Avstriya-Macarıstan, Almaniya, İngiltərə, Fransa, İtaliya və Osmanlı nümayəndələrinin iştirak etdiyi Berlin konqresi çağırıldı. Uzun müzakirələrdən sonra San-Stefanoda ermənilərlə bağlı qəbul olunmuş 16-cı maddə 61-ci maddə ilə əvəz edildi. 61-ci maddəyə görə, rus ordusu Qərbi Ermənistan adlandırılan Osmanlı ərazisini dərhal tərk etməli idi.

Ümumiyyətlə bu fakta xüsusi diqqət yetirmək lazımdır ki, ermənilərin yaşadıqları ərazidə çoxluq təşkil etməsi heç bir zaman mövcud olmamışdır. Nə Osmanlı, nə İran, nə də Rusiya ərazisində elə bir vilayət

olmamışdır ki, ermənilər əhalinin üçdə birindən çox olsunlar. Faktiki olaraq ermənilər yaşayan vilayətlərdə böyük üstünlüyü türklər, kürdlər və başqa etnik qruplar təşkil etmişlər.

Berlin konqresinə qədər erməni nümayəndə heyətinin Avropada döymədiyi qapı qalmadı. Erməni nümayəndə heyəti İtaliya, Fransa, İngiltərədə öz planlarını gerçəkləşdirə bilmədiklərini yəqin edib Almaniyaya pənah gətirdilər. Konqresin sədri Bismarka erməni nümayəndələrinin onunla görüşmək istədyini bildirdi. Bismarkın cavabı çox sərt oldu: "Bütün erməniləri pomeranlı bir əsgərin sümüyünə dəyişmərəm". Ermənilərin alman imperatoru I Vilhelmlə görüşmək arzuları da boşa çıxdı. Avropa ölkələrinə danışıqlara gedən erməni nümayəndə heyətinin başçısına: siz konqres iştirakçıları ilə hansı dildə danışacaqsınız sualına cavabında - hamının çox asan başa düşdüyü bir dildə - ağlayıb, göz yaşı tökəcəyəm demişdi. Ermənilərin Avropa ölkələrində apardığı danışıqlar heç bir nəticə vermədi. Berlin konqresini çağıran Avropa dövlətləri öz maraqlarını təmin edən qərarlar qəbul etməklə kifayətləndilər.

Hadisələrin bu şəkildə cərəyan etməsi ilə barışmaq istəməyən ermənilər məsələnin həlli yolunu Osmanlı dövlətinə qarşı qiyam və terrora başlamaqda görürdülər. Erməni məsələsini silahlı vasitələrlə həll etməyə çağıran komitə, təşkilat və cəmiyyətlər şəbəkəsi Avropanı, Kiçik Asiyanı, Qafqazı və Rusiyanın iri şəhərlərini bürüdü. "Hnçaq" və "Daşnaksütyun" partiyaları terrorçu fəaliyyətə başladılar. 1878-1884-cü illərdə Zeytunda ermənilər tərəfindən iki dəfə silahlı qiyama cəhd göstərildi. 1884-cü ildə Sasunda, 1895-ci ildə Zeytunda və 1896-cı ildə Vanda Osmanlı dövləti əleyhinə silahlı qiyamlar təşkil edildi. Osmanlı dövləti Qərb dövlətlərinin və Rusiyanın təzyiqlərinə baxmayaraq, çətinliklə də olsa bu qiyamları yatıra bildi.

Öz arzularını Anadoluda reallaşdıra bilməyən erməni dəstələri, Cənubi Qafqazı öz maraq dairələrinə daxil etdilər. Belə ki, yüz minlərlə erməni Osmanlı ərazisindən Azərbaycan torpaqlarına köçərək erməni məsələsini Rusiyanın himayəsi altında daha tez həll etməyə qərar verdilər.

Daşnakların dənizdən-dənizə erməni dövləti yaratmaq arzusu I Dünya müharibəsi ərəfəsində daha geniş miqyas aldı. Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı dövlətinin 3-cü ordusuna rəhbərlik edən Ənvər paşa Ərzurumda erməni liderləri ilə görüşündə yəqin etdi ki, ermənilər müharibə başlanacaq təqdirdə Osmanlı dövlətinə xəyanət edəcəklər. Çünki, çar Rusiyası gələcəkdə müharibənin nəticəsindən asılı olaraq Osmanlı ərazisində erməni muxtar dövlətinin yaradılmasına təminat verməklə, bu ərazidə yaşayan erməniləri Türkiyəyə qarşı müharibəyə cəlb edə bilmişdi. Birinci Dünya müharibəsi ərəfəsində çar II Nikolayın Qafqaza gəlişi və ermənilərə osmanlılara qarşı əməkdaşlıq təklif etməsi məsələni daha da ciddiləşdirdi. Çar Tiflisdəki nitqini: "Qoy, rus bayrağı altında üzən gəmilər Bosfor və Dardanel boğazlarında sərbəst hərəkət etsin. Qoy, erməni xalqı Rusiyanın köməyi ilə Osmanlı ərazisində öz müstəqil dövlətini qura bilsin. Çar hökumətinin himayəsi altında qan qardaşlarınızla birləşərək, nəhayət, hürriyyət və ədalət nemətlərinə qovuşacaqsınız. Ermənilərin sədaqətinə inanıram, erməni xalqını xoş gələcək gözləyir. Sizi əmin edirəm, arzunuz yerinə yetiriləcək" kəlmələri ilə bitirdi. Beləliklə, çar II Nikolayın bu qərəzli və təhrikedici çıxışı ermənilərin Rusiya tərəfindən Türkiyəyə qarşı müharibədə iştirak etməsini təmin etdi. Türk torpaqlarının işğalına və əhalisinin məhv edilməsinə hazırlaşan erməni silahlı birləşmələri erməni kilsəsindən xeyir-dua aldılar.

Çarın bu bəyanatından sonra, ermənilərin bir qismi Osmanlı torpaqlarına soxulan rus ordusuna qoşuldu, bir hissəsi isə mallarını və mülklərini sataraq könüllü erməni dəstələrinə yazıldılar. Dinc türk əhalisinə qarşı həyata keçirilən qırğınlarda fəal iştirak edən ermənilər bölgəni yaxşı tanıdıqları üçün həm ruslara bələdçilik edir, həm də təxribatlar törətməklə məşğul olurdular.

1914-cü il noyabrın 1-də rus ordusu Qafqaz istiqamətində Osmanlı sərhədlərini keçdi. Qars, Ərdəhan və Batum uğrunda döyüşlərdə hər iki tərəf böyük itki verdi. Lakin Sarıqamış yaxınlığındakı döyüşdə bir tərəfdən sərt qış, o biri tərəfdən rus ordusunun daha güclü hazırlığı türklərdən 90 min əsgər və zabitin əsir alınması ilə nəticələndi. Rus ordusunun Şərqi Anadoluya daxil olması ermənilərin türklərə qarşı kütləvi qırğın törətməsi üçün şərait yaratdı. Rus ordusunun tərkibindəki ermənilər yerli ermənilərlə birləşərək heç bir günahı olmayan yüz minlərlə dinc əhalini qətlə yetirir və onları öz dədə-baba yurdlarından didərgin salırdılar. 1915-ci ilin yanvarında Sarıqamış, 1916-cı ilin fevralında Ərzurum, martda İsfahan, apreldə Trabzon, mayda Xoy və Dilman, iyunda Ərzincan, avqustda isə Muş rus ordusu və erməni silahlı birləşmələri tərəfindən işğal edildi. Ermənilər müsəlman kəndlərini qarət edir, yandırır, əhalini fərqinə varmadan qılıncdan keçirirdilər. Dinc əhalini zorla evlərə, məscidlərə dolduraraq diri-diri yandırırdılar. Qocaları və uşaqları torpağa basdırır, hamilə qadınların qarnını yırtıb körpələri çıxarıb boğurdular və anaları öz balalarının ətini yeməyə məcbur edirdilər. Kazım Qarabəkir paşa ABŞ generalı Harborda göndərdiyi məktubda yazırdı: "Azad etdiyimiz şəhərdə dəhşətli bir mənzərə ilə rastlaşdım. Şəhərdə sağ qalmış heç kimə rast gəlmədim. Bütün uşaqların bədənləri süngülərlə dəlik-deşik edilib. Qocaları və qadınları zirzəmilərə doldurub diri-diri yandırıblar, gəncləri balta ilə şaqqalayıb asıblar. Həmvətənlərimin bu faciəsi insanın qəlbinə dağ çəkir..."

Ermənilərin yerli əhaliyə qarşı həyata keçirdiyi bu qırğınlar Osmanlı dövlətini müəyyən müdafiə tədbirləri görməyə məcbur etdi. Belə ki, 1915-ci ilin mayın ortalarında Van, Bitlis və Ərzurumdan erməni əhalisi döyüş meydanından uzaqlaşdırıldı. Bununla da türklərin rus və ingilislərə qarşı döyüşlərində ermənilərin neytrallığı

təmin edildi. Eyni zamanda, Osmanlı dövlətinin hərbi rəhbərliyi türklərə və digər müsəlmanlara ermənilərə qarşı hər hansı zorakılıq törətməyi qadağan edən göstəriş verdi. 1919-cu il yanvarın 30-da Londonda çıxan "Tayms" qəzeti yazırdı: "Köçürülən erməni əhalisinin gələcəkdə öz evlərinə qayıtması və əmlakına sahib durması üçün Osmanlı hökuməti tərəfindən xüsusi komissiya yaradıldı. Komissiyanın işi erməni əhalisinin siyahıya alınmasından ibarət idi. Komissiyanın sənədlərində dönə-dönə qeyd olunur ki, müharibə başa çatandan sonra erməni əhalisi öz evlərinə qaytarılacaqdır".

Antantanın təbliğat maşını və erməni millətçiləri sübut etmək istəyirlər ki, Birinci Dünya müharibəsi illərində Osmanlı ərazisində bir milyondan artıq erməni öldürülmüşdür. Bunun üçün fakt kimi müharibəyə qədər Osmanlı ərazisində ermənilərin 2,5 milyon nəfər olduğu göstərilirdi. Halbuki, Osmanlı dövlətinin rəsmi məlumatına görə, müharibəyə qədər bu ərazidə 1.300 min erməni yaşayırdı. Göstərilən əhalinin yalnız yarısı döyüş əməliyyatları gedən ərazidə yaşayırdı. Müharibə dövründə yarım milyon erməni Türkiyədən Qafqaza və başqa yerlərə köçmüş, 150-200 min erməni Qərbi Avropa və ABŞ-a mühacirət etmiş və ehtimal etmək olar ki, ölən əhalinin sayı 200 min nəfər olmuşdur. Təbii ki, bu rəqəmin içində təkcə köçürmə nəticəsində ölənlər yox, aclıqdan, soyuqdan ölənlər və itkin düşənlər də vardır. "Tayms" qəzeti yazır: "Bu bir danılmaz həqiqətdir ki, müharibə illərində osmanlı ərazisində iki milyon türkün həyatına son qoyulmuşdur".

Erməni ideoloqları dünyanı inandırmaq istəyirlər ki, guya 1915-ci il aprelin 24-də daxili işlər naziri Tələt paşa erməni əhalisinin dövlət səviyyəsində qırılmasına dair yazılı göstəriş vermişdir. Bu günə qədər erməni ideoloqları həmin sənədin əslini fakt kimi heç kimə göstərə bilmirlər. Ona görə ki, belə bir sənəd ümumiyyətlə yoxdur.

Erməni təbliğatı ilə bağlı ingilis jurnalisti Skotland Liddelin söylədiyi fikirlər necə də yerinə düşür. 1918-1920-ci illərdə Cənubi Qafqazda baş verən hadisələri yaxından izləyən jurnalist yazır: "Ermənilər həmişə özlərinə savaş axtarırlar, təbliğatlarında bunu sıxışdırmaq kimi qələmə verirlər. Əslində bu, onların özlərinin qazandıqları cəzadır. Daşnaklar üçün öldürülmüş erməni çox qiymətlidir. Bu ölüm hadisəsi təbliğat üçün çoxlu xeyir gətirə bilər". Skotland Liddel Nuru paşanın aşağıdakı sözlərini misal gətirir: "Ermənininin nə vaxt və necə ölməsindən asılı olmayaraq başını məzardan qaldırır və qışqırır: mən kütləvi qırğın zamanı öldürülmüşəm".

1920-ci ildə Qərb dövlətlərinin Osmanlı dövlətini parçalamaq planı təbliğ olunan dövrdə Aram Andonyanın "Ermənilərin kütləvi şəkildə öldürülməsi haqqında rəsmi sənədlər" adlı saxta əsəri də bir neçə dildə işıq üzü gördü. Aram Andonyan hamını inandırmaq istəyirdi ki, ingilis qoşunlarının Aleppoya hücumu dövründə o, osmanlı çinovniki Naim bəylə görüşmüş və daxili işlər naziri Tələt paşanın ermənilərin kütləvi şəkildə öldürülməsi haqqında şifrəli əmrini ondan almışdır. İngilis dilində nəşr olunmuş kitabda 48 "rəsmi osmanlı sənədi" verilmişdir. Halbuki, fransız nəşrində bu rəsmi sənədlərin məzmununda, həm də çapında fərq vardır. Andonyanın "rəsmi sənədləri" içərisində 14 şəkil verilmişdir. Müəllifdən şəkillərin əsli tələb olunduqda, o bunları itirdiyini bildirmişdi. Andonyanın sənədlərinin saxta olduğu heç kimə sirr deyil. Çünki müəllif bu saxta sənədləri tərtib edərkən müsəlman dövlətləri üçün məcburi etiket qaydasını belə yaddan çıxarmış, "allahın adı ilə başlanan ifadələri" unutmuşdur. İkincisi, Andonyan saxta sənədlərə tarix qoyarkən müsəlman təqvimi əvəzinə rum təqvimindən istifadə etmişdir. Bir sözlə, Andonyanın bu saxtakarlığı hamıya məlum olsa da, lakin bir çox dövlətlərin maraqlarına cavab verdiyindən bu sənədlər bu gün də siyasilərin diqqət mərkəzindədir.

1919-cu il Paris sülh konfransı dövründə Osmanlı rəhbərlərinin gizli yazışmaları diqqətlə yoxlanıldıqdan sonra ermənilərin kütləvi surətdə öldürülməsi haqqında heç bir sənəd və əmr tapılmadı. Əksinə, Avropadan gələn məmurlar belə faktla rastlaşdılar ki, köçürülən erməni əhalisinin təhlükəsizliyini təmin etmək üçün Osmanlı dövləti tərəfindən onlarla əmr və göstəriş verilmişdir.

Amerika tarixçisi Stenford Corc Şou yazırdı: "Osmanlı ərazisində müsəlman əhalisinə qarşı ilk qırğınlar 1915-ci il mayın 14-də Van şəhərində rus ordusunun iştirakı ilə erməni dəstələri tərəfindən törədildi. İki gün ərzində şəhərin müsəlman əhalisi qılıncdan keçirilərək onlara olmazın işgəncələr verildi. Osmanlı ərazisində rus ordusunun himayəsi altında "Erməni Van dövləti" yaradıldı. Van soyqırımından sonra erməni və rus birləşmələrinin Bitlis vilayətinə hücumları başladı. Mosula qədər böyük bir ərazi erməni daşnak qüvvələrinin işğalı altına düşdü. 1915-ci il iyulun ortalarına qədər Van ərazisinə 250 min erməni köçürüldü. Halbuki, bu ərazidə 50 mindən artıq erməni yaşamamışdı".

1915-ci il iyulun ortalarından etibarən ermənilərin bu ərazilərdə törətdikləri cinayətlərin sayı-hesabı yox idi. İyulun ortalarından sonra Osmanlı ordusunun əks hücumu nəticəsində geri çəkilən rus-erməni ordusu ilə birlikdə erməni əhalisi də bu əraziləri tərk etməyə başladı. 200 minlik erməni əhalisi rus ordusunun müşayiəti ilə Cənubi Qafqaz istiqamətinə üz tutdu.

Birinci Dünya müharibəsi illərində erməni-osmanlı münasibətlərinə dair həm obyektivlik baxımdan, həm də sənədlərin əksəriyyəti qeyri-müsəlman müəlliflərinə məxsus olduğuna görə ABŞ Konqresi kitabxanasında saxlanılan "Bristolun sənədləri" diqqəti cəlb edir. Bu külliyyatda qeyd olunur ki, "dəqiq statistik mənbələrdən məlumdur ki, 1912-1922-ci illər ərzində 600 minə yaxın erməni həlak olmuşdur. 1,5-2 milyon ermənininin ölümü ilə bağlı fikirlər fərziyyədən başqa bir şey deyildir. Müharibə gedən ərazidə insanların ölümü və itkin düşməsi

adi bir haldır". Bristolun sənədlərində göstərilir ki, qeyd olunan dövrdə isə 2,5 milyon türkün həyatına son qoyulmuşdur. Türklərin ölümü və öldürülməsi ermənilərdən daha faciəli olmuşdur.

Faktlardan belə nəticəyə gəlmək olar ki, I Dünya müharibəsi illərində Osmanlı ərazisində soyqırıma məruz qalan ermənilər yox, türk-müsəlman əhalisi olmuşdur. Osmanlı ərazisində öz mənfur planlarını reallaşdıra bilməyən erməni silahlı dəstələri geri çəkilərək Azərbaycanın cənubunda, qərbində və şimalında türk-müsəlman əhalisinə qarşı kütləvi qırğınlara başladılar.

1918-ci ildə türk-müsəlman əhalisinə qarşı törədilən cinayətləri üzə çıxarmaq Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə mümkün olmuşdur. Milli hökumətin ən mühüm qərarlarından biri daşnak canilərinin törətdikləri cinayətlərin təhqiqi üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması oldu. Gəncədə hökumətin iclasında xarici işlər naziri M. H. Hacinski bu məsələ barəsində çıxışında qeyd etdi ki, dörd aydır erməni cəlladları dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədirlər. Bununla yanaşı, zorakılıq törədənlərin yalan xəbərləri nəticəsində Avropa ictimaiyyətində tamam əks əhvali-ruhiyyə yaradılır. Buna görə də belə bir təşkilatın yaradılmasına böyük ehtiyac vardır. Həmin təşkilat Fövqəladə Komissiya xarakteri daşımalıdır, həm də bu komissiyanın topladığı sənədlər Azərbaycan, rus, ingilis, fransız, alman dillərində nəşr edilib yayılmalıdır. Vəkil Ələkbərbəy Xasməmmədov (sonralar Azərbaycan Məhkəmə Palatasının sədri olmuşdur) Təhqiqat Komissiyasının sədri, Gəncə dairə məhkəməsinin üzvləri - İsmayıl bəy Şahmalıyev, Andrey Novatski, Gəncə dairə məhkəməsi prokurorun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə köçürmə idarəsindən Nikolay Mixaylov, həqiqi mülki müşavir V.Qubvillo və müəllim Mirzə Cavad Axundzadə isə üzvləri təyin olundular.

1919-cu il avqustun 27-də komissiyanın üzvü Ç. Klassovski tərəfindən tərtib olunmuş arayışda göstərilirdi ki, ermənilərin türk-müsəlman əhalisinə qarşı törətdiyi cinayətlərlə bağlı 36 cild və 3500 vərəqdən ibarət sənədlər toplanmışdır. Bakı şəhəri və onun yaxın ətrafında müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq hadisələrini sübut edən sənədlər 6 cild 740 vərəqdən ibarətdir. Göyçay qəzasının Kürdəmir və başqa kəndləri üzrə 4 cild 340 vərəq, Şamaxı şəhəri və Şamaxı qəzası üzrə 7 cild 925 vərəq, Zəngəzur qəzasının dağıdılmış kəndləri üzrə 2 cild 80 vərəq, Quba şəhəri və Quba qəzası üzrə 3 cild 45 vərəq sənəd toplanmışdır.

1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı nəticəsində Romanovlar sülaləsi devrildi və iri burjuaziya Müvəqqəti hökumət təşkil etməyə nail oldu. Müvəqqəti hökumət Rusiya xalqlarına müraciətində elan etdi ki, Birinci Dünya müharibəsi başa çatandan sonra xalqların öz müqəddəratını təyin etməsi məsələsinə baxılacaqdır. Lakin 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyəti zorakı yolla ələ keçirməsi Rusiya xalqlarının bu arzularını boşa çıxartdı. Bolşeviklər fəhlə-kəndli hökuməti qurmaq adı altında əvvəlki imperiyanı bərpa etməyə başladılar.

1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində Bakıda daşnak-bolşevik birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi yetişməkdə idi. 1917-ci ilin dekabrında Rusiya Xalq Komissarları Sovetinin sədri V. Lenin tərəfindən Qafqazın fövqəladə komissarı təyin olunmuş S. Şaumyanın və Korqanovun başçılıq etdiyi Hərbi İnqilab Komitəsinin Tiflisdən Bakıya gəlişi buradakı siyasi vəziyyəti daha da gərginləşdirdi. Qafqaz cəbhəsindən geri qayıdan əsgərlər vətənlərinə qayıtmaq əvəzinə Bakıda toplaşdı. Bu əsgərlərin Bakıda saxlanmasında Şaumyan böyük fəallıq göstərirdi.

Azərbaycanda milli qüvvələrə başçılıq edən "Müsavat"ın getdikcə artan nüfuzundan qorxuya düşən bolşevik-daşnak qüvvələri Bakını inqilabla əksinqilab arasında mübarizə meydanı elan etmişdilər. Bolşevik-daşnak qüvvələrinin birləşdiyi Bakı Sovetinin ixtiyarında qırmızı ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmlənmişdi.

**Bakı qırğınları**

1918-ci ilin martında Bakıda siyasi vəziyyət son dərəcə gərgin idi. Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat"ın böyük səs çoxluğu ilə qələbə qazanması bolşevikləri və daşnakları ciddi narahat edirdi. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevrilən "Müsavat" Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamla mübarizə aparırdı. Şaumyan başda olmaqla bolşevik qüvvələri Erməni Milli Şurası və "Daşnaksütyun" partiyasının rəhbərləri ilə birlikdə "Müsavat"a qarşı əsl müharibəyə başladılar. Bakıda Azərbaycan milli qüvvələrinin sayca az və pis silahlanmış olduğunu yaxşı bilən Şaumyan müsəlmanlara "dərs vermək" üçün milli qırğına hazırlaşırdı.

Martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Belə ki, 1918-ci il martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş H.Z. Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paroxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdilər. Müsəlman dəstəsinin rədd cavabına tüfənglərdən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu.

Martın 30-u gündüz saat dörddə müsəlmanlardan təşkil olunmuş nümayəndə heyəti Sovetin İcraiyyə Komitəsinin qarşısına gələrək silahların geri qaytarılmasını tələb etdi. Caparidze bu xahişin bir ultimatum olub-olmadığını soruşduqda, nümayəndəlik bildirdi ki, onların müsəlmanların həyəcanlarını söndürməkdən başqa niyyətləri yoxdur. Caparidze müsəlman liderlərinə söz verdi ki, silahların qaytarılması məsələsini Qafqaz Ordusunun İnqilabi Müdafiə Komitəsinin iclasına çıxaracaq və orada silahların müsəlmanlara qaytarılmasını müdafiə edəcəkdir.

Ertəsi gün şəhərin cənub hissəsində erməni əsgərləri göründülər. Onlar bütün küçə boyu səngərlər qazmağa, torpaq və daşlardan bəndlər ucaltmağa başladılar. Həmin gün müsəlman xeyriyyə cəmiyyətinin binasında keçirilən yığıncağa gələn Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası adından bəyan etdi ki, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşeviklərin Bakıdan qovulmasına kömək edəcəklər. Martın 18-də (təzə stillə 31 mart - A.İ.) səhər tezdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçdilər. Müsəlmanlar yaşayan hissədə xristian əhalidən ruslar və gürcülər qalmışdı.

Bakıda mart soyqırımı planı hələ 1917-ci ilin sonlarında "Daşnaksütyun" partiyası və Erməni Milli Komitəsi tərəfindən hazırlanmışdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi.

Bakı Soveti qüvvələrinə rəhbərlik edən S. Şaumyanın erməni hərbi hissələrindən istifadə etməsi bu qırğını daha da dərinləşdirdi. Bolşevikləri müdafiə etmək bəhanəsi ilə erməni hərbi hissələri türk-müsəlman əhalisinə qəddarcasına divan tuturdular. Qeyd etmək lazımdır ki, Bakı Soveti də, onun yaratdığı ordu da əsas etibarilə ermənilərdən ibarət idi. Sovetdə olan daşnaklar Sako Saakyan, Arakelyan və başqaları bolşevik dəstələrinə müsəlman fəhlələrinin qəbul edilməsinə hər vasitə ilə əngəl törədirdilər. Daşnaklar azərbaycanlılara milli ordu yaratmaqda mane olur, Sovetin adından istifadə edərək millətçi-şovinist siyasətini canfəşanlıqla həyata keçirir, Bakı, Şamaxı və Azərbaycanın digər bölgələrində türk-müsəlman əhalisinə qarşı qırğınlar hazırlayırdılar. Bu baxımdan Erməni Milli Komitəsi xüsusi fəallıq göstərirdi. Müsəlmanlara qarşı qırğınlar və talanlar Şamaxı, Göyçay, Gəncə, Nuxa, Qazax, Lənkəran, Salyan, bir sözlə, Azərbaycanın bütün bölgələrini bürümüşdü.

Təhqiqat Komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A. Kvasnikin ifadəsində deyilirdi: "Bu il martın 17-21-də (köhnə stillə) Bakıda baş vermiş hadisələri əsla vicdan əzabı çəkmədən belə şərh etmək olar: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə ətraflarda məhv edilməsi, onların əmlakının hamısının qarət olunması və bütün var-dövlətlərinin ermənilərin əlinə təbii surətdə keçməsi məqsədilə ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi".

Azğınlaşmış və vəhşiləşmiş erməni dəstələri dinc azərbaycanlı əhalini qırıb-çatmaq üçün ən amansız üsullara əl atırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A. Kluge bu komissiyanın sədrinə "Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara dair iş haqqında" məruzəsində yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər... Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər". Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, az-çox qiymətli olan şeyləri isə özləri ilə aparırdılar. Sonralar təkcə bir yerdə torpağın altından 57 müsəlman qadın və qızın meyiti tapılmışdı. Onların qulaqlarını, burunlarını kəsmiş, qarınlarını yırtmışdılar. Ermənilər öldürməyə macal tapmadıqları qadınları isə öz hörükləri ilə bir-birinə bağlayaraq başıaçıq, ayaqyalın arabalara mindirib aparır, yolda isə tüfənglərin qundaqları ilə onları döyür, şikəst edirdilər.

Təhqiqat Komissiyasının sənədlərinə əsasən məlum olur ki, 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər. Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunmuşdu. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə yeksan edilmişdi. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmişdi. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar.

Təhqiqat Komissiyasının materiallarında bu vəhşiliklər barəsində deyilir: "1918-ci il martın 18-də (köhnə stillə-A.İ.) bir erməni zabiti yanındakı üç erməni əsgəri ilə "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə" müsəlman xeyriyyə cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərəsində tüstü və alov göründü. Nəinki Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin

yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular". Həmin zabit "Daşnaksütyun" partiyasının üzvü Tatevos Əmirov idi. Bu həmin Tatevosdur ki, uzun illər ərzində tariximiz, mətbuatımız onu "yenilməz inqilabçı", "xalqlar dostluğu uğrunda mətin mübariz" kimi təbliğ etmişdi.

Talançılar "Kaspi" qəzeti redaksiyasının və "Dağıstan" mehmanxanasının binalarını, "İskəndəriyyə"ni, "İsmailiyyə"ni də yandırdılar.Bu qırğınlarda təkcə Azərbaycan müsəlmanları deyil, bütün Qafqaz müsəlmanları ziyan çəkmiş oldu. "İsmailiyyə"də Bakı müsəlman xeyriyyə cəmiyyəti, Qafqaz müsəlman komitələri yerləşirdi, burada həmin təşkilatlara məxsus pul və sənədlər saxlanılır, müsəlmanların yığıncaq və qurultayları keçirilirdi. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü.

Mart qırğınlarında yaxşı təşkil olunmuş erməni hərbi hissələri ilə yanaşı, erməni ziyalıları, gəncləri də iştirak edirdilər. Təhqiqat Komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdi".

Martın 24-də "Nikolay Buniatov" paroxodunun komandir köməkçisi Kazım Axundova Bakının Çəmbərəkənd adlandırılan dağüstü hissəsinin mühafizəsi üçün təyyarəçi Rozenblyumun başçılığı ilə 10 silahlı matros göndərilmişdi. K. Axundov martın 25-dən Nikolayev küçəsindəki meyitlərin yığışdırılmasına başladı. Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyaçının, 11 gimnaziyaçı qızın, 1 rus qadının, 3-5 yaşlarında 3 müsəlman oğlan uşağının, 8 rus kişinin, 19 İran təbəəli müsəlman qadının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların 6748 meyiti gətirilmişdi. Axundov öz tanışı, texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdı. V. Sokolov burada 3 fotoşəkil çəkmişdi. Birinci şəkildə başında güllə, bədənində beş süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunmuşdur. Onun sağ döşü üstündə hələ sağ olan körpə uzanmışdır. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardır. İkinci şəkildə iri mismarla divara vurulmuş 2 yaşlı uşaq təsvir edilmişdir. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə oradaca idi. Üçüncü şəkildə 13-14 yaşlı qızın meyitidir. Biçarənin bədənindən görünür ki, onu bir dəstə kişi zorlamışdır. Axundovla Sokolov 4-cü evə daxil olduqda onlar dəhşətli bir mənzərə görmüşdülər: geniş bir otağın döşəməsi üstündə 22-23 yaşlı bir qadının, iki qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitləri var idi. Körpənin əl-ayağını itlər gəmirib yemişdi. Təsvir olunan mənzərə Sokolova elə ağır təsir göstərmişdi ki, o, daha fotoşəkil çəkə bilməmişdi.

Bakıda baş vermiş faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdu. Sonradan tüğyan edən epidemiya minlərlə insanı qırmış, əhalinin su, ərzaqla təchizatı dayanmışdı. Bazar və mağazalardan, demək olar, bütün ərzaq məhsulları yoxa çıxmışdır. Talançılar olub-qalan ərzaq ehtiyatlarını toplayıb aparmışdılar. Mətbuat yazırdı ki, "əhali aclıqdan əməlli-başlı zillət çəkir".

## Şamaxı qırğınları

Qədim Azərbaycan şəhəri Şamaxı 1918-ci ilin martında erməni-daşnak qüvvələrinin dəhşətli talan və vəhşiliklərinə məruz qalmışdı. Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri qırğınlar haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı.

Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə. Xasməmmədovun ədliyyə nazirinə təqdim etdiyi məruzədə deyilirdi ki, Şamaxı şəhəri iki hissədən, yuxarı və ya erməni hissəsi, aşağı və ya müsəlman hissəsindən ibarətdir. Birincidə əsasən ermənilər və molokanlar, müəyyən qədər də müsəlmanlar, ikincidə isə ancaq müsəlmanlar yaşayırdılar. Şamaxı qəzasında əhalinin əksəriyyəti müsəlmanlardan ibarət idi. Erməni və molokanlar qəzanın 6 kəndində yaşayırdılar. Keçmiş müsəlmanlar erməni və molokanlarla sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, daim mehriban qonşuluq əlaqələri saxlamağa çalışmışlar. Hətta 1905-ci ildə Cənubi Qafqazın bir çox şəhər və kəndlərində erməni-müsəlman qırğınları baş verən dövrdə Şamaxı şəhəri və Şamaxı qəzasında müsəlmanlar ermənilər üzərində zorakılıq etməmiş, onlara qarşı düşmənçilik hərəkətləri törətməmişdilər.

1918-ci il martın 18-də (köhnə stillə-A.İ.) şəhərin müsəlman hissəsinə soxulan ermənilər qışqırırdılar: "Biz bu günü on iki ildir ki, gözləmişik. Bu, Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndi sizə heç kim kömək etməyəcək. Köməyə siz özünüzün müqəddəs Həzrət Abbasınızı çağırın". "Şamaxılı həkim Sazanov 1918-ci il martın 19-u gecəsi Şamaxıda erməniləri müsəlmanlar üzərində rəhmsiz zorakılıqlar işlətməkdə günahlandırdıqda ermənilərdən belə bir cavab almışdı: "Müsəlmanlara heç bir rəhm etmək yoxdur, onların hamısı məhv edilməlidir".

Şamaxı şəhərindən 6 verst aralı Mədrəsə kəndində Cənubi Qafqazın digər qəzalarından gələn erməni əsgərləri toplaşmağa başladılar. Martın birinci yarısında məlumat alındı ki, Bakıdan Şamaxıya böyük miqdarda

hərbi sursat, top və pulemyotlarla silahlanmış üç minədək erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və ermənilərdən ibarət nümayəndə heyəti göndərildi. Nümayəndə heyətinin dəstə ilə görüşü molokan kəndi Qozlu-Çayda (Xilimli) baş verdi. Dəstəyə silahları Şamaxı qarnizonuna təhvil vermək təklif olundu. Onlar bundan qəti imtina edərək bildirdilər ki, məqsədləri Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdən ibarətdir. Dəstənin rəhbərləri Şamaxı şəhərindən yan keçərək Mədrəsə kəndinə gedəcəklərinə söz verdilər. Martın 15-də dəstə Şamaxı şəhərinin yanından keçərkən öz evlərini qoruyan müsəlmanlar dəstəsinə atəş açdılar. Tezliklə bütün şəhəri atışma bürüdü. Bu atışma nəticəsində hər iki tərəfdən ölən və yaralananlar oldu. Lakin axşama yaxın şəhərdə tam sakitlik yarandı. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün kəndlərinin ruhani nümayəndələri bir yerə yığışaraq and içdilər ki, sülh şəraitində yaşayacaq və qayda-qanunu pozmayacaqlar. Kürdəmir kəndinin sakinləri erməni rəhbərlərinə müsəlmanlarla sülh şəraitində yaşamağı təklif etdikdə və erməni yepiskopunun verdiyi andı xatırlatdıqda ermənilərdən bu cür cavab alırlar: "Müsəlman ruhaniləri erməni ruhaniləri ilə barışa bilər, lakin erməni xalqı müsəlmanlarla müharibə istəyir və bu işdə İngiltərə onları müdafiə edəcəkdir".

1918-ci il mart ayının 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlı sakinləri top atəşlərinin səsinə oyandılar və şəhərin cənubdan ermənilər, şimal-şərqdən isə molokanlar tərəfindən mühasirəyə alındığını gördülər. Şəhərin azərbaycanlılardan ibarət aşağı hissəsi top və pulemyot atəşlərinə tutulur, yuxarı hissəsində yaşayan ermənilər isə azərbaycanlılar yaşayan məhəllələri güllələbaran edirlər. Bu hücum müsəlmanlar üçün tam gözlənilməz olur. Çünki bir gün əvvəl erməni yepiskopu Baqrat və molokanların nümayəndəsi Karabanov Xaç və İncil qarşısında azərbaycanlılarla sülh və qardaşlıq şəraitində yaşayacaqlarına və heç vaxt onlara qarşı silahlı çıxış etməyəcəklərinə and içmişdilər. Əvvəlcədən döyüşə hazırlıq görməyən azərbaycanlılar müdafiə olunmağa təşəbbüs göstərsələr də, top və pulemyot atəşləri altında dayana bilməyib geri çəkilməyə məcbur oldular. Ermənilər və molokanlar bir neçə saatdan sonra şəhərin azərbaycanlılar yaşayan və erməni hissəsi ilə sərhəd olan "Piran-Şirvan" məhəlləsinə soxula bildilər. Onların hər bir hərəkəti azərbaycanlıların evlərinin talan edilməsi, yandırılması və mülki əhalinin qəddarlıqla qətlə yetirilməsi ilə müşayiət olunurdu. Şəhərin ən abad, varlı və tanınmış müsəlmanlarına məxsus evlərinə od vurulurdu. Ermənilərin qarət etdiyi və yandırdığı evlər arasında Şıxəliyevlərin, Həsənovların, Cəbrayılovların, qəza müftisinin, Hüseynbəyovun, Əlimirzəyevin, Əfəndiyevin, Babayevlərin, Məhərrəmovların, Veysovların, Böyük bəy Hüseynovun, Hacı Vahab Ələkbərovun və başqalarının mülkləri var idi. Ermənilər və molokanlar yandırılmış evlərdən çıxıb qaçan kişi, qadın və uşaqları güllələyirdilər. Ermənilər evlərə soxulur, onların sakinlərini qətl və qarət edir, sonra isə yandırırdılar. Axşama yaxın müsəlmanlar ermənilərin yanına nümayəndələr göndərib sülh xahiş etdilər. Lakin ermənilər atəşi dayandırmadılar. Yanğınlar bütün məhəllələrə yayıldı və səhərisi şəhərin ən zəngin evlərinin yalnız xarabalıqları qaldı. Yandırılmış evlərdən canını qurtarmaq istəyən sakinlərə-kişi, qadın və uşaqlara heç bir fərq qoymayan ermənilər onları ən amansız üsullarla qətlə yetirirdilər. Şəhərin küçələrində meyitlərdən qalaqlar yarandı. Ermənilər azərbaycanlı əhalinin qətlini eşidilməmiş və ağlasığmaz qəddarlıq və işgəncə ilə həyata keçirirdilər. Küçələrdə əzab verilərək öldürülmüş qadınların meyitləri atılıb qalmışdı. Onlar döşləri kəsilmiş, qarınları yırtılmış və ən çirkin üsullarla işgəncələrə məruz qalmışdılar. Küçələrdə diri-diri pazlara mıxlanmış uşaq meyitləri də atılıb qalmışdı. Azərbaycanlıların evlərindən qarət və talan edilmiş əmlakları araba və furqonlarla erməni və molokan kəndlərinə daşınırdı. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam etdi. Yalnız Gəncədən azərbaycanlı silahlı dəstələrinin Şamaxı şəhərinə köməyə gəlməsini eşidən ermənilər və molokanlar Şamaxı qəzasının Qozlu-çay molokan kəndinə çəkildilər. Azərbaycanlı silahlı dəstələri ermənilərin və molokanların qüvvələri ilə müqayisədə azlıq təşkil edirdilər. Ona görə də dörd gündən sonra azərbaycanlı silahlı dəstələri Şamaxını tərk etməyə məcbur oldular. Şamaxının şəhər əhalisi həmin dəstələrin köməyi ilə şəhərdən çıxdılar. Ancaq çox tələsik olduğu üçün onlar hətta vacib əşyalarını belə götürə bilmədilər. Çoxlu şəhər sakini xüsusilə, yoxsullar, xəstələr, qocalar, qarılar və uşaqlar şəhərdə qaldılar. Gəncədən gələn silahlı dəstələr Şamaxını tərk etdikdən iki gün sonra erməni və molokan quldur dəstələri ikinci dəfə Şamaxıya daxil oldular. Bu dəfə şəhərin talan edilməsi və əhaliyə divan tutulması daha qəddarlıqla həyata keçirilirdi. Şəhərin bütün azərbaycanlı hissəsinə od vurulmuşdu. Bütün məscidlər (on iki məhəllə məscidi və 800 illik tarixi olan böyük memarlıq abidəsi "Cümə məscidi"), onların nəzdindəki müqəddəs yerlər yandırıldı. Bir sözlə, azərbaycanlılar yaşayan bütün məhəllələr tamamilə xarabazarlığa çevrilmiş, bir dənə də olsun azərbaycanlı evi salamat qalmamışdır.

Ermənilərin Şamaxı şəhərinə birinci və ikinci hücumları zamanı qətlə yetirilmiş azərbaycanlılar arasında təkcə Şamaxıda deyil, bütün Azərbaycanda tanınmış nüfuzlu şəxslər və ictimai xadimlər də var idi. Ermənilər axund Hacı Cəfərqulunu xüsusi qəddarlıqla öldürmüşdülər. Ermənilər əvvəlcə onun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilərin qəddarlıqla qətlə yetirdiyi nüfuzlu azərbaycanlılar arasında şəhər hakimi Teymur bəy Xudaverdov, Rusiyanın birinci dövlət Dumasına Şamaxıdan deputat seçilmiş Məhəmməd Əliyev, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül Xəlil Əhmədov, Hacı Əbdül Hüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seidov, Hacı

İbrahim Salamov, Ağa Əhməd Əhmədov, Hacı Əbdül-Qasım Qasımov, Əyyubağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyədin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu, onun arvadı və oğlu və bir çox başqaları da var idi.

Ermənilər Hacı axund Cəfərqulunun evinə və həyətinə pənah gətirmiş çoxlu qadın və uşaqları da öldürmüş və ya diri-diri yandırmışdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvləri Hacı Axundun tamamilə yandırılmış evinin həyətində çoxlu xırda insan sümükləri aşkar etmişdilər. Türk ordusu 1918-ci ilin yayında erməniləri Şamaxıdan qovarkən meyitlərin çürüməmiş iri sümüklərini yığıb basdırmışdılar. 1918-ci ilin oktyabr-noyabrında komissiya üzvlərinin hazırladığı məruzədə qeyd olunurdu ki, Şamaxıda Cümə məscidinin həyətində hələ də çürümüş meyitlərin qalıqları qalmaqdadır. Habelə yandırılmış digər evlərin və məscidlərin həyətlərində çoxlu yanmış insan sümükləri də aşkar edilmişdir.

Komissiyanın sənədində qeyd olunur ki, bir neçə məscidin, evin və mağazanın xarabazarlıqlarını, habelə insan cəsədlərini təsvir edən 45 ədəd foto şəkil çəkilmişdir. Erməni hərəkatının rəhbərlərindən biri Bakıda öz tanışları qarşısında lovğalanaraq demişdir ki, Şamaxı hadisələri zamanı bu şəhərdə 10 nəfər müsəlman qızını əvvəlcə zorlamış, sonra isə onları öz şəxsi tapançası ilə güllələmişdir. Məruzədən aydın olur ki, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan orta hesabla bir milyard manatdan çox olmuşdur. Şamaxı şəhərinə hücum, onun dağıdılması, dinc azərbaycanlı əhaliyə - qadına, qocaya, uşağa qəddarcasına divan tutulması yalnız ermənilərin azərbaycanlılara qarşı milli intiqam və milli düşmənçilik hissindən irəli gəlirdi.

Şamaxı üzərinə hər iki hücum Daşnaksütyun partiyası tərəfindən əvvəlcədən hazırlanmış plan üzrə həyata keçirilmişdi. Bu əməliyyatlara Stepan Lalayev, Qavril Karaoğlanov, Arşak Gülbəndiyan, Mixail Arzumanov, Karapet Karamanov, Sedrak Vlasov, Samvel Doliev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Avanesov, şuşalı Aqamalov və başqaları rəhbərlik edirdilər.

1919-cu il iyulun 12-də Azərbaycan hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının növbəti iclasında Şamaxı şəhərinin dağıdılması və bu şəhərin azərbaycanlı əhalisi üzərində zorakılıq halları barədəki təhqiqat işi haqqında komissiyanın üzvü A. Novatskinin məruzəsi dinlənildi. Məruzədə şahidlərin və zərərçəkənlərin ifadələri, törədilmiş cinayətlərin təhqiqi, yandırılıb dağıdılmış yerlərə baxış və sairə əsasında Şamaxı şəhərində törədilən cinayətlərdə əslən Şamaxıdan olub Bakı şəhərində yaşayan Stepan Lalayevin, Şamaxı şəhərinin sakinləri Qavril Karaoğlanovun, Arşak Gülbəndiyanın, Mixail Arzumanovun, Karapet Karamanovun, Armenak Martirosyantsın, Aleksandr Xaçaturovun, Mixail Xaçaturovun və başqalarının, cəmi 31 nəfərin qırğınların başlıca caniləri olduqları göstərilirdi. Komissiyanın bu məsələ ilə bağlı qəbul etdiyi qərarda deyilirdi ki, bu cəlladlar Azərbaycan xalqına qarşı ədavət əsasında milli və dini zəmində əvvəlcədən öz aralarında razılaşaraq, bir neçə min nəfər erməni qüvvələrini öz ətraflarında birləşdirərək top, pulemyot, tüfəng, tapança və xəncərlə silahlanaraq Şamaxı şəhərində olan azərbaycanlı əhalini qırmaq, əmlaklarını qarət və məhv etmək məqsədi qoymuşdular. Bu qətllər xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, qətlə yetirilənlərin qolları, qıçları, burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış, qarınları yırtılmış, yandırılmış, və böyük işgəncələrlə öldürülmüşlər. Ermənilər təkcə Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatlıqdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan "Cümə məscidi" yandırılmışdır. Fövqəladə Təhqiqat Komissiyası bu qırğınların başlıca təşkilatçıları haqqında cinayət işi qaldırmaq, onları məsuliyyətə cəlb etmək və istintaq işinə başlamaq haqqında qərar qəbul etdi. Şamaxı şəhəri ilə yanaşı Şamaxı qəzasının 86 azərbaycanlılar yaşayan kəndi ermənilər tərəfindən yandırılaraq məhv edilmişdi.

Erməni silahlı birləşmələri martın 18-də sübh çağı Şamaxı şəhəri ilə yanaşı, onun 3-4 verstliyində yerləşən Əngəxaran kəndinə də qəfil hücum etdilər. Müdafiəsiz kəndə soxulan ermənilərin törətdikləri vəhşiliklərlə əlaqədar təhqiqat materiallarında həmkəndlilərinin və şahidlərin ifadələrinə görə tərtib edilmiş siyahılarda ermənilərin işgəncələrlə qətlə yetirdiyi 237 nəfərin adı vardır. Əngəxarana soxulan ermənilər və molokanlar kəndi mühasirəyə alaraq oradakı əhalini qırır, kəndi qarət edir, yandırır və sağ qalan əhalini isə əsir alırdı. Ermənilər əsir alınmış Əngəxaran sakinlərinin uşaqlarını azərbaycanlı kəndi olan Məlhəmə aparıb orada saxlayırdılar. Ermənilər 88 kişini isə molokan kəndi Çuxuryurda apardılar. Ermənilər kəndə çatmamış əsirləri bağda saxlayaraq bir neçə nəfərini güllələdilər. Qalan 76 nəfəri isə əsir kimi Mədrəsə kəndində yerləşən erməni qərargahının sərəncamına göndərdilər. Yolda iki nəfəri güllələyərək Mədrəsə kəndinə cəmi 74 nəfəri əsir kimi apardılar. Gəncədən gələn silahlı dəstələr Şamaxıya girdikdə Əngəxaran kəndindən olan nümayəndələr qohumlarının taleyindən xəbər tutmaq üçün Mədrəsə kəndinə gəldilər. Onlar kəndin kənarında əngəxaranlı əsirlərin hamısının öldürüldüyünün və meyitlərinin eybəcər hala salındığının şahidi oldular. Meyitlərin qulaqları, burunları, əlləri və ayaqları kəsilmiş, bir çox ölülərin döşlərində yanıq izləri aşkar edilmişdir. Bu da sübut edirdi ki, hələ onlar sağ ikən sinələri üzərində od qalanmışdı. Dağıdılmış kənddən qaçıb canını qurtara bilmiş Əngəxaran sakinlərinin çoxu aclıqdan, soyuqdan və xəstəlikdən tələf olmuşdular. Komissiyanın məruzəsində göstərilir ki, qısa vaxtda Əngəxaran əhalisi yarıbayarı azalmışdır.

1919-cu il aprelin 3-də Şamaxı qəza rəisi Fövqəladə Təhqiqat Komissiyasına həmin qəzanın 3 polis sahəsi (Qəbristan, Mədrəsə və Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısını göndərmişdi. Həmin siyahıya Qəbristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin-A.İ.) adı daxil edilmişdi. Fövqəladə Təhqiqat Komissiyasına göndərilən siyahıda Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə şahid ifadələri, zərərçəkənlərin dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatları, ölən və yaralananların siyahısı və s. əsasında 53 kənd üzrə tərtib edilmiş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə ölənlərin (o cümlədən kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdi. Bu kəndlərdən bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir. Nəvahi kəndində cəmi 955 nəfər azərbaycanlı öldürülmüşdür ki, onlardan da 555 nəfəri kişi, 260 nəfəri qadın və 140 nəfəri uşaq olmuşdur. Kəndə dəymiş ümumi maddi zərərin miqdarı 60 milyon manat olmuşdur. Yəhyalı kəndində 922 nəfər öldürülmüşdür ki, onlardan da 360 nəfəri kişi, 412 nəfəri qadın və 150 nəfəri uşaq olmuş, kəndə dəymiş ümumi maddi zərərin miqdarı 22 milyon manat təşkil etmişdir. Qubalı Baloğlan kəndində 533 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 135 nəfəri isə uşaq olmuş, kəndə dəyən ümumi maddi zərərin miqdarı 90 milyon manata yaxın olmuşdur. Kalva kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 100 nəfəri uşaq olmuş, kəndə dəymiş ümumi zərərin miqdarı 24 milyon manat olmuşdur. Ağsu kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 200 nəfəri kişi, 300 nəfəri qadın olmuş, kəndə dəyən ümumi maddi zərərin miqdarı 36,5 milyon manat olmuşdur. Tircan kəndində 360 nəfər öldürülmüşdür ki, onlardan da 300 nəfəri kişi, 40 nəfəri qadın və 20 nəfər uşaq olmuşdur. Bağırlı kəndində 370 nəfər öldürülmüşdür ki, onlardan da 80 nəfəri kişi, 150 nəfəri qadın, 140 nəfəri isə uşaq olmuşdur, kəndə dəyən ümumi zərərin miqdarı 12,5 milyon manat olmuşdur. Qırğına məruz qalmış digər kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır. Bütün aktlar Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişdir. Bu aktlarda olan rəqəmlər üzrə Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manat olmuşdur. Ermənilərin azərbaycanlı əhaliyə, onların evlərinə, mal-qara, əkin sahələrinə qarşı törətdikləri vəhşiliklər sözün əsl mənasında soyqırımı nümunəsi idi. Ona görə də Şamaxı şəhərinin və Şamaxı qəzasında ermənilərin məhv etdikləri azərbaycanlı kəndlərinin sağ qalmış əhalisi sözün əsl mənasında dilənçiyə çevrilmiş, ermənilərin təcavüzünə məruz qalmamış Azərbaycan bölgələrinə pənah aparmışdılar. Təəssüflər olsun ki, sovet hakimiyyəti illərində xalqımıza qarşı həyata keçirilmiş soyqırımı unudulmuş, Stepan Lalayevə bəraət verilmiş, bu işin əsas təşkilatçısı olan S. Şaumyan isə Azərbaycan xalqının sevimlisi kimi təbliğ olunmuşdu.

## Quba qırğınları

Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. Xaçmazda yaşayan ermənilərə bu barədə xəbərdar edilmiş, onlara əlavə silah və sursat göndərilmişdi. 1918-ci ilin ilk aylarından Quba qəzasında müsəlman əhalisinə qarşı başlanan qırğınları faciə adlandırmaq vəhşiliklərin mahiyyətini tam açmır. Minlərlə insanın, dinc əhalinin, qadınların, uşaqların və qocaların əzab və işgəncə ilə qətlə yetirilməsi dəhşətli və ağlasığmaz qırğın idi. Quba faciəsi sırf siyasi məqsəd daşıyırdı. Qırğınlarda erməni daşnak qüvvələri ilə yanaşı bolşevik əsgərləri də iştirak edirdi. Bu qırğınlarda əsas məqsəd Quba qəzasında da müsəlman əhalisini məhv edərək erməni idarəçiliyinə nail olmaq idi. Çünki sovet rejimindən bəhrələnən Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi. Təki Azərbaycan deyilən dövlət qurumu yaranmasın.

Faciəni səciyyələndirən başlıca cəhət odur ki, Quba qəzasında qırğınlar əvvəlcədən düşünülmüş və buna geniş hazırlıq görülmüşdü. Qırğına başlamaq üçün isə bəhanə milli münaqişə ola bilərdi. Erməni daşnak qüvvələri dünyanın hər yerinə ermənilərin guya müsəlmanlar tərəfindən sıxışdırıldığı barədə teleqramlar göndərirdilər. Qubada yaşayan M.Kasparov, H.Hayrapetov, A.Mukanyans və A.Boqdanov tərəfindən göndərilmiş teleqramlarda iddia olunurdu ki, Qubada müsəlmanlar milli ədavət, milli qırğın törədir, erməni və rus kəndlərini dağıdır, kilsələrə od vurub yandırırlar.

Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişdilər. Qubaya hücum edənlərin arasında özünü bolşevik kimi qələmə verən və 2 min əsgərə başçılıq edən David Gelovanidən başqa bolşevik Sturua da olmuşdur. Onun dəstəsində min əsgər var idi. Onlardan əvvəl isə Muradyanın rəhbərlik etdiyi 2 min erməni əsgəri Quba qəzasında qırğın törətmişdi. Həmin dəstə I Dünya müharibəsində özünü rus çarizminin ən yaxın müttəfiqi kimi qələmə vermiş "Daşnaksütyun" partiyasının əsgərlərindən ibarət idi. Qəzaya gəlmiş işğalçılara 300-dən çox yaraqlısı olan Avakov və Vartanın yerli ermənilərdən ibarət quldur dəstələri də kömək edirdi. Qubada 100-ə yaxın əsgərin olmasına baxmayaraq Gelovaniyə Xaçmazdan əlavə kömək göndərilmişdi. D. Gelovani bu barədə yazırdı: "Xaçmazdan köməyimizə poruçik Ağacanyanın başçılığı ilə ancaq ermənilərdən ibarət 150 nəfərlik dəstə və iki top gəldi". D.Gelovaninin Qubaya gəlməsi, xüsusi dəstə tələb etməsi və köməyinə məhz ermənilərdən ibarət xüsusi dəstənin göndərilməsi də bir daha göstərir ki, Azərbaycanın şimal

bölgəsində müsəlmanlara qarşı etnik düşmənçilik - soyqırımı əvvəlcədən planlaşdırılmışdı. Belə ki, 1918-ci il martın əvvəllərində əmlaklarını sataraq Qubadan tələsik çıxıb gedən varlı ermənilərdən bunun səbəbini soruşduqda demişdilər ki, sizinlə bizim aramızda nə isə gözlənilir, ona görə də komitə bizi geri çağırır.

D. Gelovani Qubaya gələndə buradakı həbsxanada saxlanılan 200-dək hərbi erməni əsirini azadlığa buraxmışdı. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən və şahidlərin ifadələrindən aydın olur ki, həbsxanadakılar ilin əvvəlində bölgədə vəhşiliklər törətmiş erməni əsgərlərinin bir hissəsi idi. O vaxt Qusarın Kuzun kəndinin sakini, Türkiyədə təhsil almış nüfuzlu din xadimi Möhübəli əfəndi, həmçinin Cağar kəndinin sakini Hətəm Sərkarov yerli əhalini erməni daşnaklarına qarşı mübarizəyə qaldırmış, Cənubi Dağıstan ləzgilərindən də kömək alaraq işğalçıları darmadağın etmişlər. Muradyan 100 nəfər əsgərlə qaçıb canını qurtarmış, əsir düşmüş 200-dək daşnak Möhübəli əfəndinin tapşırığı ilə Quba həbsxanasına salınmışdı. D.Gelovani Qubadan qovulanda əhalini hədələmiş, tezliklə bura ermənilərin xüsusi təlim görmüş cəza dəstələrinin gələcəyini bildirmişdi. D.Gelovaninin hədə-qorxusundan 10 gün sonra Bakıdan top və pulemyotlarla silahlanmış Amazasp öz quldur dəstəsi ilə Qubaya daxil olmuşdu.

Amazaspın dəstəsi Qubanın girəcəyindən tutmuş yuxarı hissəsinədək şəhəri odlamağa başladı. Daşnaklar küçədə qarşılarına çıxan bütün adamları ucdantutma gülləyə tutur, yerə yıxılmış yaralıların bədənlərini tüfənglərin süngüləri ilə deşik-deşik edir, gözlərini ovurdular. Yaxınlıqdakı meşəyə qaça bilməyənlər evlərinə girib qapıları bağlayırdılar. Onları evlərindən zorla çıxarır, yerindəcə güllələyir və yaxud qabaqlarına qatıb meydana aparırdılar. Bir neçə saatın ərzində yüzlərlə insan qətlə yetirilmişdi.

Dövrün sənədləri və şahid ifadələrindən məlum olur ki, erməni daşnak qüvvələri bolşevik əsgərlərindən çox məharətlə istifadə edirdilər. Şahidlərin biri yazır: "Daşnakların son dərəcə azğınlaşdığını görəndə onlarla qeyri-bərabər döyüşə girməli olduq. Bir gün davam edən atışmada 200-dən çox döyüşçünü itirib, 40 nəfərlə Digah kəndinə tərəf geri çəkildik. Amazasp bundan həm hirsləndi, həm də bir qədər ehtiyat etdi. Quba camaatını meydana yığıb bildirdi: "Mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm. 200-dən çox türk kəndini yandırıb xaraba qoymuşam. Uzun müddət türklərlə vuruşmuşam, erməni xalqının mənafeyini müdafiə etmişəm. Buraya da ona görə gəlmişəm. Əgər müqavimət göstərsəniz, hamınızı bir nəfər kimi qıracağam".

Daşnak-bolşevik birləşmələrinin Quba qəzasında törətdikləri qırğınlar daha amansız və qəddarlıqla həyata keçirilmişdi. Şahidlərdən biri yazır: "Amazasp daşnak dəstəsinə bələdçilik edən qubalı erməni Harun Hayrapetovu yanına çağırdı və ona nəsə dedi. Harun cibindən bir siyahı çıxarıb oxumağa başladı. Siyahıda Qubanın varlılarından 26 nəfərin adı var idi. Amazasp həmin adamların dalınca silahlı əsgərlərindən bir neçə nəfəri göndərdi. Silahlı əsgərlər həmin ailələrdən altı nəfərlə geri qayıdanda daşnak komandiri daha da qızışdı. Gətirilənlərin 4-ü qadın, 2-si yeniyetmə idi. Amazaspın tapşırığı ilə yeniyetmələrin başlarını kəsdilər. Qadınları uşaqlarının qanını içməyə məcbur etdilər. Onlar şivən qoparıb daşnakların üstünə atılanda qarınlarını süngülərlə deşdilər. Sonra qılıncla bədənlərini tən ortadan ikiyə böldülər. Meydanda ah-nalə yüksələndə Amazasp əsgərləri cərgə ilə düzdürüb əliyalın, günahsız əhaliyə atəş açmağı əmr etdi. Yüzlərlə adam qırıldı. İnanmaq olmurdu ki, insan-insana qarşı bu qədər vəhşilik törətsin". "Mən sizin qanınızı içəcəyəm" - deyən Amazasp siyahıda adları çəkilən adamların mülklərini odlayıb külə döndərmək üçün əmr verdi. Bütün bu hərəkətləri ilə o, son dərəcə qəddar və qaniçən olduğunu sübuta yetirirdi".

Amazasp Bakıdan mənfur Şaumyan rejimindən belə bir tapşırıq almışdı: Quba qəzasında bütün müsəlmanları qırıb məhv etmək, onların yaşayış məntəqələrini dağıtmaq. Sonra isə bu qırğını sünni və şiə məzhəbləri arasında toqquşma kimi qələmə vermək.

Təhqiqat materiallarından məlum olur ki, 1918-ci il mayın 1-də Qubaya girən daşnak-bolşevik birləşmələrinin sayı 5 mindən artıq olmuşdur. Ona görə də onlar silahsız dinc əhaliyə azğınlıqla divan tuta bilmişdilər. Həmin azğınlığın miqyasını təsəvvür etmək üçün iki gün ərzində yalnız Quba şəhərində 4 minədək müsəlmanın öldürüldüyünü xatırlamaq kifayətdir. Bu rəqəm Quba şəhər əhalisinin beşdə biri demək idi.

Qırğının şahidlərindən olan Şahbalı oğlu xatırlayır: "Ermənilər o qədər adam qırmışdılar ki, Qubanın küçələri al-qana boyanmışdı. Əllərinə keçən 2 mindən çox adamı meydana yığıb ucdantutma güllələmək istəyəndə bir nəfər onların başçısına yaxınlaşdı. Deyilənə görə komissar idi. Bir qədər söhbət etdikdən sonra əsgərlərə təzədən əmr verildi ki, silahları aşağı salsınlar. Qadınlar və uşaqlar ağlayırdılar. Yekəpər bir erməni beş nəfərlə camaata yaxınlaşıb cavan, gözəgəlimli qadınları seçməyə başladı. Əllidən çox qadını hara isə apardılar. Onlardan birinin qardaşı etirazını bildirəndə yerindəcə güllələdilər. Onun meyidini yerə sərib bıçaqla gözlərini çıxardılar. Əli qana batmış erməni ovcunda tutduğu gözləri camaatın üstünə tulladı. Kütlədən uğultu qopdu. Daşnaklar ermənicə söyə-söyə qabaqdakıları qundaqla döyməyə başladılar. Sonra irəli çıxmış bir yaşlı kişinin qarnını süngü ilə deşdilər. Bu, göz ilə baxılası müsibət deyildi". Başqa bir şahid yazır: "Ermənilər dindarları Qubanın mərkəzinə gətirdilər. Bu, döyülən insanlar qəzanın ən hörmətli ağsaqqalları sayılırdılar. Amazasp hamının tanıdığı Quba ermənisi Harunu çağırdı. Harun azərbaycanca dedi ki, sünnilər və şiələr hərəsi bir tərəfə çəkilib üz-üzə dursunlar. Elə o cür də durdular. Aralarında 20-30 metr olardı. Sonra iki tüfəng gətirib dedilər ki, onsuz da sizin hamınızı qıracağıq. Kim sağ qalmaq istəyirsə dediyimizə əməl etsin. Sünnilər və şiələr

növbə ilə bir-birilərinə güllə atsın. Sağ qalanlarla işimiz olmayacaq. Birinci iki nəfəri irəli çıxarıb tüfəngləri onlara verdilər. Biri ləzgi Məhəmməd, o birisi isə şiələrin ağsaqqalı Məşədi Mirsadıq idi. Onların heç biri erməni silahını əlinə almaq istəmirdi. Qundaqla başlarını yarıb onları tüfəng götürməyə məcbur etdilər. İkisi də tüfənglərini qaldırıb bir-birlərini nişan aldı. Hamı məəttəl qalmışdı. Nisbətən cavan olan Məhəmməd heç kimin gözləmədiyi halda geri döndü və bir daşnakı yerə sərdi. Qarışıqlıqdan istifadə edən Məşədi Mirsadıq da bir ermənini öldürdü. Qaçmaq istəyən yüzlərlə adamı pulemyotlarla qırdılar. Ölənlərin çoxu qadınlar və uşaqlar idi. Əvvəlcə Məhəmmədin qollarını kəsdilər, sonra ayaqlarını. Başını kəsib süngüyə keçirdilər və hamı görsün deyə yuxarı qaldırdılar. Məşədi Mirsadığın gözlərini çıxarıb qollarını sındırdılar və boynunu qırdılar. Həmin gün daşnaklar məscidi dağıdıb, həm sünnilərdən, həm də şiələrdən 20-dən çox din xadimini qətlə yetirdilər". A.Novatski məsələni dəqiqləşdirmək üçün qeyd edir ki, müsəlmanların dini heysiyyətinə toxunaraq məscidlərə od vurub yandıran daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar.

Müsəlmanların müqəddəs dini ocaqlarını yerlə yeksan edən daşnaklar dinə, Şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabları də məhv etmişdilər. Qubanın mərkəzində Əbdürrəhim əfəndinin mədrəsəsini yandıran ermənilər buradakı 1300-ə yaxın kitabı tonqala atmışdılar. Hadisələrin şahidlərindən olan nüfuzlu din xadimi İbrahim Aydəmirov xatırlayır ki, Digah məscidində təxminən 600-700 il əvvələ aid alban və ərəb əlifbası ilə yazılmış kitablar var idi. Ermənilər həmin kitabları məhv etməklə yanaşı kənd məscidinin təxminən bir kilometrliyində yerləşən müqəddəs pirin daşını da partlatmışdılar. Bu, üstündə alban yazıları olan nəhəng bir daş idi.

Gelovani Fövqəladə Təhqiqat Komissiyasına verdiyi izahatında yazır: "Mən geniş səlahiyyətlər alaraq Qubaya gəldim. Amazaspa öz dəstələri ilə şəhəri tərk etməyi təklif etdim. Əvvəlcə o, tərəddüd etdi və sonra bildirdi ki, çıxıb getməyə hazırdır. Həqiqətən də Qubada olduğunun onuncu günü bütün dəstəsi ilə çıxıb getdi". Lakin Gelovaninin izahatında deyilənlər inandırıcı görünmür. Çünki Amazasp qırğından əl çəkməyə yox, bölgədəki bütün müsəlman əhalisini məhv etməyə gəlmişdi. Amazasp yerli əhaliyə meydan oxuyaraq deyirdi: "Mən erməni xalqının və onun mənafeyinin müdafiəçisiyəm. Mən cəza dəstəsi ilə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülmüş ermənilərə görə sizdən qisas alım. Mən bura qayda-qanun yaratmaq, sovet hakimiyyətini qurmaq üçün deyil, öldürülmüş ermənilərin qisasını almağa göndərilmişəm. Mənə əmr edilmişdir ki, Xəzər dənizindən Şahdağına kimi bu ərazidə yaşayan bütün müsəlmanları məhv edim..." O, daha irəli gedərək deyirdi: "Hazırda mənim Digah və Alpan kəndlərində döyüşlərim gedir. Sonra Üçkün və Kilid kəndlərinə keçərək Şahdağa çatacağam". Lakin müsəlman qanına susayan Amazaspın arzusu ürəyində qaldı. Üç gün davam edən döyüşlər müsəlmanların qələbəsi ilə başa çatdı. Hər iki tərəf böyük itki verdi. Döyüş yeri tarixə "Qanlı dərə" kimi daxil oldu.

Amazaspın vəhşilikləri zamanı təkcə 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında üst-üstə 16 mindən çox insan məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü və müsəlman tat əhalisi öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri tərəfindən Quba qəzasında 162 kənd dağıdılmışdır. Həmin kəndlərdən 35-i hazırda mövcud deyildir.

Amazaspın rəhbərlik etdiyi erməni hərbi birləşmələri Qubada türk-müsəlman əhalisi ilə yanaşı yəhudilərə qarşı da qırğınlar törətmişlər. Aparılan tədqiqatlardan məlum olmuşdur ki, 1918-1919-cu illərdə Qubada ermənilər tərəfindən 3 minə qədər yəhudinin həyatına son qoyulmuşdur. Son araşdırmalar nəticəsində öldürülən yəhudilərin 104 nəfərinin adı dəqiqləşdirilmişdir.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, Qubada qətlə yetirilən yəhudilərin əksəriyyəti uşaqlar, qocalar və qadınlar olmuşdur. Yəhudilərin kütləvi şəkildə qətlə yetirilməsinə Amazasp rəhbərlik etmişdir. Qətlə yetirilən yəhudilər Şimi dərəsinə atılmışlar. Amazaspın quldur dəstələrindən canını qurtarmaq istəyən yəhudilər əvvəlcə Xaçmaza, oradan isə Dərbəndə qaçmağa müvəffəq olmuşlar. Ancaq bu, bütün yəhudilərə nəsib olmamışdır. Qırğınlardan sonra belə bir fikir dolaşırdı ki, yerli sinaqoqda Amazasp tərəfindən öldürülən yəhudilərin siyahısı qorunur.

2007-ci ildə Quba şəhərində kütləvi məzarlıqların aşkar edilməsi və onların tədqiqi göstərdi ki, bu insanlar hər cür zorakılıqlara məruz qalaraq qətlə yetirilmişlər. Bu kütləvi məzarlıqlar 1918-ci ildə Qubada Amazasp tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımına əyani sübutdur.

### Lənkəran qırğınları

Lənkəranda milli ordunun təşkili ilə məşğul olan "Dikaya diviziya"nı tərk-silah etmək üçün bolşeviklər dəniz vasitəsilə ora silahlı dəstələr göndərmişdilər. Bunların hamısı Erməni Milli Şurasının göstərişi ilə həyata keçirilirdi. Bolşevik əsgərləri yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayırdılar. Astara şəhəri bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edildi, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur oldu. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasındakı müsəlman kəndləri "Aleksandr Candar" paroxodu tərəfindən top atəşinə tutuldu. Yanvarda başlanan bu qırğınlar martda daha da şiddətləndi.

Osmanlı qoşunlarının Bakını azad etməsindən bir az əvvəl Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhaliyə divan tutmağa başladı. Onlar müsəlman yeməkxanalarına girib insanları təhqir edir, pul vermir, Osmanlı türklərindən qorunmaq üçün bu adamları səngər qazmağa məcbur edirdilər. İş o yerə çatmışdı ki, erməni əsgərləri məhərrəmlik mərasimi verilən məscidlərə girib müsəlmanlara öz təziyələrini keçirməyə mane olurdular. Müsəlman əhalisi dini ayinlərini icra etmək üçün məscidlərə yığışdıqları zaman ermənilər ora soxularaq müsəlmanları qarət edir, məscidi isə yandırmaq istəyirdilər. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdılar və minlərlə günahsız insanın həyatına son qoydular. 1918-ci ilin yanvarından 1919-cu ilin avqustunadək "Molokan qiyamı" yatırılana qədər bu bölgədə erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdur.

### Zəngəzur qırğınları

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Daşnak qüvvələrinin təcavüzü nəticəsində bu qəzanın Şuşa ilə əlaqələri tamamilə, Cəbrayıl qəzası ilə qismən kəsilmişdi. Qəzanın müsəlman əhalisinin vəziyyəti bir də ona görə ağırlaşmışdı ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı bu qəzada general Andranikin erməni əsgərlərindən ibarət yaxşı təşkil olunmuş nizami qoşunları da var idi. Andranik erməni hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən tələb edirdi ki, ya Ermənistan hökumətinə tabe olmalı, ya da qəzanı tərk etməlidirlər. Guya bu ərazi Ermənistan Respublikasına aiddir. Qəzanın çox zəif silahlanmış müsəlman əhalisi Andranikin bu tələblərini rədd etdiyinə görə ermənilər onlara qarşı görünməmiş vəhşiliklərə başladılar.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunurdu. Dağıdılmış bütün kəndlərin adları bu sənədlərdə sadalanırdı.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərinə görə ermənilər tərəfindən 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq şikəst edilmişdir. Nəticədə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşilikləri haqqında tam məlumat vermir. Belə ki, daha çox müsəlman erməni vəhşiliklərinin qurbanı olmuşdur. Ancaq o zamankı dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Zəngəzur qəzasının Vaqudu kəndində 400-dən yuxarı azərbaycanlı məscidə sığınaraq güman edirdilər ki, ermənilər müqəddəs yer sayılan məscidə toxunmayacaqlar. Ancaq məscidi mühasirə edən erməni vandalları əvvəlcə ora əl bombaları atır, sonra isə od vuraraq adamlarla birlikdə yandırırlar. Şəki kəndinin küçələrində iki yerə şaqqalanmış uşaq meyitləri atılıb qalmışdı. Ermənilər İrmişli kəndini talan edərkən südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülən meyitləri tikə-tikə doğrayırdılar. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edir, bundan imtina edən qadınlara qarşı ən amansız cəza tədbirlərini həyata keçirirdilər.

Çullu kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan 9 nəfər müsəlmanı qılıncla doğramışdılar. Bağıbəyli kəndində 7 nəfər azərbaycanlını bir evə yığıb evlə birlikdə diri-diri yandırmışdılar. Müsəlman meyitlərin əli, ayağı, başı kəsilmiş və o qədər eybəcər hala salınmışdılar ki, həmin əzaların hansı meyitə məxsus olduğunu ayırd etmək olmurdu. 1918-ci il yayın axırları və payızında Zəngəzur qəzasında baş verən bu hadisələr bilavasitə cəllad Andranikin rəhbərliyi altında həyata keçirilmişdi.

Zəngəzur qəzasının 100-dən çox müsəlman kəndi dağıdılmış, on minlərlə mal-qara ermənilər tərəfindən sürülüb aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılmış, dağıdılmış, bir sözlə qəzanın müsəlman əhalisinin iqtisadi vəziyyəti fəlakətli hala salınmışdı. Ermənilər tərəfindən qəzanın Azərbaycanın müxtəlif kəndlərinə qaçıb dağılmış əhalisinə 1 milyard manata yaxın maddi ziyan vurulmuşdu.

Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşilikləri 1920-ci ilin əvvəllərində daha amansız şəkil aldı. 1920-ci ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin bilavasitə təşkilatçısı məhz Ararat Respublikasının özü idi. Əsas məqsəd Zəngəzur qəzasını tamamilə müsəlmanlardan təmizləyərək Paris sülh konfransı dövlətlərinin əli ilə buranı Ermənistanın tərkibinə daxil etmək idi. Bu təmizləmə əməliyyatlarında erməni quldur dəstələri ilə yanaşı Ararat Respublikasının on mindən yuxarı nizami qoşun birləşmələri də iştirak edirdi.

1920-ci il yanvarın 21-də Zəngəzurda Azərbaycan Respublikası parlamentinin üzvü Cəlil Sultanovun Azərbaycan parlamentinə göndərdiyi teleqramda deyilirdi: "Dörd gündür ki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında Zəngəzura hücumları davam edir... İtkilər olduqca çoxdur. Əhali vahimə içərisində qaçır və kömək umur... Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz Azərbaycan xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz".

Yanvarın 22-də isə Cəbrayılda məktəb nəzarətçisi H. Axundzadə Azərbaycan parlamentinə göndərdiyi teleqramda yazırdı: "Yanvarın 19-dan səhərdən erməni silahlı qüvvələri Zəngəzurda Xocahandan Qaladərəsinə kimi ərazidə bütün cəbhə boyu toplardan və pulemyotlardan müsəlman kəndlərini atəşə tuturlar. Altı kənd tamam dağılmış, doqquz kənd isə od içərisində yanır. Ermənilər qadınlara və uşaqlara belə rəhm etmədən qəddarlıqla müsəlmanları qırır, kəndləri dağıdırlar. Müqavimət göstərməyə heç bir qüvvələri olmayan müsəlmanlar bütün əmlaklarını ermənilərə qoyaraq yalnız qaçmaqla canlarını qurtarırlar".

Erməni millətçilərinin Zəngəzurda törətdikləri dəhşətli cinayətlər və onlara layiqli cavab verilməməsi azərbaycanlı əhali arasında ümidsizlik doğururdu. 1920-ci il yanvarın 23-də Cəbrayıldan müəllim Hüseyn Axundzadənin vurduğu təkrar teleqramda deyilirdi: "Zəngəzur müsəlmanları tərəfindən başınız sağ olsun. Zəngəzurlular nə qədər ağladılarsa, nalələri Zəngəzur dağları, dərələri və obalarından kənara çıxmadı. Qarı arvadların namusu təhqir olunmuş, məsum balaların başsız bədənləri qırmızı qanlarına boyanmış çöllərdə qaldılar. Qızlar və gəlinlər ermənilərin əlinə keçmiş, onların namuslarına təcavüz edilmişdir. Zəngəzurda düşmənə müqavimət göstərən çox az kişi qalıb. Lakin onlar da tam ümidsiz vəziyyətdədirlər. Üzümüzü Azərbaycan dindarlarına tutur, onları Zəngəzurdakı qardaş-bacılarımızın, məsum balalarımızın məlumanə şəkildə şəhid olmalarına, kömək, kömək deyə yalvarışlarına cavab verməyə çağırırıq".

Cəlil Sultanov yanvarın 23-də hərbi əməliyyat yerindən parlamentə göndərdiyi üçüncü teleqramında yazırdı: "Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Hökumətin köməyinə ümidini itirən əhali bütün Azərbaycan türk xalqına müraciət edir. Aldığımız məlumata görə, sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Ermənilərin məqsədi Qarabağ erməniləri ilə birləşməkdir. Nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain ermənilərin iç üzünü açıb dünyaya bəyan etmək vaxtı gəlib çatmışdır. Xahiş edirəm, təcili tədbir görün ki, heç olmasa Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinayət və satqınlığa bərabərdir".

1918-ci ilin avqustunda İgdır və Eçmiədzin qəzalarında Dronun rəhbərliyi altında azərbaycanlıların qırğını həyata keçirildi. Onun göstərişi ilə bu regionda azərbaycanlıların 60-dan çox kəndi dağıdılmış, yandırılmış, müsəlman əhalisinə qarşı ən sərt tədbirlər görülmüşdü.

Çəmbərəkənd (Krasnoselo) rayonunun Ağbulaq, Ardanış, Bəriyabad, Qaraqaya, Əmirxeyir, Yanıqtəpə, Gölkənd (Qaraqoyunlu), Toğluca, Çaykənd, Cıvıxlı, Cil, Şorca və başqa kəndlərə hücum etmiş Andranikin quldur dəstəsi əhalini qırmış, kəndləri dağıtmış, xalqın var-dövlətin talan edib aparmış, əhalinin bir qisminə ağır işgəncələr vermiş, qaça bilməyənləri, qocaları, qadın və uşaqları vəhşicəsinə qılıncdan keçirmişdir. 1918-ci ildə Eçmiədzin rayonunda azərbaycanlılar sayca üstunlük təşkil etsələr də, rayonun əksər kəndləri ermənilərin vəhşiliyinə, işgəncələrinə məruz qalmışdılar. Rayonun Ayarlı kəndi 1918-ci ildə bütünlüklə soyqırıma məruz qalmışdır. Bu kənddə həmin vaxt 700-dən çox azərbaycanlı yaşayırdı. Onların əksəriyyəti işgəncələrlə məhv edilmiş, salamat qalanlar isə didərgin düşmüş, dağlarda-daşlarda tələf olmuşlar.

İri azərbaycanlı kəndi olan Qarğabazarın 800 nəfərdən çox əhalisi erməni hərbi dəstələri tərəfindən işgəncələrlə öldürülmüşdür. Bu kənd talan edilmiş, dağıdılmış, binaları yandırılmışdır. Qəmərli kəndinin də başına eyni müsibətlər gətirilmişdir. Bu kənddə yaşayan 500 nəfərə yaxın azərbaycanlı əhali erməni silahlı dəstələri tərəfindən qətlə yetirilmiş, bir qismi isə doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur. Eçmiədzin rayonunun Yuxarı Qarxun, Yuxarı Türkmənli, Kiçik Zeyvə, Kürəkənli, Məmmədabad, Molla Dursun, Hacı Qara, Hacılar, Haramlı və başqa kəndlərində yaşayan azərbaycanlı əhalinin böyük əksəriyyəti 1918-ci il qırğınlarında doğma yurdlarını tərk etməyə məcbur olmuşlar.

### İrəvan qırğınları

1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə yerlə-yeksan edilmişdir. 1919-cu ilin axırında isə Zəngibasarın bir neçə kəndi istisna olunmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçmışlar. Əhali İran, Türkiyə və Azərbaycana pənah gətirmişlər.

Quqark rayonunun Vartanlı kəndində isə facię belə başlandı: Erməni hərbi dəstələri aprel ayının ortalarında iclas keçirmək adı altında azərbaycanlıları bir komaya yığırlar. Təxminən 120-150 adam bu komaya toplaşır. Keşiş Vahan iclası açır, bir neçə kəlmə ilə iki xalqın bir kənddə mehriban yaşaması haqqında fikir söyləyir. Bir qədər sonra silahlı ermənilər içəri daxil olub keşişi bayıra çıxarır, komanın qapısını bağlayaraq damından içəriyə saman qarışıq neft töküb camaatı yandırmağa başlayırlar. Uşaq, qoca, qadın qışqırtısı ərşə dayanır, tüstüdən boğulanlar, özlərini itirənlər qapıya hücum çəkirlər. Əliyalın xalqın müqaviməti nəticəsiz qalır.

1918-ci ildə Yerevan şəhərinin şimal-şərqində yerləşən Kotayk rayonu ərazisində də erməni hərbi dəstələri azərbaycanlılara qarşı geniş soyqırımı həyata keçirdilər. 1918-ci ilin məlum hadisələrinə qədər bu rayonda yaşayan əhali arasında azərbaycanlılar üstünlük təşkil edirdi.

1920-ci ilin aprelində "Azərbaycan" qəzeti yazırdı: "Artıq Göyçə mahalında müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd apreldə dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu, Ağalı, B. Qaraqoyunlu, K. Qaraqoyunlu, Zərzibil, Ədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Şişqaya, Baş Hacı, Qəribqaya kəndlərinin 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı-başına buraxıb qaçmışdır. Bütün bu var-dövlət hazırda ermənilərə qalıb, qarət edilmiş əmlak bir neçə milyona və hətta milyardlara bərabərdir".

1918-1920-ci illərdə Andranikin quldur qoşununun və daşnakların azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı nəticəsində indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycan torpaqlarında yaşayan əhalinin çox böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə öldürülmüş, yaxud öz dədə-baba torpaqlarından qovulmuş, didərgin salınmışdır. Erməni tarixçisi Z. Kordokyan "Sovet Ermənistanının əhalisi 1831-1931-ci illər" kitabında göstərir ki, 1920-ci ildə Ermənistanda Sovet hökuməti qurularkən bu ərazidə 10 min nəfərdən bir qədər çox türk (azərbaycanlı) qalmışdı. 1918-ci ildə "İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində (İrəvan) və onun çevrəsində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir. 1920-ci il aprelin 27-də XI rus ordusunun Bakını, sonra isə Azərbaycanın bütün bölgələrini işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan sovetləşən kimi Zəngəzur qəzası daxil olmaqla Azərbaycan əraziləri Sovet Ermənistanına bağışlandı. Beləliklə, 1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını təsadüfi hadisə deyil, "Daşnaksütyun" partiyasının "Böyük Ermənistan" yaratmaq planını reallaşdırmaq yolunda atılan addım və soyqırımı siyasəti olmuşdur.

Azərbaycanın tarixi torpaqlarında özlərinə dövlət yaradan ermənilər bununla kifayətlənməyərək vaxtaşırı Azərbaycandan yeni torpaqlar tələb etməyə başladılar. 1920-ci ilin aprel işğalından az sonra ermənilər Sovet Rusiyasının köməyi ilə Zəngəzur torpaqlarının Azərbaycandan qoparılmasına nail oldular. Bu azmış kimi, 1923-cü ildə tarixi Azərbaycan torpaqlarında Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil edildi. XX əsrin 80-ci illərinin sonlarında Moskvanın himayəsi və Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən erməni-daşnak qüvvələri Dağlıq Qarabağa olan iddialarını yenidən gündəmə gətirdilər. Bu müharibəyə öz havadarlarının köməyi ilə hərtərəfli hazırlaşan erməni tərəfi Azərbaycanın 20 faiz torpağını işğal edərək yüz minlərlə insanı öz dədə-baba torpaqlarından qovub çıxarmağa nail oldu.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri 366-cı rus alayının köməyindən istifadə edərək Xocalı şəhərini işğal etdilər. Xocalı faciəsi zamanı 613 nəfər, o cümlədən 106 qadın və 23 körpə qətlə yetirildi, 487 nəfər əlil oldu, 1275 nəfər əsir düşdü, 150 nəfər isə itkin düşdü.

1992-ci il mayın 8-də Şuşa şəhəri erməni quldur birləşmələrinin artilleriya və raket atəşi nəticəsində işğal edildi.

1992-ci il mayın 16-18-də erməni hərbi birləşmələri ağır artilleriyanın köməyi ilə Qarabağın dağlıq hissəsindən kənarda yerləşən Laçın rayonunu işğal etdilər. İşğal nəticəsində Laçının 63341 nəfər əhalisi doğma yerlərini tərk etməyə məcbur oldu.

1993-cü il aprelin 1-3-də erməni hərbi birləşmələri Qarabağın dağlıq hissəsinin hüdudlarından kənarda yerləşən Kəlbəcər rayonunu işğal etdilər. Nəticədə 60698 nəfər azərbaycanlı öz doğma yurdlarından qovuldu. Kəlbəcərin işğalı nəticəsində 511 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş və ya əsir düşmüş, mülki əhalidən 50 nəfər yaralanmışdır.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurası 3205-ci iclasında Azərbaycan Respublikasının Kəlbəcər rayonunun erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi ilə bağlı 822 saylı qətnamə qəbul etdi. Qətnamənin 1-ci bəndində işğalçı qüvvələrin həm Kəlbəcər rayonundan, həm də Azərbaycanın işğal olunmuş digər rayonlarından dərhal çıxarılması tələbi əks olunmuşdu.

1993-cü il iyulun 23-24-də Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Ağdam şəhəri erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Ağdamın 150 min əhalisi öz dədə-baba torpaqlarını tərk etməyə məcbur edildi. Erməni hərbi birləşmələrinə qarşı müharibədə ağdamlılar 6 min şəhid verdilər. 1993-cü il iyulun 29-da BMT-nin Təhlükəsizlik Şurası 3259-cu iclasında Azərbaycan Respublikasının Ağdam rayonunun erməni hərbi birləşmələri tərəfindən işğal olunması ilə əlaqədar 853 saylı qətnamə qəbul etdi. Qətnamənin 3-cü bəndində Ağdam rayonunun və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş digər ərazilərinin də qeyd-şərtsiz azad edilməsi tələbi vurğulanırdı.

1993-cü il avqustun 23-də Qarabağın dağlıq hissəsindən kənarda yerləşən Füzuli şəhərini və onun kəndlərini erməni hərbi birləşmələri işğal etdilər. Nəticədə 152860 nəfər azərbaycanlı öz yaşayış yerini tərk etməyə məcbur oldu.

1993-cü il avqustun 24-də Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Cəbrayıl şəhəri və onun kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Nəticədə 57125 nəfər azərbaycanlı öz yaşayış yerlərini tərk etməli oldu.

1993-cü il avqustun 31-də Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Qubadlı rayon mərkəzi və onun kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Nəticədə 31364 nəfər azərbaycanlı öz yaşayış yerlərini tərk etməli oldu.

1993-cü il oktyabrın 14-də BMT-nin Təhlükəsizlik Şurasının 3292-ci iclasında qəbul etdiyi 874 saylı qətnamədə erməni qüvvələrinin işğal olunmuş Azərbaycan rayonlarından çıxarılmasının zəruriliyi yenidən qeyd olunmuşdur.

1993-cü il oktyabrın 30-da Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Zəngilan rayon mərkəzi və onun kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Nəticədə 34924 nəfər azərbaycanlı öz yaşayış yerlərini tərk etməyə məcbur edildi.

1993-cü il noyabrın 12-də BMT-nin Təhlükəsizlik Şurası Zəngilan rayonunun və Horadiz şəhərinin erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi ilə əlaqədar 884 saylı qətnamə qəbul etdi. Qətnamənin 2-ci bəndi erməni hərbi birləşmələrinin Azərbaycan Respublikasının Zəngilan rayonunu və işğal olunmuş digər rayonlarını azad etməyə çağırırdı.

XX əsrin 90-cı illərinin əvvəllərindən Ermənistanın Azərbaycana təcavüzü nəticəsində 20 min insan həlak olmuş, 50 mindən artıq insan yaralanmış və ya şikəst olmuşdur. Bu müharibədə erməni işğalçıları Azərbaycanın 900 yaşayış məntəqəsini, 150 min fərdi yaşayış evini, 7 min ictimai binanı, 693 məktəbi, 855 uşaq bağçasını, 695 tibb müəssisəsini, 927 kitabxananı, 9 məscidi, 44 kilsəni, 9 tarixi sarayını, 464 tarixi abidə və muzeyini, 40 min muzey eksponatını, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsini, 6 min km. avtomobil yolunu, 348 körpünü, 2300 km. su kommunikasiyalarını, 2 min km. qaz kommunikasiyalarını, 15 min km. elektrik xətlərini, 28 min ha. meşələrini, 1 milyon ha. kənd təsərrüfatı üçün yararlı torpaqlarını, 1200 km. irriqasiya sistemini sıradan çıxarmışlar. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan tərəfinə dəyən maddi ziyanın həcmi 60 milyarddan çox ABŞ dolları həcmində qiymətləndirilir.

Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda ümumxalq Novruz şənliklərində çıxışı zamanı demişdir: "Qarşımızda duran ən vacib, ən əsas problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Biz danışıqlar prosesində öz prinsipial mövqeyimizdən bir addım geri atmamışıq. Bir neçə il bundan əvvəl nəyi demişiksə, bu gün də həmin mövqeyin üstündə dayanırıq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıbdır və olmayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları oraya qayıtmalıdırlar. Dağlıq Qarabağda yaşayan ermənilər və Dağlıq Qarabağa mütləq qayıdacaq azərbaycanlılar yüksək muxtariyyət statusunda yaşamalıdırlar. Yəni Dağlıq Qarabağa Azərbaycandan kənarda statusun verilməsi qətiyyən qəbuledilməzdir. Bu bizim prinsipial mövqeyimizdir. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, Azərbaycan onu heç vaxt tanımayacaqdır. Bizim tanımadığımız qurum dünya tərəfindən də tanınmayacaqdır”

**Anar İsgəndərov,**
**tarix elmləri doktoru, professor**

“**Azərbaycan**”.-2010.-2 aprel.-N 68.-S.6., 3 aprel.-N 69.-S.3, 4 aprel.-N 70.-S.5., 6 aprel.-N 71.-S.4.,
7 aprel.-N 72.-S.6., 8 aprel.-N 73.-S.8.

**1918-ci ildə Quba qəzasında törədilmiş cinayətlər erməni millətçilərinin əsrlər boyu xalqımıza qarşı yeritdiyi soyqırımı, etnik təmizləmə və təcavüz siyasətinin qanlı səhifələrini təşkil edir**

***(Azərbaycan Respublikası Baş Prokurorluğunun məlumatı)***

Bakı, 22 aprel (AzərTAc). Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətinin məlumatında deyilir ki, xalqımıza qarşı erməni millətçiləri tərəfindən son əsrlər ərzində məqsədyönlü şəkildə aparılan soyqırımı, təcavüz və deportasiya siyasəti tariximizin faciələrlə və qanlı hadisələrlə dolu ağrılı mərhələlərini təşkil edir. Bu dövr ərzində əzəli torpaqlarımız qəsb edilməklə, yüz minlərlə soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmişdir. Onlar doğma torpaqlarından didərgin salınmış, maddi-mədəniyyət abidələrimiz vəhşicəsinə dağıdılaraq məhv edilmişdir. Bu cinayətkar siyasətin davamlılığını sübut edən fakt ondan ibarətdir ki, təkcə XX əsrdə Azərbaycan əhalisi 4 dəfə - 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və nəhayət 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən vəhşiliklərə və etnik təmizləmələrə məruz qalmışdır. XX əsrdə Azərbaycanın Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran bölgələrində və başqa ərazilərində azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla həyata keçirilmişdir.

Azərbaycanlılara qarşı törədilən soyqırımı və etnik təmizləmə siyasətinə, torpaqlarımızın məqsədyönlü şəkildə işğal edilməsi kimi qanunsuz hərəkətlərə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə edilmişdir. Lakin Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatdırılmasına imkan verməmişdir.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi cinayətkar hərəkətlərə dövlət səviyyəsində siyasi qiymət yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin «Azərbaycanlıların soyqırımı haqqında» 1998-ci il 26 mart tarixli Fərmanı ilə verilmişdir. Ulu öndər Heydər Əliyevin «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» 1997-ci il 18 dekabr tarixli Fərmanı Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Real tarixi faktlara əsaslanan bu sənədlər ermənilər tərəfindən əsrlər boyu yeridilən terror siyasətinə qarşı Azərbaycan ictimai fikrində böyük dönüşün, tarix və politologiya elmlərində bu məsələyə münasibətdə yeni baxışın əsasını qoymuş, tariximizin bu qanlı səhifələrinin daha dərindən və ətraflı öyrənilməsi üçün intensiv elmi araşdırmaların və müxtəlif regionlarda arxeoloji qazıntıların başlanmasına, ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin əsl köklərinin üzə çıxarılmasına şərait yaratmışdır. «Azərbaycanlıların soyqırımı haqqında» Fərmanda 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsası qoyulduğu, bununla da ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsinə zəmin yaradıldığı, ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi ilə faktiki olaraq yerli azərbaycanlı əhalinin öz torpaqlarından sıxışdırılması və onun soyqırımına başlanıldığı tarixi faktlarla sübuta yetirilmiş, bu istiqamətdə çar Rusiyası və totalitar sovet rejimi tərəfindən yeridilən siyasətin mahiyyəti üzə çıxarılmışdır.

Eyni zamanda, qeyd edilən Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilməklə, Milli Məclisdə bu hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi tövsiyə olunmuş, «soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunun Azərbaycan Respublikasının qarşısında tarixin hökmü kimi dayandığı» qeyd edilmişdir.

Bu məsələnin Azərbaycan Respublikası Milli Məclisində müzakirəsinin nəticəsi olaraq 2001-ci il martın 30-da qəbul edilmiş Bəyanatda beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə əsrlər boyu azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayətlərinin tanınması, bu cinayətlərin qarşısının alınması üçün təsirli beynəlxalq hüquq mexanizmlərinin yaradılması, azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması barədə müraciət olunmuşdur.

Azərbaycan xalqına qarşı erməni millətçiləri tərəfindən yeridilən soyqırımı siyasətinin bariz nümunəsi kimi onların Quba qəzasında törətdikləri və öz amansızlığı ilə seçilən cinayətlər barədə yeni faktların aşkara çıxarılmasının tarixi əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Belə ki, 2007-ci il aprelin 5-də Quba şəhər stadionunda aparılan tikinti və yenidənqurma işləri zamanı ərazidə içərisində çoxsaylı müxtəlif yaş və cins qruplarına məxsus skeletlərdən ibarət kütləvi insan məzarlığı aşkar edilmişdir.

Bununla əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğu, Milli Təhlükəsizlik Nazirliyi, Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu, Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertizası və Patoloji Anatomiya Birliyinin əməkdaşları Quba rayonuna ezam olunmuş, görülmüş işlərin gedişi və əldə

olunmuş ilkin nəticələrin müzakirəsi ilə bağlı 2007-ci il aprelin 19-da respublika baş prokuroru yanında xüsusi müşavirə keçirilmişdir.

Araşdırmalarda iştirak edən əlaqədar mütəxəssislərin ilkin mülahizələri əsasında, kütləvi məzarlıqda aşkar olunmuş sümüklərin nizamsız şəkildə üst–üstə düzülməsi və üzərlərində çoxsaylı xəsarətlərin olması, meyitlərin dərinliyi 4 metr olan quyuda və kütləvi halda basdırılması, meyitlərin tam çürüməsi və sümüklərin kövrəkliyi kimi əlamətlərə görə, həmin şəxslərin zorakılıqla öldürülməsi, hadisələrin zaman baxımından uzun müddət əvvəl törədildiyi nəticəsinə gəlinmişdir.

Eyni zamanda, Quba rayonunun bir çox sakinləri valideynlərindən və yaşlı qohumlarından eşitdikləri məlumatlar əsasında 1918-ci ilin may ayında Qubaya hücum etmiş ermənilərdən ibarət cəza dəstəsinin törətdiyi kütləvi qırğın nəticəsində öldürülənlərin həmin ərazidə basdırıldığı barədə izahatlar vermişlər.

Göstərilən faktların araşdırılmasının xüsusi tarixi əhəmiyyəti və görüləcək işlərin həcmi nəzərə alınmaqla, Baş Prokurorluq tərəfindən insan skeletlərinin aşkar edildiyi sahələrdə arxeoloqların tədqiqat aparmaları üçün Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutuna müraciət edilmiş, Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin mütəxəssisləri tərəfindən kompleks qaydada məhkəmə-tibbi ekspertizaların keçirilməsi üçün zəruri olan müasir texniki avadanlıqla təchiz olunması barədə Azərbaycan Respublikası Nazirlər Kabineti qarşısında məsələ qaldırılmışdır.

Kütləvi insan məzarlığının aşkar edilməsi ilə əlaqədar Quba Rayon Prokurorluğu tərəfindən mütəxəssislərin iştirakı təmin olunmaqla hadisə yerinə baxış keçirilərkən 4 metr dərinlikdə və 7 metr enində torpağın içərisində bir-birinin üstündə səliqəsiz qalaq şəklində yığılmaqla bir yerdə basdırılmış çoxlu sayda insan skeletləri, kəllə, omba, çanaq, qabırğa, ətraf və digər hissələri aşkar olunmuş, həmin yerdən götürülmüş sümük və torpaq nümunələri üzrə məhkəmə tibbi-kriminalistik ekspertizası təyin edilməklə, ekspertlərin qarşısında təqdim edilmiş skeletlərin məxsus olduğu şəxslərin yaşının, cinsinin, boyunun uzunluğunun, irqi mənsubiyyətinin, basdırılma müddətinin, sümüklərin üzərində zədələrin və kütləvi zəhərlənmə halının olub-olmaması, habelə digər zəruri xüsusatların müəyyənləşdirilib rəy verilməsi barədə məsələ qoyulmuşdur.

Bundan başqa, həmin hadisələr zamanı zərər çəkmiş şəxslərin qohumlarının izahatları alınmış, Azərbaycan Respublikası Milli Arxiv İdarəsinə, Ədliyyə Nazirliyinin Mərkəzi Arxivinə sorğular göndərilmiş, Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutuna məzarlıq olan torpağın xüsusiyyətləri, kimyəvi tərkibi, hansı qrupa məxsus olmasının müəyyənləşdirilməsi və nəticəsinin tibbi-kriminalistik ekspertizaya təqdim edilməsi barədə tapşırıqlar verilmişdir.

Quba şəhərində kütləvi insan məzarlığının aşkar edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunda müvafiq araşdırmalar davam etdirilməklə, Azərbaycan Demokratik Respublikası hökumətinin 1918-ci ildə yaratdığı Fövqəladə İstintaq Komissiyası tərəfindən ermənilərin həmin ilin aprel-may aylarında Quba qəzasında dinc müsəlman əhalisini kütləvi şəkildə qətlə yetirməsi, bütöv kəndləri, yaşayış evlərini, məscidləri və ictimai binaları yandırması, çoxsaylı qız və qadınların kütləvi şəkildə zorlanması və digər zorakı cinayətlər törədilməsi faktları üzrə istintaq aparılmış və hazırda Milli Arxiv İdarəsində saxlanılan cinayət işinin materialları, həmin dövrə aid «Уголовное Уложение» adlanan cinayət qanunu və bununla bağlı bir sıra başqa zəruri arxiv materialları ətraflı öyrənilmiş, hadisənin şahidlərinin izahatları alınmış, bir sıra tarixi əhəmiyyətli sənədlər götürülmüşdür.

Cinayət işi materiallarının öyrənilməsi nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Demokratik Respublikasının xarici işlər naziri M.Hacınski 1918-ci il iyulun 15-də Azərbaycan Hökumətinə müraciət edərək, Azərbaycan ərazisinin 4 ay ərzində özlərini bolşevik adlandıran erməni silahlı hissələri tərəfindən parçalandığını, müsəlman əhalisinin həyat və əmlakları üzərində ağlasığmaz vəhşiliklər törədildiyini, eyni zamanda həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yalan məlumatlara əsasən Avropada tamamilə əks ictimai rəyin formalaşdırıldığını göstərmiş və ümumdövlət və zərərçəkən əhalinin maraqlarının müdafiəsi, bütün zorakı hadisələrin qeydə alınması, onların baş vermə şəraitinin, təqsirli şəxslərin və dəymiş ziyanın məbləğinin müəyyənləşdirilməsi üçün xüsusi qurum yaradılmasını, komissiyanın işi barədə məlumatların əsas Avropa dilləri olan rus, fransız, alman və türk dillərində geniş yayılmasını təklif etmişdir.

Azərbaycan Demokratik Respublikası xarici işlər nazirinin müavini F.Xoyskinin 1918-ci il 31 avqust tarixli qərarına əsasən Ələkbər bəy Xasməmmədovun rəhbərliyi altında Gəncə Dairə Məhkəməsinin üzvləri İsmayıl bəy Şamxəliyev və Andrey Fomiç Novatski, həmin məhkəmənin prokuroru Nəsrəddin bəy Səfikürdski, Nikolay Mixayloviç Mixaylov, V.Qudvillo və Mirzə Cavad Axundzadədən ibarət Fövqəladə İstintaq Komissiyası yaradılmışdır.

Fövqəladə İstintaq Komissiyasının üzvü Andrey Fomiç Novatski tərəfindən 1918-ci ilin aprel və may aylarında Quba şəhərində və Quba qəzasının kəndlərində kütləvi şəkildə müsəlman əhalisinin qətlə yetirilməsi, əmlaklarının talan edilməsi, evlərin yandırılması və digər vəhşi zorakılıqlarla müşayiət olunan cinayətlər üzrə araşdırma aparılmışdır. A.Novatskinin cinayət işinin materiallarına əlavə edilmiş komissiyanın sədrinə ünvanladığı məruzəsindən göründüyü kimi, 1918-ci ilin aprel ayında bolşeviklər partiyasının nümayəndəsi

David Gelovani 187 nəfərlik silahlı dəstə ilə Quba qəzasına gələrək orada sovet hakimiyyətinin qurulduğunu elan etmiş, sonradan silahlı müqavimət nəticəsində şəhərdən çıxarılan həmin dəstə Bakı şəhərinə qayıdarkən xristian əhalisini də özü ilə aparmışdır. Həmin hadisələrdən təxminən iki həftə sonra böyük bir silahlı dəstənin Quba şəhərinə gəlməsi barədə xəbər çatdığı zaman bəzi şəhər sakinləri evlərini və əmlaklarını qoyaraq dağlara və meşələrə qaçmış, əhalinin böyük hissəsi isə onlara qarşı təhlükənin olacağına inanmayaraq şəhərdə qalmışdır.

Cinayət işi ilə sübuta yetirilmişdir ki, 1918-ci ilin aprel ayının sonlarında, 1873-cü ildə Van şəhərində anadan olmuş, Rusiya ordusunun keçmiş zabiti, daşnaksutyun partiyasının, Bakıda Erməni Milli Şurasının üzvü, tanınmış daşnaksakan, 1918-ci ilin əvvəllərindən Azərbaycanda erməni hərbi dəstəsinə komandanlıq etmiş, öz qəddarlığı ilə seçilən qatı millətçi Amazapsın və onun köməkçisi Nikolayın başçılıq etdiyi ermənilərdən təşkil olunmuş silahlı cəza dəstəsi qatarla Bakı şəhərindən Quba qəzasına yola düşmüşdür.

Cəza dəstəsi yolda olarkən Quba qəzasının ərazisinə daxil olmaqla, dəmir yolu xəttinin hər iki tərəfində yerləşən azərbaycanlıların yaşadığı kəndlərə hücum edib evləri talayaraq yandırmış, vaxtında qaça bilməyənləri rəhm etmədən öldürmüşlər. Yerli əhali öz nümayəndələrini ağ bayraqla ermənilərin yanına göndərdikləri hallarda belə onlar danışıqlara getməyərək həmin nümayəndələri öldürmüş, kəndləri isə viran qoymuşlar. Belə ki, Əlixanlı cəmiyyətində ermənilərlə danışıqlara gələn ağsaqqallar - Mirzə Məhəmməd Dadaş oğlu və Gül Hüseyn Məhərrəm oğlu öldürülmüş, Dəvəçi cəmiyyətinin Dəvəçi-Bazar və Qızıl-Burun kənd sakinləri 15 nəfər ağsaqqaldan ibarət nümayəndə heyətini ermənilərin qarşısına göndərdikdə, ermənilər onların hamısını qətlə yetirmiş, kəndlərə hücum edərək məscidləri dağıtmış, Quran kitablarını yandırmışlar.

1918-ci il mayın 1-də, səhər vaxtı Amazapsın rəhbərlik etdiyi cəza dəstəsi Quba şəhərini mühasirəyə alaraq, şəhəri top, pulemyot və digər atıcı silahlardan atəşə tutduqdan sonra müqavimətsiz şəhərə daxil olmuş, müsəlmanlara qarşı hər cür zorakı hərəkətlərə yol verilmişdir. Ermənilər küçədə qarşılarına çıxan dinc əhalini, o cümlədən, uşaqları və qadınları xəncərlə, tüfənglə qətlə yetirmiş, evlərə soxularaq bütöv ailələri qırmış, uşaqların başlarını kəsmiş, qadın və qızları kütləvi şəkildə zorladıqdan sonra öldürmüş, insanların əmlakını və evlərini, məscidləri yandırıb talan etmişlər.

Belə ki, Kərbəlayi Məmməd Tağı oğlu 14 nəfərdən ibarət ailəsi ilə birlikdə öldürülmüş, Məhəmməd Rəsul oğlu qətlə yetirilmiş, onun arvadının qarın nahiyəsi kəsilib açılmış, 3 uşağının başı kəsilmiş, Hacı Dadaş Bala-Qasım oğlu, arvadı Məşədi Bibi-Xanım və oğlu Abdul Qasım öz evlərində yandırılmış, Kərbəlayi Abuzərin iki qızı Hökümə və Büstə analarının qucağında xəncərlə doğranılmış, Məşədi Qəmbər Molla-Məhəmməd Salah oğlu, arvadı və bir neçə azyaşlı uşaqları ilə, Molla Şahbaz, Məhəmməd Rəsul Bayram oğlu, Rəsul Kazım oğlu, Əbdül Tuluqçu oğlu, Məşədi Musa Zeynal oğlu, Məşədi Əli Məşədi Feyzulla oğlu, Kərbəlayi Dadaş Bağır oğlu, Cabbar Məmməd Əli oğlu, Sahib Səfər-Əli Məşədi Talıb oğlu, Məşədi Musa Zeynal oğlu və digərləri öldürülmüşlər.

Əsgərlərin müsəlman qadınları gətirmək barədə əmrini icra etmədiklərinə görə el ağsaqqalı Əli-Paşa Kərbalayı Məhərrəm oğlu və onun oğlu, atasının gözü qarşısında gözləri çıxarılmaqla, sifətinə və qarnına süngü batırılmaqla öldürülümüşdür.

Həmin hadisələr zamanı Quba şəhərində kütləvi qırğın törədilərək, 2000 nəfərdən artıq müsəlman kişi, qadın və uşaq qətlə yetirilmiş, 100-ə yaxın qız və qadın zorlanmış, 105 yaşayış evi yandırılmış, 4 milyon publ məbləğində nağd pul, 4,5 milyon rubl dəyərində isə qızıl və zinət əşyaları qarət edilmiş, 25 milyon rubl dəyərində ərzaq və digər mallar talan edilmiş, 100 milyon rubl dəyərində ziyan vurulması ilə nəticələnən Quba şəhər sakinləri İbrahim Bəy Şıxlarskiyə, Məşədi Əli Hüseynova, Oruc Əli Əhmədova, Bəkir Mehrəliyevə, Səttar Məmmədyarova, Hidayət Əmirbəyova, Əli Bəy Zizikskiyə, Rəcəb Orucova, Yusif Bəy Abusalambəyova və digər azərbaycanlılara məxsus 105 ev və tikililər, həmçinin ictimai binalar yandırılmışdır.

Amazapsın rəhbərlik etdiyi cəza dəstəsi tərəfindən Quba qəzasında 122 müsəlman kəndinin, o cümlədən, Dəvəçi (hazırda Şabran - red.), Saadan, Çarxanə, Zaqlıcan, Əlixanlı, Eyni Bulaq, Ərəb Əl-Məmməd, Ağasıbəyli, Kolanı, Ərəb-Hamə, Taqay, Nardaran, Siyəzən, Rəhimli, Surra və digər yaşayış məntəqələri talan edilərək yandırılmış, həmin kəndlər talan edilərkən 60 kişi, qadın və uşaq öldürülmüş, 53 nəfər yaralanmış, evlərin, tikililərin, ictimai binaların dağıdılması, əhalinin əmlakının və mal-qarasının talan edilməsi nəticəsində sakinlərə 58.121.059 rubl ziyan vurulmuşdur.

Eyni zamanda, Quba qəzasının Dəvəçi, Müşkür, Qusar, Rustov, 5-ci Fəthibəy sahələrində 700 nəfərdən artıq insan qətlə yetirilmiş, 50 nəfərdən artıq yaralanmış, 700 nəfərdən artıq insan evlərindən didərgin düşərək xəstəlik və aclıqdan ölmüş, saysız-hesabsız evlərin, digər bina və tikililərin dağıdılması, əmlakın talanması nəticəsində Dəvəçi və Müşkür sahələrinə 200 milyon rubldan artıq, Qusar, Rustov, 5-ci Fəthibəy sahələrinə də külli miqdarda ziyan vurulmuşdur.

Həmin vaxt bolşeviklər partiyasının nümayəndəsi David Qelovaninin Fövqəladə İstintaq Komissiyasına verdiyi ifadəsindən göründüyü kimi, digər komissarların xəbəri və razılığı olmadan birbaşa Stepan Şaumyan tərəfindən Amazapsın rəhbərliyi altında yaradılmış dəstə cəza məqsədi ilə Quba şəhərinə göndərilmiş, «daşnaksutyun» partiyasının üzvləri olan ermənilərdən ibarət 2000 nəfərlik həmin dəstənin tərkibi birbaşa

müdafiə naziri Karqanov tərəfindən seçilmiş, Amazaps Qubanın müsəlman əhalisinə müraciət edərək özünün erməni xalqının qəhrəmanı və müdafiəçisi olduğunu, Quba qəzasına sovet hakimiyyəti qurmaq məqsədilə deyil, qisas almaq üçün gəldiyini, ona Xəzər dənizinin sahillərindən Şahdağa qədər bütün müsəlmanların evlərinin, Şamaxıda olduğu kimi, yerlə-yeksan etmək barədə əmr verildiyini demişdir.

Toplanmış sübutlar əsasında, Fövqəladə İstintaq Komissiyasının üzvü A.Novatski tərəfindən Amazaps və rəhbərlik etdiyi silahlı dəstənin üzvləri və digər şəxslər barəsində həmin vaxt qüvvədə olan Cinayət Qanununun (Уголовное Уложение) 13-cü, 129-cu, 927-ci, 1633-cü, 1634-cü, 1453-cü və 1607-ci maddələri ilə cinayət işinin başlanması, Şaumyan və Karqanov barəsində isə onların ölməsi ilə əlaqədar cinayət təqibinin başlanılmaması nəticəsinə gəlinmiş, cinayət işinin istintaqı zamanı Komissiya tərəfindən hadisə yerlərinə baxışlar keçirilmiş, şahidlər dindirilmiş, dəymiş ziyanın məbləğləri göstərilməklə zərər çəkən şəxslərin siyahıları tərtib edilmiş, zəruri cinayət-prosessual qərarlar qəbul edilmişdir.

İstintaq zamanı toplanmış sübutlara əsasən Fövqəladə İstintaq Komissiyası tərəfindən 1919-cu ilin noyabr ayında Amazapsın, Nikolayın, komissar Venunsun, Quba şəhər sakinləri Arutyun Ayrapetovun, bərbər Cavad Arutyunovun, Avakovun, balıqçı oğlu Avakovun, tələbələr Əmircanovların, tacir Mirzə Əmircanovun qardaşı oğlanlarının, Mirzə Əmircanovun özünün, dükançı Məlikovun, Qriqorinin oğlu Vartanın və erməni millətindən olan digər şəxslərin o dövrün «Uqolovnoe Ulojenie» adlandırılan Cinayət Qanununun 13-cü, 129-cu, 922-ci, 927-ci, 1633-cü, 1634-cü, 1453-cü və 1607-ci maddələri ilə ittiham olunmaları barədə qərar qəbul edilmişdir.

1920-ci il fevralın 9-da Azərbaycan Respublikasının müstəqilliyinin tanınması münasibətilə Azərbaycan Parlamenti tərəfindən milli ədavət zəminində törədilmiş cinayətlərə görə cinayət təqibi və cəzadan azad edən qanun qəbul edilmişdir. 1920-ci il oktyabrın 16-da Fövqəladə İstintaq Komissiyası cinayət işinə baxaraq həmin hadisələrin milli ədavət zəminində törədilməsini nəzərə almaqla, 1920-ci il 9 fevral tarixli Qanuna əsasən cinayət işinin icraatına xitam verilməsi nəticəsinə gəlmiş və 3 cilddən ibarət cinayət işinin xitam olunması üçün, o zaman mövcud olmuş Mühüm İşlər Üzrə Quba şəhər və qəza xalq məhkəməsinə göndərilməsi barədə qərar qəbul etmişdir. İşə həmin məhkəmədə baxılmaqla Azərbaycan Parlamentinin 1920-ci il 9 fevral tarixli Qanununa əsasən 1921-ci il 16 yanvar tarixli Qərarla işin icraatına xitam verilib arxivə göndərilməsi barədə qərar qəbul olunmuşdur.

Azərbaycan Respublikası Baş Prokurorluğunda aparılan araşdırma gedişində Siyəzən, Şabran, Quba, Xaçmaz və Qusar rayonlarının bir çox sakinlərinin, o cümlədən göstərilən hadisələrin bilavasitə şahidlərinin izahatlarında 1918-ci ilin mart və aprel aylarında erməni millətçiləri tərəfindən Azərbaycan kəndlərinin talan edilərək yandırılması, azərbaycanlıların işgəncə verilməklə öldürülməsi və digər ağır cinayətlər törədilməsi bir daha öz təsdiqini tapmışdır.

Quba Rayon İcra Hakimiyyətinin Qırmızı qəsəbə inzibati ərazi vahidliyi üzrə nümayəndəsi İsakov Pisax Davidoviç 1918-ci ildə ermənilərin Azərbaycanın müxtəlif bölgələrində qırğınlar və talanlar törədərkən qətlə yetirdikləri dağ yəhudilərindən 104 nəfərinin, o cümlədən Qırmızı qəsəbə sakinləri olan 18 nəfər yəhudinin siyahısını təqdim etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən verilmiş rəydə Quba şəhərində məzarlığın aşkar olunması ilə əlaqədar 494 kvadratmetr sahədə arxeoloji qazıntı-təhqiqat işləri aparılarkən içərisində dağınıq şəkildə insan skelet sümükləri olan daha bir quyu və iki arx izlərinin aşkar olunması, insan sümüklərinin çalalara,quyulara və arxlara dağınıq halda tökülməsi, sümüklər üzərində zədələrin olması, geyim əşyaları qalıqlarının müəyyən edilməməsinin insanların zorakılıqla və xüsusi qəddarlıqla öldürülüb basdırılmasına dəlalət etməsi, kütləvi məzarlığın 1918-ci ildə erməni millətçiləri tərəfindən yerli əhaliyə qarşı törədilmiş soyqırıma aid olması və məzarlıqda basdırılmış günahsız insanların sayının 600-ə yaxın olması bildirilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibb Ekspertizası və Patoloji Anatomiya Birliyi tərəfindən kompleks qaydada məhkəmə-tibbi, məhkəmə-tibbi kriminalistik (trassoloji), məhkəmə antropoloji, məhkəmə-tibbi bioloji, məhkəmə kimyəvi, məhkəmə histoloji tədqiqatları nəticəsində verilmiş rəydə təqdim edilmiş skelet sümüklərində çoxsaylı həyati təhlükə kəsb edən xəsarətlərin mövcudluğu, habelə ölümə səbəb ola biləcək xəstəlik əlamətlərinin aşkar edilməməsi, sümük qalıqlarının aid olduğu şəxslərin dəfn qaydalarına zidd kütləvi qaydada, mənəviyyata və əxlaq normalarına zidd quyulanması, həmin skelet sümüklərinin aid olduğu şəxslərin (uşaq, qadın, kişi, yaşlı) sağlığında həyatlarına qəsdlə yetirilmiş zorakılıq əlamətlərinin bilavasitə işgəncə xarakterli olması göstərilmişdir.

Ekspertiza araşdırmaları nəticəsində, təqdim olunmuş 6128 skelet sümükləri və sümük fraqmentlərindən 6082-sinin insan skeletinin sümükləri olduğu, həmin sümüklərin və sümük fraqmentlərinin kəllə, körpücük, bazu, dirsək, mil, döş, qabırğa, çanaq, bud, qamış, incik, kürək, omba, əl və barmaq, habelə digər hissələrin sümükləri və onların fraqmentlərinə aid olduğu, insana məxsus skelet sümükləri və onların fraqmentlərinin 6-sının uşaq, 14-nün qadın və 127-sinin kişi olmaqla ən azı 147 şəxsə (fərdə) məxsus olması, insana məxsus skelet sümükləri və onların fraqmentlərinin 2-sinin 1-3 yaş, 4-nün 13-16 yaş, 58-nin 17-21 yaş, 42-sinin 22-35 yaş, 30-

nun 36-60 yaş, 9-nun 61-74 yaş, 2-sinin 75-90 yaş həddində şəxslərə məxsus olması, həmin skelet sümüklərinin əksəriyyətinin irqi diaqnostik göstəricilərinin azərbaycanlıların məxsus olduğu Cənub Avropa irqinin yerli antropoloji variantına uyğun gəldiyi, skelet sümüklərində tək-tək hallarda osteoporoz, spondilit və digər dayaq-hərəkət aparatı xəstəliklərinin əlamətlərinin aşkar edildiyi, skelet sümüklərinin torpaqda qalma və ya onların aid olduğu şəxslərdə ölümün baş vermə müddətlərinin təxminən 90 ilə yaxın olduğu və bu müddətin istintaq materialında göstərilən 1918-ci il tarixinə uyğun gəldiyi, insana məxsus skelet sümüklərində və onların fraqmentlərində deşici, deşici-kəsici, çapıcı, geniş və məhdud səthlərə malik küt alətlərin (əşyaların) təsirindən əmələ gəlmiş çoxsaylı travmatik xəsarətlərin aşkar edildiyi, bu travmatik zədələrin əsasən, kəllə sümüklərində küt, deşici, çapıcı, digər skelet sümüklərində isə deşici, küt və çapıcı təsirlə yanaşı, deşici kəsici xarakterli alətlərin (əşyaların) təsirindən əmələ gəldiyi, skelet sümüklərində aşkar edilmiş xəsarətlərin əksəriyyətində həyat ilə bir araya sığmayan ağır dərəcəli xəsarətlər olduğu, həmin xəsarətlərin sözü gedən skelet sümüklərinin mənsub olduğu şəxslərin bilavasitə ölümünə səbəb olması, xəsarətlərin işgəncə vermək məqsədilə yetirildiyi, skelet sümüklərinin və torpaq nümunələrinin məhkəmə kimyəvi tədqiqatlarına əsasən onlarda zəhərli və güclü təsiredici maddələrin və ölümə səbəb ola biləcək xəstəlik əlamətlərinin aşkarlanmadığı müəyyən edilmişdir.

Tarixi reallıqların bərpası, xalqımıza qarşı uzun illər ərzində aparılan işğalçılıq və etnik təmizləmə siyasətinin vəhşi təbiətinin və onun məruz qaldığı məşəqqətlərin dünya ictimaiyyətinə çatdırılması, işgəncələrə məruz qalmış həmvətənlərimizin ruhu qarşısında mənəvi borcumuzun yerinə yetirilməsi naminə əsrlər boyu erməni millətçiləri tərəfindən azərbaycanlıların bir millət kimi məhvinə yönəldilmiş çoxsaylı ağır cinayətlərə layiqli siyasi və hüquqi qiymət verilməsi mühüm əhəmiyyət kəsb edən məsələdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il 30 dekabr tarixli Sərəncamı ilə erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi üçün Quba şəhərində «Soyqırımı memorial kompleksi»nin yaradılması bu istiqamətdə dövlət səviyyəsində görülən dəyərli tədbirlərdəndir.

Fövqəladə İstintaq Komissiyasının apardığı araşdırmalar nəticəsində toplanmış və Azərbaycan Respublikası Milli Arxiv İdarəsində saxlanılan 3 cilddən ibarət cinayət işinin materialları Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Azərbaycan, ingilis və rus dillərinə tərcüməsi təmin olunmuş, onlardan bir nüsxə «Soyqırımı memorial kompleksi»nin işində istifadə olunması məqsədilə bu məsələlərin araşdırılması, geniş ictimaiyyətə və beynəlxalq aləmə çatdırılmasında çox mühüm rol oynayan Heydər Əliyev Fonduna təqdim edilmişdir.

Azərbaycan xalqına qarşı yeridilən etnik təmizləmə siyasətinin, o cümlədən erməni millətçilərindən təşkil olunmuş xüsusi cəza dəstəsi tərəfindən 1918-ci ildə Quba qəzasında azərbaycanlılara qarşı törədilmiş cinayətlərin təcavüzkar mahiyyətinin, onlara siyasi qiymət verilməsi və soyqırımı kimi tanınması məqsədilə dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə və beynəlxalq təşkilatlara çatdırılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə müraciət olunmuşdur.

Hesab edirik ki, xalqımıza qarşı soyqırımı və təcavüz siyasətinin əsil mahiyyətinin ictimaiyyətə daha ətraflı çatdırılmasında 1918-ci ildə Quba qəzasında həmvətənlərimizə qarşı törədilmiş cinayətlərin, onların qəddar və amansız üsullarla kütləvi şəkildə qətlə yetirilməsi və digər ağır zorakılıqlara məruz qalması faktları üzrə Azərbaycan Demokratik Respublikasının Fövqəladə İstintaq Komissiyasının istintaq etdiyi cinayət işinin materialları və toplanmış digər tarixi sənədlər əhəmiyyətli rol oynaya bilər.

## İrəvan bölgəsində azərbaycanlıların soyqırımı və deportasiyası

Deportasiya şəxsin dövlət hüdudlarından kənara məcburi çıxarılmasıdır. Deportasiyaya ölkə ərazisində müvafiq icazəsi olmadan yaşayan xarici vətəndaşlar, vətəndaşlığı olmayan adamlar, həmçinin digər "arzuolunmayan şəxslər" məruz qalır. Ancaq Azərbaycan xalqının yalnız XX yüzillikdə başına gətirilən müsibətlər, öz doğma yaşayış yerlərindən bir neçə dəfə məcburi surətdə və kütləvi şəkildə çıxarılması deportasiya məfhumunun məhdud çərçivəli olmadığını sübut edir. Tarixi Azərbaycan torpağı Ermənistanda yaşayan azərbaycanlılar nə xarici ölkə vətəndaşları idilər, nə də vətəndaşlığı olmayan şəxslər. Onlar bu ərazilərin köklü sakinləri olmuşlar. Amma "türksüz Ermənistan" üçün azərbaycanlılar həqiqətən də arzuolunmaz idi. Buna görə də Azərbaycan türklərinə qarşı bir neçə dəfə deportasiya əməliyyatı həyata keçirildi.

Köçürülmə ərəfəsində azərbaycanlılar arasında güclü təbliğat aparılırdı ki, sizin əsl vətəniniz Azərbaycandır, orada çoxlu boş torpaq sahələr var, işçi qüvvəsi tələb olunur. Hətta ilk köçürülənlər Salyan, Saatlı, Sabirabad, Əli Bayramlı (Şirvan), Puşkin (Biləsuvar), Ağcabədi və Xızı rayonlarında yerləşdiriləcəyi əvvəlcədən razılaşdırılmışdır. Konkret olaraq 1948-1953-cü il deportasiyasının şərhinə ayrıca olaraq qayıdılacaq.

Daha çox soyqırıma, deportasiya və sonda qaçqın həyatı yaşamağa məcbur edilən əsas tarixi coğrafi ərazilər, tarixi İrəvan quberniyası əraziləri idi. Bu ərazilər tarixən Azərbaycan türklərinin yaşadığı böyük mədəniyyət və tarix yaratdıqları bölgələrdən biridir. Qarşımıza qoyduğumuz məsələləri İrəvan bölgəsi üzrə (materiallar əsasında İ.K.) aydınlaşdırsaq, görəcəyik ki, ayrı-ayrı inzibati vahidlərin adlan, toponimlər, əhalinin etnik tərkibi, say dinamikası və s. məsələlər Azərbaycan türkləri ilə bağlıdır.

1849-cu il iyunun 9-da (1950-ci il yanvarın 1-də qüvvəyə minmişdi) çarın fərmanı ilə yaradılmış İrəvan quberniyası yeddi qəzadan - İrəvan, Gümrü (Aleksandropol), Eçmiədzin, Naxçıvan, Yeni Bəyazid, Şərur-Dərələyəz və Gürməli qəzalarından ibarət idi.

Bu qəzalardan ən irisi və etnik tərkibinə görə azərbaycanlıların böyük əksəriyyət təşkil etdiyi İrəvan qəzasına Ermənistan inqilab komitəsinin 1921-ci il 20 iyul tarixli dekreti ilə Qəmərli, Ağ Həmzəli, Başgərni, Kotayk və Axta (İrəvan şəhəri quberniyaya daxil deyildir) nahiyələri daxil edilmişdir. 1921-ci il 16 avqust dekreti ilə Vedibasar nahiyəsi də qəzaya daxil edilmişdir. Lakin 1929-cu ildə Ermənistan Mərkəzi İcrayyə Komitəsi Rəyasət Heyətinin qəran ilə İrəvan qəzasında yeni dəyişikliklər edildi. Mehri, Dərələyəz, Əştərək, Talin, Kotayk, Axta (Hrazdan), Qəmərli, Qurduqlu, Vağarşabat (Ecmiədzin), Vedi (Ararat) daxil edildi (8, s. 508). 1930-cu ildə İrəvan quberniyası anlayışı ləğv edildi, inzibati bölgə kimi ancaq rayonlar qaldı.

Ermənilər müxtəlif tarixi dövrlərdə Rusiyaya arxalanaraq inzibati ərazi bölgüsündə bir neçə dəfə struktur dəyişiklikləri aparıblar. 1828-ci ildə yaradılmış erməni vilayətini 1840-cı ildə İrəvan qəzasına və 1849-cu ildə İrəvan quberniyasına çeviriblər. Həmin quberniya da 1917-ci ilə qədər fəaliyyət göstərib (11, s. 26). Bəhs olunan dövrlərdə quberniyanın, qəzanın, vilayətin daxilində azərbaycanlılar çox yaşayan rayonları və kəndləri bir neçə yerə bölüblər və ermənilər çox yaşayan rayonlara və kəndlərə birləşdiriblər. Bu cür məqsədli şəkildə struktur dəyişiklikləri aparmaqda əsas məqsədləri azərbaycanlıları öz doğma ata-baba torpaqlarından sıxışdırıb çıxarmaq olub. Erməni millətçiləri ilk mərhələdə (köçürmə, deportasiya - İ.K.) azərbaycanlıların qarışıq yaşadıqları və azlıqda olduqları rayonlarda və kəndlərdə azərbaycanlıların sıxışdırıb çıxarılmasını başa çatdırıblar, sonra isə əsas diqqətlərini azərbaycanlılar çox yaşayan Əzizbəyov, Amasiya, Basarkeçər, Vedi, Yexeqnadzor, Krasnoselo, Mehri və Eçmedzin rayonlarına yönəldiblər.

Ermənilər dövlət səviyyəsində azərbaycanlılar yaşayan şəhər, rayon, kənd və qəsəbə adlarını dəyişdirərək erməniləşdiriblər. Onlar Çar Rusiyasının məqsədli şəkildə köçürmə siyasəti nəticəsində artıq XX yüzilliyin əvvəllərində sayca üstün olmalarından istifadə edərək, azərbaycanlılara qarşı çox ağır 1918-1920-ci illər soyqırımı, 1930-1938-ci illər repressiyası və 1948-1953-cü illər deportasiyası siyasətini həyata keçiriblər. Beləliklə, Sovet hakimiyyəti illərində mərhələ-mərhələ "Böyük Ermənistan" dövlətinin yaradılması planlarını həyata keçiriblər.

1801-ci ildən çağdaş günlərimizədək ardı-arası kəsilmədən xalqımıza qarşı törədilməkdə olan fiziki və mənəvi soyqırımı faktlarını dünya ictimaiyyətinə kamil tədqiqatçı təmkini ilə təqdim edə bilməmişik. Təkcə son yüz ildə indiki Ermənistan ərazisində 959 kəndimiz yerlə-yeksan edilib. XX əsrin sonunda Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarında 352 min azərbaycanlı yaşayıb. İndi bir nəfərin də səsi gəlmir. 1905-1907, 1914-1920, 1947-1953 və nəhayət, 1988-1994-cü illərdə üst-üstə 2,5 milyon nəfərdən çox azərbaycanlı qətlə yetirilib, didərgin salınıb.

Tarixən böyük dövlətlərin-imperiyaların ciddi təsir və təzyiqlərinə (əksər hallarda da öz ucbatlarından - İ.K.) məruz qalan ermənilər çox vaxt toplum halında yaşamayıblar. Elə onların öz tədqiqatçılardan G.Aslanyan 1914-cü ildə İstanbulda çap etdirdiyi "Ermənistan və ermənilər" kitabında yazırdı ki, "ermənilər dərəbəyiliklər" halında yaşayıblar. Bir-birlərinə vətən hissələri ilə bağlı deyillər. Ermənilər ya tarixin müxtəlif çağlarında

məskunlaşdıqları ayrı-ayrı yerlərdə başqa ərazilərə köçürülmüşlər, ya da özləri müəyyən səbəblərə görə yerdəyişmələrə baş vurmuşlar (13, s. 15).

XX əsrin əvvəllərində ermənilər Azərbaycanın, demək olar ki, bütün ərazisində azərbaycanlılara qarşı çox qəddarlıqla qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirmişlər. Bu hadisələr kütləvi şəkildə 1918-ci ilin martında Bakıda qırğın və talanlar ilə başlayıb, zəncirvari şəkildə Şamaxıda, Qubada, Göyçayda və Azərbaycanın digər qəzalarında, o cümlədən, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda xüsusi bir qəddarlıqla davam etdirilmişdir.

1918-ci il iyul ayının 15-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncədə keçirilən iclasında azərbaycanlılar və onların əmlakı üzərində zorakılıq hallarını təhqiq etmək üçün Fövqəladə Tətqiqat Komissiyası yaratmaq haqqındakı məsələ geniş müzakirə edilir (1). Xarici işlər naziri M.H.Hacınskinin təklifinə görə "Bu təşkilat Fövqəladə Təhqiqat Komissiyası xarakteri daşımalı idi" (1).

Yeri gəlmişkən, Fövqəladə Təhqiqat Komissiyasının Bakı hadisələri haqqında hazırladığı məruzədə göstərilir ki, Bakıda mart qırğınları zamanı "ruslar, yəhudilər və gürcülər mümkün olan yerdə azərbaycanlıları xilas etmişlər. Ermənilər azərbaycanlılara qarşı qırğını yalnız ermənilərə qəti ultimatum vermiş 36-cı Türküstan polkunun tələblərinə dayandırmışlar. Bakıda olan bütün rus icmalarının nümayəndələri ermənilərin bu vəhşiliklərindən hiddətlənir və öz etirazlarının bildirirdilər" (4).

1918-ci ildən 1920-ci il aprel çevrilişinə qədər erməni vəhşiliklərindən ən çox ziyan görmüş Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Fövqəladə Təhqiqat Komissiyasının Sənədlərində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfmdən dağıdılaraq yer üzündən silindiyi qeyd olunur (3).

Sisyan mahalının birinci polis sahəsində olan bütün müsəlman kəndləri, ikinci polis sahəsində olan kəndlərin əksəriyyəti, il dördüncü və beşinci polis sahəsindəki müsəlman kəndlərinin isə çox hissəsi məhv edilmişdir. Bəzi kəndlər ümumiyyətlə yer üzərindən silinmiş, həmin kəndlərin torpaqları ermənilər tərəfindən əkin üçün şumlanmışdır. 50 mindən yuxarı müsəlman qaçqını qismən dördüncü polis sahəsində, qismən də Cəbrayıl qəzasında özlərinə sığınacaq tapmışlar (5, s. 241).

Qeyd etdiyimiz 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 74 qadın və 485 uşaq yaralanmışdır. Nəticədə tam olmayan məlumata görə təkcə Zəngəzur qəzasında 10068 azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir (5, s. 242).

Zəngəzur və Naxçıvan bölgələrinin rus-sovet qoşunları tərəfmdən işğalı ərəfəsində həmin ərazilərdəki siyasi-hərbi vəziyyət mürəkkəb və gərgin idi. Hər iki bölgə ətrafında davam etməkdə olan erməni-azərbaycanlı münaqişəsi həmin ərazilərdəki müxtəlif ictimai-siyasi qüvvələrin bu zaman daha da kəskinləşmiş qarşıdurması ilə müşayiət olunurdu (12, s. 24).

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSRİ ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar, körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyəcək həlak olmuşlar (6, s. 81).

Göstərilmiş qərarın elə birinci bəndi öz məntiqsizliyi və ziddiyyəti ilə diqqəti cəlb edirdi. Qərarda qeyd olunurdu: "1948-1950-ci illərdə könüllü əsaslar üzrə köçürülsün" və s. Əgər söhbət könüllülükdən gedirsə, o zaman "köçürülsün" sərəncamı olduqca yersiz görünür, yox, əgər köçürülmə yuxarıdan məcburi qaydada aparılırsa (faktiki belə də olmuşdu), o zaman "könüllü" sözü rişxənd kimi səslənir, belə ki, "sərəncam" anlayışı könüllülüklə deyil, məcburiyyətlə bağlıdır (6, s. 81).

Ermənilər SSRİ rəhbərliyinin razılığını necə əldə etmişlər. Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün məsələ qaldırmaq fürsətini onlar ilk dəfə 1943-cü ildə Tehran konfransı zamanı əldə etmişdilər. Konfransın gedişində hiyləgər erməni diasporunun nümayəndələri SSRİ xarici işlər naziri Molotovla əlaqə yaratmış, onların Ermənistana köçürülməsi üçün Sovet rəhbərliyinin razılıq verməsini xahiş etmişdir. Molotov, İ.Stalinlə danışdıqdan sonra, onların köçürülməsinə razı olduqlarını bildirmişdir. Qısa müddətdə 90 minə yaxın erməni xaricdən Ermənistana köçürüldü.

Ermənistan rəhbərliyi köçürülmələrin 1946-cı ilə nisbətən 1947-ci ildə azalmasının səbəbini onunla izah edirdilər ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir. Onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil. Köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər (7, s. 97).

Ermənistan KDMK-nin birinci katibi Q.Arutyunov vəziyyətdən yeganə Çıxış yolunu Ermənistandan yüz min əhalinin Azərbaycana köçürməsində görür. I.Stalindən buna razılıq verməsini xahiş edirdi. Köçürüləcək ərazilərin siyahısı əvvəlcədən hazırlanmışdı. İlk növbədə İrəvan şəhəri və ona yaxın rayonlar - Əştərək, Zəngibatar, Eçmiədzin, Oktemberyan, Artaşat (Qəmərli), Qarabağlar, Vedi, Yexeqnadzor, Axta (Razdan), Əzizbəyov və s. rayonları daxil edilmişdi (7, s. 98).

Ermənistan rəhbərləri Stalini inandıra bilmişdilər ki, köçürülən azərbaycanlıları Azərbaycanın pambıq yetişdirilən rayonlarında, Muğan-Mil düzənliyində yerləşdirmək iqtisadi cəhətdən sərfəlidir. Köçkün ermənilərdən fərqli olaraq, zorla öz doğma torpaqlarından deportasiya edilən aborigen əhaliyə köçürüldükləri yerlərdə heç bir şərait yaradılmır, iqlim dəyişməsi nəticəsində əhalimizin (deportasiya edilənlərin - İ.K) 30%-i dünyasını dəyişdi.

Köçürülmənin məcburi qaydada aparıldığını Ermənistandan köçürülməli olan azərbaycanlıların (kolxozçuların) sayından da bilmək olar. 1948-ci il - 10 min; 1949-cu il - 40 min; 1950-ci il - 50 min. Aydın məsələdir ki, bu cür planlaşdırma yalnız direktiv, məcburi köçürülmə halında mümkün idi. Ermənilər bu köçürməni düşünərək həyata keçirirdilər. Əgər 1948-1953-cü illərdə Ermənistandan 100 mindən artıq azərbaycanlı əhali deportasiya edilərək Azərbaycana köçürülməsəydi və bu köçürülmə ilə yanaşı mədəni-maarif ocaqları bağlanmasaydı, rəhbər kadrlar sıxışdırılıb çıxarılmasaydı, azərbaycanlı əhalinin təbii artımı nəticəsində 70-ci illərin sonunda Ermənistanda azərbaycanlıların sayı ermənilərin sayına nisbətən çoxluq təşkil edəcəkdi. Ermənilər bu cür iyrənc planı XX yüzilliyin 80-ci illərində də təkrar etdilər.

1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayəti Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın inzibati ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti DQMV XK-nin Konstitusiyaya zidd qərarını rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksutyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar (7, s. 107).

1988-ci ildə noyabrın ortalarında Azərbaycana 80 mindən artıq qaçqın pənah gətirmişdi. Qarşıdurma 1988-ci ilin noyabrında öz apogeyinə çatdı. Azərbaycan türkləri rus hərbiçilərinin köməyindən istifadə edən ermənilərin hücum və talanlarının müşayiəti ilə Ermənistanı tərk etməyə məcbur oldular. Bir çox ərazilərdə dəhşətli cinayətlər törədildi. Ümumiyyətlə, 1988-ci il ərzində Ermənistandan 200 min nəfərdən çox azərbaycanlı qovuldu, 185 yaşayış məntəqəsi boşaltdırıldı, 217 nəfər azərbaycanlı bu vəhşi aksiyanın qurbanı oldu (10, s. 41).

## ƏDƏBİYYAT

1. ARDA: f. 1061, siy. 1, iş 5, v. 1.
2. ARDA: f. 895, siy. 1, iş 1299.
3. ARDA: f. 970, siy. 1, iş 161.
4. ARDSPİHA. f. 277, siy. 2, iş 16, v. 18.
5. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, 536 s.
6. Nəcəfov B.İ. Deportasiya. III hissə, Bakı: Çaşıoğlu, 1998,212 s.
7. Deportasiya: Toplu. Bakı: Azərbaycan Ensiklopediyası, 1998, 440 s.
8. Erməni Sovet ensiklopediyası (erməni dilində). III c, I-XII cc, Yerevan, 1974-1984.
7. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, 464 s.
8. Ələkbərli Ə. Qədim Türk-oğuz yurdu "Ermənistan". Bakı: Sabah, 1994.
9. İsmayılov İ. İrəvan ərazilərinin dünəni və bu günü. Bakı: Şirvannəşr, 2001, 114 s.
10. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
11. Musayev İ.M. Osmanlı dövlətində ermənilərin durumu: tarixi gerçəkliklər və yalanlar. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 207 s.
12. Şirinoğlu V. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Bakı: Qartal, 2001, 176 s.

***İbrahim KAZIMBƏYLI***
***Naxçıvan Özəl Universiteti***

«**Xəbərlər.** İctimai və Humanitar elmlər seriyası. (AMEA-nın Naxçıvan bölməsi).».-2010.-№1.-S.84-89.

**Azərbaycanlıların soyqırımı: Faktlar və sənədlər**

Tarixin müxtəlif dövrlərində azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırım siyasəti müntəzəm surətdə ideoloji, hərbi və təşkilati xarakter daşımış, bu məqsədlə ən müxtəlif üsul və vasitələrdən istifadə edilmişdir.

Son 200 ildə Rusiya imperiyası Cənubi Qafqazda möhkəmlənmək, ermənilər isə Rusiyanın havadarlığına arxalanaraq tarixi Azərbaycan torpaqlarını ələ keçirmək, bu torpaqlarda erməni dövləti yaratmaq məqsədi güdüblər. Hələ 1721-ci ildə Qafqaza yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqavimətini nəzərə alaraq, "erməni kartmı" işə salmış, azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Bakı və Dərbənddə ermənilərin məskunlaşdırılması barədə göstəriş vermişdir. I Pyotrun xələflərinə ünvanladığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə etibarilə bolşevik Rusiyasının da Cənubi Qafqaz siyasətinin əsasını təşkil etmişdir. Həmin vəsiyyətə ilk əməl edən II Yekaterina 1768-ci ildə imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərman vermiş, 1802-ci ildə isə çar I Aleksandr Qafqaz canişini A.Sisianova konkret təlimat göndərmişdir: "Ermənilər nəyin bahasına olursa-olsun Azərbaycan xanlıqlarının ələ keçirilməsində istifadə olunmalıdır".

1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsi Şimali Azərbaycan torpaqlarının erməniləşdirilməsi prosesini sürətləndirdi. Türkmənçay müqaviləsindən dərhal sonra - 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" təşkil edildi. Bu, tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistanın faktiki təməli idi. Buradaca bir faktı qeyd edək ki, həmin vaxtın rəsmi statistikasına görə, "Erməni vilayəti"nin mərkəzi olan İrəvan şəhərində 7331 azərbaycanlı, 2369 erməni yaşayırdı. Buna paralel olaraq Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən, İrandan 40 min erməni İrəvan, Qarabağ və Naxçıvana köçürüldü. Analoji proses XIX əsrdəki Rusiya-Türkiyə müharibələrinin yekununda (1829, 1878) da özünü göstərdi. Türkiyə ərazisindən təxminən 85 min erməni köçürülərək sözügedən bölgələrdə məskunlaşdırıldı. Bu proses minlərlə azərbaycanlının doğma torpağından qovulması, qətlə yetirilməsi ilə müşayiət olunurdu.

XIX əsrin II yarısından başlayaraq ermənilərin azərbaycanlılara qarşı soyqırımı təşkilatlanmış və planlı siyasət kimi aparılmağa başlandı. Azərbaycan, Türkiyə və Gürcüstan ərazisində "Böyük Ermənistan" dövləti yaratmağı niyyətləyən ermənilər "Qnçaq" (1887-ci ildə Cenevrədə qurulub), Daşnaksütyun (1890, Tiflis), "Erməni Vətənpərvərləri İttifaqı" (1895, Nyu-York) kimi siyasi-terror təşkilatlarmı bu istiqamətə yönəltdilər. Sözügedən təşkilatların fəaliyyət proqramında əsas yeri azərbaycanlılara qarşı ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək tuturdu. 1905-1907-ci illərin Rusiya inqilabı bu təşkilatların fəaliyyəti üçün "geniş imkanlar" açdı. İnqilabi qarışıqlıqdan istifadə edən ermənilər Bakı, Şuşa, Zəngəzur qəzalarında, Qarabağda kütləvi qırğınlar törətdilər, 75 azərbaycanlı kəndini talan etdilər. 1905-1907-ci il inqilabından sonra azərbaycanlıların deportasiyası və soyqırımı prosesi örtülü şəkildə davam edirdi. Bunu Rusiya imperiyasının o vaxtkı statistik məlumatları da təsdiqləyir. 1916-cı ildə nəşr olunan məlumatlara əsasən, İrəvan quberniyasının əhalisi 1830-1914-cü illər ərzində 40 dəfə artaraq, 570 min nəfər təşkil edib. Lakin bunun müqabilində bölgənin azərbaycanlı əhalisinin sayı cəmisi 4,6 dəfə artmışdı. Hətta bu qədər sıxışdırılma və deportasiya müqabilində yenə 1916-cı ildə İrəvan əhalisinin təxminən 45 faizi, yəni 247 min nəfəri azərbaycanlılar idi.

1914-cü ildə başlanan I Dünya müharibəsi və onun gedişində Rusiyada baş verən inqilablar (1917-ci il) ermənilərin "Böyük Ermənistan" iddiası üçün əlverişli şərait yaratdı. 1915-ci ilin əvvəlində Türkiyənin şimal-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə və türklərə qarşı kütləvi qırğınlara başladı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən köçürülməsi barədə əmr verdi. Türkiyə ərazisindən erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura böyük sayda erməni əhalisi də köçüb gəlmişdi. Rusiya ordusuna arxalanan ermənilər əvvəlcə Naxçıvanda və İrəvanda, sonra isə Qarabağda və Azərbaycanın digər bölgələrində azərbaycanlılara divan tutmağa başladılar.

1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri faktiki başıpozuqluq şəraitindən istifadə edərək yerli müsəlman əhalisinə divan tutmağa başladılar. Nəticədə 1918-ci ilin mart ayında İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdıldı. Bu ərazidə yaşayan 135 min azərbaycanlı türkünün bir qismi ermənilər tərəfindən qətlə yetirildi, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur oldular.

Bu qırğınlara 1917-ci il dekabrın 16-da RSFSR Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş Stepan Şaumyan başçılıq edirdi. S.Şaumyana Cənubi Qafqazda sovetləşdirmə siyasətini həyata keçirmək, həmçinin Türkiyədə rus ordusunun işğalı altında olan yerlərdə "Türkiyə Ermənistanı" yaratmaq səlahiyyəti verilmişdi. I Dünya müharibəsinin gedişində baş verən dəyişikliklər də ermənilərin azğın planlarına uyğun idi. Lakin Brest-Litovsk (mart, 1918-ci il) sülh müqaviləsinin bağlanması nəticəsində Rusiya qoşunları işğal etdikləri Qars, Ərdəhan və Batumini tərk etməli oldular. Bu ərazilər

Türkiyəyə qaytarıldı. Öz növbəsində Türkiyə dövləti həmin vilayətlərin boşaldılmasını tələb etdi. İran və Türkiyə cəbhəsindən geri dönən rus və erməni əsgərlərinin bir qismi Bakıda yerləşdirildi. S.Şaumyan həmin qüvvələrdən azərbaycanlılara qarşı istifadə etmək qərarına gəldi. Həmin dövrdə isə Bakıda çox az sayda könüllü müsəlman əsgərləri var idi. Bu vəziyyətin özü də S.Şaumyana mənfur siyasətini həyata keçirmək üçün əlverişli imkan verirdi. Böyük qırğınlara başlamağa isə yalnız bəhanə lazım idi. Nəhayət, bəhanə də tapıldı. Müsəlman əsgərlərin Lənkəranda olan könüllülərə silah göndərmək istəyindən S.Şaumyan bəhanə kimi istifadə etdi. O, Lənkərana silah göndərilməsinin qarşısını almaq əmri verdi. Başlanan atışmada ölən və yaralananlar oldu. Bu hadisəni bəhanə edərək ermənilərlə rusların silahlı dəstələri azərbaycanlılara qarşı Bakıda görünməmiş qırğınlar törətdilər.

70 illik sovet ideologiyasının tarixşünaslığımıza tətbiq etdiyi "vətəndaş müharibəsi", "əks-inqilabi qiyam" kimi saxtalaşdırılan bu hadisələr bolşevik-daşnak ittifaqının xalqımıza qarşı yeritdiyi növbəti soyqırım siyasəti idi. Bu qırğının təşkilatçısı S.Şaumyan RSFSR XKS-yə 13 aprel 1918-ci il tarixli məktubunda etiraf edərək yazırdı: "Bizim süvari dəstəyə edilən silahlı hücumdan bir bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Biz artıq 6 min nəfərlik silahlı qüvvəyə malik idik. Daşnakların da 3-4 min nəfərlik silahlı milli hissələri var idi ki, o da bizim sərəncamımızda idi. Məhz onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilərdi". Göründüyü kimi, azərbaycanlılara qarşı aşkar genosid həyata keçirən ermənilər Bakı da daxil olmaqla bütün Azərbaycanı özlərinin ərazisi etmək niyyətində idilər.

Azərbaycandakı 70 illik sovet tarixi isə bizi gerçək tariximizdən uzaq saldı. Hətta dəhşətli genosidin qurbanı olmuş minlərlə soydaşımızın uyuduğu qəbiristanlığın üstünü betonlayaraq üzərində Kirovun möhtəşəm heykəlini qurmuş, ətrafda isə istirahət parkı salmışdılar. İllər boyu bu parkda istirahət edib, sovet hakimiyyətinin bizə bəxş etdiyi "bəxtəvərlik"dən dəm vuran bizlər təsəvvür etmirdik ki, ayaqlarımızın altında nələr var. Çünki o tarix və dəhşətlərin üstü sözün bütün mənalarında betonlaşdırılmışdı.

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qətliam və etnik təmizləmə isə sovet dövründə də davam edirdi. Sadəcə, o zaman bu proses qanun çərçivəsinə salınmışdı. Bu xüsusda Stalin dövrünün deportasiyasını, 1948-1953-cü illərdə 100 min azərbaycanlının Ermənistan SSR-dəki tarixi yurdlarından köçürülməsini ayrıca qeyd etmək lazımdır. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il dekabrın 23-də verilən qərarını ermənilər çoxdan gözləyirdilər. Anastas Mikoyan başda olmaqla ermənilərin Moskvada əyləşən liderləri "türksüz Ermənistan" uğrunda fəaliyyətə hələ Böyük Vətən müharibəsindən əvvəl başlamışdılar. Bu xüsusda əsas səbəb kimi o göstərilirdi ki, xaricdə yaşa-yan on minlərlə erməni mütəxəssisi Ermənistana qayıdaraq, sovet dövlətinin inkişafı və tərəqqisi naminə çalışmaq əzmindədir, lakin onların yerləşdirilməsi ilə bağlı problemlər var. "Optimal" çıxış yolu isə Ermənistan SSR-də qeyri-ermənilərin yaşadığı torpaqların boşaldılması idi. Azərbaycan SSR-in o vaxtkı rəhbərliyi bir müddət bu fəaliyyətin qarşısını ala bilsə də, Stalin ideyanı dəstəklədi və SSRİ hökumətinin "tarixi" qərarına imza atdı. Azərbaycanlıların yaşadığı 476 kənd tamamilə boşaldıldı. Nəhayət, 1987-1989-cu il deportasiyası Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləməni başa çatdırdı.

Növbədə isə Azərbaycanın öz ərazisində - Dağlıq Qarabağda etnik təmizləmə dururdu. Bu etnik təmizləmə isə kulminasiya həddinə 1992-ci ilin fevralın 25-dən 26-a keçən gecə çatdı. Belə ki, 1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən müdhiş, faciəli, tarixdə analoqu çox az olan hadisələrdən biri Qarabağın ən qədim insan məskənlərindən olan Xocalıda baş vermiş soyqırım oldu. Xocalı faciəsi XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

1998-ci ildən etibarən Azərbaycan xalqı martın 31-ni dövlət səviyyəsində azərbaycanlıların soyqırımı günü kimi qeyd edir. Belə ki, bu məsələyə əsl hüquqi-siyasi qiyməti Azərbaycanın öz müstəqilliyinə qovuşduqdan sonra vermək mümkün oldu. 1918-ci ilin mart hadisələrinin 80-ci ildönümündə Ümummilli lider Heydər Əliyevin imzaladığı sərəncam erməni millətçilərinin hərəkətlərinə verilən ilk siyasi qiymət oldu. 1998-ci il 26 mart tarixli bu sərəncam Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının formalaşdırılması üçün bir növ proqram sənədidir. Prezidentin müraciətində də əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırım və deportasiya siyasəti geniş təhlil edilmiş, 31 mart tarixinin azərbaycanlıların qan yaddaşı olduğu önə çəkilmişdir. Müraciətdə mart qırğınlarında erməni şovinistlərinin iştirakı birmənalı olaraq konkret faktlarla təsdiq edilmişdir.

***Zahid Oruc, millət vəkili***

**<u>“Milli Məclis”</u>**.-2010.-№3-4.-S.26-29.

**Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti**

Bu günlərdə ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsi qondarma "erməni soyqırımı" qanun layihəsini qəbul etmişdir. Tarixi həqiqətlərə aşkar etinasızlığın və dövlət mənafelərinin erməni lobbisinin maraqlarına qurban verilməsinin bariz ifadəsi olan bu qərar reallıqdan çox uzaq olub, ikili standartların daha bir nümunəsidir. Tarixdə heç bir erməni soyqırımının baş vermədiyini elmi həqiqətə sadiq olan Qərb alimlərinin özləri çoxdan sübuta yetirmişlər. Müəyyən maraqlar naminə belə saxta qərar qəbul edildi. Əslində tarix sübut edir ki, XIX əsrdən başlayaraq ermənilər Qafqazda və Türkiyə ərazisində işğalçılıq niyyətlərini həyata keçirmək və tarixi torpaqlarımız hesabına "Böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün ardıcıl olaraq hərbi və ideoloji vasitələrdən yararlanmış, XX əsr boyu Azərbaycan və türk xalqlarına qarşı dəhşətli soyqırımı cinayətləri həyata keçirmişlər. Erməni daşnaqları etdikləri cinayətləri ört-basdır etmək üçün bu yolu tutaraq, törətdikləri soyqırımları yüz illərdir ki, başqa xalqların üzərinə atır, onları günahkar çıxarmağa səy göstərirlər. Əslində isə tarix bunun tamamilə əksini deyir.

Ermənilərin Qafqaza köçürülməsi, yerləşdirilməsi və dövlətlərinin yaradılması ideyası I Pyotrdan başlayır. Lakin Rusiya öz məqsədinə XX əsrin əvvəllərində nail oldu. 1802-ci ildə çar I Aleksandr N.D.Sisianova yolladığı məktubunda göstərirdi ki, nə olursa-olsun ermənilər Azərbaycanın bu və ya digər xanlıqlarında istifadə olunmalıdır. IV-XIX əsrlər ərzində öz dövlətlərinə malik olmayan ermənilər dövlətlərini yaratmaq məqsədinə çatmaq üçün Rusiyanın imperiya siyasətinin həyata keçirilməsində alət rolunu oynayırdılar.

Rusiya ilə İran arasında gedən iki müharibənin sonunda imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının tarixində faciəvi rol oynamış və Azərbaycanın parçalanmasına gətirib çıxarmışdır. Türkmənçay müqaviləsinin 12,14 və 15-ci maddələri (2, s. 281, 282-283) "təbəə alış-verişi" ilə bağlı idi. İrandan ermənilərin köçürülməsi məsələsi ikinci Rusiya-İran müharibəsinin (1826-1828) gedişində Sankt-Peterburqda qaldırıldı. Rusiya Osmanlı dövlətinə qalib gəldikdən sonra isə Ədirnə (1829) müqaviləsinə əsasən, Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian istinadgahı yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan erməniləri kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, əsasən İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə köçürdü. İrəvan və Naxçıvan xanlıqlarını işğal etmiş general Paskeviç İrandan köçürülən ermənilərin hansı Azərbaycan torpaqlarına istiqamətləndirilməsi barədə konkret göstəriş də vermişdi: köçürülən erməniləri İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristian əhalinin sayı mümkün qədər artırılsın (5, s. 129-130). Nəticədə, 1828-ci ilin təqribən 4 ayında (fevral-iyun) İrandan Şimali Azərbaycana - İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə 8249 erməni ailəsi, yəni 40 min nəfər erməni köçürüldü (6, s. 131). Bir qədər sonra isə Şimali Azərbaycan torpaqlarına Osmanlı dövləti ərazisindən daha 90 min nəfərdən artıq erməni köçürülüb gətirildi (7, sənəd 829, s. 845).

Ermənilər Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə, yəni onlara daimi vətən yaratmaq niyyəti ilə köçürüldü. Bu köçürülməyə rəhbərlik edən erməni mənşəli rus polkovniki Q.Lazaryev İran ərazisindən Şimali Azərbaycana köçürülən ermənilərə müraciətlə deyirdi: "...Orada (Şimali Azərbaycanda İ.H.) siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz... İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların (yəni ermənilərin İ.H.) bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək, bundan sonra sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik" (6, s. 107-111).

Köçkün axını başlanan kimi heç bir qanuni əsas olmadan erməniləri Naxçıvanda və Qarabağda xan-bəy torpaqlarında yerləşdirməyə başladılar. Qriboyedov bununla bağlı yazırdı: "Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq üçün mövcud ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişik. Lakin Qarabağ və Naxçıvanda çar hökuməti tərəfindən elə bir siyasət yeridildi ki, öz başlarının hayına qalan xalq ermənilərin orada məskunlaşmasını unutmalı oldu" (3, s. 401-402).

Rus tədqiqatçısı N.Şavrov yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətinə Güney Qafqazda rus əhalisinin deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq. 1828-ci ildən 1830-cu ilə kimi biz Güney Qafqaza İrandan 40 mindən, Türkiyədən isə 84 mindən çox erməni köçürmüş və onları əhalisinin azlıqda olduğu Yelizavetpol (Gəncə İ.H.) və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən çox xəzinə torpağı ayırmış və onlar üçün 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdır. Yelizavetpol quberniyasının dağhq hissəsi (indiki Dağlıq Qarabağ - İ.H.) və Göyçə gölünün sahilində həmin ermənilər yurd saldı" (4, s. 82-83).

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında 1828-ci

ildə "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə əslində, azərbaycanlıların öz torpaqlarından qovulması, faciələrə düçar olunması siyasətinin bünövrəsi qoyuldu. Həm də, bununla Cənubi Qafqazdakı Azərbaycan torpaqlarında İrəvan və Naxçıvan xanlıqlarının ərazisində erməni dövləti yaratmaq üçün ilk addım atıldı. Qeyd etməliyik ki, ermənilərin köçürülməsi başa çatdıqdan sonra "Erməni vilayəti"ndə olan 1125 kəndin 1111-də azərbaycanlılar yaşayırdı.

Ermənilər bununla da tarixən düşündükləri "Böyük Ermənistan" xülyalarını həyata keçirmək sahəsində real addımlar atmağa başladılar. Azərbaycan torpaqları hesabına yaradılmış "Erməni vilayəti"ndə rusların bilavasitə köməyi sayəsində məskunlaşdırılan ermənilər bütün Qafqaz ərazisində tarixin təhrif olunmasında, azərbaycanlılara qarşı soyqırımın həyata keçirilməsində fəal rol oynadılar.

XIX əsrin ikinci yarısında Türkiyə, Gürcüstan və Azərbaycan ərazilərinin bir hissəsini tutub "Böyük Ermənistan" kimi millətçi, şovinist ideyasını həyata keçirmək istəyində olan ermənilər təşkilati strukturlar yaratmağa başladılar. Belə ki, əsasən xaricdə "Qnçaq" (1887, Cenevrə), "Daşnaqsütyun" (1895, Tiflis) partiyaları, "Erməni vətənpərvər ittifaqı" (1895, Nyu-York) təşkilatı yaratdılar. Bu partiya və təşkilatın yaradılması ilə "Böyük Ermənistan" iddiaları yeni mərhələyə daxil oldu. Bu ideyanı dəstəkləməklə ermənilərdən istənilən tarixi məqamda istifadə edən Rusiyada onların 2311 yerli təşkilatı fəaliyyət göstərirdi. Məhz Rusiyanın siyasi və hərbi dəstəyi nəticəsində XX əsrdə azərbaycanlılara qarşı mərhələlərlə vəhşiliklər törədilmiş, onlar zorla köçürülmüş və repressiya olunmuşdur.

Ermənilərin əsas ideyası "Böyük Ermənistan" və ya "Dənizdən dənizə dövlət" yaratmaq olmuş və bu yolda bütün vasitələrdən istifadə etmiş, o cümlədən kütləvi terror, soyğunçuluq və ölümün həyata keçirilməsi əsas kimi qəbul edilmişdir. Sonralar ermənilər bu terror fəaliyyətlərini guya nə vaxtsa onlara qarşı edilmiş "genosidin" intiqamı kimi pərdələməyə çalışmışlar. Əslində isə, XIX əsrin sonlarından başlayaraq ermənilər Osmanlı dövləti ərazisində, XX əsrin əvvəllərində isə yenə də Türkiyə, Azərbaycan, Gürcüstan və türklər yaşayan başqa ərazilərdə üsyanlar etmiş, soyqırımlar törətmiş, ən vəhşi üsullarla insanlığa yaraşmayan hərəkətlər etmişlər (8, 9, 10, 11 və s.).

Bütün tarixi mərhələlərdə həmin ideyam həyata keçirmək üçün ermənilər bütün vasitələrdən, ən iyrənc üsullardan, qatil və terrordan, yaranmış ictimai-siyasi vəziyyətlərdən istifadə etməyə çalışmışlar. Ermənilər "Böyük Ermənistan" yaratmaq xülyası ilə artıq neçə əsrdir ki, yaşayırlar. Onlar öz havadarları ilə birlikdə XX əsrin əvvəllərində, yəni 1905 1907-ci illərdə əvvəlcə Bakıda, sonra isə Azərbaycanın, eləcə də Qafqazın digər regionlarında azərbaycanlıların soyqırımını həyata keçirmişlər.

Azərbaycanın görkəmli yazıçısı Məmməd Səid Ordubadi "Qanlı illər" və Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" kitablarında (12, s.13) azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı ətraflı qələmə almışlar. Həmin kitablarda bəhs olunan hadisələr o zamanın mətbu nəşrləri, şahidlərin ifadələri və məktublar əsasında hazırlanıb. Məmməd Səid Ordubadi həmin əsərində yazırdı: "Süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladıldı və bütün Qafqaz aləmi bu bombanın təsiri şiddətindən yanıb-yaxıldı. Görəsən, o partlayıcı maddə həqiqətən bomba imiş" Bəli, bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı" (12, s. 13).

1905-ci ilin fevralında Bakıda başlanan erməni-müsəlman qırğınları bir təsadüf nəticəsində deyil, məhz bütün Qafqazın varlı ermənilərinin zaman-zaman topladıqları bir şəhərdə planlı şəkildə baş vermişdir. Ermənilər Bakıda erməni varlılarının köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Zaqafqaziyadan müsəlmanları silah gücünə qovub Ermənistan dövləti yaradacaqlarına əmin idilər. Fevralın 6-dan 10-na qədər Bakıda şiddətlə davam edən qırğınlar zamanı hər iki tərəfdən itkisi min nəfərə çatsa da ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşlar.

Bakıda başlanan erməni-azərbaycanlı qırğını may-iyun aylarında Gəncə, Qarabağ, Şirvan, Zəngəzur, İrəvan, Şuşa, Cəbrayıl, Cavanşir, Qaryagin və b. bölgələri də əhatə etdi.

1905-ci ilin may ayından başlayaraq Naxçıvan qəzasında da ermənilərin azərbaycanlılara qarşı qırğınları başladı. Bu qırğınları əks etdirən "Qnçaq" qəzeti özünün 26 may tarixli sayında yazırdı: "Dünən axşam saat 6-dək biz azərbaycanlılarla atışdıq. Bizə bunun üçün əlavə olaraq 166 müxtəlif tüfənglər paylanıldı, böyük sayda patronlar verildi, biz təmiz vicdanla şəhərimizi (gör ha! İ.H.) müdafiə etdik, türkləri layiqincə qırdıq. Qnçaqçılar 2, daşnaqlar isə 1 bombadan da istifadə etdilər Çoxlu türk evləri qarət edildi. Bizə silah paylayan adam yenidən silah dalınca getdi".

Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarca başqa şəhər və kəndləri əhatə etdi. Kazakların köməyindən istifadə edən ermənilər 1905-ci il noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qarət etdikdən sonra od vurdular. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv olmuşdur. Noyabr ayının 30-da Cəhri kəndinin yandırılmasında da kazaklar ermənilərlə birlikdə hərəkət etmişdilər. Həmin gün Naxçıvana gəlmiş İrəvan general-qubernatoru Paskeviç nəinki hadisələrin təfsilatı ilə maraqlanmamış, əksinə Cəhri kəndi tamam yanıb qurtarandan sonra, dekabrın 2-də kəndə yollanmış, naxçıvanlıların haqlı şikayəti ilə

bir daha qarşılaşmamaq üçün gecə ikən qatarla İrəvana qayıtmışdı (15, s. 140-141). Həmin ilin may ayında Ordubad qəzasının Tivi kəndində ermənilərlə azərbaycanlılar arasında baş vermiş münaqişə ilə əlaqədar buraya 500-ə yaxın əsgər və zabit göndərilmişdir. Sənədlərdən aydın olur ki, hərbi hissə kənddəki müsəlmanlara qarşı zor tətbiq etmiş, onları yurdlarından qovmuş, adamları öldürmüş, əslində isə ermənilərə kömək etmişlər.

Təxminən iki ilə qədər davam edən qanlı toqquşmalar nəticəsində Azərbaycan şəhərlərinə böyük zərər dəymiş, 300-dən çox müsəlman kəndi dağıdılmış, müxtəlif məlumatlara görə, ölənlərin sayı 80-100 min nəfərə çatmışdı. İki ilin hadisələri Azərbaycan tarixində ermənilər tərəfindən sonralar silsilə halını almış, xalqımıza qarşı soyqırımın ilk mütəşəkkil mərhələsi olmuşdur.

Keçən əsrin ikinci onilliyində ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1918-ci il soyqırımı daha geniş miqyas almış və daha amansız olmuşdur. Özlərini dünya ictimaiyyətinə "yazıq millət", "əzabkeş xalq" kimi qələmə verərək azərbaycanlılara qarşı kini, vəhşiliyi, soyqırımı Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Salyanda, Göyçayda və s. yerlərdə bolşevik adı ilə pərdələnmiş Ş.Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası hökumətinin əli ilə həyata keçirdilər. Bakı qırğınında Y.Korqanov və Petrovla birlikdə azərbaycanlı qanına susamış A.Mikoyanın, Hamazaspın, Avetisyanın, Lalayanın quldur dəstələri xüsusi fəallıq göstərmişlər. Bakıda erməni daşnaqları dinc əhaliyə üç gün divan tutmuş, 17 min azərbaycanlını məhv etmiş, müsəlman məhəllələrini talayıb-çapmış, "İsmailiyyə"ni yandırmış, bir neçə qəzet və jurnal redaksiyalarını dağıtmışlar. A.Mikoyanın "Qızıl qvardiyası"nın vəhşiliyi nəticəsində İçərişəhərdə yaralılar yatan xəstəxanaya od vurulmuş, 2 minədək xəstə yandırılmış, qaçanlar isə güllələnmişdi. "Bolşevik" Hamazasp, Əmiryan və digər erməni millətçiləri azərbaycanlılara qarşı törətdikləri vəhşilikdə heç də A.Mikoyandan, S.Şaumyandan geri qalmırdılar.

Bakı şəhərində soyqırımı bolşevizm bayrağı altında həyata keçirilirdi. Guya bolşeviklər hökumətə qarşı çıxış edən qüvvələrə divan tuturdular. Əslində isə bolşevik adı ilə pərdələnənlərin azərbaycanlılara qarşı törətdikləri milli qırğın idi.

Görkəmli dövlət xadimi Nəriman Nərimanov ermənilərin törətdikləri qırğınlardan dəhşətə gələrək yazırdı: "Müsəlman hətta bolşevik olsaydı belə ona aman vermirdilər. Daşnaqlar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir. Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular... Bolşevizm bayrağı altında daşnaqlar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hamilə qadınlara da rəhm etmirdilər" (17, s. 12-13).

Silahsız əhaliyə qarşı çox böyük silahlı qüvvə ilə çıxış edən bolşevik daşnaqları törətdikləri qırğınlardan həzz alırdılar. S.Şaumyan bolşevizm bayrağı altında qırğınlar törətsə də, baş vermiş qanlı faciələrdən vəcdə gələrək öz daşnaq simasını gizlədə bilməyib yazmışdı: "Şəhərlərimizin milli tərkibi bizi narahat edirdi. Biz mübarizənin arzuolunmaz xarakter alacağından qorxurduq. Biz hətta erməni polkunun yardımına belə əl atmalı olduq. Biz hətta onun köməyindən imtina etməyi mümkün hesab etmədik. Qələbə isə o qədər böyükdür ki, bu gerçəkliyə az kədər gətirir" (18).

Bakı ilə yanaşı, ermənilər Azərbaycanın digər şəhərlərində - Qərbi Azərbaycanda, Naxçıvanda, Zəngəzurda, azərbaycanlılar yaşayan başqa bölgələrdə onlara qarşı tarixdə görünməmiş qəddarlıq etmiş, azərbaycanlılara divan tutmuşlar. 1918-1920-ci illərdə azərbaycanlılara qarşı soyqırımı həm miqyas etibarı ilə, həm də vəhşiliyi ilə heyrət doğurur. Azərbaycanlıların yaşadıqları elə ərazi yox idi ki, orada erməni vəhşiliyi özünü göstərməsin.

Erməni quldurları Bakıdakı milli qırğınla kifayətlənməyib, 1918-ci ilin yazında Şamaxıda, Quba-Xaçmaz bölgələrində, Salyanda, Lənkəranda və başqa yerlərdə də azərbaycanlılara qarşı soyqırımı törətdilər.

Şamaxıda qırğın törətmək üçün 1918-ci ilin əvvəllərində oraya 2 min nəfər erməni və 65 araba silah göndərilmiş, ermənilər tam silahlandırılmışdılar. Lalayan və Əmiryanın başçılıq etdikləri erməni quldurları 15 minlik əhalisi olan Şamaxı şəhərini və qəzanın 58 kəndini dağıtmış, 12 mindən artıq soydaşımızı qətlə yetirmişdilər (16, s. 67).

Quba qəzasında ermənilərin apardıqları soyqırıma millətçi "Daşnaqsütyun" partiyası rəhbərlik edirdi. Hələ mart hadisələrindən qabaq S.Şaumyanın göstərişilə Hamazaspın dəstəsi cəza məqsədilə Quba şəhərinə göndərilmişdi. O, Quba əhalisinə müraciət edərək demişdi: "Mən erməni xalqının qəhrəmanıyam və onun maraqlarını müdafiə edirəm. Mən Qubaya cəza dəstəsilə ona görə göndərilmişəm ki, iki həftə bundan qabaq burada öldürülmüş ermənilərin heyfini sizdən alam. Mən buraya qayda-qanun yaratmağa, Sovet hakimiyyətini qurmağa görə yox, öldürülmüş ermənilərin qisasını almağa görə gəlmişəm. Mənə əmr edilib ki, Xəzər sahilindən ta Şahdağadək (Dağıstanadək) nə ki müsəlman var, hamısını qıram, ev-eşiklərini yerlə-yeksan edəm, erməni qardaşlarımızın intiqamını alam" (20, s. 83-84).

Daşnaq Hamazasp öz vəhşi niyyətini gizlətmədi və belə də etdi. Quba bölgəsində 122 müsəlman kəndi dağıdıldı, evləri yandırıldı, 10 mindən çox əhali vəhşicəsinə qətlə yetirildi. Son illərdə Quba şəhərində böyük insan kütləsinin vəhşi yollarla öldürülmüş məzarlığı aşkar olunmuşdur. Şəhərdə 165 ev və tikili yandırılmış, 32,8 milyon manat nağd pul, qızıl, daş-qaş ermənilər tərəfindən qarət edilmişdir. Quba-Xaçmaz bölgəsində

Hamazaspın quldur dəstəsi 8,5 milyon rubl qızıl pul və 25 milyon rubl məbləğində müxtəlif mallar qarət etmişdi. Əhaliyə 100 milyon rubl maddi zərər dəymişdi.

Gəncə quberniyası üzrə mart soyqırımı zamanı 115 kənd dağıdılmış, bu kəndlərdə kişili-qadınlı 10.066 nəfər azərbaycanlı öldürülmüş və şikəst olmuşdu.

1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar.

1918-1920-ci illərdə ermənilər Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, təkcə Zəngəzurda 115, Qarabağ-da 157, Qars əyalətində 92, İğdır və Eçmiədzin qəzalarında 60, Göyçə quberniyasında 22, Sürməli qəzasında 96, Yeni Bəyaziddə 84, Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi yerlə-yeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışlar. Daşnaqlar həmin illərdə Qərbi Azərbaycanda (indiki Ermənistanda) qədim ata-baba yurdlarında yaşayan 565 min azərbaycanlını məhv etmişdilər. Andranik Ozanyan Qarabağ, Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında azərbaycanlıları kütləvi surətdə qırmış, qılıncdan keçirmişdi.

Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvan bölgəsinə yiyələnmək xülyasına düşən daşnaqlar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür və bu ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədənlər içərisində "tayqulaq erməni daşnaq generalı" Andranik Ozanyan xüsusi yer tutur. Çünki bu qaniçən cəllad təkcə Gilançay və Əhncəçay hövzələrində 80-dən artıq kəndi viran qoymuş, əhalisini isə amansızlıqla qətlə yetirmişdir. Onun üzdəniraq sərkərdələrindən olan Nijde Ərəzin, Camaldın, Yaycı, Ordubad rayonunun Aşağı Aza, Sabir Dizə, Düylün, Vənənd, Dəstə, Kotam kəndlərini dağıdıb, əhaliyə divan tutmuşdur.

Həmin dövrdə Naxçıvanda yaranmış Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olmuş və onları qələmə almışdır. Aydın olur ki, Azərbaycanın bu qədim guşəsi və onun sakinləri də başqa torpaqlarımız kimi erməni millətçilərinin düşmən siyasətinin hədəfinə çevrilmişdir. Ərzurumda nəşr olunan "Kaf dağı" adlı qəzet Türkiyə qaynaqlarına əsaslanaraq məlumat vermişdir ki, 1918 1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73.727 nəfər azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür (25). Təsadüfi deyildir ki, 1921-ci ildə Naxçıvan bölgəsi əhalisinin sayı azalaraq 72 minə enmişdi.

Ümumiyyətlə, araşdırmalar nəticəsində sübut olunmuşdur ki, erməni hərbi birləşmələri 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda, tarixən həmişə Azərbaycan türklərinin yaşadıqları bölgədə 200 min, 1918 1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər.

Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri işləmiş N.Solovyov V.İ.Leninə "Çevrilişdən sonrakı iki ayda (may-iyun) Azərbaycanda bizim siyasətimiz" adlı hesabatında yazırdı: "Çevrilişə qədər hətta ziyalılar içərisində Sovet hakimiyyətinə müəyyən rəğbət var idi. Azərbaycan İnqilab Komitəsinin tərkibi azərbaycanlılardan seçilsə də, heç kimə sirr deyildir ki, onun üzərində partiyanın hegemonluğu vardır. Partiya rəhbərliyində isə ermənilər, gürcülər çoxluq təşkil edir. Onlar azərbaycanlıları, xüsusilə ziyalıları sağda-solda güllələyirdilər. Sanki onların apardıqları siyasət Azərbaycanı başsız qoymağa doğru istiqamətləndirilib. Küçələrdən kütləvi surətdə həbs olunaraq aparılan azərbaycanlılara qarşı ermənilərin istehzalı gülüşləri müsavatçıların əvvəlcədən söylədikləri belə bir fikri təsdiqləyir ki, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ümumiləşən fəlakətdir" (28, s.51). O, daha sonra yazırdı ki, "Ermənistan Respublikası yaranarkən onun hüdudlarında 250 müsəlman kəndi var idi, onlar hamısı məhv edilmişdir, indi orada bir nəfər də müsəlman yox-dur" (28, s.52).

Göründüyü kimi, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirmişlər. Bu dövrdə, 20-30-cu illərdə, eləcə də müharibədən sonrakı dövrdə ermənilər azərbaycanlıların həbs edilərək Sibirə göndərilməsində, xalq düşməni adı altında güllələnməsində, din xadimlərinin və görkəmli ziyalıların məhv edilməsində, əsassız repressiyaların günahsız insanlara qarşı tətbiq olunmasında çox böyük rol oynamışdır. Azərbaycan millətinin qatı düşmənləri tərəfindən onun ən yaxşı övladlarının siyasi qərəzçiliklə məhv edilməsi belə bir kədərli faktla sübut olunur ki, Azərbaycandakı 51 rayondan 31-də Xalq Daxili İşlər Komissarlığı rayon bölməsinin başında ermənilər dururdular. Astara dairəsində Arakelov, Astraxanbazarda Comardyan, Zəngilanda Zərdəryan, Samuxda Petrosyan, Masallıda Avenesov, Lənkəranda Movsesyan, Tovatov, Naxçıvanda Akopyan, Ağacanyan, Akopov, Ceyranov, Zakyan, Parşeqov, İonesyan, Şıxanyan, Bakıda isə cəza orqanlarının Mərkəzi aparatında Sumbatov-Topuridze, Markaryan, Koqan, Silman, Borşov, Yemelyanov, Mailyan və b. başçılıq edirdilər (28, s. 419). Bütün bunlar etnik təmizləmə siyasətinin tərkib hissəsi kimi sonrakı illərdə davam etdirilib.

Rəsmi məlumatlara görə, 1937-ci ildə Azərbaycanda 100 min nəfərdən artıq adam etaplarla sürgün edilmiş, 3 min kəndli məhv edilmiş, "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdi. Hüquq-mühafizə orqanları sistemində ermənilərin çoxluq təşkil etməsi onların azərbaycanlılara qarşı daha dəhşətli formada həyata keçirilməsinə imkan verirdi.

Müharibə illərində A.Mikoyan və digər ermənilər Stalini azərbaycanlıların guya xəyanət edə biləcəklərinə inandıra bilmiş və 1942-ci il dekabrın 7-də Azərbaycan əhalisinin hamılıqla Orta Asiya və Qazaxıstana sürgün edilməsi haqqında məxfi qərar verilməsinə nail olmuşdular. Lakin respublika rəhbərliyinin göstərdiyi səylər Stalini fikrindən daşındırmış, cinayətin həyata keçirilməsinə imkan verməmişdir.

Xəbis niyyətlərindən əl çəkməyən erməni daşnaqları müharibədən sonrakı dövrdə Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyasına nail olmuşlar. 1948-1953-cü illərdə 144654 nəfər, 1988-1992-ci illərdə isə 250 min soydaşımız indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdundan zorla çıxarılmış və 229 nəfər azərbaycanlı isə vəhşicəsinə qətlə yetirilmişdir.

Son illərdə Dağhq Qarabağdakı 80 yaşayış məntəqəsindən 60 min azərbaycanlı doğma ocaqlarından didərgin salınmış, işğal olunmuş 7 rayondan 700 min azərbaycanlı ev-eşiyini tərk edib respublikanın 58 rayon və yaşayış məntəqələrində məskunlaşmışdır. Hərbi əməliyyatlar nəticəsində respublikamızın 10 şəhəri, 876 kənd, 700 ictimai bina, 693 məktəb, 862 mədəniyyət sarayı və klub, 652 tibb məntəqəsi, o cümlədən 191 xəstəxana, 160 körpü, 800 km avtomobil yolu, 15 km elektrik xətti dağıdılmış, 30 mindən artıq soydaşımız qətlə yetirilmiş, 52 milyard ABŞ dolları dəyərində maddi ziyan vurulmuşdur (31).

Erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımı dünya tarixində analoqu olmayan vəhşilikdir. Erməni vəhşiləri 613 nəfəri xüsusi qəddarlıqla öldürmüş, 1275 nəfər əsir düşmüş , 7 ailə büsbütün məhv edilmiş, 230 ailə öz başçısını itirmişdir. Bu qanlı qırğın zamanı qətlə yetirilənlərin 109 nəfəri 2 yaşına qədər olan uşaqlar idi (32, s.6).

Hiylə, məkr, xəyanət, terror vasitələri ilə silahlanmış erməni cəlladları ən görkəmli dövlət və siyasi xadimlərimizə, elm və mədəniyyət nümayəndələrimizə qarşı açıq və gizli şəkildə təxribatlar törətmiş, bir qisminin həyatdan getməsinə səbəb olmuşlar.

Yaradılanda 10 min kv km əraziyə malik olmayan Ermənistan Respublikası Azərbaycan torpaqlarının işğalı hesabına ərazisini 30 min kv km-ə çatdırmış, bununla da ərazi iştahası azalmamış, "Böyük Ermənistan" yaratmaq üçün bu gün də hər cür hiylə və vasitələrə əl atır.

Göründüyü kimi, iki əsrdir ki, məkrli və qaniçən erməni cəlladları Azərbaycan xalqına qarşı soyqırımı siyasəti yeritmiş, soydaşlarımızı qətlə yetirmiş, repressiya və deportasiyaya məruz qoymuş, etnik təmizləmə aparmış, ərazilərimizin bir hissəsini işğal etmiş və bu gün də yeni ərazilər tutmaq fikirlərindən əl çəkməmişlər. Nəticədə, xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.

Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı müxtəlif mərhələlərdə törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək bizim mühüm vəzifəmiz olmalıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Deportasiya. Toplu. Bakı, 1998, 440 s.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, 328 s.
3. Qriboyedov A. Seçilmiş əsərkri, 2-ci cild, Moskva, 1977
4. Шавров Н. Новая угроза русскому делу в Закавказье. СПб, 1911
5. Йениколопов Ы. Грибойедов и Восток Ереван, 1954
6. Глинка С.Н. Описание переселения армян Азербайджанских пределы России. Москва, 1831
7. Акты, собранные Кавказскому Археологическому Комиссию (АКАК), Тбилиси, 1872
8. Ermənilər: sürgün və köç (Hikmet Özdemir... ve başk.). Ankara, Türk Tarih Kurumu, 2004, 223 s.
9. Osmanlı belgelerinde ermeni isyanları. Dörd cildds. Ankara, I, II c, 2008; III, TV c, 2009
10. Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920). Ankara. 2001, 682 s.
11. Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (ХГХ-ХХ əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı, 2003. 368 s.
12. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991; 144 s.
13. Mir Möhsün Nəvvab. 1905-1906-cj illərdə erməni-müsəlman davası. Bakı, 1993, 128 s.
14. Əliyev Mirzə Bağır. Qanlı günlərimiz (1918-1920) (Naxçıvan). Bafa, 1993, 141 s.
15. Cəfərli E. Naxçıvanda erməni - Azərbaycan münaqişəsi. Bakı, 2009, 280 s.
16. Qəniyev Ş. 1918-ci il Şamaxı soyqırımı. Bakı, 2003, 228 s.
17. Sitat Azərbaycan tarixi dərsliyindsn (11-cı sinif) götürülmüşdür. Bakı, 2000
18. Həbiboğlu V. Azərbaycanda 1918-ci il soyqırımının əsas təşkilatçısı Stepan Şaumyan olmuşdur// Respublika, 1 mart 1999

19. Qəniyev Ş. 1918-ci il Şamaxı soyqırımı. Bakı. 2003 // Yeni fikir, 28 sentyabr 1991, Azərbaycan, 14-15 mart 1998, Respublika, 31 mart 2001

20. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırımı. Qaçqınlar. Bakı, 1998, 280 s.

21. Quba qaçqınları haqqında // Azərbaycan, 27 dekabr 1998. 22, 24, 30 aprel 1999 // Xalq qəzeti, 14-16 may, 28 may 1993

22. Quliyev V. Azərbaycanda erməni zülmü. Bakı, 1999, 228 s.

23. Qafarov. Azərbaycan tarixi. Bakı, 1999, 279 s.

24. Рагимов К Андраник и геноцид в Азербайджане (1918-1920 г.)//Зеркало, 7, апрел 2001

25. "Kafdağı" qəzeti (Türkiyə), Erməni məsələsinə aid xüsusi buraxılış, 2001, № 4

26. Qədirzadə H.Q. Böhtanlar, iftiralar və tarixi həqiqətlər // Sovet Naxçıvanı, 5 sentyabr 1989

27. Siyasi tarix. I hissə. Bakı, 1995, 180 s

28. Azərbaycan tarixi. Yeddi cilddə. c.6. Bakı. 2008, 568 s.

29. Sərdarov Z. Ən böyük tarixi ədalətsizlik // Xalq qəzeti, 26 dekabr 1997

30. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997, 260 s.

31. Məmmədov N. Tarixi həqiqətlərin dili ilə // Ekspress, 6 aprel 2001

32. Sultanov Z. Xocalı faciəsi. Bakı. 1993, 104 s.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri***

**"Dirçəliş-XXI əsr"**.-2010.-№143-144.-S.142-152.

**Tariximizin qan yaddaşı: soyqırımlar və deportasiya**

İndiki Ermənistan və ona bitişik ərazilərdə pərakəndə halında yaşayan ermənilərin öz müstəqil dövlətlərini yaratmaq arzularına ilkin təkan verən amillərdən ən başlıcası hələ XVI-XVII əsrlərdə Səfəvilərlə Osmanlı Türkiyəsi arasında uzun sürən müharibələr olmuşdur. Səfəvi hökmdarları Türkiyə ilə mübarizədə bir sıra Avropa ölkələrinin köməyinə arxalanmaq üçün xristian agentlərdən - erməni tacirlərdən və din xadimlərindən istifadə etmişdilər.

Şah Abbasın verdiyi 1605-ci il fərmanı ilə şahlığın ərazisində pərakəndə yaşayan ermənilərin yığcam halda yaşamaları üçün xüsusi ərazilər ayrılmış, xarici ticarətlə məşğul olan ermənilər üçün geniş imtiyazlar verilmişdir. Tezliklə ermənilər bir sıra Avropa ölkələri ilə, ilk növbədə Fransa, İtaliya, Pruşsiya ilə ticarət əlaqələri yaratmışdılar.

1608-ci ildə I Şah Abbas Xoca Səfərin başçılığı ilə Avropaya gedən nümayəndə heyəti vasitəsilə Roma papasına, İspaniya kralına, Venesiya dojuna məktublar göndərmişdir (8, s. 79). Bu ölkələrdə olarkən Xoca Səfər şahın məktubundan əlavə ermənilərin Roma papası və Avropa ölkələrinin başçılarına məktubları olduğunu bildirmişdir. Yaxın Şərqdə maraq dairəsi baxımından ermənilərə ən əlverişli himayəçi Rusiya ola bilərdi. Rus çarlarının xarakterini öyrənən ermənilər yəqin etmişdilər ki, hədiyyə adı altında rüşvət verməklə onları öz tərəflərinə çəkə və nəticədə öz istəklərinə nail ola bilərlər. Bu məqsədlə erməni taciri Xoca Zakar Sarhada 1660-cı il avqustun 28-də çar Aleksey Mixayloviçə «ermənilərə qarşı xüsusi lütfkarlığına görə» qiymətli hədiyyələr vermişdir. Bu hədiyyələrdən biri hazırda Moskva Kremlinin Silahlar Palatasında saxlanılan Almaz taxtdır.

Avropanın real köməklik göstərməyəcəyinə əmin olan İsrail Ori bu işdə yalnız Rusiyaya arxalanmaq qənaətinə gəlmişdir. O, 1701-ci il oktyabrın 28-də arximandrit Minas Vartapedlə birlikdə I Pyotrun qəbuluna gəlir və ona qiymətli türk mallarını hədiyyə gətirir (8, s. 135). Onlar I Pyotrun isti boğazlara çıxmaq və İstanbulu ələ keçirmək üçün nə dərəcədə alışıb-yandığını bildirdilər. İsrail Ori saraya öz proqramını - erməni dövləti yaratmaq üçün İrana 25 minlik qoşun göndərməyi təklif etmişdir. Ciddi hazırlıqdan sonra 1707-ci ildə Ori polkovnik rütbəsində 50 nəfərlik nümayəndə heyətinin başçısı kimi İrana yola düşdü. Şübhə oyatmamaq üçün onu Şah Hüseynə Roma papasının nümayəndəsi kimi təqdim edirlər. 1711-ci ildə Orinin ölümündən sonra onun işini Minas Vartaped davam etdirir.

1723-cü il sentyabrın 12-də Rusiya-İran müharibəsinin nəticəsi olaraq bağlanmış müqaviləyə əsasən Gilan, Mazandaran, Astarabad əyalətləri, Bakı və Dərbənd şəhərləri Rusiyanın tabeliyinə keçir. Noyabrın 10-da I Pyotr həmin ərazilərdə ermənilərin köçürülüb yerləşdirilməsi üçün fərman verir.

1726-cı il fevralın 22-də I Yekaterina da ermənilərin yüksək mərhəmətə və himayəyə layiq görülmələri haqqında fərman verir (8, s. 177). XVIII əsrin II yarısında ermənilər yenidən fəallaşır. Onlar Rusiyanın himayəsi ilə Osmanlı Türkiyəsi ilə İran sərhədlərinin kəsişdiyi ərazilərdə Ermənistan dövləti yaratmağı təklif edirlər. Lakin II Yekaterinanın ölümü onların bu işini yarımçıq saxlayır.

1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üstündə yerləşən Türkmənçay kəndində bağlanan müqavilə ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyulur. Bu müqavilə ilə İrəvan və Naxçıvan xanlıqları bütünlüklə Rusiyanın ərazisinə qatılır. Martın 20-də I Nikolay bu müqaviləni təsdiq edir və ertəsi gün «Erməni vilayəti» yaradılması haqqında fərman verilir. «Erməni vilayəti», İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. Bu müqavilənin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilir.

1828-ci il oktyabrın 1-də Qriboyedov Paskeviçə göndərdiyi məktubda göstərir ki, Naxçıvan əyalətində ermənilərin köçürülməsi nəticəsində qarışıqlıq və sıxıntı yaranmışdır. Beləliklə, 1829-cu il fevralın 26-dan iyunun 11-dək 8249 erməni ailəsi İrandan köçürülərək İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür (4, s. 73).

İndiki Ermənistan ərazisinə ermənilərin kütləvi axını XIX əsrin əvvəllərində baş verən Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra da da-vam etmişdir. Bu müharibələrdən sonra erməni vilayətinə İran və Türkiyədən 57266 nəfər erməni (10.631 ailə) köçürülmüşdür (8, s. 175). 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə erməniləri köçürülmüşdür. Nəzərə almaq lazımdır ki, 124.000 rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıq olmuşdur. Ermənilərin indiki Ermənistan ərazisinə axını 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra daha da güclənmişdir. 90-cı illərdə Türkiyədə baş verən erməni üsyanları nəticəsində 400 minə yaxın erməni yenə Qafqaza köçüb gəlmişdir.

Belə bir şəraitdə 1905-1906-cı illəri əhatə edən və tarixə «erməni-müsəlman münaqişəsi» adı ilə düşən qanlı faciələr baş verdi. 1905-ci ildə Rusiyanın özündə baş verən iğtişaşlar, çarizmə qarşı narazılıq dalğasının güclənməsi Zaqafqaziyada güclü əks-səda doğurmuşdur. Bu qarışıqlıqdan ermənilər məharətlə istifadə etdilər.

Rusiyanın hakim şovinist dairələri də zərbəni özlərindən yayındırmaq üçün ermənilərin antitürk kampaniyasını qızışdırırdılar.

«Azərbaycanlıların soyqırımı haqqında» fərmanda göstərildiyi kimi, «Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi» (10, s. 9).

XX əsrin əvvəllərində Yaxın Şərqdə öz nüfuz dairəsini genişləndirmək uğrunda böyük dövlətlər arasında mübarizə kəskinləşmişdi. Bu regionda İngiltərə, Fransa, Rusiya və Almaniyanın xüsusi maraqları var idi. I Dünya müharibəsi zamanı Almaniya ilə müttəfiq kimi çıxış edən Türkiyənin vəziyyəti ağırlaşmışdı. Rusiyanın I Pyotr zamanından boğazlara və İstanbula yiyələnmək arzusu yenidən baş qaldırmışdı. Türkiyə boğazlarda Rusiyanın təhdidindən qorxaraq öz mövqeyim saxlamaq üçün Almaniya ilə müttəfiq olmuş və müharibə başlanandan bir gün sonra, yəni avqustun 2-də Türkiyə-Almaniya ittifaqı haqqında müqavilə imzalamışdı. Müqaviləyə əsasən oktyabrın 29-da Türkiyə-Rusiya müharibəsi başlanır. Noyabrın 1-də Rusiya Türkiyəyə rəsmi olaraq müharibə elan edir (9, s. 127).

1917-ci ildə Rusiyada çar hakimiyyəti devrildikdən sonra Almaniya və Avstriya cəbhələrində xidmət edən minlərlə erməni əsgəri öz silahları ilə daşnakların niyyətlərini həyata keçirmək üçün Bakıda cəmləşmişdilər. 1918-ci ilin mart ayının sonu Azərbaycan xalqının qanlı və faciəli günləri kimi tarixə düşmüşdür. Martın 31-də başlayan bu qırğın 3 gün davam etdi. Şəhidlərin sayı təxminən 15 min nəfər olmuşdur.

1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra daşnak hakimiyyəti dövründə qədim ata-baba yurdlarından didərgin salınaraq Azərbaycana, İrana, Türkiyəyə və Gürcüstana sığınmış müsəlman qaçqınların bir hissəsi geri qayıtmağa müvəffəq olmuşdur. Lakin Ermənistan hökumətinin müqavimətinə baxmayaraq, artıq 1922-ci ildə 100 min qaçqın doğma yurdlarına qayıtmışdı. 1926-cı ildə Ermənistanda 743.573 erməni, 84.717 türk siyahıya alınmışdısa, 1939-cu ildə 1.062.000 erməni 1.300.800 türk qeydə alınmışdır. Müqayisədə ermənilər 42,7%, türklər isə 56,8% artmışdı (13, s. 138). Türklərin yüksək artımı erməniləri narahat edirdi. 20-ci illərin sonu və 30-cu illərin əvvəllərində bütün Sovet İttifaqında həyata keçirilən kollektivləşmənin ən sərt tədbirləri Ermənistanda yaşayan azərbaycanlılara qarşı tətbiq edilmişdir. İlk növbədə ata-babadan varlı olanların mal-qarasını əllərindən alıb, kolxoz təsərrüfatına qatır, özlərini isə «qolçomaq» damğası ilə Qazaxıstana və Sibirə sürgün edirdilər.

Ermənistanda azərbaycanlılara qarşı 1918-1920-ci illərdə və 1930-1938-ci illərdə repressiya aksiyası həyata keçirilməsinə baxmayaraq, Ermənistanın Türkiyə və İran sərhədləri, eləcə də Azərbaycan və Gürcüstan sərhədləri boyunca yenə də azərbaycanlılar yaşayırdılar. Ermənistan rəhbərlərinin qarşısında duran başlıca vəzifə İrəvan ətrafında və Türkiyə ilə sərhəd boyu münbit torpaqlarda yaşayan azərbaycanlıları həmin ərazilərdən köçürməyə nail olmaqdan ibarət idi. Bunun üçün isə ilk növbədə Moskvanın razılığı alınmalı idi. Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün məsələ qaldırmaq fürsətini onlar ilk dəfə 1943-cü ildə Tehran konfransı zamanı əldə etmişdilər.

1945-ci ildə Ermənistan KP MK-nin I katibi Q.Harutyunov yenidən Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırır. Stalin həmin məktubu G.Malenkova, o da Bağırova göndərir. Bağırov cavab verir ki, etiraz etmir, lakin o şərtlə ki, Ermənistanın, Gürcüstanın və Dağıstanın azərbaycanlılar yaşayan və tarixən Azərbaycanın olmuş əraziləri onun özünə qaytarılsın.

1945-ci ilin noyabrında Ermənistan hökumətinin vəsatətini əsas götürərək SSRİ hökuməti xaricdə yaşayan ermənilərin sovet Ermənistanına köçürülməsi işinin təşkili haqqında qərar verir. Ermənistan hökuməti yanında repatriantların (vətənə qayıdanların) qəbulu və yerləşdirilməsi üzrə xüsusi komitə yaradılır. Artıq 1946-cı ilin əvvəllərində 130 min erməni Ermənistana köçmək arzusunda olduğunu bildirir.

Dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar qəbul edir (13, s. 17).

SSRİ Nazirlər Soveti 10 mart 1948-ci ildə 4083 saylı qərara əlavə olaraq «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» 754 saylı qərar qəbul edir (13, s. 21).

Bundan sonra 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar...»

1989-cu ildə SSRİ hökuməti 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi. Ümummilli liderin 18 dekabr 1997-ci il tarixli fərmanı həmin illərdə

xalqımıza qarşı həyata keçirilmiş tarixi cinayətə hüquqi siyasi qiymət verilməsi, onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması üçün zəmin yaratmışdır.

60-cı illərin ortalarında Ermənistanda aparılan milli ayrı seçkilik siyasəti nəticəsində İrəvan və onun ətraf rayonlarından minlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdu. 1962-1973-cü illərdə xaricdən Ermənistana 26 min erməni gəlmişdi. Təbii ki, ermənilərin gətirilməsi oradan azərbaycanlıların kütləvi surətdə deportasiyası ilə nəticələnmiş, on minlərlə azərbaycanlı əhalinin Azərbaycana köçməsinə səbəb olmuşdu.

1983-cü il aprelin 24-də ermənilər «genosid» gününü bəhanə edərək Masis (Zəngibasar) rayonunun mərkəzində azərbaycanlılar yaşayan evlərə basqın etmiş, qəbiristanlığı dağıtmışdılar. 1984-cü ildə Azərbaycan xalqının qəddar düşməni Z.Balayanın «Ocaq» kitabının dərc edilməsi Ermənistanda azərbaycanlılara qarşı düşmənçilik hisslərinin qızışmasına səbəb oldu.

Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratmı təyinetmə pərdəsi altın-da Azərbaycana qarşı planlarının həyata keçirilməsinə mane ola biləcək şəxsin - ulu öndərimiz Heydər Əliyevin 1987-ci ilin oktyabrında erməni lobbisinin təzyiqi ilə keçmiş Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Sovetinin I müavini vəzifələrindən uzaqlaşdırılmasından sonra rəvanda DQMV-ni Ermənistana birləşdirmək tələbi ilə mitinqlər keçirildi.

Beləliklə, keçmiş ittifaq rəhbərlərinin cinayətkar fəaliyyətsizliyinin buna şərait yaratması, Azərbaycan rəhbərliyinin bu hadisələrə vaxtında düzgün qiymət verə bilməməsi nəticəsində Ermənistan rəhbərliyinin və hüquq mühafizə orqanlarının bilavasitə iştirakı ilə 50.149 ailəni təşkil edən 243.682 nəfər azərbaycanlı qısa müddət ərzində əsrlər boyu yaşadıqları dədə-baba yurdlarından vəhşicəsinə qovuldular.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət arxivinin materialları (f.l; 267; 274; 276; 277).

2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin materialları (f. 28; 412; 524; 894; 897; 970; 1061).

3. Azerbaycan Belgilerinde ermeni sorunu (1918-1920). T.C.Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Ankara: Cümhuriyyet Arşivi Dairə Başkanlığı, 2001,682 s.

4. Arzumanlı V., Mustafayev N. Tarixin qara səhifələri. Deportasiya, soyqırım, qaçqınlıq. Bakı, 1998, 280 s.

5. Cemal A. Tarihin işığında erməni dosyası. II baskı, İstanbul, 2001,496 s.

6. Koçaş M.S. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, 1998, 160 s.

7. Məmmədov İ. Tariximiz, torpaqlarımız, taleyimiz. Bakı, 2003, 700 s.

8. Məmmədov N. Erməni təcavüzü və tarixi həqiqətlər. Bakı, 2001, 80 s.

9. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, 328 s.

10. Nəcəfov B. Deportasiya. Bakı, 1998, 218 s.

11. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993, 148 s.

12. Ordubadi M.S. Qanlı illər. 1905-1907-ci illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 2001, 144 s.

13. Paşayev A. Köçürülmə. Bakı, 1995, 428 s.

14. Rusiyanın Van və Ərzurumda baş konsulu Mayevskinin xatirələri. Bakı, 1994, 62 s.

***Həmzə CƏFƏROV, Abdulla MUSTAFAYEV***
***Naxçıvan Dövlət Universiteti***

«**Xəbərlər.** İctimai və Humanitar elmlər seriyası. (AMEA-nın Naxçıvan bölməsi).».-2010.-№1.-S.24-29.

**Ermənistanın Azərbaycana qarşı ərazi iddiası — Xocalı soyırımı**

***Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, vətəninə sədaqətinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır-vəhşiliyin görünməmiş bir təzahürüdür.***

***Heydər ƏLİYEV***

XX əsrin əvvəllərindən bu günümüzədək ermənilər Azərbaycanın türk-müsəlman xalqına qarşı şovinist-millətçi siyasət yürütmüşlər. İki əsrdə ermənilər Azərbaycan türklərinə qarşı bəşər tarixində görünməmiş vəhşiliklər, soyqırımları, deportasiyalar həyata keçirmişlər. Azərbaycanlı əhali ermənilər tərəfindən bir əsrdə iki dəfə soyqırıma məruz qalmışdır. XX əsrin əvvəllərində Zaqafqaziyada üç müstəqil respublika Azərbaycan, Ermənistan və Gürcüstan yaradıldıqdan sonra Ermənistan öz sərhədlərini genişləndirməyə, qonşulara qarşı ərazi iddialarına başladı. Əslində rus imperiyasının köməkliyi ilə yaratdıqları indiki Ermənistan Respublikasının ərazisi də onların ata-baba yurdu olmamışıdır. 1918-ci ildə Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı (sonradan İrəvan quberniyası) ərazisində bəyan edilmiş Ermənistan Respublikasının 9 min kv.km olan ərazisi, sonradan qonşulardan, əsasən də Azərbaycandan müxtəlif yollarla qopardılan torpaqların hesabına böyüyərək 29 min kv. km-ə çatmışdır. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tarixinə nəzər salarkən görürük kı. ermənilər hələ bir neçə əsr bundan əvvəl irəli sürdükləri "Böyük Ermənistan" ideyası naminə qonşu xalqlara daim təcavüz etmiş, hüquqlarını tapdalamış, hətta onları məhv etməklə öz "daşnaq" ideyalarını hissə - hissə həyata keçirməyə müvəffəq olmuşlar. Sovet İttifaqında başlanan bədnam yenidənqurma və aşkarlıq siyasəti ermənilərə məhz bu fürsəti verdi. Ermənistandakı və mərkəzdəki ideya ilhamçılarının tövsiyələri, şovinist "Daşnaqsütyun", "Krunk" və " Qarabağ" təşkilatlarının proqram bəyanatları əsasında hərəkətə gəlmiş erməni terror maşını işğalçılıq siyasətinin əsas hədəfi kimi Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunu seçdi. Sovet İttifaqı və o zamankı respublika rəhbərliyinin cinayətkar məsuliyyətsizliyi nəticəsində Dağlıq Qarabağdakı separatçı qüvvələr bölgədə yaşayan azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasətlərini həyata keçirməyə başladılar. Müxtəlif vasitələrlə cürbəcür don geyindirməyə çalışdıqları bu ərazi iddiaları 1988-ci ildən başlayaraq daha aşkar və intensiv şəkildə davam etməyə başladı.

1988-ci il fevralın 13-də saat 10-da ermənilər Xankəndidə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbilə ilk mitinqlərini keçirdilər. Hələ 1987-ci ildən Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi problemlərini bəhanə edən millətçi ünsürlər çirkin niyyətli planlarını həyata keçirməyə başlamışdılar. Tarix göstərir ki, erməni tayfaları Ermənistanda sovetlər dövründə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün DQMV-də gizli işlər aparan erməni siyasətbazları və ermənipərəstlər "türksüz Ermənistan" ideyası ilə etnik təmizləmə aparmış, minlərlə azərbaycanlı ailəsi öz ata-baba yurdları Qərbi Azərbaycandan (indiki Ermənistan ərazisindən) deportasiya edilmişlər (8).

Bu vəhşilikləri edən ermənilərin əsas məqsədi Azərbaycanın yerli əhalisini - azərbaycanlıları sıxışdıraraq ərazisini mənimsəmək, burada erməni dövləti yaratmaq olmuşdur.

Ermənilərin XIX əsrdə Cənubi Qafqaza kütləvi köçürülməsi ilə onların Azərbaycan xalqına qarşı ərazi iddiaları və etnik təmizləmə prosesi həmin əsr boyu davam etmişdir.

Tarixi proseslərin ardıcıl izlənməsi Qarabağ ərazisində ermənilərin yerləşdirilməsinin Rusiyanın strategiyası ilə bağlı olduğunu göstərir. Belə ki, Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələrindən sonra Rusiya İran və Türkiyədən Azərbaycan ərazisinə 200 mindən artıq erməni köçürdü. Bununla da Qafqazda xeyli miqdarda erməni kütləsi topladı və qədim türk torpağı İrəvanı mərkəz etməklə ilk erməni dövləti yaratdı. XIX əsrin erməni tədqiqatçıları belə hesab edirlər ki, ermənilər qaraçılardan, daha dəqiq desək "qəddar ürəkli" - ayk (hayk) adlandırılan köçəri tayfalardan əmələ gəliblər. Bəzi Avropa tarixçilərinin dediyinə görə, onların ilk vətəni balkanlar olub. XX əsrin əvvəllərindən etibarən aparılan "antiazərbaycan" siyasəti nəticəsində 1923-cü ildə ikinci erməni inzibati mərkəzi - DQMV yaradıldı (4, s. 20).

Dağlıq Qarabağ ərazisinə köçürülən erməniləri yerləşdirmək, Qarabağın demoqrafiyasını ermənilərin xeyrinə dəyişmək üçün azərbaycanlılar müxtəlif üsullarla ərazidən çıxarıldı. Ermənilər süni ədavət yaratmaqla, Azərbaycana qarşı öz ərazi iddialarını ardıcıl və planlı şəkildə davam etdirməklə, etnik təmizləmə siyasətindən sonralar da əl çəkmədilər. Yerli əhalini qorxudaraq yurd-yuvasından didərgin salmaq, torpaqlarını mənimsəmək üçün hər hansı hadisə üstündə azərbaycanlılar kütləvi şəkildə cinayət məsuliyyətinə cəlb edildi, əsassız olaraq cəzalandırıldı (7, s. 23). Ermənilərin yeritdiyi siyasətin mahiyyəti Veliçkonun qeydlərində aşkar görünür:

"Haqqında danışılan siyasətbazlar (ermənilər) bölgənin müsəlman əhalisini xəbərdar edirlər və müsəlmanların şərəfinə toxunurlar ki, onların torpaqlarından gələcəkdə istifadə etsinlər" (12).

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından sıxışdırılması siyasəti sonrakı dövrdə daha geniş vüsət aldı. Sovetlər dövründə də ermənilər Azərbaycana qarşı öz ərazi iddialarını vaxtaşırı olaraq XX əsrin 80-ci illərinin sonlarına qədər davam etdirdilər (5).

SSRİ-nin dağılması ərəfəsində dünyanın müxtəlif ölkələrində kök salmış erməni təşkilatlan və erməni mafiyası ilə müxtəlif yollarla əlaqə saxlayan DQMV-də yaşayan ermənilər guya Azərbaycan hökumətinin onlara qarşı milli ayrı-seçkilik siyasəti yeritməsini, buna görə də onların sosial vəziyyətlərinin ağır olmasını bəhanə gətirərək separatizmə başladılar (11).

Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə iddiası nəticəsində 1987-ci ildən etibarən Ermənistan SSR-də etnik təmizləmə siyasətinə başlandı. Bu zaman 240 min nəfərdən artıq azərbaycanlı zorla öz ata-baba yurdlarından çıxarılaraq Azərbaycana qovuldu (8, s. 22). Öz mənfur niyyətlərini həyata keçirmək üçün erməni ideoloqları 1988-ci ildə "Böyük Ermənistan" uydurmasını ortaya ataraq Azərbaycana qarşı ərazi iddiasını canlandırdılar.

SSRİ-də "yenidənqurma»nın başlanması ilə paralel olaraq milli ədavət qızışdırıldı. 1988-ci ilin fevralından etibarən Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində vəziyyət kəskin şəkildə gərginləşdi. 1988-ci il iyunun 16-da Ermənistan SSR Ali Sovetinin sessiyası belə bir qərar qəbul etdi: "DQMV Xalq Deputatları Sovetinin növbədənkənar sessiyasının 20 fevral 1988-ci il tarixli qərarını hərtərəfli öyrənib, Dağlıq Qarabağda və onun ətrafında yaranmış mürəkkəb vəziyyəti, Dağlıq Qarabağın və Ermənistanın erməni əhalisinin arzusunu nəzərə alıb və "millətin öz müqəddəratını təyin etmək hüququ haqqında" SSRİ Konstitusiyasının 70-ci maddəsini rəhbər tutaraq DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə keçməsinə razılıq veririk".

İyunun 17-də isə Azərbaycan SSR Ali Soveti bu qərarı qanunsuz. konstitusiyaya zidd, başqa respublikanın daxili işlərinə qarışmaq kimi qiymətləndirib rədd etdi və bununla da öz işini bitmiş hesab etdi. 1988-ci il iyunun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ" məsələsinə həsr olunmuş xüsusi iclası keçirirdi. İclasın gedişində Qorbaçovun ermənipərəst mövqeyi açıq-aydın bilinirdi. Uzun müzakirələrdən sonra SSRİ Ali Sovetinin Rəyasət Heyəti Ermənistan SSR Ali Sovetinin sessiyasının DQMV-nin Ermənistana birləşdirilməsi haqqında 15 iyun 1988-ci il tarixli xahişini və Azərbaycan SSR Ali Sovetinin 17 iyun 1988-ci il sessiyasında bunun yolverilməz olduğunu elan edən qərarlarını müzakirə edərək DQMV-nin Ermənistana birləşdirilməsini qeyri-mümkün hesab edir bu qərarı qəbul edərkən SSRİ Ali Soveti SSRİ Konstitusiyasına uyğun olaraq belə hesab edir, respublikaların sərhədləri onların öz razılıqları olmadan dəyişdirilə bilməz. "Güman etmək olardı ki, bu qərardan sonra hər şey yoluna düşəcək, təəssüf ki, əksinə oldu. S.Kaputikyan Ermənistan televiziyası ilə çıxış edərək xalqı inandırmağa çalışırdı ki, o, Zori Balayanla birlikdə M.Qorbaçovla görüşüb söhbət etmiş, Qarabağın taleyini həll etmişik demişdir. Azərbaycan rəhbərliyi isə susur, xalqı kütləvi informasiya vasitələri bu işdən Moskvanın xəbəri olmadığına inandırmağa çalışırdı. Elə bu vaxtlarda Azərbaycan torpaqlarına sahib olmaq məqsədilə Şuşa şəhəri yaxınlığındakı Topxana meşəsində SSRİ Əlvan Metallurgiya Nazirliyinin Ermənistanda yerləşən Kapaker alüminium zavodunun filialının tikilməsi barədə xəbər Azərbaycanda xalqın ayağa qalxmasına səbəb oldu. 18 gün davam edən mitinqlər dekabrın 7-də Bakıya yeridilən Sovet qoşunları tərəfindən yatırıldı. 1988-ci ilin sonlarında artıq qaçqınların sayı müntəzəm şəkildə artmağa başladı.

Artıq 1989-cu ilin fevral ayında Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqda qərar qəbul edən erməni separatçıları bölgədə ədavəti qızışdırmaq və münaqişə yaratmaq üçün azərbaycanlılara qarşı silahlı basqınlar törətməyə başladılar. 1989-cu il yanvar ayının 12-də Moskvada M.Qorbaçovun sədrliyi ilə SSRİ Ali Soveti Rəyasət Heyətinin keçirdiyi iclasda tarixi qərar verildi: Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində Muxtar Vilayət statusunu saxlamaqla DQMV-də müvəqqəti olaraq xüsusi idarə forması tətbiq edilsin. A.İ. Volskinin sədrliyi ilə DQMV-nin Xüsusi İdarə Komitəsi yaradılsın. Yaradılmış Xüsusi İdarə Komitəsi Moskvaya tabe edildi. Ermənilərə də bu lazım idi. Bu komitə qayda-qanun yaratmaq əvəzinə mövcud vəziyyəti daha da kəskinləşdirirdi. Bunu görən xalq Volski hökumətinin ləğv olunmasını tələb edirdi. Volski isə azərbaycanlıların Qarabağdan köçürülməsi ilə məşğul idi. 1989-cu ilin sentyabr ayının 15-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı, xüsusi idarə komitəsinin ləğvi, qadağan saatının götürülməsi haqda qərar qəbul edildi. Elə həmin il həmin ayın 1-də Ermənistan SSR Ali Soveti öz sessiyasında yenidən DQMV-ni Ermənistana birləşdirmək haqqında qərar qəbul etdi, daha sonra DQMV-nin 1990-cı il üzrə sosial-iqtisadi planını və büdcəsini Ermənistan SSR-in plan və büdcəsinə daxil etdi. Bu açıq-aşkar Azərbaycana müharibə elan edib, meydan oxumaq idi. Mitinqlər. nümayişlər bütün Azərbaycanı bürümüşdü. Ə.Vəzirov iqtidarı ilə xalqın arasındakı ziddiyyətlər son həddə çatmışdı. Bütün bunlar Azərbaycan tarixinə qanlı hərflərlə yazılan 20 Yanvar faciəsinə gətirib çıxardı. Yanvarın 19-dan 20-nə keçən gecə 133 nəfər dinc əhalinin ölümüylə, 700-dən çox insanın yaralanması ilə nəticələnən Qanlı Yanvar hadisəsi baş verdi.

Xankəndidə nəşr olunan "Sovetskiy Karabax" qəzeti 10 iyul 1990-cı il tarixli sayında "Artsax iqtisadi suverenlik qazandı" adlı məqalə çap etmiş və bu münasibətlə Volskinin xidmətlərini xüsusi vurğulayırdı. Doğrudan da Volski DQMV-ni müstəqil bir quruma çevirdi, idarələri isə Ermənistana tabe etdi. 1992-ci ildə artıq Dağlıq Qarabağın 65 min azərbaycanlı vətəndaşı yaşayan 53 kəndi ermənilər tərəfindən boşaldılmışdı.

Getdikcə geniş vüsət alan münaqişə müharibəyə çevrildi. Azərbaycanın əzəli bölgəsi olan Qarabağın şəhər və kəndləri Ermənistan və rus hərbi dəstələrinin hücumlarına məruz qaldı.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə XX əsrin ən dəhşətli faciələrindən hesab olunan, tarixə məlum olan Babiyar, Xatın, Liditse, Sonqimi faciələri ilə eyni səviyyədə duran Xocalı soyqırımı baş verdi. 1992-ci il fevralın 26-da Ermənistan qoşunları Rusiya Federasiyasının silahlı qüvvələrinin 366-cı qvardiya motoatıcı polkunun köməyi ilə Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan etdi. Həmin dəhşətli gecə ermənilər nə uşaqlara, nə qocalara, nə də qadınlara aman verərək onları görünməmiş vəhşiliklə qətlə yetirdilər (6). 613 nəfər Xocalı sakini məhv edildi, 1271 nəfər dinc sakin girov götürüldü. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Soyqırımı zamanı 1000 nəfər dinc sakin müxtəlif dərəcəli yara aldı, 106 nəfər qadın, 83 nəfər azyaşlı uşaq, 70 nəfər qoca öldürüldü. 76 insan, həddi-buluğa çatmamış gənc oğlan və qız əlil oldu. Meyitlər və əsir düşənlər qeyri-insani hərəkətlərlə təhqir edildi. Onların başı və digər bədən üzvləri kəsildi, başlarının dərisi soyuldu, uşaqların gözləri çıxarıldı, hamilə qadınların qarınları yarıldı. Erməni silahlı qüvvələri bütün beynəlxalq normalara zidd olaraq əsirlərə qarşı qeyri-insani rəftar etdilər. Onlar Cenevrə Konvensiyasının bütün maddələrinə, protokollara zidd olaraq qaçıb canını qurtarmaq istəyən dinc sakinlərin yollarını kəsdilər işgəncələr verdilər, məhv etdilər (6).

Xocalı faciəsini işıqlandırmaq üçün 32 ölkədən 47 jurnalist iştirak edirdi. Həmin jurnalistləri Xocalı faciəsinə başçılıq edən Yuri Zaviqarov təlimatlandırır, çəkilişlər aparmağa , qeydlər götürməyə şərait yaradırdı. Onlar dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər ki, "azərbaycanlılar günahsız erməniləri qırdılar". Ermənilər Azərbaycanı qan tökməklə günahlandıran materialları təkrar-təkrar çap etdirirdilər. Məsələn, ermənilər "azərbaycanlılar Xocalını yandırıb getdilər" reportajını 49 dəfə dünya mətbuatında çap etdirdilər.

Xocalı soyqırımında iştirak edən hərbi hissələrin birinin əks-kəşfiyyat bölməsinin rəisi, polkovnik V. Savelyev özünün "Məxfi arayışında erməni terror təşkilatlarına Rusiya qoşun birləşmələrinin birlikdə keçirdikləri hərbi əməliyyatları izləyərək, bütün olub-keçənlərin şərhini verərək etiraf edirdi: "Mən bütün bunları yazmaya bilmərəm. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmərəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım arayışı həm Kremlə, həm SSRİ Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin generalına göndərdim. Oxuyun, dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi". Jurnalist Y.Pompeyev "Qarabağ qan girdabında" kitabında yazır: "Xocalı hadisəsi Hitler faşizminin Xatın kəndində törətdiyi müsibətlə müqayisədə daha dəhşətli idi. Ermənilər bu qəddar terror aktı ilə öz vəhşiliklərini bütün dünyada bəyan etdilər. Xocalıda yalnız ölülər qaldı"(9). Bu müsibəti gözləri ilə görən jurnalist V.İvleva isə bu faciəni belə təsvir edir: "Xocalının küçələrində buluda bənzər nəyinsə hərəkət etdiyini gördüm. Bu bulud yarıçılpaq insanların toplusu idi. Bu dəstənin sonunda üç uşaqlı qadın gedirdi. O, qar üzərində ayaqyalın çətinliklə yeriyir və tez-tez yıxılırdı. Sən demə onun uşaqlarından biri ikigünlük imiş. Digər yüzlərlə azərbaycanlılar kimi bu qadının taleyini mən televiziya lentlərindən izlədim. Bu televiziya lentlərində səs zolağı operatorun hönkürtüsündən ibarət idi. İnsanların eybəcərləşdirilmiş cəsədləri qar üzərində qalaqlanmışdı." "İlk dəfə fevralın 28-də iki hərbi vertolyotla hadisə yerinə gəldik. Böyük bir sahə insan meyitləri ilə dolu idi. Təyyarəçilər vertolyotu yerə endirməyə qorxurdular. Çünki həmin ərazi artıq ermənilərin nəzarəti altında idi. Buna baxmayaraq biz vertolyotdan çıxdıq və bu zaman güclü atəşə məruz qaldıq. Gördüyümüz mənzərədən şoka düşmüşdük. İki nəfər isə bu dəhşətdən huşunu itirdi. Martın ikisində xarici jurnalistlərlə hadisə yerinə qayıdanda artıq meyitlər tanınmaz, dəhşətli hala salınmışdı. Onların üzlərində təhqiredici əməliyyatlar aparılmışdı". Bu açıqlama isə bu soyqırımı ilk dəfə lentə alan telejurnalist Çingiz Mustafayevindir. Qanlı olayları gözləri ilə görüb lentə çəkən Janiv Yunet isə yazır: "Biz Xocalı faciəsinin şahidi olmuşuq. Yüzlərlə ölənlərin meyitlərini gördük. Onların arasında qadınlar, qocalar, uşaqlar və Xocalının müdafiəsində duran adamlar var idi. Bizim ixtiyarımıza vertolyotlar verildi. Hündürlüyə qalxaraq havadan gördüklərimizi kameraya çəkirdik. Mən müharibə haqqında çox eşitmişəm, alman faşistlərinin qəddarlığını oxumuşam, ancaq ermənilərin törətdikləri vəhşiliklər onları kölgədə qoymuşdur. "İzvestiya" qəzetinin müxbiri V.Bellax isə başları kəsilmiş insan cəsədlərini görüb yazırdı: "Ağdama çoxlu meyitlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdi. Meyitlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdi. Bır neçə meyit zirehli maşınlara qoşularaq sürüklənmişdi. İşgəncələrin həddi-hüdudu yox idi. "Haydad", "Asala" erməni terror təşkilatlarının maliyyə dəstəyi ilə Xocalıya gələn erməni mənşəli avropalı jurnalistlər bu faciəni Azəri türklərinin etdiyi haqda məlumatlarla dünyanı aldatmağa çalışırdılar. Bütün bu cəhdlər həqiqətə əsaslanmadığı üçün puça çıxdı. Vəhşiliyi, qan-qadanı ilk dəfə görən avropalı erməni jurnalistlərdən biri gördüklərini belə ifadə etmişdi:

"Xocalıda qətlə yetirilmiş 100 nəfərin cəsədini yan-yana düzərək körpü düzəltmişdilər. Mən bu körpüdəki cəsədlərin üzərindən keçəndə, ayağımı körpə bir uşağın sinəsinə qoyanda elə titrədim ki, fotoaparatım, bloknotum, qələmim yerə düşərək körpənin al qanına bulaşdı. Özümü itirdim, tir-tir titrədim". Bəlkə də bu günahsız körpənin qanı bu etirafı etdirdi. O günlərdə xarici mətbuatda da bu faciənin dəhşətlərindən bəhs edən xəbərlər dərc olunurdu. "Vaşinqton-Post" qəzeti yazırdı: " Dağlıq Qarabağ qurbanları Azərbaycan şəhərində torpağa basdırılıb. Qaçqınlar deyirlər ki, ermənilərin hücumu zamanı yüzlərlə adam həlak olub. Onlardan 7 nəfərini bu gün göstərdilər, 2-si uşaq, 3-ü qadındır. "Tayms" qəzeti: "Erməni əsgərləri yüzlərlə qaçqın ailəni qırıblar. Sağ qalanlar xəbər veriblər ki, erməni əsgərləri 450-dən artıq azərbaycanlını güllələyiblər, onlardan çoxu uşaq və qadınlardır..." "onlar atəş açırdılar, atəş açırdılar, atəş açırdılar" - deyə Xocalıdan Ağdama qaçmış Raziyə Aslanova bildirib ki, əri və oğlu öldürülüb, qızı isə itkin düşüb. "İzvestiya" qəzeti: "Video-kamera qulaqları kəsilmiş uşaqları göstərib. Yaşlı qadınlardan birinin üzünün yarısı göstərilib. Kişilərin baş dərisi soyulub". Tomas Qolts erməni əsgərlərinin törətdikləri qırğınlar barədə məlumat verən ilk reportyordur. Xocalı sadə Azərbaycan şəhəri olub. Ötən həftə şəhər yer üzündən silinib. "Fayneyşl Tayms" qəzeti bildirirdi ki, "ermənilər Ağdama gedən qaçqın kalonunu güllələyib. Azərbaycanlılar 1200 meyit sayıblar. Livandan olan reportyor təsdiq edir ki, varlı daşnaq icması Qarabağa silah və adam göndərir". "Le Mond" qəzeti: "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında 3 nəfərin baş dərisi soyulmuş, dırnaqları çıxarılmış meyit görüblər. Bu Azərbaycan təbliğatı yox, reallıqdır". Bolqarıstanda çıxan "Nie" qəzeti Xocalı faciəsinə bütöv bir nömrə həsr etmişdi. V.Parvanovanın "Xocalı bəşəriyyətin faciəsidir" adlı böyük bir məqaləsi bolqar ictimaiyyətini olanlardan hali edərək, hadisələrə insani qiymət verilməsinə çağırmışdı: "Hər dəfə Xocalıda sağ qalmış insanlarla görüşüb söhbət edəndə düşünürəm ki, ölənlər bir dəfə öldü, amma bu guya sağ qalıb əslində isə mənəvi şikəst olanlar isə gündə min dəfə ölüb-dirilirlər. O faciəni gözləri ilə görüb, dəhşətləri yaşayan, doğmalarının, əzizlərinin görünməmiş vəhşiliklərlə öldürülməsinin şahidi olanların həyatının hər anı əzabdır, işgəncədir. Onlar üçün də, bizim üçün də nə qədər çətin, ağrılı olsa da, danışmalıyıq, unutmamalıyıq. Heç olmasa, bu dəhşətlərin bir də təkrar olunmaması xatirənə. Xocalıdan danışan, içindəki yanğını, dərdi boğa-boğa boğulan insanların ürəyi, arzusu. ümidi şəhiddir. Bu dirigözlü şəhidləri dinləyin, dözmək çətin olsa da dözərək dinləyin".

**10 yaşlı Ramil Həsənov:** "Ermənilər gələndə meşəyə qaçdım. 3 gün ac-susuz orada qalmışam. Susuzluqdan ölürdüm, çoxlu qar yemişəm".

**4 yaşlı Fuad Gülməmmədov:** "Ermənilər məni tapança ilə ayağımdan vurdular".

**Sənan Abdullayev** o günləri belə xatırlayır: "Bir gün meşədə qaldıqdan sonra ermənilər bizi tapıb Əsgərana gətirdilər. Anam, atam, 16 yaşlı bacım meşədə öldü. Ruslar, ermənilər, sırğalı zəncilər uşaqların gözü qarşısında mənə işgəncələr verirdilər. Sonra bizi içərisinə su doldurulmuş zirzəmiyə saldılar. Suda boğulmamaq üçün uşaqları bir gün əlimdə saxlamışam".

**Camal Orucov:** "16 yaşında oğlumu güllələdilər. 23 yaşlı qızımı iki əkiz oğlu ilə, 18 yaşlı hamilə qızımı əlimdən aldılar".

**Xədicə Abdullayeva:** " Bir sutka meşədə qaldıqdan sonra atam, anam və 16 yaşlı bacım şaxtaya tab gətirmədilər. Sağ qalan xocalılarla birgə məni də girov götürdülər. Bizi ac-susuz. döşəməsinə su doldurulmuş zirzəmidə saxladılar. Bir daşnaqla dəyişdırıldım. İndi iki ayağımdan da məhrumam."

**Mizə Allahverdiyev:** "Ermənilərin hücumundan sonra meşəyə çəkildik. 3 gün ac-susuz qaldıqdan sonra bizi tutub Əsgəranda ölüm kamerasına saldılar. Hər gün bir neçə adamı işgəncə ilə öldürürdülər. Qızıl dişlərimi kəlbətinlə çıxardılar, iki qabırğamı sındırdılar. Atamı, qardaşımı, qardaşım oğlunu öldürdülər. 18 gündən sonra bir alt paltarında bizi dəyişdirdilər".

**8 yaşlı Xatirə Orucova:** "Gözümün qabağında atamı, anamı və 6 yaşlı bacımı öldürdülər. Mənə də güllə dəyib".

**Gülalı Mehrəliyev:** "Altı günə kimi meşədə qaldıq. Ac-susuz, gecələr meşənin vahiməsi, soyuq, erməni qorxusu yazıq qızımın bağrını yardı. Nakam balam dözə bilmədi, keçindi. Balamın 20 yaşı vardı, 8 ay idi gəlin köçmüşdü. Sağ qalıb, min bir çətinliklə Ağdama gəlib çıxdım. Amma qızımın meyitindən nigaranam. Bircə onu gətirib basdırsaydım, bəlkə bir az rahatlanardım"(6).

Zavallı xocalılar, arzu etdiyiniz o azca rahatlığı ermənilər o soyuq, müdhiş fevral gecəsində əlinizdən bir yolluq aldılar. Nə qədər ki, haqq, ədalət bərpa olunmayıb, torpaqlarımız alınmayıb, nə dirilərin ürəyi, nə də şəhidlərin ruhu rahatlıq tapacaq. Ermənilər belə faciəni yaşamış olsaydılar dünyanı ayağa qaldırardılar.

Yalnız böyük siyasətçi ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu faciə siyasi qiymətini ala bildi. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olundu, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin qərarı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edildi. Erməni silahlı qüvvələri Dağlıq Qarabağı bütövlükdə və 7 rayonu qan tökə-tökə işğal etdi. Bu işğal nəticəsində 20 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 50 min nəfərdən çox insan əlil olmuş, 4

mindən çox insan əsir və itkin düşmüş, girov götürülmüşdür. Bır milyondan çox Azərbaycan vətəndaşı öz ata-baba yurdlarından qovularaq məcburi köçkünə çevrilmişdir. Bütün dünyanın gözü qarşısında bu vəhşilikləri törədən ermənilər heç bir beynəlxalq qanuna, hüquqi normalara məhəl qoymur və dünya susur. Dünya susduqca onlar daha da azğınlaşır və Azərbaycanın maddi və mənəvi sərvətlərini qəddarcasına talan edir, od vurub yandırırlar. Bu alovun dilləri göylərə bülənd olduqca Azərbaycanın dərdini dünyaya hayqırır, təəssüf, çox təəssüf ki, dünya bu hayqırtını ya eşitmir, ya da eşitmək istəmir. Ümummilli liderimiz Heydər Əliyev Xocalı soyqırımı haqqında demişdir: "Bu qəddar və amansız soyqırımı aktı insanlıq tarixinə ən dəhşətli kütləvi terror aktlarından biri kimi daxil oldu"(6).

Bu hərbi-siyasi cinayət zamanı 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi, 56 nəfər şəhid oldu, xüsusi amansızlıq və qəddarlıqla diri-diri yandırıldı. Ümumiyyətlə, işğala haqq qazandırmaq üçün erməni təbliğatçılarının ortaya atdığı saxta ərazi iddiaları zaman-zaman xalqımıza böyük bəlalar gətirdi. Təəssüf ki, Ermənistanın hərbi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilmədi, bu dəhşətli cinayət cəzasız qaldı. Beynəlxalq Cenevrə Konvensiyasına əsasən, Ermənistan Respublikasına qarşı sanksiyalar tətbiq edilməli olduğu halda, bu cinayətin iştirakçılarının heç biri cəzalandırılmadı.

İkrah hissi yaradan məsələlərdən biri də Xocalı faciəsini törədən erməni mənfurlarının bu faciə üzərində siyasi oyunbazlıqlarıdır. Belə ki, onlar xarici ölkə mətbuatında yalanlar uydurur, Xocalı faciəsinin faktlarını qəsdən əksinə izah edir, heç bir əndazəyə sığmayan iftiralar yayırlar: bu vəhşiliyi, guya, azərbaycanlılar ermənilərə qarşı edib. Xocalı faciəsi, guya, azərbaycanlıların özləri tərəfindən törədilib.

Dünya birliyi və beynəlxalq təşkilatlar Ermənistanın bu təcavüzünün qarşısını almaq üçün vaxtında təsirli tədbirlər görmədiyi üçün "həvəslənən" ermənilər Azərbaycan Respublikasının 14 min kv. km (20 %-ni) ərazisini işğal etdilər (1).

Ümumiyyətlə, ermənilərin Azərbaycana qarşı təcavüzü zamanı 20 mindən çox adam öldürüldü. 50 minədək adam yaralandı və ya şikəst oldu. 4 min nəfər əsir düşdü, yaxud girov götürüldü. 1 milyonadək azərbaycanlı ev-eşiyini itirdi. 100 mindən çox yaşayış evi, 1 milyondan çox iqtisadi obyekt, 600-dən çox məktəb və tibb müəssisəsi yandırıldı, talan edildi və 100 milyonlarla dollar dəyərində şəxsi əmlak, dövlət əmlakı, maddi sərvətlər işğal olunmuş ərazilərdən Ermənistana daşındı. Erməni vandalizmi nəticəsində azərbaycanlılara məxsus minlərlə tarix və mədəniyyət abidəsi dağıdıldı, muzey eksponatları və kitabxanalar məhv edildi.

Hələ o zaman Azərbaycan Prezidenti, ulu öndərimiz Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlı Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların və dünya dövlətlərinin laqeydliyini önə çəkərək "ATƏT-in sərhəd və ərazilərin toxunulmazlığı prinsiplərinə Azərbaycan həmişə tərəfdar olmuşdur" deməklə beynəlxalq təşkilatların. dünya səviyyəsində böyük nüfuza malik dövlətlərin Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq üçün təsirli tədbirlər görmədiyini təəssüflə ifadə edirdi (2, s. 10). Ermənistan isə bir qayda olaraq beynəlxalq təşkilatların və dünya dövlətlərinin bəyanat və xəbərdarlıqlarına məhəl qoymayaraq Dağlıq Qarabağ probleminin həll edilməsinə "kompromislər" bəhanəsi ilə mane olmaqda davam etmişdir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində qətiyyətli və sərt mövqe tutması və hücum diplomatiyasına üstünlük verməsi bu məsələyə barmaqarası baxan beynəlxalq təşkilatların, xüsusilə ATƏT-in Minsk Qrupunun fəaliyyətinin canlanmasına səbəb oldu. Bu istiqamətdə məntiqi ardıcıllıqla atılan qətiyyətli diplomatik addımlar qarşı tərəfi reallıqla, ədalətlə barışmağa məcbur etməyə başladı. Hələ Azərbaycan Respublikasının baş naziri olarkən İlham Əliyev sentyabrın 24-də BMT Baş Məclisinin 58-ci sessiyasında çıxışı zamanı demişdir: "Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin "mövcud reallıq" əsasında həll variantı ilə heç zaman razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir" (3, s. 62). Azərbaycan dövlətinin beynəlxalq təşkilatlarda apardığı diplomatik səylər nəticəsində respublikamızın ərazi bütövlüyünün bərpa edilməsində onu dəstəkləyən dövlətlərin sayı artsa da, ermənilərin işğalçı siyasəti günbəgün ifşa edilsə də, Azərbaycan hökumətinin haqq işini dəstəkləyən dövlətlərin Ermənistana təzyiqi güclənsə də, təəssüf ki, Ermənistan-azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də öz həllini tapmamışdır. Belə ki, Azərbaycan dövlətinin ATƏT-in Minsk qrupu üzvləri ilə, ATƏT üzvü olan dövlətlərlə apardığı fəal və məqsədyönlü işin Azərbaycanın Dağlıq Qarabağ probleminin ədalətli və sülh yolu ilə həllinə yaxınlaşdırsa da münaqişə hələ də həll edilməmişdir.

1992-ci ildə birbaşa Xocalı faciəsinə başçılıq edən Serj Sarkisyan Ermənistan prezidenti seçildikdən sonra, elə bu yaxınlarda verdiyi müsahibələrində bir daha bu vəhşiliyi, bu qəddarlığı törədən "qəhrəman" kimi utanmadan, çəkinmədən danışır.

"BBC", "Moscou Times" və "The Times of London" mətbuat agentliyində çalışan jurnalist "Çornıy Sad" kitabının müəllifi Tomas de Vaala verdiyi müsahibəsində yazır: "Hazırkı Ermənistan prezidenti Serj Sarkisyandan Xocalının işğalı barəsində soruşduqda o, ehtiyatla cavab vermişdir: "Biz bu haqda danışmaq

istəməzdik. Qurbanların sayına gəlincə. onun sözlərinə görə, rəqəmlər təhrif olunaraq şişirdilmişdir, bundan əlavə qaçan azərbaycanlılar silahlı müqavimət göstərmişlər". Lakin baş vermiş hadisələrə dair fikrini Sarkisyan daha doğru və sərt şəkildə bildirmişdir: "Düşünürəm ki, əsas məsələ başqa şeydədir. Xocalı olayına qədər azərbaycanlılar fikirləşirdilər ki, bizimlə zarafat etmək olar, onlar fikirləşirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməzlər. Biz bu yanlış təəssüratı dağıda bildik. Baş verənlər göz önündədir. Bir də onu nəzərə almaq lazımdır ki, həmin oğlanlar arasında Bakı və Sumqayıtdan qaçan oğlanlar da var idi".

Ermənilər törətdikləri vəhşiliklərə görə haqq-ədalət qarşısında cavab verməyə məcbur edilməyincə, Ermənistan işğalçı dövlət kimi tanınmayınca, bu kimi hadisələrin təkrarlanmasına şübhə edilməməlidir. Heç kim zəmanət verə bilməz ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verən Xocalı soyqırımı kimi dəhşətli faciəyə rəvac verənlər nə vaxtsa özləri də belə faciələrlə qarşı-qarşıya qalmayacaqlar.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Azərbaycan beynəlxalq aləmdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar. I-IV cildlər. (c.I, 1996, 268 s.; c.II, 1997, 761 s.; c. II, 1998, 776 s.; c.IV, 1999, 520 s.). Bakı: Göytürk, 1996-1999

2. Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin sentyabrın 24-də BMT Baş Məclisinin 58-ci sessiyasında çıxışı // Dirçəliş-XXI əsr, 2003, № 67-68, s. 64-68

3. İmanov R. Azərbaycanın ərazi bütövlüyünə qəsd - qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı: Adiloğlu, 2005, 260 s.

4. Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər (Azərbaycan, ingilis, fransız, эгэЬ, alman və rus dillərində). Bakı: Təhsil, 2005, 380 s.

5. Məmmədova H. Xocalı: şəhidlər, şahidlər. Bakı: XXI-YNE, 2003, 197 s.

6. Məmmədov N. Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti, iyun 1941, dekabr 1950-ci illərdə. Bakı: Elm, 2006, s. 38

7. Paşayev A. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları deportasiyalar (arxiv sənəd və materialları əsasında). T.e.d. alimlik dərəcəsi almaq üçün dis. avtoreferatı). Bakı, 2008, 22 s.

8. Sayadov S. XX əsr: Azərbaycan və dünya. Bakı: Elm, 2006, 186 s.

9. Veliçko V. Rus işi və tayfalararası məsələlər (tərcümə edən V.Quliyev). Bakı: Azərnəşr, 1995, 192 s.

10. Алиев Г. Обращение к азербайджанскому народу в связи с восьмой годовщиной Ходжалинского геноцида // Бакинский рабочий, 26 февраля 2000.

11. Помпеев Ю. Кровавый омут Карабаха. Баку: Азернешр, 1992. 280 с.

12. События вокруг НКАО в кривом зеркале фальсификаторов (Сборник материалов). Баку: Элм, 1989, 92 с.

## KHODJALY GENOCIDE IS THE RESULT OF TERRITORIAL ASSERTIONS OF ARMENIA TO AZERBAIJAN.

***Khavva Mamedova***

The work makes paleontological research of historical stages of territorial assertions of Armenia towards truly Azerbaijan lands that became the basic element of implementation of chauvinistic programs of Armenian extremist political organizations and the consequence of national policy of imperial Russia on mass migration of the Armenians to the South Caucasus. Basing on historical documents and published materials connected with Armenian-Azerbaijan conflict over Nagomo Garabag, the author specially underlines the criminal character of the policy of genocide of the Azerbaijanis that showed in atrocities committed by the Armenians over the residents of Khodjaly, the great role of nationwide leader Heydar Aliyev played in political assessment of the tragedy and stabilization of military-political situation in the Caucasus.

## ХОДЖАЛИНСКИЙ ГЕНОЦИД - РЕЗУЛЬТАТ ТЕРРИТОРИАЛЬНЫХ ПРИТЯЗАНИЙ АРМЕНИИ К АЗЕРБАЙДЖАНУ.

***Хавва Мамедова.***

В работе проводится политологическое исследование исторических этапов территориальных притязаний Армении в отношении исконно азербайджанских земель, ставших важнейшей частью реализации шовинистских программ армянских экстремистских политических организаций и следствием национальной политики царской России по массовому переселению армян на Южный Кавказ. Основываясь на исторических документах и публицистических материалах, связанных с армяно-

азербайджанским нагорно-карабахским конфликтом, автор особо отмечает преступный характер политики геноцида азербайджанцев, проявившийся в зверствах, учиненных армянами над жителями Ходжалы, выдающуюся роль общенационального лидера Гейдара Алиева в политической оценке трагедии и стабилизации военно-политической обстановки на Кавказе.

***Həvva MƏMMƏDOVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin üzvü,***
***tarix elmləri namizədi***

**«Dirçəliş XXI əsr».**–2010.-№141-142.–S.197-208.

**Xocalı soyqırımı Ermənistanın həyata keçirdiyi məqsədli və düşünülmüş siyasət kimi qiymətləndirilməlidir**

Soyqırım insanlığa qarşı cinayət, insanın varlığını alt-üst edən, yaşamını sarsıdan dəhşətdir. Soyqırım həm də hər şeydən əvvəl bir siyasətdir. Cinayət və dəhşətin tarix boyu məqsədyönlü şəkildə, son təfərrüatlarına qədər planlaşdırılmasını, onun həyata keçirilməsini təmin edən dövlətin konkret siyasəti olmuşdur. Deməli, soyqırım xronoloji zaman baxımından əvvəlcə verilən siyasi bir qərardır. Buna görə də insanlığa qarşı olan bu qəsd siyasətinin qarşısını almaq üçün ilk növbədə dünya dövlətlərinin soyqırıma siyasi qiymət verməsi ən mühüm məsələ kimi gündəmdə durur. Soyqırımın dayandırılması, ona son qoyulması üçün ilk növbədə beynəlxalq birlik siyasi iradə ortaya qoymalıdır. Əks təqdirdə bəşəriyyət əsrlər boyu olduğu kimi hər dəfə soyqırım baş verdikdən sonra onun günahkarlarını cəzalandırmağa, qurbanlarını müdafiə etməyə, müdhiş və dəhşətli maddi-mənəvi, psixoloji-hüquqi nəticələrini aradan qaldırmağa hələ çox zaman sərf edəcəkdir.

Soyqırım qurbanlarının sayı milyonlar olsa da, bu gün onu törədənlərin cəzalandırılması sahəsində beynəlxalq praktikada yalnız bir-iki faktın mövcud olması, itirilmiş zaman və insan həyatları ilə müqayisədə ona siyasi qiymət verilməsində yekdilliyin olmaması deyilənlərin ən aşkar sübutudur.

Soyqırıma siyasi qiymət vermək üçün ilk növbədə onun düşünülmüş siyasət olduğunu vurğulamaq, dövlət siyasəti səviyyəsində həyata keçirilməsini pisləmək və bu yöndə vahid beynəlxalq cəbhədən çıxış etmək ən zəruri məsələdir. Bu, dünyanın təkcə xocalılarla deyil, həm də soyqırımı yaşayan və onun nəticələrinin ədalətli həllini gözləyənlərlə həmrəy olduğunu bəyan etmək deməkdir.

Bu baxımdan soyqırımın siyasi aspektləri dedikdə biz aşağıdakı məsələlərin geniş təhlili və müzakirəsini vacib hesab edirik:

1) Soyqırım siyasətini həyata keçirən konkret dövlətin fəaliyyətini birmənalı pisləmək əvəzinə, onu dəstəkləmək və ya susmaq kimi mövqelərin mövcudluğunun səbəbi nədir və onu necə aradan qaldırmaq olar?

2) Soyqırım aktına ikili standartlarla yanaşmanın mövcud nəticələri nədir və beynəlxalq perspektivləri necə ola bilər?

3) Xocalı soyqırımına ədalətli siyasi qiymətin verilməsi Ermənistanın dünyaya qəbul etdirməyə çalışdığı "uydurma genosid" mifinin ifşa edilməsi baxımından nə kimi əhəmiyyəti ola bilər?

4) Soyqırım gerçəkliklərini təbliğ etmək üçün adi insanların, qlobal vətəndaş cəmiyyətinin, həqiqətin tərəfində olan hər kəsin səylərini bir arada necə səfərbər etmək olar? Soyqırım siyasətinə münasibətdə aşkar mövqe və vahid prinsipdən çıxış etmək dövlətlərlə yanaşı, hər bir şəxsin də insanlıq borcudur.

5) Nəhayət, bu gün tədqiqatçılar belə bir fikir söyləyirlər ki, siyasətin bütün sahələri kimi, genosid siyasəti də transformasiyaya uğrayır. Yəni birbaşa törədilən soyqırım hadisəsinin hazırda dolayısı ilə baş verən soyqırım siyasətinə çevrilməsinə meyil müşahidə edilməkdədir. Burada ən mühüm məsələ konkret dövlətin öz genosid siyasətini hər vəchlə ört-basdır etmək, beynəlxalq ictimai rəyi yanlış istiqamətə yönəltmək, beynəlxalq siyasətin isə buna ikili standartlarla şərait yaratmaq cəhdləridir. Bütün bunlar isə bizi belə bir acınacaqlı məntiqi nəticəyə gəlməyə vadar edir: genosidin siyasi qiymət almaması onun latent şəkildə davam etməsi deməkdir.

Azərbaycan xalqı öz vicdanının səsini eşidərək Xocalı haqqında həqiqəti yazan, indiki və gələcək nəsil qarşısında öz insaniyyət və vəzifə borcunu şərəflə yerinə yetirən, dünyanın müxtəlif ölkələrində yaşayan hər bir həqiqət tərəfdarına dərin ehtiramını bildirir. Bu o deməkdir ki, həqiqətə faciədən 18 il sonra da biganə qalanlarla yanaşı, bu gün olduğu kimi 18 il bundan əvvəl də ədalətin tərəfində duraraq onu dəyərləndirə bilən, müharibədə olan tərəflərin heç birinə aid olmasa da, təkcə 18 illik tarixin deyil, ümumiyyətlə, soyqırım tarixinin qarşısında alnıaçıq olan insanlar var.

Ötən əsrin 1905-1907, 1918-1920 və 1948-1953-cü illərində törədilmiş kütləvi erməni terrorları silsiləsinin davamı olaraq, 1988-ci ilin ilk aylarında baş qaldıran erməni separatizminin dərin tarixi kökləri vardır. İki əsr öncə Çar Rusiyasının təhriki və birbaşa yardımı ilə tarixi Azərbaycan vilayətlərində məskunlaşdırılan erməni əhalisi 1918-ci ildə bu torpaqlarda əvvəlcə Ermənistan adlı dövlət qurmağa müvəffəq oldu, beş il sonra isə əsassız iddiasını Dağlıq Qarabağa muxtar vilayət statusu almaqla təmin etdi. Sonrakı 50 il ərzində vilayət ərazisində hətta siyasi muxtariyyət əldə etməyə müvəffəq olan ermənilərin hökmranlığına yalnız ötən əsrin 70-ci illərinin əvvəllərində son qoyuldu.

22 il öncə başlayan savaş yüzilliklər boyu davam edən erməni məkrinin növbəti mərhələsidir.

1988-ci ildən təcavüzkar erməni separatizminin ərazi iddiaları azərbaycanlıların qədim torpaqlarından kütləvi deportasiyasına, çoxsaylı terror aktlarının törədilməsi və tammiqyaslı amansız müharibəyə səbəb oldu. On minlərlə insan həlak oldu, əlil vəziyyətinə düşdü, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayonumuz erməni hərbi birləşmələri tərəfindən işğal edildi.

18 il bundan əvvəl fevralın 25-də dörd aydan çox mühasirədə yaşayan Xocalı əhalisi növbəti mühasirə gününün başlayacağını, səhərin açılmasını gözləyirdi. 1991-ci ilin noyabr ayından şəhər blokadaya alınmışdı.

Mühasirədə olan bir şəhərin sakinlərinin təpədən dırnağadək silahlanmış erməni hərbçiləri üçün nə qorxusu ola bilərdi ki? Bəli, 1992-ci ilin şaxtalı 26 fevral səhəri xocalıların Xocalıdakı son səhəri oldu. Özü də öz dəhşətli mənzərəsi ilə yaddaşlarda silinməz bir iz qoydu...

Fevralın 25-dən 26-na keçən gecə Xocalı sakinlərinin qəddar qətliamının həyata keçirilməsinə artıq siyasi qərar verilmişdi. 1992-ci il fevralın 26-da qədim Xocalı şəhəri misli görünməmiş qəddarlıqla Yer üzündən silindi. Bu dəhşətli qətliamı hər bir azərbaycanlı bu gün də ürək ağrısı ilə xatırlayır.

Xocalı sakinlərinə qarşı soyqırım aktının Dağlıq Qarabağ bölgəsinin işğalı zamanı Ermənistan Respublikasının həyata keçirdiyi etnik təmizləmə siyasətinin yeni bir mərhələsini təşkil etməsi aşkar bir gerçəklikdir. Xocalı faciəsi iki yüz ildən çox bir müddətdə erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırım siyasətinin qanlı səhifəsidir. Müxtəlif vaxtlarda fərqli şəkildə, xüsusi riyakarlıqla həyata keçirilən bu mənfur siyasətə heç zaman ara verilməmiş, gah qanlı toqquşmalara səbəb olmuş, gah da dövrün tələblərinə uyğun ideoloji forma ilə pərdələnmişdir. Bu dəhşətli cinayət əməlinin məqsədi Xocalını Yer üzündən silməklə Azərbaycan torpaqlarının işğalını asanlaşdırmaq olmuşdur. Bununla birlikdə bəzi xarici dövlətlərdən böyük miqdarda hərbi yardım alan Ermənistan Respublikasının silahlı qüvvələri Xocalı faciəsindən sonra özünə gələ bilməyən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını qısa müddətdə başa çatdırmış və ətraf rayonların zəbt edilməsi planlarının icrasına başlamışdır.

Dünyada soyqırım həm hüquqi, həm də siyasi aspektlərdən kifayət qədər öyrənilmişdir. Belə qənaətə gəlmək mümkündür ki, onun qarşısını siyasi qiymətləndirmə ilə əvvəlcədən almaq mümkündür. Belə olan halda cavabını gözləyən aşağıdakı suallar ortaya çıxır: Bəs onda dünya birliyi nəyi gözləyir? Niyə ikili standartlardan çıxış edərək qərəzli mövqe nümayiş etdirir? Hələ neçə soyqırım baş verməlidir ki soyqırım qurbanlarının haqq səsi eşidilsin?

XXI əsrdə Xocalıda baş vermiş soyqırıma siyasi qiymət verilməmişdirsə, deməli, o, hələ də davam edir. Soyqırımı gerçəkləşdirən dövlət - Ermənistan bu faktı inkar edir. Müdhiş riyakarlığa əl ataraq günahkarların cəzalandırılmasına maneə törədir. Bu gün Xocalıda törədilmiş qanlı hadisələrin baş aktyorları - cinayətkarları Ermənistanda mühüm dövlət postları tuturlar. Serj Sərkisyan hazırda işğalçı Ermənistan Respublikasının prezidentidir. Xocalı soyqırımı zamanı mayor rütbəsində olan S. Ohanyan general paqonları gəzdirir. Cinayətin digər iştirakçıları da oyuncaq qurumda və Ermənistanda müxtəlif vəzifələr tuturlar. Xocalı soyqırımını və əməliyyatlarda iştirakını təsdiq edən S. Sərkisyan Böyük Britaniyanın *Chatam Haus* beyin mərkəzində qurumun rəhbəri Robertsona özünün "silah yoldaşı" kimi müraciət edəndə biz riyakarlıq və cinayətin, ikili mövqelərin son həddi ilə üzləşirik. Lakin buna etirazları görmürük. Bu, dözülməz vəziyyətdir.

Ermənistanın sabiq prezidenti Robert Köçəryan Avropa Şurasının mötəbər kürsüsündən dünya ictimaiyyətinə xitabən Dağlıq Qarabağda, xüsusən də Xocalıda keçirilən hərbi əməliyyatlarda iştirakından fəxr duyduğunu bildirir. Hərbi cinayətdə iştirak edən R. Köçəryan, əslində, bununla soyqırım aktına birbaşa rəvac verdiyini təsdiqləmişdir. Bu faktları Xocalıda baş verən qanlı hadisələrin Ermənistan rəhbərliyi tərəfindən əvvəlcədən planlaşdırıldığını və həyata keçirildiyini təsdiq etdiyi üçün qeyd edirik.

Burada onu da vurğulamaq istərdik ki, Xocalı hadisələrinə bəzi dünya ölkələri hələ zamanında ədalətli siyasi münasibət bildirmişdir. Belə ki, soyqırım baş verdiyi müddətdə Ağ Ev və ABŞ Konqresi başda olmaqla bəzi Avropa və Amerika rəsmiləri bu soyqırımı bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirmişdilər. Qardaş Türkiyənin bu istiqamətdəki fəaliyyəti başqalarına nümunə ola biləcək dərəcədə xüsusilə seçilmişdir. 18 il əvvəl Türkiyənin İstanbul, Ankara, İzmir, Ərzurum, Qars, İğdır və başqa şəhərlərində keçirilən mitinqlərdə türk milləti hər zaman Azərbaycanın yanında olduğunu və onun haqq işini dəstəklədiyini bir daha təsdiq etmişdir. Bundan başqa, qardaş Türkiyədə artıq erməni canilərinin beynəlxalq məhkəmədə cəzalandırılması istiqamətində addımlar atılıb. Bir müddət öncə Türkiyənin "Əsassız soyqırım iddialarına qarşı cəmiyyət"i Xocalı soyqırımındakı cinayətlərinə görə S. Sərkisyanın və R. Köçəryanın Haaqa Beynəlxalq Məhkəməsinə verilməsi təşəbbüsü ilə çıxış ediblər.

İtaliya parlamenti də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləyən qətnamə qəbul edib. Xatırladaq ki, İtaliya Avropa ölkələri arasında Almaniyadan sonra Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamə qəbul edən ikinci dövlətdir.

İslam Konfransı Təşkilatının Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi xüsusi qətnamə beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "insanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəddir. 51 ölkənin qəbul etdiyi qətnamədə Xocalı faciəsinə "erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "insanlığa qarşı cinayət" kimi qiymət verilmişdir.

Misli görünməmiş qəddarlıqla, vəhşiliklə törədilmiş Xocalı soyqırımı və ümumiyyətlə, Azərbaycan xalqının ədalətsizcəsinə cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bütün məşəqqətləri dünya ictimaiyyətinə detalları ilə çatdırılmalı, onların qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır. Çünki soyqırıma siyasi münasibət bildirilməməsi yeni soyqırımların baş verə biləcəyi qənaətini yaradır.

Bu illər ərzində Azərbaycan təkcə müharibə, torpaqlarımızın işğalı, qaçqınlarımızın ağır şəraitdə yaşaması kimi çətinliklərlə üzləşməmişdir. Bundan daha ağır olanı Xocalı soyqırımını törədən cəlladların, yuxarıda qeyd etdiyimiz kimi, işğalçı ölkənin siyasi rəhbərliyində yüksək vəzifələr tutmaqla özlərini müdafiə etməsi, dünyanın isə buna göz yummasıdır.

Ötən 18 ildə Xocalının səsini dünyaya çatdırmaq üçün bir çox işlər görülüb. Xocalı haqqında gerçəkləri bilən, ona daxilən qiymət verən insanların sayı, bəlkə də, milyonlarla artıb. Lakin dünyadakı 6 milyarddan çox əhalinin Xocalı haqqında mövqeyinin ədalətli olacağına qədər gözləmək mümkün deyil. Bir daha bildiririk ki, soyqırım siyasəti, "Böyük Ermənistan" və monoetnik dövlət yaratmaq kimi şovinist siyasət müəllifləri olan ermənilərin ölkəmizə hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına əsl soyqırım hadisəsi kimi siyasi qiymət verməlidirlər. Məhz bu cür halların indiyədək dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən dərk olunub pislənilməməsi və qarşısının alınmasına cəhd göstərilməməsi nəticəsində 1905-ci ildən başlayaraq Azərbaycan torpaqlarının ilhaqını davam etdirən erməni qəsbkarları XX əsrin sonunda, sivilizasiyalı dünyanın gözünün qarşısında bütün insanlığa silinməz ləkə olan dəhşətli cinayət və vəhşilik törətmişlər.

Bəli, Azərbaycan xalqı 18 ildir ki, ümumbəşəri dəyərlər, ideallar və normalar anlayışına şübhə ilə yanaşır. Çünki ikili standartlarla üz-üzədir.

Xocalı qətliamı Azərbaycan xalqı üçün paradoksal məzmunlu bir çox nəticələrlə üzləşməyi şərtləndirmişdir. Ona dünyanın münasibəti bir tərəfdən ədalətli siyasətin meyarına, digər tərəfdən beynəlxalq münasibətlərdə ikili standartların mövcudluğunun təsdiqinə, üçüncü tərəfdən isə insan taleyinə qəddarlığın və cəzasızlığın rəmzinə çevrilmişdir. Xocalı şəhərində dinc əhaliyə vəhşicəsinə divan tutmuş erməni hərbçilərini və onların havadarlarını təmizə çıxarmaq üçün aparılan təbliğat kampaniyası bu gün də ara vermir. Erməni millətçiləri qonşu dövlətlərə, o cümlədən Azərbaycan Respublikasına qarşı ərazi iddialarına haqq qazandırmaq, bunun vasitəsi kimi seçdikləri işğalçılıq, soyqırım və dövlət terrorizmi siyasətini pərdələmək üçün hər vasitədən istifadə edərək, guya 1915-ci ildə ermənilərin soy-qırıma məruz qaldıqları barədə uydurmaların beynəlxalq səviyyədə qəbul olunmasına cəhdlər göstərirlər. Xocalı faciəsi kimi real soyqırım aktına göz yuman ayrı-ayrı dövlətlərin parlamentlərinin erməni lobbisinin təsiri altına düşərək "erməni soyqırımı" əfsanəsini müzakirə mövzusuna çevirməsi, hətta bu barədə əsassız və ədalətsiz qərarlar qəbul etməsi yalnız təəssüf və təəccüb deyil, beynəlxalq münasibətlərin real durumu və perspektivləri barədə çox ciddi narahatlıq hissini - beynəlxalq hüququn iflası və süqutu hissini doğurur.

Azərbaycan xalqı bu 18 ildə soyqırımda cəllad və qurbanların kim olduğunu ayırd etməkdə "çətinlik çəkən" beynəlxalq siyasətin biganəliyini dəyərləndirmək təcrübəsini keçmişdir. Bununla belə, bu illər ərzində soyqırım həqiqətlərini dünya birliyinə çatdırmaq üçün səbirlə çalışmışdır.

Eyni zamanda, 18 il ərzində Azərbaycanın gəldiyi ən mühüm tarixi nəticələrdən biri də bu olmuşdur: əgər soyqırım cəlladlarının cəzalandırılmasında, işğal siyasətinə qiymət verilməsində və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında beynəlxalq birlik tərəddüdlü mövqeyini davam etdirərsə, o zaman Azərbaycan xalqı bu dəfə cinayətkarın kim olduğunu tarixin sübut etməsini gözləməyəcəkdir! Beynəlxalq hüquq və siyasət meydanında təmin edilməyən haqqımızı döyüş meydanında tələb və təmin etməli olacağıq. Bu, Azərbaycanın dəfələrlə bəyan etdiyi prinsipial mövqedir. Azərbaycan mövcud imkanların hamısından istifadə edərək ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin ədalətli beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının cəzalandırılmasına nail olacaqdır. Müharibə yolu ilə ərazi bütövlüyümüzün bərpa olunması Xocalıya həm siyasi, həm hüquqi, həm də psixoloji qiymət verilməsi, onun nəticələrinin aradan qaldırılması demək olacaqdır. Azərbaycan bunu etməyə qadirdir. Azərbaycan xalqının əzmi çox böyükdür, çünki haqq işi uğrunda mübarizə aparır. Bu gün işğal altındakı bütün ərazilərimiz kimi Xocalının da, bu torpaqlardan didərgin düşmüş bir milyondan çox azərbaycanlının, o cümlədən ölkənin 48 qaçqın düşərgəsində öz dədə-baba yurdlarına qayıtmaq həsrəti ilə yaşayan Xocalı qaçqınlarının da gözü yoldadır.

Xocalı soyqırımı ilə bağlı düşüncələrimi İmantas Melyanasın "Azərbaycan xalqının genosidi" məqaləsindən sitat gətirməklə bitirmək istəyirəm. Hazırkı durumu qiymətləndirmək üçün çox səciyyəvi olan bu sitatda deyilir: "Tarixi ərazilərində yaşayan əhalinin qətli və ya kütləvi şəkildə qovulması ilə müəyyən ərazilərin etnodemoqrafik şəraitinin dəyişdirilməsi etnik təmizləmə siyasəti və ya genosid adlandırılır. Buna görə də "Böyük Ermənistan" yaratmaq məqsədilə belə siyasətin həyata keçirilməsi bir çox cəhətlərə görə faşizmin siyasi və nəzəri mahiyyəti ilə eynilik təşkil edir. Ermənistanın bu məsələni beynəlxalq siyasətdə ümumən qəbul olunmuş prinsiplərə uyğun olaraq həll etmək istəməməsi, Azərbaycan xalqının soyqırımını tanımaması, işğal altında olan torpaqları azad etməməsi ilk növbədə onun qonşu ölkələrlə münasibətini normallaşdırmağa imkan verməyəcək və regionda bundan sonra da müxtəlif dövlətlərin öz maraqlarını manipulyasiya etməsinə şərait yaradacaq".

***Tahirə ALLAHYAROVA,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin baş elmi işçisi, fəlsəfə elmləri doktoru.***

**“Analitik baxış”**.-2010.-№1.-S.17-21.

## 1905-1906-cı illərdə Qarabağda erməni təcavüzkarlığı

Uzun müddət sovet tarixşünaslığında bu qanlı tarixi hadisələrin üzərindən sükutla keçilsə də, dövlət müstəqilliyimizi bərpa etdiyimiz son iyirmi ilə yaxın müddətdə həmin faciəli tariximizə dəfələrlə müraciət olunmuşdur. Lakin erməni "alimlərinin" usanmadan öz tarixini təhrif, bizimkini isə saxtalaşdırması, böhtan və qarayaxmalara bürümək cəhdləri bizi yenidən tarixi faktlara müraciət etmək məcburiyyətində qoyur.

1905-1906-cı illərdə bütün Qafqazı bürüyən erməni-Azərbaycanlı münaqişəsinin tarixini obyektiv surətdə öyrənmək üçün istər o dövrün mətbuat səhifələrində gedən yazılar, istərsə də çar hökumətinin Polis Departamentinin gizli məlumatları, yəni arxiv sənədləri, kifayət edir. Doğrudur, onların arasında qeyri-obyektiv, birtərəfli qaydada erməni mövqeyindən yazılanları da az deyildir. Bu cəhətdən M,S.Ordubadinin "Qanlı illər", M.M.Nəvvabın "1905-1906-ci illərdə erməni – müsəlman davası" xüsusilə Qarabağda baş vermiş qanlı erməni vəhşiliklərinə şahidlik edən tarixi faktlarla zəngin çox qiymətli əsərlərdir. Osmanlı imperiyasında rus səfiri olmuş V.F.Mayevskinin "Qafqazda erməni – tatar qarşıdurması erməni məsələsinin bir fazası kimi" əsəri də bu qəbildəndir.

C.Zeynaloğlu da bu münaqişənin başlanmasının səbəbi kimi rus-yapon müharibəsində məğlub olub birinci Rusiya inqilabına məruz qalan çar hökumətinin "Parçala, hökm et" siyasətini göstərərək yazır: "…Qafqazda da ermənilər qiyam edərək, öz kəlisa və vəqflərinin idarələrini ələ aldılar. Hətta ötədən bəri Osmanlı dövləti əleyhinə hərəkət etmək üçün Rusiya tərəfindən təchiz və himayə edilən daşnak firqəsi bu fürsəti qaçırmayaraq, Rusiyadan ayrılmağa və müstəqil bir Ermənistan dövləti vücuda gətirməyə təşəbbüs eylədi [4, s.107]:

Arxiv sənədlərinin də göstərdiyi kimi yalnız azərbaycanlılar hələ qəflət yuxusundan ayılmayıb çar hökumətinin tərəfini saxlayırdılar. Sonuncu isə bundan öz xeyrinə istifadə edərək "Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə … iki milləti biri digərinə qırdırdı" [4, s.107].

Yusif Akçuraoğlunun Əhməd bəy Ağaoğlunun tərcümeyi-halından bəhs etdiyi məqaləsinə istinad edən M.B.Məmmədzadə bu qanlı münaqişənin səbəbini ermənilərin "Türklər arasında… intibah əlamətlərini" [1, s.39] qısqanclıqla qarşılamasında görürdü. Digər bir səbəb isə erməni-qriqoryan kilsəsinin varidatının müsadirə olunması haqqında 12 iyun 1903-cü il tarixli çar fərmanının Rusiyanın hər yerində erməni terrorunun baş alıb getməsi ilə nəticələnməsi idi. Yüksək rütbəli çar məmurları və zabitləri "Daşnaksütyun"un qurbanına çevrildilər. Onların törətdikləri vəhşiliklər çar hökumətini vahiməyə gətirmişdi. Dəhşətə gələn general-qubernator knyaz Qriqori Qolitsin belə bir fikrə gəlmişdi: "Mən Qafqazda cəmi iki erməni saxlayardım – biri kişi cinsindən, digəri isə qadın. Onlardan müqəvva düzəldib Qafqaz muzeyinə qoyardım ki, gələcək nəsillər vaxtilə Qafqazda yaşamış ermənilərin necə bir xalq olduğunu başa düşsünlər [7].

Buna görə də çar hökuməti erməni terrorunu dinc azərbaycanlı əhaliyə yönəltmək qərarına gəldi və ilk mərhələdə öz istəyinə nail oldu. M.S.Ordubadi münaqişənin başlanması ilə əlaqədar öz fikrini belə ifadə edir: "…Süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb yaxıldı…" [2, s.13]

Ermənilərin Bakıda başladığı qanlı hadisələr tezliklə Şuşa, Zəngəzur, Cavanşir, İrəvan, Naxçıvan, Ordubad, Üç müəzzin, Tiflis, Yelizavetpol, Cavanşir və Qazax qəzalarına da yayıldı. Azərbaycanlılara qarşı törədilən faciənin kuliminasiya nöqtəsi Qarabağ oldu. Şuşa, Cəbrayıl, Zəngəzur və Karyagin qəzalarında ermənilər yerli əhalini xüsusi vəhşiliklə doğma ata-baba yurdundan qovaraq, Ağdam-Əsgəran yolunu kəsib azərbaycanlıları öz evlərinə qayıtmağa qoymurdular.

Arxiv materiallarında Şuşada azərbaycanlıların ermənilər tərəfindən amansızcasına qırılmasının 1905-ci il iyulun 12-də başladığı göstərilir. Şuşalıların Ağdamdan Nazirlər Şurasının sədri P.A.Stolipinə göndərdikləri 16 iyul tarixli teleqramda baş verən hadisələr haqqında məlumat verilərək kazak yüzlüyünün komandiri erməni Qazarovun general-qubernator Qolosapovun azərbaycanlılar yaşayan hissəni güllə-boran etməsindən ruhlanıb onları ucdantutma qırdığını bildirdi. Nəticədə minlərlə azərbaycanlı qətlə yetirilmiş, sağ qalanlar isə Şuşanı tərk etməyə məcbur olmuşlar. İyulun 18-də Yevlaxdan hökumətə göndərilən digər teleqramda isə 1905-ci ilin avqust münaqişəsindən sonra Şuşada müvəqqəti erməni hökuməti yaradan qatı millətçi Baqaturov, Sahnazarov və b.-nın Əsgəran qalasından gedən yolu bağlayıb Şuşanı mühasirə vəziyyətində saxladıqları göstərilirdi [3, s.297].

Azərbaycanlıların Şuşada vəhşicəsinə gülləboran edilməsindən hiddətlənən görkəmli ictimai-siyasi xadimlərdən M.B.Şahtaxtinski, F.Nemanzadə, H.Həsənzadə, X.Hüseynov, M.B.Mirheydərzadə, İ.Hüseynov və b. hələ may ayında Tiflisdən Peterburqa, baş nazirə vurduqları teleqramda cəllad Qolosapovun dərhal Şuşadan geri çağrılmasını xahiş edirdilər.

1905-ci ilin fevralından 1906-cı ilin payızınadək davam edən milli münaqişə zamanı 10 min nəfər həlak olmuş, 7 şəhər və 252 kəndin 15 min ailəsi talan edilmişdi [6, s.229]. Milli qırğının tezliklə dayandırılması

məqsədilə hər iki xalqın qabaqcıl nümayəndələri barışdırıcı komissiyalar yaratmışdılar. Xalqa müraciətnamələr tərtib etmək üçün yaradılmış redaksiya heyətinə Ə.Ağayev, Yengibarov, Zaxaryan, M.H.Hacinski və Bıkov daxil oldular. Komissiyaların təşkilat bürosuna isə Ə.Topçubaşov, K.Səfərəliyev. Ter-Mikaeyan, knyaz Gelovani, A.Ayvazov və b. seçildilər.

Komissiyanın Yelizavetpol komitəsinin «Bakı» qəzetində dərc olunmuş intibahnaməsində hər iki xalqa müraciətlə deyilirdi ki, tarixi köklər onları bir-birinə bağlayır və onlar Qafqaz kimi gözəl diyarın onların ümumi Vətəni olduğunu başa düşməlidirlər. Lakin bu komissiyaların fəaliyyəti milli münaqişə alovunu söndürə bilmədi.

Hadisələrin başlandığı gündən bir il ərzində nəinki hər iki xalqa, həmçinin bütövlükdə Rusiyanın iqtisadiyyatına vurduğu zərər və Azərbaycan xalqının milli-azadlıq hərəkatının genişlənməsində oynadığı rol hakim dairələri münaqişəyə son vermək məcburiyyəti qarşısında qoydu. 1906-cı il fevralın 20-dən martın 6-dək Tiflisdə Qafqaz canişini qraf Vorontsov-Daşkovun iştirakı ilə erməni-müsəlman sülh məclisi keçirildi. M.S.Ordubadi bu barədə yazırdı: «Məclisin məramı Qafqaz müsəlmanlarını qan dəryasından çıxarıb müharibə və hadisələrin baş verməsi səbəblərini təftiş edib, sonra hər iki millətin dərd və vəziyyətinə baxıb çarə axtarmağa və bir daha belə hadisələrə yol verməmək üçün hökuməti bir sıra lazımlı tədbirlər görməyə vadar etməkdir» [2, s.105].

Məclisdə iştirak edən Azərbaycanın görkəmli ictimai-siyasi xadimləri-Ə.Topçubaşov, A.Ziyadxanov, Ə.Ağayev və b. münaqişənin dayandırılması üçün vacib şərtin erməni-millətçi: "Daşnaksütyün" partiyasının terrorçu fəaliyyətinə son verilməsi zərurətinin olduğunu bildirdilər. Əhməd bəy Ağayev bu partiyanın fəaliyyətinin hökumət tərəfindən dayandırılmayacağı halda onun da adekvat tədbirlər görmək məcburiyyəti qarşısında qalacağını bəyan etdi.

Həqiqətən də Qafqazda sülh erməni terrorunun dayandırılmasından asılı idi. Lakin iki həftədən artıq davam edən Tiflis qurultayı erməni təcavüzünün qarşısını ala bilmədi. Əksinə, 1906-cı ilin yayında Şuşada azərbaycanlıların kütləvi şəkildə qırılması geniş miqyas aldı. Məhz bu hadisələr Ə.Ağayevi 1906-cı ilin avqust ayında Şuşaya gəlib nüfuzlu adamları başına toplayaraq "Difai" adlı mübariz bir partiya yaratmağa məcbur etdi. O, doktor Ə.K.Mehmandarov və b. çıxışlarında bildirdilər ki, "müsəlmanlar indiyə qədər rus hökumətinə sədaqətli idilər. Əvəzində isə general Qolosapov erməni xumbaları ilə birləşərək tatarların şahzadələrinin evlərini, saray məscidlərini dağıtdı, minlərlə müsəlman aclığa düçar oldu". [3, s.298].

Partiyanın buraxdığı müraciətnamələrdə onun məqsəd və vəzifələri geniş surətdə şərh olunur. Müraciətnamələrdən birində deyilir: "Hökumət adamları qorxaqcasına "Daşnaksütyun"un bomba və gülləlləri qarşısında boyun əyərək onların Qafqazda alətinə çevrilmişdir… Qolosapov, Kleşşinskiy, Mitskeviç, Smoradski və b. yaramazların rəhbərliyi ilə Zəngəzur, Şuşa. Cəbrayıl və Cavad qəzaları darmadağın edilmiş, faktiki olaraq ermənilərin əlinə keçmişdir. Külə dönmüş ocaqlarından didərgin düşmüş minlərlə müsəlman kəndli ailəsi heç yerdə özünə nə sığınacaq, nə müdafiə, nə yemək, nə də ki ev tapmayaraq Yelizavetpol quberniyasında səfil sərgərdana dönüblər. Bunun müqabilində isə özünü müsəlmanların rəhbərləri adlandıranlar düşmənçilik, fitnə-fəsadla məşğul olur, nəinki özlərini, hətta xalqı məhvə doğru aparır, xudpəsənd həyat tərzi keçirərək xalqın xeyrinə heç bir iş görmürlər…" [3, s.299]

Yarandığı gündən xalqın müdafiəsinə qalxan " Difai" partiyası tezliklə bütün azərbaycanlı əhali arasında nüfuz qazandı. Çar polis məmurlarının etiraflarına görə, əhali tərəfindən partiyanın fəaliyyətinin böyük ciddi-cəhdlə gizlədilməsi sübut edir ki, onun rəhbərləri ağıllı, ehtiyatlı, namuslu və səmimi adamlar idi.

Partiyanın Qarabağın hər yerində, o cümlədən Ağdam, Bərdə, Tərtər, Karyagin, Cəbrayıl, Xocaqan, eləcə də Naxçıvan, Qars və İrəvanda da şöbələri fəaliyyət göstərirdi. Mərkəzi Komitə isə Bakıda yerləşirdi. Partiyanın silahlı drucinası da var idi. Belə ki. Dinc əhaliyə qarşı qəddarlıq edənlər ən ağır cəzaya məhkum olunurdu.

Şuşada azərbaycanlı əhalinin vəhşicəsinə qırılmasında və qovulmasında daşnaklara hərbi yardım göstərən general Qoloşapov, Kleşşinski və b. partiyanın qərarı ilə qətlə yetirildi. Məsuliyyəti öz üzərinə götürən partiya buraxdığı vərəqədə yazırdı ki, onlar Qarabağda törətdikləri pisliklərə görə "Difai" partiyası tərəfindən cəzalandırıldılar: "Bu, "Difai"nın Qafqaz müsəlmanlarının qeyrət və ləyaqətinin müdafiəsi yolunda ilk çıxışı və xalqın qaynamaqda olan hiddətinin intiqam aktıdır… İndi "bu müsəlmanların daha çox qanını tökün" – deyən Qoloşapovun yüzlərlə qurbanının qəlbi sakitləşər. İndi minlərlə köməksiz ana və bacıların göz yaşı quruyar. İndi Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının minlərlə müflisləşmiş sərgərdan əhalisi, heç olmasa, bir balaca dincələr". [5, s.23]

Əlbəttə ki, saysız-hesabsız erməni terrorunun yanında "Difai" partiyasının gördüyü cəza tədbirləri əhəmiyyətsiz dərəcədə idi. Bununla belə, partiyanın mübariz fəaliyyəti tezliklə öz bəhrəsini verdi. Həm çar hökuməti, həm də "Daşnaksütyün" partiyası azərbaycanlıların daha əvvəlki kimi sakit durub, hökumətə sözsüz itaət edərək erməni zinvorlarının qarşısından qaçmaq hallarına son qoyulduğun və əksinə ciddi müqavimət göstərdiyinin şahidi oldular.

Tarixdən dərs almamağımız və heç bir nəticə çıxarmamağımız XX əsrdə bizi dəfələrlə erməni təcavüzü ilə qarşı-qarşıya qoydu. Hətta XXI əsrin əvvəllərində də Azərbaycanın əzəli torpaqları erməni təcavüzü altında qalmaqdadır. Xalqımızın mütəşəkkil bir qüvvəyə çevrilib işğal altında qalan torpaqlarını azad etmək vaxtı çoxdan çatmışdır. Qəhrəmanlıq tariximizə yiyələnib bütöv Vətənimizə sahib çıxmalıyıq.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
2. Ordubadi M. Qanlı illər. Bakı, 1991.
3. Süleymanova S.Y. Azərbaycanda ictimai siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyinin əvvəlləri). Bakı, 1999.
4. Zeynaloğlu C.Müxtəsər Azərbaycan tarixi: Bakı, 1992.
5. Документы по русской политике в Закавказье. Вып. 1-й, Баку, 1920.
6. Общественное движение в России в начале XX века. Под ред. Л.Мартова, П.Маслова и А.Потресова. В 4-х т. СПб. 1909-1914, I 4, ч.2.
7. «Bakı», qəzeti, 19 fevral, 1906.

**Sevda Süleymanova**

"Qarabağ dünən, bu gün və sabah"
9-cu elmi-əməli konfransının materialları (2010-cu il)
http://karabakh-doc.azerall.info/ru/articls/artc128az-37.php

**Soyqırım insanlıq əleyhinə cinayətlərin ən təhlükəlisidir**

1944-cü ilə qədər «soyqırım» anlayışı ictimaiyyətə bəlli olmamışdır. Bu xüsusi termin hər hansı insan qrupuna qarşı onların məhv edilməsi məqsədilə törədilən cinayət əməllərini ifadə edir. İlk dəfə 1944-cü ildə yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin avropa yəhudilərinin faşistlər tərəfindən kütləvi məhv edilməsi siyasətini ifadə edən yeni termin işlətdi. O, yunan dilində *genos* - «nəsil, kök, soy» sözü ilə latın dilindən *caedo* - «öldürürəm» sözlərinin birləşməsindən *«genosid»* (soyqırımı) terminini təklif etdi. Bu termini təklif edən Lemkin belə əsaslandırırdı ki, soyqırımı -müəyyən insan qruplarının movcudluğunun vacib əsaslarını məhv etməyə yönəlmiş müxtəlif cinayətkar hərəkətlərin koordinasiya olunmuş, planlı şəkildə həyata keçirilməsidir. Bir ildən sonra Nürnberq beynəlxalq hərbi tribunalı faşist liderlərini «bəşəriyyət əleyhinə cinayətlərdə» ittiham etdi. Tribunalın ittiham aktında «soyqırım» anlayışı hüquqi termin kimi deyil, təsviri ifadə kimi işlədilmişdi.

9 dekabr 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən «Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiya qəbul edildi. (Bu Konvensiya 12 yanvar 1951-ci ildə qüvvəyə minmişdir). Bununla ilk dəfə olaraq beynəlxalq hüquqda insan qruplarının milli, etnik, irqi, dini fərqlərinə görə kütləvi məhv edilməsinə yönələn cinayətlər soyqırım adlandırılmaqla, Konvensiyaya qoşulan dövlətlərin üzərinə bu cinayətin qarşısının alınması və bu cinayəti törədənlərin cəzalandırılması vəzifəsi qoyuldu.

Bu Konvensiyaya görə (Maddə 2) soyqırım hər hansı milli, etnik, irqi və ya dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi məqsədilə törədilən aşağıdakı hərəkətlərdən biridir:

a) bu cür qrup üzvlərinin öldürülməsi;
b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və yaxud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi;
c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi;
e) bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi.

**Konvensiyanın 3-cü maddəsinə görə aşağıdakı əməllər cəzalandırılandır:**

a) soyqırım;
b) soyqırım törətməyə yönəlmiş gizli sövdələşmə;
c) soyqırım törətməyə birbaşa və açıq təhrik;
d) soyqırım törətməyə yönəlmiş qəsd;
e) soyqırımda iştirak.

Hazırkı dövrə qədər müxtəlif ölkələrdə bəşəriyyət əleyhinə törədilmiş bir neçə cinayət beynəlxalq aləm tərəfindən soyqırım kimi qəbul edilib. Faşistlərin Avropada törətdiyi məlum əməllər Nürnberq Tribunalının hökmü ilə soyqırım kimi qiymətləndirilməsə də bəşəriyyət əleyhinə cinayət hesab edilmişdir (həmin dövrdə «soyqırım» hüquqi termin kimi işlədilmirdi). Keçmiş Yuqoslaviyanın ərazisində olan Bosniya münaqişəsi zamanı (1992-1995) kiçik Srebrenisa şəhərciyində serb qoşunları tərəfindən 7800 bosniyalı kişilərin və oğlan uşaqlarının öldürülməsi bəşəriyyət əleyhinə ağır hərbi cinayət olmaqla soyqırım kimi qiymətləndirildi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının 827 saylı qətnaməsi ilə Haaqada keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunal yaradıldı. Tribunalın yurisdiksiyası keçmiş Yuqoslaviyanın ərazisi ilə məhdudlaşırdı. 1994-cü ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Şurası Ruandada Tutsi xalqının 800 min əhalisinin öldürülməsi ilə (1994-cü ilin aprel-iyul ayları ərzində) əlaqədar Beynəlxalq Tribunalın yaradılmasına qərar verdi. Hərbi Tribunal Tanzaniyanın Aruşa şəhərində yerləşirdi. 2 sentyabr 1998-ci ildə tarixdə ilk dəfə olaraq soyqırım cinayəti törətməkdə ittiham edilərək Taba kommunasının meri postunda fəaliyyət göstərmiş Jan-Pol Akayesunun barəsində hökm çıxarıldı. Bu tribunallar və Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyəti ilə öz yurisdiksiyaları çərçivəsində cinayətləri araşdırmasına və məhkəmə presedenti yaratmaların baxmayaraq, soyqırım cinayətinin müəyyən edilməsi və bu cinayəti törətmiş şəxsləri məhkum etmək praktiki cəhətdən hələ də çətinliklərlə qarşılaşır. Bundan da mürəkkəb məsələ isə soyqırım cinayətinin qarşısının alınmasıdır. Beynəlxalq aləmin səylərinə baxmayaraq, bu gün də soyqırım cinayətini törədən şəxslərin cəzalandırılması və soyqırımın qarşısının alınması çətin və mürəkkəb bir prosesdir.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul olunmuş BMT-nin «Soyqırım cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında» Azərbaycan Respublikasının Qanunu 31 may 1996-cı ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən imzalanmışdır. Qanun 25 iyun 1996-cı ildə «Azərbaycan» qəzetində dərc edilməklə qüvvəyə minmişdir.

Konvensiyanın müddəalarının icra edilməsi üzrə Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklərin həyata keçirilməsi istiqamətində görülən tədbir kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə «Soyqırım» (Maddə 103), «Soyqırımın törədilməsinə təhrik etmə» (Maddə 104) maddələri daxil edilmişdir.

Bu gün böyük təəssüf hissi və ürək ağrısı ilə qeyd edirik ki, dünyanın soyqırıma məruz qalan az sayda xalqları sırasında Azərbaycan xalqı da var. XIX əsrdən başlayaraq, şovinist imperiyaların himayəçiliyi ilə ermənilər tərəfindən azərbaycanlılara və Azərbaycana qarşı törədilən hərəkətlər məhz soyqırım kimi qiymətləndirilməlidir. Azərbaycanın və azərbaycanlıların üzləşdiyi bu faciələr ilk dəfə Heydər Əliyev tərəfindən imzalanmış 26 mart 1998-ci il tarixli «Azərbaycanlıların soyqırımı haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə siyasi qiymətini aldı. Fərmanda qeyd olunur: *«..Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir...»*

**Beləliklə, ilk dəfə Heydər Əliyevin Fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.**

Azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qalmasını təsdiqləyən faktlardan biri də 26 fevral 1992-ci ildə ermənilərin törətdiyi Xocalı faciəsidir. Həmin gün cəmi bir necə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduğuna görə qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qoyulmuşlar. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamların diri-diri torpağa basdırmış və ya yandırmışlar.

Bu faciənin də Azərbaycanlıların soyqırımın tərkib hissəsi olmaqla acı nəticələri, illər keçməsinə baxmayaraq, hələ də öz təsirini göstərir. Bütövlükdə isə, 1988-ci ildən ermənilərin Dağlıq Qarabağda başladığı növbəti avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Xalqımız ermənilərin azərbaycanlılara qarşı əsrlər boyu davam etdirdiyi soyqırımı unutmur. Bu mənada Azərbaycan Respublikasının Prezidenti Cənab Ilham Əliyevin azərbaycanlıların soyqırımının dünyada tanıdılmasına yönəlmiş tədbirlər həyata keçirməsi hər bir azərbaycanlı üçün nümunə olmalıdır. Hesab edirik ki, soyqırıma qiymət verilməsi siyasi aksiya olmaqla yanaşı, həm də hüquqi məsələdir. Bu mövzu hüquqşünaslar tərəfindən araşdırılmalı, hər bir hüquqşünas ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımın beynəlxalq hüquqi qiymət almasına istiqamətlənmiş tədbirlərdə əlindən gələni əsirgəməməlidir.

Bu mənada hazırkı nəşri də belə tədbirlərdən biri kimi əhəmiyyətli şəkildə qiymətləndirmək olar. Azərbaycanlılara qarşı soyqırımın acı nəticələrinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində siyasi və sosial tədbirlərə həm də hüquqi dəstək verilməsi baxımından bu kitabın nəşri və yayılması əhəmiyyətli addımdır. Bu nəşrdə soyqırıma dair beynəlxalq sənədlər, ölkədaxili normativ aktlar və digər sənədlər toplanmışdır. Ümid edirik ki, bu cür təşəbbüslər hüquqşünaslarımız tərəfindən dəstəklənəcək və davam etdiriləcəkdir. Çünki bu, hər bir azərbaycanlını düşündürən və düşündürməli olan ümummilli məsələdir. Həmçinin, nəzərə almaq lazımdır ki, soyqırım - hansı milli, etnik, irqi, dini insan qrupuna yönəlməsindən asılı olmayaraq, insanlıq əleyhinə olan cinayətdir. Cinayətə qarşı mübarizə aparmaq isə hər bir bəşər övladının borcudur.

**Şahin Rüstəmov,**
*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin*
*Aparat rəhbərinin əvəzi, 3-cü dərəcə dövlət müşaviri*

**Soyqırım cinayəti** (Beynəlxalq aktlar, normativ sənədlər, müraciətlər və şərhlər toplusu).
Bakı-2010, səh.3-7.

**Şamaxı qırğını: erməni vəhşiliyi**

**"Ermənilər axund Cəfərqulunun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər". Tarixi sənədlərdən.**

Erməni cəlladlarının öz məkrli niyyətlərini həyata keçirmək üçün törətdikləri vəhşiliklər, insanlıqla bir araya sığmayan cinayətləri illər keçdikcə sağalmaz yara kimi daha da qövr edir. Xalqımızın başına gətirilən min bir fəlakətin, dəhşətli işgəncələrin, əzab-əziyyətlərin unudulması mümkün deyildir. Amma çox olub ki, susmuşuq. Saxta göz yaşlarına, yalançı ah-zarlara inanmışıq. Lakin tarix yaddaşlarda və arxiv sənədlərində yaşayır. Bu əbədi haray, ana-bacılarımızın, körpələrin naləsi gərək daim qulaqları- mızda səslənsin.

Xüsusilə bu gün dünya ictimaiyyətini guya "soyqırımına" məruz qaldıqlarına inandırmaq üçün dəridən-qabıqdan çıxan ermənilərin "təbliğatına" qarşı tarixi həqiqətlərin sərt dili ilə danışmaq vaxtı çoxdan çatıb. Yurdumuzun hər yerində — Bakıda, Qubada, Cəlilabadda, Gəncədə, Göyçayda, Şamaxıda, daha neçə-neçə bölgələrimizdə erməni daşnaklarının törətdikləri cinayətlərin hər biri əsl soyqırımdır.

Şamaxı şəhərinin və Şamaxı qəzasının müsəlman kəndlərinin talan edilməsi və adıçəkilən şəhər və qəzanın müsəlman əhalisi üzərində zorakılıqlar işlədilməsi üzrə Fövqəladə Təhqiqat Komissiyası sədri Ələkbər Xasməmmədovun 22 noyabr 1918-ci ildə ədliyyə nazirinə göndərdiyi məktubda deyilir: "Şamaxı şəhəri iki hissədən ibarətdir: yuxarı (yaxud erməni) və aşağı (yaxud müsəlman) hissələri. Birincidə əsasən ermənilər, habelə ruslar və malakanlar, müəyyən qədər də müsəlmanlar, ikincidə isə ancaq müsəlmanlar yaşayırdılar. Şamaxı qəzasında əhalinin əksəriyyəti müsəlmanlardır, erməni və malakanların hərəsi altı kənddə yaşayır. Həm şəhərli müsəlmanlar, həm də kəndli müsəlmanlar və malakanlar keçmiş zamanlarda sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, onları incitməmiş və qonşuluq əlaqələrini saxlamağa çalışmışlar. Buna baxmayaraq, Şamaxı şəhəri və Şamaxı qəzasının erməniləri müsəlman qonşu- larına qarşı gizli düşmənçilik hissləri bəsləyirdilər. Buna görə də müsəlmanlara qarşı düşmən mövqe tutan yerli əsgər və fəhlə deputatları soveti ilə əlaqəyə girmişlər. Ermənilər sovet nümayəndələrinin müsəlmanlara qarşı üçüncü şəxslər vasitəsilə qaldırdıqları hər cür fitnəkar çıxışları müdafiə etmişlər. Yerli komanda oradan getdikdə onlar gizli olaraq silah anbarını ələ keçirib bu barədə nə müsəlman qəza komissarına, nə də yerli müsəlman milli şurasına heç bir məlumat verməmişlər. Yerli komandanın getməsindən sonra onlar erməni və malakanlardan ibarət qarnizon təşkil edib, ora müsəlmanları buraxmamışlar. Müsəlmanlar qarnizona daxil olmağa nail olduqda isə, erməni əsgərləri onlara qarşı düşmənçilik etmiş, hətta təhqir edib incitməyə başlamışlar. Elə bu zaman ermənilər öz kəndlərinə müxfəlif yollarla silah gətirib güclü surətdə silahlanmışlar. Silahı cəbhədən qayıdan əsgərlər gətirmişlər. Onların hərəsində bəzən üç tüfəng olmuşdur. Bütün bunlar müsəlmanları bərk həyəcanlandırmışdır. Həm şəhərlilər, həm də kəndlilər aydın görürdülər ki, ermənilər onlara qarşı hücuma hazırlaşırlar.

Müsəlman ictimai xadimləri və ruhaniləri müsəlmanların ermənilərə qarşı hər hansı düşmənçilik hərəkətinə yol verməməsi üçün bütün tədbirləri görürdülər. Belə bir vəziyyətdə müsəlman ictimai xadimlərinin təşəbbüsü ilə müsəlmanlardan, ermənilərdən və ruslardan ibarət vəziyyəti aydınlaşdıracaq birləşmiş bir komitə yaradılır. Komitədə müsəlmanlar ermənilərin onlara qarşı düşmənçilik hərəkətləri etdiklərini göstərir. Onları riyakarlıqda günahlandırır, sülh və qardaşlıq şəraitində yaşamağa çağırır. 1905-ci ildə olduğu kimi, qardaş qırğını müharibəsini istəmədiklərini bildirirdilər. Ermənilər müsəlmanları onlara qardaşlıq hissləri bəslədiklərinə və heç bir düşmənçilik çıxışı hazırlamadıqlarına inandırmağa çalışır, eyni zamanda silah ehtiyatı yığmağı dayandırmayaraq Şamaxı şəhərindən altı verst aralı Mədrəsə kəndində Zaqafqaziyanın digər qəzalarından da erməni əsgərlərini yığırmışlar.

Martın birinci yarısında məlumat alındı ki, Bakıdan Şamaxıya böyük miqdarda hərbi sursatla, top və pulemyotlarla silahlanmış iki mindən üç minədək erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və erməni ictimai xadimlərindən ibarət nümayəndə heyəti göndərilir. Onlar bütün silahı -topları, pulemyotları Şamaxı qarnizonuna təhvil verməyi dəstəyə təklif etməli və ümumiyyətlə, dəstənin nə məqsədlə gəldiyini öyrənməli imiş. Nümayəndə heyətinin dəstə ilə görüşü Malakan kəndi Qozluçayda (Xilmilli) olmuşdur. Dəstə silahları Şamaxı qarnizonuna verməkdən imtina etmiş və bildirmişdir ki, onların məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdir. Dəstə Şamaxının yanından keçib Mədrəsə kəndinə gedəcəyinə söz vermişdi.

Martın 15-də sübh çağı adıçəkilən dəstə Şamaxının yanından keçəndə şəhərin kənarında öz evlərini qoruyan müsəlmanlar dəstənin şəhərə hücum çəkdiyini güman edib bir neçə atəş açmışlar. Dəstə də onlara atəş açmışdır. Atışma bütün şəhəri əhatə etmişdir. Lakin müsəlman könüllü dəstəsinin rəisinin səyi ilə anlaşılmazlıq aradan götürülmüş və atışma dayandırılmışdır. Bu atışma nəticəsində həm müsəlmanlar, həm də ermənilər tərəfindən bir neçə tələfat olub. Axşama qədər şəhərdə tam qayda və sakitlik yaradıldı. Elə həmin gün erməni

yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün xalqları və ruhanilərinin nümayəndələri yığışaraq and içirlər ki, sülh şəraitində yaşayıb, qayda-qanunu pozmayacaqlar.

Bu hadisə ilə əlaqədar ertəsi gün şəhərdə təntənəli yürüş təşkil edilmişdir. Şamaxı hadisələri haqqında xəbər Kürdəmir kəndinə çatdıqda bu kəndin camaatı iki hörmətli adamı seçib həqiqi vəziyyəti öyrənmək və müsəlmanları incitməməyi ermənilərdən xahiş etmək üçün Şamaxıya göndərmişlər. Həmin nümayəndələr Mədrəsə kəndindən Şamaxıya gəlmiş erməni rəhbərlərinə müsəlmanlarla sülh şəraitində yaşamağı xahiş etdikdə və erməni yepiskopunun verdiyi andı xatırlatdıqda belə cavab almışlar: "Müsəlman ruhaniləri erməni ruhanilər ilə barışa bilər. Lakin erməni xalqı müsəlmanlarla müharibə istəyir və bu işdə onu İngiltərə müdafiə edəcək".

Müsəlmanlar erməni yepiskopundan ermənilərin onlara hücum etməyəcəyi barədə andı eşidib sakitləşirlər və inanırlar ki, bədbəxtliyin qarşısı alınıb. İndiyə qədər Şamaxıda olan kəndli müsəlman könüllülər evlərinə dağılışırlar. Erməni yepiskopu martın 17-də Şamaxı şəhəri müsəlmanları ilə ermənilər arasında bağlanmış sülh haqqında erməni rəhbərlərinə məlumat vermək üçün Mədrəsə kəndinə gedir. Martın 18-də sübh çağı Şamaxı ətrafında top atəşləri eşidilməyə başlayır. Aydın olur ki, gecə ikən şəhər cənubdan ermənilər, şimal-şərqdən isə malakanlar tərəfindən mühasirəyə alınmışdır. İndi şəhərin müsəlman hissəsini bombalayırlar. Müsəlmanlar əvvəlcə müdafiə olunmaq istəyirlər, lakin topların qarşısında dayana biləcək vəziyyətdə olmadıqlarından geri çəkilirlər. Ermənilər şəhərə atəşi davam etdirir və hücuma keçirlər. Axşama yaxın onlar şəhərin ən varlı hissəsi "Piran Şirvan"a daxil olurlar. Evlər yandırılır. Yanan evlərdən qaçan kişilər, qadınlar, uşaqlar və ümumiyyətlə, küçələrdə görünən hər kəs güllələnir. Evlərə soxulur, sakinləri öldürüb qarət edirlər. Şəhərin küçələrində meyitlərdən qalaqlar yaranır.

Gecə müsəlmanlar təslim olmaları barədə qalib ermənilərin yanına nümayəndə göndərirlər. Lakin atəş dayandırılmırdı. Ertəsi gün ermənilər və malakanlar müsəlmanların bütün silahlarını alırlar. Buna baxmayaraq, müsəlmanların öldürülməsi və qarət edilməsini dayandırmırlar. Kişiləri, qadınları və uşaqları öldürür, ölüm və evləri yandırmaqla hədələyərək pullarını əllərindən alırmışlar. Küçələrdə döşləri kəsilmiş və doğranmış qadınların meyitləri atılıb qalmışdı. Talan edilmiş əmlak araba və furqonlarla erməni və malakan kəndlərinə göndərilir. Bu vəhşiliklər bir neçə gün - Gəncə müsəlman qoşunları Şamaxı şəhəri və Şamaxı qəzası əhalisinin köməyinə gələnə qədər davam etmişdir. Bu qoşunların gəlməsinə görə ermənilər və malakanlar Şamaxıdan Malakan kəndi Qozluçaya çəkilirlər. Müsəlman qoşunları onları təqib edir. Aydın olur ki, ermənilər və malakanlar sayca onlardan üstündürlər və onlar geri çəkilib Şamaxıdan çıxıb getməli olurlar. Bu qoşunlarla birlikdə Şamaxının, demək olar ki, bütün əhalisi gedir, ancaq ən kasıb camaat, xəstələr, qocalar, qadınlar və uşaqlar qalır. Müsəlman qoşunları ilə gedənlər isə ən qiymətli əşyalarını belə özləri ilə götürə bilməmişlər. Hər şeyi taleyin hökmünə qoyub getmişlər.

Müsəlman qoşunları gedəndən bir neçə gün sonra ermənilər və malakanlar Şamaxını ikinci dəfə zəbt etdilər. Müəyyən edilmişdir ki, müsəlman qoşunları ilə getməyib şəhərdə qalan bütün kişilər, qadınlar və uşaqlar məhv edilmişdir. Hamı tərəfindən hörmət edilən məşhur axund Cəfərqulu da vəhşicəsinə öldürülmüşdür. Ermənilər onun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Habelə onun evində və həyətində xilas olmaq istəyən çoxlu qadını və uşağı da öldürmüşlər. Onun tamamilə yandırılmış evinin həyətində çoxlu xırda insan sümükləri aşkar edilmişdir. Meyitlərin qalmış iri sümüklərini isə erməniləri türklər Şamaxıdan qovandan sonra toplayıb basdırmışlar. Həyətdə indi də çürümüş meyitlərin boğucu iyi qalmışdır.

Bundan başqa, yandırılmış evlərin və məscidlərin həyətlərində meyitlərin yanmış sümükləri tapılmışdır. Məscidlərin həyətlərində şəhərin hər yerindən yığılmış sümüklərin torpağa basdırıldığı böyük miqdarda təzə qəbirlər vardır. Şəhərin bütün müsəlman hissəsi yandırılmışdır. Yanğın hər şeyi məhv etmişdir. Müsəlman hissəsində bir dənə də olsun ev qalmamışdır. Şəhərin bütün müsəlman hissəsi indi xarabalığı, böyük küllüyü xatırladır. Məscidlərə və müqəddəs yerlərə də aman verilməmişdir.

On üç məhəllə məscidi və böyük cümə məscidi yandırılmışdır. Bu, müsəlmanlar üçün təkcə ibadət yeri deyil, həm də səkkiz yüz il bundan əvvəl tikilmiş qədim arxitektura abidəsi kimi qiymətli idi. Yoxlama zamanı müəyyən edilmişdir ki, məscidlər, evlər, mağazalar və digər tikililər hansısa yanan maye vasitəsilə divarlara çiləmək, sonra isə odlamaqla yandırılmışdır. Bir neçə məscidin, evlərin və mağazaların xarabalıqlarının, habelə insan sümüklərinin qırx beş ədəd foto-şəkli çəkilmişdir. Şamaxı qaçqınlarının qoyub getdikləri əmlakın bir hissəsi oğurlanmış, bir hissəsi isə yandırılmışdır. Şamaxı şəhərinin əhalisi tamamilə müflisləşmişdir. Maddi ziyanın hesablanması mümkün deyil.

Şamaxı qəzasının yetmiş iki müsəlman kəndinin və onların əhalisinin də taleyi belə olmuşdur. Şamaxıya hücum zamanı ermənilər və malakanlar birgə hərəkət etmişlər. Kəndlərin üzərinə isə ya ancaq ermənilər, ya da ancaq malakanlar, bəzən də ikisi birdən hücum etmiş, bir sıra hallarda isə hücumlarda yerli cühudlar da olmuşlar. Ondan başqa, Şamaxı kimi xaincəsinə, qəflətən hücuma bir neçə kənd məruz qalmış, bir neçə kəndin əhalisi isə ermənilər və malakanlar gəlməzdən qabaq çıxıb getmişlər.

Martın 18-də sübh çağı Şamaxıdan 2-4 verst aralı Əngəxaran kəndinə hücum edilir. Əngəxaranın camaatı top atəşi səsinə oyanaraq, harada atıldığını öyrənmək üçün evlərdən çıxdıqda görürlər ki, kəndi Şamaxı qəzasının malakanları mühasirəyə alıb. Səngərlərdə oturmuşlar, müsəlmanlar görünən kimi onlara atəş açırlar. Qarışıqlıq yaranır. Malakanlar kəndə soxularaq kişiləri, qadınları və uşaqları öldürməyə başlayırlar. Yüzə qədər adamı öldürüb, qalanını mühasirəyə alıb kənddən kənara çıxarırlar, malakanların bir hissəsi əngəxaranlıların əmlakını və mal-qarasını oğurlamağa, kəndin ən yaxşı evlərini yandırmağa başlayır. Talan edilmiş əmlakı və mal-qaranı öz kəndlərinə aparırlar. Uşaqları müsəlman kəndi Məlhəmə aparıb orada saxlayırlar. 88 kişini isə malakan kəndi Çuxuryurda gətirirlər.

Kəndə çatmamış malakanlar əsirləri bağlarda saxlayıb bir neçəsini öldürürlər. Qalan 76 nəfər əsir kimi Mədrəsə erməni kəndinə göndərilir. Yolda iki nəfəri də öldürürlər. Mədrəsə kəndinə ancaq 74 nəfər gətirilir. Onlardan ikisi ermənilər tərəfindən Şamaxı şəhərinə müsəlmanlara hansısa tapşırıqları çatdırmaq üçün göndərildikdə qaçıb xilas olurlar. Qalanları əsir qalırlar. Şamaxıya müsəlman qoşunları gələndə və ermənilər Mədrəsə kəndindən sonra əngəxaranlı əsirlərin qohumları və həmkəndliləri onların taleyini öyrənmək üçün Mədrəsə kəndinə gəl- dikdə kəndin arxasında onların hamısının meyitlərini tapırlar. Meyitlər eybəcər hala salınmışdır: qulaqları və burunları, habelə əlləri və ayaqları kəsilmişdir. Bir sıra meyitlərin döşlərində yanıq izləri aşkar edilmiş və bununla sübut edilmişdir ki, sağ ikən onların döşləri üzərində ocaq qalanmışdır. Bundan başqa, çoxlu əngəxaranlı aclıqdan, soyuqdan və xəstəlikdən ölmüşdür. Hazır- da Əngəxaranın əhalisi yarıdan çox azalmışdır. Qalan əhali başdan-başa xəstədir və hər gün bir neçə nəfər ölür. Əngəxaranlıların ziyanının ölçüsü çox böyükdür. Onlar tamamilə müflisləşiblər.

27 kəndin vəziyyətinin təhqiqatı göstərir ki, ancaq bir kənd Əngəxaran kimi dəhşətli talana məruz qalmamışdır. Çoxları - Sündi, Çarhan, Təklə, Çobanı və s. kimi kəndlər də beləcə talan edilmişdir. Keştiməz, Biço və Kəşad kəndlərində əhalinin çoxu əsir götürülmüş, qadınların çoxu işgəncələrə və mənəvi əzablara dözməyərək ölmüşdür. Qəzanın bütün müsəlman əhalisi müflisləşmiş, dilənçi kökünə düşmüşdür. Hamısı xəstədir. Hər gün böyük kəndlərdə 10-15 nəfər, kiçik kəndlərdə 4-6 nəfər ölür.

Ziyan çəkmiş müsəlmanların ifadələrindən aydın olur ki, ermənilər Şamaxını və Şamaxı qəzasının kəndlərini talan edərkən, minlərlə müsəlmanı əzab verməklə öldürərkən ancaq milli ideyaları güdmüş, düşmənçilik və qisas ruhunda hərəkət etmişlər. Lakin ifadələrin müxtəlifliyi üzündən malakanları müsəlmanlara qarşı çıxış etməyə nə sövq etdiyini aydınlaşdırmaq mümkün olmadı. Zərərçəkənlərin bəzisi malakanların bolşevizm ideyalarını, digərləri öz xeyirlərini güddüklərini, üçüncülər isə ermənilərin təsiri altında hərəkət etdiklərini demişlər. Malakanların özləri isə, zərərçəkənin birinin dediyinə görə, daha güclünün tərəfində durmuşlar.

Şamaxı qəzasının talan edilmiş digər kəndlərinin təhqiqatı davam edir və onun nəticələri əlavə təqdim ediləcək.

Təkcə Şamaxı qırğını kimi tarixə düşmüş bu hadisələrlə yaxından tanışlıq millətimizə qarşı hələ əsrin əvvəlində törədilmiş misli-bərabəri olmayan soyqırımından xəbər verir.

**İlham PƏNAHOV.**
**“Respublika”.-2011.-30 mart.-N 65.-S.2.**

**Ermənistanın azərbaycanlılara qarşı soyqırımı və təcavüzkarlıq siyasətinin mərhələləri**

**Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti Azərbaycan tarixinin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur.**

Tarixi faktlar göstərir ki, strateji baxımdan mühüm əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsinə XIX əsrin əvvəllərində başlanmışdır. Bu dövrdə regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək istəyən çar Rusiyası XVIII əsrin sonu XIX əsrin əvvəllərində Türkiyə və İrana qarşı müharibə apararkən "erməni amili"ndən siyasi alət kimi istifadə etmişdir. XIX əsrin əvvəllərində Qafqaz qoşunlarının baş komandanı P.D.Sisianov Gəncəni tutduqdan sonra, 19 saylı raportunda yazırdı ki, Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı hesab edilir, buna görə də onu itaətdə saxlamalı və burada mövqeyimizi möhkəmlətməyə daha çox cəhd göstərməliyik. Belə bir məqsəd tezliklə həyata keçirildi. 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla general Sisianov arasında müqavilə imzalandı.

Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil olan kimi P.D.Sisianov dərhal Qarabağda çarizmin mövqeyini möhkəmlətmək üçün Cənubi Qafqazın digər əyalətlərindən erməniləri bura köçürməyə başladı.

Qarabağ əhalisinin sayı və etnik tərkibi haqqında ətraflı məlumat verən mühüm sənədə çar məmurları Yermolov və Mogilyovski tərəfindən tərtib edilən "Qarabağ əyalətinin təsviri"nə görə, 1823-cü ildə Qarabağ əyalətində 20 min 95 ailə, o cümlədən 15 min 729 azərbaycanlı və 4 min 366 erməni ailəsi olmuşdur. Yəni, hələ 1823-cü ilə qədər Qarabağa köçürülənlərin hesabına əyalətdə erməni ailələrinin sayı 4 min 366-ya çatmışdır.

Qarabağın dağlıq hissəsində erməni əhalisinin xeyli dərəcədə çoxaldılması XIX əsrin 20-ci illərində, xüsusilə Cənubi Qafqazın Rusiya tərəfindən işğal edilməsindən sonra baş vermişdir. 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran, Türkiyə və Cənubi Azərbaycandan kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artmağa başladı.

Çar Rusiyasının Qafqazı işğal etməsini N.N.Şavrov açıq söyləyir və bu məqsədlə həmin əraziyə ilk dəfə başqa millətlərin köçürülməsini yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Qafqaza rus əhalisinin deyil, xaricilərin köçürülməsindən başladıq. Vətəndə arzuedilməz ünsürlər sayılan bu kolonistlərdən Tiflis və Yelizavetpol (Gəncə) quberniyalarında koloniyalar yaratdıq. Onlara ən yaxşı torpaqlar ayrıldı və müxtəlif imtiyazlar verildi".

Qarabağın dağlıq hissəsinə əvvəlcə rəsmən 124 min, daha sonra isə qeyri-rəsmi olaraq xeyli erməni köçürülmüşdür. Ümumiyyətlə, 1828-1830-cu illər ərzində Qarabağın dağlıq hissəsinə 200 min erməni köçürülmüşdür. Bu faktları N.N.Şavrov belə təsvir edir: "1828-1830-cu illər müharibəsi qurtarıqdan sonra biz 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürüb, onları demək olar ki, ermənilər yaşamayan Yelizavetpol və İrəvən quberniyalarında, Tiflis, Borçalı, Axalsixi, Axalkalaki qəzalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirdik. Onların məskunlaşması üçün 200.000 desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdır. Həmin ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi nəzərdə tutulur - E.Ə.) və Göyçə gölünün sahillərində məskunlaşdırıldılar. Bunu da nəzərə almaq lazımdır ki, rəsmi olaraq köçürülən 124 min ermənidən başqa, buraya qeyri-rəsmi köçənlərlə birlikdə onların sayı 200 min nəfərdən çoxdur"

Bu fakt onu göstərir ki, köçürülən ermənilər, əsasən ermənilər yaşamayan və ya az erməni yaşayan ərazilərdə yerləşdirildilər. Buradan belə məlum olur ki, XIX əsrin əvvəllərinə, xüsusilə Türkmənçay müqaviləsinə qədər Azərbaycanın Gəncə və İrəvan quberniyalarında ermənilərin sayı həddindən artıq az olmuşdur.

Beləliklə, Türkmənçay müqaviləsindən sonrakı iki ildə çar Rusiyanın himayədarlığı nəticəsində ermənilər Azərbaycanın müxtəlif yerlərində, o cümlədən Qarabağın dağlıq hissəsində məskunlaşmağa nail oldular. Çarizmin ermənilərə olan bu diqqəti və himayədarlığı sonrakı illərdə də özünü göstərirdi.

XIX əsrin sonu - XX əsrin əvvələrində Cənubi Qafqaza ermənilərin köçürülməsi davam etdirildi. Təkcə 1896-cı ildən 1908-ci ilə kimi Zaqafqaziyaya 400 min erməni köçürülmüşdü. Bu barədə N.N.Şavrov yazır: "1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilər haqqında məlumatında onların sayının 900 min nəfər olduğunu göstərmişdir. 1908-ci ildə isə onların sayı 1 milyon 300 min nəfərə çatmışdır, yəni bu müddət ərzində ermənilər 400 min nəfərdən artıq çoxalmışlar. Hal-hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyillər. Onları buraya biz köçürmüşük".

Ümumiyyətlə, Qarabağın dağlıq hissəsinə ermənilərin köçürülməsi bölgədə demoqrafik vəziyyətə ciddi təsir göstərdi. 1897-ci ildə əhalinin siyahıya alınması zamanı Qarabağda yaşayan 54 min 841 ailədən 29 min 350-nin azərbaycanlı, 18 min 616-nın isə erməni ailəsi olduğu bildirilir. 1917-ci ildə isə Qarabağda ermənilərin sayı gəlmələrin hesabına artaraq ümumi əhalinin 46%-ni, azərbaycanlılar isə 51 %-ni təşkil etmişdir.

1917-ci ilin "Kavkazski kalendar" məcmuəsinin yazdığına görə Qarabağda 199 min azərbaycanlı (58,3%) və 142 min erməni (41,7%) yaşayırdı. Göründüyü kimi çar Rusiyasının himayəsi sayəsində süni surətdə ermənilərin mərhələ-mərhələ köçürülüb Qarabağda yerləşdirilməsinə baxmayaraq azərbaycanlılar həmin torpaqların əzəli sakinləri olmaqla yanaşı, bütün dövrlərdə çoxluq təşkil etmişlər.

"Kavkazski kalendar"ın salnamələrində verilən statistik məlumatlar sübut edir ki, Ermənistanın indiki ərazisində də əvvəllər azərbaycanlılar ermənilərdən xeyli çox olmuşdur. Məsələn, 1886-cı ildə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 154-ü azərbaycanlı kəndi (45,7 %), 91-i kürd kəndi (27,8%) və yalnız 81-i erməni kəndi (24,8%) olmuşdur.

1889-cu ildə Zəngəzur qəzasının azərbaycanlı əhalisi ermənilərdən 1500 nəfər çox olmuşdur. 1897-ci ildə isə Zəngəzurun əhalisi 142 min nəfər olmuşdur ki, onlardan 71,2 mini (50,1%) azərbaycanlı, 63,6 min nəfəri isə (44,8%) erməni olmuşdur.

Ermənistan Mərkəzi Statistika İdarəsinin 1962-ci ildə nəşr olunmuş statistik məcmuəsində göstərilir ki, 1831-ci ildə İrəvan şəhərinin 18 min 766 nəfər əhalisinin 15 min 992 nəfəri, 1866-cı ildə isə 27 min 246 nəfərdən 23 min 627 nəfəri azərbaycanlı olmuşdur (yəni əhalinin 85,2%-i). Z.Kirokodyanın 1932-ci ildə İrəvanda nəşr olunmuş "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında da qeyd edilir ki, İrəvan quberniyasının İrəvan, Eçmiəzdin, Yeni Bəyazid, Aleksandropol qəzalarında, Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur və Qazax-Dilican qəzalarında, Tiflis quberniyasının Lori-Pəmbək (Borçalı mahalı) qəzasında 2310 yaşayış məntəqəsindən 2000-i azərbaycanlılara məxsus olmuşdur. İrəvanda yaşayan 10 min nəfər əhalinin 7 min nəfəri azərbaycanlı olmaqla yanaşı, eləcə də xanlığı idarə edən 40 nəfərin hamısı azərbaycanlılar olmuşlar.

İrəvan quberniyasının 1920-ci ilədək Azərbaycanın tərkibində olan qəzalarında, xüsusilə İrəvan qəzasında azərbaycanlı əhalinin sayı xeyli çox olmuşdur. Məsələn, qəzada olan 99 min nəfərdən 62,6 mini azərbaycanlı (66%), 36,4 min nəfəri erməni (34%) olmuşdur.

İrəvan quberniyasının Eçmiəzdin, Yeni Bəyazid, Sürməli qəzalarında isə azərbaycanlılar əhalinin üçdə birini təşkil etmişdir. 1916-cı il yanvarın 1-nə olan məlumata görə bu ölkələrdə əhalinin etnik tərkibi yenə azərbaycanlıların xeyrinə çoxluq təşkil edirdi. İrəvan qəzasında 74,2 min nəfər və ya 48%, Zəngəzur qəzasında 119,5 min və ya 53,3%, Yeni Bəyazid qəzasında 50,7 min nəfər, Sürməli qəzasında 45 min nəfər azərbaycanlı olmuşdur. Bu rəqəmlər əyani surətdə sübut edir ki, XIX və XX əsrlərin əvvəllərində indiki Ermənistanın ərazisində yerli əhali olan azərbaycanlılar əksəriyyət təşkil etmişlər.

Erməni millətçiləri XIX əsrin sonunda - 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Qınçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdılar. Bundan sonra, ermənilərin "Böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoydu.

XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında qarşıya qoyduğu "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirməyə başladılar.

Belə ki, 1905-1907-ci illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır. Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqələrini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşlər. Ermənilər 200 mindən artıq azərbaycanlını (uşaq, qadın, qoca) fərq qoymadan qətlə yetirməklə, həmin ərazilərdə çar Rusiyasının onlara vəd etdiyi "Ermənistan dövləti"ni qurmaq üçün etnik təmizləmə aparmışlar.

1917-ci ildə Rusiyada baş verən fevral və oktyabr hadisələrindən sonra "Daşnaksütyun" partiyası və Erməni Milli Konqresi daha geniş fəaliyyətə başladı. İlk addım kimi özlərini Qafqazda bolşevik hakimiyyətinin qanuni nümayəndələri hesab edən maskalanmış daşnaklar, əsasən Türkiyədən qaçıb gələn erməniləri silahlandıraraq sovet hakimiyyəti qurmaq adı altında Bakıda hakimiyyəti ələ keçirdilər. Lenin tərəfindən 1917-ci ilin dekabrında Qafqaza fövqəladə komissar təyin edilən daşnak S.Şaumyan azərbaycanlıların kütləvi qırğınının təşkilatçısı və rəhbərinə çevrildi.

Erməni silahlı qüvvələri tərəfindən 1917-ci ilin əvvələrindən 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197 kənd, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılmış, digər bölgələrdə 60 yaşayış məskəni məhv edilmiş, yandırılmış və viran qoyulmuşdur.

1918-ci ilin əvvəllərində, yəni mart qırğını ərəfəsində bilavasitə Şaumyana tabe olan erməni silahlı qüvvələrinin sayı 20 minə yaxın idi. Bolşeviklərin, o cümlədən Leninin himayəsi altında Şaumyan Bakı Kommunasının rəhbəri oldu və onun başçılığı ilə 1918-ci ilin martında ermənilər tərəfindən dinc azərbaycanlılara qarşı dəhşətli soyqırımı törədildi.

Belə ki, həmin il martın 30-da erməni-bolşevik birləşmələri Bakı şəhərini gəmilərdən yaylım atəşinə tutdular. Bunun ardınca isə silahlı daşnaklar azərbaycanlıların evlərinə hücum edərək amansız qətllər törətdilər. Martın 31-də və aprelin ilk günlərində qırğınlar kütləvi xarakter aldı. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edildi. Həmin günlərdə erməni-bolşevik birləşmələri Bakıda 12-15 min dinc azərbaycanlını qətlə yetirdilər. Bu qanlı hadisələr zamanı insanlar evlərində diri-diri yandırılmış, eləcə də xüsusi işgəncələrlə və amansızlıqla öldürülmüşlər.

Ermənilərin basqını nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan xüsusi qəddarlıqla qətlə yetirilmiş, 162 kənd dağıdılmışdır ki, onlardan 35-i indi mövcud deyil.

Erməni-daşnak dəstələrinin Quba qəzasında azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilmələrini aşkar edən faktlar son vaxtlar bir daha sübuta yetirilmişdir. Belə ki, tapılmış saysız-hesabsız insan sümükləri bu qırğınlar zamanı erməni vandalizmini təsdiqləyən əyani faktlardır. Artıq bunların 1918-ci ildə erməni silahlı birləşmələrinin Qubaya basqını zamanı qəddarlıqla qətlə yetirilmiş və sonradan kütləvi şəkildə basdırılmış yerli sakinlərə məxsus olduğu müəyyən edilmişdir.

Bundan əlavə, Azərbaycanın yüzlərlə yaşayış məntəqəsi, o cümlədən Qarabağda 150-dən çox kənd dağıdılmış və yandırılmış, eləcə də Şuşada azərbaycanlılara qarşı amansız qırğınlar törədilmişdir.

Ümumilikdə erməni daşnakları tərəfindən 1918-ci ilin mart-aprel aylarında 700 mindən çox azərbaycanlı, o cümlədən Bakıda və ətraf kəndlərdə 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Eyni zamanda Zəngəzur qəzasında 10 min, Şamaxı qəzasında (şəhərlə birlikdə) 16 min, İrəvan quberniyasında 132 min azərbaycanlı amansızlıqla öldürülmüşdür.

1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşamış 565 min azərbaycanlı öldürülmüş və doğma torpağından didərgin düşmüşdür. Bu rəqəmi Z.Kirokodyan özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında təsdiq edərək yazır ki, "1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur".

Bu dövrdə Quba qəzasında 122, Şamaxı qəzasında 72, Zəngəzur qəzasında 115, Qarabağda 157, İrəvan quberniyasında 211, Qars vilayətində 92 yaşayış məntəqəsi yandırılmış, dağıdılmış və talan edilmişdir. 1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiəzdin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmişdir.

Azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınlar Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində yüz minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilmiş, bir milyondan çox əhali öz doğma torpaqlarından didərgin salınmışdır. Tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən bu vəhşiliklər törədilərkən məktəblər, məscidlər yandırılmış, maddi-mədəniyyət nümunələri məhv edilmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra fövqəladə istintaq komissiyası yaradılmış və ermənilərin törətdikləri bu cinayətlər araşdırılmağa başlanmışdır. Hökumətin qərarı ilə hər il (1919 və 1920-ci il martın 31-də iki dəfə ümummilli matəm günü kimi qeyd edilmişdir) mart ayının 31-nin matəm günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi.

"Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara və türklərə qarşı dəhşətli terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Belə ki, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər.

Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan köçürülmə prosesi bütün XIX əsr boyunca davam etdirilmiş və nəticədə regionda demoqrafik vəziyyətə təsir göstərmişdir. Ermənilərin bu bölgədə süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin baş qaldırmasına səbəb olmuşdur.

Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrlərdə isə bu ərazilərdə tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirdilər.

Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə XIX əsrdə köçürülən ermənilərə 1923-cü il iyunun 7-də muxtar vilayət statusu verildi ki, bu da Sovet Rusiyasının himayəsi və iştirakı ilə həyata keçirildi. Bu hadisə

təkcə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması deyil, həm də ermənilərin ölkəmizə qarşı gələcək ərazi iddiaları üçün bir vasitə oldu.

Sovet dövründə Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan erməni icması bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan öz ərazi iddialarını bir neçə dəfə ortaya atmış, ancaq istəyinə nail ola bilməmişdir.

Lakin bunun əvəzində 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarına əsasən 1948-53-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması nəticəsində 150 minə yaxın soydaşımız zorakılıqla Azərbaycanın aran rayonlarına köçürülmüşdür.

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. SSRİ-nin süqutu ərəfəsində Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistanla birləşməyin zəruriliyinə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət buna nail olmaq üçün Dağlıq Qarabağdan 50 min azərbaycanlını soyqırımı və təcavüzə məruz qoyub didərgin salmış, eləcə də Ermənistandan 250 min azərbaycanlını tarixən yaşadığı torpaqlardan zorakılıqla deportasiya etmişdir.

Belə ki, 1988-ci ildə keçmiş SSRİ rəhbərliyinin himayədarlığı sayəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiasında olan Ermənistan parlamentinin gizli göstərişinə əsasən iki həftə ərzində, 1988-ci il noyabrın 22-dən dekabrın 7-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri boşaldılmış, nəticədə 200 mindən artıq azərbaycanlı əhali Azərbaycana qovulmuşdur.

Nəticədə, Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyası həyata keçirilərək, 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, minlərlə qadın, uşaq və qoca bədən xəsarəti almış, on minlərlə ailənin əmlakı qarət olunmuşdur.

Mono-etnik dövlət yaratmağa nail olan Ermənistan sılahlı qüvvələri ona himayədarlıq edən dövlətlərin köməyindən istifadə edərək, Dağlıq Qarabağ bölgəsinin (4,4 min km.) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələrini işğal etdilər. Bütün bu ərazilər ermənilər tərəfindən etnik təmizləməyə məruz qalmışdır. Belə ki, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağın 120 min nəfərlik erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verdiyi bu proses Azərbaycanın işğal olunmuş ərazılərindən 1 milyondan çox əhalinin (ümumi əhalinin 15%-i) öz torpağında qaçqın vəziyyətinə düşməsinə gətirib çıxartdı.

Hazırda Azərbaycan ərazisinin 20 %-dən çox hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal nəticəsində 900-ə yaxın yaşayış məntəqəsi, 22 muzey və 4 rəsm qalereyası, tarixi əhəmiyyəti olan 9 saray, nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı, 44 məbəd və 9 məscid dağıdılmış, talan edilmiş və yandırılmışdır. Bundan əlavə, 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir.

Eyni zamanda, dövlət terrorizmi və soyqırımı siyasəti yeridən Ermənistan və işğal olunmuş ərazilərdəki separatçı rejim tərəfindən ümumilikdə, müxtəlif səpkili (sərnişin avtobuslarında, sərnişin və yük qatarlarında, Bakı metropolitenində, hava nəqliyyatında, sərnişin daşıyan dəniz bərəsində, yaşayış məntəqələrində, mülki və dövlət obyektlərində ) 373 terror aktı törədilmişdir ki, nəticədə 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır.

Bütün dövrlərdə olduğu kimi, ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti kütləvi qırğınlarla müşayiət olunmuşdur. Belə ki, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfərdən çoxu yaralanmış, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Münaqişə dövründə 4853 nəfər itkin düşmüş, onlardan 1357 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə hələ də Ermənistanda əsirlikdədir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 nəfər əsirlikdə ölmüşdür.

XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Dünya tarixində Xocalı faciəsi tarixi yaddaşlardan heç vaxt silinməyən Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Xolokost kimi dəhşətli faciələrdən heç də geri qalmır. Adı çəkilən hadisələr müharibələr tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və bütün dünyada geniş əks-səda doğurmuşdur.

Bu soyqırımı nəticəsində rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdür ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. 8 ailə tamamilə məhv edilmişdir. 487 nəfər şikəst olmuşdur ki, onlardan da 76-sı uşaqdır. Bundan əlavə, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında

Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə, ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. Bununla yanaşı, ümummilli liderin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanı Ermənistan ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması deyil, eləcə də erməni şovinizmi və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir.

Hazırda bu proses Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq bir sıra beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilmişdir. Beynəlxalq hüquqa görə soyqırımı sülh və insanlıq əleyhinə yönələn əməldir və ən ağır cinayət hesab edilir. Bu barədə BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi qəbul edilmiş və 1961-ci ildən qüvvəyə minən "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması" haqqında konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit olunmuşdur.

Ermənistanın bu cinayətkar siyasətinin davamlılığını sübut edən fakt ondan ibarətdir ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və nəhayət 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırımı və etnik təmizləmələrə məruz qalmışdır.

Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin konvensiyada təsbit edilmiş soyqırımı cinayətini təşkil edən bütün əməllər azərbaycanlılara qarşı tətbiq olunmuşdur. Bu işğalçı dövlətin yürütdüyü təcavüzkarlıq siyasəti 20 ildən artıqdır ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Ona görə də dövlətimiz bu konvensiyanı rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir.

Münaqişənin nizama salınması prosesində Azərbaycan dövləti və onun başçısı cənab İlham Əliyev ilk növbədə sülh variantına üstünlük verir. Lakin Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu vurğulamışdır.

**Elçin ƏHMƏDOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyası Beynəlxalq münasibətlər və**
**xarici siyasət kafedrasının dosenti,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**
**“Azərbaycan”.-**2011.-30 mart.-N 65.-S.3.

**Erməni vəhşiliyinin qanlı təzahürü.**
**Bakı qırğını**

***1918-ci ildə Bakıda daşnaklarla ittifaqa girən bolşeviklər Şaumyanın fitvası ilə martın 14-də vətəndaş müharibəsi vəziyyəti yaratdılar. Martın 24-də isə "Evelina" gəmisindəki "Vəhşi diviziya" əsgərlərinin tərksilah olunması partlayışa təkan verdi. Həmin hadisələrin şahidi olmuş yazıçı Məhəmməd Əsəd bəy "Qan seli" adlı sənədli hekayəsində faktlara istinad edərək yazır: " Qadınlar, uşaqlar və qocalar öz mənzillərində qətlə yetirildilər. Sakinlərin sığınacaq tapdıqları məscidlərdə qan su yerinə axdı. Kommunist və neft maqnatı Styopa Lalayan bütün şəhərdə müsəlman uşaqlarını axtarıb tapır, onların qıçından yapışıb havada yellədir və başlarını yola döşənmiş çaylaq daşının üstündə əzirdi. Bu yolla o, yüzdən çox uşaq öldürmüşdü.***

Süni şəkildə meydana çıxmış beynəlmiləl Bakı Sovetinin yaradılması Rusiyanın strateji maraqları ilə üst-üstə düşərək onun siyasi və iqtisadi mənafeyinə uyğun gəlirdi. Beynəlmiləl tərkibli Bakı Kommunası isə yerli əhalinin mənafeyinə xidmət etmədiyindən əyalətlərə nüfuz etmədən yalnız şəhərdaxili fəaliyyətlə kifayətlənirdi. Bakı Xalq Komissarları Sovetinə S. Şaumyanın rəhbərlik etdiyi dövrdə 1918-ci ilin mart qırğınının genişlənməsi, daşnak-bolşevik dəstələrinin əhaliyə kütləvi divan tutması bu hakimiyyətin gələcək perspektivi üzərindən qara xətt çəkdi. 1918-ci il martın 30-31-də Bakıda gedən şiddətli vuruşmada bolşeviklərin 6 min nəfərlik ordusu ilə birləşmiş erməni daşnaklarının 4 minlik quldur dəstəsi "Vəhşi diviziya" və müsəlmanların özünümüdafiə döyüşçüləri ilə vuruşurdu. N. Nərimanovun 1925-ci ildə Moskvada çap edilmiş "Məqalə və məktublar" kitabında bu qırğınla bağlı qənaəti belədir: "Müsəlman bolşevik olsaydı belə, daşnaklar ona aman verməyərək kefləri istəyən adamı öldürər, evləri dağıdıb xaraba qoyardılar. Bolşevizm bayrağı altında müsəlmanlara qarşı hər cür vəhşilik törədən daşnaklar nəinki kişilərə, hətta, hamilə qadınlara da rəhm etmirdilər". Mart qırğınının qismən də olsa qarşısının alınmasında və obyektiv təhlilində N. Nərimanovun tarixi rolu danılmazdır. On minlik dinc əhalinin qırğınına erməni daşnaklarının təhrikçi, gürcü menşeviklərinin müşahidəçi münasibətinə etiraz əlaməti olaraq bu dövrdə Tiflisdə yaşayan Məhəmməd Həsən Hacınskinin də daxil olduğu Zaqafqaziya Seyminin müsəlman fraksiyası və onun nazirləri 1918-ci il aprelin 3-də seymdən çıxmaq məsələsini qaldırdılar. Beləliklə, müsəlman fraksiyasının təzyiqi ilə Zaqafqaziya hökumətinin istefası əldə olunduqdan sonra yaranması labüd olan Azərbaycan Milli Şurasının Bakı hadisələrinə hərbi müdaxiləsi hüquqi cəhətdən təmin olundu.

Professor S. Əliyarlının tədqiqatlarından göründüyü kimi, mart döyüşlərində daşnak partiyasının hərbi alaylarının Bakı Soveti dəstələri ilə birgə çıxış etməsi böyük milli qırğına səbəb olmuşdu. Bu faciədən üç-dörd saat qabaq N.Nərimanov öz evində bir yığıncaq çağırmış, burada üzünü S.Şaumyana tutub söyləmişdi: "Hərgah bir iğtişaş başlansa, ayaq altda qalan fəqir-füqəra olacaq, həmin fəqir-füqəra ki, siz də, mən də onun yolunda işləyirik. Ona binaən, mən sizdən təvəqqe edirəm, sizə yalvarıram, bu işi sülh ilə qurtarasınız". Şaumyan həyəcanı sülh ilə yatıracağına söz versə də, belə olmadı. Ola da bilməzdi, çünki "milli qırğın" bahasına "müsəlman əksinqilabını" boğmağı o, qabaqcadan qarşısına məqsəd qoymuşdu. O, özü bu barədə RSFSR XKS-ə 13 aprel 1918-ci il tarixli məktubunda yazmışdı: "Daşnaksütyun"un da 3-4 min nəfərlik milli hissələri var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verirdik".

Onu da qeyd edim ki, Nərimanovun "ayaq altda qalan fəqir-füqəra olacaqdır" sözləri, tamamilə doğru çıxdı. "Hümmət" qəzetinin müxbiri yazmışdı: "Sülh gününün sabahı Çornıqorodda gömrük həyətinə getdim. Məqtulları (öldürülənləri) gördüm. Deyə bilərəm ki, bunların hamısı fəhlə sinfidir. Təzə Pirə gəldikdə yenə eyni mənzərə. Qəbiristana getdim və üstlərindəki neftli libaslarilə basdırılmaq üçün yan-yana düzülmüş məzlumlar yenə bu bədbəxt fəqirlər idi". Çox maraqlıdır, Şaumyan özü də "müsəlman yoxsulları böyük zərər çəkmiş", "vətəndaş müharibəsi nəticəsində yoxsul və evsiz-eşiksiz müsəlmanlar kütləsi zərər çəkmişdir" etirafı ilə bunu boynuna almışdır. Aprelin 3-də doktor Nərimanovun Şaumyan və Çaparidzeyə aşağıdakı məktubu çap olundu: ".... siyasi müharibə axırda milli müharibə yolu olubdur. Bu əhvalat Şura hökumətinə ləkə salıb, onu qara örtüklə bürüyüb. Hərgah siz bu yavuq vaxtda bu qara örtüyü cırıb bu ləkəni təmizləməsəniz, bolşevik fikri və Şura hökuməti burada davam edə bilməyəcəkdir". Beləliklə, 1918-ci ilin ilk dörd ayı içərisində yerli türk-azərbaycanlı əhalisi üzərinə davam edən basqın və qırğınlar onun düşüncəsini köklü şəkildə dəyişdirə bilmişdi. Çünki basqın və qırğınlar tək Bakıda deyil, Şamaxıda, Qubada, Göyçay səmtində, Qarabağda, Naxçıvanda və başqa yerlərdə də baş verirdi. Şamaxı şəhəri və qəzasında qırğın Bakıdakı qədər böyük olmuşdu, üstəlik qalan yerli əhali Quba, Lənkəran və başqa bölgələrə qaçıb dağılmışdı. "Hümmət" qəzetinin 11-25 iyun nömrələrində öz vətənində qaçqın düşən minlərlə adamın siyahısı çap edilmişdi ki, ailə üzvləri bir-birlərini tapıb görüşə bilsinlər. Rəsmi məlumata görə, Bakıda öldürülənlərin sayı 12 min nəfər idi. Azərbaycan Xalq Cümhuriyyətinin fransızca çap etdiyi bu sənədə T. Svyatoçovski "Rusiya Azərbaycanı.1905-1920-ci illər" kitabında ayrıca istinad etmişdir.

Bu, uydurma deyil, əsl genosid idi. Belə bir şəraitdə yerli azərbaycanlı əhali üçün milli suverenlik qazanılması vəziyyətdən yeganə çıxış yolu idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, bu cümhuriyyətin demokratik xarakterdə olması, ilk növbədə, milli parlamentdə təkcə siyasi partiyaların deyil, həm də Azərbaycanda yaşayan azsaylı millətlərin deputat kürsülərilə təmin olunmasında özünü göstərirdi. Belə ki, 96 deputatdan yalnız 36-sı Müsavat partiyasının payına düşürdü. Onlardan 12-si sosialistləri, 11-i İttihadı, 10-u Əhrarı təmsil edirdi. Bununla yanaşı, Daşnaksütyun partiyasına 7 və erməni milli cəmiyyətinə 4, rus icmasına 4 yer verilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin ağır, çox gərgin keçən 23 aylıq varlığı sovet dövründə olduğu kimi yalnız qara lövhə kimi təsvir olunmağa, yalnız həqarətlə yad edilməyə əsla layiq deyildir. Əksinə, bütün çətinliklərə baxmayaraq, bu 23 ay bir sıra gərəkli işlərlə yadda qaldı. Təkcə Bakı Dövlət Universitetinin açılması buna sübutdur. Bununla butöv bir tarixi xidmət yapıldı. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti 50 minə yaxın qaçqını yerləşdirmək üçün o ağır illərdə xəzinədən 18 milyon manat pul ayırmışdı (Ermənistandakı yurd-yuvasından qovulub çıxarılan qaçqınlar Zəngəzurda idilər, çünki o zaman Zəngəzur Azərbaycan Respublikasının tərkibində idi). Bu pul qaçqınların Mil düzünə köçürülüb yerləşməsi və Gavur arxın bərpa olunması işinə xərclənirdi. Tariximizi, xüsusilə 1918-1920-ci illər tariximizi biz necə də az öyrənmişik!

Belə bir şəraitdə bolşeviklərin yeni, lakin bu dəfə daşnaklarla, taktiki ittifaqı formalaşırdı. Sözdə həmişə millətçiliyin hər cür təzahürünə qarşı çıxan Şaumyan "Bakını Azərbaycanın paytaxtı etmək xülyasına düşən" müsəlmanlara tamamilə başqa münasibət bəsləyirdi. Azərbaycan kəlməsi onun dilində həmişə məsxərə ilə səslənirdi. Bolşeviklərin inamsızlığı hətta "Hümmətə" də sirayət etmişdi. Gəlir mənbələrindən məhrum edilən və sıralarına yeni üzvlər qəbul edə bilməyən təşkilat, öz mövcudluğunu yalnız son dərəcə kiçik tiraja malik qəzetin çapı ilə qoruyub saxlayırdı. Bunun əksinə, bolşeviklər daşnaklara mülayim münasibət bəsləyir, ermənilər də buna qarşılıqlı məhəbbətlə cavab verirdilər. Rus kadeti A.Baykov Bakıda inqilab dövrü haqqındakı xatirələrində erməni-bolşevik münasibətlərini belə şərh edirdi: "Rus inqilabı dövründə ermənilər Rusiyaya bağlılıqlarını nümayiş etdirir, mövcudluqlarının yeganə çarəsini Rusiyada görürdülər. Özünüqoruma hissi ermənilərə bolşeviklərə müqavimət göstərməməyi və onlarla sövdələşməyə girməyi təlqin edirdi. Ermənilər həmişə deyirdilər: Biz Rusiya əleyhinə çıxanlarla birləşməkdənsə, hətta bolşeviklərlə də olsa Rusiya ilə bir getməyi üstün tuturuq. Bu fikrin başqa ifadə forması da vardı: Bolşeviklər necə də olsa, rusdurlar, elə buna görə də türklərdən yaxşıdırlar". Daşnaksütyun Bakı Xalq Komissarları Soveti ilə əlaqə yaratmağa çalışırdı. Zaqafqaziya siyasətinin müəyyənləşdirilməsində Şaumyan görkəmli daşnak liderləri ilə əlbir fəaliyyət göstərirdi. Daşnaklarda isə bir erməni tarixçisinin də qeyd etdiyi kimi, "Rusiyaya meyl kommunizmə olan nifrətə üstün gəlirdi". Zaqafqaziyanın başqa yerlərinə nisbətən Bakıda daşnak-bolşevik qarşılıqlı anlaşması işgüzar xarakter daşıyırdı, digər yerlərdə erməni siyasətçiləri menşeviklərlə əlaqələr yaratmağa daha çox üstünlük verirdilər. 1918-ci ildə qışın sonlarına yaxın Bakı müsəlmanları erməni qoşunlarının şəhərdə toplanmasından narahat olmağa başladılar. Kənd yerlərindəki vəziyyətin əksinə olaraq, şəhərdə Azərbaycan qüvvələri yaxşı silahlanmış daşnaklarla müqayisədə xeyli zəif idilər. Taleyin istehzasına bax ki, erməni birləşmələrinin cəbhəyə yola düşəcəyi güman edilirdi, lakin dəmiryol qovşaqları müsəlman silahlı dəstələri tərəfindən dağıdıldığından bu mümkün olmamışdı. Yerli müsəlman və erməni milli şuralarının daşnak qüvvələrinin şəhərdən köçürülməsi haqqındakı müşavirələri uğursuz nəticələndi, çünki Bakı müsavatçıları dəmiryol hərəkətinə mane olan qüvvələrə nəzarət edə bilmirdi. Qorxuya düşən müsəlmanlar şəhəri sürətlə tərk etməyə başladılar. Təbii ki, bu əhali tarazlığına mənfi təsir göstərə bilərdi, lakin Bakı Sovetindəki bolşeviklər vəziyyəti nizama salmaq üçün heç nə etmədilər. Əgər əvvəllər bolşeviklər onları süpürüb bir kənara ata biləcək "tatar-erməni" qırğını və vətəndaş müharibəsindən uzaqlaşmağa çağırırdılarsa, indi iki millət arasındakı toqquşmaların öz xeyirlərinə olduğunu aydın başa düşürdülər. Çünki potensial cəhətdən bolşeviklər üçün daha təhlükəli olan azərbaycanlılar Bakıda hərbi cəhətdən hələ zəif idilər; digər tərəfdən, hətta daşnakların qələbəsi də şəhərdə erməni azlığının daimi hakimiyyəti ilə nəticələnə bilməzdi.

Şaumyanın çıxışlarında şiddətli çarpışmaların labüdlüyü daha tez-tez nəzərə çarpdırılırdı. O, martın 15-dəki nitqində demişdi: "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə və istehkamına çevrilməlidir". O, Zafkomla bir sırada "müsəlmanların millətçi bəy və xan partiyalarını" da inqilabın əsas düşmənlərindən sayırdı. Bolşeviklər həm də seymdəki fikir ixtilafından və milli rəqabətin doğurduğu gərginlikdən ürəklənirdilər. Bolşeviklər özlərini vətəndaş müharibəsinə hazırlayırdılar, həmin müharibənin nəticələri onları Bakının və uzun müddətə bütün Zaqafqaziyanın əsl sahiblərinə çevirə bilərdi. Şaumyan bunu nəzərə alaraq Rusiya XKS-dən əlavə hərbi sursat xahiş etdi və istədiyinin yerinə yetirilməsinə nail oldu, lakin Lenin ona qətiyyəti tədbirliliklə əvəz etməyi möhkəm şəkildə məsləhət görürdü. Öz diribaş şagirdinin tələskənliklə iş görəcəyindən açıq-aşkar ehtiyat eləyərək o, Şaumyana xatırladırdı ki, "bu vaxta qədər biz imperialistlər arasındakı ziddiyyət1ərə, mübarizəyə və ixtilaflara görə xilas ola bilmişik. Bu ixtilaflardan öz xeyrinizə istifadə etməyi bacarın. İndiki məqamda biz diplomatiyanı öyrənməliyik". Şaumyan əmin idi ki,

azərbaycanlılarla açıq ixtilafda Bakı daşnakları bolşeviklər üçün heç bir qorxu törətməyəcək, əksinə, xeyli dərəcədə ikincilərin mövqeyini müdafiə edəcəklər. Buna görə də o, qətiyyəti diplomatiyadan üstün tuturdu. Martın ortalarında sovet qüvvələri Bakının mühasirəsini yarmaq üçün qoşun göndərmək təşəbbüsünü irəli sürdü. Lənkərana, Şamaxıya və Muğan bölgəsinə göndərilən sovet qoşunları həmin əraziləri müsəlman partizanlarından təmizlədi. Şəhər daxilində Bakı Sovetinin təcavüzkar mövqeyi müsəlmanlar arasında gərginliyi daha da gücləndirdi. Partlayışı doğuran hadisə martın 24-də Bakı limanındakı "Evelina" kəmisində olan "Vəhşi diviziya" əsgərləri tərksilah edilərkən baş verdi. Müsəlmanlar bir gecə ərzində barrikadalar qurdular, ertəsi gün isə Bakı məscidlərində etiraz mitinqləri keçirildi. Nərimanov çalışırdı ki, böhran sülh yolu ilə həll edilsin, çünki o, "siyasi müharibə"nin çox asanlıqla iki millət arasında qırğına çevrilə biləcəyindən qorxurdu. Azərbaycan siyasi dairələrinin nümayəndələri A.Çaparidze ilə görüşdülər, lakin sovetin əsgərlərinə atəş açıldıqdan sonra bu danışıqlar dərhal kəsildi. Bu xəbəri eşidən A.Çaparidze Nərimanova zəng vurdu: "Biz sizin təkliflərinizi qəbul etdik, lakin əgər müsəlmanlar özləri siyasi müharibəyə başlayırlarsa onda biz nə edə bilərik?". Sonralar Şaumyan etiraf edəcəkdi: "Biz süvari birləşmələrimizə qarşı ilk silahlı basqına qarşı hər cür hazırlıq görmüşdük və dərhal bütün cəbhə boyu hücuma başladıq".

10 min azərbaycanlının Bakı Sovetinin 6 min nəfərlik qoşun hissələri ilə üz-üzə gəldiyi məqamda həlledici söz daşnakların 4 min nəfər, yaxud bundan bir az çox, son dərəcə yaxşı silahlanmış hərbi hissələrinin kimin tərəfində dayanacağından asılı idi. Ermənilər əvvəlcə tam neytral qalacaqlarını bildirdilər. Azərbaycanlılar belə bir inamla döyüşə girdilər ki, daşnaklarla vuruşmayacaqlar. Lakin martın 31-də daşnaklar sovet qüvvələrinə qoşuldular. Belə bir qüvvətli hərbi koalisiya ilə bacarmayan azərbaycanlılar ertəsi gün atəşi dayandırdılar. Bakı Sovetinin inqilabi müdafiə komitəsi "əksinqilabçı bəylərin Müsavat partiyası ətrafında birləşən cinayətkar planlarını" tənqid edərək təəccüb doğuracaq şəkildə mülayim azərbaycanlılara bir ultimatum verdi: Bakı Soveti hakimiyyətinin qeyd-şərtsiz tanınması və onun sərəncamlarına tam tabelik. "Vəhşi diviziya"nın və digər müsəlman birləşmələrinin, bunun ardınca isə erməni qüvvələrinin şəhərdən çıxarılması. Bakı-Tiflis və Bakı-Petrovsk dəmiryol xəttinin yenidən açılması bolşevik mərkəziyyəti ilə ilk hərbi toqquşmada azərbaycanlılar hədsiz olmasa da, hər halda xeyli qurban verdilər. Hadisələrin əsl faciəli davamı ultimatumun qəbulundan sonra, daşnak - bolşevik ittifaqının şəhərin müsəlman hissələrində qarətlər, yanğınlar, qətllər törətməsi ilə baş verdi. N.Nərimanov ürəyinə daman qara fikirlərin reallaşdığını gördü. Onun münaqişənin ikinci dövrü haqqındakı qeydləri təkcə müəllifin daşnaklara qəzəbini ifadə etmir, həm də müsəlmanlar əleyhinə bolşevik-daşnak alyansına münasibətini bildirirdi: "Müsəlman hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir". Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular. Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər".

Vuruşma aprelin 2-si gecəyədək sakitləşmədi. Şaumyanın hesablamasına görə, 3 min adam öldürülmuşdü. Minlərlə sağ qalmış müsəlman vahimə içərisində şəhərdən qaçırdı. Onların milli şurası və siyasi təşkilatları buraxıldı, rəhbərləri isə Gəncədə, yaxud Tiflisdə sığınacaq tapdılar. Bakı böhranı seymdə gərginliyi daha da artırdı. Zaqafkomun daxili işlər komissarı Ramişvili bolşeviklərin Zaqafqaziyada hücuma keçdiklərini bildirdi, lakin görüləcək əks-tədbirlər haqqında heç nə demədi. Bundan əlavə, menşevik parlament fraksiyası guya Azərbaycan partizanlarının fəaliyyətini bəhanə edərək, həm bolşeviklərin hərəkətini, həm də "Bakıya kənardan hücumları" pislədi. Bu aşkar qərəzsizlik Ramişvilinin "qardaş qırğınını" dayandırmaq üçün vasitəçilik məqsədi ilə Bakıya gəlməsinə şərait yaratmalı idi. Lakin gözlənildiyi kimi, bolşeviklər vasitəçilik təşəbbüsünü rədd etdilər. İnqilabi müdafiə komitəsinin cavabı milli məsələni yalnız sinfi qarşıdurma nöqteyi-nəzərindən qiymətləndirmək cəhdi kimi səciyyəvidir: "Hər hansı sülh nümayəndəliyinin heç bir məqsədi olmayacaqdır. Bakıda heç bir qardaş qırğını baş verməmişdir. Bakı hüdudlarındakı vətəndaş müharibəsi əksinqilabçı bəy və xanlara qarşı çevrilmişdir və indi də davam edir".

Axırda Zaqafkom qarışıq gürcü - Azərbaycan qüvvələrini topladı və İmam Qotsinskinin Dağıstan polku şimaldan şəhər üzərinə yeridikdə onları Tiflis-Bakı dəmiryol xətti boyunca şərqə yönəltdi. Zəif əlaqələndirilən və azsaylı qüvvə ilə həyata keçirilən bu hücum Bakı Soveti qoşunları tərəfindən asanlıqla dayandırıldı və onların əks - hücumları nəticəsində aprelin sonuna doğru Bakı quberniyasının böyük bir hissəsi Sovet hakimiyyətinin əlinə keçdi. "Döyüşün nəticələri bizim üçün əladır" - deyə Şaumyan aprelin 13-də Xalq Komissarları Sovetinə məlumat verirdi. Hadisələrin gedişini təsvir etdikdən sonra o, sevinclə bildirirdi: "Bakıda bizim bolşevik təsirimiz güclü idi və biz indi sözün əsl mənasında vəziyyəti öz əlimizə almışıq". Bu coşğunluq, çox güman ki, Şaumyana onun 1905-ci ildə çarizmin müsəlman-erməni qırğınından öz xeyrinə istifadə etməsini necə pislədiyini unutdurmuşdu. Onun azərbaycanlılara qarşı silah işlədənlərə belə bir təkliflə müraciət etməsinin özü şübhəlidir.

Bakı üzərindən təhlükə sovuşan kimi, inqilabi müdafiə komitəsi daşnaklara xatırlatdı ki, ultimatumun şərtləri onlara da aiddir. Erməni milli şurasına əmr olundu ki, öz hərbi qüvvələrini Sovetin qoşunları ilə birləşdirsin, axtarışlar aparılmasını, həbslər keçirilməsini və vergi yığılmasını dayandırsın". Daşnaklar bu

təkliflə razılaşdılar və Sovet öz tələblərində o qədər də sərtlik göstərmədi, çünki əvvəla, bolşeviklər başqa bir etnik icmaya-müsəlmanlara nifrət bəsləyirdilər, digər tərəfdən isə, daşnak tərəfkeşliyi Sovetin, hakimiyyəti əlində saxlaması üçün həlledici şərt idi. Bolşeviklər öz ənənəvi rəqib və düşmənlərinin qalan dayaqlarının ləğv olunmasında da qətiyyətlə hərəkət etdilər. Menşevik qəzeti ilə birlikdə bütün burjua mətbuatı bağlandı. Başqa bir əmrlə şəhər duması buraxıldı. Həmin dövrdə Duma artıq hakimiyyəti tam əlinə keçirmiş sovetlərin faydasız alternativindən başqa bir şey deyildi.

Aprelin 25-də Bakı Xalq Komissarları Soveti adı ilə şəhərdə və quberniyanın bütün ərazisində hakimiyyəti əlinə alan idarəetmə mexanizmi yaradıldı. Əslində bu, Lenin hökumətinin yerli forması idi. Bolşeviklər hələ də sovetdə azlıq təşkil etmələrinə baxmayaraq, Bakı XKS-də 12 vəzifədən 9-nu tutdular, onların sol eser müttəfiqləri isə öz mövqelərini qismən itirdilər. Başqaları ilə birlikdə komissarların siyahısında Şaumyanın (XKS sədri və xarici işlər komissarı), A.Çaparidzenin (daxili işlər) tanış adları, həmçinin Nərimanov (ictimai təminat), müsəlman sol eser "əkinçi" təşkilatının nümayəndəsi Mir Həsən Vəzirov da var idi. Onların həmin vəzifələrə təyin edilməsi bir tərəfdən qırğından sonra bolşeviklərin müsəlman əhalisi ilə barışmaq cəhdindən, digər tərəfdən ermənilərlə tarazlıq yaratmaq ehtiyacından irəli gəlirdi. Hümmətçilərdən, "ədalət" və "əkinçi" təşkilatlarının nümayəndələrindən təşkil olunmuş müsəlman sosialist bürosu Bakı müsəlmanlarının yeganə səsi kimi tanınırdı. Bakı Xalq Komissarları Soveti öz fəaliyyətini bu büronun müsəlman əhalisinin rifahı və təhlükəsizliyi ilə bağlı tələbləri ilə uyğunlaşdırmağa çalışırdı, bu isə erməni əhalisi arasında qəzəb hissini gücləndirirdi. Buna baxmayaraq, müsəlmanların qeyzlənmiş kütləsi bolşeviklərin bu işlərinə az əhəmiyyət verirdi. "Mart günləri"ndən sonra Azərbaycan rəhbərləri muxtariyyət hüququndan daha çox, ayrılmaqdan danışır və ümidlərini Rusiya inqilabına deyil, Türkiyənin yardımına bağlayırdılar.

**Süleyman MƏMMƏDOV,**
**əməkdar elm xadimi, tarix elmləri doktoru, professor**

**“Xalq qəzeti”.-**2011.-31 mart.-N 66.-S.3.

**Erməni daşnak millətçi qüvvələrinin xalqımıza qarşı xəyanəti, yürütdükləri terror və soyqırımı siyasəti bu gün də davam etməkdədir**

S. Şaumyanın rəhbərliyi altında erməni-millətçi qüvvələrinin 1918-ci il martın 30, 31 və 1 apreldə Bakıda, 1918-ci ilin mart-may aylarında Bakı quberniyasının Şamaxı və Quba şəhərləri və qəzaların kəndlərində, habelə Ərəş və Göyçay qəzalarında və Azərbaycanın digər bölgələrində törətdikləri dəhşətli qırğınlardan, soyqırımından 93 il keçir. Erməni daşnak millətçi qüvvələrinin xalqımıza qarşı xəyanəti, yürütdükləri terror və soyqırımı siyasəti bu gün də davam etməkdədir. Əslində erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı və təcavüz siyasətinin iki yüz ilə yaxın bir tarixi vardır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "31 mart - Azərbaycanlıların Soy-qırımı Günü" münasibətilə Azərbaycan xalqına 2006-cı il martın 28-də etdiyi müraciətində qeyd edilirdi: "...erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı və təcavüz siyasətinin iki yüz ilə yaxın bir tarixi vardır. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırmaq üçün müntəzəm surətdə ideoloji, hərbi və təşkilati xarakterli iş aparılmış, tədbirlər həyata keçirilmiş, ən müxtəlif üsul və vasitələrdən istifadə edilmişdir. Xalqımızın tarixi çox kobud şəkildə saxtalaşdırılmış, maddi və mədəniyyət abidələrimiz, toponimlərimiz erməni tarixçiləri və "ideoloqlarının" təcavüzünə məruz qalmışdır. Onlar millətçiliyi və şovinizmi, qonşu xalqlara nifrət ideologiyasını əsas tutaraq "milli-mədəni", siyasi və hətta terrorçu təşkilatlar yaratmış, erməni diasporunun və lobbisinin imkanları bu məqsədlərə səfərbər etmişlər. Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən İrandan və Osmanlı imperiyasına daxil olan ərazilərdən erməni əhalisinin köçürülüb yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905-ci və 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, Dağlıq Qarabağa muxtariyyət statusu təmin edilməsi, 1948-1953-cü illərdə Sovet rəhbərliyinin qərarı ilə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından deportasiyası xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir".

Son iki yüz ilə yaxın müddət ərzində erməni millətçilərinin xalqımıza qarşı həyata keçirdikləri soyqırımı və təcavüz siyasətinin özəyində Ermənistanın Azərbaycana qarşı əsassız olaraq irəli sürdükləri torpaq iddiası dayanır. Tarix göstərir ki, erməni millətçiləri bu iddianı vaxtaşırı olaraq irəli sürür, Azərbaycanı zəiflətmək, parçalamaq və onun tarixi torpaqları hesabına öz ərazilərini genişləndirmək istəyir. Erməni millətçiləri "Böyük Ermənistan" yaratmaq xülyasından əl çəkmək istəmirlər. XIX-XX əsrlərdə ermənilərin Azərbaycanlılara qarşı törətdikləri soyqırımlar və deportasiyalar tanınmış, tədqiqatçı-alim, tarix elmləri doktoru Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin rəisi Ataxan Paşayev tərəfindən arxiv sənəd və materialları əsasında ətraflı tədqiq edilmiş, dövri mətbuatda elmi-publisistik jurnallarda çoxsaylı məqalələr dərc edilmiş, radio və televiziya verilişləri vasitəsilə ermənilərin xalqımıza qarşı həyata keçirdikləri soyqırımı və deportasiyalara aid sənədləri aşkarlanaraq xalqa çatdırmışdır. Onun tərəfindən yazılmış geniş müqəddimə ilə "Azərbaycan sənədlərində erməni məsələsi (1918-1920)" adlı 712 səhifəlik sənədlər toplusu Türkiyədə böyük tirajla çap olunmuşdur. Arxivlərimizdə saxlanılan sənəd və materiallar əsasında hazırlanmış sənəd toplularının təkcə ölkəmizdə deyil, həm də ölkəmizdən kənarda öyrənilməsi və dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli olmuşdur. Qeyd etməliyik ki, erməni millətçi qüvvələrinin Azərbaycanlılara qarşı soyqırımı siyasətinin nəticələrinin obyektiv tədqiqatı yalnız 1991-ci il oktyabrın 18- də ölkəmizdə dövlət müstəqilliyi bərpa edildikdən sonra mümkün olmuşdur. Bu sahədə ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı" müstəsna əhəmiyyət kəsb etmişdir. Həmin Fərmanda qeyd edilirdi: "1918-ci ilin mart ayından etibarən əksinqilabi mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi həyata keçirməyə başladı. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Zəngilanda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir."

Tarixi sənədlər təsdiq edir ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasətinə zəmin uzun müddət ərzində, XIX-XX əsrlər boyunca, çar Rusiyası tərəfindən mərhələ-mərhələ yaradılmışdır. Çar hakimiyyəti çar hakimiyyəti İran və Türkiyədən olan erməniləri kütləvi surətdə Qarabağa köçürməyənə qədər Azərbaycanın bu tarixi ərazisində elə bir problem və ya münaqişə yaşanmamışdır. 1805-ci ildə Qarabağ xanı İbrahim xanla Rusiya qoşunlarının generalı Sisianovun Kürəkçay sahilində bağladığı müqaviləyə əsasən, Qarabağ xanlığı Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra imperiya tərəfindən erməni ailələri mərhələ-mərhələ kütləvi surətdə İran və Türkiyədən köçürülərək Qarabağda, Yelizavetpol (Gəncə-R.S.) və İrəvan quberniyaları ərazilərində yerləşdirildi və bununla da "problem"in süni surətdə yaradılmasına başlandı.

Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-ci il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri kimi tarixi sənədlər, habelə xanlığın Rusiyanın hakimiyyəti altına keçməsi haqqında 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla Rusiya imperiyası qoşunlarının generalı Pavel Sisianovun imzaladıqları Kürəkçay traktatı əyani surətdə təsdiq edir ki, imperiya sırf Azərbaycan torpaqlarını işğal etmiş və həmin tarixi sənədlərin heç birində erməni malikanələri və onların Rusiya təbəəliyinə keçməsi haqqında heç işarə belə olmamışdır. Azərbaycana məxsus həmin torpaqlar işğal edildikdən sonra ermənilər siyasi məqsədlərlə Rusiya imperiyası tərəfindən İran və Türkiyədən köçürülərək bu torpaqlarda yerləşdirilmişdir. Ermənilərin bu ərazilərdə ilk növbədə geosiyasi məqsədlərlə yerləşdirildiyi bir sıra tarixi mənbələrdə də öz əksini tapmışdır. Məsələn, Qafqazdakı rus qoşunlarının komandanı 22 may 1805-cı tarixli 19N-li raportunda qeyd edirdi ki, coğrafi mövqeyinə görə Qarabağ nəinki Azərbaycanın, habelə İranın da darvazası sayılır və ona görə də bu əyalətin öz əlində saxlanmasına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirilməlidir. 1805-ci il mayın 14-də imzalanmış Kürəkçay müqaviləsindən sonra bu vəzifənin yerinə yetirilməsi üçün əlverişli şərait yaranmış oldu və həmin dövrdən etibarən Rusiya imperiyası tərəfindən ələ keçirilmiş Azərbaycan torpaqlarına kütləvi surətdə ermənilərin köçürülməsinə başlandı. Beləliklə də Çar Rusiyası özünün cənuba doğru işğalçılıq siyasətində Şimali Azərbaycana yerləşdirdiyi ermənilərdən bir vasitə kimi istifadə etməyə başladılar. XIX əsrin əvvəllərindən başlanan həmin proseslər S.N. Qlinka., N.İ. Şavrov., A.S. Qriboyedov. V.L. Veliçko., S.P. Zelinski və başqalarının əsərlərində və digər tarixi mənbələrdə öz əksini tapmışdır.

S.N. Qlinka "Azərbaycan ermənilərinin (Türkmənçay müqaviləsindən sonra ermənilərin İranın • tabeçiliyində qalmış Cənubi Azərbaycandan Rusiya imperiyasının hakimiyyəti altına keçmiş Şimali Azərbaycana köçürülməsi nəzərdə tutulur.-R.S.) Rusiyanın hüdudlarına köçürülməsinin təsviri."- əsərində Rusiyanın Şərq xalqları haqqında siyasətini tənqid edərək yazırdı ki, çarizm özünün işğalçılıq siyasətində bir xalqı digərinə qarşı yönəltməyə əl atır, oxşar siyasəti Şərq xalqlarına da tətbiq edir, məsələn, Azərbaycanı istila etmək üçün ermənilərdən bir vəsait kimi məharətlə istifadə edirdi. N.S. Qlinkanın bu fikri N.İ. Şavrovun "Zaqafqaziyada rus işinə yeni təhlükə: Muqanın özgə xalqlara satılması."(Sankt-Peterburq.1911) kitabında verilmiş konkret faktlarda da öz əksini tapırdı. N. Şavrov yazırdı: "Biz müstəmləkəçilik siyasətimizə Zaqafqaziyaya rusları deyil, özgə xalqları köçürməklə başladıq...hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min erməninin bir milyondan çoxu diyarın yerli əhalisinə məxsus deyildir və bizim tərəfimizdən bu yerlərə köçürülmüşdür...Ermənilər erməni əhalisinin cüzi miqdarda olduğu Yelizavetpol (Gəncə-R.S.) və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında yerləşdirildi. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Dağlıq Qarabağ) və Göyçə gölünün sahilləri həmin ermənilərlə məskunlaşdırıldı". Tarixçi alim V. İşxanyanın hələ 1916-cı ildə Sankt-Peterburqda dərc etdirdiyi "Narodnosti Kavkaza" məqaləsində yazdığı kimi, "...ermənilərin lüğətində heç vaxt vətən sözü olmayıb. Onlar tarix boyu Kiçik Asiyadan və Rusiyadan kənarda, Fərat çayının yuxarı qolu olan Qaraçay sahillərində, Frakiya və Mesopatamiyada pərakəndə dəstələr şəklində yaşayıblar. Onların Zaqafqaziyaya qətiyyən dəxli yoxdur. Onların Azərbaycan və Dağlıq Qarabağ haqqındakı iddiaları qeyri-qanuni və əsassızdır". Bu fikirləri ermənilərin öz tarixçi alimləri Makuk Abekyan, K. Patkanyan, rus alimi Yuri Pompeev, Qafqaz tarixi üzrə məşhur Amerika mütəxəssisi Tadeuş Svyataxovski təsdiqləyir.

Erməniləri Azərbaycanın ərazisi olan Dağlıq Qarabağa və digər bölgələrə köçürərkən Azərbaycan xalqını bu proseslərin uzunmüddətli olmayacağına inandırmağa çalışırdılar. Məsələn, köçürülmə planının hazırlanmasında və həyata keçirilməsində xüsusi rolu olmuş A.S. Qriboyedov yazırdı:"...biz müsəlmanları düşdükləri indiki sıxıntılarla barışdırmaqdan ötrü onlara necə təlqin edəcəyimiz barədə kifayət qədər düşünürdük ki, müsəlmanları(Azərbaycanlıları-R.S.) necə inandıraq ki, onlar üzləşdikləri bu sıxıntıların üzünmüddətli olmayacağına, ermənilərin isə həmin torpaqları həmişəlik zəbt etməyəcəyinə əmin olsunlar."Lakin bütün bunlara baxmayaraq, xalqımıza verilən vədlərin əsassız olduğunu tarix bir daha sübut etdi.

Azərbaycanın tarixi torpaqlarına köçərək yerlərini möhkəmləndirmiş, sonralar isə Ermənistan Respublikasının ərazisini genişləndirməyə can atan "mədəni" və "dinc" ermənilər uzun müddətdir ki, Dağlıq Qarabağı Ermənistana birləşdirməkdən ötrü ən iyrənc üsullara əl atırlar. Erməni millətçiləri bu xülyalarını həyata keçirmək məqsədilə vaxtı ilə onlara çörək və sığınacaq vermiş Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin dinc əhalisini iblisanə qəddarlıqla qırırlar. Belə qırğınlar ermənilər tərəfindən vaxtaşırı olaraq törədilir.

Məsələn, hələ 1919-cu ildə Gəncə qubernatoru Vəkilov Azərbaycan Respublikasının Daxili İşlər Nazirinə göndərdiyi məruzəsində erməni millətçilərinin qəddarlığı barədə qeyd edirdi:"...bütün Avro- paya öz mədəniliyi barədə car çəkən, müdafiəsiz dinc əhaliyə qarşı vəhşilərin bütün üsullarını tətbiq edən belə bir millətin XX əsrdə mövcudluğuna inanmaq olmur. Onların vəhşiliklərinin həddi-hüdudu yoxdur, bunun qarşısında orta əsrlərin dəhşətli faciələri solğun görünür..."

Artıq XX əsrdən başlayaraq erməni daşnakları vaxtaşırı olaraq, xüsusilə də Azərbaycan üçün dönüş dövrlərində ərazi məsələsini qaldırırlar.

"Xalqların öz müqəddəratını təyin etmək" kimi gözəl şüar altında erməni millətçilərinin Azərbaycan Respublikasını parçalamaq cəhdi daşnakların uzun müddətdir ki, yürütdükləri və təbii ki, heç bir perspektivi olmayan köhnə siyasətin davamıdır. Azərbaycana qarşı irəli sürdükləri ərazi iddialarının əsassız olduğunu və onun iflasa uğradığını görən Ermənistan Respublikası iç üzlərini gizlətmək və dünya ictimaiyyətinin fikrini yayındırmaqdan ötrü elan edirlər ki, guya onların artıq Azərbaycana qarşı ərazi iddiası yoxdur, Qarabağı müstəqil dövlət kimi qələmə verərək Azərbaycanla qarşı-qarşıya qoymağa çalışırlar ki, bu da erməni millətçilərinin növbəti cəfəngiyatıdır. Çünki Qarabağ Azərbaycan xalqının tarixi beşiyidir, əzəli və əbədi torpağıdır, Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Qeyd edirik ki, ermənilər tərəfindən hələ 1918-ci ildə Azərbaycana qarşı ekspansionist cəhdlər edilmiş və onlar, təbii ki, heç bir müvəffəqiyyətə nail ola bilməmişdilər.21(8) oktyabr 1918-ci il tarixli 14N-li "Azərbaycan" qəzeti yazırdı: "...ermənilər müsəlmanları qışda Qarabağ respublikasını tanımağa məcbur etmək istədilər. Ermənilər qurultay çağırdılar...həmin qurultayda ermənilərin əsil siyasi siması üzə çıxdı. Ermənilər qurultayın çağırılmasına qədər olan müddətdə təntənə ilə elan etdikləri sosializm, qardaşlıq, ədalət və bu kimi şüarları unutdular. Səhnədə yalnız daşnakların dar millətçiliyi qaldı. Sırf daşnaklardan ibarət hökumət yaradıldı və onlar yalnız Andranik və Şahnazarovun gəlişini gözləyirdilər ki, güc tətbiq etməklə müsəlmanları tabe etsinlər." Lakin Azərbaycan hökuməti erməni millətçilərinin bu niyyətlərini alt-üst etdi. 1919-cu ilin yayında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın Qarabağda suveren hüquqları bərpa edildi. Parisdə olan nümayəndələrə göndərilən məlumatda qeyd edilirdi: "Qarabağ adlandırılan məsələ qəti şəkildə həll edildi...7-ci erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator Xosrov bəy Sultanovla saziş bağladılar."

Tarix onun ibrət dərslərindən düzgün nəticə çıxara bilməyənləri heç vaxt bağışlamayıbdır. Gec də olmuş olsa, separatist millətçi erməni-daşnak qüvvələri Qarabağda törətdikiəri özbaşınalıqlara son qoymalı və bunu birdəfəlik dərk etməlidirlər ki, Azərbaycan xalqı heç vaxt imkan verməyəcəkdir ki, öz tarixi torpağı olan Dağlıq Qarabağda ikinci erməni dövləti yaradılsın.

Azərbaycan xalqı ağır, lakin şərəfli bir mübarizəyə qalxmışdır. Əminik ki, bu ağır mübarizədə xalqımızın haqq işi qalib gələcək, ərazi bütövlüyümüz bərpa olunacaq, haqq-ədalət öz yerini tutacaq, şəhidlərimizin qanı yerdə qalmayacaqdır.

**Rafiq Səfərov**
**Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin əməkdaşı**

**“Kaspi”.-**2011.-31 mart, 1aprel.-N.54, 55.-S.9, 13.

## Tarixin yaralı səhifələri

**Yazılarımızın birində 1948-1953-cü illərdə qədim Oğuz yurdundan – indiki Ermənistandan soydaşlarımızın "köçürülmə"sindən söz açmışdıq. Bir məqamı yenidən vurğulamaq istərdik ki, bu deportasiyanın adı "könüllü köçürülmə" idi. Əslində isə azərbaycanlılara qarşı əsl soyqırımı həyata keçirildi. İlk növbədə, respublikanın paytaxtı olan İrəvan şəhəri və ona yaxın yaşayış məntəqələri azərbaycanlılardan təmizləndi, sonra rayon mərkəzləri və onların ətrafındakı kənd və qəsəbələrin əhalisi çıxarıldı. Əvvəlcə dəmir yol xətləri və şose yolları üzərində yerləşən yaşayış məntəqələri bu sayaq ələ keçirildi. Ermənilər hiyləgərliklə azərbaycanlıları elə sıxışdırırdılar ki, sonralar əhali özü baş alıb doğma yurdundan getməyə məcbur olurdu.**

**Fəlakətə hazırlıq**

İndiki Ermənistanın tamamilə türksüzləşdirilməsi 1988-ci ildə baş tutdu. Əslində, Moskvada hazırlanan ssenari üzrə həmin ilin fevralında ortaya Qarabağ kartı atıldı. Bu "kart oyununun" başlanmasına qədər isə Ermənistanda artıq bir sıra tədbirlər görülürdü. Onlar bir tərəfdən Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan, Rumıniya, Fransa, Misir və başqa ölkələrdən ermənilərin köçürülərək Ermənistanda yerləşdirilməsini təmin edir və onların mənzil problemlərinin həlli naminə azərbaycanlıların evlərini ələ keçirmək üçün müxtəlif hiyləgərliyə əl atırdılar. Xüsusilə də, yüksək vəzifədə çalışan azərbaycanlı rəhbər kadrların ermənilərlə əvəz edilməsinə səy göstərilirdi. Demək olar ki, qısa müddət ərzində Vedi, Zəngibasar, Krasnoselo rayon partiya komitələrinin birinci katibləri, on rayonda isə ikinci və üçüncü katiblər ermənilərlə əvəz olundu. Bunun ardınca İrəvanda müxtəlif nazirliklərdə yüksək vəzifələrdə çalışan azərbaycanlılar işdən azad edildi. Ermənilər hər bir vəchlə Azərbaycan dilində çıxan qəzetləri, institutların Azərbaycan fakültələrini bağlamaqla soydaşlarımızın sıxışdırılmasına çalışırdılar. Eləcə də şəhər, rayon, kənd, qəsəbə, çay, dağ, yer-yurd adları da erməniləşdirilirdi. Süni surətdə də azərbaycanlıların beyninə yeritməyə çalışırdılar ki, əslində, sizin vətəniniz Azərbaycandır, köçüb ora gedin.

SSRİ dövründə Ermənistanın əl-qol açmasına hər cür şərait yaradılıb. Ermənilər isə məhz Moskvadakı havadarlarına arxalanaraq planlı şəkildə "böyük Ermənistan" dövlətini yaratmaq xülyasını heç vaxt unutmayıblar. Hələ sovet dövründə Ermənistan yeganə respublika idi ki, orada hər bir küçənin, müəssisənin, kolxoz və sovxozun, orta ixtisas məktəbinin, xəstəxananın, parkın adı ermənicə idi. Bizim respublikada isə erməni adlarına o qədər geniş meydan verilmişdi ki, hətta S.Şaumyanın adına iki rayon, mədəniyyət evi, park, daha nələr var idi… Azərbaycanda rus dilini zəif bilənləri işə çətinliklə götürürdülər. Amma Ermənistanda bütün kargüzarlıq işi öz dillərində gedirdi.

Maraqlı bir faktı diqqətə çatdıraq. 1954-cü ildə A.Mikoyan İrəvana gəlib. O zaman millətçi ermənilərin cidd-cəhdlə başladıqları Naxçıvan və Qarabağla bağlı söhbətlər hələ də səngiməmişdi. Ermənistan Ali Sovetində söhbət zamanı Mikoyan öz qaniçənlərinə bildirib ki, o, Xruşşovla danışıb Qarabağla Naxçıvanın Ermənistana birləşdirilməsi layihəsini təsdiq etdirəcək. Elə bu söhbətdən də ilhamlanan ermənilər Mikoyanın şəninə banket təşkil edirlər. Erməni yazıçısı H.Köçəryan Mikoyanın şərəfinə dediyi tostda onu "erməni xalqının xilaskarı" adlandıraraq bildirib: "Türkiyədə erməni soyqırımının qisas alıcısı olan, xalqımızın qəhrəman oğlu Andronik haqqında əsərlər yazmışıq. Ancaq onların nəşrinə icazə vermirlər. Sizdən bütün yazıçılar, ziyalılar adından xahiş edirəm ki, özünüzün də yaxşı tanıdığınız Andronikin haqqında yazılmış bu əsərlərin nəşr edilməsinə, hətta yenilərinin yaradılmasına və onun Ermənistanda ən azı, iki-üç yerdə heykəlinin qoyulmasına icazə verəsiniz". Əlbəttə, ermənilərin bu arzusu Mikoyanın da ürəyindən idi. Amma onu birdən-birə, açıq şəkildə reallaşdırmaq çətin olardı. Bu söhbətdən on il sonra – 1965-ci ildə daşnakların çirkin niyyətləri yenə baş qaldırdı. Onlar "erməni soyqırımı"nı Ermənistan SSR-də rəsmi dövlət tədbiri kimi qeyd etdilər və İrəvanda qədim bir məscidi sökdürərək onun yerində bu tayqulaq quldurun heykəlini qoydular. 24 aprel Ermənistanda matəm günü elan edildi. Muzeylərdə, arxiv idarələrində, mədəniyyət ocaqlarında Andronik və onun "qəhrəmanlığı" haqqında stendlər hazırlayıb divara vururdular. O dövrdə Sisianda da (Qarakilsə) bu quldurun heykəlini qoymaq istəsələr də, baş tutmadı. Yazıçı Əli Vəliyev bir neçə ziyalı ilə Moskvaya gedərək Andronikin şəxsən onun soydaşlarına, nəsli-nəcabətinə etdiyi zülmlərdən danışdı və bu işə mane oldu. Amma ermənilər geri çəkilmədilər. "Daşnaksütyun" partiyası və onu himayə edən erməni diasporu ardıcıl şəkildə müxtəlif yerlərdə türklərə qarşı terror aktlarını keçirməyə qərar verdilər. Təsəvvür edin ki, 1965-ci ildən sonra dünyanın 21 ölkəsinin 40-a yaxın şəhərində 110-dan artıq terror aktı keçirildi, 38 silahlı basqın oldu, 70 partlayış törədildi, 42 türk diplomatı qətlə yetirildi.

Köhnə daşnak A.Mikoyanın Moskvada Ali Sovetdə olması ermənilərin ən böyük dayaq nöqtəsi idi. Onlar nə qədər yuxarıdan "rədd" cavabı alsalar da, torpaq iştahasından kəsilə bilmirdilər. Erməni yazıçısı M.Hovanesyan 1965-ci ildə Xankəndidə yaşayan erməni "ziyalı"larını başına toplayaraq SSRİ Ali Sovetinə müraciət edir ki, Dağlıq Qarabağ Ermənistan SSR-ə birləşdirilməlidir. Müraciəti imzalayan 13 daşnakın bu dəfə

də niyyəti puça çıxdı. Bu isə onları daha da vəhşiləşdirdi. Ermənilər köhnə üsullarına əl atdılar. Xocavənddə beynəlmiləl məktəbdə oxuyan bir erməni uşağı yoxa çıxdı. Uşağın itməsi muxtar vilayətdə çaxnaşma yaratdı. Bir neçə günlük axtarışdan sonra uşağın meyiti əkin sahəsindən tapıldı. Bununla ermənilərin əlinə yaxşı girəvə düşdü. Məktəbin direktoru, meyit tapılan sahənin briqadiri və bir neçə azərbaycanlı həbs edildi. Əlbəttə, çox sonralar bilinəcək ki, elə bu hadisəni də törədən ermənilərin özü olub. Münaqişə yaratmaq üçün bu iyrənc vasitəyə əl atıblar. Bu hadisədən sonra Xankəndidə dəhşətli günlər yaşandı. Təsəvvür edirsinizmi, sovet hakimiyyəti illərində iğtişaşlar baş verirdi. Erməni quldurları azərbaycanlıların yaşadığı məhlələrə hücum etdilər. Vilayətdə əslində, dəhşətli bir hakimiyyətsizlik hökm sürürdü. Balta, dəhrə, bıçaq və ov tüfəngi ilə silahlanmış ermənilər həbs edilmiş soydaşlarımızı, günahsız məhbusları tikə-tikə doğrayaraq üç cəsədi bir yerə yığıb yandırdılar. O gün qadınların ah-naləsi ərşə qalxdı. Guya bu hadisəni törədən ermənilərdən biri həbs edildi və güllələndi. Amma 8 il sonra həmin dığa yenidən Xankəndidə peyda oldu. 1967-ci il 3 iyul faciəsi ermənilərin həyata keçirdiyi qanlı olaylardan biri idi. Təəssüf ki, Azərbaycanın rəhbərləri bu işlə əlaqədar təsirli tədbir görə bilmədilər. Tariximizin bu qara səhifəsi öz bətnində növbəti qanlı iğtişaşları müvəqqəti gizlətdi.

1975-ci ildə yaradılan ASALA terror təşkilatı əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı ardıcıl surətdə planlaşdırılan terror aktlarının baş tutması üçün iyrənc üsullardan istifadə etdilər.

Burada bir sual da meydana çıxa bilər ki, A.Mikoyanın Moskvada yüksək postda əyləşdiyi illərdə (hətta SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olanda da) Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi məsələsi qaldırılırdı. Bəs, nə əcəb onlar bu çirkin niyyətlərinə o vaxt nail olmayıblar? Tarixçi H.Həsənoğlu yazırdı ki, Xruşşov bir dəfə ciddiyyətlə deyib: “İstənilən qədər yük maşınları ayıra və erməniləri bir neçə sutka ərzində Ermənistandan daşıtdıra bilərəm, bununla da, “erməni məsələsi” həll olunar” – deməsi erməniləri müvəqqəti də olsa susmaq məcburiyyətində qoyub. Lakin bu fakt da var ki, Ermənistan SSR-nin 40 illik yubileyində iştirak edən Xruşşovu vertolyota əyləşdirərək Ermənistan və Naxçıvan ərazisini ona göstərən ermənilər həyasızlıqla Naxçıvanı tələb ediblər. Bu dəfə də Xruşşov cavabında “Sizə Sibirdə nə qədər torpaq istəsəniz verərik, gedin orada bir Ermənistan yaradın” – deyib. Ermənilər hər bir vəchlə Xruşşovdan pay qoparmaq niyyətində idilər. Onlar Göyçə gölünün qızıl balığından kabab çəkərək Xruşşova yedirdiblər. Qonaqlıqdan razı olan Xruşşova bildiriblər ki, Sevanın suyunun azalması bu balıqların qırılmasına səbəb olacaq. Ona görə də Arpaçayının (Naxçıvan ərazisində) suyunu gölə gətirməyə icazə versin. Bu dəfə niyyətlərinə çatıblar. SSRİ-nin külli miqdarda vəsaiti hesabına çətin keçilən yerlərdən, qayalardan, dağlardan tunellər açılaraq Arpaçayını Sevana aparmaqla Şərur torpağını susuz qoydular.

Qarşıdan isə yeni qanlı hadisələr, qırğınlar, talanlar və vəhşiliklər gəlirdi. Ötən əsrin 80-ci illərində Zori Balayanın tarixi saxtalaşdıran, əvvəl erməni, sonra rus dillərində böyük tirajla çap olunan “Ocaq” adlı bədnam kitabında azərbaycanlılara qarşı düşmənçilik hissləri təbliğ olundu. Ermənilərə bildirildi ki, onlar mütləq azərbaycanlıları yaşadıqları ərazilərdən çıxarmalıdırlar. Hətta çap etdikləri dərslik və xəritələrdə də Azərbaycana məxsus şəhərlər, yerlər qəsdən Ermənistan ərazisi kimi göstərilirdi. Başqa kitablar da çap edilirdi. Xüsusilə də, şairələri S.Kaputikyan cidd-cəhdlə bildirirdi ki, əgər azərbaycanlıları Ermənistandan qovmasaq, başımıza bəla gələcək. Hətta S.Kaputikyan televiziyada çıxış edərək erməniləri döyüşə çağırırdı. Analara müraciət edirdi ki, biz “böyük Ermənistan” uğrunda mübarizə aparırıq. Bu yolda övladlarınız türk öldürməsə, deməli, siz bədbəxtsiniz.

Bir həqiqəti mütləq demək lazımdır. Ermənilərin çəkinəcək yerləri xalqımızın ümummilli lideri Heydər Əliyev idi. Onlar bir müddət öz kin-küdurətlərini açıq şəkildə həyata keçirə bilmədilər. Elə ki, Heydər Əliyev vəzifədən və Siyasi Bürodan getdi, sanki ermənilərin qurumuş qanqallarına yeni qüvvət gəldi. Dərhal öz şeytan əməllərini həyata keçirməyə başladılar. Hətta Ermənistan KP Mərkəzi Komitəsinin plenumunda daşnaklar çıxış edərək söylədilər: “Daha nədən qorxuruq? Heydər Əliyev artıq Siyasi Bürodan gedib. Zaman bizim xeyrimizə işləyir”. Ermənistan KP MK-nın 3 sentyabr 1988-ci il plenumunda Yazıçılar İttifaqı İdarə Heyətinin sədri H.Hovanesyan öz çıxışında xalqımıza çox böhtanlar ataraq “Andronik” və “Sərdarabad” adlı kitabların Heydər Əliyevin qərəzli tənqidi üzündən işıq üzü görməmişdi” – söylədi (“Sovet Ermənistanı” qəzeti, 24 sentyabr 1988-ci il). İlk torpaq iddiaları Ermənistanın özündə başladı. Azərbaycanlılara məxsus yaylaqlar və əkin sahələri alınaraq ermənilər yaşayan kəndlərə verildi. Azərbaycanlıların əleyhinə müxtəlif kitablar çap edildi, təbliğatlar aparıldı, soydaşlarımız incidilməyə başlanıldı. Sonra da…

**Dəhşətli 1988-ci il**

Ermənilər artıq heç cür sakitləşə bi

lmirdilər. Onlar SSRİ-nin sonuncu rəhbəri M.Qorbaçova saysız-hesabsız hədiyyələr, şirin vədlər verərək yenə torpaq iddiasını irəli sürdülər. O qədər də möhkəm iradəsi olmayan M.Qorbaçov aqambekyanların, şahnazarovların və ermənipərəst şovinist qüvvələrin təzyiqinə rəğmən “Mən mane olmuram, azərbaycanlılardan ala bilirsinizsə, Dağlıq Qarabağı alın” – deyib. Bu isə erməni vəhşiliyinə, qaniçənliyinə açıqca razılıq vermək idi.

1987-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilər tərəfindən münaqişə yaratmaq üçün vərəqələr yayılır, erməni əhalisinin guya ağır sosial-iqtisadi vəziyyətdə yaşadığını əsaslandırmaqla onları Azərbaycan xalqına qarşı qoymağa çalışdılar. Vilayətin erməni əhalisinə bildirirdilər ki, onlar azərbaycanlılardan fərqli olaraq dözülməz şəraitdə yaşayırlar. Guya ermənilərin milli maraqlarını Azərbaycan SSR tərkibində qalmaqalla həll etmək mümkün deyildi. Bütün milli problemlər yalnız Ermənistana birləşdikdən sonra həll oluna bilərdi. Xankəndidə keçirilən mitinqin sədası həm Azərbaycana, həm də Ermənistana yayıldı. 1988-ci ilin fevralından başlayaraq İrəvanda və bütün respublikada Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbləri ilə əlaqədar ermənilər izdihamlı mitinqlər və yürüşlər təşkil etdilər. Təbii ki, bu yürüşlər sülh şəraitində həyata keçirilmirdi. Ermənilər ilk dəfə Qafan rayonunun azərbaycanlılar yaşayan kəndlərinə basqın etdilər. Evlər yandırıldı, talan edildi, adamlar kəndlərdən qovuldu. Fevralın 25-də demək olar ki, Bakının, Sumqayıtın küçələri yurd-yuvasından, doğma torpağından qovulmuş azərbaycanlılarla dolu idi.

Ermənilər isə paytaxtlarında opera teatrının qarşısına toplaşaraq təcili Ermənistan SSR Ali Sovetinin növbədənkənar sessiyasının çağırılmasını tələb edirdilər ki, Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi məsələsi SSRİ Ali Sovetinin sessiyasında qaldırılsın.

Fevralın 28-də ermənilərin rejissorluğu ilə “Sumqayıt” ssenarisi həyata keçirildi. Bu qurama faciəni əllərində bayraq tutaraq daha da qızışan ermənilər mart ayında azərbaycanlıların səbirsizliklə gözlədikləri Novruz bayramını qara gətirdilər. Ermənistanın bütün rayon və kəndlərində azərbaycanlılara qarşı təxribatçılıq baş alıb gedirdi. Soydaşlarımız bir tərəfdən təhqir olunur, döyülür, evləri yandırılır, qorxu və vahimə içində işgəncələrə məruz qalır, digər tərəfdən də köməksiz, arxasız qalmışdılar. Elə mart ayında da soydaşlarımızın Vedibasar, Zəngibasar, Dərələyəz və Zəngəzurdan kütləvi surətdə çıxarılmasına rəvac verildi.

Martın 25-də gecə saat 24:00-da Ermənistanda hərbi vəziyyətin elan olunacağı haqqında televiziyada məlumat verildi. Ancaq ermənilər İrəvana daxil olan sovet əsgərlərini gül-çiçəklə, sevinclə, qonaqlıqla və başqa hədiyyələrlə qarşıladılar. Həmin gün isə Ermənistandan qaçqın düşmüş 80 min soydaşımız Azərbaycanın sərhəd rayonlarında boynuburuq qalmışdı. Ermənilər başqa bir iyrənc hərəkəti də həyata keçirdilər. Onlar alüminium, şin, kauçuk və digər istehsalat birliklərinin, kombinatlarının zəhərli sularını, çirkabını, eləcə də İrəvanın kanalizasiyasını Araz çayına axıtdılar.

Mart ayında canını götürüb qaçmış soydaşlarımızı geri dönməyə məcbur etdilər. Guya iki respublikanın rəhbərləri arasında aparılan danışıqdan sonra qaçqınların öz evlərində yaşamalarına kimsə mane olmayacaqdı. Halbuki Ermənistanda başlanan vəhşi soyğunçuluğun, qətl hadisələrinin arası kəsilməmişdi. Azərbaycanlılar nə edəcəklərini bilmirdilər. Çünki quldurlar qəflətən evə basqın edərək qapını, pəncərəni sındırır, bəzən də yandırırdılar. Təkcə mayın 11-də bir gecədə ermənilər üç istiqamətdən Şirazlıya hücuma keçərək 8 evi yandırdı, 64-nü dağıtdı, 330 ailənin əmlakı talan edildi, 2 nəfər öldürüldü, 80 nəfər döyülməkdən ağır xəsarət aldı. Sağ qalanlar gecə ikən ayaqyalın, başıaçıq qaçmaq məcburiyyətində qaldılar. Bu hadisəni vəhşilik adlandırmaq da azdır.

Doğrudur, o dövrdə Moskvadan həmin rayona nümayəndə heyəti gəldi. Amma əhəmiyyəti yox idi. Ermənilər elə qızışmışdılar ki, onlar ancaq öz istədiklərini bağırırdılar: “Qarabağ”, “Artsax”, “Torpaq”. İrəvanın teatr meydanında qurulan çadırlarda daşnak bayrağı asılmışdı. Onlar hər yerdə azərbaycanlılara qənim kəsilmişdilər. Soydaşlarımız bazara, dükana belə, gedə bilmirdilər.

Şahidlər danışırlar ki, 1988-ci ilin iyun ayında keçirilən mitinq və iclaslarda Zori Balayan dəfələrlə çıxış edərək mübarizələrini axıradək aparmağı təkid edirdi. Ermənistan hökuməti azərbaycanlıları bölgə üzrə çıxarmaq haqqında qərar da vermişdi. Nəhayət, həmin ilin iyun ayında Ermənistan Ali Sovetinin sessiyası çağırıldı. Bütün daşnaklar çıxış etdilər. Hətta katalikos Vazgen də televiziya verilişinə çıxaraq “böyük Ermənistan” yaratmaq üçün ermənilərə yeni ideyalar, “xeyir-dualar” verirdi. O sessiyadan ilham alan erməni talançıları öz vəhşiliklərini davam etdirdilər. Döyülməkdən, təqibdən, dava-dalaşdan, təhqirdən zinhara gələn azərbaycanlılar doğma yurdlarını tərk etmək məcburiyyətində idilər.

1988-ci ilin iyulunda 23 min azərbaycanlı Qarabağa – Şuşaya pənah gətirdi. Əlbəttə, buraların havası, təbiəti, suyu onların yaşadıqları yerə uyğun idi. İki ayın ərzində Şuşa, Xocalı, Malıbəyli, Quşçular, Əsgəran Ermənistandan didərgin düşmüş binəsiblərlə doldu. Təəssüf ki, avqustun 30-da Azərbaycan MK-nın “vətənpərvər” oğullarının göstərişi ilə qaçqınları Qarabağdan çıxararaq başqa yerlərə apardılar, yarısını da zorla Ermənistana qaytardılar. Başbilənlərimiz belə humanist idilər. Ermənistanda isə çoxdan sovetin bayrağını endirərək daşnak bayrağının altında hücumlarını davam etdirirdilər.

Ermənistanda yaşayan azərbaycanlıların vəziyyəti çox ağır idi. Yollar bağlanmışdı, burada qalan azərbaycanlılar girov kimi saxlanılırdı. Onların maşınla gediş-gəlişi tam qadağan edilmişdi. Canlarını götürüb qaçan qaçqınlar isə yollarda qətlə yetirilir, döyülür, təhqir edilirdilər. On beş gün ərzində Ermənistandan 300 min azərbaycanlı, 18 min kürd, 1000 rus daimi yaşayış yerlərindən qovuldular. Beləliklə, tarixi yurdlarından didərgin salınan azərbaycanlıların əlindən 40.000 ev alındı, 6.000 bina yandırıldı, 40.000 ailənin əmlakı talan edildi, 35.000 həyətyanı sahə, bağ-bağça, 32.000 şəxsi mal-qara, 35.000 qoyun-quzu mənimsənildi, 25.000

yaşayış evi əvəzsiz ermənilərə qaldı, 12.000 xüsusi ev dövlət mənzili ilə dəyişdirildi, 800 xüsusi maşın, 32 milyon dollar dəyərində pul, istiqraz, qızıl əşyalar sahiblərinin əlindən alındı, 410 köç maşını qarət edildi, 90.000-dan çox ailə kənd təsərrüfatı ilə məşğul olduqları halda, şəhərdə beton evlərdə yaşamaq məcburiyyətində qaldı, 16.000 ailə tam şəkildə məskunlaşa bilmədi. 10.000 nəfər əmək qabiliyyətli adam uzun müddət işsizlikdən əziyyət çəkdi, 80.000 adam öz sənətini davam etdirə bilmədi, 12.000 adam əsəb və ürək xəstəliyinə tutuldu, 6410 qaçqın düçar olduğu dərdə dözə bilməyərək dünyasını dəyişdi. Bu rəqəmləri xronoloji ardıcıllıqla davam etdirmək çox ağırdır.

1988-ci ildə erməni terrorçuları tərəfindən sonuncu deportasiya zamanı Allahverdi rayonunda – 4, Araratda – 7, Amasiyada – 12, Basarkeçərdə – 45, Quqarkda – 22, Qafanda – 7, Kalininoda – 10, Krasnoseloda – 16, Kirovakanda – 2, Gorusda – 3, Əzizbəyovda – 15, İcevanda – 7, İrəvanda – 4, Noyemberyanda – 4, Masisdə – 21, Yeğeqnadzorda – 1, Razdanda – 3, Sisianda – 5, Spitakda – 15, Stepanavanda – 9 azərbaycanlı qətlə yetirilib. Rəsmi məlumata görə, soydaşlarımız yalnız azərbaycanlılar yaşayan 171 kənddən, qarışıq yaşadıqları 89 yaşayış məntəqəsindən zorla çıxarılıblar. 217 nəfər həlak olub. Qaçqın düşmüş soydaşlarımızın sayı 200 min, bəzən də 300 min deyilir. Əlbəttə, vətəndən qovulanların dərədə, dağda, uçqunda qalanı, şaxtada donub öləni, qurda-quşa yem olanı, itkin düşəni bu siyahılara düşməyib. Bir fakt: "Ermənistan azərbaycanlılarının soyqırımı" kitabında oxuyuruq ki, Spitakda 1988-ci il noyabr ayının 27-də 5 yaşından 12 yaşınadək olan uşaqları analarının əlindən alaraq 20 metr uzunluğunda boruya doldurublar. Amma bu 70 uşağın adı heç yerə yazılmayıb. Eləcə də həmin kitabda şahidlər söyləyirlər ki, boru dolduqdan sonra yerdə qalan uşaqları avtobusa yığıb harasa apardılar. Uşağını istəyən analara isə "Amerikaya göndərəcəyik" – dedilər. Salamat qurtarıb Bakıya gələn Mədinə adlı bir qadın o zaman bizimlə söhbətində yana-yana söylədi ki, 8 yaşlı oğlu Əruzu, 6 yaşlı qızı Aygünü ermənilər əlindən alaraq boruya salmışdılar. Qadın onu da deyirdi ki, ermənilər borunu aparıb bir çayın kənarında qoyub gediblər. O cümlədən, girov qalanların, sonradan ölümlə üzləşərək dünyasını dəyişənlərin siyahısı hələ də dəqiq deyil. Bir faktı da vurğulayaq ki, doğma yurdlarından didərgin düşən soydaşlarımızın o dövrdə övladları müxtəlif şəhərlərdə ali təhsil alırdılar, müvəqqəti işləyirdilər, hərbi xidmətdə öz borclarını yetirənlər də var idi. Bax, həmin insanların da adları o siyahıya düşməyib. Halbuki elə onlar da doğma torpağını, doğulduqları yurdu itiriblər.

Beləliklə, 1988-ci il noyabrın sonu dekabrın əvvəlində cəmi iki həftə ərzində 300 mindən çox azərbaycanlı ermənilər tərəfindən silah gücünə öz doğma yurdundan qovuldu. Özü də necə? Qışın soyuğunda yurd-yuvalarından əliboş, pal-paltarsız, ayaqyalın, işgəncələrə məruz qala-qala…

Bir-iki kəlmə də respublikamızdan getmiş erməni "qaçqınları" barədə. Azərbaycanda tarixən ermənilərə qarşı pis münasibət olmayıb. Həmişə dava-dalaşı, milli qırğını, qanlı olayları, iğtişaşları ermənilər törədib. Bıçaq sümüyə dirənəndə azərbaycanlıların səbri daşıb üzlərini bozardanda ermənilər dərhal başlayıblar hay-küy qoparmağa, qara-qışqırıq salmağa: "Ay aman, qoymayın, türklər bizi qırdılar". Ermənilər Bakıda respublikaya məxsus hökumət evlərini dəyişmək adı altında çox baha qiymətə satandan sonra niyə o "dəyişdikləri" (guya Ermənistandan qovulanlarla dəyişirdilər) evlərə yox, məhz Moskvaya, Rostova, Krasnodara və digər şəhərlərə üz tutdular? Ermənistandan qovulan azərbaycanlılar üstü açıq maşınlarda, pay-piyada uçurumlu, sıldırımlı dağ yollarında qarda-tufanda itə-itə, dona-dona Azərbaycana üz tutublar. Amma Bakı erməniləri evlərini sataraq, əşyalarını konteynerə yığaraq istədikləri ünvana göndərdilər. Özləri də yumşaq vaqonlarda, rahat təyyarələrdə, isti paltarlarda, cibləri dolu, kefləri çağ çoxdan arzusunda olduqları ünvanlara təşrif apardılar. Bunlar elə dəqiq faktlardır ki, maraqlananlar onu nəqliyyat vasitələrinin vağzallarındakı qeydiyyat kitabçalarından öyrənə bilər.

1988-ci il xalqımızın həyatında çox dəhşətli oldu. Soydaşlarımız indiki Ermənistandan – dədə-baba torpaqlarından kütləvi surətdə min bir işgəncə ilə qovuldu. Türklərin vətəni türksüz qaldı. Amma bu gün də Bakıda 30 minə yaxın erməni yaşamaqdadır. Bir millət və xalq olaraq bizim təbiətimizdə şovinistlik yoxdur. Amma faktlar göstərir ki, bizi daşlayan yağını aşla qarşılamağın zamanı arxivə verilib!

**Flora XƏLİLZADƏ.**
**"Azərbaycan".-2011.-3 dekabr.-N 267.-S.6**.

**Erməni vəhşiliyinin Andranik səhifəsi**

**1918-ci ildə müstəqil Ermənistan Respublikası elan ediləndən dəhal sonra ermənilərin "Böyük Ermənistan" ideyasının həyata keçirilməsinə, Azərbaycan torpaqları olan Qarabağda, Naxçıvanda, Axalkələkdə, Borçalıda və digər regionlarda Azərbaycan xalqına qarşı fəal ekspansiya və soyqırımı siyasəti aparılmağa başlanmışdı. Bunun nəticəsi olaraq həmvətənlilərimiz təqiblərə və mərhumiyyətlərə məruz qalmışdılar.**

Andranik, Amazasp, Hayk, Dro və digər erməni qaniçənlərin yaxşı silahlanmış quldur dəstələri azərbaycanlıların yaşadıqları kəndlərə soxularaq ağlagəlməz vəhşiliklər törədirdilər. Dinc əhalini qırır, evləri yandırıb külə döndərirdilər, kəndləri yerlə yeksan edirdilər. Şeypur" jurnalının 14 noyabr 1918-ci il tarixli nömrəsində belə yazılmışdı: "İnsaf yaxşı şeydir. Əgər insanda insaf yoxdursa ondan hər cür alçaqlıq gözləmək olar. Qaniçən erməni hərbçilərindən biri rus ordusunun generalı rütbəsi verilmiş Andranik idi. Türk ordusunda xidmət edərkən hərbi nizamnamə tələblərini kobudcasına pozduğuna görə cəza olaraq onun qulağının bir tayını kəsmişdilər. Buna görə də ona tayqulaq general deyirdilər.

Andranik Qarabağda peyda olandan sonra müsəlman əhalinin qırılması ilə məşğul olmuşdu. Ermənistan hökuməti Andranikin törətdiyi vəhşiliklərə göz yumur, elan edirdi ki, Qafqazda Gürcüstana və Azərbaycana yer yoxdur. Bütün Qafqaz Ermənistanın olmalıdır ya da ki, Ermənistanın tabeliyinə keçməlidir.

Həmin illərdə Azərbaycan Demokratik Respublikasının hökuməti Şuşada, Qaryagində, Cavanşirdə, Zəngəzurda və digər dağlıq qəzalarda baş verən hadisələri nəzarət altında saxlaya bilmirdi. Bu qəzalarda yaşayan ermənilər Azərbaycan hökumətini saya salmır, müsəlman əhaliyə qarşı düşmənçilik edirdilər. Andranikin silahlı dəstələrinin həmin qəzalarda vəhşiliyi vəziyyəti daha da gərginləşdirmişdi.

"Azərbaycan" qəzetinin 17 may 1919-cu il tarixli nömrəsində belə bir məlumat dərc edilmişdi: "Ararat Respublikasının hərbi hissələri Göyçə rayonunun Yeni Bayazid qəzasının dinc əhalisinə qarşı hücuma keçmişlər. Məqsəd Göyçənin şərq və şimal ərazilərini müsəlmanlardan azad etməkdir. Hazırda 22 kənd yandırılmış, talan edilmiş, 60 000 adam öldürülmüşdür.

Ermənistan hökumətinin müsəlman vətəndaşlara qarşı qeyri-insani hərəkətləri insanı dəhşətə gətirir. Ermənistan ordusunun əsgərləri və zabitləri əsir düşmüş müsəlmanlara ağılagəlməz işgəncələr verirlər. Gəncləri, qocaları, qadınları, uşaqları öldürür, müsəlman əhalinin əmlakını öz aralarında bölüşürlər".

Həmin qəzetdən digər sitat: "Erməni quldur dəstələrinin təqib etdikləri əhali Gəncə qəzasının qarlı dağlarında gizlənir. Hazırda Göyçə rayonunda müsəlman əhali qalmamışdır. Yeni Bayazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır. Bu kəndlərdən 24-ü xaraba qoyulmuşdur. Həmin kəndlərin sakinləri bütün əmlakını qoyub qaçmışdır. Camaatın əmlakı ermənilərə qalmışdır. Azərbaycanlılrın qarət edilmiş əmlaklarının dəyəri milyon, bəlkə də milyard rubla bərabərdir.

25 fevral 1865-ci ildə Türkiyənin Şapin Qarahisar kəndində doğulmuş Andranik Ozanyan 1894 – 1896-cı illərdə erməni üsyançılarına qoşularaq Sasun dağlarında terrorçu dəstələrin tərkibində diversiyalarda iştirak etmişdi. 1912-1913-cü illərdə Bolqarıstan ordusunda türklərə qarşı döyüşlərdə iştirak etmişdi. İnsandan daha çox vəhşi heyvanı xatırladan Andranik Dünya müharibəsində 1-ci könüllü erməni ordusu dəstəsinin başında Salmas-Başqala-Van istiqamətində Türk qoşunlarına qarşı vuruşmuşdu. Andranikin arxadaşlarından biri sonralar Sovet İttifaqı marşalı olmuş İ. X.Baqramyan idi. Baqramyan Andranikin Şamaxı rayonunda quldurlq edən dəstələrinin birində sıravi əskər kimi xidmət etmişdi.

1914-cü ildə rusların Sarıqamış ətrafında məğlubiyyətindən sonra ermənilərin Qafqazda könüllü dəstələrinin fəallığı artmışdı. Həmin dəstələrdən birinə əlləri dinc əhalinin qanına batmış Andranik komandanlıq edirdi. Hərbi dəstənin üzvləri türklərlə və kürdlərlə vəhşicəsinə rəftar edir, onların var-yoxunu əllərindən alır, yaşayış məntəqələrini dağıdırdılar. Həmin ermənilər 1915-1918-ci illərdə Türkiyənin şərq vilayətlərində 600 mindən artıq kürdü qətlə yetirmişdilər.

1918-ci ilin iyun ayında təkqulaq general Culfadan keçməklə, Naxçıvana yürüş edərək, yol boyu qarşılaşdığı dinc türk əhalisini qırmağa başlamışdı. Təkcə Yayçı kəndində 2500 adam qətlə yetirilmiş və onların cəsədləri Araz çayına atılmışdı. Bu məlumat Rusiya Kommunist Bolşeviklər Partiyasının Zaqafqaziya Diyar Komitəsinin xəbərlərindən götürülmüşdür. Andranik özünün qanlı aksiyalarında yerli erməni əhalinin çirkin əməllərindən bacarıqla istifadə edə bilirdi. Əlinə silah almağı bacaran bütün gənclər silahlı dəstələrə cəlb olunmuşdu. Cinayətlərdə iştirak etmək istəməyənləri güllələyirdilər .

1918-ci ilin sentyabrında Andranik Sisyanda Qaraqışlaq müsəlman kəndini yandırmış, sağ qalan adamlar, o cümlədən uşaqlar və qadınlar qaçıb canlarını qurtarmaq məcburiyyətində qalmışdılar. Vaqudi adlı azərbaycanlı kəndində erməni vəhşiləri 400 nəfər sakini məscidə yığıb diri-diri yandırmışdılar. Aqudi kəndində isə xristianlığı qəbul etməyən kişiləri ölənəcən döymüş, qadınların döşlərini kəsmşdilər. Bağırbəyli kəndində yeddi nəfər kişi və qadına od vurub yandırmışdılar.

Zəngəzur qəzasında Andranikin quldur dəstələri115 yaşayış məntəqəsini talan etmiş və yandırmışdılar. Bu zaman 3257 kişi, 2276 qadın, 2196 uşaq qətlə yetirilmiş, 485 uşaq müxtəlif ağırlıqda xəsarət almışdı. Həmin qəzada 10068 insan öldürülmüş və yaralanmışdı. Andranikin başlıca məqsədi işğal edilmiş müsəlman ərazilərindən əhalini qovmaq , onların yaşayış məskənlərinə Türkiyədən növbəti üsyan yatırılan zaman qaçmış erməniləri məskunlaşdırmaq idi.

Şübhəsiz ki, Andranik törətdiyi cinayətlərdə erməniləri Türkiyəyə qarşı müharibədə öz müttəfiqləri hesab edən Antanta dövlətlərinə arxalanırdı. Cənubi Qafqazdakı ingilis hərbi komandanlığı Andranikin törətdiyi vəhşiliklərdən xəbərdar idi. Fransız missiyasının rəhbərləri sözdə sülh və təhlükəsizlikdən dəm vursalar da işdə qudurmuş daşnakları öz himayələrinə almışdılar. Andranik öz məktublarının birində yazmışdı ki, erməni quldur dəstələri ingilis missiyasının təkidi ilə orada qalmaq məcburiyyətindədirlər.

1918-ci ilin fevral ayında Azərbaycan hökuməti Ermənistan hökumətinə belə bir sualla müraciət etmişdi: “Andranik erməni hökumətinin göstərişi ilə hərəkət edir, yoxsa özfəaliyyət ilə məşğuldur?” Ermənilər cavab vermişdilər ki, onların Andraniklə, guya ki, heç bir əlaqəsi yoxdur. Onların özləri də Andranikdən yaxa qurtarmaq istəyirlər. Amma kifayət qədər silahlı qüvvələri yoxdur.Yalnız 1918-ci ilin sentyabr ayında göndərilmiş Qafqaz İslam ordusunun hissələri Andraniki Şuşa və Zəngəzurdan çıxıb getməyə məcbur etmişdi. Mudros sazişi bağlanandan sonra Andranikin quldur dəstələri yenidən fəallaşmağa başlamışdılar. Elə həmin vaxt təkcə Zəngəzurda 30 Azərbaycan kəndi büsbütün yandırılmışdı.

Yerli ermənilər də Andranikin vəhşi hərəkətlərindən razı deyildilər.

Onlar tayqulaq generalı işğalda olan ərazilərdən qova biləcək hökumətin gəlməsini arzulayırdılar. Andranik özü də yerli ermənilərin onu sevmədiklərini bilirdi. O, məktublarının birində bu barədə yazmışdı ki, yerli ermənilər onun quldur dəstəsinə nifrət bəstəyirlər. Erəməni quldur dəstələri Qarabağa girəndən sonra çox ağır günlər başlamışdır. Hərbi dəstələrdə nizam-intizam yoxdur, əsgərlər yorulmuş və bədbinləşmişlər.

Böyük dövlətlərə, ilk növbədə İngiltərə və Amerikaya müraciət göndərəsiniz. Qoy onlar ermənilərin vəhşiliklərinə tezliklə son qoysunlar və bizləri məhv olunmağa qoymasınlar”.

Andranik Zəngəzur qəzasının azərbaycanlılarla dinc yanaşı yaşayan erməni əhalisini də milli intriqaya cəlb etmək istəyirdi. O, erməni mətbəəsində dərc edilən vərəqələrdə Azərbaycan kəndlərinə yanacaq və ərzaq yardımı göstərməyi qadağan etmişdi. Sözə baxmayanları ölümlə hədələmişdi.

1917-ci il fevral və oktyabr inqilabı hadisələrindən istifadə edən ermənilər bolşevizm bayrağı altında Şamaxı, Quba qəzalarında , Qarabağda, Zəngəzurda azərbaycanlıların etnik təmizlənməsinə rəvac vermişdilər.

Dinc əhali görünməmiş təhqirlərə məruz qoyulurdu. Nəriman Nərimanov bu barədə yazırdı: “Bu, bütün xırdalıqlarına qədər düşünülmüş və Azərbaycan xalqına qarşı yönəldilmiş qanlı aksiya idi. Ermənilər azərbaycanlılara bolşevizm bayrağı altında sonsuz zülm edirdilər. Onlar (ermənilər) müsəlmanları dəstə-dəstə qovur və yolda güllələyirdilr. İş o yerə çatmışdı ki, hətta müsəlman bolşeviklərə də divan tuturdular. Deyirdilər ki, kifayət edər ki, sən müsəlmansan, bizim üçün fərq etməz ki, bolşeviksən ya yox, deməli, öldürülməlisən”. Ermənilər istədikləri adamları öldürür, talan edir, soyundurur, əşyalarını aparırdılar. Bu vəhşilikləri ermənilər sonrakı onilliklərdə də müxtəlif forma və üsullarla davam etdirmiş, xalqımıza qarşı davamlı soyqırımı aparmışlar.

**Arif HÜSEYNOV.**

**“Xalq qəzeti”.-**2012.-10 yanvar.-N 5.-S.6.

**Soyqırım yalanını təsdiq edən ermənilər və ruslar**

İndi isə rus generalı Mayevskinin bəzi qeydlərini nəzərinizə çatdırmaq istərdik: "1895-ci ilə qədər erməni-türk əlaqələri yaxşı bir vəziyyətdə idi. Bu iki cəmiyyət bir-birlərilə dostca dolanırdılar. 1895-ci ildə erməni komitəçilər erməniləri türklərə qarşı təhrik etməyə başladılar və erməni-türk əlaqələri birdən-birə tərsinə döndü. Türk vəhşiliyi bir həqiqət olmayıb uydurulmuş siyasi bir hekayədir. Həqiqəti olduğu kimi söyləmək lazımdırsa, Şərqdə vəhşi olanlar müsəlmanlar deyil, əksinə, müxtəlif hadisələri törədənlər şərqli xristianlar idi. Onlar törətdikləri hadisələri kimsəsiz müsəlmanlara yükləyirdilər. Baş verən hadisələr erməni komitəçilərin uydurduqları və icraya qoyduqları komediyadan başqa bir şey deyildir…"

İndi də gəlin podpolkovnik Tverdo Xlebovun raportuna bir nəzər salaq. Podpolkovnik Tverdo Xlebov ermənilərin Ərzurum və ətrafında türk xalqına qarşı törətdiklərini bir raportla öz mərkəzlərinə bildirmişdir. Raport rus ixtilalınm başlanğıcından Ərzurumun Osmanlı hərbi hissələri tərəfindən geri alınan tarixi olan 27 fevral 1918-ci ilə qədər olan bir zamanı əhatə edir:"…Türklərlə ermənilər arasındakı düşmənçilik Avropada bilinirdi. Lakin bunun I Dünya müharibəsində olduğu kimi, ciddi bir çatışmaya gətirib çıxaracağını kimsə düşünmürdü… Ermənilər daima haqsızlığa uğramışların roluna girmiş və ən ağır qırğınların qurbanı olduqlarını bütün dünyaya çatdırmışdılar. Ermənilərlə ən çox təmas etmiş olan ruslar, ermənilər haqqında bu qənaətə gəlmişdilər: Ermənilər xəsis, pula düşkün və başqalarının zərərini düşünən bir millətdir. Ermənilərin əsgəri xüsusiyyətləri də bu bənzətmələrə uyğundur. Rusiyanın hərbi hissələrində yer alan ermənilər, nə qədər qürur qırıcı olursa-olsun, daima cəbhə arxasındakı xidmətlərə üstünlük vermişlər. Ordu sıralarından qaçma və ya öz-özünü yaralama hadisələri bunların isbatıdır. 1917-ci ildə Ərzurumun ixtilalçı erməni komitəsi xalqının silahlarını toplamaq məqsədilə ümumi bir axtarış təşkil etmişdir. Lakin bu axtarış heç bir qaydaya uyğun olaraq təşkil olunmadığına görə, soyğunçuluq şəklini almışdır. Soyğunçular arasında ən azğınları düşmən qarşısında ən qorxaq hərəkətedən erməni əsgərləriydi…

Ermənilər silahsız və hər cür müdafiə vasitələrindən məhrum olan səkkiz yüz türkü öldürmüşdülər. Onlar törətdikəri bu qırğından sonra son dərəcə yaxşı silahlanmış olaraq Ərzuruma doğru çəkilməyə başlamışdılar.

Ərzincandan Ərzuruma doğru çəkilməkdə olan ermənilər yolları üzərindəki bütün müsəlman kəndlərini və sakinlərini yox etmişlər. Rus ordusunun geri çəkildiyi zaman topçu cəbhəsini dağıtmaq üçün kürdlərdən və heç birində silah olmayan sivil xalqdan arabaçılar seçilmişdir. Ermənilər Ərzurum yaxınlığında rus zabitlərinin dincəlməyə çəkildikləri fasilədən faydalanaraq arabaçıları öldürməyə başlamışlar. Rus zabitlərinin bu hadisəyə mane olmamaları üçün silahla onları qorxudan ermənilər arabaçıları vəhşicə öldürmüşlər…

28 fevral tarixində İlicədən dönən podpolkovnik Qryaznov mənə bunları anlatmışdır: "Kəndə gedən yollarda cinsiyyət orqanları parçalanmış cəsədlərə rastlanmışdır. Yoldan keçən hər bir erməni cəsədlərə söyərək tüpürürmüş. Caminin həyəti cəsədlərlə doldurulmuşdu. Bunların arasında hər yaşda qadın, kişi, uşaq və qocaların meyitləri vardı. Qadınların vücudlarında təcavüz izləri görünürdü… Podpolkovnik Qryaznov erməni dəstələrində telefonçu olaraq çalışan bir neçə gənc erməni qızını caminin həyətinə çağıraraq vətəndaşlarının törətdikləri qırğını göstərmişdir. Lakin qızların bu görüntü qarşısında dəhşət içərisində qalmaları əvəzinə sevincdən güldüklərini gördükdə Qryaznovu nifrətlə bir çaşqınlıq bürümüşdür. O, həyacana qapılaraq onlara söymüş və ermənilərin qadınları da daxil olmaqla ən alçaq və barbar bir millət olduqlarını söyləmişdir. Bir zabitin saçlarını dimdik edən bu mənzərə qarşısında, təhsil görmüş gənc qızların sevincdən çılğın bir hala gəlmələri ermənilərin soylarından gələn vəhşiliyin bir sübutu olduğunu əlavə etmişdir. Bu sözlər qarşısında qızlar bikef görünməyə çalışmış, gülüşlərinin hirsdən irəli gəldiyini iddia etmişlərsə də, qarşılarındakını ruhən qana nə qədər susamış olduqları xüsusunda aldada bilməmişlər".

Ermənilər bir qadının ürəyini çıxardıqdan sonra cəsədini bir divara başı aşağı mıxlamışdılar… Haqlı bir səbəb olmadan bir türkü öldürən ermənini həbs etmişdim. Baş komandan onun Hərb məhkəməsinə verilməsini əmr etmişdi. Keçmiş qanunların tələbinə görə belə cinayət işləyənlərin edam edilməsi lazım idi. Erməni zabitlərdən birinə bu cinayəti törədənin asılacağını söylədiyimdə, erməni qatil hiddətlə yerindən fırlayaraq: "Bir türkə görə bir erməninin öldürüldüyü görülmüşdürmü?"— deyə bağırdı…

Yuxarıda anlatdığım hadisələr erməni millətinin nə qədər qana susamış olduğunu açıq-aydın ortaya qoyur. Bu qorxunc və üzüntü verən hadisələri baş verməmiş kimi göstərmək heç bir insanın əlində deyildir…"

**3 noyabr 1920-ci ildə İ.Stalinin G.Çiçerinə Bakıdan göndərdiyi teleqraf:**

**"No.368**

**3 noyabr 1920-ci il, Bakı.**

**Moskva, G.Çiçerinə**

…Xəbərdarlıq edirəm, türklərin ermənilərə hücumlarının böyüklüyü ilə əlaqəli söyləntilər, ittifaq dövlətlərinin agentləri tərəfindən bilə-bilə şişirdilir. Niyə dedi-qodulara qulaq asırsınız? Sakit davranın…

İ.STALİN"

Tarixi rəsmi sənədlər incələndikdə ermənilərin niyyətlərinin çirkinliyi qədər törətdikləri alçaqlıqların, xəyanətlərin və hər cür cinayətlərin pisliyi bütün çılpaqlığı ilə ortaya çıxır. Keçmiş tarixlərdə erməni komitəçilərlə bir amerikalının söhbəti bu baxımdan çox mənalı görünür. Söhbəti aparan amerikalı Dr.Hamlinin (İstanbuldakı amerikan kollecinin qurucusu) müsahibəsini dilə gətirən 23 dekabr 1893 tarixli məktubun qısa bir bölümü belədir ("Boston" qəzetində yayımlanmışdır):

"…Rusların Anadoluya girmələrinə səbəb olacaq bir hadisə törədəcəklərini və buna hazırlandıqlarını söyləyən bir erməni komitəçiyə Dr.Hamlin "necə?"— deyə sorduqda, komitəçinin cavabı belə olmuşdur: "Bütün imperatorluqda təşkilatlanmış Qncak çətələri türkləri öldürüb kəndlərini yandıracaqlar. Sonra dağlara qaçacaqlar. Belə olduqda dəliyə dönən türklər bölgədəki müdafiəsiz ermənilərin üzərinə hücum edib onları elə doğrayacaqlar ki, ruslar xristianlıq mədəniyyəti naminə hücuma keçib Anadolunu işğal edəcəklər. "Bu cavaba çaşıb qalan amerikalı dəhşət içərisində: "Belə bir şeyi necə edə bilərsiniz? Nə qorxunc bir plandır bu!.."— demişdir.

Doğrudan da bu, qorxunc bir plan olmuşdur. Bu da bir həqiqətdir ki, ermənilər belə planlarla özlərini "yazıq," "haqsız-hüquqsuz" bir millət olaraq göstərməyə çalışmışlar.

Son olaraq Ermənistanın ilk Baş naziri, Daşnaksütyun komitəsinin rəhbəri O.Kaçaznuninin "Artıq Daşnaksütyunun görəcəyi iş yoxdur" başlığı altında Buxarest konfransına təqdim etdiyi raportun bir bölümünü qeyd etmək istərdik. Bu raport 1914-1923-cü illər arasında türk-erməni hadisələrinə və ermənilər tərəfindən bütün dünyanın gündəliyinə gətirilən "erməni soyqırımı"nın baş verib-vermədiyinə dair başda gələn rəsmi sənədlərdən biridir.

Hesab edirik ki, bu gün Türkiyənin qarşısına atılmış və dünyanın bir çox ölkələri tərəfindən qəbul edilmiş uydurma "soyqırım" mövzusuna dair həqiqətləri sübut etmək üçün O.Kaçaznuninin verdiyi məlumatlar olduqca dəyərli və əvəzedilməzdir. Çünki O.Kaçaznuni erməni hökumətinin ən səlahiyyətli adamı olaraq o illərdə baş verən hərbi, siyasi və iqtisadi hadisələri yaşamış, müharibə bitdikdən sonra baş verən hadisələrin nəticələrini hər bir ermənin etməyəcəyi qədər düzgünlüyə yaxın düşüncələrlə ortaya qoymuşdur.

O.Kaçaznuni raportunda toxunduğu mövzuların yalnız komitəçi yoldaşları üçün deyil, eyni zamanda hər bir erməni üçün də olduqca önəmli olduğuna diqqət çəkir, hər bir komitəçinin bu mövzuların üzərində ciddi-ciddi düşünməsini lazım bilir və hər bir erməniyə çatdırılmasını istəyir. O, öz çıxışında belə demişdir:

"Yoldaşlar! Bu məsələlər mənim çox uzun və çox üzücü düşüncələrimin əsas mövzusunu əmələ gətirmişdir. Sizin də bu mövzuları düşünmüş olduğunuzdan şübhəm yoxdur. Ancaq sizin də eyni nəticəyə gəlib-gəlməyəcəyinizi bilmirəm. Qorxuram belə olmasın. Qorxuram ki, tələffüz etmək çətin olsa da, mənim vicdanının səsini dinləyərək gəldiyim nəticə konfrans iştirakçılarının qarşı irticasını, bəlkə də öfkəsini çəksin. Mən buna hazıram. Ancaq buna inanmağınızı xahiş edirəm: bu sözləri yazmaq və imzalamaq, bunları məndən eşidərkən hiss edəcəklərinizə nisbətən, mənim üçün daha çətin olmuşdur. Mənim deyəcəklərim kifayət qədər düşünülməmiş qənaətlərin bir nəticəsi deyildir. Bütün bunlar köklü qənaətlərin və dəqiq şüurun bir nəticəsidir, çünki mən düşünməyə, anlamağa, mühakimə etməyə, qiymətləndirməyə və mövqe müəyyən etməye kifayət qədər sahibəm. Buna görə də, az da olsa səbr etməyinizi və danışacağım mövzulara obyektiv yaxınlaşmağa çalışmağınızı xahiş edirəm. Bilirəm, komitə qayğıları ilə yaşayan və komitə ölçüləri çərçivəsində düşünən şəxslərin bunu etməsi asan olmayacaqdır. Buna görə bu mövzunu yersiz görsəniz, sizdən üzr istəyirəm. Başqa şərtlərdə bu sözlər lazımsız və yersiz görünə bilər. Lakin mənim təqdim edəcəyim təbliğin fərqli məzmunu sizin geniş düşüncənizə və şüurunuza xitab etməyimi məcbur edir və mənə haqq verir. Mövzuya keçirəm.

Könüllü dəstələrin qurulması lazım idimi sualı bu gün, əlbəttə, mənasızdır. Tarixi hadisələrin özünə xas polad bir məntiqi vardır. 1914-cü ilin payızında erməni könüllü dəstələri quruldu və türklərə qarşı fəaliyyətə başlandı. Bu, erməni xalqının 25 il boyunca bəslənmiş olduğu psixoloji şəraitin təbii və qaçılmaz bir nəticəsi idi. Bu psixologiya özünə bir forma tapmalıydı və onu tapdı…

Bu gün (əgər məsuliyyət mövzusu gündəmə gələrsə) kimin günahkar olduğunu tədqiq etmək də mənasızdır. Psikopos Mesrop, A.Xatisov, Doktor Zavriev, S.Arutyunov, Dro və Andranik olmasaydılar, başqaları tapılacaq və eyni şeyləri törədəcəkdilər. Könüllü dəstələrin qurulmaları bir səhv idisə, bu səhvin kökləri uzaq keçmişdə axtarılacaqdır. Hələlik bunu təsbit etmək lazımdır ki, biz bu könüllülər hərəkatına aktiv olaraq qatıldıq və bu qatılma komitə konqresinin qərarına baxmayaraq həyata keçirildi.

1914-cü ilin qışı və 1915-ci ilin ilk ayları, Daşnaksütyun da daxil olmaqla Rusiya erməniləri baxımından bir həyacanlanma və ümid dövrü idi. Biz qeydsiz-şərtsiz Rusiyaya yönəlmiş vəziyyətdə idik. Hər hansı bir zəfərin olmamasına baxmayaraq, biz zəfər havasına qapılmışdıq, sədaqətimiz, çalışmalarımız və yardımlaşmalarımız qarşılığında Çar hökumətinin Ermənistanın müstəqilliyini bizə hədiyyə edəcəyinə əmindik. Ağlımız dumanlanmışdı. Biz öz istəklərimizi başqalarına mal edərək məsuliyyətsiz insanların boş sözlərinə böyük əhəmiyyət verib özümüzə etdiyimiz hipnozun təsirilə həqiqətləri anlaya bilmədik, xəyallara qapıldıq…

1915-ci ilin ikinci yarısı və 1916-cı ilin tamamı bizim üçün ümumi bir yas dövrü oldu. Van, Eleşkirt, Basen mühacirləri, qırğından qurtarmış olanların hamısı — onminlərlə, yüzminlərlə insan gəlib Rusiyanın

erməni qəzalarına doluşdular. Ac, çılpaq, xəstə və qorxu içərisində olan insanlar şəhər və kəndlərimizə yerləşirdilər. Bu ac insanlar çörək tapa bilməyən bir ölkəyə gəlmişdilər. Gücsüz, xəstə, dərmansız mühacirlər açıqda qalmışdılar. Şirak və Ararat vadiləri böyük bir xəstəxananı xatırladırdı. Buralarda minlərlə erməni bizim gözlərimizin qabağında aclıqdan və xəstəlikdən ölürdülər. Biz bu insanların həyatlarını qurtarmaqda acizdik. Qızğınlıq və qorxu içərisində olan bizlər günahkar axtarırdıq və bu günahkarı "Rus hökuməti ilə onun yalançı siyasəti" olaraq müəyyən etdik. Biz, sosial baxımdan yetişmiş insanlara xas bir çaşqınlıq içərisində bir küncdən digərinə sovrulurduq. Rus hökumətinə qarşı dünənki inamımız nə qədər kor-koranə və əsassız idisə, bugünkü günahlandırmalarımız da o qədər kor-koranə və əsassızdır. O zamanlar rusların bilərəkdən ağır və qətiyyətsiz davrandıqları, yerli erməniləri qətl etmək üçün türklərə imkan yaratdıqları söylənirdi. Guya, ruslar Ermənistanı boşaltmaq və oralara kazakları yerləşdirmək üçün belə davranır, Kont Lobanov-Rostovskinin hər kəs tərəfindən bilinən "ermənisiz Ermənistan" planı həyata keçirilirmiş. Yalnız xalq deyil, komitəmiz və ağlı başında olan yoldaşlarımızın da bir çoxu belə düşünürdü.

Biz, rus hökumətinin ermənisiz bir Ermənistan planının Türkiyə ermənilərinin müdafiəsini necə olursa-olsun öz üzərinə almaq üçün bir səbəbin olmadığını anlamaq istəmirdik. Belə bir plan, əlbəttə, yox idi. Biz ancaq öz istəklərimizi rus hökumətinə aid edərək, onu xəyanətdə günahlandırırdıq.

Təbii ki, bizim könüllü dəstələrimiz Vanı və Muşu tezliklə ələ keçirməyə çalışırdılar. Oralara erməniləri qurtarmaq üçün gedirdilər. Əslində, rus ordu hissələri erməni könüllülərindən əmələ gəlmirdi və onların fərqli məqsədləri var idı. Onlarda görünən və bizim bir xəyanət olaraq qiymətləndirdiyimiz ağır və qətiyyətsiz davranış, rus komandanlarının qeyri-adi zəifliyilə (belə zəiflik digər cəbhələrdə də görünmüşdür) və ya bizim tərəfdən bilinməyən ümumi hərbi qaydalarla açıqlana bilər.

Bu hadisələri, qeyri-adi və çox maraqlı olduğuna baxmayaraq, ələ almamağımız lazım idi. Biz siyasi bir komitə olaraq məsələmizin rusları maraqlandırmadığını və onların lazım olduqda bizim cəsədlərimizi taptalayaraq keçib gedəcəklərini unutmuşduq. Bunu anlamadığımızı, bilmədiyimizi söyləyə bilmərəm. Əlbəttə, bilirdik, lakin bəzən müharibənin ancaq erməni məsələsinə görə başladıldığını saflıqla düşünürdük. Ruslar hücuma keçdikdə, onların erməniləri qətl etmələri üçün türklərə imkan verdiklərinə inandıq. Biz hər iki halda məqsəd və niyyətləri qarışdırırdıq. Rusların xəyanətlərini axtarır və əlbəttə, tapırdıq. Altı ay əvvəl də rusların xeyirxahlıqla yaxınlaşmalarının isbatını eyni bu şəkildə axtarmış və tapmışdıq. Pis taledən şikayət etmək və fəlakətlərimizin səbəblərini başqalarında axtarmaq acınacaqlı bir vəziyyətdir. Bu, bizim milli psixologiyamızın bir xüsusiyyətidir. Daşnaksütyun komitəsi bundan qaça bilməmişdir.

Rusların bizə qarşı təhrikedici davranmalarında sanki xüsusi bir təsəlli var idi. Sanki saf və uzaqgörən olmadığımız bir qəhrəmanlıq idi və nəticədə elə bir vəziyyətə düşdük ki, istəyən hər kəs bizi asanlıqla aldatdı, xəyanət etdi, kəsdi və başqalarının kəsmələrinə imkan verdi…"

1923-cü ilin aprel ayında Daşnaksütyun komitəsinin Buxarestdə keçirilən konfransında çıxış edən O.Kaçaznuninin erməni millətinə mənsub olmasına baxmayaraq, konfransdakı çıxışı bu gün bütün dünyada dillər əzbəri olan "erməni soyqırımı"nın uydurma olduğunu rəsmən ortaya qoyur.

Yuxarıda bəzi bölümlərini qeyd etdiyimiz raportu yazanın müharibədə döyüşən tərəflərdən birinin başında və üstəlik, "soyqırıma" uğradığı iddia edilən tərəfin Baş naziri olduğu nəzərə alındıqda bu qeyd etdiklərim daha ciddi əhəmiyyət qazanır. "Soyqırıma" uğradıqları iddia edilən ermənilərin Baş nazirləri, baş verən hadisələri bir müharibə olaraq dəyərləndirir və ən önəmlisi ermənilərin imperialist güclərə alət olduqlarını açıq ürəklə ortaya qoyur. Beləliklə, Daşnaksütyun komitəsinin lideri, Ermənistanın ilk Baş naziri O.Kaçaznuninin 1923-cü ilin aprel ayında Buxarestdə keçirilən Daşnaksütyun konfransına təqdim etdiyi raportdan bu nəticələr ortaya çıxır: ermənilər Osmanlı dövlətinə xəyanət edib əvvəl ruslara, daha sonra fransızlara və ingilislərə qeydsiz-şərtsiz bağlanmışlar; Osmanlı dövlətinin köçürülmə qərarı müdafiə məqsədinə uyğun olmuşdur; ermənilər dənizdən-dənizə proyekti kimi bir arzuya qapılmış və bu istiqamətdə təhrik edilmişlər; Daşnaksütyun komitəsi xaricində bir günahkar axtarılmamalıdır.

Bu qeyd etdiklərimizi nəzərə aldıqda ortaya bir sual çıxır: "Bu gün "erməni soyqırımı" iddialarını müzakirə edən və "erməni soyqırımı" haqqında qərarlar alan ölkələr Ermənistanın ilk Baş nazirinə güvənmirlərsə, kimə güvənirlər? Heç şübhəsiz, Ermənistanın ilk Baş naziri, erməni millətinin tarixində xüsusi bir yeri olan Daşnaksütyun komitəsinin lideri O.Kaçaznuninin raportu imperializmin böyük yalanına son verir!..

Yuxarıda qeyd etdiyimiz kimi, daşnakların Azərbaycan türklərinin ata-baba yurdu olan İrəvan xanlığında elan etdikləri "Ermənistanın" ərazisi bu gün 46,200 kv. km. çatdırılmışdır. Min illərdir bu torpaqlarda yaşayan Azərbaycan türkləri ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalmış, qaçqın vəziyyətinə düşmüşlər. Bütün bunlara baxmayaraq bugünkü "Ermənistan" Azərbaycanla olan sərhədlərini tanımadığı kimi, Türkiyə dövləti ilə olan sərhədlərini də tanımır, yəni Qars və Gümrü müqavilələrini qəbul etmir. Bəli, onlar bacarıqsız və bəsirətsiz idarəçilərin əlində qalıb, dünya imperializminin bir maşası olaraq istifadə olunurlar.

Hesab edirik ki, Ermənistanın ilk Baş naziri O.Kaçaznuninin Daşnaksütyun komitəsinin Buxarestdə keçirdiyi konfransına təqdim etdiyi raportu çox sayda dillərə tərcümə etdirilib dünya ictimaiyyətinə

çatdırılmalıdır. Biz, bu raportun tərcümələri ABŞ Təmsilçilər Məclisi Beynəlxalq Əlaqələr Komitəsinə, ingilislərin, fransızların, almanların və "erməni soyqırımı"nı qəbul edən ölkələrin Milli Məclislərinə təqdim edilməlidir, düşüncəsindəyik. Qoy onlar "erməni soyqırımı" və ya "ermənilərə qarşı törədilən qətliamları" tarixi həqiqətlərə nə qədər uyğun olduğunu Ermənistanın ilk Baş nazirindən öyrənsinlər!..

**Qaraoğlu Fazil**
Professor

**"Respublika".-**2012.-10 yanvar.-N 5.-S.3.

**1905-ci ildə Tiflisdə türk-erməni qırğını**

**(Arxiv sənədləri və 1905-ci il dövri mətbuat yazıları əsasında)**

**Dr. Fəxri VALEHOGLU**

**24 noyabr**

24 noyabrda səhər tezdən türk məhəllələrinin güllə yağmuruna tutulması davam edir.

Səhər saat 12:00-da Kommersiya məktəbinin yanında bir qrup erməni yolla gedən bir türkün üstünə cumub onu vəhşicəsinə qətlə yetirir [1, fond 115, siyahı 1, iş №519]. Peska küçəsində ermənilər tərəfindən 5 türk öldürülür, onlardan ikisinin cəsədini Mixail xəstəxanasına aparırlar, üçünün cəsədini isə Kürə atırlar [1, f. 115, s. 1, iş №516].

Həmin gün hərbi hospitala 1 nəfər ölü və 9 nəfər yaralı, Mixail xəstəxanasına isə 15 yaralı (Muxtar Əbdürrəhman oğlu, Qarapet Karelyants, Yakov Tairov, Arşak Xaçaturov, Georgi Mqaloblişvili, Aleksandr Qriqoryants, Siro Avdalov, Maqomed Sarkisyants, Poqos Vartanov, Saak Abramov, Saak Xanukov, Venyamin Sergeyev, Timofey İzyumov, Georgi Oskanov və Zeynal Səmədov) gətirilir [4, №293].

“Tsnobis purtseli” qəzeti 24 noyabrda ümumilikdə 9 nəfərin öldüyünü, 26 nəfərin isə yaralandığını yazırdı [2, 2958].

Yenə də türklərə məxsus ticarət obyektləri və yaşayış evləri ermənilər tərəfindən talan olunur. Gündüz saat 1 radələrində Tiflisdə qərar tutan təqribən 100 nəfər Yelizavetpol (Gəncə) ermənisi Məşədi Ələsgər Hüseynovun Panaseviç küçəsində, Nalbandovun evində yerləşən mənzilinə hücum edib onu qarət edir. Hücumçulardan heç kəsi ələ keçirmək mümkün olmayır [4, №295]. Surp-Karapet dərəsində Abbasov və Məmmədov soyadlı şəhər sakinlərinin evləri qarət olunur [1, f. 115, s. 1, iş№516].

Həmin gün gecə Avçala küçəsində Güney Azərbaycandan olan bir türkə məxsus çüvəkçi (çusttikilən atelye) talan edilir, Salah Həsən oğlunun Mixail küçəsi 26 ünvanında, Abuladzenin evində yerləşən baqqal dükanından kilidaçan vasitəsilə oğurluq edilir [4, №295], Lazarovun hazır geyim mağazası qarət edilir və oradan 100 palto aparılır.

Tiflis Mühafizə Şöbəsinin Tiflis polismeysterinə ünvanladığı 25 noyabr 1905-ci il tarixli, 2402 saylı məktubdan bəlli olur ki, 24 noyabrda günorta saat 3:40-da erməni daşnakları əllərində revolver Yelizaveta küç. 38-də yerləşən həyətə girib burada türklərin yaşayıb-yaşamadığını soruşurlar və “yox” cavabı aldıqdan sonra evin nömrəsini yazıb çıxırlar [1, f. 17, s. 2, 557, vv. 47].

Borçalı-qarapapaq türklərinin onlara hücum edəcəyi barədə şəhərdə yayılmış yalan şayiələrdən təşvişə düşən ermənilər şəhərin gürcü və rus məhəllələrində daldalanırlar. Erqeli imzalı müəllif “İveriya”nın səhifələrində bu barədə yazırdı:

“…Ayın 24-ü səhər açıldı. Sololakdan arabalar bir-birinin ardınca Kukiya və Vera tərəfə gedirdi. Soruşdum ki, bu nədi? Sololak ermənilərinin hamısı qaçıb canını qurtarır, çünki tatarlar onları qırmaq istəyirlər, ona görə bəlkə gürcü və rus məhəllələrində necəsə canlarını qurtara biləllər cavabım aldım” [3, №213].

Baş verən hadisələrlə bağlı sosial-demokratlar tərəfindən Naxalovkada yenidən xalq mitinqi təşkil olunur. Mitinqdə qətnamə qəbul olunur və aşağıdakı tələblər irəli sürülür:

1. 1. Dinc sakinlərin qorunması üçün xalq drujinalarına silah verilsin;
2. 2. Şəhərdə qayda-qanun yaradılması həvalə olunmuş əsgərlərin komandanları siyasi partiyalarla əlaqəli şəkildə fəaliyyət göstərsin.

Daha sonra mitinq iştirakçıları qanlı hadisələrin qarşısının alınması məqsədilə bir daha şəhərin VI məhəlləsinə sülh yürüşü etmək istəyirlər. Şəhər başçısı vəzifəsinin icraçısı V. Çerkezov bu yürüşə hərbçilər vasitəsilə müdaxilə edilməsindən və bir bədbəxtliyin başqası ilə əlavə olunmasından narahat olaraq məsələni qubernatora məruzə edir. Qubernator yenə də fəhlələrin VI məhəlləyə yürüşünün əleyhinə olmur.

Mitinqlə bərabər, başqa-başqa idarələrdə də məsələnin həlli yolları aranırdı. Şəhər icra idarəsinə tökülüb gəlmiş xeyli adam Çerkezovdan qan tökümünün qarşısının alınması üçün təcili tədbirlər görməyi xahiş edirdi.

Eyni anda “Vozrojdeniye” qəzetinin redaksiyasında ictimaiyyət nümayəndələrinin Tiflisin bütün siyasi təşkilatlarının sosial-demokratların, droşakistlərin (daşnakların digər adı F.V.), federalistlərin rəhbərləri ilə görüşü keçirilirdi. Tiflis polismeysterinin də iştirak etdiyi tədbirdə Naxalovka mitinqində qəbul olunmuş qətnamə və tələblər dəstəklənir. Sosial-demokratların nümayəndəsi deyir ki, onların partiyası silah alandan sonra rus ordusu (hökumət ordusu nəzərdə tutulur F.V.) ilə birləşib bərabər fəaliyyət göstərməyə hazırdı, ancaq bu ordu xalq ordusunun komandanlığına tabe olmalıdır. Droşakistlər deyir ki, onlar hökumətdən silah almayacaq, çünki öz silahları özlərinə yetər. Federalistlər istəyir ki, hökumətin verdiyi silah bütün partiyalar arasında bərabər şəkildə bölünsün, bundan başqa sosial demokratlardan fərqli olaraq rus ordusu ilə birləşməyin əleyhinə çıxırlar. Partiya nümayəndələrini dinlədikdən sonra polismeyster söz alaraq deyir: “Xalqın və partiyaların hökumət ətrafında birləşməsi çox vacibdir. Mən sizin aranızda vasitəçi olacağam. Mən canişinə hər

zaman deyirdim ki, sizə silah vermək lazımdır, yoxsa onsuz da xalq özü silah tapacaq və əsgərlərlə xalq arasında qan töküləcək. Canişin bunu dəstəkləmirdi… Gecə-gündüz canişini inandırmağa çalışırdım ki, ordu hissələrini şəhərə çıxarmaq olmaz. Təsəvvür edin, indi canişinin yanında ermənilərin deputasiyası (nümayəndələri) var. Onlar xahiş edir ki, Tatar meydanına əsgərlər və toplar göndərin. tatarları güllələyib öldürün. Mən canişini inandırdım ki, ordu göndərmək olmaz, yoxsa 22 oktyabrdan daha pis gün olar. Dedim ki, xalq və partiyalar birləşib bu qan tökülməsinin qarşısını alaq. İndi bundan sonra birləşməyinizi xahiş edirəm və onda canişin tüfənglər verilməsi barədə sərəncam verəcək, amma sülh yaranandan sonra bu silahlar yenə geri qaytarılmalıdır".

Partiyaların nümayəndələri polismeysterin təklifini hökumət ordusunun xalq drujinalarının rəhbərliyi altında fəaliyyət göstərməsi şərti ilə razılıqla qarşılayıb qəbul edirlər. Polismeyster partiyalara öz təşəkkürünü bildirib məsələni müzakirə etmək üçün canişinin yanına gedir. Bir müddət sonra xəbər gətirirlər ki, canişin siyasi təşkilatların yaratdığı drujinalara silah verməyə razıdır. Dərhal sosial-demokratlardan İs. Ramişvili silahları götürmək üçün canişinin yanına göndərilir. Canişin Ramişvilidən silahların sülh bərpa olunandan sonra hökumətə qaytarılacağı barədə şərəf sözü verməsini istəyir. Ramişvili canişinin istəyini yerinə yetirir və axşamüstü silahları təhvil alır.

Həmin gün Tiflisdə bütün siyasi təşkilatlar öz adamlarım silahlandırır. Əvvəlcə kifayət qədər patronla birlikdə 500 tüfəng (berdanka), bir neçə müddətdən sonra isə daha 700 tüfəng paylanılır.

Əldə olunmuş razılığa baxmayaraq, silahlı drujinalar bir-birindən sərbəst şəkildə fəaliyyət göstərməyə başlayırlar. Bir ara hər siyasi partiyadan nümayəndələr seçib xüsusi komitə yaradılmasına cəhd göstərilir. Sosial-demokrat fəhlə partiyasının bu xüsusi komitəyə rəhbərlik etmək iddiası drujinaların birgə fəaliyyətinin təşkili yönündə bütün cəhdləri boşa çıxarır. Digər siyasi partiyalar sosial demokratların rəhbərliyi altında fəaliyyət göstərmək istəmirlər.

Tiflis Mühafizə Şöbəsinin rəisi öz məruzəsində bildirirdi ki, «Tiflisdə «droşakist»lərin və «hnçakist»lərin (erməni sosial-demokrat «Hnçak» («Zəng») partiyasının üzvlərinin FV.) drujinaları berdankalarla, «Mauzer» tüfəngləriIə və revolverlərlə silahlanıblar. Bununla yanaşı, xüsusi şəhər özünümüdafiə dəstələri təşkil olunur. Onun tərkibinə orta təhsil məktəblərinin tələbələri və başqa-başqa özəl müəssisələrdə işləyənlər daxildir. Artıq bu dəstələrə 800 nəfər yazılıb. Arzu edənlərin sayı üç minə yaxınlaşır. Özünümüdafiə dəstələrinə xüsusi komitə rəhbərlik edir və ona fərqli inqilab fraksiyalarının hərəsindən iki nəfər daxildir » [1, f. 83, s. 1, iş №32].

Xalq drujinalarının silahlandırılması şəhər həyatını nisbətən canlandırır. Mağazalar, dükanlar və digər müəssisələr açılır. Əhali azacıq rahat nəfəs alır.

Tərkibi əsasən fəhlələrdən ibarət olan "sotnyalar" (yüzlüklər), batalyonlar və başqa tipli silahlı birliklər bellərindən tüfəng asıb küçələrdə patrulluq etməyə başlayırlar. Sülhməramlı drujinaçımilislər iki-iki, üç-üç üzərində qırmızı xaç düzəldilmiş və ağ bayraqlar asılmış faytonlarla şəhəri dolaşır, yolüstü qarşılarına çıxan şübhəli adamları saxlayıb üst-başlarını arayır, silah tapdıqları təqdirdə əllərindən alırlar.

24 noyabrda axşam saat 7-də belə bir hadisə baş verir. Ruhani məktəbinin yanında bir erməni revolverlə havaya iki atəş açır. Bu ermənini mühafizəçi milis Avcala küçəsində tutur və nə üçün atəş açmasının səbəbini soruşur. Erməni deyir ki, guya küçə ilə getdiyi zaman ona kimsə revolverdən güllə atıb və o da özünü müdafiə etmək üçün cavab verib. Ancaq milislər revolveri yoxlayıb müəyyən edirlər ki, hər iki gülləni erməninin özü atıb. Ona görə də onu həbs edib sosial-demokrat təşkilatına təhvil verirlər [3, №215].

Həmin axşam drujinaçılar tərəfindən sosial-demokrat fəhlə partiyasının qərargahına türkləri öldürməkdə şübhəli bilinən iki nəfər tutulub gətirilir. Onlardan biri Tiflis alayının əsgəri, o biri isə "Droşakist" ("Daşnaksütyun") partiyasının üzvü idi [3, 213].

24 noyabr gecəsi Tiflisdə sakitçilik olur. Şəhər məhəllələrinin hamısında qayda-qanunu milis dəstələri təmin edir. Türk və erməni məhəllələrinə başqa məhəllələrə nisbətən daha güclü dəstələr ayrılmışdı. Həmin gecə milislər dükan və mağaza yarmaq istəyən bir neçə cinayətkarı həbs edib öz təşkilat bürolarına aparırlar.

"Tsnobis purtseli" qəzetinin məlumatına görə, 22-24 noyabrda Mixail xəstəxanasına 19 ölü (15 müsəlman, 3 erməni, 1 gürcü) və 32 yaralı (əksəri türk) gətirilmişdir. Bu yaralılardan Sandro Maziaşvili, Qiorqi Mqaloblişvili və adı müəyyən edilməyən bir türk ölür [2, №2957]. Üç gün davam edən döyüşlər nəticəsində şəhərin türk sakinləri içərisində itkin düşənlərin, xəstəxanaya aparılmayan ölü və yaralıların sayı da çox olur.

**25 noyabr**

25 noyabrda Tiflisdə vəziyyət əvvəlki günlərlə müqayisədə sabit olur, şiddətli atışmalar baş vermir. Şəhərin müxtəlif hissələrində sülh çağırışlı mitinqlər təşkil olunur.

Şəhər icra idarəsi qarşısında keçirilən mitinqdə şəhər başçısının müavini knyaz V.Çerkezov xalqa müraciət edərək deyir: "Ay camaat! Tatarlarla ermənilərin qarşıdurması çox kədərləndiricidir. İnsanların qırğınının qarşısının alınması vaxtıdır. Kimin ermənin, tatarın və ya başqasının günahkar olmasını axtarmayaq. İndi bu iki toplumu barışdıraq, çünki daha zəruri və həlli vacib işimiz var, bu iş xalqın azad olmasıdır" [3, №213].

Başqa çıxışçılar da xalqı birliyə və qan axıdılmasının qarşısını almağa çağırır. Axırda boğazından qırmızı xaç asılmış bir nəfər çıxıb deyir ki, niyə burada dayanmışıq, niyə vaxt itiririk, gedək hər iki tərəfi xilas edək. Bundan sonra mitinq iştirakçıları hərəkətə keçir və qanlı hadisələrin baş verdiyi məhəllələrə üz tutur.

Sosial-demokratların Naxalovka mitinqində 20 minə yaxın adam iştirak edir. Həmin gün gürcü sosialist-federalistlərin türklərə və ermənilərə müraciətin bu məzmunda intibahnaməsi yayılır: “İntiqam hissi ilə yaşamayın, onun vaxtı deyil, yoxsa bütün var-gücümüzlə ayağa qalxıb mənasız düşmənçiliklə ümumi işimizi məhv edənləri məhkum etməyə məcbur olacağıq” [3, №214].

Dəmir yolu işçilərinin mitinqində isə aşağıdakılar qərara alınır: 1) Dəmir yolu işçilərinin hərbi və sanitar dəstələri yaradılsın; 2) Bu dəstələr sosial-demokrat fəhlə təşkilatının rəhbərliyi altında fəaliyyət göstərsin və 3) Dəmir yolu idarəsinin rəis müavinindən xahiş edilsin ki, təcili onlara silah versinlər. Sonuncu məsələ ilə əlaqədar mitinqçilər dəmir yolu idarəsinin rəisi müavininin yanma nümayəndələr göndərirlər. Bu nümayəndələrə söz verilir ki, onlar üçün canişindən 250 berdanka tüfəngi və revolver istənəcək.

Qırğında zərər görmüşlərəköməklik göstərilməsi məqsədilə keçirilən toplantıda Tiflis şəhər bələdiyyəsinin müalicəxanalarının feldşerlərinə göstəriş verilir ki, yaralanıb zərər çəkənlərə təmənnasız tibbi yardım etsinlər.

GMTA-da saxlanılan bir sənəddən 25 noyabrda Cənubi Azərbaycan əsilli dörd türkün Məmməd Cəfər oğlu, Məmməd Həsən oğlu, Məmmədəli Rəhiməli oğlu və Xamməd Cəfər oğlunun erməni güruhu tərəfindən Peska küçəsində öldürüldüyü bəlli olur [1, f. 115, s. 1, iş №519].

Mixail xəstəxanasına əvvəlki gün baş vermiş toqquşmalarda yaralanmış Əziz Əhməd oğlu və Arşak Karapetov adlı şəxslərin və 4 ermənin meyiti gətirilir.

Həmin gün Tiflis dəmiryolu vağzalında milislər bir gürcü və bir ermənini tutub sosial-demokrat fəhlə partiyasının qərargahına verirlər. Onlar vağzala gəlmiş bir türkün revolverini əlindən aldıqları üçün suçlu hesab olunurdu. Həmin gün milislər eyni cinayətdə təqsirləndirilən daha bir neçə nəfəri və dükanları qırıb oğurluq etmək istəyən bir neçə kürdü həbs edirlər [3, №214].

“İveriya” qəzeti 29 noyabr 1905-ci il tarixli sayında 23 noyabr gecəsində və 24 noyabrda Tiflisdə baş verən hadisələrə yenidən toxunaraq “Tiflisdə qırğın” rubrikası altında yazırdı:

“23 noyabrda gecə 6-cı polis məhəlləsində zaman-zaman tüfəng və revolverlərdən istifadə edərək atışırdılar, ancaq buna heç kəs fikir vermirdi, çünki belə hadisələr son zamanlar adi bir hal alıb. Gecə həmin məhəllədə hansısa naməlum şəxslər tərəfindən tatarların dükanları və mağazaları talanmış, mal və pul aparılmışdır.

24 noyabrda səhər şəhərdə sakitçilik idi. Yavaş-yavaş şəhərin orta hissəsində yerləşən tatar dükanlarından başqa bütün dükanlar açıldı. Zavodlarda, mətbəələrdə və dəmiryolunun əsas emalatxanalarında iş yenidən başladı. Əvvəlki gün qorxuya düşmüş ermənilər 6-cı polis məhəlləsi və Sololakdan şəhərin digər məhəllələrinə qaçdılar.

Saat 9-da Vorontsovun heykəli yanma elektron tramvay vaqonlarını gətirdilər. Konduktorlar dedi: “İndicə atışma yenidən başladı. İlk əvvəl atışma hamamlar tərəfdən başladı və hazırda revolver və tüfənglərdən aramsız atəşlər 6-cı polis məhəlləsinin tamamından eşidilir”.

6-cı məhəllədə baş verən atışma şəhərin orta hissəsində eşidilirdi. Şəhərin orta hissəsində ermənilər bir neçə tatarı öldürdü.

6-cı polis məhəlləsində atışma həmin gün daha güclü idi, nəinki ikinci gün.

Yenidən hamı işləməyin başım buraxdı. 5 saniyəyə bütün dükan və mağazalar bağlandı. Fəhlələr cəld 6-cı polis məhəlləsinə silahlı dəstələr və sanitar qrupu göndərdilər…

Təxribatçıların ermənilərlə tatarlar arasında yenidən qırğın salmağa çox cəhd göstərmələrinə baxmayaraq 25 noyabr sakitçilik idi. Bu təxribatçıların əksəri xalq tərəfindən tutulub məsuliyyətə cəlb olunmaları üçün siyasi təşkilatlara verildi…

Şəhərdə çoxlu həyəcanlı sədalar yayılırdı. 25 noyabrda səhər tezdəndən şəhərə səs yayıldı ki, Soğanlıqdan Tiflisə erməniləri öldürmək üçün silahlı tatarlar gəlir. Tatarların qarşısına çıxmaq üçün gecikmədən ictimaiyyətdən nümayəndələr seçib göndərdilər. Eyni zamanda ordu da göndərdilər, hansı ki, əgər tatarlar nümayəndələrə inanmasalar və şəhərə girməyə can atsalar, güc tətbiq etməliydi. İş sülhlə yekunlaşdı…

Axşam Nəftluq həndəvərində yaxın kəndlərdən Tiflisə gəlmiş tatarlar düşərgə qurdu. Ermənilərin məhəlləsində həyəcan siqnalı çalındı. Bununla əlaqədar sosial-demokrat partiyası Nəftluğun o üzünə nümayəndələr göndərdi, Onlar tatarlara başa saldı: ki, şəhərdə qırğın-filan yoxdur, şəhərə girməsinlər” [3, №214].

Canişin yanında son günlərdə şəhərdə baş vermiş olayların qarşısının alınması məqsədilə yaradılmış xüsusi məşvərət şurasına (sədri maliyyə nazirliyinin nümayəndəsi Cunkovski) şəhər duması ermənilərdən A.İ. Xatisov və S.S. Arutinovu, ruslardan N.N. Ostroqorski və M.N. Veselozorovu, gürcülərdən isə knyaz V.N. Çerkezov və S.F. Çrelayevi seçir. Şuraya müsəlmanların seçimini isə duma müsəlman cəmiyyətinin öhdəsinə

buraxır. “Kavkaz” qəzetinin 6 dekabr 1905-ci il tarixli sayından bu şuraya müsəlman əhalisi tərəfindən şəhər dumasının qlasnısı (şəhər dumasının üzvü), mühəndis Rəhim bəy Axundov və Tiflisdə azərbaycanca yayımlanan “Şərqi-Rus” qəzetinin redaktoru Məhəmməd ağa Şahtaxtinskinin (1846-1931) seçildiyi bəlli olur.

Borçalıdan silahlı türklərin gəlməsi barədə Tiflisi günlərdir bürüyən şayiələr həqiqətə çevrilir. 25 noyabrda şəhər ətrafında düşərgə salan Borçalı atlılarının bəziləri həmin gecə müxtəlif vasitələrdən və gizli yollardan istifadə edərək şəhərə daxil olurlar. Onların içərisində illərdir ermənilərin qorxulu röyasına çevrilmiş Borçalı qarapapaq qaçaqları da çox idi.

**26 noyabr**

26 noyabrda Tiflisə səs düşür ki, 200-dən çox başdan ayağa kimi silahlanmış Borçalı türkü şəhərə soxulub və onlar bu gecə erməniləri qırmağa hazırlaşırlar. Bundan qorxuya düşmüş ermənilər şəhər dumasının önünə toplaşırlar. Qeyd olunan məsələni müzakirə etmək üçün dumada qlasnıların müşavirəsi təyin olunur.

“Kavkaz” qəzetinin yazdığına görə, müşavirədə sosial-demokrat fəhlə təşkilatının rəhbəri qlasnıları sakitləşdirməyə çalışır və əmin edir ki, türklərin heç bir hücumu olmayacaq. Qlasnılardan bəziləri, hətta fəhlə təşkilatının üzvlərindən biri 200 nəfər silahlı türkün şəhərə soxulması faktını təsdiq edir. Digərləri isə deyirlər ki, bu hələ avanqarddır (ön dəstədir), onun arxasınca Soğanlıq yaxınlığından 5000 tatar gəlir. Məlum olur ki, Borçalı qarapapaqlarının Tiflisə daxil olmasının qarşısını almaq məqsədilə hökumət tərəfindən şəhərin Borçalı tərəfdən girişinə öncədən qoyulmuş mühafizə dəstələrindən əlavə, kəşfiyyat və kavaleriya (süvari) dəstələri də göndərilmişdir. Bu sonuncular canişinə məlumat vermişlərki, şəhər ətrafında heç bir silahlı kütlə aşkar olunmamışdır. Qars yolu ilə Tiflisə yeni gəlmiş qlasnı doktor Kyuçaryants deyir ki, Borçalının Candar stansiyasında tatarlar qatarı mühasirəyə alıb sərnişinləri, o sıradan onu qarət ediblər və onunla gələn oğlunu az qala öldürməyiblər. Bir sözlə, müşavirədə bu mövzuda danışılanlar və ümumiyyətlə bir-biri ilə ziddiyyət təşkil edən çıxışlar çox olur. Dumanın zalını doldurmuş kütlə isə silah tələb edirdi.

Qlasnıların çıxışları dinləniləndən sonra axşam saat 10-da dumanın bütün şəxsi tərkibi və şəhər rəhbəri vəzifəsinin icraçısı knyaz V.N. Çerkezov mətbuat nümayəndələri ilə birgə iğtişaşların qarşısının alınması üçün təcili və effektli tədbirlərin görülməsini xahiş etmək məqsədilə, Rusiya imperatorunun Qafqazdakı canişini general-adyutant qraf İ.İ. Vorontsov-Daşkovun hüzuruna gedirlər. Bu vaxt canişinin yanında iclas gedirdi.

Canişinin qəbulunu gözləyən qlasnıların onları narahat edən mövzu barədə canişinlik dəftərxanasının müdiri ilə də söhbətləri olur. Qlasnılardan biri bəyan edir ki, Tiflisə gəlmiş borçalılar Vorontsov küçəsində yerləşən bir evdə qəbul olunur və o evin sahibinin admı çəkir. Dəftərxana müdiri həmsöhbətlərinə yayılan şayiələri yerində yoxlamağı məsləhət görür.

Axşam saat 10:30-da şayiələri yoxlamaq üçün qlasnılar knyaz A.İ. Bebutov və İ.S. Vatsadze şəhərin türklər yaşayan hissəsinə gedirlər. Onlar həm hökumət qoşunları, həm də üz-üzə dayanmış türklərin özünümüdafiə dəstələri və fəhlə təşkilatının üzvlərindən ibarət milislərlə qarşılaşırlar. Onu da qeyd edək ki, ordu əsgərlərindən fərqli olaraq, fəhlə təşkilatının mühafizələri maneəsiz şəhərin türklər yaşayan hissəsinə keçə bilirdilər. Qlasnıların suallarını cavablandırmaq üçün türk özünümüdafiə patrulları öz başçılarmı çağırırlar və o hər şeyi ətraflı izah edir, xüsusən də çox səmimi şəkildə bildirir ki, həqiqətən də öz soydaşlarını və dindaşlarmı ermənilərin hücumlarından qorumaq üçün Tiflisə Borçalı kəndlərindən 150-yə yaxın silahlı türk gəlibdir. Borçalılar qlasnılara həmçinin Tiflisə gələrkən yolüstü ermənilərə məxsus ot tayalarını yandırmalarını və onlara qarşı başqa yönlü fəaliyyətlərini inkar etmirlər və bunu ermənilərin müsəlmanları öldürmələrinə əvəz olaraq etdiklərini, Tiflisə yalnız və yalnız sülh məqsədilə gəldiklərini deyirlər. O da bəlli olur ki, borçalılar həmin gün “Daşnaksutyun”a sülh zəmanətinin tələblərini göndəriblər. Bu tələblər şeyxülislamın və erməni katolikosunun bir-birinin hüzuruna gedib hər iki xalqı barışığa səsləyən dini ayinlər yerinə yetirməsi, özlərini qorumaq üçün yetərincə gücə sahib olduqlarını nümayiş etdirmək məqsədilə müsəlmanların şəhər küçələri ilə silahlı yürüşünün keçirilməsinə şərait yaradılması, daşnaklar tərəfindən erməniləri hüzura və sülhə çağıran intibahnamələrin yayılması və sairdən ibarət idi.

Canişin axşam saat 12-yə işləmiş, yanındakı iclas sona yetdikdən sonra duma üzvlərini qəbul edir. Görüşdə Çerkezov və qlasnılar silahlı borçalıların Tiflisə daxil olmasının qarşısının alınmasını və artıq müxtəlif yollarla şəhərə girməyə müvəffəq olanların, burada yaşayan qohumları ilə birlikdə (onların sonrakı taleyindən narahat olmasınlar deyə) şəhərdən çıxarılmasını tələb edirlər. Duma üzvlərini dinlədikdən sonra canişin bildirir ki, ətraf kəndlərdən türklərin silahlı dəstələrinin şəhərə daxil olmaması üçün bütün tədbirlər görülüb və şəhərin müvafiq hissələrində qoşunlar dayanıb, tək-tək adamların isə şəhərə girməsinin qarşısını o ala bilməz. Vorontsov-Daşkov eyni zamanda yalnız və yalnız silahlı erməni ünsürlərinin şəhəri tərk etməsi müqabilində şəhərə gəlmiş müsəlman silahlı ünsürlərinə şəhəri tərk etməsini təklif edə biləcəyini vurğulayaraq, şəhərin küçələrində, xüsusən də onun sakitçilik hökm sürən mərkəzi hissəsində onsuz da əsəbi olan bütün əhalidə qorxu yaradan silahlı şəxslərin öz silahlarını göstərmək xatirinə boş-boşuna veyllənməməsinin zəruriliyini ifadə edir. Daha sonra o bildirir ki, elə bu gecə gəlmə müsəlmanlar haqqında bir qərar qəbul edəcək və barışığa nail olmaq üçün 27 noyabrda hər iki millətin ruhanilərini öz hüzuruna dəvət edəcək. Duma üzvlərindən birinin silahı buna

heç bir zərurət olmadığı halda əsasən gimnazistlərin və oğlan uşaqlarının özlərini göstərmək üçün daşıdığını söyləməsinə cavab olaraq canişin deyir ki, onlara bunu etməməyi təlqin etmək valideynlərinin borcudur.

Canişinin yanında yarım saat davam edən görüşdən sonra qlasnılar Dumaya qayıdırlar və onları gözləyən camaatı hər şey barədə geniş məlumatlandırırlar. Sonuncuların arasından radikal siyasi təşkilatların nümayəndələri qlasnıların ünvanına gurultulu ittihamlarla çıxış edərək onların bütün əhali tərəfindən seçilmədiyini və yararsız olduqlarını, inqilabçı təşkilatlar üçün silah tələb edə bilmədiklərini və yalnız yeni, inqilabi dumanın lazımi dəyişikliklərə nail ola biləcəyini deyirlər. Bütün bu deyilənlərə qlasnı A.İ. Xatisov etiraz edir. Şəhər başçısı vəzifəsinin icraçısı Çerkezov isə camaatı başa salmağa çalışır ki, silahı cibdə gəzdirmək və evdə saxlamaq olar, amma şəhərlilərin əsəbini qorumaq lazımdır və silahı göstərmək, qorxutmaq və s. üçün öz üzərində nümayişkaranə şəkildə daşımaq məqsədəuyğun deyil. Nəticədə qlasnı L.T. Tiqranov bağırır ki, evə getmək və bütün gecəni yatmamaq lazımdır, çünki şəhərlilərin həyatı təhlükədədir!

Gecə ikinin yarısında camaat və qlasnılar Duma zalmı tərk edirlər [4, №295].

Bu hadisələrlə yanaşı 26 noyabrda hərbi qərargahda inzibati və hərbi idarələrdə yüksək vəzifə tutan zabitlərin və hərbi məmurların yığıncağı keçirilir. Yığıncaq iştirakçıları belə bir ultimativ tələb irəli sürürlər: "Əgər xalq təşkilatlarına paylanmış silah əllərindən alınmasa, toplantıda iştirak edənlər xidmətin başını buraxacaqları [3, №213]. Bu tələbi gecikmədən canişinə çatdırırlar.

Həmin gün Riğedə naməlum şəxslər tərəfindən tramvay vaqonuna atəş açılır, ölən və ya yaralanan olmur. Bundan 9 saat sonra revolver gülləsi ilə Qaqnidze soyadlı bir gürcü yaralanır [2, №2958].

Qeyd edək ki, baş vermiş toqquşmalarla əlaqədar 24-26 noyabrda Tiflisdə heç bir qəzet çap olunmayır və buna görə də şəhərdə baş vermiş qanlı hadisələr barədə məlumatlar qəzetlərin 27 noyabr və sonrakı saylarında dərc olunur.

**27 noyabr**

25-26 noyabr şəhərdə nisbətən sakit keçsə də 27 noyabrda qanlı toqquşmalar yenidən başlanır. Günorta saat 4-də Meydanda başlanan atışma təqribən yarım saat davam edir, sonra ara-sıra atəş səsləri eşidilir, axşam saat 9-da atışma səsləri yenidən tam gücüylə artmağa başlayır və fasilələrlə gecə yarısına qədər davam edir. Ölən və yaralananlar olur.

"Kavkaz" qəzeti yazırdı: "Təqribən axşam saat 10-da Nəftluğun arxasında yanğın şəfəqləri görünürdü. Nəyin yandığı hələ ki, məlum deyil. Meydanda atışmanın başlanma səbəbləri barədə şəhərdə bir neçə versiya yayılıb. Deyirlər ki, İran təbəəli bir şəxsin dükanının yanından keçən drujinaçılardan biri bu iranlı tərəfindən ölümcül yaralanıbdır; başqa bir versiyaya görə müsəlman mühafizəçilərin ön postları Meydanda neytral xəttə keçmək istəyibdir, ancaq bu xətti tutan sosial-demokrat milisi onları buraxmayıbdır; üçüncü versiyaya görə, drujinaçılardan biri içi doldurulmuş berdankaya söykənib, tüfəng açılıb və drujinaçı özünü buxağından yaralayıbdır. Bu atışmada, deyilənlərə görə, bir tərəfdən müsəlmanların döyüş təşkilatı, digər tərəfdən əvvəlcə sosial-demokratlar və ardınca Sololak məhəlləsinin "Daşnaksutyun" partiyasından olan döyüş-mühafizə təşkilatı, əsasən də bu partiyaya qoşulmuş digər partiyaların döyüş təşkilatlarının üzvləri iştirak edir…

Bu atışmanın nəticəsində Mixail xəstəxanasına naməlum tatar aparılıb və o, çoxsaylı yaralardan ölüb. Bu xəstəxanada sosial-demokrat drujinaçı Rajden Sturua ölüb və buraya yaralı halda sosial-demokrat drujinaçılar İvan Beketov (ayağından yaralı) və Teofil Babinadze (sinəsindən yaralı), həmçinin müsəlman Həsən ağa Həsənov çatdırılıblar.

Meydanda barrikadalar və məftilli çəpərlər qurulmuşdu, Sololak dağının qədim qalanın (Narınqalanın F.V.) yanında yüksəklikləri Mauzer tüfəngləri ilə silahlanmış "Daşnaksutyun" təşkilatının üzvləri tərəfindən tutulmuşdu. Sololak dağı və ətrafları boyunca silahlı drujinaçılar postu qoyulmuşdu. Tatarların yerindən tərpədə bilinən barrikadaları var" [4, №295].

Borçalıların Tiflisə gəlməsindən sonra münaqişə tərəfləri arasındakı qüvvələr nisbətində müəyyən tarazlıq yaranır. Əgər indiyədək şəhərdə yalnız türklərə məxsus evlər, dükanlar və digər müəssisələr dağıdılıb tar-mar edilirdisə, 27 noyabrda ermənilərin də mağazaları, fabrik və zavodları talan olunur. Bu barədə şəhər polismeysterinin Tiflis qubernatoruna ünvanladığı 1 dekabr 1905-ci il tarixli, 6404 saylı raportunda məlumat verilirdi. Qeyd olunan raportda həmçinin 27 noyabrda bir "tatarın" sosial-demokrat milisləri tərəfindən Surp-Karapet yoxuşu ilə öz evinə yola salındığı zaman erməni güruhunun hücumuna məruz qaldığı və öldürüldüyü bildirilirdi [1, f. 17, s. 2, iş №557, vv. 62-64].

Həmin gün "Tsnobis purtseli" qəzetində gürcü sosialist-federalist partiyasının ermənilərə və türklərə sülh çağırışlı intibahnaməsi yayımlanmış, "İveriya" qəzetində isə tanınmış gürcü ziyalılarının Tiflisdə fəaliyyət göstərən gürcü siyasi təşkilatlarına aşağıdakı məzmunda açıq məktubu dərc olunmuşdur [3, №213]:

**Tiflisin gürcü sosialist-federalist, sosialist-demokrat və sosialist inqilabçı təşkilatlarına açıq məktub**

Biz Tiflisdə yaşayan gürcü vətəndaşlarının bir qrupu sizə yuxarıda qeyd olunan təşkilatların komitələrinin üzvlərinə müraciət edirik:

1) Sizin üzvləriniz arasından seçilmiş komissiyada 22, 23 və 24 noyabrda Tiflisdə baş vermiş erməni-tatar qırğınının səbəbləri ciddi araşdırılsın;

2) Daşnaksutyun" təşkilatının fizionomiyası və bu işdə fəaliyyəti təhqiq olunsun və aşkarlansın;

3) Tələb edirik, bu utancverici və barbar qırğında iştirak edənlər müəyyən edilsin və belə şəxslər xalqın müstəqil təşkilatları tərəfindən cəzalandırılsın.

**Gürcü vətəndaşların bir qrupu**

Bu açıq məktubdan görünür ki, gürcü ziyalıları Tiflisdə baş vermiş qırğının səbəbkarları qismində daşnakları şübhəli bilirdilər.

"Tiflisskiy listok" qəzetinin 29 noyabr 1905ci il tarixli sayında dərc olunmuş məlumatlardan bəlli olur ki, 27 noyabr saat 5-də "Daşnaksutyun" partiyasının məşhur nümayəndələrindən biri faytonda Ortacala istiqamətinə gedən zaman onu müşayiət edən milislərlə Əlibala adlı Şeytanbazarlının başçılığındakı yerli türklərdən ibarət xalq könüllü dəstəsinin üzvləri arasında atışma baş verir. Həmin anda Botanika küçəsində VI məhəllənin pristavının köməkçisi Morqayevskinin evi önündə bir qrup türkün üstünə bomba atılır; 3 nəfər ölür, çox sayda adam isə yaralanır. Pristav köməkçisinin bacısı baş vermiş partlayışdan huşunu itirib yerə yıxılır. Onu yaxınlıqda olan türklər qaldırıb qonşu evlərdən birinə aparırlar və özünə gəlməsi üçün təcili tədbirlər görürlər.

Mətbuat səhifələrində 27 noyabr səhər saat 10-da Müştaiddə yerləşən Lortkipanidzenin restoranının yaxınlığında tacirlərin, 28 noyabrda Verada Tiflis poçt-teleqraf işçilərinin mitinqinin təyin olunduğu barədə elanlar çap olunmuşdu.

27 noyabrda "Arbuznı" meydanında müsəlmanların da mitinqi təşkil olunur. Mitinqə VI məhəllənin müsəlmanları, eləcə də şəhərdə olan Borçalı-qarapapaq türkləri çağırılır. Tədbiri açmazdan öncə canişinin adyutantı canişinin Tiflis müsəlmanlarına onları qorumaq üçün 6-cı məhəlləyə ordu batalyonunu ezam etmək və bunun üçün Borçalı qarapapaqlarını geri öz yaşayış yerlərinə qaytarmaq barədə təklifini çatdırır. Bu təklif müsəlmanların cari durumunu əhatə edən bir sıra başqa məsələlərlə yanaşı mitinq iştirakçılarının müzakirəsinə çıxarılır. Nəticədə bütün bu məsələlərlə, o cümlədən şəhərdəki Borçalılarla bağlı məsələlərin həlli ilə məşğul olmaq üçün adları aşağıda qeyd olunan nüfuzlu ziyalılardan ibarət komitə yaradılır:

Hüseyn bəy Yadigarov, Rəhim bəy Axundov, Hacı Axund Mollazadə, Mustafa Mərdanov, Məhəmmədağa Şahtaxtinski, Mustafa bəy Eminov, Sübhanqulov, İsmayıl xan, Seyidov, Məmmədquluzadə, Mursaqulov, Məşədi Səməd Vəli oğlu, Abd.A. Sultanov, Ömər Faiq əfəndi Nemanzadə, Kərbalayı Xıdır İrza oğlu, Məşədi Qasım Hacı Həsən oğlu, R.Əliyev, K.İs. Babayev, Osman Şamıxlı, Yusif bəy Tahirov, M.M. Oruc oğlu və Hacı Molla Baba Əliyev [6,№35].

Şəhərdəki mövcud durumla bağlı 2-ci qadın gimnaziyasının pedaqoji şurasının qərarı ilə bu gimnaziyanın bütün siniflərində dərslər qeyri-müəyyən müddətə dayandırılır.

Şuşa küçəsində (Şeytanbazar məhəlləsi) Xarazovun evi xuliqanlar tərəfindən qarət olunur.

27 noyabr axşamı şəhər müalicəxanasının Xarpux şöbəsinə sarıq üçün 12 türk gətirilir. Türklər öz yaralılarını məhəllələrində yerləşən bu müalicə müəssisəsinə yalnız buranın həkimi Şerbinina tərəfindən onlara yaralıların qeydiyyata alınmayacağı barədə zəmanət verildikdən sonra gətirməyə başlayırlar. Türklərin zəmanət istəmələrinə səbəb onların hakimiyyətə inamsızlığı və gələcəkdə milli qarşıdurmada iştirak bəhanəsi ilə təqib oluna bilmə qorxusundan qaynaqlanırdı. Yaralı türklərin çoxuna öz evlərində türkəçarəçi həkimlər və qohumları tərəfindən yardım göstərilirdi. Ümumiyyətlə 2327 noyabr tarixlərində müalicəxananın Xarpux şöbəsində döyüşlər nəticəsində yaralanmış 35 türkə sarıq edilmişdir [4, №295].

"Man-Man" təxəllüslü müəllif "İveriya" qəzetində "Tiflisdə 27 noyabr" başlıqlı məqaləsində yazırdı:

"Həmin gün Nadzaladevidə Tiflis fəhlə təşkilatı xalq mitinqi təşkil etdi. Mitinqdə çox adam iştirak edirdi və onları əsasən bu son günlərdə Tiflisdə baş vermiş təəssüfləndirici qanlı hadisələr maraqlandırırdı. İki düşmənləşdirilmiş millətin barışdırılması və birləşməsi haqqında çox danışıldı. Bir neçə müvafiq qətnamə də qəbul olındu. Günorta saat 5-in yarısında xalq dağıldı.

Bir az sonra atəş səsləri eşidildi. Qolovin prospektinə, komendant idarəsinin yanına gəldim. Əsgərləri binanın önünə buraxmadılar. Burada bir zabit gördüm. Soruşdum: "Kim atəş açdı?" Cavab aldım: "Bax, orada sizin bir sosial-demokrat milis indicə atıcı batalyonun bir əsgərini öldürdü. Buna görə əsgərlər həyəcanlanıblar". Zabitə dedim ki, bu ağ yalan və şayiədir, milis əsgərə heç vaxt güllə atmaz. Dedi ki, inanmırsansa komendantlığın binasına gir, orada əsgərin meyiti durur. Komendantlığa girmək istədim. Buraxmadılar. Telefonu olan bir tanışının yanma getdim. Komendanlığa zəng etdim, amma dedilər ki, heç bir milisioner əsgər-zad öldürməyib.

Atəş səsləri güclənirdi. Bu vaxt Veradan içində bir neçə iranlı tatar olan iki araba gəlirdi. Arabaları iki-iki milis müşayiət edirdi. Canişinin iqamətgahına yaxınlaşanda, Yermolov küçəsində, kazak kazarması olan yerdə bu milisləri iyirmiyə yaxın kazak dayandırdı. Soruşdular: "Hara gedirsiniz və bu tüfənglilər kimdir?" Milislər dedilər ki, biz bunların mühafizəçiləriyik, bunları İranın baş konsulluğuna aparmalıyıq. Kazaklar bir-birinə dedilər: Давай, ребята, его бить» ("Gəlin uşaqlar, onları döyək") və döyməyə başladılar. Milislər dedilər ki,

niyə döyürsünüz. Sonra gördülər ki, get-gedə kazakların yoldaşları artır. Qolovin prospektinə doğru qaçdılar. Kazaklar bir milisin berdanka tüfəngini əlindən aldılar və sonra qaçan milislərin özlərinə tuşladılar. Onlardan biri, Quriyanın Makvaneti kəndindən olan Teofil Babilodzeni sağ kürəyindən yaraladılar, deyirlər digər milis də öldürülüb. amma bu barədə nə Mixail xəstəxanasında, nə də başqa yerdə bir şey dəqiqləşdirə bilmədim. Beləliklə hələlik o, nə diri, nə də ölü tapılıb.

Axşam saat 5:25-də Tatar meydanına tərəf getdim. Bu vaxt burada qızğın atışma var idi. Küçələrdə hər yanda milislər qarovul çəkirdi və meydana tərəf məni tək başına buraxmadılar.

Hamamların yaxınlığında milislər dedilər ki, artıq hər şey sakitləşib. Yoldan geri döndüm və Sioni küçəsinə getdim. Burada yaralılara nəzarət punktu var idi.

Axşam saat 10-a qədər Mixail xəstəxanasına aşağıdakı yaralıları gətiriblər: 1) Teofil Babilodze (kazaklar tərəfindən sağ kürəyindən ağır yaralanıb, amma həkimlər sağ qalmasına ümid verirlər), 2) İvan Beketov, dəmir yolu baş emalatxanasının işçisi (sağ dabanı zədələnmişdi), 3) bir tatar, onun kim olduğunu başa düşməyiblər, qarnından və başından yüngül xəsarət alıb.

Görənlər deyir ki, yenə yaralılar var, təqribən 4-5 nəfər, Amma biz Mixail xəstəxanasında sadalananlardan başqa nə ölü, nə də yaralı bir kimsəni görmədik" [3, №214].

Yazıda ölü və ya diri olduğu barədə doğrudürüst bir məlumatın əldə edilməsinin mümkün olmaması söylənilən T.Babilodzenin milis dostunun taleyinə "İveriya'nın növbəti sayında aydınlıq gətirilir:

"Bu milis Qiorqi Mancavidze sağ imiş. Kazaklar onun başını tüfəngin qundağı ilə yarıblar və özlərinin kazarmalarında dünənə qədər saxlayıb zorlayıblar" [3, №215].

**28 noyabr**

28 noyabrda da gün ərzində az-çox fasilələrlə şiddətli atışmalar davam edir. Tiflis polismeysterinin qubernatora hesabat məktubunda ermənilər tərəfdən tutulmuş Xarpux yüksəkliyindən yaxın ərazidə yerləşən VI məhəllənin evlərinin atəşə tutulduğu bildirilirdi [7, №249]. Həmin gün yalnız müalicəxananın Xarpux şöbəsinə 70 yaralı türk gətirilir. Mixail xəstəxanasına isə təqribən 50 yaşında adı bəlli olmayan bir nəfərin meyiti və yaralı halda Məmmədəli Məşədi Əli oğlu, Qrikor Avakyan, Qevork Davidxanov, Yason Corbenadze adlı şəxslər, təsadüf nəticəsində yaralanmış milislər Stepan Samadurov (10-cu məhəllədən) və David Şteymberq (5-ci məhəllədən), eləcə də 6-cı məhəllədən tələbə-sanitar Kançeli tərəfindən bir naməlum şəxs gətirilir. Bir neçə gün öncə güllə yaraları ilə Mixail xəstəxanasına çatdırılmış Hacı Məmməd oğlu və 19 yaşlı Xeyiristə Baba oğlu isə dünyalarım dəyişirlər [4, №295].

Xarpuxda, Seyidabad küçəsində Kites Mamamtavrişviliyə məxsus evdən atılan atəşlə VI məhəllənin pristavı Qurqenidze yaralanır. Səhərisi gün həmin evdə 15 silahlı erməni həbs olunur [1, f. 17, s. 2, iş №557; 7, №249].

Avlabarda V məhəllənin qorodovoyu Qavril Petrişevə 4 nəfər hücum edərək onun silah və saatını əlindən alır [7, №249].

Sosial-demokrat milislər qeyri-qanuni silahların yayılmasının qarşısının alınmasında xeyli fəallıq göstərirdilər. Belə ki, 28 noyabrda VIII polis məhəlləsində onlar fayton ilə Avlabara 30-dan çox berdanka tüfəngi aparan bir nəfəri saxlayıb Naxalovkaya, sosial-demokrat fəhlə partiyasının Tiflis bürosuna gətirirlər [3,№215].

Fəhlə təşkilatının Naxalovkadakı bürosuna milislər həmin gün daha iki nəfəri gətirirlər. Onlardan 10 ədəd yeni sistemli "vintovka" (tüfəng) və 2 min patron aşkar olunubmuş. Sonradan məlum olur ki, bunlar xuliqanlar imiş.

İrəvan meydanındakı "Kavkaz" mehmanxanasında "Daşnaksutyun" partiyasının üzvləri bir türkü şübhəli bilib saxlayırlar. Dindirilmə zamanı bu türk deyir ki, "Mən irəvanlıyam, orada baş vermiş erməni-tatar toqquşması zamanı tatarları mən sakitləşdirdim, indi də tatarları sakitləşdirmək üçün buraya gəlmişəm. Mənə sosial demokrat fəhlə partiyasının milislərindən ayırın və tatarların məhəlləsinə buraxın. Tam ümidvaram ki, sülh yarada biləcəyəm". Buna baxmayaraq ermənilər ona inanmayırlar [3, №215].

"İveriya" qəzetinin müxbiri qəzetin 30 noyabr 1905-ci il tarixli sayında öncəki 27-28 noyabr günlərində Tiflisdə baş verən olaylar barədə yazırdı:

"Tiflisdə dəhşətli hadisələrin sonu görünmür, qan tökülməsi bir gün dayananda, ikinci gün daha qorxulu güclə baş qaldırır. 25 və 26 noyabrda bir azca rahatlıq oldu. Camaat azacıq da olsa nəfəs aldı. Hər yanda dükanlar və mağazalar açıldı, ticarət və istehsalat müəssisələrinin hamısında iş yenidən başlandı. Fəqət dəhşətli şayiələr şəhərdə daha və daha çox yayılırdı. Hər yerdə danışırdılar ki, şəhərin yaxınlığında yerləşən kəndlərin tatarları bir yerə toplaşıblar və silahlı şəkildə Tiflisə gəlirlər.

28 noyabrda günorta şayiələr yayıldı ki, bu gün Tiflisin patriotlar (vətənpərvərlər) partiyası prosessiya ilə şəhəri keçməyi nəzərdə tutur. Hər yandan camaat dağılışdı. Heç kəs bu yürüşü görmək istəmirdi.

Həmin gün axşam saat 4-ə qədər şəhərdə heç nə baş vermədi, ancaq saat 4:15-də tatarların məhəlləsindən şəhərin orta hissəsinə qorxunc və uzun sürən silah səsləri gəldi. Sonra məlum oldu ki, qaçaq tatarlar şəhərə

həqiqətən gəliblərmiş və onlar atışmağa başlayıblar. Tatarların məhəlləsində duran sosial-demokrat partiyasının drujinası, bunu dayandıra bilmədi…

Böyük təhlükə yarandığı üçün drujina tatarların məhəlləsindən çıxdı. Axşam hamı tatarların hücum edəcəyindən qorxurdu. Ona görə başqa siyasi partiyaların drujinaları tatarları buraya (Kürün qarşı səmtinə F.V.) buraxmamaq üçün tatarların məhəlləsinin ətrafına toplaşdılar. Hər yanda mövqelər tutdular. Onların yanında əsgərlərin azsaylı dəstələri də düşərgə saldı.

Tatarların məhəlləsindən arası kəsilməyən tüfəng səsləri eşidilirdi və buradan onlara ordu cavab verirdi. Aramsız atışma axşam saat səkkizin yarısında dayandı. Tatarların bu tərəfə (Avlabara – F.V.) keçməsinin qarşısının alınması üçün küçələrdə barrikadalar quruldu. Tatarlar gecə şəhərin orta hissəsinə keçməyə cəhd etmədilər, amma gecə boyu ara-sıra atışma var idi.

Səhərə qədər belə davam etdi. Səhər atəş səsləri çoxaldı, amma günorta saat 1-dən 3-ə qədər yenə dayandı. Milislərdən ikisi yaralandı. Tatarların məhəlləsinə atılmış güllələr bir neçə tatara xəsarət yetirdi.

28 noyabrda saat 3-də araba ilə Riğeyə tərəf getdim. Metexi qalasından o üzə güclü atışma gedirdi. Körpü yaxınlığında drujina dururdu. Qəflətən Tatar məscidindən o yanda bir evdən kimsə bayıra tüfəng atdı. O saat güclü atışma başlandı. Bu evə kütləvi surətdə atəş açdılar. Deyilənə görə drujina və əsgərlər atırdılar.

Körpünün o üzündə drujinanın birinci mövqeyi yerləşirdi…Birdən bu tərəfdə atışma başladı. Drujina cavab atəşi açdı. Böyük atışma başlandı. Atışma çox davam edərdi, ancaq mövqelərin yaxınlığındakı əsgərlər “zalp” (yaylım) atəşi verdilər və bundan sonra atışma dayandı.

Geri qayıtdım. Tatarların meydanından bəri demək olar ki, bütün döngələr və küçələrdə barrikadalar qurulmuşdu. Küçələrdə çəlləklər, taxtalar, unla dolu çuvallar, arabalar, köhnə faytonlar və pusquda dayanmış silahlı ermənilər var idi. Bəzi yerlərdə sosial-inqilabçılar və sosial-demokratların drujinaları dururdu. Silahsız adamları dayandırmırdılar. Çox yerlərdə barrikadalar yeni qurulurdu. Bir yerdə barrikadalar üçün o qədər torpaq çıxarılmışdı ki, nəhəng bir xəndək yaranmışdı.

Bu məhəllənin (Avlabar nəzərdə tutulur F.V.) bütün evlərindən sakinlər başqa yerə köçmüşdülər. Evlərdən yalnız silahlanmış gənclər boylanırdılar və əllərində tüfənglərini hazır tutmuşdular.

Döngələrdə, dalanlarda bir saat yarım qaldıq, hər tərəfdən silah səsləri eşidilirdi.

Gecə atəş səsləri çox idi, ancaq tatarlar heç bir tərəfdən hücum etməyə cəhd göstərmədilər”.

29 noyabra keçən gecə nisbətən rahat keçir, bəzi yerlərdə tək-tük silah səsləri eşidilir.

**MƏNBƏLƏR:**

1. 1. Gürcüstan Milli Tarix Arxivi.
2. 2. “Tsnobis purtseli” qəzeti, 1905.
3. 3. «İveriya» qəz., 1905.
4. 4. “Kavkaz” qəz., 1905.
5. 5. “Tiflisskiy listok” qəz., 1905.
6. 6. “Vozrojdeniye” qəz., 1905.
7. 7. “Novoye obozreniye” qəz., 1905.

**«Qarapapaqlar»**.-2011.-№7(49).-S.16-24.

**Soyqırımı cinayətlərinə qarşı mübarizədə beynəlxalq təcrübə**

**Ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımın hüquqi cəhətdən düzgün anlaşılması, əsaslandırılması və beynəlxalq aləmdə tanıdılması Azərbaycan beynəlxalq hüquq elminin qarşısında duran ən vacib məsələlərdən biridir. Vəhşi erməni hərbi birləşmələrinin keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və ağır hərbi texnikasının köməyi ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı üzərinə hücuma keçərək dinc əhaliyə qarşı soyqırımı törətməsi insan hüquqlarının, o cümlədən İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin, mülki və siyasi, iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktların, Cenevrə Konvensiyalarının, Uşaq Hüquqları Bəyannaməsinin, Hərbi münaqişə dövründə və fövqəladə hallarda qadın və uşaqların müdafiəsi haqqında Bəyannamənin və bir sıra digər beynəlxalq-hüquqi sənədlərin kobud şəkildə pozulması deməkdir.**

Məsələn, İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin (İHUB) 2-ci maddəsində qeyd olunur ki, hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır. İHUB-nin 3-cü maddəsində qeyd olunur ki, hər bir insan yaşamaq, azadlıq və səxsi toxunulmazlıq hüququna malikdir. Bəyannamənin 5-ci maddəsində göstərilir ki, heç kim isgəncələrə və yaxud ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmamalıdır. 9-cu maddədə qeyd olunur ki, heç kəs özbasınalıqla həbsə, tutulub saxlanılmaya və ya sürgün edilməyə məruz qala bilməz və s.

BMT Baş Məclisinin 11 dekabr 1946-cı ildə qəbul etdiyi qətnamədə bəyan etmişdir ki, soyqırımı beynəlxalq hüququn normalarını pozan və BMT-nin ruhuna və məqsədlərinə zidd olan cinayətdir və bütün dünya onu pisləyir. Ümumiyyətlə, soyqırımı nə deməkdir? İlk dəfə olaraq, soyqırımının cinayət sayılması təklifini 1933-cü ildə yəhudi əsilli polşalı hüquqşünas Rafael Lemkin Madriddə cəza hüququnun eyniləşdirilməsinə dair beşinci beynəlxalq konfransda irəli sürmüş və bu barədə öz fikirlərini 1944-cü ildə dərc etdirdiyi "İşğal olunmuş Avropada əsas dövlətlərin hakimiyyəti" kitabında vermişdir.

Rafael Lemkin Avropa yahudilərinin məhv edilməsinə dair nasist siyasətinin mahiyyətini açmışdır . O, "nəsil" mənasını verən yunan sözü "genos" və "öldürürəm" mənasını verən "caedo" latın sözünü birləşdirərək "genosid" terminini irəli sürmüşdür.1945-ci ildə Nürnberq Beynəlxalq Hərbi Tribunalı nasist rəhbərlərini "insanlıq əleyhinə cinayətlərin" törədilməsində ittiham etdi. "Genosid" sözü ittihamnamə aktına daxil edildi, lakin hüquqi termin kimi yox, təfsiredici termin kimi. Soyqırımı cinayətinin qarşısının alınmasına yönəlmiş tədbirlərin içində xüsusi olaraq "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanı qeyd etmək lazımdır. Bu Konvensiya BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli qətnaməsi ilə qəbul edilmişdir. Konvensiya 19 maddədən ibarətdir və 12 yanvar 1951-ci ildən qüvvəyə minmişdir. İndiyədək 142 ölkə bu Konvensiyanı ratifikasiya etmişdir.

Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 31 may 1996-cı ildə Azərbaycan Prezidenti tərəfindən imzalanmışdır. Bu qanun 25 iyun 1996-cı ildə qüvvəyə minmişdir. Konvensiya soyqırımını beynəlxalq hüquq normalarını pozan cinayət əməli kimi tövsif etmişdir. Həmin Konvensiyanın 1-ci maddəsində qeyd olunur ki, razılığa gələn tərəflər sülh və yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq soyqırımının, beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edirlər və bu cinayətin qarşısını almaq və cəza tədbirlərini həyata keçirmək öhdəliyini götürürlər. Beləliklə, Konvensiya insanlığa qarşı ən ağır cinayət kimi soyqırımı anlayışının beynəlxalq hüquqi statusunu müəyyən edir və onun hüquqi tərifini verir.

Bu sənədi imzalamış dövlətlər soyqırımının "qarşısını almaq üçün tədbirlər görmək" və "ona görə cəzalandırmaq" öhdəliklərini öz üzərlərinə götürmüşlər.

Konvensiyaya müvafiq olaraq, hər hansı milli, etnik, irqi və ya dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi məqsədilə törədilən aşağıdakı hərəkətlər soyqırımına aiddir: a) bu cür qrup üzvlərinin qətlə yetirilməsi; b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və yaxud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi; c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması; d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi; e) bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi (Konvensiyanın 2-ci maddəsi). Bu maddədə göstərilən şərtlər Xocalı qətliamının soyqırımı kimi tövsif edilməsinə əsas verir.

Qeyd edildiyi kimi, soyqırımı – genosid sözü İkinci Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hərbi tribunalların (Nürnberq, Tokio) ittihamnamə aktlarına daxil edilmişdir, lakin bundan hüquqi termin kimi yox, təfsiredici termin kimi istifadə olunmuşdur. Bu kateqoriyadan olan cinayətlərin əsas tərkibləri keçmiş Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının nizamnamələrində, habelə Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (maddə 6) bir daha təsdiqini tapmışdır.

Fikrimcə, soyqırımı anlayışının beynəlxalq cəmiyyət tərəfindən dərk edilməsi və bundan sonra isə müvafiq hüquqi praktikanın inkişafı iki müəyyən tarixi dövrlərə aiddir: bu terminin dövriyyəyə buraxılmasından onun beynəlxalq qanunvericilikdə qəbul olunmasınadək (1944-1948) və bu cinayətə görə cəzalandırmaq məqsədilə beynəlxalq tribunalların yaradılmasında ondan fəal istifadə edilməsinədək (1991-1998).

Bəşəriyyət tarixində ən qədim zamanlardan bizim günlərədək soyqırımı hallarına çox rast gəlmək olar. Xüsusən bu, müharibələrə, daxili etnik və dini toqquşmalara, müstəmləkə imperiyalarının yaradılmasına xas olan əlamətdir. Bir necə misal göstərmək olar. Məsələn, bir sıra tədqiqatçıların fikrinə görə, Amerika aborigenlərinin soyqırımı bəşər tarixində ən genişmiqyaslı soyqırımı hadisəsidir. Məhv edilmiş insanların sayı 10 milyonlarla ölçülür. Avstraliya aborigenlərinin soyqırımı da həyata keçirilmişdir. Belə ki, 1788-ci ildən başlayaraq Avstraliyada Avropa müstəmləkəçiləri məskunlaşmağa başladılar. O zaman yerli aborigenlərin sayı təxminən 750000 nəfər təşkil edirdi. Lakin 1911-ci ildə onların sayı cəmi 31000 nəfər idi. Onların əksəriyyəti xəstəlikdən, deportasiyadan, qətliamdan və aclıqdan həlak oldu. Almanlar tərəfindən Namibiya yerli xalqlarının məhv edilməsi nəticəsində 65 000 xerero (onların 80 faizi) və 10000 nama (onların 50 faizi) həlak olmuşdur. 1985-ci ildə BMT Namibiya yerli xalqlarının məhv edilməsi cəhdini XX əsrin birinci soyqırımı aktı kimi qiymətləndirdi. 2004 ildə Almaniya hakimiyyəti Namibiyada soyqırımının törədilməsini etiraf etdi və rəsmi üzr istədi.

XX əsrin ən səs-küylü genosid faktlarına: nasist Almaniyası tərəfindən yəhudilərin məhv edilməsini (Xolokost), almanların tərtib etdiyi "Ost planı"nı, İkinci Dünya müharibəsi zamanı Paveliçin xorvat rejimi tərəfindən serblərin məhv edilməsini, Yaponiya ordusu tərəfindən törədilmiş beynəlxalq cinayətləri (müharibə bitdikdən sonra müttəfiqlər tərəfindən hərbi cinayətlərin törədilməsində ittiham olunan təxminən 5000 yapon hərbçisi üzərində məhkəmə prosesləri keçirilmiş və onların 4400 nəfəri məhkum edilmiş, 1000 nəfərinə isə ölüm cəzası kəsilmişdir), 1975-1979 illərdə Pol Pot və İyenq Sari rejimi tərəfindən Kambocada 3 milyona qədər insanın məhv edilməsini, 1994-cü ildə Ruandada baş vermiş soyqırımını (bunun nəticəsində 800 minə yaxın insan həlak olmuşdur), 1995 – ci ildə Srebrenisada Bosniya müsəlmanlarının Bosniya serbləri tərəfindən kütləvi qırğınını, Darfurda yerli əhalinin soyqırımını (BMT hesablamalarına əsasən, həlak olanların sayı 180 mindən artıqdır) və s. aid etmək olar.

Xocalı soyqırımı hüquqi xarakterinə görə beynəlxalq cinayət kateqoriyasına aid edilir. Ermənilərin törətdiyi bu soyqırımı nəticəsində 613 nəfər azərbaycanlı, o cümlədən 63 azyaşlı uşaq, 106 qadın, 70 qoca qətlə yetirilmişdir. 8 ailə bütövlükdə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər yaralanmış, onlardan 76-sı uşaq, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər isə itkin düşmüşdür.

Qeyd etmək lazımdır ki, soyqırımının subyektiv tərəfinə qəsd (niyyət) formasında təqsir aid edilir, "qrupu…tam və ya qismən məhv etmək", yəni cinayətin subyekti onun əməlləri nəticəsində müəyyən nəticələrin baş verməsini dərk edir və istəyirdi. Belə faciəvi nəticələrə gətirilmiş əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi Xocalı qətliamının məhz soyqırımı olduğunu bir daha sübut edir. Qabaqcadan xüsusi yerlərdə düzəldilmiş pusqulardan qaçıb canını qurtarmaq istəyən dinc Xocalı sakinlərinin avtomat, pulemyot və digər silahlardan atəşə tutaraq kütləvi şəkildə qətlə yetirilməsi ermənilərin azərbaycanlılara qarşı soyqırımı niyyətinin əyani sübutudur. Ermənilər tərəfindən törədilmiş bu soyqırımına Lidise, Xatın və Sonqmi faciələri ilə eyni səviyyədə hüquqi qiymət verilməlidir.

Bununla bərabər, qeyd edilməlidir ki, beynəlxalq cinayətlərə qarşı mübarizədə beynəlxalq hüquq müəyyən vasitələrdən istifadə etmək imkanını yaradır. "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 6-cı maddəsində qeyd olunur ki, soyqırımında, yaxud 3-cü maddədə sadalanan əməllərdə ittiham olunan şəxslər həmin əməllərin törədildiyi dövlətin ərazisindəki səlahiyyətli məhkəmədə, yaxud yurisdiksiyası onun yurisdiksiyasını tanımış bu konvensiya tərəflərinə şamil olunan beynəlxalq cinayət məhkəməsində mühakimə edilməlidirlər. Xocalı soyqırımında təqsirli bilinən şəxslərin Ermənistanın məhkəmələri tərəfindən cinayət məsuliyyətinə cəlb edilməsi ehtimalının sıfra bərabər olduğunu nəzərə alaraq, həmin şəxslərin beynəlxalq məhkəmə tərəfindən məhkum edilməsi alternativini önə zəkmək vacibdir və bu soyqırımı cinayətini beynəlxalq səviyyədə məhkum etmək yalnız beynəlxalq tribunalın yaradılması yolu ilə mümkündür. Beynəlxalq praktikada bu cür məhkəmələrə keçmiş Yuqoslaviya və Ruanda üzrə fəaliyyət göstərən beynəlxalq hərbi tribunallar aid edilir.

Keçmiş Yuqoslaviyada və Ruandada iyirminci əsrin son onilliyində baş vermiş cinayətlər BMT Təhlükəsizlik Şurası tərəfindən cinayətkarları təqib etmək üçün iki beynəlxalq cinayət məhkəməsinin yaranmasına səbəb oldu. 1992-ci ilin oktyabrında BMT Təhlükəsizlik Şurası keçmiş Yuqoslaviya ərazisində müharibə cinayətlərini və insanlıq əleyhinə törədilmiş cinayətləri müəyyən etmək məqsədilə ekspertlərdən ibarət bir komissiya yaratdı. Bir ildən artıq müddətdə mütəxəssislər müxtəlif mənbələrdən alınmış 65 mindən çox sənədi təhlil etmiş, 32 araşdırma missiyasını həyata keçirmişdir. Komissiya belə bir nəticəyə gəlmişdir ki,

BMT müharibə cinayətlərinin araşdırılması və cəzalandırılması üzrə dərhal məhkəmə orqanı təsis etməlidir. Təhlükəsizlik Şurası beynəlxalq cinayət törətmiş fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün "ad hoc" qaydasında ilk dəfə 23 fevral 1993-cü il tarixli 808 nömrəli və 25 may 1993-cü il tarixli 827 nömrəli qətnamələrinə əsasən "1991-ci ildən keçmiş Yuqoslaviya ərazisində törədilmiş beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə məsuliyyət daşıyan şəxslərin təqib edilməsi üzrə Beynəlxalq Tribunal" yaratdı və bu tribunalın əsasnaməsini təsdiq etdi. Təhlükəsizlik Şurası öz qərarını əsaslandırmaq üçün BMT Nizamnaməsinin VII fəslinə istinad etmişdir.Yaxşı bəllidir ki, BMT Nizamnaməsinin VII fəsli sülhə təhlükə yaranması və təcavüz aktlarının baş verməsi halında Təhlükəsizlik Şurasının səlahiyyətlərini müəyyən edir. BMT Nizamnaməsində Təhlükəsizlik Şurası üçün bu növ məhkəmələrin yaradılmasına dair səlahiyyət nəzərdə tutulmamışdır. Belə ki, Təhlükəsizlik Şurasının səlahiyyətləri fərdlərə yox, dövlətlərə aiddir. Bu səbəbdən hərbi tribunalların təsis edilməsi nizamnamənin geniş şərhinə əsaslanırdı. Beynəlxalq Tribunalın beynəlxalq müqavilə əsasında deyil, BMT nizamnaməsinin VII fəsli əsasında təsis edilməsi ideyası BMT-nin Baş katibi Butros Qaliyə məxsus idi. Çünki universal xarakterli müqavilənin adi qaydada bağlanması və ratifikasiya edilməsi uzun vaxt tələb edirdi. Bunun nəticəsində isə hərbi tribunalların yaradılması öz əhəmiyyətini itirmiş olurdu. Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının (KYBCT) birinci hökmü 29 noyabr 1996-cı ildə çıxarılmışdır. İndiyədək 144 məhkəmə prosesi keçirilmişdir (o cümlədən, 94-ü serblərə, 33-ü xarvatlara, 8-i Kosovo albanlarına, 7-si Bosniya müsəlmanlarına və 2-si makedoniyalılara qarşı). Həm də Haaqa Tribunalının ittihamları Bosniya serblərinin rəhbəri P.Mladiç və R. Karadiçə qarşı da irəli sürülmüşdür.

KYBCT-dan sonra belə növ ikinci Beynəlxalq Tribunal Ruanda (RBCT) üzrə yaradılmışdır.Bu məhkəmənin vəzifəsi 1994-cü ildə Ruandada və qonşu ölkələrdə soyqırımının – bəşəriyyət əleyhinə cinayətin araşdırılması idi. Təhlükəsizlik Şurası 1994-cü ilin noyabrın 8-də 955 saylı qətnaməsinə əsasən, "1994-cü ilin 1 yanvarından 31 dekabrına qədər Ruanda ərazisində və qonşu dövlətlərin ərazilərində törədilən soyqırımı və digər oxşar pozuntulara görə məsuliyyət daşıyan Ruanda vətəndaşları tərəfindən törədilən beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə məsuliyyət daşıyan şəxslərin məhkəmə qaydasında təqib edilməsi üzrə Beynəlxalq Tribunal" yarandı və onun əsasnaməsi təsdiq olundu.

RBCT yaradılmasını zəruri edən çoxlu sayda faktlar mövcüd idi. Ruanda və onunla qonşu olan dövlətlərin ərazisində soyqırımı törədilmişdir. Qətlə yetirilmiş insanların sayı müxtəlif mənbələrə görə 500 mindən 1 030 000 qədərdir. Onlardan təxminən 10 faizini xutular və 90 faizi tutsilər təşkil edirdi. Ruanda beynəlxalq birliyin diqqətini soyqırımı və digər beynəlxalq cinayətlərin törədilməsində təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi və bu məqsədlə Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması üçün BMT Təhlükəsizlik Şurasına müraciət etdi. RBCT 1994-ci ilin yazında Ruanda vətəndaşlarının kütləvi şəkildə qətlə yetirilməsinin təşkilatçılarını məhkum etdirdi. Onlar əsasən keçmiş iqtidarın məmurları idi. RBCT tərəfindən 52 hökm çıxarılmışdır, onlardan 8-i bəraət hökmüdür. Artıq tribunal tərəfindən 19 işə baxılmışdır. 58 iş üzrə isə məhkəmə davam edir. Onu da qeyd etmək lazımdır ki, RBCT yalnız soyqırımının əsas təşkilatçılarının işlərinə baxır. Tribunalın yurisdiksiyası altına düşməyən şəxslər üzərində məhkəmə qurmaq məqsədilə Ruandada yerli məhkəmələr sistemi yaradılıb. Bu məhkəmələr 100-ə yaxın ölüm cəzası hökmü çıxartmışdır.

Beləliklə, Xocalıda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş qətliam beynəlxalq hüquqi sənədlərə uyğun olaraq soyqırımı kimi tövsif olunur və beynəlxalq hüququn prinsiplərinə görə insanlıq əleyhinə cinayətdir. Bu soyqırımını törətmiş şəxslər (bunların sırasına Seyran Ohanyan, Serj Sarkisyan, R.Koçaryan və s. daxildir) beynəlxalq məhkəmədə layiqli cəzalarına çatmalıdırlar.

**Rauf QARAYEV,**
**AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun**
**aparıcı elmi işçisi,hüquq elmləri üzrə**
**fəlsəfə doktoru**

**"Xalq qəzeti".-**2012.-2 mart.-N 50.-S.5.

**1918-ci ildə ermənilərin Azərbaycanda törətdiyi qırğınlar soyqırımı aksiyasıdır**

**1918-ci ilin mart qırğınları xalqımıza qarşı zaman-zaman həyata keçirilən soyqırım siyasətinin ən dəhşətli səhifələrindən olmuşdur. Erməni daşnakları üç gün ərzində Bakıda 30 min azərbaycanlının həyatına son qoymuş, qocaları, qadınları və uşaqları amansızcasına qətlə yetirmiş, qədim tarixi abidələri məhv etmişlər. Bakı ilə yanaşı, Naxçıvanda, Zəngəzurda, Qubada, Xaçmazda, Şamaxıda, Vedibasarda, Lənkəranda və digər bölgələrdə də qanlı faciələr törədilmişdir.**

Dənizdən-dənizə böyük dövlət yaratmaq xülyası ilə yaşayan daşnaklar həmin dövrdə bolşeviklərin hakimiyyətə yiyələnməsindən istifadə edərək səraitdən maksimum yararlanır, azərbaycanlılara divan tuturdular. Üzdə özünü bolşevik kimi qələmə verən, əslində isə qatı daşnak olan Şaumyanın fitvası ilə ermənilər Bakıda və ətraf bölgələrdə əsl soyqırımı siyasəti həyata keçirirdilər. S.Şaumyan Bakıda və ətraf qəzalarda törətdikləri qırğınlarla əiaqədar 1918-ci il aprelin 13-də Rusiya Xalq Komissarları Sovetinə məktubunda yazırdı: "Bizim süvari dəstəyə edilən silahli hücumdan bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Biz artıq 8 min nəfərlik silahlı qüvvəyə malik idik. Daşnakların da 3-4 min nəfərlik silahlı milli hissələri var idi ki, o da bizim sərəncamımızda idi. Məhz onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilərdi". Elə təkcə bu məktub ermənilərin iç üzünü, xislətini açıb göstərmək üçün kifayət edir.

Martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri Bakı şəhərini gəmilərdən yaylım atəşinə tutdular. Bunun ardınca silahlı daşnaklar azərbaycanlı əhalinin evlərinə soxularaq amansız qətllər törətdilər. Martın 31-i və aprelin 1-də qırğınlar xüsusilə kütləvi şəkil aldı və gün ərzində Bakıda 17 min insan qətlə yetirildi. Şaumyanın erməni-bolşevik dəstələri şəhər əhalisinin 400 milyon manatlıq əmlakını ələ keçirmiş, müsəlmanların bir çox ziyarətgahlarını dağıtmışlar. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini top atəşinə tutmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan "İsmayiliyə" binasına od vurmuşdular.

Qırğınlar zamanı Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8 min nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdur. 1918-1920-ci illərdə Azərbaycanda ən ağır faciələrlə üzləşən, ən dəhşətli qətliamlara məruz qalan bölgələrimizdən biri də qədim Azərbaycan torpağı olan Zəngəzur mahalı və əhalisi olmuşdur. Azərbaycan Respublikası Dövlət Arxivinin məlumatlarında, rəsmi sənədlərdə, şahidlərin ifadələrində deyilir ki, erməni terror birləşmələri Zəngəzur qəzasında 115 Azərbaycan kəndini başdan-başa yandırıb külə döndərmişlər. Nəticədə təkcə Zəngəzur qəzasında 10068 nəfər günahsız soydaşımız öldürülmüş, əyalətdəki bütün milli mədəniyyət abidələri yerlə-yeksan edilmişdir.

Arsen Əmiryan adlı bir erməni jurnalisti "Bakinski raboçi" qəzetinin 1918-ci il 28 may nömrəsində dərc olunmuş məqaləsində öz qan qardaşlarının cinayətləri haqqında yazırdı: "Daşnaklar İrəvan quberniyasında 200 müsəlman kəndini dağıdıb yerlə-yeksan etmişlər. Camaat evsiz-eşiksiz və çörəksiz qalıb. Hazırda Zəngəzur bölgəsində qırğınlar və qətl-qarətlər davam edir. Daşnaklar müsəlman kəndlilərini bax beləcə qırırlar".

Bunu ermənilər özləri etiraf edirlər. Azərbaycanın bir çox yerlərində 1918-ci ilin martında törədilmiş görünməmiş soyqırımı aktlarının qanlı izləri - kütləvi insan məzarlıqları mövcuddur. Qubadakı kütləvi məzarlıq buna əyani sübutdur. 1918-1920-ci illərdə Azərbaycanın yüzlərlə şəhər və kəndi, o cümlədən Qarabağın dağlıq və dağətəyi hissəsində azərbaycanlıların yaşadığı 150-yə yaxın kənd xarabalığa çevrilmiş, 50 mindən çox soydaşımız qətlə yetirilmişdir. 1919-cu il iyulun 12-də həm Azərbaycanın xarici işlər naziri, həm də Gürcüstandakı nümayəndəsi ermənilərin törətdiyi bütün bu cinayətkar aksiyalarla əlaqədar Qafqazdakı Britaniya ordusunun komandanına etiraz notası göndərmişdilər. Sənəddə Ermənistan hökumətinin azərbaycanlılara qarşı kütləvi qırğın siyasəti haqqında kəskin narazılıq ifadə edilir və Britaniya ordusuna qırğınların təcili surətdə dayandırılması üçün Ermənistana təzyiq göstərməsi vurğulanırdı. Ancaq təəssüflər olsun ki, ingilislər sözdə ermənilərin ərazi iddialarına qarşı etirazlarını bildirsələr də, əslində, heç bir əməli tədbir görmədilər.

Neçə-neçə nəsillərimiz həm tarixi ədalət, həm də tarixi həqiqətləri bərpa etmək uğrunda mübarizə aparıblar. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cumhuriyyəti bu yöndə mühüm addımlar atsa da, istintaq komissiyası yaratsa da, 1920-ci ildə Vətənimiz sovet ordusu tərəfindən işğal olunduğundan bu işi başa çatdıra bilmədi.

Ermənilərin xalqımıza qarşı yürütdüyü terror, etnik təmizləmə və soyqrımı siyasətinin arxasında, qeyd etdiyimiz kimi, həmişə çox məkrli, insanlıq anlayışı ilə bir yerə sığmayan iyrənc planlar durmuşdu. 1890-cı ildə Tiflisdə ermənilər özlərinin indiyə qədər fəaliyyət göstərən "Daşnaksütyun" partiyasını yaratmışlar. Azərbaycan, Gürcüstan və Türkiyə ərazisində öz qondarma dövlətini yaratmaq məqsədini qarşya qoyan terror təşkilatına

"Qnçaq" və "Erməni vətənpərvərlər ittifaqı" kimi digər siyasi terror təşkilatları da yaxından dəstək vermişdilər. Adı çəkilən təşkilatlar zaman-zaman azərbaycanlılara qarşı soyqırımı aktları həyata keçirmişlər.

Siyasi terror təşkilatı olan "Daşnaksütyun" partiyasının üzvləri azərbaycanlılara qarşı xüsusi qəddarlıqları ilə seçilmişlər. Partiyanın ideoloqları 1905-1907, 1918-1920-ci illərdə Cənubi Qafqazda etnik təmizləmə və soyqırımı siyasəti yürütmüşlər. Erməni daşnakları tərəfindən kütləvi surətdə qətllərə məruz qalan və ata-baba yurdlarından qovulmuş azərbaycanlılar bu illərdə çox böyük məhrumiyyətlərə düçar olmuşlar.

Tarixi həqiqətlər təsdiqləyir ki, erməni-quldur dəstələri 1905-1907-ci illərdə Bakıda, Tiflisdə, İrəvanda, Gəncədə, Qarabağda, Zəngəzurda azərbaycanlılara qarşı kütləvi şəkildə soyqırımı aktı həyata keçirmişlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi dağıdılmışdır. Bu bədnam siyasət sonrakı dövrlərdə də ardıcıl olaraq həyata keçirilmişdir.

1918-ci il mart qırğınları, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları və deportasiya ilə bağlı məsələyə ilk siyasi-hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verildi. Ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman bu baxımdan mühüm əhəmiyyətli sənəddir. Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından proqram xarakterli həmin sənədin böyük əhəmiyyəti var. Bu tarixi sənəddə hər il martın 31-nin Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilməsi əksini tapmışdır. Ulu öndər Azərbaycan tarixində ilk dəfə olaraq dəqiq faktlar əsasında erməni məkrini bütün dünya qarşısında ifşa hədəfinə çevirdi.

Fərmanda ermənilərin azərbaycanlılara qarşı təcavüzünün tarixi köklərinə toxunulmuş və onların mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti əksini tapmışdır. Fərmanda deyilir: "Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşında əbədi əks olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük hissəsini xarabazarlığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər dağıdılmış, milli mədəni abidələr məhv edilmişdir".

Azərbaycanlıların öz dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi 1948-1953-cü illəri əhatə edir. Həmin vaxt Ermənistanda 400 minə yaxın azərbaycanlı yaşayırdı. Ermənistan ərazisində yaşayan azərbaycanlıların deportasiyası və etnik təmizləmə siyasəti nəticəsində 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından köçürüldü. Ulu öndərimiz Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası haqqında" Fərmanda deyilir: "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar". Beynəlxalq hüquqa görə, soyqırım ən ağır beynəlxalq cinayət olmaqla, təcavüz, insanlıq əleyhinə, müharibə və beynəlxalq terrorizm kimi sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Soyqırım cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş "Soyqrım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyaya görə, soyqrım hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən hərəkətlərdir. Soyqırım və insanlıq əleyhinə cinayətin tərkibini təşkil edən və bu sənəddə göstərilən əməllərdən hər biri ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmişdir. Bunlardan yalnız biri belə hadisənın soyqırımı kimi qiymətləndirilməsi üçün kifayət edir. Bu kriteriyalar baxımından, 1918-ci ilin mart qırğınları, eləcə də Xocalı faciəsi məhz soyqırımı cinayəti kimi qiymətləndirilməlidir.

XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin növbəti mərhələsi idi. Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən Xocalını yer üzündən birdəfəlik silmək idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir zamana qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrinin məhv edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı, dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır. Xocalı soyqırımı zamanı 613 nəfər öldürüldü. Bu soyqrım nəticə etibarı ilə Dağlıq Qarabağın və ətraf 7 rayonun işğlına gətirib çıxardı.

Azərbaycanlılara qarşı soyqırımı siyasəti erməni millətçiləri tərəfindən uzun illər boyu planlı və məqsədyönlü surətdə həyata keçirilib. Halbuki beynəlxalq hüquq normalarına, BMT-nin və Avropa İttifaqının prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal edilmiş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ də yerinə yetirmir.

Ölkəmiz son illər çox sürətlə, hərtərəfli inkişaf edir. Regionun lider dövlətinə çevrilən Azərbaycanın qarşısında duran yeganə problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bu məsələdə ölkəmizin mövqeyi həmişə konstruktiv olub . Bunun əksinə olaraq, Ermənistan öz təcavüzkar siyasətini yeritməkdə, Azərbaycan torpaqlarını hələ də işğal altında saxlamaqdadır. Bütün dünyaya məlumdur ki, sülh danışıqları məhz Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən heç bir nəticə vermir. Təcavüzkar Ermənistan BMT-nin məlum qətnamələrini, beynəlxalq təşkilatların təkliflərini də qulaq ardına vurur və bununla da bütün dünyaya meydan oxuyur. Artıq BMT də, Avropa Şurası da Ermənistanı rəsmi şəkildə təcavüzkar dövlət kimi tanıyıb. Bununla belə, beynəlxalq təşkilatların reallığı, ədaləti, beynəlxalq hüquq norma və prinsiplərini əks etdirən qərarları, qətnamələri icra olunmur.

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, biz bu vəziyyətlə, torpaqlarımızın itirilməsi ilə heç vaxt barışa bilmərik: "Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına heç vaxt icazə verməri̇k və bu, danışıqlar mövzusu deyildir... Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və eyni zamanda, tarixi, hüquqi, siyasi baxımdan, bütün başqa tərəflərdən də bu belədir. Ona görə danışıqlar predmeti yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası olmalıdır. Bölgədə yaşayan bütün xalqların təhlükəsizliyinin təmin edilməsi olmalıdır. Bundan kənarda heç bir razılaşma mümkün deyildir".

Erməni liderlərinin tarixi saxtalaşdırmaq, beynəlxalq ictimaiyyəti yeni uydurma və yalanlarla çaşdırmaq cəhdlərinin elmi dəlillərlə ifşa edilməsində Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin çox böyük xidmətləri var. Akademik Ramiz Mehdiyev "Gorus-2010: Absurd Teatrı mövsümü" kitabında Ermənistan dövlətinin əzəli Azərbaycan torpaqlarında yaradıldığını tarixi faktlarla diqqətə çatdırıb, erməni ideoloqlarının "yeni tədqiqatlarına" elmi dəlillərlə tutarlı cavab verərək həmin "arqumentlərin" əsassızlığını sübuta yetirib.

Bu qiymətli əsərdə sübut olunur ki, hazırda Ermənistan Respublikasının yerləşdiyi ərazi bütün tarixi dövrlərdə Azərbaycan dövlətlərinə məxsus olub, bu torpaqların ən qədim yerli əhalisi, aborigen sahibləri də azərbaycanlılardır: "Ermənistanda hətta ən yeni, lap yaxın keçmişdəki, bu gün yaşayan nəslin şahidi olduğu tarixi faktları danmaqdan, xronologiyanı təhrif etməkdən, səbəb və nəticənin yerlərini dəyişməkdən utanmırlar... Ermənistanda ümid edirlər ki, tarixi primitiv şəkildə saxtalaşdırıb beynəlxalq təşkilatlara Dağlıq Qarabağın, guya, erməni torpağı olduğunu "sübut" etməklə onu özlərinə birləşdirməyə nail olacaqlar. S.Sarkisyan və tarixi saxtalaşdırmaq üzrə laboratoriyadan olan erməni "intellektualları" çoxdan bilməli idilər ki, tarixi proses irəliyə doğru hərəkət edir, geriyə yox".

Azərbaycanda son illər qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması istiqamətində çox böyük işlər görülüb. Çadır şəhərcikləri ləğv edilərək əvəzində ən müasir qəsəbələr salınıb. Baş nazirin müavini, Qaçqınların və Məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bununla əlaqədar deyib: "Ümumiyyətlə münaqişə dövründə - son 20 ildə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə 3,7 milyard manat və ya 4,6 milyard ABŞ dolları məbləğində vəsait sərf olunmuşdur. Bunun 2,7 milyard ABŞ dolları dövlət büdcəsinin, 1 milyardı Dövlət Neft Fondunun və 900 milyonu isə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatlarının vəsaitidir. O cümlədən, 2011-ci iidə 500 milyon ABŞ dolları məbləğində vəsait xərclənmişdir. Həmin vəsaitin 295 milyonu büdcə, 175 milyonu Dövlət Neft Fondunun və 30 milyonu isə beynəlxalq humanitar təşkilatlarının vəsaitidir. Bu vəsaitin 60 faizi son 8 ildə istifadə olunmuşdur".

İndiyədək 70 müasir, bütün sosial-texniki infrastruktura malik qəsəbələr salınmış, 22 min ailənin, 120 min nəfərədək qaçqın və məcburi köçkünün mənzil -məişət şəraiti yaxşılaşdırılmışdır. Bu sahə üzrə bir Dövlət Proqramı və ona iki əlavə qəbul edilmiş, ümumilikdə 45 fərman və sərəncam imzalanmış, Nazirlər Kabineti 141 qərar və sərəncam, Milli Məclis isə 9 qanun qəbul etmişdir.

1918-ci ilin mart soyqırımından 94 il keçir, lakin ermənilərin törətdikləri bu dəhşətləri unutmaq qeyri-mümkündür. Beynəlxalq terrorizmə qarşı mübarizəni qarşısına məqsəd qoyan dünya ictimaiyyəti, nəhayət, Azərbaycan xalqının başına gətirilən bu zorakılıqlara obyektiv siyasi-hüquqi qiymət verməli, cinayətkarlar öz layiqli cəzasını almalıdırlar. Bu istiqamətdə dövlət səviyyəsində çox böyük işlər həyata keçirilir, Azərbaycan diasporu güclənir.

Möhtərəm Prezidentimiz İlham Əliyev 31 Mart Azərbaycanlıların Soyqırımı Günü münasibətilə xalqımıza müraciətində demişdir: "Xalqımızın vətənpərvərliyi, birliyi və həmrəyliyi, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində qarşımıza qoyduğumuz bütün məqsədlərə, o cümlədən ərazi bütövlüyümüzün və

suverenliyimizin bərpasına, soyqırımı həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salanların ifşasına nail olacağıq".

**Məhərrəm MƏMMƏDOV,**
**politoloq-ekspert**

**"Xalq qəzeti".-**2012.-28 mart.-N 65.-S.5.

**İmperiyanın Birinci Dövlət Dumasındakı Şamaxı izi…**

**(1918-ci il Şamaxı qırğınlarında ermənilər tərəfdən qətlə yetirilən ilk azərbaycanlı deputat Məhəmmədtağı Hacı Əbdülsəməd oğlu Əliyev haqqında məlum olmayan həqiqətlər)**

**Mən bu yerlərdəki qədim daş parçalardan hansı birindəsə, neçə illər öncə laxtalanıb qalmış bir damcı qan izi üçün gəlmişdim. Tarixə çevrilmiş bu daşların sinəsində gizlənmiş həmin qan ləkəsini "oxumaq" istəyirdim. Çünki bəlkə də bu mənim üçün hələ çoxlarının eşidə bilmədiyi "faciə simfoniyası" idi, başlanğıcı idi. Mənim imkanım olsaydı, tarixi hadisəni bu qan damcısı ilə başlardım. 1918-ci il mart qırğınlarında Şamaxının altını üstünə çevirən, erməni Stepan Lalayanın "Döyüş mirzələri"ndən olan Baxçaçiyan həmin vaxt yazırdı: "…Lalayanın əsgərləri onu döyə-döyə meydanın ortasına sürüdülər. Sonra onu ağaca bağlayıb, başına saxsı bir vedrə keçirtdilər… Qəhrəmanım Stepan günlüklü şapkasını başına qoyub, yaxın gəldi. Diqqətlə ağaca bağlanmış adama baxdı. Hə, cənab deputat —dedi, —erməni millətini söymək olmaz. Sən isə söyürdün. Gah Kremldə, gah Fransada, gah Almaniyada dişinin dibindən çıxanı ünvanımıza dedin… İndi buyur, danış. Bizim nəyimiz pisdir?.. Camaat, əsgərlərim səni gözləyir. De ki, mən də erməniyəm, sizlərdənəm. Allahıma, Quranına and olsun, mən deyənləri de, səni buraxım… Deputat isə bizim millətə lənət yağdırırdı… Güllə açıldı. Ətrafa qan damcıları çiləndi… O isə can vermirdi. Yaralı canını dişinə tutub, yaşamaq istəyirdi…" Bax, mən bu yerlərə hardasa bir parça torpağa baş qoyan, daşların, ağacların sinəsində gizlənib qalan… yol gözləyən bir damcı quruyub qalmış, yüz ilin şaxtasına, qarına dözüb qalan bir damcı qan üçün gəlmişdim. Amma hələ də tapa bilmirdim.**

Mən onun sorağında Şirvan elini başdan-başa gəzib dolandım. Qədimqəbristanlıqlarda bir böyrü üstə düşüb qalan, böyür-başını yosun tutan sinə daşlarınadək, nəzərdən düşən, ətrafını kol-kos bürüyən qəbirlərə, uçulub dağılmış, gediş-gəlişi olmadığı üçün ot-ələf basmış cığırlardan keçdim…

…Əliyev (zadə) Məhəmmədtağı Hacı Əbdülsəməd oğlu 1858-ci ilin yanvar ayının 10-da Şamaxıda, kənd müəllimi ailəsində anadan olub. İctimai-siyasi xadim, iqtisadçı alim, publisist kimi fəaliyyət göstərib. Birinci Dövlət Dumasına (1906) Azərbaycandan seçilən ilk deputat kimi tanınıb. 1918-ci ilin martın 20-də Şamaxıda erməni quldur dəstələrinin başçısı Stepan Lalayan tərəfindən qəddarcasına öldürülüb, ailəsinə divan tutulub.

Araşdırma materiallarına görə ilk təhsilini Şamaxı məhəllə məktəbində alıb, Sonra atası onu Tiflisə aparıb. Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdindəki altı illik məktəbdə təhsilini davam etdirib (1868-1874). Tiflisdən qayıtdıqdan sonra, təhsilini Bakı realnı məktəbində davam etdirir (1874-1878). O vaxt realnı məktəbdə dərs deyən, ixtisasca iqtisadi məsələləri araşdıran Boris Eynşteynin təşəbbüsü ilə, Moskvaya oxumağa göndərilir… O, Petrovsk-Razumovsk kənd təsərrüfatı və meşəçilik akademiyasının iqtisadiyyat fakültəsini bitirdi. Akademiyanın o vaxtkı rəhbərlərindən olan professor Dmitri İvanoviç Aleksandrov onun haqqında Çar Rusiyasının "siyasi şöbəsinin" sorğusuna 1879-cu ildə verdiyi məlumatda yazırdı:

"…Sizin maraqlandığınız tələbəmiz, milliyətcə türk olan Azərbaycandan gəlmiş Məmməd Əliyev Əbdülsəməd oğlu çox istedadlı, vicdanlı və ədalətli insandır. O, çalışqan bir tələbə olmaqla yanaşı, Akademiyanın işlərində bizə yaxından köməklik göstərir. Onun ciddi iqtisadi layihələri var və bu layihələr, şübhə etmirəm ki, Rusiya üçün çox əhəmiyyətlidir…"

Məlumata görə, həmin iqtisadi layihələrin birində Məhəmmədtağı Əlizadə qeyd edirdi: "…Mən sadəcə təhlillərimin nəticələrini anlatmaq fikrindəyəm. Yer üzündə nə qədər insan yaşayışı varsa, orada həmişə iqtisadi böhran ola bilər və heç bir dövlət bu böhrandan kənarda qala bilməz… Təkliflərimdən biri belədir ki, çaylar və dənizlər, göllər arasında iqtisadi körpülər qurulsun. Məsələn Xəzər dənizini Qaradənizlə, Aralıq dənizilə birləşdirmək mümkündür. Ümumiyyətlə, üç dənizi birləşdirmək mümkündür. Belə olarsa üç dəniz arxasında yaşayan Avropa, Asiya camaatı gələcək iqtisadi fəlakətlərdən azad olmuş olarlar…"

İrəli sürülən təkliflər həm dövr üçün, həm içtimai-siyasi mühiti getdikcə mürəkkəbləşən Rusiya üçün çox vacib bir məsələ idi. Nəticədə 1880-ci ilin aprelin 14-də Çar Rusiyasının İqtisadi məsələlər üzrə məxfi idarəyə (İqtisadi Kəşfiyyat İdarəsi) dəvət alır. Bu vaxt ona idarənin rəisi general O.D.Ponteleyevin təklifini çatdırırlar. Akademiyanı yenicə bitirən Məmməd Əliyev Çar Rusiyasının Avropa ölkələri üzrə iqtisadi əlaqələrinin kəşfiyyat və məxfilik prinsipləri nöqteyi-nəzərindən yenidən qurulması layihəsini təklif edir. Çünki həmin vaxt dünyanın iqtisadi siyasətində Rusiya qədər çətin vəziyyətdə qalan ikinci dövlət yox idi.

İqrisadi böhran Rusiyanı sarsıdırdı. Məlumata görə, hər il ölkədən təqribən 50-100 ton dəyərində qızıl və digər qiymətli metal məmulatları, aşkarlanmamış brilyant daşları qeyri-qanuni aparılır, orduda və elmdə kəşf olunmuş və istehsalı nəzərdə tutulan qiymətli preparatların və silahların layihələri, sxemləri oğurlanırdı. Bütün bunlara qarşı Məmməd Əliyev tərəfindən verilən təkliflər həmişə öz bəhrəsini verirdi. 1881-ci ilin fevralında M.Əliyev ideyalarını, fikir və düşüncələrini, iqtisadi bilik və bacarığını təkmilləşdirmək üçün Avropaya

göndərilir. Fransa və Almaniyada çalışır. Həmin ölkələrin İqtisadi Akademiyalarında dərs deyir, araşdırmalarını aparır, Rusiya-Fransa, Rusiya-Almaniya iqtisadi münasibətlərin inkişafında xidmət göstərir.

Fikrimcə o, bu vaxt çox qəribə bir taleyi yaşayırdı. Bir vaxt onun doğulub, boya-başa çatdığı Şamaxının ziyarətinə Fransadan məşhur yazıçı, filosof (ata) Aleksandr Düma gəlmişdi. Məşhur A.Düma Şamaxıya 1858-ci ilin noyabrın 11-də gəlmişdi. Bununla bağlı A.Düma yazırdı: "…Biz Şamaxı bazarında gəzərkən çoxlu fransız dilində danışan adam gördük. Bu bizə çox xoş təsir bağışladı. Bildik ki, bu şəhər təkcə Şirvanda deyil, bütün Qafqazda məşhurdur…" Və yaxud 1636-cı ildə məşhur Almaniyalı səyyah, alim-tədqiqatçı Adam Olsari Şamaxı haqqında yazırdı: "…Şamaxıda hər addımda müdrik və ağıllı adam görürdük. Adamlar… onlara çörək verənin əlindən iki əlli yapışır… Şamaxının belə olması, məni heyrətləndirdi".

M.Əliyev indi həmin dahilərin yurduna ezam olunmuşdu. Fransız, alman və rus dillərini mükəmməl bilən Şamaxılı Məhəmmədtağı Əliyev bu dəfə dahilərin—A.Dümanın və A.Olsarinin vətənlərini gəzirdi. İndi söz və təəssürat onunki idi. Həmin vaxt Parisdə nəşr olunan "İqtisadiyyat və Maliyyə Agentliyi" ("Agence Economigue et financiere") bülleteni belə bir xəbər verirdi: "…Fransanın şəhər və yaşayış məntəqələrini iqtisadi böhran bürüməkdədir. Parisdə dünyanın tanınmış iqtisadçılarından ibarət "Beynəlxalq İqtisad qrupu" yaranıb… Dünən Rusiyadan gəlmiş akademik iqtisadçı M.Əliyevin fikirləri bəyənilib…"!

Araşdırma materiallarına görə, M.Əliyev üç ay Strasburqda (Fransa) vaxtilə Bakıdan köçüb gedən erməni zərgəri, Stanislav Ter-Akopyanın evində yaşayır. "Strasburqa yardım komissiyası"na başçılıq edən qrupda Rusiya nümayəndəsi kimi çalışır. Lakin həmin ilin iyulun 13-də Rusiya "Məxfi İqtisadi məsələlər idarəsi" erməni S.Ter-Akopyandan məktub alır. General Ponteleyevə ünvanlanan həmin məktubda erməni yazırdı: "Cənab General! Sizin əmrinizdən çıxa bilmədim. Göndərdiyiniz Əliyev burda Rusiyanın mənafelərindən çox, doğulduğu Şamaxının mənafelərinə xidmət edir. Rusiya İmperatorluğu onun xoşuna gəlmir. Rus millətinə qarşı fikirləri dumanlıdır…"

Lakin araşdırmalar göstərir ki, həmin ildə azərbaycanlı akademik M.Əliyev Strasburqun "Seçilmiş adamları siyahısı"na daxil edilmişdi. Bütün bunlara baxmayaraq, Rusiya M.Əliyevi iqtisad qrupundan çıxarıb, onu Almaniyaya göndərir. Həmin vaxt M.Əliyevin fransız dilində "Fransanın əraziləri arasında iqtisadi əlaqələrə dair fikirlər" kitabı çap olunur. Paris İqtisadi Akademiyasında müzakirəsi nəzərdə tutulan həmin əsərlə bağlı yığıncaq təxirə salınır. Nəticədə M.Əliyev Fransa ilə vidalaşmalı olur… Sonra Almaniyanın İqtisad Akademiyasında məruzələr oxuyur. Yüksək intellekt səviyyəsi olan, bilik və bacarığına görə sayılıb-seçilən M.Əliyev yenidən Rusiyaya çağırılır və bu vaxt ona ölkənin maliyyə nazirinin müavini vəzifəsi tapşırılır. O vaxt Rusiya İmperiyasının Maliyyə Naziri S.Rixten şamaxılı M.Əliyev haqqında həmişə yüksək fikirlər söyləsə də, onun yenilik yaradan iqtisadi-analitik təhlilərini ya qəbul etmirdi, ya da bütün bunlara şübhə ilə yanaşırdı. 1888-ci ildə M.Əliyev istefa verərək Azərbaycana qayıdır…

Bir müddət müsəlman dünyasının ziyarətinə çıxır. Avropanın ən güclü ölkələrini keçib gələn M.Əliyev İran, İraq, Türkiyə, Səudiyyə Ərəbistanı, Misir, Küveyt, Suriya, Əfqanıstan, Pakistan, Hindistan… kimi qədim yerləri gəzir. Həmin ərazilərdə bir sıra dəyərli və diqqəti cəlb edən elmi-iqtisadi kitablar və məqalələr yazıb, çap etdirir. Bu vaxt dünya miqyaslı elmi araşdırmalar aparan akademik M.Əliyev iqtisadi məsələlərlə bağlı səkkiz kitabın müəllifi idi. Amma tale onu yenidən Rusiyaya çağırırdı. Dünyanın göz dikdiyi ən böyük kürsülərdə söz demək üçün bəxti onu yenidən Rusiyaya gətirdi…

M.Əliyev 1906-cı ildə Şamaxıdan, Rusiyanın 1-ci Dövlət Dumasına deputat seçilir. O, Şamaxıdan Rusiya Dövlət Dumasına seçilən ilk azərbaycanlı deputat idi. Bu onun həyatında yeni bir ictimai-siyasi səhifə açmışdı. O özünün yeni həyat salnaməsini yazırdı. Amma bu taleyinin son səhifələrindən xəbərsiz idi. Rus İmperiyasının başında dayanan çar II Nikolay üçün Qafqaz, xüsusən Azərbaycan çox incə və həssas bir məsələ idi.

1905-ci il dekabrın 11-də Rusiyada Dövlət Dumasına seçkilər haqqında yeni qanun nəşr olundu. Seçki hüquqlarının genişləndiyini bəyan edən bu qanun fəhlələrə qismən, kəndlilərə cüzi seçki hüquqları verilməsini nəzərdə tuturdu.

Azərbaycan quberniyaları da Dövlət Dumasında təmsil olunmaq hüququ qazandı. 1906-cı il aprelin 27-də açılmış I Dövlət Duması fəaliyyətə başladı.

Dumada təmsil olunmuş ən müxalifətçi siyasi qurum kadetlər partiyası idi. Onlar fəal seçkiqabağı təşviqat aparmaq və əhalinin əksər təbəqələrinin mənafeyini mövcud şəraitdə dolğun əks etdirən öz platformalarını geniş təbliğ etmək hesabına seçkilərdə qalib gəlmişdilər. Onlar "Rusiyanın birliyinə və bölünməzliyi"nə yalnız tərəfdar olduqlarını söyləmir, həm də ona nail olmaq yollarını hər vasitə ilə asanlaşdırmağa çalışırdılar. Hökuməti buna güclə nail olmaqda təqsirləndirən kadetlər bildirirdilər ki, "süngülər və güllələrlə Rusiyanın birliyinə nail olmaq olmaz" və "hər bir tabe xalqın adət-ənənələri, dili və dininə" hörmət bəyan edilməlidir. Daha sonra bu partiya seçiciləri inandırırdı ki, o, özünəməxsus milli həyat keçirən bütün yerlərdə geniş özünüidarənin, muxtar quruluşun, "ümumi, pulsuz, məcburi təhsilin" və s. tərəfdarıdır. Bütün bunlar müsəlman ucqarlarında, o cümlədən də Azərbaycanda bütün yuxarı sosial təbəqə nümayəndələri üçün kifayət qədər cəlbedici idi.

Amma bütün bunlarla yanaşı, Şamaxı səksəkə içində idi. Hər gün bir ailədən ən azı iki-üç adam erməni gülləsinə tuş gəlirdi.

Rusiya Dövlət Dumasına seçilən Məhəmmədtağı Əliyev deputat səlahiyyətindən istifadə edərək, Duma kürsüsündən ilk müraciətini edir. O, Duma kürsüsündən ermənilərə silahı yerə qoymağı, insanlığa və vicdana yaraşmayan ləyaqətsiz işlərdən əl çəkməyi, Azərbaycan torpaqlarında onlara yaradılmış əvəzsiz şəraitdən istifadə edərək sülh və əmin-amanlıq içində yaşamağa çağırırdı.

Ermənilər isə öz anti-Azərbaycan tədbirlərini genişləndirməkdə davam edirdilər. Erməni deputatı S.M.Davidyan 1906-cı ilin martın 4-də Azərbaycanlı deputat M.Əliyevə xəbərdarlıq məktubu göndərir, onu çıxışlarından əl çəkməyə çağırır. Dumanın sədrindən tələb edir ki, Yelizavetpol (Gəncə) quberniyasının "siyasi idarəsi"nin əməkdaşı Madlen Qriqoriyeviçi dinləsinlər.

Madlen Qriqoriyeviç çar Rusiyasında, sərhəd qoşunları komandanlığında çalışan general O.D.Ambartsumovun qardaşı qızı ilə ailə qurmuşdu. Maraqlı idi ki, Dumanın sədri Paşkov Madlen Qriqoriyeviçə arayışı oxumağa imkan yaradır. Dumada oxunan arayışdan sonra, mayın 5-dən, 6-na keçən gecə Şamaxıda iki ruhani ailəsinə sui-qəsd edilir. Həmin ailələrdən biri Kərbəlayi Əhmədağa Əli oğlu məhz, deputat Məhəmmədtağı Əliyevin əmisi idi.

Araşdırma materiallarına görə, M.Əliyev, Qafqazda baş verən əsl həqiqətləri II Nikolaya, dostu, İqtisadi Kəşfiyyat İdarəsinin başçısı olmuş, sonradan İmperatorun dəftərxanasında səlahiyyət sahibi olan Oleq Ponteleyevin yardımı ilə çatdırmağa müvəffəq olur. Ondan cəmi iki gün sonra Dumanın sədri Paşkov öz səlahiyyətlərindən uzaqlaşdırılır və "…hərəkətləri nəzarətə götürülür…" Bütün məsələlərin içərisində ən dəyərli məlumat bu idi ki, general O.Ponteleyev keçmiş dostuna —M.Əliyevə "…nəyin bahasına olursa-olsun onu — Dövlət Dumasının azərbaycanlı nümayəndəsini İmperator II Nikolayla görüşdürməyi söz vermişdi…" Bu dövrü və zamanı üçün, milli maraqlar baxımından çox vacib və gərəkli bir məsələ idi. Lakin bu təşəbbüs baş tutmadı. 1906-cı ilin mayın 14-də general O.Ponteleyev öz iş otağında… şərabdan zəhərlənib öldürüldü.

Birinci Dövlət Duması az yaşadı. Lakin Azərbaycan tərəfi məhdud vaxtdan istifadə edərək, dünyanın aparıcı dövlətlərinin Moskvadakı diplomatik korpuslarına, beynəlxalq cəmiyyət və təşkilatlara xatırlatdılar ki, Azərbaycan Qafqazda ən güclü və nüfuzlu ərazidir. Onun müharibə ilə, qırğınlarla, terror və basqınlarla heç bir işi yoxdur… Birinci Dövlət Duması buraxıldıqdan sonra Məhəmmədtağı Əliyevin dostları məsləhət bilirlər ki, Moskvada qalsın, akademik kimi iqtisadi-elmi araşdırmalarını davam etdirsin. O isə qalmadı. Yenidən Şamaxıya qayıtdı.

Akademik M.Əliyev bilirdi ki, ermənilər günü-gündən öz qanlı fəaliyyətlərini genişləndirməkdə davam edəcəklər. Əlavə olaraq Şamaxıya 36 erməni ailəsi köçürülmüşdü. İlkin məlumata görə, bu ailələr İrandan gəlmiş ermənilərdi… Onu da bilirdi ki, bu köçürmələrin önündə və arxasında Rus İmperiyasında bu işlərə məsul olan İnsaf Sarıcanyan adlı birisnin qrupu idi. Gələn erməni ailələrinə ən yaxşı torpaq sahələri verilir, işlə, yemək və geyimlə təmin olunurdular…

Rusiyada 1917-ci ilin fevralında baş verən ictimai-siyasi hadisələr Azərbaycana həm iqtisadi, həm mənəvi-psixoloji, həm də ictimai-siyasi cəhətdən təsir etdi, Azərbaycanın, demək olar ki, bütün yaşayış məntəqələrində həyat öz axarından çıxdı. Fevral inqilabından sonra dostları akademik M.Əliyevə xəbər göndərmişdilər ki, Moskvada Azərbaycan üçün böyük bir bəlanın planı hazırlanır. Məsləhət görürdülər ki, Moskvaya qayıtsın. Amma akademik öz doğulduğu, boya-başa çatdığı Şamaxıdan çıxmadı, o, baş verə biləcək böyük qanlı qırğınların ilk işartısını görürdü. Bu qırğınların körüyünü basan əllər isə görünmürdü. Dirijor artıq öz çubuğunu qaldırmışdı. Və bu gözə görünməz dirijor çubuğu altında ermənilər açıq-aşkar hücuma keçirdilər. Onlar Şamaxının ayrı-ayrı məhəllələrində yığıncaqlar düzəldir, şəhərdəki ziyalı ailələrinə gözlənilməz hücumlar edirdilər. Martın 19-dan 20-nə keçən gecə isə Şamaxıda erməni Rum İsakoviç qonşusu dəmirçi Əlibala Quluzadənin iki qızını ov tüfəngilə vurub öldürdü… Artıq hər şey göz qabağında idi.

1917-ci il fevralın 13-də fransız iqtisadçı alimi Jak De Paskual adlı birisi Şamaxıya gəlir, M.Əliyevi Fransaya aparmaq üçün rəsmi qaydada dəvətli olduğunu bildirir. Xatırladaq ki, alim Jak De Paskual Məhəmmədtağı Əliyevin Parisdə nəşr olunmuş "Dünya iqtisadiyyatındakı böhran və onun səbəblərinin araşdırılması" kitabının redaktoru olub.

Vətənindən ayrıla bilməyən M.Əliyev Fransaya getmək üçün aldığı dəvətdən imtina edir. Şamaxıda qalmağı, yaşamağı və ölməyi hər şeydən üstün tutur. 1918-ci ilin yanvarın 10-da onun ad gününü təbrik etməyə gələn, el-obada Şeyx Şamaxı kimi tanınan din xadimi Şeyx Məcid Axundoğlundan xahiş edir ki, Şamaxıda "…qanı coşan azərbaycanlı balalardan ibarət" bir döyüş dəstələri yaratsın. Başqa xilas yolu görünmədiyindən Şeyx bu təklifi qəbul edir…

Ad günündən heç bir ay ötməmiş, toplu-tüfəngli ermənilər Şamaxıya soxuldular. Bu, qəfil hücum idi… Hər yer od tutub, yanırdı. Kimisi qaçır, kimisi əldə-ayaqda qalan uşağını axtarır, kimisi evinə düşən alovu söndürməyə cəhd edir, kimisi də aldığı güllə yarasından can verirdi…

Şamaxı yanırdı. O, can üstündə idi. Erməni quldur dəstəsinə başçılıq edən Stepan Lalayanın əmrilə müsəlman ailələrinə divan tutulurdu. Yol-yolaq, dönüm-döngələr qana bələndi… Stepan Lalayanın "qəhrəmanlıqlarını" gələcək erməni nəsilləri üçün qələmə alan (?) bədnam erməni mirzəsi Baxçaçiyan yazır: "…əvvəlcə Stepan əmr etdi ki, Duma deputatı Məmməd Əliyev diz çöksün… O isə diz çökmədi. Stepanın işarəsilə birinci gülləni onun övladlarına vurdular. İki qızı öldürüldü. Böyük oğlu da güllələndi. Kiçik oğlu isə həmin vaxt tapılmadı… Lalayanın əsgərləri M.Əliyevi döyə-döyə meydanın ortasına sürüdülər. Sonra onu ağaca bağlayıb, başına saxsı bir vedrə keçirtdilər… Güllə açıldı. Ətrafa qan damcıları çiləndi…"

Araşdırma materiallarına görə, Şamaxını qan içində boğmağa çalışan, günahsız və silahsız insanlara qarşı qırğınlar törədən, dövlət xadimlərini terror edən "DRO" terror təşkilatının Bakı bürosunun üzvü Stepan Lalayan ingilis generalı Tomsonun əmrilə 1918-ci ilin noyabrın 21-də həbs olunur… tələm-tələsik mühakimə olaraq, Gəncə həbsxanasına göndərilir. Arxiv materiallarına görə S.Lalayan noyabrın 23-də Gəncə həbsxanasında ürək çatışmazlığından ölür.

Başqa bir arxiv materialında isə qeyd olunur ki, S.Lalayan noyabrın 27-də Gəncə həbsxanasından ingilis generalı Tomsonun məxfi planı əsasında qaçırılır, xaricə aparılır. Məlumatlara görə, S.Lalayan ingilis generalı Tomsona Şamaxıdan əldə etdiyi qızıl və başqa zinət əşyalarını, qədim Şamaxı xalçalarını "hədiyyə"edir.

Bəzi mənbələrə görə, general Tomsonun Şamaxıdan əldə etdiyi xəzinənin bir hissəsi Böyük Britaniyanın kral ailəsinə bağışlanıb.

Maraqlı məlumatlardan biri də budur ki, o vaxt Xorasanda vərəqə şəklində buraxılan "Ostan" qəzeti yazırdı: "Şamaxıda 1918-ci ildə ermənilər bizim tacirləri soyub taladılar, mallarını əllərindən alıb özlərini də öldürdülər. Həmçinin Misirin, Rusiyanın, Əfqanıstanın, Hindistanın və digər ərəb ölkələrindən gələn karvanlara da hücumlar edilirdi".

Qəzetdə Lalayanın ələ keçirdiyi qənimətlərdən də söhbət edilir. Qəzet yazır ki, ermənilər tərəfindən həmin vaxt Şamaxıya gələn ingilislərə, italyanlara, fransızlara 124 kiloqramdan artıq zərgərlik məmulatını, tonlarla qızıl külçələri, 2500 qədim xalça satıldı.

Lalayan Şamaxıda vaxtilə onların qonşuluğunda yaşayan Mahmudovlar, Talıbovlar, Həsənovlar ailəsini nəsillikcə qırıb məhv etdi. On bir yəhudi ailəsini isə öz evlərində, azərbaycanlı uşaqlarla bir yerdə diri-diri yandırdılar.

Bax, mən bu yerlərə ətrafa çilənmiş bir damcı qan üçün gəldim. Yüz ilin qanı üçün… Bu məğlubedilməz fikirlə də bu yerlərdən ayrılıram.

**Rövşən Novruzoğlu,**
**Siyasi elmlər üzrə**
**fəlsəfə doktoru,**
**professor**.

**"Respublika".-**2012.-28 mart.-N 65.-S.5.

**Azərbaycan xalqına qarşı soyqırımı**

**Azərbaycan xalqı zaman-zaman olmazın ədalətsizliklərlə qarşılaşmış, bədnam qonşularımız ermənilər tərəfindən soyqırımlarına məruz qalmışdır. Tarixi təhlil göstərir ki, XIX əsrin əvvəllərində, 1813-cü ildə Rusiya və İran arasında bağlanmış "Gülüstan" və Azərbaycanın ikiyə bölünməsini qəti təsdiq edən "Türkmənçay" müqaviləsi və onun ağır nəticələri, əslində, XIX əsrin əvvəllərində Azərbaycan xalqına qarşı soyqırım siyasətinin başlanğıcı idi.**

Ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanda deyildiyi kimi, 1813-cü və 1828-ci illərdə imzalanan "Gülüstan" və "Türkmənçay" müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqları hesabına yaradılmasına "bəraət" qazandırmaq məqsədilə erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm hissəsini təşkil edirdi…

**"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirirdilər.** Çar Rusiyasında baş vermiş 1917-ci il fevral burjua inqilabından sonra Zaqafqaziya Komissariatı yaradılır, lakin bu qurum yarım il formal mövcud olsa da, əslində, heç bir əməli fəaliyyət göstərə bilmir. Zaqafqaziya Komissariatı dağıldıqdan sonra mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün Seymin bütün müsəlman nümayəndələri Tiflisdə toplanır.

May ayının 28-də Tiflisdə keçmiş Qafqaz canişininin iqamətgahında doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli İslam Şurasının iclası keçirilir, Azərbaycanın istiqlaliyyəti haqqında Bəyannamə qəbul edilir və Şərqdə ilk demokratik respublika–Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı bəyan edilir, həmçinin, sonra Milli İslam Şurası bitərəf Fətəli xan Xoyski başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin ilk müvəqqəti hökumətini təşkil edir.

**Sovetlər Birliyi dövründə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin "nə üçün Bakıda fəaliyyət göstərməməsi" səbəbləri ictimaiyyətdən qəsdən gizlədilirdi. Təsadüfi deyildir ki, sovetlər dönəmində Azərbaycan Milli İslam Şurasının adından "İslam" sözü çıxarılmışdır.**

**Sovet tarix, hüquq və siyasi ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyətinin və onun hökumətinin demokratik mahiyyəti kommunist ideologiyasının tələblərinə müvafiq olaraq bilərəkdən təhrif edilmiş, hələ bu azmış kimi, ilk demokratik respublikanın tarixi barədə məlumatlar saxtalaşdırılmışdır.**

Lakin əsl həqiqət bundan ibarət idi ki, həmin vaxt Bakıda S.Şaumyan başda olmaqla Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan Bakı Xalq Komissarları Soveti fəaliyyət göstərirdi. S.Şaumyanın rəhbərliyi ilə 1918-ci ilin martında Bakıda, Şamaxıda, Qubada azərbaycanlılara qarşı törədilən qırğınlardan sonra Bakı kommunası azərbaycanlı əhali arasında öz nüfuzunu tamamilə itirmişdi. Onların hakimiyyəti Bakıdan kənara çıxa bilməmişdi. Azərbaycanın qəzalarında isə tam hakimiyyətsizlik və hərc-mərclik hökm sürürdü. Belə bir şəraitdə öz təsir dairəsini bütün Azərbaycan ərazisində yaymaq məqsədilə 1918-ci il iyunun 16-da Azərbaycan Milli İslam Şurası Tiflisdən Gəncəyə köçür.

1918-ci il martın 30-u, 31-i və aprelin 1-də ermənilər bolşevik Rusiyasının hərbi yardımı ilə Bakıda soyqırım törədərək 18 min müsəlmanı qətlə yetirmişdilər. Məqsəd Bakını ələ keçirməkdən, onun neft sərvətinə sahib çıxmaqdan ibarət idi. Həmin ilin aprel-may aylarında ermənilər Şamaxıda, Qubada, Xaçmazda, Ağsuda, Kürdəmirdə, Salyanda, Lənkəranda kütləvi qırğınlar törətmiş, 50 mindən artıq soydaşımızı vəhşi üsullarla qətlə yetirmişdilər. Qırğınlar İrəvan quberniyası ərazisində, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Qars vilyətində daha amansız şəkildə davam etdirilmişdi. Şamaxı qəzasında 58, Quba qəzasında 112, Gəncə (Yelizavetpol) quberniyasında 272 (o cümlədən Zəngəzurda 115, Qarabağda 157), İrəvan quberniyasında 211, Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyona yaxın əhali öz tarixi-etnik torpaqlarından didərgin salınmışdır.

**Yalnız Nuru Paşanın komandan olduğu Qafqaz İslam Ordusu 15 sentyabr 1918-ci ildə Bakını ermənilərdən təmizlədikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin Müvəqqəti hökuməti 17 sentyabr 1918-ci ildə Gəncədən Bakıya köçür və Bakı paytaxt elan olunur.**

Zaqafqaziyanın zorla sovetləşdirilməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər.

Sonrakı dövrdə bu ərazilərdəki deportasiya siyasətini daha da genişləndirmək məqsədilə ən çirkin vasitələrə əl atdılar.

**Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə soyqırım və deportasiya siyasəti nəticəsində azərbaycanlılar min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.**

1947-ci il dekabrın 23-də İ.Stalinin imzaladığı "Ermənistan SSR ərazisindən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı qəbul edilir. **Müharibədən təzəcə çıxmış ölkədə belə bir köçürmə zərurəti nədən yaranmışdır? Adətən, hökumətin mühüm məsələyə dair qərarlarının preambulasında bu qərarın qəbul edilməsinin zəruriliyi, bir qayda olaraq, açıqlanır və hüquqşünaslar yaxşı bilirlər ki, buna tarixi təfsir deyilir. Lakin istər SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR ərazisindən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli 4083 N-li, istərsə də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR ərazisindən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 10 mart 1948-ci il tarixli 754 N-li qərarlarında bu haqda heç bir kəlmə də deyilməyib. Bəli, yüz minlərlə azərbaycanlı məcburi surətdə öz doğma tarixi-etnik torpaqlarından SSRİ Nazirlər Sovetinin cəmi dörd vərəq həcmində olan qərarı əsasında didərgin salınır, lakin bu ədalətsiz aktın hansı zərurətdən irəli gəlməsi barədə həyasızcasına susmağa üstünlük verilir. Bu sənədin ortaya çıxmasına qədər erməni millətçilərinin hansı "təşkilati" tədbirlərə əl atdıqlarını indi təsəvvür etmək çətin deyildir. Onlar Ermənistanı digər millətlərdən, ən başlıcası, azərbaycanlılardan təmizləmək niyyəti güdür və bunun üçün dəridən-qabıqdan çıxırdılar. Tarix göstərdi ki, ermənilər bu məqsədlərinə nail ola bildilər**.

Dağ şəraitində yaşamış on minlərlə insan Azərbaycanın aran rayonlarına köçürüldü. İllər boyu öz zəhmətləri ilə qurub-yaratdıqları ev-eşiklər xarici ölkələrdən gələn ermənilərə qismət oldu. İqlim şəraitinin dəyişdirilməsi, min bir əziyyət, eləcə də doğma ocaq həsrəti minlərlə soydaşımızın həyatına son qoydu.

"Ermənistan SSR ərazisindən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" İ.Stalinin 1948-ci il martın 10-da imzaladığı və 1947-ci il dekabrın 23-də imzalanmış sənədin bir növ davamı olan bu qərar guya köçürülənlərə müəyyən imtiyazlar vermək niyyəti güdürdü. Sözsüz, Vətən, torpaq itkisi ilə üzləşən insanları belə imtiyazlarla ovundurmaq faydasız idi. Çünki ev-eşiyini, el-obasını tərk edən adamları bu cür xırda güzəştlərlə ovundurmaq qeyri-mümkün idi. Lakin Stalin rejimi erməni millətçilərinin fitvası ilə öz işini görmüşdü.

**Bəs köçürülənlərin sonrakı taleyi necə olacaqdı? Onlar yeni iqlim şəraitinə uyğunlaşıb yaşaya biləcəkdilərmi? Bu suallar Stalin rejimini qətiyyən narahat etmirdi.**

**Yaxşı yadımdadır, 1978-ci ildə ermənilər Dağlıq Qarabağa gəlmələrinin 150 illiyi münasibətilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni (indiki Xocavənd rayonu—İ.A.) rayonu ərazisində hündür yerdə bir abidə də ucaltmışdılar. Həmin abidə Ağdamın "Qozlu bağ" adlanan ərazisindən görünür və həmin abidə uzaqdan xaça oxşayırdı. Məlum qondarma Dağlıq Qarabağ hadisələri başladıqdan sonra ermənilər həmin abidəni sökdülər. Bunu ermənilər ona görə etdilər ki, həmin torpaqların əzəldən onların olmasını dünya ictimaiyyətinə sübut edə bilsinlər.**

Ümummilli lider Heydər Əliyevin imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanı son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasətinin xalqımızın ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmasına, azərbaycanlıların indi Ermənistan, keçmiş İrəvan xanlığının ərazisindən–min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınmasına, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəninin dağıdılıb viran edilməsinə və bu tarixi ədalətsizliyə hüquqi-siyasi qiymət verilməsi zəruriliyindən irəli gəlmişdi.

**1948-1953-cü illərdə əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dəbə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşlar, başqa sözlə, qovulmuşlar**. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş

tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar.

**Bu prosesdə erməni şovinist dairələrinin və SSRİ rəhbərlərinin cinayətkar siyasəti ilə yanaşı, o dövrdəki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə biganəliyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkili və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.**

Həmin dövrdə Ermənistan SSR ərazisindən kütləvi surətdə qovulmuş soydaşlarımızın böyük əksəriyyəti dünyasını dəyişmiş, onların sağ qalanları Azərbaycan ərazisində yurd-məskən salmışlar. Lakin bu hadisələrdən yarım əsrdən də artıq zaman fasiləsi keçsə də, bu tarixi ədalətsizliyin vurduğu mənəvi zərbəni xalqımızın indiki nəsli heç vaxt yaddan çıxarmamalı, gələcək nəslimiz də bu faciədən xəbərdar olmalıdır. Çünki tarixi yaddaşsızlıq həqiqətən hər bir xalq-millət üçün faciəvi nəticələrə gətirib çıxarır.

Əbəs deməmişlər ki, tarix təkrar olunur. Belə ki, 1988-ci ildə Ermənistan ərazisində azərbaycanlıların başına gətirilən münasibətlər bəşər tarixinin ən qanlı səhifələri olmaqla, bu hadisələr 1948-1953-cü illərdəki deportasiyanın bir növ məntiqi davamı hesab edilməlidir. Lakin təəssüflər olsun ki, respublikamız müstəqillik əldə etdikdən sonra da bu tarixi ədalətsizliklər beynəlxalq ictimaiyyətə lazımi səviyyədə çatdırılmamış, bu hadisələrə müvafiq beynəlxalq-hüquqi qiymət verilməmişdir. Hazırda respublikamızda bir milyona yaxın qaçqın və məcburi köçkün vardır.

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımların tarixi kökləri, siyasi-ictimai, ideoloji cəhətlərinin hər biri dərindən tədqiq olunmalı, bu haqda əsl həqiqət dünyaya çatdırılmalıdır. Çox təəssüf ki, azərbaycanlıların əleyhinə ermənilərin törətdiyi saysız-hesabsız cinayətlər lazımınca qələmə alınmamış, sənədləşdirilməmişdir. XX əsrdə indi torpaqlarımızda Ermənistan adlanan tarixi və Azərbaycanın indiki ərazisində—Vedibasar, Göyçə, Zəngəzur, Naxçıvan, Qarabağ, Bakı, Şamaxı, Quba və digər bölgələrdə ermənilərin vəhşilikləri tarixi sənədlərdə lazımınca əks olunmamış, bunlara dünya səviyyəsində hüquqi-siyasi qiymət verilməmişdir.

**Məhz ümummilli lider Heydər Əliyevin imzaladığı “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 18 dekabr 1997-ci il tarixli fərmanı xalqımızın başına gətirilən bu tarixi ədalətsizliyin həm də dünya ictimaiyyətinə çatdırılması məqsədini daşıyır.**

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da o vaxt respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın hazırda ləğv edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın, əslində, bu vilayətin xüsusi idarəetmə komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarılmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycanın o vaxtkı səriştəsiz rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə nəticələndi.

**Ümummilli lider Heydər Əliyev titanik, yorulmaz fəaliyyətini ona yönəltmişdi ki, Ermənistan–Azərbaycan, qondarma Dağlıq Qarabağ məsələsi dinc yolla, beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllini tapsın.** Təəssüf ki, dünyada bir sıra dövlətlərə qarşı ikili standartlar hələ də mövcuddur. Təkcə bunu göstərmək kifayətdir ki, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması haqqında BMT Təhlükəsizlik Şurası 4 qətnamə (822, 853, 874, 884 N-li) qəbul etmiş, lakin Ermənistan Respublikası həmin qətnamələrin tələblərinə indiyədək əməl etməmişdir.

**Müstəqil Azərbaycan regionun lider dövlətinə çevrilib. Ulu öndərimizin müdrik siyasi kursunu bu gün onun ən layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.**

**Azərbaycan Respublikasının bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına iki il müddətinə qeyri-daimi üzv seçilməsi qondarma Dağlıq Qarabağ probleminin dinc yolla, beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə inamımızı daha da artırır.**

**İlham Abbasov,**
Ədliyyə Nazirliyi Ədliyyə
Akademiyasının prorektoru, hüquq üzrə
fəlsəfə doktoru, baş ədliyyə müşaviri,
prokurorluğun fəxri işçisi.
**“Respublika”.-**2012.-28 mart.-N 65.-S.6.

**Tarixi həqiqətlər şahidlik edir**

**XIX əsrin sonlarında beynəlxalq münasibətlər sisteminə "erməni məsələsi" problemini gətirən erməni millətçiləri, türk-müsəlman dünyasına olan nifrətini "böyük Ermənistan" ideyası ilə pərdələmiş və böyük dövlətlərdən dəstək alaraq, Osmanlı dövlətində iğtişaşlar törətmiş, məqsədlərinə çatmasalar da, öz məkrli siyasətlərindən əl çəkməmişlər. Birinci Dünya müharibəsi illərində də erməni şovinistləri "böyük Ermənistan" xülyasını reallaşdırmaq məqsədi ilə Osmanlı dövləti üçün "beşinci kolona" çevrilərək silahlı dəstələr təşkil etmişlər. Sarıqamış əməliyyatından sonra Qafqaz cəbhəsində qüvvələr nisbəti rus ordusunun xeyrinə dəyişmiş və bölgədə yaranmış hərbi-siyasi vəziyyətdən istifadə edən erməni separatçıları iğtişaşlara başlamış, Van şəhərində görünməmiş cinayətlər törətmişlər. Bu olayları Qərb tədqiqatçıları öz araşdırmalarında ardıcıl izləmiş və tarixi faktların təfərrüat və mahiyyətini ədalətlə açmışlar. J.Malevil "1915-ci il erməni faciəsi" adlı əsərində göstərmişdir ki, "Van Respublikasını" elan edən erməni separatçıları türk-müsəlmanlara qarşı məqsədyönlü səkildə soyqırımı siyasəti aparmışlar. Erməni millətçiləri türk-müsəlmanlara qarşı Şərqi Anadolunun bir çox bölgələrində fiziki zor tətbiq etmiş və diqər Qərb tədqiqatçılarının, o cümlədən Erik Fayqlın "Terror haqqında həqiqətlər" adlı əsərində, apardığı araşdırmalara görə bu coğrafi məkanda təkcə 1915-1916-cı illərdə 750.000-1.600.000-ə qədər türk-müsəlman soyqırıma məruz qalmışdır.**

Erməni millətçilərinin vəhşilikləri Birinci Dünya müharibəsi illərində çox genişlənmiş və öz məkrli əməllərini Azərbaycan torpaqlarında davam etdirmiş, 1918-ci ilin əvvəllərindən etibarən isə mənfur niyyətlərini həyata keçirmək üçün bütün vasitələrdən istifadə etmişlər. Azərbaycan tarixşünaslığına "1918-ci il mart hadisələri" kimi daxil olan bu qanlı olaylar erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin kulminasiyası nöqtəsi olmuşdur.

Uzun illər sovet tarixşünaslığı tarixi saxtalaşdırmaq prinsipini əsas tutaraq 1918-ci il mart hadisələrini əks-inqlabi qüvvələrin qiyamı kimi izah etməyə çalışmış, bununla da tarixin gerçəkliyi məqsədli şəkildə təhrif edilmişdir. Dəlillər və sübutlar isə gerçək tarixi obyektiv mövqedən işıqlandırır. Belə ki, həmin dövrdə Azərbaycan torpaqlarında erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətini araşdırarkən Azərbaycan Respublikasının ayrı-ayrı arxivlərində saxlanılan tarixi sənədlər və sovet tarixşünaslığının elmi dövriyyəsinə bilərəkdən daxil edilməmiş faktlar aşkar edilmişdir. Erməni vəhşiliklərini öyrənən Fövqəladə İstintaq Komissiyasının sədri Ə.Xasməmmədov bu hadisələrin tarixi köklərini açmağa çalışmışdır. O, 1918-ci ilin noyabrında ədliyyə nazirinə göndərdiyi hesabatında göstərirdi ki, Birinci Dünya müharibəsinin ilk günlərindən etibarən cəbhəyə yollanan erməni əsgərləri azərbaycanlılara qarşı nifrətlərini gizlətmir, onlara hədə-qorxu gəlir və təhqir edirdilər. Bu fakt aydın şəkildə sübut edir ki, 1918-ci il olayları erməni millətçilərinin təsadüfi emosional qığılcımının işartıları deyil, onların əsl mahiyyətinin inikası olmuşdur.

Birinci Dünya müharibəsinin yaratdığı fəlakətlər Rusiya imperiyasında sosial partlayışla nəticələnir. Rusiyada baş verən Oktyabr çevrilişi bölgədə sosial-siyasi durumu daha da ağırlaşdırır. Rusiya Fövqəladə İstintaq Komissiyasının üzvü N.Mixaylov öz hesabatında göstərirdi ki, erməni millətçi siyasi qüvvələri Zaqafqaziya Komissarlığının nümayəndələri ilə (11 noyabr 1917-ci il - yanvar 1918-ci il) danışıqlara girərək Cənubi Qafqazda olan erməni əhalisini kütləvi şəkildə silahlandırmaq planını hazırlayırdılar. Elə bu məqsədlə də Zaqafqaziya Komissarlığının göstərişi ilə Tiflis arsenalından erməni kəndlərinə və icmalarına vaqonlarla tüfəng və patron göndərilirdi. Eyni zamanda Petroqradda hakimiyyəti ələ keçirən V.Lenin inqilabı "süngü ucunda" yaymaq siyasətini əsas götürərək, Qafqazda erməni amilinə önəm verir, daşnak-qnçak koalision qüvvələrinə çox yaxın olan millətçi S.Şaumyanı Qafqazın fövqəladə komissarı təyin edir. Tiflisdə siyasi qüvvələrlə sivil mübarizə apara bilməyən S.Şaumyan Bakıya yollanır və sovet hakimiyyətini bölgə quberniyalarına yaymaq bəhanəsi ilə Azərbaycan xalqına qarşı təxribatçılıq fəaliyyətinə başlayır. S.Şaumyan və onun komandasının ilk hədəfi Şamaxı olur. Akademik Ramiz Mehdiyevin "Gorus-2010: absurd teatrı mövsümü" adlı əsərində qeyd olunduğu kimi: "S.Şaumyanın ikili partiya mənsubiyyəti faktı onu izah edir ki, 1918-ci ilin mart-aprel aylarında azərbaycanlı əhalinin kütləvi şəkildə qırılmasını təşkil edərkən daşnak silahlı dəstələrindən istifadə etmişdir".

Müstəqillik dövründə Azərbaycan tədqiqatçıları 1918-ci ilin yaz-yay aylarında bolşevik-daşnak-qnçak birləşmiş qüvvələrinin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasətini geniş şəkildə öyrənmiş, o cümlədən tarixçi-alim S.Rüstəmova-Tohidi isə fundamental sənədlər toplusunu nəşr etdirmişdir. Bütün bunlarla yanaşı, fikrimizcə, bu tədqiqat obyektinin hələ tam öyrənilməmiş və qatı açılmamış səhifələri kifayət qədərdir. Bütün bunları nəzərə alaraq Şamaxı faciəsinin kölgədə qalmış məqamlarını işıqlandırmağı məqsədəuyğun hesab edirik.

Şamaxı soyqırımı 1918-ci ildə Bakı quberniyasında S.Şaumyan və onun bolşevik-daşnak-qnçak birləşmiş quldur qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin birincisidir. "Azərbaycan" qəzeti S.Şaumyanın bu olaylarda rolunu 1919-cu il martın 30-da nəşr etdirdiyi nömrəsində göstərərək yazırdı ki, "Şaumyan və Avakyanın törətdikləri təxribatlar nəticəsində Şamaxı hadisələri baş verdi." O illərin dövri mətbuatında səslənən fikirlər bu hadisələrin faciəvi miqyasının təsəvvürə gəlməz qədər geniş olduğunu təsdiqləyir. 1918-ci ilin dekabrında "Bəsirət" qəzeti yazırdı: "Qanlı Nikolayların dövründə görünməyən zülmlər bizə bu gün - mart ayının 18-28 günləri arasında rəva göründü." Şamaxıda baş verən cinayətləri ictimaiyyətin nəzər-diqqətindən yayındırmaq və bu olaylarda öz rolunu gizlətmək məqsədi ilə bolşeviklərin təsis etdiyi hərbi-istintaq komissiyasını S.Şaumyan ləğv etdirsə də, "Azərbaycan" qəzeti 1918-ci il 21 oktyabr tarixli nömrəsində Şamaxı qəzasında misli görünməmiş fəlakətlərin çılpaqlığını göstərərək yazırdı: "...daşnaklar tərəfindən genosid siyasətinin yeridilməsini Şaumyan hökuməti ört-basdır edə bilmədi."

Şamaxı soyqırımını tədqiq edərkən bir cəhət xüsusi olaraq diqqəti cəlb edir: erməni quldurlarının Azərbaycan xalqına qarşı olan hüdudsuz nifrəti. Bu məqamı Fövqəladə İstintaq Komissiyasının sədri Ə.Xasməmmədov xüsusi vurğulamışdı: "Şamaxı şəhəri və Şamaxı qəzasının erməniləri 1905-ci il hadisələri ilə bağlı azərbaycanlılara qarşı intiqam hissi ilə yaşamış və əlverişli məqam aramışlar. Belə ki, 1918-ci il martın 18-də azərbaycanlılar üzərinə hücum edən ermənilər açıq şəkildə bildirirdilər ki, bu günü onlar 12 il idi ki, gözləyirdilər və qışqırırdılar ki, Şamaxı əhlinin imdadına indi yalnız "Həzrət Abbas" gələ bilər".

Tədqiqat obyektini tarixi sənədlər əsasında öyrənərkən Azərbaycan tarixşünaslığının elmi dövriyyəsində çox zəif şəkildə göstərilən dəlillər diqqətimizi cəlb edir. Məlum olur ki, Şamaxıda ermənilər azərbaycanlılara qarşı soyqırım aparmaq üçün, Azərbaycanda yaşayan digər millətləri cəlb etməyə calışıblar. Tariximizin gizli qalmış bu məqamları Şamaxı soyqırımının öyrənilməmiş səhifələrini açıqlayır. Bu tarixi həqiqətlərin mahiyyətinə baxdıqda məsələnin tarixi kökləri üzə çıxır. Həmin illərdə Rusiya imperiyasının Azərbaycan torpaqlarında apardığı müstəmləkə siyasətini tarixşünaslığımızda postsovet konsepsiyasının tələblərinə uyğun öyrənən ayrı-ayrı tədqiqatçılar öz əsərlərində göstərə bilmişlər ki, bölgədə rus əhalisini özünün sosial-siyasi bazası kimi qəbul edən Rusiya imperiyası, hələ birinci rus inqilabı ərəfəsində Cənubi Qafqazda, o cümlədən Azərbaycan torpaqlarında milli-azadlıq hərəkatının oyanışından ehtiyat edirmiş. Buna görə 1891-ci ilin noyabrında və 1903-cü ilin aprelində "ucqarlarda məskunlaşan rus əhalisinin silahlandırılması haqqında"qərarlar qəbul etmişdi.

Sənədlər göstərir ki, Şamaxı olayları zamanı ən ağır faciəni Əngəxaran kəndinin camaatı yaşamışdır. Diqqətçəkən cəhət ondan ibarətdir ki, kəndin başına gətirilən müsibətlərdən sonra əsir götürülənlərin bir hissəsi ermənilər yaşayan Mədrəsə kəndinə, digər hissəsi Çuxuryurda aparılmışdı və orada çox qəddarcasına qətlə yetirilmişlər.

Ümumilikdə, Şamaxı faciəsi zamanı təkcə Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kənd və obalarında (bugünkü Şamaxı və Qobustan rayonları ərazisindəki kəndlər) isə 6-8 min nəfər azərbaycanlı erməni yaraqlıları tərəfindən qətlə yetirilmişlər. Şamaxı şəhəri, onun kənd və obalarından didərgin, qaçqın düşənlərin sayı isə 18 min nəfərdən çox olmuşdur. Şamaxı qırğını zamanı 58 kənd yerlə-yeksan olmuşdur. Şamaxıdan sonra erməni millətçiləri Azərbaycanın bir çox bölgələrində - Bakıda, Qubada, Göyçayda, Kürdəmirdə, Zəngəzurda soyqırım siyasəti aparmışlar.

Tarixi ədaləti bərpa etmək və daşnak-qnçak ideologiyası ilə silahlanmış erməni yaraqlılarının Azərbaycan xalqına qarşı apardıqları soyqırım siyasətinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edən ulu öndər Heydər Əliyev 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzaladı. Fərmana əsasən, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Bu tarix 1918-1920-ci illərdə erməni faşizminin qətlə yetirdiyi günahsız qurbanların anım günüdür. Həmin dövrdə yüz minlərlə azərbaycanlı erməni vəhşilikləri nəticəsində qətlə yetirilmişdir. Bu nominal rəqəmlər ayrı-ayrı insan təxəyyülünün məhsulu olmayıb, Azərbaycan Respublikasının müxtəlif dövlət arxivlərində saxlanılan tarixi sənədlərin diktəsidir. Hazırda Azərbaycan tarixşünaslığının ən önəmli vəzifələrindən biri araşdırılan xronoloji çərçivədə erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdikləri cinayətləri sona qədər öyrənmək və dünya ictimaiyyəti qarşısında erməni faşizmini ifşa etməkdir.

**Məhsəti ƏLİYEVA,**
siyasi elmlər üzrə fəlsəfə doktoru

**“Azərbaycan”.-**2012.-29 mart.-N 66.-S.5.

## Mart qırğınına Stepan Şaumyan və onun əlaltıları rəhbərlik etmişlər

### 1918-ci ilin mart qırğınları ermənilərin xalqımıza qarşı törətdiyi ən ağır bəşəri cinayətlərdəndir

**Həmişə özgə torpaqlarına göz dikən, ən yaxşı torpaqlarda yaşamağı arzulayan ermənilər bu yolda hər cür alçaqlıqlara razı olublar. Belə ki, hələ 1722-ci ildən başlayaraq Azərbaycanın Xəzər sahillərinin işğalından yarınmağa çalışan haylar çara üç dəfə "yalvarmışlar ki, onlara Xəzər dənizi sahillərində daimi yaşayış üçün yer versin". Bunu rus tarixçisi P.Y.Butkov öz əsərində yazmışdır.**

Rus çarı böyük "əliaçıqlıq" göstərərək 1724-cü ilin noyabr ayında general-mayor Kropatova xüsusi əmr vermişdir. Əmrdə deyilirdi: "Erməni xalqı bizdən xahiş etmişdir ki, biz onları öz himayəmizə qəbul edib torpaqlar ayıraq, ona görə də sizə tapşırıram ki, əgər erməni xalqı bəyəndiyi yerdə yaşamaq istəsə, ona kömək edib, ləyaqətlə qoruyun... Onları öz himayəmizə götürmüşük". Bir qədər sonra I Pyotr general-leytenant Matyuşkinə də tapşırmışdı ki, erməniləri və xristianları rus ordusunun tutduğu əyalətlərdə - Gilanda, Mazandaranda, Bakıda, Dərbənddə mehribanlıqla qarşılayıb, yerləşdirsinlər...

Burada Bakı ilə əlaqədar əmrlərdə aşağıdakı sözləri xatırlamaq yerinə düşər: "Xoşagəlməz, yaxud şübhəli müsəlmanları qovmaq və onları xristianlarla əvəz etmək". Belə də edildi: yeri-yurdu bilinməyən ermənilər istədikləri əyalətlərdə, istədikləri torpaqlarda ruslar tərəfindən yerləşdirildi. Ancaq haylar bununla kifayətlənmədilər, öz çirkin əməllərini davam etdirdilər...

Vaxt gəldi ermənilər böyük dövlətlərin, məsələn, Rusiyanın, İngiltərənin, Fransanın alətinə çevrildilər. Hər dövlət ermənilərdən öz məqsədləri üçün istifadə etməyə başladı. Belə ki, 1828-ci ildə Rus-İran savaşında qələbə çalan Rusiya İrandan, Türkiyədən çoxlu erməni ailəsini Qafqaza, o cümlədən Azərbaycana kütləvi surətdə köçürüb gətirir. Nəticədə, rusların sayəsində ermənilər yeni ərazilərə sahib oldular və sonralar özlərinin dövlətlərini yarada bildilər. Bütün bunlara qovuşan haylar XIX əsrin axırlarında özlərinin millətçi "Daşnaksütyun" partiyalarını yaratdılar. Şovinist partiya olan "Daşnaksütyun"un bir məramı oldu: Azərbaycan türklərinin əzəli torpaqlarından onları qovub çıxartmaq və tarixdə heç vaxt olmamış və olmayacaq böyük Ermənistan yaratmaq. Bunun üçün arxa da var idi.

XX əsr xalqımız üçün çox ağır və keşməkeşli olmuşdur. Onu da ürək ağrısı ilə deyək ki, xalqımızın düçar olduğu məhrumiyyətlərin əksəriyyəti torpağımızda, ocağımızda yazığımız gəlib yer verdiyimiz, çörəyimizi yeyən, suyumuzu içən, havamızı udan ermənilər tərəfindən törədilmişdir.

Hər xalqın tarixində elə hadisələr olur ki, bu hadisələr uzun zaman keçsə də unudulmur, nəsillər bir-birini əvəz etsə də xatırlanır, yeni nəsillərin də yaddaşına həkk olunur. Xalq nə yaxşılığı, nə də yamanlığı unuda bilmir.

31 mart qırğını da xalqımızın tarixinə, onun taleyinə qanlı hərflərlə yazılmışdır. 1918-ci ilin 31 martında Bakıda minlərlə azərbaycanlı erməni daşnakları tərəfindən vəhşicəsinə öldürülmüşdür.

Yuxarıda dediyimiz kimi 1828-ci il "Türkmənçay" müqaviləsindən sonra Qafqazın, o cümlədən Azərbaycanın ən yaxşı yerlərinə Rusiyanın tələbi və köməyi ilə İrandan, Türkiyədən yüz minlərlə erməni köçürüldü. Bu gözəl yerlərdə məskunlaşan "hay"lar bir müddətdən sonra özlərini bu yerlərin əbədi sakinləri kimi aparmağa başladılar. "Özümə yer edərəm, gör sənə nə edərəm" prinsipi ermənilərin əxlaqi prinsipidir. Dünyada elə bir xalq, elə bir millət tapmaq olmaz ki, ermənilər kimi özgə torpaqlarını, özgə ocaqlarını özününkü saysın, zaman keçdikcə təkcə yaşadıqları ərazilərə deyil, daha çox əraziyə sahib olmaq üçün çalışsın, bu yolda hər cür nankorluğa əl atsın, hətta irz-namusunu satmış olsun...

Artıq XIX əsrin sonlarında ermənilər qarşılarına məqsəd qoydular ki, yerli, yaşadıqları torpağın əzəli sahibləri olan azərbaycanlıları nə yolla olursa-olsun öz ata-baba yurdlarından didərgin salsınlar. Bunun üçün onlar hazırlıq işləri gördülər, xristian ölkələrindən çoxlu silah topladılar.

XX əsrin əvvəllərində - 1905-1906-cı illərdə ermənilər azərbaycanlıları kütləvi surətdə qırmağa başladılar. Millətçi, şovinist "Daşnaksütyun" partiyası "Dənizdən-dənizə böyük Ermənistan" iddiası ilə çıxış etdi. O vaxt Şuşada, Zəngəzurda, Naxçıvanda, Bakıda və başqa yerlərdə minlərlə əliyalın azərbaycanlı erməni süngülərinin qurbanı oldu. Bu qırğınlar sonrakı illərdə də davam etdirildi. Ancaq Azərbaycanı parçalayıb, onun bir hissəsini öz ərazisinə qataraq, bu ölkənin yeraltı-yerüstü sərvətlərinə sahib çıxan Rusiya çarizmi bütün bu erməni vəhşiliklərinə göz yumdu.

1917-ci ildə Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi, Bakıda Stepan Şaumyanın bolşeviklərə rəhbərlik etməsi Azərbaycanda yerli əhalinin yeni qırğınına, daha artıq əzab-əziyyətlərinə gətirib çıxardı.

1918-ci il 31 mart qırğını çoxdan hazırlanmış ssenarinin həyata keçirilməsi idi. Belə ki, 1917-ci il oktyabr inqilabından sonra yaranmış Bakı Soveti Stepan Şaumyanın rəhbərliyi ilə fəaliyyət göstərdiyinə görə burada

yerli əhalidən, yəni azərbaycanlılardan çox az adam təmsil olunurdu. Bakı Sovetində cəmləşmiş daşnaklar və qeyri millətlərin nümayəndələri mart hadisələrinin törədilməsinin səbəbkarları idilər. Bakı Sovetinin o dövrdə qorxduğu bir qüvvə vardısa, o da azərbaycanlıların millətçi qüvvələri idi.

Mart ayının 9-da Azərbaycan diviziyasının qərargahının Bakıya gəlməsi şaumyançıları bərk narahat etdi. Martın 30-da diviziya komandirlərinin şaumyançı bolşeviklər tərəfindən həbs edilməsi və heyəti azərbaycanlılardan ibarət olan "Evelina" gəmisinin tərksilah olunması Bakıda yerli əhalinin böyük narazılığına və həyəcanına səbəb oldu. Bakıda azərbaycanlıların hərbi cəhətdən zəif olduğunu bilən Bakı Soveti bu şəhəri Azərbaycanın paytaxtı etmək "arzusunda olan" müsəlmanlara dərs vermək üçün əlverişli məqamın yetişdiyini başa düşdü. Axı Şaumyan və onun havadarlarının məkrli məqsədi Bakını ermənilәşdirmək, yerli əhalini buradan qovub çıxarmaq və beləliklə, "Böyük Ermənistan"a yol açmaq idi.

Yeri gəlmişkən, onu da deyək ki, o illər ermənilər Avropada məlumatlar yayırdılar ki, onlar Bakını I Dünya müharibəsi dövründə alıblar və artıq şəhər onlarındır. Hələ o dövrlərdə erməni diasporunun, həm də lobbisinin köməyi ilə onlar dünyanı inandırmağa çalışırdılar ki, nəinki Bakı, həm də bütün Azərbaycan Ermənistanın tərkibində bir əyalətdir. Onlar böyük dövlətlərin başçılarını da bu istiqamətdə "maarifləndirmişdilər". Belə vəziyyətin yaranmasında özümüzün də günahımız az deyildi. Bu mənada 1918-ci ildə böyük Üzeyir bəy Hacıbəyli "Azərbaycan"ın 25-ci nömrəsində dərc olunmuş "Mühüm məsələlər" məqaləsində ürək ağrısı ilə yazırdı: "İndiyə qədər o dərəcədə bişüur olmuşuq ki, bütün Qafqaz millətlərindən təkətəkliklə ədədcə çox olduğumuz halda, biz Azərbaycan türkləri haqqında nəinki Avropanın, hətta, yüz ildən bəri üstümüzdə sahiblik edən rusların da dürüst xəbərləri yox idi. Ruslar bu günə qədər bizə "persian" deyə İran və fars millətlərindən hesab edirlər. Mən özüm bizim "persian" olmayıb türk olduğumuzu Moskva və Petroqraddan əlavə Bakının özündə də bir çox ruslara dəfələr ilə qandırmışam..."

Bütün bunları aradan qaldırmaq üçün böyük azərbaycanlı Üzeyir bəy yol göstərərək deyirdi: "Bəs biz Azərbaycanı və iki milyondan artıq Azərbaycan türklərini Avropaya və müttəfiq dövlətlərə indidən tanıtmalıyıq. Özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata... malik olduğumuzu onlara bildirməliyik. Dilimiz firəng dili Avropada olan kimi bütün Qafqazda ümumi bir dil olduğunu, məsələn, bir ləzgi ilə bir ermənınin və ya bir malakan ilə bir aysorun bir-birilə türk-Azərbaycan dili ilə danışmağa məcbur olduğunu isbat etməliyik..."

Bir sözlə, Ü.Hacıbəyli bütün xüsusiyyətlərimizi, bütün mənəviyyatımızı təfsilatı ilə Avropaya və başqa dünya ölkələrinə çatdırmağı tövsiyə edirdi, həm də tələb edirdi.

Bu bir həqiqətdir ki, xalqımız, vətənimiz haqqında həqiqətləri dünya xalqlarına cəmi 23 ay ömür sürmüş Azərbaycan Demokratik Cümhuriyyəti çatdırdı və anlatdı...

1918-ci ilin ilk günlərindən başlayaraq qatı millətçi, müsəlmanların düşməni, bolşevik kürkünə bürünmüş Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin mətbuat orqanları hazırladıqları təxribatı əsaslandırmaq üçün azərbaycanlıları bir qayda olaraq "burjuaziya" və "müsəlman əksinqilabçıları" hesab edir və onlara qarşı "inqilabi" mübarizəni zəruri sayırdı. Hələ mart qırğınından xeyli əvvəl ayın 15-də Şaumyan öz çıxışlarında deyirdi ki, "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə və istehkamına çevrilməlidir". Ona görə də sovetin rəhbərliyi yerli əhalini başa salmaq üçün daşnaklarla sazişə girdi. Bu bir daha göstərir ki, mart qırğını - azərbaycanlıların, müsəlmanların kütləvi qırğını Şaumyan və onun ətrafında olan bolşevik ermənilər tərəfindən törədilmişdir.

1919-cu ildə Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin Azərbaycan haqqında buraxdığı kitabda qeyd olunurdu ki, "müsəlmanlar üçün ağır nəticələr verən bu qanlı epizodda o vaxt Bakıda olan ermənilər əsas rol oynadılar. Hər yerdə olduğu kimi, onlar özlərinin milli partiya hesab etdiyi "Daşnaksütyun"un ətrafında sıx birləşdilər. İş burasındadır ki, ermənilər bolşevizm pərdəsi altında bir neçə gün ərzində qocalar, qadınlar və uşaqlar da daxil olmaqla 12 min insanı qırdılar".

Bakı Soveti isə bu qırğını zəruri hesab edirdi. Sovetin orqanı olan "Bakinski raboçi"qəzeti aprelin 11-də belə yazırdı: "Bakıda olmuş vətəndaş müharibəsi zəruri idi. Onun zəruriliyi haqqında biz hələ iki ay əvvəl yazmışdıq.

Bu müddət ərzində təcavüzkar müsəlman millətçiliyinə, Qafqazda əksinqilabın bu əsas dayağına güzəştə getməklə Bakı Soveti Qafqazda, o cümlədən Bakıda mövcud olan milli münasibətlərdəki çətinlikləri nəzərə almışdı".

Bu yazıdan belə görünürdü ki, qətlə yetirilmiş minlərlə adam Müsavatın təbliğatına uymuş davakar panislamizmin, millətçi pantürksizmin əsas zərbə dəstəsi imiş və buna görə də Sovet "vətəndaş" müharibəsi vasitəsilə təkcə Bakıda deyil, bütün Qafqazda proletariatın inqilabını müsəlman əksinqilabından xilas etmişdir...

Mart hadisələri barədə S.Şaumyan aprelin 13-də Rusiya Xalq Komissarları Sovetinə, onun sədri V.İ.Leninə belə məlumat verirdi: "Zaqafqaziya Sovet hakimiyyəti uğrunda fəal silahlı mübarizə mərhələsinə qədəm qoymuşdur. Üç gün ərzində martın 30, 31-də və aprelin 1-də Bakıda şiddətli vuruşma getdi. Bir tərəfdən Sovet Qızıl Qvardiyası, Qızıl Beynəlmiləl ordu, bu yaxınlarda yenidən təşkil edə bildiyimiz Qızıl Donanma, erməni milli hissələri (!) vuruşurdular. Digər tərəfdən bir neçə rus zabitinin iştirak etdiyi müsəlmanların "dikaya"

diviziyası, Müsavat Partiyasının rəhbərlik etdiyi müsəlman dəstələri... Vuruşmanın nəticələri bizim üçün gözəl oldu. Düşmən tamamilə darmadağın edildi".

Şaumyanın bu sözləri mart hadisələrinin mahiyyətini açıq şəkildə göstərir. Bu da həqiqətdir ki, mart döyüşlərinin gedişində Daşnaksütyun partiyası və Bakı Erməni Milli Şurası bolşeviklərin iştirakı ilə sinfi mübarizəni milli qırğına çevirdi. Bunu Nəriman Nərimanov da təsdiq etmişdir. O, 1923-cü il dekabrın 24-də MK-ya göndərdiyi məktubunda yazırdı ki, 1918-ci ilin martında Bakıda daşnaklaşmış "bolşeviklər"in və vəhşiləşmiş daşnakların azğınlığı üç gün davam etmişdir. Daşnak dəstələri xeyli dinc azərbaycanlı ailəsini qarət etmiş və öldürmüşdür. Hətta iş o yerə çatmışdır ki, Bakı neft sənayeçiləri mədənləri tərk etmişdir. Bu, Bakını erməniləşdirmək, onu öz həqiqi sahiblərindən təmizləmək, zəngin təbii sərvətləri ələ keçirmək kimi mənfur daşnak proqramının tərkib hissələrindən biri idi.

Ömrü boyu daşnak ermənilərlə və onların bolşevik havadarları ilə mübarizə aparmış, sözün həqiqi mənasında cəngə çıxmış N.Nərimanov ermənilərin məkirli siyasətlərini necə də duymuşdu.

Bu həqiqəti də deyək ki, əgər o vaxt N.Nərimanov Bakıda olmasaydı, daha böyük qırğınlar törədilərdi.

1925-ci ildə dərc etdirdiyi məqalədə N.Nərimanov daşnak bolşeviklərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər haqqında bildirirdi: "Müsəlman hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir".

Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, yandırır, xaraba qoyurdular. Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə, vandalizmə yol verirdilər. Nəinki kişilərə, hətta qadınlara da rəhm etmirdilər.

Mart qırğınının törədilməsində S.Şaumyanın əsas rol oynadığını Nəriman Nərimanov çox gözəl bilirdi. Bunu çoxları bilirdi. Ona görə də erməni cəlladlarına "Şaumyanın adamları" deyirdilər.

Bakıdakı mart hadisələri ilə bağlı "Bəsirət" məcmuəsi 219-cu nömrəsində yazırdı: "...Bir dəstə daşnak soldatları və bir dəstə Şaumyanın adamları "Cəmiyyət-xeyriyyə"nin qarşısına gəlib o binayı-müqəddəsə, o möhtəşəm imarətə, o müəzzəm binaya xainanə bir surətdə od vurdular, onu yandırdılar".

O dövrdə dərc olunan müsəlman qəzet və məcmuələri erməni daşnaklarının vəhşiliklərini nifrət dolu ifadələrlə qeyd edirdilər.

Mart qırğını təkcə Bakıda yox, Azərbaycanın demək olar ki, bütün bölgələrində törədilmişdi. Şamaxı qırğını Bakı qırğınından geri qalmır. Daşnakların qorxusundan Şamaxı məclisinə toplaşmış insanları vəhşiləşmiş erməni dəstələri məscidə od vurmaqla külə döndərmişdilər.

"Hümmət" qəzeti 42-ci nömrəsində yazırdı: "Aprelin 13-də müsəlman sosialist firqələrinin iclası oldu. Məclisin sədri, himayə komissarı yoldaşımız doktor N.Nərimanov Şamaxıdan gələn müsəlman qaçqınlarından bir dəstəsinin Bakıya varid olduğunu kəmali yəs ilə izhar etdi".

Bakıda mart qətllərinin cinayətkar başçıları: daşnak T.Əmirov və S.Lalayev S.Şaumyan tərəfindən "sosialist" adı ilə Şamaxı "əksinqilabçıları"na qarşı mübarizəyə rəhbər təyin edilmişdilər.

Məhz bu daşnakların "qırmızı sosialist" dəstələri bütün Şamaxı əhalisinə divan tutdular. Onlar burada 60-dan artıq kəndi dağıtdılar. Şamaxıda Əmiryanın və Lalayanın cinayətkarlığı o qədər həddini aşmışdı ki, hətta bolşevik mətbuatı da o vaxt etiraf etdi ki, Şamaxıda dinc əhaliyə qarşı ədalətsizliyə yol verilmişdir. Törətdiyi cinayətlərə görə isə S.Lalayevi (Lalayan) həbs edilməkdən S.Şaumyan xilas etmişdi. Belə ki, S.Lalayevin həbs orderini hazırlayan Kojemyaka S.Şaumyan bildirmişdi ki, "Lalayevi həbs etmək yaxşı deyil, bu nə hoqqabazlıqdır?" Bu bir daha göstərir ki, bütün azərbaycanlılara qarşı aparılan qırğınların başında daşnak məfkurəli bolşevik S.Şaumyan dayanırdı...

Daşnak ermənilər əsl faşist xislətiylə azərbaycanlıları təkcə Bakıda, Şamaxıda yox, Lənkəranda, Şuşada, Gəncədə, Zəngəzurda, Təbrizdə, Xoyda, Urmiyada və b. yerlərdə də kütləvi surətdə öldürmüş, qətliamlar törətmişdilər.

1918-ci ildə gəlmələr - "Şaumyanın adamları" öz vətənlərində azərbaycanlıları qanlarına qəltan etdiyi bir vaxtda, Türkiyə ərazisindən satqınlığına, murdarlığına görə türklər tərəfindən təkqulaq edilmiş Andronik öz quldur dəstəsiylə azərbaycanlıların tarixi ərazisi olan Naxçıvana, Zəngəzura, Göyçəyə və s. yerlərə soxuldu. Andronik bütün Türk dünyasının, müsəlman aləminin quduz düşməni idi. Yüzlərlə kəndləri, yaşayış yerlərini viranə qoydu quldur Andronik, quldur Dro, quldur yanlar...

Maraqlısı odur ki, demə, Bakıda qərarlaşmış bolşevik Şaumyan minlərlə azərbaycanlını məhv edən quldur Andronik ilə birgə hərəkət edirmiş. İyulun əvvəllərində Andronikə teleqram vuran Şaumyan onu xalq qəhrəmanı adlandırır və onunla fəxr etdiyini bildirir...

Görünür, hər iki quldur "Böyük Ermənistan" yaratmaq məqsədilə biri şimaldan, biri də cənubdan Azərbaycanı işğal etmək istəyirmişlər. Ancaq quldurların məkrli istəkləri baş tutmadı...

Uzun bir dövr SSRİ məkanında çox tarixi hadisələr kimi 1918-ci ilin mart qırğını haqqında da həqiqət təhrif olunmuş, erməni daşnaklarının on minlərlə azərbaycanlıları vəhşicəsinə öldürmələrini bir qrup əksinqilabçının

qızıl qvardiyaçılar tərəfindən darmadağın edilməsi kimi qələmə vermişlər. Həqiqəti bilənləri isə doğru-düzgün yazmağa qoymayıblar, təşəbbüs göstərənləri cismani və mənəvi cəhətdən məhv ediblər...

Azərbaycan Demokratik Cümhuriyyəti bir milli dövlət kimi mart qırğınına siyasi qiymət verdi və bu qırğının səbəblərini, günahkarlarını araşdırmaq üçün komissiya da yaratdı. Ancaq çox keçmədi, bolşeviklər XI Qızıl Ordunun (işğalçı ordunun - M.Q.) köməyi ilə Azərbaycanı işğal etdilər.

Həqiqət qaranlıqda da nur parçasıdır. Qara buludlar onu nə qədər qoynunda saxlasa belə həqiqət nuru qaranlıqları yarıb üzə çıxacaqdır.

1991-ci il oktyabrın 18-də xalqımız müstəqillik əldə etdi. Böyük azərbaycanlı Heydər Əliyev tariximizi, xüsusən də XIX-XX əsrlərin tarixini doğru-düzgün araşdırmağı tarixçilərə tövsiyə etdi. Ölkə rəhbəri çox haqlı olaraq qeyd edirdi ki, o dövrün tarixinin həqiqət fonunda yazılması tarixçilərin yox, siyasi sistemin, ağır rejimin günahıdır...

1998-ci il mart ayının 26-da ölkə Prezidenti Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" adlı bir fərman verdi. Həmin fərmanda deyilirdi: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır".

Müstəqillik dövründə çox həqiqətləri üzə çıxara bildik. Azərbaycan xalqı dostu ilə düşmənini bir daha tanıdı. Şaumyanların, mikoyanların, balayanların və bir çox "yan"ların iç üzləri açıldı.

Hər il xalqımız 31 mart soyqırımını qeyd edir. Bu azdır. 1918-ci il 31 mart soyqırımının beynəlxalq aləmdə tanıdılması bu gün qarşımızda duran ən vacib məsələlərdəndir. Kütləvi insan qırğınını törətmiş düşmənlərimiz indi bütün dünyaya car çəkərək türkləri soyqırım törətməkdə ittiham edirlər. Biz tarixçilər bu amilləri nəzərə almalı, ermənilərin əsrlər boyu həmvətənlərimizə bəslədiyi münasibətin antiinsaniliyini bəşəriyyətə sübut etmək üçün fundamental əsərlər ortaya qoymalıyıq. Belə olmasa, məkrli ermənilər nəinki 1918-ci il mart qırğınına, hətta 1992-ci il Xocalı soyqırımına da istədiyi donu geydirə bilərlər. Necə ki, gecə-gündüz buna cəhd edirlər.

Ermənilərin ifşasını göstərən tarixi faktları biz dünyaya bu gün bəyan etməliyik. Yoxsa gələcək nəsillər bizi bağışlamaz...

**Musa QULUZADƏ,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının şöbə müdiri, tarix elmləri doktoru,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü**

**“Xalq qəzeti”.-**2012.-30 mart.-N 67.-S.6.

## Soyqırımı bəşəriyyətə qarşı amansız cinayətdir

## Ermənistan terror və soyqırımını dövlət səviyyəsində dəstəkləyir

**Hər il mart ayının 31-i Azərbaycanda dövlət səviyyəsində azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Bu təqvim son yüz ildə Azərbaycan tarixində baş vermiş ən faciəli hadisələrin xalqın yaddaşındakı qanlı izlərini özündə əks etdirir. Azərbaycanlıların kütləvi şəkildə qırılmasını, repressiyalara məruz qalmasını XX yüzilliyin ən qanlı səhifələrindən biri hesab etmək olar. 1918-ci il martın son günlərində Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırımına imza atmışlar.**

1918-ci il martın 30-da səhər tezdən erməni bolşevik birləşmələri şəhəri gəmilərdən yaylım atəşinə tutmuşlar. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətmişlər. Martın 31-i və aprelin 1-də qırğınlar xüsusilə kütləvi şəkil almış, üç gün ərzində Bakıda on minlərlə insan qətlə yetirilmişdi. Şaumyanın erməni-bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmiş, müsəlmanların bir çox ziyarətgahlarını dağıtmışdılar. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan "İsmailiyyə"nin binasına od vurmuşdular. Martın 30-dan aprelin 2-dək törədilən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı qətlə yetirilmişdi. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdu. Lənkəranda, Muğanda minlərlə soydaşımız öldürülmüşdü. Ermənilər Dağlıq Qarabağda 150 azərbaycanlı kəndini tamamilə dağıtmış, Şuşada görünməmiş qırğınlar törətmişdilər.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmışdır. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdır. 1919-cu və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyətı tərəfindən ümummilli matəm günü kimı qeyd edilmişdir.

1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süqutu bu işləri yarımçıq qoymuş, Azərbaycan erməni-rus qüvvələrinin dəhşətli soyqırımının miqyasını dünyaya, beynəlxalq aləmə çatdıra bilməmişdir. 1920-ci ildən sonra Zaqafqaziyanın sovetləşməsindən çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bəzi ərazilərini Ermənistan SSR-in ərazisi elan etmişlər. 1923-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ "muxtar vilayət" elan olunmuşdur.

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qətliam və etnik təmizləmə sovet dövründə də davam etmiş, sadəcə, bu proses "qanun" çərçivəsinə salınmışdır. Bu mənada Stalin dövrünün deportasiyasını, 1948-1953-cü illərdə 100 min azərbaycanlının Ermənistan SSR-dəki tarixi yurdlarından köçürülməsini xüsusi qeyd etmək lazımdır. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il dekabrın 23-də verilən qərarını ermənilər çoxdan gözləyirdilər. Anastas Mikoyan başda olmaqla, ermənilərin Moskvadakı havadarları "türksüz Ermənistan" uğrunda fəaliyyətə hələ Böyük Vətən müharibəsindən əvvəl başlamışdılar. Əsas "səbəb" kimi o göstərilirdi ki, xaricdə yaşayan on minlərlə erməni mütəxəssisi Ermənistana qayıdaraq "sovet dövlətinin inkişafı və tərəqqisi naminə çalışmaq əzmindədir, lakin onların yerləşdirilməsi ilə bağlı problemlər var". "Optimal" çıxış yolu isə guya Ermənistan SSR-də qeyri-ermənilərin yaşadığı torpaqların boşaldılması idi. Azərbaycan SSR-in o vaxtkı rəhbərliyi bir müddət bu fəaliyyətin qarşısını almağa çalışsa da, Stalin ideyanı dəstəklədi və SSRİ hökumətinin "tarixi" qərarına imza atdı. Azərbaycanlıların yaşadığı 476 kənd tamamilə boşaldıldı. Sonuncu, 1987-1989-cu il deportasiyası isə Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləməni başa çatdırdı.

Ermənistanın 1987-1988-ci illərdən başlayaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe və atdığı hər bir addım beynəlxalq hüquqla qadağan olunmuş zor tətbiq etməyə, digər dövlətin ərazisini ilhaq etməyə əsaslanır. 1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsinin əsasında da məhz bu ərazinin müəyyən bəhanələrlə Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi məqsədi dayanırdı. 1988-ci ilin 20 fevralında ermənilərin Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qeyri-konstitusion qərar verməsi, eləcə də SSRİ rəhbərliyinin bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmağa çalışması ilə Azərbaycan zorən hərbi münaqişəyə cəlb edilmişdir.

1992-ci ilin 26 fevralında ermənilər Azərbaycan Respublikasının Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutmuş, tarixə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə- yeksan edilməsi ilə yekunlaşmışdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı soyqırımı iki yüz ilə yaxın müddətdə erməni şovinist-millətçilərinin azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı, qanlı səhifəsidir. Xocalı faciəsi Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədi ilə apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasca ən dəhşətlisidir.

Beynəlxalq hüquqa görə, soyqırımı cinayəti ağır müharibə cinayətlərindən sayılır. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 saylı qətnaməsində qeyd olunur ki, genosid, insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minən "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada genosid cinayətinin hüquqi əsası təsbit olunmuşdur. Konvensiyaya qoşulan dövlətlər sülh və yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin yürütdüyü terrorçuluq siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir.

Azərbaycan 1996-cı il 31 may tarixdə BMT-nin 9 dekabr 1948-ci il tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyasını ratifikasiya etmiş, milli qanunvericiliyini bu sənədə uyğunlaşdırmaq istiqamətində tədbirlər görmüşdür. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin VII bölməsinin fəsillərə bölünməsində bu konvensiyanın tələbləri nəzərə alınmış, 16-cı fəsil "sülh və insanlıq əleyhinə cinayətlər", 17-ci fəsil "müharibə cinayətləri" adlandırılmışdır. Konvensiyadan irəli gələn öhdəliklərin həyata keçirilməsi istiqamətində görülən tədbir kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "Soyqırım" (maddə 103), "Soyqırımın törədilməsinə təhrik etmə" (maddə 104) maddələri daxil edilmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsində soyqırımı cinayəti "Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə" kimi tövsif olunur; "on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Tarixi ədalətsizlik üzündən ötən əsrin sonlarınadək xalqımızın üzləşdiyi bu ağır faciələrə obyektiv qiymət vermək mümkün olmamışdır. Xalqımız uzun illər özünün bu gerçək tarixindən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız tamamilə yad istiqamətdə köklənmişdir. Bədnam erməni millətçilərinin tarixi saxtalaşdırmağa, dünya ictimaiyyətini çaşdırmağa yönəlmiş saxta kampaniyasına qarşı mütəşəkkil müqavimət yalnız ulu öndər Heydər Əliyevin xalqın istəyi ilə 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Ümummilli liderin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı tarixi həqiqətləri üzə çıxarmışdır. Bu mühüm sənəddə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların - soyqırımlarının rəsmən adı çəkilmiş, Cənubi Qafqaz miqyasında xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açıqlanmışdır.

Ümummilli liderin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin azərbaycanlıların soyqırımı ilə bağlı xalqa 2008-cı il 29 mart tarixli müraciətində də ermənilərin terror siyasətinə geniş toxunulmuşdur: "Bu gün Azərbaycan regionda və dünyada dinamik inkişaf edən dövlət olaraq, həm də əməkdaşlıq və tolerantlıq məkanı kimi qəbul edilir. Ölkədə sosial və milli-dini həmrəylik mövcuddur. Nə qədər ağır olsa da, biz soyqırımı faktlarından başqa xalqlara düşmənçilik və nifrət aşılamaq üçün istifadə etmək niyyətində deyilik. Biz yalnız tarixi ədalətin və həqiqətin bərpa olunmasını, dünyanın heç bir yerində belə faciəli hadisələrin təkrarlanmayacağına təminat verilməsini istəyirik. Bunun əksinə, işğalçı Ermənistanda iqtisadi və mənəvi-siyasi tənəzzül getdikcə dərinləşir, sosial problemlər və demoqrafik vəziyyət gərginləşir. Ermənistan təcavüzkar siyasəti ilə özünü bütün regional iqtisadi-enerji və nəqliyyat-kommunikasiya layihələrindən təcrid etmişdir. Bu ölkədə baş verən siyasi böhran, antidemokratik proseslər onun rəhbərliyinin uzağı görməyən, təcavüzkar siyasətinin nəticəsidir, erməni xalqının geniş dairələrinin hakimiyyətə etimadsızlığının göstəricisidir".

31 mart faciəsi xalqımızın qan yaddaşıdır. Ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanında bu hadisələr tam təfərrüatı ilə əksini tapmışdır. Bu sərəncam uzun illər gizli saxlanılan, üzərinə qadağalar

qoyulan həqiqətləri açmış, xalqımızın yaddaşını təzələmişdir. 31 mart və Xocalı soyqırımlarının dünya ictimaiyyətinə çatdırılması üçün hər il hökumət səviyyəsində müəyyən tədbirlər həyata keçirilir. Milli Məclisin dünya parlamentlərinə müraciətində soyqırımı aktının real mahiyyəti, onun soyqırımı kimi tanıdılmasını şərtləndirən amillər konkret faktlar əsasında əksini tapır. Ümummilli liderin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də hər il soyqırımı ilə bağlı xalqımıza müraciət ünvanlayır, səbir diləyərək dərin hüznlə başsağlığı verir. Azərbaycan xalqı ürəkdən inanır ki, qətiyyətli rəhbərliyinin apardığı siyasət gec-tez üzləşdiyimiz münaqişənin beynəlxalq hüquq normaları əsasında ədalətli həllini təmin edəcəkdir.

**Hikmət MİRZƏYEV,**
**Ali Məhkəmənin inzibati-iqtisadi kollegiyasının sədri**

“**Azərbaycan**”.-2012.-30 mart.-N 67.-S.9.

**Ermənistan terror və soyqırımı siyasətini dövlət səviyyəsində dəstəkləyir**

**XIX əsrdən başlayaraq ermənilər Qafqazda və Türkiyə ərazisində işğalçılıq niyyətlərini həyata keçirmək və tarixi torpaqlarımız hesabına "böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün ardıcıl olaraq hərbi və ideoloji vasitələrdən yararlanmış, XX əsr boyu Azərbaycan və türk xalqlarına qarşı dəhşətli soyqırımı cinayətləri həyata keçirmişlər. Erməni daşnakları etdikləri cinayətləri ört-basdır etmək üçün bu yolu tutmuş, törətdikləri soyqırımları başqa xalqların üzərinə atmış, onları günahkar çıxartmağa səy göstərmişlər. Əslində isə tarix bunun tamamilə əksini deyir.**

Ermənilərin Qafqaza köçürülməsi, yerləşdirilməsi və dövlətlərinin yaradılması ideyası I Pyotrdan başlayır. Lakin Rusiya öz məqsədinə XX əsrin əvvəllərində nail olur. 1802-ci ildə çar I Aleksandr N.D.Sisianova yolladığı məktubunda göstərirdi ki, nə olursa-olsun ermənilərdən Azərbaycanın bu və ya digər xanlıqlarında istifadə olunmalıdır.

Rusiya ilə İran arasında gedən iki müharibənin sonunda imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının tarixində faciəvi rol oynamış və Azərbaycanın parçalanmasına gətirib çıxardı. Türkmənçay müqaviləsinin 14 və 15-ci maddələri "təbəə alış-verişi" ilə bağlı idi. İrandan ermənilərin köçürülməsi məsələsi ikinci Rusiya-İran müharibəsinin (1826-1828) gedişində Sankt-Peterburqda qaldırıldı. Rusiya Osmanlı dövlətinə qalib gəldikdən sonra isə Ədirnə (1829) müqaviləsinə əsasən, Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian istinadgahı yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan erməniləri kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, əsasən də İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə köçürdü. İrəvan və Naxçıvan xanlıqlarını işğal etmiş general Paskeviç İrandan köçürülən ermənilərin hansı Azərbaycan torpaqlarına istiqamətləndirilməsi barədə konkret göstəriş də vermişdi: köçürülən erməniləri İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristian əhalinin sayı mümkün qədər artırılsın. 1828-ci ilin təqribən 4 ayında (fevral-iyun) İrandan Şimali Azərbaycana - İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə 8249 erməni ailəsi, yəni 40 min nəfər erməni köçürüldü. Bir qədər sonra isə Şimali Azərbaycan torpaqlarına Osmanlı dövləti ərazisindən daha 90 min nəfərdən artıq erməni köçürülüb gətirildi.

Ermənilər Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə, yəni onlara daimi vətən yaratmaq niyyəti ilə köçürüldü. Bu köçürülməyə rəhbərlik edən erməni mənşəli rus polkovniki Q.Lazarev İran ərazisindən Şimali Azərbaycana köçürülən ermənilərə müraciətlə deyirdi: "...Orada (Şimali Azərbaycanda - İ.H.) siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz... İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların (yəni ermənilərin - İ.H.) bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək, Bundan sonra sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik".

Köçkün axını başlanan kimi heç bir qanuni əsas olmadan erməniləri Naxçıvanda və Qarabağda xan-bəy torpaqlarında yerləşdirməyə başladılar. Qriboyedov bununla bağlı yazırdı: "Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq üçün mövcud ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişik. Lakin Qarabağ və Naxçıvanda çar hökuməti tərəfindən elə bir siyasət yeridildi ki, öz başlarının hayına qalan xalq ermənilərin orada məskunlaşmasını unutmalı oldu".

Rus tədqiqatçısı N.Şavrov yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətinə Güney Qafqazda rus əhalisinin deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq. 1828-ci ildən 1830-cu ilə kimi biz Güney Qafqazda İrandan 40 mindən, Türkiyədən isə 84 mindən çox erməni köçürmüş və onların əhalisinin azlıqda olduğu Yelizavetpol (Gəncə - İ.H.) və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən çox xəzinə torpağı ayırmış və onlar üçün 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdır. Yelizavetpol quberniyasının dağlıq hissəsi (indiki Dağlıq Qarabağ - İ.H.) və Göyçə gölünün sahilində həmin ermənilər yurd saldı".

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında 1828-ci ildə "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə əslində, azərbaycanlıların öz torpaqlarından qovulması, faciələrə düçar olunması siyasətinin bünövrəsi qoyuldu. Həm də, bununla Cənubi Qafqazdakı Azərbaycan torpaqlarında - İrəvan və Naxçıvan xanlıqlarının ərazisində erməni dövləti yaratmaq üçün ilk addım atıldı. Qeyd etməliyik ki, ermənilərin köçürülməsi başa çatdıqdan sonra "Erməni vilayəti"ndə olan 1125 kəndin 1111-də azərbaycanlılar yaşayırdı.

Ermənilər bununla da tarixən düşündükləri "böyük Ermənistan" xülyalarını həyata keçirmək sahəsində real addımlar atmağa başladılar. Azərbaycan torpaqları hesabına yaradılmış "Erməni vilayəti"ndə rusların bilavasitə köməyi sayəsində məskunlaşdırılan ermənilər bütün Qafqaz ərazisində tarixin təhrif olunmasında, azərbaycanlılara qarşı soyqırımın həyata keçirilməsində fəal rol oynadılar.

XIX əsrin ikinci yarısında Türkiyə, Gürcüstan və Azərbaycan ərazilərinin bir hissəsini tutub "böyük Ermənistan" kimi millətçi, şovinist ideyasını həyata keçirmək istəyində olan ermənilər təşkilati strukturlar yaratmağa başladılar. Belə ki, əsasən xaricdə "Qnçaq" (1887, Cenevrə), "Daşnaksütyun" (1895, Tiflis) partiyaları, "Erməni vətənpərvər ittifaqı" (1895, Nyu-York) təşkilatı yaratdılar. Bu partiya və təşkilatın yaradılması ilə "böyük Ermənistan" iddiaları yeni mərhələyə daxil oldu. Bu ideyanı dəstəkləməklə ermənilərdən istənilən tarixi məqamda istifadə edən Rusiyada onların 2311 yerli təşkilatı fəaliyyət göstərirdi. Məhz Rusiyanın siyasi və hərbi dəstəyi nəticəsində XX əsrdə azərbaycanlılara qarşı mərhələlərlə vəhşiliklər törədilmiş, onlar zorla köçürülmüş və repressiya olunmuşdular.

Ermənilərin əsas ideyası "böyük Ermənistan" və ya "Dənizdən dənizə dövlət" yaratmaq olmuş və bu yolda bütün vasitələrdən istifadə etmiş, o cümlədən kütləvi terror, soyğunçuluq və ölümün həyata keçirilməsi əsas kimi qəbul edilmişdir. Sonralar ermənilər bu terror fəaliyyətlərini guya nə vaxtsa onlara qarşı edilmiş "genosidin" intiqamı kimi pərdələməyə çalışmışlar. Əslində isə, XIX əsrin sonlarından başlayaraq ermənilər Osmanlı dövləti ərazisində, XX əsrin əvvəllərində isə yenə də Türkiyə, Azərbaycan, Gürcüstan və türklər yaşayan başqa ərazilərdə üsyanlar etmiş, soyqırımlar törətmiş, ən vəhşi üsullarla insanlığa yaraşmayan hərəkətlər etmişlər.

Bütün tarixi mərhələlərdə həmin ideyanı həyata keçirmək üçün ermənilər hər cür vasitələrdən, ən iyrənc üsullardan, qətl və terrordan, yaranmış ictimai-siyasi vəziyyətlərdən istifadə etməyə çalışmışlar. Ermənilər "böyük Ermənistan" yaratmaq xülyası ilə artıq neçə əsrdir ki, yaşayırlar. Onlar öz havadarları ilə birlikdə XX əsrin əvvəllərində, yəni 1905-1907-ci illərdə əvvəlcə Bakıda, sonra isə Azərbaycanın, eləcə də Qafqazın digər regionlarında azərbaycanlıların soyqırımını həyata keçirmişlər.

Azərbaycanın görkəmli yazıçısı Məmməd Səid Ordubadi "Qanlı illər" və Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" kitablarında azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı ətraflı qələmə almışlar. Həmin kitablarda bəhs olunan hadisələr o zamanın mətbu nəşrləri, şahidlərin ifadələri və məktublar əsasında hazırlanıb. Məmməd Səid Ordubadi həmin əsərində yazırdı: "Süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış ixtişaş bombası partladıldı və bütün Qafqaz aləmi bu bombanın təsiri şiddətindən yanıb-yaxıldı. Görəsən, o partlayıcı maddə həqiqətən bomba imiş? Bəli, bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı".

1905-ci ilin fevralında Bakıda başlanan erməni-müsəlman qırğınları bir təsadüf nəticəsində deyil, məhz bütün Qafqazın varlı ermənilərinin zaman-zaman toplandıqları bir şəhərdə planlı şəkildə baş vermişdir. Ermənilər Bakıda erməni varlılarının köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Zaqafqaziyadan müsəlmanları silah gücünə qovub Ermənistan dövləti yaradacaqlarına əmin idilər. Fevralın 6-dan 10-na qədər Bakıda şiddətlə davam edən qırğınlar zamanı tələfat çox olsa da ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşlar.

Bakıda başlanan qırğın may-iyun aylarında Gəncə, Qarabağ, Şirvan, Zəngəzur, İrəvan, Şuşa, Cəbrayıl, Cavanşir, Qaryagin və başqa bölgələri də əhatə etdi.

1905-ci ilin may ayından başlayaraq Naxçıvan qəzasında da ermənilərin azərbaycanlılara qarşı qırğınları başladı. Bu qırğınları əks etdirən "Qnçaq" qəzeti özünün 26 may tarixli sayında yazırdı: "Dünən axşam saat 6-dək biz azərbaycanlılarla atışdıq. Bizə bunun üçün əlavə olaraq 166 müxtəlif tüfənglər paylanıldı, böyük sayda patronlar verildi, biz təmiz vicdanla şəhərimizi (gör ha! - İ.H.) müdafiə etdik, türkləri layiqincə qırdıq.

Qnçaqçılar 2, daşnaklar isə 1 bombadan da istifadə etdilər. Çoxlu türk evləri qarət edildi. Bizə silah paylayan adam yenidən silah dalınca getdi".

Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa şəhər və kəndləri əhatə etdi. Kazakların köməyindən istifadə edən ermənilər 1905-ci ilin noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qarət etdikdən sonra od vurmuşlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv olmuşdur. Noyabr ayının 30-da Cəhri kəndinin yandırılmasında da kazaklar ermənilərlə birlikdə hərəkət etmişdilər. Həmin gün Naxçıvana gəlmiş İrəvan general-qubernatoru Paskeviç nəinki hadisələrin təvsilatı ilə maraqlanmamış, əksinə Cəhri kəndi tamam yanıb qurtarandan sonra, dekabrın 2-də kəndə yollanmış, naxçıvanlıların haqlı şikayəti ilə bir daha qarşılaşmamaq üçün gecə ikən qatarla İrəvana qayıtmışdı. Həmin ilin may ayında Ordubad qəzasının Tivi kəndində ermənilərlə azərbaycanlılar arasında baş vermiş münaqişə ilə əlaqədar buraya 500-ə yaxın əsgər və zabit göndərilmişdir. Sənədlərdən aydın olur ki, hərbi hissə kənddəki müsəlmanlara qarşı zor tətbiq etmiş, onları yurdlarından qovmuş, adamları öldürmüş, əslində isə ermənilərə kömək etmişlər.

Təxminən iki ilə qədər davam edən qanlı toqquşmalar nəticəsində Azərbaycan şəhərlərinə böyük zərər dəymiş, 300-dən çox müsəlman kəndi dağıdılmış, müxtəlif məlumatlara görə, ölənlərin sayı 80-100 min nəfərə çatmışdı. İki ilin hadisələri Azərbaycan tarixində ermənilər tərəfindən sonralar silsilə halını almış, xalqımıza qarşı soyqırımın ilk mütəşəkkil mərhələsi olmuşdur.

Ötən əsrin ikinci onilliyində ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1918-ci il soyqırımı daha geniş miqyas almış və amansız olmuşdur. Özlərini dünya ictimaiyyətinə "yazıq millət", "əzabkeş xalq" kimi qələmə verərək azərbaycanlılara qarşı kini, vəhşiliyi, soyqırımı Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Salyanda, Göyçayda və başqa yerlərdə bolşevik adı ilə pərdələnmiş Ş.Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası hökumətinin əli ilə həyata keçirdilər. Bakı qırğınında Y.Korqanov və Petrovla birlikdə azərbaycanlı qanına susamış A.Mikoyanın, Hamazaspın, Avetisyanın, Lalayanın quldur dəstələri xüsusi fəallıq göstərmişlər. Bakıda erməni daşnakları dinc əhaliyə üç gün divan tutmuş, 17 min azərbaycanlını məhv etmiş, müsəlman məhəllələrini talayıb-çapmış, "İsmailiyyə" binasını yandırmış, bir neçə qəzet və jurnal redaksiyalarını dağıtmışlar. A.Mikoyanın "Qızıl qvardiyası"nın vəhşiliyi nəticəsində İçərişəhərdə yaralılar yatan xəstəxanaya od vurulmuş, 2 minədək xəstə yandırılmış, qaçanlar isə güllələnmişdilər. "Bolşevik" Hamazasp, Əmiryan və digər erməni millətçiləri azərbaycanlılara qarşı törətdikləri vəhşilkdə heç də A.Mikoyandan, S.Şaumyandan geri qalmırdılar.

Bakı şəhərində soyqırımı bolşevizm bayrağı altında həyata keçirilirdi. Guya bolşeviklər hökumətə qarşı çıxış edən qüvvələrə divan tuturdular. Əslində isə bolşevik adı ilə pərdələnənlərin azərbaycanlılara qarşı törətdikləri milli qırğın idi.

Görkəmli dövlət xadimi Nəriman Nərimanov ermənilərin törətdikləri qırğınlardan dəhşətə gələrək yazırdı: "Müsəlman hətta bolşevik olsaydı belə ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir. Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular... Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hamilə qadınlara da rəhm etmirdilər".

Silahsız əhaliyə qarşı çox böyük silahlı qüvvə ilə çıxış edən bolşevik daşnakları törətdikləri qırğınlardan həzz alırdılar. S.Şaumyan bolşevizm bayrağı altında qırğınlar törətsə də, baş vermiş qanlı faciələrdən vəcdə gələrək öz daşnak simasını gizlədə bilməyib yazırdı: "Şəhərlərimizin milli tərkibi bizi narahat edirdi. Biz mübarizənin arzuolunmaz xarakter alacağından qorxurduq. Biz hətta erməni polkunun yardımına belə əl atmalı olduq. Biz hətta onun köməyindən imtina etməyi mümkün hesab etmədik. Qələbə isə o qədər böyükdür ki, bu gerçəkliyə az kədər gətirir".

Ermənilər Bakı ilə yanaşı, Azərbaycanın digər şəhərlərində - Qərbi Azərbaycanda, Naxçıvanda, Zəngəzurda, azərbaycanlılar yaşayan başqa bölgələrdə tarixdə görünməmiş qəddarlıq etmiş, azərbaycanlılara divan tutmuşlar. 1918-1920-ci illərdə azərbaycanlılara qarşı soyqırımı həm miqyası etibarı ilə, həm də vəhşiliyi ilə heyrət doğurur. Azərbaycanlıların yaşadıqları elə ərazi yox idi ki, orada erməni vəhşiliyi özünü göstərməsin.

Erməni quldurları Bakıdakı milli qırğınla kifayətlənməyib, 1918-ci ilin yazında Şamaxıda, Quba-Xaçmaz bölgələrində, Salyanda, Lənkəranda və başqa yerlərdə də azərbaycanlılara qarşı soyqırımı törətdilər.

Şamaxıda qırğın törətmək üçün 1918-ci ilin əvvəllərində oraya 2 min nəfər erməni və 65 araba silah göndərilmiş, ermənilər tam silahlandırılmışdılar. Lalayan və Əmiryanın başçılıq etdikləri erməni quldurları 15

minlik əhalisi olan Şamaxı şəhərini və qəzanın 58 kəndini dağıtmış, 12 mindən artıq soydaşımızı qətlə yetirmişlər. Quba qəzasında ermənilərin apardıqları soyqırıma millətçi "Daşnaksütyun" partiyası rəhbərlik edirdi. Hələ mart hadisələrindən qabaq S.Şaumyanın göstərişilə Hamazaspın dəstəsi cəza məqsədilə Quba şəhərinə göndərilmişdi.

Quba bölgəsində 122 müsəlman kəndi dağıdıldı, evləri yandırıldı, 10 mindən çox əhali vəhşicəsinə qətlə yetirildi. Son illərdə Quba şəhərində böyük insan kütləsinin vəhşi yollarla öldürülmüş məzarlığı aşkar olunmuşdur. Şəhərdə 165 ev və tikili yandırılmış, 32,8 milyon manat nağd pul, qızıl, daş-qaş ermənilər tərəfindən qarət edilmişdir.

Quba-Xaçmaz bölgəsində Hamazaspın quldur dəstəsi 8,5 milyon rubl qızıl pul və 25 milyon rubl məbləğində müxtəlif mallar qarət etmişdi. Əhaliyə 100 milyon rubl maddi zərər dəymişdi.

Gəncə quberniyası üzrə mart soyqırımı zamanı 115 kənd dağıdılmış, bu kəndlərdə kişili-qadınlı 10.066 nəfər azərbaycanlı öldürülmüş və şikəst olmuşdu.

1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar.

1918-1920-ci illərdə ermənilər Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Zəngəzurda 115, Qarabağda 157, Qars əyalətində 92, Iğdır və Eçmiədzin qəzalarında 60, Göyçə quberniyasında 22, Sürməli qəzasında 96, Yeni Bəyaziddə 84, Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi yerlə-yeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışlar. Daşnaklar həmin illərdə Qərbi Azərbaycanda (indiki Ermənistanda) qədim ata-baba yurdlarında yaşayan 565 min azərbaycanlını məhv etmişdilər. Andranik Ozanyan Qarabağ, Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında azərbaycanlıları kütləvi surətdə qırmış, qılıncdan keçirmişdi.

Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvan bölgəsinə yiyələnmək xülyasına düşən daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür və bu ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədənlər içərisində "tayqulaq erməni daşnak generalı" Andranik Ozanyan xüsusi yer tutur. Çünki bu qaniçən cəllad təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən artıq kəndi viran qoymuş. əhalisini isə amansızlıqla qətlə yetirmişdir. Onun sərkərdələrindən olan Nijde Ərəzin, Camaldın, Yaycı, Ordubad rayonunun Aşağı Aza, Sabir Dizə, Düylün, Vənənd, Dəstə, Kotam kəndlərini dağıdıb, əhaliyə divan tutmuşdur.

Həmin dövrdə Naxçıvanda yaranmış Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olmuş və onları qələmə almışdır. Aydın olur ki, Azərbaycanın bu qədim guşəsi və onun sakinləri də başqa torpaqlarımız kimi erməni millətçilərinin düşmən siyasətinin hədəfinə çevrilmişdir. Ərzurumda nəşr olunan "Kaf dağı" adlı qəzeti Türkiyə qaynaqlarına əsaslanaraq məlumat vermişdir ki, 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73.727 nəfər azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür. Təsadüfi deyildir ki, 1921-ci ildə Naxçıvan bölgəsinin əhalisinin sayı azalaraq 72 minə enmişdi.

Ümumiyyətlə, araşdırmalar nəticəsində sübut olunmuşdur ki, erməni hərbi birləşmələri 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda, tarixən həmişə Azərbaycan türklərinin yaşadıqları bölgədə 200 min, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər.

Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri işləmiş N.Solovyov V.İ.Leninə "Çevrilişdən sonrakı iki ayda (may-iyun) Azərbaycanda bizim siyasətimiz" adlı hesabatında yazırdı: "Çevrilişə qədər hətta ziyalılar içərisində Sovet hakimiyyətinə müəyyən rəğbət var idi. Azərbaycan İnqilab Komitəsinin tərkibi azərbaycanlılardan seçilsə də, heç kimə sirr deyildir ki, onun üzərində partiyanın hegemonluğu vardır. Partiya rəhbərliyində isə ermənilər, gürcülər çoxluq təşkil edir. Onlar azərbaycanlıları, xüsusilə ziyalıları sağda-solda güllələyirdilər. Sanki onların apardıqları siyasət Azərbaycanı başsız qoymağa doğru istiqamətləndirilib. Küçələrdən kütləvi surətdə həbs olunaraq aparılan azərbaycanlılara qarşı ermənilərin istehzalı gülüşləri musavatçıların əvvəlcədən söylədikləri belə bir fikri təsdiqləyir ki, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ümumiləşən fəlakətdir". O, daha sonra yazırdı ki, "Ermənistan Respublikası yaranarkən onun hüdudlarında 250 müsəlman kəndi var idi, onlar hamısı məhv edilmişdir, indi orada bir nəfər də müsəlman yoxdur".

Göründüyü kimi, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirmişlər. Bu dövrdə, 20-30-cu illərdə, eləcə də müharibədən sonrakı dövrdə ermənilər azərbaycanlıların həbs edilərək Sibirə göndərilməsində, xalq düşməni adı altında güllələnməsində, din xadimlərinin və görkəmli ziyalıların məhv edilməsində, əsassız repressiyaların günahsız insanlara qarşı tətbiq olunmasında çox böyük rol oynamışdır. Azərbaycan millətinin qatı düşmənləri tərəfindən onun ən yaxşı övladlarının siyasi qərəzçiliklə məhv edilməsi belə bir kədərli faktla sübut olunur ki, Azərbaycandakı 51 rayondan 31-də Xalq Daxili İşlər Komissarlığı rayon bölməsinin başında ermənilər dururdular. Astara dairəsində Arakelov, Astraxanbazarda Comardyan, Zəngilanda Zərdəryan, Samuxda Petrosyan, Masallıda Avenesov, Lənkəranda Movsesyan, Tovatov, Naxçıvanda Akopyan, Ağacanyan, Ceyranov, Zakyan, Parşeqov, İonesyan, Şıxanyan, Bakıda isə cəza orqanlarının mərkəzi aparatında Sumbatov-Topuridze, Markaryan, Koqan, Silman, Borşov, Yemelyanov, Mailyan və başqaları başçılıq edirdilər. Bütün bunlar etnik təmizləmə siyasətinin tərkib hissəsi kimi sonrakı illərdə də davam etdirilib.

Rəsmi məlumatlara görə, 1937-ci ildə Azərbaycanda 100 min nəfərdən artıq adam mərhələlərlə sürgün edilmiş, 3 min kəndli məhv edilmiş, "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdi. Hüquq-mühafizə orqanları sistemində ermənilərin çoxluq təşkil etməsi onların azərbaycanlılara qarşı daha dəhşətli formada cəza tədbirlərini həyata keçirməsinə imkan verirdi.

Müharibə illərində A.Mikoyan və digər ermənilər Stalini azərbaycanlıların guya xəyanət edə biləcəklərinə inandıra bilmiş və 1942-ci ilin dekabrın 7-də Azərbaycan əhalisinin hamılıqla Orta Asiya və Qazaxıstana sürgün edilməsi haqqında məxfi qərar verilməsinə nail olmuşdular. Lakin respublika rəhbərliyinin göstərdiyi səylər Stalini fikrindən daşındırmış, cinayətin həyata keçirilməsinə imkan verməmişdir.

Xəbis niyyətlərindən əl çəkməyən erməni daşnakları müharibədən sonrakı mərhələlərdə Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyasına nail olmuşlar. 1948-1953-cü illərdə 144654 nəfər, 1988-1992-ci illərdə isə 250 min soydaşımız indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdundan zorla çıxarılmış və 229 nəfər azərbaycanlı isə vəhşicəsinə qətlə yetirilmişdir.

Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasəti nəticəsində Dağlıq Qarabağdakı 80 yaşayış məntəqəsindən 60 min azərbaycanlı doğma ocaqlarından didərgin salınmış, işğal olunmuş 7 rayondan 700 min azərbaycanlı ev-eşiyini tərk edib respublikanın 58 rayon və yaşayış məntəqələrində məskunlaşmışdır. Hərbi əməliyyatlar nəticəsində respublikamızın 10 şəhəri, 876 kənd, 700 ictimai bina, 693 məktəb, 862 mədəniyyət sarayı və klub, 652 tibb məntəqəsi, o cümlədən 191 xəstəxana, 160 körpü, 800 kilometr avtomobil yolu, 15 kilometr elektrik xətti dağıdılmış, 30 mindən artıq soydaşımız qətlə yetirilmiş, 52 milyard ABŞ dolları dəyərində maddi ziyan vurulmuşdur.

Erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımı dünya tarixində analoqu olmayan vəhşilikdir. Erməni vəhşiləri 613 nəfəri xüsusi qəddarlıqla öldürmüş, 1275 nəfər əsir düşmüş , 7 ailə büsbütün məhv edilmiş, 230 ailə öz başçısını itirmişdir. Bu qanlı qırğın zamanı qətlə yetirilənlərin 109 nəfəri 2 yaşına qədər olan uşaqlar idi.

Hiylə, məkr, xəyanət, terror vasitələri ilə silahlanmış erməni cəlladları ən görkəmli dövlət və siyasi xadimlərimizə, elm və mədəniyyət nümayəndələrimizə qarşı açıq və gizli şəkildə təxribatlar törətmiş, bir qisminin həyatdan getməsinə səbəb olmuşlar.

Yaradılanda 10 min kv km əraziyə malik olmayan Ermənistan Respublikasının Azərbaycan torpaqlarını işğal etməsi hesabına ərazisini 30 min kv km-ə çatdırmış, bununla da ərazi iştahası azalmamış, "böyük Ermənistan" yaratmaq üçün bu gün də hər cür hiylə və vasitələrə əl atır.

Göründüyü kimi, iki əsrdir ki, məkrli və qaniçən erməni cəlladları Azərbaycan xalqına qarşı soyqırımı siyasəti yeritmiş, soydaşlarımızı qətlə yetirmiş, repressiya və deportasiyaya məruz qoymuş, etnik təmizləmə aparmış, ərazilərimizin bir hissəsini işğal etmiş və bu gün də yeni ərazilər tutmaq fikirlərindən əl çəkməmişlər. Nəticədə, xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanında erməni millətçilərinin iki əsr ərzində xalqımıza qarşı törətdikləri soyqırımların mahiyyəti, nəticələri və ibrət dərslərindən bəhs edilmişdir. Həmin fərmanda xalqımıza qarşı yönəlmiş soyqırım siyasətinin dünya ictimaiyyətinə çatdırılması göstərilmişdir.

Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı müxtəlif mərhələlərdə törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək bizim mühüm vəzifəmiz olmalıdır.

**İsmayıl HACIYEV,**
**AMEA Naxçıvan bölməsinin sədri, akademik**

**“Azərbaycan”.-**2012.-31 mart.-N 68.-S.6.

## 1918-ci il mart qırğınları Lənkərandan da yan ötməmişdir

**1918-ci il mart qırğını XX əsr Azərbaycan tarixinin ən faciəli səhifələrindən biridir. Bu faciə Lənkərandan da yan keçməmişdir. 1917-ci il oktyabr çevrilişindən sonra Rusiya imperiyasının tərkibində olan milli ucqarlarda hərc-mərclik başlanmışdı. Bu işi Qafqazda ermənilər və onların havadarları həyata keçirirdilər. Ermənipərəst Şıvkunovun quldur dəstəsi həmin illərdə Lənkəranda və ətraf yaşayış məntəqələrində meydan oxuyurdular. Mir Əhməd xanın evini ələ keçirən Şıvkunov oranı özünə qərargah etmiş, ətrafına Çepayev, Somsonov kimi ermənipərəst qüvvələr yığmış, Sütəmurdov kəndini qaçaq-quldurlardan qorumaq bəhanəsi ilə atəş altında saxlayırdı. Bundan narahat olan ağsaqqallar Şıvkunovun yanına gedib atəşi dayandırmağı xahiş edir və bildirirlər ki, qaçaq-quldurlar kənddən çıxıblar. Şıvkunov ağsaqqalları girov saxlayıb, üç əsgəri kəşfiyyata göndərir. Onlar yolda qaçaqlarla üz-üzə gəlirlər. Atışma zamanı Şıvkunovun iki əsgəri öldürülür, biri qaçıb hadisə haqqında məlumat verir. İki əsgərinin öldürülməsindən hiddətlənən Şıvkunov Sütəmurdov ağsaqqallarının əl-qollarını bağlatdırır və boyunlarını vurdurur.**

Lənkəranda o illərdə belə qanlı hadisələr çox olub. Xüsusilə, 1918-ci ilin mart ayında. Tarix sübut edib ki, ermənilərin Lənkəran qəzasında müsəlman əhalisinə etdikləri vəhşiliklər görünməmiş şəkil almış, dinc əhaliyə amansız divan tutulmuşdur. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti Firudin Cümşüdlü yazır: "Bu hadisələrin törədilməsi zamanı ermənilər şantaj və təxribat metoduna da əl atdılar. Mart qırğınına başlamaq üçün ermənilər şayiə yaydılar ki, Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edərkən təsadüfi güllə yarasından həlak olan oğlunun dəfnində iştirak edən müsəlman əsgərləri guya Lənkəran ruslarına (malakanlara) hücum edib onları qıracaqlar".

S.Şaumyanın əmri ilə 1918-ci il mart ayının 14-də Salyan, Hacıqabul, Muğan və Lənkəran bölgələrinə silahlı bolşevik dəstələri yeridildi. Onun tərkibində isə erməni daşnakları çoxluq təşkil edirdilər. Tədqiqatçı-alimlər professor Xaqani Məmmədov və professor Nuru Məmmədov yazırlar ki, toqquşmanı başlamaq üçün bu ərəfədə H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 hərbçinin gəlişi bəhanə oldu. Dəfndən sonra zabitlər həmin gəmi ilə geri qayıtmalı idilər. Erməni daşnakları fitnəkarlıqla əsgər və matroslar, eser və menşevik partiyaları, rus milli şurası arasında şayiə yayırdılar ki, "Evelina"dakı zabitlər guya ki, Muğandakı malakan kəndlərini dağıtmaq üçün xüsusi göstəriş alıblarE

Tədqiqatlardan məlum olur ki, 1918-ci il soyqırımı dövründə Lənkəran və qonşu rayonlarda 40-dək kənd yandırılıb, yüzlərlə günahsız insan qətlə yetirilib, neçə-neçə ev yandırılıb, talan edilib, iqtisadiyyata külli miqdarda ziyan vurulub. Erməni daşnakları evlərə girib bəzən bütün ailəni məhv edirdilər. Hamilə qadınlara, uşaqlara, qocalara belə rəhm edilmirdi. Gərmətük kəndində 70-dək, Mamusta kəndində 30-dək, Kərgəlan kəndində 30-dək, Sütəmurdov kəndində 20-dən çox, Girdəni kəndində 20-dək günahsız insan faciənin qurbanı olub.

Dövrünün tanınmış şəxsiyyətlərindən olan Mirmurtuza Talışlının şəxsi arxivində 1918-ci ildə ərəb əlifbası ilə çıxmış bir qəzet vardı. Qəzet Mirmurtuza Talışlıya atası Hacı Mirmustafa Axunddan yadigar qalmışdı. Qəzet ermənilərin Qars şəhərində törətdikləri qanlı faciəyə həsr edilib. Bakılı şair Mizə Səlim Səyyahın qələmə aldığı bir şeiri də həyəcansız oxumaq mümkün deyil. Vaxtilə bu qəzet imkanlılara paylanıb, ondan əldə edilmiş ianə Qarsdan didərgin düşənlərə verilib. Qəzetdə kimin nə qədər ianə verdiyi göstərilib. Mirmurtuza müəllim deyərdi ki, atam Hacı Mirmustafa Axund qəzeti oxuyandan sonra gözünü silib və bir qızıl onluq yardım edib.

Mirmurtuza Talışlı nəql edərdi ki, 1918-ci ildə şəhər camaatı Osakücə meşələrinə çəkilərək sığınacaq tapmışdı. Ara sakitləşəndən sonra ev-eşiyimizə qayıtdıq. Şəhərdə görünməmiş faciə olmuşdu. Binalar top, mərmi gülləsindən dağılmış, bir çox evlər qarət, talan edilmişdi.

Mirmurtuza Talışlının ömür-gün yoldaşı Humra xanımın dediklərindən:

- Atam Lerikin Halabın kəndindən idi. Sütəmurdov kəndində yer alıb ev tikmişdi. Əkin-biçinlə məşğul olub ailəsini dolandırırdı. 1918-ci ilin yaz günlərinin birində şəhərə getmiş, orada baş verən atışmada həlak olmuşdu. Atamla birgə həmin gün kəndə daha bir neçə meyit gətirildi.

Lənkəranda ilk ali təhsilli ədəbiyyat müəllimi, pedaqoji məktəbin ilk direktoru olmuş Teymur Şahverdiyev deyirdi ki, 1918-ci ilin mart ayı idi. "Kolaz"da Sütəmurdova gedirdim. Çaya çatanda gördüm ki, su qırmızıya çalır. Diqqət verib gördüm ki, insan qanıdır. Suda xeyli cəsəd vardı. Papaqlarından müəyyən etdim ki, öldürülənlər dağ adamlarıdır. Çünki belə papaqlardan dağ tərəfində yaşayanlar qoyardılar.

O illərin şahidi müəllim Əbülqasım Qasımov bir dəfə belə bir əhvalat danışdı:

- Heyva gül açan vaxtlar idi. Şıvkunovun quldur dəstəsi erməni daşnakları ilə birləşərək xeyli adamı qanına qəltan etmişdi. Hərbi paraxoddan şəhər top atəşinə tutulmuşdu. Lənkərana ticarət işinə gedən Məşədi Qasım, Məşədi Şirəli, Kərbəlayı Nurulla və Hacı Axund qırğını görüb geri qayıtmışdılar. Atılan mərmi məscidin bir

tərəfini qoparmış, Abuzər Ağababa oğlu uşağı ilə gülləyə tuş gəlib həlak olmuş, Kərbəlayı Səfərəli Cabbar oğlunu buğda və düyü tayaları üstündə vurmuş, evini yandırmışdılar. Köməyə gələn Kərbəlayı Güləliyə də aman verilməmiş, amansızcasına qətlə yetirilmişdi. Dərzi Musanın evinin ətrafında isə 8 nəfəri güllə ilə vurmuşdular. Uşaqlara, qadınlara belə rəhm edilməmişdi. Qaynar samovarı adamların belinə bağlayır, yeriməyə məcbur edirdilər. İki gün ərzində Gərmətükdə 7 nəfər öldürülmüşdü.

Mirzə Nüsrət Molla Heydər oğlu Əsədullayevin dediklərindən:

- Erməni daşnakları Xəzər donanmasındakı rus matroslarını da qırğına cəlb etmişdilər. Kəndimiz və digər yaşayış məntəqələri dəniz tərəfindən "Aleksandr Jander" deyilən gəmidən top atəşinə tutulmuşdu. Ağsaqqallar Hacı Ağabalaya deyirlər ki, sən rus dilini bilirsən, get onlarla danış, gör nə istəyirlər.

Hacı Ağabala ağ parçanı qaldırır, qayıq göndərib onu gəmiyə gətirirlər. Şıvkunov da onların arasında olur. Hacı Ağabala gəlişinin məqsədini açıqlayıb soruşur ki, düşməniniz kimdir, tutub sizə verək, camaatı qırğına verməyin. Cavabları bu olur ki, camaatın hamısı bizim ümumi düşmənimizdir.

Tədqiqatçı-müəllim Musarza Mirzəyev yazır ki, dağlı qaçaqlardan biri qəbiristanlıqdan Gərmətük kəndinin yaxınlığında olan çayın sahilində dayanmış denikinçi əsgərlərə atəş açır, əsgərlərdən biri ölür. Qəzəblənmiş denikinçilər bunun gərmətüklülər tərəfindən edildiyini güman edərək kəndi top atəşinə tuturlar.

Tarix müəllimi Əlibala Nurullayev danışır ki, denikinçi rus və erməni əsgərləri kənddə axtarış apararkən Ləlayev Balağa İsmayıl oğlunun evində gizlənmiş 7 nəfər cavanı yerindəcə güllələyir, onun həyat yoldaşı ərinə tərəf qaçarkən qadını da vəhşicəsinə öldürürlər.

Şıvkunov el arasında hörməti, nüfuzu olanları aradan götürməkdən həzz alırdı. İstefada olan qvardiya polkovniki Mirməhəmmədrza xan (Miri bəy) Mirfərəculla bəy oğlu Talışxanovu təkcə Veravul kəndində deyil, ətraf yaşayış məntəqələrində də yaxşı tanıyırdılar. Təqaüddə olan müəllim Vaqif Cavadov nənəsi Miri bəyin qızı Mirşərəf xanımın söylədiklərinə əsaslanaraq danışardı:

- Nənəm deyərdi ki, yay günü həyətimizə bir əsgər girdi. Həyəcanlı idi, atama dedi ki, Şıvkunov səni öldürəcək, aradan çıxmaq lazımdır. Atam adam göndərib Mirmusa xanı çağırtdırdı. Mirmusa gələn kimi ona dedi ki, uşaqları da götür dəmirağac meşəsində gizlən. Şıvkunovun əsgərləri meşəyə girməyə qorxurlar.

Mirmusa xan dedi ki, onsuz getməyəcəklər.

- Şıvkunov harada olsam məni tapacaq. Siz aradan çıxın, mənə görə başqaları əziyyət çəkməsin. Həyatımın çoxunu yaşamışam.

Danışırlar ki, yaraqlı bir dəstə atlı həyət qapısında görünəndə Miri bəy "Quran" oxuyurmuş. Çox keçmədən alov kəndin üstünü alır. Miri bəy son nəfəsinədək Şıvkunovu sülhə, ədalətə, Allahın qəzəbindən qorxmağa çağırıbmış. Şıvkunov isə Miri bəyin sözlərini qulaq ardına vuraraq, onu amansızcasına qətlə yetirmişdir.

Başından dəyən güllədən Miri bəy otağın ortasında "Quran"ın üstünə yıxılmışdı. Alnında qılınc yarası da vardı.

Denikinçi rus və erməni əsgərlərinin qərargahı qəzanın Şıxəkəran kəndində Sadıq Əvəz oğlunun evində yerləşirdi. Mamusta kənd sakini Şahmirzə Cəfərov o illərin canlı şahididir. Onun dediklərindən: "Rus denikinçi əsgərlərindən ikisi kəşfiyyata çıxmışdı. Qaçaqlar onlardan birini öldürmüş, birini yaralamışdılar. Bundan qəzəblənən denikinçi və erməni əsgərləri kəndimizə girib talançılığa başladılar. Çoxumuz Mamusta ilə Xolmili arasındakı meşəyə çəkildik. Atam Bəhram Cəfər oğlu bu faciənin qurbanı oldu. Onun qulağını kəsib, gözünü çıxartdıqdan sonra yandırmışdılar".

Kəndin tarixinə yaxşı bələd olan və dünyaya bu kənddə göz açmış müharibə veteranı, kəndin ilk ali təhsilli müəllimi Şükür Şükürov:

- Çoxdanın söhbətidir, onda hələ İkinci Dünya müharibəsi başlamamışdı, kənddəki məktəbdə oxuyurdum. Bir dəfə o illərin hadisələri ilə bağlı Cavahir Abdullayevanı sorğu-suala tutanda ağlamağa başladı. Anam mənə acıqlandı. Demə, silahlı əsgərlər kənddə axtarış apararkən Qurbanovların evinin yanında Cavahiri yaxalayırlar. Nəhmət kişinin oğlanları Məmmədhəsən, Məmmədhüseyn, həmçinin Bəhram Cəfərov, Mənsim Əliyev, İsaq Cəfərov, Hacıəli Əliyev və daha bir neçə nəfər qızın köməyinə gəlir və onu qaçırdırlar. Cavahir xəndək içi ilə kəndin şərq tərəfinə - Qoçasələ meşəliyinə tərəf üz tutur. Denikinçi rus və erməni əsgərləri - cavanları Paşa Mikayıl oğlunun dərz-çəltik komasına salaraq yandırırlar. Əbülhəsən Əkbər oğlu Hümmətovu qılıncla doğrayırlar. Davud müəllimin atası meşə yolu ilə evinə gələrkən onu qanına qəltan görür. Ağagül Əlihəsən oğlu və daha bir neçə mamustalı da bu faciənin qurbanı olur. Bundan sonra kəndə od vurub yandırırlar.

Müəllim İman Əliyev də o illəri yaxşı xatırlayır: "Şıvkunovun quldur dəstələri qəzanın hər yerində qanlı cinayətlər törətmişlər. Onlar adamları, nüfuzlu şəxsləri aradan götürməklə kifayətlənmir, var-dövlətlərini aparır və evlərə od vururdular. Lənkəranın bir çox kəndlərində olduğu kimi, şəhərin özündə də qanlı qırğınlar olmuşdur. Mayakın ətrafında yüzlərlə adam öldürülmüşdür. İtlər onların cəmdəyini torpaqdan çıxartmışdı. Müsəlman qaydası ilə onları basdırdılar".

Dəhşətli faciələr Nuru Paşanın rəhbərlik etdiyi Qafqaza İslam Ordusu Azərbaycana gələn günədək davam etmişdir. Lənkəran qəzasına gələn dəstəyə isə Camal Paşa rəhbərlik edirdi.

Qəzanın dağlıq-meşə hissəsi ilə Astaraya gələn türk sərkərdəsi Camal Paşa silahsız camaatın köməyinə çatdı. Onun qərargahı Lənkəran şəhərinin 4 kilometrliyində olan Gərmətük kəndində Güləli Cabbar oğlunun evində yerləşirdi.

Tədqiqatçılar türk qoşunu Lənkərana gəlməmişdən əvvəl orada "Müəllim və müəllimlərin türklərlə birliyi haqqında ittifaq"ın yaradılmasını xəbər verirlər. Onun üzvləri qəzada müxtəlif tədbirlər keçirmiş, toplanmış vəsait fonda köçürülmüşdür. 1919-cu il aprel ayının 4-də türklərin şərəfinə verilən konsertdə 100 min manat toplanması haqqında məlumat da vardır.

Məlumdur ki, 1917-1920-ci illərdə Lənkəran qəzasında ictimai-siyasi vəziyyət daha da gərginləşmiş, tez-tez hakimiyyət dəyişiklikləri baş vermişdir. 1918-ci ilin aprel ayının 19-da Lənkəranda hakimiyyəti ələ keçirən bolşeviklər denikinçilərin təzyiqinə davam gətirməmiş, həmin ilin avqust ayında məğlub olmuşlar.

Həmin dövrdə ingilislərin dayağı, milliyyətcə erməni olan polkovnik Avetisov və Makarovun qoşun hissələri Lənkəranda meydan sulayırdılar. Onlar general Tomsonun adamları idilər. Tarix elmləri doktoru Firudin Əsədovun araşdırmalarında Makarovun 5 min nəfərlik birləşmiş qoşunla 1918-ci ilin dekabrında Lənkərana daxil olması bildirilir.

Lənkəran ziyalıları faciənin qarşısını almağa cəhdlər göstərirdilər. Yadellilərin vəhşiliyindən cana gəlmiş camaat dövrün tanınmış ziyalılarından olan Teymur bəy Bayraməlibəyovu Nuru Paşanın yanına göndərirlər. Lənkəran ziyalıları Nuru Paşaya göndərdikləri məktubda yazırdılar: "Avetisov Lənkəranda ermənilərdən ibarət tərəfdarlar toplamışdır. O, lənkəranlı Əkbər Qəribovun, Xəlil Nəcəfqulu oğlunun evinə basqın edib, evdəki qiymətli şeyləri aparmışdır. Belə biabırçılığa türk oğlu, müsəlman dözə bilməz. Xahiş edirik kömək göstərəsiniz".

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də elan olunmasına baxmayaraq, 1919-cu il avqustun 12-dək Lənkəran qəzasında öz hakimiyyətini qura bilməmişdi. Köməyə gələn Camal Paşanın dəstəsində 300-500 nəfərə qədər döyüşçü vardı. O, deyərmiş ki, gavur gülləsi mənə dəyməz. Amma 1920-ci ilin dekabrında bir nəfər Astaranın Kələdəhnə yaxınlığında Camal Paşanı güllə ilə vurur. Camal Paşanın dəfni haqqında müxtəlif fərziyyələr vardır. Yüz yaşlı Murtuza Mirzəyevin dediyinə görə, Camal Paşa Astaranın Pensər kənd məscidinin həyətində basdırılıb. Qocaman müəllim Əbülqasım Qasımov isə danışardı ki, Camal Paşanın cənazəsi Türkiyəyə aparılıb.

O qanlı-qadalı illərdə qadınlar da erməni daşnakları ilə mübarizə aparmış, hünər göstərmişlər. Rayonun Tükəvilə kəndindən Vəsmicahan Məmmədova, Veravul kəndindən Səkinə xanım əllərinə silah götürüb yaşadıqları kəndi quldurlardan qorumuşlar. Tükəvilə kəndindəki özünümüdafiə dəstələrindən birinə Vəsmicahan Məmmədova rəhbərlik etmişdir.

O dövrdə Lənkəranda yaradılmış Fövqəladə İstintaq Komissiyası baş vermiş qanlı faciəni araşdırmağa çalışsa da, sovet hakimiyyəti buna imkan verməmişdir.

**Mirhaşım TALIŞLI,**
**Lənkəran Dövlət Universitetinin müəllimi,**
**filologiya elmləri namizədi**

**Etibar ƏHƏDOV,**
**Lənkəranda çıxan "Aşkarlıq" qəzetinin baş redaktoru**

**“Azərbaycan”.-**2012.-31 mart.-N 68.-S.8.

**Soyqırım xatirələrin dili ilə…**

**Soyqırım və deportasiya siyasəti xalqımıza ağır maddi və mənəvi zərbələr vurmuş, onun tarixi yaddaşında silinməz izlər buraxmışdır. Bütünlükdə, iki milyona yaxın azərbaycanlı başqa millətdən olan insanlara, qonşu xalqlara nifrət və təcavüz ideologiyası və psixologiyası üzərində qurulmuş mənfur erməni siyasətinin fəlakət və dəhşətlərini öz taleyində yaşamışdır.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Ulu öndərimiz Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı" haqqında 1998-ci il 26 mart tarixli fərmanından sonra XX əsrdə ermənilərin İrəvan quberniyasında, Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Zəngəzur qəzalarında törətdikləri etnik təmizləmə, deportasiya və soyqırım siyasəti kimi çox ağır cinayətlərinə dair Azərbaycanda, eləcə də Naxçıvan MR Dövlət arxivində çoxlu sənədlər aşkar edilərək üzə çıxarılmış və olduğu kimi xalqımıza çatdırılması işi bu gün də davam etdirilir.

Xüsusən XX əsrin 1918-1920-ci illərində ermənilərin azərbaycanlılara qarşı soyqırımı hərbi təcavüzlərə qarşı aparılan mübarizə haqda olan sənədlərlə yanaşı, həmin dövrün qanlı hadisələrinin canlı şahidi olmuş yüzlərlə insanların xatirələri də arxivdə mühafizə edilir.

Həmin xatirələrdən biri mərhum maarifçi Qasım Hacı oğlu Tağıyevə məxsusdur. Q.Tağıyev xatirələrində yazır: "1918-ci ilin aprel ayının 28-də Naxçıvan ərazisinə belə bir xəbər yayıldı ki, daşnakların lideri Andranik Ohanyanın vəhşi alayı İrəvandan Naxçıvan üzərinə hərəkət etməyə başlamışdır.

O, əvvəl öz qoşunu ilə Culfadan İrana keçdi. Onun məqsədi Bağdada gedib, orada ingilis orduları ilə birləşmək və daşnak partiyasının qərarı ilə "dənizdən- dənizə" dövlət yaratmaq idi. Lakin Andranik Xoyda türklərin müqavimətinə rast gəlir və geri qayıtmağa məcbur olur. 1918-ci ilin may ayının 28-də Andranik Ohanyanın vəhşi alayı Yaycı kəndini, iyun ayının 20-nədək olan müddətdə isə Əbrəqunus zonasında Ərəzin, Camaldın, Qızılca, Kirna, Bənəniyar, Saltaq, Noraşen, Xoşkeşin, Xanağa kəndlərini, Ordubad zonasında Düyülün, Gilançay, Üstüpü, Sunbatan-Dizə, Kərimqulu-Dizə, Bilov, Bührüd, Tivi kəndlərini, Naxçıvan zonasından Qahab, Sirab, Zeynəddin, Qara-qala kəndlərini dağıtdı.

Uzun müddət çarın zülmünə qarşı qaçaq olan Tivili Süleyman dəstəsilə Andranikin əmri ilə yandırıldı, Saltaq kəndində 30 nəfər cavan oğlan bir evdə yandırıldı. Andranikin zabitləri bir çox adamları yanar təndirə tökürdü. Bir çoxlarının dalına qaynar samovar bağladılar və hamilə qadınların qarnını nizə ilə deşdilər.

Andranik bir çox yerləri xarabazar etdikdən sonra Naxçıvan şəhərinə gəldi. Andranik bütün qüvvəni toplayıb Nehrəm kəndinə zərbə vurmaq istəyirdi. Bu məqsədlə o, Nehrəmin yaxınlığında olan Güznüt kəndini (bu kənd daşnak partiyasının sədri Nijdenin kəndi idi) özünə qərargah etdi. Andranik Nehrəmə məktub göndərib təslim olmağı tələb etdi. Lakin nehrəmlilər təslim olmayacaqlarını bildirdilər.

1918-ci ilin iyun ayının 23-də sübh tezdən Andranikin vəhşi alayı Nehrəm üzərinə hücum etdi. Kərbəlayı Muxtarın başçılığı ilə nehrəmlilər Andranikə qarşı rəşadətlə vuruşdular, iyunun 23-dən 25-dək kənddə əlbəyaxa vuruşma oldu. Silahı olmayan adamlar balta, xəncər və şişlə vuruşurdular. 15 yaşdan yuxarı cavanlar, habelə qocalar da qəhrəmanlıqla vuruşurdular. Nəhayət, Andranik Nehrəmdə çox itki verdi və məğlub oldu.

Nehrəm məğlubiyyətindən sonra Andranik türklərin Naxçıvana gəlməsi ilə əlaqədar Zəngəzura doğru hərəkət etdi…

1918-ci ilin oktyabr ayının 16-da Antanta qoşunları tərəfindən Türkiyənin bir çox şəhərləri, o cümlədən İstanbul şəhəri alındıqdan sonra türk qoşunları İran ərazisindən qayıdıb Türkiyəyə doğru hərəkət etdilər. Xəlil bəy isə Türkiyənin baş valisi kimi Naxçıvanda qaldı…

Daşnaklar Şərur və Vedibasar istiqamətlərində hücuma keçmişdilər. 1918-ci ilin oktyabr ayında gərgin vuruşmalar gedirdi. Kalbalı xanın başçılığı ilə Dəhnədə, Abbasqulu bəy Şadliniskinin başçılığı ilə Vedi dağlarında daşnaklara ciddi müqavimət göstərilirdi. Dəhnədə daşnaklara zərbə vuran Naxçıvanın mərd oğulları haqqında belə bir nəğmə dillərin əzbəri idi.

Keçdi hücuma Xarazyan,
Dəhnədə od yağdı bir an,
Naxçıvanın igidləri,
Düşmənə vermədi aman.

Arpa çayı axmam deyir,
Ətrafını yıxmam deyir

Naxçıvanın igidləri,
Bu dəhnədən çıxmam deyir.

1918-ci ilin oktyabr ayının 20-də başda general Tomson olmaqla ingilislər Naxçıvana gəldi. Antanta dövlətləri daşnak partiyasının müttəfiqi idi. Ona görə Antantanın başçısı olan ingilislər daşnakları müdafiə edirdilər.

1918-ci ilin oktyabr ayının 30-da Naxçıvan əhalisini "xırda bağın" qabağına topladılar. General Tomson nitq söyləyib dedi ki, "Naxçıvan danışıqsız daşnak hökumətinə təslim olmalıdır". Daşnakların baş valisi Varşamyan Naxçıvanda hökmranlıq etməyə başladı. Bu zaman Azərbaycan Xalq Cümhuriyyətinin baş valisi Cəmilinski də Naxçıvanda idi.

Beləliklə, Naxçıvanda dördhakimiyyətlilik davam edir. Araz Respublikası hökuməti, Türkiyənin baş valisi Xəlil bəy, daşnakların baş valisi Varşamyan və Azərbaycan müsavat hökumətinin baş valisi Cəmilinski hakimiyyətlik edirdilər…

1919-cu ilin mart ayının 3-də Naxçıvanda daşnaklara qarşı üsyan başlandı. Üsyanda ətraf kəndlərin silahlı dəstələri də iştirak edirdi. Üsyançılarla daşnak ordusu arasında bir neçə gün şiddətli vuruşma oldu. Hümmət qrupunun Naxçıvan "Ülfət" məclisi tərəfindən ayrıca bölmə yaradılmışdı. Bu bölməninəksəriyyəti gənclərdən ibarət idi. Mən də orada iştirak edirdim. Lakin ingilis generalı Tomsonun əli ilə üsyan vəhşicəsinə yatırıldı.

1919-cu ilin mart ayının 15-də Azərbaycan hökuməti tərəfindən Kuybişevin rəhbərliyi ilə 11 nəfər Naxçıvana gəldi. Onlar Naxçıvanda memorandum keçirmək istəyirdilər. İstəyirdilər bu vasitə ilə müəyyən etsinlər ki, əhali daşnak hökumətini istəyir və yaxud Azərbaycan hökumətini. Bu əhvalatdan xəbər tutan ingilis generalı Tomson Kuybişevə 24 saat müddətində Naxçıvan ərazisini tərk etməyi əmr etdi. Kuybişev dərhal həmin 11 nəfərlə birlikdə Naxçıvandan çıxıb getməyə məcbur oldu. Beləliklə memorandum keçirmək mümkün olmadı.

1919-cu ilin mart ayının axırlarında ingilis generalı Tomson Naxçıvandan getdi. İngilis ordusunun mayoru Qibbel və kapitan Lauton aprel ayının axırınadək Naxçıvanda qaldı.

1919-cu ilin mart ayının 30-da Naxçıvanın bir sıra yerlərinə intibahnamələr yapışdırılmışdı. Bu intibahnamələr "Hümmət" qrupunun Naxçıvan "Ülfət" məclisi tərəfindən ingilislərə qarşı yazılmışdı. Burada deyilirdi: "Ey Naxçıvan əhli, ey naimlər! Bir qəflət cəhvarəsinin cəhalət yuxusundan ayılın, görün qoca ananızın sinəsində kimlər at oynadır".

1919-cu ilin aprel ayının 27-də ingilislər Naxçıvan ərazisindən tamamilə çıxıb getdilər. Lakin daşnakların vəhşilikləri və özbaşınalıqları davam edir və əhali arasında böyük narazılıqlar törədirdi.

1919-cu ilin iyun ayının 2-də daşnak ordusunun polkovniki Poqosov Nehrəm kəndinə gəlib, nehrəmlilərin silahlarını tələb etdi. Nehrəmlilər nəinki silah vermədilər, hətta polkovnik Poqosovu və onun 60 nəfər əsgərini tərksilah edib saxladılar. Həmin gün nehrəmlilər Naxçıvan şəhərində daşnak hökumətinə qarşı üsyana başladılar. Bu üsyana bütün ətraf kəndlərin və Naxçıvan şəhərinin əhalisi qoşuldu. Üsyan iyun ayının 2-dən 6-dək davam etdi. Nəhayət daşnaklar Naxçıvan ərazisini tərk etməyə məcbur oldular.

1919-cu ilin avqust ayının 18-də başda polkovnik Rey olmaqla Amerika silahlı müdaxiləçiləri Naxçıvana gəldi. Amerikanlar öz nüfuzlarını artırmaq məqsədilə Naxçıvanda "Piryurd" uşaq evi təşkil etdilər. Uşaq evinin müdiri Behbud bəy Şaxtaxtlı oldu. Behbud bəy Şaxtaxtlı inqilabçı idi.

Qasım Tağıyev xatirələrində yazır ki, 1920-ci ilin aprel ayının 28-də Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Gəncədə bolşeviklərə qarşı vuruşmada məğlub olmuş Müsavat generalı Həbib bəy Səlimov öz alayı ilə 1920-ci ilin may ayının 28-də Naxçıvana (İran vasitəsilə) gəldi. O, əvvəl öz silahlı qüvvəsini Nehrəmdə yerləşdirdi.

Həbib bəy Səlimov öz alayı ilə Naxçıvan şəhərinə daxil olub, Kalbalı xan ilə birləşdi. Bunların hər ikisinin başlıca məqsədi bolşeviklərə müqavimət göstərmək idi. 1920-ci ilin iyun ayının 29-da Naxçıvan şəhərində mitinq təşkil edildi. Bu mitinqdə Kalbalı xan çıxış edərək dedi: "İndi daşnaklar bizim üçün o qədər də qorxulu deyildir. Bizim üçün ən qorxulu düşmən Zəngəzur dağlarından gələn bolşeviklərdir – Qızıl Ordudur."

Andranikin Nehrəmə hücumu haqqında Nehrəm taborunun iştirakçısı və qırmızı partizan Heydərqulu Həsənov öz xatirələrində yazır: "Andranikin qoşunları ilə əsas döyüş İmamzada tərəfdə gedirdi. Andranik cəhd edirdi ki, Nehrəm kəndinin kənarından keçib, Təzəkənddə toplaşan 300 nəfərlik daşnak silahlı dəstəsi ilə birləşsin. Lakin nehrəmlilər buna imkan vermirdi. Yaxşı silahlanmış dəstələrimiz, tabor komandanı Kərbəlayi Muxtar əlində mauzer, kəhər atın belində məhəllələri gəzir, əhalini döyüşə qaldırır, atəş nöqtələrinə patron, çörək, su çatdırırdı".

Qeyd edək ki, Andranikin ilk təcavüzü Naxçıvan qəzasının Araz çayı kənarında yerləşən Yaycı və Aşağı Aza kəndləri olmuşdur. Ermənilər Yaycı kəndində 4000 nəfərdən çox müsəlman əhalisini qırmışlar. Yaycı kənd sakini V. Hüseynov xatirələrində yazır: "Xalqımıza qarşı ermənilər tərəfindən 1918-ci ildə törədilən soyqırımı bizim kəndimizdən, o cümlədən bizim ailəmizdən də yan keçməmişdir. Həmin vaxt sübh tezdən kəndimizə

hücum edən erməni yaraqlıları gecənin qaranlığında qarşılarına nə çıxırdısa, vurub dağıdır, qocalar və uşaqları xəncərdən keçirir, başılarını kəsirdilər.

Həmin gecə yüzlərlə ağbircək anaların saçları qana bulandı, igid oğulların başı diri-diri kəsildi, gözləri çıxarıldı, dilsiz körpələrin bədəni güllələrlə deşik-deşik edildi. Gözləri qızmış, insan qanı içməkdən doymayan erməni daşnakları mənim anamı, dörd qardaşımı, iki bacımı vəhşicəsinə öldürərək Araz çayına tökdülər. Bəli, ermənilərin törətdikləri belə vəhşilikləri saymaqla qurtarmaz".

1918-1920-ci illərdə erməni daşnaklarının azərbaycanlılara qarşı vəhşiliklərinin canlı şahidi olmuş Gorus kənd sakini Həsən Hüseyn oğlu İbrahimov xatirələrində isə belə yazır: "Rusiyada çar hökuməti devrilən vaxt mən Bakıda fəhlə işləyirdim. Gecələr xəlvətə düşdükcə müsəlmanları öldürüb salırdılar neft quyularına. O vaxt 50-60 fəhlə bir mənzildə yaşayırdı. Gecə yatıb, səhər dururduq ki, bir və ya iki fəhlə yoldaşımız yoxdur. İşi belə gördükdə 4 nəfər kəndlimiz gəldik vağzala bilet almağa. Nə zülmünən bilet aldıq. Yolda nə qədər əziyyət çəkdik, daşnaklar pulumuzu əlimizdən aldılar. Birtəhər evimizə gəldik. Sisiyanda və Zəngəzurda müsəlman kəndləri çox idi. Ancaq gediş-gəliş kəsilmişdi. Durlus, Qaragilə, Pul, Şəki, Şunar, Məliklər, Darabası, Şam kəndlərini Nijdenin qoşunları dağıtdı. Bizim kəndlərin bir tərəfi Naxçıvana açıqdır. 5 kənddir: Şıxlar, Dəstəkar, Alışkar, Püsən və Murxuz.

1918-ci ildə dağlara o qədər qar yağdı ki, qar əlindən tərpəşmək mümkün olmadı. Daşnaklar qarın çoxluğundan istifadə edərək Şıxlar kəndinə öz nümayəndələrini göndərdilər ki, təslim olaq və silahlarımızı yığaq verək, əgər təslim olmasaq müharibə başlayacaq. Ağsaqqallar başqa çarə tapmayıb 50-60 silah yığıb təhvil verdilər, təslim olduq.

Andranikin də bu tərəflərə gəlişi ilə onsuz da qara günlərimiz çoxaldı. Horadiz, Ərəfsə, Çomartlı, Urud, Ağudu, Vağadı kəndlərini dağıtdılar.

1919-cu ilin mart ayında daşnaklar məni də tutdular. Poruçik əsgərlərə əmr etdi ki, bunu aparın tez rahatlayın, gəlin. Əsgərlər şaşqalarını sivirdilər. Gecə saat 11 olardı. Məni kənd içi ilə aparırdılar. Kəndin qırağında uca divarlı bir bağça var idi. Biz ora yaxınlaşanda boğuq səslər eşitdik: "Siz Allah, doğramayın, güllə ilə vurun". Demə, bu öldürülənlər Alışar kəndindən olan 5 nəfər cavan oğlan imiş. Bunlar məni də həmin yerə aparmaq, qılıncla doğramaq istəyirmişlər. Vəhşilik o həddə çatmışdı ki, ermənilər bizə güllə ilə olan ölümü də çox görür, qılıncla doğrayıb əzabımızdan həzz almağı üstün tuturdular.

Mən birdən qaçdım. Qaçıb qurtarmağa heç ümidim yox idi. Fikrim bu idi ki, doğramasınlar, arxadan güllə ilə vursunlar. Onlar silaha əl atana kimi qaçıb girdim söyüdlüyə, sağ qalmağım da, azad olmağım da bir möcüzə idi".

Andranikin həyata keçirdiyi vəhşilikləri ilə bağlı tank qoşunları polkovniki, Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayev xatirələrində göstərir ki, "Çətin illər bir-birini ötüb keçirdi, kənddə vəziyyət son dərəcə ağır idi. 1918-ci ildə Ermənistanda ağalıq edən general Andranikin menşevik daşnak qoşunları ermənilərlə azərbaycanlılar arasında milli ədavəti qızışdırır, özbaşınalıq edirdilər. Onlar bizim Xaçınqaza (Ermənistanda kənd adıdır) da gəldilər.

Silahlı kişilər dağlara çəkilir, kənddə qalan uşaqlar, qadınlar, qocalar dəhşətli təhqir və zorakılığa məruz qalırdılar.

Andranikin atlıları azərbaycanlı arvad-uşaqları kəndin kənarına qovub, güllələyirdilər. Dodağımda və əlimdə olan çapıq yerləri mənə o günləri xatırladır. Mən diri-diri meyitlərin altında basdırılmışdım. Çox əzab-əziyyətlə bu dəhşətli ölümdən xilas olub, dağlarda gizlənən anamın və qardaşlarımın yanına yollandım".

"Qırmızı tabor" da erməni daşnaklarına qarşı 1918-1920-ci illərdə vuruşan və Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə qırmızı partizan adını alan Məmmədəli Mehdiyev xatirələrində yazır:" Andranik qoşunu ilə əvvəlcə Dərələyəz mahalından bu tərəfə hərəkət etdi. Naxçıvana gəlməmişdən qabaq Sisiyan rayonunda olan bütün Azərbaycan kəndlərinin əhalisini qırdı. Canını qurtaran əhali Naxçıvana çatdılar. Erməni daşnakları kəndləri dağıdıb evləri, mal-qaranı talan etdi. Sonra Andranik Naxçıvana keçdi.

Zəngəzurdan (Sisiyandan) qayıdarkən Andranik mövqeyini Naxçıvanda möhkəmləndirir. O, öz qərargahını Güznüt kəndində yerləşdirir. Sonra ermənilər Naxçıvanın Qoşadizə, Şəkərabad, Qahab, Zeynəddin, Sirab, Yeniyoldizə, Qara-qala və digər kəndlərinə hücum edib əhalini qırır, kəndləri talan edir, evləri yandırırlar.

Əlacsız qalaraq Sirab dağına pənah gətirib ora toplaşan 460 nəfər kişi, qadın, uşaq daşnaqlar tərəfindən öldürülür. Əhalinin bir hissəsini məscidə toplayıb onları diri-diri yandırmaq fikrində olarkən vəziyyət dəyişir, geri çəkilməli olurlar. Məscidə toplanmış adamlar məscidin qapısını sındırıb qaçırlar.

Sonra Andranikin qoşunları Əbrəqunus bölgəsinə hücuma keçib Bənəniyar, Saltax, Noraşen, Kırna, Camaldın, Ərəfsə, Ləkətağ və digər kəndlərin əhalisini qırır və kəndləri yandırıb, mal-heyvanı, ev əşyalarını talan edir. Canını qurtarmış kənd əhalisi Xanağa qalasına toplaşıb özünü müdafiə edir".

Tivi kənd sakini Şahvələd Tağıyev isə xatirələrində belə yazır: "1918-ci ilin iyun-iyul aylarında Tivi, Bist, Parağa, Nəsirvaz, Xurs, Nürküt kəndlərindən ağsaqqallar barışıq əldə etmək, orada olan ziddiyətlərin aradan götürülməsi üçün Tivi kəndinə toplaşmışlar. Bu ərəfədə Çənnəb və Tivi kəndlərinə daşnaqların böyük bir

dəstəsi gəlmişdi. Daşnaqların başçıları Çənnəb kəndində qalmışdı, ikinci dəstənin başında Əbrəqunus sakini Hayrik dururdu.

Hayrik əlli altı kəndin nümayəndələrini, o cümlədən Süleymanı yanına çağırıb dilə tutmuş və “biz sizinlə həmişəlik dost olacayıq”,–deyə onu aldatmışdı. Kəndin Sürcü massivində qonaqlıq təşkil edilmiş, bu zaman kəndin adlı-sanlı adamlarının hamısı o yığıncaqda iştirak etmədiyindən Hayrik hiylə işlədərək söhbətlərini ikinci günə saxlamışdır ki, bütün adlı-sanlı adamları bir yerə toplayıb qırdırsın.

Hayrik Süleymanla çox mehriban danışmış, balaca oğluna üstəlik olaraq bir ədəd naqan bağışlamışdır.

Bu zaman Tivi kəndinin əhalisi yaxınlıqda daldalanaraq kəndə girməyə qorxurdular. Hayrik Tivi kənd əhli Əsədov İbiş adlı bir nəfəri Tivi camaatının yerləşdiyi yerə göndərərək barışmaq üçün gəlmələrini bildirmişdi.

Süleyman camaata xəbər verir ki, Hayrikin dəstəsi barışıq üçün gəlib. Heç bir başqa fikir olmayacaq, yığışın gedək kəndə. Lakin kənd əhalisindən, Bağırov Xanvələd və digərləri getməyi məsləhət görməmiş, daşnaqlar hiylə işlədir–söyləmişlər.

Hayrik artıq dərəcədə Süleymana dil tökdüyündər o, başına 16 nəfər toplayıb kəndə gedib. Hayrik həmin 16 nəfəri kəndin Narzan suyunun qırağında başına toplamış, dilə tutmuş və Süleymana keçən gün verdiyi sözü bir daha təkrar etdikdən sonra Süleymanın hansı evdə yaşamasını soruşmuş və camaatı şübhədən çıxarmaq üçün onun evinə getməyi qərara almışdır.

Nəhayət, 16 nəfəri hiylə ilə Süleymanın yaşadığı evə gətirmişlər. Onları Süleymanın otağına yığdıqdan sonra Hayrik Süleymandan soruşmuşdur ki, siz neçə il qaçaq olmusunuz. O, 16 il qaçaq olduğunu bildirdikdə Hayrik kinayəli bir surətdə gülmüşdür.

Artıq gec idi. Süleyman İsmayılov və onun yoldaşlarını tam silahsız vəziyyətdə böyük vəhşiliklə öldürmüşlər. Süleymangili çağırmağa gedən İbiş Əsədovu isə sağ buraxmışlar. Kəndin böyük məscidini odlamışlar. Süleymanın evini və öldürülənləri yandırmışlar.

Süleymanla birlikdə güllələnənlər bunlar olmuşdur: İsmayılov Məmmədalı (Süleymanın qardaşı), Pirişov Məmmədxan, Cəfərov Adıgözəl, Sultanəliyev Dünyamalı, Allahverdiyev Məhəmməd, Hüseynov Ələsgər, Təhməz Əliqulu oğlu, Əliyev Həsən, Məşədəli və digərləri.

Sədərək kənd sakini Fatma Kalbalayi Rza qızı Nəsirovanın dediklərindən: “…1918-ci ildə ermənilər Yanıqda müsəlmanları vəhşicəsinə qırıb-çatmağa başladılar. O vaxtlar maşın olmadığı üçün biz birbaşa Sədərəyə gələ bilmədik, birtəhər Qədili və Qaraxəç kəndlərinə çatıb orada müvəqqəti sığınacaq tapdıq. Ancaq bu kəndlərdə də qalmaq mümkün olmadı. Bir gün xəbər çıxdı ki, ermənilər kəndə gəlib adamları yığırlar…. Əvvəlcə inanmadıq. Az sonra kənddəki say-seçmə adamları bir-bir evindən çağırıb harasa aparırdılar. Atamı da çağırdılar, bir daha geri qayıtmadı. Axşam hava qaralana yaxın kənddə, demək olar ki, adam qalmamışdı. Qız-gəlini böyük bir dama, kişiləri ayrı dama toplamışdılar. Hamısına da əli silahlı ermənilər keşik çəkirdi. Mənim 10-12 yaşım olduğu üçün qocalar və uşaqlarla bir yerdə idim. Bəlkə də bizim qaça bilməyəcəyimizi güman etdiklərindən bizə nəzarət edən az idi. Gecənin bir aləmində yanımızdakı qocalardan hansısa nə yollasa damın arxasından divarı yarıb çıxmaq üçün bir yol aça bildi. Bizi iki-iki, üç-üç bayıra çıxarıb zülmət qaranlıqda üzü aşağı Sədərəyə, Şərura tərəf yolu göstərib qaçıb qurtarmağı tapşırırdılar. Şaxtalı gecədə qarlı dağ yolları ilə hayana gedəcəyimizi bilməsək də, erməni zülmündən qurtarmaq üçün son nəfəsimizə qədər qaçmağa məcbur idik… Sədərək istiqamətində qaçsaq da, səhər hava işıqlanana yaxın gəlib Vediyə çata bildik. Yolda mən Nəsir əmimin oğlu Hüseyni də tapa bilmişdim. Vedidə ikimizi bir evə apardılar. Qarın və şaxtanın təsirindən soyuq olmasın deyə ayaqlarımıza və əllərimizə xına çəkdilər. Sonra bizi gətirib Sədərəkdə əmim Kalba Mahmuda verdilər. Beləcə Yanıqda yaşayan böyük bir tayfadan cəmi 2 uşaq qurtulub Sədərəyə gəldik. Sonralar öyrəndik ki, ermənilər 5 qardaşımı, əmimi, əmimin oğlanlarını, atamı, anamı, qardaşlarımın və əmim oğlanlarının ailə üzvlərini, bir sözlə, ordakı qohum-əqrabalarımızın hamısını yandırıb vəhşicəsinə məhv ediblər. Ermənilər bir gecədə qohumlarımızdan 49 nəfəri məhv etdi…”

Ermənilərin Naxçıvan, Şərur-Dərələyəz, Ordubad, Zəngəzur qəzalarında, həmçinin İrəvan quberniyasında vəhşilikləri ilə bağlı xatirələrlə yanaşı Vedi taboru, Qırmızı taborun komandanı Abbasqulu bəy Şadlinski və onun silahdaşlarının erməni daşnaklarına qarşı apardıqları qəhrəmanlıqları barədə də xatirələr vardır.

**Fəxrəddin Cəfərov,**
Naxçıvan MR Arxiv İdarəsinin rəisi,
tarix üzrə fəlsəfə doktoru.

**“Respublika”.-**2012.-31 mart.-N 68.-S.7.

**1918-1920-ci illərdə Ağbaba və Şörəyel nahiyələrində ermənilərin törətdikləri soyqırımı**

1918-1920-ci illərdə erməni silahlı dəstələri tərəfindən Bakı, Gəncə və İrəvan quberniyalarında, Qars vilayətində 1000-ə yaxın yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyondan artıq türk-müsəlman əhalisi öz tarixi-etnik torpaqlarından didərgin salınmışdır. Bu yazıda ermənilərin 1918-20-ci illərdə Qars vilayətinin Şörəyel və Ağbaba nahiyələrində törətdikləri soyqırımdan bəhs edilir.

XIX əsrin əvvəllərində rus qoşunlarının Şimali Azərbaycan xanlıqlarını işğalından sonra İrəvan xanlığı ilə həmsərhəd olan Qars paşalığı Azərbaycan türklərinin ən çox sığındıqları bölgə halına gəlmişdi. 1877-78-ci illər rus-türk müharibəsi nəticəsində Qars paşalığının Rusiyanın tabeçiliyinə keçməsindən sonra müsəlmanların həmin ərazidən sıxışdırılıb çıxarılması, onların əvəzində ermənilərin və rus sektantlarının məskunlaşdırılması siyasəti yeridilsə də, Qars vilayətinin əhalisinin əksəriyyətini yenə də müsəlmanlar təşkil edirdi. Qars vilayəti Ərdahan, Qars, Qağızman və Oltu qəzalarına bölünmüşdü və 800-dən artıq yaşayış məntəqəsini əhatə edirdi. Qars qəzasına Ağbaba, Zərşad, Qars, Soğanlıq və Şörəyel nahiyələri daxil idi. Ağbaba və Şörəyel nahiyələri Arpa çayın sağ sahilində yerləşir, şərqdən Aleksandropol (Gümrü) qəzası ilə, şimaldan isə Gürcüstanla həmsərhəd idilər.

1917-ci ildə Ağbaba nahiyəsində mövcud olan 39 kənddən yalnız ikisində ermənilər, Şörəyel nahiyəsində isə 59 kənddən 24-də ermənilər və molokanlar yaşayırdılar. Ermənilər və molokanlar Şörəyeldə 1877-ci il rus işğalından sonra məskunlaşdırılmışdılar.

Həmin ilin noyabrında Rusiyada baş verən dövlət çevrilişindən sonra Qarsın işğaldan azad olunması şansı yaranmışdı. Lakin Şərqi Anadoludan geri çəkilən rus ordusunun silahlarına sahib olan erməni silahlı dəstələri işğal altında olan ərazilərdə müsəlmanlara qarşı kütləvi qırğınlar törədir, "Daşnaksütyün" partiyasının etnik təmizləmə siyasətini həyata keçirirdilər. Dekabrın 16-da Rusiya Xalq Komissarları Soveti Stepan Şaumyanı Qafqaz işləri üzrə fövqəladə komissar təyin etmişdi. Sovet hökuməti dekabrın 29-da "Türkiyə Ermənistanı haqqında" dekret qəbul etmişdi. Bu dekret Türkiyə ərazisində özlərinə dövlət yaratmaq üçün ermənilərin iştahını artırmışdı.

1918-ci il fevralın 12-də türk ordusu ermənilərin Şərqi Anadoluda törətdikləri qırğınlara son qoymaq üçün əks hücuma keçmişdi. Erməni qaniçənləri Andranik, Hamazasp, Dro və Njdehin silahlı qüvvələri türk qoşunlarının əks hücumuna tab gətirməyərək geri çəkildikcə, müsəlman yaşayış məntəqələrini talan edir, əhalisini soyqırıma məruz qoyurdular. Erməni qoşunları əsasən Qars-Gümrü dəmiryol xətti boyunca geri çəkilirdi. Dəmiryol xətti Şörəyel nahiyəsinin ərazisindən keçdiyi üçün həmin bölgədə yerləşən müsəlman kəndlərində kütləvi qırğınlar törədilmişdi.

Erməni silahlılarının törətdikləri qırğınların miqyası o həddə çatmışdı ki, Zaqafqaziya Seyminin müsəlman fraksiyaları aprelin 15-də Qars vilayətində yaranan ağır vəziyyəti müzakirə etmək məcburiyyətində qalmışdı. Müzakirənin protokolunda yazılır: "Qaçqın yunanlar xəbər verirlər ki, hücum edən türk qoşunlarının qarşısından çəkilən erməni hərbi hissələri və silahlı fərariləri yollarda rast gəldikləri müsəlman kəndlərini tam məhv edir, hər şeyi yandırır, əhalini qılıncdan keçirir, təsvir edilməsi mümkün olmayan vəhşiliklər törədirlər. Onlar qadınları lüt-üryan edir, süngülərə keçirilmiş südəmər körpələri hərbi qənimət kimi aparan "qalib" erməni qoşunlarının keçməli olduğu böyük yolların kənarına düzürdülər". Yunanlar deyirlər: "Gərək qeyri-insani əsəblərin ola ki, bu cəhənnəm əzabını, dəlilik dərəcəsinə çatdırılmış qadınların və uşaqların qəlbi dağlayan naləsini, köməksiz qocaların iniltilərini eşidə və dözə biləsən... Təxmini hesablamalara görə 82 kənd təsvirolunmaz dağıntılara məruz qalmışdır. Çiçəklənən Qars vilayəti kapitan Movsesyanın və general Areşovun dəstəsinin vəhşi tüğyanı sayəsində indi təəssüf ki, 1915-ci ilin əvvəlindəki dəhşətləri xatırladır. İndi bütün Qars vilayəti törədilmiş qəddar vəhşiliklərdən, həmişəlik insanlıq sifətini itirmiş ermənilərin riyakarlığından, vəhşiliyindən və alçaqlığından xəbər verən nəhəng qəbiristanlığa çevrilib." (ARDA, f. 970, siy. 1, iş 1, v. 28-29).

Türk ordusunun şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşanın "Soykırım Yalanı: Ermeni Mezalimi, 1917-20 Arasında Erzincandan Erivana" (İstanbul, 2005) kitabında ermənilərin törətdikləri kütləvi qırğınlar sənədlərin dili ilə qələmə alınmışdır. K.Qarabəkir Paşa yazır ki, türk qoşunlarının erməniləri Qarsda

mühasirəyə almaqdan və onları təqib etməkdən vaz keçməsinə baxmayaraq yenə də ermənilər razılığı pozaraq şəhərdə qırğınlar törətmişdilər. "Aprelin 25-də axşam Qarsı geri aldıq. Şəhəri dolaşdım. Hər tərəf yanır, stansiyada yüzə qədər əsir əsgərimiz işgəncə ilə öldürülmüşdü. Qarsı Müdafiə Komandanlığı dairəsinin 20 metr qərbində (kiçik hövzədə) Qars çayına atılmış 50-yə qədər müsəlmanın cəsədini tapdıq." Müəllif daha sonra yazır ki, 1918-ci il mayın 1-də yüzə qədər erməni atlısı Şiştəpə və Düzkənd ətrafında (indiki Amasiya rayonunun ərazisində) 60 uşaq, qadın və kişini öldürmüşlər.

Brest-Litovsk müqaviləsinə (3 mart 1918-ci il) əsasən Üç Sancaqda (Batum, Qars, Ərdahan) plebisit (rəy sorğusu) keçirmək qərara alınmışdı. İyunun 12-də keçirilən plebistin nəticələrinə görə, bölgələrin əhalisi, o cümlədən də Ağbaba və Şörəyel nahiyələrinin əhalisi yenidən Türkiyəyə birləşmək arzusunu ifadə etmişdi. Səsvermənin nəticələrini İstanbula təqdim etmək üçün nümayəndə heyəti göndərilmişdi. Ağbaba nahiyəsini Köhnə İbiş kəndinən olan və bölgədə böyük nüfuz sahibi olan Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd ağa təmsil etmişdi. Heyət avqustun 15-də VI Sultan Vahidəddin tərəfindən Dolmabaxça sarayında qəbul edilmişdi. Bundan sonra, bütövlükdə Qars vilayətində olduğu kimi, Ağbaba və Şörəyelin qaçqın əhalisi də tədricən öz yerlərinə qayıtmışdı.

Birinci Dünya müharibəsində məğlubiyyət nəticəsində bağlanan Mudros sazişinin (30 oktyabr 1918-ci il) şərtlərinə əsasən, Türkiyə öz qoşunlarını 1914-cü il sərhədlərinə geri çəkməli olur. Geri çəkilən türk qoşunlarının komandanı Yaqub Şevki paşanın məsləhəti ilə türk zabitlərinin bir qismi Qars vilayətində qalıb yerli özünümüdafiə dəstələrinin təşkili və əhalinin silahlandırılması ilə məşğul olurdular.

Türk qoşunları geri çəkildikdən sonra bölgəyə nəzarət ingilis qoşunlarının əlinə keçir. Lakin ermənilər fürsətdən istifadə edib silah gücünə həmin ərazilərə sahib çıxmaq istəyirdilər.

1918-ci il oktyabrın 29-da Axıska bölgəsində Ömər Faiq Nemanzadənin başçılığı ilə Axıska Müvəqqəti Hökuməti qurulur. Noyabrın 3-də isə Naxçıvan qəzasını və İrəvan quberniyasının cənub hissəsini birləşdirən ərazidə Əmir bəy Əkbərzadənin başçılığı ilə Araz-Türk Hökuməti yaradılır. Bundan iki gün sonra Qarsda Piroğlu Fəxrəddin bəyin başçılığı ilə Qars İslam Şurası qurulur. Noyabrın 14-də Birinci Qars Konqresi keçirilir. Bölgələrin milli şuralarının rəhbərlərinin qatıldığı Konqresdə Dağ Borçalının Kəpənəkçi kəndındən olan Emin ağa (Borçalinski) hökumət funksiyasını yerinə yetirən Qars Milli İslam Şurasına sədr seçilir.

İdarəçilikdəki pərakəndəliyə son qoymaq, ermənilərin və gürcülərin bölgəyə hücumlarının qarşısını almaq üçün silahlı qüvvələrin bir əldən idarə olunmasına nail olmaq məqsədilə noyabrın 30-da Naxçıvan, Ordubad, Qəmərli, Sürməlı (İqdır), Şörəyel, Axıska, Axılkələk, və Batum bölgələrindən gələn 60 nəfərlik nümayəndə heyətinin iştirakı ilə 2-ci Qars Konqresi keçirilir. Üç gün davam edən bu konqresdə Batumdan Ordubada qədər ərazidə Qars Milli İslam Şurası Hökumətinin qurulduğu elan edilir. On iki nəfərlik hökumət rəisliyinə əslən Gümrü şəhərindən olan İbrahim bəy Cahangirzadə (Cahangirov) seçilir. İ.Cahangirzadə əvvəllər rus ordusunun zabiti olmuşdu və Araz-Türk Hökumətinin hərbi naziri kimi bölgə əhalisinin silahlandırılmasına və özünümüdafiə batalyonlarının təşkil edilməsinə rəhbərlik etmişdi. Noyabrın 30-da keçirilən 2-ci Qars Konqresində həmçinin Parlament funksiyasını icra edən Mərkəz Müməssisləri Heyəti seçilir.

2-ci Qars konqresinə qədər Ağbaba və Şörəyel Milli Şuraları təşkil edilmişdi. Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd ağa Şuranın sədri və konqresə nümayəndə seçilmişdi.

Ağbaba Milli Şurası bölgə əhalisini erməni hücumlarından qorumaq üçün yerli səfərbərlik həyata keçirmiş və Ağbaba süvari alayı təşkil edilmişdi. Belə qayda qoyulmuşdu ki, əsgər verə bilməyən ailələr bir tüfəngin pulunu və bir at, yaxud bir inək verməli idilər. Bu qaydaya əməl etməyənlər ciddi cəzalandırılmışdılar.

Geri çəkilən türk ordusunun zabiti yüzbaşı Xurşud bəy Ağbabada qalıb, könüllü dəstələrin təlimi vəzifəsini öz üzərinə götürmüşdü. Ağbaba süvari alayı ermənilərə qarşı mücadilə edəcək bir gücə sahib olmuşdu.

1919-cu il yanvarın 13-də ingilis generalı Biç Qarsa gələrək, Ermənistan hökumətinin Stepan Korqanovu Qars vilayətinin başçısı təyin etdiyini bildirmişdi. Milli Şura hökumətinin rəhbərləri ingilis generalına bəyan etmişdilər ki, bölgə əhalisinin 85%-i türklərdən ibarətdir və vilayətin rəhbərliyinə erməninin təyin edilməsi Vilson prinsiplərinə ziddir. Bundan sonra general Biç Milli Şura hökumətini tanıdığını bildirmiş və Gümrüyə qayıtmışdı.

1919-cu il yanvarın 17-18-də 131 nümayəndənin iştirak etdiyi 3-cü Qars konqresi hökumətin adını dəyişdirərək Müvakkata-i Milliyyəsi adlandırır. 18 maddədən ibarət Anayasa (Konstitusiya) qəbul olunur.

Cümhuriyyətin 40 min kvadratkilometr ərazisi, 1,7 milyon nəfər (1,5 milyonu türk-müsəlman) əhalisi var idi. Dövlət dili olaraq türk dili qəbul olunmuşdu. Üçrəngli (ağ, yaşıl və qara), ay-ulduzlu bayrağı qəbul olunmuşdu. Batumda həftədə üç dəfə çıxan "Sədayi millət" qəzeti hökumətin rəsmi orqanı idi.

Cənubi-Qərbi Qafqaz Hökuməti 1919-cu il yanvarın 27-də Azərbaycan hökumətinə müraciət etmiş, ondan hərbi təlimlər keçmək üçün zabitlər, məmurlar və pul istəmişdi.

Martın 25-də Cənubi-Qərbi Qafqaz Hökuməti öz müstəqilliyini elan etmiş və özünü Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti (CQQC) adlandırmışdı.

Həmin dövrdə Qars vilayətində siyasi partiyalar fəaliyyət göstərmədiyindən 65 bitərəf deputatdan ibarət parlament təsis edilmişdi. Doktor Əsəd bəy Hacıyev (Əsəd bəy Oktay) parlamentin sədri seçilmişdi.

Naxçıvan və Qarabağın mənsubiyyəti məsələsində olduğu kimi, Cənub-Qərbi Qafqaza münasibətdə də ingilislər ikili oyun oynayırdılar. Ermənistan daxili işlər naziri və hökumətin başçısı A.Xatisov aprelin 6-da Tiflisdə general Tomsonla görüşmüş, Qars vilayətinin, Şərur-Dərələyəzin və Naxçıvan qəzalarının və Sürməli qəzasının Ermənistanın idarəçiliyinə verilməsi məsələsini müzakirə etmişdilər. Həmin görüşdə Qars Milli Şurasının məsələsi ciddi müzakirə olunmuşdu. Tomson bildirmişdi ki, 10 gündən sonra general Mil gələcək və türklərə qarşı Ermənistanda və Qafqazda tədbirlər görüləcək.

Xatisov Tiflisdən qayıtdıqdan sonra Tomson Tiflisdən Ermənistan hökumətinin sədrinə göndərdiyi məktubda bildirirdi ki, aprelin sonunadək erməni qaçqınları Qarsa və Naxçıvana qayıtdıqdan sonra ingilis qoşunları Qarsdan və Naxçıvandan geri çağırılacaq, ingilis missiyası isə qalacaq. O, general Devinin hazırda Qarsda olduğunu bildirmiş, mayın 1-dək hər bir rayonda erməni administrasiyası təşkil edilməsi üçün lazımi miqdarda erməni qoşunlarının olmasını tövsiyə etmişdi. Tomson erməni qoşunlarının Qarsa çatmasınadək ingilislərin Qars Milli Şurasının öhdəsindən gələcəyini, bunun üçün iki zirehli qatarın böyük köməyi olacağını bildirirdi.

Gürcülər də üzdə ingilislər kimi ikili oyun oynayırdılar. Xatisov Tiflisdə olarkən aprelin 8-də Gürcüstanınn daxili işlər naziri N. Ramişvili ilə də görüşür. Tomsonun da iştirak etdiyi həmin görüşdə erməni əsgərləri üçün 3000 komplekt verilməsi, Qarsın və Naxçıvanın işğalı üçün paravozların və lazımi vasitələrin verilməsi, Denikinin yanına nümayəndələrin göndərilməsi razılaşdırılmşdı. Həmin vaxt Ermənistanla Gürcüstanın maraqlarının tamamilə üst-üstə düşdüyü nəzərə çarpır. Həmin görüşdə həmçinin Qarsın və Naxçıvanın tutulması planı müzakirə edilir. Ermənistanın hərbi naziri Araratovun Qarsın tutulması ilə bağlı Stepan Korqanova verdiyi xəritə üzərində plan müzakirə edilir.

Aprelin 9-da Xatisovun Bellə görüşündən sonra o, Qarsa gedir və ingilis komandanlığının Qarsın işğalı barədə təlimatını polkovnik Deviyə çatdırır. Bell Qarsdan Xatisova teleqram göndərir ki, hərbi nazirliyin nümayəndələri və general qubernator Qarsa getsinlər. Qars vilayətinin Ermənistanın tabeçiliyinə verilməsi üçün ingilis dəmiryol batalyonunun 2 rotası və stansiyanın mühafizəsi üçün hindlilərdən (indus) ibarət rota artıq göndərilmişdi. Həmin vaxt Qars vilayətində 3000 əsgər var idi.

Aprelin 12-də ingilislər ermənilərin arzusunu yerinə yetirərək Cənubi-Qərbi Qafqaz Cümhuriyyətinin parlament binasını mühasirəyə almış, 30 nəfər parlament üzvünü və hökumət nümayəndəsini həbs etmiş, baş nazir İbrahim bəy Cahangirov başda olmaqla 11 nəfəri Malta adasına sürgün etmək üçün Batuma göndərmişdilər. Bundan sonra CQQC-nin 12 bölgəsində milli şuralar yerli hökumətlər şəklində müstəqil fəaliyyət göstərirdilər. Ağbaba Milli Şurası yenə də Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd ağanın sədrliyi ilə öz işini davam etdirir.

Şörəyelin kəndlərinin böyük əksəriyyəti erməni qoşunları tərəfindən işğal edildiyi üçün Şörəyel Milli Şurası öz işini davam etdirə bilməmişdi. Milli Şuranın sədri Əsədulla İskəndərbəyov (Ağüzüm) Şörəyel faciəsinin miqyasını dünyaya çatdırmaq üçün Tiflisə getmiş, Azərbaycanın Gürcüstandakı daimi nümayəndəliyinin vasitəsilə müttəfiq dövlətlərin Qafqazdakı missiyalarının başçılarına müraciətlər etmiş, Tiflisdə dərc olunan qəzetlər vasitəsi ilə ermənilərin törətdikləri vəhşilikləri dünya ictimaiyyətini nəzərinə çatdırmağa çalışmışdı. Qars vilayətində törədilən erməni vəhşiliklərinin miqyasını xarici dövlətlərin nəzərinə çatdırmaq, qaçqınların problemlərini yüngülləşdirmək üçün 10 oktyabr 1919-cu ildə Tiflisdə " Qarslılar Həmyerlilər Cəmiyyəti" yaradılmışdı. Noyabr ayında Tiflisdə dərc olunan "Obnovlenie" qəzetində Qars vilayətində ermənilərin törətdikləri vəhşiliklər haqqında silsilə məqalələr dərc edilmişdi.

İngilislərin CQQC-ni süquta yetirməsindən dərhal sonra Ermənistan ordusunun 1-ci və 4-cü piyada polkları general Osipyansın komandanlığı altında, daşnak hökumətinin Qars valisi təyin etdiyi Stepan Korqanovla birlikdə respublikanın sərhdələrinə daxil olurlar. Aprelin 30-da daşnak hökuməti Qarsda öz fəaliyyətinə başlayır və qəza təşkilatlarını qurmaq üçün öz nümayəndələrini bölgələrə göndərir.

Bu zaman Qarsda Məşədi Səməd ağanın başçılığı ilə Korqanovun hakimiyyətini qəbul edən yeni oyuncaq Müsəlman Milli Şurası qurulur. Həmin şuranın üzvləri Qarsın nahiyələrini gəzərək yerli əhali arasında təbliğat aparırlar ki, silahları təhvil versinlər və Ermənistan hakimiyyətini tanısınlar.

Qubernator Stepan Korqanov CQQC hökumətinin üzvlərinin Malta adasına sürgün edilmələrindən xeyli müddət sonra da vilayətin bütün ərazisində idarəçiliyi öz əlinə ala bilməmişdi. Yerli müsəlman əhali onun təyin etdiyi nahiyə rəislərini yaxına buraxmır, erməni idarəçiliyini tanımaq istəmirdilər. Çünki ermənilər verdikləri vədlərə əməl etmir, əhalisi tərksilah olunan bölgə kəndlərini əhalisini müsəlmanlardan təmizləyir və onların mal-mülkünə sahib çıxırdılar.

1919-cu il oktyabrın 1-də qubernator S.Korqanov Ermənistan hökumətinin sədrinə ünvanladığı "Tam məxfi" qrifli məktubunda Ağbaba, Şörəyel, Zərşad bölgələrinin əhalisinin tamamilə "tatarlardan" (yəni azərbaycanlılardan-N.M.) ibarət olduğunu yazır və kütlənin arasında böyük həmrəyliyin mövcud olması səbəbindən bölgəni özünə tabe etdirməyin asan olmadığını qeyd edir. Korqanov Milli Şuranın keçmiş üzvü Məhəmməd Hacı Abbas oğlunun erməni idarəçiliyinə tabe olmamasından şikayətlənir. O, Məhəmməd Hacı Abbas oğluna yüksək vəzifə təklif etdiyini, lakin onun həmin təklifi bəyənmədiyini, könlündən həmin dağların hakimi olmağı keçirdiyini yazır. Korqanov həmin bölgələrdə şiələrlə sünnilərin qarışıq yaşadığını, Məhəmməd Hacı Abbas oğlunun şiə olduğu halda, sünnilərin də üzərində hakim olduğunu qeyd edir. "Parçala, hökm sür!" siyasəti yeritdiyini qeyd edən qubernator, məzhəb çatışması salmaq yolu ilə Məhəmməd Hacı Abbas oğlunu zəiflətmək yolunu tutduğunu, bunun üçün sünni əhalisi olan Dələver kəndinin imkanlı sahibkarı İsrafil Hacı Rüstəm oğlundan istifadə etdiyini yazır. O, sentyabrın 30-da ilk toqquşmanın baş tutduğunu və məzhəb çatışmasında hər iki tərəfdən 14 nəfərin öldüyünü və yaralandığını şadyanalıqla Ermənistan hökumətinə xəbər verir. (Vestnik Arxivov Armenii. №2 (106), Erevan, 2005, s. 25-26).

Şörəyel nahiyəsinin Ağbabaya bitişik kəndləri də Kərbalayi Məhəmməd ağanın döyüşçülərinin nəzarəti altında idi. Zərşad nahiyəsində də güclü özünümüdafiə dəstələri mövcud idi. Erməni hərbi hissələri bu nahiyələrdəki güclərlə üzbəüz döyüşlərdən ehtiyat edirdi. Ona görə də bu nahiyələri hər tərəfdən mühasirəyə alaraq onların xarici aləmlə əlaqələrini kəsmək istəyirdi. Erməni hərbi birlikləri bu nahiyələrin üzərinə 4 tərəfdən - Qars, Gümrü, Ərdahan və Gölə nahiyəsi tərəfdən hücuma hazırlaşırdı.1920-ci il yanvarın 28-də polkovnik Mazmanovun komandanlığı altında erməni hərbi hissəsi Çıldır nahiyəsinin Ərdahan istiqamətindəki kəndləri ələ keçirmişdi.

31 yanvar 1920-ci ildə Ağbaba Milli Şurasının Azərbaycanın Gürcüstandakı Daimi Nümayəndəliyinə göndərdiyi müraciətində deyilirdi ki, Qars vilayətinin Ərdahan qəzasında erməni əsgəri qüvvələri islamlar üzərinə hücum edərək şiddətli surətdə hərb açmış, Ağbaba, Zərşad və Şörəyel nahiyələrini mühasirə altına almışlar. Milli Şura "İslamların əhvalı qayət pərişan və təhlükəli olduğundan tez bir zamanda müavinətinizi istirham edəriz." - yazaraq yardım istəyirdi.

Fevralın 7-də Ağbaba nahiyəsinin kəndləri Qazançı kəndi istiqamətindən erməni artilleriyasının bombardmanına məruz qalır. Qaranamaz kəndində 6 qadın, 17 uşaq, 4 kişi öldürülür, 2 nəfər yaralanır. Balıqlı kəndinə atılan mərmilərnəticəsində 4 nəfər öldürülmüş, 2 nəfər yaralanmışdı.

Azərbaycanın Gürcüstandakı Diplomatik Nümayəndəliyinin arxiv sənədlərinin içərisində Kərbəlayi Məhəmməd ağaya, Məhəmməd bəy Qocayevə və Əsəd bəy Hacıyevə 13 fevral 1920-ci ildə verilən vəsiqənin surəti saxlanılır. Həmin sənəddə qeyd edilir ki, adları çəkilən şəxslər təcili olaraq Diplomatik Nümayəndəlik tərəfindən Bakıya ezam olunurlar ki, qaçqınlara yardım edilməsi məsələsini Himayəçilik Nazirliyi ilə müzakirə etsinlər. Sənəddə həmçinin dövlət orqanlarının nümayəndələrindən xahiş edilirdi ki, onların Bakıya çatmaları üçün yolda hər hansı maneçilik törədilməsin.

Qars vilayətində fəaliyyət göstərən milli şuralara yardım üçün Azərbaycan hökuməti Himayəçilik Nazirliyinin əməkdaşı İsmayıl Nəzərəliyevi kifayət qədər maddi vəsaitlə bölgəyə ezam etmişdi.1915-1917-ci illərdə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin əməkdaş kimi Qars vilayətində müharibədən zərər çəkən soydaşlarımıza yardım göstərilməsində fəal iştirak edən Nəzərəliyev bölgəni yaxşı tanıyırdı İsmayıl Nəzərəliyev

Azərbaycan hökumətinə göndərdiyi raportunda Ermənistan silahlı qüvvələrinin erməni hökumətini tanımayan Şörəyel, Ağbaba, Çıldır və Zərşad nahiyələrində törətdikləri qırğınların miqyası ətraflı şərh edilmişdir. Hesabatda göstərilir ki, yuxarıda adları çəkilən nahiyələrin nümayəndələrinin yardım üçün fevralın 10-da Bakıya getmələrindən sonra Osipyansın komandanlığı altında erməni silahlı qruplaşmaları Zərşad nahiyəsinin "işini bitirmiş", sonra isə Şörəyelin kəndlərinin üzərinə hücuma keçmişlər.

Ermənilər fevralın 14-15-də qarlı-boranlı günlərdə Şörəyelin Şahnalar, Qaraxan, Möküz, Aslanxana, Kinəy, İlanlı, Ağüzüm kəndlərinin sakinlərini qətlə yetirmiş, evlərini talan etmişdilər. Talanlarda erməni qadınları da iştirak edirlərmiş. Ermənilərin silahları təhvil vermək tələbini Şörəyelin yalnız Sedidli və Dilan kəndləri rədd etmişdilər. Fevralın 26-da ermənilər bu iki kəndi də bombalamışdılar. Daha sonra erməni quldurları silahlarını təhvil verən və Ermənistan hökumətini tanıdığını bəyan edən kəndləri bombalamağa başlamışdılar. Kiçik Qımılı, Böyük Qımılı, Molla Musa, Vartanlı, Bacıoğlu, Oxçoğlu, Məmmədabad, Aralıq, Qarakilsə kəndləri top atəşinə tutulmuşdu. Min nəfər əhalisi olan Aralıq kəndindən təkcə 11 nəfər qaçıb canını qurtara bilmişdi. Qarakilsə kəndindən sağ qurtulan 260 nəfəri əsir olaraq Gümrüyə aparmışdılar. Daha sonra Nəzərəliyev yazır ki, ermənilər martın ilk günlərində əvvəlcədən xəbərdar edilmədən Güllübulaq kəndini qəfildən bombalamağa başlamışlar. Kəndin sakinləri xeyli çox qurban verdikdən sonra malını, mülkünü buraxaraq canlarını götürüb qaçmışlar. İ.Nəzərəliyev həmin dövrdə Şörəyelin 28 kəndinin erməni vəhşiliyinin qurbanı olduğunu yazır.

Kazım Qarabəkir Paşa Türkiyə ordusunun Şərq cəbhəsi qərargahına 1920-ci il noyabrın 2-də göndərdiyi raportunda Korqanovun dövründə erməni komandanlarından Baratov və Mazmanovun əsgərlərinin top və pulemyotlarla Şörəyelin kəndlərində törətdikləri ğırğınlar barəsində yazırdı ki, Anidə 40, Tencarda 30, Daynalıqda 60, Qaraxanlıda 150, Qaradaşda 70, Ərginədə 40, Gülviranda 50, İncədərədə 30, Kəpənəkdə 80, Surlucada 100, Aslanlıda 40, Şahnalarda 220, Ağüzümdə 70, Qaraxanda 200, Şahnalarda 30, Söyüdlüdə18, Aralıqda 300, Keçiddə 30, Qarakilisədə 35, Hacıpiridə 30, Molla Musada 100, Kiçik Qımılıda 60, Bacoğlunda 50, Ağbulaqda 30, Vartanlıda 100, Qaraməmməddə 20, Oxçoğluda 150, Kiçik Qızıldaşda 20, Güllübulaqda 300, Böyük Qızıldaşda 100, Məmmədabadda 20, Cəbəcidə 150, Çaxmaqda 30, Mağaracıqda 100 evi viran qoymuş, əmlaklarını qarət etmiş, əhalisinin bir qismini qətl etmişlər.

Şörəyel faciəsini öz gözləri ilə görən Aşıq Qəhrəman həmin tükürpədici səhnəni belə təsvir etmişdi:

Məscid, mərək yanan insanla dolmuş,
Həpsi itə, qurda, quşa yem olmuş,
Neçə ocaq sönmüş, bir adı qalmış,
Sahibsiz vətənlər, insan qalmamış.

İrəvan quberniyası ərazisində qurulan daşnak hökumətinin törətdiyi qırğınlardan birtəhər qaçıb qurtulan azərbaycanlılar Qars vilayətinin 92 kəndində özlərinə sığınacaq tapmışdılar. Bu bədbəxt insanlar bir daha Qars vilayətində qırğınlara məruz qalmışdılar.

Ağbaba və Şörəyel özünümüdafiə dəstələrinin komandanı Kərbəlayi Məhəmməd ağanın çox gərgin məqamda bölgədən ayrılması vəziyyəti daha da ağırlaşdırmış, ermənilərin fəal hərəkətə keçməsinə təkan vermişdi. Onun Bakıya getməsini Məşədi Səmədin başçılığı ilə Qarsda təşkil edilən oyuncaq Milli Şura fərarilik kimi qələmə vermiş, yerlərə nümayəndələr göndərərək əhalin tərksilah olmağa və Korqanovun hakimiyyətini tanımağa çağırmışdı. Hətta Ermənistan hökumətinin Azərbaycan hökumətinə Şörəyel, Ağbaba və Zərşad nahiyələrində törədilən qırğınlarla bağlı göndərdiyi notasına Qarsdakı oyuncaq Milli Şuraya istinadən cavab olaraq bildirilirdi ki, bölgələrdən Bakıya gedən nümayəndələrin ermənilərin törətdikləri qırğınlar barədə söylədiklərinə və qəzetlərə verdikləri müsahibələrə inanmasınlar.

Kərbəlayi Məhəmməd ağa Bakıya getdiyi müddətdə milli Şuranın sədrliyi onun kiçik qardaşı, döyüşlərdə qəhrəmanlığı ad qazanan, adı ilə ermənilərin canına vahimə salan Mahmud ağaya həvalə edilmişdi. Lakin Mahmud ağanın siyasi səriştəsi az idi.

(əvvəli qəzetin 31 mart 2012-ci il tarixli sayında)

Ağbaba Milli Şurasının sədri Kərbalayi Məhəmməd ağa vaxtında qonşu Axılkələk və Axıska bölgələrindəki Gürcüstan hökumətinin nümayəndələri ilə sıx əlaqə qura bilmişdi. O, gürcü generallarına qızıl pul verərək onlardan silah-sursat alırdı. Ermənilərin aramsız hücumları o həddə çatmışdı ki, Ağbaba Milli Şurasının 20 fevral 1920-ci il tarixdə 35 kəndin nümayəndələrinin iştirakı ilə Təpəköy kəndində keçirilən

iclasında qərara alınmışdı ki, Ağbaba nahiyəsinin Gürcüstana birləşdirilməsi üçün Gürcüstan Respublikasının nümayəndələri ilə əlaqə qurulsun və bunun əlaqənin qurulması üçün iki nəfər səlahiyyətli nümayəndə seçilmişdi. Rus dilində tərtib edilən və əsli Azərbaycanın Gürcüstandakı Daimi Nümayəndəliyinin arxiv sənədləri içərisində saxlanılan "İcma qərarı"nın mətni belə idi:

***"İcma qərarı***
***20 fevral 1920-ci il. Təpəköy kəndi.***

*Biz, Ağbaba sahəsinin Amasiya, Daşkörpü, Mumuxan, Sınıx, Mağaracıq, Çaxmaq, Güllübulaq, Dələver, Cəbəçi, Qızıldaş, Düzkənd, İlanlı, Qaranamaz, Təzəkənd, Balıqlı, Göllü, Öksüz, Sultanabad, Təpəköy (böyük), Təpəköy (kiçik), Xançarlı, Güllücə, Elləroyuğu, Qarabulaq, Qızlıkilsə, Söyüdlü, Xozukənd, Baxçalı, Ördəkli, İbiş, Mustuxlu və Seldağılan kəndlərinin aşağıda imza edən sakinləri, səsvermə hüququna malik olan min dörd yüz əlli dörd (1454) ev sahibləri, bu gün tamamilə toplaşaraq Ağbaba Müsəlman Milli Şurasının sədri Mahmud Hacı Abbas oğlunun iştirakı ilə ermənilərlə bir arada və Ermənistan Respublikası hökumətinin tabeçiliyində yaşamağın mümkün olub-olmaması müzakirə edildi və nəzərə alındı ki, qonşu Şörəyel nahiyəsinin müsəlman kəndləri Ermənistan Respublikasının tabeçiliyini qəbul etmələrinə baxmayaraq, artilleriya bombardmanına, həm Ermənistan ordusu və administrasiyası, həm də erməni əhalisinin hər cür qeyri-qanuni zorakılıqlarına məruz qalmışlar. Ona görə belə qənaətə gəlmişik ki, Ağbaba nahiyəsi yalnız Gürcüstan ərazisinə birləşməklə müsəlman əhalisinin həyatını və əmlakını istənilən tərəfin qəsdindən qoruya bilər və buna görə də birsəslə qərara aldılar:*

*Öz aramızdan Xozukənd sakini Məşədi Rüstəm oğlunu və Qızıldaş kəndinin sakini Niftalı İbarahim Xəlil oğlunu seçərək onları vəkil edir və ixtiyar veririk ki, bizim Ağbaba nahiyəsinin Gürcüstanla birləşdirilməsi üçün Gürcüstan Respublikasının nümayəndələri ilə əlaqəyə girsinlər. Bir sözlə, adları çəkilən şəxsləri vəkil edirik ki, bizim ərazinin taleyini həll etmək üçün istənilən şəxslə əlaqəyə girsinlər və buna görə də imza edirik.*

*İmzalar:*
*İcma hökmünün həqiqiliyini möhür yanımda olmadığı üçün imzamla təsdiq edirəm:*
*Milli Şuranın sədri: Mahmud Hacı Abbas oğlu (imza).*
*Katib: Həsənov. (İmza)."*

26 fevral 1920-ci ildə Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan Xarici İşlər Nazirliyinə erməni silahlı birləşmələrinin Şörəyelin 12 kəndini darmadağın etməsi ilə əlaqədar etiraz teleqramı göndərmişdi. Fevralın 28-də Azərbaycan XİN Ermənistan qoşunlarının Şörəyel, Ağbaba, Çıldır və Zərşad nahiyələrinə hücumu ilə bağlı etiraz notası göndərmişdi. Ertəsi gün Azərbaycan XİN Fransa və İtaliyanın Qafqazdakı hərbi nümayəndəliyinə müraciət edərək Qarsda ermənilərin törətdikləri qırğınların qarşısının alınması üçün köməklik göstərmələrini istəmişdi.

Yanvar-fevral aylarında erməni silahlı qüvvələri Ağbabanı tam mühasirədə saxlamışdılar. Qarsdakı oyuncaq Milli Şuranın adından İsmail Əzizov adlı birisini Korqanov Ağbabaya göndərmişdi ki, əhalini tərksilah olmağa və Ermənistan hökumətinin tabeçiliyini qəbul etməyə razı salsın. Lakin Ağbaba Milli Şurası bu təklifi qəbul etməmişdi. 29 fevral 1920-ci ildə Ermənistan hökuməti adından Arpaçay xətti üzrə özünümüdafiə qüvvələrinin komandanı Saruxanovun imzası ilə Ağbaba nahiyəsinin əhalisinə müraciət etmişdi. Həmin müraciətdə deyilirdi: "Sizin nahiyənin əhalisinin tərksilah olunması və bütün məsələlərin sülh yolu ilə həll edilməsi məqsədilə İsmayıl Əzizov vasitəsi ilə danışıqlar aparılması üçün Ermənistan hökuməti tərəfindən nümayəndələr göndərilməsi barədə istəyinizlə bağlı ərz edirəm ki, Aleksandropol qrup qoşunlarının rəisi general Pirimovun, ikinci xüsusi briqadanın rəisi general Osepyanın və Əlahiddə atlı briqadasının rəisi general Xaçaturovun əmri ilə mən bu gün yuxarıda ərz edilən məqsədlə Erməni Şiştəpəsi kəndinə gəldim və ona görə də təklif edirəm ki, martın 1-də saat 12-də bütün kəndlərdən sizin nümayəndələri danışıqlar aparmaq üçün Şiştəpə kəndinə göndərəsiniz."

9 mart 1920-ci ildə Azərbaycan parlamentinin fövqəladə iclasında Qars vilayətində ermənilərin törətdikləri qırğınlar müzakirə edilmiş və bəyanat qəbul edilmişdi. Azərbaycan hökumətinə tapşırılmışdı ki, qırğınların qarşısının alınması və qaçqınların vəziyyətinin yüngülləşdirilməsi üçün lazım olan tədbirləri görsün.

O dövrün sənədləri göstərir ki, Azərbaycan hökuməti diplomatik yolla və qeyri vasitələrlə (hərbçilər və silah-sursat almaq üçün qızıl pul göndərməklə) Qars vilayətinə və o cümlədən ermənilərin işğal etdikləri və etmək istədikləri bölgələrə öz mümkün yardımını göstərmişdi.

İ.Nəzərəliyev Azərbaycan hökumətinə göndərdiyi raportunda göstərirdi ki, martın əvvəlində Şörəyel bütünlüklə, Zərşad nahiyəsinin 4 kəndi xaric qalan kəndləri tamamilə işğal edilmişdir. Ağbaba nahiyəsinin təmsilçiləri tərksilah olunmaq barədə erməni komandanı Saruxanovla danışıqlara başlamışdılar. Ermənilərlə savaş durumunda təkcə Çıldır nahiyəsi qalmışdı. İ.Nəzərələyev martın 9-da Ağbabaya getdiyini, bundan üç gün öncə isə Kərbəlayi Məhəmməd ağanın Bakıdan qayıtdığını yazır. O, Kərbəlayi Məhəmmədlə birlikdə keçmiş rus ordusunun zabiti polkovnik İsrafil bəy Yadigarovun və minbaşı Xurşud bəyin də Ağbabaya gəldiklərini qeyd edir. Həmin vaxtadək Ağbaba əhalisi ermənilərə 400-ə qədər silah təhvil vermiş, lakin ermənilərin 1500 tüfəng təhvil edilməsi tələbinin aparılan danışıqların şərtlərinə bağlmışdılar. İ.Nəzərəliyev yazır ki, erməni komandanlığı ağbabalılara martın 20-si gecə saat 12-dək silahların təhvil verilməsinə vaxt qoymuşdular. Həmin vaxt erməni silahlı birlikləri Zərşad istiqamətindən Çıldır nahiyəsinin kəndlərini işğal etməyə başlamışdılar. Martın 19-da erməni qoşunları Gümrünün şimalındakı mövqelərindən Ağbabanın ərazisinə daxil olur.

Lakin Azərbaycan hökumətinin yardımı ilə yenidən silahlandırılan Ağbaba və Çıldır nahiyələrini ələ keçirmək ermənilərə müyəssər olmur. Bölgənin qeyri-rəsmi olaraq neytral zonaya çevrildiyini söyləmək olar.

Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin xarici işlər naziri olmuş Fəxrəddin Ərdoğan xatirələrində bu haqda yazır: "Çıldırda doktor Əsəd bəy, Ağbabada Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd bəy əllərindəki qüvvətlərini gecə-gündüz çalışıb yerləşdirdikdən sonra bura ermənilərin girməsinə mane oldular. Ermənilər də buralarda qəza təşkilatlarını qurmaq üçün alay komandanı Marzmanovun idarəsində iki top, səkkiz ağır makinalı tüfənglə (pulemyot) bu qüvvətlər üzərinə hücuma başladı. Bu milli qüvvətlərimiz birləşərək Marzmanova qarşı çıxdılar. Marzmanov 50 ölü və bir ağır makinalı tüfəng buraxaraq çəkilməyə məcbur oldu".

Daha sonra F.Ərdoğan yazır ki, milli təşkilatlarımız erməniləri elə sıxışdırmışdılar ki, onlar "Böyük Ermənistan" xülyasından əl çəkib, kiçik qəzalarımızla barışıq əldə etmək məcburiyyətində qalmışdılar. Ağbaba və Çıldırla 8 maddəlik müqaviləni Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd və Qocaoğlu Məhəmməd bəy imzalamışdılar. Müqavilənin şərtləri belə idi ki, Arpaçay (Zərşad), Çıldır və Ağbaba qəzalarına ermənilər məmur göndərməyəcək, bu qəzaların xalqından əsgər istəməyəcək, tacirlər türk parası ilə sərbəstcə alış-veriş edəcək, bu qəzaların xalqı Gümrüdən istədikləri əşyaları ala biləcəklər. Bu müqaviləyə əməl edilməsi üçün hər iki tərəfdən üç nəfər girov müvafiq olaraq Ağbabada və Gümrüdə saxlanacaqlar.

F.Ərdoğanın yazdığına görə, bu müqaviləyə 1920-ci ilin oktyabr ayının 20-dək əməl edilmiş, Qarsın türk qoşunları tərəfindən azad edilməsini eşidən Gümrünün valisi Qaro Sasuni Çıldır və Ağbaba ilə bağlanan müqaviləyə əsasən Gümrüdə girov saxlanılan üç nəfəri yanına çağıraraq: "Artıq türk ordusu gəlir, sizinlə bizim aramızda düşmənlik ediləcək bir məsələ qalmadı, qüvvət türklərin əlindədir" - demiş və 8 atlı ilə onları Ağbabaya göndərmiş, bunun müqabilində üç erməni girovunu Gümrüyə gətirmişdilər.

Həmin dövrdə İranın yeritdiyi siyasət də xoşməramlı deyildi. İran istər İrəvan quberniyasında, istərsə də Qars vilayətində yaşayan və erməni zülmünə düçar olan əhalinin böyük əksəriyyətinin şiə məzhəbli olmalarından istifadə edərək onları əsasən Xoy və Səlmas əyalətlərinə köçürmək istəyirdi. İran bununla ucuz işçi qüvvəsi əldə etməyə çalışır, bütöv bir xalqın faciəsindən iqtisadi mənfəət güdürdü. İranın Gümrüdəki konsulluğunun əməkdaşları ermənilərin müşayiəti ilə Ağbaba və Şörəyelin kəndlərini gəzir, "şiri-xurşid" bayrağı altında onları İrana köçməyə təşviq edirdilər. Blokada şəraitində olan, erməni zülmündən birdəfəlik qurtulmaq istəyən ağbabalı və şörəyellilər verilən vədlərə inanaraq İrana köçməyə razı olmuşdular. 1920-ci ilin yayında Ağbaba və Şörəyelin kəndlərindən minlərlə araba "şiri-xurşid" bayrağı altında, Ermənistan rəsmilərinin müşaiyəti ilə Arpa çayın və Araz çayının sol sahili boyunca İrana doğru hərəkət etmişdilər. Köç karvanı iyulun ortalarında Noraşen ərazisinə çatmışdı.

"Slovo" qəzetində M.Soroçinskinin imzası ilə dərc edilən "Ermənistandan məktub" başlıqlı yazıda iyulun 17-nə olan vəziyyətlə bağlı bildirilirdi: "Noraşenin vəziyyətini Şaxtaxtıdan paromla İranın Əlisar məntəqəsinə keçmək üçün gözləyən 6 minə qədər ağbabalı müsəlman köçkünlər daha ağırlaşdırır. Bu məsələni Ermənistan daxili işlər nazirinin müavini Xrmoyanın nəzərinə çatdırdım. Bu vəziyyətin tezliklə aradan qaldıracağına ümid var." (10.09.1920, №206)

Lakin Arazdan İrana keçmək istəyən ağbabalıları dəhşətli faciə gözləyirdi. Erməni silahlı dəstələri gecə ikən qəfildən onlara silahlı hücum etmişdi. Sağ qalan və yeganə çıxış yolu kimi özünü çaya atmaqla canını qurtarmaq istəyən ağbabalıların çoxusu çayda boğularaq ölmüşdü. Əhalinin az bir qismi çayı keçə bilmişdi.

İranda isə onları hər cür təhqiredici və məşəqqətli həyat gözləyirdi. Yalnız Qars müqaviləsinin imzalanmasından sonra ağbabalıların az bir qismi öz əvvəlki yer-yurdlarına qayıda bilmişdi.

1920-ci ilin sentyabrında türk qoşunlarının Qarsı azad etməsi ərəfəsində Ağbabada ermənilərə qarşı üsyan qaldırılmışdı. Ermənistan hökumətinin üsyanı yatırmaq səyləri bir nəticə verməmişdi.

Türk qoşunları 1920-ci ilin oktyabrında Qarsı azad etdikdən sonra Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd ağanın 700 nəfərlik silahlı dəstəsi türk qoşunları ilə birgə Gümrünün azad edilməsində iştirak etmişdi.

1921-ci il Moskva və Qars müqavilələrinə əsasən, Türkiyə tərəfi Arpaçay rayonundan blokhauzları (çöldə tikilən hərbi hissə istehkamları) Gümrü-İrəvan dəmiryol xəttindən 8 verst məsafədə geri çəkmişdi. Sərhəd xətti Ağbaba dağlarından müəyyən edildiyindən Ağbabanın Köhnə İbiş, Bəzirgan, Dələver, Köhnə Qızıldaş, Cəbəci kəndləri Türkiyə tərəfdə qalmış, qalan ərazilər Ermənistana qatılmışdı. 1988-ci ilədək Ağbaba və Şörəyelin Ermənistan ərazisində qalan 22 kəndinin azərbaycanlı əhalisi öz ata-baba torpaqlarından növbəti dəfə deportasiyaya məruz qoyulmuşdur.

Ermənilərin 1918-1920-ci illərdə Qars vilayətində, o cümlədən də Ağbaba və Şörəyel nahiyələrində törətdikləri soyqırımla bağlı istər Azərbaycan, Gürcüstan və Rusiya, istərsə də Türkiyə arxivlərində və o dövrün mətbuatında kifayət qədər materiallar mövcuddur.

***Nazim MUSTAFA,***
***AMEA Tarix İnstitutunun elmi işçisi***
**“Xalq qəzeti”,** 31 mart, 1 aprel 2012-ci il.

**1905-ci ildə Tiflisdə türk-erməni qırğını**
**(Arxiv sənədləri və 1905-ci il dövri mətbuat yazıları əsasında)**

Səhər dan yeri ağarandan şəhərin türklər yaşayan hissəsində bəzi evlər yanmağa başlayır. Yanğın axşam saat 5-dən daha geniş miqyas alır və bu zaman Meydanda Vorontsov küçəsi ilə Krasilnı döngəsi arasındakı evlər, mağazalar və dükanlar yanıb külə dönür. Güllələnmək təhlükəsi olduğu üçün yanan obyektlərdən əşya və malları xilas etmək imkansız idi. Yanğınsöndürənlər taqımı iki dəfə hadisə yerinə getməyə cəhd göstərsə də revolver və tüfənglərdən açılan nizamsız atəşlər nəticəsində geri dönməyə məcbur olur və Sololakdan Meydana gedən yollara barrikadalar qurulduğu üçün yalnız axşam saat 9-da kazaklar və piyada əsgəri birliklərin əhatəsində Mnatsakanov körpüsü tərəfdən Meydana çata bilir. Yanğının Meydanın dağlıq hissəsindəki evlərə yayılmasının qarşısının alınması üçün dərhal təcili tədbirlər görülür. Yanğınsöndürənlər taqımı onlara köməklik göstərmək üçün yaradılmış könüllü yanğınsöndürənlər drujinası ilə birlikdə bütün gecəni işləyir. Onlara gecə saat 3-də yağan yağış da köməklik edir [4, №296].

Tiflis polismeysterinin qubernatora raportunda Meydanda yanğının Yegiazarovun Vorontsov küçəsində yerləşən evinin yandırılmasından sonra başlandığını, ermənilərin VII məhəllədən bu evi mütəmadi atəşə tutmaları və yanğınsöndürənlər taqımını hadisə yerinə buraxmamaları səbəbindən onun söndürülməsinin mümkün olmadığını yazırdı. Raportdan eyni zamanda o da məlum olur ki, VI məhəllənin pristavı türkləri nüfuzlu bəylər vasitəsilə atəşi dayandırmağa razı salsa da və türklər sözlərinə əməl edib atəşi dayandırsalar da, VII məhəllədən və Xarpux dağından ermənilər atəşi dayandırmırdılar [7, №249]. Türklərin atışmada iştirak etmədiyini “Tifliskiy listok” qəzeti də təsdiqləyirdi [5, №240].

Meydandakı yanğın barədə “İveriya” qəzeti bunları yazırdı:

“Günortaya qədər şəhərdə tam əmin-amanlıq idi, ancaq günorta şəhərin orta hissəsindən görünürdü ki, 6-cı polis məhəlləsində bir neçə evdə yanğın başlayıb. Çoxu elə düşünürdü ki, tatarlar ermənilərin bütün evlərini yandıracaqlar, amma axşam bəlli oldu ki, yalnız Vorontsov küçəsinin yaxınlığında 3 ev yandırılıb. Yanğını söndürmək üçün oraya yanğınsöndürənlər dəstəsi göndərildi. Tatarlar maneəçilik törətmədi, ancaq bir müddət sonra ordan-burdan atəş səsləri eşidildi və dəstə geri qayıtmağa məcbur oldu. Bir çoxu əmin idi ki, atışmanı tatar sakinlərin özü ilə çox əlaqələri olmayan qaçaq tatarlar başlayıb.

Çoxu ona da inanmırdı ki, evlərə tatarlar od veriblər, çünki 6-cı polis məhəlləsində xeyli erməni evi var və tatarlar onları yandırmaq istəsələr, onda hamısını yandırardılar” [3, №216].

Tiflis polismeysterinin Tiflis qubernatoruna yazdığı 6404 saylı raportda 29 noyabrda Surp-Sarkis küçəsində ermənilərin Hacı Hüseyn Bağırovun evini yandırdıqları və buradaca türklər tərəfindən tutulub öldürüldüyü, həmin gün Vorontsov küçəsinin “Tatar meydanı”na yaxın hissəsində Kostanov soyadlı erməninin evinin yandırılması və yanğın atəşinin Mirzəyev və Oskanovların evlərinə, Müqəddəs Yekaterina yunan kilsəsinə keçdiyi barədə məlumat verilirdi [1, f. 17, s. 2, iş №557, vv. 62-64].

Sonradan bəlli olur ki, yanğınlar zamanı şəhərin türklər sakin olan hissəsindəki Vorontsov küçəsində 6 ev (onlardan 3-ü iki mərtəbəli), Meydanda 10 ev, Krasilnı küçəsində 6 ev (onlardan 2-si iki mərtəbəli), Surp-Sarkis küçəsində Bağırov qardaşlarına məxsus 2 böyük ev, bundan başqa 40 dükan və Vorontsov küçəsində yunan kilsəsinin iç hissəsi yanmışdır [2, №2960; 4, №301]. **Yanan evlər arasında görkəmli ictimai xadim Əlimərdan bəy TOPÇUBAŞOVun evi də olur [4, №216]. GMTA-da saxlanan “”Daşnaksutyun” erməni inqilabi partiyasının şərq bürosuna dair”sənədlər toplusundan Ə. Topçubaşovun evinin Petxain küçəsi №28 ünvanında yerləşdiyini aşkar etməyə müvəffəq olduq.**

Bəzi mətbu orqanlar ermənilərin Meydanda yanğınları burada yerləşən müsəlman müdafiə mövqelərini zəiflətmək və bununla da məhəllənin içinə soxulmaq üçün törətdiklərini yazırdı.

29 noyabrda saat 11-də Verada tavad-aznaur (zadəgan) məktəbinin önündə gürcülərin şəhərdəki toqquşmalara həsr olunmuş mitinqi keçirilir.

29 noyabrda türk və erməni məhəllələrində atışmalar baş verməsə də, şəhərin digər məhəllələrində ermənilərin türklərə yönəlik silahlı təqibləri və vəhşilikləri davam edirdi.

Gündüz saat 12-də vağzaldan Korqanov konkasında gedən 10 türkə Nekrasov küçəsindəki vaqonların dayanacağında silahlı erməni güruhu hücum edir və onlara atəş açmağa başlayır. Türklər canlarını qurtarmaq üçün müxtəlif istiqamətlərə doğru qaçmağa başlasalar da hamısı buna müvəffəq olmur. Onlardan 2-si öldürülür biri Nikolayev meydanında, o biri isə Razyezjaya küçəsində, və meyitləri Didxev enişində Kür çayına atılır. Sağ çiynindən və əlindən yaralanmış Cənubi Azərbaycanlı Nağı Sadıx oğlu isə ermənilərin əlinə keçib öldürülməsin deyə özü çaya atılır və sağ qalır. Onu 8-ci məhəllənin ərazisində, Kür üstündəki dəyirmandan bir az aşağıda adları bəlli olmayan malakanlar sudan çıxarıb Mixail xəstəxanasına aparırlar [4, №296].

Bundan bir saat sonra Peska küçəsində daha bir türk öldürülür.

“İveriya” qəzeti həmin gün günorta saat 3-də ermənilərin Vorontsovun heykəli yaxınlığında tramvay vaqonlarında gedən 2 müsəlmanı öldürdüyünü və bu zaman bir gürcünün də yüngül şəkildə yaralandığını bildirərək öldürülmüş tatarların cəsədlərinin və yaralı gürcünün Mixail xəstəxanasına göndərildiyi barədə məlumat dərc edirdi [3, №215].

Türklərin öldürülməsi ilə nəticələnən yuxarıda göstərdiyimiz hər üç faktı arxiv sənədləri də təsdiq edir [1, f. 17, s. 2, iş №557].

Günün günorta çağı saat 3-də Nersesov və Russkaya küçələrinin kəsişməsində, “Tsnobis purtseli” qəzetinin redaksiyası qarşısında bu qəzetin əməkdaşlarının gözləri önündə baş vermiş bu yuxarıda qeyd olunan sonuncu vəhşi aksiya qəzetçilərin sərt təpkisinə səbəb olur və onlar tərəfindən “Daşnaksutyun” partiyasına qəddarlıqlara son verilməsi ilə bağlı aşağıdakı məzmunda qəti tələb ünvanlanır [2, №2960]:

**“Daşnaksutyun” partiyasının komitəsinə**

Dünən (29 noyabrda F.V.) bizim redaksiyanın qarşısında dəhşətli qətl hadisəsi baş verdi. İki tatar fəhləsi gizlənməyə çalışırdı y və çömbələrək gizlənirdilər. Bizim mətbəənin işçiləri bədbəxtləri çağırırdılar buraya gəlin, amma bu zaman erməni gözətçiləri (drujinaçılar nəzərdə tutulur F.V.) tatarları gördülər və atmağa başladılar. İki silahsız və ya adi bıçaqlarla silahlanmış tatarları ələ keçirmək asan idi, amma silahlanmış güruh yazıq fəhlələri rəhmsizcə öldürdü, öldürmək yetmədi, ruhsuz cəsədləri dəyənəklərlə və bıçaqlarla döyməyə başladılar, cəsədləri təhqir etdilər. Sonra “gözətçilər” cəsədin birini götürüb Kürə atdılar…

İyrənclik bundan uzağı gedə bilməz! Bu nə hadisədir? Biz dünən intibahnamələrlə müraciət edən və günahsız tatarlarla heç bir işləri olmadıqlarını bəyan edən “Daşnaksutyun”dan soruşuruq: Kimdirlər bu “gözətçilər”, hansılar ki, belə qətllər törədirlər?

Bu qanunsuzluğu görəndə və işə qarışanda, erməniləri sakitləşdirəndə və vəhşiliklərinə işarə vuranda, “gözətçilər” incidilər: Sizin nə işiniz var! Onda gərək əlimizi ürəyimizə qoyub oturaq və baxaq, necə gülə-gülə mənəviyyat və insansevərlik prinsiplərini tapdalayırlar?! “Gözətçi” revolverini onun üstünə şığıyan və “niyə adi adamları öldürürsünüz” deyən bir gürcü tələbəsinin ürəyinə dirədi; orada oturanlar ölçü götürmədiyiniz üçün, burada da bu iyrənclik olur… Bu nə deməkdir?

Bütün bunlar “Daşnaksutyun” partiyasının adı ilə baş verir. Onun intibahnamələri isə başqa şey deyir. Cavab! Birbaşa cavab! Bu bir. İkinci: bu cür iyrəncliyə təcili son qoyulsun!

“Daşnaksutyun” “Tsnobis purtseli” qəzetinin redaksiya üzvlərinə ünvanlandığı cavab bəyanatında özünü doğrultmağa və həmişə olduğu kimi yenə də fürsəti əldən verməyərək, gürcüləri və rusları da ermənilərin sıralarına qatıb türklər əleyhinə kökləməyə çalışırdı. Belə ki, bəyanatda daşnakların silahlı dəstələrinin əsas məqsədinin Borçalıdan Tiflisə üz tutan “vəhşi tatar güruhunun” qarşısını almaqdan ibarət olduğu ifadə olunurdu: “Bu 1300 Borçalı tatarı şəhərə girsə ermənilərin, gürcülərin və rusların axırı nə olardı. Xoşbəxtlikdən başqa təşkilatların və partiyaların köməyi ilə bunun qarşısı alındı” [2, №2963].

Erməni xislətini üzə qoyan və buna gürcülərin sərt və neqativ reaksiyasını göstərən daha bir fakta arxivdə və yenə də mətbuat səhifələrində rast gəlinir:

…Nəftluqda, Palavandov küçəsində sallaqxananın yanında “kişeçnı” zavodun sahibi olan Tiflis meşşanı (kiçik sahibkarı) Sarkis Mailov öz silahlı soydaşları ilə qonşuluqda yerləşən Məşədi İbrahim oğlunun “kişeçnı” zavodunu talan edib dağıdır. Bundan narahat olan Nəftluğun gürcü sakinləri yığılıb erməniyə müsəlmanın dağıdılmış karxanasını yenidən bərpa etməsi üçün ultimatum verirlər və əks təqdirdə ona qarşı repressiya tədbirləri görəcəkləri ilə hədələyirlər [1, f. 17, s. 2, iş №557, vv. 62-64; 6, №38; 5, 241].

Həmin gün düşmənçilik hərəkətləri baş vermiş rayonlardan kənarda 8-ci məhəllədə türklərin ermənilər tərəfdən zülmlə öldürülməsi ilə sonuclanan daha bir hadisə barədə “İveriya” qəzeti 2 dekabr sayında məlumat verirdi:

“6-cı polis məhəlləsində “Levis” papiros fabrikində və dəri fabrikində yanğın olanda daşnaksakanlar yolla gedən 4 dinc tatardan şübhələndilər və onları Çuğuretdəki kommersiya məktəbinin qarşısına aparıb revolverlərlə güllələməyə başladılar. İkisini yerindəcə öldürdülər, qalan ikisi isə qaçmağa başladı. Onlar Kukiya körpüsü ilə erməni bazarına qaçdılar. Qaçarkən arabir qışqırırdılar: “Öldürməyin, biz sizin qardaşlarınızıq, həmşəhərlilər”. Ancaq daşnaksakanlar onların sözlərini qulaqardına vurub yenə güllə atmağa başladılar, tatarlardan biri yerindəcə 10 güllə və bebutla öldürüldü, başından xəncərlə yaralanmış o birini isə itlər xilas etdi, öldürülmüş şəxs silahsız idi” [3, №217].

Bu fakt barədə “Kavkaz” və “Tsnobis purtseli” qəzetləri də məlumat verirdi. “Tsnobis purtseli” 1 dekabr 1905-ci il sayında “Tatarların öldürülməsi və yaralanması” başlığı altında yazırdı: “Bizim redaksiyanın qabağında öldürülən o iki tatardan savayı 29 noyabrda başqa-başqa yerlərdə də tatarları öldürüb-yaralayıblar. Kukiyada cəmi 12 tatar görüblər. Onlardan bəziləri Vorontsov küçəsində, bəziləri Riğe küçəsində, bəziləri isə Kommersiya məktəbinin yanında öldürülübdür. Cəmi 3-4 nəfəri xilas etmək mümkün olub”.

29 noyabr günorta saat 2-yə qədər 8-ci məhəllədən Mixail xəstəxanasına yaralı halda Artaş Kamalov, David Karnaşvili, Aram Kamalyan, Avetik Şahnazarov və Georgi Tsverelov, həmin xəstəxananın anatomiya

şöbəsinə (morquna) isə bir naməlum türkün və milliyyəti bəlli olmayan daha bir adamın meyiti gətirilir. Bunlardan başqa bu xəstəxanaya şəhərin türklər yaşayan hissəsindən də yaralılar Məmməd Əli İskəndər oğlu, Məşədi İsmayıl Mansur oğlu və Sadıx Əhməd oğlu çatdırılır [4, №295]. Bu müddət ərzində xəstəxanaya yerləşdirilmiş 5 yaralı ölür.

Həmin gün türk qiyafəsində bir erməni bombayla Şeytanbazara keçmək istəyir, ancaq türklər tərəfindən fərq edilərək həmin dəqiqə öldürülür [1, f. 17, s. 2, iş №557, vv. 62-64].

Kviraçxlov küçəsində məhəllə qoruyucuları bir nəfəri şübhəli bilib tuturlar. Həmin anda orada "Daşnaksutyunun" 2 milisi peyda olur. Bu daşnaklar deyirlər ki, tutulan şəxs xuliqandı və onu mütləq öldürməliyik. Ancaq qoruyucular qoymurlar və onu sosial-demokrat fəhlə partiyasının bürosuna aparacaqlarını söyləyirlər. Buna baxmayaraq, "Daşnaksutyun" milisi yenə də tutulan şəxsi güllə ilə öldürmək istəyir və çevrəsində olanlar bunun qarşısını almağa çalışanda güllə o biri daşnak milisinin ayağına dəyib onu yaralayır [3, №216].

Axşam saat 8-də V polis məhəlləsində Baqration və Muxran küçələrinin kəsişməsində, Qorqanovun binasında otuza yaxın erməni Məşədi Abbasəli Məşədi Əhməd oğlunun xırdavat malları dükanına soxulub onu qarət edir. Həyata keçirilmiş çevik axtarış tədbirləri nəticəsində qarətçilərdən dördü tez bir zamanda yaxalanır [3, №2 218].

Həmin gün gürcü ictimaiyyətinin yığıncağı keçirilir və Borçalı qəzasına göndərilməsi üçün yığıncaq iştirakçıları arasından səkkiz ziyalı seçilir. Onlar erməni özbaşınalıqlarına və zorakılıqlarına qarşı üsyan edən Borçalı türklərini sakitləşdirməli idilər. Bu nümayəndələri Borçalı yolçuluğunda dörd nüfuzlu türk bəyi, bir həkim, üç sanitar və silahlı mühafizə dəstəsi müşayiət etməli idi. Tavad-aznaurlar (gürcü zadəganları) bu səfərin gerçəkləşməsinə 30 tümən ayırırlar.

28 və 29 noyabrda Tiflisə nizami ordu birlikləri İrəvan leyb-qrenadyor alayının hissələri və Gürcü alayının qrenadyorları daxil olurlar. Eyni zamanda Qafqaz canişini qərar verir ki, sosial-demokrat fəhlə partiyasından silahlar geri alınsın. Drujinalar özlərinin məhəllələrdəki mövqelərini əsgərlərə buraxırlar və silahlarını sosialdemokrat partiyasının bürosuna təhvil verirlər. Ordu yanğınlar zamanı qarətlərlə məşğul olan şəxsləri birbaşa güllələmək əmrini alır.

Xarpuxda və Nəbatat bağı yüksəkliklərində gedən şiddətli atışma oraya Tiflis alayının bir rota əsgəri və Pastunskinın alayının yüzlərlə kazakı göndərildikdən sonra kəsir [1, f. 17, s. 2, iş№557].

Şəhərə yeridilən əlavə qoşunlar mövqe tutduqdan sonra, daha doğrusu artıq Tiflisdəki soydaşlarının həyatlarının təhlükəsizliyinə tam əmin olduqdan sonra, Borçalı kəndlərindən gəlmiş silahlı türklər 29 noyabrdan etibarən qruplarla öz ellərinə qayıtmağa başlayırlar; axşama qədər Tiflisi təqribən 300 silahlı türk süvarisi tərk edir və bu proses axşam saatlarında da davam edir [3, №217].

Ümumilikdə Borçalıdan Tiflisə nə qədər döyüşçünün gəldiyi dəqiq bəlli deyildi. Bəzi mənbələr bu rəqəmin 1000, bəziləri 1300, 1500, hətta 2000 olduğunu yazırdı.

**30 noyabr**

Şeytanbazarda və Avlabarda atışmalar olmasa da, ümumi vəziyyət yenə də gərgin olur. 1, 2, 3, 4, 9 və 10-cu məhəllələrdə tam əmin-amanlıq hökm sürür. Bu rayonlarda tramvayların normal hərəkəti adi qaydada davam edir. Bütün idarələr, dükanlar və müəssisələr adi qaydada işləyir.

Borçalı türklərinin çoxu şəhərdən çıxırlar. Onlarla birlikdə Tiflisdə uzun zaman yaşayıb alver edən bəzi türklər də şəhəri tərk edir [3, №218].

Şeytanbazarda yanğınlar tamamilə söndürülür. "Kavkaz" qəzeti yazırdı: "Şəhərin bu hissəsinin əhalisinin yardıma ehtiyacı var. Uşaqlar daha çox aclıqdan və soyuqdan əziyyət çəkir" [4, №297]. Şəhər idarəsi türklər yaşayan 6-cı məhəllədə müvəqqəti olaraq çalışan qadın-həkim A.İ. Şerbininanın müraciətinə cavab olaraq, onun vasitəsilə ehtiyacı olan müsəlmanlara vur-tut 25 rubl yardım göndərir. Şerbinina şəhər hakimiyyəti qarşısında bu məhəlləyə daha çox yardım ayrılması məsələsini qaldırır. Şəhər idarəsi qarşısında müsəlman məhəllələrində çörək çatışmazlığı barədə də məsələ qaldırılır.

Tiflis şəhər idarəsində erməni və türk-müsəlman cəmiyyətlərinin nümayəndələrinin iştirakı ilə toplantı keçirilir. Tədbirdə qərara alınır ki, istisnasız düşmənçilik edən tərəflərin təmsilçilərindən ibarət barışıq komissiyası yaradılsın. Bu komissiya ermənilər və türklər arasında mehriban münasibətlərin qurulması və milli ədavətin aradan qaldırılması üçün təkliflər hazırlamalı idi. Qeyd olunanlar barədə yerli sakinləri məlumatlandırmaq üçün qlasnı-mühəndis R.Axundovu və Yakimov soyadlı məmuru türk məhəlləsinə göndərirlər [3, №216].

"Tsnobis purtseli" qəzetinin 30 noyabr 1905-ci il sayında Kutais Müəllimlər İttifaqının türklərə və ermənilərə ünvanlanmış sülh çağırışı dərc olunur.

Axşam tramvay vaqonunda revolverlə vaqonun nəzarətçisi Tsuloyevi yaralayırlar. Yaralı Mixail xəstəxanasına çatdırılır. Həmin axşam bu xəstəxanaya güllə yarası almış bir müsəlman və həmin ərəfədə öldürülmüş iki müsəlmanın meyiti də gətirilir.

30 noyabrda Aleksandropol (Gümrü) istiqamətində hərəkət edən sərnişin qatarı ermənilərin hücumuna uğrayır, sərnişinlər qarət olunur [3, №218]. Qatarların təhlükəsizliyini təmin etmək üçün Tiflisdən Aleksandropola qədər uzanan dəmir yolu xətti üzərindəki hər stansiyaya yarım rota əsgər qoyulur [3, №218].

Dəmir yolu stansiyalarına və qatarlara edilən mütəmadi hücumlar Zaqafqaziya dəmir yollarının işçilərini bir araya gətirir. Dəmiryolçular Tiflisdə özünümüdafiə dəstələri və dəmir yolu xətləri boyu təhlükəsizliyi nəzarətdə saxlamaq üçün çevik mühafizə dəstələri yaratmağı qərara alırlar. Bu məqsədlə canişindən Tiflis üçün 250 berdanka tüfəng, dəmir yolu xətlərinin mühafizəsi üçün isə 900 tüfəng tələb olunur, ancaq tələb rədd edilir.

Bununla yanaşı, sosial-demokrat təşkilatının fəhlələri canişinin sərəncamı ilə onlara verilmiş 500 tüfəngi geri qaytarırlar. Onların əksinə, “Daşnaksutyun”un üzvləri silahları təhvil verməkdən boyun qaçırırlar.

Nəbatat bağının üst tərəfində mövqedə duran əsgərlər öz komandanları İrəvan alayının zabiti Qriqoryevin əmri ilə “Daşnaksutyun” drujinalarının silahlarmı əllərindən alırlar. Bu daşnakları narahat edir və qeyd olunan məsələ ilə bağlı onların şəhər bələdiyyəsindəki nümayəndələri canişinin hərbi məsələlər üzrə köməkçisi, general-leytenant Y.D. Malamanın qəbuluna düşürlər. Bu nümayəndələri dinləyən general Malama alınan silahların “Daşnaksutyun”a geri qaytarılacağına söz verir və bunun üçün silahları əllərindən alınmış daşnakların siyahısının təqdim olunmasını xahiş edir. O, eyni zamanda, Qriqoryevə göstəriş verir ki, bir daha “Daşnaksutyun” drujinalarına toxunmasın.

Ermənilərə silah-sursatla sərbəstcə şəhəri gəzib dolaşmaq imkanının verilməsi onların daha çox əl-qol atmalarına, daha çox cinayət törətmələrinə şərait yaradırdı. Tiflis qəzetləri 30 noyabrda bir neçə türk dükanının ermənilər tərəfdən qarət edildiyi barədə məlumatlar yayımlayırdı.

“İveriya” qəzeti 2 dekabr 1905-ci il tarixli sayında “Raboçi listok” qəzetinə istinadən 30 noyabr səhər açılanda “Xlebnı” meydanında üzərlərində “Daşnaksutyun” partiyasının nişanları olan bir neçə erməni tərəfindən müsəlman Rəhim Əliyevin mağazasının qarət edildiyini bildirirdi.

“İveriya” növbəti sayında 30 noyabrda baş vermiş daha bir hadisə ilə bağlı belə bir məlumat dərc etmişdi:

“Axşam saat 7:30-da “Soldat” bazarı ilə bir müəllim (milliyyətcə alman) gedirdi. Bu zaman yaxınlıqdakı dükandan üç erməni çıxıb bu müəllimin qabağını kəsir və soruşurlar: “Haraya gedirsiniz?” O, cavab verir: “Siz kimsiniz? Mən tanımadığım adamlara hara gedib haradan gəldiyim barədə hesabat verməyə borclu deyiləm” və sonra yoluna davam edir. Beş addım atmamış haradansa yolunu xəncərlə və çomaqla silahlanmış 4 erməni kəsir və soruşurlar: “Russan, ya başqası?” O deyir: “Nəyə görə soruşursunuz?”. Yenə soruşurlar. Cavab verir: “Mən almanam”. Onda ermənilər ona bizim adamsan, deyib buraxırlar”. Qəzet ermənilərin bu cür davranışlarından öz heyrətini gizlədə bilməyib məlumatın sonunda oxuculara belə bir sualla müraciət edir: “Bu hərəkət nə ilə izah oluna bilər?” [3, №218].

Şeytanbazarda könüllü çalışan tibb işçiləri döyüşlər zamanı yaralanmış və ev şəraitində müalicə olunan türkləri Mixail xəstəxanasına sövq edirdilər. “Tiflisskiy listok” qəzeti 30 noyabrda Mixail xəstəxanasına yaralı vəziyyətdə aşağıdakı şəxslərin gətirildiyini yazırdı:

1) Həlim Ələkbər oğlu (45 yaş, VI məhəllədə Vorontsov küçəsində Xalatovun evində yaşayan susatan);

2) İsmayılov Hüseyn Əsgər oğlu (40 yaş, o da Xalatovun evində yaşayırdı və xəstəxanaya sanitar Nudel tərəfindən çatdırılmışdı);

3) İrzaqulu Zamanov (20 yaş, Vorontsov küçəsində Məşədi Əhmədin evində yaşayan fəhlə, 28 noyabrda yaralanmışdı).

Qeyd olunan qəzet eyni zamanda, bir gün əvvəl, 29 noyabrda xəstəxanaya ağır vəziyyətdə 5 nəfərin Qarayazı kəndində yaşayan 35 yaşlı İran təbəəli fəhlə Nağı Sadıq oğlu, Hüseyn Musa oğlu, Yusuf Musa oğlu, Sadıq Əhməd oğlu və adı bilinməyən bir türkün çatdırıldığını və onlardan son üçünün dünyasının dəyişdiyini bildirirdi [5, №240].

**MƏNBƏLƏR:**

1. 1. Gürcüstan Milli Tarix Arxivi.
2. 2. “Tsnobis purtseli” qəzeti, 1905.
3. 3. «İveriya» qəz., 1905.
4. 4. “Kavkaz” qəz., 1905.
5. 5. “Tiflisskiy listok” qəz., 1905.
6. 6. “Vozrojdeniye” qəz., 1905.
7. 7. “Novoye obozreniye” qəz., 1905.

**Dr. Fəxri Valehoğlu**
**«Qarapapaqlar»**.-2011.-№8(50).-S.18-23.

**Mart qırğınını törədənlər**

**Bakıdan xaricə gedən erməni bolşeviklərinə Şaumyanın zəmanəti kifayət idi. Lenin Şaumyana çox inanırdı. O vaxtilə Bakı komitəsinin üzvü olan Kasparovla xaricdə görüşmüşdü. Lenin, Kasparov haqqında məlumat almaq istədikdə Şaumyan Leninə yazmışdı: "Sizin xəbər aldığınız berlinli (Kasparov) bizim yaxın dostumuzdur, ona tamamilə inana bilərsiniz"…**

Bunun əksinə olaraq, Şaumyan azərbaycanlılar barədə Leninə məktublarında ağzına gələn hədyanları quraşdırır, çox yerdə azərbaycanlı fəhlələri gerilikdə, siyasi sönüklükdə ittiham edir, üstüörtülü də olsa xalqımıza kin-küdurətini büruzə verirdi.

1918-ci ilin martında Bakıda qanlı hadisələr törədildi. Azərbaycanlılar, necə deyərlər, qılıncdan keçirildi. Lenini bu qırğının əsas "ssenari müəllifi" saysaq, Şaumyan onun baş "rejissoru" idi. Bir çox bolşevikin əli azərbaycanlı qanına bulaşmışdı.

Öncə deyək ki, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin may ayında deyil, məhz martında, özü də Tiflisdə yox, Bakıda elan olunma ehtimalı çox idi. Bunu Lenin və onun əsabələri – Şaumyan, Stalin, Orconikidze, Mikoyan və başqaları əla bilirdilər. Odur ki, həmin terror aktlarını – soyqırımını məhz martda, özü də Bakıda həyata keçirmək planlaşdırıldı.

Qafqaz əldən gedirdi. Yəni Azərbaycan və Gürcüstan müstəqillik barədə akt imzalamağa hazırlaşırdı. Belə olan təqdirdə, əlbəttə, onlar Rusiyanın tərkibindən çıxmalıydılar. Şaumyan bu barədə mərkəzə Leninə həyəcanlı teleqram və məktublar yollayır, tədbir görülməsini təkid edirdi. Şaumyan Bakıya dair Leninlə bütün şəxsi əlaqələrin yalnız ermənilərin əlində cəmləşməsinə çalışır və əsasən buna nail olurdu.

Şaumyanın Bakıda daşnaklarla sıx əlaqəsinə dair istənilən qədər fakt vardır. Məsələn, onun Bakıda 1918-ci ilin əvvəllərində daşnaklardan ibarət hərbi hissələr yaratmaq üçün göstərdiyi canfəşanlıq onunla bağlı idi ki, martda baş verəcək hadisələrdə azərbaycanlılara əməllicə "dərs vermək" mümkün olsun. Bu, məqsədyönlü bir siyasətdən irəli gəlirdi. Şaumyanın Stalinə yazdığı məktubun bir yerində oxuyuruq: "Daşnaklar üçün top məsələsini, xahiş edirəm, elə rəsmiləşdirəsiniz ki, məsələnin qəti həlli burada məndən asılı olsun. Biz isə vəziyyətə görə burada həll edərik. Mən onların siyasətində dəyişiklik gözləmirəm, amma yaxşı olar ki, onlar burada bizdən çox asılı olsunlar".

Mart qırğınının mahiyyətini Şaumyan Leninə necə təqdim edirdi: "Müsəlman millətçi partiyalarının müqaviməti üzündən Bakıda Sovet hakimiyyəti daim tükdən asılı idi. Yelizavetpolda və Tiflisdə yerini möhkəmləndirmiş olan feodal (bəy və xan) ziyalıları başda olmaqla bu partiyalar, menşeviklərin alçaq və qorxaq siyasəti nəticəsində özlərini son zamanlarda Bakıda da çox təcavüzkarcasına aparırdılar. Əgər onlar Bakıda üstün gəlsəydilər şəhəri Azərbaycanın paytaxtı elan edər, bütün qeyri-müsəlman ünsürləri tərksilah edib qırardılar. Bakıda onlar qalib gəlsəydilər Zaqafqaziya Rusiya üçün itirilmiş olardı".

Daha sonra o yazırdı: "Bizim 6000 nəfərə yaxın silahlı qüvvəmiz var idi. "Daşnaksütun"un isə 3-4 min nəfərlik milli hissələri var idi ki, bunlar da bizim ixtiyarımızda idi". Əliyalın dinc əhalini uçdantutma qıran böyük bir ordunun sayını Şaumyan bilərəkdən azaldırdı.

Mart hadisələrində erməni-daşnak hərbi hissələrinin iştirakı və onların törətdikləri vəhşiliklər danılmazdır. Düzdür, Şaumyan bunu ört-basdır edirdi. Lakin Bakıda milli qırğının təşkil olunduğunu da gizlətmirdi. Şaumyan yazırdı: "Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verirdik". Bax, bu son cümlə bütünlükdə Şaumyanın qatı daşnak simasını aşkarlayır. Bəli, şəxsən mən şaumyanları demək olar, hər gün yad edirəm, ancaq dərin nifrətlə!..

Bakıda mart qırğınında fərqlənən daşnaklara hüsn-rəğbətini gizlətməyən Şaumyan ehtiyatı da əldən vermirdi. O, həmin məktubunda yazırdı: "Daşnaksütun partiyası hələlik bizə hər şeydə kömək etsə də, ona hələ heç nə vəd etməyin"…

Xatırladım ki, Bakıda mart qırğınında "bolşevik dəstəsinin" komissarı da milliyyətcə erməni olan Martirosyan idi. Həmin çağlarda Bakı Sovetinin silahlı qüvvəsinin özəyini əsasən ermənilər, ilk növbədə daşnak qoşun hissələri təşkil edirdilər.

Biz Leninin ətrafında sığınan onun "ideya yükdaşıyıcıları" olan ermənilərdən danışdıq. Hamısını sadalasaq, böyük siyahı alınar. Çünki onlar çox idilər. Leninin Azərbaycan üzrə əsas məsləhətçiləri (Knunyants, Spandaryan, Kasparov) həyatdan getdikdən sonra da Şaumyan yeni-yeni erməni qüvvələrini arayıb tapır, onları min bir hiylə ilə Leninə calayırdı. Leninin ətrafında cəmlənən ermənilər Azərbaycanın başına daha yeni bəlalar açmaq üçün təzə-təzə planlar cızırdılar.

"Onlardan biri Bakıda erməni daşnak qüvvələrinə kömək edən, hələ inqilabdan əvvəl uzun illər Leninlə sıx əlaqədə olan, qarətçi tapşırıqlar yerinə yetirən Ter-Petrosyan (Kamo) idi…

Şaumyan Leninə məktublarında S.Ter-Qabrielyanı da ən etibarlı adam kimi təqdim edirdi"…

Sənədlərdən öyrənirik ki, M.Ter-Arutyunyants adlı birisi o dövrdə Moskvada yüksək hərbi vəzifə tuturmuş. Və Azərbaycandakı daşnakları silahla, hərbi sursatla məhz o, təmin edirdi. Bakıda qarmaqarışıqlıq salmaq, xüsusi tapşırıqları yerinə yetirmək üçün Lenin Mikoyanı da ən münasib bolşevik hesab edirdi. Beləliklə, Azərbaycanda başkəsən qəssablar sırasına Lenin daha bir erməni daşnakını yola saldı.

İlk dəfə 1917-ci ildə Bakıya gələn, komissarlar tutulandan sonra isə müəmmalı şəkildə aradan çıxan Mikoyan, ikinci dəfə 1918-ci ildə Azərbaycanda peyda oldu. Yenə də təkrar edirik: 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdu. Bəs Leninin emissarları niyə buradan əl çəkmirdilər. "Proletariatın dahi rəhbəri" bu zəhmətkeş, sadəlövh xalqa nə vermişdi ki, ala bilmirdi? Leninə neft lazım idi. Neft! Bunun üçün o və onun təxribatçı qüvvələri Azərbaycana zəli kimi yapışıb qopmaq istəmirdilər.

Ömrü boyu inqilabi ibarələrlə pərdələnsə də müxtəlif səpkili məqalə və çıxışlarını, məktub və teleqramlarını bir küll halında təhlil etdikcə Şaumyanın "Böyük Ermənistan" yaratmaq kimi mənfur ideyaya xidmət etdiyini görməmək mümkün deyil. Şaumyanın Bakı ermənilərinə bir müraciəti var. 0, nə desə yaxşıdır? "25 il bundan əvvəl müəllimimiz F.Engels bir nəfər erməni xadiminə məktubda yazmışdı ki, erməni xalqının azadlıq gəmisi öz məqsədinə çatmaq üçün gərək türk despotizminin sicilləsi ilə rus despotizminin xaribdaşı arasından çox ehtiyatla keçsin".

Ş.Şaumyan burada sətiraltı çox incəliklə mənalı oxucularına andırır. "Bakı qırğını" üç gün davam etdi. Şəhərin tarixi-memarlıq abidələrinə ciddi ziyan dəydi. Xalqımızın soyqırımına bununla son qoyulmadı. Şaumyanın "baş planına" əsasən məmləkətin digər bölgələrində də belə bir dəhşətə rəvac verilməliydi.

Mayın 1-də daşnak zabiti Hamazaspın başçılığı ilə ancaq ermənilərdən ibarət olan böyük hərbi dəstə Qubanı mühasirəyə alaraq şəhəri toplardan və pulemyotlardan atəşə tutdu. S.Şaumyan Hamazaspı "cəza dəstəsi" ilə Qubaya şəxsən göndərmiş və bu barədə digər komissarlarla heç məsləhətləşməmişdi. Dəstəni tərtib edən yalnız hərbi komissar Qriqori Korqanov olmuşdur. O, S.Şaumyanın təklifi ilə Hamazaspın dəstəsinə yalnız "Daşnaksütyun" partiyasının üzvü olan əsgərləri (iki min nəfər) daxil etmiş və qatı millətçi Veluntsu dəstə komissarı, Nikolay adlı hərbiçini isa köməkçi təyin etmişdi.

Qubanı işğal etdikdən sonra Hamazaspın şəhər camaatına müraciətində onun dəstəsinin bu yerlərə hansı məqsədlə göndərildiyi açıq şəkildə ifadə olunur: "Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən buraya – Qubaya xüsusi cəza dəstəsi ilə ona görə göndərilmişəm ki, iki həftə avvəl burada eldürülən ermənilərin hayıfını sizdən alım. Mən buraya qayda-qanun yaratmaq üçün, sovet hakimiyyətini qurmaq üçün gəlmişəm. Bu yerlərdə erməniləri qırdığınıza görə Xəzər dənizinin sahillərindən tutmuş Şah dağına qədər olan ərazidə yaşayan bütün müsəlmanları məhv etmək barədə mənə göstəriş verilib. Mənə sizin yurd-yuvanızı yerlə-yeksan etmək, Şamaxıda törətdiklərimizi sizin də başınıza açmaq, erməni qardaşlarımızın intiqamını almaq tapşırılıb".

Hamazaspın dəstəsi istər Qubaya gələrkən bütün yol boyu, istər şəhərə girərkən, istərsə də mahalın digər ərazilərində olarkən çox dəhşətli və qansız hərəkətlər etmişdir. Ermənilər qarşılarına çıxan kəndləri, obaları, yurd yerlərini dağıdır, yandırır, rastlaşdıqları kişiləri, qadınları, uşaqları insafsızcasına qətlə yetirirdilər. Qubada bir-bir evlərə girib bəzən bütün ailəni məhv edən ermənilər hətta hamilə və uşaqlı qadınlara belə rəhm etməmişlər. Məsələn, onlar Kərbəlayı Məhəmməd Tağı oğlunun 14 nəfərdən ibarət ailəsini, Məhəmməd Rəsul oğlunun arvadı Məşədi Bibixanımı və oğlu Abdulqasımı diri-diri odda yandırmış, Kərbəlayi Abuzər Məstan oğlunu və iki qızını – Hökuməni və Bustanı qucaqlarındakı körpələrlə birlikdə tikə-tikə doğramış, Məşədi Qənbər Molla Məhəmmədsaleh oğlunu, onun arvadını və beş körpə uşağını şaqqalamışdılar.

Hər cür vəhşilik və talanlarla yanaşı, erməni əsgərləri ən alçaq və rəzil hərəkətlərə də əl atmaqdan çəkinməmişdilər. Şəhərin hörmətli ağsaqqallarına əmr etmişdilər ki, əylənmək üçün onlara müsəlman qadın və qızları gətirsinlər. Bununla qəti razılaşmayan Əlipaşa Karbalayı Məhərrəm oğlu və onun oğlu yerindəcə vəhşicəsinə güllələnmişdilər. Ermənilər onların əmrlərini yerinə yetirməyən kişilərin gözlərini çıxarmış, qarınlarını xəncərlə doğram-doğram etmişdilər".

Rus diplomatı general P.Mayevski yazır: "Balkan yarımadasının qəhrəmanları bizə kifayət qədər məlumdur. Bəs ermənilərin xalq qəhrəmanları barəsində bir şey eşitmişikmi? Azadlıq uğrunda onların mübarizlərinin adları harada çəkilir? Heç harda! Nə üçün? Ona görə ki, bu mübarizlər öz xalqlarının xilaskarı kimi yox, onun daha çox cəlladları kimi rol oynayırdılar. Erməni quldur dəstələri bir qayda olaraq hərc-mərclik, qırğın törədir, sonra isə qaçıb gizlənirdilər"…

…Çox sərrast deyilən bu fikrin bariz nümunəsi Andranikdir. Bütün tərəqqipərvər ictimaiyyət tərəfindən lənətlənən bu başkəsən Azərbaycandakı dəhşətli qırğınlara rəvac verdikdən sonra əvvəlcə Amerikaya qaçmış, sonra isə Fransada lövbər salaraq oradaca gəbərmişdir.

"Böyük müəllimi" Şaumyandan əsaslı təlim alan Andranik 1918-ci ilin iyulunda Gəncə quberniyasının sərhədlərini aşaraq Zəngəzura varid olmuşdur. Hazırda ermənilərin sahib durduqları əzəli torpaqlarımız Zəngəzurun bütün kəndləri viran qoyulmuş, azərbaycanlılar güllələbaran edilmiş, sağ qalıb ayaq tutanların hərəsi baş götürüb bir tərəfə qaçmışdır. Millətimizə qarşı əsl soyqırımı bu idi. Ancaq burada bir cəhəti qeyd etməyə

bilmərəm. Andranikin çoxillik nizami ordusuna qarşı həmişə xalq kütləsi mərdanəliklə sinə gərmişdir. Çox yerdə nəinki mübarizə bərabər səviyyədə keçmiş, əksinə, azərbaycanlılardan ibarət fədailar dəstəsi daşnakları geriyə çəkilməyə, böyük itkilər verməyə məcbur etmiş, düşmənə çox ciddi zərbələr endirmişdir. Andranikə və onun quldur dəstələrinə qarşı mübarizə tarixində Azərbaycan xalqı şərəfli və qeyrətli bir yer tutmuşdur. Ancaq nə edəsən ki, qüvvələr bərabər olmamışdır.

Andranikin dəstəsinin Şuşa qəzasına hücumu və Əsgərana gedən yolu kəsməsi barədə də tutarlı faktlar vardır. Burada da o, qanı su yerinə axıtmışdır. Sonra isə Araz vadisinə tərəf üz qoymuşdur. Daşnaklar ona görə Culfaya can atırdılar ki, oradakı ingilis hərbi dəstələri ilə birləşsinlər. “Borba” qəzetinin 1918-ci il 17 avqust tarixli nömrəsində xəbər verilir ki, Andranikin başkəsənlərinə ciddi müqavimət göstərmələrinə baxmayaraq Yaycı kəndinin sakinləri bütünlüklə düşmənlər tərəfindən güllələbaran edilmişlər.

Andranikin dəstələri 1918-ci ilin sentyabrında Zəngəzurun Rut, Darabas, Abadu, Vaqudi kəndlərini alt-üst edib Araxlı, Şükür, Məlikli, Pulkənd, Şəki, Qızılçək, Qarakilsə, İrlik, Paxlalı, Xotanən və digər kəndləri tamam yandırmışlar. Bu vaxt azərbaycanlılar sırasından 500-dən çox adam qətlə yetirilmişdir.

Ermənilər Zəngəzura bir neçə illik qısa fasilədən sonra növbəti dəfə hücuma keçib qanlar axıdırdılar. Yeri gəlmişkən deyək ki, görkəmli ədibimiz M.S.Ordubadi hələ əsrin əvvəllərində erməni daşnaklarının Zəngəzurda törətdikləri müsibətlərlə bağlı sənədləri, faktları toplamış və bunları “Qanlı sənələr” əsərində oxuculara çatdırmışdır. Müəllif yazır ki, 1906-cı ildə ermənilər Zəngəzurun Qafan dərəsi deyilən yerində bir azərbaycanlı kəndinin camaatını tamam qırırlar. 62 qadının və uşağın başını kəsirlər. Bir qadın ağır yaralı olsa da təsadüfən sağ qalmış və ermənilərin vəhşiliyini belə təsvir etmişdir: “Molla Həsən Əfəndinin (kəndin mollası) yanında olan biz qadın tayfası mərhumun doğrandığını görüb qaçaraq bir daşın arasında gizləndik. Molla Həsən vəhşicəsinə öldürüldükdən sonra bir dəstə erməni yetişib bizi bu hala saldı. Daşın içində camaat çox olduğundan mənim bədənimin yarısı bayırda qalmışdı. Ermənilər mənim çöldə qalan qıçlarımı doğramağa başladılar”…

Xalqımızın böyük oğlu Seyid Cəfər Pişəvəri erməni könüllülərinin birləşərək Şamaxıda, Salyanda, Kürdəmirdə, Lənkəranda və s. yerlərdə törətdikləri vəhşiliklərdən qeyzlənərək belə yazmışdır: “Mən 1918-ci ilin mart ayında daşnakların vəhşiliklərini, saysız günahsız adamların, xüsusilə bitərəf iranlıların öldürülüb karvansaralarda meyitlərinin yandırılmasını öz gözlərimlə görmüşəm. Bu, çox faciəli və nifrətləndirici bir hərəkət olmuşdur”.

Bu sözləri yazarkən əlbəttə, Pişəvəri saçlarıyla bir-birinə bağlanaraq çılpaq gəzdirilən, namuslarına təcavüz edilən, nəhayət, alçaqcasına təhqirlə qətlə yetirilən azərbaycanlı qız-gəlinlərin halətini düşünürdü.

…Azərbaycan sinəsi yaralı, ürəyi paralı bir məmləkətdir. Onun ulu şəhərlərinin, yaşayış məskənlərinin hər birinin özünəməxsus faciələri tarix kitablarına həkk olunub. Əsrlər boyu ermənilər Azərbaycana hücum edərək, məmləkətin qədim tarixi abidələrini, nadir qala və bürclərini, məscid binalarını dağıtmış, yox etmiş, alban abidələrimizə “əl gəzdirərək” onları “erməniləşdirmişlər”. Sonra da aləmə car çəkmişlər ki, bu xalqın torpağında bir abidəsi də yoxdur, olanlar da erməni xalqınındır. Hazırda Ermənistan Şuşa, Xankəndi, Xocalı, Laçın, Ağdərə, Kəlbəcər, Füzuli, Qubadlı, Cəbrayıl, Ağdamı… zəbt etdiyi bir məqamda heç birimizdə inam yoxdur ki, həmin yaşayış məskənlərində mövcud tarixi abidələrimizə xətər toxunmasın. Nəinki xətər toxunmuş, əksəriyyəti yerli-dibli yox edilmişdir ki, izi tozu belə qalmasın. Mən hələ qədim Oğuz eli – indi daşnakların özlərinə məmləkət saydıqları “Ermənistandakı” azərbaycanlılara məxsus qədim tarixi tikililəri, abidələri demirəm. Bakının, Təbrizin, Gəncənin, Bərdənin, Lənkəranın, Dərbəndin, Urmiyənin, Naxçıvanın… yaşı qədimdən qədimdir. Və zaman ötdükcə yaraları sağalmış, fəqət düşmən bu yerlərdə yeni-yeni müsibətlərə rəvac vermişdir.

Şamaxıya da məhz belə bir tale qismət olmuşdur. Şamaxı da daxil olmaqla Şirvan torpağında çox qanlar axıdılıb, böyük fəlakətlər baş verib. Bu yerlərdə törədilən vəhşilikləri sözlə ifadə etmək çətindir. Qocaman coğrafiyaçı alim, mərhum Rəmzi Yüzbaşov bizimlə söhbətində ürək sızladan çox dəhşətli mənzərələri açıqlayırdı. Belə ki, özünün uşaqlıq çağlarında şahidi olduğu hadisələri yerli-yataqlı danışırdı: “Ermənilər Şamaxıya varid olan kimi uşaqları zirzəmilərdə gizlətdilər. Neçə gün sonra küçəyə çıxdıq, başı, qolları kəsilmiş, bədənləri iki yerə bölünmüş cəsədləri gördükcə insan bayılırdı. Elə ailələr vardı ki, bir nəfəri də sağ qalmamışdı. Bu, əsl soyqırımı idi. Şamaxıda insanlarla bərabər, qədim tikililəri, nadir memarlıq abidələrini, məscidləri də məhv edirdilər. O dövrdə Şamaxıda 10 məscid olub, 40 hamam. “Cümə məscidi”nin nəzdində 4 kollec vardı. Hanı onlar? Mən insan ağlına sığışmayan o cəhənnəm tablosunun seyrindən sonra uzun müddət xəstə yatdım. O hadisədən neçə onilliklər keçsə də yadıma düşəndə uçunuram”.

1920-ci ildə Londonda buraxılmış “Dünyanın faciəsi” adlı kiçik monoqrafiyada ermənilərin Şamaxıda törətdikləri faciələrdən də söhbət açılır və sonda bu qənaətə gəlinir ki, tarix bu hadisəni heç zaman unutmayacaq və haqq öz yerini tapacaqdır.

Bir yazıda oxuyuram ki, Kaliforniyada – San-Fransiskodakı erməni kilsəsində “Böyük Ermənistan” xəritəsində Şamaxı adıyla da rastlaşdım. Ona görə də hər bir görüşdə Azərbaycanın qədim tarixi yerləri, o cümlədən Şamaxının özü barədə elmi qaynaqlara əsaslanaraq fikrimi sübuta çalışıram. Bəs görək həmin

qaynaqlar bizə nə deyir… Bir də bu barədə ona görə söhbət açmaq istəyirəm ki, gənc oxucum məmləkətimizin qədimliyindən bəhs edən faktlara rast gəldikcə bir daha güvənc duyğusu keçirsin.

Şamaxı müharibələr və zəlzələlər nəticəsində dəfələrlə xarabalığa çevrilmiş, yer üzündən silinmək qorxusu yaranmışdır. Şəhər VI-VIII əsrlərdə ərəblərin, XIII əsrdə monqolların, sonralar da müxtəlif dövlətlərin hücumları nəticəsində dağıdılmışdır. Bəlkə də bu səbəbdən Şamaxıda çox qədim memarlıq abidələrinə nadir halda rast gəlinir.

Müxtəlif əsrlərdə, başqa-başqa diyarlardan yaradıcı sənət adamları Şamaxıya səfərlər etmişlər. Və onların yaratdıqları əsərlər, xüsusən boyalı tablolar bu şəhər barədə təsəvvürlərimizi bir qədər də genişləndirir. Bunları deyərkən, əlbəttə, ilk növbədə XVII əsr alimi və rəssamı Adam Olearinin, habelə XVIII əsrdə yaşamış Korleniya de Bryuinin və ötən əsrin məşhur rus fırça ustası Q.Qaqarinin tablolarını nəzərdə tuturam. Şirvan torpağı bir çox azərbaycanlı dahi yetirmişdir. Xaqani və Sabir, əlbəttə, bu sırada öndə dururlar. Xaqani 800 il bundan öncə doğma ata ocağı barədə yazmışdır: “Şirvan ki, var, hər cəhətdən ülviyyətin anasıdır. Onun hər cür səhər yeli dərdlərimin davasıdır”.

“Şamaxıda 1958-ci ildə aparılmış arxeoloji tədqiqatlar sübut etmişdir ki, o, şəhər kimi eramızdan əvvəl III əsrin sonlarında formalaşmışdır.

Eramızdan əvvəl III-II əsrlərdə burada şəhərin sənətkarlar məhəlləsi olmuşdur. Onların yaratdığı zərgərlik, dulusçuluq, şüşə və metal məmulatları dünya şəhərlərinə ixrac edilmişdir. Eramızın II əsrində yaşamış yunan coğrafiyaşünası Ptolomeyin tərtib etdiyi xəritədə Albaniyanın şəhərləri sırasında Şamaxının da adının olması bu şəhərin qədimliyindən xəbər verir. Bütün bunlar göstərir ki, erməninin bu ərazi barədə söhbət açmağa mənəvi haqqı yoxdur. Onların 1918-ci il mart qırğınını 1920-ci ilədək başkəsən erməni daşnakları davam etdirmişlər.

**Süleyman MƏMMƏDOV,**
**Əməkdar elm xadimi, professor**
**“Xalq qəzeti”.-**2012.-1 aprel.-N 69.-S.3.

**Şamaxi soyqırımı: tarixi həqiqətlər şahidlik edir**

XIX əsrin son rübündə beynəlxalq münasibətlər sisteminə «erməni məsələsi» problemini gətirən erməni millətçiləri, türk-müsəlman dünyasına olan nifrətini «Böyük Ermənistan» ideyası ilə pərdələmiş və böyük dövlətlərdən dəstək alaraq, XIX əsrin sonlarında Osmanlı dövlətində iğtişaşlar törətmiş, məqsədlərinə çatmasalar da, öz məkrli siyasətlərindən əl çəkməmişlər. Birinci Dünya Müharibəsi illərində də erməni şovinistləri «Böyük Ermənistan» xülyasını reallaşdırmaq məqsədi ilə Osmanlı dövləti üçün «beşinci kolona» çevrilərək silahlı dəstələr təşkil etmişlər. Sarıqamış əməliyyatından sonra Qafqaz cəbhəsində qüvvələr nisbəti rus ordusunun xeyrinə dəyişmiş və bölgədə yaranmış hərbi-siyasi vəziyyətdən istifadə edən erməni separatçıları iğtişaşlara başlamış, Van şəhərində görünməmiş cinayətlər törətmişlər. Bu olayları Qərb tədqiqatçıları öz araşdırmalarında ardıcıl izləmiş və tarixi faktların təfərrüat və mahiyyətini ədalətlə açmışlar. J.de Malevil öz əsərlərində göstərmişdir ki, «Van Respublikasını» elan edən erməni separatçıları türk-müsəlmanlara qarşı məqsədyönlü səkildə soyqırım siyasəti aparmışlar [7, s.45]. Erməni millətçiləri türk-müsəlmanlara qarşı Şərqi Anadolunun bir çox bölgələrində fiziki zor tətbiq etmiş və Qərb tədqiqatçılarının apardığı araşdırmalara görə bu coğrafi məkanda təkcə 1915-1916-cı illərdə 750.000-1.600.000-ə qədər türk-müsəlman soyqırıma məruz qalmışdır [10, s.57].

Erməni millətçilərinin vəhşilikləri Birinci Dünya Müharibəsi illərində «eninə» və «dərininə» genişlənmiş və öz məkrli əməllərini Azərbaycan torpaqlarında davam etdirmiş, 1918-ci ilin əvvəllərindən etibarən isə mənfur niyyətlərini həyata keçirmək üçün bütün vasitələrdən istifadə etmişlər. Azərbaycan tarixşünaslığına «1918-ci il mart hadisələri» kimi daxil olan bu qanlı olaylar, erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırım siyasətinin kulminasiya nöqtəsi olmuşdur.

Uzun illər sovet tarixşünaslığı tarixi saxtalaşdırmaq prinsipini əsas tutaraq "mart hadisələrini" əks-inqilabi qüvvələrin qiyamı kimi izah etməyə çalışmış, bununla da tarixi gerçəkliyi məqsədli şəkildə təhrif etmişdir. Dəlillər və sübutlar isə gerçək tarixi, obyektiv mövqedən işıqlandırır. Belə ki, söhbəti gedən dövrdə Azərbaycan torpaqlarında erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırım siyasətini araşdırarkən Azərbaycan Respublikasının ayrı-ayrı arxivlərində saxlanılan tarixi sənədlər və sovet tarixşünaslığının elmi dövriyyəsinə bilərəkdən daxil edilməmiş faktlar aşkar etmişik. Belə ki, erməni vəhşiliklərini öyrənən Fövqəladə İstintaq Komissiyasının sədri Ə. Xasməmmədov bu hadisələrin tarixi köklərini açmağa çalışmışdır. O, 1918-ci ilin noyabrında ədliyyə nazirinə göndərdiyi hesabatında göstərirdi ki, Birinci Dünya Müharibəsinin ilk günlərindən etibarən cəbhəyə yollanan erməni əsgərləri azərbaycanlılara qarşı nifrətlərini gizlətmir, onlara hədə-qorxu gəlir və təhqir edirdilər. Bu fakt aydın şəkildə sübut edir ki, 1918-ci il olayları erməni millətçilərinin təsadüfi emosional qığılcımının işartıları deyil, onların əsl mahiyyətinin inikası olmuşdur.

Birinci Dünya Müharibəsinin yaratdığı fəlakətlər Rusiya imperiyasında sosial partlayışla nəticələnir. Rusiyada baş verən Oktyabr çevrilişi bölgədə sosial-siyasi durumu daha da ağırlaşdırır. Rusiya Fövqəladə İstintaq Komissiyasının üzvü N.Mixaylov öz hesabatında göstərirdi ki, erməni millətçi siyasi qüvvələri Zaqafqaziya Komissarlığının (11 noyabr 1917 yanvar 1918) nümayəndələri ilə danışıqlara girərək, Cənubi Qafqazda olan erməni əhalisini kütləvi şəkildə silahlandırmaq planını hazırlayırdılar. Elə bu məqsədlə də Zaqafqaziya Komissarlığının göstərişi ilə Tiflis arsenalından erməni kəndlərinə və icmalarına vaqonlarla tüfəng və patron göndərilirdi. Eyni zamanda Petroqradda hakimiyyəti ələ keçirən V.Lenin inqilabı "süngü ucunda" yaymaq siyasətini əsas götürərək, Qafqazda erməni amilinə önəm verir, daşnak-hnçak koalision qüvvələrinə çox yaxın olan millətçi S.Şaumyanı Qafqazın fövqəladə komissarı təyin edir. Tiflisdə siyasi qüvvələrlə sivil mübarizə apara bilməyən S.Şaumyan Bakıya yollanır və sovet hakimiyyətini bölgə quberniyalarına yaymaq bəhanəsi ilə Azərbaycan xalqına qarşı təxribatçılıq fəaliyyətinə başlayır. S.Şaumyan və onun komandasının ilk hədəfi Şamaxı olur. R.Mehdiyevin ermənilərə güclü mənəvi-ideoloji zərbə olmuş əsərində qeyd olunduğu kimi: "Şaumyanın eyni vaxtda iki partiyanın üzvü olması 1918-ci ilin mart-aprel aylarında Azərbaycan əhalisinə qarşı kütləvi qırğının təşkilində onun daşnak silahlı dəstələrindən istifadə etdiyini təsdiq edir"[8, s.104]. Bu, inkarolunmaz faktlardır.

Müstəqillik dövründə Azərbaycan tədqiqatçıları 1918-ci ilin yaz-yay aylarında bolşevik-daşnak-hnçak birləşmiş qüvvələrinin Azərbaycan xalqına qarşı apardığı soyqırım siyasətini geniş şəkildə öyrənmiş [6], tarixçi-alim S.Rüstəmova-Tohidi isə fundamental sənədlər toplusunu nəşr etdirmişdir [9]. Bütün bunlarla yanaşı, fikrimizcə, bu tədqiqat obyektinin hələ tam öyrənilməmiş və qatı açılmamış səhifələri kifayət qədərdir. Bütün bunları nəzərə alaraq Şamaxı faciəsinin kölgədə qalmış məqamlarını işıqlandırmağı məqsədəuyğun hesab edirik.

Şamaxı soyqırımı 1918-ci ildə Bakı quberniyasında S.Şaumyan və onun bolşevikdaşnak-hnçak birləşmiş quldur qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin birincisidir. 1919-cu il martın 30-da "Azərbaycan" qəzeti S.Şaumyanın bu olaylardakı rolu barədə yazırdı: "Şaumyan və Avakyanın törətdikləri təxribatlar nəticəsində Şamaxı hadisələri baş verdi"[2]. O illərin dövri mətbuatında səslənən fikirlər bu

hadisələrin faciəvi miqyasının təsəvvürəgəlməz qədər geniş olduğunu təsdiqləyir. 1918-ci ilin dekabrında "Bəsirət" qəzeti yazırdı: "Qanlı Nikolayların dövründə görünməyən zülmlər bizə bu gün mart ayının 18-28 günləri arasında rəva göründü" [3] Şamaxıda baş verən cinayətləri ictimaiyyətin nəzər-diqqətindən yayındırmaq və bu olaylarda öz rolunu gizlətmək məqsədi ilə bolşeviklərin təsis etdiyi hərbi-istintaq komissiyasını S.Şaumyan ləğv elətdirsə də, "Azərbaycan" qəzeti 1918-ci il 21 oktyabr nömrəsində Şamaxı qəzasında misli görünməmiş fəlakətlərin çılpaqlığını göstərərək yazırdı: "…daşnaklar tərəfindən genosid siyasətinin yeridilməsini Şaumyan hökuməti ört-basdır edə bilmədi."(l)

Şamaxı soyqırımını tədqiq edərkən bir cəhət xüsusi olaraq diqqəti cəlb edir erməni quldurlarının Azərbaycan xalqına qarşı olan hüdudsuz nifrəti. Bu məqamı Fövqəladə istintaq Komissiyasının sədri Ə.Xasməmmədov xüsusi vurğulamışdı: "Şamaxı şəhəri və Şamaxı qəzasının erməniləri 1905-ci il hadisələri ilə bağlı azərbaycanlılara qarşı intiqam hissi ilə yaşamış və əlverişli məqam aramışlar. Belə ki, 1918-ci il martın 18-də azərbaycanlılar üzərinə hücum edən ermənilər açıq şəkildə bildirirdilər ki, bu günü onlar 12 il idi ki, gözləyirdilər və təhqiredici şəkildə qışqırırdılar ki, Şamaxı əhlinin imdadına indi yalnız "Həzrət Abbas" gələ bilər"[4, v.10].

Tədqiqat obyektini tarixi sənədlər əsasında öyrənərkən Azərbaycan tarixşünaslığının elmi dövriyyəsində çox zəif şəkildə göstərilən dəlillər diqqətimizi cəlb etdi. Şamaxı soyqırımı zamanı ermənilər azərbaycanlılara qarşı soyqırım aparmaq üçün Azərbaycanda yaşayan digər millətləri də cəlb etməyə calışıblar [4, v.10]. Tariximizin gizli qalmış bu məqamları Şamaxı soyqırımının öyrənilməmiş səhifələrini açıqlayır. Bu tarixi həqiqətlərin mahiyyyətinə baxdıqda məsələnin tarixi kökləri üzə çıxır. Həmin illərdə Rusiya imperiyasının Azərbaycan torpaqlarında apardığı müstəmləkə siyasətini tarixşünaslığımızda postsovet konsepsiyasının tələblərinə uyğun öyrənən ayrı-ayrı tədqiqatçılar öz əsərlərində mütləqiyyətin köçürülən ruslara olan güvəncini lazımi səviyyədə göstərə bilmişlər. Bölgədə rus əhalisini özünün sosial-siyasi bazası kimi qəbul edən Rusiya imperiyası, hələ birinci rus inqilabı ərəfəsində Cənubi Qafqazda, o cümlədən Azərbaycan torpaqlarında milli-azadlıq hərəkatının oyanışından ehtiyat edərək, 1891-ci ilin noyabrında və 1903-cü ilin aprelində "ucqarlarda məskunlaşan rus əhalisinin silahlandırılması haqqında" qərarlar qəbul etmişdi [5, s. 194].

Sənədlər göstərir ki, Şamaxı olayları zamanı ən ağır faciəni Əngəxaran kəndinin camaatı yaşamışdır. Diqqətçəkən cəhət ondan ibarətdir ki, kəndin başına gətirilən müsibətlərdən sonra əsir götürülənlərin bir hissəsi ermənilər yaşayan Mədrəsə kəndinə, digər hissəsi molokanların məskunlaşdığı Çuxuryurda aparılmışdı [4, v.13].

Ümumilikdə, Şamaxı faciəsi zamanı təkcə Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kəndində (bugünkü Şamaxı və Qobustan rayonları ərazisindəki kəndlər) isə 6-8 min nəfər azərbaycanlı erməni yaraqlıları tərəfindən qətlə yetirilmişlər. Şamaxı şəhəri, onun kənd və obalarından didərgin, qaçqın düşənlərin sayı isə 18 min nəfərdən çox olmuşdur. Şamaxı qırğını zamanı 58 kənd yerlə yeksan olmuşdur. Şamaxıdan sonra erməni millətçiləri Azərbaycanın bir çox bölgələrində Bakıda, Qubada, Göyçayda, Kürdəmirdə, Zəngəzurda soyqırım siyasəti aparmışlar.

Tarixi ədaləti bərpa etmək və daşnak-hnçak ideologiyası ilə silahlanmış erməni yaraqlılarının Azərbaycan xalqına qarşı apardıqları soyqırım siyasətinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanına əsasən 31 Mart Azərbaycanlıların Soyqırım günü elan edilmişdir. 31 mart 1918-1920-ci illərdə erməni faşizminin qətlə yetirdiyi günahsız qurbanların anım günüdür. Həmin dövrdə yüz minlərlə azərbaycanlı erməni vəhşilikləri nəticəsində qətlə yetirilmişlər. Bu nominal rəqəmlər ayrı-ayrı insan təxəyyülünün məhsulu olmayıb, Azərbaycan Respublikasının müxtəlif dövlət arxivlərində saxlanılan tarixi sənədlərin diktəsidir. Hazırda Azərbaycan tarixşünaslığının ən önəmli vəzifələrindən biri erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdikləri cinayətləri xronoloji şəkildə araşdırmaq və dünya ictimaiyyəti qarşısında erməni faşizmini ifşa etməkdir.

**Ədəbiyyat:**

1. "Azərbaycan" qəzeti, 21 oktyabr 1918
2. "Azərbaycan" qəzeti, 30 mart 1919
3. "Bəsirət" qəzeti, 7 dekabr 1918
4. QAPPOD UDP AR, f. 277, siy. 2, iş 16, vər. 1-13
5. Гусейнов Дж. Из истории национально-освободительного движения в начале XX в. (1900-1907 гг.), 2004, с. 194
6. Zülfüqarlı Məhərrəm, «Şamaxı soyqırımı -1918». Bakı, 2011;
7. İskəndərov Anar, «Quba soyqırımı». "Tarix və onun problemləri" jurnalı, əlavə №3, 2007
8. Балаев А. «Февральская революция и национальные окраины. Мартовские события 1918 года в Азербайджане». М., 2008
9. Малевил де Жорж, «Армянская трагедия в 1915 году». Баку, 1990. с.45, 85

10. Мехтиев Р. «Горис-2010: сезон театра абсурда». Тбилиси, 2010, стр.104
11. Рустамова-Тогиди С. «Март 1918 г. Баку: азербайджанские погромы в документах». Б., 2009
12. Файгл Эрик, «Правда о терроре». Баку, 2000, с.57

**MƏHSƏTİ ƏLİYEVA – siyasi elmlər üzrə fəlsəfə doktoru**
**Dövlət idarəçiliyi»**.-2012.-№1(37).-S.120-123.

**Bakı qırğınları (fevral, 1905-ci il)**

**Erməni terror təşkilatlarının, xüsusən də Daşnaksütyunun fəaliyyətinin üçüncü mərhələsi 1905-ci ildən başladı. Bu zaman Daşnaksütyunun 35 min nəfərlik zinvor (yaraqlısı) dəstəsi və çoxlu silah anbarları var idi. Onlar dinc türk, müsəlman əhaliyə qarşı kütləvi qırğınlar üçün məqam gözləyirdilər. Buna I Rus inqilabı dövründə yaranmış qarışıqlıq şərait yaratdı. Terrorçuluq fəaliyyətlərinin ağırlıq mərkəzini Cənubi Qafqaza keçirən erməni-terrorçu təşkilatları bölgənin türk- müsəlman əhalisinə qarşı tezliklə soyqırımlar törətməyə başladılar. İlk toqquşma 1905-ci ilin əvvəllərində Şuşada törədildi. O, geniş əks-səda doğurdu. Erməni silahlıları azərbaycanlılara qarşı ən böyük qırğını Bakıda həyata keçirdilər.**

**SƏBƏBLƏR VƏ BƏHANƏ**

Əslində hadisələrin səbəbləri və kökləri daha əvvəllərə gedib çıxır. Ermənilər ilə azərbaycanlılar arasında ziddiyyətlər uzun illər boyu tədricən toplanmışdı. Cənubi Qafqaz Rusiya tərəfindən işğal edildikdən sonra erməniləri kütləvi surətdə Azərbaycana köçürərək azərbaycanlıların ən münbit torpaqlarında məskunlaşdıran çar hakimiyyəti onlara bir sıra imtiyazlar tanımağa, dövlət qulluğunda üstünlüklər verməyə başladı. Dövlət idarəçiliyi işlərindən uzaqlaşdırılan azərbaycanlıların isə hüquqları məhdudlaşdırıldı, torpaqları əllərindən alındı. Onlar həm də ermənilər tərəfindən sıxışdırılırdı.

Bütün bunlar azərbaycanlıların siyasi, sosial və maddi vəziyyətini getdikcə ağırlaşdırırdı. Ermənilər çar hakimiyyətinin himayəsi altında özlərini həyasızcasına və yırtıcı kimi aparır, heç bir maneəyə rast gəlmədən müxtəlif cəmiyyətlər qurur, komitələr yaradırdılar. Azərbaycanlılar isə belə imkanlardan məhrum edilmişdilər. Hər yerdə üstünlüklərini göstərən ermənilər hakimiyyətin azərbaycanlılara qarşı etibarmı azaltmaq üçün bütün vasitələrdən istifadə edir, hətta guya onların panislamçı, panturançı, pantürkçü hərəkətlərinin genişləndiyinə dair şayiələr yayır, donoslar yazırdılar. Ermənilər ilə azərbaycanlılar arasında münasibətlərdə dərin uçurum yaranmışdı.

Senator Kuzminski bu barədə yazırdı ki, azərbaycanlılar Bakı şəhərinin yerli əhalisi idi. Ermənilər isə neft sənayesi meydana çıxdıqdan sonra 70-ci illərin əvvəllərində buraya gəlmiş və son 10-15 ildə şəhər əhalisinin 15%-ni təşkil edə bilmişdilər. Azərbaycanlılar şəhər əhalisinin 60%-ni təşkil edirdilər. Qısa müddət ərzində varlanan ermənilər iri kapitalistlərə çevrilərək Bakıda hakim mövqelərə yiyələndilər. Onlar siyasi cəhətdən də üstün idilər. Siyasi təşkilatları və hətta silahlı dəstələri də var idi. Ermənilər silah almaq üçün bütün Cənubi Qafqaz üzrə vəsait toplayırdılar. 1905-ci ildə Qnçakın təkcə Bakı təşkilatının 7 min 425 min 4 qəpik pulu var idi. Bu dövrdə erməni komitələri xeyli silah və sursata malik idilər. Onların türk düşmənçiliyinin həddi-hüdudu yox idi. Ermənilərin xüsusən Bakıda özlərini pis aparması səbəbindən azərbaycanlılarla münasibətləri gərgin idi.

Bu illərdə çar hakimiyyəti də zəifləmişdi. Dövlət orqanları erməni terror təşkilatlarının fəaliyyəti barədə müfəssəl məlumat ala bilmir, onların qarşısında aciz qalırdılar. Rusiyada bir tərəfdən inqilab yetişir, digər tərəfdən Yaponiya ilə müharibə aparılırdı. Bir neçə böyük dövlət, xüsusən Böyük Britaniya rus-yapon müharibəsinin gedişində və ondan sonra Rusiyanı daxildən zəiflətməyə, özündən asılı etməyə çalışırdı.

Çarizm baş verən hadisələrin mahiyyətini saxtalaşdırmaq məqsədilə ona millətlərarası ziddiyyət xarakteri verərək Bakıda və digər yerlərdə erməni-müsəlman toqquşmalarının yaranmasına şərait yaratdı. Nəticədə azərbaycanlılar kütləvi şəkildə qırğınlara məruz qaldılar. Erməni silahlı dəstələri dinc türk-müsəlman əhaliyə divan tutdular.

Bu dövrdə erməni silahlı dəstələrinin Cənubi Qafqazda və Anadoluda türk-müsəlman əhaliyə qarşı törətdiyi qırğınların ən böyüklərindən biri Bakı şəhərində və Bakı quberniyasında oldu.

1905-ci il fevralın 19-u fəhlələrin Bakıda ümumi tətili elan edilmişdi. Hakimiyyət bu tətilin qarşısını almaqda aciz olduğunu başa düşdüyündən qarışıqlıq yaratmağa, ermənilərlə azərbaycanlıları qızışdırmağa başladı. Agentura vasitəsilə azərbaycanlılar arasında belə bir şayiə yayıldı ki, ermənilər, onların komitələri Bakıda qiyama hazırlaşırlar, bu məqsədlə bombalar düzəldirlər və bombalar hər şeydən əvvəl azərbaycanlılara qarşı tətbiq ediləcəkdir. Bununla da hakimiyyət orqanları azərbaycanlıların çara qarşı hərəkətlərinə qoşulmamalarına çalışırdı.

**İLK QAN**

1905-ci il fevralın 6-da Parapetdəki (indiki Fontanlar) erməni kilsəsinin yanında gündüz saat 12-yə qalmış erməni terrorçuları tərəfindən Sabunçu kəndinin sakini Ağarza Babayev öldürüldü. Böyük bir nəslin nümayəndəsi olan və Bakının tanınmış, varlı adamlarından sayılan Ağarza Babayevin meyitinin üzərində həm odlu, həm də soyuq silah yaraları var idi. Qətl xəbəri və meyit üzərində ermənilərin qeyri-insani hərəkətlər etməsi barədə şayiələr şəhərdə sürətlə yayıldı. Erməni millətçilərinin Şuşadakı hərəkətlərini də yada salan azərbaycanlılar ölüm hadisəsinə həssaslıqla yanaşdılar. Ermənilərin Ağarza Babayevi öldürməsi və meyitini təhqir etməsi erməni-azərbaycanlı toqquşmalarının başlanğıcı oldu.

Artıq qeyd edildiyi kimi, Ağarza Babayev öldürülərkən ermənilərin azərbaycanlıları qırmağa başlaması barədə şayiə yayılmışdı. Hətta Bakının qubernatoru knyaz M.A. Nakaşidze azərbaycanlıların nüfuzlu nümayəndələrinə demişdi ki, ermənilərin etirazları təkcə hakimiyyətə deyil, eyni zamanda, azərbaycanlılara da qarşıdır, buna görə də azərbaycanlılar onun qarşısını kəsməkdə kömək etməlidirlər. Hətta polis rəisləri azərbaycanlı nümayəndələrə deyirdilər ki, ermənilər hücuma hazırlaşır, onlara silahlı cavab vermək lazımdır. Erməni komitələri də erməniləri silahlandırmaq üçün şayiələr yayır, onları azərbaycanlılara qarşı qızışdırırdılar. Onlar guya kazakların 1500 ədəd tüfəngi azərbaycanlılara payladıqlarını, kazakların azərbaycanlıların paltarını geyinərək ermənilərə atəş açmağa hazırlaşdıqlarını da deyirdilər və s. Ağarza Babayevin öldürülməsi isə hadisələrin başlanması üçün bir bəhanə oldu.

## QIRGINLAR BAŞLAYIR

Ağarza Babayevin qətli yerli azərbaycanlı əhalini hiddətləndirdi. Nakaşidze şəhərdə qayda-qanun yaratmaq üçün hər iki tərəfdən nüfuzlu şəxsləri yanına dəvət etdi. Azərbaycanlıların nümayəndəsi Hacı Zeynalabdin Tağıyev, ermənilərin nümayəndəsi isə Ambarsum Məlikov idi. Qubernator onlardan adamlara sakitliyi gözləməyin vacibliyini başa salmağı xahiş etdi. Həm Tağıyev, həm də Məlikov edilən müraciətin əhəmiyyətini başa düşərək razılaşdılar. Lakin erməni tərəfi əvvəlcədən müəyyənləşdirilən yerə gəlmədilər. Buna görə də Hacı Zeynalabdin Tağıyev də verdiyi sözü geri götürdü.

Şəhərdə sanki hər şey sakit idi. Polis işçiləri kazaklarla birlikdə şəhər küçələrini gəzərək qayda-qanuna nəzarət edirdilər. Lakin axşam şəhərin mərkəzi hissəsində bir neçə atəş səsi eşidildi. Sonra isə döyüş başladı. Öldürülən Ağarza Babayevin qohumları dəmiryolu ilə gələrək yolda gördükləri hər bir ermənini və ya erməniyə oxşayan hər bir adamı öldürməyə başladılar. Nakaşidze Salyan polkunun komandiri polkovnik Valterə və süvari diviziyasının komandiri Fon Ozarovskiyə vaxt itirmədən qayda-qanun yaratmaq üçün qüvvə göndərməyi əmr etdi. Bu zaman Bakı qarnizonunun Salyan piyada ehtiyat polkunda 630 nəfər, Dağıstan polkunda 170 nəfər, Şirvan polkunda 200 nəfər, atıcı batalyonda 220 nəfər, ayrıca olaraq 130 nəfər kazak da var idi. Beləliklə, şəhərdə cəmi 1220 nəfər piyada, 130 nəfər kazak var idi. Bundan başqa Xəzər Dəniz Donanmasının 50 nəfər dənizçisi də qayda-qanun yaradılması işinə cəlb edilə, qarışıqlıq zamanı həbsxanalara nəzarət edə bilərdi. Əlavə olaraq Salyan təlim və musiqi komandasında 235 nəfər, Şirvan batalyonunda 120 nəfər, Dağıstan batalyonunda 100 nəfər, atıcı batalyonda 180 nəfər qayda-qanun yaradılmasına cəlb oluna bilərdi. Onlar yalnız bir neçə saat üçün, ən yaxşı halda bir sutkalıq küçələrə çıxa bilərdilər. Azərbaycanlılar ilə ermənilər arasında döyüşlər bir neçə gün davam edəcəyi təqdirdə küçələrdə qayda-qanun yaratmaq üçün çıxan adamlara istirahət də vermək lazım idi. 200 min nəfər əhalisi olan Bakı şəhərində qayda-qanun yaratmaq üçün bu qədər qüvvə kifayət etmirdi. Qarışıqlıq olacağı təqdirdə atıcı polka Vağzalyanı hissəni, Dağıstan batalyonuna Dövlət Bankını, xəzinədarlığı, poçt-teleqraf kontorunu, telefon və s., şəhərin cənub rayonlarını mühafizə etmək isə Salyan və Şirvan batalyonlarına tapşırıldı. Kazaklar da şəhər boyu hərəkət etməli idilər. Soyğunçulara, qatillərə və oğrulara qarşı silah tətbiq edilə bilərdi. Hərbçilər böyük dəstələrlə deyil, kiçik dəstələr halında şəhərdə adamların çox yaşadığı yerlərdə patrul xidməti keçməli idilər. Komandirlər kiçik dəstələrlə dar küçələrdən keçməyi təhlükəli hesab edirdilər.

Fevralın 6-da şəhərin mərkəzində atışma davam etdi. Hər iki tərəfdən ölənlər var idi. Bakı şəhər Mixaylov xəstəxanasından verilən məlumata görə, gün ərzində 18 nəfər öldürülmüş, 33 nəfər yaralanmışdı. Axşam saat 11-ə yaxın atəş dayandırıldı. Fevralın 6-dan 7-nə keçən gecə şəhərdə sakitlik hökm sürürdü.

## ŞƏHƏR NƏZARƏTDƏN ÇIXIR

Fevralın 7-si səhər dükanlar açıldı. Şagirdlər də məktəbə gedirdilər. Lakin səhər saat 9-da şəhərin yuxarı hissəsində yenidən atəş səsləri eşidildi. Bazar küçəsindəki dükanları bağlayan adamlar azərbaycanlıların 40-50 nəfərlik dəstələrinə qoşularaq şəhərin ermənilər yaşayan hissəsinə enməyə başladılar. Lakin burada onları hərbi hissələr qarşıladı. Azərbaycanlılar dağılışdılar. Ermənilər evlərinin pəncərə və damlarından azərbaycanlılara atəş açmağa başladılar. 5-6 nəfər erməni gənc küçəyə çıxaraq azərbaycanlı kütləyə atəş açdı, sonra isə qaçıb evlərdə gizləndi.

Qubernatorun yazdığına görə, yalnız bundan sonra yerli əhali polisə tabe olmadı. Həyəcanlar bütün şəhəri bürüdü. Qanlı hadisələri dayandırmaq üçün hansısa fövqəladə tədbirlər həyata keçirmək lazım idi. Polisin gücü ilə silahlı toqquşmanı dayandırmaq və qayda-qanun yaratmaq mümkün deyildi. Buna görə də qubernator Nakaşidze polkovnik Valteri və qarnizon rəisi general Balı yanına çağırtdırdı. Bal bildirdi ki, ordu yorulduğu üçün istirahət lazımdır. Onun istəyi yerinə yetirildi. Valter hərbçilərə isti yemək və istirahət verilməsini istədi. Lakin qubernator bildirdi ki, belə bir ağır şəraitdə istirahət və isti yemək zamanı deyil, suxarı ilə kifayətlənmək olar. Çünki şəhər tamamilə nəzarətdən çıxırdı. General Bal qubernatora istəyini yazılı şəkildə verməyi xahiş etdi. Onun da xahişi yerinə yetirildi. Qubernator general Bala yazılı müraciət edərək xahiş etdi ki, ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşmaların ən yüksək həddə çatdığnıı nəzərə alaraq, şəhərdə gələcəkdə bədbəxt hadisələrə yol verilməməsi, qarnizon ordu hissəsinin bütün şəhərdə növbə ilə hərəkət etməsi üçün qüvvə ayrılsın.

Şəhərdə isə vəziyyət getdikcə ağırlaşırdı. Bütün şəhər boyu atışma gücləndi. Qubernator azərbaycanlıların və ermənilərin nüfuzlu şəxslərini yanına dəvət etdi. Lakin dəvət edilənlər gəlmədikləri üçün planlaşdırılan müşavirə baş tutmadı. Hərbçilərlə danışıqlarını başa çatdıran qubernator hərbi hakimiyyətə və polisə bütün şəhərdə hərəkət etmək göstərişini verdi. Özü isə mühafizəçilərin nəzarəti altında küçəyə çıxdı. Qubernator Sadovoy küçəsindən piyada keçərkən azərbaycanlı gənclərin dəstəsini gördü. Dəstədəki gənclərdən yalnız bir nəfərin əlində tapança var idi. Onlar qubernatora bildirdilər ki, şəhərin nüfuzlu şəxslərindən biri olan Hacınskinin oğlunu yola salmaq istəyirlər. Keçdikləri yolda çoxlu erməni ilə qarşılaşacaqlar. Buna görə də onları müşayiət etmək üçün adamlar verilməsini istədilər. Qubernator onların istəyini yerinə yetirərək polis müfəttişinə gəncləri istədikləri yerə aparmaq əmrini verdi.

Qəfildən sahil tərəfdən atəş səsləri eşidildi. Qubernator oraya getməyə tələsdi. Yolda Merkurov körpüsündə bir nəfərin meyitini gördü, bir nəfər isə yaralanmışdı. Bunların hər ikisi azərbaycanlı idi. Küçədə isə kimsə görünmürdü. Azərbaycanlıları öldürdükdən sonra ermənilər kazakların yaxınlaşdığını görüb qaçıb getmişdilər. Nikolayev küçəsindən Qala qapısına doğru gedəndə qubernator azərbaycanlılardan ibarət kütləni gördü. Kütlə ermənilərin azərbaycanlıları çara qarşı çıxmadıqları, proklamasiyalarını qəbul etmədikləri üçün öldürdüklərini, ermənilərlə birlikdə çara qarşı çıxmaq istəmədiklərini dedi. Onlara təşəkkür edən qubernator yoluna davam etdi. Azərbaycanlılar ermənilərin evlərinin damlarından və pəncərələrindən onlara atəş açdıqları barədə qubernatora şikayət etdilər. Bildirdilər ki, ermənilər atəşi dayandırsalar, onlar da müvafiq addım atacaqlar. Bazar küçəsində nüfuzlu azərbaycanlılar qubernatoru qarşıladılar. Onlar qubernatora bildirdilər ki, erməni dükanlarını qarət etmiş bir neçə farsı yaxalamışlar, qarət edilən malları geri almışlar və xahiş edirlər ki, polis dükanların mühafizəsi üçün adam ayırsın. Qubernator buna görə azərbaycanlılara təşəkkür edərək polisə müvafiq göstəriş verdi. Nüfuzlu azərbaycanlılar qubernatorun qarşısına çıxaraq ermənilərin hərəkətlərinə son qoyulmasını istədi.

Küçələri gəzən qubernator meyitlərlə rastlaşırdı. Qırğınların qarşısını polis və ordunun gücü ilə almağın mümkünsüz olduğunu başa düşən qubernator erməni yepiskopunun yanına getdi. Kilsədə erməni keşişləri və ziyalıları toplaşmışdılar. Müsəlman qazısı də ora gəldi. Məscidlərdən mollalar da çağırıldı. Asayişi bərpa etmək məsələsi müzakirə edildi. Hakimiyyətin, azərbaycanlıların və ermənilərin nüfuzlu nümayəndələrinin birlikdə şəhər küçələri ilə keçərək xalqı sakitliyə və barışığa dəvət etmələri barədə fikir mübadiləsi aparıldı. İştirakçılardan biri bildirdi ki, hərəkət edən zaman onlardan bir nəfərin öldürülməsi ilə qırğınların miqyası arta bilər. Buna görə də qəti qərara gəlmədilər. Oradan ayrılan qubernator məktəblərə getdi. Azərbaycanlı və erməni şagirdlər qorxudan evlərinə gedə bilməmişdilər. Kazakların müşayiəti ilə şagirdlər evlərinə göndərildi. Atışma fevralın 7-də gündüz saat 12-də dayandı. Bu zaman öldürülən və yaralananların sayı 100 nəfərə çatırdı.

***Bu gün çox adam mauzerçi sözünün nə demək olduğunu bilmir. Lakin keçən əsrin əvvəllərində Cənubi Qafqazda bu sözün mahiyyəti hamıya aydın idi. Erməni terror təşkilatlarının cəza dəstələri o dövrdə məhz belə adlandırılırdı. Erməni mauzerçiləri o dövrdə yenicə istehsal edilməyə başlayan və baha olduğu üçün heç bir ordunun silahlanmasında istifadə edilməyən mauzerlərlə yaxşı təchiz edilmişdilər.***

## NÖVBƏTİ DALGA

Atışma fevralın 8-də yenidən başlandı. Sahilə yaxın Petrovski küçəsində konka ilə hərəkət edən 4 nəfər erməni azərbaycanlıların toplaşdığı yerə atəş açdı. Az sonra ermənilər azərbaycanlıların faytonlarını atəşə tutdular. Gündüz saat 2-də sahilyanı küçədən iki nəfər erməni mauzerçisi sağa və sola atəş aça-aça keçdi. Nəticədə ölənlər oldu. Bütün şəhəri qarışıqlıq bürüdü. Soyğunçuluq və qarət artdı.

Praçeçnaya küçəsində ermənilər toplarla Malakan bağı tərəfindəki evlərə, azərbaycanlılar isə Praçeçnaya küçəsi ilə Kamenistıy küçəsinin tinindən atəş açırdılar.

Azərbaycanlılar quberniya idarəsinə gələrək ermənilərin öz evlərinin damından və pəncərələrindən onları atəşə tutduqlarını bildirdilər. Qubernator evlərin göstərilməsini istədi. Onlar Lalayev və Babacanovun evlərini göstərdilər. Qubernator göstərilən evlərə azərbaycanlı nümayəndələri ilə gedərək bu hərəkətlərə son qoymağı tapşırdı. Lakin ermənilər atəşi dayandırmadılar. Azərbaycanlılar cavab verməyə məcbur oldular.

Qubernator isə güclü mühafizə altında şəhəri gəzməkdə davam edirdi. Paralel küçəsində o, bir yerə toplaşmış erməni və azərbaycanlılara rast gəldi. Onlar qubernatora küçələrində toqquşma olmayacağı barədə söz verdilər.

Balaxanı və Sabunçuda da qanlı hadisələr baş verdi. Burada 11 nəfər öldürüldü və yaralandı. Hadisə əsasən öldürülən Ağarza Babayevin qohumları və həmkəndlilərinin yaşadıqları Sabunçu kəndində oldu. Öldürülmüş Ağarza Babayev bu zaman hələ dəfn edilməmişdi. Qubernator öldürülən Babayevin evinə gələrək atasına başsağlığı verdi, mərhumun ruhunun rahat olması üçün Allahın da bəyənmədiyi qan davasının dayanmasını istədi. Mərhumun atası ona söz verdi.

Axan qanın dayandırılması üçün qubernator fevralın 8-də də erməni yepiskopunun yanına getdi. Burada bir neçə nüfuzlu erməni də var idi. Qubernator evlərin damından və pəncərələrindən açılan atəşin və qırğınların dayandırılmasını xahiş etdi. Lakin axşam şəhərdə oğurluq və qarət artdı. Pəncərə və damlarından

azərbaycanlılara intensiv atəş açılan Babacanovun evi və Fantaziya hamamı yandırıldı. Babacanovun evindən Adamov adlı bir erməni gün ərzində 500 atəş açmış və 60 nəfəri öldürmüşdü. Azərbaycanlılar Adamovu ələ keçirə bilməyəcəklərini görüb evə od vurdular. Yandırılan evə yanğınsöndürənlər və Salyan polkunun rotası çağırıldı. Lakin azərbaycanlılar evi atəş altında saxladıqlarından onlar geri qayıtmağa məcbur oldular. Ev yanıb külə döndü.

Gecəyə doğru şəhərdə qırğınlar daha da artdı. Bütün yaşayış məhəllələri təhlükədə idi. Fevralın 8-dən 9-a keçən gecə ermənilərin intensiv atəş açdıqları Lalayevin evi yandırıldı, qaçmaq istəyənlər isə öldürüldü. Qarnizon əsgərləri köməyə gəlmədilər. Bildirdilər ki, onlara komandirləri əmr verməlidir. Belə bir əmr isə verilmədi.

Baş verən hadisələr haqqında Bakı dairə məhkəmə prokuroru ədliyyə nazirinə və Tiflis Məhkəmə Palatasının prokuroruna 1905-ci il 9 fevral tarixli 2238 №-li təqdimatında yazırdı: “Parapet meydanına endim və atışma səsləri eşitdim. Bu zaman meydanda dayanan kazaklardan atışma gələn tərəfə niyə hərəkət etmədiklərini soruşdum. Onlar yerlərindən tərpənmədilər. Onlara hərəkət etməyin vacibliyini bildirdikdən sonra könülsüz olaraq hərəkət etməyə başladılar. Kazaklar Quberniya küçəsinə yaxınlaşan kimi atışma dayandı. Onlar aralanan kimi yenidən atışma başladı”.

Vəziyyətin daha da ağırlaşdığını görən qubernator fevralın 9-da müsəlman, pravoslav və erməni din xadimlərini, ictimaiyyətin nümayəndələrini yanına çağırdı. Şəhərdə bir yerdə hərəkət etmək barədə qərar qəbul edildi. Onlar şəhər küçələri ilə hərəkət edən zaman “ura” sədaları eşidilirdi. Yürüş zamanı azərbaycanlı və erməni xadimləri qırğının dayandırıldığını bildirirdilər. Axşam saat 6-da artıq şəhərdə sakitlik bərpa olunmuşdu. Qanlı hərəkətləri ilə çox uzağa getdiklərini başa düşən ermənilər ailələrini Bakıdan çıxarmağa başlamışdılar.

Hadisələrin gedişində qubernator Qafqaz Canişinliyi Dəftərxanasına teleqram göndərərək Bakı qarnizonunu gücləndirmək üçün istədiyi əlavə hərbi qüvvə şəhərə girəndə artıq gec idi: qırğın dayanmışdı.

## QIRĞINLARIN NƏTİCƏLƏRİ

Bakıda törədilən qırğınların ağır nəticələri oldu. Bütün müəssisələr bağlandı. Adamlar evlərinə qapanmışdı. Hakimiyyət strukturlarının, ordu və polisin işi donmuşdu. Hadisələr zamanı şəhər atışma meydanına çevrilmişdi. Küçələr meyitlərlə dolu idi. Bu zaman Bakıda 5 pristav və onların 5 nəfər köməkçisi, 25 sahə müvəkkili, 200 polis işçisi var idi. Bu ştat 1895-ci ildə əhalisi 83 min nəfər olan Bakı şəhəri üçün nəzərdə tutulmuşdu. O vaxtdan keçən müddət ərzində şəhər xeyli genişlənmiş, əhali isə artmışdı. Polisin ştat vahidi tələbata cavab vermirdi. Bakı Avropa əhəmiyyətli bir şəhərə çevrilmişdi. Burada 175-dək fabrik və zavod var idi. Bu müəssisələrdə 10 mindən çox adam işləyirdi. Hər gün böyük bir şəhərdə ictimai təhlükəsizliyə növbə ilə yalnız 60 nəfər polis işçisi nəzarət edirdi. Onlar ayda 16 rubl maaş alırdılar. Qanlı hadisələr zamanı küçələrdən evlərinə qaçan polis işçiləri canlarının hayına qalmışdılar. Hətta qarətçilər içərisində polis işçiləri də var idi.

Şəhər polisi tamamilə fəaliyyətsiz idi. Belə bir şəraitdə ümid yalnız orduya qalırdı. Lakin qırğınlar zamanı ordunun fəaliyyəti də sıfıra bərabər idi. Azsaylı Bakı qarnizonu qarışıqlığın qarşısını ala bilmədi. Ordu yalnız fevralın 7-də silah tətbiq etməyə başladı.

Qubernatorun fikrincə, erməni və azərbaycanlı xalqları arasında həm nifrət, həm də xüsusi dostluq mövcud deyildi. Onlar bir-biri ilə ticarət edirdilər və haqq-hesabları olurdu.

Hadisələr zamanı öldürülənlər haqqında dəqiq məlumat yox idi. Rəsmi məlumata görə, 231 nəfər öldürülmüş, 179 nəfər yaralanmışdı. Öldürülənlərin 153 nəfəri, yaralananların 67 nəfəri erməni idi. Qubernator yazırdı ki, öldürülən müsəlmanların sayı çox olsa da, onlar bunu demir, meyitlərini ortadan götürərək sakitcə basdırırdılar. Dağıdılan evlərin və dükanların sayı 99 idi.

Tiflis Məhkəmə Palatasının prokuroru Ədliyyə Nazirliyinin işlər müdirinə 1905-ci il fevralın 20-də 119 №-li tamamilə məxfi məktubunda yazırdı ki, azərbaycanlılar meyitlərini tez aradan götürdüklərindən öldürülənlərin sayını dəqiq müəyyənləşdirmək mümkün deyildir.

Qarışıqlıqlar zamanı ticarət obyektləri dağıdılmış, qarət edilmiş, 20-yə yaxın ev yandırılmışdı.

Senator Kuzminski 1905-ci ildə Bakı şəhəri və Bakı quberniyasının təftişinə dair hesabatında yazırdı ki, Bakı polismeyestrinin verdiyi məlumata görə, fevralın 6-9-da baş verən hadisələrdə cəmi 232 nəfər öldürülmüşdü. Bu müddət ərzində 138 ticarət obyekti dağıdılmışdı. Onların 97-si ermənilərə, 30-u azərbaycanlılara məxsus idi.

Bakı qubernatorunun 1905-ci il üçün hesabatında qeyd edilirdi ki, öldürülən və yaralananlar haqqında məlumat xüsusən azərbaycanlılar arasında təqribi idi. Çünki onlar ölülərini polisə bildirmədən götürüb basdırırdılar.

Bakı şəhərində baş verən toqquşmalara dair 400-dək cinayət işi açıldı. Barışığa nail olmaq üçün şəhər qubernatoru fevralın 11-dən qüvvəyə minən qərar verdi. Qərarda əhali şayiələrə inanmamağa çağırılır, axşam saat 8-dən səhər saat 6-dək küçələrə çıxmaq qadağan edilirdi. Bu qərarı yerinə yetirməyən şəxslərə qarşı silah tətbiq edilə, 500 mbl cərimə və ya 3 ay həbs oluna bilərdilər.

Maliyyə naziri V.Kokovtsev Bakıdakı hadisələrə dair 14 fevral tarixli məruzəsində bu hadisələrin müəyyən şəxslər tərəfindən törədildiyini yazırdı.

Baş verən erməni-müsəlman qırğınlarından sonra Bakı şəhər özünüidarəsi nəzdində fəlakətin miqyasmı müəyyənləşdirmək üçün komitə təşkil edildi. Komitə milliyyətindən asılı olmayaraq, zərər çəkənlərin saymı və dəyən ziyanı müəyyənləşdirmək üçün fəaliyyətə başladı. Zərər çəkənlər üç kateqoriyaya ayrılırdı: öldürülənlərin himayəsində olan dul qadınlar, yetimlər; yaralılar; əmlakım itirənlər. Təhqiqat nəticəsində 318 ailədən adam öldürüldüyü məlum oldu. Onların 263 nəfəri ailə başçısı idi. 282 ailədən adam yaralanmışdı. Onlardan 15 nəfəri tamamilə əlil olmuşdu, 60 nəfəri isə əmək qabiliyyətini təqribən 50%-ə qədər itirmişdi. 570 ailə əmlakından məhrum olaraq küçədə qalmışdı. Bütövlükdə yardıma ehtiyacı olanlar 4 min 500 nəfər idi. Dəyən ziyan 3 milyon rubla bərabər idi. Komitənin sərəncamında olan 100 min rubl zərər çəkənlərə verildi. Lakin bu məbləğ kifayət etmirdi. Ona görə də şəhər başçısı Bakı qubernatoruna müvafiq vəsaitin Şəhər Duması tərəfindən ayrılması üçün xahiş etdi. Bakı Şəhər Duması martın

1-də keçirilən iclasında Ehtiyat Fondundan komitəyə 50 min mbl ayırdı.

Qırğın və dağıntıların miqyasının böyük olmasının bir səbəbi də Bakı Dairə Məhkəməsi prokuroru- nun 1905-ci il martın 7-də ədliyyə naziri və Tiflis Məhkəmə Palatasının prokuroruna yazdığı 3934 №-li məktubda qeyd etdiyi kimi, polis və ordunun laqeyd münasibəti idi. Onun yazdığına görə, hərbi patrullar küçələri gəzib dolaşır və heç bir tədbir görmürdülər. Yalnız hadisələr dayandırıldıqdan sonra şəhərə əlavə ordu hissələri gətirildi. Silahların toplanması üçün tədbirlər həyata keçirilmədi. Qətllər polisin gözü qarşısında baş verirdi. Silahlı quldur dəstələrinə qarşı silah tətbiq edilmədi.

Bakıdakı hadisələrin qızışdırıcıları haqqında general Amilaxvari daxili işlər nazirinin müavini Rıdzevskiyə 1905-ci il 15 aprel tarixli məktubunda yazırdı ki, buradakı bütün qarışıqlıqların səbəbi inqilabi komitələrdir, başlıca rolu ermənilərin böyük əksəriyyətinin rəğbət bəslədiyi və hətta onlar tərəfindən müdafiə edilən erməni komitələri oynayır. Onlar həyasız fəaliyyətləri ilə fərqlənirlər.

## NAKAŞİDZENİN ÖLDÜRÜLMƏSİ

Hadisələrdən sonra Bakı qubernatoru Nakaşidzenin öldürüləcəyi barədə şayiə yayıldı. Bunu erməni kilsə xadimlərinin təşkil edəcəyi deyilirdi. Qubernator hətta bir neçə anonim məktub da almışdı. Bu məktublarda ona çıxıb getmək təklif edilirdi, getməyəcəyi təqdirdə isə öldürüləcəyi ilə hədələnirdi. Nakaşidzenin öldürülməsi üçün 35 min manat pul ayrılmışdı. Bir neçə nəfər erməni Sadovoy və Sahil küçələrində, Şəhər bağında qiyafələrini və papaqlarını dəyişərək gəzir, qubernatorun evinə qədər ərazini nəzarətdə saxlayırdılar. Nəhayət, 1905-ci il mayın 11-də gündüz saat 3-də Parapet küçəsi ilə Vrangel küçəsinin kəsişdiyi yerdə hərəkət edən knyaz Nakaşidzenin faytonu “Metropol” mehmanxanasına tərəf dönəndə ona bomba atdılar. Partlayan bombanın təsirindən Nakaşidze 10-15 metr kənara düşdü. Ağır yaralanan Nakaşidze mayın 18-də öldü. Onun mühafizəçisi və küçədə meyvə satan 2 nəfər də həlak oldu.

Daşnaksütyun qətldən az sonra yaydığı “Erməni xalqına müraciətində” deyirdi ki, artıq Nakaşidze yoxdur.

Nakaşidzeni öldürən ermənilərə – Şuşa şəhər sakini Simon Balasanova, Bakı şəhər sakini Georgi Mayramova, İran təbəələri Petros Saxakyansa, Levon Arutunova və Naxçıvan qəzasından olan Minas Aqayansa məhkəmənin qərarı ilə ölüm hökmü verildi. Lakin sonralar onların hər biri 15 illik katorqaya göndərildilər. Qətldə iştirak edən beşinci adam – həddi-buluğa çatmayan Minas Aqayans isə yalnız 1907-ci ildə mühakimə olundu və bəraət aldı.

1905-ci ildə Bakı quberniyasında ümumi əhalinin sayı 1 milyon 45 min 984 nəfər idi. Bakı şəhərində isə 266 min nəfər əhali yaşayırdı. Şəhərdə yerli əhali olan azərbaycanlıların sayı 43%, ruslar 29%, ermənilər 21%, digər millətlərin nümayəndələri 6% idi. Şəhərin erməni əhalisini silahsız təsəvvür etmək mümkün deyildi. Heç əbəs deyildir ki, aprel-may aylarında Bakı şəhərində 2 sahədə aparılan axtarış nəticəsində Nazar Meleksetovun, Saak Davidyansın, Petros Arutunovun, Mıkırtıç Minasovun, Mirdat Ter-Stepanyansın, Mixak Ter-Minasyanın evindən silah və sursat tapıldı. Digər ermənilərin də evindən silah və sursatlar götürüldü. Mayın 19-da Bakıda Telefon küçəsində Sarkis Poqosbekovun emalatxanasından 80-ə yaxın qəlibə tökülmüş bomba, onun digər bir emalatxanasından isə 3 hazır bomba ələ keçirildi.

Törədilən hadisələr sonuncu olmadı. Bakı şəhərinin və Bakı quberniyasının azərbaycanlı əhalisini hələ çətin sınaqlar gözləyirdi.

**«Milli Məclis»**.-2012.-sentyabr-oktyabr.-S.62-69.

**Musa Qasımlı** – Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor

**Üç soyqırımının şahidi**

**Xocalı dedikdə, yadımıza ilk növbədə, 1992-ci ilin dəhşətli soyqırımı düşür. Əslində isə qədim tarixə malik bu ata-baba torpağımız ondan əvvəl də çox zülmlərə, təzyiqlərə məruz qalıb. XIX əsrdə və XX əsrin əvvəllərində çar Rusiyasının Qarabağda apardığı erməniləşmə siyasəti bu yerdə də düşünülmüş şəkildə həyata keçirilib. Xocalıya məxsus üç bölgədən birinə - Qala Dərəsi kəndinə İrandan köçürülmüş ermənilər yerləşdirilib. Bunun ardınca, əsasən də 1918-ci il qırğınlarından sonra "Qaçqınlar" adlanan ərazidə Qərbi Azərbaycanın Dərələyəz mahalından didərgin salınmış azərbaycanlılar məskunlaşdırılıb.**

Xocalı təkcə XX əsrdə ermənilər və onların himayədarları tərəfindən üç dəfə soyqırımına məruz qalmış qanlı və şanlı tarixə malik bir məkandır.

Deyirlər, hər bir insanın həyatı öz vətəninin, xalqının tarixinin kiçik bir hissəsidir. Bu baxımdan Xocalı elinin ləyaqətli oğlu Qasım Allahverdiyevin həyat salnaməsi də onun tarixindən ayrılmazdır. 90 ildən çox ömür sürən, üç soyqırımının dəhşətlərini görən və bütün həyatını xalqına həsr edən bu insan Xocalının ilk ziyalılarından biri olmuşdur.

Qasım Allahverdiyev əsil-nəcabətli yerin oğlu idi. Möhkəm soy-kökdən "boy atmışdı". Təsadüfi deyil ki, həyatı da elə bil atası İmamqulunun mənalı ömrünün davamına çevrilmişdi.

İmamqulu kişi seyid, imam nəslindən idi. Mərd, igid, hörmətli, xeyirxah bir insan kimi tanınırdı. Onun bütün bu xüsusiyyətləri zaman-zaman daha çox üzə çıxırdı. Vaxt gəldi və İmamqulu Nuru Paşanın Qarabağın azadlığı uğrunda vuruşan atlı əsgərləri sırasında yüzbaşı kimi döyüşdü və böyük xidmətlər göstərdi.

Təbii ki, döyüşlərdə onun köməyi çox gərəkli idi. Çünki yerli adam kimi coğrafi mövqe ilə əsgərləri yaxından tanış edirdi, hər daşına, hər ağacına bələd olduğu ərazilər barədə bir növ, onlara ətraflı məlumat verir, üstəlik, özü də hünər göstərirdi.

1918-ci ildə Xocalı ikinci dəfə yandırıldı. Kənd əhalisi bu başıbəlalı yurdun birinci soyqırımını hələ unutmamışdı. 1905-1907-ci illərdəki qanlı olaylar hələ də xocalılıların yuxularına girir, onları dönə-dönə dəhşətə gətirirdi.

Bu dəfə ermənilərin törətdikləri vəhşiliklərdən sonra salamat qalmış Xocalı sakinləri Şuşanın Malıbəyli kəndində məskunlaşmışdılar. Erməni quldur dəstələri Malıbəyli və qonşu Quşçular kəndinin əhalisini də vahimə içərisində saxlayırdılar. Onlar əliyalın Xocalı sakinlərinə gündüzlər su gətirməyə belə aman vermirdilər və bundan xüsusi zövq alırdılar. Odur ki, kişilər gecələr evlərə su daşımalı olurdular.

Belə gərgin dövr-zamanda İmamqulu kişi də xocalılıların məskunlaşdıqları məhəlləyə gəlir, bulaqdan atla camaata su aparırdı. Malıbəylinin yaxınlığındakı yeganə içməli su mənbəyi novlu bulaq idi. Bu xəbər ermənilərə çatan günü burada pusqu qurulur. Öz el-obası üçün həyatını riskə atan İmamqulu kişi düşmən tərəfindən əvvəlcə izlənilir. Əlbəttə, Nuru Paşanın əsgərinin silahsız olmadığı aydın məsələ idi. Buna görə də erməni öz riyakar xislətinə sadiq qalaraq yenidən hiylə işlədir. İmamqulu gecə su qabının birini doldurub bulaqdan iki-üç addım aralandıqda atı fınxırmağa və ayaqlarını yerə döyməyə başlayır. O, silaha əl atmağa belə macal tapmır və vurulur.

Namərd gülləsindən yaralanan İmamqulu ölümə təslim olmaq istəmir. Su qabını sinəsinə sıxaraq sürünə-sürünə kəndə çatmağa can atır. Lakin bacarmır, qanı dupduru bulaq suyuna qarışaraq doğma Qarabağ torpağı boyu axıb gedir… Beləcə, İmamqulu kişi qeyri-adi bir "döyüş"də, zülmət gecədə düşmən məkrinin qurbanı olub, şəhid zirvəsinə çatır. Ömrünü övladlarına bağışlayaraq əbədiyyətə qovuşur və Malıbəyli kəndində dəfn olunur. Bəs həyatını Vətən, el yolunda qurban verən bu atanın övladlarının taleyi necə olur?

Qarabağın dağlıq hissəsində Nuru Paşanın döyüşçüləri erməni quldurlarını tərk-silah etdikdən sonra xocalılılar öz doğma yurd yerlərinə qayıdırlar. Lakin onların evləri – torpaqları viran edilmişdi. Məsələn, Qışlaq kəndi adlanan bölgədə (hissədə) bircə salamat ev belə qalmamışdı. Ermənilər hətta qapı və pəncərələri də söküb daşımış, bununla məkrlərini "yatırda" bilməyib hər yana od vurmuşdular. Kəndin ərazisindəki iki su quyusunu da dağıtmışdılar.

Bu zaman İmamqulunun ailəsinin başında böyük oğlu Qasım dayanırdı. Şəxsiyyətini təsdiq edən sənədə görə onun 16 yaşı vardı. Əslində isə Qasımın təvəllüdü yazıldığından 5-6 il əvvəl idi. Çünki 1905-ci ilin qırğınlarını dəqiqliyi ilə xatırlayırdı. Xocalı bəylərinin adlarını bir-bir çəkərək Qasım söyləyirdi ki, onlar həmin vaxt Xocalının yaşlısını, cavanını başlarına toplayıb təzə yurd yerini Qışlaqdan bir-iki kilometr aşağıda, magistral yolun yaxınlığında salmağı məsləhət görmüşdülər: "Köhnə Qışlaqdakı kösövə dönmüş divarlar isə tarixə yadigar qalsın" – demişdilər.

Xocalılılar belə də etmişdilər. Lakin bir qədər irəliyə gedərək elə buradaca qeyd etmək yerinə düşər ki, keçən əsrin 60-cı illərində ermənilərin Yer üzündəki vəhşi pəncələrinin izlərini silmək istəyən bu mənfur millətin nümayəndəsi Silva Kapitukyan "Karvan hələ yoldadır" kitabını yazdı. Bundan sonra ermənilər vaxt

itirmədən Xocalıda saxlanan "açıq səma altında muzey"i buldozerlərin cənginə verib yerlə yeksan etdilər. Qışlaqdakı qədim qəbiristanlığı traktorlarla şumladılar…

Bütün bunlar Xocalının tarixindən və hər bir xocalılının taleyindən keçən olaylardır. Odlara qalanmış doğma kəndin mənzərəsini Qasım da ömrünün sonuna qədər unuda bilmirdi. Həm də təsəvvür etmirdi ki, ahıl yaşında bundan da böyük dəhşətləri görüb sonra dünyadan köçəcək. Bununla belə o, gənc yaşlarından mətinləşmiş, çətin anlarda özünü itirməmişdi. Xocalılılar Qışlaqda yeni kənd quranda Qasımın artıq anası da yox idi. Bahar xanımın incə qəlbi erməni zülmlərinə dözməmişdi və o, hələ 1916-cı ildə haqq dünyasına qovuşmuşdu. Anasının vəfatından sonra Qasım və kiçik bacısı Bənövşə xeyli vaxt dayılarının – Qarabağın tanınmış bəylərindən olan Hacı Zeynalın nəvəsi Həsən kişinin himayəsində yaşamışdılar.

Sovet hakimiyyəti qurulduqdan sonra Qasım Allahverdiyevi Şuşa rayonunun Xocalı kəndi üzrə komsomol katibi seçirlər. Kənd cavanlarından Şükür Məmmədov, Bəşir Mustafayev, Talıb Abışov və başqaları bu təşkilata üzv yazılırlar. Şükür Qasımın müavini idi. İkisi birlikdə hər ayın axırında Şuşaya gedir, hesabat iclaslarında iştirak edirdilər. Bu, hər dəfə dağ yolları ilə 22-24 kilometr məsafə qət etmək demək idi.

**Qısa arayış**: 1923-cü ildə, SSRİ təşkil olunandan sonra Leninlə Mikoyan Azərbaycanda Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaratdılar. Xankəndini DQMV-nin mərkəzi elan edərək şəhərə düşünülmüş şəkildə xalqımızın düşməni, satqın və riyakar Stepan Şaumyanın adını verdilər. Əhali bu şəhərə "ştab", yəni, "qərargah" deyirdi. Çünki SSRİ-nin silahlı qüvvələrinin qərargahı burada yerləşirdi. Rayonu genişləndirmək üçün Xocalını Şuşanın tərkibindən çıxarıb oraya birləşdirdilər.

Getdikcə Qasım öz gələcək təhsili, sənəti ilə bağlı da qayğılanmağa başladı. Elə buna görə də Bakıya gələrək aqronomluq məktəbinə daxil oldu və 30-cu illərin əvvəllərində təhsilini bitirdi. Qasım bilərəkdən bu sahəni seçmişdi ki, kəndə bir mütəxəssis kimi köməyi dəysin. Belə də oldu.

Qasım kəndə yaxşı bir mütəxəssis kimi qayıtdı. Cavan olmasına baxmayaraq, onu kolxoz sədri seçdilər.

1930-cu illərin sonu – 1940-cı illərin əvvəllərində Xocalı DQMV-nin iqtisadi həyatında mühüm rol oynayırdı. O dövrün təbirincə desək, qabaqcıllığı əldən vermir, beşillik planları dörd ildə yerinə yetirirdi. Bu bölgənin (o zaman kənd adlansa da, əslində, bir rayon idi) kənd təsərrüfatının bütün sahələrində nailiyyətlər əldə etməsində təbii ki, Qasım kişinin zəhməti və təşkilatçılığı əvəzsiz idi. Burada heyvandarlıq, tütünçülük, tərəvəzçilik, baramaçılıq, bağçılıq inkişaf edir, dövlət planları az qala ikiqat yerinə yetirilirdi. İndiki nəslə tarixdən məlum olan "Staxanovçular hərəkatı"nda da xocalılılar irəlidə gedirdilər.

Vilayətin milliyyətcə erməni olan rəhbərlərinin gözü bu yüksəlişi heç götürmək istəmirdi. Onlar əsasən ermənilərin məskunlaşdıqları kəndləri abadlaşdırır, Xocalını isə həmişə diqqətdən kənarda qoyurdular. Bununla belə, kolxoz sədri Qasım Allahverdiyev Xocalıda yetişdirilən taxılın bolluğuna uyğun saxlama anbarları, tütün sexi tikdirməyə, quşçuluq və maldarlıq fermalarını genişləndirməyə nail olmuşdu. Bütün bunlar kənd camaatının ərzağa olan tələbatının daxili imkanlar hesabına ödənilməsinə imkan yaradırdı. Üstəlik, dövlətə də nə qədər məhsul təhvil verilirdi.

Ermənistanın Dərələyəz bölgəsindən, öz dədə-baba torpaqlarından Xocalıya pənah gətirmiş azərbaycanlılara burada Qasım kişinin başçılıq etdiyi xeyriyyəçi dəstə xüsusi qayğı göstərirdi. Bu, erməniləri çox qıcıqlandırırdı və onlar hər vasitə ilə həmin xeyirxahlığın qarşısını almağa çalışırdılar. Lakin Qasım Allahverdiyev təmkinli və tədbirli adam idi, öz məqsədinə də nail olurdu.

1940-cı illərin əvvəllərində təsərrüfatda qazanılan nailiyyətlərə görə Qasım Allahverdiyev "Lenin ordeni"nə layiq görüldü. Lakin onun şanı-şöhrəti heç bir orden və mükafatla ölçülmürdü. Hələ cavan ikən el arasında ağsaqqal nüfuzu qazanmışdı. Təkcə Xocalı camaatı deyil, bütün Qarabağ əhli onu çörəkli kişi kimi tanıyırdı. Əli ruzi-bərəkətli, nəsihətləri uğurlu, məsləhətləri ağıllı olardı. Evindən qonaq-qara əskik olmazdı. Elçiliyə Qasım kişini apardılar ki, çox get-gələ düşməsinlər. Onun xeyir-duası ilə evlənən cavanlar xoşbəxtlik tapardı. Eldə-elatda bu kişinin sözünü heç kəs yerə salmaz, bircə kəlməsi ilə qan-dava yatırılardı.

Ümumiyyətlə, ağır müharibə illərində Qasım öz həmyerlilərinə çox gərək idi. Burada vəziyyətin digər kəndlərə nisbətən yaxşı olmasında onun əməyi az deyildi. Xocalıda dəyirman işləyir, ehtiyat kimi saxlanan arpa və qarğıdalı camaata paylanırdı. Beləliklə, xocalılılar çörəksiz qalmırdılar. Hərənin qapısında ən azı bir malı-heyvanı vardı. Zəmilərdən cəbhəyə taxıl biçilib göndərilirdi. Arxa cəbhədə kişiləri mətinliklə əvəz edən qadınlar üstəlik ön cəbhəyə də kömək göstərirdilər.

Bununla belə, Qasım Allahverdiyev mənəvi rahatlıq tapa bilmirdi. Yaşıdlarının odlu cəbhələrdə vuruşduqlarını xəyalına gətirəndə vicdan əzabı çəkirdi, fikirləşirdi ki, əlim-ayağım sağ, gözüm görür, mən niyə burada olmalıyam?

Qasımın müharibəyə getməməsi üçün bronu da vardı. Bununla belə, 1942-ci ildə yenidən – artıq üçüncü dəfə Xankəndiyə hərbi komissarlığa gedir. Qərarı qəti olur və hərbi komissara deyir:

- Mən kənddə qadınların, qocaların üzünə baxa bilmirəm. Hamıya izah edə bilmirəm ki, mən niyə buradayam və nəyə görə müharibəyə getməmişəm. Xahiş edirəm, məni cəbhəyə göndərin. Buradakı işimi isə davada əlil olub qayıtmış kişilər və artıq çətinliklərə alışmış qadınlar da görə bilərlər.

Beləliklə, təkid edərək 1942-ci ilin sentyabr ayında müharibəyə göndərilir. O zaman Krımda qızğın döyüşlər gedirdi. Qasım əvvəlcə Mahaçqalaya, oradan Mozdoka, sonra da birbaşa döyüşlərə yollanır. Burada azərbaycanlılar çox idi. Hər gün neçəsi igidliklə həlak olurdu. Qasım da mərdliklə döyüşmək əzmində idi. Hələ gənc yaşlarından atası ona silahla necə davranmaq lazım olduğunu öyrətmişdi. Amma tezliklə alman təyyarələri Allahverdiyevin vuruşduğu polku bombaladı. Xeyli əsgər həlak oldu. Yaralıları isə almanlar əsir götürdülər. Onların arasında Qasım kişi də vardı.

Düşərgədə əsirlərə ən ağır işlər gördürürdülər. Müharibənin sonlarına yaxın bir gün Amerika əsgərləri düşərgənin qapılarını açaraq əsirləri şəhərdə sərbəst gəzməyə buraxdılar. Küçədə almanlar gözə seyrək dəyirdi, hamısı zirzəmilərə doluşmuşdu. Əsgərlər şərait yaratmışdılar ki, əsirlər açıq qalmış mağazalardan ərzaq götürə bilsinlər. Hamı bir ağızdan deyirdi: “Hitler kaput!” Bu, Qasımın da həyatında bir dönüş anı idi.

Müharibə qurtarandan sonra əsirləri bir sıraya düzüb deyirlər:

- Moskvaya çatan kimi Stalin sizi güllələdəcək, ən yaxşı halda Sibirə sürgün edəcək. Kim Sibirə getmək istəyirsə, bir addım irəli çıxsın. Kim də istəməsə, xarici ölkələrdən birinə gedə bilər.

Əsirlərin bəzisi başqa ölkələrə getmək arzusunda olduqlarını bildirdilər. Bu an Qasımın gözləri önünə neçə illər intizarda, əzab-əziyyətdə olan ömür-gün yoldaşı Əfruz xanım, onu göz yaşları içində müharibəyə yola salan yeganə qardaşı Saleh gəldi. Qasım davaya yola düşəndə Əfruz ana olmağa hazırlaşırdı. Odur ki, atası cəbhədə vuruşarkən doğulan uşağın adını Mübariz qoymuşdular. Üzünü görmədiyi övladını, eləcə də ondan böyük iki uşağını bağrına basmaq üçün Qasımın ürəyi uçunurdu. “İndi Zahid 10 yaşındadır, maşallah, böyük oğlandır. Ofelyanın isə 6 yaşı var. Məktəbə getməyinə az qalır. Mən evdən çıxanda tumurcuq boyda idi” – deyə bir anda xəyalından keçirdi. Qasım ürəyində bütün el-obasını, əzizlərini, doğmalarını görməyə ümid bəsləyə-bəsləyə sıradan bir addım qabağa çıxdı…

Bu ümid, bu qərar ona sanki Tanrının bir töhfəsi oldu…

Qasım Allahverdiyevin ailə tarixçəsi həm də xalqın o dövrdə keçdiyi yolun qısa bir salnaməsidir. Belə ki Qasım ilk dəfə olaraq Xocalıda “komsomol toyu” edir. Sonra da Əfruz xanımı Həkim müəllimin sinfinə yazdırır ki, savadlansın. Bununla həm də “savadsızlığın ləğvi” üçün şəxsi nümunə göstərir. Bundan sonra başqa kişilər də qız-gəlinin yazıb-oxumağı öyrənməsinə sədd çəkmirlər.

Q.Allahverdiyev müharibəyə getdikdən sonra kolxoz sədri vəzifəsində bir müddət Bəşir Mustafayev çalışmağa başlayır. Lakin ermənilər onu heç nədən həbs edir, azadlığa çıxandan sonra isə uzun müddət briqadir işləyir. Müharibənin son illərində kolxoz sədri vəzifəsi Qasımın dostu və komsomol silahdaşı, müharibədə yaralanıb ordudan tərxis olunmuş Şükür Məmmədova etibar edilir.

Qasım müharibədən sonrakı quruculuq illərində var qüvvəsi ilə çalışır. Təcrübəli aqronom kimi bağçılığın, bostançılığın, tərəvəzçiliyin yenidən dirçəldilməsi üçün təcili tədbirlər görür. Dövlətə əla növ məhsul, tütün yarpağı təhvil verilir. Planlar bir qayda olaraq artıqlaması ilə yerinə yetirilirdi. Mütəxəssis olaraq ildə eyni sahədən bir neçə dəfə bol məhsul (qarpız, yemiş, paxlalı bitkilər, kartof, kələm, xiyar, pomidor və s.) götürməyə nail olurdu. Onun üsulu ilə dağətəyi ərazidə yetişdirilən məhsul ətraf rayonların əhalisinə də paylanılırdı. 50-ci illərdə artıq Xocalı sakinlərinin özləri də şəxsi təsərrüfatlarından ildə bir neçə dəfə məhsul götürməyi öyrəndilər. Bölgədə bar-bərəkət aşıb-daşırdı.

XX əsrin 60-cı illərinin sonu və 70-ci illərinin əvvəllərində Xocalı sovxozu yarandı. Bu zaman Qasım kişinin yaşı da artıq 70-i haqlamışdı. Amma əli işdən-gücdən soyumurdu. O, quşçuluq fermasının müdiri vəzifəsində çalışır, bağçılıq, bostançılıq sahəsində aqronom kimi fəaliyyət göstərirdi. Stalinin ölümündən sonra “əsir” adı da üstündən götürüldü. “Əmək və müharibə veteranı” tituluna layiq görüldü, medallarla təltif olundu.

Qasım Allahverdiyev insanların yaxşı keyfiyyətlərini dəyərləndirməyi bacarırdı. O, istedadı, qabiliyyəti, əməyi ilə xalqa xeyir verənləri çox sevirdi. Məsələn, Xocalı sakini, yurdunun sayılıb-seçilən ağsaqqalı Məhəmməd Sadıqov baytarlıq üzrə təhsil almasa da, vaxtilə yaşlı insanlardan atları müalicə etməyi öyrənmişdi və bu səriştəsi ilə təsərrüfata kömək etməsi Qasım kişiyə çox xoş gəlirdi.

Azərbaycanın Milli Qəhrəmanı Tofiq Hüseynovun babası Həzrətqulu kişi kənddə həm bərbər, həm də dantist (diş çəkən) kimi çalışırdı. Şahlar Nağıyev isə bir neçə sənətə yiyələnmişdi. O, həm bərbərlik peşəsini öyrənmişdi, həm də toylarda gözəl kamança çalırdı. Şahların qardaşı Ağalar isə Qasım kişinin təkidi və maliyyə yardımı ilə mühasibatlıq texnikumunu bitirmişdi. Kazım Həsənov və Camal Abışov Xocalının ilk maşın mexaniki və sürücüləri idilər. Yusif Nağıyev, Milli Qəhrəman Araz Səlimovun atası Bahadur Səlimov mexanizator, Əkbər Əzizov, İsmayıl Əliyev, Milli Qəhrəman Əlif Hacıyevin əmisi Azad Məmmədov, İsmayıl Nağıyev bacarıqlı traktorçu idilər. Onların hamısını Qasım kişi əməllərinə və şəxsiyyətlərinə görə yüksək qiymətləndirirdi. Həm də bu insanlar əsilli-nəcabətli, tanınmış, nüfuzlu bəy nəslindən idilər.

Kökdən, qandan-gendən gələn xüsusiyyətlər Qasım kişinin oğul və qızlarına da sirayət etmişdi. Ata onların həkim sənətinə yiyələnməsini çox arzulayırdı. Onun bu sənətə böyük ehtiramı vardı. Həm də düşünürdü ki, həkim hər yerdə, bütün zaman və şəraitlərdə öz sənəti və biliyi ilə gərəklidir. Ata nəsihəti uşaqların da ürəyindən oldu. Belə ki Qasım kişinin altı övladından beşi tibb sahəsində təhsil aldı. Oğulları Zahid, Mübariz və

Eldəniz, qızı Yaqut Azərbaycan Tibb Universitetinin yetirməsidirlər. Digər qızı Fənarə Türkmənistanda tibb texnikumunu bitirib. Yalnız böyük qızı Ofelya BDU-nun filologiya fakültəsini qurtararaq həyatını gənc nəslin təhsil və tərbiyəsinə həsr edib.

Qasım kişi gənc yaşlarından sədaqətlə xidmət etdiyi sovet hakimiyyətinə, cavan vaxtlarından üzvü olduğu Kommunist Partiyasına çox inanırdı. Odur ki, 80-ci illərin sonunda ermənilərin yenidən torpaq iddiasına düşdüklərini eşidəndə demişdi: “Erməni heç nə eləyə bilməz. Buna sovet hökuməti yol verməz”.

Çox təəssüf ki, bizlər hamının ürəyini öz qəlbimiz kimi təmiz bilmişik. Unutmuşuq ki, namərd həmişə arxadan zərbə endirər.

Odur ki, 1988-ci il sentyabrın 18-də Xocalıya ilk təhlükəli hücum ediləndə Qasım kişi də sanki diksinib yuxudan oyandı. Bu, dəhşətli soyqırımına gedən yolun başlanğıcı idi… Bundan sonra bölgəyə odlu silahla manevrlər, həmlələr edilirdi. Mərmilərdən biri Lətif kişinin həyətində partlayaraq onun cavan oğlu Zahidin həyatını yarımçıq qırdı.

Bir mərmi isə Qasım kişinin evinin divarının bir hissəsini və pəncərəsini dağıtdı. Bu, Qasım Allahverdiyevin həm də inamına, ümidinə, mənəviyyatına atılan güllə idi.

Çox keçmədi – 1989-cu il yanvarın 9-da Qasım Allahverdiyev dünyasını dəyişdi. Xocalının üçüncü soyqırımının ərəfəsi idi. Əslində, o, bu soyqırımının əvvəlcədən şahidi və sonda isə şəhidi oldu…

Yaşasaydı, indi 110 yaşında idi. Qarabağ kimi uzunömürlülər diyarında bu nə yaş idi ki?! Amma o, qədim Xocalı elinin tarixinin bir parçasına çevrildi. İntizarlı ruhu, qərib məzarı bizim o ellərə qayıdacağımızı gözləyir…

**İradə ƏLİYEVA.**
**“Azərbaycan”.-**2012.-1 noyabr.-N 243.-S.7.

**Erməni faşizminin cinayətkar siyasəti**

**Araşdırma materiallarına görə, Vyanada (Avstriya) fəaliyyət göstərən "Erməniləri öyrənən strateji mərkəz"in direktor müavini, əslən Sumqayıt ermənisi olan E.D.Manukyan 2012–ci il oktyabrın 3–də Dünya Erməni Diaspor rəhbərlərinə ünvanladığı çağırışda bildirirdi ki, nəyin bahasına olursa olsun, dünya arxivlərindən, ən məxvi qovluqlardan erməniləri, xalqımızı cinayətkar kimi tanıdan materiallardan, fakt və sənədlərdən təmizləmək vaxtıdır. Yeni yüzil bunu bizdən tələb edir. Yoxsa, gələcək nəsillər bu "uydurmalara" inana bilər…**

Məlumata görə, artıq dünya kitabxana və arxivlərinin rəhbərləri ermənilərin xəyanətkar hərəkətlərini etiraf edir, çıxış yolu axtarırlar. Məsələn, araşdırma materiallarına görə, Sovet İttifaqının xarici kəşfiyyatına rəhbərlik edən general–leytenant Vadim Alekseyeviç Kirpiçenkonun şəxsi arxivində qoruyub saxladığı bir neçə qovluğu yoxa çıxıb.

Kirpiçenko Dövlət Təhiükəsizlik Komitəsinin sədri, Siyasi Büro üzvü ordu generalı Vladimir Aleksandroviç Kryuçkova ünvanladığı məktubda qeyd edirdi: "…Mənim yanıma əslən Livandan olan erməni mənşəli Emel Orduyan adlı birisi gəldi. Biz onunla Heratda tanış olmuşduq. (Xatırladım ki, general Kirpiçenko həmin vaxt Moskvanın Kabildəki daimi nümayəndəliyinin rəhbəri idi). O, verdiyi məlumatda iddia edirdi ki, özlərini Erməni Milli Azadlıq Ordusu hesab edən "Asala" erməni terrorçularının silahlı birləşmələri Azərbaycana hücuma hazırlaşırlar. Bu terror dəstəsinin böyük bir qrupu artıq Livanın Bəqa vadisində özlərinin döyüş taktikalarını sınaqdan çıxarırlar…" On bir gündən sonra kəşfiyyat generalı ikinci məktubu göndərir və qeyd edir: "…Birinci məktuba əlavə olaraq bildirirəm ki, "Asala" erməni ordusunun ("terrorçu" ifadəsi çıxarılıb–R.N.) Azərbaycana müxtəlif istiqamətlərdə hücumlarına hansı səbəbdənsə Moskva dəstək verib. Kreml Azərbaycana dərs vermək üçün "Asala"nın hərbi sursatla təminatını boynuna götürüb." Rus generalı bunu da iddia edirdi ki, erməni diasporunun yaratdığı "Asala" silahlı birləşməsinin tərkibində "Erməni Milli Assambleyası"nın üzvləri də var. Bu dəstəyə ABŞ–da həbsdə olan Murad Topolyanın başçılıq etməsi də maraq doğurmaya bilməz. Məlumata görə, "Asala"nın köməyi ilə Bakıya girəcək bu silahlı dəstə ilkin hərbi hazırlıqlarını Massaçusets ştatındakı ABŞ "Hayastan" hərbi–təlim düşərgəsində keçib.

Araşdırma materiallarına görə, "Erməni Milli Assambleyası" silahlı erməni dəstəsi ABŞ Dövlət Departamentinin rəsmi sənədlərində "terrorçu dəstəsi" kimi qeyd olunur. Murad Topolyana gəlincə o, hansı səbəblərə görə Bakıda vuruşmaq üçün (?) Bedford həbsxanasından azad olunaraq "Asala"nın sıralarında görünür. İndiyə qədər bu sualın cavabını heç kəs verə bilmir. Azərbaycana qarşı hazırlanmış qətliam planında hər şey diqqətlə ölçülüb–biçilmişdi. Bu qətliamda hansı təbəqədən nə qədər adam öləcək, o da məlum idi. "Erməni Milli Assambleyası" Bakıya hücum zamanı respublikanın Daxili İşlər Nazirliyinə, MK–nın binasına basqın edib dağıtmalı, tank atəşləri ilə oraları yerlə–yeksan etməli idilər.

Rus kəşfiyyatının ən bacarıqlı simalarından sayılan V.A.Kirpiçenkonun məktubları baş verə biləcək çox ciddi hadisələrdən xəbər verirdi. Onun "ərəb dostu" Emel Orduyanın məlumatları başqa istiqamətlərdən daxil olan kəşfiyyat məlumatlarında (Ata Buş–red.) da təsdiqini tapırdı. General Kirpiçenkonun məktubları buna baxmayaraq, hələ də cavabsız qalmışdı. Sadəcə məktubların qəbulu ilə bağlı cavablar verilirdi.

Başqa bir məlumatda bildirilir ki, həmin vaxt ABŞ–ın yeni seçilən prezidenti Corc Herbert Uolker Buş idi. Prezidentlikdən əvvəl o, ABŞ–ın MKİ–nin direktoru olmuşdu. Buş Moskvadakı rezidenturasında çalışan polkovnik Hell Harvini Bakıya tələsdirirdi. Görünür Ağ Ev də "Asala"nın terror planları haqqında geniş və hərtərəfli məlumatlara malik idi. Üçüncü məktubda isə general V.A.Kirpiçenko artıq "Asala"nın Azərbaycanda törədə biləcəyi qanlı cinayətin vaxt və zamanından danışırdı. "…Məktublarıma əlavə olaraq bildirirəm; "Asala" erməni ordusu Azərbaycan sərhədlərini 1990–cı il yanvarın 19–dan 20–nə keçən gecə saat 00:15–də pozacaq. Onlar artıq kiçik dəstələr şəklində Livandan, Suriyadan, İraqdan, Bəhreyndən, Sudandan, CAR–dan, Fransadan, İngiltərədən, Bolqarıstandan… Moskvaya, Leninqrada, Rostova, Stavropola… uçurlar… Onlar Sovet Qoşunlarının kontingentində hissələrə bölünüblər. Verilən materialları araşdırmanızı xahiş edirəm".

Qərarın icrası isə uzun müddət Moskvanın Təhlükəsizlik orqanlarında çalışan, Azərbaycana qarşı həmişə qərəzli mövqedə dayanan, ehtiyata buraxılmış kəşfiyyat generalı M.S.Ovanesyana tapşırıldı. Azərbaycanda isə hamı hakimiyyətə yiyələnmək hərisliyində idi. Bütün bunlar bəziləri üçün gözlənilməz olsa da, bu, fakt olaraq qalır. (Məlumata görə, "Asala" 1993–cü ilin iyununda "Sadval" separatçı ləzgi təşkilatı ilə birlikdə RF–in Ədliyyə Nazirliyində "Azad, Demokratik bir təşkilat kimi" qeydə alınıb). "Asala" erməni silahlı ordu birləşmələri Azərbaycan torpaqlarında özlərinin yaranma tarixinin on beş illiyini qanlı cinayətlərilə qeyd etdilər.

Dünyada bir sıra cinayətlərin iştirakçısı olan "Asala"nın 15 illiyini 20 yanvar 1990–cı ildə Azərbaycan, Türkiyə və İran ərazilərində məskunlaşan ermənilər də qeyd ediblər. Azərbaycan ərazisində tarixin ən amansız və qanlı səhifələrindən birini yazan, silahsız insanlara basqın edib, onları məhv edən… "Asala"ya Bakıda yaşayan ermənilərin bir qismi həmin gecə "xilaskar ordu" kimi baxırdılar. Məlumata görə, həmin gecə ermənilər

üçün Bakıdakı Erməni Kilsəsi (bugünkü fəvvarələr meydanı ərazisi) ən güclü istehkamlardan birinə çevrilmişdi. Maraqlısı bu idi ki, kilsədəki telefon "qovşağı"ndan sərbəst şəkildə Eçmiədzin, Yerevan, Moskva, Paris, Təl–Əviv, Vaşinqton, London, Tehran, Ankara ilə nəhayət, bədnam 366–cı alayla danışmaq mümkün idi. Sadəcə çəhrayı rəngli telefonun dəstəyini qaldırmaq kifayət idi. Həmin vaxt ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən "Azadlıq" radiosu qan içində boğulan, tənha və kimsəsiz qalan Azərbaycanı "… ipə–sapa yatmayan" şotlantlara bənzədirdi. Araşdırma materiallarına görə, "Asala" erməni silahlı ordu birləşmələri öz qanlı aksiyalarını "Qurgen Yanikyan", "Üç oktyabr təşkilatı", "9 iyun təşkilatı", "September Frans", "Orli təşkilatı", "Dro" adları ilə icra edir. Məlumata görə ötən əsrin 90–cı illərinədək "Asala" öz kadrlarını, silahlı terror birləşmələrini Beyrutdakı Fələstin Azadlıq Təşkilatının, Səudiyyə Ərəbistanının, Bəhreynin, Fransanın, ABŞ–ın bir sıra Şərqi Avropa ərazilərindəki hərbi hazırlıq bazalarında, təlim düşərgələrində hazırlayırdılar. "Tayms" jurnalı hələ 1983–cü ilin mart sayında buna işarə edərək yazırdı: "…Son on illərdə Türkiyənin ayrı–ayrı ölkələrdə çalışan 36 diplomatı (dördü ABŞ ərazisində) "Asala" erməni ordusunun əsgərləri tərəfindən öldürülüb".

Məlumata görə, "Asala" Bakıda törətdikləri qırğınlardan iki gün sonra, yəni yanvarın 22–də (1990–cı il) "Hayastan" jurnalının (16 dildə) nəşrinə başladı. ABŞ–dakı erməni diasporu "Erməni Xalq Hərəkatı" adlı yeni bir təşkilatın nizamnaməsini yaydı. Nizamnaməni təhlil edən erməni terror birləşmələrinin Bakı bürosunun lideri, uzun müddət sərhəd qoşunlarında çalışan kəşfiyyat mayoru M.Q.Gevorkov iddia edir ki, biz "Asala"nın ildönümünü Bakıda təntənə ilə (?) qeyd etdik.

Kəşfiyyat polkovniki Q.B.Smirnov baş verən qanlı Bakı hadisələrini araşdırarkən göstərir ki, ermənilər hücumdan öncə Azərbaycanla bağlı çox güclü və hərtərəfli təhlil olunmuş, dəqiq və təkzib olunmayan strateji kəşfıyyat məlumatlarına malik olublar. Polkovnik haqlı olaraq belə bir sualı ortaya qoyur: kim idi bütün bunların arxasında dayanan? Təəssüflər olsun ki, Azərbaycan tərəfi bütün bu məsələlərin kökünə getməkdə, dünyaya, bəşəriyyətə hər şeyi olduğu kimi göstərməkdə nədənsə acizlik göstərir. "Asala" silahlı erməni ordusunun Bakıya soxularaq dinc insanları qırması dünyada yeni səlib yürüşünün başlanğıcına bənzəyir. Mən buna təəssüf edirəm.

Polkovnik belə bir qənaətə də gəlir ki, Bakı qırğınlarını törədən "Asala"nın tərkibində ABŞ–ın Florida ştatında geniş hərbi düşərgələrə malik, bilavasitə erməni narko baronlarının yaratdıqları "Bubi" terror təşkilatının üzvləri də var idi. (Qeyd: "Bubi" beynəlxalq narko–ticarət qrupu işğal olunmuş ərazilərimizdə–Dağlıq Qarabağ torpaqlarında narko plantasiya sahibidirlər).

Məlumata görə 1990–cı il yanvarın 20–də… Heydər Əliyevin çekist dostları… general V.A.Şebarşinin və V.A.Kirpiçenkonun təkidilə yaradılmış "Anti–terror" qrupunun üzvləri Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyindən 12 kiloqram partlayıcı maddə götürərək ətraf binalarda qərar tutan 16 nəfər erməni terrorçusunu həbs etmişlər. Məhz bundan sonra Heydər Əliyevin sərbəst çıxışına təminat verildi… Bu "ermənilərin qanlı cinayətlərini ifşa edən ən güclü siyasi–hüquqi sənəd idi. Məlumata görə həmin gün D.S.Mirzoyan (hərbi kəşfiyyat mayoru), L.M.Bazuyan (istefada olan hərbçi), Q.M.Emilyan (tarixçi), F.M.Qalustyan ("Asala"), E.D.Melikyants ("Dro"), M.D.Şanx (Cənubi Afrika vətəndaşı), R.B.Sarkisyan (Yerevanda yaradılmış "Krunk" təşkilatı), H.S.Samvel (bərpa olunmuş "Erməni Bürosu"nun üzvü) və başqa erməni terrorçuları da həbs olundular.

1990–cı il iyulun 14–də Bakı qırğınlarından sonra Vaşinqtonda fəaliyyətə başlayan "Demokratik (Xalq) Cəbhə" ermənilərin yaratdıqları "Hay–Dad"la birgə iş proqramını, "böyük Ermənistan" ideyasını birgə həyata keçirmələri haqqında Memorandum imzaladılar. Fransada formalaşan "Orli qrupu" isə türk və azərbaycanlı gənclərə, onların təşkilatlarına qarşı açıq, yeni mübarizəyə hazırlaşdıqlarını elan etdilər. Məlumata görə, bu qrup "Asala" erməni ordusunun bir qanadını təşkil edir və bu qrup ilkin olaraq, Xankəndi, Sumqayıt və Bakı ərazilərində yaşayan erməni gənclərindən təşkil olunan, "Yeni erməni Bürosu" adı ilə Bakıdan təqribən 25 kilometr aralı olan "Nasosnı" deyilən təlim düşərgəsində 2 aya yaxın–1989–cu ilin sentyabr–oktyabr aylarında Bakının, Gəncənin və Naxçıvanın strateji xəritələrini, öyrəniblər. Araşdırma materiallarına görə, 1990–cı il yanvarın 24–də "Nasosnı" təlim düşərgəsindən qalxan 09–2001 3r işarəli təyyarə Gürcüstan istiqamətinə start götürdü. Bununla bağlı Gürcüstan hərbi kəşfiyyatının polkovniki S.N.Qabriadze yerli telekanala bu faktla bağlı açıqlamasını verdi. Məlumata görə, 1990–cı il yanvarın 28–də Dəməşqdə ingilis dilində nəşr olunan "Suriya vaxtı" qəzeti ikinci səhifəsində "Qafqazda baş verən hadisələrin icmalı" yazısında "Asala" erməni silahlı birləşmələrinin Bakıda törətdikləri qanlı cinayətlərə haqq qazandıraraq yazır: "…Sovet İttifaqında vaxt dayandığından… o, dağıldı. Yaxşı tanıdığınız ermənilər qədər bu diyarda əzab çəkən, öldürülən və günahsız yerə həbs olunan millət yoxdur. 1990–cı il yanvarın 20–də ermənilərin "Xilas dəstələri" (Şübhəsiz, bu, "Asala" erməni ordusuna işarə idi) erməni bacı və qardaşlarını ölümdən xilas etmək üçün Bakıya ayaq basdılar. Yüzlərlə erməni ailəsi xilas olundu (?)…" Yerli radionun müxbiri Cubran İsmayılın qələmə aldığı bu yazı fransız və ərəb dillərinə də tərcümə olunub yayıldı. Başqa bir məlumatda isə bildirilir ki, bu yazı, eləcə də bu yazıya bənzər bir neçə yazı "Ermənilər üçün qırmızı xətt" kitabçası adı altında Strasburqda satışa çıxarıldı.

Araşdırma materiallarına görə, 1990–cı il fevralın 19–da Kabildən (Əfqanıstan) Moskvaya qayıdan general–leytenant, məşhur kəşfiyyatçı V.A.Kirpiçenko onun göndərdiyi məktub və teleqramları cavabsız qoyan Siyasi Büronun üzvü, Dövlət Təhlükəsizlik Komitəsinin sədri, ordu generalı V.A.Kryuçkovla görüşür. Bu vaxt generalın işlədiyi Birinci Baş İdarəyə Heydər Əliyevin silahdaşı general Leonid Vladimiroviç Şebarşin başçılıq edirdi. Kəşfiyyat generalı 1990–cı il fevralın 26–da Siyasi Büroya "Xüsusi Arayış" hazırlayır. Məlumata görə, general Siyasi Bürodan aydınlaşdırmağa çalışırdı ki, nə üçün Əfqanıstanda əslən Livandan olan "Sarvar" adlı agentindən əldə etdiyi məlumatlar işlənməmiş qalıb. General soruşurdu: "Siyasi Büro millətləri və xalqları parçalayan, insanları məhv edən, ölkə ərazisində qeyri–qanuni fəaliyyət göstərən "Asala" separatçı erməni ordusu ilə bağlı hansı tədbirləri işləyib?" Daha sonra general sorğularının birində qeyd edirdi: "1990–cı il yanvarın 20–də Azərbaycan xalqına edilən silahlı erməni basqınlarının təskilatçılarına Kremldə dəstək verənlər kimlərdir?"

Məlumata görə, general rəhmətə gedənədək hadisələrə biganə qalan V.A.Kryuçkovla görüşməkdən imtina edib. Faktiki olaraq general V.A.Kryuçkov yəqin etmişdi ki, Moskva, Leninqrad, Stavropol, Rostov əraziləri erməni emissarları ilə doludur. Yoxlama materiallarına görə təkcə Rostov ərazisinə Afrika ölkələrindən 1989–cu ilin sentyabr ayında 407 nəfər erməni gəlmişdi. Bu ermənilər tədricən İttifaq ərazisindəki erməni silahlı qruplaşmalarında görünürdülər. Maraqlı məqamlardan biri bu idi ki, 1989–cu il noyabrın 20–dən xarici ölkələrdən gələn ermənilər Bakıda məskunlaşaraq "Asala" silahlı erməni ordusunun yolunu gözləyirdilər.

Araşdırma materiallarına görə, 1990–cı il yanvarın 20–də ümumən respublika ərazisindəki doğum evlərində 460 nəfər hamilə qadın atılan güllələrdən, tökülən qanlardan, günahsız qırğınlardan və qəfil məlumatlardan stress vəziyyətinə düşüb. Bu vəziyyətə düşən hamilə qadınların böyük bir qismi (bəzi məlumatlara görə, onların sayı 270 nəfər olub) doğum zamanı öz övladlarını itirib. Məlumata görə 35 hamilə qadın vəfat edib. Doğulan uşaqların böyük bir qismi isə şəkər, qan təzyiqi, ürək–damar və baş beyin xəstəliklərindən bu gün də əziyyət çəkir.

Araşdırma materiallarına görə "Asala" erməni ordusunun Bakıya basqını haqqında ən ciddi və məxfi materialları RF MN–nin Baş Kəşfiyyat İdarəsində üstündə "Məxfidir: 45 dərəcə bucaq altında" sözləri yazılmış qovluqda saxlanılır. Kəşfiyyat polkovniki Boris Qriqoryeviç Bondarenkonun iddiasına görə o vaxt Moskvada yaşayan, şəxsən M.S.Qorbaçov və onun erməni general dostları tərəfindən sıxışdırılan Heydər Əliyevin gözlənilməz, amma düşünülmüş və qəti addımı "Asala"nın yarımçıq qalmış planlarını alt–üst etdi.

Azərbaycan istiqamətində hazırlanmış plana əsasən Bakıda, Naxçıvanda, Gəncədə və Lənkəranda bir–birinin ardınca fərdi qaydalarda güclü terror aktları həyata keçirilməli idi. Bu terror aktlarını isə "Asala"nın tam hərbiləşdirilmiş qanadı olan "Qnçak" qanadında fəaliyyət dairələrini genişləndirən və Azərbaycanın təhlükəsizlik orqanlarına soxularaq hökumət və dövlətdən xəbərsiz "Vətənpərvər Erməni cəmiyyəti" yaradan məlumatlı şəxslər icra etməli idilər.

Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinin qapıları açılanda, nümayəndəlikdən matəm bayraqları asılanda hər şey dəyişdi. Heydər Əliyevin cəsarətli çıxışı dünyanı silkələdi. O vaxt Moskvanı, şəxsən ölkəyə başçılıq edən Qorbaçovun önündə onu ittiham etmək, onu cinayətkar və cani adlandırmaq asan məsələ deyildi. Ruslar bir qayda olaraq xarici mətbuat səhifələrində, beynəlxalq telekanallarda iddia edirdilər ki, azərbaycanlılar bu qətliamlarda rusları günahkar bilməsinlər. Rusiyanı və rusları cinayətə sürükləyən, onun imicinə öldürücü zərbələr vuran M.Qorbaçovu ittiham edirdilər.

Sual olunur: hansı səbəbə görə Qorbaçovlar ailəsi (M.Qorbaçov və R.Maksimovna)1985 və 1989–cu illərdə "Asala" erməni silahlı terror birləşməsinin Beyrutdakı təlim düşərgəsi üçün bir milyon dollar yardım ayırmışdılar? Məlumata görə, general V.A.Kirpiçenko bütün bunları araşdırarkən Siyasi Büroya və Təhlükəsizlik Şurasına sorğu ünvanlasa da cavabsız qalmışdı.

Rus yazıçısı T.M.Serafımov həmin vaxt maraqlı bir fikrə toxunmuşdu. O, qeyd edirdi: "…Heydər Əliyev Moskvadan Azərbaycan üçün heç kəsin gözləmədiyi "Azadlıq zəngini" çaldı. Bu zəng bütün dünyanı başına götürdü. Bu Azərbaycanı öz övladı kimi sevən Heydər Əliyevin böyüklüyü idi…" Azərbaycanı qan dənizində boğmağa hazırlaşan "Asala" beynəlxalq erməni terrorçularının 2–ci cəbhəsi bağlı qaldı.

Bəzi mənbələrdə qeyd olunur ki, Bakıda törədilən qırğınlara SSRİ Müdafiə naziri D.Yazov başçılıq edirdi. Məlumata görə, 1990–cı il yanvarın 28–də Bağdadda ermənilərin hakim olduqları, lakin 1979–cu ildən ölkədən kənar çap olunan "Yeni fikir" qəzeti yazırdı: "…Bağdadda keçirilən "Erməni diaspor rəhbərlərinin konfransı" başa çatdı. Konfransda Yaxın Şərq regionlarında tanınan, erməni xalqının məşhur generalları M.O.Şagiyan, D.T.Simon (Simonyan) da iştirak edirdilər. Onlar Bakıda erməni millətinə qarşı amansız mövqe tutan azərbaycanlılara qarşı hərbi əməliyyatlarda iştirak edib…" Fransada nəşr olunan "Vi" ("Həyat") qəzeti isə 1990–cı il fevralın 2–də xəbər yaydı ki, 1990–cı il 20 yanvar qırğınlarında üç erməni generalı öldürülüb. Mən hələ də qarşımda açıq qalan suallara cavab tapa bilmirəm. Amma fakt bu idi ki, "…baş verən Bakı qırğınlarında iki yüksək rütbəli erməni iştirak edib…"

Araşdırma materiallarına görə Beynəlxalq Erməni Diaspor təşkilatları hələ də “Asala” erməni silahlı qoşun birləşməsini, “Azadlıq mücahidləri” kimi qələmə verir. Bakıda törətdikləri qırğınları inkar itmək kampaniyası keçirməklə məşğuldurlar.

Məlumata görə, “Asala”nın yaradılmasında erməni ziyalıları böyük rol oynayıb. Yeni erməni ziyalılarından olan Erik Sedikcanyan, Mavli Markaryan, Simens Xurşidyan, Akop Akopyan, həmçinin Miqran Miqrayan və Arutyun Takoşyandır. Bu adamlar vaxtilə Ermənistan universitetlərində təhsil alıblar, “Eçmiədzin”in “Birinci Salonu”ndan keçiblər. Məlumata görə “Birinci Salon”un “ağır məktəbini” bitirən ermənilər üçün hər yerdə yaşıl işıq yanır. Kimin ölkə başçısı, baş nazir seçilməsi və yaxud təyin olunması “Birinci Salon”da yekunlaşır.

“Asala” erməni silahlı qoşun birləşməsinin “Eçmiədzin”lə bağlılığına gəlincə, bu, ciddi məsələ kimi həmişə diqqətdə qalır. Məsələn bu gün Eçmiədzində və onun digər yaşayış məntəqələrində 255 nəfər (xüsusi xidmət orqanlarından könüllü çıxaraq) təhlükəsizlik zabiti çalışır. Məlumata görə “Eçmiədzində” Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında işləmək üçün hər il 20 nəfər kəşfiyyat zabiti buraxılır.

“Asala” – “Eçmiədzin” əlaqələrinə gəlincə, bu məsələ də Azərbaycanda, eləcə də dünyada az tədqiq olunan məsələdir. Məsələn, 1990–cı il 20 Yanvar təcavüzündən sonra Bakıda, eləcə də Azərbaycanın digər yaşayış məntəqələrində azərbaycanlıları məhv edən, onları güllələyən 21 nəfər “Asala” üzvünə “Eçmiədzin”in xüsusi mükafatları, üstündə qızıl xaç olan “Vətən Ordeni” (?) verilmişdi.

Araşdırma materiallarına görə, 1990–cı il 20 Yanvar qırğınlarından bir gün sonra Bakıda yaşayan erməni qadınlarından 12 nəfərinin Azərbaycan xalqına müraciətləri dərc olundu. Müraciəti imzalayan erməni qadınları Azərbaycan xalqına başsağlığı verir, bütün bu hadisələrdə erməni xalqını günahlandırmamağa çağırırdılar. Erməni qadınları öz müraciətlərində erməni terror təşkilatlarını, “böyük Ermənistan” arzusu ilə millətləri, xalqları qarşı–qarşıya qoyan, erməni millətinə nifrət hissini alovlandıran diaspor təşkilatlarını lənətləyirdilər. Amma bütün bu görüntülər baş verən qanlı hadisələrdən sonra idi. Yəni heç kəsə, heç tarixin özünə də lazım olmayan bir müraciət idi.

Məlumata görə Bakıya “dərs vermək” üçün gələn “Asala” erməni qoşun birləşməsinin tərkibində “Qarabağın Müdafiə Ordusu”nun silahlı dəstəsi isə Naxçıvanda, Gəncədə, Lənkəranda, Şəmkirdə, Sumqayıtda qanlı əməliyyatlarda iştirak edirdilər. Məsələn, silahlı birləşməyə başçılıq edən general–mayor Vitali Balansyan daha əcaib işlərə əl atırdı. Bu, Şamaxıda anadan olmuş həmin Vitali Balansyandır ki, qardaşı qızı Qretta Balansyan Azərbaycan xalqına müraciət edən 12 erməni qadından biri idi. Vitali Balansyan tank alayına başçılıq edirdi. O, silahsız insanları tankın qabağına qatıb qovmaqdan xüsusi bir həzz alırdı.(?) Onunla yanaşı, digər erməni generalları; — Vahan Xaçatryan, Movses Akopyan, David Ohanyan da tarixi cinayətlərin iştirakçısına çevrilmişdilər. “Asala”ya məxsus 316 tank (T–55/–72; BMP–1/–2, BTR–70/–80, BMD–lər) Azərbaycanın əsas strateji mərkəzlərini dövrəyə almışdı. (Bu gün həmin tanklar Azərbaycanın işğal olunmuş ərazilərində – Dağlıq Qarabağın yaşayış məntəqələrində yerləşdirilib)

Araşdırma materiallarına görə, Bakı qırğınları Moskvanın ən nüfuzlu hökumət və dövlət strukturlarında müzakirə mövzusu idi.

Məlumata görə 1990–cı il yanvarın 22–də general Levon Kazançiyan Moskvadan, kəşfiyyat generalı Leonid Şebarşindən çox ciddi və təsirli bir teleqram alır. Əldə olunan digər bir məlumatda bildirilir ki, general V.A.Şebarşin general Levon Kazançiyanı “əbləh və vicdanını itirmiş erməni” adlandıraraq, təcili Bakını tərk etməyi tələb edir. Kəşfiyyat generalı V.A.Kirpiçenko isə Heydər Əliyevə etdiyi telefon zəngində vicdan əzabı çəkdiyini etiraf edir. V.A.Kirpiçenko 1990–cı il yanvarın 22–də Azərbaycan xalqına ünvanladığı məktubda bildirirdi: “…Baş verənlərə görə bir rus zabiti kimi həmişə əzab çəkəcəyəm. Çünki mən bu xalqı, onun ədəbiyyatını, tarixini, adət–ənənəsini çox sevirəm. Azərbaycan xalqı tarixdə yeri olan bir xalqdır…”

Məlumata görə, MN–nin generalları A.S.Manilov, N.A.Xakimov, S.S.Aleksandrov, kəşfiyyat generalları V.V.Dmitriyev, V.A.Kirpiçenko, V.A.Şebarşin Siyasi Bürodan, şəxsən M.Qorbaçovdan tələb edirdilər ki, ölkə daxilində geniş meydan sulayan “Asala” və onun kimi erməni silahlı birləşmələrinin hər cür fəaliyyəti qadağan edilsin. Azərbaycanda baş verən qanlı cinayətə rəvac verən, arxa duran digər məsul şəxslər tapılıb ifşa edilsin, dövlət nəzarətindən çıxmayan İstintaq Komissiyası yaradılsın.

Təəssüf ki, Azərbaycan tərəfi (istintaq qrupu yaradılsa da) bu istiqamətdə heç bir, deyək ki, kəşfiyyat araşdırması aparmadı. Bu gün əlimizdə heç bir kəşfiyyat materialı, agentura sənədi olmadığından bu istiqamətdə hər şey yarımçıq qalıb.

Məlumata görə, bir çoxları özlərini təmizə çıxarmaq üçün Bakıda baş verənlərin əsas səbəblərindən danışmaqda çətinlik çəkirlər. Heydər Əliyevin çağırışı isə ictimaiyyəti silkələdi.

Kəşfiyyat mayoru S.M.Komarov yazırdı: “…Heydər Əliyevin bu ittiham dolu çıxışından sonra, təbii ki, onu fiziki cəhətdən qorumaq vacib idi. Onu Moskvada İranın və Türkiyənin xüsusi xidmət qrupları qoruyurdular. Bir də onunla vaxtilə DTK–da işləyən çekist dostları ona hər tərəfdən güclü nəzarət edirdilər…”

Son araşdırma materiallarına əsasən qeyd olunmalıdır ki, Ermənistanın hökumət və dövlət nümayəndələri arasında 39 nəfər "Asala"ya üzvlük haqqı verən məmur var. Bu haqda məlumatı Beyrutda erməni diasporunun keçirdiyi "Asala"nın 15 illiyində, vaxtı ilə Ermənistan Dövlət Təhlükəsizlik Komitəsində çalışan mayor Eduard Saakyan məlumat verib. Bu mövzu bizim üçün maraqlı olduğundan, bu istiqamətdə tədqiqatımızı davam etdiririk. Başqa bir məlumatda bu da bildirilir ki, bugünkü Avropa Şurasında Ermənistanı təmsil edən üç nəfər erməni deputatı "Asala"nın Bakı hücumlarında bilavasitə iştirak ediblər. Onlar gecə–gündüz çalışırlar ki, Avropa Şurasının sənədlərində "Ermənistan işğalçı dövlətdir" fikrini çıxartsınlar.

Bizim iki cür tariximiz var. Birini xalq yaradıb, digərini isə zaman. Biz ancaq o vaxt qalib gəlib zəfər çalacağıq ki, bu tarixləri xalq və zaman vəhdətində araşdırıb öyrənək…

**Rövşən Novruzoğlu,**
**professor**

**"Respublika".-**2013.-22 yanvar.-N 14.-S.5.

**Ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları**

*Dünyanın fövqəlgüc dövlətlərinin himayəsi altında olan "Şərq məsələsi" və onun əsas tərkib hissəsi kimi "erməni məsələsi"nin yaranmasından iki əsrdən artıq zaman keçsə də, siyasi–hərbi təzyiq vasitəsi olaraq beynəlxalq münasibətlər sistemində öz təsir gücünü saxlamaqda, həm Türkiyə, həm də Azərbaycana yeni–yeni problemlər doğurmaqdadır.*

*Hazırda neoimperialist mövzuda yazılan qərəzli yazılar və söylənilən riyakar fikirlər tarixi həqiqətlərə, arxiv sənədlərinə deyil, müəyyən dairələrin maraqlarına və zərərli ideologiyaların təbliğatına əsaslanmışdır. Buna görə də "Şərq məsələsi"nin, o cümlədən də "erməni məsələsi"nin əsl mahiyyətini tarixi həqiqətlərə, arxiv sənədlərinə əsasən şərh etmək və beynəlxalq ictimaiyyətə çatdırmaq Azərbaycan tarixşünaslığının əsas vəzifələrindəndir.*

***Tarix elmləri doktoru Ataxan Paşayevin "Ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (XIX–XX əsrlər)" adlı tədqiqatı** bu baxımdan çox əhəmiyyətlidir. Kitab 20 ildən artıqdır ki, beynəlxalq münasibətlər sisteminin gündəliyində olan, lakin ikili standartlar və qərəzli yanaşmalarla "tənzimləndirilməyə" çalışılan Qarabağ probleminin, 20 Yanvar faciəsinin, Xocalı soyqırımının, Azərbaycan ərazisinin 20 faizinin işğalının, bir milyondan artıq qaçqın–köçkün probleminin əsl səbəblərini, bu hadisələr zamanı törədilən vəhşilikləri, cinayətləri ortaya qoymaqla yanaşı, son Qarabağ hadisələrinə qədər də Azərbaycana və azərbaycanlılara qarşı törədilmiş soyqırım və deportasiyaların real mənzərəsini göstərmişdir.*

*Bu kitab "erməni məsələsi"lə bağlı Azərbaycan həqiqətlərini yaymaq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini təhrif edənlərə elmi ədəbiyyat və arxiv sənədlərindən istifadə etməklə tutarlı cavab vermək baxımandan təqdirəlayiqdir.*

*Mövzunun aktuallığını nəzərə alaraq əsəri oxuculara təqdim edirik.*

Bu gün xalqımız qarşısında duran başlıca taleyüklü məsələlərdən biri Ermənistan–Azərbaycan Dağlıq Qarabağ məsələsinin ədalətli həlli problemidir. Bu münaqişənin meydana gəlməsi tarixi, səbəb və nəticələrin öyrənilməsi Azərbaycan cəmiyyəti, siyasətçiləri və tarixçiləri qarşısında duran başlıca məsələdir.

Ermənilərin Güney Qafqaza kütləvi surətdə köçürülməsi XIX əsrin əvvəllərində Rusiya–İran müharibələrində Rusiyanın qələbələri ilə reallaşdı. O vaxta qədər Şimali Azərbaycan xanlıqlarının ərazilərində yaşayan ermənilər oranın əhalisinin çox cüzi bir hissəsini təşkil edirdi. 1828–1831–ci illərdə çar Rusiyası tərəfindən Güney Qafqaza köçürülən ermənilər türk–müsəlman əhalisinin yaşadığı torpaqlarda yerləşdirilirdi. Həmin dövrdən İrandan və Osmanlı imperiyasından bu ərazilərə erməni axını başlanır. XIX əsrin axırlarında, xüsusilə 1877–1878–ci illərdəki Rusiya–Osmanlı müharibəsi nəticəsində bağlanmış San–Stefano sazişi ilə razılaşmayan Qərb dövlətləri ilə Rusiya arasında kəskinləşən münasibətlər 1878–ci ildə çağırılan beynəlxalq Berlin konqresində imzalanmış müqavilənin 61–ci maddəsindəki uydurma "erməni məsələsi"ni gündəmə gətirdi. "Böyük Ermənistan" yaratmaq xülyasında olan ermənilər bu ideyadan məharətlə istifadə etdilər. "Erməni məsələsi" əslində ermənilərin öz arzularının nəticəsi kimi deyil, böyük dövlətlərin bu ərazilər üzərində ağalıqlarını gerçəkləşdirmək niyyətlərindən meydana gəlmişdi.

XIX əsrin 70–ci illərindən başlayaraq Avropada yaranan inqilabi–demokratik hərəkatların, cəmiyyət və təşkilatların təsiri ilə Güney Qafqazda və Osmanlı imperiyasında "milləti–sadiq" sayılan ermənilər arasında da "Armenakan", "Hnçak", "Daşnak–sütyun" və b. bu kimi şovinist millətçi və terrorçu təşkilatlar meydana gəldi. Qərbi Avropa ölkələri, ilk növbədə isə İngiltərə və Rusiya Osmanlı imperiyasının Şərq əyalətlərində və Güney Qafqazda yaşayan ermənilər arasında geniş təbliğat və təşkilati işlər apararaq, onlarda "milli özünüdərkin oyanmasına və döyüşkən millətçilik təbliğatına xüsusi rəvac verirdilər".

Bu illərdə ermənilərin bütün hərəkətləri göstərirdi ki, onlar Osmanlı imperiyasının Şərq vilayətlərində, Güney Qafqazda isə, əsasən Azərbaycan türklərinin torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq ideyalarını reallaşdırmağa çalışırdılar.

Birinci Dünya müharibəsi, çarizmin süqutu və yetmiş illik Sovet hakimiyyəti erməniləri əsrlərlə arzusunda olduqları məqsədlərinə çatdırdı. Sovet hakimiyyətinin 70 ili ərzində ermənilər bir tərəfdən Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirir, digər tərəfdən isə Ermənistan SSR ərazisində yaşayan etnik azərbaycanlıları müxtəlif yollar və bəhanələrlə həmin ərazilərdən sıxışdırıb çıxarırdılar. 1948–1953–cü illərdə isə Ermənistan SSR–də yaşayan azərbaycanlılar Sovet hökuməti tərəfindən rəsmən deportasiya olundular.

1988–ci ilin fevralında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı Vilayət Xalq Deputatları Sovetinin qanunsuz qərarı qəbul olundu. Ermənilərin bu həyasız hərəkətlərinin tarixi kökləri və səbəblərinin araşdırılması günün ən vacib probleminə çevrildi. Ermənilər bu aksiyaya çox–çox əvvəldən hazırlaşırdılar.

Sovet hakimiyyətinin 70 ili ərzində sovet təbliğat maşını azərbaycanlılara ermənilərlə dostluq və qardaşlıq ideyalarını "sırıdığı" bir vaxtda ermənilər həm indiki Ermənistan ərazisində, həm də ittifaq və dünya miqyasında Türkiyəyə və Azərbaycana qarşı ərazi iddiaları irəli sürür, təbliğat aparır, zaman–zaman ittifaq rəhbərlərinin köməyi ilə öz ideyalarını reallaşdıra bilirdilər. SSRİ Nazirlər Sovetinin İ.Stalin tərəfindən imzalanmış 1947–ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948–ci il 10 mart tarixli 754 nömrəli "Ermənistan SSR–dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR–in Kür–Araz ovalığına köçürülməsi haqqında" qərarı Sovet hökumətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi növbəti cinayət aksiyası oldu. Lakin 1991–ci ildə dövlət müstəqilliyi əldə etdikdən sonra da ermənilərin xalqımıza qarşı ərazi iddiaları ilə apardığı açıq müharibə, kütləvi terror əməliyyatları həyata keçirdiyi bir vaxtda belə, respublikamızda ermənilərə qarşı mübarizə ümumxalq, ümumdövlət siyasəti səviyyəsinə qaldırılmamışdı.

Yalnız 1997–ci il mayın 27–də Respublika Günü münasibəti ilə keçirilən təntənəli yığıncaqda çıxış edən ümummilli lider Heydər Əliyev bu problemə çox kəskin və doğru–düzgün qiymət verdikdən sonra həmin məsələyə ümumxalq siyasəti səviyyəsində diqqət verilməyə başlandı. O, öz nitqində demişdi: "Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947–1948–ci illərdə Azərbaycan xalqına qarşı Sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə etdikdən sonra da doğru–düzgün qiymət verə bilməmişik".

Ümummilli liderin bu haqlı iradından sonra göstərilən problemə diqqət köklü surətdə dəyişdi və o, 1997–ci il dekabrın 18–də "1948–1953–cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi–etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzaladı. Fərmanda deyilirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdı. Mərhələ–mərhələ gerçəkləşdirilən belə qeyri–insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadığı öz doğma tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

Özünün sonrakı nitqləri və imzaladığı digər fərmanlarla da ümummilli liderimiz elmi ictimaiyyətin, ilk növbədə isə tarixçilərimizin diqqətini bir daha bu məsələlərə cəlb etməklə xalqımıza qarşı yönəldilmiş ədalətsizlikləri heç vaxt yaddan çıxarmamağa, ona dözməməyə, təkrar–təkrar bu məsələlərin üzərinə yenidən qayıtmağa, erməni vandalizmini, xalqımıza başa salmağa, bu ədalətsizlikləri dünya xalqlarına çatdırmağa çağıraraq yazırdı: "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz".

● · *

## "ÇAR RUSİYASININ QAFQAZ SİYASƏTİNDƏ ERMƏNİ AMİLİ"

**a) Güney Qafqazın istilasından sonra buraya köçürülmüş ermənilərin türk–müsəlmanlara məxsus ərazilərdə** yerləşdirilməsi

Hələ XVII əsrdən başlayaraq ermənilər xristian dini etiqadlarından istifadə edərək Avropa dövlətlərinin üzünü Şərqə çevirməyə müyəssər olmuş, onların köməyindən istifadə edərək "Böyük Ermənistan" yaratmaq xülyalarını reallaşdırmaq fikrinə düşmüşlər.

Xristian ermənilərin bu niyyətləri xristianlığı Şərqə doğru yaymağa çalışan Roma papası Avropa dövlətlərinə, habelə cənub dənizlərini ələ keçirmək istəyən Rusiyanın işğalçılıq planlarını reallaşdırmaq üçün göydəndüşmə oldu.

XVIII–XIX əsrlərdə Yaxın Şərq, ilk növbədə isə İran və Osmanlı imperiyalarının əraziləri onlara göz tikən İngiltərə və Çar Rusiyası kimi dövlətlərin başlıca mübarizə meydanına çevrilir. Bu yerlərə müdaxilə üçün "din qardaşları" olan ermənilərə kömək onların əlində başlıca bəhanələrdən biri idi.

I Pyotrun vəsiyyətlərini həyata keçirən rus çarizmi cənuba doğru istilaçılıq siyasətində erməni faktorundan məharətlə istifadə edir. Rusiya–İran müharibələri nəticəsində bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri nəticəsində Güney Qafqazın Rusiyaya birləşdirilməsindən və 1828–1829–cu illərdəki Rusiya–Osmanlı müharibəsi nəticəsində bağlanmış Ədirnə sülh müqaviləsindən sonra ermənilər kütləvi surətdə Güney Qafqaza köçürülərək türk–müsəlman əhalisinə məxsus torpaqlarda yerləşdirilmişlər. Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarında verilmiş rəsmi sənədlərdən də məlum olur ki, rus çarizmi tərəfindən Güney Qafqaz istila olunana qədər Azərbaycan xanlıqlarının ərazilərində yaşayan xaçpərəst əhali, əsasən isə ermənilər bu ərazilərdə yaşayan sakinlərin çox cüzi bir hissəsini təşkil etmişdir. Belə ki, Qarabağ xanlığında yaşayan 12 min ailədən 2,5 mini, Şamaxı xanlığında yaşayan 24 min ailədən 1,5 mini, Şəki xanlığı ərazisində yaşayan 15 min ailədən isə yalnız üçdə biri xaçpərəst idi.

Rusiya–İran müharibələri nəticəsində Güney Qafqazdakı Azərbaycan xanlıqlarının Rusiyaya birləşdirilməsi nəticəsində həmin ərazilərdə yaşayan türk–müsəlman əhalisinin bir hissəsinin İran və Osmanlı imperiyasına mühacirəti, İran və Osmanlı imperiyasında olan ermənilərin isə Çar Rusiyası tərəfindən Güney

Qafqaza köçürülərək türk–müsəlman əhalisinə məxsus ərazilərdə yerləşdirilməsi məsələləri barədə əlimizdə küllü miqdarda faktiki materiallar var. Rusiya tərəfindən köçürmələr nəticəsində İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində erməni mənşəli əhalinin demoqrafik vəziyyətində baş vermiş dəyisikliklər bunu bir daha təsdiq edir. Bu işdə rus ordularının Qafqaza və İrana hücumu zamanı ona rəhbərlik etmiş qatı şovinist rus hakimləri A.Yermolov və İ.Paskeviçin etimadını qazanmış erməni general və zabitlərindən V.Madatov, Q.Lazarev, G.Korqanov, V.Behbudov, A.Arqutinski və başqalarının ermənilərin Güney Qafqaza köçürülərək müsəlmanlara məxsus torpaqlarda yerləşdirilməsindəki rolları barədə ətraflı məlumatlar var. İ.Paskeviç tərəfindən Sankt–Peterburqdan dəvət edilərək Təbrizə komendant təyin edilmiş Q.Lazarevin bu işdəki rolu xüsusi qeyd olunmuşdur. Belə ki, Q.Lazarevin Təbrizə komendant təyin olunması haqqında xəbər yayılan kimi Azərbaycan bölgəsindəki bütün xanlıqlarda yaşayan ermənilər onun yanına gələrək xahiş edirlər ki, o, əlahəzrət Rusiya imperatoruna çatdırsın ki, ermənilər “O əlahəzrətin səltənətində yaşamağa və ölməyə şad olardılar” və ya “Biz İranın çörəyini yeməkdənsə, Rusiyanın ot–ələfini yeməyə üstünlük veririk!” və s.

Artıq 1829–cu ilin 24 dekabrında İ.Paskeviçə ətraflı hesabat təqdim edən Q.Lazarev üç ay yarım ərzində 8 mindən yuxarı ailədən ibarət 40 min nəfər erməninin Arazı keçərək İrəvan, Naxçıvan və Ordubadda məskunlaşdıqları barədə məlumat verir.

1828–1829–cu illərdə Rusiya Osmanlı müharibəsi zamanı rus ordusuna rəhbərlik edən İ.Paskeviç ölkənin şərq əyalətlərini tutduqca həmin ərazilərə erməni mənşəli komendantlar təyin edirdi. Həmin komendantlar isə bu ərazilərdə olan türk–müsəlman əhalisinə divan tuturdular. 1829–cu ildə Rusiya ilə Osmanlı imperiyası arasında Ədirnə müqaviləsi imzalandıqdan sonra türk–müsəlman əhaliyə qarşı törətdikləri cinayətlərdən qorxuya düşən 14 mindən yuxarı erməni ailəsi (84.600 nəfər) rus ordusunun köməyi ilə Osmanlı torpaqlarını tərk edərək Rusiya ərazisinə, əsasən isə Güney Qafqaza köçürülür.

Güney Qafqaz Rusiyanın hakimiyyəti altına keçdikdən sonra İ.Paskeviçin təşəbbüsü ilə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində erməni vilayəti yaratmaq barədə Rusiya imperatoru I Nikolay fərman verir. 1829–cu ilin aprelindən 1832–ci ilin mayına qədər erməni vilayətinin kameral siyahıya alınması işi aparılır. İ.Paskeviçin göstərişi ilə bu iş mülki müşavir İ.Şopenə həvalə olunur. O, topladığı materiallar əsasında özünün “Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilən dövrdəki vəziyyəti” adlı iri həcmli əsərini yazaraq 1852–ci ildə Sankt–Peterburq elmlər akademiyasının mətbəəsində çap etdirir. İ.Şopen öz kitabında ermənilər, erməni vilayəti barədə, ümumiyyətlə ermənilərin bütün dünyadakı sayı barədə geniş məlumat verir. Bu kitabda diqqəti çəkən əsas fakt odur ki, İ.Şopen ruslar tərəfindən ermənilər bura köçürülənə qədər və köçürüləndən sonra onların demoqrafik durumundakı dəyişiklikləri ayrıca təhlil etmişdir. İ.Şopen Rusiya tərəfindən ermənilərin Güney Qafqaza köçürülənə qədər və köçürüləndən sonra saylarını ayrı–ayrılıqda vermişdi. O göstərirdi ki, bütün erməni vilayətində köçürülməyə qədər cəmi 4.428 erməni ailəsi (25.151 nəfər) olmuşdur ki, onlardan da 3.498 ailə (20.073 nəfər) İrəvan əyalətində, 530 ailə (2.690 nəfər) Naxçıvan əyalətində, 400 ailə (2.388 nəfər) isə Ordubad dairəsində yaşamışdır.

1828–1829–cu illərdə İrandan 6.946 erməni ailəsi (35.560 nəfər), 1830–cu ilə qədər isə Türkiyədən 3.682 erməni ailəsi (21.666 nəfər) cəmi isə 3 il ərzində İran və Türkiyədən 10.628 erməni ailəsi (57.226 nəfər) Rusiyanın yaratdığı erməni vilayətinə köçürülmüşdür. Nəticədə artıq 1830–cu ildə bu vilayətdə erməni ailələrinin sayı 15.059–a (82.277 nəfər) çatmışdı.

Bu gün bir nəfər də olsun azərbaycanlı qalmayan keçmiş İrəvan xanlığının ərazisində yaradılmış İrəvan əyalətindəki əhalinin 1829–1932–ci illərdə kameral siyahıya alınması məlumatına əsasən yerli əhali arasında azərbaycanlı ailələrinin sayı 9.196 (49.875 nəfər), erməni ailələrinin sayı isə 3.498 (20.073 nəfər) olmuşdur. 1828–1830–cu illərdə isə bu əraziyə İrandan 4.559 ailə (23.563 nəfər), Türkiyədən isə 3.674 ailə (21.639 nəfər) köçürülmüşdür. Nəticədə üç il ərzində İran və Türkiyədən yalnız İrəvan xanlığının ərazisində yaradılmış İrəvan əyalətinə 8.233 erməni ailəsi (45.202 nəfər) köçürülmüşdü.

Ümumiyyətlə, isə köçürmədən sonra erməni vilayətində cəmi 31.201 ailə (164.450 nəfər) olmuşdur ki, onlardan da 16.078 azərbaycanlı (81.749 nəfər) və 15.059 erməni ailəsi (82.377 nəfər) idi.

Rusiyanın Güney Qafqazda müstəmləkəçilik siyasətinin əsas məqsədləri rus tədqiqatçısı N.Şavrovun “Zaqafqaziyada rus işinə yeni təhlükə” kitabında özünün geniş əksini tapmışdı. O, yazırdı: “Biz Zaqafqaziyada müstəmləkəçilik fəaliyyətimizi oraya rusları köçürməklə deyil, başqa dindən onları köçürməklə başladıq… 1826–1828–ci illərdə iki il davam etmiş müharibə qurtardıqdan sonra 1828–ci ildən 1830–cu ilə kimi Zaqafqaziyaya İrandan 40 mindən yuxarı, Türkiyədən isə 84.600 nəfər erməni köçürdük və onları Yelizavetpol və İrəvan quberniyalarının erməni əhalisinin çox cüzi olduğu ən yaxşı dövlət torpaqlarında yerləşdirdik”.

Əlbəttə, bu, ermənilərin Güney Qafqaza ilk axını idi. Bu axın sonralar bir əsrə yaxın ardıcıl olaraq davam etmişdir. N.Şavrovun yazdığı kimi XX əsrin əvvəllərində Güney Qafqazda yaşayan 1 milyon 300 min erməninin bir milyondan çoxu yerli əhali olmayıb Rusiya hakimiyyət orqanları tərəfindən buraya köçürülənlər idi.

Maraqlıdır ki, Rusiya imperiyasında buraxılmış statistik hesabat və məlumatlar, xüsusilə yarım əsrdən yuxarı müddətdə nəşr olunan "Kavkazskiy kalendarğ" məlumat kitablarında, 1897–ci ildə birinci ümumrusiya siyahıya almanın nəticələrinə dair nəşrlərdə Ermənistan Respublikasının indiki ərazisində azərbaycanlılar yenə də əhalinin əsas hissəsini təşkil etmişlər.

Bu ərazilərdəki azərbaycanlı əhalinin say tərkibinin sürətlə azalmasında köklü dəyişikliklər 1918–1920–ci illərdə bədnam "Daşnaksütyun" partiyasının yaratdığı Ararat Respublikası zama–nından başlanılmışdır.

**b) XIX əsrin sonlarında yaradılmış millətçi erməni partiyaları və onların türk–müsəlmanlara qarşı ərazi iddiaları**

Qərbi Avropa və Rusiyada demokratik hərəkat və inqilabi yüksəlişlərin təsiri altında Güney Qafqaza köçürülmüş ermənilər də artıq XIX əsrin 80–90–cı illərində siyasi cəhətdən təşkilatlanmağa başlayırlar. İlk olaraq 1885–ci ildə ermənilər Vyanada "Armenakan", 1886–cı ildə Cenevrədə "Hnçaq", 1890–cı ildə Tiflisdə yaratdıqları "Daşnaksütyun" terrorçu təşkilatlarının qarşısında qoyduqları başlıca məqsəd üç dövlətin Rusiya, Türkiyə və İranın ərazilərində yaşayan bütün erməniləri öz bayraqları altında birləşdirərək "Böyük Ermənistan" yaratmaq ideyası idi. Əlimizdə olan küllü miqdarda sənəd və materialların təhlili sayəsində belə bir ümumi nəticəyə gəlirik ki, yarandıqları ilk gündən radikal terrorçuluq mövqeyini tutan bu partiyaların XIX əsrin axırlarından başlayaraq başqa xalqlara, xüsusilə türk soyundan olan xalqlara qarşı törətdikləri qanlı cinayətlər öz dəsti–xəttinə, coğrafi əhatəsinə və qəddarlıq dərəcələrinə görə tarixdə bu qəbildən olan hadisələr sırasında xüsusilə seçilir. Erməni millətçi partiyalarının, xüsusilə "Daşnaksütyun"un terror və təxribat xarakterli əməlləri bütün Güney Qafqazı, Osmanlı imperiyasının Anadolu və Avropa hissəsini, İranın Azərbaycan türklərinin yaşadıqları əraziləri əhatə edirdi. 1909–cu il aprelin 15–də "Daşnaksütyun" partiyasının fəaliyyəti ilə əlaqədar Qafqaz canişini dəftərxanasının Bakı şəhər rəisinə göndərdiyi məlumatda deyilirdi. "Daşnaksütyun" "azad böyük Ermənistan"ı bərpa etmək məqsədi güdərək istəyinə çatmaq üçün əsas üsullardan biri kimi öz proqramında ümumi silahlı üsyan və özünün nizami ordusunu yaratmaq yolunu seçib. "Daşnaksütyun" zinvorlardan (əsgərlərdən – A.P.) ibarət öz ordusunu yaratmaq işinin əsasını hələ 16 il bundan əvvəl, 1892–ci ildə özünün birinci qurultayı zamanı qoyub. Partiyanın vəsaiti hesabına bu orduya zinvorlar cəlb etmək və onları silahlandırmaq işi bu günə qədər də müntəzəm surətdə davam edir".

Əsası Rusiya ərazisində və Rusiya təbəələri tərəfindən qoyulan erməni millətçi partiyaları XIX əsrin 90–cı illərindən Türkiyənin Samsun, Van, Ərzurum və digər vilayətlərində fitnəkarlıqlar törədərək qırğınlar təşkil edirlər. Rusiyanın Van və Ərzurumdakı baş konsulu V.Mayevski, erməni keşişi T.Geğemyants və başqalarının verdikləri məlumata görə bu ərazilərdəki milli qırğınların təşəbbüskarları erməni millətçiləri, xüsusilə Rusiyadan Türkiyəyə gedən erməni komitəçiləri olmuşlar.

Maraqlıdır ki, həm V.Mayevski həm də T.Geğemyants ermənilər arasında millətçilik təbliğatının yayılmasında erməni ruhanilərinin və erməni kilsəsinin rolunu da xüsusilə vurğulamışlar. V.Mayevski yazırdı: "Onların (erməni keşişlərinin – A.P.) dini fəaliyyəti olduqca cüzidir. Lakin bunun əvəzində onlar həmişə millətçilik ideyalarını himayə etmək zəminində əllərindən gələni əsirgəmədən səylə çalışırlar… Ermənilər arasında millətçilik ideyaları yüzilliklər ərzində bir–birindən uzaq, lakin saysız–hesabsız monastırların himayəsi altında olmuşdur".

Yelizavetpol qubernatoru A.Kaçalov 1907–ci il avqustun 9–da "Daşnaksütyun" partiyasının fəaliyyəti ilə bağlı geniş məlumat hazırlamışdı. Burada daşnakların ermənilər arasında millətçilik təbliğatının əsas təşkilatçıları olmaları, sosial–demokratiya ideyalarına xəyanəti və s. məsələlərə münasibətləri ətraflı təhlil olunur.

Yelizavetpol qubernatorunun məlumatından həm Qafqaz canişinin dəftərxanasının xüsusi şöbəsində, həm də Rusiya Daxili İşlər Nazirliyi polis departamentində hazırlanmış arayış və oçerklərdə ətraflı istifadə olunmuşdur.

Öz məlumatında Yelizavetpol qubernatoru yazırdı: "Millətçilik erməni xalqının çox dərinlərdən gələn başlıca milli xüsusiyyətidir. Hər bir erməni özünü hamıdan – rusdan, gürcüdən, tatardan (azərbaycanlıdan – A.P.) yüksək, ağıllı, bic, xeyirxah və bacarıqlı hesab edir… Millətçilik, öz dininə, dilinə sədaqət, acgözlük, ehtiyatlılıq, hər şeyə qadir, pula inam, var–dövlət və kapital qarşısında səcdəni kult dərəcəsinə qaldırmaq – bax budur erməni xislətinin başlıca xüsusiyyətləri".

1903–cü il iyunun 12–də erməni kilsələrinə məxsus əmlakın müsadirəsinə dair rus çarı tərəfindən imzalanmış fərmandan istifadə edən "Daşnaksütyun" sinfi mənsubiyyətindən asılı olmayaraq bütün erməni xalqını – kəndliləri, fəhlələri, mülkədarları, sərmayədarları, tələbələri, ruhaniləri, erməni millətindən olan dövlət qulluqçularını belə öz ətrafında birləşdirir.

Bu illər ərzində Güney Qafqazda hökumətə qarşı elə bir alçaq hərəkət olmamışdır ki, ermənilər onu alqışlamasın, onu həyata keçirmək üçün pul sərf etməsinlər. A.Kaçalov yazırdı ki, hər cür avara, quldur, başkəsən, adam öldürən əgər Rusiyanın əleyhinə idisə o erməni varlısının imarətində, yoxsulun kasıb komasında, monastırların isə küncündə ən əziz qonaq kimi qəbul edilirdilər.

Həmin il Güney Qafqazda ermənilər tərəfindən yüzlərlə cinayətlər törədilir. Bir sıra ucqar bölgələrdə onlar hakimiyyəti ələ keçirmiş, qatarları, dəmir və şose yollarını; körpüləri dağıtmış və partlatmışlar; yüksək rütbəli dövlət məmurları polis və jandarm nümayəndələri (Əlixanov, Nakaşidze, Andreyev, Bıkov, Saxarov və b.) erməni terrorunun qurbanı olmuşlar. Yelizavetpol qubernatoru yazırdı ki, özü də bu qətllər "ağlagəlməz dərəcədə həyasızlıqla, izdihamla və müxtəlif zümrələrdən olan erməni güruhunun gözləri qarşısında həyata keçirilirdi. Lakin onların arasında heç vaxt qatili ifşa edə biləcək bir nəfərdə olsun belə şahid tapılmırdı".

Bu illər ərzində Güney Qafqazda "Daşnaksütyun" partiyasının yaratdığı zinvorlar ordusu barədə Yelizavetpol qubernatoru yazırdı: "Zaqafqaziya hüdudlarında əsasən Türkiyədən qaçmış ermənilərdən və yerli başkəsənlərdən ibarət əlindən adam öldürmək və zor işlətməkdən başqa heç bir iş gəlməyən, lakin partiya hesabına yüksək maaş alan (ən aşağı rütbəli zinvorlar ildə 300 rubl) yüz min nəfərlik (seçmə bizimdir – A.P.) zinvorlar ordusunu saxlamaq işi çətinləşir".

Belə bir şəraitdə "Daşnaksütyun" vəziyyətdən çıxmaq, öz nüfuzunu qorumaq üçün Güney Qafqazda, xüsusilə proletar Bakısında genişlənən sosial–demokrat hərəkatına qoşulmağa, ermənilər arasında sosial–demokratiya ideyalarını yaymağa başlayır. Yelizavetpol qubernatoru "Daşnaksütyun"un bu cür ikiüzlü siyasətini sosial–demokratiya ideologiyasına qarşı ən böyük xəyanət hesab edirdi. O yazırdı: "Millətçilik – erməni üçün elə bir başlıca amildir ki, hətta qısa bir müddətə də olsa onların bundan imtina edə biləcəyini təsəvvürə belə gətirmək mümkün deyil… Sadə ermənini inandırmaq ki, tatar (azərbaycanlı – A.P.) proletarı ona ideyaca daha yaxındır, nəinki istismarçı erməni burjua nümayəndəsi, sadəcə olaraq ağılasığmazdı".

"Daşnaksütyun" partiyasının fəaliyyəti haqqında 1909–cu il aprelin 15–də Qafqaz canişini dəftərxanası tərəfindən Bakı şəhər rəisinə göndərilmiş məlumatda isə bildirilirdi ki, Rusiyada inqilabi hərəkatın tezliklə yatırılması nəticəsində ermənilərin "böyük Ermənistan"ın bərpası niyyətləri baş tutmadı. Belə olduqda onlar Güney Qafqazda azərbaycanlılara qarşı geniş təbliğat kampaniyasına başlayırlar. Nəticədə 1905–ci ilin fevralında Bakıda ermənilər tərəfindən qızışdırılan erməni–azərbaycanlı münaqişəsi tezliklə bütün Güney Qafqazı bürüyərək erməni–azərbaycanlı qırğınına çevrildi. Özləri tərəfindən törədildiyinə baxmayaraq "Daşnaksütyun" başda olmaqla Güney Qafqazdakı erməni mətbuatı bu hadisədən azərbaycanlılara qarşı geniş təbliğat kampaniyasına başlayır və xalqımızın ünvanına hər cür böhtanlar uydururdular. Qafqaz canişini dəftərxanası xüsusi şöbəsi tərəfindən hazırlanmış məlumatda deyilirdi ki, bu qırğından ermənilər öz xeyirləri üçün məharətlə istifadə edə bildilər. Belə ki, onlar Güney Qafqazda ermənilərlə–azərbaycanlılar yaşayan ərazilər arasında müəyyən qədər sərhədlər–bufer zonalar yarada bildilər və çox zaman öz torpaqlarını azərbaycanlıların torpaqları hesabına genişləndirirdilər. Münaqişə nəticəsində azərbaycanlıların boşaltdığı torpaqlarda isə Türkiyədən və qismən də İrandan gələn erməniləri yerləşdirirdilər.

Rusiya Xarici İşlər Nazirliyi polis departamentinin məlumatında isə göstərilirdi ki, Yelizavetpol, İrəvan quberniyaları və Qars vilayətində müsəlmanların canlarını qurtarmaq üçün məcburən boşaltdıqları torpaqlarda 5–6 il ərzində Türkiyədən və qismən də İrandan gəlmiş yarım milyona yaxın erməni yerləşdirilmişdir ki, onlardan da 200 min nəfərdən çoxu artıq Rusiya təbəəliyini qəbul etmişdir.

Yaranmış şəraitdən istifadə edən "Daşnaksütyun" partiyası 1907–ci ildə keçirilmiş IV qurultayında qəbul edilmiş qərara əsasən Rusiyada, xüsusilə Güney Qafqazda qismən gizli mübarizə formasına keçir. Onlar öz hərəkatlarının istiqamətini dəyişərək daşnak silahlı dəstələrini yenidən qurur, xüsusilə, onun şərq əyalətlərində iğtişaşlar törətməyə yönəldir. Hətta 1913–cü il oktyabrın 15–də Cenevrədə keçirilmiş "Daşnaksütyun" partiyasının qəbul etdiyi qərarlardan biri erməni məkri və ikiüzlülüyünə əyani sübutdur. Bu qərara görə "Daşnaksütyun" partiyasının "Panislamist emissarları adı altında Qafqaza göndərdiyi öz adamları" müsəlmanlar arasında "Rusiyaya qarşı narazılıqlar yaratmalı və onları üsyana təhrik etməli idi".

Bu halda "Rusiya hökuməti müsəlmanlara qarşı repressiya tətbiq edər və müsəlman kütlələri zəifləyər. Belə olarsa bir tərəfdən ermənilər" müsəlmanların müqaviməti ilə rastlaşmayacaqlar, digər tərəfdən isə ermənilərə qarşı Qafqaz müsəlmanları ilə Anadolu türklərinin birgə fəaliyyət göstərməsi təhlükəsi aradan qalxacaq".

Yuxarıda gətirilən çoxlu faktlardan da məlum olur ki, Rusiya xəfiyyə orqanlarının "Daşnaksütyun" və digər erməni partiyalarının proqramları barədə kifayət qədər məlumatları var idi. Bu proqramlarda ermənilərin təkcə Türkiyəyə, Güney Qafqazdakı türk–müsəlman əhalisinə qarşı deyil, həm də çar hakimiyyət orqanının özünə qarşı yönəldilmişdi. Onda sual yaranır Rusiya özünə qarşı bu cür düşmənçilik siyasətinə niyə belə loyal münasibət bəsləyir və bütün erməni şıltaqlıqlarına niyə dözürdü? Buna əsas səbəb cənuba doğru xüsusilə, Osmanlı imperiyası və İrana qarşı işğalçılıq siyasəti yeridən Çar Rusiyası erməniləri daim ehtiyatda saxlayırdı. Birinci dünya müharibəsi zamanı Osmanlı imperiyası ilə Rusiya orduları arasında Qafqaz cəbhəsindəki hərbi əməliyyatlar zamanı rus ordusu sıralarında xidmət edən ermənilərin türk müsəlman xalqlarına qarşı törətdikləri vəhşiliklər bunu bir daha sübut etdi. Onu da qeyd etmək lazımdır ki, 1917–ci il oktyabr çevrilişinə qədər həm İngiltərə, həm də Rusiya ermənilərdən istifadə edərkən onların bu "xidmətlərinə" görə "böyük Ermənistan"

yaratmaq ideyasını reallaşdırmaqda onlara kömək edəcəklərinə söz vermələrinə baxmayaraq öz istədiklərinə nail olduqdan sonra verdikləri vədi yaddan çıxarmışlar.

**c) 1905–1906–cı illərdə ermənilərin Güney Qafqazda türk–müsəlman əhalisinə qarşı silahlı təcavüzü**

1810–cu ildə Bakı qalası və onun ətrafında yaşayan 2.235 nəfər sakindən yalnız 55 nəfəri, 1860–cı ildə isə 11.570 nəfər sakindən 655 nəfəri ermənilər idi. Bakıda neft sənayesinin sürətlə inkişafı ilə əlaqədar olaraq XIX əsrin 70–ci illərindən onların Bakıya axını sürətlənir. 1905–ci il Bakı şəhəri və quberniyasında baş vermiş erməni–azərbaycanlı qırğınlarını təhqiq edən senator Kuzminskinin qeyd etdiyi kimi ermənilərin Bakıya kütləvi axını XIX əsrin son 10–15 ili ərzində xüsusilə artmış, hazırda (yəni 1905–ci ildə – A.P.) onlar şəhər əhalisinin 18%–ni təşkil etmişlər".

Kuzminskinin hesabatında göstərilirdi ki, Bakıya axışan ermənilər tez bir zamanda burada neft sənayesi, ticarət və bank işi sahəsində üstünlüyü ələ keçirirlər. Qısa müddətdə iri kapita–listlərə çevrilmiş ermənilər neft işi sahəsində hətta hakim mövqe tuturlar.

XIX əsrin əvvəllərində Bakıda neft sənayesinin sürətlə inkişafı və proletar sinfinin sürətlə artması ilə əlaqədar olaraq burada rus sosial–demokrat və sosial inqilabçılarla yanaşı, ermənilərin də bu yönlü hnçaq və daşnaksütyunçulardan ibarət sosial–demokrat və sosial–inqilabçı fəhlə partiyaları yaranır. Ermənilərin yaratdıqları bu partiyalar digərlərindən təkcə proqramları ilə deyil, habelə özlərinin yaranma tarixləri, hərəkət istiqamətləri ilə də fərqlənirdilər. Kuzminskinin hesabatında göstərilirdi ki, daşnaksütyun xadimləri ermənilər arasında fəal təbliğat işi aparır, imkan daxilində onları silahlandıraraq döyüş drujinaları yaradıb "Türkiyəyə göndərərək dəfələrlə orada döyüş əməliyyatları həyata keçirmişlər". O, qeyd edirdi ki, 1903–cü ilin iyununda erməni kilsəsinə məxsus əmlakın müsadirəsinə dair çar fərmanından sonra "Daşnaksütyun" əvvəllər Türkiyəyə qarşı yönəltdiyi fəaliyyətini artıq Rusiyaya və rus hakimiyyətinə qarşı çevirir.

1905–1906–cı il erməni–azərbaycanlı qırğını ilk olaraq Bakı şəhərində başlayır. 1905–ci il fevralın 6–da Bakının mərkəzindəki erməni kilsəsində ibadət qurtardıqdan sonra kilsə ətrafında toplaşmış ermənilər oradan keçən Bakı sakini Ağa Rza Babayevi qətlə yetirirlər. Bu hadisə təkcə Bakını deyil, bütün Güney Qafqazı bürüyərək minlərlə insanın həyatına son qoyan, insanları təxminən iki ilə yaxın bir müddət böyük məşəqqət və məhrumiyyətlərə düçar edən geniş miqyaslı erməni–azərbaycanlı qırğını üçün bəhanə olur.

1905–ci il fevralın 6–9–da Bakıda baş vermiş erməni–azərbaycanlı qırğını barədə Bakı qubernatoru knyaz M.Nakaşidze geniş məruzə hazırlayaraq həmin il fevralın 28–də Qafqaz canişininə və Rusiya daxili işlər nazirliyinə göndərir. Məruzədə fevralın 7–9–da Bakı hadisələri zamanı ölənlər barədə tam olmayan məlumat verilərək göstərilirdi ki, itki göstərilənlərdən daha çoxdur. Ölülərin çoxu gizlədilir. Özü də gizlədilmiş ölülərin əksəriyyəti müsəlmanlara aid idi. Çünki onlar ölülərini və yaralılarını gizlədirdilər ki, meyitləri yarmasınlar.

Bu hadisələr zamanı şəhərdə həyat, demək olar ki, dayanmış, dükanlar, klublar, tədris müəssisələri bağlanmış, fayton və konkalar işləmirdi. Yalnız fevralın 9–da Bakı qubernatoru M.Nakaşidzenin iştirakı ilə hər iki xalqın nümayəndələrinin şəhəri dolaşaraq sülhə çağırışından sonra qırğın dayandırılır. M.Nakaşidze öz məruzəsində yazırdı: "Ermənilər bu hadisələri özləri başladıqları halda şayiələr yayırlar ki, guya bu hadisələr zamanı yazıq ermənilər inzibati idarələrin və başqalarının bəd əməllərinin günahsız qurbanlarına çevrilmişlər".

Məruzədə "Daşnaksütyun" partiyası və erməni mətbuatının erməni–müsəlman qırğınına münasibətini bildirən qubernator həmin "şərəfsiz insanların öz məqsədlərinə çatdıqlarını" qeyd edərək yazırdı: "Öz rəzil şayiələrini şifahi və mətbuat vasitəsi ilə bütün dünyaya yayaraq və erməni əhalisini o dərəcədə dövlət qulluqçuları və inzibati idarə işçilərinə qarşı qoymuşlar ki, onların hər biri özünü daim təhlükədə hiss edir".

Ermənilər həmin il mayın 11–də Bakı qubernatoru M.Nakaşidzeni qətlə yetirirlər. 1905–ci ildə Bakıda ikinci dəfə avqustun 20–dən sentyabrın ortalarına qədər erməni–azərbaycanlı qırğını yenidən davam edir.

Bakı şəhəri polismeysterinin Bakı şəhər müvəqqəti general–qubernatoruna göndərdiyi raportlarda həmin ilin avqust–sentyabr aylarında Bakıda baş vermiş erməni–azərbaycanlı qırğını barədə ətraflı məlumat verilir.

1905–ci il sentyabrın 10–da ermənilər və azərbaycanlılar arasında barışıq yaratmaq məqsədilə Qafqaz canişini İ.Vorontsov–Daşkov Bakıya gəlir. Həmin il sentyabrın 14–də saat 12–də min nəfərdən yuxarı ermənilərin və azərbaycanlıların qabaqcıl ziyalılarının və din xadimlərinin rəhbərliyi Bakının Duma meydanına toplaşırlar. Burada quberniya qazisi M.M.Mircəfərzadə, erməni keşişi və müvəqqəti general–qubernator xalqa müraciətlə onları sülhə çağırırlar.

Barışıq şərtlərini hazırlamaq üçün hər iki tərəfin təklifləri barədə arxivlərimizdə kifayət qədər sənədlər mühafizə olunur. Danışıqlar aparmaq üçün tərəflərin nüfuzlu şəxslərindən ibarət komissiya yaradılır. Onların arasında intensiv danışıqlar və yazışmalar gedir. 1906–cı ilin fevralında hər iki millətin nümayəndələrinin Qafqaz canişini və onun müavinlərinin iştirakı ilə Tiflisdə keçirilmiş sülh danışıqları barədə M.S.Ordubadinin "Qanlı sənələr" və V.Mayevskinin "Qafqazda erməni–tatar (azərbaycanlı – A.P.) iğtişaşı erməni məsələsinin bir mərhələsi kimi" kitablarında öz əksini tapmışdır. Hər iki xalqın nümayəndələrinin iştirakı ilə həmin məsələlərin müzakirəsi zamanı ermənilər iç üzlərini açaraq özlərini bir daha ifşa etmişlər.

1905–1906–cı illərdə ermənilərin törətdikləri erməni–azərbaycanlı qırğınına aid rəsmi sənədlər əsasən Bakı şəhərində baş vermiş hadisələri əks etdirir. Güney Qafqazın digər bölgələrində bu hadisələr barədə rəsmi sənədlər, demək olar ki, qorunub saxlanılmamışdır. Həmin dövrdə Güney Qafqazda erməni–azərbaycanlı münasibətləri yazıçı–jurnalist M.S.Ordubadinin topladığı sənəd və materiallar əsasında qələmə aldığı və 1911–ci ildə nəşr olunan "Qanlı sənələr", M.M.Nəvvabın "1905–1906–cı illərdə erməni–müsəlman davası" kitablarında, habelə o dövrün mətbuatında dərc olunmuş xəbərlər və məqalələrdə əks olunmuşdur.

"Qanlı sənələr" əsərinə müqəddiməsində M.S.Ordubadi öz kitabını sənədlər və sorğusuna əsasən ona "yetişmiş 245 məktub, daşnaksütyun partiyasının fəaliyyətinə dair dörd yüzdən artıq məlumatlar" əsasında yazdığını qeyd edir.

Mir Möhsün Nəvvab isə yazırdı ki, Rusiya dövləti Qafqaz məmləkətinə hakim olduqdan sonra hər yerdə sakitlik yarandı. Heç bir millət bir–birinə hücum etmirdi. "Xüsusən ermənilərlə müsəlmanlar arasında çox vaxt məhəbbət və dostluq olub, bir–biri ilə alış–veriş ediblər… Əfsuslar olsun ki, erməni tayfasının indi təbiəti dəyişib. Zahirləri ilə batinləri bir deyil. Zahirən özlərini dost kimi göstərsələr də, batinləri ədavətlidir. Özləri də görürlər ki, təbiətlərinin bu cür ədavətli olmasından həmişə zərər çəkirlər".

Təəssüflər olsun ki, uzun illər ermənilərlə bir şəhərdə yaşayan M.M.Nəvvab erməni məkrini vaxtında hiss edə bilməmiş, onların bu cür dəyişməsinin səbəbini "İrəvan şəhəri erməniləri–nin çox kinli, ədavətli, təkəbbürlü, xudpəsənd və xəmirlərinin fitnə–fəsadla yoğurulmuş adamlar olmasında" görmüşdü.

M.S.Ordubadi, M.M.Nəvvab və dövri mətbuat materialları əsasında ermənilərin 1905–1906–cı illərdə Bakı ilə yanaşı Gəncə, Naxçıvan, Şuşa, Cəbrayıl, Zəngəzur, İrəvan, Eçmiədzin (Üçkilsə), Tiflis, Qazax, Ordubad, Oxçu–Şəbədək və başqa yerlərdə törətdikləri qırğınlar barədə ətraflı məlumatlar verilir. Materialların təhlili əsasında belə bir nəticəyə gəlirik ki, o yerdə ki, ermənilərə açıq müqavimət göstərilirdi, həmin yerlərdə həm silah–sursat, həm də say və taktiki hazırlıq cəhətdən türk–müsəlmanlardan üstün olmalarına baxmayaraq, ermənilər çoxlu itki verməklə yanaşı, həm də ağır məğlubiyyətə uğrayırdılar. Ermənilərin Naxçıvan qəzasındakı məğlubiyyəti, yaxud İrəvan qəzasının Mənkus kəndinin əhalisi erməni hücumunu görüb qaçarkən 50 yaşlı Novruz Kazım oğlunun qaçanlara müraciətlə: "Oğlanlar! Hara qaçırsınız? İstəyirsiniz bu qaçmaqla bizi, Qafqaz müsəlmanlarını, başqa millətlərin yanında başı aşağı edəsiniz?! Məgər bu qaçmaqla ermənilər sizi bağışlayacaqlar?! Xeyr! Xeyr! Bunların qabağından qaçdıqca daha da cürətli olub bizə və bizim ailəmizə heç bir əsrdə insanlara rəva görülməmiş hörmətsizliklər yetirəcəklər. Məgər bunlar haman ermənilər deyil ki, bir il əvvəl mən barmağımla hərəkət edəndə az qalırdılar Qırxbulaq mahalından çıxıb qaçsınlar. İndi sizə nə olub ki, aciz arvadlara qoşulub qoyun sürüsü kimi bunların qabağından qaçırsınız. Siz qaçırsınız qaçın! Mən tənha bu erməni alaylarının qarşısında müdafiə mövqeyində durub can verəcəyəm".

Qoşalülə tüfənglə ermənilərə qarşı vuruşan Novruz kişi gülləsi qurtarana kimi ermənilərə müqavimət göstərir. Gülləsi qurtardıqdan sonra tüfənginə saçma qırma doldurarkən ermənilər hücum edib onu əsir alaraq zülm və işgəncələrlə qətl edib başını kəsərək "min beş yüz müsəlmanın sərkərdəsinin başıdır" deyə əvvəlcə Aleksandropola, sonra isə Bakı şəhərinə göndərmişlər".

M.S.Ordubadinin topladığı materialların əksəriyyəti erməni məkrini və erməni xəyanətkarlığını bir daha sübut edir. 1905–ci il dekabrın 26–da ermənilərin Cavanşir qəzasının Ümidli kənd camaatının başına açdığı müsibət bu məlumatlardan biridir. Tərtər qəzasında qalan yeganə azərbaycanlı kəndinin camaatı qiymətli əşyalarını arabalara yükləyərək, heyvan sürülərini də götürüb kəndi tərk ediblər. Heyvalı adlı erməni kəndi yanından keçərkən Abram bəy Hasan Calalov onlara rast gələrək Heyvalıda gecələyərək sabah sübhdən getməyi təklif edir. Erməni məkrinə inanan sadəlövh ümidlililər razılaşırlar. Abram bəyin fitvası ilə Ümidli kəndindən olan köçkünləri erməni daşnakları dörd tərəfdən mühasirəyə alaraq kişiləri ayırıb başlarını kəsir. Sonra arvad–uşağın bir hissəsini qətlə yetirir, bir hissəsini isə təhqir edirlər. M.S.Ordubadi ona bu məlumatı göndərən adamın həmin hadisələri yazarkən davam gətirə bilməyərək ağladığını və göz yaşlarının məktubun üzərinə töküldüyünü də qeyd edir.

Bu hadisəyə öz münasibətini bildirən M.S.Ordubadi yazırdı: "Bəşər tarixinə nəzər salsaq, görərik ki, indiyə qədər heç bir xalq qadın tayfasına bu qədər cəfa verməmişdir ki, ermənilər Ümidli camaatına etdilər. Bir ananın qabağında üç–dörd balasını qurban edib, balalar əl–ayaq çaldıqda ananı gözləri yaşla dolu bir halda bihörmət etmək insafmıdır?!

Budurmu erməni mədəniyyəti!! Bu xəbis rəftarla istiqlaliyyət həvəsində olan bir millətin axırı nə olacaqdır xəyalındayam. 150–yə qədər övrət və kişini doğrayıb bir–birinin üstündə atəş ilə yaxmaq mədəniyyətli bir millətə yaraşandırmı?"

**"Respublika".-**2013.-12 fevral.-N 32.-S.5.; 13 fevral.-N 33.-S.5.

**Qan yaddaşımızdan silinməyən Xocalı soyqırımı**

**Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış mərkəzi idi. 1990–cı ildə şəhər statusu almışdı. Dağlıq Qarabağdakı yeganə Hava limanı Xocalıda yerləşirdi.**

**Erməni silahlı qüvvələri Xocalı şəhərinə gecə saat 22 radələrində quldurcasına hücum etmiş, əvvəlcə şəhəri şiddətli artilleriya atəşinə tutmuş, sonra isə çoxsaylı tanklar və zirehli maşınlar vasitəsilə şəhərə daxil olmuş, evlərində yatmış dinc əhalini vəhşicəsinə məhv etməyə başlamışlar.**

**Vəhşiləşmiş ermənilər azərbaycanlıları xüsusi amansızlıqla işgəncə verərək öldürürdülər. Onlar mühasirədən çıxıb qaçan azərbaycanlıları da yollarda, keçidlərdə, meşələrdə pusqu quraraq tutur, vəhşicəsinə məhv edirdilər.**

Bu gün Xocalı adlı bir şəhər yoxdur, çünki 26 fevral 1992–ci ildə burada yaşayanlar soyqırıma məruz qalmış, bu şəhər erməni daşnakları tərəfindən yandırılmış, yer üzündən silinmişdir. Bu məsələyə beynəlxalq hüquq baxımından yanaşanda Xocalıda törədilən soyqırım rəsmən ortaya çıxır.

Bilindiyi kimi, Azərbaycan Milli Məclisi Xocalıda ermənilər tərəfindən törədilənləri 1994–cü ildə soyqırım olaraq qəbul etmiş və qərar çıxarmışdır. Heç şübhəsiz, Türkiyə və türk dövlətlərinin Milli məclisləri də belə bir qərarı qəbul etməlidirlər. Bu onların borcudur. Doğrudur, Ankara Keçiören bələdiyyəsi belə bir qərar çıxarmış və bir abidə tikdirmişdir. Bu, bütün Türk dünyasındakı bələdiyyələrə bir nümunə olmalıdır. Türkiyə, Azərbaycan və dünyanın bir çox bölgəsində yaşayan türklər cəm halında "Lahey Ədalət Divanı"nda cinayət işinin qaldırılmasına səy göstərməlidirlər. Heç şübhəsiz, ilk növbədə Türkiyə və Azərbaycan dövlətləri Xocalı soyqırımı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün birgə təşkilatlar yaratmalı, yalnız Anadolu və Azərbaycan türkcəsində deyil, ingiliscə, fransızca və bütün Qərb dillərində, eləcə də rus, fars və ərəb dillərində yayımlar ortaya qoymalıdırlar. Bu da bir həqiqətdir ki, dövrümüzdə informasiya əsas rolu oynamaqdadır. Ona görə də bu imkandan istifadə edilməlidir.

Azərbaycan Milli Məclisi fevralın 26–nı Xocalı soyqırımı günü elan etmiş, hər il fevralın 26–da Xocalı soyqırımını anma tədbirləri keçirir. Bu tədbirləri bütün Türk dünyası keçirməli, ermənilərin kimliyini bütün dünyaya yaymalıdır.

Bütün dünyanın gözü qarşısında törədilən bu qətliama BMT, AB kimi beynəlxalq təşkilatlar lazım olan qiyməti verməmişlər. Doğrudur, BMT Təhlükəsizlik Şurası yeddi ay ərzində dörd dəfə! —822, 853, 874 və 884 saylı qətnamələr çıxarmışdır. Amma dünyanın ən mötəbər təşkilatının çıxardığı bu qətnamələr hələ də həyata keçməmişdir. Azərbaycan torpaqları hələ də ermənilər tərəfindən işğal altında qalmaqda davam edir.

Dünyanın ən gözəl bölgələrindən biri olan Qarabağ bölgəsi qaniçən erməni daşnaklarının tapdağı altında qalmaqda davam edir, dünyanın ən gözəl nöqtələrindən biri olan gözəlim Şuşa bu haydutların tapdağı altında inləməyə davam edir, güclü dövlətlər başda olmaqla bütün dünya ictimaiyyəti də bu gözəl bölgənin ermənilər tərəfindən yandırılıb–yaxılmasına biganədirlər. Avropa Şurası 25 yanvar 2005–ci il tarixli 1416 saylı qətnaməsində Ermənistanın Azərbaycan torpaqlarını hələ də işğal altında saxladıqlarını qeyd etmişdir. Bu hadisələrə seyrçi qalan BMT və Qərb dövlətləri ermənilərin törətdikləri qətliamlara və işğal hərəkətlərinə qarşı ciddi reaksiya göstərmirlər. İngilis hökuməti Xocalı qətliamını hərtərəfli incələmiş, ermənilərin törətdikləri qətliamı insanlığa qarşı törədilmiş bir cinayət olaraq qəbul etmiş, lakin bu cinayəti törədənlərin cəzalandırılması istiqamətdə heç bir hərəkət etməmişdir. ABŞ Konqresinin Beynəlxalq Əlaqələr Komissiyasının üzvü dr.Barton konqresi Xocalı soyqırımını tanımağa çağırmış və təmsilçilər quruluşunun iclasındakı çıxışında, ABŞ Konqresi Xocalı soyqırımını tanımaqla beynəlxalq cəmiyyətin uzun illərdən bəri bu mövzu ilə əlaqəli səssizliyini pozacaqdır"—demişdir. Göründüyü kimi, yuxarıda qeyd etdiklərimiz bəzi rəsmi şəxslər tərəfindən sözdə ifadə edilir, amma BMT–nin 20 il bundan əvvəl çıxardığı qətnamələr hələ də nəticəsiz qalır.

Bu da bir həqiqətdir ki, beynəlxalq cəmiyyətlərin, xüsusilə ABŞ–ın Xocalı faciəsi ilə məlumatlanmasında, Xocalı qırğını başlamazdan bir neçə saat əvvəl bir vertolyotla o bölgənin xaricinə çıxa bilən və gördüklərini ilk olaraq dünya ictimaiyyətinə çatdıran amerikalı yazıçı–jurnalist Thomas Qoltsın qeydləri önəmli yer tutur. Thomas Qolts yazdığı "Azərbaycan gündəliyi" adlı kitabında Xocalı şəhərində gördüklərini, orada olan Azərbaycan ordusunun komandiri ilə danışdıqlarını, bütün xatirələrini təfsilatı ilə oxuculara çatdırır. Onun qeydlərinə görə, oradakı komandir 45 nəfərlik bir hərbi hissəyə rəhbərlik edirmiş, gündə iki dəfə gələn bir vertolyotla ancaq özlərinə çatacaq qədər mərmi gətirirmiş. Əsgərlərin qidaları yox deyiləcək qədər az, aclıq çox ciddi səviyyələrə çatmış vəziyyətdə imiş. 18–20 nəfər daşıya biləcək gücdə olan vertolyot, hər gəldiyində 35–40 adamı qorxulu bölgədən çıxarırmış. Çünki qətliam "gəlirəm" deyir, soyqırım "gəlirəm" deyirmiş.

Əfsuslar olsun ki, bu ağır faciə dünya ictimaiyyətində lazımi dərəcədə əks–səda yaratmamış, demokratiyadan dəm vuran dövlətlər bu faciəyə öz etiraz səslərini ucaltmamışlar. Eybəcər şəklə salınmış meyitlər ətrafda tökülüb qalmışdı. İnanmaq olmurdu ki, insan belə vəhşiliyə və alçaqlığa qadir ola bilər. Başı,

burnu, qulağı kəsilən, gözü çıxarılan meyitlər çox idi, bir çox meyitin başının dərisi soyulmuşdu. İnsanlıq tarixində heç bir millət, hətta faşistlər belə bu cür cinayətlər törətməmişdilər. Belə qeyri–insani yırtıcılığı ancaq bütün qanı, şüuru ilə türkə nifrət bəsləyən ermənilər edə bilərdilər. Buna görə də həmin faciənin dünya ictimaiyyətinə çatdırılması və onun əsl soyqırım kimi beynəlxalq təşkilatlarda qəbul olunması naminə soyqırımı haqqında yeni–yeni əsərlər yazmaq Azərbaycan elm adamlarının üzərinə düşən bir vəzifədir.

Doğrudur, bu istiqamətdə bəzi işlər görülmüşdür, amma yenə də ermənilərin bəşər qanunlarına zidd olaraq nə qədər böyük vəhşiliklər və qeyri–insani cinayətlər törətdiklərini və törətməyə davam etdiklərini dönə–dönə yazıb dünya ictimaiyyətinə çatdırmaq lazımdır.

Törədilmiş cinayətin cəzasız qalması yeni cinayətlərin törədilməsinə rəvac verir. Bu gün Ermənistan tərəfindən qonşu ölkələrin torpaqlarına göz dikilməsi işğalçı Ermənistan Respublikası barəsində beynəlxalq aləmdə mövcud olan cəzasızlıq mühitinin nəticəsidir. Heç şübhəsiz, nə tarixi həqiqətlərə, nə də bugünkü siyasi reallıqlara uyğun gəlməyən, mövcud beynəlxalq hüquq normalarını kobudcasına pozan, bəşəri əxlaq meyarlarına zidd olan, azğın xəyallarını yerinə yetirməyə çalışan ermənilərə qarşı beynəlxalq hüquq normaları tətbiq olunmalıdır. Yəni Ermənistan təcavüzkar bir dövlət elan olunmalı, erməni silahlı qüvvələri

Azərbaycan ərazilərindən qeyd–şərtsiz çıxarılmalı, Xocalı soyqırımının iştirakçıları R.Koçaryan və S.Sarkisyan Yuqoslaviyanın keçmiş dövlət rəhbəri S.Miloşeviç kimi mühakimə olunmalı, cəzalandırılmalıdırlar.

Azərbaycan türkünün taleyinə yazılan amansızlığın bəlkə də ən birincisi, onun ermənilərlə qonşuluqda yaşaması, öz ərazisində, öz torpağında bu namərdlərə yer verməsidir. Ey Əkrəm Əylisli! Gör bütün dünyada tanınmış qələm sahibi A.S.Puşkin sənin tərifədiyin ermənilər haqqında nələr deyib: “Ey erməni, sən vəhşisən, qatilsən, cinayətkarsan, qorxaq və satqınsan, şəhər və kəndləri viran qoyan bayquşsan, bütün bunlara baxmayaraq, səni qınamıram, çünki sən ermənisən”.

Məhz belə bir mənfur təbiətə malik olan ermənilər həmişə xalqımıza, türk millətinə qarşı soyqırımlar, terror aktları, repressiyalar həyata keçiriblər.

1992–ci il fevral ayının 26–da ermənilər tərəfindən törədilən Xocalı faciəsi Ermənistanın türk millətinə qarşı yeritdiyi soyqırım siyasətinin tərkib hissəsidir. Bu faciə zamanı şəhid olmuş, əsir və girov düşmüş, qətlə yetirilmiş insanların rəqəmlə ifadə olunmuş siyahısına baxanda adamın varlığından gizilti keçir. Lentə köçürülmüş dəhşətli məqamları seyr etmək mümkün deyildir. Çünki tükürpədici mənzərələr adamın varlığına vahimə gətirir. İnsan adlanan bəşər övladı bu dərəcədə qəddarlığı necə bacarır? Bu səbəbdən də bəşər tarixində heç bir xeyirxah əməlin sahibi olmayan ermənilər haqqında mənfi fikirlər mövcuddur.

26 fevral 1992–ci il… 21 ildir ki bu tarix XX əsrin son onilliyinin köksündə günahsız bir gün olaraq qapqara qaralır. İnsanlıq faciələrinə biganə qalmayanların nəzərində həmin o gün də təcavüz qurbanıdır. İnsanlığını itirib vəhşiləşmişlərin, körpə, cavan, qoca qanına susamışların qara əməllərini həmişə yada salacaq o gün. İnsan adını xar etmiş, rüsvayçılıq sütununa sarılmalı bu havadarlı cəlladlar, təəssüflər olsun ki, hələ də cəzasız qalırlar. Bu boyda dünyada onların yaxasından tutub cəllad damğası yapışdıran, layiq olduqları adı onlara qoyan hələ ki, tapılmır. Axı şər şirnikləndirildikdə əl–qol açar, zaman–zaman yenidən baş qaldırar.

Həmişə gözü onun–bunun torpağında olan, tez–tez ərazi iddiaları qaldıran və bunun naminə hər cür cinayətə qanlı imza atanların ünvanı və himayəçiləri çoxdan bəllidir. Onların izləri düşdüyü yerlərdən silinməyib. Xocalı xarabalıqları onların avtoqrafıdır.

İyirmi bir il bundan əvvəl 26 fevral günü dünya səviyyəli adamlardan səs çıxmadı. Onlar heç nə olmayıbmış kimi susmağa ustünlük verdilər. Dünya biganəlik xəstəliyinə, bəşər unutqanlıq mərəzinə tutulmasın gərək. Yandırılmış, yerlə–yeksan edilmiş Xocalının ahı iyirmi bir ildir göyləri dolaşır. Başı kəsilmiş qocaların, güllələnmiş, təcavüzə uğramış qadınların, qanına qəltan edilmiş körpələrin haqqı hələ də yerdə qalır. Dilsiz–ağızsız körpələrə toplardan, tanklardan atəş açanlar hələ də qorxusuz–hürküsüz yer üstündə gəzib–dolaşırlar. Xocalıda göylərə dirənən ah–nalə yer üzündən heç vaxt silinməyəcək, ən azı bəşər tarixinin səhifələrinə çöküb qalacaqdır. Bu şəhərdə güllə yağışına tuş gələn körpələr boy atıb böyümək, yaşamaq istəmirdilərmi? Ey Əkərm Əylisli! Sən bu işə necə baxırsan? Onlar nə üçün doğulmuşdular? İnsanlıq simasını büsbütün itirmiş cəllad erməni güllələrini zərif bədənlərində soyutmaq üçünmü? O körpələri, uşaqları unutmaqmı olar? Külə dönmüş Xocalını yaddan çıxarmaq mümkündürmü? Yağı gülləsinə tuş gələn heç bir insanımızı unutmağa haqqımız yoxdur! Onların xatirəsi bizi nəyin bahasına olursa–olsun torpaqlarımızın hər qarışını geri almağa səsləyir. Biz onların göylərimizdə dolaşan harayını eşitməli, incik ruhlarını sevindirməliyik.

Hesab edirəm ki, Xocalı faciəsi Azərbaycan türkünün başına gətirilmiş o qədər dəhşətli bir faciədir ki, onun haqqında həmişə danışılmalı və bu mövzu dünya ictimaiyyətinin gündəmində tutulmalıdır. Məsum insanların vəhşicəsinə qətl edildikləri cinayətlərin isbatını ortaya qoyan rəsmi sənədlər, lentə çəkilmiş görüntülər belə var ikən Xocalı faciəsinin unudulmasına imkan verilməməlidir. Təəssüflər olsun ki, iyirmi bir il keçməsinə baxmayaraq, bu faciənin dəhşətləri beynəlxalq aləmdə, dünya ictimaiyyətinin rəyində özünün həqiqi və layiqli qiymətini ala bilməmişdir. Belə biganəlik həm də onunla təhlükəlidir ki, bəşəriyyətə qarşı çevrilmiş bu kimi

fəlakətlərin bundan sonra da baş verməsinə zəmin yaradır. Yəni faciəni törədən canilərin cəzasız qalmaları insan sevgisindən uzaq olan və mənfəət ardınca qaçan millətləri yeni–yeni cinayətlər törətməyə sövq edir.

Heç şübhəsiz, türk millətinə qarşı yönəldilmiş bu məqsədyönlü soyqırım siyasəti insanlıq və bəşəriyyət tarixində böyük bir cinayət, qara bir ləkə kimi qalacaqdır. XX əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımının bütün dünyada törədilmiş ən böyük cinayətlərdən biri olduğu və erməni qəsbkarların vəhşilikləri beynəlxalq aləmə bildirilməli, dünya ictimaiyyətinin diqqəti bu məsələyə cəlb edilməli, Xocalı vəhşətinin dünya dövlətləri və beynəlxalq quruluşlar tərəfindən soyqırım olaraq tanınması üçün lazım olan addımlar atılmalıdır.

BMT–nin soyqırım haqqında 96(1) saylı qərarına görə, soyqırım insan qruplarına yaşama haqqı tanımamaqdır. Beləliklə, hansı səbəblə, zamanda və yerdə olursa–olsun, ciddi sayda insan ölümü soyqırım cinayəti sayılır. Yəni ermənilərin Xocalıda dinc əhaliyə qarşı törətdikləri qırğın tam mənası ilə soyqırımdır, yəni, BMT soyqırım haqqında 96(1) saylı qərarına əsaslanaraq Xocalı soyqırımını qərara bağlamalıdır!

Rəsmi məlumatlara görə, o gecə 613 nəfər şəhid olmuş, 487 nəfər ağır yaralanmış, 1275 nəfər əsir düşmüş, erməni zülmünə, təhqirlərinə məruz qalmışlar. Ermənilər Azərbaycan türklərinin gözlərini oyaraq, burunlarını, qulaqlarını kəsərək, başlarının dərisini soyaraq qeyri–insani hərəkətlərlə, vəhşicəsinə öldürmüş, bir çoxunun cəsədlərini yandırmışlar. Yer kürəsinin ən gözəl nöqtələrindən birində, öz ata–baba yurdunda yaşamaqdan başqa bir günahı olmayan bu insanlar işgəncə verilərək şəhid edilmişlər.

Xocalı soyqırımının adı necə olursa–olsun, kim tərəfindən kimə qarşı hansı şərtlərdə olursa olsun nəticəsi vahiməli hadisələrin yaşandığı bir vəhşətdir. Hal belə ikən insanlığa yaraşmayan bu qırğının ancaq və ancaq Azərbaycan və Türkiyə tərəfindən yad edilərək qınanması, həqiqətən də çox üzücüdür. Digər tərəfdən, bu soyqırımın ardından iyirmi bir il keçməsinə baxmayaraq, hələ də dünya ictimaiyyətinin bitərəf qalması, təəssüflər olsun ki, daha üzücü və düşündürücüdür.

Heç şübhəsiz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində baş verən vəhşətin bir soyqırım olduğunun beynəlxalq cəmiyyətdə qəbul edilməsi üçün qanuni bir prosses başladılmalıdır. Azərbaycan dövləti "Lahey Ədalət Divanı"na müraciət edərək 1948–ci il dekabr ayının 9–da BMT tərəfindən qəbul edilən "Soyqırım cinayətlərinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyası çərçivəsində cinayət işi açdırmalıdır. Bu müraciətdə lazım olan dəlillər çərçivəsində Ermənistan rəhbərləri R.Koçaryan və S.Sarkisyan Xocalı soyqırımını həyata keçirən cinayətkarlar olaraq göstərilməli və onların cəzalandırılmaları tələb olunmalıdır!!!

26 fevral 1992–ci il… Xocalı soyqırımı kimi tarixləşdi bu müdhiş gün. 1941–1945–ci illər müharibəsində Belorusiyanın Xatın kəndində də belə bir faciə baş vermişdi. Dünya hələ də bu kənd–qəbiristanlığına gəlib illərin faciəsini gözlərinə köçürür. Bəs Xocalı faciəsi?! 65 il əvvəl baş verən hadisələrlə maraqlananlar ermənilərin bu çox yaxın keçmişdə Xocalıda törətdikləri vəhşilikləri görmədilərmi? Soyqırım deyirlər. Bəs onda ermənilərin Xocalıda törətdikləri qırğınlar soyqırım deyildirmi? Yaxşı, əgər Xocalıda törədilənlər soyqırım deyilsə, bəs onda biz bu vəhşətə nə ad verməliyik? Bu da bir həqiqətdir ki, qan yaddaşımızdan silinməyəcək Xocalı soyqırımı.

**Fazil QARAOĞLU,**
**professor.**
**"Respublika".-**2013.-26 fevral.-N 44.-S.8.

**Şamaxıda mart qırğınları**

Ermənilərin 1918-ci ildə Şamaxıdakı cinayətlərini ifşa edən çoxsaylı arxiv sənədləri var

Ermənilər azərbaycanlıların evlərini talan edib, yandırıb, mülki əhalini qəddarlıqla öldürüblər

1918-ci ilin yazında ermənilərin törətdikləri qaniçənlikdən ən çox zərər çəkən şəhərlərdən biri Şamaxı və onun kəndləri olub.

Bu barədə arxiv materiallar əsasında ciddi, ardıcıl tədqiqatlar aparan Azrbaycan Milli Arxiv İdarəsinin rəisi, tanınmış tədqiqatçı Ataxan Paşayev bildirir ki, uzun müddət 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərindən bəhs edərkən, nədənsə onların Şamaxıda törətdikləri soyqrımla bağlı demək olar, danışılmayıb: "Ermənilərin toplu halda yaşadıqları yerlərdən tamamilə uzaqda, yüzlərlə azərbaycanlı kəndinin əhatəsindəki cəmi 6 erməni kəndi və Şamaxı şəhərindəki azlıqda qalan bir ovuc erməni əhalisinin bu ərazidə soydaşlarımızın başına açdığı müsibətlərlə tanış olduqda adam dəhşətə gəlir. Ancaq təkzibolunmaz faktdır ki, bu bir ovuc erməni onlarla Azərbaycan kəndlərini tar-mar etmiş, on minlərlə günahsız türk əhalisini qətlə yetirmişlər. Bu fakt bir də onu sübut edir ki, ermənilər olduqca təhlükəli düşməndirlər. Onlar həmişə zərbəni gözlənilməz yerdən vurmağı çox gözəl bacarırlar".

Ermənilərin 1918-ci ilin mart və aprel aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərində törətdikləri cinayətləri ifşa edən çoxlu arxiv sənədləri qorunub saxlanılır. A.Paşayev qeyd edir ki, bu sənədlər arasında 1918-ci il noyabrın 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədovun Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyinə Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərinin talan edilməsi və müsəlman əhalisi üzərində ermənilərin zorakılıqları haqqında məruzəsi diqqəti cəlb edir: "Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər arasında 7 cild, 925 vərəqdən ibarət təhqiqat işlərində toplanmış materiallar ermənilərin burada törətdikləri cinayətlər, erməni rəzaləti haqqında ətraflı məlumat verir. Burada toplanan yüzlərlə zərərçəkmiş və şahid ifadələri, dindirmə protokolları ermənilər tərəfindən yandırılmış, dağıdılmış tikili, mədəniyyət abidələrinə baxış protokolları, aktlar, siyahılar və digər sənədlər ermənilərin Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndlərində törətdikləri vəhşilikləri əyani şəkildə ifşa edir".

O dövrdə Ə.Xasməmmədovun ədliyyə nazirinə təqdim etdiyi məruzəyə diqqət çəkən A.Paşayev bildirir: "Komissiyanın ilkin istintaq nəticəsində əldə etdiyi məlumatlar həmin məruzədə şərh olunurdu. Məruzədə deyilirdi ki, Şamaxı şəhəri 2 hissədən ibarətdir: yuxarı və ya erməni hissəsi, aşağı və ya müsəlman hissəsi. Birincidə əsasən ermənilər və malakanlar, müəyyən qədər də müsəlmanlar, ikincidə isə yalnız müsəlmanlar yaşayırdılar. Şamaxı qəzasında əhalinin əksəriyyəti müsəlmanlardır. Erməni və malakanlar hərəsi 6 kənddə yaşayır. Həm şəhərdə və həm də kəndlərdə olan müsəlmanlar ermənilər və malakanlarla keçmiş zamanlardan sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, incitməmiş, daim mehriban qonşuluq əlaqələri saxlamağa çalışmışdılar. 1918-ci il martın 18-də qaliblər kimi şəhərin müsəlman hissəsinə soxulan ermənilər qışqırırmışlar: "Biz bu günü 12 ildir ki, gözləmişik. Bu, Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndi sizə heç kim kömək edə bilməyəcək. Köməyə siz özünüzün müqəddəs Həzrət Abbasınızı çağırın". Həkim Sazanov 1918-ci il martın 19-u gecəsi Şamaxıda erməniləri müsəlmanlar üzərində rəhmsiz zorakılıqlar işlətməkdə günahlandırdıqda o, ermənilərdən belə bir cavab alır: "Müsəlmanlara heç bir rəhm etmək yoxdur. Onların hamısı məhv edilməlidir".

A.Paşayev daha sonra bildirir ki, Şamaxıda azərbaycanlılara qarşı ermənilərin düşmənçilik hərəkəti hələ I Dünya Müharibəsi başlandığı vaxtlardan özünü büruzə verib. Ermənilər azərbaycanlılara qarşı özlərini çox təkəbbürlü aparır, onların milli və dini heysiyyətlərini açıqca təhqir edirdilər. 1917-ci il fevral çevrilişindən sonra ermənilər daha cəsarətlə hərəkət etməyə başlayırlar. Ermənilər çar hakimiyyəti orqanlarının yerli komandası oradan getdikdə gizli surətdə silah anbarını ələ keçirib bu haqda nə qəza komissarına, nə də yerli müsəlman Milli Şurasına heç bir məlumat verməmişdilər. Onlar ermənilərdən və malakanlardan ibarət hərbi qarnizon təşkil edib, ora müsəlmanları buraxmamışdılar: "Azərbaycanlılar qarnizona girməyə nail olduqda isə erməni əsgərləri onlara qarşı düşmənçilik edir, təhqir edir və incidirdilər. Elə bu vaxtlar ermənilər öz kəndlərinə müxtəlif yollarla silah-sursat gətirib sürətlə silahlanmağa başlayırlar. Silahı əsasən cəbhədən qayıdan əsgərlər gətirirdilər. Onların hərəsi özü ilə bəzən 3 tüfəng gətirmişdilər. Ermənilərin bu hərəkətləri azərbaycanlıları bərk vahiməyə salır. Həm Şamaxı şəhərində, həm də qəzanın kəndlərində azərbaycanlılar görürdülər ki, ermənilər onlara qarşı sürətlə silahlanırlar. Müsəlmanlar bütün qüvvələrini sərf edirdilər ki, ermənilərlə dil tapsınlar və yaxınlaşmaqda olan qırğının qarşısını alsınlar. Altdan-altdan sürətlə silahlanan ermənilər üzdə özlərini belə göstərirdilər ki, guya müsəlmanlara qarşı heç bir düşmənçilik hissləri bəsləmirlər. Şamaxı şəhərindən 6 verst aralı Mədrəsə erməni kəndində gizli surətdə Zaqafqaziyanın digər qəzalarından erməni əsgərləri sürətlə toplanmağa başlayırlar. Martın birinci yarısında məlumat alınır ki, Bakıdan Şamaxıya böyük miqdarda hərbi sursat, top və pulemyotlarla silahlanmış 3 minədək Bakıdakı Bolşevik hakimiyyəti adından erməni qoşun

dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və ermənilərdən ibarət nümayəndə heyəti göndərilir. Nümayəndə heyətinin dəstə ilə görüşü Malakan kəndi Qozlu-Çayda (Xilmili) olur. Dəstəyə silahı Şamaxı qarnizonuna təhvil vermək təklif olunur. Onlar bundan qəti imtina edir və bildirirlər ki, başlıca məqsəd Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdir. Dəstənin rəhbərləri Şamaxı şəhərindən yan keçərək Mədrəsə kəndinə gedəcəklərinə söz verirlər. Martın 15-də dəstə Şamaxının yanından keçərkən şəhərin kənarında öz evlərini qoruyan müsəlmanlar dəstənin şəhərə hücum etdiyini güman edib atəş açırlar. Dəstə də cavab atəşi açır. Tezliklə bütün şəhəri atışma bürüyür. Bu atışma nəticəsində hər iki tərəfdən tələfat olur. Lakin axşama yaxın şəhərdə tam sakitlik yaradılır. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxıdakı bütün millətlərin və onların ruhanilərinin nümayəndələri bir yerə yığışaraq and içirlər ki, sülh şəraitində yaşayacaq və qayda-qanunu pozmayacaqlar".

Lakin ermənilər vədələrinə çox az sonra xilaf çıxırlar: "1918-ci il martın 18-də Şamaxının azərbaycanlı sakinləri top atəşlərinin sədaları altında oyanırlar. Görürlər ki, şəhər Cənub tərəfdən ermənilər, şimal-şərqdən isə malakanlar tərəfindən mühasirə olunub. Şəhərin tamamilə azərbaycanlılardan ibarət aşağı hissəsi top və pulemyot atəşlərinə tutulur, şəhərin yuxarı hissəsində yaşayan ermənilər isə azərbaycanlılar yaşayan məhəllələri tüfənglərdən atəşə tuturlar. Bu hücum soydaşlarımız üçün tam gözlənilməz idi".

Ermənilər azərbaycanlıların evlərini talan edir, yandırır, mülki əhalini qəddarlıqla öldürür: "Ermənilər evlərə soxulur, onların sakinlərini qətl və qarət edir, sonra isə yandırırdılar. Gecə müsəlmanlar təslim olmaq barədə ermənilərin yanına nümayəndələr göndərir və sülh xahiş edirlər. Lakin atəş dayandırılmır, yanğınlar bütün bölgəyə yayılır və o biri günün səhərinə qədər şəhərin ən zəngin məhəlləsindəki evlərdən yalnız xarabalıqlar qalır.

Ermənilər insanları evlərdə, həyətlərdə, küçələrdə qətlə yetirirlər. Şəhərin küçələrində meyidlərdən qalaqlar yaranır. Qaniçən ermənilər azərbaycanlı əhalinin qətlini eşidilməmiş və ağlasığmaz qəddarlıq, işgəncə ilə həyata keçirirlər. Küçələrdə əzab verilərək öldürülmüş qadınların meyidləri atılmışdı. Onların döşləri kəsilmiş və ən çirkin üsullarla təhqir olunmuşlar. Küçələrdə pazlarla diri-diri yerə mıxlanmış uşaq meyidləri də atılıb qalmışdı. Azərbaycanlıların evlərindən qarətlə talan olunmuş əmlak araba və furqonlarla erməni və malakan kəndlərinə daşınırdı. Ermənilərin Şamaxı şəhərindəki vəhşilikləri bir neçə gün davam edir. Ermənilərin Şamaxı şəhərinə birinci və ikinci hücumları zamanı bir neçə min soydaşımız qətl edilib".

**Elçin Qaliboğlu**

**"Xalq Cəbhəsi".-2013.-28 mart.-N 52.-S.14.**

**Bağanıs Ayrım faciəsi**

**Bu qanlı olaya niyə belə laqeydik?**

Neçə il bundan əvvəl Qazax tarix diyarşünaslıq muzeyində maraqlı bir şəkil-maket gördüm: "Bağanıs Ayrım od içində" adlanırdı. Yerli sənərkarlar düzəltmişdilər. Dedilər ki, muzeyin geniş bir zalında xatirə guşəsi yaradılacaq. Orada bir şəkil də çəkdik, indi də durur...

Görəsən xatirə guşəsi yaradılıbmı? Axtarışın izi ilə Qazağa getdik. Muzeydə gördüyümüz mənzərə sözün düzü bizi məyus etdi. Nəinki xatirə guşəsi düzəldilməyib, köhnə şəkil-maketin əvvəlki görkəmindən də əsər-əlamət qalmayıb.

Qazağın mərkəzində Şəhidlər xiyabanın yanında ucalan beşmərtəbəli binanın həyətindəki "qaçqınların çay evi"nə getdik. Bağanıs Ayrım kəndinin sakinləri əsasən bu beşmərtəbəli binada məskunlaşıblar.

Allahverən Poladov onların ağsaqqalı sayılır. O müdhiş günlərdə də belə olub, indi də hörməti-izzəti böyükdür. Görüşdük. Asta-asta danışır. Bir-birindən qüssəli, qəmli xatirələr dilə gəlir.

1990-cı ildə Novruz bayramını bizə haram etdilər - dedi - martın 24-də kəndimizi qəfildən oda qaladılar, tarimar etdilər.

O qanlı olayın canlı şahidi deyir ki, "bu, əsl faciə, sözün tam mənasında soyqırımı idi". Bu barədə publisist Elçin İsmayılın kitabında ilkin məlumat verilir. Milli Məclisin deputatı Qənirə Paşayeva və jurnalist Akif Aşurlu isə geniş araşdırmalar apararaq "Ermənilərin törətdiyi soyqırımın qurbanı - "Bağanıs Ayrım" adlı faktiki materiallarla, tarixi sənədlərlə, şahidlərin canlı xatirələri ilə zəngin sənədli publisistik əsər yazıblar. Məqsəd erməni vəhşiliyinin geniş mənzərəsini yaratmaqdan, ucqar sərhəd kəndində ermənilərin törətdikləri soyqırım aktını dünya ictimaiyyətinə çatdırmaqdan ibarət olub.

Bağanıs Ayrım dağların döşündə, sıldırım qayaların qoynunda Yuxarı və Aşağı Əsginar kəndlərinin yanında, çox mühüm strateji mövqedə yerləşirdi. Bağanıs Ayrım yığcam kənd idi. Təqribən yüz evi var idi. Dörd yüz əlli nəfər yaşayırdı. İcivandan gəlib Noyembryana gedən yol, başqa sözlə desək, Ermənistanla Gürcüstanı birləşdirən magistral bu yerlərdən keçirdi. Bağanıs Ayrımın yoxluğu Ağstafa dəryaçasına da böyük təhlükə yarada bilərdi.

İllər boyu ermənilər üzümçülüyün məskəni olan bu səfalı məkana, onun münbit torpaqlarına göz tikmişdilər. Sovet imperiyası dağılanda bir sıra bölgələr, eləcə də Bağanıs Ayrım kəndi də taleyin ümidinə qaldı.

Bu yerlərin faciəsi qaşla göz arasında idi. Qaçqınların sayı getdikcə artırdı. Ermənilər hər gün Yuxarı və Aşağı Əsgipara, Barxudarlı, Sofulu, Xeyrimli, Məzəm, Quşçu Ayrım və Bağanıs Ayrım kəndlərini atəşə tutur, basqınlar edir, mal-qaranı aparır, insanları girov götürürdülər. Belə bir vaxtda - 1989-cu ilin dekabrın 1-də Qazaxda xüsusi vəziyyət elan edildi. Bu, nəinki kənd sakinlərinə heç bir kömək eləmədi, əksinə dekabrın 2-də əhalidəki ovçuluq məqsədilə istifadə edilən odlu və soyuq silahların yığılmasına başlanıldı. Arxasız, köməksiz əhali tamamilə əliyalın qaldı. Ermənilər isə at oynadırdılar. Onlar bu yerləri artıq öz vətənləri sayırdılar. Günlərin birində Ermənistan KP MK-nın birinci katibi Suren Arutunyan kəndə gələndə təəccüblə: "Məgər bura Azərbaycan kəndidir?" - deyərək çıxıb getmişdi.

Həsən Əsgərov adlı bir ovçu "Kəkilin altı" deyilən yerdə saqqallıların toplaşdığının və xeyli miqdarda hərbi texnika və silah-sursatın yığıldığının şahidi olmuşdu. Kömək üçün Bakıya göndərilən teleqramlar, məktublar cavabsız qalırdı. Kəndin fəallarından ibarət özünümüdafiə dəstələri yaradılmışdı. Ziraddin Məmmədov, Məcid Əhmədov, Şomoy Çobanov (avqustun 20-də şəhid oldu), Hüseyn Əhmədov, İlyas Bayramov və başqaları torpaqların keşiyində ayıq-sayıq dayanırdılar. Kənd fəallarının təkidi ilə bir neçə ov tüfəngi əldə edildi. Xarkovdan Ağstafaya gələn hərbi hissədən 12 əsgər verildi. 16 gün kənddə qalandan sonra onları da Ermənistana apardılar.

Namərdliyə bir baxın, müdafiəsiz, silahsız dinc əhaliyə hücum üçün bahar bayramını seçmişdilər. 1990-cı il martın 23-dən 24-nə keçən gecə saat 12-də erməni yaşayış məntəqəsindən göyə fişəng atılır. Görünür, bu, kütləvi hücumun başlanması üçün ilk xəbərdarlıq idi. Siqnal-fişəngdən sonra "Kəkilin altı" adlanan səmtdən və magistral yol boyunca erməni silahlı birləşmələrinin kütləvi hücumu başlanır. Kəndin mərd oğullarının cidd - cəhdinə baxmayaraq avtomatlardan, iriçaplı silahlardan atəş aça-aça irəliləyən quldurların bu genişmiqyaslı hücumunun qarşısını almaq mümkünsüz idi.

Novruz bayramı yasa dönmüşdü. Ah-nalə hər yanı bürümüşdü. Evlər dağılır, yanır, qarət olunurdu. Ayağı yer tutanlar, ahıllar, xəstələr, qadın və körpələr Quşçu Ayrım kəndi istiqamətində qaçmağa başladılar. O müdhiş gündə Bağanıs Ayrımın 7 sakini insanlığa sığmayan işgəncələrə məruz qaldı, diri-diri ocağa atıldı, iki nəfər güllələndi. Dünyadan köçən insanların böyüyü 75 yaşında, kiçiyi isə 39 günlük körpə idi. Faciə zamanı 17 ev yandırıldı, 11 ev isə qarət edildi.

Martın 24-də başlanan qanlı olay avqustun 30-da bütün bölgənin işğalı ilə yekunlaşdı. Bağanıs Ayrım ermənilərlə təmas xəttində Qazağın qapısı sayılırdı. Bağanıs Ayrım getdi, bununla da qədim Qazağın "qapısı" açıldı.

1992-ci il martın 8-də (fikir verin, yenə də bayram günü!) Xeyrimli kəndi işğal edildi.

Mart ayının 12-də Aşağı Əsgipara əldən getdi.

Aprelin sonunda əvvəl Sofulu, sonra Barxudarlı kəndləri oda qalandı.

Mayın 11-də Qızılhacılı, iyunun 8-də isə Yuxarı Əsgipara soyqırıma məruz qaldı.

Beləliklə, namərd qonşularla 168 kilometr sərhədi olan qədim Qazağın 7 kəndi erməni terrorunun qurbanı oldu.

O illərin canlı şahidi Allahverən Poladov deyir ki, "atışma başlayanda kəndin girəcəyində olan Dədəş kişigilin evinə getdik ki, qocaları, uşaq və qadınları kənddən çıxaraq. Dədəş kişi nə işığı söndürdü, nə də evindən çıxdı. Dedi, mən ermənilərə nə etmişəm ki? Ata-baba yurdumdu buralar. Onlar mənim evimdə özləri ağırlığında çörək kəsiblər. Heç yana gedəsi deyiləm. Getmədi də... Kəndin ermənilərə yaxın olan evlərinin birində Alməmməd kişi yaşayırdı. O da çıxmamışdı. Həmin gecə ermənilərin amansız hücumlarını, vəhşi əməllərini, əhalini atəş altında necə saxladıqlarını mən heç kinolarda da görməmişdim. Əvvəlcə kəndin girəcəyində olan evləri yandırdılar. Dədəş kişini, həyat yoldaşını, iki qızını və 39 günlük körpəni dama doldurub odladılar. Dədəşin qızı Aliyə körpə balasını qucağına alıb qaçmaq istəyəndə onu güllə ilə vurdular. Uşaq ananın əlindən düşdü. Erməni silahlılarından biri körpəni qaldırıb zərblə yerə çırpdı".

Dədəş kişinin kürəkəni Təşkilat Qafarov bu qanlı olaydan daha dəqiq xəbər verir: "Namərdlər kəndə tökülüşəndə həyat yoldaşımdan soruşdum, anangil çıxıbmı? Dedi yox, biz getmək istəmirik! Nə illah eləsək də, Alməmməd kişini də yola gətirə bilmədim. Qardaşının evində qaldı. Bir azdan qayıdanda gördüm ki, bütün ailəni yandırıblar. Alməmməd kişinin, onun qardaşı Səmədin, qonşuları Bəxtiyarın, Ədalətin də evlərini beləcə viran ediblər".

Allahverən Poladov o mühüm olayları göz yaşı ilə xatırlayır: "Ermənilər güllə ata-ata yaxınlaşanda Alməmmədin oğlu və həyat yoldaşı evin dalında mal tövləsində gizlənirmiş. Ermənilər ot tayasına od vururlar. Əvvəlcə elə bildik ki, Alməmmədi girov götürüblər. Elə ki yanğın sovuşdu, ot tayasının külünü eşələdik. Rəhmətliyin sümükləri də yanmışdı. Onu qol saatından və bir də cib bıçağından tanıdıq".

Alçaqlığın həddinə bir baxın! Ermənilər bütün bunları öz xeyirlərinə fırlatmağa çalışırdılar. Həyat yoldaşı diri-diri yandırılmış Həmayıl Məhərrəmovanın söhbəti çox şeydən xəbər verir. Həmayıl xanım xatırlayır: "O gərgin günlərdə dedilər ki, "Moskvadan gələn general Şatalin səni axtarır. Getdim. Ağlaya-ağlaya deyirəm, niyə bizi qorumadınız, bizim günahımız nədir? Kəndi niyə bu günə saldılar? Sən demə başıma gələnləri danışanda mənim sözlərimi erməni qadınının faciəsi kimi lentə çəkirdilər. Biləndə cəld ayağa qalxdım. Bu, mənə göz qabağında olan ölümdən, itkidən daha pis təsir elədi. Hönkürə-hönkürə küçəyə çıxdım. Bir işə bax, yanan da biz, yaman da!"

Adamlar öldürüldü, evlər viran qaldı, məktəb binası və digər obyektlər dağıdıldı, əmlak talan edildi. Nankorların rəzaləti saya-hesaba gələn deyil! İstintaq materialları da çox şeydən xəbər verir. Yeri gəlmişkən bəzi faktları yada salaq: "Səhər tezdən iricaplı silahlardan, pulemyotlardan, avtomatlardan, qrantamyotlardan intensiv atəş aça-aça müxtəlif markalı maşınlar kəndə daxil oldu. Nəticədə dinc əhalidən Əsliyev Dədəş Bayram oğlu, Əsliyeva Pakizə Qulu qızı, Əsgərova Havaxanım Dədəş qızı, Adıgözəlova Aliyə Dədəş qızı və Adıgözəlov Hafiz Ramiz oğluna həyat üçün təhlükəli olan ağır bədən xəsarətləri yetirildi. Məhərrəmov Alməmməd Gülməmməd oğlunu və milis nəfəri Əhmədov Məcid Oqtay oğlunu odlu silahlarla yaralamaqla öldürdülər, D.Əsliyevin, Q.Əsliyevanın, A.Adıgözəlovanın, H.Əsgərovanın, H.Adıgözəlovun və A.Məhərrəmovun qarın nahiyələrini kəsib içərisinə daş-çınqıl doldurub, meyitləri mal tövləsinə yığıb üstlərinə benzin tökərək yandırmışdılar. Daha sonra silahlı dəstə üzvləri cinayətkar əməllərini davam etdirərək odlu silahla Bağanıs Ayrım kənd sakinləri Adıgözəlov Mülkədar İsrafil oğluna və Əhmədov Zirəddin Musa oğluna müxtəlif dərəcəli bədən xəsarəti yetirdilər. İradələrindən asılı olmayan səbəblərə görə onları öldürə bilməmişdilər".

Bir sözlə, Bağanıs Ayrım faciəsi azərbaycanlıları milli zəmində məhv etmək məqsədini güdən əsl soyqırımı idi. Bu qanlı faciənin 18 nəfər təşkilatçısının adları, ünvanları da bəllidir. Bu barədə müvafiq materiallar hələ çoxdan İnterpolun Milli Bürosuna göndərilib. Di gəl ki, bu günə kimi beynəlxalq hüquq normaları çərçivəsində bir tədbir görən yoxdur!

Bağanıs Ayrım soyqırımı bir ölüm qasırğası idi. Ermənilər cənnətməkan bölgəni başdan-başa viran etdilər. Di gəl ki, nədənsə ona hələ də layiqli hüquqi-siyasi qiymət verilməyib. "Ermənilərin törətdiyi soyqırımının qurbanı - Bağanıs Ayrım" kitabının müəlliflərinin yazdıqları kimi: "Dünya sanki Bağanıs Ayrım adlı bir kəndi çoxdan unudub. Bu kənd dünyanın ən gözəl yerlərindən biri idi. Bütün dünyanın gözü qarşısında ermənilər tərəfindən dağıdıldı, yandırıldı və xarabalığa çevrildi. Dünya susdu, yüzlərlə insanın göz yaşını görmək, ah-naləsini eşitmək istəmədi. Təkcə Bağanıs Ayrımın dinc sakinlərinə, azərbaycanlılara qarşı deyil,

bəşəriyyətə qarşı çevrilən bu cinayətlərə dünya hələ susur. Bu cinayətləri törədənlərin layiqli cəzalarını alması istiqamətində səylər göstərilmir. Cəzasız qalan cinayət isə digər cinayətlərin əsasını qoyur".

Beşmərtəbəli binanın həyətindəki "qaçqınların çay evi"ndə söhbət etdiyimiz Allahverən Poladov və onun həmkəndliləri də laqeydlikdən, unutqanlıqdan narazılıq edirlər. Deyirlər ki, Bağanıs Ayrım elimizin həmişə qövr eləyən yarasıdır. Doğrudur, evimiz-eşiyimiz, az-çox işimiz, təminatımız var. Lakin Bağanıs Ayrım faciəsinə olan laqeyd münasibət xətrimizə dəyir. Heç yanda düz- əməlli onun adı çəkilmir, nə bir xatirə muzeyi düzəldilir, nə anım günləri keçirilir, nə də ölənlər, itənlər yada salınır! Mədəni maarif ocaqlarında sərgilər düzəldilmir, tədris vaxtı şagirdlərə müvafiq məlumat verilmir. Lakin biz əsla ümidsiz deyilik. Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində Xocalı soyqırımını tədricən bütün dünya tanıyır. Bu bizə ümid verir ki, Bağanıs Ayrım soyqırımı da yaxın vaxtlarda öz hüquqi-siyasi qiymətini alacaq, işğalçılara layiqli cəza veriləcək, düşmən tapdağında olan cənnətməkan torpaqlarımız biryolluq azad ediləcəkdir.

**Əhməd İSAYEV, "Azərbaycan"**
**28 mart 2013-cü il**

**Sağalmayan yaralar.**
**Naxçıvan 1905-1906-cı illərdə**

**1828-ci ildə imzalanan Türkmənçay müqaviləsindən sonra çar Rusiyası müsəlman ölkələri ilə sərhəd zonalarını möhkəmləndirmək məqsədilə Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarına kütləvi şəkildə ermənilərin köçürülməsinə başladı. Naxçıvana köçürülənlərin sayı o qədər çox idi ki, onları tez bir zamanda yerləşdirmək mümkün deyildi. Ona görə də ermənilər boş torpağı və evi olan ən yaxşı kəndləri seçir və sonra yerli idarələrə müraciət edərək onları məskunlaşdıqları ərazidə qeydiyyata almağı tələb edirdilər. İmperiyanın köçürmə siyasəti yerli əhaliyə də ziyan vururdu.**

Məcburiyyət qarşısında qalan camaat torpaqlarının bir qismini silahlı rus əsgərlərinin qorxusundan gəlmə ermənilərə verməli olurdular. Çar hökumətinin köçürmə siyasətinə qədər Naxçıvan diyarında əhalinin 82,8 faizini azərbaycanlılar təşkil edirdi, erməni əhalinin sayı isə 17,2 faizə bərabər idi. Rus tədqiqatçısı S.Qlinka "Ermənilərin Rusiya ərazilərinə miqrasiyası haqqında" (Moskva, 1831) əsərində yazırdı ki, Türkmənçay müqaviləsindən üç ay sonra keçmiş Rusiyanın yeni ərazilərinə, yəni çar Rusiyası tərəfindən işğal olunmuş sabiq Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarına 40.000 erməni köçürülmüşdür. Bu "köçürmənin" təşəbbüsçüsü milliyyətcə erməni olan X.Y.Lazarev idi. O, hələ İkinci Rusiya-İran müharibəsi bitməmiş 1827-ci ildə ermənilərin Şimali Azərbaycana köçürülməsinin layihəsini tərtib edərək çar hökumətinə təqdim etmişdi. Bu layihənin baş xəttini Rusiya imperiyasının tərkibində "Erməni çarlığının bərpa olunması" təşkil edirdi. Həmin ideya Rusiyanın hakim dairələri üçün İranla Türkiyə sərhədlərində xristianlardan ibarət vilayətin yaradılmasına bir bəhanə oldu. 1828-ci ilin mart ayında general-adyutant A.X.Benkendorf X.Y.Lazarevin layihəsini imperator I Nikolaya təqdim edir. İmperatoru əsasən Türkiyə və İranla, yəni müsəlman ölkələri ilə sərhəd zonalarını möhkəmləndirmək daha çox maraqlandırdığı üçün o, 1828-ci il martın 21-də xüsusi qərarla Naxçıvan və İrəvan xanlıqlarını ləğv edərək əvəzində həmin ərazidə süni olaraq "Ermənistan vilayəti" yaratdı. Bu vilayət 1850-ci ilədək davam etmiş, sonra isə İrəvan quberniyası ilə əvəz olunmuşdur. Naxçıvan diyarı da həmin quberniyaya daxil edilmişdir.

Bir faktı da qeyd edək ki, köçürməyə qədər Naxçıvan bölgəsində erməni ailələri daxil olmaqla 530 xristian ailəsi var idisə, Türkmənçay müqaviləsindən sonra orada xristianların sayı 4 dəfə artmışdı. Dərələyəz mahalına 507, Naxçıvan mahalına 941 erməni ailəsi yerləşdirilmişdi. Ordubad dairəsində isə ən çox gəlmə ermənilər Bilev mahalında məskunlaşmışdılar. XIX əsrin əvvəllərində Naxçıvan xanlığının ərazisində İran dövləti tərəfindən yaradılan 282 azərbaycanlı ailəsindən ibarət olan Məvazi-Xatun mahalına da 216 erməni ailəsi yerləşdirilmişdi. Məqsəd azərbaycanlıların çoxluq təşkil etdikləri ərazilərdə ermənilərin say tərkibini artırmaq idi. Tədqiqatçıların araşdırmalarına görə, həmin dövrdə Naxçıvan diyarında nə sosial-iqtisadi münasibətlərdə, nə də məhsuldar qüvvələrin inkişafında elə bir dəyişiklik baş verməmişdir. Kənd əhalisi yenə də əsasən taxılçılıq, maldarlıq, ipəkçilik, bağçılıqla məşğul olmuş, şəhərlərdə sənətkarlığın bir çox sahələri – bez parçaların istehsalı, zərgərlik, dəmirçilik, qalayçılıq və digər sahələr inkişaf etmişdi.

1905-ci ilin fevralında Bakıda baş verən erməni-müsəlman toqquşması may ayının əvvəllərində Naxçıvan camaatında da xüsusi narahatlıq doğurmuşdu. Qafqaz canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan xüsusi dəstələr 1905-ci ildə digər yerlərdə olduğu kimi, Naxçıvanda da azərbaycanlılara qarşı silahlı hücumlar edib onları qırır, ermənilərin say üstünlüyünə nail olmaq istəyirdilər. Həmin dövrdə Qafqazdakı 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər (V.Arzumanlı, N.Mustafa. "Tarixin qara səhifələri", Bakı, 1998).

1905-1906-cı illərdə Qafqazda erməni-müsəlman qırğınları haqqında polis departamentinin "Daşnaklar" adlı arxiv sənədində ("Daşnaki", Baku, 1990) deyilir: "Daşnaksütyun" öz qüdrətini göstərdi, müsəlmanlar cəfalarını çəkdilər. Burada ikili oyun oynanılmışdır: biricisi, müsəlmanlarda olan qisasın bir qismini almaq, digər tərəfdən baş verən hadisələrin günahını mətbuat və təbliğatın köməyi ilə rus hökumətinin üzərinə yıxmaq, bununla da təkcə erməniləri deyil, Qafqazın digər sakinlərini də inqilabçılaşdırmaq üçün güclü təbliğat materialı əldə edilmiş olurdu. Nəticədə ermənilərə münasib olmayan bir çox rus məmurları və ayrı-ayrı şəxslər terror qurbanı oldular: general Əlixanov (Əlixanov-Avarski), qubernator Nakaşidze (Bakı qubernatoru), Andreyev (Yelizavetpolun vitse-qubernatoru), polkovniklər Bıkov, Saxarov və başqa dövlət məmurları. Onların qismən nail olduqları ikinci məqsədləri ondan ibarət oldu ki, Zaqafqaziyada ermənilərlə müsəlmanların yaşadıqları ərazilər bir-birindən ayrıldı, Türkiyədən və qismən İrandan köçən ermənilərin məskunlaşdırılması üçün torpaqlar boşaldıldı. Son 5-6 ildə onların sayı yarım milyona çatmış, 200 min nəfər isə rus idarələrinin vəkaləti ilə təbəəlik əldə etmişdi. Yelizavetpol, İrəvan və Qars vilayətlərində ərazilərin qismən ayrılmasına nail olunmuş, torpaqların müəyyən hissəsi boşaldılmış, həmin ərazilərdən bir çox müsəlmanlar qaçaraq canlarını qurtarmışlar".

Əslində Rusiyanın hakim dairələri də 1905-1906-cı illərdə erməni-müsəlman iğtişaşlarından öz məqsədləri üçün istifadə etmişlər. Çar məmurları Qafqazda güclənən narazılıq dalğasının hökumət əleyhinə istiqamətlənəcəyindən ehtiyat edərək ermənilərin müsəlmanlar yaşayan ərazilərdə törətdikləri qırğınlara laqeydlik göstərmiş, bəzi hallarda isə hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə nail olmuşdular. Bu məqsədlə xüsusi xəfiyyə şəbəkəsinin qurulması haqqında Cahangir Zeynaloğlunun 1924-cü ildə İstanbulda dərc edilən "Müxtəsər Azərbaycan tarixi" kitabında (Bakı, 1992) belə bir məlumat var: "Yalnız azəri türkləri qəflətdə idilər və iğtişaşlarda çar tərəfini saxlayırdılar. Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq olundu və… iki milləti biri digərinə qırdırdı".

1905-ci il fevralın 6-da Bakıda bir nəfər azərbaycanlının erməni komitəsi tərəfindən öldürülməsi ilə başlanan qırğınlar bir çox müəlliflərin iddia etdikləri kimi təsadüf nəticəsində deyil, məhz bütün Qafqazın varlı ermənilərinin zaman-zaman cəm olunduqları bir şəhərdə planlı şəkildə baş vermişdi. Ermənilər Bakıda öz milyonerlərinin köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətlərini ələ keçirəcəklərinə və bundan sonra bütün Zaqafqaziyadan müsəlmanları silah gücünə qovub Ermənistan dövləti yaradacaqlarına əmin idilər. Lakin Bakıdakı qırğınlar zamanı tələfat min nəfərə çatsa da, ermənilərin niyyətləri baş tutmamış və onlar məğlub olmuşdular.

Mir Mövsüm Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" (Bakı, 1993) və Məmməd Səid Ordubadinin "Qanlı sənələr" (Bakı, 1991) əsərlərindən məlum olur ki, Naxçıvanda ermənilərin müsəlmanlara qarşı ilk həmlələri 1905-ci ilin mayında başlamış və qırğın fasilələrlə 1907-ci ilə qədər davam etmişdir. Həmin dövrdə ermənilər azərbaycanlıların yaşadıqları kəndlərə gedən yolları bağlamış, onların bir-biri ilə əlaqəsini kəsmiş, kəndlərin dörd bir tərəfinə çoxsaylı silahlı əsgərlər yerləşdirmişdilər. Şəhərdə söhbət gəzirdi ki, ermənilər cürbəcür odlu silahlarla azərbaycanlılara qəfildən hücum edəcəklər. Digər tərəfdən isə təxribatçılar şayiə yaymışdılar ki, "Qafqazda bizim əlimizin üstündə gərək əl olmasın". Bu fikirlərlə yerli camaatı çaşdıran erməni millətçiləri heç kəsdən qorxmayıb azərbaycanlılara hər cür əziyyət verməkdə idilər, hətta "Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri ilə əhatə olunduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər". M.S.Ordubadi "Qanlı sənələr" əsərində yazırdı ki, mayın 5-də saat 3 radələrində üç nəfər Cəhri kəndinin azərbaycanlı sakini erməni kəndi Şıxmahmuddan keçdikləri vaxt ağır yaralanır. Bu xəbər şəhər əhlində daha çox həyəcan yaradır və ermənilər həmin gündən dükanlarını bağlayıb kimisi kilsəyə, kimisi də evlərinə yığışır. Mayın 7-də Tumbul adlı erməni-müsəlman kəndində (bu kəndin iki hissəsi müsəlman, bir hissəsi erməni idi) bir azərbaycanlı öldürülür. Səhəri gün İrəvanın vitse-qubernatoru Baranovski İrəvandan şəhər qlavası Ağamalov, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana gəlirlər. Onların gəlişini eşidən camaat ermənilərin işlərindən şikayət etməyə başlayır. Lakin vitse-qubernator həmin şikayətləri cavabsız qoyur. Mayın 9-da Cəhri müsəlmanları yenidən qubernatorun hüzuruna gəlib qeyd edirlər ki, "bizim kəndin yolları hər tərəfdən erməninin əlindədir. Bu səbəbdən təvəqqe edirik, yolları hökumət mühafizəsinə alasınız". Lakin bu şikayətə də baxılmır, azərbaycanlılar məyusluq içərisində geri dönürlər. Bundan qəzəblənən ermənilər azərbaycanlıları cürbəcür söyüşlərlə təhqir etməyə başlayırlar. May ayının 9-da naxçıvanlı Əli Hacı Bayramzadə səhrada Əliabad adlı erməni kəndliləri tərəfindən gecə vaxtı yeddi güllə yarası ilə qətlə yetirilir. Ayın 11-də Kültəpə erməni kəndinin varlısı erməni fədailəri tərəfindən ailəsi ilə birlikdə öldürülür. Günah isə müsəlmanların üzərinə qoyulur. Lakin sonralar aparılan istintaqdan aydın olur ki, Xaçatur adlanan bu şəxs daşnakların tələb etdiyi vəsaiti vermədiyi üçün onlar tərəfindən cəzalandırılmışdır. Həmin gecə vitse-qubernator Baranovski yol ilə gedən bir ermənidən çoxlu bomba müsadirə edir. May ayının 11-də ermənilər bütün şəhəri atəşə tuturlar. Bu müdhiş gecədə iki saat yarım müddətində güllə səsindən, alov və tüstüdən başqa heç nə eşidilmir. Səhəri gün azərbaycanlılar vitse-qubernatora gecənin dəhşətli atışmasından şikayət edib əncam çəkməsini tələb edəndə o, laqeydcəsinə "əgər onlar sizə atəş açırsa, siz də tutub onların tapançalarını alın. Mən bilmərəm" deyib camaatı geri qaytarır. Mayın 12-də baş verən atışma nəticəsində məşhur erməni tacirləri Adamov şagirdləri, Xalatov uşaqları ilə və başqaları qətlə yetirilir. Adamovun dükanı od tutub yanır. Azərbaycanlılardan beş nəfər ölür və bir neçəsi yaralanır. Erməni dükanlarının əksəriyyəti, azərbaycanlılarınkından isə 10 dükan qarət olunur. Bu qırğın zamanı polis qulluqçusu, naçalnik Angel qətl-qarətlərə mane olmaq əvəzinə əksinə, talan vaxtı "tez olun, tez aparın" deyib camaatı daha da qızışdırırdı. Cəhri kəndindən başlayan qarışıqlıq, yanğın və talanlar həmin il noyabrın 26-na qədər davam edir. Bir faktı qeyd edək ki, qubernator bu hadisələrdən məlumatlıydı, amma heç bir tədbir görmək fikrində deyildi. Adətən gecə saat 12-dən sonra başlanan şiddətli atəş ermənilərin ipək zavodundan açılırdı. Bir sözlə, Naxçıvan camaatı zülm və əziyyət altında əzilir, hökumət isə bu işləri yoluna qoymaq istəmirdi. Noyabrın 26-da camaat yenidən bir-birinə dəyir, onlar tələm-tələsik dükanlarını bağlayıb evlərinə qaçırlar. Amma insanlar təlaşda olsalar da, nə baş verəcəyindən xəbərsiz idilər. Qəfildən xəbər yayılır ki, kazaklar sülh və asayişi təmin etmək üçün Çeşmə-Bazar

kəndinə gedərkən Hacı Nəsir Hacı Nağı oğlunun evini qarət etmiş, buna mane olmağa çalışan Hacının bir zavallı oğlu öldürülmüşdür. Ev sahibi də oğlunu qana bulaşmış görərkən çaşıb bir güllə kazaklara atmışdır. Elə buna görə də onun bütün ailəsi “biədəblər” tərəfindən qətlə yetirilmişdir. Bu xəbər Naxçıvanın yerli əhalisini son dərəcə qəzəbləndirir və pərişan edir. M.S.Ordubadi yazırdı ki, “zira, bu işlərin ümdə baniləri və başçıları polkovnik Krılov və naçalnik Angel idi”.

Noyabrın 26-sı gecəsi isə Naxçıvanda odlu-alovlu, müsibətli bir gecə olmuşdur. “Həmin gecə saat 7 radələrində dəhşətli sədalar eşidilirdi. Məlum olduğu kimi, həmin səs bazar qarovullarının səsi imiş. Hərdənbir beşatılan sədaları da eşidilirdi. Camaat evlərindən çıxıb bazara girmək istəsələr də, kazaklar hər tərəfdən atışma salıb mane olurdular. Xülasə, güllə səsi iki saat davam edib camaatı heyrət içində qoymuşdu… Bir azdan şəhəri tüstü bürüyüb, bazar tərəfdən qəmli bir işıq şəhəri ara-sıra işıqlandırdı. O vəziyyətdə bazar yanar dağ və vulkanlara bənzədi. Bir saatdan sonra məlum oldu ki, hərif kazaklar və ermənilər əlbir olub müsəlman bazarını tamam qarət edəndən sonra ora od vurmuşlar”. Camaatın illər boyu zəhmətlə qazandıqları var-dövlətləri bir neçə saatın içində yanıb kül olmuşdu. Bu yanğında 85 dolu dükan, 75 anbar və bir neçə boş dükan yandırılmışdı. 3 gün – noyabrın 27-dən 30-dək bazarda əsla yeməyə bir şey qalmamışdı. Camaat son dərəcə ehtiyac içində idi. Noyabrın 29-da gecə şəhərin ikinci hissəsində kazaklar müsəlman evlərini atəşə tutub qarət etmişdilər…

Cəhri kəndinin ermənilər və kazaklar tərəfindən yandırılması camaatın qəzəbinə və pərişanlığına səbəb olmuşdu. Elə həmin gün İrəvan qubernatoru Paskeviç Naxçıvana gəlir. Azərbaycanlılar yığışıb Cəhri faciəsini də ortaya qoyaraq dərdlərini ona deyib çarə istəyirlər. Qubernator isə tədbir görəcəyinə söz verir. Kənd tamamilə yanıb qurtardıqdan sonra o, Cəhriyə gedir. Dekabrın 2-də camaat kazakların geriyə dönmələrini tələb edir. Qubernator əhalinin bu şikayətinə də laqeydcəsinə “tədbir görəcəyik” deyib heç bir iş görmür və oradan uzaqlaşır.

Ümumiyyətlə, Naxçıvan hadisələri zamanı oradakı kəndlərdə 10 anbara, 150 dükana od vurulmuş, 350 günahsız müsəlman qətlə yetirilmiş, 250 nəfər isə yaralanmışdır (bax: Gürcüstan Respublikasının Dövlət Arxivi, fond 30/21, sax. Vahidi 21, qovluq 4, s.2). Mir Mövsüm Nəvvab “1905-1906-cı illərdə erməni-müsəlman davası” adlı əsərində İrəvan ermənilərinin cinayətkar məqsədlərinə qarşı Bakı hadisələrindən sonra Naxçıvanda xalqımızın qəhrəmancasına müqavimətini çox təsirli şəkildə ifadə edib. Müəllif yazır: “Elə ki İrəvanın fitnə-fəsad törədən erməniləri yenidən Naxçıvana gəldilər, orada vəziyyət gərginləşdi. Naxçıvan erməniləri neçə illərdən bəri tədarük etdikləri döyüş sursatlarını – topları, bombaları, beşaçılan tüfəngləri və s. onların ixtiyarına verməyə başladılar. Hərbi sursatları keçidlərdə və gizli mövqelərdə yerləşdirdikdən sonra növbəti qırğın üçün hazırlamağa başladılar. Dükan-bazarı bağlayıb bütün icma ilə qalxıb mövqelərdə yerləşdirdikləri silahlardan müsəlmanlara atəş açdılar…

Hadisələrdən xəbərsiz biçarə müsəlmanlar çaş-baş qalıb bilmədilər ki, nə etsinlər. Hamı dükan-bazarını bağlayıb qaçdılar evə. Yarım saatdan sonra tüfəngi olan tüfəngini, tapançası olan tapançasını, olmayanlar isə xəncər, külüng, balta, dəhrə və ağac götürüb ermənilərin müqabilinə gəldilər və onlarla davaya başladılar. Silahsız müsəlmanlar münasib fürsətdən istifadə edərək qəflətən erməni silahlılarının üzərinə hücum edib… tüfəng və patronlarını əllərindən alıb üz qoydular davaya… Hər iki tərəfdən ölənlər oldu. Hər tərəfdə ermənilər böyük tələfata məruz qaldılar və vahiməyə düşən ermənilər üz qoydular qaçmağa… Şəhər erməniləri məğlub olandan sonra müsəlmanlar erməni kəndlərinə yollandılar. Böyük Badamlı kəndinin erməniləri – ahıl, qoca bütün külfətləri ilə müsəlmanların qabağına çıxdılar. Tam ehtiramla müsəlmanlığı qəbul etdiklərini bildirdilər”.

İrəvan hadisələri barədə irəvanlı Mirabbas Mirbağırzadənin topladığı materiallar əsasında məlumat verən M.S.Ordubadi qeyd edirdi ki, Bakı faciələrinə münasibət ilk olaraq İrəvan quberniyasının Naxçıvan qəzasında bildirilmişdir: “Naxçıvanda müsəlmanlar say və nüfuzca ermənilərdən üstün olduqlarından qabaqca müharbə tələb etmiş ermənilər, nəhayət, büsbütün məğlub olaraq milli səhifələrinə qara bir xətt çəkdirdilər… Naxçıvanda olan erməni məğlubiyyəti İrəvan ermənilərini acıqlandırıb son dərəcə qəzəbləndirmişdi”.

Naxçıvan hadisələrindən sonra İrəvanda müsəlmanlara qarşı alçaq hərəkətlər gündən-günə çoxalırdı. Bu şəhərdə 10 min müsəlman olsa da, çox narahat idilər. Ermənilərə gəldikdə, Naxçıvan hadisələrinin intiqamını almaq üçün bəhanə axtarırdılar (A.Paşayev. “1905-1907-ci illərdə Azərbaycan xalqına qarşı erməni vəhşilikləri”, Bakı, 2006).

Bundan sonra ermənilər İrəvan quberniyasında, daha sonra Eçmiədzində, Gəncədə, Qarabağda, Zəngəzurda, Qazax uyezdində faciəli hadisələr, iğtişaşlar törətdilər. Qırğınlar zamanı nə qədər insanın həyatına son qoyuldu. Ermənilərin məqsədi ilk növbədə İrəvan və onun ətraf kəndlərini müsəlmanlardan təmizləmək, sonra isə M.S.Ordubadinin təbirincə, “İrəvandan Naxçıvana qədər yol üstə yerləşən müsəlman kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunda olan köyləri dağıdıb, Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvəni bitişdirmək kimi alçaq xəyallar”dan ibarət idi.

Mayın 23-də ermənilərin Qaraçay bağçasında müsəlman gənclərə hücumu ilə İrəvanda qırğınlar başlanır.

**İradə ƏLİYEVA.**

**“Azərbaycan”.-**2013.-29 mart.-N 64.-S.7.

**İrəvan quberniyasında erməni amansızlığı**

Birinci Dünya müharibəsinin çar Rusiyası üçün ağır siyasi nəticələri ermənilərin iddia etdikləri "Türkiyə Ermənistanı" planlarını puça çıxardı. 1917-ci il Oktyabr çevrilişindən sonra Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər 1918-ci il martın 3-də Brest-Litovsk müqaviləsilə Osmanlı dövlətinin 1877-1878-ci illərə qədərki sərhədlərini tanıyaraq, əslində, "Türkiyə Ermənistanı" haqqında 29 dekabr 1917-ci ildə elan olunmuş dekretdən imtina etdiklərini bildirdilər. Bundan sonra erməni millətçiləri öz dövlətlərini məhz Qafqazda yaradılmasını çinayət fəaliyyətlərinin əsas məqsədi kimi seçdilər. Təbii ki, həmin dövlətin yaradılması qonşu ölkələrin torpaqları (Azərbaycan və Gürcüstan əraziləri) hesabına təmin olunmalı idi.

Ermənilərə bu niyyətlərinin həyata keçirilməsinə bir sıra amillər şərait yaradırdı. İlk növbədə, Birinci Dünya müharibəsi dövründə rus ordusu ilə paralel olaraq, onun tərkibində Osmanlı dövlətinə qarşı vuruşan könüllü erməni silahlı dəstələrinin cəhbədən qayıdaraq Cənubi Qafqazda cəmləşməsi, gələcək hərbi qarşıdurmalar baxımından ermənilərə çox böyük üstünlüklər verdi. İkincisi, 1917-ci il fevral inqilabından sonra erməni siyasi təşkilatları açıq fəaliyyətə keçdilər və onların nümayəndələri Cənubi Qafqazın bütün seçkili orqanlarında təmsil olundular (azərbaycanlılarla və gürcülərlə yanaşı). 1917-ci il Oktyabr çevrilişindən sonra Cənubi Qafqazda ali hakimiyyəti təcəssüm edən Zakafqazya Seyminin tam hüquqlu üzvləri kimi ermənilər Osmanlı dövləti ilə sülh danışıqlarında (1918-ci ilin mart-may aylarında Trabzon və Batumda-İ.N.) iştirak etdilər. 1915-1916-ci illərdə erməni silahlı dəstələrinin Şərqi Anadoluda dinc türk-müsəlman əhalisinə qarşı törədikləri soyqırımına cavab olaraq Osmanlı hökümətinin gördüyü tədbirlər nəticəsində böyük sayda erməni Qafqaza köçdü. Sonralar Ararat Respublikasının ilk baş naziri və "Daşnaksütyun" partiyasının liderlərindən biri olan Hovanes Kaçaznuninin yazdığı kimi, onlar "on və yüz minlərlə Rusiya ermənilərinin qəzalarına dolmuşdular". Həmin nəhəng axının harada gəldi yox, məhz İrəvan quberniyasının ərazisində yerləşdirilməsi nəticəsində bu yerlərdəki erməni əhalisi qısa müddətdə dəfələrlə artdı. Bu proses erməni qaçqınları ilə birgə Qafqaz cəhbəsindən qayıdan erməni silahlı dəstələri tərəfindən yerli müsəlman əhalisinin zorla öz torpaqlarından qovulması ilə müşahidə olunurdu (1917-ci il Qafqaz təqviminin məlumatına görə İrəvan quberniyasında azərbaycanlıların sayı 373582 nəfər idi). Beləliklə, ermənilər Cənubi Qafqazda gələcək dövlətləri üçün ərazilərin təmizlənməsinə başladılar. Belə ki, "1918-ci ilin mart ayına qədər İrəvan quberniyasının qarət olunmuş və tərk edilmiş müsəlman kəndlərinin siyahısı" adlı sənəddə göstərilir ki, İrəvan, Sürməli, Üçmiədzin, Yeni Bəyazid qəzalarında ermənilər tərəfindən dağıdılan və məhv edilən müsəlman kəndlərinin ümumi sayı 199 təşkil edir. Ümumlikdə, 1918-ci ilin yanvarından may ayına kimi, yəni, türk qoşunları İrəvan quberniyasına daxil olana qədər, burada ermənilər tərəfindən 300-dən çox müsəlman kəndi dağıdılmış, onların əhalisi isə qətllərə və zorakılıqlara məruz qalmışdı.

1918-ci ilin mayında keçmiş İrəvan quberniyasının ərazisində Ararat Respublikasının yaradılması hadisəsini onun ilk baş naziri H.Kaçaznuni belə qiymətləndirirdi: "Biz Ermənistanın sahibləri olmalı idik. Əks halda, onu birdəfəlik itirə bilərdik". Müstəqilliyi elan olunmuş Ararat Respublikasının nə ərazisi, nə də paytaxtı vardı. 29 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti İrəvan şəhərini Ararat Respublikasına güzəştə getdi. 1918-ci ilin iyunun 4-də Batumda Osmanlı dövləti ilə Ararat Respublikası arasında bağlanmış müqaviləyə əsasən, sonuncunun ərazisi cəmi 10 min kvadratkilometr müəyyən edildi. Bu, İrəvan quberniyası ərazisinin təxminən üçdə bir hissəsini təşkil edirdi (1917-ci il Qafqaz təqviminin məlumatına görə İrəvan quberniyasının ümumi sahəsi 23194,79 verst olub). Müqavilənin VI bəndinə əsasən, Ermənistan hököməti öz ərazisində yaşayan müsəlman əhalisinin təhlükəsizliyini, azad inkişafını, ana dilində təhsil almaq, dini ayinlərin sərbəst icrasına şərait yaratmaq haqqında öhdəliklər götürürdü. Lakin sonrakı hadisələr onu göstərdi ki, müstəqil erməni dövlətinin elan olunmasından sonra hakimiyyətə gələn "Daşnaksütyun" partiyası keçmiş İrəvan quberniyasının ərazisində yaşayan müsəlman əhalisinə qarşı soyqırımı siyasətini dövlət səviyyəsində həyata keçirdi. Bu cinayətlərin sarsıdıcı mənzərəsini yaradan onlarla teleqram, məktub və digər sənədlər bu gün Azərbaycan Respublikasının arxivlərində saxlanılır. Bu sənədlərin toplanmasında və dünya ictimayyətinə çatdırılmasında ilk tədbirlər hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə görülmüşdü. Minlərlə həmvətənimizin soyqırımını qarşısına məqsəd qoymuş ermənilərdən çəkdiyi qeyri-insani zülmü təsvir edən bu sənədləri həyəcansız oxumaq mümkün deyildir. Onların arxasında nə qədər müsibət, dəhşət, ölüm dayandığını təsəvvürə gətirmək qeyri-mümkündür.

Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi tərəfindən 1919-cı ilin iyunun 10-da Ermənistandakı diplomatik nümayəndəliyin M.X.Təkinskiyə göndərilmiş şifrəli teleqramda təlimat verilirdi ki, İrəvan quberniyasında dağıdılan kəndlərin nümayəndələrinin köməyi ilə müsəlmanların əhali itkisi, mülkiyyətinə dəyən ziyan, adı və soyadı, yaşı və yaşayış yeri, cinsi göstərilməklə öldürülən şəxslər, əsir götürülmüş adamlar haqqında məxfi şəkildə statistik məlumatlar toplayıb Xarici İşlər Nazirliyinə göndərsin.

Verilmiş təlimata uyğun olaraq, M.X.Təkinskinin yardımı ilə İrəvan müsəlman milli şurası təcili şəkildə İrəvan quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında Avropanın böyük dövlətləri və Amerika üçün məlumat hazırladı və Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdi. Məlumatda deyilirdi: "Silahlı və qarətçi erməni dəstələri şəhərlərdə, qəzalarda və kəndlərdə, hətta Ermənistan dövlətinin paytaxtı İrəvanda da ac qurdlar kimi müsəlmanlara hücum çəkirlər, hər gün gecə vaxtı üç-dörd müsəlman kəndi basqınlara, qarətlərə və qətllərə məruz qalır. Bu nəhayətsiz zorakılıq şəraitində yaşaya bilməyən müsəlmanlar hər gün öz əmlaklarını atıb, abad yurd-yuvalarını tərk edirlər; hara baxırsan, minlərlə yetim və dul qadını, müflisləşmiş və köməksiz kişiləri görürsən. Minlərlə müsəlman kəndlisini hökumət öz doğma kəndlərinə buraxmır, hüquqsuz və ev-eşiksiz, ac-yalavac və çıl-çılpaq insanlar miskin həyat sürür, xəstəliklərə tutulur, köməksiz və himayəsiz küçələrdə ölür, məhv olurlar. Əgər belə vəziyyət yenə davam edərsə, Ermənistanda yaşayan müsəlmanlar labüd məhvə məhkumdurlar".

Bu cür faktlar o dövrün digər sənədlərində də öz əksini tapmışdır. Belə ki, İrəvan şəhəri (1917-ci il Qafqaz təqviminin məlumatına görə İrəvanda 12557 nəfər azərbaycanlı yaşayırdı) paytaxt kimi ermənilərə veriləndən dərhal sonra ermənilər şəhərin azərbaycanlı əhalisinə qarşı müntəzəm terrora əl atdılar. İrəvanda müsəlman əhalisinə qarşı zorakılıqların şahidlərindən biri 1919-cı ildə yazırdı: "İrəvandakı müsəlman bazarı tamamilə yandırıldı, mallar qarət olundu. Az-çox salamat qalmış dükanları hissə-hissə talayırdılar... Ermənilər tərəfindən tutulmuş evlərin başına da bu oyunlar açılır... Yüzlərlə belə ev saymaq olardı. Müsəlmanların meyvə bağları, üzümlükləri və bağçaları vəhşicəsinə məhv edilirdi. Müsəlmanlar o qədər müdafiəsiz idilər ki, günün günorta çağı, daha gecələri demirəm, hətta şəhərin müsəlmanlar yaşayan hissəsində onların pal-paltarlarını, əgər bir işə yarayırsa, soyundurub əllərindən alırlar. Müsəlmanların pulunu və qiymətli zinət əşyalarınıE əllərindən alırlar... Etiraz etdikləri halda, yerindəcə güllələnirlər. Onların şəxsi evləri də qarətdən və zorakılıqdan qurtula bilmir, təpədən dırnağa kimi silahlanmış erməni gəncləri "artıq" əşyaları talayıb aparırlar. Gün batmamış müsəlmanlar evlərinə tələsir, qapı və pəncərələrini tamamilə bağlayırlar... İrəvan müsəlmanlarının keçirdikləri məhrumiyyətləri, əzabları və işgəncələri qələmə almaq mümkün deyildir. Çoxları dözmür, başlarına hava gəlir, vaxtından qabaq qocalırlar. Bütün bunlar indinin özündə də Ermənistanın paytaxtı İrəvanda baş verməkdədir".

Yeni Bəyazid qəzasının Göyçə rayonunun 5-ci sahəsinin səlahiyyətli nümayəndəsi İsmayıl Sultanovun 1919-ci ildə Gəncə qəza rəisinin adına daxil olmuş məlumatında deyilirdi: "Ararat Respublikası qoşunlarının Yeni Bəyazid qəzasının Göyçə rayonunun dinc müsəlman kəndləri üzərinə hücumları başlamışdır. Hal-hazırda 60 min əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış və boşaldılmışdır. Ermənilərin və erməni hökumətinin keçmiş qonşularına və müsəlman təbəələrinə qarşı törətdikləri qeyri-insani qanlı əməlləri görəndə insanı dəhşət bürüyür. Ermənilər xahişlərə, yalvarışlara və müsəlman əhalisinin ah-vaylarına məhəl qoymurlar. Erməni döyüşçüləri əllərinə düşmüş müsəlmanları sağ buraxmırlar, əksinə, görünməmiş işgəncələr verir, qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər. Yalnız az sayda qadın və yeniyetmə qızlar müstəsnalıq təşkil edir... Sağ qalan qaçqınlar qoşun tərəfindən təqib olunur... dərələrdə və qarlı zirvələrdə gizlənir... qar içində batır və kütləvi surətdə qırılırlar. Ararat Respublikası vəzifəsini başa vurmuşdur. Göyçə rayonunda daha müsəlmanlar qalmayıb. Bu günə kimi Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi məhv edilmişdir".

Azərbaycan Xarici İşlər Nazirliyinin müttəfiq dövlətlərin Cənubi Qafqazdakı ali komissarına göndərdiyi məktubdan görünür ki, 1919-cu ilin avqust-sentyabrında erməni qoşunları tərəfindən Üçmiədzin, Sürməli, İrəvan, Yeni Bəyazid qəzalarındakı azərbaycanlı kəndləri yenidən dağıdılmışdı. Üçmiədzin qəzasında bir kənd belə salamat qalmamışdı. "Dağıntıda qoşun hissələri ilə birlikdə yerli erməni əhalisi də iştirak edirdi. Qarabağ erməniləri isə xüsusi amansızlıq nümayiş etdirirdilər. Həmişəki kimi, qaçanlar istisna olmaqla, kişilər, əsasən, küt alətlərlə öldürülmüş, qadınlar isə zorlanmış və əsir götürülmüşdür". Erməni qoşunlarının komandanı general Dro öz qoşunlarının bu hərəkətlərini "arxa cəbhənin təmizlənməsinin" zəruriliyi və "strateji şəraitlə" izah edirdi. AXC Daxili İşlər Nazirliyinin fondunda saxlanılan xüsusi siyahı-sənəddə təkcə 1919-cu ilin iki ayı ərzində ermənilər tərəfindən Üçmiədzin qəzasında 62, Sürməli qəzasında isə 34 müsəlman kəndinin məhv edildiyi göstərilir. İrəvan qəzası haqqında sənəddə bircə sətir yazılıb: "Zəngibasar kəndlərindən başqa, qalan bütün yaşayış məntəqələri məhv edilmişdir". Məlumata görə, təkcə Yeni Bəyazid, Üçmiədzin və İrəvan qəzaları üzrə 1919-cu ilin sonunda qaçqınların sayı 200 min nəfərə çatmışdı.

Bu cinayətlər o qədər kütləvi hal almışdı ki, hətta ermənilərin içərisində müəyyən dairələr bu faciəli hadisələrə etiraz etməli olmuşdular. Ermənistan parlamentinin eser fraksiyası Daxili İşlər Nazirliyinə ünvanladığı sorğuda bildirilirdi ki, "...son üç həftə ərzində İrəvan, Üçmiədzin və Sürməli qəzalarının bir sıra tatar (azərbaycanlı - İ.N.) kəndləri... qarət və qətllərə məruz qalaraq, tatar (azərbaycanlı - İ.N.) əhalisindən "təmizlənir". Yerli hakimiyyət, nəinki buna maneçilik törətmir, hətta özü baş verən qarət və talanlarda iştirak edir..."

Sovet İttifaqının həm siyasi, həm fiziki mənada ən uzunömürlü kommunist liderlərindən olan A.Mikoyanın bu məsələdə mövqeyi xüsusi marağ doğurur. O, yazırdı: "Erməni şovinistləri... Qara dənizdən Aralıq dənizinə qədər tarixi hüdudlarda "Böyük Ermənistan" yaratmaq kimi cinayətkar ideyanın şirin xülyasına

ümüd bəsləyirlər. Müstəsna qaydada müsəlmanlardan ibarət olan bu ərazidə ermənilərin olmaması onları narahat etmir. "Böyük Ermənistan" ideyasının əhalinin çoxluğuna deyil, onun iradəsinə deyil, imperialist silahına arxalanması Ermənistanı "yadellilərdən", "cinayətkar ünsürlərdən", müsəlmanlardan təmizləmək yolu ilə qurulması təlqin edilir".

Lakin dinc əhaliyə qarşı törədilən vəhşiliklərə və görünməmiş zorakılıq aktlarına Ararat Respublikasının baş naziri H.Kaçaznuni belə izahat verirdi: "Yerli müsəlman əhalisi ilə ölkənin daxilində - Ağbabada, Zodda, Zəngibasarda, Vedibasarda, Şərur-Naxçıvanda, Zəngəzurda və digər ərazilərdə bir sıra qanlı döyüşlər olmuşdur. Müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilməməyimizdən, silaha əl atmalı, qoşun çıxarmalı, dağıntılar və qırğınlar törətməli olduq..."

1918-1920-ci illərdə Ararat Respublikasında hakimiyyətdə olmuş daşnakların azərbaycanlılara münasibətdə həyata keçirdikləri soyqırımı siyasəti əyani şəkildə göstərdi ki, özlərinin "mədəniyyəti" ilə öyünən ermənilər, əslində, müstəqil dövləti və başqa xalqları idarə etmək üçün yetişməmişdilər. Bu barədə ABŞ-ın Osmanlı dövlətində ilk səfiri Mark L.Bristol birmənalı demişdir: "Son iki il ərzində (1919-20-ci illər - B.N.) ermənilər Rusiya Qafqazında özlərini idarə etməyə, hakimiyyətləri altında olan milli azlıqlarla davranmağa tamamilə qadir olmadıqlarını nümayiş etdirdilər". Ermənilərin qiymətləndirilməsində Bristolun fikirləri onunla yazışan ABŞ-ın ictimai xadimi Ceyms A.Bartonun fikri ilə üst-üstə düşür: "Mən onun tərəfdarı deyiləm ki, tabeliyində olan millətlərə münasibətdə erməni amansızlığının qarşısını ala biləcək məhdudlaşdırıcı amil olmadan ermənilərə hakimiyyət verilsin". Daşnak partiyasının ikiillik hakimiyyətini qiymətləndirən erməni müəllifi B.Boryan qeyd edirdi ki, erməni siyasi xadimləri dövlət hakimiyyətini ölkəni idarə etmək üçün deyil, müsəlman əhalisini qırmaq və onun əmlakını talamaq üçün qurmuşdular.

1918-1920-ci illərdə olduğu kimi, son iki onillikdə məruz qaldığımız Ermənistanın təcavüzü bizə belə nəticəyə gəlməyə imkan verir ki qarşımızdakı düşmən hiyləgər, amansız və öz məqsədlərinə nail olmaqdan ötrü ən alçaq vasitələrə əl atmağa həmişə hazırdır. Bu düşmən Azərbaycan torpaqlarını işğal altında saxlayır və on minlərlə soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətində yaşamağa məcbur edib. Ümummilli lider Heydər Əliyev 1998-ci il 26 mart tarixli fərmanında 1918-1920-ci illərin qanlı hadisələrinə siyasi-hüquqi qiymət verərək, ermənilərin xalqımıza qarşı apardıqları soyqırımı və deportasiya siyasətlərini heç vaxt yaddan çıxarmamağa, tarixçilərimizi təkrar-təkrar bu məsələlərin üzərinə yenidən qayıtmağa çağırırdı. Bununla bağlı ulu öndər Heydər Əliyevin 1999-cu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında dedikləri sözlər xüsusi əhəmiyyət kəsb edir: "İndi Ermənistan yerləşən ərazi də Azərbaycan torpağıdır. Siz tarixçilər bunları ardıcıl surətdə sübut etməlisiniz. Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indiki Ermənistan yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daimi ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün bir yol açmalıyıq".

**İlqar NİFTƏLİYEV,**
**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktroru**

**“Azərbaycan” qəzeti, 30 mart 2013-cü il**

**Nyu-Cersi ştatının Assambleyası azərbaycanlıların soyqırımını tanımışdır**

ABŞ-ın Nyu-Cersi ştatının Assambleyası martın 31-ni Azərbaycanlıların soyqırımı qurbanlarının xatirə günü kimi tanıyan qətnamə qəbul etmişdir.

Sənəddə deyilir ki, silahlı erməni daşnak-bolşevik dəstələri 1918-ci ilin martında Bakı, Quba və Şamaxıda, habelə Bakı quberniyasının digər yaşayış məntəqələrində dinc azərbaycanlılara divan tutmuşdur. Təkcə Bakı şəhərində 12 mindən çox azərbaycanlı qətlə yetirilmişdi.

Assambleyanın sədri Şeyla Oliver tərəfindən imzalanmış qətnamə Amerika Azərbaycan Cəmiyyətinin sədri Tomris Azəriyə təqdim edilmişdir.

Qətnamədə deyilir ki, 1918-ci ilin mart hadisələri zamanı 20 mindən çox azərbaycanlı qətlə yetirilmişdir. Azərbaycanlıların soyqırımını "dünya tarixində ən çox qınanan qanlı azğınlıqlardan biri" adlandıran Nyu-Cersi parlamentinin deputatları Azərbaycanın şəhər və kəndlərində misli görünməmiş vəhşiliklər törətmiş silahlı daşnak-bolşevik dəstələrinin hərəkətlərini pisləmişlər.

**AzərTAc**
**Vaşinqton**
**2013-03-26**

**ABŞ-ın Ayova ştatında azərbaycanlıların soyqırımının tanınması üzrə proklamasiya qəbul edilmişdir**

Martın 31-də ABŞ-ın Ayova ştatının qanunvericiləri, Nümayəndələr Palatasının üzvü Devid Ceykobi və Demokratlar Partiyasından senator Robert Dvorski dünya tarixində azərbaycanlıların qətliamı kimi məşhur olan "Soyqırımı"nın tanınması üzrə sertifikat vermişlər. Qanunvericilərin azərbaycanlıların

Vaşinqton, 4 aprel (AzərTAc). Martın 31-də ABŞ-ın Ayova ştatının qanunvericiləri, Nümayəndələr Palatasının üzvü Devid Ceykobi və Demokratlar Partiyasından senator Robert Dvorski dünya tarixində azərbaycanlıların qətliamı kimi məşhur olan "Soyqırımı"nın tanınması üzrə sertifikat vermişlər. Qanunvericilərin azərbaycanlıların soyqırımını qeyd edən proklamasiyası Azərbaycan Amerika Şurasının (AAŞ) Ayova ştatındakı nümayəndəsinə, doktor Aqşin Tağıyevə təqdim edilmişdir. Xatırladaq ki, 1918-ci il martın 30-dan aprelin 3-dək cəmi bir neçə gün ərzində erməni daşnakları bolşeviklərin köməyi ilə Bakı şəhərində və onun ətraflarında, habelə Azərbaycanın digər bölgələrində Azərbaycan əhalisinə və digər müsəlman etnik azlıqlarının nümayəndələrinə qarşı qətliam törətmişlər. Akademik dairələrdə "Mart günləri" kimi tanınan həmin hadisələr erməni millətçiləri tərəfindən Şərqi Anadoluda və Qafqazda monoetnik erməni dövləti yaratmaq üçün məqsədyönlü şəkildə aparılmışdır. Bunun nəticəsində XX əsrin əvvəllərində minlərlə azərbaycanlı, türk, kürd və digər müsəlmanlar qətlə yetirilmişdir.

***2013-03-31***
***Yusif Babanlı***
***AzərTAc, Vaşinqton***

**Ermənilərin 1905-1906-cı illərdə Zəngəzur qəzasında törətdikləri qırğınlar**

***XX əsrdə ermənilər tərəfindən azərbaycanlılara qarşı dəfələrlə kütləvi qırğınlar, soyqırımlar və deportasiyalar həyata keçirilmişdir. Erməni silahlı dəstələri ilk dəfə ötən əsrin əvvəllərində silah gücünə müəyyən ərazilərdən azərbaycanlıların etnik təmizlənməsinə nail olmuşlar. Xalqımızın başına gətirilən bütün soyqırımı faciələrinə 1998-ci ildə hüquqi-siyasi qiymət verilmişdir. Prezident Kitabxanasının şöbə müdiri, AMEA Tarix İnstitutunun əməkdaşı, Dövlət Mükafatı laureatı Nazim Mustafanın xalqımızın başına gətirilən faciələr silsiləsinin bir mərhələsi olan 1905-1906-cı illərdə Zəngəzur qəzasında törədilən qırğınlar haqqında məqaləsini oxuculara təqdim edirik.***

Zəngəzur qəzasının ərazisi 7,827 kv. km olmaqla, Yelizavetpol quberniyasının ərazicə ən böyük qəzalarından biri idi. Bu qəza İrəvan quberniyasının Şərur-Dərələyəz və Naxçıvan, Yelizavetpol quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl qəzalarının əhatəsində, Araz çayı ilə İranla həmsərhəd idi. Qəzada mövcud olan 406 kənddən 314-də müsəlmanlar, 92-də isə ermənilər yaşayırdılar. 1897-ci il siyahıyaalmanın nəticələrinə görə, qəzanın 138 min nəfər əhalisindən 71 min nəfərini türklər, 1807 nəfərini kürdlər, 62540 nəfərini ermənilər, min nəfərini isə qeyri millətlərin nümayəndələri təşkil edirdi. Qəza o dövrün inzibati bölgüsünə görə 5 polis sahəsinə bölünmüşdü.

Erməni siyasi partiyalarının və onların silahlı dəstələrinin Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında törətdikləri kütləvi qırğınlar, çoxsaylı terror aksiyaları barədə o dövrün arxiv sənədləri və dövri mətbuat materialları arasında kifayət qədər məlumatlar öz əksini tapmışdır. Azərbaycan Respublikası Tarix Arxivində saxlanılan 46, 62, 183, 484 sayli fondların sənədləri içərisində həm erməni siyasi partiyalarının əsl mahiyyətini açan, həm də ermənilərin törətdikləri qırğınların miqyasını göstərən və hələ də elmi araşdırmalar dövriyyəsinə cəlb edilməyən xeyli miqdarda sənədlər mövcuddur. Həmin dövrdə nəşr edilən qəzetlərdə, xüsusən də Bakıda rus dilində nəşr edilən “Kaspi” qəzetində hadisələri xronoloji ardıcıllıqla əks etdirən məqalələr dərc edilmişdir. “Kaspi” qəzetində, həmçinin 1905-1906-cı illər qırğınlarına aid digər dövri nəşrlərdə, xüsusən də “Novoeobozrenie”, “Tiflisskiylistok”, “Sankt-Peterburqskienovosti” qəzetlərində, habelə ermənicə nəşr edilən qəzetlərdə dərc edilən məqalələri buna misal göstərmək olar. Zəngəzurda baş verən qırğınlar müəyyən dərəcədə Mir Möhsün Nəvvabın “1905-1906-cı illərdə erməni-müsəlman davası” adı ilə çap edilən (Bakı, 1993) əsərində Zəngəzur qəzasının Sisyan və Vağudi kəndlərində ermənilərin törətdikləri qırğınlar və müsəlmanların ələ aldıqları əks tədbirlər haqqında yığcam olsa da məlumat verilmişdir. M.S.Ordubadinin “Qanlı illər” (Bakı,1911) əsəri Azərbaycan dilində 1905-1906-cı illər qırğınlarına həsr olunmuş ən sanballı əsər olsa da, yalnız Zəngəzur qəzasının Oxçu dərəsində və Qatar mis mədənlərində 1906-cı ilin iyulundan sonra baş verən qırğınlar öz əksini tapmışdır. Halbuki ermənilər 1905-ci ilin may ayından etibarən fasilələrlə Zəngəzurda terror və qırğınlar törətmişlər.

1905-1906-cı illərdə törədilmiş qırğınlara aid erməni müəlliflərinin bir neçə əsəri mövcuddur. Əsl adı Hovannes Ter-Martirosyan olan, lakin əsərlərini A-do imzası ilə çap etdirən müəllifin “Qafqazda erməni-türk toqquşmaları (sənədli, statistik, topoqrafik izahlarla” (İrəvan, 1907, ermənicə) əsərində Gəncə quberniyasının səkkiz qəzasından heç birində qırğınların və dağıntıların Zəngəzurda olduğu kimi böyük miqyasda və uzun sürən olmadığı xüsusilə vurğulanır. A-donun bu əsərinin üstün cəhəti odur ki, o, baş verən hadisələrin şərhindən öncə hər bir qəza və yaxud şəhər haqqında topoqrafik təsvir və 1897-ci il ümumrusiya siyahıyaalmalarının nəticələrinə istinadən statistik məlumatlar verir.

Digər erməni müəllifləri S. Zavaryanın “Qarabağın iqtisadi şəraiti və 1905-1906-cı illər aclığı” (Sankt-Peterburq, 1907, rus dilində), İ. Alibekovun “Yelizavetpolun qanlı günləri cəmiyyətin mühakiməsi qarşısında” (Tiflis, 1907, rus dilində) əsərlərində 1905-1906-cı illər qırğınlarının əsl mahiyyəti təhrif edilsə də, bu əsərlər faktoloji baxımdan tədqiqatçılara xeyli material verir.

İndi isə qırğınların törədilməsindən öncə mövcud olan vəziyyətə nəzər salaq. XIX əsrin sonlarında formalaşan “Armenakan”, “Daşnaksutyun” və “Hnçak” erməni siyasi-terrorçu partiyaları öz məqsədlərinə nail olmaq üçün əvvəlcə Türkiyənin Şərqi Anadolu vilayətlərində, sonra isə Cənubi Qafqazda kütləvi qırğınlar törətmiş və terror aksiyaları həyata keçirmişlər. 1895-1896-cı illərdə Şərqi Anadoluda xarici qüvvələrin təhriki ilə baş qaldıran erməni üsyanları yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçılarının və icraçılarının əksəriyyəti Cənubi Qafqazda, əsasən də İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarında yerləşmişdilər. Rus müəllifi N.Şavrovun yazdığına görə, 1896-cı ildə Cənubi Qafqazda 900 min erməni yaşamışdısa, 1908-ci ildə 1,3 milyon ermənin yaşadığı qeydə alınmışdı. Deməli, təkcə bu dövrdə kənardan Cənubi Qafqaza 400 min erməni gəlib yerləşmişdi.

Bununla belə, XX əsrin əvvəllərində İrəvan quberniyasının 7 qəzasından 4-də, Yelizavetpol quberniyasının 8 qəzasının hamısında azərbaycanlılar çoxluq təşkil edirdilər. Hər iki quberniyada torpaqların böyük bir qismi azərbaycanlı mülkədarların və kəndlilərin əlində cəmləşmişdi. Erməni siyasi partiyaları öz nizamnamələrində nəzərdə tutulduğu kimi, məqsədlərinə çatmaq-yəni sənaye müəssisələrini və torpaqları ələ keçirmək üçün ciddi hazırlıq işləri görmüşdülər. 1905-ci ildə Rusiyada baş qaldıran inqilabi hərəkat və kütləvi iğtişaşlar ermənilərə fürsət vermişdi ki, öz niyyətlərini həyata keçirsinlər. Ermənilərin başlıca məqsədləri isə Bakıda və Cənubi Qafqazın digər şəhərlərində sənaye müəssisələrini, İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarında isə silah gücünə etnik təmizləmə həyata keçirməklə yeni-yeni torpaqlar ələ keçirməkdən ibarət idi.

Cənubi Qafqazda başlıca olaraq "Daşnaksutyun" və "Hnçak" partiyaları öz yerli təşkilatlarını yaratmış və nüfuz dairələrini genişləndirmək uğrunda bir-biriləri ilə mübarizə aparırdılar. Erməni terrorçu siyasi partiyalarının əsas məqsədlərini M.S.Ordubadi "Qanlı illər" (Bakı,1991) əsərində kifayət qədər dəqiqliklə ifadə etmişdir: "İrəvandan Naxçıvana qədər yol üstündə yerləşən islam kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır olan əsgəri qüvvələrlə birləşdirmək Naxçıvandan Zəngəzura kimi yol boyunda olan köyləri dağıdıb Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvələri birləşdirmək kimi alçaq xəyallardan ibarət idi".

XIX əsrin sonlarından etibarən Zəngəzurda "Hnçak" və "Daşnaksutyun" partiyalarının özəkləri fəaliyyətə başlamışdı. Arxiv sənədləri göstərir ki, erməni təşkilatları hələ 1904-cü ildə Zəngəzurun erməni əhalisi arasında milli zəmində qarşıdurma yaratmaq istiqamətində təbliğat işini gücləndirmişlər. Bu məqsədə xidmət etmək üçün orada "Hnçak" və "Daşnaksutyun" partiyalarının şöbələrini yaratmış, əhalini silahlandırmış, alınan silahların bir hissəsi gizli yolla Bakıya göndərilmişdi. Zəngəzur sahə prokurorunun müavini İv. Yakubovski Yelizavetpol dairə məhkəməsi prokuroruna 4 iyun 1905-ci ildə göndərdiyi təqdimatında yazırdı ki, 1905-ci il mayın 31-də Xınzirək məktəbinin nəzarətçisi Nazaret Şirakuni dindirilərkən ifadəsində göstərmişdir ki, kənddə "Hnçak" və "Daşnaksutyun" partiyaları fəaliyyət göstərir. Şirakuni Xınzirək komitəsinin keşiş Ter-David Ter-Arutyunov başda olmaqla daha üç nəfər təbliğatçıdan ibarət olduğunu və fəaliyyətinin bütün Zəngəzur qəzasını əhatə etdiyini bildirmişdir. N.Şirakuni həmin komitənin əhalidən pul yığanların və terrorçuların olduğunu da öz ifadəsində göstərmişdir. Təbliğatçıların hər ay 120, pul yığanların 25-30 rubl aldıqları, terrorçuların isə aylıq yox, hər bir qətlə görə xeyli məbləğ aldıqları məlum olmuşdur. Qeyd edilənlərdən asılı olmayaraq şahid Şirakuni öz ifadələrində göstərmişdir ki, keşiş Ter-Osip bütün ehtiyatda olan hərbi mükəlləfiyyətliləri kilsəyə yığaraq and içdirmişdir ki, orduya səfərbərlik zamanı hərbi qulluqdan imtina edəcəklər…" (ARTA, fond 183, siy.3, iş 102, v.24-25).

"Məxfi" qrifi ilə saxlanılan başqa bir sənəddə isə qeyd edilir ki, 1904-cü ilin noyabrında Xınzirək kəndinin sakinlərindən 8 erməni prokurora verdikləri ifadələrdə göstərmişlər ki, onlar 80-100 nəfərdən ibarət partiyanın rəhbərliyində dururlar. Partiyanın hər bir üzvündən ayda 80 qəpikdən 2 rubladək aylıq üzvlük haqqı alırlar. Yığılan pulları kəndin icma başçısının qardaşına verirlər. Həmin pullara icma başçısı Sarkis Bağdasarov və keşiş Ter-David Ter-Arutyunov silah və güllə alırlar. Sursat keşişin anbarında saxlanır. Mədənçi Martiros Şahzadov isə xalça almaq adı ilə kəndləri gəzir, pul yığır və həmin pulla güllə alır.

Həmin sənəddə göstərilir ki, oktyabrın 13-də keşiş Ter-Arutyunovun evində Cəbrayıl qəzasının rəisi Qaranı öldürmək üçün püşkatma keçirilmişdir. Püşkatma nəticəsində üç nəfərə – xınzirəkli Arsen Dadaniyevə, ballıcalılı (Şuşa) Baxşı Musaelova və irəvanlı Surenə ölüm hökmünü icra etmək həvalə edilmişdir. (ARTA, fond 183, siy.3, iş 102, v. 12-13).

Bu sənədlərdən görünür ki, 1905-ci ilin fevralında Bakıda qırğınlar törətmək üçün hələ 1904-cü ildə Zəngəzur qəzasında pul yığılmış, silah və sursat alınaraq Bakıya göndərilmişdir.

Başqa bir arxiv sənədində göstərilir ki, 1905-ci il martın 5-də Zəngəzur qəzasının 1-ci polis sahəsinin sakinlərinin Yelizavetpol qurbernatoruna göndərdikləri müraciətdə qeyd edilirdi ki, hələ 1903-cü ildə polis məmuru Baqrat Əsilov 1-ci sahəyə rəis təyin edildikdən sonra bacanağı qarakilsəli Vağarşak Safrazbəyovun göstərişi ilə şübhəli təbliğatçı rolunu öz üzərinə götürmüşdür. Əsilov və Safrazbəyovun fəaliyyətləri nəticəsində sahənin erməni və azərbaycanlı əhalisi heç bir səbəb olmadan bir-birlərinə qarşı düşmən kəsilmişlər. Qəza rəisi R. Pfelerin sayəsində Əsilov 1-ci sahədən uzaqlaşdırılsa da, 1905-ci ilin fevralında Bakıda qırğınlar başlanandan dərhal sonra yenidən 1-ci polis sahəsinə gəlib, erməniləri qızışdıraraq söyləmişdir ki, iki millət arasında böyük iğtişaşlar gözlənilir. Əsilovun fəaliyyətinin qəzada tezliklə qırğınlara səbəb olacağından və bunun qarşısını hökumətin ala bilməyəcəyindən ehtiyatlanan yerli əhali qubernatordan təcili tədbirlər görməyi xahiş edirdi. (ARTA, fond 62, siy. 1, iş 42, v. 41-41).

A-donun yazdığına görə, iyunun 24-də Xoznavarda gedən atışma zamanı türklər Baqrat Əsilovu qətlə yetirmişdilər.

1905-ci ilin fevralında ermənilərin Bakıda başladıqları qırğınlar mart ayında İrəvana sirayət etmiş, may ayından etibarən isə Naxçıvanda davam etdirilmişdi. Lakin erməni terrorçu dəstələrinin Naxçıvanda törətdikləri təxribat və qırğınlar yerli əhalinin mütəşəkkilliyi sayəsində geniş miqyas almamışdı. Erməni silahlı dəstələrinin

Naxçıvanın kəndləri üzərindən Zəngəzura doğru hərəkətlərinin qarşısı alındıqdan sonra yenidən İrəvan qəzasında qırğınlar törədilmişdi. Həmin dövrdə ermənilər Zəngəzuru sözün həqiqi mənasında barıt çəlləyinə çevirmişdilər. Erməni terrorçu dəstələri tez-tez təxribatlar törədir, ətrafdakı azərbaycanlı kəndlərinə basqınlar edirdilər.

Ermənilər qırğınlara başlamaq bəhanəsi əldə etmək üçün Naxçıvanın Şıxmahmud və Tumbul kəndlərində həyata keçirdikləri ssenarini Zəngəzurda da həyata keçirmişdilər. Belə ki, özləri avqustun 16-da Gorusdan Qarakilsəyə qayıdan Zülfüqar Safrazbekyanı və onun oğlunu, habelə brnakotlu iki ermənini Ağudi və Vağudi kəndlərinin sərhədində qətlə yetirmiş, təqsiri azərbaycanlıların üzərinə yıxmışdılar.

Ta qədimdən aran Qarabağın, hətta Cavad qəzasının heyvandarlıqla məşğul olan əhalisi yazda Zəngəzur və Dərələyəz dağlarındakı yaylaqlara köç edər, payızda isə geri dönərdilər. Türkmənçay müqaviləsindən (1928) sonra İrandan köçürülərək gətirilən ermənilərin bir qismi Zəngəzurun mülayim iqlimi olan dağətəyi zonalarında məskunlaşdırılmışdılar. Ona görə də əksər erməni kəndləri köç yollarının üzərində yerləşirdi. Ermənilər azərbaycanlıların yaylağa köçləri və geri qayıtdıqları zaman onlara basqınlar edir, elat əhalisini qətlə yetirir, mal-qarasını və məhsullarını ələ keçirirdilər. 1905-ci ilin yayında Şuşada, Xaçın dərəsində və Ağdam yolunda baş verən münaqişələrin xəbəri yaylaqdakılara çatdıqdan sonra onlar ermənilərin basqınlarından xilas olmaq məqsədilə arana enmək qərarına gəlirlər. Lakin köç yolu Gorus şəhərinin ermənilər yaşayan hissəsindən və Xndzoresk erməni kəndindən keçirdi. Avqustun 17-də ermənilər şayiə yayırlar ki, guya dağdan arana qayıdan Kərimbəyi və Kürdmahmudlu kəndlərinin köçəriləri Naxçıvan qəzasından olan 5 erməni qadınına türk libası geyindirərək özləri ilə aparırlar. Ermənilər həmçinin türklərin onların mal-qarasını oğurlayıb apardıqları barədə də şayiə yaymışdıalr. Pristav Voskresenski türkləri təqib edərək, vəziyyəti yerində öyrənmiş və ermənilərin yalan söylədiklərini təsbit etmişdi. Ermənilərlə atışan Voskresenski bir ermənini qətlə yetirmişdi. (A-do, s.251).

Avqustun 18-də Həmzəli kəndindən Niftalı bəy 15 nəfər dostu ilə birlikdə Gorusa gələn zaman şəhərin girəcəyində mövqe tutan erməni silahlıları onlara atəş açırlar. Nəticədə Niftalı bəy və onun dəstəsindən iki nəfər, ermənilərdən də iki gənc öldürülür. Avqustun 20-də qubadlılı İldırım bəy Sultanov rus pristav Yevorskinin vasitəsilə Gorus ermənilərinə ultimatum göndərir. Ultimatumda Gorusda saxlanılan türkləri azad etmək, köçərilərin sərbəst hərəkəti üçün yol vermək, erməni silahlı dəstələrini Gorusdakı mövqelərindən uzaqlaşdırmaq və 1000 rubl təzminat ödəmək tələb olunurdu. Qəza rəisi Avaliani İldırım bəyin təzminat ödəmək tələbindən başqa digər tələblərinin ödənilməsini təmin etdirmişdi. (A-do, s.252).

Qarahunc kəndi də ermənilərin terror yuvasına çevrilmişdi. A-donun yazdığına görə, sentyabrın 6-da Gorus həbsxanasından azad edilən Məmmədəli Xanlar bəy Qarahunc kəndinin yaxınlığından keçərək evinə qayıdarkən ermənilər tərəfindən izlənərək güllələnir. Bu terror əməlinə görə Qarahunc kəndinin erməniləri ekzekuasiyaya (cəriməyə) məruz qoyulmuşdu. Qarahunclular 1500 rubl cərimə edilmiş, üstəlik, 150 kazakın 12 gün ərzində ərzaq və digər tələblərinin ödənməsi ermənilərin üzərinə qoyulmuşdu. (A-do, s.254).

Sentyabrın 18-də Yelizavetpolun general-qubernatoru Takayşvili əhali arasında barışıq yaratmaq məqsədilə Gorusa gəlir. Vəziyyətlə yerində tanış olduqdan sonra Takayşvili ermənilərin təqsirkar olduqlarını bildirir. O, iğtişaşların təşkilatçıları kimi Gorusdan 10, Dığ kəndindən isə 15 ermənini həbs etdirir. (A-do, s.265).

1905-ci il sentyabrın 22-də Xoznavar və Xnaçax erməniləri ətraf kəndlərdən gələn silahlı dəstələrin köməyi ilə türk kəndlərinə hücum edərək Bayandurda 50, Hələkdə 35, Kosalarda 25, Malıbəyləidə 50, Cağacurda 40, Çaylıda 10, Kalavalaxda 25, Novruzluda 15 evi sakinləri ilə birlikdə yandırıb dağıtdılar. Birinci üç kənd isə tamamailə qarət edilir. (A-do, s.266).

"Kaspi" qəzeti 5 noyabr 1905-ci il tarixli sayında "Kavkaz" qəzetinə istinadən yazırdı ki, Yelizavetpolun müvəqqəti qubernatoru oktyabrın 27-də Gorusdan Qafqaz canişininə aşağıdakı məzmunda teleqram göndərmişdir: "Gorusdan çıxaraq iki gün ərzində Cəbrayıla çatdım. Vəziyyətlə tanış olaraq sizin nəzərinizə çatdırıram ki, əvvəllər görülən tədbirlər nəticəsində qəzada sakitlik bərqərar olmuşdur. Oktyabrın 16-dan isə müxtəlif yerlərdən gəlmələrdən və fərarilərdən ibarət olan erməni bandası Zəngəzur qəzasından Qaryagin qəzasına keçdikdən və dağlıq erməni kəndləri olan Zamzur, Daşbaşı, Cilan və digər kəndlərin sakinləri ilə birlikdə tatar kəndləri olan Aşıxmalikli və Tararlı kəndlərinə hücumları nəticəsində 8 tatar öldürülmüş, meyitlərin başları bədənlərindən qoparılmış, bəzilərinin sağ əli və sağ qulaqları kəsilmişdir. Meyitlər elə eybəcər hala salınmışdır ki, bütün bunlar şəriət qaydalarına görə Qaryagin qəzasının müsəlmanları arasında çaxnaşma yaratmışdır. Qətllərin bütün iştirakçıları təhvil verilənədək təqsirkar erməni kəndlərində ekzekuasiya qoyulmuşdur".

Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan bir çox sənədlərdə ermənilərin 1905-1906-cı illərdə törətdikləri qırğınlar barədə materiallar öz əksini tapmışdır. Həmin qəbildən olan sənədlərin birində Sisyan kəndində törədilən qırğınlardan bəhs edilir. Sənəddə qeyd edilir ki, 1905-ci ilin oktyabrında Zəngəzur qəzasının 10 erməni kəndinin silahlı sakinləri qəzanın azərbaycanlılar yaşayan Sisyan kəndinə hücum etmişdir. 75 nəfər Sisyan sakini öldürülmüş və yaralanmışdır.

Yalnız kazakların özlərini yetirməsi nəticəsində qətliam və talanın daha böyük miqyas almasının qarşısı alınmışdır. (GMTA, f. 83, s. 1, iş 32, v. 260).

Erməni müəllifi A-donun yazdığına görə, 1905-ci il noyabrın 22-də Ərəfsə kəndindən Seyid Adıgözəl yoxa çıxır. Bu hadisə Sisyan kəndinin 200 evdən ibarət türklərini daha çox həyəcanlandırır. Sisyan kəndi Ağkənd, Əlili, Təzəkənd və Tolors kəndlərinin əhatəsində yerləşirdi. Noyabrın 23-də sisyanlılar Təzəkənd kəndini iki tərəfdən mühasirəyə alırlar. Təzəkəndlilər qonşu Əlili kəndinə qaçırlar. Üç gündən sonra sisyanlıların Comərdli və digər türk kəndlərinin köməyi ilə Təzəkəndə hücumları baş tutur. Noyabrın 26-da ətrafındakı erməni kəndlərindən Təzəkəndə gələn ermənilər Sisyan üzərinə birgə hücuma keçirlər. Türklər çoxlu itki verdikdən sonra kəndin ortasındakı təpənin üstündə yerləşən köhnə qalanın qalıqları arasına çəkilirlər. Ermənilər 50-yə qədər evi yandırıb, kəndin mal-qarasını özləri ilə aparılar. Əsgərlərin kəndə gəlib yetişməsindən sonra silah gücünə Sisyan ermənilərdən təmizlənir. Sisyanlılardan 50-dən çox ölən və yaralanan olur. Ermənilərdən 5 nəfər öldürülür. Bu münaqişədən sonra bölgədə bir müddət sakitlik hökm sürür. (A-do, s.279-280).

Sisyandan Gorusa gedən yol Ağudi və Vağudi kəndlərindən keçirdi. Ətraf kəndlərdə yaşayan ermənilər Gorusa getmək üçün ya Ağudi və Vağudinin ərazisindən keçməli, ya da yollarını dəyişib dağlara, dərələrə getməli idilər. Ona görə də ermənilər Ağudi və Vağudini aradan götürməyi qərara almışdılar. A-donun yazdığına görə, dekabrın 25-də böyük bir erməni silahlı dəstəsi Ağudi üzərinə hücuma keçir. Ağudililər böyük itki verərək Vağudi kəndinə qaçırlar. Kənddə qalanların bir hissəsi isə məsciddə gizlənmişdi. Hücum edən ermənilərin bir hissəsi kəndin girəcəyindəki mövqelərdə qalmış, digər hissəsi isə kəndə soxulmuş, evləri yandırıb dağıtmağa başlamışdı. Bu zaman Şəki kəndinin türkləri köməyə çatırlar və davanın gedişi dəyişir. Bundan sonra ətrafındakı türk kındlərindən, eləcə də Dərabasdan köməyə gəlirlər. Kəndə hücum edən ermənilər mühasirəyə düşürlər və onlar geri çəkilmək məcburiyyətində qalırlar. Bu hücum zamanı ağudililər 60 nəfərdən çox, ermənilər isə 22 nəfər itki verirlər. (A-do, s. 281-282).

Dərabas dərəsində bir-birinin ardınca Şinətağ, Lor, Geğatag, Dərabas, Lçen və Şamb kəndləri yerləşirdi. Bu kəndlərdən 4-də ermənilər, Dərabas və Şamb kəndlərində isə ermənilərlə türklər qarışıq yaşayırdılar. Dərabasda 215 türk, 36 erməni ailəsi, Şambda isə 20 türk, 35 erməni ailəsi mövcud idi. Noyabrın sonlarında Gorus yolunda 2 erməni öldürülür. Onların qətlində Dərabas türklərindən şübhələnirlər. Vəziyyət gərginləşir. Dərabasdan 20-30 ailə kəndi tərk edir. Onların evlərində Şambdan olan ermənilər yerləşir. Digər erməni kəndlərindən isə ermənilər Dərabasa yığışırlar. Dekabrın 26-da erməni silahlıları türk evlərinə hücum edirlər. Kəndin əhalsinin bir hissəsi dağlara qaçır, qalanları isə kənddəki üç böyük evdə – Molla Əbülhəsənin, Ələkbər bəyin və Abbas Ələkbər oğlunun evində sığınacaq tapırlar. A-do erməni vəhşiliyini belə təsvir edir: “Evlərində gizlənmiş ermənilər köməyə gələnlərin qışqırıqlarını eşidən kimi vəhşiləşmiş kimi küçəyə atıldılar, türklərin evlərinə hücum edərək, talan edib yandırdılar. Onlar yanğınları və talanları davam etdirərək, yuxarıda adları çəkilən evlərə çatmışdılar, hansı ki, orada türklər böyüklü-kiçikli, arvadlı-uşaqlı sığınacaq tapmışdılar. Ermənilər burada cinayətkarlığın ən dəhşətli formasını həyata keçirdilər. Onlar bu üç evə od vurub, içindəki insanları sağ-sağ yandırdılar. Cinayət alovlar və dağıntılar içində həyata keçirildi və çoxsaylı insanlar məhv oldu. Biz o yanmış evlərin insan sümükləri ilə qarışmış külünü gördük və sarsıldıq, o qatilləri, daha çox isə dəhşətli cəhənnəmi törədənləri lənətlədik… Öldürülmüş, yandırılmış, meyitləri səpələnmiş adamların sayı 272 nəfərə çatırdı”. A-do Dərabasda törədilən bu cinayətin yerli hakimiyyət ciddi araşdırılmasını münasib görmədiyini, polisin yalnız bir protokol tərtib etməklə işini bitmiş hesab etdiyini qeyd edir. (A-do, s. 284-285).

1905-ci il dekabrın 29-da Tatev erməniləri türklərin yaşadıqları Kürdlər adlanan kəndə hücum etmiş, lakin müqavimət göstərə bilməyərək, çoxsaylı itki verərək kəndi tərk etmək məcburiyyətində qalmışdılar. Kənd talan edilmiş, sonra isə yandırılaraq xarabalığa çevrilmişdi. A-do ermənilərin bu hərəkətinə heç bir əsas tapa bilmədiyini, bu hücumu barbarlıq və məhkum olunası əməl kimi xarakterizə etmişdir. (A-do, s.274).

Ermənilərin Sisyan, Ağudi, Dərabas və digər kəndlərdə törətdikləri vəhşiliklər öz növbəsində azərbaycanlıları da qisas almağa vadar edirdi. Azərbaycanlılar xəbər almışdılar ki, məşhur quldurbaşı Keri Əngələkət (Angeğakot) kəndindədir və onun başçılığı ilə türk kəndlərinə yeni hücum hazırlanır. 1906-cı il yanvarın 6-da Ağudu, Vağudi, Urud, Şəki və digər kəndlərdən yığışmış türklərin böyük bir dəstəsi Əngələkət kəndinə hücum edir. Dəstəyə Şahsuvar bəy başçılıq edirdi.. Hər iki tərəf onlarla itki verdikdən sonra atışma kəsilir. (A-do, s.286-287).

“Kaspi” qəzeti 13 yanvar 1906-cı il tarixli sayında “Novoe Obozreniye” qəzetinə istinadən yazırdı ki, dekabrın 25-də ermənilərlə toqquşma nəticəsində 70 nəfər ağudili qətlə yetirilmiş, 30 ev yandırılmışdır. Daha sonra ermənilərin 278 nəfər Dərəbağ kəndinin tatarlarını öldürdüyü xəbəri verildi.

1906-cı il fevralın 20-də Tiflisdə Qafqazın canişini Voronsov-Daşkovun təşəbbüsü ilə erməni-müsəlman sülh məclisi (qurultayı) öz işinə başlayır. Həmin məclisdə Zəngəzur qəzasını aqronom Cəlil bəy Sultanov təmsil edirdi. Ermənilər milli münaqişənin böyük miqyas almasının səbəbini türklərin savadsızlığı və elmsizliyi ilə izah etməyə çalışsalar da, azərbaycanlı nümayəndələr iğtişaşların baiskarlarının erməni siyasi təşkilatları və

onların terrorçu dəstələri olduqlarını faktlarla sübut edirlər. Erməni nümayəndələri təklif edirlər ki, elatların köçü qadağan edilisin. Bununla da ermənilər azərbaycanlıları ərzaq məhsullarından məhrum etmək istəyirdilər. Ermənilərin bu niyyəti də baş tutmur. Qafqaz Casnişinliyinin ciddi tədbirlər ələ almaq niyyətində olmadığını yəqin edən ermənilər sülh məclisi başa çatdıqdan az bir müddət sonra yenidən qətl və qarətlərini davam etdirmişdilər.

6 mart 1906-cı ildə "Daşnaksutyun" partiyasının Qafan komitəsi Oxçu dərəsinin nüfuzlu ağsaqqalları, erməni silahlı dəstələrinin hücumlarına qarşı əhalinin səfərbər edilməsində mühüm rol oynayan Hacı bəy və Molla Hacıya qarşı terror aksiyası keçirmək haqqında qərar qəbul etmişdi. (ARTA, f.62, siy.1, iş.41, v.69). Həmin qərar bir müddət sonra icra edilərək onların hər ikisi qətlə yetirilmişdilər.

Zəngəzur qəzasının 4-cü sahəsinin pristav əvəzi Məlik Abbasovun qəza rəisinə 1906-cı il martın sonlarında göndərdiyi məxfi raportunda qeyd edilirdi ki, Zəngilan rayonundan Qatar zavodlarına, Şıxavuzdan həmin zavodlaradək yollar tamamilə bağlanmışdır. Ermənilərin məskun olduqları ərazilərin yolları üzərində qanunsuz erməni silahlı dəstələrinin, azərbaycanlı icmalarının məskun olduqları rayonların yolları üzərində isə İrandan qaçaq yolla gələn quldurların dərəbəylik etdikləri raportda öz əksini tapmışdı. Məlik Abbasov qəza rəisindən erməni quldurlarının cəmləşdiyi Şıxavuz və Qaragöl kəndlərindən hər hansı birinə 100 kazak əsgərinin göndərilməsinin bölgədə quldurluğun qarşısının alınmasına yardımçı olacağını vurğulayır. Məlik Abbasov 4-cü sahədə sülh və sakitliyin bərqərar olmasında Meğrili Keşiş Ter Vahanın, Lehvazlı Kərbəlayi Mehdi Hacı Allahverdi oğlunun, oğlanları ilə birgə Vağrivarlı David Axpercanovun, Əldərəli Həsənqulu bəy Sərməstbəyovun xidmətlərinin olduğunu yazırdı. (ARTA, f.62, siy.1, iş.41, v.62)

Zəngəzur qəza rəisinin tapşırığı ilə yerlərdə barışıq komissiyaları yaradılmışdı. Lakin həmin komissiyaların fəaliyyəti "Daşnaksutyun" partiyasının məramına zidd idi. Ona görə də komissiya üzvlərinə qarşı terror aksiyaları həyata keçirirdilər. Yelizavetpol qubernatoru A.Kalaçovun 24 aprel 1906-cı ildə Qafqazın canişininə göndərdiyi raportda "Daşnaksutyun" partiyasının Bığ kəndindəki muzdlu qatili Peto adlı erməninin üç naməlum ermənilərlə birlikdə barışıq komissiyasının üzvləri Hacı bəy Məlik Şəfiyevin və Molla Hacı Mir Əbdüləzim oğlunu qətlə yetirdikdən sonra həmin kənddə gizləndikləri qeyd edilmişdi. (ARTA, f.62, siy1, iş.41, v.70).

1906-cı il iyulun 5-də köç yolunun üstündə yerləşən Qalaçıq erməni kəndinin silahlı dəstəsi ilə Şahsevən və Qarafındıqlı elatları arasında toqquşma baş verir. Ermənilər 20 nəfər, türklər isə 30 nəfər itki verir. Bundan sonra erməni silahlı dəstələri türklər yaşayan Pul, Ərikli, Şükar və Məliklər kəndlərinə hücum edərək onları viran qoymuş, əhalsini qaçqın düşməyə məcbur etmişdilər. 150 türk ailəsi didərgin vəziyyətdə, açıq səma altında yaşamağa məcbur qalmışdı. (A-do, s. 288).

Rəsmi hakimiyyət təmsilçiləri erməni-müsəlman davasında ya ermənilərin tərəfini saxlayır, ya da bütün qanunsuzluqlara göz yumurdular. Gorus sahəsinin müsəlmanları 25 iyul 1906-cı ildə Qafqaz canişininə teleqram göndərərək Zəngəzur qəzasının rəisi Mitkeviçin öz vəzifəsinin öhdəsindən gəlməməsindən şikayətlənirdilər. Teleqramda bildirilirdi ki, iyulun 9-da Gorusun müasir silahlarla silahlanmış komitəçiləri (erməni terrorçu partiyaları nəzərdə tutulurdu) Eyvazlar və Davutlu kəndlərinin köçərilərinə qəfildən hücum etmiş, çobanı yaralamışlar. Müsəlmanlar qorxu içərisində qaçaraq Ağudi və Vağudi kəndlərinə sığınmışlar. Ermənilər Eyvazlıların 900, Davutluların isə 600 qoyununu və 300 iribaşlı heyvanını aparmışlar. Köçərilər arana təhlükəsiz enmək üçün qəza rəisi Mitkeviçə müraciət etmişlər. Mitkeviç onları əmin etmişdir ki, yolların təhlükəsizliyi təmin ediləcək və təqsirkarlar cəzalandırılacaq. Qəza rəisinə inanan köçərilər yola çıxmış, lakin yenidən ermənilərin hücumuna məruz qalmışlar. Pusquda duran ermənilər iki tərəfdən hücum edərək bu dəfə eyvazlıların 50 baş iribuynuzlu heyvanını və 15 xurcununu aparmışlar. Qəza rəisinin heç bir tədbir görmək istəmədiyini görən köçərilər Qafqaz canişinindən onlara vurulan ziyanın ödənməsini və yeni qəza rəisinin təyin edilməsini xahiş etmişdilər. ("Kaspi", 11 avqust 1906).

"Kaspi" qəzeti 12 sentyabr 1906-cı ildə erməni qəzeti "Nor-Xosk" ("Yeni söz") qəzetinə istinadən xəbər verirdi ki, Ordubada Zəngəzurdan təqribən min nəfər var-dövlətini itirən müsəlman qaçqınları gəlib. Qəzet həmin çılpaq və ac-yalavac qaçqınların dəhşətli görkəmləri olduğunu, onların vəziyyətlərinin düzəldilməsi üçün heç bir tədbir görülmədiyini yazırdı.

"Kavkaz" qəzetinin Gorusdan verdiyi xəbərə istinadən "Kaspi" qəzeti həmin tarixli nömrəsində yazırdı ki, avqustun son günlərində Ucanis, Akarak və digər erməni kəndlərinin silahlıları Sultanlıq, Əhməd bəy Qışlağı, Qurban Qışlağı, Atqız, Fərəcan, Xatın bağı, Saldaş və Göyyal kəndlərinə hücum edərək 15 qadın və kişini öldürmüş, bütün tikililəri yandırmış, 20 oğlan uşağını əsir aparmışlar. Daha sonra qəzet Zəngəzur qəzasının 3-cü polis sahəsinin "tatar" kəndlərindən Çullu, Danzaver (Armudlu), Ağvanlı, Yeməzli, Saralı, Xaşdan, Firudin bəy Qışlaqlı kəndləri, 5-ci sahədən isə İncəvar, Karxana, Xələc kəndləri tamamilə dağıdılmış və viran qoyulmuşdur. Xüsusən Karxana kəndinin bütün sakinlərini doğramışlar. Bunlardan əlavə, qəzet Qatar, Oxçu, Sabadin və Atqız kəndlərinin ciddi zərər gördüklərini yazırdı. ("Kaspi", 12 sentyabr 1906)

"Kaspi" qəzeti "Kavkaz" qəzetinə istinadən 22 sentyabr 1906-cı ildə yazırdı ki, sentyabrın 4-də Tatev və digər erməni kəndlərinin silahlıları Ağvanlı və Danzaver (Armudlu) kəndlərinə hücum etmişlər. Sonuncu kəndin bütün əmlakları və tikililəri yandırılmış, üc nəfəri qətlə yetirmiş, 4 nəfəri yaralamış və bir nəfəri əsir götürmüşlər.

Erməni silahlı dəstələri boşaltdıqları azərbaycanlı kəndlərində erməniləri məskunlaşdırırdılar ki, bir daha geri qayıtmaları mümkün olmasın. "Kaspi" qəzeti 11 oktyabr 1906-cı il tarixli sayında yazırdı ki, Zəngəzur qəzasının Harar kəndindən 30 erməni ailəsi özbaşına olaraq Cavanşir qəzasının Umudlu kəndində məskunlaşıblar. Təqribən 100 ailədən ibarət həmin kəndin digər sakinlərinin isə Şuşa qəzasının Xankəndi kəndi ətrafındakı "tatarlara" məxsus ərazidə məskunlaşmaq üçün yola çıxdıqları qeyd olunmuşdur.

M.S.Ordubadi "Qanlı illər"də 1906-cı ildə Zəngəzur qəzasının 5-ci sahəsində ermənilərin törətdikləri qırğınlar haqqında müfəssəl məlumat verdiyi üçün həmin hadisələrin qısa xronologiyasını oxucuların nəzərinə çatdırırıq. M.S.Ordubadi yazır ki, 1906-cı ilin yayında ermənilər Şuşa qəzasında məğlub olduqdan və öz niyyətlərinə çata bilmədikdən sonra əsas güclərini Zəngəzurun 5-ci sahəsinə yönəltmişdilər. Bu sahədə mis mədənləri və Oxçu dərəsindəki böyük və coğrafi mövqeyinə görə strateji əhəmiyyətli azərbaycanlı kəndləri yerləşirdi. Ordubadi Oxçu, Şəbədək, Pirdavudan və Atqız kəndlərinin müsəlmanlarının ən cəsur və sücaətli adamlar olduqlarını, erməniləri dəhşətə saldıqlarını qeyd edir. Ermənilərin Qafan (Qapan) dərəsində topladıqları silahlı qüvvələri kifayət etmədiyindən İrəvandan, Gümrüdən, Abarandan, Sörəyeldən əlavə qüvvələr çağırılmışdı. Şuşada məğlub edilən erməni silahlıları iyulun sonlarında mis mədənləri yerləşən Qatar tərəfə göndərilmişdi. Müasir silahlarla və toplarla təmin edilən ermənilər avqustun 9-da Oxçu-Şəbədək kəndlərinə hücum edirlər. Köhnə silahlarla silahlanan azərbaycanlılar 4 gün ermənilərə müqavimət göstərmiş, onları mövqelərindən çıxararaq Kecalan erməni kəndinə qovurmuşr və nəhayət, erməniləri məğlub etmişlər. Erməni komandirləri Qatardakı ehtiyat hissələrini və ətraf erməni kəndlərindəki silahlıları da cəlb edərək avqustun 14-də Oxçu-Şəbədək kəndlərini işğal edirlər. Silah-sursatı tükənən azərbaycanlılar Saqqarsu dağına çəkilirlər. Kəndi tərk edə bilməyənlərin hamısını ermənilər qətlə yetirib bir-birlərinin üstünə qalaqlamışdılar. Tək-tək sağ qalanlar çıl-çılpaq Ordubada və Cəbrayıl qəzasının kəndlərinə pənah aparmışdılar. Bu qanlı cinayətin təsvirindən aydın olur ki, XX əsrin sonlarında Xocalıda törədilən soyqırımın analoqu həmin əsrin əvvəllərində Saqqarsuda törədilmişdi.

Ordubaddan Yelizavetpol qubernatoruna vurulan yüzlərlə teleqramdan sonra general-qubernator Ordubada bir rota draqun süvarisi göndərir. 800 nəfərə yaxın Ordubadlı könüllülərin də köməyi ilə sentyabrın 16-17-də Oxçu-Şəbədək kəndləri ermənilərin işğalından azad edilir. Sağ qalan əhalinin yenidən öz kəndlərinə qaytarılması prosesi başlanır. Ordubad tərəfdən gələn silahlı dəstələrdən ağır zərbə alan ermənilər qırğınlara ara verməyə məcbur olmuşdular.

Azərbaycanlıların təşkilatlanması, "Difai" partiyasının ermənilərin terroruna terrorla cavab verməsi də onların silahlı qarşıdurmadan əl çəkmələrinə səbəb olmuşdu. Lakin qırğınlara son qoyulanadək yüzlələ kəndi ermənilər viran qoymuşdular.

Ümumiyyətlə, M.S.Ordubadinin verdiyi məlumata görə, ermənilər təkcə həmin ilin avqust ayında Zəngəzurun Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbədək, Atqız, Pürdavud, Zurul, Guman, İyilli, Sənalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq, Lov, Daşnov kəndlərini viran qoymuş, əhalisini qətlə yetirmişdilər.

Erməni müəllifi S. Zavaryanın verdiyi məlumata görə isə 1905-1906-cı illərdə Zəngəzur qəzasında 43 müsəlman, 14 erməni kəndi dağıdılmışdır. Ümumiyyətlə isə, 1905-1906-cı illər erməni müsəlman iğtişaşları nəticəsində İrəvan və Yelizavetpol (Gəncə) quberniyaları ərazisində 200-dən artıq azərbaycanlı yaşayış məntəqəsi viran edilmiş, əhalisi soyqırıma məruz qoyulmuşdur.

Digər erməni müəllifi A-do dağıntılara məruz qoyulan 43 azərbaycanlı kəndlərinin adlarını aşağıdakı kimi təsbit etmişdir: Bayandur, Hələk, Binəyeri, Kosalar, Malıbəyli, Cağazur, Çaylı, Kalavalax, Novruzlu, Cecimli, Hacılar, Bağırbəyli, Qarahunc, Unanav, Kürdlər, Ağvani, Danzaver (Armuldlu), Sisyan, Ağudi, Dərabas, Pul, Ərikli, Şükar, Məliklər, Yeməzli, Xəştap, Almalı, Karxana, Qatar, Cibili, Xələc, Keçi-Şabadin, İncəvar, Çullu, Oxçu, Atqız, Pirdavudan, Əclıli, Buğaçıq, Kollu-Qışlaq, Mtnadzor, Sanalı.

Ümumiyyətlə, 1905-1906-cı illər qırğınları zamanı 252 kənd və 7 şəhər dağıdılmış və böyük itkilərə məruz qoyulmuşdur. Hesablamalarımıza görə, həmin kənd və şəhərlərin təqribən 200-ü azərbaycanlı yaşayış məntəqələrnin payına düşür. Həmin illərdə ermənilərin yeni ərazilər əldə etmək niyyətlərini silahlı müdaxilə yolu ilə həyata keçirmək üzündən Qafqazın 12 qəzasında 1,3 milyon nəfər bir-birinə düşmən kəsilərək iki cəbhəyə bölünmüşdü. 15 mindən artıq ailə (təqribən 100 min nəfər) ev-eşiyindən didərgin düşmüşdür. İnsan tələfatı 10 min nəfərdən artıq olmuşdur. Dağıntılara məruz qoyulan azərbaycanlı yaşayış məntəqələrinin bir qizmi həmin vaxtdan etibarən xarabalığa çevrilmişdir.

Ermənilərin 1905-1906-cı illərdə törətdikləri qırğınların miqyasını daha dəqiqliklə ifadə etmək üçün Qafqaz canişinliyinin həmin dövrə aid arxiv sənədlərini də tədqiqata cəlb etməklə ciddi araşdırılmasına ehtiyac vardır.

**Nazim Mustafa**

**“Xalq qəzeti”.-**2013.-31 mart.-N 66.-S.3., 4 aprel. N 69.-S.5.

**Zəngəzur və Qarabağda azərbaycanlılara qarşı soyqırımı**

**1918–ci ildən 1920–ci ilin aprel çevrilişinə qədər erməni vəhşiliklərindən ən çox ziyan görmüş Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Bu müddət ərzində erməni quldur dəstələrinin həmin qəzanın müsəlman əhalisinə qarşı güc işlətmək siyasəti bir an da olsun belə kəsilmir, hərdən səngisə də, sonra daha yeni qəddarlıqlarla təkrar olunurdu. Fövqəladə İstintaq Komissiyasının, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin, müxtəlif nazirliklərin arxivlərində bu haqda çoxlu tarixi sənədlər qorunub saxlanılır. Onların arasında Fövqəladə Təhqiqat komissiyasının məruzələrini, Azərbaycan parlamentinin 1918–ci il dekabrın 20–də keçirdiyi və bu məsələyə həsr olunmuş xüsusi fövqəladə iclasının materiallarını, xüsusilə orada Baş nazir F.X.Xoyskinin çıxışını, parlamentin adına gəlmiş teleqramları və s. qeyd etmək olar.**

Hündür dağ bölgəsində yerləşən bu qəzanın əlaqələri Şuşa qəzası ilə demək olar ki, tamamilə, Cəbrayıl qəzası ilə qismən kəsilmişdi. Müsəlman kəndləri tək–tək erməni kəndlərinin aralarında qaldıqlarından bir–biriləri ilə əlaqə saxlamaq üçün yalnız erməni kəndlərindən istifadə etməyə məcbur olduqları üçün, ilk gündən ermənilər həmin qəzada üstünlüyü öz əllərinə almışdılar. Qəzanın müsəlman əhalisinin Azərbaycanın başqa əyalətlərinə nisbətən vəziyyəti bir də ona görə pisləşmişdi ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı, bu qəzada general Andranikin çox yaxşı təşkil edilmiş erməni əsgərlərindən ibarət nizami qoşunları da vardı. Andranik öz ətrafında nizami qoşun və erməni quldur dəstələrini cəmləşdirərək və görünür ki, erməni respublikası hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxulub müsəlman əhalidən tələb edir ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da qəzanın ərazisini tərk etsinlər. Guya bu qəza Ermənistan Respublikasına daxildir. Qəzanın, demək olar ki, bütün dünyadan təcrid olunmuş və çox zəif silahlanmış əhalisi Andranikin bu tələblərini rədd edir. Buna görə də ermənilər həmin əhaliyə qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Öz respublikalarının ərazisini genişləndirməyə cəhd edən ermənilər müsəlmanlara aman vermirdilər. Hətta müsəlmanlar könüllü olaraq öz doğma ocaqlarını tərk etdikdə belə ermənilər onların kəndlərini yandırır, tikililəri özülünə qədər dağıdır, əhalini görünməmiş vəhşiliklərlə qətlə yetirir, onların mal–heyvanlarını sürüb aparır, əmlaklarını müsadirə edir, torpaq sahələrini zorla ələ keçirib əkirdilər. Məruzədə göstərilirdi ki, hazırda bu qəzada yalnız Oxçu dərəsi müsəlman kəndlərinin əhalisi çox mərdliklə öz doğma ev–eşiklərini, ata–baba ocaqlarını müdafiə edirlər.

Sisyan mahalının birinci polis sahəsində olan bütün müsəlman kəndləri, ikinci polis sahəsində olan kəndlərin əksəriyyəti, üçüncü, dördüncü və beşinci polis sahəsindəki müsəlman kəndlərinin isə çox hissəsi məhv edilmişdi. Bəzi kəndlər, ümumiyyətlə, yer üzərindən silinmiş, həmin kəndlərin torpaqları ermənilər tərəfindən əkin üçün şumlanmışdı. 50 mindən yuxarı müsəlman qaçqını qismən dördüncü polis sahəsində, qismən də Cəbrayıl qəzasında özlərinə sığınacaq tapmışdılar.

Fövqəladə təhqiqat komissiyasının məruzəsində Zəngəzur qəzasının 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunur. Dağıdılmış bütün kəndlərin adları sadalanır.

Məruzədə göstərilən 115 kənd ermənilər tərəfindən yandırılmış, kəndin əmlakı oğurlanıb aparılmış, ərazisi ermənilər tərəfindən zəbt olunmuşdur. Bu kəndlər məhv edilərkən o qədər haqsızlıqlar, vəhşiliklər törədilmişdi ki, onları ayrı–ayrı kəndlər üzrə göstərməyə imkan yoxdur. Ermənilərin dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi vəhşiliklər haqqında təhqiqat komissiyasının aktları, onlara əlavələrdə kifayət qədər məlumatlar vardır.

Yuxarıda göstərilən 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Nəticədə, tam olmayan məlumata görə, təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 azərbaycanlı öldürülüb və ya şikəst edilmişdi. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşilikləri haqqında tam məlumat vermir. Belə ki, erməni vəhşiliklərinin qurbanları daha çox olmuşdur. Ancaq indiki dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Şahidlərin ifadələri əsasında tərtib olunmuş məruzədə ermənilərin törətdikləri vəhşiliklər haqqında ətraflı məlumatlar verilmişdir. Vaqudu kəndində erməni əsgərlərinə paylanmış və zorlanmış 15 nəfər gözəl azərbaycanlı qızı namussuzluq əzabına dözə bilməyərək özlərini öldürmüşdülər. Elə həmin kənddə 400–dən yuxarı azərbaycanlı əhali məsciddə sığınacıq tapır və güman edirlər ki, ermənilər müqəddəs yer olan məscidə dəyməzlər. Ancaq məscidi mühasirə edən erməni vandalları əvvəlcə məscidə əl bombaları atır, sonra isə ona od vuraraq adamlarla birlikdə yandırırlar. Həmin kənddə Qədəm Tahir qızı qılıncla doğranmış və döşü kəsilərək başı kəsilmiş südəmər uşağın ağzına soxulmuşdur. Həmin kənddə ermənilər Yolçu Şıx Hüseyn oğlunu öldürmüşlər. Həmin kənddən dörd nəfər cavan qız — Nisə Əmən qızı, Acib Nuhbala qızı, Sona Cəfər qızı və Şahnur Cəlal qızı ölənə qədər ermənilər tərəfindən zorlanmışlar. Həmin kəndin yaxınlığında Gülməstə Qasım

qızı öldürülmüş, döşləri kəsilmiş, kürəklərinin arasına at nalı mıxlanmışdır. Nüvədi kəndində ermənilər yorğan–döşəkdən dura bilməyən yüz yaşlı Əsəd bəy Məlik Abbasovu süngü ilə dəlik–deşik etmişlər.

Həmin kənddə küçələrdə qaçıb canını qurtarmaq istəyən uşaq və qadınların qılınc və xəncərlərlə başlarını üzmüşlər. Döşləri kəsilmiş qadın və iki yerə şaqqalanmış uşaq meyitləri Şəki kəndinin küçələrində atılıb qalmışdı. İrmişli kəndini talan edərkən ermənilər südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülənlərin meyitləri tikə–tikə doğranırdı. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edirlər, bundan imtina edən qadınların döşlərini kəsir, körpə uşaqların ağzına soxurdular. Elə həmin kənddə ermənilər sağ–sağ Qulam Şakir oğlunun ayaqlarını kəsmiş, sonra süngü ilə onu dəlik–deşik edərək qanı qurtarıb ölənə qədər kəsik ayaqları üzərində hərəkət etməyə məcbur etmişlər. Həmin kənddə gözəl qızlar əvvəl zorlanmış, sonra isə öldürülmüşlər. Çullu kəndində ermənilər yorğan–döşəkdə xəstə yatan 9 nəfər müsəlmanı qılıncla doğramışlar. Bağırbəyli kəndində ermənilər 7 nəfər azərbaycanlını bir evə yığıb evlə birlikdə diri–diri yandırmışlar. Müsəlmanlar kəndində meyitlərin əli, ayağı, başı kəsilmiş və o qədər eybəcər hala salınmışdır ki, bilmək olmurdu ki, həmin əzalar hansı meyitə məxsusdur. Qatar kəndində çox hörmətli Məşədi Qələndər Məşədi Qulu oğlunun üzərinə ermənilər neft tökərək diri–diri yandırmışlar. Həmin kənddə ermənilər Kərbəlayi Allahverdi Hüseynəli oğlunun əl–ayağını bağlayaraq qoyun kimi boğazından kəsmişlər. Vartanazur kəndində ermənilər xüsusilə çox uşaq və qadını xəncərlə doğramışlar.

Bu göstərilənlər ermənilərin törətdikləri vəhşiliklərin cüzi bir hissəsi idi. Bu cür və bundan daha dəhşətli vəhşiliklər ermənilərin dağıtdıqları bütün kəndlərdə təkrar olunurdu. Lakin təəssüflər olsun ki, o kəndlərin çoxunda bu vəhşiliklərin şahidləri belə qalmamışdır.

Çoxlu şahidlərin dediyinə görə, Zəngəzur qəzasında 1918–ci ilin yay sonu və payızında baş verən bu hadisələr bilavasitə cəllad Andranikin rəhbərliyi altında keçirilmişdir. Zəngəzur qəzasının müsəlman kəndlərinə hücum etmiş erməni quldur dəstələrinin başçıları və bu dəstələrin yüzlərlə üzvləri şahidlər tərəfindən tanınmışlar. Onlardan Gorus şəhərindən Nikolay Osipov, Simon Mirumov, Darabas kəndindən—Şamir Şahnazarov, Meğri kəndindən David Arşak, Matevos Maçiants, Kəvər kəndindən Amazasp, Xatanan kəndindən zabit Avanes Ter–Petrosov, Arnazur kəndindən Sumbat Melik–Stepanov və onlarca başqaları idi.

Zəngəzur qəzasının 100–dən çox müsəlman kəndi dağıdılmış, 10 minlərlə iribuynuzlu mal–qara və 100 minlərlə xırdabuynuzlu qoyun–keçi ermənilər tərəfindən sürülüb aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılıb dağıdılmış, bir sözlə, qəzanın müsəlman əhalisinin iqtisadi vəziyyəti üçün zəmin kökündən məhv edilmişdi. Qəzanın Azərbaycanın müxtəlif kəndlərinə qaçıb dağılışmış əhalisinə ermənilər tərəfindən o vaxtın qiymətləri ilə **1 milyard manata yaxın maddi ziyan vurulmuşdu**.

Ermənilərin Zəngəzurun müsəlman əhalisinə qarşı hücumları 1919–cu ilin dekabrından yenidən şiddətlənir. Artıq noyabr ayında ermənilər müsəlmanlar yaşayan Oxçu, Atqız, Şabadan, Pirdavdan kəndlərinə qarşı geniş hərbi əməliyyata başlamışdılar. Özü də bu vaxt artıq Ararat Respublikasının rəsmi nizami ordusu bu işdə iştirak etməyə başlayır.

1920–ci il yanvarın 6–da keçirilən iclasında Azərbaycan Cümhuriyyəti Dövlət Müdafiə Komitəsi “Zəngəzurun müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılmasının davam etməsinə qarşı tədbirlər görülməsinin zəruriliyi haqqında” daxili işlər nazirliyinin məlumatını müzakirə edir və qərara alınır ki, dinc əhaliyə qarşı ermənilərin bu hərəkətlərinin qarşısını almaq üçün müəyyən tədbirlər görülsün və bu haqda müttəfiq qoşunlarını bölgədəki nümayəndəsinə məlumat verilsin.

Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşilikləri 1920–ci ilin əvvəllərində özünün kulminasiya nöqtəsinə çatır. Həmin il yanvarın ortalarında Paris sülh konfransı ölkələri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması ilə əlaqədar olaraq ermənilər Zəngəzurda daha da fəallaşırlar. Özü də əvvəllər Zəngəzurda baş verən hadisələrin bilavasitə təşkitlatçısı olan Ararat Respublikası rəsmi yazışmalarda bu işlərdən qətiyyən xəbəri olmadığını iddia edir, həmin hadisələrin günahını gah Andranikin, gah da Zəngəzurda yaradılmış digər erməni təşkilatlarının üzərinə atırdı. Lakin 1920–ci ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin bilavasitə təşkilatçısı məhz Ararat Respublikasının özü idi. Burada da əsas məqsəd Zəngəzur qəzasını tezliklə və tamamilə müsəlmanlardan təmizləyərək sülh konfransı ölkələrini bu məsələnin Ermənistanın xeyrinə həllində həyata keçirilmiş fakt qarşısında qoymaq idi. Artıq bu təmizləmə siyasətində Zəngəzurdakı erməni quldur dəstələri ilə yanaşı, Ararat Respublikasının top və pulemyotlarla silahlanmış on mindən yuxarı nizami qoşun dəstələri də iştirak edirdi.

Bu hücumla əlaqədar olaraq 1920–ci il yanvarın 20–dən Azərbaycan Cümhuriyyəti Parlamentinə, hökumətinə,müxtəlif partiya fraksiyalarının rəhbərlərinə Zəngəzur, Cəbrayıl və Şuşadan çoxlu həyəcanlı xəbərlər daxil olur.

İlk teleqram 1920–ci il yanvarın 21–də Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Cəbrayıldan Azərbaycan Parlamentinə göndərilmişdir. Orada deyilirdi: “Zəngəzur qəzasında dörd gündür ki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında hücumları davam edir. Cəbhə xətti Qubadlıdan Xocahana qədər 50 verst məsafədə uzanır. İtkilər olduqca çoxdur. Əhali

vahimə içərisində qaçır və kömək umur. Artıq dərəcədə xahiş edirəm, çox sayda ordu və patron göndərmək haqqında təcili tədbirlər görün. Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz türk (azərbaycan — A.P.) xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz".

Elə həmin gün Şuşadan da Azərbaycan Parlamentinin ünvanına Məmməd Həsən Xocahanlı, Fərrux bəy Sarmasbəyov, Abbas bəy Mirzəyev, Baqrat bəy Cavanşir, İsmayıl Muxtarov tərəfindən vurulmuş teleqramda deyilirdi: "Yanvarın 19–dan başlayaraq ermənilər nizami ordu və artilleriyanın köməyi ilə Zəngəzur müsəlmanlarını qırmağa başlayıblar. Artıq Əliqulu uşağı, Eyvazlı, Şamsız, Şurnux, Məzrə, Novla, Tarovlu kəndləri tamamilə dağıdılıb, hücum davam edir. Müsəlmanların vəziyyəti çıxılmazdır. Heç yandan kömək yoxdur. İranlı ermənilər tərəfindən də təhlükə gözlənilir. Yalvarırıq, təcili tədbirlər görün".

Yanvarın 22–də isə Cəbrayıl məktəbinin nəzarətçisi H.Axundzadə Azərbaycan Parlamentinə göndərdiyi teleqramda yazırdı: "Ayın 19–da səhərdən erməni silahlı qüvvələri Zəngəzurda Xocahandan Qaladərəsinə kimi ərazidə bütün cəbhə boyu toplardan və pulemyotlardan müsəlman kəndlərini atəşə tuturlar. Altı kənd tamam dağıdılmış, doqquz kənd isə od içərisində yanır. Ermənilər qadınlara və uşaqlara belə rəhm etmədən qəddarlıqla müsəlmanları qırır, kəndləri dağıdırlar. Müqavimət göstərməyə heç bir qüvvələri olmayan müsəlmanlar bütün əmlaklarını ermənilərə qoyaraq yalnız qaçmaqla canlarını qurtarırlar".

Erməni millətçilərinin Zəngəzurdakı dəhşətli cinayətləri və onlara layiqli cavab verilməməsi — azərbaycanlı əhali arasında ümidsizlik doğurur. 1920–ci il yanvar ayının 23–də Cəbrayıldan müəllim Hüseyn Axunzadə və başqaları tərəfindən kiril əlifbası ilə Azərbaycan dilində Azərbaycan Cümhuriyyəti Parlamenti və hökuməti adına göndərdikləri teleqramda deyilirdi: "İkinci dəfə olaraq teleqraf edirik. Zəngəzur müsəlmanları tərəfindən başınız sağ olsun. Nə qədər zəngəzurlular ağladılarsa da, naləleri Zəngəzur dağları, dərələri və obaları arasından bir tərəfə çıxmadı. Qarı arvadların məmələri kəsilmiş, məsum balalarının başsız bədənləri qırmızı qanlarına bulaşmış, çöllərdə qalıblar. Qızlar və gəlinlər ermənilərin əlinə keçmiş, onların namuslarına təcavüz edilmişdir. Zəngəzurda düşmən müqabilində bir az kişi qalıb. Lakin onlar da tam ümidsiz vəziyyətdədirlər. Heç bir tərəfdən kömək gəlməmişdir. Ermənilərin nizami orduları on min nəfərə çatmışdır və hər an qüvvələri artmaqdadır. Ararat (Respublikası — A.P.) tərəfindən hər an onlara kömək gəlir. On ədəddən yuxarı topları və çoxlu pulemyotları vardır. Topların gurultusu Cəbrayılı həyəcana gətirmişdir. On minlərlə Zəngəzur qaçqını Cəbrayıl qəzasına yayılmışdır. Üzümüzü çeviririk ümumi Azərbaycan dindaşlarımıza. Onları Zəngəzurdakı qardaşlarımızın, bacılarımızın, məsum balaların məzlumanə şəkildə şəhid olmalarına qarşı "kömək, kömək" deyə yalvarışlarına cavab verməyə çağırırıq.

Ermənilərin fikri budur ki, Zəngəzurla qurtarmaqla Cəbrayıl erməniləri ilə birləşib buralarda da dəxi dava etsinlər və Naxçıvan ilə bizim əlaqələrimizi tamamilə kəssinlər. Əgər hökumət tərəfindən fövqəladə binagüzarlıq olmazsa, müsəlmanların işi fəna olacaqdır".

Elə həmin gün Cəlil Sultanovdan da Azərbaycan Parlamentinə, hökumətinə, bütün Parlament fraksiyalarının sədrlərinə aşağıdakı məzmunda ikinci teleqram daxil olmuşdur: "İndicə aldığım səhih məlumata görə, yanvarın 19–da erməni nizami ordusu 10 top və çoxlu pulemyotlarla Xocahan və Qaladərəsi arasındakı bir sıra tatar (azərbaycanlı — A.P.) kəndlərinə hücum etmişlər. Dünənə qədər 15 kənd məhv edilmişdir. Hücum Cəbrayıl qəzasının Xanlıq kəndi yaxınlığında davam edir. Qaçqınlar böyük sayda Cəbrayıla gəlirlər. Təkrar edir və yalvarıram ki, təcili tədbir görərək ordu göndərin. Xahiş edirəm mənim teleqramımı bütün Parlament üzvlərinə elan edəsiniz. Mən hərbi əməliyyat yerinə gedirəm".

Cəlil Sultanov yanvarın 23–də hərbi əməliyyat yerindən Parlamentə göndərdiyi üçüncü teleqramında yazırdı: "Bu gün axşam vaxtı qəza rəisi ilə birlikdə Cəbrayıla gəldim. Açıq səma altında Zəngəzurdan təzəcə gəlmiş on minlərlə lüt, ac qadın və uşaq qaçqınları gördüm. Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Ermənilərin döyüş meydanında qalmış ölüləri arasında bir neçə ingilis əsgəri də vardı. Xocahan və Zabux arasındakı bütün yüksəkliklər ermənilər tərəfindən tutulmuşdur. Əkərə çayının sağ sahili boyu üçüncü polis sahəsi tamamilə toplarla və pulemyotlarla məhv edilmişdir. Bu gün Zəngəzur qəzasının dördüncü polis sahəsinin sağ qalan hissəsini ermənilər mühasirə ilə kəsib ayıraraq onun da axırına çıxırlar. Zəngəzurda tam hakimiyyətsizlik hökm sürür. Döyüşmək və müqavimət göstərmək üçün heç bir vəsait yoxdur. Hökumətin köməyinə ümidini itirən əhali bütün Azərbaycan xalqına müraciət edir. Aldığımız məlumata görə, sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşməkdir. Nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Qarabağın Dağlıq hissəsinin erməniləri sürətlə üsyana hazırlaşırlar. Hökumətin fəaliyyətsizliyi Zəngəzur və Qarabağın məhvinə gətirib çıxarıb. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain xatisovların təntənəli ziyafətləri, Azərbaycanın erməni təbəələrinin həyasızlığı yetər. Xahiş edirəm təcili tədbir görün ki, heç olmasa

Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinayət və satqınlığa bərabərdir.

Hərbi nazirin iştirakı çox vacibdir".

1920–ci il yanvarın 24–də Cəbrayıldan C.Sultanovun Azərbaycan Parlamenti adına göndərdiyi son teleqramda deyilirdi: "Bütün teleqramlarıma əlavə olaraq hərbi əməliyyat yerindən məlum edirəm ki, Zəngəzur sarıdan başınız sağ olsun. Ermənilər öz qüvvələrini Cəbrayıl qəzasının sərhədlərində Əkərə çayı ətrafında cəmləşdirirlər. Qarabağı xilas etmək lazımdır. Erməni xəyanəti və hiyləgərliyi qurbanlarının sayı hesaba gəlməzdir. Yalvarıram təcili və qəti tədbirlər görün".

Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin Qarabağın general–qubernatoru X.Sultanova 1920–ci il 24 yanvar tarixli gizli məktubundan məlum olur ki, Zəngəzur və Qarabağda ermənilərin yaratdığı bu həyəcanlı vəziyyətlə bağlı hərbi nazirliyin xüsusi tədbirlər planı hazırlaması ilə yanaşı Dövlət Müdafiə Komitəsinin qərarı ilə daxili işlər orqanlarına yerli əhalidən müdafiə dəstələri yaratmaq üçün 5 milyon manat vəsait ayrılmış, bu vəsaitin lazımi yerlərə çatdırılması və nəzərdə tutulan məqsəd üçün sərf edilməsi işində yardımçı olmaq vəzifəsi həvalə edilmişdir. Lakin bu vəsaitin, xüsusilə hərbi sursatın yerlərə çatdırılmasında böyük çətinliklər yaranmasına baxmayaraq, nəhayət ki, bu çətinliklər aradan qaldırılaraq qəzanın əhalisindən ayrı–ayrı müdafiə dəstələri yaradılaraq Abdallardan Zəngilana qədər cəbhə boyu xəttində yerləşdirilmişdir.

Dövlət Müdafiə Komitəsinin qərarı ilə hərbi nazirliyin Xankəndi qarnizonunda və Gəncədə olan əsgəri qüvvələri Cəbrayıla yönəldilir. Daxili işlər naziri vəzifəsini icra edən M.Vəkilov 1920–ci ilin fevralında Qarabağ general–qubernatoruna, Zəngəzura hərbi yardım məqsədilə digər yerlərin əhalisindən təşkil olunmuş min nəfərlik müdafiə dəstəsi yaradaraq bölgəyə gətirilməsini tapşırır.

Görülmüş tədbirlər nəticəsində Cəbrayıl qəzasından göndərilən 600 nəfərlik süvari dəstəsinin və Zəngəzur qəzası 3–cü sahəsinin pristavı Cəmilbəyovun 2 pulemyotla göndərdiyi 300 nəfərlik silahlı dəstənin birgə səyi nəticəsində həm əsgər sayı, həm də hərbi texnika cəhətdən 6 dəfə üstünlüyə malik erməni ordusuna böyük zərbələr endirilərək Dondarlı ilə bərabər Qubadlı və digər kəndləri ermənilərdən geri alındı. Dondarlıdakı məğlubiyyətdən sonra erməni silahlı qüvvələri Əliquluşağı kəndindən Zəngilana qədər olan ərazidə geri çəkilməyə məcbur oldular. Bu həm də azərbaycanlı əhalidə mübarizəyə ümid oyatdı və sübut etdi ki, azərbaycanlılar yaxşı təşkil olunduqda ermənilərə layiqincə cavab verə bilirlər. Bu qələbənin əsas əhəmiyyətlərindən biri də onda idi ki, ermənilərin Qarabağa soxulmaq planları pozuldu. Həm də bu vaxt Türkiyə hərbi hissələrinin Naxçıvan mahalında yerli əhali ilə birlikdə ermənilərə qarşı döyüşlərdə erməni qüvvələrinə üstün gəlməsi erməniləri məcbur edir ki, özlərinin Zəngəzurdakı hərbi qüvvələrinin 2 minlik bir hissəsini kömək üçün geri çağırsın.

Nəticədə Azərbaycan ordu birləşmələri Cəbrayıl və Zəngəzur partizanları ilə birlikdə apardıqları müvəffəqiyyətli əməliyyatlar nəticəsində bir neçə kəndi ermənilərdən geri almış, hətta onlardan əsir götürmüş və hərbi sursat ələ keçirmişdi.

Azərbaycan ordusu və partizan dəstələrinin müvəffəqiyyətli əməliyyatlarını pozmaq, onlar arasında çaşqınlıq yaratmaq məqsədilə ermənilər 1920–ci ilin martında Novruz bayramı günü azərbaycanlıların bayram şənliklərinə başları qarışdığı bir vaxtda Qarabağda qiyam qaldırır və Azərbaycan ordusunun Xankəndidəki hərbi hissəsinin düşərgəsinə xaincəsinə basqın edirlər. Qarabağ qiyamı Azərbaycan ordusu tərəfindən müvəffəqiyyətlə yatırılır. Öz təcavüzkarlıq niyyətindən əl çəkməyən Ermənistan daşnak hökuməti Zəngəzura əlavə silahlı qüvvələr göndərməklə burada hərbi əməliyyatları yenə də qızışdırırdı. Nəticədə əlavə yeni qüvvələr alan erməni hərbi hissələrinin martın 27–də başlanan yeni hücumları nəticəsində bölgədə vəziyyət yenə də ağırlaşır. Güllə çatışmadığı üçün partizan dəstələri geri çəkilməyə məcbur olurlar. Fürsətdən istifadə edərək Qarabağ ermənilərindən yardım alan Zəngəzurdakı daşnak ordusu martın 27–də partizanların geri aldıqları Fərican kəndinə hücum edir. Martın 29–da gedən döyüşlər nəticəsində Azərbaycan əsgər və partizanları heç bir itki vermədən Əliquluşağı kəndini geri alır və 300–ə qədər ermənini məhv edirlər.

Lakin martın sonu apreiin əvvəllərində Zəngəzur və Qarabağ erməni silahlı dəstələrinin xeyli üstün qüvvələrlə güclü hücumları nəticəsində Həkəri çayından Şuşaya qədər olan ərazidəki Əliyanlı, Müsəlmanlar, Muradxanlı, Qaraimanlı və s. kəndlərin əhalisi öz yaşayış yerlərini tərk edərək Cəbrayıl qəzasına qaçmağa məcbur oldular.

Martın 31–də axşam Qubadlı və Dondarlı kəndlərinin ermənilərin əlinə keçməsi ilə əlaqədar olaraq polkovnik Qacarın başçılıq etdiyi hərbi hissələr Cəbrayıl qəzasının Xanlıq kəndinə çəkilməyə məcbur oldular. Bununla da Zəngəzurdakı erməni silahlı qüvvələri Qarabağdakı erməni hərbi dəstələri ilə birləşərək region üçün ciddi təhlükə yaradırlar. Belə ki, Zəngəzurun çox hissəsinin erməni hərbi birləşmələrinin əlinə keçməsi və Şuşa üzərinə hücum üçün real zəmin yaratması, Cəbrayıl qəzasını tutaraq Ağdam ilə əlaqəni tamamilə kəsə bilmə təhlükəsi yaranırdı. Buna görə də həmin il aprelin 1–də hərbi şuranın müşavirəsində ertəsi gün bütün Cəbrayıl qəzası üzrə hücuma keçmək qərara alınmışdı. Görülən bütün tədbirlər və aprel ayında aparılan döyüşlər nəticəsində Ermənistanın nizami silahlı dəstələri Zəngəzurda xeyli sıxışdırılmış və hadisələrin gedişi üzərində

nəzarət artıq bərpa edilmiş, daha müvəffəqiyyətli əks hücumlar üçün zəmin yaranmışdı. 1920–ci il aprelin 27–də XI ordunun Bakını, sonra isə Azəraycanın başqa bölmələrini işğal etməsi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Azərbaycanın ərazi bütövlüyünün təmin etmək üçün gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan sovetləşən kimi 1920–ci ilin dekabrında heç bir şərtsiz Zəngəzur Sovet Ermənistanına bağışlandı. Bununla da, mənfur Z.Balayanın “Ocaq” kitabında yazdığı kimi, “Türkün ürəyinə çalınmış paz” onsuz da iki yerə paçalanmış Azərbaycanın şimal hissəsini yenidən iki yerə böldü.

1918–1920–ci illərdə ermənilərin ən çox vəhşiliklər törətdiyi Azərbaycan ərazilərindən biri də Qarabağ bölgəsi olmuşdur. Azərbaycanın dilbər guşələrindən olan bu əraziyə ermənilər çoxdan göz dikmişdilər. Hələ XIX əsrin əvvəllərində ruslar erməniləri bu yerə köçürdükdən sonra əsasən gəlmə ermənilər həmişə Azərbaycana qarşı hiylə və məkr yuvası olan erməni məlikliklərindəki ermənilərlə birləşərək xalqımıza qarşı əsl təhlükəyə çevrilməkdə idilər. Həmişə “Yersiz gəldi, yerli, qaç” prinsipi ilə hərəkət edən ermənilər çar hakimiyyət orqanlarının onlara qarşı himayədarlıq siyasətindən məharətlə istifadə edərək yerli azərbaycanlıları getdikcə sıxışdırmağa başlayırlar. Onların bu hərəkəti XX əsrin əvvəllərindən başlayaraq artıq sistemli şəkil alır. Ermənilərin Qarabağ torpaqlarına ilk açıq iddiaları Rusiyada çarizmin devrilməsindən sonra başlandı. Rusiyada əvvəlcə fevral inqilabı, sonra isə oktyabr çevrilişindən ermənilər öz ərazi iddiaları üçün məharətlə istifadə etdilər. Hələ Birinci Dünya müharibəsi və rus inqilabından əvvəl də kifayət qədər silah əldə etmiş ermənilər vəziyyətdən istifadə edərək daha sürətlə silahlanmağa başladılar. Cəbhələrdən fərarilik edərək qaçan erməni əsgər və zabitləri hesabına Azərbaycan ərazisindəki erməni silahlı quldur dəstələrinin sayı getdikcə çoxalır. Nəticədə özlərində güc və qüvvə hiss edən ermənilər azərbaycanlılara qarşı özlərini çox həyasızcasına aparmağa başlayırlar.

Türkiyə təbəəsi, türk xalqının cəlladı Andranikin bu əraziyə gəlməsi ilə ermənilərin bu hərəkatı daha da azğın xarakter alır.

Daşnak partiyasının rəhbərliyi ilə ermənilərin **Qarabağın Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında törətdikləri vəhşiliklər** Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən yaradılmış Fövqəladə Təhqiqat Komissiyası tərəfindən geniş təhqiq olunmuşdur. Bu haqda çoxlu şahid ifadələri, baxış protokolları, məruzələr, bu qəzaların polis idarələrində tərtib olunmuş rəsmi sənədlərdə çoxlu faktiki məlumatlar toplanmışdır.

Hələ Sovet Rusiyasının Birinci dünya müharibəsi cəbhələrində hərbi əməliyyatlarının dayandırılmasından çox–çox əvvəl çoxlu erməni əsgərləri cəbhədən fərarilik edərək öz kəndlərinə qayıdır və özləri ilə çoxlu oğurluq tüfəng, pulemyot və digər hərbi sursatlar da gətirirdilər. Bu cür cinayət hallarına, bir tərəfdən, yerli erməni ziyalıları və erməni kənd icmaları kömək edirdisə, digər tərəfdən, Rusiyada polis hakimiyyətinin fəaliyyətsizliyi, bəzən isə onların bilərəkdən buna imkan vermələri olurdu. Fövqəladə Təhqiqat Komissiyasının üzvü N.Mixaylovun toplanmış faktlar əsasında hazırladığı məruzədə deyilirdi ki, **Cavanşir qəzasının müsəlman əhalisi özlərinin tarixi qonşunları olan ermənilərə çox sadəlövhlüklə inanır və hər ehtimala qarşı həmin silahların gələcəkdə onlara qarşı yönəldiləcəyini təsəvvürlərinə belə gətirə bilmirdilər**. Nəticədə onlar həmin silahların gətirilməsi qarşısını almaq üçün heç bir tədbir görmürdülər. **Yevlax stansiyasında və Bərdə şose yolu üzərində bu cür silah gətirilməsi halları azərbaycanlılar tərəfindən dəfələrlə aşkar edilmiş, lakin onlar buna elə bir prinsipial əhəmiyyət veməmişlər.**

Rusiyada bolşeviklərin oktyabrda etdiyi dövlət çevrilişindən sonra isə Yuxarı Qarabağa, o cümlədən Cavanşir qəzasının erməni kəndlərinə silah və sursat gətirilməsi, demək olar ki, açıq şəkildə həyata keçirilməyə başlandı. Həmin vaxtdan ermənilər müsəlmanlara qarşı özlərinin düşmənçilik niyyətlərini açıq şəkildə büruzə verməyə və onlara qarşı zor tətbiq etməyə başladılar.

N.Mixaylovun məruzəsində daha sonra göstərilirdi ki, Cavanşir qəzasındakı azərbaycanlı kəndləri əsasən düzənlik hissələrdə yerləşirdi. Lakin Kolanlı və Avrayan kənd icmalarından birincisi Cavanşir qəzasının dağətəyi, ikincisi isə yüksək dağ zolağında yerləşirdi. Kolanlı icmasına daxil olan 12 kənd (Dəmirlər, İmarət–Qərvənd, Umudlu, Qaralar, Sırxavənd, Çıraqlı, Əli–Ağalı və b.) hər tərəfdən erməni kəndləri ilə əhatə olunmuşdu. Bu kənd icmasına daxil olan kəndlərin əhalisi yalnız erməni kəndlərindən keçərək digər azərbaycanlı kəndləri ilə əlaqə saxlaya bilirdilər. Avrayan icmasına daxil olan kəndlər isə yüksək dağ zirvəsində, erməni kəndlərindən hündürdə yerləşməklə çox əlverişli vəziyyətdə idilər. Əhalisi qorxmaz kürd tayfaları idi. Ona görə də bu hadisələr zamanı onlar heç cür zərər çəkməmişdilər. Şahidlərin ifadələrinə görə erməni quldur dəstələri yalnız silahsız və tamamilə erməni kəndləri tərəfindən mühasirə olunaraq heç yandan kömək ala bilməyən azərbaycanlılar qarşısında özlərini güclü və mütəşəkkil hiss edir və çox asanlıqla müvəffəqiyyət qazanırdılar.

Məruzədə göstərilirdi ki, bütün Cavanşir qəzasında yalnız Kolanlı icmasına daxil olan kəndlər, demək olar ki, tamamilə ermənilər tərəfindən dağıdılmışdır. 1917–ci ilin dekabrından başlayaraq erməni silahlı quldur dəstələri Kolanlı icmasına daxil olan azərbaycanlı kəndlərinə hücum edir və onlardan hələ yer üzərində mövcud olmayan Ermənistan Respublikasına tabe olmağı tələb edir və guya öz dövlətləri üçün azərbaycanlılardan zorla vergi yığırdılar. Bundan əlavə, onlar bir ay müddətində öz əsgərlərini yedirtməyi azərbaycanlılardan tələb edir,

içib keflənərək onları təhqir edir, incidir, qadınlarını zorlayır, müntəzəm olaraq müsəlmanların mal–heyvanlarını zorla sürüb aparırdılar.

**Ataxan PAŞAYEV, Azərbaycan Respublikasının
Milli Arxiv İdarəsinin rəisi, tarix elmləri doktoru**

**“Respublika”.-**2013.-31 mart.-N 65.-S.3.

**Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları tarixi faktlar əsasında**

**İki yüz ildən artıqdır ki, erməni-daşnak quldur birləşmələri və onların havadarları Azərbaycan türklərinə qarşı qətliamlar həyata keçirir, torpaq iddiaları irəli sürür, böyük fəlakətlər törədirlər. Demək olar ki, iyirminci yüzillik başdan-başa azərbaycanlıların kütləvi qırğınları, yerini-yurdunu tərk etmələri, sürgünlük taleyi yaşamaları ilə müşayiət olunmuşdur.**

1905-1907, 1914-1916, 1918- 1920, 1948-1953 və 1988-ci ildən bəri baş verən hadisələr erməni faşizminin, vəhşiliyinin bariz nümunəsidir. 1992-ci il fevral ayının 26-na keçən gecə Xocalı şəhəri erməni silahlıları tərəfindən yerlə-yeksan edildi, böyük sayda uşaq, qadın, qoca, dinc əhali məhv edildi. Öldürülən insanların sayını 613 nəfər göstərdilər. Həqiqət budur ki, həmin gecə 2300 nəfərdən artıq adam erməni soyqırımının qurbanı olmuşdur. Xocalıda törədilən soyqırımı bizim üçün ilk olay deyildi. Ermənilər müxtəlif illərdə minlərlə Azərbaycan kəndini dağıtmış, yüzlərlə kəndi yer üzündən silmişlər. Elə isə bəzi faktlara müraciət edək…

Erməni soyqırımı məsələsi necə və haradan meydana çıxdı? Nəyə görə türklər ermənilərə qarşı qətliam törədiblər? Doğrudanmı belə olub? Yoxsa, insan qırğınları Türkiyəni arxadan vuran, parçalamaq istəyən, erməni dövləti qurmaq marağında olan bir millətin xəyanətinin nəticələrimi? Çox ciddi şəkildə özgə torpaqlarında erməni dövləti yaratmaq istəyən ermənilər Avropada, Amerikada öz havadarlarını axtarmaqla Türkiyə ərazisində öz dövlətlərini qurmaq istəyirdilər. Onlar bu sövdalarda xristian amilinə söykənərək, yeri gələndə dövlət başçılarını ələ almaq üçün bahalı hədiyyələr də təklif edirdilər. Ermənilər yaxşı bilirdilər ki, Avropa dövlətləri hər vaxt Türkiyəni parçalayb yox etməyə hazırdılar. Məhz ermənilər belə bir durumdan da yararlanmağa çalışırdılar. Xüsusilə, çar Rusiyası erməni dövləti yaratmaq üçün bütün vacib mexanizmləri işə salmışdı. Rusiya erməniləri hərbi silah və sursatla təmin edir, hərtərəfli yardımlar göstərir, Osmanlı Türkiyəsi ilə müharibəyə hazırlayırdı. Rusiya xarici işlər naziri Lobanov – Rostovskinin ortaya atdığı "Rusiya hüdudlarında ermənisiz bir Ermənistan" nəzəriyyəsi rusların erməni siyasətini çılpaqlığı ilə açıb göstərən ciddi bir sübut-dəlildir.

Türkiyədə vəziyyətin düzəlməsini istəməyən İngiltərə, Fransa hökumətləri də ermənilərə arxa- dayaq olaraq güclü təbliğat aparırdılar. Hətta onlar belə bir müddəa ortaya atmışdılar ki, erməni silahlılarına göstərilən hər hansı müqavimətlə bağlı soyqırım iddiası ortaya çıxa bilər. Demək "erməni soyqırımı"nın gündəmə gətirilməsi hələ 1915-ci ildən xeyli əvvəl diqqət mərkəzində olmuşdur.

Fransız ruhanisi Touclıt 1916-cı ilin fevralında "Ocuvre dorient" cəmiyyətində təşkil olunmuş konfransda 1915-ci il hadisələrinə münasibət bildirərək demişdir: "Hadisələr erməni inqilabçılarının müsəlmanları öldürmələri ilə başlanmışdır. Bu işin təfərrüatını bilmirik. Ermənilərin yaydıqları məlumatlara da inanmaq qeyri-mümkündür".

Ermənilərin uydurduqları "erməni soyqırımı"ndan bəhs edərkən gəlin tarixə səyahət edək, görək ermənilərin özləri hansı soyqırımların müəllifidir. Dəhşətli "Xocalı soyqırımı"na yön tutmazdan əvvəl görək ermənilər daha hansı soyqırımlara imza atıblar?

İndiki Ermənistan İrəvan xanlığının ərazisində qurulmuşdur. Əhalisinin 80 %-i vaxtilə Azərbaycan türkləri olan bu torpaqda bu gün bir nəfər azərbaycanlı yaşamır. Bəs bu insanlar öz razılığı iləmi öz torpaqlarını tərk edib, ermənilərə bağişlamışlar? Yoxsa, onlar erməni silahlılarının qəddarlığı, törətdiyi soyqırımlar nəticəsində iki min illik dədə-baba torpaqlarında qətlə yetirilmiş, yaxud, evlərindən zülümlə çıxarılmışlar?

1600-cü illərdən varlı erməni tacirləri erməni dövləti yaratmaq xəyalına düşdülər. Bu dövrlərdə Rusiya ilə İran arasında ticarət əlaqələri erməni tacirləri tərəfindən həyata keçirilirdi. 1660-cı ildə Culfalı Xoca Zakar Sarhadov Çar Aleksey Mixayloviçə " ermənilərə xüsusi lütfikarlığına görə" "Almaz taxt" hədiyyə etmişdi.

1701-ci ildə İsrail Ori adlı erməni arximandrit Minas Vartapedlə birlikdə Bavariya knyazının elçisi kimi Pyotrun qəbuluna gəlir. Onlar erməni məlikləri adından Çara qırmızı məxmərlə örtülmüş, qızıl məftillə tikilmiş, kənarları qızıla çəkilmiş gümüşlə əhatə edilmiş türk yəhəri hədiyyə edirlər. Yəhər Çarın xoşuna gəlir, necə deyərlər, onun gözünü qamaşdırır. Ermənilər sonralar da Çarla nəinki əlaqəni kəsməmişlər, hətta müxtəlif "hədiyyələrlə" Çarın sarayına yol tapmışlar. Bütün bunlar erməni dövləti yaratmaq üçün edilirdi.

1798-ci ildə Rusiyadakı erməni yeparxiyasının başçısı İosif Arqutinski və Moskva varlısı İvan Lazaryev (Hovhanes Lazaryan) Rusiya hökumətinin nümayəndələri ilə danışıqlar aparmışlar. Onlar bildirmişlər ki, Türkiyə ilə İran sərhəddinin kəsişdiyi yerdə erməni dövləti qurmaq vacib məsələdi. Bu fikir rus hökuməti əyanlarının xoşuna gəlir.

1828-ci ildə İrəvan xanlığının işğalından və Türkmənçay müqaviləsindən dərhal sonra İrandan, Türkiyədən bu əraziyə ermənilər köçürülməyə başladı. İrəvan xanlığının ərazisi "Erməni vilayəti" adlandırıldı. Bu ərazidə böyük vəchlə erməni dövləti yaratmaq Çar Rusiyasının canfəşanlığı sayəsində həyata keçsə də, Fransa və İngiltərənin yardımı ilə Türkiyədə erməni üsyanı təbliğatı aparılırdı. Ermənilərin fəallığını daha da

artırmaq üçün yeni bir təşkilata ehtiyac duyulurdu. Nəhayət, Rusiyanın himayəsi ilə 1890-cı ildə Tiflisdə Daşnaksütyun partiyası təsis edildi.

Məqsədləri üsyanlar yolu ilə Türkiyə Ermənistanı üçün siyasi və iqtisadi hürriyyət qazanmaq idi. Komitənin təşkilatına verdiyi əmrdə deyilirdi: "türkü, kürdü hər yerdə, hər cür şəraitdə vur. Mürtəceləri, dinindən dönənləri, erməni xəfiyyələrini, xainləri öldür. İntiqam al". İstəkləri daxildə üsyanlar edib, sonradan Bolqarıstan və Livanda olduğu kimi bir muxtar idarə əldə etmək, son nəticədə "Böyük Ermənistan" yaratmaqdır.

Qarşıda duran məqsədə çatmaq üçün bütün vəzifələri, qanlı qırğınları, iğtişaşları və bu işə rəhbərliyi "Daşnaksütyun" siyasi təşkilatı və partiyası öz üzərinə götürmüşdü. Tapşırığa əsasən ermənilər iğtişaşlar törətməli, türklərə və kürdlərə hücumlar edib, qırğınlar törətməli idilər. Marıqda duran Avropanın kütləvi informasiya vasitələri türklərin erməniləri qırmaları haqqında dünyaya səs salmalı idilər. Bu plan olduğu kimi həyata keçirilirdi. Deməli, "erməni soyqırımı" adlı yalana Amerika, Rusiya, İngiltərə və Fransa hələ çox-çox əvvəllər hazırlaşmış və təməlini qoymuşdular. "Daşnaksütyun" partiyasının təbliğat maşını təkcə İrəvanda, Tiflisdə deyil, Bakıda da işə salınmışdı. Ermənilər 1905-ci ilin fevralın 6-da Bakıda, fevralın 21-23-də İrəvanda, mayın 5 və 7-də Naxçıvanda qırğınlar törətdilər.

Mayın 23-də İrəvanda Qaraçay bağçasında müsəlman gənclərinə hücumla qırğın yenidən alovlanır. İyunun 2-də 10 min nəfərlik erməni alayı Məngüs kəndinə, 3-də Güllücə kəndinə hücum edirlər. Əliyalın əhali Tutiyə, Damagirməz, Kamal kəndlərinə qaçıb sığınır. Burada qırğınlar 18 gün davam etmişdir. Şörəyöl, Pəmbək, Eçmiədzin (Üçkilsə) qəzalarında da əhalini qıraraq sonuna çıxmışlar. Burada nə insaf, nə mürvət, nə də insanlıq yada düşməmişdir. Həmişə belə olmuşdur. Ermənilər uşağın, qocanın, qadının ayrı-ayrı əzalarını doğrayıb, başlarını kəsəndə nümayişkaranə qürur duymuşlar.

M.S.Ordubadi 1905-ci ildə indiki Ermənistan ərazisində ermənilərin törətdiyi qanlı qırğınları, soyqırımlarını qələmə alarkən yazırdı: "İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi."

"Böyük Ermənistan" yaratmaq iddiası ermənilərin qanını coşdurmuşdu. Rusiyanın hərtərəfli dəstəyi ilə, İngiltərə və Fransanın "qorxma-qorxma" fitvasına arxalanan ermənilərin gözünü qan örtmüşdü. İrəvan xanlığını və digər bölgələri ələ keçirmək üçün böyük fəlakətlər törədirdilər.

1905-ci il iyun ayının 9-da təpədən-dırnağa silahlanmış ermənilər Eçmiədzinin Təkiə kəndinə hücum etmiş, camaatı vəhşicəsinə güllədən və qılıncdan keçirmişlər. Axund Məhəmməd Əli Mirzə Əbdülhüseyn Qazızadənin böyük imarətinə od vurub, 200 cild Quran və müqəddəs kitabları yandırmışlar. Qafanın Karxana kəndindən qaçıb qayaların arasında sığınacaq tapmış 30-dan artıq qadını vəhşicəsinə məhv etmişdilər. Ara vermədən, amansız hücumlarda İrəvan quberniyasında məqsədlərinə nail olan erməni cəlladları Qarabağa, 1905-ci ilin noyabrında Gəncə şəhərinə soxuldular. Böyük qətliamlar törədirlər.

Məqsəd aydın idi, türk-müsəlman əhalini bu ərazidən vurub çıxarmaq… Çıxmadıqda ucdantutma, böyük-kiçik demədən məhv etmək, nəticədə, erməni dövləti qurmaq. 1905-1906-cı illərdə ermənilər İrəvan və Gəncə quberniyasında 200-dən artıq yaşayış məntəqəsini viran qoymuş, əhalisini qəddarlıqla məhv etmişlər. Ancaq ermənininin arxasında dayanıb "vur" deyən dövlətlərin biri bu məsələdə səsini çıxarmamışdır. Avqust ayının 1-də silahlı ermənilər Zəngəzurun 3500 nəfərlik Qatar kəndinə hücum etmişlər. Daha sonra Aralıq, Pirdavdan, Atqız kəndləri də yerlə-yeksan olmuşdu.

1914-1916-cı illərdə Rusiya, Fransa, İngiltərə və sonralar İtaliya arasında Türkiyəni bölüşdürmək haqqında gizli danışıqlar keçirilmişdi. Rus-türk müharibəsindən faydalanaraq ermənilər Türkiyənin 6 vilayətində "Qərbi Ermənistan" dövləti yaratmağa can atırdılar.

"Daşnakstyun" partiyasının 1912-ci ildə təşkil etdiyi Erməni milli bürosu 1914-cü il imperialist müharibəsi zamanı ermənilərin Çar Rusiyası tərəfindən müharibəyə cəlb edilməsi üçün geniş kampaniya aparırdı. Rusiya Türkiyə ilə müharibəyə başladıqda hər biri 400 nəfərdən ibarət dörd erməni könüllü dəstəsi hazırlayacaqlarını bildirmişdilər.

1919-cu ilin avqustunda Qafqaz cəbhəsinin baş komandanı Vorontsov-Daşkov Türkiyədəki erməniləri və yunanları silahlandırmaq üçün 25 min tüfəng və 12 milyon güllə gətirtmişdi. Bu zaman erməni könüllü dəstələri həm də xaricdə hazırlanırdı. Bolqarıstandan, Fransadan, Amerikadan 1000-ə yaxın erməni könüllüsü gəlmişdi.

Leoda "Mari" adlı əsərində Daşnaksütyun partiyasının məqsədini açıqlayaraq yazır: "Könüllü erməni hissələri ilə Andranik Vana yaxınlaşar-yaxınlaşmaz oradakı daşnaklar da dağlara çıxacaq və üsyan edəcəkdilər. 1915-ci ilin aprel ayında üsyan başlanacaqdı. Katalikos 10000 silahlı döyüşçünün müharibədə iştirak etdiyini bildirdi".

1914-cü ilin oktyabr ayında Çar Rusiyası ilə birlikdə daşnaklar da Türkiyəyə müharibə elan etmişlər. Türkiyə təbəəsi olan ermənilər də ruslara qoşularaq həmin bandalara birləşmişdilər. Ruslar sərhədi keçərkən ermənilər üsyan edib Van şəhərini ələ keçirdilər. Türk ordusuna qarşı vuruşan silahlı ermənilərin sayının 180

minə qədər olduğu müxtəlif mənbələrdə göstərilmişdir. Ermənilər Türkiyənin bütün bölgələrində üsyanlar, dağıntılar, sabotajlar edirdi. Rusiyanın fitvası ilə daşnaklar dəniz kimi çalxalanırdı.

Əvvəlcədən verilmiş göstərişə görə Vanda türk kəndlərinə basqınlar edərək əllərinə keçən uşağı, qadını, qocanı fərq qoymadan amansızlıqla məhv etdilər. Məscidləri, türbələri, bəzən kəndi və şəhəri yandırıb yerlə-yeksan etdilər. Amerikada çap olunan "Qoçnak" qəzetinin 24 may 1915-ci il sayında ermənilər iftixarla"Vanı əldə etdik, qalanı aldıq. Vanda ancaq 1500-ə qədər qadın və uşaqdan başqa türk qalmayıb" deyərək, iki gün içində böyük Van şəhərində bütün türk əhalisini qırdıqlarını etiraf etmişlər.

Rus yazıçısı Yuri Pompeyev 1992-ci ildə Sankt-Peterburqda çap etdirdiyi "Qarabağ qan içində" sənədli oçerkində erməni ikiüzlülüyünü tam açıqlayaraq ortaya qoyur. Yazıçı Strasburqdakı Şərq Tədqiqatları İnstutunun direktoru Pyer Dumonun erməni soyqırımı barədə mülahizələrini təhlil edərək yazır: 1989-cu ildə ABŞ senatı qarşıdan gələn 1990-cı ilin "erməni soyqırımı ili" elan olunmasını təklif etdikdə Pyer Dumon Avropa və Amerika qəzetlərində sensasiya doğuran belə bir bəyanat yaydı ki, Osmanlı imperiyası Türkiyə ərazisini erməni əhalisindən tamamilə təmizləmək barədə qoşunlara əmr göndərdiyi və bu işdə marağı olan siyasətçilərin son 70 il ərzində tarixi dəlil kimi istinad etdiyi "xüsusi teleqram" qətiyyən mövcud olmamışdır.

Fransız alim bildirmişdir ki, Birinci Dünya müharibəsində Türkiyənin şərqində yaşayan erməniləri tüfəng, pulemyot və toplarla silahlandıraraq zinvor quldur dəstələr yaratmışlar. Onlar yerli dinc əhaliyə qarşı amansız mübarizə apararaq 60 minə yaxın türk və kürd əhalisini məhv etmişlər (bu və başqa məlumatları Pyer Dumon təkcə Türkiyə arxivlərindən deyil, həm də Böyük Britaniya və Fransa xarici işlər nazirliklərinin arxivlərindən götürmüşdür). Ruslarla birgə əməliyyat aparan erməni silahlı dəstələri öz işğalçılıq əməllərindən və dinc əhaliyə qarşı törətdikləri cinayət əməlindən fərəhlənir, "məşhurlaşır"dılar.

Ümidsiz vəziyyətdə qalmış kürdlər rus qoşunlarına və erməni zinvor birləşmələrinə qarşı amansız partizan müharibəsi edirdilər. Üsyançılara türk nizami ordusu da kömək edirdi. Bu zaman rus qoşunları və zinvor dəstələri Zaqafqaziyaya qaçmağa məcbur oldu.

Pyer Dumonun uzun müddət apardığı tədqiqatdan məlum olur ki, faciəli 1915-ci ildən başlayaraq bu günə qədər ermənilərə qarşı heç bir soyqırım olmayıb, bu, müasir siyasətbazların xülyasının məhsuludur. Dinc kürd, türk və erməni xalqına qarşı yönəldilmiş bu hərbi əməliyyatın səbəbkarı Avropa, Amerika və Rusiya siyasətçiləri olmuşlar. Onların toruna düşmüş daşnakların "Böyük Ermənistan" iddiasının həyata keçirilməsi nəticəsində xeyli yaxın insan tələf olmuşdur. Pyer Dumon qeyd edir ki, həmin dövrdə Osmanlı Türkiyəsinin və Rusiya İmperiyasının sərhədləri daxilində cəmi 1,4 milyon erməni yaşayırdı. Göründüyü kimi, "2 milyon erməni öldürülməsi" açıq uydurmadır.

Pyer Dumon ABŞ senatına ünvanladığı bəyanatı aşağıdakı fikrilə tamamlayır: "Qoy siyasətçilər tarixə müdaxilə etməsinlər, onların müdaxiləsi həmişə saxtakarlıqla müşayiət olunur".

Pyer Dumonun qeyd etdiyi kimi Vanda məhv edilən 60 min dinc əhalinin qətliamına türk hökuməti dözə bilməzdi. Belə bir vəziyyətlə üz-üzə qalan hökumət tədbir görmək məcburiyyətində qaldı. 24 may 1915-ci ildə təhlükəli şəxsləri fərdi və ya cəm halında başqa bölgələrə köçürmək haqqında məşhur "Köçürmə qanunu"nu çıxardı. Ölkəni qan çəlləyinə çevirmiş ermənilər haqqında köçürmə qərarını çıxarmaqdan başqa Osmanlı hökumətinin çarəsi qalmamışdı.

Türkiyənin bu ərəfədə başını qaşımağa macalı yox idi. İngiltərə və Fransa tarixdə ən böyük donanma ilə Türkiyə üzərinə hücum etmişdi. Türkiyəyə qarşı müharibədə 500.000 döyüşçü iştirak edirdi. Çanakqalada Türk ordusu hər gün minlərlə şəhid verirdi. Köçürmə qərarını sinirə bilməyən İngiltərə, Fransa və Rusiya Osmanlı imperatorluğuna qarşı təbliğat kampaniyasına başladı və erməni soyqırımını da bu dövlətlər gündəmə gətirdilər. "Zavallı, əzabkeş erməni milləti"nin təbliğatı genişləndirildi. Amma bu "zavallı ermənilər"in necə vəhşiçiliklə qan tökmələrinin fərqinə varan olmadı.

Ermənilərin uydurma 1915-ci il "erməni soyqırımı"nı inkar edən mənbələrdən biri də Vandakı Fransız konsulu Zarzeçkinin 1914-cö ildə verdiyi məlumatdır. Bu məlumata görə, Türkiyədə 1,3 milyon, Rusiyada 1,1 milyon, İranda 100 min, Amerika, Misir, Polşa, Rumıniya və Bolqarıstanda 500 min erməni olduğu göstərilir.

**Eldar İSMAYIL,**
**şair, yazıçı, əməkdar jurnalist**

**"Xalq qəzeti".**-2013.-31 mart.-N 66.-S.2.

## Bakıda, Şamaxıda və Qubada 1918–ci il mart–aprel soyqırımı

**1918–ci il mart–aprel soyqırımı xalqımıza qarşı erməni təcavüzünün və erməni cinayətinin qanlı səhifələridir. Bu soyqırımı nəticəsində on minlərlə soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, dədə–baba ocaqlarından, ev–eşiklərindən və yurdlarından, doğma torpaqlarından qovulmuş, yüzlərlə maddi–mədəni abidələrimiz vəhşicəsinə dağıdılmış və məhv edilmişdir. 1918–ci ilin mart–aprelində Bakı şəhərində və Azərbaycanın digər bölgələrində minlərlə dinc azərbaycanlı əhalini yalnız milli mənsubiyyətinə görə amansızlıqla məhv etmiş, evlərə və tarixi abidələrə od vurmuş, insanları diri–diri yandırmış, hamilə qadınların qarnını yırtaraq körpə və südəmər uşaqların başını nizəyə keçirmiş, xəstələrə, qocalara—heç kimə aman verməmişlər. Vəhşiləşmiş erməni cəlladları Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Lənkəranda və başqa yerlərdə soyqırımı xüsusi qəddarlıqla həyata keçirirdilər.**

Əsrlər boyu Azərbaycan torpaqlarına göz dikən fitnəkar və araqarışdıran erməni millətçiləri monoetnik və "türksüz Ermənistan" uğrunda qərinələr boyu gizli və bəzən leqal müharibələr aparmış, "Dənizdən–dənizə" böyük imperiya yaratmaq üçün türk–Azərbaycan xalqlarına qarşı soyqırımı siyasəti yeritmişlər. Hiyləgər və riyakar ermənilər tarix boyu ən alçaq və rəzil mübarizə formalarından məharətlə istifadə edərək və maskalanaraq bədnam və yalançı niyyətlərini reallaşdırmağa cəhd etmiş, bu torpaqlara "qonaq" kimi gəlib, sonradan onun "sahibi" kimi yalanlar uydurmağa başlamışlar. Xüsusilə XIX–XX yüzilliklərdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Azərbaycan xalqının ümummilli lideri, Heydər Əliyevin dediyi kimi, mərhələ–mərhələ gerçəkləşdirilən belə qeyri–insani siyasət nəticəsində azərbaycanlılar öz doğma tarixi–etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi–mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. 31 mart–Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Azərbaycan xalqına etdiyi müraciətdə Heydər Əliyev demişdir: Hər il martın 31–ni Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd etməklə biz bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən genişmiqyaslı qanlı aksiyaları ürək ağrısı ilə yad edirik".

Ancaq çox təəssüflər olsun ki, erməni millətçiləri ağına–bozuna baxmadan tarixi saxtalaşdırır, gah Türkiyəyə qarşı, gah Azərbaycana qarşı, gah Gürcüstana qarşı, gah da Rusiyaya və Dağıstana qarşı əsassız ərazi iddiaları irəli sürür və beləliklə, sərsəm "böyük Ermənistan" yaratmaq üçün müxtəlif yalanlar uydurur, bəzən də ayrı–ayrı ölkələrdə dövlət və hökumət rəhbərlərini öz fırıldaqlarına inandıra bilirlər. Çünki istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakar, paxıl və vəfasız, oğru və söyüş söyən, yalanını işə keçirməyə çalışan ermənilər hər cür bəhanə tapıb bağırmağa bir candırlar (akademik V.L.Veliçko). Zaman–zaman türklərə və azərbaycanlılara qarşı dəhşətli qırğınlar törədən erməni başkəsənləri özlərinin yalançı tezisləri ilə dünyanı aldadır və əslində tarixi saxtalaşdırırlar. Lakin erməni millətçiləri nəhayət, anlamalı və başa düşməlidirlər ki, bəşər tarixində ən real və düzgün həqiqəti zaman özü verir. Çünki tarixi saxtalaşdırmaq mümkün deyil, o, nə vaxtsa tarixi həqiqətləri üzə çıxaracaq və kimin yalançı, kimin doğru olduğunu faktlarla sübut edəcək. Çünki hər tarixin öz zamanı, hər zamanın öz tarixi vardır. Bəli, artıq həmin zaman gəlib çatmış, tarixi həqiqətlər arxivlərin və mənbələrin dili ilə üzə çıxmışdır. Erməni daşnaqları özlərinin lideri və türk dünyasının qatı düşməni olan daşnaq S.Şaumyanın fitvası ilə 1918–ci ilin martında təkcə Bakı şəhərində və şəhərətrafı kəndlərdə 30 min azərbaycanlını qətlə yetirdilər. Bu, əsl soyqırım idi.

Heydər Əliyev tərəfindən imzalanan Prezident fərmanında deyildiyi kimi, ermənilər minlərlə dinc azərbaycanlını məhv etmiş, evlərə od vurmuş, insanları diri–diri yandırmış, milli memarlıq abidələrini dağıtmış, Bakının böyük bir hissəsini və yüzlərlə azərbaycanlı kəndlərini xarabalığa çevirmişlər. Ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşında əbədi həkk olunmuşdur.

Mart qırğını XX əsr Azərbaycan tarixinin ən ağır və dəhşətli səhifələrindən biri, xalqımıza qarşı törədilən qanlı faciə və soyqırımdır. Azərbaycanda və xaricdə bu faciə ilə bağlı xeyli tədqiqatlar aparılmışdır. Çox təəssüf ki, bu dəhşətli hadisə sovet tarixçiləri tərəfindən saxtalaşdırıldığından, uzun müddət xalqa yanlış şəkildə təqdim olunmuşdur. Hətta hadisələrin cərəyan etdiyi dövrdə belə "Naş qolos" qəzetindən başqa Azərbaycanın bütün bolşevik təmayüllü mətbuatı mart qırğınını "vətəndaş müharibəsi" adlandırmışdı. "Naş qolos" qəzeti bu hadisəyə milli ədavət kimi qiymət vermişdi. Bakıda və Azərbaycanın digər bölgələrində baş verən 1918–ci ilin mart–aprel hadisələrini əsas tutan Amerika tarixçisi R.Syuni "Bakı Kommunası", 1917–1918–ci illər. Rus inqilabında sinif və millət" adlı monumental tədqiqatında müşahidə etmişdir ki, Zaqafqaziyada, xüsusilə Bakıda inqilabi mübarizə sinfi mahiyyət daşımamış, millətlərarası müharibə zəminində baş vermişdir.

Son illərdə Azərbaycan tarixçilərinin tədqiqatlarında bu faciənin mahiyyətinin işıqlandırılması istiqamətində ciddi tədqiqatlar aparılmış, fundamental kitablar yazılmışdır. Azərbaycan milli hərəkatının

inkişafına böyük təsir göstərmiş mart hadisələrini Zaqafqaziyada cərəyan edən hadisələrdən təcrid olunmuş halda qiymətləndirmək olmaz.

"Müsavat"ın xalq arasında artan nüfuzundan qorxuya düşən erməni milli partiyaları və bolşevik cildinə girmiş ermənilər Bakıda hakimiyyət məsələsini tam həll etmək, Azərbaycan xalqının milli ruhunu öldürmək məqsədilə qırğın törətmək kimi iyrənc üsula əl atmaqdan çəkinmədilər. Həmin dövrün siyasi ab–havasını araşdırmış "Daşnaksütyun" partiyasının lideri Ovanes Kaçazuni qeyd edirdi ki, "bolşeviklərə yalnız iki partiya real qüvvə çıxara bilərdi: "Müsavat" və "Daşnaksütyun" partiyaları. "Daşnaksütyun" belə hesab edirdi ki, "Müsavat"la onun dostluğu bolşevik təhlükəsi olduqda lazımdır. Bakıda bizim köməyimizlə bolşeviklər "Müsavat"ı darmadağın etdilər".

Oktyabr hadisələrindən sonra Qafqazın sovetləşdirilməsi problemi Rusiya bolşeviklərinin qarşısında duran aktual məsələlərdən idi. 1917–ci il dekabr ayının 16–da Petroqrad Xalq Komissarları Soveti öz iclasını "Qafqazda vəziyyət haqqında" məsələyə həsr etmiş və Bakı Sovetinin sədri S.Şaumyan Qafqaz və Qərbi Ermənistan üzrə fövqəladə komissar təyin olunmuşdu. Bunun ardınca Bakı Soveti rəhbərliyi şəhərdə qızıl ordu hissələri adı ilə erməni qoşun birləşmələrini yaratmağa başladılar. Bu iş erməni siyasi və hərbçilərinin nəzarəti altında icra olunurdu. Daşnak Z.Avetisyan qızıl ordunun qərargah rəisi, Hamazasp üçüncü briqadanın komandiri, polkovnik Qazarov isə korpus komandiri vəzifələrini icra edirdilər.

Tarixi fakt və sənədlərin araşdırılması mart qırğınının qabaqcadan düşünülmüş, planlı surətdə hazırlanmış və həyata keçirilmiş bir soyqırım olduğunu sübut edir. Qanlı hadisənin başlanmasından bir qədər əvvəl Bakı Sovetinin iclaslarında və digər yığıncaqlarında S.Şaumyan M.Ə.Rəsulzadə və A.Kazımzadəni təhlükəli şəxslər kimi qiymətləndirir, onlara məxsus silahlı qüvvələrin Türkiyə sultanına arxalandığı fikrini təbliğ edirdi.

1918–ci il mart ayının 15–də cəllad Şaumyan Bakı Sovetinin iclasında çəkinmədən: "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir",—deyə bəyan etmişdi. Bir gün əvvəl, mart ayının 14–də S.Şaumyanın əmri ilə erməni cəlladı Əmirovun komandanlığı altında Şamaxı şəhərinə bolşevik silahlı birləşmələri göndərildi. Salyan, Hacıqabul, Muğan və Lənkəran bölgələrinə silahlı bolşevik dəstələri yeridildi. Toqquşmanı başlamaq üçün bəhanə bu ərəfədə H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 nəfər hərbçinin gəlişi oldu. Dəfndən sonra zabitlər həmin gəmi ilə geri qayıtmalı idilər. Erməni daşnakları fitnəkarlıqla əsgər və matroslar, eser və menşevik partiyaları, rus milli şurası arasında şayiə yayırdılar ki, "Evelina"dakı zabitlər guya ki, Muğandakı Malokan kəndlərini dağıtmaq üçün xüsusi göstəriş alıblar.

Erməni daşnaklarının rəhbərliyi və iştirakı ilə şəhərin müxtəlif yerlərində Azərbaycan türklərinin əleyhinə mitinq və yığıncaqlar keçirilməyə başlandı. Bunun nəticəsində Bakının bütün qeyri–türk siyasi birlikləri və hərbi qüvvələri "Evelina"nın tərk–silah edilməsi tələbini irəli sürdülər. Mürəkkəb siyasi şərait yarandı. Daşnakların zəhərli təbliğatı "öz işini" görmüşdü.

Mart ayının 30–da ilk döyüşlər başlandı. Döyüşlərə rəhbərlik üçün S.Şaumyan, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan və M.Yolçiyan daxil olmaqla Bakı Soveti yanında inqilabı müdafiə komitəsi yaradıldı. Belə bir müdafiə komitəsinin yaradılması hər şeyin qabaqcadan düşünülmüş qırğın planından xəbər verirdi. Ona görə ki, belə bir inqilabi komitənin yaradılmasına qətiyyət ehtiyac yox idi.

Aparılmış tədqiqatlardan aydın olur ki, türk xalqlarının qatı düşməni olan daşnak Şaumyanın göstərişi ilə Bakı Sovetinin sərəncamında olan hərbi qüvvələr, Xəzər dənizi hərbi donanmasının gəmiləri və təyyarələri döyüşə hazır vəziyyətə gətirilmişdi. Hətta rus əsgər və matroslarına da belə bir yalançı təbliğat aparılmışdı ki, guya müsəlmanlar rus əhalisini qırırlar. Ermənilərin bu yalanı baş tutdusa da, ancaq sonradan onun böhtan və təxribat olduğunu bilən rus matrosları atəşi dayandırdılar. Lakin erməni silahlı dəstələri Bakı şəhərinin müxtəlif məhəllələrində dinc müsəlmanların qırğınını davam etdirirdilər. Hadisələrin şahidi N.Nərimanov olmuşdur.

Həmin gün saat 5–də açılan ilk atəş Azərbaycan türklərinin üzləşdiyi soyqırımının başlanğıcı oldu. Azərbaycan ziyalıları bu faciənin qarşısını almaq üçün əllərindən gələni edirdilər. Bolşevik sıralarında fəaliyyət göstərən N.Nərimanovun bu sahədəki xidmətləri təqdirəlayiqdir. Bunu 1918–ci il aprel ayının 1–də "Hümmət" qəzetində çap olunmuş "Qanlı faciədən dörd saat qabaq" adlı redaksiya məqaləsi də təsdiq edir.

M.Ə.Rəsulzadə martın 30–da İnqilabi Müdafiə Komitəsində Bakı Soveti rəhbərləri ilə keçirdiyi görüşdə alınmış silahların "Hümmət" təşkilatı vasitəsilə qaytarılması istiqamətində razılığa nail olsa da, daşnak–bolşevik hökuməti öz sözlərinə əməl etmədi. Çünki onlar "Hümmət"ə inanmır, N.Nərimanovun isə "sağ təmayülçü"lüyündən narazı idilər.

Faktlar sübut edir ki, Bakı qırğınlarına qatı cinayətkar cəllad Şaumyan özü rəhbərlik edirdi. Həmin dövrün canlı şahidi və fəal iştirakçısı, erməni bolşeviki H.Əsiryans qeyd edirdi ki, "1918–ci ilin fevralında T.Əmirov bizi yığıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1–də siqnal olacaq, bu xəbərdaredici siqnaldan sonra biz hücum edib "Müsavat"ın qərargahını tutmalı idik və belə də oldu.

Ermənilərin kütləvi qırğınına məruz qalan türk–müsəlman əhalisi martın 31–də müqavimət göstərməyi dayandırdı. Həmin gün cürbəcür bəhanələrlə danışıqların müsbət nəticələnməsinə mane olan İnqilabi Müdafiə Komitəsi istədiyinə nail olduqdan sonra ultimatum verdi. Ultimatumda İnqilabi Müdafiə Komitəsinin tələblərinin gündüz saat 3–ə kimi yerinə yetirilməyəcəyi təqdirdə müharibəni davam etdirəcəkləri qeyd olunurdu.

İnqilabi Müdafiə Komitəsi döyüşlərin dayandırılması barədə göstəriş versə də, bu göstəriş yalnız kağız üzərində qaldı. Erməni birləşmələri müqavimət göstərməyə qabil olmayan türk–müsəlman əhalisinə divan tutmağa başladılar. Şəhərin Məhəmmədli və Zibillidərə məhəllələrinin əhalisi, demək olar ki, son nəfərinə qədər qılıncdan keçirildi. Ermənilər azərbaycanlılara məxsus bütün evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını dağıtdılar. "Kaspi" mətbəəsi, "Açıq söz" qəzeti redaksiyası, "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin yerləşdiyi "İsmailiyyə" binası vəhşicəsinə yandırılmışdı.

"Təzə pir" məscidinin minarələri mərmilərlə dəlik–deşik edildi. Bir sıra yerlərdə döyüşən əsgərlərə erməni ziyalılarının rəhbərlik etməsi faciənin milli zəmin üzərində qurulduğunu qəti sübut edirdi.

Bakıda törədilmiş qırğınlara şəxsən Şaumyan özü rəhbərlik edirdi. Bolşevik cildinə girmiş bu başkəsən erməni yaranmış fürsətdən istifadə edərək silahlı erməni yaraqlılarına bütün müsəlmanları kütləvi şəkildə qırmağa göstərişlər verirdi. Silahlı ermənilər və yaxşı təlim görmüş daşnaq–bolşevik qüvvələri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, üç–dörd günlük cocuqları süngülərin ucuna keçirirdilər. Şəhərin bu hissəsində az adam canını qurtara bildi. Sonralar təkcə bir yerdən qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, təhqir edilmiş 57 müsəlman qadın meyiti tapılmışdır. Erməni vəhşiləri qətllər zamanı heç kimə rəhm etmir, uşaqlara, ahıllara, xəstələrə belə aman vermirdilər. Müsləman meyitlərinin yandırılması və iyrənc formalara salınması barədə Fövqəladə Təhqiqat komissiyasının materiallarında və digər sənədlərdə çoxlu faktlar vardır. Həmin Komissiyanın materiallarında qeyd edilir ki, erməni silahlı dəstələri Bakının bir çox küçələrində bu cür amansız vəhşiliklər törətmişlər.

Hadisələrin canlı şahidi olan görkəmli siyasi və ictimai xadim S.C.Pişəvəri yazırdı ki, 1918–ci il martın 30, 31–i və aprelin 1–də gecəli–gündüzlü qırğınlarda çoxlu müsəlman öldürüldü. Ölənlərin sayı 10 mindən artıqdır. Pişəvəri yazırdı ki, türk qadınlarını saç–saça bağlayaraq çılpaq halda küçələrdə gəzdirdikdən sonra açıq şəkildə onlarla təhqiramiz hərəkətlər edirdilər. Mən (yəni S.C.Pişəvəri) 1918–ci ildə ermənilərin vəhşiliklərini, meyitlərin yandırılmasını öz gözümlə gördüm. Bu, çox faciəli və nifrətedici bir hərəkət olmuşdur.

Erməni vəhşiliklərini amansız şəkildə pisləyən M.Ə.Rəsulzadə yazırdı: "Mart qırğınları zamanı ermənilər Bakıda minlərcə müsəlmanı, qadını, cocuğu öldürdü… ermənilər müsəlman məhəllərinə soxulur, adamların başına od yağdırırdılar… Ermənilər hamını atəş və qılıncdan keçirir, südəmər cocuqları süngü ucuna taxır, qadın və cocuqların ürəkparçalayan iniltilərinə və ümidsiz nalələrinə heç bir məhəl qoymur, özlərini qalib erməni ordusu kimi aparırdılar".

Üzeyir Hacıbəyov yazırdı: "Başımıza mart fəlakəti gətirib, Bakını xarabazara döndərdilər". Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, komissiyanın materiallarında qeyd edildiyi kimi, mart qırğınları zamanı ruslar, yəhudilər və gürcülər mümkün qədər azərbaycanlıları xilas etmişlər. Ermənilər azərbaycanlılara qarşı qırğını yalnız ermənilərə qəti ultimatum vermiş 36–cı Türküstan polkunun tələblərinə görə dayandırmışlar.

**Şamaxı qırğını**

Erməni cəlladlarının vəhşilikləri onların yalnız Bakıda törətdikləri qanlı faciə ilə bitmədi. S.Şaumyanın əmri ilə qatı daşnak T.Amirov və türklərin qanına susamış S.Lalayanın başçılığı ilə erməni daşnak–bolşevik ordusu iki min nəfərlik qüvvə ilə guya əksinqilaba qarşı mübarizə aparmaq üçün Şamaxıya hücum etdilər.

Martın 18–də sübh çağı Şamaxı ətrafında top atəşləri eşidilməyə başladı. Aydın oldu ki, gecə ikən şəhər ermənilər, şimal–şərqdən isə molakanlar tərəfindən mühasirəyə alınmışdır. Müsəlmanlar əvvəlcə müdafiə olunmaq istəyirdilər, lakin topların qarşısında dayana bilmədiklərinə görə geri çəkilməyə məcbur oldular. Axşama yaxın ermənilər şəhərin ən varlı hissəsi "Pirvan–Şirvan"a daxil oldular. Evlər yandırılır, yanan evlərdən çıxan kişilər, qadınlar, uşaqlar güllələnirdi. Gecə müsəlmanlar təslim olmaları barəsində ermənilərə müraciət etsələr də, atəş dayandırılmadı. Bu vəhşiliklər bir neçə gün—Gəncədən müsəlman qoşunları Şamaxı şəhəri və Şamaxı qəzası əhalisinin köməyinə gələnə qədər davam etmişdir.

Şamaxı əhalisinə qanlı divan tutan ermənilər Şamaxı şəhərində və kəndlərində 16 mindən artıq günahsız azərbaycanlını öldürdülər. Şamaxı qəzasının 72 kəndi daşnak–bolşevik hərbi birləşmələri tərəfindən dağıdılıb yandırılmışdı. Şamaxının sağ qalan azərbaycanlı əhalisi baş götürüb qaçmağa başladılar.

Erməni quldurlarının 1918–ci ilin mart–aprel aylarında törətdikləri qırğınlar barədə Azərbaycan Cümhuriyyəti hökumətinin Fövqəladə Təhqiqat Komissiyasının 925 səhifədən ibarət təhqiqat materialları toplanmışdır. Arxivdə saxlanan həmin sənədlərdə ermənilərin törətdikləri vəhşiliklər və ağılasığmaz cinayət əməlləri haqqında çoxlu faktlar vardır. Komissiyanın hazırladığı məruzədə bir çox məsələlər aydın olur. Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədovun hazırladığı məruzədə erməni vandalizmi barədə çoxlu faktlar göstərilir. Ermənilər evlərə soxulur, qiymətli əşyaları zorla qarət edir, sonra evləri qəddarlıqla yandırır,

adamları küçələrə yığır, güllələyir, qadınların yırtılmış qarınlarından uşaqları çıxarıb nizəyə taxır, uşaqları diri–diri yerə mıxlayırdılar. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam etmişdir. Yalnız Gəncədən azərbaycanlı silahlı dəstənin Şamaxıya köməyə gəlməsi ilə qorxuya düşən ermənilər qaçmışlar. Sonra yenə hücuma keçən ermənilər böyük dağıntı yaradırlar.

Ermənilər Şamaxının qədim tarixi abidələrini, 13 məscidi, o cümlədən Cümə məscidini yandırdılar. Şamaxı qəzasının 53 kəndində 8027 nəfər azərbaycanlını öldürdülər. Son tədqiqatlarda qeyd olunur ki, ermənilər Şamaxıda 8 min, qəzalarda 8 min, bütövlükdə 16 min nəfərə qədər azərbaycanlını qətlə yetirmişlər.

**Quba qırğını**

May ayının 1–də quldur daşnak zabiti Hamazaspın başçılığı ilə ancaq ermənilərdən ibarət olan böyük hərbi dəstə Qubanı mühasirəyə alaraq, şəhəri toplardan və plemyotlardan atəşə tutdular.

Hamazaspın “cəza dəstəsi”ni Qubaya şəxsən Şaumyan göndərmiş və bu barədə o, digər komissarlarla heç məsləhətləşməmişdi. Bu dəstəni təşkil edən isə hərbi komissar erməni Qriqori Korqanov olmuşdur. Q.Korqanov S.Şaumyanın təklifi ilə Hamazaspın dəstəsinə yalnız “Daşnaksütyun” partiyasının üzvü olan əsgərləri (iki min nəfər) daxil etmiş və ona qatı millətçi Venuntsu dəstə komissarı, Nikolay adlı hərbçini isə köməkçi təyin etmişdir. Hamazasp Qubanı işğal etdikdən sonra şəhər camaatına hədə–qorxu məzmunlu müraciətində onun dəstəsinin bu yerlərə hansı məqsədlə göndərildiyi açıq şəkildə ifadə olunmuşdu. O vaxt Hamazasp demişdi: “Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən buraya—Qubaya xüsusi cəza dəstəsilə ona görə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülən ermənilərin hayıfını sizdən alım. Mən buraya qayda–qanun yaratmaq, Sovet hakimiyyətini qurmaq üçün gəlməmişəm. Xəzər dənizinin sahillərindən tutmuş Şah dağına qədər olan ərazidə yaşayan bütün müsəlmanları məhv etmək barədə mənə göstəriş verilib. Mənə sizin yurd–yuvanızı yerlə–yeksan etmək, Şamaxıda törətdiklərimizi sizin də başınıza açmaq tapşırılıb”.

Hamazaspın quldur dəstəsi istər Qubaya gələrkən yolboyu, istər şəhərə girərkən, istərsə də mahalın digər ərazilərində vəhşi hərəkətlər etmişlər. Ermənilər qarşılarına çıxan kəndləri, obaları, yurd yerlərini dağıdır, yandırır, rastlaşdıqları kişiləri, qadınları, uşaqları qəddarcasına qətlə yetirirdilər. Qubada bir–bir evlərə girib bəzən bütün ailəni məhv edən ermənilər hətta hamilə və uşaqlı qadınlara belə rəhm etməmişlər. Məsələn, onlar Kərbəlayi Məmməd Tağı oğlunun 14 nəfərdən ibarət ailəsini, Məhəmməd Rəsul oğlunun 5 nəfərlik ailəsinin başlarını kəsmiş, Hacı Dadaşbala Qasım oğlunun arvadı Bibixanım və oğlu Əbdul Qasımı diri–diri oda ataraq yandırmış, Kərbalayi Abuzər Məstan oğlunu və iki qızı – Hökuməni və Bustanı qucaqlarındakı körpələrlə birlikdə tikə–tikə doğramış, Məşədi Qənbər Molla Məhəmməd Saleh oğlunu, onun arvadını və beş körpə uşağını şaqqalamışdılar.

Hər cür vəhşilik və talanlarla yanaşı, ermənilər ən alçaq və rəzil hərəkətlərə də əl atmaqdan belə çəkinməmişdilər. Hamazaspın cəza dəstəsi Quba qəzasının 162 kəndini yandırdılar, 4 mindən çox azərbaycanlını, 12 mindən çox müsəlman ləzgini öldürdülər.

Erməni silahlı quldur dəstələri öz qəddarlığı ilə seçilən qatı cinayətkar Hamazaspın göstərişi ilə Quba qəzasında görünməmiş vəhşiliklər törətmiş, müsəlman əhalini diri–diri 4–7 metr dərinliyində olan quyulara dolduraraq başlarına daşlar yağdırmış və öldürmüşlər. 1918–ci ildə Quba qəzasında törədilmiş cinayətlər barədə konkret və real faktlara malik olan **Azərbaycan Respublikası Baş Prokurorluğunun** mətbuat xidmətinin 2010–cu il aprelin 22–də elan etdiyi məlumatda deyilir ki, 1918–ci il mayın 1–də səhər vaxtı Hamazapsın rəhbərlik etdiyi cəza dəstələri Quba şəhərini mühasirəyə alaraq şəhəri top, pulemyot və digər atıcı silahlardan atəşə tutduqdan sonra müqavimətsiz şəhərə daxil olmuş, müsəlmanlara qarşı hər cür zorakı hərəkətə yol vermişdir. Ermənilər küçədə qarşılarına çıxan dinc əhalini, o cümlədən uşaqları və qadınları xəncərlə, tüfənglə qətlə yetirmiş, evlərə soxularaq bütöv ailəni qırmış, uşaqların başlarını kəsmiş, qadın və qızları zorladıqdan sonra öldürmüş, insanların əmlakını və evlərini, məscidləri yandırıb talan etmişlər.

Həmin hadisələr zamanı Quba şəhərində kütləvi qırğın törədilərək 2000 nəfərdən artıq müsəlman kişi, qadın və uşaq qətlə yetirilmiş, 105 yaşayış evi yandırılmışdır.

Erməni cəza dəstələri heç kimə rəhm etmədən hamını ucdantutma öldürürdülər. Respublika Prokurorluğunun mətbuat xidmətinin məlumatında tarixi həqiqətə uyğun olaraq belə bir fakt da göstərilir ki, 1918–ci ilin mart və aprel aylarında erməni qatilləri tərəfindən 104 nəfər dağ yəhudisi, o cümlədən Qırmızı qəsəbə sakinləri olan 18 nəfər yəhudi öldürülmüşdür. Erməni quldurları Hacıqabul, Kürdəmir, Salyan və Lənkəran qəzalarında da dəhşətli faciələr törətdilər. Bakı quberniyasında azərbaycanlıların soyqırımı 1918–ci il sentyabr ayının ortalarınadək yəni Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam ordusu tərəfindən azad edildiyi dövrə qədər davam etmişdi. Erməni millətçilərinin törətdikləri türk–müsəlman soyqırımı zamanı 50 mindən çox azərbaycanlı öldürülmüş, on minlərlə dinc əhali öz doğma yurdlarından didərgin düşmüşdü.

Erməni cəlladları bütün Cənubi Qafqaz ərazisində, azərbaycanlılar yaşayan bütün bölgələrdə kütləvi qırğınlar törətmiş, on minlərlə dinc müsəlmanı qətlə yetirmişdilər. Ermənilər azərbaycanlılar yaşayan kəndləri qarət etmiş, dağıtmış və yandırmışdılar. Faktlara müraciət edək: Bakı quberniyasında 229 kənd, Gəncə quberniyasında 272 kənd, İrəvan quberniyasında 211 kənd, Zəngəzur qəzasında 115 kənd, Qarabağda 150 kənd,

Quba qəzasında 162 kənd, Şamaxı qəzasında 86 kənd, Vedibasar mahalında 118 kənd, Zəngibasar mahalında 48 kənd, Dərələyəzdə 74 kənd, Şərurda 4 kənd dağıdılmış və yandırılmışdı.

1918–ci ilin mart qırğını Azərbaycanın türk–müsəlman əhalisi üçün faciə ilə nəticələnsə də, bu qanlı hadisə milli hərəkatı boğa bilmədi, əksinə onun inkişafında mühüm mərhələ oldu. Daşnak–bolşevik siyasi rəhbərləri törətdikləri qanlı faciələrə baxmayaraq, öz istədiklərinə nail ola bilmədilər. Azərbaycanlılar arasında birlik ideyası daha da gücləndi. Xalq başa düşdü ki, onun nicatı yalnız özünə arxalanmaqda, öz milli təşkilatının arxasınca getməkdə və onun ətrafında möhkəm birləşməkdədir. Bu hadisə Azərbaycanda milli siyasi partiyalar arasında müstəqil dövlətçilik ideyasını möhkəmləndirdi.

Qafqaza və Qarabağ torpaqlarına qonaq kimi gələn ermənilər sonradan bu yerləri özününkü etməyə çalışmış, etnik təmizləmə siyasəti apararaq ötən əsrin 80–ci illərinin sonunda “türksüz Ermənistan” dövləti yarada bilmişlər. Əvvəl “Şərq məsələsi”, ondan sonra “erməni vilayəti”, sonra “erməni məsələsi”, daha sonra “Qarabağ problemi” ilə dünya ictimaiyyətini aldadan saxtakar erməni millətçiləri bir gün tarix qarşısında cavab verməli olacaqlar. Ona görə ki, dünyanın özü tarixi həqiqətlərdən və canlı tarixin özündən ibrət dərsi götürməli, tarixi həqiqətləri bilməli, türk və Azərbaycan xalqlarının başına gətirilən bütün müsibətləri və soyqırımları anlamalı və obyektiv nəticələr çıxarmalıdır. Hər hansı bir tarixi hadisəni araşdırmaq tarixçilərin işidir. Tarixi isə siyasiləşdirmək olmaz və o, obyektiv tarixi həqiqətlərə əsaslanmalıdır. ABŞ, Türkiyə, Rusiya, Fransa, Azərbaycan alimləri külli miqdarda arxiv və rəsmi sənədlərə söykənərək sübut etmişlər ki, 1915–ci ildə heç bir erməni soyqırımı olmamışdır. Bu, erməni milləçilərinin uydurduğu yalançı və böhtançı bir təbliğatdır. Çünki bağırmaqda bir can olan (akad. V.Veliçko) və “müxtəlif tayfaların tör–töküntüləri olan başkəsən ermənilər” (Strabon) özlərinin yalanını dünyaya sırımağa öyrənmişlər. Qədimdən “ikiüzlü və riyakar”, “hiyləgər və kələkbaz adamlar olan” (Aleksandr Düma) fırıldaqçı ermənilər bütün zamanlarda türklərə və azərbaycanlılara qarşı amansız olmuş, torpaqlarımızı zəbt etmiş, soyqırım siyasəti aparmışlar. ABŞ, Avropa və digər dünya ölkələrinin rəsmiləri yaxşı bilirlər ki, ermənilər Xocalı soyqırımını törətmiş, torpaqlarımızın 20 faizini işğal etmiş, bir milyondan çox insanın məcburi qaçqına və didərginə çevrilməsinə bais olmuşlar.

Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan hökumətinin qarşısında iki mühüm vəzifə durur: Birincisi, ərazilərimizin işğaldan azad olunması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına nail olmaq və ikincisi, azərbaycanlıların soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, hiyləgər erməni təbliğatının saxta tezislərini ifşa etmək. Bəli, bu gün biz qabaqlayıcı təbliğat maşınına, güclü və monolit hücum taktikasına, əks–təbliğat orqanizminə malik sağlam düşüncə potensialına əsaslanmaqla tarixi həqiqətləri dünyaya çatdırmalıyıq. Artıq bugünkü Azərbaycan əvvəlki deyil, güclü sosial–iqtisadi və hərbi potensiala malik qüdrətli bir dövlətdir. Müstəqil Azərbaycan Respublikası bu gün özünün güclü və qüdrətli dövrünü yaşayır. Sosial–iqtisadi və hərbi inkişaf strategiyasına malik olan dövlətimiz bölgədə aparıcı qüvvəyə çevrilmişdir. 2013–cü il yanvarın 15–də Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev demişdir ki, hazırda bizim valyuta ehtiyatımız 46 mlrd. dollardır. Builki dövlət büdcəmiz isə 20 mlrd. manat təşkil edir. Hərbi büdcəmiz 3,7 mlrd. dollar təşkil edir. Bu göstəricilər o deməkdir ki, dövlətimiz bölgədə güclü və qüdrətli dövlətdir.

Düşünürük ki, 1918–ci ildə azərbaycanlıların soyqırımının təşkilatçıları olan erməni daşnaqları və erməni millətçiləri tarix qarşısında cavab verməlidirlər.

**Nuru MƏMMƏDOV, professor.**

**“Respublika”**.-2013.-30 mart.-N 64.-S.5.

**İrəvan quberniyasında erməni amansızlığı**

Birinci Dünya müharibəsinin çar Rusiyası üçün ağır siyasi nəticələri ermənilərin iddia etdikləri "Türkiyə Ermənistanı" planlarını puça çıxardı. 1917-ci il Oktyabr çevrilişindən sonra Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər 1918-ci il martın 3-də Brest-Litovsk müqaviləsilə Osmanlı dövlətinin 1877-1878-ci illərə qədərki sərhədlərini tanıyaraq, əslində, "Türkiyə Ermənistanı" haqqında 29 dekabr 1917-ci ildə elan olunmuş dekretdən imtina etdiklərini bildirdilər. Bundan sonra erməni millətçiləri öz dövlətlərini məhz Qafqazda yaradılmasını çinayət fəaliyyətlərinin əsas məqsədi kimi seçdilər. Təbii ki, həmin dövlətin yaradılması qonşu ölkələrin torpaqları (Azərbaycan və Gürcüstan əraziləri) hesabına təmin olunmalı idi.

Ermənilərə bu niyyətlərinin həyata keçirilməsinə bir sıra amillər şərait yaradırdı. İlk növbədə, Birinci Dünya müharibəsi dövründə rus ordusu ilə paralel olaraq, onun tərkibində Osmanlı dövlətinə qarşı vuruşan könüllü erməni silahlı dəstələrinin cəhbədən qayıdaraq Cənubi Qafqazda cəmləşməsi, gələcək hərbi qarşıdurmalar baxımından ermənilərə çox böyük üstünlüklər verdi. İkincisi, 1917-ci il fevral inqilabından sonra erməni siyasi təşkilatları açıq fəaliyyətə keçdilər və onların nümayəndələri Cənubi Qafqazın bütün seçkili orqanlarında təmsil olundular (azərbaycanlılarla və gürcülərlə yanaşı). 1917-ci il Oktyabr çevrilişindən sonra Cənubi Qafqazda ali hakimiyyəti təcəssüm edən Zakafqazya Seyminin tam hüquqlu üzvləri kimi ermənilər Osmanlı dövləti ilə sülh danışıqlarında (1918-ci ilin mart-may aylarında Trabzon və Batumda-İ.N.) iştirak etdilər. 1915-1916-ci illərdə erməni silahlı dəstələrinin Şərqi Anadoluda dinc türk-müsəlman əhalisinə qarşı törədikləri soyqırımına cavab olaraq Osmanlı hökümətinin gördüyü tədbirlər nəticəsində böyük sayda erməni Qafqaza köçdü. Sonralar Ararat Respublikasının ilk baş naziri və "Daşnaksütyun" partiyasının liderlərindən biri olan Hovanes Kaçaznuninin yazdığı kimi, onlar "on və yüz minlərlə Rusiya ermənilərinin qəzalarına dolmuşdular". Həmin nəhəng axının harada gəldi yox, məhz İrəvan quberniyasının ərazisində yerləşdirilməsi nəticəsində bu yerlərdəki erməni əhalisi qısa müddətdə dəfələrlə artdı. Bu proses erməni qaçqınları ilə birgə Qafqaz cəhbəsindən qayıdan erməni silahlı dəstələri tərəfindən yerli müsəlman əhalisinin zorla öz torpaqlarından qovulması ilə müşahidə olunurdu (1917-ci il Qafqaz təqviminin məlumatına görə İrəvan quberniyasında azərbaycanlıların sayı 373582 nəfər idi). Beləliklə, ermənilər Cənubi Qafqazda gələcək dövlətləri üçün ərazilərin təmizlənməsinə başladılar. Belə ki, "1918-ci ilin mart ayına qədər İrəvan quberniyasının qarət olunmuş və tərk edilmiş müsəlman kəndlərinin siyahısı" adlı sənəddə göstərilir ki, İrəvan, Sürməli, Üçmiədzin, Yeni Bəyazid qəzalarında ermənilər tərəfindən dağıdılan və məhv edilən müsəlman kəndlərinin ümumi sayı 199 təşkil edir. Ümumlikdə, 1918-ci ilin yanvarından may ayına kimi, yəni, türk qoşunları İrəvan quberniyasına daxil olana qədər, burada ermənilər tərəfindən 300-dən çox müsəlman kəndi dağıdılmış, onların əhalisi isə qətllərə və zorakılıqlara məruz qalmışdı.

1918-ci ilin mayında keçmiş İrəvan quberniyasının ərazisində Ararat Respublikasının yaradılması hadisəsini onun ilk baş naziri H.Kaçaznuni belə qiymətləndirirdi: "Biz Ermənistanın sahibləri olmalı idik. Əks halda, onu birdəfəlik itirə bilərdik". Müstəqilliyi elan olunmuş Ararat Respublikasının nə ərazisi, nə də paytaxtı vardı. 29 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti İrəvan şəhərini Ararat Respublikasına güzəştə getdi. 1918-ci ilin iyunun 4-də Batumda Osmanlı dövləti ilə Ararat Respublikası arasında bağlanmış müqaviləyə əsasən, sonuncunun ərazisi cəmi 10 min kvadratkilometr müəyyən edildi. Bu, İrəvan quberniyası ərazisinin təxminən üçdə bir hissəsini təşkil edirdi (1917-ci il Qafqaz təqviminin məlumatına görə İrəvan quberniyasının ümumi sahəsi 23194,79 verst olub). Müqavilənin VI bəndinə əsasən, Ermənistan hököməti öz ərazisində yaşayan müsəlman əhalisinin təhlükəsizliyini, azad inkişafını, ana dilində təhsil almaq, dini ayinlərin sərbəst icrasına şərait yaratmaq haqqında öhdəliklər götürürdü. Lakin sonrakı hadisələr onu göstərdi ki, müstəqil erməni dövlətinin elan olunmasından sonra hakimiyyətə gələn "Daşnaksütyun" partiyası keçmiş İrəvan quberniyasının ərazisində yaşayan müsəlman əhalisinə qarşı soyqırımı siyasətini dövlət səviyyəsində həyata keçirdi. Bu cinayətlərin sarsıdıcı mənzərəsini yaradan onlarla teleqram, məktub və digər sənədlər bu gün Azərbaycan Respublikasının arxivlərində saxlanılır. Bu sənədlərin toplanmasında və dünya ictimayyətinə çatdırılmasında ilk tədbirlər hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə görülmüşdü. Minlərlə həmvətənimizin soyqırımını qarşısına məqsəd qoymuş ermənilərdən çəkdiyi qeyri-insani zülmü təsvir edən bu sənədləri həyəcansız oxumaq mümkün deyildir. Onların arxasında nə qədər müsibət, dəhşət, ölüm dayandığını təsəvvürə gətirmək qeyri-mümkündür.

Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi tərəfindən 1919-cı ilin iyunun 10-da Ermənistandakı diplomatik nümayəndəliyin M.X.Təkinskiyə göndərilmiş şifrəli teleqramda təlimat verilirdi ki, İrəvan quberniyasında dağıdılan kəndlərin nümayəndələrinin köməyi ilə müsəlmanların əhali itkisi, mülkiyyətinə dəyən ziyan, adı və soyadı, yaşı və yaşayış yeri, cinsi göstərilməklə öldürülən şəxslər, əsir götürülmüş adamlar haqqında məxfi şəkildə statistik məlumatlar toplayıb Xarici İşlər Nazirliyinə göndərsin.

Verilmiş təlimata uyğun olaraq, M.X.Təkinskinin yardımı ilə İrəvan müsəlman milli şurası təcili şəkildə İrəvan quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında Avropanın böyük dövlətləri və Amerika üçün məlumat hazırladı və Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdi. Məlumatda deyilirdi: "Silahlı və qarətçi erməni dəstələri şəhərlərdə, qəzalarda və kəndlərdə, hətta Ermənistan dövlətinin paytaxtı İrəvanda da ac qurdlar kimi müsəlmanlara hücum çəkirlər, hər gün gecə vaxtı üç-dörd müsəlman kəndi basqınlara, qarətlərə və qətllərə məruz qalır. Bu nəhayətsiz zorakılıq şəraitində yaşaya bilməyən müsəlmanlar hər gün öz əmlaklarını atıb, abad yurd-yuvalarını tərk edirlər; hara baxırsan, minlərlə yetim və dul qadını, müflisləşmiş və köməksiz kişiləri görürsən. Minlərlə müsəlman kəndlisini hökumət öz doğma kəndlərinə buraxmır, hüquqsuz və ev-eşiksiz, ac-yalavac və çıl-çılpaq insanlar miskin həyat sürür, xəstəliklərə tutulur, köməksiz və himayəsiz küçələrdə ölür, məhv olurlar. Əgər belə vəziyyət yenə davam edərsə, Ermənistanda yaşayan müsəlmanlar labüd məhvə məhkumdurlar".

Bu cür faktlar o dövrün digər sənədlərində də öz əksini tapmışdır. Belə ki, İrəvan şəhəri (1917-ci il Qafqaz təqviminin məlumatına görə İrəvanda 12557 nəfər azərbaycanlı yaşayırdı) paytaxt kimi ermənilərə veriləndən dərhal sonra ermənilər şəhərin azərbaycanlı əhalisinə qarşı müntəzəm terrora əl atdılar. İrəvanda müsəlman əhalisinə qarşı zorakılıqların şahidlərindən biri 1919-cı ildə yazırdı: "İrəvandakı müsəlman bazarı tamamilə yandırıldı, mallar qarət olundu. Az-çox salamat qalmış dükanları hissə-hissə talayırdılar... Ermənilər tərəfindən tutulmuş evlərin başına da bu oyunlar açılır... Yüzlərlə belə ev saymaq olardı. Müsəlmanların meyvə bağları, üzümlükləri və bağçaları vəhşicəsinə məhv edilirdi. Müsəlmanlar o qədər müdafiəsiz idilər ki, günün günorta çağı, daha gecələri demirəm, hətta şəhərin müsəlmanlar yaşayan hissəsində onların pal-paltarlarını, əgər bir işə yarayırsa, soyundurub əllərindən alırlar. Müsəlmanların pulunu və qiymətli zinət əşyalarınıE əllərindən alırlar... Etiraz etdikləri halda, yerindəcə güllələnirlər. Onların şəxsi evləri də qarətdən və zorakılıqdan qurtula bilmir, təpədən dırnağa kimi silahlanmış erməni gəncləri "artıq" əşyaları talayıb aparırlar. Gün batmamış müsəlmanlar evlərinə tələsir, qapı və pəncərələrini tamamilə bağlayırlar... İrəvan müsəlmanlarının keçirdikləri məhrumiyyətləri, əzabları və işgəncələri qələmə almaq mümkün deyildir. Çoxları dözmür, başlarına hava gəlir, vaxtından qabaq qocalırlar. Bütün bunlar indinin özündə də Ermənistanın paytaxtı İrəvanda baş verməkdədir".

Yeni Bəyazid qəzasının Göyçə rayonunun 5-ci sahəsinin səlahiyyətli nümayəndəsi İsmayıl Sultanovun 1919-ci ildə Gəncə qəza rəisinin adına daxil olmuş məlumatında deyilirdi: "Ararat Respublikası qoşunlarının Yeni Bəyazid qəzasının Göyçə rayonunun dinc müsəlman kəndləri üzərinə hücumları başlamışdır. Hal-hazırda 60 min əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış və boşaldılmışdır. Ermənilərin və erməni hökumətinin keçmiş qonşularına və müsəlman təbəələrinə qarşı törətdikləri qeyri-insani qanlı əməlləri görəndə insanı dəhşət bürüyür. Ermənilər xahişlərə, yalvarışlara və müsəlman əhalisinin ah-vaylarına məhəl qoymurlar. Erməni döyüşçüləri əllərinə düşmüş müsəlmanları sağ buraxmırlar, əksinə, görünməmiş işgəncələr verir, qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər. Yalnız az sayda qadın və yeniyetmə qızlar müstəsnalıq təşkil edir... Sağ qalan qaçqınlar qoşun tərəfindən təqib olunur... dərələrdə və qarlı zirvələrdə gizlənir... qar içində batır və kütləvi surətdə qırılırlar. Ararat Respublikası vəzifəsini başa vurmuşdur. Göyçə rayonunda daha müsəlmanlar qalmayıb. Bu günə kimi Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi məhv edilmişdir".

Azərbaycan Xarici İşlər Nazirliyinin müttəfiq dövlətlərin Cənubi Qafqazdakı ali komissarına göndərdiyi məktubdan görünür ki, 1919-cu ilin avqust-sentyabrında erməni qoşunları tərəfindən Üçmiədzin, Sürməli, İrəvan, Yeni Bəyazid qəzalarındakı azərbaycanlı kəndləri yenidən dağıdılmışdı. Üçmiədzin qəzasında bir kənd belə salamat qalmamışdı. "Dağıntıda qoşun hissələri ilə birlikdə yerli erməni əhalisi də iştirak edirdi. Qarabağ erməniləri isə xüsusi amansızlıq nümayiş etdirirdilər. Həmişəki kimi, qaçanlar istisna olmaqla, kişilər, əsasən, küt alətlərlə öldürülmüş, qadınlar isə zorlanmış və əsir götürülmüşdür". Erməni qoşunlarının komandanı general Dro öz qoşunlarının bu hərəkətlərini "arxa cəbhənin təmizlənməsinin" zəruriliyi və "strateji şəraitlə" izah edirdi. AXC Daxili İşlər Nazirliyinin fondunda saxlanılan xüsusi siyahı-sənəddə təkcə 1919-cu ilin iki ayı ərzində ermənilər tərəfindən Üçmiədzin qəzasında 62, Sürməli qəzasında isə 34 müsəlman kəndinin məhv edildiyi göstərilir. İrəvan qəzası haqqında sənəddə bircə sətir yazılıb: "Zəngibasar kəndlərindən başqa, qalan bütün yaşayış məntəqələri məhv edilmişdir". Məlumata görə, təkcə Yeni Bəyazid, Üçmiədzin və İrəvan qəzaları üzrə 1919-cu ilin sonunda qaçqınların sayı 200 min nəfərə çatmışdı.

Bu cinayətlər o qədər kütləvi hal almışdı ki, hətta ermənilərin içərisində müəyyən dairələr bu faciəli hadisələrə etiraz etməli olmuşdular. Ermənistan parlamentinin eser fraksiyası Daxili İşlər Nazirliyinə ünvanladığı sorğuda bildirilirdi ki, "...son üç həftə ərzində İrəvan, Üçmiədzin və Sürməli qəzalarının bir sıra tatar (azərbaycanlı - İ.N.) kəndləri... qarət və qətllərə məruz qalaraq, tatar (azərbaycanlı - İ.N.) əhalisindən "təmizlənir". Yerli hakimiyyət, nəinki buna maneçilik törətmir, hətta özü baş verən qarət və talanlarda iştirak edir..."

Sovet İttifaqının həm siyasi, həm fiziki mənada ən uzunömürlü kommunist liderlərindən olan A.Mikoyanın bu məsələdə mövqeyi xüsusi marağ doğurur. O, yazırdı: "Erməni şovinistləri... Qara dənizdən Aralıq dənizinə qədər tarixi hüdudlarda "Böyük Ermənistan" yaratmaq kimi cinayətkar ideyanın şirin xülyasına

ümüd bəsləyirlər. Müstəsna qaydada müsəlmanlardan ibarət olan bu ərazidə ermənilərin olmaması onları narahat etmir. "Böyük Ermənistan" ideyasının əhalinin çoxluğuna deyil, onun iradəsinə deyil, imperialist silahına arxalanması Ermənistanı "yadellilərdən", "cinayətkar ünsürlərdən", müsəlmanlardan təmizləmək yolu ilə qurulması təlqin edilir".

Lakin dinc əhaliyə qarşı törədilən vəhşiliklərə və görünməmiş zorakılıq aktlarına Ararat Respublikasının baş naziri H.Kaçaznuni belə izahat verirdi: "Yerli müsəlman əhalisi ilə ölkənin daxilində - Ağbabada, Zodda, Zəngibasarda, Vedibasarda, Şərur-Naxçıvanda, Zəngəzurda və digər ərazilərdə bir sıra qanlı döyüşlər olmuşdur. Müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilməməyimizdən, silaha əl atmalı, qoşun çıxarmalı, dağıntılar və qırğınlar törətməli olduq..."

1918-1920-ci illərdə Ararat Respublikasında hakimiyyətdə olmuş daşnakların azərbaycanlılara münasibətdə həyata keçirdikləri soyqırımı siyasəti əyani şəkildə göstərdi ki, özlərinin "mədəniyyəti" ilə öyünən ermənilər, əslində, müstəqil dövləti və başqa xalqları idarə etmək üçün yetişməmişdilər. Bu barədə ABŞ-ın Osmanlı dövlətində ilk səfiri Mark L.Bristol birmənalı demişdir: "Son iki il ərzində (1919-20-ci illər - B.N.) ermənilər Rusiya Qafqazında özlərini idarə etməyə, hakimiyyətləri altında olan milli azlıqlarla davranmağa tamamilə qadir olmadıqlarını nümayiş etdirdilər". Ermənilərin qiymətləndirilməsində Bristolun fikirləri onunla yazışan ABŞ-ın ictimai xadimi Ceyms A.Bartonun fikri ilə üst-üstə düşür: "Mən onun tərəfdarı deyiləm ki, tabeliyində olan millətlərə münasibətdə erməni amansızlığının qarşısını ala biləcək məhdudlaşdırıcı amil olmadan ermənilərə hakimiyyət verilsin". Daşnak partiyasının ikiillik hakimiyyətini qiymətləndirən erməni müəllifi B.Boryan qeyd edirdi ki, erməni siyasi xadimləri dövlət hakimiyyətini ölkəni idarə etmək üçün deyil, müsəlman əhalisini qırmaq və onun əmlakını talamaq üçün qurmuşdular.

1918-1920-ci illərdə olduğu kimi, son iki onillikdə məruz qaldığımız Ermənistanın təcavüzü bizə belə nəticəyə gəlməyə imkan verir ki qarşımızdakı düşmən hiyləgər, amansız və öz məqsədlərinə nail olmaqdan ötrü ən alçaq vasitələrə əl atmağa həmişə hazırdır. Bu düşmən Azərbaycan torpaqlarını işğal altında saxlayır və on minlərlə soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətində yaşamağa məcbur edib. Ümummilli lider Heydər Əliyev 1998-ci il 26 mart tarixli fərmanında 1918-1920-ci illərin qanlı hadisələrinə siyasi-hüquqi qiymət verərək, ermənilərin xalqımıza qarşı apardıqları soyqırımı və deportasiya siyasətlərini heç vaxt yaddan çıxarmamağa, tarixçilərimizi təkrar-təkrar bu məsələlərin üzərinə yenidən qayıtmağa çağırırdı. Bununla bağlı ulu öndər Heydər Əliyevin 1999-cu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında dedikləri sözlər xüsusi əhəmiyyət kəsb edir: "İndi Ermənistan yerləşən ərazi də Azərbaycan torpağıdır. Siz tarixçilər bunları ardıcıl surətdə sübut etməlisiniz. Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indiki Ermənistan yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daimi ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün bir yol açmalıyıq".

**İlqar NİFTƏLİYEV,**
**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktroru**

**1919-cu ildə Əylisdə nə baş vermişdir?**

Müasir erməni tarixşünaslığı və təbliğatı tarixin digər dövrləri kimi 1918-1920-ci illərdə Cənubi Qafqazda cərəyan etmiş hadisələri də saxtalaşdırmaqla ermənilərin türk-müsəlman xalqlarına qarşı zorakılıqlarına, ərazi iddialarına haqq qazandırmaqda davam edir. Həm Ermənistanda, həm də müxtəlif ölkələrdə yaşayan erməni tarixçilərinin (A.Ayvazyan, R.Ter-Minasyan, M.Avetisyan, E.Zohrabyan, A.Enrikyan, S.Vraçyan, V.Kevorkyan, A.Minasyan, Q.Simonyan, A.Sarkisyan, V.Xorabekyan, B.Asatryan, L.Melik-Şahnazaryan, A.Vardanyan, R.Hovanesiyan və b.) ən çox müraciət etdikləri "sevimli" mövzulardan biri də elə 1919-cu il Əylis hadisələridir. "Sapı özümüzdən olan baltalar"dan bəziləri də həmin hadisələri təsvir edərkən yalnız erməni müəlliflərinin uydurmalarına istinad etməyi, onlardan qidalanmağı üstün tutmaqla, əslində, erməni təbliğat dəyirmanına su tökməkdə davam edirlər. Bir sıra müasir ermənipərəst rus və dünya müəllifləri də bu yolla gedərək 1918-1920-ci illər hadisələrinin təhlilində yalnız erməni tarixçilərin əsərlərinə müraciət edirlər (Daha ətraflı bax: Vladimir İvanov. Dearmenizaüiə Naxidjevana v XX v. Naxidjevan v XX - naçale XXI vekov: Nekotorıe faktı. Sbornik statey. M.: "Russkaə panorama", 2011, s. 18-59).

1987-ci ildə Tehranda erməni dilində H.Axnazaryanın "Qoxtan qavarı: tarixşünaslıq və memuarlar" adlı kitabı çıxmışdır (Ermənilər Ordubad bölgəsini Qoxtan adlandırmaqda davam edirlər-K.İ). H.Axnazaryan Əylis kəndində anadan olmuş, Praqa Universitetini bitirmiş və sonralar İranda müxtəlif ali məktəblərdə dərs demişdir. Bu gün Əylis hadisələrindən bəhs edən bütün erməni tarixçiləri də öz uydurmalarında həmin hadisələrin guya yeganə sağ qalmış şahidi olan H.Axnazaryanın kitabına istinad edirlər. Yeri gəlmişkən, bu kitabın 1919-cu il hadisələri ilə bağlı hissəsi indi internetdə geniş tirajlanmaqdadır (www. Karabah88.kq/history/adr/18html).

Bəs erməni tarixçilərinin və onlara züy tutanların belə saxtalaşdırmağa çalışdıqları Əylisdə 1919-cu ildə hansı hadisələr baş vermişdir?

Əslində, bu hadisələri 1918-1920-ci illərdə bölgədə cərəyan edən proseslərin kontekstindən kənarda təhlil etmək düzgün olmazdı. Birinci Dünya müharibəsindən sonra Cənubi Qafqazda yaranmış mürəkkəb hərbi-siyasi vəziyyətdən istifadə edən erməni siyasi liderləri əzəli Azərbaycan torpaqlarında öz milli dövlətlərini yaratmaq planlarını həyata keçirməyə başladılar. Bu planın gerçəkləşdirilməsində əsas maneə isə həmin torpaqların əsl sahibləri olan Azərbaycan türkləri idilər. Öz sərsəm məqsədlərinə nail olmaq üçün ermənilər İrəvan quberniyasında, Naxçıvanda, Zəngəzurda, Qarabağda və Azərbaycanın başqa bölgələrində yerli türk-müsəlman əhaliyə qarşı kütləvi qətliamlar həyata keçirir, vəhşiliklər törədirdilər. Erməni daşnaklarının göz dikdikləri ərazilərdən biri də qədim Naxçıvan torpağı idi. Rusiyada baş vermiş inqilab nəticəsində Qafqaz cəbhəsinin ləğv edilməsi ilə əlaqədar bölgəni tərk edən rus qoşunları hər yerdə olduğu kimi, Naxçıvanda da özlərinə məxsus olan hərbi ləvazimatları, silah-sursatı erməni daşnak hərbi hissələrinə verir, onlar isə bu silah-sursatdan müsəlmanlara qarşı istifadə edirdilər. Eyni zamanda, bölgədə yaşayan erməni əhalisi də sürətlə silahlandırılır, müsəlman əhalinin deportasiyası üçün hazırlıq görülürdü. Beləliklə, yerli azərbaycanlılarla müqayisədə kifayət qədər hərbi üstünlüyə malik ermənilər bölgədə yaranmış mürəkkəb geosiyasi və hərbi vəziyyətdən istifadə edərək 1918-ci ilin əvvəllərindən başlayaraq bölgənin etnik vəziyyətini zor gücünə öz xeyirlərinə dəyişmək üçün azərbaycanlı əhaliyə qarşı kütləvi vəhşilik hərəkətlərinə başladılar. Yalnız naxçıvanlı liderlərin azərbaycanlı əhalinin müdafiəsini təşkil etmələri, eləcə də Kazım Qarabəkirin başçılığı altında türk qoşunlarının şimal-şərq cəbhəsində uğurlu əməliyyatları naxçıvanlıları məhv olmaq təhlükəsindən xilas etdi və ermənilərin Bakıda, Qubada, Şamaxıda törətdikləri soyqırımları burada da davam etdirmələrinə imkan vermədi.

1918-ci ilin yayında Andranikin quldur dəstəsinin Naxçıvana soxulması ilə bölgə əhalisi üçün yenidən həyəcanlı dövr başlamışdır. Onun gəlməsindən cürətlənən bölgədəki erməni yaraqlı dəstələri də yenidən fəallaşaraq Andranikin qoşunları ilə birgə Naxçıvan və Ordubadın türk-müsəlman əhalisinə qarşı azğınlıqlar törətmişdilər. Andranikin məqsədi Naxçıvanda möhkəmlənmək, sonra isə Zəngəzurdan və Qarabağdan keçərək Bakıda Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak sovet hökuməti ilə birləşmək idi. Lakin onun Naxçıvanı ələ keçirmək cəhdləri yerli özünümüdafiə dəstələrinin qəhrəmanlıqları sayəsində heç bir nəticə vermədi. 1918-ci ilin iyulunda Türkiyənin XI Qafqaz diviziyasının hissələri ilə döyüşdə məğlubiyyətə uğramış Andranik Naxçıvan şəhərini ələ keçirə bilməyərək Ordubada geri çəkilmiş, buradakı Azərbaycan kəndlərinə divan tutduqdan sonra Oxçuçay vadisi ilə Zəngəzura - Gorusa çəkilmişdi. Naxçıvan bölgəsinin erməni quldur dəstələrindən azad edilməsi ilə burada nisbi sakitlik yaranmışdı.

Lakin Türkiyənin Birinci Dünya müharibəsindəki məğlubiyyətindən sonra Naxçıvanın üstünü yenidən qara buludlar aldı. 1918-ci ilin sonunda türk qoşunlarının Naxçıvan bölgəsini tərk etmələri ilə əlaqədar olaraq onun əhalisinin taleyi üçün təhlükə daha da artmağa başladı. Ermənilərin Naxçıvana dair ərazi iddialarının qarşısını almaq, Azərbaycanın əsas ərazisindən ayrı düşən bölgənin Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsinə şərait yaratmaq məqsədi ilə burada vətənpərvər qüvvələr tərəfindən Araz-Türk Respublikası adlı dövlət qurumu yaradıldı. Eyni zamanda, AXC hökuməti bölgədə öz suveren hüquqlarını təmin etmək üçün bir

sıra hərbi-siyasi, diplomatik addımlar atdı. Ermənilərin Naxçıvanı öz iradələrinə tabe etdirmək cəhdləri yerli əhalinin inadlı müqaviməti sayəsində tam iflasa uğradı. Erməni işğalçılarına qarşı əsl müharibəyə çevrilən azadlıq mübarizəsi başlandı. 1919-cu ilin iyulun sonlarında baş vermiş hərbi hadisələr işğalçı qoşunların bölgədən tam çıxarılması və erməni ağalığına son qoyulması ilə nəticələndi. Polkovnik Qarakeşişov, general Şelkovnikov, Humpa paşa (Yapon) kimi türkün qanına susamış zabitlərin başçılıq etdikləri nizami qoşunlar belə, azərbaycanlıların özünümüdafiə dəstələrinin hücumuna tab gətirə bilmədilər. Artıq döyüşlər İrəvanın yaxınlığında gedirdi, yalnız müttəfiqlərin müdaxiləsi nəticəsində hərbi əməliyyatların dayandırılması ermənilərin tam məğlubiyyətinin qarşısını aldı. Azərbaycanın baş naziri N.Yusifbəylinin ifadə etdiyi kimi, İrəvan quberniyasının bütün türk rayonu, o cümlədən Naxçıvan, istilaçıları devirərək öz təbii orqanizmi - Azərbaycanla birləşməyə hazır olduğunu bildirdi. Hətta bölgənin erməni icması belə, yığıncaqlar keçirərək, Azərbaycan hökumətinin hakimiyyətini tanıdığını bildirdi. Ermənilərin ingilisləri əvəz etmiş amerikalıların köməyi ilə Naxçıvan bölgəsini yenidən ələ keçirmək cəhdləri də bir nəticə vermədi. Lakin ermənilər Naxçıvanla bağlı xülyalarından əl çəkmək istəmir, bölgəyə həm şərqdən (İrəvandan), həm də şimaldan (Zəngəzurdan) ciddi təhlükələr yaradırdılar.

1919-cu ilin sonlarında bölgədə vəziyyət yenidən gərginləşdi. Vedibasardan Mehriyə qədər Naxçıvanın bütün sərhədləri boyu, eləcə də Zəngəzur qəzasında ermənilər hücum üçün güclü hazırlıq aparır, bölgəyə əlavə silahlı qüvvələr gətirirdilər. Ordubadda və onun Zəngəzurla sərhəd ərazilərində daha mürəkkəb şərait yaranmışdı. Ermənilərin uzun sürən hazırlıqdan sonra Zəngəzurun Qafan, Sisyan, Mehri bölgələrində, Oxçu dərəsi və Gığıdərəsi ərazilərində dinc əhaliyə qarşı etnik təmizləmə əməliyyatları yüzlərlə müsəlman kəndlərinin yox edilməsi ilə nəticələndi. Zəngəzurun Ordubada yaxın Oxçu, Şabadın, Pirdavdan, Atqız kəndlərində xüsusi qəddarlıqlar törədilmiş, bu kəndlərin 1000 nəfərdən çox əhalisindən yalnız 216-sı canlarını qurtararaq min cür əzab-əziyyətdən sonra Ordubadın kəndlərində, o cümlədən Aşağı Əylisdə sığınacaq tapmışdılar (bəzi mənbələrə görə isə bu kəndlərin 4000 əhalisindən yalnız 261-i sağ qalmışdı (İbrahim Ethem Atnur. Muxtariyyət ərəfəsində Naxçıvan. Naxçıvan, 1998, s. 266). Yeri gəlmişkən, erməni daşnakları bu kəndlərin əhalisinə qarşı 1905-1906-cı illərdə də insanlığa yaraşmayan qəddarlıqlar törətmiş, sonuncular isə öz yurd-yuvalarını tərk edərək Ordubada pənah gətirməli olmuşdular. Yalnız zəngəzurlu və ordubadlı könüllülərdən ibarət özünümüdafiə dəstələrinin igidliyi sayəsində ermənilər məğlub edilmiş, həmin kəndlərin əhalisi öz ocaqlarına qayıtmışdılar. Bu hadisələrdə Ordubadın ermənilər yaşayan Yuxarı Əylis, Danakert, Çənnəb və başqa kəndlərində yaradılmış silahlı quldur dəstələri də fəal iştirak etmişdilər (Bax: M.S.Ordubadi. Qanlı illər, B., 1991, s.126-140). 1918-1919-cu illərdə də Zəngəzurun adı çəkilən kəndlərinin türk əhalisi ikinci dəfə qaçqınlıq həyatı yaşamalı oldu. Lakin 1906-cı ildən fərqli olaraq 1919-cu ildə onlara öz doğma yerlərinə qayıtmaq müyəssər olmadı.

Arxada erməni quldurları Ordubadın azərbaycanlılar yaşayan kəndlərini ələ keçirmək və mahalın erməni kəndləri ilə birləşərək Ordubad və Culfa rayonlarını işğal etmək istəyirdilər. Ermənilərin sonrakı planlarında şərqdən, qərbdən və şimaldan eyni zamanda hücum etməklə Naxçıvan bölgəsini tam nəzarət altına almaq dururdu.

Ermənilərin bu istiqamətdə əsas ümidləri Ordubadın Əylis kəndi idi. Ermənilərin və azərbaycanlıların qarışıq yaşadığı bu kəndin (kənd faktik olaraq iki hissədən ibarət idi. Ermənilər əsasən Yuxarı Əylisdə yaşayırdılar - K.İ.) erməni icması uzun müddət Azərbaycanın və Naxçıvanın qanuni hakimiyyətini tanımaqdan imtina etmiş, yerli üsyankar erməni qüvvələrinin əsas dayaq bazasına çevrilmişdi. 1919-cu ilin yayında və payızında Njde, Kasparyan, Gülnəzəryan Melik-Musayan kimi quldurların başçılığı altında burada çox sayda hərbi qüvvə cəmləşdirilmişdi. Qonşu türk kəndləri tez-tez onların terroruna məruz qalırdı.

Ermənilərin Zəngəzurdan Ordubada gözlənilən hücumlarının qarşısını almaq və yerli əhalinin təhlükəsizliyini təmin etmək üçün kəndlərdə yuva salmış silahlı quldur dəstələrini tərksilah etmək zərurəti yaranmışdı.

Zəngəzurun yuxarıda adları çəkilən kəndlərinin ermənilər tərəfindən dağıdılması nəticəsində oradan qaçqın düşmüş və Ordubada pənah gətirmiş əhalinin bir hissəsi Aşağı Əylisdən erməni əhalisini çıxarmış və onlar Yuxarı Əylisə köçmüşdülər. Türk zabiti Ədib bəyin başçılığı altında ordubadlıların özünümüdafiə qüvvələri Əylis ermənilərini tərksilah etməyə nail olmuş, onları Zəngəzur qaçqınlarının qəzəbindən qorumaq və təhlükəsizliyini təmin etmək, mümkün təxribatların qarşısını almaq üçün 1919-cu il dekabrın 25-də erməni əhalisinin Əylis kəndindən köçürülməsini təşkil etmişdilər. Özü də erməni təbliğatının əksinə olaraq bu əməliyyatı türklər (Osmanlı türkləri-K.İ.) deyil, məhz Ordubadın yerli özünümüdafiə dəstələri həyata keçirmişdilər. Çünki 1919-cu ildə Naxçıvanda heç bir türk nizami hərbi dəstəsi yox idi. Onlar buranı 1918-ci ilin dekabrında tərk etmişdilər (İbrahim Etnur, s.88). Ədib bəy özü bir neçə türk zabiti (Xəlil bəy, Naci bəy, Osman Nuri bəy) və 7 əsgərlə Naxçıvan əhalisini erməni hücumlarından müdafiə etmək üçün könüllü olaraq türk ordusunu tərk edərək 1919-cu ilin mayında Naxçıvana gəlmiş, bölgənin erməni təcavüzündən müdafiəsində əvəzsiz xidmətlər göstərmişdir. Türk nizami qoşun hissələri Naxçıvana ikinci dəfə yalnız 1920-ci ilin əvvəllərində daxil olmuşlar (İbrahim Etnur, s.238). Naxçıvanlılar bu gün də Ədib bəyin və digər türk

zabitlərinin xatirəsini əziz tuturlar. Təbii ki, Əylis əməliyyatı zamanı hər iki tərəfdən tələfat olmuşdu. Ermənistan hakimiyyət dairələri və mətbuatı Əylisdə baş verən hadisələr ətrafında hay-küy salaraq bundan Azərbaycan hökumətinə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə başladılar. Ermənistan XİN-in Azərbaycan XİN-ə göndərdiyi notada Əylisdə 1400 adamın öldürüldüyü iddia olunurdu. Müasir erməni müəllifləri öz xislətlərinə sadiq qalaraq həlak olanların sayını 1600-ə qaldırmışdılar (A.Ayvazyan. Naxçıvan 1905 və 1918-1919-cu illər döyüşlərinin odlu həlqəsində İrəvan, 2005, s.361 (erməni dilində). Ermənilər bununla bağlı Cənubi Qafqazdakı Antanta komandanlığına müraciət etmiş, dünya mətbuatında Azərbaycan əleyhinə yeni böhtan kompaniyasına başlamışdılar.

Əslində, Əylis hadisələri erməni millətçilərinin Zəngəzurda həyata keçirdikləri etnik təmizləmə siyasətinin labüd nəticəsi idi. Məhz bu siyasət nəticəsində Zəngəzur qaçqınları labüd ölümdən qurtulub Naxçıvan qəzasına gələrək evsiz-eşiksiz, soyuq havada qaldıqlarından Əylis kəndinə gələrək ermənilərin boşaltdıqları evləri tutmuşdular (Azərbaycan qəzeti, 1920, 24 yanvar).

Halbuki Zəngəzurda müsəlmanlara qarşı törədilmiş qırğınlara və onların Əylisə gəlmələrinə qədər nə Əylisdə, nə də Naxçıvanda ermənilərin kompakt yaşadıqları digər kəndlərdə onlara qarşı hər hansı planlaşdırılmış zorakılıq halları baş verməmişdi. Türk hərbi komandanlığının Naxçıvandakı nümayəndəsi Xəlil bəy özü 1918-ci ildə bir müddət Əylis kəndində qalmış və bu müddətdə burada yerli ermənilərə qarşı hər hansı insident baş verməmişdi. Bunu erməni müəllifləri, o cümlədən H.Axnazaryanın özü də etiraf edir.

1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan arasında bağlanmış müvəqqəti sazişə görə hər iki tərəf öz qoşunlarını Zəngəzurdan çıxarmalı idilər. Azərbaycan tərəfi münaqişəni dinc yolla nizamlamaq məqsədi ilə siyasi iradə və xoş niyyət nümayiş etdirərək bölgədən qoşunları dərhal geri çəksə də, ermənilər nəinki öz imzalarına sadiq qaldılar, əksinə, quldur Dronun başçılığı ilə Zəngəzura əlavə nizami qoşun hissələri yeritdilər. Zəngəzurun və Dərələyəzin dinc müsəlman əhalisinə divan tutan erməni qüvvələri Qarabağı və Naxçıvanı ələ keçirmək uçun buradan hərbi plasdarm kimi istifadə etməyə başladılar.

1920-ci ilin martında ermənilər Vedibasar, Qarabağ və Azərbaycanın digər bölgələri ilə yanaşı, Naxçıvanı da ələ keçirmək üçün hərbi əməliyyatlara başladılar. Onlar Ordubad istiqamətində külli miqdarda hərbi qüvvə toplamışdılar. Hərbi texnika və sayca üstünlük hesabına ermənilər Aza kəndini ələ keçirmiş, martın 8-də Ordubad şəhərini mühasirəyə almışdılar. Naxçıvandan gəlmiş könüllülərin köməyi ilə ermənilər itki verərək geri çəkilsələr də, martın 21-də, Novruz bayramı günü min nəfərdən çox qüvvə ilə yenidən qəflətən hücuma keçərək Ordubadın bəzi kəndlərini ələ keçirmiş, sonra isə şəhərə hücum etmişdilər. Türk zabiti Ədib bəyin başçılığı ilə Naxçıvandan gəlmiş 500 nəfərlik hərbi qüvvənin Aza kəndi yaxınlığında düşmənə vurduğu ağır zərbə nəticəsində ermənilərin Ordubad mahalını ələ keçirmək cəhdləri puça çıxmış, onlar məğlub olaraq Zəngəzura çəkilməli olmuşdular.

Yeri gəlmişkən, ermənilər bu hücum zamanı da Ordubadın azərbaycanlı əhalisinin gözünü qorxutmaq üçün onlara qarşı insanlığa sığmayan, görünməniş vəhşiliklər həyata keçirmişdilər. Dırnıs kəndində erməni vandalları Mustafa adlı gəncin bədənini tikə-tikə doğrayaraq kisəyə yığmış, anasına göz dağı olsun deyə, qapısının qabağına atmışdılar. Hücum zamanı Əylisin şimalında yerləşən Nurdeh kəndi daha çox ziyan çəkmişdi. Bu gün Azərbaycan xəritəsində həmin kəndin adını tapmaq mümkün deyildir. 1920-ci ilin martında ermənilər bu kəndi yerlə yeksan etmiş, kəndin sağ qalmış sakinləri uzun məhrumiyyətlərdən sonra Yuxarı Əylisdə və qonşu kəndlərdə, ermənilərin tərk etdikləri evlərdə məskunlaşmış, Zəngəzurdan didərgin düşmüş müsəlmanlarla eyni taleyi yaşamağa məcbur olmuşdular.

Ermənilər sonrakı dövrlərdə də Naxçıvan diyarını ələ keçirmək üçün çoxlu cəhdlər göstərsələr də, bölgə əhalisinin qətiyyətli mübarizəsi, Azərbaycan rəhbərliyinin prinsipial mövqeyi sayəsində onların bütün planları alt-üst edilmişdi.

Heç şübhəsiz, bu gün ermənilərin soyqırımına məruz qalmaları haqqında bütün dünyaya bar-bar bağıranlar bu kimi faktları bilməmiş deyillər. Lakin bütün bunlar onlara öz ədalətsiz və xəyanətkar mövqeyindən geri çəkilməsi üçün kifayət edəcəkmi? Bu suala isə yalnız onların özləri cavab verə bilərlər.

**Kamran İSMAYILOV,**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru**

**“Azərbaycan” qəzeti, 4 aprel 2013-cü il.**

## İrəvan - Oğuz yurdu: Azərbaycanlılarm Ermənistandan deportasiyası tarixin yaddaşında

***"Ermənilər indiki dövrdə milli varlıqlarını Səlcuqlu və Osmanlı Türklərinə borcludur. Bizanslılara və ya digər Avropalılara qalsaydı Erməni adı bugün sadəcə olaraq tarix kitablarında çəkiləcəkdi"***

***Levon Dabakyan, erməni tarixçisi***

Giriş: Oğuz yurdu - İrəvan »- hazırda Ermənistanın isğalında olan Azərbaycan türklərinin qədim ata-baba məskəni olmuşdur. Ancaq son dərəcə xain yadelli erməni havadarlarının köməyi ilə təxminən iki əsrə yaxın yeritdikləri soyqırım, terror və deportasiya siyasəti nəticəsində yerli əhalini fəlakətlərə düçar etdi. Onları doğma yurdlarından didərgin saldılar. Rusiyanın İran və Türkiyə ilə apardığı müharibələrdən sonra ermənilərin axın-axın Zaqafaziyaya gətirilməsi ilə yerli əhalinin müsibəti, qanlı-qadalı günləri başladı.

Hətta iş o yerə çatdı ki, 1918-ci ildə ağır ictimai-siyasi şəraitdə heç olmasa o torpaqlarda yaşayan insanlarımızın əmin-amanlığını təmin etmək, münaqişələrə son qoymaq gümanı ilə çıxış yolu olaraq İrəvan şəhərini müvəqqəti olaraq güzəştə getməkdə görüldü. Lakin yaradılış etibarı hiyləgər və fürsət gözləyən erməni heç bir şərtə, öhdəliyə əməl etmədən tarixi səhvdən bəhrələndilər. İRƏVANı öz "siyasi mərkəzlərinə" çevirdilər. Qeyd edim ki, bu şəhər 1508-1509-cu illərdə ŞAH İSMAYIL tərəfindən RƏVANQULU xana tikdirilib.

Tarixi arayış: Dilimiz tariximizin şəhadətidir. Bu gün hayların yaşadığı coğrafi ərazi heç vaxt onlara aid olmayıb. Bu ərazilər tarix boyu türk yurdu kimi tanınıb və qəbul edilib. Zaman-zaman İrəvandakı yer-yurd, kənd, çay adları erməniləşdirilmişdi. Bu azmış kimi, erməni alimləri indi də ümumən Azərbaycan dilini şübhə altına almağa çalışır, Azər etnosunun fars mənşəli olduğunu sübut etməyə cəhd göstərirlər. Adətən İrəvan sözünü, Rəvanqulu xanın adıyla bağlayırlar. Rəvanqulu xandan 2 min il əvvəl bu şəhər mövcud idi.

İrəvan sözü də qədim türkcədədir. Amma şəkilçisi türkcə deyil. Ona görə ki, o şəhəri salanlar türk ölkəsində sahblar, amma bu şəhəri salanlar urartululardı. Miladdan öncə 8-ci əsrdə urartulular Araz çayını keçib, Güneydən gəlib İrəvan çuxuru adlanan ərazini zəbt ediblər. Daşların üzərində yazılar qoyublar ki, Qabiz bu düşmən ölkəsini zəbt elədik. Düşmən ölkəsinin də adını Az-ölkəsi kimi verirlər. Yəni Az tayfalarınm ölkəsini düşmən ölkəsi hesab edirlər, bu düşmən ölkəsinə gəlib bir neçə qalalar da tikirlər. Bu qalalar sonralar şəhərlərə çevrilir. Məsələn, indiki Artaşatın yerində Argiştixilini şəhərini salırlar. İndiki İrəvan şəhərinin yerində İripuni şəhərini sahrlar. Bu qalaları salanlarsa urartulular idi.

Argişti urartuluların şəhərinin adıdır. O vaxt yerli tayfaların dilində İripuni "ər evi, əsgərlər evi" anlamına gəlib çıxır. İrəvan çuxurunun tarixinə nəzər salanda görürük ki, Azəri türklərinin ulu babaları ən qədim vaxtlardan burada yaşayıblar. İrəvan çuxuru adına gəldikdə isə, buna bəzən çuxur-oba, çuxur- sədd də deyiblər. Hətta Urartu qaynaqlarında Quarliki kimi qeyd edilir. Quarliki, çuxur oba, çuxur sədd anlamındadır. Erməni yazılarında bu ərazinin adı çuxur-sakat gedir. Sakat da qədim sak tayfalarının adıyla bağlıdır. Erməni tarixçiləri ilə ziyalıları tez-tez "Böyük Ermənistan!" dövlətindən söhbət açırlar. Ancaq bu dövləti yaradan Haylar deyil, Türk nəsəbli Partlardır. Onu təşkil edən hakim tayfalar da Saklar, Quşanlar, Ağ Hunlardır. "Əftalitlər"və bu dövlət e.ə. 256-cı ildən Miladı 214 ilinə kimi davam etmişdir. Sonra Güney Azərbaycanın Urmiya gölündən başlamış Yuxarı Fərat və Kür-Araz məntəqəsini də əhatə edən bölgədə yaşayan tayfalar arasında Türk soylu Lullubəylər, Saspirlər Mehranilər, Nigimihlər, Urartular və Turuqqularla birgə özgə xalqlar da yaşayırdılar ki, onların arasında da Hayların adı çəkilmir.

1655-ci ildə İrəvana gələn Jəan Bəatist Tauvəmiə şəhərin qalasında təkcə müsəlmanların yaşadığına işarə etmişdir. 1683-cü ildə bura gələn Fransız səyyahı Jəan Chardin də yazdığı əsərində İrəvan qalasında 800 ailənin yaşadığını və onların tamamının Fars olduğunu qələmə vermişdir ki, səyyah, Anadolu Türklüyü ilə şivə fərqiylə danışan Azərbaycan Türklərini "Fars" zənn etmişdir. Qərbli səyyahların missionerlik vəzifəsini də yerinə yetirdiyini fikirləşsək onun qəsdən həqiqəti yayındırdığını da fikirləşə bilərik: çünkü, bölgədə Farslar yaşamayıbdır.

İsveçlə Rusiya arasında 1721-ci ildə sülh müqaviləsinin imzalanmasından sonra, Rusiya çarı I Pyotr öz imperiya ehtiraslarını Qafqaza, Xəzəryam ərazilərə yönəltdi. Bu cəhdlərin sonu 1723-cü ildə Bakının işğalı ilə nəticələndi.

Əsasən müsəlmanlardan ibarət olan yerli camaatın narazılığını və müqavimətini görən I Pyotr öz planlarını həyata keçirmək üçün, necə olur-olsun, Gilanda, Mazandaranda, Bakı və Dərbənddə ermənilərin və xristianların yerləşdirilməsini vacib sayırdı. Əsası I Pyotr tərəfindən qoyulan bu siyasəti sonralar Rusiyanın digər çarları həyata keçirdi. 1768-ci ildə II Ekaterina ermənilərin himayə edilməsi barədə əmr imzalayır.

1802-ci ildə çar I Aleksandr H.D.Sisianova yolladığı məktubunda yazırdı: “Hə olur-olsun ermənilər Azərbaycanın ... bu və ya digər xanlıqlarında istifadə olunmalıdır”. IV-XIX əsrlər ərzində öz dövlətlərinə malik olmayan ermənilər dövlətlərini yaratmaq məqsədinə çatmaq üçün Rusiyanın imperiya siyasətinin həyata keçirilməsində alət rolunu oynadılar.

Toponimlər: Tarixi mənbələrdə qeyd olunur ki, Türk-oğuz yurdu olan Dərələyəz V əsrdən başlayaraq yaşayış məskənlərindən biri olmuşdur. Tarixi arxeoloji qazıntılar zamanı Dərələyəz mahalının torpaq altında qalan şəhər izləri də bunu sübut edir. Dərələyəzin oğuz yurdu olması faktı dəfələrlə sübut olunmuşdur. Bu faktları ermənilər də çox gözəl bilirlər. Qeyd edək ki, oğuz yurdu Dərələyəzin qədimliyini sübut edən milli-mədəniyyət abidələri də mövcuddur. Dərələyəzdəki qoç daşlar, qoyun daş abidələri, at daş abidələri mahalın qədimliyini - oğuz yurdu olduğunu sübut edir.Tədqiqatçılar araşdırma nəticəsində sübut edir ki, erməni hansı ağılla Dərələyəz sözünü erməni sözü hesab edə bilər: Bu toponim dilimizə mənsub olan Dərələyəz formasında olmuş, sonra Dərə və Ələyəz sözləri birləşərkən “ə” saitinin biri düşmüşdür. Türk dillərində ala//ələ sözü uca, yüksək mənasını ifadə edir. Dərələyəz sözü uca, yüksək böyük dərələrdə olan kaslar, xəzlər, ğuzlar, oğuzlar, azlar, uzlar mənasındadır (Bax: H.Mirzəyev. Dərələyəz toponimi haqqında bir neçə söz. Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1988, s.113-117).

Ermənistan adlanan ölkədə türkdilli Azərbaycanlıların olması şübhə doğurmur. Məsələnin belə bir tərəfi var ki, 1828-1832-ci illərə qədər İrəvan xanlığında azərbaycanlılar əhalinin mütləq çoxluğunu təşkil edirdilər. İrəvan əyalətində azərbaycanlılar (müsəlman) 16.075 ailə, yerli ermənilər 4.428 ailə idi. Lakin 1828-1832-ci illərdə Rusiyanın təhriki və köməyi ilə İrandan və Türkiyədən ermənilərin köçüb gəlmələri bu nisbəti dəyişdirmişdir. Həmin illərdə İrəvan əyalətinə İrandan 4.559 ailə, Türkiyədən 3.674 ailə köçüb gəlmişdir.

1832-ci illərdə İrəvan əyalətinin kameral təsvirinə görə İrəvan şəhərində əhalinin nisbəti belə idi: azərbaycanlılar 1.807 ailə, yerli ermənilər 567 ailə, gəlmə ermənilər - İrandan 366 ailə, Türkiyədən 11 ailə. İrəvan xanlığı 15 mahaldan ibarətdir. Bu mahalda 1828-32-ci illərdə müsəlmanların, yer və gəlmə ermənilərin miqdarı aşağıdakı kimi idi: Qırxbulaq mahalında müsəlmanlar 81 ailə, yerli ermənilər 262 ailə və gəlmə ermənilər İrandan 216 ailə, Türkiyədən 38 ailə; Zəngibasar mahalmda müsəlmanlar 910 ailə, yerli ermənilər 133 ailə və İrandan gəlmə ermənilər 442 ailə; Qarabasar mahahnda müsəlmanlar 753 ailə, yerli ermənilər 34 ailə və İrandan gələn ermənilər 1.211 ailə; Şərur mahalında müsəlmanlar 1.305 ailə və İrandan gələn ermənilər 336 ailə; Sürməli mahalında müsəlmanlar 709 ailə, yerli ermənilər 935 ailə, gəlmə ermənilər İrandan 299 ailə, Türkiyədən 261 ailə; Seyidli-Ağsaqallı mahalında müsəlmanlar 311 ailə, yerli ermənilər 560 ailə; Abaran mahalında müsəlmanlar yox idi, yerli ermənilər 11 ailə, gəlmə ermənilər İrandan 330 ailə, Türkiyədən 1.116 ailə; Göyçə mahalında müsəlmanlar 999 ailə, yerli ermənilər 15 ailə və Türkiyədən gəlmə ermənilər 1.485 ailə təşkil edirdi.

İrəvan əyalətində gəlmə ermənilərin yerləşdirilməsi iki istiqamətdə gedirdi.

Azərbaycanlılar qovulur və kəndləri ermənilərə verilirdi.

Ermənilər azərbaycanlılarla qarışıq yaşamağa başlayırdılar, kəndlərindən qovulmuş azərbaycanlılar digər əylətlərdə məskən salırdılar.

Sovet Hakimiyyətinə qədər yer adları olduğu kimi qalırdı, lakin 1935-ci ildə Sovet hakimiyyəti dövründə bu adlar qondarma erməni adları ilə əvəzlənməyə başlanmışdır. Erməni tədqiqatçısı G.A.Bumoutyan yazır ki, 1828-32-ci illərdə ermənilərin zəbt etdikləri müsəlman kəndlərinin İrəvan xanlığının mahalları üzrə sayı aşağıdakı kimidir:

Qırxbulaq mahalında - 27 kənd;

Zəngibasar mahalında - 7 kənd;

Şərur və Sürməli mahallarında - 41 kənd;

Dərəçiçək mahalında - 16 kənd;

Göyçə mahalında - 27 kənd var idi.

Onun araşdırmalarına görə cəmi 310 müsəlman kəndinin əhalisi qovulmuşdur. Bu göstərilən faktlar bir daha sübut edir ki, azərbaycanlıların bir hissəsi doğma yurd-yuvalarından qovulmuş, əvəzində buraya ermənilərin köçürülməsi prossesi həyata keçirilmişdir. Bütün bunlar azərbaycanlıların Ermənistandan deportasiyası prosesinin ilkin mərhələsidir. Fərqli tərəfi ondan ibarətdir ki, o zaman deportasiya İranın daxilində gedirdi. Ümumiyyətlə, Çar hökuməti tərəfindən azərbaycanlılarının deportasiyası 1877-1878-ci il Rus-Türk müharibəsi zamanı, 1914-1915- ci il I Dünya Müharibəsi zamanı, 1918-1920-ci il Azərbaycan Cumhuriyyəti dövründə Ermənistandan olan deportasiya, Sovet Hakimiyyəti dövründə 1948-53-cü illərdə də davam etdirilmiş və 1988-ci ildə ermənilərin Azərbaycana hərbi təcavüzü dövründə başa çatdırılmışdır. Ermənilər şimal torpaqlarımızda yerləşdirildikdən sonra Qafqazda çarizmin müstəmləkəçilik siyasətinin alətinə çevrilmiş və siyasətin nəticəsində tarixi torpaqlarımızda "Ermənistan" yaratmağa nail olmuşlar. Ermənilərin sonrakı məqsədi bu regiondan azərbaycanlı türkünə nifrəti, türk torpaqlarına sahib olmağı hakim ideologiyaya və məqsədlərinə çevirmişlər. İrəvan Qubemiyasında azərbaycanlıların yaşadıqları yerlər dəfələrlə talan edilmiş və yandırılmışdır.

Moskvada dövlətin idarəçiliyini aparan möhkəmlənmiş ermənilərin başçılıq etdiyi erməni lobbisinin bu yolda nail olduğu ən böyük mənfur niyyətlərindən biri müharibədən sonra xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi altında İ.Stalinin dəstəyi ilə dövlət səviyyəsində azərbaycanlılara qarşı həyata keçirilən deportasiya siyasəti olmuşdur.

1921-ci ildə Dağlıq Qarabağın Ermənistana birləşdirmək istəyinin qarşısını Nəriman Nərimanov alsa da, onu Moskvaya göndərdikdən sonra 1923-cü ildə ermənilər Dağlıq Qarabağa muxtariyyət verilməsinə nail oldular. Bununla belə onlar heç vaxt Dağlıq Qarabağa yiyələnmək iddialarından əl çəkmir, dəfələrlə bunun haqqında Moskvada məsələ qaldırırdılar, 1945-ci ilin noyabrında Ermənistan K(b)PMK-nın I katibi Q.Arutyunov İ.Stalinə məktubla müraciətdə bildirmişdir: "Dağlıq Qarabağın Ermənistan SSR-lə həmsərhəd olduğunu və iqtisadiyyatı ilə sıx bağlı olduğunu nəzərə alaraq Dağlıq Qarabağ Ermənistan SSR-ə birləşdirilsin". Bu məktuba adekvat cavab verən Azərbaycanın K(b)PMK-nın I katibi M.C.Bağırov bildirirdi: "Azərbaycan tərəfi Şuşa şəhəri istisna olmaqla bu təklifə etiraz etmir, lakin Ermənistan SSR, Gürcüstan SSR, Dağıstan MSSR-də əsasən azərbaycanlıların yaşadıqları və Azərbaycanın tarixi torpaqları olmuş ərazilər Azərbaycana qaytarılsın (Zəngəzur, İrəvan, Borçalı, Dərbənd)".

Bundan sonra ermənilər Ermənistanda yaşayan və əsasən Azərbaycanla həmsərhəd rayonlardakı azərbaycanlıları köçürmək üçün başqa bir hiyləyə əl atırlar. Azərbaycanın Muğan-Mil düzlərində pambıq əkilən rayonlarını işçi qüvvəsi ilə təmin etmək bəhanəsi adı altında Ermənistan ərazisindən olan azərbaycanlıları köçürmək və onların yerində xaricdən gələn erməniləri yerləşdirmək planını qururlar. Nəticədə SSRNazirlər Soveti 1947-ci il dekabrın 23-də Ermənistan SSR- dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığının köçürülməsi haqqında "4083" saylı qərar qəbul etdi. 1948-ci ilin martında SSR Nazirlər Soveti həmin qərara əlavə olaraq ikinci bir qərar da qəbul etdi. 1947-ci il 23 dekabr tarixli qərara əlavə qeyd olan və İ.Stalinin imzaladığı bu ikinci qərarda azərbaycanlıların köçürülməsi ilə əlaqədar tədbirlər planı özünün geniş əksini tapmışdır. 1947-ci il 23 dekabr tarixli qərarın və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə edilsin". O zamanki hadisələr sənədlərdə belə xatırlanırdı: Eşalonlarla Kür-Araz ovalığına atılan azərbaycanlılar üçün ən adi yaşayış şəraiti belə yox idi. Onların evlərində yerləşdirilməsi münaqişə yaradırdı. Onlar mal-heyvan tövlələrində, uçuq-sökük dəyələrdə daldalanırdılar. Onların ən adi tələbləri belə ödənilmirdi.

Son nəticə olaraq azərbaycanlıların Ermənistandan qovulması üçün bütün lazımi tədbirlər görüldü. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1948-1953-cü illərdə bu məsələ ilə bağlı Azərbaycan SSR Nazirlər Soveti qərar qəbul etmişdi. 1948-ci ildə 10 584 azərbaycanlı, 1949-cu ildə isə nəzərdə tutulmuş 40 000 nəfərin köçürülməsi yer olmadığı üçün mümkün olmamışdır. Qeyd edək ki, həmin il 15 713 nəfərin köçürülməsi planlaşdırılmışdır. SSRİ Nazirlər Soveti isə 40 000 nəfərin köçürülməsini tələb edirdi. Respublikanın Nazirlər Sovetinin sədri T.Quliyev İttifaq Hökumətinə məktubda bildirirdi ki, 1949-1950-ci illərdə 90 000 nəfəri köçürmək üçün ən azı 20 000 yaşayış evi lazım gəlir. Bunun üçün 400 milyon manatlıq tikinti-quraşdırma işləri görülməlidir. Belə bir işin öhdəsindən Azərbaycan Respublikası öz gücü ilə 2 il müddətinə gələ bilməz. Buna görə də 1949-cu ildə

köçürmə planı 15 000 nəfərə endirmək xahiş olunurdu. Elə həmin ilin dekabrında Moskvaya müraciət edən Azərbaycan SSR Nazirlər Sovetinin sədri respublikanın imkanlarını nəzərə alaraq köçürmə planında dəyişikliklər aparmağı xahiş edir. Belə ki, 1950-ci ildə 15 000, 1951-ci ildə 10 000, 1952-ci ildə 20 000, 1953-cü ildə 20 000, 1954-cü ildə 15 000 nəfərin köçürülməsinə icazə verməyi xahiş edir. Qeyd edək ki, bu köçürmə siyasəti Stalinin ölümünə qədər mütəşəkkil şəkildə getmişdir. 1948-1950-ci illərdə Ermənistan SSR-dən cəmi 34 383 nəfər azərbaycanlı köçürmək mümkün olmuşdur. Ancaq əlimizdə olan rəsmi sənədlərdən görünür ki, bu siyahı Ermənistandan köçürülən və köçürülməyə məcbur edilənlərin tam siyahısı deyildir. Ermənistan SSR başçılarının qərarında göstərildiyindən daha çox azərbaycanlıları müxtəlif yollarla Ermənistandan qovmağa çalışmışlar. Belə bir fakt var ki, ermənilərin yuxarı vəzifəli adamları soydaşlarımız arasında müxtəlif şayiələr yayaraq süni surətdə vahimələr yaradırdılar. Nəticədə minlərlə azərbaycanlı ailəsi nəinki Azərbaycanın rayonlarına, hətta SSRİ-nin başqa respublikalarına qaçmışlar. Azərbaycan SSR NS-nin 5 fevral 1953-cü il tarixli qərarı ilə Kür-Araz ovalığına 1900 ailə köçürülməsi nəzərdə tutulurdu.

***1948-1953-cü illər üzrə Kür-Araz ovalığına köçürülənlər:***

| İLLƏR | KÖÇÜRÜLƏN TƏSƏRRÜFAT SAYI | NƏFƏR |
|---|---|---|
| 1948 | 1952 | 8054 |
| 1949 | 2789 | 12697 |
| 1950 | 2907 | 12932 |
| 1951 | 911 | 3714 |
| 1952 | 1257 | 5512 |
| 1953 | 1898 | 8254 |
| 1954 | 11714 | 51163 |
| 1955 | 749 | 3361 |
| 1956 | 207 | 965 |
| | 306 | 1543 |
| **Cəmi** | **13030** | **57039** |

**1949-cu ildə Ermənistan SSR-dən köçürülən azərbaycanlı təsərrüfatların Azərbaycan SSR rayonları üzrə yerləşməsi:**

1. Səlyan 132
2. Əli-Bayramlı (Şirvan) 431
3. Sabirabad 111
4. Puşkin (Biləsuvar) 58
5.Saatlı 260
6. Xıllı (Neftçlada qəsəbə) 80
7. Jdanov ( Beyləqan) 126
8. Bərdə 45
9. Mirbəşir (Tərtər) 167
10.Yevlax 150
11. Xaldan 77
12. Göyçay 46
13. Ucar 111
14. Kürdəmir 46
15.Zərdab 93
16. İmişli 105

**CƏMİ: 2038 TƏSƏRRÜFAT**

Azərbaycan SSR NS-nin qərarının yerinə yetirilməsi vəziyyəti haqqında arayışda 01 oktyabr 1953-cü il vəziyyətinə görə Kür-Araz ovalığına 1898 ailə - 10.072 təsərrüfat köçürüldüyü bildirilir. İ.Stalinin ölümündən sonra Ermənistan SSR-in azərbaycanlıların planlı şəkildə köçürülməsinə son qoyuldusa da, 1988-ci ildə bu proses daha da aktivləşərək azərbaycanlıların Qərbi Azərbaycandan köçürülməsi başa çatdırıldı. Aparılan hesablamalara görə 1948-1953-cü illərdə Respublika üzrə 11.755 köçürülmüş təsərrüfatın 46.6%-i Kür-Araz ovalığında, 6.269-u - 53.4%-i isə ondan kənarlarda yerləşdirilmişdir.

Sovet İttifaqında gedən yenidənqurma, aşkarlıq prosesi antiazərbaycan əhval- ruhiyyəsinin və ərazi iddialarının yeni dalğasını yaratdı. 1945-ci ildə sınaqdan çıxarılmış guya Ermənistanla Qarabağın iqtisadi

cəhətdən bir-birinə bağlı olması barədə əsassız iddialarla erməni millətçiləri azərbaycanlıları Ermənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. 1988-ci ildən başlayaraq kütləvi hədə-qorxular, fiziki güc, ölüm, kəndlərin talan edilməsi, yandırılması həyata keçirilir. Qukarkda baş verən qanlı hadisələr nəticəsində 70 nəfər öldürülür, onların 21-i qadın 6-sı uşaq olur. Vardenis rayonunda isə 40 nəfər öldürülür. Ermənistanın digər rayonlarından-Erevan, Masis, Kalinino, Kadjaran, Qafan, Kirovokan, Gorus, Sisyan, Amasi və Alaverdidən 250 min azərbaycanlı öz ev-eşiyindən qovulur, ümumilikdə, 216 nəfər qətlə yetirilir. 1905-1920-ci illərin tarixi yenidən təkrar olunur - qadın və uşaqlar, yaşlılar, qarlı dağlar aşaraq, dona-dona, itkilər verə-verə öz xilaslarını Azərbaycanda axtarırlar. Yenidən 1948-53-cü illərin tarixi təkrar olunur- İttifaqın mərkəzi hakimiyyətinin qərarları ilə azərbaycanlı qaçqınların Qarabağda yerləşdirilməsinə icazə verilmir, onlar özlərinə çadır şəhərciklərində sığınacaq tapırlar. 1991-ci il avqustun 8-də sonuncu türk kəndi Nüvədidən əhalinin çıxarılmasından sonra Ermənistan faktiki olaraq monomillətçi dövlətə çevrildi. “Türksüz Ermənistan” kimi daşnak ideyası reallaşdı.

1988-ci ildən sonra Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 7 rayon talan olundu, 1 milyona qədər adam doğma yurdundan didərgin düşdü.

**Zaur ƏLİYEV,**
siyasi fəlsəfə doktoru,
Diaspor və Lobbi Elmi Araşdırmalar mərkəzinin rəhbəri

**«Qarapapaqlar».-**2013.-№ 5(69).-S.11-17.

## "Sonuncu Mogikanlar"ın aci taleyi
## Azərbaycanlı əhalinin Ermənistandan kütləvi deportasiyasının 25-ci ildönümü tamam oldu

Bu il azərbaycanlıların Ermənistandan kütləvi deportasiyasına başlanılmasından 25 il ötdü. 1988-ci ilin aprel-may aylarında bu proses özünün pik həddinə çatdı. Azərbaycanlı əhalinin Ermənistandan kütləvi şəkildə qovulması zorakılıqlar, qətllər və talanlarla müşayiət olunurdu. Nəticədə 200 000-dən artıq azərbaycanlı - əcdadlarının torpaqlarında yaşayan və vaxtilə Ermənistan əhalisinin təxminən 90%-ni təşkil etmiş "sonuncu mogikanlar" Ermənistandan sürgün edildilər.

Qeyd edək ki, azərbaycanlıların milli zəmində hücumlara və qətllərə məruz qalması faktları hələ 1986-cı ildə, həmçinin 1987-1988-ci illərdə də qeydə alınmışdı. Amma sovet Ermənistanından azərbaycanlı əhalinin tam sürgünü 1988-ci il aprelin 24-dən sonra başladı: bununla ermənilər 1915-ci ildə baş vermiş "erməni soyqırımı"nı "qeyd etdilər".

1988-ci il aprelin 26-da azərbaycanlıların Kiçik Vədi kəndinə hücum edildi. Daha sonra mayın 11-də yerli hakimiyyət orqanı və milisin dəstəklədiyi erməni millətçiləri Şirazlı kəndinin azərbaycanlı əhalisinə amansızlıqla divan tutdular. 64 ev dağıdıldı, onlardan 8-i yandırıldı, 330 azərbaycanlı ailənin mülkü talan edildi. Erməni vandallar ziyarətgahı da dağıtdılar, onun gözətçisi olan 90 yaşlı Seyid Ağbal ağanı (Mir-Ağbal Mir-Yaqub oğlu Nağıyev) amansızcasına döydülər və qoca aldığı xəsarətlərdən dünyasını dəyişdi. Ermənilərin Şirazlı kəndini talan etdikləri zaman xəsarət almış 2 yaşlı uşaq da sonradan vəfat etdi, daha 8 azərbaycanlı ağır yaralandı. Həmin dövrdə onlara digər azərbaycanlı kəndi də hücumlara məruz qaldı, nəticədə kənd sakinləri bütün mülklərini və doğma yurdlarını qoyaraq qaçmaq məcburiyyətində qaldılar.

Şirazlıdan qovulan 880 azərbaycanlı Sovet-Türkiyə sərhədinə qaçaraq sovet sərhədçilərindən yardım istədi. Lakin bu yardımı görməyən qaçqınlar sərhəddəki tikanlı məftillərdən aşaraq neytral zonada özlərinə çadır-şəhərciyi saldılar. Burada onlar 4 ay ərzində Araz çayının sahilində, azərbaycanlıların Şidli (indiki Yereknavan) kəndindən bir qədər aralıda açıq səma altında yaşamalı oldular. İyunun 20-də bu insanlara Ararat rayonunun daha 5 azərbaycanlı kəndinin əhalisi də qoşuldu.

Sovet-Türkiyə sərhədində məskən salmış azərbaycanlı kəndlərinin sakinlərindən ibarət nümayəndə heyəti ağsaqqallar və ziyalılarla birlikdə dəfələrlə Kremldə SSRİ rəhbərliyilə görüşlərdə olmuşdular. Onlar o zamankı Azərbaycan SSR-in rəhbərliyinin diqqətini məsələyə cəlb etmək üçün dəfələrlə Bakıya da gəliblər. Lakin Ermənistan SSR rəhbərliyi tərəfindən doğma yurdlarından qovulmuş azərbaycanlılara nə Moskvada, nə də Bakıda yardım göstərən oldu.

Qeyd edək ki, Ermənistandakı azərbaycanlıların yaşadıqları kəndlərə hücumlar heç də yalnız rayon rəhbərliyi tərəfindən təşkil olunmurdu. Ermənistan SSR-in bir sıra səlahiyyətli nümayəndələri, xüsusilə Nazirlər Soveti sədrinin müavini, sonradan Ermənistan SSR KP MK-nın birinci katibi olmuş Suren Arutyunyan da belə hücumlara rəhbərlik edirdi.

Bir neçə ay ərzində sovet rəhbərliyindən yardım görməyən azərbaycanlılar ölməmək üçün Sovet-Türkiyə sərhədindəki Araz çayını üzərək keçməklə Türkiyəyə üz tutmaq məcburiyyətində qaldılar. Yalnız bundan sonra Sovet rəhbərliyi, guya, çoxmillətli SSRİ-nin dünyadakı imicinin korlanacağından ehtiyatlanaraq DİN və sərhəd qoşunları vasitəsilə azərbaycanlıların problemini "ermənisayaq" həll etdi. Yəni Moskva Ermənistan rəhbərliyi və erməni millətçilərinin azərbaycanlılara qarşı yol verdiyi azğınlığın qarşısını almaq əvəzinə, SSRİ DİN və Sərhəd Qoşunlarının müşayiətilə on minlərlə azərbaycanlının Ermənistan SSR-dən çıxarılmasına qərar verdi. Bir neçə həftə ərzində Sovet-Türkiyə sərhədində məskunlaşmış azərbaycanlılar gecəylə Ermənistan vasitəsilə Naxçıvana, oradan isə Azərbaycanın başqa bölgələrinə aparıldılar.

1988-ci il noyabrın 4-də İrəvanda keçirilən mitinqdə "Qarabağ" komitəsinin fəallarından olan Rafael Kazayan (hazırda Ermənistan Elmlər Akademiyasının akademikidir) hər kəsə açıq şəkildə çağırış etdi. O, hamını "əvvəlcədən yaradılmış dəstələrin köməkliyilə emiqrasiyanın reallaşdırılmasına" səslədi: "Bu onillikdə ilk dəfə olaraq Ermənistanı türklərdən təmizləmək üçün əla imkan əldə etmişik. Hesab edirəm ki, bu, on ildə

apardığımız mübarizənin ən böyük nəticəsidir" ("Ermənistan: mübarizənin iyirmi ayı". Sənədlər toplusu. Erməni ümummilli hərəkatının nəşri. İrəvan, 1989, s.15).

1988-ci il sentyabrın sonlarında Ararat vadisində bir nəfər də olsun, azərbaycanlı qalmamışdı. Ermənistan hökuməti özünü "türklərsiz respublika" elan etmiş və bundan sonra 1989-cu il ərzində Ermənistanda qalmış digər azərbaycanlılar da oradan qovulmuşdu. Daha sonra isə bütün Ermənistan boyunca azərbaycanlılara məxsus ziyarətgahlar, memarlıq və tarixi abidələrin məhvinə başlanıldı, toponimlərin adları kütləvi şəkildə dəyişdirildi.

Bu gün Ermənistandan olan yüz minlərlə qaçqın Azərbaycanda yaşayır. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından olan məcburi köçkünlərlə birlikdə onların sayı təxminən 1 milyondur. Bununla yanaşı, Ermənistan hökuməti yaxşı yaşamaq istəyində olan öz əhalisinin də ölkədən kütləvi şəkildə çıxıb getməsini əngəlləyə bilmir. Erməni ekspert Vigen Akopyan "Ermənilər və Ermənistan - millət dövlətdən daha geniş olduqda" məqaləsində yazır: "Ermənistan hökuməti geridə qalmış 20 il ərzində ölkəni 1 milyondan artıq insanın, yəni əhalinin üçdəbirinin tərk etdiyini boynuna alır. Bu, tamamilə anormal göstəricidir və dünyadakı orta göstəricini 10 dəfə üstələyir!"

Yəni qonşularına qarşı yürütdüyü aqressiv siyasətə görə, Ermənistan müstəqil dövlət kimi özünü təsdiqləyə bilməyib və artıq hazırkı hakimiyyəti dövlətçiliyin xilası düşündürmür. Bir tikə çörək dalınca qaçan və ölkəyə rəhbərlik edən Qarabağ klanından mümkün qədər uzaq olmağa çalışan ermənilər kütləvi şəkildə Rusiyanın Qara dəniz sahillərinə, Soçiyə, Krasnodara, Stavropola və digər regionlara axışırlar. Faktiki olaraq, ermənilər vaxtilə yaşamaları üçün köçürülüb-gətirildikləri Cənubi Qafqazı və hazırkı Ermənistan Respublikasını tərk edir. Müasir ermənilər üçün "vətən" anlayışı yaxşı yaşayışın, erməni diasporu və kilsəsinin olduğu yerdir.

**Rizvan HÜSEYNOV**

**«Region *plus* »**.- 2013.-№ 16 (180) 30 may -S.12-14.

## Quba soyqırımı: tarixi həqiqətlər

**Təbii ehtiyatları ilə zəngin, geopolitik nöqteyi-nəzərdən mühüm əhəmiyyətə malik, Avropa ilə Asiyanı birləşdirən Azərbaycan adlı məmləkətə yadellilər həmişə göz dikmişlər. Lakin xalqımız öz şücaəti, mərdliyi və qəhrəmanlığı ilə heç kəsin qarşısında baş əyməmiş, dost ilə dost olmuş, düşməninə layiqincə cavab vermişdir.**

XIX-XX əsrlərdə dəfələrlə millətimizin başına ağır faciələr gətirilmiş, böyük dövlətlərin yürütdükləri imperiya siyasətinin qəddar və məkrli icraçısı olan ermənilərin əli ilə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılaraq soyqırımı törədilmişdir. Minlərlə azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilmiş, öz ata-baba yurdundan didərgin salınmış, Azərbaycanın qədim yaşayış məskənləri xarabalığa çevrilmişdir.

Tariximizi qara ləkələrdən təmizləmək, keçmişdə baş verənləri olduğu kimi öyrənib xalqa çatdırmaqda xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin xüsusi xidmətlərini hər zaman minnətdarlıqla qeyd etməliyik. Məhz ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli “Azərbaycanlıların soyqırımı haqqında” fərmanı tariximizin qaranlıq səhifələrinə işıq salmışdır.

Tariximizə nəzər salsaq görərik ki, Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin bağlanması Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarının bölünməsinin əsasını qoydu. Xalqımızın bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlanmış, qısa bir müddətdə bu siyasətin nəticəsi olaraq ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilmişdir.

“Böyük Ermənistan” yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmişlər. Ermənilərin Bakıda başlanan vəhşilikləri Azərbaycanın bir çox bölgələrini və indiki Ermənistan ərazisindəki tarixi yurd yerlərimizi əhatə etmiş, yüzlərlə yaşayış məntəqəsi yerlə yeksan olunmuş, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir. Bu qətliamlar sonralar daha geniş və müdhiş xarakter almışdır.

1918-ci ildə azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər bölgələrdə olduğu kimi, Quba qəzasında da xüsusi qəddarlıqla həyata keçirilmişdir. Yüzlərlə günahsız uşaq, qadın və qoca amansızcasına qətlə yetirilmiş, kəndlər dağıdılmış, əhali ev-eşiyindən didərgin salınmışdır.

Ümummilli lider Heydər Əliyev Qubanın Azərbaycan tarixində yerindən, malik olduğu qədim ənənələrdən bəhs edərkən belə demişdir: “Qubanın zəngin, qədim tarixi var. Quba həm coğrafi mövqeyinə görə, həm təbiətinə görə, həm də tarixi ənənələrinə görə Azərbaycanın keçmişində də, bu günündə də çox mühüm yer tutur, böyük rol oynayır. Qubanın tarixində Azərbaycanın, Azərbaycan xalqının çox parlaq səhifələri həkk olunubdur”.

Ulu öndərin hər birimiz üçün iftixar hissi doğuran bu müdrik fikirlərini ona görə xatırladırıq ki, mənfur ermənilər tərəfindən Qubada törədilən soyqırımı siyasətinin ağır nəticələrini təsəvvür etməyə imkan versin.

Bu il Quba soyqırımının 94 ili tamam oldu. Xalq olaraq qanlı tarixi heç vaxt yaddan çıxarmamalı, törədilmiş bu genosid faktını böyük kədər və düşmənə nifrət hissi ilə qeyd etməliyik.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin məlumatında ermənilərin kütləvi surətdə yaşamadığı, demək olar ki, onların barmaqla sayıldığı Quba şəhərində bu hadisələrin necə baş verdiyi konkret faktlarla əsaslandırılır. Erməni cəza dəstələri tərəfindən dağıdılana qədər Quba şəhərində 20 minə yaxın əhali və 10 minə yaxın ev olmuşdur. Daşnakların Qubaya hücumu 1918-ci il may ayının 1-də başlamış və qırğınlar 9 gün davam etmişdir. Bu müddət ərzində Quba şəhərində azərbaycanlılara məxsus 200-ə yaxın ev tamamilə dağıdılmış və yandırılmışdır. Ən çox dağıntı Bazar, Bulvar, Komendant və A.Bakıxanov küçələrində törədilmişdir.

Əldə olan məlumatlara görə, 1918-ci il may ayının 1-də erməni Amazaspın quldur dəstələri üç istiqamətdə şəhərə daxil olmuşdur. Dəstədə 4 top və 8 pulemyot vardı. Düşmən şəhəri dörd hissəyə bölərək hər bir hissədə ayrıca qərargah yaratmışdır. Birinci qərargah Leontyev bağının yanında, ikinci qərargah erməni kilsəsinin ərazisində, üçüncü qərargah müsəlman qəbiristanlığının yaxınlığında, dördüncü-mərkəzi qərargah isə yəhudi qəsəbəsindəki yüksəklikdə yaradılmışdır. Daşnak dəstələri çox amansızlıqla dinc əhalini məhv etmiş və bütün əmlakını talan etmişlər. Təkcə birinci gün şəhərin aşağı hissəsində 713 nəfər azərbaycanlı öldürülmüşdür

ki, onların da əksəriyyəti qadın və uşaqlar idi. Böyük Şosse və Bazar küçələrində evlər qarət edilmişdir. Hücumun ikinci günü erməni quldur dəstələri şəhərdə 1012 azərbaycanlı qətlə yetirmişlər. Onlar evlərə soxularaq südəmər uşaqlara belə rəhm etmir, onları analarının qucağındaca qılıncla doğrayırdılar.

Mənfur ermənilərin vəhşiliklərini göstərmək üçün bəzi faktları nəzərinizə çatdırmaq istərdim. Kərbəlayi Məhəmməd Tağı oğlunun 14 nəfərdən ibarət ailəsi qəddarlıqla qətlə yetirilmişdir. Məhəmməd Rəsul Mahmud oğlunun 3 uşaq və arvadından ibarət bütün ailəsi ağır işgəncələrlə öldürülmüşdür. Onun özünün diri-diri qarnını yırtmış, gözü qabağında 3 uşağının başını kəsmişlər. Hacı Dadaşbala Qasım oğlu arvadı Məşədi Bibixanım və oğlu Əbdül Qasımla öz evlərində öldürülmüş və yandırılmışlar. Kərbəlayi Abuzər Məstan oğlunun iki qızı - Hökümə və Buta analarının qucağındaca xəncərlə doğranmışlar. Şəhərin hörmətli ağsaqqallarından Kərbəlayi Əlipaşa və oğlu amansızcasına qətlə yetirilmişlər. Erməni vəhşiləri əvvəlcə Əlipaşanın gözü qabağında oğlunun gözlərini çıxarmış, üzünü ülgüclə doğramış, sonra isə canını tapşırana qədər süngü ilə dəlik-dəlik etmişlər.

Doqquz gün ərzində 3000-ə yaxın müsəlman kişi, qadın və uşaq qətlə yetirilmişdir. Qubada Amazaspın dəstəsi tərəfindən oğurlanmış və qarət edilmiş əmlak 4 milyon manat nağd pul, 4,5 milyon manat brilyant, qızıl, gümüş və digər qiymətli daş-qaş 25 milyon manatlıq müxtəlif mallar, xalça və ev əşyaları və s. olmuşdur.

Bundan əlavə, Amazaspın dəstələri təkcə Quba şəhərində 105 evi və digər tikililəri yandırıb dağıtmışlar ki, bunun da nəticəsində onların sahiblərinə dəyən zərər 100 milyon manatdan yuxarı olmuşdur. Ümumilikdə Quba qəzasında bir neçə dəfə törədilmiş qırğın nəticəsində 16 min dinc əhali qətlə yetirilmiş, 122 kənd və 26 məscid yandırılmışdır.

Ermənilər Xəzər dənizi sahillərindən tutmuş Şahdağa qədər olan ərazidə yaşayan bütün müsəlmanları məhv etmək, xanımanlarını yer üzündən silməyi qarşılarına məqsədi qoymuşdular. Lakin onlar istədiklərinə nail ola bilmədilər. Şəhərin Qırmızı qəsəbə adlanan hissəsində Qusardan köməyə gələn silahlı dəstə ilə birləşməyə nail olan polkovnik Əli bəy Zizinskinin dəstəsi əhali arasında “Qanlı dərə” adlanan yerdə erməni silahlı birləşmələrinin qarşısını kəsmişdir. Ermənilər döyüş zamanı ciddi itkiyə məruz qalaraq geri çəkilməyə məcbur olmuşlar. Beləliklə, düşmənin bütün Quba qəzasını ələ keçirmək planları puça çıxmışdır. Bu mübarizədə qəzanın bütün əhalisi milliyyətindən asılı olmayaraq, ciddi şəkildə birləşərək düşmənə qarşı müqavimət göstərmişdir. Bu, regionumuzda xalqlar dostluğunun dərin köklərə malik olduğunu bir daha sübut edir.

Məhz bu illərdə Azərbaycanın bütün bölgələrində baş vermiş cinayətlərə, haqsızlıqlara görə cəza almayan, azərbaycanlıların qanına susamış erməni daşnakları 1920-ci illərdə Cənubi Qafqazın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edərək Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə başladılar. Erməni millətçiləri öz havadarlarının köməyi ilə 1950-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına start verdilər. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də gücləndi. Onlar milli mədəniyyətimizin ən dəyərli nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsi nəticəsində 230 min soydaşımız Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından qovuldu. O zaman məhz Azərbaycan rəhbərliyinin passiv mövqeyi nəticəsində bu hadisələrə qiymət verilmədi, 1990-cı ilin yanvar hadisələri baş verdi. Ərazi bütövlüyünün pozulmasına qarşı etiraz edən yüzlərlə günahsız vətəndaşımız yaralandı və qətlə yetirildi. Bir sözlə, Azərbaycan xalqına qarşı kütləvi terror aktı həyata keçirildi.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməmiş divan tutdu. Tariximizə Xocalı soyqırımı həkk olundu. Bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə nəticələndi. Ata-baba torpaqlarımızın 20 faizi işğal altına düşdü. Say-seçmə oğullarımız Vətən uğrunda, torpaq uğrunda vuruşdular, canlarından keçdilər. Rayonumuzdan Qarabağ uğrunda gedən döyüşlərdə 215 oğul şəhidlik zirvəsinə yüksəldi, 107 nəfər əlil oldu.

2007-ci il aprel ayının 5-də Quba şəhər stadionunda aparılan yenidənqurma işləri zamanı aşkar olunmuş kütləvi məzarlıq ermənilərin Qubada törətdikləri vəhşiliklərin danılmaz sübutlarından biridir.

Məlum olduğu kimi, möhtərəm Prezidentimiz cənab İlham Əliyev Quba şəhər stadionunun yaxınlığında aşkar olunmuş kütləvi məzarlıqda “Soyqırımı monumental abidə kompleksi”nin yaradılması

haqqında 30 dekabr 2009-cu ildə sərəncam imzalanmışdır və ərazidə Heydər Əliyev Fondu tərəfindən möhtəşəm kompleksin tikintisi başa çatmaq üzrədir.

Artıq dünyanın bütün ölkələrindən məzarlığa ziyarətə gələn nümayəndələr Quba soyqırımının azərbaycanlılara qarşı yönəldilən ən qatı cinayət kimi qiymətləndirirlər. Bu möhtəşəm abidə Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırmaq üçün mühüm mədəniyyət əsəri olacaq.

Soyqırımı və deportasiya ilə bağlı hadisələr, tarixi sənədlər bütün dünyaya çatdırılmalı, əsrlər boyu yaddaşlarda qalmalıdır. Ulu öndər Heydər Əliyevin "Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırımı siyasəti haqqında həqiqətləri dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırımı siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur" sözləri bu gün də çox əhəmiyyətlidir. Bunun üçün hamımız Prezidentimiz cənab İlham Əliyevin ətrafında daha sıx birləşməli, respublikamızın taleyüklü məsələsi olan Qarabağ probleminin həllində ona yardımçı olmalıyıq.

Azərbaycan xalqı möhtərəm Prezidentimizin bu istiqamətdəki fəaliyyətini dəstəkləyir, müdafiə edir. Biz yaxşı bilirik ki, yalnız Prezidentimizin səyi nəticəsində bu problem öz ədalətli həllini tapacaq, doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın qaçqınlıq həyatına son qoyulacaq.

**Elza Orucova,**
**Quba Heydər Əliyev Mərkəzinin direktoru,**
**Beynəlxalq Muzeylər Şurasının üzvü**

**"Mədəniyyət".-**2013.-23 avqust.-N 59.-S.12.

## Azərbaycanlıların əzəli torpaqlarından sonuncu – 1988-1989-cu illər deportasiyası

***İndi Ermənistan adlanan dövlətin ərazisində yaşayan azərbaycanlıların əzəli torpaqlarından sonuncu deportasiyasından düz 25 il ötür. 1988-ci ilin fevralından başlanan bu proses həmin ilin noyabr-dekabr aylarında kulminasiya nöqtəsinə çatdı. Dekabrın 7-də baş verən Spitak (Hamamlı) zəlzələsindən sonra bir müddət ermənilərin başları dağıntıların nəticələrini aradan qaldırmağa qarışsa da, proses artıq geriyədönməz xarakter almışdı. Deportasiya aksiyası 1989-cu ilin yayında başa çatdırılmış hesab olundu. Rəhbərliyində kimlərin olmasından asılı olmayaraq, Sovet Ermənistanının Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan ərazilərinə iddiası və bu iddiaların fonunda Ermənistandan azərbaycanlıların sıxışdırılıb çıxarılması hər zaman gündəlikdə olmuşdur. Sadəcə olaraq, situasiyadan asılı bu iddialar gah aktuallaşmış, gah da arxa plana çəkilmişdir. SSRİ Konstitusiyasında müttəfiq respublikaların ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin təsbit edilməsi ermənilərin qarşısında bir maneə olsa da, onlar heç zaman bu iddiadan əl çəkməmişlər. Ermənistan rəhbərləri bəzən öz imzaları ilə, bəzən də Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni ziyalılarının imzaları ilə SSRİ rəhbərliyinə vaxtaşırı müraciətlər göndərirdilər. Rəsmi İrəvan və DQMV erməniləri 1945, 1964, 1975, 1977 və 1987-ci illərdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında Moskvaya müraciətlər etmişdilər.***

İkinci Dünya müharibəsinin sonunda SSRİ Türkiyənin Qars və Ərdahan vilayətlərinə ərazi iddiası irəli sürmüşdü. SSRİ-yə birləşdirildikdən sonra Qars vilayətində ermənilərin, Ərdahan vilayətində isə gürcülərin məskunlaşdırılması nəzərdə tutulmuşdu. Bu fürsətdən istifadə edən Ermənistan rəhbərləri xarici ölkələrdən 100 minə yaxın ermənini köçürüb gətirtdi ki, onları sonradan Qars vilayətində yerləşdirsin. Əvəzində, 100 min azərbaycanlının Ermənistandan Azərbaycanın Kür-Araz ovalığına "könüllü köçürülməsi" haqqında SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il qərarının qəbul edilməsinə və 1948-1953-cü illərdə təqribən o qədər azərbaycanlının tarixi-etnik torpaqlarından deportasiyasına nail oldular.

Ermənistanda antitürk, antiazərbaycan təbliğatı 1960-cı illərin ortalarında var gücü ilə yenidən işə salındı. Moskvanın razılığı ilə 1965-ci ildə Ermənistanda uydurma "Erməni soyqırımı"nın 50 illiyi mərasimi keçirildi. Həmin dövrdə İrəvanda Ermənistanı Yenidənbirləşdirmə Komitəsi yaradılmışdı. Bu komitəyə gizli surətdə Ermənistanın o zamankı rəhbərləri və ziyalıları başçılıq edirdilər. Komitə "Türkiyə Ermənistanı"nı, Naxçıvan və Dağlıq Qarabağı Ermənistana birləşdirməyi qarşısına məqsəd qoymuşdu. Həmin dövrdə Ermənistanda aparılan milli ayrı-seçkilik və diskriminasiya siyasəti nəticəsində İrəvan və onun ətraf rayonlarından yüzlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdu.

Ermənistanda yaşayan azərbaycanlılara qarşı açıq elan edilməmiş "səlib yürüşü"nün proqramı respublikanın ən yüksək dairələrində hazırlanır, gizli qərarlar və xüsusi göstərişlər vasitəsilə həyata keçirilirdi. 1983-cü il aprelin 24-də ermənilər "genosid" gününü bəhanə edərək Masis (Zəngibasar) rayonunun mərkəzi Uluxanlıda azərbaycanlılar yaşayan evlərə basqınlar etmiş, qəsəbədəki qəbiristanlıqda qəbir daşlarını qırıb dağıtmışdılar. Müdafiəsiz əhali Türkiyə ilə sərhəd zolağına sığınmağa məcbur olmuşdu.

1984-cü ildə Azərbaycan xalqının qəddar düşməni Zori Balayanın "Ocaq" kitabının çap edilməsi azərbaycanlılara qarşı düşmənçilik hisslərinin açıq-aşkar qızışmasına səbəb oldu. Ermənistanda azərbaycanlılara qarşı aparılan milli ayrı-seçkilik siyasətinə, onların müxtəlif bəhanələrlə sıxışdırılmasına, nəhayət ki, Sov.İKP MK reaksiya verməyə məcbur olmuşdu. "Ermənistan partiya təşkilatında Sov.İKP MK-nın 1983-cü il iyun plenumunun qərarının yerinə yetirilməsi haqqında" Sov.İKP MK-nın 17 oktyabr 1984-cü il tarixli qərarında deyilirdi ki, son vaxtlarda Ermənistanda millətçilik əhval-ruhiyyəsini qızışdıran əsərlər yazılır, tarixi həqiqətlər təhrif edilir, azlıqda qalan millətlərin dilinin və mədəniyyətinin inkişafına imkan yaradılmır, partiya, sovet və təsərrüfat strukturlarında onların nümayəndələri təmsil olunmurlar və s.

1985-ci ildə Mixail Qorbaçovun SSRİ rəhbərliyinə gəlməsindən sonra "yenidənqurma" və "aşkarlıq" pərdəsi altında Ermənistanda və DQMV-də millətçilik ab-havası gündən-günə qızışırdı. Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə pərdəsi altında Azərbaycana qarşı anneksiya planının həyata keçirilməsinin qarşısını ala biləcək şəxs - Heydər Əliyev 1987-ci il oktyabrın 19-da erməni lobbisinin təzyiqi ilə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırıldı. Bundan az sonra noyabrın 18-də Sov.İKP MK-nın baş katibi M. Qorbaçovun iqtisadi məsələlər

üzrə müşaviri akademik Abel Aqanbekyan Parisdə "L'Humanite" qəzetinə verdiyi müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etdi.

Həmin ilin noyabrında M. Qorbaçov ABŞ-da səfərdə olarkən onun xanımı Raisa Qorbaçova erməni diasporunun nümayəndələri ilə görüşmüşdü. Görüşün təşkilində SSRİ-nin həmin vaxt ABŞ-dakı səfiri Yuri Dubininin xanımı Liana Zavenovna Dubinina xüsusi fəallıq göstərmişdi. Raisa Qorbaçovanın tamahına bələd olan ermənilər ona qiymətli hədiyyələr bağışlamış, M. Qorbaçovdan Dağlıq Qarabağ ermənilərinin tələblərini yerinə yetirməyi xahiş etmişdilər.

1987-ci ilin avqustunda ermənilər Dağlıq Qarabağdan və Ermənistandan 75 min imza toplayaraq Kremlə göndərmişdilər. Dekabrın 1-də Dağlıq Qarabağ ermənilərinin təmsilçiləri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciəti Sov. İKP MK-ya təqdim etmişdilər. Dağlıq Qarabağın erməni icmasının daha bir müraciəti və toplanmış imzaları 8 yanvar 1988-ci ildə SSRİ Ali Soveti sədrinin birinci müavini Pyotr Demiçevə təqdim etmişdi.

Fevralın 13-də DQMV-də gizli fəaliyyət göstərən separatçı "Krunk" ("Durna") təşkilatının təşkilatçılığı ilə DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndidə ilk mitinq keçirilmişdir. Fevralın 18-də Kremldəki erməni lobbisinin "kuratoru" Georgi Şahnazarovun M. Qorbaçovun köməkçisi təyin edilməsindən sonra erməni separatçıları daha da fəallaşmışdılar. Həmin günlərdə İrəvanda keçirilən mitinqlərdə "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistanda ancaq ermənilər yaşamalıdır!" kimi millətçi şüarlar irəli sürülmüşdü.

DQMV Xalq Deputatlar Sovetinin növbədənkənar sessiyasının çağırılacağı xəbərini alan Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov 1988-ci il fevralın 20-də səhər təyyarə ilə Xankəndinə gəlmiş, Vilayət Partiya Komitəsinin büro iclasını keçirmiş, erməni separatizminin qarşısını almağa çalışmışdı. Lakin elə həmin gün axşam Vilayət Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası keçirilmiş, muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qəbul edilmiş və qərara anlayışlı yanaşılması üçün Azərbaycan və Ermənistan ali sovetlərinin rəyasət heyətlərinə müraciət edilmiş, bu məsələnin müsbət həlli üçün SSRİ Ali Soveti qarşısında vəsatət qaldırılmışdı.

Elə həmin gün Qafan rayonundan qovulan azərbaycanlı qaçqınların ilk dəstəsinin nümayəndələri Azərbaycan KP MK-da qəbul edilmişdi.

Fevralın 21-də səhər-səhər əllərində Ermənistan SSR-in bayrağı və M. Qorbaçovun portretləri olan nümayişçilər Vilayət Partiya Komitəsinin binasının qabağına toplaşaraq "Dağlıq Qarabağ Ermənistanın ayrılmaz tərkib hissəsidir!", "Qarabağ - yox, Artsax - hə!", "Yaşasın milli siyasətdə yenidənqurma!" şüarlarını səsləndirmişdilər. Həmin gün axşam Sov.İKP MK-nın Siyasi Bürosu DQMV-də baş verən hadisəni müzakirə etmiş, ermənilərin iddiasının dövlətin mövcud milli-ərazi quruluşunun dəyişdirilməsinə cəhd və yolverilməz olduğu mövqeyi bildirilmiş, vəziyyəti nəzarətdə saxlamaq üçün Sov.İKP MK-nın katibi Georgi Razumovski, SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin birinci müavini Pyotr Demiçev və SSRİ DTK-sı sədrinin birinci müavini Filipp Bobkov Bakıya gəlmiş, oradan da Xankəndinə getmişdilər.

Kremlin ilk rəsmi açıqlamasından narazı qalan ermənilər İrəvanda və Xankəndində etiraz mitinqlərinə başlamışdılar. Fevralın 21-də İrəvanda fəaliyyət göstərən yeganə Dəmirbulaq məscidi (XX əsrin əvvəllərində şəhərdə 8 məscid var idi) və M. F. Axundov adına orta məktəbin binası, C. Cabbarlı adına İrəvan Dövlət Dram Teatrının ləvazimatı yandırıldı. İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vurdular.

Fevralın 22-də ermənilər Əsgəran rayonunda Bəxtiyar Quliyev və Əli Hacıyev adlı iki gənci qətlə yetirdikdən sonra Xankəndi-Ağdam yolunda Ağdam rayonunun sakinləri ilə Əsgəran sakinləri arasında qarşıdurma olmuş, 19 nəfər yaralanmışdı. Fevralın 25-də Azərbaycanın öz ərazisindən soydaşlarımızın ilk qaçqınlıq dalğası başladı. DQMV-nin ərazisində ermənilərin təzyiq və təhqirlərinə tab gətirməyən 540 ailə (təqribən 2,5 min nəfər) Ağdam rayonuna, 150 ailə isə (təqribən 500-600 nəfər) Ağcabədi rayonuna pənah gətirmişdi.

Ermənistan ərazisindən isə azərbaycanlıların deportasiyası günü-gündən intensivləşirdi. Fevralın 28-nə olan rəsmi məlumata görə, Qafan rayonundan qonşu Zəngilan rayonuna təqribən 2 min nəfər azərbaycanlı qaçqın kimi gəlmişdi. Həmin günlərdə İmişli və Qubadlı rayonlarına da Ermənistandan yüzlərlə qaçqın ailəsi pənah gətirmişdi. Abşeron rayonuna Ermənistandan canını qurtarıb gələn 200 nəfər qaçqını Mərkəzi Komitənin

birinci katibi K. Bağırov və Moskvadan gələn yüksək vəzifəli şəxslər qəbul etmişdilər. Gəncədə və Naxçıvanda Ermənistandan azərbaycanlıların təqib edilmələrinə etiraz əlaməti olaraq aksiyalar keçirilmişdi.

İrəvanda fəaliyyət göstərən "Qarabağ" komitəsinin rəhbərləri Silva Kaputikyan və Zori Balayan fevralın 24-də Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü, MK katibi Aleksandr Yakovlevlə üç saata yaxın danışıq aparmışdılar. Fevralın 26-da isə M. Qorbaçovun köməkçisi Georgi Şahnazarovun və A. Yakovlevin ("Latinskaya Amerika" jurnalının redaktoru Serqo Mikoyanın qayını A. Yakovlevin köməkçisi idi) müşayiəti ilə Sov. İKP MK-nın baş katibi M. Qorbaçov S. Kaputikyanı və Z. Balayanı qəbul etmişdi. Saatyarım müddətdə onlar M. Qorbaçova türk dünyasının xəritəsini və saxta tarixi arayışlar təqdim etmiş, onu DQMV-nin Azərbaycanın tərkibində qalmasının mümkünsüzlüyünə inandırmağa çalışmışdılar. Lakin Qorbaçov onlara Dağlıq Qarabağın Ermənistana veriləcəyini vəd etməmişdi. Əvəzində, DQMV-nin sosial-iqtisadi inkişafı üçün o dövrün miqyasına görə çox böyük bir məbləğ olan 400 milyon rubl ayrılacağına söz vermişdi. Çünki Qorbaçov bilirdi ki, SSRİ ərazisində 19 potensial milli münaqişə ocağı mövcuddur və sərhədlərin dəyişdirilməsi yolu ilə Dağlıq Qarabağın Ermənistana verilməsi SSRİ-nin süqutuna gətirib çıxara bilərdi. Həmin görüşdə G. Şahnazarov S. Kaputikyan və Z. Balayana deyir ki, gedin İrəvanda deyin ki, tezliklə milli məsələyə həsr olunacaq Ümumittifaq konfransı keçiriləcək və o zaman qərar qəbul ediləcək. Bundan sonra İrəvanda və Xankəndində yeni mitinqlər dalğası başlamışdı.

Fevralın 27-də Sov.İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi müdirinin birinci müavini Karen Brutens Xankəndinə gələrək erməni separatçılarının rəhbərləri ilə tam məxfi görüş keçirmiş, onlara təzyiqləri artırmağı və tələblərindən geri çəkilməməyi məsləhət görmüşdü.

Ermənistandan azərbaycanlıların deportasiyasının qarşısını almağın mümkünsüzlüyünü görən Azərbaycan KP MK martın 1-də Həsən Həsənovun başçılığı ilə Ermənistandan gələn azərbaycanlılarla iş aparmaq məqsədilə respublika komissiyası yaratmışdı.

Fevralın 27-28-də Dağlıq Qarabağda və Ermənistanda azərbaycanlılara qarşı edilən zorakılıqlara etiraz əlaməti olaraq keçirilən mitinqdən sonra DTK-nın ssenarisi və erməni ekstremistlərinin bilavasitə iştirakı ilə Sumqayıtda kütləvi iğtişaşlar törədildi. Bundan sonra Ermənistandan azərbaycanlıların yeni qaçqınlıq dalğası başladı. Moskvanın, onun Azərbaycana və Ermənistana göndərilmiş emissarlarının ikiüzlü mövqeləri (Yeqor Liqaçov Azərbaycanda, Aleksandr Yakovlev Ermənistanda) erməni millətçilərinin öz bədnam niyyətlərini həyata keçirmək ümidlərini artırırdı.

Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan 200 mindən artıq azərbaycanlını deportasiya etmək, Dağlıq Qarabağ problemini həll etmək qədər vacib idi. Azərbaycan hökuməti isə Ermənistandan gələn qaçqınları yük maşınlarına dolduraraq geri qaytarmaqla öz işini bitmiş hesab edirdi. 1988-ci il martın 21-nə olan rəsmi məlumata görə, fevralın 28-dən həmin günədək Ermənistandan 16900 nəfər qaçqın gəlmiş, onlardan 8600 nəfəri geri qaytarılmışdı. Buna baxmayaraq, dağ yolları ilə Ermənistanın Vardenis (Basarkeçər), Masis (Zəngibasar), Razdan (Axta), Krasneselo, Yeğeqnadzor, Ararat (Vedi) rayonlarından qaçqın axını gəlir və əsasən Gəncə, Mingəçevir, Naxçıvan şəhərlərində, Şərur, Zəngilan, Qazax, Salyan, Xanlar (Göygöl), Jdanov (Beyləqan) rayonlarında özlərinə sığınacaq tapırdılar. Naxçıvanda vəziyyət o həddə çatmışdı ki, Bakıdan oraya əlavə ərzaq göndərilməsinə başlanılmışdı.

11 may 1988-ci ildə ermənilər Ararat (Vedi) rayonunun Şirazlı kəndinə hücum etmiş, iki nəfər qətlə yetirilmiş, xeyli sayda insan yaralanmış, evlər yandırılmışdı. Əhali Sovet-Türkiyə sərhədinə çəkilərək uzun müddət çadırlarda yaşamaq məcburiyyətində qalmışdı.

Ermənistanda yaşayan azərbaycanlıların vəziyyətini öyrənmək, onların problemlərini həll etmək məqsədilə Azərbaycan KP MK-nın katibi Ramiz Mehdiyevin başçılığı ilə İrəvana nümayəndə heyəti göndərilmişdi. 13-15 aprel 1988-ci il tarixində Ermənistanda olmuş nümayəndə heyəti iki dəfə Ermənistan KP MK-nın birinci katibi Karen Demirçyanla görüşmüşdü. Lakin verilən vədlərə baxmayaraq, azərbaycanlılara qarşı edilən zorakılıqlara və onların deportasiyasına son qoyulmamışdı. Ermənistandan qovulan azərbaycanlılar Azərbaycan KP MK-ya gələrək, onların Dağlıq Qarabağda məskunlaşdırılmalarını xahiş edirdilər. Azərbaycan rəhbərləri isə nəinki onlara bu şəraiti yaradır, əksinə, onları DQMV-nin ərazisinə buraxmamaq haqqında hüquq-mühafizə orqanlarına ciddi tapşırıqlar verirdilər.

1988-ci il mayın 15-də ilk dəfə keçmiş Lenin - indiki Azadlıq meydanında əsasən tələbələrin və ziyalıların iştirakı ilə azərbaycanlıların Ermənistandan qovulmasına etiraz əlaməti olaraq izdihamlı mitinq

keçirildi. Mitinqdə "Erməni təhrikçiliyinə son qoyulsun!", "Ermənistanda yaşayan azərbaycanlılar üçün muxtariyyət!", "Daşnaklara ölüm!" və s. şüarlar səsləndirilmişdi.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. Azərbaycan SSR Ali Soveti iyunun 17-də bu qanunsuz tələbi rədd etdikdən sonra Ermənistandakı azərbaycanlıların vəziyyəti daha da ağırlaşdı. İyunun 17-20-də İrəvanda teatr meydanında mitinqə toplaşan qeyzlənmiş erməni dəstələri avtobuslarla azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçilər, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Müdafiəsiz on mindən çox azərbaycanlılar Sovet-Türkiyə sərhədinə toplaşmış, günlərlə orada gecələməyə məcbur olmuşdular. Həmin günlər 20-dən çox azərbaycanlı yaralanmışdı. Rayon mərkəzi Uluxanlı qəsəbəsindən 3 mindən çox azərbaycanlı evlərindən çıxarıldı. Bütün bu iğtişaşlar zamanı SSRİ Daxili İşlər Nazirliyinin rayonda olan qüvvələri yalnız müşahidəçi rolunu oynayırdılar.

1988-ci il iyulun 9-da Azərbaycan KP MK-nın yeni birinci katibi Əbdürrəhman Vəzirovun tapşırığı ilə Şuşada və DQMV-nin digər məntəqələrində özbaşına və yaxud qohumlarının yanında məskunlaşmış azərbaycanlı qaçqınlar muxtar respublika ərazisindən çıxarılaraq digər rayonlara göndərildilər.

1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi haqqında qərar qəbul etdikdən sonra erməni millətçiləri azərbaycanlıların Ermənistan ərazisindən çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar.

İyulun 21-də ermənilərin Kalinino rayon mərkəzində yaşayan azərbaycanlılara silahlı hücumu nəticəsində 86 yaşlı Məhəmməd Sadıqov qətlə yetirilmiş, onlarla adam yaralanmışdı.

Avqustun 20-də Xankəndi şəhər meydanında keçirilən mitinqdə Ermənistandan gələn azərbaycanlı qaçqınların muxtar vilayətin ərazisindən çıxarılmaları tələbi irəli sürülmüşdü.

Ermənistan EA-nın müxbir üzvü, "Qarabağ" hərəkatının liderlərindən olan akademik Rafael Kazaryan 1988-ci il noyabrın 4-də İrəvanda keçirilən mitinqdə demişdi: "Dəstələrin köməyi ilə emiqrasiyanı təmin etmək lazımdır. Bizə bütün onilliklər ərzində ilk dəfə Ermənistanı türklərdən təmizləmək imkanı verilmişdir. Mən bunu bu on aylıq mübarizəmizin ən böyük nailiyyəti hesab edirəm".

1988-ci il noyabrın ortalarında Ermənistandan Azərbaycana 80 mindən artıq qaçqın pənah gətirmişdi. Noyabrın 17-də Bakıda "Azadlıq" meydanında keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul edilmişdi. Ermənistan televiziyası həmin gün Bakıda keçirilən mitinqdən reportajlar göstərərək, həmin qətnamənin tələblərini dəfələrlə efirdə səsləndirmişdi. Noyabrın 22-də Ermənistan SSR Ali Sovetinin azərbaycanlı deputatların iştirakı olmadan növbədənkənar sessiyası çağırılmışdı. Sessiyanın keçirildiyi opera teatrının binasının qarşısına toplaşan mitinq iştirakçılarının hücumundan sonra Ermənistan rəhbərliyi mitinqçilərin tələbi ilə sessiyanın gedişini dayandırmış, deputatları və rayon rəhbərlərini "qayda-qanunu bərpa etmək" adı altında yerlərə göndərmişdi. Rayon rəhbərlərinə tapşırıq verilmişdi ki, bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyasını başa çatdırsınlar.

Ermənistan KP MK, Ali Sovet və Nazirlər Sovetinin orqanı olan "Kommunist" (rusca) qəzeti 13 dekabr 1988-ci il tarixli sayında dərc edilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsində həmin günlərdə törədilən qırğınlardan bəhs edərək yazırdı: "Noyabrın 26-da "Qarabağ" hərəkatı fəallarının təhrikçi çıxışlarından qızışmış 500 nəfər Kirovakan (indiki Vanadzor) sakini Şaumyan (əvvəlki adı Vartanlı olmuşdur) kəndinə doğru hərəkət etdi. Vuruşma iki gün davam etdi, silahlı atışma oldu. Ölənlər var. Kuybışev kəndində də qırğınlar törədildi, orada da tələfat var. Hərəkatın fəallarının köməyi ilə yaradılmış "özünümüdafiə dəstələri" yollarda qoyduqları postlarda azğınlıqlar törədirdilər. Azərbaycanlı kəndlərinə ərzaq köməyi göstərən ermənilər döyülürdülər".

Vartanlı və Kuybışev kəndlərində ermənilərin törətdikləri qırğınları ört-basdır edən rəsmi orqanlar yalnız "atışma olmuşdur, tələfat var" ifadələri işlətməklə kifayətlənmişdilər. Vartanlı kəndi Kirovakan şəhərinə bitişik olmasına baxmayaraq, inzibati-ərazi bölgüsünə görə Quqark rayonuna daxil idi. XX əsrin əvvəllərində tamamilə azərbaycanlılar yaşayan Vartanlı kəndində 1988-ci ilin sonunda ermənilər çoxluq təşkil edirdilər. Ermənilər noyabrın 25-dən 26-na keçən gecə kəndə silahlı hücum etmişdilər. Həmin gün güclü qar yağır, şiddətli külək əsirdi. Azərbaycanlılar kəndi tərk edib əsasən ətraf meşələrə çəkilməyə məcbur olmuşdular.

Ümumiyyətlə, təkcə noyabrın 26-27-də Vartanlı kəndində 14 nəfər azərbaycanlı vəhşicəsinə öldürülmüş və yandırılmışdır. Kəndin sağ qalan əhalisi qarlı-çovğunlu günlərdə dağlarla, meşələrlə gündüzlər gizlənib

yalnız gecələr yol gedərək 13-14 gün ərzində Azərbaycana çatmışdılar. Onlarca vartanlı dağlarda itkin düşdü. Toqquşma zamanı aldıqları bədən xəsarətindən, yollarda tutulduqları xəstəlikdən sonra Azərbaycana gələn onlarca vartanlı vəfat etmiş, bir çoxları ömürlük şikəst olmuşdular. Ümumiyyətlə, həmin dövrdə Quqark rayonunda ermənilərin törətdiyi qırğınlar nəticəsində 30-dan artıq azərbaycanlı qətlə yetirilmişdir. Quqark faciəsi Ermənistan rəhbərliyi tərəfindən ört-basdır edildi. Sonralar, yəni 1989-cu ildə Ermənistan KP MK bürosu Quqark rayon partiya komitəsinin birinci katibi L. Bağdasaryanı və RİK-in sədri S. Kazaryanı işdən azad etməklə kifayətləndi.

Vartanlı faciəsi öz ssenarisinə görə 1918-1920-ci illərdə İrəvan quberniyasında azərbaycanlılar yaşayan kəndlərə erməni quldurlarının hücumları zamanı törədilən vəhşiliklərin təkrarı idi. Erməni tarixçisi Leo (əsl adı Arakel Babaxanyandır) 1925-ci ildə Tiflisdə ermənicə çap olunan "Ançyaliç" ("Keçmişdən") əsərində erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri etiraf edərək yazır: "Daşnaksakanlar "silip-süpürməklə" (yəni azərbaycanlı kəndlərində etnik təmizləmə aparmaqla) məşğul idilər. Sürməli qəzasının türk (azərbaycanlı) əhalisinin xeyli hissəsi öz yaşayış yerlərindən qaçmışdılar. İrəvan və digər qəzalarda bir çox kəndlər dağıdılmış və yandırılmışdı. Erməni fədailəri heç bir faydası və zəruriyyət olmadan hətta elə kəndlərdə vəhşiliklər törədirdilər ki, həmin kəndlərdə türk əhalisi çox az olduğu üçün ermənilərə heç bir ziyan verə bilməzdi. Xüsusən Böyük Qarakilsə şəhərinin yanındakı Vartanlı kiçik türk kəndində törədilən qırğınlar həyəcanlandırıcı idi". 1918-ci ildə Vartanlıda törədilən qırğınlar düz 70 ildən sonra bir də təkrarlanmışdı. 1918-ci ilin Novruz bayramı günlərində ermənilər Vartanlı kəndinin kişi cinsindən olan bütün sakinlərini qoyun tövlələrinə toplayaraq hamısını yandırmışdılar. Qadınlar , körpələr meşələrə qaçaraq dağlarda tələf olmuşdular. Deməli, ermənilər təkcə XX əsrdə Vartanlı kəndində iki dəfə azərbaycanlılara qarşı soyqırım törətmişlər. Təəssüf ki, dünya ictimaiyyəti Ermənistandakı nə 1918-1920-ci illər, nə də 1988-1989-cu illər qırğınları haqqında xəbər tutmuşdur.

1988-ci ilin noyabrında Spitak (Hamamlı) rayonunda da azərbaycanlılara qarşı qırğınlar törədilmişdi. Noyabrın 28-də Spitak rayon İcraiyyə Komitəsinin sədri V. Haycyan, daxili işlər şöbəsinin rəisi V. Sarkisyan, DTK rayon şöbəsinin sədr müavini Mehrabyan rayonun azərbaycanlılar yaşayan Saral və Qusarlı kəndlərinə gəlib bildirmişdilər ki, onların təhlükəsizliyinə təminat vermirlər, ona görə də əgər iki saat ərzində kəndi tərk etməsələr, silahlı dəstələr kəndə hücum edəcəklər. Camaat onların təklifini rədd edir. Lakin Spitak və Quqark rayon rəhbərləri yenə gəlib təkidlə tələb edirlər ki, kənd camaatı tezliklə çıxmalıdır. Onlar özləri ilə 34 avtobus və 40 yükünü özüboşaldan maşın gətirmişdilər. Onların göstərişi ilə bir dəstə erməni sahiblərinin gözü qarşısında ev əşyalarını həyətə çıxarıb, od vururlar. Əhalini zorla avtobuslara mindirərək kəndlərdən çıxarırlar. Həmin avtobusları Spitak rayonunun ərazisindən kənarda - Quqark rayonunun Mrqahovit (Həmzəçimən) kəndi yaxınlığında axşamdan xeyli keçmiş silahlı dəstələr gözləyirdilər. Spitak rayonunun rəhbərləri işi elə qurmuşdular ki, qan qonşu rayonun ərazisində tökülməli idi, bununla da onlar məsuliyyətdən kənarda qalacaqdılar. Gecənin qaranlığında yolun kənarında pusquda durmuş quldurların avtobusları atəşə tutması nəticəsində 3 nəfər (Balacayev Şahin Səyyad oğlu, Balacayev Teymur Məsim oğlu və Balacayeva Sürəyya Hüseyn qızı) həlak olmuş, 7 nəfər ağır yaralanmışdı.

Ermənistanda azərbaycanlılara qarşı dəhşətli cinayətlər törədilən rayonlardan biri də Stepanavan (Cəlaloğlu) rayonudur. Kuybışev kəndinin sakinləri Təmraz Yusif oğlu İsgəndərov, Gilas Rüstəm qızı Xəlilova, Şərif Cabbar oğlu Xəlilov vəhşicəsinə döyülmüş və soyuq silahla qətlə yetirilmişlər. Gərgər kənd sakini, Puşkino kolxozunun sağıcısı Bəsti İsrafil qızı Mustafayeva isə Ermənistanda baş vermiş dəhşətli zəlzələdən sonra, yəni bütün dünyanın Ermənistanın halına ağladığı bir vaxtda, 30 dekabr 1988-ci ildə diri-diri yandırılmış və meyiti zibillikdə gizlədilmişdi. Xeyli müddətdən sonra onun meyiti hərbçilərin köməyi ilə tapılmışdı.

Yuxarıda adı çəkilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsində azərbaycanlıların hansı şəraitdə və necə deportasiya edilmələrinə qismən də olsa aydınlıq gətirilmişdi: "Qarabağ" komitəsi avantüristlərinin çağırışına millətçilik azarına tutulmuş bir sıra partiya-sovet işçiləri də qoşulmuşlar. Ayrı-ayrı rayonlarda millətlərarası qırğına sürükləyən coşmuş ehtirasları cilovlamaq, vətəndaşları müdafiə etmək, təxribatçıları ifşa etmək əvəzinə, onlar adamların (yəni azərbaycınlıların) kütləvi surətdə çıxarılmasına "fətva" verdilər. Bu cür "missiya" ilə bəzi "xadimlər" Kirovakanda, Stepanavanda, Artaşatda evləri bir-bir gəzirdilər". Əlbəttə, azərbaycanlılar yaşayan bütün rayonların vəziyyəti belə idi. Deportasiya aksiyasını müəyyən olunmuş müddətdə başa çatdırmaq üçün

Kalinin, Spitak, Quqark, Noyemberyan, Krasnoselo, Vardenis, Yağeqnadzor, Əzizbəyov, Ararat, Masis, Sisyan və Meğri rayonlarının rəhbərləri xüsusilə canfəşanlıq göstərmişdilər.

"Fəlakət anı, məsuliyyət anı" məqaləsinin bir yerində yazılırdı: "Komitənin (yəni "Qarabağ" komitəsinin) yerli özəklərinin təşəbbüsü ilə rayon və kəndlərdə mitinqlər təşkil edilərək azərbaycanlılardan öz evlərini tərk etmələri tələbləri irəli sürülürdü. Ən həyəcanlandırıcı hal odur ki, "Qarabağ" komitəsinin hazırladığı siyasi münaqişələrə hətta uşaqları da cəlb edirdilər. Təsəvvür edin ki, Amasiya rayonunun mərkəzində rayon Xalq Nəzarəti Komitəsi sədrinin oğlunun rəhbərliyi ilə 30 məktəbli nümayiş keçirir və azərbaycanlıların işdən qovulmasını tələb edirdilər". Amasiyanın beynəlmiləl məktəbinin erməni şagirdlərinin tələbi ilə dərhal məktəbin Azərbaycan bölməsi bağlanmışdı. Bir həftə ərzində, 1988-ci il dekabrın 1-dək rəhbər vəzifələrdə işləyən azərbaycanlıların əksəriyyəti işdən azad edilmişdi.

1988-ci il dekabrın 7-də Spitak zəlzələsinin baş verməsinədək Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları bütün rayonlarda erməni silahlı dəstələri kütləvi qırğınlar, qətl və qarətlər törətmişdilər.

1988-ci ilin noyabr-dekabr aylarında bir tərəfdən Ermənistanın azərbaycanlılar yaşayan kəndlərinin əhalisi sıxışdırılır, kəndlərə ərzaq göndərilmir, elektrik xətləri kəsilir və silahlı basqınlar edilir, digər tərəfdən kəndləri tərk edən ailələrə yollarda divan tutulur, əmlakları qarət edilir, özləri isə qətlə yetirilirdilər. Ermənistanda milli zəmində baş verən cinayətlərin əksəriyyəti əsasən azərbaycanlı əhalinin öz yaşayış məntəqələrini tərk etməyə məcbur olduqları vaxt baş vermişdi. Ermənistandan Azərbaycana gedən bütün yollar üzərində bir neçə yerdə silahlı quldur dəstələri yerləşdirilmişdi. Quldurların əksəriyyəti milis forması geyərək özbaşına yoxlama-buraxılış məntəqələri yaratmışdı. Onlar bütün maşınları saxlayır, sərnişinlərin sənədlərini yoxlayır və maşında azərbaycanlılar olduğunu müəyyən edən kimi onları maşından düşürür, əmlaklarını boşaldaraq qarət edir, özlərini isə vəhşicəsinə qətlə yetirirdilər.

Ermənistanı 1988-ci ildə tərk edərək və Xanlar (Göygöl) rayonunun Quşqara kəndinə pənah gətirmiş, milliyyətcə rus olan L.V.Tolstyak Azərbaycan Qaçqınlar Cəmiyyətində yazdığı izahatında göstərmişdi ki, noyabrın 27-də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini (daha sonralar Ermənistan KP MK-nın birinci katibi) Vladimir Movsesyan Basarkeçər rayonunun Zod kəndinə gəlib əhalinin kəndi tərk etməsi üçün üç gün vaxt verildiyini bəyan etdi və əlavə etdi ki, bu müddətdə kəndi tərk etməsələr, onların təhlükəsizliyinə təminat verilməyəcək.

Hərbçilərin və "BTR"-lərin müşayiəti ilə Amasiya rayonunun Oxçoğlu kəndindən yola salınan 15 ailənin ev əşyalarını qonşu Axuryan rayonunun Kaps (keçmiş Qanlıca) kəndində ermənilər maşınlardan boşaltmış, talan etmiş, sonra isə od vurub yandırmış və yük sahiblərini ölümcül döymüşdülər. Bu cinayət işi ilə SSRİ Prokurorluğunun əməkdaşları məşğul olmalarına baxmayaraq, heç kəs məsuliyyətə cəlb edilməmişdi.

Həmişə milli ayrıseçkilik siyasəti yürüdən Ermənistan rəhbərliyi zəlzələdən sonra da öz çirkin əməllərini davam etdirmişdi. Zəlzələ zamanı həlak olmuş, ağır yaralanmış, evləri dağılmış azərbaycanlıların taleyinə biganə qalmışdılar. Spitak və Quqark rayonlarının rəhbərləri həmin rayonların hərbi komendantlarına təqdim etdikləri siyahıda azərbaycanlı kəndlərinin adlarını siyahıdan çıxarmışdılar ki, guya artıq orada əhali yaşamır. Bununla da onları ərzaq və digər zəruri şeylərlə təmin etməkdən, tibbi yardımdan məhrum etmişdilər.

Bir qəzet səhifəsində Ermənistan ərazisində 1988-1989-cu illərdə azərbaycanlıların başlarına gətirilən faciələrin hamısını əhatə etmək mümkün olmadığı üçün bəzi faktları sadalamaqla kifayətləndik.

Müvafiq sənədlər və şahidlərin verdikləri ifadələr əsasında 1990-cı ildə Azərbaycan Qaçqınlar Cəmiyyətində tərtib edilmiş siyahıya əsasən, 1988-1990-cı illər ərzində Ermənistanda 216 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş və ya millətlərarası münaqişə zəminində baş vermiş hadisələr nəticəsində həlak olmuşdur. Həmin siyahıya əsasən, 52 nəfər aldığı xəsarət nəticəsində ölmüş, 34 nəfər işgəncə ilə öldürülmüş, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 15 nəfər yandırılmış, 8 nəfər maşınla vurulmuş, 9 nəfər yollarda qəzaya uğradılmış, 7 nəfər həkim qəsdi nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, bir nəfər asılmış, 2 nəfər maşın partladılması nəticəsində, bir nəfəri elektrik cərəyanı ilə, bir nəfəri suda boğub öldürmüşdülər, 6 nəfər itkin düşmüş, 20 nəfər xəstəxanadan yoxa çıxmış, 48 nəfər isə dağlarda borana düşüb həlak olmuşlar.

1990-cı il avqustun 9-da Azərbaycan Respublikasının Ali Soveti Qaçqınlar cəmiyyətində tərtib edilən siyahını və digər faktları məktubla SSRİ Prokurorluğuna göndərmiş və Ermənistanda milli münaqişələr zəminində qətlə yetirilmiş azərbaycanlılar haqqında məlumat verməyi xahiş etmişdi. SSRİ Baş Prokurorunun

müavini V. İ. Kvartsovun 4 oktyabr 1990-cı il tarixli cavab məktubunda deyilirdi: "Sizin məktubunuzla əlaqədar olaraq bildirirəm ki, 1988-1989-cu illərdə Ermənistan SSR-də milli zəmində baş verən cinayət faktları üzrə 675 cinayət işi qaldırılmışdır, onlardan 283-ü istintaq aidiyyati üzrə Azərbaycana göndərilmişdir. Eyni zamanda, Azərbaycan SSR-dən Ermənistana təhqiqat üçün 138 cinayət işi daxil olmuşdur. 1989-cu il dekabrın 31-nə olan məlumata görə Ermənistanın hüquq-mühafizə orqanlarının icraatında olan bu qəbildən 530 cinayət işindən 200 iş üzrə cinayət açılmamış və istintaq dayandırılmışdır.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan ərazisində milli münasibətlərin kəskinləşməsi üzündən bir sıra rayonlarda qarət, yanğın və ictimai qayda-qanununa zidd olan digər hallarla müşayiət olunan kütləvi iğtişaşlar baş vermişdir... Bu hərəkətlər nəticəsində 21 nəfər öldürülmüş (20 azərbaycanlı və bir erməni), 4 nəfər sonradan ölümlə nəticələnmiş ağır bədən xəsarəti almışdır. Qətl hadisəsi üzrə 8 cinayət işi və zərərçəkənlərin ölümü ilə nəticələnmiş ağır bədən xəsarəti üzrə dörd işin istintaqı başa çatdırılaraq məhkəməyə göndərilmişdir. Əliyevlər barəsindəki cinayət işinə bəraət qazandırıcı əsaslar üzrə xitam verilmişdir, belə ki, istintaq bu qənaətə gəlmişdir ki, onun Mirzoyanı öldürməsi son zəruri müdafiə həddindən baş vermişdir.

Bu qəbildən məhkəməyə göndərilən üç qətl və ağır bədən xəsarəti yetirilməsi üzrə iki cinayət işi üzrə günahkarlar müxtəlif müddətlərdə azadlıqdan məhrum edilmişlər. Bir neçə cinayət işi əlavə istintaqa qaytarılmışdır.

Ermənistan prokuroruna tapşırılmışdır ki, bu işlər üzrə aparılan istintaqın tamlığını və obyektivliyini yoxlasın, onun başa çatdırılması üçün tədbirlər görsün. Günahkarların müəyyənləşdirilməməsi üzündən istintaqın xitam verilmiş işləri araşdırmaq və istintaqı təzələmək məsələsinin mümkünlüyünü öyrənmək tapşırığı da verilmişdir. Ermənistan məhkəmələrinə milli nifaq zəminində baş vermiş 91 müttəhim barəsində cəmisi 53 cinayət işi göndərilmişdir. 48 iş üzrə 82 nəfər mühakimə olunmuş, onlardan 30 nəfər müxtəlif müddətdə azadlıqdan məhrum edilmişdir.

SSRİ Prokurorluğu cinayətlərin açılmasına nəzarət edir və zəruri kömək göstərir". Əslində, SSRİ Prokurorluğu bununla öz işini bitmiş hesab etmişdi.

Bu məktubla əlaqədar Ermənistan SSR Prokurorluğundan SSRİ Prokurorluğuna göndərilən cavab məktubunda azərbaycanlılara qarşı törədilən bir çox qətllər etiraf edilsə də, əksər cinayətlər ört-basdır edilmiş, onların üstü açılmadan aşağıdakı kimi şablon cavablar verilmişdi: "Göstərilən məlumatlara uyğun şəxs pasport qeydiyyatı stolundan və kənd sovetinin təsərrüfat kitabından keçməmişdir," "Ünvanından qeydiyyatdan çıxmışdır", "Ölümü haqqında qeydiyyat rayon VVAQ şöbəsində yoxdur," "1988-ci ildə ünvanından çıxıb Azərbaycan SSR-ə getmişdir" və s.

Məhz hüquq-mühafizə orqanlarının nəzarətsizliyi, onların erməni millətçilərinin separatçı hərəkətlərinə vaxtında və qanuni qiymət vermədiklərinin nəticəsində azərbaycanlılar əsrlər boyu yaşadıqları əzəli torpaqlarından iki həftə ərzində vəhşicəsinə qovuldular. Keçmiş İttifaq orqanları azərbaycanlıların Ermənistandan deportasiyasına seyrçi münasibət göstərdi. Demək olar ki, bütün azərbaycanlılar Ermənistandan qovulduqdan sonra, yəni 1988-ci il dekabrın 6-da Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Vətəndaşların daimi yaşayış yerlərini məcburi tərk etməsində Azərbaycan SSR və Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin yolverilməz hərəkətləri haqqında" qərar qəbul etmişdi.

SSRİ Nazirlər Soveti sədrinin o zamankı müavini B. Şerbinanın rəhbərliyi ilə hər üç Zaqafqaziya respublikalarının nazirlər sovetlərinin sədrləri və İttifaqın müvafiq nazirliklərinin rəhbər işçiləri da daxil olmaqla xüsusi komissiya yaradılmışdı. Bu komissiya qaçqınların təhlükəsiz köçürülməsi və yerləşdirilməsi məsələləri ilə məşğul olmalı idi. Əslində isə Ermənistandan azərbaycanlılar faktiki olaraq təmizləndikdən və dekabrın 7-də orada baş verən zəlzələdən sonra bu komissiya da heç bir iş görmədən öz işini başa vurmuşdu.

Zəlzələnin vurduğu ziyanları aradan qaldırmaq, iqtisadiyyatı bərpa etmək üçün Ermənistana xeyli miqdarda işçi qüvvəsi lazım idi. Məhz bu məqsədlə də 1989-cu il yanvarın 4-də Ermənistan rəhbərliyinin "xahişi" ilə Azərbaycan rəhbərliyi hər iki respublikanın KP MK-larının, Ali Soveti Rəyasət Heyətlərinin və Nazirlər Sovetlərinin adından daimi yaşayış yerlərinə qayıtmaları üçün qaçqınlara müraciət etmişdi.

Ermənistan rəhbərliyi azərbaycanlıların Ermənistana qayıtmasına təminat verilməsi illüziyası yaratmaq məqsədilə 15 dekabr 1988-ci ildə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 6 dekabr tarixli yuxarıda adı çəkilən qərarının yerinə yetirilməsinin gedişini müzakirə edərək 13 nəfər rəhbər işçini partiya sıralarından xaric etmiş, 68 nəfərə partiya tənbehi vermişdi. Büro həmçinin Quqark rayon Partiya Komitəsinin birinci katibini və

İcraiyyə Komitəsinin sədrini işdən azad etməklə kifayətlənmiş, Stepanavan və İcevan rayonlarının birinci katiblərinə ciddi töhmət vermiş, adları çəkilən rayonlardan əlavə Yeğeqnadzor, Krasnoselo, Ararat, Masis, Amasiya, Noyemberyan rayonlarında vətəndaşların hüquqlarının pozulması, şantaj və kütləvi iğtişaşlara yol verildiyini qeyd etmişdi. Ermənistan Prokurorluğu isə Sevan, Kalinino və Abovyan rayonlarının prokurorlarını işdən azad etmişdi.

Məhz Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məskənləri boşaldıldı. Ermənistanın Meğri rayonunun Zəngilan rayonu ilə həmsərhəd bölgəsində qalmış axırıncı azərbaycanlı kəndi - Nüvədi də 1991-ci il avqustun 8-də boşaldıldı.

Ümumiyyətlə, həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində Ermənistanın 22 kənd, rayonundan və 6 şəhərindən təqribən 250 min azərbaycanlı tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldular.

1988-ci ilə qədər Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi respublika ərazisinin (29, 8 min kv.km.) 25 faizini, yaxud təqribən 7,5 min kv. km təşkil edirdi. Bu isə keçmiş DQMV-nin ərazisindən (4,4 min kv. km) təqribən 3 min kv. km artıqdır.

Ermənistan rəhbərliyi azərbaycanlıların etnik təmizlənməsi aksiyasını başa çatdırdıqdan sonra, onların yaşadıqları kəndlərin adlarını dəyişdirməyə başlamışdır. İndiyədək Ermənistanda 702 azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilərək erməniləşdirilmişdir.

Təkcə XX əsrdə ermənilər havadarlarının köməyi ilə indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı 1905-1906-cı illərdə və 1918-1920-ci illərdə etnik təmizləmə, 1930-cu illərdə kütləvi repressiyalar, 1948-1953-cü illərdə deportasiya həyata keçirmiş və nəhayət, 1988-1989-cü illərdə etnik təmizləməni başa çatdırmağa müvəffəq olmuşlar.

Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azərbaycanlı yaşayış məntəqələri müxtəlif yollarla (deportasiyalarla, silah gücünə qovmaqla, soyqırım törətməklə, kəndləri yandırıb xaraba qoymaqla və s.) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

Prezident Heydər Əliyevin 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanının imzalanmasından sonra 31 mart 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi xüsusi sessiya keçirmiş, azərbaycanlılara qarşı soyqırım cinayətlərinin cəzasız qalmasını və bu barədə beynəlxalq ictimaiyyətdə məlumatın olmamasını nəzərə alaraq, beynəlxalq təşkilatlara müraciət etmişdir ki, XIX-XX əsrlərdə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırım cinayətini tanısın.

Bu istiqamətdə artıq müəyyən nəticələr əldə edilmişdir. Analoji addımın azərbaycanlıların Ermənistan ərazisindən 1988-1989-cu illər deportasiyası və etnik təmizlənməsi ilə bağlı atılması da zəruridir.

18 sentyabr 2013-cü ildə Prezident İlham Əliyev Quba Soyqırımı Memorial Kompleksinin açılışında sözlərini hər bir azərbaycanlıya, hər bir ziyalıya ünvanlayaraq demişdir: "Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq."

***Nazim MUSTAFA,***
***AMEA A. A. Bakıxanov adına Tarix İnstitutunun***
***elmi işçisi, Dövlət mükafatı laureatı***

**"Xalq qəzeti".-**2013.-9;10 dekabr.-N 271-272.-S.5;6.

## Qərbi Azərbaycandan soydaşlarımızın sonuncu deportasiyasından 25 il keçir

***1987-ci ildə Ermənistanda millətçilik çağırışları günü-gündən güclənir, getdikcə açıq şəkil alırdı. Qarabağın Azərbaycandan qoparılması istiqamətində fəal iş aparılır, törədiləcək təxribatların planı hazırlanırdı. Xaricdə və SSRİ-də olan ermənilər planın icrası üçün böyük vəsait toplamışdılar. Hər bir ermənin in bu işdə yüksək səviyyədə iştirakı təbliğ olunurdu. Xüsusilə mətbuat, radio və televiziya işçilərinin çevikliyinə böyük diqqət yetirilirdi.***

"Daşnak" partiyası daha fəal mövqedə dayanır, bütün sahələrdə Azərbaycana endiriləcək zərbələrin kompleks planını yayırdı. Moskvadakı qəzet, jurnal və televiziya işçiləri "Qarabağ hadisələri"ndə ermənilərin mövqeyini müdafiə etməyə cəlb olunurdu. Ermənistanın zavod və fabriklərində mitinq mədəniyyəti öyrədilir, ermənilər gələcək döyüşlərə hazırlanırdı. Ermənistan mətbuatı, radio və televiziyası öz millətçi çıxışları ilə erməni xalqını azərbaycanlıların üzərinə hücuma səfərbər edirdi.

Erməni millətçilərinin məsuliyyətsiz çağırışları elə bir səviyyəyə çatmışdı ki, 1987-ci il iyulun 25-də keçirilən Ermənistan KP MK plenumunda K. S. Dəmirçyan öz məruzəsində bu məsələyə xüsusi narahatçılıqla toxunmuşdu: - "Burjua ideologiyasına qarşı ardıcıl və hücumçu mübarizə təşkil etməklə birlikdə bundan sonra da daşnak təbliğatına qəti cavab vermək, onun hər cür təzahürlərinin insanların şüuruna təsir etməsinin qarşısını almaq gərəkdir və millətçilik toxumları yayan daşnak təbliğatına qarşı əks-təbliğatı gücləndirmək gərəkdir.

İş o yerə gəlib çatır ki, günün günorta çağı kollektivlərdə yalançı, çağırılmamış mühazirəçilər peyda olur, müxtəlif məktublar üçün imzalar toplayırlar. Onlar təəccüb doğuran şübhəli nəşrlərin üzünü çıxarıb yayırlar".

Çox təəssüf ki, bu ocağın tüstüsünü Azərbaycan rəhbərliyi görə bilmirdi.

Bəzən ermənilərin dilindən "Qarabağ məsələsi"nin hələ yetişmədiyi eşidilirdi. Çox operativ təşkilatçılıq işi aparan "Qarabağ komitəsi"nin fəaliyyət proqramında olan belə bir müddəanı tez-tez eşitmək olurdu. Danışılırdı ki, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Siyasi Büronun tərkibindən çıxarılmayınca Dağlıq Qarabağ məsələsi yubadılacaqdır.

1988-ci ilin fevral ayında özülü keçən əsrin əvvəlindən qoyulmuş erməni xəyanətinin daha bir iyrənc variantı ortaya çıxdı. Xəyanətlə birlikdə şər-şamata, böhtan aləmi başına aldı. Əsgəranda qətlə yetirilən iki azərbaycanlının ölümü camaata elan olunana qədər Ermənistan tərəfi dünyaya yaydı ki, Qarabağda ermənilərin hüquqları tapdanır, onlar sıxışdırılır və qırılırlar. Üstünə "beynəlmiləlçilik" sözü yazılmış, qəflət balıncından başını hələ qaldırmamış azərbaycanlılar "atılan topların səsinə" diksindilər. Gözlərini açanda gördülər ki, "suveren torpaq"ların üstündə vertolyotlar şütüyür, küçələrində əlisilahlılar dolanır.

Onda tarixin əqrəbi 1988-ci ilin fevralını göstərirdi. Həmin günlər Ermənistan bir nəfər kimi ayağa qalxdı. Dağlıq Qarabağı "Azərbaycandan qoparmaq" yürüşünə başlandı.

Artıq Ermənistanda nümayişlər başlayan dəqiqədən azərbaycanlılara qarşı münasibət tamamilə dəyişmişdi. Gözə görünən azərbaycanlını açıq-aşkar təhqir etməkdən çəkinmirdilər. Vurur, itələyir, söyür, "Ermənistandan rədd ol" deyə üstünə hücuma keçirdilər. Buna isə heç bir inzibati işçi fikir vermirdi. "Kim sənə nə eləyib, yalan danışma"-deyə başlarından rədd edirdilər. Nümayişin gücünü təsdiq edirmiş kimi milis nəfərləri azərbaycanlı kəndlərində guya göyərçin vurmaqla məşğul olur, əslində isə silahını nümayiş etdirirdi. Bir vertolyot isə fevralın 21-dən 25-dək hər gün azərbaycanlılar yaşayan kəndlərin üstündə fırlanırdı. Bunlar əhalini təşvişə salmaqdan ötrü edilirdi.

Ancaq bunlara baxmayaraq televiziyada, radioda və mətbuatda nümayişlərin çox "ağıllı" keçdiyi iddia olunurdu. Heç bir kəsin mənəviyyatına toxunulmadığı bildirilirdi.

Fevralın üçüncü ongünlüyü hər iki respublikanın xalqları üçün olduqca ağır keçirdi. Xüsusilə, Yerevandakı nümayiş günləri Ermənistanda yaşayan azərbaycanlılar üçün ən dözülməz, çətin anlar idi. Bir tərəfdən "Qarabağ bizimdir" çağırışını eşidib dözə bilməmək, digər tərəfdən törədilən sıxıntılar və nəhayət "sizə kim neyləyir" fəlsəfəsi... Bu tədbirlər çox ustalıqla həyata keçirilirdi. Daxilən odla-alovla qarşılaşan azərbaycanlılar, zahirən yalandan "şayiə yayanlar" adı ilə damğalanırdılar. Yerevandakı M. F. Axundov adına orta məktəbin binasına od vurulub tez də keçirilmişdi. Ancaq şayiə yayılmışdı ki, guya məktəbin direktoru Adil Süleymanov özü məktəbə qəsdən od vurmuşdur.

Tez-tez dəstə-dəstə gənclər məktəbin həyətinə toplaşıb azərbaycanlı şagirdlərə sataşırdılar. Erməni dilində “Qarabağ merna” deyə onları təhqir edib, hövsələdən çıxarmağa çalışırdılar. Bir dəfə də belə edərkən məktəbin oğlan və qızları birlikdə Azərbaycan dilində “Qarabağ bizimdir”-deyə cəsarətlə cavab vermiş və döyüşə hazır olanlarla döş-döşə gəlmişdilər.

Bu günlərdə Yerevandakı müsəlman məscidinə də od vurulmuşdu. Qanı götürməyən iki nəfər azərbaycanlı oğlan əllərindəki bıçaqla od vuranların üstünə atılmışdı. Lakin yanğın tez söndürülüb, yanan yerlər düzəldilib rənglənmişdi.

Şəhərin küçələrinə azərbaycanlıların çıxması olduqca çətinləşmişdi.

Fevralın 24-də Ermənistan televiziyası ilə çıxış edən I Vazgen erməni xalqını tamamilə itiləyib, məqsədə nail olmağa səslədi. Xaricdən çoxlu məktub aldığını, onların da havadarlığını dönə-dönə xatırladı. Erməni xalqının tarixdə həmişə qeyrətli, qorxmaz xalq olduğunu söylədi. Necə olur-olsun Qarabağ bizim olmalıdır, dedi.

Bu çıxışın səhərisi nümayiş daha da gücləndi. Şayiələr də baş alıb məcrasına sığışmadı. Artıq azərbaycanlı əhali mağazalara çıxmağa, iş dalınca getməyə çətinlik çəkirdi.

Nəhayət, fevralın 26-da M. S. Qorbaçovun Azərbaycan və Ermənistan zəhmətkeşlərinə, xalqlarına müraciətini hamı böyük maraqla dinlədi. Müraciətdə hər iki xalq ağıla, kamala çağırılırdı. Əslində Sovet dövlətinin başçısı ermənilərə “Dur!” deməliydi. Ondan ötrü ki, ermənilər Azərbaycan torpaqlarını ələ keçirmək üçün ayağa qalxmışdılar. “Dur” deyilmədi, çünki ssenari müəllifi rus dövlətinin başçıları özləri idi.

Müraciət qurtaran kimi televizorun ekranında V. İ. Leninin rolunu aparan artist ermənicə dedi: “Jamanaq aşxaduma mer hoktn”, yəni vaxt bizim xeyrimizə işləyir”.

Bir gün sonra Ermənistan televiziyası ilə çıxış edən şair Silva Kaputikyan erməniləri şirnikləndirib qana çağırdı.

Təkəbbürlü və lovğa bir əda ilə baş katiblə bir saat beş dəqiqəlik görüşlərini və M. S. Qorbaçovun onlara “mənim erməni xalqına böyük hörmətim var. Təmkinli hərəkət edin, hər şey yaxşı olacaq”, - deyə verdiyi ümid dolu sözləri ermənilərə çatdırdı. Sonra da qeyd etdi ki, “uzun illərdən bəridir ki, Azərbaycan rəhbərliyi və alimləri bizi başa düşmək istəmirlər. Biz öz halal torpağımızı (görəsən bu bədnam şair hansı “halal torpaqdan” danışırdı? Məgər bugünkü Ermənistan qədim oğuz-türk yurdu olan İrəvan xanlığının ərazisi deyilmi? tələb edirik. Daha səbrimiz qalmayıb. Bu gün nümayişlərdə iştirak edən oğullarımıza baxıb fəxr edirəm. Biz onlarla birlikdə hər şey edə bilərik".

Ermənistanda yaşayan Azərbaycan türklərinin başına minbir oyun açılmaqda davam edilirdi. Qafandakı fitnəkarlıqların məqsədi Azərbaycanda emosiyalara təkan verməkdən ibarət idi. Sumqayıt hadisəsi də beləcə yarandı, hadisələri video-kasetlərə almaq hazırlığı əvvəlcədən aparılmışdı. İş o yerə çatdı ki, erməni evlərinə gəncləri çəkib aparan ermənilər oldu. Qriqoryan adlı birisi yeddi nəfər erməninin öldürülməsində iştirak etmişdi...

Mart ayının 3-dən etibarən Ermənistanda gərginlik daha da dərinləşdi. Kəndlərə silahlı basqınlar başlandı. Müqavimət göstərməyə, öz şərəfini qorumağa cəhd edən azərbaycanlılar dərhal həbs olunurdular. Ermənilər isə əlisilahlı cövlan edirdilər. Onsuz da on ildən bəri idi ki, azərbaycanlıların silahı yığılır, hətta ovçular cəmiyyətinə də üzv yazıla bilmirdilər.

İqtisadi blokada getdikcə ciddi xarakter alırdı. Kəndlərə ərzaq məhsulları göndərilmir, pal-paltar almaq üçün heç yana çıxmağa imkan verilmirdi. Xəstəxana, məişət xidməti tamamilə dayandırılmışdı. Bir sözlə, camaat ev dustağına çevrilmişdi.

İrəvanın beş addımlığında olan Masis (Uluxanlı) rayonunun camaatı böyük müsibətlə üzləşməli olmuşdu. Bir milyonluq şəhər camaatı ilə döş-döşə durmaq, özü də əliyalın mübarizə aparmaq o qədər də asan deyildi. Erməni millətçiləri rayonun əkin sahələrinə neft məhsulları tökərək əkini korlayır, yollarda ələ keçəni döyüb ölümcül hala salır, aramsız hücumlar təşkil edərək təhlükəni artırırdılar. Belə bir vəziyyət hərbçilərin gözü qabağındaca törədilir, nəticədə bir cinayətkar cəzalandırılmırdı. Buna baxmayaraq, gecəsi-gündüzü olmayan zəngibasarlılar cəsarətlə müdafiə olunurdular.

Azərbaycanda qarışıqlıq salmaq üçün, ilk növbədə, Ermənistandakı azərbaycanlılara divan tutmaq əsas məsələlərdən biri idi.

Heç təsadüfi deyildi ki, mart ayında ilk kütləvi qaçqınlar yarandı. Bakıda rəsmi idarələrin, MK və Nazirlər Soveti binalarının önü qaçqınlarla dolu idi. Moskvanın nümayəndələri Bakıya gəlib yağlı vədlər verir, onların qayıtmasını məsləhət görür və əmin-amanlıq yaradacaqlarından danışırdılar. Qaçqınların məsələsini həll etmək əvəzinə, onları avtobuslara doldurub Ermənistan sərhədlərinə yola salır, yenidən od içinə atırdılar. Ermənilərin rəsmi dövlət və partiya rəhbərləri, milis işçiləri isə əllərində silah azərbaycanlılara divan tuturdular.

Mayın əvvəllərində Vedibasarda vəziyyət lap gərginləşdi. Aydın məsələ idi ki, təlatüm dalğası yaxınlaşmaqdadır və nə vaxtsa bu qədim torpağın əsl sahiblərini bürüyəcəkdir. Açıq hiss olunurdu ki, öz avantürist hərəkətlərini cilovlamaqdan uzaq olan ermənilər qan axıtmalı olacaqlar. Nəhayət, may ayının 11-də Şirazlı hadisəsi düşünülmüş tərzdə həyata keçirildi. Yüzlərlə erməni gənci əlindəki daş-kəsək və dəmir parçası ilə şirazlıların üstünə hücuma keçdi. İllərlə qonşuluq etmiş, duz-çörək kəsmiş ermənilər indi utanmadan azərbaycanlı evlərini daşa-kəsəyə basır, evləri dağıdır, adamları döyür və öldürürdülər. Kəndin azərbaycanlılar yaşayan məhəllələrinə tərəf irəliləyən xüsusi hazırlanmış dəstələr viranedici zərbələr endirirdilər. Bu xəyanət torpaq iddiasına düşmüş ermənilərin başlanğıc akkordları idi.

Həmin gün kəndin hörmətli adamlarından olan Ağamir Əsədovun evi "daş-dəmir yağışına" məruz qaldı. Təxminən 150-200 adam eyni vaxtda evin üstünə daş-kəsək çırpırdı. Belə bir vəziyyətdə 18 yaşlı Dilbər köməyə yetdi. O, evdən qoşalüləni götürüb özünü həyətə atmağı ilə nişan almağı bir oldu. Anası Kövsər xanım çatıb tüfəngin lüləsini bir anlığa yuxarı qaldırdı.

Qasırğa kimi qəfildən qopan bu fəlakət nəticəsində Ağamirin əmisi İqbal Miryaqub oğlu Nağıyev aldığı ağır zərbədən keçinmiş, Əkbər adlı kişinin ikiaylıq uşağı ayaq altda çığnanmışdı. İqbal ağanı Şidli kəndinin qəbiristanlığında dəfn edən şirazlılar Türkiyənin sərhədinə toplaşmalı oldular.

İyun ayının 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası keçirilməli və bu sessiya Azərbaycan SSR Ali Sovetindən Dağlıq Qarabağın Ermənistanın tərkibinə keçməsi barədə "xahiş" etməli idi.

Artıq səbri tükənmiş xalq məngənə arasında olsa da hayqırmağa hazırdı. Həmin gün Göyçə mahalında ermənilərin son dərəcə yaramaz hərəkətlərinə qarşı azərbaycanlılar öz etiraz səslərini qaldırmalı oldular. Krasnoselo rayonunun Şorca və Gölkənd kəndlərində on min əhalinin mitinqi keçirildi. Səhərisi gün Basarkeçər rayonunun Şişqaya və Nərimanlı məntəqələrində də azərbaycanlılar mitinqlərə çıxdılar. Bu vaxt mitinqlərdə iyirmi min adam iştirak edir və erməni millətçilərinə, xüsusilə respublika rəhbərliyinə qarşı qəzəblərini bildirir, bir çox tələblərlə birlikdə Göyçə mahalına muxtariyyət tələb edirdilər. Mitinqdəki çıxışlar ermənilər üçün gözlənilməz idi. Azərbaycanlılar aşagıdakı şüarlarla çıxmışdılar:

QARABAĞ AZƏRBAYCANINDIR!

TORPAQDAN PAY OLMAZ!

İNDİKİ ERMƏNİSTAN AZƏRBAYCAN TORPAQLARIDIR!

EŞQ OLSUN AZƏRBAYCANA!

GÖYÇƏ MAHALINA MUXTARİYYƏT!

Çıxıçlarda deyilirdi: - Göyçə oğuz yurdudur, bu torpaqda erməni yaşamamışdır. Siz minbir kələklə bu müqəddəs torpağı Ermənistan xəritəsinə qatdırmısınız. Gün gələcək ki, haqq qələbə çalacaq.

Məsmə Abbasova adlı qadının odlu çıxışı uzun müddət mitinq iştirakçılarının qulağından getmədi:

– "Mən bütün övladlarımı ölümə verərəm, ancaq Qarabağın bir daşını yada vermərəm!"

Təəssüf ki, yenə də arxasızlıq nümayişçiləri həm ruhdan salır, həm də Azərbaycan hökumətinə olan inamı itirirdi.

Radio və televiziyada azərbaycanlıların ünvanına böhtan yağdırmaqdan usanmırdılar. İyulun 4-də Ermənistan televiziyası ilə çıxış edən bir nəfər erməni görkəmli Azərbaycan yazıçısı Anar haqqında güclü iftiraya keçdi. Hər cür şər-şamatadan sonra məqsədi bu oldu ki, Anar azərbaycanlıları oyadır! Deməli, Anarın "təqsiri" öz millətini oyatması idi! Deməli, Anar ermənilərin başladıqları "haqq işə" mane olur! Qəribə məntiqdir. Hətta çıxış edən daşnakın fikrincə, Anar bu əməlinə görə cavab verməlidir.

İyul ayının 20-də İcevan rayonunun Alaçıqqaya kəndində iyirmi iki yaşlı, iki uşaq anası Tahirə Fərhad qızı Orucova erməni terrorçuluğunun qurbanı oldu. Səbəb o idi ki, Tahirənin atası Fərhad iki gün əvvəl ermənilərə deyib ki, iyulun 18-də keçiriləcək SSRİ Ali Sovetinin iclası Qarabağın Azərbaycan torpağı olduğunu təsdiq etdiyi təqdirdə qurban kəsəcəyəm.

Bu sözdən kinlənmiş ermənilər Fərhadı öldürmək qərarına gəlirlər. Onun evinin ətrafında hərlənir və onu görə bilmirlər. "Əliboş" qayıtmamaq məqsədilə Tahirəni güllə ilə vurub iki körpəsinin arasında yerə sərirlər. Həmin günlərdə Krasnoseloda iki azərbaycanlı qadın maşınla vurdurulur.

1988-ci ilin sentyabr, oktyabr aylarında erməni millətçiləri ardı-arası kəsilməyən mitinqlər keçirir, türklərin çıxarılmasını tələb edirlər. Evlərə od vurulur, adamlar işgəncə ilə öldürülür, qadınların sinəsinə xaç çəkilir, uşağa, qocaya rəhm edilmir. İqtisadi blokada insafsızcasına davam etdirilir. Çöllərdə çobanlara hücumlar çəkilir, mal-qara oğurlanır, qoyun-quzu aparılır, şikayət isə keçmir. Mərkəz görməməzliyə vurur. Belə qəddarlıq önündə yenə azərbaycanlılar təqsirkardırlar... Bəs bu yazıq millət dərdini kimə deməlidir?!

Çox təəssüflər olsun ki, Bakıdan göndərilmiş yoldaşların bəziləri xalqa mənəvi dayaq olmaq əvəzinə, milliyyətcə erməni olan rəhbər işçilərlə "şirin söhbətdən sonra" görüşüb geri qayıdır və "əşi, şayiələrə inanmayın"- deyə bütün Azərbaycanı aldadırdılar.

Nəhayət, şayiə dediyimiz həqiqət aşkar şəkildə meydana çıxdı; yüzlərlə günahsız insanın öldürülməsinə, minlərlə qocanın, uşağın və qadının mənəvi və fiziki şikəstliyinə səbəb olan noyabr hadisələri...

Mərkəzin havadarlığı sayəsində erməni tufanı başladı. Bu tufanın dayaq nöqtəsi şər-şamata, böhtan və hiylə olmaqla fəaliyyət dairəsi "qan çanağına" çevrildi. Bu "qan çanağı" Azərbaycan qanı ilə dolmalı oldu.

Minillik tarixi yerlərindən cəmi yeddi gün ərzində vəhşiliklə çıxarılan azərbaycanlıların yandırılan evləri, əşyaları, talanan mal-qarası, nəhayət, qaçqınlıq taleləri...

İnsanlıq tarixinin ən dəhşətli, ən qəddar, ən vəhşi bir qətliamı Quqarkda törədildi. Sovet əsgərlərinin gözü qabağında böyük ölçülü dəmir su borularına 72 azyaşlı azərbaycanlı uşağı doldurub ağzını qaynaq edib bağladılar.

Vartana kəndində 16 nəfəri yandırıb külünü göyə sovurdular. Ermənilər Masisdə, Basarkeçərdə, Qafanda, Əzizbəyovda, Spitakda, Allahverdidə, Amasyada, Krasnoseloda, Stepanavanda (Calaloğlu) və başqa rayonlarda dinc, günahsız insanları müxtəlif işgəncələrlə qətlə yetirərək tarixdə ən dəhşətli bir soyqırımına imza atdılar. Bütün bu hadisələr rus əsgərlərinin gözü qarşısında baş verirdi. Heç kəs erməni quduzluğunun qarşısını almağa cəhd etmirdi. Çünki bu, böyük bir planın-xristian dünyasının məqsəd və amalı idi. Necə ki, hazırda hər gün dünyada tonlarla müsəlman qanı axır.

1988-ci il işğalında Ermənistanda 172 bütöv azərbaycanlı kəndi, 89 qarışıq yaşayış məntəqəsi (cəmi 261 yaşayış məntəqəsi) qalmışdır. 211 min Azərbaycan türkü min illərlə yaşadığı torpağı tərk etmiş, 450 mindən artıq qoyun, 50 minə qədər qaramal (bir o qədər də şəxsi heyvan olmuşdur) qoyub gəlmişdir.

217 adam öldürülmüş, yaxud dağlarda həlak olmuşdur. 5 minə qədər didərgin erməni zülmünə dözə bilməyib vəfat etmişdir. 957 adam Ermənistanda və ya yollarda zədə almış, bir çoxları ömürlük şikəst olmuşlar.

Lakin ürəyi həmişə ermənilərin yanında olan Mərkəz bunların heç birini görmədi. Azərbaycanlılar silah altında öldürülüb, yaralanıb Ermənistandan qovulanda (boranlı dağlarda) "həqiqət" ünvanlı "Pravda", üstündə on beş respublika xalqının dili ilə "Bütün ölkələrin proletarları, birləşin!" - çağırışını şüar eləyən "İzvestiya" qəzetləri və televiziyanın "Zaman" məlumat proqramı "cəfakeş ermənilərə" məhəbbət aşılayırdı.

Bütün bu günahları kim işləmişdir?

Hər gün, hər saat "erməni soyqırımı" - deyə yalandan dünyanın qulağını dolduran, qara-qışqırıq salan canilərin, insan qanına susamış erməni qəsbkarlarının noyabr və dekabr aylarında törətdikləri vəhşiliklər bəşər tarixində ən böyük genosiddir.

Azərbaycanlıları öz dədə-baba yurdundan zülm və işgəncə ilə çıxarandan sonra erməni qaniçənləri Qarabağ üzərinə hücuma keçdilər.

***Eldar İSMAYIL,***
***şair-yazıçı, Əməkdar jurnalist***

**"Xalq qəzeti".-**2014.-15 yanvar.-N 7.-S.5.

## Xocalı – əsrin soyqırımıdır

XX əsrdə tarixin ən dəhşətli səhifələrindən biri də genosid siyasətinin davamı olaraq Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Bu işğal siyasəti nəticəsində torpaqlarımızın beşdə bir hissəsi zəbt olunmuş, 1 milyonadək insan öz doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmiş, on minlərlə soydaşımız ermənilər tərəfindən törədilən soyqırımı aktlarının, kütləvi qırğınların və etnik təmizləmənin qurbanı olmuş, yaşayış məntəqəsi, təhsil, səhiyyə və digər ictimai obyektlər, habelə tarixi-mədəni abidələr məhv edilmişdir. Eyni zamanda minlərlə soydaşımız itkin düşmüş, əsir və girov götürülmüş, atəşkəs rejiminə baxmayaraq bu proses bu gün də davam edir, uşaqlar, qadınlar, qocalar və bütövlükdə əhali uzun müddətdir ki, bu silahlı münaqişədən əziyyət çəkir. Məhz Azərbaycanlılara qarşı erməni şovinistlərinin XİX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi kimi törədilən Xocalı soyqırımı xalqımıza qarşı, ümumən insanlıq əleyhinə yönəldilmiş son dərəcə dəhşətli və ağır hərbi cinayət kimi dünya tarixində yer aldı.

Xocalı soyqırımı – 22 il öncə Azərbaycan şəhəri olan Xocalı əhalisinin erməni silahlı birləşmələri tərəfindən kütləvi qətli, Qarabağ münaqişəsinin ən qanlı səhifəsi 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının ağır texnikasının və şəxsi heyətinin dəstəyi altında Xocalı şəhərini işğal etməsi, uşaqlar, qadınlar, qocalar daxil olmaqla yüzlərlə dinc sakin həlak olması ilə yazıldı. Bu insanlığın faciəsi idi. Soydaşlarımıza qarşı törətilən dəhşətli qətliam insanlıq çərçivəsinə sığmayan qəddarlıqla törədilmişdi.

Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, XX əsrin Xatın, Sonqmi, Lidiçe, Babi Yar kimi dəhşətli faciələrin sırasına düşdü.

Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədi ilə Ermənistan Respublikasının apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasına görə ən dəhşətlisi idi. Bundan əvvəl, azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisi xüsusi amansızlıqla qətlə yetirilmişdi.

Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsi olan Xocalı Ermənistan hərbi birləşmələrinin növbəti hədəfi idi. 7 min nəfərlik şəhərdə Ermənistandakı ata-baba torpaqlarından zorla qovulub didərgin salınmış azərbaycanlıların bir hissəsi və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türklərinin 54 ailəsi də məskunlaşmışdı.

1991-ci ilin noyabr ayından şəhər blokadaya alınmışdı, xarici aləmlə yeganə əlaqə radiotelefon və mülki vertolyotlar vasitəsi ilə keçirilirdi ki, 1992-ci il yanvarın 28-də "Azərbaycan Hava Yolları" Dövlət Şirkətinə məxsus Mİ-8 markalı mülki vertolyot Dağlıq Qarabağ səmasında erməni hərbi birləşmələri tərəfindən vurulması, 47 azərbaycanlının həlak olması ilə bu əlaqə də kəsildi.

Fevralın ikinci yarısından başlayaraq Xocalı Ermənistan silahlı birləşmələri tərəfindən tam mühasirədə idi, dinc sakinlərin dəstələr halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin isə qarşısını aldı.

Fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücumun başlaması ilə erməni hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə şəhər bir neçə saatın içərisində yerlə yeksan edildi. Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürüldü. 8 ailə bütünlüklə məhv edildi. 487 nəfər şikəst edildi. 1275 sakin – qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qaldılar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Bu soyqırım aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirilmiş, əsir götürülənlərə amansız işgəncə verilmişdir. Bu zaman soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə yaşamaq hüququ kütləvi şəkildə pozulmuşdur.

Mənfur erməni millətçilərinin kütləvi informasiya vasitələrində, mitinqlərdə azərbaycanlıların kütləvi məhvini təşkil etməyə çağırışları isə Ermənilər tərəfindən Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetirilməsi planının qabaqcadan hazırlanmasını bir daha sübut edir.

Beləliklə, son iki yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəslinin milli müstəsnalıq, Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilməsi nəticə etibarı ilə XX əsrin sonlarında sivil dünyanın gözü qarşısında Xocalı soyqırımı kimi qanlı faciənin baş verməsinə gətirib çıxardı.

Qeyd olunmalıdır ki, münaqişə başlanandan bu günədək itkin düşmüş minlərlə Azərbaycan vətəndaşının əsir və girov kimi Ermənistanda və işğal edilmiş ərazilərdə saxlanılması barədə əsaslı məlumatlar mövcuddur. Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan çox böyük itkilərlə, o cümlədən əsir və itkin düşmüş, girov götürülmüş şəxslərin taleyi ilə bağlı problemlərlə üzləşmişdir.

Xocalı soyqırımı zamanı yol verilmiş zorakılıq əməllərinin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi beynəlxalq və dövlətdaxili hüquqa əsasən məhz genosid cinayətidir.

Genosid cinayətinin əsas tərkib elementini zəruri niyyətin təşkil etməsi və onun dinc dövrdə törədilə bilməsi də bu əməli digər oxşar beynəlxalq cinayətlərdən, xüsusilə də insanlıq əleyhinə cinayətlər və müharibə cinayətlərindən fərqləndirir. Məhz buna görə də, genosid, Yuqoslaviya və Ruanda tribunalları nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda və bir sıra digər sənədlərdə ayrıca beynəlxalq cinayət kimi fərqləndirilmişdir.

BMT-nin bir sıra sənədlərində də, genosid ümumi beynəlxalq hüquq normalarını pozan bəşəriyyətin təhlükəsizliyi əleyhinə qarşı cinayət kimi dəyərləndirilir. BMT Baş Məclisinin 11 dekabr 1946-cı il tarixli 96 (1) saylı qətnaməsində genosidin beynəlxalq hüquq normalarını pozan, BMT-nin ruhuna və məqsədlərinə zidd cinayət olduğu elan edilir.

Genosid cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (İİİ) saylı qətnaməsi ilə qəbul edilmiş Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyanın preambulasında qeyd olunduğu kimi, genosidin bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə genosid hər-hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlərdir: bu cür qrup üzvlərinin öldürülməsi; belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; hər-hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Analoji müddəa Yuqoslaviya beynəlxalq cinayət tribunalının nizamnaməsində (4-cü maddə), Ruanda beynəlxalq cinayət tribunalının nizamnaməsində (3-cü maddə), Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (6-cı maddə) və bəzi dövlətlərin cinayət qanunvericiliyində əks olunmuşdur. Belə bir müddəa Azərbaycanın daxili qanunvericiliyində də təsbit olunmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsinə əsasən, hər-hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə genosid sayılır.

Beynəlxalq qanunvericiliyin bu müddəaları ermənilər tərəfindən Xocalıda törədilmiş əməllərdə niyyət, əvvəlcədən düşünülmüş qaydada (yaxınlıqdakı kəndlərdə, qaçmaq istəyən əhalini məhv etmək məqsədilə əvvəlcədən pusquların qurulması da bunu sübut edir) məhz azərbaycanlı olduqlarına görə milli qrupu tam və ya qismən məhv etmək məqsədilə bu qrup üzvlərinin öldürülməsini məhs soyqırımı cinayəti kimi tövsif edir.

Yüzlərlə azərbaycanlının ermənilər tərəfindən girov götürülməsi, uşaqların zorla bir qrupdan alınıb başqa bir qrupa verilməsi, xüsusi amansızlıqla öldürülməsi genosid cinayətinin əlamətlərindəndir. Bütün bunlar isə ermənilərin genosid cinayəti törətmələrini bir daha sübut edir.

Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq genosidin beynəlxalq hüquq normalarını pozan

cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər.

Genosid cinayətinə görə məsuliyyət universal olduğundan bununla bağlı digər dövlətlər də müvafiq tədbirlər görə bilərlər. Belə ki, Konvensiyanın əsasında duran prinsiplər, BMT Beynəlxalq Məhkəməsi tərəfindən bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır. Konvensiyada qeyd edilir ki, genosidi həyata keçirmiş şəxslər konstitusiyaya görə məsul şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdırlar.

Genosid törətmiş şəxslərin cəzalandırılması labüddür. Konvensiyanın 5-ci maddəsinə əsasən, iştirakçı-dövlətlər genosid cinayəti törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görməlidirlər. Həmin şəxslər ya dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə, yaxud da beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidir.

Onu da qeyd etmək lazımdır ki, 26 noyabr 1968-ci il tarixli, Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında Konvensiya imkan verir ki, törədilmə vaxtından asılı olmayaraq genosid cinayəti törətmiş məsul şəxslər istənilən vaxt cinayət məsuliyyətinə cəlb olunsunlar.

Burada BMT Baş Məclisinin 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərdə, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərdə və bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin məhkəmə təqibinin və cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət vardır. Hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq tədqiq edilməli, belə cinayətləri törətdikləri barəsində dəlillər olan şəxslər isə axtarılmalı, həbs edilməli, məsuliyyətə cəlb olunmalı və müqəssir sayıldıqda, cəzalandırılmalıdırlar.

Genosid cinayəti törətməkdə təqsirli bilinən şəxslərin ekstradisiyasına gəlincə isə, Konvensiyaya əsasən müqəssirlərin təhvil verilməsinə münasibətdə genosid siyasi cinayət sayılmır. Deməli, genosid cinayəti törətmiş şəxslərə sığınacaq hüququ şamil edilmir.

Bir məqamı da vurğulamaq lazımdır ki, genosid cinayətinə görə məsuliyyətin meydana çıxması üçün bütövlükdə müəyyən qrupun məhv edilməsindən ibarət son nəticə tələb olunmur. Yuxarıda qeyd etdiyimiz genosid cinayətinin tərkibini təşkil edən əməllərdən birinin və ya bir neçəsinin müəyyən qrupu tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi genosid kimi qiymətləndirilir.

"Krua l'Eveneman", "Valer aktuel" (Paris) jurnalları, "Sandi Tayms", "Faynenşl Tayms", "Tayms" (London), "Le Mond" (Paris), "İzvestiya" (Moskva) qəzetləri  və başqa mətbu orqanların "Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu", "Minlərlə vəhçicəsinə öldürülənlər və başsız meyitlər var", "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər", "Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər", "Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü" başlıqlı yazılar insanlıq əleyhinə qəddar və düşünülmüş soyırım aktını bir daha sübut edir.

Uzun sürən sülh danışıqları, nüfuzlu beynəlxalq təşkilatların BMT, Avropa Şurası, ATƏT-in Minsk qrupu və digər qurumların səyləri, problemin həllində vasitəçilik missiyası heç bir nəticə vermir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874, 884 saylı qətnamələri, habelə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan işğal olunmuş Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların dayandırılması, atəşkəsin təmin olunması, həmçinin bütün işğalçı erməni qüvvələrinin Azərbaycan torpaqlarından şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Baş Assambleyasının 14 mart 2008-ci il tarixli qətnaməsi, Avropa Şurası, ATƏT tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi sənədlər hələ də icra olunmur.

Avropa Şurası Parlament Assambleyasının 2005-ci il tarixli 1416 saylı Qətnaməsi və 1690 saylı tövsiyəsi də Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələr tərəfindən idarə edilməsini və Azərbaycan torpaqlarının erməni qüvvələri tərəfindən işğalını bir daha təsdiqləmiş, BMT Təhlükəsizlik Şurasının yuxarıda adı çəkilən Qətnamələrinin icrasının vacibliyini vurğulamışdır.

Lakin Ermənistan Beynəlxalq Konvensiyaların müddəalarını, o cümlədən, üzv dövlət olaraq BMT Nizamanməsinin sülh, təhlükəsizlik və insan hüquqlarını nəzərdə tutan əsas prinsiplərinə: güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi, dövlətin daxili

yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi, dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq bir-biri ilə əməkdaşlıq etmək prinsipi, xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipi, dövlətlərin suveren bərabərliyi prinsipi, dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirməsi prinsipi, sərhədlərin toxunulmamazlığı prinsipi, dövlətlərin ərazi bütövlüyü prinsipi, əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipinə qarşı tərəf hələ də əməl etmir və dünya birliyi buna göz yumur.

BMT Baş Assambleyasının 39/11 saylı 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilən Bəyannamədə də sülh hüququna xüsusi status verilərək bu hüquq heç bir ayrı-seçkiliyə yol verilmədən insanların müqəddəs hüququ kimi bəyan edilməsinə baxmayaraq, havadarlarına arxalanan Ermənistan davamlı olaraq beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərini pozur, qeyri-konstruktiv mövqe nümayiş etdirir, bu gün də Azərbaycana qarşı etnik təmizləmə siyasəti yürüdülür, atəşkəs rejimi mütəmadi olaraq pozulur, bunun da nəticəsində azərbaycanlı hərbi qulluqçular və sərhədyanı bölgədə yaşayan mülki vətəndaşlar həlak olur, işğal altında olan torpaqlarımızda mövcud zəngin təbii sərvətlər, mədəni irsimiz mənimsənilir, meşə zolaqları yandırılır, nadir tarixi və dini abidələrimiz amansızcasına dağıdılır. Bununla da əsas insan hüquq və azadlıqları, xüsusən də yaşamaq hüququ, o cümlədən də fundamental kollektiv hüquqlardan olan sülh hüququ və inkişaf hüququ davamlı olaraq kütləvi və kobud şəkildə pozulur.

Ermənistan tərəfi bu işğalçılıq siyasətini pərdələmək məqsədilə “xalqların öz müqəddaratını təyin etmək hüququ”nu məntiqsiz şəkildə önə çəkir. Belə ki, xalqların öz müqəddaratını təyin etmək hüququ hər bir millətin onun iqtisadi, sosial, siyasi, mədəni baxımdan tam inkişafını təmin edə biləcək sabit bir şəraitdə yaşamaq hüququna malik olması başa düşülür və xalqın bir hissəsinə şamil oluna bilməz. Öz müqəddəratını təyin etmək hüququ BMT nizamnaməsinin 2.1 və 55-ci maddələrində öz əksini tapmaqla dövlətləri öz müqəddaratını müəyyən etmək hüququna hörmətlə yanaşmağa dəvət edərək bu hüququn realizəsini diskriminasiyaya yol vermədən insan hüquq və azadlıqlarına hörməti mümkün edən sabit şəraitin mövcudluğu ilə xarakterizə edir. Helsinki Yekun Aktında (1975) öz müqəddəratını təyin etmə ayrılma kimi deyil, xalqların bərabərliyinə, dövlətlərin ərazi bütövlüyünə hörmət məzmununda və demokratik dövlət formasında insan hüquqlarına nail olmaq kimi başa düşülür.

1990-cı il 21 noyabr tarixində Parisdə ATƏT çərçivəsində qəbul edilmiş yekun sənəddə millətlərin öz müqəddəratını həll etmək hüququ nəzərdən keçirilərək BMT nizamnaməsinə və orada təsbit edilmiş prinsiplərə, xüsusilə ərazi toxunulmazlığı prinsipinə uyğun şəkildə bir daha təsdiq edilib. Millətlərin öz müqəddəratını təyin etməsi hüququ bir çox beynəlxalq hüquqi sənədlərdə təsbit edildiyi halda, ayrılma hüququ beynəlxalq hüquqa əsasən, ümumiyyətlə, hüquq kimi müəyyən edilməyib.

Beləliklə, ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş əməllər beynəlxalq hüquqa müvafiq olaraq beynəlxalq cinayət – genosid kimi qiymətləndirilməlidir və beynəlxalq hüquqa əsasən genosid törədənlərin cəzalandırılması onun törədilməsi vaxtından asılı olmayaraq zəruridir. Müvafiq olaraq, azərbaycanlılara qarşı genosid törətmiş (istər cinayətin bilavasitə icraçıları, istərsə də təşkilatçıları) erməni və onların havadarları olan şəxslər, vəzifə mövqeyindən asılı olmayaraq (cinayətkarın dövlət başçısı və ya vəzifəli şəxs qismində çıxış etməsi ona immunitetdən istifadə etmək imkanı vermir) cinayət məsuliyyətinə cəlb edilməli, ya səlahiyyətli dövlətdaxili məhkəmədə, yaxud da beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər.

Ümummilli liderimiz Heydər Əliyev Xocalı soyqırımının əsl mahiyyətini açıqlamış, hələ 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət vermişdir. Ölkə Prezidenti cənab İlham Əliyev bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmasının, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini daim qətiyyətlə vurğulayır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dünya boyu gerçəkləşdirdiyi “Xocalıya ədalət!” kampaniyası bu gün Xocalı hadisələri barədə dünya ictimaiyyətini məlumatlandırmaq və beynəlxalq-hüquqi tanınmasına nail olmaq məqsədilə Avropa, Asiya, Afrka, Şimali və Cənubi Amerika ölkələri tərəfindən Xocalı soyqırımının tanınmasına xidmət edir.

Kampaniya çərçivəsində beynəlxalq təşkilatlar və 50-dən artıq müxtəlif ölkələrin parlamentlərində Xocalı soyqırımı ilə bağlı sənədlərin qəbuluna nail olunması Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan

İslam Respublikası, Bosniya və Herseqovina, Rumıniya, Çexiya və İordaniya parlamentlərinin Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıdılmasına imkan vermişdir.

ABŞ-nın Massaçusets, Texas, Nyu-Cersi, Corciya, Men, Nyu-Meksiko, Arkanzas, Missisipi, Oklahoma, Tennessi, Pensilvaniya, West Virginia, Konnektikut Florida kimi ştatları Xocalı soyqırımını rəsmən tanımış və böyük zəhmət tələb edən bu şərəfli iş nəticəsində ölkələrin sayı artmaqdadır.

Xocalı soyqırımının tanınması ilə yanaşı, artıq bu qətliamları törədənlərin cəzalandırılması tələb olunur. Bu məqsədə əsas zərurətlərdən biri BMT Təhlükəsizlik Şurasına müraciət etməklə Beynəlxalq tribunalın yaradılması, eləcə də mövcud beynəlxalq məhkəmələr çərçivəsində cəzalandırılmasının vacibliyidir.

Bu gün Xocalı Azərbaycan xalqı üçün qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmişdir. Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Təəssüf ki, XX əsrdə soyqırımı və etnik təmizləmə hadisələri baş vermiş tarixi səhifələr olmuşdur. Xocalı faciəsi onların sırasında ən dəhşətlilərinə aiddir. Hal-hazırda bu hadisələrdə hər hansı şəkildə iştirakı olmuş şəxslər hələlik öz vicdanları qarşısında cavabdehdirlər, ancaq vaxt gələcək və onlar tarixin məhkəməsi qarşısında cavab verməli olacaqlar.

Ölkə prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində dediyi kimi, "Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Azərbaycanın mövqeyi birmənalıdır, ədalət, tarixi həqiqət üzərində qurulubdur. Bizim əzəli torpağımız olan Dağlıq Qarabağ bu gün siyasi və hüquqi cəhətdən də Azərbaycanın ayrılmaz hissəsidir. Ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz. Heç vaxt Azərbaycan öz ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcək, icazə verməyəcəkdir. Bizim birmənalı mövqeyimiz bir daha demək istəyirəm ki, tarixi ədalətə və beynəlxalq hüquq normalarına söykənir. Öz siyasi və regional təşəbbüslərimizlə, iqtisadi təşəbbüslərlə daha da böyük təzyiq göstərməliyik".

Ölkə Prezidenti tərəfindən müəyyən edilmiş bu mühüm istiqamətlər hər birimizdən daha güclü dəstək və əzm tələb edir. Təhsilimizdə, yaşadığımız ərazidə, işlədiyimiz müəssisələrdə, əməli fəaliyyətimizdə buna nail olmalıyıq.

Ölkəmizə qarşı təcavüz siyasətinin tarixini, deportasiya, repressiya, soyqırımı və terroru işıqlandıran, xalqımızın başına gətirilmiş dəhşətləri əks etdirən Memorial Soyqırımı muzeyi, Xocalı Abidə Kompleksi, Quba "Soyqırımı Memorial Kompleksi" yaşanan faciəli tarix, şəhidlərin ruhu, insanlıq və ədalət naminə uşaq və gəncləri, qadınları, yaşından asılı olmayaraq, hər birimizi mübarizliyə səsləyir.

Biz bir daha bəyan edirik ki, Xocalı faciəsi beynəlxalq hüquq normalarına əsasən soyqırımıdır. Ermənistan təcavüzlə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin müddəalarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, azərbaycanlı əsir və girovlar azad edilməli, qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqları bərpa olunmalı, onlar öz doğma yurdlarına qaytarılmalıdır.

Beynəlxalq təşkilatlara, xarici ölkələrin diaspor və diplomatik nümayəndəliklərinə milyonlarla azərbaycanlının hisslərini ifadə edərək ünvanladığımız bəyanatla da Azərbaycanın Xocalı şəhərində törədilmiş soyqırımın 22-ci ildönümü ərəfəsində dinindən, dilindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq bütün dünya ictimaiyyətinə müraciət edir və əminik ki, ümumbəşəri dəyərlərə zidd olan zorakılıq, təcavüz, qətliam kimi cinayət əməllərinə dünya birliyi ədalətli dəstəyini əsirgəməyəcək.

**prof. Elmira Süleymanova,**
**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman).**

**"Respublika".-**2014.-26 fevral.-N 42.-S.6.

## Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbçiləri 7 min nəfər əhalisi olan Azərbaycanın qədim yaşayış məskəni Xocalı şəhərinə vəhşicəsinə hücum etdilər, heç kimə aman vermədən dinc sakinləri kütləvi şəkildə məhv etdilər, şəhərə od vurub yandırdılar, ağlasığmaz qəddarlıqlar, amansız qırğınlar törətdilər.**

**Xocalı soyqırımı erməni qatilləri tərəfindən törədilən bəşəri cinayətdir, Azərbaycan və türk xalqlarına qarşı çevrilmişdir. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli Soyqırım Cinayətinin Qarşısının alınması və Cəzalandırılması haqqında Konvensiyasının, 1949-cu il və 1954-cü il Cenevrə konvensiyalarının maddələrini kobud şəkildə pozan erməni quldurlarının qanlı cinayətləri və əməlləri nəticəsində Xocalı şəhəri yerlə-yeksan edildi, əhalisi amansızcasına öldürüldü və məhv edildi, sözün əsl mənasında azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirildi. Beynəlxalq hüquq normalarını kobudcasına pozan erməni quldurlarının cinayətkar əməllərinə, hesab edirik ki, beynəlxalq məhkəmə baxmalıdır. Bu məhkəmədə sübut olunar ki, etnik təmizləmə siyasətinə və soyqırımına məruz qalan azərbaycanlılardır. Özü də bu soyqırımını ermənilər törədiblər. Bunun üçün faktlar, rəqəmlər və tarixi həqiqətlər çoxdur. İnanırıq ki, zəka, ağıl və müdriklik qalib gələcək, haqq, ədalət qələbə çalacaq.**

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə azğınlaşmış erməni silahlı cəlladları keçmiş SSRİ-yə məxsus olan və o dövrdə Xankəndidə yerləşən, tərkibi əsasən erməni zabitlərindən və praporşiklərindən təşkil edilən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinə 5 istiqamətdən güclü hücum etdilər və dəhşətli cinayət aktı törətdilər. Vəhşiləşmiş erməni cinayətkarları 7 min nəfərlik Xocalı şəhərini yerlə-yeksan etdilər, yüzlərlə köməksiz və günahsız insanları amansızcasına qətlə yetirdilər, uşaqlara, qocalara, xəstələrə, hamilə qadınlara belə aman vermədilər, dinc mülki əhalini ucdantutma qırdılar, şəhəri yandırdılar. Ermənilər öz alçaq və yaramaz hərəkətləri və qanlı cinayətləri ilə bəşər tarixində növbəti cinayət aksiyasını — Xocalı soyqırımını törətdilər. Xocalı müsibəti ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi genosiddir — soyqırımıdır. Cinayətkar erməni hərbi quldurlarının vəhşiliyi nəticəsində 613 nəfər Xocalı sakini şəhid oldu, 1275 nəfər dinc sakin əsir götürüldü, 100-dən artıq dinc sakin yaralandı və şikəst oldu. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar, 70 nəfəri qocalar idi. Şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlanlar və qızlar idi.

Ermənilərin törətdiyi bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmişdir. Meyitlər üzərində dilə gətiriləsi mümkün olmayan təhqiramiz həqarətlər edilmişdir. Bu qeyri-insani əməllər XX əsrin sonunda dünyanın gözü qarşısında özünü dünyaya "mədəni" və "məzlum" xalq kimi tanıtmağa çalışan erməni quldurları tərəfindən törədilmişdir.

Xocalı faciəsi Azərbaycan xalqının qan yaddaşına həkk olan acı bir kədər, dərin bir uzüntüdür. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan edən ümummilli lider Heydər Əliyev hadisələrə beynəlxalq müstəvidə əsl hüquqi-siyasi qiymət verilməsinin zəruriliyini vurğulamış, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində qəti addımlar atmışdır. Xocalı faciəsinin xalqımız üçün dərin kədər və böyük dərd olmasını deməklə yanaşı, eyni zamanda xalqımızın bu kədər içərisində özünün azadlıq və müstəqillik uğrunda qətiyyətli mübarizə yolunun möhkəm və uğurlu sonluğunu da göstərmişdir. Hər il Xocalı soyqırımının ildönümü ilə bağlı keçirilən tədbirlərdə çıxışlar etmiş və bu çıxışlarında hər hansı bir faciənin Azərbaycan xalqının iradəsini qıra bilmədiyini bildirmişdir. Hələ 1995-ci ildə Xocalı soyqırımının 3-cü ildönümü zamanı Heydər Əliyev demişdir: "…Biz kədər içindəyik, qəm içindəyik, üç ildir ki, qəm-dərd çəkirik. Xocalı faciəsinin nə qədər dəhşətli faciə olduğunu və Azərbaycan xalqına nə qədər böyük zərbə vurduğunu bir daha dərk edirik… Xalqımız çox əsrlik tarixində belə bəlalardan çox keçibdir. Ancaq heç vaxt başımızı aşağı salmamalıyıq.., gücümüzü toplamalıyıq. Azərbaycan xalqının haqq işi qələbə çalacaq. Azərbaycan xalqı bütün ərazisinin sahibi olacaq, müstəqilliyini bərqərar edəcək…" Prezident Administrasiyasının İcra Aparatının rəhbəri, akademik Ramiz Mehdiyevin göstərişi ilə Xocalı faciəsinin 22-ci ildönümünün geniş qeyd edilməsi tövsiyə edilmişdir.

Bütünlükdə Azərbaycan xalqının məhvinə yönəldilmiş Xocalı müsibəti erməni millətçilərinin məqsədyönlü soyqırımı siyasətinin davamıdır. Etnik təmizləmə siyasəti aparan erməni millətçi-şovinistləri zaman-zaman Azərbaycan xalqına qarşı amansız olmuş, dəhşətli qırğınlar törədərək bu torpaqları ələ keçirməyə çalışmış, "böyük Ermənistan" yaratmağa ciddi cəhdlər etmişlər. Ermənistanda yaşayan azərbaycanlıları tamamilə və zorakılıqla didərgin salandan sonra Azərbaycan torpaqlarının işğalına başlayan ermənilər ərazimizin 20 faizini zəbt etdilər, 1 milyon 200 mindən çox həmyerlimizi məcburi qaçqına, köçkünə və didərginə çevirdilər.

Azərbaycan Prezidenti cənab İlham Əliyev 2014-cü il yanvarın 9-da Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında özünün proqram əhəmiyyətli nitqində demişdir ki, ölkəmizdə aparılan dərin islahatlar nəticəsində əhalinin sosial müdafiəsi xeyli yaxşılaşmış, sosial-iqtisadi və mədəni sahədə yeni-yeni nailiyyətlər əldə edilmiş, müdafiə sənayemiz müasir standartlara uyğun qurulmuş, son illərdə 1 milyon 200 mindən artıq iş yeri açılmışdır. 2013-cü ildə dövlət büdcəmiz 19 milyard manatdan çox olmuşdur. Bu il büdcə 20 milyarddan çoxdur. Bizim dövlət büdcəmiz Ermənistanın dövlət büdcəsindən 10 dəfə böyükdür. Ümumi daxili məhsul 8 dəfə, əhali 6 dəfə çoxdur. Prezident İlham Əliyev demişdir: "Bizim bütün potensialımız güclənir, böyüyür, artır, Ermənistanda isə həm çox ağır iqtisadi, həm də demoqrafik fəlakət yaşanır".

Azərbaycan xalqının ümummilli lideri, dahi öndər Heydər Əliyevin dediyi kimi, dünya xalqlarının tarixinə, insanlığın tarixinə kütləvi terror aktı kimi daxil olan Xocalı soyqırımı "təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır". Faciənin onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində ulu öndər Heydər Əliyev demişdi: "Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamıdır və ən qanlı səhifəsidir". Xocalı soyqırımı təcavüzkar erməni başkəsənlərinin və erməni millətçi şovinistlərinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri növbəti qanlı aksiyası olmaqla etnik təmizləmə siyasətinin növbəti cinayəti idi.

İyirminci yüzilliyin ən qəddar və amansız cinayətlərindən biri olan Xocalı faciəsi bəşər tarixində analoqu olmayan dəhşətli soyqırımı idi. Erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımı bəşər övladına qarşı ağıla gətirilə̇si mümkün olmayan ən qanlı cinayət aksiyası idi. XX əsrin ən dəhşətli faciələrindən hesab olunan Xatın, Xirosima, Naqasaki, Sonqmi kimi insan fəlakətləri və kütləvi insan qırğınları sırasına 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımı da əlavə edildi. 26 fevral günü XX əsrin ən böyük insan faciələrindən biri oldu.

Xocalı soyqırımına doğru gedən yolun mürəkkəb siyasi, hərbi və sosial-iqtisadi kökləri və səbəbləri vardır. Aparılan tədqiqatların və mövcud tarixi ədəbiyyatın araşdırılması nəticəsində məlum olmuşdur ki, erməni hərbçiləri müxtəlif yollarla keçmiş sovet ordusunun hərbi texnikasını və silahını ələ keçirmiş və Xocalı qətliamı ərəfəsində xeyli hərbi sursata sahib ola bilmişdi. Məlumdur ki, SSRi-nin süqutundan sonra Xankəndidə yerləşən 366-cı motoatıcı alayının hərbi texnikası hələ də qalırdı. Bunu da ermənilər bilirdilər. Erməni siyasətçiləri əvvəlcədən hərbi silahlarını və həm də həmin silahların "dilini"bilən rus hərbçilərini gah pulla, gah rüşvətlə, və gah da müxtəlif hiylələrlə ələ alırdılar. 366-cı alayın 13-cü və 53-cü bölməsinin hərbi qulluqçularının ermənilərlə bir milyon manatlıq alver etmələri barədə faktlar vardır. Bundan başqa, ermənilər 1990-1992-ci illərdə Zaqafqaziya Hərbi Dairəsinin silah anbarına bir neçə dəfə hücum etmiş və çoxlu silah ələ keçirmişdilər. Deyilənlərdən əlavə erməni hərbçiləri ilə sovet-rus hərbçiləri arasında silah alveri ilə razılaşmalar da olmuşdur. Bu barədə xeyli faktlar vardır.

1991-ci ilin axırlarında Ermənistan ilə Rusiya Federasiyası arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" imzalandı. Müqavilədən sonra ermənilərə çoxlu silahın ötürülməsinə beynəlxalq ictimaiyyət göz yumdu və bundan istifadə edən erməni millətçi-şovinistləri daha da azğınlaşdılar və intensiv hücumlarını gücləndirdilər. Ermənilərin müasir silahlarla silahlandırılması bölgədə qüvvələr nisbətini kəskin şəkildə dəyişdirdi və erməni-rus hərbçilərinin güc potensialını xeyli artırdı. 1991-ci ilin sonu — 1992-ci ilin əvvəllərində isə Azərbaycanın ayrı-ayrı bölgələrində özünümüdafiə taburları yaranırdı. Belə taburların isə lazımi döyüş qabiliyyəti və təcrübəsi yox idi. Azərbaycanda güclü ordu və vahid komandanlığın olmaması ağır və faciəli nəticələrə səbəb oldu. Ayrı-ayrı könüllü hərbi birləşmələrimiz isə düşmənin hərbi texnika ilə güclü hücumlarına duruş gətirə bilmir, cəbhə bölgələrində ağır məğlubiyyətlərə uğrayır və bir-birinin ardınca

kəndlərimiz və strateji məntəqələrimiz ermənilər tərəfindən işğal olunurdu. 1991-ci ilin oktyabrından 1992-ci ilin yanvarınadək Xocalı rayonunun Cəmilli, Meşəli kəndləri, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsi, Ağdam rayonunun Qərvənd kəndi, Xocavənd rayonunun Xocavənd və Tuğ kəndləri, keçmiş Hadrut rayonunun Axullu, Salakətin kəndləri, Goranboy rayonunun Ballıqaya və Başqışlaq kəndləri ermənilər tərəfindən işğal edilmiş, yandırılmış və məhv edilmişdi. Erməni hərbçiləri 366-cı alayın nəzdində "Klukin erməni cəbhəsi" adlı rota yaratmışdılar. Bu rotanın özəyini Livan, Amerika, Kanada, İran, İsveç və Hollandiyadakı erməni icmaları təşkil edirdi. Onların beyninə zəhərli təbliğat yeridərək "böyük Ermənistan" xəritəsini həyata keçirməyə çalışırdılar. Deyilənlərdən əlavə, hələ 1988-ci ilin fevralından təşkilatlanmağa başlayan gənc qızlardan ibarət "Şuşanik" adlı erməni şovinist ruhlu snayperçilər dəstəsi də yaradılmağa başlandı və onlar 366-cı alayın tərkibində yerləşdirildi. Onların düşüncələrinə və beyninə türk düşmənçiliyi hopdurulmuşdu. İnsan idrakından uzaq olan bu qatillər Livandan gətirilmiş muzdlu döyüşçülər idi. Xocalı soyqırımını araşdırarkən məlum olmuşdur ki, erməni hərbçilərinə beynəlxalq erməni lobbisi tərəfindən xeyli vəsait və hərbi sursat verilmişdi. Xocalı soyqırımında ASALA və "Haydad" terrorçu təşkilatları da "fəal" iştirak etmiş və amansız qırğınlar törətmişlər.

1992-ci il yanvarın 25-26-da uğursuz Daşaltı əməliyyatı göstərdi ki, Azərbaycan ordusunda vahid komandanlıq yoxdur.

Erməni silahlı qüvvələri Azərbaycanda düşmənə qarşı müqavimət göstərə bilən güclü ordunun olmadığını bilərək çox böyük sürətlə torpaqlarımızı, kəndlərimizi və strateji əhəmiyyətli məntəqələri işğal edir, Xocalıya doğru lap yaxınlaşmışdılar. Xocalı faciəsi ərəfəsində ermənilər Qaradağlı, Əmirallar, Umudlu, Malıbəyli və Quşçular kəndlərini mühasirəyə almışdılar. Ermənilər hərbi üstünlüklərindən istifadə edərək Xocalıya doğru sürətlə irəliləyirdilər.

Xocalı şəhəri Dağlıq Qarabağın böyük şəhərlərindən biri, Şuşa şəhərinin strateji məntəqəsi, Xankəndiyə gedən yolun açarı idi. Hərbi və mülkü aeroport, Dağlıq Qarabağın hava limanı burada yerləşirdi. Xankəndiyə təyyarə ilə gələnlər Xocalı aeroportunda enməli idi. Xocalı Azərbaycan xalqının qədim yaşayış mərkəzlərindən biri, sivilizasiyaya yüksək maddi-mədəniyyət bəxş etmiş Xocalı-Gədəbəy mədəniyyətinin (e.ə. XIV-VIII əsrlər) mərkəzi idi. Xocalı çox böyük strateji əhəmiyyətə malik yaşayış məntəqəsi idi və 1991-ci ildə şəhər statusu almışdı. Son vaxtlardan şəhərdə böyük tikinti-quraşdırma və abadlaşdırma işləri aparılırdı. 7 min əhalisi (digər faktlara görə 9 min əhalisi), 3 min hektardan çox əkin sahəsi, çoxlu məktəbləri və mədəniyyət evləri vardı.

Xocalıya hücum edərkən erməni silahlı qüvvələri bütün istiqamətlərdə şiddətli döyüş əməliyyatları aparırdılar. Bu hücumda erməni hərbçiləri, 366-cı hərbi alayın qüvvələri, 1000-dən artıq silahlı quldur dəstələri, xaricdən gətirilən və pulla ələ alınan muzdlu qatillər, terrorçu təşkilatların dəstələri, Dağlıq Qarabağın erməni bölmələri və bütün Ermənistan silahlı qüvvələri iştirak edirdi.

Ermənilərin Xocalı istiqamətində hücumları intensiv xarakter almasına baxmayaraq o zamankı Azərbaycan rəhbərliyi heç bir müdafiə və ya hazırlıq tədbirləri görmürdü. Ancaq Xocalı əhalisi özləri üçün müəyyən müdafiə tədbirləri görürdülər. Belə ki, yerli əhalidən ibarət könüllü və özünümüdafiə dəstələr yaradılırdı. Tofiq Hüseynovun komandanlığı ilə 100 nəfərdən ibarət qeyrətli gənclər müxtəlif yerlərdə müdafiə istehkamlarında qərar tutmuşdular. Bundan başqa 60 nəfərdən ibarət polis bölməsi yaradıldı. Xalqımızın qeyrətli oğlu, polis mayoru Əlif Hacıyevin rəhbərliyi ilə yaradılan 29 nəfərdən ibarət kiçik bir dəstə erməni hərbçilərinə lazımi və tutarlı zərbələr endirirdi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Əlif Hacıyev Xocalı hava limanının komendantı təyin ediləndən sonra (1990-noyabr) ermənilərə hava yolu ilə silah daşınması qeyri-mümkün oldu. Əlif Hacıyev erməni quldurlarının hücumlarınada əsas hədəf idi. Ancaq Əlif Hacıyev sözün əsl mənasında xalqımızın vicdanlı və qəhrəman övladı idi, son nəfəsinə qədər yağı düşmənlə igid və cəsur bir insan kimi döyüşdü və qəhrəmancasına həlak oldu. Allah rəhmət eləsin.

Erməni hərbçiləri və erməni işbazları Xocalıya qarşı hücuma hazırlaşarkən özlərindən əlavə beynəlxalq aləmdə tanınan quldur terrorçu dəstələrdən də geniş istifadə etmişdilər. Ermənilər Fransada, Vyanada, Suriyada, Livanda, Rusiyada və başqa yerlərdə fəaliyyət göstərən terrorçu daşnakları və muzdlu qatilləri döyüşlərə cəlb etmişdilər ki, onlar da qanlı əməlləri ilə xocalılılara qarşı qanlı cinayətlər törətmişlər.

Xocalıya hücum ərəfəsində ermənilər ordu, texnika, müasir silah və canlı qüvvə cəhətdən xeyli üstünlüyə malik idilər. Eyni zamanda erməni hərbçiləri çox yaxşı bilirdilər ki, ayrı-ayrı könüllü özünümüdafiə Azərbaycan hərbi birləşmələri düşmənə müqavimət göstərmək zorunda deyil. Hərbi-texniki üstünlüklərinə arxayın olan ermənilər 1992-ci il fevralın 12-də, 13-də və 19-da Xocalıya hücumlar etdilər. Kim bilir, bəlkə də

bu hücumlar kəşfiyyat xarakterli idi. Çünki bəşər tarixində çox vaxt böyük və güclü hücumlar ərəfəsində ilk kəşfiyyat xarakterli hücumlar olmuşdu. Qarşı tərəfin hərbi cəhətdən zəif olduğunu bilən düşmən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə çox böyük hərbi qüvvə ilə, müasir silahlarla, güclü döyüş texnikası ilə bütün istiqamətlərdə Xocalı şəhərinə hücum etdi. Bu hücumda erməni hərbçilərilə yanaşı, 366-ci rus hərbi alayının qüvvələri, mindən artıq silahlı quldurlar, Ermənistan silahlı qüvvələri, Dağlıq Qarabağın erməni bölmələri, xaricdən gətirilən və pulla ələ alınan muzdlu qatillər və terrorçu dəstələr iştirak edirdi. Göründüyü kimi, təpədən dırnağa qədər silahlanmış erməni hərbçiləri hər cəhətdən çox böyük üstünlüyə malik idilər.

Yeri gəlmişkən bir mühüm məsələni qeyd etmək lazımdır: tarixçi alimlərin son tədqiqatlarından aydın olmuşdur ki, ermənilərlə əlbir olan, düşmən hərbçilərinə hər vasitə ilə kömək edən, Xocalı faciəsinin ən fəal və əsas icraçısı olan, 366 motoatıcı alayın komandiri polkovnik Zaviqarova 1992-ci il fevralın 24-də general-mayor rütbəsi verilmişdi. Zaviqarov əslində rus zabitinin şərəf və ləyaqətini tapdalamış, erməniləri silahla təmin və təchiz etmiş, digər tərəfdən isə alayın əsgərləri qarşısında antiazərbaycan ruhlu çıxışlar edərək erməni hərbçilərini milli, dini hücumlara təhrik etmişdir. Bu baxımdan Zaviqarovun günahları daha böyükdür. 366-cı alayın əks-kəşfiyyat şöbəsinin rəisi Rusiya Federasiyası Baş Kəşfiyyat İdarəsinin polkovniki Vladimir Savelyev Kremlə və Baş Kəşfiyyat İradəsinə yazdığı məktubda soyqırımda iştirak edən 19 nəfər yüksək rütbəli zabitin və 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslərin adlarını göstərmişdir. Ermənilər hətta Zaviqarova 36 min ABŞ dolları "hədiyyə" vermişdilər. Bunu bilən ordu komandanlığı Zaviqarovu "zabit" şərəfinə xəyanət" üstündə ordudan qovulmasını tələb etmişdir.

Tarixi cinayətləri açmağa vicdanı məcbur edən V.Savelyev sonradan mərkəzə verdyi gizli sənəddə yazırdı: "…Mən bütün bunları yazmaya bilmərəm… Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaqların, hamilə qadınların kəsilmiş bədənlərini unuda bilmirəm… Biz rusların zabit şərəfi görün necə ləkələndi…". Bəli, bu, soyqırımda iştirak edən komandirlərdən birininin acı etirafı idi.

Xocalı soyqırımı ərəfəsində erməni hərbçiləri dünyanın müxtəlif ölkələrində yaşayan erməni lobbisindən xeyli miqdarda vəsait və hərbi sursat almışdılar. Hətta Roma Papası II İohan 1992-ci il fevralın 4-də Dağlıq Qarabağ özünümüdafiə dəstələrinə və rus qoşun birləşmələrinin generallarına məxfi məktub göndərmişdi. Roma Papası erməni quldurlarına dua edərək bu vuruşmada "Allahdan aldığı gücü" göndərdi. Ruslara isə bu vuruşmanın "dini bir vuruşma" olduğunu xatırladır. Məktubda bildirilirdi ki, imkan olarsa, Dağlıq Qarabağa gələcək və Xocalıda həlak olan erməni qardaşlarının qarşısında baş əyəcək. Göründüyü kimi, dünyanın bir çox təbliğat və təşviqat maşını erməni lobbisinin xeyrinə işləyirdi.

Xocalı soyqırımını ilk dəfə lentə alan cəsur və igid jurnalist Çingiz Mustafayev olmuşdur. Acı göz yaşları ilə faciəli olayı kameraya çəkərkən kamerası da ermənilər tərəfindən "yaralanmışdı". Çingiz Mustafayev bu qanlı olayı belə xatırlayırdı: "İlk dəfə fevralın 28-də iki hərbi vertolyotun müşayiəti ilə hadisə yerinə gəldik. Havadan gördük ki, bütün bir sahə insan meyitləri ilə doludur. Təyyarəçilər vertolyotu yerə endirməyə qorxurdular. Çünki həmin ərazi artıq ermənilərin nəzarəti altında idi. Buna baxmayaraq, biz vertolyotdan çıxdıq və bu zaman güclü atəşə məruz qaldıq. Bizimlə olan milis əməkdaşları meyitləri vertolyota götürməli idilər ki, onlar qohumlarına verilsin. Gördüyümüz vəziyyətdən şoka düşdük. İki nəfər isə huşunu itirmişdi. Martın 2-də xarici jurnalistlərlə hadisə yerinə gəlmişdik. O zaman meyitlər dəhşətli hala salınmışdı. Bir neçə sutka ərzində onların üzərində təhqiredici hərəkətlər edilmişdi".

İnsanı dəhşətə gətirən bu açıqlama, soyqırımı ilk dəfə lentə alan Çingiz Mustafayevin fikirləridir. Erməni dəhşətlərindən, vandalizmdən yaxa qurtarmaq üçün üzü Ağdama tərəf qaçan, əliyalın əhali vəhşicəsinə güllələrə tuş gəlmişdi. Ahıllara, körpələrə belə aman verilməyib. İnsanları bir-birlərinə bağlayaraq, üzərilərinə neft tökərək yandırıb, uşaqları diri-diri süngüyə keçirib faşistlərin törətdiklərindən betər faciəni bəşəriyyətə "bəxş etdilər". Qətlə yetirilənlərin cəsədləri üzərində vəhşicəsinə davranaraq dilə gətirilməsi mümkün olmayan əməliyyatlar aparmışlar.

XX yüzilliyin əvvəllərində olduğu kimi, əsrin sonunda da Azərbaycan xalqının başına gətirilən belə qanlı faciələr bir daha onu göstərir ki, erməni cəlladları özlərinin avantürist planlarını və aksiyasını həyata keçirməyə əlverişli bir məqam axtarır və dərhal onu fırıldaq yolu ilə reallaşdırırlar.

Xocalı soyqırımına ümummilli lider Heydər Əliyevin fəal təşəbbüsü və diqqəti sayəsində hüquqi-siyasi qiymət verildi və 1994-cü il fevralın 24-də Azərbaycanın Milli Məclisinin qərarı ilə 26 fevral "Xocalı soyqırımı (genosidi) və "Milli Matəm günü" elan olunmuşdur. Ulu öndər Heydər Əliyevin sərəncamına əsasən hər il

fevralın 26-da saat 17:00-da Xocalı qurbanlarının əbədi xatirəsi ölkəmizin ərazisində dərin üzüntü və sükut dəqiqəsi ilə qeyd edilir. Azərbaycan xalqı hər ilin bu gününü dərin hüzn və kədər içində keçirir, günahsız şəhidlərimizin ruhu və xatirəsi hörmət və ehtiramla yad edilir. Qərar və bəyanat dünya parlamentlərinə, beynəlxalq təşkilatlara göndərilmişdir. Ulu öndərin apardığı uğurlu diplomatiya Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən çox böyük müvəffəqiyyətlə davam və inkişaf etdirilir və Azərbaycanın xeyrinə bir çox beynəlxalq əhəmiyyətli sənədlərin qəbul edilməsinə nail olundu. Məhz bu uğurlu siyasətin məntiqi davamı kimi 2005-ci il yanvarın 25-də Avropa Şurasının Parlament Assambleyasının qış sessiyasında Dağlıq Qarabağ üzrə xüsusi məruzəçisi Devid Atkinsonun hazırladığı məruzə əsasında qətnamə qəbul edildi. Həmin qətnamədə Azərbaycan ərazisinin erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələrin nəzarəti altında olması və bu ərazidə etnik təmizləmələrin aparılması faktları öz əksini tapmışdır. Sənəddə deyilir ki, SSRİ-nin süqutundan sonra Dağlıq Qarabağ erməniləri Azərbaycan ərazisində “dövlət” yaratmaq ideyasına düşmüş, 7 Azərbaycan rayonunu işğal etmişdir. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə müdafiə edildi.

Xocalı faciəsi iyirminci əsrin ən dəhşətli soyqırımı kimi dünyanın bir sıra ölkələri tərəfindən qeyd edilir. Xocalı soyqırımı Moskvada, Almaniyada, ABŞ-da, Türkiyədə, Ukrayna, Qazaxıstan, Gürcüstan, Küveyt və dünyanın bir çox digər ölkələrində qeyd olunmuşdur və indi də olunmaqadır. 2005-ci ilin fevralında və 2006-cı il fevralın 23-də və 2007-ci ilin fevralında Türkiyə Böyük Millət Məclisinin xüsusi iclaslarında Xocalı soyqırımı ilə bağlı məsələ geniş müzakirə olunmuşdur. Qardaş Türkiyə parlamentinin üzvləri erməni silahlı dəstələrinin Xocalıda mülki əhaliyə qarşı törətdikləri cinayətləri görünməmiş vəhşilik kimi qiymətləndirmiş, erməni cəlladlarının qanlı əməllərini pisləmişlər. Bunun Azərbaycan xalqına qarşı soyqırım olduğu vurğulanmışdır. 2006-cı il fevralın 24-də Ankarada Türkiyənin ictimai-siyasi xadimlərinin bu ölkədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin iştirakı ilə Heydər Əliyev Fondunun təşkil etdiyi “Xocalı soyqırımı” sənədli filmi göstərilib. Tədbirdə Fondun prezidenti, UNESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın soyqırım ilə bağlı dünya ictimaiyyətinə müraciəti səsləndirilib.

Beləliklə, erməni quldur dəstələrinin Xocalıda törətdikləri qanlı cinayət bütün beynəlxalq hüquq sənədlərinə görə, miqyasına və mahiyyətinə görə soyqırımdır və Azərbaycan xalqına qarşı cinayət kimi qeyd olunmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, son illərdə artıq bütün dünya etiraf edib ki, bizim torpaqlarımız işğalçı Ermənistan tərəfindən zəbt edilib, azərbaycanlılar etnik təmizləməyə məruz qalmışlar. Cənab İlham Əliyev demişdir: “… İnanmaq istəyirəm ki, Ermənistan rəhbərliyi, nəhayət, beynəlxalq hüquq prinsiplərinə riayət edəcək və işğal olunmuş torpaqlardan qoşunlarını öz xoşu ilə çıxaracaq…. əks təqdirdə Azərbaycan tam sərbəstdir ki, bütün imkanlardan istifadə etsin və öz doğma torpaqlarını azad etsin”.

2011-ci il yanvarın 14-də Nazirlər Kabinetinin geniş iclasında Prezident İlham Əliyev proqram əhəmiyyətli çıxışında demişdir: “…Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, beynəlxalq birlik tərəfindən Azərbaycan torpağı kimi tanınır, BMT tərəfindən tanınır, bütün beynəlxalq təşkilatlar bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşır”. Möhtərəm Prezidentimizin dediyi kimi, son vaxtlarda Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində daha yeni addımlar atılmışdır. Əvvəla, Avropa Parlamenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ədalətli qətnamə qəbul etmiş, Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə təsdiq etmişdir. İkincisi, NATO-nun zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə qəbul edilmişdir. Üçüncüsü, 2011-ci ilin yanvarın 13-də Avropa Komissiyasının sədri Avropa İttifaqının mövqeyini bildirmiş və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir.

Bütün bu mühüm sənədlər bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətlidir, doğrudur və obyektivdir. Buna görə də dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın haqqını müdafiə edirlər. Ancaq təəssüflər olsun ki, Ermənistan tərəfi bu tarixi reallıqlarla nəinki hesablaşmır, hətta hər gün atəşkəs rejimini pozur, beynəlxalq qanunlara əməl etmir və beynəlxalq təşkilatların qərar-qətnamələrini tanımaq belə istəmir. Prezident İlham Əliyev demişdir: “Azərbaycan öz tarixi torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir…” Ermənistan öz işğalçı qüvvələrini zəbt edilmiş torpaqdan çıxarmalıdır.

Beləliklə, cənab Prezidentimizin qətiyyətlə bildirdiyi kimi, biz ümid edirik ki, nəhayət, Ermənistan tərəfi reallıqla hesablaşmalı olacaq və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi özünün ədalətli həllini tapacaq, tarixi həqiqət bərpa olunacaq.

Prezident İlham Əliyev beynəlxalq görüşlərdə dəfələrlə demişdir ki, Azərbaycan xalqı və Azərbaycan dövləti bu işğalla, etnik təmizləmə siyasəti ilə, torpaqlarımızın müvəqqəti itirilməsi ilə heç vaxt barışmayacaq və beynəlxalq hüququn təsdiq etdiyi kimi, öz torpaqlarımızı azad etmək üçün bizim tam haqqımız vardır.

Bu gün bütün dünya birliyi, dünyanın iri və beynəlxalq təşkilatları, o cümlədən BMT və onun Təhlükəsizlik Şurası aydın şəkildə bilir və təsdiq edirlər ki, təcavüzə məruz qalan Azərbaycandır. Buna görə də düşünmək olar ki, Ermənistan tərəfi tezliklə konstruktiv addımlar atacaq və işğal etdiyi Azərbaycan torpaqlarını boşaldacaq, beləliklə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. İnşallah, gələcək o gün.

**Azad RZAYEV,**
**BDU-nun Tarix fakültəsinin dekanı, dosent,**

**Nuru MƏMMƏDOV,**
**professor.**

**"Respublika".-**2014.-26 fevral.-N 42.-S.8.

## Soyqırımı insanlığa qarşı amansız cinayətdir

***Əsl soyqırımı haqqında həqiqətləri real tarixi faktlar əsasında, dəlillərlə müntəzəm surətdə dünya dövlətlərinə və ictimai fikrinə çatdırmaq, bu hadisələrin ilhamçılarını və təşkilatçılarını bəşəriyyətə tanıtdırmaq bizim, indiki nəslin müqəddəs vəzifəsidir.***

***Heydər ƏLİYEV,***
***Azərbaycan xalqının ümummilli lideri***

*Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən İrandan və Osmanlı imperiyasına daxil olan ərazilərdən erməni əhalisinin köçürülüb yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905-ci və 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, Dağlıq Qarabağa muxtariyyət statusunun təmin edilməsi, 1948-1953-cü illərdə sovet rəhbərliyinin qərarı ilə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından deportasiyası xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bəşər tarixində zaman-zaman soyqırımıları törədilmiş, günahsız yerə insanlar irqinə, dininə və milliyyətinə görə qanına qəltan edilmişdir. Lakin, tarix indiyədək ermənilərin törətdiyi qədər dəhşətli və iyrənc formalarda həyata keçirilən qəddarlıq, vəhşilik və vandalizmə şahidlik etməmişdir. Erməni daşnaklarının insanların nifrətinə səbəb olan bu vəhşiliyi bütün zamanlarda özünü qabarıq şəkildə göstərmişdir. XX yüzillik boyu erməni cəlladları tərəfindən xalqımıza qarşı dəfələrlə törədilən qanlı qırğınlar bütün dəhşətləri ilə insan zəkasına sığmayan və dilə gətirilməsi mümkün olmayan bir faciədir və xalqımıza qarşı əsl genosid siyasətidir. Erməni millətçiləri tarix boyu ən qəddar və rəzil mübarizə formalarından istifadə edərək öz istəklərini reallaşdırmağa cəhd etmiş və bu yolda dəridən-qabıqdan çıxmışlar. Xüsusilə, XIX-XX əsrlərdə çar Rusiyası və sovet imperiyasının havadarlığıyla onların Azərbaycan türklərinə qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.

Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, həmin ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Öz mənfur və təhlükəli siyasətlərini gerçəkləşdirmək üçün onlar müxtəlif üsul və vasitələrdən, tarixin saxtalaşdırılmasından, siyasi təxribatlardan istifadə edərək, dövlət səviyyəsində davakar millətçiliyi və separatizmi ilə qonşu xalqlara qarşı təcavüzü həyata keçirmişlər. Bu məqsədlə Ermənistanda və ayrı-ayrı xarici dövlətlərdə "milli-mədəni", dini, siyasi və hətta terrorçu təşkilatlar qurmaqla, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər ediblər. XIX əsrin birinci rübündə Rusiya və İran arasında gedən müharibələr nəticəsində Azərbaycanın ikiyə bölünməsi ilə azərbaycanlıların əsrlərlə yaşadıqları ata-baba torpaqlarına – İrəvan, Zəngəzur, Göyçə və Qarabağa İran və Türkiyədən ermənilərin məqsədli şəkildə kütləvi köçürülməsinə start verilmiş, burada demoqrafik vəziyyət süni surətdə dəyişdirilmişdir. Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları ata-baba yurdlarından qovularaq deportasiyaya, kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlar xalqımızın qan yaddaşında əbədi iz buraxıb. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırımı və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusilə genişlənmiş və Azərbaycan xalqını Yer üzündən tam silmək kimi iyrənc niyyətlərini bütün çılpaqlığı ilə üzə çıxarmışdır. Həmin illərdə ermənilərin Azərbaycanda törətdikləri milli qırğın haqqında bizə çatan tarixi sənədlərdəki faktlar Şamaxıda,

Qubada, Muğanda, Göyçayda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi, Bakıda da həmin illərdə azərbaycanlıların soyqırımı həyata keçirilmiş və şəhər erməni silahlı dəstələri tərəfindən dağıdılmışdır. 1918-ci ilin mart ayının son günlərində ümumilikdə Azərbaycanda rəsmi məlumatlara əsasən, 50 minə yaxın əhalini ermənilər xüsusi amansızlıqla qətlə yetirmişlər. Mart qırğınları haqqında Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge yazır: "Ermənilər müsəlman əhalisini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub, sakinlərqarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər". Kluge ermənilər tərəfindən üzü divara çevrilərək itlərə gəmirdilən azərbaycanlıların şəkillərini də çəkmişdir. Bu faktlar erməni daşnak qaniçənlərinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin kiçik bir hissəsidir və ancaq 1918-ci ilin mart ayının son üç günündə törədilən Bakı qırğınını əks etdirir.

1918-ci ildə erməni bandaları insanlara qarşı vəhşiliklər etdikləri kimi, mədəniyyət abidələrini və tarixi abidələri də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirmişlər. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi foto şəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir.

1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər. Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak talan olunmuşdur. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran topdan açılan atəş nəticəsində Təzəpir məscidi zədələnmişdir.

Həmin dövrdə qədim Azərbaycan şəhəri Şamaxı da dəhşətli talan və vəhşiliklərə məruz qalmışdı. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət materiallar toplanıb. Tarixi mənbələrdən aydın olur ki, Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu, 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq – Cümə məscidi yandırılmışdı. Erməni quldurları minlərlə dinc adamı qətlə yetirmişdi. Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetirmişdilər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,8 milyon manat olmuşdur. Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. S.Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi ki, Azərbaycan müstəqil dövlət kimi mövcud olmasın. Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişlər. Ermənilərin vəhşilikləri nəticəsində 1918-ci ilin ilk 5 ayı ərzində üst-üstə 16 mindən çox insan məhv edilmişdir. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyil.

Azərbaycanlılara qarşı törədilən soyqırımı və etnik təmizləmə siyasətinə, torpaqlarımızın məqsədyönlü şəkildə işğal edilməsi kimi qanunsuz hərəkətlərə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.Hacınski 1918-ci il iyulun 15-də Azərbaycan hökumətinə müraciət edərək Azərbaycan ərazisinin 4 ay ərzində özlərini bolşevik adlandıran erməni silahlı hissələri tərəfindən parçalandığını, müsəlman əhalisinin həyat və əmlakları üzərində ağlasığmaz vəhşiliklər törədildiyini, eyni zamanda, həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yalan məlumatlara əsasən respublikamız haqqında Avropada tamamilə əks ictimai rəyin formalaşdırıldığını göstərmiş, həm ümumdövlət, həm də zərərçəkən əhalinin maraqlarının müdafiəsi, bütün zorakı hadisələrin qeydə alınması, onların başvermə şəraitinin, təqsirli şəxslərin və dəymiş ziyanın məbləğinin müəyyənləşdirilməsi üçün xüsusi qurumun yaradılmasını, komissiyanın işi barədə məlumatların əsas Avropa dilləri olan rus, fransız, alman və türk dillərində geniş yayılmasını təklif etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər nazirinin müavini F.Xoyskinin 1918-ci il 31 avqust tarixli qərarına əsasən, Ələkbər bəy Xasməmmədovun rəhbərliyi altında Gəncə Dairə Məhkəməsinin üzvləri İsmayıl bəy Şamxəliyev və Andrey Fomiç Novatski, həmin məhkəmənin

prokuroru Nəsrəddin bəy Səfikürdski, Nikolay Mixayloviç Mixaylov, V.Qudvillo və Mirzə Cavad Axundzadədən ibarət Fövqəladə İstintaq Komissiyası yaradılmışdır.

Komissiya il yarım ərzində – 1918-ci ilin avqustundan 1919-cu ilin noyabrınadək erməni millətçiləri tərəfindən türk-müsəlman əhalinin kütləvi surətdə məhv edilməsini və ona külli miqdarda maddi ziyan vurulmasını əks etdirən böyük həcmdə kompleks materialların toplanmasına müvəffəq oldu. FHK tərəfindən toplanmış istintaq materialları 36 cild və 3500 vərəq təşkil etməklə Bakı, Şamaxı, Quba, Nuxa şəhərlərində, Bakı və Gəncənin ətraf ərazilərində, habelə Şamaxı, Quba, Cavad, Nuxa, Göyçay, Ərəş, Lənkəran qəzalarında, Qarabağda, Zəngəzurda və Azərbaycanın digər rayonlarında ermənilərin törətdiyi dəhşətli cinayətləri sübut edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış istintaq komissiyasının hesabatında bu hadisələr zamanı ölənlərin sayının 20 mindən çox olduğu bildirilir. Lakin Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatdırılmasına imkan verməmişdir.

Paris Sülh Konfransına yollanan Azərbaycan nümayəndə heyəti Avropa dillərinə tərcümə edilmiş həmin materiallardan ibarət 6 cild və 95 fotoşəklin surətlərini böyük dövlətlərin başçılarına və beynəlxalq təşkilatlara təqdim etmişdi. 1919-cu ilin mayında Parisdəki Azərbaycan nümayəndə heyətinin sərəncamına əsasən komissiya tərəfindən hazırlanmış əlavə material, 95 fotoşəkil və 80-nə yaxın diapozitiv göndərilmişdi. Həmin kolleksiyadan olan və uzun müddət biryolluq itmiş hesab edilən bu ifşaedici fotolar yalnız 2011-ci ildə Amerikada tapılmış və hazırda əsilləri Avropanın məşhur Beynəlxalq Sosial Tarix İnstitunun arxivində saxlanmaqdadır.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci ildə yaratdığı Fövqəladə İstintaq Komissiyası tərəfindən ermənilərin həmin ilin aprel-may aylarında Quba qəzasında dinc müsəlman əhalisini kütləvi şəkildə qətlə yetirməsi, bütöv kəndləri, yaşayış evlərini, məscidləri və ictimai binaları yandırması, qız və qadınların kütləvi şəkildə zorlanması və digər zorakı cinayətlər törədilməsi faktları üzrə istintaq aparılmış, cinayət törətmiş şəxslərin o dövrün “Uqolovnoe Ulojenie” adlandırılan Cinayət Qanununun müxtəlif maddələri ilə ittiham olunmaları barədə qərar qəbul edilmişdir.

Azərbaycan xalqına qarşı erməni millətçiləri tərəfindən yeridilən soyqırımı siyasətinin bariz nümunəsi kimi onların Quba qəzasında törətdikləri və öz amansızlığı ilə seçilən cinayətlər barədə yeni faktların aşkara çıxarılmasının tarixi əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Belə ki, 2007-ci il aprelin 5-də Quba şəhər stadionunda aparılan tikinti və yenidənqurma işləri zamanı ərazidə içərisində çoxsaylı müxtəlif yaş və cins qruplarına məxsus skeletlərdən ibarət kütləvi insan məzarlığı aşkar edilmişdir.

Quba şəhərində kütləvi insan məzarlığının aşkar edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunda müvafiq araşdırmalar aparılmışdır. Prokurorluğun araşdırmaları zamanı Siyəzən, Şabran, Quba, Xaçmaz və Qusar rayonlarının bir çox sakinlərinin, o cümlədən göstərilən hadisələrin bilavasitə şahidlərinin izahatlarında 1918-ci ilin mart və aprel aylarında erməni millətçiləri tərəfindən Azərbaycan kəndlərinin talan edilərək yandırılması, azərbaycanlıların işgəncə verilərək öldürülməsi və digər ağır cinayətlər törədilməsi bir daha öz təsdiqini tapmışdır.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra da bədnam qonşularımız adət etdikləri çirkin metodlarla azərbaycanlıları daimi yaşadıqları ərazilərdən çıxarmış, eləcə də qonşu respublikaların torpaqları hesabına “ərazilərini” böyütmüşlər. 1920-ci ildə Zəngəzuru və Azərbaycan torpaqlarının bir hissəsini Ermənistan SSR-in ərazisi elan etmişlər. 1923-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ “muxtar vilayət” elan edilmişdir. Sonrakı dövrdə isə ermənilər bu ərazilərdəki azərbaycanlıların deportasiyası siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atmışlar. Onlar 1943-cü ildə Tehranda keçirilən konfransda İranda yaşayan ermənilərin sovetlər birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri V.Molotova müraciət ünvanlamışlar. İosif Stalinin buna razılıq verməsi isə faktiki olaraq azərbaycanlıların 1948-53-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiyasının əsasını qoymuşdur.

Stalin tərəfindən imzalanmış SSRİ Nazirlər Sovetinin “Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” 23 dekabr 1947-ci il tarixli 4083 saylı və köçürülmənin tədbirlər planı haqqında 10 mart 1948-ci il tarixli qərarları ilə bu məsələ artıq SSRİ-nin dövlət siyasəti səviyyəsinə çatdırılmış, yüz minlərlə azərbaycanlının Ermənistandan deportasiyası

Ermənistan ərazisindəki azərbaycanlıların qədim məskənləri olan dədə-baba torpaqlarının boşaldılması üçün nəzərdə tutulmuşdur. SSRİ Nazirlər Sovetinin bu qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar.

Erməni millətçiləri ötən əsrin 50-ci illərindən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasını daha da genişləndirmişlər. Ermənistanda yaşayan azərbaycanlı əhalinin hüquqları ermənilər tərəfindən kobudcasına pozulmuş, ana dilində təhsil almalarına əngəllər törədilmiş, onlara qarşı repressiyalar həyata keçirilmişdir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilmiş, tarixdə misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş vermişdir. Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.

1988-ci ildə keçmiş SSRİ rəhbərliyinin ermənipərəst siyasətindən istifadə edən davakar erməni millətçiləri Ermənistan ərazisində etnik təmizləməni başa çatdırmaq niyyəti ilə azərbaycanlıların yaşadıqları rayon və kəndlərə basqınlar etməyə, onları doğma torpaqlarından qovaraq "türksüz Ermənistan" siyasətini planlı şəkildə həyata keçirməyə başlamışlar. Ermənistan hökuməti, bədnam "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətmişlər. Etnik təmizləmə nəticəsində Ermənistanın 185 yaşayış məntəqəsi boşaldılmış, 250 mindən artıq azərbaycanlı, 18 min müsəlman-kürd ev-eşiyindən zorla qovulmuşdur. Minlərlə şəxs qəddarlıqla döyülüb işgəncə verilməklə qətlə yetirilmiş, qaçıb canlarını qurtarmağa çalışan yüzlərlə soydaşımız güllələnmiş, yandırılmış, əzab və işgəncələrə dözməyərək ölmüşdür. Digər bir qismi isə suda boğulmaqla, asılmaqla, elektrik cərəyanına verilməklə, başları kəsilməklə qətlə yetirilmişlər.

Ermənistan ərazisinin azərbaycanlılardan təmizlənməsini başa çatdırdıqdan sonra Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana ilhaq etmək üçün 1988-ci ildən başlayaraq Ermənistanın silahlı qüvvələri və Dağlıq Qarabağdakı qanunsuz erməni silahlı birləşmələri ilə birlikdə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində azərbaycanlılara aid yaşayış məntəqələrini işğal etmək məqsədilə fəal döyüş əməliyyatlarına başlamışlar.

Etnik təmizləmə məqsədilə aparılan əməliyyatların xronoloji ardıcıllığına diqqət yetirək:

- 1988-ci ilin fevral-mart aylarında Əsgəranda, Zəngibasarda, Vedibasarda, o cümlədən Mehmandar, Şirazlı, Xamisə, Sidli kəndlərində azğınlaşmış erməni yaraqlıları tərəfindən azərbaycanlıların vəhşicəsinə qətlə yetirilməsi və 100-dən artıq evin qarət edilib yandırılması;
- 1990-ci ilin mart ayının 23-dən 24-nə keçən gecə Qazax rayonunun Bağanis-Ayrım kəndinin dağıdılması, bir ailənin diri-diri ocaqda yandırılması;
- 1988-1991-ci illərdə Xankəndi şəhərinin Kərkicahan qəsəbə sakini Georgi Sarkisyanın ermənilərdən ibarət mütəşəkkil cinayətkar qruplar yaradaraq azərbaycanlıların evlərinə mütəmadi silahlı basqınlar etməsi;
- 22 dekabr 1991-ci il tarixdə erməni silahlı dəstələrinin Əsgəran rayonunun azərbaycanlılar yaşayan Meşəli kəndinə silahlı basqın edərək 25 nəfər dinc sakini qətlə yetirməsi, 40-dan artıq yaşayış evlərini yandırıb, kənd sakinlərinin əmlaklarını və mal-qarasını talan etməsi;
- 10-11 fevral 1992-ci il tarixdə erməni silahlılarının Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərini top, raket, pulemyot silahlarından, zirehli texnikalardan atəşə tutmaları nəticəsində 15 nəfərin öldürülməsi;
- 15-17 fevral 1992-ci il tarixlərində Xocavənd rayonunun Qaradağlı kəndinin əsir götürülmüş 116 nəfər silahsız dinc əhalisinin 67 nəfərinin erməni təcavüzkarları tərəfindən amansızlıqla qətlə yetirilməsi və digər dəhşətli cinayətlərə prinsipial siyasi və hüquqi qiymətin verilməməsi, preventiv tədbirlərin görülməməsi Xocalı soyqırımına zəmin yaratmış oldu.

25 fevral 1992-ci ildə isə erməni silahlı dəstələri sovet ordusunun 366-cı motoatıcı alayının komandir heyəti ilə birlikdə Xocalı şəhərinə hücum edərək dinc əhalini kütləvi surətdə, xüsusi amansızlıqla və işgəncə verməklə öldürmüş, külli miqdarda dövlət əmlakını, xüsusi mülkiyyətdə olmuş əmlakı məhv etmiş, çoxsaylı dinc əhaliyə divan tutaraq onları girov götürmüşdür.

Ermənistanın apardığı təcavüzkar müharibə və törədilən zorakılıq nəticəsində 10 minlərlə Azərbaycan vətəndaşı şəhid olmuş, 50 mindən artıq həmvətənimiz yaralanmış və əlil olmuş, 900 yaşayış məntəqəsi, 100 min yaşayış binası, 600-dən artıq təhsil və 250 tibb müəssisəsi, yüzlərlə sənaye, kənd təsərrüfatı müəssisələri, zavod, fabrik dağıdılmış, respublika ərazisinin 20 faizini təşkil edən 17 min kvadrat kilometrdən artığı işğal olunmuş və 1 milyona qədər azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində ermənilərin törətdikləri ağır cinayət faktları ilə bağlı prokurorluq və digər hüquq-mühafizə orqanları 1988-ci ildən erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində, həmçinin Ermənistanda saxlanılan azərbaycanlı əsir və girovlara dözülməz işgəncələr verilməsi, onların bir qisminin öldürülməsi, şikəst edilməsi, təxribat və terror aktlarının törədilməsi, əhalinin məcburi köçürülməsi, yaşayış məntəqələrində maddi sərvətlərin, tarixi mədəniyyət abidələrinin dağıdılması, habelə ermənilərin törətdikləri digər ağır cinayət faktları ilə əlaqədar ayrı-ayrı cinayət işləri başlayaraq istintaq aparmışlar. Xalqımıza qarşı törədilmiş bu ağır cinayətlərin istintaqı və onlara hüquqi qiymətin verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş təqsirkar şəxslərin müəyyənləşdirilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb olunması, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə 18 dekabr 2003-cü il tarixdə Azərbaycan Respublikasının Baş prokurorunun, daxili işlər və milli təhlükəsizlik nazirlərinin əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmışdır. Qeyd edilən cinayətlər üzrə müxtəlif vaxtlarda icraatı dayandırılmış cinayət işləri üzrə icraat təzələnməklə, istintaq aparılması həmin qrupa həvalə edilmişdir. Respublika Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralovun 2005-ci il 5 may tarixli qərarına əsasən cinayət işinə prosessual rəhbərliyin həyata keçirilməsi respublika hərbi prokuroruna həvalə edilmişdir.

Həmin cinayət işlərinin Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüquq pozmalarına və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Cinayət Prosessual Məcəlləsinin tələblərinə uyğun həyata keçirilməsini, işlərin hərtərəfli, tam və obyektiv aparılmasını, səmərəliliyini, operativliyini təmin etmək məqsədi ilə həm icraatdakı, həm də istintaqı dayandırılmış cinayət işləri tərəfimizdən yenidən hərtərəfli və diqqətlə öyrənilmiş, törədilmiş cinayətlərin miqyası, xarakteri və spesifik cəhətləri nəzərə alınmaqla vahid istintaq-əməliyyat planı hazırlanaraq təsdiq edilmişdir. Həmin planda cinayət işinə birləşdirilmiş hər bir iş üzrə araşdırılmalı xüsusatlar, həyata keçirilməli istintaq hərəkətlərinin tarixi ayrı-ayrı bəndlərdə öz əksini tapmışdır. Cinayət təqibi üzrə toplanmış materialların həcminin böyüklüyü, şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxslərin, həmçinin araşdırılmalı olan xüsusatların sayının çoxluğu, eyni zamanda həmin cinayətlərin törədilmə üsul və vasitələri, xarakteri nəzərə alınaraq işin aşağıdakı 4 istiqamət üzrə istintaq edilməsi müəyyənləşdirilmişdir.

1. Ermənistanın silahlı birləşmələri, Dağlıq Qarabağdakı qanunsuz erməni silahlı dəstələri və SSRİ (MDB)-nin 366-cı alayının azərbaycanlılara qarşı törətdikləri soyqırımı;

2. Yenə yuxarıdakı subyektlər tərəfindən əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı işgəncələr verilməsi;

3. Ermənistan Respublikasının xüsusi xidmət orqanları tərəfindən Azərbaycan Respublikası və vətəndaşlarına qarşı terrorçuluğun maliyyələşdirilməsi, təşkili və həyata keçirilməsi;

4. Birinci bənddəki subyektlər tərfindən Azərbaycan Respublikası və vətəndaşlara vurulmuş ziyanın müəyyənləşdirilməsi ;

Qanunsuz erməni silahlı birləşmələri tərəfindən Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərdə törədilən cinayət əməlləri 1 oktyabr 2000-ci il tarixdə qüvvəyə minmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16-cı fəslində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlərə aid edilmişdir. Cinayət işinin istintaqı hərbi prokurorluq orqanlarında son dövrlərdə keçirilən islahatlardan sonra daha da sürətlənmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”na müvafiq olaraq Azərbaycan Respublikası Hərbi Prokurorluğunda Xüsusi istintaq şöbəsi yaradılmış, qeyd olunan cinayət işinin istintaqı həmin şöbəyə həvalə edilmişdir. Cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik Respublika Hərbi Prokurorluğuna həvalə edildiyi vaxtdan hal-hazıradək 15000-ə yaxın istintaq hərəkəti aparılmış, o cümlədən 9000-ə yaxın şəxs şahid və zərərçəkmiş qismində

dindirilmiş, 3000-dən artıq şəxs zərərçəkmiş şəxs, 200-ə yaxın şəxs zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınmış, 900-dən artıq məhkəmə-tibbi, kompleks məhkəmə-əmtəəşünaslıq və mühasibatlıq və digər ekspertizalar təyin edilərək müvafiq rəylər alınmış, ayrı-ayrı istintaq hərəkətlərinin başqa ərazidə aparılmasına dair 400-dən artıq qərar qəbul edilmiş, 500-ə yaxın baxış, götürmə, maddi sübut kimi tanıma ilə əlaqədar istintaq hərəkətləri keçirilmiş, müxtəlif təşkilatlara 2000-ə yaxın sorğu göndərilmişdir.

Cinayət işi üzrə hal-hazıradək sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətdiyi müəyyən olunmuş 248 nəfər, onlardan Xocalı soyqırımı üzrə 39 nəfər, Qaradağlı soyqırımı üzrə 12 nəfər, Bağanıs-Ayrım soyqırımı üzrə 18 nəfər, Meşəli soyqırımı üzrə 9 nəfər, Kərgicahan soyqırımı üzrə 47 nəfər, işgəncə faktları üzrə 35 nəfər, terrorçuluq faktı üzrə 3 nəfər, digər epizodlar üzrə 85 nəfər, habelə ümumi cinayətlər kateqoriyasına aid banditizm, qəsdən adam öldürmə, qanunsuz silah saxlama, cinayət barədə məlumat verməmə və s. cinayətlər törətmiş 48 nəfər, yəni, cəmi: 296 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı çıxarılmış, məhkəmə qərarına əsasən barələrində həbs-qətiimkan tədbiri seçilmiş və axtarışları ilə əlaqədar müvafiq sənədlərin aidiyyəti orqanlara göndərilməsi təmin edilmişdir.

1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırımı olmuşdur. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biridir. Xocalı faciəsi tarixdə bizə məlum olan Babi Yar, Xatın, Liditse, Sonqmı, Srebrenitsa faciələri ilə eyni səviyyədə durur. Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir.

Konkret olaraq Xocalı şəhərində törədilən soyqırımı cinayəti ilə əlaqədar mühüm faktlar müəyyən olunub.

İstintaqla müəyyən edilmişdir ki, 25 fevral 1992-ci il tarixdə, saat 22 radələrində Ermənistandan Azərbaycan Respublikası ərazisinə qanunsuz keçirilmiş silahlı qüvvələr, habelə Dağlıq Qarabağın millətçi ermənilərindən təşkil olunmuş qanunsuz silahlı birləşmələri MDB-nin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçmişlər. Hücumda 366-cı alayın komandiri Zarviqorov Yuri Yureviç və mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında alayın 2-ci batalyonu, Nabokix Yevgeni Aleksandroviçin komandanlığı altında 3-cü batalyonu, həmçinin 1-ci batalyonun qərargah rəisi Çitçiyan Valeriy İsaakoviç, habelə alayda xidmət edən 50-dən çox erməni və digər millətlərdən olan zabit və gizirlər iştirak etmişlər. Hücum zamanı 90-dan çox tank, piyadaların döyüş maşını, top, D-30 qaubitsası və digər müasir hərbi texnikadan istifadə olunmuşdur. Hücumdan əvvəl şəhər şiddətli artilleriya atəşinə tutulmuş, sonra çoxsaylı ağır tanklar, PDM və zirehli transportyorlar şəhərə daxil olmuş, dinc əhali xüsusi amansızlıqla qətlə yetirilmişdir. Bu zaman azğınlaşmış erməni quldurları mülki əhaliyə, o cümlədən qadınlara, uşaqlara, qocalara aman vermədən müxtəlif çaplı odlu silahlardan atəş açmış, tank, PDM və digər texnikanın altında əzməklə qətlə yetirmişlər. İstintaqla müəyyən olunmuşdur ki, qanunsuz erməni silahlı qüvvələri mühasirədən çıxıb qaçmağa cəhd edən qoca, qadın və uşaqları milli mənsubiyyətlərinə görə yollarda, yəni Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə amansızlıqla qətlə yetirmişlər. Əsir götürülənlərdən 18 nəfəri Əsgəran rayon daxili işlər şöbəsində işgəncə verilməklə öldürülmüşdür. Hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədilmiş, dözülməz işgəncələr verilmiş, insanların başlarının dərisi soyulmuş, müxtəlif əzaları kəsilmiş, gözləri çıxarılmışdır. Qadınların qarınları yarılmış, adamlar diri-diri torpağa basdırılmış və ya yandırılmış, meyitlər zorakılığa məruz qalmışdır. Xocalıda mülki əhalinin düşünülmüş şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də budur ki, həmin gün əhalinin qaçıb qurtarmaq istəyən xeyli hissəsi ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqulardakı qatillər tərəfindən güllələnmişlər.

Müəyyən olunmuşdur ki, Xocalı şəhərinin 5379 nəfər sakini deportasiyaya məruz qalmış, 613 nəfər, o cümlədən 63 nəfər azyaşlı uşaq, 106 nəfər qadın vəhşicəsinə qətlə yetirilmiş, 8 ailə bütünlüklə məhv edilmiş, 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, 1275 nəfər əsir və girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Hazırda Xocalı soyqırımı epizodu üzrə 4000 nəfərə qədər şəxs şahid və zərərçəkmiş şəxs qismində dindirilmiş, 2300 nəfərə yaxın şəxs zərərçəkmiş şəxs qismində tanınmış, 800-dən artıq müxtəlif ekspertizalar keçirilmişdir. Xocalı şəhərinin işğalı ilə əlaqədar dövlət mülkiyyətinə və vətəndaşların xüsusi mülkiyyətinə

dəymiş maddi ziyan müəyyən olunmuş, əşyaların maddi sübut kimi tanınması təmin edilmiş, habelə baxış, götürmə və s. zəruri istintaq hərəkətləri aparılmışdır. Nəticədə 39 nəfərin (onlardan 18 nəfər 366-cı alayın hərbi qulluqçuları, 8 nəfər Xankəndi və Əskəran Daxili İşlər Şöbəsinin əməkdaşları, 5 nəfər digər vəzifəli şəxslərdir) və 8 nəfər mülki vətəndaşın Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmişdir.

İstintaqla müəyyən edilmişdir ki, erməni silahlı qüvvələrinin və Dağlıq Qarabağın silahlı separatçılarının keçmiş SSRİ-nin Xankəndidə dislokasiya olunmuş 366-cı alayının hərbçiləri ilə birlikdə törətdikləri bu əməldə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında" 1948-ci il 9 dekabr tarixli konvensiyasında və Azərbaycan Respublikası CM-in 103-cü maddəsində nəzərdə tutulmuş soyqırımı cinayətinin tərkibi vardır. Həmçinin cinayət işi öyrənilərkən müəyyən edilmişdir ki, Xocalı soyqırımını həyata keçirən Dağlıq Qarabağdakı silahlı separatçı birləşmələr və MDB-nin Xankəndidə yerləşən 366-cı alayının hərbçiləri tərəfindən dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquq normalarına da riayət edilməmiş, 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyalarının müvafiq maddələrində nəzərdə tutulan – döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərə qarşı onların həyatına və şəxsiyyətinə qəsd etmək, o cümlədən hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və işgəncə vermək, girov götürmək, insan ləyaqətinə toxunmaq, o cümlədən təhqiramiz və alçaldıcı tərzdə rəftar edilməsi kimi qadağan olunmuş tələblər kobud surətdə pozulmuşdur. 366-cı alayın hərbi qulluqçularının və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmiş və onların Azərbaycan Respublikası CM-in soyqırımına görə məsuliyyət nəzərdə tutan 103-cü maddəsi, habelə sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan CM-in 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (işgəncə), 115.4-cü (müharibə qanunlarını və adətlərini pozma), 116.0.17-ci (zorlama, cinsi köləlik, məcburi fahişəlik, məcburi sterilizasiya, məcburi hamiləlik, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmə) maddələri ilə nəzərdə tutulan cinayəti etməkdə təqsirləndirilən şəxs kimi cəlb olunmaları barədə qərarlar çıxarılmış, barələrində məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilmiş və beynəlxalq axtarışlarının həyata keçirilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikası Milli Bürosuna göndərilmişdir.

XX əsrin qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmiş Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz və insanlığa qarşı törətdikləri cinayətlərə görə onların məhkəmə məsuliyyətinə alınacaqları qaçılmazdır.

Tarixi ədalətsizlik üzündən ötən əsrin sonlarınadək xalqımızın üzləşdiyi soyqırımı faktlarına obyektiv qiymət vermək mümkün olmamışdır. Nəinki Azərbaycan xalqı, eləcə də dünya ictimaiyyəti uzun illər bu gerçəkliklərdən məlumatsız qalmış, saxta ideoloji ehkamlar və uydurma tarixi hadisələr nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Bədnam erməni millətçilərinin tarixi saxtalaşdırmağa, dünya ictimaiyyətini çaşdırmağa yönəlmiş saxta kampaniyasına qarşı mütəşəkkil müqavimət yalnız ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

Ümummilli lider Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı ilə həmvətənlərimizin Qərbi Azərbaycandakı dədə-baba yurdlarından zorla köçürülməsində Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılmışdır.

Bundan bir müddət sonra 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun, obyektiv və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Ulu öndər Heydər Əliyev fərmanda 1918-ci ilin mart hadisələrini geniş şərh etmiş, bolşevik cildinə girmiş erməni daşnaklarının Azərbaycan xalqının başına gətirdiyi müsibətləri dünyaya bəyan edərək bu qanlı əməllərə düzgün siyasi qiymət vermiş və onu Azərbaycan xalqına qarşı törədilən ən böyük faciə adlandırmışdır. Ulu öndərin erməni məkrini tarixi faktların dili ilə ifşa etdiyi fərmanı Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da bir növ proqram sənədidir. Fərmanda deyilir: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin

Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. Birinci Dünya müharibəsindən, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə adı altında Bakı Kommunası Bakı quberniyasını azərbaycanlılardan təmizləmək niyyəti güdən mənfur plan həyata keçirməyə başladı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi əks olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir".

Azərbaycan tarixində ilk dəfə olaraq ulu öndər Heydər Əliyevin erməni məkrini tarixi faktların dili ilə ifşa etdiyi fərmanında ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə də toxunulur, onların mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti açılır, ölkəmizin hansı tarixi ədalətsizliklərlə üzləşdiyi yeni nəsillərə çatdırılır, xalqımızın qarşılaşdığı müsibətlərin tarixinə siyasi və çağdaş aspektlərinə nəzər salınır. Bu fərman həm də uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətləri açır, xalqımızın qan yaddaşını təzələyir. Ümummilli lider Heydər Əliyevin imzaladığı fərman 200 illik işğal və soyqırımı siyasətini açıb göstərən tarixi sənəd olmaqla yanaşı, xalqımızın öz milli-mənəvi dəyərlərinə, tarixi köklərinə, torpağına və vətəninə bağlılığı baxımından da əhəmiyyətlidir.

Azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənədlə martın 31-i Azərbaycanlıların soyqırımı günü elan edilib. Hər il martın 31-ni azərbaycanlıların soyqırımı günü kimi qeyd etməklə biz bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən hadisələri ürək ağrısı ilə yad edirik. Amma ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı, deportasiya və işğal siyasətinin intensivliyi bu gün də zəifləməmiş, bədnam qonşularımız təbliğat və qarayaxma kampaniyasını hətta bir az da gücləndirmişlər. Ermənilər Avropa və Amerikadakı lobbi imkanlarından yararlanaraq "əzabkeş erməni milləti" obrazını yaratmaqda davam edir, beynəlxalq hüquq normalarına meydan oxuyur, bütün yolverilməz vasitələrdən istifadə edərək, əsl soyqırımı haqqında həqiqətləri təhrif etməyə, dünya ictimaiyyətini Azərbaycan torpaqlarının işğalı faktı ilə barışdırmağa çalışırlar.

Bu cür məkrli niyyətlərə baxmayaraq, xüsusən son illərdə erməni yalanlarının dünyada ifşa olunması istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi fəaliyyət daha da güclənmiş, ermənilərə qarşı ideoloji əks-hücum effektiv xarakter almışdır. Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət Prezident İlham Əliyev tərəfindən prinsipiallıqla davam etdirilir. Dövlət başçısı xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün mötəbər tribunalardan istifadə edir. Bunun nəticəsidir ki, Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası təcavüzkar Ermənistanı çıxılmaz vəziyyətdə qoymuşdur. Prezident İlham Əliyev bütün görüşlərində, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən erməniləri ifşa etmiş, soyqırımı cinayəti törədənləri və ona göz yumanları kəskin tənqid etmiş, dünya ictimaiyyətini erməni riyakarlığına son qoymağa çağırmışdır.

Qarşımızda duran əsas vəzifələr xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaqdır. Vaxt gələcək dünya birliyi ermənilərin bəşəriyyət üçün həm ləkə, həm də təhlükəli olduğu gerçəkliyi qəbul edəcək və Azərbaycan xalqına qarşı tarixən törədilən cinayətlərə və soyqırımına obyektiv qiymət verəcəkdir.

Son illərdə Azərbaycan həqiqətlərinin dünyada yayılması istiqamətində görülən işlərin miqyası daha da artmaqdadır. Bu məsələdə Azərbaycan dövləti ilə yanaşı Heydər Əliyev Fondu da çox mühüm və tarixi işlər görür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi fond istər ölkədən kənarda, istərsə də respublikamızda bu istiqamətdə çox vacib layihələr reallaşdırır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dünya boyu gerçəkləşdirdiyi "Xocalıya ədalət!" kampaniyası bu gün Xocalı hadisələri barəsində dünya ictimaiyyətini məlumatlandırmaq və beynəlxalq-hüquqi tanınmasına nail olmaq məqsədilə Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika ölkələri tərəfindən Xocalı soyqırımının tanınmasına xidmət edir. Beynəlxalq təşkilatlar və 50-dən artıq müxtəlif ölkələrin parlamentlərində Xocalı

soyqırımı ilə bağlı sənədlərin qəbuluna nail olunması Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan İslam Respublikası, Bosniya və Herseqovina, Rumıniya, Çexiya və İordaniya parlamentlərinin Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıdılmasına imkan vermişdir. ABŞ-nın Massaçusets, Texas, Nyu-Cersi, Corciya, Men, Nyu-Meksiko, Arkanzas, Missisipi, Oklahoma, Tennessi, Pensilvaniya, West Virginia, Konnektikut Florida kimi ştatları Xocalı soyqırımını rəsmən tanımış və böyük zəhmət tələb edən bu şərəfli iş nəticəsində ölkələrin sayı artmışdır.

XX əsrin əvvəllərində erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində xalqımıza qarşı soyqırımı törətmişlər. Erməni millətçilərinin xüsusi amansızlıqla və qəddarlıqla törətdikləri kütləvi qırğınların, bəşəriyyət və sülh əleyhinə cinayətlərin tarixin yaddaşına həkk olunması, bütövlükdə Qarabağ hadisələri ilə bağlı obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və ətraflı məlumatların verilməsi məqsədi ilə Respublika Hərbi Prokurorluğunun inzibati binasında Memorial Soyqırımı Muzeyinin yaradılması ilə bağlı Respublika Hərbi Prokurorluğunun təşəbbüsü bəyənilərək bu barədə 2013-cü il iyulun 19-da Baş Prokuror Zakir Qaralov tərəfindən əmr imzalanmışdır. Həmin əmrin icrası ilə əlaqədar Respublika Hərbi Prokurorunun müvafiq sərəncamına əsasən işçi qrupu təşkil edilmişdir. İşçi qrupu tərəfindən qısa müddətdə toplanmış zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında Memorial Soyqırımı Muzeyi yaradılmışdır. Muzey XX əsrin əvvəllərindən bəri bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə həsr edilmişdir.

Yeri gəlmişkən Respublika Hərbi Prokurorluğunda Memorial Soyqırımı Muzeyinin yaradılmasında böyük əməyi olan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Milli Məclisin deputatı Rafael Hüseynova, Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları Azadə Hüseynovaya və Aidə Axundovaya, eləcə də Müdafiə Nazirliyinin hərbi qulluqçuları Bəkir Məmmədova və Yusif Allahverdiyevə bir daha minnətdarlığımızı bildiririk.

Cari il fevralın 24-də Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında Memorial Soyqırımı Muzeyinin açılışı olmuşdur.

Muzey 4 bölmədən – tarix, deportasiya-repressiya, soyqırımı və terror bölməsindən ibarət olmaqla 320 kvadratmetr sahədə yerləşmişdir.

Muzey xalqımıza qarşı törədilmiş soyqırımı, deportasiya, hərbi cinayətlər barədə xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin ədəbiyyat fondu ilə təchiz olunmuşdur. Bütün bölmələrdə məlumat mərkəzi quraşdırılmışdır.

Muzeyin tarix və deportasiya-repressiya bölmələrində XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif ərazilərinin dağıdılıb viranə qoyulmuş görüntüləri, əhalinin həyat tərzi haqqında fotolar vardır. Muzeydə quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı ölkəmizin müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür. Burada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinin ifşa olunaraq dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördükləri işlərin və imzaladıqları sərəncamların nümayiş etdirildiyi guşə də yaradılmışdır. Həmçinin muzeydə Quba, Cavad, Göyçay, Şamaxı və Bakı qəzaları barədə və bu qəzalarda ermənilərin törətdikləri vəhşiliklər haqqında dolğun məlumatlar vardır. Bu guşələrdə həm də qəzaların əhalisi, müdafiəçiləri, müsəlman qırğınları üzrə Fövqəladə Təhqiqat Komissiyasının məlumatları, sənədləri, Rusiya imperiyası və İran dövləti arasında bağlanmış və Azərbaycanı ikiyə bölən Gülüstan və Türkmənçay müqavilələri, “Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasətinin deportasiya və sürgün mərhələsi” kompozisiyası, 1930-cu illərdə repressiya qurbanı olmuş Azərbaycan ziyalıları və görkəmli şəxsiyyətləri haqqında cinayət işlərindən götürülmüş fraqmentlər, azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından son deportasiyasını əks etdirən fotoşəkillər nümayiş etdirilir.

Muzeyin soyqırımı və terror bölmələrində erməni silahlı birləşmələri və MDB-nin 366-cı alayının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə birgə hücumunu əks etdirən maket və fotolar, habelə digər eksponatlar yerləşdirilmişdir.

Həmin bölmədə 1992-ci il fevralın 26-da Xocalını və ətraf əraziləri özündə əks etdirən 1:7500 miqyasında maket qurulmuşdur. Respublika Hərbi Prokurorluğu tərəfindən aparılmış ibtidai istintaq

materiallarına uyğun olaraq hücum zamanı erməni silahlı birləşmələri və 366-cı alayın bölmələrinin yerləşdiyi ərazilər və onlar tərəfindən xüsusi amansızlıqla kütləvi qətlə yetirilmiş dinc əhalinin meyitlərinin olduğu yerlər də maketdə öz əksini tapmışdır.

Burada həmçinin aparılan cinayət işinin cildləri, hadisə yerinə baxış protokolları, erməni təcavüzkarlarının törətdikləri vəhşilikləri sübut edən əşyalar, ekspert rəyləri, ifadələr, meyitlərin fotoşəkilləri və eləcə də Xocalıda, Meşəlidə, Qaradağlıda və digər yaşayış məntəqələrində cinayətin izlərini özündə əks etdirən əşyalar yer almışdır. Həmin əşyalar sırasında Meşəlidə bütünlüklə qətlə yetirilmiş Novruzovlar ailəsinə məxsus fotoşəkillər, əşyalar, üst geyim paltarları, yarımçıq qalmış toxuma da vardır. Erməni terrorçularının istifadə etdikləri partladıcı qurğuların, güllə başlıqlarının hadisə yerindən götürülmüş nümunələri də muzeydə saxlanılır.

Respublika Hərbi Prokurorluğunda yaradılmış bu muzey Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət edən qanlı bir tarixi hadisəni özündə əks etdirən nümunədir. Müstəqilliyimizin bizə bəxş etdiyi töhfələrdən biri də tarixi həqiqətləri obyektiv şəkildə araşdırmaq, bu faktları gələcək nəsillərə olduğu kimi çatdırmaq və əcnəbiləri məlumatlandırmaqdan ibarətdir.

Muzeyə giriş həftənin bütün günlərində sərbəstdir. Bu günə kimi ayrı-ayrı vətəndaşlar, Müdafiə Nazirliyinin C.Naxçıvanski adına və Dövlət Sərhəd Xidmətinin hərbi liseylərinin müdavimləri və başqaları kollektiv şəkildə muzeyi ziyarət etməklə, burada yaradılmış ekspozisiyalarla və tarixi faktları özündə əks etdirən sənədlərlə yaxından tanış olmuşlar.

Ölkəmizə qarşı təcavüz siyasətinin tarixini, deportasiya, repressiya, soyqırımı və terrroru işıqlandıran, xalqımızın başına gətirilmiş dəhşətləri əks etdirən Memorial Soyqırımı muzeyi, Xocalı Abidə Kompleksi, Quba Soyqırımı Memorial Kompleksi yaşanan faciəli tarix, şəhidlərin ruhu, insanlıq və ədalət naminə yaşından asılı olmayaraq hər birimizi mübarizəyə səsləyir.

Əvvəl “Şərq məsələsi”, ondan sonra “erməni vilayəti”, sonra “erməni məsələsi”, daha sonra “Qarabağ problemi” ilə dünya ictimaiyyətini aldadan erməni millətçiləri gec-tez tarix qarşısında cavab verməli olacaqlar, ona görə ki, dünyanın özü tarixi həqiqətlərdən və canlı tarixin özündən ibrət dərsi götürməli, tarixi həqiqətləri bilməli, türk və Azərbaycan xalqlarının başına gətirilən bütün müsibətləri və soyqırımları anlamalı və obyektiv nəticələr çıxarmaq naminə erməni millətçi-şovinistlərini lənətləməlidir.

**Xanlar VƏLİYEV,**
**Azərbaycan Respublikası Baş prokurorunun müavini,**
**Azərbaycan Respublikasının hərbi prokuroru,**
**ədliyyə general-leytenantı**

**“Azərbaycan”.-**2014.-28 mart.-N 60.-S.6.; 30 mart.-N 62.-S.3.

# İnsanlığa qarşı amansız cinayət

**Keçmişini unudanlar tarixin ibrət dərsi kimi onu yenidən yaşamaq məcburiyyətində qalırlar. Azərbaycan tarixində də unudulması mümkün olmayan, bütövlükdə, xalqın təhtəlşüuruna dərin iz salan və onu daim mübariz ruhda kökləyən elə hadisələr var ki, heç zaman xalqın qan yaddaşından silinməyəcəkdir. Erməni faşizminin xislətini, gerçək mahiyyətini çılpaqlığı ilə açan 1918-ci ilin mart soyqırımı da məhz unudulması mümkün olmayan belə dəhşətli faciələrdəndir.**

Ümumiyyətlə, iki əsrdən artıq müddətdə qonşu xalqlara və dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış edərək insanlıq əleyhinə yönəlmiş soyqırımı, terrorizm kimi cinayətlərə dəstək verən, "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni ideoloqları böyük tarixi saxtakarlıqlara əl atmış, faktları təhrif edərək qondarma iddialar irəli sürmüş, dünya ictimaiyyətini çaşdırmağa çalışmışlar. Bir qayda olaraq, hər ilin mart-aprel aylarında qondarma "erməni soyqırımı" ilə bağlı cəfəng və əsassız iddialarını gündəmə gətirərək süni ajiotaj qaldıran erməni şovinistləri bu yolla tarixən azərbaycanlılara və türklərə qarşı həyata keçirdikləri amansız qırğınları, vandalizm aktlarını pərdələmək, özləri haqqında "məzlum" və "əzilən millət" imici yaratmağa davamlı səylər göstərirlər.

Bədxah erməni millətçiləri ərazi ilhaqı siyasəti həyata keçirərkən bəşəriyyət əleyhinə yönəlmiş dəhşətli cinayətlərə əl atdıqları halda, insanlığa sığmayan bu vandalizm aktlarını, bir qayda olaraq, türklərin və azərbaycanlıların adına yazmağa çalışmışlar. Müsəlmanlara, əsasən də, türklərə düşmən kimi yanaşan ermənilər özlərinin regiondakı çirkin ərazi iddialarını gerçəkləşdirmək məqsədilə qondarma "soyqırımı" iddialarının ayrı-ayrı ölkələrdə tanınmasına çalışırlar. Uzun illərin müşahidələri göstərir ki, real əsası olmayan bu saxta iddiaların davamlı şəkildə gündəmdə saxlanılmasına yönəlmiş səylər ermənilərin başqa dövlətlər hesabına daha geniş coğrafi əraziyə yiyələnmək üçün həyata keçirdikləri soyqırımı, terror və deportasiya siyasətini pərdələmək, diqqəti özlərinin işğalçılıq faktından yayındırmaq məqsədi güdür.

XX əsrin əvvəllərində turklərin, guya, "ermənilərə qarşı soyqırımı törətdiyini" iddia edən bu mənfur millət özlərinin diaspor və lobbi təşkilatlarının köməyi ilə qondarma, əsası olmayan bu məsələni müxtəlif ölkələrin parlamentlərinə çıxarmağa cəhd edirlər. Türkiyə və Azərbaycanın müstəqil siyasət yeritməsi, regionda iqtisadi-siyasi cəhətdən qüdrətlənməsi ilə heç cür barışa bilməyən, beynəlxaq hüquqdan sapınaraq "ikili standandartlar"a yol verən müəyyən aparıcı dövlətlər və təşkilatlar da bu məsələdə erməniləri şirnikləndirmək yolu tuturlar. Son illər qondarma "erməni soyqırımı" məsələsinin müxtəlif dövlətlərin parlamentlərində müzakirəyə çıxarılması və bəzi hallarda tanınması bu ədalətsiz və qərəzli münasibətin əyani təzahürü kimi diqqəti çəkir.

Türkiyənin məsələ ilə bağlı birgə komissiya yaratmaq, arxivləri açmaq, tarixi həqiqətləri üzə çıxarmaq təkliflərinə etinasız münasibəti Ermənistanın zaman-zaman gündəmə gətirdiyi "soyqırımı" iddiasının hansı çirkin məqsədlərə xidmət etdiyinə şübhə yeri qoymur. Yalnız bu məqam qardaş ölkəyə qarşı yönəlmiş saxta ittihamların sırf siyasi motivlərə əsaslandığını, ikili standartlardan qaynaqlandığını tam mahiyyəti ilə aşkara çıxarır.

Bütövlükdə, türk dünyasına qarşı yönəlmiş bu iftira kampaniyasının əsassızlığını tarixi faktlar da təsdiqləyir. Hələ 1813-cü və 1828-ci illərdə Rusiya və İran arasında imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixı torpaqlarının bölünməsinin əsasını qoymuşdur. 1849-cu ildə Rusiya ərazisində İrəvan quberniyası yaradılmış, ermənilərin İrandan və Türkiyədən kütləvi surətdə Azərbaycan torpaqlarına, Dağlıq Qarabağa köçürülməsinə başlanılmışdır. Beləliklə, soyqırımı, deportasiya və terrorizm Azərbaycan torpaqlarının işğalı üçün istifadə edilən əsas vasitələrdən birinə çevrilmişdir. Təkcə 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 84 min erməni köçürülərək, Şimali Azərbaycan ərazisində yaradılmış Yelizavetpol və İrəvan quberniyalarının ərazisində yerləşdirilmişdir. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər azlıq təşkil etmələrinə baxmayaraq, havadarlarının himayəsi altında 1828-ci il martın 21-də "Ermənı vilayəti" adlandırılan süni inzibatı bölgünün yaradılmasına nail olmuşlar. Bununla da azərbaycanlıların əzəli torpaqlarından zorla çıxarılmasının və soyqırımı siyasətinin əsası qoyulmuşdur.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları Birinci rus inqilabı dövründə – 1905-1907-ci illərdə azərbaycanlılara qarşı daha böyük miqyasda qanlı aksiyalar həyata keçirmişlər.

Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki yaşayış məntəqələrini əhatə etmişdir. Yüzlərlə Azərbaycan kəndi dağıdılaraq yerlə-yeksan edilmiş, on minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir. Bütün bu vəhşiliklər ermənilərin vaxtı ilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, "azərbaycanlılarsız Ermənistan" kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətinin ifadəsi olmuşdur.

Tarixi faktlar göstərir ki, 1915-ci ilin əvvəllərində Türkiyənin şimal-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə, türklərə qarşı kütləvi qırğınlara başlamışdır. Bunun cavabında isə Osmanlı dövləti erməni əhalisinin həmin ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr vermək məcburiyyətində qalmışdır. Bu zaman İrəvan, Qarabağ və Zəngəzura erməni hərbi dəstələri ilə birlikdə böyük sayda erməni əhalisi də köçüb gəlmişdir. Rusiya ordusuna arxalanan həmin ermənilər əvvəlcə Naxçıvanda və İrəvanda, ardınca isə Qarabağda və Azərbaycanın digər bölgələrində azərbaycanlılara divan tutmuşlar.

1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq, Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri faktiki başıpozuqluq şəraitindən istifadə edərək yerli müsəlman əhalisinə qarşı soyqırımı siyasətinə başlamışlar. Nəticədə, hələ 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdılmış, 135 min azərbaycanlının böyük əksəriyyəti ermənilər tərəfindən qətlə yetirilmiş, sağ qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur olmuşlar.

Tarixi sənədlərdə qeyd olunur ki, 1918-ci ilin martında erməni-daşnak ideoloqu Stepan Şaumyanın başçılıq etdiyi Bakı Kommunası "əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən soyqırımı planını həyata keçirmişdir. Böyük qırğınlara başlamaq üçün bəhanə isə Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 hərbçinin gəlişi olmuşdur. S.Şaumyanın göstərişi ilə ermənilər, guya, bu zabitlərin Muğandakı rus-molokan kəndlərini dağıtmaq barədə göstəriş aldıqları barədə şayiələr yaymış, bundan sonra isə həmin gəmidəki zabitlərin tərksilah olunması üçün göstəriş verilmişdir. Buna etiraz edən yerli əhali isə küçələrə çıxıb zabitlərin tərksilah olunmasına etirazını bildirmişdir. Vəziyyətin ciddi xarakter aldığını görən Azərbaycan milli təşkilatlarının nümayəndələri İnqilabi Komitəyə gələrək alınmış silahları "Hümmət" müsəlman bolşevik komitəsi vasitəsilə qaytarmağa cəhd göstərmişlər.

Martın 30-da N.Nərimanovun evində S.Şaumyanla və həmin gün İnqilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadə ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə edilməsinə baxmayaraq, bolşevik-daşnak koalisiyası vədinə əməl etməmişdi. Martın 30-da saat 16.40 radələrində erməni kilsəsinin yanında toplaşan daşnak dəstələri müsəlmanlara ilk atəş açmış və beləliklə, dinc əhaliyə qarşı kütləvi qətliama start verilmişdi. Martın 31-i və aprelin 1-də qırğınlar xüsusilə kütləvi şəkil almış, üç gün ərzində Bakıda 12 min insan qətlə yetirilmişdi. Şaumyanın erməni-bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmiş, Təzəpir məscidini topa tutmuş, "Kaspi", "Açıq söz" qəzetlərinin mətbəəsinə, "İsmailiyyə" binasına od vurmuşdular.

1920-ci ilin aprelində AXC-nin süqutündan sonra bədnam qonşularımız adət etdikləri çirkin metodlarla azərbaycanlıları daimi yaşadıqları ərazilərdən çıxarmış, eləcə də qonşu respublikaların torpaqları hesabına "ərazilərini" böyütmüşlər. 1920-ci ildə Zəngəzuru və Azərbaycanın torpaqlarının bir hissəsini Ermənistan SSR-in ərazisi elan etmişlər. 1923-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ "muxtar vilayət" elan edilmişdir.

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları II Dünya müharibəsindən sonra daha geniş miqyas almışdır. 1945-ci ilin noyabrında Ermənistan SSR rəhbərliyi heç bir ciddi əsaslı səbəb göstərmədən ittifaq hökuməti qarşısında Dağlıq Qarabağın bu respublikaya birləşdirilməsi məsələsini irəli sürsə də, niyyətinə nail olmamışdır. Bundan sonra onlar daha bir hiyləyə əl ataraq, azərbaycanlıların deportasiyasına nail olmuşlar. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Q.Arutyunov Suriya, Yunanıstan, İran, Bolqarıstan, Rumınya, Fələstin, Fransa, ABŞ, Misir, İraq və Livandan bu ölkəyə köçürülmüş ermənilərin yerləşdirilməsindəki çətinliklərdən şikayət edərək, Ermənistanda yaşayan azərbaycanlıların Azərbaycanın pambıqçılıq rayonlarında yerləşdirilməsini təklif etmişdir. O, Kür-Araz ovalığında pambıqçılığı inkişaf etdirmək üçün, guya, işçi qüvvəsinin çatışmadığını, bu addımın həmin rayonlarda pambıq istehsalının artımına da əsaslı təsir göstərəcəyini iddia etmişdir. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən

kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı 1948-1953-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından kütləvi surətdə deportasiyasını rəsmiləşdirmişdir.

1997-ci il 18 dekabr tarixdə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" tarixi fərman imzalayan ulu öndər Heydər Əliyev bu ədalətsiz deportasiya siyasətinə dolğun siyasi-hüquqi qiymətini vermişdir: "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən, qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır".

Ötən əsrin 80-cı illərin sonlarında – SSRİ-nin süqutu zəminində cərəyan edən proseslərdən öz maraqlarına uyğun bəhrələnən erməni ideoloqları Azərbaycana qarşı ərazi iddialarını yenidən gündəmə gətirmişlər. Vətənpərvər və milli ideallara bağlı bir şəxsiyyətin – ulu öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından dərhal sonra erməni separatizmi ilk hücumuna – informasiya savaşına başlamışdır. Akademik A.Aqanbekyan 1987-ci ilin noyabr ayının 18-də Fransanın "Humanite" qəzetinə verdiyi müsahibəsində vurğulayırdı ki, "Mən iqtisadçı kimi əmin edirəm ki, DQMV-nin coğrafi cəhətdən daha çox bağlı olduğu Ermənistana birləşdirilməsi düzgün olardı. Bu barədə mənim xüsusi təklifim var və onu artıq təqdim etmişəm. İnanıram ki, yenidənqurma və demokratiya şəraitində bu problem öz həllini tapacaq".

Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürməsi və qondarma Dağlıq Qarabağ probleminin ortaya atılması azərbaycanlıların növbəti dəfə kütləvi qırğını və əsrlər boyu yaşadığı tarixi ərazilərdən deportasiyası ilə nəticələnmişdir. Ermənistan SSR Ali Soveti sessiyasının məxfi göstərişinə əsasən, 1988-ci il noyabrın 22-dən 28-dək 22 rayonda sırf soydaşlarımızın yaşadığı 170, habelə 94 ermənilərlə qarışıq yaşayış məntəqələri azərbaycanlılardan tam təmizlənmişdir. Nəticədə 200 mindən çox azərbaycanlı Azərbaycana pənah gətirmişdir. 1991-ci il avqustun 8-də sonuncu Azərbaycan kəndi Nüvədidən (18 fevral 1929-cu ildə Ermənistanın tərkibinə verilib) əhalinin çıxarılmasından sonra Ermənistan faktiki olaraq monomillətçi dövlətə çevrilmişdir. Deportasiya zamanı 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, minlərlə qadın, uşaq və qoca müxtəlif bədən xəsarəti almış, on minlərlə ailənin əmlakı qarət olunmuşdur. 1990-1993-cü illərdə Azərbaycana qarşı ərazi təcavüzünü genişləndirən Ermənistan bu məqsədlə terror və soyqırımı siyasətini də dövlət səviyyəsində dəstəkləmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı faciəsi isə iki yüz ilə yaxın müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı, ən qanlı səhifələrindən biri olmuşdur.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri Xocalı soyqırımı 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoymuşdur. 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi faciənin məhz soyqırımı olduğunu sübut edir. Erməni qəsbkarlarının törətdikləri bu vəhşilik və vandalizm aktı tərəqqipərvər bəşəriyyətin genosid kimi tanıdığı Xatın və Sonqmi faciələri ilə eyni səviyyədə qiymətləndirilməlidir. Bu dəhşətli cinayət əməlinin məqsədi doğma torpağının müdafiəsinə qalxmış dinc əhalini qorxudub onun mübarizə əzmini qırmaq, eyni zamanda, ölkədə siyasi vəziyyəti qarışdıraraq Azərbaycan torpaqlarının işğalını asanlaşdırmaq olmuşdur.

BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində qeyd olunur ki, genosid, insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Təşkilatın Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli saylı qətnaməsi ilə qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 2-ci bəndində göstərilən şərtlər də 1918-ci ilin mart və 1992-ci ilin Xocalı faciələrinin soyqırımı kimi tövsif edilməsinə imkan yaradır.

Xüsusi vurğulamaq lazımdır ki, bədnam erməni millətçilərinin tarixi saxtalaşdırmağa, dünya ictimaiyyətini çaşdırmağa yönəlmiş saxta kampaniyasına qarşı mütəşəkkil müqavimət yalnız ulu öndər Heydər Əliyevin xalqın istəyi ilə 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Ümummilli liderin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı tarixi həqiqətlərin üzə çıxmasına təkan vermiş, bu mühüm sənəddə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların – soyqırımlarının rəsmən adı çəkilmiş, Cənubi Qafqaz miqyasında xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açıqlanmışdır. "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarixən bu ərazilərin yerli sakinləri olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş davakar erməni millətçilərinin mənfur fəaliyyətinə ilk dəfə olaraq siyasi-hüquqi qiymət verilmişdir.

2003-cü ildən Azərbaycana inamla rəhbərlik edən dövlət başçısı İlham Əliyev də uydurma erməni təbliğatının beynəlxalq səviyyədə ifşasını, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasını ilk gündən xarici siyasət idarəsi və diaspor qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi məkanda milli maraq və mənafeyini layiqincə müdafiə edən Azərbaycanın yeni dünya nizamının reallıqlarına cavab verən tarazlı xarici siyasətinin uğurlarını təmin edən mühüm amillərdən biri də məhz "hücum diplomatiyası"dır. Bir vaxtlar beynəlxalq informasiya məkanına çıxış imkanları son dərəcə məhdudlaşdırılan, haqq səsi eşidilməyən Azərbaycan üzləşdiyi ədalətsiz blokadanı yarmaqla, milli həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq yönümündə yaxşı imkanlar qazanmışdır.

Ölkəyə rəhbərlik etdiyi son 10 ildə milli maraqlara söykənən fəal xarici siyasət yeridərək, "Biz müdafiədə deyil, hücumda olmalıyıq!", – deyən Prezident İlham Əliyevin tövsiyələrinə adekvat olaraq bədnam erməni lobbisinə qarşı effektiv əks-hücumun təşkilinə nail olunmuşdur. Son illər Azərbaycanın xaricdəki diasporu, səfirlikləri, elmi qurumları ilə yanaşı, ayrı-ayrı ictimai qurumların – dərnəklərin, qeyri-hökumət təşkilatlarının, cəmiyyətlərin bu prosesdə iştirakının intensivləşməsi də sevindiricidir. Azərbaycan Prezidentinin türkdilli xalqların ideya birliyinin təmin edilməsi istiqamətindəki fəaliyyətinin ən başlıca səbəblərindən biri də bu gün az qala bütün dünyanı cəfəng, iftira xarakterli təbliğatının təsiri altına salmağa çalışan, nəinki Türkiyə və Azərbaycana, bütövlükdə böyük türk dünyasına qənim kəsilən bədnam erməni lobbisinə qarşı effektiv əks-hücumun təşkili zərurəti ilə şərtlənir.

Xatırlatmaq yerinə düşər ki, Prezident İlham Əliyev AMEA-nın hələ 2005-ci ilin dekabrında keçirilmiş 60 illik yubiley mərasimindəki dərin məzmunlu çıxışı zamanı ermənilərin cəfəng iddialarına qarşı elmi-ideoloji mübarizənin gücləndirilməsi zərurətini alimlərimiz qarşısında mühüm vəzifə kimi müəyyənləşdirmişdir: "Bu gün biz öz təbliğat işimizi daha da səmərəli qururuq. Çünki bizim təbliğatımız reallığa, faktlara əsaslanır, yalana yox. Yəni bu gün Azərbaycanı sadəcə olaraq ləkələmək mümkün deyildir. Ona görə ermənilər yeni bir taktikaya əl atıblar. Bu da ondan ibarətdir ki, yaxın və keçmiş tarix təhrif olunsun, Dağlıq Qarabağ münaqişəsinin səbəbi təhrif olunsun, Azərbaycan təcavüzkar bir ölkə kimi təqdim edilsin. Eyni zamanda, bizim uzaq tariximiz təhrif olunur. Misal üçün, Azərbaycanda heç kimə sirr deyil ki, ermənilər Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa qonaq kimi gəlmişlər. Keçən əsrin 70-ci illərində orada onların gəlişini əks etdirən bir abidə qoyulmuş, ermənilərin Qarabağa gəlişinin 150 illik yubileyi qeyd olunmuşdu. Ancaq bizdən başqa bunu az adam bilir" – deyən dövlət başçısı AMEA-nın ayrı-ayrı strukturlarının çirkin erməni təbliğatına qarşı effektiv cavab verməsinin ciddi vəzifələrdən biri olduğunu vurğulamışdır.

Bu gün ikili standartların əsirinə çevrilmiş müəyyən aparıcı dövlətlər də yaxşı başa düşür ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqazın ən ciddi problemi kimi hələ də həllini tapmaması, bütövlükdə, Xəzər hövzəsi regionunda sülhə, sabitliyə və iqtisadi əməkdaşlığa potensial təhdid kimi çıxış edir. Belə olan təqdirdə onlar təcavüzkara təsir göstərmək, beynəlxalq hüquq normalarını təmin etmək əvəzinə, ermənilərin qondarma, tarixi faktlardan tamamilə uzaq olan "soyqırımı" iddialarını dəstəkləyir, Ermənistanı regionda üzləşdiyi təcrid vəziyyətindən çıxarmağa çalışırlar.

Azərbaycanın dövlət başçısının xalqın iradəsinə əsaslanmaqla irəli sürdüyü "hücum diplomatiyası"nın effektiv nəticələri göz önündədir. Bu gün əksər dünya dövlətləri respublikamızın regionda sülhü, inkişafı, tərəqqini, səmərəli əməkdaşlıq təşəbbüslərini dəstəkləyən dövlət olduğunu yaxşı bilirlər. Sivil birgəyaşayış normalarına uyğun xarici siyasət xətti yeridən respublikamız indi bədnam erməni lobbisinin məkr və iftira

üzərində qurulmuş qərəzli informasiya-təbliğat siyasətini də darmadağın edir. Rəsmi Bakının hücum diplomatiyası sayəsində ermənilərin münaqişə ilə bağlı gerçəklikləri təhrif etmək, dünyanı çaşdırmaq cəhdləri puça çıxır.

Bu gün hər kəsin birmənalı qəbul etdiyi danılmaz həqiqət bundan ibarətdir ki, Azərbaycan beynəlxalq qüvvələrin hərtərəfli dəstəyini almış Ermənistan ilə müharibədə deyil, qeyri-bərabər döyüş meydanında müvəqqəti uğursuzluğa düçar olmuşdur. Azərbaycan iqtidarı məhz xalqın bu yekdil və birmənalı rəyinə əsaslanaraq sülh danışıqlarına qoşulmuşdur. “Zorən cəlb edildiyimiz müharibədə müvəqqəti itirdiyimiz ərazilərin son qarışınadək geri qaytarılması” əzmkarlığı ilk gündən danışıqlarda Azərbaycanın qəti, birmənalı və prinsipial mövqeyidir. Siyasi baxışlarından, mövqeyindən asılı olmayaraq hər bir azərbaycanlı bu reallığı etiraf etməyə məcburdur. Reallıqsa bundan ibarətdir ki, milli maraqları daim uca tutan, xalqın iradəsinə söykənən ölkə rəhbərliyi 20 ildən artıqdır ki, öz prinsipial və qətiyyətli mövqeyindən bir addım belə geri dönməmiş, əksinə, daha inadlı və hücumçu xarici siyasət kursunu uğurla davam etdirmişdir.

İqtisadi və hərbi cəhətdən güclənən Azərbaycan danışıqları imitasiya xatirinə aparmadığını, bu prosesdə müsbət dönüşün yaranmayacağı halda, rəsmi Bakının hərbi varianta əl ata biləcəyini Ermənistan rəhbərliyi də yaxşı dərk edir. Hələliksə, Prezident İlham Əliyevin son illər münaqişənin həlli istiqamətində yeritdiyi siyasət Ermənistanın mövqeyinin beynəlxalq hüquq baxımından tam əsassızlığını sübuta yetirməyə, təcavüzkar ölkəni Cənubi Qafqazdakı dinamik inkişaf prosesindən, qlobal enerji-kommunikasiya layihələrindən təcrid etməyə, ən nəhayət, Azərbaycanın iqtisadi-hərbi qüdrətini artırmaqla qarşı tərəfin mövqeyinə təsir göstərməyə yönəlmişdir. Tam əminliklə qeyd etmək olar ki, bu sahələrdə mühüm hədəflərə nail olunmuşdur.

Təcavüzkar ölkə olan Ermənistan özünü Cənubi Qafqazda gerçəkləşən bütün strateji layihələrdən kənarda qoymuşdur. Ermənistan bu gün Cənubi Qafqaz regionunun iqtisadi inkişafını ləngidən, başqa dövlətin “for-postu”na çevrilərək sülh danışıqlarını süni şəkildə uzatmağa, vaxt udmağa çalışan qeyri-konstruktiv dövlət kimi tanınır. Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, Bakı-Ceyhan neft kəmərinin Ermənistan Respublikasının ərazisindən – 48 kilometr bir ərazidən keçəcəyi təqdirdə İrəvan ildə azı 8 milyon dollar qazanc əldə edə biləsəkdi. Bu fakta qaz kəməri, beynəlxalq dəmir yol və şose yolları layihələrini də əlavə etsək, Ermənistanın Azərbaycan hesabına nə qədər gəlir əldə edə biləcəyini təsəvvür etmək olardı. Lakin bu gün Ermənistan özünü bu cür imkanlardan tamamilə təcrid etmiş və beynəlxalq qınaq obyektinə çevrilmişdir.

Ermənistanın xarici borcları getdikcə artır, ölkədə sosial-iqtisadi tənəzzülün qarşısının alınmaması əhalinin vəziyyətinin pisləşməsi ilə müşayiət olunur. Rusiyaya olan borclarını ödəmək iqtidarında olmayan Ermənistan getdikcə bu ölkənin vassalına çevrilir, bütün strateji əhəmiyyətli müəssisələrini itirir. Yoxsulluğun səviyyəsinə görə MDB-də liderliyi əldən verməyən Ermənistan siyasi sahədə də ciddi problemlərlə üz-üzədir.

Ermənistan prezidenti indi daha çox öz hakimiyyətinin hayında olduğu üçün münaqişə ilə bağlı mövcud “status-kvo”nun saxlanılmasına səy göstərir. Lakin bu vəziyyətin özü işğalçı ölkəni iflic vəziyyətdən çıxmağa qoymur. İqtisadiyyata yönəldilməli olan xərclər işğalçı ordunun, separatçı rejimin saxlanılmasına sərf edilir. Ermənistanda sosial-iqtisadi vəziyyətin müsbətə doğru dəyişmədiyini, insanların aclıq və səfalət içində yaşadığını müxtəlif beynəlxalq təşkilatların hesabatları da təsdiqləyir. Hakim rejimin bütün səylərinə rəğmən, ölkədən köçüb gedənlərin sayı durmadan artır.

Danışıqları imitasiya xatirinə davam etdirmək niyyətində olmadığını dəfələrlə bəyan etmiş Azərbaycan iqtidarı hələlik prosesləri təmkinlə izləyir və sülh prosesinin dalana dirənmədiyi qənaətindədir. Ermənistan yaranmış fürsəti düzgün dəyərləndirib konstruktivlik nümayiş etdirməyəcəyi təqdirdə, münaqişənin güc tətbiqi ilə həlli Azərbaycan üçün qaçılmaz varianta çevriləcəkdir. Ölkə rəhbərliyinin bu qətiyyətli mövqeyi həm də xalqın milli maraqlarını sonadək müdafiə etmək əzmindən qaynaqlanır.

**İsaxan VƏLİYEV,**
**AMEA Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri,**
**hüquq elmləri doktoru, professor**

“**Xalq qəzeti**”.-2014.-29 mart.-29 mart.-S.5.

## Tarixi unutqanlığın ibrət dərsi

***"Azərbaycanlılara qarşı zaman-zaman törədilən ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir"***

***Heydər ƏLİYEV***

**Unutqanlıq böyük dərddir, əslində, faciədir. İnsanlar bəzən bugünü ilə yaşayır, yaxın keçmişin acı xatirələrini, faciələrini yaddaşlardan silməklə sanki özlərinə təsəlli verməyə çalışırlar. Bütövlükdə hansısa bir xalqın, millətin, cəmiyyətin unutqanlıq mərəzinə tutulmasının fəsadları isə daha ağır olur. Bu bəzən tarixin təkərinin geriyə fırlanmasına, müəyyən faciələrin, vəhşətlərin təkrarlanmasına şərait yaradır. Nəticə isə heç vaxt yaxşı olmur.**

Belə bir deyim var – keçmişini unudanları gələcək topa tutar! Tarix unutqanlığı, biganəliyi bağışlamır. Mahiyyətindən, başvermə səbəblərindən asılı olmayaraq, zamanın hər bir səhifəsi xatırlanır, bəzən də yaddaşlara həkk olunur. Elə hadisələr də var ki, onların daim xatırlanması, unudulmaması bütövlükdə xalq və dövlət üçün taleyüklü məsələyə çevrilir. Keçmişin qanlı-qadalı, faciəli olayları bütöv bir toplumun, xalqın səhvlərdən düzgün nəticə çıxarması, nəhayət, özünü tanıyaraq mübarizə ovqatında köklənməsi baxımından zəruri olur.

Nə yazıqlar ki, Azərbaycan xalqı da bəzən tarixi unutqanlığın dəhşətli nəticələrini taleyində yaşamalı olub. Zaman-zaman məkrli qonşularımız ermənilərin türklərə və azərbaycanlılara qarşı ərazi ilhaqı, terror və soyqırımı siyasətini unutmağımız bizlərə baha başa gəlib. Bundan istifadə edən bədnam qonşularımız "böyük Ermənistan" yaratmaq xülyası ilə təcavüzkarlıq siyasətini "milli mübarizə" yoluna çevirərək dövlət səviyyəsində dəstəkləyiblər. Bu zaman onlar müəyyən xarici qüvvələrin maraqlarının ifadəsinə çevrilib, bəzi dövlətlər Cənubi Qafqaz və Qərbi Asiyada möhkəmlənmək üçün daim "erməni məsələsi"ndən öz mənafelərinə uyğun şəkildə istifadə etməyə çalışıblar.

Erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, həmin ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "böyük Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımı siyasətinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə, əsrlər boyu bu vandalizmin qurbanı olmuş Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxmışdır.

### Soyqırımına dolğun hüquqi-siyasi qiymət

Hər il mart ayının 31-i ölkəmizdə dövlət səviyyəsində azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Bu təqvim son yüz ildə Azərbaycan tarixində baş vermiş faciəli hadisələrin xalqın yaddaşındakı qanlı izlərini özündə əks etdirir. Azərbaycanlıların kütləvi şəkildə qırılmasını, deportasiyalara, repressiyalara məruz qalmasını XX yüzilliyin ən qanlı səhifələrindən biri hesab etmək olar. 1918-ci il martın 31-də Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırımına imza atmışlar. Bu qanlı olaylar əsl hüquqi-siyasi qiymətini isə ölkəmiz dövlət müstəqilliyinə qovuşduqdan sonra almışdır. Mart hadisələrinin 80-ci ildönümündə – 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da bir növ proqram sənədidir. Fərmanda deyilir: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir".

**Ermənilər Qarabağa XIX əsrdə köçürülüb**

Fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə də toxunulmuş, mərhələlərlə törədilmiş soyqırımı və terror siyasəti dolğun əksini tapmışdır. Sənəddə qeyd olunduğu kimi, tarix boyu azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı lap əvvəldən rus-erməni praktik işbirliyinin nəticəsi olmuşdur. İmperiya bu yolla Cənubi Qafqazda möhkəmlənməyi, ermənilər isə Rusiyanın havadarlığına arxalanaraq tarixi Azərbaycan torpaqlarını ələ keçirməyi, bu ərazilərdə erməni dövləti qurmağı məqsəd güdmüşlər.

Prezident İlham Əliyevin vurğuladığı kimi, "Dağlıq Qarabağ tarixi nöqteyi-nəzərdən Azərbaycanın ərazisidir. Ermənilər Dağlıq Qarabağa XIX əsrin birinci yarısında gəlmişlər. Bu, məlum faktdır. Hüquqi baxımdan bu region Azərbaycanın ərazisidir. Ona görə də biz bu məsələni yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etmək istəyirik. Biz Dağlıq Qarabağ ermənilərinə Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusunun verilməsini təklif etmişik. Bu, bizim tərəfimizdən ediləcək maksimum güzəştdir. Çünki onun statusu həmişə muxtar vilayət olubdur".

Tarixi faktlar sübut edir ki, hələ 1721-ci ildə Qafqaza yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqavimətini gördukdə, "erməni kartını" işə salmış, azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Bakı və Dərbənddə ermənilərin məskunlaşdırılmasına göstəriş vermişdir. I Pyotrun xələflərinə ünvanladığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə etibarilə bolşevik Rusiyasının da Cənubi Qafqaz siyasətinin əsasını təşkil etmişdir. Həmin vəsiyyətə ilk əməl edən II Yekaterina 1768-ci ildə imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərman vermişdir. 1802-ci ildə isə çar I Aleksandr Qafqaz canişini A.Sisianova konkret təlimat göndərmişdir: "Ermənilər nəyin bahasına olursa-olsun Azərbaycan xanlıqlarının ələ keçirilməsində istifadə olunmalıdır".

Bu, Azərbaycan torpaqlarının işğalının başlanğıcı olmuşdur. 1813-cü ilin "Gülüstan" və 1828-ci ilin "Türkmənçay" müqavilələri isə Azərbaycanın ikiyə bölünməsi, Şimali Azərbaycan torpaqlarının erməniləşdirilməsi prosesini sürətləndirmişdir. "Türkmənçay" müqaviləsindən dərhal sonra – 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" təşkil edilmişdir. Bu bədnam fərmanla tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistanın faktiki təməli qoyulmuşdur. Həmin vaxtın rəsmi statistikasına görə, "Erməni vilayəti"nin mərkəzi olan İrəvan şəhərində 7331 azərbaycanlı, 2369 erməni yaşayırdı. Buna paralel olaraq "Türkmənçay" müqaviləsinin 15-ci bəndinə əsasən, İrandan 40 min erməni İrəvan, Qarabağ və Naxçıvana köçürülmüşdür. Analoji proses XIX əsrdəki Rusiya-Türkiyə müharibələrinin yekununda (1829, 1878) da özünü göstərmiş, Türkiyə ərazisindən təxminən 85 min erməni köçürülərək sözügedən bölgələrdə məskunlaşdırılmışdır. Bu proses eyni zamanda minlərlə azərbaycanlının doğma torpağından qovulması, qətlə yetirilməsi ilə müşayiət olunmuşdur.

XIX əsrin 2-ci yarısından ermənilərin azərbaycanlılara qarşı soyqırımı təşkilatlanmış və planlı siyasət kimi aparılmış, Azərbaycan, Türkiyə və Gürcüstan ərazisində "böyük Ermənistan" dövləti qurmaq xülyasına düşmüş ermənilər "Qnçaq" (1887-ci ildə Cenevrədə qurulub), "Daşnaksütyun" (1890, Tiflis), "Erməni vətənpərvərləri ittifaqı" (1895, Nyu York) kimi siyasi-terror təşkilatlarını bu istiqamətdə yönəltmişdilər. Sözügedən təşkilatların fəaliyyət proqramlarında azərbaycanlılara qarşı ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək niyyəti əsas yer tuturdu.

**Mart soyqırımı – insanlığa qarşı qəddar cinayət**

1905-1907-ci illərdəki Rusiya inqilabı zamanı qarışıqlıqdan istifadə edən ermənilər Bakı, Şuşa, Zəngəzur qəzalarında, Qarabağda kütləvi qırğınlar törədərək 75 azərbaycanlı kəndini talan etdilər. Həmin inqilabdan sonra azərbaycanlıların deportasiyası və soyqırımı prosesi örtülü şəkildə aparılır. Bunu Rusiya imperiyasının o vaxtkı statistik məlumatları da təsdiqləyirdi. 1916-cı ildə nəşr olunan məlumatlara əsasən, İrəvan quberniyasının əhalisi 1830-1914-cü illər ərzində 40 dəfə artaraq, 570 min nəfər təşkil edirdi. Lakin bunun müqabilində bölgənin azərbaycanlı əhalisinin sayı 4,6 dəfə artmışdı. Hətta bu qədər sıxışdırılma və deportasiya müqabilində yenə 1916-cı ildə İrəvan əhalisinin təxminən 45 faizi, yəni 247 min nəfəri azərbaycanlılar idi.

1914-cü ildə başlanan I Dünya müharibəsi və onun gedişində Rusiyada baş verən inqilablar (1917-ci il) ermənilərin “böyük Ermənistan” iddiası üçün əlverişli şərait yaratdı.

1915-ci ilin əvvəlində Türkiyənin şimal-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə və kütləvi qırğınlara başladı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr verdi. Türkiyə ərazisindən erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura kütləvi şəkildə ermənilər köçüb gəlmişdi. Rusiya imperiyasının ordusuna arxalanan erməni millətçiləri əvvəlcə Naxçıvanda və İrəvanda, ardınca Qarabağda və yurdumuzun digər bölgələrində azərbaycanlılara divan tutmağa başladılar.

1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri faktiki başıpozuqluq şəriatindən istifadə edərək yerli müsəlman əhalisinə qarşı amansız hərəkətlər etməyə başladılar. Nəticədə hələ 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdılmışdı. Bu ərazidə yaşayan 135 min azərbaycanlının böyük əksəriyyəti ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi yerlərə qaçmağa məcbur olmuşdular.

Qırğınlara 1917-ci il dekabrın 16-da RSFSR Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş Stepan Şaumyan başçılıq edirdi. Tarixi mənbələr göstərir ki, Şaumyana Cənubi Qafqazda sovetləşdirmə siyasətini həyata keçirmək və Türkiyədə rus ordusunun işğalı altında olan yerlərdə “Türkiyə Ermənistanı” yaratmaq səlahiyyəti verilmişdi. I Dünya müharibəsinin gedişində baş verən dəyişikliklər də ermənilərin azğın planlarına uyğun idi.

Erməni-daşnak ideoloqu Stepan Şaumyan Bakıda və ətraf qəzalarda törətdikləri qırğınla əlaqədar 1918-ci il aprelin 13-də Rusiya Xalq Komissarları Sovetinə məktubunda yazırdı: “Bizim süvari dəstəyə edilən silahlı hücumdan bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Biz artıq 6 min nəfərlik silahlı qüvvəyə malik idik. Daşnakların da 3-4 min nəfərlik silahlı milli hissələri var idi ki, o da bizim sərəncamımızda idi. Məhz onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan ediləcəkdi”.

1918-ci il martın 30-da səhər tezdən erməni bolşevik birləşmələri şəhəri gəmilərdən yaylım atəşinə tutdular. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətdilər. Martın 31-i və aprelin 1-də qırğınlar xüsusilə kütləvi şəkil aldı, üç gün ərzində Bakıda minlərlə insan qətlə yetirildi. Şaumyanın erməni-bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmiş, müsəlmanların bir çox ziyarətgahlarını dağıtmışdılar. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan “İsmailiyyə”nin binasına od vurmuşdular. Martın 30-dan aprelin 2-dək sürən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı qətlə yetirilmişdi. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdu. Lənkəranda, Muğanda minlərlə soydaşımız öldürülmüşdü. Ermənilər Dağlıq Qarabağda 150 azərbaycanlı kəndini tamamilə dağıtmış, Şuşada görünməmiş qırğınlar törətmişlər.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmiş, Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmış, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdır. 1919 və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi olmuşdur. Lakin 1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süqutu bu işləri yarımçıq qoymuş, Azərbaycan erməni-rus qüvvələrinin dəhşətli soyqırımının miqyasını dünyaya, beynəlxalq aləmə çatdıra bilməmişdir. Əvəzində ermənilər istər dünyaya səpələnmiş böyük diasropu vasitəsilə, istərsə də Ermənistanda daşnak hakimiyyətini əvəz etmiş sovetlərin təbliğat maşınının köməyi ilə qondarma “soyqırımı” kampaniyasına geniş vüsət vermişlər.

## Deportasiya siyasəti etnik separatizmin əyani nümunəsidir

1920-ci ildən sonra Zaqafqaziyanın sovetləşməsindən çirkin məqsədlər üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycan torpaqlarının bir hissəsini Ermənistan SSR-in ərazisi elan etmişlər. 1923-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ "muxtar vilayət" elan olunmuşdur.

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qətliam və etnik təmizləmə sovet dövründə də davam etmiş, sadəcə, həmin proses "qanun" çərçivəsinə salınmışdır. Bu xüsusda Stalin dövrünün deportasiyasını, 1948-1953-cü illərdə 100 min azərbaycanlının Ermənistan SSR-dəki tarixi yurdlarından köçürülməsini ayrıca qeyd etmək lazımdır. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il dekabrın 23-də verilən qərarını ermənilər çoxdan gözləyirdilər. Anastas Mikoyan başda olmaqla, ermənilərin Moskvada əyləşən liderləri "türksüz Ermənistan" uğrunda fəaliyyətə hələ İkinci Dünya müharibəsindən xeyli əvvəl başlamışdılar. Əsas "səbəb" kimi o göstərilirdi ki, xaricdə yaşayan on minlərlə erməni mütəxəssisi Ermənistana qayıdaraq "sovet dövlətinin inkişafı və tərəqqisi naminə çalışmaq əzmindədir, lakin onların yerləşdirilməsi ilə bağlı problemlər var". "Optimal" çıxış yolu isə guya Ermənistan SSR-də qeyri-ermənilərin yaşadığı torpaqların boşaldılması idi. Azərbaycan SSR-in o vaxtkı rəhbərliyi bir müddət bu fəaliyyətin önünü ala bilsə də, yekun nəticə müsbət məcraya yönəlməmişdi. Stalin bu ideyanı dəstəkləmiş və SSRİ hökumətinin ədalətsiz "tarixi" qərarına imza atılmışdı. Azərbaycanlıların yaşadığı 476 kənd tamamilə boşaldılmışdı. Nəhayət, 1987-1989-cu il deportasiyası Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləməni başa çatdırmışdı.

### Terror siyasəti davam etdirilir

Ermənistanın 1987-1988-ci illərdən başlayaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe və atdığı hər bir addım beynəlxalq hüquqla qadağan olunmuş zor tətbiq etməyə, digər dövlətin ərazisini ilhaq etməyə əsaslanır. 1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsinin əsasında da məhz bu ərazinin müəyyən bəhanələrlə Azərbaycandan qopardılaraq Ermənistana birləşdirilməsi məqsədi dayanır. 1988-ci ilin 20 fevralında ermənilərin Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qeyri-konstitusion qərar verməsi, eləcə də SSRİ rəhbərliyinin bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmağa çalışması ölkəmizin zorən hərbi münaqişəyə cəlb edilməsinə hesablanmış hərəkət idi.

Ermənistanın həmin dövrdən dövlət səviyyəsində dəstəklədiyi terror aktlarının başlıca hədəfi də təcavüzkar separatçılıq vasitəsilə Azərbaycan ərazisinin ilhaqına yönəlmişdir. Ermənistanın soyqırımı və terror siyasəti nəinki Qafqaz bölgəsində sabitliyi pozur, eləcə də Azərbaycanla yanaşı, Türkiyə, ABŞ, Gürcüstan və s. dövlətlərin milli maraqlarını təhdid edir. XX əsrdə Azərbaycan ərazilərinin ilhaqı məqsədi ilə terrorizmi və separatizmi özünə başlıca vasitə kimi seçən və dövlət səviyyəsində dəstəkləyən ermənilər 1988-ci ildən bəri Azərbaycanda izləri Ermənistana və Qarabağ separatçılarına gedib çıxan 373 terror aktı törətmişlər. Nəticədə 1600-ə yaxın insan həlak olmuş, 1808 nəfər yaralanmışdır. Terror aktları nəticəsində həlak olanların böyük əksəriyyətini qadın, uşaq və qocalar təşkil edir.

1988-ci ildən etibarən bu mənfur siyasətin hansı faciələrlə nəticələndiyi bir sıra dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən etiraf olunsa da, hərbi qarşıdurma zonasından yüz kilometrlərlə aralıda yerləşən yaşayış məntəqələrində erməni separatçıları tərəfindən törədilən və minlərlə dinc insanın – müsəlmanın, türkün məhvi ilə nəticələnən çoxsaylı terror aktlarına yanaşmada "ikili standartlar"ın mövcudluğu ciddi narahatçılıq doğurur.

"Məşhur" terrorçu, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmasının rəhbəri, 1981-ci ildə Türkiyənin Romadakı səfirinə sui-qəsd etdiyinə görə həbs olunmuş Monte Melkonyan 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün Dağlıq Qarabağa göndərilmiş və Xocavənd döyüşlərində məhv edilmişdir.

1992-ci ilin 26 fevralında ermənilər Azərbaycanın Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutmuş, tarixə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir

alınması, şəhərin yerlə yeksan olunması ilə yekunlaşmışdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı soyqırımı iki yüz ilə yaxın müddətdə erməni şovinist-millətçilərinin azərbaycanlılara qarşı iki əsrdən artıq həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı, qanlı səhifəsidir. Xocalı faciəsi Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədi ilə apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasca ən dəhşətlisidir.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri növbəti genosid – Xocalı soyqırımı 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoymuş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. Bu soyqırımı aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirilmiş, əsir götürülənlərə amansız işgəncə verilmişdir. Həmin əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi faciənin məhz soyqırımı olduğunu sübut edir.

BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 saylı qətnaməsində qeyd olunur ki, genosid, insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum olunmasına gətirib çıxarır. Belə bədnam əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minən "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada genosid cinayətinin hüquqi əsası təsbit olunmuşdur. Konvensiyaya qoşulan dövlətlər sülh və yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin yürütdüyü terrorçuluq siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir.

**Azərbaycan həqiqətləri dünyada tanınır**

Dünyada gedən qloballaşma prosesi sivilizasiyalararası dialoqu zərurətə çevirdiyi bir vaxtda Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərinə etinasızlıq göstərməklə özünü həm ifşa edir, həm də strateji layihələrdən kənarda saxlayır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqazın ən ciddi problemi kimi indiyə qədər həllini tapmaması bütövlükdə Xəzər hövzəsi regionunda sülhə, sabitliyə və iqtisadi əməkdaşlığa potensial təhdid kimi çıxış edir. Azərbaycanın 20 faizdən artıq ərazisini işğal altında saxlayan bu təcavüzkar dövlətin ən müxtəlif səviyyələrdə ifşası, erməni lobbisinin türk dünyasına qarşı apardığı bədnam təbliğata qarşı səmərəli əks-hücumun təşkili prosesində bütün türkdilli dövlətlərin iştirakı olduqca vacibdir.

Azərbaycan və Türkiyənin xaricdəki diplomatik nümayəndəlikləri, diaspor təşkilatları bu və digər mühüm faktlardan maksimum səmərəli yararlanmalı, Ermənistanın ifşası istiqamətində fəal iş aparmalıdırlar. Dövlət başçısı İlham Əliyevin bəyan etdiyi kimi, regionda milli düşmənçilik və ədavət yaradan Ermənistanın separatçı hərəkətlərinin, erməni diasporu və lobbisi tərəfindən irəli sürülən cəfəng iddiaların, tarixi saxtakarlıqların qarşısının alınması iki müttəfiq dövlətin diaspor və lobbi təşkilatlarının üzərinə düşən ən vacib vəzifələrdən biridir. "Vətəndaşlarımız, soydaşlarımız unutmamalıdır ki, erməni millətçilərinin antiazərbaycan təbliğatı getdikcə genişlənir, mənfur formalarda davam etdirilir. Ermənilər ərazi iddialarını əsaslandırmaq üçün yeni-yeni əsassız tezislər uydurur, məkrli siyasət aparır. Buna görə də biz belə ideoloji təxribatlara qarşı ayıq olmalı, onları vaxtında ifşa etməliyik" – deyə dövlət başçısı vurğulayır.

Üstəlik, beynəlxalq hüquq normaları, o cümlədən bir sıra mötəbər təşkilatların münaqişə ilə bağlı prinsipial mövqeyi Ermənistanın cəfəng iddialarının həm hüquqi, həm də siyasi baxımdan əsassızlığını tamamilə sübuta yetirir. Bu sənədlərdə silahlı əməliyyatlara və düşmənçilik hərəkətlərinə son qoyulması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Son illər rəsmi Bakının diplomatik fəallığının güclənməsi ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində ardıcıl və sistemli fəaliyyətin həyata keçirilməsi ilə müşayiət olunur. Nəticədə Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə əməl etməyən təcavüzkar dövlət

olması faktı indi bir çox dünya dövlətləri tərəfindən tanınır. Azərbaycan gerçəkliklərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində görülən işlər İrəvanın diplomatik mövqelərinin zəifləməsi ilə nəticələnir.

Dövlət başçısı İlham Əliyev Türkdilli dövlətlərin 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı çıxışında "Ən yaxşı müdafiə hücumdur" taktikasından çıxış etməklə türk dünyasına qarşı aşkar düşmənçilik siyasəti aparan bədnam ermənilərin yerində oturdulması vacibliyini önə çəkmişdir. "Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl bilirik və hiss edirik. Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücüm etməliyik, çünki həqiqət bizim tərəfimizdədir".

31 mart və Xocalı soyqırımlarını dünya ictimaiyyətinə çatdırmaq üçün indiyədək görülmüş işlər daha da genişləndirilməli, bu sahədə virtual məkanın – internetin hüdudsuz imkanlarından geniş istifadə olunmalıdır. Etiraf etməliyik ki, bədnam qonşularımız qondarma erməni soyqırımı iddialarını genişləndirmək üçün bu vasitəni əsas tuturlar. Müxtəlif veb-saytlarda Azərbaycanın və Qarabağın tarixi saxtalaşdırılır, Xocalı soyqırımı zamanı vəhşicəsinə qətlə yetirilmiş azərbaycanlılar həyasızcasına erməni kimi təqdim edilir. Sumqayıt hadisələri ilə bağlı həqiqətə uyğun olmayan, yalan iddialar irəli sürülür.

Son illər, xüsusən də Heydər Əliyev Fondunun bu məsələdə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması yönümündəki fəaliyyəti ermənilərin apardığı məkrli təbliğatın qarşısını alır. Bu istiqamətdə sistemli və ardıcıl fəaliyyət göstərən Heydər Əliyev Fondu Ermənistanın ölkəmizə qarşı təcavüzünün acı nəticələrinin dünya birliyinə çatdırılması üçün müxtəlif səviyyəli tədbirlər təşkil edir. Dağlıq Qarabağ münaqişəsində xalqımızın üzləşdiyi faciələri əks etdirən filmlərin, fotosənədlərin, kitabların və digər kütləvi nəşrlərin yayılması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Fondun dəstəyi ilə 2006-cı ildə Azərbaycan, fransız, alman, ərəb, ingilis və rus dillərində hazırlanmış "Qarabağ həqiqətləri" bukletlər toplusu və onların CD, DVD variantlarının bir sıra ölkələrdə paylanması işğala məruz qalmış ölkəmizin üzləşdiyi fəlakətləri əks etdirən ən böyük təbliğat işlərindən biri olmuşdur. Toplunun 20 min nüsxəsi Xocalı soyqırımının 20-ci ildönümündə xarici ölkələrdəki səfirliklərimizə, Avropa Şurası Parlament Assambleyasının deputat korpusuna, beynəlxalq təşkilatlara, dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizə göndərilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr edilən "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitabçalarının elektron variantları 2012-ci ildə Xocalı soyqırımının 20-ci ildönümündə təşkilatın təşəbbüsü ilə Avropanın 15 dövlətində keçirilən anma mərasimlərində xarici ölkələrin diplomatik korpuslarına, beynəlxalq təşkilatlara, kütləvi informasiya vasitələrinə, tanınmış ictimai-siyasi xadimlərə paylanmışdır. Zəngin faktlara və foto-sənədlərə istinadla aparılan bu təbliğat kampaniyası yüz minlərlə avropalıya Qarabağ həqiqətləri, Xocalı soyqırımı, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar işğalçılıq siyasəti haqqında əsl həqiqətləri çatdırmışdır.

Hesab edirik ki, bu istiqamətdə mühüm addımlardan biri də azərbaycanlıların tarixən kütləvi şəkildə soyqırımına məruz qaldığı bölgələrdə memorial komplekslərin və muzeylərin yaradılması ola bilər. Eyni zamanda müxtəlif illərdə ermənilərin soyqırımı siyasətinin qurbanı olmuş soydaşlarımızın xatirəsinin əbədiləşdirilməsi üçün abidələrin ucaldılması məqsədəuyğun olar. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli "Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" sərəncamı bu istiqamətdə atılan mühüm addımlardan biri olmuşdur. Sərəncamla Quba şəhərində kompleksin yaradılması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Lakin çox təəssüf ki, insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə nəticələnmiş mart və Xocalı soyqırımlarına hələ də beynəlxalq miqyasda hüquqi qiymət verilməmiş, terrorçu, işğalçı əməllərə qarşı qəti tədbirlər görülməmişdir. Halbuki, ümumbəşəri dəyərlərlə, beynəlxalq hüquq normalarına əsasən düşünmək və qərar qəbul etməyin zamanı çatmışdır. Nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mövqeyini dəstəkləməli, işğalçı Ermənistan dövlətinə qarşı sərt sanksiyalar tətbiq etməlidirlər.

Nə yaxşı ki, son illərdə bir çox dünya dövlətləri Xocalı həqiqətlərini qəbul etməyə başlamışlar. Məsələn, Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan İslam Respublikası, Bosniya və Herseqovina, Rumıniya, Çexiya

və İordaniyanın parlamentləri Xocalı soyqırımını tanımışlar. ABŞ-ın Vest Virciniya ştatının qanunverici orqanının Nümayəndələr Palatasında Xocalı faciəsi ilə bağlı qətnamə qəbul edilmişdir. Qətnamədə Xocalıda törədilmiş cinayətlərin 1988-ci ildən Azərbaycanın Dağlıq Qarabağ regionunda erməni hərbi qüvvələri tərəfindən həyata keçirilən təcavüzün tərkib hissəsi olduğu qeyd edilir. Bundan əvvəl isə Kaliforniya, Massaçusets, Texas, Nyu-Cersi, Meyn, Nyu-Meksika, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Konnektikut, Florida, Missisipi ştatlarının qanunverici orqanlarında da müvafiq qətnamələr qəbul olunmuş, Xocalıda qırğın törədənlərin məsuliyyətə cəlb olunması tələb edilmişdir.

Bu onu göstərir ki, azərbaycanlıların soyqırımının dünyada tanıdılması 1-2 ilin işi deyildir. Bu istiqamətdə hələ uzun illər ərzində fəal iş aparmaq lazımdır. İnanırıq ki, dövlət başçısı İlham Əliyevin hücumçu diplomatiyası nəticəsində biz öz həqiqətlərimizi beynəlxalq ictimaiyyətə qəbul etdirə biləcəyik. Sadəcə, hər kəs bu sahədə üzərinə düşən vəzifəni də unutmamalıdır.

**Nurlana ƏLİYEVA,**
**YAP Qadınlar Şurasının sədri,**
**filologiya elmləri doktoru, professor**

**"Azərbaycan".-**2014.-1 aprel.-N 63.-S.4.

## Erməni millətçilərinin Cənubi Azərbaycanda törətdikləri vəhşiliklər

**XX əsrin əvvəllərində ermənilərin xarici ölkələrdən Azərbaycana köçürülməsi bölgədə demokratik vəziyyətin tamamilə dəyişməsinə səbəb olmuşdu. Erməni avantüristlərinin "Böyük Ermənistan" xülyasını həyata keçirmələri ilə bağlı yalançı təbliğatları Qafqaz bölgəsində milli qırğınların başlanmasına gətirib çıxarmışdı. 1905-1906-cı illərdə törədilmiş bu qırğınların miqyası xeyli genişlənərək Bakı, Naxçıvan, İrəvan, Zəngəzur, eləcə də Cənubi Azərbaycan ərazisini əhatə etmişdi.**

Həmin illərdə erməni terror təşkilatına qoşulmağa səslənən intibahnamələr yayılırdı. Bu intibahnamələrdə azərbaycanlılar ruslara qarşı birlikdə mübarizə aparmaq adı ilə erməni terror təşkilatına qoşulmağa çağırılırdı. Buna qarşı çıxanlara isə hədə-qorxu gəlinirdi. Senator Kuzminski o dövrdə yazırdı: "Görünür, ermənilərin bu cür fitnəkar fəaliyyəti müsəlman dünyasında geniş yayılmışdır". Yeri gəlmişkən, ermənilərin hədələyici intibahnamələri və onlara müsəlmanların mənfi cavabları İskəndəriyyədə fars dilində çap olunan "Cohrənuma"jurnalında dərc edilmişdi.

"Daşnaksütyun" partiyasının idarə etdiyi erməni quldur birləşmələrinin 1905-ci il fevral ayının 20-21-də İranın müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər, qırğınlar və dinc sakinlərə qəddarcasına divan tutulması şahidləri dəhşətə gətirmişdi. O vaxtlar Rusiyada nəşr olunmuş "Kavkaz" qəzetində bu qətllərin "Parisdə" və ya "Venesiyada" çap edilmiş erməni dərsliklərindən tərbiyə almış adamlar tərəfindən törədilməsi qeyd olunurdu. Bu kitabların müəllifləri öz şagirdlərini bəşəriyyətə qarşı gələcək cinayətlərə sanki qabaqcadan proqramlaşdırırdılar. Adıçəkilən rus qəzetinin yazdığına görə, həmin dərsliklərdə Tanrının erməni xalqını sivilizasiyanı və xristianlığı yaymaq üçün vasitəçi seçdiyi vurğulanırdı. Yeri gəlmişkən, ümummilli liderimiz Heydər Əliyev bu məsələyə belə qiymət vermişdir: "Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhda böyüməsinə zəmin yaratmağı dövlət siyasəti səviyyəsinə qaldırır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına və milli qüruruna yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır".

1905-ci il mayın 11-də Bakıda erməni terrorçuları Qafqaz xalqları arasında dostluq əlaqələri yaratmağa təşəbbüs göstərən knyaz M. A. Nakasidzeni və Q. Takayşvilini qətlə yetirdilər. Həmin hadisə baş verən gün general Alixanov da öldürüldü. O dövrün məlumatlarına əsasən, qatillərdən biri "Dro" ləqəbli Drastamat Kanayan olmuşdu. Bu hadisələrdən əvvəl Dro Zəngəzur bölgəsində müxtəlif erməni quldur dəstələrinin tərkibində dinc insanlara – türklərə, kürdlərə, azərbaycanlılara qarşı qırğınlarda yaxından iştirk etmişdi. Dasnak terrorçuları tərəfindən qətlə yetirilənlər arasında qəza rəisləri Pavlov, Nessanski, Boquslavski, vitse-qubernator Andreyev, polkovnik Bukov və başqaları da vardı.

Ulu öndər Heydər Əliyevin azərbaycanlıların soyqırımı haqqında fərmanında qeyd olunur: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirirdilər. Onların Bakıdan başlanan vəhşilikləri Azərbaycan və indiki Ermənistan adlanan ərazidəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı qətlə yetirildi. Bunları törədən təşkilatlar hadisələrin açılmasına, ona düzgün hüquqi -siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişdilər".

Azərbaycan Xalq Cümhuriyyətinin fəallarından biri olan Mirzəbala Məhəmmədzadə 1920-ci il mayın 28-də müsavatçı adı ilə həbs olunur. Həbsdən azad edildikdən sonra İrana mühacirət edən M. Məhəmmədzadə bir müddət Ənzəli və Rəşt şəhərlərində yaşayır. O, 1923-cü ildə İstanbulda çap olunmuş "Yeni Qafqaz" dərgisində İran xatirələrini nəşr etdirir. Sonralar 1927-ci ildə İstanbula gedir, orada "Ermənilər və İran " adlı kitabını türk dilində çap etdirir. Müəllif faktlara istinad edərək daşnak partiyasının İrandakı işi və erməni millətçilərinin iddiasına görə onların ariyalılarla eyni irqdən olması və qan qohumluğu barədə bir sıra məsələlərə toxunurdu. M Məhəmmədzadə yazırdı ki, I Dünya müharibəsindən öncə bütün dünyada mövcud olan 3 milyon nəfər erməninin 1 milyon 100 mini Qafqazda, 100 mini İranda, 400 min nəfəri isə Türkiyədə yaşayırdı.

Daşnak partiyasının fəaliyyətinin Afinadan Tehrana köçürülməsi, Xoy, Təbriz, Rəşt, İsfahan və s. şəhərlərdəki fəaliyyəti, eləcə də Xoyda və Təbrizdə erməni kilsələrinin işi bir daha təsdiq edir ki, daşnaklar

İranda müstəqil Azərbaycan Cümhuriyyəti və Türkiyə əleyhinə müxtəlif təxribatlar həyata keçirməklə məşğul olmuşlar. Özlərini ariyalı iranlılarla bir irqdən bilib qan qardaşı adlandıran erməni daşnakları 1905-ci ilin fevral ayında Bakıda, Tiflisdə, Şuşada olduğu kimi, Cənubi Azərbaycanda da qırğınlar törətməkdən çəkinmirdilər.

1890-cı ildə Kristofor Mikailyan, doktor Jan Lorzis Məlikov, Simon Zavoryan və Konstantin Xatisyanın iştirakı ilə Tiflisdə daşnak partiyası yaradılır. Rəsmi orqanı "Drujaq" qəzeti olan daşnak partiyası 1907-ci ildə Vyanada özünün IV qurultayında bütün təşkilatlarına və üzvlərinə tapşırıq verərək hamını "erməni məsələsini" həll etmək üçün İranda gedən azadlıq hərəkatında fəal iştirak etməyə çağırırdı…

Yepremin atdığı güllə ilə Tehranın Atabəy parkında "sərdari-milli" ləqəbli Səttarxan ayağından yaralandı. Bir ildən sonra o, həmin yaradan vəfat etdi. Yeprem Tehran şəhərinin polis rəisi vəzifəsini ələ keçirdikdən sonra onun başçılığı altında yüzlərlə məşrutəçi azərbaycanlı türkü Atabəy parkında odlu silahla qətlə yetirildi. Yeprem başda olmaqla çar Rusiyasının qoşunu Rəştdən Qəzvinə basqın etdi. Rusların ultimatumu 1911-ci il dekabrın 1-də İran parlamentinin müzakirəsinə çıxarıldı. Müzakirənin gedişində çıxış edən Şeyx Məhəmməd Xiyabani israrla deyir ki, "biz öz əlimizlə istiqlaliyyətimizi özgələrə təqdim etməyə haqlı deyilik". Dekabrın 24-də İran parlamenti buraxılır və Səmsaus-Səltənə İranı çar Rusiyasının müstəmləkəsinə çevirən ultimatumu qəbul edir.

Sonralar Yeprem törətdiyi cinayətlər barədə belə qeyd edir: "1908-ci il fevralın 8-də Qiyas Nizami oğlu Nasir xanı müavini ilə birlikdə Qəzvində öldürdüm. Sonra onun fərraş başçısı Vəli xanı tapıb qətlə yetirdim. Qəzvindən 35 kilometr aralıda—Xurzan adlı yerdə erməni dəstəsilə birlikdə Şahsevənlərdən 58 nəfəri öldürüb, 46 nəfəri isə yaraladıq. Qəsdən qadınları öldürdük. Çünki onlar çadralarının altında silah daşıyırdılar. Uşaqları qəsdən öldürmədik. Onlar təsadüfü güllələrin qurbanı oldular". Qatı cani Yeprem daha sonra qeyd edir: "Aprelin 19-da 90 nəfərlik erməni dəstəsi ilə Qəzvinə hərəkət etdik. Qiyas Nizaminin 21 yaşlı oğlunu əsir götürdüm. Qəzvində 60-70 nəfəri öldürüb, 35 nəfəri yaraladıq. Sərdarı tutub güllələdim". Türk qanına susamış Yeprem 1908-ci il aprelin 18-də 7 nəfər erməni silahlısı ilə Şahsevənlərə hücum edib 8 nəfər kişi və bir qadını öldürdüyünü, Qəzvində isə kürd qəbilələrinin başçısı Qiyas Nizamini güllələdiyini bildirirdi. Yeprem 1908-ci il iyunun 24-də Tehran ətrafında – Qaratəpənin üç kilometrliyində Bəxtiyarilərdən 50-60 nəfərin öldürməsini lovğalıqla qeyd edirdi. Bu murdar xislətli şəxs quldur erməni dəstəsilə Tehranda Sipəhsalar məscidinə hücum etməsini və ordakıların qaçmasından da ağızdolusu söhbət açırdı. Daşnak quldurlarının Tehrandakı hərbi qərargahı erməni məktəb binasi idi. Erməni millətçilərinin "sədaqət" və "fədakarlığına" bel bağlayan İranın dövlət başçıları onlara xüsusi imtiyaz və üstünlüklər verirdilər.

Yeri gəlmişkən, ermənilərin Cənubi Azərbaycana ayaq açmaları rus imeratoru I Pyotrun hakimiyyəti dövrünə təsadüf edir. Belə ki, I Pyotr 1722-ci ilin noyabrında Gilanın mərkəzi şəhəri olan Rəştə hərbi dəniz donanması və ordu yeridir. Həmin qəsbkar yürüşdə rus ordusundan savayı, erməni hərbi dəstələri də iştirak edirdi. 1723-cü il iyulun 26-da rus və erməni birləşmiş qüvvələri Rəşti işğal edir. Çar I Pyotr Dağlıq Qarabağ məliklərinə İrana qarşı üsyana qalxmağa və özlərini müstəqil idarə etməyə şərait yaradacağını bildirir. Gülüstan, Coraberd, Xaçın, Vərəndə və Dizakın daxil olduğu Dağlıq Qarabağ məlikləri beş tayfadan ibarət idi. Hər tayfa başçısı fars sözü olan "məlik" (rəis ) ləqəbi ilə adlandırılırdı. 1730-cu ilə qədər həmin məliklərin varlığına son qoyulmuşdu. Bundan sonra ermənilər Dağlıq Qarabağa yiyələnmək üçün Rusiyaya əl açmışdılar. Çar Rusiyasının Qafqaz və İrana hücumları erməniləri öz məkrli planlarını həyata keçirməyə sövq edirdi.

1918-ci ildə rus qoşununun Cənubi Azərbaycanı işğal etməsindən sevinən ermənilər hərbi ordu hissələri yaradıb Maku, Xoy, Urmiyada qanlı qırğınlar törətdilər. Urmiya gölü ətrafında öldürülən və yandırılan azərbaycanlıların sayı olduqca çox idi. Ermənilər məşrutə hərəkatına qarşı xəyanət edib rus döyüşçüləri ilə birlikdə azərbaycanlı əhalinin qırılmasında və yandırılmasında yaxından iştirak edirdilər. Çar ordusunun Cənubi Azərbaycandan çıxdığını bilən ermənilər bərk qorxuya düşdülər. Ruslar ərazidən çıxarkən öz silahlarını təmənnasız olaraq ermənilərə verdilər. Seyid Əhməd Kəsrəvi bu hadisələri belə qeyd etmişdir: "Biz dedik ki, ürək dağlayan Urmiya dastanını ayrıca yazacağıq. Dey ayının 11-i (dekabrın 31-i) idi ki, ruslar Urmiyanı tərk etməyə başladılar. Onların ordusunun bir hissəsi sərhədə doğru geri çəkildi, sabahısı – ayın 12-də qalan qoşunlar da oranı tərk etdilər. Son 1-2 ay ərzində qan töküb talançılıq edən ermənilər qorxub Urmiyada qalmaq istəmirdilər. 10 minə yaxın kişi və qadın uşaqları ilə birlikdə əşyalarını yığıb tələsik şəhəri tərk etdilər. Onlar könüllü surətdə əcnəbilərdən aldıqları silahla yerli günahsız əhalinin qanını tökdülər. Lakin əsas sözümüz ermənilərin iranlılarla düşmənçilik mövqeyində durması idi. O adamlar ki, əsrlərlə İranda yaşayıb və onun

bütün nemətlərindən, rahatlıqlarından faydalanıb əcnəbilərin göstərişi ilə öz həmvətənlərinə düşmənçilik etdilər".

Özlərini ariyalılarla həmirq və qan qohumu adlandıran ermənilər Cənubi Azərbaycanın Urmiya, Xoy, Təbriz və Salmas şəhərlərində qanlı qırğınlar törətdilər. Erməni quldur dəstəsinin başçısı Ağa Petros, assurilərin rəhbəri Marsimon və digər şəxslər Salmasdan Urmiyaya gəldilər. Erməni dəstələri evlərə soxularaq talançılıq edir, evləri yandırırdılar. Toplarla şəhəri oda tuturdular. Seyid Əhməd Kəsrəvi yazır: "Onlar Urmiyada 500 evə od vurub yandırdılar, kişi, qadın və uşaqları öldürdülər. Belə zülm və vəhşilik heç bir əsrdə edilməmiş və heç bir qanunda görünməmişdi".

Urmiyada 15 minə qədər əhali yaşayırdı. Erməni quldurları təkcə bir gündə 1500 nəfər azərbaycanlını qətlə yetirdilər. Osmanlı qoşunu Urmiyaya gələnə qədər erməni qaniçənləri tərəfindən 10 mindən artıq soydaşımız öldürüldü. Bu qırğınlar haqda Seyid Əhməd Kəsrəvi yazır: "1918-ci ilin martında ermənilər qapıları sındırıb, evlərə girib azyaşlı qız uşaqlarını zorladılar, sonra onlarla bərabər kişiləri və qadınları öldürürdülər. Evlərindən qaçmağa müvəffəq olanları isə küçələrdə güllələyirdilər… Analar uşaqlarını qana boyanmış vəziyyətdə görürdülər. Bu dəhşətli hadisələri, vəhşilikləri insan artıq şərh edə bilmir". Ermənilərin törətdikləri kütləvi qırğında 10 min nəfərə yaxın azərbaycanlı öldürüldü, əhalinin mülkü, əmlakı ələ keçirildi. 1918-ci il iyunun 24-də quldur dəstə başçısı Andronik Ozanyanın silahlı dəstələri Xoy şəhərini mühasirəyə aldılar. Topları işə salaraq bir neçə evi dağıtdılar, günahsız insanları qətlə yetirdilər. Xalqın köməyinə çatan osmanlılar quldur Andronikin ordusunu geri çəkilməyə məcbur edirlər.

Ruslara sığınan daşnaklar və onun hərbi başçısı Pertos topxana və hərbi qrupları ilə Urmiyadan Salmasa hərəkət etdilər və burada çoxlu sayda insanın qanı axıdıldı. Andronik yenidən öz qüvvələrini qaydaya salaraq Xoya hücum etdi. Şəhərin müdafiəsinə qalxan xoylular ermənilərə ağır zərbə endirdilər.

1918-ci il iyunun 26-da Xalxaldan olan yaşlı kişi Mirməhəmməd Pişnamazın öz evində başını kəsib bədənini tikə-tikə etdilər. Rus və ingilis havadarlarına arxalanan ermənilər quldur Andronik Ozanyanın başçılığı ilə Urmiyada, Xoyda, Salmasada və Təbrizdə görünməmiş qırğınlar törətdilər. Ermənilərin misli görünməmiş azğınlıqlarına dözməyən Salmas və Urmiyanın kəndlərində yaşayan sakinlər evlərini tərk etməyə məcbur oldular.

Ermənilərlə farsların dil, irq və qan qohumluğu olduğunu İran alimi Pərviz Vərcəvəndin 1999-cu ildə Tehranda fars dilində nəşr etdirdiyi "İran və Qafqaz" ("aran şirvan") kitabında Andronik Hoyanın "Erməni mədəniyyəti ilə İran mədəniyyətinin uzun sürən həmişəlik bağlılıqları" yazısı (səh. 361-389) çap olumuşdur. O yazır: "Ermənilərin dili hind-Avropa dilinin bir şaxəsidir ki, fars dili ilə yaxın qohumluq əlaqələri vardır. Parfiya çarlığı dövründə iranlılar və ermənilər bir-birinin dilini başa düşürdülər. Hazırda pəhləvi lüğətləri erməni dilində müşahidə edilməkdədir. Andronikin kitabına görə ermənilərin təqvimi ilə farsların təqvimi eynidir." Bütün bunlar barədə amerikh tarixçi haqlı olaraq qeyd edir: "…Bura gələn ilk ermənilər fırıldaqçı, macəra axtaran olmuşlar. Onlar avantürist olmasaydılar, digər ölkələrdən ərazi qoparmaq xəyalında olub "böyük hayastan" yaratmaq fikrinə düşməzdilər". Erməni millətçiləri bu gün də İranda Azərbaycan dövlətinə qarşı təxribatlarını davam etdirirlər.

**Firudin CÜMŞÜDLÜ,**
**ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti,**
**tarix elmləri namizədi**

"**Xalq qəzeti**".-2014.-1 aprel.-N 63.-S.4.

## Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri

**Erməni millətçiləri XIX əsrin sonlarında – 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Qnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdılar. Bundan sonra, ermənilərin "Böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoydu. XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında qarşıya qoyduğu "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətlərini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirməyə başladılar.**

Beləliklə, 1905-1907-ci illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır.

Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqələrini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşlər. Ermənilər 200 mindən artıq azərbaycanlını (uşaq, qadın, qoca) fərq qoymadan qətlə yetirməklə, həmin ərazilərdə çar Rusiyasının onlara vəd etdiyi "Ermənistan dövləti"ni qurmaq üçün etnik təmizləmə aparmışlar.

1917-ci ildə Rusiyada baş verən fevral və oktyabr hadisələrindən sonra "Daşnaksütyun" partiyası və Erməni Milli Konqresi daha geniş fəaliyyətə başladı. İlk addım kimi özlərini Qafqazda bolşevik hakimiyyətinin qanuni nümayəndələri hesab edən maskalanmış daşnaklar, əsasən, Türkiyədən qaçıb gələn erməniləri silahlandıraraq sovet hakimiyyəti qurmaq adı altında Bakıda hakimiyyəti ələ keçirdilər. Lenin tərəfindən 1917-ci ilin dekabrında Qafqaza fövqəladə komissar təyin edilən daşnak Stepan Şaumyan azərbaycanlıların kütləvi qırğınının təşkilatçısı və rəhbərinə çevrildi.

Erməni silahlı qüvvələri tərəfindən 1917-ci ilin əvvələrindən 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197 kənd, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılmış, digər bölgələrdə 60 yaşayış məskəni məhv edilmiş, yandırılmış və viran qoyulmuşdur.

1918-ci ilin əvvələrində, yəni mart qırğını ərəfəsində bilavasitə Şaumyana tabe olan erməni silahlı qüvvələrinin sayı 20 minə yaxın idi. Bolşeviklərin, o cümlədən Leninin himayəsi altında Şaumyan Bakı Kommunasının rəhbəri oldu və onun başçılığı ilə 1918-ci ilin martında ermənilər tərəfindən dinc azərbaycanlılara qarşı əsl soyqırımı törədildi.

Elə həmin il martın 30-da erməni-bolşevik birləşmələri Bakı şəhərini gəmilərdən atəşə tutdular. Bunun ardınca isə silahlı daşnaklar azərbaycanlıların evlərinə hücum edərək amansız qətllər törətdilər. Martın 31-də və aprelin ilk günlərində qırğınlar kütləvi xarakter aldı. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edildi. Həmin günlərdə erməni-bolşevik birləşmələri Bakıda 12-15 min dinc azərbaycanlını qətlə yetirdi. Bu qanlı hadisələr zamanı insanlar evlərində diri-diri yandırılmış, eləcə də xüsusi işgəncələrlə və amansızlıqla öldürülmüşlər.

1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan xüsusi qəddarlıqla qətlə yetirilmiş, 162 kənd dağıdılmışdır ki, onlardan 35-i hazırda mövcud deyil.

Erməni-daşnak dəstələrinin Quba qəzasında azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilmələrini aşkar edən faktlar son vaxtlar bir daha sübuta yetirilmişdir. Belə ki, tapılmış saysız-hesabsız insan sümükləri bu qırğınlar zamanı erməni vandalizmini təsdiqləyən əyani faktlardır. Artıq bunların 1918-ci ildə erməni silahlı birləşmələrinin Qubaya basqını zamanı qəddarlıqla qətlə yetirilmiş və sonradan kütləvi şəkildə basdırılmış yeni sakinlərə məxsus olduğu müəyyən edilmişdir.

Bundan əlavə, Azərbaycanın yüzlərlə yaşayış məntəqəsi, o cümlədən Qarabağda 150-dən çox kənd dağıdılmış və yandırılmış, eləcə də Şuşada azərbaycanlılara qarşı amansız qırğınlar törədilmişdir.

Ümumilikdə, erməni daşnakları tərəfindən 1918-ci ilin mart-aprel aylarında 700 mindən çox azərbaycanlı, o cümlədən Bakıda və ətraf kəndlərdə 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Eyni zamanda, Zəngəzur qəzasında 10 min, Şamaxı qəzasında (şəhərlə birlikdə) 16 min, İrəvan quberniyasında 132 min azərbaycanlı amansızlıqla öldürülmüşdür.

1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşamış 525 min azərbaycanlının 565 min nəfəri öldürülmüş və ya doğma torpağından didərgin düşmüşdür. Bu rəqəmi Z.Kirokodyan özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında təsdiq edərək yazır ki, "1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur".

Bu dövrdə Quba qəzasında 122, Şamaxı qəzasında 72, Zəngəzur qəzasında 115, Qarabağda 157, İrəvan quberniyasında 211, Qars vilayətində 92 yaşayış məntəqəsi yandırılmış, dağıdılmış və talan edilmişdir. 1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmişdir.

Azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınlar Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində yüz minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilmiş, bir milyondan çox əhali öz doğma torpaqlarından didərgin salınmışdır. Tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən bu vəhşiliklər törədilərkən məktəblər, məscidlər yandırılmış, maddi-mədəniyyət nümunələri məhv edilmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra fövqəladə istintaq komissiyası yaradılmış və ermənilərin törətdikləri bu cinayətlər araşdırılmağa başlanmışdır. Hökumətin qərarı ilə hər il (1919 və 1920-ci il martın 31-də iki dəfə ümummilli matəm günü kimi qeyd edilmişdir) mart ayının 31-i matəm günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi.

"Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara və türklərə qarşı dəhşətli terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Belə ki, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər.

Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan köçürülmə prosesi bütün XIX əsr boyunca davam etdirilmiş və nəticədə regionda demoqrafik vəziyyətə təsir göstərmişdir. Ermənilərin bu bölgədə süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin baş qaldırmasına səbəb olmuşdur.

Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-nin ərazisi elan etdilər. Sonrakı dövrlərdə isə bu ərazilərdə tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirdilər. Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə XIX əsrdə köçürülən ermənilərə 1923-cü il iyunun 7-də muxtar vilayət statusu verildi ki, bu da Sovet Rusiyasının himayəsi və iştirakı ilə həyata keçirildi. Bu hadisə təkcə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması deyil, həm də ermənilərin ölkəmizə qarşı gələcək ərazi iddiaları üçün bir vasitə oldu.

Sovet dövründə Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan erməni icması bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan öz ərazi iddialarını bir neçə dəfə ortaya atmış, ancaq istəyinə nail ola bilməmişdir.

Lakin, bunun əvəzində 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarına əsasən 1948-53-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması nəticəsində 150 minə yaxın soydaşımız zorakılıqla Azərbaycanın aran rayonlarına köçürülmüşdür.

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün "aşkarlıq və demokratiyadan" istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. SSRİ-nin süqutu ərəfəsində Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistanla birləşməyin zəruriliyinə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət buna nail olmaq üçün Dağlıq Qarabağdan 50

min azərbaycanlını soyqırımı və təcavüzə məruz qoyub didərgin salmış, eləcə də Ermənistandan 250 min azərbaycanlını tarixən yaşadığı torpaqlardan zorakılıqla deportasiya etmişdir.

XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Dünya tarixində Xocalı faciəsi tarixi yaddaşlardan heç vaxt silinməyən Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Xolokost kimi dəhşətli faciələrdən heç də geri qalmır. Adıçəkilən hadisələr müharibələr tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və bütün dünyada geniş əks-səda doğurmuşdur.

Bu soyqırımı nəticəsində rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdü ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. 8 ailə tamamilə məhv edilmişdi. 487 nəfər şikəst olmuşdu ki, onlardan da 76-sı uşaqdır. Bundan əlavə, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə, ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Bununla yanaşı, ümummilli liderin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərman Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması deyil, eləcə də erməni şovinizmi və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir.

Hazırda bu proses Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq beynəlxalq təşkilatların qəbul etdiyi bir sıra sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilmişdir.

Münaqişənin nizama salınması prosesində Azərbaycan dövləti və onun başçısı cənab İlham Əliyev ilk növbədə sülh variantına üstünlük verir. Lakin Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu və bunun beynəlxalq hüquq normaları ilə təsdiq etdiyini vurğulamışdır.

Dövlət başçısı martın 19-da Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirakı zamanı Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi, bizim tarixi, əzəli torpağımız olduğunu bir daha bəyan edərək vurğulamışdır: "Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır, yaratmışdır. Dağlıq Qarabağda bütün toponimlər Azərbaycan xalqının mədəniyyətini, tarixini əks etdirir. Nəinki Dağlıq Qarabağ, eyni zamanda, indiki Ermənistanın böyük bir hissəsi qədim Azərbaycan torpaqlarıdır.Tarixi ədalət, beynəlxalq hüquq pozulub. Çünki bütün dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və Azərbaycanın ərazi bütövlüyü bu məsələnin həllində əsas rol oynayacaqdır. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ölkələrin ərazi bütövlüyü ölkələrin razılığı olmadan dəyişdirilə bilməz. Bu, beynəlxalq hüququn əsas baza prinsipləridir və Helsinki Yekun Aktında məhz bu prinsiplər əsas götürülmüşdür".

Dövlət başçısı Ermənistanın faşist dövlət, onların milli ideologiyasının faşizm, ayrı-seçkilik, millətçilik olduğunu bildirərək qeyd etmişdir: "Tarixin gedişatı, bizim demoqrafik inkişafımız, iqtisadi potensialımız bunu deməyə əsas verir ki, Azərbaycanın milli bayrağının Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyildir".

**Elçin ƏHMƏDOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti,**
**"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi**
**Qarabağ Araşdırmalar Mərkəzinin müdiri**

**"Xalq qəzeti".-**2014.-3 aprel.-N 65.-S.5.

## Elektron kitablar

### Azərbaycan dilində

**Aşırlı, Akif**. Türkün Xocalı soyqırımı / A. Aşırlı; red. Ə. M. Həsənov.- Bakı: Nurlan, 2005. - 152 s.

**Abışov Vaqif Şirin oğlu.** Azərbaycanlıların soyqırımı : (1917-1918-ci illər) /V.Abışov; elmi red.: H.S.Əzimov, İ.S.Məmmədov.- Bakı: Nurlan, 2007.- 176 s

**Arzumanlı, Vaqif, Mustafa, Nazim.** Tarixin qara səhifələri: Deportasiya. Soyqırım. Qaçqınlıq */ V. Arzumanlı, N. Mustafa.- B.: Qartal, 1998.- 218 s.*

**Çavçavadze, İ. Q.** Erməni alimləri və fəryad edən daşlar */ İ. Q. Çavçavadze; tərc. V. Quliyev; red. S. Ağayev- B.: Azərbaycan nəşriyyatı, 1995.- 34 s.*

**Əliyev, Mirzə Bağır.** Qanlı günlərimiz: 1918-1920, Naxçıvan /M.B.Əliyev; tərt. T. Quliyev; elmi red. H.Əlibəyli.- Bakı: Azərnəşr, 1993.- 142 s.

**Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik"** /"Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxana; red. heyəti: F. Babayev [et al.]; red. M. Babayeva.- Bakı: Əbilov, Zeynalov və oğulları, 2006.- 472,[29] s.

**Xocalı, Allahyar.** Vətən ağrısı, torpaq yanğısı /A. Xocalı.- Bakı: «Azərbaycan» nəşriyyatı, 1993.-72 s.

**Xəlilqızı, Əsli.** Güllələnmiş uşaqlıq / Ə. Xəlilqızı; red. M. Nazimoğlu.- B.: Çaşıoğlu, 2007.- 295 s.

**Kəngərli, Qulu.** Qara Yanvar şəhidləri / Q. Kəngərli.- Bakı: Gənclik, 1992.- 312 s.

**Qlinka, S.N.** Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri / S. N. Qlinka; tərc.V. Quliyev; red. S. Ağayev.- B.: Azərbaycan nəşriyyatı, 1995.- 128 s.

**Məmmədova, Həvva.** Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: erməni terrorizminin güclənməsi: 1918-1920 / H. Məmmədova; elmi red. A. İsgəndərov; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- B.: Nağıl evi, 2006.- 150,[2] s.

**Mehdiyev, Ramiz.** Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri /R. Mehdiyev; məsul red. F. Abdullazadə.- Bakı, 2000.- 68 s.

**Mayevski, V.** Qafqazda erməni-tatar qırğını erməni məsələsinin mərhələlərindən biri kimi */ V. Mayevski; tərc. V. Quliyev; red. S. Ağayev.- B.: Azərbaycan, 1995.- 16 s.*

**Pompeyev, Yuri Aleksandroviç.** Qarabağ qan içində / Y. A. Pompeyev; tərc. Z. Mustafayev; red. İ. Ö. Vəliyev. - Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1996. - 160 s.

**Rusiyanın Ərzurumdakı baş konsulu Mayevskinin qeydləri/** tərc. V. Quliyev; red. S. Ağayev.- B.: Azərbaycan nəşriyyatı, 1995.- 13 s.

**Soyqırım cinayəti** (Beynəlxalq aktlar, normativ sənədlər, müraciətlər və şərhlər toplusu) / bur. məsul N. Abdullayev; red. H. İsgəndərov.- Бакы: CBS Poliqrafiya, 2010.- 87 s.

**Vandalizm: tarixi adlara qarşı soyqırımı** / AMEA A. A. Bakıxanov adına Tarix İnstitutu; tərt. N. Mustafa; elmi red. E. Məhərrəmov.- B.: Təhsil, 2006.- 92 s.

### На русском языке

**Асадов, Сабир Джалал оглы.** Миф о "Великой Армении": монография /С.Дж.Асадов; науч. ред. Т.Бунятов.- Баку: Изд-во Азербайджан, 1999.- 280 с.

**"Армянский геноцид": миф и реальность**: справочник фактов и документов /пер. с англ. З.Агаев; ред. Э.Агаев, С.Султанова.- Баку: Азернешр, 1992.- 341 с.

**Аракелов, Роберт Кароевич.** Нагорный Карабах: виновники трагедии известны /Р.К.Аракелов; ред. Т.Г.Садыхова.- Баку: Шарг-Гарб, 1991.- 92 с.

**Аракелов, Роберт.** Карабахская тетрадь /Р.К.Аракелов; ред.: Э.Ахундова, Э.Гусейнова.- Баку: Азернешр, 1995.- 136 с.

**Алиев, Играр Габиб оглы.** Нагорный Карабах: История. Факты. События /И.Г.Алиев; Институт Истории АН Азербайджанской ССР.- Баку: Элм, 1989.- 104 с.

**Беженцы: 1918-1920, 1948-1952, 1988-1989** /сост. Идаят; ред. Р. Пашабекова.- Баку: Гянджлик, 1992. - 448 с.

**Дашдамиров, Фикрет Габиб оглы.** Армянский терроризм и сепаратизм: “Покровители и двойной стандарт”. /Ф.Г.Дашдамиров.- Баку: Гянджлик, 2005.- 56 с.

**Дашнаки: из материалов департамента полиции** /сост. Б. Гаибов.- Баку: Коммунист, 1990.- 40 с.

**Исторические факты о деяниях армян на Азербайджанской земле**: сборник /ред.-сост. Т.Мусаева, А.Мамедов.- Баку: Нурлан, 2003.- 358 с.

**Историческая география Западного Азербайджана** /сост. С.Асадов; науч. ред. Б.Будагов.- Баку: Изд-во Азербайджан, 1998.- 560 с.

**Мехтиев, Рамиз.** Реалии геноцида Азербайджанцев /Р.Мехтиев ; отв. ред. Ф.Абдуллазаде.- Баку, 2000.- 34 с.

**Нуриев, Джумшуд.**Тайны истории фальсификации / Дж. Нуриев, Ш. Нуриева ; ред.: М. Беккер, Н. Ашрафова. - Баку : б. и., 2010. - 262 с.

**Преступления армянских террористических и бандитских формирований против человечества: XIX-XXI вв.**: краткая хронологическая энциклопедия /сост.: А.Мустафаева [и др.]; конс.: Б.Набиев.- Баку: Элм, 2002.- 395 с.

**Султанов, Чапай Али оглы.** Нашествие. Кн. 2. /Ч.А.Султанов.- 2-е изд., доп.- Баку: Нафта-Пресс, 2004.- 562 с.

**Хроника НКАО: февраль 1988 - февраль 1990** /отв. за вып. Т.Н.Зульфугаров.- Баку: Коммунист, 1990.- 41 с.

**Ходжалы** : хроника геноцида /сост. Э.Ахундова; ред.: С.Рустамханлы, Ч.Алиоглы.- Баку: Азернешр, 1993. - 144 с.

**Халилов, Аслан Хасы оглы.** Геноцид против мусульманского населения Закавказья в исторических источниках /А.Х.Халилов; ред. С.Ахвердиева.- Баку: Азернешр, 2000.- 166 с.

**Церцвадзе, Феликс Эрастович.** Армения и Нагорный Карабах: Формирование мифов / Ф. Э. Церцвадзе. - Нью-Йорк : б. и., 2005. - 132 с.

**Церцвадзе, Феликс Эрастович.** Забытый геноцид / Ф. Э. Церцвадзе. - Нью-Йорк : б. и., 2005. – 132 с.

## In English

**Armenian nazism − two interpretations** / trans. G. Bairamov; comp. N. Ibrahimov; ill. N. Babayev.- Baku: Azerbaijan, 1994.- 24 p

**Aliyev, Jalal Alirza oglu.** Turks, Azerbaijanians, armenians: genocide of historical truth /J. A. Aliyev, B. A. Budagov; trans. A. Efendiyev; ed. Z. Mahammadoglu.- Baku: Azerbaijan, 2003.- 72 s.

**Historical facts vs. the Armenian myths** / Author of the proj. E. Suleymanov; edit. R. Sevdimaliyev .- Baku: “Apostrof“ Publishing House, 2010.- 31 p.

**Historical facts of armenia’s actions in Azerbaijan land: collection** /ed.-comp. T. Musayeva, A. Mammadov.- Baku: Nurlan, 2003.- 58 p.

**Khalilgizi, Asly.** Shot through childhood /A. Khalilgizi; ed. M. Nazimoghlu; trans. A. Gorina.- Baku: Chashioghlu, 2007.- 102 p.

**Muslum, Sariyya.** Khojaly is not dead /S. Muslum; trans. A. Aghabeyli; ed. M. Nazimoghlu.- Baku: Chashioglu, 2007.- 143 p.

**Muslum, Sariyya.** I’ll die without hope /S. Muslum; trans. A. Agabayli; ed. S. Babayev.- Baku: Azerbaijan University Press, 2001.- 54 p

**Mehdiyev, Ramiz.** The reality of the genocide of Azerbaijan people /R. Mehdiyev; ed. F. Abdullazade.- Baku, 2000.- 29 p.

**Mammadova, Havva.** Khojaly: martyrs and witnesses: armenian terrorism as an integral part of the international one /H. Mammadova; trans. J. A. Aliyev ; ed. V. N. Rahimova.- Baku: House of Tales, 2006.- 248 p.

**Sultanov, Chapay Ali oglu.** The last blow from the Empire: Baku, 20 January, 1990 / C.A. Sultanov.- Baku: Nafta-Press, 2004. - 272 p.

**Tsertisivadze, Felix.** The forgotten genocide /F. Tsertisivadze; trans. N. A. Ohotin.- New York, 2005.- 128 p.

**Vandalism: genocide against the historical names** /History Institute named after Bakikhanov A.A. Azerbaijan National Academy of Sciences; trans.: S. Almammadova, A. Aghabayova; comp. N. Mustafa; ed. E. Maharramov.- Baku: Tahsil, 2006.- 96 p.

**Weems, Samuel A.** Armenia: Secrets of a “Christian” Terrorist State /S.A.Weems.- Dallas: St. John Press, 2002.- 76 p.

**Мархулия, Гурам.** Армяне в поисках Армении / Г. Мархулия; ред. Б.Е.Кварацхелия.- Тбилиси: «Универсал», 2010.- 232 с.

## Biblioqrafiya

MƏQALƏLƏR

**2004-cü il**
**2005-ci il**
**2006-cı il**
**2007-ci il**
**2008-ci il**
**2009-cu il**
**2010-cu il**
**2011-ci il**
**2012-ci il**
**2013-cü il**
**2014-cü il**

## 2004-cü il

**Qurbanlı, Əsəd**. Deportasiyanı doğuran şərait və səbəblər :1948-1953 // *Dircəliş-XXI əsr.* - 2004.-2005. – 2005.- №82-83. - S. 135 . - Məcburi köcürülmə siyasəti.

**Hüseynli, İxtiyar**. Azərbaycan erməni məsələsi : bu barədə nə bilirik ? : Tarix elmləri doktoru, professor Həsənbala Sadıqov : "Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımdan xəbərdar olmayan dövlət yoxdur, sadəcə ona əhəmiyyət verməyən dövlətlər var" // *Azərbaycan*. - 2004.-25 avqust. - № 197. - S. 4.

**Həbiboğlu, V.** Azərbaycanlıların soyqırımı // *Dirçəliş - XXI əsr* . - 2004. - № 77. - S. 242.

**Səfərli, G** Soyqırım siyasətinin tarixi həqiqətləri // *Qanunçuluq*. - 2004. - № 3. - S. 81

* * *

**Наш народ, история не забудут геноцид Азербайджанцев, светлая памят жертв трагедии всегда будет жить а сердцах:** Президент Азербайджана Ильгам Алиев посетил шехидляр хиябаны // 2004. - 2 апрель.-№81. - С. 1.

## 2005-ci il

**İsmayılqızı, Xuraman**. Xocalı soyqırımı: bütün köçkünlər kimi Xocalı sakinlərinin də qəlbini ağrıdan el-obasından, doğma Qarabağından ayrı düşməsidir // *İki sahil*. - 2005. - 11 fevral.- №27. - S. 3.

**İsmayılova, V.** Tarix azərbaycanlıların soyqırımına görə erməniləri ittiham edir: ulu öndərimizin təşəbbüsü ilə parlament tərəfindən siyasi qiymətini alan Xocalı faciəsinin günahkarları beynəlxalq tribunaya verilməlidir // *Azərbaycan*. - 2005. - 22 fevral №41. - S. 3.

**Əhməd, R.** Ermənistan Xocalı soyqırımına görə mütləq cavab verəcək : Vəfa Quluzadə: "Dağlıq Qarabağ münaqişəsinin həlli vaxtı yaxınlaşır." // *Yeni Azərbaycan*. - 2005. - 22 fevral.- №34. - S. 1.

**ABŞ Konqresində Xocalı soyqırımı ilə bağlı məsələnin qaldırılması Azərbaycan diplomatiyasının uğurudur** // *Dirçəliş-XXI əsr*. - 2005. - 23 fevral.- №42. - S. 3.

**Oljas Süleymanov: "**20 Yanvar faciəsinə və Xocalı soyqırımına heç cür haqq qazandırmaq olmaz" // *Xalq qəzeti*. - 2005. - 23 fevral.- №42. - S. 3.

**Xocalı soyqırımı Türkiyə Böyük Millət Məclisində müzakirə ediləcəkdir** // *Azərbaycan*. - 2005. - 23 fevral.- №42. - S. 1.

**Xocalı soyqırımının ildönümü münasibətilə Azərbaycan xalqına müraciət** // *Xalq qəzeti*. - 2005. - 24 fevral.- №43. - S. 1.

**Sultanova, Aganisə**. Yeni Azərbaycan Partiyası Xocalı soyqırımı ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb // *Yeni Azərbaycan*. - 2005. - 24 fevral.- №36. - S. 3.

**Qasımov, Vaqif**. Xocalı soyqırımı : XX əsrin ən amansız, ən qəddar soyqırımından 13 il keçir // *Xalq qəzeti*. - 2005. - 25 fevral.- №44. - S. 3.

**Piriyev, Mais**. Bəşəriyyət Xocalı soyqırımına biganə qalmamalıdır : soyqırımı anma mərasiminə bəzi səfirliklər etinasızlıq göstərirlər // *Yeni Azərbaycan*. - 2005. - 26 fevral.-№38. - S. 1.

**Sultanova, Ağanisə**. Dünya azərbaycanlıları Xocalı soyqırımını anır // *Yeni Azərbaycan*. - 2005. - 26 fevral №38. - S. 3

**Kazımov, Seymur**. Xocalı soyqırımı : XX əsrin al qana boyanmış səhifəsi // *525-ci qəzet*. - 2005. - 24 fevral.- №36. - S. 2.

**Rzayev, Tural**. Köcəryan bələdiyyəsi Xocalı soyqırımını rəsmən tanımışdır // *Xalq qəzeti*. - 2005. - 10 mart.- №54. - S. 2.

**Gündüz.** Andreo Manqo:"Ermənilər qondarma soyqırımı milli əfsanəyə çeviriblər" : İngilis tarixçisinin fikrincə,ermənilər Azərbaycanda törətdikləri faciələri ört-basdır etmək üçün dünya ictimaiyyətinin diqqətini"soyqırım"la bağlı məsələyə yönəltmək istəyirlər // *525-ci qəzet*. - 2005.-15 mart . - №48. - S. 1.

**Rəhimli, Əkrəm**. Güney Azərbaycanda ermənilər tərəfindən türklərin soyqırımı // *Respublika*. - 2005. - 16 mart.- №59. - S. 6.

**Abbasov, İlham**. Ermənilərin törətdikləri soyqırım cinayətləri *// Xalq qəzeti*. - 2005. - 24 mart.- №65. - S. 4.

**İsayev, Əhməd**. 1905-ci ildə Gəncədə nələr olub? (31 mart Azərbaycanlıların soyqırımı günüdür) : faktlar, sənədlər, xatirələr *// Azərbaycan*. - 2005. - 24 mart.- №65. - S. 6.

**Aşırlı, Mübariz**. "200 illik müddət ərzində ən çox soyqırıma məruz qalmış xalqıq" *// Şərq*. - 2005. - 26 mart.- №56. - S. 6.-Tarıx İnstitutunun direktoru, tarix elmləri doktoru Yaqub Mahmudovla müsahibə.

**Mustafa, Nazim**. 1905-1906-cı illərdə İrəvan Quberniyasında azərbaycanlıların soyqırımı *// Xalq qəzeti*. - 2005. - 27 mart №68. - S. 4.- №68.-S.4.

**Dünya ictimaiyyəti ermənilərin Azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı siyasətinə, etnik təmizləmə, deportasiya və terror cinayətlərinə biganə qalmamalıdır** *// Azərbaycan*.- 2005.- 29 mart.- №69.- S.5.

**Həsənov Ü**. Azərbaycanlıların soyqırımını dünya qəbul etməlidir: Prezident Heydər Əliyevin 31 Mart- Azərbaycanlıların soyqırımı günü ilə bağlı 26 mart 1998-ci il tarixli fərmanı dünya azərbaycanlılarının erməni terrorizminə dair strateji vəzifələrini müəyyən etdi *// İki sahil*.- 2005.- 29 mart.- №57.-S.7.

**Mehdiyev, Ramiz**. Tarixi ədalətin bərpası naminə atılmış mühüm addım : "Azərbaycanlıların soyqırımı haqqında" yeddi il əvvəl imzalanmış Prezident fərmanı Azərbaycan xalqının haqq səsi, ədalət harayıdır *// Respublika*. - 2005. - 29 mart.- №69. - S. 3.

**31 Mart Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciət: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti** *// Xalq qəzeti*. - 2005. - 30 mart №70. - S. 1.

**Günel.** "Azərbaycanda hələ də soyqırım muzeyi yoxdur" *// 525-ci qəzet*. - 2005. - 30 mart.- №58. - S. 3. - Qeyd: M.F. Axundov adına Milli Kitabxanada Dünya azərbaycanlıları Konqresinin (DAK) Qadınlar Şurasının təşəbbüsü ilə "31 mart azərbaycanlıların soyqırımı günüdür" mövzusunda toplantı keçirildi.

**Səmədzadə, Ziyad**. 31 mart-Azərbaycanlıların soyqırımı günüdür : terrorizm və qanlı ləpirlər: rəsmlərdə döyünən narahat ürək *// İqtisadiyyat*. - 2005. - 25-31 mart.- №12. - S. 11.

**Bəşirqızı, Zərifə**. Azərbaycanlıların soyqırımına həsr edilmiş konfrans *// Xalq qəzeti*. - 2005. - 31 mart.- №71. - S. 4 .

**Əliyev, Rəhim**. Tarix soyqırımının ideoloqlarını və təşkilatçılarını nifrətlə damğalayır *// Xalq qəzeti*. - 2005. - 31 mart.- №71. - S. 5. - 31 Mart Azərbaycanlıların soyqırımı günüdür.

**Mirzəbəyli, İttifaq**. 1918-ci il soyqırımı Şamaxıda daha qəddarlıqla icra edilmişdi *// Xalq qəzeti*. - 2005. - 31 mart.- №71. - S. 6.

**Sadıqov, Həsənbala**. Ermənilərin 1918-1920-ci illərdə Azərbaycanda törətdikləri qırğınlar həqiqi mənada soyqırımdır. *//Azərbaycan*.-2005.-31mart.-№71.-S.4.

**Soyqırımı qurbanlarının əziz xatirəsi qəlblərdə daim yaşayacaq: Şəhidlər Xiyabanını ziyarət** // Xalq qəzeti. - 2005. - 1 aprel.- №72. - S. 2 . - Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər Şəhidlər Xiyabanını ziyarət etmişlər.

**Quliyev, Nurbala**. 1918-ci il Dəvəçi soyqırımı // *Xalq qəzeti*. - 2005. - 1 aprel.- №72. - S. 3

**İsgəndərov, Anar.** 1918-1920-ci illərdə türk-müsəlman soyqırımları // *Azərbaycan*. - 2005. - 1 aprel.- №72. - S. 4.

**Vyanada etiraz aksiyası:** Azərbaycanliların soyqırım gününə həsr olunmuş // *İki sahil*. - 2005. - 5 apr.-el №62. - S. 4.

**Nəbiyev , Azad**. Quba soyqırımı, yaxud ruhların kəsilməyən fəryadı // *Azərbaycan*. - 2005. - 23 aprel №91. - S. 6.

**İmanov, Vahid, Əliyev, R.** Soyqırım, erməni vəhşilikləri, yoxsa terrorizmə qarşı sultan fərmanı? // *Xalq qəzeti*. - 2005. - 24 aprel.- №92. - S. 5 . - XIX əsrin sonunda ermənilərin təşkilatlanması çox sürətlə aparıldı.1872-ci ildə "Böyük Ermənistana doğru", "Gənc Ermənistan", "İttihad və hamas" cəmiyyətləri, 1980-cı ildə "Qara xaç" cəmiyyəti, 1887-ci ildə" Hinçaq", 1890-cı ildə Daşnaksütun Partiyası (Ramqavor) və s. yaradıldı.

**Məmmədov, Səbuhi**. Buş bu dəfə də "soyqırımı" demədi: ABŞ Prezidenti Türkiyə ilə münasibətləri daha üstün tutdu. // *Xalq qəzeti*. - 2005. - 26 aprel №93. - S. 2

**Aydınoğlu, R., Kavtuaşvili M.** Stalindən acı miras: Vətənə aparan uzun və ağır yol // *Ayna*.- 2005.-14 may.-2.

**Faktlar Kanada deputatlarına təqdim edilib**: Azərbaycanlıların soyqırımı ilə bağlı // *İki sahil*. - 2005.-17 may. - S.1.

**Əbdülrəhmanlı, Nəriman**. Tarix saxta soyqırıma qarşıdır: "Bu tarix düzgün danışılmayıb" // *525-ci qəzet*. - 2005.-25 iyun. - S.34.

**Xocalı soyqırımı** // *Dirçəliş- XXI əsr*. - 2005.-№ 84-85. - S.50-58. . - Azərbaycanlıların soyqırımı.

**Xocalı soyqırımı: informasiya savaşında qalib gəlməliyik** // *Dirçəliş- XXI əsr*. - 2005.-№ 84-85. - S.59-63. . - Qeyd: Azərbaycanlıların soyqırımı.

**İsmayıl, Eldar**. Ermənistan türklərinin 1988-ci il soyqırımı // *İrəvan* . - 2005.-10-16 iyul. - №21. - S. 14 .

**Ağayev, A.** Almaniya Bundestaqına "yox": Soydaşlarımız "soyqırımı" qərarına etiraz aksiyalarına başlayıb // *Kaspi*. - 2005.-1 iyul. - №123. - S. 2

**İbrahimov, Cəlal**. Ermənilərin türk millətinə qarşı törətdikləri soyqırım // *Yeni Azərbaycan*. - 2005.-29 iyul. - №144. - S. 9 .

**İsgəndərov, Anar**. 1918-1920-ci illərdə türk-müsəlman soyqırımı // *Mədəni - maarif*. - 2005. - №6. - S. 24-29 . – 1918-ci ildə türk-müsəlman əhalisinə qarşı törədilən cinayətləri üzə çıxarmaq Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra mümkün olmuşdur.

**Piriyev, Mais**. Köçəryan Beynəlxalq Tribunala verilə bilər: Xocalı şəhərinin işğalı faktı üzrə cinayət işi bərpa edilib // *Yeni Azərbaycan*. - 2005.-5.- avqust. - №149. - S. 1-5 .

**Dərbənd azərbaycanlılarına qarşı təxribatlar hazırlanır: Ermənilərin fitvasıyla soydaşlarımız deportasiya oluna bilər** // *Xalq cəbhəsi*.- 2005.-10 avqust.-№396.- S.6.

**Gültəkin**. Azərbaycanlılar Rusiyadan niyə deportasiya olunur? Mais Səfərli: "bu cür təzyiqlərlə üzləşənlər qeydiyyatı olmayan şəxslərdir" "Rusiya ilə Azərbaycan arasında viza sistemi hələlik tətbiq olunmadığından kimin sənədləri qaydasındadırsa, bu ölkəyə gedə bilər" // *Xalq cəbhəsi*.- 2005.-1 sentyabr.- №410.-S.7.

**Budaqov B**. Azərbaycanlıların deportasiyası amansız bir aksiya idi // *İrəvan*.- 2005.- 4-10 sentyabr.- №29.-S.15.

**Səid.** Avropa İttifaqı Türkiyədən Ermənistanla sərhədi açmağa tələb edir: Xristian Demokratları fraksiyası layihəyə qondarma erməni soyqırımını tanınması məsələsini də daxil etməyə cəhd göstərir // *Xalq cəbhəsi*. - 2005.-23.- sentyabr. - №419. - S. 9.

**Cəfərli E**. Borçalı həqiqətləri və ağrıları: Soydaşlarımızın deportasiya təhlükəsi realdı // *Olaylar*.- 2005.-6 oktyabr.- №192.-S.5.

**Ziyadova T**. Borçalı əldən gedir: Orada yaşayan soydaşlarımıza qarşı əsl deportasiya siyasəti yürüdülür // *Həftə içi* .- 2005.-8-10 oktyabr.- №193.-S.1-2.

**İsmayıl , Eldar**. Ermənistan türklərinin 1988-ci il soyqırımı // *İrəvan* . - 2005.-16-22 oktyabr.- №35. - S. 15 .

**İsmayıl, Eldar.** Ermənistan türklərinin 1988-ci il soyqırımı // *İrəvan* . - 2005.-27 noyabr-3 dekabr. - N39. - S. 15 .

**Paşayev, Ataxan**. Türksoylu millətlərə qarşı soyqırımların təşkilatçıları- millətçi erməni partiyaları // *Xalq qəzeti*. - 2005.-7 dekabr. - №283. - S. 4 .

**Bəhruz**. Dünya azərbaycanlılarının ikinci qurultayı gələn il keçiriləcək: Dövlət komitəsi qurultaya hazırlıq işlərini başa çatdırmayıb // *Üç nöqtə*, 2005.-9 dekabr.- №235.-S.2.

**İlhamə**. Qərbi azərbaycanlılar prezidentə müraciət etdi // *Aydınlıq*.- 2005.-17 dekabr.- №45.-S.11.- Qərbi Azərbaycanlıların deportasiyası məsələləri barədə.

**Vüqar Orxan.** Tarixçiləri "erməni soyqırımı" ideyasına qarşı // 525-ci qəzet. - 2005.-20 dekabr. - №242. - S. 1 . - 19 görkəmli alim 2001-ci ildə qəbul olunmuş" erməni soyqırımı haqqında " qanunun ölkənin nüfuzuna xələl gətirdiyini bildirib.

**Aygün**. 22 dekabr Qərbi azərbaycanlıların deportasiyası günü kimi qeyd olunsun // *Xalq cəbhəsi*.- 2005.-21 dekabr.- № 478.-S.7.

**Sultanova A.** Azərbaycanlıların Ermənistandan sonuncu deportasiyasından 17 il ötdü // *Yeni Azərbaycan*.- 2005.-22 dekabr.-№246.-S.1-5.

**Qərbi azərbaycanlılar muxtariyyət tələb edir** // *Təzadlar*. - 2005.-20-27 dekabr. - №63. - S. 2 . - Beynəlxalq Mətbuat Mərkəzində Təbriz Musayevin mətbuat konfransı.

* * *

**Человечество должно знать и помнить! :** дэн Бартон призвал Конгресс США официально признать Ходжалинской геноцид // *Азербайджанские Известия*. - 2005. - 22 февраля №33. - С. 1

**Гасанлы Дж.** Редкий документ, подтверждающий депортацию азербайджанцев из Армении // *Зеркало*.- 2005.-19 февраля №33.-С.33.

**Обращение к азербайджанскому народу в связи с годовщиной ходжалинского геноцида** // *Бакинский рабочий*. - 2005. - 24 февраля №38. - С. 1.

**"Ходжалы - это Хиросима Азербайджана"** // *Бакинский рабочий*.- 2005.- 24 февраля №38.- С. 2.

**В великом национальном собрании Турции обсужден вопрос, связанный с Ходжалинским геноцидом** // *Бакинский рабочий*. - 2005. - 25 февраля.-№39. - С. 2.

**Возмездие неотвратимо :** геноцид, совершенный в Ходжалы,как и любое преступление против человечности,срока давности не имеет // *Азербайджанские Известия*. - 2005. - 26 февраля №37. - С. 3.

**Чаладзе, Татьяна.** Обыкновенный геноцид // *İRS-Наследие*. - 2005. - №1. - С. 20 . - Примеч.:Ходжалинская трагедия.

**Гаджиев М.** Из России началась депортация Азербайджанцев // *Зеркало /неделя/*.- 2005.-6 августа.-№.-С.4.

**Мировая общественность не должна основаться безучастной к осуществляемой армянами против азербайджанцев политике геноцида, их преступлениями, связанным с этнической чисткой, депортацией и террора** // *Бакинский рабочий. –Баку*.- 2005.- № 30 марта №60.-С.3.

**Исрафил Мамедов, заведующий отделом геноцида и депортации Института истории НАНА:** "Необходимо документально воссоздать точную историю всех армянских злодеяний" // *Азербайджанские Известия. –Баку*.- 2005.- 31 марта №58.-С.3.

**Бабаев, Агаддин.** Кровавый след дашнаков // *Наш век*. - 2005. - 25-31 марта.-№12. - С. 5. - Примеч.:О городах и населенных пунктах Азербайджана,где бесчинствовали в начале прошлого века дашнаки.

**Остановите геноцид Баку** // Зеркало /неделя/. - 2005.-20 августа. - N158. - С. 18-19. . - [AZ-Г ]

## 2006-cı il

**Həmzəoğlu, Kamil.** Elman Məmmədov: "Xocalı soyqırımı ilə bağlı Beynəlxalq Cinayət Məhkəməsinə müraciətolunacaq" // *525-ci qəzet*. - 2006.-28 yanvar. - №15. - S. 6 . - Xocalı faciəsi haqqında.

**Xocalı soyqırımının ildönümü ilə əlaqədar tədbirlər planı hazırlanmışdır** // *Azərbaycan*. - 2006.-29 yanvar. – №19. - S. 1 . - Xocali soyqırımından 14 il keçir.

**Lələdağ, Əvəz Mahmud.** Soydaşlarımızın 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilməsi Mikoyanın məkrli planı nəticəsində baş tutmuşdur // *Azərbaycan*. - 2006.- 4 fevral. - №24. - S. 7.

**DAK Xocalı soyqırımını dünyaya çatdıracaq** // *Azad Azərbaycan*. - 2006.-10 fevral. – №19. - S. 1-6 . - Qeyd: "Dünya azərbaycanlıları terrora və soyqırıma "yox" deyir" devizi ilə Avropada və dünyanın digər dövlətlərində keçirəcəyi konfrans və aksiyalara start verir.

**Türkiyə parlamentində Xocalı soyqırımı müzakirə olunacaq:** Milli Məclisin sədri Oqtay Əsədov jurnalistlərlə söhbətində bu fikri təsdiqlədi // *Xalq qəzeti*. - 2006.-14 fevral. - №32. - S. 4 .

**Talışlar deportasiya olunmuş xalqdırmı?:** 1993-cü il iyun-avqust Lənkəran hadisələrinin ildönümü münasibətilə // *Olaylar*. - 2006.-23 avqust. - №154. - S. 14.

**Abbasov, İ.** Gələn il Bakıda Xocalı soyqırımına həsr olunmuş memorial ucaldılacaq // *Ayna*. - 2006.-16 fevral. - №27. - S. 1 . - AVCİYA Xocalı soyqırımının dünyada tanınması üçün yaxın günlərdə kampaniyaya start verəcək.

**Bəxtiyar.** AVCİYA Xocalı soyqırımı ilə bağlı imzatoplama kampaniyasına başlayır // *525-ci qəzet*. - 2006.-17fevral.-№29.-S.-2.

**Hüseynli, Eyvaz**. Azərbaycanlıların soyqırımının Qaradağlı səhifəsi // *Xalq qəzeti*. - 2006.-17 fevral. – №35.-S.6. .

**Rəsulov, Rövşən**. Xocalı soyqırımı bəşər tarixinin ən dəhşətli faciəsidir // *Səs*. - 2006.-21 fevral. - №31. - S. 7 . - Qaçqın və Məcburi Köçkünlərlə İş Üzrə Dövlət Komitəsi Xocalı soyqırımının 14-cü ildönümü ilə əlaqədar olaraq bir sıra tədbirlər keçirəcək.

**"Dünya azərbaycanlıları soyqırım və terrora qarşı"** // *Azad Azərbaycan*. - 2006.-21 fevral . - №25. - S. 4 . - DAK-ın aksiyası "Şəhidlər Xiyabanı" ndan start götürüb.

**Yeni Azərbaycan Partiyası Xocalı soyqırımı ilə əlaqədar məktub göndərmişdir** // *Azərbaycan*. - 2006.-22 fevral. - N39. - S. 7 . - YAP BMT-nin Baş katibi Kofi Annana, ATƏT-in fəaliyyətdə olan sədri Karel de Quxta, AŞ-nın Baş katibi Terri devisə və AŞPA sədri Rene Van der Lindenə məktub ünvanlamışdır.

**Qocayeva, Adilə**. Xocalı soyqırımı -əsrin dəhşətli faciəsi // *İki sahil*. - 2006.-22 fevral. - №32. - S. 6 . - Xocalı faciəsi haqqında.

**İmanov, Vahid**. Xocalı soyqırımı // *Xalq qəzeti*. - 2006.-23 fevral. - №40. - S. 4 . - Xocalı faciəsindən 14 il keçir.

**Mehdixanlı, Telman.** Qan yaddaşımızda yaşayan faciə: XX əsrin faciəsi - Xocalı soyqırım // *Azərbaycan*. - 2006.-23 fevral. - №40. - S. 5 .- Xocalı Rayon İH-nin sabiq başçısı, Milli Məclisin deputatı Elman Məmmədovla müsahibə.

**Şahinoğlu, Aqşin**. Xocalı soyqırımı əsrin faciəsidir // *Yeni Azərbaycan* . - 2006.-24 fevral . - №34. - S. 1-4 . - Xocaiı faciəsi haqqında

**Məclisin deputatları Xocalı soyqırımının 14-cü ildönümü ilə əlaqədar Türkiyədə keçiriləcək tədbirlərdə iştirak edəcəklər** // *Azərbaycan*. - 2006.-23 fevral. – №40. - S. 6 . - Mehriban xanım Əliyevanın Xocalı soyqırımı ilə əlaqədar beynəlxalq ictimaiyyətə müraciəti qəbul ediləcəkdir.

**Qafar, Telman**. 31 mart Azərbaycanlıların soyqırımı günüdür!: Xalqımızın tarixi yaddaşının bərpası // *İki sahil*. - 2006.- 25 mart. - №52. - S. 5 .

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanatı** // *Xalq qəzeti*. - 2006.-28 mart. - №65. - S. 6 . - Ombudsman Elmira Süleymanova jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.

**Qəşəmoğlu, Ülvi**. 31 Mart Azərbaycanlıların Soyqırımı günüdür!: Dünya azərbaycanlıların soyqırımını qəbul etməlidir // *İki sahil*. - 2006.-29 mart. – №54. - S. 6 .

**Xalqımız, tarix azərbaycanlıların soyqırımını unutmayacaq, faciə qurbanlarının əziz xatirəsi qəlblərdə daim yaşayacaqdır:** Azərbaycan Prezidenti İlham Əliyev Şəhidlər Xiyabanını ziyarət etmişdir // *Xalq qəzeti*. - 2006.-1 aprel. – №69. - S. 1 .

**Abdullayev, Zakir**. Müəllimlər 14 illik deportasiyada sonra Xəqani 33-ə qayıtdılar // *Azad Azərbaycan*. - 2006.-26 noyabr. - №175. - S. 1, 4.

**Yusifli, Ramiz.** Deportasiya // *Respublika* . - 2006.-7 dekabr. - №274. - S. 4 . - Ermənistandan azəri türkləri müxtəlif dövrlərdə dörd dəfə deportasiyaya məruz qalıblar.

**Vəliyev, İsmayıl**. Deportasiya: Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından siyasi təzyiq və təqiblərlə çıxarılması haqqında qısa tarixi icmal // *Respublika* . - 2006.- 9 dekabr. - №276. - S. 6.

**Rusiyadakı Azərbaycan vətəndaşlarından deportasiya edilən olmayıb:** Rusiyadakı həmvətənlərimizin-problemləri ilə əlaqədar işçi qrupunun toplantısı keçirilib // *Yeni Azərbaycan* . - 2006.-15 dekabr. - №232. - S. 1-2.

**Mirzə, Vüsal**. Gürcüstanda yaşayan azərbaycanlılar deportasiya olunur // *Həftə içi*. - 2006.-22 dekabr. №**235**. - S. 1 . - Siyasi ekspert Rövşən Novruzoğlu ilə müsahibə.

**Deportasiya edilən soydaşlarımız** // *Ekspress*. - 2006.-22 dekabr. - №237. - S. 8 . - DİN-in Miqrasiya Xidmətinin rəisi Şövqü Hadıyevin açıqlaması.

***

**Тофикоглу, Р.** Интерпол проводит международное заседание в Баку : По линии организации объявлены в международный розыск 72 лица, виновных в геноциде азербайджанцев в Ходжалы // *Эхо* . - 2006.-2 февраля. - N17. - С. 1-2. . - [AZ-Г]

**Нормы международного права однозначно подтверждают факт геноцида в Ходжалы** // *Бакинский рабочий*. - 2006.-24 февраля. - N34. - С. 3 . - Примеч.: Ходжалинский геноцид [AZ-Г]

**Байрамова, Дж.** Ходжалинский геноцид должен в первую очередь получить правовую оценку // *Зеркало /нед/*. - 2006.-25 февраля . - N34. - С. 8.10 . - Примеч.: Мероприятия в память трагических событий в Ходжалы [AZ-Г]

**Обращение к азербайджанскому народу в связи с 31 марта- Днем геноцида азербайджанцев** // *Бакинский рабочий*. - 2006.-29 марта . - N54. - С. 1 . - [AZ-Г]

**Захиди, А.** 31 марта- День национального траура азербайджанцев // *Эхо* . - 2006.-31 марта. - N55. - С. 3 . - Примеч.: 31 марта 1918 года армяне учинили резню и акты вандализма против азербайджанцев [AZ-Г]

**Ходжалинская трагедия как международное преступление - составная часть целенаправленной политики геноцида Республики Армения против азербайджанского народа** // *Dirçəliş XXI əsr*. - 2006. - N96/97. - С. 59-62 . - Примеч.: Заключение Комиссии Института по Правам Человека Национальной Академии Наук Азербайджана [AZ-J]

**Кулиева, Вафа.** Геноцид памятников материальной культуры азербайджанцев на территориях, захваченных армянами // *Dirçəliş XXI əsr*. - 2006. - N98/99. - С. 150-164 . - Примеч.: Албанский этнос и албанские памятники [AZ-J]

**Джейран.** В Страсбурге пройдет акция , посвященная ходжалинскому геноциду // *Зеркало*. - 2006.-26 декабря. - N238. - С. 1 . - [AZ-Г]

* * *

**President chides Armenian cause in nationwide address** // *AzerNEWS*. - 2006.-29 March-4 April. - №13. - P. 1 . - Notes: Appeal to Azerbaijani citizens over March 31, the anniversary of a brutal carnage unleashed by Armenians in early 20th century.

## 2007-ci il

**Aynur.** Deportasiya başladı: Rusiyadan 700 min azərbaycanlının çıxarılacağı gözlənilir // *Mərkəz*.- 2007.- 9 yanvar.- № 1.- S.9.

**Babayev, Elman**. Xocalı hadisələrinin soyqırımı kimi tanınması üçün 1 milyon imza toplanıb: AVCİYA parlamentə müraciət etdi // *Kaspi*. - 2007.-13-15 yanvar. -№ 5. - S. 3 .

**Pənahlı N.** Nazim İbrahimov: "Rusiyadan kütləvi deportasiya gözlənilmir" // *Zaman*.- 2007.-16-17 yanvar.- № 4.-S.1-2.

**Turan Çöməz: Fevralın** 26-da Xocalıya gedib erməni vəhşiliyini lənətləyəcəyəm // *İki sahil*. - 2007.- 18 yanvar. - № 8. - S. 6 . - Türkiyəli millət vəkili Turan Göməzin müsahibəsi.

**Cəlilova G.** Qərbi Azərbaycan Mühacir Hökuməti yaradılır: Qərbi Azərbaycana Qayıdış Birliyi bunun üçün ölkə rəhbərliyindən kömək istəyir // *Bakı xəbər*.- 2007.-18 yanvar № 10.- S.11.

**Xocalı soyqırımının tanıdılması üçün iş aparılır**: Azərbaycan və Türkiyə alimlərinin iştirakı ilə konfrans olacaq // *Xalq cəbhəsi*. - 2007.-23 yanvar. - № 10. - S. 3 .

**Cəfərli N**. Qərbi Azərbaycan mühacir hökuməti yaradılmalıdır // *Şərq*.- 2007.-23 yanvar.- № 11.- S.6.

**Əliyev V.** Qərbi Azərbaycan Mühacir Hökumətinin yaradılması // *Vətən uğrunda*.- 2007.- 27 yanvar- 2 fevral.-№3.-S.4.

**Xəlilov, Yusif.** "Xocalı soyqırımı" kitabı alman dilində nəşr olunmuşdur // *Xalq qəzeti*. - 2007.-28 yanvar. - № 18. - S. 2 . - Azərbaycanın Almaniyadakı səfirliyi XX əsrin ən dəhşətli səhifələrindən sayılan Xocalı soyqırımının 15-ci ildönümü ərəfəsində alman dilində bu faciəyə həsr olunmuş kitab nəşr etdirmişdir.

**Məmmədova A**. Azərbaycanlıların "Çerkizov" sərgüzəştləri: Moskva bazarlarında "soyuq" deportasiya davam edir // *Azadlıq*.- 2007.-3 fevral.- №22.-S.5.

**Zeynalov Ə**. Oğuz yurdu - Uluxanlı mahalı // *Respublika*.- 2007.- 4 fevral.- №24.- S.5.

**Bəxtiyar.** Qərbi azərbaycanlılar Ermənistan vətəndaşlığının bərpa edilməsini istəyir // *525-ci qəzet*.- 2007.- 23 fevral.- №34.- S.2

**Cümşüdlü F**. Azərbaycanlıların deportasiyaya məruz qalmaları: 1948-1950-ci illərdə ermənilərin xalqımızın başına gətirdikləri müsibətlərin qısa tarixi // *Azad Azərbaycan*.- 2007.- 6 mart.- № 32.- S.7.

**Cümşüdlü F**. Ermənilərin azərbaycanlılara qarşı deportasiya siyasəti: Sisyan rayonunun kəndləri erməni vəhşiliyinin qurbanı kimi tarixin yaddaşında əbədi qalıb // *Azad Azərbaycan*.- 2007.-7 mart.- № 33.- S.6.

**Qasımlı İ**. Ermənistan sonuncu tərk edən azərbaycanlı // *525-ci qəzet* .- 2007.-31 mart.- № 54.-S.11.

**Qurbanqızı Z.** Əzəli torpaqlarımıza mütləq dönəcəyik // *Respublika*.- 2007.-1 aprel.- № 67.-S.7.

**Tərlan.** Qərbi azərbaycanlılar vətəndaşlıq almaqla qaçqın statusunu itirmirlər // Üç nöqtə.- 2007.-13 aprel.- № 60.-S.6.

**Hüseynova R**. Deportasiya // *Yeni Azərbaycan*.- 2007.-1 may.- № 73.- S.6.

**Zeynallı A.** "Deportasiya hadisəsi ilə bağlı böyük şəhərlərdə abidə qoyulsun" // *Palitra*.- 2007.-12 oktyabr.-№110.-S.7.

**Rüstəm X**. Erməni vandalizminə "dur!" deyən yoxdur: Azərbaycanlıların Ermənistandan tam deportasiyasından 19 il keçir // *Ekspress*.- 2007.-30 noyabr.- №219.- S.5.

**Səfərli X**. Deportasiya olunmuş xalq...: Azərbaycanlıların Ermənistandan tam deportasiya edilməsinin on doqquzuncu ili tamam olur // *Ayna*.- 2007.- 30 noyabr.- №220.-S.1-2.

**Deportasiya, soyqırım, qaçqınlıq** // *Azərbaycan Ordusu*.- 2007.- 5 dekabr.- № 85.- S.3.

**Xəlilzadə F.** Bizi çağıran ellər // *Azərbaycan*.- 2007.-5 dekabr.- №274.-S.5.

**Sadıqzadə M.** Ermənistanda yaşamış azərbaycanlılar son yüz ildə dəfələrlə soyqırımına məruz qalıb: Sonuncu və tam deportasiyadan ötən 19 il ərzində isə dünya bu haqsızlığa yenə göz yumdu // *Vətən səsi*.- 2007.-7 dekabr.- № 50.- S.4.

**Rəsmiləşdirilmiş deportasiya:** 100 min azərbaycanlını Ermənistan ərazisindəki tarixi torpaqlarından didərgin salan deportasiya aktında 60 il ötür // *525-ci qəzet*.- 2007.- 20 dekabr.-№236.-S.12.

**Əhmədov B**. Əsrin əvvəllərində Azərbaycanlıların Deportasiyası və soyqırımı: Göyçə mahalının tarixi materialları əsasında // *Dirçəliş XXI əsr*.- 2007.- №116/117.-S.120-124.

* **

**Рзаев С. 50-70 тысяч депортированных азербайджанцев** // *Эхо*.- 2007.-9 января.-№ 1.-С.1-2.

**Мир осуждает армянский фашизм:** Фонд Гейдара Алиева распространяет во всем мире правду о Ходжалинском геноциде // *Бакинский рабочий.* - 2007.-23 февраля. - N 35. - С. 4 . - [AZ-Г]

**Обращение к азербайджанскому народу в связи с 15-й годовщиной Ходжалинского геноцида (23 февраля 2007)** // *Бакинский рабочий.* - 2007.-24 февраля. - N 36. - С. 1 . - [AZ-Г]

**Мир обсуждает армянский фашизм:** Президентская библиотека Управления делами Президента Азербайджанской Республики подготовила текстовое электронное издание "Трагедия XX века- Ходжалинский геноцид" в трех томах // *Бакинский рабочий.* - 2007.-27 февраля. - N 37. - С. 3 . - [AZ-Г]

**Азербайджанцы помнят о трагедии** // *Независимая газета.* - 2007.-2 марта. - N 44. - С. 6 . - Примеч.: Ходжалинский геноцид [RU-Г]

**Есть ли шансы международного признания ходжалинского геноцида?** // *Зеркало.* - 2007.-10 марта. - N 44. - С. 11,12 . - [AZ-Г]

**Обращение к азербайджанскому народу в связи с 31 марта- Днем геноцида азербайджанцев. 29 марта 2007)** // *Бакинский рабочий.* - 2007.-30 марта. - N 55. - С. 1 . - [AZ-Г]

**Илья Чавчавадзе: "Армянин пришел и принес беду с собой"** // *Вышка.* - 2007.-30 марта. - N 11. - С. 11 . - Примеч.: 31 марта день геноцида азербайджанцев [AZ-Г]

**Мир должен знать правду о геноциде азербайджанцев со стороны армян** // *Наш век.* - 2007.-30 марта. - N 11. - С. 1,2 . - [AZ-Г]

**Джаббаров, Зейтулла.** XX век-летопись геноцида // *Бакинский рабочий.* - 2007.-31 марта. - N 56. - 4. . - [AZ-Г]

**Гамидов, Г.** О геноциде Азербайджане узнали и в Исландии: Наша диаспора в этой стране провела ряд мероприятий // *Эхо.* - 2007.-4 апреля. - N 56. - С. 5 . - [AZ-Г]

**Миркадыров, Р.** Это просто позор: Активист Движения национального пробуждения Южного Азербайджана Хади Мусави депортирован в Иран // *Зеркало.* - 2007.-13 апреля. - N 62. - С. 1 . - [AZ-Г]

**Алиева, С.** Геноцид зеленых насаждений продолжается // *Зеркало.* - 2007.-19 апреля. - N 66. - С. 7 . - Примеч.: Продолжается вырубка деревьев на территории города Баку, что приводит к ухудшению экологии [AZ-Г]

**Джамиль Гасанлы: "Мы должны поведать о геноциде в Губе всему миру!"** // *Комсомольская правда.* - 2007.-8 мая. - N 65. - С. 9 . - Примеч.: Интервью инициатора принятия в ММ законопроекта о геноциде армянами жителей Губы, депутата Джамиля Гасанлы [AZ-Г]

**Манафлы, Р.** Ходжалинский геноцид остался в стороне от факельного шествия, посвященного проблемам геноцидов в мире // *Эхо* . - 2007.-10 августа. - N 144. - С. 1.4 . - [AZ-Г]

**Мири, М.** Установить памятник жертвам геноцида в Южном Азербайджане: Сегодня в столичную мэрию будет передано соответствующее обращение // *Зеркало.* - 2007.-18 декабря. - N 233. - С. 2 . - [AZ-Г]

***

**Azeris urge genoside recognition, mourn Khojaly victims** // *AzerNEWS.* - 2007.-28 February-6 March. - № 8. - p. 1 .

**Armenian aggression: centuries of injustice: President addresses nation over massacre date** // *AzerNEWS.* - 2007.- 4-10 April. - № 12. - p. 1 .

**Pirtakhiya, Ia.** International Legal Responsibility for genoside // *Dirçəliş XXI əsr.* - 2007. - N 114/115. - p. 273-279 . - [AZ-M]

## 2008-ci il

**Eldəniz E.** "Azərbaycan soydaşlarımızın deportasiya edilməsinə dəstək olur": Gürcüstan Azərbaycanlıları Konqresinin həmtəsisçisi Əli Babayevin sözlərinə görə, Azərbaycanın Gürcüstanda həyata keçirdiyi layihələrdən ermənilər və gürcülər faydalanırlar // *Ayna*.- 2008.-8 mart.- № 25.-S.6.

**31-Mart - Azərbaycanlıların Soyqırımı Günüdür:** Prezident Kitabxanası azərbaycanlıların deportasiyasına dair materiallar əsasında elektron resurs hazırlamışdır // *Xalq qəzeti*.- 2008.-31 mart.- № 65.-S.2.

**Anar Mərhələlərlə həyata keçirilən soyqırımı siyasəti:** Azərbaycanlıların öz tarixi torpaqlarından deportasiya edilməsi, etnik təmizləməyə və soyqırıma məruz qalmaları son iki yüz illik dövrü əhatə edir // *Yeni Azərbaycan*.- 2008.-31 mart.- № 54.-S.6.

**Miriyev A**. Mərhələlərlə həyata keçirilən soyqırımı siyasəti: Azərbaycanlıların öz tarixi torpaqlarından deportasiya edilməsi, etnik təmizləməyə və soyqırıma məruz qalmaları son iki yüz illik dövrü əhatə edir // *Azərbaycan ordusu*.- 2008.-31 mart.- № 20.-S.3 **.**

**Zülfüqaroğlu Ə.** Axıska türklərinə 163 səhifəlik irad tutulub: İbrahim Burhanov: "Bu qədər nöqsanın aşkarlanması başadüşülən deyil" // *Həftə içi*.- 2008.-30 iyul.- № 136.-S.3.

**Rusiyadan azərbaycanlıların kütləvi deportasiyası gözlənilmir:** Əlövsət Əliyev: "Yeni qaydalar miqrantlar üçün daha sərfəlidir" // *Şərq*.- 2008.-14 oktyabr.-№ 185.-S.8

**Qaliboğlu E**. Ermənistandan deportasiya edilən soydaşlarımız: Onların sayı 200 mindən çox, tərk etdikləri ərazi isə 10 min kv. km olub // *Xalq cəbhəsi* .-2008.-21 oktyabr.-№ 191.-S.14.

**Xəlilzadə F.** Erməni xisləti-şeytan əməli // *Azərbaycan*.- 2008.-1 noyabr.-№ 244.-S.7.

**Əliyev A**. Zəngəzur-Göyçə həsrətinin 60 ili: Gültəkin Hacıyeva : "Avropada hələ də ümumxristian həmrəyliyində dayanan qüvvələr var" // *Həftə içi*.- 2008.-1-3 noyabr.-№ 197.-S.1, 4

**Camal A.** Qərbi Azərbaycandan sonuncu deportasiyadan 20 il ötür: "Ümummilli faciələrin ildönümü tarixlərinə göstərilən biganəlik millətə yaxşı heç nə vəd etmir" // *Ekspress*.- 2008.-27 noyabr.-№ 217.-S.4.

**Fərhadoğlu T.** Deportasiya: Tarixin ibrət dərsləri // *Azadlıq*.- 2008.-29 noyabr.-№ 271.-S.10.

**Azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyası ermənilərin tarixi cinayətidir:** Azərbaycan Milli Elmlər Akademiyasının akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Budaq Budaqovun www.yap.org.az. saytına müsahibəsi // *İki sahil*.- 2008.- 2 dekabr.-№ 228.-S.4.

**Kamil.** "Azərbaycanlıların Ermənistandan deportasiyasına hüquqi-siyasi qiymət verilməsilə bağlı məsələ qaldırılsın": Əli Əhmədov: "Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti azərbaycanlılarının deportasiyasını etnik təmizləmə kimi qiymətləndirən sənəd hazırlayaraq Assambleyanın müzakirəsinə çıxarsın" // 525-ci qəzet, 2008.-3 dekabr.-№ 224.-S.5.

**Aslan A.** "Ermənistana qayıtmağa ümidim yoxdur": Musa Quliyev : "Azərbaycanda Soyqırım və Deportasiya Mərkəzi yaradılmalıdır" // *Ekspress*.- 2008.-4 dekabr.-№ 222.-S.5.

**Azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasından 20 il ötür:** Tarix bu cinayəti heç vaxt unutmayacaq *// Səs*.- 2008.- 4 dekabr.-№ 223/2.-S.8.

**Qafarlı T.** İctimaiyyət deportasiyaya qarşı fəal olmalıdır: Əli Əhmədov: "Cəmiyyət etnik təmizləməni bir fakt kimi beynəlxalq təşkilatların diqqətinə çatdırmalıdır": Nizami Cəfərov Azərbaycanlılara qarşı yürüdülmüş deportasiya siyasətini daha çox ermənin problemi sayır *// Üç nöqtə*.- 2008.-5 dekabr.- № 226.-S.6.

**Tarixi faciəmiz: sonuncu deportasiya** *// Xalq qəzeti*.- 2008.-5 dekabr.-№ 273.-S.2.

**Bayramlı N.** Beynəlxalq aləm azərbaycanlıların tarixi torpaqlarından deportasiya olunmasına qiymət verməlidir: Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə azərbaycanlıların Ermənistandan son deportasiyasının 20 illiyinə həsr olunmuş "Tarixi faciəmiz: sonuncu deportasiya" mövzusunda dəyirmi masa keçirilib *// Yeni Azərbaycan*.-2008.-5 dekabr.-№ 230.-S.2

**Quliyev İ.** Deportasiyaya beynəlxalq səviyyədə hüquqi qiymət verilməlidir: Haqsızlığa məruz qalan insanlar bu işdə daha çox fəallıq göstərməlidir *// Kaspi*.- 2008.-5 dekabr. .-№ 221.-S.6.

**Həmid S.** "4T" formuluna qarşı necə mübarizə aparaq?: Qərbi Azərbaycandan qaçqın düşənlərin hüquqi sənədləri toplanaraq Avropa Məhkəməsinə təqdim olunacaq *// Mərkəz*.-2008.- 6 dekabr.-№ 226.-№.5.

**Sonuncu deportasiya: Müsahibimiz Milli Məclisin deputatı Fəttah Heydərovdur** *// Səs*.- 2008.-6 dekabr.- № 225/2.-S.9.

**Şirinova A.** Qanlı deportasiya *// Xalq cəbhəsi*.- 2008.-6-10 dekabr.-№ 225.-S.8.

**Yusifli R**. Deportasiya və soyqırım faciəsi: Azərbaycanlıları Ermənistan ərazisindəki tarix-etnik torpaqlarından didərgin salan 1948-1953-cü illər deportasiyasından 60 il, 1988-ci il deportasiyasından isə 20 il ötür *// Respublika*.- 2008.-12 dekabr.-№ 277.-S.13.

**Seyidova V.** Tariximizi unutsaq unudularıq *// EURO Xəbər*.- 2008.-16 -30 dekabr.- 23.-S.5.

**Əsədova G**. "Lobbi yaratmaq üçün qarşıda duran vəzifələr xartiyada şərh olunub": Anar İsgəndərov: "Soyqırım və deportasiya muzeyinin yaradılmasına ehtiyac var" *// Paritet*.- 2008.-16-17 dekabr.-№ 130.-S.1.

**Qaliboğlu E.** Azərbaycan türklərinin Qəbri Azərbaycandan son deportasiyasından 20 il ötdü: Ermənilər zaman-zaman torpaqlarımızı qəsb edib *// Xalq cəbhəsi*.- 2008.-18 dekabr.-№ 231.-S.14.

**Qaliboğlu E.** Azərbaycan Türklərinin Qərbi Azərbaycandan deportasiyası *// Xalq cəbhəsi*.- 2008.-19 dekabr.- № 232.-S.14.

**Qədir Aslan.** "Könüllü" köçürülmə erməni xəyanəti idi *// Respublika*.- 2008.-19 dekabr.-№ 283.-S.5.

**Cəfərov A.** Əziz Ələkbərli: "Deportasiyanın qarşısını almağa Bağırovun gücü çatmayıb" *// Zaman*.-2008.-23 dekabr.- № 148.-S.13.

**Əli Vəkil. Dünyanın laqeydliklə seyr etdiyi bəşəri cinayət:** Qərbi Azərbaycanda, öz doğma torpaqlarında yaşayan soydaşlarımızın 200 min nəfərlik sonuncu dəstəsinin ermənilər tərəfindən deportasiya olunmasından 20 il ötür *// Xalq qəzeti*.- 2008.-25 dekabr.-№ 288.-S.8.

**Mirzəbəyli İ**. Azərbaycanlıların Ermənistandan sonuncu deportasiyasından 20 il keçir: Ulu öndər Heydər Əliyev erməni vandalizminin bütün dünyaya çatdırılması üçün mühüm addımlar atmışdı *// Xalq qəzeti*.- 2008.-31 dekabr.-№ 293.- S.6.

* * *

**Состоится конкурс рисунков, посвященный 16-й годовщине ходжалинской трагедии** // *Бакинский рабочий*. - 2008.-13 февраля. - N 28. - С. 4 . - [AZ-Г]

**Озан, Исмаил.** Ходжалы: приговор цивилизации // *Diaspora press*. - 2008.-13 февраля. - N 3. - С. 1,3 . - Примеч.: Массовое убийство людей в городе Ходжалы [AZ-Г]

**При поддержке Фонда Гейдара Алиева в Берлине состоится Международная конференция, посвященная Ходжалинской трагедии // Бакинский рабочий.** - 2008.-15 февраля. - N 30. - С. 3 . - [AZ-Г]

**В Турции будут проведены мероприятия, посвященные годовщине Ходжалинского геноцида** // *Бакинский рабочий*. - 2008.-22 февраля. - N 35. - С. 4 . - Примеч.: 19 февраля депутат ММ Ганира Пашаева отправилась в Турцию для участия в предстоящих в братской стране мероприятиях, посвященных Ходжалинской трагедии [AZ-Г]

**Ходжалы: молебен о погибших в Ходжалы услышит весь мир** // *Каспий*. - 2008.-22 февраля. - N 33. - С. 1 . - Примеч.: По заказу Министерства культуры и туризма Азербайджана студия "Салнаме" сняла документальный 13-минутный видеофильм "Молитва" [AZ-Г]

**Ниязоглу, Рагиф.** Ходжалы // *Каспий*. - 2008.-26 февраля. - N 35. - С. 1-2 . - Примеч.: В ночь с 25 на 26 февраля 1992 года на нашей земле появилась кровоточащая рана - Ходжалы, ставший местом чудовищного преступления [AZ-Г]

**Азер, Р.** Ходжалинский геноцид: в одну ночь этот город был сравнен с землей, с мирным населением которого жестоко расправились // *Зеркало*. - 2008.-27 февраля. - N 37. - С. 1-2 . - [AZ-Г]

**Гаджизаде, Ася.** Анар Алекперов: Фонд Гейдара Алиева сделает все, чтобы Ходжалинская трагедия не была забыта // *Бакинский рабочий*. - 2008.-29 февраля. - N 40. - С. 3 . - [AZ-Г]

**Байрамов, Огтай.** Ходжалинский геноцид обсужден в парламенте Турции // *Бакинский рабочий*. - 2008.-29 февраля. - N 40. - С. 4 . - [AZ-Г]

**Халилов, А.** Март 1918-го: Азербайджан без азербайджанцев! : свидетельствует история // *İRS - Nasledie*. - 2008. - N 1. - С. 22-25 . - Примеч.: Наследственная паранойя армянской племени: террор - геноцид азербайджанцев весной 1918 года [AZ-J]

**Халилов, А.** Геноцид азербайджанцев: взгляд ученого. Февральская революция и национальные окраины. Мартовские события 1918 года в Азербайджане // *İRS - Nasledie*. - 2008. - N 1. - С. 35 . - Примеч.: Книга доктора исторический наук Айдына Балаева посвящена геноциду азербайджанцев весной 1918 года [AZ-J]

**Керимов, Р**. 90 лет геноциду азербайджанцев: наступает годовщина одной из самых печальных страниц азербайджанской истории // *Эхо*. - 2008.-30 марта. - N 53. - С. 1,3 . - [AZ-Г]

**Оруджев, Р.** День геноцида: Азербайджан вспоминает события марта 1918 года // *Эхо*. - 2008.-31 марта. - N 54. - С. 1,4 . - [AZ-Г]

**Президентская библиотека подготовила на основе материалов о депортации азербайджанцев электронный ресурс** *// Бакинский рабочий*.- 2008.-1 апреля.-№ 57.-С.2

**Манафов, Р.** 90 лет со дня геноцида азербайджанского народа: вчера память жертв трагических событий, произошедших в 1918 году, чтили не только в Азербайджане, но и далеко за его пределами // *Эхо*. - 2008.-1 апреля. - N 55. - С. 1,4 . - [AZ-Г]

**Атаев, Теймур.** Бакинская резня 1918 г. Большевистско - дашнакский тандем: к 90-летию трагедии в Баку // *Эхо*. - 2008.-5 апреля. - N 59. - С. 11 . - [AZ-Г]

**Нурани.** Кровавый террор 1918 года // *Region*. - 2008. - N 7. - С. 50-53 . - Примеч.: 31 марта годовщина мартовской резни 1918 года, устроенной большевиками и их ближайшими союзниками - дашнаками в Азербайджане [AZ-J]

**Мусаев, Тофик.** Геноцид в Ходжалы: правовой аспект // *İRS - Nasledie*. - 2008. - N 5. - С. 32-35 . - Примеч.: Геноцид против азербайджанцев: Ходжалинская трагедия [AZ-J]

* * *

**Abdul-Aliyev, Rustam.** Aliyev condemns Armenia's genocide in nationwide address *// AzerNEWS*. - 2008.-2-8 April. - № 12. - p. 1-2 . - Note: President Aliyev has condemned the nearly two-century long Armenian policy of aggression and genocide in an address to the nation over March 31, the anniversary of the massacre of Azerbaijanis.

**Abbasov, Ilham**. Khojaly tragedy is a genocide committed against our people *// Today & Tomorrow. Azerbaijan in Focus* . - 2008.-march. - № 3. - p. 4-6 .

## 2009-cu il

**Məmmədli R.** Avropa Ermənistanın Rusiyanın forpostu olduğunu anlayıb: Gültəkin Hacıbəyli: "Ermənistandan qovulan yüz minlərlə soydaşımızın hüquqlarının qorunması məsələsini AŞ PA-nın sessiyasında bir daha qaldıracağıq" // *Xalq cəbhəsi*- .2009 6 yanvar.- №1.- S.9.

**Nazim Mustafa 1948-1953-cü illər deportasiyasının bəzi məqamları:** Bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi istiqamətində məqsədyönlü iş aparılmalıdır // *Xalq qəzeti*.- 2009.-6 yanvar № 2.-S.5.- №3.-S.6.

**Mahmudov Y.** Tarixin ən böyük və ən təhlükəli yalanı: "Böyük Ermənistan" uydurması - terror, soyqırımları və özgə torpaqlarına yiyələnmək "ideologiyası" // *Xalq qəzet* .- 2009.- 8 yanvar № 4.-S.4.

**Talıblı S.** Tariximizə sahib olmalıyıq: Son deportasiyasının 20 ili // *Ədalət*.- 2009.-10 yanvar №5.- S.18.

**Əmircanov, P., Paşayev Ataxan :** 26 Bakı komissarlarının bədnam fəaliyyəti ilə bağlı arxiv sənədləri açıqlamışdır // *Xalq qəzeti*.- 2009.-29 yanvar № 21.- S.5.

**İsmayılqızı X.** Deportasiya: İnsan hüquqlarının pozulması, etnik təmizləmə siyasəti: 1948-ci il soydaş larımızın Qərbi Azərbaycandan zorla çıxarılmaşından altmış il ötür. Millət vəkili Qənirə Paşayevanın bununla əlaqədar hazırladığı bəyanat AŞPA-nın qış sessiyasında rəsmi sənəd kimi yayılıb // *İki sahil*.- 2009.- 4 fevral № 21.- S.8.

**Əliyarlı K.** Avropa Şurası üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsi üçün Ermənistana müddət verdi: Politoloq Qabil Hüseynlinin SİA-ya eksklüziv müsahibəsi // *Səs*.- 2009.- 5 fevral № 22.-S.11.

**Şirinova A**. Xocavənd faciələri: 1992-ci ilin fevralında ermənilərin azərbaycanlılara qarşı törətdikləri ən qanlı soyqırım aktları // *Xalq cəbhəsi* .- 2009.-19 fevral.- №32.- S.922.

**Mikayıloğlu R**. Türkiyə mətbuatında Xocalı soyqırımı: "AKP hökumətinin Qarabağ məsələsində susqunluğu azərbaycanlılara çox üzür" // *Xalq cəbhəsi* 2009.- 27 fevral №38.-S.6.

**Məmmədov N.** Azərbaycanlıların kütləvi deportasiyası soyqırımı siyasətidir // *Azərbaycan*.- 2009.-3 aprel .-№69.-S.6.

**Cümşüdlü F.** Qondarma erməni soyqırımı: Erməni terror birləşmələrinin 1905-1906-cı illərdə azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar uydurma soyqırım iddialarını ifşa edən tutarlı faktdır // *Xalq qəzeti*.- 2009.-17 aprel.- 81.- S.5

**Anar.** Dünyanın görmədiyi həqiqətlər // *Palitra*.- 2009.-22 aprel.- №42.- S.7.

**Paşayev A.** Xalqımıza qarşı törədilmiş soyqırımı və deportasiyalara Heydər Əliyev baxışı: Heydər Əliyev - 86 // *Xalq qəzeti*.- 2009.- 9 may.- № 100.- S.9.

**Qaliboğlu E.** "Xalqımızın deportasiyası və soyqırımı məsələlərinə hələ tam aydınlıq gətirilməyib": Qafqazda Azərbaycanlıların Soyqırımını və Deportasiyasını Araşdırma Mərkəzi fəaliyyətə başlayıb // *Xalq cəbhəsi*.- 2009.-13 may №81.- S.14.

**Səməndərov S.** 1818-1920-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyəti dönəmində qaçqın və məcburi köçkünlərin məskunlaşdırılması işinin təşkili // *Xalq qəzeti*.- 2009.-26 may.-№ 112.-S.9.

**Uluxanlı H.** Faciələrimiz, unutqanlığımız... // *Xalq qəzeti*.- 2009.-26 may.-№112.-S.8.

**Yusifoğlu B**. Nələrdən vaz keçməliyik?..: Soydaşlarımız deportasiya olunur, ya olunmur? // *Ədalət*.- 2009.- 23 iyun.-№108.-S.2.

**Qaliboğlu E.** Qanlı deportasiya illəri...: Ataxan Paşayev: "Kür-Araz ovalığına köçürülmüş azərbaycanlılar dədə-baba torpaqlarına qayıdanda Ermənistanın rəhbərləri hay-küy salırdılar: 1948-53-cü illərdə Ermənistandan 100 mindən çox soydaşımız qovulub: II yazı // *Xalq cəbhəsi*.- 2009.-21 oktyabr.-№191.-S.11.

**Xəlilov N.** Azərbaycanlıların deportasiyası soyqırımı siyasətidir // *Azərbaycan*.- 2009.-27 avqust.

**Cəfərli R.** Urmiyada erməni terroru: "Əhalinin kütləvi qətlindən sonra insan cəsədləri üç gün küçələrdə qaldı": II yazı // *Xalq cəbhəsi*.- 2009.- 22 oktyabr.-№189.-S.3.

**Cəfərli R.** Urmiyada erməni terroru: "Əhalinin kütləvi qətlindən sonra insan cəsədləri üç gün küçələrdə qaldı": II yazı // *Xalq cəbhəsi*.- 2009.- 22 oktyabr.- №192.-S.11.

**Turqut.** "Güney Azərbaycan məsələsi dünyanın gündəminə çıxarılmalıdır": Qənirə Paşayeva: "30 milyon soydaşımızın məktəbinin, universitetinin, mətbuatının olmaması dəhşətdir": "Bu millətimizə qarşı ən böyük haqsızlıqlardan biri, assimilyasiya siyasətinin əsas tərkib hissəsidir" // *Xalq cəbhəsi*.- 2009.-25 dekabr.-№234.-C.4.

**Cəfərli R.** Sərhəd Hərəkatı - 1989-cu ilin 31 dekabr DünyaAzərbaycanlılarının Həmrəylik Günü kimi tarixə düşdü" // *Xalq cəbhəsi*.- 2009.-30 dekabr.- №237.-S.5.

**Qurbanlı Ə.** Sovet-Türkiyə münasibətlərində "erməni məsələsi" və onun azərbaycanlıların deportasiyasına təsiri - 1945-1947-cı illər // *Dirçəliş XXI əsr*.- 2009.-№ 135/136.-S.385-39.

*** * ***

**Мошкин, Сергей**. "Не нужен нам берег турецкий..." : предыстория забытой депортации // *Свободная мысль* -XXI. - 2009. -№ 9. - С. 117-128 . - О депортации более 50 тысяч азербайджанцев с территории Советской Армении в 1948-1953 годах.

**Рустамов, Р.** Прокуратура объявила в розыск виновников Ходжалинской трагедии: однако Роберт Кочарян и Серж Саркисян в этот список не попали // *Зеркало*. - 2009.-4 февраля. - N 21. - С. 3 . - [AZ-Г]

**Зейналов, Б.** "Жертвы геноцида похоронены под бременем "сбалансированной политики": Саркисян, Кочарян и им подобные - пока еще наши оппоненты // *Новое время*. - 2009.-14 февраля. - N 29. - С. 11 . - Примеч.: О Ходжалинской трагедии [AZ-Г]

**Манафлы, Р.** Память жертв ходжалинского геноцида почтят по всему миру: госкомитет по работе с диаспорой утвердил соответствующий план мероприятий // Эхо. - 2009.-20 февраля. - N 33. - С. 5 . - [AZ-Г]

**Память и боль наша - Ходжалы** // *Баку*. - 2009.-21 февраля. - N 9038. - С. 1 . - [AZ-Г]

**Обращение вынужденных переселенцев из Ходжалы в Организацию Объединенных наций,**

**Совет Европы, Организацию по безопасности и сотрудничеству в Европе в связи с 17-й годовщиной Ходжалинского геноцида** // *Бакинский рабочий*. - 2009.-26 февраля. - N 38. - С. 1 . - [AZ-Г]

**Продолжается презентация международной кампании "Справедливость к Ходжалы" и ее интернет - страницы** / АзерТАдж // *Бакинский рабочий.* - 2009.-26 февраля. - N 38. - С. 2 . - [AZ-Г]

**В Гааге представлен интернет - сайт международной кампании "Справедливость к Ходжалы"** / АзерТАдж // *Бакинский рабочий*. - 2009.-26 февраля. - N 38. - С. 2 . - [AZ-Г

**Гаджизаде, Ася.** В Москве прошел вечер памяти "Ходжалы: без срока давности" // *Бакинский рабочий.* - 2009.-27 февраля. - N 39. - С. 4 . - [AZ-Г]

**Ильхам Мамедов: "Следствие квалифицирует трагедию в Ходжалы как совершение геноцида"** // *Азербайджанские Известия*. - 2009.-27 февраля. - N 38. - С. 1-2 . - Примеч.: Интервью заместителя военного прокурора Азербайджанской Республики Ильхама Мамедова [AZ-Г]

**Оруджев, Р.** Кто признает геноцид в Ходжалы? Пока на это не идут даже власти Турции // *Эхо*. - 2009.-27 февраля. - N 38. - С. 4 . - [AZ-Г]

**Абдулбагиева, Санубар.** Мартовский геноцид - 1918 г. // *Бакинский рабочий*. - 2009.-31 марта. - N 56. - С. 3 . - Примеч.: 31 марта - День геноцида азербайджанцев [AZ-Г]

**Теймурханлы, Ф.** Сегодня - День геноцида азербайджанцев: наши ученые считают необходимым перевести на иностранные языки документы о мартовских событиях 1918 года / // *Зеркало.* - 2009.-31 марта. - N 52. - С. 1 . - [AZ-Г]

**Оруджев, Р.** День геноцида азербайджанцев отмечен сразу в ряде стран // *Эхо*. - 2009.-1 апреля. - N 54. - С. 1,4 . - [AZ-Г]

**Гасанлы, Джамиль.** Трагическая весна 1918 года: мартовский погром в Баку и геноцид азербайджанцев // *Зеркало /нед/.* - 2009.-11 апреля. - N 61. – С 2.

**Март 1918 г. Баку : азербайджанские погромы в документах** // *İRS - Nasledie*. - 2009. - N 2. - С. 30 . - Примеч.: Сборник документов об армянской агрессии против азербайджанцев [AZ-J]

**Рустамов, Р.** Азербайджанская диаспора отстает от армянской: геноцид азербайджанцев 1918 года до сих пор не признан ни одной страной // *Зеркало /нед/.* - 2009.-21 ноября. - N 215. - С. 7 . - [AZ-Г]

**Велизаде, Мелек.** Геноцид азербайджанцев в зеркале демографической статистики за сто лет: безвинные азери - тюрки из-за их этнической принадлежности становились жертвами армянской политики / М. Велизаде // Зеркало /нед/. - 2009.-21 ноября. - N 215. - С. 10 . - Примеч.: Интервью с автором проекта "Правда о Западном Азербайджане - в Интернете" Шелалой Гасановой [AZ-Г]

**Алиева, Мехсети.** Жестокие уроки геноцида // *Dövlət idarəçiliyi*. - 2009. - N 3. - С. 145-153 . - Примеч.: О мартовских событиях 1918 г. в Азербайджане [AZ-J]

**Ходжалинский геноцид будет обсуждаться на конференциях в Европе, посвященных правам человека** / АзерТАдж // *Бакинский рабочий.* - 2009.-11 декабря. - N 231. - С. 3 . - [AZ-Г]

## 2010-cu il

**Aslanov M.** Erməni ideologiyası: Deportasiyadan soyqırımınadək // *Kaspi*.- 2010.- 24 fevral.- №34.- S.13.

**Gültəkin.** Soyqırımı, deportasiya...: Bunları dünyaya ermənilər "bəxş" edib // *Ədalət*.- 2010.-19 mart.- № 50.- S.3.

**Aysel.** 31 mart-Azərbaycanlıların Soyqırımı Günü: Ermənilər 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda 50 min azərbaycanlını qətlə yetirib, on minlərlə insanımızı öz yurd-yuvasından qovublar // *Xalq cəbhəsi*.- 2010.-30 mart.- №52.-S.9.

**"Azərbaycanlıların soyqırımı və deportasiyası" elektron resursu yenilənmişdir** // *Azərbaycan*.- 2010.-31 mart.- №66.-S.2.

**"Azərbaycanlıların soyqırımı və deportasiyası" elektron resursu yenilənmişdir** // *Azərbaycan*.- 2010.-31 mart.-№66.-S.2.

**Süleyman.** Ermənilərin həyata keçirdiyi soyqırım və deportasiya siyasətini...: İsmayıl Ağayev: "Dünyaya çatdırmalıyıq" // *Olaylar*.- 2010.-13 aprel.- №54.-C.4.

**Muradov Ş.** Azərbaycanlıların deportasiyaya və soyqırımına məruz qalmaları tarixi həqiqətdir // *Respublika*.- 2010.- 24 aprel.- №86.-S.5.

**Cəfərli R**. Türkün soyqırımı: Ermənilərin azərbaycanlılara və Anadolu türklərinə qarşı törətdikləri soyqırımı faktların dili ilə // *Azərbaycan*.- 2010.-27 aprel.- №89.-S.10.

**Börüsoy Ə.** Dərbənd yaşanan səssiz deportasiya: Amma hələ gec deyil // *Ayna*.- 2010.-1 may.- №15.- C.7.

**Süleyman.** "Beynəlxalq təşkilatlarla sistemli şəkildə iş qurmalıyıq": Rauf Zeyni: "Dağlıq Qarabağ problemi, ermənilərin xalqımıza qarşı həyata keçirdikləri deportasiya və soyqırım siyasəti ilə bağlı yeni informasiyaların sistemləşdirilib ingilis və rus dillərinə tərcümə edilərək ayrı-ayrı ölkələrə göndərilməsi nəzərdə tutulub" // *Olaylar*.- 2010.-4 may.- №69.-S.8.

**Azərbaycandan deportasiya qaydaları təsdiqləndi** // *Mərkəz*.- 2010.-7 iyul.- №119.-S.10.

**Cəfərov, H., Mustafayev A.** Tariximizin qan yaddaşı: soyqırımlar və deportasiyalar // *Xəbərlər. İctimai və humanitar elmlər seriyası,* 2010.- №1.- S.24-29.

**Kazımbəyli İ.** İrəvan bölgəsində azərbaycanlıların soyqırım və deportasiyası // *Xəbərlər. İctimai və humanitar elmlər seriyası*.- 2010.- №1.-S.84-89.

**İrəvan Muxtar Respublikası yaradılsın!!!:** Deportasiyanın 22-ci ilində Qərbi Azərbaycanlılar hərəkətə keçdi! /XuralTAC // *Xural*.- 2010.-28 noyabr- 4 dekabr.- № 44.-C.6.

**Qaliboğlu E.** Azərbaycanlıların Qəbri Azərbaycandan son deportasiyası: Soydaşlarımız ayaqyalın, başıaçıq, qışın şaxtasında, qarında dağlara, meşələrə üz tutdular // *Xalq cəbhəsi*.-2010.-30 dekabr.- №237.-S.14.

* * *

**Ага-заде, Зейнал.** В Киеве состоятся вечер памяти жертв трагедии 20 января и презентация книги академика Рамиза Мехтиева "Реалии геноцида азербайджанцев" на украинском языке // *Бакинский рабочий.* - 2010.-15 января. - N 9. - С. 2 . - [AZ-Г

**Теймурханлы, Ф.** Ходжалинская трагедия - геноцид: по словам Мубариза Гурбанлы, иного мнения быть не может / Ф. Теймурханлы // Зеркало. - 2010.-19 февраля. - N 31. - С. 2 . - Примеч.: О вопросе признания ходжалинского геноцида в мире [AZ-Г]

**Миркадыров, Р.** Политических заявлений недостаточно, если мы действительно желаем признания Ходжалинской трагедии геноцидом // *Зеркало /нед/.* - 2010.-20 февраля. - N 32. - С. 3 . - Примеч.: О вопросе признания Ходжалинского геноцида в мире [AZ-Г]

**Джаббаров, Зейтулла.** Пока живы свидетели геноцида // *Бакинский рабочий.* - 2010.-24 февраля. - N 37. - С. 2 . - Примеч.: К 18-й годовщине Ходжалинского геноцида [AZ-Г]

**Сафиханов, Вахид.** Ходжалинский геноцид - одна из самых чудовищных трагедий XX века // *Бакинский рабочий.* - 2010.-24 февраля. - N 37. - С. 3 . - [AZ-Г]

**Ахмедлинский, А.** Ходжалы: преступление без наказания. Почему до сих пор ни один из виновников геноцида не был привлечен к ответственности? // *Новое время.* - 2010.-24 февраля. - N 257. - С. 2 . - [AZ-Г]

**Рза, Тимур.** Трагедия Ходжалы нашла отклик во всем мире: во всех странах проходят мероприятия, посвященные памяти ее жертв // *Неделя.* - 2010.-26 февраля. - N 8. - С. 2 . - [AZ-Г]

**Мустафаев, Э.** Преступление против человечности. Сегодня азербайджанцы отмечают очередную годовщину геноцида в Ходжалы // *Зеркало.* - 2010.-26 февраля. - N 36. - С. 1 . - [AZ-Г]

**Тофикоглу, Р.** Жертвам геноцида в Губе, учиненного армянами, воздвигнут мемориальный комплекс, сооружение из стекла будет служить информированию мировой общественности // *Эхо.* - 2010.-12 марта. - N 45. - С. 1,3 . - [AZ-Г]

**Рустамов, Р.** Жертв геноцида 1918 года упомянут: а о палачах, скорее всего, опять забудут // *Зеркало.* - 2010.-30 марта. - N 52. - С. 2 . - Примеч.: О мартовских событиях 1918 года [AZ-Г]

**Шалаля Гасанова: "Геноцид азербайджанцев - это назидание всему человечеству об опасности воинствующего армянского национализма"** // *Азербайджанские Известия.* - 2010.-1 апреля. - N 54. - С. 1-2 . - Примеч.: Интервью руководителя НПО по оказанию помощи развитию связей с общественностью Шалали Гасановой агентству Day.Az [AZ-Г]

**Гулиев, Ариф.** Восстанавливая историческую правду: 31 марта - День геноцида азербайджанцев // *Xəzər.* - 2010. - N 4. - С. 25-27 . - Об агрессии армянских националистов против азербайджанского народа [RU-Ж]

**Алиев, Ильхами.** Депортационная политика Аббаса I и ее последствия // *İRS - Nasledie.* - 2010. - N 2. - С. 48-51 . - Об османско - сефевидских войнах [AZ-J]

**Помпеев, Юрий.** Хроника объявленного убийства : Уроки Ходжалы // *İRS - Nasledie.* - 2010. - N 2. - С. 10-15 . - О Ходжалинской трагедии в конце февраля 1992 г. [AZ-J]

**Справедливость для Ходжалы: сегодня во всемирной социальной сети Fasebook стартует новая глобальная кампания** // *Каспий.* - 2010.-2 октября. - N 179. - С. 3 . - [AZ-Г]

* * *

**Yusifova, Saadat.** Genocide in Khojaly in the perspective of the international court of justice // *Dirçəliş XXI əsr*. - 2010.-mart-aprel. - № 143/144. - S. 153-168

**Shukurov, Karim.** Great Tragedy: Deportation of Azerbaijanis from Armenia // *Visions of Azerbaijan*. - 2010. - №November/December. - p. 58-61 . - [AZ-M]

## 2011-ci il

**Uğur**. Dünya müsəlman - türklərin soyqırımına göz yumur: Əli Kərimbəyli: "Amma Qərb başqa xalqlara qarşı tolerant olmağı tələb edir": I yazı // *Xalq cəbhəsi*. - 2011.-12 yanvar. - №5. - S. 11 .

**Vüsal.** Deputat olmaq üçün "erməni soyqırımı"nı tanıdı // *Həftə içi*. - 2011.-14 yanvar . - №7. - S. 1 . - Fevralın 20-də Almaniyanın Hamburq əyalətində keçiriləcək parlament seçkiləri haqqında.

**Süleyman**. Əsas məqsəd deportasiya və soyqırımla bağlı əsl həqiqətləri dünya ictimaiyyətinə yaymaq... İsmayıl Ağayev: "Azərbaycanın haqq səsini beynəlxalq aləmə çatdırmaqdır": "Çalışaq ki, Avropa parlamentlərində azərbaycanlıların deportasiya və soyqırımı ilə bağlı filmlərin, kitabların yayılmasına nail olaq" // *Olaylar*. - 2011.-18 yanvar. - №6. - S. 4 . - Beynəlxalq Diaspora Mərkəzinin sədri İsmayıl Ağayevin "Olaylar" a müsahibəsi.

**Əbu-Dabi bəyannaməsi 51 dövlətin parlamentini Xocalı faciəsini insanlığa qarşı törədilmiş cinayət kimi tanımağa çağırır** // *Azərbaycan*. - 2011.-20 yanvar. - №14. - S. 7 . - İslam Konfransı Təşkilatı Parlamentlər İttifaqı (İKT Pİ) Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət" beynəlxalq kampaniyasına dəstək olaraq bəyannamə qəbul etmişdir.

**Aşırlı Akif**. "Qardaş qayğısı": Arxivdən 31 mart soyqırımına həsr olunan qəzet tapıldı // *Şərq*. - 2011.-20 yanvar. - №11. - S. 5 ; №12. - S. 5 . - Türk Gənclər Təşkilatı tərəfindən 1918-ci ilin 12 noyabrında Tiflisdə nəşr olunan, yalnız bir nüsxəsi işıq üzü görən "Qardaş qayğısı" qəzeti haqqında.

**AŞPA-da Xocalı soyqırımı ilə bağlı sənəd yayılıb:** Sənədi müxtəlif ölkələrdən olan 25 nəfərdən çox millət vəkili imzalayıb // *525-ci qəzet*. - 2011.-28 yanvar. - №16. - S. 1, 3.

**Süleyman.** Əsas məqsəd deportasiya və soyqırımla bağlı əsl həqiqətləri dünya ictimaiyyətinə yaymaq... İsmayıl Ağayev: "Azərbaycanın haqq səsini beynəlxalq aləmə çatdırmaqdır": "Çalışaq ki, Avropa parlamentlərində azərbaycanlıların deportasiya və soyqırımı ilə bağlı filmlərin, kitabların yayılmasına nail olaq" // *Olaylar*.-2011.-18 yanvar №6.-S.4.

**Uğur.** Qərbi Azərbaycanda müxtəlif türk boyları yaşayıb: Babalarımızın tarixi-mənəvi haqqı özlərinə qaytarılmalıdır: II yazı // *Xalq cəbhəsi*.- 2011.-18 yanvar, №9.-S.13.

**"Xocalı soyqırımının on doqquzuncu ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilmişdir** // Xalq qəzeti. - 2011.-3 fevral. - №25. - S. 2 .

**Zülfüqaroğlu Ə**. Qərbi azərbaycanlılarla bağlı qanun layihəsi hansı effekti verəcək?: Zahid Oruc: "Burada sosial, mülkiyyət hüquqları, konkret insan haqları və digər məsələlər var" // *Həftə içi*.- 2011.-3 fevral.-№20.-S.4.

**Hüseyn**. Xocalı faciəsinin 19-cu ildönümünə hazırlıq görülür: Bununla bağlı tədbirlər planı təsdiqlənib // *Üç nöqtə*. - 2011.-3 fevral. - №497. - S. 4 .

**Ukraynada fevral "Xocalı ayı" elan edilib:** Bir sıra şəhərlərdən gənclərin Kiyevə "Xocalıya ədalət" şüarı ilə avto yürüşü olacaq // *Üç nöqtə*. - 2011.-4 fevral. - №498. - S. 14 .

**Xarici ölkələrdə Xocalı faciəsi qeyd ediləcək** // *Olaylar*. - 2011.-4 fevral. - №18. - S. 3 . - Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Qafar Əliyevin açıqlaması.

**Ukraynada "Xocalı ayı" elan olundu** // *Xalq cəbhəsi*. - 2011.-4 fevral. - №21. - S. 3 . - İslam Konfransı Gənclər Forumu, Ukrayna Azərbaycanlı Gənclər Birliyi və Ümumukrayna Gənclər Assambleyasının birgə təşəbbüsü və Azərbaycanın Ukraynadakı səfirliyinin dəstəyi ilə fevral ayı Ukraynada "Xocalı ayı" elan edilib.

**Qədir Aslan**. Fevral ayı "Xocalı ayı" elan edildi // *Respublika*. - 2011.-5 fevral. - №27. - S. 6 .

**Gülgün**. Qapıları döyən "soyqırım": Dünyanın isə dərdi bambaşqadır // *Ədalət*. - 2011.- 8 fevral. - №23. - S. 4 . - "Erməni məsələsi" haqqında.

**Şahtaxtılı, Mamed**. İsraildə Xocalı faciəsi qurbanları anılacaq // *Azad Azərbaycan*. - 2011.-8 fevral. - №18. - S. 5 .

**Necati, İyikan**. Soyqırım iddiası məsələsində türk xarici siyasəti üçün təklif / İ. Necati ; tərc. Ü. Quliyeva // *Bakı xəbər*. - 2011.-8 fevral. - №23. - S. 14 . - Türkiyənin xarici siyasət sahəsində hər il aprelin 24-ü qarşılaşdığı ən böyük problemlərdən biri "erməni soyqırımı" iddialarıdır.

**Kamalqızı, Rəfiqə**. Xocalı soyqırımı əsrimizin faciəsidir: "Səs" Xocalı faciəsinin 19-cu ildönümü ilə bağlı növbəti dəyirmi masa keçirdi // *Səs*. - 2011.-10 fevral. - №25. - S. 8-9.

**Alim**. Ermənistan parlamenti növbəti saxtakarlığa hazırlaşır: Həvva Məmmədova: "Xocalıya ədalət" kampaniyası çərçivəsində keçirilən tədbirlər erməniləri təşvişə salıb" // *Olaylar*. - 2011.-11 fevral. - №23. - S. 4 .- Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyi İdarə Heyətinin üzvü Həvva Məmmədovanın açıqlaması.

**Əliyev, Azad**. "Xocalı soyqırımı XX əsrin ən böyük cinayətidir": İlham Əliyev: "Bu gün bizim güclü ordumuz var və bu ordu istənilən halda öz torpaqlarını işğaldan azad edə bilər" // *Həftə içi*. - 2011.-11 fevral. - №2.-S.2.

**Məmmədov, F.** Tomas de Vall Xocalıdan yazdı: Qarabağ üzrə tanınmış ekspert bu dəhşətli qətliamda Ermənistanın indiki rəhbərlərinin iştirakı olduğunu bildirir // Yeni Müsavat. - 2011.-12 fevral. - №38. - S. 11 .

**Gültəkin. Xocalı olayları dünya mətbuatında** // *Ədalət*. - 2011.-15 fevral. - №28. - S. 4 .

**Qarayeva, S.** Xocalı soyqırımının qurbanları təhsil müəssisələrində silsilə tədbirlərlə anılacaq // *525-ci qəzet*. - 2011.-15 fevral. - №28. - S. 2 .

**Xocalı soyqırımı Türkiyədə anılacaq** // *Palitra*. - 2011.-15 fevral. - №16. - S. 4 .

**İlkin**. Ukraynada müxtəlif xalqların nümayəndələri Xocalıdakı vəhşiliklərdən dəhşətə gəliblər // *Palitra*. - 2011.-16 fevral. - №17. - S. 5 .

**Nigar**. Hindistanda "Xocalı-Gələcək üçün ibrət" adlı inşa yazı müsabiqəsi keçirilir // *Palitra*. - 2011.-16 fevral. - №17. - S. 5 .

**Bayramov, Rasim**. Xocalı soyqırımına gedən yol // *Azərbaycan*. - 2011.-16 fevral. - №36. - S. 4 ; №36. - S. 6 ; №41. - S. 9 . - XX əsrin faciəsi - Xocalı soyqırımı haqqında.

**Muradova, Pərixanım**. Xocalı fəryadı, Xocalı dərdi *// Yeni Azərbaycan*. - 2011.-16 fevral. - №29. - S. 6 . 41. - S. 9 . - XX əsrin faciəsi - Xocalı soyqırımı haqqında.

**Qurbanlı, Dəmir**. Xocalı faciəsi- tariximizin qan yaddaşı: Xocalı soyqırımı ermənilər tərəfindən qəsdən planlı şəkildə törədilən beynəlxalq cinayət hadisəsidir *// Azad Azərbaycan*. - 2011.-16 fevral. - №23. - S. 4 .

**Cavadlı, Natiq**. "Xocalıların günahı nəydi?: Beynəlxalq ekspertlər Xocalı faciəsini kütləvi qırğın və hərbi cinayət hesab edirlər *// Bizim yol*. - 2011.-16 fevral. - №29. - S. 11.

**Alim**. Xocalıda bəşəriyyət əleyhinə cinayət törədilib: Əliməmməd Nuriyev: "Şübhəsiz ki, Xocalıda baş verən qətliam soyqırımdır" *// Olaylar*. - 2011.-16 fevral. - №26. - S. 15 .

**Ukraynada "Xocalı ayı" çərçivəsində keçirilən tədbirlərə start verildi** *// 525-ci qəzet*. - 2011.-17 fevral. - №30. - S. 3 .

**Pənahlı, Natiq**. "Xocalı soyqırımını duymaq istəməyən bir dünya var" *// Zaman*. - 2011.-17-18 fevral. - №22. - S. 1 . - TBMM üzvü, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Mustafa Kabakçının açıqlaması.

**Günay**. Norveçdə Holokost mərkəzində "Xocalı: Faciədən öyrəndiklərimiz" adlı seminar və foto sərgi keçiriləcək *// Paritet*. - 2011.-17-18 fevral. - №19. - S. 6 .

**Türkiyədə Xocalı soyqırımı haqqında internet saytının təqdimatı keçiriləcək: Mustafa Kabakçı:** "Biz Xocalıya həsr olunmuş silsilə tədbirlərlə demək istəyirik ki, ortada bir qətliam, törədən qatillər və bunu duymaq istəməyən bir dünya var" *// Paritet*. - 2011.-17-18 fevral. - №19. - S. 3 .

**İsmayılqızı, Xuraman**. Xocalı soyqırımı-XX əsrin ən dəhşətli cinayəti *// İki sahil*. - 2011.-17 fevral. - **№30**. - S. 13.

**Sadayoğlu, Pərviz**. Xocalı soyqırımı-bəşər tarixinin qanlı səhifəsi *// Yeni Azərbaycan*. - 2011.-17 fevral. - №30. - S. 5.

**Nəzakət**. Dünya ölkələrində Xocalı faciəsinə həsr olunmuş tədbirlər keçiriləcək *// Səs*. - 2011.-17 fevral. - №30. - S. 7 .

**Qurbanlı, Tapdıq.** Xocalı soyqırımı Azərbaycan tarixinin ən qanlı səhifəsidir: "Səs" qəzeti növbəti dəfə Xocalı faciəsinin 19-cu ildönümü ilə bağlı dəyirmi masa keçirib *// Səs*. - 2011.-17 fevral. № 30. - S. 8-9 ; №31. - S. 8-9 ; №32. - S. 9 .

**Seyidzadə, Hacı Tofiq**. Tariximizin qanlı faciəsi: Faktlar Xocalı soyqırımının əvvəldən hazırlandığını təsdiq edir *// Azad Azərbaycan*. - 2011.-18 fevral. - №24. - S. 4 .

**İsmayılqızı, Xuraman**. Qaradağlı qırğını-Xocalı soyqırımına aparan yol *// İki sahil*. - 2011.-18 fevral. - №31. - S. 11 .

**Xocalı soyqırımı qurbanlarının xatirəsi Nyu-Yorkda da anılacaq** *// İki sahil*. - 2011.-18 fevral. - №31. - S. 13 .

**Nigar**. Avropa Azərbaycanlıları Konqresi Xocalı faciəsinə həsr olunmuş konfrans keçirəcək // Palitra. - 2011.-18 fevral. - №18. - S. 7 .

**Abbasquliyeva, Fatma.** Xocalı qisasa çağırır...: Erməni qatillərini qolu bağlı məhkəmə qarşısına çıxarmalıyıq // *Olaylar*. - 2011.-18 fevral. - №28. - S. 13 .

**Qaradağlının süqutu...: Xocalıdan** bir neçə gün əvvəlki qətliam // *Kaspi*. - 2011.-18 fevral. - №31. - S. 11.

**Qarayeva, Sevinc**. Donetskdə Xocalı soyqırımı ilə bağlı tədbir keçirildi // 525-ci qəzet. - 2011.-19 fevral. - №32. - S. 7 .

**Aysel.** Xocavəndin işğalından 19 il ötür: Qaradağlı kəndindən girov götürülən 117 nəfər kənd sakinindən 80 nəfərə yaxını xüsusi amansızlıqla qətlə yetirilib // *Xalq cəbhəsi*. - 2011.-18 fevral. - №31. - S. 9

**Meksika Konqresində Xocalı soyqırımı qurbanlarının xatirəsi anılmışdır** // *Xalq qəzeti*. - 2011.-19 fevral. - №39. - S. 2 .

**Şamilqızı, Şəbnəm**. Xocalı soyqırımı // *Təhsil problemləri*. - 2011.-16-23 fevral. - №13/14. - S. 6 .

**"Xocalı faciəsi şahidlərin gözü ilə"** // *Olaylar*. - 2011.-19-21 fevral. - №29. - S. 15 .

**Səxavət**. BDM Xocalı faciəsini Avropada anacaq // *Mərkəz*. - 2011.-19 fevral. - №32. - S. 4 .

**Abşeron rayonunda Xocalı soyqırımının qurbanlarının xatirəsi anılıb** // *Yeni Azərbaycan*. - 2011.-19 fevral. - №32. - S. 10 .

**Abbasov, İlham**. Xocalı soyqırımı // *Respublika*. - 2011.-20 fevral. - №40. - S. 6 . - XX əsrin faciəsi - Xocalı soyqırımı.

**Əliyev, Telman**. Xocalı soyqırımına aparan yol // *Xalq qəzeti*. - 2011.-20 fevral. - №40. - S. 10 . - XX əsrin faciəsi - Xocalı soyqırımı.

**İslam Konfransı Gənclər Forumu Xocalı faciəsi ilə bağlı dünyanın bir sıra ölkələrində genişmiqyaslı aksiyalar keçirəcəkdir** // *Xalq qəzeti*. - 2011.-22 fevral. - №41. - S. 4 .

**Türkiyədə və İsraildə Xocalı soyqırımı ilə bağlı anım tədbirləri keçiriləcək** // *Azad Azərbaycan*. - 2011.-22 fevral. - №26. - S. 4 .

**Cəfərli, Rəşad**. Əgər o vaxt hakimiyyətdə Heydər Əliyev olsaydı, Xocalı faciəsi baş verməzdi // *Azərbaycan*. - 2011.-22 fevral. - №41. - S. 8 . - Milli Məclisin deputatı, Xocalının keçmiş icra başçısı Elman Məmmədovla müsahibə.

**Xocalı soyqırımı ilə bağlı Haaqa Tribunalına müraciət ünvanlanacaq** // *Yeni Azərbaycan*. - 2011.-22 fevral. - №33. - S. 6 . - İKT Gənclər Forumunun rəhbəri Elşad İsgəndərovun açıqlaması.

**Dünya erməni vəhşiliyi barədə əsl həqiqətləri öyrənir:** Xocalı soyqırımının 19-cu ildönümü ilə əlaqədar həm Azərbaycanda, həm də xarici ölkələrdə silsilə tədbirlər təşkil edilir // Yeni Azərbaycan. - 2011.-22 fevral. - №33. - S. 6 .

**Zülfüqaroğlu, Əli**. "Böyük Millət Məclisinin Xocalı faciəsini soyqırım kimi qəbul etməsi çox önəmlidir": Camal Mehmetxanoğlu: "Belə bir addımın atılacağını fikirləşirəm" // *Həftə içi*. - 2011.-22 fevral. - №33. - S. 4 . - İzmir Mədəniyyət Mərkəzinin rəhbəri Camal Mehmetxanoğlunun müsahibəsi.

**İlyasoğlu, Rauf**. Xocalı soyqırımı teatr səhnəsində // *Respublika*. - 2011.-22 fevral. - №41. - S. 6 . - "İrəli" ictimai birliyinin və "Turan" ədəbi birliyinin təşəbbüsü ilə Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilmişdir.

**Kamalqızı, Rəfiqə**. XX əsrin faciəsi-Xocalı soyqırımı // *Səs*. - 2011.-22 fevral. - №33. - S. 7 .

**Şirinova, Aynurə**. Xocalı soyqırımı: Bəşəriyyətə qarşı tarixi cinayət: YAP Suraxanı rayon təşkilatında faciənin qurbanları anıldı // *İki sahil*. - 2011.-22 fevral. - №33. - S. 13 .

**Elməddin**. Xocalı soyqırımı Türkiyə, Almaniya və İsraildə anılacaq: "Xocalı soyqırımı: Şahidlərin dilindən" adlı kitabın təqdimatı da olacaq // *Üç nöqtə*. - 2011.-22 fevral. - №510. - S. 5 .

**Bayramov, Oqtay**. Mustafa Kabakçı: "Xocalı soyqırımının ildönümünü geniş şəkildə qeyd etməklə dünya ictimaiyyətinin diqqətini bir daha Dağlıq Qarabağ probleminə yönəltmək istəyirik" // *Azərbaycan*. - 2011.-22 fevral. - №41. - S. 3 .

**Heydər Əliyev: "**Amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaq" // *Azərbaycan*. - 2011.-22 fevral. - №41. - S. 5 . - Ümummilli lider Heydər Əliyevin Xocalı soyqırımı haqqında çıxışı.

**Əli, Yusif**. "Xocalıya ədalət" daha geniş platformada təbliğ olunacaq // *Zaman*. - 2011.-22-23 fevral. - №24. - S. 2 .

**Akifqızı, Şəfəq**. ABŞ Konqresində Xocalı soyqırımının qurbanları ilə bağlı bəyanatlar səsləndirilmişdir // *Xalq qəzeti*. - 2011.-23 fevral. - №42. - S. 2 .

**Əli, Yusif**. "Xocalıya ədalət" daha geniş platformada təbliğ olunacaq // *Zaman*. - 2011.-22-23 fevral. - №24. - S. 2 .

**Bəxtiyar Qaraca** O kənd bizim kəndimizdir - gedə bilməsək də, görməsək də...: "Soyqırımı: Qaradağlı" sənədli filmindən əvvəl və sonra / Bəxtiyar Qaraca // *Azərbaycan*. - 2011.-23 fevral. - №42. - S. 7 .

**Xocalı faciəsinin 19-cu ildönümü Birləşmiş Ərəb Əmirliklərində qeyd olunub** // *Azad Azərbaycan*. - 2011.-23 fevral. - №27. - S. 5 .

**Əliyev, Anar**. Xocalı soyqırımı: Bu qətliam XX əsrdə bəşəriyyətə qarşı törədilmiş ən dəhşətli faciələrdən biridir // *Vergilər*. - 2011.-23 fevral. - №7. - S. 3 .

**Zülfüqaroğlu, Əli**. ABŞ konqresində Xocalı faciəsi anılıb // *Həftə içi*. - 2011.-23 fevral. - №34. - S. 1-2 .

**Qələndərli, Nurlan.** Xocalı soyqırımı beynəlxalq hüquq müstəvisində...: Xocalı faciəsi ilə bağlı Beynəlxalq Haaqa Tribunalına müraciət edilməsi sözügedən soyqırımına beynəlxalq hüquqi-siyasi qiymətin verilməsi baxımından xüsusi önəm kəsb edir // *Yeni Azərbaycan*. - 2011.-23 fevral. - №34. - S. 7 .

**Xocalı soyqırımının 19-cu ildönümü münasibətilə Xocalı əhalisinin dünya dövlətlərinə, Birləşmiş Millətlər Təşkilatına, Avropa Şurasına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciəti** // *Xalq qəzeti.* - 2011.-23 fevral. - №42. - S. 1 .

**Xocalılar dünya ictimaiyyətinə** müraciət etdilər: "Xocalı faciəsi kimi vəhşi aksiyada məqsəd şəhərin bütün əhalisini məhv etmək idi" // *Kaspi.* - 2011.-23 fevral. - №34. - S. 8 .

**Əliyev, Telman**. Prezident İlham Əliyev: Xocalı soyqırımı XX əsrin ən böyük cinayətlərindən biridir // *Xalq qəzeti.* - 2011.-23 fevral. - №42. - S. 4 .

**Kamil**. Türkiyədə Xocalı faciəsi ilə bağlı tədbirlərlə start verilib // *525-ci qəzet.* - 2011.-23 fevral. - №34. - S. 4 .

**Əliyev, Rauf**. Türkiyənin TRT kanalı Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılmasına öz töhfəsini verməkdədir // *Xalq qəzeti.* - 2011.-23 fevral. - №42. - S. 4 .

**Qazaxıstanda Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib** // *Yeni Azərbaycan.* - 2011.-23 fevral. - №34. - S. 7.

**Sultanov, Əlimərdan**. Aysel Həsənova: "Soyqırım cinayətini təşkil edən əməllərdən hər biri şüurlu və əvvəlcədən düşünülmüş olur" // *Palitra.* - 2011.-23 fevral. - №21. - S. 7 . - Hüquqşünas Aysel Həsənovanın müsahibəsi

**Rza, Zahid**. Xocalı faciəsi bəşəriyyətə qarşı cinayətdir // *İki sahil.* - 2011.-23 fevral. - №34. - S. 13 .

**Xocalı soyqırımının 19-cu ildönümü ilə bağlı anma mərasimi keçirilmişdir** // *Azərbaycan.* - 2011.-24 fevral. - №43. - S. 6 . - BƏƏ, İsveç, Ukrayna, Şimali Kaliforniya və Belçikada Xocalı şəhidləri anılmışdır.

**Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaq:** Milli Məclisin deputatı Flora Qasımovanın yap.org.az-a müsahibəsi // *Səs.* - 2011.-24 fevral. - №35. - S. 6 .

**Həmzəoğlu, Kamil.** "Xocalı **soyqırım**ını törədənlər qanun qarşısında cavab verməlidirlər": Yeni Azərbaycan Partiyasının (YAP) icra katibi Əli Əhmədov: "Əgər bu sahədə işlərimizi səmərəli şəkildə qura bilsək, Xocalı faciəsinin beynəlxalq miqyasda tanınmasına, ona hüquqi qiymət verilməsinə nail ola biləcəyik" / K. Həmzəoğlu // 525-ci qəzet. - 2011.-24 fevral. - №35. - S. 4 . - YAP icra katibi Əli Əhmədovun müsahibəsi

**Rzalı, Rəsmiyyə.** Xocalı faciəsi "Soyqırımının Beynəlxalq Hüquqi Norması" nın yurisdiksiyasına düşən cinayətdir // *Azərbaycan.* - 2011.-24 fevral. - №43. - S. 4 .

**Kərimov, Yusif**. Şəhid ... aeroport: Yaxud Xocalı faciəsi barədə rekviyem // *Azərbaycan.* - 2011.-24 fevral. - №43. - S. 4 .

**Meksika Konqresində Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb** // *Yeni Azərbaycan.* - 2011.-19 fevral. - №32. - S. 10 .

**Abdullayev, Məsaim**. Xocalı faciəsi insanlığa qarşı törədilmiş ağır cinayətdir // *Xalq qəzeti.* - 2011.-24 fevral. - №43. - S. 5 . - Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin əməkdaşı, psixologiya üzrə fəlsəfə doktoru Rauf Qaragözovla müsahibə.

**Rza, Zahid**. Xocalı faciəsi bəşəriyyətə qarşı cinayətdir // *İki sahil.* - 2011.-23 fevral. - №34. - S. 13 .

**Həmzəoğlu, Kamil.** YAP Xocalı soyqırımının növbəti ildönümü ilə bağlı tədbir keçirdi: Tədbirdə Heydər Əliyev Fondu tərəfindən Xocalı faciəsi ilə bağlı çəkilmiş sənədli film də nümayiş etdirildi *// 525-ci qəzet*. - 2011.-24 fevral. - №35. - S. 4.

**Hümmətov, Ramiz**. Qan yaddaşımıza həkk olunmuş Xocalı soyqırımı *// Təhsil problemləri*. - 2011.-24-28 fevral. - №15/16. - S. 1 . - Xocalı şəhidi Şöhrət Həsənov haqqında.

**Əliyeva, Yeganə**. "Xocalıya ədalət": YAP Gənclər Birliyinin bu adda təşkil etdiyi tədbirdə bir daha faciə qurbanlarının xatirəsi yad edildi, soyqırımı törədənlərin layiqli cəzalarını almaları istiqamətində səylərin daha da artırlmasının vacibliyi diqqətə çatdırıldi *// İki sahil*. - 2011.-24 fevral. - №35. - S. 4 .

**Qurbanlı, Tapdıq**. Xocalı soyqırımı bəşəriyyətə, insanlığa qarşı böyük bir cinayətdir: Səstv.az saytının redaksiyasında Xocalı soyqırımı ilə bağlı müzakirələr aparıldı *// Səs*. - 2011.-24 fevral. - №35. - S. 8-9 .

**Şimali Kaliforniyda Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb** *// Yeni Azərbaycan*. - 2011.-24 fevral. - №35. - S. 5 .

**YAP Gənclər Birliyi "Xocalıya ədalət" adlı tədbir keçirib:** Əli Əhmədov: Xocalı faciəsi təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə qarşı törədilmiş cinayətdir *// Yeni Azərbaycan*. - 2011.-24 fevral. - №35. - S. 4 .

**Telmanqızı, Sevinc**. Dünya Xocalı faciəsinin adını eşidib, miqyasını isə bilmir...: Erməni vəhşətini dünyaya necə tanıdaq? *// Yeni Müsavat*. - 2011.-24 fevral. - №50. - S. 11 .

**Şeyxülislam Xocalı soyqırımı ilə bağlı dünya dini liderlərinə müraciət etdi:** QMİ sədri, həmçinin beynəlxalq təşkilatlara da müraciət ünvanlayıb *// 525-ci qəzet*. - 2011.-24 fevral. - №35. - S. 1 .

**Göyüşlü, Nicat**."Kaş ölüb qalaydım Xocalıda...": "Guya yaşayıram nə olub ki?!" // Xalq cəbhəsi. - 2011.-24 fevral. - №35. - S. 9 . - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi qüvvələri Rusiya Federasiyasının 366-cı motoatıcı alayının hərbi texnikası və şəxsi heyətinin köməkliyilə Xocalı şəhərini işğal edərək, yüzlərlə insanı qətlə yetirdi.

**Fuad**. BƏƏ rəsmiləri ermənilərin vəhşiliklərini nifrətlə qarşılayıblar: Bu ölkədəki Azərbaycan cəmiyyətinin sədri Xocalı soyqırımının 19-cu ildönümü ərəfəsində təbliğat və məlumatlandırıcı xarakter daşıyan görüşlər keçirib *// Paritet*. - 2011.-24-25 fevral. - №22. - S. 7 .

**Şadlinski, Vaqif.** Xocalı soyqırımı - ermənilərin vicdanına yazılmış vəhşiliyin görünməmiş təzahürüdür / V. Şadlinski, M. Allahverdiyev // Xalq qəzeti. - 2011.-25 fevral. - №44. - S. 4. - [AZ-Q]

**Orucov, Əliyar.** Erməni vandalizmi // *Palitra*. - 2011.-25 fevral. - №21. - S. 6. - Xocalı faciəsi haqqında [AZ-Q]

**Mustafayev, Sabir.** Beynəlxalq hüquq normaları Xocalı faciəsinin soyqırımı olduğunu tam təsdiqləyir: Müsahibimiz Azərbaycan Respublikası hərbi prokuroru, ədliyyə generalı-leytenantı Xanlar Vəliyevdir // *Azərbaycan*. - 2011.-25 fevral. - №44. - S. 7. - [AZ-Q]

**Hacızadə, Asya.** Moskvada "Xocalıya ədalət" kampaniyası çərçivəsində konfrans keçirilmişdir // *Xalq qəzeti*. - 2011.-26 fevral. - №45. - S. 3. - [AZ-Q]

**Əhmədov, Elçin.** Ermənistan etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasətinin nəticələri // *Xalq qəzeti*. - 2011.-26 fevral. - №45. - S. 4. - XX əsrin faciəsi - Xocalı soyqırımı [AZ-Q]

**Xəlilov, Rüstəm.**
Xocalı faciəsi dünyanın gözü ilə // *Xalq qəzeti.* - 2011.-27 fevral. - №46. - S. 3. - [AZ-Q]

**İsayev, Əhməd.** Xocalı soyqırımı, genosidi - bunun adı belədir: Bu sözləri Prezident İlham Əliyev Goranboyda xocalılarla görüşü zamanı dedi // *Azərbaycan.* - 2011.-26 fevral. - №45. - S. 4. - [AZ-Q]

**Mustafayev, Nihad.** XX əsrin qanlı soyqırım gecəsi // *Respublika.* - 2011.-27 fevral. - №46. - S. 4. - XX əsrin faciəsi - Xocalı soyqırımı [AZ-Q]

**Fuad.** 1918-ci il Şamaxı soyqırımına həsr olunmuş beynəlxalq konfrans keçirildi: Elxan Süleymanov: "Gələcəkdə bu cür tədbirlər qırğınlar törədilmiş digər rayonlarda, eləcə də xarici ölkələrdə keçiriləcək" // *Paritet.* - 2011.-15-16 mart. - №30. - S. 6. - [AZ-Q]

**Mirzəyev, Hikmət.** Ermənistan soyqırımı törədən və terrorçuluğu dəstəkləyən dövlətdir // *Azərbaycan.* - 2011.-17 mart. - №60. - S. 4. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q]

**İslam Sadıq.** Soyqırımını türklər yox, ermənilər törədiblər // *Xalq qəzeti.* - 2011.-29 mart. - №64. - S. 4. - [AZ-Q]

**Elməddin.** Türklərin ermənilər tərəfindən soyqırımı haqqında tarixi həqiqətlər: Ermənilər Anadoluda türkləri soyqırıma məruz qoyublar // *Yeni Azərbaycan.* - 2011.-29 mart. - №52. - S. 7. - [AZ-Q]

**Aysel.** 31 mart soyqırımı: 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min azərbaycanlını qətlə yetirir, 10 minlərlə insanı öz torpaqlarından qovurlar // *Xalq cəbhəsi.* - 2011.-29 mart. - №52. - S. 10. - [AZ-Q]

**Əhmədov, Elçin.** Ermənistanın azərbaycanlılara qarşı soyqırımı və təcavüzkarlıq siyasətinin mərhələləri // *Xalq qəzeti.* - 2011.-30 mart. - №65. - S. 3. - [AZ-Q]

**Əliyev, A.** 31 Mart- Azərbaycanlıların Soyqırımı Günüdür // *Vergilər.* - 2011.-30 mart. - №11. - S. 3. - [AZ-Q]

**Qan yaddaşımız: 31 mart Azərbaycanlıların Soyqırımı Günüdür** // *Mədəniyyət.* - 2011.-30 mart. - №21. - S. 7. - [AZ-Q

**Xəlilzadə, Flora.** Uşaq qatilləri // *Azərbaycan.* - 2011.-30 mart. - №65. - S. 6. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Turan**. Ombudsman 31 Mart-Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat verib // *Azad Azərbaycan.* - 2011.-30 mart. - №42. - S. 5. - [AZ-Q]

**Cümşüdlü, Firudin.** 31 mart soyqırımından 93 il keçir: Azərbaycan 1918-ci il 31 mart qırğını xalqımıza qarşı soyqırımı günü kimi dövlət səviyyəsində qeyd olunur // *Azad Azərbaycan.* - 2011.-30 mart. - №42. - S. 4. - [AZ-Q]

**AMEA-nın Tarix İnstitutu və Baş Prokurorluq "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı" mövzusunda elmi-praktik konfrans keçirmişlər //** *Xalq qəzeti.* - 2011.-31 mart. - №66. - S. 2. - [AZ-Q]

**Səfərov, Rafiq.** Qan yaddaşı: Erməni daşnak millətçi qüvvələrinin xalqımıza qarşı xəyanəti. yürütdükləri terror və soyqırımı siyasəti bu gün də davam etməkdədir // *Kaspi.* - 2011.-31 mart. - №54. - S. 9. - [AZ-Q]

**Məmmədov, Süleyman.** Erməni vəhşiliyinin qanlı təzahürü: Bakı qırğını // *Xalq qəzeti.* - 2011.-31 mart. - №66. - S. 3. - [AZ-Q]

**Əliyev, Ədalət.** Göyçədə Zod kəndində ermənilərin törətdikləri soyqırımları // *Xalq qəzeti.* - 2011.-31

mart. - №66. - S. 4. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Xalqımıza qarşı törədilən cinayətlərə dolğun siyasi qiymət verən sənəd:** Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı həm də erməni yalanlarının dünyada ifşa olunması istiqamətində aparılan işlərin sistemli surətdə davam etdirilməsinə imkan yaratmışdır // *Xalq qəzeti.* - 2011.-31 mart. - №66. - S. 1. - [AZ-Q]

**Niyazov, Xalid.** Üzü bəri baxan dağlar // *Xalq qəzeti.* - 2011.-31 mart. - №66. - S. 3. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Zeynal Vəfa.** Zəngəzur faciələri // *Xalq qəzeti.* - 2011.-31 mart. - №66. - S. 4. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Nəzərli, Telman.** Sarıqamışda, Ahılkələkdə, Şamaxıda qan su yerinə axıb // *Xalq qəzeti.* - 2011.-31 mart. - №66. - S. 4. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Xəlilzadə, Flora**. Yer üzünün zilləti // *Xalq qəzeti.* - 2011.-31 mart. - №66. - S. 5. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Əroğul, Əlisahib.** 31 mart-Azərbaycanlıların böyük soyqırımı, ermənilərin bəşəri yırtıcılıq günüdür *// 525-ci qəzet.* - 2011.-31 mart. - №54. - S. 6. - [AZ-Q]

**Pənahov, İlham.** Şamaxı qırğını: erməni vəhşiliyi // *Respublika.* - 2011.-30 mart. - №65. - S. 2. - [AZ-Q]

**Abbasov, İlham.** Azərbaycan xalqına qarşı soyqırımı // *Respublika.* - 2011.-31 mart. - №66. - S. 3. - 31 Mart Azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Tağıyev, Baba.** 1918-ci ilin mart hadisələrinin soyqırımı olduğunu beynəlxalq hüquq normaları da təsdiqləyir // *Respublika.* - 2011.-31 mart. - №66. - S. 4. - [AZ-Q]

**Bayramlı, Elçin.** Bəşəriyyətə qarşı erməni vəhşiliyi-Mart Soyqırımı: 1918-ci ilin martında ermənilər tərəfindən Azərbaycanda həyata keçirilən soyqırımı nəticəsində on minlərlə günahsız insan vəhşicəsinə qətlə yetirilib // *Səs.* - 2011.-11 mart. - №54. - S. 10. - [AZ-Q]

**31 Mart - azərbaycanlıların Soyqırım günü: Kökləri uzaqlara gedən nifrət** // *Azadlıq.* - 2011.-31 mart. - №71. - S. 13. - [AZ-Q]

**Uğur.** 31 Mart soyqırımı // *Xalq cəbhəsi.* - 2011.-31 mart. - №54. - S. 11. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Məhərrəmov, Vahid.** Ermənilərin xalqımıza qarşı soyqırımı // *Azərbaycan ordusu.* - 2011.-30 mart. - №22. - S. 3. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**1918-ci ilin Quba qırğını əvvəlcədən planlaşdırılmış və düşünülmüş formada həyata keçirilən soyqırımı cinayətinin bir mərhələsidir** // *Xalq qəzeti.* - 2011.-1 aprel. - №67. - S. 3. - [AZ-Q]

**Prezident Kitabxanasının "Azərbaycanlıların soyqırımı və deportasiyası" adlı elektron resursu yenilənmişdir** // *Xalq qəzeti.* - 2011.-1 aprel. - №67. - S. 5. - [AZ-Q]

*** * ***

**Утвержден "План мероприятий по проведению 19-й годовщины Ходжалинского геноцида"** // *Бакинский рабочий.* - 2011.-3 февраля. - №21. - С. 1. - [AZ-Г].

**Касумова, Елизавета.** Бой первый - бой последний: 26 февраля - День геноцида Ходжалы / Е. Касумова // *Литературный Азербайджан.* - 2011. - № 2. - С. 3-7. - [AZ-J].

**Памяти Ходжалы** // *Азербайджанский конгресс.* - 2011.-4 февраля. - №4. - С. 2. - По

распоряжению руководителя администрации Президента Азербайджанской Республики Рамиза Мехтиева утвержден "План мероприятий в связи с 19-й годовщиной Ходжалинского геноцида" [RU-Г].

**На встрече с поэтессой был показан спектакль о Ходжалинском геноциде** // *Бакинский рабочий*. - 2011.-22 февраля. - №34. - С. 3. - 18 февраля в Центре молодежи "Ирели" состоялась встреча с поэтессой, сотрудницей АзерТАджа Зарангиз Демирчи Гаялы (Зарангиз Мансуровой) [AZ-Г].

**Ходжалинский геноцид - трагедия XX века:** Обращение населения Ходжалы к государствам мира, Организации Объединенных Наций, Совету Европы, Организации по безопасности и сотрудничеству в Европе по случаю 19-й годовщины Ходжалинского геноцида // *Бакинский рабочий*. - 2011.-23 февраля. - №35. - С. 2. - Обращение принято на состоявшемся в поселке Ашагы Агджакенд Геранбойского района общем собрании вынужденных переселенцев из Ходжалы [AZ-Г].

**Ниязоглу, Рагиф.** Справедливость для Ходжалы: в рамках информационно-агитационной компании состоится ряд мероприятий в странах мира // *Каспий*. - 2011.-23 февраля. - №34. - С. 2. - 26 февраля День памяти жертв геноцида, учиненного озверевшими армянскими палачами в отношении мирного населения азербайджанского города Ходжалы [AZ-Г].

**Айдынгызы, Дж.** Мужчины, женщины и дети, погибшие в Ходжалы, не должны быть забыты, считает сенатор от Северной Дакоты, демократ Кент Конрад // *Эхо*. - 2011.-23 февраля. - №34. - С. 4. - О мероприятиях, посвященных годовщине Ходжалинского геноцида [AZ-Г].

**В Конгрессе США прозвучали заявления, призывающие почтить память жертв Ходжалинского геноцида** // *Бакинский рабочий*. - 2011.-24 февраля. - №36. - С. 3. - В связи с 19-й годовщиной чудовищного Ходжалинского геноцида, совершенного армянскими вооруженными силами в феврале 1992 года в Азербайджане, в Палате представителей Конгресса США была почтена память жертв этой трагедии [AZ-Г].

**Ходжалинский геноцид - трагедия XX века:** Молодежное объединение ПЕА провело мероприятие "Не забудь Ходжалы" // *Бакинский рабочий*. - 2011.-24 февраля. - №36. - С. 3. - [AZ-Г].

**Мустафаев, Рафик.** Ходжалы - историческое преступление: во всем мире проводятся акции протеста в связи с годовщиной трагических событий // *Каспий*. - 2011.-24 февраля. - №35. - С. 2. - Накануне годовщины трагических событий в Ходжалы свидетели геноцида обратились с письмом к государствам мира, ООН, Совету Европы, ОБСЕ с требованием дать справедливую оценку этому преступлению [AZ-Г].

**Бахтияров, Б.** "Не забывай Ходжалы": совершившие это преступление все еще находятся на свободе. И даже занимают руководящие должности в Армении // *Эхо*. - 2011.-24 февраля. - №35. - С. 1,3. - Молодежное объединение правящей партии "Ени Азербайджан" (ПЕА) провело мероприятие под названием "Не забывай Ходжалы" [AZ-Г].

**Ходжалинский геноцид - трагедия XX века: памяти павших** // *Бакинский рабочий*. - 2011.-25 февраля. - №37. - С. 3. - 26 февраля День памяти жертв геноцида, учиненного озверевшими армянскими палачами в отношении мирного населения азербайджанского города Ходжалы [AZ-Г].

**Мир отмечает 19-летие Ходжалинской трагедии** // *Вышка*. - 2011.-25 февраля. - №8. - С. 3. - О мероприятиях, посвященных годовщине Ходжалинского геноцида [AZ-Г].

**Тагиева, Элина.** Ходжалинский геноцид - трагедия XX века // *Мир литературы*. - 2011.-февраль. - №2. - С. 2. - 26 февраля День памяти жертв геноцида, учиненного озверевшими армянскими палачами в отношении мирного населения азербайджанского города Ходжалы [AZ-Г].

**Алекперова, Дж.** Кровавой страницей в истории человечества является трагедия в Ходжалы // *Эхо*. - 2011.-25 февраля. - №36. - С. 1,3. - [AZ-Г].

**Гаджизаде, Ася.** В рамках кампании "Справедливость для Ходжалы" в Москве состоялась

конференция, посвященная Ходжалинской трагедии // *Бакинский рабочий*. - 2011.-26 февраля. - №38. - С. 2. - [AZ-Г].

**Бабаев, Рагим.** Ходжалинский геноцид - трагедия XX века: чудовищное преступление против человечества // *Бакинский рабочий*. - 2011.-26 февраля. - N 38. - С. 3. - 26 февраля День памяти жертв геноцида, учиненного озверевшими армянскими палачами в отношении мирного населения азербайджанского города Ходжалы [AZ-Г].

**Ниязоглу, Рагиф.** Ходжалинский геноцид: это преступление не должно остаться безнаказанным / Р. Ниязоглу // Каспий. - 2011.-26 февраля. - №37. - С. 1-3. - 26 февраля День памяти жертв геноцида, учиненного озверевшими армянскими палачами в отношении мирного населения азербайджанского города Ходжалы [AZ-Г].

**Нурани.** Повторение мартовской резни: именно этот сценарий готовились реализовать авторы карабахской авантюры и в Ереване, и в Москве // *Эхо (нед)*. - 2011.-26 февраля. - №37. - С. 6. - [AZ-Г].

**Рустамов, Р.** Девятнадцать лет безнаказанности: в феврале 1992 года армяне и российские солдаты расстреляли мирное население Ходжалы // *Зеркало /нед/*. - 2011.-26 февраля. - №37. - С. 3,7. - [AZ-Г].

**Миркадыров, Р.** Турция отмечала годовщину Ходжалинской трагедии: однако мэр Анкары, представляющий правящую партию, остался "вне игры" // *Зеркало /нед/*. - 2011.-26 февраля. - №37. - С. 9. - [AZ-Г].

**Во влиятельной турецкой газете "Хуррийет" опубликовано интервью вице-президента Фонда Гейдара Алиева Лейлы ханум Алиевой** // *Бакинский рабочий*. - 2011.-1 марта. - №39. - С. 3. - [AZ-Г].

**Потапов, Алексей.** Трагедия Ходжалы: знать и помнить. Жесточайший эпизод карабахского конфликта с болью вспоминают в Азербайджане, но трагедия не является для Баку камнем преткновения на пути мирного урегулирования // *Независимая газета*. - 2011.-25 февраля. - №38/39. - С. 7. - 26 февраля День памяти жертв геноцида, учиненного озверевшими армянскими палачами в отношении мирного населения азербайджанского города Ходжалы [RU-Г].

**Сафаров, Б.** Добиться признания трагедии Ходжалы актом геноцида, по словам вице-президента Фонда Гейдара Алиева Лейлы Алиевой, в этом заключается задача каждого азербайджанца // *Эхо*. - 2011.-1 марта. - №38. - С. 5. - В Москве прошла конференция и вечер памяти, посвященные 19-й годовщине трагедии Ходжалы [AZ-Г].

**Ходжалинский геноцид - одна из самых кровавых страниц XX века** // *Вышка*. - 2011.-4 марта. - №9. - С. 6. - [AZ-Г].

**Кибальник, А. Г**. Геноцид в решениях современных международных трибуналов // *Международное уголовное право и международная юстиция*. - 2011. - № 1. - С. 12-15. - Анализ объективных и субъективных признаков геноцида [RU-Ж].

**Ахундова, Мариам.** Безвинные жертвы Ходжалы // Азербайджанский конгресс. - 2011.-25 февраля. - №7. - С. 1,4. - О Ходжалинском геноциде [RU-Г]

**Знать и помнить** // *Азербайджанский конгресс*. - 2011.-4 марта. - №8. - С. 1. - В Москве 25 февраля, накануне 19-й годовщины Ходжалинской трагедии, прошли конференция и вечер памяти, посвященные этой скорбной дате. В мероприятии приняла участие глава российского представительства Фонда Гейдара Алиева Лейла Алиева [RU-Г]

**Ниязоглу, Рагиф.** Геноцид, продолжающийся и поныне: мировое сообщество должно дать объективную политическую оценку зверствам армян // *Каспий*. - 2011.-30 марта. - №53. - С. 1-2. - О геноциде, осуществленном армянами в отношении азербайджанцев в 1918-1920 годах [AZ-Г]

**Гасаноглу, Р.** Мартовский геноцид 1918 года имел продолжение: армяне повторили его в январе 1990 года // *Зеркало.* - 2011.-31 марта. - №54. - С. 1. - В президиуме Национальной академии наук состоялась научно-практическая конференция на тему "Геноцид против азербайджанского народа в 1918-1920 годах" [AZ-Г]

**Манафов, Р.** Геноцид против азербайджанского народа рассмотрит Международный суд в Гааге? Это станет возможным после завершения следственных действий с начала XIX века до ходжалинского геноцида и сумгайытских событий, после чего соответствующие юридические документы будут направлены во все международные организации // *Эхо.* - 2011.-31 марта. - №54. - С. 1,3. - [AZ-Г]

**Гасаноглу, Р.** Советская Россия ни при чем? Хотя ее войска и уничтожали мирное азербайджанское население // *Зеркало.* - 2011.-1 апреля. - №55. - С. 1. - О геноциде, осуществленном армянами в отношении азербайджанцев в 1918-1920 годах [AZ-Г]

*** * ***

**Hague court may review 1918 genocide of Azeris** // *AzerNEWS.* - 2011.-31 March-5 April. - **№12**. - p. 1. - The 31 of March is marked as the Day of Massacre of Azerbaijanis [AZ-N]

## 2012-ci il

**Miriyev, Anar**. Bəşəriyyətə qarşı yönəlmiş cinayət: Qondarma «erməni soyqırımı»nı inkara görə cəza qanunu qəbul edən Fransanın 20 il əvvəl baş vermiş və bütün faktları ilə göz önündə olan Xocalı soyqırımı ilə bağlı qanun qəbul etməsi daha ədalətli olardı / A. Miriyev // *Palitra.* - 2012.-31 yanvar. - № 11. - S. 5. - [AZ-Q].

**Abasova, Əminə**. Fransa alimi uydurma erməni soyqırımını ifşa edir / Ə. T. Abasova // *Respublika.* - 2012.-1 fevral. - № 24. - S. 4. - Məşhur fransız tarixçisi türkoloq Jorj-de Malevilin "Ermənistan soyqırımı" adlanan iddialarına həsr olunmuş, "Armyanskaya traqediya 1915 qoda" kitabı 1990-cu ildə fransız dilindən rus dilinə və sonra azərbaycan dilinə tərcüməsindən bir hissəsinin oxuculara təqdimatı [AZ-Q].

**Fransa: soyqırım, müstəmləkə, qətllər...** // *Zaman.* - 2012.-4-6 fevral. - № 15. - S. 2. - Fransanın Afrikadakı işğalçı siyasəti haqqında [AZ-Q].

**İlyasov, Rəşad**. Soyqırımı xülyası: tarixin və hüququn siyasiləşdirilməsi... / R. İlyasov // *Səs.* - 2012.-4 fevral. - № 21. - S. 11. - [AZ-Q].

**İsmayılqızı, Xuraman**. Erməni məkrinin fəsadları: Soyqırımı...deportasiya...etnik təmizləmə: Daşnak ideologiyasının "dəst-xəttini" əks etdirən bu faciələrdən ən çox əziyyət çəkən Azərbaycandır / X. İsmayılqızı // *İki sahil.* - 2012.-11 fevral. - № 26. - S. 12. - [AZ-Q].

**Hacalıyev, Elnur**. İnsanlığa və bəşəriyyətə qarşı yönəlmiş amansız cinayət / E. Hacalıyev // *Azərbaycan.* - 2012.-12 fevral. - № 34. - S. 6. - XX əsrin faciəsi - Xocalı soyqırımı [AZ-Q].

**Quliyeva, Zərifə**. Bəşəri cinayət / Z. Quliyeva // *Respublika.* - 2012.-25 fevral. - № 45. - S. 9. - XX əsrin faciəsi - Xocalı soyqırımı [AZ-Q].

**Talıbov, Rza**. Bəşər tarixinin dəhşətli faciəsi / R. Talıbov // *Respublika.* - 2012.-26 fevral. - № 46. - S. 1,3. - 26 fevral Xocalı soyqırımı günüdür [AZ-Q].

**Kamalqızı, Rəfiqə**. Qondarma "erməni soyqırımı" iddiaları tarixi saxtalaşdırmaq cəhdidir / R. Kamalqızı // *Səs.* - 2012.-28 fevral. - № 37. - S. 13. - [AZ-Q].

**Xəlilzadə, Flora**. Erməni etirafları / F. Xəlilzadə // *Azərbaycan.* - 2012.-29 fevral. - № 48. - S. 10. - XX əsrin faciəsi - Xocalı soyqırımı [AZ-Q].

**Nurlan.** 31 mart olayları ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı siyasətinin ən qanlı səhifələrindən birini təşkil edir: Ulu öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi və bu olaylara real hüquqi-siyasi qiymət verildi / Nurlan // *Yeni Azərbaycan.* - 2012.-16 mart. - № 49. - S. 7. - [AZ-Q].

**Nuriyev, Azər**. Tariximizin ən faciəli səhifəsi-Mart soyqırımı: Daşnak-bolşevik birləşmələrinin türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər istər hüquqi baxımdan, istərsə də siyasi cəhətdən soyqırım, kimi qiymətləndirilməlidi / A. Nuriyev // *Kaspi.* - 2012.-28 mart. - N 282. - S. 12. - [AZ-Q].

**Şaumyanın Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlarla bağlı yeni faktlar** // *İki sahil.* - 2012.-28 mart. - № 52. - S. 6. - [AZ-Q].

**Məmmədov, Məhərrəm**. 1918-ci ildə ermənilərin Azərbaycanda törətdiyi qırğınlar soyqırımı aksiyasıdır / M. Məmmədov // *Xalq qəzeti*. - 2012.-28 mart. - № 65. - S. 5. - [AZ-Q].

**Ermənilərin xalqımıza qarşı soyqırımı** // *Azərbaycan ordusu*. - 2012.-28 mart. - № 22. - S. 3. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**"Azərbaycanlıların soyqırımı: Tarixin qanlı salnaməsi**" // *Respublika*. - 2012.-28 mart. - № 65. - S. 4. - "Azərbaycan" qəzetinin redaksiyası tərəfindən hazırlanmış bu kitabın ideya müəllifi akademik Ramiz Mehdiyevdir [AZ-Q].

**Novruzoğlu, Rövşən**. İmperiyanın Birinci Dövlət Dumasındakı Şamaxı izi...: 1918-ci il Şamaxı qırğınlarında ermənilər tərəfdən qətlə yetirilən ilk azərbaycanlı deputat Məhəmmədtağı Hacı Əbdülsəməd oğlu Əliyev haqqında məlum olmayan həqiqətlər / R. Novruzoğlu // *Respublika*. - 2012.-28 mart. - № 65. - S. 5. - [AZ-Q].

**Abbasov, İlham**. Azərbaycan xalqına qarşı soyqırımı / İ. Abbasov // *Respublika*. - 2012.-28 mart. - **№ 65**. - S. 6. - Azərbaycan xalqı zaman-zaman olmazın ədalətsizliklərlə qarşılaşmış, bədnam qonşularımız ermənilər tərəfindən soyqırımlarına məruz qalmışdır [AZ-Q].

**Cümşüdlü, Firudin**. Mart soyqırımı xalqımıza qarşı törədilmiş bəşəri cinayət idi / F. Cümşüdlü // *Xalq qəzeti*. - 2012.-29 mart. - № 66. - S. 3. - [AZ-Q].

**Muradlı, Arzuman**. Azərbaycanlıların soyqırımına siyasi-hüquqi qiyməti ilk dəfə Heydər Əliyev verdi / A. Muradlı // *Azərbaycan*. - 2012.-29 mart. - № 66. - S. 5. - [AZ-Q].

**Əliyeva, Məhsəti**. Tarixi həqiqətlər şahidlik edir / M. Əliyeva // *Azərbaycan*. - 2012.-29 mart. - № 66. - S. 5. - Şamaxı qırğınları haqqında [AZ-Q].

**31 mart Azərbaycanlıların soyqırımı günüdür** // *Cəmiyyət və Din*. - 2012.-29 mart-4 aprel. - № 11. - S. 4. - [AZ-Q].

**Əsgərov, Ədalət**. Tariximizin qan yaddaşı / Ə. Əsgərov // *Respublika*. - 2012.-29 mart. - № 66. - S. 4. - [AZ-Q].

**Muradov, Sövdəyər**. Tarixi həqiqətlər / S. Muradov // *Respublika*. - 2012.-29 mart. - № 66. - S. 4. - Ermənilərin türk xalqlarına qarşı törətdiyi ağır cinayətlər haqqında [AZ-Q].

**"Azərbaycanlıların soyqırımı:** Tarixin qanlı salnaməsi": "Azərbaycan" qəzetinin redaksiyası tərəfindən hazırlanmış ikicildlik kitab belə adlanır // *Xalq qəzeti*. - 2012.-30 mart. - № 67. - S. 2-3. - [AZ-Q].

**Aşırlı, Şəymən.** Soyqırım muzeyi niyə yaradılmır? / Ş. Aşırlı // *Şərq*. - 2012.-30 mart. - № 53. - S. 7. - [AZ-Q].

**Quluzadə, Musa.** Mart qırğınına Stepan Şaumyan və onun əlaltıları rəhbərlik etmişlər: 1918-ci ilin mart qırğınları ermənilərin xalqımıza qarşı törətdiyi ən ağır bəşəri cinayətlərdəndir / M. Quluzadə // *Xalq qəzeti*. - 2012.-30 mart. - № 67. - S. 6. - [AZ-Q].

**Gülər**. Ombudsmandan iki əsrlik soyqırım bəyanatı: "1918-ci il Mart soyqırımından 94 il keçir, lakin erməni millətçilərinin törətdikləri bu dəhşətləri unutmaq qeyri-mümkündür" / Gülər // *Ədalət*. - 2012.-30 mart. - № 52. - S. 3. - [AZ-Q].

**Səfərov, Rafiq.** Tarixi yaddaş: 31 Mart soyqırımı günü: 1918-ci ilin mart qırğınında dağıdılmış, yandırılmış və əmlakı talan edilmiş məktəblərin bərpa edilməsi istiqamətində Cümhuriyyətin Xalq Maarif Nazirliyinin fəaliyyəti barədə bəzi qeydlər / R. Səfərov // *Kaspi.* - 2012.-30 mart. - N 284. - S. 12. - [AZ-Q].

**Mirzəyev, Hikmət.** Soyqırımı bəşəriyyətə qarşı amansız cinayətdir: Ermənistan teror və soyqırımını dövlət səviyyəsində dəstəkləyir / H. Mirzəyev // *Azərbaycan.* - 2012.-30 mart. - № 67. - S. 9. - [AZ-Q].

**Məmmədov, Fəxrəddin.** Erməni saxtakarlığını ifşa edən əsər / F. Məmmədov // *Azərbaycan.* - 2012.-30 mart. - № 67. - S. 9. - Tarix elmləri doktoru, professor Həsənbala Sadıqovun "Erməni məsələsi: xəyanəti, deportasiyanı, soyqırımını və işğalı pərdələyən yalan" kitabı haqqında [AZ-Q].

**Soyqırım insanlıq əleyhinə cinayətlərin ən təhlükəlisidir:** "AZE Hüquq Şrkəti" bununla bağlı materialları təqdim edir // Respublika. - 2012.-30 mart. - № 67. - S. 5. - [AZ-Q].

**Novruzoğlu, Rövşən.** 1918-ci il. Şamaxı Mart qırğınlarında Soyqırımı aparan erməni daşnaklarına qarşı yaradılan ilk partizan dəstəsi / R. Novruzoğlu // *Respublika.* - 2012.-30 mart. - № 67. - S. 6. - [AZ-Q].

**Abbaszadə, Turan.** 31 Mart-Dünya Azərbaycanlılarının Soyqırımı Günüdür: Mart qırğını zamanı Bakı şəhərinin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadının meyidi tapılmışdır / T. Abbaszadə // *Azad Azərbaycan.* - 2012.-30 mart. - № 44. - S. 5. - [AZ-Q].

**Sadayoğlu, Pərviz.** 31 mart soyqırımı-xalqımızın qan yaddaşı: Azərbaycanda ikinci dəfə müstəqillik əldə etdikdən sonra məhz Ümummilli liderimiz Heydər Əliyevin 26 mart 1998-ci il Fərmanı ilə 31 mart soyqırımı günü kimi rəsmiləşdirildi / P. Sadayoğlu // *Yeni Azərbaycan.* - 2012.-30 mart. - № 54. - S. 7. - [AZ-Q].

**Muradlı, Arzuman.** Artıq ermənilər dünyanı öz yalanlarına inandıra bilmirlər / A. Muradlı // *Yeni Azərbaycan.* - 2012.-31 mart. - № 55. - S. 4. - 31 Mart Azərbaycanlıların Soyqırımı günüdür [AZ-Q].

**Mustafa, Nazim.** 1918-1920-ci illərdə Ağbaba və Şörəyel nahiyələrində ermənilərin törətdikləri soyqırımı / N. Mustafa // *Xalq qəzeti.* - 2012.-31 mart. - № 68. - S. 5 ; № 69. - S. 4. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Hacıyev, Orxan.** Saxta erməni iddiaları və soyqırımı həqiqətləri / O. Hacıyev // *Xalq qəzeti.* - 2012.-31 mart. - № 68. - S. 6. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Gülər**. XX əsrin ən böyük soyqırımı mart soyqırımı hesab olunmalıdır / Gülər // *Ülfət.* - 2012.-31 mart. - № 15/16. - S. 8. - [AZ-Q]

**Hacıyev, İsmayıl.** Ermənistan terror və soyqırımı siyasətini dövlət səviyyəsində dəstəkləyir / İ. Hacıyev // *Azərbaycan.* - 2012.-31 mart. - № 68. - S. 6. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Kamalqızı, Rəfiqə.** 31 mart soyqırımı-XX əsrin unudulmayacaq vəhşiliyi: 31 mart soyqırımı beynəlxalq aləm tərəfindən tanınmalıdır / R. Kamalqızı // *Səs.* - 2012.-31 mart. - № 55. - S. 8-9. - [AZ-Q].

**Abdulla, Hacı.** Erməni xisləti / H. Abdulla // *Azərbaycan.* - 2012.-31 mart. - № 68. - S. 7. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Talışlı, Mirhaşım.** 1918-ci il mart qırğınları Lənkərandan da yan ötməmişdir / M. Talışlı, E. Əhədov // *Azərbaycan.* - 2012.-31 mart. - № 68. - S. 8. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Məmmədov, Xəqani.** Bakıda və Qubada 1918-ci il mart-aprel soyqırımı / X. Məmmədov, N. Məmmədov // *Respublika.* - 2012.-31 mart. - № 68. - S. 6. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Cəfərov, Fəxrəddin.** Soyqırım xatirələrin dili ilə... [Текст] / F. Cəfərov // Respublika. - 2012.-31 mart. - № 68. - S. 7. - Naxçıvan ərazisindəki qırğınlar haqqında mərhum maarifçi Qasım Hacı oğlu Tağıyevin xatirələri [AZ-Q].

**Qədir, Aslan.** Göyçədən ucalan fəryadlar / A. Qədir // *Respublika*. - 2012.-31 mart. - № 68. - S. 8. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Əhmədli, Salatın.** Heç nə unudulmur / S. Əhmədli // *Respublika*. - 2012.-31 mart. - № 68. - S. 9. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Məmmədov, Süleyman.** Mart qırğınını törədənlər / S. Məmmədov // *Xalq qəzeti*. - 2012.-1 aprel. - № 69. - S. 3. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Naxçıvanda erməni vandalizmi** // *Azərbaycan*. - 2012.-1 aprel. - № 69. - S. 5. - [AZ-Q].

**Azərbaycan ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımların dünyada tanınması istiqamətində sistemli iş aparır:** AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktor müavini Cəbi Bəhramovun www.yap.org.az saytına müsahibəsi // *İki sahil*. - 2012.-31 mart. - № 55. - S. 15. - [AZ-Q].

**Abdullayev, Natiq.** Yaddaşlardan slinməyən izlər / N. Abdullayev // *Azərbaycan*. - 2012.-1 aprel. - № 69. - S. 5. - 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür [AZ-Q].

**Qasımov, Ramiz.** Soyqırımlar tarixinin 31 Mart günü // *İki sahil*. - 2012.-31 mart. - № 55. - S. 8. - [AZ-Q].

**Unudulmayan tarix**: 31 Mart-Azərbaycanlıların Soyqırımı Günüdür // *İki sahil*. - 2012.-31 mart. - № 55. - S. 6. - [AZ-Q].

**Abdullayev, Natiq**. Yaddaşlardan slinməyən izlər // *Azərbaycan*. - 2012.-1 aprel. - № 69. - S. 5. - 31 Mart Azərbaycanlıların Soyqırımı günüdür.

**Azərbaycanlıların soyqırımı ilə bağlı həqiqətlərin yayılması dünya erməniliyinə böyük zərbədir: İdeya rəhbəri akademik Ramiz Mehdiyev olan "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi" ikicildliyinin Xocavənd qəsəbəsində ictimai müzakirəsi** // *Azərbaycan*. - 2012.-4 aprel. - № 71. - S. 4-5.

**Pakistan mətbuatı Ermənistanın Azərbaycan xalqına qarşı apardığı işğalçı və soyqırımı siyasəti barədə məqalə dərc edib** // *Qarabağ*. - 2012.-6-20 aprel. - № 11/12. - S. 9. - Pakistanın "Daily Times" 29 mart saylı buraxılışında "31 Mart-Azərbaycanlıların soyqırımı günü" adlı məqalə dərc edilib.

**Əliyev, Telman**. Erməni terroru: Sumqayıt, Qarakənd, Xocalı... // *Xalq qəzeti*. - 2012.-6 aprel. - № 73. - S. 7.

**Məmmədli, Bəxtiyar**. "Xocalı soyqırımını törədənlər beynəlxalq məhkəmədə cavab verməlidir" // *525-ci qəzet*. - 2012.-11 aprel. - № 60. - S. 4. - "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin rəhbəri, "Ana harayı" qəzetinin baş redaktoru, Şamil Sabiroğlunun müsahibəsi

**Bektaş, Həmzə**. Erməni soyqırım iddiaları və gerçəkliklər // *Hərbi bilik*. - 2012. - №1. - S. 88-103.

**Sabirqızı , Pərvanə**. Əsl soyqırım: 1918-ci ili əks etdirən sənədlər illərdir ki, şəxsi kolleksiyalarda səs-səmirsiz yatırdı // *New Baku Post*. - 2012.-20 aprel. - **№3**. - S. 4.

**Kolumbiya Xocalı hadisələrini soyqırım kimi tanıdı: bu ölkənin Senatında Azərbaycan torpaqlarının işğalı haqqında sənəd qəbul edilib** // *Şərq*. - 2012.-24 aprel. - № 70. - S. 2.

**Erməni faşizminin azərbaycanlılara qarşı iki əsr ərzində apardığı soyqırım**ları **bəşər tarixinin ən qanlı cinayətlərindəndir** // *Azərbaycan*. - 2012.-24 aprel. - № 88. - S. 7. - Şuşa Rayon İcra Hakimiyyətində

"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin üzvlərinin iştirakı ilə "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi" kitabının ictimai müzakirəsi keçirilmişdir.

**Hüseynov, Həsən**. Uydurma "erməni soyqırımı" // *Respublika*. - 2012.-1 may. - № 94. - S. 6.

**Vəliyev, İsaxan**. Xocalı hadisəsinin soyqırım kimi tanınmasının hüquqi əsasları // *Qanun*. - 2012. № 1. - S. 23-27.

**Raqub Kamal** Xocalı faciəsi - tarixdə görünməyən vəhşilik: Dünya Birliyi bu soyqırım aktını siyasi-hüquqi qiymət verməlidir // *Dərələyəz: ictimai-siyasi, tarixi araşdirma qəzeti*. - 2012.-26 fevral. - № 2. - S. 2.

**Rəhimli, Kəmalə**. Xocalı faciəsi şahidlərin gözü ilə // *Təhsil*. - 2012. - № 2. - S. 32-37.

**Tel-Əvivdən "soyqırım şantajı": İsrailli politoloq: "Knesseti "erməni soyqırım" ı barədə qərar qəbul etməyə Türkiyənin özü təhrik edir"** // *Ekspress*. - 2012.-19 iyun. - № 107. - S. 9. - İsrailli politoloq Yuri Boçarovun müsahibəsi.

**Nyu-York ştatının Senatında martın 31-ni soyqırımına məruz qalmış azərbaycanlıları anma günü elan edən qətnamə qəbul olunmuşdur** // *Azərbaycan*. - 2012.-26 iyun. - № 139. - S. 5.

**Hacıyev, Orxan**. Saxta erməni iddiaları və soyqırımı həqiqətləri // *Xalq qəzeti*. - 2012.-27 iyul. - № 165. - S. 4 ; № 166. - S. 4.

**Fərhad Bədəlbəyli:** "Xocalı" matəm musiqisi təkcə Azərbaycanda deyil, bütün dünyada soyqırımı qurbanlarının xatirəsinə ithaf olunmuşdur // *Xalq qəzeti*. - 2012.-3 avqust. - № 171. - S. 3.

**Əlizadə, N. Ə**. Tarixi yaddaşımız - "erməni soyqırımı" saxtakarlıq və ya əsl həqiqət // *ADAU-nun elmi əsərləri*. - 2012№ 1*(kənd təsərrüfatının mexanikləşdirilməsi, elektrikləşdirilməsi və texniki xidmət sahələri üzrə)*.- S. 130-133.

**Aslanov, E. M.** Şamaxı soyqırımı // *ADAU-nun elmi əsərləri*. - 2012. - № 1*(kənd təsərrüfatının mexanikləşdirilməsi, elektrikləşdirilməsi və texniki xidmət sahələri üzrə)*. - S. 137-139.

**Bektaş, Həmzə**. Erməni **soyqırım** iddiaları və gerçəkliklər: I Dünya müharibəsində erməni üsyanları və ermənilərin türklərə qarşı törətdikləri qətliamlar // *Hərbi bilik*. - 2012. - № 4. - S. 99-11.

**Mustafayev, Rövşən**. İllüziyaların iflası və ya erməni terrorizmi // *Qarapapaqlar*. - 2012. - № 6. - S. 5-8.

**Erməni soyqırımı" qanununu qəbul etmək üçün Fransa Konstitusiyasını dəyişmək lazımdır": Səfir Paskal Monye: "Mən soyqırım məsələlərini qiymətləndirmə üzrə ekspert deyiləm, amma düşünürəm ki, Xocalıda baş verənlər faciədir"** // *525-ci qəzet*. - 2012.-18 oktyabr. - № 190. - S. 1. - Fransanın Azərbaycandakı səfiri Paskal Monyenin açıqlaması.

**Qasımlı, Musa**. Bakı qırğınları: fevral 1905 - cil il // *Milli Məclis*. - 2012. - № Sentyabr- Oktyabr. - S. 62-69. - Erməni terror təşkilatlarının, xüsusən də Daşnaksutyunun fəaliyyətinin üçüncü mərhələsi 1905-ci ildən başladı. Bu zaman daşnaksutyunun 35 min nəfər yaraqlısı və çoxlu silah anbarları var idi.Terrorçuluq fəaliyyətlərinin ağırlıq mərkəzinin Cənubi Qafqaza keçirən erməni terrorçu təşkilatları bölgənin türk-müsəlman əhalisinə qarşı **soy**qırımlar törətməyə başladı.

**Vüsal.** Meksikalılar erməni təxribatçılarını mərasimdən qovdular: Bir qrup erməni Xocalıda baş verənlərin soyqırım olmadığını sübut etmək istəyib // *Həftə içi*. - 2012.-1 noyabr. - № 187. - S. 1.

**Vüsal.** Meksikalılar erməni təxribatçılarını mərasimdən qovdular: Bir qrup erməni Xocalıda baş verənlərin soyqırım olmadığını sübut etmək istəyib // *Həftə içi*. - 2012.-1 noyabr. - № 187. - S. 1

**Xocalı soyqırımının tanıdılmasında diaspor təşkilatlarının rolu** // Olaylar. - 2012.-3-5 noyabr. – № 190. - S. 15.

***

**Ричард Лапайтис: "Я обвиняю палачей, которые творили эти зверства"** // Азербайджанская *Известия*. - 2012.-7 марта. - № 41. - С. 1-2. - В Москве состоялась презентация фильма, посвященного 20-летней годовщине Ходжалинского геноцида "Коридор без конца". Об этом и многом другом в интервью агентству "Вестник Кавказа" рассказал военный журналист Ричард Лапайтис [AZ-Г].

**"Геноцид азербайджанцев: Кровавая летопись истории"** // Бакинский рабочий. - 2012.-28 марта. - № 54. - С. 1,3. - Вышел в свет двухтомник, подготовленный редакцией газеты "Азербайджан", "Геноцид азербайджанцев: Кровавая летопись истории" [AZ-Г].

**Состоялась презентация сигнального варианта документального фильма "Бесконечный коридор" о Ходжалинском геноциде** // *Бакинский рабочий*. - 2012.-13 марта. - № 48. - С. 6. - В церемонии презентации приняли участие первая леди Азербайджана Мехрибан Алиева и вице-президент Фонда Гейдара Алиева Лейла Алиева [AZ-Г].

**Фараджова, Зохра.** Ходжалы век назад, или 20 лет, равных веку / З. Фараджова // *Region plus*. - 2012. - № 4. - С. 12-15. - [AZ-J].

**Маилов, Намик.** Мир помянул Ходжалы: Нынешний год можно назвать переломным в вопросе международного признания геноцида в Ходжалы / Н. Маилов // *Region plus*. - 2012. - № 5. - С. 6-11. - [AZ-J].

**"Геноцид азербайджанцев: Кровавая летопись истории"** // *Бакинский рабочий*. - 2012.-28 марта. - № 54. - С. 1,3. - Вышел в свет двухтомник, подготовленный редакцией газеты "Азербайджан", "Геноцид азербайджанцев: Кровавая летопись истории" [AZ-Г].

**31 марта - День геноцида азербайджанцев** // *Мир литературы*. - 2012.- март. - № 3. - С. 4-5. - [AZ-Г].

**Ханагаоглы, Тимур.** Геноцид азербайджанцев 1918 года стал ударом по стране: мартовские события того времени еще раз показали, что террор против нашей страны является составляющей политики армянских националистов / Т. Ханагаоглы // *Неделя*. - 2012.-30 марта. - № 13. - С. 8. - [AZ-Г].

**"Геноцид азербайджанцев:** Кровавая летопись истории": так называется двухтомник, подготовленный редакцией газеты "Азербайджан" // Бакинский рабочий. - 2012.-30 марта. - № 56. - С. 1,3. - [AZ-Г].

**Гулиева, Ильхама.** Историю не стереть из памяти народа / И. Гулиева // *Бакинский рабочий*. - 2012.-31 марта. - № 57. - С. 5. - 31 марта - День геноцида азербайджанцев [AZ-Г].

## 2013-cü il

**Amerikalı konqresmen Xocalı soyqırımı ilə bağlı çıxış edib** // *Səs.* - 2013.-8 fevral. - № 24. S. 10. - ABŞ Nümayəndələr Palatasının Pensilvaniyadan olan üzvü Bill Şuster Konqresin iclasında Xocalı **soyqırımı** ilə bağlı çıxış etmişdir.

**"Xocalıya ədalət": İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçıları kampaniyasına tam dəstək vermişlər: Qahirə Kommünikesi Xocalı qətliamını soyqırımı aktı kimi tanımışdır** // *İki sahil.* - 2013.-9 fevral. - № 25. - S. 30.

**Qurbanov, Allahşükür**. Ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar // *Respublika.* - 2013.-12 fevral. - № 32. - S. 5 ; № 33. - S. 5. - Tarix elmləri doktoru Ataxan Paşayevin "Ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (XIX-XX əsrlər)" adlı tədqiqat əsəri haqqında.

**Loğmanoğlu, Səlim**. Xocalı faciəsi beynəlxalq hüquq normalarına görə soyqırımı və insanlığa qarşı cinayətdir // *Yeni Azərbaycan. - 2013.-13 fevral. - № 27. - S. 12.*

**Abdulla, Abbas**. Türklər erməniləri yox, ermənilər türkləri qətl edib: ("Daş yuxular" əsərinin yazarı Əkrəm Əylislinin nəzərinə) // *Ədalət.* - 2013.-15 fevral. - № 29. - S. 6.

**İkramqızı, Fəxriyyə**. Xocalı vəhşilikləri dünya mətbuatında // *İki sahil.* - 2013.-15 fevral. - № 29. - S. 19. - Xocalı soyqırımı haqqında.

**Əhmədov, Anar**. Xocalı faciəsi bəşər tarixinin ən qanlı hadisələrindən biridir // *Olimpiya dünyası.* - 2013.-19-21 fevral. - № 12. - S. 5.

**Bəxtiyar Qaraca** Qaradağlı soyqırımı - ikinci Xocalı // Azərbaycan. - 2013.-20 fevral. - № 39. - S. 6.

**Məmmədli, Hülya**. Xocalı **soyqırımı** haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması öz nəticələrini verir: Soyqırımı tanıyan dövlətlərin sayının artması ilə yanaşı, Azərbaycan həqiqətlərini tanıdan beynəlxalq layihələrin miqyası da genişlənir // *Yeni Azərbaycan.* - 2013.-20 fevral. - № 32. - S. 5.

**Vüsal** Çexiya Xocalı soyqırımını tanıyıb: "İnsanlığa qarşı törədilən bu cinayəti bir çox dünya hökumətləri də pisləyiblər" // *Həftə içi.* - 2013.-20 fevral. - № 32. - S. 1, 2.

**İsmayılbəyli, Süleyman**. Xocalı **soyqırım**ının beynəlxalq cinayət olması təsdiqini tapır: Artıq dünya ölkələri Azərbaycan həqiqətlərini qəbul etmək zorundadır // *Olaylar.* - 2013.-20 fevral. - № 32. - S. 15.

**Kamalqızı, Rəfiqə**., **Nürəddinoğlu R.** Xocalı soyqırımı bəşəri cinayətdir: "Səs" qəzeti Xocalı faciəsinin 21-ci ildönümü ilə bağlı dəyirmi masa keçirib // *Səs.* - 2013.-21 fevral. - № 33. - S. 8-9.

**Xocalı əhalisi dünya ictimaiyyətinə müraciət etdi** // *Zaman.* - 2013.-21 fevral. - № 33. - S. 3.

**Xocalı soyqırımı bütün bəşəriyyətə qarşı törədilmiş cinayətdir** // *Gömrük xəbərləri.* - 2013.-23 fevral. - **№ 7**. - S. 1.

**Qasımov, Əbülfət**. Gecə törədilmiş qətliam // *Azərbaycan ordusu.* - 2013.-23 fevral. - № 10. - S. 3. - Xocalı soyqırımından 21 il keçir.

**Tapdıqqızı, Yaqut**. Xocalıda görmədiklərimiz *// New Baku Post*. - 2013.-23 fevral. - № 14. - S. 6. - Xocalı soyqırımı haqqında.

**Qədirov, Fikrət**. Azərbaycanın ədalətli mövqeyi dünya tərəfindən dəstəklənir *// Respublika*. - 2013.-7 mart. - № 52. - S. 7.

**Cavid.** "Xocalıda baş verənlər soyqırım cinayəti idi" *// Xalq cəbhəsi*. - 2013.-7 mart. - № 43. - S. 7. - Diaspor və Lobbi Elmi Araşdırmalar mərkəzinin sədri, fəlsəfə doktoru Zaur Əliyevin araşdırmaları .

**Yerevanlı, Ağa Oktay**. 1988-ci il. Yerevan hadisələri // *Respublika*. - 2013.-14 mart. - № 57. - S. 6 ; № 58. - S. 8. - Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların deportasiya edilməsi haqqında [AZ-Q].

**Qəzənfəroğlu , Faiq**. **31 mart və 26 fevral soyqırım**ları... *// Cəmiyyət və Din*. - 2013.-28 mart. - № 11. - S. 1,9.

**Xəlilov, Mübariz**. Ermənilərin Hacıqabul qətliamları *// Zaman*. - 2013.-28 mart. - № 53. - S. 12.

**Aysel** 31 mart soyqırımı: 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min azərbaycanlını qətlə yetirir, 10 minlərlə insanı öz torpaqlarından qovurlar // Xalq cəbhəsi. - 2013.-28 mart. - ***№ 52***. - S. 10.

**Uğur** Şamaxıda mart qırğınları: Ermənilərin 1918-ci ildə Şamaxıdakı cinayətlərini ifşa edən çoxsaylı arxiv sənədləri var: Ermənilər azərbaycanlıların evlərini talan edib, yandırıb, mülki əhalini qəddarlıqla öldürüblər *// Xalq cəbhəsi*. - 2013.-28 mart. - № 52. - S. 14.

**Hüseynova, Rəfiqə**. 31 mart soyqırımı tarixi həqiqəti deyir: "Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir*".// Səs*. - 2013.-28 mart. - № 53. - S. 10.

**Turan, Anar**. Mart soyqırımı: bəşəriyyət sussa da, faktlar susmur *// Xalq qəzeti*. - 2013.-29 mart. - № 64. - S. 5 ; № 65. - S. 4. - XX əsrin əvvəlində azərbaycanlılara və bütövlükdə türklərə qarşı baş vermiş dəhşətli mart qırğınlarının miqyası haqqında.

**Etibar, İsgəndər**. Haray: Azərbaycanlı körpələrə, yeniyetmələrə, gənclərə və bu günün yaşlılarına *// Kaspi*. - 2013.-29 mart. - № 53. - S. 12. - 31 mart soyqırımı barədə

**Uğur** Azərbaycan türklərinin soyqırımı: M. Ə. Rəsulzadənin redaktorluğu ilə Münhendə nəşr olunan "İstiqlal" qəzetinin 31-ci sayı 1918-ci ilin mart qırğınlarına həsr edilib *// Xalq cəbhəsi*. - 2013.-29 mart. - № 53. - S. 11.

**Bitməyən qanlı hiylə: XX əsrdə 652 min Azərbaycan türkü ermənilərin** soyqırım**ına məruz qalıb** *// Gündəlik Teleqraf*. - 2013.-30 mart. - № 54. - S. 4.

**Niftəliyev, İlqar**. **İrəvan quberniyasında erməni amansızlığı** *// Azərbaycan*. - 2013.-30 mart. - № 65. - S. 14.

**Dünyaminqızı, Qərənfil**. Zamanın tələbinə uyan "bizlər" və nəticəsi Mart faciəsi *// Kaspi*. - 2013.-30 mart. - № 54. - S. 6.

**31 Mart Soyqırımı - erməni terrorizmin növbəti səhifəsi** *// Yeni Azərbaycan*. - 2013.-30 mart. - № 54. - S. 3.

**Hüseynova, Rəfiqə**. Erməni xəyanəti: terror, soyqırımı və deportasiya: 31 mart soyqırımı bu siyasətin tərkib hissəsidir // *Səs*. - 2013.-30 mart. - № 55. - S. 13.

**İsmayıl, Eldar**. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları tarixi faktlar əsasında // *Xalq qəzeti*. - 2013.-31 mart. - № 66. - S. 1.

**Nazim Mustafa** Ermənilərin 1905-1906-cı illərdə Zəngəzur qəzasında törətdikləri qırğınlar //*Xalq qəzeti*. - 2013.-31 mart. - № 66. - S. 3 ; № 69. - S. 5.

**Zeynal Vəfa** Bakı qan gölündə üzdü // *Azərbaycan*. - 2013.-31 mart. - № 66. - S. 1. - 31 Mart Azərbaycanlıların soyqırımı günüdür.

**Bəxtiyar Qaraca** Məqsəd Azərbaycanı məhv etmək idi // *Azərbaycan*. - 2013.-31 mart. - № 66. - S. 2. - 31 Mart Azərbaycanlıların soyqırımı günüdür.

**Nərimanoğlu, Məhəmməd**. Qanlı səhifələr // *Azərbaycan*. - 2013.-31 mart. - № 66. - S. 3. - 31 Mart Azərbaycanlıların soyqırımı günüdür.

**Ülviyyə**. Mart soyqırımı: Ermənilər Şamaxıda məscidə toplanmış yüzlərlə dinc əhalini, xüsusən qocaları, qadınları, uşaqları diri-diri yandırıblar // *Xalq cəbhəsi*. - 2013.-30 mart. - № 54. - S. 13.

**Şirinova, Arzu**. Quba qəzasında erməni cinayətləri // *Xalq cəbhəsi*. - 2013.-2 aprel. - № 55. - S. 10.

**Dünyaminqızı, Qərənfil.** Soyqırımı və yaxud: Üzeyir Hacıbəylinin uzaqgörənliyi // *Kaspi*. - 2013.-2 aprel. - № 55. - S. 15. - [AZ-Q]

**İmayılov, Kamran.** 1919-cu ildə Əylisdə nə baş vermişdir // *Azərbaycan*. - 2013.-4 aprel. - № 69. - S. 6. - Azərbaycanlıların soyqırımı haqqında [AZ-Q]

**Hüseynov, Rizvan.** 1918-ci ilin martı: Azərbaycanlıların kütləvi qətliamı erməni millətçiliyinin əsl simasının bariz göstəricisidir // *Region plus*. - 2013. - № 8 (172) 4 aprel. - S. 10-13. - [AZ-J]

**ABŞ-ın Ayova ştatı 31 Mart Soyqırımını tanıyan qətnamə qəbul etmişdir** // *Xalq qəzeti*. - 2013.-5 aprel. - № 70. - S. 3.

**İbayev, Vəfaddin.** Xocalı soyqırımı beynəlxalq hüquq müstəvisində: Xocalı hadisələri azərbaycanlılara qarşı soyqırımının tərkib hissəsi kimi // *Qarapapaqlar*. - 2013. - № 2. - S. 53-58. - [AZ-J] . - ISSN 1987-6769.

**Sağalmayan yaralar: 31 Mart azərbaycanlıların soyqırımı günüdür** // *Maliyyə və uçot*. - 2013. - № 3. - S. 5-9. - [AZ-J]. - ISSN 2222-5358.

**Hüseynov , Rizvan**. "Sonuncu mogikanlar"ın acı taleyi: Azərbaycanlı əhalinin Ermənistandan kütləvi deportasiyasının 25-ci ildönümü tamam oldu // *Region plus*. - 2013. - № 16(180) 30 may. - S. 12-14. - [AZ-J].

**Mədətoğlu, Əbülfət.** Ağca kənddəki Xocalı // *Ədalət*. - 2013.-20 iyun. - № 109. - S. 7. - [AZ-Q]

**"Soyqırım, deportasiyalar və ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları (XIX-XX əsrlər)"** // *Xalq qəzeti*. - 2013.-28 iyun. - № 138. - S. 8. - Azərbaycan Milli Arxiv İdarəsinin rəisi, tarix elmləri doktoru Ataxan Paşayevin "Soyqırım, deportasiyalar və ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları (XIX-XX əsrlər)" kitabı çapdan çıxmışdır [AZ-Q]

**Xəlil, A.** İrəvana tərs sillə...: Moldovalı vəkil erməni parlamentində ermənilərin azərbaycanlılara qarşı soyqırım törətdiyini bildirdi // *Ekspress*. - 2013.-5 iyul. - № 119. - S. 2. - [AZ-Q]

**Şamil, Ə.** Sürgün olunanların sorağı ilə // *525-ci qəzet*. - 2013.-18 iyul. - № 128. - S. 4. - [AZ-Q].

**Uğur.** Qədim türk torpağı - Borçalı: "Qurd oylağı" adlandırılan bu ərazilərə də sonradan ermənilər yerləşdiriliblər // *Xalq cəbhəsi*. - 2013.-8 avqust. - № 142. - S. 13. - [AZ-Q]

**Uğur.** Nüvədi necə türksüzləşdirildi?: Nüvədi soydaşlarımızın Ermənistandan deportasiya olunduğu sonuncu kənd idi // *Xalq cəbhəsi*. - 2013.-21 avqust. - № 149. - S. 14. - [AZ-Q].

**Orucova, Elza.** Quba soyqırımı: tarixi həqiqətlər // *Mədəniyyət*. - 2013.-23 avqust. - № 59. - S. 12. - [AZ-Q]

**Uğur.** İrəvan qalasının işğalından 186 il ötür: İrəvan şəhərinin əhalisini həmişə əsasən Azərbaycan türkləri təşkil ediblər // *Xalq cəbhəsi*. - 2013.-1 oktyabr. - № 178. - S. 14. - [AZ-Q]

**Paşayev, Ataxan**. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası: 1948-1953-cü illər // *Respublika*. - 2013.-8 oktyabr. - № 221. - S. 11. - [AZ-Q].

**Əliyev, Zaur**. İrəvan - Oğuz yurdu: azərbaycanlıların Ermənistandan deportasiyası tarixin yaddaşında. // Qarapapaqlar. - 2013. - № 5. - S. 11-17. - [AZ-J]. - ISSN 1987-6769

**Uğur.** Repressiyaya məruz qalan Türklər // *Xalq cəbhəsi*. - 2013.-15 noyabr. - № 207. - S. 13. - [AZ-Q].

**Mustafa, Nazim.** Azərbaycanlıların əzəli torpaqlarından sonuncu – 1988-1989-cu illər deportasiyası // *Xalq qəzeti*. - 2013.-8 dekabr. - № 271. - S. 5. - İndi Ermənistan adlanan dövlətin ərazisində yaşayan azərbaycanlıların əzəli torpaqlarından sonuncu deportasiyasından düz 25 il ötür [AZ-Q]

**Mustafa, Nazim.** Azərbaycanlıların əzəli torpaqlarından sonuncu – 1988-1989-cu illər deportasiyası // *Xalq qəzeti*. - 2013.-10 dekabr. - № 272. - S. 6. - İndi Ermənistan adlanan dövlətin ərazisində yaşayan azərbaycanlıların əzəli torpaqlarından sonuncu deportasiyasından düz 25 il ötür [AZ-Q]

**Tahirqızı, Ülviyyə.** Azərbaycanın ilk qadın pedaqoqu: Mədinə xanım Qiyasbəyli də represiyanın qurbanı olub // *Xalq cəbhəsi*. - 2013.-21 dekabr. - № 233. - S. 13. - [AZ-Q]

**Ahmedov, Elçin.** Ermenistan`ın etnik temizlik, soykırım ve işğalcilik politikasının sonuçları = The Results of Cleaning, Genocide and Aggression Policy of Armenia // Orta Doğu Araştırmaları Dergisi. - 2013. - C.IX, № 2(Karabag özel sayısı). - S. 73-86. - [TR-J]. - ISSN 1303-9075.

**Yılmaz, Meşkure** Karabağ savaşı ve adım adım Hocalı soykırımı = The İmpact of the Economy of the Khojaly Tragedy // *Orta Doğu Araştırmaları Dergisi*. - 2013. - Том C.IX, № 2(Karabag özel sayısı). - S. 95-104. - [TR-J]. - ISSN 1303-9075.

**Allahyarova, Tahire.** Soykırım suçunun degerlendirilmesi ve uluslararası hukukta "çifte standartlar" sorunu = Evaluation of the Crime of Genocide and "Double Standards" İssue in the İnternational Law // *Orta Doğu Araştırmaları Dergisi*. - 2013. - C.IX, № 2(Karabag özel sayısı). - S. 233-254. - [TR-J]. - ISSN 1303-9075

***

**Главы государств стран-членов Организации исламского сотрудничества полностью поддерживают кампанию «Справедливость к Ходжалы»: В Каирском коммюнике массовые убийства в Ходжалы признаны актом** геноцида // *Бакинский рабочий*. - 2013.-9 февраля. - № 26. - С. 7.

**Касумова, Елизавета**. Чтобы помнили...: 26 февраля -День памяти жертв геноцида в Ходжалы // *Литературный Азербайджан*. - 2013. - № 2. - С. 3-4. - О Ходжалинской трагедии.

**Член Сената Колумбии выразила солидарность с азербайджанским народом по случаю 21-й годовщины Ходжалинского** геноцида // *Бакинский рабочий*. - 2013.-20 февраля. - № 33. - С. 2.

**Ширинова, Мехрибан**. Ходжалы: жертва политических авантюр: 21 годовщина геноцида против азербайджанского народа // *Неделя.* - 2013.-22 февраля. - № 7. - С. 7. - Интервью с историком Ризваном Гусейновым.

**Венгерская партия Йоббик выступила с заявлением в связи 21-й годовщиной Ходжалинского геноцида** // *Бакинский рабочий*. - 2013.-27 февраля. - № 38. - С. 5.

**В Палате народов Парламентской ассамблеи Боснии и Герцеговины принята резолюция о признании и уважении территориальной целостности и суверенитета Азербайджанской Республики** // *Бакинский рабочий.* - 2013.-28 февраля. - № 39. - С. 5.

**Босния и Герцеговина признали, что Армения является агрессором Внешнеполитическая стратегия Президента Ильхама Алиева продолжает разоблачать коварство армян** // *Бакинский рабочий.* - 2013.-28 февраля. - № 39. - С. 5.

**Лейла Алиева: "Зверски убитые в Ходжалы невинные люди никогда не будут забыты и вечно будут жить в наших сердцах"** // *Бакинский рабочий.* - 2013.-1 марта. - № 40. - С. 4-5. - Вице-президент Фонда Гейдара Алиева Лейла ханум Алиева приняла участие в мероприятии, посвященном 21-й годовщине Ходжалинского геноцида.

**Новрузоглу, Ровшан**. Секретная справка: записки полковника // *Зеркало /нед/.* - 2013.-8 марта. - № 45. - С. 7,9. - Российский полковник В. Савельев, который возглавлял отдел контрразведки части №02270, 26 ноября 1992 года, 19 марта 1994 года, 22 августа 1998 года, а также в июле и декабре 2000 года представлял в ООН, Совет Европы, Главное разведывательное управление "секретные справки", в которых описывались подробности ходжалинской резни.

**Генеральная Ассамблея штата Пенсильвания признала Ходжалинскую резню** //*Бакинский рабочий.* - 2013.-28 марта. - № 53. - С. 2.

**Гусейнов, Ризван**. Горькая судьба "последних могикан": 25 лет массовой депортации азербайджанского населения Армении // *Region plus.* - 2013. - № 16 (180) 28 мая. - С. 12-14. - Об изгнании азербайджанского населения из советской Армении [AZ-J].

**Ассамблея штата Нью-Джерси признала геноцид азербайджанцев** // *Бакинский рабочий.* - 2013.-28 марта. - № 53. - С. 2. - Ассамблея американского штата Нью-Джерси признала резолюцию, признающую 31 марта Днем памяти жертв геноцида азербайджанцев.

**Мурсалова, М.** 95 лет спустя... Массовое убийство граждан Азербайджана до сих пор не получило должной политической оценки // *Неделя*. - 2013.-29 марта. - № 12. - С. 4. - 31 марта - День геноцида азербайджанцев.

**В штате Айова была принята прокламация по признанию геноцида азербайджанцев** // *Бакинский рабочий.* - 2013.-5 апреля. - № 59. - С. 3.

***

**Statement on White House website calls on Obama to announce Khojaly memorial day** //*AzerNEWS.* - 2013.-30-31 January. - № 7. - p. 6.

**Rajabova, Sara**. New Mexico senate recognizes Khojaly massacre *// AzerNEWS*. - 2013.-1-5 February. - № 8. - p. 1.

**Rajabova, Sara**. Armenian-committed Khojaly genocide gaining int'l recognition *// AzerNEWS*. - 2013.-13-14 February. - № 11. - p. 6.

**Jafarova, Aynur**. Khojaly genocide petition collects 100,000 votes on White House website *//AzerNEWS*. - 2013.-13-14 February. - № 11. - p. 5.

**Rajabova, Sara**. Khojaly genocide commemorated *abroad // AzerNEWS*. - 2013.-20-21 February. - № 13. - p. 6.

**Idayatova, Sabina**. Khojaly massacre victims honored worldwide *// AzerNEWS*. - 2013.-february 27. - № 15. - P6.

## 2014-cü il

**İsmayıl, Eldar**. Qərbi Azərbaycandan soydaşlarımızın sonuncu deportasiyasından 25 il keçir // *Xalq qəzeti*. - 2014.-15 yanvar. - № 7. - S. 5. - [AZ-Q].

**Uğur.** Ermənilərin Şamaxıya hücumu // *Xalq cəbhəsi*. - 2014.-28 mart. - № 51. - S. 13. - [AZ-Q]

**Bəxtiyar Qaraca.** Ağarza Babayevə atılan güllələr... // *Azərbaycan*. - 2014.-21 fevral. - № 38. - S. 8. - 1905-ci ilin fevral ayında Bakıda qanlı hadisələr başlanmışdır [AZ-Q]

**Allahverdiyev, Məhərrəm.** Soyqırımı və terrorçuluğu dəstəkləyən siyasət iflasa məhkumdur // *Respublika*. - 2014.-16 mart. - № 56. - S. 5. - 31 mart azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**İbrahimov, Elməddin.** 31 mart soyqırımı insanlıq əleyhinə yönəlmiş qəddar cinayətdir // *Respublika*. - 2014.-19 mart. - № 58. - S. 9. - [AZ-Q]

**Vəliyev, Xanlar.** Soyqırımı insanlığa qarşı amansız cinayətdir // *Azərbaycan*. - 2014.-28 mart. - № 60. - S. 6. - 31 mart Azərbaycanlıların soyqırımı günüdür [AZ-Q]

**Umudlu, Ellada.** 1918-ci ilin mart qırğınları şamaxılıların yaddaşında // *Azərbaycan müəllimi*. - 2014.-28 mart. - № 11. - S. 8. - 31 mart Azərbaycanlıların Soyqırımı günüdür [AZ-Q]

**Zeynalov, Elçin.** Erməni vandalizminin inkarolunmaz həqiqətləri // *Respublika*. - 2014.-28 mart. - № 60. - S. 7. - 31 mart Azərbaycanlıların Soyqırımı günüdür [AZ-Q]

**Rüstəmova-Tohidi, Solmaz.** Bakıda mart qırğınları // *Azərbaycan*. - 2014.-29 mart. - № 61. - S. 6. - 31 Mart Azərbaycanlıların Soyqırım günüdür [AZ-Q]

**Abdullayev, Vəli.** Soyqırım: mürur müddəti tətbiq edilmir! // *Respublika*. - 2014.-29 mart. - № 61. - S. 4. - 31 Mart Azərbaycanlıların Soyqırım günüdür [AZ-Q]

**Almaz.** 31 mart soyqırımı // *Xalq cəbhəsi*. - 2014.-29 mart. - № 52. - S. 8. - 1918-ci il 31 mart - məhz bu tarixdə azərbaycanlılar kütləvi şəkildə qırılıb, repressiyalara məruz qalıblar [AZ-Q]

**Hüseynova, İradə.** Tarixi təsdiqləyən Azərbaycan həqiqətləri: Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 31 martın Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması bu həqiqətlərə işıq salır, erməni yalanları ifşa olunur // *İki sahil*. - 2014.-29 mart. - № 52. - S. 7,11. - [AZ-Q]

**Ələsgərova, İradə.** Azərbaycan tarixinin qanla yazılmış səhifəsi // *Xalq qəzeti*. - 2014.-30 mart. - № 62. - S. 4. - 31 Mart Azərbaycanlıların Soyqırım günüdür [AZ-Q]

**Behbudov, Kamran.** Bəşəriyyət soyqırımı faktlarına göz yummamalıdır // *Xalq qəzeti*. - 2014.-30 mart. - № 62. - S. 5. - 31 Mart Azərbaycanlıların Soyqırım günüdür [AZ-Q]

**Cəfərli, Rəşad.** Dünya birliyi gec-tez ermənilərin bəşəriyyətə ləkə və təhlükə olduğunu qəbul edəcək: Azərbaycan dövləti xalqımızın üzləşdiyi soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən tanınması və erməni faşizminin ifşası üçün dünyada fəal iş aparır // *Azərbaycan*. - 2014.-30 mart. - № 62. - S. 1-2. - [AZ-Q]

**Rüstəmova-Tohidi, Solmaz.** Azərbaycanlıların soyqırımı: Şamaxıda mart qırğınları: 1918-ci ildə Azərbaycan ərazisində müsəlmanlara və onların əmlaklarına qarşı törədilmiş zorakılıq halları fotosənədlərin gözü ilə // *Azərbaycan*. - 2014.-30 mart. - № 62. - S. 4-5. - [AZ-Q]

**Qaraca, Bəxtiyar.** Qarabağda erməni vəhşilikləri // *Azərbaycan*. - 2014.-30 mart. - № 62. - S. 7. - Yüz illik müharibələr [AZ-Q]

* * *

**Исламов, Аббас**. «Великий Хаястан»: губительная идея в действии // *Бакинский рабочий*. - 2014.-24 января. - № 12. - С. 4-5. - О фактах геноцида и вандализма, сотворенных хайскими националистами против мусульманского населения Малой Азии и Кавказа [AZ-Г].

**Касумов, Натик.** Геноцид азербайджанцев дашнаки прикрывали гражданской войной // *Вышка.* - 2014.-28 марта. - № 12. - С. 4. - 31 марта - День геноцида азербайджанцев [AZ-Г]

**31 марта - День геноцида азербайджанцев** // *Мир литературы*. - 2014.- март. - № 3. - С. 4-5. - [AZ-Г]

**Геноцид азербайджанцев, или Армянский фашизм** // *Каспiй = Kaspi: Еженедельный выпуск*. - 2014.-29 марта. - № 22. - С. 4. - [AZ-Г]

* * *

**Rajabova, Sara.** March 31 genocide remembered in details // *AzerNEWS*. - 2014.-28 March. - № 22. - p. 6. - [AZ-N]